Rentgenoqrafiq tədqiqatlar Almaniyanın Bruker firmasının D8 ADVANCE ovuntu rentgendifraktometrində 360-600K temperatur, $10^0 \leq 2\theta \leq 80^0$ bucaq intervalında aparılmış, alınan nəticələr “TOPAS” proqramı ilə işlənmişdir. $K_{0.955}Rb_{0.045}NO_3$ kristalında rentgenoqrafik tədqiqatlar aparmaq üçün alınan kristallar ovuntu çəklinə salınmış və həmin nümunədə quruluş çevrilmələrinə nail olduqran sonra əks çevrilmələrin müşahidəsi aparılmışdır. Alınan difraktoqram şəkil 1-də, difraktoqramların hesabatı cədvəl 1-də verilmişdir.



Şəkil 1. $K_{0.955}Rb_{0.045}NO_3$ kristalında müxtəlif temperaturlarda çəkilmiş difraksiya mənzərəsi

Təcrübələr göstərir ki, T=630K temperaturda tədqiq olunan nümunə parametri *a=8,4820Å* olan kub qəfəsə malik olur. Soyudulan kristalda T=420K-də quruluş çevrilməsi baş verərək kub qəfəs parametrləri *a=5,425Å, c=9,7577Å* olan heksaqonal qəfəsə çevrilir. Kristalın soyudulmasını davam etdirərək T=390 K temperaturda çəkiliş aparılmış və kristal quruluşu saxlanılmaqla qəfəs parametrlərində cuzi dəyişiklər müşahidə olunmuşdur: *a=5,4848Å, c=9,1705Å* kristalın soyudulmasını davam etdirərək T=380 K temperaturda həmin heksaqonal quruluşun parametrləri *a=9,2015Å, b=6,5245Å, c=5,4378Å* olan ortorombik quruluşla əvəz olunması müşahidə edilmişdir. Sonrakı çəkiliş T=360 K temperaturda aparılmışdır. Həmin temperaturda kristalın qəfəs parametrlərində müəyyən dəyişiklər olsa da quruluşda dəyişiklik baş verməmişdir: *a=9,7176Å, b=6,5060Å, c=5,4389Å.*

Kub	Heksaqonal	Heksaqonal	Ortorombik	Ortorombik
a=8,4820 Å	*a=5,425 Å*	*a=5,4848 Å*	*a=9,2015Å*	*a=9,7176Å*
	c=9,7577 Å	*c=9,1705 Å*	*b=6,5245Å*	*b=6,5060Å*
			c=5,4378Å	*c=5,4389Å*
T=630 K	T=420 K	T=390 K	T=380 K	T=360 K

Beləliklə, ərimə temperaturundan otaq temperaturuna kimi aşağıdakı sxem üzrə faza çevrilmələri müşahidə olunur:

Cədvəl 1. $K_{0.955}Rb_{0.045}NO_3$ kristalından müxtəlif temperaturlarda alınan difraktoqramların hesabatı. Şüalanma: CuK_α (λ_α=1.5406 Å, 40kV, 40mA)

$T_{eks.}$, K	2θ	I/I_0, %	$d_{eks.}$, Å	hkl	Elementar qəfəs parametrləri, *Å*
630	25.706	40.8	3.467	211	Kub *a=8,4820 Å*
	33.379	25	2.682	310	
	30.73	100	2.266	321	
	42.601	9.5	2.1205	400	
	50.424	7.5	1.808	332	
	50.659	1.2	1.548	521	
	70.111	1.3	1.341	620	
	72.109	1.2	1.308	541	
420	20.969	4.233	2.4	101	Heksaqonal *a=5,425 Å c=9,7577 Å*
	26.314	3.384	24.4	102	
	27.399	3.2525	5.3	003	
	32.996	2.712	5.1	110	
	41.685	2.164	100	104	
	42.685	2.116	2.8	200	
	43.404	2.083	1.9	113	
	50.607	1.802	1.7	105	
	54.985	1.668	6.5	212	
	56.544	1.626	1.6	006	
	64.848	1.435	8	214	
	67.045	1.394	8.5	116	
	70.397	1.336	12.3	107	
	71.817	1.313	8.9	215	
390	29.961	3.304	41.1	102	Heksaqonal *a=5,4848 Å c=9,1705 Å*
	29.096	3.066	100	003	
	42.818	2.110	6.1	202	
	43.693	2.070	25.3	104	
	44.279	2.044	6	113	
	53.335	1.715	5.4	105	
	65.954	1.415	2.5	124(214)	
	74.91	1.266	4.1	107	
	74.922	1.266	2.5	132(312)	
380	23.369	3.803	18.9	111	Ortorombik *a=9,2015Å b=6,5245Å c=5,4378Å*
	23.644	3.759	6.6	210	
	28.846	3.092	10.7	211	
	29.017	3.074	33.1	120	
	31.967	2.797	38.7	021	
	33.453	2.676	100	121	
	33.517	2.671	22.3	301	
	2.661	2.651	31.2	220	
	40.929	2.203	7.4	212	
	45.977	1.972	10.9	131	
	46.120	1.966	11.1	230	

NƏTİCƏ

Aparılan tədqiqatların təhlili göstərir ki, tədqiq olunan nümunədə əks çevrilmə zamanı yeni heksaqonal modifikasiya müşahidə olunur və bu modifikasiyanın kristal qəfəsi parametrləri KNO_3-də III→II çevrilməsi zamanı müşahidə olunan romboedrik modifikasiyanın qəfəs parametrlərindən kəskin sürətdə fərqlənir.

ƏDƏBİYYAT

1. Теслева Е.П. “Исследование полиморфных превращений в ионно-молекулярных диэлектриках методами физической акустики и теплофизики”, Канд. Диссертация, Казан. (2006).
2. Edvard D.A. A determination of the complate crystal structure of potassium nitrade. Z.Kristallogr., Vol.80, p.154, 1943.
3. C. N. R. Rao, B. Prakash, and M. Natarajan, National Standard Reference Data System (National Bureau of Standards), p. 48. 1975.
4. Tahvonen P.E. X-ray investigation of molecular rotation in potassium nitrate crystals. Ann. Acad. Sic. Fennicae, №44, p.20. 1947.
5. Насиров В.И., Байрамов Р.Б., Хазиева А.Ф. Рентгенографические исследования полимерных превращений в $K_{0,955}Rb_{0,045}NO_3$ // AMEA, Kimya prob. institutu, Kimya jur. cild II, s. 229, 2013.
6. Nəsirov V.İ., Bayramov R.B., Əsədov Y.Q. $K_{0,955}Rb_{0,045}NO_3$ kristallarında quruluş çevrilmələri // AMEA Fizika İns. Fizika jur., v.19, N.2, s.89. 2013.
7. Насиров В.И., Байрамов Р.Б., Асадов Ю.Г., Амиров А.С. Полиморфные превращения в монокристаллах $K_{0,955}Rb_{0,045}NO_3$ // Докл. НАН Азерб. т. LXIX, №2, с.24. 2013.
8. Bridgman P.W. The velocity of polymorphic change between solid. Proc. Am. Acad. Arts. Sci, Vol.52, p.57-88, 1916.
9. Насиров В.И. Полиморфизм в оптически прозрачных кристаллах, Баку, с.166, 1997.

$TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) BƏRK MƏHLULLARININ OTAQ TEMPERATURUNDA ELEKTRİK XASSƏLƏRİNİN TEZLİKDƏN ASILILIĞININ XÜSUSİYYƏTLƏRİ

R.A. Məmmədov, Ş.S. İsmayılov, N.Ə. Əliyeva

AMEA Radiasiya Problemləri İnstitutu

ramil.m.azadoglu@gmail.com

Təqdim olunan işdə $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) bərk məhlullarının otaq temperaturunda elektrik xassələrinin tezlikdən asılılığının xüsusiyyətləri araşdırılmışdır. Otaq temperaturunda həm TlSe kristalının, həm də $TlSe_{0,9}S_{0,1}$ və $TlSe_{0,8}S_{0,2}$ bərk məhlullarının elektrikkeçiriciliyinin, dielektrik nüfuzluluğunun və dielektrik itki bucağının tezlikdən asılılıqları qurulmuş və müqayisə aparılmışdır.

***Açar sözlər**: bərk məhlul, elektrikkeçiriciliyi, dielektrik nüfuzluluğu*

Müasir texnologiyanın sürətli inkişafı yeni tələblər, yeni metodlar və bu metodlar əsasında alınmış yeni materiallarında inkişafına təkan verir. Bu səbəbdən də elektronikaya, kvant elektronikasına, yarımkeçiricilər fizikasına və nanotexnologiya kimi elm sahələri xüsusi maraq kəsb edir. Həmin sahələrin əsas maraq dairəsi müxtəlif tipli real kristalların əldə edilməsidir. Bu kristallar əsasən Bricman-Stokbarger texnologiyası ilə müntəzəm olaraq yetişdirilir. Tallium əsaslı birləşmələr, bu birləşmələr əsasında yetişdirilmiş kristallar və həmin kristallar əsasında alınmış bərk məhlullarda geniş maraq dairəsinə sahibdir.

İşdə $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) bərk məhlullarının “E7-25 İmmitans ölçü” cihazı vasitəsilə otaq temperaturunda (T = 300 K) geniş tezlik diapazonunda ($25 \div 10^6$ Hs) tutum C=f(ν) və tgδ=g(ν) parametrlərinin qiymətləri ölçülmüşdür. Bu parametrlərdən istifadə edərək tezliyin müxtəlif qiymətlərində dielektrik nüfuzluluğunun və elektrikkeçiriciliyinin qiymətləri hesablanmışdır. Alınmış nəticələrdən istifadə edərək hər üç nümunə üçün həm dielektrik nüfuzluluğunun, həm elektrikkeçiriciliyinin, həmdə dielektrik itki bucağının tezlikdən asılılıqları qurulmuşdur.

Dielektrik itki bucağının tezlik dispersiyasından müşahidə olunur ki, aşağı tezliklərdə $TlSe_{1-x}S_x$ bərk məhlulun tərkibi dəyişdikcə dielektrik itki bucağının qiyməti azalır. Dielektrik nüfuzluluğunun tezlikdən asılılığında eksponensiallar müşahidə edilir. Bu asılılıqda da $TlSe_{1-x}S_x$ bərk məhlulun tərkibi dəyişdikcə, dielektrik nüfuzluluğunun qiymətində dəyişikliklər müşahidə edilir.

Bundan əlavə həmçinin $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) bərk məhlullarının otaq temperaturunda elektrikkeçiriciliyinin tezlik dispersiyasında tezliyin artan qiymətlərində eksponensial artım müşahidə olunur. As-keçiriciliyinin (σ_{as}) tezlikdən asılılığının eksperimental öyrənilməsi göstərdi ki, $1,6 \cdot 10^6$ Hs ÷ $2,4 \cdot 10^7$ Hs tezliklər intervalında σ_{as} keçiricilik $f^{0,8}$ qanunu ilə dəyişir. σ-ın $f^{0,8}$ asılılığı onu göstərir ki, $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) bərk məhlullarında elektrik yükdaşıyıcılarının keçiriciliyi qadağan olunmuş zonada sıçrayışlı mexanizmlə həyata keçirilir.

PROPERTIES OF FREQUENCY DEPENDENCE OF ELECTRICAL PROPERTIES OF $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) SOLID SOLUTIONS AT ROOM TEMPERATURE

R.A. Mammadov, Sh.S. Ismayilov, N.A. Aliyeva
Institute of Radiation Problems of ANAS
ramil.m.azadoglu@gmail.com

In the presented work the features of frequency dependence of electrical properties of solid solutions of $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2 at room temperature are studied. Frequency dependences of electrical conductivity, dielectric constant and dielectric loss angle of both TlSe crystal and solid solutions $TlSe_{0,9}S_{0,1}$ and $TlSe_{0,8}S_{0,2}$ at room temperature were constructed and compared.

Key words: *solid solution, electrical conductivity, dielectric constant*

СВОЙСТВА ЧАСТОТНОЙ ЗАВИСИМОСТИ ЭЛЕКТРИЧЕСКИХ СВОЙСТВ ТВЕРДЫХ РАСТВОРОВ $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2) ПРИ КОМНАТНОЙ ТЕМПЕРАТУРЕ

Р.А. Маммадов, Ш.С. Исмаилов, Н.А. Алиева
Институт Радиационных Проблем Национальной Академии Наук Азербайджана
ramil.m.azadoglu@gmail.com

В представленной работе изучены особенности частотной зависимости электрических свойств твердых растворов $TlSe_{1-x}S_x$ (x = 0; 0,1; 0,2 при комнатной температуре. Были построены и сопоставлены частотные зависимости электропроводности, диэлектрической проницаемости и угла диэлектрических потерь как кристалла TlSe, так и твердых растворов $TlSe_{0,9}S_{0,1}$ и $TlSe_{0,8}S_{0,2}$ при комнатной температуре.

Ключевые слова: *твердый раствор, электропроводность, диэлектрическая проницаемость*

TAU kinematik parametri əsasında Qarabağ ərazisində geoloji mühitin gərginlik vəziyyətinin qiymətləndirilməsi

GÜNAY BƏKDƏMİROVA
AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
bkdmirovagunay@gmail.com
BAKI, AZƏRBAYCAN

TURAN YUSİFOVA
AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
narinmiran5@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qarabağ ərazisinin seysmikliyinin öyrənilməsi və ərazinin gərginlik vəziyyətinin qiymətləndirilməsi istiqamətində işlər aparılmışdır. Qarabağ ərazisinin geoloji mühitin gərginlik vəziyyətinin öyrənilməsi məqsədilə TAU kinematik parametrin zaman və məkan üzrə monitorinqi aparılmışdır.

AÇAR SÖZLƏR: seysmiklik, zəlzələ, qradient zona

GIRIŞ

Qarabağ ərazisi Cənubi-Qafqaz və Mərkəzi-İran mikroplitəsinin Azərbaycan seqmentində kolliziya haçalanma zonasına daxil olan Kiçik Qafqazın dağ-qırışıqlıq sisteminin hissəsidir. Yer təki (qabığı) bu hissədə dalğavari qırışıqlı-çıxıntılı quruluşa malik olduğundan bu zona dərinlik qırılmaları ilə məhdudlaşan müxtəlif istiqamətli bloklara bölünmüşdür.

Qarabağ ərazisi orta seysmikliklə xarakterizə olunur və güclü zəlzələlərin mümkün baş vermə zonaları xəritəsində 8 ballıq zonaya aiddir. Qarabağın şimal-şərq hissəsi seysmik cəhətdən daha fəaldır. Burada müxtəlif qırılmaların kəsişməsi müşahidə olunur.Əvvəlki illərdə Qarabağ ərazisində, hiss olunan güclü və dağıdıcı seysmik hadisələr baş vermişdir. Müasir dövrdə də burada güclü zəlzələlər baş verir.

TƏDQIQAT METODU

Güclü zəlzələ ocaqlarında hazırlıq dövründə müxtəlif istiqamətli çatların əmələ gəlməsi prosesi həmin sahələrdə seysmik dalğaların sürətləri nisbətinin (V_p/V_s) dəyişməsinə səbəb olur. Müşahidələr bu dəyişmələrin güclü zəlzələlərdən əvvəl və sonra anomal variasiyalarının olmasını göstərir [Slavina, 1991]. Hadisədən bir qədər əvvəl V_p/V_s qiymətlərinin dəyişməsi və bu qiymətlərin (fon) səviyyəsindən yuxarı artımı fonunda güclü zəlzələlərin baş verməsi qeyd olunur. Belə güman olur ki, qırılmanın baş verməsi ərəfəsində mühit öz dayanıqlığını itirir və bu özünü TAU parametrinin qiymətlərinin və onun dispersiyasının uzun müddətli orta qiymətinə nisbətən artmasında göstərir. Bu parametr aşağıdakı kimi təyin olunur:

$$\tau = \mathrm{Vp/Vs} = (T_s - T_P)/(T_P - T_o) + 1$$

burada T_S-T_P– S və P dalğalarının gəlmə vaxtı, T_P-T_0 – P dalğasının hiposentrdən stansiyaya qədər yayılma vaxtıdır.

Anomal dəyişmə, stansiyanın yerləşdiyi regionun xüsusiyyətlərindən asılı olan fon səviyyəsindən 3 dəfə artıq olan qiymətlər hesab olunur.

Azərbaycan üçün bu fon səviyyəsi uzunmüddətli müşahidələr əsasında müəyyən olunmuşdur.

$$\tau = 1.73$$

TAU parametrin 1.73 qiymətinə nisbətən daha aşağı və yüksək qiymətlərinin olması geoloji mühitin gərginlik vəziyyətində dəyişiklik olduğunu göstərir.

Vp /Vs≤1,68 olan qiyməti mühitdə gərilmə prosesləri ilə, Vp /Vs ≥1,78 olan yuxarı qiyməti isə sıxılma prosesləri ilə əlaqələndirilir.

TAU kinematik parametrinin monitorinqi və hesablanması 2 modifikasiyada- qısamüddətli variantda TAU parametrinin zamana görə variasiya əyrisi və uzunmüddətli aspektdə sahə üzrə TAU parametrinin xəritələnməsi kimi qiymətləndirilir. Seysmoproqnostik əyrilərin hesablanması və analizi operativ olaraq, real zamana yaxın rejimdə aparılır.

Qarabağ ərazisinin seysmikliyinin öyrənilməsi və ərazinin gərginlik vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2017-2021-ci illər üçün TAU kinematik parametrinin qısa və uzunmüddətli dəyişməsi öyrənilmişdir.



Şəkil 1.«Heydərabad» seysmik stansiyası üzrə qurulmuş TAU parametrinin əyrisi qrafiki.

Nümunə kimi, «Heydərabad» seysmik stansiyası üzrə qurulmuş TAU parametrinin əyrisi qrafikində zəlzələdən 9 gün öncə 15.11.2017 tarixində Ağdam rayonunda baş vermiş güclü maqnitudası Ml=5.7 olan zəlzələyə anomal dəyişiklik qeydə alınmışdır.



??

Şəkil 2. 2021-ci il üzrə Horadiz seysmik stansiyası məlumatlarına əsasən TAU parametrinin sahə üzrə dəyişməsi

2021-ci il üçün Horadiz seysmik stansiyası məlumatlarına əsasən TAU kinematik parametrin sahə üzrə dəyişməsi xəritəsinə əsasən Qarabağ ərazisində gərginlik vəziyyəti dəyişir. Ərazinin cənub-şərq hissəsində qradient zonası (gərilmə və sıxılma proseslərinin keçid zonası) müşahidə olunur. Bu da onu göstərir ki burada seysmik aktivləşmə gözlənilə bilər.

NƏTICƏ

2017-2021 – ci illərdə Qarabağ ərazisində baş vermiş, maqnitudası Ml≥4.0 olan zəlzələlərə proqnostik əyrilərdə anomaliyalar aşkar edilmişdir. Proqnostik əyrilərdə episentral məsafədən asılı olaraq 3 gündən 20 günədək zəlzələdən öncə anomaliyalar müşahidə olunur.
2021-ci ildə TAU kinematik parametrinin sahə üzrə dəyişməsi xəritələrindən görünür ki, Qarabağ ərazisində mühitin gərginlik vəziyyəti dəyişir. Ərazinin cənub-şərq hissəsində qradient zonası müşahidə olunur. Bu da onu göstərir ki burada seysmik aktivləşmə gözlənilə bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Славина Л.Б., Кузьмина Т.А., Мячкин В.В. “К вопросу о времени и месте возникновения кинематических предвестников сильных землетрясений // Сб. «Модельные и натурныеисследования очагов землетрясений», Наука,М: 1991. с. 71-78.
2. Славина Л.Б., ЕтирмишлиГ.Д., Абдуллаева Р.Р., МячкинВ.В. «Картирование долгосрочного предвестника TAU (V_p/V_s) для выявления областей повышеннойвероятности возникновения сильных землетрясений на территории Азербайджана и Прикаспия», с.386-393, Баку 2012.

VOLF-RAYE TİPLİ VR 134 ULDUZUNUN QISAMÜDDƏTLİ FOTOMETRİK DƏYİŞKƏNLİYİ

CANMƏMMƏD RÜSTƏMOV
AMEA/ŞAR
Astrofizika
janmamed@yahoo.com
BAKI, AZƏRBAYCAN

ŞƏBNƏM AĞAYEVA
AMEA/ŞAR
Astrofizika
sebnem-agayeva-94@mail.ri
BAKI, AZƏRBAYCAN

AYTAC İSKƏNDƏROVA
AMEA/ŞAR
Astrofizika
ayka201505@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Volf-Raye tipli VR 134 ulduzunun AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 60-sm teleskopunda CCD fotometrlə 2021-ci ilin iyun ayında alınmış fotometrik müşahidə materialının tədqiqinin nəticələri verilmişdir. VR 134 ulduzunun müşahidələri beynəlxalq UBV fotometrik sisteminin V süzgəcində aparılmış və onun qısa müddətli (təqribən bir saat müddətində) fotometrik dəyişkənliyi aşkar edilmişdir. Kontrol ulduza görə təyin olunan orta kvadratik xəta 0.004 olmuşdur. Tədqiq olunan ulduzun fotometrik təsvirlərinin işlənməsi zamanı MaxIm DL proqram qovluğundan istifadə edilmişdir.

AÇAR SÖZLƏR: Volf-Raye tipli ulduzlar, fotometrik dəyişkənlik, CCD fotometr

GIRIŞ

VR 134 ulduzu Volf-Raye (VR) tipli ulduzdur, Qu bürcündə yerləşir, S 109 həlqəvi dumanlığı ilə əhatə olunmuşdur. WR tipli ulduzlar qalaktika müstəvisində yerləşmişdir. Lakin VR 134 ulduzu qalaktika müstəvisindən xeyli uzaqlıqda yerləşmişdir. Bu ulduzun 7.44 günlük fotometrik dəyişkənliyi aşkar edildikdə onun kompakt komponentli VR ulduzu (VR+C) ola bilməsi ideyası irəli sürülmüşdür. Məlumdur ki, VR ulduzları təkamülün son mərhələsində başlanğıc kütlələrindən asılı olaraq neytron ulduzuna və yaxud qara dəliyə çevrilirlər. Bu ulduzlar neytron ulduzlarının və qara dəliklərin törədiciləri olduqlarına görə müasir astrofizikanın ən maraqlı obyektlərindəndir və həmişə astronomların diqqət mərkəzində olmuşdur. VR 134 ulduzunun fotometrik tədqiqi onun fiziki modelini qurmaq və bu ulduzda baş verən qeyri-stasionar proseslərin mahiyyətini başa düşmək nöqtəyi nəzərindən aktualdır. Bu ulduzun fotometrik tədqiqi əvvəllər də yerinə yetirilmiş və onun 1.887 gün periodlu və eləcə də qısa müddətli (bir neçə dəqiqə müddətində) fotometrik dəyişkənliyi aşkar edilmişdir [1, 2]. 1.887 günlük periodik dəyişkənlik bu ulduzun qoşa ulduz olması ilə izah edilmişdir. Ona görə də bu ulduzun fotometrik dəyişkənliyinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. VR 134 ulduzunun fotometrik tədqiqi [3, 4, 5] işlərində də yerinə yetirilmiş və maraqlı nəticələr alınmışdır. Lakin bu ulduzun yeni fotometrik müşahidələrinə ehtiyac vardır. Ona görə ki, VR 134 ulduzunun müşahidə nəticələrini tamamilə izah edə bilən fiziki modeli hələ qurula bilməmişdir. Bu işi sona çatdırmaq üçün yeni müşahidə faktlarına ehtiyac vardır.

TƏDQIQAT METODU

VR 134 ulduzunun fotometrik müşahidələri 2021-ci ilin iyun-noyabr aylarında AMEA N.Tusi adına ŞAR-ın müasir CCD işıqqəbuledicisi ilə təchiz edilmiş 60-sm teleskopunda aparılmışdır. Bu işdə 01-02 iyun 2021-ci il tarixində VR 134 ulduzunun təqribən bir saat ərzində alınmış 150 fotometrik təsvirinin işlənməsinin nəticələri verilmişdir. Müşahidələr Beynəlxalq Fotometrik Sistemin (UBV) V süzgəcində aparılmışdır. Müşahidələrin V süzgəcində aparılmasının səbəbi odur ki, bu süzgəcdə şüalanma xətlərinin payı təxminən 7%-dir. Ona görə də V süzgəcində aşkar edilən dəyişkənlik əsasən kəsilməz spektrin dəyişkənliyi ilə əlaqədar olmalıdır. Alınmış fotometrik müşahidə materialın işlənməsi MaxIm DL proqram qovluğu ilə həyata keçirilmişdir. Tədqiq olunan ulduzun fotometrik təsvirlərinin işlənməsi zamanı standart (HD 228063, Sp B8V, V = 8.60) və kontrol (HD 228062, V = 8.31) ulduzlarından istifadə edilmişdir. Həmçinin fotometrik təsvirlərin işlənməsi zamanı vacib olan köməkçi (dark, bias, flat) fotometrik təsvirlər də alınmış və istifadə olunmuşdur. Kontrol ulduza görə təyin olunmuş orta kvadratik xətanın 0.004 olduğu müəyyən edilmişdir.

Şəkil 1-də VR 134 ulduzunun V süzgəcində alınmış 150 fotometrik təsvirinin işlənməsi nəticəsində bu ulduzun V süzgəcində ulduz ölçüsünün (m) ümümdünya vaxtından (UT- Universal Time) asılılıq əyrisi verilmişdir. Şəkil 1-dən göründüyü kimi bu ulduzun ulduz ölçüsü təqribən bir saat müddətində (UT ilə saat 20.3-dən 21.1-ə kimi) 8.07 ilə 8.03 aralığında dəyişir. Bu dəyişmə intervalı (0.04) üç

siqmadan (3·0.004 = 0.012) xeyli çox olduğuna görə deyə bilərik ki, VR 134 ulduzunun aşkar edilmiş qısamüddətli dəyişkənliyi realdır.



Şəkil 1. VR 134 ulduzunun ulduz ölçüsünün (m) ümümdünya vaxtından (UT) asılılığı.

NƏTICƏ

VR 134 ulduzunun AMEA ŞAR-ın 60-sm teleskopunda alınmış 150 fotometrik təsvirinin tədqiqi nəticəsində bu ulduzun qısamüddətli fotometrik dəyişkənliyi aşkar edilmişdir. Qeyd olunduğu kimi bu ulduzun fotometrik dəyişkənliyi əvvəllər də aşkar edilmişdir. Deməli bu ulduzda aktiv qeyri-stasionar proseslər gedir və müşahidə olunan dəyişkənlik həmin ulduzda gedən qeyri-stasionar proseslərin göstəricisidir. Qeyd edək ki, bu ulduzun spektral dəyişkənliyi də aşkar edilmişdir [2]. Bütün bu müşahidə faktları həmin ulduzun fiziki modelinin qurulması zamanı nəzərə alınmalıdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Рустамов, Д.Н., Абдуллаев, Б.И. Фотометрические исследования звезды типа Вольфа-Райе HD 191765 = WR134 (**Jurnal məqaləsi**), Астрономический журнал Азербайджана, 2011, 6, №2, с. 31-34.

2. Рустамов, Д.Н., Черепащук, А.М. Спектральные и фотометрические исследования звезды типа Вольфа-Райе WR 134 = HD 191765 (**Jurnal məqaləsi**), Астрономический журнал, 2012, Т 89, №10, с. 843-856.

3. Антохин, И.И., Асланов, А.А., Черепащук, А.М. HD 191765 – возможная двойная звезда Вольфа-Райе с маломассивным спутником (**Jurnal məqaləsi**), Письма в Астрономический Журнал, 1982, 8, с.290-297.

4. Антохин, И.И., Черепащук, А.М. Звезда Вольфа-Райе с возможными релятивистскими спутниками. Оптические затмения в системе HD 191765 (**Jurnal məqaləsi**), Письма в Астрономический Журнал, 1984, 10, с.370-376.

5. Moffat, A.F.J., Shara, M.M. Photometric variability of a complete sample of northern Wolf-Rayet stars (**Jurnal məqaləsi**), Astronomical Journal, 1986, 92, p.952-960.

NEFT REZERVUARLARDA NEFT-SU QARŞIĞININ TƏRKİB HİSSƏSİNİ DƏQİQ TƏYİN ETMƏK ÜÇÜN SSİNTİLYATORLU DETEKTOR MODULUNUN LABORATORİYA PROTOTİPİNİN HAZIRLANMASI

A.MƏMMƏDLİ,
Radiasiya Problemləri İnstitutu AMEA
E-mail: arzu_memmedli_92@mail.ru
Bakı, Azərbaycan

Ç.ABBASOVA
Radiasiya Problemləri İnstitutu AMEA
E-mail: chichek.1996@gmail.com
Bakı, Azərbaycan

F.ƏHMƏDOV
Radiasiya Problemləri İnstitutu AMEA
Milli Nüvə Tədqiqatları Mərkəzi
E-mail: farid-akhmedov@yandex.ru
Bakı, Azərbaycan

Neft-qaz sənayesində mövcud problemlərdən biri neftin hasilatı zamanı mayelərin səviyyəsini dəqiq təyin etməkdir. Bu problemi aradan qaldırmaq üçün akustik, elektomaqnit, optik, hidrostatik və s. metodlardan istifadə edilir. Ölçmələr zamanı ortaya çıxan bir sıra faktorlar yüksək təzyiq, eroziya və buxarlanma qeydedici modulun çirklənməsinə, zaman keçdikcə onun effektivliyinin kəskin azalmasına səbəb olur. Bununla yanaşı, bu metodlar rezervuar daxilində yerləşdirilən qeydedici mayenin yalnız üst hissəsinin səviyyəsini təyin edir, mayenin tərkibi haqqında isə məlumat vermir. Bu çətinlikləri aradan qaldırmaq üçün sənayedə radioizotop səviyyə ölçənlərdən (RS) istifadəyə üstünlük verilir. Bu cihazlar texnoloji baxımdan dəqiq ölçmə imkanına malikdir. Lakin bir sıra çatışmayan cəhətləridə mövcüddur: maya dəyərinin yüksək olması, cihazlarda istifadə edilən detektorların aşağı (~20%) foton qeydetmə effektivliyinə malik olması, yüksək aktivlikli mənbələrdən və yüksək gərginlikdən (~1500V) istifadə edilməsi. Sadalanan bu hallar ərazidə yanğın olma ehtimalını və personalın radiasiya təhlükəsini artırır. Yeni detektor modulunun hazırlanması, RS tipli cihazların maya dəyərinin, istifadə edilən radioizotopun aktivliyinin azaldılması və ölçmə dəqiqliyinin artırılması ilə nəticələnəcəkdir.

Təqdim edilən işdə əsas məqsəd yüksək foton qeydetmə effektivliyi (40%) olan, aşağı gərginlik blokundan qidalanaraq (70V) və 10^5 tərtibə kimi daxili gücləndirmə əmsalına malik olan selvari silisium fotoqeydedicilər əsasında detektor modulunun hazırlanmasıdır.

Şəkil 1-də ssintilyator və fotodiod (FD) əsaslı ionlaşdırıcı radiasiya detektorunun dövrəsi verilmişdir. Dövrə ssintilyator, işıq fotonlarını qeyd edən fotoqeydedicidən, fotodiodları gərginliklə təmin etmək üçün yüksək gərginlik mənbəsindən (YG), gücləndirici, impuls formalaşdırıcı, multi kanallı analizatordan və sayğacdan ibarətdir.

Təcrübə zamanı ionlaşdırıcı mənbədən buraxılan qamma şüası rezervuarın daxilindən nüfuz edərək ssintilyatorun üzərinə düşür. Bu zaman ionlaşdırıcı şüalanma orada fotoeffekt və ya Kompton səpilməsi nəticəsində elektronlar yaradır. Bu elektronlar ssintilyatorun daxilində görünən oblasta uyğun fotonların yaranmasına imkan verir. Əksər hallarda detektorların çıxışında alınan impulsların amplitudunun kiçik və kəskin olması onların amplitudunun düzgün təyin edilməsində müəyyən çətinliklər yaradır.

Ssintilyator və fotodiod əsaslı ionlaşdırıcı radiasiya detektorunun sxemi Şəkil 1.də göstərilmişdir.

Reallıqda amplitudun ölçülməsi zamanı impulsun amplitudun maksimuma çatması və bu vəziyyətdə müəyyən qədər qalaraq qısa müddət ərzində sıfıra qədər azalması tələb olunur. Bu məqsədlə gücləndiricidən və implus formalaşdırıcıdan istifadə edilir. Şülanma hesabına yaranan ssintilyasiya

fotonlarını qeyd etmək üçün MSFD-3NM-II fotodiodlarından istifadə edilir. Fotoqeydedicinin çıxışında alınan analoq siqnallar çox kanallı analizator vasitəsi ilə rəqəmsalaşdırılır. İmpulsun sayı sayğac vasitəsi ilə təyin edilir. Qeyd edilən impulsların sayından istifadə edərək qamma şüaların sayı təyin edilir. Qeyd edilən qamma şüaların sayı rezervuarın içindəki mayenin sıxlığından və həcmindən asılı olaraq dəyişir. Rezervuar boş olduqda qeydedicnin üzərinə maksimum sayda, dolu olduqda isə minimum sayda qamma şüası düşür. Bu faktdan istifadə edərək rezervuarda mayenin səviyyəsi və tərkibi haqqında (neft-neft su qarşığı-su) məlumatlar əldə etmək olur.



Şəkil 1. Ssintilyator və fotodiod əsaslı ionlaşdırıcı radiasiya detektoru (YG-Yüksək gərginlik mənbəsi, G-güclədirici, İF-impuls formalaşdırıcı, S-sayğac və ÇKA-çox kanallı analizator).

Qeydedici blokun detektor hissəsində ssintilyator olaraq qeyri-üzvi LaBr, LFS və plastik ssintilyatorlardan, qeydedici olaraq isə MSFD-3NM-II fotodiodun istifadə olunması nəzərdə tutulmuşdur. Mənbə olaraq ^{137}Cs və ^{60}Co kimi radioaktiv mənbələr istifadə olunur.
Hazırlanacaq yeni qeydedici bloklar sənayenin müxtəlif sahələrində uğurla tətbiq oluna bilər.
Bu qeydedici blokların hazırlanması onların təlükəsizlik sahəsində mövcüd olan qurğulara asanlıqla inteqrasiya olunmasına imkan verəcəkdir.
Aparılan işlər “SOCAR”-ın “Elm Fondu”nun dəstəyi ilə yerinə yetirilmişdir

ФУРЬЕ-ИК И ФУРЬЕ-РАМАН СПЕКТРОСКОПИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ СТРУКТУРЫ КОМПОЗИТОВ ПОЛИЭТИЛЕНА ВЫСОКОЙ ПЛОТНОСТИ С НАПОЛНИТЕЛЯМИ GAAS И GAAS<TE>

АХМЕДОВА ГЮНАЙ
Институт Физики НАНА
Физика
gunayehmedova12@gmail.com
БАКУ, АЗЕРБАЙДЖАН

АБСТРАКТ

Методом Фурье-ИК и Фурье-Раман спектроскопии исследована структура исходных и композитных пленок полиэтилена высокой плотности, содержащих полупроводниковые наполнители GaAs и GaAs<Te>, при комнатной температуре. Результаты объяснены в рамках трехфазной модели изменением надмолекулярной структуры аморфно-кристаллического полимера.

КЛЮЧЕВЫЕ СЛОВА: полиэтилен высокой плотности, полупроводниковые наполнители GaAs и GaAs <Te>, Инфракрасная Фурье-спектроскопия (ИК), Фурье-Раман спектроскопия , надмолекулярное структура

ВВЕДЕНИЕ

Получение полимерных композиций с интересными электрофизическими, электретными, сенсорными, спектрально-люминесцентными, оптическими и др. свойствами в значительной степени зависит от природы наполнителя, формы, размера и характера распределения частиц, а также от степени взаимодействия между составляющими компонентами [1,2]. В этом аспекте особый интерес представляют композиты на основе полиэтилена высокой плотности (ПЭВП) с полупроводниковыми соединениями GaAS и GaAs<Te>.

МЕТОДИКА ЭКСПЕРИМЕНТА

Поэтому в настоящей работе представлены результаты Фурье-ИК и Фурье-Раман спектроскопических исследований структуры композитов ПЭВП с наполнителями GaAs и GaAs<Te>, (содержание которых составляет 1-10 масс %) при комнатной температуре. Фурье-ИК и Фурье- Раман спектроскопия позволяет проследить структурные изменения, обусловленные внедрением микрочастиц в состав полимерной матрицы, и выявить закономерности, связанные с этими изменениями.

Фурье-ИК спектры поглощения исходных образцов ПЭВП и его композитов регистрировались на спектрометре Varian 640FT-IR при комнатной температуре в области частот 4000-400 см-1. Структурные изменения в пленках ПЭ, связанные с внедрением микрочастиц наполнителей, прослеживались в области частот ν=750-700 см-1, соответствующих маятниковым колебаниям CH2-группы ПЭ, а также в областях деформационных (ν=1500-1400 см-1) и валентных (ν=3000-2800 см-1) симметричных и асимметричных колебаний CH2-групп. Рассчитывалась степень кристалличности образцов с учетом оптических плотностей полос колебаний CH2 -групп. В области концентраций наполнителей GaAs до 2-3 масс% и GaAs<Te> до 6-8 масс% наблюдается область максимальной степени кристалличности ПЭВП.

Для изучения структурных изменений композитов использовались также Фурье-Раман спектрометр MultiRAM с возбуждающим лазером λ=1064 нм и дисперсионный Раман микроскоп Senterra (с возбуждающими лазерами λ=532 и 785 нм) (Bruker). По характеристикам (интенсивностей) КР линии νCH, фактор группового расщепления 1123-1129 см-1 поперечных скелетных колебаний νCC и деформационных колебаний νδ (1460-1417 см-1) изучено изменение удлинения кристаллической структуры композитных пленок. Получены дифрактограммы исходных и композитных пленок, и на их основе рассчитаны степени кристалличности.

РЕЗУЛЬТАТЫ

Показано, что в зависимости от концентрации и вида вводимого наполнителя значения К композитных пленок по сравнению с со степенью исходного ПЭ увеличивается 1,3-1,5 раза[3]. Полученные результаты объяснены в рамках трехфазной модели и изменением надмолекулярной структуры полимера при внедрении микрочастиц наполнителей (d=50 мкм), играющих роль дополнительных центров зародышей кристаллообразования, что приводит к снижению поверхностной энергии и стабилизации до кристаллизационных процессов полимера[4].

Варьируя концентрации наполнителей и тип полимера можно изменять степень кристалличности и НМС полимерной матрицы. Наполнители GaAs и GaAs<Te> с дисперностью 50 мкм в композитах с ПЭВП играют роль структурообразователя в росте степени кристалличности и в изменении надмолекулярной структуры.

СПИСОК ЛИТЕРАТУРЫ

4. Galikhanov M.F., Eremeev D.A., Deberdeev R.Y. Elektret effect in Compounds of Polystyrene with Aerosil, Russian Journal of Appl.Chem. Issue 10,2003, Pages 1651-1654.
5. Эфендиев Э.Г., Гаджиева Н.Н., Ильяслы Т.М., Аббасова Р.Ф., Яхьяев Ф.Ф. Структура полиэтиленовых пленок,содержащих наночастицы меди, Журнал прикладной спектроскопии.№ 3,2006, Стр 408-410.
6. Магеррамов А.М. Структурное и радиационное модифицирование электретных, пьезоэлектрических свойств полимерных композитов. Баку/Элм.2001:327.
7. Купцов А.Х., Жижин Г.Н. Фурье-спектры комбинационного рассеяния и инфракрасного поглощения полимеров. Москва/Физматлит. 2001:656.

In_2Se_3 KRISTALININ TERMODINAMIK FUNKSIYALARININ TƏMƏL PRINSIPLƏRDƏN HESABLANMASI

AYSEL QƏRIBLI
Sumqayıt Dövlət Universiteti
Fizika və elektroenergetika fakültəsi/
aysel.garibli25@gmail.com
SUMQAYIT, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə In_2Se_3 kristalı üçün molyar entropiya, fonon daxili enerjisi və sabit həcmdə istilik tutumunun temperatur asılılığı DFT metodu vasitəsilə təməl prinsiplərdən hesablanmış və təhlil edilmişdir. Bu maddə üçün molyar istilik tutumunun temperatur asılılılığı 0÷400 *K* intervalında kvazi-harmonik yaxınlaşmada hesablanmış və qrafiki qurulmuşdur.

AÇAR SÖZLƏR: In_2Se_3, DFT, Cv istilik tutumu, S entropiya

GIRIŞ

In_2Se_3 yarımkeçirici birləşməsi fotovoltaik günəş elementləri [1], ion batareyaları [2], fotodetektorlar [3, 4], ixtiyari girişi olan faza yaddaş qurğuları və termoelektrik materiallar üçün yeni yarımkeçirici material kimi diqqəti cəlb edir.

In_2Se_3 həcmli kristalları kristal strukturunun müxtəlif modifikasiyaları ilə xarakterizə olunur, daha çox qeyri-bircinsdir və güzgü səthlərinə malik deyildir. Yetişdirilməsinin texnoloji çətinlikləri səbəbindən bu kristallar hələ də az öyrənilir.

Yarımkeçiricilərin termodinamik funksiyaları – entropiya, molyar istilik tutumu, Helmholts sərbəst enerjisi və entalpiyanın temperaturdan asılı olaraq dəyişməsi maddələrin müxtəlif temperatur və təzyiqlərdə stabilliliyini və dayanıqlılığını xarakterizə edən kəmiyyətlərdir. Digər tərəfdən, yuxarıda göstərilən termodinamik funksiyalar kimyəvi reaksiyaların baş vermə istiqamətini və sürətini, həmçinin müəyyən təzyiq və temperatur intervalında faza keçidlərinin mümkünlüyünü aşkarlamağa imkan verir. Bundan başqa termodinamik funksiyalar faza keçidlərinin mexanizmini müəyyənləşdirməyə də imkan verir. Termodinamik funksiyalardan və termodinamik qanunlardan istifadə edərək maddənin müxtəlif modifikasiyalarının stabilliyini atomlararası qüvvə sabitləri, maddə atomlarının rəqs tezliyi və amplitudu ilə əlaqələndirməyə imkan verir.

Hal-hazırda inkişaf etmiş nəzəri metodlar – Sıxlıq Funksionalı Nəzəriyyəsi (DFT) yarımkeçirici maddələrin istilik tutumunu onları təşkil edən atomların rəqsi hərəkət tezliyi vasitəsilə hesablamağa imkan verir. Bu tezliklərdən istifadə edərək kristal qəfəsin maddənin ümumi istilik tutumuna verdiyi əlavəni, Debay xarakteristik temperaturunu və oxşar tərkibə və kristallik struktura malik maddələrin xassələrini öncədən hesablamaq mümkündür. Sıxlıq Funksionalı Nəzəriyyəsi aşağı temperaturdan başlayaraq otaq temperaturuna qədər bərk cisimlərin istilik tutumunu nəzəri hesablamağa və deməli, eksperimental tədqiqatların məqsədyönlü aparılmasını təmin edir.

1. TƏDQIQAT METODU

Nəzəri hesablamalar Funksional Sıxlıq Həyəcanlaşma Nəzəriyyəsinin Lokal Sıxlıq Yaxınlaşmasında normanı qoruyan Hartwigsen-Goedecker-Hutter ion psevdopotensialları [5] tətbiq edilməklə ABINIT paket-proqramı [6] vasitəsilə yerinə yetirilmişdir. Mübadilə-korelyasiya effektləri Ceperley-Alder-Perdew-Zunger [7] sxemi ilə hesablanmışdır. Dalğa funksiyalarının müstəvi dalğalar üzrə ayrılışında istifadə olunan maksimal kinetik enerji 40 Ha təşkil edir.

Bilirik ki, yarımkeçiricilərin termodinamik funksiyaları əsasən qəfəsin sərbəst rəqs dərəcəsilə müəyyən olunur. Bu termodinamik kəmiyyətlər fonon spektrindən və fonon hal sıxlığından istifadə edərək hesablanır. Fonon hal sıxlığı $g(\omega)$ -dan isifadə edərək kvazi-harmonik yaxınlaşmada, sabit həcmdə $C_V(T)$ molyar istilik tutumunun temperatur asılılığı aşağıdakı düsturla təyin olunur:

$$C_V\left(T\right) = 3nNk_B \int_0^{\omega_{\max}} g\left(\omega\right) \frac{\left(\hbar\omega / k_B T\right)^2 e^{\hbar\omega / k_B T}}{\left(e^{\hbar\omega / k_B T} - 1\right)^2} d\omega$$

burada n - bir molekuldakı atomların sayı (n=5), k_B- Bolsman sabiti, $g(\omega)$ - normalanmış fonon hal sıxlığı, ω_{max}- maksimum fonon tezliyi, N - harmonik yaxınlaşmada hesablanmış normallaşdırıcı faktordur.

Sabit həcmdə molyar istilik tutumunun 0÷400K temperatur diapazonunda nəzəri hesablanmış qrafiki Şəkil 1-də verilmişdir. Qrafikdən göründüyü kimi In_2Se_3 yarımkeçiricisinin molyar istilik tutumu 5.4 K-dən aşagı temperaturlarda Debayın T^3 kubik qanunu ilə dəyişir.



Şəkil 1. In_2Se_3-in təməl prinsiplərdən hesablanmış sabit həcimdə molyar istilik tutumu

Şəkil 2 və 3–də In_2Se_3 yarımkeçiricisinin uyğun olaraq, molyar sərbəst enerjisinin və entropiyasının temperaturdan asılılığı göstərilmişdir. Məlumdur ki, sabit temperatur və həcmə malik sistemdə dayanıqlı tarazlıq vəziyyəti Helmholtz sərbəst enerjisinin minimumuna uyğun gəlir. Başqa sözlə, belə sistem üçün minimum nöqtəsində makroskopik parametrlər (məsələn, təzyiq) sabit qalır. Digər tərəfdən, yarımkeçiricilərin kristallik strukturlarının defektlilik dərəcəsi birbaşa olaraq entropiya ilə bağlıdır. Entropiyanı nəzəri olaraq təyin etməklə müxtəlif aktivasiya proseslərini, vakansiyaların və müxtəlif təbiətli defektlərin yaranmasını, atomların miqrasiyasını tədqiq etmək mümkündür. Bu mikroskopik proseslər isə öz növbəsində ərimə və sublimasiya kimi makroskopik effektləri xarakterizə edir. Nəzəri olaraq hesablanmış bu nəticələrdən istifadə edərək faza keçidlərini və hal diaqramlarını da proqnozlaşdırılmaq mümkündür.



Şəkil 2. In_2Se_3-in təməl prinsiplərdən hesablanmış molyar sərbəst enerjisinin temperaturdan asılılığı



Şəkil 3. In_2Se_3-in təməl prinsiplərdən hesablanmış molyar entropiyasının temperaturdan asılılığı

NƏTICƏ

Kvazi-harmonik yaxınlaşmada Funksional Sıxlıq Həyəcanlaşma Nəzəriyyəsi vasitəsilə sabit həcmdə molyar istilik tutumu $0 \div 400K$ temperatur intervalında nəzəri hesablanmışdır. Göstərilmişdir ki, In_2Se_3 yarımkeçiricisi üçün Debay qanunu (aşağı temperaturlarda C_V - nin T^3 asılılığı) $0 \div 3K$ temperatur intervalında ödənilir. 300 K –dən yuxarı temperaturlarda isə istilik tutumu klassik Dülonq-Pti qanununa tabe olur. İstilik tutumunun temperatur asılılığında 250K-dən yuxarı temperaturlarda anharmoniklik müşühidə olunur.

ƏDƏBIYYAT SIYAHISI

1. J. Herrero, J. Ortega, Electrochemical synthesis of photoactive In_2Se_3 thin films Solar Energy Materials, Volume 16, Issue 6, December 1987, Pages 477-485
2. M.S. Whittingan, Chemistry of intercalation compounds: Metal guests in chalcogenide hosts, Progress in Solid State Chemistry, Volume 12, Issue 1, 1978, Pages 41-99
3. Q. Li, Y. Li, J. Gao, S. Wang, X. Sun, High performance single In_2Se_3 nanowire photodetector, Applied Physics Letters, Volume 99, Issue 24, 2011, page 3105
4. T. Zhai, X. Fang, M. Liao, X. Xu, L. Li, B. Liu, Y. Koide, Y. Ma, J. Yao, Y. Bando, Fabrication of high-quality In_2Se_3 nanowire arrays toward high-performance visible-light photodetectors ACS Nano, Volume 4, Issue 3, 2010, Pages 1596–1602
5. C. Hartwigsen, S. Goedecker, J. Hutter, Relativistic separable dual-space Gaussian pseudopotentials from H to Rn, Physical Review B, Volume 58, Issue 7 , August 1998, page 3641
6. X. Gonze, J.M. Beuken, R. Caracas et al. First-principles computation of material properties: the ABINIT software project, Computational Materials Science, Volume 25, 2002, Pages 478-492.
7. J.P. Perdew, A. Zunger, Self-interaction correction to density-functional approximations for many-electron systems, Physical Review B, Volume 23, Issue 10, May 1981, Page 5048

IMPROVING THE PERFORMANCE OF THE TRIBOELECTRIC NANOGENERATORS WITH THE CREATION OF SURFACE STRUCTURES

O.G.GULAHMADOV, R.M.MIRSULTANOVA, JISEOK KIM
Baku State University
Nanoscience Research Laboratory of the Center for Excellence in Research, Development and Innovation
ogulahmadov@bsu.edu.az
Baku Azerbaijan

SUMMARY
Triboelectric nanogenerators (TENGs) have a simpler operating mechanism than other energy storage systems and can easily and safely generate electricity from all types of mechanical energy sources. The dimensions and shapes of the structure created on the surface of the materials used in the TENG are very important. In this study, the effect of the structures created on the polysiloxane film on its performance was investigated. Thus, micro and nano structures formed on the surface by various methods affect the surface load density of the material. The resulting additional load centers are proportional to the degree of roughness of the surface. The creation of such structures also increases their contact areas. As a result, all these processes have a significant impact on the output parameters of the TENG.
KEYWORDS: triboelectric generator, polysiloxane films, microstructure, dielectric material

Introduction

Researchers are currently facing the challenge of developing new, efficient, green energy sources in response to global climate change and the energy crisis. Thus, the energy crisis and the difficulties associated with it are considered one of the most pressing problems facing human society. To solve these problems, the creation of new types of energy sources and the study of their compatibility with the environment is considered a key priority. In everyday life, collecting energy from the environment (wind, water waves, mechanical movement, etc.) and using it safely is a promising approach. In this case, the development of extremely sustainable and environmentally friendly energy sources is urgent. The growing demand for the use of portable devices (mobile phones, devices for health monitoring, sensors, GPS systems, etc.), their convenient, safe and efficient use, in parallel, creates new directions in the supply of electricity to such devices. One of such directions is triboelectric nanogenerators[1-3] .

Triboelectric nanogenerators (TENGs) are an effective and safe system for collecting electricity from various sources in everyday life - human mechanical movements, water waves and wind. TENGs are a system that can generate mechanical energy into electrical energy and are based on two physical processes, such as contact electrification and electrostatic induction. When two triboelectric materials come into contact with each other, the charge carriers accumulate on the surface as a result of the displacement of electrons due to the difference between their electronic energy states. Because the electrons collected on the surface are static charge carriers, they create a static electric field around them. When one side of the material is covered with a metal electrode, the static loads generated on the surface create counter-loads on the surface of the electrodes due to electrostatic induction. A displacement current is generated at the electrodes to compensate for the separation of charges. Given that the structure of TENG is similar to a capacitor, the formation of the displacement current and its value can be expressed as follows according to Maxwell's equation:

$$J_D = \frac{\partial \mathbf{D}}{\partial \mathbf{t}} = \varepsilon_0 \frac{\partial E}{\partial t} + \frac{\partial P_s}{\partial t} \qquad (1)$$

Here J_D displacement current, ε_0 is the permittivity of free space, E is the electric field intensity and P is the polarization of the medium. Periodically, external influences on the lower and upper parts of the TENG cause the electric field to change. As can be seen from Maxwell's equation, increasing the loads on the surface of the material or the dielectric constant of the material will lead to an increase in the value of the resulting electric field [3-5].

In order for the loads to accumulate on the surfaces of the dielectric material, there must be large differences between the electronic energy states of the materials. These properties are taken into account in selected pairs of dielectric materials with triboelectric properties. It should be noted that for the transfer of electrons, the contact distance of the materials must occur at the atomic level. According to the electron cloud model, the transfer of electrons occurs as a result of the overlap of potential wells under the influence of an external compressive force. If we take into account that the occurrence of triboelectricization is due to the influence of external mechanical forces, then the contact force must be large to separate the loads on the surfaces when the electronic energy conditions of the materials differ sharply from each other. Studies have shown that during the actual contact of flat surfaces, only certain parts of the material interact at the atomic level, and as a result, it is impossible for surface carriers to obtain their maximum value. To do this, the creation of structures of different sizes and shapes on the surface of the material makes it easier for them to come into contact with each other at the atomic level. Thus, it can be noted that the effect of compressive force and surface structures plays an important role in TENGs. The effect of an external compressive force acts as a passive factor that cannot be controlled during the operation of the TENG. However, the different shaped structures created on the surfaces can help reduce the cost of the contact force required[4,6].

In this study, we developed a triboelectric nanogenerator based on polysiloxane films created by nylon with triboelectric properties and printed on a 3D printer with different sized bases. A comparative analysis of the output parameters of the TENG based on nylon layer with polysiloxane films with different surface structures was performed. Electrical measurements are made on the TENGs prepared using polysiloxane samples and their output parameters are evaluated. Based on the experimental values obtained, it can be noted that the reduction in the size of the structures formed on the polysiloxane layer has led to an increase in the current and voltage values of the TENG. Studies have shown that the creation of surface structures and their small size have a positive effect on the performance of the TENG and lead to an increase in its output parameters.

Experience and materials

In this research, first of all, the pallets of different shapes are printed on a 3D printer. The base samples of different diameters and shapes shown in Figure 1a were constructed using the tinkercad program. Figure 1b shows trays printed within 2-2.5 hours based on program samples. 3D Printing Filament (1.75mm PLA Filament 0.5kg, Made in China) was used as printing material. Then 31.17 g of polysiloxane is mixed with 1.56 g of cross-linking agent (Organic tin catalyst) for 15 minutes. The well mixed polysiloxane is applied to the prepared aluminum foil by drop casting. The samples are placed on trays of different sizes, printed on a 3D printer, and the samples are dried at room temperature for 24 hours. Schematic representations of the samples taken after drying are shown in Figure 2a. It is clear from the images that under the influence of substrates of different diameters and shapes, spherical structures are formed on the surface of polysiloxane layers. From such samples, 6x5.5 cm film are cut and prepared. Nylon (nylon socks, nylon 90% and other polymer 10%, 15D; thread diameter 43 μm) was used as another triboelectric material. It is made of nylon material by cutting a square piece measuring 6.5x5 cm. The resulting nylon layer is then glued on Al foil using double-sided glue. Both materials are inexpensive and easy to obtain. Nylon and polysiloxane films are used in the manufacture of triboelectric generators. In the same manner, as shown in Figure 2 b and c, the polysiloxane films obtained on Al foil measuring 6x5.5 cm are cut and a triboelectric generator is made together with nylon film. Nylon and polysiloxane are considered good triboelectric pairs because they are located farther apart than each other in the triboelectric series.



Figure 1. (a) Tinkercad-based structures (b) Examples printed on the 3D printer



Figure 2. (a) description of structured polysiloxane layers (b) triboelectric materials used (c) triboelectric nanogenerator

Results and discussion



Figure 3. a) voltage graphs of the triboelectric nanogenerator b) current graphs of the triboelectric nanogenerator

The current and voltage graphs of TENG based on polysiloxane films of different sizes during the study are shown in Figure 3. As shown in Figure a, as the size of the structures formed on the polysiloxane films decreases, the voltage value of TENG increases from 25V to 55V and the current value increases from 2.8mkA to 6mkA, respectively. It is clear from the results that the creation of surface structures and their smaller size have a positive effect on the performance of the triboelectric nanogenerator.

References

1. Wang, Z. L. Towards Self-Powered Nanosystems: From Nanogenerators to Nanopiezotronics. Adv. Funct. Mater. 2008, v. 18, p. 3553–3567.
2. Wang Z. L., Zhu G., Yang Y., Wang S. H., Pan C. F. Progress in Nanogenerators for Portable Electronics. Mater. Today. 2012, v. 15, p. 532–543.
3. Riemer, R., Shapiro, A. Biomechanical energy harvesting from human motion: theory, state of the art, design guidelines, and future directions. J NeuroEngineering Rehabil. 2011, v. 8, p. 1-13.
4. Biutty, M.N., Yoo, S.I. Enhanced Performance of Triboelectric Nanogenerator by Controlled Pore Size in Polydimethylsiloxane Composites with Au Nanoparticles. Macromol. Res. 2021, v. 29, p. 98–104.
5. Jiseok Kim., Orkhan Gulahmadov., Mustafa B. Muradov. Enhancement of performance of triboelectric generators by introduction of micro- and nano-structures on triboelectric films. Journal of Materials Science: Materials in Electronics. 2021, v. 32, p. 24661–24680.
6. Z.L. Wang, A.C. Wang. On the origin of contact-electrification. Mater. Today. 2019, v. 30, p. 34–51.

NEYTRON SELININ TƏSIRI ALTINDA NANO BN HISSƏCIKLƏRININ RƏNG DƏYIŞMƏ MEXANIZMININ SPEKTROSKOPIK IZAHI

ELÇIN HUSEYNOV, NICAT ABBASOV
National Nuclear Research Center
nicat.rpi@gmail.com
Baku, Azərbaycan

Xülasə

Nanokristallik BN hissəciklərində paramaqnit mərkəzlər və onların təbiəti neytronlarla şüalanmadan öncə və sonra müqaisəli öyrənilmişdir. Neytron seilinin təsiri altında BN nanohissəciklərində rəng dəyişməsi yeni yaranmış EPR siqnalı ilə ətraflı izah edilmişdir. Elektron Paramaqnit Rezonans (EPR) spektroskopik analizlər otaq temperaturunda $500 \div 5500$ G intervalında mərkəzi 3300 G olan sahədə aparılıb. Daha çox paramaqnit mərkəzlər müşahidə olunan 0.3270 - 0.3370 T oblastı əlavə olaraq nəzərdən keçirilmişdir. BN nanohissəciklərində neytron selinin təsiri nəticəsində yaranmış yeni paramaqnit mərkəzlər EPR spektrləri ilə izah edilmişdir.

Giriş

Qeyd edək ki, nüvə texnologiyalarında tətbiq imkanına malik olan materiallar xüsusilə də yüksək temperaturun, ionlaşdırıcı mühitlərin və mexaniki təsirlərin altında yüksək davamlılığa malik olmalıdır. Bu baxımdan ionlaşdırıcı şüaların nanomateriallar üzərində təsirinin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. İndiyə qədər bir çox nanomateriallar üzərində neutron selini təsiri müəyyən qədər tədqiq edilmişdir [1-4]. BN nanohissəciklərinin neytrin şüalanmaya qarşı həssaslığı material daxilindəki bor atomlarının yüksək neytron absorbsiya qabiliyyətinə görə arta bilər və bu səbəbdən də ümumilikdə BN nanohissəcikləri şüalnamaya qarşı həssas ola bilər. Struktur nöqteyi nəzrdən bor nitrid biləşməsi laylı quruluşa malikdir və heksaedrin təpə nöqtələrində bor və azot atomları növbəli şəkildə bir – birini əvəz edir. Bor və azot atomları arasındakı məsafənin çox kiçik olması bu birləşmənin

yüksək davamlığa malik olmasını göstərir. Lakin ionlaşdırıcı mühitdə reflektor kimi istifadəsi zamanı atomlararası məsafə neytron çevrilmələrində o qədər də əhəmiyyətli deyil. Buna görə də, h-BN nanohissəcikləri üzərində neytron selinin təsir effektrlərinin öyrənilməsi son dərəcə aktual məsələdir.

Nəticələr

Aparılan tədqiqatlardan məlum olmuşdur ki, neytron seli ilə şüalanmadan sonra BN nanohissəciklərinin açıq-çəhrayı (pink colour) rəngi əldə etmələrinin əsas səbəbi simmetrik müşahidə olunan EPR siqnalıdır. Müəyyən edilmişdir ki bu siqnal, xarici maqnit sahəsinin nisbətən böyük qiymətlərində itir. Eyni zamanda, neytron seli ilə şüalanma nəticəsində g_X=2.003252, ΔB_X ~ 22G və g_Y=2.003252, ΔB_Y ~ 110G parametrlərinə uyğun dayanıqlı siqnalların yaranması aşqarlanmışdır. Müəyyən edilimişdir ki, B_2N_4 strukturu B_3N_3 strukturuna termik işlənmə zamanı keçid mümkündür və bunun nəticəsində üçüncü siqnal itir. Həmçinin yüksək təmizliyə malik nanokristallik BN hissəciklərində şüalanma nəticəsində yalnız B_V və N_V vakansiyaları yarana bilər.

Ədəbiyyat

Nüvə reaktorlarında geniş tətbiq olunan zirkonyum əsaslı materiallarda 1 MeV-lik tipik sürətli neytronların yaratdığı defektlərin miqdarı hesablanmışdır. Molekulyar Dinamika (MD) modelləşdirilməsi ilə zirkonyumda 20 keV-ə qədər enerjiyə malik ilkin zərbə atomlarının yaratdığı yerdəyişmə kaskadlarında boşluqların (vakansiya) və aralıq atomların (interstisial) yaranması müxtəlif qəfəs temperaturunda araşdırılmışdır.

Giriş

Zirkonyum ərintiləri istilik neytronları ilə tutma en kəsiyinin kiçik olmasına və korroziyaya qarşı davamlılığına görə yüngül və ağır sulu nüvə reaktorlarının aktiv zonasında struktur komponentlər kimi istifadə olunur. Nüvə reaktorunun aktiv zonasında sirkonium ərintiləri sürətli neytron (E > 1 MeV) selinin təsirinə məruz qalır, bu da materialda şüalanma defektlərinin yaranmasına səbəb olur. Bu defektlər də öz növbəsində radiasiyaya məruz qalan materiallarda zamanla baş verən mikrostruktur dəyişikliklərin arxasında duran əsas amildir. Yüksək neytron seli bu, və digər struktrur materialların kövrəkləşməsinə və bəzilərində (kristal zirkonium) şişkinliyə səbəb ola bilər. Bu da, nüvə reaktoru komponetlərinin mexaniki və fiziki xassələrininm itirilməsinə və nəticə etibarilə reaktorun istismar ömrünü əhəmiyyətli dərəcədə məhdudlaşmasına səbəb olur.

Nəticələr

1 MeV enerjili sürətli neytronun Zr atomları ilə elastiki toqquşması zamanı ötürülən enerji təqribən 22 keV-dir. Əgər ötürülən enerji atomların yerdəyişmə enerjisindən (E_d) artıq olarsa, vurulmuş atom qəfəs yerindən çıxa bilər və bu atom ilkin zərbə atomu (PKA) adlanır.Toqquşmuş atom daha sonra digər atomlarla qarşılıqlı təsirdə ola bilər və beləliklə kristalda yerdəyişmə kaskadı yaradır. Kaskad daxilində yerdəyişmiş atomların sayı Kichin–Pease düsturu və ya dəyişdirilmiş Kichin–Pease düsturundan (Norgett -Robinson-Torrens modeli və ya NRT modeli) istifadə etməklə hesablana bilir. Son modelə görə, ilkin zərbə atomunun (PKA) 22 keV enerji qiymətində və Zr atomunun yerdəyişmə enerjisnin E_d = 40 eV qiymətində kaskad daxilində yerdəyişmiş atomların sayı $n_p = \frac{0.4E_p}{E_d} = 220$ bərabərdir. Bu sadə yanaşma kaskadın yaradılması zamanı yerdəyişmiş atomların sayının yaxşı təsvirini verir, lakin kaskadın relaksasiyası və ya soyutma fazası zamanı baş verən intrakaskad elastik rekombinasiyaları nəzərə almır. Bundan əlavə, bu yanaşma kaskadın sonunda yarana bilən nöqtəvi defekt klasterləri və onların forması haqqında heç bir məlumat vermir. Halbuki defeklərin ana kaskad daxilində qruplaşması materialın xassələrinə təsir edir və mikrostrukturun təkamülünə önəmli rol oyanyır. Molekulyar dinamikanın (MD) modelləşdirilməsi ilə zirkonyumda müxtəlif temperaturlarda 20 keV-ə qədər enerjiyə malik ilkin zərbə atomunun yaratdığı yerdəyişmə kaskadında boşluqların və aralıq atomların (Frenkel cütü) yaranması və onların klasterləşməsi aşağıdakı şəkildə göstərilmişdir.



Şəkil. (a) 100 K və (b) 600 K üçün iki və ya daha çox, üç və ya daha çox və dörd və ya daha çox qruplarda rekombinasiya olmayan aralıq atom klasterlərinin fraksiyasının c) 100 K və 600 K temperaturda iki və ya daha çox ölçülü boşluqların (vakansiyalar toplusu) fraksiyasının kaskad enerji E_p-dən asılılığı.

Şəkildən də göründüyü kimi aralıq atomlarının və vakansiya klasterlərinin sayı və ölçüsü enerjinin artamsı ilə artır. 600 K-də enerjisi 20 keVolan ilkin zərbə atomu ilə yaranan kaskad tərəfindən sirkoniumda 25-ə qədər aralıq atom (interstail) və 24 vakansiyadan ibarət klasterlər formalaşmışdır. Klasterlərdə aralıq atomların payı temperaturun artması ilə artır, bu yüksək temperaturda istili yüksəlməsi (termal spayk) nəticəsində defektlərin kaskaddaxili hərəkətliliyinin artması və rekombinasiya səbəbindən tək aralıq atomlarının itkisinin artması ilə izah olunur. Frenkel cütlərinin son sayı yüksək temperaturda azalması yüksək temperaturda termal spaykın ömrünün artması ilə izah olunur.

Ədəbiyyat

1.Nandi, P.K., Eapen, J. Cascade Overlap in hcp Zirconium: Defect Accumulation and Microstructure Evolution with Radiation using Molecular Dynamics Simulations. MRS Online Proceedings Library 1514, 37 (2013). https://doi.org/10.1557/opl.2013.122.

2.Wooding, S.J. and Howe, L.M. and Gao, F. and Calder, A.F. and Bacon, D.J., "A molecular dynamics study of high-energy displacement cascades in α-zirconium", Journal of Nuclear Materials, 1998, apr, 254,2,191-204, https://doi.org/10.1016/S0022-3115(97)00365-6.

3.F. Gao, D.J. Bacon, P.E.J. Flewitt, T.A. Lewis, A molecular dynamics study of temperature effects on defect production by displacement cascades in α-iron, Journal of Nuclear Materials, Volume 249, Issue 1,1997, Pages 77-86, ISSN 0022-3115, https://doi.org/10.1016/S0022-3115(97)00178-5.

4.M.J. Norgett, M.T. Robinson, I.M. Torrens, A proposed method of calculating displacement dose rates, Nuclear Engineering and Design, Volume 33, Issue 1, 1975, Pages 50-54, ISSN 0029-5493, https://doi.org/10.1016/0029-5493(75)90035-7.

5.W.J. Phythian, R.E. Stoller, A.J.E. Foreman, A.F. Calder, D.J. Bacon, A comparison of displacement cascades in copper and iron by molecular dynamics and its application to microstructural evolution, Journal of Nuclear Materials, Volume 223, Issue 3, 1995, Pages 245-261, ISSN 0022-3115, https://doi.org/10.1016/0022-3115(95)00022-4.

NEYTRİNO KÜTLƏSİNİN TƏBİƏTİ

VƏLI HÜSEYNOV
AMEA Fizika İnstitutu,
Kosmik Şüa Mənbələrinin Fizikası Laboratoriyası,
vgusseinov@yahoo.com;
vehuseynov@beu.edu.az
BAKI, AZƏRBAYCAN;
Bakı Mühəndislik Universiteti, Fizika kafedrası,
BAKI, XIRDALAN, AZƏRBAYCAN;

Azərbaycan Texniki Universiteti, Mühəndis fizikası və elektronika kafedrası, BAKI, AZƏRBAYCAN;
Sumqayıt Dövlət Universiteti, Fizika və onun tədrisi metodikası kafedrası,
SUMQAYIT, AZƏRBAYCAN
LƏMAN HACIYEVA
Bakı Mühəndislik Universiteti, Pedaqoji fakültə,
lhaciyeva1@std.beu.edu.tuz
BAKI, XIRDALAN, AZƏRBAYCAN;

XÜLASƏ

Təqdim olunan iş neytrinonun kütləsinin tədqiqinə həsr olunub. Eksperimental faktlar və təhlillər neytrinonun kütləsinin daha çox Mayorana təbiətli olmasını göstərir. Lakin fəza miqyaslarının və ya enerjilərin kifayət qədər böyük və ya kifayət qədər kiçik qiymətlərində neytrinonun kütləsinin Dirak təbiətli olmasının özünü buruzə verməsi istisna olunmur.

AÇAR SÖZLƏR: neytrino, antineytrino, Dirak neytrinosi, Mayorana neytrinosu

GIRIŞ

Varlığı V. Pauli tərəfindən nəzəri olaraq ürəli sürülmüş neytrino elektrik yükü cəhətdən neytral zərrəcik olub spini $(\mathbf{1/2})\hbar$-yə bərəbərdir. Neytrino zəif qarşılıqlı təsirdə iştirak edən zərrəcikdir. E. Fermi neytrinonun kütləsinin yuxarı sərhədini göstərmişdir. Ferminin qiymətləndirməsinə görə neytrinonun kütləsinin sıfır ola bilməsi də istisna olunmur. Neytrinonun antizərrəciyi antineytrino adlanır. Hazırda neytrino və antineytrinoların üç növü məlumdur: elektron neytrinosu, müon neytrinosu, tauon (və ya tau) neytrinosu, elektron antineytrinosu, müon antineytrinosu, tauon (və ya tau) antineytrinosu) [1]. Son illər bir növ neytrinonun (antineytrinonun) digər növ neytrinoya (antineytrinoya) cevrilməsi hadisəsi (*neytrino ossilyasiyaları*) öz eksperimental təsdiqini tapıb. Neytrino və ya antineytrino ossilyasiyaları o halda baş verir ki, neytrino və ya antineytrino kütləyə malik olsun və lepton ədədi saxlanmasın. Neytrino (antineytrino) ossilyasiyaları neytrinonun (antineytrinonun) kütləyə malik olmasına dəlalət edir. Neytrinonun kütləsinə dair ən dəqiq eksperimental məlumat son illər KATRİN eksperimentində alınmışdır: $\boldsymbol{m_{\nu_e} \lesssim 0.1eV}$ [2]. Neytrino və antineytrinolar Kainatda çatışmayan kütləyə, yəni gizli maddəyə namizəd olan zərrəciklərdəndir. Neytrino və ya antineytrinonun kütləyə malik olması Kainatın təkamülünü müəyyən edən əsas faktorlardan biridir. Neytrinonun kütləsinin Dirak təbiətli və ya Mayorana təbiətli olmasından asılı olaraq neytrinonun müxtəlif xassələri orytaya çıxır və bu səbəbdən də müxtəlif fiziki hadisələr (məsələn, neytrinosuz ikiqat beta-parçalanma) müşahidə oluna bilər. Beləliklə, neytrinonun (antineytrinonun) kütləsinin Dirak və ya Mayorana təbiətli olması elmdə həll olunmamış problem olaraq qalır. Bu işdə məqsəd neytrinonun kütləsinə dair son elmi təsəvvürlərin təhlil edilməsi, onun kütləsinin Dirak və ya Mayorana təbiətli olmasına dəlalət edən eksperimental faktların üzə çıxarılmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri qarşıya qoymuşuq:

1) neytrinonun kütləsinin Mayorana təbiəti ilə Dirak təbiəti arasında oxşar və fərqli cəhətlərin müəyyən edilməsi;
2) yüklü zəif cərəyanlarla neytrino kütləsi arasında əlaqənin müəyyən edilməsi;
3) fiziki şəraitdən asılı olaraq neytrinonun kütləsinin gah Mayorana təbiətinə, gah da Dirak təbiətinə malik olmasının mümkünlüyünün nəzərdən keçirilməsi.

Bu işdə alınmış nəticələr kosmologiyada, astrofizikada, nüvə fizikasında və elementar zərrəciklət fizikasında tətbiq olunmaq baxımından əhəmiyyət kəsb edir.

Biz bundan sonrakı bölmələrdə uyğun tədqiqat metodları və nəzəriyyələr əsasında Dirak neytrinosu, Mayorana neytrinosu, Dirak və Mayorana neytrinolarının müqayisəsi, onların yüklü zəif cərəyanlarla əlaqəsi və digər əlaqəli məsələlər barədə bəhs edəcəyik.

TƏDQIQAT METODU

Bu işdə kvant sahə nəzəriyyəsinin Feynman diaqram texnikası üsulu, xüsusi nisbilik nəzəriyyəsi, elektrozəif qarşılıqlı təsirin Vaynberq-Salam-Qleşou nəzəriyyəsi və digər üsul və nəzəriyyələr tədqiqata cəlb olunub.

DIRAK NEYTRINOSU

Dirak neytrinosu digər fermionlar kimi Dirak tənliyi ilə təsvir olunur

$$\left(\boldsymbol{\gamma^{\mu} p_{\mu} - m_{\nu}}\right)\boldsymbol{\psi^{d}(x) = 0}. \quad (1)$$

Burada $\boldsymbol{\gamma^{\mu}}$ – Dirak matrisləri, $\boldsymbol{p_{\mu} = -i\hbar\,\partial/\partial x^{\mu}}$, $\boldsymbol{\psi^{d}(x)}$ – Dirak neytrinosunun dalğa funksiyasıdır. Dirak tənliyindən dörd həll alınır. Ona görə də Dirak neytrinosu dörd komponentlidir: spini impulsu boyunca yönəlmiş neytrino ("sağ polyarlaşmış" neytrino $\boldsymbol{\nu_R}$), spini impulsunun əksi istiqamətində yönəlmiş neytrino ("sol polyarlaşmış" neytrino $\boldsymbol{\nu_L}$), spini impulsu boyunca yönəlmiş antineytrino ("sağ polyarlaşmış" antineytrino $\boldsymbol{\tilde{\nu}_R}$) və spini impulsunun əksi istiqamətində yönəlmiş neytrino ("sol polyarlaşmış" antineytrino $\boldsymbol{\tilde{\nu}_L}$). Dirak neytrinosu normal maqnit momentinə malik olmasa da anomal maqnit momentinə malikdir

$$\boldsymbol{\mu_{\nu}^{0} = \frac{3}{8\sqrt{2}\pi^{2}} G_F e m_{\nu}}. \quad (2)$$

Burada $\boldsymbol{G_F}$ – zəif qarşılıqlı təsirin Fermi sabitidir.

MAYORANA NEYTRINOSU

1937-ci ildə italyan fiziki Ettore Mayorana fərz etmişdi ki, neytrino və antineytrino eyni bir zərrəcikdir. Mayorana neytrinosu halında neytrino antineytrino ilə eyniləşdirilir, yəni

$$\boldsymbol{\nu_L \equiv \tilde{\nu}_L}, \quad (3)$$

$\boldsymbol{\nu_R \equiv \tilde{\nu}_R}$. (4)

Deməli, Mayorana neytrinosu ikikomponentlidir. Belə zərrəciklərə həqiqi neytral zərrəciklər və ya Mayorana zərrəcikləri deyilir. Mayorana zərrəciyi spinin iki istiqamətinə malik olan bir zərrəcikdir.

NEYTRİNO KÜTLƏSİNİN TƏBİƏTİ

Mayorana ortaya belə bir sual qoymuşdur: əslində neytrinonun kütləsinin təbiəti necədir, yəni o, Dirak təbiətlidir, yaxud Mayorana təbiətlidir. Bu sual zaman keçdikcə daha böyük aktuallıq qazanmış və hazırda neytrino fizikasının mərkəzi problemlərindən biri çevrilmişdir. Kütləli Mayorana neytrinosu nə maqnit dipol momentinə, nə də elektrik dipol momentinə malikdir. Kütləli Mayorana neytrinosu anapol momentə malikdir. Neytrinonun anapol momentinin mənbəyini, əyanilik üçün, elektrik cərəyanının toroidal paylanması kimi təsəvvür etmək olar.

Dirak neytrinosu üçün lepton ədədi saxlanılır. Bu o deməkdir ki, Dirak neytrinosu halında ikiqat neytrinosuz beta -parçalanma

$\boldsymbol{(A,Z) \rightarrow (A,Z+2) + e^- + e^-}$ (5)

və

$\boldsymbol{\mu^- \rightarrow e^- + \gamma}$, (6)

$\boldsymbol{\mu^- \rightarrow e^- + e^+ + e^-}$, (7)

$\boldsymbol{\mu^- \rightarrow e^- + 2\gamma}$, (8)

kimi proseslər qadağan olunub [3]. Lakin (5)-(8) proseslərin Mayorana neytrinosu halında baş verməsi qadağan olunmayıb və onların eksperimentdə müşahidə olunmasının axtarışı fəal şəkildə davam etdirilir.

Neytrino ossilyasiyalarının müşahidə olunması onu göstərir ki lepton ədədi saxlanmır. Bu ona dəlalət edir ki, neytrino Dirak zərrəciyindən daha çox Mayorana zərrəciyinə oxşayır.

Təbiətdə nədənsə sol yüklü cərəyanlara rast gəlinir və sağ yüklü cərəyanlar eksperimentdə müşahidə olunmur. Bağqa sözlə, təbiətdə "sol polyarlaşmış" neytrinoya $\boldsymbol{\nu_L}$ və "sağ polyarlaşmış" antineytrino $\boldsymbol{\tilde{\nu}_R}$ rast gəlinir. Qalan iki komponentə təbiətdə rast gəlinmir. Bu səbəbdən eksperimentdə müşahidə olunmayan "sağ polyarlaşmış" neytrino $\boldsymbol{\nu_R}$ və "sol polyarlaşmış" antineytrino $\boldsymbol{\tilde{\nu}_L}$ "steril" neytrinolar adlanır.

Əgər müəyyən olunsa ki, neytrino dördkomponentli deyil, iki komponentlidir və yalnız "sol polyarlaşmış" neytrino $\boldsymbol{\nu_L}$ və "sağ polyarlaşmış" antineytrino $\boldsymbol{\tilde{\nu}_R}$ mövcuddur, onda neytrinonun kütləsinin Mayorana təbiətli olması tamamilə mümkündür. Bu halda "sol polyarlaşmış" neytrinonu $\boldsymbol{\nu_L}$ və "sağ polyarlaşmış" antineytrinonu $\boldsymbol{\tilde{\nu}_R}$ dördkomponentli spinorun iki spiral komponenti hesab etmək olar və qalan iki komponentə isə digər kütləli Mayorana fermionu kimi baxmaq olar.

NƏTICƏ

Eksperimental faktlar və təhlillər neytrinonun kütləsinin daha çox Mayorana təbiətli olmasını göstərir. Lakin fəza miqyaslarının və ya enerjilərin kifayət qədər böyük və ya kifayət qədər kiçik qiymətlərində neytrinonun Dirak təbiətə malik olmasının özünü buruzə verməsi istisna olunmur. Bu həm də ona gətirib çıxara bilər ki, neytrino enerji və fəzə miqyaslarından asılı olaraq bəzi hallarda özünü Dirak zərrəciyi kimi, bəzi hallarda isə Mayorana zərrəciyi kimi apara bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Halzen F, Martin A. D. Quarks and leptons: an introductory course in modern particle physics. John Wiley and Sons, New York, 1984: 396 p.
2. Aker M. *et al*. (KATRIN), (2022), arXiv:2202.04587v1 [nucl-ex].
3. Гусейнов В. А. Лептонные процессы во внешнем магнитном поле. Дисс. на соиск. докт. физ.-мат. наук, 2002, Баку, БГУ, 211с.

GaSe NAZİK TƏBƏQƏSİNİN TERMİK BUXARLANMA ÜSULU İLƏ ALINMASI VƏ ONUN VOLT-AMPER XAREKTERİSTİKASI

Nurməmmədova Fəridə
1-Bakı Mühəndislik Universiteti\ Pedaqoji fakültə/Fizika kafedrası, fanurmammadova@beu.edu.az,
Xırdalan şəh.,
2 -AMEA Radiasiya Problemləri İnstitutu, Azərbaycan, Bakı şəhəri

XÜLASƏ

Təqdim olunan işdə GaSe nazik təbəqəsinin termik buxarlanma üsulu ilə alınma metodikası və müxtəlif temperaturlarda VAX verilmişdir. Müəyyən edilmişdir ki, müxtəlif temperaturlarda VAX kiçik gərginliklər oblastına doğru sürüşür. Müşahidə olunan omik hissədən tutma mərkəzlərinin konsentrasiyası və Fermi səviyyəsinin tarazlıq halından sürüşməsi, yürüklük və sərbəst yükdaşıyıcıların konsentrasiyası hesablanmışdır. Nəzəri və təcrübi nəticələrin müqayisəsinə əsasən GaSe nazik təbəqələrində cərəyanın keçmə mexanizminin dəmlənmə temperaturundan asılı olaraq dəyişmə mexanizmi araşdırılmışdır.
AÇAR SÖZLƏR: GaSe, nazik təbəqə,VAX.

GİRİŞ

Günəş enerjisinin elektrik enerjisinə çevirmək üçün yarımkeçirici əsasında hazırlanan fotoçeviricilər-dən istifadə olunur. Belə fotoçeviriciləri hazırlamaq üçün yarımkeçirici materiallar aşağıdakı tələblərə cavab verməlidir:

- Yarımkeçirici materialın qadağan olunmuş zonası Günəş spektrinə uyğun olmalıdır və qadağan olunmuş zona 1,4- 2.0 eV olmalıdır.
- Yarımkeçirici material yüksək fotohəssaslığa malik olmalıdır.
- Sərbəst yükdaşıyıcıların konsentrasiyası aşağı və yürüklüyü yüksək olmalıdır.
- Temperatura qarşı davamlı olmalıdır.

Bu şərtlər əsasında hazırlanan fotoçeviricilərin faydalı iş əmsalı 20-24% təşkil edir. Fotoçeviricilər əsasən Si və GaAs əsaında hazırlanır. Hər iki elementin fotohəssaslığı spektrin uzundalğa oblastına düşdüyündən onların f.i.ə. aşağıdır. Digər tərəfdən monokristaldan istifadə edildiyindən onlar iqtisadi cəhətdən səmərəli deyil. Ona görə də nazik təbəqəli (amorf maddələr – a-Si) istifadə olunur. Belə materialların parmetrləri güclü deqradasiyaya uğradığından praktki cəhətdən əlverişlı deyil.

Yuxarıda qeyd olunanların təhlili göstərir ki, fotoçeviricilərin effektivliyini artırmaq məsədi ilə daha səmərəli, yəni parametrləri Günəş spektrinə uyğun materialların alınması və onlar əsasında yeni sturukturların alınması və xarakteristikalının tədqiqi elmi və praktiki cəhətdən əhəmiyyət daşıyır.

Belə materiallardan biri də nazik təbəqəli GaSe monokristalıdır.Bu kristalın qadağan olunmuş zonasə-1.8-2.0 eV təşkil edir. Günəş spektrində yüksək fotohəssaslığa malikdir. Alınma üsulu praktiki cəhətdən əlverişlidir.Vakuum postunda müəyyən texnoloji şəraitdə amorf- GaSe nazik təbəsi alınır. Onu Se –mühitində termik dəmlədikdən sonra monokristallik təbəqə almaq mümkündür. Alınmış təbəqələrin elektrik və foto xassələri geniş temperatur intervalınad tədqiq edilir. Defektlərin kompensasiyasını idarə etmək üçün qamma şüaların təsiri ilə emal olunur. Sonra uyğun olaraq heterokeçid hazırlanır.

TƏDQİQAT METODU

Ga-Se ərintisi almaq üçün təmizlik dərəcəsi yüksək olan selen və qalliumdan istifadə etməklə homogen GaSe bərk məhlulu sintez edilmişdir. Alınmış p-GaSe bərk məhlul termik buxarlanma üsulu ilə, seçilmiş optimal rejimdə və müxtəlif temperaturlarda qızdırılmış sitall lövhə üzərinə çökdürülmüşdür [1]. Gümüş kontakt ilə kristalın yaratdığı kontaktın Volt-Amper xarakteristukası (VAX) müxtəlif temperaturlarda tədqiq olunaraq kontaktın omik xarakterli olduğu müəyyən edilmişdir.Nazik təbəqələrin üst səthlərinə vakuumda termik buxarlandırma üsulu ilə arasındakı məsafə 2-3 mm olan gümüş kontaktlar çəkilmişdir.Hazırlanmış nümunələrin xüsusi müqavimətləri 10^3-10^5 Om·sm intervalında dəyişmişdir. Nümunələrin volt-amper xarakteristikası və xüsusi elektrik keçiriciliyi sabit cərəyanda ölçülmüşdür [2].

Alınmış təbəqənin səth morfologiyası və rentgenostruktur analizləri aparılmışdır. Müəyyən edilmişdir ki, soyuq altlıq üzərində alınmış təbəqələr amorf quruluşa , 25-300 C intervalında termik dəmlənmiş nümunlər işə polikristallik quruluşa malikdir. Lakin sitall üzərində alınmış amorf quruluşa malik olduğundan onun səthində müxtəlif formalı və dərinlikli potensial çüxürların olması səbəbindən belə səthə adsorbsiya olunan molekulların yürüklü olmasını və nəticədə müxtəlif ölçülü və formalı fazaların yaranmasına şərait yaranır. 250-300 ^{0}C temperaturda təsirsiz qaz mühitində 3-5 saat müddətində termik dəmlənmiş nazik təbəqələrdə isə periodik payalanan çökük və hamar relyev müşahidə olunur.

Alınmış strukturun elektrik və fotoelektrik xassələrinə, o cümlədən VAX-na ionlaşdırıcı şüaların və onun radiasiya şüalarına qarşı davamlığı öyrənilir

NƏTİCƏ

Şəkil 1-də müxtəlif rejimlərdə alınmış GaSe- təbəqəsinin VAX- verilmişdir.

Şəkil 1-dən görünür ki, VAX-rı T=300 K-də hər 3 qrafik iki hissədən – kvadratik və kəskin qalxma hissəsindən ibarətdir. 1-3 əyilərinin müqayisəsi göstərir ki, altlığın temperaturu artdıqca GaSe – nümunəsində lokal kristallaşma mərkəzi yaranır və nəticədə nüminədən keçən cərəyanın qiyməti həm kvadratik hissədə , həm də kəskin qalxma oblastında artır. 1-əyri- amorf hal nümunənin amorf halına uyğundur və sahə intensivliyinin artması ilə cərəyan eksponensial qanunla artır.



Şəkil 1. Müxtəlif rejimlərdə alınmış GaSe nazik təbəqələrin VAX-sı

2 və 3 əyrilərilərinin xarakterindən görünür ki,altlığın müxtəlif temperaturlarda qızdırılması zamanı lokal kristallaşma mərkəzləri yarandığından cərəyanın qiyməti dəyişir və VAX- kiçik gərginlik oblastına tərəf sürüşür. Müşahidə olunan omik hissədən tutma mərkəzlərinin konsentrasiyası və Fermi səviyyəsinin tarazlıq halından sürüşməsi, yürüklük və sərbəst yükdaşıyıcıların konsentrasiyası hesablanmışdır. Beləliklə, p-GaSe nazik təbəqələrində cərəyanın keçmə mexanizminə elektrik sahəsinin və temperaturun təsiri araşdırılmış və uyğun nəzəri, o cümlədən təcrübi nəticələrlə [3-5] müqayisəli araşdırmaya əsasən müəyyən edilmişdir ki, GaSe nazik təbəqələrində cərəyanın keçmə mexanizmi dəmlənmə temperaturundan asılı olaraq qismən dəyişir. Termik dəmlənmə zamanı defektlərin nizamlanması nəticəsində qırılmış Ga- Se rabitələrin bərpası hesabına yaranan kristallaşma mərkəzləri təbəqələrdə yükün daşınma mexanizmində əsas rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. А.И.Курносов,В.В.Юдин.Технология производства полупроводниковых приборов. Москва.Высшая школа.1992,с.40
2. Л.Павлов. Методы измерения параметров полупроводниковых материалаов. Москва.Высшая школа.1987,с.240
3. А.Н.Зюганов, С,В.Свечников, *Электрон. моделирование.* **12**(1990), 6.
4. Y.I.Frenkel., *Phys.Rev.***, 54** (1938),657 .
5. Б.Г.Тагиев,О.Б.Тагиев, Н.Н.Мусаева. *ФТП*, **29**(1995), 1403.

CuInS MONOKRİSTALINDA HƏCMİ YÜKLƏRLƏ MƏHDUDLAŞMIŞ CƏRƏYANIN (HYMC) TƏDQİQİ

LEYLA İBRAHİMOVA[1] RAFİQ QULİYEV[2] NAZİLƏ MAHMUDOVA[3]

AMEA Naxçıvan Bölməsi AMEA Naxçıvan Bölməsi AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu Təbii Ehtiyatlar İnstitutu Təbii Ehtiyatlar İnstitutu
leyla.ibrahimova.1992@bk.ru qraf1945@mail.ru nazile.mahmudova.2017
Naxçıvan, Azərbaycan Naxçıvan, Azərbaycan Naxçıvan, Azərbaycan

AÇAR SÖZLƏR: alçaqomlu kristallar, işıq xarakteristikası, fotokeçiriciliyin kinetikası, relaksasiya, tutulma mərkəzləri.

Üçqat yarımkeçirici *CuInS* birləşməsi *CdInS* tipli kubik quruluşa malikdir[1].5 8 *CuInS*-in optik ,elektrik və fotelektrik xassələri [2-3]işlərində öyrənilmişdir.Tədqiq olunan maddə stexiometrik miqdarda götürülmüş *CuInS* və *InS* liqaturundan sintez olunmuş, təkmil monokristalları isə Bricmen metodu ilə göyərdilmişdir. Baxılan işdə *CuInS* nümunələrinə statik VAX-ları çıxarılmışdır. Nümunələrin ölçüləri 3×4×0,008-4×5×0,5 mm^3 götürülmüş, gümüşpastasından omik kontakt vurulmuşdur. Müxtəlif temperaturlarda çıxarılmış VAX-da HYMC rejimi üçün xarakterik olan dörd sahə müşahidə olunur: xətti (J~U) , kvadratik

(J~U 2), cərəyanın kəskin artma oblastı ($J \sim U^{L+I}$), burada $L=\frac{T}{T}$ və T xarakteristik temperatur olub, temperatur artdıqca 5-dən 2-yə qədər azalır) və nəhayət ,ikinci kvadratik oblast. Ölçmələr zamanı HYMC rejiminin ödənildiyi isbat üçün müxtəlif qalınlıqlı nümunələrdə eyni rejimdə VAX-nı çıxararaq (şəkil 1),cərəyanın sıxlığının (j) və xarakterik nöqtələrin (U_x , U_{td}) elektrodlararası məsafədən asılılığı öyrənilmişdir (şəkil 2).

Müəyyən olunmuşdur ki, tələli kvadratik oblastda $j \sim d^{-3}$ asılılığı (şəkil 2-də 1 əyrisi), cərəyanın kəskin artma oblastında isə $j \sim d^{-(2e+1)}$ asılılığı ödənir.

U_x və U_{td} keçid gərginlikləri isə nümunənin qalınlığından kvadratik asılıdır (şəkil 2-də 2 və 3) əyriləri. Çıxarılan asılılıqlar HYMC rejiminin ödənildiyini təsdiq edir.

Şəkil.1.*CuInS* monokristalında statik VAX. T, K 1-150; 2-200; 3-300; 4-350. Şəkil.2. *CuInS* monokristalında cərəyanın sıxlığının(«tələli» kvadratik oblastda) və U_x(2), U_{td}(3) xarakteristik nöqtələrin nümunələrin qalınlığından asılılığı.

HYMC rejimində zəif sahələrdə tarazlıqda olan yükdaşıyıcıların yaratdığı cərəyan Om qanununa tabedir

$$J=\theta\mu n_o\frac{U}{d}(1)$$

(1),burada *e* – elektronun yükü, μ – yükdaşıyıcıların yürüklüyü, U- tətbiq olunan gərginlikdir. Şəkil 1-dən göründüyü kimi, T=150K və U=0,6V olduqda injeksiya olan yükdaşıyıcıların konsentrasiyası tarazlıqda olan yükdaşıyıcıların konsentrasiyasını üstələyir və VAX-da kvadratik asılılıq başlayır.Temperatur 350K-ə qədər yüksəldikdə keçid gərginliyi 1V-a qədər artır. Omik asılılıqdan kvadratik asılılığa keçid gərginliyi aşağıdakı ifadədən təyin olunur[4]

$$U_x=\frac{en_0d^2}{\varepsilon}\ (2)$$

burada ε- maddənin dielektrik sabitidir.

Kvadratik oblastan sonra cərəyan kəskin artır, bu da *CuInS* monokristalında tələlərin böyük rol oynadığını göstərir. Tələlərin VAX-da rolu onunla izah olunur ki, [4] yarımkeçiricilərdə tələ olmadıqda injeksiya edən yükdaşıyıcılar həcmi yüklər yaradır. HYMC-a uyğun kvadratik oblastda cərəyan aşağıdakı qanuna tabedir :

$$J=\varepsilon\mu\frac{U^2}{d^3}(3)$$

Kristalda tələ olduqda həcmi yüklər tələlər tərəfindən zəbt olunur. İnjeksiya olunmuş yükdaşıyıcılar tələlər tərəfindən zəbt olunduğundan, tələlər tam dolana qədər cərəyan azalır, tələlərin tam olması isə aşağıdakı ifadədən təyin olunur:

$$n_{t,0} = \frac{N_t}{1+\frac{1}{g}\overline{exp\frac{E-F}{kT}}}$$

(4), burada *n*-elektronlarla dolayan tələlərin sayı, N və E isə uyğun olaraq tələlərin konsentrasiyası və dərinliyi, g-lokal səviyyənin spin cırlaşması, F-Fermi səviyyəsidir. Kiçik tələlər halında $\frac{E-F}{kT}$>1 şərti ödənir. Tələlərin dolması θ << 1 halında VAX

$J=\theta\varepsilon\mu\frac{U^2}{d^3}$(5)

şəklində olur və kvadratik tələli qanun adlanır. Deməli, kiçik tələlər HYMC-ni əsaslı dəyişəcəkdir. Bir neçə qrup tələ olduqda θ-nın ən kiçik olanı HYMC-yə ən
çox təsir edəcək. Om qanunundan tələli kvasdratik oblasta keçid aşağıdakı ifadədən təyin olunur:

$$U_x = \frac{end^2}{\theta\varepsilon}(6)$$

Fermi səviyyəsindən aşağıda yerləşən dolmamış mərkəzlərin konsentasiyası aşağıdakı ifadədən təyin olunur:

$$n_{t,0}=\frac{N_t}{g}exp\frac{E-F}{kT}\ (7)$$

Bu halda xətti hissədən birbaşa tələlərin tam dolması müşahidə olunur:

$$U_{t,d}=\frac{en_{t,0}d^2}{\varepsilon}\ (8)$$

CuInS monokristalında kvadratik oblastdandərhal sonra cərəyanın kəskin artması müşahidə olunur ki, bu da tələlərin varlığı ilə izah olunur. Ona görə kvadratik oblast θ parametrinin daxil olduğu (5) düsturu ilə xarakterizə edilir. (6) düsturundan istifadə edərək, *CuInS* monokristalında sərbəst yükdaşıyıcıların konsentrasiyası hesablanır. (7) düsturunda $U_{t,d}$- nin təcrübi qiymətlərindən istifadə edərək , dolmamış tələlərin konsentrasiyası təyin edilir. Kəskin artma oblastından əvvəl tələli kvadratik oblast müşahidə olunur ki, bu da əvvəlcə tələlərin boş olduğunu təsdiq edir və deməli, $P_{t,0} \approx N_t$ yazmaq olar.

Tələlərin dolma parametri aşağıdakı ifadədən təyin olunur:

$\theta= \frac{N_v}{gN_t}exp\{-\frac{E}{kT}\}$ (9)

N- valent zolağındakı hal sıxlığı, g- spin cırlaşma faktoru olub $1 \leq g \leq 2$ itervalında dəyişir. Ona görə $lg\theta \sim f\{\frac{1}{T}\}$ qrafikini qurmaqla tələlərin dərinliyini təyin etmək olar. θ parametri isə:

$\theta = \frac{J_1}{J_2}$ (10)

ifadəsində tapılır. J_1- cərəyanın kəskin artma oblastının başlanğıcına, J_2 - isə sonuna uyğun gəlir. Müxtəlif temperaturlarda θ –nın qiyməti cədvəldə verilmişdir.

T,K	$N_{0,}$ sm^{-3}	$P_{0,}$ sm^{-3}	$N_{t,}$ sm^{-3}	θ
150	$7{,}0\cdot10^{17}$	$1{,}0\cdot10^{7}$	$5{,}0\cdot10^{13}$	$1\cdot10^{-4}$
200	$1{,}5\cdot10^{18}$	$1{,}2\cdot10^{8}$	$8{,}0\cdot10^{13}$	$5\cdot10^{-4}$
300	$2{,}0\cdot10^{18}$	$7{,}0\cdot10^{8}$	$9{,}0\cdot10^{13}$	$4\cdot10^{-3}$
350	$2{,}5\cdot10^{18}$	$2{,}0\cdot10^{9}$	$1{,}2\cdot10^{14}$	$5\cdot10^{-2}$

Şək.3.*CuIn S* monikristalında tələlərin parametrinin temperaturdan asılılılığı.

Cədvəl göründüyü kimi, tepmeratur artdıqca θ –nın qiyməti artır və tələlərin rolu zəifləyir. $lg\theta \sim \left(\frac{1}{T}\right)$ asılılığı 3-cü şəklində verilmişdir. Şəkildən göründüyü kimi, əyridən bir düz xətt keçirmək olar, bu isə *CuIn S*monokristalında tələlərin bi əsas səviyyə ətrafında qruplaşdığını göstərir. Qrafikdən səviyyələrin sərhəddi tapılmış (0,02 eV), (9) düsturundan səviyyənin sıxlığı hesablanmışdır. θ –nın qiymətini bildikdə, tələsiz kvadratik oblastdan sərbəst yükdaşıyıcıların μ yürüklüyünü hesablamaq olar. Otaq temperaturunda $\mu \approx 25\ sm^2/V{\cdot}s$ olmuşdur.

ƏDƏBİYYAT SİYAHISI

1. Плеханов С. И., Наумов А.В. Оценка возможностей роста производства солнечных элементов на основе CdTe, ClGS и GaAs/Ge в период 2010 – 2025 г.г. ОАО НПП « КВАНТ »,2010. – Режим доступа: http: // alternativenergy.ru / solnechnaya – energetika / 132-proizvodstvo – solnechnyh – elementov. Html. 2010
2. Rabhi A. Structural, optical and electrical properties of $CuSbS_2$ these amorphous films: effect of the thickness variation. Chalcogenide Letters, Vol.8, № 6, June 2011, p. 383-390.
3. Wei-Liang Chen, Dong – Hau Kuo, and Thi Tran Anh Tuan. Preparation of $CuSbS_2$ Thin Films by Co- Sputterinq and Solar Cell Devices with Band Gap-Adjustable n-Tipe InGaN as a Substitute of ZnO. Journal of electronic materials, 664- 015-4174-x 2015 The Minerals, Metals & Materials Sodety. vol.45, № 1, 2016 DOI: 10. 1007/s 11
4. B.Shu, Q. Han. Studies on structural, optical and electrical properties of $CuSbS_2$ nanoparticles Chalcogenide Letters Vol. 13, No. 2, February 2016, p. 46 –53.
5. TianyueQao, Haiyu F., Yue W. Synthesis and thermoelectric properties of $CuSbS_2$ The Summer Undergraduate Research Fellowship (SURF) Symposium. , (August 7, 2014). Paper 131.

THE INFRARED BOUNDARY VALUE OF HARD-WALL MODEL ADS/QCD FOR DEUTERON

NARMIN, HUSEYNOVA
Institute for Physical Problems of Baku State University
Theoretical physics department
nerminh236@gmail.com
BAKU, AZERBAIJAN
SHAHIN, MAMEDOV
Institute for Physical Problems of Baku State University
Theoretical physics department
sh.mamedov62@gmail.com
BAKU, AZERBAIJAN

JANNAT, SAMADOV
Shamakhy Astrophysical Observatory, Azerbaijan National Academy of Sciences,
Department of Physics of Solar and Solar-Terrestrial Relations
jannat.samadov@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT
We study the infrared boundary value of hard-wall model AdS/QCD from deuteron profile function. We write profile function for the bulk twist $\tau = 6$ vector field, which describes deuteron on the boundary of AdS space. We use from this profile function, which was obtained from the bulk Lagrangians for the deuteron and photon fields interactions in the bulk of AdS apace. By using from the infrared boundary condition, we find the first zero of the Bessel function within hard-wall model

and fix the infrared boundary cut-off of AdS space in accordance with the mass spectrum of the deuteron field, where we have used from the experimental value of the deuteron mass.

KEYWORDS: DEUTERON, HARD-WALL MODEL, INFRARED BOUNDARY, BESSEL FUNCTION

INTRODUCTION

The nucleus of a deuterium atom, called a deuteron, contains one proton and one neutron, whereas the far more common protium has no neutrons in the nucleus. Due to the similarity in mass and nuclear properties between the proton and neutron, they are sometimes considered as two symmetric types of the same object, a nucleon. While only the proton has an electric charge, this is often negligible due to the weakness of the electromagnetic interaction relative to the strong nuclear interaction.

In section I, we present basic elements of our work. In section II, we show key words. In section III, we give relevance of our research work and present sections of the work. In section IV, we present basic elements of the hard-wall AdS/QCD model for the deuteron. We write the infrared boundary condition, find the first zero of the Bessel function within hard-wall model AdS/QCD and fix the infrared boundary cut-off of AdS space in accordance with the mass spectrum of the deuteron field. By using from the experimental value of the deuteron mass, we find the infrared boundary value of hard-wall model AdS/QCD from deuteron profile function. In section V, we give conclusion and In section VI literature.

ESEARCH METHOD

In this section, we study the infrared boundary value of hard-wall model ADS/QCD for the deuteron profile function. For this aim, we write profile function for the bulk twist $\tau = 6$ vector field, which describes deuteron on the boundary[1-5]:

$$\Phi_n(\mathrm{z}) = \frac{\sqrt{z}\ \mathcal{J}_5(\mathrm{M_n z})}{\sqrt{\int_0^{\mathrm{z_m}} \mathrm{dz} |\mathcal{J}_5(\mathrm{M_n z})|^2}} \quad (1)$$

where z is a 5th coordinates of AdS space, $\mathcal{J}_5$ is a first kind Bessel function, $\mathrm{M_D}$ is a deuteron mass, $\mathrm{z_m}$ is a infrared boundary value of a AdS space within hard-wall model.

We use from this profile function, which was obtained from the bulk Lagrangians for the deuteron and photon fields interactions in the bulk of AdS apace. By using from the infrared boundary condition:

$$\mathcal{J}_5(\mathrm{M_D z_m}) = \mathcal{J}_5(\propto_0) = 0, \quad (2)$$

we find the first zero of the Bessel function as $\propto_0$=8.77 within hard-wall model. Then we fix the infrared boundary cut-off of AdS space in accordance with the mass spectrum of the deuteron field, where we have used from the experimental value of the deuteron mass $\mathrm{M_D} = 1.876\ GeV = 9.508\ fm^{-1}$:

$$\mathrm{z_m} = \frac{\propto_0}{\mathrm{M_D}} = 0.9225\ fm = 4{,}6756\ GeV^{-1} \quad (3)$$

By using “Mathematica” package we find numerical value of this parameter.

RESULT

We find the infrared boundary value of a AdS space within hard-wall model for the deuteron mass spectrum. This value have great important for calculation form-factors, structure functions, tensor analyzing powers and other constants of the deuteron within hard-wall model of AdS/QCD.

LITERATURE

4. Gutsche T. , Lyubovitskij V.E. and Schmidt I., Deuteron electromagnetic structure functions and polarization properties in soft-wall AdS/QCD (**Journal article**), Phys. Rev. D 94, 11, 116006, (2016).

5. Gutsche T. , Lyubovitskij V.E., Schmidt I. and Vega A., Nuclear physics in soft-wall AdS/QCD: Deuteron electromagnetic form factors (**Journal article**), Phys. Rev. D 91, 114001 (2015).

6. Z. Abidin, C. E. Carlson, Gravitational Form Factors of Vector Mesons in an AdS/QCD Model (**Journal article**), Phys. Rev. D 77, 095007, (2008).

7. Z. Abidin and C.Carlson, Nucleon electromagnetic and gravitational form factors from holography (**Journal article)**, Phys. Rev. D 79, 115003 (2009).

8. Narmin Huseynova , Shahin Mamedov and Jannat Samadov, Deuteron electromagnetic form factors, structure functions and tensor polarization observables in the framework of the hard-wall AdS/QCD model, [e-Print: 2204.06205 [hep-ph].] **(online article)**

THE DEUTERON TENSOR ANALYZING POWER WITHIN ADS/QCD HARD-WALL MODEL

NARMIN, HUSEYNOVA
Institute for Physical Problems of Baku State University
Theoretical physics department
nerminh236@gmail.com
BAKU, AZERBAIJAN

SHAHIN, MAMEDOV
Institute for Physical Problems of Baku State University
Theoretical physics department
sh.mamedov62@gmail.com
BAKU, AZERBAIJAN

JANNAT, SAMADOV
Shamakhy Astrophysical Observatory, Azerbaijan National Academy of Sciences,
Department of Physics of Solar and Solar-Terrestrial Relations
jannat.samadov@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT
We research the tensor analyzing power of the deuteron in the framework of the hard-wall AdS/QCD model. We use profile function for the bulk twist $\tau = 6$ vector field, which describes deute-ron on the boundary. From the deuteron magnetic dipole form factor we analytically find expression for the tensor analyzing power, from the bulk Lagrangians for the deuteron and photon fields interactions. We plot the momentum transfer dependence of the tensor analyzing power and compare our numerical results with ones in the soft-wall model and experimental data.

KEYWORDS: DEUTERON, HARD-WALL MODEL, TENSOR ANALYZING POWER, MOMENTUM TRANSFER

INTRODUCTION

A deuteron is a nucleus of a deuterium atom and consists of one proton and one neutron. Since the deuteron is a spin-1 particle it has three EM form factors in the one-photon-exchange approximation, due to current conservation and the P and C invariance of the EM interaction and two structure functions.

In section I, we present basic elements of our work. In section II, we show key words. In section III, we present relevance of our research work and present sections of the work. In section IV, we give basic elements of the hard-wall model for the deuteron and find tensor analyzing power of deuteron within hard-wall model ADS/QCD. Then present the momentum transfer dependence of the tensor analyzing power and compare our numerical results with ones in the soft-wall model and experimental data. In section V, we give conclusion and In section VI literature.

RESEARCH METHOD

Here, we research the tensor analyzing power of the deuteron in the framework of the hard-wall AdS/QCD model. For this aim, we have used from the expressions of the magnetic dipole form factor and two structure functions of a deuteron, which describe the electromagnetic properties of a deuteron. [1-5]:

$$T_{22}(\mathrm{Q}^2,\theta) = -\frac{1}{2\sqrt{3}\,\mathrm{S}(\mathrm{Q}^2)}\,\eta_{\mathrm{D}}(\mathrm{Q}^2)\mathrm{G}_{\mathrm{M}}^2(\mathrm{Q}^2) \quad (1)$$

where Q is a momentum transfer, θ is a electron scattering angle, $\mathrm{S}(\mathrm{Q}^2) = A(\mathrm{Q}^2) + B(\mathrm{Q}^2)$,

$\eta_{\mathrm{D}}(\mathrm{Q}^2) = \frac{Q^2}{4m_D^2}$ and

$$G_M(\mathrm{Q}^2) = \int dz\, V(q,z)\Phi^2(z) \quad (2)$$

is a magnetic dipole form factor of a deuteron. Here $V(q,z)$ is a bulk to boundary of a photon field:

$V(q,z) = \frac{\pi}{2} qz[\frac{Y_0(qz_m)}{J_0(qz_m)} J_1(qz) - Y_1(qz)]$ (3)

and $\Phi(z)$ is a profile function of a deuteron:

$\Phi_n(\mathrm{z}) = \frac{\sqrt{z}\, J_5(\mathrm{M_n z})}{\sqrt{\int_0^{\mathrm{z_m}} \mathrm{dz} |J_5(\mathrm{M_n z})|^2}}$ (4)

where J_5 is a first kind Bessel function, $\mathrm{M_D}$ is a deuteron mass, $\mathrm{z_m}$ is a infrared boundary value of a AdS space within hard-wall model.

$A(\mathrm{Q}^2) = \mathrm{G_C^2}(\mathrm{Q}^2) + \frac{2}{3}\eta_\mathrm{D}(\mathrm{Q}^2)\mathrm{G_M^2}(\mathrm{Q}^2) + \frac{2}{3}\eta_\mathrm{D}^2(\mathrm{Q}^2)\mathrm{G_M^2}(\mathrm{Q}^2)$ (5)

is a first unpolarized elastic structure function.

$B(\mathrm{Q}^2) = \frac{4}{3}\eta_\mathrm{D}(\mathrm{Q}^2)(1 + \eta_\mathrm{D}(\mathrm{Q}^2))\mathrm{G_M^2}(\mathrm{Q}^2)$ (6)

is a second unpolarized elastic structure function and depends only on $\mathrm{G_M^2}(\mathrm{Q}^2)$ form factor.

We use from the expressions (4) profile function, (2) magnetic form factors and (5) and (6) respectively first and second unpolarized elastic structure functions of a deuteron which were obtained from the bulk Lagrangians for the deuteron and photon fields interactions in the bulk of AdS space within hard-wall model of AdS/QCD. By using from the Mathematica Package we plot the momentum dependence of the tensor analyzing power of the deuteron and and compare our numerical results with ones in the soft-wall model and experimental data. Notice that, we fix the $J_5(\mathrm{M_D z_m}) = J_5(\alpha_0) = 0$, the infrared boundary cut-off of AdS space in accordance with the mass spectrum of the deuteron field, where we have used from the experimental value of the deuteron mass $\mathrm{M_D} = 1.876\, GeV = 9.508\, fm^{-1}$, $\mathrm{z_m} = \frac{\alpha_0}{\mathrm{M_D}} = 0.9225\, fm = 4{,}6756\, GeV^{-1}$.

RESULT

We plot the momentum dependence of the tensor analyzing power of the deuteron and compare our numerical results with ones in the soft-wall model and experimental data. We get good agreement with sowt-wall model and experimental data.

LITERATURE

1. Gutsche T. , Lyubovitskij V.E. and Schmidt I., Deuteron electromagnetic structure functions and polarization properties in soft-wall AdS/QCD (**Journal article**), Phys. Rev. D 94, 11, 116006, (2016).
2. Gutsche T. , Lyubovitskij V.E., Schmidt I. and Vega A., Nuclear physics in soft-wall AdS/QCD: Deuteron electromagnetic form factors (**Journal article**), Phys. Rev. D 91, 114001 (2015).
3. Z. Abidin, C. E. Carlson, Gravitational Form Factors of Vector Mesons in an AdS/QCD Model (**Journal article**), Phys. Rev. D 77, 095007, (2008).
4. Z. Abidin and C.Carlson, Nucleon electromagnetic and gravitational form factors from holography (**Journal article)**, Phys. Rev. D 79, 115003 (2009).
5. Narmin Huseynova , Shahin Mamedov and Jannat Samadov, Deuteron electromagnetic form factors, structure functions and tensor polarization observables in the framework of the hard-wall AdS/QCD model, [e-Print: 2204.06205 [hep-ph].] **(online article)**

LYS-GLN-PRO TRİPEPTİD MOLEKULUNUN FƏZA QURULUŞUNUN STABİLLƏŞMƏSİNDƏ MÜXTƏLİF QARŞILIQLI TƏSİR NÖVLƏRİNİN ROLU

ŞÜKÜROVA JALƏ
Bakı Dövlət Universiteti
Fizika fakültəsi
E-mail: jala.shukurova.98@mail.ru
Baki, Azərbaycan

QOCAYEV NİFTALI
Bakı Dövlət Universiteti
Fizika Problemləri ETİ-tu
E-mail: nqocayev@beu.edu.az
Baki, Azərbaycan

AĞAYEVA ÜLKƏR
Bakı Dövlət Universiteti
Fizika Problemləri ETİ-tu
E-mail: ahaeva1976@mail.ru
Baki, Azərbaycan

XÜLASƏ

Angiotenzinçevirici fermenti ingibirləşdirən bioloji aktiv Lys-Gln-Pro-COO tripeptid molekulunun molekulyar mexanika üsulu ilə tədqiq olunmuş üçölçülü fəza quruluşunun stabilləşməsində önəmli rol oynayan enerji payları - elektrostatik qarşılıqlı təsir enerjisi, torsion enerji və molekuldaxili van-der-vaals qarşılıqlı təsir enerjisi kompüter modelləşdirilməsi ilə hesablanmışdır. Həmçinin, Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyalarının stabilləşməsində rol oynayan hidrogen rabitələri müəyyənləşdirilmiş, onların uzunluqları və uyğun konformasiyaların stabilləşməsinə verdikleri enerji payları hesablanmışdır.

Açar sözlər: nəzəri konformasiya analizi, hidrogen rabitəsi, stabil konformasiya, ,molekuldaxili qarşılıqlı təsir növləri, biomolekul, ferment, ingibitor.

Angiotenzinçevirici fermenti ingibirləşdirən Leu-Gln-Pro tripeptidinin kiçikenerjili konformasiyalarının stabilləşməsində hidrogen rabitələrinin rolu[1,2] məlum ədəbiyyatlardan $[3-4,6-7]$ və müvafiq hesablama proqramından [5] istifadə etməklə müəyyənləşdirilmişdir**.** Hazırki işdə Leu-Gln-Pro tripeptidinin analoqu olan Lys-Gln-Pro tripeptidinin (şəkil 1)



Şəkil 1.Lys-Gln-Pro tripeptidi

kiçikenerjili konformasiyalarını stabilləşdirən enerji növlərinin rolları araşdırılmışdır. Lys-Gln-Pro tripeptidinin 3-ölçülü fəza quruluşunun tədqiqi nəticəsində müəyyən olunmuşdur ki, bu tripeptidin 0-1 kkal/mol enerji intervalınada 4 kiçikenerjili konformasiyası, 1-2 kkal/mol intervalında 4 kiçikenerjili konformasiyası, 2-3 kkal/mol intervalında 4 kiçikenerjili konformasiyası, 3-4 kkal/mol enerji intervalında 8 kiçikenerjili konformasiyası, 4-5 kkal/mol intervalında 5 kiçikenerjili konformasiyası mövcuddur.

Məlum olduğu kimi, peptid molekullarının fəza quruluşları 4 növ qarşılıqlı təsir nəticəsində stabilləşir. Bunlar aşağıdakılardır: qeyri-valent (van-deer-vaals) qarşılıqlı təsir, elektrostatik qarşılıqlı təsir, torsion qarşılıqlı təsir, H-rabitə qarşılıqlı təsir enerjisi. Bunlardan ilk 3 qarşılıqlı təsir enerjiləri ilə əlaqədar əldə etdiyimiz nəticələr cədvəl 1-də verilmişdir. H-rabitəsinin rolu xüsusi maraq təşkil etdiyindən onunla əlaqədar aldığımız nəticələr ayrılıqda təhlil olunacaqdır.

Lys-Gln-Pro tripeptidinin 3-ölçülü fəza quruluşunun tədqiqi nəticəsində qeyri-valent (van-deer-vaals) qarşılıqlı təsir, elektrostatik qarşılıqlı təsir, torsion qarşılıqlı təsir növlərində hər birinin ümumi stabilləşdirmə enerjisinə verdiyi paylar müəyyənləşdirilərkən məlum olmuşdur ki, ee şeypinə daxil olan $B_{12222}B_{212}B$ qlobal konformasiyasını stabilləşdirən ümumi enerji -4,85kkal/mol-a bərabərdir.

Cədvəl 1

Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyasının stabilləşməsindəki enerji payları

Şeyplər	Konformasiya	$E_{q.v.}$	$E_{e.st.}$	$E_{tors.}$	$E_{ümumi}$	E_{nisbi}
ee	$B_{12222}B_{212}B$	-5.94	0.65	1.74	**-4.85**	**0**
	$B_{12222}B_{232}B$	-6.3	-0.3	2.41	-4.15	0.7
	$B_{12222}B_{221}B$	-4.85	-0.3	1.5	-3.63	1.22
	$B_{22222}B_{312}B$	-8.8	1.95	3.27	-3.58	1.25
	$B_{12222}B_{332}B$	-8.9	2.8	3.62	-2.54	2.31
	$B_{32222}B_{212}B$	-7.4	2.02	3.05	-2.30	2.55
	$B_{32222}B_{232}B$	-6.7	2.40	2.55	-1.74	3.14
Fe	$R_{32222}B_{212}B$	-8.6	-0.01	3.95	-4.62	0.23
	$R_{32222}B_{221}B$	-8.18	-0.90	4.5	-4.11	0.74
	$R_{22222}B_{221}B$	-6.13	0.44	3.42	-3.16	1.7
	$R_{12222}B_{212}B$	-6.4	0.4	4.04	-1.94	2.9
	$R_{22222}B_{212}B$	-6.73	-1.1	5.27	-2.55	2.3

Bunun -5,94 kkal/mol miqdarı (stabilləşdirici pay) qeyri valent (van-deer-vaals) qarşılıqlı təsir hesabına, 0,65 kkal/mol miqdarı (destabilləşdirici pay) elektrostatik qarşılıqlı təsir hesabına, 1,74 kkal/mol miqdarı (destabilləşdirici) isə torsion qarşılıqlı təsir hesabına əldə edilmişdir. Digər kiçikenerjili konformasiyaların stabilləşməsində iştirak edən enerji payları Cədvəl 1-də verilmişdir.

Lys-Gln-Pro tripeptidinin 3-ölçülü fəza quruluşunun stabilləşməsində H-rabitələrin rolunu müəyyənləşdirən tədqiqatlarımızın nəticələri cədvəl 2-də

Cədvəl 2

Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyasının stabilləşməsindəki H-rabitələrinin enerji payları

Şeyplər	Konformasiya	Aminturşular	Rabitənin uzunluğu (Å)	$E_{h.r.}$ $(\frac{kkal}{mol})$
ee	$B_{12222}B_{212}B$	Lys(NH)…Gln(CO) Gln(NH)…Gln(CO)	2.13 2.90	-0.83 -0.11
	$B_{12222}B_{232}B$	Lys(NH)…Gln(CO) Gln(CO)…Pro(NH)	2.16 2.83	-0.85 -0.13
	$B_{12222}B_{221}B$	Lys(NH)…Gln(CO) Lys(NH)…Lys(CO) Lys(NH)…Lys (CO)	1.87 2.69 2.75	-0.88 -0.14 -0.17

	$B_{22222}B_{312}B$	Lys(NH)…Lys(CO) Lys(CO)…Gln(NH) Gln(NH)…Gln(CO) Gln(CO)…Pro(NH)	2.26 1.83 2.49 2.82	-0.66 -1.48 -0.35 -0.14
	$B_{12222}B_{332}B$	Lys(NH)…Lys(CO)	2.92	-0.10
	$B_{32222}B_{212}B$	Lys(NH)…Lys(CO) Gln(NH)…Gln(CO)	2.78 2.90	-0.15 -0.11
fe	$B_{32222}B_{232}B$	Lys(NH)...Lys(CO) Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO)	2.90 2.01 2.01	-0.11 -1.17 -1.17
	$R_{32222}B_{212}B$	Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO)	1.79 1.79 2.78 2.78	-1.50 -1.50 -0.15 -0.15
	$R_{32222}B_{221}B$	Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO)	2.03 2.03	-1.12 -1.12
	$R_{22222}B_{221}B$	Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO)	2.02 2.02	-0.16 -0.16
	$R_{12222}B_{212}B$	Lys(NH)...Pro(CO) Lys(NH)...Pro(CO)	1.79 1.79	-1.50 -1.50
	$R_{22222}B_{212}B$	Lys(NH)...Pro(CO) Lys(NH)...Lys(CO) Gln(NH)...Gln(CO)	2.71 2.69 2.81	-0.29 -0.14 -0.15

göstərilmişdir. Cədvəl 2-dən göründüyü kimi, ee şeypinə daxil olan $B_{12222}B_{212}B$ qlobal konformasiyasını stabilləşdirən hidrogen rabitələrinin ümumi enerjisi -0,94kkal/mol-a bərabərdir. Bu enerjidə 2 hidrogen rabitəsinin payı vardır. Bunlardan biri lizinin NH qrupu ilə qlutaminin CO qrupu arasında əmələ gələn hidrogen rabitəsidir. Bu rabitənin qlobal konformasiyanın stabilləşməsinə verdiyi enerji payı -0,83 kkal/mol-dur. Lizinin NH qrupuna daxil olan hidrogen atomu ilə qlutaminin CO qrupunun oksigen atomu arasında yaranan bu H-rabitənin Lys(NH)…Gln(CO) uzunluğunun 2,13 anqstrem olduğu müəyyən olunmuşdur (cədvəl 2) Lys-Gln-Pro tripeptidinin ee şeypinə daxil olan $B_{12222}B_{212}B$ qlobal konformasiyasını stabilləşdirən digər hidrogen rabitəsi Gln(NH)…Gln(CO) ümumi enerjisi -0,11kkal/mol-a bərabərdir. Həmin hidrogen rabitəsinin uzunluğunun 2.90 anqstrem olduğu müəyyənləşdirilmişdir (cədvəl 2)

NƏTİCƏLƏR

1. Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyasının stabilləşməsindəki qeyri-valent, elektrostatik və torsion qarşılıqlı təsirlərinin enerji payları təyin olunmuşdur.

2. Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyasının stabilləşməsindəki H-rabitələrinin enerji payları təyin olunmuşdur.

ƏDƏBİYYAT

1.Loponen J. Angiotensin converting enzyme inhibitory peptides in Finnish cereals a database survey. Agricultural and Food Science, 2004,Vol 1, p.35-45

2.J.Şükürova, N.Qocayev. Angiotenzinçevirici fermentiingibirləşdirən Leu-Gln-Pro tripeptidinin kiçikenerjili konformasilarını stabilləşdirən enerji payları. V intern.Scient.C Young Researchers. Conference, 2021, Book 3 p.1001-1002

3..Pauling İ, Corey R.B, Branson H.B.The structure of the polypeptides. Proc.Nat.Acad.Sci.USA,1951,v.37,p.205-211

4.Linderstrom-Lang K.U.,The initial states in the breakdoün of proteins by enzime. İn Protein and Enzymes, California, 1952,vol.6,p.53-72

5.Qocayev N.M. Molekulyar fizika, Bakı,2019

6. IUPAC-IUB-Comision on Biochemical Nomenclature Abbreviations and Symbols for discription of conformation of polypeptide chains. Pure.Appl.Chem. 1974, V 40, pp.291-308

7.Scott R.A.,Sheraga H.A. Conformational analysis of polypeptides.Adv.PhysəOrg. Chemistry, 1968, vol.6, p.103-108

LYS-GLN-PRO TRİPEPTİD MOLEKULUNUN FƏZA QURULUŞUNUN TƏDQİQİ

ŞÜKÜROVA JALƏ
Bakı Dövlət Universiteti
Fizika fakültəsi
E-mail: jala.shukurova.98@mail.ru
Baki, Azərbaycan

QOCAYEV NİFTALI
Bakı Dövlət Universiteti
Fizika Problemləri ETİ-tu
E-mail: nqocayev@beu.edu.az
Baki, Azərbaycan

AĞAYEVA ÜLKƏR
Bakı Dövlət Universiteti
Fizika Problemləri ETİ-tu
E-mail: ahaeva1976@mail.ru
Baki, Azərbaycan

XÜLASƏ

Molekulyar mexanika üsulu ilə bioloji aktiv Lys-Gln-Pro tripeptid molekulunun konformasiya analizi aparılmışdır. Kompüterdə modelləşdirmə yolu ilə Lys-Gln-Pro tripeptid molekulunun mövcud olan kiçikenejili konformasiyaları təsbit edilmiş, hər konformasiyanı müəyyən edən daxili fırlanma bucaqlarının qiymətləri hesablanmışdır.Həmçinin, müvafiq konformasiyaların stabilləşməsində mühüm rol oynayan qalıqlararası qarşılıqlı təsir enerjilərinin qiymətləri hesablanaraq müəyyən edilmişdir.

Açar sözlər: stabil konformasiya, qalıqlararası qarşılıqlı təsir, fəza quruluşu, daxili fırlanma bucağı, ferment, biomolekul, angiotenzin.

Angiotenzim çevirici fermenti ingibirləşdirən Lys-Gln-Pro və Leu-Gln-Pro trieptidlərinin [1] konformasiya analizi aparılmışdır [2 − 3]. Təqdim olunan bu işdə isə Leu-Gln-Pro tripeptidin analoqu olan Lys-Gln-Pro (şəkil 1) tripeptidinin konformasiya analizinin nəticələri təqdim olunmuşdur. Lys-Gln-Pro tripeptidinin konformasiya analizi beynəlxalq aləmdə qəbul olunmuş biokimyəvi nomenklaturaya [4 − 5] uyğun olmaqla, peptidlərin konformasiya analizini aparmaq üçün tərtib olunmuş müvafiq kompüter proqramından [6] istifadə etməklə yerinə yetirilmişdir.

Birinci quruluşdan göründüyü kimi, bu iki tripeptid bir-birindən yalnız birinci mövqedə yerləşən Lys və Leu ilə fərqlənir. Bu səbəbdən həmin aminturşuların müqayisəli quruluşlarına nəzər salmaq lazımdır. Zülalların sintezində və orqanizmin immun sisteminin möhkəmlənməsində mühüm rol oynayan Leu aminturşusu qeyri-polyar yan zəncirə malikdir. Leysinin yan zənciri şaxələnmiş olduğuna görə, o, daxil olduğu peptid molekullarının mütəhərrikliyinə maneçilik törədə bilir. Qələvi xassəsinə malik olan Lizin aminturşusunun yan zənciri sonu NH_3^+ olmaqla 4 dənə ard-arda birləşmiş CH_2 qrupundan ibarət olmaqla kifayət qədər böyükdür. Yan zəncirə daxil olan H_2 C-CH_2 birqat kimyəvi rabitələr ətrafında fırlanmalar mümkün olduğundan lizin aminturşusunun yan zənciri mütəhərrikdir. Hər iki amin turşularının bir-birindən fərqlənən quruluşları və xassələri onların daxil olduqları peptidlərinin konformasiyalarına da uyğun olaraq təsir göstərirlər.



Şəkil 1. Lys-Gln-Pro tripeptidi

Aparılan konformasiya analizi Lys-Gln-Pro tripeptidinin mümkün olan konformasiyalarını müəyyən etməyə imkan vermişdir. Lys-Gln-Pro tripeptidinin tərəfimizdən müəyyən olan kiçikenerjili konformasiyalarının enerji intervalı üzrə paylanması ee və fe şeypləri üzrə cədvəl 1-də verilmişdir. Cədvəldən göründüyü

Cədvəl 1. Konformasiyaların şeyplərə görə paylanması.

Şeyplər	**Enerji intervalı E_{nisbi} (kkal/mol)**					
	0÷1	**1÷2**	**2÷3**	**3÷4**	**4÷5**	**>5**
ee	2	3	2	3	5	3
fe	2	1	2	5	0	2

kimi, 0-5 kkal/mol enerji intervalında Lys-Gln-Pro tripeptidinin 25 kiçikenerjili konformasiyaları vardır. 5 kkal/mol enerjidən böyük cəmi 5 konformasiya mövcuddur.

Lys-Gln-Pro tripeptidinin konformasiya analizi nəticəsində onun fəza quruluşları müəyyənləşdirilmişdir - mümkün olan hər konformasiyanı müəyyən edən ikiüzlü bucaqlar təsbit edilmişdir (cədvəl 2).

Cədvəl 2

Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyalarının daxili fırlanma bucaqları

Amintu rşu	**Konformasiya**								
		ω	**φ**	**χ_1**	**χ_2**	**χ_3**	**χ_4**	**χ_5**	**ψ**
Lys	$B_{12222}B_{212}B$	180	-88	59	167	186	176	179	150
	$B_{12222}B_{232}B$	179	-89	58	167	185	176	180	151
	$B_{12222}B_{221}B$	180	-92	60	155	186	176	178	148
	$B_{22222}B_{312}B$	180	-170	180	168	178	180	180	112
	$B_{12222}B_{332}B$	180	-76	62	180	181	178	179	163
	$B_{32222}B_{212}B$	178	-170	-62	176	178	180	179	89
	$B_{32222}B_{232}B$	179	-170	-62	184	180	179	179	102
	$R_{32222}B_{212}B$	179	-150	-67	184	179	179	180	-77
	$R_{32222}B_{221}B$	180	-150	-64	180	179	179	178	-72
	$R_{22222}B_{221}B$	180	-103	175	178	178	178	180	-79
	$R_{12222}B_{212}B$	179	-161	78	179	180	180	180	-48
	$R_{22222}B_{212}B$	180	-113	176	180	179	179	179	-78
Gln	$B_{12222}B_{212}B$	179	-161	185	68	-101			95
	$B_{12222}B_{232}B$	178	-161	192	-74	-69			100
	$B_{12222}B_{221}B$	180	-162	186	184	94			96
	$B_{22222}B_{312}B$	182	-105	-67	69	-110			156
	$B_{12222}B_{332}B$	175	-128	-70	-72	-83			155
	$B_{32222}B_{212}B$	175	-153	181	58	-105			90
	$B_{32222}B_{232}B$	175	-154	196	-70	-74			163

	$R_{32222}B_{212}B$	182	-155	184	65	-98			91
	$R_{32222}B_{221}B$	180	-153	184	180	94			90
	$R_{22222}B_{221}B$	185	-163	183	179	101			91
	$R_{12222}B_{212}B$	181	-166	182	59	-75			91
	$R_{22222}B_{212}B$	183	-158	185	67	-69			88
	$B_{12222}B_{212}B$	180							111
	$B_{12222}B_{232}B$	176							106
	$B_{12222}B_{221}B$	177							114
	$B_{22222}B_{312}B$	161							91
	$B_{12222}B_{332}B$	160							86
	$B_{32222}B_{212}B$	163							98
	$B_{32222}B_{232}B$	160							96
	$R_{32222}B_{212}B$	157							104
	$R_{32222}B_{221}B$	153							100
Pro	$R_{22222}B_{221}B$	160							95
	$R_{12222}B_{212}B$	160							92
	$R_{22222}B_{212}B$	162							103

Lys-Gln-Pro tripeptidinin konformasiyalarının stabilləşməsində müxtəlif qarşılıqlı təsirlər rol oynayır. Hidrogen rabitələrinin, elektrostatik qarşılıqlı təsirin, van-der-vaals qarşılıqlı təsirin və rotasyon qarşılıqlı təsirin Lys-Gln-Pro tripeptidinin konformasiyalarının stabilləşməsindəki rolu tədqiq olunmuşdur [3]. Qalıqlararası qarşılıqlı təsirlər də Lys-Gln-Pro tripeptidinin konformasiyalarının stabilləşməsində önəmli rol oynayır. Bu növ qarşılıqlı təsir enerjiləri cədvəl 3-də verilmişdir.

Cədvəl 3. Qalıqlararası qarşılıqlı təsir enerjisi (kkal/mol)

№	Lys	Gln	Pro	
$B_{12222}B_{212}B$	8.6	-2.1	0.7	
$B_{12222}B_{232}B$	8.9	-1.8	0.1	
$B_{12222}B_{221}B$	9.1	-1.8	0.1	
$B_{22222}B_{312}B$	6.9	-6.4	0.1	
$B_{12222}B_{332}B$	7.9	-4.0	-0.1	Lys
$B_{32222}B_{212}B$	7.8	-2.1	0.3	
$B_{32222}B_{232}B$	7.6	-1.8	1.0	
$R_{32222}B_{212}B$	9.5	-1.9	0.2	
$R_{32222}B_{221}B$	9.4	-1.8	0.2	
$R_{22222}B_{221}B$	10.6	-2.6	0.3	
$R_{12222}B_{212}B$	9.6	-0.3	0.4	
$R_{22222}B_{212}B$	11.0	-2.55	0.3	
	$B_{12222}B_{212}B$	0.1	0.4	
	$B_{12222}B_{232}B$	0.9	-1.1	
	$B_{12222}B_{221}B$	0.13	-2.1	
	$B_{22222}B_{312}B$	0.1	-0.6	
	$B_{12222}B_{332}B$	-0.1	-1.9	
	$B_{32222}B_{212}B$	0.3	-4.0	Gln
	$B_{32222}B_{232}B$	1.1	-2.2	
	$R_{32222}B_{212}B$	0.1	-2.7	
	$R_{32222}B_{221}B$	0.1	-3.1	
	$R_{22222}B_{221}B$	0.3	-2.1	
	$R_{12222}B_{212}B$	0.4	-2.5	
	$R_{22222}B_{212}B$	0.3	-3.6	
		$B_{12222}B_{212}B$	-12.9	
		$B_{12222}B_{232}B$	-13.1	
		$B_{12222}B_{221}B$	-1.9	
		$B_{22222}B_{312}B$	-6.3	
		$B_{12222}B_{332}B$	-6.8	
		$B_{32222}B_{212}B$	-9.9	
		$B_{32222}B_{232}B$	-9.2	Pro
		$R_{32222}B_{212}B$	-14.7	
		$R_{32222}B_{221}B$	-14.3	
		$R_{22222}B_{221}B$	-13.5	
		$R_{12222}B_{212}B$	-13.8	
		$R_{22222}B_{212}B$	-13.9	

Cədvəldən göründüyü kimi, Lys-Gln-Pro tripeptidinin konformasiyalarının stabilləşməsində əsas rolu qlutamin aminturşusu ilə prolin aminturşusu arasında reallaşan qarşılıqlı təsir enerjiləridir.

NƏTİCƏLƏR

1. Lys-Gln-Pro-COO tripeptid molekulunun konformasiyalarının ee və fe şeypinə görə müəyyən enerji intervalında paylanması təyin olunmuşdur.
2. Lys-Gln-Pro-COO tripeptid molekulunun kiçikenerjili konformasiyalarının daxili fırlanma bucaqları təyin olunmuşdur.
3. Lys-Gln-Pro-COO tripeptid molekulunun konformasiyalarının stabilləşməsində önəmli rol oynayan qalıqlararası qarşılıqlı təsir enerjisi təyin olunmuşdur.

ƏDƏBİYYAT

1. Loponen J. Angiotensin converting enzyme inhibitory peptides in Finnish cereals a database survey. Agricultural and Food Science, 2004,Vol13,p.35-45
2. J.Şükürova, N.Qocayev. Angiotenzim çevirici fermentiingibirləşdirən Leu-Gln-Pro tripeptidinin kiçikenerjili konformasilarını stabilləşdirən enerji payları. V İntern.Scient. Young Researchers. Conference, 2021, Book 3 p.1001-1002
3. J.Şükürova, N.Qocayev, Ü.Agayeva Lys-Gln-Pro tripeptid molekulunun fəza quruluşunun stabilləşməsində müxtəlif qarşılıqlı təsir növlərinin rolu. VI İntern.Scient. Young Researchers. Conference, 2022
4. IUPAC-IUB-Comision on Biochemical Nomenclature Abbreviations and Symbols for discription of conformation of polypeptide chains. Pure.Appl.Chem. 1974, V 40, pp.291-308
5. Scott R.A.,Sheraga H.A. Conformational analysis of polypeptides. Adv.PhysəOrg. Chemistry, 1968, vol.6, p.103-108.
6. I.Maksumov, L.İsmailova, N.Gogjayev. A program for thesemiemprical calculation of the conformations of molecular complexes on a computer. J.Chem.Struct.24 (1983),p.647-648

GÜNƏŞ FƏALLIĞININ 24-CÜ DÖVRÜNDƏ AŞKAR OLUNAN PARABOLİK KOMETLƏR

Həzi Ənvər oğlu Qasımov[1]
Bakı Mühəndislik Universiteti
Bakı ş. Azərbaycan
hqasimov@beu.edu.az

Vüsalə İntiqam qızı İmamquliyeva[2] **Arzu Asəf qızı Alxanova**[2]
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Bakı ş. Azərbaycan Bakı ş. Azərbaycan
vimamquliyeva@std.beu.edu.az aalxanova@std.beu.edu.az

XÜLASƏ

On bir illik Günəş fəallığı 1755-ci ildən qeyd olunmağa başlanmışdır. 11-illik Günəş fəallığının 24-cü dövrü 2008-ci ilin dekabr ayında başlayıb, 2019-cu ilin dekabrında sona çatmışdır. Dövr ərzində 416 yeni parabolik (uzun-dövrlü) komet aşkarlanmışdır. İndiyə qədər 3000-dən çox parabolik komet tapılmışdır. Bu kometlərin sayı ildən-ilə artır. Hər il təqribən 60-70 parabolik komet aşkar olunur. Sonuncu aşkar olunan C/2022 E2 (Atlas) kometi, 7 mart 2022-ci il tarixində kəşf olunmuşdur. Uzun-dövrlü komet sisteminin böyüməsi komet probleminin həll olunmasında zəngin statistik məlumatlar verir.

Açar sözlər: 24-cü günəş fəallığı, parabolik kometlər

LONG-PERİOD COMETS DISCOVERED IN THE 24th CYCLE OF SOLAR ACTIVITY

Hazi Anvar Gasimov[1]
Baku Engineering University
Baku, Azerbaijan
hqasimov@beu.edu.az
Vusala Intiqam Imamquliyeva[2] **Arzu Asaf Alxanova**[2]
Baku Engineering University Baku Engineering University
Baku, Azerbaijan Baku, Azerbaijan
vimamquliyeva@std.beu.edu.az aalxanova@std.beu.edu.az

ABSTRACT

Eleven years of solar activity have been recorded in the scientific literature since 1755. The 24th cycle of 11-year solar activity began in December 2008 and ended in December 2019. During the period, 416 new parabolic (long-period) comets were discovered. So far, more than 3,000 parabolic comets have been found. The number of these comets is growing every year. About 60-70 parabolic comets are discovered every year. The last comet C / 2022 E2 (Atlas) was discovered on March 7, 2022. The growth of the long-period comet system provides rich statistics on the solution of the comet problem.

Key words: 24th solar cycle, long-period comets

Giriş.

1755-ci ildən qeyd olunmağa başlayan on bir illik Günəş fəallığının 24-cü dövrü 2008-ci ilin son günlərində iki ləkənin yaranması ilə başlayıb, 2019-cu ilin dekabrında sona çatmışdır. Dövr 2014-cü ilin aprel ayında 101 ləkə ilə maksimuma çatmışdır. 24-cü Günəş fəallığı dörd yüz il ərzində müşahidə olunan ən intensiv dövr olacağı ehtimal olunurdu [1]. Mütəxəssislər 2009-cu ildə (NOAA) fazanın 2013-cü ilin mayında 90 ləkə ilə maksimum dövrə çatacağını irəli sürdülər [2]. Bir az sonra, 2012-ci ilin ortalarında NASA-nın mütəxəssisi David Hathaway maksimum dövrün 60 ləkə ilə pikə çatacağını irəli sürdü [3]. Nəhayət, NASA Günəş fəallığının necə keçəcəyi barədə elmi əsaslara söykənən proqnozların verilməsini təklif etdi. Ken Schattenin rəhbərliyi ilə baza modeli adlanan və fəallığın maksimum dövrünü 5-6 il öncədən dəqiq proqnozunu verən sistem hazırlandı [4]. Bu metod Günəşin maqnit sahəsinin gərginliyi ilə ləkə sayları arasındakı korrelyasiya əsaslanır. Beləliklə, birinci maksimum 99 ləkə ilə 2011-ci ilin sonu 2012-ci ilin əvvəlində, ikinci maksimum isə 101 ləkə ilə 2014-cü əvvəllərində baş verdi [5]. Ləkələrin sayındakı bu piklər bir çox alimləri iki maksimumlu Günəş fəallığını təklif etməyə sövq etdi. 24-cü Günəş fəallığı şəkil 1-də qrafik olaraq təsvir olunmuşdur.



Şəkil 1. 24-cü Günəş fəallığı dövründə ləkələrin illər üzrə paylanması. X-oxunda illər, y oxunda isə ləkələrin sayı verilmişdir.

Məslənin qoyuluşu və istifadə olunan məlumatlar.

Günəşdə baş verən proseslər Günəş sisteminə daxil olan göy cisimlərinə təsirsiz ötüşmür. Günəş küləklərinin kometlər üzərində təsirləri maraqlı nəticələr doğurur. Kometlər Günəş sisteminin uzaq bölgələrində, öz məskənlərində "yaşayırlar". Kometlərin mənbəyi olaraq Koyper qurşağı və Oort

buludu bilinir. Ulduzlararası toz və qaz buludlarının qravitasiya təsirləri kometləri Günəş sisteminin daxili bölgələrinə itələyirlər. Belə güman olunur ki, Günəs sistemi Süd Yolu qalaktikasının mərkəzi hissəsindən keçəndə Oort buludunda olan kometlər qravitasiya təsirləri nəticəsində Günəş sisteminin mərkəzi hissəsinə doğru hərəkətə başlayırlar. Təqribən 5 a.v. məsafədə Günəş şüalarını hiss etməyə başlayırlar. Bu zaman kometin səthində buzlu kimyəvi birləşmələrin sublimasiyası nəticəsində kometlər fəallaşır. Günəş fəallığının komet qruplarına və ailələrinə təsiri müxtəlifdir [6].

Bu tədiqat işimizdə 24-cü Günəş fəallığı dövründə aşkar olunan yeni uzun-dövrlü kometlərin saylarının fazanın intervalları üzrə paylanmasını öyrənməkdən ibarətdir. Beləliklə iki maksimumlu 24-cü Günəş fəallığı zamanı uzun-dövrlü kometlərin hansı reaksiya göstərdikləri maraq doğurur. Günəş küləklərinin iki maksimumlu əyrisinə görə uzun-dövrlü kometlərin saylarının fazanın intervallarına görə iki maksimumlu paylanması gözləniləndir.

Tədqiqatımız 11-illik Günəş fəallığının 24-cü dövründə aşkar olunan 416 uzun-dövrlü komet əhatə edir. Siyahımız 2009-cu ilin yanvar ayının 29-da aşkar olunan C/2009 B2 (LINEAR) kometi ilə başlayır. Bu komet Günəş ətrafında bir dəfə dövr etməsini 270 ilə başa vurur. O, periheli nöqtəsindən (orbitinin Günəşə ən yaxın olan nöqtəsindən) keçəndə Günəşlə arasındakı məsafə 2,32 a.v. olur. Bu o deməkdir ki, kometin orbiti Marsla Yupiterin arasında qalır və daha çox Marsın yaxınlığından keçir. Günəşdən ən uzaq nöqtədə, yəni orbitin afelisində isə məsafə 81,22 a.v. olur. Planet sisteminin ölçüsü isə 30,24 a.v. –dir. Buradan aydın olur ki, parabolik kometlərin məskəni Koyper qurşağıdır. Siyahımız 2019-cu ilin dekabr ayının 28-də aşkar olunan C/2019 Y5 (PANSTARRS) kometi ilə tamamlanır. Komet məlumatları NASA-nın kiçik göy cisimləri bazasından [7] və Yaponiyanın komet bazasından [8] götürülmüşdür. Tədqiqatın nəticəsini cədvəl 1-də təqdim edirik.

Cədvəl 1. 24-cü dövrdə aşkar olunan yeni parabolik kometlərin fazanın intervalları üzrə paylanmsı

F	0,1	0,2	0,3	0,4	0,5	0,6	0,7	0,8	0,9	1
N_{komet}	28	29	40	34	49	60	39	43	45	49

F- dövrün fazası, N-fazanın intervalları üzrə aşkar olunan parabolik kometlərin sayı.

Şəkil 2-də N(F) asılılığı qrafiklə təsvir olunmuşdur.



Şəkil 2. 24-cü dövr ərzində aşkar olunan parabolik kometlərin dövrün intervalları üzrə paylanması. F

Nəticə.

Cədvəl və qrafikdən görsənir ki, 24-cü Günəş fəallığı ərzində parabolik kometlərin gözlənilən iki maksimumlu paylanması alınmışdır. Birinci maksimum o qədər etibarlı olmasa da ancaq qonşu intervallara nisbətən qeydədəyərdir. Ümumiyyətlə, uzun dövrlü kometlər sinfinin Günəş küləklərinə münasibətdə iki maksimumlu reaksiya göstərdiyi müəyyən olunmuşdur [9]. Bu tədqiqat işimizdə müəyyən etdik ki, fazanın 0,2 -0,3 intervalında 40 komet, 0,5-0,6 intervalında isə 60 komet aşkar olunmuşdur. Bu o deməkdir ki, 24-cü Günəş fəallığı dövründə aşkar olunan parabolik kometlərin Günəş fəallığına göstərdikləri reaksiya sinfin ümumilikdə göstərdiyi reaksiya ilə korrelyasiya təşkil edir.

Ədəbiyyat.
1. Hathaway, David (December 21, 2006). "Scientists Predict Big Solar Cycle" NASA.
2. "Solar Cycle Progression". National Oceanic and Atmospheric Administration. 8 May 2009.
3. "Climate Change Sanity". 9 January 2013.
4. Schatten, Kenneth (2005). "Fair space weather for solar cycle 24" . *Geophysical Research Letters*. GEOPHYSICAL RESEARCH LETTERS, VOL. 32, L21106,
5. "Solar Cycle Progression NOAA NWS Space Weather Prediction Center". www.swpc.noaa.gov. Retrieved 2015-07-06.
6. A. S. Guliyev, H. A. Qasimov The Influence of Solar Activity on Discoveries of Comets from Different Classes. Kinematics and Physics of Celestial Bodies, 2020, Vol.36, No1, pp 17-21.
7. https://www.jpl.nasa.gov
8. http://www.aerith.net/comet/catalog/
9. A.S. Quliyev, H.A.Qasımov,T.Farhadova. Distribution of parametrs of long-period comets in phase of the 11-year Solar Activity Cycle. Journal of Baku Engineering University. Physics 2017. Volume 1, Number 2. Pg. 181-185.

GÜNƏŞ FƏALLIĞININ 23-CÜ DÖVRÜNDƏ AŞKAR OLUNAN UZUN-DÖVRLÜ KOMETLƏR

Həzi Ənvər oğlu Qasımov[1]
Bakı Mühəndislik Universiteti
Bakı ş. Azərbaycan
hqasimov@beu.edu.az

Rauf Elşən oğlu Məhəmmədov[2] İdris Abbas oğlu Məmmədov[2]
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Bakı ş. Azərbaycan Bakı ş. Azərbaycan
rmehemmedov1@std.beu.edu.az imemmedov7@std.beu.edu.az

XÜLASƏ

11-illik Günəş fəallığının 23-cü dövrü 1996-cı ilin avqust ayında Günəş fotosferində 12 ləkənin görünməsi ilə başladı. Dövr 2001-ci ilin noyabr ayında 180 ləkə ilə maksimum mərhələyə çatdı. 12,3 il davam edən 23-cü dövr 2008-ci ilin dekabrında başa çatmışdır. Bu dövr özündən əvvəl və sonra gələn dövrlərdən nisbətən uzun olmuşdur. 23-cü dövr ərzində 1734 yeni uzun-dövrlü komet aşkarlanmışdır. Günəş fəallığının uzun-dövrlü kometlər üzərində təsirləri maraq doğurur. Son dövrlər minlərlə parabolik kometin orbit elementlərinin dəqiqləşdirilməsi kosmik texnologiyanın sürətli inkişafından xəbər verir.

Açar sözlər: 23-cü günəş fəallığı, parabolik kometlər

LONG-PERİOD COMETS DISCOVERED DURİNG THE 23rd CYCLE OF SOLAR ACTIVITY

ABSTRACT

The 23rd period of 11-year solar activity began in August 1996 with the appearance of 12 spots in the solar photosphere. The period peaked in November 2001 with 180 spots. The 23rd period, which lasted 12.3 years, ended in December 2008. This period was relatively long before and after it. During the 23rd period, 1734 new long-period comets were discovered. The effects of solar activity on long-period comets are of interest. The recent defined of the orbital elements of thousands of parabolic comets indicates the rapid development of space technology.

Key words: 23rd solar cycle, long-period comets

Giriş.

23-cü Günəş fəallığının təsiri ilə Yerdə ilk böyük qütb parıltısı 2000-ci ilin aprel ayının 6-da baş vermişdir. Bu qütb parıltısı Cənubi Avropada və Floridada müşahidə olunmuşdur. 14 iyul 2000-ci ildə (x 5.7) günəş alışması zamanı Günəşin tacından və xarici atmosferindən atılan plazma və maqnit sahəsi ertəsi gün həddən artıq (G5 səviyyəsində) geomaqnit qasırğasına səbəb olmuşdur. Digər böyük qütb parıltısı 1 aprel 2001-ci ildə baş verdi. 23-cü dövrün maraqlı cəhətlərindən biri də odur ki, dövr ərzində ləkəsiz günlərin sayı 820 gün ölmuşdur. Dövr 2001-ci ilin noyabr ayında 180 ləkə ilə maksimum mərhələyə çatmışdır. 23-cü dövr özündən əvvəlki 22-ci dövrə nisbətən sakit keçmişdir [1]. 23-cü Günəş fəallığı şəkil 1-də qrafik olaraq təsvir olunmuşdur.



Şəkil 1. 23-cü Günəş fəallığı dövründə ləkələrin illər üzrə paylanması. x-oxunda illər, y - oxunda isə ləkələrin sayı verilmişdir.

Günəş sisteminə mənsub olan kometlər dövrü və uzun-dövrlü kometlər olmaqla iki sinifdə təsnifatlandırılır. Günəş ətrafında dövretmə periodu 200 ildən böyük olan kometlər uzun-dövrlü kometlər adlanır. Kosmik texnologiyanın inkişafı nəticəsində uzun-dövrlü kometlərin orbitlərini müəyyən etmək, onların identifikasiyasını aparmaq asanlaşmışdır. Bu sinfə mənsub olan 3000-dən çox kometin "kimliyi" müəyyənləşdirilmişdir.



Məsələnin qoyuluşu və istifadə olunan məlumatlar.

Günəşdə baş verən mürəkkəb proseslər Günəş sisteminə daxil olan göy cisimlərinə təsirsiz ötüşmür. Günəş fəallığını xarakterizə edən Günəş ləkələri onun fotosferində lokal maqnit sahələrinin təsiri ilə yaranır. Bu maqnit sahələrinin intensivliyi çox güclü olur. Nəticədə planetlərarası fəzaya güclü plazma və maqnit sahəsinin təsirləri ixrac olunur. Günəş sisteminin daxili bölgələrinə doğru hərəkət edən kometlər bu təsirləri hiss etdikdə fəallaşmağa başlayırlar. Günəş fəallığının komet qruplarına və ailələrinə təsiri müxtəlifdir [2]. Tədiqat işimizdə 23-cü Günəş fəallığı dövründə aşkar olunan yeni uzun-dövrlü kometlərin saylarının dövrün intervalları üzrə paylanmasını öyrənməkdən ibarətdir.

Əvvəlki dövrlərə nisbətən uzun keçən dövr ərzində daha çox kometin aşkar olunması təbii bir prosesdir. Bizdən əvvəl aparılan tədqiqat işlərində uzun-dövrlü komet sisteminin Günəş fəallığına reaksiyası iki maksimumlu paylanma göstərmişdir [3]. 23-cü Günəş fəallığı zamanı aşkar olunan uzun-dövrlü kometlərin hansı reaksiya göstərdikləri maraq doğurur.

Tədqiqatımız 11-illik Günəş fəallığının 23-cü dövründə aşkar olunan 1734 uzun-dövrlü kometi əhatə edir. Siyahımız 1996-cı ilin sentyabr ayının 7-də aşkar olunan C/1996 R1 (Hergenrother-Spahr) kometi ilə başlayır. Kometin ekliptika müstəvisinə meyli i = $145{,}81^0$ təşkil etdiyindən o, Günəş ətrafında tərsinə hərəkət edir. Kifayət qədər böyük eksentrisitetə (e = 0,98) malik olan komet Günəşin yaxınlığından, q = 1,89 a.v. məsafədən keçir. Mars planeti ilə komet orbitinin ən çox yaxınlaşdığı məsafə 0,37 a.v.-dir. Afelisi Q = 261, 58 a.v. məsafə olan komet Günəş ətrafında bir dəfə dövr etməsinə 1512 il sərf edir.

Siyahımızı 2008-ci ilin dekabr ayının 4-də aşkar olunan C/2008 X3 (LINEAR) kometi tamamlayır. Kometin orbiti nisəbətən kiçikdir və o, Günəş ətrafında bir dəfə dövr etməsinə 289 il sərf edir. Komet məlumatları NASA-nın kiçik göy cisimləri bazasından [4] və Yaponiyanın komet bazasından [5] götürülmüşdür. Tədqiqatın nəticəsini cədvəl 1-də təqdim edirik.

Cədvəl 1. 23-cü dövrdə aşkar olunan yeni uzun-dövrlü kometlərin fazanın intervalları üzrə paylanması

F	0,1	0,2	0,3	0,4	0,5	0,6	0,7	0,8	0,9	1
N_{komet}	67	109	125	97	124	221	274	275	277	165

F- dövrün fazası, N-fazanın intervalları üzrə aşkar olunan parabolik kometlərin sayı.

Şəkil 2-də N (F) asılılığı qrafiklə təsvir olunmuşdur.



Şəkil 2. 23-cü dövr ərzində aşkar olunan parabolik kometlərin dövrün intervalları üzrə paylanması.

Nəticə.

Cədvəl və qrafikdən görsənir ki, 23-cü Günəş fəallığı dövründə aşkar olunan kometlərin fazanın intervalları üzrə paylanması iki maksimumlu alınmışdır. Birinci maksimum 0,2-0,3 intervalında 125 komet ilə müşahidə olunmuşdur. Sonrakı maksimum 0,7-0,9 intervallarında alınmışdır. Alınan mühim nəticələrədən biridə kometlərin böyük hissəsinin (1336 komet) müşahidə (aşkar) oluması Günəş fəallığının maksimum mərhələsindən sonrakı dövrə təsadüf edir. Buda onların kosmoqonik mənşəyi ilə əlaqədardır. Uzun-dövrlü kometlərin "anbarı" Günəş sisteminin kənar bölgələri hesab olunur. Bu bölgənin ölçüsü - 50 a.v. məsafədn başlayıb 1000 a.v.-dək davam edir.

Ədəbiyyat.

1. Overview of the flare index during the maximum phase of the solar cycle 23. T. Ataç, A. Özgüç, J. Rybak. January 2006, Solar Physics 233(1):139-153

2. A. S. Guliyev, H. A. Qasimov The Influence of Solar Activity on Discoveries of Comets from Different Classes. Kinematics and Physics of Celestial Bodies, 2020, Vol.36, No1, pp 17-21.

3. A.S. Quliyev, H.A.Qasımov,T.Farhadova. Distribution of parametrs of long-period comets in phase of the 11-year Solar Activity Cycle. Journal of Baku Engineering University. Physics 2017. Volume 1, Number 2. Pg. 181-185.

4. https://www.jpl.nasa.gov

5.http://www.aerith.net/comet/catalog/

HD190603 (B1.5Ia) İFRATNƏHƏNG ULDUZU SPEKTRİNDƏ Hα XƏTTİ PROFİLİNİN DƏYİŞMƏSİ

AYNURƏ HƏSƏNOVA

AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası Şamaxı, Y.Məmmədəliyev adına qəsəbə.

aynura.hasanov@shao.science.az

BAKI, AZƏRBAYCAN

HD190603 ifratnəhəng ulduzunun 2010-2020-ci il tarixlərində N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 2-m teleskopunda alınmış spektrləri əsasında Hα xəttinin profilinin dəyişməsi və spektral parametrləri tədqiq olunmuşdur. Aşkar olmuşdur ki, HD190603 ifratnəhəng ulduzunun spektrində H_α xəttinin profilinin forması, şüa sürəti və ekvivalent eni zamandan asılı olaraq dəyişir. Hα xətti profilində udulma komponentinin şüa sürətinin dəyişməsində 120 günlük periodiklik müşahidə edilir.

AÇAR SÖZLƏR: İfratnəhəng ulduzlar, Hα xəttinin profili, şüa sürəti.

MÜŞAHİDƏ MATERİALLARININ ALINMASI İŞLƏNMƏSİ VƏ MÜZAKİRƏSİ

İsti ifratnəhənglər bizim Qalaktikanın, eləcə də digər qalakikaların ən parlaq ulduzlarındandır. Bu ulduzlar cavandır və əsasən Qalaktika müstəvisində yerləşirlər. İfratnəhəng ulduzlar parlaq olduğu üçün Günəşdən uzaq məsafələrdə kimyəvi elementlərin paylanmasını və ona qədər olan məsafəni göstərən indikatorlardır. Qalaktikanın spiral quruluşunun, forma və ölçülərinin təyin edilməsində bu ulduzlardan geniş istifadə edilir. Ona görə də belə ifratnəhəng ulduzların tipik nümayəndəsi olan HD190603 (B1.5Ia) ulduzunun tədqiq olunması təkamül nöqteyi- nəzərindən mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə ŞAR-ın 2-m teleskopunda HD190603 ifratnəhəng ulduzunun spektrləri alınmışdır. Alınmış spektrlərə əsasən Hα xəttinin profillərini xarakterizə edən parametrlərin qiymətlərinin və profilin formasının dəyişməsi öyrənilmişdir.

HD190603=HR 7678 ifratnəhəng ulduzunun görünən ulduz ölçüsü $5^m.56 \div 5^m.70$ intervalında dəyişir [1]. Mütləq ulduz ölçüsü M_v=-7.5, spektral sinfi B1.5Ia-dır. Kütləsi $M/M_\odot$=27, radiusu $R/R_\odot$=44, temperaturu T_{eff}=19500K. Mavi ifratnəhəng ulduzdur. Qalaktik kordinat sistemində qalaktik uzunluğu l=69°.5, qalaktik enliyi b=+0°.4. Ulduzun parallaksı π=0.0005098.

HD190603 ulduzunun spektrləri 2010-2020-ci il tarixlərində N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 2-metrlik teleskopunun kasseqren fokusunda optik lifli kasseqren eşele spektroqrafında, quraşdırılmış CCD kamerası vasitəsi ilə alınmışdır. Ulduzun 23 spektri alınmışdır. Dispersiya əyrisinin qurulmasında gündüz səmasının spektrindən istifadə edilmişdir. Spektrlərin işlənməsi Qalazutdinov [2] tərəfindən təqdim olunmuş DECH-20, DECH-20T və DECH-30 paket proqramları vasitəsilə aparılmışdır. Bir gecədə ulduzun 2-3 spektri alınmışdır. Gecə ərzində ulduzun spektrində güclü dəyişkənlik olmadığından spektrlər ortalaşdırılmışdır. Təqdim olunan işdə əsasən ulduzun 2018-ci ildə alınan spektrlərindən istifadə olunuşdur. 2018-ci ildə udluzun 10 gecədə spektrləri alınmış və bu spektrlərdə Hα xəttinin ekvivalent eni (W), xəttin mərkəzi dərinliyi (R) və şüa

sürəti ölçülmüşdür. Ekvivalent enin ölçülməsindəki xəta 5%-dən, şüa sürətinin ölçülməsində xəta isə 2 km/s-dən çox deyildir. Müşahidə materialları və onların işlənməsi metodikası [3] -də geniş təsvir olunmuşdur.

Şəkil 1-dən göründüyü kimi Hα xəttinin profili bir və ya iki komponentdən ibarət olan emmissiyada müşahidə olunur. Komponentlərin intensivliyi zamandan asılı olaraq dəyişir. Hα xəttinin bənövşəyi qanadında zəif udulma xətti var. Hα xəttinin şüalanma və udulma komponentlərinin profili və parametrləri zamandan asılı olaraq dəyişir. Şəkil 2-də Hα xəttinin udulma komponentində şüa sürətinin zamandan asılı olaraq dəyişmə əyrisi verilmişdir. Şəkil 2-dən görünür ki, şüa sürətinin dəyişməsində 120 günlük periodiklik müşahidə olunur.



Şəkil1. HD190603 ifratnəhəng ulduzunda Hα profilinin dəyişməsi: 1)23-05-2018, 2)06-06-2018, 3)18-06-2018, 4)21-06-2018, 5)24-06-2018, 6)04-07-2018, 7) 18-07-2017 8) 16-08-2017, 9)22-08-2018, 10) 29-08-2018



Şəkil 2. HD190603 ifratnəhəng ulduzunda Hα xətti profilinin udulma komponentində şüa sürətinin zamana görə dəyişməsi

Cədvəl 1. HD190603 ulduzu spektrində müşahidə olunan Hα (6562,816) xəttinin udulma və şüalanma komponentinin bəzi spektral parametrlərinin qiymətləri.

№	JD 2400000+	Hα udulma komponenti			Hα şüalanma komponenti			
		W, mÅ	Vr, km/s	R	W, mÅ	Vr km/s	Vr(R/2) km/s	R
1	58261,51	79,332	-190,106	0,06	4283,218	59,296	56,823	1,2735
2	58276,44	248,853	-155,967	0,11	3762,704	61,814	58,732	1,101
3	58291,39	36,801	-97,79	0,05	3549,348	55,178	58,444	1,0652
4	58291,39	145,892	-128,344	0,085	3447,068	55,217	59,032	1,019
5	58294,25	48,917	-98,264	0,064	3497,795	55,189	56,929	1,0432
6	58304,38	205,374	-115,28	0,138	3723,429	55,579	58,35	1,0608
7	58318,36	110,326	-104,752	0,096	3725,368	85,154	67,047	1,1247
8	58347,38	110,326	-119,059	0,095	3726,71	72,01	54,191	1,1246
9	58353,2	209,059	-107,097	0,168	3279,18	77,58	73,68	1,02
10	58360,26	197,137	-145,307	0,104	3605,75	74,60	64,41	1,02

NƏTİCƏ

1. Aparılan tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Hα xəttinin profilinin forması və profilin parametrləri (W, R, Vr) zamandan asılı olaraq dəyişir.
2. Hα xəttinin udulma komponentində şüa sürətinin dəyişməsində 120 günlük periodiklik müşahidə edilir.

Alınmış bu nəticələr ulduzun təkamülünün öyrənilməsində və modelinin qurulmasında mühüm əhəmiyyət kəsb edir.

Ə d ə b i y y a t

1. Simbad axtarış sistemi (2022).
2. А.Г.Галазутдинов. *Система обработки звездных эшелле-спектров. 1. Обработка изображений. 2. Обработка спектров, Нижний Архыз,* (1992), 52, (Препринт / Спец. астрофиз. обсерватория РАН; №92).
3. А.М.Халилов, А.Р.Гасанова, Г.М.Гаджиева, *Изменение лучевых скоростей линии NaID в спектре высокоширотного сверхгиганта 89 HER, //Кинематика и физика небесных тел,* **т.35, № 3,** (2019), с.67-80.

WR TİPLİ ULDUZLARIN QALAKTİKADA PAYLANMASI

CANMƏMMƏD RÜSTƏMOV, AYNUR ABDULKƏRİMOVA
AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası
wolfraye@gmail.com
Bakı, Azərbaycan

Xülasə. Volf-Raye tipli ulduzların bizim qalaktikanın mərkəzindən kənara doğru məsafədən asılı olaraq paylanmasının tədqiqinin nəticələri verilmişdir. Aşkar edilmişdir ki, bu ulduzların əksəriyyəti qalaktika mərkəzindən 5-10 kpc məsafədə yerləşir. WN və WC alt tiplərinə mənsub olan Volf-Raye tipli ulduzların da bizim qalaktikada paylanması araşdırılmış və bu ulduzların da əsasən qalaktika mərkəzindən 5-10 kpc məsafədə yerləşdiyi müəyyən edilmişdir. Bu istiqamətdə tədqiqatlar əvvəllər də yerinə yetirilmişdir. Lakin hər il yeni Volf-Raye tipli ulduzların tapılması və bu ulduzlara aid parametrlərin illər keçdikcə daha dəqiqləşdirilməsi bu istiqamətdə olan tədqiqatların yenidən aparılmasını aktual edir. Bu istiqamətdə aparılan tədqiqatlar həm də Volf-Raye tipli ulduzların

təkamül xüsusiyyətlərini, bu ulduzların formalaşmasında "metallikliyin" rolunu anlamaq nöqteyi nəzərindən mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: Volf-Raye tipli ulduzlar, bizim qalaktika, ulduzların təkamülü, ulduzlararası mühit.

Giriş. Volf Raye (WR) tipli ulduzlar ilk dəfə 1867-ci ildə Fransız astronomları Volf və Raye tərəfindən kəşf edilmişdir [1]. Bu ulduzlar neytron ulduzlarının və qara dəliklərin törədiciləri olduqlarına görə müasir astrofizikanın ən aktual tədqiqat obyektlərindən biridir və həmişə astronomların diqqət mərkəzində olmuşdur. WR tipli ulduzlar təkamülün son mərhələsində başlanğıc kütlələrinin qiymətindən asılı olaraq neytron ulduzuna və ya qara dəliyə çevrilir. Bu ulduzların uzun müddət ərzində müxtəlif üsullarla (spektral, fotometrik və s.) tədqiq olunmasına baxmayaraq hələ də həllini tapmayan xeyli problem vardır [2, 3, 4]. WR tipli ulduzlarının təkamül xüsusiyyətlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Hazırki işin əsas məqsədi WR tipli ulduzlarının bizim qalaktikada paylanma xüsusiyyətlərini araşdırmaqla onların təkamül xüsusiyyətinə müəyyən aydınlıq gətirməkdir. Məlumdur ki, ulduzların təkamül xüsusiyyətlərinin xarakteri onların əmələ gəldiyi mühitin "metallikliyindən" asılıdır. Mühitin "metallikliyi" dedikdə həmin mühitdə ağır kimyəvi elementlərin miqdarı nəzərdə tutuluq. Kimyadan fərqli olaraq astronomiyada heliumdan ağır kimyəvi elementlər metallar adlanır. Qalaktikanın mərkəzindən kənara doğru ulduzlararası mühitin "metallikliyi" artır. Volf-Raye tipli ulduzların qalaktikada paylanmasının tədqiqi onların formalaşmasında "metallikliyin" rolunu başa düşmək nöqteyi nəzərindən mühüm əhəmiyyət kəsb edir. Qalaktikada WR ulduzların paylanması əvvəllər də tədqiq olunmuşdur [5, 6]. Lakin hər il yeni WR tipli ulduzların aşkar edilməsi və bu ulduzlara aid parametrlərin son illər daha dəqiq təyin olunması bu istiqamədəki tədqiqatların müntəzəm olaraq aparılmasını aktual edir. Tədqiqat üçün WR ulduzlarının son elektron kataloqundan istifadə edilmişdir. Həmin kataloqdan istifadə edərək 400-dən çox WR ulduzunun qalaktikanın mərkəzindən olan məsafələri hesablanmışdır. WR ulduzlarının qalaktika müstəvisində qalaktikanın mərkəzindən asılı olaraq paylanma əyrisi qurulmuşdur (Şəkil 1). R ilə qlaktikanın mərkəzindən məsafə (kiloparseklə - kps), n ilə isə ulduzların sayı göstərilmişdir. Şəkil 2 və Şəkil 3-də WN və WC alt tiplərinə mənsub olan WR ulduzları üçün analoji paylanma qurulmuşdur. Şəkil 1-3-dən göründüyü kimi WR ulduzları əsasən qalaktikanın mərkəzindən 5 kps ilə 10 kps məsafələri arasında yerləşmişdir. Bu nəticə əvvəllər digər müəlliflər tərəfindən nisbətən az sayda WR ulduzlarından istifadə etməklə alınmış nəticə ilə demək olar ki, eynidir.

Istifadə olunan tədqiqat metodu. Tədqiqat zamanı WR ulduzlarının son illər tərtib olunan kataloqlarından, ulduzlara qədər məsafənin təyini üçün hal-hazırda istifadə olunan istifadə olunan müasir üsullardan istifadə olunmuşdur.



Şəkil 1. WR ulduzlarının paylanması



Şəkil 2. WN ulduzlarının paylanması



Şəkil 3. WC ulduzlarının paylanması

Nəticə. WR tipli ulduzların bizim qalaktikada qalaktikanın mərkəzindən olan məsafədən asılı olaraq paylanması tədqiq olunmuş və bu ulduzların əsasən qalaktikanın mərkəzindən 5-10 kps məsafədə yerləşdiyi müəyyən edilmişdir. Məlumdur ki, qalaktikanın mərkəzindən kənara doğru ulduzlararası mühitin "metallikliyi" artır. WR ulduzlarının əsasən qalaktikanın daxili ərazilərində məskunlaşması bu ulduzların formalaşmasında "metallikliyin" rolunun göstəricisidir.

Ədəbiyyat

1. Wolf, C.L.E., Rayet, C. Spectroscopic stellarie, Comptes Rendus, 1867, 65, p.292-313.
2. Rustamov J.N. On the nature of Wolf-Rayet phenomenon, Astronomical Journal of Azerbaijan, 2017, 12, p.15-55.

3. Черепащук, А.М. Тесные двойные звезды. I часть, Москва, изд-во, Физматлит, 2013, 559 с.
4. Черепащук, А.М. Тесные двойные звезды. II часть, Москва, изд-во Физматлит, 2013, 570 с.
5. Van der Hucht, K.A. The VII catalogue of Galactic WR stars, New Astronomy Reviews, 2001, 45, p.135-232.
6. Van der Hucht, K.A. Conti P.S., Lundstrom I, et al. The sixth catalogue of galactic Wolf-Rayet stars, their past and present, Space Science Review, 1981, 28, p.227-306.

CH CYG SİMBİOTİK ULDUZUNDA FOTOMETRİK VƏ SPEKTRAL TEZDƏYİŞMƏLƏR

RUSLAN MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
ruslan_rtm@yahoo.com
NAXÇIVAN, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə simbiotik ulduzlar, o cümlədən CH Cyg simbiotik ulduzu haqqında geniş məlumat verilir. Şamaxı Astrofizika Rəsədxanasında CH Cyg simbiotik ulduzunun 19-07-2018 tarixdə eyni gecədə həm fotometrik, həm də spektral müşahidələri aparılmışdır. Fotometrik müşahidələr Seyss-600 teleskopunda, spektral müşahidələr isə 2-metrlik teleskopda müasir CCD işıq qəbuledıciləri ilə aparılmışdır. Alınmış rəqəmsal müşahidə materialları MaxImDL və DECH proqram qovluqları ilə işlənib təhlil edilmişdir.

AÇAR SÖZLƏR: Simbiotik ulduzlar -1, CH Cyg -2, müşahidə-3.

GİRİŞ

Kainatda ən çox yayılmış Göy cisimləri ulduzlardır. Ulduzlar kainatın 98%-dən çoxunu təşkil edən göy cisimləridir. Ulduzlar Günəşəbənzər obyektlərdir. Bu obyektlər işıq və istilik enerjisinə malik olan qaz kürələrindən ibarətdir. Hər bir ulduzun atmosferindəki fiziki şərait onların fundamental parametrlərindən ciddi sürətdə asılıdır. Bizim Qalaktikada $2 \cdot 10^{11}$ sayda ulduz məlumdur. Teleskopsuz adi gözlə görünən ulduzların ümumi sayı 6000-ə yaxındır [1]. Ulduzların parlaqlığı m - ulduz ölçüsü adlanan kəmiyətlə ölçülür və Poqson düsturu ilə ifadə olunur. Ulduz ölçüsü - m böyüdükcə parlaqlıq azalır və ya əksinə. Ulduz göyündə adi gözlə görünən ən zəif obyektin ulduz ölçüsü 6^m - dir. Ulduz ölçüsü 6^m - dən böyük olanları isə ancaq teleskopla görmək olar.

Simbiotik ulduzlar uzun periodlu qoşa sistemlərdir və onlar sıx qoşa ulduzlar sinfinə aid edilir. Araşdırmalara əsasən simbiotik ulduzlar əsasən bu formada təyin olunur: Simbiotik ulduzlar qırmızı nəhəng və ağ cırtdandan ibarət qoşa (bəzi halda üç ulduzdan ibarət) sistemdir. Son illərdə aparılan tədqiqatlar nəticəsi olaraq (ilk dəfə Hinkle tərəfindən ulduzun) üçlü sistemdən ibarət olduğu ortaya atılmışdır [2]. Üçlü sistem olmağı haqqında şübhələr olandan sonra bu simbiotik ulduzların araşdırılması diqqətləri özünə çəkdi. Simbiotik ulduzların orbital periodları bəzən bir il, bəzən də bir neçə il ətrafındadır. Qırmızı nəhəngdən mütəmadi olaraq maddə axını baş verir. Ulduz küləyi vasitəsi ilə qırmızı nəhəngdən axan maddə bəzi simbiotik ulduzlarda ağ cırtdan ətrafında disk əmələ gətirir.

Eyni spektral sinfə məxsus olub lakin işıqlıqları müxtəlif olan ulduzlar doqquz işıqlıq sinfinə bölünürlər [1]. Simbiotik ulduzlar bu siniflər arasında M6.5 III kimi işarə olunur. Bu da o deməkdir ki, spektral sinfi M6.5, işıqlıq sinfi III-ə bərabərdir.

Simbiotik ulduzlar arasında ən diqqət çəkən CH Cyg simbiotik ulduzudur. Ulduzun HD katoloqunda nömrəsi HD 182917-dir. CH Cyg simbiotik ulduzu ən parlaq və ən yaxın olduğu üçün digər simbiotik ulduzlardan seçilir. Hipparkosun ölçmələrinə görə ulduza qədər məsafə təxminən 268 +/- 61 ps-dir (ESA 1997). Simbiotik ulduz olan CH Cyg şimal yarımkürəsində əlverişli yerdə (+50º) yerləşdiyi

üçün onun çoxlu sayda intensiv müşahidələri aparılmışdır. CH Cyg simbiotik ulduzun təbiətinin açılması üçün səylər neçə on illərdir ki, davam etməkdədir [3]. Onun vizual ulduz ölçüsü 1982-83-cü ildə $V=5.5^m$-ə qədər yüksəlmiş, 1996-cı ildə isə ən minimal $V=10.5^m$ olmuşdu. Ulduzun sakit halında parlaqlığı əsasən 7^m olur. CH Cyg simbiotik ulduzun 130 ildən artıq bir dövr üçün fotometrik müşahidələri mövcuddur [4].

TƏDQİQAT METODU

Fotometrik müşahidələr. Dəyişən ulduzların müasir tədqiqat üsulları yüksək dəqiqlikli fotometrik materialların alınmasını tələb edir. Başqa sözlə fotometriyanın yüksək dəqiqliyini təmin etmək üçün tədqiq olunan obyektin, standart ulduzun və səmanın fonunun eyni zamanda qeydə alınması çox vacibdir. CH Cyg simbiotik ulduzun müşahidələri Şamaxı Astrofizika Rəsədxanasının ZEISS-600 teleskopunda 19 iyul 2018-ci il tarixdə tarixində, yəni 1 gecə ərzində aparılmışdır. Teleskop 4096x4096 pix (1 pix=9mic) ölçülü CCD işıq qəbuledicisi və faydalı görüş sahəsi 17 arcmin olan fotometr [5] ilə təchiz olunmuşdur. TYC 3551-1725-1 müqayisə (comporison) ulduzu, V2365 Cyg (SAO 31628) kontrol (check) ulduzu seçilmişdir. Daha sürətli tezdəyişmələrin xarakterini tədqiq etmək üçün yalnız 1 filtrdə (V) və 1 gecə ərzində yüksək zaman ayırdetməli davamlı müşahidələr aparılmışdır. Şəkil 1-də aparılmış müşahidədə alınmış CCD kadr verilmişdir.



Şəkil 1. Aparılmış müşahidədə alınmış CCD kadr verilmişdir.

Ulduzun xarakterinin açılması üçün spektral müşahidələrlə bərabər, eyni zamanda paralel olaraq fotometrik müşahidələrin də aparılmasının böyük əhəmiyyəti vardır. Bu məqsədlə CH Cyg simbiotik ulduzun 19 iyul 2018-ci il tarixdə 2-metrlik teleskopda spektral və seyss-600 teleskopunda sinxron olaraq fotometrik müşahidələri aparılmışdı. Şəkil 2- *a*-da CH Cyg ulduzunun 19 iyul 2018-ci ildə ŞAR-ın ZEİSS-600 teleskopunda aparılmış fotometrik müşahidələr zamanı aşkar olunmuş ulduz ölçüsünün dəyişməsinin təsviri verilmişdir. Qısa müddətli dəyişmələri aşkarlamaq üçün müşahidə yalnız V filtrində aparılmış, 2 saat 28 dəqiqə ərzində 597 kadr alınmışdır. Alınan fotometrik kadrlar "Maxim DL" proqram qovluğu vasitəsilə emal olunmuşdu. Şəkildən göründüyü kimi müşahidə müddəti ərzində ulduzun parlaqlığı 0.3^m ulduz ölçüsü qədər dəyişmişdir, eyni zamanda bir neçə saniyəlik və dəqiqəlik dəyişmələr də şəkildən aşkar görünür. Parlaqlığın bu cür dəyişməsinə sayrışmalar da deyilir.

Spektral müşahidələr. CH Cyg ulduzunun 2 saat 30 dəqiqə ərzində 25 dəqiqə ekspozisiya ilə 6 ədəd eşelle spektri alınmışdır və bu spektrlərdə NaI D1,D2 dublet və HeI5876 xəttinin dəyişməsinə baxılmışdır (Şəkil 2. *b, c*). CH Cyg simbiotik ulduzun spektrləri Dech proqram qovluğunun yeni versiyası DECH 30 ilə işlənib emal edilmişdir [6]. Şəkildən göründüyü kimi parlaqlığın dəyişməsi ilə

xətlərin ekvivalent enlərinin də dəyişməsi müşahidə olunur. Dəyişmənin amplitudası NaI dublet xətlərində kiçikdir. Lakin dəyişmə HeI 5876 xəttində daha qabarıq görünür. Hətta emissiya komponentinin ekvivalent eninin qiyməti 3 dəfəyə qədər (0.2-0.6 aralığında) dəyişir. Şəkil 2-də NaI D1, D2 dublet və HeI 5876 xəttinin profilləri verilmişdir. Şəkildən göründüyü kimi NaI dubletin hər iki xətti qoşa komponentli quruluş göstərir və dəyişmənin kiçik olduğu profillərdən də aydın görünür. HeI 5876 xətti enli absorbsiyaya malik P Cyg tipli profil göstərir bu isə ulduzdan dərin qatlardan maddə axınının baş verdiyinin göstəricisidir. Şəkildən göründüyü kimi 2 saat 30 dəqiqə müşahidə müddəti ərzində HeI 5876 xəttinin absorbsiya komponentinin ekvivalent eni demək olar ki, dəyişməz qalır. Lakin emissiyanın dəyişdiyi aşkar görünür.



Şəkil 2. CH Cyg simbiotik ulduzunda tezdəyişmələr. a) V filtrində parlaqlığın dəyişməsi, b- NaI D1, D2 və HeI 5876 xəttlərinin ekvivalent enlərinin dəyişməsi, c-intensivliyin dalğa uzunluğundan asılılığı.

NƏTİCƏ

Fotometrik müşahidələr Seyss-600 teleskopunda, spektral müşahidələr isə 2-metrlik teleskopda müasir CCD işıq qəbuledicilərı ilə aparılmışdır. Alınmış rəqəmsal müşahidə materialları MaxIm DL və DECH proqram qovluqları ilə işlənib təhlil edilmişdir. Müşahidə müddəti ərzində ulduzun parlaqlığı 0.3^{m} ulduz ölçüsü qədər dəyişmişdir, eyni zamanda bir neçə saniyəlik və dəqiqəlik dəyişmələr də şəkildən aşkar görünür. Eyni zamanda fotometrik və spektral müşahidələrin müqayisəsindən görünür ki, parlaqlıqdakı qısa müddətli dəyişkənlik özünü spektral parametrlərdə də göstərir. Məlum olmuşdur ki, emissiya komponentinin ekvivalent eninin qiyməti 0.2-0.6 aralığında dəyişir. 2 saat 30 dəqiqə müşahidə müddəti ərzində HeI 5876 xəttinin absorbsiya komponentinin ekvivalent eni isə demək olar ki, dəyişməz qalır.

ƏDƏBİYYAT SİYAHISI

5. Hüseynov R. Ə., Ümumi astrofizika. Bakı: “Bakı Univerisiteti”, (**Kitab)** 2010, 368 s.

6. Mikolajewski M., Mikolajewska J., Khudiakova T. N., A long-period symbiotic binary CH Cygni. I - A hundred years' history of variability // Astronomy and Astrophysics , 1990, (**Jurnal məqaləsi**) Vol. 235, № 1-2, pp. 219-223.
7. Munari U., Renzini A., Bernacca B. L., Hipparcos–Venice '97 (ESA SP-402), (**Jurnal məqaləsi**) 1997, p. 413.
8. Amelio G. F, Tompsett M. F., Smith G. E., Experimental verification of the charge coupled device concept // The Bell Systems Technical Journal, (**Jurnal məqaləsi**), Volume 49, № 4, 1970, Pages 593-600.
9. Микаилов Х. М., РустамовБ. Н., Алекберов И. А., 2х2 - Призменный спектрограф с пзс-матрицей фокуса кассегрена 2-х метрового телескопа шамахинской обсерватории//AzərbaycanAstronomiyaJurnalı, (**Jurnal məqaləsi**), Vol. 9, №. 3, 2014, səh. 23-33.
10. http://www.gazinur.com/DECH-software.html (**online məqalə**).

CAVAN ULDUZLARIN SPEKTRAL ENERJİ PAYLANMASININ XÜSUSİYYƏTLƏRİ

ÜLVÜ VƏLIYEV
AMEA Naxçıvan Bölməsi
veliyev_ulvu@mail.ru
NAXÇIVAN, AZƏRBAYCAN

Xülasə

Məqalədə 13 klassik Tauri ulduzu (CTTS) və 12 zəif xətt Tauri ulduzu (WTTS) kimi aşağı kütləli gənc ulduzlar qrupunun spektral enerji paylanması (SEP) əyriləri tədqiq edilmişdir.
zəif xətt Tauri ulduzu (WTTS) ancaq İQ oblastda şüalanma müşahidə etdirdiyi halda, klassik Tauri ulduzu (CTTS) həm UB, həm İQ oblastda şüalanma müşahidə etdirməkdədir. UB oblastda şüalanma diskin yığılmasından, İQ oblasta şüalanma ulduz ətrafı qazın və tozun hesabına yaranan şüalanmadır.
Göstərilir ki, (CTTS) üçün Hα emissiya xəttinin ekvivalent eni UB şüalanması ilə birbaşa korrelyasiya göstərir, ancaq (WTTS) ulduzları üçün İQ oblasta şüalanma artıqlığı ilə bağlı tərs korrelyasiya olunur.
AÇAR SÖZLƏR: ulduzlar -1, cavan ulduzlar -2, kataloq-3.

Tədqiqat və metodika: Aşağı kütləli cavan ulduzlar meydana gəldikdən sonra ilk dəfə optik diapazonda T Tauri ulduzu kimi görünürlər [1-3]. İnfraqırmızı və UB diapazonlarda olan şüalanma bu cür şüaların ulduz disklərində yaranmasını göstərir. Müasir anlayışlara görə, T Tauri tipli ulduzların (TTS) kütlələri $0,5 \leq M\odot \leq 2,0$, spektral sinifləri G-M və radiusları 3-4 $R\odot$-dir. Bu ulduzlar günəşə oxşar ulduzlar hesab olunur və hazırda baş ardıcıllıqdan əvəlki təkamül mərhələsindədirlər. T Tauri tipli ulduzlar adətən iki qrupa bölünür. Klassik tipli ulduzlar T Tauri (CTTS) və zəif örtüklü T Tauri (WTTS yaxud bəzən NTTS) ulduzlar. Klassik TTS maddə və ətraf mühit diskinin akkresiyası ilə bağlı güclü emissiya xətləri, UB və IQ oblastda şüalanma artıqlığını göstərir. WTTS-də emissiya xətlərinin spektri zəif inkişaf etmişdir, UB oblastda artıqlığı həddən artıq zəifdir, diskdə dağılma əlamətləri müşahidə olunmur. Cavan ulduzların və onun ətrafındakı protoplanetar disklərin formalaşmasının müxtəlif mərhələlərini başa düşmək üçün TTS-in geniş dalğa uzunluğunda spektrlərini öyrənmək lazımdır. Bu yazıda biz klassik (CTTS) və zəif örtüklü (WTTS) T Tauri tipli ulduzlar qrupu üçün spektral enerji paylanması SEP əyrilərinin təhlilinin nəticələrini təqdim edirik. Məqalədə 0,36-100 μm diapazon aralığında olan CTTS və WTTS tipli ulduzlar qrupu üçün SEP əyrilərinin analiz nəticələri təqdim olunur. Ortaya çıxarılan əsas spesfik göstəricilərdə aşağı kütləli ulduzların təkamülünün müasir ulduz nəzəriyyəsi çərçivəsində təhlil edilir.

Təhlil üçün kataloqlardan 13 CTTS və 12 WTTS ulduzları seçilmişdir [2]. Ulduzların SEP əyrilərini qurmaq üçün genişzolaqlı UBVRIJHK sisteminin nəticələrindən, həmçinin WISE [4] və IRAS [5] kataloqlarının məlumatlarından istifadə edilmişdir. SEP əyrilərinin qurulması üsulu [6]-da ətraflı təsvir edilmişdir. Şəkil 1-də CTTS və WTTS qrupları üçün qurulmuş əyrilərin iki nümunəsi göstərilmişdir. Göründüyü kimi, CTTS üçün SEP əyrilərində həm UB, həm də İQ oblastda şüalanma artıqlıqlığı ilə seçilir. Bununla belə, WTTS tipli ulduzlarında yalnız İQ oblastda şüalanma artıqlığı müşahidə olunur.
UB və İQ oblastda şüalanma artıqlığının ölçüsü olaraq, λ1 və λ2 dalğa uzunluqları arasındakı seqment üçün log(F*/F0) kəmiyyətinin qrafikindən aşağıda olan seqmentin sahəsi istifadə edilmişdir, burada log (F*/F0) sıfır səviyyəli xəttdən kənara çıxma əsasında təyin olunur. (Şəkil 1-də qırıq xətlər). Burada F* ulduzun müşahidə olunan şüalanma selli, F0- ulduzla eyni effektiv temperatura malik qara cisim süalanma selli, şüalanma artıqlığına uyğun gələn dalğa uzunluğu diapazonu λ2-λ1 göstərir.
Spektrin UB və İQ diapazonları üçün əldə edilən artıq sahələri müvafiq olaraq S1 və S2 kimi qeyd edilmişdir.



Şəkil 1. CTTS EM*LkHa 271 və AS 205 (üst panellər) üçün SEP əyrilərinin nümunələri; WTTS NTTS S045251+3016 və HD 283447 (alt panellər) üçün SEP əyrilərinin nümunələri.
Hər SEP əyriləri üçün şüalanma göstəricisi parametri log(F*/F0) ilə müqayisədə log(μm) dalğa uzunluqlarından artıqlığı ilə göstərilir. SEP əyrisindəki müxtəlif simvollar fərqli müşahidə materiallarına uyğundur. Düz xətt ulduzun effektiv temperaturu və qara cisim şüalanmasını göstərir. Qırıq-qırıq şüalanma artıqlığının sıfır səviyyəsidir.

Seçilən qrupda CTTS-nin eyni vaxtda həddən artıq UB və İQ oblastda şüalanma nümayiş etdirdiyi, WTTS-in isə yalnız həddindən artıq İQ oblastda şüalanma göstərdiyi təqdim edilmişdir. CTTS-də İQ və UB oblastda şüalanma artıqlıqları arasında korrelyasiyanın olmadığı məlum olmuşdur. Eyni

zamanda, bu ulduzlardakı həddindən artıq ultrabənövşəyi şüalanma, r = 46 ± 3% əmsalı ilə Hα emissiya xəttinin ekvivalent eni ilə əhəmiyyətli dərəcədə korrelyasiyanın olduğu müəyyən edilmişdir. WTTS üçün, İQ oblastda şüalanmanın Hα xəttinin ekvivalent eni ilə tərs korrelyasiya olduğu göstərilmişdir (r = - 66.2 ± 3%). Əldə olunan nəticələr göstərir ki, CTTS-də yaranan Hα xəttin şüalanmasın bir hissəsi diskin akkresiya bölgəsində formalaşır. Nəticələrdən məlum oldu ki, WTTS ulduzlarında ulduz ətrafı qaz emissiyası nə qədər yüksək olarsa, tozun istilik emissiyası da daha az olur.



Şəkil 2. Hα xətti emissiyasının ekvivalent eninin şüalanma artıqlığının S1 və S2 parametrlərindən asıllığı.

Nəticələr

1. WTTS-də diskdən yalnız İQ oblastda qaz və toz şüalanmsı olduğu halda, CTTS-də isə diskin akkresiyası nəticəsində UB şüalanma və İQ oblastda həm qaz şüalanmsı, həm də toz şüalanması vardır.
2. CTTS ulduzlarında UB şüalanma artıqlığı ilə Hα xəttində emissiya arasında birbaşa korrelyasiyaya var. Bu, Hα xətti emissiyasının bir hissəsinin diskin akkresiya bölgəsində baş verdiyini göstərir.
3. WTTS ulduzlarında İQ artıqlığı və Hα xəttinin ekvivalent enləri arasında tərs korrelyasiyaya malikdir. Bu da onu göstərir ki, toz artdıqca disklərdəki qazın miqdarı azalmağa doğru gedir.

ƏDƏBİYYAT SİYAHISI

Joy A.H. 1949, ApJ 110, (**Jurnal məqaləsi**) 424.
Herbig G.H., Bell K.R. 1988, Lick.Obs.Bull. (**Jurnal məqaləsi**) 1111
Cohen M., Kuhi L.V. 1979, ApJ Suppl. 41, (**Jurnal məqaləsi**) 743
SIMBAD-Vizer, 2012yCat.2311, 0C https://irsa.ipac.caltech.edu/IRASdocs/exp.sup/ (**online məqalə**).
Ismailov N., Alishov S., Veliyev U., Huseynova F. Method for plotting Energy Distribution Curves in spectra of stars according to boardband photometric data. Scientific works ser. Natural and technical sciences. Azerbaijan National Academy of Sciences, Nakhichivan branch office, 2021, № 2, (**Jurnal məqaləsi**) 266-272

LSDA+*U* METODU İLƏ ZnSe BİRLƏŞMƏSİNİN ELEKTRON XASSƏLƏRİNİN TƏDQİQİ

VÜSALƏ CƏFƏROVA
AMEA Fizika İnstitutu
vcafarova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Funksional sıxlıq nəzəriyyəsi əsasında Lokal Spin Sıxlıq Yaxınlaşması istifadə olunmaqla Atomistic ToolKit (ATK) proqram paketi ilə ZnSe heksoqonal kristalının primitiv özəyini təşkil edən atomların tarazlıq vəziyyəti təməl prinsiplərdən hesablanmış, buradan qəfəs parametrləri təyin edilmişdir. Birləşmə üçün təməl prinsiplərdən Brillüen zonası üzrə zona quruluşu və hal sıxlığı hesablanmış, qadagan zolağın eni qiymətləndirilmişdir. Təməl prinsiplərdən hesablamalarda elektron-ion qarşılıqlı təsiri normanıqoruyan Fritz-Haber-Institute psevdopotensialı ilə nəzərə alınmışdır. Nəzəri hesablamalara əsasən müəyyən olunmuşdur ki, valent zonasının tavanı və keçirici zonanın minimumu Brillüen zonasınıin *Γ* simmetrik nöqtəsində olub, tədqiq edilən kristal düzkeçidli birləşmədir.

AÇAR SÖZLƏR: Zona quruluşu, hal sıxlığı, Lokal Spin Sıxlıq Yaxınlaşması

GİRİŞ

ZnSe yarımkeçiricisinin geniş qadağan zolagına malik olması bu birləşmənin yeni tətbiq imkanlarına yol açır [1]. ZnSe birləşməsinin istilik tutumu, istilik keçiriciliyi və ərimə temperaturunun yüksək, istidən genişlənmə əmsalının aşağı olması bu maddəni keramika istehsalı üçün faydalı material edir. Belə ki, bu maddə əsasında piezoelektrik cihazlar, kimyəvi sensorlar, işiq detektorları, infraqırmızı pəncərələr, mavi-işıqsaçan diodlar, günəş batareyaları və s. düzəldilir [2]. ZnSe spintronika və optoelektronika üçün perspektiv material hesab olunur.

TƏDQIQAT METODU

İşdə yerinə yetirilən nəzəri hesablamalar Atomistic Toolkit (ATK) program paketi istifadə olunmaqla, Funksional sixliq nəzəriyyəsi (DFT) və Lokal Spin Sıxlıq Yaxınlaşması (LSDA) əsasında aparılmışdır. Birləşmənin qadağan zolağının eninin eksperimentdən məlum nəticəyə uyğun alınması məqsədilə Hubbard *U* yarıempirik düzəlişindən istifadə olunmuşdur: Zn 3*d*- halı üçün 4.5 eV və Se 4*p*- halı üçün 3.5 eV tətbiq olunmuşdur.

EYV – 1,33	1,22	0,24	0,12	1,58
ME – 13,34 MJ	12,24 MJ	2,36 MJ	1,18 MJ	15,78 MJ
QM – 1,15 kq	1,41 kq	0,17 kq	0,09 kq	1,67 kq
XP – 215 q	143 q	30,8 q	41,1 q	214,9 q
HGP – 140 q	89,73 q	22,2 q	32,9 q	144,83 q
Ca – 6,5 q	8,33 q	0,08 q	0,41 q	8,82 q
P – 5 q	2,89 q	0,6 q	1,01 q	4,50 q
Mg – 0,7 q	3,57 q	0,46 q	0,47 q	4,50 q
S – 3 q	3,06 q	-	0,34 q	3,40 q
Karotin – 9 mq	42,5 mq	-	0,1 mq	42,6 mq
D vitamini – 430 b.v.	680 b.v.	-	0,35 b.v.	680,35 b.v.

Qeyd: EYV – enerji yem vahidi, ME – mübadilə enerjisi, QM – quru maddə, XP – xam protein, HGP – həzmə gedən protein, Ca – kalsium, P – fosfor, Mg – maqnezium, S – kükürd.

Cədvəldən göründüyü kimi təcrübə toğlularının yem payı enerji yem vahidi, mübadilə enerjisi və həzmə gedən proteinə görə balanslaşdırılmışdır. Yem payını tərtib edərkən A.P. Kalaşnikov və b. [8] məlumatlarından istifadə edilmişdir.

Tədqiqatlar üçün işgənbə möhtəviyyatı, işgənbə kanyulyasından xüsusi borucuq yeridərək, yemləmədən 3 saat sonra götürülmüşdür. İşgənbə möhtəviyyatından bakterial və infuzor kütləsini təfriqi sentrifuqa üsulu [3] ilə ayıraraq, 65°C temperaturda qurudulmuşdur. Bütün nümunələrdə azotun miqdarını Keldal üsulu ilə təyin etdik. Alınmış təcrübə materiallarını statistik olaraq Styudent üsuluna əsasən hesabladıq.

NƏTICƏ

Hal-hazırda tətbiq edilən yemləmə texnologiyalarına əsasən yemin 60-70%-ə yaxın bir hissəsi gövşəyən heyvanların işgənbəsində mikroflora tərəfindən parçalanır. Bu istifadə edilən yemlərin effektliyini azaldır. Çünki, yemlərin tərkibindəki protein işgənbədə nə qədər çox parçalanırsa, bir o qədər az miqdarda yem zülalı onikibarmaq bağırsağa daxil olur. Ona görə də son zamanlar tədqiqatçılar yem zülalını işgənbədə parçalanmadan qoruyan vasitələrin tətbiqi üzərində çalışırlar. Bir sözlə gövşəyən heyvanların yemləndirilməsində elə üsullar tətbiq edilməlidir ki, işgənbədə sintez edilən mikrob zülalının səviyyəsi ilə parçalanan yem zülalı arasında tarazlıq pozulmasın.

Biz bu tədqiqatlarımızda təcrübə toğlularının işgənbə möhtəviyyatından ayrılmış bakterial və infuzor kütləsində azotu təyin etməklə yanaşı, onların orqanizmində azot balansını da öyrənməyi qarşımıza məqsəd qoyduq. Təcrübə heyvanlarının işgənbə möhtəviyyatında bakteriaların və infuzorların miqdarı, həmçinin onların tərkibində azotun konsentrasiyası haqda məlumatlar 3-cü cədvəldə öz əksini tapır.

Təcrübə toğlularının işgənbə möhtəviyyatında bakteriyaların və infuzorların miqdarı, onların tərkibində azotun konsentrasiyası

Cədvəl 3.

Göstəricilər	Qruplar		
	I	II	III
Quru maddənin miq-darı:			
bakteriyalar, q/l	7,08±0,65	9,30±0,55*	9,96±0,21**
infuzorlar, q/l	5,12±0,63	6,05±0,33	6,24±0,31
Quru maddədə azotun konsentrasiyası:			
bakteriyalarda, q%	8,48±0,12	8,51±0,14	8,59±0,30
infuzorlarda, q%	5,61±0,32	5,62±0,33	5,74±0,35

*Qeyd: * - P < 0,05; ** - P < 0,01.*

Cədvəldən göründüyü kimi, II və III qrupdakı təcrübə heyvanlarının işgənbə möhtəviyyatında bakteriyaların və infuzorların quru maddəsinin miqdarı, müvafiq olaraq, 31,36% (P < 0,05) və 40,68% (P < 0,01) I qrupun göstəricisindən yüksəkdir. İnfuzorların quru maddəsi də II və III təcrübə qrupu heyvanlarında I qrupa nisbətən bir qədər yüksəlmişdir. Ancaq bu fərqlər etibarlılıq təşkil etmirdi. Bakteriayalarda azotun miqdarına gəldikdə isə bu göstəricilərdə də eyni qanunauyğunluq müşahidə edilirdi. Yəni yem payına vitamin və vitamin mineral tərkibli premikslər əlavə edilmiş toğlularda bu göstəricilər nəzarət qrupuna nisbətən bir qədər yüksək olmuşdur. İnfuzorlarda azotun konsentrasiyasına görə isə qruplar arasında nəzərə çarpacaq dəyişkənliklər müşahidə edilmirdi. Alınmış nəticələr göstərir ki, təcrübə toğlularının yem payına vitamin və vitamin-mineral tərkibli premikslərin əlavə edilməsi onların işgənbəsində bakterial kütlənin miqdarının artmasına səbəb olur. Bu təcrübə heyvanlarının işgənbəsində yemlərin daha səmərəli istifadə edildiyini sübut edir. Analoji məlumatlar digər tədqiqatçılar [2,6,10,12] tərəfindən də qeyd edilmişdir.

Yemlərin tərkibindəki proteinin orqanizm tərəfindən necə mənimsənilməsini sübut edən əsas göstərici isə azot balansıdır. Ona görə də tədqiqatlarımızda balans təcrübələri qoyaraq, təcrübə toğlularında azot balansını da müəyyən etdik. Təcrübə heyvanlarında azot balansı 4-cü cədvəldə verilir.

Azot balansı, q-la

Cədvəl 4.

Göstəricilər	Qruplar		
	I	II	III
Yemlə qəbul edilmişdir	31,9 ± 0,51	32,6 ± 0,44	33,1 ± 0,60
Kalla ixrac edilmişdir	10,44 ± 0,19	10,36 ± 0,17	10,16 ± 0,21
Sidiklə ifraz edilmişdir	10,87 ± 0,16	10,42 ± 0,11	10,38 ± 0,10
Orqanizmdə mənimsənilmişdir	10,59 ± 0,25	11,82 ± 0,30*	12,56 ± 0,27**
Yemlə qəbul edilənə nəzərən mənimsənilmişdir, %-lə	33,2	36,26	37,95

*Qeyd: * - P < 0,05; ** - P < 0,01.*

Təcrübə heyvanlarında azot balansının göstəricilərini analiz etdikdə görürük ki, yemlərlə qəbul edilmiş, kalla ixrac olunmuş və sidiklə ifraz edilmiş azotun miqdarına görə qruplar arasında nəzərə çarpacaq fərqlər müşahidə edilmir. Onu da qeyd etmək lazımdır ki, bütün təcrübə heyvanlarında azot balansı müsbət olmuşdur. Azotun orqanizmdə mənimsənilməsinə görə isə qruplar arasında əsaslı fərqlər qeydə alınmışdır. Belə ki, II və III qrupdakı heyvanlarda azotun orqanizmdə mənimsənilməsi müvafiq olaraq, 16,15% (P < 0,05) və 18,6% (P < 0,01) I qrupun göstəricisindən yüksək olmuşdur. Deməli, kökəldilən erkək toğluların yem payına vitamin və vitamin-mineral tərkibli premikslərin əlavə edilməsi onların orqanizmində azot balansına müsbət təsir göstərir.

Gövşəyən heyvanlar üçün tərtib edilmiş yeni protein qidalanma konsepsiyalarına [13, 14, 15, 16, 17] əsasən, işgənbədə sintez edilən mikrob zülalı ən keyfiyyətli və bağırsaqlarda yüksək faizlə mənimsənilən zülaldır. Odur ki, mikrob zülalının sintez səviyyəsi gövşəyən heyvanların zülala olan tələbatının ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Bizim təcrübələrimizdə kökəldilən erkək toğluların yem payına vitamin və vitamin-mineral tərkibli premikslərin əlavə edilməsi onların işgənbəsində bakteriyaların miqdarının artmasına səbəb olmuşdur. Nəticədə təcrübə toğlularının orqanizmində azotun mənimsənilməsi yüksəlmişdir. Bu sübut edir ki, vitaminlərin və vitamin mineral əlavələrinin təsirindən təcrübə heyvanlarının işgənbəsində mikrob zülalının sintezi intensivləşmişdir.

Beləliklə, apardığımız təcrübələr göstərir ki, kökəldilən erkək toğluların yem payına vitamin və vitamin-mineral tərkibli premikslərin əlavə edilməsi onların orqanizmində zülal mübadiləsini, xüsusən də işgənbədə mikrob zülalının sintezini tənzimləyir.

ƏDƏBIYYAT SIYAHISI

1. Алиев А.А. Экспериментальная хирургия. Москва, НИЦ «Инженер», 1998.
2. Алиев А.А. Обмен веществ у жвачных животных. Москва, НИЦ «Инженер», 1997.
3. Алиев А. А., Кафаров М.Ш. Превращение липидов в желудочно-кишечном тракте жвачных животных // Ж. Животноводство, 1973, 68-70 с.

4. Бабенко, Г. А. Микроэлементозы человека: патогенез, профилактика, лечение / Г. А. Бабенко // Микроэлементы в медицине. – 2000. – Вып. 1, Т. 2. – С. 2–5.
5. Волгин, В. П. Биохимические показатели крови молодняка крупного рогатого скота в высокопродуктивных стадах / В. П. Волгин, Л. В. Романенко, А. С. Бибикова, З. Л. Федорова // Успехи современного естествознания. – 2009. – № 2. – С. 75–76.
6. Гаврюшина, И. В. Состояние антиоксидантной системы, иммунитета и продуктивность ягнят при введении их матерям различных соединений селена : автореф. дис. канд. биол. наук / Гаврюшина Ирина Владимировна. – Боровск, 2010. – 24 с.
7. Ермаков, В. В. Геохимическая экология как следствие системного изучения биосферы / В. В. Ермаков // Проблемы биогеохимии и геохимической экологии. – 1999. – № 23. – С. 152–182.
8. Калашников А.П., и др. Нормы и рационы кормления сельскохозяйственных животных. Москва 2003.
9. Карпова, О. С. Методы увеличения производства баранины в цигайском овцеводстве / О. С. Карпова, В. П. Лушников, Б. Н. Шарлапаев // Овцы, козы, шерстяное дело. – 2002. – № 4. – С. 38–40.
10. Ковальский, В. В. Биологическое значение селена / В. В. Ковальский, В. В. Ермаков. – М. : Наука, 1974. – 298 с.
11. Синдирева, А. В. Оценка селенового статуса территории Омской области / А. В. Синдирева, Н. А. Голубкина // Омский научный вестник. – 2011. – № 1 (104). – С. 192–196.
12. Талыбов, Ю. Н. Сельское хозяйство России: акцент на овцеводстве / Ю. Н. Талыбов // Бюллетень Российско-Британской торговой палаты. – 2009. – № 7.
13. Atasoglu, C., A. Y. Guliye, and R. J. Wallace. 2004. Use of stable isotopes to measure de novo synthesis and turnover of amino acid-C and –N in mixed microorganisms from the sheep rumen in vitro. Br. J. Nutr. 91:235-261.
14. Bach, A., S. Calsamiglia and M. D. Stern. 2005. Nitrogen metabolism in the rumen. J. Dairy Sci. 88 (E. Suppl.) E9-E21.

AZƏRBAYCANIN YERLİ VƏ İNTRODUKSİYA OLUNMUŞ ÜZÜM SORTLARININ EKOLOJİ-COĞRAFİ ZONALLIQ XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNİN ELMİ ƏSASLANDIRILMASI

MÖVLUD HÜSEYNOV
Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC
Mühəndislik fakültəsi
movlud.huseynov@unec.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Üzümçülük və şərabçılıq sahəsinin inkişafını təmin etmək məqsədilə ölkəmizdə qəbul edilən qərarlar şərh olunmuş, yerli və introduksiya olunmuş üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsinin əhəmiyyəti Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanununun 8.1. maddəsinə (İstehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün üzüm istehsalı müvafiq inzibati ərazi vahidində və ya yerdə ərazinin relyefi, torpaq-iqlim və ekoloji şəraitinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən üzüm sortlarının xüsusi aqrotexniki üsullarla yetişdirilməsi əsasında həyata keçirilir), habelə "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının 2.2. bəndinə uyğun olaraq (Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması) əsaslandırılmışdır. Dövlət Proqramlarına əsasən üzümçülük və şərabçılıq sahəsi ilə bağlı qarşıya qoyulan vəzifələr və hədəflər müəyyən edilmişdir. Ölkəmizdə üzümçülüyün və şərabçılıq sənayesinin qarşısında duran əsas problemlər araşdırılmış və bu

istiqamətdə yerinə yetirilməsi vacib olan vəzifələr müəyyən edilmişdir. Aparılan araşdırmalarda Beynəlxalq Üzüm və Şərab Təşkilatının müvafiq deskriptorları ilə üzüm genotiplərinin perspektivliyinin qiymətləndirilməsi, istehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün bölgələrin müəyyənləşdirilməsi, iqtisadi səmərəlilik xüsusiyyətlərinin öyrənilməsi, istehsalata və fermer təsərrüfatlarına tətbiq üçün tövsiyə edilməsi qarşıya qoyulmuş və yerinə yetirilmişdir.
AÇAR SÖZLƏR: Üzüm, ekoloji-coğrafi zonallıq, terroir

GİRİŞ

Ölkəmizdə üzümçülük və şərabçılıq sahəsinin inkişaf potensialı nəzərə alınaraq bu istiqamətdə respublikamızda son illər mühüm addımlar atılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 29 Yanvar 2002-ci il tarixli 667 nömrəli Fərmanı ilə «Üzümçülük və şərabçılıq haqqında» Azərbaycan Respublikasının Qanunu tətbiq edilmişdir [3]. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2011-ci il tarixli 1890 nömrəli Sərəncamı ilə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" [4] və 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı ilə "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" [5] təsdiq edilmişdir. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanununa (8.1. İstehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün üzüm istehsalı müvafiq inzibati ərazi vahidində və ya yerdə ərazinin relyefi, torpaq-iqlim və ekoloji şəraitinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən üzüm sortlarının xüsusi aqrotexniki üsullarla yetişdirilməsi əsasında həyata keçirilir) uyğun olaraq [3], habelə "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının (2.2. Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması) [5] yerinə yetirilməsi baxımından Azərbaycanın yerli və introduksiya olunmuş üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsi günün vacib tələbidir. Dövlət Proqramında Azərbaycanda şərabçılıq ənənələrinin bərpa olunması, şərabçılıq müəssisələrinin istehsal potensialından maksimum səviyyədə istifadə etməklə ölkədə şərab ixracının 2025-ci ilədək 5 dəfə artırılması, şərab və şərabçılıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur [5].

Hazırda ölkəmizdə üzümçülüyün və şərabçılıq sənayesinin qarşısında duran əsas problem bölgələr üzrə üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin nəzərə alınmaması, nəticədə yerli torpaq-iqlim şəraitinə uyğun olmayan üzüm sortlarından əldə edilən emal məhsullarının olduqca aşağı keyfiyyətdə olmasıdır. Odur ki, yerli və xarici üzüm sortlarının bölgələr üzrə düzgün seçilib yerləşdirilməsi, onların ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin araşdırılmasını və bu xüsusiyyətlərin bir-biri ilə olan əlaqələrinin elmi əsaslandırılması kimi mühüm əhəmiyyətli məsələlərin həllini zəruri etmişdir.

Problemin aktuallığını nəzərə alaraq tədqiqatın aparılmasında əsas məqsəd yerli və introduksiya olunmuş üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsi, sortların bölgələr üzrə elmi əsaslarla düzgün seçilib yerləşdirilməsi, respublikamızda emal müəssisələrinin keyfiyyətli yerli xammalla təminatının yaxşılaşdırılması, rəqabətqabiliyyətli milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi üçün fərqli terroirə sahib bölgələrin müəyyənləşdirilməsindən ibarətdir.

Məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələr müəyyənləşdirilərək qarşıya qoyulmuş və həyata keçirilmişdir:

-respublika ərazisində yayılmış və indiyə qədər elmi əsaslarla öyrənilməyən yerli və introduksiya olunmuş üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin o cümlədən, morfoloji, bioloji, təsərrüfat-texnoloji xüsusiyyətlərinin öyrənilməsi, əlamət və göstəricilərin müasir ampelodeskriptor və fenokodlar əsasında rəqəmsal şəkildə təsvir edilməsi və bunun əsasında informasiya bazasının zənginləşdirilməsi;

-müxtəlif ekoloji şəraitlərdə fərqli becərmə üsullarının üzüm sortlarının keyfiyyətinə və məhsulun texnoloji istifadə istiqamətinə təsirinin tədqiqi;

-Azərbaycanın müxtəlif bölgələrində yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarının mexaniki, uvaloji, enokimyəvi göstəricilərinin tədqiqi, məhsulun keyfiyyətinin və texnoloji xüsusiyyətlərinin formalaşmasına birbaşa təsir edən, becərilmə texnologiyası və ekoloji amillərin təsir səviyyəsinin araşdırılması, korelyasiya əlaqələrinin müəyyən edilməsi;

-müxtəlif bölgələrdə yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarından şirə və şərab materiallarının hazırlanması, onlara müvafiq qulluq işlərinin həyata keçirilməsi, texnoloji qiymətləndirilməsi, dequstasiyası və müqayisəli təhlili;

-istehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün fərqli terroirə sahib bölgələrdə yetişdirilən üzüm sortlarının özünəməxsus səciyyəvi ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsi;

-üzüm sortlarının müxtəlif ekoloji-coğrafi xüsusiyyətlərinə və texnoloji əhəmiyyətli əlamətlərə görə qiymətləndirilib qruplaşdırılması, onların məqsədyönlü istifadəsinin elmi əsaslandırılması;
-konkret aqroiqlim şəraitində üzüm sortlarının texnoloji istifadə istiqamətindən asılı olaraq perspektivliyinin rəqəmsal qiymətləndirilməsi üçün OIV-nin müxtəlif ən vacib deskriptorları daxil edilmiş "Perspektivliyin qiymətləndirilməsinin yeni modeli"nə əsasən adaptiv və özünəməxsus səciyyəvi ekoloji-coğrafi xüsusiyyətlərə malik, iqtisadi cəhətdən səmərəli, daha perspektiv sortların müəyyən edilməsi və istehsalata tövsiyə olunması;
-tədqiq edilən üzüm sortlarının müasir üsullarla enokarpoloji və texnoloji skrininqi və pasportlaşdırlması, məlumat bazasının zənginləşdirilməsi;
-tədqiqat işi zamanı alınmış nəticələrin təhlili əsasında respublika ərazisində üzümçülük və şərabçılığın müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması;
-planlaşdırılan yüksək məhsuldarlığı və keyfiyyəti, texnoloji yararlılığı, texnoloji istifadə istiqamətinin müxtəlifliyinin təmin edilməsi məqsədilə optimal aqroekoloji, uvaloji parametrlər əsasında enokimyəvi (enoloji) modelin müəyyən edilməsi;
-əldə olunan ekoloji-coğrafi, sortmüxtəlifliyi, enokimyəvi və texnoloji istifadə istiqamətinin müxtəlifliyi fonunda keyfiyyətin coğrafi zonallıq parametrlərinin müəyyən edilməsi və xəritələşdirilməsi.

TƏDQİQAT METODU

Tədqiqatlar 2016-cı ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun laboratoriyalarında, Ampeloqrafik Kolleksiya Bağında, Gəncə və Şamaxıda yerləşən Təcrübə Stansiyalarında, Cəlilabadda yerləşən Dayaq Məntəqəsində, müxtəlif bölgələrdə yerləşən özəl fermer təsərrüfatlarında və emal müəssisələrində yerli və introduksiya olunmuş üzüm sortları üzərində aparılır. Həmçinin respublikamızın müxtəlif bölgələrindən ekspedisiya yolu ilə yeni aşkarlanmış aborigen və müxtəlif mənşəyə malik yeni introduksiya olunmuş üzüm sortları tədqiq edilir. Tədqiqatlarda institutun, o cümlədən Gəncə və Şamaxı TS-nın hibrid fondundan da istifadə edilir. Tədqiqatın obyektini Azərbaycanın müxtəlif bölgələrində yetişən süfrə (OIV 603-1-1) və texniki istiqamətli (OIV 603-1-4) üzüm sortlarının tənəkləri, məhsulları və onlardan alınan şirə və şərab nümunələri təşkil edir. Tədqiq edilən üzüm sortlarının aqrobioloji və məhsulun uvoloji xüsusiyyətləri (mexaniki və kimyəvi tərkibi) ənənəvi və müasir üsullarla öyrənilir [1]. Üzüm genotiplərinin perspektivliyinin qiymətləndirilməsində OIV-nin müvafiq deskriptorlarından istifadə edilir. Üzüm sortlarının biokimyəvi göstəricilərinin öyrənilməsi ISO və ГОСТ standartlarına əsasən müasir cihazlar FOSS Winescan FT 120 və Winescan^{TM} SO_2 lazer analiz aparatlarında, Spektrofotometr, pH-metr, Rəqəmsal refraktometrlə, təhlükəsizliyinin, mineral maddələrin, ağır metalların və toksiki elementlərin öyrənilməsi isə ICP-OES (Perkin Elmer Optima 8000) aparatının və Xromatoqrafiya üsulları vasitəsi ilə həyata keçirilir. Üzüm sortlarının orqanoleptik göstəricilərinin qiymətləndirilməsi 10 ballıq sistemlə (Forma 13), şirələr 19 ballıq şkala ilə, şərabların dequstasiyası 100 ballıq sistemlə aparılır. Tədqiqat nəticələri riyazi-statistik üsullarla [2] işlənərək, dürüstlüyü təsdiq olunmuşdur.

Nəticə

Aparılan araşdırmalar nəticəsində qabaqcıl üzümçülük və şərabçılıq ölkələrinin təcrübəsi əsasında fərqli terroirə sahib bölgələrdə yetişdirilən üzüm sortlarının özünəməxsus ekoloji-coğrafi zonallıq xüsusiyyətləri öyrənilmiş, sortların düzgün seçilib yerləşdirilməsinin elmi əsasları işlənib hazırlanmış, və əldə olunan nəticələr əsasında məqsədyönlü məhsul istehsalının gücləndirilməsinə töhfə verilmişdir. Tədqiqatın elmi yeniliyi Azərbaycanın yerli və introduksiya olunmuş üzüm sortlarının ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin ilk dəfə olaraq müasir üsullarla öyrənilməsi, sortların bölgələr üzrə elmi əsaslarla düzgün seçilib yerləşdirilməsi, respublikamızda emal müəssisələrinin keyfiyyətli yerli xammalla təminatının yaxşılaşdırılması, rəqabətqabiliyyətli milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi üçün fərqli terroirə sahib bölgələrin müəyyənləşdirilməsidir.

Aparılan araşdırmalarla müxtəlif ekoloji şəraitlərdə üzüm sortlarının keyfiyyətinə fərqli becərmə üsullarının təsiri tədqiq edilmişdir, Azərbaycanın müxtəlif bölgələrində yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarının mexaniki, uvaloji, enokimyəvi göstəriciləri müasir tədqiqat üsulları ilə müqayisəli öyrənilərək, öyrənilən keyfiyyət xüsusiyyətləri arasında korelyasiya əlaqələri qurulmuşdur. Həmçinin, Beynəlxalq Üzüm və Şərab Təşkilatının (OIV) protokolları əsasında, OIV-nin müvafiq deskriptorları ilə üzüm genotiplərinin perspektivliyi qiymətləndirilmiş, istehsal mənşəyinə görə adlar verilən şərablar hazırlanması üçün fərqli terroirə sahib bölgələrdə yetişdirilən üzüm sortlarının özünəməxsus ekoloji-coğrafi

zonallıq xüsusiyyətləri müəyyənləşdirilməklə, iqtisadi səmərəlilik xüsusiyyətləri öyrənilərək, istehsalata və fermer təsərrüfatlarına tətbiq üçün tövsiyə edilmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Səlimov V., Üzümün ampeloqrafik skrininqi, Bakı: "Müəllim" nəşriyyatı, 2019, 319 s.
2. Бешелев С., Гурвич Ф., Математико-статистические и экспертные методы экспертных оценок, М.: Статистика, 1974, 159 с.
3. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/1021
4. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/az/articles/view/3779/print
5. "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/articles/28381/print

ÇƏHRAYI SÜFRƏ ŞƏRABLARININ AĞ VE QIRMIZI ÜZÜM SORTLARINDAN ALINMA REJİMLƏRİNİN İŞLƏNİLMƏSİ

ƏFSANƏ MİRZƏYEVA
Bakı Dövlət Universiteti
Biologiya/Biotexnologiya
Ehmedova_efsane@mail.ru
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Son illər ərzində bütün dünyada olduğu kimi, Azərbaycanda da süfrə şərablarına olan tələbat və maraq artmışdır. Ölkəmizdə ağ və qırmızı süfrə şərablarına daha çox marağın olmasını nəzərə alsaq, çəhrayı süfrə şərabları az tələb olunan hesab edilir. Halbuki bütün dünyada çəhrayı süfrə şərabları satış üzrə ikinci yeri tutur. Məhz buna görə də ölkəmizdə çəhrayı şərab istehsalını təkmilləşdirmək şərabçılıq sahəsi üçün aktual məsələlərdəndir. Çəhrayı süfrə şərablarının hazırlanması üçün aparılmış tədqiqat Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda həyata keçirilmişdir. Tədqiqatın aparılması məqsədi ilə ağ üzüm sortlarından olan Ağ süfrə və qırmızı texniki üzüm sortlarından Mədrəsə sortu götürülmüşdür.. Laboratoriyada mövcud təchizatı nəzərə alaraq şərab materiallarını hazırlamaq məqsədi ilə aerometr, 25 litrlik şüşə balonlar, fərqli ölçülərdə termometrlər, sulfid turşusunun suda hazırlanan 2%-li məhlulu, reaktivlər, müasir maya qarışığı hazır halda saxlanılmışdır. Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun müasir laboratoriyasında Ağ süfrə və Mədrəsə üzüm sortlarından nümunələr götürülmüş, əvvəlcə onların turşuluğu və şəkərliliyi təyin edilmişdir. Apardığımız ilkin tədqiqatlar zamanı üzüm sortlarında titrləşən turşuluq 6-7,9 q/dm^3 və şəkərlilik miqdarı 16-23% təyin olunmuşdur. Daha sonra onlar fərqli nisbətlərdə bir-biri ilə qarışdırılmışdır. Beləliklə ağ və qırmızı şərabların qarışdırılması nəticəsində sepaj prosesi aparılmış və fərqli şərab növlərinin istehsalında bu metod tətbiq olunmasının reallığı müəyyən edilmişdir. Azərbaycanda demək olar ki çəhrayı şərablar istehlakçısının az olması səbəbindən bu şərabların keyfiyyət göstəriciləri aşağıdır. Nəzərə alanda ki, xaricdə çəhrayı üzüm sortlarına tələb daha çoxdur, elə buna görə də çəhrayı şərabların keyfiyyət və orqanoleptiki göstəricilərinin inkişaf etdirilməsi aktual əhəmiyyətə malik hesab edilir. Müasir texnoloji üsulların tətbiqi nəticəsində Azərbaycanda da çəhrayı şərab istehsalının geniş miqyaslı təşkilinin laborator üsullarının işlənməsi tədqiqatın əsas vəzifəsini təşkil edir.

AÇAR SÖZLƏR: ÜZÜM, SORT, GİLƏ, ANTOSİANLAR, FENOL BİRLƏŞMƏLƏRİ

GIRIŞ

Qida sənayesinin mühüm sahələrindən olan üzümçülük və şərabçılıq son 10 il ərzində Respublikamızda böyük yüksəliş dövrünü keçir. Azərbaycan Respublikasında süfrə şərabları çeşidində əsasən ağ və qırmızı

süfrə şərablarının istehsal həcmi, çəhrayı süfrə şərablarına nisbətən çoxluq təşkil etməkdədir. Bununla əlaqədar çəhrayı süfrə şərablarının mütərəqqi texnologiyasının işlənilməsi və şərabların keyfiyyətinin yaxşılaşdırılması aktual əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi çəhrayı süfrə şərablarının istehsal texnologiyasının işlənilməsi olmuşdur və eyni zamanda qırmızı və ağ üzüm sortlarından istifadə etməklə, çəhrayı süfrə şərablarının alınma rejimlərinin işlənilməsidir.

Tədqiqat obyekti kimi Azərbaycanın qiymətli üzüm sortlarından olan Mədrəsə və Ağ süfrə üzüm sortları, onlardan hazırlanmış şirə, şərab istifadə edilmişdir.

Qarşıya qoyulan əsas məqsəd çəhrayı süfrə şərablarının mütərəqqi texnologiyası işlənilməklə şərabların keyfiyyətinin formalaşmasına təsir göstərən amilləri müəyyənləşdirməkdir.

Tədqiqat zamanı əsas vəzifələrdən biri süfrə şərablarında olan fenol maddələrinin miqdarının, rəng xarakteristikasının və tərkibinin öyrənilməsidir. Həmçinin eksperiment zamanı ağ və qırmızı üzüm sortlarının optimal payının təyin edilməsi də vacib məsələlərdəndir.

Fərqli texnoloji sxemlər əsasında müxtəlif üzüm sortlarından əldə olunan süfrə şərablarının keyfiyyət göstəricilərinin formalaşmasına təsir edən faktorların öyrənilməsi aparılan tədqiqatın predmetini təşkil edir. Ağ və qırmızı üzüm sortlarından əldə olunan çəhrayı süfrə şərablarının hazırlanmasında ən optimal metodun təyin edilməsi və antosianlar,fenol birləşmələr, ətir əmələ gətirən maddələr, şərab tərkibi və s. öyrənilməsi tədqiqatın elmi yeniliyini təşkil edir.

Eksperiment zamanı ilk öncə laboratoriyada Mədrəsə üzüm sortundan çəhrayı süfrə şərabı materialını hazırlayırıq. Şəkərliliyi təxminən 18% olan belə üzüm gilələri əzilərək əldə olunmuş əzintiyə 100-120 mq/dm^3 sulfit turşusunun anhidridi əlavə edirik. Əldə olan bu qarışımı 15 saat müddətində 3-4 dəfə mütəmadi şəkildə qarışdırırq. Daha sonra əzintinin sıxılmaqla şirəsinin alınması və şirəyə də 45 mq/dm^3 sulfit turşusu anhidridi əlavə edirik. 3-4 saat müddətində şəffaflaşdırılmış bu şirəyə onun həcminin 2-3%-i qədər maya əlavə edib 17^0 C temperaturda qıcqırma prosesi aparırıq. Fermentasiya bitdikdən sonra çəhrayı süfrə şərabı qablara köçürülür və 10^0 C temperaturda anaerob şəraitdə şüşə qablarda saxlayırıq. Burada əsas məsələ sepaj olunacaq şərabların hansı nisbətlərdə qarışdırılmasıdır. Elə buna görə də qırmızı texniki üzüm sortu olan Mədrəsə və Ağ süfrə şərabının 5:5, 1:9, 2:8, 4:6, 3:7 nisbətlərində sepajı çəhrayı süfrə şərablarının əldə olunması üçün uyğun nisbətlərdir. Buradan da göründüyü kimi prosesin aparılmasının bir neçə fərqli sexmləri mümkündür.

TƏDQIQAT METODU

Texniki üzüm sortlarından olan Ağ süfrə və Mədrəsə üzüm sortlarının 9:1 nisbətində sepajı ilə üzümlərin xırdalanıb, daha sonra əldə olunmuş şirə və nəhayət şərab materiallarının emal edilməsi ağ üsulla aparılmışdır.

9:1 nisbətində götürülmüş Ağ süfrə və Mədrəsə üzüm sortlarının daraqlardan ayrılmaqla üzümlərin gilələrini tam əzilməsindən əldə olunan əzintisi, laboratoriyada preslənərək sıxılıb və əldə olunan şirə 65 mq/dm^3 miqdarda sulfidləşdirilmişdir. Təxminən 10 saat müddətində təbii yolla şəffaflaşdırılma prosesi aparılmışdır. Nəticədə əldə olunan şirə soyuducuda durulaşdırılıb,çöküntü isə steril şüşə balonlara köçürülmüşdür. Mədəni mayadan 2% istifadə etməklə 20^0 C temperaturda qıcqırma prosesi aparılmış və balonlara doldurularaq saxlanmağa qoyulmuşdur.

Ağ və qırmızı texniki üzüm sortlarından sepaj olunmaqla hazırlanan çəhrayı süfrə şərablarının kimyəvi tərkib göstəriciləri cədvəldə qeyd olunmuşdur (Cədvəl 1.).

Göstəricilər	Təcrübə variantları					
	Sınaq	Sxem №1 9:1	Sxem №1 8:2	Sxem №1 7:3	Sxem №1 6:4	Sxem №1 5:5
Spirt, % həcm	9,8	9,7	9,7	9,9	9,8	9,8
Titrləşən turşuluq, q/dm^3	6,3	6,9	6,9	6,4	6,7	6,2
Uçucu turşuluq, q/dm^3	0,39	0,4	0,30	0,30	0,31	0,34
pH	3,2	3,9	3,3	3,09	3,06	3,14
Oksidləşmə-reduksiya potensialı, mB	216	207	205	206	210	210
Reduktorlar, mq/dm^3	12,1	12,5	14,6	15,7	12,5	13,3

Cədvəl 1. Ağ və qırmızı üzüm sortlarının sepajından hazırlanmış çəhrayı süfrə şərablarının kimyəvi tərkibi
Çəhrayı şərabların alınması zamanı təkcə sepaj prosesi deyil, həm də kupaj aparılması da mümkündür.. Nəzərə alsaq ki, ağ şərablar kimi elə çəhrayı şərablar da oksidləşmə prosesinə meyillidir, o zaman kupaj etmə sxemi üzrə şərabın hazırlanması üsulunun tətbiqi məqsədə uyğun hesab edilir. Buna baxmayaraq keyfiyyət göstəricilərinə görə sepaj üsulu ilə hazırlanmış şərab nümunələri, kupaj üsulu ilə hazırlanmış şərablardan daha yüksək qiymətləndirilir.
Bu amillər şərabların kimyəvi tərkibi təhlil edilən zaman öz təsdiqini tapmışdır. Kupaj sxemi üzrə hazırlanmış çəhrayı süfrə şərablarının tərkibi və keyfiyyət göstəriciləri cədvəl 2-də qeyd edilmişdir.

Çəhrayı süfrə şərablarının tərkibi	Variant 1	Variant 2	Variant 3
Əsas ağ	80 (Ağ süfrə)	85 (Ağ süfrə)	90 (Ağ süfrə)
Antosian tərkibli qırmızı üzüm sortu	20 (Mədərəsə)	15 (Mədrəsə)	10 (Mədrəsə)
Spirt, % həcm	11,9	11,5	11,4
Şəkər, q/100sm^3	0,24	0,12	0,11
Titrləşən turşuluq, q/dm^3	6,85	7,1	6,2
Ekstrakt, q/dm^3	20,1	18,8	19,2
Qalıq ekstrakt, q/dm^3	12,6	12,3	13,6
Uçucu turşuluq, q/dm^3	0,29	0,3	0,34
Fenol maddələri, mq/dm^3	436	386	452
O cümlədən: antosianlar	55,0	46,0	25,0
leykoantosianlar	50,0	54,0	65,0
Antosianların ümumi fenol maddələrin tərkibində payı	13,0	12,0	5,8
Rəng intensivliyi □" *I*" □ D_{420} □ D_{520} □	0,19	0,13	0,08
Rəng çalarlığı □"*T*" □ D_{420} D_{520} □	0,77	0,88	0,9

Cədvəl 2. Kupaj usulu ilə hazırlanmış çəhrayı süfrə şərabının tərkibi və keyfiyyət göstəriciləri

NƏTICƏ

Aparılan eksperiment zamanı sepaj və kupaj metodlarının həyata keçirilməsi ilə çəhrayı süfrə şərablarının hazırlanması və bu halda əldə olunan şərabda fenol birləşmələrinin də təyini həyata keçirilmişdir.
Eyni zamanda hazırlanmış şərabın tərkibinin sabitliyi təmin olunmuş və şərabın parlaqlığı,xoş ətri və tamının saxlanılması həyata keçirilmişdir. Çəhrayı şərabın düzgün saxlanılması üçün oksigensiz mühit təmin olunmuş və bunun üçün iqtisadi baxımdan ən sərfəli üsullar seçilmişdir.
Göstərilən Ağ süfrə və Mədrəsə üzüm sortlarında fenol maddələrin, antosianların ümumi miqdarı haqqda məlumatlar əldə edilmişdir. Beləliklə,aydın olmuşdur ki, üzümün növü şərabın ətrinə,rənginə və dadına təsir göstərir.
Çəhrayı süfrə şərabları istehsalı zamanı qırmızı texniki üzüm sortunun sepaj prosesində optimal kütlə payı 25-30% götürülmüşdür.
Nəticə etibarı ilə qırmızı və ağ üzüm sortlarının sepaj olunması nəticəsində çəhrayı süfrə şərabları əldə olunmuş və ən səmərəli şəkildə proses həyata keçirilmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Балануцэ А.П., Мустяце Г.Ф. Современная технология столовых вин. Кишинев. Картя Молдовенякэ, 1985, - 222 стр.
2. Fətəliyev H.K. Şərabın texnologiyası. Bakı, elm, 2011, - 595 səh.
3. Валуйко Г.Г. Технология виноградных вин. Симферополь, таврида, 2001, - 623 стр.
4. İbrahimov N.A. Azərbaycan şərablarının texnologiyası. Bakı, azərnəşr, 1998, - 319 səh.
5. Гержикова В.Г. Методы технохимического контроля в виноделии. Симферополь, таврида, 2009, - 303 стр.

ŞƏRAB MATERİALININ XROMATİK XARAKTERİSTİKASININ TƏDQİQİ VƏ ONLARIN POLİFENOL TƏRKİBLƏ ƏLAQƏSİ

VÜQAR SƏLİMOV
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
Ampeloqrafiya, seleksiya və tinglik şöbəsi
vugar_salimov@yahoo.com
ABŞERON, AZƏRBAYCAN

REYHAN İBRAHİMLİ
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
Üzümçülük və tingçilik şöbəsi
reyhan-ibrahimli@mail.ru
ABŞERON, AZƏRBAYCAN

LEYLA EYYUBOVA
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
İnformasiya təminatı və elmi nəticələrin tətbiqi şöbəsi
leylaeyubova@gmail.com
ABŞERON, AZƏRBAYCAN

NATİQ MƏMMƏDOV
Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu
Aqrokimya laboratoriyası
natiq.mammadov.00@gmail.com
ABŞERON, AZƏRBAYCAN

AYSEL BALAŞZADƏ
Azərbaycan Dövlət İqtisad Universiteti
Mühəndislik fakültəsi
ayka.miriyeva95@gmail.com
BAKI, AZƏRBAYCAN

AYTƏN QURBANLI
Azərbaycan Dövlət İqtisad Universiteti
Mühəndislik fakültəsi
aytanqurbanli@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Xromotoqrafiya metodu ilə üzüm qabığının rəngləyici maddələrinin tərkibi öyrənilmişdir. Əsas antosian identifikasiya olunmuşdur. Müxtəlif üsullarla şərab materialı hazırlanmışdır. Ferment preparatı tətbiqi və ferment preparatsız şərab hazırlama imkanları öyrənilmişdir. Şərabların fiziki-kimyəvi və orqanoleptik göstəriciləri qiymətləndirilmişdir. Tədqiqat nəticəsində kupajı istənilən rəng intensivliyinə malik şirə və şərab materialı əldə etməni təmin edən yerli qırmızı qiymətli üzüm sortları seçilmişdir. Azərbaycanda yetişdirilən yerli və yerli torpaq iqlim şəraitinə uyğunlaşdırılmış qırmızı üzüm sortlarından istifadə etməklə natural qırmızı süfrə şərabı texnologiyasının təkmilləşdirilmiş variantı işlənib hazırlanmışdır.

AÇAR SÖZLƏR: üzüm, şərab, xromatoqrafiya metodu

GİRİŞ

Üzümün əsas antosianları malvidinin (50%-dən çox) peodinidinin, delfinidinin, petunudunin monoqlikozidlərindən, az miqdarda – peonidinin və malvidinin asilləşdirilmiş monoqlikozidləri sianidindən ibarətdirlər. Antosianidlərin tərkibi üzümün sortundan, onun yetişdiyi şəraitdən asılı olur. Onun yaratdığı rəng müxtəlifliyi isə antosianların quruluş xüsusiyyətləri, K (al qırmızı), Mg, Ca (göy). Ni və Cu (ağ) ionlarına malik komplekslərin yaranması və pH mühitinin olması ilə izah edirlər [2].

pH<6 olduqda antosianlar müxtəlif intensivlikdə qırmızı rəngə, pH=1...2 olduqda parlaq və tünd rəngə, pH=6 olduqda bənövşəyi, pH=8 olduqda göy, pH=10 olduqda isə yaşıl rəngə malik olurlar. Rəngin intensivliyi pH-ın azalması ilə artır. Odur ki, az turşuluqlu şərablara şərab və yaxud lumu turşusu əlavə etməklə onun rənginin dayanıqlılığı artırılır. Hidroksilləşdirmə səviyyəsinin artırılması (delfinidinin) rəngin göyə tərəf sürüşməsinə, metilləşmə (maldivinin) isə qırmızıya tərəf sürüşməsinə səbəb olur.

Üzümdə antosianların olması fotosintez enerjisindən asılı olur. Bu isə yarpaqların intensiv şəkildə işıqlanması ilə müəyyən edilir. Odur ki, üzümdə antosianların toplanması müxtəlif sortlarda eyni qaydada olmur və sortdan və yetişmə şəraitindən asılı olur.

Qırmızı şərab texnologiyasında antosianlarla yanaşı leykoantosianlar və aşı maddələri də böyük əhəmiyyət daşıyır.

Qırmızı şərabların hazırlanma mərhələlərində - qıcqırdılma, saxlanma zamanı onun orqanoleptikasının qurulmasında dekarboksilləşmə, dezaminləşmə, aminləşməyə məruz qalan amin turşuları və şərabın digər komponentləri (karbohidratlar, turşular, spirtlər) də aktiv iştirak edirlər.

Beləliklə qirmızı natural turş şərab istehsalı zamanı komponentlərin dəyişmə qanunauyğunluğunun müəyyən edilməsi əsasında texnologiyanın təkmilləşdirilməsi və optimallaşdırılmasında vacib rol oynaya biləcəyini qəbul etmək mümkündür.

TƏDQİQAT METODU

Şirə, şərab materialı və şərabların fiziki-kimyəvi göstəricilərinin müəyyən edilməsi şərabçılıq sənayesində qəbul edilmiş standart metodlar[3, 4, 5] üzrə yerinə yetirilmişdir: Monomer antosianların miqdarı pH-differensial metodla müəyyən edilmişdir [1]. Bu metodun prinsipi ona əsaslanmışdır ki, pH dəyişdikcə antosianlar struktur transformasiya çevrilməsinə məruz qalır, xeyli fərqlənən spektr uduşu nümayiş etdirir. Flavil kationunun rənglənmiş formaları pH 1,0 də çoxluq təşkil edir, rəngsiz formaları isə pH 4,5 də olur. pH – differensial metod dəqiq və tez şəkildə monomer antosianlarının ümumi miqdarını, hətta polimerləşir və piqmentlərin deqradasiya olduqları mühitdə təyin etməyə imkan verir.

NƏTİCƏ

Mədrəsə sortundan turş şərab materialı tərəfimizdən təkmilləşdirilmiş texnologiya üzrə hazırlanmışdır. Yəni istiliklə işlənmiş, şəkərə görə şirə kondisionlaşmış, əzintidə 4 sutka ərzində qıcqırdılmışdır. Şərab materiallarının fiziki-kimyəvi göstəriciləri ayrı-ayrı sortlar üzrə bir-birinə yaxın qiymətə malik olmuşlar. Nümunələr soyuducuda 5^{o}C temperaturda saxlanmışlar. Beləliklə, demək olar ki, turş şərab materiallarının fiziki-kimyəvi göstəriciləri QOST R 52523-2006 qiymətlərinə uyğun olmuşdur.

Tədqiq olunan şərab materialları fenol maddələrinin ümumi miqdarının azalmasında normal dinamikaya (1890-dan 1105 mq/dm^3-ə qədər) malik olmuşlar. Fenol tərkib göstəriciləri və şərab materiallarının xromatik xarakteristikaları cədvəl 1-də verilmişdir.

Cədvəl 1. Mədrəsə şərab materiallarının fenol və rəng tərkibi göstəriciləri

İllər	Göstəricilər									
	Fenol maddələrinin kütlə konsentrasiyası,mq/dm^3	Monomer antosianların miqdarı, mq/dm^3	Rəngləyici maddələrin kütlə konsentrasiyası, mq/dm^3	Spektrin görünən sahəsinin maksimumu (pH 1,0) nm	Polimerlərin yaratdığı rəng, %	Rəngin intensivliyi, ($İ_{520}$)	Rəngin intensivliyi, ($İ_ş$)	Flavanların cəmi miqdarı, mq/dm^3	Flavanların cəmi miqdarı, mq/dm^3	Leykoantosianların kütlə konsentrasiyası, mq/dm^3
2019	1105±16	18±2	28±2	512±1	63,3±1,2	2,89±0,12	1,83±0,08	izi	78±3	124±8
2020	1510±21	50±2	52±3	521±3	47,0±0,4	2,92±0,21	1,37±0,12	izi	69±3	360±11
2021	1890±25	173±9	120±8	521±1	43,1±0,5	2,17±0,17	0,98±0,06	izi	61±4	315±12

Fenol maddələri tərkibində müxtəlifliyin olması (uzun müddət saxlanılan nümunələrdə fenol maddələrinin azalması) kondensasiya və deqradasiya reaksiyaları ilə şərtlənməklə, həmçinin görünür müvafiq xammal göstəricilərinin qeyri yekcinsliliyi ilə əlaqəlidir. Belə ki, Kaberne-Sovinyon şərabında fenol maddələrinin kütlə konsentrasiyası (Vitis Vinifera) 2358 mq/dm^3, Tavkveri şərabında isə (Vitis Vinifera) 1199 mq/dm^3

olmuşdur. Ortalama olaraq tədqiqat üçün seçilmiş respublikanın yerli qırmızı üzüm sortlarından hazırlanmış şərab materialında fenol maddələrinin miqdarı avropa sortlarındakına nəzərən bir qədər çox olmuşdur.

İki üsulla müəyyən edilmiş antosian miqdarındakı fərqlilik bir neçə amil ilə şərtlənmişdir. Belə ki, saxlanmış şərablarda rəng intensivliyi daha çox polimerizasiya məhsullarının yaranması ilə əlaqəlidir. 2019-cu ilin Mədrəsə məhsulundan hazırlanmış şərab materialında isə antosianların miqdarı kalorimetrik üsulla müəyyən edilmiş və görünür alınmış yüksək qiymət burada monomer antosianların pH 4,5 olduqda rəngsiz formaya keçidlə əlaqədar düzəlişin olmamasından (optik sıxlıqlar fərqi) irəli gəlmişdir. Mədrəsə sortunun 2021-ci il məhsulunda bu metod antosianların miqdarının azaldılmış qiymətini göstərmişdir. Buna aşağıdakılar səbəb ola bilər. Analiz aparan zaman pH (pH 1-2)-ın qiyməti sabit saxlanılır, daha çox monomer antosianlara malik cavan şərablar üçün isə müxtəlif pH (pH 1,0 və yaxud pH 2,0) üçün ölçmə xətaları xeyli olacaqdır (malvidin – 3 qlükozid üçün yuxarıda qeyd olunan pH-dan artıq qiymətlərdə kation formasından olanların faizi 99,5%-dən 69,0%-ə enir). Buna əlavə olaraq kalorimetrik üsulda optik sıxlığı təyin etmək üçün fiksasiya olunmuş dalğa uzunluğundan (530 nm) istifadə olunur. Əsas antosianlara uyğun gələn spektrin maksumum görünən sahəsindən isə istifadə olunmur. Bu isə analizin qeyri dəqiqliyinə səbəb ola bilər. Öz növbəsində pH differensial metod aktual olmaqla bizdə və xaricdə daha çox istifadə edilir. Öz dəqiqlik xarakteristikasına görə (korrelyasiya 0,93...0,97) o antosianların standart təyin metoduna – yüksək effektli maye xromotraqiyaya yaxındır.

Hər iki metodla təyin olunmuş antosian miqdarının müqayisə olunan qiymətlərinə baxmayaraq bunlar arasında korrelyasiya 0,998 təşkil etmişdir. Odur ki, rəngləyici maddələrin miqdarının təyin edilməsinin konkret metodunun dəqiqliyi görünür analiz olunan şərabın yaşından asılı olacaqdır.

Azərbaycan şəraitində yetişdirilən avropa sortlarından hazırlanmış şərab materialında monomer antosianların miqdarı onların öz vətənində yetişdirilən nümunələri ilə müqayisədə daha çox müşahidə edilmişdir.

Əgər bir il saxlandıqdan sonra monomer antosianların miqdarını başlanğıcdakı ilə müqayisə etdikdə onların başlanğıcda olduğunun 28,9%-i qədər qaldığını, iki il saxlandıqdan sonra isə 10,4%-nin qaldığını müşahidə etmək olar. Burası maraqlıdır ki, hətta bir qədər faizlə monomer antosianların miqdarının azalması (təxminən 90%) halında belə rəng intensivliyi kifayət qədər yüksək olmuşdur. Belə vəziyyət polimerlərin yaranması və optik sıxlığının 420 nm-də artması ilə izah edilə bilər. Öz növbəsində şərab materiallarının spektrinin görünən sahəsinin maksimumu spektrin ultrabənövşəyi sahəsinə (512 nm) meyl göstərir, rəng tünd ləl rəngindən qırmızı kərpic rənginə doğru dəyişir.

Şərabların rəngini yaradan polimer xarakteristika qiymətləri saxlama müddəti ilə əlaqədar olaraq normal şəkildə artır. Misal üçün cavan Kaberne-Sovinyon (Vitis Vinifera) şərabında polimerlər tərəfindən yaranmış rəng faizi 44,4% təşkil etmişdir.

Şərab materiallarında flavonolların miqdarı çox olmuşdur (61,0-dan 78,0 mq/dm^3-ə qədər). Avropa tipli şərab materiallarında flavonolların miqdarı 18,8-dən 21,9mq/dm^3 diapazonunda olur (Kaberne-Sovinyonşərabındaflavonolların miqdarı 40,0mq/dm^3 olmuşdur). Bu sarı rəngə boyanmış birləşmələr 250...270 və 340...380 nm dalğa uzunluqlarında ultrabənövşəyi rəngdə iki maksimum şüaudmaya malik olurlar. Bu sahələrdə qatışdırılmış şərab materialının spektrləri kəskin ifadə olunmuş maksimumlara malikdirlər (şək.1). Bütün şərab materiallarında flavonolların izi bilinən miqdarda mövcud olurlar.



Şək.1. Mədrəsə üzümündən (2021-ci il məhsulu) hazırlanmış şərab materialının spektri.

Şərab materialında leykoantosianların miqdarı da avropa tipliləri ilə müqayisədə bir qədər çox olmuşdur. Ancaq bu göstərici vaxt keçdikcə 125 mq/dm^3-ə qədər azalmışdır ki, bu da normal hesab edilməlidir. Belə ki, nəzərə almaq lazımdır ki, leykoantosianlar polimerizasiya və kondensasiya proseslərində kifayət qədər aktiv iştirak edirlər.

Aparılmış tədqiqatlar düzən ərazidə nisbətən tez yetişmiş Mədrəsə üzüm sortundan hazırlanmış şərab materialında fenol maddə komponentlərinin və rəng xarakteristikalarının dəyişmə diapazonlarını müəyyən etməyə imkan vermişdir. Vitis Vinifera şərab materialları ilə müqayisədə yerli xammaldan alınmış şərab materialının göstəriciləri fərqli olmuş, bəzi göstəricilər (leykoantosianlar, flavonollar) isə onlardan artıq qiymətə malik olmuşdur. Polifenolların ümumi miqdarı nisbətən çox olmamışdır, avropa tipləri ilə müqayisədə onların aşağı hüdudlarından yuxarı olmuşlar.

Polifenol tərkibinə görə qiymətləndirilmiş şərab materialları stabil keyfiyyətli ordinar şərab hazırlanması üçün yararlı hesab edilmişlər. Demək olar ki, orqanizmə fizioloji təsiri baxımından bunların avropa sortları və sortlararası növləri ilə müqayisədə fərqliliyi müşahidə edilməmişdir.

Tədqiqatlar göstərir ki, düzən ərazisində həddindən artıq yetişməyə çatdırmadan, ancaq dağətəyi və dağlıq bölgələrə nisbətən 5...10 gün tez yetişən qırmızı üzüm sortlarından natural turş qırmızı şərab hazırlanması bu sahədə dəyərli potensial hesab edilə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev M.M., Xankişiyev Y.H. Ərzaq mallarının keyfiyyətinə nəzarətin fiziki və kimyəvi üsulları: Dərs vəsaiti, Gəncə, AKTA nəşriyyatı, 2008, 150 s.
2. Бурцев Б., Никонов В. Технологические основы технологии натуральных красных сухих вин: http//www.vine.ru/naturalvine/red.drv/
3. Методика: МОУ-47-2007. Методика выполнения измерений массовой концентрации органических кислот в безалкогольных и алкогольных напитках методом электрофореза «Капель». СПб.: Люмэкс, 2007, 31 с.
4. Методика: ПНД Ф 14.1:2:4.167-2000. Методика выполнения измерений массовой концентрации катионов аммония, калия, натрия, лития, магния, стронция, бария и кальция в пробах пищевых и сточных вод методом капиллярного электрофореза. М.: Люмэкс, 2011, 36 с.
5. Методы технохимического контроля в виноделии / Под ред. Д.т.н. Гержиковой В.Г. Симферополь: «Таврида», 2002, 423 с.

XİNDOQNI ÜZÜM SORTUNDAN HAZIRLANMIŞ SÜFRƏ ŞƏRABININ KEYFİYYƏT XÜSUSİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

ZƏMİNƏ BÜNYATZADƏ
Bakı Dövlət Universiteti
Biologiya/ Biotexnologiya
zbunyatzade@gmail.com
Bakı, Azərbaycan

XÜLASƏ

Tədqiqatımız qədim, qırmızı süfrə şərabının hazırlanmasında istifadə edilən Xindoqnı üzüm sortu üzərində aparılmışdır. Qeyd etmək lazımdır ki, qırmızı süfrə şərabına qırmızı rəngi verən meyvənin qabığının rəngidir. Buna görə şirə hazırlandıqdan sonra, fermentasiya prosesinə daxil olan zaman qabığı heç bir zaman şirədən xaric edilmir. Tədqiqatın aparılmasının əsas məqsədi Xindoqnı üzüm sortunun və eyni zamanda bu üzümdən alınan şərabın keyfiyyət göstəricilərini təyin etməkdir. Üzüm məhsulunun orta nümunələri götürülmüş, tərkibində olan şəkərlilik, turşululuq, pH və şirə çıxımının miqdarı müasir cihazlar vasitəsi ilə və eyni zamanda klassik üsullar vasitəsi ilə müəyyən edilmişdir. Daha sonra, yığılan üzümdən şərab hazırlanmışdır. Alınan şərabın fiziki-kimyəvi göstəriciləri müasir cihazlar vasitəsi ilə müəyyən edilmişdir. Şərabda aparılan analizlərə əsasən etil spirti 13,5 %, titrlənən turşuluq 12,5 q/dm^3 , uçucu turşuluq 1,2 q/dm^3, ekstraktivlik 54,1 q/dm^3, şəkər qalığı 0,2%, ümumi kükürd göstəricisi isə 9 q/dm^3

olaraq qənaətbəxş səviyyədə olduğu müəyyən edilmişdir. Tədqiqatın nəticəsinə əsasən demək olar ki, üzümün keyfiyyət göstəricisi, həmin üzümdən alınan şərabın keyfiyyət səviyyəsinə əsasən təyin olunur.

AÇAR SÖZLƏR: Xindoqnı, üzüm, şərab

GİRİŞ

Dünyada ən aktual problemlərdən biri insanların yüksək keyfiyyətə malik qida məhsulları ilə qida tələbatını təmin etməkdir. Bunun üçün yüksək keyfiyyətli qida dəyərləri və keyfiyyət göstəricilərinə malik olan müxtəlif çeşidli qida məhsullarının istehsal olunması vacibdir.

Belə qida rasionallarından biri də üzüm və şərabçılıq sahəsidir. Hal- hazırda dünya və respublikamızda müxtəlif çeşidli üzüm sortları yetişdirilir. Bar verən məhsuldan müxtəlif müasir cihaz və üsullarla şərab istehsal prosesi həyata keçirilir.

Ölkə ərazimizdə çox saylı üzüm sortları becərilir ki, bunlardan qiymətli və qədim üzüm sotu Xindoqnı, bizim üçün yüksək keyfiyyət dəyərlərinə malikdir. Xindoqnı üzümü qədim zamanlardan Qarabağ zonasında becərilib, son illər ərzində isə Abşeron rayonu və digər bir çox bölgələrimizdə bu üzüm sortunun bərpası və məhsuldarlıq artımı yenidən aktual mövzu olmuşdur.

Xindoqnı üzüm sortundan şərabçılıq sahəsində də geniş miqyasda istifadə edilir. Bu üzüm sortundan hazırlanan şərab, qırmızı süfrə şərabı adlanır. Xindoqnı üzümündən əsasən turş şərablar alınır. Yüksək keyfiyyət göstəricisinə malik şərablardır. Eyni zamanda Xindoqnı üzüm bitkisində bir sıra fərqli mədəni əməliyyatlar və ya budanma işləri aparmaqla müxtəlif çeşidli şərab növləri istehsal edilir.

Şərab bütün illər ərzində ən nəcib, ən çox içilən və dəyərini itirməyən spirtli içki olub, bu gün də eyni halını qorumaqdadır. Şərab içki növü olmaqla yanaşı, eyni zamanda üzümün qiymətləndirilməsində böyük əhəmiyyətə malikdir. Şərabçılıq Azərbaycanda mühüm istehsal sahələrindən biri hesab edilir. Hazırda emal sahəsinin və xammal bazasının təkmilləşməsi əsasında inkişaf etdirilir.

Tədqiqatda istifadə etdiyimiz şərab növü, Abşeron rayonunda Üzümçülük və Şərabçılıq Elmi -tədqiqat İnstutunun nəzdində olan, üzüm sahəsi bağlarında becərilən Xindoqnı üzümündən hazırlanmışdır. Bu işdə əsas məqsəd Xindoqnı süfrə şərabının keyfiyyət göstəricilərini müəyyən etməkdi.

Respublikamızda gələcək zamanda Xindoqnı üzüm sortu ilə yanaşı, bir çox yerli və xarici üzüm növləri sahəsinin daha da genişləndirilməsi və eyni zamanda müasir üsul və avadanlıqlarla şərabçılıq sahəsi üzrə yüksək işlərin görülməsi əsas məqsədlərdən biridir.

TƏDQİQAT METODU

Şərabın hazırlanma prosesi aşağıdakı bir neçə mərhələlərdən ibarətdir:

- Üzümün yığımı və təmizlənməsi:
- Xindoqnı üzüm salxımları ilk olaraq əllə və ya xüsusi dəzgahlar vasitəsi ilə yuyulur və dənələrə ayrılır.
- Əzmə prosesi:
- Təmizlənmiş üzüm gilələri dəzgahlar vasitəsi ilə əzilir;
- Əzilmiş olan üzümün şirəsi qırmızı şərab hazırlandığı üçün qabıq və çəyirdəkləri ilə bərabər xüsusi çəlləklərə tökülür.
- Fermentasiya prosesi:
- Şirədə saxlanılan üzümün qırmızı rəngli qabığı, şirəyə qırmızı rəngi verir. 2-3 gün davam edən fermentasiya prosesindən sonra qırmızı rəngli şirəni, qabıq və çəyirdəklərindən ayırıb, yenidən ikinci fermentasiya başlanılır.
- Daha sonra ikinci fermentasiya prosesi, hazırlanmış şirənin üzərinə xüsusi "yeast" mayası əlavə edildikdən sonra başlayır.
- Bu proses zamanı üzüm şirəsinin tərkibində olan və yaxud əlavə edilən şəkər, qıcqırma zamanı spirtə çevrilir.
- Fermentasiya, şəkərin miqdarından və eyni zamanda əlavə edilən mayanın miqdarı və alınan nəticədən asılı olaraq 3-14 gün müddətində davam etdirilir.
- Şərabın yaşlandırılması və qablaşdırılması:
- Fermentasiya prosesi başa çatdıqdan sonra, şərab yaşlanmaq üçün xüsusi çəlləklərə doldurulur. Bu zaman artıq yaşlanma dövrü başlamış sayılır.
- Şərab yaşlandıqca onun keyfiyyəti daha çox yüksəlir və eyni zamanda daha çox aromalı olur.

Xindoqnı üzüm sortunun məhsulunun orta nümunələri götürülərək, tərkibində şəkərlilik, turşululuq və digər göstəricilərin qiyməti müasir cihaz və avadanlıqlar vasitəsi ilə təyin olunmuşdur (Cədvəl 1).

№	Göstəricilər	Alınan nəticə
1.	Şəkərin kütlə payı, q/100 sm^3	23,1
2.	Titrlənən turşuluq, q/dm^3	5,3
3.	Fəal turşuluq, ph	3,0
4.	Laboratoriya şəraitində şirə çıxımı, %-lə	73,3

Cədvəl 1. Şirənin kimyəvi tərkibi

Daha sonra hazırlanmış şərabın keyfiyyət göstəriciləri laboratoriya şəraitində klassik və müasir üsullarla təyin edilmişdir.

Bu zaman, biz şərabın tərkibini təşkil edən etil spirtinin miqdarını, titrlənən turşuluq dərəcəsini, uçucu turşuluğu, ekstraktivlik göstəricisini, şəkər qalığını və ümumi kükürdün miqdarını müəyyən etmiş oluruq (Cədvəl 2.).

№	Göstəricilər	Alınan nəticələr:
1.	Etil spirti, %	13,5
2.	Titrlənən turşuluq, q/dm^3	12,5
3.	Uçucu turşuluq, q/dm^3	1,2
4.	Ekstraktivlik, q/dm^3	54,1
5.	Şəkər qalığı, %	0,2
6.	Ümumi SO_2, q/dm^3	9

Cədvəl 2. Xindoqnı üzümündən hazırlanan şərabın keyfiyyət göstəriciləri

NƏTİCƏ

Tədqiqat işi zamanı ilk növbədə, müasir analiz metodlarından istifadə edərək, Xindoqnı üzüm sortundan alınan məhsulun şirəsində şəkərlilik və turşuluğun miqdarl müəyyən edilmişdir. Belə ki, şəkərliliyin miqdarı, Abşeron şəraitində yetişdirilən Xindoqnı üzüm sortunda 23,1 q/100 sm^3, turşuluq göstəricisi isə 5,3 q/dm^3 olmuşdur.

Ph göstəricisi 3,0 olaraq, norma daxilində qəbul edilmişdir.

Şirə çıxımı 73,3% olaraq orta şəkildə qiymətləndirilmişdir.

Şərabda aparılan analizlərin nəticələri müəyyən olunmuşdur, belə ki, etil spirti 13,5 %, titrlənən turşuluq 12,5 q/dm^3 , uçucu turşuluq 1,2 q/dm^3 olmuşdur.

Ekstraktivlik 54,1 q/dm^3, şəkər qalığı 0,2%, ümumi kükürd göstəricisi isə 9 q/dm^3 olaraq qənaətbəxş səviyyədə olduğu müəyyən edilmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əhmədov, Ə.İ. Azərbaycan üzümündən qidalı ərzaq məhsulları, monoqrafiya / Ə.İ. Əhmədov; Bakı: "Azərnəşr", -2009.
2. Mikayılov, V.Ş. Qida məhsullarının ümumi texnologiyası / V. Mikayılov, E. Fərzəliyev; - Bakı: Kooperasiya,- 2008.
3. Fətəliyev, H.K. Şərabın texnologiyası / H.K. Fətəliyev,- Bakı: Elm,- 2011.
4. Nəbiyev, Ə.Ə. Qida məhsullarının biokimyası / Ə.Ə. Nəbiyev, E.Ə. Moslemzadeh; - Bakı: Elm, -2008.
5. İbrahimov N.A. Azərbaycan şərablarının texnologiyası. Bakı, "Azərnəşr", -1998.

GÖYGÖL DÖVLƏT TƏBİƏT QORUĞU VƏ ƏTRAF ƏRAZİLƏRİN MAKROMİSET MÜXTƏLİFLİYİ

AYTAC ƏLİMƏMMƏDOVA
YAQUT YUSİFOVA
ELGÜN MUSTAFABƏYLİ
DİLZARƏ AĞAYEVA
Botanika İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, Badamdar 40, AZ1004 Bakı, Azərbaycan
email: aytacaydina@gmail.com

XÜLASƏ

Tədqiqat işində Göygöl və ətraf ərazilərdən mikoloji herbariyə depozit edilmiş və yeni toplanılmış makromiset nümunələri araşdırılmışdır. Tədqiqat ərazisi üzrə qeydə alınan Ascomycota və əsasən Basidiomycota şöbələrinə aid göbələklərin müxtəlifliyi morfoloji yanaşmalarla tədqiq edilmiş, ümumilikdə 24 növ təyin edilmişdir. Təyin olunan növlərdən 17-si tibbi əhəmiyyətli, beşi isə qida əhəmiyyətlidir. Onlardan 14 növ tədqiqat ərazisi üçün yenidir.

Açar sözlər: göbələk, herbari, qida əhəmiyyəti, qidalı mühit, tibbi

GİRİŞ

Göygöl rayonu Azərbaycanın qərb hissəsində, dağlıq və dağətəyi zonada yerləşir, dəniz səviyyəsindən ən yüksək nöqtəsi 3724 metr hündürlükdədir. Rayon ərazisinin 17.3 %-i meşələrdən ibarətdir ki, burada əsasən enliyarpaqlı (fıstıq, vələs, palıd) ağaclar üstünlük təşkil edir. Tədqiqat ərazisinin mikromisetlərinə dair məlumatlara ötən əsrin 50-80-ci illərinə aid çap işlərində və bütövlükdə Azərbaycanın aqarikal ksilotrof göbələklərin makromiset müxtəlifliyinə həsr olunmuş işlərdə istinad edilir [Гусейнов, 1972; Гусейнова, 1974; Садыхов, 2001]. Qeyd edək ki, AMEA Botanika İnstitutunun mikoloji herbarisində (BAK) rayon ərazisindən A.S. Sadıqov, E.S. Hüseynov, V.I. Ulyanişşev tərəfindən toplanılmış az sayda nümunələr də saxlanılmaqdadır. Makromiset müxtəlifliyinin ətraflı öyrənilmədiyini nəzərə alaraq, tədqiqat işində Göygöl Dövlət Təbiət Qoruğu və ətraf ərazilərdə yayılan bu qrup göbələklərə dair yeni növlərin araşdırılması qarşıya məqsəd olaraq qoyulmuşdur. Burada əldə edilən yeni, xüsusi ilə qida və tibbi əhəmiyyəti növlərə dair məlumatlar təqdim edilir.

TƏDQİQAT METODU

Tədqiqat obyekti kimi BAK-da saxlanılan herbari nümunələri təftiş olunmuş, həmçinin yeni nümunələrin təyinatı zamanı fenoloji əlamətlərlə yanaşı mikroskopik əlamətlər də qeydə alınmış, göbələklərin müşahidəsi işıq mikroskopu (Vert. A1, Carl Zeiss, Axio Imager, Germany) vasitəsilə yerinə yetirilmişdir. Bununla yanaşı, yerli və xarici ədəbiyyatlar [Elkhateeb, 2020; Sadıqov, 2007; Wasser, 2014] istifadə olunmaqla növlərin təyinatı aparılmışdır. Göbələk və bitki adları uyğun olaraq Index Fungorum (www.indexfungorum.org) və World Flora Online (www.worldfloraonline.org) bazalarına görə yoxlanılmışdır. Tibbi əhəmiyyətli növlərdən ikisi daha ətraflı araşdırılmaq üçün Səməni ekstraktlı aqar (SEA) mühitində, biokütlə çıxımını öyrənmək üçün isə M1 minimal (koloniyanın inkişafı üçün mümkün olan minimum qida maddələri olan) yarımsintetik mühitdə [Cohen et al., 2014] yetişdirilmişdir.

NƏTİCƏ

Yeni toplanılmış 30 nümunədən beşi cins və 15-i növ səviyyəsinədək təyin edilmişdir. Məlum olmuşdur ki, ötən illərdə aşkarlanan növlərlə müqayisədə, bir növ (*Hymenopellis radicata* (Relhan) R.H. Petersen) istisna olmaqla digər növlər tədqiqat ərazisi üçün yenidir. Qeydə alınan göbələklərdən Ascomycota şöbəsinin Pezizaceae fəsiləsindən *Peziza* Pers. və Tarzettaceae fəsiləsindən *Tarzetta* (Cooke) Lambotte cinsinə aid iki növ müəyyən edilmişdir. Basidiomycota şöbəsindən isə Agaricaceae fəsiləsindən *Agaricus* L., Boletaceae fəsiləsindən *Leccinellum* Bresinsky & Manfr. Binder, Cortinariaceae fəsiləsindən *Cortinarius* (Pers.) Gray, Crepidotaceae fəsiləsindən *Crepidotus* (Fr.) Staude, Fomitopsidaceae fəsiləsindən *Fomitopsis* P. Karst., Hydnaceae fəsiləsindən *Cantharellus* Adans. ex Fr., **HYMENOGASTRACEAE** fəsiləsindən *Psilocybe* (Fr.) P. Kumm., Hypoxylaceae fəsiləsindən *Jackrogersella* L. Wendt, Kuhnert & M. Stadler, Laetiporaceae fəsiləsindən *Laetiporus* Murrill, Marasmiaceae fəsiləsindən *Marasmius* Fr., Mycenaceae fəsiləsindən *Panellus* P. Karst., Polyporaceae fəsiləsindən *Cerioporus* Quél., *Daedaleopsis* J. Schröt., *Ganoderma* P. Karst., *Fomes* (Fr.) Fr., *Lentinus* Fr., *Piptoporus* P. Karst., *Polyporus* P. Micheli, *Trametes* Fr., Physalacriaceae fəsiləsindən *Hymenopellis* R.H. Petersen, Pluteaceae fəsiləsindən *Pluteus*

Fr., Psathyrellaceae fəsiləsindən *Coprinopsis* P. Karst., Russulaceae fəsiləsindən *Lactarius* Pers., *Russula* Pers., Tricholomataceae fəsiləsindən *Clitocybe* (Fr.) Staude, Xylariaceae fəsiləsindən *Xylaria* Hill ex Schrank cinslərinə aid ümumilikdə 22 növ müəyyən edilmişdir. Təyin olunan növlərdən 17-si tibbi əhəmiyyətli, beşi isə qida əhəmiyyətlidir. Bunlardan *Cantharellus cibarius* Fr., *Cerioporus squamosus* (Huds.) Quél., *Laetiporus sulphureus* (Bull.) Murrill, *Leccinellum pseudoscabrum* (Kallenb.) Mikšík xüsusilə yaxşı yeməli göbələklər hesab edilir. Həmçinin, tibbi əhəmiyyətə malik *Ganoderma lucidum* Karst. və *L. sulphureus* növlərinin inkişafı SEA mühitində, biokütlə çıxımı isə M1 minimal yarımsintetik mühitdə izlənilmişdir. Növbəti tədqiqat işlərində bu göbələklərin bioloji xüsusiyyətlərinin öyrənilməsi nəzərdə tutulur.

ƏDƏBİYYAT SİYAHISI

1. Sadıqov A.S. Azərbaycanın yeməli və zəhərli göbələkləri. Elm nəşriyyatı (**Kitab**). Bakı/ Azərbaycan, 2007, 109 s.

2. Cohen N., Cohen J., Asatianu M.D., Varshney V.K., Yu H.-T., Yang Y.-C., Li Y.-H., Mau J.-L., Wasser S.P. Chemical Composition and Nutritional and Medicinal Value of Fruit Bodies and Submerged Cultured Mycelia of Culinary-Medicinal Higher Basidiomycetes Mushrooms. International Journal of Medicinal Mushrooms, (**Jurnal məqaləsi**), 2014, 16(3): 273–291.

3. Elkhateeb W.A., Daba G.M., Elnahas M.O., Thomas P.W., Emam M. Metabolic profile and skin-related bioactivities of *Cerioporus squamosus* hydromethanolic extract. *Biodiversitas* (**Jurnal məqaləsi**), 2019, 21(10): 4732-4740.

4. Wasser S.P. Medicinal mushroom science: current perspectives, advances, evidences, and challenges. *Biomed J.* (**Jurnal məqaləsi**), 2014, 37: 345-356.

5. Гусейнов Э.С. Новые для микофлоры Азербайджана виды сумчатых и базидиальных грибов, собранных на плодовых растениях в лесах и садах. Известия Академии Наук Азербайджанской ССР (**Jurnal məqaləsi**), 1972, 3: 19-23.

6. Гусейнова Б.Ф. Сенториоз пучковой зелени в Азербайджане. Известия Академии Наук Азербайджанской ССР (**Jurnal məqaləsi**), 1974, 1: 48-50.

7. Садыхов А.С. Агарикальные ксилотрофные грибы Азербайджана. Известия Наук Азербайджанской (**Jurnal məqaləsi**), 2001, 4-6: 15-19.

AĞIR METAL İONLARININ BIRLƏPƏLİ BİTKİLƏRİN İNKİŞAF DİNAMİKASINA TƏSİRİ

B.ü.f.d. Əsədova Bəsti Qoşun qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Kimya –Biologiya fakültəsi ,Təbiət elmləri
basti.mirzoeva1984@gmail.com
Azərbaycan, Bakı

Xülasə

Müasir dövrdə torpaq ehtiyatlarının mühafizəsi, münbitliyinin qorunub saxlanılması, torpaqların rekultivasiyası və təkrar istifadəsi olduqca aktual məsələdir. Dünya əhalisinin fasiləsiz olaraq artması və məhsuldar torpaq ehtiyatlarının məhdudluğu, onlardan səmərəli istifadə olunmasını daha da aktual edir. Torpaq ehtiyatlarının mühafizəsi bu günün kəskin qlobal problemidir. Buna səbəb sənaye və kənd təsərrüfatının dayanmadan inkişafı, insanların enerji mənbələrinə olan tələbatının artması və s. aid edilə bilər. Nəticədə bəşəriyyət onu oksigen, su, qida, enerji ilə təmin edə biləcək dayanıqlı, yeni optimal landşaftların yaradılması qarşısında qalacaqdır.

Açar sözlər: 1.ağır metallar 2. çirklənmə 3.buğda 4.arpa 5.neqativ təsir

Giriş

Təbii sərvətin mənimsənilməsi, emalı və istifadəsi zamanı yaranan tullantılarla ətraf mühitin çirklənməsi biosferə antropogen təsirin ekoloji nəticələridir. Biosferin ilkin və təkrar tullantılarla çirklənməsi müşahidə olunur. Antropogen təsirin sənaye dövrü son 300 ili əhatə etməklə kulminasiya həddinə XX əsrdə

çatmışdır. Bu mərhələdə biosferdə bütün ekoloji komponentlər güclü antropogen təsirə məruz qalaraq qlobal ekoloji təzadlar yaranmışdır. XVII əsrə qədər biosferdə ekoloji tarazlıq qlobal şəkildə pozulmamış qalır, ətraf mühitin çirklənməsi isə lokal xarakter daşıyırdı. Lakin XVII əsrdən başlayaraq sənayenin surətli inkişafı və onun törəməsi olan güclü urbanizasiya biosferin sabitliyini pozan başlıca amilə çevrilmişdir. İqtisadiyyatın bütün sahələrinin, o cümlədən kənd təsərrüfatı istehsalının da sənayeləşdirilməsi və iri şəhərlərin yaranması biosferə antropogen təsiri artırmaqla XX əsrin ortalarından başlayaraq mühüm və çox ciddi ekoloji bəlalar yaratmağa başlamışdır.

Son illərdə temperaturun yüksəlməsi, yağıntıların azalması torpaqlarda kalsium karbonatların və zərərli duzların artmasına səbəb olmuşdur. [1].Torpaq məhlulunda oksigen azalır, ağır metallar isə torpaqda qalaraq təhlükəli formalar ala bilir. Ağır metallar, zəhərli kimyəvi maddələr, neft məhsulları, sənaye sahələrində istehsalat tullantıları torpaqlara və onda olan canlılara mənfi təsir edir. Son illərdə ağır metalların ətraf mühitdə və torpaqda toplanması ekoloji problemlərin yaranmasına səbəb olmuşdur. Ağır metalların torpaqda yayılmasının, torpağa və bitkilərə, o cümlədən canlılara təsirinin öyrənilməsinin böyük əhəmiyyəti vardır [2,3,4].

Tədqiqat metodu:

Tədqiqat obyekti kimi təcrübələrdə buğda və arpa bitkilərindən istifadə edilmişdir. Həmçinin duzluluq stressi yaratmaq üçün Na –izokationlu duzların (NaCl, Na_2SO_4, Na_2HCO_3, Na_2CO_3) müxtəlif qatılıqlarından istifadə edilmişdir. Fermentlərin aktivlik dərəcəsini tədqiq etmək üçün cücərtilərin 3-5 günlük inkubasiya müddəti izlənilmişdir. Temperatur şəraiti olaraq isə normal otaq temperaturu seçilmişdir.

NaCl, Na_2SO_4, Na_2HCO_3, Na_2CO_3 kimi duzlarla yaradılan şoranlıq faktorundan fərqli olaraq ağır metal duzları ilə çirklənmiş torpaqlarda yalnız məhdud sayda bitkilər davam gətirərək bitə bilir və bu yalnız o halda baş verir ki, onların torpaqda qatılıqları yuxarıda qeyd olunan duzlara nisbətən dəfələrlə az olsun.Təəsüflər olsun ki, ağr metal duzlarının metabolizmin müxtəlif nahiyələrinə və bu nahiyələrin həyata keçirilməsində həlledici rol oynayan fermentlərin fəailiyyətinə təsiri və ağır metal ionlarına qarşı hüceyrə metabolizminin həssas olan nöqtələrinin müəyyənləşdirilməsi sayəsində aparılan tədqiqat işləri hələki aktual olaraq qalır.Deyilənləri nəzərə alaraq ağır metal ionları duzlarından $CoCl_2$, $CoSO_4$, $CuCl_2$, $CuSO_4$, $PbSO_4$- ün müxtəlif qatılıqlarının buğda (Triticum aestivum) və arpa (Hordeum vulgare) toxumu cücərtilərinin böyümə dinamikasına və onların müxtəlif orqanlarının malik fermentin aktivlik dinamikasına təsiri tədqiq edilmişdir. Fermentin tədqiqat obyekti kimi seçilməsi təsadüfi xarakter daşımır və onun bitkilərin reduksiya potensialının formalaşmasında mühüm rol oynaması ilə bağlıdır. Bitkilərdə geniş yayılmış bu ferment malatın oksidləşdirici –reduksiya reaksiyasını kataliz etməklə hüceyrədə bir çox mühüm biokimyəvi proseslərin, o cümlədən , bitkilərin ətraf mühitin əlverişsiz şəraitinə qarşı cavab reaksiyasının yaranması və onların bu mühitə adaptasiya olunmasının həyata keçirilməsində vacib komponent kimi iştirak edən NADPH-ın sintezində iştirak edir.

Nəticə:

Aparılmış tədqiqatlar sayəsində müəyyən edilmişdir ki, ağır metal duzları hər iki bitki toxumu cücərtilərinin böyümə və inkişaf dinamikasına kəskin neqativ təsir göstərir.Bu neqativ təsirə buğda cücərtiləri arpa cücərtilərinə nisbətən daha həsasdır. Duzların qatılığı ilə onların cücərtilərə neqativ təsiri arasında düzmütənasiblik mövcuddur. Duzların nisbətən kiçik qatılıqlarında (0,001 M >) malik fermentin aktivliyi nəzərəçarpacaq dərəcədə induksiya olunur. İnduksiya prosesi cücərtilərin həm kök, həmdə gövdə sistemi toxumalarında baş verir.Duzların nisbətən yüksək qatılığı (0, 01 M<) fermentin aktivliyini kəskin inqibirləşdirir. Kök sistemi toxumaları gövdə sistemi toxumalarına nisbətən bu təsirə daha həssasdır. Duzlar arasında cücərtilərin böyüməsi və fermentin aktivliyinə ingibirləşdirici təsir effektinə görə yüksək olanı $CoCl_2$ duzu, zəif olanı isə $CuSO_4$ duzu olmuşdur.

Ədəbiyyat

1. Alcazar R., Altabella T., Marco F. and et al. Polyamines: molecules with regulatory functions in plant abiotic stress tolerance // Planta, 2010, Vol. 231, p.1237-124

2. Birkemeyer C., Luedemann A., Wagner C. et al. Metabolome analysis: the potential of in vivo labeling with stable isotopes for metabolite profiling // Trend Plant Sci., 2005, Vol. 23, p.28-33

3.Babayeva, T.M. Sumqayıt sənaye zonasında ağır metal çirklənmələrinin tədqiqi// Gənc Alimlərin I Beynəlxalq Elmi Konfransı, - Gəncə: - 2016, - s. 235-237. 24

4.Babayeva, T.M Multikulturalizm dəyərlərinə ekoloji aspektdən yanaşma//Multikulturalizm Konsepsiyasının Sosial-Fəlsəfi və Mədəni Əsasları mövzusunda Respublika elmi – nəzəri konfrans Materialları, - Bakı: - 2016, -s.294-298.

ОЦЕНКА ГЕНОТИПОВ ХЛОПЧАТНИКА НА СОЛЕУСТОЙЧИВОСТЬ ПРИ РАЗЛИЧНЫХ КОНЦЕНТРАЦИЯХ NaCl

ШАДЕР АЛИЗАДЕ
Бакинский Государственный Университет
Факультет биологии / Кафедра генетики
shader622@mail.ru
БАКУ, АЗЕРБАЙДЖАН

АННОТАЦИЯ

Было изучено устойчивость к солевому стрессу географически удаленных генотипов хлопчатника. Показатели всхожести генотипов хлопчатника в различных условиях засоления рассчитаны на основе разных показателей. Рассчитано влияние увеличения концентрации соли NaCl на индекс всхожести и отобраны устойчивые генотипы.

КЛЮЧЕВЫЕ СЛОВА: хлопчатник, солевой стресс, индекс всхожести

ВВЕДЕНИЕ

Засоление является основным фактором, ограничивающим урожайность сельскохозяйственных культур во всем мире. Засоление влияет на рост растений на всех стадиях развития; однако чувствительность варьируется от одной стадии роста к другой. Прорастание является критическим этапом растительного цикла, и улучшенная устойчивость к высокому засолению может улучшить стабильность продукции растений. Вода осмотически удерживается в растворах солей. Таким образом, концентрация соли полностью подавляет прорастание при более высоких уровнях или вызывает состояние покоя при низких уровнях, а также уменьшает впитывание воды из-за пониженных осмотических потенциалов среды и вызывает изменения метаболической активности [1].

Ограниченные земельные и водные ресурсы увеличивают спрос и требуют использования некачественных почв и вод для увеличения производства. Засоленность вредна для роста растений из-за специфических ионных эффектов, осмотических эффектов и индуцированного дефицита питательных веществ. Одним из простых способов решения проблемы засоления является использование генетического потенциала растений для их адаптации к неблагоприятным почвенным условиям [2].

Хлопок является одной из наиболее солеустойчивых культур [3].Солевой стресс вызывает ряд негативных последствий для роста хлопка, урожайности и качества волокна. Также важно отметить, что проростки хлопчатника чувствительны к засолению почвы с пороговым уровнем засоления 4 дСм/м, а на всхожесть, урожайность и качество его семян влияют различные уровни засоления.

По этой причине основной целью исследования является оценка устойчивости местных и интродуцированных генотипов хлопчатника в различных концентрациях соли NaCl по разным параметрам, выявление солеустойчивых генотипов, хранящихся в Национальном Генбанке.

МЕТОД ИССЛЕДОВАНИЯ

Исследования проводились в отделе Технических и кормовых растений Института Генетических Ресурсов НАНА. В качестве материала для исследования был выбран 31 географически удаленный генотип хлопчатника. Устойчивость к солевому стрессу было оценено в концентрациях соли NaCl 50 мМ, 100 мМ, 150 мМ и 200 мМ. Количество проросших семян было фиксированно ежедневно в течение 10 дней. На основе этих показателей, были рассчитаны несколько параметров всхожести для характеристики солеустойчивости, включая конечный процент всхожести (%), коэффициент скорости прорастания, индекс скорости прорастания, индекс всхожести и среднее время прорастания [4]. Полученные результаты были переведены в электронные таблицы Excel и систематизированы, а статистическая оценка результатов проведена с помощью программного обеспечения SPSS (версия 25).

ВЫВОД

По результатам кластерного анализа местные генотипы Агдаш-3, АП-317, Карабах-11 и Карабах-12, а также интродуцированные генотипы Наваи-9, Кыргызстан-174, Ташкент-2 и Флэш показали

самые высокие показатели устойчивость к солевому стрессу. Индекс всхожести этих генотипов был 340 и выше.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Michael P. Fuller, Jalal H. Hamza, Hail Z. Rihan, and Mohammad Al-Issawi, Germination of Primed Seed under NaCl Stress inWheat International Scholarly Research Network, ISRN Botany, **(Статья журнала),** Volume 2012, 5 pages doi:10.5402/2012/167804
2. Z. Bibi, N. U. Khan, A. Latif, M. J. Khan, G. Manyuan, Y. Niu, Q. U. Khan, M. J. Khan, I. U. Khan, S.Shaheen and G. U. Sadozai, Salt tolerance in upland cotton genotypes to NACl salinity at early growth stages, The Journal of Animal & Plant Sciences, **(Статья журнала),** 26(3): 2016, Page: 766-775
3. Maas, E.V. (1990) Crop Salt Tolerance. In: Tanji, K.K., Ed., Agricultural Salinity Assessment and Management, ASCE Manual Reports on Engineering Practices, **(Статья журнала),** Vol. 71, ASCE, New York, 262-304.
4. Kader MA. 2005. A comparison of seed germination calculation formulae and the associated interpretation of resulting data. Journal and Proceeding of the Royal Society of New South Wales, **(Статья журнала),** 138: 65–75.

QEYDƏ ALINAN GÖBƏLƏK NÖVLƏRİNİN AYRI-AYRI ƏRAZİLƏRİN MİKOBİOTASININ FORMALAŞMASINDA İŞTİRAK KOMBİNASİYASI

Balaxanova Qumru Vasif qızı
Azərbaycan Dövlər Pedaqoji Universiteti
Kimya –biologiya fakultəsi
19_bq_91@mail.ru
Bakı, Azərbaycan

XÜLASƏ

Elmi məqalədə tədqiqatlar Bakı şəhərinin tədris müəssisələrinin, xəstəxanaların və istirahət parklarının ərazisilərində aparılmışdır. Ümumilikdə tədqiqatların gedişində 300-dən çox nümunə götürülümüşdür. Tədqiqatların göstərilən vəzifələrin də həyata keçirilməsi zamanı Bakı şəhərinin seçilmiş ərazilərinin mikobiotasının say və növ tərkibinə görə müəyyənləşdirilməsi, seçilmiş ərazilərdə yayılması qeydə alınan göbələklərin rastgəlmə-tezliyinə, ekotrofiki əlaqələrinə görə qiymətləndirilməsi, seçilmiş ərazilərin mikobiotasının say və növ tərkibinə fəsil amilinin təsirnin tədqiq edilməsi, Bakı şəhərinin seçilmiş ərazilərində yayılması qeydə alınan göbələklərin ekoloji funksiyalarda iştirak payını qiymətləndirilmişdir.
Aydın olmuşdur ki, təhsil müəssisələrinin, xəstəxanaların, park və bağların yerləşdiyi ərazilərdən götürülən torpaqlarda ümumilikdə 71 göbələk növünün yayılması müəyyən edilmiş və onların sayının fəsillərdən asılı olaraq dəyişilməsi müəyyən edilmişdir. Göstərilmişdir ki, təyinatından asılı olaraq şəhər ərazisinin mikobiotasının formalaşmasında həm universal, həm nisbi spesifik, həm də spesifik növlər də iştiarak edir. Tədqiq edilən ərazilərdə qeydə alınan göbələklər arasında toksigenlərin xüsusi çəkisi kifayət qədərdir ki, bu da onalrın fəaliyyətlərinin məhdudlaşdırlmasına istiqamətlənmiş profilaktik tədbirlərin görülməsinin zəruri olmasını qeyd etməyə imkan vermişdir.

Açar söz- göbələk, mikobiota, tədqiqat.

GİRİŞ

İnsanların yaşadığı və antropogen mühit kimi xarakterizə olunan yerlərdə daimi təmasda olduğu komponentlərdən biri də göbələklərdir. Eyni zamanda insan orqanizminə miqrasiya edən mikroskopik göbələklər, immun sisteminin vəziyyətindən asılı olaraq, müəyyən xəstəliklər də törətmək qabiliyyətinə malikdirlər. Odur ki, yaşadığımız dövrdə ekoloji şəraitin kəskin dəyişilməsi ilə əlaqədar olaraq, müxtəlif təyinatlı ərazilərin, xüsusən də şəhər mühitində formalaşan mikobiotanın taksonomik strukturunun və onların ekoloji xüsusiyyətlərinin öyrənilməsi olduqca zəruri bir məsələyə çevrilmişdir. Dünyanın bir çox yerlərində bu istiqamətdə xeyli vaxtdır tədqiqatlar aparılır. Bu tədqiatların nəticəsində müxtəlif təyinatlı obyektlərdə formalaşan mikobiotanın say və növ tərkibini öyərinlmiş, insanların yayşadığı, işlədiyi,

istirahət etdikləri və müxtəlif zaman ərzində olduğu yerlərin mikobiotasınının həm say, həm də növ tərkibinə görə mövsümi xarakter daşıması öz təsdiqini tabıbdır.

Şəhər ərazilərinin torpaqlarının vəziyyəti xüsusi diqqət tələb edir, belə ki, şəhər nəqliyat, sənaye, inşaat işlərinin və s. torpaqlara təsiri gərginlik yaradır. Bunun da nəticəsində torpaqların bütün komponentləri(canlı və cansız, üzvi və qeyri-üzvi) dəyişikliyə məruz qalır ki, nəticə də şəhər mühitində torpaq örtüyü mühüm ekoloji funksiyaları yerinə yetirmək imkanından məhrum olur[1].

Qeyd etmək lazımdır ki, torpaqların mikobiotasının formalaşmasında əsasən bakteriyalar, aktinomisetlər, göbələklər, eləcə də ibtidailər(protistlər) iştirak edir.

Heterotrof orqanizmlərin bir qrupunu təşkil edən göbələklərin təbiətdə geniş yayılması və müxtəlif ekoloji funksiyaların yerinə yetirilməsində aparılan çoxsaylı tədqiqatlarda təsdiqini tapan reallıqlardandır [2]. Belə ki, göbələklər üzvi maddənin olduğu həm ekstremal şəraitə malik olan biotoplarda, həm də insan fəaliyyəti nəticəsində transformasiya olunmuş antropogen mühitlərdə yayılma qabiliyyətinə malikdirlər.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqatların gedişində aşağıda göstərilən vəzifələrin də həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir:

- Bakı şəhərinin seçilmiş ərazilərinin mikobiotasının say və növ tərkibinə görə müəyyənləşdirilməsi;
- Seçilmiş ərazilərdə yayılması qeydə alınan göbələklərin rastgəlmə-tezliyinə, ekotrofiki əlaqələrinə görə qiymətləndirilməsi;
- Seçilmiş ərazilərin mikobiotasının say və növ tərkibinə fəsil amilinin təsirnin tədqiq edilməsi;
- Bakı şəhərinin seçilmiş ərazilərində yayılması qeydə alınan göbələklərin ekoloji funksiyalarda iştirak payının qiymətləndirilməsi.

TƏDQİQAT METODU

Tədqiqatlarda analiz üçün nümunələr Bakı şəhərinin tədris müəssisələrinin, xəstəxanaların və istirahət parklarının ərazisilərindən aparılmışdır. Ümumilikdə tədqiqatların gedişində 300-dən çox nümunə götürülümüşdür. Nümunənin götürülməsindən göbələklərin növ tərkibinin müəyyənləşdirilməsinə kimi həyata keçirilən işlər aşağıdakı ardıcıllıqla olmuşdur:

1. Götürülən torpaq nümunələrindən 10% suspenziya hazırlanır, ya birbaşa, ya da durulaşdırılaraq(10 və 100 dəfə) içərisində Aqarlaşdılmış səməni şirəsi(ASŞ), Saburo aqarı(SA), aqarlaşdırlmış Çapek mühiti(AÇM) və s. kimi qidalı mühit olan Petri çaşkasına keçirilir və 3-5 gün müddətinə temperaturu 26-28 ^{0}C olan termostata qoyulur;

2. Petri çaşkasında olan göbələklərə aid hissəsciklər bitməyə başlayandan sonra, vizual olaraq oxşar olan koloniyalar yeni qidalı mühit olan çaşkaya keçirilir və proses bir növə aid koloniya alınana kimi davam etdirilir. Koloniyanın təmizliyinə mikroskopla nəzarət olunur.

3. Alınan təmiz kulturalar növə kimi identifikasiya olunur ki, bu prosesdə göbələklərin kultural-morfoloji və fizioloji-biokimyəvi xüsusiyyətlərinə əsasən tərtib edilən təyinedicilərə əsasən həyata keçirilir.

NƏTİCƏ

1. Bakı şəhərinin ərazisində yerləşən və müxtəlif məqsədlərdə istifadə edilən ərazilərin torpaqlarının mikobiotasının formalaşmasında həqiqi göbələklərin 71 növünün iştirak etməsi müəyyən edilmişdir.
2. Müəyyən olunmuşdur ki, mikobiotanın formalaşmasına ərazinin təyinatı da təsir edir və ayrı-ayrı ərazilərin mikobiotasının formalaşmasında fərqli saylarla həm spesifik, həm nisbi spesifik, həm də universal növlər iştirak edir. Belə ki, universal növlərin sayı 29-ə, nisbi spesifik növlərin sayı 16-ə, spesifik növlərin sayı isə 26-ə bərabərdir.
3. Aydın olmuşdur ki, tədqiq edilən ərazilərdə qeydə alınan növlərin Serensenin oxşarlıq əmsalına görə analizi tədris müəssisələrinin ərazilərinə xas mikobiota ilə parkların mikobiotasının daha uzaq, tədris müəssisələri ilə xəstəxanalarınkının isə nisbətən yaxındır.
4. Müəyyən edilmişdir ki, tədqiq edilən ərazilərin mikobiotasının formalaşmasında iştirak edən göbələklərin sayı ən çox iyun ayında(yayın əvvəli), ən az isə dekabr (qışın əvvəli) aylarında müşahidə olunur ki, bu da özünü həm göbələklərin say, həm də növ tərkibində biruzə verir.
5. Müəyyən edilmişdir ki, qeydə alınan göbələklərin tədqiq edilən ümumi ərazilər üzrə rastgəlmə tezliyinə görə də fərqlənirlər, belə ki, qeydə alınan göbələklərdən 7 növü dominant, 31 növü tez-tez rast gəlinən və 27 növü isə təsadüfi və nadir növlərə xas olan rastgəlmə tezliyi ilə xarakterizə olunurlar.
6. Qeydə alınan göbələklər arasında fitopatogenlərin, eləcə də indiqator növlərin olması onların həm biomüxtəlifliyin tənzimlənməsində, eləcə də müəyyən proseslərin indikasiya prosesində də fəal iştirak etməsini qeyd etməyə imkan verir.

ƏDƏBİYYAT
1. Ахапкина, И.Г., Глушакова, А.М., Антропова, А.Б. и др. Микробиота пыли жилых помещений разного назначения: перспектива оценки аллергенной и пирогенной нагрузок помещений.// Гигиена и санитария, 2019, 98 (4):380-387
2. Бахшалиева, К.Ф. Экобиологические особенности токсигенных грибов распространенных в Азербайджане. Автореферат диссертации д.б.н. -Баку, 2017, 43с.
3. Методы экспериментальной микологии./ Под. ред. Билай В.И. -Киев: Наукова думка, -1982, -500с.

ABŞERON BÖLGƏSİNDƏ QOYUNLARDA MONİEZİOZ TÖRƏDİCİLƏRİNİN FƏSİLLƏR ÜZRƏ YAYILMA DİNAMİKASI

AYSEL AĞAYEVA
Sumqayıt Dövlət Universiteti
Kimya və biologiya
rmeshediyeva@gmail.com
SUMQAYIT

XÜLASƏ

Qoyuçuluğun inkişafına zərər vuran helmintozlar içərisində moniezioz ilk sıralardadır. Tədqiqatlar nəticəsində aşkar olunmuşdur ki, Abşeron bölgəsində monieziozun törədiciləri iki növdür- *Moniezia expansa* və *Moniezia benedeni.* Qarşıya qoyulan məqsədlərdən biri parazitin ilin fəsillərindən asılı olaraq yayılmasının öyrənilməsi olmuşdur. Tam helmintoloji yarma müayinəsinə əsasən yüksək yoluxma yaz və yay aylarında müşahidə edilir ki, bu da onların aralıq sahibləri olan oribatid gənələrinin miqrasiyasından asılıdır. *Moniezia expansa* ilə yoluxma yazda 25,7%, payızda 31,4%, ümumi yoluxma 18,6%, *Moniezia benedeni* ilə isə yazda 20,6%, payızda 22,7%, ümumi yoluxma 16,7% olmuşdur. Oribatid gənələr yaz və payız fəsillərinə bitkilərin yaşıl hissələrinə miqrasiya edirlər. Belə otlaqlarda otarılan qoyunlar qida ilə gənələri qəbul etməklə asanlıqla parazitə yoluxa bilirlər.

AÇAR SÖZLƏR: moniezioz, *M.expansa, M.benedeni*, ekstensivlik, oribatid gənələr

GIRIŞ

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində kənd təsərrüfatı heyvanlarının, həmçinin də xırdabuynuzlu heyvanlardan olan qoyunların özünəməxsus yeri var. Ancaq unutmamalıyıq ki, kənd təsərrüfatı heyvanlarında hələ də xəstəliklər, həm də helmintozlar müşahidə olunmaqdadır. Bu hal isə yoluxmuş heyvanlarda məhsuldarlığın kəskin azalması, qoyun ətinin keyfiyyətinin pisləşməsi, xəstəliyin ağır gedişində isə heyvanların çəkisinin azalması ilə müşahidə olunur. Ona görə də ekoloji dəyişikliklər müşahidə olunan hazırki dövrdə kənd təsərrüfatı heyvanlarının əsas helmintoz törədicilərinin bioekoloji xüsusiyyətlərinin öyrənilməsi aktual məsələlərdəndir. Bütün bunları nəzərə alaraq Azərbaycanda Abşeron bölgəsində fərdi qoyunçuluq təsərrüfatlarında elmi tədqiqatlar aparılmışdır.

Azərbaycan Respublikası II dəfə müstəqillik qazandıqdan sonra ölkədə şəxsi heyvandarlıq təsərrüfatları inkişaf etməyə başladı. Əhalinin ən sıx məskunlaşdığı ərazi olan Abşeron bölgəsində əsas məşğuliyyət qoyunçuluqdur. Abşeron bölgəsində tam helmintoloji yarma üsulundan istifadə etməklə ərazidə 18 növ helmint aşkar edilmişdir: *Fasciola hepatica, F.gigantica, Dicrocoelium lanceatum, Paramphistomum cervi*, sestodlar- *Moniezia expansa, M.benedeni, Taenia hydatigena, T.ovis, Multiceps multiceps, Echinococcus granulosus,* nematodlar- T*richocephalus ovis, Chabertia ovina, Haemonchus contortus, Protostrongylus hobmaieri, P.kochi, P.railleti, Dictyocaulus filaria, Mullerius capillaris.* Bu növlərdən *Moniezia expansa* və *M.benedeni növləri* monieziozun törədiciləridir.

Sinif: *Cestoda* Rudolphi, 1808
Dəstə: *Cyclophyllidea* Beneden et Braun, 1900
Yarımdəstə: *Anoplocephalata* Skrjabin, 1933
Fəsilə: *Anoplocephalidae* Cholodkowsky,1902

Cins: *Moniezia R.* Blanchard, 1891
Növ 1*: Moniezia expansa* (Rudolphi, 1810) Blanchard, 1891
Növ 2*: Moniezia benedeni* (Moniez, 1879) R. Blanchard, 1891
Əsas sahibləri- əhli və vəhşi gövşəyən heyvanlar; aralıq sahibləri- oribatid (zirehli) torpaq gənələridir. İndiyə qədər 80- ə qədər oribatid növünün monieziyalar üçün aralıq sahib olması müəyyən edilmişdir. Lokalizasiyası: əsas sahiblərin nazik bağırsağında, sürfə mərhələsi isə aralıq sahiblərin bədən boşluğunda parazitlik edir. Yayıldığı yerlər: çox geniş areala malik olan növlərdir [2].

TƏDQIQAT METODU

Tədqiqatlar Abşeron bölgəsində aparılmışdır (şəkil 1) [5]. Abşeron bölgəsinin kənd və qəsəbələrinin müxtəlif qoyunçuluq təsərrüfatlarından müxtəlif vaxtlarda toplanmış nümunələr AZ.BETİ-nin Parazitologiya laboratoriyasında tam helmintoloji yarma metodu əsasında tədqiq edilmişdir [4]. Tədqiqatlar 771 baş qoyun üzərində aparılmışdır. Bu məqsədlə 771 baş kəsilmiş və ölmüş qoyundan tam helmintoloji yarma müayinəsilə əldə edilən nəticələr yaz (175 baş), yay (183 baş), payız (194 baş) və qış (219 baş) fəsilləri olmaqla qruplaşdırılıb təhlil edilmişdir.

Şəkil 1. Tədqiqatların aparıldığı Abşeron bölgəsi

NƏTICƏ

Şəxsi tədqiqatlar zamanı ölmüş və ya kəsilmiş qoyunları müayinə edərkən əksəriyyətində qarın hissənin böyüyərək sallanmasını, yarma zamanı bağısaqlarda keçməməzliyin olmasını, selikli qişaların solğunlaşmasını, həmçinin tövlə və tövlətrafı sahələrdə nəcislərdə monieziyaların buğumlarının olmasını müşahidə etdik.

Qoyunların *M.expansa* ilə yoluxması ilin fəsilləri üzrə tədqiq edilmişdir. Alınmış nəticələr cədvəl 1-də verilmişdir.

İlin fəsilləri	Tədqiq edilmişdir (baş sayı)	Yoluxmuşdur (baş sayı)	Yoluxmanın Ekstensivliyi (%)
Yaz	175	45	25,7
Yay	183	22	12,0
Payız	194	61	31,4
Qış	219	16	7,3
Cəmi:	**771**	**144**	**18,6**

Cədvəl 1. Qoyunların ilin fəsilləri üzrə *M.expansa* ilə yoluxması (tam helmintoloji yarmaya əsasən)

Cədvəldən göründüyü kimi *M.expansa* ilə yüksək yoluxma ilin yaz (25,7 %) və payız (31,4 %) aylarında, ən aşağı yoluxma faizi isə qış fəsilində (7,3 %) müşahidə edilmişdir. Ümumi yoluxma 18,6 % təşkil etmişdir.

Qoyunların *M.benedeni* ilə yoluxması ilin fəsilləri üzrə tədqiq edilmişdir (cədvəl 2).

İlin fəsilləri	Tədqiq edilmişdir (baş sayı)	Yoluxmuşdur (baş sayı)	Yoluxmanın ekstensivliyi (%)
Yaz	175	36	20,6
Yay	183	25	13,7
Payız	194	44	22,7
Qış	219	24	10,9
Cəmi	**771**	**129**	**16,7**

Cədvəl 2. Qoyunların ilin fəsilləri üzrə *M. benedeni* ilə yoluxması (tam helmintoloji yarmaya əsasən)

Cədvəldən göründüyü kimi *M. benedeni* ilə ən yüksək yoluxma faizi yaz (20,6 %) və payız (22,7 %) fəsillərində, zəif yoluxma isə qış (10,9 %) və yay fəsillərində (13,7 %) aşkar edilmişdir.

Qeyd edildiyi kimi monieziyaların aralıq sahibləri olan oribatid gənələri ilin sərin aylarında bitki qruplaşmalarının intensiv inkişaf dövrlərində- yaz və payız fəsilində bitkilərin yaşıl hissələrinə miqrasiya edirlər ki, bu da otlaqlarda qoyunların otarılması zamanı onların yoluxmasına səbəb olur. Yayda havanın temperaturunun yüksəlməsi və bitkilərin yerüstü hissələrinin quruması ilə, qışda isə havanın temperaturunun enməsi və bitki assosasiyalarının yerüstü hissələrinin quruması ilə əlaqədar gənələr torpağın dərin qatlarına miqrasiya edir, bununla da qoyunaların monieziyalarla yoluxma faizi aşağı düşür. Beləliklə, tədqiqat nəticəsində hər iki növün Abşeron bölgəsində yaz və payız fəslinin üstünlüyü ilə geniş yayılması müəyyən edildi (şəkil 2).

Monieziyaların aralıq sahibləri olan oribatid gənələr Abşeron bölgəsi ərazilərində çox geniş yayılmışdır. Fermaətrafı otlaq sahələrində, arx və çayların ətrafındakı otlaqlarda oribatid gənələrinə külli miqdarda rast gəlinir.

Apardığımız müşahidələrin nəticələri göstərir ki, monieziyaların təbiətdə yayılmasında əsas rolu gövşəyən ev heyvanları, xüsusilə qoyunlar oynayır. Çünki qoyunların sayı qaramal, camış və digər gövşəyən ev heyvanlarının sayından qat-qat çoxdur. Onlar il boyu otlaqlarda otarılırlar. Buna görə də monieziyaların il boyu inkişafı qoyunlarla oribatid gənələri arasında dövr edir [1,3].



Şəkil 2. Bağırsağlardan toplanmış moniezioz törədiciləri (şəxsi tədqiqatlar zamanı çəkilmişdir)

ƏDƏBIYYAT SIYAHISI

1. Ağayeva, A.N. Qoyunların helmintlərinin bio-ekoloji xüsusiyyətlərinin öyrənilməsi // Ekologiya və həyat fəaliyyətinin mühafizəsi: nailiyyətlər, problemlər. Respublika elmi konfransının materialları, - Sumqayıt: SDU, - 12-13 mart, - 2020, - c.108-111
2. Azərbaycanda kənd təsərrüfatı heyvanlarının helmint və helmitozlarının zonalar üzrə yayılması və helmintozlarla mübarizənin gücləndirilməsi üçün təkliflər / redaktor S.M.Əsədov. – Bakı: Elm, - 1975. – s.45-46
3. Агаева, А.Н., Алиев, Ф.Т Распространение возбудителей мониезиоза по временам года на территории Апшерона Азербайджанской Республики // Сборник научных трудов международной научно-практической конференции “Современные тенденции и успехи в борьбе с зооантропонозами сельскохозяйственных животных и птиц”, - Махачкала: - 3-4 декабря, - 2020, - с. 14-18
4. Боев, С.Н., Соколова, И.В, Панин, В.Я. Гельминты копытных животных Казахстана: [в 2 томах] / С.Н.Боев, И.В.Соколова, В.Я.Панин. - Алма-Ата: АН Казах. ССР, - т. 2. – 1962. - с. 373
5. https://www.azerbaijans.com/uploads/xeritdasde600px-Azerbaijan_economic_regions

ABŞERON YARIMADASININ SƏHRA VƏ YARIMSƏHRA BİTKİLİYİNDƏ RAST GƏLİNƏN PAXLALI BİTKIİLƏR VƏ ONLARIN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ

MƏMMƏDOVA ZÜLFİYYƏ CƏLAL QIZI
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
zulfiyya_m@rambler.ru
BAKI-AZƏRBAYCAN, Z.XƏLILOV-23, AZ 1148

MƏLİKOVA TÜRRƏXANIM MİRZƏBABA QIZI
Bakı Dövlət Universiteti,
Biologiya fakültəsi
turremelikova@gmail.com
BAKI- AZƏRBAYCAN, Z.XƏLİLOV-23, AZ 114

XÜLASƏ

Tədqiqat zamanı Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilər və onların təsərrüfat əhəmiyyətləri öyrənilmişdir. Kənd təsərrüfatının zəruri məhsulları olmaqla insanların qidasının və məhsuldar heyvandarlığın inkişafının əsasını təşkil edən, tərkibi zülallarla zəngin olan paxlalı bitkilər dünyada ən geniş yayılan bitkilərdir. Azərbaycan Respublikasının hər yerində rast gəlinən paxlalı bitkilər kimi, Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilər də təsərrüfatda istifadə olunan qiymətli bitkilərdir. Tədqiqat zamanı Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin təsərrüfat əhəmiyyəti ilə yanaşı, onların bioekoloji xüsusiyyətləri də öyrənilmiş və onlara iqlim dəyişikliklərinin, o cümlədən antropogen amillərin təsiri də aydınlaşdırılmışdır. Zülallarla zəngin paxlalı bitkilər dənli bitkilərin sələfi olmaqla böyük aqrotexniki əhəmiyyətə malik olub, onların əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması, o cümlədən təsərrüfat əhəmiyyətlərinin öyrənilməsi baxımında aktuallıq kəsb edir.

AÇAR SÖZLƏR: iqlim, zülal, selülloza, saponin, antopogen.

GIRIŞ

Şimaldan Sumqayıt çayla, Şimal - şərq tərəfindən Xəzər dənizi ilə həmsərhəd olan Abşeron yarımadasının uzunluğu Şimaldan qərbə 80 km, ən geniş eni 27 km, orta hissəsi 22 km-dir. Yarımadanın ümumi sahəsi 2050 kvadrat km-dır. Yarımadanın şimal - qərb hissəsi təpələrlə, cənub - qərb tərəfi isə hündür layla (300-350 m) əhatə olunur. Yarımadanın şimal tərəfində olan düzənlik dəniz səviyyəsindən aşağıdadır. Abşeron yarımadasının relyefinin formalaşmasında və burada səhra iqlimi yaradılmasında xəzri küləklərinin böyük rolu vardır.

Yarımadanın sahəsinin kiçik olmasına baxmayaraq burada müəyyən temperatur dəyişikliyi hökm sürür. Bunların əmələ gəlməsində başlıca səbəblərdən biri relyef, digəri isə dənizdən yerləşmə məsafəsidir. Abşeron üçün yarımsəhra və quru bozqırların mülayim isti iqlim tipi xarakterikdir.Yarımadanın 3 tərəfdən dənizlə əhatə olunması, burada kontinentallığın azalmasına çox təsir edir.

Məlumdur ki, torpaq-iqlim şəraiti bitkinin böyüməsinə və inkişafına, eyni zamanda onda gedən həyati proseslərə təsir edən mühüm amillərdən biridir. Abşeronun torpağı yarımsəhra tipinə aiddir. Yarımadada mövcud olan qumsal səhra, halofitli səhra, çala-çəmən və su-bataqlıq bitkilikləri içərisində səhra və yarımsəhra bitkiliyi özünəməxsus yer tutur. Yarımadanın təbii bitki örtüyündə üstünlük təşkil edən efemer bitkiçilikdir (efemerlər və efemeroidlər), yaz inkişaf tsikli bitki növlərinin üstünlüyü ilə diqqəti cəlb edir [3,5].

Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində ən geniş arealda rast gəlinən təbii qış otlaq sahələri kənd təsərrüfatının inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb edir. Bu təbii qışotlaqlarının formalaşmasında, yem balansının artırılmasında isə birillik və çoxillik paxlalı bitkilər xüsusi ilə mühüm rola malikdirlər. Bu baxımdan tədqiqat zamanı Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilər və onların təsərrüfat əhəmiyyətlərinin öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.

TƏDQIQAT METODU

Tədqiqatın materialı olaraq Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin təsərrüfat əhəmiyyətlərinin öyrənilməsi olmuşdur. Tədqiqat zamanı ərazidə rast gəlinən paxlalı bitkilərin flora konspekti tərtib edilmiş, bioekoloji xüsusiyyətləri öyrənilmiş, eyni zamanda onların həyati formaları, fenofazaları, ekoloji qrupları, coğrafi və areal tipləri aydınlaşdırılmış, çöl tədqiqat işləri zamanı isə ümumi qayda ilə qəbul edilmiş geobotaniki metodlardan istifadə edilmişdir [1,2,4,5].

NƏTICƏ

Tədqiqat zamanı Abşeron yarımadasınn səhra və yarmsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərdən adi dəvətikani (*Alhagi pseudalhagi* (Bieb.) Fisch), Bakı gəvəni (*Astragalus bakuense* Bunge.), Odlu gəvən (*Astragalus igniarius* M.Pop), Xəzər gəvəni (*Astragalus caspica Bieb.),* kiçik qarayonca (*Medicago minima* (L.) Bartalini), əkin qarayoncası (*Medicago sativa* L.), şirin biyan (*Glycyrhizzia glabra* L.) və s. növlərin təsərrüfat əhəmiyyətləri öyrənilmişdir.

Təsərrüfat əhəmiyyətləri öyrənilən növlərdən şirin biyan (*Glycyrhizzia glabra* L.) mürəkkəb biokimyəvi tərkibə malik dərman, yem və boya bitkisidir. Müxtəlif məqsədlər üçün əkilib becərilir. Şirin biyanın müalicəvi təsiri hələ çox qədimdən insanlara məlum olmuşdur. Hazırkı dövrdə şirinbiyandan hazırlanan preparatlardan bronxit, göy öskürək, vərəm, mədə yaraları, zəhərlənmə əleyhinə, xüsusən ət və göbələk zəhərlənmələrinə qarşı istifadə olunur. Əsasən kökündən istifadə olunur.Şirinbiyan kökündən hazırlanmış cövhəri içərkən orqanizm cavanlaşır. Bundan başqa, ondan ilanvurma, əqrəbsancma, quduzluq əleyhinə də istifadə olunur. Şirinbiyandan maddələr mübadiləsinin nizama salınmasında, iflic – sinir xəstəliklərinin müalicəsində istifadə edilir. Şirinbiyan kökündən elmi təbabətdə sirop və müxtəlif qalen preparatları hazırlanır. Son illərdə immun çatışmazlığı kimi çətin müalicə olunan xəstəliyin müalicəsində yaxşı nəticələr verir.

Təsərrüfat əhəmiyyətləri öyrənilən adi dəvətikanı (*Alhagi pseudalhagi* (Bieb.) Fisch) bitkisinə Abşeron yarımadasının demək olar ki, hər yerində rast gəlmək mümkündür [2,3,5]. Lakin son illərdə Abşeronun ekoloji mühitinin dəyişməsi, daha doğrusu, suyun ümumi səviyyəsinin artması, eyni zamanda tikanlarına görə məhv edilən bu qiymətli bitkinin tədricən yoxa çıxmasına gətirib çıxarmaqdadır. Bitkinin tərkibində flavonoidlər, saponinlər, şəkər, aşı maddələr, C, K və B qrupu vitaminləri, karotin, ursol turşusu və s. maddələri mövcuddur. Eyni zamanda adi dəvətikanının biokimyəvi tərkibi proteinlə zəngindir. Bu bitkinin yazın əvvəlində, cavan zoğları qoyun-keçilər və dəvələr tərəfindən yaxşı yeyilir. Çiçəklənmə mərhələsindən sonra onun gövdəsi və iynəyəbənzər yarpaqları sərtləşir və pis yeyilir. Adi dəvətikanını dəyərli yem bitkisi kimi qış otlaqlarının məhsuldarlığının artırılmasında geniş istifadə etmək olar.

Əkin qarayoncası (*Medicago sativa* L.) kənd təsərrüfatında geniş yayılmaqla çox məhsuldar yem bitkisidir [2,3,5]. Qabaqcıl təsərrüfatların təcrübəsi göstərir ki, il ərzində əkin qarayoncasından 4-5 çalım aparmaqla hektardan 1000-1500 sentnerədək yaşıl kütlə və ya 200-300 sentner quru ot məhsulu götürmək olar. Yüksək məhsuldarlıq ilə yanaşı yoncadan həm biçənək kimi istifadə etmək olur, həm də ondan yüksək keyfiyyətli quru ot, senaj, ot unu, briket və digər növdə yemlər hazırlanır. Əkin qarayoncasının 1 kq quru maddəsində 105-180 qr həzm olunan protein, 10-20 qr kalsium, 3-8qr fosfor, kifayət qədər mikroelementlər (mis, sink, manqan, kobalt, yod selen), 40-250 mq karotin olur. Əkin qarayoncasının zülal tərkibi süddə zülalın miqdarını və süd məhsuldarlığını artırır. Xam selülloza isə həzmi və gövşəmə fəaliyyətini yaxşılaşdırır. Yonca heyvanlar üçün təkcə yem yox, həmdə müalicəvi əhəmiyyətlidir. Əkin qarayoncasının kənd təsərrüfat əhəmiyyəti olduqca böyükdür. Bu bitki heyvandarlığın inkişaf etdirilməsi, məhsuldarlığın artırılması və yem bazasının möhkəmləndirilməsində mühüm rol oynayır.

Tədqiqatlardan aydın olmuşdur ki, Abşeron yarımadasınn səhra və yarmsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin otu, samanı, silosu zülalla, yağlarla, həmçinin küllü miqdarda mineral maddələr və vitaminlərlə (A,B,C,D,E) zəngindir. Belə tərkib də bu bitkilərin yüksək qidalılığa və yem keyfiyyətinə malik olduğunu sübut edir. Bu bitkilər nəinki, kənt təsərrüfatı əhəmiyyətli bitkilər olub, eyni zamanda yüngül sənaye üçün də xammal hesab olunurlar. Belə ki, onlardan boya, bal, yarma, un, yağ, bitki kazeini, süni sap, ərzaq ləvazimatları və s. əldə oluna bilir. Abşeron yarımadasınn səhra və yarmsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin təsərrüfat əhəmiyyətləri öyrənilməklə respublikamızda qış ehtiyatı yem balansının artırılmasında və kənd təsərrüfatı heyvanlarının inkişaf etdirilməsində yüksək nəticələr əldə etmək olar. Bu baxımdan Abşeron yarımadasınn səhra və yarmsəhra bitkiliyində rast gəlinən paxlalı bitkilərin təsərrüfat əhəmiyyətlərinin öyrənilməsi aktuallıq kəsb edir.

ƏDƏBIYYAT SIYAHISI
1. Azərbaycan Respublikasının Qırmızı Kitabı (nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri) (**Kitab**). Bakı/Şərq-Qərb.2013:1-676
2. Əsgərov A.M. Azərbaycanın bitki aləmi (Ali bitkilər-Embryophyta). Bakı/ TEAS Press. (**Kitab**). 2016:1-444
3. Qurbanov E.M., Məmmədova Z.C. Abşeron yarımadasının səhra və yarımsəhra bitkiliyində paxlalı bitkilərin əmələ gətirdiyi fitosenozlar. Gəncə Dövlət Universiteti. «Biokimyəvi nəzəriyyələrin aktual problemləri» 2-ci Beynəlxalq konfransı. Gəncə Dövlət Universiteti nəşriyyatı. (**Məqalə**). Gəncə, 2011: 13-15.
4. Полевая геоботаника /Под ред. Б.М.Лавренко и А.А.Корчакина., тт. I-V. М.Л./ Наука (**Kitab**). 1959-1976.
5. Флора Азербайджана –т.I-VIII. Баку/ Изд-во АН Азерб. ССР., (**Kitab**). 1950-1961.

АДАПТИВНЫЕ ОТВЕТЫ И ПЛАСТИЧНОСТЬ СТАРЕЮЩИХ РЕТИНАЛЬНЫХ НЕЙРОНОВ

РАХШАНА АХМЕДОВА
Институт Физиологии им. академика Абдуллы Караева НАНА
Лаборатория физиологии долголетия
rahshana81@gmail.com
БАКУ, АЗЕРБАЙДЖАН

ТЮРКАН СУЛТАНОВА
Азербайджанский Медицинский Университет
Кафедра неврологии
doctorturkan@yandex.ru
БАКУ, АЗЕРБАЙДЖАН

СЕВДА АЛЕКПЕРОВА
Азербайджанский Медицинский Университет
Кафедра неврологии
alekperovasevda6@gmail.com
БАКУ, АЗЕРБАЙДЖАН

АННОТАЦИЯ

Постарение населения во всех регионах мира делает актуальным решение вопросов, связанных с профилактикой возрастных заболеваний, преждевременного старения и возможностью продления срока активной рабочей жизни людей. Для обеспечения качества жизни и продления трудоспособности людей пожилого возраста большое значение имеет и сохранение зрительных функций. В связи с этим рассмотрены адаптивные ответы нейронов сетчатки человека в ходе физиологического старения, направленные на максимально долгое сохранение её функций. Эти ответы, подлежащие дальнейшему углублённому изучению, могут оказаться полезными при разработке новых эффективных методов лечения и профилактики возрастных заболеваний сетчатки. Представлены данные о пластичности определённых ретинальных интернейронов у пожилых и старых людей, проявляющейся ростом их дендритов далеко за пределы нормальной границы наружного плексиформного слоя в наружный ядерный слой, в норме лишённый волокон и синапсов. Обнаруженная способность старых нейронов к интенсивному росту позволяет с большим оптимизмом рассматривать процессы старения и внушает надежду на будущие терапевтические стратегии, включающие восстановление нейронных связей в стареющей нервной системе.

КЛЮЧЕВЫЕ СЛОВА: старение, ретинальные нейроны, адаптивные ответы, пластичность.

ВВЕДЕНИЕ

В настоящее время во всех регионах мира активно идёт процесс старения населения, вызванный ростом продолжительности жизни. По прогнозам ООН, к 2050 году число людей в возрасте 60 лет или старше достигнет 2 миллиардов. Поэтому важным является решение вопросов, связанных с профилактикой возрастных заболеваний, преждевременного старения и возможностью продления срока активной рабочей жизни людей. В связи с этим большое значение имеет сохранение зрительных функций в ходе старения для обеспечения качества жизни и продления трудоспособности людей пожилого возраста.

В процессе старения клеточные, нейрохимические и молекулярные изменения затрагивают различные уровни зрительной системы, в том числе и сетчатку, являющуюся частью центральной нервной системы. Сенильные дегенеративные изменения этой нервной ткани, вынесенной на периферию, сопровождаются постепенным уменьшением способности к световосприятию, нейропроводимости и обработке сигналов. Однако в отличие от других нервных тканей сетчатая оболочка помимо хроностарения может подвергаться и фотостарению в результате функционирования на протяжении всей жизни в фотохимически активной среде. Ретинальные нейроны особенно уязвимы при старении, т.к. 1) эти клетки неделящиеся и, как следствие, происходит кумуляция их повреждений, 2) палочки и колбочки обладают высокой метаболической активностью, 3) сочетание высокого парциального давления кислорода в сетчатке глаза, постоянного воздействия ультрафиолетового излучения и коротковолновой части спектра видимых волн (синего света), высокого содержания полиненасыщенных жирных кислот и белков в наружных сегментах фоторецепторов создаёт предпосылки для их окислительного повреждения, 4) в нервных клетках сетчатки присутствуют так называемые фотосенсибилизаторы окисления: ретиналь, являющийся хромофорной группой зрительных пигментов, продукты его превращения и липофусцин, аккумулирующийся в зрительных рецепторах, нейронах внутреннего ядерного слоя и ганглиозных клетках, а также в клетках пигментного эпителия, что вызывает гибель фоторецепторов [1].

Ретинальное старение, как и старение нервной системы, проявляется множеством дегенеративных и регрессивных изменений, лежащих в основе нарушения функции сетчатки. Однако представляет интерес, какие адаптивные ответы развиваются в нейронах сетчатой оболочки в ходе её естественного старения. Изучение данного вопроса может способствовать разработке новых эффективных методов улучшения или максимально длительного сохранения зрительных функций при возрастных заболеваниях сетчатки, а также их профилактики.

Исходя из вышеизложенного, мы поставили цель изучить существующие литературные данные об приспособительных процессах, развивающихся в ретинальных нейронах в ходе нормального старения.

МЕТОДЫ ИССЛЕДОВАНИЯ

Для достижения поставленной цели были рассмотрены зарубежные публикации, посвящённые адаптивным ответам, развивающимся в нервной ткани стареющей сетчатки. Авторами был осуществлен анализ собранной литературы.

ЗАКЛЮЧЕНИЕ

В ходе физиологического старения в нейронах сетчатки развиваются некоторые адаптивные ответы. Несмотря на существенную возрастную потерю палочек зона охвата ретинальной поверхности этими клетками остаётся стабильной в любом возрасте, т.к. пространства, освобождаемые погибающими палочками, заполняются увеличивающимися сохранившимися палочками. Диаметр их внутренних сегментов увеличивается, наружные сегменты некоторых палочек при старении также расширяются и скручиваются. В результате скручивания абсолютная длина наружных сегментов и содержание дисков в них возрастают. При этом осевая длина наружных сегментов и расстояние между наружной пограничной мембраной и пигментным эпителием сетчатки не изменяются на протяжении жизни [2, 3]. Вопреки снижающемуся числу палочек уровень родопсина остаётся стабильным, возможно, в результате компенсаторной гипертрофии и скручивания дисков в сохранившихся палочках [2]. Все эти данные свидетельствуют о пластичности палочковой системы взрослых. Однако функциональные последствия скручивания палочек и результаты увеличения количества таких фоторецепторов с возрастом пока не выяснены.

Фовеальные колбочки отличаются большей стабильностью в процессе старения по сравнению с палочками в центральной части сетчатки, хотя и имеют общую с ними систему доставки питательных веществ (хориокапилляры и пигментный эпителий) и подвержены одинаковому с ними воздей-

ствию света [2]. В мозге также число некоторых видов нейронов (например, нейроны вентрального кохлеарного и нижнего оливного ядер) не уменьшается с возрастом. Однако учёным пока не удалось выяснить, чем обусловлена большая стабильность определённых нейронов в процессе старения в мозге и сетчатке.

В сетчатке человека снижение числа палочек наблюдается со 2-й декады жизни. Примерно 46% общей потери экваториальных палочек между 2-й и 9-й декадой происходит между 2-й и 4-й декадой. Однако потеря палочковых биполярных клеток начинается после 4-й декады жизни [4]. Предположительно, связанность этих клеток даже с меньшим числом палочек способна сохранять их целостность между 2-й и 4-й декадой. По мере увеличения возраста снижение количества палочек совпадает с уменьшением плотности палочковых биполяров.

Американскими исследователями был обнаружен рост дендритов определённых ретинальных нейронов в стареющей сетчатке человека [5]. В частности, дендритные отростки On-колбочковых и палочковых биполяров распространялись далеко за пределы нормальной границы наружного плексиформного слоя в наружный ядерный слой, в норме лишённый волокон и синапсов. И хотя такие удлинённые отростки изредка встречались в сетчатках молодых людей, они были более частыми и значительно более длинными в стареющих сетчатках. Отростки горизонтальных клеток также реорганизовывались и распространялись в наружный ядерный слой в тандеме с отростками биполярных клеток. Удлинённые отростки встречались в наибольшем количестве по направлению к периферии сетчатки и были редкими в её центральной области. Важно отметить, что люди-доноры, сетчатки которых исследовались, не имели в прошлом каких-либо ретинальных заболеваний. Следовательно, дендритический спрутинг не отражает реакцию на глазное расстройство. Тем не менее, вероятно, какой-то сигнал в стареющей сетчатке запускает реорганизацию определённых ретинальных интернейронов. Будущие исследования позволят выяснить причины и механизм спрутинга в стареющих сетчатках, отражает ли данный феномен компенсаторный ответ на процесс старения. Независимо от результатов этих исследований неожиданное открытие способности старых нейронов к интенсивному росту может оказаться полезным при разработке стратегий преодоления бесчисленных дефицитов, которые, как известно, влияют на стареющую нервную систему.

Таким образом, нормальное физиологическое старение сетчатки сопровождается не только существенной потерей и дегенерацией нейронов, но также их пластичностью и адаптивными ответами. Тот факт, что дендриты стареющих ретинальных интернейронов способны к значительному росту, позволяет с большим оптимизмом рассматривать процессы старения и внушает надежду на будущие терапевтические стратегии, включающие восстановление нейронных связей в стареющей нервной системе.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Ахмедова Р.Р., Гусейнова С.К., Касумов Ч.Ю., О возрастных изменениях сетчатки, Труды молодых учёных, № 10, 2014, с. 100-108.
2. Curcio C.A., Millican C.L., Allen K.A. et al., Aging of the human photoreceptor mosaic: evidence for selective vulnerability of rods in central retina, Investigative Ophthalmology & Visual Science, Volume 34, No. 12, Nov. 1993, Pages 3278-3296, https://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.326.2207&rep=rep1&type=pdf .
3. Marshall J.M., Grindle J., Ansell P.L., Borwein B., Convolution in human rods: an ageing process, British Journal of Ophthalmology, Volume 63, Iss. 3, Mar. 1979, Pages 181-187, https://www.proquest.com/openview/d6c8e27145d7d69cca419015fe6a06f9/1.pdf?pq-origsite=gscholar&cbl=2041039 .
4. Aggarwal P., Nag T.C., Wadhwa S., Age-related decrease in rod bipolar cell density of the human retina: an immunohistochemical study, Journal of Biosciences, Volume 32, Iss. 2, Mar. 2007, Pages 293-298, https://www.ias.ac.in/article/fulltext/jbsc/032/02/0293-0298 .
5. Eliasieh K., Liets L.C., Chalupa L.M., Cellular reorganization in the human retina during normal aging, Investigative Ophthalmology & Visual Science, Volume 48, No. 6, Jun. 2007, Pages 2824-2830, https://iovs.arvojournals.org/article.aspx?articleid=2164474 .

RÜTUBƏTLİ VƏ YARIMRÜTUBƏTLİ SUBTROPİK ZONA TORPAQLARININ FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİNİN SƏCİYYƏSİ

Əsgərova Günel Fərhad qızı, elmi işçi
Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutu, AZ 1073 Bakı ş, Məmməd Rahim küçəsi 5,
Email: *asqarova.qunel@mail.ru*

Müasir dövrdə torpaqların eroziyadan qorunması və eroziya ilə mübarizə torpaq ehtiyyatlarından səmərəli istifadənin mühüm problemlərindən sayılır. Ona görə də torpaqların müxtəlif dərəcədə eroziya proseslərinə məruz qalması respublikamız üçün səciyyəvi olan ekoloji problemlərdən biridir. Respublikanın rütubətli və yarımrütubətli subtropik zona sayılan Lənkəran vilayətində yayılmış sarı-qonur dağ-meşə, sarı dağ-meşə, suvarılan qleyli-sarı torpaqlari kənd təsərrüfatı bitkilərinin becərildiyi təbii zonalardan hesab olunur. Insanın uzun müddətli təsərrüfat fəaliyyətinin güclənməsi və intensiv istifadəsi nəticəsində bu torpaqlar kəskin morfogenetik dəyişikliklərə məruz qalmışdır. 2019-2021- ci ildə aparılan tədqiqatlar nəticəsində Lənkəran vilayətinin ovalıq və dağətəyi ərazilərində yayılan torpaqların morfogenetik göstəriciləri, aqrokimyəvi, aqrofiziki xüsusiyyətləri, torpaqların rütubət ehtiyatları müəyyən edilmişdir. Təbii ekoloji şəraitin antropogen təsirindən kəskin dəyişməsi tədqiqat ərazisinin tədricən seyrəkləşməsinə, qurumasına və s. torpaq örtüyünün səhralaşmasına və bəzi sahələrdə deqradasiyasına səbəb olmuşdur. Götürülmüş torpaq kəsimlərindən aydın olur ki, tədqiqat sahəsində orta dərəcədə eroziyaya uğramış torpaqlarda torpaq profilinin qalınlığı qısalmış, torpaqların keyfiyyəti aşağı düşərək məhsuldarlığı azalmışdır. Buna görə də torpaq ehtiyyatlarının qorunması, münbitliyin artırılması və torpaqlardan səmərəli istifadə olunması qarşıda duran əsas məsələlərdən biridir. Ərazinin əksər hissəsi meşə, çay, sitrus, tərəvəz, taxıl, üzüm, çəltik, yay və qış otlaqları altındadır. Obyekt Talış dağları və Lənkəran ovalığından ibarətdir.

Tədqiqat sahəsindən götürülmüş nümunələrdə hiqroskopik nəmlik, humus, azot, tam su çəkimi (HCO3, Cl, SO4, Ca, Mg, Na, K), CO2-nin miqdarı, quru qalıq, pH (su məhlulunda), C:N, udulmuş əsaslar təyin olunmuşdur. Bu torpaqlarda humusun miqdarı torpaq profilinin yuxa akkumulyativ qatında (Auz=5-17) 4,91% olub, alt qatlarda kəskin azalır 0,41-0,72. Torpaq profilidə humusun kəmiyyətinə uyğun olaraq ümumi azotun miqdarı da 0,11-0,35% arasında dəyişir. C:N olan nisbəti 3,9-8,3 olması ilə nəzərə çarpır. Karbonatların üst qatlardan sürətlə yuyulması CaCO3-ün miqdarının az olmasına, yaxud tamamilə olmamasına səbəb olmuşdur. Sarı- qonur dağ- meşə, sarı dağ-meşə torpaqları udulmuş əsaslarla (Ca, Mg) kifayət qədər təmin olunmuşdur. Belə ki, üst qatda (AUz-16) udulmuş əsasların kəmiyyəti Ca-37,1 mq/ekv, Mg-23,5 mq/ekv təşkil etdiyi halda orta və aşağı qatlarda (B/Cg-Cg) onun miqdarı kəskin azalır (3,9-11,2%). Udma tutumunda Ca kationu üstünlük təşkil edir. Torpaq profilinin üst qatlarından başlayaraq dərinliyə doğru pH-ın zəif artması müşahidə olunur (5,6-6,5). Meşəaltına məxsus olan bu torpaqlarda qozvari struktur yoxdur. Sarımtıl dəmir birləşmələrinin ləkələri dərin qatlarda saxlanılır ki, bu da meşə örtüyünün müəyyən nişanəsidir. Bu torpaqların qranulometrik tərkibi orta gilli və ağır gillidir. Iri toz hissəcikləri (0,05-0,01mm) üst qatlardan dərinə getdikcə azalır. Ümumiyyətlə, eroziyaya uğramamış sarı dağ- meşə torpaqlarda fiziki gil və lil hissəciklərin miqdarı (əsasən üst qatda) üstünlük təşkil edir. Gil hissələri ən çox profilin orta hissəsində müşahidə olunur. Humuslu- akkumulyativ horizontda yüksək gilləşmənin mövcudluğu bu torpaqların əsas diaqnostik göstəricilərindəndir. Quru qalığın miqdarı 0,040-0,165% arasında dəyişmişdir.

Nəticə olaraq, aparılan aqrofiziki və aqrokimyəvi analizlərin göstəricilərinə əsasən rütubətli və yarımrütubətli subtropik zonada sarı dağ-meşə və sarı-qonur dağ-meşə torpaq tiplərində mənfi dəyişikliklərin baş verdiyini göstərmək olar. Buna səbəb isə düşünülməmiş antropogen təzyiqdir ki, bu torpaqlarda aparılan tədqiqatların nəticəsində özünü göstərir.

FUSARİUM CİNSİNƏ AİD GÖBƏLƏKLƏRİN ƏMƏLƏ GƏTİRDİYİ XƏSTƏLİKLƏR

Rafiq Əzizağa oğlu Hüseynov, Nəzakət İmran qızı Mehdiyeva
Sumqayıt Dövlət Universiteti
nezaket.shukurova93@gmail.com

Xülasə. *Məqalə Fusarium cinsli göbələklərin torpaqda və bitkilərdə geniş yayılmasına, onların inkişafdan qalma hallarının aradan qaldırılmasına, bu göbələklərin törətdiyi xəstəliklərə qarşı mübarizə təbdirlərinin işlənib hazırlanmasına, Fusarium cinsli göbələklərin 25°C-də SDA mühitində yaxşı inkişaf etmə səbəblərinin öyrənilməsinə həsr edilib.*

Açar sözlər: Fusarium, yayılması, əlamətləri, patogenliyi, qarşısının alınması.

Müasir dövrün ən aktual problemlərindən biri taxıl yetişdirilmiş sahələrdə Fusarium göbələklərinin törətdiyi xəstəliklərin qarşısının alınması və onlara qarşı mübarizə təbdirlərinin işlənib hazırlanmasıdır. Fusarium cinsli göbələklər-Göbələklər aləminin Ascomycota şöbəsinin Hypocreales sırasına daxildir. Bu cinsin 100 - dən artıq növü məlumdur. Fusarium cinsli göbələklər torpaqda və bitkilərdə geniş yayılmış filamentar göbələklərdir. Onlar düyü, paxla, soya və digər bu kimi məhsulların normal florasında olur. Bəzi Fusarium növləri termofilikdir. Bitki patogenləri olduqları üçün onlar həm də insanlarda patogenlik edə bilir. Bu göbələklərin bitkiyə yoluxdurduğu toksinlər qida zənciri vasitəsi ilə insanlara və heyvanlara keçə bilir.

Mütəxəssislər göbələklər içərisində ən təhlükəlisi olan Fusariumun insan sağlamlığına zərərli olduğunu, bədənin müqavimətini zəiflətdiyini, qaraciyər və böyrəklərə zərər verdiyini bildirirlər. Bunlardan ən geniş yayılanları *Fusarium solani, Fusarium oxysporum, Fusarium chlamydosporumdur*. Bu cinsli göbələklər içərisində ən güclü virulent (zəhərli) *Fusarium solanidir.*

Fusarium solaninin əksər növləri mikotoksinlər əmələ gətirirlər. Belə mikotoksinlərlə yoluxmuş taxıl məhsullarının qəbulu zamanı bu məhsullardakı mikotoksinlərin allergik simptomları başlamış uzunmüddətli kanserogen təsirlərə səbəb olurlar. Fumonisinlər qarğıdalı bitkisində *Fusarium moniliforme* və *Fusarium proliferatum* tərəfindən əmələ gələn mikotoksinlərdir. Onlar qida borusu xərçənginə səbəb ola bilirlər. Digər qrup mikotoksinlərdən zearalenonlar da müəyyən taxıl bitkilərində bəzi Fusarium cinsli göbələklər tərəfindən sintez olunur.

Fusarium cinsli göbələklər 25°C-də SDA mühitində yaxşı inkişaf edir. Pambığabənzər, yayılmış koloniyalar əmələ gətirirlər. Yeganə yavaş böyüyən növ *Fusarium dimerumdur*. Sklerotsiyalar, hansı ki, hiflərin yığımından təşkil olunur, əlverişsiz mühitdə hərəkətsiz qalır və adətən mikroskop altında tünd mavi rəngdə olur. Pomidor, çiyələk, bibər və.s kimi bitkilərdə "Fusarium göbələyi" xəstəliyinə daha çox rast gəlinir. Fusarium göbələyi torpaqdan cavan bitkilərin kök sisteminə keçməklə hüceyrələrin su və qida daşımasına maneçilik törədir. Azərbaycanda son illərdə pomidor bitkiləri üzərində yayılmış göbələk xəstəliklərindən biri də "Fusarioz soluxma"dır.

Fusarium cinsinə aid olan patogenlər pomidor bitkilərində, əsasən, iki əlamətlə müşahidə edilən xəstəlik törədir. *Fusarium oxysporum f.sp. Capsici* pomidor bitkilərində xroniki soluxma yaratmaqla bitkilər inkişafdan qalır, aşağı yarus yarpaqlarının yan və ətrafları quruyur, yarpaqlarda saralma və solma müşahidə edilir. Güclü yoluxma zamanı bitkilərin tam ölümünə səbəb olur. Xroniki soluxmada patogen sahib bitki üzərində uzun müddət qidalandığından onun ifraz etdiyi toksinlər ksilema sistemini tamamilə yararsız hala salır.

Bitkinin qidasına şərik olduğu, ifraz etdiyi fermentlərlə su aparıcı hüceyrələrin membran sistemini dağıtdığına görə bitki tədricən solur və tamamilə quruyur. Qurumuş bitki qalıqları torpağa düşür və patogen uzun müddət (3-4 il) torpaqda qalaraq öz həyatilik qabiliyyətini saxlayır. Pomidor və digər badımcançiçəklilər fəsiləsinə aid kənd təsərrüfatı bitkilərinə ziyan vuran mikroorqanizmlər arasında göbələklər aləminə aid olan növlər sayına və növ müxtəlifliyinə görə geniş tərkibə malikdir. Belə ki, qeyd olunan bitkilərdə həm yaşıl kütlə, həm də meyvələr göbələklərin artıb çoxalması üçün daha əlverişli mühitə malikdir. Hüceyrə şirəsinin reaksiyası (pH), tərkibi və bioekoloji xüsusiyyətləri patogen göbələklərin bu mühitdə inkişafı üçün əlverişlidir.

Pomidor bitkisinin yarpaqlarında Çiyələk bitkisində Fusarium xəstəliyi
Fusarioz soluxma xəstəliyi

Fusarioz kök çürüməsi

Qarğıdalı bitkisi də müxtəlif xəstəliklərlə yoluxur. Bu xəstəliklərdən biri "Fusarioz kök çürüməsi" dir. Xəstəliyin törədicisi göbələklərin *Fusarium Link* cinsinə aiddir. Buna qarğıdalının becərildiyi bütün regionlarda təsadüf olunur. Xəstəliyə adətən qarğıdalının aşağı 2-3 buğum və buğumaralarında müxtəlif formalı qonur, və ya küləş rəngli ləkələr şəklində rast gəlinir. Rütubətli havada bu ləkələr açıq-qırmızı və ya sarı-çəhrayı rəng alır. Xəstəlik nəticəsində bitkilərin yeraltı buğumaraları qızarır və özəyi tamamilə parçalanır.

Araşdırma zamanı müəyyən olmuşdur ki, patogenlər torpaqda, bitkilərin toxumlarında qalır və təkrar yoluxma baş verir.

Ədəbiyyat

1 Ağayev C. Kənd təsərrüfatı bitkilərinin xəstəlikləri. Müəllim nəşriyyatı. Bakı –
2016.s 200.
2. Salmanov E.H. Azərbaycanın rayonlarında tərəvəz bitkilərini yoluxduran
göbələklərin növ tərkibi. Azərbaycan florası. Bitkiliyin istifadəsi və qorunması.
Bakı. Elm,1999,s 41-42
3. Сатто И.Д.,Фоторгил Ф.,Риналди М. Определитель патогенных и условно по потогенных грибов. М.: Мир,2001. 486 с.
4. http://www.bahcevanlar.com
5. http://www.dunyagida.com.tr
6. http://www.tarimkutuphanesi.com

РЕЗЮМЕ

Заболевания, вызванные грибами, принадлежащими к роду Фусариум.

Гусейнов Р.А., Мехтиева Н. И

Ключевые слова: Фусариум, распространение, симптомы, патогенностъ, профилактика.

Эта порода охватывает более 100 видов и 25° С хорошо развит в среде СДА. Грибы типа фузариума являются распространенными нитевидными грибами в почве и растениях. В резулътате их болезни продуктивностъ растений снижается, постепенно разлагается.

SUMMARY

Diseases caused by fungi belonging to fusarium genus.

Huseynov R.A., Mehdiyeva N.İ

Key words. Fusarium, spread, signs, pathogenesis, prevention.

This breed covers over 100 types and 25° C are well developed in the SDA environment. Fusarium type fungi are common filamentary fungi in soil and plants. As a result of their illness, the productivity of plants decreases gradually decomposes.

UOT 631.46
ORCID ID: 0000-0002-5040-2599

GRAY-BROWN SOILS ECOLOGICALLY INDICATORS IN SUBTROPICAL ZONE OF AZERBAIJAN

T.A. Hasanova, Sh.Z. Jafarova
[1,2]PhD in Agrar Sciences
Azerbaijan National Academy of Sciences, Baku
Email: turkanhesenova@mail.ru

The climate of dry subtropical steppes, where the dominant type is gray-brown soils and other soils of the serozem type, is characterized by a more pronounced aridity of environmental conditions. The aggravation of the ecological situation in the Azerbaijan Republic and the increase in the number of its consequences have already turned into an environmental problem. The rational soil use requires the study of the leading factors in the processes of accumulation and decomposition of organic residues. The studies were carried out on gray-brown (chestnut) soils of the semi-moist subtropics of the Lankaran region. Due to the specific climatic zone conditions, the study of the soil hydrothermal regime has scientific and practical interest. Experimental materials were obtained during study on gray-brown soils of Lankaran, Masalli, Jalilabad, Astara and Yardimli regions. The influence of soil moisture on the dynamics of phytomass and microflora was also determined. As a result of agrotechnical measures carried out on farms, optimal conditions can be created for the life of invertebrates (mesofauna), which have a positive effect on soil fertility. Methods for controlling weeds on gray-brown soils have been studied. Dominant edificators among plant groups and invertebrates are determined as indicators gray-brown soils in subtropical climate in Azerbaijan. The study of biological diagnostic parameters is very important for the development of agriculture and environmental protection of the soil. One of the leading areas of soil science today is the study of the development of modern soil processes and soil regimes. The importance of this direction is determined by the development of methods for developing soil processes. This is a subtropical zone with an abundance of precipitation. A characteristic feature is the dense river network. River Lankaran, Mastali, Velvele, Astara and others.

Tragacanth groups of phryganoid groups of plants are also widespread in these soils. Dominant among these plant groups are *Astragalus Hohenackeri, Astragalus Meyer, Stiva Szovitsiana, Acantholimon Hohenakeri, Euphorbia Szovitsii* and other ephemeral plants like *Vicia faba, Taraxacum officinale, Artemisa vulgaris, Anthemis candidisima, Veronica vulgaris, Galium tricornutum, Cynodon dactylon, Daucus carota, Trifolium medicagym, Avena sativa, Apium graveolens, Carpinus L., Zelkova spach, Parratia persica, Trifalium resupinatum, Lippia nodiflora, Paspalum L., Salsol sola, Juncus littorolis, Quercus castaneifalid* and others. Studies in last two years have shown that due to erosion, there have been some changes in the fertility and hydrothermal regime of gray-brown soils. To control weeds on the arable land like – *Calamagrostis epigeios poth., Convolus arvinsis, Colamun carolinence L., Cyhodon dactylon, Pacpalum digitaria* and others, it is necessary to plow the surface to a depth of 15-18 cm. In the natural cenosis at a temperature of 17-32°C and humidity (9-22% W) interval, the number of invertebrates and microorganisms varies, respectively, between 10.7-19 ekz/m^2 and 3.1-4·10^6 g of soil. On the agrocenosis of cereals, the number of invertebrates is noted in the temperature (15-30°C) and humidity (16-28.7% W) intervals with a relative increase in the number of microorganisms up to 4.5-5.3·10^6 g of soil, there is a slight decrease in the number of invertebrates up to 12.4-15 ekz/m^2.

The water properties of these soils are closely dependent on the presence of humus and colloids in the soil, on the structure and microaggregate state of the soil, and on the mechanical composition. Hydroscopic moisture is 7.27-7.78%, and in the lower horizons 5.25-6.27%. The maximum molecular moisture capacity is 19.08-22.47%. The average absorption rate on gray-brown soils for the first hour of observations is 3.7-10.6 mm per minute. The total amount of water absorbed in 6 hours is 583-257mm.

Content of physical clay 50-67%. The amount of absorbed bases is high in the upper horizon 30-44 eqv per 100 g of soil. A rather homogeneous distribution of basic oxides along the soil profile was revealed. There is no leaching and removal of any oxides from the mineral part of the soil. The amount of mobile amorphous compounds in the uncultivated soils of natural cenoses is higher than in the soils of agrocenoses where grain crops are grown.

From 1 kg of soil at a depth of 0-25 cm, 7.0 mg of CO_2 was released, at a depth of 6.7 mg of CO_2 20-50 cm in 1 hour. From a characteristic sample of soil crops laid gray-brown soils, 13.6 mg/h of CO_2 was isolated from a depth of 0-25 cm, and 11.0 mg/h from a depth of 25-50 cm. In irrigated gray-brown soils of agrocenosis a sample taken from a depth of 0-25 cm and from a depth of 25-50 cm, CO_2 was released 17.5 and 10.8 mg/h. As depth increases, the amount of carbon dioxide decreases. The waters of these rivers are irrigation waters, which are dominated by calcium carbonate. In river sediments, the content of absorbed bases does not change in contrast. The content of Mg^{+2} and Ca^{+2} cations is 4.3 mg/ekv and 9.6 mg/ekv. Average annual humidity 75%, annual precipitation 600-900 mm. The average annual wind speed is 2.2 m/s. Ca^{+2} and Mg^{+2} in mountain meadow soils gradually increases from the upper horizons 0.01% - 0.002%, to the lower 0.026% - 0.003%. The Na^+ content also increases from the upper horizons of 2.28% to the lower ones, amounting to 3.09%. On the agrocenosis of forage plants, the content of Ca^{+2} and Mg^{+2} cations along the profile is much higher than in virgin soils of the natural cenosis. The total amount of Na^+ and K^+ increases both in the upper horizons and in the lower horizons. In mountain meadow soils of natural and cultivated cenoses, the pH changes between 7.3-7.8. Dominant edificators among plant groups and invertebrates are determined as indicators of gray-brown soils.

Therefore, agriculture has a positive effect on soil processes. The roots of vegetables and cereals determine the high productivity of the aboveground mass. As a result of agrotechnical measures carried out on farms, optimal conditions can be created for the life of invertebrates (mesofauna), which have a positive effect on soil fertility. The use of certain chemicals to protect plants grown in agrocenoses from pests should not have a negative impact on beneficial soil biota (invertebrates, microbiota). Using modern, advanced, agrotechnical, irrigation technologies in farms, it is possible to maintain stable biological activity and soil fertility.

THE EFFECT OF HEAT STRESS ON ASCORBATE PEROXIDASE ACTIVITY IN DURUM WHEAT GENOTYPES

SAIDA ZULFUGAROVA

Institute of Molecular Biology & Biotechnologies
of ANAS
zulfuqarova@bk.ru
BAKU, AZERBAIJAN

FARIDA FARMANOVA

Baku State University
Faculty of Biology
farmanova1998@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT
Heat stress is one of the important abiotic stress factors that limit the growth and productivity of crops in many regions of the world. Wheat is one of the important food crops grown in Azerbaijan. In the phases of flowering and grain filling, the air temperature here reaches its maximum values and wheat plants are subjected to heat shock. Wheat plants, especially winter varieties, are generally less adapted to high temperatures than other staple crops such as corn or rice. The mechanisms of wheat adaptation to heat stress have not been sufficiently studied. The purpose of this work was to investigate the effect of short-term heat stress on the activity of ascorbate peroxidase. We used two contrasting genotypes of durum wheat (Triticum durum Desf.): Barakatli 95 (tolerant genotype) and Garagylchyg 2 (stress-sensitive genotype). Ascorbate peroxidase (APO) activity was studied spectrophotometrically. It was found that the activity of this antioxidant enzyme is significantly reduced under heat stress.

KEYWORDS: *Triticum durum* Desf., heat stress, APX activity

INTRODUCTION

Ambient temperature is one of the main environmental factors that have the strongest impact on the vital activity and productivity of plants. Insufficient tolerance to extremely high ambient temperatures is one of the main reasons for the decline in crop yields. Increasing the tolerance of food plants to high temperatures is considered a serious problem for agriculture around the world [3]. Due to global warming, among cultivated plants, scientists pay special attention to the study of the wheat plant. Wheat (*Triticum durum* Desf.) is the most important grain crop, staple food, and nutritional source for humans with a world production of 761.7 million tons per year [4]. In the first half of the vegetation period, wheat plants often suffer from unfavorable environmental conditions such as drought, heat, frost, etc., which is reflected in deviations in physiological processes leading to a plant productivity decline. In plants exposed to heat stress, destructive ROS are often formed, including singlet oxygen ($^1O_2$), superoxide radical (O^{2-}), hydrogen peroxide (H_2O_2), and hydroxyl radical (OH^-), which are responsible for the occurrence of oxidative stress [1]. Oxidative stress markedly increases membrane peroxidation and decreases membrane thermal stability in many plants, including wheat [2]. The most stable of the reactive oxygen species is hydrogen peroxide (H_2O_2), which plays a major role in the coordination of tolerance reactions, including the hypersensitivity reaction. To avoid potential damage to cellular components caused by ROS, as well as to maintain growth, metabolism, development, and total productivity, the balance between ROS production and removal must be strictly regulated at the intracellular level. The balance between ROS production and detoxification is maintained by enzymatic and non-enzymatic antioxidants [2]. The main aim of present study is to study the activity of APX in wheat plant genotypes under heat stress conditions.

MATERIALS AND METHODS

Plant material. Two contrasting durum wheat genotypes (*Triticum durum* Desf.) provided by the Genfund of the Research Institute of Crop Husbandry, a tolerant genotype Barakatli 95 and stress-sensitive genotype Garagylchyg 2 were used in the present study. The seeds were treated with a 3% peroxide solution for 20 min and soaked in the dark for 24 h. Then the germinated seeds were planted in vessels with soil (1 soaked seed was sown in each vessel). Plants were grown for 12 days in an automated mini-phytotron with a controlled temperature of 19°C-23°C with a relative air humidity of about 50%, at a photoperiod of 8/16 (dark/light). 12-day-old plants were subjected to heat stress. For preadaptation, the plants were exposed to heat shock for 30 min at 38°C, the temperature gradually increased to 40°C, and the stress lasted 30 min, then the plants were subjected to severe heat shock by raising the temperature to 42°C for 2h. Such a scheme of experiments envisaged the possibility of developing acquired thermal tolerance and the effect of

"soft" and "hard" thermal regimes on plants. The leaves were wrapped in foil and immediately frozen in liquid nitrogen. The obtained samples were stored in a refrigerator at -80°C.

Isolation of the enzyme extract. To obtain a total cell extract, wheat leaves were homogenized in a medium containing 1 mM EDTA, 2 mM phenylmethylsulfonyl fluoride (PMSF), 1% PVP, 100 mM Na-phosphate buffer (pH 7.8), and 0.1% Triton X-100, and then centrifuged at 15,000 g for 20 min at 4°C. The obtained supernatant was used for the analysis of antioxidant enzymes.

Determination of the activity of antioxidant enzymes. The activity of ascorbate peroxidase (APO, EC 1.11.1.11) was determined spectrophotometrically based on the decomposition of H_2O_2 by the enzyme ascorbate peroxidase for 1 min at 290 nm [5]. The reaction medium consisted of 0.1 mM EDTA (pH 8.0), 0.05 mM ascorbic acid, 0.1 mM H_2O_2, 50 mM Na-phosphate buffer (pH 7.6), and 100 µl of the enzymatic extract. The activity was calculated based on the decrease in the optical density during the first 30 seconds of the reaction and was expressed in µmol / (mg protein min) with a molar extinction coefficient ε = 2.8 mM^{-1} cm^{-1}.

RESULTS

Heat stress tolerance in cereals is associated with an increase in the activity of antioxidant enzymes [1]. The activity of various antioxidant enzymes (APO, CAT, GPO, BPO) is sensitive to temperature and activation occurs in different temperature ranges, but with an increase in temperature, the activity of these enzymes increases. The activity of these enzymes also depends on the tolerance or sensitivity of various varieties of grain crops, on the stage of their growth, and the vegetation period [2]. The results of determining the activity of antioxidant enzymes differ significantly between stressed and control plants. As seen in Fig. 1, heat stress contributes to a significant decrease in APX activity (~ 2 –fold decrease) in wheat plant leaves.



Fig 1. Ascorbate peroxidase (APX) activity in wheat plant leaves under heat stress

According to Chakraborty and Pradnan (2011) [2], in sensitive varieties, the maximum activity of antioxidant enzymes was observed at the temperature range of 28^0-30^0C, while in tolerant varieties at the temperature range of 35^0-40^0C. Almeselmani et al. (2009) [1] proved an increase in the activity of antioxidant enzymes at elevated temperatures, as well as showed that the mechanism of antioxidant protection plays an important role in the tolerance of wheat genotypes to heat stress. They also detected that the activity of APX significantly increased during all stages of growth in heat-tolerant varieties in response to heat stress, while sensitive varieties showed a significant decrease in the activity of the same enzyme under heat stress.

REFERENCES
1. Almeselmani M., Deshmukh P., Sairam R: High temperature stress tolerance in wheat genotypes: role of antioxidant defense enzymes, Acta Agronomica Hungarica, Volume57, Issue1, 2009, Pages 1-14.
2. Chakraborty U., Pradhan D: High temperature-induced oxidative stress in Lensculinaris, role of antioxidants and amelioration of stress by chemical pre-treatments, Journal of Plant Interactions, Volume 6, Issue 1, 2011, pages 43-52.
3. Fahad S., Bajwa A. A., Nazir U., Anjum S. A., Farooq A., Zohaib A., & Huang J: Crop production under drought and heat stress: plant responses and management options, Frontiers in plant science, Volume 8, 2017, page 1147.
4. FAOSTAT. Agricultural data, FAO of the United Nations, Rome, 2020.
5. Nakano Y., & Asada K: Hydrogen peroxide is scavenged by ascorbate-specific peroxidase in spinach chloroplasts, Plant and cell physiology, Volume22, Issue 5, 1981, pages 867-880.

ATAÇAY HÖVZƏSİNİN QIŞ OTLAQ SAHƏLƏRİNİN BİTKİ ÖRTÜYÜNÜN TƏDQİQİ VƏ SƏMƏRƏLİ İSTİFADƏSİ

Bahadurlu Gülnarə Ceyhun qızı
Əkinçilik Elmi-Tədqiqat İnstitutu
AZ 1098, Azərbaycan Respublikası, Bakı şəhəri, Pirşağı qəsəbəsi, 2 Saylı Sovxoz
gbahadurlu@mail.ru

Biomüxtəlifliyin qorunması sahəsinə nəzarətin son zamanlarda genişlənməsinə baxmayaraq bir sıra göstəricilərə əsasən bu sahədə vəziyyət hələ də gərgin olaraq qalır. Respublikada antropogen təsirlərə məruz qalan sahələrin təbii ekosistemlərində biomüxtəlifliyin qorunması istiqamətində müəyyən addımlar atılır. Bu məqalədə qış otlaq sahələrində bitki örtüyünün botaniki tərkibi, məhsuldarlığı, yaxşılaşdırma və səmərəli istifadə tədbirləri, bir sözlə mühafizəsi sahəsində görülən tədqiqat işlərinin nəticələri təqdim edilmişdir.

Açar sözlər: Fitosenoz, ekosistem, yarımsəhra, otlaq, şorangə, yovşanlı, biomüxtəliflik.
Ключевые слова: Фитоценоз, экосистема, полупустыня, пастбище, солянка, полынь, биоразнообразие.
Key words: Phytocoenosis, ecosystem, semi-desert, pasture, wormwood, biodiversity.

Ataçay hövzəsi ərazisində olan qış otlaqlarında quraqlığın və şoranlaşmanın inkişaf etməsi nəticəsində orada həmin mühitə uyğunlaşmış yarımsəhra bitkiliyi geniş ərazi əhatə edir. Şoranlaşmanın daha da artması nəticəsində Xəzərsahili ərazidə halofit bitkilərdən şorangə, çoxbudaqlı yulğun, Xəzər sarıbaşı *(Kalidium caspicium)*, budaqlı qışotu *(Petrosimonia brachiata)*, ətirli yovşan *(Artemicia fraqrans)*, ağacvari şorangə *(Salsola dendroides)*, xırdayarpaq çərən *(Suelda mierophylla)*, efemerlər yapon tonqalotu *(Bromus japonicus)*, silindrik buğdayıot *(Aegilops cylindrica)*, *bərk quramit* (Solium rigidum) və efemeroidlər geniş yayılmışdır.

Geobotaniki tədqiqatlar nəticəsində məlum olmuşdur ki, şoran və şorakət torpaqlarda əsasən sarıbaşlıq, çərənli-sarıbaşlıq, şorangəlik formasiyaları; boz qonur torpaqlarda budaqlı qışotuluq, yovşanlıq formasiyalarının; boz çəmən torpaqlarda yulğunlu-qışotulu-efemerlik, yulğunlu-dəvətikanlı-çayırlıq, şahsevdili-qışotuluq, qarağanlı-efemerlik, yovşanlı efemerlik formasiyaları,yovşanlı-gəngizlik, yovşanlı-şorangəlik, formasiyalarının şoranvari torpaqlar üzərində yayılmışdır. Boz çəmən və boz qonur torpaqlar üzərində inkişaf etmiş akkumulyativ düzənliyin yarımsəhra bitkiliyinin məhsuldarlığı 4,78 sent-ha ilə (çərənli-efemerlər) 6,2-6,3 sent-ha (yovşanlı-gəngizlik) arasında dəyişir. Yarımsəhra bitkiliyinin yaz mərhələsində, quru otunda yem vahidi 48,5-52,3 kq, payız mərhələsində isə 36-38 kq, mənimsənilən protein isə uyğun olaraq 4,7-6,2 kq, 4,1-4,8 kq təşkil edir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, getdikcə heyvandarlığın, xüsusən xırdabuynuzlu heyvandarlığın inkişaf etdiyi dövrdə yem bitkilərinə olan tələbat hazırda təbii yem sahələri tərəfindən təmin

olunmur. Aparılmış geobotaniki tədqiqatın məqsədi ondan ibarətdir ki, qış otlaq sahəsində yem bitkilərinin bolluğunun, eyni zamanda məhsuldarlığının artırılması yollarının araşdırılması və aşkar olunmasıdır. Bunlara qış otlaq sahələrinin yem bazasının və məhsuldarlığının artırılması üçün otlaqlardan səmərəli istifadə, əsaslı və səthi yaxşılaşdırma tədbirlərinin işlənib hazırlanması yolları aiddir.

Bu nöqteyi-nəzərdən aparılmış tədqiqat işi böyük aktuallığa malikdir. Ərazinin qış otlaq sahələrinin yem keyfiyyətinin artırılması və qorunması tədbirlərindən ən əsası oradan səmərəli istifadə edilməsidir. Bu məqsədlə otlağın yükünə və tutumuna ciddi riayət olunmaqla, otlaqdan hissə-hissə istifadə edilməklə, torpaq-iqlim-şəraitinə müvafiq sürətdə otlaq dövriyyəsi yaradılmalı və sahələrdən əvvəlcədən nəzərdə tutulmuş müddət ərzində istifadə olunmalıdır.

Küzlərlə istifadə zamanı hər küz payına otarma vaxtı 5 gündən artıq olmamalı və növbəli şəkildə küzlərdən biri dincə qoyulmalıdır. Düzənlikdə olan yarımsəhra otlaqlarında davarların otarılmasının optimal müddəti dekabrın əvvəlindən, mayın II ongünlüyünə qədər hesab olunur. Otlaqların səthi yaxşılaşdırılmasında məqsəd orada olan əsas, dominant və subdominant yem bitkilərini mühafizə etməklə yanaşı, bitki örtüyünün qiymətli yem bitkiləri ilə zənginləşdirilməsindən ibarətdir. Bu məqsədlə ilk növbədə otlaq sahələri daşlardan təmizlənməli, təpəciklər düzəldilməli, çökəkliklər doldurulmalı, əraziyə aqrotexniki qaydalara uyğun üzvi və mineral gübrələr verilməli, tapdalanmış sahələrə keyfiyyətli, duza, quraqlığa və tapdalanmaya davamlı çoxillik yem bitkilərinin toxumları malalama yolu ilə səpilməlidir. Ərazidə kserofit və halofit yem bitkilərinin toxumlarının səpinini sentyabr-oktyabr aylarında həyata keçirmək daha məqsədəuyğundur.

Tədqiqat ərazimizdə davarçılığın yem bazasını daha da möhkəmləndirmək, əkmə otlaq və biçənəklərin yaradılması məqsədilə otlaq sahələrinin səthi yaxşılaşdırma tədbirləri ilə yanaşı, orada əsaslı yaxşılaşdırma tədbirlərinin də həyata keçirilməsi vacib şərtlərdən biri hesab olunur. Tədqiqat ərazisinin üst qatı şoranlaşmış torpaqlardan duzları meliorativ üsullarla yumaqla, otlaqların məhsuldarlığını 2-3 dəfə artmasını təmin etmək mümkündür.

Bəzi sahələrin şumlanaraq, həmin əraziyə mədəni və yabanı çoxillik yem bitkilərinin toxumlarının səpilməsi, çay boyunca quraqlığa davamlı kolların əkilməsi daha məqsəduyğundur.

Həmçinin otlaq sahələrində zərərli və zəhərli bitkilər geniş yayılmışdır. Bunun üçün onlar çiçəkləmədən əvvəl mexaniki üsulla, cəngəllik olan hissələrinə isə herbisidlərin çilənməsi yolu ilə otlaqdan kənarlaşdırılmalıdır.

Qeyd olunmuş tədbirlərin kompleks şəkildə tətbiqi, eyni zamanda otlaqlardan səmərəli istifadə qış otlaq sahələrində heyvandarlığın inkişafı üçün möhkəm və davamlı yem bazası yaratmağa imkan verir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının təbii yem sahələrinin tipoloji təsnifat vahidlərinin indeksləri, şərti və rəng işarələrinə aid təlimat. Bakı. “Vətən”, 2004. S.48

2. Hacıyev V.C., Hətəmov V.V., Qurbanov E.M. Təbii yem sahələrinin geobotaniki tədqiqat metodikası. B.”Universitet”, 1995, s.52

3. Xəlilov M.Y. Bitki örtüyünün antropogen dəyişilməsi və bərpası. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. Bakı, “Elm” 2000. Səh-90-96.

4. Xəlilov M.Y. Bitki örtüyü. Otlaqların vəziyyəti və problemləri. “Azərbaycan Respublikasının regional-coğrafi problemləri”. Bakı-2003. Səh-99-113.

5. Məmmədov Q.Ş. Azərbaycanın ekoetik problemləri; elmi, hüquqi, mənəvi aspektlər. Bakı, “Elm” 2004. Səh-377.

6. Məmmədov Q.Ş. Azərbaycan torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı, “Elm”, 2007. Səh-845.

AĞSTAFA RAYONUNDA BECƏRİLƏN BƏZİ BOSTAN (QARPIZ, QOVUN, BALQABAQ) BİTKİLƏRİNİN MİKOLOJİ NÖV TƏRKİBİNƏ GÖRƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Səbukə Nəbiyeva Fidan Məmmədova
Bakı Dövlət Universiteti Bakı Dövlət Universiteti
Biologiya Biologiya
sebukenebiyeva@mail.ru fidan8400@mail.ru
BAKI,AZƏRBAYCAN BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işində Ağstafa rayonunda becərilən qarpız, qovun və balqabaq bostan bitkilərinin mikobiotası öyrənilmişdir. Tədqiqat obyekti kimi qarpız, qovun və balqabaq sortlarından nümunələr götürülmüşdür. Tədqiqat zamanı götürülmüş nümunələrdə yaşayan göbələklərin təmiz kulturaya çıxarılması zamanı aqarlaşdırılmış səməni şirəsindən (ASŞ), nişastalı aqar (NA) və kartoflu (KA) mühitlərindən istifadə edilmişdir. Məlum olan metodlara müvafiq olaraq mühitlərin hazırlanması, Petri fincanlarına tökülməsi və sterilizasiyası aparılmışdır. Göbələklərin identifikasiyası təmiz kulturaya çıxarılanların kultural morfoloji və fizioloji əlamətlərinə əsasən müvafiq təyinedicilərdən, həmçinin də Beynəlxalaq Assosiyasiyanın (BMA) və CBC fondunun baza məlumatlarından istifadə edilmişdir. Beləliklə, eksperiment zamanı Aspergillus, Rhizopus, Fusarium, Mucor, Verticillium, Botrytis cinsləri təyin olunmuş və göbələk kaloniyaları təmiz kulturaya çıxarıldıqdan sonra mikroskop altında baxdıqda Aspergillus niger, Aspergilus flavus, Aspergillus oryzae, Rizophus nigricans, Fusarium culmorum, Mucor mucedo, Verticillium dahliae, Botrytis cinera növləri təyin edilmişdir.

Açar sözlər: sort, cins, mikobiota, fitopatogen

Giriş

Azərbaycanda kənd təsərrüfatı sahəsində məhsuldarlığın və iqtisadi səmərəliliyin artırılması üçün böyük imkanlar vardır. Bunun əsasında respublikanın münbit torpaq-iqlim şəraiti durur ki, bu da ilin bütün fəsillərində müxtəlif kənd təsərrüfatı bitkilərinin becərilməsinə şərait yaradır.

Əhalinin ərzaqla sabit tərzdə təmin etmək üçün kənd təsərrüfatı bitkilərinin, o cümlədən tərəvəz və bostan bitkilərinin məhsul bolluğunu yaratmaq çox böyük əhəmiyyət kəsb edir. Azərbaycanda bostan bitkiləri əhalini yüksək keyfiyyətli qida məhsulları ilə təmin etməklə böyük rol oynayır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2016-cı il məlumatlarına əsasən 2015-ci ildə bostan bitkiləri 27,9 min ha təşkil etmişdir, müvafiq olaraq 2015-ci ildə 484,5 min ton bostan məhsulları istehsal edilmişdir. Bundan başqa bostan bitkiləri üzrə məhsuldarlıq 174 sentner hektar təşkil etmişdir. Bütün bunlara baxmayaraq yenə də kənd təsərrüfatı sahələrində, o cümlədən bostan əkinlərində fitosanitar vəziyyət ağır olaraq qalır. Hər il minlərlə ton məhsul zərərverən orqanizmlərin təsirindən itkiyə gedir. Balqabaqkimilər fəsiləsinə daxil olan bitkilərdə(balqabaq, qovun, qarpız və s.) rast gəlinən xəstəliklərdən antroknoz xəstəliyi geniş yayılanlardandır və onun nəticəsində bitkinin yarpaqlarının fotosintezedici aktivliyi 29-42%-ə qədər azalır ki, bu da 6-48%-ə qədər məhsul itkisinə səbər olur.

Azərbaycanın ayrı-ayrı bölgələrində yüz illərdirki yetişdirilən, xalq seleksiyasının məhsulu olan bostan bitkiləri sortları və onlardan hazırlanan müxtəlif çeşidli məhsullar (bal, povidlo, cem, kürü, sote və s.) bu ərazidə əhalinin bostançılıqla məqsədyönlü məşğul olduğunu göstərir.

Tədqiqatın məqsədi və vəzifələri. Ağstafa rayonunda becərilən bəzi bostan (qarpız, qovun, balqabaq) bitkilərinin mikobiotasının formalaşmasında iştirak edən müxtəlif növ göbələklərin təyin edilməsinə, ekolo-trofik əlaqələrinə, həmçinin mikobiotanın formalaşmasında iştirak edən göbələklərin patogenlik aktivliyinə görə tətbiq edilməsinə əsaslanmışdır.

İşin elmi yenilikləri. Aparılan tədqiqatlarda Ağstafa rayonunda becərilən bəzi bostan bitkilərinin sort nümunələrinin növ tərkibinə, mikobiotasının formalaşmasında iştirak edən göbələk növlərinin ekolo-trofik əlaqələrinə görə qruplaşdırımasına, rastgəlmə tezliyinə, bəzi bostan bitkiləri nümunələrində müşahidə olunan patalogiyaların törədicilərinin ekoloji, mikoloji və bioloji xüsusiyyətlərinə görə tədqiqi aparılmışdır.

İşin praktik əhəmiyyəti. İşin yerinə yetirilməsi zamanı tədqiq olunmuş bəzi bostan bitkisi nümunələrində əldə edilən məlumatlar göbələklər haqqında faktiki materiallar olub, müəyyən edilmiş göbələk növlərinin təsirlərinin tədqiq edilməsi bitkilərdə yayılmış xəstəliklərin qarşısının alınması üçün mübarizə tədbirlərinin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın metodu

Ağstafa rayonunda becərilən bostan bitkilərinin (qarpız, qovun, balqabaq) sortlarından nümunə götürülərək işin məqsədinə uyğun müasir mikoloji metodlara əsasən analiz aparılmışdır.

Tədqiq olunan qarpız, qovun və balqabaq sortlarından götürülmüş nümunələrdə yaşayan göbələklərin təmiz kulturaya çıxarılması zamanı aqarlaşdırılmış səməni şirəsindən (ASŞ), nişastalı aqar (NA) və kartoflu (KA) mühitlərindən istifadə edilmişdir. Məlum olan metodlara müvafiq olaraq mühitlərin hazırlanması, Petri fincanlarına tökülməsi və sterilizasiyası aparılmışdır. Qidalı mühitin pH=4.2-4.8 olmuş, 15-180 C-də termostata yerləşdirilmişdir. İnnokulyasiyadan 3 gün sonra göbələklərin böyüməsindən və inkişafından asılı olaraq müşahidələr aparılmışdır. Göbələklərin identifikasiyası təmiz kulturaya çıxarılanların kultural morfoloji və fizioloji əlamətlərinə əsasən müvafiq təyinedicilərdən, həmçinin də Beynəlxalaq Assosiyasiyanın (BMA) və CBC fondunun baza məlumatlarından istifadə edilmişdir. Bu və ya digər xəstəliyin əlamətlərinə əsasən tərtib edilən təyinedicilərdən məlum metodik yanaşmalardan istifadə edilərək xəstəliklərin təyinatı aparılmışdır. Qarpız, qovun və balqabaq sortlarının təyinatı aşağıda göstərilən formula əsasən qəbul olunmuşdur:

$$N= n/s \quad (1)$$

N- istifadə tezliyi (əd/ha), n-tədqiq edilən ərazidə əkilən konkret sortların sayı (əd), s-tədiqat ərazisinin sahəsi (ha).

Nümunələrdə patogen kulturaların törətdikləri xəstəliklərin patogenlik aktivliyi aşağıda göstərilən formula ilə təyin edilmişdir:

$$P = (n/N) \times 100 \quad (2)$$

P – göbələklərin nümunələr üzrə rastgəlmə tezliyi , n – aşkar edilən göbələklərin sayı, N – nümunələrin ümumi sayı

Təcrübələr ən azı 3 təkrarda qoyularaq alınmış , nəticələr statistik işlənmişdir və bütün hallarda $m / M = P \leq 0,05$ formulasına (M – orta göstərici , m – orta kvadratik kənarlanma , P – student kriteriyasıdır.) uyğun olan məlumatlar dürüst hesab edilərək tədqiqat işinə daxil olunmuşdur.

Nəticə

Tədqiqat obyekti kimi qarpız, qovun və balqabaq sortlarından götürülmüş nümunələrdən aşağıdakı nəticələr əldə edilmişdir. Qarpızın sortlarında aparılmış tədqiqat işi nəticəsində məlum olmuşdur ki, bitkinin meyvəsində *Aspergillus niger,,* *Fusarium culmorum* göbələklərinin olduğu müəyyən edilmişdir.

Şəkil 1. Qarpızın meyvəsindən alınmış kaloniyalar
Şəkil 2. Qarpızın meyvəsindən alınmış kaloniyaların təmiz kulturaya çıxarılması nəticəsində alınan kultura



Şəkil 3. Qarpızın meyvəsindən alınmış göbələk nümunəsinin konidisinin mikroskopda görünüşü

Qovun sortlarında aparılmış tədqiqat işi nəticəsində məlum olmuşdur ki, bitkinin yarpaginda *Rizophus nigricans, Alternaria alternata* göbələklərinin olduğu müəyyən edilmişdir.

Şəkil 4. Qovun bitkisinin yarpağından alınmış kaloniyalar

Şəkil 5. Qovun bitkisinin yarpağından alınmış kaloniyaların təmiz kulturaya çıxarılması nəticəsində alınan kultura



Şəkil 6. Qovun bitkisinin yarpağından alınmış göbələk nümunəsinin konidisinin mikroskopda görünüşü

Balqabaq sortlarında aparılmış tədqiqat işi nəticəsində məlum olmuşdur ki, bitkinin meyvəsində *Botrytis cinera, Verticillium alboatrum* göbələklərinin olduğu müəyyən edilmişdir.

Şəkil 7. Balqabaq bitkisinin meyvəsindən alınmış kaloniyalar



Şəkil 8. Balqabaq bitkisinin meyvəsindən alınmış kaloniyaların təmiz kulturaya çıxarılması nəticəsində alınan kultura

Şəkil 9. Balqabaq bitkisinin meyvəsindən alınmış göbələk nümunəsinin konidisinin mikroskopda görünüşü

Ədəbiyyat siyahısı

1. Ş.B.Quliyev Tərəvəz və bostan bitkilərinin toxumşünaslığı 18-20 səh.
2. Nizami Namazov Göbələk və göbələyəbənzər canlılar aləmi. Sumqayıt Dövlət Universiteti 2019.
3. Hawksworth D.L., Kirk P.M., Sutton B.C. and Pegler D.N. Ainsworth and Bisby's Dictionary of the Fungi. CAB. International Cambridge., 1995, 616p.
4. Raudoniene V., Lagauskas A.Micromycetes on imported fruit and vegetable // Botanica Lithuanica, 2005, Suppl. 7, p.55-64.

QOCA AĞ SİÇOVULLARIN BAŞ BEYNİNDƏ CİNSİYYƏTDƏN ASILI OLARAQ QLÜKOZA-6-FOSFAT DEHİDROGENAZANIN FƏALLIĞI

MƏMMƏDXANOVA V.V.
AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu
e-mail: vafa.mamedxan@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İlk dəfə olaraq baş beynin strukturlarında: orbital, hissi-hərəki, limbik qabıqlarda, hipotalamus və beyincikdə toxuma və sitozol subhüceyrə səviyyəsində qoca yaş dövrünə aid (≈ 24-28 aylıq) erkək və dişi ağ siçovulların Q-6-FD fermentinin fəallığının göstəriciləri haqqında məlumatlar əldə edilmişdir. Öyrənilən fermentin fəallığı dişi sicovullarda erkək sicovullara nisbətən daha yüksəkdi. Qeyd olunan dəyişiklik beynin tədqiq olunan strukturlarının morfoloji və funksional xüsusiyyətlərindən, heyvanın cinsindən asılıdır.

AÇAR SÖZLƏR: qlükoza-6-fosfat dehidrogenaza fermenti, qoça sicovul, beyin qabığı, beyincik, hipotalamus.

GİRİŞ

Qocalma prosesi baş verən yaş dəyişiklikləridir və qocalıqdan çox əvvəl başlayır. Qocalma əlamətləri canlıların müxtəlif quruluş səviyyələrində: molekulyar, hüceyrə, toxuma, orqan sistemləri və orqanizm səviyyəsində özünü göstərir. Qocalma prossesi zamanı orqanizm səviyyəsində baş verən dəyişikliklər, əvvəlcə xarici əlamətlərdə özünü göstərir. Bədənin qaməti dəyişir, ölçüləri kiçilir, dəri elastikliyini itirir, qırışlar əmələ gəlir. Görmə, eşitmə və yaddaş zəyifləyir [5]. Sümük toxumasının sıx və süngər maddəsi nazikləşir. Qocalma prossesi zamanı həm daxili, həm də ki xarici amillərin təsirindən bioloji mexanizmlər zədələnirlər. İnsanlarda qocalma prosesi 39 yaşından sonra, yəni

orqanizmdə miyelin adlı maddənin istehsalının azalması ilə başlayır. Orqanizmdə bu maddənin istehsalının azalması ilə insanın hərəkət və beyin funksiyaları da zəifləyir [6]. Bundan əlavə miyelin örtüyünün zədələnməsi və dağılması skleroz kimi xəstəliklərin yaranmasına da səbəb olur. Insanda tənəffüs sisteminin işinin qocalıqla əlaqədar pozulması arasındakı toxumaların dağılması ilə əlaqədardır. Bu zaman tənəffüs səthi azalır, oksigenin ağciyərlərə girməsi çətinləşir [1, 4]. Beyində enerji mübadiləsi çox yüksək səviyyədə olduğu üçün, orqanizmin fəaliyyəti ilk növbədə beynin tələbatını təmin edilməsinə və saxlanılmasına yönəldilməlidir. Tədqiqatlarımızda qoca ağ siçovulların baş beyin strukturlarında cinsiyətindən asılı olaraq qlükoza-6-fosfat dehidrogenaza fermentinin fəallığı öyrənilib.

TƏDQİQAT METODU

Qlükoza-6-fosfatdehidrogenazanın fəallığı (H.U. Bergmeyer, Methods of Enzymatic Analysis, Verlag Chemie, Weinheim, 1975, p.99) təyin olunmuşdur [3]. Təcrübələr zamanı AMEA-nın lokal bioetika komitəsinin nəzarəti altında Avropa Birliyi Şurasının Direktivində (86/609/ABŞ) göstərilən onurğalı təcrübə heyvanlarına qarşı bioetik normativlərə riayət olunmuş və eksperimentlər bu sənədlər əsasında qoca yaş dövrünə aid (≈ 24-28 aylıq) erkək və dişi ağ siçovulların baş beyin strukturlarının subhüceyrədaxili kompartmentlərində aparılmşdır. Siçovullar tədricən dekapitasiya edilmiş və onların hipotalamus, beyincik, baş beyin qabıq nahiyələrinin sitozol fraksiyasında qlükoza-6-fosfatdehidrogenaza fermentinin fəallığı heyvanların cinsiyətindən asılı olaraq müqayisəli şəkildə öyrənilmişdir.

Kontrol kimi vivarium şəraitində saxlanılmış, 6 aylıq dişi və erkək heyvanlar istifadə olunmuşdur.

NƏTICƏ

Nəticələrə baxdıqda görünür ki, həm dişi, həm də erkək siçovullarda qlükoza-6-fosfatdehidrogenaza fermentinin fəallığı dəyişikliklərə məruz qalır. Aparılan tədqiqatların nəticələri göstərdi ki, heyvanların baş beyninin müxtəlif strukturlarında sitozol səviyyəsində qlükoza-6-fosfat dehidrogenaza fermentinin fəallığı heç də bir mənalı dəyişmir, yəni göstəricilər gözə çarpacaq qədər fərqlənirdi. Qlükoza-6-fosfatın əksər hissəsi qlikoliz yolu ilə hüceyrəni enerji ilə təmin olunmasına, bir hissəsi isə pentozofosfat yolu ilə reduksiya biosintezinə sərf olunur. Glükoza-6-fosfat dehidrogenaza fermenti mitohondrilərin membranı ilə birləşə bilmir [2] və onun fəallığı yalnız sitozol fraksiyasında aşkar olunur.

Goca erkək heyvanların (≈ 24-28 aylıq) öyrənilən strukturların sitozolunda qlükoza-6-fosfat dehidrogenaza fermentin fəallığının azalması müşahidə olunur. Ferment fəallığı daha çox hissi-hərəki qabıqda (eksperimental: 0.1 ± 0.012 və kontrol: 0.7 ± 0.035, $p<0.001$) limbik qabıq (eksperimental: 0.4± 0.074 və kontrol: 0.8 ± 0.06, $p<0.001$)və beyincikdə(eksperimental: 0.7± 0.05 və kontrol: 1.5 ± 0,25, $p<0.05$) müşahidə olunur. Hipotalamus (eksperimental: 1.0± 0.2 və kontrol: 1.2 ± 0.4, $p>0.05$) və orbital qabıqda (eksperimental: 0.4± 0.021 və kontrol: 0.6 ± 0.05, $p<0.01$) isə, qlükoza-6-fosfat dehidrogenaza fermentinin fəallığının nisbi enməsi müşahıdə olunur.

Goca dişi heyvanlarda (≈ 24-28 aylıq) qlükoza-6-fosfat dehidrogenazanın fəallığı erkək siçovullara uyğun olaraq analoji şəkildə dəyişilmişdir. Belə ki, bütün öyrənilən nahiyələrdə fermentin fəallığında enmə müshahidə edilib və ən böyük dəyişiliklər hissi-hərəki (eksperimental: 0.7± 0.04 və kontrol: 1.2 ± 0.2, $p>0.05$) qabıqda baş verir. Beləliklə, sitozol fraksiyasının orbital qabığında - (eksperimental: 0.5± 0.034 və kontrol: 1.3 ± 0.4, $p>0.05$), limbik qabıqda (eksperimental: 0.48± 0.047 və kontrol: 1.3 ± 0.25, $p<0.05$) – , hipotalamusda (eksperimental: 1± 0.3 və kontrol: 1.5 ± 0.13, $p<0.05$), beyincikdə isə - fəallığın enməsi müşahidə edilib (eksperimental: 1.7± 0.6 və kontrol: 2.2 ± 0.3, $p>0.05$) .

Alinmiş nəticələri müqayisə etdikdə görünür ki, öyrənilən fermentin ən yüksək fəalliği erkəklərlə müqayisədə dişi qrupunda təxminən 2-7 dəfə qeydə alinib ($p<0.01$). Ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, fermentin fəalliği qoca heyvanlarin orqanizmində geri dönməz dəyişikliklərə səbəb olan enerji mübadiləsinin zəyifləməsi ilə əlaqələndirilir və cinsiyyətə görə bu təsir dişilərdə nisbətən daha əhəmiyyətlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Голубев В. Н., Королев Ю. М., Тимофеев Н. Н. Реакция дыхательной системы человека на гипоксическую гипоксию // Вест. Тверского гос. университета. Серия: Биол. и экология. — 2013. — № 29. — С. 56-64.
2. Bergman T., Jornvall H., Wood I., Jefferi J. Eukariotik glukoze-6-phosphate dehydrogenases: structural screening of related proteins. // J. Protein Chem.- 1991,-10, № 1, p. 25-29
3. Bergmeyer – Methods of Enzimatyc Analisis, Verlag Chemie, Weinhein, Biochemicca information. From HU. 2-nd enlarged elition, 1973, p.99

4. Buffenstein, R., Y. H. Edrey, T. Yang, and J. Mele. 2008. The oxidative stress theory of aging: embattled or invincible? Insights from non-traditional model organisms. Age (Dordr) 30:99–109.
5. De Waal, E. M., H. Liang, A. Pierce, R. T. Hamilton, R. Buffenstein, and A. R. Chaudhuri. 2013. Elevated protein carbonylation and oxidative stress do not affect protein structure and function in the long-living naked-mole rat: a proteomic approach. Biochem. Biophys. Res. Commun. 434:815–819
6. Sakamoto T., Teruya Y., Tanaka N. et al.. Survey of end-of-life medical care of lung cancer. Annal Oncol, (2018)

HİPOKSİYANIN TƏSİRİNDƏN SİÇOVULLARIN BAŞ BEYNİNDƏ PİROFOSFATAZANIN DƏYİŞİLMİŞ FƏALLIĞININ NƏSİLDƏN NƏSİLƏ TRANSGENERATİV ÖTÜRÜLMƏSİ

ABİYEVA E.Ş.
AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu
E-mail: elnaz.abiyeva@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalə hipoksiyanın təsirindən siçovulların baş beyin strukturlarında yaranan dəyişikliklərin transgeneratıv ötürülməsinə həsr olunub. Müəyyən edilmişdir ki, prenatal ontogenezdə hipoksiyaya məruz qalan siçovulların baş beynində pirofosfatazanın fəallığında yaranan dəyişikliklər, nəsildən nəsilə transgenerativ ötürülür və eyni xarakter daşıyır.

AÇAR SÖZLƏR: hipoksiya, pirofosfataza, nəsil, baş beyin

GİRİŞ

Müasir dövrdə insanların həyat fəaliyyəti xeyli genişlənmiş, ekoloji şərait dəyişmişdir. Qeyd etmək lazımdır ki, hipoksiya orqanizmdə maddələr mübadiləsinin, bilavasitə fermentlərin fəallığının, müəyyən biokimyəvi reaksiyaların sürətini və tərkibini dəyişdirdiyindən hüceyrə, toxuma, orqanların quruluş və funksiyasına təsir göstərir [3,4]. Bu baxımdan, müxtəlif patoloji proseslər zamanı orqan, toxuma, orqanizm səviyyəsində baş verən tənzimləyici mexanizmlərin və biokimyəvi reaksiyaların tədqiqi xüsusi maraq doğurur. Yaranan patoloji dəyişikliklərin nəsildən nəsilə ötürülmə riski problemi çox aktualdır. Tədqiqatlar nəticəsində məlum oldu ki, orqanogenez dövründə hipoksiyaya məruz qalmış dişi Wistar siçovulların hər iki nəsildə, postnatal ontogenezdə yaşı 17 günə çatmış balalarda, pirofosfataza fermentinin fəallığında əhəmiyyətli azalma olmuşdur [5,6]. İşimizin məqsədi, orqanogenez zamanı hipoksiyaya məruz qalan Wistar siçovullarının beyin strukturlarındakı pirofosfataza fermentinin fəaliyyətindəki dəyişikliklərin gələcək nəsillərə ötürülmə imkanlarını təhlil etməkdir.

TƏDQİQAT METODU

Tədqiqatlar Avropa elmi fondu və heyvanlara qarşı humanist münasibət haqqında Helsinki bəyannaməsinin tövsiyə etdikləri prinsip və normativ sənədlər əsasında 17 günlük xəttsiz ağ siçovullar üzərində aparılmışdır. Dişi siçovullar boğazlılığın orqanogenez dövrünün 3-7 günlərində (5 gün ərzində) hər gün 20 dəqiqə olmaqla 5 gün ərzində 10% oksigen və 90% azotlu qaz qarışığı ilə hipoksiyaya məruz qaldıqdan sonra onlardan bala alınır. Balalar iki qrupa bölünür. Bir hissəsi 17-günlüyünədək böyüdülür dekapitasiya olunurlar, ikinci hissəsi isə üç aylığınadək böyüdülür və normal heyvanlarla cutləşdirilir. Onlardan alınan növbəti nəsil postnatal ontogenezin 17-ci gününə catdıqda dekapitasiya edilir. Hər iki nəsildə hipotalamus, beyincik, hissi-hərəki (senso-motor), orbital və limbik qabıqlarının toxuma və subhüceyrə fraksiyalarında pirofosfatazanın fəallığı öyrənilib.

Kontrol kimi vivarium şəraitində saxlanılmış, əlavə stres faktorunu istisna etmək üçün eyni günlərdə və vaxtda barokameraya yerləşdirilmiş, lakin hipoksiyaya məruz qalmamış eyni yaşdan olan heyvanlar istifadə olunmuşdur.

Baş beyindən ayrılmış hipotalamus, beyincik, hissi-hərəki, orbital və limbik qabıqlarının toxumasında və subhüceyrə fraksiyalarında (mitoxondri və sitozol) pirofosfatazanın fəallığı, ümumi zülalın miqdarı təyin olunmuşdur.

Ppi-azanın fəallığı H.B.Efremoviç üsulu ilə [1] , ümumi zülalın miqdarı isə Louri üsulu ilə təyin olunub [2].

NƏTICƏ

Beləliklə birinci nəsildə aldığımız nəticələrə görə, 17-günlük heyvanlar üzərində apardığımız tədqiqatlar göstərdi ki, tədqiq olunan baş beynin strukturlarının əksəriyyətində toxuma fraksiyasinda Ppi-ase fermentinin fəallığı azalır, beləliklə, orbital qabıqda- 14,07%, hissi-hərəki qabıqda – 1,44%, limbik qabıqda – 10%, hipotalamusda – 3,77%, beyincikdə - 66,6% kontrola nisbətən azalma muşahidə edilib.

17-günlük heyvanların mitoxondri fraksiyasında aldığımız nəticələr göstərdi ki, fəallığın dəyişməsi toxumada oldugu kimi eyni xarakter daşıyır: orbital qabıqda- 14 %, hipotalamusda – 12%, beyincikdə - 94,8%, hissi-hərəki və limbik qabıqda 35,6% və 3,6% müvafiq olaraq fəallığın enməsi qeydə alınıb.

Sitozolda aldığımız nəticələr müxtəlıf olub: orbital qabıqda, limbik qabıqda və hipotalamusda fəallığın aşağı düşməsi, hissi-hərəki qabıqda və beyincikdə isə fəallığın yüksəlməsi qeydə alınıb.

İkinci nəsildən aldığımız 17-günlük siçovul balalarının baş beyinin, orbital qabığının mitoxondrial fraksiyasında pirofosfotazanın spesifik fəallığının əhəmiyyətli dərəcədə aşağı enməsi (eksperimental: 16.6 ± 1.4 və kontrol: 53.7 ± 1.1, $p < 0.001$), hissi-hərəki qabıq (14.6 ± 1.7 , 28.4 ± 1.2, $p < 0.01$), limbik qabıq (13.1 ± 1.5, 25.6 ± 1.7, $p < 0.01$), hipotalamus (5.3 ± 0.6 və 27.7 ± 1.4, $p < 0.001$) və beyincik (6.0 ± 0.9 və 20.4) ± 1.8, $p < 0.01$) qeyd edildi.

Sitosol fraksiyasında eyni yaşda olan siçovul balalarında, pirofosfatazanın spesifik fəallığının azalması yalnız orbital qabıqda (17.2 ± 1.5 və 28.4 ± 1.0, $p < 0.01$) və hipotalamusda (6.3 ± 0.7, 15.8 ± 0.9, $p < 0.01$) aşkar edilmişdir, digər tədqiq edilmiş beyin strukturlarında isə ferment fəallığının deyişiklikliyi əhəmiyyətsiz idi.

Hər iki nəsildə aldığımız nəticələrə nəzər saldıqda belə qənaətə gəlmək olar ki, birinci nəsildə prenatal hipoksiyaya məruz qaldıqdan sonra doğulan 17- günlük siçovul balalarında pirofosfataza fermentinin fəaliyyətindəki dəyişikliklər, araşdırdığımız ikinci nəsildə (yeni nəsil) eyni yaşda olan siçovul balalarının baş beyin strukturlarindakı fəallığın dəyişikliklərin xarakterinə bənzəyir. Yəni hər iki nəsildə pirofosfataza fermentinin fəaliyyətinin aşağı enməsi müşahidə olunub. Belə nəticəyə gəlmək olar ki, fermentin fəallığının dəyişilməsinin transgenerativ otürülməsi, mövcud genlərin fəallığının epigenetik dəyişiklikləri ilə əlaqədardır [7].

ƏDƏBİYYAT SİYAHISI

1. Ефремович Н.В. – Выделение и первичная характеристика двух форм неоганической пирофосфатазы из митохондрий сердечной мышцы быка- Биохи-мия,т.45,вып.6, с.1033-1039
2. Г.А.Кочетов «Практическое руководство по энзимологии», М., «Высшая школа», 1980, с.224.
3. E.Sh.Abiyeva. Impact of hypoxia, undergone in period of organogenesis, on dynamics of the activity of succinate dehydrogenase of the brain on the rats. Proceedings of Biological and Medical Sciences. 2015. V. 70, № 1, pp. 55-59.
4. A.M.Rashidova, S.N.Babazadeh, V.V.Mammedkhanova, E.Sh.Abiyeva. Dynamics of brain enzymes activity in rats exposed to hypoxia. Biotechnologia Acta. 2019. V. 12, № 4, pp. 42-49.
5. Steenwyk G., Roszkowski M., Manuella F., Franklin T.B. and Mansuy I.M. Transgenerational inheritance of behavioral and metabolic effects of paternal exposure to traumatic stress in early postnatal life: evidence in the 4th generation. Environmental Epigenetics, 2018, Vol. 4, No. 2, pp. 1-8. doi: 10.1093/eep/dvy023
6. Bohacek J. and Mansuy I.M. Epigenetic Inheritance of Disease and Disease Risk. Neuropsychopharmacology Reviews 2013, Vol. 38, pp. 220–236
7. Handy D.E., Castro R., Loscalzo J. Epigenetic modifications: basic mechanisms and role in cardiovascular disease. Circulation. 2011. V. 123, No. 19, pp.2145–2156. doi:10.1161/CIRCULATIONAHA.110.956839

ZƏFƏRAN EKSTRAKTININ MÜXTƏLİF BEYİN STRUKTURLARINDA SEROTONİN SƏVİYYƏSİNƏ TƏSİRİ

SEVİNC QULİYEVA
AMEA, Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu
ecolog84chingiz@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiq etdiyimiz mövzular içərisində vaciblərindən biri də zəfəranın antidepressiv xassələrinin serotonin metabolizmi ilə əlaqəsi mövzusudur. Məlumdur ki, serotonin canlı orqanizmdə yetəri qədər funksiya yerinə yetirən bir molekuldur. Beyində serotonin çox ciddi funksiyalara nəzarət edir. O, əhvalın və emosiyaların dəyişilmə hallarına cavabdeh olan kimyəvi birləşmədir, hansı ki, onun səviyyəsinin enməsi depressiyaya səbəb ola bilər. Zəfəran ekstraktının antidepressiv xüsusiyyəti onun serotonin metabolizminə təsiri ilə əlaqədardır. Onun orqanizmə yeridilməsi zamanı serotonin aktivliyinin artması müşahidə edilir.

AÇAR SÖZLƏR: zəfəran ekstraktı, beyin strukturları, serotonin.

GİRİŞ

Məlumdur ki, emosional gərginliyin və koqnitiv proseslərin neyrofizioloji mexanizmlərinin aktuallaşmasında baş beynin monoaminergik neyrotransmitter sistemləri vacib rol oynayırlar. Bunu nəzərə alaraq, tədqiqat işinin bu hissəsində beyin qabığı və qabıqaltı strukturlarda serotoninin miqdarına zəfəran ekstraktının təsirinin tədqiqi aparılmışdır. Tədqiqatlarımızda istifadə olunan bitki ekstraktı zəfəran kimi tanıdığımız Crocus sativus L. bitkisinin qurudulmuş dişicik ağızcıqlarından hazırlanmışdır. Bu bitki dünyanın bir çox ölkələrində (Yunanıstan, Hindistan, İran, İspaniya və s.) becərilən çoxillik ot bitkisidir. Hansı ki, həmçinin Abşeron yarımadasının Bilgəh qəsəbəsində də becərilir. Zəfəranın əsas bioloji aktiv komponentləri krosinlər, pikrokrosin və şafranaldır (1). Zəfəranın xalq təbabətində geniş istifadəsinin səbəbi onun ağrıkəsici, antidepressant, sedativ, antioksidant və s. kimi xassələrə malik olmasıdır (2, 3).

Hesab edilir ki, zəfəranın tərkibindəki krosinlər serotonin reseptorunun aqonisti olan m-xlorofenilpiperasinin (mXFP) təsirinə əks təsir göstərərək onun siqnallarının 5-HT2C reseptoruna çatması prosesini ləngidir. Siçovullar üzərində aparılan təcrübələrin nəticələrinə görə canlı orqanizmlərdə zəfəranın tərkibinə daxil olan krosinlər serotonergik xüsusiyyətlər nümayiş etdirirlər (4).

Tədqiq olunan beyin strukturları (hipotalamus, görmə və sensomotor qabıq) mərkəzi sinir sisteminin yuxarı və aşağı səviyyələri ilə funksional birlik təşkil edirlər. Hipotalamus koqnitiv funksiyaları yüksək səviyyədə saxlamağa cavabdeh olan beynin neokorteks nahiyəsinin şöbələrinə bilavasitə informasiya göndərir. Eyni zamanda qeyd etdiyimiz strukturların orqanizmin fizioloji proseslərində vacib rolu ədəbiyyatdan yaxşı məlumdur (5, 6).

TƏDQİQAT METODU

Tədqiqatlar 3 qrupda cəmlənən və hər birisinin çəkisi 200-220 qram olan 27 baş siçovul üzərində aparılmışdır. I qrup – intakt, yəni vivariya şəraitində qidalanan; II qrup - əlavə qidalanan siçovullar; III qrup - əlavə qidanı zəfəran ekstraktının verilməsi fonunda alan siçovullar. Tədqiq olunan zəfəran ekstraktı per os yolu ilə 40-50 mq/kq dozada 20 gün ərzində heyvanlara verilib. Beyin strukturlarında (hipotalamus, görmə və sensomotor qabığı) serotonin səviyyəsinin təyini üçün B.M.Koqan, N.V.Neçayev metodu tətbiq edilmişdir.

NƏTİCƏ

Aparılmış tədqiqatların nəticələri göstərir ki, kontrolda 5-HT (serotonin) miqdarı qabıqaltı strukturlara nisbətən, beyin qabığı səviyyəsində daha yüksəkdir və bu neyrotransmitterin ən yüksək səviyyəsi görmə qabığında müşahidə olunaraq 417,9±1,5 mkq/q çatır. Qabıqaltı səviyyədə isə 5-HT miqdarı hipotalamusda 517,5±1,4 mkq/mq olur (cədvəl).

Beyin strukturu	**Kontrol**	**Zəfəran**
Hipotalamus	464,8±1,2	517,5±1,4
Görmə q.	317,8±1,3	417,9±1,5
Sensomotor q.	301,4±1,1	341,5±2,0

Cədvəl. Zəfəran ekstraktının beyin strukturlarında serotonin səviyyəsinə təsiri

Beləliklə, əldə etdiyimiz tədqiqat materiallarından məlum olur ki, zəfəran ekstraktı verdikdən sonra baş beynin 5-HT-ergik sistemin aktiviyi dəyişikliklərlə nəticələnir. Bu dəyişikliklərin xarakteri və etibarlılığı tədqiq edilən beyin strukturundan asılıdır. Aydın olur ki, zəfəran ekstraktın verdikdən sonra 5-HT-ergik sistemin aktiviyinə effektiv təsir edərək, baş beynin ayrı-ayrı strukturlarında bu neyrotransmitterin sintezini artırır. Maraqlıdır ki, bu təsirin nəticəsində 5-HT miqdarında baş verən dəyişiklər beyin qabığı və qabıqaltı səviyyələrdə eyni istiqamətdə inkişaf edərək etibarlı dərəcədə artması ilə xarakterizə olunur.

ƏDƏBİYYAT SİYAHISI

1. Tarantilis P.A., Tsoupras G., Polissiou M. Determination of saffron (Crocus sativus L.) components in crude plant extract using high-performance liquid chromatography-UV-visible photodiode-array detection-mass spectrometry. J Chromatogr A. 1995: 699(1-2):107-18.
2. Ríos J.L., Recio M.C., Giner R.M., Máñez S. An Update Review of Saffron and its Active Constituents. Phytoter Res. 1996:10, 189-193.
3. Abdullaev F.I., Espinosa-Aguirre J.J. Biomedical properties of saffron and its potential use in cancer therapy and chemoprevention trials. Cancer Detect Prev. 2004;28(6):426-32.
4. Georgiadou G., Tarantilis P.A., Pitsikas N. Effects of the active constituents of Crocus Sativus L., crocins, in an animal model of obsessive-compulsive disorder. (2012) Neuroscience Letters., Volume 528, Issue 1, Pages 27-30
5. Блум Ф., Лейзерсон А., Хофстедтер Л. Мозг, разум и поведение. М., 1988.
6. Сапин М.Р., Брыксина З.Г. Анатомия человека. – М.: Просвещение, 1995.

HERONTOLOJİ YAŞ QRUPLARINDA ELEKTROKARDİOQRAFİK TƏDQİQATLAR ZAMANI AMPLİTUD VƏ İNTERVAL GÖSTƏRİCİLƏRİNİN VARİABELLİYİ

ZENFİRA QƏDİMOVA
AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu
Biologiya bölməsi
zenfiragadimova.phd@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Herontoloji yaş qruplarında (ahıl, qoca və uzunömürlülər) ürək-damar sisteminin fizioloji tədqiqinə yönəlmiş tədqiqatlarda ürəyin bioelektrik fəaliyyətini təhlil edərkən elektrokardioqramda qeydə alınan dişciklərin (P, Q, R, S, T) intervalı, amplitudu, kompleksi, davametmə müddəti və seqmentinə xüsusi diqqət yetirilmişdir. Bu göstəriciləri izləməklə ürək ritmində, miokardın strukturunda baş verən dəyişiklikləri təyin etmək mümkündür. Tədqiqatlarımızda ahıl, qoca və uzunömürlülərdə PQ, QT intervalının davametmə müddəti, RR intervalı, QRS kompleksinin, P dişinin amplitudu tədqiq edilmiş, alınmş nəticələr əsasında yaşla əlaqədar ürəyin bioelektrik fəaliyyətində yaranmış dəyişikliklər müəyyən edilmişdir.

AÇAR SÖZLƏR: Herontoloji yaş qrupları, elektrokardioqrafik analizlər, ürəyin bioelektrik xüsusiyyətləri, kardioamplitud, kardiointerval

GIRIŞ

Məlumdur ki, elektrokardioqrafik göstəricilərin variabelliyi yaşla əlaqədar olaraq azalır. Bu nəticələrin miokardın funksional fəaliyyət göstəricilərinin fundamental, eyni zamanda bioelektrik xüsusiyyətlərinə nə dərəcədə bağlı olduğunu aydınlaşdırmaq olduqca mühüm əhəmiyyət kəsb edir (1,2,5). Elektrokardioqrafik (EKQ) tədqiqatların yaş xüsusiyyətləri ilə bağlı elmi ədəbiyyatlarda fərqli baxışlar mövcuddur. Ahıl, qoca və uzunömürlü yaş qrupları üçün dəqiq norma kriteriləri olmadığından EKQ-dəki dəyişiklikləri qiymətləndirmək bir qədər çətinlik törədir. Bu səbəbdən ürəyin bioelektrik fəaliyyətinin geniş yayılmış

tədqiqat metodlarından biri olan EKQ üçün yaş kriterilərinin təyin edilməsi çox vacibdir. Herontoloji yaş qruplarında EKQ-nin qeydə alınmasının vacibliyinin səbəbi onun göstəricilərinin qocalma prosesi zamanı ürək damar sisteminin vəziyyətini dinamik şəkildə müşahidə etmək məqsədilə istifadə edilə bilməsidir. EKQ həm də miokardın vaxtından əvvəl qocalması əlamətlərinin aşkara çıxarılması üçün də önəmlidir (1,3,6).

Balakən rayonundakı herontoloji tədqiqatlarımızda ahıl, qoca və uzunömürlülərdə EKQ–də yaranan dəyişiklikləri müəyyən etməklə yaşla əlaqədar ürəyin bioelektrik fəaliyyətinin mühüm xüsusiyyətlərini aydınlaşdırmaq əsas məqsədlərdən biri olmuşdur.

TƏDQIQAT METODU

Herontoloji tədqiqatlar Balakən rayonunda yaşayan ahıl (60-74 yaş, n=50 nəfər) və qoca (75-89, n=50) yaş qruplarında, eyni zamanda yaşı 90-dan yuxarı olan uzunömürlü şəxslər (n=42) üzərində aparılmışdır. Həmin regionda yaşayan ahıl, qoca və uzunömürlü şəxslərin ürəyinin bioeketrik fəaliyyətinin yaşla əlaqədar dəyişikliklərinin dinamikasının tədqiqi üçün elektrokardioqraf cihazı ilə EKQ analizləri çəkilmişdir. EKQ analizlərinin təyinində ümumi qəbul edilmiş standart 12 aparmadan istifadə olunmuşdur; ətraflardan çəkilmiş 3 standart, 3 gücləndirilmiş aparma və 6 döş aparması (I,II, III, aVR, aVL, aVF; V_1-V_6). EKQ əsasən 10 mm/mV, 25 və 50 mm/saniyə sürəti ilə çəkilmişdir (4). Tədqiqat zamanı Yaponiya istehsalı olan 6 kanallı (CardiMax) elektrokardioqraf cihazından istifadə edilmişdir.

Alınmış bütün rəqəm göstəriciləri müasir tövsiyələr nəzərə alınmaqla statistik-riyazi üsul və formullar əsasında təhlil olunmuşdur. Alınmış nəticələr Styudentin ***t*** kriterisinə əsasən dəyərləndirilmiş və Styudent-Fişer cədvəli üzrə nəticələrin dürüstlülük dərəcəsi müəyyən edilmişdir.

Qeyd olunan bütün göstəricilərin statistik işlənməsi "STATİSTİCA 6" və "Microsoft Excell (2016)" proqramlarından istifadə edilmişdir.

`NƏTICƏ

Tədqiqatlarımız zamanı herontoloji yaş qruplarında qocalma prosesində miokardın fizioloji və funksional vəziyyətini öyrənmək üçün EKQ çəkilmişdir. Miokardın bioelektrik fəaliyyətini dəyərləndirmək üçün EKQ-də qeyd olunan dişciklərin amplitudu, davametmə müddəti, onlar arasındakı interval, və s. hesablanmışdır.

Yaşlı şəxslər üçün PQ intervalının uzanması və ya qısalmasını təyin etmək vacib şərtdir. Məlumdur ki, PQ intervalı oyanmanın qulaqcıqlardan AV düyününə, Hiss dəstəsinə və onun şaxələrinə ötürülmə zamanıdır. Balakən rayonunda ahıl yaşlı şəxslərdə PQ intervalının ümumi statistik göstəriciləri 0,22±0,006 s., qocalarda 0,20±0,009 s., uzunömürlülərdə də 0,17±0,005s., qeyd edilmişdir.

Ahıl, və qoca yaş qruplarının, eyni zamanda uzunömürlülərin EKQ-də nəzərə çarpan mühüm dəyişikliklərdən biri də QT intervalının davametmə müddətidir ki, bu da ürəyin elektrik sistolasının əsas göstəricisidir. Qocalma zamanı QT intervalının uzanması qocalan miokardın iş fəaliyyətinin zəiflədiyini əks etdirir. QT intervalının uzanması yalnız ÜYT-nin dəyişikliyi ilə deyil, həm də miokardın əzələ liflərinin funksional vəziyyətinin dəyişməsi ilə onlarda repolyarizasiya prosesinin ləngiməsindən asılıdır. QT intervalı ahıl yaşlı şəxslərdə 0,32±0,008 s., qoca yaşlılarda 0,34±0,014 s., uzunömürlülərdə 0,37 ± 0,008 saniyə hesablanmışdır. QT intervalının EKQ normativlərinə görə 0,34-0,42 s. olduğu nəzərə alınarsa, Balakən rayonunun ahıl yaşlı sakinlərində bu intervalın qısaldığı, bununla yanaşı ürəyin elektrik sistolasının da qısaldığı qənaətinə gəlmək olar.

QRS kompleksinin davametmə müddəti yaşlı insanlarda bir qədər uzanır ki, bu da miokard hüceyrələrində depolyarizasiya prosesinin pozulmasını sübut edir. QRS kompleksinin orta statistik göstəriciləri Balakən rayonunda ahıl yaşlılarda 0,06±0,004 s., qoca yaşlılarda 0,09±0,006 s., uzunömürlülərdə 0,09±0,003 saniyə hesablanmışdır.

EKQ–də RR intervalının hesablanması nəticəsində Balakən rayonunun ahıl yaşlılarında bu göstəricinin orta statistik qiyməti 0,8±0,042 s., qocalarda 0,7±0,032s., uzunömürlülərdə də 0,7±0,025s. qeyd edilmişdir.

Qocalma prosesi zamanı ürəkdə oyanmanın yayılmasının müxtəlif mərhələlərdə keçiriciliyi çətinləşir. Qulaqcıqlarda oyanma prosesi pozulur (P dişinin deformasiyası, genəlməsi, haçalanması), atrioventrikulyar keçiricilik, mədəciklərin miokardında oyanmanın yayılma sürəti bir qədər ləngiyir. Bizim tədqiqatlarımızda da EKQ analizinin təhlilində P dişinin formasına xüsusi diqqət yetirilmişdir. Ahıl yaş qrupuna məxsus şəxslərdə P dişinin davametmə müddəti 0,16±0,008 s.; qocalarda 0,09±0,006 s.; uzunömürlülərdə isə 0,11±0,004 saniyə olmuşdur. Ahıl və qoca yaşlı şəxslərdə P dişinin genişlənmiş və haçalanmış forması qeyd edilmişdir.

Ümumilikdə tədqiqatlarımızın elektrokardioqrafik analizlərinin yekun nəticələrinə diqqət yetirildikdə belə nəticəyə gəlmək olar ki, Balakən rayonunda yaşayan ahıl və qoca yaşlı şəxslərdə ürək-damar fəaliyyətinin

funksional dəyişiklikləri orqanizmin ümumi fizioloji durumuna da ciddi təsir etmiş, kompleks xəstəliklər fonunda (şəkərli diabet, nevroloji, onkoloji və s.) qocalma prosesinin sürətlənməsinə (patoloji qocalmaya) səbəb olmuşdur. Məhz bu xüsusiyyətlər region üçün növbəti onilliklərdə uzunömürlülük indeksinin aşağı düşməsinə təsir edə bilər. Uzunömürlülərin ürəyinin bioelektrik fəaliyyətinin tədqiqinin yekun nəticələrinə əsaslanaraq qeyd etmək olar ki, onların adaptiv-kompensator imkanları daha davamlıdır və bunun sayəsində onlarda fizioloji qocalma prosesinin əlamətlərini (ahıl və qoca yaşlı şəxslərlə müqayisədə) aydın görmək olur və bu uzunömürlülər fizioloji qocalığın bariz nümunəsi hesab oluna bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Иванов Г.Г. Гл. 3. Структура вариабельности сердечного ритма при анализе PP- и PR-интервалов у больных с различными формами ИБС // Новые методы электрокардиографии / под ред. С.В. Грачева, Г.Г. Иванова, А.Л. Сыркина. М.: Техносфера. 2007. С. 518–549.

2. Иржак Л.И., Русских Н.Г., Паршукова А.Н. Вариабельность временных и амплитудных показателей ЭКГ у людей пожилого и старческого возраста // Журн. мед.-биол. исследований. 2021. Т. 9, № 4. С. 355–365.

3. Котельников Г.Л., Яковлев О.Г., Захарова О.Н. Геронтология и гериатрия. Самара; Самарский Дом печати, 1997, 798 с.

4. Электрокардиография. Учебное пособие / Мурашко В.В., Струтынский А.В., Издательство: МедПресс-Информ, 2017 г., 320с.

5. Basile G., Cucinotta M.D., Figliomeni P., Lo Balbo C., Maltese G., Lasco A. Electrocardiographic Changes in Centenarians: A Study on 42 Subjects and Comparison with the Literature // Gerontology. 2012. Vol. 58, № 3. P. 216–220.

6. Rashidova A.M., Hashimova U.F., Gadimova Z.M. Study of energy metabolism enzymes and state of cardiovascular system in elderly and senile age patients // Advances in Gerontology, 2019, V.32 №4, P.: 572-580.

AŞAĞI KÜR ÇÖKƏKLIYINDƏ AĞCAGIL ÇÖKÜNTÜLƏRININ PALEOCOĞRAFIYASI

AĞALAR QARAXANOV YALÇIN
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Fakultə:Geoloji-Kəşfiyyat/ Bölmə: Təbiət elmləri
aqalar@inbox.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Dağlararası Kür çökəkliyinin Azərbaycanı əhatə edən ərazisində Aşağı Kür çökəkliyi bütövlükdə, Orta Kür çökəkliyinin isə böyük bir hissəsi yerləşmişdir. Bu çökəklik çox mürəkkəb heterogen geoloji quruluşa malikdir. Çökmə kompleksin qalınlığı Orta Kür çökəkliyində 12 - 14 km, Aşağı Kür çökəkliyində isə 20 km kimi qiymətləndirilir. Orta Kür çökəkliyində gömülmüş maqmatik vulkanlar, Aşağı Kür çökəkli-yində isə gömülmüş və fəaliyyətdə olan palçıq vulkanları mövcud-dur. Bu regionda yüzlərlə qalxım aşkar edilmiş, 40-dan çoxunda neft-qazlılıq müəyyənləşdirilmiş, onlarla yataq istismara verilmişdir.

Son dövrlərdə çökəkliyin müxtəlif qanad hissələrində seysmik kəşfiyyat üsulu ilə 100 km-lərlə uzanan pazlaşma zonalarının aşkar edilməsi burada qeyri-antiklinal tələlərin də formalaşdığını göstərir. Kür çökəkliyində geoloji kəsilişi təşkil edən süxurların fiziki parametrlərinin (sıxlıq, maqnit qavrayıcılığı) laborator analizləri onların strukturların tağ və tağyanı hissələrində həm şaquli, həm də lateral istiqamətdə qanunauyğun dəyişdiyini göstərir ki, bu da izafi sıxlıqlı sərhədlərlə əlaqədar lokal qalxımların və neft-qazlılığın qravitasiya və geomaqnit sahələrində əks olunmasına gətirib çıxarır. Bundan başqa, yataq üzərində subvertikal zonanın fiziki parametrlərinin kənara nəzərən kəskin dəyişdiyi müəyyənləşdirilmiş, nəticə-də qravi-maqnit sahələrində nəzərə çarpacaq dəyişiklik yarandığı göstərilmişdir. Bütün bunlar neft-

qaz perspektivli strukturların axtarışında qravimetrik və maqnitometrik kəşfiyyatın tətbiqi üçün olduqca əlverişli şərait yaradır. Neft-qazlılıq baxımından maraq doğuran bu regionun dərinlik geoloji quruluşu və neft-qazlılığın öyrənilməsi geofiziki kəşfiyyat üsulları əsasında həyata keçirilmiş və keçirilməkdədir.

GİRİŞ

Açar sözlər: Aşağı Kür, Ağcagil, Məhsuldar qat

Mövzunun aktuallığı: Neft və qaz ehtiyatlarına, geoloji və sedimentoloji göstəricilərinə görə AKÇ Azərbaycanın quruda ən zəngin neftli-qazlı rayonlarından biridir.Günümüzə kimi onun neft-qazlılığı əsasən MQ çöküntüləri ilə bağlıdır.

Məlum oduğu kimi, Aşağı Kür çökəkliyinin və Bakı arxipelağı hədlərindəəsas pliosen-antropogen çöküntülərinin kəsilişində neft-qaz axtarış obyektləri Məhsuldar qat hesab edilir (Orta Pliosen). Bundan başqa ayrı-ayrı ərazilərdə sənaye neft-qazlı Abşeron, xüsusi ilə Ağcagil çöküntüləri hesab edilir. Axtarış-kəşfiyyat qazmaları prosesində bazis horizont kimi Məhsuldar qat götürülür. Buna görə daha cavan çöküntülərin neft-qazlılığı əksər hallarda, mövzu üzrə və ya digər səbəblərdən Məhsuldar qatın qazılmasından əldə edilmiş quyuların hesabına müəyyən edilir.

Aşağı Kür çökəkliyində üst pliosen-antropogen çöküntülərinin qalınlıqları əhəmiyyətlidir və yerlər üzrə qalınlıq 3000-3500 m-ə çatır. Buna görə son dövrlərə qədər sənaye əhəmiyyətli neft-qaz quyularıMəhsuldar qatın üst hissəsində aşkar edilmişdir.Yalnız ayrı-ayrı ərazilərdə tək- tək quyularla Məhsuldar qatın daha qədim horizontlarını açmaq mümkün olub ki, onların neft qazlılıq imkanlarının qiymətləndirilməsi və həmçinin kəsilişin litofasial xüsusiyyətlərinin aydınlaşdırılması üçün kifayət etmir.

İşin məqsədi: Təqdim olunan elmi işin əsas məqsədi AKÇ-də Ağcagil və MQ çöküntülərinin bu günə qədər əldə olunmuş litostratiqrafiyası, litologiyası və paleocoğrafiyası haqqındakı geoloji, litoloji və geofiziki materialların kompleks tədqiqi nəticəsində Ağcagil və MQ çöküntülərinin litostratiqrafiyasının və paleocoğrafi əmələgəlmə şəraitinin açıqlanmasıdır. Qarşıya qoyulan elmi məsələləri həyata keçirmək üçün Ağcagil və MQ-ın Böyük Hərami, Kiçik Hərami və Babazənən sahələrinin çöl kəsilişlərini, həmçinin Pirsaat, Bəndovan, Neftçala, Kələməddin, Xıllı, Qalmaz, Kürsəngi vəs. sahələrin dərin quyu kern materiallarını və mədən-geofiziki məlumatlarını litostratiqrafik, fasial-genetik mövqedən öyrənilmiş, kompleks litoloji tədqiqatlar aparmışdır.

Aşağı Kür çökəkliyində xüsusi yerləşdirilmiş tələ tipi təbəqələrin baş hissələrinin texnogen pozulmalar və palçıq vulkanları ilə sərhədləşdirilmiş təbəqəlay tələsi hesab edilir. Həmçinin çökəkliyin bort hissəsinəəsaslanan litoloji və stratiqrafik tələlərdə mövcuddur.

İşin təcrübi əhəmiyyəti və tətbiqi. AKÇ-də son 30 il müddətində aparılan geoloji-geokimyəvi tədqiqatlar nəticəsində gələcəkdə yararlı olacaq, qısaca perspektivli antiklinal strukturlar müəyyən edilmişdir(Kürovdağ, Kürsəngi, Mişovdağ, Qalmaz (qaz yatağı), Neftçala, Pirsaat və s.).

T

Aşağı Kür çökəkliyində Ağcagil çöküntülərinin paleocoğrafiyası.
Aşağı Kür neftli-qazlı rayonu Küryanı düzənliyin cənub-şərq hissəsini əhatə edir və şimal - şimal-şərqdən Ləngəbiz-Ələt, qərb - cənub-qərbdən Girdimançaydan keçən Qərbi Xəzər dərinlik qırılmaları ilə, şərq-cənub-şərqdən isə şərti olaraq Xəzər dənizilə hüdudlanır. Rayonun şərqində relyef palçıq vulkanları ilə kəskin şəkildə mürəkkəbləşir (şəkil 1).

Şəkil 1. Aşağı Kür neftli-qazlı rayonu

Aşağı Kür çökəkliyi əsasən Qədim Xəzər və Müasir dövr çöküntüləri ilə örtülüb. Bununla yanaşı rayonun bəzi sahələrində orta və üst Pliosen çöküntüləri yer səthinə çıxır. Rayon ərazisində bir çox sahələrdə qazılan axtarış-kəşfiyyat quyularında MQ çöküntülərinin üst şöbəsi tam açılıb. Yalnız bir neçə sahədə az sayda quyu MQ-nin alt şöbəsinin Qırməkialtı lay dəstəsini açıb və Miosen çöküntülərinə daxil olub.
Aşağı Kür çökəkliyi Cənub-Şərqi Şirvan və Muğan-Salyan tektonik zonalarına ayrılır. Bu tektonik zonalar daxilində, şimal-qərb cənub-şərq istiqamətində uzanan 4 antiklinal zona: Pirsaat-Hamamdağ, Kələməddin-Mişovdağ-Bəndovan, Kürsəngi, Padar-Neftçala zonaları mövcuddur. Bu antiklinal zonalar yer səthində əsasən Ağcagil, Abşeron və Bakı mərtəbələrinin çöküntüləri ilə təmsil olunmuşlar.

Məhsuldar Qat çöküntüləri gilli-qumlu layların növbələşməsindən, alevrit, alevrolit, qumdaşlarından təşkil olunmuşdur. Süxurların başlanğıc sıxlığı böyük olub 2040 kq/m3 -dir, məsaməlik isə 12-15 % təşkil edir . Ağcagil çöküntüləri demək olar ki, bütün sahələrdə açılmışdır.. Dördüncü dövr çöküntüləri gil və qumların növbələşməsindən təşkil olunub, 900 m qalınlığa malikdir.Bu çöküntülərin

başlanğıc sıxlığı altda yatan Abşeron-Ağcagil çöküntülərinin sıxlığından böyük olub, 1840 kq/m3 -a çatır. Məsaməlik isə ≈24 %-dir (cədvəl 1).

Çöküntülərin yaşı	İndekslər	Litologiya	Qalınlıq, m	Sıxlıq min.-max., kq/m^3	Məsamə-lik, %
Dördüncü dövr	Q	Gillər,qumlar	900	1840-2130	24
Abşeron (üst + orta + alt)	Q_1 ab	Gillər, qumlar, qumdaşları, alevrolitlər	1500	1740-2190	20
Ağcagil	N_2^2 ağ	Gillər, qumlar, qumdaşları	400	1800-2340	17
Məhsuldar Qat	N_2^1 b	Gillər,qumlar, alevrit, alevrolit, qumdaşları	>3000	1970-2490	12-15

Cədvəl 1. Aşağı Kür çökəkliyinin litoloji-petrofiziki xüsusiyyətləri

Məhsuldar Qat çöküntüləri Kələməddin, Böyük Hərami, Kiçik Hərami, Mişovdağ və Bəndovan qalxımlarının yalnız tağ hissələrində yer səthinə çıxırlar. Qalxımların əksəriyyəti, cənub-qərb qanadları dik, şimal-şərq qanadları isə az maili yatıma malik asimmetrik quruluşlu antiklinal strukturlardır. Strukturların tağ hissələri böyük yerdəyişmə amplituduna malik qırılmalarla mürəkkəbləşib. Qırışıqların şarnirindən keçən pozğunluqlar üzərində palçıq vulkanları yerləşir.

Pirsaat-Hamamdağ antiklinal zonası şimal-qərb – cənub-şərq istiqamətində uzanır. Zonanın geoloji quruluşunda Qədim Xəzər, Abşeron, Ağcagil və Məhsuldar Qat çöküntüləri iştirak edirlər.

Tektonik cəhətdən ən yüksəkdə yerləşən Hamamdağ antiklinalında Məhsuldar Qat çöküntülərinin üst hissəsi 900 m qalınlığa qədər yuyulmuşdur.

AKÇ pliosen-antropogen çöküntülərinin əsas tərkibi MQ çöküntülərindən ibarətdir.Alt pliosen-MQ çöküntüləri MQ çöküntülərinin müəyyən zaman kəsiyində AKÇ-nin mərkəz hissəsində pont yaşlı gillərin üzərinə yatdığı müşahidə olunur. Bunların depressiya zonasında və onlara yaxın,cənub-şərqi Qobustan zolağında olmasına palçıq vulkanlarının çıxışlarından götürülmüş süxurların nümunələri,eləcədəKürovdağ,Qarabağlı,Babazənən,Qalmaz və s. sahələrdə quyular haqqındakı məlumatlar yol açır.

MQ çöküntülərinin çökəklik yamacının yaxın hissəsində vəqismən bəzi mövcud strukturların tağ hissəində (Kiçik Hərami,Böyük Hərami,Babazənən və digər qırışıqlar)yer səthinə çıxması müşahidə edilir.MQ çöküntüləri sadəcə Mişovdağ qırışığının tağ hissəsində,Böyük Hərami,Kürovdağ və Qarabağlı qırışıqlarının şimal qanadları hissəsində quyuların köməkliyi ilə tam (qala lay dəstəsi çöküntülərindən başqa) açılmışdır. MQ-ın üst hissəsi Kiçik Hərami və Babazənən qalxımlarında 650-1000m qalınlığında qumlu-gilli çöküntülərdən təşkil olunmuşdur.

Bəndovan sahəsində MQ-ın AKÇ-də maksimal həddəki qalınlığı (26 saylı quyu 3800 m)qeydə alınır.Xəzər dənizində yerləşən sinklinallarda MQ qalınlığı 4000m-dir.MQ çöküntülərinin yer səthinə birbaşa çıxışı,eləcədə ərazidə qazılan struktur və dərin quyuların mədən-geofiziki məlumatları bu çöküntülərin qalınlığının çökəkliyin şimal-şərq və şərq yamacı istiqamətində artmasını göstərir.

AKÇ MQ çöküntüləri əsasən qumlu-gilli litofasiyada təmsil olunmuşlar. Bu çöküntülər qonuru-boz gillərin qumlar, qumdaşılar və alevritlərlə növbələşməsindən ibarətdir. Qum və qumdaşıları polimikt mineraloji tərkibli olub, xırda və ortadənəlidirlər. Qalınlıqları isə 5-30 m arasında dəyişir.

Azərbaycanda son 5-6 il ərzində salınmış böyük neft-qaz yataqlarından biridə Aşağı Kür çökəkliyinin Kürovdağ-Babazənən Neftçala vəMişovdağ-Qalmaz-Bəndovan antiklinal zonaları kimi əsas müsbət tektonik elementləri ayıran Qarqalıq sinklinalın çoxluluğunun mərkəzində yerləşən Kürsəngi yatağı hesab edilir.

Mezozoy inkişaf mərhələsində çökəkliyin kristallik bünövrəsi müxtəlif miqyaslı qırılmalarla mürəkkəbləşdiyindən tektonik planı bloklu quruluşa malik idi. Bununla əlaqədar istənilən ərazinin

inkişafının okean mərhələsi qırışıq əmələgətirən proseslərin olmaması ilə səciyyələnir, çünki üzərində çöküntü qatı formalaşan okean tipli litosfer plitələri özlərini sərt cisim kimi apardıqlarından onların üzərində formalaşan çöküntü qatı deformasiyaya məruz qalmır.

Aşağı Kür çökəkliyinin struktur-tektonik inkişafının ikinci mərhələsi əsasən Paleogen-Miosen dövrü ilə bağlıdır. Geodinamik cəhətdən bu dövrün Maykop mərhələsi Paratetisin qapanmağa başlaması və qeyd edildiyi kimi, Gec Miosendə bütün Cənub Xəzər meqaçökəkliyi boyu əsasən submeridional istiqamətdə sıxılma gərginlikləri rejiminin yaranması ilə səciyyələnir. Gec Miosendə Qırmızı dəniz riftinin açılması ilə bağlı, ümumən Küryanı çökəkliyin şimal və cənubunda submeridional istiqamətdə baş verən subduksiya prosesi ilə əlaqədar onun ərazisində davam edən sıxılma gərginlikləri rejimi bir qədər də gücləndi. Qeyd etmək lazımdır ki, bu rejim Aşağı Kür çökəkliyində bir qədər fərqlidir.
Aşağı Kür çökəkliyinin inkişafının üçüncü mərhələsi Pliosen-Dördüncü dövrlə bağlıdır. Geodinamik cəhətdən bu mərhələ Cənub Xəzər meqaçökəkliyində Gec Miosendə, əsasən submeridional istiqamətdə, sıxılma gərginlikləri rejiminin və meqaçökəkliyi əhatə edən kolliziyaların davam etməsi ilə səciyyələnir. Sonuncuların inkişafına səbəb Qırmızı dəniz riftinin hazırkı dövrdə də ildə 1,5 sm sürətlə açılmasıdır. Aşağı Kür çökəkliyində palçıq vulkanlarının fəaliyyətdə olması, onların müasir relyefdə müsbət elementlər kimi əks olunmaları da deyilənlərə sübutdur. Kür çökəkliyinin şimal kənar hissələrində Ağcagil çöküntüləri allüvial-prolüvial süxurlardan ibarətdir. Çökəkliyin qərb hissəsində litoloji tərkibi konqlomerat, qumdaşı, qumlu gil və balıqqulağı əhəngdaşı, şərq hissədə isə narındənəli qum, qumdaşı və gillərdən ibarətdir.
Ağcagil transqressiyası nəticəsində az müddət ərzində Məhsuldar Qatın şirinləşən su hövzəsi duzlu dəniz hövzəsi ilə əvəz olunur. Kür çökəkliyində Ağcagil dənizinin transqressiyası daha geniş olub. Kiçik Qafqazın şimal-şərq və şərq ətəklərində, Kür və Qabırrı çaylararası rayonunda, Kaxeti dağ silsiləsinin yamaclarında və QanıxƏyriçay depressiyasının qərb hissəsində Ağcagil dənizi Məhsuldar Qat hövzəsi sərhədlərindən kənara çıxır.
Kür çökəkliyinin kənar şimal hissəsində və Cənubi Kaxetinin şimal hissəsində Ağcagil mərtəbəsi Böyük Qafqazın cənub yamacından gətirilən alluvial–proluvial çöküntülərdən təşkil olunur. Bu çöküntülər Kiçik Qafqazın şərq yamacının kənar qərb hissəsində də geniş yayılır.
Kür çökəkliyinin qalan ərazisində isə Ağcagil çöküntüləri dəniz şəraitində çökür. Dərinliyi 50-60 m-dən artıq olmayan Kür çökəkliyi körfəzinin qərb hissəsində konqlomerat, qumdaşı, qumlu gil və balıqqulağı əhəngdaşıları çökdüyü halda, nisbətən dərin şərq hissəsində daha yaxşı çeşidlənmiş narındənəli qum, qumdaşı və gillər toplanır.
Ağcagil çöküntüləri qalınlıqlarının çox böyük intervalda dəyişməsi (0-1000 m-ə qədər) bu əsrdə geotektonik hərəkətlərdə intensivliyin azalmadığını göstərir. Çöküntülərin Orta və Aşağı Kür çökəkliyindəki qalınlıqlarının müqayisəsi onların toplandığı geotektonik rejimlərdə çox böyük fərq olduğunu göstərir.
Orta Kür çökəkliyinin mərkəzi hissəsində toplanan çöküntülərin qalınlıqları 1000 m-dən artıq olduğu halda, Aşağı Kür çökəkliyində qalınlıqlar 50-300 m arasında dəyişir. Orta Kür çökəkliyi strukturlarında isə inkişaf çox zəif olub və ya heç olmayıb.
Çay sularının həcminin artması və dəniz dibinin daha sürətlə çökməsi nəticəsində hövzə sularının şirinləşməsi Ağcagil faunasının məhvinə səbəb olur. Alt Abşeron çöküntüləri qalınlıqlarının paylanması və onların litofasial xüsusiyyətləri göstərir ki, belə geotektonik şərait ilk Abşeron vaxtı mövcud olmuşdur.
Geomorfoloji tədqiqatlar göstərir ki, Böyük Qafqaz dağları Abşeron əsrində 2500-3000 m-ə qədər yüksəlib. Kiçik Qafqazın Azərbaycan ərazisində yerləşən ayrı-ayrı zirvələrinin 2500 m-dən yüksək olmaları mümkün sayılır.
Aşağı Kür çökəkliyinin mərkəzi hissəsində MQ çöküntüləri fərqli litofasial tərkibə malikdirlər (şəkil 3). Daha çox ritmik növbələşmə ilə fərqlənən çöküntülər Kürovdağ, Neftçala, Babazanan-II və Babazanan-I lay dəstələrinə ayrılırlar.

NƏTICƏ

Ağcagil transqressiyası nəticəsində az müddət ərzində MQ-nin şirinləşən su hövzəsi duzlu dəniz hövzəsi ilə əvəz olunur. Kür çökəkliyində Ağcagil dənizinin transqressiyası daha geniş olmuş və aşağı kür çökəkliyinin ərazisində yaxşı çeşidlənən narındənəli qum, qumdaşı və gillər çökmüşlər.
Kür çökəkliyinin şimal kənar hissələrində Ağcagil çöküntüləri allüvial-prolüvial süxurlardan ibarətdir. Çökəkliyin qərb hissəsində litoloji tərkibi konqlomerat, qumdaşı, qumlu gil və balıqqulağı əhəngdaşı, şərq hissədə isə narındənəli qum, qumdaşı və gillərdən ibarətdir.

Aşağı Kür çökəkliyinin geotermik sahəsinin təkamül modellərinin təhlili onu göstərdi ki, regionun çöküntü örtüyünün fəzada geotermik rejimi ayrı-ayrı sahələrin litofasial və tektonik xüsusiyyətləri, eləcə də termal suların hərəkətetmə şəraiti ilə əlaqəlidir və ümumi istilik axınının həm konduktiv, həm də konvektiv komponentləri mövcuddur. Bu əlamət tədqiqat aparılan ərazinin istilik sahəsinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, o daha dərində yatan horizontlara karbohidrogenlərin generasiyasına imkan yaradır.

İntensiv neft-qaz əmələgəlmə prosesi Hacıqabul, Salyan-Muğan, Kürqala, Nəvahi və Şirvan-Dəniz sinklinalında baş vermişdir. Geoloji zaman etibarilə hacıqabul və Salyan-Muğan sinklinallarında erkən paleogendən başlayan neftəmələgəlmə prosesi orta miosenin sonunda başa çatmışdır. Lakin kürqala və şirvan-dəniz sinklinallarında bu proses orta paleogendənorta miosenə qədər olan dövrə uyğun gəlir.

Məhsuldar qat kəsilişinin üst hissəsində vulkan külü laylarına rast gəlinir, onların incə pelit fraksiyasının tərkibinin hidromikalı montmorillonit olması müəyyən edilib.

Süxurların kamillik dərəcəsinin olduqca aşağı (0,12-0,33) olması aşınma sahələrində effuziv süxurların böyük inkişafı ilə əlaqələndirilir.

Məhsuldar qat laylarında qumluluq və qalınlığın dəyişməsi qarşılıqlı əlaqəsinin olması müəyyən edilmişdir. Perspektiv horizontları 5500-5800m dərinlikdə yerləşməsi müəyyən olunmuşdur.

Məhsuldar qat çöküntülərinin paleocoğrafi əmələgəlmə şəraitlərinin sxematik xəritələrinin öyrənilməsi əsasında onların dərin dəniz qraben tipli hövzədə əmələgəldiyi müəyyən edilmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Nərimanov.N.R.,Yusufov.M.N. AKÇ-nin struktur-tektonik xüsusiyyətlərinin geodinamik səciyyələndirilməsi. ANT, 2009, № 4, 3-10 s.
2. Qurbanov.V.Ş., Talıblı.A.R. Aşağı Kür çökəkliyi məhsuldar qatın üst şöbəsinin qırıntı süxurlarının litoloji və petroqrafik xüsusiyyətləri haqqında // Azərbaycan Respublikası "Təhsil cəmiyyəti, "Bilgi" dərgisi, Yer elmləri bölməsi, Bakı: 2003, № 4, 99 s.
3. Yusifov.X.M. və b. Aşağı Kür çökəkliyində məhsuldat qatın (XVII-XX) litofasial xüsusiyyətləri. Respublika neft sənayesinin problemlərinin həlli yolları. Bakı: 1997, 210 s.
4. Talıblı A.R. Aşağı Kür çökəkliyi Məhsuldar qat çöküntülərinin paleocoğrafi səciyyəsi haqqında // "Azərbaycan ali texniki məktəblərinin Xəbərləri", "Neft-qaz" bölməsi Bakı:2004, № 5, 13-17 s.
5. Rüstəmova R.E. Cənub Xəzərin qərb hissəsinin MQ yaşlı qırıntılı süxurların postsedimentasiya dəyişiklikləri. Məruzələrin tezisləri. Aspirantların və gənc tədqiqatşıların Respublika konfransı, Bakı:1995, 25-26 s.

TAXIL ALTINDA İSTİFADƏ OLUNAN AÇIQ BOZ-QƏHVƏYİ (ŞABALIDI) TORPAQLARIN AQROKİMYƏVİ XASSƏLƏRİNİN ÖYRƏNİLMƏSİ

Yusifova Amalya Rövşən qızı
Bakı Dövlət Universiteti
Ekologiya və torpaqşünaslıq fakültəsi,Bioekologiya kafedrası
amalyayva@gmail.com

Xülasə

Torpağn əsas kimyəvi xassələrindən biri onun element tərkibi hesab edilir. Aparılan tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, mühüm biokimyəvi proseslərin yerinə yetirilməsi üçün mikroelementləri heç nə əvəz edə bilməz.Bu elementlərin çatışmazlığı həmin proseslərin əvvəlcə sürətini azaldır sonra isə tam dayandırır. Məsələn, zülal, sulukarbonlar və yağların mübadiləsi üçün Mo, Fe, V, Co, W, B, Mn, Zn əvəzedilməzdir. Zülalların sintezində isə Mg, Mn, Fe, Co, Cu, Ni, Cr iştirakı vacibdir. Bu baxımdan taxıl əkini altında istifadə olunan torpaqların mikroelement təkibinin öyrənilməsi olduqca aktualdır. Bu həm düzgün gübrələmə normasının müəyyən olunmasına, həm də yüksək və keyfiyyətli məhsul əldə olunmasına gətirib çıxaracaqdır.

Aparılacaq tədqiqatın məqsədi suvarılan və dəmyə şəraitində olmaqla taxıl əkini altında istifadə olunan açıq boz-qəhvəyi (şabalıdı) torpaqlarında mikroelementlərin miqrasiyasını öyrənməkdir.

Aparılan tədqiqatda həmin torpaqların mikroelement tərkibinin müasir metodlarla öyənilmişdir ki, bu tədqiqat da qeyd olunan ərazi üçün ilk dəfə aparılmışdır.
Aparılmış araşdırmanın nəticəsində, mühüm biokimyəvi proseslərin yerinə yetirilməsində mikroelementlərin rolunu nəzərə alaraq onların miqdarını öyrənməklə miqrasiyasını təhlil etmək və bərpası yollarını araşdırmaqdır.
Açar sözlər: Torpaq, münbitlik, mikroelementlər, buğda

Giriş

Ərzaq təhlükəsizliyinin təmin edilməsi, ərzaq məhsullarına olan tələbatın ödənilməsi məqsədilə, aqrar sektorun inkişafına xüsusi önəm verilir. Ölkəmizdə aqrar sektorun bütün sahələrinin dinamik inkişafına, o cümlədən taxılçılığın inkişaf etdirilməsinə diqqət və qayğı göstərilir. Taxılçılığın ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təminatında əsas strateji sahə olduğu nəzərə alınaraq intensiv texnologiyalara üstünlük verilməklə, yeni becərmə texnologiyalarının tətbiqi, yüksək məhsuldar taxıl sortlarının yaradılması, taxıl becərən fermerlərə yardım göstərilməsi, yeni yaradılmış məhsuldar sortların taxılçılıqla məşğul olan fermer və digər torpaq sahiblərinin ixtiyarına verilməsi və s. tədbirlər hesabına respublikada taxıl istehsalı ilbəil genişləndirilir. Yaxın gələcəkdə ərzaq buğdasına olan tələbatın özümüzün istehsalı hesabına tam ödənilməsinin həyata keçirilməsi nəzərdə tutulur. Buna nail olmaq üçün daha məhsuldar sortların yaradılmasına, becərilməsinə və becərmə tədbirlərinin təkmilləşdirilməsinə nail olunmalıdır.
Bildiyimiz kimi taxıl bitkisinin məhsuldarlığı torpağın ekoloji xüsusiyyətlərindən asılıdır . Eləcə də torpaq yerin üst münbit qatı olmaqla yanaşı biotik və abiotik amillərin daim qarşılıqlı olduğu qatdır və bu qat biotik və abiotik amillərin əmələ gətirdiyi fazalar vardır. Və bu fazalar dörd fazadan - bərk faza (mineral və üzvi hissə), maye faza (torpaq məhlulu), qazşəkilli faza (torpaq havası) və canlı fazadan (torpaq canlıları) ibarət çoxfazalı polidispers sistemdir [3]. Bu fazalar sıx qarşılıqlı təsirdədirlər. Eyni zamanda torpaq biosferin başqa sistemləri ilə fasiləsiz qarşılıqlı təsirdə olan açıq dinamik sistemdir. Məhz bu fazaların əkinçilik vəya taxıl əkinçiliyi üçün çox vacib rolu vardır. Kənd təsərrüfatı ekosisteminin bioloji məhsuldarlığı torpağın ekoloji xüsusiyyətlərindən, aqrofiziki xassələrindən, antropogen təsirlərdən və s. asılıdır. Torpaq örtüyünün aqrofiziki vəziyyəti bitkilərin böyüməsini, inkişafını və məhsuldarlığını şərtləndirir. Konkret torpaq-iqlim şəraitində aqrofiziki tarazlıq vəziyyətinin formalaşmasında torpağın qranulometrik və mineraloji tərkibi, üzvi maddənin miqdarı və tərkibi, bitki biomüxtəlifliyi və aqrotexniki üsulların tətbiqi və s. mühüm rol oynayır. Torpağın optimal su-hava və istilik rejimləri, bununla əlaqədar olaraq bitkilərin qida maddələrini mənimsəmə effektivliyi torpağın dinamik fiziki xassələri (sıxlıq,nəmlik, məsaməlik və s.) ilə səciyyələnir. Aqroekosistemin əsas komponentləri olaraq torpaq və bitki örtüyünün həyat fəaliyyəti müəyyən zaman kəsiyində biotanın inkişafı və torpağın fiziki xassələrinin dinamikası ilə şərtlənir. Bitkilər vegetasiya dövründə torpaqdan lazımi qida maddələrini mənimsəyir və inkişaf edir, torpaqda isə bu müddət ərzində struktur-funksional dəyişikliklər baş verir. Dənli bitkilərin məhsuldarlığı torpağın münbitliyindən, torpaqda əsas qida maddələrinin asan mənimsənilən formalarının ehtiyatından, üzvi və mineral gübrələrin norma-nisbətindən, sortun potensial məhsuldarlığından və bitkinin vegetasiya müddətində normal nəmliyin yaradılmasından asılıdır [2].
Mikroelementlər canlı orqanizmlərdə əsasən fermentlərin, hormonların, vitaminlərin və başqa həyat üçün vacib birləşmələrin tərkibinə daxildirlər. Adətən, mütəxəssislər belə birləşmələrin tərkibində 30-a yaxın mikroelementin iştirak etdiyini hesab edirlər. Fermentlər-bioloji mənşəli katalizatorlar olub, biokimyəvi reaksiyaların sürətini artırır və bunların aktivliyini isə məhz tərkibindəki mikroelementlər nizamlayır. Aşağıdakı cədvəldə fermentlərin tərkibində olan bəzi mikro və makroelementlərin yerinə yetirdikləri funksiyaları təsviri verilmişdir [1].

Cədvəl 1.

№	Fermentlər	Fermentləri aktivləşdirən makro və mikroelementlər
1	Karboksilaza	Mn^{2+},Co^{2+},Cu^{2+},Fe^{2+},Ca^{2+},Zn^{2+}
2	Polipeptidaza	Zn^{2+},Co^{2+},
3	Aminopeptidaza	Mg^{2+}, Mn^{2+}
4	Lesitinaza	Ca^{2+}, Mg^{2+}, Co^{2+},Mn^{2+}, Zn^{2+}
5	Arginaza	Co^{2+}, Mn^{2+}, Ni^{2+},Fe^{2+}

Tədqiqatın metodu

Tədqiqat Əkinçilik Elmi Tədqiqat İnstitutunun Bölgə Təcrübə Stansiyasının Tərtər rayonunda yerləşən təcrübə sahəsində olmaqla, dəmyə şəraitində yetişdirilən taxıl əkini altında istifadə olunan torpaqlarda

aparılmışdır. Tədqiqat sahəsinin torpaq örtüyü açıq boz-qəhvəyi (şabalıdı) torpaqlarında torpaq kəsimləri qoyulmuşdur. Torpaq kəsimlərində əsasən 0-30 sm qatdan torpaq nümunələri götürülərək İSP-OES cihazında Mg, Cu, Fe, Zn, Mn kimi elementlərlə yanaşı, torpağın digər arokimyəvi parametrləridə öyrənilmişdir. Kəsimlərin GPS koordinatları müəyyən edilmiş ərazinin xəritə sxemi müasir texnologiyalarla hazırlanmışdır.

Tədqiqat sahəsinin xəritə sxemi

№	Zn	Mn	Fe	Cu	Mg
1	0,44	23,8	9,8	1,9	243,7
2	0,62	22	13,6	2,1	267,3
3	0,43	9,8	13,8	1,1	321,6



Şəkil 1.
Tədqiqat sahəsində qoyulmuş torpaq kəsiminin görünüşü

Cədvəl 2.
Taxıl altında istifaə olunan torpaqlada mikroelementlərin miqdarı ppm ilə

Nəticə

Cədvəldən göründüyü kimi torpaqda əsasən Zn, Mn, Fe, Cu və Mg elementləri öyrənilmişdir. Bu mikroelementlər olduqca mühüm aqronomik əhəmiyyətə malikdir. Aparılmış analizlər nəticəsində müəyyən edilmişdir ki, torpaqda Zn-in miqdarı 0,44, 0,62, 0,43 ppm olmuşdur ki, bu da zəif göstəricidir. Digər mikroelementlərin miqdarlarını hər üç nöqtədə olmaqla təhlil etsək Mn-nın miqdarı orta, Fe un miqdarı yüksək,Mg orta, Cu – in miqdarı isə yetərli dərəcədə olmuşdur. Həmçinin təcrübə sahəsi zəif qələvi xassəyə malikdir, belə ki, dərinlikdən asılı olaraq pH 8,14-8,42 arasında dəyişir. Şum qatında ümumi

humusun miqdarı 1,69-1,77%, aşağı qatlarda qanuna uyğun olaraq azalmışdır. Ümumi azotun miqdarı şum qatında (0-25 sm) tədqiqat illərindən asılı olaraq 0,135-0,144%, aşağı qatlarda (25-50 9 və 50-70 sm) müvafiq olaraq 1,05-1,16% və 0,85-0,96% arasında dəyişmişdir. Təcrübə sahəsinin şum qatında tədqiqat illərindən asılı olaraq asan hidroliz olunan azotun miqdarı 1 kq torpaqda orta hesabla 48-58 mq, mütəhərrik fosforun miqdarı 12,5-14,3 mq, mübadilə olunan kalimun miqdarı 225,0-252,0 mq olmuşdur.

Ədəbiyyat siyahısı

1. Arif Hüseynov, Namiq Hüseynov.Torpaq kimyası. [Ali məktəblər üçün dərslik]. Bakı – 2012.584 səh.
2. Arpa bitkisi altında torpağın aqrofiziki xasssələrinin dinamikası. Ə.M.Əhmədova, N.Q Hümmətov. Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri Məcmuəsi. Bakı: "Müəllim" nəşriyyatı, 2016-ci il, 1-cild, 456 -460 səh.
3. Torpaqşünaslıq və Aqrokimya. Torpaq örtüyünün aqrofiziki qiymətləndirilməsi. N.Q. Hümmətov. Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri Məcmuəsi. Bakı: "Müəllim" nəşriyyatı, 2018-ci il, 1-ci cild 151-156 səh.

BUĞDA SORTLARI İLƏ AMFİPLOİDLƏR ARASINDAKI BİRİNCİ NƏSİL HİBRİDLƏRƏ MƏXSUS CÜCƏRTİLƏRİN TƏDQİQİ

RƏHİM RƏHİMOV
AMEA, Genetik Ehtiyatlar İnstitutu
Molekulyar Sitogenetika
ebdulrehim.2016@gmail.com
BAKI, AZƏRBAYCAN

GÜNEL MUSAYEVA
AMEA, Genetik Ehtiyatlar İnstitutu
Molekulyar Sitogenetika
musaligunel@gmail.com

XÜLASƏ

Məqalədə müxtəlif mənşəli və genom tərkibli yadcinsli amfiploidlərlə yerli buğda sortları - bərk buğda sortu Saray (*T. durum* Desf.) və yumşaq buğda sortu Abşeron (*T. aestivum* L.) arasındakı çarpazlaşmalardan alınmış birinci nəsil (F_1) hibrid populyasiyalarda cücərtiyə xas morfoloji əlamətlərin irsiliyinin və gələcək nəslə ötürülməsinin nəticələri təhlil edilmişdir. Görülən iş buğda bitkisinin 2020-2021-ci ilin vegetasiya dövrünü əhatə edir. Tədqiqat işində F_1 hibrid cücərtilərin ümumi uzunluğu, koleoptilin uzunluğu, ilkin yarpağın uzunluğu və eni əlamətlərinin həqiqi heterozis, hipotetik heterozis və fenotipik dominantlıq dərəcəsi öyrənilmişdir. Belə ki, hibridlər arasında Sa × Ta/AgI#13 kombinasiyası həm koleoptilin uzunluğu, həm də ilkin yarpağın eni əlamətlərinə görə heterozis (üstün dominantlıq) nümayiş etdirərək daha çox fərqlənmişdir. Nəticə etibarilə, F_1 hibridlərdə heterozisin rastgəlmə tezliyi koleoptilin uzunluğu əlamətinə görə 15%, ilkin yarpağın eni əlamətinə görə 10%, cücərtinin və ilkin yarpağın uzunluğu əlamətlərinə görə isə 5% təşkil etmişdir.

AÇAR SÖZLƏR: buğda sortları, kaleoptil, ilkin yarpaq, amfiploidlər, heterozis, dominantlıq, irsiyyət

GİRİŞ

Yüksək səviyyədə buxarlanmaya məruz qalaraq, su ehtiyatı baxımından məhdud əkin şəraitlərində buğda cücərtilərinin inkişafı, ilk növbədə, torpaqda tez bir zamanda çıxışların alınması və yarpaq sahəsini inkişaf etdirmə xüsusiyyətlərindən asılıdır. Buna əsasən, cücərtilərin morfoloji və fizioloji xüsusiyyətlərindən erkən inkişafın müvəffəqiyyət dərəcəsini proqnozlaşdırmaq üçün uğurla istifadə edilə bilər. Cücərmə potensialı ilə əlaqədar cücərti xüsusiyyətlərinin əksəriyyəti vizual qiymətləndirmə baxımından nisbətən sadə olan və bitkinin digər inkişaf göstəriciləri ilə sıx əlaqəli olan morfoloji əlamətlərə əsaslanır. Bu

əlamətlər arasında koleoptilin və ilkin yarpağın uzunluğu ən çox istifadə edilənlər sırasındadır. Koleoptil, inkişaf edərək formalaşan ilkin yarpağı mühafizə etməklə, cücərtilərin torpaqda yaxşı köklənməsinə nail olunması baxımından çox vacibdir. Belə ki, buğda cücərtilərində koleoptilin uzunluğu və onun torpağın fiziki xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsi buğda sortlarında çıxışların alınma qabiliyyətini müəyyən edir (2). Koleoptilin toxumların əkin dərinliyindən qısa olması ilkin yarpağın itələnərək qaranlıq mühitə çıxmasına səbəb olur ki, bu da arzuolunmazdır. Belə ki, ilkin yarpağın torpağın üst səthinə çıxışı nə qədər uzun sürürsə, buğda cücərtilərinin torpağın qaysaqlanmış üst təbəqəsinə və xəstəliklərə qarşı həssaslıq səviyyəsi də artmış olur (1). Buna əsasən, buğda sortlarının kənd təsərrüfatı baxımından əhəmiyyətli sayılan digər əlamətləri sırasında onların cücərti xüsusiyyətlərinin də davamlı olaraq yaxşılaşdırılması mühüm məsələlərdəndir. Məlumdur ki, buğda sortlarının yaxşılaşdırılmasında ən uyğun vasitələrdən biri də onun əcdadlarının, qohum olan yabanı növlərinin və ya onların iştirakı ilə yaradılmış yadcinsli amfiploidlərinin hibridləşmələrə cəlb edilərək lazımi gen ehtiyatları qismində istifadə olunmasıdır.

Hazırki tədqiqat işimizdə, yuxarıda qeyd olunanları nəzərə alaraq, buğdanın yadcinsli amfiploidləri ilə yerli buğda sortları arasındakı çarpazlaşmalardan alınan F_1 hibrid cücərtilərində bəzi kəmiyyət əlamətlərinin heterozisliyini, irsən ötürülmə tiplərini və rastgəlmə tezliklərinin qiymətləndirilməsini qarşıya məqsəd qoymuşuq.

TƏDQİQAT METODU

Tədqiqatlar AMEA GEİ-nin Abşeron Tədqiqat Bazasında (2020-2021) suvarma şəraitində aparılmışdır. Tədqiqat materialı qismində buğdanın müxtəlif yadcinsli 11 amfiploidindən və 2 yerli buğda sortundan istifadə edilmişdir (Cədvəl 1.).

Nümunələrin kodu (abreviaturası)	Şəcərəsi və ya təyinatı	Saxlandığı mərkəz	Xromosom dəsti, 2n
TA#3413 (**Tsp/Ea**)	*Triticum* sp./*E. arenarius*	WGGRC	56
TA#3439 (**Tt/Hv**)	*T. turgidum* subsp. durum/*H. villosa*	WGGRC	42
NA_75	Sintetik buğda/*S. cereale* ssp. *segetale*	AMEA GEİ	42
HT-621 (**Hc/Tt#8**)	*H. chilense*/*T. turgidum*	IAS	42
TA#3409 (**Ta/AgD**)	*T. aestivum*/*Ag. distichum*	WGGRC	56
TA#3392 (**Ta/AgI#10**)	*T. aestivum*/*Ag. intermedium*	WGGRC	56
TA#3426 (**CS/AgS**)	*T. aestivum* cv. Chinese Spring (CS) /*Ag. scirpeum*	WGGRC	56
TA#3425 (**CS/AgE**)	*T. aestivum* cv. Chinese Spring/*Ag. elongatum*	WGGRC	56
B373 (**Ta/AgI#13**)	*T. aestivum*/*Ag. intermedium*	CIMMYT	56
OK7211542 (**Ta/AgP**)	*T. aestivum*/*Ag. ponticum*	CIMMYT	56
B1321 (**Ta/AgI#15**)	*T. aestivum*/*Ag. intermedium*	CIMMYT	56
T. durum cv. Saray (**Sa**)	Nəzarət	AMEA GEİ	28
T. aestivum cv. Abşeron (**Ab**)	Nəzarət	AMEA GEİ	42

Cədvəl 1. Buğdanın hibridləşmələrə cəlb olunmuş müxtəlif yadcinsli amfiploidləri və yerli sortları

Buğdanın yadcinsli amfiploidləri, NA-75 xətti istisna olmaqla, 3 elmi mərkəzdən – ABŞ-ın Kanzas Dövlət Universitetinin nəzdindəki Buğdanın Genetik və Genom Ehtiyatları Mərkəzindən (WGGRC), İspaniyanın Kardoba şəhərində yerləşən Kənd Təsərrüfatı İnstitutundan (IAS) və Meksikanın Buğda və Qarğıdalının Yaxşılaşdırılması üzrə Beynəlxalq Mərkəzindən (CIMMYT) əldə edilmiş, buğda sortları və buğda-çovdar amfiploidi (NA-75) isə GEİ-nin Molekulyar Sitogenetika laboratoriyasında yaradılmışdır.

Tədqiqat materialının təcrübə sahəsində səpini noyabr ayının birinci ongünlüyündə əllə aparılmış, kütləvi çıxış noyabr ayının ikinci ongünlüyündə müşahidə edilmişdir. Vegetasiya müddətində nümunələr boruyaçıxma, sünbülləmə və dənin formalaşması mərhələlərində suvarılmış, eyni zamanda, təcrübə sahəsi üçün nəzərdə tutulmuş aqrotexniki qulluq işləri həyata keçirilmişdir. Torpağın hər $1m^2$ –inə 0,5 kq üzvi və mineral gübrə verilmişdir. Sünbülləmə mərhələsində nəzərdə tutulmuş hibridləşmələr, cücərti morfologiyasının statistik analizi, dənli-taxıl bitkilərinin seleksiya işlərinə dair tarla təcrübələrinin metodikasına uyğun olaraq, ümumi qəbulolunmuş qayda üzrə aparılmışdır. Valideyn formalar arasındakı çarpazlaşmalardan alınan hibrid dənlər, ilk əvvəl, laboratoiya şəraitində valideyn formalara aid dənlərlə eyni tarixdə Petri qablarında cücərdilmişdir. Valideyn və birinci nəsil hibridlərin 12 günlük cücərtilərində 4 kəmiyyət əlamətinin – cücərtilərin ümumi uzunluğu (CÜU), kaleoptilin uzunluğu (KU), ilkin yarpağın uzunluğu (İYU) və ilkin yarpağın eninin (İYE) göstəriciləri nəzərə alınmaqla, aşağıda göstərilən düsturlara

əsasən həqiqi heterozis və ya heterobeltiozis, hipotetik və ya nisbi heterozis (4, 5) və fenotipik dominantlıq dərəcəsi (3) təyin edilmişdir:

$h_{həq} = \frac{X_{F1} - X_{Hp}}{X_{Hp}} \times 100\ \%$ (1)

$\boldsymbol{h_{həq}}$ – həqiqi heterozis (heterobeltiozis);

$\boldsymbol{X_{F1}}$ – F_1 hibridində istənilən kəmiyyət əlamətinin orta hesabi qiyməti;

$\boldsymbol{X_{Hp}}$ – ən yaxşı valideyn formasına məxsus əlamətin orta hesabi qiyməti;

$h_{hip} = \frac{X_{F1} - X_{Mp}}{X_{Mp}} \times 100\ \%$ (2)

$\boldsymbol{h_{hip}}$– hipotetik heterozis;

$\boldsymbol{X_{Mp}}$ – hər iki valideyn formasında hər hansı kəmiyyət əlaməti ölçülərinin orta hesabi qiyməti;

$h_p = \frac{X_{F1} - X_{Mp}}{X_{Hp} - X_{Mp}}$ (3)

$\boldsymbol{h_p}$ – fenotipik dominantlıq dərəcəsi.

Düsturun nəticələrinə əsasən, əlamətin dominantlıq dərəcəsinin təyini:

$\boldsymbol{h_p}$ **< (-1)** – əlamətin depressiyası (**ƏD**);

$\boldsymbol{h_p}$ **= (-0.9)-(-0.1)** – əlamətin aşağı göstəricisinin dominantlığı (**AD**);

$\boldsymbol{h_p}$ **= 0** – dominantlıq yoxdur (**DY**);

$\boldsymbol{h_p}$ **= 0.1-0.5** – qismən dominantlıq (**QD**);

$\boldsymbol{h_p}$ **= 0.6-0.9** – natamam dominantlıq (**ND**);

$\boldsymbol{h_p}$ **= 1** – tam dominantlıq (**TD**);

$\boldsymbol{h_p}$ **> 1** – üstün dominantlıq (**ÜD**).

Tədqiqat zamanı birinci nəsil hibrid kombinasiyalarda qeyd olunan əlamətlərin irsən ötürülməsində dominantlıqdan başlayaraq depressiyaya qədər müxtəliflik aşkar edilmişdir.

Alınmış F_1 hibridlərdə CÜU əlamətinə əsasən üstün dominantlıq (heterozis) yalnız **Ab × CS/AgS** kombinasiyasında müşahidə edilmişdir ($h_{həq}$= +13.2 %, h_{hip}= +23.7 %, h_p= +2.6). Bu hibrid kombinasiyanın resiprok (**CS/AgS × Ab)** cücərtisində isə həmin əlamətə görə hipotetik olaraq müsbət heterozis gözlənsə də, mənfi həqiqi heterozis və qismən dominantlıq aşkar edilmişdir ($h_{həq}$= -5.8%, h_{hip}= +2.9%, h_p= +0.3). Eynilə, **Ab × CS/AgE** kombinasiyasında da hipotetik olaraq müsbət heterozis gözlənsə də, mənfi həqiqi heterozis və qismən dominantlıq müşahidə edilmiş ($h_{həq}$= -15.1%, h_{hip}= +1.1%, h_p= +0.1), lakin resiprok formasında isə mənfi heterozis və əlamətin depressiyası qeyd olunmuşdur. Bundan əlavə, **Ab × Tt/Hv**, **Tsp/AgP × Ab** və **Ab × Ta/AgI#15** kombinasiyalarında mənfi heterozis və CÜU-nun aşağı göstəricisinin dominantlığı, nəzarət formaların resiprok çarpazlaşmalarından alınmış hibridlər də daxil olmaqla, digər hibridlərdə də mənfi heterozis və əlamətin depressiyası müşahidə edilmişdir.

Hirbridlər arasında KU-ya görə üstün dominantlıq **Ta/AgI#10 × Sa** ($h_{həq}$= +131.2%, h_{hip}= +134.0%, h_p= +109.4), **Sa × Ta/AgI#13** ($h_{həq}$= +18.1%, h_{hip}= +21.0%, h_p= +8.7) və **Tsp/AgP × Ab** ($h_{həq}$= +14.1%, h_{hip}= +20.4%, h_p= +3.7) kombinasiyalarında qeyd olunmuşdur. **Ab × CS/AgS** ($h_{həq}$= -3.4%, h_{hip}= 4.6%, h_p= +0.6) və **Ab × CS/AgE** ($h_{həq}$= -14.9%, h_{hip}= +1.0%, h_p= +0.1) kombinasiyalarında bu əlamətə görə hipotetik olaraq müsbət heterozis gözlənsə də, mənfi həqiqi heterozis və birincidə natamam, ikincidə qismən dominantlıq, hər iki kombinasiyanın resiprok forması və daha bir **Ab ×Ta/AgI#15** kombinasiyasında isə əlamətin aşağı göstəricisinin dominantlığı müşahidə edilmişdir. Nəticə etibarilə, nəzarət formaların resiprok çarpazlaşmalarından alınmış hibridlər də daxil olmaqla, digər kombinasiyalarda da KU-ya görə mənfi heterozis və əlamətin depressiyası qeyd edilmişdir.

Buğdalarla amfiploidlər arasındakı resiprok çarpazlaşmalardan alınmış birinci nəsil hibridlərdə İYU-ya görə üstün dominantlıq yalnız **Ab × CS/AgE** kombinasiyasında müşahidə olunmuşdur ($h_{həq}$= +6.3%, h_{hip}= +17.5%, h_p= +1.7). Eyni zamanda, **Ab × CS/AgS** ($h_{həq}$= -12.1%, h_{hip}= +3.9%, h_p= +0.2) və **Ab ×Ta/AgI#15** ($h_{həq}$= -3.6%, h_{hip}= +5.6%, h_p= +0.6) kombinasiyalarında İYU-ya görə hipotetik olaraq müsbət heterozis gözlənsə də, mənfi həqiqi heterozis, birincidə qismən, ikincidə natamam dominantlıq qeydə alınmışdır. Nəzarət formaların resiprok çarpazlaşmalarından alınmış hibridlər də daxil olmaqla, digər kombinasiyalarda da mənfi heterozis və əlamətin depressiyası müşahidə olunmuşdur.

Hibridlər arasında İYE əlamətinə görə üstün dominantlıq dərəcəsi yalnız iki hibriddə – **Sa × Hc/Tt#8** ($h_{həq}$= +13.8%, h_{hip}= +24.5%, h_p= +2.6) və **Sa × Ta/AgI#13** ($h_{həq}$= +7.1%, h_{hip}= +15.4%, h_p= +2) kombinasiyalarında qeyd edilmişdir. Nəzarət formaların resiprok çarpazlaşmalarından alınmış hibridlər də daxil olmaqla, digər kombinasiyalarda da mənfi heterozis və İYE-nin depressiyası müşahidə olunmuşdur.

Aldığımız göstəricilərə əsasən, F_1 hibrid kombinasiyalarda irsiyyət tiplərinin rast gəlinmə tezliyi öyrənilmişdir (Diaqram 1.).



Diaqram 1. Buğda sortları ilə amfiploidlər arasındakı F_1 hibridlərdə irsiyyət tiplərinin rast gəlinmə tezliyi.

İYE-yə görə iki tip irsiyyət – ƏD və ÜD müşahidə olunmuşdur. Belə ki, hibridlərdə bu əlamətə əsasən ƏD-nin rastgəlmə tezliyi 90%, ÜD-nin rastgəlmə tezliyi isə 10% təşkil etmişdir.
İYU-ya görə 4 tip irsiyyət – ƏD, ÜD, QD və ND müşahidə olunmuşdur. Hibrid kombinasiyalarda həmin əlamətə görə ƏD-nin rastgəlmə tezliyi 85%, ÜD, QD və ND tiplərinin rastgəlmə tezliyi isə 5% olmuşdur.
Hibrid kombinasiyalarda KU-ya əsasən 5 irsiyyət tipinə rast gəlinmişdir. Məlum olmuşdur ki, irsiyyət tiplərinin rastgəlmə tezliyi ƏD-yə görə 60%, AD və ÜD-yə görə 15%, QD və ND-yə görə isə 5% olmuşdur.
CÜU-ya əsasən 4 irsiyyət tipi – ƏD, AD, QD və ÜD müşahidə olunmuşdur. Belə ki, bu əlamətə görə birinci nəsil hibridlərdə ƏD-nin rastgəlmə tezliyi 70%, AD-nin – 15%, QD-nin – 10%, ÜD-nin isə 5% təşkil etmişdir.

NƏTİCƏ

1. Birinci nəsil (F_1) hibridlərdə CÜU əlamətinə əsasən üstün dominantlıq (heterozis) yalnız **Ab × CS/AgS** kombinasiyasında müşahidə edilmişdir.
2. KU-ya görə üstün dominantlıq **Ta/AgI#10 × Sa**, **Sa × Ta/AgI#13** və **Tsp/AgP × Ab** kombinasiyalarında qeyd olunmuşdur.
3. İYU-ya görə üstün dominantlıq yalnız **Ab × CS/AgE** kombinasiyasında müşahidə olunmuşdur.
4. İYE əlamətinə görə üstün fenotipik dominantlıq dərəcəsi yalnız iki hibriddə –**Sa × Hc/Tt#8** və **Sa × Ta/AgI#13** kombinasiyalarında qeyd edilmişdir.
5. **Sa × Ta/AgI#13** kombinasiyası həm KU, həm də İYE əlamətlərinə görə üstün dominantlıq nümayiş etdirərək daha çox fərqlənmişdir.
6. Nəticə etibarilə, F_1 hibridlərdə heterozisin rastgəlmə tezliyi KU əlamətinə görə 15%, İYE əlamətinə görə 10%, CÜU və İYU əlamətlərinə görə isə 5% təşkil etmişdir.

ƏDƏBİYYAT SIYAHISI

1. Bovill W.D., Hyles J., Zwart A.B., Ford B.A., Perera G., Phongkham T. et al. Increase in coleoptile length and establishment by Lcol-A1, a genetic locus with major effect in wheat (**jurnal məqaləsi)** *BMC plant biology*,2019; 19:1, 1-10.
2. Gulnaz S., Sajjad M., Khaliq I., Khan A.S. & Khan S.H. Relationship among coleoptile length, plant height and tillering capacity for developing improved wheat varieties (**jurnal məqaləsi)** *International Journal of Agriculture and Biology*, 2021; 13:1, 130-133.
3. Beil G.M., Atkins R.E. Inheritance of quantitative characters in grain sorghum (**jurnal məqaləsi**) *Jowa J Sci.*, 1965; 39:3, 345-348.
4. Omarov D.S. On the method of accounting for heterosis in plants (**jurnal məqaləsi**) *S-kh. Biology*. 1975;10:1, 123-127. (In Russian).
5. Petr F.C., Frey K.J. Genotypic correlations, dominance and heritability of quantitative characters in oats (**jurnal məqaləsi**) *Crop Sci*, 1966; 6:3, 259-262.

SPİNAL ƏZƏLƏ ATROFİYASI

SƏRVİN CƏFƏROVA
Azərbaycan Milli Elmlər Akademiyası/Genetik Ehtiyatlar İnstitutu
Biologiya/İnsan genetikası
servin.ceferova92@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Spinal əzələ atrofiyası son zamanlarda geniş yayılmış autosomal ressesiv neyrodegenerativ xəstəlikdir. SMN1 genində baş verən mutasiyalar motor sinir hüceyrələrinin degenerasiyasına səbəb olur və nəticədə proqressiv əzələ zəifliyi ilə xarakterizə edilir. SMA xəstələrinin 94%-i xəstəliyin şiddətindən asılı olmayaraq SMN1 geninin 7-ci eqzonunun delesiyalarını daşıyır. Südəmər dövrün və uşaqlıq çağının genetik motor xəstəliyidir.

AÇAR SÖZLƏR: SMA, SMN1, SMA TIP

GİRİŞ.

Spinal əzələ atrofiyası (SMA) 5q13 xromosomunda yerləşən SMN1 geninin delesiyası nəticəsində motor sinir hüceyrələrinin degenerasiyası səbəbilə SMN zülalının kifayət miqdarda sintez olunmaması ilə ortaya çıxan, dünyada uşaq ölümlərinə yol açan genetik xəstəliklər arasında ön sıralardadır. Ana və atanın daşıyıcı olması vəziyyətində doğulan uşaqların SMA xəstəsi olma ehtimalı 25%, daşıyıcılıq nisbəti 1/10-dur. Canlı doğumlarda ortaya çıxma ehtimalı 1/6000-1/10000 olaraq qeyd edilir.

Onurğa əzələ atrofiyası üzrə Beynəlxalq Konsorsium başlanğıc və sağ qalma yaşına əsaslanan ədədi yanaşma(1,2,3), şiddətə əsaslanan digər bir yanaşma (ağır, orta və mülayim) və mühüm motor mərhələlərinə (oturmaq, ayaqda durmaq, gəzmək və s.) nail olmaq qabiliyyətinə dair təsnifat hazırladı. Ən çox istifadə edilən təsnifat Dubowitz tərəfindən təklif olunan onluq alt təsnifatdır ki, bu da hər bir növdə müxtəlif şiddətə malik xəstələri müəyyən etməyə imkan verir. İstifadə olunan başqa bir yanaşma simptomun başlanğıc yaşına əsaslanır. 1-ci tip xəstələr üçün 1a, b, c kimi alt siniflərə bölünür. Tip 1a yeni doğulmuş körpələr, 1b tipli 1-ci aydan sonra başlayan və başını idarə edə bilməyən körpələr və ümumiyyətlə əlamətlər 3 aydan sonra başlayan və baş nəzarətinə nail olan körpələr olaraq təsnif edilir. Yetkinlik dövründə başlayan və yüngül fenotipli formaların 4-cü tip kimi qeyd edilməsi və ya bunun 3-cü tipin yumşaq forması kimi qəbul edilməsi hələ də mübahisəli qalmaqdadır.

Spinal əzələ atrofiyasının 4 tipi ayırd edilir:

Tip 1 SMA (Werdnig-Hoffmann) simptomların başlama yaşı 2.5 aydır. Bu zaman körpələr müstəqil otura bilmirlər. Baş idarəsini və yuvarlanma qabiliyyətini əldə edə bilərlər amma bu qabiliyyətlərini tez itirirlər. Proksimal, simmetrik əzələ zəifliyi, dərin vətər reflekslərinin zəifləməsi və ya olmaması, motor inkişafının olmaması, əzələ tonusunun zəif olması əsas klinik təzahürlərdir.

TİP 2 SMA 6-12 ay arasında özünü göstərir. Zəif əzələ tonusu doğuşda və həyatın ilk bir neçə ayında aydın görünsə də SMA 2 olan şəxslər təxminən 5 yaşa qədər yavaş-yavaş motor mərhələlərini əldə edə bilərlər. Skolioz xəstəliyinin inkişafına tez-tez rast gəlinir və ürək anomaliyalarnın inkişaf ehtimalı azdır.

Tip 3 SMA (Kugelberg-Welander) adətən 18 aydan sonra özünü göstərir. Yalnız dəstəkləyici qayğı ilə fərdlər müstəqil şəkildə gəzə bilirlər, lakin proksimal əzələ zəifliyi tez-tez yıxılmağa səbəb olur.

Tip 4 SMA simptomlar 18 yaşdan sonra özünü göstərir. Bu xəstələr müstəqil şəkildə gəzə bilirlər.

Bu günə qədər 3 müalicə üsulu təsdiq edilmişdir ki, bunlar da SMN zülalının istehsalını artırmağı hədəfləyir. Qüsurlu SMN1 geninin dəyişdirilməsi və ya SMN2-nin mRNT-dən əvvəl birləşdirilməsini hədəfləmək və SMN2 eqzon 7-nin daxil edilməsini təşviq etməklə, qüsurlu genin kökünə getməklə buna nail olmaq olar. Viral gen terapiyası adeno ilə əlaqəli virus vektorlarının (AAV9) vektor kimi istifadəsinə uyğun gələn SMN1-in kiçik ölçüsü sayəsində mümkün olmuşdur. SMA1 olan körpələrdə onasemnogene abeparvovec-in birdəfəlik venadaxili yeridilməsilə aparılan 1-ci faza həm sağ qalma həm də təkmilləşdirilmiş motor funksiyası baxımından aydın effektivlik əlamətləri göstərdi. Tam uzunluqlu SMN zülalının istehsalının sonradan artması ilə SMN2 pre-mRNT birləşməsini hədəfləyən 2 müxtəlif birləşmə kommersiya baxımından mövcuddur. Təsdiq edilən ilk antisens oliqonukleotid Nusinersen oldu. Hazırda dünyada Nusinersen ilə müalicə olunan 11000-dən çox xəstə var. Müalicə olunan 1-ci tip xəstələr nəinki uzun müddət sağ qalırlar həm də ardıcıl olaraq funksional qabiliyyətlərinin yaxşılaşdığını göstərirlər və dəstəklənməmiş oturmalar əldə edirlər. Hal-hazırda FDA tərəfindən təsdiqlənmiş 3 dərman SMA

xəstəliyində istifadə olunur ki, bunlar nusinersen (Spinraza), onasemnogene abeparvovec-xioi (Zolgensma) və risdiplamdır (Evrysdi).

TƏDQİQAT METODU.

Tədqiqat işinə 36 Klinik olaraq Spinal Əzələ Atrofiyası şübhəsi olan xəstələr daxil edilmişdir. EDTA-lı tyublarda götürülmüş venoz qan nümunələrindən "Salting out" metodu ilə DNT ekstraksiya olunmuşdur. DNT-nin kəmiyyət və keyfiyyət göstəriciləri spektrofotometrik üsulla ölçülmüşdür. Daha sonra isə SMN1 genindəki c.840 C>T mutasiyası Real-Time PCR ilə analiz edilmiş və genotiplər müəyyən edilmişdir.

NƏTİCƏ.

Aparılan tədqiqat nəticəsində 39 SMA şübhəsi olan xəstənin 16-da *SMN1* geninin 7-ci eqzonunda c.840 C>T mutasiyası müəyyən olunmuşdur. Xəstələrdə mutasiyaların genotipi mutant TT olaraq müəyyən edildi, genotip tezliyi isə 41 % (16/39) olduğu halda 23 xəstədə normal homoziqot CC (59%) şəklində təyin edildi. Mutasiya aşkar edilən xəstələrdə *SMN1* geni delesiyası və *SMN2* geni kopya sayı MLPA üsulu təyin edilməsi tövsiyə olundu və bütün xəstələrdə delesiya aşkar edildi. Beləliklə, bir skrininq analizi olan *SMN1* genindəki c.840 C>T mutasiyasının təyini SMA xəstələrini və daşıyıcıları vaxtında, düzgün və maliyyə cəhətdən aşağı bir metodla təyin etməyə imkan verir.

ƏDƏBİYYAT SİYAHI

1. Wirth B. Spinal Muscular Atrophy: In the Challenge Lies a Solution. Trends Neurosci. 2021 Apr;44(4):306-322. doi: 10.1016/j.tins.2020.11.009. Epub 2021 Jan 7. PMID: 33423791.
2. Mercuri E. Spinal muscular atrophy: from rags to riches. Neuromuscul Disord. 2021 Oct;31(10):998-1003. doi: 10.1016/j.nmd.2021.08.009. PMID: 34736637.
3. Nicolau S, Waldrop MA, Connolly AM, Mendell JR. Spinal Muscular Atrophy. Semin Pediatr Neurol. 2021 Apr;37:100878. doi: 10.1016/j.spen.2021.100878. Epub 2021 Feb 11. PMID: 33892848.
4. Ahmet Saracaloğlu, Abdullah Tuncay Demiryürek New Approaches and Approved Drugs in Spinal Muscular Atrophy (SMA) treatment, the Journal of Current Pediatrics, July 2021, Pages 248-256

ASSOCIATION OF THE P53 CODON 72 POLYMORPHISM TO GASTRIC CANCER RISK IN DIFFERENT POPULATIONS

ZUMRUD SHUKUROVA
Azerbaijan National Academy of Science/ Genetic Resources Institute
Biology/Human Genetics
zumrud.shukurova@gmail.com
BAKU,AZERBAIJAN

ABSTRACT

Despite its decreasing incidence, gastric cancer remains one of the most common malignancies in the world and an important global healthcare problem because of its overall high prevalance. According to researches it is fifth leading cancer and third leading cause of cancer-related death worldwide. Gastric cancer is multifactorial disease, which means all environmental, genetic and epigenetic factors can lead to occurence and development of it. Infection with *Helikobacter pylori* is the major factor. Approximately 90% of cases are consequence of *Helicobacter pylori* infections, while in 10% Epstein Barr Virus might me reasonable. Gastric canser is the final result of a cascade of events which takes severel years to occur and results from collection of multiple genetic and epigenetic alterations. Although pathogenic mechanisms behind familial aggregation are unclear, having first-degree relatives diagnosed with gastric cancer is a strong risk factor. The p53 gene has a polymorphism that located at codon 72. This polymorphism has been associated with higher risk of several types of cancer, including gastric cancer. The aim of this study was to determine the association of p53, codon 72 polymorphism with the risk of gastric cancer and pre-malignant lesions in a high-risk population from different countries.

KEY WORDS: Gastric cancer; p53 codon 72; gene polymorphism

INTRODUCTION

Gastric cancer (GC) is one of the most aggressive cancer type that is still a global health problem with its heterogeneous nature and it is a multifactorial disease, where many factors can influence its development, both environmental and genetic. GC is one of the most important global health problem since it is the fifth leading cancer in the world and the third leading cause of cancer-related death, with almost 800,000 deaths every year. It covers 952,000 new cases (6.8% of the total number of cancers) and 723,000 deaths (that represents 8.8% of all cancer deaths) in 2012. The incidence rate of GC rises progressively with age; the median age at diagnosis is 70 years. However, approximately 10% of gastric carcinomas are detected at the age of 45 or under the age of 45 . It occurs approximately twice as frequently in men as in women. Gastric cancer is multifactorial disease where many factors have been noted to have a significant impact on the increased risk of developing it, like family history, diet, alcohol consumption, smoking, *Helicobacter pylori* and *Epstein–Barr* virus (EBV) infections.The effect of dietary factors on the development of gastric canser has been broadly studied and it is summarized that fruit and vegetables are protectors against GC, but consumpton of salty, smoked and freezed food increase the risk.

Lauren classification is the most popular classification, which indicates that GC has two subtypes: intestinal and diffuse. Both subtypes have different clinical features, genetics, morphology, epidemiology and expansion properties. The intestinal subtype contains tubular and glandular elements, with multiple degrees of differentiation, but the diffuse subtype displays poorly cohesive single cells without gland formation.

In gastric canser formation , genetic processes,which are regulated, in part, by inhibitory and stimulatory factors that are products of proto-oncogenes and tumor suppressor genes, are inhibited by some factors. The p53 gene, which functions as tumor suppressor gene, located on chromosome 17p13, is one of the most commonly mutated genes in all types of human cancer. It contains 11 exons, and encodes a 53 kDa phosphoprotein that is a transcription factor for genes that induce cell cycle arrest or apoptosis[1]. Although at least 13 polymorphisms of this gene have been described, only those in exon 4 have been examined in gastric cancer [2]. Exon 4 contains 2 polymorphic sites, 1 at codon 36 and another at codon 72. Of these, the codon 72 polymorphism is by far more common. The polymorphism consists of a single base pair change of either arginine or proline which creates 3 distinct genotypes: homozygous for arginine (Arg/Arg), homozygous for proline (Pro/Pro) and a heterozygote (Pro/Arg)[1]. It has been reported that p53 codon 72 polimorphism has association with many types of cancer, including gastric cancer. there are several case–control studies which have been conducted to explain the cooperation between this polymorphism and gastric cancer risk, but the results are inconsistent.

MATERIAL AND METHODS

Eligible articles were retrieved by searching the PubMed bibliographical database (up to April 2022) using the following combination of keywords: (p53 OR tp53) AND (gastric OR stomach) AND (polymorphism OR polymorphisms OR variants OR variant). We use articles those are published in english. We looked for articles provide the number of castric cancer cases and controls.

RESULTS

A meta-analysis published in 2007 pooled 12 case–control studies including 1,665 gastric cancer cases and 2,358 controls, but found no significant difference in genotype distribution between the cancer and non-cancer patients[2]. A significantly lower frequency of Arg/Arg in gastric cancer patients was observed only among Asians, and that difference in genotype distribution may have been associated with the cancer's location, stage and histological differentiation [2] . Another fifteen studies were conducted to explore the association between p53 codon 72 polymorphism and gastric cancer risk after the meta-analysis published in 2007, including several large sample size trials, but the results were still not consistent[2]

To investigate the possible association of P53 codon 72 Arg/Pro polymorphisms with risk of gastric cancer, blood samples from 140 patients with gastric carcinoma and 125 healthy controls were collected in Hexi area of Gansu province. P53Arg72Pro polymorphisms could be a risk factor for gastric cancer in high incidence Hexi area of Gansu Province in China [3].

The genotyping was carried out by PCR-RFLP in 58 gastric cancer patients, 99 controls and 41 individuals classified as group I or II. according to the Japanese histological classification. No association was found for p53. codon 72 polymorphism with neither the risk of gastric cancer nor the risk of less severe gastric lesions in the studied population [4].

A total of 59 patients with gastric cancer and 59 healthy controls were enrolled in the present study. The P53 codon 72 polymorphism does not contribute to gastric cancer susceptibility in Northern Iran [5].

Researchers conducted a large-scale case-control study that included 2,213 gastric cancer patients; 1,829 colorectal cancer patients; and 1,700 healthy controls. Their results suggest that the Pro/Pro genotype is associated with modest increases in the risks of gastric cancer and colorectal cancer in a Korean population [6].

The p53 codon 72 polymorphism has not been studied yet in the Azerbaijani population. Currently, 8 blood samples of patients over the age of 50 have been taken and DNA isolation has been made. In the next periods of the research, it is planned to determine the genotype and increase the number of blood samples to investigate the association between Gastric Cancer and p52 codon 72 polymorphism.

The mechanism of human gastric canser is still relatively unknown, and single nucleotide polymorphisms can be used as a tool in searching for genetic variations of the disease gene and susceptibility, and to increase understanding of the disease mechanism [1].

REFERENCES

1. Zhou Y, Li N, Zhuang W, Liu GJ, Wu TX, Yao X, Du L, Wei ML, Wu XT. P53 codon 72 polymorphism and gastric cancer: a meta-analysis of the literature. Int J Cancer. 2007 Oct 1;121(7):1481-6. doi: 10.1002/ijc.22833. PMID: 17546594.
2. Liu KJ, Qi HZ, Yao HL, Lei SL, Lei ZD, Li TG, Zhao H. An updated meta-analysis of the p53 codon 72 polymorphism and gastric cancer risk. Mol Biol Rep. 2012 Aug;39(8):8265-75. doi: 10.1007/s11033-012-1674-0. Epub 2012 Jun 16. PMID: 22707142.
3. Ke-Xiang Z, Yu-Min L, Xun L, Wen-Ce Z, Yong S, Tao L. Study on the association of p53 codon 72 polymorphisms with risk of gastric cancer in high incidence Hexi area of Gansu Province in China. Mol Biol Rep. 2012 Jan;39(1):723-8. doi: 10.1007/s11033-011-0791-5. Epub 2011 May 12. PMID: 21562767.
4. Alpízar-Alpízar W, Sierra R, Cuenca P, Une C, Mena F, Pérez-Pérez GI. Asociación del polimorfismo del codon 72 del gen p53 con el riesgo de cáncer gástrico en una población de alto riesgo de Costa Rica [Association of the p53 codon 72 polymorphism to gastric cancer risk in a hight risk population of Costa Rica]. Rev Biol Trop. 2005 Sep-Dec;53(3-4):317-24. Spanish. PMID: 17354442.
5. Hedayatizadeh-Omran A, Alizadeh-Navaei R, Janbabaei G, Omrani-Nava V, Hasheminasab Y, Amjadi O, Tehrani M. Association of P53 gene polymorphism with gastric cancer in Northern Iran as a high-risk region. Biomed Rep. 2018 May;8(5):433-438. doi: 10.3892/br.2018.1070. Epub 2018 Feb 22. PMID: 29616139; PMCID: PMC5876468.
6. Song HR, Kweon SS, Kim HN, Piao JM, Yun WJ, Choi JS, Hwang JE, Yoon JY, Kim HR, Park YK, Kim SH, Choi YD, Shin MH. p53 codon 72 polymorphism in patients with gastric and colorectal cancer in a Korean population. Gastric Cancer. 2011 Aug;14(3):242-8. doi: 10.1007/s10120-011-0034-4. Epub 2011 Apr 2. Erratum in: Gastric Cancer. 2011 Aug;14(3):248. PMID: 21461655.

ROLE OF SEROTONERGIC SYSTEM IN DOWNREGULATION OF MUTATIONS

Afag Nurullayeva[1], Arif Mehdiyev[2]
[1,2,] Institute of Physiology, NAS of Azerbaijan,
afaq.nur@gmail.com
Baku, Azerbaijan.

Abstract

Both chemical and physical factors lead to mutagenic and proxidative changes in cells of all tissues of living organisms. Among these factors, ionizing radiation is particularly noteworthy. The particular significance of ionizing radiation is related to its heavy, irreversible and destructive effects in organisms. on the other hand it assisioated with severe accidents in chernobul and Fukushima earlier this century. Considering above mentioned reasons, the investigation of high resistance organisms to γ-irradiation through upregulation of serotonergic system is one of the necessary requirements of the present time. The significant impact of different kinds of unfavourable enviromental factors on the activity of serotonergic

system have been shown on numerous experimental models. For this aim in our experiments activation of serotonergic system was achieved by intraperitanelly administration of serotonin-modulating anticonsolidation protein [1] into the animals. This protein is in linear relation with serotonin level.

Keywords: nuclear pathologies, serotonin-modulating anticonsolidation protein, γ-irradiation

INTRODUCTION

Because of intensive applying of nuclear energy in modern life, the problem of elaboration of effective ways of radioprotection is extremely important. Though radiation protecting materials blocking spreading of radiation are currently widely used, however, this type of protection for many reasons has already been out of date and does not provide reliable protection of the organism's tissues.

The main adverse effects of radiation on the living organisms are related directly to upregulation of mutation level in somatic and sexual cells. So, from this standpoint one can conclude that the main pinpoint of effective radioprotection should be based on preventing and taking off mutagenic changes induced by radiation effects on the tissues of animals and humans.

Our earlier studies have shown that long-term exposure of the sturgeon juveniles in the fresh water containing crude oil leads to upregulation of mutations and downregulation of serotonin-modulating anticonsolidation protein in the somatic cells, while short-term exposure does not bring to these changes [2]. I.m. administration of SMAP prior to putting sturgeon juveniles into the water containing heavy metals and polyaromatic hydrocarbons (PAH) leads to downregulation of mutation level by over 50% [3]. So, as it issues from these data, SMAP realizes anti-mutagenic activity

MATERIALS AND METHODS

The studies were conducted on male albino rats of 160-200 g of body mass. Upregulation of serotonergic system was fulfilled by adminstartion of SMAP. This protein was purified from the cow brains with application of two-step purification procedure as had been described earlier (Mekhtiev, 2000): 1) partial precipitation with sodium sulphate in the range of 0-40% concentration; 2) gel-chromatography on the column (3.0 X 60.0 cm) of Sephadex G-150. SMAP purification was carried out under the screening control of the indirect ELISA-test with application of anti-SMAP rabbit immunoglobulins to choose the SMAP-immune positive fractions. The protein purity was checked by electrophoresis in polyacrylamide gel. The anti-SMAP polyclonal immunoglobulins were produced through immunization of the rabbits with SMAP, using 300 μg of the protein always in mixture with the complete Freund adjuvant. SMAP and anti-SMAP immunoglobulins were frozen and kept under -70○C.

In the 1st series of studies the effects of γ-irradiation at a dose of 4 Gy on the levels of SMAP, heat shock protein with Mr 70 kDa (HSP70) and cytochrome P-450 in the bone marrow and liver was evaluated by the indirect ELISA-test with application of antibodies to these proteins on the polystyrene plates [4]. The animals were sacrificed and their livers were removed, homogenized and water-soluble proteins were extracted and used as antigens in the ELISA-test. Specific polyclonal rabbit anti-SMAP antibodies were used as the first antibodies, while the anti-rabbit goat immunoglobulins coupled with horseradish peroxidase were used as the second antibodies. Orthophenylendiamine was used as a substrate for peroxidase to visualize the results of reaction. The reaction was stopped by adding 3 M NaOH and the results were transferred into digital form in the ELISA-test reader "Molecular Devices Spectra Max 250" (MTX Lab Systems, Inc., USA) at the wavelength of 492 nm (wavelength of reference 630 nm) and analyzed with application of the t-Student criterion.

In the 2nd series of studies the effect of SMAP on synthesis of HSP70 was analyzed with application of Western blotting technique. SMAP was administered intraperitoneally into the animals (1 mg per 100 g of body mass) and in 1.5, 3 and 5 h intervals the animals were sacri-ficed and the liver was removed.

In the 3rd series of studies after exposure of the animals to the effects of γ-irradiation at a dose of 8 Gy, level of lipids peroxidation (LPO) in the liver was analyzed. In these series of studies the animals were divided into 3 groups: 1) intact group; 2) control group (inactive SMAP), and 3) experimantral group (SMAP). Taking into account the results of the previous series, the animals of control and an experimental groups were exposed to γ-irradiation at 8 Gr dose 3 h later since i.p. injection of preparations in the 4th series of experiments. After decapitation of the animals, samples of bone marrow were taken from the animals of all the groups and the number of nuclear pathologies in 1000 erythrocytes was evaluated in a light microscope.

RESULTS

In the 1st series of studies it was shown that γ-irradiation at 4 Gy brings to downregulation of HSP70 in the bone marrow and liver, while in the liver noticeable downre-gulation of only cytochrome P-450 was

observed, While in the 2nd series of studies the results in the Western-blotting analysis showed that after intra-peritoneal administration of SMAP the most prominent upregulation of HSP70 in the liver is revealed in a 3-hour interval. So, for further studies the 3-hour interval between SMAP administration and exposure of the rats to γ-irradiation was chosen.

In the next series of studies it was shown that under γ-irradiation significant upregulation of malone dialdehyde (MDA) was noticed in the control animals, injected with heat-inactivated SMAP, while in the experimental animals, injected with active SMAP, MDA level declined and likened to the values of the intact group.

The results obtained from the 4th series of investigation indicate that there is a sharp increase in the number of nuclear pathologies in the control group animals, which were injected with inactivated SMAP before radiation. At the same time, the number of nuclear pathologies in the experimantral group animals (SMAP) downregulated by over 40% compared to the control group animals.



Figure 1. Effect of γ-irradiation at 8 Gy dose on level of the nuclear pathologies in the bonemarrow

CONCLUSION

Obtained results indicate that active SMAP administration neutralizes pro-oxidative activity of high dose of γ-irradiation.

REFERENCES

1. Mekhtiev A.A. (2000) Revealing in the rat brain of the protein possessing with anticonsolidation properties. **Bull. Exper. Biol. Med.**, 130(8): 147-150.

2. Mekhtiev A.A., Palatnikov G.M., Movsum-zadeh S.K., Kasimov R.Yu. (2010) Increase of mutation level in gobies and sturgeon juveniles' tissues under blockade of serotonin-modulating anticonsolidation protein with antibodies. **Journal Evol. Biochem. Physiol.,** 46(5): 375-379.

3. Mekhtiev A.A., Movsum-zadeh S.K. (2008) Antimutagenic activity of serotonergic system and underlying mechanisms in sturgeon juveniles (*Acipenser gueldenstaedti persicus*) and goldfish (*Carassius auratus)*. **Journal Evol. Biochem. Physiol.,** 44(5): 476-481

CRISPR CAS-9 NƏDIR VƏ KEÇMIŞDƏN GÜNÜMÜZƏ CRISPR.

ARZU MUSTAFAYEVA
Sumqayıt Dövlət Universiteti
Kimya və biologiya/Genetika
arzumustafazadeh@gmail.com
SUMQAYIT, AZƏRBAYCAN

NAZILƏ KƏRƏMOVA
Sumqayıt Dövlət Universiteti
Kimya və biologiya/Genetika
nazile15743@gmail.com
SUMQAYIT, AZƏRBAYCAN

XÜLASƏ

Müxtəlif genlərin, xromosomların və onlar arasındakı məkan-zaman əlaqəsinin öyrənilməsi biotibb sahəsində böyük əhəmiyyət kəsb edir. CRISPR-Cas9 əla hədəfləmə qabiliyyətinə görə ən çox istifadə edilən gen redaktə vasitəsinə çevrilmişdir. Son illərdə Cas9-a əsaslanan, genom, RNT və xromatinin yerləşdiyi yerləri öyrənmək üçün sürətli və rahat alətlər təqdim edən bir sıra qabaqcıl təsvir texnologiyaları haqqında məlumat verilmişdir. Eyni zamanda, in vivo-da real vaxt rejimində çox saytlı təsvirlərdə geniş istifadə olunan müxtəlif CRISPR-Cas9 əsaslı təsvir sistemləri hazırlanmışdır. Bu icmalda biz CRISPR-Cas9 sisteminin komponentini və mexanizmini ümumiləşdirdik, NIR(ingiliscə near infrared images) təsvirini və CRISPR-Cas9-un çatdırılmasında NIR flüoroforlarının tətbiqini nəzərdən keçirdik və CRISPR-Cas9 əsaslı görüntüləmə sisteminin irəliləyişlərini vurğuladıq. Bundan əlavə, biz CRISPR-Cas9 əsaslı görüntüləmə metodlarının problemləri və potensial həll yollarını da müzakirə etdik və sahənin inkişaf tendensiyasını səbirsizliklə gözlədik.

AÇAR SÖZLƏR: CRISPR Cas9-1, mexanizm-2, dnt-3, molekulyar qayçı-4

GIRIŞ

2020-ci il Kimya üzrə Nobel Mükafatı fransız mikrobioloq Emmanuelle Şarpentier və ABŞ biokimyaçısı Cennifer A. Doudnaya "DNT zəncirlərini kəsib yenidən yığmağa imkan verən "CRISPR-Cas9" sisteminin inkişafına verdiyi töhfələrə görə verilib."DNT-də əməliyyat apara bilən texnologiya" olaraq da tanınan CRISPR-Cas9, 2020-ci il Kimy aüzrə Nobel Mükafatı ilə elm aləmində həyəcan yaradan bir tətbiq olmuşdur. Ən qısa və ən dəqiq formada desək, CRISPR-Cas9 genomu redaktə vasitəsidi. Başqa sözlə, bu, genetiklərə və tibb tədqiqatçılarına DNT ardıcıllığını əlavə etmək, çıxarmaq və ya dəyişdirmək imkanı verən unikal bir texnologiyadır.Bu günə qədər istifadə edilən hər hansı bir texnikadan daha sürətli, daha ucuz və daha dəqiq olan CRISPR-Cas9 həm də geniş tətbiq sahəsinə malikdir.CRISPR'ın mənası "Clustered Regularly Interspaced Palindromic Repeats" deməkdir lakin bu ifadə dilimizdə tam olaraq tərcümə edilmir.

Keçmişdən günümüzə CRISPR

CRISPR klasterlərinin mövcudluğu 1980-ci illərdən məlumdur. CRİSPR təkrarları ilk dəfə 1987 ci ildə Yaponiyalı molekulyar biologiya üzrə professor Yohizumi İshino tərəfindən aşkar edilmişdir. 2000 ci ildə İspan mikrobioloq Francisco Mojica CRİSPR təkrarlarının prokariot orqanizmlərdə olduğunu göstərmişdir. 2007 ci ildə Rodolphe Barrangou tərəfindən CRİSPR ın bakteriyalarda adaptiv immunitetdə rolu olduğu aşkarlandı. Nəhayət, 2012 ci ildə Fransız professoru, mikrobiologiya, genetika və biokimya üzrə araşdırmaçı Emmanuelle Charpentier və Amerika biokimyaçısı Jennifer Doudna ilə birlikdə araşdırma çalışmalarına başladı və nəhayət, in vitro da Cas9 ilə DNT nin kəsiləbildiyini sübut etdilər CRİSPR Cas9 üzrə etdikləri bu araşdırmaya görə Jennifer Doudna və Emmanuelle Charpantier 2020 ci ildə Nobel mükafatına layiq görülmüşdür. Daha sonra 2013 cü ildə CRİSPR Cas9 un məməli hüceyrələrinə də tətbiqi aşkar edildi.

CRİSPR CAS9-un qısa işləmə mexanizmi

CRİSPR CAS9 texnologiyası istənilən DNA hissəsindən kəsim edə bilir. CRISPR-Cas9 sistemi DNT-də dəyişikliklərə (mutasiyalara) səbəb olan iki mühüm molekuldan ibarətdir:

1. Cas9 adlı ferment: O, genomun müəyyən hissələrindən iki DNT zəncirini kəsə bilən "molekulyar qayçı" kimi fəaliyyət göstərir. Beləliklə, DNT fraqmentləri əlavə edilə və ya çıxarıla bilər.

2.Bələdçi RNT adlanan bir RNT parçası (ing. guide RNA - gRNA): O, daha uzun bir RNT zəncirinin içərisində əvvəlcədən hazırlanmış kiçik (təxminən 20 əsas) RNT ardıcıllığından ibarətdir. Uzun RNT hissəsi DNT-yə bağlanır və əvvəlcədən hazırlanmış ardıcıllıq Cas9-u genomun doğru nöqtəsinə aparır. Beləliklə, Cas9 fermenti doğru yerləri kəsir.

CRISPR-Cas9 texnologiyasında, genomda hədəf DNT ardıcıllığının tamamlayıcı RNT əsasları olan Bələdçi RNT DNT-də müəyyən bir ardıcıllığı tapmaq və ona bağlanmaq üçün nəzərdə tutulmuşdur. Cas9 fermenti isə istiqamətləndirici RNT-ni izləyir, DNT-də müvafiq yerə gedir və DNT-nin hər iki zəncirində kəsik əmələ gətirir. Bu mərhələdə hüceyrə DNT-nin zədələndiyini anlayır və onu düzəltməyə çalışır. Alimlər DNT təmir mexanizmindən istifadə edərək, maraqlandıqları hüceyrənin bir və ya bir neçə genini dəyişdirə bilərlər.

CRİSPR ilə bir çox xəstəliklərin: xərçəng, hepatit B, Talessemiya və s. kimi xəstəliklərin müalicəsində istifadə edilə bilər.

NƏTICƏ

CRISPR CAS9 texnolgiyasi uzun illər ərzində inkişaf etmişdir. Bu texnologiya hazırkı dövrdə artıq bir çox xəstəliklərin müalicəsində istifadə edilir.

ƏDƏBIYYAT SIYAHISI

1. CRISPR/Cas9 for Crop Improvement: Chainika Gupta1 , Ashish Sheera2 & Tushadri Singh
2. The Advance of CRISPR-Cas9-Based and NIR/CRISPR-Cas9-Based Imaging System: Huanhuan Qiao1 , Jieting Wu1 , Xiaodong Zhang1 , Jian Luo2,3 , Hao Wang1, and Dong Ming1
3. CRISPR/Cas9 Ma Hongbao 1 , Margaret Young 2 1 Brooklyn, NY 11212, USA; 2 Cambridge, MA 02138, USA
4. Multiplexed activation of endogenous genes by CRISPR-on, an RNA-guided transcriptional activator system: Albert W Cheng, Haoyi Wang, Hui Yang, Linyu Shi
5. The new frontier of genome engineering with CRISPR-Cas9 JENNIFER A. DOUDNA AND EMMANUELLE CHARPENTIER
6. Genome engineering using the CRISPR-Cas9 system FAFA Ran, Patrick D Hsu, Jason Wright, Vineeta Agarwala, David A Scott, Feng Zhang Nature protocols 8 (11), 2281-2308, 2013

GÖY YAŞIL YOSUNLARIN ANTİMİKROBİAL TƏSİR MEXANİZMASI

Aytən Məmmədova
Eskişehir Texniki Universiteti
Biotexnologiya üzrə tədqiqatçı
aytenmemmedova2109@gmail.com
Bakı, Azərbaycan

XÜLASƏ
Tədqiqat nəticəsində göy yaşıl yosunlar olaraq bilinən siyanobakteriyaların antimikrobial aktivliyi araşdırılmışdır. On siyanobakteriyanın antimikrob təsir mexanizmasına baxılması üçün beş bakteriya (bacillus cereus, micrococcus luteus, enterobacter aerogenes, streptococcus faecalis, escherichia coli) və 2 maya (candida albicans, candida krusei) istifadə edilmiştir. Disklərin ətrafında olan şəffaf zonaların diametrləri müəyyən edilmiş və ölçmə yolu ilə bakteriya ştammlarına qarşı inhibə zonası (mm) təyin edilmiştir. Aparılan tədqiqatlardan əldə edilmiş nəticələrə görə disklərin ətrafında zona müəyyən edilmədiyi üçün heç bir aktivlik təyin olunmamıştır.
AÇAR SÖZLƏR: ***SIYANOBAKTERIYA, ANTIMIKROB, MAYA***

GIRIŞ

Siyanobakteriyalar Yer planetinin ən qədim sakinləridir və onların mövcudluğunu 3,8 milyard il əvvələ qədər izləmək olar. Bir çox fərqli yaşayış mühitində (qütb bölgəsi, okeanlar, dənizlər, quru kütlələri, şirin su ekosistemləri) yaşaya bilən siyanobakteriyalar dünyada ən müvəffəqiyyətli mikroorqanizmlərdəndir. [1]
Siyanobakteriyalarda həmçinin xlorofil a və yaşıl piqmentlər vardır. Bundan əlavə, onların tərkibində müxtəlif sarımtıl karotenoidlər, mavi piqment, fikobilin və bəzi növlərdə qırmızı piqment fikoeritrin mövcuddur. Xlorofil-a ehtiva edən mikroorqanizmlər su ekosistemində fotosintez həyata keçirərək ilkin məhsuldarlığa kömək edirlər. Onlar, həmçinin C və N istehsal edərək həyati funksiyalarını yerinə yetirirlər. [2]
Qədim zamanlardan insan sağlamlığı qorumaq, ağrı və xəstəliklə mübarizə aparmaq üçün ümumilikdə təbii məhsullara, xüsusən də bitkilərə güvənilmişdir. Bir sıra siyanobakteriyaların antialgal, antibakterial, antifungal, kimi müxtəlif bioloji fəaliyyətlərə malik ilkin və ya ikincil metabolitlər kimi toplanır və/və ya ifraz olunan hüceyrədaxili və hüceyrədənkənar birləşmələr istehsal etdiyi məlumdur. [3] Antibiotiklər və digər farmakoloji cəhətdən aktiv birləşmələr üçün siyanobakteriyaların araşdırılması yeni dərmanlar üçün potensial mənbə kimi görülməktədir.
1970-ci illərdə başlayan tədqiqatlar onların antineoplastik, antimikrobiyal və antiviral fəaliyyətə malik olduğunu göstərdi. [4] Digər tədqiqatçılar tərəfindən aparılan araşdırmalarda; Chlorella sp., Spirulina sp., Oscillatoria sp., Phormidium sp., Microcystis sp. yosunların antimikrobiyal fəaliyyəti araşdırılmış və onların müxtəlif patogenlər üzərində inhibitor təsiri olduğu bildirilmişdir. [5]

TƏDQIQAT METODU

Tədqiqatda tətbiq edilən metod asan olması və digər prosedurlara nisbətən daha az xərci səbəbiylə geniş istifadə olunur.

Şəkil 1. Mikroorqanizma yayılmış petri qablarındakı agar bloklar



Siyanobakteriyalar BG 11 (Blue green algae) aqarında 1 həftə müddətində 37°C-də inkişaf etdirilmiştir. Beş patogen bakteriya *(Bacillus cereus, Micrococcus luteus, Enterobacter aerogenes, Streptococcus faecalis, Escherichia coli*) və iki maya *(Candida albicans, Candida krusei)* antimikrobial tədqiqat üçün istifadə edilmişdir. Mikroorqanizmaların inkişafı üçün bakteriyalar Mueller-Hinton Aqar mühitində aşılanmış və 37°C-də 24 saat inkubasiya edilmişdir. Mayalar isə Sabourad Dextrose Aqar mühitində 24-48 saat ərzində 37°C-də inkubasiya edilmişdir.İnkubasyondan sonra bakteriyalar Mueller-Hinton Broth'da, mayalar isə Sabourad Dextrose Broth'da 37°C-də 24 saat inkişaf etdirilmişdir.McFarland standartı ilə bakteriya və maya süspansiyonları tənzimlənmişdir. Uyğun aqar mühitinin səthinə tənzimlənmiş bakteriya vəya maya süspansiyonu yayılmışdır. [5]

BG 11 (Blue green algae) mühitində inkişaf eləyən siyanobakteriya kulturalarından 6 mm diametrli aqar blokları çıxarıldı, seçilmiş test mikroorqanizmləri olan petri qablarına yerləşdirildi (Şəkil 1.) və inkubasiyaya buraxıldı. İnkubasiya müddətinin sonunda aqar bloklarının ətrafında əmələ gələn inhibə zonaları ölçüldü. Siyanobakteriyalardan təmizlənmiş agar blokları mənfi nəzarət üçün istifadə edilmişdir. [4]

NƏTICƏ

İnkubasyondan sonra aqar blokların ətrafında heç bir şəffaf zona görülməmiştir. Bu nəticəyə görə test edilən on siyanobakteriyadan heç biri beş patogen bakteriya və iki mayada antimikrobial aktiklik görülməmişdir.

Fərqli nəticələr almaq üçün yeni siyanobakteriya nümunələri müəyyənləşdirməli və digər patogen bakteriyalara təsir mexanizmaları müəyyən edilməlidir.

ƏDƏBIYYAT SIYAHISI

1. A. Ploutno, S. Carmeli, Nostocyclyne A, a novel antimicrobial cyclophan from the cyanobacterium Nostoc sp. J. Nat. Prod. 63, 1524-26, (2000).
2. Fogg, G. E., Stewart, W. D. P., Fay, P. and Walsby, A. E. (1973). The Blue-Green Algae, Academic Press, London & New York: 459 Pp.
3. Katırcıoğlu, H. , Beyatlı, Y. , Aslim, B. , Yüksekdağ, Z. and Atıcı, T. 2006. Screening for Antimicrobial Agent Production of Some Microalgae in Freshwater. The Internet Journal of Microbiology 2.
4. Rania MA, Hala MT (2008) Antibacterial and antifungal activity of cyanobacteria and geen microalgae. Evaluation of medium components by Plackett-Burman design for antimicrobial activity of *Spirulina platensis*. Global J Biotech Biochem 3(1):22–31
5. S. B. Hedges, H. Chen, S. Kumar, D. Y. Wang, A. S. Thompson, H. Watanabe, A genomic time scale for the origin of eukaryotes, B. M. C. Evolutionary Biology 1, 4, (2001).

AZƏRBAYCANDA YAYILAN *SALVİA* L.(*LAMİACEAE*) CİNSİNİN BƏZİ NÖVLƏRİNİN ƏHƏMİYYƏTİ

Ü. E. Alıyeva
AMEA Botanika İnstitutu
Sistematika və biomüxtəliflik şöbəsi
ulkereldaraliyeva@gmail.com
Bakı, Azərbaycan

R. A. Səlimov
AMEA Botanika İnstitutu
Sistematika və biomüxtəliflik şöbəsi
resad_selimov@yahoo.com
Bakı, Azərbaycan

XÜLASƏ

Dünyada dərman, kosmetik, ətriyyat, və qida sənayesində bitki mənşəli məhsullara olan tələbat artmaqdadır. Özündə yüksək iqtisadi əhəmiyyətə malik növləri cəmləşdirən cinslərdən biri də *Salvia* L. cinsidir. Bu cinsin növlərindən müxtəlif məqsədlər üçün istifadə edilir, əsasən antioksidant, antibakterial, antifunqal, sedativ diüretik, spazmolitik, antiseptik, hemostatik, stimullaşdırıcı və karminativ vasitə kimi, həmçinin tonzillit (angina) xüsusiyyətlərinə görə xalq təbabəti və ənənəvi tibb, kosmetologiya, aromaterapiya sənayesində istifadə üçün uyğundur.

Bu cinsə aid bitkilərin həm dünyada, həm də ölkəmizdə tədqiqat obyektlərinə çevrilməsinin əsas səbəbləri də elə onların müxtəlif məqsədlər üçün istifadə edilməsidir. Tədqiqatın məqsədi cinsin bir sıra növlərinin

iqtisadi əhəmiyyətini araşdırıb, istifadə sahələrini qiymətləndirmək və gələcək istifadə perspektivlərini müəyyənləşdirməkdir. Bu məqsədlə Azərbaycan florasında olan *Salvia L.(Lamiaceae)* cinsinin bəzi növlərinin iqtisadi əhəmiyyəti, dərman və aromatik xüsusiyyətləri təhlil edilmişdir. Bu istidaqmətdə tədqiqatlarımız davam etməkdədir.

Növlər arasında *Salvia verticillata* L. növünün kimyəvi tərkib komponentini rozmarin və kofein turşusu təşkil edir ki, bu da öz növbəsində bitkidən əldə olunan ekstraktın əczaçılıq sənayesində, *S. sclarea* L. növündən yağ istehsalı zamanı əldə olunan mumabənzər maddələr fizioterapiyada, *S. aethiopis* L., *S. garedjii* Troitsky., *S. verticillata* L., *S. rosmarinus* L., *S. nemorosa* L., *S. spinosa* L., *S. officinalis* L növlərindən əldə olunan yağlar ətriyyat və kosmetologiya sənayesində, *S. rosmarinus* L. növünün yaşıl hissəsindən alınan boya ekstraktı toxuculuqda istifadə üçün uyğundur. Həmçinin araşdırdığımız növlərin hər biri xalq təbabətində və ənənəvi tibbdə istifadə olunur. *S. fominii* Grossh. növündə toxumların 31% qədər əsas tərkib komponentini piyli yağlar təşkil edir. Cinsə daxil olan növlərin bəziləri balverən bitkilər olub, bəziləri isə heyvanlar üçün yem mənbəyidir.

AÇAR SÖZLƏR: Azərbaycan, adaçayı, dərman, aromaterapiya, kosmetologiya

GIRIŞ

Lamiaceae fəsiləsinin nümayəndələri iqtisadi əhəmiyyətə malik olub, ənənəvi tibbdə, kənd təsərrüfatında, aromaterapiya və kosmetologiya sahəsində geniş istifadə olunmaqdadır [12]. Tərkibindəki dərman və aromatik bitkiləri ilə zəngin cinslərdən biridə *Salvia* L. cinsidir. Adaçayı və ya *Salvia* cinsi, dalamazkimilər (Lamiaceae) fəsiləsinin ən böyük cinsidir və bilinən təxminən 1000 növdən ibarət olmaqla fəsilənin dörddə birini təşkil edir. [11]

Son nomenklatur dəyişiklikləri əks etdirən molekulyar, sistematik və palinoloji tədqiqatlara görə *Salvia* L. cinsinin Azərbaycanda 35 növünün və 3 yarımnövünün yayıldığı göstərilir. Onlardan 3 növ *Salvia officinalis* L., *S. rosmarinus* Spen., *S. splendens* Sellow ex Nees mədəni əkin sahələrində becərilir [7]. Bu xüsusiyyətləri və Azərbaycan florasında zənginliyini nəzərə alaraq tədqiqat üçün *Salvia* L. *(Lamiaceae*) cinsi götürülmüşdür. *Salvia L. (Lamiaceae)* cinsinin növlərinin əhəmiyyəti araşdırılmış və ayrı-ayrı növlərin iqtisadi əhəmiyyəti təhlil edilmişdir. Bu tədqiqatlarımız davam etməkdədir.

Tərkibində terpenoidlər, flavanoidlər, antosianlar, taninlər, sterollar, karatinoidlər və kumarin tipli birləşmələr ehtiva edən adaçayı cinsinin növləri antibakterial, antioksidant, antidiabetik, iltihab və şiş əleyhinə xüsusiyyətlərinə görə dünyada ənənəvi tibbdə geniş istifadə olunur [9]. Bəzi adaçayı növlərinin Avropa xalq təbabətində yaddaş itkisinə qarşı istifadə edildiyi də məlumdur [13]. Yerüstü hissələrin dəmlənməsi və bitkidən alınan efir yağı soyuqdəymə , öskürək, gingivit, diş ağrısı, boğaz ağrısı, diabet, yüksək təzyiq, mədə və qarın ağrıları, revmatizma və dəri xəstəliklərinin müalicəsində, həmçinin büzücü, bəlğəmgətirici və sakitləşdirici olaraq da istifadə olunmaqdadır. Məhz cinsin bəzi növlərinin dərman xüsusiyyətlərinə görə *Salvia* latın sözü "*salvare*" sözündən götürülmüş, mənası "sağaltmaq" və ya "xilas etmək", "*salvus*" və ya "*salus*" sözü isə "sağlamlıq, rifah, firavanlıq və ya qurtuluş" deməkdir [14]. Həmçinin bir çox adaçayı növləri bitki çayları və qida aromatizatorları kimi, eyni zamanda əksəriyyəti efir yağlı bitki olduğu üçün bitkidən alınan sürvə yağı və ondan hazırlanan məhsullar ətriyyat, kosmetika və əczaçılıq sənayesində istifadə edilir [10]. Cinsin növləri parklarda və bağlarda bəzək bitkiləri kimi yetişdirilir [6]. Bu xüsusiyyətlər cinsin iqtisadi əhəmiyyətə malik olduğunu göstərir. Bu cinsə aid bitkilərin həm dünyada, həm də ölkəmizdə tədqiqat obyektlərinə çevrilməsinin əsas səbəbləri də elə onların müxtəlif məqsədlər üçün istifadə edilməsidir. Bu baxımdan da *Salvia* L. cinsinin müasir metodlarla hərtərəfli öyrənilməsi mühüm elmi və praktiki əhəmiyyətə malikdir.

TƏDQIQAT METODU

Bir sıra ədəbiyyat məlumatları, AMEA Botanika İnstitutunun BAK Herbari Fondunda və dünyanın müxtəlif virtual herbari fondlarında [GBIF] saxlanılan həmçinin tədqiqat ərazisindən toplanılmış *Salvia* L.cinsinin növlərinə aid herbari nüsxələri analiz olunmuşdur. Müxtəlif illərdə ayrı-ayrı müəlliflər tərəfindən təbiətdə aparılan monitorinq nəticələri nəzərdən keçirilmiş, sistemli təhlil olunmuşdur. Bitki nümunələri ilə bağlı məlumatların təhlilində "Растительные ресурсы России" [3], "Flora Azərbaycan" [2] əsərlərindən istifadə edilmişdir. Nomenklatura məsələlərinin dəqiqləşdirilməsində taksonların elmi adı və onların sinonimləri, habelə müəlliflərinin adı Azərbaycan florası çoxcildliyi ilə yanaşı müxtəlif veb bazalardan dəqiqləşdirilmişdir [5].

NƏTICƏ

Azərbaycan florasında yayılan *Salvia* L. cinsinin 14 növü dərman xüsusiyyətinə malikdir. Ənənəvi tibbdə yasəmən adaçayı və ya bənövşəyi yağış adlandırılan *S. verticillata* L. növünün əsas kimyəvi tərkib komponentini rozmarin və kofein turşuları təşkil edir ki, kofein turşusu ikinci metabolitlərin biosintezində

əsas rol oynayır və bu bitkidən əldə olunan ekstrakt əczaçılıq sənayesində istifadə üçün uyğundur. Bitkinin yerüstü hissələrindən hazırlanmış çay bəlğəmgətirici vasitə kimi həmçinin ağız boşluğunun dezinfeksiyası və yaraların sağalması üçün istifadə edilir [3].

S. aethiopis L. növündə bitkinin yerüstü hissələrinin tərkibində olan etiopinon iltihab əleyhinə və ağrıkəsici (analgetik) xüsusiyyətlərə malik olub, dixlorometan, etil asetat və metanol ekstraktları isə antioksidant xüsusiyyət daşıyır. [8]. Bitkinin kökləri ürək çatışmazlığı, yerüstü hissələr və yarpaqları hiperhidroz və ağciyər vərəmi diaqnozu olan xəstələrdə müalicəvi təsir göstərir. Yarpaqlar yaraların sağalmasında, furunkulyozun (irinli dəri xəstəliyi) müalicəsində istifadə olunur. Yarpaq və çiçəklərdən alınan ekstrakt süd turşu bakteriyalarına qarşı antibakterial fəaliyyət göstərir. *S. glutinosa* L. növündən alınan ekstrak antibakterial və antifungal təsirə malikdir. Bitkinin şirəsindən və ya həlimindən yarasağaldıcı vasitə kimi, yarpaqlarından bronxial astma xəstəliyində, yerüstü hissələrindən isə böyrək daşı problemləri zamanı istifadə olunur. *S. macrosiphon* Boiss. növünün köklərinin tərkibində olan xinonlar antibakterial fəaliyyətə malik olub, toxumlarından ürək fəaliyyətinin pozulması, hamiləlik zamanı nevroz və doğuşdan sonra zəiflik hallarında, həmçinin ağciyər xəstəliklərində istifadə olunur. *S. viridis* L., *S. verbascifolia* M. Bieb. növlərindən alınmış ekstrakt da antibakterial və antifunqal təsirə malikdir. Hər iki növün toxumlarından alınan həlim yerli əhali tərəfindən konyuktivit xəstəliyi zamanı istifadə edilir. *S. spinosa* L. və *S. nemorosa* subsp. *pseudosylvestris* (Stapf) Bornm. [*S. tesquicola* Klokov & Pobed.] növlərin yerüstü hissələrindən mədə xəstəlikləri, nevrozlar, ürək damar xəstəlikləri və diş ağrısı zamanı, həmçinin *S. nemorosa subsp. pseudosylvestris* (Stapf) Bornm. [*S. tesquicola* Klokov & Pobed.] növünün yerüstü hissələrindən xroniki dəri xəstəlikləri zamanı istifadə olunur. Xalq təbabətində *S. sclarea* L. növünün yerüstü hissələrindən mədə xorası, baş ağrısı, epilepsiya, poliartrit, osteomielit xəstəlikləri, bitkinin yarpaqlarından soyuqdəymə, kəskin resperator xəstəlikləri, irinli yaralar və furunkuloz, bitkidən əldə olunan ekstraktdan nefrolitiaz (böyrək daşları) problemləri zamanı, bitkidən yağ istehsalı zamanı əldə olunan mumabənzər maddələr isə fizioterapiyada sahəsində istifadə olunur. Bu maddə revmatizm xəstəlikləri zamanı da yüksək təsiredici xüsusiyyətə malikdir. *S. spinosa* L. növünün toxumlarından alınan həlim xalq təbabətində dizenteriya xəstəliyində istifadə üçün uyğundur.

Bəzi bitkilər tərkibində olan yağların miqdarına görə aromatik bitkilər adlanır ki, bu bitkilərdə yüksəklik, torpağın tərkibi, havanın nəmliyi, iqlimin dəyişikliyi, bitkilərin toplama vaxtı, bitkilərin inkişaf mərhələsi və bitkilərin populyasiyaları ilə genetik fərqləri efir yağlarının, piyli yağların və digər ikincili metabolitlərin kimyəvi tərkibinə təsir edir. *Salvia* L. *(*Lamiaceae) cinsinə aid olan bitki növlərindən əldə olunan efir yağının əsas tərkib hissəsini sineol, limonen, α, β pinenlər, borneol, karyofillen, kamfor və s. maddələr təşkil edir. *S. sclarea* L. növünün kimyəvi tərkibində vitamin C, karotin, tekaferol maddələri üstünlük təşkil edir. *S. aethiopis* L. növünün efir yağlarının əsas tərkib hissəsi isə trans karyofillen (20%), sekiterpenlər (germakren D (24,5%)), bitsiklogermakren (8,6%) maddələri ilə zəngindir. [8]. Piyli yağlar əsasən toxumdan əldə olunur və əsas tərkib hissəsini stearin, olein, linolen və s. kimi turşular olan piyli yağlar təşkil edir. *S. aethiopis* L. növündə toxumlardan 27% qədər piyli yağ əldə olunur. Efir yağlar bitkinin müxtəlif hissələrində toplandığı halda piyli yağlar əsasən toxumlarda toplanır. *S. ceretophylla* L. növündə efir yağı əsasən çiçəklərindən piyli yağlar isə toxumlarından əldə olunur. *S. fominii* Grossh. növündə bitkinin tərkib hissəsinin əsas komponentini flavonoidlər təşkil etsə də toxumların 31% qədər əsas tərkib komponenti palmitin, stearin, olein, linolen yağ turşuları təşkil edən piyli yağlarla zəngindir. *S. glutinosa* L. növündən alınan efir yağı ətriyyat sənayesində fiksator kimi istifadəyə yararlıdır. *S. officinalis* L., *S. sclarea* L. növündən alınan efir yağı uşaqlarda yaranan diş pulpasının iltihabı zamanı, bundan başqa kosmetologiyada iltihab əleyhinə toniklərin hazırlanmasında, ətriyyat sənayesində fiksatorların (kəhrəba, müşk) əvəzedicisi kimi istifadə olunur.

Ümumiyyətlə ətriyyat və kosmetologiya sənayesində *S. aethiopis* L., *S. garedjii* Troitsky., *S. verticillata* L., *S. rosmarinus* L., *S. nemorosa* L., *S. spinosa* L., *S. officinalis* L. və s. növlərindən də geniş istifadə olunur. *S. rosmarinus* kosmetik preparatlarda, ultrabənövşəyi zədələnmə və qocalma kimi patoloji və qeyri-patoloji vəziyyətlərin müalicəsində potensial tətbiqlərə malikdir.

Bundan başqa cinsə daxil olan növlərin bəziləri yem bitkisi kimi istifadə olunur. *S. nemorosa* L. növünün yarpaqlarından dovşançılıqda, *S. aethiopis* L. növndən balıqçılıq sənayesində və qoyunçuluqda, *S. verticillata* L. maldarlıq sahəsində yem kimi istifadə olunur. *S. kuznetzovii* Sosn [=*S. pratensis* var. *caucasica* Kusn.], *S. glutinosa* L., *S. spinosa* L., *S. nemorosa* subsp. *pseudosylvestris* (Stapf) Bornm. [*S. tesquicola* Klokov & Pobed.], *S. verticillata* L., *S. aethiopis* L., *S. sclarea* L. növləri balverən bitkilər olub, *S. kuznetzovii* Sosn [=*S. pratensis* var. *caucasica* Kusn.] növünün nektar məhsuldarlığı 280 kq/ha, *S. sclarea* L. növünün nektar məhsuldarlığı isə 170 kq/ha çatır.

Cinsinə aid olan bitki növlərində kimyəvi tərkibinin zənginliyini nəzərə alaraq onlardan əldə olunan ekstraktların tətbiq sahəsini daha da genişləndirmək mümkündür. Belə ki, *S. verticillata* L. növünün kimyəvi tərkibinin zənginliyinə əsasən ekstraktından spesifik dad əldə edildiyi üçün qida aromatizatorları kimi ət məhsullarının və pendirin qorunması üçün pendir istehsalı prosesində istifadə oluna bilər. [1] Hazırda *S. aethiopis* L., *S. sclarea* L., *S. rosmarinus* L. növləri ədviyyat kimi, *S. aethiopis* L., *S. glutinosa* L., *S. kuznetzovii* Sosn [=*S. pratensis* var. *caucasica* Kusn.], *S. verbascifolia* M. Bieb., *S. splendens* Sellow ex Nees, *S. rosmarinus* L. dekorativ bitki kimi istifadə edilir. Bunlardan *S. splendens* Sellow ex Nees, *S. rosmarinus* L., *S. officinalis* L. növləri mədəni əkin sahəsində becərilir. *S. sclarea* bitkisindən alınan sulu məhlulu payızlıq buğda, raps və vəzəri bitkisinin toxumlarına inhibitor təsir göstərir. Bu bitkinin piyli yağından tikinti sənayesində boya və lakların alınmasında istifadə olunur. Həmçinin *S. rosmarinus* L. növünün yaşıl hissəsindən boyaq ekstraktı hazırlayıb, yun ipləri yaşıl, sarı-yaşılımtıl, qonur, bozumtul-yaşıl və s. rəng çalarları ilə boyamaq mümkündür.

Salvia cinsinin növlərinin qeyd etdiyimiz bu xüsusiyyətləri onun yüksək iqtisadi əhəmiyyətə malik olduğunu əks etdirir. Lakin dövrümüzdə Azərbaycanda üzərində araşdırma apardığımız növlərdən yalnız *S. rosmarinus* L., *S. officinalis* L. və *S. splendens* Sellow ex Nees, növlərindən bir sıra məqsədlər üçün istifadə edildiyi halda digər növlər yabanı bitki növləri olaraq qalmaqdadır. Halbuki *S. verticillata* L. və bu kimi bir sıra növlər tərkibində olan rozmarin və kofein turşularının olması ilə yüksək müalicəvi xüsusiyyətə malik birləşmələrin mənbəyini təşkil etməkdədir. Cinsin əksər növləri kosmetologiya, parfümeriya, tibb, əczaçılıq, qida, boyaq sənayesində, eyni zamanda dekorativ məqsədlə bağların və parkların yaşıllaşdırılmasında geniş istifadə perspektivləri tapa bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Alıyeva Ü.,Səlimov R. *Salvia verticillata* L. və *S. glutinosa* L. növlərinin müqayisəli anatomik və mikromorfoloji analizi. Azərbaycan Botaniklər Cəmiyyəti, Azerbaijan Journal of Botany 2(1).2021.19-29
2. Рза-заде Р.Я. Род Salvia. Флора Азербайджана. Баку: Изд-во АН АзССР, Том VII, 1957, стр 330–352.
3. Буланиев А. Л. Растительные ресурсы России. Дикорастущие цветковые растения, их компонентный состав и биологическая активность. Т. 4. Семейства Caprifoliaceae - Lobeliaceae (2011) (1)
4. Clebsch, B. *The new book of Salvias: Sages for evergreen garden*, , 2003. pp. 17. Timber Press.
5. Demirci, B., Baser, K.H.C., Yıldız, B. and Bahçecioglu, Z. Composition ofthe essential oils of six endemic *Salvia* spp. from Turkey, *Flavour and Fragrance Journal* 18, 2003., pp. 116-121
6. Euro+ Med: Euro+ Med Plant Base – the information resource for Euro-Mediterranean plant diversity: http: //ww2.bgbm.org / EuroPlusMed /[accessed 10 November 2018]
7. Jarić S., Mačukanović-Jocić, M., Djurdjević, L., Mitrović, M., Kostić, O., Karadžić, B., Pavlović, P., 2015. An ethnobotanical survey of traditionall yused plants on Suva planina mountain (south-easternSerbia). J. Ethnopharmacol. 175, 93–108.
8. Kadir Danış. Pertek (tunceli) yöresindeki bazı tıbbi ve aromatik bitkilerin morfolojik ve kimyasal (uçucu yağları) yönünden incelenmesi . Yüksek Lisans Tezi. Biyoloji Anabilim Dalı . 2016
9. Marin, P.D., Duletic, S. & Petkovic, B. Nutlet Ornamentation in Selected Sa*lvia* L. Species (Lamiaceae). *Fl. Medit.* 6**,** 1996, pp. 203-211.
10. Perry, N., Court, G., Bidet, N., Court, J., & Perry, E.K. Cholinergic activities of European herbs and potential for dementia therapy. *Journal of Geriatric Psychiatry*, 11: 1996, pp. 1063-1069.
11. Polat R.,U.Çakılcıoğlu and F.Satıl, "Traditional uses of medicinal plants in Solhan (Bingöl-Turkey)", *Journal of ethnopharmacology*, c. 148, sayı 3, ss. 951-963, 2013.
12. Salimov R., Karimov V., Babayeva Z., Gasimova G., Aliyeva Z., Akbarova A., Fatdayeva A., Nabiyeva P., Isgandarova L., Hajiyeva S. Vascular plants of Azerbaijan: a nomenclatural update and survey of *Lamiaceae* L. Plant & Fungal Research (2018) 1(1):- 69-85
13. Ulubelen, A. Cardioactive and antibacterial terpenoids from some *Salvia* species. *Phytochemistry* 64: 2003, pp. 395-399.
14. Takano Hu. G.X., A.Drew. B.T., Liu,E.D.,et al.,2018. Phylogeny and staminal evolution of *Salvia (Lamiaceae, Nepetoidae)* in East Asia . Ann. Bot. 122.649-668.

KƏSKİN LİMFOBLASTİK LEYKEMİYALI XƏSTƏLƏRDƏ DNMT3B GENİNİN -579 G>T POLİMORFİZMİNİN TƏDQİQİ

NİLUFƏR HÜSEYNOVA
Azərbaycan Milli Elmlər Akademiyası/Genetik Ehtiyatlar İnstitutu
Biologiya/Genetika
niluferh.eva@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ.
Leykemiya, digər adı ilə qan xərçəngi ən çox uşaqlarda rast gəlinən xərçəng növü olmaqla, həm letallıq, həm də proqressivləmə xüsusiyyətlərinə malikdir. Xəstəliyə genetik faktorlarla yanaşı, ətraf mühit risk faktorları kimi epigenetik dəyişkənliklər də səbəb ola bilir. Leykemiya kəskin və xroniki formada təzahür etməklə, limfoblastik və miyeloid tiplərinə ayrılır və beləliklə, ümumilikdə 4 böyük qrup üzrə sinifləndirilir. Leykositlərin bir növü olan limfositlər sümük iliyində ilkin sələf hüceyrələri olan limfoblastlardan əmələ gəlirlər. Kəskin limfoblastik leykemiya limfoblastların yetişmə mərhələsinin pozulması nəticəsində əmələ gələn anormal hüceyrələrin nəzarətsiz şəkildə həddən artıq çoxalaraq qana keçmələri nəticəsində formalaşır. Bu anormal hüceyrələr heç bir funksiya icra etmirlər, qanda sürətli çoxalaraq normal hüceyrələrin yerini tutur və beləliklə, xəstəliyin fenotipik əlamətləri özünü büruzə verməyə başlayır. Tədqiqat işində epigenetik mexanizmlərin bir növü olan, DNT metillasiya prosesində ən çox öyrənilmiş, DNMT3B genində baş verən G>T polimorfizminin kəskin limfoblastik leykemiyaya səbəbi araşdırılmışdır.

AÇAR SÖZLƏR: Kəskin limfoblastik leykemiya, Polimorfizm, PZR-RFLP, DNMT3B

GIRIŞ.
Kəskin limfoblastik leykemiya uşaq xərçəng xəstəlikləri arasında ən çox yayılanı olub, B və T limfositlərin sələf hüceyrələrinin leykemik hüceyrələrə bədxassəli çevrilməsindən meydana gəlir. Bu hüceyrələr sümük iliyində yığılaraq onun normal hüceyrə yaratmaq qabiliyyətinə təsir göstərir, həmçinin sümük iliyindən ayrılaraq orqanizmin bütün toxumalarına yayıla bilir. Leykemiyaya tutulmuş xəstələr əsasən yüksək dozalı dərman preparatları və radioterapiya ilə müalicə alsalar da, müalicə olunan xəstələrin təqribən 20%-ində ölüm halları müşahidə olunur.
Leykemiya genetik, epigenetik, ətraf mühit faktorları, ionlaşdırıcı şüalanma, kanserogen kimyəvi maddələr, onkogen viruslar kimi risk faktorlarına məruz qalma kontekstində inkişaf edir. Epigenetik faktor kimi kanserogenez inkişafında mühim rol oynayan DNMT gen ailələri qrupu xərçəngyaranma, xüsusilə leykemiyanın əmələ gəlməsində yüksək risk faktorlarından biri kimi qeydə alınmışdır. DNMT3B geni 20q11.2 xromosom lokusunda yerləşib, 23 ekzondan ibarətdir, ümumilikdə 47 kb gen sahəsi əhatə edir. Bu gendə baş verən mutasiyalar və ya TNP-lər metillasiya prosesinə təsir göstərir, və beləliklə şişin yaranmasına səbəb ola bilir.
Tədqiqat işinə kəskin limfoblastik leykemiya diaqnozu qoyulan 45 xəstə və 50 sağlam şəxslərdən ibarət nəzarət qrupları daxil edilmişdir. EDTA-li tyublarda götürülmüş qan nümunələrindən Salting-out metodu ilə DNT ekstraksiya edilmiş, PZR-RFLP metodları ilə genotiplərdə baş verən polimorfizm araşdırılmış, nəticələr gel elektroforezi üsulu ilə qiymətləndirilmişdir. Xəstə qruplarında genotip tezlikləri normal homoziqot GG 30,43%, heteroziqot GT 54,35%, mutant homoziqot TT 15,22% olduğu halda, kontrol qruplarında bu nisbət normal homoziqot GG 34%, heteroziqot GT 50%, mutant homoziqot TT 16% olaraq müəyyən olunmuşdur. Mutant T allelinin rastgəlmə tezliyinin xəstə qruplarında yüksək olması bu gen polimorfizminin kəskin limfoblastik leykemiyada proqnostik əhəmiyyətə malik ola biləcəyinə işarə edir.

MATERIAL VƏ METODLAR.
Tədqiqat işinə 45 kəskin limfoblastik leykemiyalı xəstə qrupu və 50 praktik sağlam nəzarət qrupu daxil edilmişdir. B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda diaqnozu qoyulan 45 xəstədən və kontrol qruplarından götürülmüş venoz qan nümunələrindən "Salting out" metodu ilə DNT ekstraksiya olunmuşdur. Nəticələr PZR-RFLP metodu ilə 1,5%-li aqaroz geldə görüntülənərək analiz edilmişdir.

NƏTICƏ.
Xəstələrdə *DNMT3B* geninin -579 G>T polimorfizminin GG, GT və TT genotiplərinin tezliyi müvafiq olaraq 29%, 55,5% və 15,5% olmuşdur. Nəzarət qrupunda isə bu nisbət 34% GG, 50% GT və 16% TT

aşkar edilmişdir. Heteroziqot GT genotipi kontrol qrupu ilə müqayisədə xəstələrdə daha çox rast gəlinmişdir (55,5%). Bununla yanaşı mutant TT isə kontrol qrupunda üstünlük təşkil etmişdir (16%). Lakin buna baxmayaraq GT (OR=1,31; 95% Cİ=0,53-3,25; P=0,563) və TT (OR=1,14; 95%Cİ=0,33-3,97; P=0,832) genotipləri ilə kəskin limfoblastik leykemiya xəstəliyi arasında pozitiv asossasiya aşkar olunmadı. Tədqiqat işi daha çox tədqiqat qruplarında təkrarlana bilər.

ƏDƏBIYYAT

1. Mihaela Onciu, Acute lymphoblastic leukemia. Hematol Oncol Clin North America. 2009 Aug;23(4):655-74
2. Augusto F Andrade**,** Kleiton S Borges**,** Angel M Castro-Gamero**,** Vanessa S Silveira**,** Veridiana K Suazo**,** Jaqueline C Oliveira**,** Daniel A Moreno**,** Rosane G De Paula Queiroz**,** Carlos A Scrideli**,** Luiz G TonE. Zebularine induces chemosensitization to methotrexate and efficiently decreases AhR gene methylation in childhood acute lymphoblastic leukemia cells. Anticancer Drugs. 2014 Jan;25(1):72-81
3. Jessica Nordlund**,** Ann-Christine Syvänen. Epigenetics In Pediatric Acute Lymphoblastic Leukemia. Semin Cancer Biology. 2018 Aug;51:129-138
4. Jordan A Baeker Bispo, Paulo S Pinheiro, Erin K Kobetz. Epidemiology and Etiology of Leukemia and Lymphoma. Cold Spring Harb Perspect Medicine. 2020 Jun 1;10(6)
5. S Xie, Z Wang, M Okano, M Nogami, Y Li, W W He, K Okumura, E Li. Cloning, expression and chromosome locations of the human DNMT3 gene family. Genetics. 1999 Aug 5;236(1):87-95

MAVİ YAŞIL SİYANOBAKTERİYALARDAN ƏLDƏ EDİLƏN FİKOSİYANİN EKSTRAKTLARININ BİOLOJİ AKTİVLİYİ; ANTİMİKROB VƏ ANTİFUNGAL FƏALİYYƏTİ

SONA HACIYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Nobel laureatı Əziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyası
Mühəndislik və tətbiqi elmlər
Biotexnoloq, lab-tədqiqatçı
sona-hajiyeva@unec.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Mavi göy yaşıl siyanobakteriyalardan əldə edilən C-fikosiyanin müxtəlif bioaktiv birləşmələrinə görə son illərdə ən maraqlı tədqiqat mövzusu olmuşdur. Eksperimental tədqiqatda, *Geitlerenema* sp. cinsinin qurdulmuş kütləsindən qismən saflaşdırılmış (A620/A280=2.7) müxtəlif konsentrasiyalar, (500 µg, 250 µg) həlledici kimi (mənfi nəzarət) aseton, nümunənin antimikrobiyal təsir gücünü müqayisə etmək üçün isə xloramfenikol və ketokonazol (müsbət nəzarət) istifadə edilmişdir. Ilk olaraq C-fikosiyanin nümunə ekstraktının kağız disk diffuziya üsuluna əsaslanan kiflərə qarşı analizi nəticəsində heç bir antifungal təsir göstərməsə də, antibakterial *Micrococcus luteus, Staphylococcus aureus, Escherichia coli, Salmonella typhimurium,* göbələk əleyhinə *Candida krusei, Candida glabrata* kimi mikroorganizmalar üzərində bioloji aktivliyi müəyyən edilmişdir.

Tədqiqatı ümumiləşdirsək, fərqli termal xüsusiyyətlərə malik bir siyanobakteriya növü olan *Geitlerema* sp. in vitro dizayn edilmiş antimikrobiyal fəaliyyət tədqiqatında, istehsal etdiyi piqment müxtəlif patogen xarakterli bakteriya və maya göbələklərinə inkşafını dayandıraraq zərər vermə qabiliyyətinə malik olduğu müəyyən edilmişdir.

AÇAR SÖZLƏR: Siyanobakteriya, fikosiyanin, antimikrobiyal fəaliyyət, mikroorganizma

GIRIŞ

Antibiotik tərkibli dərmanlara qarşı bakteriyaların göstərdiyi müqavimət bu dərmanların effektivliyini azaldır, həmçinin geniş yayılmış infeksiyalara səbəb olur. Patogen mikroorqanizmlərin böyüməsini manea törətmək üçün antimikrobiyal agent kimi müxtəlif kimyəvi və sintetik birləşmələr istifadə olunur, lakin bu dərmanların yüksək dozalarda istifadəsi həm bakteriya, həm də canlı orqanizmlər üçün müxtəlif mənfi yan

təsirlərə səbəb ola bilər [1]. Bu mənfi təsirlər sağlamlığa və ya qida sənayesinə təsir edəcək qədər güclüdür. Buna görə də ekoloji təhlükələri olmayan təbii antimikrob birləşmələrə tələbat xeyli artmışdır. Dəniz yosunu kimi təbii mənbələrdən əldə edilən birləşmələr təhlükəsiz antimikrobiyal agentlər kimi istifadə edilə bilər [5]. Mavi yaşıl siyanobakteriyalar olaraq təyin edilən unikal xüsusiyyətlərə malik mikroorqanizmlər bu təbii agentlər arasında birinci yerdədir. Bu yosunlar xəstəliklərə qarşı güclü farmakoloji dərman kimi müxtəlif rol oynaya bilən bioloji rəngləndiricilər, antioksidantlar, antimikrobiyal agentlər və piqmentlər kimi çox yönlü ikincil metabolitlər istehsal etmək qabiliyyətinə malikdir [4]. Onlardan biri siyanobakteriyalarda olan mavi rəngli fikosiyanindir. Fikosiyanin əsasən nisbətən aşağı konsentrasiyada bioloji müdafiə fəaliyyətini təşviq etməklə bir çox bakterial və viral infeksiyalara qarşı təsirli edici xüsusiyyətə malikdir. Bu pigmentin antimikrobiyal xassələri nadir hallarda araşdırılır və tədbir edilmişdir və son illərdə bu mövzu ilə bağlı əsaslı tədqiqatlar çox az sayıdadır [3].

TƏDQIQAT METODU

C-fikosiyaninin antimikrobiyal fəaliyyəti kağız disk diffuziya üsulu ilə qiymətləndirilmişdir [2]. Təcrübədə istifadə olunan mikroorqanizmlər, *Bacillus Cereus*, *Escherichia Coli*, *Enterococcus faecalis*, *Aerogenes*, *Bacillus Monosistemlər*, *Micrococcus lutecoccus*, *Salmonella typhimurium*, *Yersinia enterocolitica mayalar Candida albicans*, *Candida glabrata*, *Candida glabrata* istifadə edilmişdr. Bakteriyalar Mueller-Hinton Agar mühitində aşılanmış və 24 saat, mayalar isə Sabourad Dextrose Agar mühitində 2-3 gün ərzində 37°C-də inkubasiya edilmişdir. İnkubasiyadan sonra yetişdirilmiş kulturalar 0,5 McFarland standartlarına uyğun olaraq 10^8 CFU/ml-ə qədər durulaşdırılmışdır və yaxmalar steril tampondan istifadə etməklə öz mühitinə uyğun olan petriyə əkildi. Daha sonra Whatman No.1 filtr kağızı diskləri (diametri 6 mm olan) C-fikosiyanin ekstraktları üçün sterilizasiya edilmişdir. Quru fikosiyanin nümunəsi üçün həlledici kimi 100% saf aseton seçilmişdir. Asetonlu fikosiyanin məhlulu hər bir bakteriyada ümumi həcmi 1 mq/ml-ə olmala ardıcıl olaraq 1:1 nisbətində durulaşdırılmışdır. Daha sonra iki müxtəlif konsentrasiyada (250, 500 µg/disk) 40-50 µL fikosiyanun ekstraktı hopdurularaq və hazırladığımız yaxmaların üzərinə yerləşdirərək 24 saat 37°C-də inkubasiya edilmişdir. İnkubasiyanın sonunda disklər ətrafında əmələ gələn inhibə zonaları mm ilə ölçülmüşdür. Mənfi nəzarət kimi asetonmüsbət nəzarət kimi bakteriyalar üçün xlorofenikol və maya göbələkləri üçün ketokonazoldan istifadə edilmişdir. Bütün testlər steril şəraitdə iki nüsxədə aparılmışdır.

NƏTICƏ

Bu tədqiqatda istifadə olunan on beş patogen mikroorqanizmdən cəmi altı mikroorqanizm növü preparativ təmizlik səviyyəsində (A620/280<2.7) olan fikosiyanin nümunəsinin 250 və 500 µg konsentrasiyalarında müxtəlif inhibə zonaları əmələ gətirmişdir və Şəkil 1-də nümayiş etdirilmişdir.



Şəkil 1. Mikroorqanizmlər üzərində istifadə edilən fikosiyanin maddəsi (500 - 250 µg) və antibiotik maddələrinin inhibə zonasının mm-lə ölçülmüş dəyərləri

Şəkil 1-də göstərilən inhibə dəyərlərinə əsasən, C-fikosiyanin ekstraktı *Micrococcus luteus* qram-müsbət bakteriyalara qarşı hər iki konsentrasiyada (500 - 250 µg) 15-10 mm inhibə zonası ilə antimikrobiyal fəaliyyət göstərmişdir. Eyni şəkildə, maya göbələklərdində *Candida krusei* 18 - 14 mm inhibə sahəsi ilə ən yüksək antimikrobiyal fəaliyyət göstərmişdir (500 - 250 µg) Bu mikroorqanizmlərlə müqayisədə daha az antimikrobiyal fəaliyyət göstərən ştamlar *Escherichia coli* (500 µg = 9 mm) və *Candida glabrata* (500 µg = 12 mm) olmuşdur.

Ümumilikdə, fikosiyanin piqmenti 250 µg minimum konsentrasiyada antimikrobiyal fəaliyyət göstərmişdir. Əldə edilən nəticələrə əsasən qimən saf (A620/280<2,7) fikosiyanin piqmenti digər araşdırmalara görə müqayisədə yaxşı nəticələr göstərsə də, testin doğruluğunu təsdiqləmək üçün müsbət nəzarət olaraq seçilən antibiotik maddənin antimikrobial fəaliyyəti daha güclü təsir göstərmişdir.
İndiyə qədər *Geitlerinema* sp. Cinsinin antimikrobiyal fəaliyyətinin təyini ilə bağlı heç bir araşdırılma olmadığı üçün, belə bir tədqiqatın olması fikosiyanin maddəsinin bioloji fəaliyyətinin öyrənilməsi ilə bağlı ədəbiyyata töhfə verəcəkdir. Bununla belə, fikosiyaninin tərkibindəki kimyəvi maddələr və onların yaratdığı sinergik qarşılıqlı təsirlər hələ də sirr olaraq qalır. Buna görə də, fikosiyanin piqmenti təkcə mavi ekstrakt deyil, məhz əldə edilən bioloji fəaliyyətin nəticələri də, bu fərziyyəni təsdiqləyir.

ƏDƏBIYYAT SIYAHISI

1. Abdul-Raouf Al-Mohammad, Mahmoud Sitohy, Antimicrobial activity and chemical constitution of the crude, phenolic-rich extracts of Hibiscus sabdariffa, Brassica oleracea and Beta vulgaris. Molecules, 2019, 24.23: 4280
2. Collıns, C. H.; Lyne, P. M.; Grange, J. M. Antimicrobial sensitivity and assay tests. Collins and Lyne's Microbiological Methods. 8th edn. Butterworths, London, 1989
3. Ravi Raghav Sonani, Rajesh Prasad Rastogi, Datta Madamwar, Antioxidant potential of phycobiliproteins: Role in anti-aging research. *Biochem Anal Biochem*, 2015, 4.172: 2161-1009.
4. Shahenda Abd-Elaziz, Ali Salama, Health protective actions of phycocyanin obtained from an Egyptian isolate of Spirulina platensis on albino rats. *EurAsian Journal of BioSciences*, *13*(1), 105-112.
5. Zeliha Demırel, Ulku N. Karabay-yavasoglu, Antimicrobial and antioxidant activity of brown algae from the Aegean Sea. Journal of the Serbian Chemical Society, 2009, 74.6: 619-628

AZƏRBAYCANDA YAYILAN LACTUCA L. CİNSİ NÖVLƏRİNİN TAKSONOMİK TƏRKİBİ VƏ MORFO-BİOLOJİ XÜSUSİYYƏTLƏRİ

AYNUR HÜSEYNOVA CÜMŞÜD QIZI
AMEA Botanika İnstitutu
Sistematika və biomüxtəliflik şöbəsi
aynurmammadzada939@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Təqdim olunan məqalədə Lactuca L. cinsi növlərinin taksonomik tərkibi və morfo- bioekoloji xüsusiyyətlərinə həsr olunmuşdur. Tədqiqat işində Lactuca L. cinsi növlərinin taksonomik tərkibi müəyyən edilmiş, ədəbiyyat mənbələrinin və herbari materiallarının öyrənilməsi nəticəsində hal-hazırda Azərbaycanda Lactuca L. 2 yarımcinsə, 2 seksiyaya aid 10 növün yayılması müəyyən edilmişdir. Yarımcins və seksiyalar üzrə növlərin prioritet adları, yayılması, mühüm bioekoloji xüsusiyyətləri və əhəmiyyəti haqqında məlumatlar verilmişdir.

AÇAR SÖZLƏR: yarımcins, Lactuca L., növ

GİRİŞ

Tədqiqat işini təşkil edən Lactua L. cinsi Asteraceae fəsiləsinin cinslərindən biridir. Lactuca L. cinsinin dünyanın əksər ölkələrində 150-ə yaxın növü var. Azərbaycanda isə cinsin 10 növünə rast gəlinir. Onlardan biri qiymətli tərəvəz bitkisi kahıdır (*Lactuca.sativa*). Digər bir növü isə *L. wilhelmsiana Fisch. et C.A.Mey.* endemdir. Bu cinsə aid Qafqaz florasının kospektində (3) 43 növə, Azərbaycan florasında 10 növə rast gəlinir. Lactuca L. cinsinə aid olan 2 növ başqa bir cinsin növlərinə sinonim olaraq keçmişdir. Onlar Lactuca orientalis və Lactuca viminea növüdür. "Azərbaycan florasında" (1961) bu növləri Lactuca cinsinə daxil etmişlər. Bunlar yarımkol və ya 2 illikbitkilərdir, yarımkol formalarında gövdələri çox budaqlı olur. Bunlardan başqa Cənubi Azərbaycandan təsvir edilən Lactuca azerbaijanica növünə respublikamızda rast

gəlmə ehtimalı var. Ümumiyyətlə Lactuca L. cinsinə əksər rayonlarda, arandan orta dağ qurşağınadək, daşlı, çınqıllı yerlərdə, meşə, bağ və bostanlarda yayılıb. Cinsin Azərbaycanın Kiçik Qafqaz, Talış və Naxçıvan regionunun bitki ehtiyatları arasında ərzaq, yem, texniki, dərman, vitaminli və.s. əhəmiyyətli növləri çoxdur. İnsanların istifadəsi üçün bu cinsdən olan əhəmiyyətli bitki növləri ta qədim dövrlərdən öyrənilməyə başlanılmışdır.

TƏDQIQAT METODU

Növlərin taksonomik tərkibinin dəqiqləşməsində "Azərbaycan florası" (8), "Azərbaycan florasının konspekti" (3), "Qafqaz florasının konspekti" (3), "Azərbaycanın bitki aləmi"(Əsgərov 2016), "Azərbaycan florasının konspekti" və beynəlxalq informasiya məlumatlarından (emplantbase.org) istifadə edilmişdir. Materiallar əsasında növlərin taksonomik tərkibi dəqiqləşdirilmiş və müəyyən olmuşdur ki, Lactuca L. cinsinə aid olan bir neçə növlər sinonimlərə keçmiş və ya başqa cinslərdə olan növlər bu cinsin tərkibinə daxil olmuşdur. Herbari materialları əsasında biz müəyyən etdik ki, bir neçə növlərin yayılma ərazisi dəyişə və ya arta bilər.

Azərbaycan florası	**Конспект Флоры Кавказа Том 3 (1)**	**Azərbaycanın bitki aləmi, 2015**	**Azərbaycan Florasının Konspekti, 2011**
L.undulata Ledeb *L.tatarica (L.) C.A.M.* *L. Takhtadzhanii* *L.Wilhelmsiana F.et M* *L.georgica A.Grossh* *L.saligna* *L.serriola* *L.sativa* *L.viminea* *L.orientalis*	*L.tatarica* *L.quercina* *L.chaixii* *L.wilhelmsiana* *L.serriola* *L.sativa* *L.saligna* *L.georgica* *L.undulata*	*L.georgica* *L.saligna* *L.sativa* *L.serriola* *L.chaixii* *L.tatarica* *L.undulata* *L.wilhelmsiana* *L.orientalis=Scariola.orientalis* *L.viminea=Scariola.viminea*	*L.azerbaijanica* *L.georgica* *L.saligna* *L.sativa* *L.serriola* *L.chaixii* *L.tatarica* *L.undulata* *L.wilhelmsiana* *L.Takhtadzhanii*

Cədvəl 1. Lactuca L.cinsi növlərinin taksonomik tərkibinin müəyyənləşməsi

NƏTICƏ

"Azərbaycan Florası" əsərində Lactuca.L cinsinə aid 10 növ göstərilmişdir. Bu cinsə aid edilən *Lactuca orientalis Boiss.* və *Lactuca viminea (L.) Presl* növləri xüsusi cins statusuna yüksəldilmiş və müstəqil cinslərə aid edilmişdir. Y.Menitski (2008) Lactuca cinsinin Qafqazda məlum olan 42 növünün 10-nun Azərbaycan rast gəlinməsini qeyd etmişdir. Qafqaz növlərinin demək olar ki, hamısının Azərbaycanda yayılması respublikamızda bu bitkilər üçün əlverişli ekoloji-coğrafi şəraitin olması ilə izah edilə bilər. Aşağıda *Lactuca* cinsi nölərinin qısa morfo-bioloji səciyyəsi verilir.

Fəsilə *Compositae Giseke.*

Triba *Cichorieae Lam. & DC.*

Cins Lactuca L.

Yarımcins 1. *Mulgedium (Cass.) Babc., Stebbins et J.A.Jenkins*

L.tatarica - hündürlüyü 60 sm-ə qədər böyük kökü olan bir bitkidir. Yarpaqların çoxu bitkinin kökünə yaxın hissədə yerləşir və gövdənin yuxarı hissəsindəki yarpaqlardan daha böyük olur. Hər çiçək başında təxminən 20 mavi və ya bənövşəyi (nadir hallarda ağ) şüavari çiçəkləri olur. **Biotopu:** Quraq, daşlı çınqıllı yerlərdə rast gəlinir.**Yayılması:** Böyük Qafqaz, Kiçik Qafqaz, Kür-Araz, Talış

Yarımcins 2. Lactuca

Sect.1. Lactuca

L.serriola - 2 metr qədər böyüklükdə, südlü şirə ifraz edən qırmızımtıl gövdəyə malikdir. Yarpaqları böyüdükcə tədricən kiçilir. Onlar uzunsov və ya lansetvari olur. Damarlar və yarpaq kənarları boyunca incə tikanlar mövcuddur. Yarpağın alt hissəində ağımtıl rəngli damarlar olur. Onları kəsdikdə südlü şirə yayılır.

Yayılması: Böyük Qafqaz, Kiçik Qafqaz, Naxçıvan

Əhəmiyyəti: Bitki acı bir dada malik olsa da, salat kimi yeyilə bilər. Cavan yarpaqları çiy və ya bişmiş halda yeyilə bilir. Dövrümüzə qədər onun köklərindən qəhvə əvəzedicisi kimi istifadə edilmişdir.

L.sativa - əvvəlcə onun bazal yarpaqlarından rozet, sonra isə kök inkişaf etməyə başlayır. Gövdəsi dolu, güclü budaqlı, çiçəkli, hündürlüyü 60-120 sm olur. **Yayılması:** Böyük Qafqaz, Kiçik Qafqaz, Talış, Naxçıvan **Əhəmiyyəti:** Qiymətli tərəvəz və dərman bitkisidir. Yarpaqlarında şəkər, üzvi turşular, karotin, B,C,E,K vitaminləri olur. Yarpağının şirəsindən xalq təbabətində şiş xəstəliklərinin müalicəsində istifadə olunur.

L.georgica grossh - Hündürlüyü 75-150 sm, gövdəsi əsasən sərt, tüksüz və ya seyrək, yuxarı hissəsi budaqlanmış formadadır. Yarpaqları sərt, yumurtavari və ya uzunsov, altında aydın görünən damar şəbəkəsi var. **Yayılması:** Böyük Qafqaz, Kiçik Qafqaz, Naxçıvan

Sect.2. *Micranthe Boiss.*

L. undulata Ledeb - Gövdəsi 10-30 sm hündürlükdə, yuxarı və ya əsas hissədən ikiqat olur, adətən aşağı hissəsi tüksüzdür (bəzən zəif tüklü, bəzən bu əl lupasında görünür). Yarpaqlar demək olar ki, bölünməmiş və kəskin dişlidir; alt yarpaqlar bəzən rozet şəklində olur.

ƏDƏBIYYAT SIYAHISI

1. Əsgərov A.M. Azərbaycanın ali bitkiləri. Azərbaycan florasının konspekti. III cild., Bakı, “Elm”, 2006, səh.124.
2. Əsgərov A.M. Azərbaycan florasının konspekti. Bakı 2011, səh.93
3. Əsgərov A.M. Azərbaycanın bitki aləmi (Ali bitkilər-Embryophyta). Bakı: TEAS Press Nəşriyyat evi, 2015. – 444 s.
4. Флора Азербайджана, Изд. АН Азерб. ССР, 1954, т.8.
5. https://www.gbif.org

MİL DÜZÜNDƏ YAYILMIŞ YOVŞANLI-QARAĞANLIQ (*ARTEMİSETUM-SALSELOSUM*) FORMASİYASININ XÜSUSİYYƏTLƏRİ

KƏMALƏ ƏSƏDOVA
Bakı Dövlət Universiteti
Biologiya fakültəsi, Botanika və bitki fiziologiyası kafedrası
asadovakamala@yahoo.com
BAKI, AZƏRBAYCN

XÜLASƏ

Hazırkı dövrümüzdə təbii qış otlaqlarında fitosenozlar və ya bitki örtüyünün səmərəli istifadə olunması mühüm aktuallığa malikdir. Apardığımız tədqiqatlar nəticəsində Mil düzü ərazisinin müxtəlif bitkilik tiplərində rast gəlinən xarakterik formasiyaların fitosenoloji quruluşu, növ tərkibi, onların məhsuldarlığı, bəzi formasiyaların yem tutumu öyrənilmiş, həmin fitosenozların səmərəli istifadəsinə və yaxşılaşdırılmasına dair tövsiyələr hazırlanmışdır. Bu bitkilik tiplərindən biri də yarımsəhra bitkilik tipidir.

AÇAR SÖZLƏR: tip, formasiya, assosiasiya, dominant, subdominant, fitosenoz

GİRİŞ

Tədqiq olunan ərazidəki qış otlaqlarının relyefi və torpaq- iqlim amillərinin müxtəlifliyi təbii fitosenozların formalaşmasına səbəb olmuşdur. Burada qeydə alınmış yarımsəhra bitkiliyinin yovşanlı-qarağanlıq (*Artemisietum-Salsolosum*) formasiyasının bitki örtüyündə nümunəvi sahələr tədqiqat obyektləri seçilmişdir. Fitosenozların geobotaniki tədqiqatları zamanı təlimat və metodikanın tələbinə uyğun olaraq

növ tərkibi, quruluşu, məhsuldarlığı, qidalığı, yaxud yem keyfiyyəti, həmçinin otlaq tutumu aşkar edilmişdir.

Burada tədqiq edilmiş yarımsəhra fitosenozları şoran, şorakətləşmiş çəmən-boz və boz-çəmən torpaqlarda qeydə alınmışdır.

TƏDQIQAT METODU

Səhra və yarımsəhra, habelə çala-çəmən və su-bataqlıq bitkiliyindən toplanmış çoxsaylı herbarilər sistematik taksonlara əsasən "Azərbaycan florası" üzrə təyin edilmiş, bitki növlərinin adı S.K. Çerepanova, eləcə də V.C. Hacıyev və T.E. Qasımovaya əsasən verilmişdir.

Ərazinin iqlim şəraiti yarımsəhra mülayim-isti və quru çöl tipinə aiddir; havanın orta illik temperaturu $14,0^0$C və yağıntının miqdarı 332 mm-dir. Ərazinin iqlimi bitki örtüyünün quruluşu, məhsuldarlığı, yem keyfiyyəti və otarma müddətinə bilavasitə təsir göstərir.

Yarımsəhra bitkiliyində yovşanlı-qarağanlıq formasiyasına xas fitosenozu boz-çəmən torpaqlarda təsadüf olunur.

NƏTİCƏ

Yovşanlı-qarağanlıq (*Artemisetum-Salselosum*) formasiyasının növ tərkibində 21 növ ali çiçəkli bitkilər qeydə alınmışdır; bundan 2 növ (9,5%) kollar, 1 növ (4,8%) yarımkol, 2 növ (9,5%) kolcuqlar, 6 növ (28,6%) çoxilik otlar və 10 növ (47,6%) birillik otlardır. Ekoloji analizinə görə onlardan 7 növ (33,3%) kserofitlər, 7 növ (33,3%) halofitlər, 3 növ (14,3%) mezofitlər və 4 növ (19,1%) mezokserofitlər ilə təmsil olunur. Fitosenozun dominantı ağacvari şorangə (*Salsola dendroides* Pall.)- bolluğu 3-4 bal və subdominantı ətirli yovşan (*Artemisia lerchiana* Web.) sayılır ki, onun bolluğu 2-3 baldır. Quruluşuna görə bitki örtüyünün I yarusunda qarağan və II yarusunda isə ətirli yovşan qeydə alınmışdır. Ümumi layihə örtüyü 60-80% arasında tərəddüd edir.

Geobotaniki təsvir

Yovşanlı-qarağanlıq formasiyasının növ tərkibi və quruluşu (*Salsola dendroides* Pall. dominantlığı ilə)

S/s	Biomorf növlər	Ekoloji qruplar	Bolluğu (bal ilə)	Yarusluq və orta hündürlüyü (sm-lə)	Fenoloji fazası
1	2	3	4	5	6
	Kollar				
1	Tamarix ramosissima Lebed.	Mezokserofit	1-2	I (150)	çiç-ə.
2	Caragana arberoscens Lam.	mezokserofit	1	II (90)	çiç-ə.
	Yarımkollar				
3	Salsola dendroides Pall.	mezokserofit	3-4	II (70)	veg-a
	Kolcuqlar				
4	Kalidium caspicum (L.) Ungo-Sternb.	halofit	1-2	II (50)	veg-a
5	Capparis herbacea Willd.	kserofit	1	III (20)	çiç-ə.
	Çoxillik otlar				
	Artemisia lerchiana Web.				
6	Limonium meyeri (Boiss.) O.Kuntze	kserofit	2-3	III (30)	veg-a
7	Glycyrrhiza glabra L.	halofit	1-2	II (45)	çiç-ə.
	Cynodon dactylon (L.) Pers.				
8	Trapogon graminifolius DC.	mezokserofit	1	II (70)	çiç-ə.
9	Aeluropus reflexiaristata (Nevski) Nevski	mezofit	1	III (30)	çiç-ə.
10		mezofit	1	III (20)	çiç-ə.
11		mezofit	1	III (15)	çiç-ə.
12	Petrosimonia brachiata (Pall.) Bunge	Halofit	1-2	III (25)	veg-a
13	Bromus japonicus Thunb.	kserofit	1-2	III (10)	çiç-ə.
14	Xanthium strumarium L.	kserofit	1	II (40)	çiç-ə.
15	Hordeum leporinum Link. Phleum puloides	kserofit	1	II (35)	çiç-ə.
16	(L.) Karst.	kserofit	1	III (30)	çiç-ə.
17	Lolium rigidum Gaudin.	kserofit	1	III (25)	çiç-ə.
18	Eremopyrum orientale (L.) Jaub. et Spach.	halofit	1	III (20)	çiç-ə.
	Psylliostachus halospicata (Willd.) Nevski				
19	Climocoptera halocrassa (Bieb.) Botsch.	halofit	1	III (15)	veg-a

20	Gamanthus pilosus (Pall.) Bunge.	halofit	1	III (10)	veg-a
21		halofit	1	III (5)	çiç-ə.

Ot örtüyünün hündürlüyü 30-40 sm; Layihə örtüyü 60-80%.

Quru kütləyə görə orta məhsuldarlıq yovşanlı-qarağanlıqda 8,2 sent/ha müəyyən edilmişdir.

Mil düzünün düzən sahələrində formalaşan yarımsəhra bitkiliyində antropogen amillər və texnogen təsirlər, eləcə də mal-qara sürülərinin normadan artıq otarılması səbəbindən qış otlaqlarının bitki örtüyü şoranlaşmış və diqressiyaya məruz qalmışdır. Bu cür neqativ təsirlərin qarşısını almaq üçün məqalədə qeyd edilən geobotaniki araşdırmaların nəticələrinə əsaslanmaqla Mil düzünün fitosenozlarından səmərəli istifadəsi və yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi tövsiyə olunur. Qeyd etdiyimiz müvafiq tədbirlərin elmi-praktiki əsaslarla tətbiqi Mil düzü ərazisində yerləşən qış otlaqlarının bitki örtüyünün qorunması və mühafizəsinə zəmin yaradacaqdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Qurbanov E.M., Cabbarov M.T. Geobotanika. Bakı, "Bakı Dövlət Universiteti" nəşriyyatı, (**kitab**) 2017, 320 s.
2. Nəsibova Z.A. Mil düzü boz-çəmən torpaqlarında kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı//AMEA, "Torpaqşünaslıq və Aqrokimya", cild 21, №1, (**məqalə**) Bakı, "Elm", 2013, s. 95-98.
3. Гурбанов Э.М. Пустынная и полупустынная растительность в Атропатенской провинции//Труды Института Ботаники Академии Наук Азербайджана. Т.XXV. (**məqalə**) Баку, «Элм», 2004. С.50-56.
4. Флора Азербайджана. Баку. Изд-во АН Азерб. ССР. 1950-1961. (**kitab**) т.т. I-VIII.
5. Cherepanov S.K. Vascular Plants of Russia and Agrosent States the Former USSR. North American Branch. Cambridge Branch. Cambridge University Press. (**kitab**) 1995. 992 p.

THE STUDY OF ASPARTATE AMINOTRANSFERASE ACTIVITY IN LEAVES OF BREAD WHEAT GENOTYPES

Ulduz Ahmad Gurbanova (PhD),
Institute of Molecular Biology and Biotechnologies, Izzat Nəbiyev 11, Baku, AZ1073, Azerbaijan
***E-mail:** ulduzagurbanova@gmail.com*

Minare Agil Mirzaliyeva (master)
Institute of Molecular Biology and Biotechnologies, Izzat Nəbiyev 11, Baku, AZ1073, Azerbaijan
**E-mail: minare.mirzeliyeva@bk.ru*

The enzyme aspartate aminotransferase (ASAT) plays an important and complex role in the regulation of carbon and nitrogen metabolism between the various compartments of the cell - the cytosol, chloroplasts, mitochondria, and peroxisomes. The highest activity of ASAT in the studied bread wheat genotypes was observed in the mitochondrial fraction. Although the percentage of ASAT activity in mitochondrial fractions of the Zirva 85 genotype did not change under drought, the enzyme activity in the chloroplast fraction increased. Cytosolic ASAT plays an important role in some shuttle mechanisms, in the exchange of substrates and reducing equivalents between the cytoplasm and other cell organelles.

Keywords: aspartate aminotransferase, drought, wheat, mitochondrial fraction.

INTRODUCTION

The enzyme **aspartate aminotransferase** known also as glutamate oxaloacetate transaminase (GOT), plays an important role in both catabolism and anabolism of aspartate, which provides the link between carbohydrate metabolism and amino acid metabolism, as well as in the biosynthesis of purine bases, glycolytic and oxidative phosphorylation. Aspartate is an intermediate metabolite of many essential amino acids Arg, Glu, Asn, aromatic amino acids (Tyr and Phe), proteins, and the Krebs cycle [3, p. 1887]. As an

intermediate metabolite, aspartate is involved in plant growth and development, as well as in the formation of stress tolerance mechanisms. The regulation of the amount, flow, and transport of aspartate in plant tissues plays an important role in adapting to changing adverse environmental conditions [2, p. 2097]. We aimed to study the activity of the enzyme aspartate aminotransferase in different subcellular fractions of bread wheat genotypes.

MATERIALS AND METHODS

The plants were grown in an artificial climate laboratory with a 16h light:8h darkness photoperiod and at a respective temperature regime of 24^0C/18^0C (day/night), and relative humidity of 50%. Then, 14-day-old seedlings were subjected to drought stress. To ensure the reliability of the measurements in the study, the experiment was designed on random blocks of 2 biological variants in 10 biological and 3 technical repetitions.

Segments of assimilating tissues were homogenized in 25 mM HEPES buffer (pH 7.8), a solution containing 0.3 M sucrose, 1 mM EDTA, 15-20 mM 2-mercaptoethanol (buffer A) using a mechanical disintegrator MPW-302 (Poland) for 4 seconds at a rate of 7,000 rpm. The resulting homogenate was filtered through 4 layers of capron and filtered in a Shotov funnel with a pore diameter of 80 µm. The filtrate consists of mesophyll (M) cells, while precipitate, called pulp contains M cells, bundle sheath (BS) cells, and vascular bundles. The filtrate was centrifuged at 300 g for 15 min. The obtained supernatant was a cytosol fraction, and the precipitate was a chloroplast fraction of M cells. The precipitate was first washed with buffer A and centrifuged at 300 g for 15 min with the addition of 10 ml of sucrose-free buffer A. The activity of the enzyme ASAT in the subcellular fractions of purified assimilating tissues was determined.

The reaction medium used for the determination of the activity of cytosolic and mitochondrial isoforms of the enzyme aspartate aminotransferase (ASAT, EC 2.6.1.1) was composed of 100 mM HEPES-KOH (pH 7.4) and 100 mM Tris-HCl (pH 8.5) buffers, respectively, which contained 2 mM EDTA, 2.5 mM 2-oxoglutarate, 10µg/ml pyridoxal phosphate, 10 mM DTT, 12 U/ml MDH, and 0.2 mM NADH. The reaction was initiated after the addition of 20µl leaf extract and 2.5 mM L-aspartate to the medium [Alfonso and Brüggemann, 2012, pp. 177-178].

RESULTS AND DISCUSSION

ASAT and ALAT enzymes are involved in the formation of a reserve fund of organic acids for the rapid mobilization of the plant under altered environmental conditions, reducing the dependence of plant cells on glycolysis and the synthesis of carbon skeletons. Taking all this into account, the enzyme ASAT was studied in separate subcellular fractions of assimilating tissues of bread wheat cultivated under normal and water shortage conditions.

The highest ASAT activity was observed in the mitochondrial fraction of the studied bread wheat genotypes (Table 1). Although the percentage of ASAT activity in the mitochondrial fractions of the Zirva 85 genotype did not change under drought, the percentage of the enzyme in the cytosol fraction of stressed plants decreased, while in the chloroplast fraction, it increased. The ASAT activity in the cytosol fractions of samples from drought-exposed Zirva 85 and Aran genotypes did not change compared to watered variants, whereas, in the Murov 2 variety, a 3-fold increase in the activity was detected.

Table 1

Subcellular distribution of ALAT activity in subcellular fractions of wheat leaves

Wheat genotypes	**Variant**	Subcellular fractions					
		Chloroplast		Cytosol		Mitochondria	
		EU/mg protein	**%**	**EU/mg protein**	**%**	**EU/mg protein**	**%**
Zirva 85	K	0,34±0,05	9,9	1,269±0,1	37,0	1,82±0,3	53,1
	D	0,57±0,06	13,8	1,322±0,2	32,0	2,24±0,7	54,2
Murov 2	K	0.46±0,01	8,7	1,72±0,15	32,8	3,07±0,6	58,5
	D	0,94±0,08	13,7	2,30±0,2	33,7	3,58±0,6	52,6
Aran	K	0,121±0,01	2,3	1,72±0,1	32,5	3,45±0,5	65,2
	D	0,103±0,01	2,5	1,59±0,15	40,4	2,25±0,3	57,1
Gyzyl bughda	K	0,32±0,03	5,91	1,72±0,19	31,8	3,37±0,5	62,3
	D	0,24±0,04	6,1	1,14±0,12	29,2	2,53±0,3	64,7

Qeyd: K-control, D- drought.

Cytosolic ASAT plays an important role in some shuttle mechanisms, in the exchange of substrates and reducing equivalents between the cytoplasm and other cell organelles. The ASAT activity increased in all subcellular fractions of the drought-exposed Zirva 85 and Murov 2 genotypes. In all subcellular fractions of plant samples from drought-exposed Aran and Gyzyl bughda genotypes, a decrease in the enzyme activity was detected. Thus, a 0.7-fold decrease was detected in the ASAT activity in the chloroplast and cytosol fractions isolated from the leaves of the Gyzyl bughda genotype, and a 0.9-fold decrease was observed in the mitochondrial fraction. In the drought-exposed variants of the Murov 2 genotype, the subcellular distribution of the enzyme in the chloroplast, cytosol, and mitochondrial fractions was 13.7%, 33.7%, and 52.6%, respectively.

ASAT localized in chloroplasts plays a key role in the synthesis of essential amino acids under stress, including arginine precursor argininosuccinic and pyrimidine nucleotides. ASAT plays an important and complex role in the regulation of carbon and nitrogen metabolism between the various compartments of the cell – the cytosol, chloroplasts, mitochondria, and peroxisomes.

REFERENCES

1. Alfonso S and Brüggemann W. Photosynthetic responses of a C3 and three C4 species of the genus Panicum with different metabolic subtypes to drought stress // *Photosynthesis Research*, 2012, v. *112*, p. 175-191

2. Khan, N.; Bano, A.; Rahman, M.A.; Guo, J.; Kang, Z.; Babar, M.A. Comparative Physiological and Metabolic Analysis Reveals a Complex Mechanism Involved in Drought Tolerance in Chickpea (*Cicer arietinum* L.) Induced by PGPR and PGRs. *Sci. Rep.* 2019, *9*, 2097.

3. Mei Han, Can Zhang, Peter Suglo, Shuyue Sun, Mingyao Wang, Tao Su l-Aspartate: An Essential Metabolite for Plant Growth and Stress Acclimation *Molecules*. 2021, 26(7), 1887; https://doi.org/10.3390/molecules26071887

YUMŞAQ BUĞDA GENOTİPLƏRİNİN YARPAQLARINDA ASPARTATAMİNOTRANSFERAZA AKTİVLİYİNİN TƏDQİQİ

AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu
Nəbiyev küçəsi, 11 Bakı ş., İzzət AZ1073, Azərbaycan
*E-mail: *minare.mirzeliyeva@bk.ru*

Aspartataminotransferaza (ASAT) fermenti hüceyrənin müxtəlif kompartmenləri - sitozol, xloroplast, mitoxondri və peroksisomlar arasında karbon və azot mübadiləsinin tənzimlənməsində mühüm və mürəkkəb rola malikdir. Tədqiq olunmuş yumşaq buğda genotiplərində ASAT-ın ən yüksək aktivliyi mitoxondrial fraksiyada müşahidə edilmişdir. Zirvə-85 genotipinin mitoxondri fraksiyalarında ASAT-ın aktivliyinin faizlə nisbətində quraqlığın təsirindən dəyişməsə də, stresə məruz qalmış bitkilərin xloroplast fraksiyasında isə əksinə olaraq yüksəlmişdir. Sitozolik ASAT bir sıra məkik mexanizmlərdə, substratların və reduksiyaedici ekvivalentlərin sitoplazma ilə digər hüceyrə orqanoidləri arasında mübadiləsində mühüm rol oynayır.

Açar sözlər: *aspartataminotransferaza, quraqlıq, buğda, mitoxondrial fraksiya*

İQTİSADİYYAT ELMLƏRİ

İQTİSADİYYAT

MÜASİR DÖVRDƏ YUNANISTANIN İQTİSADİ VƏZİYYƏTİ.

Tural Hüseynzadə
Email: turalcomerdoglu@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Dövlət, 1990-cı illərin başlarına qədər müdafiə sənayesi, hava və dəmir yolları, neftayırma zavodları və sənaye sektorunun 70 faizində pay sahibi idi. Edilən özəlləşdirilmələrə qarşı dövlətin iqtisadiyyatda ağırlığı hələdə davam etməkdədir.

Açıq, lakin kiçik bir iqtisadiyyat malik olan Yunanıstan iqtisadiyyatın sənayə hissəsi Avropa İttifaqı üzvü olan ölkələrə görə daha məhduddur.

Sənayenin çoxu, Selanik və Afinada toplanmışdır. Şimal bölgələrində və Egey adalarındakı infrastrukturun qeyri-kafiliyi, hökumətin mərkəziyyətçiliyi azaltma və yerli rəhbərlikləri gücləndirmə səylərinə maneə törətmişdir.

Yunanıstan sənayə sektoru xüsusilə 2000-ci ildən etibarən Yaxın Şərqdən gələn böyük rəqabətə dözməyib kiçilməyə başlamışdır.

Turizm Ümumi milli gəlirə görə yunan iqtisadiyyatında ən böyük paya sahib olan sekotrdur. Həmçini turizm ölkənin valyuta qaynaqlarına görədə əsas gəlir sahəsidir

Yunanıstanın iqtisadiyyatında turizmədən sonra əsas sector ev-alqı satqısı əsasəndə ticarət sektorudur.

Bütün bu və digər məlumatlardan istifadə edərək məqalədə müasir dövrdəki Yunanıstanın iqtisadi vəziyyətinə nəzər salacağıq.

Açar Sözlər: Yunanıstan, iqtisadiyyat, Avropa İttifaqı, faiz.

Hər zaman xaricə qarşı çox açıq olan Yunanıstan, ümumi milli gəlirdə Avropa İttifaqı ölkələri içində Portuqaliyadan sonra ən aşağı dəyərə sahibdir. 1970-ci illərdə göstərilən aşağı böyümə nisbətlərinə əsas olaraq iqtisadiyyatda geniş şəkildə iştirak edən ictimai sektor göstərilməkdədir. 1998-ci ildə Yunanıstan Avropa Vahid Pul Birliyində iştirak çərçivəsində əhatəli bir özəlləşdirmə proqramına daxil olunmuşdur. Dövlət, 1990-cı illərin başlarına qədər müdafiə sənayesi, hava və dəmir yolları, neftayırma zavodları və sənaye sektorunun 70 faizində pay sahibi idi. 1998-ci ildə Yunanıstan Avropa Vahid Pul Birliyində iştirak çərçivəsində əhatəli bir özəlləşdirmə proqramına daxil olunmuşdur.

1996-ci ilin may ayında yeni bir artım planı, xüsusi sektoru nümunə götürərək digər sektorlarında yenidən qurulmasının, iş planları mənimsəməsini və məsuliyyət sahibi idarəçilərin təyin edilməsini nəzərdə tutmuşdur. 1980-ci illərdə yunan iqtisadiyyatı, illik ortalama 1,7 fazi nisbətində Ümumdaxili məhsul böyüməsiylə, zəif bir inkişaf xəttinə sahib olmuşdur. 1993-cü ildə bütün Avropaya təsir edən böhran əsnasında 1,6 fazi nisbətində azalmanın təsiri ilə, 1991-1995-ci illər arasında bu nisbət 1,2 faizə qədər düşmüşdür. Avropa İttifaqına daxil olma dövründə, yunan iqtisadiyyatı Avropa İttifaqı istehlakçı qiymət indeksi 1989-1996-cı illər arasında ortalama 14 faiz və 1990-cı ildə maksimum 20,5 faiz ilə ən yüksək göstərici olmuşdur. Üzv olma dövrü əsnasında sabit pul və maliyyə siyasətləri nəticəsində bu nisbət getdikcə düşmüş, 1996-2000-ci illər arasında ortalama 4,9 faiz olmuşdur. İndeks 1999-cu ilin avqust və sentyabr aylarında aylarında 2 faizədək rekord səviyyəsinə düşdükdən sonra, yüksək beynəlxalq neft qiymətləri, təzə meyvə və tərəvəzin qiymətinə təsir edən anormal hava şərtləri və avronun bazara sürtülməsindən faydalanan tacirlərin qiymətləri süni şəkildə artırmalarının təsiri ilə, orta sürətdə yüksəlməyə keçmişdir.

Yüksək ÜDM böyümə sürəti də bu yüksəlməyə təsirli olmuşdur. İstehlakçı qiymət indeksi 2005-ci ildə 3,5 faizə çıxmışdır.Yunanıstan İqtisadiyyat Nazirliyinin son təxminlərinə görə inflyasiyanın 2006-cı ildə 3 faizin üzərinə çıxması gözlənilməkdə idi. 2008-ci ilin sonu etibarilə Yunanıstanda məşğulluğu olan 4,9 milyon insan mövcuddur. Cəmi məşğulluğu əhatə edən əhalinin 2,9 milyonu məşğulluq sayının

içərisindədir. Yunanıstanda 2008-ci il üçün 7,1 faiz olaraq reallaşan işsizlik ilə cəmi 377 min işsiz sayı olmuşdur. Yunanıstanda tətbiq olunan faiz nisbətlərində 2011-ci ilə girilərkən faiz nisbətləri 3 faiz səviyyəsində idi. İyunda 3,25 faizə çıxarılan faiz nisbətləri İyunda 2,75 faizə, avqust ayında isə 3,25 faizə, noyabr ayında 2,75 faizə salınmışdır. 2012-ci il dekabr etibarilə faiz nisbətləri 2 faiz səviyyəsinə enmişdir. 2013-cu ilin yanvar ayında isə 1 faiz səviyyəsində olan göstərici, mart ayında 0,5 faizə, aprel və May aylarında 0,25 faizə salınmışdır. Yaşanan iqtisadi böhranın təsirləri hələdə özünü hiss etdirməyə davam etməkdədir. Xüsusilə cari açığın maliyyəsində ən əhəmiyyətli sektorlar olan turizm və gəmiçilik gəlirlərindəki eniş siqnalları çox vacib məsələ idi.

Qərbin biliklər iqtisadiyyatına keçidi əslində, öz başlanğıcını XX əsrin əvvəllərindən götürür:

1. Bilik – alınan informasiyanın emalı və yenisini istehsal etmək qabiliyyəti istehsalın başlıca resursuna çevrilir;
2. İnformasiya və unikal məhsul istehsalı ənənəvi nemətlər istehsalından kardinal şəkildə fərqlənir.

Bu istehsal: - Yüksək bilik səviyyəsini; - İstehsal prosesində işçi qüvvəsinin təkmilləşdirilməsini tələb edir. İnformasiya səviyyəsində qloballaşma prosesi "mütləq" müstəqillik əldə etməklə xüsusi rol oynayır. Eynilə də, məhz informasiya səviyyəsi müasir cəmiyyətin, bütövlükdə qloballaşma prosesinin inkişafının başası kimi çıxış etməyə başlamışdır.

İstehsalın səmərəliliyi və iqtisadi artım bir-biri ilə sıx əlaqəlidir. Belə ki, məhsul və xidmətlərin əvvəlki dövrə nisbətən kəmiyyət və keyfiyyətcə artması istehsalın səvərəliliyinin nəticəsidir. Onun yüksəldilməsi elmi texniki tərəqqinin nailiyyətlərindən geniş istifadə edilməsindən iqtisadi ehtiyatlardan qənaətlə istifadə olunmasından, aztullantılı texnologiyaların tətbiq edilməsindən və iqtisadiyyatda quruluş dəyişikliklərinin həyata keçirilməsi və s. amillərdən asılıdır. Istehsalın səmərəliliyi, əmək məhsuldarlığı, fond verimi və fond tutumu göstəriciləri ilə müəyyən olunur. Əmək məhsuldarlığı məcmuu məhsulun maddi istehsal sahəsində çalışanların sayına nisbəti, fond verimi, milli gəlirin əsas və istehsal fondlarının orta illik dəyərinə və dövriyyə vəsaitlərinə olan nisbəti, fond tutumu isə əsas istehsal fondlarının və dövriyyə vəsaitlərinin orta illik dəyərinin milli gəlirə olan nisbəti kimi ölçülür.

Yunanıstanın cəmi ixracatı 2016-cı ildə 20,3 milyard dollar ikən 2017-ci ildə 23,9 milyard dollar olaraq baş tutmuşdur. Yunanıstanın cəmi idxalatı isə 2016-cı ildə 64,6 milyard dollar olaraq ikən 2017-ci ildə 80,7 milyard dollar olaraq olmuşdur. Xarici ticarət həcmində də illər etibarilə davamlı bir artım görülməkdədir. 2016-cı ildə 84,9 milyard dollar olan xarici ticarət həcmi 2017-ci ildə 104,5 milyard dollar olaraq olmuşdur. Enerji məlumatlarına görə, Yunanıstanda 2012-ci ildə təməl enerji təminatının 67 faizi idxalat ilə əldə edilmişdir, bu idxalatın 90 faizi neftdir. Yunanıstanın enerji siyasəti, neftin yerinə yerli linyitin istifadə etməni hədəfləmişsə də, gedərək böyüyən ekoloji problemlərdən ötəri bu hədəf daha təmiz yanacağın istifadə edilməsinə yönəldilmişdir. İqtisad Nazirliyinin 2016-ci ilə əasən hesabatına görə, linyitin cəmi istifadəyə qatqısız zəif olduğu halda, Rusiya və Albaniyadan idxal edilən təbii qazın istifadəsi artmışdır. Günəş və külək gücü kimi alternativ enerjilərin inkişaf etdirilməsi artarkən, bunların bütün təməl ehtiyaclara vacibliyinin itməsi gözlənilməkdədir. Şimal Egeydə bir neft yatağı, qaynağının tükənməsinədək 1999-cu ildə qədər istifadə olunmuşdur. Bu yataq Yunanıstanın cəmi neft ehtiyacının yalnız 10 faizini qarşılamışdır. Yunanıstanda cəmi illik tutumu 20 milyon ton olan ikisi dövlətə, ikisi özəl olmaq üzrə dörd neftayırma zavodu vardır.

Yunanıstan neft məhsulları barədə böyük ölçüdə öz ehtiyaclarını ödəyən ölkədir. Neft məhsulları bazarı 1990-cı illərin başında yenidən təşkil edilmişdir, lakin dövlət təhvili ilə əlaqədar qanuna, hələ də xarici yanacaq məhsullarının idxalında çətinliklər yaratmaqdadır. 1998-ci ildə "Hellenic Neft" adı altında birləşmiş səhm quruluşuna çevrilmişdir və 35 faizlik hissəsi birjada satılmaqdadır.

Xüsusi neftayırma zavodu olan və Selanikin Şimal limanından, Makedoniyaya uzanan 3.5 milyon ton tutumlu bir boru xətti tikən Yunan hökuməti gəlirlərə nəzarət etməkdədir. 1995-ci ildə, Yunanıstan, Bolqarıstan və Rusiya dövlət başçıları, Bolqarıstanın Quru Dəniz limanı olan Burgasdan başlayıb, İstanbul Boğazı və Çanaqqala boğazını keçərək, Yunanıstanın Egey Dənizi Limanı olan Alexandroupoliyə uzanan xam neft boru xətti üçün 700 milyon dollar dəyərində bir protokol imzalamışlar. Yunanıstanın elektrikə olan tələbi gedərək artmaqdadır və ortalama dəyərlər olaraq hər il 4.5 faiz nisbətində artmağa davam edəcəkdir.

İstehlakın səviyyəsinə təsir göstərən əsas amil əhalinin gəlirlərinin səviyyəsidir. Belə ki, ÜDM-un bölgüsü sxemindən gördük ki, şəxsi gəlirdən müəyyən vergilər çıxıldıqdan sonra sərəncam da qalan gəlir birbaşa şəxsi istehlaka daxil olur. Buna görə də istehlakın artım azalması gəlirləri dinamikasından birbaşa asılıdır.

Yunanıstanın ixracatına baxıldığı zaman; Almaniya 2,7 milyard dollar dəyərlə ümumi ixracatın 11,5 faiz nisbəti ilə birinci sırada durmaqdır. Almaniyanın ardından 2,5 milyard dollar idxalatı və 10,7 faizlik payı ilə

İtaliya ikinci sırada gəlməkdədir. Türkiyə isə 2,2 milyard dollar ixracat dəyəri və cəmi idxalat içində 3 faizlik payı ilə 12-ci sırada qərar tutmuşdur. 2016-cı ilə görə də Türkiyə 12-ci sıradakı yerini qorumaqdadır. Yunanıstanda işsizlik 2016-cı ildə 23.5 faiz olmuşdur. İşsizlik səviyyəsi 2017-ci ildə 21.5 faiz, 2018-ci ildə isə 19.3 faizə enmişdir.2019-cu ildə isə bu göstərici 17.8 fazidək geriləmişdir.

2019-cu ili 1.9 faizlik böyümə ilə bitirən yunan iqtisdadiyyatı üçün 2020-ci ildə 2.2 faizlik böyümə təxmin olunurdu. Lakin Covid-19 pandemiyası bütün bu təxminləri darmadağın etdi.

Yunanıstan iqtisadiyyat nazirliyi 2020-ci ci ilin mayında il sonuna qədər 4.7 faizlik böyümə gözlədiklərinin qeyd etsələr də, Covid-19 pandemiyası nəticəsində bu göstərici əldə oluna bilmədi. Pandemiya səbəbindən ölkənin ən böyük gəlir sektoru olan Turizm sahəsində çox böyük gerilik oldu, buda ölkə iqtisadiyyatına mənfi təsir göstərdi və iqtisadiyyat 9 faiz indeksi ilə gerilədir.

Omikron ştampının aktiv olduğu dövrdə 2021-ci ildə sürpriz şəkildə yunan iqtisadiyyatı 6.7 faizlik böyümə ilə yunan əhalisini təəccübləndirdi. Həmçinin 2021-ci ildə ixracatın artımı, turizm sektorunda canlanmaların olması, ilin sonuna yaxın pandemiya yüngülləşməsi iqtisadi artıma təsir edən faktorlar oldu.

Yunanıstan mərkəzi bankının 2021-ci il 27 dekabr tarixində yayınladığı hesabatda 2022-ci ildə iqtisadiyyatın 5 faiz, 2023-cü ildə isə 3.9 faiz dərəcəsilə böyüyəcəyini təxmin etmişdir.

Nəticə

Nəticə olaraq onu qeyd edə bilərik ki, illərdir kəskin böhran yaşayan yunan iqtisadiyyatı, son illərdə özünü bərpa etməyə cəhd göstərmiş, bəzi sektorlarda yüksəlişlər qeydə alınmışdır. Düzdür pandemiya şəraiti və xərclərə iqtisadiyyatı geriyə salsada, artıq pandemiya şəraitin yüngülləşdiyini nəzərə alsaq gələcək illərdə Yunanıstan iqtisadiyyatının böyüməsini görə bilərik.

2019-cu ilin iyul ayında baş tutan seçkilərdə iqtidara gələn Kiryakos Miçotakisin Yeni Demokratiya partiyasının pandemiyaya qədər göstərdiyi performansın kifayət qədər olduğunu qeyd edə bilərik. Son illərdə iqtisadiyyatın makro-iqtisadi dərəclərinin yüksəlməyə doğru getməsi, ölkədə Covid-19 pandemiyasının bütün sektorları iflic hala gətirməsinə baxmayaraq, yunan xalqının iqtidarı dəstəkləməsi və hələdə iqtidardan gözləntilərin çox olmasını görmək olar.

Virus ilə mübarizədə nisbətən uğurlu siyasət aparan ölkənin, pandemiya sonrasında vəziyyətin yaxşılaşdırılması və irəliyə doğru addımların atılmasını ehtimal etmək olar. Buna əsasən ilk sınaq olaraq yay aylarında turizm sektorunun göstəriciləri olacaqdır.

Bütün dünyada pandemiya ilə mübarizədə iqtisadi zərərləri minumuma endirmək istəkləri, rəqabət şəraitinin pandemiya sonrasındada davam edərək iqtisadi yüksəlişlərin olması gözlənilir. Yunanıstanın bu yarışda göstərəcəyi performans ölkəni iki tərəfə çəkə bilər;

İqtisadi böhrandan çıxışın güçlü göstəriciləri dövrü və yaxud böhran içində davam edən acınacaqlı vəziyyətə geri dönüş dövrü.

Ədəbiyyat siyahısı

1. Akçay B. Euro Alanın Ekonomisine İlişkin Bir Değerlendirme, Ankara Avrupa Çalışmaları Dergisi Cilt: 5, No:2, (2006).
2. Yunanistan Ekonomisinde Devlet Borç Krizi-Cari Açık İlişkisi, Maliye Dergisi, Sayı:163, 15-35. (2012).
3. https://greekreporter.com/2022/02/10/greek-economy-growth-4-9-percent-2022/
4. http://www.news.cn/english/2021-12/22/c_1310388374.html
5. https://www.reuters.com/markets/europe/greek-economy-grow-by-45-next-year-fiscal-council-2021-11-19/
6. https://www.focus-economics.com/countries/greece

HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCANDA SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFINDA ROLU

Phd.D. Namiq Ağaməmmədov
Azərbaycan Respublikası Təhsil nazirliyi, Dağlıq Şirvan Regional Təhsil İdarəsi, AMEA, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
naqamemmedov@mail.ru
İSMAYILLI, AZƏRBAYCAN

XÜLASƏ

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişaf yeni yanaşmalar tələb edir. Müasir dövrdə dünya ölkələrinin dayanıqlı inkişafının qiymətləndirilməsində əhalinin sosial infrastrukturla təminatı önəmli mövqeyə malikdir. İcra olunan tarazlı layihələr birbaşa olaraq maliyyə mənbələrindən asılıdır. Keçmiş Sovet respublikalarında mövcud olmuş planlı təsərrüfat sistemində maliyyə əsası kimi dövlət çıxış edirdi. Lakin bazar iqtisadiyyatı sistemində vəziyyət tamamilə fərqlidir. Sosial infastrukturun maliyyə təminatını reallaşdırmaq üçün maliyyə resursları kifayət qədər olan fondların belə layihələrə cəlb olunması məqsədəuyğundur. Bu mənada məqalədə əsası 10 may 2004-cü ildə qoyulmuş qeyri-hökumət, qeyri-kommersiya təşkilatı olan Heydər Əliyev Fondunun əhəmiyyəti nəzərə alınaraq araşdırılmışdır.

AÇAR SÖZLƏR: Heydər Əliyev Fondu, Mehriban Əliyeva, Azərbaycan, sosial infrastruktur, maliyyə resursları, bazar iqtisadiyyatı, sosial layihə

1. GIRIŞ

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır [8].

Heydər Əliyev fondunun qurulmasının aşağıdakı məqədləri var:

- görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;
– Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;
– elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;

Azərbaycanda sosial sfera sahələrinin inkişaf səviyyəsi əhalinin tələbatından çox geri qalır. Buna səbəb uzun illər ərzində sosial sferaya lazımi səviyyədə diqqət yetirilməməsi bu sahəyə ayrılan vəsaitin tam istifadə edilməməsi, maddi-texniki bazanın və yarıtmaz olmasıdır [1, 604].

– respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək;
– yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;
– insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;
– Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;
– uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək;
– Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;
– Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;

– respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək;
– elmi tədqiqatların aparılmasına yardım göstərmək;
– xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;
– uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;
– səhiyyə və tibbi təsisatları inkişaf etdirmək;
– ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;
– Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;
– uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək;
– dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməkdir.
– İqtisadi artıma və sahibkarlığa dəstək;
– Məşğulluq və sosial rifaha dəstək;
– Makroiqtisadi və maliyyə sabitliyinə nail olmaq.

Heydər Əliyev Fondu qeyri-hökumət, qeyri-kommersiya təşkilatıdır. Fondun strukturu özündə kollegial və vahid hakimiyyətli rəhbərlik üsullarını birləşdirir.

Prezident Fondun icraçı orqanıdır. Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Prezident proqramların təsdiqlənməsi və onların həyata keçirilməsi üzrə ümumi rəhbərlik, Fondun fəaliyyətinin məqsədli prioritetlərinin, strukturunun və kadr tərkibinin müəyyən olunması və nizamnamə ilə müəyyən olunmuş digər məsələləri həll edir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevadır.

Konsultativ qurum olan Ekspert Şurası qəbul olunan qərarların səmərəliliyini və effektivliyini təmin edir. Müxtəlif ixtisaslı ekspertlərdən təşkil olunmuş Ekspert Şurasının vəzifəsi müvafiq rəyləri, hesabatları və məruzələri hazırlayıb prezidentə təqdim etməkdən ibarətdir [8].

2. TƏDQIQAT METODU

Mövzunun tədqiq olunmasinda müqayisə, statistik, kartoqrafik, analiz üsullarından istifadə olunmuşdur. Fondun dəstəyi nəticəsində dirçəlmiş sosial infrastruktur sahələrinin ardıcıl təhlili verilmişdir.

1.UŞAQ EVLƏRI VƏ INTERNAT MƏKTƏBLƏRI

“Uşaq evləri və internat məktəblərinin inkişafı” layihəsi daxilində Azərbaycanda 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa edilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmış, onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompyuter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Uşaqların hərtərəfli inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədi ilə müəssisələrdə mütəmadi olaraq treninqlər keçirilir.

Şəkil 1. Şamaxının Şəhriyar qəsəbəsində yerləşən 4 saylı körpələr evi-uşaq bağçası

Qeyd olunan Proqram daxilində Uşaq evləri və internat məktəblərində tərbiyə alan yeniyetmələrə vətənpərvərlik hissinin aşılanması, onların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə Heydər Əliyev Fondu ardıcıl olaraq kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirir, müəssisələrdəki özfəaliyyət kollektivlərinə, musiqi, rəqs, xalçaçılıq, rəssamlıq dərnəklərinə lazım olan köməyi əsirgəmir. Fəaliyyət göstərdiyi dövr ərzində Fondun himayə etdiyi bütün uşaq müəssisələrinin musiqi dərnəkləri yeni musiqi alətləri ilə zənginləşdirilmiş, rəqs kollektivləri zəruri vəsaitlərlə təmin edilmişdir.

Eyni zamanda xüsusi hal kimi 2009-cu ildə Fondun təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda inşa edilmiş 50 mənzillik yaşayış binası istifadəyə verilmişdir. Binadakı mənzillər zəruri məişət avadanlığı ilə təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında başlıca vəzifələrdən biri kimi müasir təhsil sisteminin formalaşdırılması müəyyən edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə "Strateji Yol Xəritəsi"ndə də qeyd edilir ki, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi və əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması vacibdir [5, 129].

Şamaxı rayonunun Şəhriyar qəsəbəsində yerləşən 4 saylı körpələr evi-uşaq bağçası Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" çərçivəsində inşa olunub. 2019-cu il martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bağçanın açılışında iştirak ediblər.

2.Yeniləşən Azərbaycana yeni məktəb

Ölkə ərazisində 2005-ci ildən başlayaraq həyata keçirilən proqramın əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini elan etdiyi vaxtdan keçən dövr ərzində ölkənin iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdir [2, 58].

Proqram çərçivəsində 2005-2012-ci illər ərzində ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa olunmuş və yenidən qurulmuşdur.

Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, avadanlıqlarla
təchiz edilmiş kompyuter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi vardır.

Şəkil 2. Qala qəsəbəsində yerləşən 216 nömrəli tam orta məktəb

Paytaxtın Xəzər rayonunun Qala qəsəbəsində yerləşən 216 nömrəli tam orta məktəb Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilib. Məktəb 624 şagird yerlikdir. Təhsil müəssisəsində 24 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otaqları, hərbi hazırlıq otağı, informatika kabineti, idman və akt zalları, kitabxana və yeməkxana fəaliyyət göstərir. Məktəbdə videomüşahidə sistemi və fiber-optik internet quraşdırılıb.

3.Səhiyyə xidməti

Fəaliyyəti dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxt və regionlarda tibb müəssisələrinin yenidən qurulması və inşası icra olunmuşdur. Xəzər rayonunun Türkan qəsəbəsində poliklinika və təcili tibbi yardım stansiyası, Şüvəlan qəsəbəsində 31 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, Zirə qəsəbəsində Müalicə-Diaqnostika Mərkəzi, Pirşağı qəsəbəsində 34 nömrəli Şəhər Səhiyyə Kompleksi, Mərkəzi

Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi yenidən qurulmuş və müasir avadanlıqla təchiz edilmişdir. Qala qəsəbəsində 29 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının filialı, Bakıda Psixonevroloji Uşaq Mərkəzi, Talassemiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi inşa olunmuş və müasir avadanlıqla təchiz olunmuşdur.

Səhiyyənin inkişafı bütövlükdə iqtisadi və sosial inkişafın müxtəlif sahələri ilə əlaqədardır. Belə ki, təsərrüfatın və onun sahələrinin inkişafının planlaşdırılması, əhalinin sosial təminatı, həyat səviyyəsi kimi amillər səhiyyə sahəsinin formalaşmasında və dinamikasında mühüm rol oynayır [4, 89].

Sağlam yaşamaq və səhiyyə sistemindən istifadə etmək hər bir ölkə vətəndaşının borcudur. Dayanıqlı inkişaf konsepsiyasının "yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq" məqsədi göstərilmişdir. Dayanıqlı inkişaf strategiyasına əsasən pulsuz səhiyyənin təmin olunması hər bir ölkəni idarə edən şəxslər tərəfindən diqqətdə saxlanılmalıdır [6, 99].

Həmçinin Heydər Əliyev Fondu dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə davamlı olaraq əməkdaşlıq edir. "Fresenius Medical Care", "Karl-Storz", "Servier" kimi nüfuzlu şirkətlər, həmçinin Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən Fonda bağışlanmış müasir tibbi avadanlıq və dərman preparatları ölkənin müvafiq tibb müəssisələrinə təqdim edilmişdir.

4.Mədəniyyət

Heydər Əliyev Fondu, həmçinin, Azərbaycanın mədəniyyət tarixində iz buraxacaq digər layihələr də həyata keçirir. Reallaşdırılan işlərin nəticəsi olaraq Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılır. Bu baxımdan Azərbaycan paytaxtında Müasir İncəsənət Muzeyinin açılışını yüksək qiymətləndirmək olar.

Təhlillər göstərir ki, hər bir elmi düşüncə tərzi və tədqiqat metodları müəyyən bir ideya çərçivəsinin miqyasında istiqaməti və yönü bəlli olan gerçəklikdir [3, 15].

Muzeydə vətəndaşlarımız və xarici qonaqlar Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işi toplanmışdır. Buraya gələnlər Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltəraşların işləri ilə də tanış ola bilirlər. Qərbi Avropa incəsənəti salonunda isə Ümummilli lider Heydər Əliyevə, habelə, Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir [9].

Heydər Əliyev Fondunun təşəbbüsü ilə, eyni zamanda, Səttar Bəhlulzadə adına sərgi salonunda uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisinin açılışının edilməsi də mədəniyyət sahəsində xüsusi istedada malik insanların üzə çıxarılması işində böyük irəliləyişdir.

Dənizkənarı Milli Parkın ərazisində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının təməlinin qoyulması isə möhtəşəm tarixi hadisə hesab olunmalıdır. Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə inşa olunan bina bükülmüş xalçanı xatırladır. Ümumi sahəsi 18 min 446 kvadratmetrdir. Üçmərtəbəli binanın birinci mərtəbəsində sərgi salonu, kitabxana, elmi xalçaçılıq, toxuma və tikmə mərkəzi, suvenir və kitab köşkü, ikinci mərtəbədə danışıqlar və audiovizual təqdimatlar otağı, üçüncü mərtəbədə böyük tərtibat imkanlarına malik sərgi zonasıdır. Binanın altında arxiv, anbar, laboratoriya, bərpa və konservləşdirmə şöbələri yerləşir. Açıq havada heykəllərin və xalçaların nümayişi üçün sahə də nəzərdə tutulub. Muzeyin foyesində cəvahirat və bahalı bəzək əşyalarının sərgisi üçün seyf tipli otaqlar mövcuddur.

Bununla yanaşı, paytaxtın yaxınlığında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi açılmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yeni layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edəcək. Qoruğun 156 hektar sahəni əhatə edən ərazisində eramızdan əvvəl III minillikdən XX əsrə qədər dövrə aid kurqanlar, sərdabələr, yaşayış evləri, 4 ovdan, qədim qəsrin qalıqları, 5 məscid, 3 hamam və s. var. Bu abidələrin qorunması, eləcə də, Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi məqsədi ilə 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb. İki hektar ərazisi olan muzey kompleksində Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qavaldaş, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və sair yerləşdirilmişdir.

Şəkil 3. Mehriban xanım Əliyeva Bakıda İmam Hüseyn Məscidinin açılışında

NƏTİCƏ.

Təhlil olunan məsələlərin sosial-iqtisadi əhəmiyyətinə görə aşağıdakı nəticələr əldə olunmuşdur :

1. Heydər Əliyev Fondu Azərbaycanda sosial infrastruktur sahəsinin inkişafında həyata keçirdiyi innovativ layihələrlə uğurlu mövqeyə malikdir.
2. Azərbaycanın 14 iqtisadi rayonunda Heydər Əliyev Fondunun imkanlarından səmərəli və məqsədyönlü şəkildə istifadə olunmaqla, sosial-iqtisadi səmərəliliyi daha da artırmaq mümkündür.
3. Təhsil, səhiyyə və mədəniyyət xidməti sferasının ayrı-ayrı tərkib hissələrinin inkişafında Heydər Əliyev Fondu öz imkanlarından maksimum istifadə edir.
4. Makroiqtisadi və maliyyə sabitliyinə nail olmaq, iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək Heydər Əliyev Fondunun prioritetləri sırasında yer alır.

ƏDƏBIYYAT SIYAHISI

1. Eminov, Z. (2005). *Coğrafiya.Yenidən işlənmiş ikinci nəşr.* Bakı, Çıraq.
2.İmrani Z., Zeynalova K.(2014). *Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri.* Bakı, Nafta-Press.
3.Qurbanzadə, A. (2018). *Analitik coğrafiya. Tədqiqat metodları və məntiq ehtimalı.* Bakı, Kooperasiya.
4.Niftiyev, F.(2016). Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda səhiyyə müəssisələrinin ərazi təşkili və onlarda göstərilən xidmət səviyyəsinin yüksəldilməsi. *ACC. Coğrafiya və təbii resurslar jurnalı (1), 89-92.*
5.Rəhimli, H. (2021). Sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolu. *AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası,* (1), 124-133.
6.Süleymanov Q, Səmədov Z. (2020). Davamlı və dayanıqlı inkişaf üzrə dünya təcrübəsi. *AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası,* (2), 98-104.
7.Vəlibəyov R. (2009). *Heydər Əliyev Fondu mədəniyyətimizin təbliğində və zənginləşdirilməsində mühüm işlər görür. Bakı :Yeni Azərbaycan qəzeti,* (84), 3
8. https://heydar-aliyev-foundation.org
9. https://mehribanaliyeva.preslib.az

AZƏRBAYCANIN DÜNYA IQTISADIYYATINA INTEQRASIYASI

Magistrant Tağıyev Cəmil Ənvər oğlu
Azərbaycan Dövlət İqtisad Universiteti
cemil.tagi@mail.ru

Xülasə

1980-ci illərdən etibarən dünyada qloballaşma daha da gücləndi. Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsindən sonra dünya iqtisadiyyatına inteqrasiyası 1994-cü ildən sürətlə inkişaf etməyə başladı. Uğurlu neft strategiyası ilə dünya təsərrüfatının bir hissəsinə çevrilən Azərbaycan xarici investisiyalar üçün etibarlı yerə çevrildi. 1995-2020-ci illərdə ölkə iqtisadiyyatına 146,97 milyard dollar xarici investisiya cəlb edildi.

Açar sözlər: İqtisadi inteqrasiya, Birbaşa xarici investisiya, xarici ticarət

Giriş

Birinci sənaye inqilabı ilə başlayan və bu günə qədər davam edən son iki yüz illik dövrdə iqtisadi, sosial, mədəni və siyasi strukturlar əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Bu müddətdə, başda texnoloji inkişaflar olmaqla bir çox faktorun təsiri ilə 1980 -ci illərdən sonra tədricən güclənən iqtisadi, siyasi, sosial və mədəni inteqrasiya prosesi baş verib və hələ də davam edir. Hər sahədə inteqrasiyanın artması fenomeni və prosesi 'qloballaşma' olaraq təyin olunur. Qloballaşma dünya iqtisadiyyatının strukturunda, fəaliyyətində və daxili əlaqələrində əhəmiyyətli dəyişikliklərə səbəb olmaqla yanaşı iqtisadiyyatların daha çox inteqrasiyasına və onların qarşılıqlı asılılığını artırmaqdadır. Ümumiyyətlə, mal, xidmət, kapital, maliyyə bazarları və daha dar əmək bazarları bütün dünyada daha da inteqrasiya olunur.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qlobal iqtisadiyyata inteqrasiya etməyə başladı. Xarici iqtisadi siyasətinin əsas istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etdi. Beləliklə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına və Asiya İnkişaf Bankına üzv qəbul olunub. Regional və beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirdi. İslam Əməkdaşlıq Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının üzvüdür.

1994-cü ilin "Əsrin müqaviləsi" ilə dünyaya açılan Azərbaycan Respublikası Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilişi ölkə iqtisadiyyatının beynəlxalq bazara inteqrasiyasına mühüm töhfə verdi. Əlverişli coğrafi mövqeyi, yeraltı sərvətlərlə zəngin olması Azərbaycanın Asiya ilə Avropa arasında bir körpü rolu oynaması ilə bərabər logistika mərkəzi olmasını labüd edir. Şimal-Cənub, Şərq-Qərb Nəqliyyat dəhlizlərinin də Azərbaycandan keçməsi Azərbaycan üçün yeraltı təbii sərvətləri ilə birlikdə yerüstü sərvətinin-coğrafi mövqeyinin potensialını reallaşdırması deməkdir.

İqtisadi qloballaşmanın Azərbaycan iqtisadiyyatına təsiri

Modelskiyə görə, qloballaşmanın iqtisadi, mədəni, politik kateqoriyaları var.[1,s.75-80] İqtisadi qloballaşma ölkə iqtisadiyyatlarını bir-birindən ayıran gömrük divarları, tariflər, kvotalar, sərmaye məhdudiyyətləri kimi əngəllərin getdikcə azaldılması ilə malların, xidmətlərin və sərmayenin ölkələr arasında daha sürətli və daha asan dövredərək dünyanın iqtisadi olaraq bütünləşməsini ifadə edir. İqtisadi qloballaşma əsas olaraq 3 mərhələdə gerçəkləşir. Bu mərhələlərdən birincisi ticari sərbəstlik, ikincisi investisiya sərbəstliyi, üçüncüsü isə maliyyə sərbəstliyidir. Bu konteksdə iqtisadi qloballaşma 3 yerə ayrılır;[2, s. 156-157]

1. Ticarətin qloballaşması

İqtisadi qloballaşma deyilincə ilk ağla gələn beynəlxalq ticarətdəki böyümə və inkişafdır. Ticarətin qloballaşmasını ölçməkdə istifadə edilən ən populyar üsullardan biri idxalat və ixracatın ümumi cəminin ÜDM-yə bölünməsidir. Düstur olaraq ;

Açıqlıq indeksi = [İxrac + İdxal] / ÜDM

Cədvəl 1. Azərbaycan iqtisadiyyatı üçün seçilmiş illərdə açıqlıq indeksi

İllər	Xarici ticarət həcmi(mlrd ABŞ dolları)	ÜDM(mlrd ABŞ dolları)	Açıqlıq indeksi
2016	17,67	37,87	46,66
2017	22,59	40,87	55,27
2018	30,92	47,11	65,63
2019	33,30	48,05	69,30
2020	24,47	42,61	57,42

Mənbə: DGK-nin məlumatlarından istifadə etməklə müəllif tərəfindən hazırlanıb.

Cədvəl 1-dən göründüyü kimi 2016-2019-cü illər ərzində ölkənin açıqlıq indeksi artan xətlə davam etmişdir. 2020-ci ildə ölkəmizdə COVİD-19 virusuna görə pandemiya şəraitində açıqlıq indeksi azalmışdır. Buna baxmayaraq 2020-ci il üzrə ixracat ÜDM-nin 23,93 faizini təşkil etmişdir. Dünyanın 183 ölkəsinin 45462 xarici ticarət iştirakçıları ilə ticarət dövriyyəsi aparılıb və ümumi ticarət dövriyyəsi 24,47 milyard dollar olub. Xarici ticarətin gömrük statiskasına əsasən 2020-ci ildə 13,74 milyard ABŞ dolları həcmində ixrac olmuş, 3045 çeşiddə məhsul ixrac edilmiş, 10,73 milyard dollar həcmində idxal olmuş, saldo müsbət 3 milyard olmuşdur. İxracın 49,49 faizi Avropa İttifaqı ölkələri ilə, 9,51 faizi MDB ölkələri ilə, 41 faizi isə digər ölkələrlə aparılmışdır. Azərbaycanın ixracında əsas ölkələr İtaliya, Türkiyə, Rusiya, Yunanıstan, Xorvatiya, Gürcüstan, Hindistan, İsrail, Çin, Ukrayna, İspaniya, Tunis, Portuqaliya, Almaniya və Çexiya olmuşdur. İxracın 11,89 milyard dolları, yəni 86,53 faizi neft-qaz sektoruna daxil olan mallar üzrə, 1,85 milyard dolları, yəni 13,47 faizi isə neft-qaz sektrouna daxil olmayan mallar üzrə olmuşdur. İdxalın 26,11 faizi MDB, 23,59 faizi Aİ ölkələrindən, 50,30 faizi isə digər ölkələrdən olmuşdur.

Qrafik 1. Azərbaycanın xarici ticarət əməliyyatlarında ixrac və idxalın illər üzrə həcmi(mlrd ABŞ dolları ilə)



Mənbə: DGK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Qrafik 1-dən göründüyü kimi göstərilən illər üzrə ixrac idxaldan çox olmuş, xarici ticarət balansında müsbət saldo yaranmışdır.

2. *İnvestisiyaların qloballaşması*

İnvestisiyaların qloballaşması ilə nəzərdə tutulan əslində Birbaşa Xarici İnvestisiya(Foreign direct investment) olub digər bir yönüylə istehsalın qloballaşmasıdır. Azərbaycan iqtisadiyyatına BXİ-nin daxil olması 1994-cü ildə ölkənin ilk beynəlxalq neft sazişi olan "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə "Əsrin Müqaviləsi"nin imzalanması ilə 1995-ci ildən başladı. Əsasən neft-qaz sektorunda BXİ-lərin həcmi daha çoxdur. Statistika Komitəsinin məlumatına əsasən 1995-2020-ci illər ərzində ümumilikdə ölkə iqtisadiyyatına 146,97 milyard dollar xarici investisiya daxil olub ki, bunun 120,6 milyard dolları 2000-2017-ci illərdə daxil olub. Həmin dövrdə 120,6 milyard dollarlıq investisiyanın 77,8 milyardı BXİ-lər olub. 2000-2017-ci illər üzrə Azərbaycan iqtisadiyyatına daxil olan 77,8 milyard dolların 66,8 milyard dolları(85,9%) neft-qaz sektoruna, 19,9 milyard dolları isə qeyri neft-qaz sektoruna qoyulub. Qeyri-neft sektorunun,xüsusilə də emal sənayesinin daha da inkişaf etdirilməsi, ÜDM-dəki payının artırılması, BXİ-lərin bu sektora cəlb edilməsi dövlətin əsas hədəflərindən biridir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Strateji Yol Xəritəsində ölkənin 2025-ci ilə qədər hədəf indikatorlarından biri qeyri-neft sektoruna yönəldilmiş BXİ-nin qeyri-neft ÜDM-dəki payının 4 faizə çatdırılmasıdır. Hədəflərə çatmaq üçün yaradılan iqtisadi zonalardan biri olan Ələt Azad İqtisadi Zonasının təməli qoyulmuşdur. Təməlqoyma mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti demişdir:

“Bilirik ki, potensial investorlar, ilk növbədə, Dünya Bankının “Doing Business” hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə bizim üstünlüyümüz göz qabağındadır. İnfrastruktur layihələrinin səviyyəsinə görə, baxın, Azərbaycan hansı yerlərə layiq görülüb. Elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar bizim əldə etdiyimiz böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir - investisiya iqlimi, infrastruktur layihələri.”[9]

3. *Maliyyə qloballaşması*

Maliyyə bazarlarının inteqrasiyası və kapital hərəkətlərinin liberallaşdırılması kimi bilinən maliyyə qloballaşması həm qloballaşmanın bir elementi, həm də qloballaşmanı sürətləndirən bir faktordur. Maliyyə qloballaşması şəraitində tətbiq olunan maliyyə açıqlığı siyasəti həm valyuta məzənnəsinə, həm də milli pul siyasətinə təsir göstərir. Azərbaycanın pul siyasəti Mərkəzi Bank tərəfindən aparılır. Mərkəzi Bankın yürütdüyü pul siyasəti makroiqtisadi stabilliyin təmin olunmasına və ölkənin əlverişli beynəlxalq rəqabət qabiliyyətinin qorunub saxlanmasına yönəlib. Strateji valyuta ehtiyyatlarının ildən-ilə artması Azərbaycanın maliyyə təhlükəsizliyini və yüksək beynəlxalq ödəmə qabiliyyətini ifadə edir. Əgər 2015-ci ildə strateji valyuta ehtiyatları 37 milyard idisə, 2020-ci ildə 49.93 milyard dollar təşkil edir. Bu isə o deməkdir ki, 2020-ci ilin pandemiya şəraitində dünya iqtisadiyyatında durğunluq və azalmaya baxmayaraq ölkənin iqtisadi sabitliyi qorunub və valyuta ehtiyatları artıb.

Nəticə

1994-cü ildən etibarən qlobal iqtisadiyyata inteqrasiya olan Azərbaycan iqtisadiyyatını daha çox iqtisadi qloballaşma çərçivəsində incələməyimizə əsasən Azərbaycanın iqtisadi qloballaşmanın hər üç növünə inteqrasiyası hədəflənmişdir. Bu konteksdə xarici ticarət, birbaşa xarici investsiya, kapital bazarlarında lazımi işlər görülüb və görülür. 1994-cü ildən neft kontraktlarının imzalanmasıyla sürətlənən xarici ticarət həcmi böyümüşdür. Bu artımda son 5 ilin məlumatlarına baxıldıqda ixracın idxaldan çox olması görülməkdədir. BXİ-lər üzrə qeyri-neft sektoru üzrə hədəflənən hissəyə çatılması, əlverişli investisiya mühitinin yaradılması, eyni zamanda 44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilən Qarabağ və ətraf rayonların iqtisadiyyatının inkişafı üçün böyük potensial var. Bu potensialların reallaşması ilə Ümummilli lider Heydər Əliyevin dediyi kimi Azərbaycan dünyaya günəş kimi doğacaq.

Ədəbiyyat

1. MODELSKİ, George (2008);”Küreselleşme (Ed.: D.Held ve A. McGrew), Phonix Yayınevi, Ankara
2. O'LOUGHLİN, J., L. STAEHELİ And E. GREENBERG (2004): ““Economic Globalization, Political Changes And Social Outcomes“The Guilford Press, New York, 2004
3. James Gerber, International Economics, Third Edition, Pearson Education , 2005.
4. P. Krugman and M. Obstfeld, International Economics: Theory and Policy, Seventh Edition Pearson – Addison Weasley.
5. H. Seyidoğlu, Uluslararası İktisat: Teori, Politika ve Uygulama, XV. Baskı, İstanbul, 2013.
6. https://customs.gov.az/modules/pdf/pdffolder/93/FILE_E7B3B9-B46FB9-AA0331-12CB1C-A0451C-E46BD4.pdf
7. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/
8. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
9. https://president.az/articles/52363

THE CONSEQUENCES OF THE COVID-19 PANDEMIC IN THE ENERGY SECTOR GLOBALLY AND LOCALLY

ISLAM DUNYAMALIYEV
Azerbaijan State University of Economics
IMDC/Economics
islam.dunyamaliyev98@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT

Being proclaimed a worldwide crisis, the COVID-19 pandemic has taken many lives, undermined occupations, and organizations all throughout the planet. The energy business has encountered colossal strain coming about because of the pandemic. To adequately address the impact of COVID-19 on environmentally friendly power advancement procedures, transient approach needs ought to be distinguished, while mid-term and long-haul activity plans ought to be figured in accomplishing the distinct sustainable power targets and progress towards a more reasonable energy future. In this audit, openings, challenges, and critical effects of the COVID-19 pandemic on current and future practical energy procedures were examined exhaustively; while drawing from encounters in recognizing sensible practices, orientating suitable activities, and strategy suggestions on the supportable energy direction were likewise referenced.

KEYWORDS: COVID-19, pandemic period, Global energy, Energy agency

3. INTRODUCTION

Because of the lockdowns, the restricted development and social individual association have prompted impermanent conclusion as well as long-lasting closure of 80% of organizations which anticipates a 0.3% decrease in GDP and an impending monetary downturn (Gopinath, 2020; Hoang et al., 2021a). The environmentally friendly power area has been intensely affected by the COVID-19 pandemic. Sharp slumps in monetary exercises have created significant setbacks for environmentally friendly power supply chains, while the absence of accessible financing from the market and government motivators for sustainable power speculation has raised genuine worries among designers (Karmaker et al., 2021). The decrease in worldwide energy interest because of the pandemic-initiated lockdowns has negatively affected environmentally friendly power ventures. Moreover, the shortfall of state and government sustainable power motivations would be adverse to current and future environmentally friendly power improvement (Emma, 2020). The closure of a few significant breeze turbine producing plants is a perfect representation of the impact the pandemic has had on the sustainable power area. Comparable adverse consequences can be seen in the sunlight-based industry with a 28% decrease popular for 2020 ("D-19 indu, 2020), which has experienced the pandemic-initiated request decrease. Therefore, an enormous number of sunlight-based energy laborers have been laid off or furloughed because of the pandemic. A few potential arrangements have been proposed to mitigate these difficulties confronting sustainable power organizations (David, Eroğlu, McPhee, 2020). The weakening of global economic activity also has a negative impact on the economies of countries that depend on the export of those raw materials, reducing the demand for them. In this regard, the spread of COVID-19 has led to a sharp decline in demand for energy products and disagreements among energy exporters. As a result, oil prices have fallen sharply in international markets. As the fall in oil prices has a direct impact on the Azerbaijani economy, it is important to analyze the economic impact of the spread of the coronavirus. Therefore, it is very important to consider and properly analyze how the coronavirus affects the world's most powerful economies, the world economy in general, and the Azerbaijani economy in general.

4. RESEARCH METHOD

Several methods will be used in the study. These are:

Method of comparison - This method allows the assessment of the global macroeconomic impact of COVID-19 to identify differences in the current situation between other countries.

Analysis - When using the method of analysis in the research work, the object under study is divided into thought parts, i.e., it is explained what parts it consists of its features and characteristics.

Synthesis - It is a complete combination of the parts obtained because of the analysis. As a result of the application of synthesis, the knowledge obtained using analysis is integrated into a single system.

As indicated by IEA information, worldwide oil creation in 2020 was estimated to decay up to 9% coming to the past level in 2012. As power utilization has dropped by 5% in the previous year, the significant coal-terminated power plant has encountered as much as a 10% decrease in yield, while coal creation likewise diminished by 8%. Because of the impermanent stop insignificant creation and financial exercises in China, coal creation was intensely affected by the unexpected drop in energy interest.

Power creation is the fundamental driver for petroleum gas and coal utilization which is by implication impacted by the scale and span of the distinctive lockdown scenes. Consequently, the changing degrees of modern creation have made it harder to precisely estimate future energy request including coal, homegrown gas, and power (Grandin and Sareen, 2020; Jiang et al., 2021). More significantly, the mid-term projection for some non-renewable energy source makers and basically relies upon the probability of accepting government's guide to assist with their striving organizations. The specific issue presently confronting the US oil shale industry can shed significant understanding into its current situation. The business is relied upon to emerge from this violent time; in any case, specialists accept that the creation level won't almost certainly get back to the pre-pandemic levels (Landy, 2020).

In general, the impact of COVID-19 on the energy market has affected all energy entities. Energy producers and suppliers have once again realized the importance of building more optimal energy connections in the future. These negative effects are not limited to oil. As mentioned above, this includes other energy sectors. These areas are mainly as follows:

Alternative and renewable energy sources. The main components of energy production in this area are produced in Asian countries, and China has made significant progress in this area. Beijing produces solar panels and wind turbines and is one of the world's leading exporters. For example, the share of Chinese companies in the sale of solar panels is about 50%. The stagnation in this direction will be felt in the global supply. Market research also shows that the recession in Asian markets has had a significant impact on this area, leading to lower demand and prices. Companies are mainly waiting for the recovery of the global supply chain (Kuzemko, 2020).

Natural gas. The decline in the oil sector, of course, did not go unnoticed in this sector. Therefore, the decrease in energy demand is accompanied by a decrease in demand for natural gas. The decline in demand for natural gas, mainly in China, has created uncertainty in the natural gas market and created conditions for more natural gas supplies in the short term. In the gas sector, it is also important to reduce the supply of LNG (natural liquefied natural gas) to Asian markets. Thus, there will be a decrease in LNG sources exported to China, and the presence of additional LNG market share will be accompanied by lower prices. With the resumption of China's LNG share (starting in June-July), the LNG market will also stabilize.

Oil products. The negative processes observed in the oil and natural gas sector have had a direct impact on the production of oil products. As noted, the spread of COVID-19 has led to the cessation of both human travel and cargo transportation. This is accompanied by a decline in demand for oil products. Jet fuel, diesel and gasoline are the most affected fuels.

As an energy exporter, Azerbaijan also depends on trends in global energy markets. Dependence on oil and natural gas export revenues is the weakest point of the country's economy. The recent drop in oil prices and the discovery of the COVID-19 virus in the country will be a very serious test for the country's economy. Falling or falling oil prices will also raise new challenges. There are three main scenarios in this direction. First, as a pessimistic option, if the OPEC + countries do not reach an agreement on oil and COVID-19 spreads sharply both in the world and in the country, as a result, economic ties will be delayed for a long time and oil prices may fall further. If this happens, oil revenues will decline, and the government will have to take additional measures. Second, if the OPEC + countries reach an agreement, but the consequences of COVID-19 do not disappear soon, there will be a slight increase in oil prices.

The economic problems caused by the spread of the coronavirus will continue to affect the growth of the world economy for a long time (at best until the end of the year). The forecasts for global economic growth also show this. Therefore, world demand for oil will remain low for a long time. Therefore, the second scenario is likely to happen. Third, according to the optimistic scenario, OPEC + countries will agree, the consequences of COVID-19 will be eliminated in a short time, and the operation of production facilities and transportation in the world will be restored. In this case, the demand for energy will increase and energy-exporting countries will be able to keep the market stable. This process will eliminate uncertainty in terms of both price and demand. It should also be noted that these scenarios are related to the challenges that will be formed on the basis of the complications caused by the COVID-19 virus. China's

current share of the energy market makes the energy market sensitive and stimulates tensions. All energy markets and investments are expected to mitigate the effects of the COVID-19 pandemic. This is primarily due to the stabilization of the global economic situation and the resumption of the global supply chain (Barron, Hultén, and Hudson, 2012).

5. CONCLUSION

People who are known with the understanding of maximum profit and minimum cost both cause income injustice and waste resources, unnecessary production, and most importantly, the destruction of nature. However, when acting within the framework of minimum artificial life and maximum nature understanding, there may be more to be left to future generations.

Ultimately, with the COVID-19 pandemic, the socioeconomic status of people and their adaptation to new conditions will force social classes to redefine. In this context, the definition of being poor and wealthy will include the criteria of how safe individuals and societies are in terms of health, as well as economic status.

1. Structures in which the regulatory and balancing role of the state is strengthened, and democratic institutions and rules are dominant make the solution of problems easier and sustainable. Contrary practices may solve some problems but lead to new problems and raise the issue of sustainability.

2. The expectation that uncertainties will increase in the upcoming period and that confidence and stability will deteriorate seems to threaten both the economy and the social structure. The way to minimize these effects is to identify the risks well and take quick measures.

3. The financing of social expenditures has always been controversial. The above suggestions will increase social expenditures, but it is recommended to be preferred as it will support demand and prevent social problems. Resource can be created by considering alternatives such as new income-based taxes, austerity measures, revision of investment plans, and borrowing.

4. Undoubtedly, claiming the opposite and reducing social expenditures is a choice, but this choice has its costs. It is possible to reduce the damage of the crisis by focusing on production, taking savings as a basis, increasing efficiency, and determining policies in a timely and effective manner.

6. REFERENCES

1. Ivanov, D. and Dolgui, A. (2021). OR-methods for coping with the ripple effect in supply chains during COVID-19 pandemic: managerial insights and research implications. Int. J. Prod. Econ. 232 (**Jurnal məqaləsi**) [PubMed] [Google Scholar]

2. Werth, A., Gravino, P. and Prevedello, G. Impact analysis of COVID-19 responses on energy grid dynamics in Europe. *Appl. Energy.* 2021 281. https://pubmed.ncbi.nlm.nih.gov/33110287/ (**online məqalə**)

3. Kuzemko, C. (2020). Covid-19 and the politics of sustainable energy transitions. Energy Res. Soc. Sci. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7330551/ (**online məqalə**)

4. Kaplan, J., Frias, L. and McFall-Johnson, M. (2020). Countries that are on lockdown because of coronavirus. Bus. Insid. https://www.businessinsider.com/countries-on-lockdown-coronavirus-italy-2020-3 (**online məqalə**) [Google Scholar]

David, M. (2020). Coronavirus 'a Crisis unlike Anything the Market Has Even Seen'for Wind Sector, Woodmac Says News for the Oil and Gas Sector; vol. 21. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC8455103/ (**online)**

ÇİN İQTİSADİYYATINDA BİRBAŞA XARİCİ KAPİTAL İNVESTİSİYALARI

XALİQ RÜSTƏMOV
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər və iqtisadiyyat / Dünya iqtisadiyyatı
xrabbasali@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işində Çin iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyalar, ölkənin investisiya siyasəti və xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün tətbiq edilən strategiyalar araşdırılır. Xarici sərmayələrin ölkələrə təmin etdiyi valyuta axını fiziki investisiyaların artırılması, məşğulluğun təmin edilməsi, texnologiya transferi, yerli şirkətlərin beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılması kimi səbəblərdən əhəmiyyətlidir. Çin son üç onillikdə investisiya cəlb etmək və təşviq etmək üçün tənzimləyici çərçivənin hazırlanmasında təsirli irəliləyişlər əldə etmişdir. Ölkədə birbaşa xarici sərmayələri təşviq etmək siyasəti bu baxımdan çox uğurlu olmuşdur. Müasir dünya iqtisadiyyatında birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatları üçün önəmini nəzərə alsaq, Çin iqtisadiyyatında da investisiyaların cəlb edilməsi üçün aparılan siyasətin tədqiq edilməsi xüsusi əhəmiyyətlidir. Çinin dünya ölkələri arasında xarici birbaşa investisiyaları ən çox cəlb edən ölkələrdən olması mövzunun aktual edir. Tədqiqatın məqsədi Çin Xalq Respublikasında investisiyaların cəlb edilməsi mexanimzləri və bu istiqamətdə meydana çıxan problemlərin tədqiq olunmasıdır.

AÇAR SÖZLƏR: Çin iqtisadiyyatı, birbaşa xarici investisiyalar, investisiya siyasəti.

GIRIŞ

1978-ci ildə başlayan iqtisadi islahatlardan sonra iqtisadiyyatını 100 dəfəyə yaxın artıran Çin, həm investisiya, həm də maliyyə baxımından dünyanın ən əhəmiyyətli ölkələrindən birinə çevrilib. Dünya iqtisadiyyatındakı 22 faiz payına əlavə olaraq dünya ticarətinin 12 faizini reallaşdıran Çin qlobal iqtisadiyyatda sabitlik üçün mühüm tərəfdaşa çevrilib. [5]

Çin ilk mərhələdə ucuz işçi qüvvəsi və birbaşa xarici sərmayələrin nəticəsində əldə edilən yüksək artım templərini sərmayə yığımına və texnoloji inkişafa qoyduğu investisiyalarla davamlı hala gətirdi. 1990-cı illərdə aşağı texnologiyalı və çox vaxt keyfiyyətsiz məhsulların ixracatçısı olan Çin sonrakı dövrlərdə yüksək texnologiyalı məhsulların istehsalında dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət apara bilmişdir. Çin iqtisadiyyatının xarici siyasəti ilə yanaşı, ölkənin bol və ucuz işçi qüvvəsi xarici investorlar üçün əhəmiyyətli bir cazibə olmuşdur. Bu yolla Çin ilk mərhələdə xaricdən gətirilən aralıq məhsulları emal edərək son məhsul istehsalı üçün ölkəyə birbaşa xarici investisiya cəlb etməyə nail olmuş və qısa müddətdə "dünyanın montajçısı" adlandırılmağa başlamışdır. Bu vəziyyət dünya bazarlarında bir çox məhsulun qiymətinin ucuzlaşmasına və inkişaf etməkdə olan ölkələrin ixrac bazarlarında Çinlə sərt rəqabətə girməsinə səbəb olub. [3]

Çinin 40 ilə yaxındır ki, fasiləsiz böyümə prosesinin hərəkətverici qüvvəsi islahatların və xarici kapital axınının yaratdığı struktur transformasiyasıdır. İslahatlardan sonra ölkəyə xarici kapital axınında və Çinin iqtisadi artım göstəricilərində əhəmiyyətli artım müşahidə olunub. Xarici kapitalın Çinin istehsal strukturunu dəyişdirməsi və istehsal gücünü əhəmiyyətli dərəcədə artırmasıyla paralel, Çin dünyanın ən böyük ixracatçı iqtisadiyyatlarından birinə çevrilmişdir. [4]

İslahatlarla yenidən strukturlaşma prosesində Çinə xarici kapital axınını sürətləndirən mühüm hadisə Çinin ÜTT-yə üzv olmasıdır. Çin 2001-ci ilin dekabrında ÜTT-yə üzv olduqdan sonra aşağıdakıları tənzimləməyi öhdəsinə götürdü ki, bu da investisiyaların cəlbinə təkan verdi:

- Həm hüquqi, həm də inzibati sistemlərdə şəffaflığın artırılması,
- Əqli və sənaye mülkiyyəti hüquqlarının müdafiəsi üçün təkmilləşdirmələr,
- Gömrük tariflərinin və vergilərin azaldılması,
- Dövlət müəssisələrinin özəlləşdirilməsi [2]

TƏDQIQAT METODU

Bu tədqiqatda yaradılmış metodologiya, Çində birbaşa xarici kapital investisiyalarını təhlil məqsədi daşıyır. Ölkədə birbaşa xarici kapital investisiyalarının tədqiqi və qiymətləndirilməsi üçün qeyri-statistik

qiymətləndirmə metodlarından istifadə olunmuşdur. Mövzu ilə əlaqədar müxtəlif statistik informasiyalar geniş şərh edilmiş və nəticələr təhlil edilmişdir.

ÇİNİN İQTİSADİ ARTIMINDA XARİCİ KAPİTALIN ROLU

1979-cu ildən bəri Çinin başlatdığı iqtisadi islahatların ən mühüm nəticələrindən biri də xarici kapital investisiyalarının Çinə yönəldilməsidir. Xüsusilə 1990-cı illərdən etibarən inkişaf etmiş ölkələr arasında ən çox xarici kapital cəlb edən ölkə Çindir. Görünür ki, Çinə bu güclü kapital axını ölkənin iqtisadi strukturuna əhəmiyyətli dərəcədə təsir edərək sənaye artımını əhəmiyyətli dərəcədə artırmışdır. Təhlillərə görə, 2006-cı ildə Çin sənayesinin istehsal etdiyi əlavə dəyərin 28%-i xarici kapital şirkətləri tərəfindən istehsal olunduğu halda, vergi daxilolmalarının 21%-dən çoxu bu şirkətlərə məxsusdur. Yerli məşğulluğun təqribən 11%-ni yerinə yetirən bu müəssisələrin istehsal etdikləri məhsulun 58%-dən çoxunu ixrac etdiyi də görünür. Bu məlumatlar Çinə xarici kapital qoyuluşlarının ölkənin sənayesi və ixrac fəaliyyəti üçün əhəmiyyətini açıq şəkildə nümayiş etdirir. [1]



Qrafik 1. Çin iqtisadiyyatına yatırılmış birbaşa xarici sərmayə (dollarla)

Çin üçün xarici birbaşa investisiya (XBİ) rəqəmləri ilə bağlı məlumatlar göstərir ki, islahatlar başlayandan sonra Çinə cəlb olunan xarici kapitalın həcmi xeyli artıb. Dünya Bankının rəsmi internet saytından əldə edilən məlumatlara görə, islahatların başlanmasından 1997-ci ilə qədər Çinə hər il artan xarici kapital axını müşahidə olunur. Başlanğıc illərdə çox kiçik həcmdə olan xarici birbaşa investisiyalar xüsusilə 1992-ci ildən bu yana əhəmiyyətli templə artmışdır. 1980-ci illərdə 1%-dən belə aşağı olan Çinə investisiyaların 2014-cü ildə 14,91%-lə tarixi zirvəyə çatdığı görülür. Bu o deməkdir ki, Çinə daxil olan BXİ-nin illik miqdarı islahatların başladığı illərlə müqayisədə onlarla dəfə artıb. Bu artımlar nəticəsində 1997-ci ildə 44,23 milyarda çatan XBİ axını 1998 və 1999-cu illərdə qismən azalma göstərmişdir ki, sözügedən illərdə kapital axınındakı yavaşlama iqtisadi böhranla bağlı yalnız Çində görülməməmişdir. Yenidən artmağa başlayan XBİ daxilolmalarının 2000-ci ildə 42 milyard dollara, 2005-ci ildə isə 104,1 milyard dollara çatdığı görülür. [6]

Məlumatlar Dünya Bankının https://data.worldbank.org/ məlumat bazasından götürülmüşdür.



Qrafik 2. Çin iqtisadiyyatına yatırılmış birbaşa xarici sərmayələrin ÜDM-də payı (faizlə)

Çinin ÜTT-yə üzv olmasından sonra sürətlənən xarici kapital axınının 2010-cu ilə qədər fasiləsiz artdığı və bu ilin sonunda cəmi 243 milyard dollara çatdığı görünür. Çinin xarici kapital üçün cəlbedici ölkə olması nəticəsində dünyadakı xarici kapital axınında 2010-ci ildə Çinin payının 13%-i keçdiyi görülür. Sonrakı illərdə də kapital axınının tempinin aşağı düşmədiyi və 2015-ci ildə 242 milyard dollar səviyyəsində reallaşdığı müşahidə edilir. Bununla belə, 2016-cı ildə XBİ daxilolmalarında ciddi azalma olduğu və 170 milyard dollar təşkil etdiyi görünür. [4]

Məlumatlar Dünya Bankının https://data.worldbank.org/ məlumat bazasından götürülmüşdür.

Xarici kapitalın Çinə doğru dəyişməsini dünya üzrə kapital hərəkətlərindəki dəyişikliklərlə müqayisə etdiyimiz zaman Çinin dünya göstəricilərinə görə əhəmiyyətli bir üstünlüyə malik olduğu görünür. 1982-2016-cı illər arasında dünyada ümumi xarici kapital axını 31 dəfə artdığı halda, Çinə daxil olan birbaşa investisiyaların həcmi 395 dəfə artıb. [6]

NƏTICƏ

Çinin iqtisadi zəmində baş verən bu liberallaşma prosesində xarici kapital axınının getdikcə artdığı, 1990-cı illərdən nəzərəçarpacaq dərəcədə kapital artımının olduğu, ortaqlıqlar və yeni sərmayələrlə Çinin xarici sərmayə ehtiyatının əhəmiyyətli dərəcədə artdığı görünür. Xarici kapitalın Çində ixracat sektorlarına sərmayə qoyması Çinin ixrac imkanlarını artırmışdır. Çinə ixracın artırılmasının mühüm faydalarından biri istehsalda məhsuldarlığın artmasıdır. Xarici ticarətin artımı iqtisadiyyata dinamik töhfələr verərkən, idxal olunan məhsulların ixrac üçün emal edilməsi də iqtisadiyyatın mal emal imkanlarını və texnologiya imkanlarını artırır. İdarəetmə və təşkilatlanmaya əsaslanan artan texnologiya və innovasiyalar da məhsuldarlığa müsbət təsir göstərir. Çinlə bağlı aparılan araşdırmada xarici sərmayə axınının sıx olduğu və ixracyönümlü fəaliyyətlərin daha çox olduğu əyalətlərdə məhsuldarlığın daha yüksək olduğu, yüksək texnologiyalı istehsalın digər bölgələrə nisbətən daha yüksək olduğu görülür. Bununla belə, faktor məhsuldarlığının müsbət təsirinin texnologiyanın təsirindən daha çox olduğu da görünür. Xarici kapitalın xüsusilə ixrac alt sektorlarında cəmləşməsi və bu sektorların yüksək texnologiyaya əsaslanan istehsalı ucuz işçi qüvvəsi anbarı olan Çinin qlobal bazarlarda əhəmiyyətli rəqabət üstünlükləri əldə etməsinə şərait yaratmışdır. Xarici sərmayələrlə istehsalı və ixracı sürətlə artan Çində əhəmiyyətli bir sərmayə yığılmış və yeni investisiyalarla iqtisadi istehsal gücü daha da artırılmışdır.

Aparılan islahatlarla ölkəyə xarici kapital axını artmış, Çində istehsal və sənaye infrastrukturunun əhəmiyyətli bir hissəsi zamanla xarici kapitala əsaslanan müəssisələr tərəfindən yaradılmışdır. İxrac yönümlü bu müəssisələrin sayının artması və onların iqtisadiyyatdakı çəkisi ilə Çinin həm istehsal gücü, həm də ixrac imkanları artıb. Bundan əlavə, Çinin ümumi istehsalında və ixraca əsaslanan istehsalında texnologiya məhsullarının payı əhəmiyyətli dərəcədə artmışdır.

Aparılan islahatlar və xarici kapital axınının Çinin dünyanın ən böyük ixracatçı iqtisadiyyatlarından birinə çevrilməsinə şərait yaratmaqla iqtisadi dəyişikliklərə real təsirini göstərdiyini söyləmək mümkündür.

ƏDƏBIYYAT SIYAHISI

5. Ford, J. L.; Sen, S.; Wei, H. (2010). FDI and Economic Development in China 1970-2006: A Cointegration Study
6. Ho, O.C.H. (2004). Determinants of Foreign Direct Investment in China: A Sectoral Analysis, https://ecompapers.biz.uwa.edu.au/paper/PDF%20of%20Discussion%20Papers
7. Mete H. Y., Gencay K. Çin Sanayi Sektörünün Yapısal Değişimi: Gelişmekte Olan Ülkeler İçin Dersler. “Çin İdare Hukuku ve ÇHC Ticari Başarısına Etkileri: Türkiye İçin Dersler/Öneriler” Maliye ve Finans Yazıları - 2018 - (110), 161 – 174.
8. Yılmaz S., Çin ekonomisinde doğrudan yabancı sermaye yatırımları ve yapısal dönüşüm, Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü İktisat Anabilim Dalı İktisat Bilim Dalı. Bursa. 2017, 140s.
9. Çin Yatırımlarına Ekonomi Politik Yaklaşım (2005-2019) https://www.setav.org/cin-yatirimlarina-ekonomi-politik-yaklasim-2005-2019/ (02.04.2022)
10. World Bank, Foreign Direct Investment, https://data.worldbank.org/indicator/BX.KLT.DINV.WD.GD.ZS (02.04.2022)

KƏLBƏCƏR-LAÇIN İQTİSADİ RAYONUNDA DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Ayşən Məmmədova
Azərbaycan Texnologiya Universiteti (UTECA)
e.mail: a.nesibova@uteca.edu.az
İqtisadiyyat və idarəetmə
GƏNCƏ, AZƏRBAYCAN
Təmarə Vəliyeva
Azərbaycan Texnologiya Universiteti (UTECA)
İqtisadiyyat və idarəetmə
GƏNCƏ, AZƏRBAYCAN
Firəngiz Qasımova
Azərbaycan Texnologiya Universiteti (UTECA)
İqtisadiyyat və idarəetmə
GƏNCƏ, AZƏRBAYCAN
Leyli Qəzənfərli
Azərbaycan Texnologiya Universiteti (UTECA)
İqtisadiyyat və idarəetmə
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ: Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bütün dünyaya öz qüdrətini göstərdi. Şanlı qələbəmizlə ərazi bütövlüyümüz təmin edildi.
Qələbə nəticəsində işğaldan azad edilmiş Kəlbəcər-Laçın iqtisadi rayonunun ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Beləliklə, yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi-sənayenin inkişafını sürətləndirəcək.
Azərbaycanın işğaldan azad etdiyi Kəlbəcər-Laçın iqtisadi rayonunda meşə, su və torpaq resursları aqrar sahə, emal sənayesi və turizmin inkişafı üçün böyük imkanlar yaradır. Ən əsası azad edilən ərazilərin iqtisadiyyatı yenidən qurulacaq və yeni texnologiyalar tətbiq olunacaq, bu isə iqtisadiyyatı daha məhsuldar edəcək. Qarşıdakı illərdə Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 2 milyard manatdan çox arta bilər.

AÇAR SÖZLƏR: dayanıqlı iqtisadiyyat, iqtisadi potensial, iqtisadi dəyər, rəqabətqabiliyyətlilik, sahibkarlıq.

GİRİŞ: Azərbaycan iqtisadiyyatında həyata keçirilmiş iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı istiqamətində aparılan tədbirlər, qəbul edilən proqramlar, sahibkarlığın inkişafı sahəsində görülən işlər öz müsbət nəticələrini daima verməkdədir. Ölkədə son illərdə iqtisadi artım yüksək olmuşdur. Bu artımın təmin olunması əsasən xam neft və təbii qaz hasilatı, neft və qaz hasilatı ilə əlaqədar sahələrin inkişafı hesabına təmin edilmişdir.

Kəlbəcər-Laçın iqtisadi rayonu Azərbaycanın ən böyük iqtisadi rayonlarından biridir. Kəlbəcər-Laçın iqtisadi rayonu Respublikamızın cənub-qərbində yerləşir. İqtisadi rayonunun ümumi sahəsi 6,4 min kv.km olmaqla ölkə ərazisinin 7,5 faizini təşkil edir. İqtisadi rayonun tərkibinə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarını daxildir.

TƏDQİQAT METODU: Məqalədə tədqiqat metdou olaraq iqtisadi məlumatlardan, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-dən və statistik məlumatlardan istifadə edilmişdir.

Kəlbəcər rayonun ərazisi faydalı qazıntılarla zəngindir. Belə ki, iqtisadi rayonda sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları, sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 — Ağyataq, Levçay, Çorbulaq və ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları, ehtiyatları 10941 min kubmetr olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı, ehtiyatları 1312 min kubmetr olan və

kərpic istehsalına yararlı Keşdək gil yatağı, ehtiyatları 4473 min kubmetr olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı, ümumi ehtiyatları 2,2 milyon kubmetr olan 2 üzlük daş yatağı, ehtiyatları 2540 min kubmetr olan Çəpli qum-çınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), nefroid (ehtiyatları 801 ton) yatağı; ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min kubmetr olan 1 listvenit yatağı mövcuddur.

Bundan əlavə Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. [1]

Ölkəmizin şanlı qələbəsi tarixə qızıl hərflərlə yazıldı. Həmin qələbə nəticəsində düşmən tapdağında olan torpaqlarımız azad olundu. Həmin ərazilərin iqtisadi potensialı ölkəmizdə iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi üçün əvəzedilməzdir.

İşğaldan azad olunan ərazilərin tarixi-mədəni dəyəri ilə yanaşı zəngin iqtisadi potensialı da mövcuddur. İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası ilə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da tərəddüdsüz və xüsusi fiskal gərginlik yaşamadan çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.

Kəlbəcər-Laçıq iqtisadi rayonunun işğaldan azad edilməsi və ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir.

Kəlbəcər –Laçıq iqtisadi rayonunda milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın surətlənməsi, həmin ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanının yeni dayanıqlı inkişafının ideologiyasını təşkil edir.

İqtisadi rayonda bir çox tədbirlərin təşkil edilməsi və işləri yerinə yetirilməsi ön plandadır. Belə ki, ilk öncə iqtisadi rayonda qələbəni əbədiləşdirmək üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Daha sonrakı addımda əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Bu mənada "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı xüsusi bəndin yer almasının mühüm siyasi və iqtisadi əhəmiyyəti var. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür. Bu böyük qayıdış vətəndaşlarımızın iqtisadi rayonda dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında körpü olacaqdır. [2]

Kəlbəcər-Laçın iqtisadi rayonunun ölkənin iqtisadi və sosial sferasında tarixi mövqeyi bərpa edilməlidir. Bu bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməli və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olmalıdır.

Kəlbəcər-Laçın iqtisadi rayonunun dayanıqlı inişafı burada iqtisadiyyatın ehtiyaclarını döğru resurslarla təmin edilməsindən asılıdır. Bölgədə təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcəkdir.

Kəlbəcər–Laçın iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Laçın "dəhlizi" həm də Azərbaycan üçün strateji olan ərazidir. Laçın ərazisində hələ tədqiq edilməmiş 500 tarix və mədəniyyət abidəsi, o çümlədən I-II əsrlərə aid qaya təsvirləri, 1 mağara, 5 antik qala, Siklop tipli yaşayış yerləri, kurqanlar, at-qoç fiqurları, pirlər, inanc yerləri, türbələr, məscidlər, Qafqaz Albaniyası dövrü memarlıq abidələri və s. vardır.

İqtisadi rayonda yerləşən Laçın dəhlizi Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə verilən zəmanətə adekvatdır. Sonuncu dəhliz Azərbaycanla Türkiyəni quru yolla birləşdirir ki, bu da Vətən müharibəsində ikiqat Qələbənin nəticəsidir.

Hal-hazırda hər kəsə məlumdur ki, işğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq o bölgələr Azərbaycan dövlətinin vəsaiti, Prezidentin siyasi iradəsi ilə bərpa ediləcək, vətəndaşlarımızın normal həyatı üçün bütün addımlar atılacaq. Artıq müvafiq dövlət qurumu da yaradılıb və bu işlərin hamısı koordinasiya şəklində aparılacaqdır. Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür.

Kəlbəcər–Laçın iqtisadi rayonuna daxil olan Zəngilan rayonu iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malikdir. Hər iki tərəfdən müxtəlif ölkələrlə həmsərhəd olan rayon qərbdə dağlıq, şərqdə düzənlik əraziyə malikdir. Bu özəlliklər Zəngilan rayonunun şaxəli resurslara malik olması ilə bağlı ilkin

təəssüratları formalaşdırır. Kəlbəcər-Laçın iqtisadi rayonu mineral yataqların sayı üzrə coğrafi şaxələndirməyə malikdir. Rəsmi hesablamalara görə, Ermənistanın işğalçılıq siyasəti nəticəsində, işğaldan azad olunan və davam edən iqtisadi rayonlarda 155 müxtəlif növ mineral yataqları mövcuddur ki, bunlar qızıl, gümüş, mis, dəmir, sink, qranit, mərmər, qiymətli daşlar, odadavamlı gil və digər faydalı qazıntılardır. Tranzit nöqteyi-nəzərdən, rayonun xüsusi özəlliyi var ki, İran islam Respublikası ilə ticarət münasibətlərinin daha da inkişafına töhfə verə bilər. Habelə, Kəlbəcər-Laçın iqtisadi rayonunda Kəlbəcərdən sonra ikinci daha böyük və sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağı, ehtiyatları 6 mln 618 min m3 olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 mln ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6 mln 024 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28 mln 943 min m3 təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1 mln 102 min m3 olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17 mln 367 min m3 olan Zəngilan qum-çınqıl qarışığı yataqları mövcuddur. Erməni işğalçıları tərəfindən istismar edilən bu yataqlar sözügedən ölkənin dırnaqarası "keyfiyyətli mineral ehtiyatlar" ixrac edən ölkəsinə çevirib. [3]

Zəngilan rayonu coğrafi müxtəlifliyinin bariz nümunəsi turizm potensialına malik olmasıdır. Avropada misli olmayan Şərq çinarları, qoz və digər qiymətli ağaclar bu zonada yerləşir. Yaşı 500-ə, uzunluğu 12 km-ə çatan çinar meşəliyi Bəsitçay qoruğunda saxlanılır. Bəsitçay qoruğu Azərbaycanın cənubi-qərbində işğal olunmuş Zəngilan ərazilərində Bəsitçayın dərəsində 1974-cü ildə yaradılmışdı. Qoruğun sahəsi 107 hektardır. Qoruqda yerləşən Şərq çinarı "Qırmızı Kitab"a daxil edilib. Təəssüflər olsun ki, erməni işğalçıları tərəfindən kəsilərək yüngül sənayedə və digər biznes məqsədləri üçün istismar edilən ağaclar da iqtisadi cinayətkarlığın qurbanıdır.

İqtisadiyyatda tikinti sektorunun drayver roluna malik olduğunu nəzərə aldıqda, daxili tələbin qarşılanmasında Zəngilan rayonunun təbii sərvətləri əhəmiyyətli rol oynacaqdır. Bundan əlavə, son illər mineral resurslarımızın ixracı qeyri-neft sektorunda lider mövqelərdə təmsil olunur. Belə ki, qızıl ixracı həyata keçirən dövlət şirkətinin ixracı aylıq ortalama 10-18 milyon ABŞ dolları arasında dəyişir. Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaq.

Kəlbəcər-Laçın iqtisadi rayonu tarixi-mədəni dəyəri, füsünkar təbiəti ilə yanaşı, yeraltı və yerüstü sərvətlərə, zəngin iqtisadi potensiala, geniş turizm imkanlarına malikdir. Bu rayonlarımız aqrar üstünlüyü, xammal bazası və emaledici sənaye istehsalı baxımından əlverişlidir. Düşmən təbii sərvətlərimizin qanunsuz istismarı yolu ilə Kəlbəcərdə külli miqdarda qızıl hasil edib. Qeyd etdiyimiz statistik məlumatlar görüləcək işlərin miqyası haqqında müəyyən təsəvvür yaradır. Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam Füzuli inzibati rayonlarının inkişaf etdirilməsi çoxsaylı və müxtəlif sektorları əhatə edəcək kompleks yanaşma tələb edir. Bərpa proseslərindən sonra işğaldan azad olunmuş rayonlarımızın, xüsusilə Laçın və Kəlbəcərin iqtisadi potensialı, o cümlədən, ölkə üzrə ümumi daxili məhsuldakı payının qiymətləndirilməsi göstərir ki, həmin ərazilərdə iqtisadiyyatın dəfələrlə artması mümkündür. İşğaldan azad edilmiş torpaqların iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. [4]

İqtisadi rayon üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Burada qarğıdalı, noxud və üzüm regionun xarekterik bitkilərindəndir. Laçın, Kəlbəcər, Qublı və Zəngilanda heyvandarlıq çox inkişaf etmişdir.

Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, inzibati rayonları böyük xammal bazasına malikdir. Həmin rayonlarımızda qızıl, mis, civə, dəmir, mərmər, xromit, perlit, əhəng, əqiq, və eləcə də inşaat materialları üçün xammal bazası var. Yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də, metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirmiş olar.

Region, emal və ərzaq sənayesinin inkişafı üçün də əlverişlidir. İşğaldan azad edilən torpaqlarımız mineral və termal su mənbələri ilə də zəngin bir ərazidir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Azərbaycan su ehtiyatlarını səmərəli idarə etməklə həm düşmənin ölkəmizə qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq. Burada Kəlbəcər və Laçın rayonlarının şirin su ehtiyatlarını xüsusi qeyd etmək lazımdır. Azərbaycanın hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan su anbarı – Sərsəng su anbarının işğaldan azad olunması ilə Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonları suvarma suyu ilə təmin olunacaq. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində

yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması deməkdir. Həmçinin regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir. Azərbaycanın mineral su ehtiyatlarının 40 faizinə qədəri işğal altındakı torpaqlarda idi. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Şırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edir. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür.

Beləliklə aydındır ki, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan inzibati rayonlarının sənaye, kənd təsərrüfatı potensialı genişdir. Xammal bazası, təbii resursları olduqca böyükdür. Bütün bunlar, bərpa prosesindən sonra qısa zamanda həmin regionun iqtisadiyyatının sürətlə inkişaf edəcəyini deməyə əsas verir. [5]

Azərbaycan Prezidenti İlham Əliyevin 19 yanvar 2021-ci il tarixli "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" (QDF) fərmanı işğaldan azad edilmiş ərazilərimizin dövrün tələbləri səviyyəsində bərpası və yenidənqurulması prosesinin ölkəmiz üçün prioritet məsələlərdən olduğunu bir daha təsdiqləyib. Qurumun yaradılmasında başlıca məqsəd işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata, yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsidir.

NƏTİCƏ

İşğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Bu ərazilərin bərpası ilə çoxlu sayda yeni iş yerləri açılacaq. Belə ki, yeni infrastruktur layihələrinin həyata keçirilməsi vətəndaşlarımızın işlə təminatına müsbət təsir göstərəcək. İqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılmasına zəmin yaradacaq. Müzəffər ordumuzun qələbəsi qeyri-neft sektorunun böyüməsinə, Azərbaycan iqtisadiyyatının daha da çiçəklənməsinə təkan verəcək. [6]

İşğal altında olan torpaqlarımızın işğaldan azad olunması ölkənin iqtisadi və sosial vəziyyətinə müsbət təsir göstərəcəkdir. Bu ərazilərin istər sənaye, istərsə də aqrar sahənin, eləcə də sosial obyektlərin yenidən qurulmasına və bərpa işlərinin həyata keçirilməsinə ehtiyac var.

"2019-2023-cü illərdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı" Respublikanın digər şəhər və rayonları ilə yanaşı, işğaldan azad edilmiş əraziləri də əhatə edir. Proqramın icrası ərazinin inkişafının daha da sürətləndirilməsinə zəmin yaradacaqdır. Proqramın əsas məqsədi digər regionlarla yanaşı, işğaldan azad olunan ərazilərin davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaqdan ibarətdir.

ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"
2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"
3. Abbasov İbad, Əliyev Təbriz. (2018). Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. 134 s.
4. " Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"
5. www.stat.gov.az
6. www. virtualkarabakh.az/

DÖVLƏTİN İNKİŞAFINDA AÇIQ VƏ QAPALI İQTİSADİYYATIN PERSPEKTİVLƏRİ VƏ ÖZƏL SEKTORUN ROLU

Rövşən Natiq oğlu Əliyev
Azərbaycan Milli Elmlər Akademiyası
Akademik H.Əliyev adına Coğrafiya İnstitutu
gulnarajafarova@yahoo.com

XÜLASƏ

Rəqabətli bazar iqtisadiyyatı şəraitində davamlı inkişafa nail olan və ölkənin dünya iqtisadiyyatında payının artmasında başlıca rol oynayan açıq və qapalı iqtisadiyyatın perspektivinə və burada özəl sektorun roluna məqalədə xüsusi diqqət yetirilir. İqtisadiyyatda özəl sektor münasibətləri geniş ölçülü bir mövzu olub iqtisadi, sosial, hüquqi, mədəni, siyasi və s. çalarları özündə əks etdirir. Məqalədə dövlətin inkişafında açıq və qapalı iqtisadiyyatın perspektivləri və özəl sektorun iqtisadiyyata təsirindən bəhs olunur. Həmçinin iqtisadiyyatda doğrular və yanlışlar göstərilir, iqtisadiyyatın inkişaf və problemlərinə nəzər yetirilir.

Açar sözlər: *iqtisadiyyat, dövlət, özəl sektor, gəlir, qanun*

Perspectives of Open and Closed Economy and The Role of the Private Sector in Development of State

SUMMARY

The main attention is given to the perspective of open and closed economy and the role attitudes of private sector playing the main place in the increasing the share of the state on the world economy and achieving to the durable development in the situation of the competitive market economy in the article. Being the large-scale topic, the attitudes of private sector reflect the economic, social, legal, cultural, and political and the other shades itself. The affect of the private sector and the perspectives of the open and closed economics to the development of economy is mentioned in this article. The validates and wrongs in the economics are also shown, the development and problems of the economics are given.

Key words: *economics, state, private sector, income, law*

Перспективы Открытой И Закрытой Экономики И Роль Частного Сектора В Развитии Государства

РЕЗЮМЕ

Основное внимание уделено перспективе открытой и закрытой экономики и роли частного сектора, играющего основное место в увеличении доли государства в мировой экономике и достижении устойчивого развития в условиях конкурентной рыночной экономики. в статье. Являясь масштабной темой, отношения частного сектора отражают сами экономические, социальные, правовые, культурно-политические и другие оттенки. В статье упоминается влияние частного сектора и перспективы открытой и закрытой экономики на развитие экономики. Также показаны недостатки и ошибки в экономике, приведены пути развития и проблемы экономики.

Ключевые слова: *экономика, государства, частный сектор, доход, закон*

Kapital - iqtisadiyyatın, dövlətin, özəl sektorun dayağı, həyatın ilhamverici qüvvəsidir. Bir anlıq təbiəti günəşsiz və susuz təsəvvür edək. O zaman hər şey məlum olar. Açıq və bağlı qapılar aydın görünər. İqtisadiyyat da belədir. Onu nə dövlətsiz, nə də özəl sektorsuz təsəvvür etmək olmur. Hər ikisi də iqtisadiyyatın təməl prinsipləridir. Dövlət özünün qanunları ilə, siyasi maraqları ilə, lazımi anda ata biləcək addımları ilə, gücü-qüvvəsi ilə, iqtisadiyyata arxa-dayaq olması ilə və ən əsası da daimi olan ədalətli nəzarəti ilə iqtisadiyyata töhfələr verməlidir. Əgər bunlardan biri və ya bir neçəsi olmazsa, o zaman iqtisadiyyatın inkişafı ləngiyər və bir sıra ciddi problemlər yaranmağa başlayar. Ə.Q.Əlirzayevin fikrinə görə dövlətin iqtisadi və sosial inkişafının əsas meyarı onun əhalisinin hər bir nəfərinin həyat səviyyəsini yüksəltməkdən və respublikanın potensial iqtisadi imkanlarını artırmaqdan ibarətdir.[2, s.48].

Dövlətin sağlam qanunları olduqca iqtisadiyyatın da xəstələnməyə vaxtı, zərurəti və gərəyi qalmaz. Sağlam qanunlara lazım olan isə bunlara ardıcıl olaraq qaydalar çərçivəsində riayət etməkdir.

İqtisadiyyatın sərbəstliyi (açıq) və ya zəncirli (qapalı) olması da dövlətin öz siyasi baxışından və ona yanaşmasından asılıdır. Amma bunların hər ikisi də zərərli və arzuolunmazdır. Daha yaxşısı, iqtisadiyyatın yuxarıda qeyd olunduğu kimi qaydalar (düzgün və ədalətli) çərçivəsində olmasıdır.

İqtisadiyyata sərbəstlik vermək (onun açıq olması) o deməkdir ki, dövlət bilə-bilə risk edərək özünü odun içinə atır. Bu zaman kənar müdaxilələr dövlətin iqtisadiyyatını gələcəkdə ələ keçirir və istədiyi kimi onun evində onu idarə edir. Dövlət də bütün bu olanlara göz yumur, görməzlikdən gəlir. Təbii ki, bu zaman dövlətin müstəqilliyindən belə danışmağa gərək qalmır, baxmayaraq ki, o suveren dövlətdir və o da BMT-nin üzvüdür. Dövlətin bir sıra əsas atributları olsa da, əsas sözü deyən kapitaldır. Kapital, iqtisadiyyat, siyasət, dövlət- bu sözlər necə də bir-birinə zəncir kimi bağlıdır, onda məlum olur ki, iqtisadiyyata sərbəstlik verməklə gələcəkdə nələrə səbəb və sahib oluna bilər. Özü də reallığı açıq-aydın görünən o ağır, acı nəticələrə. Bu üzdən dövlətin iqtisadiyyata sərbəstlik verməsi heç də arzu olunan proses deyil.

Sərbəst (açıq) iqtisadiyyatın əks qütbündə dayanan isə zəncirli (qapalı) iqtisadiyyatdır. Bu isə o deməkdir ki, dövlət iqtisadiyyatın bütün sahələrinə sahibdir, özəl sektoru ona yaxın buraxmır, hər sahədə dövlətin hegemonluğu var, iqtisadiyyat dövlətin dediyi ilə oturub durur, dövlət onun yaradıcılığına mane olur, əllərini zəncirləyir, innovasiyalardan məhrum edir, hər vəchlə onun özəl sektora yaxınlaşmasına maneçiliklər törədir. Biz bunu Sovetlər dövründə görüb yaşamışıq. İndi də dünyanın bəzi ölkələrində bu baxışlar sezilməkdədir.

Zəncirli (qapalı) iqtisadiyyat yanlış düşüncənin göstəricisi olaraq, (bir çox hallarda qeyri - qanuni yollarla) nə qədər tez gəlir gətirsə də, kənar müdaxilələrdən iqtisadiyyatı qorusa da, amma onun sabahında qaranlıq, gerilik, yoxsulluq, aclıq və səfalət görsənir. Məhz ona görə ölkənin inkişafı ləngiyir və iqtisadiyyatı geriləyir, hər sahəsində olması gərəkən yaradıcılıq azalır və ən əsası da rəqabət sıfıra enir. Bu zaman çərçivəsində bir müddət sonra digər ölkələrin iqtisadiyyatı ilə, oradakı insanların həyat şəraiti ilə müqayisədə ciddi fərqlər yaranır. Misal üçün, onu qeyd etmək olar ki, 90 - cı illərdə Almaniya Demokratik Respublikası ilə, Almaniya Federativ Respublikasının birləşməsindən sonra Almaniya dövləti birləşib, bütövləşsə də, ADR ilə AFR-in həyat səviyyəsi, infrastukturu, yaşam tərzi və bir çox sahələri arasında böyük fərqlər vardı.[4, s.296]. Çünki o zaman SSRİ müdaxilə edə bildiyi AFR-in də iqtisadiyyatına (görünsə də, görünməsə də) zəncir vurmuşdu. Gerilik ölkənin şərq hissəsində nəzərə çarpacaq qədər görsənirdi. Onuda qeyd edək ki, SSRİ özü qapalı bir məkan idi. Bu səbəbdən, iqtisadiyyatı sıxmaq, boğmaq siyasəti heç bir dövlətə başucalığı, davamlı gəlir, xoş gələcək gətirmir. Bu günün qazancı dövləti sabahın gəlirlərindən məhrum edir. Onun sayəsində indi görünən bu günün (bəlkədə ola bilən) qazancı dövləti, ölkəni sabahısı gün əldə edə biləcəyi davamlı gəlirlərindən məhrum edir.

Dövlət bu baxımdan hər zaman, hər addımında özünün iqtisadiyyatda daim lazımlı olduğunu göstərməlidir və yanında olmalıdır. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, onun inkişaf edən xətt üzrə saxlanılması dövlətin hər an prioritet məsələsi kimi masasının üstündə göz qabağında olmalıdır. Həmişə vaxtında atılacaq addımlar diqqətdə saxlanılmalıdır ki, sonradan dövlət üçün də problemlər yaratmasın. Məlumdur ki, iqtisadiyyata aşkarda və gizlində kənar müdaxilələr müəyyən və qeyri müəyyən qüvvələr tərəfindən hər zaman olur. O da aydındır ki, iqtisadiyyatın çöküşü dövlətin sonda tənəzzülünə gətirib çıxardır. Misal üçün, onu qeyd etmək olar ki, bəzən bir ölkənin iqtisadiyyatını çökdürməkdən ötrü onun dövriyyəsinə yeridilən saxta pullar və ya pulun qalxıb enmələri, bu kimi gizlin oyunlar sonda dövlətin maraqlarının üstündən xətt çəkmiş olur. Ancaq dövlətin iqtisadiyyatda baş verə biləcək bu kimi addımlara operativ cavab verməyə hazır olması çox önəmlidir. Həmçinin, iqtisadiyyatda dövlətin gücünün, qüvvəsinin olması da əhəmiyyətlidir. Bu, həm maddi cəhətdən gücü özündə əks etdirməlidir, həm də mənəvi cəhətdən dövlətin güclü iradəsi olmalıdır ki, öz maraqlarını qorumaq üçün.

İqtisadiyyat iki relsin üzərində olan və dayanmadan hərəkət edən qatar kimidir. Daim irəliyə doğru inamla getməsi üçün bu relslər hərəkət mexanizmini yaxşı saxlamalıdır. Dövlət öz iqtisadiyyatına sahib olmalı, ona arxa dayaq durmalıdır, heç vaxt öz yaxasını kənara çəkməməlidir, bu ilk öncə onun özü üçün vacibdir. İqtisadiyyatın ani titrəyişi belə dövləti sarsıda bilər. Bundan da kənar qüvvələr lazımınca yararlana bilərlər. Bu səbəbdən hər zaman iqtisadiyyata arxa dayaq olub, ona daim nəzarət etmək lazımdır.

İqtisadiyyata nəzarət də çox vacib amillərdəndir. Amma bu nəzarət yersiz müdaxilələri özündə əks etdirməməlidir. Çünki hər müdaxilə bir yubanmaya, ləngiməyə gətirib çıxardır. Bir addım belə dayanmaq özü-özlüyündə kapital itgisidir. O, dövriyəni də zəiflədir. Yox, əgər nəzarət varsa, amma bu nəzarət ədalətli yanaşmanı gözləmirsə, bu zaman iqtisadiyyatda rəqabətə maneəçilik yaranır. Və istənilməyən lüzumsuz narazıçılıqlara səbəb olur. Bu da dövlətlə özəl sektor arasında olan bağlılığın boşalmasına şərait yaradır. Digər istiqamət isə dövlətin öz iqtisadiyyatına nəzarətsiz qalması və yanaşmasıdır. Bu da iqtisadiyyatda anarxiyanın başlamasına aparan yolu göstərir.

İqtisadiyyatda özəl sektorun rolu dövlətin oynadığı roldan heç də geri qalmır. Özəl sektoru dövlətdən fərqləndirən əsas cəhətlər bunlardır ki, o həmişə yeniliyə açıqdır, yaradıcıdır, innovasiyaları tez mənimsəyir, çətin məqamda olsa belə özünə yollar axtarır, sərbəstliyə can atır və heç vaxt asılı olmaq

istəmir, baxmayaraq ki, o həmişə dövlətdən asılıdır. Özəl sektorun iqtisadiyyatda payı dövlətin yürütdüyü siyasətə əsaslansa da, o kifayət qədər iqtisadiyyata köməklik edir. İkinci dünya müharibəsindən sonra özəl sektor dünyanın bir çox ölkələrində yüksələn xətt üzrə inkişaf etməyə başladı. Bu da həmin dövlətlərin apardığı siyasətdən daha çox irəli gəlirdi.

Bəzən hər hansı bir dövlətin iqtisadiyyata düzgün tərzdə yanaşmadığı kimi, özəl sektorda da yanlış yanaşmalar olur. Onun əsas yanlışları isə bunlardır: qanunlardan yayınmaq istəməsi və buna hər zaman cəhdlər göstərməsi, öz maraqlarını hər şeydən üstün tutması, qanunda boşluqlar axtarması, bəzi dövlətlər kimi onun da hegemonluğa can atması və iqtisadiyyata dolayı yollarla təsir etmək istəməsi, qiymətlərlə oynaması, bir çox bu kimi hallar. Özəl sektor qanunlardan yayınmağa çox vaxt ona görə cəhd göstərir ki, öz mənfəətini daha da artırsın. Ancaq qanunlardan yayınmaqla o, öz ömrünü qısaldır və ona bəslənən etibarın üstündən xətt çəkmiş olur. Bu da uzunmüddətli fəaliyyət üçün heç də yaxşı nəticələrə gətirib çıxartmır. Həmçinin, özəl sektorun öz maraqlarını hər şeydən üstün tutaraq dövlətin maraqlarını arxa plana atması da yol verilməz hallardandır. Nə qədər onun öz maraqları öndə gəlsə də, iqtisadiyyatı qorumaq üçün dövlətin maraqları da nəzərə alınmalıdır. Yoxsa qarşılıqlı anlaşılmazlıq iqtisadiyyata gələcəkdə yaxşı fayda verməz.

Özəl sektorun yeniliklər, yeni ideyalar əvəzinə qanunlarda boşluqlar axtarması da əlavə vaxt itgisindən başqa heç nədir (istisna olaraq, nəticə etibarilə iqtisadiyyatın inkişafına səbəb olan qanundakı boşluqlar). Belə vəziyyətin olması da çox pis bir haldır. Özəl sektorun bəzən dövlət içində dövlətçilik etmək istəməsi halları da müşayiət olunur ki, bunu da dövlətin təməl prinsipləri üçün təhlükə saymaq olar. Çünki bu zaman onun iqtisadiyyata dolayı yollarla təsir etmək imkanları yaranır. Onda da yenə itirən tərəf iqtisadiyyat olur. İqtisadiyyatda həmçinin özəl sektorun qiymətlərlə oynaması gələcəkdə iqtisadiyyatın çökməsinə gətirib çıxara bilər. Bunlar isə nə iqtsadiyyata, nə dövlətə, nə də özəl sektora xoş heç nə vəd etmir.

Özəl sektorun iqtisadiyyata müsbət tərəfləri də var, bunlar aşağıdakılardır: özəl sektor vergi verir, büdcəni artırır, inkişafı sürətləndirir, işsizliyi dövlətdən alıb qismən öz öhdəsinə götürür, rəqabəti artırır, seçimi çoxaldır, keyfiyyəti yaxşılaşdırır, yeniliklər gətirir, bir çox zaman bazarı tənzimləyir və s. Onun vergi verməsi sayəsində dövlətin büdcəsi özünün dayanıqlığını artırır, ölkənin digər sahələrinə dövlətin də təsiri güclənir, dövlətin gücünə güc qatılır. Özəl sektorun olması iqtisadiyyatın inkişafını sürətləndirməklə kapital daxil olmalarını hər saniyə çoxaldır. O, dövlətin daim problem kimi baxdığı işsizlik sahəsində də dövlətin əlindən tutur. O nə qədər işçi qüvvəsini özündə cəmləşdirir. Bu da dövlətin problem kimi yanaşdığı sahədə onun yükünü azaltmış olur. Özəl sektor bazarda rəqabəti həmişə yaradır, (istəsə də, istəməsə də), maraqlar toqquşsa da belə (bəzən, bəzi istisnaları çıxmaq şərti ilə). Özəl sektor seçimi çoxaldır, bu onun yeniliklərə açıq olmasından irəli gəlir. Və bunun nəticəsində bazarda keyfiyyət də yaxşılaşır (təbii ki, dövlətin marağında olsa, onun nəzarəti altında). Özəl sektor özü də bilmədən bir çox hallarda bazarı tənzimləyir.

İqtisadiyyatda özəl sektor tərəfindən bazar imkanlarının aşkar edilməsi və qiymətləndirilməsi prosesi adətən çoxlu sayda ideyalar [1,səh.44] yaradır. Bunun nəticəsində də özəl sektor günü-gündən böyüyür, inkişaf edir, özü ayaq üstə durmağa çalışır.

Özəl sektorun dövlətlə oxşar cəhətləri də vardır. Beləki, dövlətdə olduğu kimi özəl sektor da kənar müdaxilələrdən özünü tam sığortalaya bilmir. Bu müdaxilələr isə hər zaman gözlənilməkdədir (o istəsə də, istəməsə də), məsələn; dövlətin siyasətimi olsun və ya dünyada baş verə biləcək qlobal hadisələrmi, yaxud təbii hadisələrmi olsun, bu və ya buna bənzər proseslər həmişə özəl sektorun qarşılaşması ehtimal olunan böyük təhlükələrdəndir. Belə hallar isə özəl sektora böyük çətinliklər yaradır, onu zəiflədir və inkşafına maneəçiliklər törədir.

İqtisadiyyatın inkişafı həm dövlətin, həm də özəl sektorun öz öhdəsinə düşən prosesləri layiqincə yerinə yetirməsindən asılıdır. Əgər bunlar yerinə yetirilərsə, o zaman inkişafdan danışmağa dəyər.

ƏDƏBİYYAT:

1. Fərhadi, P.O. Beynəlxalq biznes (dərs vəsaiti). Bakı Biznes Universitetinin nəşri, Bakı, 2017, 299 s.
2. Hacıyev, Ş., Bayramov, Ə. Beynəlxalq İqtisadiyyat (metodiki göstərişlər), Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2005, 104 s.
3. *İbadov, S.*A. İqtisadiyyat. Şərq-Qərb nəşriyyatı, Bakı, 2009, 414 s.
4. Kotler, F. Marketinqin əsasları. Bakı,"Ergün", 1993, 560 s.
5. Qradov, A.P. Milli İqtisadiyyat II nəşr (dərs vəsaiti, Rus dilindən tərcümə). Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2008, 232 s.
6. Mahmudov, İ.M., Zeynalov, T.Ş., İsmayılov, N.M. İqtisadi təhlil (dərslik). Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2010, 810 s.
7. Şıxəliyev, K. Ədalətli iqtisadi sistemin axtarışında. Bakı, 2018, 113 s.
8. Vəlizadə, X. İqtisadi diplomatiya (dərs vəsaiti). Naxçıvan, 2017, 130 s.

ANALYSIS OF PROGRESS OF RESEARCH, DEVELOPMENT AND INNOVATION IN HIGHER EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN

Mr. Ilgar Guliyev
ilgar.guliyev@hotmail.com
YEVLAKH, AZERBAIJAN

Abstract

Research, Development and Innovation (RDI) is an inseparable part of Higher Educational Institutions (HEIs). It has been proved that correlation exists between the progress of RDI and economic growth of a country. The aim of this paper is to examine the current situation and challenges of RDI at Azerbaijani HEIs. In order to do this, time-series and panel data analysis are employed, based on various researches and statistical sources. Data used in the research mainly covers 2007-2022 years, however, due to limited data for a couple of variables, the year 2005 and onwards were also applied. Although findings include huge advancement in a number of indicators, more involvement of women, as well as rising number of researches conducted by HEIs in this sector, research quality and innovation at HEIs are still regarded as low, with low H-index also evidenced by international ranking organizations.

Key words: Higher Education Institutions, Research, Development, Innovation

Introduction. Research, innovation and development are important features to promote quality education by the Higher Education Institutions (Guidelines, 2022). HEIs play a key role in transforming societies into a more sustainable future. Through the creation and dissemination of knowledge, research and education, HEIs are on the path to sustainable development (Wiley, 2021). In their study on "Higher Education Institutions and Development: Missions, Models and Challenges", Olo et al. (2021) argued that countries with the best results in higher education development indicators have the highest GDP and the best development indexes, concluding that one way to promote development is to invest more in higher education.

Research findings show that there is a one-way causality relationship from economic growth to R&D. Long-term rates are statistically strongly significant and have a positive value. If R&D shares in the GDP increases by 1%, the GDP growth rate will increase by 0.2630% (Samimi, 2010). The Times Higher Education World University Rankings (THE, 2022) also incorporates research (volume, income and reputation) as one of its five performance indicators for determining the ranking of universities worldwide. According to the World Bank (2021), research and development spending relative to GDP rose worldwide from 1.94% in 2007 to 2.2% in 2018. Paunescu et al. (2022) highlights that the discussion of the impact of research carried out by HEIs in the spheres of business and management plays a significant role for industry, economy and society at large.

Given the information presented above, the role of RDI seems obvious not only for HEIs, but also in economic development of countries, thus influencing the lives of their nations. Taking its importance into account, I decided to conduct a research on analyzing progress of RDI at HEIs in Azerbaijan. Indicators related to PhD and Doctor of Science programs, research and innovation rankings of HEIs, university-business relations, H-index, patenting, Technology Transfer Offices and a couple of other variables were included in the research based on the data and information taken from various national and international sources and previously conducted researches covering mainly 2007-2022 academic years.

Research methodology

According to the information taken from the State Statistical Committee of The Republic of Azerbaijan, the number of HEIs engaging in research rose from 39 in 2008 to 41 in 2014 and back to 37 in 2020. As for the number of the staff involved in the research at HEIs, figures changed radically starting with 1154 researchers in 2008 peaked at 7518 in the year 2020. Of all the researchers, while 60 were doctor of sciences and 331 were PhD candidates in 2005, these two indicators increasing tenfold within 12 years` time period, reached a peak of 623 and 3481 respectively in 2020. Volume of scientific and technical work performed by HEIs during 2005-2020 went up by more than 10 times as well, starting with less than 1.2 million manats (manat - Azerbaijani national currency) in 2005 reaching a peak of over 12 million manats in 2020.

Cost of fixed assets used in research and development by HEIs has also been steadily rising during 2005-2020 years. For detailed information, see the table below:

Table 1. Cost of fixed assets used in research and development by type of enterprise

Type of enterprise	2005	2010	2015	2020
Total, million manats	79.9	97.6	114.2	159.5
including				
Scientific-research organizations	65.7	75.6	78.8	120.8
HEIs	7.1	19.0	31.4	38.7
Others	7.1	3.0	4	0.0
Share of HEIs in the total cost of fixed assets used in R&D (%)	8.9	19.5	27.5	24.3

Source: Fixed assets used for research and development works (https://www.stat.gov.az/source/education/?lang=en)

In comparison, the cost of fixed assets used by HEIs in R&D in 2020 has been used over fivefold as much as that of 2005, with 38.7 million and 7.1 million manats respectively.

The share of HEIs on the distribution of domestic expenditures on research and development (R&D) by sectors has increased in the long-term by almost twice, with 6% of the total expenditures in 2005, reaching a peak of 11% in 2020 after falling to 4% in 2013. Of all the expenditures in this sector, the main proportion was spent to salaries ranging from 58% to 77% in different years. In the given time period, social insurance had also a high proportion within these expenditures with the 12-17% range. However, spending on equipment is one of the lowest with 2-3% range during the given time span. Figures for capital expenditures on R&D are not totally provided (but partially, for some years) by The State Statistical Committee.

The number of HEIs carrying out PhD programs has risen from a low of 26 in 2007 to a peak of 39 HEIs in 2020. The change in the number of PhD students at HEIs has also the same trend as the number of HEIs doing research such that the number of PhD students grew up steadily from 740 students in 2007 to 1753 (by 2.4 times rise) in 2020. During 2007-2020, admission to PhD studies has increased by approximately twice as well (from 193 to 388), whereas the figures for 2011, 2012, 2018 and 2019 were higher than that of 2020. Although, compared to 2007, figures for graduation in PhD studies has gone up by 140%, having fluctuated in the given time period, it is not reasonable to claim that there has been much progress in the long-term as the numbers in the previous years were much higher than that of 2020. Especially, the figures for 2009, 2015-2019 were much higher ranging from 273 to 411.

Figure 1. Some indicators for PhD studies at HEIs in Azerbaijan (2007-2020 years)



Source: Number of institutions carrying out PhD program (https://www.stat.gov.az/source/education/?lang=en)

The same indicators are scrutinized for "Doctor of Sciences (DSc)" program, too. From the statistical point of view, there has been a huge progress in the "Doctor of sciences" program at HEIs. Number of HEIs carrying out this program has more than doubled while the number of the participants of this program has risen more than 13 times (from 30 in 2007 to 411 in 2020). The year 2020 has also seen a tenfold increase for the admission to HEIs. As for the graduation, the year 2020 is roughly 6 times ahead of the year 2007 with 29 and 5 doctor of sciences respectively. For more information, see figure 2 below:

Figure 2. Some indicators for DSc program at HEIs in Azerbaijan (2007-2020 years)



Source: Number of institutions carrying out DSc program, Main indicators on DSc program (https://www.stat.gov.az/source/education/?lang=en)

Women are well represented in the R&D sector, with 8490 out of 14987 (roughly 57%) researchers in 2020. In comparison, this indicator accounted for 5780 women out of 11041 (nearly 52 %) total researchers in 2009.

The participation of universities in international research programs in Azerbaijan is low because of limited experience in developing complex, multidisciplinary project proposals, lack of capacity and experience due to limited experience in networking, developing global connections and etc. 86% of R&D studies are carried out by state research institutions, 9% by higher education institutions and 5% by the private sector. In comparison, in the USA, about 10% to 15% of total R&D were implemented by academic institutions (Science and Engineering Indicators, 2021). This division differs from experience in advanced economies, where private sector R&D spending is the main driver, followed by higher education institutions.

There is relatively little government funding for research in higher education in Azerbaijan making many universities highly dependent on tuition fees, limiting their ability to self-finance basic research activities (ETF, 2020).

Most of the knowledge produced in Azerbaijan is not disseminated abroad. Most documents are not cited: out of 1,093 documents cited in 2017, only 172 (15%) were cited. In terms of documents cited, Azerbaijan ranks 91st out of 239 countries. Low citation level and low H-index indicate that these publications are of relatively low quality. The share of publications published in universities in Azerbaijan is increasing due to the increased activity of universities in the field of research; this points to the potential for growth in more supported and improved research results. In 2017, 42% of the publications in Azerbaijan were produced by universities, compared to 39% in 2013 (ETF, 2020).

Azerbaijan's R&D investment produces small innovation results measured by patents. Patents are a frequently used indicator to evaluate whether higher education institutions or countries are successful in transforming public research into innovation. According to World Bank, patent applications from Azerbaijan nearly went down by roughly twice, from 287 in 2007 to 147 in 2019.

HEIs support the functioning of various business incubators and provide them with access to the research infrastructure of higher education institutions. A few Azerbaijani universities have established TTOs (Technology Transfer Offices), which is a positive signal, but TTOs are still unable to effectively fulfill their mandate to support the commercialization of research. As of 2018, no universities in Azerbaijan have allocated funds or experts to carry out expensive intellectual property registration mainly related to the registration of international patents.

In Azerbaijan, it is common for researchers to be awarded higher promotion "points" for what they publish in scientific journals, however, positive progress has been made at several universities (including UNEC, ADA University, and BSU) that have implemented diversified payment systems and incentive mechanisms to engage researchers in commercially viable research mainly funded by the universities themselves, and depending on the will of the rector. Research in applied industry needs more private sector and government support to fully realize the potential opportunities for commercialization of ideas created in Azerbaijani HEIs (ETF, 2020).

When it comes to global rankings of Azerbaijani HEIs according to research and innovation rank (as well as overall rank, excluding societal rank of HEIs), Scimago institutions rankings (a classification of academic and research-related institutions ranked by a composite indicator, combining three different sets of indicators based on research performance, innovation outputs and societal impact measured by their web visibility according to the information presented on its official website) is looked through to analyze the results during 2009-2022 in table 2:

Table 2. Rankings of Azerbaijani universities for research and innovation, including overall rank

Years	Number of HEIs included in the ranking	Name of HEI	Research rank	Innovation Rank	Overall rank
2009	1	Azerbaijan Medical University	669	481	913
2013	1	Baku State University	501	438	726
2017	1	Baku State University	472	426	696
2020	1	Baku State University	479	540	849
2021	3	Baku State University	465	541	852
		Azerbaijan State Oil and Industry University	459	547	855
		Azerbaijan Medical University	517	547	899
2022	4	Azerbaijan State University of Economics	399	443	708
		Azerbaijan University	410	443	719
		Baku State University	466	437	766
		Azerbaijan State Oil and Industry University	467	436	769

Source: Scimago Institutions Rankings (https://www.scimagoir.com/rankings.php?sector=Higher%20educ)

According to table 2, only one HEI – Baku State University is seen in each year in the given time period with the exception of the year 2009, while Azerbaijan Medical University and Azerbaijan State Oil and Industry University have been included in the list twice so far. Unlike them, two new HEIs, namely Azerbaijan University and Azerbaijan State University of Economics were placed in the ranking in 2022 for the first time in the given time span. At first glance, looking at the increasing number of HEIs over the last two years, there may be a connotation of progress, but digging deeper into the picture, I assume that the same approaches and activities and appropriate steps have not been taken appropriately or sufficiently by these HEIs to secure their place in the global ranking lists. That is possibly the main reason of why most times the same HEI cannot be incorporated in the list for two consecutive years which can be another research question in the future in order to seek for gaps in RDI at Azerbaijani HEIs.

Conclusion.

A number of indicators rose remarkably in the given time period, including cost of fixed assets used in R&D; the share of HEIs on the distribution of domestic expenditures on R&D; the number of HEIs carrying out PhD programs; the number of PhD students; graduation in PhD studies; number of HEIs carrying out DSc program; number of the participants of DSc program; admission to DSc program; graduation from DSc. However, the participation of Azerbaijani HEIs in international research programs has been low. Only 9% of R&D studies were carried out by HEIs. Moreover, most of the knowledge produced in Azerbaijan is not disseminated abroad, most documents are not cited. Publications are regarded as relatively low quality due to low citation level and low H-index. Patent applications from Azerbaijan nearly went down by roughly twice during 2007-2019. Yet, a couple of universities have implemented diversified payment systems and incentive mechanisms to engage researchers in commercially viable research mainly funded by the universities themselves. Seemingly, most times a same HEI cannot be incorporated in the global rankings list for two consecutive years. Briefly, RDI has gained progress only at some universities in Azerbaijan, whereas the quality of work fulfilled in the RDI sphere at Azerbaijani HEIs in general does not coincide with the rising quantity of researches at HEIs throughout the country.

REFERENCES

1. Abdelaziz Jaouani, Margareta Nikolovska, Mihaylo Milovanovitch and Susanne Nielsen (2020). Policies for human capital development Azerbaijan. Retrieved March 16, 2022, from https://www.etf.europa.eu/en/publications-and-resources/publications/trp-assessment-reports/azerbaijan-2020
2. The State Statistical Committee of the Republic of Azerbaijan (2021). *Education, Science and Culture*. Retrieved April 05, 2022 from https://www.stat.gov.az/source/education/?lang=en
3. Scimago Institutions Rankings. Retrieved April 10, 2022 from https://www.scimagoir.com/rankings.php?sector=Higher+educ.&country=AZE
4. C. Păunescu et al. (eds.), Social Innovation in Higher Education, Innovation, Technology, and Knowledge Management, 2022. Retrieved April 10, 2022 from https://www.researchgate.net/publication/357512147_Fostering_Research_with_Societal_Impact_in_Higher_Education_Institutions_A_Review_and_Conceptualization
5. 5. World Bank (n.d.). *Patent applications, residents – Azerbaijan*. Retrieved April 10, 2022 from https://data.worldbank.org/indicator/IP.PAT.RESD?locations=AZ

KREDİT EKOSİSTEMİ TRENDLƏRİ: SİTUATİV TƏHLİL VƏ İQTİSADİ İNKİŞAFA TƏSİRLƏRİ

Ayaz Rafik oğlu Museyibov,
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,
Azərbaycan Texniki Universitetinin müəllimi
e-mail: ayaz.museyibov@unec.edu.az
rafigoglu.ayaz@gmail.com
İlkin Yaşar oğlu Ağayev,
Azərbaycan Dövlət İqtisad Universiteti, MBA
e-mail: agayev.ilkin@gmail.com
Ayhan Seyit oğlu Satıcı,
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,
e-mail: ayhan-satici@unec.edu.az
asatiji2019@gmail.com

BAKI, AZƏRBAYCAN

Xülasə

2015-ci ildə baş vermiş ardıcıl iki devalvasiya ölkənin bank sektorunda ciddi çağırışlar formalaşdırdı. Qeyri-işlək kreditlərin 3 dəfəyə yaxın artması fonunda bank sektorunda strateji inkişaf proqramları icra edildi. Bu araşdırmanın əsas məqsədi inkişaf trendlər ilə yanaşı, kredit ekosisteminin timsalında bank sektorunun qarşılaşdığı risklərin və mövcud vəziyyətin təhlili və potensial inkişaf imkanlarının

öyrənilməsidir. Bu məqalədə Azərbaycanın bank sektorunda kredit ekosisteminin cari vəziyyətinin təhlili aparılır, gələcək inkişaf perspektivləri tədqiq edilməklə, bank sektorunda sabitliyin gücləndirilməsi istiqamətində müvafiq təkliflər verilir. Kredit ekosisteminin iqtisadi inkişafa təsirləri üzrə qlobal təcrübənin və ölkədə kredit ekosistemi və iqtisadi inkişaf arasındakı əlaqələrin təhlili aparılmışdır.

Abstract

Two consecutive devaluations in 2015 created serious challenges for the country's banking sector. Against the background of a nearly threefold increase in non-performing loans, strategic development programs have been implemented in the banking sector. The main purpose of this study, along with development trends, is to analyze the risks and current situation faced by the banking sector in the example of the credit ecosystem and to study potential development opportunities. This article analyzes the current state of the credit ecosystem in the banking sector of Azerbaijan, examines the prospects for future development and makes relevant proposals to strengthen stability in the banking sector. An analysis of global experience on the impact of the credit ecosystem on economic development and the relationship between the credit ecosystem and economic development in the country was conducted.

Резюме

Две последовательные девальвации в 2015 году создали серьезные проблемы для банковского сектора страны. На фоне почти трехкратного увеличения проблемных кредитов в банковском секторе были реализованы программы стратегического развития. Основная цель исследования - проанализировать текущую ситуацию и потенциальные возможности развития банковского сектора на примере кредитной экосистемы, а также тенденции развития. В данной статье анализируется текущее состояние кредитной экосистемы в банковском секторе Азербайджана, исследуются перспективы дальнейшего развития и вносятся соответствующие предложения по укреплению стабильности в банковском секторе. Проведен анализ мирового опыта влияния кредитной экосистемы на экономическое развитие и взаимосвязи кредитной экосистемы и экономического развития в стране.

Açar sözlər: *Bank sektoru, kredit ekosistemi, real sektor, iqtisadi inkişaf, qeyri-işlək kreditlər*

Key words: *Banking sector, credit ecosystem,real sector, economic development, non-performing loans*

Ключевые слова: *Банковский сектор, кредитная экосистема, реальный сектор, экономическое развитие, проблемные кредиты*

Giriş

2014-cü ilin sonlarından etibarən dünya və ölkə iqtisadiyyatında baş verən proseslər, ölkədə milli valyutanın məzənnəsinin ucuzlaşması maliyyə-bank sisteminə əhəmiyyətli dərəcədə mənfi təsir etmiş, bir sıra bankların bağlanmasına, həmçinin xarici valyutada götürülmüş kreditlərin qaytarılmasında problemlərin yaranmasına səbəb olmuşdur. 06 dekabr 2016-cı il tarixli Fərmanla təsdiq edilmiş "Maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin icrası, həmçinin bank sisteminin maliyyə dayanıqlığının qorunub saxlanılması məqsədilə tənzimləyici və normativ-hüquqi bazanın möhkəmləndirilməsi, risklərin idarə edilməsi potensialının gücləndirilməsi, kapitallaşma səviyyəsinin artırılması istiqamətində həyata keçirilmiş tədbirlərin icrası öz müsbət nəticələrini göstərmişdir. Son 5 il ərzində Azərbaycan özünün maliyyə sabitliyi siyasətini dünya iqtisadiyyatında artım, əhəmiyyətli qlobal risklərin qalması, dünya maliyyə və əmtəə bazarlarında qeyri-sabitlik, əlavə olaraq regionda siyasi gərginliklərin artması şəraitində həyata keçirmişdir. Makroiqtisadi sabitliyin qorunması və iqtisadiyyatın diversifikasiyası şəraitində ölkə öz fəaliyyətini inflyasiyanın optimal səviyyədə saxlanılması, manatın məzənnəsinin sabitliyi, bank-maliyyə sektorunda inkişafın və dayanıqlığın möhkəmləndirilməsi kimi hədəflərin həyata keçirilməsinə yönəltmişdir. Hazırda qarşıda duran əsas məqsəd isə daxili və xarici şoklara qarşı dayanıqlı, risk idarəetməsi proseslərinə dərindən fokuslanmış, effektiv tənzimləmə, şəffaf korporativ idarəetmə və güclü infrastruktur elementləri ilə əhatə olunmuş, iqtisadi inkişafa dəstək verən maliyyə-bank sistemi formalaşdırmaqdır. Bu baxımdan da, ölkədə bankçılıq fəaliyyətlərinin əsasını təşkil edən kredit ekosisteminin sağlamlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat metodu

Aparılan təhlillərdən də məlum olduğu üzrə araşdırma zamanı əsasən kəmiyyət göstəricilərinə əsaslanan analitik tədqiqat metodu seçilmişdir. Toplanan kəmiyyət datalarının təsviri analitik göstəricilərə çevrilməsi ölkənin bank sektorunda baş vermiş hadisələrin və trendlərin müqayisəli şəkildə izah edilməsinə xidmət edir. Bundan əlavə olaraq, empirik təsviri analizlərdə toplanan dataların və dəyişənlərin təyin edilməsi maliyyə və bank sektoru üzrə beynəlxalq təcrübələrə və ədəbiyyatda mövcud olan materiallar əsasında əldə

edilmişdir. Həmçinin, məlumatların və dataların doğruluq və etibarlılığının yüksək olması üçün Mərkəzi Bank, Dünya Bankı və bir başa bankların açıqladığı məlumatlara müraciət edilmişdir. Təhlil metodu əsasən analitik təhlilə və empirik təsviri analizlərə əsaslanır. Həmçinin, müqayisəli təhlilin əldə edilməsi üçün müvafiq dövrlər üzrə qarşılaşdırmaların aparılması da məqsədəuyğun sayılmışdır.

Bank sistemində mövcud vəziyyətin situativ təhlili

Ötən dövr ərzində ölkədə həyata keçirilmiş tədbirlər nəticəsində makroiqtisadi sabitlik bərpa edilmiş, maliyyə-bank sisteminin dayanıqlılığının artırılması istiqamətində mühüm irəliləyişlərə nail olunmuş, ümumi iqtisadi artımın güclənməsi fonunda bank sektorunda uzun müddət müşahidə olunan durğunluq aktivliklə əvəz olunmuşdur. Bank sektorunun aktivləri 2021-ci ilin ilk 6 ay ərzində 2.5 milyard manat artaraq 33 milyard manat səviyyəsinə çatmışdır ki, bu da 2020-ci illin ilk 6 aylıq müqayisəsində 8.27 faizlik artım deməkdir. Digər mühüm bir göstərici kimi isə 2016-cı ildə bank sektorunun xalis zərəri 1.6 milyard manat təşkil etdiyi halda, 2020-ci ilin yekunları üzrə 567 milyon manat xalis mənfəət əldə edildiyini qeyd edə bilərik. Həmçinin, 2018-cu ilə nəzərən 2020-ci il ərzində cəmi aktivlərin qeyri-neft ÜDM-ə nisbəti 0.51 % artaraq 71,45 %-ə çatmışdır. Ötən müddət ərzində bank sektorunda başlayan canlanma işçi sayında da öz əksini tapmışdır. Belə ki, Mərkəzi Bankın 2021-ci ilin iyul ayına olan rəsmi statistikasına əsasən 2018-cı ilin sonu ilə müqayisədə bank sektorunda işçi sayı 10.07 % artmışdır (19,169-17,415) ki, bu da sektorda əhəmiyyətli canlanmanın baş verdiyini göstərir [1]

Bank sisteminin maliyyə göstəricilərinin təhlili də ötən müddət ərzində banklarda dayanıqlılıq göstəricilərinin artdığını göstərir. Aktivlər və kapital üzrə gəlirlilik əmsalları da son 1 il ərzində müsbət rəqəmlərlə ifadə olunmuşdur. Azərbaycan Banklar Assosiasiyasının müvafiq məlumatlarının təhlili onu göstərir ki, sektorda 2016-cı ildə zərərlə işləyən banklar sektorun 50 faizini təşkil edirdisə (16 bank), 2021-ci ilin 1-ci rübünün nəticələrinə əsasən bu göstərici cəmi 8 faiz (2 bank) olmuşdur. [2]

İcra olunmuş tədbirlər və qəbul olunmuş normativ-hüquqi sənədlər maliyyə sektorunun sabitliyini artırmaqla bərabər, yerli maliyyə instutlarının da güclənməsi və bazar inamının artmasına şərait yaratmışdır. Bununla belə, müvafiq dövr ərzində əldə olunmuş nailiyyətlərə baxmayaraq, bank sektorunda hələ də risk, çağırış və inkişaf potensialları qalmaqdadır. Xarici investisiyaların sektorda xüsusi çəkisi azalmış və bu bankların sayı 15-dən 12-ə düşmüşdür. Xarici kapitallı bankların iqtisadiyyata kredit qoyuluşunda xüsusi çəkisi isə 2015-ci ilin sonu ilə müqayisədə 8% azalmaqla 21%-ə enmişdir. 2016-cı ildən etibarən isə ölkədə ayrı-ayrı maliyyə institutlarının sağlamlaşdırılması və fəaliyyətinin tənzimlənməsi məqsədilə mikroprudensial siyasət çərçivəsində 17 bank və 74 bank olmayan kredit təşkilatının (kredit ittifaqları daxil olmaqla) fəaliyyətinə xitam verilmiş və ya müflis elan olunmuş, 2 bank isə konsolidasiya olunmuşdur. Həmçinin, 31 iyul 2021-ci il tarixinə isə bank aktivlərinin həcmi 33 milyard 668 milyon manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq göstəricilərindən 2,2 milyard manata yaxın çoxdur.[3]

Kredit portfellərinin dollarizasiyası və qısamüddətli kreditlər problemi

Ötən müddət ərzində islahat tədbirləri nəticəsində, kredit portfellərinin keyfiyyət göstəricilərinə, yəni dollarlaşmanın artım sürətinin dayanması və əks proseslə əvəz olunmasına səbəb olmuşdur.



Qrafik 1. Cəmi kredit qoyuluşunda milli və xarici valyutanın xüsusi çəkisi

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf

Xarici valyutada kreditlərin artmasının qarşısının alınması, üzrə aparılmış stabilləşdirmə tədbirləri nəticəsində kredit portfellərində xarici valyutaların xüsusi çəkisi önəmli dərəcədə azalmışdır. Belə ki, kredit qoyuluşlarının ümumi tərkibində xarici valyutaların xüsusi çəkisi devalvasiyadan öncəki göstəricilərdən (27,16 faiz) də aşağı səviyyəyə (26,93 faiz) düşmüşdür.

Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)							
İl, ay	Cəmi	Milli valyutada kreditlər			Xarici valyutada kreditlər		
		Cəmi kreditlər	Xüsusi çəkisi	o cümlədən: vaxtı keçmiş	Cəmi kreditlər	Xüsusi çəkisi	o cümlədən: vaxtı keçmiş
2013-cü il	15422,9	11076,7	71,82%	627,4	4346,3	28,18%	165,4
2014-cü il	18542,6	13505,7	72,84%	767,6	5037,0	27,16%	208,8
2015-ci il	21730,4	10994,5	50,60%	840,2	10735,9	49,40%	668,3
2016-cı il	16444,6	8663,1	52,68%	682,4	7781,4	47,32%	790,2
2017-ci il	11757,8	6953,6	59,14%	789,3	4804,2	40,86%	837,5
2018-ci il	13020,3	8073,6	62,01%	774,1	4946,7	37,99%	810,9
2019	15298.2	10000,8	65,37%	702,4	5297.4	34.63%	570.7
2020	14530.4	10204,0	70,22%	653,9	4326.4	29.78%	239.3
Yanvar, 2021	14587.2	10299.5	70.61%	647,6	4287.7	29.39%	252.8
Fevral, 2021	14619.7	10407.7	71,19%	666.8	4212	28.81%	250.7
Mart, 2021	14728.0	10575.0	71,80%	668.9	4153	28.20%	249.2
Aprel, 2021	14987.5	10836.4	72,30%	699.3	4151.1	27.70%	222.2
May, 2021	15067.1	10927.0	72,52%	685.5	4140.1	27.48%	221.4
İyun, 2021	15258.1	11148.4	73,07%	694.1	4109.6	26.93%	220.4
İyul, 2021	15367.7	11251.5	73,22%	712.3	4116.1	26.78%	225.2

Cədvəl 1. Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf

Statistikaların təhlilindən aydın olur ki, ölkədə xarici valyutada verilmiş kreditlər üzrə qeyri-işlək kredit əmsalı 2018-ci ildə millli valyutaya nəzərən təxminən 1.5 dəfədən çox yüksək olduğu zaman bu əmsal növbəti illərdə fərq daha da azalaraq bərabərləşmə vəziyyətinə yaxınlaşmışdır. Ən yüksək xüsusi göstərici isə 2017-ci ildə xarici valyutada verilmiş uzunmüddətli kreditlər üzrə qeydə alınmışdır (18,18%).

Təhlillər onu göstərir ki, milli valyutada verilmiş kreditlərdə uzunmüddətli kreditlər üzrə QİK əmsalı, xarici valyutada verilmiş kreditlər üzrə isə qısa müddətli kreditlər üzrə daha yüksəkdir.

Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)						
İl, ay	Milli valyutada kreditlər			Xarici valyutada kreditlər		
	Cəmi kreditlər	Qısamüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı	Uzunmüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı	Cəmi kreditlər	Qısamüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı	Uzunmüddətli kreditlər üzrə qeyri-işlək kredit əmsalı
2013-cü il	11076,7	12.53 %	3.87 %	4346,3	7.15 %	2,75%
2014-cü il	13505,7	12.07 %	4.24 %	5037	6.31 %	3,28%
2015-ci il	10994,5	15.12 %	6.20 %	10735,9	8.65 %	5,04%
2016-cı il	8663,1	10.82 %	7.33 %	7781,4	9.12 %	10,54%
2017-ci il	6953,6	15.96 %	10.55 %	4804,2	14.82 %	18,18%
2018-ci il	8073,6	10.45 %	9.39 %	4946,7	14.47 %	17,00%
2019-cu il	10000,8	6.39 %	7.15 %	5297,4	9.53 %	11,16%
2020-ci il	10204.0	5.39 %	6.62 %	4326,4	5.65 %	5,51%
Yanvar, 2021	10299,5	5.39 %	6.48 %	4287,7	6.45 %	5,78%
Fevral, 2021	10407,6	5.18 %	6.67 %	4212,0	7.01 %	5,75%
Mart, 2021	10575,0	4.92 %	6.63 %	4153,0	7.12 %	5,78%
Aprel, 2021	10836,4	5.61 %	6.64 %	4151,1	7.21 %	4,98%
May, 2021	10927,0	4.79 %	6.59 %	4140,1	7.08 %	5,01%
İyun, 2021	11148,4	4.77 %	6.54 %	4109,6	6.90 %	5,05%
İyul,2021	11251,5	4.69 %	6.69 %	4116,1	7.25 %	5,10%

Cədvəl 2. Kredit təşkilatlarının müddətlər üzrə kredit qoyuluşları (dövrün sonuna)
Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı
https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf

Kreditlərin müddəti ilə bağlı isə onu qeyd edə bilərik ki, ölkə banklarının kredit portfelinin əsas hissəsini uzunmüddətli kreditlər təşkil etmişdir. Lakin bank sektorunun əsas maliyyə mənbəyini təşkil edən depozitlər üzrə statistikalar cəlb olunmuş vəsaitlərin qısamüddətə cəlb olunduğunu göstərir. Bu isə sektorun dayanıqlı fəaliyyəti üçün ciddi çağırış və risklər yarada bilər. [4]

Kreditlərin müddətlər üzrə ümumi həcmi və cəmi kredit portfelində xüsusi çəkisi				
Tarix	**Qısamüddətli kreditlər**	**Xüsusi çəkisi**	**Uzunmüddətli kreditlər**	**Xüsusi çəkisi**
2013-cü il	3335,5	21,63%	12087,4	78,37%
2014-cü il	3931,4	21,20%	14611,3	78,80%
2015-ci il	5297,3	24,38%	16433,1	75,62%
2016-cı il	3477,9	21,15%	12966,6	78,85%
2017-ci il	2101,3	17,87%	9656,5	82,13%
2018-ci il	2695,1	20,70%	10325,2	79,30%
2019-cu il	2918,7	19,08%	12379,4	80,92%
2020-ci il	2474,9	17,03%	12055,5	82.97%
Yanvar, 2021	2565,6	17,59%	12021,6	82,41%
Fevral, 2021	2530,7	17,31%	12089,0	82,69%
Mart, 2021	2577,6	17,50%	12150,5	82,50%
Aprel, 2021	2622,1	17.50%	12365,4	82,50%
May, 2021	2605,7	17,29%	12461,4	82,71%
İyun, 2021	2658,2	17,42%	12599,9	82,58%
İyul,2021	2727,8	17,75%	12640,0	82,25%

Cədvəl 3: Kreditlərin müddətlər üzrə ümumi həcmi və cəmi kredit portfelində xüsusi çəkisi *Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı*
https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf

Ümumilikdə isə devalvasiyadan öncəki və son 3 ilin təhlili xarici valyutada kreditlər üzrə QİK əmsalının milli valyutada kreditlər üzrə göstəricilərdən spredinin o qədər də yüksək olmadığını, lakin devalvasiya öncəsi göstəricilərdə 2 dəfəyə yaxın fərqin olduğunu (Xarici valyutada QİK-in lehinə olmaqla) göstərir. Belə ki, son illərdə kredit ekosistemi ilə bağlı icra edilmiş maliyyə dəstəyi tədbirləri əsasən xarici valyutada olan kreditləri təşkil etsə də, bu kreditlər üzrə QİK əmsalında daha az azalma baş vermişdir.

Kredit faizlərinin müqayisəli təhlili

Ölkədə kredit faizlərinin dərəcələrinin nisbətən yüksək olması biznesin maliyyə resursları ilə təminatını əngəlləyir. Kredit faizlərinə təsir edən əsas makroiqtisadi amillərə isə bankların cəlb etdikləri maliyyə resurslarının bahalığı kimi amillər təsir göstərir.



Qrafik 2. Bir sıra region ölkələri, inkişaf etmiş və zəif inkişaf etmiş ölkələrin timsalında kredit faizlərinin müqayisəli dinamikası (2020-ci ilin yekunları üzrə)
Mənbə: Dünya Bankı
https://data.worldbank.org/indicator/FR.INR.LEND?view=chart

Bəzi ölkələr üzrə faiz dərəcələrinin müqayisəsi ötən müddət ərzində faiz dərəcələrinin əsaslı şəkildə aşağı düşdüyünü göstərir ki, bu cür uğurlu nümunələrə Çexiya, İsrail, İtaliya, Cənubi Koreya, Rusiya Federasiyasını kimi ölkələri göstərmək olar[5].



	Azərbaycan	Belarusiya	İsveçrə	Çexiya	Gürcüstan	İsrail	İtaliya	Qırğızstan	Koreya	Moldova	Ukrayna	Zambiya	Ermənistan
2013	18.21	19.13	2.69	4.97	13.6	4.42	5.14	21.32	4.64	12.29	16.65	9.52	16
2020	17.18	9.03	2.64	3.34	11.8	3.4	2.33	17.04	2.8	8.18	14.29	9.48	11.62

Qrafik 3. Kredit faizlərinin Dinamikası

Mənbə: Dünya Bankı

https://data.worldbank.org/indicator/FR.INR.LEND?locations=UA&view=chart

Ümumilikdə, müşahidə və təhlillərimizin nəticəsi olaraq, bank sektorunun kredit ekosistemində faiz dərəcələrinin nisbətən yüksək olmasının bir neçə səbəblərini qeyd etmək mümkündür. İlk öncə, ölkə bankların depozit bazasından asılılığı yüksəkdir. Bu asılılığın azaldılması və diversifikasiya kanallarının genişləndirilməsi istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır. Digər tərəfdən kredit faizlərinin formalaşmasına təsir edən amil kimi əməliyyat xərclərini də nəzərə aldıqda, kreditin ayrılmasına çəkilən xərclərinin kifayət qədər yüksək olduğu məlum olur. Əməliyyat xərcləri dedikdə isə, işçilərin və filialların saxlanılması xərcləri, kredit qərarının verilməsi ilə bağlı xərclər (yaşayış, iş yerinə baxışın keçirilməsi, sənədləşmələr və s.), həmçinin maliyyə bazarına nəzarət orqanına ödənişlər nəzərdə tutulur. **İqtisadi qanunauyğunluğa uyğun olaraq, yüksək risklər fonunda maliyyə təşkilatları yüksək gəlirlərin əldə edilməsi, həmçinin qeyri-işlək kreditlərinin kompensasiya edilməsi məqsədilə yüksək faizlər təyin etmək məcburiyyətində qalır.** Bankların aidiyyəti şəxslərlə aparılan əməliyyatlarında şəffaflığın yüksəldilməsi də həlli mühüm olan amillərdəndir.

Dünya Bankının məlumatına əsasən, kredit faizlərinin nüsbətən yüksək olmasına baxmayaraq, Azərbaycanda *spred* (kredit faizi ilə depozit faizi arasındakı fərq) göstəricisi 2020-ci ildə 8.49% olmuşdur. Qeyd edək ki, 2018-ci illin göstəricilərinə baxdıqda 1.32% artım müşahidə edilməkdədir və nəticədə region ölkələri ilə müqayisə aparıldıqda müvafiq göstərici yüksəkdir. Örnək olaraq, 2020-ci ildə spredin Belarusda 2.42%, Gürcüstanda 1.58%, Rusiyada 3.01%, Moldovada 4.35% olduğunu qeyd edə bilərik. [6]

Qrafik 4. Ölkələr üzrə faiz dərəcəsi spredi (2020-ci ilin göstəriciləri üzrə)

Mənbə: Dünya Bankı https://data.worldbank.org/indicator/FR.INR.LNDP?locations=AZ&view=chart



Ümumilikdə faiz spredlərinin ölkələr üzrə müqayisəsinə dair vahid metodoloji yanaşma olmasa da, statistikaların təhlili əksər hallarda inkişaf etmiş ölkələrin daha aşağı faiz spredlərinə malik olduğunu, bəzi hallarda isə bu göstəricinin mənfi (Niderland) olduğunu, nisbətən zəif və qeyri-stabil

maliyyə sisteminə malik ölkələrdə isə (Qırğızıstan, Madaqaskar və s.) bu fərqlərin yüksək olduğunu göstərir. Bu istiqamətdə qabaqlayıcı tədbir kimi istehlak və biznes kreditlərinin ayrı-ayrı növləri üzrə faizlərin maksimum həddi ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsi də mümkündür. Qeyd olunan məsələyə yanaşmada beynəlxalq təcrübədə müxtəlif şərhlər *(uğurlu və uğursuz metod olması ilə bağlı)* və effektivliyinə şübhələr olsa da, müvafiq yanaşmanın ilkin sınaq kimi müəyyən sektorlar üzrə və nisbətən aşağı faizlər tətbiq etməklə "yumşaq mexanizm"in təmin edilməsi mümkündür.

Kredit qoyuluşunun sektorlar üzrə analizi r**egion ölkələri ilə müqayisədə ölkədə bankların real sektorun maliyyələşdirilməsinə nəzərən istehlak kreditlərinə daha çox vəsait ayırdığını göstərir. Bu isə ölkədə pandemiyanın da yaratdığı əlavə çətinlikləri də nəzərə alaraq makroiqtisadi vəziyyətin biznes subyektlərinin fəaliyyəti üçün qənaətbəxş olması, dövlət dəstəyi ilə ayrılan güzəştli vəsaitlərin həcminin artırılması, biznes subyektlərinin şəffaf hesabatlılığına dəstək tədbirlərinin gücləndirilməsi və s. istiqamətində tədbirlərlə aradan qaldırıla bilər.** Ümumilikdə, ötən 5 il ərzində real sektora kredit qoyuluşu üzrə ən böyük azalma inşaat və əmlak sektoru üzrə baş vermişdir. 2015-ci illə müqayisədə bu sektor üzrə kredit qoyuluşlarında 74.81 faizlik azalma olmaqla sektora kredit qoyuluşlarının həcmi 3 milyard 63 milyon manatdan 771.53 milyon manatadək kəskin azalmışdır. Həmçinin, müvafiq dövr ərzində energetika, kimya və təbii ehtiyatlar sektorunda kredit qoyuluşlarının həcmində 134 faizlik artım müşahidə edilmişdir. 2015-ci il müddəti olan dövrlə müqayisədə cari dövrdə (energetika, kimya və təbii ehtiyatlar və kənd təsərrüfatı və emal istisna olmaqla) bütün real sektor sahələri üzrə kredit qoyuluşlarında azalmalar olmuşdur. Həmçinin, real sektora cəmi kredit qoyuluşlarında müvafiq dövrün kredit qoyuluşları devalvasiyadan öncəki dövrün kredit qoyuluşlarının həcmindən 17 % azdır.



Qrafik 5. Real sektora kredit qoyuluşu üzrə Dinamika
Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı
https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf

Sürətlə inkişaf edən Finteklərin kredit ekosisteminə potensial təsirləri

Beynəlxalq təcrübənin təhlili onu göstərir ki, bankın biznes modelləri və xidmətləri Fintek inovatorları tərəfindən bir çox cəhətdən dəyişikliklərə məruz qalır. Belə ki, banklar müştərilərə xidmət üsullarını təkmilləşdirilmiş məhsul və xidmətlərlə dəyişirlər. Bunun səbəbləri isə ilk növbədə Fintek kimi rəqiblərin daha yüksək kapital tələbləri və təzyiqləri ilə və yeni texnologiyaların ortaya çıxması ilə bağlıdır. Bu baxımdan Finteklərin yaratdığı əsas trendlər isə aşağıdakılardır:

— Daha az fiziki şöbə;
— Kiçik orta biznes (KOB) və fiziki şəxslər üçün daha az fiziki əlaqəyə əsaslanan bankçılıq;
— Daha çox özünə-xidmət məhsulları;
— Daha az gəlirli bəzi seqmentlərdən və məhsullardan geri çəkilmə.

Kredit imkanları və fəaliyyətlərində fərqlərin harda yaranmasının daha yaxşı başa düşmək üçün bankların və Fintek firmalarının oxşar fəaliyyətlərinin necə həyata keçirdiyini müqayisə etmək faydalıdır. Şübhəsiz ki, bütün bank xidmətləri texnoloji inkişafdan və innovativ yeniliklərdən eyni dərəcədə təsirlənmirlər.

Citigroup tərəfindən aparılan araşdırmalar da göstərir ki, fərdi, KOB və korporativ bankçılıq, qlobal bankların daxilində öz gəlirlərinin böyük hissəsini kreditləşmə fəaliyyətindən, ardınca qənaət və investisiyalardan əldə edirlər. Bəzi təhlillər onu göstərir ki, bu mənfəət səviyyəsi ilə izah oluna bilər, harada ki, xidmət mürəkkəbliyi investisiya bankçılığı sektorundan aşağı ola bilər və beləliklə də, avtomatlaşdırmaya daha həssasdır. [7]

Fintek kredit ekosistemi, onlayn rəqəmsal platformalar vasitəsilə fiziki şəxslərə və müəssisələrə borc maliyyələşdirməsini təmin edən müxtəlif alternativ kredit modellərini əhatə edir. Bu modellər, bankların üstünlük təşkil etdiyi ənənəvi borc bazarındakı boşluqlara cavab olaraq inkişaf etmişdir. Fintek krediti, kreditorlarla (investorlarla) borcalanları uyğunlaşdıran və " P2P (peer-to-peer) krediti", "kredit əsaslı kraudfandinq" və ya "bazar krediti" adlandırılan fəaliyyətləri əhatə edən platformalar tərəfindən asanlaşdırılan bütün kredit fəaliyyətləri olaraq təyin edilə bilər. Bura borcalanlar və kreditorlar arasında vasitəçilik etmək üçün öz balans hesabatından istifadə edən platformalar da daxildir. 'Bigtek' tez-tez Fintek kredit bazarının qiymətləndirmələrinə daxil edilir. Bigtek əsas fəaliyyəti maliyyə xidmətlərindən daha çox rəqəmsal xidmət göstərmək olan böyük şirkətlərə aiddir. Bigteklər maliyyə məhsullarını yalnız maliyyə xidmətləri daxilində fəaliyyət göstərən Fintek şirkətləri ilə müqayisədə daha geniş biznes proseslərinin yalnız bir hissəsi olaraq təqdim edirlər. Başqa sözlə, maliyyə, bigteklər üçün maliyyə fəaliyyətləri qeyri-maliyyə fəaliyyətlərinə paralel bir fəaliyyət sahəsidir və Bigtek nəhənglərinə Ant, Mercado Libre və Amazonu misal göstərmək olar. Son araşdırmalar isə, Bigteklərin Fintek fəaliyyətlərini üstələdiyi və hazırda Asiya, ABŞ və Afrikada bir sıra iqtisadiyyatlarda ümumi kreditin əhəmiyyətli hissələrini təşkil etdiyini göstərir. [8] Bu gün banklar və digər ənənəvi qeyri-bank maliyyə institutları qeyri-işlək aktivlərinin təsiri ilə zəifləyirlər, onlar üçün riskli bizneslərin qısa müddətli kreditləşməsini təmin etmək maraqlı deyildir və müxtəlif maliyyə texnologiyaları şirkətləri mövcuddur ki, rəqəmsal üsullarla kreditləşmə prosedurlarını dəyişirlər. Yeni şirkətlər (startaplar), kos subyektləri və fiziki şəxslərin belə imkanları zəif olduğu üçün finteklər gücləndirilmiş biznes maliyyələşməsi, adaptiv applikasiyalar, qeyri-iş günlərində fəaliyyət göstərməyin mümkünlüyü, operativ kreditləşdirmə mexanizmi, təminat tələbinin olmaması kimi amillərlə bu boşluğu doldururlar. Finteklər əsas bazarlardan kənarda (ABŞ, Böyük Britaniya və Çin) qlobal miqyasda böyüməkdə davam edirlər. Bugün inkişaf etməkdə olan ölkələrin bazarları, xüsusilə Asiya və Latın amerikası bazarı sürətli inkişafdadır. Hazırda Asiya bazarları bulud texnologiyası, kiber təhlükəsizlik, və süni intellekt kimi sahələri prioritet kimi seçməklə fintek habına çevrilməkdədir. Həmçinin, fintek kompaniyaları öz mövcud arxitekturalarını bulud texnologiyasına transfer etməklə əməliyyatların operativliyi və əlçatanlığını artırırlar. Meksika 2018-ci ildə banklardan açıq API-lar yaratmağı (open banking) tələb kimi qəbul edən “Fintek Qanunu” qəbul etmişdir. Analoji qanunlar Braziliya və Çilidə də qəbul edilmişdir. Nigeriya isə API standartlarının inkişafı məqsədilə “Open technology foundation” adlı ayrıca təşkilat yaratmışdır. Bundan əlavə, 18 iyul 2018-ci il tarixində Hong Kong maliyyə bazarının regulyatoru APİ üçün normativ hüquqi çərçivə hazırlamış və bu sahədə artıq virtual bank təlimatları və metodoloji rəhbərliklərinin nəşrinə başlamışdır. [10]

Azərbaycanda innovativ texnologiyalar üzrə yanaşma 2021-ci ildən etibarən ancaq kredit kartları üzrə həyata keçirilir və bu xidməti Unibank KB ASC təklif edir. Belə ki, “Leobank”ticarət markası - filialsız bank (“mobile-only”) prinsiplərinə uyğun yaradılmış Fintek xidmətidir. Bu xidmətdə ancaq kredit kartın alınması və həmin kart üzrə bütün əməliyyatların aparılması nəzərdə tutur, hətta bəzi xidmətlər üzrə əmliyyatlar (digər karta köçürmə, kartın sifarişi, nağdlaşdırma) ödənişsiz aparılır. [9] Bu xidmətin yaradılması kredit ekosisteminə innovasiyaların impozisiya edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Nəticə

Beynəlxalq təcrübəyə əsasən qeyri-işlək kreditlərin yüksək həcmi bank sektorunda qeyri-müəyyənliyin qalması və etimad mühitinin formalaşmasına ən böyük maneələrdən hesab olunur. Qeyd olunan problemin həlli üçün ölkə banklarında yüksək kredit mədəniyyətinin formalaşdırılması, borcalanların borcalma intizamının artırılması, kreditorların hüquqlarının müdafiəsi üçün tədbirlərin gücləndirilməsi, biznes mühiti üzrə real dəstəkləyici mexanizmlərin işə salınması kimi islahatların dərinləşdirilməsinə, kredit resurslarının qiymətinin endirilməsi və digər tənzimləmə xarakterli tədbirlərin gücləndirilməsi arzuolunandır.

Xaricdən investisiya cəlb olunmasının nisbətən asanlığı, milli-mənəvi dəyərlərdə möhkəm ortaq əsasların olması, ölkənin bank sektorunda bu sahədə məlumatlılıq səviyyəsinin yüksək olmasını, mahiyyəti etibarilə real sektorun maliyyələşdirilməsində yüksək imkanlara malik olmasını nəzərə alaraq, kiçik və orta sahibkarlıq subyektləri və ümumiyyətlə, real sektorun maliyyələşdirilməsində islam bankçılığının

imkanlarından istifadə olunması və normativ-hüquqi baza formalaşdırmaqla ölkədə fəaliyyəti üçün şərait yaradılması nəzərdən keçirilə bilər.

Eyni zamanda, Azərbaycanın maliyyə sektorunda texnoloji innovasiyalardan istifadə üçün kifayət qədər imkanlar mövcuddur. Halbuki, texniki imkanlar və qanunvericilik sahəsində mövcud vəziyyət bu sahəyə diqqətin daha da artırılmasına ehtiyacdan xəbər verir. Məsələn, Qazaxıstan, Rusiya və Gürcüstanda olduğu kimi Azərbaycanda da onlayn kredit xidməti həyata keçirməyə imkan verən elektron platformaların fəaliyyətinə şərait yaradıla bilər. Xüsusilə, mikro-kreditlərin verilməsində formalaşan bu platformaların əsas üstünlüyü inkişaf etmiş maliyyə mexanizmlərində olduğu kimi təkcə borcların, yəni kredit hesabatındakı məlumatların qiymətləndirilməsinə əsaslanmaqla avtomatik qərar qəbuletmə imkanlarının olması (bir neçə dəqiqə ərzində kredit müraciətinin cavablandırılması imkanı) kimi məsələlərdir. Məhz bu cür innovativ yanaşmaların tətbiqi ölkənin kredit sektorunda formalaşmış bir sıra çağırış və neqativ trendlərin aradan qaldırılmasında mühüm əhəmiyyətə və təsir imkanlarına malikdir. Əlavə olaraq, kredit ekosisteminin sağlamlaşdırılması və ümumilikdə bank sisteminin fəaliyyətinin təkmilləşdirilməsi və effektivliyinin artırılması üçün aşağıdakı istiqamətlər üzrə fəaliyyətlərin həyata keçirilməsi də arzuedilən hesab olunur:

1. Qabaqcıl beynəlxalq təcrübədə maliyyə inklüzivliyinin inkişaf etdirilməsi və maliyyə xidmətlərinin daha əlçatan olması üçün geniş istifadə olunan metodların - baza bank hesabının açılması, bank olmayan ödəniş xidməti təchizatçıları tərəfindən müvafiq ödəniş xidmətlərinin göstərilməsi, ödəniş agenti şəbəkəsinin formalaşdırılması, poçt rabitəsi milli operatoru tərəfindən maliyyə xidmətlərinin göstərilməsi, agent bankçılıqın tətbiqi;
2. Maliyyə inklüzivliyi və savadlılığının artırılması ilə bağlı dövlət orqanları, kommersiya və qeyri-kommersiya təşkilatlarının koordinasiyalı fəaliyyətinin təmin olunması;
3. Dünyada maliyyə bazarlarının və qlobal maliyyə texnologiyalarının, məhsul, xidmət və modellərinin sürətli dəyişməsi fonunda baş verən proseslərə çevik reaksiya vermək gücündə olan "tətikləyici" və "lokomotiv" rolunu oynayacaq xarici transmilli bankların yerli sektorda iştirakının təşviq edilməsi.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-ci il üzrə bank icmalı
https://uploads.cbar.az/assets/d4b991271acdec6f7bcc5da31.pdf
2. Azərbaycan Banklar Assosiasiyasının "Renkinqlər" hesabatı
https://aba.az/banklar/renkinql%c9%99r/
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı kredit təşkilatlarının icmalı
https://www.cbar.az/page-188/credit-institutions
4. Azərbaycan Respublikası Mərkəzi Bankının "Statistik bülleteni", 2021.
https://uploads.cbar.az/assets/bb0bef475503c1dc9c538487d.pdf
5. Bank for international settlements
https://www.bis.org/publ/work779.pdf
6. Citi GPS: Banks X The New New Banks, March 2019
https://www.citibank.com/commercialbank/insights/assets/docs/2019/Bank-X.pdf
7. Dünya Bankı "Kredit faiz dərəcələri" hesabatı, 2021
https://data.worldbank.org/indicator/FR.INR.LEND?locations=UA&view=chart
8. Dünya Bankı "faiz dərəcəsi spredi" hesabatı, 2021
https://data.worldbank.org/indicator/FR.INR.LNDP?locations=AZ-NL-MG&view=chart
9. Unibank KB ASC-nin "Leobank" ticarət markası
https://leobank.az/
10. Vüsal Qasımlı: "Azərbaycanda maliyyə texnologiyalarının - finteklərin tətbiqi imkanları genişdir"
https://news.milli.az/economy/829573.html

СИСТЕМНЫЙ ПОДХОД В ЛОГИСТИКЕ

Баширзаде Рамила Рафаил кызы

кандидат экономических наук, доцент кафедры
«Экономическая безопасность и управление инновациями» Саратовского государственного технического университета имени Гагарина Ю.А.

Аннотация. В статье рассмотрен системный подход, как один из основных принципов логистического управления деятельностью предприятия. Новизной обладает акцентирование внимания на системном подходе к исследованию синтеза логистических систем как ведущей современной методологии, предполагающей последовательный поэтапный процесс перехода от анализа логистической проблемы к целеполаганию, реализации и контроля достижения цели на основе применения современных технологий. Предполагается в режиме реального времени управлять логистическими потоками от входа ресурсов до достижения целевых показателей с учетом факторов внешней и внутренней среды.
Ключевые слова: системный подход, анализ, синтез, логистическая система, логистические потоки, современные технологии.

Используя теорию систем применительно к логистической деятельности можно рассматривать ее как систему вместе с ее компонентами и отношениями, создаваемыми между ними. Основные принципы логистического управления представлены на рис. 1.

Рисунок 1 – Основные принципы логистического управления

Рассмотрим более подробно системный подход. Системный подход рассматривается как совокупность взаимосвязанных и взаимодействующих элементов логистической системы с целью достижения единой цели управления. В качестве отличительной особенности можно выделить рассмотрение логистической системы в целом, не только ее отдельных элементов.

Системный подход в логистике – это комплексное изучение явлений и объектов как целостных логистических систем с целью ликвидации несоответствий между интересами и целями всей логистической системы и ее отдельных элементов, между разными логистическими системами, между логистической системой и внешней средой [1]. Системный подход к управлению представлен на рисунке 2.



Рисунок 2 – Системный подход к управлению

Системный подход позволяет изучать трудно наблюдаемые свойства, улучшить отношения внутри объектов, а также изучить их интегративные свойства и внутренние и внешние связи. Выделяют три основных принципа системного подхода (рис. 3) [2]:



Рисунок 3 – Три основных принципа системного подхода [2]

При формировании системы по принципам системного подхода для начала необходимо определить цели функционирования системы, требования, которым должна удовлетворять система, с учетом поставленных целей и ограничений внешней среды, ориентировочное формирование некоторых подсистем и синтез систем. Схема традиционного и логистического подходов к управлению материальными потоками представлена на рис. 4. На выходе из системы товародвижения сквозной материальный поток приобретает заранее спроектированные контролируемые показатели [3].



Рисунок 4 – Схема традиционного (a) и логистического (системного) (b) подходов к управлению материальными потоками [3]

Принципиальное отличие логистического подхода к управлению материального потока от традиционного заключается:

1. В объединении разрозненных материальных потоков в единый сквозной материальный поток.
2. Выделении единой (интегративной) функции управления сквозным материальным потоком.
3. Технической, экономической, информационной интеграции отдельных звеньев логистической цепи в единую систему.
4. Оптимизация управленческих решений на основе современных математических методов, информационных технологий и технических средств [4].

Триада системного подхода: стратегическая модель, структурная модель и функциональная модель. Главными особенностями системного подхода являются динамизм, взаимодействие, взаимозависимость и взаимосвязь элементов системы, комплексность, целостность, соподчиненность, выделение ведущего звена.

Системный подход как методология

Методология системного подхода при решении задач проектирования и синтеза систем состоит в следующем. Задача проектирования системы расчленяется на подзадачи проектирования ее элементов. Решение подзадач должно происходить при условии обеспечения интегративных качеств функционирования всей системы. Методология системного подхода при решении задач анализа систем сводится к тому, что исследования объекта ориентируются на раскрытие его интегративных качеств, на выявлении многообразных связей и механизмов, обеспечивающих эти качества [5]. Преимуществами применения системного анализа в логистике являются (рис. 5):



Рисунок 5 – Преимущества применения системного анализа в логистике

Таким образом, применение системного подхода в деятельности организации позволяет установить общие цели системы, обеспечить иерархию целей и границы системы, подсистем и элементов и выработать способы контроля за реализацией целей системы. Также помогает оценивать потенциал системы как совокупности элементов при определении способов функционирования и взаимодействия элементов системы между собой и с внешним миром.

Список использованной литературы

1. Федоров Л.С., Кравченко М.В. Общий курс логистики: учебное пособие. Изд-во: КноРус, 2016. 218 с.
2. Общенаучные подходы, используемые в логистике. URL: Общенаучные подходы, используемые в логистике (studopedia.org) (Дата обращения: 05.04.2022).
3. Традиционный и логистический подходы к управлению. URL: Традиционный (a) и логистический (системный) (b) подходы к управлению - Презентация 137821-34 (900igr.net) (Дата обращения: 10.04.2022).
4. Принципиальное отличие логистического подхода от традиционного к управлению материальными потоками в экономике. URL: Тема 2. Принципиальное отличие логистического подхода от традиционного к управлению материальными потоками в экономике (studfile.net) (Дата обращения: 11.04.2022).
5. Методология системного подхода. URL: Глава 1_3 (nstu.ru) (Дата обращения: 13.04.2022).

QARABAĞIN KƏND TƏSƏRRÜFATINDA İNNOVATİV ÜSULLARIN TƏTBİQİ PRESPEKTİVLƏRİ

ALTAY İSMAYILOV
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Bilik İqtisadiyyatı UNEC Tədqiqat Mərkəzi
altay.ismayilov@unec.edu.az
BAKI, AZƏRBAYCAN

MİNAYƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
mammadova.minaya@unec.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qarabağ regionunun 30 ildən sonra işğaldan azad edilməsi onun kənd təsərrüfatının inkişafı və iqtisadiyyatının bərpa edilməsi istiqamətində yeni imkanlar yaratdı. Bu yeni imkanlar Qarabağın, ümumilikdə isə Azərbaycanın iqtisadi inkişafında həlledici rola malikdir. Tədqiqat işinin məqsədi Qarabağ regionunun iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı sahəsində yeni innovativ metod və üsulların tətbiqi prespektivlərinin araşdırılmasıdır. Bu həm də ona görədir ki, hal-hazırda ölkə qarşısında duran əsas hədəflərdən biri Qarabağ regionunda innovativ üsulların tətbiqi ilə iqtisadi inkişafa nail olmaqdır. Buna görə də aparılmış tədqiqat işinin nəticələri Qarabağın kənd təsərrüfatının və buna bağlı olaraq iqtisadiyyatının dirçəldilməsi və yenidən bərpa edilməsi istiqamətində bir sıra həll yolları ortaya çıxarmışdır. Beləliklə bu nəticələr və həll yolları Qarabağ regionu üçün nəzərdə tutulan layihə və planların reallaşdırılmasında tətbiq edilə bilər.

Açar sözlər: Qarabağ, işğaldan azad edilmiş torpaqlar, kənd təsərrüfatı, innovasiya.

GIRIŞ

Tədqiqatın məqsədi Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunda kənd təsərrüfatında mövcud potensialın araşdırılması, sahənin üstünlük və imkanlarını aşkara çıxarmaqla yeni innovativ metodların və texnologiyaların burada tətbiq edilməsi ehtimallaarının müzakirəyə açılmasıdır. Ermənistanın işğalı Qarabağ regionunda bir çox itkilərə səbəb olmuş, kənd təsərrüfatından tutmuş iqtisadiyyatın digər sahələrində müxtəlif dərəcələrdə dağıntılara yol açmışdır. Bu və digər səbəblər Qarabağ regionunun yenidən bərpa edilməsi prosesində innovativ kənd təsərrüfatı üsulların tətbiqinə ehtiyac yaratmışdır.

Tədqiqatın əhəmiyyəti ondan ibarətdir ki, bu araşdırma sırf Qarabağ regionunda 30 ildən sonra ilk dəfə olaraq innovativ üsullar və metodların tətbiqinə həsr edilir. Tədqiqatın yerinə yetirilməsi üçün keyfiyyət (qualitative) göstəriciləri metoduna üstünlük verilmiş, həmçinin sahə üzrə yazılmış bir sıra elmi əsərlər və onlayn məqalələrdən istifadə edilmişdir. Tədqiqat işi üçün Qarabağın ənənəvi kənd təsərrüfatı, onun reallıqları və imkanları araşdırılmış və bu çərçivədə innovativ üsulların tətbiqi prespektivlərinə yer verilmişdir.

TƏDQIQAT METODU

İşğaldan 30 il öncə Qarabağ regionunun iqtisadiyyatı kənd təsərrüfatına əsaslanan iqtisadiyyat idi və bu region gəlirlərin böyük bir qismini kənd təsərrüfatı sahəsindən əldə edirdi. Qarabağ regionunda ənənəvi kənd təsərrüfatı sahəsi əsasən iki istiqamət üzrə inkişaf etmişdi. Buraya heyvandarlıq və əkinçilik təsərrüfatları aiddir. Heyvandarlıq təsərrüfatı əsas iki sahə olan maldarlıq və qoyunçuluq sahələri üzrə inkişaf etmiş və heyvanlar ətlik-sütlük və ətlik-yunluq istiqamətində yetişdirilmişdir. Regionun əkinçilik təsərrüfatı isə taxılçılıq, meyvəçilik, üzümçülük və tütünçülük sahələri üzrə daha çox inkişaf etmiş və hər zaman yerli bazar üçün tələbləri qarşılamışdır. Bundan əlavə Qarabağın heyvandarlıq təsərrüfatında yüksək dağlıq ərazilərdə arıçılıq sahəsi də inkişaf etdirilmiş, baramaçılıq sahəsi isə regionun ipək istehsalında böyük rol oynamışdır.

Ötən əsrin 90-cı illərində Ermənistanın Qarabağı işğal etməsi nəticəsində regionun iqtisadiyyatına böyük dərəcədə ziyan dəymiş və bu ziyanlar təbii olaraq kənd təsərrüfatı sahəsinə də öz mənfi təsirini gğstərmişdir. Aparılmış araşdırmalara görə regionun istehsal potensialı işğal nəticəsində əhəmiyyətli dərəcədə zəifləmiş və nəticədə 300 min iş yeri itirilmişdir. İşğal nəticəsində yerli əhalinin məcburi şəkildə

qaçqın düşməsilə birlikdə, onlar 1.3 milyon hektar kənd təsərrüfatı ərazisini, 7 min fermanı və 600 min iri və xırda buynuzlu heyvanı geridə qoymaqla torpaqları tərk etmək məcburiyyətində qalmışlar. Bu araşdırmanın özü də işğal nəticəsində Qarabağ regionunun iqtisadiyyatının necə məhv edilməsinin bir sübutudur.

Artıq işğal prosesi əsasən geridə qaldığına, regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı sahəsi təşkil etdiyinə görə bu sahədə yeni innovativ üsulların tətbiqi üçün prespektivlər üzərində durulmalıdır. Lakin bu metodları sahəyə tətbiq etməzdən əvvəl sahə haqqında kifayət qədər məlumat sahibi olmaq, onun müsbət və mənfi tərəflərini təhlil etmək, 30 il ərzində regionda nələrin dəyişdiyini öyrənmək və həmçinin tətbiq ediləcək üsul və metodlar haqda detallı bir şəkildə məlumatlı olmaq əsas prioritetlər arasında yer alır.

Kənd təsərrüfatında innovativ metodların tətbiqi kənd təsərrüfatı istehsalçılarının və fermerlərin gündəlik fəaliyyətlərinin asanlaşdırılması, onların vaxtlarına qənaət etmək və daha az xərclə daha çox məhsulun əldə edilməsi məqsədi daşıyır. Bu növ təsərrüfatlarda proseslər müasir dövrdə rəqəmsallaşma ilə yaradılmış sensorlar və smartfonlardan istifadə edərək sadəcə bir toxunuşla həyata keçirilir. Lakin bəzi hallarda innovativ metodların tətbiqində çətinliklər yarana bilər. Bunun əsas səbəblərindən biri ərazinin ətraflı şəkildə araşdırılmaması, metodların ərazinin relyefinə və kənd təsərrüfatı sahəsinə uyğunlaşa bilməməsidir. Məhz buna görə də innovativ metodları tətbiq etməzdən öncə ərazi haqqında detallı məlumat əldə edilməlidir. Əgər innovativ kənd təsərrüfatı metodlarının Qarabağ regionunda tətbiqi nəzərdə tutulursa bu zaman 30 illik müddət ərzində regionda baş vermiş hadisələrin onun kənd təsərrüfatı sahəsinə necə təsir etdiyini, nələri dəyişdiyini, nə kimi təhlükələr və imkanlar yaradacağını bilmək vacibdir. Çünki işğal nəticəsində regionun kənd təsərrüfatı da daxil olmaqla bütün infrastrukturu yox edilmişdir.

Qarabağın işğaldan azad edilməsi innovativ kənd təsərrüfatı metodlarının burada tətbiqinə böyük imkanlar yaradır. Belə ki, region torpaqlarının münbit və məhsuldar olması, həmçinin su, torpaq və iqlim kimi təbii ehtiyatlarla zənginliyi kənd təsərrüfatının inkişaf prespektivlərini artırır. Lakin qeyd etmək lazımdır ki, regionda davam etmiş müharibə hazırkı şəraitdə regionun yenidən bərpa edilməsində bir sıra məhdudiyyətlər yaradır. Məsələn statistikalara əsasən demək olar ki, işğal nəticəsində Qarabağın 647.9 min hektar əkinə yararlı torpaq ərazisi məhv edilmişdir. İşğal nəticəsində yerli əhalinin məcburi şəkildə evlərini tərk etməsi və Azərbaycanın digər regionlarında məskunlaşması onların ənənəvi kənd təsərrüfatı bacarıqlarının azalmasına səbəb olmuş, həmçinin yerli əhalinin olmaması ilə əlaqədar regionun kənd təsərrüfatında 30 illik bir boşluq yaranmışdır. Bu həm də ona görədir ki, ermənilər müxtəlif rayonları istismar etmiş və bu rayonlara müxtəlif dərəcələrdə ziyan vurmuşlar. Ərazinin demək olar ki, əksər hissəsi partlayıcı maddələrlə, əsasən də minalarla doludur. Regionun infrastrukturu tamamilə dağıdılmış və ekoloji vəziyyət müharibənin təsiriylə pozulmuşdur. Araşdırmalara əsasən işğal nəticəsində Qarabağ regionunun torpaqlarına, meşələrinə, təbii sərvətlərinə bir sözlə ümumi təbiətinə dəymiş ziyanın məbləği 265.3 milyard dollar həcmindədir. Bütün bu problemlərə baxmayaraq yenidənqurma prosesi uzunmüddətli dövrdə də olsa mümkündür. Bu faktorları nəzərə alsaq regionda tətbiq prespektivi yüksək olan innovativ kənd təsərrüfatı metodlarına Ağıllı (smart) Kənd Təsərrüfatı tətbiqlərini və Simsiz Kommunikasiya Texnologiyalarını nümunə göstərmək olar.

Əkinçilik təsərrüfatı üçün Ağıllı Kənd Təsərrüfatı tətbiqlərindən Ağıllı Suvarma sistemi, Ağıllı Gübrələmə sistemi və Ağıllı İstixanalar geniş istifadə edilir. Ağıllı Suvarma və Ağıllı Gübrələmə sistemləri hər bir bitkinin ehtiyacı olduğu qədər su və gübrə miqdarını müəyyən edir və bu intervallar çərçivəsində bitki köklərini daima su və gübrə ilə təmin edir. Bu sistemlərin Qarabağ regionunda tətbiqi ona görə prespektivlidir ki, həm su probleminin qarşısının alınmasında, həm də artıq gübrə itkisinin qarşısının alınmasında effektiv həll vasitəsidir. Çünki Qarabağ regionunda su ehtiyatlarının zənginliyinə baxmayaraq, regionun çayları 30 illik işğal müddətində çirkləndirilmiş və hətta tranzit çayların qarşısı müxtəlif maneələrlə kəsilərək regionda bəzi su mənbələrinin qurumasına səbəb olmuşdur.Həmçinin gübrələmə prosesi zamanı artıq gübrənin itirilməsi, buna bağlı olaraq xərcin çoxluğu və torpağın artıq gübrələmə ilə tərkibinin pozulması kimi problemlərin varlığı Ağıllı Kənd Təsərrüfatı metodlarının regionda tətbiqini mümkün hala gətirir.

Digər bir metod Ağıllı İstixanaların regionda tətbiq edilməsidir. Əsasən də kəskin qış aylarında bu istixanalar daxilində məhsul yetişdirilməsi tələbatın ödənilməsində önəmli faktorlardan biridir. Bu Ağıllı İstixanalar daxilində hava şəraitini istəyə uyğun olaraq tənzimləmək, hətta Ağıllı Suvarma və Ağıllı Gübrələmə sistemlərini də burada tətbiq etmək mümkündür. Heyvandarlıq təsərrüfatı üçün Ağıllı Quşçuluq, Radio Tezliyini Müəyyənləşdirmə (RFID) barkodları və sırğaları, həmçinin Mal-qara addımı və Yer izləmə kimi metodların tətbiqi əlverişlidir. Ağıllı Quşçuluq sistemi ilə həyətyanı təsərrüfatlarda fermerlərin işlərini asanlaşdırmaq mümkündür. Hətta ev şəraitində belə quş evlərini idarə etmək, yem və su

qablarının doldurulması, qapıların bağlanması və s. kimi işləri uzaq məsafədən sadəcə bir tətbiq ilə etmək olar. RFID barkodları və sırğaları, Mal-qara addımı və Yer izləmə kimi tətbiqlər ilə dağlıq otlaqlara ötürülmüş heyvanlar haqqında məlumat əldə etmək, onların addım sayını, bədən temperaturunu, ürək döyüntüsünü, qidasını, yaşını, hamiləlik dövrünü və s. müəyyən etmək mümkündür.

Qarabağın relyefinin dağlıq olduğunu və heyvanların yemlənmək məqsədilə bir neçə aylıq otlaqlara ötürülməsini nəzərə alaraq bu sistemlərin tətbiqi imkanları olduqca genişdir. Simsiz Kommunikasiya Texnologiyalarına misal olaraq Bluetooth, Wi-Fi, Mobil Şəbəkə Texnologiyaları və Süni İntelekt ilə ortaya çıxan Sürücüsüz Traktorlar və Kombaynlar, Dronlar və Pilotsuz Uçuş Aparatlarını (PUA) göstərmək olar. Qarabağ torpaqlarının minalar ilə doldurulması və başqa partlamamış sursatların varlığı, təmizlənmə prosesinin təxminən 10-15 il ərzində yekunlaşacağına əsasən bütün yenidənqurma prosesinin uzunmüddətli dövrdə mümkünküyü faktdır. Məhz buna görə də bu robotik vasitələrin regionun kənd təsərrüfatında istifadə imkanları böyükdür. Bu həm ona görədir ki, böyük əraziləri belə uzaq məsafədən idarə etmək, həm də ermənilərin davam edən aqqresiyalarını nəzərə alaraq baş verə biləcək təxribatlardan qorunmaq üçün insanların həyatlarını təhlükəyə atmadan gecə şəraitində belə bu vasitələrin istifadəsi mümkündür.

NƏTICƏ

Tədqiqatın nəticəsi olaraq vurğulamaq olar ki, Qarabağ regionunun 30 ildən sonra işğaldan azad edilməsi, onun kənd təsərrüfatı sahəsinin yenidən bərpa edilməsinə və bu prosesin effektiv bir şəkildə həyata keçirilməsi üçün innovativ üsulların tətbiqinə fürsət yaratmışdır. Bu innovativ kənd təsərrüfatı metodlarının tətbiqi regionun istehsal potensialının və ixracının artmasına, ölkə ərazisində istehsal bolluğu yaranmasına səbəb ola bilər. Son dövrlərdə dünyada ərzaq məhsulları ilə əlaqədar yaranan qıtlıq, tədarük zəncirinin pozulması, iqtisadi, siyasi və s. səbəblər ərzaq təhlükəsiliyi məsələsini ölkələrin ən əsas məsələlərindən biri halına gətirmişdir. Bu reallıqları da nəzərə alaraq Qarabağ regionunda innovativ üsulların tətbiq edilməsi ilə ilk mərhələdə məhsul bolluğu səbəbilə qiymətlərdə müşahidə edilən bahalaşmanın nizamlanmasına, sosial problemlərin həllinə, yeni iş yerlərinin yaranmasına, regiona xarici investisiyanın cəlbinə, həmçinin Azərbaycan brendinin formalaşmasına imkanlar yarana bilər. Beləliklə, bu perspektivlərə nəzər yetirdikdə görünən odur ki, innovativ kənd təsərrüfatı üsullarının Qarabağ regionunda tətbiq edilməsi həm regionun kənd təsərrüfatının dirçəldilməsində, həm də ümumi region iqtisadiyyatının bərpası üçün ən əlverişli vasitələrdən biridir. Buna görə də Qarabağ regionunun iqtisadiyyatının yenidən bərpası bir qədər uzunmüddətli dövrdə mümkün olsa da, bu prosesi yeni innovativ kənd təsərrüfatı metodları ilə daha tez və effektiv bir hala gətirmək olar.

ƏDƏBIYYAT SIYAHISI

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan, http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf

Bilgi teknolojileri ve İletişim Kurumu. Akıllı tarım, https://www.btk.gov.tr/uploads/pages/arastirma-raporlari/akilli-tarim.pdf

Ibrahimov Rovshan, Economic Potential of the Liberated Territories of Azerbaijan: A Brief Overview, Caucasus Strategic Perspectives, Volume 1, Issue 2, February 2021, Pages 71-80

Ministry of Economy of the Republic of Azerbaijan, State Program on Social-Economic Development of Regions, https://e-qanun.az/framework/4797

Valiyev Jabrayil. Azerbaycan'da Uygulanan Ekonomik Kalkınma Politikaları; Tarım Sektörü Örneği. İstanbul Üniversitesi. İstanbul/Türkiyə. 2008: 1-293

ARAN IQTISADI RAYONU MÜASIR MƏRHƏLƏDƏ: MƏQSƏDYÖNLÜ ISLAHATLAR VƏ GENIŞ TƏDBIRLƏR

Şakir Quliyev
Bakı Mühəndislik Universiteti
shakir3550033@gmail.com

Açar sözlər: Regionlar, inzibati-ərazi bölgüsü, Mərkəzi Aran iqtisadi rayonu, sosial-iqtisadi inkişaf

Xülasə

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü bu regionlarının inkişafında müşahidə olunan mövcud vəziyyətdən və mövcud potensialdan irəli gəlir. Ardıcıl və sistemli iqtisadi islahatlar, iqtisadi rayonların təbii ehtiyatlarından, işçi qüvvəsindən səmərəli istifadə Aran iqtisadi rayonunun da tərkibinə yenidən baxılmasını tələb edir. Qarşıya qoyulan tələblər yeni yaradılan Mərkəzi Aran iqtisadi rayonunuun inkişafına köməklik göstərəcəkdir.

Резюме

Новое деление экономических районов в Азербайджанской Республике вытекает из текущей ситуации и имеющегося потенциала в развитии этих регионов. Последовательные и планомерные экономические реформы, эффективное использование природных ресурсов и рабочей силы экономических районов требуют пересмотра состава Аранского экономического района. Требования будут способствовать развитию вновь созданного Центрально-Аранского экономического района.

Ключевые слова: Регионы, административно-территориальное деление, Центрально-Аранский экономический район, социально-экономическое развитие

Regionların inkişafı uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının şəhər və rayonlarında davamlı inkişafın təmin olunmasında mühüm rol oynayan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üçün nəzərdə tutulan dövlət proqramlarının uğurlu icrası regionların iqtisadi potensialını artırmışdır. "Azərbaycanın regionlara bölgü sistemində idarəetmə baxımından inzibati-ərazi bölgüsü çox mühüm yer tutur." [1, s.57]

"Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır." [2]

Bu gün işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı, həmin ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. "Azərbaycan Respublikası regionlarının inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılmasını tələb edir." [3]

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanında göstərildiyi kimi "azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir." [2]

Həmin fərmana əsasən Aran iqtisadi rayonuna daxil olan Ağcabədi və Bərdə rayonları Qarabağ iqtisadi rayonunun, Cəlilabad rayonu Lənkəran-Astara iqtisadi rayonunun, Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları Mərkəzi Aran iqtisadi rayonunun, Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları Mil-Muğan iqtisadi rayonunun, Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları Şirvan-Salyan iqtisadi rayonunun tərkibinə daxil edilmişdir.

Tərkibinə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab inzibati rayonları və Mingəçevir şəhəri daxil olan Mərkəzi Aran iqtisadi rayonu 1991-ci ildən 2021-ci ilə qədər Aran iqtisadi rayonunun bir hissəsi idi.

Mərkəzi Aran iqtisadi rayonu üzrə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında nəzərdə

tutulan istehsal, emal və xidmət sahələrinin yaradılması və ya genişləndirilməsi, aqrar sektorda emal müəssisələrinin yaradılması və mövcud emal müəssisələrinin modernləşdirilməsi və ya genişləndirilməsi, aqropark və fermer təsərrüfatlarının yaradılması və ya genişləndirilməsi, innovativ texnologiyalar əsasında istehsal, emal və xidmət sahələrində (yüngül, yeyinti, kimya, maşınqayırma sənayesi, tibbi, təhsil və məişət xidməti və s.) müəssisələrin yaradılması və ya genişləndirilməsi, bərpa oluan enerjinin tətbiqi, bu sahədə xidmətlərin göstərilməsi, avadanlıq və qurğular istehsalının həyata keçirilməsi yönümlü layihələrin dəstəklənməsi, ekoloji tarazlığı təmin edən, habelə tullantıların təkrar xammala çevrilməsi layihələrinin dəstəklənməsi kimi bir çox prioritet istiqamətlər müəyyən olunmuşdur.

Aqrar-sənaye və ərazi-istehsal komplekslərinin genişləndirilməsi, sıx əhali məskunlaşması bu Mərkəzi Aran iqtisadi rayonunun da inkişafında həlledici rol oynayacaqdır.

Ədəbiyyat

1. Nuriyev,Ə.X. Azərbaycanın inzibati-ərazi bölgüsünün təkmilləşməsi və proqram məqsədli idarəetmə regionlarının formalaşması//AMEA-nın Xəbərlər; İqtisadiyyat seriyası.-2020.-№1.-S.57-61.

2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı.-*www. president.az*

3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi İnkişafı ...-www.files.preslib.az › projects › regions

ANALYSIS OF WORKPLACE BULLYING USING TOPIC MODEL ANALYSIS

RIMA MAMMADOVA
University of Pecs,
Faculty of Business and Economics
Rima_mammadova@yahoo.com
PECS, HUNGARY,

ABSTRACT

This paper aims to identify the hidden topics in a collection of literature about workplace bullying. The paper starts with a description of a general introduction to workplace bullying. Then the Topic Modeling tool is applied to extract hidden topics from the 111 abstracts about bullying in the workplace. First, 30 topics were generated with the help of the tool, then 10 topics out of 30 were interpreted. The paper ends with the conclusion.

KEYWORDS: Bullying, workplace, topic modeling

INTRODUCTION

Bullying in the workplace has been identified as a global problem because of its growing magnitude and the harmful effects in sufferers and organizations (Ansoleaga et al., 2019). Sufferers from bullying at the workplace face various forms of burden and stress which influence them on a physical, emotional, and social level. Bullying in organizations is regarded as an important management issue worldwide (Einarsen and Raknes, 1997) because it has a negative impact on productivity (Samnani and Singh, 2014), employee performance (Pradhan and Joshi, 2019), and employee morale (Jóhannsdóttir and Lafsson, 2004).It should also be mentioned that, in some cases, bullying is misunderstood, misdiagnosed, and mismanaged in the work environment (Harvey et al., 2009). In order not to mix bullying with strong management, researchers defined what bullying is.

Researches on bullying in the workplace have grown significantly over the past decade (Samnani et al., 2013). Concerning the definition of workplace bullying, there are considerable debates in the literature (Harvey et al., 2009). However, the definition used by Einarsen et al. (2004, p.15) is accepted by many researchers: "Bullying at work" means harassing, offending, socially excluding someone or negatively affecting someone's work tasks. In order for the label "bullying" (or "mobbing") to be applied to a particular activity, interaction, or process, it has to occur repeatedly and regularly (e.g., weekly) and over a

period of time (e.g., about six months). Bullying is an escalating process in the course of which the person confronted ends up in an inferior position and becomes the target of systematic negative social acts. A conflict cannot be called "bullying" if the incident is an isolated event or if two parties of approximately equal "strength' are in conflict."

While collecting articles and doing a literature review on bullying at the workplace, different concepts related to bullying were found, such as mobbing, harassment, victimization, and psychological terror. With the help of the Topic Modeling Tool, the author will identify the hidden topics in a collection of literature about workplace bullying.

DATA PREPROCESSING IN TOPIC MODELING

In order to process the data, the concept "bullying" related to the author's PhD research topic was chosen. "Bullying at the Workplace" was searched as a key word and 111 peer-reviewed articles were collected from various reputable journals. Abstracts from 100 articles were taken and converted into txt files using Text Document. To analyze abstracts, we used the Topic Modeling Tool downloaded from the website of Google Code[1].

The topic modeling tool was used to run based on the following parameters:

Number of abstracts	**111**
Number of Iteration	**1000**
Number of topics	**30**
Number of topic words printed	**10**
Topic proportion threshold	**0.05**

GENERATED TOPICS

Next step was to run the Topic Modeling Tool. With the help of Mallet, 30 topics were produced:

1	bullying methods results conclusions association background hospital sickness measured absence
2	nurses workplace nurse nursing support factors care method effective
3	understanding events complex framework analysis valuable processing corruption produce analyzed
4	environment behavior bully types management speech percent aggressive radiation boss
5	reported perceived participants scale variables questionnaire survey leadership experienced negative
6	problem article evidence development address nature potential emotional suggests organizations
7	work bullying related person provide acceptable partially analysis dimensions issues
8	bullying higher education staff prevalence order rates educational test witnessed
9	organizational behaviors studies conducted support theory pakistan citizenship discussion literature
10	job satisfaction results outcomes effect survey relation negatively reduce state
11	health psychological workers exposure problems analyses men associations exposed distress
12	bullying impact time future examined targeted suggest ideation suicidal subsequent
13	model present managers conditions factors aim working based individual relationships
14	workplace researchers current acts definitions important legal practitioners prevent stronger
15	effects targets behavior anxiety theoretical level productivity result found propose
16	study data findings significant collected analysis revealed showed sector based
17	organizations physical violence working focus severe attention purpose gender provided
18	conflict behavior experiences individuals interviews responses members qualitative number occurred
19	bullying victims coping strategies identified study general social explore seek
20	research phenomenon review literature harassment including mobbing terms differences aggression
21	workplace women respondents abuse American confirmed examination reactions affected

[1] https://code.google.com/archive/p/topic-modeling-tool/

	leaders
22	role power experience risk targets critical call identity existing limitations
23	workplace turnover intention practices emotional burnout hrm important public finally
24	bullying increased sample conclusion presented increase report perceptions university ethical
25	high results cwb passive deviant active purpose direct means established
26	research paper social findings implications term bullies management long methodology
27	performance employees employee organization examines positive predicted bank companies locus
28	bullied negative workplaces employees mental people persons response reported frequently
29	work stress levels depression found brain model compared patients sampling
30	workplace relationship examine climate deviance significantly incivility mediated cross sleep

TOPICS INTERPRETATION

The following 10 topics out of 30 were chosen in order to interpret and explain how those topics are relevant for the research topic. Each topic was named and explained why this name was given. The following topics are defined:

№	**Topic worlds**	**Name**
1	nurses workplace nurse nursing support factors care method effective	How to protect nurses from workplace bullying.
2	environment behavior bully types management speech percent aggressive radiation boss	Workplace bullying by managers.
3	bullying higher education staff prevalence order rates educational test witnessed	Bullying at Higher Education Institutions
4	model present managers conditions factors aim working based individual relationships	How can managers prevent bullying in the workplace?
5	organizations physical violence working focus severe attention purpose gender provided	Gender and bullying.
6	workplace turnover intention practices emotional burnout HRM important public finally	How can Human Resource Management prevent bullying?
7	bullied negative workplaces employees mental people persons response reported frequently	How bullying affects the mental health of employees
8	reported perceived participants scale variables questionnaire survey leadership experienced negative	How to measure workplace bullying?
9	research paper social findings implications term bullies management long methodology	How to identify and manage bullying at workplace
10	study data findings significant collected analysis revealed showed sector based	How does bullying affect the employees' performance?

Topic 1: How to protect nurses from workplace bullying.

Workplace bullying among nurses is increasing globally and occurs more frequently than among other professions (Yokoyama et al., 2016). Researches on bullying among nurses have been explored in the literature for decades (Bloom, 2019). Quine (2001) in her study found that nurses who had been bullied reported significantly lower levels of job satisfaction and significantly higher levels of anxiety, depression, and propensity to leave.

Topic 2. Workplace bullying by managers.

Quine (2001) defined workplace bullying as a process in which the victim is subjected to a series of systematic stigmatizing attacks from a fellow worker or workers that encroach on his or her civil rights. Bullying has a detrimental effect on both individuals and organizations (Ariza-Montes et al., 2014). Workplace bullying is defined as a series of systematically negative acts that result in social, psychological, and psychosomatic problems for victims (Ariza-Montes et al., 2014). For organizations, it costs a high price when it comes to decreasing productivity, increasing turnover, emotional and physical health costs, etc.

Topic 3. Bullying at Higher Education Institutions.

According to research, social service, health, and educational occupations have higher rates of bullying than other organizations (Matyók and Schmitz, 2010). There is a variety of literature about bullying at

universities. It was found that workplace bullying, harassment, and mobbing hurt the academic environment and suppress the expression of those it is meant to support (Hollis, 2018). To eliminate workplace bullying, it is suggested to create a conducive working environment and an effective leadership style to enhance employee performance in a work environment devoid of bullying (Ndegwa and Moronge, 2016).

Topic 4. How can managers prevent bullying in the workplace?

Bullying has a detrimental effect on both individuals and organizations (Ariza-Montes et al., 2014). For organizations, bullying has high costs when it comes to decreased productivity, increased turnover, emotional and physical health costs, etc. Therefore, managers are looking for ways to prevent bullying inside organizations. Researchers suggest that the creation of a conducive working environment and an effective leadership style can enhance employee performance in a work environment devoid of bullying (Ndegwa and Moronge, 2016).

Topic 5. Gender and bullying

There is various and numerous research on gender-related issues such as discrimination and stereotypes. Despite this, the subject of gender and sexuality in relation to bullying has largely been ignored. Jóhannsdóttir and Lafsson (2004) discovered two types of gender bullying in their study: general bullying and work-related bullying. They also identified four clusters of coping strategies for bullying: assertive response, seeking help, avoidance, and doing nothing.

Topic 6. How can Human Resource Management prevent bullying?

Performance in the workplace is one of the most important areas of concern in human resource management (Ndegwa and Moronge, 2016). Therefore, working conditions and psychosocial environments are very important for organizations to determine individual and organizational performance. Researchers found a significant relationship between HRM, workplace bullying, and turnover intention. Gadi and Kee (2018) suggest in their study that employee engagement could be a potential mediator between HRM practices, workplace bullying, and turnover intention.

Topic 7. How bullying affects the mental health of employees.

Much research supports the influence of psychosocial factors on the occurrence of bullying (Qureshi et al., 2014). Thirty Irish bullying victims considered their workplace to be a highly competitive and stressful environment, overwhelmed with interpersonal conflicts and a lack of supportive, directive, and friendly atmosphere while undergoing organizational changes and having an authoritarian style of leadership (Seigne, 1998). Gardner and Rasmussen (2018) discovered in their study that team conflict and workplace bullying mediated the negative effects of destructive leadership on stress, physical health, and intention to quit.

Topic 8. How to measure workplace bullying?

It is difficult to define and evaluate bullying in the workplace. At the same time, the measurement and evaluation of workplace bullying are very important for employees' performance and productivity. Therefore, this issue has to be more researched and various measurements have to be proposed.

Topic 9. How to identify and manage bullying at workplace.

Most of the time, it is difficult to identify bullying at workplaces. Even in some cases, bullying is misunderstood, misdiagnosed, and mismanaged in the work environment (Harvey et al., 2009). In order to avoid mixing bullying with strong management, mediators have to be more careful. Mediators have to be able to distinguish between strong management and criticism. It is important to identify and eliminate bullying in organizations in its early stages, otherwise, the physical and mental health of the employees can be affected.

Topic 10. How does bullying affect the employees' performance?

Performance in the workplace is one of the most important areas of concern in human resource management (Ndegwa and Moronge, 2016). Workplace bullying should not be ignored because of productivity reasons; it can cause substantial damage to the employees and the organization. Many researches were conducted on the effects of bullying on employees' performance, and most of them found that there is a strong correlation between them (Obicci, 2015).

DATA VISUALIZATION

Data visualization is the graphical representation of information and data. By using visual elements like charts, graphs, and maps, data visualization tools provide an accessible way to see and understand trends, outliers, and patterns in data[2]. With the help of the Voyant Tools[3], two types of visualization are made.

[2] https://www.tableau.com/learn/articles/data-visualization

With a link visualization, the connections between the most popular topics are generated.



With a word cloud visualization, most popular terms are generated based on frequency of use and prominence.

CONCLUSION

It can be concluded that there are vast researches on bullying in the workplace, but little conducted research on measurement and evaluation of bullying, and it should be more explored. From the literature review, we conclude that bullying happens more in social service, health, and educational occupations. It should also be mentioned that bullying has negative effects on employees' performance, productivity, and health (physical and mental).

REFERENCES

Ansoleaga, E., Ahumada, M. and Cruz, G.S. Association of workplace bullying and workplace vulnerability in the psychological distress of Chilean workers, International journal of environmental research and public health, 16(20), 2019, p. 4039

Ariza-Montes, J.A., Muniz, R., Noel, M., Leal-Rodríguez, A.L. and Leal-Millán, A.G. Workplace bullying among managers: A multifactorial perspective and understanding, International journal of environmental research and public health, 11(3), 2014, pp.2657-2682.

Bloom, E.M. Horizontal violence among nurses: Experiences, responses, and job performance, In Nursing forum, Vol. 54, No. 1, January, 2019, pp. 77-83.

Einarsen, S., Hoel, H. and Cooper, C. eds. Bullying and emotional abuse in the workplace: International perspectives in research and practice. Taylor & Francis e-Library. 2004.

Einarsen, S. and Raknes, B.I. Harassment in the workplace and the victimization of men. Violence and victims, 12(3), 1997, pp.247-263.

Gadi, P.D. and Kee, D.M.H. HRM practices, workplace bullying, and turnover intention: The mediating role of employee engagement. Asia Proceedings of Social Sciences, 2(3), 2018, pp.92-95.

Gardner, D.H. and Rasmussen, W. Workplace bullying and relationships with health and performance among a sample of New Zealand veterinarians. New Zealand veterinary journal, 66(2), 2018, pp.57-63.

[3] https://voyant-tools.org/

Harvey, M., Treadway, D., Heames, J.T. and Duke, A. Bullying in the 21st century global organization: An ethical perspective. Journal of Business Ethics, 85(1), 2009, p.27.
Hollis, L.P. The Ironic Interplay of Free Speech and Silencing: Does Workplace Bullying Compromise Free Speech in Higher Education?. Online Submission, 9, 2018.
Jóhannsdóttir, H.L. and Ólafsson, R.F. Coping with bullying in the workplace: The effect of gender, age and type of bullying. British Journal of Guidance & Counselling, 32(3), 2004, pp.319-333.
Matyók, T. and Schmitz, C.L. A story to tell: Bullying and mobbing in the workplace. International Journal of Business and Social Science, 1(3), 2010, pp.87-97.
Ndegwa, I.N. and Moronge, M. Effects of workplace bullying on employee performance in the civil sevice in kenya: A case of the ministry of education, science and technology. The Stratagic Journal of Business and Change Management, 3(2), 2016, pp.1-31.
Obicci, P.A., 2015. Effect of workplace bullying on employee performance in the public sector. Asian Journal of Management Research, 6(1), pp.43-55.
Pradhan, A. and Joshi, J. Impact of Workplace Bullying on Employee Performance. International Research Journal of Management Science, 4, 2019, pp.1-13.
Quine, L. Workplace bullying in nurses. Journal of health psychology, 6(1), 2001, pp.73-84.
Qureshi, M.I., Rasli, A.M. and Zaman, K. A new trilogy to understand the relationship among organizational climate, workplace bullying and employee health. Arab Economic and Business Journal, 9(2), 2014, pp.133-146.
Samnani, A.K., Singh, P. and Ezzedeen, S. Workplace bullying and employee performance: An attributional model. Organizational Psychology Review, 3(4), 2013, pp.337-359.
Samnani, A.K. and Singh, P. Performance-enhancing compensation practices and employee productivity: The role of workplace bullying. Human Resource Management Review, 24(1), 2014, pp.5-16.
Seigne, E. Bullying at work in Ireland, in Rayner, C., Sheehan, M. and Barker, M. (Eds), Bullying at Work, 1998 Research Update Conference: Proceedings, Staffordshire University, Stafford, 1998.
Yokoyama, M., Suzuki, M., Takai, Y., Igarashi, A., Noguchi-Watanabe, M. and Yamamoto-Mitani, N. Workplace bullying among nurses and their related factors in Japan: A cross-sectional survey. Journal of clinical nursing, 25(17-18), 2016, pp.2478-2488.

TEXNOPARKLARIN İQTİSADİ İNKİŞAFDA ROLU VƏ AZƏRBAYCAN NÜMUNƏSİ

KAZIMOVA AYGÜNXANIM RƏŞİD
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə\Makroiqtisadi siyasət
aygun.kazimova00@mail.ru
XIRDALAN, AZƏRBAYCAN

Xülasə – Məqalədə texnoparklar haqqında ilkin anlayış, informasiya iqtisadiyyatının formalaşmasının xarakterik xüsusiyyətləri araşdırılmış, yeni innovativ infrastrukturun əsas elementi kimi texnoparkların və innovasiya zonalarının yaradılması üzrə beynəlxalq təcrübə müqayisəli şəkildə təhlil olunmuşdur. Elmi-tədqiqatların kommersiyalaşdırılması və innovasiyalardan daha geniş istifadə olunması məqsədilə texnoparklarda innovativ proseslərin struktur təhlili aparılmışdır. Texnoparkların yaradılması və fəaliyyətinin təşkili üzrə mövcud problemlər aşkarlanmış və onların həlli istiqamətində konseptual yanaşmalar təklif olunmuşdur.

Açar sözlər: innovasiya iqtisadiyyatı, innovasiya infrastrukturu, İKT-texnopark

Giriş

Müasir dövrdə istənilən dövlətin iqtisadi vəziyyəti elmin, texnikanın və texnologiyanın inkişafı, eləcə də onların tətbiqi ilə birbaşa qarşılıqlı surətdə əlaqəlidir. İnnovasiya proseslərinin tənzimlənməsi Azərbaycan Respublikasında dövlətin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsi olan innovasiya siyasəti vasitəsilə

həyata keçirilir. Bu siyasətə uyğun olaraq ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması üçün müvafiq innovasiya strukturlarının, başqa sözlə innovasiya mərkəzlərinin, texnoloji biznes-inkubatorların, texnoparkların yaradılması nəzərdə tutulmuşdur. Bundan başqa, "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya" da innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Həmin vəzifələrin yerinə yetirilməsi isə, öz növbəsində, göstərilən innovasiya infrastrukturu elementlərinin ən vaciblərindən biri olan İKT-profilli texnoparkların fəaliyyətinin səmərəliliyinin təhlilini, öyrənilməsini və onun qiymətləndirilməsini daha da aktuallaşdırır. İKT-profilli texnoparkların formalaşması prosesi öz növbəsində, onun yaradılması və fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsini zəruri edir. Ona görə də ilkin olaraq həmin prosesin nəzəri və metodoloji əsaslarının dərindən araşdırılması, təhlil edilməsi və bu istiqamətdə müvafiq tövsiyələrin və metodik göstərişlərin işlənilməsi tələb olunur. Həmin istiqamətdə aparılan araşdırmalar nəticəsində innovasiya strukturlarından biri olan İKT-profilli texnoparkların fəaliyyətinin səmərəliliyinin kompleks qiymətləndirilməsi üsulunun işlənilməsi üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi qoyulan məsələnin əsasını təşkil edir.

Məlum olduğu kimi, qloballaşma dövründə informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması zəruri məsələdir. Elmi-texniki infrastrukturu modernləşdirmək, elmin, təhsilin və istehsalın inteqrasiyasını təmin etmək, innovasiya siyasətinin səmərəsini artırmaq, innovasiya fəaliyyəti infrastrukturunu inkişaf etdirmək qarşıya qoyulmuş məsələlərdən hesab olunur.

Texnoparklar haqqında ilkin anlayış

"Texnopark" (və ya "Elm və texnologiya parkı") universitet və sənayeni bir-birinə yaxınlaşdıran, araşdırma və inkişaf yönlü biznes işi ilə məşğul olan qurumdur, yenilikçi fikirlərə ehtiyac duyan "şirkətlər evi"dir. Texnopark tətbiqi sahələrlə məşğul olan elm adamı, mühəndis, iş adamları və sərmayəçilərin/yatırımçıların işbirliyi məkanıdır və yeni ideyaları həyata keçirmək üçün şirkət qurma fəaliyyəti ilə seçilir. Texnopark tətbiqi bilik mərkəzidir, çoxu kağız üzərində olan ideyaların həyata keçdiyi yerdir. Texnopark hökumətin doğru siyasəti və dəstəyi ilə güc qazanır.

Silicon Valley (Silikon/Silisium vadisi) dünyada ilk və ən məşhur universitet texnologiya parkıdır. Stanford Universiteti öz maliyyə problemlərini həll etmək və həmçinin məzunlarını perspektivli işlə təmin etmək üçün öz geniş torpaq sahələrini yüksək texnologiya sahəsində fəaliyyət göstərən şirkətlərə kirayə verməklə Silikon vadisinin əsasını qoydu. 1953-cü ildən başlayaraq şirkətlər bura gəlməyə başladılar. Maraq üçün qeyd edim ki, Disney, Apple, Google, Amazon.com kimi nəhəng şirkətlər də qarajda işə başlamışlar...

Texnoparkın fəaliyyətini xarakterizə edən meyarları müəyyən etmək üçün oradakı əsas innovasiya fəaliyyəti dövrünü müxtəlif məqsədlər daşıyan mərhələlərə bölürlər. Başlanğıc mərhələ ölkənin müvafiq icra orqanlarının bələdiyyə təşkilatları ilə birgə həmin subyektlərin ərazisində yerləşən konkret obyektin yaradılması ilə bağlı müraciətlərin qəbul edilməsi vaxtından başlayır. Bu mərhələdə texnopark statusu almaq istəyən ərazinin müraciətinin əsaslılığını müəyyən edən birinci konkret meyar onun qalan ərazi fonunda müsabiqə iştirakçıları ilə olan rəqabət üstünlükləridir. İkinci meyar – gələcək rezidentlər üçün zonanın cəlbediciliyidir. Yəni həmin ərazidə əlverişli innovasiya-investisiya mühitinin formalaşmasının mümkünlüyüdür. Bu halda məqsəd texnoparkın gələcək inkişafı üçün rezidentlərin cəlb edilməsi olacaqdır. Texnopark öz ərazisindəki müəssisə-rezidentlərə elmi-texniki məhsul yaratmağa və onu reallaşdırmağa, onu sənayedə tətbiqinə qədər aparıb çıxarmağa, proqram məhsullarının, məlumatların yığımı, emalı və ötürülməsi sistemlərinin yaradılmasına və bu sistemlərə kənardan ola biləcək xidmətlərə nisbətən dəfələrlə səmərəli xidmət göstərilməsinə imkan yaradır. Sonrakı mərhələ isə artıq texnoparkın fəaliyyət mərhələsi hesab olunur. İKT-texnoparkın fəaliyyətinin məqsəd və meyarları haqqında Texnoparkın fəaliyyətini xarakterizə edən əsas meyar onun fəaliyyətinin səmərəliliyidir. Texnoparkın səmərəliliyinə iki mövqedən yanaşmaq lazımdır: 1)texnoparkın hər bir rezidentinin fəaliyyətini xarakterizə edən göstəricilər çoxluğu kimi; 2) texnoparkın ərazisində yerləşdiyi regionun iqtisadiyyatına, Milli innovasiya sisteminin inkişafına və bütövlükdə ölkənin iqtisadiyyatına təsirini nəzərə alaraq, bir iqtisadi sistem kimi onun səmərəliliyini xarakterizə edən göstəricilər kimi. Müəyyən edilmişdir ki, qeyd olunan hər meyar üzrə alt bölmələrə uyğun göstəricilər çoxluğunun formalaşdırılması texnoparkın yaradılması və fəaliyyətinin qiymətləndirilməsinə olan yanaşmaları müəyyən qədər konkretləşdirir və sistemləşdirir. Bu isə verilən məlumatlardan həm qanunvericilik, icra, texnoparkların idarəetmə orqanları səviyyəsində, həm də rezidentlərin özlərinin səviyyəsində istifadə etməyə imkan verir. Belə informasiya müəyyən ərazinin texnoparka uyğun gəlməli olduğu ilkin şərtləri gələcəkdə daha dərindən təhlil etməyə və Milli innovasiya sisteminin inkişaf sektorundan və iqtisadiyyatın inkişaf prioritetlərindən asılı olaraq, onları korrektə etməyə imkanlar yaradır.

III. İnformasiya iqtisadiyyatında texnoparkların yaradılması zərurəti

İnformasiya iqtisadiyyatında informasiya texnologiyaları yeni cəmiyyətin və iqtisadiyyatın əsas məzmununu əks etdirir - əsas istehsal resursları və ictimai sərvət formaları kimi informasiya və bilik çıxış edir. İnformasiya iqtisadiyyatının fərqli xüsusiyyətləri, əsasən, aşağıdakılardan ibarətdir: 1) informasiyanın və biliyin istehsal faktoru və əsas resurs olması; 2) informasiya texnologiyarının istehsal və qeyri-ishehsal sahələrində geniş tətbiqi: 3) yaradılan məhsulun maddiliyini itirməsi (dematerializasiya); 4) əməyin xarakterinin və strukturunun dəyişməsi; 5) yeni iqtisadiyyatın qlobal xarakter daşıması və s. Qeyd etmək lazımdır ki, innovasiya və informasiya iqtisadiyyatının, o cümlədən innovasiya klasterlərinin formalaşmasında texnoparklar ən vacib strukturlardan biri hesab olunur. Dünya təcrübəsinin təhlili göstərilir ki, texnopark strukturlarının formalaşması və səmərəli fəaliyyəti üçün bir sıra tələblərin olması əsasdır: 1) uyğun ərazidə universitetlərin və ya elmi-tədqiqat institutlarının, laboratoriyalarının olması; 2) texnopark strukturları zonasında və ya onun yaxınlığında sənayenin elmtutumlu sahəsinin müəssisələrinin yerləşdirilməsi; 3) innovasiya layihələrinin müxtəlif mənbələrdən maliyyələşdirilməsinin işlənilmiş sistemi; 4) texnopark strukturlarının yaradilması və ləğv edilməsinin normativ-hüquqi təminatı; 5) texnoparkın yüsək ixtisaslı kadrlar hazırlama bacarığı; 6) bazar münasibətlərinin nisbətən qərarlaşma sistemi; 7) inkişaf etmiş şəhər infrastrukturu; 8) mərkəzi və yerli idarəetmə orqanlarının dəstəyi və s. Texnopark strukturlarının yaradılmasında dövlətin rolu böyükdür. Dünya təcrübəsi göstərir ki, texnoparkların yaradılması üçün qanunvericilik bazasının formalaşdırılması, dövlət dəstəyi, vergi və gömrük güzəştləri, kadr hazırlığı kimi bir sıra şərtlərin yerinə yetirilməsi vacibdir.

Texnoparklarda innovativ məhsulun alınması, əsasən, müəyyən bir proseslə xaraxterizə olunur. Belə ki, innovasiya prosesi, zaman etibarı ilə, elmi bilik və ideyaların, kəşf və ixtiraların məhsula, başqa sözlə, innovasiyaya çevrilməsinin bütün dövrünü əhatə edən prosesdir. İnnovasiya prosesi – innovasiyanın məqsəd və nəticəsinə çatmaq üçün zəruri mərhələ və fəaliyyətin məcmusudur. İnnovasiya prosesi aşağıdakı mərhələlərdə həyata keçirilir: 1)daxil olan ideyaların sistemləşdirilməsi; 2)aşkar olunmuş ideyalardan seçmə və yeni məhsul ideyasının hazırlanması; 3)yeni məhsulun iqtisadi səmərəliliyinin təhlili, marketinq proqramının hazırlanması; 4)bazarda testləşdirmə aparılması; 5)istehsalatda yeni məhsulun tətbiqi barədə qərar qəbul edilməsi və s. İnnovasiya proseslərinin göstərilən mərhələlərini aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar: 1)axtarış xarakterli elmi-tədqiqat işlərinin yerinə yetirilməsi; 2)tətbiqi xarakterli elmi-tədqiqatların yerinə yetirilməsi; 3)təcrübi-layihə konstruktor işlərinin yerinə yetirilməsi; 4)yeni innovasiya məhsulunun kütləvi istehsalının mənimsənilməsi və innovasiyaların kommersiyalaşdırılması. İnnovativ proseslərin struktur baxımından təhlili texnoparkın fəaliyyətini daha yaxşı təşkil etməyə imkan verir.

Texnoparkların müxtəlif ölkələr üzrə fəaliyyət istiqamətləri, ixtisaslaşması və inkişaf modeli

Beynəlxalq təcrübənin təhlili göstərir ki, dünyada ümumilikdə 700-dın çox elmi park fəaliyyət göstərir. Onlardan 42%-i ABŞ-dadır. Amerika texnoparkları, əsasən, universitet bazaları əsasında yaradılmışdır. Texnoparkların 34%-i Avropa ölkələrində, 11%-i Çində və 13%-i isə digər ölkələrin payına düşür. Müasir elmi-texnoloji parkların dünya üzrə xarakteristikasını təhlil edərkən məlum olur ki, onların 33%-i institutlar və hakimiyyət orqanları tərəfindən təşkil olunur. Onlardan da əksəriyyəti regional və yerli hakimiyyət orqanları tərəfindən yaradılır, 26% isə mərkəzi hakimiyyət orqanlarına aiddir. Texnoparkların 71%-i dövlət mülkiyətinə, 45%-i qarışıq mülkiyyətə, 21%-i isə özəl mülkiyyətə daxildir. Qeyd etmək lazımdır ki, qabaqcıl ölkələrdə fəaliyyət göstərən texnoparkların 50%-də 100-ə qədər rezident şirkət, 20%-də 200-dən çox şirkət, 16%-də isə 100-200 aralığında şirkət fəaliyyət göstərir. 1984-cü ildə yaradılmış Beynəlxalq Elmi Parklar Assosasiyasının tərkibinə 1)Avropadan 59%, 2)Asiyadan 21%, 3)Amerikadan 17%, 4)Afrikadan 3% şirkət təmsil olunur. Rusiya texnoparklarının 55%-dən çoxu texniki universitetlərin, 37%-i klassik universitetlərin, 4%-i elmi-tədqiqat institutlarının, 4%-i isə sənaye müəssisələrin yaxınlığında yerləşir. Bu ölkənin Mockva, Novosirsk, SanktPeterburq, Nijeqorodskiy, Tümen və s. kimi regionlarında 7-dən çox informasiya texnologoiaları parkı fəaliyyət göstərir.

Beynəlxalq Elmi Parklar Assosasiyasının məlumatın görə, elmi parkların 70%-i şəhərin mərkəzi hissəsində, 30%-i isə şəhərdən 25 km uzaqda yerləşir.

Xatırladaq ki, Türkiyə texnoparklarının 47%-i İKT, 20%-i elektronika, 12%-i telekommunikasiya, tibbi və biotibbi texnologiya 7% digər səhələr üzrə ixtisaslaşmışdır. Elmi parklar bir sıra ümumi xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər imkan verir ki, elmin sənaye ilə inteqrasiyasının formaları ərazi elmi-sənaye kompleksləri sırasına aid edilsin. Bu proses, xüsusilə, ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Rusiya, Fransa, Çin üçün xarakterikdir. Milli elmi parkların, məsələn, Amerika modelinin (Stenford parkı), Yapon modelinin (Tsukuba texnopolisi), Rus modelinin (MDU elmi parkı), Çin modelinin (Şençjen texnoparkı) müqayisəli təhlili onların xarakterik xüsusiyyətlərini aşkara çıxarmağa daha yaxşı imkan verə bilər.

Ümumiyyətlə, texnoparklar bir sıra modellər əsasında fəaliyyət göstərirlər. Müasir dövrdə ABŞ və Böyük Britaniyada elmi parklar üç növə bölünür. 1)elmi parklar sözün dar mənasında; 2)tədqiqat parkları, 3)"inkubatorlar" (ABŞ-da) və innovasiya mərkəzləri (Böyük Britaniyada). Amerika modeli innovasiya müəssisələri üçün nəzərdə tutulmuş, vahid xidmət sisteminə malik planlaşdırılmış struktur kimi formalaşmışdır. ABŞ-da yapon modelinə əsaslanan Karolina texnoparkı da xarakterik xüsusiyyətlərə malikdir.

Texnoparkların fəaliyyətinin təşkili problemləri

Məlumdur ki, istənilən texnopark ilk zamanlar ümumi problemlərlə qarşılaşır. Onların təşkili və fəaliyyəti ilə bağlı yaranan problemlərə aşağıdakıları daxil etmək olar:1)"biznes-texnologiya-maliyyə" zəncirinin olmaması; 2)texnologiyaların kommersiyalaşdırılmasında neqativ hallar; 3)intellektual mülkiyyətin qorunması sahəsində problemlər; 4)universitet və elmi-tədqiqat istitutları ilə əlaqələrin; həmçinin gənc alimlərlə əlaqələrin qurulması, 5)innovasiya şirkətləri ilə elmi mərkəzlərin arasında biliklərin ötürülməsi prosesinin zəif olması; 6)vençur maliyyələşmə vasitəsinin zəif olması; 7)maliyyə mənbələrinin kifayət etməməsi; 8)texnoparkda innovasiya layihələrinin effektivliyinin qiymətləndirilməsi meyarlarının dəqiq olmaması; 9)yüksək ixtisaslı mütəxəssislərin və kadrların çatışmaması; 10)dövlət dəstəyi mexanizminin zəif olması; 11)innovasiya layihələrinin normal həyata keçirilməsi üçün lazımi hüquqi bazanın olmaması; 12)texnoparklar haqqında qanun, vergi və gömrük güzəştləri; 13)güzəştli kommunikasiya və rabitə xidmətlərinin, enerjidən güzəştli istifadə olunması; 14)yüksək əmək haqqı və digər zəruri imtiyazların zəif olması.

Nəticə

Azərbaycanda informasiya iqtisadiyyatının formalaşmasında texnoparkların yaradılması prioritet sahələrdən biri hesab edilir. Onların fəaliyyəti ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkədə bazar münasibətlərinin formalaşması, iqtisadi əlaqələrin genişlənməsi və xarici investisiya qoyuluşu imkanlarının daha da artması texnoparkların yaradılması məsələsini aktuallaşdırır. Hazırda Azərbaycanda texnoparkların yaradılması üçün münbit şərait formalaşmışdır. İKT sahəsində aparılan dövlət siyasəti və qəbul olunmuş mühüm qanunlar bu istiqamətdə həyata keçirilməsi zəruri olan islahatların sürətinə böyük təkan verir. Ölkədə yaradılacaq İKT sənayesi üzrə texnopark neft strategiyasına alternativ olaraq yüksək texnologiyaların inkişafının həyata keçirilməsi üçün mühüm başlanğıc olacaqdır. Azərbaycanın mövcud potensialı ölkədə yaradılacaq texnoparkların səmərəli olmasına imkan verir. Ölkədəki inkişafla bağlı yaranmış tələbatdan istifadə edərək, yerli istehsalçıları dirçəltmək, mütəxəssisləri yetişdirmək, ixracyönümlü məhsulların istehsalına diqqət yetirmək əsas şərtdir. Azərbaycanda texnoparkların səmərəli fəaliyyətlərinin təmin edilməsi üçün, bu sahədə ciddi uğurlar əldə etmiş dünya dövlətlərinin müsbət təcrübəsi nəzərə alınmalıdır. Texnoparkların müasir modelinin yaradılmasında ABŞ, Çin, Cənubi Koreya, Hindistan, Avstraliya, Birləşmiş Ərəb Əmirliklərinin tərübəsindən istifadə edilə bilər. Təhlillər göstərir ki, texnoparkların yaradılması Azərbaycanda İKT sektorunun yüksək artım tempi ilə inkişafına səbəb ola bilər və 2018-2020-ci illərdə təqribən 10- 12 milyard ABŞ dolları həcmində ola bilər [13]. Bu isə İKT sferası qarşısında dövlətin qoyduğu tapşırıqların yerinə yetirilməsinə imkan yaradır.

Ədəbiyyat siyahısı

1. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya". Bakı, 10.04.2008-ci il. http://www.science.gov.az
2. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 02.04.2014-cü il. http://www.president.az
3. Г.М.Костюнина, В.И. Баронов. Технопарки в зарубежной и российской практике. Вестник МГИМО Университета. Выпуск № 3/2012.
4. Интернет-портал Международной ассоциации научных парков / http://www. iasp.ws
5. http://www.metutech.metu.edu.tr/

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ SATIŞ BAZARININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

AYTƏN ŞÜKÜROVA
Azərbaycan Kooperasiya Universiteti,
"Marketinq" kafedrası
e-mail: Shukurovaayten @mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ: Azərbaycanın inkişaf strategiyasının, aqrar məhsul istehsalçılarının həm daxili, həm də xarici bazarda rəqabətqabiliyyətinin yüksəldilməsinin, ərzaq təhlükəsizliyinin təmin edilməsi və əhalinin kənd təsərrüfatı məhsulları ilə təchizatının yaxşılaşdırılmasının prioritet istiqamətlərindən biri də məhsulların satış bazarının inkişaf xüsusiyyətlərini müəyyən etməkdən ibarətdir. Çünki, əsasən mövsümü xarakter daşıyan, tezxarabolan kənd təsərrüfatı məhsullarının xeyli hissəsi satış bazarında saxlama və daşıma prosesində itirilir. Bu nöqteyi-nəzərdən araşdırdığımız tədqiqat mövzusu mühüm aktuallıq kəsb edir. Tədqiqat mövzusunun aktuallığı, məqsədi, elmi yeniliyi, praktiki əhəmiyyəti və alınan nəticə elmi cəhətdən əsaslandırılmışdır. Məqalədə, həmçinin məhsulların reallaşdırılmasının idarə edilməsinin təkmilləşdirilməsinin zəruriliyi qeyd edilmişdir. Məqalədə kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərinin satış bazarının vəziyyəti təhlil edilmiş, onların istehsalı və reallaşdırılması sisteminin zəruri şərtləri araşdırılmışdır. Məhsulların istehsal-istehlak zəncirində - daşınması və saxlanması prosesində baş verən itkilərin azaldılması, eləcə də səmərəli satış kanallarının seçilməsi məqsədilə satış bazarının inkişaf xüsusiyyətləri və təkmilləşdirilməsinin prioritet istiqamətləri təklif edilmişdir. Aqrobiznes məhsulları bazarının inkişafında satış sisteminin rolu müəyyən edilmiş və satışın mümkün kanallarına baxilmlşdır.

AÇAR SÖZLƏR: Kənd təsərrüfatı, məhsul, satış, bazar, istehsal, rəqabət, təkmilləşdirmə.

GİRİŞ

TƏDQİQATIN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Aqrobiznes məhsullarının satış bazarının inkişaf xüsusiyyətlərini göstərmək reallaşdırmanın forma, metod və mexanizmilərini müəyyən etmək, həmçinin səmərəli satış kanallarının seçilməsi imkanlarını araşdırmaqdan ibarətdir. Bu məqsədlə ayrı-ayrı aqrar məhsul növlərini tələbin ödənilmə səviyyəsi, reallaşdırılan həcmi və satış imkanlarının təhlili vəzifələri qarşıya qoyulmuşdur.

TƏDQİQATIN AKTUALLIĞI VƏ ƏHƏMİYYƏTİ

Satış bazarlarının inkişaf xüsusiyyətlərinin tədqiqi rəqabət şəraitində ölkənin və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından aktuallıq kəsb etməklə aqrar iqtisadiyyatın möhkəmlənməsində mühüm əhəmiyyətə malikdir.

TƏDQİQATIN ELMİ YENİLİYİ

Aqrar sferada məhsulların satış fəaliyyətinin əsaslandırılmış, optimal satış kanalları müəyyən edilmiş və səmərəlilik meyarları göstərilmişdir.

TƏDQİQAT METODU

Tədqiqat işində müqayisəli təhlil, ümumiləşdirmə, müşahidə,analitik və digər iqtisadi – statistik metodlardan geniş istifadə edilmişdir.

Ölkənin ərzaq təhlükəsizliyi, sənayenin xammal və heyvandarlığın yem təminatında xüsusi yeri olan taxıl (dənli bitkilər) özünün növ strukturuna görə çoxçeşidli məhsullardan (buğda, arpa, qarğıdalı və digəri) ibarət olub yaxşı daşınır və uzaq məsafəyə daşınmada öz keyfiyyətini saxlayır. Lakin aparılmış elmi tədqiqatların nəticəsinə görə, onun emal məhsulları (un, kombinə edilmiş yem) daşınma üçün az əlverişli hesab edilir. Buna görə də, onları istehlak yerində emal etmək məqsədəuyğundur. Rəsmi statistik məlumatlardan məlum olduğu kimi, respublikamızda istehsal edilən dənli bitkilərin ümumi yığımının təxminən yarısı əmtəə tədavülü sferasına daxil olmur və mal-qara və quş üçün yem kimi istifadə edilir.

TAXILIN SATIŞ XÜSUSİYYƏTLƏRİ

Beynəlxalq və ölkə təcrübəsinə əsasən, taxıl adətən aşağı səviyyəli əmtəəlik məhsul hesab edilir. Bu onun istehsalçıdan son istehlakçıya hərəkətinin xüsusiyyətini müəyyən edir və satış kanallarının şaxələndirilməsi istiqamətinin imkanlarını məhdudlaşdırır.

İqtisadçı-alim, prof.E.A.Quliyev "Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri" adlı elmi əsərində kənd təsərrüfatı məhsullarının satış bazarının xüsusiyyətlərini əsaslandıraraq göstərir ki, *"Dövlətin mühüm qida məhsullarının istehsalı, tədarükü, ehtiyatlarının yaradılması, maksimum optimal bölüşdürülməsi strategiyası və siyasəti olmalıdır"*[3, s.292]. Alimin bu

fikri ilə razılaşaraq demək olar ki, ölkənin və əhalinin qida təhlükəsizliyinin təminatında və onların bölgüsündə dövlət tənzimlənməsinin mühüm əhəmiyyəti vardır. Məhz bu baxımdan, hesab edirik ki, kənd təsərrüfatı məhsulları bazarında mövcud vəziyyəti nəzərə alaraq respublika səviyyəsində taxılın satış bazarının formalaşması və reallaşdırılması sisteminin təkmilləşdirilməsinin başlıca istiqamətlərindən biri iri əmtəəlik taxıl istehsalçılarını birləşdirən taxıl assosiasiyasının yaradılmasından ibarətdir. Assosiasiya daha əlverişli bazar qiyməti konyunkturasından istifadə əsasında məhsulu sonradan reallaşdırmaq məqsədilə onun saxlanması və daşınması üçün kifayət qədər modern satış infrastrukturuna malik olmalıdır.

Xırda və orta məhsul istehsalşlsı olan fərdi sahibkarlar-fermerlər taxılın müəyyən hissəsini bilavasitə yaradılması zəruri olan təchizat-satış kooperativləri-vasitəsilə və ya bazarda sata bılərlər.

Taxılın satış bazarının inkişaf xüsusiyyətləri və reallaşdırılması sisteminin təkmilləşdirilməsi istiqamətlərinə onun və emal məhsullarının satış kanallarının genişləndirilməsi daxil edilir. Lakin bu halda topdan vasitəçilərin rolunun azaldılmasına yol verilməməlidir.

Məlum olduğu kimi, mövcud institusional mexanizmə və satış infrastrukturuna malik taxıl qəbulu məntəqə və elevatorları, həm öz adından, həm də dövlətin bazar agenti rolunda çıxış edirlər.

Beynəlxalq təcrübəyə əsasən, dünyada əmtəəlik taxılın reallaşdırılmasmm ən geniş yayılmış kanalı birjalar hesab edilir. Birjalarda bütünlükdə kənd təsərrüfatı məhsullarının 30 faizə qədəri reallaşdırılır. Taxıl məhsullarının əmtəə birjası vasitəsilə reallaşdırılması bir tərəfdən satış bazarının inhisarsızlaşması amili, digər tərəfdən isə təsərrüfat əlaqələrinin bərpası üçün iqtisadi inteqrasiyanı təmin etmək imkanına malikdir. Lakin ölkəmiz hələlik taxıl ixracatçısı olmağı üçün əmtəə birjası vasitəsilə satış həyata keçirilmir. Beləliklə, rəsmi statistik məlumatlara əsasən, Azərbaycanda 2020-ci ildə 5905,5 min ton, (yerli istehsal – 3141,8 min ton) taxıl ehtiyatlarından ixrac həyata keçirilməmiş, itki 3,7 faiz və adambaşına illik taxıl istehlakı isə 10,4 kq (buğda 8,7 kq) olmaqla, özünütəminat səviyyəsi cəmi 68,1 faiz təşkil etmişdir [1, s.75,76]. Həmin ildə ölkədə istehsal edilən orta hesabla 87,7 faizi əmtəəlik məhsul kimi müxtəlif satış kanalları vasitəsilə əhaliyə və sənaye ehtiyacları üçün təşkilatlara reallaşdırılmışdır.

KARTOF, TƏRƏVƏZ VƏ MEYVƏNİN SATIŞ BAZARI

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, ölkədə kənd təsərrüfatı məhsullarının mühüm növlərindən biri kimi, kartofun saxlanması, emalı və satışının müasir tipli infrastrukturu çox zəifdir.

Hal-hazırda, Azərbaycanın kartof satışı bazarı aşağı əmtəəlik səviyyəsi ilə xarakterizə olunur. Belə ki, 2020-ci ilin icmal ərzaq balansına əsasən 1037,6 min ton istehsal, 189,3 min ton idxal və 613,6 mni ton ilin əvvəlinə olmaqla 1840,6 min ton kartof ehtiyatlarının 4,4 faizi ixrac olunmuş, 3,9 faizi [1,s.13] və ya Kənd Təsərrüfatı Nazirliyinin hesablamalarına görə, isə, 0,5 faizi daşıma, saxlama və digər proseslərdə itirilmişdir [2]. Həmin il üçün kartof bazarında adambaşına illik istehlak norması 50,6 kq, adambaşına istehlakın illik həcmi isə 83,3 kq olmuşdur [1, s.81,83]. Kartofun ümumi yığımı və müxtəlif satış kanalları ilə reallaşdırılan həcminin 98 faizi fərdi sahibkarların, ailə və kəndli təsərrüfatlarının payına düşmüşdür. Ölkə üzrə istehsal edilən kartofun (1037,6 min ton) 1,7 faizi evdə ərzaq kimi və 0,2 faizi ev təsərrüfatında mal-qara və quş yemi kimi istifadə edilmişdir[2]. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı məhsullarının satış bazarında tərəvəz-bostan və meyvə-giləmeyvə məhsullarının mühüm yeri olmaqla, onların reallaşdırılması sisteminin təkmilləşdirilməsinin prioritet istiqamətlərinə həmin məhsulları istehsalı və satışı bazarına dövlət tənzimlənməsi, məhsul istehsalçıları ilə ticarət, firma və kooperativ satış şəbəkəsinin birbaşa əlaqəsinin təşkili, topdan-pərakəndə bazarların formalaşması və s. aid edilə bilər.

Beləliklə, qeyd edilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, bütünlükdə bazara
kartof və meyvə-tərəvəz məhsulu göndərilməsini iki istiqamətə-birincisi, xüsusi təyinatlı müəssisələrin (xəstəxana, məktəb, uşaq bağçası və s.) təminatlı ehtiyacı üçün mimimum satınalma və ikincisi, məhsul istehsalçılarının ticarətlə birbaşa əlaqəsi, aqrofirma ticarətinin və topdan bazarlar vasitəsilə satışın təşkilinə bölmək məqsəduyğundur. Bunun üçün, məhsul istehsalçılarının müvafiq satış kanallarlarının birbaşa əlaqəsinin təşkilinə əsaslanan müasir, modern satış infrastrukturu formalaşmalıdır.

SATIŞ BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qeyd etmək lazımdlır ki, təkcə 2020-ci ildə ölkənin tərəvəz-bostan və meyvə-giləmeyvə məhsulları ilə özünütəminat səviyyəsi 100 faizdən yuxarı olmuşdur. Meyvə-giləmeyvə məhsulları bazarının spesifik xüsusiyyətlərini nəzərə alaraq, onun satış sisteminin istehsalçı-istehlakçı zəncirində alıcıların və satıcıların seçilməsinə, qiymətin müəyyən edilməsinə, resursların formalaşması və istifadəsinə xarakterik olan iqtisadi münasibətlər sisteminin təkmilləşdirilməsi və s. kimi istiqamətləri təklif etmək olar:

- istehsalçı-istehlakçı zəncirində alıcıların və satıcıların seçilməsinə, qiymətin müəyyən edilməsinə, resursların formalaşması və istifadəsinə xarakterik olan sərbəst subyektlər üçün meyvə və giləmeyvənin

istehsalı, reallaşdırılması və bölgüsü prosesində cəmlənən iqtisadi münasibətlər sisteminin təkmilləşdirilməsi;
-əhalidən artıq meyvə və giləmeyvənin müqavilə qiymətləri ilə tədarükü və s.
Apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkənin aqrar sektorunda heyvandarlıq - ət, süd və yumurta məhsullarının satış bazarının infrastrukturunun təşkili onun istehsalı və reallaşmasının ərazi yerləşməsindən çox asılıdır. Satış bazarına süd və süd məhsullarını təklif edən fermerlər - müəssisələr məhsul istehsalçıları ilə uzunmüddətli və sabit müqavilə öhdəliklərinə malik olmalıdırlar.
Apardığımız araşdırmalar göstərir ki, ölkəmizin süd və süd məhsulları satışı bazarında onların reallaşdırılması fəaliyyətinin inkişafının əsas istiqamətləri aşağıdakı kimi müəyyən edilə bilər:

- süd və süd məhsullarının göndərilməsi üzrə qarşılıqlı münasibətlərin genişlənməsi və satışın təşkili eyni zamanda emal müəssisələri ilə məhsul L-^ istehsalçıları arasında bağlanmış birbaşa müqavilə əsasında, həmçinin topdan- pərakəndə satış bazarları vasitəsilə satınalışının həyata keçirilməsi;
- süd və süd məhsul^un'istehsalı və satışı proseinin təşkilati-iqtisadi sisteminin formalaşması və istehsalın mövsümülüyü nəzərə alınmaqla süd məhsullarının reallaşdırılması sisteminin təşkili, eyni zamanda emal müəssisələri ilə məhsul istehsalçıları arasında bağlanmış birbaşa müqavilə əsasında, həmçinin topdan-pərakəndə satış bazarları vasitəsilə satınalışının həyata keçirilməsi;
- süd və süd məhsullarının istehsalı və satışı proseinin təşkilati-iqtisadi sisteminin formalaşması və istehsalın mövsümülüyü nəzərə alınmaqla süd məhsullarının reallaşdırılılması sisteminin təşkili.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, satış bazarında ət məhsulları və diri mal-qaranın reallaşdırılılması sisteminin inkişafı bazar münasibətlərinin formalaşması ilə six əlaqədardır. Bunun üçün, bazarın bütün tərkib elemenlərinin qarşılıqlı fəaliyyəti tələb olunur və satış bazarının açıq sisteminin (yarmarka, bazar, mağaza və s.) mövcudluğu, qısa istehsalçı-istehlakçı zəncirinin formalaşması və inkişafı və s. böyük əhəmiyyət kəsb edir.

NƏTİCƏ

Beləliklə, kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərinin satış bazarlarının inkişaf xüsusiyyətlərini və reallaşdırılılması sisteminin mövcud vəziyyətinin qısa təhlilini verərək, belə nəticəyə gəlmək olar ki, əlavə emal tələb etməyən və birbaşa istehlak edilən məhsullar satışın birbaşa-marketinq kanalı vasitəsilə istehsalçıdan istehlakçıya reallaşdırılmalıdır. Lakin bu məhsul istehsalçıları bir neçə ərazi- infrastrukturda yerləşdiyi halda əlverişli hesab edilə bilər.
Bununla əlaqədar olaraq, aqrar məhsulların satış bazarının xüsusiyyətləri və onların reallaşdırılması sisteminin təkmilləşdirilməsi üzrə təklif edilən istiqamətlər əhalinin keyfiyyətli və iqtisadi cəhətdən əlverişli qida məhsullarına, eyni zamanda sənayenin kənd təsərrüfatı xammalına tələbatının ödənilməsinə, həmçinin dövlətin ərzaq resurslarının formalaşmasına yönəlmiş daxili və xarici satış və bazar infrastrukturunun genişlənməsini tələb edir.

ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycanın ərzaq balansları-2021/Statistik məcmuə/Bakı:DSK,-2021.-120 s. [Elektron resurs] https://www.stst.qov.az.
2.Kənd Təsərrüfatı Nazirliyi:[Elektron resurs]https://www.e-mail.ru/messağe/ 1560513836184755206/ tmpL
3.Quliyev E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri.Monorafiya./E.A.Quliyev –Bakı:Kooperasiya,- 2020,-464 səh.

İDMANIN İNKİŞAFININ İQTİSADİ ASPEKTLƏRİNDƏ KORONAVIRUS EPİDEMİYASININ TƏSİRİ

Fərid Yaqub oğlu Əhmədov
Axmedov.fa@gmail.com

Açar sözlər: *Iqtisadi inkişaf, maliyyə böhranı, pandemiya, sağlamlıq, olimpiya ouunlar, maliyyə gəlirləri, idman*

Son vaxtlar dünya idmanı getdikcə daha çox siyasiləşir və beynəlxalq yarışların, xüsusən olimpiya oyunlarının keçirilməsindən iqtisadi səmərəlilik problemləri, hazırlıq illəri tələb edən və böyük xərclərə səbəb olan idmanın özü və onun nailiyyətlərindən daha çox aktuallıq kəsb edir. Bir çox ölkələr milyard dollarlarla ölçülən gəlirlər əldə etsədə, çox ölkələr sadəcə maliyyə itkiləri ilə bu yarışları bitirir. Yarışın təşkili və keçirilməsi ev sahibi ölkə üçün nə qədər önəmli olsada, onun reklam və yayım gəlirləri, imaj satışı, bir o qədər də vacib şərtlətdəndir. Bu işdə ən yaxşı köməkçi düzgün idman menecmenti və komunikasiya prosesidir. Bu sahədə Rusiyada keçirilən, Soçi Qış Olimpiya Oyunlarının təşkil olunması və keçirilməsinə xərclənən vəsaitlərə diqqət yetirsək bizim üçün vəziyyət bir qədər də aydınlaşar. Rusiya bu Olimpiya oyunlarında xərclənən maliyyə vəsaitlərin miqdarına görə dünya miqyasında lider oldu. Burda özəl biznes sərmayələri minimal idi və nəticədə cəmiyyətdə hələ də yüksək mübahisələrə səbəb olan bir maliyyə itkisi meydana gəldi.

Dünyada koronavirusun geniş yayılması və pandemiya səviyyəsinə gəlib çıxan vəziyyət ilə bağlı olaraq 2020-ci ilin iyul ayında Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarının 2021-ci ilə təxirə salınmasına səbəb oldu, lakin Yaponida baş verən bu hadisə bir ilk dəfə deyil, buna bənzər vəziyyət müasir tarixdə üç dəfə təkrarlanıb. Eyni zamanda, virusun yayılmasını azaltmaq üçün dünyanın müxtəlif ölkələrində idman turnirləri, çempionatlar, kuboklar, beynəlxalq səviyyəli yarışlar ləğv edildi və ya təxirə salındı. Bu proseslər ölkəmizdən də yan keçmədi. İlin ilk yarısında Azərbaycanda keçirilməsi planlaşdırılan bəzi beynəlxalq yarışlar baş tutmayıb.

Ləğv edilən və ya təxirə salınan yarışların siyahısı:

12 - 15 mart. İdman gimnastikası üzrə Dünya Kuboku**:** Yarış təsnifat mərhələlərindən sonra martın 13-də yarımçıq dayandırılıb. Beynəlxalq Gimnastika Federasiyasının qərarına əsasən, seçmə mərhələnin nəticələri yekun hesab olunub və Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xalları verilib.

25 - 29 mart. Karate üzrə Avropa çempionatı: 2020-ci il üçün Avropa çempionatı ləğv edilib. Əvəzində Azərbaycan Milli Karate Federasiyası 2022-ci ildə eyni yarışa ev sahibliyi etməyə müsbət cavab verib.

5-7 İyunda keçirilməli olan Formula-1 üzrə dünya çempionatının Azərbaycan Qran-prisi ləğv olunub.

Daha sonra Futbol üzrə Azərbaycan Çempionatı, Voleybol və Basketbol üzrə ölkə birinciliklərı ləvğ edildi və turnir cədvəlinə görə komandalar mükafatlandırıldı. Beləliklə, buradan da göründüyü kimi həm yerli həmdə beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinin iqtisadi nəticələri yalnız idman iqtisadiyyatına deyil, həm də onunla əlaqəli sahələrə, birbaşa və dolayı yolla da təsir etməkdədir.

Bu günkü çətin iqtisadi şəraitdə Yaponiyanın mənfi təcrübəsi təkcə Yaponiya iqtisadiyyatına deyil, ümumilikdə dünya idmanına da mənfi təsir göstərəcək. Problemin ümumi formalaşdırılması və vacib elmi və praktik problemlərlə əlaqəsi idman müasir sivilizasiyanı yaxından izləyir və sağlam həyat tərzinin ayrılmaz hissəsidir. Cəmiyyətdə idmanın inkişafı ilə yüksək əyləncəli kütləvi idman tədbirlərinin (Olimpiya Oyunları, Dünya çempionatları, Universiada, Kuboklar və Turnirlər) rolu artmağa başladı və sonra beynəlxalq idman mega-tədbirlərinin təşkili ev sahibi ölkənin ərazisində genişmiqyaslı layihələrə çevrildi. Bunun nəticəsində müəyyən bir sosial-iqtisadi effekt gözlənilən oldu.

Yaxın keçmişdə Ölkəmizdə keçirilən bir sıra dünya miqyaslı kütləvi idman tədbirləri (I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Avropa Gənclərinin Olimpiya Festivalı, UEFA Avropa Liqasının Finalı vəs .), şübhəsiz ki, əhalinin kütləvi idmana cəlb edilməsinə təsir göstərir, müsbət imic yaradır. Müasir cəmiyyətdə böyüyən uşaqların, gənclərin gözü ilə idmana dövlətin lazımi diqqət verilmədiyinin görüldüyü zaman, bu həm ev sahibi ölkəyə izdihamlı bir mühitdə və beynəlxalq birliklərdə nüfuzunun artması və geniş miqyaslı tədbirlərin təşkili təcrübəsini mənimsəməyə imkan verir.

Son illərdə keçirilən beynəlxalq səviyyəli tədbirin iqtisadi səmərəliliyi, ölkəyə daxil olan maliyyə gəlirləri, bunu nəticəsində tikilən, yenidən qurulan infrastrukturun daha sonra ki, istifadəsindən əldə olunan gəlirləri, böyük idman qurğularının istifadəsi perspektivləri, turist axını və potensial xarici sərmayə nəticəsində idmana olan maliyyə maraqları məsələsini genişləndirir və idman mega-tədbirlərinin keçirilməsi üçün daha böyük sferada müzakirə olunmaqdadır.

2019-cu ilin sonundan etibarən Çində şiddətli pnevmoniyaya səbəb olan və insanlar arasında yüksək yayılma dərəcəsinə malik yeni bir növ koronavirus kəşf edildi ki, bu da 2020-ci ilin mart ayında ölkəmizə də çatdı və bir sıra Avropa ölkələri ölənlərin sayına görə artıq Çini üstələməkdədir.

Dünya ölkələri sürətlə genişlənən sağlamlıq təhlükəsi və bunun insan sağlamlığına təsirinin nəticələrini müalicə etməkdə çətinlik çəkdiyindən bir çox dövlət artıq sərhədlərini bağladı, vətəndaşlar üçün özünü təcrid elan edildi və bu da dünya idmanının maliyyə resusrlarını genişlənməsinə, yeni-yeni qaynaqların tapılmasına və inkişaf etdirilməsinə çox mənfi təsir etdi. *Nəticə etibarilə, idman yayımından əldə olunan gəlirlər də təhlükə altınına düşdü və bildiyiniz kimi, reklamdan sponsorluq qazanmaq şansını müvəqqəti itirən futbol, voleybol, basketbol, xokkey klubları, tennisçilər və digər idmançıların gəlirləri də ciddi şəkildə azalmağa başladı.* Koronavirus nəticəsində başlayan istehsal zəncirlərindəki fasilələrə görə kapital bazarlarına və beynəlxalq ticarətə mənfi təsir özünü göstərmişdir, bu da öz növbəsində qloballaşmanın və həddən artıq optimallaşdırmanın zəifliyini əks etdirir.

Uzunmüddətli perspektivdə, koronavirusun yayılması ilə qlobal iqtisadiyyat üçün proqnozlaşdırılan nəticələr 2008-ci il qlobal maliyyə böhranından sonra olduğundan daha pisdir. Məsələyə digər kontekrsdən yanaşarkən daha bir iqtisadi problem ortaya çıxır ki, buda müxtəlif ölkə idmançılarının Olimpiya Oyunlarında iştirak üçün hazırlanması xərclərini təhlil edilməsi və hadisələrin belə gözlənilməz inkişafı nəticəsində iqtisadi itkilər nəzərə almaq baxımından epidemiyasının yayılması fonunda dünyanın ən böyük maliyyə itkilərindən biri ilə qarşılaşırıq.

Müasir Dövrdə Olimpiya Oyunlarının hazırlanması və keçirilməsi üçün rekord xərclər meydana çıxır, bu xərclərin ən böyüyü 51 milyard rubldan çox olduğu Rusiyaya aiddir, 2008-ci il böhranında Olimpiyada keçirən Çini də üstələmişdir.

Rusiyadan sonra Yaponiya Olimpiyada hazırlığı və keçirilməsi xərcləri azalmağa başladı və Tokioda daim büdcə yenidən nəzərdən keçirilir və xərcləri azaltmaq üçün imkanlar axtarılır.

Qeyd etmək lazımdır ki, Sidneydə və Salt Leyk Siti şəhərində olimpiadanın maliyyələşdirilməsində dövlətin iştirakının az olması, xarici sərmayənin aktiv şəkildə ölkəyə cəlb edilməsi nəticədə müsbət maliyyə gəlirləri ilə qeyd olunur.

Bunun əksinə olaraq fərqli bir yanaşma kimi Pekin və Londonda dövlətin iştirakı yüksək idi və nəticədə böyük qazanc əldə edildi, misal üçün Rusiyada keçirilən idman tədbirində dövlətin iştirakı da yüksək oldu, ancaq Qərbin maliyyə sanksiyaları, neftin qiymətinin düşməsi və struktur böhranının inkişafı ilə ağırlaşan bir zərər alındı , bu da ölkənin öz ÜDM artımıda iqtisadiyyat üçün gözlənilən effekti əldə etməyə imkan vermədi.

Bütün dünya ölkələrində idman infrastrukturunun inkişafı sayəsində əhali üçün idmanla məşğul olmaq imkanları artdı, idman qurğuları və obyektləri bütün ölkədə geniş yayıldı. Əhalinin kütləvi şəkildə idmana cəlb edilməsi, milləti birləşdirmək, vətənpərvərlik hisslərini aşılamaq məqsədi ilə hakimiyyət və əhali arasında siyasi qarşılıqlı əlaqənin ayrılmaz vasitəsinə çevrilmişdir.

Azərbaycanda mədəniyyət, incəsənət, bədən tərbiyəsi və idman sahəsində keçirilən mədəni-kütləvi tədbirlərin artması fonunda yeni maliyyə qaynaqlarının və xarici sərmayənin cəlbi, düzgün iqtisadi planlaşdırma nəticəsində meqa-tədbirlərin daha yüksək səviyyədə maliyyələşdirilməsinin təşkilinə təkan verir.

Pandemiya səbəbi ilə dünya ölkələrində təxirə salınan əsas idman hadisələri

Ölkə	Keçiriləcək tədbirlər
Çin	Formula 1 Qran Prisi qeyri-müəyyən müddətə təxirə salındı; Dünya Müasir Pentatlon Çempionatı Meksikaya verildi; Futbol üzrə Milli çempionatın başlama tarixi təxirə salınıb; Salon Atletizm Dünya Çempionatı gələn il təxirə salındı; Avropa qolf turu ləğv edildi; Alp Xizək Dünya Çempionatı ləğv edildi; Rumıniya ilə Devis Kuboku matçı ləğv edildi; Çin Basketbol Çempionatı ləğv edildi; UFC seçiciləri ləğv edildi; E-idman, stolüstü tennis və Olimpiya boks turnirinə seçmə döyüşlərdəki turnirlər də ləğv edildi.
	Yay Olimpiya Oyunları 2021-ə təxirə salındı; Asiya Xokkey Liqası Final ləğv edildi; Yaponiya Kubokunda yeddi futbol matçı ləğv edildi;

Yaponiya	Çin ilə Asiya Kuboku basketbol seçmə matçının ləğvi; Devis Kuboku matçı və 72 beysbol çempionatının qarşılaşmaları tamaşaçısız oynanılacaq.
Koreya	Ləğv edilən Dünya Qısa İşıqlı Speed Skating çempionatı; M-1 Qlobal turniri ləğv edildi
İtaliya	Aprelin 3-dək ölkədəki bütün milli idman tədbirlərini ləğv etdi; Beynəlxalq turnirlər və milli futbol və basketbol çempionatları tamaşaçısız keçirildi.
Çexiya	Biatlon Dünya Kuboku mərhələsi tamaşaçısız keçirilir
ABŞ və Kanada	8 həftə ərzində bütün ictimai tədbirlərə qadağa qoyulur
Azərbaycan	Formula 1üzrə Azərbaycan Qran-Prisi ləğv olundu; Bütün idman yarışları və tədbirləri ləğv olundu.

Ədəbiyyat siyahısı

1.Багатырова А.Б., Туркина Е.В. Финансовые и социально-эконо- мические аспекты проведения олимпийских игр // Наука и спорт: со- временные тенденции. 2019. Т. 22. № 1 (22). С. 126-132.

2.Зюкин Д.А., Матушанская Е.Е. Массовый спорт как неотъем- лемый элемент реализации концепции здорового образа жизни населе- ния // Региональный вестник. 2018. № 6 (15). С. 11-13.
3.Драпкин И.М., Семенова Е.О., Чернега А.Ю Влияние спортив- ных мега-событий на экономический рост в принимающей стране: ре- зультаты эмпирического анализа // Вестник УрФУ. Серия: Экономика и управление. 2018. Т. 17. № 3. С. 406-422.
4.Гомон Ю.Б., Кожевников Н.М. Анализ тенденций развития телепотребления футбольных трансляций в России // Петербургский экономический журнал. 2019. № 3. С. 60-67.
5.Долгов С.И., Савинов Ю.А. Влияние вспышки нового коронави- руса на международную торговлю // Российский внешнеэкономиче- ский вестник. 2020. № 2. С. 7-18.
6.Шиков П.А. Падение отечественного фондового рынка на фоне распространения эпидемии коронавируса // Научный электрон- ный журнал Меридиан. 2020. № 9 (43). С. 553-555.
7.Романов Б.К. Коронавирусная инфекция COVID-2019 // Безопасность и риск фармакотерапии. 2020. Т. 8. № 1. С. 3-8.
8.Бобровский Е.А. Развитие материально-технической базы как фактора повышения доступности занятий спортом // Наука и прак- тика регионов. 2018. № 3 (12). С. 103-107.

F.Y.AHMADOV

EFFECT OF CHORONAVIRUS EPIDEMIA ON ECONOMIC ASPECTS OF SPORTS DEVELOPMENT

World sport has recently become more and more politicized, and the issues of economic efficiency of international competitions, especially the Olympic games, which take years to prepare and involve enormous costs, are more relevant than the sport itself and its achievements. Russia has become a world leader in the amount of expenses invested in the preparation and holding of the Olympic games in Sochi, which is typical of private business investments were minimal, and as a result, a loss was made, which still causes a high level of discussion in society. At the same time, sports tournaments, Championships, and cups were canceled or postponed in various countries of the world in order to reduce the speed of virus spread. Thus, the economic consequences of the trans- fer of sports events will affect not only the sports industry directly, but also the areas related to it, including indirectly.
The negative experience of Japan in difficult modern economic conditions can negatively affect not only the Japanese economy, but also the world sport as a whole.
Key words: *Economic development, economic crisiss, pandemic, health, Olympic Games, financial incomes, sports*

Rəyçi: İ.E.D. Prof. Zahid Məmmədov

KORONAVİRUS (COVID-19) PANDEMİYASININ YUNANISTAN TURİZMİNƏ TƏSİRLƏRİ

Kənan Nəcəfov
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
kanan.najafovs@gmail.com
Azərbaycan, Bakı

Tədqiqatın aktuallığı: Pandemiyalarla turizm arasında sıx əlaqə var. Xəstəliklərin turizm hərəkətləri səbəbiylə meydana gəldiyi ölkədən başqa bölgələrə keçməsi mümkün olsa da, epidemiyanın yayılması ilə yoluxma riskinin qarşısını almaq üçün görülən tədbirlər turizm sektoruna mənfi təsir göstərə bilər.
Daha əvvəl bir çox pandemiyaların şahidi olan dünya iqtisadiyyatları üçün COVID-19 pandemiyası təsirləri və yayılması baxımından fərqlənir. Çində başlayan və sürətlə bütün dünyaya yayılan COVID-19 pandemiyası bütün sənayelər üçün iqtisadi sarsıntılar yaratsa da, onun turizm sənayesinə təsiri digər sənaye sahələri ilə müqayisədə kifayət qədər bariz idi.
Ölkələr tərəfindən tətbiq edilən milli və beynəlxalq səyahət məhdudiyyətlərinin başlaması ilə turist hərəkətləri dayandırılmış və turizm sənayesi ani və qeyri-müəyyən mövsümöncəsi böhranla üzləşmişdir. Bütün bu təsirləri nəzərə alaraq, araşdırmada Koronavirus (COVID-19) pandemiyasının Yunanıstan turizminə təsirləri araşdırılmışdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, mövzu müasir dövr üçün olduqca aktualdır.
Tədqiqatın əsas məqsədi: Koronavirus (COVID-19) pandemiyasının Yunanıstan turizminə təsirlərini araşdırmaqdır.
Elmi yenilik: Mövzunun müasir səviyyədə son məlumatlar əsasında araşdırılması onun yeniliyindən xəbər verir.
Praktiki əhəmiyyəti, üstünlükləri: Mövzunun praktiki əhəmiyyəti və üstünlüyü əldə edilən nəticələrin turizm sektorunda istifadəsidir.
Nəticə: Bu araşdırma 2020-ci il pandemiyasının Yunanıstanın beynəlxalq turizm daxilolmalarına təsirinin böyük olduğunu müəyyən etmişdir. ÜDM-ə təsirin qeyri-müharibə dövrü üçün gözlənilməz olacağı gözlənilir.
Açar sözlər: Turizm, COVID-19, sənaye, ehtiyat tədbirləri, Yunanıstan turizmi

GİRİŞ

İşin aktuallığı və əhəmiyyəti: Epidemiyalar fərdlərin tətil qərarlarında və səyahət istiqamətləri seçimində qısa, orta və uzun müddətli müxtəlif dəyişikliklərə səbəb olur. Normal şəraitdə səyahət qərarlarında istehlakçıların iqtisadi və sosial seçimləri ön plandadır və istehlakçıların rasional seçim edəcəyi və sabit bir meyl göstərəcəyi güman edilir. Bu çərçivədə istehlakçıların vaxt və gəlir vəziyyətləri ilə məhdudlaşan kontekstdə alternativ imkanlara müraciət etmələri gözlənilir. Lakin epidemiya prosesləri zamanı psixoloji seçimlər aydınlaşır və istehlakçılarda təşviş, travma və panika hökm sürür. Bu səbəbdən, istehlakçılar tərəfindən qəbul edilən qərarların təsirləri daha çox uzun müddətli olur. Bu istiqamətdə insanlar arasında qarşılıqlı əlaqənin intensiv olduğu, il boyu istirahət və dincəlməsi gözlənilən bayramla bağlı turizm sektorunun COVID-19 pandemiyası səbəbindən ciddi zərər görəcəyi proqnozlaşdırılır. Bütün bu təsirləri nəzərə alaraq, araşdırmada Koronavirus (COVID-19) pandemiyasının Yunanıstan turizminə təsirləri araşdırılmışdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, mövzu müasir dövr üçün olduqca aktualdır.
Tədqiqat işinə olan ehtiyac: Bu izahatlar çərçivəsində COVID-19 prosesində turizm sektorunu araşdırmaq və turizm sektorunu Yunanıstan üzərindəki nümunə baxımından qiymətləndirmək hədəflənir. COVID-19 pandemiyası kifayət qədər yeni bir proses və onun turizm sektoruna təsirləri olduğundan, tədqiqatın ədəbiyyatda mühüm yer tutacağı düşünülür.
Tədqiqatın əsas məqsədi: Koronavirus (COVID-19) pandemiyasının Yunanıstan turizminə təsirlərini araşdırmaqdır.
Tədqiqatın strukturu: üç dildə xülasə, giriş, tədqiqat metodu, əsas hissə, nəticə və ədəbiyyat siyahısından təşkil olunmuşdur.

TƏDQİQAT METODU

Araşdırma zamanı ümumiləşdirmə, deduksiya, induksiya və müşahidə metodundan istifadə edilmişdir.

Pandemiyanın Yunanıstan turizminə təsiri

İqtisadi böhran illərində güclü investisiya marağına malik olan turizm sektoru tənəzzül və işsizlik qarşısında güclü bənd olub və ölkəni xüsusilə müsbət artım templərinə gətirib çıxarıb.
Bununla belə, Yunan turizmi güclü mövsümiliyə malikdir - Avropanın ən böyük məhsul bazarı, məsələn, "günəş, dəniz, qum" triptixi ölkənin əsas turizm məhsuludur. Bir çox böhranlar yunan turizminin tarixinə təsir göstərsə də, onun böyüməsini heç vaxt dayandırmamışdır.
Bununla belə, bu mərhələdə yunan turizmi görünməmiş bir turizm böhranı, SARS-COV-2 ("ağır kəskin tənəffüs sindromu-Coronovirus 2") ilə qarşı-qarşıya qalmışdır. İtkilər, qlobal və ağlasığmaz qapanma ilə bağlı sərhədlərarası problemləri nəzərə alaraq, hələ də qarşıda ölkəni nələrin gözlədiyinə dair güclü etibarsızlıq hissləri yaratmağa davam edir [1, s. 117 – 118].
Yunanıstan, bütün dünya kimi, 2020-ci ilin martından bəri gözlənilməz böhrandan əziyyət çəkir. Qəribədir ki, pandemiya, keçən il olduğu kimi, ətraf mühitə zərər vurmaqla və Santorini kimi yerləri dəbdəbəli əyləncə parklarına çevirməklə hədələyən kütləvi turizmin ağır yükünü yüngülləşdirmişdir.
2020-ci ilin yayında mövsümi canlanmanı qismən qorumaq üçün Santorini və Mikonos kimi məşhur yerlərdəki bir çox otel COVID ehtiyatlı səyahətçiləri hökumət tərəfindən yayımlanan yeni qaydalara ciddi riayət etmə zəmanəti ilə ölkəyə gəlməyə inandıra bilmişdir.
75 kvadrat kilometrlik Egey adası olan Serifos, Santorini kimi Kiklad arxipelaqının bir hissəsidir. Adanın maliyyə və turizm üzrə merinin müavini Staylianos Livaniosun sözlərinə görə, burada böyük zəncirli otellər yoxdur və yerli sakinlər onun belə qalmasını istəyirlər. Belə yerlər kiçik daxili turizm hədəflərindəndir. Bu da öz növbəsində pandemiya zamanı yumşalmalar tətbiq edildikdə müsbət dinamika yaradır.
Avropa COVID-dən sonrakı səyahət üçün yeni sistem qurmağa çalışarkən, pandemiya hələ də qaranlıq bir reallıq olsa da, davamlılığa əsaslanan bu cür təşəbbüslər səyahətçiləri günəş vannalarından və yüksək karbohidratlardan kənara çıxan yeni tətil formalarına cəlb etmək təhlükəsi altındadır.
Yunanıstanın turizm naziri Harri Teoharis dekabr ayında EBRD (Avropa Yenidənqurma və İnkişaf Bankı) tərəfindən Yunanıstanın Santorini və Rodos şəhərlərində araşdırmasını yenicə tamamladığını açıqlamış və yerli qanunlara zidd olmadan "turizmə davamlılıq əlavə etmək" üçün çalışdıqlarını söyləmişdir. Turizm naziri Teoharisin dediyi kimi, oxşar ssenarilər Yunanıstanın bir çox adalarında da tətbiq edilir.
Böyük Parosdan on dəqiqəlik bərə gəzintisi məsafəsində yerləşən və ilk dəfə eramızdan əvvəl XIII əsrdə Finikiyalılar tərəfindən müstəmləkə edilən Antiparos, bəzi digər yunan adaları kimi, komendant saatı və digər anti-COVID tədbirlərinə məruz qalmışdır.
Kimsəsiz, lakin arxeoloji cəhətdən zəngin Despotikoda yeni tapılan Apollon məbədi ilk dəfə 2021-ci ildə ziyarətçilərin üzünə açılmışdır. Bu həmin dövr üçün canlanma yaradan amillərdən biri idi. Ada Antiparosdan cəmi 700 metr cənub-qərbdə yerləşir [5].
Ümumiyyətlə, pandemiya ilə bağlı ədəbiyyatlar qısamüddətli təsirlərin əhəmiyyətli olduğunu, lakin uzunmüddətli təsirlərin daha müsbət olduğunu göstərir. Əsasən, iqtisadi dərsliklərin tədqiqat analizləri göstərir ki, tədarükçülər (müəssisələr) və ev təsərrüfatları istehsal amilləri və əmtəə bazarında sərbəst şəkildə qarşılıqlı əlaqədə olur, müvafiq xərcləri öz üzərlərinə götürürlər və gəlir əldə edirlər [3, s. 111 – 112].
Xarici orqanların (məsələn, hökumət, həmkarlar ittifaqı, işçi assosiasiyaları) hər hansı müdaxiləsi və ya gözlənilməz hallar (məsələn, müharibə, terror hücumu, zəlzələ) son məhsulun tələb və təklifinə təsir göstərir (məsələn, istirahət turizmi). Bunu turizmə tətbiq edən iqtisadçılar hər hansı müdaxilənin turizm xidmətlərinin tələb və təklifinə təsirini qiymətləndirmək üçün öz analitik alətlərindən istifadə edə bilərlər.
Bununla belə, pandemiyanın turizm xidmətlərinə tələb və təklifə təsirinin mövcud vəziyyətini ənənəvi iqtisadi təhlil alətlərindən istifadə etməklə təhlil etmək mümkün deyil.

Şəkil 1: Səyahət məqsədi ilə 2019 və 2020-ci illərdə Yunanıstanda beynəlxalq səyahət qəbzlərinin dəyəri.



Qeyd:
Leisure - Asudə
Visit to family - Ailəyə ziyarət
Business - Biznes
Other reasons - Digər səbəblər
Studies - Təhsil
Health - Sağlamlıq

Mənbə: https://www.statista.com/statistics/763890/greece-inbound-tourism-expenditure-receipts-by-purpose/

Pandemiyanın təsirinə xarici şok kimi baxmaq olmaz. Bu, adətən, mənfi xarici şok məhsulun tələb və təklifinə (məsələn, qonaqpərvərlik), iqtisadiyyatın bütün sektorunun (məsələn, turizm sənayesi) və ya bütövlükdə iqtisadiyyatın tələb və təklifinə təsir etdikdə edilir. 2020-ci il pandemiyasının təsiri fərqlidir. Onun təsiri tələb və/yaxud təklif əyrilərində dəyişiklik kimi ölçülə bilməz, çünki bu əyrilər sadəcə mövcud deyil.

Yunanıstanda şəxsi səbəblərlə ölkə daxilində səyahət edən turistlərin sayı 2019-cu ildə bir əvvəlki ilə nisbətən 510 min azalaraq təxminən 5,2 milyona çatıb. Ölkədə gecələyən yerli turistlərin sayı da son illərdə dəyişilmişdir.

Şəkil 2: 2019-cu ilə qədər Yunanıstanda gecələyən yerli ziyarətçilərin sayı (1000-də)



Mənbə: https://www.statista.com/statistics/614493/number-domestic-arrivals-spent-in-accommodation-in-greece/

Yunanıstanda daxili turizm xərcləri koronavirus (COVID-19) pandemiyasının təsiri səbəbindən 2020-ci ildə əvvəlki ilə nisbətən təxminən 42 % azalıb. Ümumilikdə, yerli səyahətçilərin xərcləri 2019-cu ildə 9,7 milyard avro təşkil etdiyi halda, 2020-ci ildə 5,6 milyard avroya çatıb.

Qrafik 2: Yunanıstanda 2020-ci ilə qədər daxili turizm xərcləri (milyard avro ilə)



Mənbə: https://www.statista.com/statistics/644565/domestic-tourism-expenditure-greece/

Fərz edək ki, Yunanıstanın kiçik bir adasında bir turist COVID-19 üçün müsbət test edir. Normal turistlərin etdiyi kimi, o, kiçik adaların bütün yerlərini (məsələn, muzeylər, çimərliklər, barlar, restoranlar və s.) gəzdi və çoxlu turist və yerli əhali ilə ünsiyyət qurdu [4, s. 77].

Bütün ada ən azı 14 gün karantinə alınmalıdır. Çox az adam belə bir tətil təcrübəsini riskə atacaq. Pandemiya bitmədikcə, bu cür risklər sıfırdan fərqli iqtisadi və sosial xərclər qoyur. Beləliklə, onlar turizmə beynəlxalq və milli tələbatı əhəmiyyətli dərəcədə azaldacaqlar [5].

Turizm bazarı pandemiyadan əvvəlki vəziyyətinə yalnız virusun tamamən azalması, bununla yanaşı pandemiya sonrası alınan ehtiyat tədbirləri və qaydaları əsasında qayıtmağa başlayacaq. O halda belə, qeyri-müəyyənlik və risklərin aradan qaldırılması üçün bir neçə ay və ya hətta illər tələb oluna bilər. Rekreasiya məqsədləri üçün turizm yoluxucu xəstəlik qorxusu ilə birlikdə mövcud ola bilməz.

NƏTİCƏ

Hər hansı bir pandemiyanın iqtisadi təsirini, virusa yoluxan və vəfat edən insanların sayını ölçmək çox çətindir. Ədəbiyyatların təhlili göstərir ki, pandemiyanın təsirlər (müsbət və mənfi) qapanma səbəbindən dərhal, pandemiyadan əvvəlki vəziyyətə uyğunlaşmaq üçün tələb olunan vaxta görə orta və birdən çox davam edə bilən insan kapitalına təsiri ilə uzunmüddətli ola bilər.

Bu araşdırma 2020-ci il pandemiyasının beynəlxalq Yunanıstan turizm daxilolmalarına təsirinin böyük olduğunu müəyyən etmişdir. ÜDM-ə təsirin qeyri-müharibə dövrü üçün gözlənilməz olduğu görünür.

Hətta Yunanıstan iqtisadiyyatına ağır zərbə vuran iqtisadi böhran belə COVID-19-un Yunanıstan iqtisadiyyatına təsiri ilə müqayisə edilə bilməz. Turizm gəlirlərinin azalmasının ÜDM-in 9-14 faizi arasında olacağı müəyyən edilir. Bu, 2020-ci ilin təsiridir.

ƏDƏBİYYAT

1. Morgan H.H. (2020) Grrek tourism during COVID-19. Journal of Economic Growth 39 p.
2. Kassotaki O. Greek Tourism Industry: Improving the Tourist Product. London, 400 p.
3. Papanikos G.T. (2020) The Greek small and medium sized hotel enterprises. Athens: Research Institute of Tourism. (In Greek), 444 p.
4. Mastroanni G.A. (2020) How Safety and Security influence the decision of tourists: Research Institute of Tourism. (In Greek), 390 p.
5. file:///C:/Users/User/Downloads/2020-7-2-2-Papanikos.pdf – turizmin Yunanistan turizmine etkisi 2022.

İNSTİTUSİONAL KEYFİYYƏT VƏ RİFAH ARASINDAKI ƏLAQƏNİN MAKRO VƏ MİKRO SƏVİYYƏDƏ ÖYRƏNİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

İLKİN QASIMOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə Fakültəsi
ilqasimov@beu.edu.az
Bakı/Azərbaycan

XÜLASƏ

İnstitusional keyfiyyət və institusional inamla rifah arasındakı əlaqəni araşdıran elmi tədqiqatlara əsasən XX əsrin ikinci yarısından etibarən rast gəlinir. Tədqiqatçılar arasındakı ümumi razılığa əsasən qeyd edilən göstəricilər arasında müsbət və statistik olaraq əhəmiyətli əlaqə mövcuddur. Bununla belə, elmi ədəbiyyatlarda istər institusional keyfiyyət və rifah, istərsə də institusional inam və rifah arasında asılılığın forması və ayrı-ayrı komponentləri ilə bağlı çoxsaylı fikir ayrılıqlarına da rast gəlmək mümkündür. Həmçinin o da qeyd edilməlidir ki, son onilliklərdə qeyd edilən istiqamətdəki tədqiqatların sayı sürətlə artmış, istifadə edilən tədqiqat metodlarının sayı zənginləşmişdir.

Azərbaycan nümunəsində istər makro, istərsə də mikro səviyyədə institutsional keyfiyyət və rifah arasındakı əlaqəni tədqiq edən elmi araşdırmalara demək olar ki, rast gəlinmir. Mövcud tədqiqatlarda isə Azərbaycan ən yaxşı halda müxtəlif qrup ölkələrin tərkib hissəsi olaraq araşdırılır. Bu sahədə dünya təcrübəsinin öyrənilməsi yerli tədqiqatçıların qeyd edilən mövzuya marağını artırmaqla ölkə nümunəsində bu cür elmi araşdırmaların sayının çoxalmasına şərait yarada bilər. Bu həm də siyasət tədbirlərinin həyata keçirilməsi baxımından əhəmiyyət kəsb edir.

AÇAR SÖZLƏR: İnstitusional keyfiyyət, institusional inam, rifah

ABSTRACT

Researches investigating the link betwen institutional quality, trust and welfare mainly appeared after the second part of 20th century. According to general consensus among scholars there is positive and statistically significant relationship between mentioned variables. However there are many disagreements in literature on the form of the link between institutional quality/trust and welfare, as well as different components. In addition, it should be also mentioned that within last years number of researches on this direction increased sharply and number of research methods used is enriched.

There is almost no any research investigating the link between institutional quality and welfare in a macro and micro levels. In existing researches Azerbaijan is studied as a part of different country groups. Study of world experience in this field will not only increase the interest of local researchers to this topic, but also contribute to the increase of researches. It is also important in terms of policy implementation.

KEY WORDS: Institutional quality, institutional trust, welfare

GİRİŞ

İnstitusional keyfiyyət və rifah arasındakı əlaqə ilə bağlı ilkin fikirlərə orta əsr filosof və alimlərinin əsərlərində rast gəlinsə də bu məsələ XX əsrin ikinci yarısından etibarən elmi ədəbiyyatlarda daha geniş şəkildə tədqiq edilməyə başlanmışdır. Ötən onilliklər ərzində aparılmış tədqiqatlar nəticəsində iqtisadçılar arasında institusional keyfiyyətin rifaha müsbət təsirinin olması ilə bağlı ümumi bir həmrəylik mövcuddur [1]. Üstəlik bu özünü həm makro səviyyədə - institusional keyfiyyət, həm də mikro səviyyədə - institusional inam və rifah arasındakı əlaqədə göstərir. İnstitusional keyfiyyət, inam və rifah arasındakı əlaqənin çoxşaxəli və çoxparametrli olması səbəbindən son illərdə bu istiqamətdə aparılmış elmi tədiqatların sayında ciddi artım müşahidə olunmaqdadır. Təbii ki, bu artım da öz növbəsində müxtəlif ölkə və bölgələr, həmçinin göstəricilər üzrə fərqli nəticələrin alınmasına gətirib çıxarmışdır. Məsələn, Kaufman və Kraay, Rivera-Batiz, Çonq və Kalderon, Liu, Nquyen və başqaları kimi tədqiqatçılar qeyd edilən iki göstərici arasında müsbət və statistik olaraq əhəmiyyətli əlaqənin olduğunu müəyyənləşdirmişlər [2], [3], [4], [5], [6]. Qeyd edilən nəticə Asiya ölkələri nümunəsində Navaz və digərləri tərəfindən də təsdiqlənmişdir [7]. Onlardan fərqli olaraq Adriano Filippinin doqquz bölgəsində apardığı tədqiqatda idarəetmə keyfiyyəti və inkişaf səviyyəsi arasında hər hansı bir əlaqənin olmadığını qeyd etmişdir [8]. Abdullahi və digərləri isə təbii resurslardan əldə edilən gəlirlərlə iqtisadi artım arasındakı asılılığı

araşdırarkən institusional keyfiyyət göstəricisi olaraq qanunun aliliyi faktorundan istifadə etmişdir. Afrikada yerləşən resurs zəngini ölkələrin nümunəsində həyata keçirilən tədqiqatda qanunun aliliyi (-1.28)-(-1.37) olan ölkələrdə iki göstərici arasında müsbət, göstəricisi (-1.37)-dən az olan ölkələrdə isə mənfi əlaqənin olması faktı sübuta yetirilmişdir [9]. Qanunun aliliyinin institusional keyfiyyət göstəricisi olaraq götürüldüyü başqa bir tədqiqatda isə Rodrik və digərləri bu göstəricinin iqtisadi artıma müsbət təsir etdiyini tapıblar [10]. Oxşar nəticələr eyni zamanda Zalle tərəfindən də əldə edilmişdir. 29 Afrika ölkəsi nümunəsində tədqiqat aparan müəllif resurs gəlirlərinin institusional keyfiyyətə birbaşa, iqtisadi artıma isə dolayı yolla təsir etdiyi nəticəsinə gəlmişdir [11]. Ji, Maqnus və Vanq isə oxşar nəticəni Çin nümunəsində əldə etmişlər [12]. Acemoğlu, Kutler və digərləri isə mülkiyyət hüquqlarının qorunmasını uzunmüddətli dövrdə iqtisadi artımın əsas determinantı olduğunu vurğulayıblar [13]. Navaz, Valeriani və Peluso kimi müəlliflərin araşdırması ilə institutların inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə daha pis fəaliyyət göstərdiyini və beləliklə də iqtisadi artımdakı payının daha az olduğunu qeyd etmişlər [14], [15]. Digərlərindən fərqli olaraq Alfonso və Jalles hökumət ölçüsü və iqtisadi akvivlik arasındakı asılılığı qiymətləndirərək hökumət ölçüsü və buraxılış arasında tərs, institusional keyfiyyət və iqtisadi aktivlik arasında isə düz mütənasib əlaqənin olması nəticəsinə gəliblər [16]. Fabro və Aixalanın araşdırmasında isə aşağı, orta və yüksək gəlirli ölkələrdə institusional keyfiyyət və iqtisadi artım arasındakı əlaqə tədqiqat mövzusu olmuşdur. Əldə edilmiş nəticələrə əsasən müəlliflər orta və yüksək gəlirli ölkələrdə bu iki göstərici arasında müsbət və statistik olaraq əhəmiyyətli, aşağı gəlirli ölkələrdə müsbət, lakin statistik olaraq əhəmiyyətsiz əlaqənin olduğunu tapmışlar [17].

Daha öncə də qeyd edildiyi kimi elmi ədəbiyyatlarda institusional keyfiyyət və rifah arasındakı əlaqəyə istər makro, istərsə də mikro səviyyədə baxılmışdır. Mikro səviyyədə aparılmış araşdırılmalarda institusional inam faktoru ön plana çıxmaqdadır. Məsələn, Pontarollo və digərlərinin apardıqları tədqiqat nəticələrinə əsasən institusional inam və rifah arasında müsbət əlaqə mövcuddur[17]. Yaponiya nümunəsində apardığı tədqiqatda Kuroki də oxşar nəticələr əldə etmişdir. O, iki göstərici arasında müsbət və statistik olaraq əhəmiyyətli əlaqəni tapmışdır [18]. Qeyd edilən nəticə Çin nümunəsində də təsdiqlənmişdir [19]. Çinin tədqiqat obyekti olaraq götürüldüyü başqa bir araşdırmada isə Xiao, Liu və Ren institusional faktorların rifahda mühüm rol oynadığı bəlli olmuşdur [20]. Eyni zamanda Su və digərlərinin araşdırmasında çinli sahibkarlar nümunəsində institusional inam və rifah arasında müsbət əlaqənin olması faktı aşkarlanmışdır [21].

Ümumdünya Dəyərlər Anketindən istifadə etməklə aparılmış tədqiqatda Hellivell və Huanq institusional keyfiyyət və inam göstəricilərinin digər qrup göstəricilərlə müqayisədə rifaha daha böyük təsirinin olmasını bildirmişlər [22]. Ottun fikrincə isə institusional keyfiyyət göstəricisi rifaha hökumət ölçüsü ilə müqayisədə daha çox təsir göstərir. Bununla yanaşı müəllif demokratiya göstəricisinin rifaha təsirinin yüksək gəlirli ölkələrdə ölkələrdə aşağı gəlirli ölkələrə nisbətən daha güclü təsirinin olduğunu bildirir [23]. Oxşar tədqiqat Bjornskov, Dreher və Fişer tərəfindən də aparılmış, aşağı, orta və yüksək gəlir qrupuna malik ölkələrdə institusional keyfiyyət və rifah arasındakı əlaqə tədqiq edilmişdir. Burada da müəlliflər orta və yüksək gəlirli ölkələrdə institusional keyfiyyətin rifaha təsirinin daha yüksək olduğunu qeyd etmişlər [24].

İnstitusional keyfiyyətin əsas atributlarından biri olan korrupsiya və fərdi rifah arasındakı əlaqəni araşdıran Tay, Herian və Dienerin 150 ölkə nümunəsində apardıqları tədqiqatda korrupsiyanın qərb ölkələrində qeyri-qərb ölkələrinə nisbətən rifaha daha ciddi təsir göstərməsi nəticəsi əldə edilmişdir [25] .Velş isə öz tədqiqat işində korrupsiyanın rifaha birbaşa təsirinin dolayı təsiri ilə müqayisədə daha çox olduğunu bildirmişdir [26]. Oxşar nəticələr eyni zamanda Tavits tərəfindən də əldə edilmişdir [27]. Serbiya nümunəsində tədqiqat aparan Jovanoviç fərdi və institusional inamla rifah arasındakı əlaqəni tədqiq etmiş, institusional inamla müqayisədə fərdi inamın rifaha təsirinin daha yüksək olduğunu vurğulamışdır [28]. Fleç, Smit və Sorsa rifaha təsir edən faktorları araşdırarkən institusional inam və keyfiyyətin rifaha təsiri olduğunu qeyd ediblər. Onlar bu təsirdə korrupsiyanın rolunu xüsusilə vurğulayıblar [29. Fleç, Smit və Sorsadan fərqli olaraq Frey və Ştutzer institusional keyfiyyət göstəricisi olaraq demokratiyadan istifadə ediblər və onun rifaha müsbət təsirinin olması qənaətinə gəliblər [30].Oxşar nəticələr həmçinin Tov və Dienerin araşdırmasında da əldə edilmişdir [31].

Azərbaycan nümunəsində institusional keyfiyyət/inam və rifah arasındakı əlaqəni tədqiq edən araşdırmalara demək olar ki, rast gəlinmir. Mövcud tədqiqatlarda isə Azərbaycan adətən keçid ölkələri, post-Sovet ölkələri və s. kimi qrupların tərkibində öyrənilir. Həbibov və Əfəndi tərəfindən aparılmış araşdırmada Mərkəzi Asiya, Şərqi-Avropa və Qafqazın post-Sovet ölkələrində 2008-ci il dünya maliyyə böhranından əvvəl və sonra olmaqla həyat məmnuniyyəti və inamın dəyişmə dinamikası və onların

qarşılıqlı əlaqəsi təhlil edilmişdir. Müəlliflərin fikrincə institusional inamın azalması fonunda inam və rifah səviyyələrində ciddi azalma müşahidə edilmişdir [32].

NƏTİCƏ

Yuxarıda qeyd edilmiş faktlara nəzər saldıqda istər institusional keyfiyyət və institusional inamın, istərsə də onların ayrı-ayrı komponentlərinin rifah baxımından mühüm əhəmiyyətə malik olması faktı bir daha öz təsdiqini tapır. Təsadüfi deyildir ki, bu göstəricilər arasındakı əlaqəni ölçən tədqiqatların sayı günü-gündən artır, istifadə olunan göstəricilərin və tədqiqat obyektlərinin, həmçinin tətbiq olunan elmi metod və üsulların əhatəsi genişlənir. Bununla belə, qeyd edilməlidir ki, verilən istiqamət üzrə Azərbaycan nümunəsində elmi-tədqiqatlara demək olar ki, rast gəlinmir. Bu isə öz növbəsində qeyd edilən istiqamət üzrə araşdırma aparmaq istəyən tədqiqatçılar üçün əlavə çətinliklər yaradır və onların stimullarını məhdudlaşdırır. Bundan əlavə, bu tipli tədqiqatların olmaması həm də siyasət tədbirlərinin həyata keçirilməsi zamanı müəyyən çətinliklər yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Valeriani, E. and Peluso, S., 2011. The impact of institutional quality on economic growth and development: An empirical study. *Journal of Knowledge Management, Economics and Information Technology*, *1*(6), pp.1-25.
2. Kaufmann, D., Kraay, A. and Mastruzzi, M., 2010. The worldwide governance indicators: Methodology and analytical issues. *World Bank policy research working paper*, (5430).
3. Rivera-Batiz, F.L., 2002. Democracy, governance, and economic growth: theory and evidence. *Review of Development Economics*, *6*(2), pp.225-247.
4. Calderón, C., Chong, A. and Galindo, A., 2002. Development and efficiency of the financial sector and links with trust: Cross-country evidence. *Economic Development and Cultural Change*, *51*(1), pp.189-204.
5. Xiao, Y., Liu, X. and Ren, T., 2022. Institutional Differences in Individual Wellbeing in China. *Sustainability*, *14*(2), p.721.
6. Nguyen, C.P., Su, T.D. and Nguyen, T.V.H., 2018. Institutional quality and economic growth: the case of emerging economies. *Theoretical Economics Letters*, *8*(11), p.1943.
7. Nawaz, S., Iqbal, N. and Khan, M.A., 2014. The impact of institutional quality on economic growth: Panel evidence. *The Pakistan Development Review*, pp.15-31.
8. Adriano, M.N.I., 2014. Quality of governance and local development: The case of top nine performing local government units in the Philippines. *Asia Pacific Journal of Multidisciplinary Research*| *Vol*, *2*(4).
9. Abdulahi, M.E., Shu, Y. and Khan, M.A., 2019. Resource rents, economic growth, and the role of institutional quality: A panel threshold analysis. *Resources Policy*, *61*, pp.293-303.
10. Rodrik, D., Subramanian, A. and Trebbi, F., 2004. Institutions rule: the primacy of institutions over geography and integration in economic development. *Journal of economic growth*, *9*(2), pp.131-165.
11. Zallé, O., 2019. Natural resources and economic growth in Africa: The role of institutional quality and human capital. *Resources Policy*, *62*, pp.616-624.
12. Ji, K., Magnus, J.R. and Wang, W., 2014. Natural resources, institutional quality, and economic growth in China. *Environmental and Resource Economics*, *57*(3), pp.323-343.
13. Acemoglu, D., Cutler, D., Finkelstein, A. and Linn, J., 2006. Did medicare induce pharmaceutical innovation?. *American Economic Review*, *96*(2), pp.103-107.
14. Nawaz, S., 2015. Growth effects of institutions: A disaggregated analysis. *Economic Modelling*, *45*, pp.118-126.
15. Valeriani, E. and Peluso, S., 2011. The impact of institutional quality on economic growth and development: An empirical study. *Journal of Knowledge Management, Economics and Information Technology*, *1*(6), pp.1-25.
16. Afonso, A. and Jalles, J.T., 2016. Economic performance, government size, and institutional quality. *Empirica*, *43*(1), pp.83-109.
17. Fabro, G. and Aixalá, J., 2009. Economic growth and institutional quality: Global and income-level analyses. *Journal of economic issues*, *43*(4), pp.997-1023.
18. Kuroki, M., 2011. Does social trust increase individual happiness in Japan?. *The Japanese Economic Review*, *62*(4), pp.444-459.
19. Bian, Y., Zhang, L., Yang, J., Guo, X. and Lei, M., 2015. Subjective wellbeing of Chinese people: A multifaceted view. *Social Indicators Research*, *121*(1), pp.75-92.

20. Xiao, Y., Liu, X. and Ren, T., 2022. Institutional Differences in Individual Wellbeing in China. *Sustainability*, *14*(2), p.721.
21. Su, Y., Zahra, S.A., Li, R. and Fan, D., 2020. Trust, poverty, and subjective wellbeing among Chinese entrepreneurs. *Entrepreneurship & Regional Development*, *32*(1-2), pp.221-245.
22. Helliwell, J.F. and Huang, H., 2008. How's your government? International evidence linking good government and well-being. *British journal of political science*, *38*(4), pp.595-619.
23. Ott, J.C., 2010. Good governance and happiness in nations: Technical quality precedes democracy and quality beats size. *Journal of Happiness Studies*, *11*(3), pp.353-368.
24. Bjørnskov, C., Dreher, A. and Fischer, J.A., 2010. Formal institutions and subjective well-being: Revisiting the cross-country evidence. *European Journal of Political Economy*, *26*(4), pp.419-430.
25. Tay, L., Herian, M.N. and Diener, E., 2014. Detrimental effects of corruption and subjective well-being: Whether, how, and when. *Social Psychological and Personality Science*, *5*(7), pp.751-759.
26. Welsch, H., 2008. The welfare costs of corruption. *Applied Economics*, *40*(14), pp.1839-1849.
27. Tavits, M., 2008. Representation, corruption, and subjective well-being. *Comparative political studies*, *41*(12), pp.1607-1630.
28. Jovanović, V., 2016. Trust and subjective well-being: The case of Serbia. *Personality and Individual Differences*, *98*, pp.284-288.
29. Fleche, S., Smith, C. and Sorsa, P., 2012. Exploring determinants of subjective wellbeing in OECD countries: Evidence from the World Value Survey.
30. Frey, B.S. and Stutzer, A., 2000. Happiness, economy and institutions. *The Economic Journal*, *110*(466), pp.918-938.
31. Tov, W. and Diener, E., 2009. The well-being of nations: Linking together trust, cooperation, and democracy. In *The Science of well-being* (pp. 155-173). Springer, Dordrecht.
32. Habibov, N. and Afandi, E., 2015. Pre-and post-crisis life-satisfaction and social trust in transitional countries: An initial assessment. *Social Indicators Research*, *121*(2), pp.503-524.

NEFT QİYMƏTİNİN KƏSKİN DƏYİŞMƏSİNİN NEFT İXRAC EDƏN ÖLKƏLƏRİN İQTİSADİYYATİNA TƏSİRİ

MİRRAZİM HƏSƏNOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə
mirrazimh@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Tədqiqat işində neft qiymətinin artması və ya azalması nəticəsində neft ixrac edən ölkələrin iqtisadiyyatında meydana çıxan müsbət və mənfi təsirlər araşdırılmış, bu təsirləri mümkün qədər azalda bilmək üçün həyata keçirilməsi vacib olan tədbirlər qeyd olunmuş, həmçinin yekun fikirlər öz əksini tapmışdır. Mövzu həm geniş həm də çox şaxəli bir mövzu olduğu üçün məcburən qısa və dəqiq şəkildə yalnız vacib olan məqamlar qeyd olunmuşdur. Burada neft ixrac edən ölkələrin neftdən hansı dərəcədə aslı olduğunu, neft qiymətlərinin dəyişməsinin öneft ixrac edən ölkələrin iqtisadiyyatına necə təsir etdiyi və.s lə bağlı danışılır Buna baxmayaraq, iş mövzu ilə bağlı ümumi bir fikrin formalaşmasına kifayət edir.
AÇAR SÖZLƏR: Neft qiymətləri, ölkə iqtisadiyyatında neftin rolu, neft ehtiyyat fondlarının əhəmiyyəti.

GIRIŞ
Tezisdə neftin qiymətinin kəskin dəyişməsinin neft ixrac edən ölkələrin iqtisadiyyatına təsiri araşdırılmışdır. Nəzərə alsaq ki, neft ixrac edən ölkələrin əksəriyyətində büdcə gəlirləri məhz neft satışı vasitəsi ilə təmin edilir, xüsusən də son illər neft qiymətlərində kəskin ucuzlaşmalar müşahidə olunur, o

zaman mövzunun ətraflı araşdırılması zərurət tələb edir. Azərbaycan respublikasının da neft ixrac edən ölkə olması, xüsusən də milli gəlirlərində neftin üstünlük təşkil etməsi mövzunu daha da aktuallaşdırır.

Tədqiqat işində qiymət fərqlərinin ən çox təsir etdiyi sahələr və təsir formaları araşdırılmış, neftin qiymətlərinin kəskin dəyişməsinin ticarət, valyuta məzənnəsi, məcmu tələb, inflyasiya səviyyəsi və s. üzrə təsirləri təhlil edilmiş, habelə məzənnə rejimləri aspektindən yanaşaraq, istər qiymətlərin yüksək, istərsə də aşağı olduğu zamanlarda həyata keçirməsi zəruri olan tədbirlər dünya təcrübəsinə istinadən müəyyən edilərək təklif şəklində irəli sürülmüşdür.

TƏDQIQAT METODU

Ən mühüm enerji resurslarından biri olan neft qlobal enerji istehlakının 34%-ni təşkil edir. Neftin bu qədər önəmli olmasının səbəbi sadəcə enerji resursu olduğuna görə deyil. Belə ki, neft ehtiyatlarına malik olmaq geosiyasi güc mənbəyinə sahib olmaq deməkdir. Ona görə də dünya bazarında neftin qiyməti üzrə baş verən hər hansı bir dəyişiklik ölkələrin, xüsusən də ixracatının əsas hissəsini neft təşkil edən dövlətlərin iqtisadiyyatına ciddi təsirlər göstərir. Həmin təsirlər, əsasən, iki formada özünü inikas etdirir:

1. məzənnə rejmi vasitəsi ilə təsir; 2. dövlət büdcəsi vasitəsi ilə təsir. [3]

1. Məzənnə rejmi vasitəsi ilə təsir

Əgər neftin qiymətində artım olarsa, neft ixracatından əldə edilən gəlirlər də mütənasib şəkildə artaraq, ixracçı ölkənin real milli gəlirlərinin yüksəlməsinə səbəb olur.

Belə vəziyyətdə, neft ixrac edən ölkə üzən məzənnə rejimindədirsə, xarici valyuta axınının sürətlənməsi milli valyutanın dəyərini artıracaq.

İxracçı ölkə sabit və ya idarə olunan rejimdədirsə, xarici valyuta kütləsinin daha böyük həcmdə artmasına səbəb ola bilər ki, bu da sonradan likvidliyin artmasına, iqtisadiyyatda qiymətlərin (inflyasiya) yüksəlməsinə yol açar. Bu da da öz növbəsində, tənəzzülə, işsizliyin artmasına, inflyasiyanın yüksəlməsinə, gələcəkdə isə "Holland sindromu"[4]na gətirib çıxara bilər.

Neftin qiyməti kəskin şəkildə aşağı düşərsə, neft ixrac edən ölkənin neft ixracından əldə etdikləri gəlirlər də kəskin şəkildə azalmış olur. Bu vəziyyət milli bazarda xarici valyuta təklifinin azalmasına gətirib çıxarır.

Üzən məzənnə sisteminin mövcud olduğu ölkədə milli valyuta dəyərini bazar müəyyən edir. Nəticədə ölkənin valyutası dəyərini itirməyə başlayır. Odur ki, bu mövqe valyutanın ucuzlaşması kimi qəbul edilir. Əgər ölkədə qeyri-neft ixracatı üstünlük təşkil edərsə, bu zaman valyuta dəyərinin aşağı düşməsi, ölkənin iqtisadiyyatını yaxşılaşdırır, çünki digər ölkələr həmin ölkədən daha çox mal idxal edir. Lakin inkişaf etməmiş əksər neft ixrac edən ölkələrdə milli istehsal imkanları geniş olmadığına və ölkə iqtisadiyyatı neftdən asılı olduğuna görə, neft və milli valyuta dəyər itirdikcə onların iqtisadiyyatları da ciddi ziyan görmüş olur.

Sabit məzənnə sistemi olan ölkələrdə isə dövlət milli valyutanın kəskin dərəcədə ucuzlaşmasına imkan verməsə də, valyuta çatışmazlığı səbəbindən, məcburən yalnız vacib mal və xidmətlərin idxalı, eləcə də xarici öhdəliklərin ödənilməsi üçün çalışır. Başqa sözlə, hökumət valyuta əməliyyatlarını müəyyən çərçivədə məhdudlaşdırmış olur.

2. Dövlət büdcəsi vasitəsilə təsir: Bu təsir özünü neft qiymətləri ucuzlaşan zaman daha çox büruzə verir. Belə ki, neftin qiymətinin kəskin aşağı düşməsi ilə neft ixrac edən ölkədə büdcə kəsiri yaranır. (neft ixracından gələn gəlirlərin, həmçinin neft vergilərinin azalması səbəbindən). Bu da öz növbəsində ölkənin bütün iqtisadi sahələrəinə ciddi ziyan vurur.

Tədiqatlara istinadən demək olar ki, bu tip təsirdən qorunmağın ən üstün metod neftin qiyməti kəskin ucuzlaşana qədər ölkədə neft ixracından əldə olunan gəlirin bir hissəsini ehtiyyat fondunda saxlamaqdır. Belə olan halda, büdcə kəsirini həmin fond vasitəsi ilə qarşılayaraq, yaranacaq fəsadları önləmək mümkündür. Bu tip fondlar dünyanın bir çox ölkələrində təssis edilib: **(Cədvəl 1)** [1]

Ölkə	Ehtiyyat fondları	Təsis ili
Botsvana	Neft Ehtiyatları Fondu	1972
Norveç	Norveç Suveren Neft Fondu	1990
Venesuela	Makroiqtisadi Milli Neft Fond	1998
İran	Milli İnkişaf Fondu	1999
Meksika	Meksika Neft Gəlirlərinin Ehtiyyat Fondu	2000
Azərbaycan	Azərbaycan Dövlət Neft Fondu	2000
Rusiya	Neft Ehtiyyatları Fondu	2004

[4] İqtisadiyyatın hər hansı bir sahəsində baş verən sıçrayış digər iqtisadi sahələrin geriləməsinə səbəb olur. Termin 1977 ci il "The Economist"jurnalı tərəfindən istifadə edilib.

Cədvəl 1

Dünya ölkələrində mövcud olan neft ehtiyyat fondları [4]

Bundan əlavə, hökumət gəlirləri artırmaq və ya xərcləri azaltmaq üçün vergi mexanizmlərindən də istifadə edə bilər. (Fiskal siyasət)

Həmçinin dövlət istiqrazlarının buraxılması və satışı da problemin həll olunmasında özünü doğrultmuş bir metoddur. Bu zaman dövlət büdcə kəsirini ödəmək üçün bir növ xalqdan və firmalardan borc pul almış olur.

Bundan əlavə, ölkə öz kəsirini qarşılamaq üçün başqa ölkələrdən və ya beynəlxalq təşkilatlardan (məsələn, BVF) borc götürə bilər.

Bəzən neft ixrac edən ölkə neft ixracından gələn gəlirlərin artması nəticəsində xarici ölkələrə sərmayə yatırır. (məsələn, 2009-cu ildə neftin qiymətinin kəskin artması səbəbindən Səudiyyə Ərəbistanı xarici ölkələrə investisiya qoymaq üçün 5,34 milyard dollar ayırmışdır.) Bu siyasət bir tərəfdən gözlənilməz yüksək gəlirlərin iqtisadiyyata mənfi təsirinin qarşısını alır, digər tərəfdən xarici investisiya portfelinin şaxələndirilməsi kimi üstünlük qazandır, ən əsası da ölkəni əlavə gəlir ilə təmin edir. Nəticə etibarı ilə də, hətta neft qiymətləri ucuzlaşdıqda belə, ölkədə ciddi mənfi təsirlər müşahidə edilmir, həmçinin bu hal iqtisadi artıma, məşğulluq dərəcələrinin yüksəlməsinə, faiz dərəcələrinin aşağı düşməsinə və alıcılıq qabiliyyətinin artmasına imkanlar yaradır.

Əgər hökumət istər məzənə rejiminin, istərsə də büdcə vasitəsi ilə təsirin qarşısında hər hansı bir tədbir görməyib milli valyutanı devalvasiya edərsə, o zaman inflyasiya daha da kəskinləşər, bu da öz növbəsində sadəcə ölkədaxili iqtisadi fəsadlara deyil, həm də investorların ölkə iqtisadiyyatına inamının zəifləməsinə, ölkənin xarici investisiyalar üçün cəlbediciliyinin azalmasına səbəb olar.

NƏTICƏ

Əvvəldə qeyd olunduğu kimi, bütün dünya üçün mühüm tələbat mənbəyi olduğuna görə daim diqqət mərkəzindədir. Odur ki, neft qiymətində baş verən dəyişmələr ölkələr tərəfindən xüsusi həssaslıqla qarşılanır.

Aparılan araşdırma və bu mövzuda olan tədqiqat işlərinə istinadən də, deyə bilərik ki, neft qiymətindəki dalğalanmalar neft ixrac edən, xüsusilə də iqtisadiyyatı neftdən asılı olan ölkələrdə daha ciddi təsir göstərir. Çünki onların büdcə gəlirlərini daha çox neft ixracı gəlirləri təmin edir.

Neftin qiymətinin aşağı düşməsi nəticəsində yaranan valyuta qıtlığı maliyyə bazarına, ticarət və istehsal sferasına, eləcə də əmək bazarına təsir edir.

Ümumiyyətlə, araşdırma nəticəsində yekun olaraq, sadalanan fikirləri söyləyə bilərik:

- Neftin qiyməti kəskin artdıqda, ehtiyyat fondundan istifadə edilməsi və birbaşa xarici investisiyaların artırılması neft ixrac edən ölkələrin izafi likvidliyinin, eləcə də inflyasiya təzyiqlərinin azaldılmasında, habelə iqtisadiyyatın neft bazarındakı mənfi dalğalanmalardan qorumasında mühüm rol oynayır.
- Həmçinin neft ixrac edən və ixracatda neft payı yüksək olan ölkələrdə neftin qiyməti kəskin ucuzlaşarsa, hər iki məzənnə rejimi üçün fəsadlar yaranar, yüksək inflyasiya, iqtisadi tənəzzül, işsizliyin artması və digər problemlər aktuallaşmış olar.
- Neft ixrac edən ölkələrdə neft qiymətlərində kəskin artım hər iki məzənnə rejimi üçün əlverişsizdir. Daha əvvəl qeyd edildiyi kimi, neft qiymətlərinin kəskin artması idxalın artmasına gətirib çıxarır. Bu da yerli istehsala təsir edərək, iqtisadi fəallığın azalmasına, inflyasiyanın artmasına, işsizliyin yüksəlməsinə − bir sözlə, "Holland xəstəliyi"nə tutulma ehtimalına səbəb olur.
- Neftin qiyməti kəskin ucuzlaşdıqda neft ixrac edən ölkələr vergiləri artırmaq, dövlət xərclərini azaltmaq, istiqraz satmaq, başqa ölkələrdən və ya beynəlxalq təşkilatlardan borc almaq kimi müxtəlif tədbirlər həyata keçirə, dövlət büdcəsinin kəsirlərini ödəmək üçün neft ehtiyyatı fondundan istifadə edə bilərlər.

Ümumiyyətlə, neft qiymətlərindəki dalğalanmaların təsirindən qoruna bilmək üçün ölkənin istehsal payını artırmaq, qeyri-neft sahələrinin inkişafına investisiya yatırmaq, mümkün qədər idxal prosesini azaltmaq zəruridir. Təsadüfi deyil ki, bir müddət öncə xarici borcları ilə diqqət çəkən ABŞ keçən əsrin sonlarına doğru iqtisadiyyatına dönüş etmişdir. Ölkənin ixrac payını artıraraq, gəlirlərini digər sahələr ilə qarşılamış, enerji sahəsində idxal payını artıraraq, iqtisadiyyatın neftdən asılılığını minimuma endirmişdir. Buna görə də hazırda böhranlardan ciddi ziyanlar görmədən xilas ola bilən və iqtisadi cəhətdən inkişaf etmiş ən güclü dövlətdir. Bu təcrübəni digər inkişaf etmiş ölkələrdə də görmək mümkündür.

ƏDƏBIYYAT SIYAHISI
1. Bahmani-Oskooee M., Kandil M. Exchange Rate Fluctuations And Output İn Oil-Producing Countries, Imf Working Paper. 2007, 158
2. Дробышевский С., Козловская А., Трунин П. Выбор Денежно Кредитной Политики в Стране – Экспортере Нефти. Институт Экономики Переходного Периода. М., 2004, 302
3. Komijani A., Nazarian R., Behavorial Pattern of Income Velocity of Money And Estimation of Its Function. Vol. 9. N 11. Fall 2003. 210
4. Hüseynova V.A., Hüseynov Z.R., İsmayılov Ş.O., Mustafayev A.O., Manatın bahalaşması və iqtisadi inkişaf: Holland xəstəliyinin məzmunu və əlamətlərinin tədqiqi, Bakı 2005,.- səh. 7
Əhmədov İ. Neft gəlirləri və makroiqtisadiyat. Gələcəyə nəzər. Gələcək 10 il. Azərbaycanda demokratik islahatların başlıca istiqamət və məqsədləri. I cild «Adiloğlu» Bakı, 2006 səh. 295

COVID-19 PANDEMIYASININ AZƏRBAYCAN IQTISADIYYATINA TƏSIRI

Cəfərli Ramiz Elçin oğlu
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Maliyyə menecmenti
email rceferli2@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Azərbaycan Respublikası da neft hasil edən ölkələr cərgəsində olduğuna görə sadalanan problemlərdən yayına bilmək üçün daim islahatlar aparılmalı, tədbirlər görülməlidir. Ən önəmli məqam isə istehlak mallarını daxili istehsal əsasında təmin etməkdir. Sosial-iqtisadi inkişafda ən önəmli amilin aqrar sənaye olduğunu nəzərə aldıqda, ölkəmizdə aqrar məhsulların istehsalı üçün əlverişli imkanlar olduğunu qeyd edə bilərik. Düşmən tərəfindən işğal edilmiş ərazilərin də geri alınması bu imkanları daha da genişləndirmişdir. Müəyyən məhsulları sadəcə istehlak üçün deyil, həm də ixrac üçün istehsal etməklə sadəcə gəlir baxımından deyil, eyni zamanda iqtisadiyyatın neftdən asılılığını azaltmaq mümkündür. Təsadüfi deyil ki, müəyyən dövrlərdə bu sahədə tətbiq olunan dövlət proqramları pandemiya dövründə öz bəhrəsini verdi.
AÇAR SÖZLƏR: ***PANDEMIYA, COVID-19 VIRUSU, AZƏRBAYCAN IQTISADIYYATI, QEYRI NEFT SEKTORU***

GIRIŞ

2019-cu ilin dekabr ayında Çinin Hubei əyalətinin Uhan şəhərində ortaya çıxan koronavirus daha sonra sürətlə dünyanın bir çox ölkəsinə, o cümlədən Azərbaycana da yayıldı. Ölümcül koronavirus 2019-cu ildə ortaya çıxdığı üçün COVID-19 adını aldı. Xəstəliyin bütün dünyada sürətlə yayılması və vəziyyətin hər keçən gün daha da pisləşməsi nəticəsində Ümumdünya Səhiyyə Təşkilatı 12 mart 2020-ci il tarixində xəstəliyi pandemiya elan etdi. Karantin elan olunduqdan sonra bütün dünyada iş həyatı COVID-19-a uyğunlaşmalı oldu. Artıq ofislər, iclas otaqları Zoom, Skype, Google Meet, Microsoft Teams və s. kimi onlayn platforma və proqramlarla əvəzlənib. Dünya COVİD-19 ilə yaşamağa davam etsə də, pandemiya ölkələrin iqtisadiyyatına ciddi mənfi təsirlər vurub. Hətta elm adamları da təsdiq edirlər ki, pandemiyya bitsə belə, dünyanın əvvəlki vəziyyətə dönməsi üçün ən azı iki-üç il lazım olacaq. [Suleymanov E, Abdullayeva F, 2021, 35]

TƏDQIQAT METODU

Pandemiya mənfi təsirlər ilə yadda qalsa da, bu dövrü fürsətə çevirənlər də var. Belə ki, rəqəmsal dünyanı izləyən şirkətlər (Amazon, Best Bay və b.) iqtisadi biznes və istehlak üsulları üçün onlayn satış platformaları təklif edirlər, Təbii ki, bu gün pandemiyanın yaratdığı iqtisadi böhranın qarşısını almaq üçün

rəqəmsal dünya və istehsalçıların rəqəmsal dünyanın qaydalarına əməl etməsi labüddür. Odur ki, adı çəkilən rəqəmsal şirkətlərə, o cümlədən milyonlarla şəhər karantinə alındığı zaman evdə qalan insanlara internet üzərindən video xidmətləri təqdim edən Netflix, Amzon Prime, Hulu və s. kimi kompaniyalara tələbat artıb. Artıq bu şirkətlərin səhmləri də həddindən artıq yüksək dəyər qazanmışdır.

Xidmət sektorundan sonra bank sektoru koronavirusdan ən çox zərər görən sahələrdən biridir. Müştərilərinin sağlamlığını qorumaq üçün banklar texnoloji infrastrukturlar vasitəsilə bankdan kənarda da əməliyyatlar həyata keçirirlər. Xüsusilə də kağız pullar vasitəsilə koronavirusun ötürülməsi riskinin yüksək olması səbəbindən təmassız əməliyyatların və kontaktsız kredit kartlarının sayında sürətli artım müşahidə olunur. Lakin əksər müştərilər kreditlərini ödəyə bilmədiyi üçün banklar çətin vəziyyətdədir. Dünyanın ən böyük banklarından biri olan "Deutsche Bank"-ın səhmləri 17% ucuzlaşıb və Avropa Mərkəzi Bankı artıq faiz dərəcələrini sıfır səviyyəsində saxlamaq məcburiyyətindədir.

Pandemiya fonunda tətbiq edilən və dünya iqtisadiyyatına ən çox təsir edən məhdudiyyətlərdən biri də hava uçuşlarının dayandırılması ilə əlaqədar turizm və nəqliyyat sektoruna dəyən ziyan olub. Bu da öz növbəsində neft bazarında tələb və təklif tarazlığını pozaraq neftin qiymətinin sürətlə çökməsinə, hətta minusa enməsinə səbəb oldu.

Bütün dünyada turizm agentlikləri, otellər və restoranlar koronavirus səbəbilə ciddi problemlər yaşayır. İnsanlar virusa görə səyahət etməkdən qorxduqları üçün turizm bölgələri ciddi iqtisadi itkilərlə üzləşir. Bir çox iqtisadi sektorlarda, xüsusən də xidmət sektorunda rekord səviyyədə iqtisadi tənəzzülə səbəb olan pandemiya bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ÜDM-də rekord azalmaya səbəb olub. Dünya Bankının hesabatına görə, pandemiyanın bütün dünyada kiçik və orta biznesi vuran karantin məhdudiyyətləri işsizliyin səviyyəsini həddən artıq yüksəltmişdir. Hal-hazırda koronavirus pandemiyasının qlobal iqtisadiyyata vurduğu zərər 3,5 trilyon dolları ötüb. [Rakhmanov, F.P. Suleymanov, E.B. Gojayeva, E.M., 2020, 116]

Azərbaycan da pandemiyadan müəyyən qədər zərər çəkən ölkələr sırasındadır. Eyni dövrdə həm neftin qiymətinin sürətlə azalması, həm də büdcə gəlirlərinin yarıdan çoxunun neft hesabına bağlı olması, bu təsirin daha da qabartmışdır. Eyni zamanda 2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq, Azərbaycanın işğal olunmuş əraziləri erməni işğalından azad edilməsi ilə başa çatan 44 günlük Qarabağ müharibəsi iqtisadi baxımdan da bu təsiri genişləndirmiş, effektivliyini daha da artırmışdır. Odur ki, 2020-ci ilin ilk aylarına müsbət iqtisadi artımla qədəm qoyan ölkə iqtisadiyyatı daha sonra pandemiya nəticəsində geriləməyə başlayaraq, 2020-ci ilin sonunda iqtisadi mənfi göstəricilərdə qərarlaşmış, nəticədə ölkə iqtisadiyyatı 3,5 faiz kiçilmişdir.

Qeyd edək ki, indiki şəraitdə digər inkişaf etmiş və qonşu ölkələrlə müqayisədə bu rəqəm o qədər də faciəvi deyil. Ona görə də problemlər tezliklə aradan qaldırılmış və 2021-ci ilin müsbət yekunlaşaraq, milli iqtisadiyyatda 4-4,5 faiz artım müşahidə olunmuşdur.

Asiya İnkişaf Bankı (AİB) bildirib ki, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və Covid-19-a qarşı məhdudlaşdırıcı tədbirlər nəticəsində neft ilə bağlı problemlərin, eləcə də neftin ucuzlaşmasına baxmayaraq, iqtisadi artım perspektivləri yaxın gələcəkdə də davam edəcək. Təşkilatın 2020-2021-ci illər üçün Azərbaycan üzrə proqnozları **Cədvəl 1**-də öz əksini tapmışdır:

Cədvəl 1. Asiya İnkişaf Bankının Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozu

İstiqamət yönümlü			**Tələb yönümlü**
	2020 P	2021 P	Dövlət xidmətlərindən əldə edilən gəlirlər hesabına ictimai istehlakın və minimum əmək haqqının 34% artımı hesabına şəxsi istehlak xərclərinin artmasının gözlənilməsi;
Sənayə sektoru	0.5 %	2.0 %	Neft qiymətlərinin aşağı düşməsi ilə əlaqədar dövlət investisiyalarının azalması fonunda 2020-ci ildə ümumi investisiyaların azalacağını proqnozlaşdırmaq;
Aqrar sektoru	4.5 %	4 %	Artan özəl investisiyalar hesabına 2021-ci ildə ümumi investisiyanın proqnozlaşdırılan artımı;
Xidmət sektoru	azalan	1 %	2021-ci ildə qaz hasilatının artırılması xalis ixracı artırmaqla yanaşı, iqtisadi artıma da müsbət töhfə verəcək.

Mənbə: https://www.adb.org/what-we-do/data/main

Azərbaycanda Covid-19 ilə əlaqədar olaraq e-ticarət sahəsində də dəyişikliklər labüddür. İqtisadçılar da qeyd edirlər ki, 2021-ci ilin 11 ayında Azərbaycanda elektron ticarətin həcmi təxminən 3,2 milyard manat artıb. Bu, son on ildə əldə olunmayan bir göstəricidir. [Demirdöğmez et al., 2020]

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Təşkilatının son hesabatına görə, Azərbaycan elektron ticarət üzrə 152 ölkə arasında 65-ci yerdədir. Bu göstəriciyə görə ölkəmiz əvvəlki illə müqayisədə 2 pillə geriləyib. Hesabat hazırlanarkən UNCTAD ölkəd' mövcud olan internetdən istifadə vəziyyətini, bank xidmətlərinə çıxışı, mobil ödəniş sistemlərini, təhlükəsiz serverlərini, onlayn mağazaların sayını, poçt statusunu və çatdırılma xidmətini də qiymətləndirib. Hesabatda MDB ölkələri arasında elektron ticarət üzrə Belarus 35, Rusiya 41, Gürcüstan 47, Ukrayna 51, Moldova 53, Qazaxıstan 60, Ermənistan isə 84-cü yerdə qərarlaşıb. [Rəhmanov, ümumiyyətlə, 2020]

Covid-19 pandemiyası ölkəmizdə qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan turizm sektorunun fəaliyyətinə də mənfi təsir göstərmiş, bu sahənin gələcək inkişafı üçün ciddi təhlükələr yaratmışdır. Nəticədə turizmlə bağlı sektorlarda birbaşa və ya dolayı yolla çalışan 100 minə yaxın insan üçün ÜDM istehsalı, valyuta gəlirləri və sosial təminat baxımından ciddi risklər yaranmışdır. **(Cədvəl 2)**

Cədvəl 2

Göstəricilər	**2019-cu il üçün göstəricilər**	**2020-ci il üçün göstəricilər**	**Azalma**		
			I 01.03.2020-01.06.2020)	**II 01.03.2020-01.08.2020)**	**III 01.03.2020-31.12.2020)**
Xaricilər üçün səfərlərin sayı	3170000	3743770	-861975	-1666124	-3311289
Yerli turistlərin sayı	4352900	4675015	-1077100	-2081941	-4137692
Xarici valyuta axını (milyon ABŞ dolları ekvivalenti)	1935.6	2285.9	-526.3	-1017.3	-2021.9
Turizm üçün xarakterik olan sahələr üzrə ÜDM (milyon manat)	3693.4	4280.4	-1072.3	-2072.8	-4119.5
Turizm səciyyəvi ərazilərdə ÜDM istehsalının dinamikası (faizlə)	6.4	13.4	-25.1	-48.4	-96.2
Turizm üçün səciyyəvi olan ərazilərdə işçi sayı (nəfər)	56362	59462	-13705	-26490	-52648
Turizmə məxsus sahələrdə işə götürülən iş yerlərinin dinamikası (faizlə)	5.9	12.3	-23.0	-44.6	-88.5
Turist yerləşdirmə sektorunda məşğulluq (nəfər)	82800	87354	-20134	-38916	-777343
Turistlərin yerləşdirilmə sektorunda məşğulluq dinamikası (faizlə)	5.9	12.3	-23.6	-44.6	-88.5
Köçürmə fəaliyyətlərində ümumi itkilər (milyon manat)	0	0	56.5	109.3	217.2
Köçürmə fəaliyyətindən xalis itkilər (milyon manat)	0	0	25.8	49.8	98.9
Turizm agentlikləri və turoperatorların fəaliyyətində cəm itkilər (milyon manat)	0	0	6.6	13.0	26.4
Səyahət agentlikləri və turoperatorların fəaliyyətində xalis itki (milyon manat)	0	0	3.9	7.8	6.0

Mənbə: https://www.adb.org/what-we-do/data/main

Pandemiya ən çox enerji sahəsinə təsir göstərdiyi üçün iqtisadiyyatı neftdən asılı olan ölkələrdə vəziyyəti daha da çətinləşdirib. Cənubi Qafqazda ən böyük iqtisadiyyata malik olan Azərbaycan da neft hasil edən ölkə olduğuna görə ölkəmiz üçün pandemiya təsirsiz ötüşməyib. Pandemiyanın mənfi təsirlərini və aşağı neft qiymətlərini nəzərə alan BVF regiondakı digər ölkələrdə olduğu kimi, Azərbaycan üçün də iqtisadi artım proqnozlarını mənfiyə endirib.



Mənbə: Elektron materiallar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ümumiyyətlə, Azərbaycan dünya bazarına neft nəql edən ölkə olduğundan, eləcə də iqtisadiyyatında neft aparıcı mövqe daşıdığından istər pandemiya, istərsə də pandemiyadan əvvəlki dövrdə dünyada baş verən hər hansı bir hadisə dolayısı ilə ölkə iqtisadiyyatında da iz buraxmış olur. Belə ki, pandemiyadan əvvəl də neftin qiyməti müəyyən siyasi səbəblərdən aşağı enmişdi. Pandemiya dövründə isə daha da dəyərdən düşmüş oldu. Məsələn, 2019-cu ildə yay aylarında "Brent" markalı neft bareli 60-66 USD arasında dalğalandığı halda, pandemiya təsirindən sonra, 2020-ci ilin yazında 25 USD-yə qədər azalmış oldu.

Neftin kəskin şəkildə dəyər itirməsinin qarşısını almaq üçün müxtəlif tədbirlər görülsə də, OPEC (Neft İxrac Edən Ölkələr Təşkilatı) üzvləri neft hasilatının azaldılması baxımından razılığa gəlsələr də, "Brent" markalı neft təqribən bir il sonra, 2021-ci ilin martında 70 USD-yə qədər yüksəlmiş, ilin sonuna doğru isə 83 USD-yə çatmışdır.

Hazırda isə Rusiya-Qərb qarşıdurması, tətbiq edilən sanksiyalar və s. kimi siyasi gedişlər səbəbindən neft illər sonra ilk dəfə 130 USD-yə qədər bahalaşıb.

Qeyd olunan fikirləri qaz bazarına da dair edə bilərik. Belə ki, qaz Avropa tarixində ilk dəfə olaraq, 2020-ci ildə, pandemiya dövründə ən aşağı qiymətə 34 USD -yə (min kubmetr 34 USD) satılıb. 2021-ci il ilin əvvəli 187 USD olduğu halda, ilin sonlarına doğru 700-800, daha sonra gözlənilmədən 1600 USD-yə qədər yüksəlmişdir.

Hazırda isə yuxarıda sadalanan siyasi səbəblərlə bağlı olaraq qazın hər min kubmetri 2000 USD-dən baha satılır. Bu da Avropa tarixində qaz üçün ən yüksək qiymətdir.

NƏTICƏ

Məlumdur ki, hər bir ölkənin iqtisadi inkişafına təsir edən xüsusi amillər mövcuddur. Həmin amillər ölkənin sahib olduğu potensiallar ilə xarakterizə olunur. Və bu potensiallar ölkə iqtisadiyyatını ayaqda saxlayaraq onun inkişafını təmin edir. Məsələn, bəzi ölkələr turizm, bəziləri aqrar, bəziləri də enerji potensialı və s. ilə diqqət çəkir.

Pandemiya sadalanan bütün potensiallara mənfi təsir göstərir. Beləcə, öz potensial imkanlarından faydalana bilməyən ölkə iqtisadi cəhətdən çöküşə məruz qalır. İşsizlik faizinin yüksəlməsi, tələb və təklif normalarının pozulması, istehsalın azalması və s. kimi meydana çıxan problemləri aradan qaldırmaq üçün dövlət maliyyə imkanlarını səfərbər etməli olur ki, bu da öz növbəsində digər acınacaqlı nəticələrə yol açır.

Qeyd etmək lazımdır ki, sadalanan mənfi hallar, sadəcə pandemiya kimi səbəblər zamanı meydana çıxmır. Bu tip problemlər iqtisadiyyatı neftdən asılı olan, eləcə də istehlakında idxal payı üstünlük təşkil edən ölkələr üçün həmişə gözlənilən haldır. Belə ki, dünya bazarında neftin qiymətinə təsir edəcək hər hansı bir

amil meydana çıxarsa, bu ölkələr ciddi fəsadlar ilə qarşılaşmış olur. Bu tip ölkələr hər nə qədər güclənmiş olsalar da, iqtisadi cəhətdən istehsalçı ölkələrdən asılı halda olaraq, həmişə təsir altında qalırlar.

ƏDƏBIYYAT SIYAHISI

1. Rahmanov F., Gojayeva E., Suleymanov E., Huseynova Sh. Real opportunities and limitations of the development of the tourism industry in the post-pandemic period. Romanian Statistical Review - Supplement nr. 12 / 2020.
2. Rakhmanov, F.P. Suleymanov, E.B. Gojayeva, E.M. Effects of Coronavirus The Impact of COVID-19 on the Georgian Economy. Issue #116/ 24.04.2020
3. Suleymanov E, Abdullayeva F. Azerbaıjan Economy In Durıng Covıd-19 Pandemıc. Interconf. 2021 Jun 25.
4.Azərbaycanla bağlı statistika:
www.indexmundi.com/azerbaijan/index.html#Economy
5.Ekodialoq: www.ekodialog.com

AZƏRBAYCAN MƏRKƏZİ BANKININ MÜSTƏQİLLİYİ VƏ TƏTBİQ ETDİYİ PUL SİYASƏTLƏRİ

İLKNUR TANRIVERDİ
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/ Dünya iqtisadiyyatı
itanriverdi@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu tədqiqatda, ilk olaraq, Azərbaycan Respublikası Mərkəzi Bankı yaranması, quruluşu, vəzifələri və Mərkəzi Bank haqqında ən önəmli qanun və fərmanlardan bəhs edilmiş, daha sonra, Mərkəzi Bankın tətbiq etdiyi pul siyasəti alətləri haqqında məlumat verilmiş, çərçivə alətləri, açıq bazar əməliyyatları üzrə alətlər və məcburi ehtiyat normaları hər biri ayrı-ayrılıqda araşdırılmışdır. Belə ki, 2019-2020 intervalında faiz dəhlizinin parametrləri, 2020-ci il üçün Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin və notların həcmi və gəlirliliyi göstərilmiş, 2020-2021 illəri üçün pul aqreqatlarının artım tempi faizlərlə göstərilmiş, 2019-2021-ci illər üçün Manatla geniş mənada pul kütləsinin dinamikası qrafik şəkildə verilmiş və dollarlaşmanın faiz nisbəti göstərilmişdir. Son olaraq isə, üçüncü hissədə Azərbaycan Mərkəzi Bankının tətbiq etdiyi pul siyasəti alətləri araşdırılmışdır. Belə ki, 2016-2020-ci illər üçün Uçot dərəcələri qrafik şəkildə göstərilmiş, 2006-2016 illər arasında həm milli, həm də xarici valyuta ilə məcburi ehtiyat normalarının faizlə dəyişməsi cədvəl şəklində verilmiş və sonda 2012-2020 illəri arasındakı Açıq bazar əməliyyatları çərçivəsində, Repo və əks-Repo əməliyyatlarının faiz və həcm dəyişmələri göstərilmişdir.

AÇAR SÖZLƏR: Mərkəzi Bank, müstəqillik, pul siyasəti alətləri

GIRIŞ

1991-ci il oktyabrın 18-də müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası öz müstəqilliyini əldə etməmişdən əvvəl 1991-ci il 25 may tarixli "Azərbaycan Respublikasının iqtisadi müstəqillik prinsipləri haqqında Qanun" ilə bank sistemi və mərkəzi bankla bağlı hüquqi infrastrukturu yaratdı. Bu qanunda müstəqil bank sistemi, milli valyutanın dövriyyəsi, mərkəzi bankın səlahiyyətləri və statusu müəyyən edilmişdir. Bu qanuna görə, mərkəzi bank; pul dövriyyəsi, kreditlər və xarici valyuta əməliyyatları məsələlərində dövlət siyasətini həyata keçirən və bank fəaliyyətini tənzimləyən üst səviyyə bir idarəedən qurum olaraq müəyyən edilmişdir [4].

ARMB 400 milyon rublluq kapitalla təsis edilmiş və sərmayənin bütün hissəsi dövlət mülkiyyətinə aid olan hüquqi şəxsdir. Mərkəzi Bank SSRİ dövründə İqtisadi Bank və Aqrar Sənaye Bankı kimi təsis edilmiş və bu iki bankın aktivlərinin və öhdəliklərinin 1 yanvar 1992-ci il tarixinədək Mərkəzi Banka ötürülməsi ilə

fəaliyyətə başlamışdır. 1996-cı ildə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta vəsaitinin həcmi 15 milyard manata qədər artırılmışdır. Bu gün mərkəzi bankın kapitalı 500 milyon manatdır [5].
Mərkəzi Bank İdarə Heyəti tərəfindən idarə olunur. Mərkəzi Bankın İdarə Heyətinin tərkibi yeddi nəfərdən ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Mərkəzi Bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzv daxildir. İdarə Heyətinin üzvləri vəzifəyə 5 il müddətinə təyin edilirlər [1].
1992-ci ildə əsası qoyulmuş mərkəzi bank 1995-ci ildə müstəqillik əldə etmişdir və Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsində "Azərbaycan Respublikasının Konstitusiyası və qanunları müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən Mərkəzi Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz." şəklində göstərilmişdir.
Maliyyə dünyasındakı yeniliklərə uyğunlaşmaq və ortaya çıxan ehtiyacları qarşılamaq məqsədilə 26 dekabr 2002-ci ildə yeni fərman imzalansa da, mərkəzi bank haqqında qanun ilk dəfə 10 dekabr 2004-cü ildə qüvvəyə minmişdir. 12 Fəsil və 66 maddədən ibarət olan yeni qanun mərkəzi bankın hüquqi statusunu, məqsəd və vəzifələrini, onun dövlət qurumları arasında yerini və rolunu daha dəqiq müəyyən etmişdir. Bundan başqa, bankın vəzifə və fəaliyyətini yerinə yetirərkən şəffaflığın artırılması üçün mühüm mexanizmlər nəzərə alınmışdır.
Yeni qanun mərkəzi bank tərəfindən həyata keçirilən pul və valyuta siyasəti, ödəniş sisteminin tənzimlənməsi və təkmilləşdirilməsi, bank nəzarətinin təşkili, dövlətin beynəlxalq qızıl və xarici valyuta ehtiyatlarının idarə edilməsi kimi funksiyalarda səmərəli imkanlar yaratmışdır. 2004-cü il martın 30-dan qüvvəyə minən "Banklar haqqında" qanun da beynəlxalq standartlara riayət etməyə çalışılmışdır.
ARMB fəaliyyətinin məqsədləri öz səlahiyyətləri çərçivəsində bankların və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Gəlir əldə etmək mərkəzi bankın əsas məqsədi deyil. Bu məqsədlər üçün ARMB aşağıdakı vəzifələri yerinə yetirir:

1. Milli valyutanın daxili və xarici dəyərinin qorunması üçün zəruri tədbirlərin görülməsi,
2. Milli valyutanın həcminin və konturlarının tənzimlənməsi,
3. Qanunla müəyyən edilmiş prinsip və hədlər daxilində bankların kreditləşmə fəaliyyətini qanunvericilikdə müəyyən edilmiş prinsip və hədlər daxilində həyata keçirmək,
4. İqtisadiyyatın pul ehtiyatları və likvidliyinin tənzimlənməsi məqsədilə açıq bazar əməliyyatlarının aparılması, iqtisadiyyatın pul ehtiyatlarının və likvidliyinin tənzimlənməsi məqsədilə açıq bazar əməliyyatlarının aparılması,
5. Depozit növləri və yetkinlik dövrlərinin müəyyən edilməsi və onların effektivliyi dövrlərinin müəyyən edilməsi ,
6. Milli valyuta ilə qızıl və xarici valyutalar arasında paritetliyin müəyyən edilməsi, qanunvericiliyin hüdudları daxilində ölkənin iqtisadi maraqlarına uyğun olaraq qızıl və xarici valyuta ehtiyatlarının idarə edilməsi [4].

Bu vəzifələrlə yanaşı ARMB həmçinin dövlətin maliyyə və iqtisadi müşaviri, maliyyə agenti və xəzinədarı kimi fəaliyyət göstərir. Bundan başqa, ARMB dövlətin xarici valyuta ehtiyatlarını qoruyur və idarə edir və büdcə defisitlərini dövlətin maliyyələşdirilməsi üçün aşağı faizli kreditlərlə müqayisə edir. Mərkəzi bankın digər vəzifəsi isə məzənnələrin sabitliyini nəzarətdə saxlamaq və milli valyutanın valyuta məzənnələrinə qarşı dəyərini müəyyən etmək və saxlamaqdır [3].
Azərbaycanda valyuta hərrac mexanizmi 1993-cü ildən başlayaraq müxtəlif üsullarla müəyyən edilib. Bunun ən əsas səbəbi manatın ilk növbədə Rublla dövriyyədə qalmasıdır. 1993-cü ilin əvvəlində mübadilə məzənnəsi Moskva şəhərində banklararası mübadilənin multiplisiyalı məzənnələrinə əsasən müəyyən edilmişdir. Bu təyin edilmiş məzənnə rəsmi məzənnə idi. Bazarda məzənnə "Beynəlxalq Bank" və digər banklar tərəfindən müəyyən edilir. Lakin sərbəst bazarda valyutanın müxtəlif məzənnələrdə alınıb satıldığı müşahidə olunub. Daha sonra rəsmi məzənnələr birbaşa mərkəzi bank tərəfindən müəyyən edilib. Bazarda məzənnə banklararası xarici valyuta bazarında banklar tərəfindən müəyyən edilir.
Mərkəzi Bankın tətbiq etdiyi pul siyasəti alətləri isə, çərçivə alətləri, açıq bazar əməliyyatları üzrə alətlər və məcburi ehtiyat normalarıdır.
Bankların təşəbbüsü ilə Mərkəzi Bank tərəfindən müəyyən olunmuş faiz dərəcələri ilə həyata keçirilən və vəsaitlərin yerləşdirilməsi alətlərindən ibarət olan, eyni zamanda qısamüddətli cəlb olunmasını təmin edən çərçivə alətləri bankların qısamüddətli likvidliyinin idarə olunmasına xidmət edir. Çərçivə alətləri bank sistemində likvidlik səviyyəsinin sabit saxlanmasında mühüm rol oyanyır. Bu isə, banklararası bazarda faiz

dərəcələrinin kəskin dəyişmələrinin qarşısının alınmasında ən önəmli faktorlardan biridir. Çərçivə alətləri vəsaitlərin cəlb olunması və vəsaitlərin yerləşdirilməsi kimi iki üsulla həyata keçirilir.

Mərkəzi Bankın tətbiq etdiyi pul siyasəti alətlərindən ikinci olan açıq bazar əməliyyatları, məqsədilə dövriyyədə olan pul kütləsinin tənzimlənməsi və banklararası pul bazarında faiz dərəcələrinə təsir etmək üçün istifadə edilir. Açıq bazar əməliyyatları pul siyasəti alətindəki əsas məqsəd pul siyasətinin əməliyyat hədəflərinin reallaşdırılmasıdır və Mərkəzi Bankın təşəbbüsü ilə həyata keçirilir.

Vəsaitlərin cəlb olunması məqsədilə həyata keçirilən açıq bazar əməliyyatları uçot dərəcəsi ilə faiz dəhlizinin aşağı həddi arasında dəyişən faiz dərəcələri ilə aparılır və depozit əməliyyatları, qısamüddətli notlarının yerləşdirilməsi, REPO əməliyyatları və valyuta satışı üzrə svop əməliyyatlarından ibarətdir.

Vəsaitlərin yerləşdirilməsi məqsədilə həyata keçirilən açıq bazar əməliyyatları isə, uçot dərəcəsi ilə faiz dəhlizinin yuxarı həddi arasında dəyişən faiz dərəcələri ilə aparılır və yenidənmaliyyələşdirmə kreditləri, depozit əməliyyatları, əks-REPO əməliyyatları və valyuta alışı üzrə svop əməliyyatlarından ibarətdir.

Mərkəzi Bankın tətbiq etdiyi pul siyasəti alətlərindən sonuncusu olan məcburi ehtiyat normaları, ölkədə bank sisteminin likvidliyinin və pul kütləsinin tənzimlənməsində istifadə olunan pul siyasəti alətidir. Məcburi ehtiyat normaları banklar tərəfindən cəlb olunan vəsaitlərdir və müəyyən hissəsi Mərkəzi Bankda məcburi qaydada saxlanılır [6].

Son illər ərzində Mərkəzi Bank pul siyasəti alətləri, inflyasiya riskləri ilə bağlı qərarların qiymətləndirilməsi və milli pul vəsaitinə olan etibarın artırılması əsasında pul bazarındakı tendensiyanın qarşılığı üçün özünün likvidlik əməliyyatları üzrə faiz dəhlizinin parametrlərinə risklər balansını və yenilənmiş makroiqtisadi proqnozları nəzərə almaqla dəyişikliklər etmişdir. Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə son illərdə uçot dərəcəsinin mərhələlərlə 9.25%-dən 6.25%-ə, faiz dəhlizinin yuxarı həddinin 11.25%-dən 6.75%-ə endirilməsi, faiz dəhlizinin aşağı həddinin isə 5.75%-də saxlanılması haqqında qərarlar qəbul edilmişdir. Qəbul edilmiş qərarlar makroiqtisadi sabitlik hədəflər ilə, iqtisadi aktivliyin dəstəklənməsi arasında optimal balansın qorunmasına imkan vermişdir.

Qrafik 1. Faiz dəhlizinin parametrləri (fevral 2019-dekabr 2020),%



Mənbə:Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Son 2 il ərzində iqtisadiyyatda likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli bazar əməliyyatları aparmağa davam etmişdir. Mərkəzi Bankın həyata keçirdiyi təmizləmə əməliyyatlarına tələb aylar üzrə müxtəlif olmuşdur və bu bank sisteminin likvidlik mövqeyindən asılı olaraq dəyişmişdir.

Koronavirus pandemiyasının valyuta bazarı və makroiqtisadi sabitlik üzərində yaratmış olduğu təsirlərin yumşaldılması məqsədilə Mərkəzi Bank 2020-ci ilin mart ayından başlayaraq sterilizasiya alətlərinin müddətlərinə dəyişiklik etmiş, bununla da sterilizasiya prosesinin müddəti azaldılmışdır. Belə ki, uzunmüddətli not hərraclarının əvəzinə 28 günlük notların yerləşdirilməsinə, 28 günlük depozit hərracları əvəzinə isə 14 günlük depozit hərraclarının keçirilməsinə başlanılmışdır. Ümumi olaraq Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 62 depozit hərracı keçirmiş və 2020-ci ilin sonuna depozit əməliyyatları ilə cəlb edilmiş vəsaitlərin qalığı 300 mln. manat təşkil etmişdir.

Qrafik 2. Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin həcmi və gəlirliliyi (01.2020-12.2020)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Depozit əməliyyatları ilə yanaşı, Mərkəzi Bank 2020-ci ildə həmçinin 46 not hərracı da keçirmişdir. Bu hərracların 7-i uzunmüddətli (84 günlük, 168 günlük, 252 günlük) notlar, digər 39-u isə 28 günlük notlar yerləşdirilmişdir. Ümumilikdə, ilin sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitlərin cəmi 650 mln. manat təşkil etmişdir.

Qrafik 3. Mərkəzi Bank tərəfindən yerləşdirilmiş notların həcmi və gəlirliliyi (01.2020-12.2020)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Notların yerləşdirilməsi və depozit əməliyyatları üzrə hərraclarda tələbin artıqlığı müşahidə olunmuş, nəticədə isə bu alətlər üzrə gəlirlilik dərəcəsi faiz dəhlizinin aşağı həddinə yaxın səviyyədə qalmışdır. Mərkəzi Bankın sterilizasiya alətləri üzrə gəlirlilik dərəcələri, pul bazarının vacib əvəzolunmaz göstəricisinə çevrilmiş və bu da digər maliyyə alətləri üzrə faiz dərəcələrinə təsir göstərmişdir. Eyni zamanda Mərkəzi Bankın tədavülə buraxdığı notlar, bazarda təminat qismində istifadə olunmuş və banklararası bazarın aktivləşməsinə də müsbət təsir göstərmişdir. Məcburi ehtiyat normalarına gəldikdə isə, 2020-ci ildə bunlar dəyişməz saxlanılmışdır. Belə ki, banklar tərəfindən likvidliyin çevik idarə edilməsinə müsbət təsir göstərən amillərdən ən əsası, məcburi ehtiyat normalarının ortalama mexanizmi əsasında tətbiqinin davam etdirilməsi olmuşdur. Aparılmış araşdırmaların nəticələrinə əsasən 2020-ci il ərzində bankların Mərkəzi Bankdakı hesabların toplam qalıqları, dövr üçün məcburi ehtiyat kimi saxlanmalı olan cəmi vəsaitlərin həcmindən çox olmuşdur.

Pul bazası il ərzində manatla 11.6% artmış və ilin sonunda 13.6 mlrd. manat təşkil etmişdir. 2020-ci ildə pul bazasının struktur elementi olan, dövriyyədəki nağd pulun həcmi ümumilikdə 13.8% artmış, hesabların qalığı isə 1.2% azalmışdır.

Qrafik 4. Pul aqreqatları, mlrd. manat

	01.01.20	*01.01.21*	*Artım tempi (%)*
M0	*9.5*	*10.8*	*13.4*
M1	*15.4*	*17.9*	*16.0*
M2	*18.2*	*20.3*	*11.3*
M3	*28.9*	*29.2*	*1.1*

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

İl ərzində geniş pul kütləsi (M3) 1.1% artmış və dövrün sonuna 29.2 mlrd. manat təşkil etmişdir. Manatla geniş pul kütləsi (M2) isə 11.3% artaraq ilin sonuna 20.3 mlrd. manat təşkil etmişdir.

Qrafik 5. Manatla geniş mənada pul kütləsinin dinamikası (2019-2021)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Manatla pul kütləsinin (M2) strukturunda dövriyyədə olan nağd pul, tələb olunana kimi həm sadə, həm də müddətli əmanət və depozitlər bir birindən fərqli dinamika göstərmişlər. 2020-ci ildə geniş mənada manatla tələb olunanadək əmanət və depozitlər 20.3% (M2- də xüsusi çəkisi 34.9%), pul kütləsinin tərkibinə daxil olan nağd pul kütləsi 13.4% artmış (M2-də xüsusi çəkisi 53.1%), depozitlər və müddətli əmanətlər isə 14.1% (M2-də xüsusi çəkisi 12%) azalmışdır. Manatla tələb olunanadək depozitlər və əmanətlərin yüksək templə artması, iqtisadiyyatda nağdsızlaşma prosesinin getdiyinin göstəricisidir. 2020-ci il ərzində manatla fiziki şəxslərin manatla əmanətləri isə 2.6% azalmış, geniş mənada pul kütləsinin tərkibində olan hüquqi şəxslərin manatla depozitləri 15.3% artmışdır. Geniş mənada pul kütləsinin dəyişiminə Xalis Daxili Aktivlər (XDA) isə azaldıcı, Xalis Xarici Aktivlər (XXA) artırıcı təsir göstərmişdir. Belə ki, 2020-ci il ərzində XDA 10.4% azalmış, XXA isə 8.8% artmışdır. 2020-ci ilin əvvəlində depozitlərin dollarlaşması bir qədər artsa da, ilin sonuna azalmışdır. Belə ki, xarici valyutada əmanət və depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi 2020-ci ildə 56.5%-dən 48.2%-ə enmişdir. Xarici valyutada əmanət və

depozitlərin M3 pul aqreqatında xüsusi çəkisi isə 2019-cu ilin sonundakı 36.8%-ə nisbətən azalmış və 2020-ci ilin sonunda 30.4% təşkil etmişdir.

Qrafik 6. Dollarlaşma (2016-2021), %



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Hüquqi şəxslərin depozitlərində xarici valyutanın payı isə, il ərzində azalaraq 65.6%-dən 58.1%-ə düşmüşdür. Fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsində də il ərzində azalma baş vermişdir. Belə ki, ilin əvvəlində 52.2% ilin sonunda isə 50.8% olmuşdur.

PUL SIYASƏTI ALƏTLƏRI

Azərbaycan Mərkəzi Bankı qoyduğu hədəflərə təsir göstərmək üçün uçot dərəcəsi, məcburi ehtiyat normaları, açıq bazar əməliyyatları, faiz dəhlizi və siyasi faiz kimi pul siyasəti vasitələrindən istifadə edir.

Uçot dərəcələri

Mərkəzi Bank, son kredit verən qurum kimi, kommersiya banklarını maliyyələşdirmək və pul təklifini reallaşdırmaq üçün banklara kreditlər verir. Kreditlər, kommersiya banklarına yalnız müəyyən bir maliyyə proqramı çərçivəsində, hərrac əsasında ayrılır. Mərkəzi bank faiz dərəcələrini birbaşa müəyyənləşdirə bilməsə də, kommersiya banklarına verdiyi kreditlərlə tətbiq etdiyi faiz nisbətlərini dəyişdirərək faiz dərəcələrinə nəzarət edə bilər.

Qrafik 7. Uçot dərəcələri (2016-2020)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Mərkəzi Bankın apardığı pul siyasəti nəticəsində uçot faiz dərəcələri davamlı olaraq aşağı düşmüş, 2016 və 2017-ci illərdə 15% olduğu halda, 2018-ci ildə 9.75%-ə, 2019-cu ildə 7.5%-ə, 2020-ci ildə isə 6.25%-ə düşmüşdür.

Məcburi ehtiyat normaları

Mərkəzi banklar məcburi ehtiyatlar hesabına bankların kredit imkanlarını tənzimləyərək pul siyasətini həyata keçirə bilərlər. Məcburi ehtiyatlar yalnız manatın deyil, dövriyyədəki xarici valyutanın həcminə də təsir göstərir. Aşağıdakı qrafikdə nəzərdən keçirilən dövrdə Azərbaycanda məcburi ehtiyatlar həm manat, həm də xarici valyuta baxımından tətbiq edilmişdir.

Qrafik 8. Mərkəzi Bankın məcburi ehtiyat normaları (2006-2016), %-lə

İllər	Məcburi ehtiyat normaları	
	Milli valyuta	Xarici valyuta
02.2006-07.2008	10	10
07.2008- 10.2008	12	12
10.2008-11.2008	9	9
12.2008-01.2009	6	6
02.2009-03.2009	3	3
03.2009-01.2011	0.5	0.5
01.2011-05.2011	0.5	0.5
05.2011-07.2011	2	2
07.2011-01.2012	2	3
02.2012-07.2014	3	3
08.2014-03.2015	2	2
03.2015-03.2016	0.5	0.5
03.2016 tarixindən	0.5	1

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

1999-cu ildə bankların likvidliyini artırmaq üçün Manat və xarici valyuta üçün məcburi ehtiyat norması 12% -dən 10% -ə, 2009-cu ildə 6% -dən 0,5% -ə endirildi. Kapital bazarını inkişaf etdirmək üçün Mərkəzi Banka ehtiyat fondunda saxladıqları sənədlərdən qiymətli kağızların 50% -ə qədərini almaq üçün istifadə etməyə icazə verilib. Bu çərçivədə Mərkəzi Bank, bankların likvidliyini artırmaq üçün məcburi ehtiyat normalarını azaltdı. Buna baxmayaraq məcburi ehtiyat normalarının tətbiqini uzun müddətli intervalda həyata keçirmək daha məqsədə uyğun hesab edilir. Digər pul alətlərinin nəticə verməməsi halında, pul bazasındakı dəyişikliklərin bərabərləşdirilməsi üçün məcburi ehityat norması istifadə edilə bilər. Məcburi ehtiyat normasının tez-tez dəyişdirilməsi, bank sistemində qeyri-müəyyənlik yarada bildiyi üçün, likvidlik idarəetməsini çətinləşdirir.

Açıq bazar əməliyyatları

Kapital bazarının tənzimlənməsində açıq bazar əməliyyatlarının rolu da getdikcə artmaqdadır. Kapital bazarındakı əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vəsait yönəltmək, digər tərəfdən Mərkəzi Bank üçün pul bazarının tənzimlənməsi rolunu oynayır. Mərkəzi Bank, bazardakı dövlət istiqrazlarının alqı-satqısı ilə, dövriyyədəki pulun həcminə və artmasına, bankların ehtiyatlarına və kredit şərtlərinə təsir göstərir.

2001-ci ildən etibarən Mərkəzi Bank repo və əks repo əməliyyatlarını həyata keçirməyə başlamışdır. Mərkəzi Bank repo əməliyyatları həyata keçirdikdə, banklardan qiymətli kağızlar alır və bununla da dövriyyədəki pul kütləsini artırır, əks repo əməliyyatlarında isə, portfelindəki qiymətli kağızları banklara satır və nəticədə dövriyyədəki pul kütləsini azaldır.

Qrafik 9. Repo və Əks Repo əməliyyatları (2012-2020)

İllər	Repo						Əks Repo					
	1-gün		3-gün		7-gün		1-gün		3-gün		7-gün	
	%	Həcm	%	Həcm	%	Həcm	%	Həcm	%	Həcm	%	Həcm
2012	1	58.2					7					
2013	1	1085.5					7					
2014	0.1	0					5					

2015	0.1	0					5					
2016	12	0					18					
2017	10	0					18					
2018	7.8	0					11.8					
2019	5.8	0					9.25					
2020	5.8	0					6.8					

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Yuxarıdakı cədvəldən də göründüyü kimi, Mərkəzi Bank yalnız 2012-2013-cü illər ərzində repo əməliyyatları həyata keçirmişdir. 2014-2020-ci illər aralığında isə Mərkəzi Bank repo əməliyyatları keçirməmişdir. Eyni zamanda bu müddət ərzində demək olar ki, heç bir əks repo əməliyyatları həyata keçirilməyib.

Açıq bazar əməliyyatları mərkəzi banklar tərəfindən tez-tez istifadə olunan pul siyasəti alətidir, çünki tamamilə mərkəzi bankın təşəbbüsü ilə həyata keçirilmək, ən çevik pul siyasəti vasitəsi olmaq, asanlıqla əks çevrilməyə şəraiti olan və təxirə salınmadan tətbiq edilə bilmək kimi üstünlüklərə malikdir. Lakin, Azərbaycan Mərkəzi Bankı açıq bazar əməliyyatlarından maksimum səmərəli şəkildə istifadə edə bilməməkdədir. Çünki açıq bazar əməliyyatlarının səmərəli aparılması üçün ölkədə inkişaf etmiş və dərinləşdirilmiş istiqraz və istiqraz bazarının mövcudluğu tələb olunur.

Faiz dəhlizi

Azərbaycan Mərkəzi Bankı 2007-ci ilin birinci rübündən başlayaraq "faiz dəhlizi" siyasətini həyata keçirməyə başladı. Bununla birlikdə, pul bazarını birbaşa tənzimləmək əvəzinə, dəyişikliyin sərbəst bazar şərtlərindəki faiz dərəcələri ilə tənzimlənməsinə başlanılmışdır. Yuxarıda göstərilən mexanizmin işə düşməsindəki əsas məqsəd, gələcəkdə Azərbaycan Mərkəzi Bankın müəyyən etdiyi faiz dərəcələri daxilində beynəlxalq faiz dərəcələrinin təsirini məhdudlaşdırmadan pul siyasətinin potensialını institusional şəkildə gücləndirməkdir.

Azərbaycan Mərkəzi Bankı, borc alma faiz dərəcələrini, gündəlik repo faiz dərəcəsi (alt limit), borc vermə faiz dərəcələrini, gündəlik əks repo faiz dərəcəsi (üst limit), faiz dərəcələri və siyasi faiz dərəcələrni isə, uçot faiz dərəcəsi kimi qəbul edir.

Qrafik 10. Faiz dəhlizi (2014-2020)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı (http://cbar.az)

Azərbaycan Mərkəzi Bankı bu sistemdə borc alma, borc vermə səviyyələrini və siyasi faiz dərəcələrini müxtəlif zaman aralığında dəyişməkdədir. Bu çərçivədə Mərkəzi Bank iqtisadi tələblərə uyğun olaraq, faiz dəhlizinin həm yuxarı, həm də aşağı zolağında dəyişikliklər etmişdir. Yuxarıdakı qrafikdən də aydın olduğu kimi, faiz dəhlizinin alt və üst sərhədləri tədricən azaldılaraq qeyri-müəyyənliyin minimum düşürülməsi hədəflənmişdir. Banklar yalnız ciddi likvidlik çatışmazlığı olduqda Mərkəzi Bankdan borc ala

bilərlər. Bu halda isə, mərkəzi bankın borc vermə faiz dərəcələrini endirməsi, bazar faiz dərəcələrinə təsir göstərmir və bazar faiz dərəcələri çox yüksək səviyyələrdə qalmağa davam edir.

NƏTICƏ

Azərbaycanın müstəqillik qazanması ilə birlikdə, eyni zamanda, sərbəst bazar sisteminə keçid dövrü də fəaliyyətə başlamışdır. Belə ki, bir sıra qanuni və inzibati dəyişikliklər, özəlləşdirmənin tətbiq olunması və beynəlxalq təşkilatlara üzv olunması ilə bu proses davam etmişdir. Tətbiq edilən inzibati və qanuni tənzimləmələrin ən önəmliləri, maliyyə, bank və mərkəzi bank sahəsində həyata keçirilmişdir. Sərbəst bazar sistemi və mərkəzi bankçılıq sahəsində yetəri qədər təcrübəsi olmadığı üçün ölkəmizdə Mərkəzi bank, Beynəlxalq maliyyə qurumlarının təcrübələrindən faydalanaraq qurulmuşdur. Beləliklə, ölkədə pul siyasətini həyata keçirmək səlahiyyəti, mərkəzi banka təhvil verilmişdir.

Həm Sovet İttifaqının tərkibindən təzəcə ayrılmanın, həm də, Qarabağ müharibəsinin təsiri ilə 1995-ci ilə qədər ciddi problemlər yaşayan Azərbaycan iqtisadiyyatı, bu tarixdən sonra bir sıra vacib siyasətlər həyata keçirməyə başladı. Həyata keçirilən siyasətlərin sonunda uğur qazanılması üçün, bank sektorunun dayanıqlı olması və daimi inkişaf etməsi vacib nüanslardan biridir. Mərkəzi Bank, həyata keçirdiyi siyasət və qoyduğu hədəflərlə daima, bu nüansın vacibliyini göz önündə tutmuşdur.

Azərbaycanda pul siyasəti rejimi, iqtisadiyyatın spesifik xüsusiyyətləri, maliyyə bazarlarının inkişaf səviyyəsi, bank sektorunun iqtisadiyyatdakı rolu, tədiyə balansının quruluşu və maliyyə siyasəti nəzərə alınaraq təşkil olunmuşdur. Dünyadakı bir çox mərkəzi banklarda olduğu kimi, Azərbaycan Mərkəzi Bankının da əsas məqsədi qiymət sabitliyini təmin etmək və qorumaqdır. Azərbaycan Mərkəzi Bankı, bu hədəfə nail olmaq üçün, uçot dərəcələri, məcburi ehtiyat normaları, açıq bazar əməliyyatları və faiz dəhlizi kimi pul siyasəti alətlərindən istifadə etməkdədir.

ƏDƏBIYYAT SIYAHISI

Məmmədov Z. F., Bank Fəaliyətləri, Bakı: Azər Nəşriyyat, 2011, s. 219

Aras O. N., "Azerbaycan Merkez Bankası ve Bankacılık Sistemi", Finansal Küreselleşme Sürecinde Orta Asya ve Kafkasya Ekonomileri, II Uluslararası Kongre, Bakü, Mayıs, 2006, s.17.

Selçuk H., Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı, Tasam Yayınları, İstanbul 2004, s. 54-55

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanun, Maddə 10.(http://www.e-qanun.az/framework/5530)

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanun, Maddə 21. (http://www.e-qanun.az/framework/5530)

ARMB, Pul siyasəti alətləri/ Mərkəzi Bankın pul siyasəti alətləri, https://uploads.cbar.az/assets/55514df2bda749f295bcffa9c.pdf

AZƏRBAYCANDA SƏHIYYƏ XIDMƏT KEYFIYYƏTININ ARTIRILMASINDA INNOVASIYANIN ROLU

NƏRMIN ƏLƏKBƏROVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Sahə İqtisadiyyatı
narminalakbar@gmail.com
BAKI, AZƏRBAYCAN

ELÇIN SÜLEYMANOV
Bakı Mühəndislik Universiteti
Maliyyə
elsuleymanov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Azərbaycanda səhiyyə sisteminin inkişafı, əhalinin müasir dünya standartlarına ilə ayaqlaşan səhiyyə xidməti ilə təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərindəndir. Son illərdə həyata keçirilən uğurlu islahatlar nəticəsində dövlətin iqtisadi potensialının daha da artması ölkədə səhiyyə sisteminin yaxşılaşması və əhalinin sağlamlığının qorunması problemlərinin həllinə imkan yaratmışdır. Səhiyyə sistemində islahatların biri də Azərbaycanda əhali arasında icbari tibbi sığortanın tətbiq edilməsi istiqamətində görülən işlərdir. Səhiyyə sisteminin müasir standartlara cavab verməsində, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi əsaslarla təkmilləşdirilməsində və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşmasında icbari tibbi sığorta sisteminin tətbiqi çox əhəmiyyətlidir. İcbari Tibbi Söğorta sisteminə keçirilərkən innovativ texnologiyalardan istifadə həm çeviklik, həm də şəffaflıq üçün çox vacibdir. Bu tədqiqatda Azərbaycan səhiyyə xidməti keyfiyyətinin artırılmasında innovasiyanın rolu araşdırılmışdır.

ABSTRACT
The development of the healthcare system in Azerbaijan, providing the population with medical services at the level of modern world standards is one of the main priorities of the socio-economic policy pursued in the country. As a result of successful reforms carried out in recent years, the further growth of the economic potential of the state has made it possible to improve the healthcare system in the country and solve the problems of protecting public health. One of the reforms in the healthcare system is the work carried out in Azerbaijan to introduce compulsory medical insurance for the population. The penetration of a system of compulsory medical insurance is of great importance for meeting modern standards of the healthcare system, improving existing financing mechanisms in this area on a new economic basis, and further improving the quality of medical services provided to the population. The use of innovative technologies in the transition to a compulsory health insurance system is very important for both flexibility and transparency. This study examines the role of innovation in improving the quality of health care in Azerbaijan.

AÇAR SÖZLƏR: Azərbaycan səhiyyə sistemi, innovasiya, İcbari Tibbi Sığorta
KEY WORDS: Azerbaijan health system, innovation, Compulsory Medical Insurance

GIRIŞ

XXI əsrin ilk illərində Azərbaycanda irimiqyaslı islahatların geniş vüsət alması cəmiyyətin yüksək sosial-iqtisadi inkişafına zəmin yaratdı. Ölkənin iqtisadi potensialı artdıqca səhiyyə xidmətinin inkişafı üçün münbit şərait yaradılmış, əhalinin sağlamlığının qorunması problemləri tədricən həll olunmağa başlamışdır. Azərbaycanda səhiyyə xidmətlərinə ayrılan büdcə son 20 ildə 25 dəfədən çox artaraq 2022-ci ildə 1 650 milyon manatı ötüb. Ayrılan vəsaitin böyük hissəsi respublikanın regionlarında 400-dən çox səhiyyə müəssisəsinin tikintisinə və ya əsaslı təmirinə sərf edilib, onlar müasir texnika və avadanlıqlarla təchiz edilib. Əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilib. Yoluxucu xəstəliklərlə mübarizədə mühüm irəliləyişlər əldə olunub və bu sahə praktiki səhiyyənin prioritet sahəsi kimi daim diqqət mərkəzində saxlanılır.

Ölkələrin səhiyyə sistemi əsas məqsədi insanların sağlamlığını yaxşılaşdırmaq, qorumaq və ya bərpa etməkdir. Səhiyyə sistemi həm fərdi, həm də ictimai xidmətlərin göstərilməsini özündə ehtiva edir. Bununla yanaşı o sağlamlığın iqtisadi, sosial və ekoloji şərtlərinə lazımi diqqət ayırmaları üçün digər sahələrin də iş mexanizminə və fəaliyyətinə müsbət təsir göstərir.

Hal hazırda ölkələrinin səhiyyə sistemləri demoqrafik və epidemioloji dəyişikliklər, resursların qıtlığı, texnoloji inkişafı və əhalinin artan tələbləri ilə bağlı ciddi problemlərlə qarşılaşmışdır. Sağlamlığın mühafizəsi resursların itkisi deyildir, əksinə, o, iqtisadi mənfəətliliyi təmin edir. O, əhalinin sağlamlığı və onun sərvətləri arasında ikitərəfli dinamik qarşılıqlı əlaqənin qurulması töhfə verir. Yüksək səviyyəli səhiyyə sistemi dövlətin iqtisadi inkişafına və əhalinin rifah səviyyəsinin yaxşılaşmasına səbəb olur.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qeyd olunduğu kimi, “insan kapitalının inkişafı, əhaliyə keyfiyyətli səhiyyə və təhsil xidmətlərinin göstərilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr, yoxsul vətəndaşlar üçün əlçatanlığı vurğulanır." Azərbaycan Səhiyyə Sisteminin diqqət mərkəzində səhiyyənin idarə edilməsində həddindən artıq mərkəzləşmənin qarşısını almaq, idarəetmədə sırf icra funksiyalarının inzibati-iqtisadi formalarla əvəzlənməsi üçün tədbirlər görmək, beləliklə, müxtəlif səviyyələrdə idarəetmə orqanlarının səlahiyyətlərinin səmərəli şəkildə bölünməsi və əlaqələndirilməsidir.

Səhiyyə islahatları çərçivəsində əsas istiqamətlərdən biri də tibbi sığorta sisteminin tətbiqidir. 1999-cu ildə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 dekabr tarixli Sərəncamı ilə qurulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanına əsasən qurum fəaliyyətə başlamış, 2016-cı il 24 noyabr tarixli Fərmanı ilə onun əsasında “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs yaradılmışdır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi icbari tibbi sığortanın tətbiqini təmin edən, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri cəmləşdirən, səhiyyə xidmətlərinin istifadəcisi və bununla bağlı zəruri məsrəflərin ödənilməsini təmin edən qurumdur.

İcbari tibbi sığortanın Xidmətlər Zərfinə 3000-ə yaxın müxtəlif tibbi xidmət daxildir. Xidmətlər Zərfi ilə ilkin səhiyyə, təcili və təxirəsalınmaz tibbi xidmət, ixtisaslaşdırılmış ambulator və stasionar tibbi yardım, eyni zamanda fizioterapiya, laboratoriya və digər xidmətləri daxil edilib.

AZƏRBAYCAN SƏHİYYƏ SİSTEMİNİN FORMALAŞMASI

Sovet İttifaqının dağılması ölkədə iqtisadi və siyasi vəziyyəti daha da gərginləşdirdi. Azərbaycan hökumətin gəlirlərinin azalması səhiyyənin maliyyələşdirilməsinə təsir etmişdir. 1990-1993-cü illərdə səhiyyəyə dövlət xərclərinin əhəmiyyətli dərəcədə azalması və Qarabağ müharibəsi səbəbilə səhiyyə sistemində ciddi geriləmə müşahidə olunmuşdur və ÜDM-də faiz nisbətində xərclər azalmışdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra səhiyyə sistemində ciddi dönüş yaranmış və beynəlxalq maliyyə təşkilatlarının texniki və maliyyə dəstəyi ilə ölkədə səhiyyə sistemi yenidən qurulmuşdur.

Cədvəl 1. Azərbaycanda səhiyyəyə dövlət xərclərinin dinamikası

İllər	Mln.manat	Mln. dollar	büdcə xərclərində payı, %-lə	ÜDM-də payı, %-lə	Adambaşına düşən
2003	55,4	57	4,47	0,8	6,68
2019	1.042	588	4.13	1.21	108
2020	1,369	805	5 ,02	1,67	136
2021	1.409	828	5 ,17	1.27	142
2022	1.789	1052	5 ,47	1,87	175

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları 2022

Cədvəldən də görünür ki, səhiyyə xərcləri 2003-2022-ci illər arasında nominal olaraq 30 dəfədən çox artıb. 2021-ci ildən İcbari Tibbi Sığortanın tətbiqi ilə əlaqədar olaraq bu vəsaitə təxminən illik 450-500 milyon

manat sığorta yığımı da əlavə edilməsi səbəbi ilə son iki ildir səhiyyəyə ayrılan vəsait 2 milyard manatı ötmüşdür. Bu da səhiyyə sisteminin maddi texniki bazasının yaxşılaşmasına müsbət təsir etmişdir.

Sovet Ittifaqı dövründə səhiyyə Semaşko Modeli əsasında qurulmuşdu. Semaşko modelinə əsasən, səhiyyə sistemi dövlətin mərkəzi nəzarəti altında idi, o, sosial və iqtisadi inkişaf üzrə milli planların bir hissəsi kimi dövlət gəlirləri hesabına xidmətləri maliyyələşdirirdi. Bütün tibb işçiləri maaş verən və bütün tibb müəssisələrini təchizatla təmin edən mərkəzləşdirilmiş dövlətin işçiləri sayılırdılar. Bu dövrdə əsas siyasət istiqaməti xəstəxana çarpayılarının və tibb işçilərinin sayının artırılması olmuşdur.

Azərbaycanda səhiyyə sistemi, resursların və kadrların mərkəzləşdirilmiş planlaşdırılmasına əsasən, ilk növbədə, səhiyyə müəssisələrinin dövlət mülkiyyətində qalması, təminatçı və alıcı funksiyalarının dəqiq bölünməməsi ilə, əsasən, köhnə Sovet Semaşko Modelinə bənzəyir.

1994-cü ildən prezidentin fərmanı ilə əlavə maliyyə mənbəyinin formalaşdırılması məqsədilə bəzi ixtisaslaşdırılmış xidmətlərin ödənişli olması elan edilib. Prezidentin 27 yanvar 1997-ci il tarixli fərmanı dərman, ənənəvi və alternativ tibb sahəsində fərdi sahibkarlığa icazə verilmişdir. Özəlləşdirmə əsasən kiçik stomatoloji klinikalara, eləcə də əczaçılıq sənayesinə təsir etmişdir. Həmin il "Əhalinin sağlamlığının qorunması haqqında" qanun qəbul edilib ki, bu da maliyyələşdirmə sistemini və zəmanət zərfinə daxil olan tibbi xidmətlərin siyahısını xüsusilə müəyyən edib. Hazırda Azərbaycanda orta və yuxarı təbəqənin həm tibbi, həm də profilaktik xidmətlərlə təmin olunmasına həlledici təsir göstərən özəl tibb müəssisələrinin geniş şəbəkəsi mövcuddur.

SƏHİYYƏDƏ KEYFİYYƏTİNİN ARTIRILMASINDA İNNOVASİYASININ ROLU

Bu gün sürətlə inkişaf edən və yayılan informasiya-kommunikasiya texnologiyaları, qloballaşmanın yeni prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi təsir göstərir. Bu mənada Azərbaycan da istisna deyil. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas strateji məqsədi mövcud imkan və resurslardan istifadə etməklə Azərbaycanda davamlı iqtisadi artım, səmərəli idarəetmə, bütün insan hüquq və azadlıqlarının tam şəkildə həyata keçirilməsidir. Belə səhiyyə xidmətləri Azərbaycanın ən ucqar kəndlərində də göstəriləcək. Azərbaycanın iqtisadi inkişafı bütün sosial sahələrlə yanaşı, səhiyyənin də inkişafına yol açıb. Azərbaycanda səhiyyə xidmətləri son illər dünya standartlarına uyğun inkişaf edir. Ölkəmizdə səhiyyə xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə səhiyyə müəssisələrinin tikintisi, yenidən qurulması, və müasir tibbi cihazlarla təchizatı həyata keçirilir, səhiyyə sahəsində islahatlar planlı şəkildə aparılır. Qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bir dənə də olsun sosial proqram dəyişdirilməyib və heç bir gecikmə olmamışdır. Əksinə, azərbaycanlı pensiyaçıların pensiyaları artırıldı. Yaşlı nəsil üçün bu, onların sağlamlığına birbaşa töhfədir, çünki yaşlı nəsil təəssüf ki, dərmanlara daha çox pul xərcləyir.

Dünyanın aparıcı səhiyyə sistemlərinə uyğun olaraq səhiyyə sisteminin davamlı inkişaf modelinin yaradılması istiqamətində bir sıra mühüm addımlar atılıb.

Ümumdünya Səhiyyə Təşkilatı elektron səhiyyə sisteminin tibb sahəsində informasiya kommunikasiya sistemlərindən effektiv istifadə edilməsini nəzərdə tutur. Elektron səhiyyə tibbi xidmətlərin göstərilməsi və səhiyyə sistemlərinin idarə edilməsinin keyfiyyətinin artırılması üçün elektron resurslardan effektiv istifadə etməklə informasiya axınının yaxşılaşdırılmasına təsir edir.

İnformasiya kommunikasiya sistemlərindən səhiyyə sektoruna tətbiq edilməsinin müsbət təsirləri hər gün daha çox aşkara çıxmaqdadır. İnnovativ texnologiyalardan istifadə həm tibb xidmətinin keyfiyyətinin artmasına, həm də diaqnoz müalicə prosesinin keyfiyyətinin daha da artmasına kömək edir. Bu müsbət təsirlərdən biri xəstəliklərin diaqnostikası və müalicəsi üçün yüksək texnoloji avadanlıqların geniş istifadəsi fonunda xəstənin müalicə prosesində toplanılan informasiyanın saxlanılması və emalı texnologiyalarının tətbiqidir. Digər bir fayda isə müalicə müəssisləri arasında informasiya əlaqələrinin olmaması səbəbindən xəstələrin müraciət etdiyi hər bir poliklinika, diaqnostik mərkəzdə ondan tibbi kartın açılması tələbi və kağız tibbi kartlarda qeyd olunan verilənlərin konfidensiallığının təmin edilməməsi problem ortadan qalxmış olur. Eyni zamanda innovasiyalaşmanın digər bir faydası isə həkim və orta tibbi personalın iş vaxtının böyük bir hissəsini əhatə edən informasiyanın axtarışına və sənədləşmənin aparılması yükündən azad edir. İnsan yaddaşının məhdudluğu fonunda həkim qərarlarının qəbul edilməsinin böyük həcmdə informasiyanın qavranması, tutuşdurulması və analizi mühitində həyata keçirilməsi zəruriliyi aradan qalxmışdır. Eyni zamanda informasiya texnologiyalarından effektiv istifadə səhiyyə personalına, eləcə də bütövlükdə səhiyyə sisteminə müsbət təsir edən başqa bir ictimai mühit formalaşdırmışdır. Bu mühitin hərəkət verici qüvvəsi informasiyaya çıxışı təmin edən və bütün dünyada milyonlarla insanın misli görünməmiş miqyasda ünsiyyətinə gətirib çıxaran İnternet texnologiyaları və virtual əməkdaşlıq imkanlarıdır. Xüsusilə pandemiya sonrası təhsildə olduğu kimi səhiyyə sistemindədə onlayn konfrans,

seminar və təcrübə mübadiləsi tədbirlərini həyata keçirməyə imkan verən bir çox proqramlardan (google meet, zoom, Microsoft teams və s.) istifadə bacarığı artmış və sahələrində olan peşəkar tibb mütəxəssisləri ilə virtual əməkdaşlıq imkanları artmışdır.

NƏTICƏ

Azərbaycanda səhiyyə sektorunda nəzərəçarpacaq irəliləyiş müşahidə olunur, dövlətin səhiyyəyə xərcləri ildən-ilə artır, lakin buna baxmayaraq, səhiyyəyə dövlət xərclərinin ümumi səhiyyə xərclərində xüsusi çəkisi ÜST-nin tövsiyə etdiyi limitlə müqayisədə xeyli aşağıdır. Buna görə də əhali xeyli miqdarda tibbi xidmət xərclərini özü ödəməlidir. Bütün yuxarıda qeyd olunanlardan çıxış edərək, Azərbaycanda səhiyyənin büdcə siyasətinin prioritetinə çevrilməsi və səhiyyənin dövlət tərəfindən maliyyələşdirilməsinin minimum həddi ilə bağlı ÜST-nin tövsiyələrinin nəzərə alınması məqsədəuyğundur. Vətəndaşların maarifləndirilməsi və onların məlumat səviyyəsinin yüksəldilməsi, onların səhiyyə xidmətlərindən istifadə hüquqlarını müdafiə etmək vacibdir.

Beləliklə, Səhiyyə sahəsində islahatların aparılması səhiyyə sisteminin şəffaflığının təmin edəcək; vahid informasiya məkanının və geniş məlumat bazasının yaradılmasına, həkimlərin fəaliyyətinin hərtərəfli və obyektiv monitorinqinin aparılmasına köməklik göstərəcəkdir. Həmçinin, korrupsiyanın qarşısının alınmasında, səhiyyə sahəsində rəqabətin və səhiyyə sisteminə inamın artmasında böyük töhfə verəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən İcbari Tibbi Agentlik tərəfindən TƏBİB - "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs yaradılmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrin əksəriyyəti 2020-ci ilin yanvar ayından etibarən TƏBİB-in tabeçiliyinə verilmişdir.

TƏBİB-in tabeliçiliyinə verilmiş tibb müəssisələrinin lazımi texniki imkan və tibbi avadanlıqlar ilə təminatı son üç ildə yaxşılaşdırılmışdır. Son üç ildə tibb müəssisələrinə beş mindən artıq kompüter, üç minə yaxın printer və altı mindən çox barkod oxuyucu texnologiyalar və digər mühim texniki avadanlıqlar ilə təmin olunmuşlar. Son illərdə bir çox tibb müəssisəsi optik internetlə təmin edilmişdir. Səhiyyə sahəsində islahatlar çərçivəsində səhiyyə xidmətlərində informasiya texnologiyalarının geniş tətbiqini, vahid səhiyyə informasiya mühitinin yaradılmasını, digər informasiya sistemləri və məlumat bazaları ilə əlaqə yaratmaq məqsədilə səhiyyənin məlumatlandırılmasını bu islahatlara aid etmək olar. Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi, Model Tibbi İnformasiya Sistemi, Tibbi Müayinə Kartı Sistemi, Təcili Tibbi Yardım Stansiyasının Dispetçer Xidməti, Yoluxucu Xəstəliklərə Elektron Nəzarət Sistemi, Teletibb sistemləri kimi layihələr həyata keçirilir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da səhiyyə sisteminin inkişafı böyük əhəmiyyət kəsb edir. Səhiyyə sisteminin səmərəli fəaliyyəti onun maliyyələşdirilməsindən asılıdır. "2021-2025-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi" sənədi (BMTATÇ) üzrə qiymətləndirməyə görə güclü səhiyyə sistemi Azərbaycanda dayanıqlı inkişafın əsas dayaq sütunlarından biri olaraq qiymətləndirilmişdir. Hazırda tibb məntəqələrində tibbi xidmətlər pulsuz təqdim olunması Azərbaycan səhiyyəsi üçün müsbət nüanslardan sayəlmışdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan 2020: strateji baxış və əsas prioritetlər....-www.president.az › files › future_az
2. Fuad İ., Aybaniz İ., Jenni K., Erica R. Health System in Transition Vol.12 No 3 2010
3. Tengiz Verulava, Tamara Maglakelidze, Health Financing Policy in the South Caucasus, http://eprints.iliauni.edu.ge/6592/1/23_Verulava.pdf **(online məqalə)**
4. Sevda Mamedova, Azerbaijan Health Economics in the context of digitalization of society. 70th International Scientific Conference on Economic and Social Development (**Konfrans məqaləsi, tezis**) Baku, Azerbaijan. Azərbaycan. İyun 2021
5. Süleymanov E, Ələkbərova N. Azərbaycan səhiyyə sistemlərinin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi. "İqtisadiyyat və idarəetmədə davamlı inkişaf: Problemlər və perspektivlər" adlı II beynəlxalq elmi-praktiki konfrans. Azərbaycan. Dekabr 2021:189-192
6. Süleymanov E, Ələkbərova N. COVİD-19 PANDEMİSİNİN AZERBAYCANIN SAĞLIK SİSTEMİNİN İŞLEYİŞİNE ETKİSİ. VII TURKCESS 2021 - International Education and social Sciences Congress. Türkiyə. Noyabr 2021:678
7. https://azerbaijan.un.org/sites/default/files/2021-06/AZERBAIJAN%20UNSDCF%202021-2025_FINAL%20SIGNED_AZE_0.pdf

AQRAR SAHƏNIN DAVAMLI INKIŞAFININ TƏMIN EDILMƏSINDƏ PAMBIQÇILIQ SEKTORUNUN ROLU VƏ AKTUAL PROBLEMLƏRI

NIZAMI İSGƏNDƏRLİ
Azərbaycan Dövlət İqtisad Universiteti
Nizami-Isgandarli@unec.edu.az
AZƏRBAYCAN

XÜLASƏ
Məqalədə aqrar sahənin davamlı inkişafının təmin edilməsində pambıqçılıq sektorunun rolu və onun aktual problemləri tədqiq edilir. Müstəqilliyin ilk illərində pambıqçılığın böhranının obyektiv və subyektiv səbəbləri, həmçini müasir inkişaf problemləri təhlil edilir. Eyni zamanda aqrar sektorda üstünlük təşkil edən kiçik ölçülü fərdi kəndli təsərrüfalarında istehsal edilən məhsulların xalis gəlirinin ailə başına minimum ehiyac meyarına uyğunluğunun təmin edilməsi üçün mövcud pay torpaqlarının zəruri ölçülərinin optimallaşdırılması və rasionallaşdırılması ideyası irəli sürülür. Aqrar sahənin davamlı inkişafının təmin edilməsi, regionlarda natamam məşğulluq, işsizlik və yoxsulluğun aradan qaldırılmasında pambıqçılıq sektorunun dərin emal müəssisələri şəbəkələrinin yaradılmasının zəruriliyi haqqında elmi tövsiyə və təkliflər verilir.

Açar sözlər: Aqrar sektor, davamlı inkişaf, pambıqçılıq, işsizlik, dərin emal müəssisələri.

РЕЗЮМЕ
В статье рассматривается роль и его актуальные прблемы хлопкового сектора в обеспечении устойчивого развития аграрного сектора . Анализируются обьективные и субьективные причины хлопкового кризиса в первые годы независимости , а также проблемы современного развития . В то же время идея состоит в том , чтобы оптимизировать необходимый размер существующих паевых земель ,чтобы чистый доход от продукции , произведенной в мелких индивидуальных фермерских хозяйствах , доминирующих в сельскохозяйственном секторе , соответствовал критерию минимальной потребности на душу населения . Сделаны научные рекомендации и предложения о необходимости создания сети предприятий глубокой переработки в хлопковом хозяйстве для обеспечения устойчивого развития аграрного сектора , ликвидации неполной занятости , безработицы и бедности в регионах .

Ключевые слова : аграрный сектор , устойчивое развитие , хлопководства , безработица ,предприятия глубокой переработки .

ABSTRACT
The article discusses the role of the cotton sector and its actual problems of in ensuring the sustainable development of the agricultural sector. The objective and subjective causes of the cotton crisis in the first years of independence, as well as the problems of modern development are being analized. At the same time, the idea of optimizing the required size of existing share lands so that the net income of the production of small individual farms, which dominates the agricultural sector, meets minimum requirement per capital. Scientific recommendations and proposals were made on the need to create a network of deep processing enterprises, in the cotton industry to ensure the sustainable development of the agricultural sector, the elimination of underemployment, unemployment and poverty in the regions.

Key words: agricultural sector, sustainable development, cotton growing, unemployment, deep processing enterprises.

GIRIŞ

Tədqiqatın aktuallığı: Azərbaycanda pambıqçılıq üçün əlverişli təbii-iqlim şəraitinin və istehsal ənənələrinin mövcudluğu, emal sənayesinin xammal tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, həmçinin pambıq və ondan hazırlanan son məhsullar üzrə ixrac potensialının olması pambıqçılığın daha da inkişaf etdirilməsini zərurətə çevirir. Buna görə də pambıqçılığın inkişafına əlverişli şəraitin yaradılması aqrar siyasətin prioritet vəzifələrindən biri kimi müəyyən edilmişdir. Pambıqçılığın elmi əsaslarla inkişaf etdirilməsi prezident İlham Əliyevin yeni iqtisadi mərhələdə qarşıya qoydugu vacib vəzifələrdəndir. Ölkə başçısının "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" nın təsdiq edilməsi haqqında 2017-ci il 13 iyul tarixli sərəncamı pambıqçılıq sahəsinin prioritetliyini bir daha təsdiqləyir. Hesab edilir ki, pambıqçılığın rasional inkişafı ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyi bu sahədə aparılan fundamental elmi tədqiqat işlərinin genişləndirilməsini tələb edir. Tədqiqat işi də bu zərurətdən meydana gəlmişdir.

Tədqiqatın predmeti və obyekti: Bu tədqiqatın predmeti aqrar sektorun davamlı inkişafının təmin olunmasında pambıqçılıq sektorunun imkanları, obyekti isə pambıqçılığın rasional inkişafının iqtisadi-sosial-ekoloji amilləridir.

Tədqiqatın məqsəd və vəzifələri: Aqrar sahənin davamlı inkişafını təmin etmək üçün pambıqçılığın elmi əsaslarla təşkilinin nəzəri və metodoloji müddəaları, metodoloji vasitələrin və praktik tövsiyələrin hazırlanmasından ibarətdir.

Tədqiqatın nəzəri metodoloji əsaslarını Azərbaycan və xarici ölkə alimlərinin əsərləri və elmi tövsiyələri, konsepsiyalar və istinad materialları, müvafiq qanunvericilik aktları, aqrar sahənin sosial-iqtisadi inkişafına dair dövlətimizin proqram sənədləri təşkil edir.

Tədqiqat işi ilə bağlı tarixi, statistik, qrafik, analiz və sintez, müşahidə, iqtisadi tədqiqat üsullarından istifadə edilmişdir.

Problemin təhlili: Əlverişli relyef-iqlim şəraiti, torpaq, su və termik ehtiyatlar, zəngin əmək təcrübəsi və əmək ehtiyatlarının olması tarixən Azərbaycanda pambıqçılığın inkişafı üçün əlverişli şərait yaratmışdır. 1913- cü ildə Azərbaycanda 100 min desyatin (1 desyatin = 1.09 ha) sahədə pambıq əkinləri aparılmış və 64 min ton məhsul əldə edilmişdir. Hektardan məhsuldarlıq 6 sentner təşkil etmişdir. [1]

Azərbaycanda pambıqçılıq Ümumilli lider Heydər Əliyevin respublikamıza 1-ci dəfə rəhbərlik etdiyi dövrdə kənd təsərrüfatının ən aparıcı sahəsinə çevirilmişdir. Belə ki, 1969- cu ildə 162 min ton pambıq məhsulu tədarük edilmişdirsə, 1971-1975- ci illərdə orta hesabla 440.8 min ton, 1981-ci ildə 1 mln tondan çox məhsul istehsal edilmişdir. 1981-1985-ci illərdə keçmiş ittifaq üzrə pambıq istehsalında respublikamızın xüsusi çəkişi 10.2% olmuş, 1969 – 1981- ci illərdə respublika büdcəsinin 22-25%- ni pambıqçılıqdan əldə edilən gəlir təşkil etmişdir. [2]

1980-ci illərdə Azərbaycanda pambıqçılığın daha da rasionallaşdırılması, istehsalın ərazi təşkilinin daha da təkmilləşdirilməsi məqsədilə Naxçıvan MR, Dağlıq Qarabağ, Füzuli, Cəbrayıl, Zəngilan və Cəlilabad rayonlarında pambıq əkini dayandırılmış, Gəncə- Qazax və Şirvan iqtisadi rayonlarında isə əkin sahələri xeyli azaldılmışdır. 1980-1990-cı illərdə ümumi pambıq istehsalında Mil- Qarabağ zonasının xüsusi çəkisi 50.2% , Muğan- Salyan zonasında 33.7% , Şirvan zonasında 12.4% və Gəncə-Qazax zonasında 3.7% -ə bərabər olmuşdur. [2]

Qeyd edilən dövrdə respublikamızda 14 pambıqtəmizləmə zavodu və 106 pambıq qəbulu məntəqəsi fəaliyyət göstərmişdir.Respublikamızda pambıqtəmizləmə zavodlarının ümumi gücü 1 mln 240 min ton olmuşdur ki, bu da tədarük edilən xam pambığın 6-7 aya ilkin emalını həyata keçirtməyə imkan vermişdir.

Sovet dövründə respublikamızda pambıq emalı üzrə 3 kombinat və 3 fabrik fəaliyyət göstərmiş, tədarük edilən məhsulun $^{1}/3$ hissəsi respublika daxilində hazır məhsula çerilmişdir. Bakı Toxuculuq Kombinatı ildə 68 mln^{2} metr pambıq parça istehsal edirdi. Bakı Corab Trikotaj Fabriki, Gəncə Pambıq Parça Kombinatı, Minəçevir Pambıq Parça Kombinatı, Göyçay və Tovuz Sapəyirmə fabrikləri respublika tekstil sənayesinin əsas müəssisələri idi. [3]

Qeyd etmək istərdik ki, 1976-1980-ci illərdə emala gedən xam pambıqda xalis lifin miqdarı 32.3%, 1981-1985-ci illərdə 29.7%, 1986-cı illərdə 36% və 1994-cü illərdə isə 28.6% təşkil etmişdir. [1]

Müstəqillik dövründə Azərbaycanda pambıqçılıq: 1990-cı illərin əvvəllərində Azərbaycan iqtisadiyyatında durğunluq baş vermiş və bu durğunluq kənd təsərrüfatına daha çox təsir etmişdir. Kənd təsərüfatında durğunluq sovetlərin süqutundan əvvəl başlamış və müstəqillik dövründə daha da dərinləşmişdir. Kənd təsərrüfatında geriləmə pambıqçılığa da təsir etmiş və 1990-cı ildən etibarən istehsal həcmi azalmağa başlamışdır.

Cədvəl 1. Pambıq əkin sahəsi, məhsul istehsalı, məhsuldarlıq.

İllər	Əkin sahəsi, min ha	Məhsul istehsalı min ton	Məhsuldarlıq sentner
1990	263.9	542.9	20.6
1995	210.4	274.1	13.0
1996	213.4	274.4	12.9
1997	219.4	124.7	5.7
2000	101.2	91.2	9.1
2001	833	83.6	10.0
2002	61.0	80.4	13.2
2003	66.8	99.5	15.0
2004	78.2	135.7	17.4

2005	112.8	196.6	17.5
2006	102.8	130.1	13.0
2007	75.6	100.1	13.0
2008	48.5	55.4	11.5
2009	21.1	31.9	15.5
2010	30.2	38.2	12.7
2011	42.8	66.4	15.5
2012	29.2	57.0	19.5
2013	23.5	45.2	19.3
2014	22.9	41.0	17.9
2015	18.7	35.2	18.8
2016	51.4	89.4	17.3
2017	136.4	207.5	15.3
2018	132.4	233.6	17.6
2019	101.1	294.5	29.5
2020	100.3	336.8	33.6

Cədvəl arxiv materialları və dövlət statisika komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi 1990-cı ildə pambıq əkinləri altında olan 263.9 min ha əkin sahəsi 1997-ci ildə 1.2 dəfə azalaraq 219.4 min ha təşkil etmiş, həmin illərdə istehsal edilmiş pambıq məhsulu 542.9 min tondan 4.4 dəfə azalaraq 124.7 min tona düşmüşdür. Məhsuldarlıq 20.6 sentnerdən 5.7 sentnerə düşməklə tarixi minimum təşkil etmişdir. (Cədvəl 1.)

Pambıqçılıqda tənəzzül 2000-ci ildən sonra daha da sürətlənmiş, illər üzrə əhəmiyyətli azalmalar müşahidə edilmişdir. 2000-ci ildə respublika üzrə 101.2 min ha olan pambıq əkini sahəsi 5 dəfə azalmaqla 2015-ci ildə 18.7 min ha təşkil etmişdir ki, bu da son 100 ilin tarixi minimumu hesab edilə bilər. (Cədvəl 1.)

Müstəqillik illərində ən az pambıq əkinləri 2009-cu (21.1 min ha), 2012-ci (29.2 min ha), 2013-cü (23.5 min ha), 2014-cü (22.9 min ha) və 2015-ci (18.7 min ha) illər olmuşdur. (Cədvəl 1.)

Qeyd etməliyik ki, 2000-ci ildən sonra pambıq əkini sahələrində kəskin azalma baş versə də hər hektara düşən məhsuldarlıq göstəricisində artım müşahidə edilmişdir. Belə ki, 2000-ci ildə hektara düşən məhsuldarlıq 9.1 sentnerdən 2015-ci ildə 18.8 sentnerə çatmışdır. (Cədvəl 1.)

Rəsmi statistik məlumatların təhlili göstərir ki. 2000-2015-ci illər arasındakı dövrdə rayonlar üzrə əkin sahələrinin böyük həcmdə azalması baş vermişdir. Göstərilən illərdə Samux, Cəlilabad, Göyçay, Zərdab rayonlarında pambıqçılıq iflas həddinə çatmışdır. Nəzərdən keçirilən 15 il ərzində Goranboy rayonunda əkin sahələri 4.4 dəfə, Kürdəmir rayonunda 146 dəfə, Ağcabədi rayonunda 5.7 dəfə, Bərdə rayonunda 6.8 dəfə, Neftçala rayonunda 23.5 dəfə, Salyan rayonunda 22.7 dəfə , Ağdaş rayonunda 53.3 dəfə, Ucar rayonunda 223 dəfə, Zərdab rayonunda 29.5 dəfə, Sabirabad rayonunda 8 dəfə azalma müşahidə edilmişdir. (Cədvəl 2.)

Əkin sahələrinin azalması qeyd edilən rayonlarda təbii olaraq pambıq istehsalının kəskin şəkildə azalmasına səbəb olmuşdur. Belə ki, 2000-2015-ci illər arasındakı dövrdə Goranboy rayonunda pambıq istehsalı 7.5 dəfə, Kürdəmir rayonunda 288.5 dəfə, Ağcabədi rayonunda 3.5 dəfə, Bərdə rayonunda 3.2 dəfə, Neftçala rayonunda 16.7 dəfə, Salyan rayonunda 7.2 dəfə, Ağdaş rayonunda 45 dəfə, Ucar rayonunda 102.5 dəfə, Zərdab rayonunda 322.3 dəfə, Sabirabad rayonunda 5 dəfə azalma olmuşdur. [Cədvəl 3.]

2015-ci ildə Ağdaş rayonunda pambıq istehsalı cəmi 25 ton, Ucar rayonunda 16 ton, Zərdab rayonunda 15 ton, Kürdəmir rayonunda 10 ton təşkil etmişdir. (Cədvəl 3.)

Araşdırmalarımız göstərir ki, 2015-ci ildə pambıqçılıqda yaranmış problemin səbəbi respublikanın 15 pambıqçılıq rayonunda fermer təsərrüfatları ilə müqavilə bağlamış "CTZ – Aqro" şirkətinin müqavilə öhdəliklərini yerinə yetirməməsi olub. Belə ki, şirkət tərəfindən fermerlərə ödəniləcək maliyyə vəsaiti vaxtında verilmədiyindən pambıq məhsulu tarlalarda qalıb. (Bax: www.ann.az/az)

Qeyd etməliyik ki, pambıqçılıq sektorunda mövcud problemlərin təhlili zamanı əsas indikatorlardan biri məhsuldarlıq göstəricilərinin dinamikasının izlənməsidir.

Rəsmi statistik məlumatların təhlili göstərir ki, respublika üzrə pambığın hektara görə məhsuldarlıq göstəricisi 2000-ci ildəki 9.1 sentnerdən 2015-ci ildə 18.8 sentnerə çatmışdır. Bunula belə bəzi rayonlarda məhsuldarlıqda əhəmiyyətli artım müşahidə edilməmiş hətta nəzərdən keçirilən illərdə Goranboy rayonunda məhsuldarlıq 11.9 sentnerdən 7.0 sentnerə, Zərdab rayonunda 10.7 sentnerdən 1.0 sentnerə, Kürdəmir rayonunda 9.0 sentnerdən 4.6 sentnerə düşmüşdür. (Cədvəl 4.)

Qeyd etməliyik ki, pambıqçılığın sahə mütəxəssislərinin və pambıqçılıq üzrə ixtisaslaşmış fermerlərin rəylərinə görə pambıqçılığa dövlət dəstəyi şəraitində bir hektarın sahə məhsuldarlığı 12-13 sentnerdən, dövlət dəstəyi olmadan isə sahə məhsuldarlığı 15-16 sentnerdən artıq olduqda gəlirlər xərcləri ödəyir.

2000-ci ildən 2018-ci ilədək dövrü əhatə edən rəsmi statistik məlumatların təhlili göstərir ki, Goranboy rayonunda 5 il, Göyçay rayonunda 13 il, Neftçala rayonunda 15 il, Biləsuvar rayonunda 5 il, Salyan rayonunda 6 il, Yexlax rayonunda 6 il, Ağdaş rayonunda 12 il, Ucar rayonunda 13 il, Zərdab rayonunda 15 il, Füzuli rayonunda 14 il, Kürdəmir rayonunda 16 il, Sabirabad rayonunda 12 il, Hacıqabul rayonunda 13 il, Ağdam rayonunda 6 il ərzində məhsuldarlıq 13 sentnerdən az olmuşdur.(Cədvəl 4.)

Statistik məlumatların təhlili göstərir ki, respublika üzrə pambığın məhsuldarlığı 2016-cı ilə nisbətən 2017-ci ildə 11.6 % aşağı düşmüşdür. Əsas pambıq becərilən keçmiş Aran iqtisadi rayonunda isə məhsuldarlıq həmin dövr ərzində 13.8% aşağı olmuşdur. Pambıqçılıq üçün daha əlverişli torpaq- iqlim şəraiti olan Bərdə rayonunda 2016-cı ildə məhsuldarlıq 23.2 sentner, 2017-ci ildə isə 26.3 sentner olmuşdur. (Cədvəl 4) Hər hektara çəkilən xərcin 700-800 manat arası dəyişdiyini nəzərə aldıqda Bərdə rayonunda əldə edilən ümumi gəlir 1392 manat, xalis gəlir isə 792 manat təşkil edir. Güzəşt və subsidiyaları nəzərə aldıqda istehsalçı hər hektardan təxminən 1000 manata qədər gəlir əldə edir. Əgər 5 nəfər ailə üzvü olan təsərrüfat sahibi 5 ha pambıq əkinindən il ərzində 5000 manat gəlir götürərsə və başqa gəlir mənbəyi yoxdursa onda adam başına orta aylıq gəlir 83.3 manat edir ki, bu da minimum istehlak səbətindən 2 dəfə aşağıdır. Məhsuldarlıq 30-35 sentner təşkil etdikdə belə gəlir (125 manat) minimum istehlak səbətindən aşağı olur. Məhz bu baxımdan da bəzi mütəxəssislər çoxlu zəhmət tələb edən pambıqçılığın inkişaf etdirilməsini iqtisadi və sosial cəhətdən qeyri səmərəli hesab edirlər.

Cədvəl 4 -dən də göründüyü kimi 2000-ci ildən 2018-ci ilədək pambıqçılıqla məşğul olan əksər rayonların fermer və kəndli təsərrüfatları böyük həcmdə iqtisadi itkilərlə üzləşmiş və pambıqçılıqda uzun illər ərzində rentabelsizlik şəraitində fəaliyyət göstərmişlər.

Nəzərə almaq lazımdır ki, pambıqçılıq sektoruna dövlət səviyyəsində subsidiyaların verilməsinə 2007-ci ildən başlanılmışdır. Aqrar sığorta sistemi isə 2019-cu ilədək mövcud olmamışdır.

Pambıqçılıq sektorunda mövcud problemlərin səbəbləri .

Məlum olduğu kimi 1996-1997-ci illər Azərbaycan Respublikasının kənd təsərrüfatında aqrar islahatların həyata keçirilməsi ilə əlamətdar olmuşdur. Bu islahatlar aqrar sektorda vahid idarəçilik mexanizminin ləğvinə səbəb olmuş, nəticədə kənd təsərrüfatının digər sahə strukturları kimi pambıqçılıq təsərrüfatına da ciddi zərbə vurmuşdur. Dövlət nəzarətində olan kolxoz və sovxozların ləğv edilməsi, plansız şəkildə aparılan aqrar islahatlar nəticəsində bütün torpaqlar, əmlak və texnikalar yerli kənd əhalisi arasında payçılıq prinsipləri əsasında bölüşdürülmüşdür. Bununla da kənd təsərrüfatı işçiləri sahib olduqları torpaq və əmlakdan plansız və kortəbii şəkildə istifadə etməyə başlamışlar. Fərdi təsərrüfat sahiblərinin aqrar sahədən kifayət qədər anlayışlarının olmaması və düzgün idarəçilik sisteminin qurulmaması, pambıqçılığın böhranına səbəb olmuşdur. Digər tərəfdən "Aqrar İslahat Komissiyaları"nın həyata keçirdikləri işlərdə ciddi boşluqlar və təlimata uyğun olmayan qaydada bölgülərin hesablanmamış şəkildə aparılması, aqrar sektorun, o cümlədən pambıqçılığın inkişafında geriləmələrə səbəb olmuşdur. Bölgülər aparılan zaman kəndlərdən uzaqda, hətta bəzi hallarda 5-10 km aralıda olan ərazilərdə kiçik ölçülü pay torpaqları verilmişdir. Məsafənin uzaqlığı, kənd yollarında infrastrukturun bərbad halda olması, həmin torpaqların istifadəsiz qalmasına və tədricən eroziyaya uğramasına səbəb olmuşdur. Kiçik ölçülü pay torpaqları becərildikdə, çəkilən xərclər real gəlirləri üstələyirdi. Məs: Goranboy rayonu Xanqərvənd kəndində pay torpaqlarının paylanmasında ərazidəki mövcud torpaqların 3 kadastr dərəcəsinə bölünməsi prinsipi tətbiq edilmiş, nəticədə 3 nəfərdən ibarət ailəyə çatacaq 0.90 ha pay torpağı, aralarında məsafə 3-4 km olmaqla 3 fərqli ərazidən verilmişdir. (0.24; 0.33; 0.33 ha olmaqla).

Araşdırmalar göstərir ki, Azərbaycanda kənd təsərrüfatında mövcud olan ümumi təsərrüfatların strukturunda kiçik ölçülü təsərrüfatların xüsusi çəkisi 80%-dən çoxdur. Hətta ölçüsü 1 ha-dan az olan kəndli təsərrüfatları ümumi təsərrüfatların 65%-ni təşkil edir.[4]

Dünyada pambıqçılıqla məşğul olan qabaqcıl ölkələrin praktikası sübüt edir ki, sahəsi 5-10 ha-dan az olan kənd təsərrüfatı subyektləri rentabelli sayılmır. [5]

Apardığımız araşdırmalara görə hesab edirik ki, Azərbaycanda müstəqillik dövründə pambıqçılığın böhranına səbəb olan amillər aşağıdakılardır:

1. 1996-1997-ci illlərdə aparılmış aqrar islahatlar zamanı bölgülərin düzgün aparılmaması, (keçmiş kolxoz və sovxozlara məxsus münbit torpaqların məmurlar tərəfindən əla keçirilməsi), pay torpaqlarının bölünməsində qeyri elmilik, qeyri şəffaflıq, plansızlıq, təsərrüfatların perspektiv inkişafının nəzərə alınmaması;

2. Fermer və kəndli təsərrüfatları üzvlərinin aqrar sahədə bilik və bacarıqlarının az olması, aqrotexniki qaydalara düzgün əməl olunmaması, innovasiyalara və qabaqcıl təcrübəyə lazımi diqqət göstərilməməsi;
3. Bölgələrdə kənd təsərrüfatı mütəxəssislərinin, ixtisaslı kadrların çatışmaması;
4. Mövcud kənd təsərrüfatı texnikalarının fiziki-mənəvi aşınması, yeni texnologiyalar üçün lizinq şərtlərinin ağır olması;
5. Torpaqların əkinə yararsız hala düşməsi, fasiləsiz əkinlər, növbəti əkin sisteminin tətbiq edilməməsi, torpaqların zəif qidalanması, gübrə və pestisidlərin aşağı keyfiyyətli olması, qiymətlərin bahalılığı, alınması üçün vəsait çatışmazlığı;
6. Torpaqların bir hissəsinin şoranlaşması və erroziyaya məruz qalması, melorasiya işlərinin aparılmaması, suvarma kanallarının köhnəlməsi, suvarma suyunun əhəmiyyətli dərəcədə itkisi, su çatışmazlığı;
7. Keyfiyyətli toxum çatışmazlığı;
8. Marketinq mühitinin çox aşağı səviyyədə olması, kəndi təsərrüfatları ilə emal müəssisələri arasında birbaşa təmasların qurulmaması, münasibətlərin tənzimlənməməsi, pambıq satışındakı problemlər;
9. Fermerlər və kəndli təsərrüfatları tərəfindən alınan kreditlərin faizlərinin yüksək olması, məbləğlərinin az olması; Pambığın alış qiymətlərinin aşağı olması;
10. Pambıqçılıqla məşğul olan fermer və kəndli təsərrüfatlarının öz peşə birliklərinin olmaması. (səhmdar cəmiyyətləri, kooperativlər, assosiasiyalar və s.)
11. Bələdiyyə fonduna verilmiş torpaqların istifadəsiz qalması, yaxud yerli fermerlərin istifadəsi üçün icarə qiymətlərinin yüksək olması, bürokratik əngəllər və s.
12. Sığorta sisteminin olmaması və s.

2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılıq sektoruna ciddi dövlət dəstəyi göstərilməkdədir. Pambıq istehsalçıları üçün subsidiyaların artırılması, subsidiyaların məbləğlərinin istehsal olunan məhsulun həcminə uyğunlaşdırılması, texnika təminatının gücləndirilməsi, pambığın alış qiymətinin artırılması ilə bağlı həyata keçirilən tədbirlər bu sahədə istehsalı stimullaşdırmışdır. Dövlət dəstəyinin gücləndirilməsi fermerlərin istehsala marağını artırmaqla bu istehsal növünü rentabelli vəziyyətə gətirmişdir. 2015-ci ildə pambığın satılma qiyməti 41 qəpik, 2016-2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildən bu rəqəm 65 qəpiyə qaldırılmışdır.

Gübrələr üçün güzəştlər 100 manatdan 150 manata, hər hektara görə güzəştlər 10 manatdan 50 manata qaldırılmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində respublikada pambıqçılığın inkişafında müsbət dinamika yaranmış və 2016-cı ildə pambıq əkinləri sahəsi 2.7 dəfə artırılaraq 51369 hektara çatdırılmışdır. Məhsul istehsalı əvvəlki illə müqayisədə 2.5 dəfə artaraq 89442 tona çatdırılmışdır. 2017-ci ildə 136413 hektardan 207525 ton, 2018-ci ildə 132512 hektardan 233582 ton pambıq istehsal edilmişdir. 2019-cu ildə pambıqçılıqda innovativ texnologiyaların tətbiqi sayəsində pambıq əkini sahələri 32 min hektar azaldılaraq məhsuldarlığın yüksədilməsi hesabına 100 min hektardan 294500 ton pambıq istehsal edilmişdir. Məhsulun 87%-i maşınlarla yığılmışdır. Müstəqillik illərində ilk dəfə olaraq hər hektarın məhsuldarlığı 29.5 sentnerə çatdırılmışdır.

Ölkədə istehsal edilmiş pambığın əsas hissəsi ailə-kəndli təsərrüfatlarının və fermerlərin payına düşür.

Son illər Azərbaycanda pambığın əkilməsi, becərilməsi və yığılması ilə məşğul olan ixtisaslaşmış şirkətlərin fəaliyyəti genişlənməkdədir.

Bunlardan pambıqçılıq sahəsində 25 illik təcrübəsi olan "MKT İstehsalat Kommersiya" MMC-nin 20 rayonda 13 pambıqtəmizləmə zavodu, 11 pampıq qəbulu məntəqəsi, 5 innovasiya təsərrüfatı vardır. Pambıqçılıqda fəaliyyət göstərən digər şirkətlərdən "Azərpambıq ASK","P-Aqro" MMC, "Aqro-Az" MMC, "Goran Cotton" MMC və s. göstərmək olar. Qeyd edilən şirkətlər fermer təsərrüfatları və ailə-kəndli təsərrüfatları ilə bağladıqları müqavilələr əsasında pambıq əkini ilə məşğul olurlar. "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Aqro" MMC şirkətlərinin emal müəssisələri vardır.

NƏTICƏ

- Dünya Pambıq bazarında ixrac-idxal əməliyyatlarının təhlili göstərir ki, qısamüddətli dalğalanmalar olsa da hər il 1.8-2%-lik artım dinamikası davam etməkdədir. Bununla belə dünya bazarında neftin qiymətinin ucuzlaşması, pandemiya və s. amillər diqqət mərkəzində saxlanılmalıdır.
- Pambıqçılıqla məşğul olan ölkələrin təcrübəsi göstərir ki, ictimai-iqtisadi sistemlərdən asılı olmayaraq aqrar sektora, o cümlədən pambıqçılıq sektoruna dövlət dəstəyi inkişaf etdirilməkdədir. Hətta, Çin dövlətində planlı iqtisadiyyat hökm sürsə də pambıqçılıq və tekstil sənayesi özəl sektora məxsusdur. Bununla belə, dövlət pambıqçılıq sektoruna güclü dəstək verməkdədir.

- Türkiyənin dünya bazarından hər il 700-900 min ton arasında pambıq idxal etməsi (128 min ton Yunanıstandan, 105 min ton Braziliya, 330 min ton ABŞ-dan) nəzərə alınmalı, qardaş ölkəyə Azərbaycan pambığının potensial alıcısı kimi yanaşılmalıdır.[6]
- Azərbaycan Respublikasında dövlət dəstəyi sayəsində pambıqçılıq sektorundakı böhran aradan qaldırılmış və müsbət dinamika müşahidə edilməkdədir.
- Azərbaycanda pambıqçılıq sektoru elmi əsaslarla, intensiv inkişaf etdirilərsə, aqrar sektorun digər sahələrinin (heyvandarlıq və s.), həmçinin yüngül sənayenin inkişafı üçün lokomativ rolu oynaya bilər.
- Son illər bəzi rayonlarda örüş-otlaq sahələri hesabına pambıqçılığın inkişaf etdirilməsi mənfi nəticələr doğura bilər. (Artıq bir çox kəndlərdə örüş-otlaq sahələri olmadığından heyvandarlıq qapalı şəraitdə inkişaf etdirilir).
- Fərdi kəndli təsərrüfatlarında pambıqçılığın təbliği və təşviqi öncəsi onların istifadəsində olan pay torpaqları həcminin optimallaşdırılması zəruridir. Araşdırmalar göstərir ki, ölkədə fəaliyyət göstərən ümumi ailə təsərrüfatlarının 80%-dən çoxunun ölçüləri yaşayış minimumu meyarına uyğunluq baxımından tələb olunandan kiçikdir. Kənd yerlərində 1 ailənin yaşayış minimumuna uyğun gəlirlərini təmin etmək üçün ailə-kəndli təsərrüfatlarının ölçüsü 3.5 hektardan yuxarı olmalıdır. [4]
- Pambıqçılıqda əsas işlər mexanikləşdirildiyi üçün işçi qüvvəsinə tələbat azalır. Əhali sayı 100 min nəfərdən artıq olan, illik pambıq istehsalı 10 min tondan artıq olan rayonlarda işsizliyin azaldılması üçün pambığın dərin emal müəssisələrinin həmin rayonlarda yerləşdirilməsi zəruridir. (Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Bərdə, Ağcabədi, Beyləqan və s.)
- Pambıq istehsal edən təsərrüfatlarla emal müəssisələri, pambıq şirkətləri arasında ictimai münasibətlərin dövlət tərəfindən tənzimlənməsinə zərurət vardır. Hazırda pambıq şirkətləri ilə müqaviləsi olmayan fermer və kəndli təsərrüfatlarının ciddi çətinlikləri müşahidə edilməkdədir. Pambıq şirkətləri bir qayda olaraq müqaviləsi olmayan istehsalçılara aşağı alış qiymətləri təklif edirlər.
- Pambıqçılıqda davamlı olaraq məhsuldarlığın sabit saxlanılması üçün növbəli əkin sisteminin tətbiq edilməsi zəruridir. Beynəlxalq təcrübəyə uyğun olaraq pambıqçılıq üçün nəzərdə tutulan sahənin ən çox 60%-də pambıq əkinləri, 40%-də qara yonca və taxıl bitkiləri əkilməsi zəruridir. Mütəxəssislər yonca bitkisini "azot laboratoriyası" hesab edirlər.
- Məhsuldar, iqlim dəyişmələrinə dözümlü pambıq sortlarının yetişdirilməsi və seleksiyası, toxumculuq işləri yüksək ixtisaslaşmış elmi tədqiqat institutlarına həvalə edilməli, bu məqsədlə ölkədə fəaliyyət göstərən pambıq şirkətlərinə məxsus kiçik həcmli innovasiya mərkəzlərinin bazası əsasında respublika üzrə vahid innovasiya mərkəzi yaradılmalıdır. Türkmənistanda ümumi pambıq sahələrinin (550 min ha) 14%-i elmi tədqiqat və innovasiya mərkəzinin tabeliyindədir. Azərbaycanda da bu nisbət gözlənilə bilər.
- Suvarma kanallarının yenilənməsi, su itkisinin qarşısının alınması üçün suvarma suyunun örtülü borularla istehlak yerinə çatdırılması təmin edilməlidir. Kollektor, dren şəbəkələri beynəlxalq təcrübəyə uyğun olaraq yenilənməlidir. Su çatışmazlığı olan, şoranlaşma səviyyəsi yüksək olan ərazilərdə vertikal drenaj sistemlərinin tətbiqi zəruridir. Duzsuzlaşdırıldıqdan sonra həmin sulardan suvarmada istifadə edilə bilər. (ABŞ təcrübəsi)
- Fermer və kəndli təsərrüfatlarına təklif edilən kredit faizləri beynəlxalq təcrübəyə uyğunlaşdırılmalıdır. Məs: ABŞ-da bu cür kreditlər 4.5%-lə verilir.
- Azərbaycanda aqrar sektorda, o cümlədən panbıqçılıqda fəaliyyət göstərən əksər fermerlər və kəndli təsərrüfatlarının aqronomik bilik və bacarıqlarının zəif olunması nəzərə alınaraq maarifləndirmə işlərinin aparılması, qabaqcıl təcrübənin yayılmasına xidmət edəcək "Aqrar televizya" kanalının fəaliyyətinin təkmilləşdirilməsi zəruridir.

Cədvəl 2. Rayonlar üzrə pambıq əkin sahələri. Hektarla (2000-2019)

	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019
Respublika üzrə	101.203	83.355	61.012	66.754	78.161	111.441	102.843	75.642	48.464	21.070	30.175	42.819	29.217	23.460	22.918	18.684	51.369	136.413	132.512	100.1
Gəncə	-	-	53	49	36	40	33	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Samux	45	50	-	-	-	15	-	38	36	29	29	29	29	32	29	26	330	53	400	-
Goranboy	2360	2911	1321	1508	1760	2700	2092	1566	2406	612	860	1323	1351	928	593	540	2024	5000	5000	3102
Cəlilabad	-	-	-	-	-	-	148	55	20	20	100	510	10	7	20	6	426	500	505	508
Göyçay	424	510	216	184	292	418	300	58	25	39	63	80	40	16	-	-	200	-	-	-
Beyləqan	4282	4076	3391	3740	4457	7629	6626	5322	2936	1414	1834	2446	1177	1439	1994	2079	4035	8550	9660	9706
Ağcabədi	8117	4209	4005	5016	5709	7294	6339	4498	3222	1769	2425	5544	2778	1963	1703	1428	3711	9550	10000	10452
Bərdə	7955	5171	4834	5008	4722	7053	7137	5850	3420	1748	1678	2158	1928	1948	1055	1162	2749	8518	9630	10140
Neftçala	5193	4171	4016	5149	5271	9030	9107	5321	2722	506	1822	2509	1260	713	557	221	1541	11111	7000	5087
Biləsuvar	7521	8470	4292	4700	6714	10340	10503	8131	5336	2685	4750	8984	5888	4973	4417	3095	5702	11352	12000	10258
Salyan	9200	3917	2986	3195	3712	5395	5140	3160	1175	781	1464	1269	825	666	716	406	2286	7052	7055	4788
Yevlax	2715	2292	1493	1248	1473	3024	2046	1750	1097	532	719	918	873	610	839	958	1435	2168	2500	2407
Ağdaş	1652	1129	384	1020	1307	1811	2007	1481	757	403	209	236	236	237	27	31	1154	3000	3185	-
Ucar	1789	2540	1851	1501	1613	1851	1501	742	450	437	340	338	336	211	148	8	510		2500	500
Zərdab	4518	4200	2022	2355	2145	2873	2364	1763	1002	225	622	912	778	475	485	153	874	3232	3232	2264
Kürdəmir	3227	3227	2224	1743	1804	2569	2572	2198	1467	142	19	305	191	51	21	22	1811	4027	5030	2809
İmişli	8383	7700	5941	5989	6255	8665	8700	7125	5095	20805	2694	3119	2429	1535	3011	2551	4746	15642	13645	7492
Saatlı	13962	13440	8508	11105	14136	17238	14305	10940	7447	3847	6635	5976	4903	4257	4507	3768	8028	17220	15815	13741
Sabirabad	13190	11020	8596	7352	9190	13238	11493	9319	4864	1673	2476	3150	2878	2303	1696	1633	6113	15055	13055	8630
Hacıqabul	800	650	600	650	550	650	380	300	285	50	-	200	-	-	-	-	526	1204	1300	400
Füzuli	374	600	820	1000	1400	2000	2300	1756	925	240	166	790	289	297	115	11	505	2050	2100	800
Ağdam	2526	1240	1309	1911	2096	2601	2325	794	1196	192	97	530	186	143	80	36	390	3005	3100	2601
Tərtər	1498	1120	1760	1932	2319	4170	4163	2684	1994	815	1209	1751	1136	1091	905	550	1035	3123	3300	3437
Ağsu	1520	688	390	501	1200	1837	1213	721	539	6	-	52	86	15	-	-	1104	2501	2600	1000

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi

Cədvəl 3. Rayonlar üzrə pambıq istehsalı. Tonla (2000-2020)

	2000	2005	2010	2014	2015	2016	2017	2018	2019	2020
Respublika üzrə	91.542	196.616	38.218	40.970	35.192	89.442	207.525	233.592	294.500	336.80
Samux	105	23	60	60	43	761	46.5	923.0	-	173
Goranboy	2812	3226	1616	1033	376	3573	6957	9147	7277	9631
Cəlilabad	-	-	128	46	14	659	1000.3	1447	1311	1212
Göyçay	401	484	114	-	-	153	-	-	-	-
Beyləqan	4687	14665	3210	3876	3795	7880	15.726.4	21.916	29443	28.333
Ağcabədi	7761	12162	4148	2886	2218	8852	20.427.2	23.305	32099	37.992
Bərdə	10.684	17.144	3281	3237	3292	6925	22.402.3	25.378	34194	37.296
Neftçala	3599	12.553	1360	768	255	1978	9096.5	10.090	16072	23.042
Biləsuvar	8056	17.782	5678	5834	6361	12.062	24.762.4	22.732	30707	28.333
Salyan	4233	8645	1242	1689	584	2706	9275.7	10.356	15927	20.426
Yevlax	2261	3432	1990	2865	3327	3677	3416.3	5296	6348	8.149
Ağdaş	1127	2310	100	81	25	1316	3697.3	3756	-	-
Ucar	1640	1533	503	415	16	299	237.9	1793	963	496
Zərdab	4835	4526	271	282	15	900	4191.3	4997	5252	7687
Kürdəmir	2885	3012	21	12	10	2111	5001.2	6763	6497	5747
İmişli	7205	18495	2775	5456	6388	10211	14.654.9	18.576	19716	23.777
Saatlı	15166	36.949	7694	7474	5650	12088	25.753.6	30.448	41813	47.366
Sabirabad	9347	18.960	1940	2676	1853	7713	18.169.4	17.892	25211	31.623
Hacıqabul	512	650	-	-	-	860	1000.1	1172	576	791
Füzuli	250	2900	162	155	5	522	2130.6	2217	1629	1797
Ağdam	1756	5118	98	147	71	833	6179.4	5822	7316	7100
Tərtər	1403	9789	1824	1978	893	2334	8419.9	81.91	11936	11520
Ağsu	804	2186	-	-	-	1032	2807.2	1974	994	1525

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi

Cədvəl 4. Rayonlar üzrə pambığın məhsuldarlığı, sent/ha (2000-2018)

	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018
Respublika üzrə	9.1	10.0	13.2	15.0	17.4	17.5	13.0	13.0	11.5	15.5	12.7	15.5	19.5	19.3	17.9	18.8	17.3	15.3	17.6
Gəncə-Qazax iqtisadi r.	**12.1**	**12.6**	**24.9**	**16.5**	**11.8**	**12.1**	**11.4**	**14.0**	**14.5**	**19.0**	**18.9**	**22.0**	**18.6**	**15.3**	**17.6**	**7.4**	**18.6**	**13.9**	**18.6**
Gəncə ş.	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Samux r.	23.3	26.0	-	-	-	15.0	-	8.7	21.1	24.5	20.7	20.0	26.6	22.5	20.7	16.3	23.1	8.8	23.1
Goranboy r.	11.9	12.4	24.8	16.7	11.6	11.9	11.3	14.1	14.4	18.7	18.8	22.0	18.4	15.1	17.4	7.0	17.9	13.9	18.3
Lənkəran iqtisadi r.	-	-	-	-	-	-	**28.3**	**12.6**	**16.5**	**8.6**	**20.0**	**9.1**	-	**11.4**	**23.0**	**23.0**	**15.5**	**20.0**	**28.6**
Cəlilabad r.	-	-	-	-	-	-	28.3	12.6	16.5	8.6	20.0	9.1	-	11.4	23.0	23.0	15.5	20.0	28.6
Aran iqtisadi r.	**9.2**	**9.9**	**12.7**	**14.5**	**17.5**	**17.5**	**13.3**	**13.3**	**11.6**	**15.4**	**12.4**	**15.3**	**19.3**	**19.6**	**17.7**	**19.3**	**17.4**	**15.0**	**17.6**
Göyçay r.	9.5	8.6	12.6	9.8	9.6	11.6	8.3	8.2	5.1	13.1	18.2	4.5	16.3	2.5	-	-	7.6	-	-
Beyləqan r.	10.9	13.1	15.1	19.9	19.5	19.2	14.0	12.9	11.0	15.1	17.5	14.6	22.0	19.5	19.4	18.3	19.9	18.4	22.9
Ağcabədi r.	10.2	13.2	19.5	17.2	15.1	16.7	13.2	15.0	8.6	15.0	17.1	13.7	19.9	20.6	16.9	15.5	24.2	21.5	23.3
Bərdə r.	13.4	12.4	15.2	16.1	18.2	24.3	19.1	12.9	15.7	13.9	19.6	23.6	27.1	25.5	30.7	28.3	23.2	26.3	26.3
Neftçala r.	6.9	9.9	10.0	12.1	14.9	13.9	8.2	10.1	7.4	12.0	7.5	12.4	10.0	10.6	13.8	11.5	12.8	8.2	14.4
Biləsuvar r.	11.5	10.1	14.5	14.5	17.4	17.2	12.0	14.9	11.4	20.5	12.0	14.5	19.4	19.1	13.2	20.6	20.0	21.8	18.9
Salyan r.	4.6	9.4	13.1	14.2	15.5	16.0	12.3	13.3	12.7	12.0	8.5	17.2	19.1	19.8	23.6	14.4	12.5	13.2	14.7
Yevlax r.	8.3	9.1	8.9	13.2	12.2	11.3	9.6	13.8	17.6	28.2	27.7	25.7	32.8	43.2	34.1	34.7	26.0	15.8	21.2
Ağdaş r.	6.9	9.3	19.8	14.5	14.4	15.1	15.5	15.5	6.9	11.8	4.8	10.9	11.7	12.1	29.8	8.1	11.6	12.3	11.8
Ucar r.	9.2	11.6	11.6	10.8	7.9	8.3	8.6	12.5	12.5	10.9	14.8	15.1	16.4	18.5	28.0	20.2	5.9	9.4	7.2
Zərdab r.	10.7	10.0	16.6	11.4	14.9	15.8	6.7	6.4	8.1	2.1	4.4	6.1	6.2	2.8	5.8	1.0	10.8	13.0	15.5
Kürdəmir r.	9.0	9.2	11.5	17.5	15.1	11.7	10.6	4.7	4.8	6.5	10.8	8.7	4.3	5.1	6.1	4.6	11.6	12.4	13.4
İmişli r.	8.7	9.9	11.3	12.9	17.2	21.3	13.4	16.5	10.6	8.9	10.3	14.5	17.3	22.2	18.1	25.0	21.5	9.7	13.6
Saatlı r.	10.9	9.5	13.7	16.9	24.3	21.4	20.1	18.5	16.5	19.7	11.6	18.7	22.9	20.7	16.6	15.0	15.0	15.0	19.3
Sabirabad r.	7.1	6.8	7.8	10.0	14.4	14.3	9.3	8.0	9.4	13.5	7.8	12.1	14.1	13.7	15.8	11.3	12.6	12.1	13.2
Hacıqabul r.	6.4	8.2	9.0	11.4	11.5	10.0	9.2	10.2	10.6	10.4	-	5.1	-	-	-	-	15.2	8.3	9.0
Yuxarı Qarabağ iqtisadi r.	**7.7**	**11.4**	**15.7**	**19.5**	**18.0**	**20.3**	**9.8**	**14.6**	**8.0**	**14.7**	**14.2**	**16.9**	**23.4**	**17.4**	**20.7**	**16.2**	**19.1**	**20.5**	**19.1**
Cəbrayıl r.	-	-	-	-	-	-	11.2	16.0	18.0	-	-	-	-	-	-	-	17.2	-	-
Füzuli r.	6.7	8.5	9.8	15.0	10.5	14.5	8.7	8.0	0.4	5.6	9.8	8.1	13.3	13.2	13.5	4.5	10.3	10.4	10.6
Ağdam r.	7.0	8.9	14.7	17.7	15.0	19.7	8.4	12.0	2.6	13.7	10.1	23.7	18.4	16.9	18.3	19.8	21.4	20.6	18.8
Tərtər r.	9.4	15.8	19.1	23.7	25.1	23.5	11.2	19.7	14.5	17.6	15.1	20.1	27.0	18.4	21.9	16.2	22.5	27.0	24.8
Xocalı r.	3.4	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Xocavənd r.	10.0	-	-	-	-	-	-	18.5			-	-	-	-	-	-	-	-	-
Kəlbəcər-Laçın iqtisadi r.	-	-	-	-	-	-	-	-	**37.5**	**25.0**	-	-	-	-	-	-	-	-	-
Laçın r.	-	-	-	-	-	-	-	-	37.5	25.0	-	-	-	-	-	-	-	-	-
Dağlıq Şirvan iqtisadi r.	**5.3**	**10.7**	**14.6**	**28.8**	**18.1**	**11.9**	**13.0**	**14.3**	**12.1**	**5.0**	-	**11.5**	**10.7**	**14.7**	-	-	**9.4**	**11.2**	**7.6**
Ağsu r.	5.3	10.7	14.6	28.8	18.1	11.9	13.0	14.3	12.1	5.0	-	11.5	10.7	14.7	-	-	9.4	11.2	7.6

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi

ƏDƏBIYYAT SIYAHISI

1. WWW.agro.gov.az
2. Vaqif Niftullayev. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı- 1996.
3. Z.N.Eminov. Coğrafiya. Məlumat kitabı. Bakı- 2000.
4. ATM. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı-2020. №1
5. Azərbaycan Kənd təsərrüfatı Kooperasiyası: Problemlər və perspektivlər. Şəki- Azərbaycan. 2013.
6. Р.А.Гуляев , А.Е.Лугачев ,Х.С.Усманов . Современное состояния производства ,переработки ,потребления и качество хлопковой продукции в ведущих хлопкосеющих странах мира .Ташкент – 2017.
7. “Pambıqçılıq haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 3 mart 2011- ci il tarixli sərəncamı.
8. Azərbaycan Respublikasında Pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı. 13 iyun 2017.
9. WWW.stat.gov.az.

MÜSTƏQILLIK ILLƏRINDƏ QOBUSTAN RAYONUNDA GÜNƏŞ ENERJISININ INKIŞAF YOLLARI

ZƏRIFƏ MAHMUD QIZI HƏMIDOVA
ADPU Şamaxı filialı
Sosial və pedaqoji elmlər kafedrası
ŞAMAXI.AZƏRBAYCAN

XÜLASƏ

Bu elmi məqalədə apardığım araşdırmalar göstərir ki, Qobustan rayonunda quraşdırılmış bu smensiya alternativ enerjinin almasını və ekoloji təmiz istilik və işığın əldə edilməsini təmin edir. Hazırda külək və Günəş Elektirik stansiyaları kənd təssərüfatına yararsız olan torpaqlarda quraşdırılmalıdır ki, kənd təssərüfatına yararlı olan torpaqlardan səmərəli istifadə olunsun..

AÇAR SÖZLƏR: HIDROGEN, ENERGETIKA, PERESPEKTIV, ŞƏBƏKƏ, GEOTERMAL, GEOQAZ.

GIRIŞ

Azərbaycan Respublikası ərazisində istifadə olunan əsas enerji mənbələri neft, təbii qaz ,hidrogen enerjisi ,perspektivdə günəş atom və külək enerjisidir. Hal-hazırda Azərbaycanda vahid energetika şəbəkəsi yaradılmışdır. Bu şəbəkə İran, Rusiya,Türkiyə və Gürcüstan enerji şəbəkəsi ilə əlaqələndirilmişdir. Yerə düşən günəş enerjisinin miqdarı bütün neft, qaz, kömür və başqa şeylərdən alınmış enerjilərin hamısından dəfələrlə çoxdur. Yer atmosferinin yuxarı sərhəddində il ərzində 5,6 x10/24C günəş enerjisi düşür. Bu enerjinin 40%/ni (Yer albedosu) geri qayıtsa da, yer səthi tərəfindən Günəş energetikası hər-hansı çeşid enerjinin günəşdən alınmasıdır. Günəş enerjisi alınması üçün tükənməz mənbədir və ekoloji cəhəttən təmizdir. Onun əsasında qurulmuş energetika perspektivli sahədir. Ehtimallara görə, 2100-cü ildə günəş ən başlıca enerji mənbəyinə çeviriləcəkdir. Bir çox ölkələrdə o, dövlət dəstəyini almış və surətlə inkişaf edir. Bu ölkələrin təcrübəsi göstərir ki, gələcəkdə günəs enerjisi əsasında güclər ənənəvi energetikanın rəqibi olacaqdır.

Azərbaycan ərazisində günəşli saatların illik miqdarının 2400–2900 saat/il/m, yer səthinə düşən günəş enerjisinin miqdarının isə 1500–2000 kvt./saat təşkil etməsi regionun Abşeron, Naxçıvan və Kür-Araz kimi bölgələrində günəş enerjisindən istifadəyə geniş imkanlar yaradır. Bu məqsədlə Bakı və şəhərətrafı qəsəbələrdə inzibati və sosial təyinatlı binaların, küçələrin, parkların işıqlandırma sistemlərində, eləcə də Qobustan, Salyan, Biləsuvar və s. rayonlarda günəş PV modullarının istifadəsi ilə içməli suyu təmizləməklə, yerli əhalini təmiz su ilə təchiz etmək məqsədilə 5 MVT gücündə günəş panellərinin quraşdırılması layihələrinin icrasına başlanılmışdır.

Günəş enerjisinin cəmi 0, 0125%-nin işlənməsi yerdə olan bütün enerji ehtiyaclarını ödəyə bilər. Daha 0,5%-ı isə gələcək üçün də yetırli olar. Bu potensial o qədər yüksəkdir ki, hər dəqiqə yerə düşən günəş enerjisi bütün bəşəriyyətin bir illik enerji ehtiyaclarını ödəyə bilər.

Günəş şüalarını insan ehtiyacı üçün enerjiyə çevirən qurğular fotoelektrik və termodinamik olurlar. Fotoelektrik qurğular günəs enerjisini elektrik enerjisinə fotoelektrik çeviricilərin araçılığı ilə birbaşa çevirirlər. Onlara "günəş batareyaları" deyilir və onlar dünyada ən çox yayılmışdır. Termodimamik qurğular isə günəş enerjisini öncə istiliyə çevirir. Sonra bu istilik ayrıca istilik qurğusunun araşılığı ilə mexaniki enerjiyə, sonra isə generatorda elektrik enerjisinə çevirilir.

Müxtəlif ərazilər üzrə termal suların temperaturu 30–1100C arasımda dəyişir. Ölkə üzrə ən prespektivli ərazilər Kür çökəkliyi, Qusar dağətəyi zonası və Abşeron yarımadası hesab edilir. Bu ərazilərdə müvafiq olaraq 480,70,65 MVt gücündədir. Demək olar ki, ölkə üzrə termal suların potensialı 245,6 min m^3 /gün və ya 800 MVt həcmində qiymətləndirilir.

Azərbaycanda ekaloji cəhətdən təmiz günəş, külək geotermal enerji mənbələrindən istifadənin perspektivləri böyükdür. Respublika ərazisində hal-hazırda yaradılmış Günəş Enerji Stansiyası əsasən Qobustan rayonunda tikilmişdir. Qobustan rayonunun perespektivliyi daim ölkə Prezidentinin diqqətində olmuşdur. Prezidentimizin 2007-ci ildə Qobustan rayonuna səfərində rayonun abadlıq işlərinin görülməsilə ,rayonda 38 hektar ərazinin əhatə edən mərkəzi külək, günəş və bioqaz stansiyaları ilə təchiz edilmiş əraziləri ilə yaxından baxış keçrmişdir.

Bütün bu təchizatlar ölkədə alternativ enerjinin hər üç yolla əldə edilməsi istiqamətində görülən işlərin real nümunəsidir. Qobustan rayonunda məhz bu alternativ enerji, yəni Günəş Elektirik Stansiyalarının tikilməsinin inkişaf yolunda addımlardır.

Prezidentimizin Qobustan rayonunda 1 iyun 2012-ci il fərmanı ilə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi Qobustan Ekspermental Poliqomı və Tədris Mərkəzinin yaradılması barədə qərar verdi. Məhz bu poliqon ərazisində gücü 1,8 meqavattolan gücündə Günəş Enerjisi stansiyası yaradılmışdır.

2007 -ci ildə Qobustan rayonunda dünyada ilk dəfə olaraq hibrid tipli müasir günəş və külək elektirik stansiyalarının açlışı olmuşdur. Alternativ və bərpa olunan enerji stansiyaları əsasında tikilmiş Günəş Enerjisi Statistikasının əsas hissəsi olan günəş panelləri volt gücündədir. Lakin 250 volta gücünə çatan panellərdən də istifadə olunmuşdur. Bu GES-da müxtəlif ölçülü panellər vardır. Sinisoid intervalar günəş komplektariyası üçün nəzərdə tutulmuşdur. Bu qurğu sabit enerjini dəyişkən enerjiyə çevirir. Bu stansiyanın kremin hücrələri günəşə həssas olub, okean qumlarından hazırlanmışdır. Bu hücrələr invertorlarla idarə olunur. Günəşdən aldığı istiliyi elektirik enerjisinə çevrilir. Məhz bu sahə Qobustan hibrit elektirik stansiyası adlanır. Bu enerji mənbələri ümümi şəbəkəyə qoşulur və qapalı bir sistemdir. Bu enerji "Azərişıq"dan bütün ərazilərə paylanılır.

Qobustan rayonunda Günəş Enerjisi Stansiyasının tikilməsində xaricdən gətirilmiş qurğu və avadanlıqlardan istifadə edilmiş və gələcəkdə günəş batariyalarının quraşdırılması üçün nəzərdə tutulmuşdur. Respublika ərazisində yaradılmış Alternativ və bərpa olunan enerji sahəsində idarə etmə sistemini təkminləşdirmək məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasının109-cu maddəsinin 7-ci və 32-ci bəndlərini rəhbər tutaraq qərarlar qəbul edilmişdir. Müstəqillik illərində Prezidentimiz yeni-yeni Günəş Enerji Stansiyalarının qurulmasına, bu stansiyaların ölkə əhalisinin həyatındakı əhəmiyyətinin artırılmasına nəzarəti gücləndirilmiş və yeni qərarlar qəbul edilmişdir. Günəş Enerjisi bərpa olunduğu üçün ondan istifadə sərfəlidi və həmçinin bu enerjini ekoloji cəhətdən təmizliyi ilə secilir. Ümumilikdə, Günəş Enerji Stansiyası ölkəmizin ən böyük DRES-İ olan Mingəçevir SES-nə qoşulur və Respublikanın istiliyə və enerjiyə olan tələbatını ödəyir.

Problemin elmi yeniliyi: Neft sektorundan qeyri neft sektoruna keçid daha üstün mövqe tutsun.

Problemin praktik əhəmiyyəti: . Günəş Elektirik Stansiyaları günəş işıq və istilik enerjisinin daha cox düşdüyü və günəşli saatların çox olduğu rayonlarda tikilsin .Belə ərazilərə Kür- Araz ovalığını ,yəni Araz iqtisadi rayonunu göstərmək olar.

Problem aktuallığı: Ölkə daxilində savadlı kadrların artırılması və müasir avadanlıqların istehsalının artırılması nəzərə alınsın.

TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün nəzəri təhlil, müşahidə metodlarından istifadə edilmiş. Konkret nümunələrlə əyani misallar gətirilmişdir.

NƏTICƏ

Təbiətin çirklənməsinin qarşısını almaq məqsədi ilə işlənən enerji çeşidlərinin ümumiləşmiş adı. Alternativ energetika daha çox gələcəyə yönələn perspektiv sahədir. Ətraf mühit çirklənmədən (torpaq, su, hava) qorumaq üçün Alternativ enerji mənbələrindən istifadə olunması məqsədəuyğundur. İnkişaf etmiş ölkələr (ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Rusiya və s.) alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə ətraf mühiti çirklənmədən qorumağa cəhd göstərirlər. Son illər Azərbaycan müstəqil dövlət kimi xarici ölkələrin təcrübəsindən istifadə edərək alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə, həm qiymətli yanacağa (neft, qaz) qənaət etməyə, həm də ətraf mühitin qorunmasına nail olmağa çağırır. Elektrik enerji istehsalında İES və SES-dan istifadənin ətraf mühit üçün həm müsbət, həm də mənfi tərəfləri vardır. Bu stansiyalardan xüsusilə İES-ı yerləşdikləri ərazilərin torpaqlarlnı, (sularını) atmosferini daha çox çirkləndirir. Bu stansiyaların tikintisi ucuz başa gəlsədə ekoloji baxımdan çox çirkli sahədir. SES-nın tikintisi baha başa gəlsə də anbarların tikintisi bəndlərin salınması, sudan, istifadə edilməsi ətraf mühitin çirklənmədən qoruyur.

ƏDƏBIYYAT SIYAHISI

1.Azərbaycan Respublikası Alternativ və bərpa olunan enerji mənbələri üzrə Dövlət Agentliyi üzrə Prezidentin fərmanından Bakı.2017.
2.N.Ə Paşayev ,H.H .Əyyubov ,Z.N. Eminov Azərbaycan Respublikasının iqtisadi,sosial və siyasi coğrafiyası Bakı.2010
3.M.Müseyibov"Azərbaycan Respublikasının iqtisadi coğrafiyası"
4."Regionların sosial-iqtisad inkişafı"
2009-2013 ARDSK.Bakı2013
5.Z.M. Məmmədova –"Coğrafiya və təbii resuslar "Azərbaycan coğrafiya Cəmiyyəti əsəri

KİTAB TİCARƏTİ - KİTAB MƏHSULLARININ YAYIMI VASİTƏSİ KİMİ

AYSEL HƏSƏNOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Kulturologiya /Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası
ayselhasanova2304@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dövrdə kitab ticarəti dinamik inkişaf edən Azərbaycan kitab bazarında zəif həlqə kimi çıxış edir. Təəssüf ki, bizdə kitab satışı ilə bağlı dövlət statistikası yoxdur və bu gün Azərbaycanda nə qədər kitab mağazası olduğunu belə dəqiq müəyyənləşdirmək mümkün deyil. Ona görə də aparılan tədqiqat işində Azərbaycanda kitab ticarətinin statistik göstəriciləri deyil, kitab ticarətinin kitab məhsullarının yayımında roluna dair nəzəri məsələlər öyrənilmişdir. Bu gün kitab sənayesində nəzərə çarpan boşluqları müəyyənləşdirmək üçün kitab ticarəti hər tərəfli öyrənilməlidir. Lakin bir məqalə çərçivəsində belə bir ciddi məsələnin öyrənilməsi mümkün deyil. Ona görə məqalədə ilk olaraq kitab ticarətində müşahidə edilən problemlər müəyyənləşdirilmiş, sonra isə onların həlli yolları göstərilmişdir. Ardınca kitabın yayımının təşkili üsulları araşdırılmışdır. Bunun üçün yerli və beynəlxalq mənbələrdən istifadə edilmişdir.

AÇAR SÖZLƏR: kitab ticarəti, kitab yayımı, kitabın təşviqi

GIRIŞ

Kitab ticarəti kitab yayımının aparıcı forması hesab olunur və kitab istehsalının nəticələrini istehlakçılara çatdırmaqdan ibarət olan iqtisadi fəaliyyət sahəsidir. Kitab ticarəti, bir tərəfdən, kitab biznesinin tərkib hissəsi kimi, digər tərəfdən, kənd təsərrüfatı ticarəti sahəsinin bir hissəsi kimi çıxış edir. Bu baxımdan aparılan tədqiqat işinin əsas məqsədi kitab ticarətinin kitabın yayımının əsas vasitəsi kimi rolunu müəyyənləşdirməkdir. Tədqiqat işi aşağıdakı problemlərin həllini nəzərdə tutur:

- ✓ Kitab məmulatlarının çeşidinin genişliyi və fiziki xassələrinin vahidliyi onların ayrıca pərakəndə satış yerində və ya anbarda cəmləşdirilməsi zəruriliyi;
- ✓ Kitab ticarətində paylama xərclərinin səviyyəsi;
- ✓ Kitab ticarəti topdan və pərakəndə ticarətin ayrıca seqmenti kimi;
- ✓ Əmtəə mübadiləsi prosesində kitab ticarəti istehsalçı ilə istehlakçı arasında vasitəçi kimi;
- ✓ Kitab bazarında vasitəçilik fəaliyyəti prosesində kitab paylama və ya kitab məhsullarının yayımı kanallarının formalaşması;

Araşdırma zamanı elmi təhlil metoduna əsaslanaraq yerli və beynəlxalq təcrübəyə müraciət edilmişdir. Belə ki, bu gün kitab sənayesi işində əsas problemlərdən biri kitab ticarəti hesab olunur. Kitab ticarəti kitabın yayımının əsas vasitəsi kimi çıxış edir. Bu məqsədlə tədqiqatçılar kitabın yayımının təşkili üçün müxtəlif üsulları öyrənirlər. Bu istiqamətdə aparılan tədqiqatlara misal olaraq professor B.Allahverdiyevin "Müasir mərhələdə kitab ticarətinin təşkili"monoqrafiyasını göstərmək olar. Kitabda kitab nəşrinin kitab ticarəti təşkilindəki əhəmiyyəti və rolu göstərilmiş, inkişaf perspektivi müəyyənləşdirilmişdir. Bundan əlavə A. Baverstokun "Kitabı necə satmalı" kitabında söhbət kitab marketinqindən gedir. Burada əsasən kitabların harada və necə satılmasından bəhs olunur. Lakin aparılan araşdırma zamanı məlum olur ki, bu günə qədər kitab ticarəti kitab məhsullarının yayımı üsulu və aləti kimi tədqiqata cəlb edilməmişdir. Bu da qeyd olunan istiqamətdə tədqiqatın aparılmasını zəruri hala gətirir. Tədqiqat "Giriş", "Tədqiqat metodu", "Nəticə" və " Ədəbiyyat siyahısı" adlı hissələrdən ibarətdir.

TƏDQIQAT METODU

Kitab ticarətini digər ticarət növlərindən fərqləndirən xüsusiyyəti kitabın əmtəə xassələrinin məcmusu ilə müəyyən edilir ki, bunlara aşağıdakılar daxildir:

- kitab alıcıları istehsalçıdan daha çox mövzu və müəlliflərlə maraqlanır;
- yeni kitab məhsullarının yaranması ilə əlaqədar kitab çeşidi daim yenilənir;
- digər məhsulların çeşidi ilə müqayisədə ən geniş çeşidə malikdir;
- satışa çıxarılan kitabların çeşidinə təkcə yeni əsərlər deyil, həm də çap kitabının meydana gəlməsindən xeyli əvvəl yaradılmış əsərlər daxildir;
- pərakəndə kitab bazarı əvvəlki nəşrlərin kitablarını qəbul edir (ikinci əl kitab);

• kitabın məzmunu onun qiyməti ilə müəyyən edilmir - eyni əsər müxtəlif qiymət intervallarında təklif oluna bilər;
• kitab mağazasında alış əksər hallarda, müxtəlif çeşiddə axtarıa və seçimə imkan verir;
• hər kitab əmtəə kimi birdəfə alınır, lakin təkrar istifadə edilmək imkanına malikdir;
• kitab təklifi amilləri arasında qiymət çox vaxt birinci yeri tutmur;
• kitablar - şəxsi və ictimai kitabxanaların əldə edilməsi obyekti hesab olunur.
Kitab məmulatlarının çeşidinin genişliyi və fiziki xassələrinin vahidliyi onların ayrıca pərakəndə satış yerində və ya anbarda cəmləşdirilməsini zəruri etdi və bununla da böyük miqdarda malların saxlanması və daşınması xərclərinə qənaət edildi.
Kitab ticarətində paylama xərclərinin səviyyəsi ümumi ticarətin paylama xərclərindən təxminən 2 dəfə yüksəkdir. Bu, aşağıdakı səbəblərdən qaynaqlanır:
• Kitab satışı müəssisələrinin satış sahəsinin vahidinə düşən gəlirlərinin orta həcmi ümumi ticarət müəssisələrindən aşağı olması;
• Kitab dövriyyəsinin digər mallarla, xüsusilə elmi-texniki, musiqi məhsulları, monoqrafiyalar, ikinci əl kitablarla müqayisədə daha yavaş olması;
• Kitabın cəmiyyətdəki xüsusi rolu, əhəmiyyəti və onun qavrayış xüsusiyyətləri, ticarətin konkret forma və üsullarından istifadəni tələb etməsi, kitabın reklamı və təbliği üçün müxtəlif tədbirlərin təşkili;
• Kitab məhsullarının çeşidinin digər məhsulları ilə müqayisədə əhəmiyyətli genişlik, kitab təbliği texnologiyasının xüsusiyyətləri və onun həyata keçirilməsi soraq-informasiya işinin təşkili, istehlakçı tələbatının öyrənilməsi və formalaşdırılması üçün əlavə xərclər tələb edir.
Tarixən kitab ticarəti digər malların ticarəti ilə paralel olaraq inkişaf etsə də, öz texnologiyasını və nailiyyətlərini onlardan mənimsəmiş, lakin topdan və pərakəndə ticarətin ayrıca seqmenti olaraq qalmışdır. Kitab yayımında kitab ticarətinin iqtisadi funksiyası kitab məhsullarına olan tələbatı ödəmək və kitab istehsalı ilə istehlakçıların kitaba olan tələbatı arasında balans yaratmaqla, kitab istehsalı və yayımı iştirakçılarının bütün xərclərini ödəməkdən ibarətdir.
Kitab ticarətinin əsas obyekti olan kitab əmtəə kimi satış üçün istehsal olunan obyekt hesab olunur. Əmtəə mübadiləsi prosesində kitab ticarəti istehsalçı ilə istehlakçı arasında vasitəçi rolu oynayır, istehsalçı ilə alıcı, alıcı ilə isə satıcı kimi çıxış edir.
Kitab istehsalçısı, satıcı sayəsində aşağıdakı imkanları əldə edir:
• peşəkar yönümlü kitab satışı sistemi ilə qarşılıqlı əlaqə;
• kitabların böyük partiyalarla satışı;
• kitabın tirajının həcminə bərabər olan çoxlu sayda istehlakçı ilə əlaqə saxlamağa ehtiyacın olmaması;
• kitab mallarının saxlanması və daşınması üzrə xərclərə qənaət.
Kitab bazarında vasitəçilik fəaliyyəti prosesində kitab paylama və ya kitab məhsullarının yayımı kanalları formalaşır. Kitab paylama kanallarının formalaşması bir neçə növ əməliyyatların dövriyyə sferasında fəaliyyət göstərməsi əsasında baş verir, o cümlədən:
Biznes və biznes arasında - B2B.
Biznes və istehlakçı arasında - B2C.
Biznes və hökumət arasında - B2G.
İstehlakçı və biznes arasında - C2B. (Koqan, 2011)
Kitab əmtəəsinin dövriyyəsi zamanı kitabın istehsalçıdan istehlakçıya daşınması məhsulunu satan istehsalçıdan istehsal sferasından başlayaraq bir və ya bir neçə həlqədən ibarət paylama kanalında həyata keçirilir. Kitabın istehlak sferasına, son istehlakçıya daxil olması ilə kanalda hərəkət başa çatır.
Kitab nəşri və kitab satışı biznesinin təcrübi rəhbərləri bu gün real mövcudluq şəraitində zəruri olan müasir iqtisadi, idarəetmə, kommersiya biliklərinə malik deyillər. Kitab müştərinin xüsusi ehtiyaclarına cavab verməli və nəşriyyata qazanc gətirməlidir. Kitab məhsullarının satışı nəşriyyat işinin son mərhələsidir.
Müasir həyatın ən mühüm xüsusiyyəti onda baş verən proseslərin dinamikliyi ilə ölçülür. Dəyişikliklərin sürəti, perspektivlərin qeyri-müəyyənliyi bu inkişaf qanunauyğunluqlarına uyğunlaşma proseslərini çətinləşdirir.
XXI əsrin əvvəllərinin xarakterik xüsusiyyəti müasir texnologiyaların bir yerdə dayanmaması ilə ölçülür. İnternetin yaranması ilə insanların ehtiyacları da kəskin şəkildə dəyişir. Virtual reallıqda yeni məlumatların axtarışı müasir insanın bütün boş vaxtının 50% -dən çoxunu alır. Bu ona gətirib çıxarır ki, informasiya texnologiyaları müəssisələrin malların təşviqində əsas vasitəsinə çevrilir. [Xlopunova, 2017] Bu günə qədər nəşr məhsullarını təşviq etmək üçün bir neçə üsul var.

Konfranslar, festivallar, forumlar və s. daxil olmaqla peşəkar tədbirlərin informasiya sponsorluğu. Bu üsul bir çox nəşriyyatlar tərəfindən fəal şəkildə istifadə olunur, çünki bu, peşəkar ictimaiyyətdə kitab məhsullarının təbliği problemini həll etməyə imkan verir. Nəşriyyat yuxarıda qeyd olunan tədbirlərin təşkilatçılarına reklam və informasiya xidmətləri göstərir, həmçinin öz nəşrlərini tədbir iştirakçıları arasında yaymaq imkanı əldə edir.

Nəşriyyat aşağıdakı informasiya xidmətləri göstərə bilər: nəşriyyatın müxtəlif internet saytlarında keçirilən tədbirlər haqqında məlumatların yerləşdirilməsi, nəşrlərin səhifələrində elanların yerləşdirilməsi, habelə nəşriyyatın keçirdiyi tədbirlər barədə oxucu kütləsinin məlumatlandırılması. Nəticədə nəşriyyat rəsmi informasiya tərəfdaşı statusu və press-relizlər üçün məlumat fürsəti əldə edir. [Qoleva, 2012]

Çox vaxt nəşrin yayımının başqa formalarından, seminar-mühazirələr, dəyirmi masalar, ustad dərsləri, konfranslar kimi ünsiyyət formalarından istifadə olunur. Son zamanlar internetdə blogsferanın inkişafı ilə əlaqədar gizli marketinq geniş vüsət almışdır. Bir çox nəşriyyatlar öz məhsullarını tanıtmaq üçün bu üsuldan fəal şəkildə istifadə etməyə başlayırlar.

Elektron kitabxanaların köməyi ilə kitabların təbliğindən fəal istifadə olunur. Elektron nəşrlərin məhşur olması ilə əlaqədar bir çox nəşriyyatlar kitab məhsullarının həm kağız, həm də elektron variantlarını istehsal edirlər. Bu üsul pullu rəqəmsal kitabxanaların yaradılmasına gətirib çıxarır.

Müasir bazar nəşriyyatlar üzərinə daha çox tələblər qoyur. Çünki bu gün ən maraqlı və lazımlı nəşrin belə reklama ehtiyacı var. Redaksiyaya tanınmaq, tələb olunmaq üçün imic lazımdır və bu, keyfiyyət və kəmiyyət baxımından məlumatlandırılmalı olan oxucular və bilicilərlə çox iş tələb edir. Konkret nəşrlərin, müəlliflərin, layihələrin reklamı ədəbiyyat əsərlərinin yayılması mütaliənin təbliği ilə həyata keçirilir və bu da sosial məsələlərə əsaslanır.

Kitab bazarının hazırkı şəraitində təqdimat, mətbuatdakı materiallar, konfranslar, o cümlədən oxucu konfransları, kitab yarmarkaları, sərgilər, kitab mətnində reklam kimi təbliğat formaları kitabın yayımında mühüm rol oynayır.

Sərgi və yarmarkalar konkret vaxt və məkanla bağlı planlaşdırılan tədbirlər hesab olunur və bu, təbii ki, sərgi və ya yarmarkada iştirak etmək barədə qərar qəbul edərkən nəzərə alınmalı olan spesifik xüsusiyyətlərin işlənib hazırlanmasını nəzərdə tutur. Festival yarmarkalarında müəyyən nəşrlərin reklamı nəzərdə tutulur. Sərgi və yarmarkalarda iştirakı planlaşdırarkən nəşriyyatlar öz funksiyalarını nəzərə almalıdırlar. Bunlara daxildir: bazara baxış; təqdimat və müqayisə; vasitəçilər ilə əlaqələrin genişləndirilməsi; media ilə əlaqələr.

Kitab xüsusi məhsul hesab olunur və onu əldə etmək istəyi çox vaxt birbaşa görüşlə əlaqələndirilir: gördüm - almaq istədim. Buna görə də, orta əsrlərdə ortaya çıxan təşviq üsulu hesab olunab yarmarkalar öz aktuallığını qoruyur. Lakin müasir dünya rabitə sisteminin mürəkkəbləşməsi ilə yarmarkalar satışla bağlı bir hadisə kimi öz vəzifələrindən əlavə, həm də bazar araşdırması (bazar icmalı), şirkətin, müəllifin, kitabın təqdimatı və müqayisə (rəqabət mühitinin təhlili) və vasitəçilər və media ilə əlaqələrin genişləndirilməsi üçün istifadə olunur.

Nəşriyyat məhsullarının təbliğinin yuxarıdakı üsullarını təhlil etdikdən sonra belə qənaətə gəlmək olar ki, son vaxtlar nəşriyyatlar kitab məhsullarının təbliğinin ənənəvi üsullarına daha az vəsait sərf edir və hədəf auditoriyanın diqqətini cəlb etmək üçün başqa yollar axtarırlar. [Qoleva, 2012]

NƏTICƏ

Kitabın təbliğatının səbəbi təbii ki, sənaye daxilində keçirilən peşəkar tədbirlərlə əlaqələndirilir. Forumların, konfransların təşkilatçıları əsas informasiya mənbəyi və hədəf auditoriya mühitində nəşr haqqında məlumatın ötürücüsü kimi istifadə edilə bilər. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə internet saytı artıq əsas funksional məlumatlandırma vasitəsinə çevrilir. Fikrimizcə, kitabın yayılması üçün ən perspektivli üsul elektron kitabxanalarla əməkdaşlıq hesab oluna bilər.

ƏDƏBIYYAT SIYAHISI

Allahverdiyev B. Müasir mərhələdə kitab ticarətinin təşkili (**Monoqrafiya**). Bakı/Azərbaycan. 1996: 1-224

Baverstock A. Kitabı necə satmalı (**Kitab**). Bakı/Azərbaycan. 2006: 1-306

Коган А.Ф. Экономика книжной торговли (**учеб. Пособие**). Москва/Россия. 2011: 1- 412 с.

Хлопунова О. В., Захарова М. В. Коммерция и культура в российском книгоиздании **(учеб. Пособие)**. Казань/ Татарыстан. 2017

Голева О.П. Некоторые аспекты рекламы и продвижения книжной продукции малыми издательствами **(Jurnal məqaləsi)**. Известия высших учебных заведений. Проблемы полиграфии и издательского дела. 2012, №3, С. 192–198.

AZƏRBAYCANDA ELEKTRON TİCARƏTIN FORMALAŞMASINDA İNFORMASİYA CƏMİYYƏTİNİN ROLU

XƏYALƏ İBRAHİMOVA
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter və informasiya texnologiyaları
xhasimova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

ELÇIN SÜLEYMANOV
Bakı Mühəndislik Universiteti
Maliyyə
elsuleymanov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Günümüzdə beynəlxalq iqtisadi rəqabətin ən əsas amillərindən birinin informasiya olduğu göz önündədir. Sənayeyə əsaslanan iqtisadi sahələrin istehsal amilləri və ya resursları torpaq, əmək, kapital və sahibkarlıq güc olduğu halda, informasiyaya əsaslanan iqtisadi sahələrin mənbəyi və istehsal faktoru informasiyadır. Buna görə də, informasiya cəmiyyətinə əsaslanan iqtisadiyyatın idarə edilməsi, saxlanması və paylaşılması iqtisadiyyatın ən mühüm funksiyalarından hesab edilir. İnformasiya cəmiyyətinin formalaşmasında və inkişafında informasiya texnologiyaları mühüm əhəmiyyət kəsb edir. İnformasiya texnologiyaları sahəsindəki innovasiyanın meydana gətirdiyi ən mühüm fayda, məlumat və verilənlərə əsaslanan kanal vasitəsilə satıcılar və alıcılar arasında birbaşa əlaqənin olmasıdır.

Bu araşdırmanın məqsədi Azərbaycanda elektron ticarətin formalaşmasında informasiya cəmiyyətinin rolunu tədqiq etməkdir.

ABSTRACT

Today, one of the most important factors of international economic competition is information. While the factors or resources of production in industry-based economic sectors are land, labor, capital, and entrepreneurial power, information is the source and factor of production in information-based economic sectors. Therefore, managing, maintaining and sharing an economy based on the information society is considered one of the most important functions of the economy. Information technology plays an important role in the formation and development of the information society. The most important benefit of innovation in information technology is the direct communication between sellers and buyers through a data and data-driven channel.

The purpose of this study is to study the role of the information society in the formation of e-commerce in Azerbaijan.

AÇAR SÖZLƏR: İnformasiya cəmiyyəti, bilik, elektron ticarət, informasiya kommunikasiya texnologiyaları.

GIRIŞ

Günümüzdə informasiya kommunikasiya texnologiyaları ölkənin davamlı inkişafının təmin edilməsi, intellektual potensialın artırılması, biznesin inkişafı, işsizliyin azaldılmasının, insanların maddi rifah halının inkişaf etdirilməsi üçün əlverişli alət olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, iqtisadiyyat və digər sahələrdə yeni dəyərlər yaradan informasiya kommunikasiya texnologiyalarının iqtisadi münasibətlərin mühim tərkib hissəsidir. İnternet mediasının inkişafı, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması informasiya kommunikasiya texnologiyalarının cəmiyyətə verdiyi töhfələrdir.

Növbəti on ildə informasiya kommunikasiya texnologiyalarının həcminin 4-5 dəfə artması, informasiya kommunikasiya texnologiyalarının iqtisadi potensialın gücləndirilməsi, cəmiyyətin İKT ehtiyaclarının ödənilməsi tələb olunur. Bunlara nail olmaq üçün innovativ, rəqabətə davamlı və ixracyönlü informasiya kommunikasiya texnologiyalarının potensialının formalaşdırılması, Azərbaycanın regional informasiya xidmətləri məkanına çevrilməsi, vətəndaşların və cəmiyyətin mövcud texnologiya və innovasiya imkanlarından, məhsul və xidmətlərdən səmərəli istifadə üçün şəraitin yaradılması və onların informasiya kommunikasiya texnologiya bilik və bacarıqlarının yüksəldilməsi, e- hökumətin inkişaf etdirilməsi, Azərbaycanın qlobal informasiya məkanına inteqrasiyası vacibdir.

İnformasiya texnologiyaları informasiyadan daha səmərəli istifadə etməyə və hər sahədə sürətli inkişaf üçün zəmin yaradır. Amma ki, informasiya texnologiyalarından səmərəli istifadə edə bilməyən ölkələr gələcəkdə bir çox sahələrdə digər ölkələrdən geri qalma təhlükəsi ilə üzləşə bilərlər.

İnformasiya kommunikasiya texnologiyalarının internet iqtisadiyyatının inkişaf etdirilməsidə, ənənəvi iqtisadi sahələrin inkişafında mühüm rol oynamaqdadır. İnternet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin formalaşmasına, məhsuldarlığın artmasına, rəqiblər üzərində üstünlüyə nail olunmasına, informasiya resurslarından effektiv istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır.

İNFORMASİYA CƏMİYYƏTİ

Çağımızda informasiya istehsal prosesinə vacib amil kimi daxil olur və iqtisadiyyata dərindən təsir edir. İnformasiyanın bu roluna görə bilik iqtisadiyyatı iqtisadi fəaliyyətdə informasiyanın intensivliyinin artmasına və iqtisadi hadisələrin qloballaşmasına səbəb olmuşdur. İnformasiya istehsal xərclərini azaltmaqla əmtəə və xidmətlərin istehsalı üçün daha səmərəli üsullar hazırlayır, həm də innovativ proseslərdə fəal rol oynayır, istehsal texnikasını inkişaf etdirir. İnkişaf etmiş ölkələrdə istehsal proseslərində ənənəvi faktorlar əvəzinə, intensiv texnoloji məhsulların istehsalına imkan verən biliyə əsaslanan istehsal modeli mövcuddur. Bu sistemə tez uyğunlaşan ölkələrdə (Cənubi Koreya, Sinqapur, Çin, Tailand və s.) artım prosesləri sürətlənir. İnformasiya cəmiyyətində istehsal əmtəə istehsalından xidmət istehsalına yönəlmişdir.

İnformasiya cəmiyyətindən əvvəlki dövrlərdə əmtəə istehsalı maşınların və insanların koordinasiyasından asılı idi. İnformasiya cəmiyyətində isə aparıcı faktor informasiyadır. Kompüter və informasiya texnologiyaları informasiya cəmiyyətinin inkişaf hərəkatını istiqamətləndirir. İnformasiya cəmiyyətinnin simvolu kompüter əsaslı, informasiya şəbəkələri və məlumat banklarından ibarət ictimai infrastruktur. Bu infrastrukturun üstünlüyü ilə özünü büruzə verən könüllü vətəndaş cəmiyyəti informasiya cəmiyyətində sosial-iqtisadi sistemi təşkil edir. İnformasiya cəmiyyəti yüksək səviyyəli, genişmiqyaslı biliklər istehsal edən cəmiyyətdir. İnformasiya cəmiyyətində dəyişiklik və inkişafın əsasını informasiyanın sürətlə artması, öyrənməyi və fərdiləşdirməyi öyrənmə təşkil edir.

İnformasiya cəmiyyətinin formalaşmasında böyük rol oynayan kompüterlər, mikroelektronika və inteqral sxemlər, robotlar, multimedia, biotexnologiya, kommunikasiya texnologiyaları, avtomatlaşdırma, yeni texnoloji materiallar və s. şəklində sıralana bilər. İnnovativ funksiyalara malik kompüterlər, müxtəlif yayım imkanları, informasiya kommunikasiyası və rabitə bu sahədə məsafələri azaltmaqla informasiya cəmiyyətində işi asanlaşdırır.

İnformasiya əsaslı iqtisadiyyat terminini ədəbiyyata gətirən Fritz Maçlupdur. İnformasiya iqtisadiyyatında, informasiya texnologiyalarının yaratdığı sürət və kommunikasiya şəbəkəsi daxilində dövlətlərin sosial, texnoloji və iqtisadi səviyyəyə çatmasını təmin edə biləcək ən mühüm amillər innovasiya və ixtiraların davamlılığını təmin etməkdir. Bu səbəbdən iqtisadi sahələrdə irəliləyiş təmin edən bütün dövlətlərdə təhsilin xüsusi yeri var. Alqı-satqıdan pul köçürməsinə, tenderlərdən müqavilələrə, iqtisadiyyata qədər hər cür əməliyyatları yeni texnologiyalardan istifadə etməklə həyata keçirməyin mümkün olması iqtisadi strukturlaşmada mühüm dəyişikliklərə səbəb olmağa başlayıb.

İNFORMASİYA CƏMİYYƏTİ VƏ ELEKTRON TİCARƏT

Qloballaşma və informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində meydana gələn elektron ticarətin iqtisadi həyata böyük təsiri var. İnformasiya cəmiyyətində e-ticarət infrastrukturuna qoyulan investisiyalar nəticəsində əmək məhsuldarlığı artır və nəticədə iqtisadi artım müşahidə olunur.

Elektron ticarət; malların və xidmətlərin alqı-satqısı; Şirkətlər, ev təsərrüfatlarının üzvləri, fiziki şəxslər, hökumət, digər dövlət və ya özəl qurumlar arasında kompüter şəbəkələri ilə edilə bilən bütün əməliyyatlardır. Elektron ticarət Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən məhsulların telekommunikasiya şəbəkələri vasitəsilə istehsalı, reklamı, paylanması və satışı kimi müəyyən edilmişdir. Elektron ticarət biznes əməliyyatları prosesində səmərəliliyi və dəqiqliyi təmin edən hərtərəfli texnologiya, eləcə də biznesin bütün maraqlı şəxslərin xeyrinə istehlakçılarla məlumat mübadiləsi aparması üsuludur.

Elektron ticarəti vaz keçilməz edən ünsürlərin başlanğıcında beynəlxalq ticarətdə sərhədləri aşaraq satıcı mövqeyində olan şirkətlərə qeyri-məhdud alıcı potensialı təmin etməklə yanaşı, alıcılara olduqları yerdən qeyri-məhdud məhsul seçimlərinə çıxış imkanı vermək, klassik üsullarla müqayisə olunmayan böyük üstünlüklər təqdim edir. Fərdlərin, şirkətlərin və dövlətlərin e-ticarət vasitəsilə edə biləcəyi, əhatə dairəsi qeyri-məhdud olan və ən çox istifadə edilən əməliyyatları aşağıdakı kimi sıralamaq olar:

- Sifariş və qəbul ;
- Elektron sahədə məhsul və xidmətlərin alışı və satışı ;
- Danışıqlar ;
- Elektron birja ;
- Tanıtım, reklam və məlumat ;

- Bank əməliyyatlarının elektron və pul köçürməsi ;
- Gömrük rəsmiləşdirilməsi xidmətləri ;
- Elektron sahədə istehsalın və göndərişin izlənilməsi ;
- Birgə istehsal və mühəndislik ;
- Elektron sahədə dövlət satınalmaları ;
- Rəqəmsal və elektron imza ilə təhlükəsiz əməliyyatlar ;
- Elektron notariat əməliyyatları ;
- Əqli, sənaye və kommersiya mülkiyyət hüquqlarının qorunması və ötürülməsi ;
- Vergi xidmətləri ;

AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİNİN ELEKTRON TİCARƏTƏ TƏSİRLƏRİ

21-ci əsr informasiya əsri olduğu üçün innovativ xüsusiyyətlərə malik yeni cəmiyyətin qurulub inkişaf etdirilməsi əsas amillərdəndir. Ölkəmizdə də informasiya cəmiyyətinin qurulması yönündə internet infrastrukturunun yaradılması, insanların rəqəmsal biliklərinin formalaşdırılması və s.əsas məsələlərdəndir. Rəqəmsal informasiyaya malik insanların formalaşdırılması üçün hazırda dünyanın bir sıra ölkələrində layihələr həyata keçirilir. Azərbaycanda isə CISCO-ya aid 10-dan çox Şəbəkə Akademiyası fəaliyyət göstərir ki, bu da insanların rəqəmsallaşması və informasiya cəmiyyətinin inkişafı yönündə vacibdir.

Ölkəmizin ilk elektron ticarət portalı istifadəçilərinin sayı 14 minə yaxın olan www.b2b.az saytıdır. Bu elektron ticarət portalının köməyi ilə sahibkarlar, əsasən də kənd təsərrüfatı məhsulları istehsalçıları bazara sərbəst çıxışı əldə edə bilirlər. Portala müraciət edənlər arasında Rusiya, ABŞ, Türkiyə, Çin, Ukrayna, Almaniya, Qazaxıstan, Hindistan, Belarus, Böyük Britaniya, İndoneziya, Fransa, İtaliya, BƏƏ, İspaniya, Yunanıstan, Cənubi Koreya, Danimarka, Macarıstan, Niderland və s. kimi ölkələrdən olan istifadəçilər də var. Sayta qida sənayesi, inşaat, logistika , İKT, təhsil, ticarət, sənaye və xidmət sektorlarına dair bir sıra ticarət təklifləri yerləşdirilmişdir.

Şəkil 1.



Mənbə: https://data.worldbank.org/

Elektron ticarət haqqında qanun ölkəmizdə 2005-ci ildə qəbul edilib. Elektron ticarət fəaliyyəti üçün vaxt, məkan məhdudiyyəti yoxdur. Ölkədə rəqəmsallaşmanın inkişaf etdirilməsi işlərinin davam etməsi nəticəsində eyni zamanda vətəndaşlarımız digər ölkələrin elektron mağazalarından istifadə edər.

Nümunə olaraq demək olar ki, Azəricard" Azərbaycanda elektron mühitin inkişaf etməsində əhəmiyyətli rola sahibdir. Bu kartın köməyi ilə kartdan-karta xidməti, kommunal xidmətlər, vergilərin ödənilməsi, mobil bankçılıq və s. xidmətləri rahat şəkildə həyata keçirmək mümkündür. Xidmətlər zamanı edilən ödənişlər isə təhlükəsiz şəkildə həayat keçirilir.

MilliKart ,GoldenPay və bir sıra banklar arasında həyata keçirilən əməkdaşlığın nəticəsi olaraq elektron ticarət xidməti qurularaq əhalinin istifadəsinə verilmişdir. Bu xidmət zamanı yüksək texnologiyalarla yanaşı, təhlükəsizliyin və şəxsi məlumatların məxfiliyinin qorunması vacib amillərdəndir.

NƏTICƏ

İnformasiya əsri adlandırılan çağımız hər an informasiyaya çatmaq üçün zəmin və imkan yaradır. Çünki informasiya cəmiyyətinin formalaşmasını təmin edən əsas amil informasiyanın sərvət mənbəyi olması və

informasiyanın güc mənbəyi kimi istifadə olunmasıdır. Texnoloji inkişafın informasiya cəmiyyətinə təsirinin nəticəsi olaraq qlobal iqtisadiyyatda mühüm olan dəyişikliklərə imkan yaranır.
İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı kommersiya fəaliyyəti üçün tələb olunan məlumatların elektron mühitdə daha tez əldə edilməsinə şərait yaratmaqla insanların həyatını asanlaşdırır. Alış-veriş etməyin ən sürətli və ən praktik yolunun onlayn alış-veriş olduğu görülür.
Elektron ticarət inkişaf etməkdə olan ölkələrə öz resurslarından daha səmərəli istifadə etmək üçün imkanlar yaradan inkişafdır. İnkişaf etməkdə olan ölkələr üçün bu imkanların qiymətləndirilməsi e-ticarət qarşısında institusional və hüquqi maneələrin aradan qaldırılmasından və elektron ticarətin təşviqindən asılıdır. İnkişaf etmiş ölkələr elektron ticarət məlumatlarına görə inkişaf etməkdə olan ölkələri qabaqlayır. Bu üstünlüyün davam etdirilməsi üçün zəruri investisiyalar davam etdirilməlidir.
Təhlükəsizlik narahatlıqları və satınalma prosesi ilə bağlı məlumatsızlıq insanların onlayn alış-veriş etməsinə mane olur. E-ticarət saytları istifadəçiləri məmnun etmək və təhlükəsizliyi təmin etmək üçün e-nümayəndəlik və əks əlaqə kimi xidmətlər təklif edir.
E-ticarət saytlarında çoxlu məhsul çeşidi var. Bir çox kateqoriyada məhsullar istehlakçılara təklif olunur. Eyni zamanda, dövlət qurumları dövlət xidmətlərini internet üzərindən təqdim etməklə dövlət xidmətlərinin sürətini və keyfiyyətini artırır. Xüsusilə bəzi dövlət qurumları bəzi xidmət proqramlarını internet üzərindən idarə etmək istədikləri üçün həm kompüter sistemləri, həm də proqramlar inkişaf edir.
Ölkələr informasiyaya əsaslanan müxtəlif iqtisadi sahələri inkişaf etdirmək üçün internet infrastrukturunun inkişafını, internetin iqtisadiyyatda və cəmiyyətdə, xüsusən də təhsil müəssisələrində yayılmasını, xərclərinin azaldılmasını, informasiya-kommunikasiya texnologiyalarından istifadənin yayılmasını, onların effektivliyini artırmaq və xərclərini azaltmaq üçün siyasət və strategiyalar hazırlayıb inkişaf etdirməlidirlər.

ƏDƏBIYYAT SIYAHISI

Fərhad Rəhmanov, Elçin Süleymanov, Xəyalə İbrahimova: Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri **(konfrans məqaləsi, tezis)**, 1st International Science and Engineering Conference, 2018.
Ədalət Muradov Elşən Bağırzadə. AZƏRBAYCAN İQTİSADİYYATI. Şərq-qərb nəşriyyatı **(Kitab).**
Farhad Rahmanov, Elchin Suleymanov, Khayala Ibrahimova**:** Azərbaycanda dövlət xidmət keyfiyyətinin yüksəldilməsində elektron hökumət innovativ texnologiyalarından istifadənin inkişafı **.** Azərbaycanın innovativ inkişafında mühəndisliyin rolu: hədəflər və perspektivlər Beynəlxalq Konfransı. 29-30 Noyabr 2019, Bakı, Azərbaycan.
ÖgetKantarcı,MuratÖzalp,CenkSezginsoy,OzanÖzaşkınlı,CihanCAVLAKhttps://tusiad.org/tr/yayinlar/raporlar/item/9675-dijitallesen-dunyanin-itici-gucu-e-ticaret **(onlayn məqalə).**
Xəyalə İbrahimova: Azərbaycanda informasiya kommunikasiya texnologiyalarının rəqəmsal iqtisadiyyatın inkişafında və formalaşmasına təsiri. Journal of Baku Engineering University.2021.1.(çap mərhələsində)

İNNOVASİYA VƏ İQTİSADİ İNKİŞAFIN ƏLAQƏSİ

Sadiq Həmzəyev
Bakı Mühəndislik Universiteti
Fakultə:İqtisadiyyat və İdarəetmə
shemzeyev1@std.beu.edu.az
Azərbaycan, Bakı

Tədqiqatın aktuallığı: Bu gün elm və texnologiyaya əsaslanan innovasiya iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi inkişaf modellərində və praktiki araşdırmalarda daha çox müzakirə edilən mövzu olmuşdur. İnnovasiya əmək, kapital və ümumi faktor məhsuldarlığı baxımından iqtisadi artıma töhfə verir. Ümumi faktor məhsuldarlığının artırılması artımın mühüm göstəricisidir. Bu baxımdan mövzu müasir dövr üçün olduqca aktualdır.
Tədqiqatın əsas məqsədi: Tədqiqatın əsas məqsədi innovasiya və iqtisadi inkişafın qarşılıqlı əlaqəsini araşdırmaqdan ibarətdir.
Elmi yenilik: Mövzunun müasir səviyyədə son məlumatlar əsasında araşdırılması onun yeniliyindən xəbər verir.
Praktiki əhəmiyyəti, üstünlükləri: Mövzunun praktiki əhəmiyyəti və üstünlüyü əldə edilən nəticələrin iqtisadiyyatın inkişafında istifadə olunmasıdır.
Nəticə: Əldə edilən nəticələr – innovasiyaların müasir dövrdə istifadəsi həm Azərbaycanda, həm də dünyada iqtisadiyyatın inkişafına töhvə verə bilər.
Açar sözlər: innovasiya, iqtisadiyyat, qarşılıqlı əlaqə, texnologiya, müasir dövr

GİRİŞ

İşin aktuallığı və əhəmiyyəti: Bu gün elm və texnologiyaya əsaslanan innovasiya iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi inkişaf modellərində və praktiki araşdırmalarda daha çox müzakirə edilən mövzu olmuşdur. İnnovasiya əmək, kapital və ümumi faktor məhsuldarlığı baxımından iqtisadi artıma töhfə verir. Ümumi faktor məhsuldarlığının artırılması artımın mühüm göstəricisidir. Bu baxımdan mövzu müasir dövr üçün olduqca aktualdır.
Tədqiqat işinə olan ehtiyac: Mövzunun araşdırılmasına əsas ehtiyac müasir texnologiyaların inkişafının hər il daha da təkmilləşdirilməsidir. Bu səbəbdən də mövzunun müasir səviyyədə araşdırılması olduqca vacibdir.
Tədqiqatın əsas məqsədi: Tədqiqatın əsas məqsədi innovasiya və iqtisadi inkişafın qarşılıqlı əlaqəsini araşdırmaqdan ibarətdir.
Tədqiqatın strukturu: üç dildə xülasə, giriş, tədqiqta metodu, əsas hissə, nəticə və ədəbiyyat siyahısından təşkil olunmuşdur.

TƏDQİQAT METODU

Tədqiqatın nəzəri və metodoloji əsasını yerli və xarici tədqiqatçıların elmi araşdırmaları, bu problemlə bağlı internet resursları, tezislər, jurnal və məqalələr təşkil edir.

İnnovasiya və iqtisadi inkişafın qarşılıqlı əlaqəsi

Dünya iqtisadiyyatında baş verən proseslərdən və artan rəqabət tempindən asılı olaraq son illər innovasiyalara maraq artıb. Çünki innovasiya makro səviyyədə iqtisadiyyatın artım sürətini artıran, mikro səviyyədə isə şirkətlərin mənfəətini və bazar paylarını artıran mühüm amildir.
İqtisadi cəhətdən ölkələr bir tərəfdən getdikcə daha açıq və asılı vəziyyətə düşmüş, digər tərəfdən isə innovasiyalar iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmuşdur. Bu iki prosesdə müxtəlif ölkələrdə novatorlar arasında sürətli ünsiyyət və sıx əlaqə innovasiya prosesini və yeni ideyaların yayılmasını asanlaşdırmışdır. Texnologiyada baş verən sürətli dəyişikliklər dünya ticarət sistemində kommersiya motivlərini və inteqrasiya formalaşmalarını kəskinləşdirmişdir. Ona görə də səmərəlilik və texnologiyaya maraq təbii olaraq artmışdır [1, 23].
Bu gün innovasiya ilə əlaqəli olan hər bir məhsul, istehsal üsulu və ya xidmət elm və texnologiya ilə əlaqələndirilmiş və yüksəlməkdə davam edir. Bunun nəticəsidir ki, innovasiya prosesi getdikcə elm və texnika ilə daha çox bağlı olub, onun əsas mənbəyi elm və texnika sahəsində yeni ideyalar yaratmağa başlamışdır [2, 19[.
İnkişafdan asılı olaraq iqtisadi artımla bağlı araşdırmalar da dəyişmişdir. Tarixi prosesdə iqtisadi artıma nəzər saldıqda Adam Smitdən bəri qənaətlər və onların təsirləri iqtisadi artımda mühüm rol oynamışdır.

XVIII - XX əsrlərdə iqtisadçılar gəlirlərin azalması səbəbindən iqtisadi artımın dayanacağını müdafiə edirdilər. Ancaq bu pessimist düşüncələr çoxsaylı texnoloji inkişaflarla məhv edilmişdir.
Texnoloji inkişaflar istehlakçılara iki əsr əvvəl gözləmədikləri bir sıra mal və xidmətlər təqdim etmişdir. Beləliklə, elm və texnologiyaya əsaslanan innovasiya iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi inkişaf modellərində və praktiki araşdırmalarda daha çox müzakirə edilən mövzu olmuşdur.

İqtisadi İnkişaf Modellərində Texnologiya və İnnovasiya

Texnologiya və iqtisadi artım arasındakı əlaqə təxminən yarım əsrdir ki, bir çox modellərdə müzakirə olunur. Bu kontekstdə Harrodun texnoloji dəyişikliyi ehtiva edən iqtisadi artım modelləşdirməsində ilk cəhdini həm Keynesyen həm də neoklassik məktəblərin müxtəlif töhfələri izləmişdir.
Bu mövzuda hər bir ciddi ədəbiyyat araşdırması 1909-1949-cu illər arasında Amerikanın ümumi faktor məhsuldarlığının qiymətləndirilməsini əldə edən Robert Solunun 1957-ci ildəki tədqiqatı ilə başlamışdır [3, 78].
Neoklassik model texnoloji dəyişikliyi ekzogen dəyişən kimi götürmüş və uzunmüddətli perspektivdə iqtisadi artımın yalnız texnoloji dəyişikliklərdən asılı olduğunu bildirmişdir. Buna əsasən, uzunmüddətli perspektivdə ölkələrin milli gəlir səviyyələrinin yaxınlaşacağı və ölkələr arasında rifah səviyyəsindəki fərqlərin aradan qalxacağı qəbul edilmişdir.

İnnovasiya və İqtisadi İnkişaf

Freeman (1995) texnologiyanın yaradılmasında üç anlayışın çox vacib olduğunu bildirmişdir. Bunlar; ixtira, yenilik və diffuziyadır. Elm və texnologiya siyasətləri bütün bunların məcmusudur. Freeman'a görə; İxtira ideya və prosesdir, innovasiya isə texnoloji dəyişiklik və ya texnoloji tərəqqi ola bilən ixtiranın istifadəyə verilməsidir. Diffuziya ixtira sonrası innovasiyaların bazarlara daxil edilməsinə aiddir.
2. Məhsuldarlıq: Daha aşağı məhsuldarlıq dərəcələri, prinsipcə, qadınların vaxtının daha qənaətlə istifadəsini təmin edə bilər. Bu da onların iş qüvvəsinə daha asan daxil olmasına imkan yaradır. Həqiqətən də, məhsuldarlıq (uşaq sahibi olmaq) və əmək bazarının nəticələri (iştirak, məşğulluq, əmək haqqı və s.) arasında səbəb-nəticə əlaqəsinə dair güclü sübutlar mövcuddur. Lundborg, Plug və Rasmussen (2017, s13) son araşdırmasında Danimarkada IVF (in vitro gübrələmə) ilə qadınların uşaq sahibi olduqları üçün davamlı olaraq daha az qazandıqlarını göstərir. Onlar illik qazanclarının azalmasını, qadınların uşaqlarının balaca yaşlarında daha az işləməsi və uşaqlar böyüdükdə daha az maaş almaları ilə izah edirlər.

3. Uşaq baxımı və digər ailə yönümlü siyasətlər: Məhsuldarlığın azaldılmasının qadınların daha çox işçi qüvvəsində iştirakına səbəb olması faktı şübhəsiz ki, empirik baxımdan vacibdir. Ancaq qadınların daha az uşaq sahibi olmasını təklif edərkən, qadın agentliyini buna sürükləmək ziddiyyətlidir. Odur ki, məşğulluğu uşaq doğurma ilə əlaqələndirən digər amilləri nəzərə almaq və beləliklə, qadınların seçim imkanlarını genişləndirmək faydalıdır. Uşaq baxımı və digər ailə yönümlü siyasətlər burada əsas nümunələrdir.

4. Əməyə qənaət edən davamlı istehlak malları: Paltaryuyan maşınlar, tozsoranlar və digər vaxta qənaət edən məhsullar kimi əməyə qənaət edən uzunmüddətli malları təqdim edən istehlak malları inqilabı ötən əsrdə evli qadınların işçi qüvvəsində iştirakının artmasına səbəb olan digər amildir.

5. Sosial normalar və mədəniyyət: Sosial normalar və mədəniyyət qadınların işçi qüvvəsinə daxil olmasının nə dərəcədə mümkün edir? Sosial təyinatlı gender rolları çox vaxt institusional olaraq tətbiq edilir. Və bu, bu gün də belədir: Dünyanın əksər ölkələrində qadınların görə biləcəyi iş növlərinə məhdudiyyətlər var . Tarixi nöqteyi-nəzərdən gender rolları ilə bağlı sosial normaların çoxdan mövcud olduğuna dair sübutlar var, bunula bağlı hətta (Alesina, Giuliano and Nunn 2013 s15) fikirlər söyləmişlər.

Əsas hissə

Azərbaycanda qadın və kişilər arasındakı məşğul əhali sayı aşağıdakı qrafikdə təsvir olunmuşdur.

Qrafik 1. Azərbaycanda məşğul əhali (ARDSK, min nəfərlə)



Məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən təhlil olunmuşdur.

Qrafik 2005-2020-ci illəri əhatə edir. 2005 və 2010-cu illər arasındakı fərqə baxdığımız zaman görərik ki, məşğul əhali arasında qadınların sayında 144,1 min nəfər artıqda, kişilərdə bu göstərici daha çox 122,7 min nəfərə çatıb. 2010 və 2015-ci illər arasındakı fərqdə əvvəlki illərə nisbətən daha çox artım görünür. Yəni 2010 və 2015- ci il arasındakı fərqdə qadınlarda 161,7 min nəfər, kişilərdə isə 180,8 min nəfər artım müşahidə olunub. 2017 və 2020-ci illərdə bu göstərici aşağı səviyyədədir. Yəni bu iki ildəki fərqdə qadınlar üzrə məşğul əhali artımı 32,2 min nəfər, kişilərdə 22,3 min nəfər olmuşdur. Bİz əvvəlki rəqəmlərə (2010 və 2015-ci illər arasındakı fərq) baxdığımız zaman görərik ki, kişilərdəki məşğul əhali artımı qadınlardan yüksək, amma 2017 və 2020-ci illərdəki fərqə baxdığımız zaman bu göstərici əksinə, qadınların məşğulluq artımı kişiləri üstələyir. 2019-cu ildə qadınlar arasında məşğul əhali sayı 2381,7 min nəfər (48,2 %), kişilərdə 2556,8 min nəfər (51,8 %)olmuşdur. Sonuncu 2020-ci ildəki göstəricilərimiz isə, qadınlarda 2351,5 min nəfər, kişilərdə 2525,1 min nəfər olmuşdur. Əvvəlki illərdə artım görünsə də son iki il arasındakı fərqə baxdımız zaman qadınlarda (2351,5-2381,7=-30,2 min nəfər) 30,2 min nəfər azalma, kişilərdə isə (2525,1-2556,8=-31,7 min nəfər) 31,7 min nəfər azalma müşahidə olunmuşdur. Bunun isə əsas səbəbi pandemiya ilə bağlı bir çox iş yerlərinin bağlanmasının sayının artması və bunun səbəbində işsizlər, mövcud karantin vəziyyəti ilə yaşamışdır. Belə olduğu halda iqtisadiyyata ziyan vurmuş, əhalinin rifahı aşağı səviyyəyə düşmüşdür.

Rəqəmlərə baxdığımız zaman görərik ki, qadınlar arasında məşğulluq faizi kişilərə nisbətən yüksəkdir. Bunu müsbət hal kimi qiymətləndirsək, qadınların işə cəlb olunması, işləyən əhali arasında qadınların sayının çox olması cinslər arasında gender bərabərsizliyinin pozulmamasına işarə edir. Nəticədə baxdığımız zaman həqiqətlər belədir mi?! Aşağıdakı cədvəllə bunu araşdıraq.

Cədvəl 1. 2020-ci ildə muzdlu işçilərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (yekuna və cinsə görə faizlə)

İqtisadi fəaliyyət növləri	Qadınlar		Kişilər		Cins üzrə bölgü, faizlə	
	nəfər	faizlə	nəfər	faizlə	Qadınlar	Kişilər
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	14604	2,2	46609	4,5	23,9	76,1
Mədənçıxarma sənayesi	4334	0,6	29793	2,9	12,7	87,3
Emal sənayesi	32161	4,8	94971	9,2	25,3	74,7
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	3177	0,5	25161	2,5	11,2	88,8
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	10428	1,6	19510	1,9	34,8	65,2
Tikinti	9707	1,4	124264	12,1	7,2	92,8
Ticarət; nəqliyyat vasitələrinin təmiri	78920	11,8	233827	22,7	25,2	74,8
Nəqliyyat və anbar təsərrüfatı	12379	1,8	63943	6,2	16,2	83,8
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	7103	1,1	18133	1,8	28,1	71,9
İnformasiya və rabitə	8578	1,3	21190	2,1	28,8	71,2
Maliyyə və sığorta fəaliyyəti	10226	1,5	18705	1,8	35,3	64,7
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	5515	0,8	12433	1,2	30,7	69,3
Peşə, elmi və texniki fəaliyyət	25503	3,8	32863	3,2	43,7	56,3
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	25332	3,8	50855	5,0	33,2	66,8
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	29374	4,4	82646	8,0	26,2	73,8
Təhsil	244119	36,4	88812	8,6	73,3	26,7
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	108761	16,2	31454	3,1	77,6	22,4
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	33756	5,0	20696	2,0	62,0	38,0
Digər sahələrdə xidmətlərin göstərilməsi	6500	1,0	12402	1,2	34,4	65,6
Cəmi	670477	100,0	1028267	100,0	39,5	60,5

Məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən təhlil olunmuşdur.

Ayrı-seçkilik əslində ən başdan, hətta qadınlar üçün dünyaya gəlməzdən əvvəl başlayır. Növbəti mərhələdə onların təhsil, həm iş həyatına, həm də sosial təminatlarla əhatə olunması baxımından qadınlar və kişilər arasında bərabərsizlikləri görə bilərik.Hətta bu rəsmi rəqəmlərdə də əks olunur.

Cədvəl 1-ə baxsaq Azərbaycanda tək təhsil sektorunda işləyən qadınlar 36,4% təşkil edir. İkinci işarələdiyimiz populyar sahə əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsidir ki, bu da qadınların 16,2% təşkil etdiyini, üçüncü sahə isə istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdir və bu da qadınların burda iştirakının 5% olduğunu görə bilərik. Bu 3 sahəni sarı rənglə fərqləndirməyimizin əsas səbəbi qadınların bu sahələrdə kişilərə nisbətən daha çox iştirak payına sahib olmasıdır. Rəqəmlərdən aydın olunur ki, qadınların üstünlük təşkil etdiyi iqtisadi fəaliyyət müəlimlik, həkimlik ixtisasına yönləndirilməsidir. Bunun isə əsas səbəbi cəmiyyətdə belə bir stretopitlər vardır ki, "sən qadınsan, qızsan, sənin işləməyin üçün ən yaxşı peşə müəllim və ya həkimlikdir" burada özünü təsdiqləyir. Cəmi nəticələrə baxsaq qadınların muzdlu işdə işləmək payı təxminən 671 min nəfər, kişilərdə isə bu faktor 1,1 milyon nəfər təşkil edir. Bildiyimiz kimi ölkə iqtisadiyyatının əsas payı və ya əsas gəliri neftdən gələn gəlirlərdən ibarətdir. Cədvəl 1də baxsaq bu pay mədən çıxarma sənayesi üzrə kişilərdə təxminən 88% təşkil edir. Bundan əlavə biz qeyd edə bilərik ki, qadın və kişlər arasında ayrı-seçkillik və yaxud başqa sözlə gender bərabərsizliyi rəqəmsal olaraq cədvəl 1.də dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində kişilərin payı təxminən 74% özünü göstərir. Deyə bilərik ki, qadınların idarəetmə bölmələrində də işə cəlb olunma aşağıdır.

Məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən təhlil olunmuşdur.

	2020/2021	Faiz
təhsil ixtisasları qrupu	36138	38%
iqtisadiyyat və idarəetmə ixtisasları qrupu	15329	16%
humanitar və sosial ixtisaslar qrupu	14300	15%
texniki və texnoloji ixtisaslar qrupu	11041	11%
səhiyyə, rifah və xidmət ixtisasları qrupu	8 968	9%
təbiət ixtisasları qrupu	5553	6%
mədəniyyət və incəsənət ixtisasları qrupu	4312	4%
kənd təsərrüfatı ixtisasları qrupu	1 522	1%

Cədvəl 2. Ali təhsil alan qadınların ixtisaslar üzrə bölgüsü

Cədvəl 2-də hazırlanan rəqəmlər 2020-2021- ci il üçün Azərbaycanda ali təhsil alan qadınların ixtisas qrupları üzrə bölgüsüdür. Hal-hazırda ali təhsil alan qadınların 38%-ə yaxını təhsil ixtisaslarında oxuyur. Daha 9%-i isə səhiyyə ilə bağlıdır. Yəni necə ki, işləyən qadınların 52%-i sadəcə təhsil və səhiyyə sektorundadırsa (Cədvəl 1.), eyni zamanda hazırda ali təhsil alan qadınların da yarısı ya təhsil, ya da səhiyyə ilə bağlı sektorlarda çalışır. Bu isə onu göstərir ki, bəzi hallarda qadınlar ali təhsil almaq imkanlarından məhrum olurlar. Hətta ali təhsil almaq şansı olan qadınlar belə öz istədikləri ixtisasda yox, daha çox cəmiyyətdə oturmuş stereotiplərə əsasən ixtisas seçmi etmək məcburiyyətində qalırlar.
Məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən təhlil olunmuşdur.



Qrafik 2. 2020-ci ildə cinslər üzrə muzdlu işçilərin orta aylıq əmək haqqı (ARDSK 2020)

Qrafik 2.dən gördüyümüz kimi qadınlar və kişilər arasındakı ayrı seçkilik əməkhaqqı üzrə də özünü göstərir. Burada qrafik 2020-ci ili əhatə edir. Göstəriciyə əsasən qadınların 2020-ci ildə orta aylıq əməkhaqqı 525,6 manat təşkil etdiyi halda, kişilərdə bu göstərici daha çox 830,2 manatdır. Qrafikə görə son il göstəricisinə əsasən kişilər qadınlara nisbətdə təxminən 300 manat çox alır. Bu da öz növbəsində qadınların işçi qüvvəsinə daxil olmasında mənfi təsir göstərir. Artıq qadınlar iş saatlarına daha az cəlb olunma müşahidə olunur və bu da birbaşa ölkə iqtisadiyyatına öz təsirini göstərir.

Nəticə

Azərbaycanda qadın məşğulluğuna təsir edən faktorlar kimi təhsilində təsiri olduğu açıqlanmışdır. Ama görünən odur ki, bundan başqa qadınların işə cəlb olunmasında təsirlər də vardır. Bunlara biz qadın sağlamlığı, məhsuldarlıq, uşağa baxma və digər ailə daxili işlər, əməyə qənaət edən davamlı istehlak malları və sosial normalar və mədəniyyət aid eləmişdik.Həmin təsirlərin həlli yollarını araşdırmaq üçün biz aşağıdakı təklifləri verə bilərik:

1. Qadın və kişilər arasındakı ayrı seçkiliyi azaltmaq
2. Yeni iş yerləri açmaq və bunula da qadınların işə cəlb olunmasına imkan yaratmaq
3. Qadınların akademik təhsili baxımından onların ali təhsil almalarına şərait yaratmaq (maddi və ya qadın zorakılığı ilə bağlı məhdudiyyətlər)
4. Arzu olunmaz səbəbləri araşdırmaq, (məsələn, qadının fiziki və yaxud əqli məhdudyətli övladı səbəbindən işə cəlb olunmasının azaltması) və bu səbəblərin həll olunmasına dair yollar tapmaq.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
2. Aliyev X. (2020) Factors affecting women's employment likelihood in a Muslim society: the case of Azerbaijan. International Journal of Social Economics 0306-8293
3. Alesina, A., Giuliano, P., & Nunn, N. (2013). On the origins of gender roles: Women and the plough. The Quarterly Journal of Economics, 128(2), 469-530.
4. Goldin, C., & Katz, L. F. 2002). The power of the pill: Oral contraceptives and women's career and marriage decisions. Journal of political Economy, 110(4), 730-770.
5. Lundborg, P., Plug, E., & Rasmussen, A. W. (2017). Can Women Have Children and a Career? IV Evidence from IVF Treatments. American Economic Review, 107(6), 1611-1637.
https://ourworldindata.org/female-labor-force-participation-key-facts.

FİSKAL SİYASƏT TƏNZİMLƏNMƏSİNİN MÜƏSİSSƏLƏRİN MALİYYƏ MƏNBƏLƏRİNƏ ETİBARLI ÇIXIŞINA TƏSİRİ: DƏYİŞƏNLƏRİN ƏLAQƏSİNDƏ E-HÖKÜMƏTİN ARALIQ ROLU (G2B)

MƏHƏRRƏM HÜSEYNOV
Azərbaycan Dövlət Aqrar Universiteti
Aqrar İqtisadiyyat
h-tural@rambler.ru
GƏNCƏ, AZƏRBAYCAN

RƏFIQƏ ƏLIYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti
Aqrobiznes və İdarəetmə
rafigaaliyeva1009@gmail.com
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Effektiv maliyyə vasitəçiliyi bazarda səmərəli fəaliyyətin təmin edilməsinin vacib şərtidir. Tədqiqat nəticəsində ortaya çıxan məsələ Azərbaycanın biznes mühitində maliyyə mənbələrinə etibarlı çıxışın aşağı səviyyədə olmasıdır. Bu məqalənin yazılmasında məqsəd isə bu problemin dəqiq qaynağını müəyyən edib ona uyğun təkliflər irəli sürməkdir. Maliyyə mənbələrinə etibarlı çıxış zamanı yaranan problemlərin mənbələrini araşdırdığımız zaman ən çox rast gəlinən məsələ dövlət tərəfindən aparılan fiskal siyasət oldu. Fiskal siyasəti təmsil edən korporativ vergi dərəcələri və e-hökümət platforması dəyişənlər olaraq seçildikdən sonra tədqiqatda bu dəyişənlər arasında əlaqəni qiymətləndirmək üçün empirik metodlardan istifadə olunub və OLS regressiya analizinin köməyi ilə model qurulub. İstifadə olunmuş funksiyanın doğru seçildiyini müəyyən etmək üçün isə Ramsey-Reset testindən istifadə olunub. Nəticədə biz müəyyən etdik ki, e-hökümət və koprorativ vergi dərəcələri ayrılıqda müəsissələrin maliyyə mənbələrinə etibarlı çıxışına çox güclü təsir göstərir. Ancaq e-hökümət platformasının genişlənməsindən asılı olaraq əhəmiyyətli dərəcədə olmasada vergilərin təsiri azalır. Çünki, platforma müəsissələr üçün ödəniş xidməti prosesini asanlaşdıraraq vergi prosesudurunun yükünü azaltmış olur.

AÇAR SÖZLƏR: Maliyyə mənbələrinə etibarlı çıxış, dövlətin fiskal siyasəti, korporativ vergi dərəcələri, e-hökümət platforması, Ramsey-Reset testi, OLS regressiya analizi

РЕЗЮМЕ

Эффективное финансовое посредничество является важным условием эффективной рыночной деятельности. Проблема, вытекающая из исследования, заключается в низком уровне надежного доступа к финансовым ресурсам в бизнес-среде Азербайджана. Цель написания данной статьи — выявить точный источник проблемы и внести соответствующие предложения. Наиболее распространенной проблемой, когда мы рассматривали источники проблем с доступом к финансам, была фискальная политика правительства. После выбора ставок корпоративного налога и платформ электронного правительства, представляющих фискальную политику в качестве переменных, в исследовании использовались эмпирические методы для оценки взаимосвязи между этими переменными и их моделирование с использованием регрессионного анализа МНК. Тест Ramsey-Reset использовался для определения правильности выбора используемой функции. В результате мы обнаружили, что электронное правительство и ставки корпоративного налога по отдельности оказывают сильное влияние на надежный доступ бизнеса к финансовым ресурсам. Однако влияние налогов уменьшается, хотя и незначительно, по мере расширения платформы электронного правительства. Это связано с тем, что платформа снижает бремя налогового процесса за счет упрощения процесса оплаты для предприятий.

КЛЮЧЕВЫЕ СЛОВА: надежный доступ к финансовым ресурсам, фискальная политика правительства, ставки корпоративного налога, платформа электронного правительства, тест Ramsey-Reset, регрессионный анализ OLS.

SUMMARY

Effective financial intermediation is an important condition for effective market activity. The issue arising from the study is the low level of reliable access to financial resources in the business environment of Azerbaijan. The purpose of writing this article is to identify the exact source of the problem and make appropriate proposals. The most common issue when we looked at the sources of problems with access to finance was the government's fiscal policy. Following the selection of corporate tax rates and e-government platforms representing fiscal policy as variables, the study used empirical methods to assess the relationship between these variables and modeled them using OLS regression analysis. The Ramsey-Reset test was used to determine if the function used was selected correctly. As a result, we found that e-government and corporate tax rates separately have a strong impact on the reliable access of businesses to financial resources. However, the impact of taxes is diminishing, albeit not significantly, as the e-government platform expands. This is because the platform reduces the burden of the tax process by simplifying the payment service process for businesses.

KEYWORDS: Reliable access to financial resources, government fiscal policy, corporate tax rates, e-government platform, Ramsey-Reset test, OLS regression analysis

GIRIŞ

"Şirkətin maliyyə siyasəti bilavasitə ölkənin maliyyə siyasətində baş verən dəyişikliklərə əsaslanmalıdır" (Пидяшова и др., 2021). Bu fikrə əsasən deyə bilərik ki, biznes sferada baş verən problemlərin çözümü birbaşa dövlətin apardığı maliyyə siyasətində axtarılmalıdır. Lakin fiskal siyasətin firma məhsuldarlığının izahında rolu hələ də tam öyrənilib tədqiq edilməmişdir. Bununla belə, maliyyə siyasəti Afrikada məcburi prosedur və məhdudiyyət hesab olunur. Fiskal intizamın özəl sektoru sıxışdırdığı və Afrikada hərtərəfli, geniş əsaslı inkişafı təmin edən özəl sektorun liderliyini ciddi şəkildə sarsıtdığı məlumdur. Həmçinin Afrikafa aparılmış bu tədqiqat göstərir ki, maliyyəyə çıxışda əhəmiyyətli məhdudiyyət olduqda, firmalar belə məhdudiyyətlərə malik olmayan firmalara nisbətən daha aşağı məhsuldarlığa malikdirlər (Zangina Isshaq, Godfred A. Bokpin, 2017). Hətta, innovativ firmalara söz gəldikdə, onlar daha riskli biznes modellərinə sahib olurlar. Bu modellər yeni bazarlar yaratmaq üçün vacibdir, lakin banklar üçün qiymət vermək çətindir. Onlar tez-tez fiziki mülkiyyətdən daha çox qeyri-maddi aktivlərdən asılıdırlar, lakin qeyri-maddi aktivlər kontekstə xas olduğundan onları qiymətləndirmək çətindir və buna görə də kredit almaq mümkünsüz olur. Bu fikrin sübutu qəti deyil, lakin bəzi müəlliflər hesab edirlər ki, iqtisadiyyat üçün ən vacib firmalar çox vaxt maliyyə əldə etməkdə çətinlik çəkirlər (Freel, 2007). Burda vurğulamaq vacibdirki maliyyə mənbələrinə etibarlı çıxış təsərrüfat subyektlərinin (korporativ) maliyyə siyasəti üçün həqiqətən vacib olan məsələdir. (Harry DeAngelo, 2021)

Nəzərə alsaq ki, özəl sektorun ÜDM-də payı Azərbaycanda 1995-ci ildən bu günə təxmini 50 %-ə qədər artıb və Dünya Bankı tərəfindən Azərbaycanda sahibkarlar üçün təşkil olunan xüsusi sorğuda iştirak edən iş adamlarının 21%-i hesab edir ki, biznes mühitində inkişafetmə prosesini ləngidən ən böyük məhdudiyyət maliyyə mənbələrinə etibarlı çıxışda çətinliklərin olmasıdır, bizim araşdırmamız məs bu mövzuya

əsaslanır. Həmçinin, sorğu nəticəsində məlum olub ki, maliyyə resurslarından istifadədə kiçik, orta və böyük bizneslərdə şəxsi resurslardan istifadəyə daha çox üstünlük verilir və bu kiçik bizneslərdə daha çox təzahür olunur. Şəkil 1-də bu aydın şəkildə təsvir olunub:



Şəkil 1. Maliyyə resurslarından istifadə

Çünki, banklar kiçik biznesə xidmət göstərməkdə o qədər maraqlı deyillər və kiçik bizneslərin bir çox hallarda girov problemi yarana bilir. Bir məsələnidə unutmaq olmaz ki, Azərbaycanda biznes sahəsində aparılan tədqiqatların sayı çox aşağı səviyyədədir. Şəkil 2-də bu məlumat təqdim edilib:



	Rumıniya	Sloveniya	Ukrayna	Gürcüstan	Albaniya	Azərbaycan	Belarusiya	Ermənistan
İstinad olunmuş məqalələr	1329	934	894	85	80	75	38	33
Məqalələr	1338	958	903	89	80	76	39	37

Şəkil 2. Biznes və mühasibat sahəsi üzrə tədqiqat aktivliyi

Qeyd olunan problemləri həll etmək biz bu tədqiqatmızı aparmaq qərarına gəldik. Beləliklə, biz araşdırmamızda iki suala cavab tapmağa çalışırıq:

- Mənfəət vergi dərəcələrinin müəsissələrin maliyyə mənbələrinə etibarlı çıxışına təsiri varmı?
- Bu əlaqədə e-hökümət platformasının aralıq rolu varmı və mövcuddursa istiqaməti necədir?

Bu tədqiqatda biz empirik analiz aparıb üç dəyişənli model qurduq. Növbəti hissədə biz istifadə etdiyimiz material və metodlardan danışacıq və ən əsası hanası nəicələri əldə etmişik onu göstərəcik.

TƏDQIQAT METODU

Araşdırma zamanı üç dəyişəndən istifadə etmişik: korporativ vergi dərəcəsi, e-xidmətdən istifadə (il üzrə vergi ödənişlərinin sayı, ödəniş tezliyi, qeydiyyat tezliyi) və kredit götürmə aktivliyi (kredit reyestrindən qeydiyyatdan keçmiş fiziki və hüquqi şəxslər). Biz tədqiqatda empirik analiz aparmaq üçün Gretl

proqramından istifadə etmişik. İlk olaraq səpələnmə qrafik vasitəsi ilə aradaki əlaqəni yoxladıq və müşahidə edə bildik ki, e-hökümət və maliyyə mənbələrinə etibarlı çıxış arasında güclü negativ əlaqə mövcuddur. Şəkil 3 və 4-də səpələnmə qrafikləri göstərilib:



Şəkil 3. Səpələnmə qrafiki



Şəkil 4. Səpələnmə qrafiki

Əlaqəni yoxlamaq üçün OLS regressiya analizi vasitəsi ilə xətti funksiya qurduq və korporativ vergi dərəcələrinin e-xidmətin aralıq rolu ilə maliyyə mənbələrinə çıxışına təsirini ölçdük.

$y= \beta_0 - \beta_1 x_1 - \beta_2 x_2 + u$ (1)

y-asılı dəyişən (kredit reyestrinin əhatə dairəsi);

x_1-sərbəst dəyişən (korporativ vergi dərəcələri);

x_2-aralıq dəyişən (e-xidmət vasitəsilə vergi ödənişin sayı, ödənişlərin tezlyi, qeydiyyat tezlyi);

Əlaqəyə baxdığımız zaman görə bilərik ki, modeldə e-xidmət dəyişəni mənfəət vergi dərəcələrinin kredit götürmə aktivliyinə təsirini əhəmiyyətli dərəcədə dəyişmir. Ayrılıqda iki dəyişənində kredit götürmə aktivliyinə təsiri olduqca güclüdür. Qurduğumuz modelin möhkəmliyinin yoxlanılması üçün dörd test aparılıb. İlk olaraq funksional misspesifikasiyanın yoxlanılması üçün Ramsey-Reset testi ilə funksiya yoxlanılıb və p-value göstəricisi 0.53 bərabər olduğu üçün biz sıfır hipotezini qəbul etdik. Çünki sıfır hipotezi bizə deyirki, funksional misspesifikasiya mövcud deyil.

```
Model 11: OLS, using observations 2006-2020 (T = 15)
Dependent variable: l_Accesstofinance

                  coefficient   std. error   t-ratio   p-value
  ---------------------------------------------------------------
  const             58.0067      8.13335      7.132    1.19e-05 ***
  l_Eservice        -1.06369     0.286899    -3.708    0.0030   ***
  l_Corporatetax    -17.5173     2.86694     -6.110    5.25e-05 ***

Mean dependent var   1.919606   S.D. dependent var   1.870490
Sum squared resid    2.590687   S.E. of regression   0.464640
R-squared            0.947110   Adjusted R-squared   0.938295
F(2, 12)             107.4423   P-value(F)           2.19e-08
Log-likelihood      -8.113126   Akaike criterion     22.22625
Schwarz criterion    24.35040   Hannan-Quinn         22.20362
rho                 -0.274085   Durbin-Watson        2.132732

Log-likelihood for Accesstofinance = -36.9072

RESET test for specification (squares only) -
  Null hypothesis: specification is adequate
  Test statistic: F(1, 11) = 0.419722
  with p-value = P(F(1, 11) > 0.419722) = 0.530366
```

Şəkil 5. OLS reqressiya analizi

İkinci test isə heteroskedastikliyin yoxlanılması üçün istifadə olunan Breusch-Pagan testidir. Burdada p-value 0.23- bərabər olduğu üçün biz sıfır hipotezi qəbul edib deyirikki modelimizdə heteroskedastiklik problemi mövcud deyil. Sonra isə normallıq testi aparıldı və p-value 0.81 bərabər olduğu üçün yenə biz sıfır hipotezini qəbul edib deyə bilərik ki, qalıqlar modeldə normal paylanıb. Və sonda avtokorrelyasiya testi aparılaraq məlum oldu ki, p-value 0.37 bərabərdir. Bu isə sıfır hipotezinin qəbul edilməsi deməkdir yəni avtokorrelyasiya modeldə mövcud deyil. Şəkil 5-də isə R-squared bizdə 94 %-ə bərabərdir, yəni modelimizin izah olunma qabiliyyəti 94 % təşkil edir.

NƏTICƏ

Nəticə etibari ilə modelimizin əsasında deyə bilərik ki, e-xidmətdən istifadə 1% artdığı zaman maliyyə mənbələrinə çıxış 1.06% artır. Mənfəət vergi dərəcəsi 1% artdığı zaman kredit götürmə aktivlyi 17.5 % azalır. Beləliklə, e-xidmətin mövcudluğu korporativ vergi dərəcələrinin mənfi təsirini cüzidə olsa azaldır. Ancaq modeldən həmdə görünür ki, korporativ vergi dərəcələrinin müəsissələrin maliyyə mənbələrinə çıxışına daha çox təsiri var.

Nəticələrə uyğun təkliflərimiz aşağıdakilardan ibarətdir:

- e-hökümət lahiyəsini genişləndirmək;
- beynəlxalq səviyyədə e-xidməti tərtib etmək;
- yaranmış vəziyyətə müvafiq olaraq vergi dərəcələrini tənzimləmək.

Təkliflərin dəstəklənmə yolları isə ölkədəki vəziyyətə uyğun formalaşmalıdır. İlk olaraq vergi dərəcəsi üzrə model tərtib edərək əmsal müəyyənləşdirmək vacib şərtdir. Bu faktor həmçinin simulyasiya modeli yaradaraq gələcək üçün proqnozlar verməyə imkan yaradacaq. İkinci məsələ e-hökümət və start-up layihələrini artırmaqdır. Bunun üçün dövlət mütləq şəkildə tədqiqat yönümlü xərcləri artırmalıdır. Üçüncüsü isə məhsuldarlığı yüksək olan müəsissələrə fərqli vergi güzəştləri tətbiq etməkdir. Bu müəsissələrə yığılmış kapital resurslarını daha səmərəli istifadə etməyə imkan yaradacaq.

ƏDƏBIYYAT SIYAHISI

16. Zangina Isshaq, Godfred A. Bokpin, Access to finance and firm productivity in the presence of binding fiscal constraints, 2017
17. Маркосян О.Р., Пидяшова А.А., Финансовая политика предприятия, 2021

M.S. Freel, Are Small Innovators Credit Rationed? 2007

Harry DeAngelo, Corporate financial policy: what really matters?, 2021

18. World Bank Enterprise Survey 2019, https://www.enterprisesurveys.org/en/data/exploreeconomies/2019/azerbaijan
19. https://www.stat.gov.az/
20. https://www.scimagojr.com/

AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYE MƏHSULLARI İXRACININ İQTİSADİ ARTIMA TƏSİRİ

FAZİLƏ RƏHİMOVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Makroiqtisadi siyasət
fazilerahimova00@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycanın qeyri-neft sahəsinin inkişaf etdirilməsi regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və dövlət büdcəsinin ödənilməsi, dövlətin gəlirlərinin yüksəldilməsi və bu kimi amillərə əsasən olduqca böyük əhəmiyyət kəsb edir. Sözsüz ki, qeyri-neft sektorunun bu dərəcədə inkişaf etdirilməsi Azərbaycanın ixrac potensialının da artırılmasına effektiv təsir edir.

Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasının qeyri-neft sektorunun ixrac potensialının həyata keçirilən yenilikçi tədbirlər ilə artırılmasından və onun iqtisadi artıma təsirinin imkanlarının müəyyənləşdirilməsindən ibarətdir.

Ümumilikdə, qeyd etmək lazımdır ki, sadəcə neft sektoruna yönəlməklə dövlətin ixrac səviyyəsinin artırılması olduqca mürəkkəbdir. Bu istiqamətdə qeyri-neft sektorunun inkişaf etdirilməsi olduqca zəruridir.

Açar sözlər: qeyri-neft sektoru, kapital, inkişaf, ixrac potensialı, tədiyyə balansı

GİRİŞ

Bu gün Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonrakı ən müvəffəqiyyətli dövründədir, belə ki, ölkəmizin çox əsrlik uzun tarixi ərzində hazırki gücü danılmaz faktdır. Hazırda ölkə rəhbərliyi tərəfindən həyata keçirilən islahatlar və görülən tədbirlər xalqın və dövlətin gələcək inkişafını istənilən istiqamətdə inkişaf etdirməyə icazə verir.

Gələcəkdə qeyri-neft sektorunun ixrac səviyyəsinin iqtisadi artıma müsbət təsirini artırmaq üçün bu sahədə aparılan tədqiqatları davam etdirmək və tədqiqatın aktuallığını təşkil edən mövzunu daha geniş şəkildə araşdırmaq lazımdır.

Qeyri-neft sektorunun ixrac səviyyəsinin müəyyən edilməsinin və iqtisadi artıma təsirinin əsas vəzifələrinə aşağıdakılar aiddir:

1. qeyri-neft sektorunun inkişafı üzrə zəruri tələblərin formalaşdırılması;
2. qeyri-neft sektorunun ixrac potensialının artırılması üzrə amillərin müəyyənləşdirilməsi və istehsal səmərəliliyinin yüksəldilməsi;
3. iqtisadi artımın təmin edilməsində qeyri-neft sektorunun rolunun müəyyənləşdirilməsi;
4. qeyri-neft sektorunun inkişafına dair innovativ tədbirlərin təhlili.

Dissertasiyanın birinci fəslində qeyri-neft sektorunun strukturunun nəzəri aspektləri izah olunmuş, sektorun ölkənin daxili və xarici iqtisadiyyatındakı rolu təhlil edilir.

İkinci fəsildə Azərbaycan Respublikasının iqtisadi inkişafının əsas amilləri, bu sahədə qəbul edilmiş konsepsiyalar, hazırlanmış strategiyalar və qazanılmış uğurlar qeyd olunur. Ölkə rəhbərinin həyata keçirdiyi innovativ inkişaf prinsipləri və onların tətbiqi müəyyənləşdirilir.

21. Üçüncü fəsildə isə qeyri-neft sektorunun genişləndirilməsinin əsas üsulları vurğulanır, qeyri-neft məhsullarının ixrac vəziyyəti araşdırılır və dövlətin bu sektora dəstəyindəki rolu qeyd olunur.

TƏDQIQAT METODU

Tədqiqatda müqayisəli təhlil, sintez və cədvəl metodları tətbiq edilmişdir. İlk növbədə müqayisəli analiz üsulu ilə fəsillər ayrı-ayrılıqda tədqiq olunur, geniş təhlil edilir. Aparılan analiz nəticəsində isə əldə olunan məlumatlar illər üzrə və ya digər ölkələrin statistikaları ilə müzakirə olunaraq göstərilir.

Cədvəl və qrafik üsulunda isə əldə edilmiş statistik informasiyalar yeni tərtib edilmiş və ya mövcud mənbələrdən götürülmüş olur və komplektləşdirilmiş şəkildə nəzərdən keçirilir.

Sintez metodu vasitəsilə fəsillər üzrə məlumatlar sistemləşdirilir və geniş şəkildə tədqiq olunur.

NƏTİCƏ

Müasir dövrdə Azərbaycan Respublikasının qeyri-neft sektorunun ixrac potensialının düzgün və tam şəkildə qiymətləndirilməsini həyata keçirmək məqsədilə qeyri-neft sekstorunun xarici ticarət üzrə payı, bu

sektorun hazırki strukturu, ixrac dövriyyəsi və s. müəyyən edilməli və bütün bunların təhlili zamanı xüsusi diqqət yönəldilməlidir.

Ölkədə daha yüksək rəqabət qabiliyyətinə malik iqtisadi sahənin yaradılması və beynəlxalq ticarət üzrə inteqrasiyasının sürətləndirilməsi üçün ilk növbədə, digər dövlətlərlə xarici iqtisadi əlaqələrin səviyyəsinin yüksəldilməsi mühüm vəzifə hesab olunur. Belə ki, hazırda dövlət büdcəsi ödənişlərinin təxminən 23 faizi məhz qeyri-neft sektorunun hesabına ödənilir.

Ölkənin iqtisadi inkişafının təmin edilməsi üçün nəzərdə tutulmuş qeyri-neft konsepsiyasının qazanılmış uğurları nəticəsində əldə olunan gəlirlər insanların sosial problemlərinin həllinə, maddi rifahının təmin olunmasına, həyat səviyyəsinin yüksəldilməsinə yönəldilir. Məlum olduğu kimi, istənilən dövlətin təbii sərvətləri bir müddətdən sonra tükənmə təhlükəsi ilə üz-üzədir. Ona görə də insan kapitalının, qeyri-neft sektorunun inkişafı bütün ölkələr üçün olduqca zəruridir. Demək olar ki, dünyanın bütün ölkələrində bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Təbii ehtiyatların ixrac potensialı Azərbaycan Respublikası üçün əvəzsiz imkan olsa da, bu ehtiyatlardan asılılıq da olduqca təhlükəlidir. Odur ki, ölkənin resurs ixracından asılılığının azaldılmasına yardımçı olacaq qeyri-neft sektorunun inkişafı ciddi arqumentlər və strateji hədəflər nəzərə alınmaqla doğru şəkildəqiymətləndirilməlidir. Qeyri-neft sektorunun genişləndirilməsi, eləcə də keçid imkanlarının tədqiqi zəruridir.

ƏDƏBIYYAT SIYAHISI

1. Elnur Alaskarli. Azərbaycanda qeyri-neft sektoru üzrə ixracın mövcud vəziyyətinin qiymətləndirilməsi. (onlayn məqalə) Dekabr. 2020.səh. 8-10. https://www.researchgate.net/publication/350156940_Azrbaycanda_qeyri_neft_sektoru_uzr_ixracin_movcud_vziyytinin_qiymtlndirilmsi.

2. Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədən irəli gələn tapşırıqların icrasının təmin edilməsi üzrə Tədbirlər Planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 15s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

3. Allahverdiyev H, Qafarov K, Əhmədov Ə. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. (dərslik). Bakı, ADİU, 2017, səh. 15-16.

ROLE OF DIGITALIZATION AND TECHNOLOGY DURING COVID-19 OUTBREAK

Ramin Muradov
Azerbaijan State University of Economics
International Magistrate and Doctorate Center (IMDC)
raminmouradov@gmail.com
Baku, Azerbaijan

ABSTRACT

Emergence of covid-19 not only caused the death of many humans,economic and social collapse all around the world,but also established new era for technological innovations.Different applications and digital tools have been developed to fight against the negative outcomes of covid pandemic.This article explores how emerging technologies are being used to combat COVID-19 crisis, as well as the problems that come with technology design, development, and implementation.One of the main sectors that technologies is being used during pandemic is health care sector. In this thesis I have provided best known frameworks for using digital technologies in pandemic response and management, demonstrating how successful countries have used them for pandemic planning, surveillance, testing, contact tracing, quarantine, and health care. It also offers suggestions and insights into how information systems and technology scholars might assist in the fight against the Coronavirus disease. This work contributes to future research and technological

development in order to build better strategies for dealing with the COVID-19 epidemic and other pandemics in the future.

Keywords: Covid-19,Technology,Pandemic,Digitalization

INTRODUCTİON

In a short period of time, the COVID-19 pandemic caused changing of lots of standard procedures that is performed by the companies in all sectors and regions. According to the survey that is done by McKinsey & Company,their companies have speeded up the digitization of their both internal and external operations by three to four years.And the proportion of digital or digitally enabled products in their portfolios has grown by 6 times in seven years. Moreover, respondents think most of these changes will be long lasting and it will give opportunity to them for attracting even more investors by which it will boost the market value of the company.

RESEARCH METHODS

The thesis object is to digitalization and technological changes that Covid-19 outbreak brought to the workd.In order to conduct an analysis of the ways that our life is impacted by Covid-19 pandemic quantitave analysis,statistical analysis,generalization and comparison methods have been used.

Results

90% of Americans consider the internet is necessary, with many making video calls and 40% using technology in new ways. However, although technology was a lifesaver for some, it was a source of frustration for others. The coronavirus has changed several facets of people's lives in all over the world. It caused schools,companies, and workplaces to be closed,forcing millions of people to stay at home for long periods of time. In order to prevent the spread of the virus, public health officials advocated limiting social contact, which radically changed the way many people worked, learnt, spoke with loved ones, carried out fundamental daily duties, celebrated, and mourned.So,Technology had a huge part in this change of standards.

Role of technology during Covid-19 pandemic

The findings of a new Pew Research Center poll of U.S. adults, conducted April 12-18, 2021, illustrate the extent to which people's internet usage has changed, as well as their perspectives on how helpful technology has been to them and the challenges they have faced. According to the survey, the vast majority of respondents (90 percent) feel the internet was at least somewhat important to them personally throughout the pandemic. The percentage of people who feel it's important - 58 percent – is up somewhat from 53 percent in April 2020.

Robots in Covid-19 pandemic

Best example of advanced technological change during Covid-19 outbreak is an increacse in usibility of robots. Robots are intelligent machines that have shown to be useful amid the current COVID-19 outbreak. Because there is less risk of contagious disease spreading from suffering patients, robots can readily be employed as frontline warriors in medical facilities.

Many countries across the world have used robot technology to combat the spread of COVID-19 disease as well as to monitor the social and mental wellbeing of patients and persons who are isolated. Aside from the aforementioned services, there are a few more useful qualities of robots during a crisis that are summarized below:

• Delivery: During the COVID-19 pandemic, robots are used to transport medicines, medical equipment, and food in medical units, allowing medical personnel to avoid direct contact with patients. Asimov Robotics, a Kerala-based Indian business, has built a three-wheeled robot that can execute all of these activities while supporting patients in isolation wards.

• Emotional support: During the pandemic, many countries went into lockdown for months. Long-term isolation has a harmful impact on people's mental health. Robots have been created to share the emotions of humans who are isolated. Doctors can virtually control these robots to keep an eye on their patients' health.

GPS and other technologies' usage in Covid-19 pandemic

GPS is a satellite-based navigation system that provides users with positioning, navigation, and timing (PNT) services.

Governments can utilize GPS technology to track the current and past whereabouts of positive patients during COVID-19. This will eventually aid in the identification of other COVID-19 sufferers.During the COVID-19 pandemic, GPS was commonly used for the following purposes:

Mobile applications:
Many countries have produced different versions of mobile applications that use GPS to detect COVID-19 patients and assist prevent the virus's spread during this devastating outbreak. The majority of these apps may be downloaded for free using people's phone numbers. Once launched, it will classify users as safe or dangerous based on a variety of factors such as the presence of virus symptoms or overseas travel history. The suspected cell phone users' GPS position will be saved in the database. This information can be utilized for a variety of purposes, including alerting a safe user if he encounters a suspected virus victim and sending the victim's GPS location to healthcare professionals if emergency assistance is required.

Graph 1: COVID-19:Increase in Online and Digital Activities



Source: GLOBALWEBINDEX'S coronovirus multi-market study(April 2,2020)
In Graph 1,we can see the proportion of internet users that are between the age of 16 and 64 in given countries who spend more time on each activity as a consequence of covid-19.More than half of respondents of GlobalWebIndex said they are still streaming more movies and TV episodes over the internet today than they were at the start of 2020.Similarly, more than four out of ten internet users say they're still spending more time on social media, and one out of seven say they're still creating and uploading more video material.

Graph 2:COVID-19:Enduring Plans To Work from Home



Source: GLOBALWEBINDEX'S coronovirus multi-market study(July,2020)

The term "remote working" refers to completing the tasks of the employing organization from a virtual location outside of the workplace.In Graph 2, Various experts foresaw the collapse of the office when COVID-19-related lockdowns took hold and hundreds of millions of people began working from home.However, recent study suggests that rumors about the office's demise may have been overblown.According to the GlobalWebIndex,just over a quarter of the world's internet users intend to work from home more regularly after the pandemic is ended, compared to how often they worked from home before the lockdown.

Conclusion

People, businesses, and society have all been affected by the COVID-19 epidemic. The pandemic has ramifications for technology design, development, and use (Sein, 2020). The impact of the coronavirus pandemic on people, organizations, and society can be mitigated through the application of technology. Security, privacy, biases, ethics, and the digital divide are all issues that arise while using technology to combat the epidemic. The COVID-19 pandemic demands strong coordination for connected data, people, and systems to promote worldwide collaboration, according to this research, which assesses technology applications using the data-people-system paradigm.

One of numerous characteristics of countries that have flattened their COVID-19 incidence curves and maintained low fatality rates could be the incorporation of digital technology into pandemic policy and response. Countries that have quickly deployed digital tools to facilitate planning, surveillance, testing, contact tracing, quarantine, and clinical management have remained front-runners in managing disease burden in the fight to contain the spread of a highly transmissible virus. The thorough approaches of countries that have succeeded in containing and mitigating cases can help other countries that are still dealing with a surge of cases.

References

1. Ting, D.S.W., Carin, L., Dzau, V. *et al.* Digital technology and COVID-19. *Nat Med* **26,** 459–461 (2020).

2. Sera Whitelaw, Mamas A Mamas, Eric Topol, Harriette G C Van Spall,Applications of digital technology in COVID-19 pandemic planning and response,The Lancet Digital Health,Volume 2, Issue 8,2020,Pages e435-e440,ISSN 2589-7500.

3. Wu He, Zuopeng (Justin) Zhang, Wenzhuo Li,Information technology solutions, challenges, and suggestions for tackling the COVID-19 pandemic,International Journal of Information Management,Volume 57,2021,102287,ISSN 0268-4012.

4. https://www.mckinsey.com/business-functions/strategy-and-corporate-finance/our-insights/how-covid-19-has-pushed-companies-over-the-technology-tipping-point-and-transformed-business-forever

5. Vargo, D, Zhu, L, Benwell, B, Yan, Z. Digital technology use during COVID-19 pandemic: A rapid review. Hum Behav & Emerg Tech. 2021; 3: 13– 24.

7. Joseph Amankwah-Amoah, Zaheer Khan, Geoffrey Wood, Gary Knight,COVID-19 and digitalization: The great acceleration,Journal of Business Research,Volume 136,2021,Pages 602-611,ISSN 0148-2963

6. https://datareportal.com/

7. gwi.com

ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNUN KƏND ƏHALİSİNİN MƏŞĞULLUQ PROBLEMİ

SƏMA UMAXANLI FƏRRUX qızı
AMEA- Cografiya Institutu
İnsan coğrafiyası
semaumaxanli90@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasının Şəki-Zaqatala kənd əhalisinin sosial-iqtisadi və mədəni infrastrukturunun əsasları təhlil edilir, kəndlərin sosial-iqtisadi və mədəni inkişafının real vəziyyəti muxtariyyət mövqeyi baxımından ümumiləşdirilir. Rayonun kənd əhalisinin işsizlik problemləri və onun həlli və perspektivli müstəqil xüsusiyyətləri sadalanır, əlavə olaraq burada xüsusi funksiyalar, mədəniyyət müəssisələri, xüsusilə də rayonun kənd əhalisinin məşğulluq probleminin əsasları izah edilir.

Açar sözlər: Şəki-Zaqatala iqtisadi region, məşğulluq, sosial-iqtisadi tədbirlər.

GİRİŞ

Azərbaycan Respublikasında müstəqilliyin əldə edilməsi və bazar münasibətlərinə keçidlə kənd təsərrüfatında məşğulluqda dəyişikliklər baş vermişdir. Bazar prinsipləri, metodları, rıçaqları və stimulları əsasında fəaliyyət göstərən yeni məşğulluq mexanizmi yaradılır. Kənd əhalisinin məşğulluğunun yaxşılaşdırılmasında mühüm rol dövlət məşğulluq xidmətinə verilir. Dövlət məşğulluq xidmətinin fəaliyyətinin maliyyələşdirilməsi mənbələri mülkiyyət və idarəetmə formasından asılı olmayaraq kəndlərdə müəssisələrin işçilərinin əmək haqqı fondundan məcburi ayırmalar hesabına formalaşan məşğulluq fondudur. Yeni qəbul edilmiş "Məşğulluq haqqında" (26 oktyabr 2005-ci il tarixli) qanuna əsasən, tutulmaların məbləği əməkhaqqı fondunun təsdiq edilənə qədər qüvvədə olan 2%-lik stavka əvəzinə 1%-i təşkil edir. Məşğulluq fondunun xərc maddələri məşğulluq xidmətlərinin saxlanması, işsizlik müavinətlərinin ödənilməsidir. Əmək bazarında mövcud vəziyyət və vəziyyət və məşğulluq proqnozları əsasında məşğulluq xidmətlərinin proqramları hazırlanır. Vakant iş yerləri haqqında məlumatların toplanması istiqamətində iş aparan respublikanın dövlət məşğulluq xidmətləri kommersiya strukturları ilə yanaşı, müəssisə və təşkilatlarla sıx əlaqələr yaradır.

Müasir bazar iqtisadiyyatı şəraitində əmək qabiliyyətli əhalinin məşğulluğu hər bir ölkənin əsas sosial-iqtisadi problemlərindən biridir. Məşğulluq təkcə hər bir əmək qabiliyyətli insanın şəxsi problemi deyil, həm də bütövlükdə dövlətin və cəmiyyətin problemidir.

İstənilən ölkədə məşğulluq səviyyəsində dəyişikliklər bir çox amillərin təsiri altında baş verir. Məşğulluğun səviyyəsinə xüsusilə iqtisadi, sosial, demoqrafik, texniki və texnoloji amillər, habelə dövlətin iqtisadi siyasəti, ölkənin tarixi-coğrafi xüsusiyyətləri təsir göstərir. Ona görə də məşğulluğun tənzimlənməsi, onun səviyyəsinin yüksəldilməsi kompleks tədbirlərin həyata keçirilməsini tələb edir.

Bütövlükdə Şəki – Zaqatalanın kəndlərində əmək qabiliyyətli əhalinin məşğulluğunda kəmiyyət və keyfiyyət dəyişiklikləri məşğulluğun sahə, ərazi strukturlarının, habelə mülkiyyət forması üzrə məşğulluğun dinamikasında özünü göstərir.

Bildiyimiz kimi, kənd əhalisinin rifah halının yaxşılaşdırılması, əhali gəlirlərinin artırılması iqtisadi tərəqqinin əsas şərtlərindən biridir. Bu, düzgün insanları işə götürməklə həyata keçirilə bilər. Effektiv məşğulluq sosial-iqtisadi tərəqqi üçün səmərəli zəmin yaradaraq, işə tələb və təklif arasında tarazlığa nail olur. Aşağı məşğulluq səviyyəsi böyük sosial-iqtisadi problemlərə səbəb olur. Zərərli nəticələri aradan qaldırmaq üçün bazara ən azı bir qədər dövlət tənzimləməsinin tətbiqi çox vacibdir. Burada dövlətin funksiyası qanunvericiliklə təsərrüfat subyektləri arasında münasibətləri idarə etmək, əhalinin xüsusilə kənd əhalisinin maarifləndirilməsi və peşə hazırlığını əlaqələndirmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olanları və sahibkarlıqla məşğul olmaq istəyənləri mükafatlandırmaq və s. Qeyd edək ki, sosial sabitliyin təmin olunmasında kəndlərdə işsizliyin azaldılmasına yönələn tədbirlər də mühüm rol oynayır.

Ölkəmizdə hal-hazırda ən aktual məsələlərdən biri kəndlərdə də sosial-iqtisadi inkişafın necə yaxşılaşdırılması, regional fərqlərin aradan qaldırılması və effektiv regional məşğulluğun yaradılmasıdır. Təcrübələrə əsaslanaraq deyə bilərik ki, kəndlərin sosial-iqtisadi inkişafı hər bir ölkənin bu istiqamətdə uğurunun mühüm ölçüsüdür. Bu nöqteyi-nəzərdən regional sosial-iqtisadi inkişaf dövlətin ən mühüm iqtisadi qayğılarından biridir.

Şəki – Zaqatala iqtisadi regionuna Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala inzibati rayonları daxildir. İnzibati rayonun ümumi ərazisi 8,84 min kv.km - dir. Əhalisi 630,4 min nəfərdir. Şəki – Zaqatala iqtisadi regionunun iqtisadiyyatının əsas sahələrini kənd təsərrüfatı, yüngül və yeyinti sənaye sahələri, turizm sahələri əhatə edir. Ərazi təbii sərvətlərlə kifayət qədər zəngindir. Regionda mis, kükürd kolçedanı, qurğuşun, sink, çınqıl, qum, tikinti materialları, su ehtiyatları mövcuddur.

Azərbaycanda həmçinin digər regionlarda olduğu kimi Şəki- Zaqatalanın kənd əhalisinin işlə təmin olunmasında müəyyən problemlər mövcuddur. Təbii ki, Azərbaycan Respunlikasının Prezidenti Cənab İlham Əliyevin məşğulluğun aradan qaldırılması istiqamətində həyata keçirdiyi siyasətlər Şəki – Zaqatala iqtisadi regionun kəndlərindən də yan keçməyib, Şəki – Zaqatala iqtisadi regionunda kənd əhalisinin məşğulluq probleminin həlli istiqamətində bir sıra addımlar atılmışdır.

Son illər ölkə iqtisadiyyatının bütün sahələri kimi elektroenergetika sistemi də ən müasir tələblər səviyyəsində yenidən qurulub, bu istiqamətdə köklü dəyişikliklər aparılıb. İcra edilən layihələr arasında yeni su elektrik stansiyalarının inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Balakəndə yeni inşa edilən Su Elektrik Stansiyası da bu baxımdan böyük rol oynayır. Bu cür layihələrin icrası bölgələrin xüsusilə kəndlərin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, eyni zamanda, regionların inkişafına təkan verməklə, əlavə iş yerlərinin açılmasına səbəb olur.

Prezident İlham Əliyevin fındıqçılığın inkişafı ilə bağlı tapşırıqlarına əsasən həyata keçirilən tədbirlər nəticəsində bu sahədə böyük irəliləyişə nail olunub. Kənd əhalisində ölkəyə ən çox valyuta gətirən strateji məhsullar arasında olan fındığın becərilməsinə maraq daha da artıb. Mövcud imkanlarla kifayətlənməyən şəxsi təsərrüfat sahibləri yeni fındıq bağlarının salınmasına, fındıq pöhrələrinin alınıb becərilməsinə xüsusi maraq göstərirlər. Bunun nəticəsidir ki, indi Zaqatalanın kəndlərində 1,4 və 1,5 hektar sahədə yeni fındıq bağları salınıb.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün inkişaf etdirilməsi də qarşıya məqsəd qoyulub. Qax rayonu bu baxımdan böyük potensiala malik bölgələrimizdən biridir. Bu sahənin inkişafında Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Sərəncamı böyük əhəmiyyət kəsb edir. Sərəncam ölkəmizdə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək, bu sahənin potensial imkanlarından səmərəli istifadə etmək, rəqabət qabiliyyətini yüksəltmək və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahını daha da yaxşılaşdırmaq, eyni zamanda, əlavə iş yerlərinin açılması məqsədi daşıyır.

TƏDQİQAT METODU

Məqalədə statistik təhlillərdən istifadə olunmuşdur.

NƏTİCƏ

Məqalədə qeyd etdiyimiz tədbirlər Şəki-Zaqatalanın kəndlərinin sosial rifahın artırılması, həmçinin, kənd əhalisinin məşğulluq probleminin aradan qaldırılması üçün atılan addımların sadəcə bir neçəsi idi. Dövlətimiz hal-hazırda mövcud olan və yarana biləcək bütün məşğulluq problemlərinə, xüsusilə də kəndlərdə mövcud olan işsizlik probleminə qarşı önləm almaqda davam edir və bu da regionların, o cümlədən Şəki- Zaqatala iqtisadi rayonun kənd əhalisinin məşğulluq probleminə müsbət təsir edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Алиев Т.Г., Алиева Ш.Т. Некоторые проблемы трудоустройства в Азербайджанской Республике. //Проблемы современной науки и образования. (**Kitab**) / (дата обращения: 21,06,2018).
2. Статистические показатели Азербайджана. Статистический сборник. Государственный Статистический Комитет Азербайджанской Республики (на азербайджанском языке). (**Kitab**) Баку, 2015. 815 с.
3. Алиев Т.Г., Алиева Ш.Т. Влияние развития предпринимательства в перерабатывающей промышленности Азербайджана на уровень занятости. //«International scientific review». [Электронный ресурс], 2018, №1 (43). с. 82 - 87. (**Kitab**) (дата обращения: 23.06.2018).
4. H.B. Allahverdiyev, K.S. Qafarov, Ə.M. Əhmədov "Milli iqtisadiyyatın Dövlət tənzimlənməsi", (**Kitab**) Bakı 2006
5. İ.Rzayev. Azərbaycan Respublikası regionlarının davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər. (**Kitab**) Bakı 2010

AILƏ FƏRDLƏRININ IQTISADI MÜSTƏQILLIYI -VALIDEYNLƏRIN TƏHSIL SƏVIYYƏSININ VƏ IQTISADI IMKANLARININ UŞAQLARIN TƏHSIL SƏVIYYƏSINƏ TƏSIRI

AYNUR HƏSƏNƏLIYEVA
Bakı Mühəndislik Universiteti
Biznesin təşkili və idarə edilməsi/təhsil üzrə menecment
ahasanaliyeva@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Araşdırma nəticələrinə görə valideynlərin təhsil səviyyəsinin uşaqların təlim və tərbiyəsində həm mənfi həmdə müsbət nəticələri olduğu müəyyən edilmişdir.Uşaqlarını şüurlu şəkildə böyüdən, uşaqlarının gələcək təhsil imkanlarınını düşünən, təhsil mühiti yaxşı bilən və ən əsası onların təhsili üçün büdcə ayıra bilən valideynlər uşaqların gələcək təhsil imkanları əldə etməsinə müsbət təsir göstərir və bu isə uşaqların sosial mühitdə özləri üçün müsbət rol modeli yaratmasına gətirib çıxarır. Təhsil səviyyəsi aşağı, emosianal səviyyəsi yüksək olan və büdcə ayıra bilməyən valideynlərin isə uşaqlarında psixoloji və sosial geriləmə müşahidə edilmişdir.

AÇAR SÖZLƏR: AILƏ ,UŞAQ, TƏHSIL, IQTISADIYYAT, TƏRBIYƏ

GIRIŞ

Bu tədqiqatın məqsədi məktəbdə şagirdin təlim və tərbiyyəsində, həmçinin akademik performansında ailənin rolunu araşdırmaqdır.İnkişaf edən və dəyişən dünyaya uyğunlaşan şagird və tələblər ilk təhsilini ailədə aldıqlarından ailənin rolu danılmazdır. İndiki uşaqların valideynlərinin uşaqlıq dövrlərindən çox fərqli bir dövrdə yaşamaları və bu səbəbdən tələb və ehtiyaclarının fərqli olması, valideynlərinin bir çox mövzuda nə edəcəyini bilməməsinə səbəb olur. Demək olar ki, uşaqların erkən uşaqlıq dövründə zehni və sosial baxımdan inkişaf etmələri üçün zəngin stimullaşdırıcıları bir mühit lazımdır.Uşaqların bu dövrdə əsasən ailələri ilə birlikdə olması valideynlərinin təsiri faizini artırır.Hər bir fərd müəyyən bir genetik potensiala sahibdir.Bu çərçivədə, valideynlərin uşaqlara zəngin stimullaşdırıcılarla dolu bir mühit təmin etmələri üçün valideynlərin üzərinə çox iş düşür.Bu səbəbdən bu mövunun araşdırılmsı bir o qədər vacibdir və xüsusu əhəmiyyət daşıyır. Bu tətqiqatda əsas araşdırma sualları aşağıdakılardır:

1)Valideynlərin təhsilinin və gəlirlərinin övladlarının təhsili üzərində təsiri varmıdır?
2) təhsilli valideynlər öz övladlarını təhsilə nə qədər cəlb edə bilirlər?
3)təhsil səviyyəsi və gəliri müxtəlif olan valideynlər arasında fərqlər nələrdir?
4)valideynlərin təhsil səviyyəsinin uşaqların tərbiyəsinə təsiri nə dərəcədir?

Columbia County Uzunmüddətli Tədqiqat məlumatlarına əsasən,əldə edilən təqqiqat nəticələrinə görə valideynlərin uşaqlıq dövründəki əldə etdiyi nailiyyətlərə və təhsil səviyyəsinə əsasən onların uşaqlarının gələcəkdəki bilik səviyəsini əvvəlcədən müəyyən edilməsinin mümkünlüyü vurğulanmışdır. Kasim, Kehinde və Abisola (2011) araşdırmasına əsasən ananın yaşının, təhsilinin, peşəsinin birlikdə uşağın gələcək nailiyyətlərində və qərarlarında vacib rol oynadığnı və böyük təsiri olduğu aşkarlanmışdır. Vellimalay (2010) valideynlərlə uşaqlarının təhsil səviyyəsi arasındakı əlaqəni araşdırmış və araşdırma nəticəsində uşaqların təhsil səviyyəsilə valideynlərin təhsil səviyyəsi arasında əhəmiyyətli fərqlərin olmadığı qənaətinə gəlmişdir. 2006-cı ildə Feinstein and Sabates (2006), xüsusən inkişaf psixoloji ədəbiyyatında valideynlərin yalnız təhsil səviyyəsinin deyil, həmçinin uşaqlarına davranışları araşdırılmış, valideynlərin daha səmimi davranışların onların təhsil və tərbiyyəsində müsbət rol oynadığı aşkar edilmişdir. Kean (2005) araşdırmasına əsasən sosial-iqtisadi amillərin uşaqların akademik nailiyyətləri ilə əlaqəli olduğu aşkar edilmişdir.Velnoy (2012) görədə ali təhsilli valideynlər təhsilsiz valideynlərə nisbətən dünyaya uşaq gətirməmişdən əvvəl cəmiyyətdə övladlarının daha çox təhsil imkanları əldə etəcəyindən hər zaman əmin olmaq istəyirlər.Çelenk'in (2003) araşdırmasına görə yeni tədrisə başlayan şagirrdlərdə məktəblə əməkdaşlıq edən ailələrin uşaqlarının yazma oxuma anlayışı daha yüksəkdir.

Ailənin uşaqların inkişafına təsiri, qismən olsa da, məktəb həyatının başlaması ilə azalır. Ailə daxilində valideynlərin birgə düzgün qərar qəbul etməsi üçün valideynlərin təhsil səviyyəsi müəyyən qədər olması və uşaqları dinləmə və onları anlama qabiliyyəti olmalıdır. Atanın uşaqların tərbiyəsində rolu olsada həm bir-birilə münasibətdə, həm də uşaq tərbiyəsində ana ailədə həmişə birinci yeri tutur.Uşaq-ana münasibətləri əsasən emosional platformada başlayır və bunun göstəricisi sevgidir. Ananın uşağına marağını və əlaqəsini

əvvəlcə sevgi ilə göstərilməlidir. Uşaq ana tərəfindən sevildiyini hiss etdiyi andan etibarən öyrədici hər cür hərəkətləri ana tərəfdən qəbul edəcəkdir. Psixoanalitik nəşrlərdə ananın uşaq üçün nə üçün vacib olduğuna dair aşağıdakı fərqli görüşləri görürük:- Abisola (2011) araşdırmasına görə ananın həm yaşı həmdə peşəsinin övladın təhsili üzərində böyük əhəmiyyəti vardır.Nervoyini (2001) araşdırmasına görə valideynlərin təhsil səviyyəsi və gəlirlər ilə onun övladının təhsil planları və qazancı adətən bir birinə bənzəyir.

Təhsilli valideynlərin övladları təhsilli olmayan valideynlərin arasındakı fərqləri araşdırsaq aşağıdakı fərqləri görərik:

1. təhsilli valideynlər təhsilsiz valideylərə nisbətən öz uşaqlarının yerinə yetirə bilmədiyi ev tapşırılarında kömək edə bilir
2. təhsilli valideynlər övladlarına təhsilin uşaqlar üçün asan və lazimi olduğu təəssüratını verməyə çalışırlar, lakin təhsilsiz valideynlər təhsil mühitini yaxşı bilmədiyindən bunu çoxda vacib hesab etmirlər
3. təhsilsiz valideyn uşağın məktəb tələbatlarını nəyə ehtiyacı olduğlarını yaxşı bilməsədə, təhsilli valideynlər bunları yaxşı bilir və onları yerinə yetirmək üçün əllərindən gələni edirlər
4.Valideyn yığıncaqlarında bir qayda olaraq iştirak edir,məktəbdə könüllülük etməklə, işçiləri və müəllimləri, digər valideynləri uşaqlarının fərdi və sosial ehtiyaclarını ödəmək üçün təşviq edə və həvəsləndirə bilirlər
5. Daha çox kitab oxuyan təhsilli valideynlər uşaqları ilə ünsiyyətdə öz qabaqcıl dil bacarıqlarından istifadə edərək, uşaqlarının inkişafına kömək edirlər.

Təhsilli valideynlərin övladı olmağın üstün cəhətləri bunlardır:

1-Daha yaxşı təhsilli valideynlərə sahib olmaq, daha yüksək ev gəlirinə sahib olmaq deməkdir, yəni uşaqlar üçün daha yaxşı məktəblərə getmək şansını əldə edirlər(yenədə bu valideynləri peşəsi ilə bağlı məsələdir)

2-Bundan əlavə, zəka həm tbilik və bacarıqların əldə etməsi ilə əlaqəli və qismən miras alındığına görə universitet məzunlarının uşaqları digər uşaqlara nisbətən irsi üstünlüklərə sahib ola bilərlər.

3-Ən başlıcası, valideynlərindən düzgün məsləhətlər və tövsiyələr əldə edə bilirlər

4-Uşağın gələcək qərarından asılı olmayaraq öz valideynlərindən çox vaxt mənəvi dəstək ala bilmələri 5-Düzgün maliyyə dəstəyi

6-Təhsilli insanlar övladlarına hekayələr oxudular; uşaqlarının suallarına hərtərəfli cavab verir və uşaqlarının idrak və emosional inkişafı üçün şüurlu səy göstərir.

Təhsilli valideynlərin övladlarının təlim və tərbiyəsində etdiyi səhvlər bunlardır**-:**Təhsilli valideynlərin əksəriyyəti adətən övladlarının özlərinin olduğu və əvvəllər olmaq istədikləri peşəni ,sənəti seçməyini istəyirlər. Bu uşağın gələcəyində bir dezavantaj ola bilir.

-:Bəzi təhsilli valideynlər isə uşağına nə olmaq istədikləri və etdiyi hərəkətlərdə tam azadlıq verirlər, bu isə bəzi hallarda mənfi nəticələrə gətirib çıxarır. Lakin bu zaman azadlıqdan sui-istifadə edilmirsə uşaqlarda çox yaxşı nəticələr əldə etmək mümkün olur.

Təhsilsiz valideynləri olan uşaqlarda xarakterik xüsusiyyətlər:

-Maddi dəstək o qədər də yaxşı deyil (yenə də valideynlərin gəlir əldə etmək üçün etdikləri işdən asılıdır)

-Uşaqlar digərlərinə nisbətən daha çox zəhmətkeş olurlar.(Tezel Şahin, 2010).

Bunuda bilmək lazımdırki ,uşaqlıq dövründə ətrafı ilə kifayət qədər əlaqəsi olmayan,öz mühitini,cəmiyyətini dərk edə bilməyən bir uşağın gələcəkdə sosial bir insan olmasını,özünü ifadə edə bilməsini gözləmək təbii olaraq düzgün deyil. Bəzi valideynlər övladlarına düzgün qayğı göstərə bilmirlər, həmçinin öz uşaqlarını kiçik yaşlarından bir fərd kimi görməməyə meyilli olurlar. (Akkaya, 2007).Öz uşaqlıq xəyallarını gerçəkləşdirə bilməyən valideynlər övladlarına bu xəyallara çatmağı arzulayır və bunun özü də çox böyük bir səhvdir. Məsələn, vəkil olmaq istəyən və ya uşağını daim vəkillik və ya buna bənzər nümunələrə yönəldən bir ata görürük. Hər bir fərdin öz xüsusiyyətləri və maraqları vardır.Uşaqlar şəxsiyyətdir və maraqları araşdırılmalı və onlara sağlam istiqamətlər verilməlidir.Uşaq uşaqlığını yaşaya bilməlidir.Uşaqlar oynamalı,balaca səhvlər etməli,əşyalara toxunmalı, və uşaqlıqlarını yaşamalıdırlar. Bütün uşaq inkişafı mütəxəssisləri tərəfindən oyunların uşaqlarda zəkanın inkişafı üçün ən vacib vasitə olduğu xüsusilə təbliğ olunur. Jessica F. Harding, Pamela A. Morris və Diane Hughesin Evlilik və Ailə Jurnalında çap edilən məqaləsində, valideynlərin təlim və tərbiyyəsinin uşaqlara təsirini 3 aspektdə izah edirlər; insan kapitalı, mədəni kapital və sosial kapital.

1)İnsan kapitalı

İnsan kapitalı anlayışı əsasən, insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün insanın biliyinin, bacarığının, əlaqələrinin, peşəkarlığının cəmidir, bunlar ilk növbədə təhsil sayəsində inkişaf edir. Valideynlərin ünversitet dərəcəsi və bilik və bacarıqları, dil bilikləri

müxtəlif yollarla uşaqların bilik bacarıqları daim əlaqədə olmuşdur.Təhsilli valideynlər bir qayda olaraq daha geniş lüğətdən istifadə bilirlər. Erkən yaşda sözlərin çox sayda öyrənilməsi ən yaxşı akademik nəticələrdən asılıdır, buna görə erkən daimi valideyn-uşaq söhbətləri uzunmüddətli müsbət nəticələrə səbəb olur.

2) Mədəni kapital

Mədəni kapital digərləri qədər vacib və həddən çox təsiredici gücə malik olmasada, uşaqların inkişafında təhsilin də uğur qazanmağı üçün üçün əhəmiyyətlidir.Məsələn valideynlərin öz övladları ilə müəyyən aralıqlarda muzeylərə, teatr tamaşlarına baş çəkməyi, övladlarını musiqi dərslərinə aparması onlarda daha fərqli və yaradıcı xüsusiyyətlərin meydana gəlməsinə gətirib çıxarır Bu isə uşaqların gələcəkdə həm təhsildə, həm də sosial həyatda uğur qazanmasına gətirib çıxarır

3)Sosial kapital

Araşdırmalar göstərirki, valideynlərin digər insanlarla əlaqələri və münasibətləridə uşaqların inkişafına müəyyən qədər təsir göstərir.Məlumdurki yüksək təhsilə və mədəniyyətə malik olan valideynlərin onlara oxşar sosoal mühiti-həmkarları və dostları olur.Belə mühitdə böyüyən uşaqlar nəinki valideynlərindən həmçinin, onların dostlarından daha yaxşı məsləhətlər, tövsiyələr ala bilir və onların övladları ilə dürüst dostluq münasibətləri qura bilirlər.Belə olduqda uşaqlar özünə daha erkən rol model seçə bilirlər. Araşdırmalar göstərirki bele mühitdə böyüyən uşaqlar üçün universitet arzu deyil gözləntidir. (Jessica F. Harding, 2011)Həmçinin valideynlərin təhsildə iştirakı və onların təhsil səviyyəsi ölkənin təhsil səviyyəsinin necə olmasını göstərən bir xüsusiyyətdir. Yüksək təhsil mədəniyyəti ilə fərqlənən Holandiyadada valideynlər övladlarının həm evdə, həm də məktəbdə tərbiyəsində yaxından iştirak edir və məktəblə əlaqələrini itirməməyə çalışırlar.Yaponiyada valideynlər üçün təhsil sistemi o qədər əhəmiyyət daşıyırki, hətta valideynlər övladları xəstə olduqda onların əvəzinə qeyd götürmək üçün məktəbə gedirlər.Hətta görə bilərik ki, az təhsilli mühacir valideynlər övladlarının təhsili üçün daha çox əhəmiyyət verirlər, çünki onlara təhsil çox vaxt uşaqlarının daha çox pul qazanan və daha hörmətli işlərdə çalışması üçün yeganə həll yolu kimi görünür.Analar ilk növbədə uşaqların təhsili və tərbiyyəsi üçün məsuliyyət daşısalarda, lakin uşaq yetişdirmək artıq anaların işi olmaqdan artıq çixmışdır.Çünki müasir dövrdə həm ana həmdə ata işlədiyindən uşaqları ortaq köməklə böyütmək məcburiyyətində qalırlar.Buna görədə övladlarına yaxın olmaq istəyən ataların gündəlik 24 saat vaxtın ən azı 24 dəqiqəsini uşaqlara vaxt ayırmağı bacarmalıdır. Həm atalar da övladlarına qayğı göstərməli, uşağına balaca yaşlarından kitablar oxumalı, övladları ilə müxtəlif oyunlar oynamalı, uşaqlarına şifahi nağıllar və hekayələr söyləməlidirlər. Təhsil uşaqların yetişdirilməsində nə qədər vacib amil olsada tərbiyə də bir o qədər vacib məsələlərdən biridir.Amerikanin məşhur dövlət başçısı Ruzvelt "Bir insanı əxlaqi tərbiyə ətmədən yalnız zehnən yetişdirmək cəmiyyətə bəla qazandırmaq deməkdir" demişdir. Filosof Aristotelin sözləri ilə desək -,əxlaqi cəhətdən tərbiyyə edilməmiş bir uşağa zəka və bacarıq vermək ,terrorçuları,cinayətkarları cəmiyyətə hazırlamaq deməkdir. Uşaq ətrafındakılardan gördüyü münasibətləri modelləşdirir və onlar kimi davranır. Piaget uşaqların oyunlarını müşahidə edərək mənəvi inkişaf xüsusiyyətlərini izah etməyə çalışmış uşağın idrak inkişafı ilə mənəvi mühakimələri arasında bir əlaqənin olduğunu tapmışdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrıca qeyd etmək gərəkdir. Birinci tip amillərə ailə münasibətləri–ata ilə ana valideynlərlə uşaqlar, bacı ilə qardaş munasibətləri,ikinci tip amillər sırasına-ailənin maddi vəziyyəti, mənzil şəraiti,təhsil səviyyəsi və s.daxil edilir.Valideynlərin təhsil – mədəni səviyyəsinin köklü surətdə yüksəlməsi valideynlərin pedaqoji mədəniyyətinə də mühüm təsir göstərib. İxtisasından asılı olmayaraq təhsilli valideynlərin böyük əksəriyyəti ailə tərbiyəsi problemlərini daima müzakirə etməklə həll etməyə çalışır,pedoqoji məsələr bağlı daima üzrə qəzet və jurnallarda ardıcıl surətdə dərc olunan məqalələri maraqla oxuyur,lazım olduqda psixoloq, pedaqoq və həkimlərdən məsləhətlər ala bilirlər.Son zamanlar ailə tərbiyəsi problemlərinə dair kitab və jurnallar maraq artmaqdadır.Araşdırma göstərərki gənc nəslin yaş, fərdi və cins xüsusiyyətlərinin, tələbat və imkanlarının hesaba alınması sahəsində də ciddi nöqsanlar var.Məsələn, psixoloqlar müəyyənləşdirmişlər ki, 5 – 6 yaşında uşaqlar dil öyrənməyə çox həssas olurlar, onlar ana dili ilə yanaşı, rus dilini, hətta üçüncü bir dili öyrənə bilərlər.Lakin təəssüflə, bildirməliyik ki, ailələr çox zaman bu böyük imkandan səmərəli istifadə etmirlər.Psixoloji tədqiqatlar göstərir ki, artıq yeniyetməlik dövründə uşaqların mənlik şüuru inkişaf edir, onlar özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşürlər.Böyüməkdə olan nəslin tələbat – motivasiya sahəsinin, əxlaqi şüurunun və s. formalaşmasına xüsusi diqqət yetirilməlidi.Uşaq üçün özü haqqında aydın təsəvvür yaradılmalıdı.O, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə

məşğul olmalıdı.Uşaqları nəzarətdə saxlamaq sadəcə onların yanında olmaq, onların hər bir işinə müdaxilə etmək deyil.Valideynlər uşaqlarla səmərəli vaxt keçirməli, hər an onların öyrənməsinə yardımçı olmalı, maraqlarına cavab verən məşğələlərə cəlb etməli, suallarına cavab tapmaqda kömək etməlidirlər.Araşdırmaya görə yüksək təhsilə və savada malik olan valideynlərin uşaqların təhsildə nəyə və niyə ehtiyacları olduğunu bilir və uşaqları ilə münasibətlərini düzgün və sağlam qura bilirlər.

NƏTICƏ

Bu tətqiqatda əsasən valideynlərin təlim, tərbiyyə və iqtisadi tutumunun uşaqlara təsiri ilə bağlı əsas məsələlər 3 aspektdə-insan kapitalı, mədəni kapital və sosial kapital araşdırılmışdır. Valideynlərin universitet dərəcəsi, bilik və bacarıqları, dil bilikləri yüksək olan uşaqlarında da, həmçinin yüksək dil bacarıqları müşahidə edilmişdir. Təhsil səviyyəsi yüksək sosial mühitdə böyüyən uşaqlar nəinki valideynlərindən həmçinin, onların dostlarından daha yaxşı məsləhətlər, tövsiyələr ala bilir və onların övladları ilə dürüst dostluq münasibətləri qura bildiklərindən bu uşaqlar sosial mühitdə yüksən nailiyyətlər əldə edirlər. Maraqlıdır ki,təhsildə daha az nailiyyətlər əldə edən valideynlərin öz uşaqlarından daha çox uğur gözləntiləri olması aşkar edilmişdir. Daha yüksək təhsilə və ixtisasa malik olanların isə özlərindən daha ağıllı uşaqların olmasını istəmələri müşahidə edilmişdir.

Ədəbiyyat siyahısı

1. Akkaya, M. (2007). Öğretmenlerin ve velilerin okulöncesi eğitim kurumlarında uygulanan aile katılımı çalışmalarına ilişkin görüşleri. Yayınlanmamış yüksek lisans tezi, Anadolu Üniversitesi, Eskişehir.
2. Aqsa Shoukat., Maryam Ilyas., Rabbia Azam., & Abid Hussain Ch.,(2011). Impact of Parents' Education on Children's Academic Performance. Secondary Education Journal Volume 2, No. 1 pp. 53-59 , 54-55
3. Brtan OZENSEL, Dr (2004). Türk Toplumunda Çocuğun Yetiştirilmesinde Annenin Rolü: Konya İli ÖrneğiKonya ili örneği Değerler bğitimi Dergisi, 2 (6), 77-96.. 79-80
4. Douber, S and J.Epstein. (1993), Parent Attitudes and Practices of Involvement in Inner-city Elemantary and Middle School. In N. Chavkin (Ed) Families and schools in a pluralistic society Albany N.Y State University of NewYork Pres, 53-71.
5. Dubow, E.F., Boxer, P., &Huesmann, L.R., (2009). Long-term effects of parents' education on children's educational and occupational success: Mediation by family interactions, child aggression, and teenage aspiration. Wayne State University Press, 55(3), 224–249.
6. Kassim,A.,Kehinde, M., & Abisola, L.(2011).Parents' education, occupation and real mother's age as predictors of students' achievement in Mathematics in some selected secondary schools in Ogun State, Nigeria. International Journal of African Studies, 145(4),50-60.
7. Kean, P.E.D. (2005). The influence of parent education and family income on child achievement: The indirect role of parental expectations and the home environment. Journal of Family Psychology, 19(2), 294-674.
8. Temel, Z.F., Aksoy, A., ve Kurtulmuş, Z. (2010). Erken çocukluk eğitiminde aile katılım çalışmaları. F. Temel (Ed.), Aile Eğitimi ve Erken Çocuklukta Aile Katılım Etkinlikleri (s.328-363). Ankara: Anı Yayıncılık
9. Tezel Şahin, F. ve Özyürek, A. (2010). Anne baba eğitimi ve okul öncesinde aile katılımı. İstanbul: Morpa Kültür Yayınları.
10. ÜMMÜHAN YAMANOĞLU.,(2009) çocuk yetişdirmede ile aile modeli: Davranış bilimleri dergisi 10-12
11. Vellymalay, S.K.N. (2010). Parental involvement in children's education: Does parents' education level really matters? European Journal of social sciences,16(3), 430-431.

ALTERNATİV MALİYYƏLƏŞMƏNİN SOSİAL MƏSULİYYƏTLİ İNVESTİSİYA (SOCIAL RESPONSIBLE INVESTMENT – SRI) PRİZMASINDAN QİYMƏTLƏNDİRİLMƏSİ

MAŞALLAH SƏFƏROV
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər və iqtisadiyyat/Ümumi iqtisadiyyat
Mashallah.seferli.9898@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Keçən əsrin 60-cı illərindən başlayaraq tətbiq olunan alternativ maliyyələşmənin əsas istiqamətlərindən biri də İslam maliyyə alətləridir. Tədqiqat işində bu alətlərdən istifadənin predmeti, habelə müxtəlif ölkələrdə bununla bağlı fəaliyyət göstərən maliyyə qurumlarının spesifik xüsusiyyətləri və ətraf mühit iqtisadiyyatına nə dərəcədə təsir etməsi araşdırılmışdır. Bilindiyi kimi, dünyada qlobal istiləşmənin getdiyi bir dövrdə dövlətlər və beynəlxalq təşkilatlar ekologiyanın qorunması istiqamətində müxtəlif layihələrin həyata keçirilməsini təşviq edirlər. Dövrümüzdə bu layihələrin maliyyələşməsində isə İslam maliyyə alətlərinin prioritet olması qabarıq şəkildə özünü biruzə verir ki. Tədqiqat işinin məqsədi dünya təcrübəsində baş verən tendensiyaları izləyərək ölkəmizdə də müxətlif alternativ maliyyə resurslarının ekologiyanın mühafizəsi yolunda istifadəsinin mümkünlüyünü qeyd etməkdən ibarətdir. Tədqiqat işində göstərilir ki, Cənub-Şərqi Asiya ölkələrində, Türkiyədə, BƏƏ-də, İranda, Birləşmiş Krallıqda və s. ölkələrdə istifadəsi bir neçə onilliyə söykənən İslam maliyyə resursları BMT-nin ölkələrdə ətraf mühitin qorunması və inkişafı ilə bağlı reallaşdırılan proqramları çərçivəsində hazırda əhəmiyyətli dərəcədə böyük rola malikdir. Azərbaycan Respublikasında 2016-cı ildə təsdiq edilmiş Strateji Yol Xəritəsində də bu tip maliyyələşmənin inkişafına dair xarici investorlardan maliyyə cəlbinin ənənəvi bankçılıqla müqayisədə üstünlük qazanacağı qeyd edilmişdir. Nəticə etibarilə milli iqtisadiyyatlarda, o cümlədən Azərbaycan iqtisadiyyatında İslam maliyyə mənbələrindən istifadənin təşviq edilməsi dolayısı ilə ətraf mühitin də mühafizəsinin güclənməsinə, yoxsulluğun azalmasına, bank sektorunda qanunvericilik bazasının təkmilləşdirilməsinə və s. gətirib çıxaracaqdır.

AÇAR SÖZLƏR: İslam maliyyəsi, ətraf mühit, sukuk

GIRIŞ

1. Nüfuzlu ədəbiyyatlarda “etik”, “yaşıl” və “davamlı” investisiya fəaliyyəti kimi qeyd edilən sosial məsuliyyətli investisiya (SMİ) fəaliyyəti ətraf mühit amilləri, sosial və hüquqi amillərdən asılı olaraq formalaşır. Qlobal iqtisadiyyatın yavaş tempi və ənənəvi maliyyə mənbələrindən istifadənin son zamanlar yaratdığı çətinliklər – faiz dərəcələrinin çox olması, kommersiya banklarına sosial etibarlılığın zəif olması, ikinci dünya ölkələrində nağd əməliyyatlara üstünlük verilməsi və nəticədə pulun “likvidlik tələsi”nə düşməsi və s. – alternativ maliyyə mənbələrindən istifadənin qiymətləndirilməsini zəruri edir. Belə ki, alternativ maliyyələşmənin əsas növü sayılan İslam maliyyə mənbələri tətbiq olunduğu sektoru müəyyən süzgəcdən keçirərək sosial məsuliyyətli investisiya variantının yaranmasına gətirib çıxarır. Hazırda bir çox ölkələrdə (Türkiyə, İndoneziya, Malayziya) İslam maliyyə resursları ilə maliyyələşdirilən və yaxud maliyyələşməsi nəzərdə tutulan layihələr çərçivəsində ölkələrin sosial-ekoloji mühafizəsinin gücləndirilməsi prosesi gedir ki, bu da mövzunun aktuallığını artırır.

2. Tədqiqat işinin əsas məqsədi İslam maliyyə mənbələrindən istifadə edərək ətraf mühitin qorunmasını, sosial məsuliyyətliliyin artırılmasını təşviq edən layihələrin reallaşdırılmasını göstərməkdən ibarətdir. Tədqiqat işinin əsas vəzifələri aşağıdakılardır:

- Milli iqtisadiyyatlarda mədəniyyət və submədəniyyətləri nəzərə almaq;
- Ölkələrin regional, siyasi, demoqrafik müxtəlifliyinin İslam maliyyələşməsi ilə uzlaşdırılması;
- Ətraf mühitin qorunması ilə bağlı maliyyə dəstəyinin təmin edilməsində beynəlxalq təşkilatlarla tərəfdaşlığın qabardılması.

Qlobal istiləşmə, havanın və ətraf mühitin çirklənməsini nəzərə alaraq əlavə maliyyə vəsaitlərinin bu tip problemlərin həlli üçün cəlb edilməsi alternativ maliyyə resursu kimi həm də İslam maliyyə mənbələrindən istifadəyə ehtiyacın olduğunu gözlər önünə sərir.

3. Tədqiqat işində bir sıra ölkələrdə bununla bağlı aparılan islahatlar və onların nəticəsi, habelə həmin qəbildən olan digər ölkələrdə, o cümlədən Azərbaycanda da İslam maliyyə vəsaitlərinin bu istiqamətdə istismarının mümkünlüyü qeyd olunmuşdur.

4. Tədqiqat işi xülasə, giriş, açar sözlər, tədqiqat metodu, nəticə və ədəbiyyat siyajısından ibarət dir. Tədqiqat metodu 3 yarımbaşlığı əhatə edir və ümumilikdə 4 səfədən ibarətdir.

TƏDQIQAT METODU

İslam maliyyə alətləri. Sosial məsuliyyətli investisiyalaşma və İslam maliyyəsinin məqsədləri dayanıqlı sosial-iqtisadi inkişafa çatmaq yolunda birləşdirilməlidir. İslam maliyyə alətlərindən istifadənin sosial-ekoloji təsir baxımından vəd etdiyi avantajları və ənənəvi maliyyə üsulları ilə müqayisədə milli iqtisadiyyata qazandırdığı üstünlükləri açıqlamazdan öncə bu alətlərə qısaca nəzər salmaq lazımdır:

Mudarəbə alətinin (Mudarabah) əsas özəlliyi bundadır ki, biznesə yatırım etmək istəyən şəxs banka yaxınlaşır və ənənəvi bankçılıqdan fərqli olaraq İslam kommersiya bankı şəxsə müəyyən məbləğdə pul vəsaiti kredit verməklə həm də onun biznesinə şərik olur. Yəni rabbul-mal (vəsaitin sahibi olan bank) mudarib (potensial sahibkar) ilə müqavilə bağlayaraq qurulacaq olan sahibkarlıq fəaliyyətinin gələcək mənfəət və ya zərərinə ortaq olmuş sayılır. Ənənəvi bankçılıqdan fərqli olaraq burada bank mənfəətin müəyyən faizini əldə etmiş sayılır. Əgər sahibkarın təşəbbüsü uğursuzluqla nəticələnərsə, bank öz vəsaitini, sahibkar isə əməyini, ideya və vaxtını itirmiş sayılır. Bu baxımdan İslam maliyyələşmə praktikasının mövcud olduğu ölkələrdə bank qiymətləndirmə indeksləri mövcuddur ki, bu da fiziki/hüquqi şəxslərin mövcud startaplarının, bizneslərinin rentabelliyini və səmərəliliyini qiymətləndirməyə imkan verir, maliyyə riskinin azalmasına səbəb olur.

Muşarəkə (sərmayə ortaqlığı) aləti öncəkinə bənzəsə də, burada hər iki tərəfin – həm bank, həm də müştərinin biznesə sərmayə yatırımı mövcud olur. Burada mənfəətin və zərərin bölüşdürülməsi yatırıma mütənasib şəkildə aparılır.

Qeyd olunan maliyyə alətlərindən başqa **murabaha** (ənənəvi bankçılıqda ipoteka), **icarə** (lizinq), **sukuk** (İslam istiqrazları), **təvarruq** (istehlak krediti), **təkafül** (İslam sığortası) və s. alətlərdən istifadə edilir. İslam maliyyələşməsinin əsas cəhəti ondadır ki, pul yatırılan biznes şəriət qaydalarına müvafiq olaraq halal kodeksinə müvafiq olsun. Belə ki, həmin vəsaitlə silah, narkotik vasitələr, qanunsuz strateji məhsullar və xidmətlərin göstərilməsi, dövlət maraqları ilə ziddiyyət təşkil edən, ətraf mühitə zərər vuran, flora və faunanın növ müxtəlifliyinin aradan qalxmasına gətirib çıxaran, cəmiyyətdə milli-mənəvi, əxlaqi ictimai şüurun azalmasını təşviq edən hər növ fəaliyyətlərin həyata keçirilməsinə yol verilmir.

Ətraf mühitin mühafizəsi proqramı. Cəmiyyət olaraq davamlı inkişaf hədəflərinə çatma nöqtəsində dövlətlərin, şirkətlərin və fərd olaraq bizim öhdəliyimizdə duran əsas məsələlərdən biri də istehsalda əlavə dəyər yaratmaqla bərabər ətraf mühitin qorunmasına yönəlmiş fəaliyyətlərin icrasını reallaşdırmaqdan ibarətdir. Ətraf mühitin mühafizəsi dedikdə, təkcə flora və fauna deyil, insan və cəmiyyətin qarşılıqlı fəaliyyətinin stabilliyinin də təmin edilməsi başa düşülür. Bunun üçün isə dayanıqlı sosial inkişaf proqramlarına ehtiyac yaranmışdır. Qeyd olunmalıdır ki, 1990-cı illərlə müqayisədə dünyada mövcud olan yoxsulluq faizi hazırda 61 % azalmış olsa da, Dünya Bankının 2020-ci il göstəricilərinə əsasən dünya əhalisinin 10 %-ə yaxın bir hissəsi ciddi yoxsulluqla qarşı-qarşıyadır (ölkəmizdə bu göstərici 2019-cu il üçün 6,2 % təşkil edir). Eyni zamanda hava, su və ətraf mühitin çirklənməsinin artması nəticəsində dünyadakı heyvan və bitki növləri yox olma təhlükəsi ilə üz-üzədir.

Sadalananlarla əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatı ilk dəfə olaraq 1972-ci ildə "BMT-nin İnsanın Ətraf Mühiti" adlı konfransda ətraf mühit problemlərini ön plana çəkmişdir. Konfrans boyu əldə olunan hesabatlar və araşdırmalarla qlobal ictimai məsuliyyətin yaradılması təşviq edilmişdir ki, bunlardan iki əsas hesabat – 1987-ci ildə nəşr olunmuş "Bruntland hesabatı" və 1990-cı ildə nəşr olunmuş "İnsan inkişafı hesabatı" daha çox diqqəti cəlb edir. Məhz bu hesabatlar nəticəsində ictimai və ekoloji problemlər institutsional mövqe qazanaraq günümüzdə "Dayanıqlı inkişaf" kimi bildiyimiz anlayışı üzə çıxarmışdır. BMT-nin sözügedən konfransında qərara alınan əsas məsələlərdən biri kimi BMT-nin Ətraf Mühit Proqramına Maliyyə Dəstəyi (UNEP FI) barədə tərəfdaşlığın qəbul edilməsini əsas nailiyyətlərdən hesab etmək olar. Çünki bu, BMT ilə dünya ölkələrinin bankları, investisiya və sığorta təşkilatları arasında yaranan bu tərəfdaşlıq ətraf mühitin mühafizəsi üzrə birgə layihələrin maliyyələşməsində mühüm rola malikdir.

Faizsiz bankçılıq və ətraf mühitin mühafizəsi. Faizsiz bankçılıq İslam maliyyəşməsinin təməl əsaslarından sayılıb bir çox ölkələrdə inkişaf etmişdir. Belə ki, qardaş Türkiyədə, İndoneziyada, Malayziyada, Pakistanda, Birləşmiş Krallıqda, İranda, ərəb ölkələrində və s. ölkələrdə inkişaf edən faizsiz bankçılıq (İslam bankçılığı) ölkənin hüquqi və ictimai quruluşundan, adət-ənənələrindən, tarixindən və s. asılı olaraq müxtəlif spesifik prinsiplər əsasında fəaliyyət göstərirlər. Məlumdur ki, Türkiyə Respublikasında

mövud olan Türkiyə Müştərək Banklar Birliyi (Türkiye Katılım Bankaları Birliği) aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:



Şəkil 1. Türkiyə Müştərək Banklar Birliyinin əsas prinsipləri (TKBB-2020)

Türkiyədə ənənəvi bank sektoru ilə müqayisədə faizsiz bankçılığın payı az olsa da, 2019-cu ildə sektor içindəki aktivlərinin 6,3 % (284 mld. TL) olduğunu nəzərə alaraq müştərək bankların da davamlı inkişaf hədəflərini reallaşdırmaq yolunda zəruri öhdəliklərinin olmasını qeyd edə bilərik. Müştərək bankçılığı baza dəyər və prinsiplərlə ələ aldıqda görürük ki, BMT-nin ətraf mühit üzrə dayanıqlı maliyyələşmə əsasları faizsiz bankçılığın əsas prinsipləri ilə üst-üstə düşür. Məsələn, TKBB-nin "Faizsiz maliyyə", "İctimai fayda", "Yardımlaşma", "Tam xidmət" və "Ticarət" prinsiplərini ələ aldıqda müştərək bankların mövcud dəyərlərinin həm ictimai, həm də ekoloji mühafizəyə böyük həcmdə dəstək verə biləcəyini qeyd edə bilərik. 2024-cü ilə qədər bank sektorunda məcmu payını 15 %-ə qədər çıxarmağı hədəfləyən müştərək bankların davamlı maliyyələşmə fəaliyyətləri vasitəsilə məhsul çeşidini genişləndirməsi və daha geniş müştəri bazasına çatması ilə ictimai etibarlılığının, maarifləndirilmənin və prestijinin artması da onlara potensial üstünlük vəd edir. Sosial məsuliyyətli investisiya fəaliyyəti gedişində Türkiyənin müştərək bankları tərəfindən istismarı nəzərdə tutulan "Yeşil sukuk" (Green sukuk) İslam qiymətli kağızları vasitəsilə ekologiyanın qorunmasında, meşə təsərrüfatının genişləndirilməsində perspektivli addımların atılması prioritet məsələlərdən sayılır. Qeyd edək ki, "Yeşil sukuk" aləti İndoneziya təcrübəsində geniş yayılmış və faizsiz maliyyələşmə sistemi mövcud olan digər ölkələrdə təzəlikcə istifadə olunmağa başlanmışdır.

İndoneziya Respublikası Maliyyə Nazirliyinin 2021-ci ilin may ayına olan hesabatında "Green sukuk" alətindən istifadənin istiqamətləri, həcmi və öncəki dövrlərlə müqayisədə istifadə arealı əks olunmuşdur. Hesabatda qeyd olunur ki, 2018-2020-ci illər ərzində Yaşıl sukukun (istiqrazdan) qlobal emissiya dəyəri 2,75 milyard ABŞ dolları olduğu halda, təkcə İndoneziyada bu göstərici 2019-2020-ci illər ərzində 490,1 milyon ABŞ dolları təşkil etmişdir. İndoneziyada ekoloji mühitin yaxşılaşdırılması istiqamətində aparılan Yaşıl sukuk emissiyası və istismarı nəticəsində 2019-2020-ci illər ərzində aşağıdakı müsbət dəyişikliklər ortaya çıxdı: Enerjiyə qənaət 8 %-dən 27 %-ə, tullantıların yenidən emalı 7 %-dən 11 %-ə çıxdı. Nəqliyyat sıxlığı və bərpa olunan enerji mənbələrindən istifadənin faiz göstəriciləri isə müvafiq olaraq 55 %-dən 7 %-ə və 8%-dən 5 %-ə qədər düşdü.

NƏTICƏ

Tədqiqat işində qeyd edildi ki, İslam maliyyə alətlərinin ətraf mühitin mühafizəsinə yönləndirilməsi bir çox ölkələrin praktikasında mövcuddur. Hazırda ölkəmizdə də İslam maliyyəsinin təşviqi ilə bağlı bir sıra işlər aparılır. Belə ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, KOBİA, Sahibkarlığın İnkişafı Agentliyi və s. institutlar yerli və beynəlxalq qurumlarla tərəfdaşlıq çərçivəsində bu tip maliyyələşmənin stimullaşdırılmasına çalışır. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyd edildiyi kimi, ölkəmizdə də İslam maliyyəsinin inkişafı xarici investisiyaların, xüsusilə Körfəz ölkələrinin maliyyə vəsaitlərinin cəlbi ilə daha da əlçatan mövqedə ola bilər. İslam maliyyə institutları real sektorda maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi, kiçik və orta sahibkarlığın dayanıqlı inkişafının təmin edilməsində müstəsna rola malik olacaqdır. Hazırda Türkiyə, İndoneziya, Malayziya, Pakistan və s. kimi ölkələrdən fərqli olaraq Azərbaycanda İslam maliyyəsinin qanunvericilik bazasının olmamasına baxmayaraq, yuxarıda adı çəkilən qurumlar tərəfindən əhəmiyyətli maarifləndirmə tədbirlərinin keçirilməsini müşahidə edirik. Bu da İslam maliyyə alətlərindən istifadənin sosial məsuliyyətli investisiyalarda gələcək perspektivdə artmasına gətirib çıxara bilər.

ƏDƏBIYYAT SIYAHISI

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (**Strateji Yol Xəritəsi**), Bakı/Azərbaycan. 2016: 101-102

Minstry of Finance of Republic of Indonesia. Green Sukuk – Allocation and impact report https://djppr.kemenkeu.go.id/uploads/files/dmodata/in/6Publikasi/Offering%20Circular/Green%20Sukuk%

20Allocation%20and%20Impact%20Report_2021%20FINAL.pdf (**onlayn məqalə**) Jacarta/Indonesia. 2021: 6-8
E. Y. Gedikli, H. Gökırmak. Katılım bankacılığı ve sürdürülebilir kalkınma faaliyetleri üzerine bir araştırma.
file:///C:/Users/User/Downloads/KatlmBankaclveSrdrlebilirKalknmaFaaliyetlerizerineBirAratrma.pdf
(**onlayn məqalə**). İstanbul/Türkiye. 2021: 3-10

TURİZM VƏ İQTİSADİ QLOBALLAŞMA

Əhmədli Fatmaxanım Eldar qızı
fatya.ahmedli@gmail.com
Naxçıvan Dövlət Universiteti, müəllim
Naxçıvan Muxtar Respublikası, Azərbaycan

Xülasə. Qloballaşma müasir dünyanın iqtisadi, sosial, siyasi və mədəni sferalarını xarakterizə edir. Turizm uzun müddətdir ki, qloballaşmanı formalaşdıran həlledici qüvvə kimi iddia edilir, öz növbəsində turizm sektorunun inkişafı bütün dünyada artan qarşılıqlı asılılığın təsiri altındadır. Qloballaşma davam etdikcə təyinat ölkələri yerli və qlobal hadisələrə daha çox həssas olurlar. Mövcud ədəbiyyatı əlaqəli şəkildə birləşdirərək, bu tədqiqat turizmdə iqtisadi qloballaşma ilə bağlı bir sıra mövzuları araşdırır. O, qloballaşmanın əsasını təşkil edən qüvvələri müəyyən etməyə və turizm sektorunun həm təklif, həm də tələb tərəfinə təsirlərini qiymətləndirməyə çalışır. Kəmiyyət sübutlarının çatışmazlığını nəzərə alaraq, turizm tələbinin qarşılıqlı asılılığını, turizm məhsuldarlığının yaxınlaşmasını və qlobal hadisələrin təsirini araşdırmaq üçün empirik tədqiqatların gələcək istiqamətləri təklif edilmişdir.
Açar sözlər: *İqtisadiyyat, turizm, qloballaşma, turizm tələbi, turizm təklifi*

Giriş. Qloballaşma anlayışı XX əsrin ortalarında meydana gəlmişdir və xüsusilə son 50-tək il ərzində dünyanı formalaşdıran müxtəlif iqtisadi, sosial, siyasi və mədəni dəyişiklikləri təsvir etmək üçün geniş şəkildə istifadə edilmişdir. Qloballaşmaya müxtəlif nöqteyi-nəzərdən çoxsaylı təriflər verilə bilsə də, ümumiyyətlə qloballaşma məkan və zamanın sıxılmasını və qlobal miqyasda iqtisadi, sosial, siyasi və mədəni qarşılıqlı asılılığın intensivləşməsini nəzərdə tutan bir proses kimi müəyyən edilir. Qloballaşma prosesi təkcə iqtisadi fəaliyyətin yüksək səviyyədə coğrafi yayılmasını deyil, həm də yerli və regional səviyyədə iqtisadi fəaliyyətlərin dərin funksional inteqrasiyasını nəzərdə tutur. Qloballaşma iqtisadiyyatlar arasında inteqrasiya və qarşılıqlı asılılığı vurğulayır. [1, s.18]

İqtisadi baxımdan qloballaşma beynəlxalq ticarət və beynəlxalq maliyyə. Bu üç sahələr turizm fəaliyyətləri daxilində dərin kök salmışdır. Turizm qloballaşma prosesində əsas aspekt kimi görülsə də, qloballaşma turizmin qlobal artımına əhəmiyyətli təkan vermişdir. Qloballaşma şəraitində turizm sektoru tədqiq edilməsəydi, turizm iqtisadiyyatı ədəbiyyatının spektri tam olmazdı. Hazırkı tədqiqatda turizm sektorunun qloballaşması və onun iqtisadi nəticələrinə dair ədəbiyyat nəzərdən keçirilir. Qloballaşma bir çox turizm tədqiqatlarında fon kimi görünsə də, qloballaşmanın sektorun həm təklif, həm də tələb tərəfində necə inkişaf etdiyinə dair hərtərəfli təhlil hələ də yoxdur. [1, s.32]

Turizm tələbinin iqtisadi qarşılıqlı asılılığı. Qloballaşma təkcə turizmin təklif tərəfində mövcud deyil, həm də bütün dünyada getdikcə bir-birinə bağlı olan turizm tələbini müəyyən edir. Ölkələr turizm fəaliyyəti vasitəsilə güclü iqtisadi əlaqələrlə bağlıdır, belə ki, turizm tələbi ölkələr arasında birgə hərəkətlər nümayiş etdirir. 1960-cı illərin əvvəllərində İkinci Dünya Müharibəsindən sonra reaktiv təyyarələrin meydana çıxması ilə başlayan kütləvi turizm, transmilli korporasiyaların turizm sisteminin təchizat tərəfində artan cəlb edilməsinə səbəb oldu və bu da buna şərait yaratdı. Nəqliyyat vasitələrində texnoloji inkişafın artması münasib qiymətlərlə tez-tez və uzun məsafələrə səyahət etmək imkanı yaratmışdır. Azaldılmış nəqliyyat xərcləri ilə yanaşı, dünyada artan rifah və yeni orta təbəqələrin yaranması da turizm obyektlərinin və xidmətlərinin nəzərəçarpacaq dərəcədə istehlakına kömək edir. [3, s.57]

Turizmlə Əlaqədar Sektorların İnteqrasiyası. Turizm təklifi tərəfində, dünya turizm sektorunda hava yolları, mehmanxanalar, turoperatorlar və.s. transmilli korporasiyalar üstünlük təşkil edir. Bu korporasiyalar yüksək səviyyəli şaquli və üfüqi inteqrasiya ilə xarakterizə olunur. İnteqrasiyanın necə inkişaf etdiyini nəzərə almaq üçün düşüncə xəttinə korporativ genişlənmə, beynəlxalq istehsal bölgüsü və sonra iqtisadi qüvvələrin mövcud olduğu dəyər zəncirlərinin inteqrasiyası daxildir. Turizm kontekstində inteqrasiyanın əsas xüsusiyyəti təchizat zəncirindəki üzvlər arasında qarşılıqlı asılılığın tanınması və müxtəlif əlaqələrin səmərəli inteqrasiyasını dəstəkləyən strategiyaların yaradılmasıdır. [4, s.61]

Nəticə. İqtisadi cəbhədə qloballaşma iqtisadi coğrafiyada geniş müzakirə olunan bazar dinamikası və kapitalizmin imperativləri nöqteyi-nəzərindən başa düşülür. Bazar dinamikasının məntiqi qloballaşmanı bazar rəqabətinin bilavasitə nəticəsi hesab edir. Nəzəri olaraq, azad ticarət ölkələrə müqayisəli üstünlükləri əsasında öz rifahını maksimum dərəcədə artırmağa imkan verir, halbuki bazar qüvvələri və qlobal rəqabət əmtəə və xidmətlərin minimum xərclə səmərəli istehsalına imkan verir; bu vaxt, faiz dərəcələri kimi əsas maliyyə göstəriciləri bərabərləşir ki, maliyyə dəyəri ölkələr arasında oxşar olsun. [5]

Ədəbiyyat:

1. Əlirzayev Ə.Q ., "Turizmin iqtisadiyyatı və idarə edilməsi", "İqtisad Universiteti nəşriyyatı", Bakı, 2011, 494 s.
2. Bilalov B.Ə., "Turizm fəaliyyətinin tənzimlənməsi", "Mütərcim", Bakı, 2006, 280 s.
3. Chris Holloway, R. Davidson, Claire Humphreys. The Business of Tourism. Paperback, 2009. p 386
4. John Beech, Simon Chadwick. The Business of Tourism Management. Paperback, 2005 p. 134
5. www.unwto.org

TOURISM AND ECONOMIC GLOBALIZATION

Azerbaijan, Nakhchivan Autonomous Republic
Ahmadli Fatmakhanim Eldar
fatya.ahmedli@gmail.com
Nakhchivan State University, teacher
info@ndu.edu.az

Summary. Globalization characterizes the economic, social, political and cultural spheres of the modern world. Tourism has long been claimed as a decisive force in shaping globalization, while the development of the tourism sector is under the influence of increasing interdependence around the world. As globalization continues, destination countries become more sensitive to local and global events. Combining the existing literature, this study examines a number of topics related to economic globalization in tourism. It seeks to identify the forces that underlie globalization and to assess the impact of the tourism sector on both supply and demand. Given the lack of quantitative evidence, future directions of empirical research have been proposed to investigate the interdependence of tourism demand, the convergence of tourism productivity, and the impact of global events.

Keywords: *Economy, tourism, globalization, tourism demand, tourism supply*

ТУРИЗМ И ЭКОНОМИЧЕСКАЯ ГЛОБАЛИЗАЦИЯ

Азербайджан, Нахчыванская Автономная Республика
Ахмедлы Фатмаханым Эльдар
fatya.ahmedli@gmail.com
Нахчыванский государственный университет, преподаватель
info@ndu.edu.az

Резюме. Глобализация характеризует экономическую, социальную, политическую и культурную сферы современного мира. Туризм уже давно считается решающей силой в формировании глобализации, в то время как развитие сектора туризма находится под влиянием растущей взаимозависимости во всем мире. По мере продолжения глобализации страны назначения становятся более чувствительными к местным и глобальным событиям. Объединяя существующую литературу, это исследование рассматривает ряд тем, связанных с экономической глобализацией в туризме. Он стремится определить силы, лежащие в основе глобализации, и оценить влияние туристического сектора как на спрос, так и на предложение. Учитывая отсутствие количественных данных, были предложены будущие направления эмпирических исследований для изучения взаимозависимости туристического спроса, конвергенции производительности туризма и влияния глобальных событий.

Ключевые слова: *экономика, туризм, глобализация, туристический спрос, туристическое предложение*

MÜƏSSİSƏDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN MÜƏYYƏN EDİLMƏSİ VƏ ÖLÇÜLMƏSİ

BABAYEV AZAD ƏLİZADƏ SEVİNC
Azərbaycan Texniki Universiteti Azərbaycan Texniki Universiteti
Nəqliyyat/Rus Nəqliyyat və logistika/Azərbaycan
babayevazad69@gmail.com **sevincelizade2018@gmail.com**
BAKI/AZƏRBAYCAN BAKI/AZƏRBAYCAN

XÜLASƏ

Bugünkü qeyri-sabit iqtisadi şəraitdə sahibkarlıq fəaliyyətinin inkişafı təşkilatın risklərin idarə edilməsi sahəsində işin gücləndirilməsi zərurətini əvvəlcədən müəyyənləşdirir. Bununla əlaqədar olaraq, "Risklərin təhlili və idarə edilməsi" fənni tələbələrin risk və qeyri-müəyyənlik şəraitində nəzəri biliklərə və praktiki qərar qəbul etmə bacarıqlarına malik olmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. İntizamın məqsədinə uyğun olaraq əsas məqsəd tələbələrə təşkilatın risklərin idarə edilməsi və riskə təsir üsulları sahəsində nəzəri və praktiki biliklərin verilməsidir.

AÇAR SÖZLƏR: Açar söz-risk, açar söz- müəssisə, açar söz-hadisə

GİRİŞ

Müəssisə miqyasında risklərin idarə edilməsi iş adamlarının şirkətlərinin strateji, əməliyyat və maliyyə məqsədlərinə çatmasına mane olan qeyri-müəyyənlikləri idarə etmək üçün etibar etdikləri əsas çərçivədəki dəyişiklikləri əks etdirir. Köhnə çərçivə risklərin idarə edilməsinə müstəqil yanaşma ilə xarakterizə olunduğu halda, yeni yanaşma vahid, hərtərəfli, təşkilatın bütün risklərini birləşdirən və risklərə cavab strategiyalarının işlənib hazırlanmasıdır. Dəyişikliklərə ehtiyac olduğunu dərk edən bir sıra şirkətlər tədricən risklərin idarə edilməsinin bu yeni modelinə keçirlər.

Bu məqalədə beş konkret biznes vəziyyətinin təhlilindən əldə edilən dərslər müzakirə olunur. Bu təhlil bizə riskin necə idarə edilməli olduğunu öyrənməyə imkan verir. Eyni zamanda, bütün şirkətlər üçün bir ümumi xüsusiyyət mövcuddur. Hər bir şirkət hesab edir ki, müəssisə risklərinin idarə edilməsi vasitəsilə o, öz aktivlərini yaradır, qoruyur və onlara dəyər əlavə edir. Daha konkret desək, şirkətin yaradılması, qorunması və dəyərinin artırılması aşağıdakı amillər əsasında həyata keçirilir:

- risklər, onların qarşılıqlı əlaqələri, habelə mümkün kompensasiyalar, şirkət rəhbərliyin məqbul hesab etdiyi risk səviyyəsi haqqında məlumat;
- riskin şirkətin maliyyə vəziyyətinə və gəlirinə necə təsir etdiyini başa düşmək, həmçinin bütün risklərin ehtimal və əhəmiyyət səviyyələri haqqında məlumat;
- şirkətin risklərin idarə edilməsində mövcud ziddiyyətlərin təhlili və risk dərəcəsi nəzərə alınmaqla resursların bölüşdürülməsinin səmərəliliyi tədbirləri;
- riskə əsaslanan stimulları inkişaf etdirmək, yeni maliyyələşdirmə imkanlarını axtarmaq və ya mövcud risk idarəetmə infrastrukturundan istifadə edərək riski ötürməklə qazanc dəyişkənliyinin azaldılması.

TƏDQİQAT METODU

Şirkətdə risklərin idarə edilməsi proqramı həyata keçirilməzdən əvvəl risklər müəyyən edilməlidir.

Nümunələr verək.

Fəaliyyətinin ilk günlərindən DuPontun bütün işçiləri dinamit istehsalı ilə bağlı riskdən xəbərdar idilər.

Birləşmiş Taxıl Yetiştiriciləri üçün risk onun əməliyyatlarının nəticələrinə böyük təsir göstərən hava idi.

Chase Bank-ın ilk günlərində kreditlər üzrə defolt riski onun nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Unocal üçün risk iri neft yataqlarının axtarışı ilə bağlı idi, onların olmaması şirkətin iflasına səbəb ola bilərdi.

Microsoftun riskləri onun bazar payının itirilməsi ilə bağlıdır. Və buna görə də daim öz sahəsində yeniliklər etməlidir.

Bununla belə, bu gün sürətlə dəyişən, mürəkkəb, beynəlxalq biznes mühitində risk heç də həmişə açıq şəkildə görünmür. Nəticə etibarilə baş risk meneceri korporasiyanın prezidenti olsa da, buna baxmayaraq, bütün səviyyələrdəki idarəetmə işçiləri risklərin idarə edilməsini işlərinin mühüm hissəsi hesab etməlidirlər. Bunun üçün onlar öz bölmələrinin üzləşdiyi risklərdən, eləcə də digər bölmələrin və bütövlükdə müəssisənin üzləşdiyi risklərdən xəbərdar olmalıdırlar.

Tədqiq etdiyimiz şirkətlər riski müəyyən etmək üçün müxtəlif üsullardan istifadə etsələr də, bəzi ümumi yanaşmalara əməl etdilər. Microsoft-da risklərin idarə edilməsi komandası şirkət daxilində daima risklərin idarə edilməsi ideyalarını təbliğ edir. Microsoft risk menecerləri biznes qərarlarında nəzərə alınmalı olan ehtimalı və potensial nəticələri vurğulayaraq riskin müəyyən edilməsi zərurətini "təbliğ etdiklərini" deyirlər. Microsoft-un xəzinədarının sözlərinə görə, bu yanaşma "korporasiyanın riskinin 90%-ni" ortaya qoyur.

Microsoft həmçinin maddi risklərini müəyyən etmək üçün ssenari təhlilindən istifadə edir. Xəzinədar və Korporativ Risklərin İdarə Edilməsi şöbəsinin rəhbəri Brent Kalinikos deyir: "Biz əvvəllər əmlakı zəlzələdən sığortalayır, avadanlıqların qorunması və binaların zədələnməsi haqqında düşünürdük və s. Amma əsl risk zədələnmiş binalardan deyil, məhsulun inkişaf dövrümüzün kəsilməsindən və istehsal fəaliyyətini həyata keçirə bilməməyimizdən idi". Risklərin idarə edilməsi qrupu müxtəlif risk ssenariləri hazırlayır, onları faktiki olaraq digər müəssisələrdə baş vermiş hadisələrlə müqayisə etməyə çalışır. Riskin müəyyənləşdirilməsinə başqa bir ənənəvi yanaşma özünüqiymətləndirmədir. Chase Bank-ın müxtəlif səviyyəli menecerləri bölmələri üçün riskləri müəyyən etmək üçün bal kartları doldururlar. Unocal öz bölmələrinin hər birindən illik risk qiymətləndirməsi aparmağı tələb edir. Onun liderləri yeni yanaşmalarında əhəmiyyətli dəyişikliyi belə səciyyələndirirlər: "Şirkət auditorunun yoxlamalı olduğu 800 bənddən narahat olmaq əvəzinə, menecerlər aktiv özünüqiymətləndirmə yolu ilə ən riskli fəaliyyət sahələrini müəyyən etməli və sonra idarəetmə üçün konkret addımlar atmalıdırlar. onlar." Riskin müəyyənləşdirilməsi davam edir. Şirkətin biznesi dəyişdikcə onun riskləri də dəyişir.

Microsoft həmçinin maddi risklərini müəyyən etmək üçün ssenari təhlilindən istifadə edir. Xəzinədar və Korporativ Risklərin İdarə Edilməsi şöbəsinin rəhbəri Brent Kalinikos deyir: "Biz əvvəllər əmlakı zəlzələdən sığortalayır, avadanlıqların qorunması və binaların zədələnməsi haqqında düşünürdük və s. Amma əsl risk zədələnmiş binalardan deyil, məhsulun inkişaf dövrümüzün kəsilməsindən və istehsal fəaliyyətini həyata keçirə bilməməyimizdən idi". Risklərin idarə edilməsi qrupu müxtəlif risk ssenariləri hazırlayır, onları faktiki olaraq digər müəssisələrdə baş vermiş hadisələrlə müqayisə etməyə çalışır.

NƏTİCƏ

Riskin müəyyənləşdirilməsinə başqa bir ənənəvi yanaşma özünüqiymətləndirmədir. Chase Bank-ın müxtəlif səviyyəli menecerləri bölmələri üçün riskləri müəyyən etmək üçün bal kartları doldururlar. Unocal öz bölmələrinin hər birindən illik risk qiymətləndirməsi aparmağı tələb edir. Onun liderləri yeni yanaşmalarında əhəmiyyətli dəyişikliyi belə səciyyələndirirlər: "Şirkət auditorunun yoxlamalı olduğu 800 bənddən narahat olmaq əvəzinə, menecerlər aktiv özünüqiymətləndirmə yolu ilə ən riskli fəaliyyət sahələrini müəyyən etməli və sonra idarəetmə üçün konkret addımlar atmalıdırlar. onlar." Riskin müəyyənləşdirilməsi davam edir. Şirkətin biznesi dəyişdikcə onun riskləri də dəyişir.

UGG etiraf etdi ki, müəyyən etdiyi risklər siyahısı köhnəlmişdir.

Özünüqiymətləndirmə yolu ilə riskin müəyyənləşdirilməsinə əlavə olaraq, UGG və Unocal riskləri müəyyən etmək üçün əsas işçilərinin ad hoc görüşlərini və beyin fırtınası sessiyalarını təşkil edir. Unocal bu cür görüşlərin təşkilində öz bölmələrinə yardım edir və təkcə maliyyə deyil, bütün riskləri - siyasi, texnoloji, rəqabətdən tutmuş hər bir biznes prosesinin risklərinə qədər sistemli şəkildə müəyyən etmək üçün onlar arasında əməkdaşlığı təşviq edir.

Risklərin müəyyənləşdirilməsi görüşlərində onlar dərhal pul dəyərinə, əhəmiyyətinə və ya nəticələrinin şiddətinə görə sıralanır. Belə bir təhlil iki səbəbə görə menecerlər üçün faydalıdır. Birincisi, bu yolla siz riskin qəbul edilən əhəmiyyətini görə bilərsiniz. İkincisi, risklərin əhəmiyyətinə görə sıralanması risklərin idarə edilməsi strategiyasının işlənib hazırlanmasına və onun həyata keçirilməsi üçün vəsaitlərin səmərəli şəkildə ayrılmasına imkan verir.

Bir şirkətin kapitalını səhv idarə edərək və ya daha az riskli risklərə diqqət yetirərək resursları israf edib-etmədiyini bilməyin yeganə yolu riski ölçməkdir. Bunu etmək onları sıralamaq qədər asandır. Bəzi risklər üçün onları ölçməyin yeganə yolu subyektiv sıralamadır. "Microsoft" və "UGG" şirkətlərinin ekspertləri hesab edirlər ki, bəzi riskləri ümumiyyətlə ölçmək mümkün deyil. Microsoftun maliyyə və biznes riskinə yanaşması bizi maraqlandıran bütün riskləri ölçməkdən ibarətdir. Mütəxəssislərin bütün ölçmələri tamamilə həyata keçirə bilməyəcəyindən narahat olmayın. Təəssüf ki, əksər hallarda nadir hadisələr haqqında daha az məlumatımız və tez-tez baş verən hadisələr haqqında daha çox məlumatımız var. Bununla belə, risk dərəcəsinin ölçülməsi riskin faktiki səviyyəsini müəyyən etməyə kömək edir. Əks təqdirdə şirkətlər yalnız intuisiya və təcrübə ilə rəhbər tutulmağa məcbur olacaqlar.

ƏDƏBİYYAT SİYAHISI

1. Антонов, Г. Д. Управление рисками организации: Учебное пособие / Г.Д. Антонов, О.П. Иванова, В.М. Тумин. - М.: НИЦ ИНФРА-М, 2017. -
2. Анализ и управление рисками организации: Учебное пособие / Н.А. Рыхтикова. - 2-е изд. - М.: Форум, 2014. - 240 с.: 60x90 1/16. - (Высшее образование). (ЭБС Инфра-М)
3. Андреев, В.Д. Риск-ориентированный аудит, контроль, анализ и управление предпринимательскими рисками: слов.-справ. Основных терминов и понятий / В.Д. Андреев. – Сочи: РИЦ ФГБОУ «СГУ», 2015. – 180с.
4. Агапова, Т.Н. Анализ рисков: учебное пособие / Т.Н. Агапова. – М. : Московский университет МВД России имени В.Я. Кикотя, 2015. – 75 с.
5. Воробьев, С. Н. Управление рисками в предпринимательстве [Электронный ресурс] / С. Н. Воробьев, К. В. Балдин. - 4-е изд., испр. - М. : Издательско-торговая корпорация «Дашков и Ко», 2013. - 482 с.
5. Ценина, Т.Т. Управление рисками: учебное пособие / Т.Т. Ценина, Е.В. Ценина. – СПб.: Изд-во СПбГЭУ, 2013. – 227 с.

BEYNƏLXALQ TİCARƏT VƏ LOGİSTİKA

THE FORMULATION OF DIGITAL ECONOMY IN POST-PANDEMIC SITUATION

Dr. Elvin Alirzayev,
Academy of State Customs Committee,
Turan Khalidova, UNEC

ABSTRACT
Digital economy is considered as a highest development level of ICT which impacts on economic prosperity. Banking sector functioning as medium in this process needs to be developed firstly. We have taken digitalization level of banking services as proxy for digital economy for Azerbaijan. We concluded that number of ATMs in overall economy and precisely in the rural areas steeply increased in recent years which can be considered as good level of digital economy. Besides, banking payment systems especially in salary, pensions, rent, government and corporation related payments covered all economy in Azerbaijan. Furthermore, New Generation POS / Smart Cashier installed in all service spheres. Additionally, mobile POS launched by few banks which support digital economy in this regard.
Keywords: digital economy, banking systems, cashless payments

INTRODUCTION
The digital economy is an economy that is based on digital computing technologies, but is often perceived as conducting business through e-markets. The digital economy run by billions worldwide of everyday online connections among people and businesses. Digitalization of economies will bring new products, services, jobs, company types and even markets.
The idea of digital economy is via spreading ICT across all business sectors to enhance its productivity. As future of work, digital economy brings more efficient business model reducing cost of marketing, distribution and other economic factors. COVID-19 pandemic itself has given to businesses chance to improve economic model more efficiently and resulted in deepening in digital economy. pandemic has pushed remote working to the fore. Especially post-COVID pandemic status is contributing to the digital economy.

THE PHENOMENA OF DIGITAL ECONOMY
According to Mesenbourg (2001) main components of the digital economy concept can be identified as [10]:

- E-business infrastructure (hardware and software products, telecom, networks, human capital),
- E-business structure (how business is run, process that an organization confronts over computer-mediated networks),
- E-commerce (transfer of goods, when a product is sold online).

Digital economy is a result of switching from the third to the fourth industrial revolution. Third industrial revolution, so-called the digital revolution, refers to the changes with the transition from analog electronic and mechanical devices to digital technologies happened in the late 20th century. The fourth industrial revolution is built on the digital revolution as technologies today try to bridge the physical and cyberworlds [11].
In 2016, the Digital Economy represented $11.5 trillion, or 15.5% of global GDP. It is noteworthy that the digital economy had grown two and a half times faster than global GDP over the previous 15 years, almost doubling since 2000 [12].

GLOBAL EXPERIENCE
Most of the value in the digital economy was produced in only a few economies: United States (35%), China (13%) and Japan (8%). The EU together with Iceland, Liechtenstein and Norway accounted for another 25% [12].
According to UNCTAD Digital Economy Report 2021, only 20% of people in least developed countries have access to internet with relatively low speeds and with relatively high cost. In comparison, up to 8 out of 10 internet users shop online in most developed countries, while less than 1 out of 10 in many LDCs. Furthermore, there are significant disbalances between rural and urban areas, as well as between men and women within countries. [13].

As smartphones are a key tool for accessing internet and transferring data, these countries stay behind of world average, where North America and Europe led in the list of smartphone adoption rate, followed by China. The cost of smartphones represented around 4 % of monthly GDP per capita in developed countries and as high as 30 % in poor countries for 2019 [7]. For, mobile data plans cost 5% or more than average monthly GNI per capita for poor countries, where it can be reached up to 20 % in some cases [8]. Speed of internet which has huge impact on digital economy also range widely by country development level. However, speed in fixed broadband is much higher in mobile broadband in all countries, but it is more than twice difference for developed countries [13, p.12-25]. And they have seen in their size, profits, market value and dominant positions strengthened during the pandemic, as digitalization has accelerated.

Table 1. Internet activity grades by countries, by level of development and region, in %

Internet activity	Developed economies	Transition economies	Developing economies-Africa	Developing economies-Asia
Internet banking	62.3	14.9	9.8	34.8
Getting information about goods or services	83.9	50.9	30.6	68
Purchasing or ordering goods or services	53.9	18.2	14.6	29.1
Selling goods or services	16.8	7	3.5	6.4
Looking for a job or sending/submitting a job application	17.4	9.8	14.3	19.9
Using services related to travel or accommodation	55	5.7	7.5	25.2

Source: [13]

As seen from Table 1, from economic sight internet banking level, purchasing and selling goods or services online for developed economies is relevantly high, whereas online banking and trade indicators are too low for Transition and African countries. However, developing economies of Asia significantly thriving.

CURRENT STATUS AND PERSPECTIVE OF DIGITAL ECONOMIC BACKGROUND IN AZERBAIJAN

One of the key improvements in digital economic filed is launching Anipay (Instant Payment System) program since 2018. Anipay was established by the Central Bank within the framework of the "State Program on Expansion of Digital Payments in the Republic of Azerbaijan in 2018-2020" approved by the Order of the President of the Republic of Azerbaijan dated September 26, 2018. Anipay (AÖS) provides digital payment habits in society and increases cashless circulation in the economy, as well as innovative payment solutions. The main purpose of establishing Anipay is to ensure that payments can be made at any time, all year round between individuals and legal entities who are customers of banks and other non-bank payment service providers in Azerbaijan, as well as between these individuals and government agencies up to 40 thousand AZN per transaction [3].

The main function of the Anipay is to make payment services available to individuals and legal entities anywhere, anytime, and full transactions can be completed in seconds 24/7. Authentication, authorization, clearing and settlements on transactions in the system are carried out in real time in a single transaction format. The Government Payment Portal (GPP) has also been integrated into the Anipay to ensure that budget, utilities, communications, penalties, insurance and other payments are collected from a single platform. Thus, legal entities and individuals have the opportunity to pay for more than 1,000 services provided by organizations that have joined the GPP through the Anipay [1]. At present, the integration work on 13 banks and the State Treasury Agency on the Anipay platform has been completed and B2B, C2C (Business to Business, Customer to Customer) payments have been provided as pilot mode. [5].

As a new obligation since 2022 by State Tax Service under the Ministry of Economy of Azerbaijan Republic, businesses should get New Generation POS / Smart Cashier which this service/device provided by some banks to customers without additional payment, and the customer pays only the commission fee for the use of the POS-terminal. In addition to the traditional POS-terminal function, this device combines a smart cash register and many additional features. Running on a modern Android platform, these devices, equipped with touchscreen, have the features like using one device for a fiscal online cash register and for a POS-terminal, also obtaining sales turnover reports [2].

Two state-owned banks very recently launched new Mobile POS service to legal entities and individual entrepreneurs for the first time in Azerbaijan. Kapital Bank and Azerturk Bank have launched jointly with the State Tax Service under the Ministry of Economy, the service will now allow entrepreneurs besides the traditional POS-terminal to accept payments from cards, smart watches, stickers and other contactless payment methods via smartphones [4].

To use the service, it is necessary to have a smartphone with Android operating system and NFC module, as well as a user of the Customer Bank system. Applying this innovation, which is mainly suitable for small entrepreneurs operating in the trade and service sector (hairdressers, tailors, couriers, taxis, shoe repair, kiosk owners, food sector, small trade, fruits and vegetables, etc.), provides additional POS-terminal equipment. There is also no need to carry it. To connect to the service, you can do it online for free through the Customer Bank mobile application which makes easier the connection (without visiting banks branches) and functioning (no need to carry) process.

It should be noted that a number of services can be easily and safely used through the Client Bank: urgent transfers, budget payments, opening a current account fully online, joining a salary project, income to salary cards, ordering and delivery of salary cards, ordering business and entrepreneur cards, domestic and foreign cashless transfers, conversion operations, account control, receipt of statements, information about orders, ordering online loan products (overdraft, credit, guarantee, fast tender, etc.), cashing by QR, click payment service, etc. It should be noted that it is possible to get up to 25% discount on all transfers made through the Client Bank system.

Data Processing Center (MHM) of the Ministry of Transport, Communications and High Technologies of the Republic of Azerbaijan jointly with the AzerTurk Bank, and the international payment system MasterCard have implemented a joint project that for the first time in the country allowing to pay by bank cards on public transport. This project is one of the measures aimed at expanding digital payments envisaged in the "Strategic Roadmap for the Development of Telecommunications and Information Technologies in the Republic of Azerbaijan." The project was implemented in order to minimize the volume of cash turnover, increase the number of non-cash payments, including contactless card transactions and the organization of prompt receipt of payments. In this regard, a prepaid contactless payment card "INKART" was issued for use in public transport [9]. At present, an innovative transport ecosystem has been created, and a new generation of payment devices - validators - has been installed on buses. Validators can pay with a payment card belonging to any bank with contactless payment, which does not require the user to purchase an additional card. In addition to payment cards, equipment that supports NFC technology - smartphones, smart watches, etc. allows passengers to make payments.

Chart 1 shows us number of total ATMs in the economy as well as how many in Baku and the regions since 2006 till nowadays. The number of total ATMs shows us first stage (phase) of digitalization as all payments transact via banking system including salary, pensions, rent, government payments, corporate payments and receivers wants to withdraw it immediately or whenever they need.

Chart 1. Number of ATMs in BAKU, in the regions and in overall economy



Source: [6]

As seen from Chart 1, number of ATMs functioning in the regions accounted 1347 which was 425 in 2006. Counts of ATMs in the region more than tripled in this time period. In 2016, after double devaluation in the economy, number of ATMs decreased by 60 in the region and 180 in Baku comparing this previous year. As of 2022, there are 2908 ATMs run by 26 banks in the country. Till 2015 number of ATMs increased year by year but aftermath of devaluation impact on banking services could only reach the same level after 2019. Each year more than 100 ATMs added on overall economy till 2016, and in that year existing 240 ATMs were even shut down. The number also continued to decrease in 2017. In 2020 total newly added ATMs in the country realized 68, whereas 8 of them happened in the regions and 60 of them were in Baku. However, in 2021 new ATMs added in the overall economy realized 193, whereas 61 of them happened in the regions and 132 of them were in Baku.

CONCLUSION

As a result of improvements in digitalization in all sectors of the economy, banking system also expanded and not only in capital Baku, but in the regions as well in recent years. However, negative impact of 2015 economic downturn can be easily seen in spreading of banking sector. Counts of ATMs in the region more than tripled in last 15 years. In 2016, after double devaluation in the economy, number of ATMs decreased by 60 in the region and 180 in Baku comparing this previous year. As of 2022, there are 2908 ATMs run by 26 banks in the country. In 2021 increase level of ATMs counts is more than previous year meaning that pandemic situation almost over.

REFERENCES

1. Anipay (2020) ANİ ÖDƏNİŞLƏR SİSTEMİ HAQQINDA https://anipay.az/about.
2. Azerforum (2022) "Azər Türk Bank" sahibkarlara müasir ödəniş qəbulu xidmətlərini - TƏQDİM EDİR, https://azerforum.com/az/azer-turk-bank-sahibkarlara-muasir-odenish-qebulu-xidmetlerini-teqdim-edir
3. Banker (2021), https://banker.az/aos-n%C9%99dir-v%C9%99-hansi-banklarda-aktivdir-arasdirma/
4. Bey (2022) Ölkədə ilk dəfə sahibkarlar smartfonları ilə ödənişlər qəbul edə bilərlər! https://bey.az/xəbərlər/olkədə-ilk-dəfə-sahibkarlar-smartfonlari-ilə-odənislər-qəbul-edə-bilərlər/
5. CBAR (2020) https://www.cbar.az/press-release-2702/mrkzi-bank-ani-odnislr-sistemini-pilot-rejimind-istifady-tqdim-etmisdir
6. CBAR (2022) https://uploads.cbar.az/assets/4fa84c2974cf22ab68ab5b2ff.xlsx
7. GSMA (2020). The State of Mobile Internet Connectivity Report 2020. Global System for Mobile Communications Association, London, September.
8. ITU & UNESCO (2020). State of Broadband Report 2020: Tackling digital inequalities – A decade for action. International Telecommunication Union and United Nations Educational, Scientific and Cultural Organization. http://handle.itu.int/11.1002/pub/8165dc3c-en
9. Marja (2020) İctimai nəqliyyatda nağdsız ödəniş ilə bağlı yeni layihə həyata vəsiqə aldı https://marja.az/60816/ictimai-neqliyyatda-nagdsiz-odenis-ile-bagli-yeni-layihe-heyata-vesiqe-aldi
10. Mesenbourg, T.L. (2001). Measuring the Digital Economy. U.S. Bureau of the Census.
11. Pratt Mary K. (2017) Digital economy, https://www.techtarget.com/searchcio/definition/digital-economy
12. UNCTAD (2019) *Digital economy report "value creation and capture: implications for developing countries , United Nations Conference on Trade and Development. New York.*
13. UNCTAD (2021) *DIGITAL ECONOMY REPORT, Cross-border data flows and development: For whom the data flow*

XARİCİ TİCARƏT FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ LOGİSTİK TƏNZİMLƏMƏNİN ROLU

i.ü.f.d. Əlirzayev Elvin Vahid oğlu,
elvin.alirzayev@ascca.edu.az

magistrant Bayramlı Aynurə Nemət qızı,
aynure.bayramli@ascca.edu.az
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə Ədəbiyyatda logistika səmərəliliyi ilə iqtisadi artım arasında müsbət bir əlaqə olduğu göstərilir. Bu simbiyotik əlaqə müasir iqtisadiyyatların ayrılmaz bir hissəsidir. İqtisadi artımı təmin edən əsas vasitələrdən olan ticarət və logistika bütün sektorların inkişafında; əlavə dəyər yaradılması, yeni iş yerlərinin açılmasında, gəlirliliyin artırılmasında əhəmiyyətli rol oynayır. Logistika sahəsində regional və qlobal dəyər zəncirlərinə inteqrasiya etmək və dünyanın ən yaxşı təcrübələrinə əsaslanaraq tranzit ticarətindən yüksək gəlir əldə etmək üçün əlavə dəyər yarada biləcək xidmətlər də təklif oluna bilər. Ölkənin logistik imkanlarının dayanıqlı inkişafı onun region və dünya miqyasındakı ticarətdə əhəmiyyətini artırır, eləcə də əlverişli coğrafi mövqeyi ilə birləşdikdə tranzit ticarət və idxal-ixrac fürsətləri əldə edir. Bu prosesin effektiv tənzimlənməsində və logistik xidmətlərin səmərəliliyinin artırılmasında dövlət orqanları və özəl sektorun qarşılıqlı çalışması və əməkdaşlığı zəruridir.

Açar sözlər: xarici ticarət, logistika, tənzimləmə, infrasturktur, ticarət xərcləri
Keywords: foreign trade, logistics, regulation, infrastructure, trade costs
Ключевые слова: внешняя торговля, логистика, регулирование, инфраструктура, торговые издержки

Giriş

İqtisadiyyatın əsas məqsədi insanın və cəmiyyətin rifah səviyyəsini yüksəltmək olduğundan mal və xidmətlərə olan ehtiyaclarının hamısını və ya bir hissəsini ödəyə bilməyən ölkələr xarici ticarətə ehtiyac duyurlar. Ölkələr arasında edilən bütün ticarət fəaliyyətləri, mal və xidmət mübadiləsi xarici ticarət adlanır. [1]

Qrafik1. 1950-2020-ci illər üzrə malların ticarət trendi (milyar dollar ilə)



Mənbə:UNCTAD

Xarici ticarət sayəsində ölkələr idxal vasitəsilə başqa ölkələrdən mal və xidmətlər ala, ölkə daxilində təklifi artıq olan əmtəə və xidmətləri isə başqa ölkələrə ixrac edə bilirlər. Ticarətin inkşafı və asanlaşdırılması üçün digər amillərlə yanaşı logistik tənzimləmə və infrastruktur zəruri əhəmiyyət kəsb edir. Ticarət logistikası ilə bağlı dövlət tənzimləməsi çox vacibdir, çünki logistikanın səmərəliliyi yaxşı hazırlanmış dövlət siyasətindən asılıdır. Effektiv ticarət logistikası, dövlət tənzimləməsi ilə yanaşı, firma səviyyəsində inzibati prosedurların, təchizat zəncirləri, logistikanın institusional aspektlərinin tənzimlənməsi ilə də bağlıdır. Beynəlxalq ticarət həcmlərinin sürətli genişlənməsi həm də çətin, yüksək xərcli və vaxt aparan ticari və infrastruktur prosedurları kimi əməliyyatların sadələşdirilməsini tələb edir. Ticari və logistik tənzimlənmə effektiv olmadığı zaman ticarət iştirakçıları əhəmiyyətli çətinliklərlə üzləşə bilərlər. Bu səbəbdən logistik və sərhəd proseslərinin sürətləndirilməsi üçün ticarətin asanlaşdırılması ilə bağlı işlərin görülməsi zərurəti yaranır.

Avropa Komissiyasına görə, ticarətin asanlaşdırılması, beynəlxalq ticarət prosedurlarını sadələşdirmək və uyğunlaşdırmaq üçün tədbirlər kimi təyin edilə bilər. Digər faktorlarla yanaşı, logistika və informasiya mübadiləsi ilə bağlı infrastruktura, gömrük idarəçiliyində və prosedurlardakı keyfiyyəti artırmağa, korrupsiyaya və s. halların qarşısının alınmasına edilən investisiyalar, ölkənin logistika sisteminin səmərəliliyini artırarkən ticari prosedurlar üçün sərf edilən vaxt və xərclərini də azalda bilər. [2] Ticarətin asanlaşdırılması istiqamətində tənzimləmə və səmərəli logistik idarəetmə istehsalçılar və istehlakçılar arasında mal və xidmətlərin effektiv hərəkətini dəstəkləyir. Bu da öz növbəsində tədarük zəncirlərini daha səmərəli edir və ticarət iştirakçılarının üzləşdiyi xərcləri, bürokratiya və darboğazları azaldır. [3] Dövlət tənzimlənməsindən əlavə mikro səviyyədə rəqabət üstünlüyü olan şirkətlər, səmərəli logistika yolu ilə əldə etdikləri müştəri üstünlükləri baxımından rəqiblərə qarşı davamlı üstünlük mövqeyindən çıxış edirlər.[4]
Logistika sistemləri ticarət ilə sıx bağlıdır və ölkələrin rəqabət qabiliyyətinin müəyyən edilməsində getdikcə daha çox əhəmiyyət kəsb edir. Dünya ticarətinin artması həm də nəqliyyat texnologiyalarında tərəqqi tələb edir və keyfiyyətli logistika xarici investisiyaların səmərəli işləməsi üçün zəruri şərtdir. Malların daşınması coğrafi baxımdan böyük məsafələri qət etməyə və sərhədləri keçməyə imkan verir. Bir çox subyekt yüksək korporativ mürəkkəbliyə sahib olan transsərhəd daşımalarda iştirak edir. Bu baxımdan ölkənin səmərəli ticarət qabiliyyətini müəyyən edən bir sıra amillər var. Bu mürəkkəb, lakin bir-birindən asılı amillərdən üçü bunlardır:
I. Ticarətlə əlaqəli infrastrukturun keyfiyyəti (limanlar, yollar, dəmir yolu şəbəkələri və İKT)
ii. Ticarətlə bağlı sərhəd prosedurları
iii. Malların hərəkətinə cavabdeh olan özəl sektor xidmətlərinin keyfiyyəti (logistika xidmətləri)
Konseptual olaraq, ticarətin asanlaşdırılmasının təkmilləşdirilməsi hər üç amilin həllini nəzərdə tutur. Lakin son iki onillikdə əsas fəaliyyət ilk iki məsələyə, yəni sərhəd nəzarəti və infrastruktur ehtiyaclarına yönəlmişdir. [5] Logistika təchizat zəncirinin rəqabətli və ardıcıl yenidən qurulması əslində ticarətin asanlaşdırılması islahatlarının cari miqyasını genişləndirir və bununla da transsərhəd ticarəti daha vahid perspektivdən asanlaşdırmağa yönəlib.
Bir çox ölkələrdə dövlət qurumları logistika xidmətlərini tək bir sektorun bir hissəsi kimi yox, daha çox ayrı-ayrı tənzimləyici çərçivələr vasitəsilə tənzimləyir.Logistika sənayesində ayrı-ayrı tənzimləmə bəzi inkişaf etməkdə olan ölkələrdə bazar strukturunun uğursuzluğuna səbəb olmuşdur. Müxtəlif agentliklər və dövlət hakimiyyəti səviyyələri arasında zəif koordinasiya özəl sektoru rəqabətqabiliyyətli və səmərəli xidmətlər göstərməkdən çəkindirir və daha az xərclə logistik təchizat zəncirinin inteqrasiyasına mane olur. [6] Göndərmə və əlaqədar daşıma prosesləri malların beynəlxalq axını üçün ən yüksək xərc amillərini təşkil edir. Bu onu göstərir ki, bu xərcləri aşağı saxlamaq üçün yaxşı nəqliyyat sistemləri tətbiq edilməlidir. Ölkənin logistika infrastrukturuna avtomobil yolları, dəmir yolları və su yollarının nəqliyyat şəbəkəsi daxildir. Nəqliyyat infrastrukturu, xüsusən də yolların və limanların keyfiyyəti ixrac və idxala təsir edən ən mühüm amildir. Dövlət orqanları bu makroiqtisadi logistika sistemlərinə həlledici təsir göstərir və onların logistik infrastrukturunun keyfiyyətindən asılı olan şirkətlərin uğuruna töhfə verirlər. Bundan əlavə, logistikaya makroiqtisadi səviyyədə baxarkən, logistika xidmətləri və informasiya texnologiyaları da nəzərə alına bilər çünki onlar bütün logistik prosesləri planlaşdırmaq və idarə etmək üçün qərar qəbulu ilə bağlı məlumatları təmin edir [7]
Tədarük zəncirinin bir keçidindəki təkmilləşdirmələr, tamamlayıcı keçidlərdə də təkmilləşdirmələr aparılmayınca, çatdırılma müddətini qısaltmayacaq və ya vaxt dəyişkənliyini azaltmayacaq. Daha səmərəli gömrük, vergi xidmətləri yerli nəqliyyat və logistika xidmətləri səmərəsiz və rəqabətsiz qaldığı müddətdə çatdırılma vaxtını azaltmayacaq**.**

Cədvəl 1. Azərbaycan üzrə idxal və ixrac üzrə vaxt və xərc göstəriciləri

İllər	**İxrac vaxtı**	**İxrac Xərcləri** (1 konteyner üçün)	**İdxal Vaxtı**	**İdxal Xərcləri**
2016	27 gün	3460$	25 gün	3450$
2017	77 saat	1175$	79 saat	1023 $
2018	62 saat	514$	68 saat	623$
2019	62 saat	514$	68 saat	500$
2020	50 saat	464$	47 saat	500$

Logistika sənayesi sürətlə transformasiyadan keçir və bəzi ölkələr, xüsusən də inkişaf etməkdə olan ölkələrdə bu hadisələrin təsirlərini hələ də qiymətləndirməyib və müvafiq siyasətlə cavab verməkdə

gecikmələr yaşayır. Ticari proseslərdə logistika xidmətlərinin ortaya çıxan əsas çətinliklərinə üç tənzimləmə problemi daxildir:

Tənzimləmə Problemi I : Logistika xidmətlərinin inteqrasiyası

Logistika xidmətlərinin mütərəqqi inteqrasiyası xidmətlərin çeşidini və xarakterini dəyişir. Bu, bir şirkətin fəaliyyətinin bütün şəbəkəyə təsir göstərməsi ilə müəssisələrin daha çox qarşılıqlı asılılığına səbəb olur. Müxtəlif dövlət qurumlarının səlahiyyətləri çox vaxt səmərəli təchizat zəncirlərinin saxlanması maraqlarına uyğun olaraq tam əlaqələndirilmir. Qaydalar müəyyən sektorun tənzimləyici ehtiyaclarını ödəmək üçün tərtib edilir və zəncirin müxtəlif seqmentlərinin tənzimləmələrindəki bu cür ziddiyyətlər inteqrasiya olunmuş logistik xidmətlərin göstərilməsinə və ya səmərəli logistika zəncirinin tələb etdiyi vaxta və sinxronluğa təsir göstərə bilər. Normativ bazanın mürəkkəbliyi, həm də yerli hökumətlər arasında logistikaya təsir göstərən siyasətlərin qəbul edilməsində kifayət qədər koordinasiyanın olmaması ilə birləşir və regionlararası əməliyyatları çətinləşdirir.

Tənzimləmə Problemi *II: Giriş və əməliyyat məhdudiyyətləri*

Giriş

Dövlətlər adətən qeydiyyat və ya lisenziyalaşdırma yolu ilə girişi tənzimləyir. Lisenziyalaşdırma və ya qeydiyyat tələbləri mövcud operatorlara yeni xidmətlər təklif etməyə cəhd edərkən təsir edə bilər. Öz növbəsində müəyyən növ nəqliyyat əməliyyatları üçün xüsusi lisenziyalar və ya icazələr tələb olunur.

Qeydiyyat və lisenziyalaşdırma üçün müəyyən edilmiş meyarlar hökumətə iddialı şirkətin sənaye üçün maliyyə və texniki uyğunluğunu müəyyən etməyə kömək edə, həm də sektorda rəqabətin səviyyəsinə təsir göstərə bilər.

Əməliyyatlar

Bir çox ölkələrdə logistika şirkətlərinin fəaliyyətini davamlı olaraq çoxsaylı orqanlar tənzimləyir. Bu, məcburi dövri hesabat mexanizmləri, performans auditləri, lisenziyaların yenilənməsi və minimum kapital tələblərinə düzəlişlər vasitəsilə həyata keçirilir. Müxtəlif agentliklər əməliyyatla bağlı tənzimləyici nəzarəti həyata keçirir.

Tənzimləmə Problemi III: Xidmətlərin təmin edilməsi üçün infrastruktura çıxış və istifadə

Logistika subyektləri limanlarda, hava limanlarında, dəmir yolu və ya avtomobil terminallarında nəqliyyat infrastrukturu ilə bağlı xidmətlərə çıxış əldə etməlidir. Bununla belə, bəzi hallarda maraqların toqquşması və ya rəqabətin olmaması logistika təminatçılarının əməliyyatlarını məhdudlaşdırır, çünki obyekt sahibləri həm də logistika xidmətləri göstərə bilər.[8]

ITC dövlət-özəl dialoq yanaşmasına əsaslanan logistika xidmətlərinin tənzimləyici islahatını təşviq etmək üçün dörd mərhələli metodologiya hazırlamışdır. Bu yanaşma milli siyasət və tənzimləyici islahatlar, eləcə də beynəlxalq ticarət danışıqlarında sübuta əsaslanan mövqelər üçün etibarlıdır.[9]

Addım 1: Yenilənmiş tədbirləri həyata keçirmək qabiliyyətini ölçmək üçün xidmət sektorlarının tənzimlənməsi ilə məsul olan agentliklərin idarəetmə çərçivəsini qiymətləndirmək.

Addım 2: Addım 1-də toplanmış məlumatlara əsaslanaraq siyasət variantlarını hazırlamaq. Proses ITC-nin mümkün bazara uyğun siyasət siyahısı və logistika xidmətlərində ən ümumi ticarət məhdudiyyətləri üçün tənzimləyici variantları rəhbər tutmalıdır. Bu siyahı bu cür islahat tədbirlərinin tətbiqi ilə bağlı müxtəlif ölkələrin hesabat təcrübələri əsasında tərtib edilir.

Addım 3: Müxtəlif siyasət alternativləri arasında seçim etmənin müsbət və mənfi tərəflərini təhlil edə bilmələri üçün, dövlət və özəl iştirakçıların potensialını gücləndirmək. Bu mərhələdəki səylərin intensivliyi iştirakçıların ehtiyaclarının qiymətləndirilməsi ilə müəyyən ediləcək.

Addım 4: Seçilmiş tənzimləyici alternativin gedişatını təsdiqləmək və izləmək üçün yeni qaydaların layihəsini hazırlamaq.

Ölkələr üçün effektiv logistik tənzimləmə üçün lazımsız maneələrin aradan qaldırılması çox vacibdir. Həmçinin, logistika xidmətləri İEOÖ ölkələrdə sahibkarların pərakəndə satış və istehsalçılar ilə xarici müştərilərin uyğunlaşdırılmasında mühüm rol oynayır. [10] Xüsusilə, müasir təchizat zəncirlərində ənənəvi topdansatışçılardan getdikcə daha çox yan keçildikcə, inkişaf etməkdə olan ölkələr öz sahibkarlarının müasir vasitəçilərə çıxış əldə etmələrini təmin etməlidirlər və məhsulların keyfiyyətə, eləcə də vaxt etibarına cavab verməsini təmin etməlidirlər. [11] Bu, xüsusilə idxal olunan xidmətlərə çıxışın zaman baxımından həssas malların ixracını stimullaşdıra bildiyi və ixrac bazarlarına daxil olma ehtimalının kifayət qədər yüksək olduğu inkişaf etməkdə olan ölkələrə aiddir.[12] Ticarətin asanlaşdırılması və logistika xidmətləri bir-birini tamamlayır və birində liberallaşmanın təsiri digərində aparılan effektiv tənzimləmədən asılıdır.

Ədəbiyyat Siyahısı
[1] International Trade Theory and Policy: A Review of the Literature by Sunanda Sen Levy Economics Institute of Bard College November 2010
[2] Avropa Komissiyası rəsmi saytı-Ticarət-Siyasət
[3] NƏQLİYYAT VƏ LOJİSTİKA TİCARƏT VƏ DƏYƏR ZƏNCİRLƏRİNƏ YARDIM WTO-OECD
[4] Uluslararası Ekonomi Hukuku Kavramı ve Uluslararası Ekonomi Hukukunun Kaynakları Prof. Dr. Şaban Kayıhan, Mehmet Eskitakis
[5] Improving logistics performance through investments and policy intervention: a causal loop model 2017 January
[6] The Logistics Performance Effect in International Trade Azmat GANI
[7] The Expansion of the Special Customs Regimes for the Improvement of Logistics Dimitra Stefani, Michail Papoutsidakis, Aikaterini Sfyroera, George Prinio stics and trade in the Republic of Azerbaijan
[8] Transit Handbook To Establish Effective Transit Schemes for LLDCs World Customs Organization
[9] EC TRANSIT MANUAL Brussels, 27-04-2016, Working document
[10] Transit Manual Supplement, Customs Directorate, Document: Transit Manual Supplement, Version: 5.6, 04/05/2018
[11] Avropa İttifaqı və Azərbaycan Respublikası gömrük qanunvericiliklərinin müqayisəli təhlili Beynəlxalq Miqrasiya Təşkilatı
[12] Logistics and Time as a Trade Barrier Hildegunn K. Nordas, Enrico Pinali, Massimo Geloso Grosso

MÖVSÜMÜ RÜSUMLAR VƏ ONLARIN TƏTBİQİNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİL EDİLMƏSİ

i.ü.f.d. Əlirzayev Elvin Vahid oğlu,
elvin.alirzayev@ascca.edu.az

magistrant Seyhun Osmanov,
seyhun.osmanov@ascca.edu.az
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: Mövsümü rüsumlar mövzusunun təhlili istər ölkəmiz istərsədə bir sıra dünya dövlətləri üçün əhəmiyyətli mövzudur. Pandemiya dövrü ərzində dünyada gömrük sahəsində xüsusi ilə də mövsümü rüsumlar sahəsində aparılan işlər bu mövzunun aktual olduğunun bariz nümunəsidir. Aparılacaq tətqiqat işinin məqsədinə uyğun olaraq Azərbaycan Respublikasında və Beynəlxalq təcrübədə bu sahədə görülən işlər, onların səmərəliliyinin təhlili, tədbirlər toplusunun izahlı müqayisəsi və bu müqayisədən əldə olunan nəticələr bu sahədə ölkəmiz üçün yeni modelin qurulmasına köməkçi olacaqdır. Araşdırma zamanı qarşılaşacağımız və cavablandırılan suallar, qrafik və s. düsturlar mövzümuzun elmi yenilik baxımından tamlığına həmçinin bizdən əvvəlki araşdırmacıların da toxunduğu məqamların daha geniş və ətraflı izahına şərait yaratacaqdır. Növbəti hissələrdə araşdırma zamanı əldə olunan nəticələr və onların tətbiqi zamanı yaranacaq üstünlüklər də bizə bu mövzu ilə bağlı bir sonraki araşdırmalar üçün münbit zəmin yaratacaqdır.
Açar sözlər: *Mövsümü rüsumlar, İstehsaldakı mövsümü dəyişikliklər, Rüsumların səmərəliliyi*

Giriş

Mövzümuza başlayan zaman qeyd etmək lazımdırki, bu hissədə mövzü haqqında qısa məlumat qeyd ediləcək, əvvəlki araşdırmacıların fikirlərinə istinad olunaraq bu fikirlərin hal hazırda nə dərəcə də aktual olunduğuna toxunulacaq, əldə etmək istədiyimiz məqsəd üçün hansı işlər görüləcək və növbəti hissələrdə tədqiqat işinə dair planda bizi nələrin gözləyəciyi bildiriləcəkdir.

Xarici və daxili mənbələrdə mövsümü gömrük rüsumlarının mahiyyəti:

- Mövsümü gömrük rüsumları - mövsümi xarakterli məhsulların, ilk növbədə kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətinin operativ tənzimlənməsi üçün tətbiq edilən rüsumlardır. Bu rüsumlar ildə bir neçə ay ərzində davam edə bilər (6 aydan çox ola bilməz).
- Beynəlxalq təcrübədə bu rüsumlar qüvvədə olduqları müddət ərzində adi gömrük rüsumlarına xitam verilir.
- Çox vaxt, mövsümi rüsumlar, əkinçilik və istehsalın mövsümi təbiəti ilə əlaqəli olan kənd təsərrüfatı məhsullarına (əsasəndə meyvə-tərəvəzə) xasdır.
- "Mövsümü rüsumların" tərifindən bu nəticəni çıxara bilərik ki, bu rüsumlar istehsalın mövsümü xarakterli milli sahələrinin fəaliyyətinin xeyli dərəcədə ciddi iqtisadi təsirlərə məruz qaldığı hallarda tətbiq olunur. (1, s. maddə 5)

Mövsümü gömrük rüsumlarından nə zaman praktikada istifadə edilir və əhəmiyyəti nədir?

- Ölkə xaricindəki istehsalçının idxalçı daxili bazarında müəyyən üstünlüklər qazandığı və həmin ölkənin yerli istehsalı üçün potensial təhlükə yarandığı zaman dünya bazar qiymətlərində azalmanın baş verməsini və ya oxşar yerli istehsalçıların məhsullarının istehsal xərclərinin artmasını mövsümi gömrük rüsumlarının tətbiq edilməsi üçün bir nümunə kimi göstərmək olar.
- Belə bir vəziyyətdə, mövsümü gömrük rüsumları müəyyən mövsümi məhsullar üçün dəyişən bazar vəziyyətinə nisbətən sürətli reaksiya göstərməyə imkan verir. (2, s. 195-197)

Mövsümü gömrük rüsumlarının tətbiq edilməsinin əsas məqsədləri nələrdir?

1) Yerli mövsümü məhsul istehsalçılarının qorunması;
2) Yerli məhsul istehlakçılarının haqqlarının qorunması;
3) Daxili bazarın məhsulla təmin edilməsi;
4) Ölkə daxilində mövsümi mallara tələb və təklif nisbətinin qısamüddətli tənzimlənməsi;
5) Mövsümü malların daxili qiymətlərinin tənzimlənməsi

Həmçinin Tədqiqatın davamında biz Material və Metodika hissəsində Azərbaycanda Respublikasında həmçinin Beynəlxalq təcrübədə (Rusiya və İsveçrə modelləri) bu sahədə görülən işlər və onların nəticələrinin səmərəliliyindən danışacayıq.

Və tədqiqat metodikası struktur olaraq aşağıdaki 3 (üç) hissəyə bölünəcək.

1) Rusiya Federasiyasında mövsümü gömrük rüsumlarının tətbiqi və buna dair nümunə
2) Mövsümü gömrük rüsumlarının İsveçrə modeli və buna dair nümunə
3) Azərbaycan Respublikasında mövsümü gömrük rüsumlarının tətbiqini sahəsində görülən işlər.

Material və Metodika.

1) Mövsümü Gömrük Rüsumlarının Beynəlxalq Təcrübədə Tətbiq Edilməsi (Rusiya modeli)

Rusiya Federasiyası mövsümü gömrük rüsumların tətbiqini həyata keçirərək idxal olunan kənd təsərrüfatı məhsullarının və digər malların maya dəyərində artım olmasına nail olurki (gömrük rüsumları və kvotalar dərəcələrində dəyişiklik edərək) bu hal da Rusiyanın daxili bazarında bu növ yerli mal və məhsulların satışı üçün daha əlverişli şəraitin yaradılması ilə nəticələnir.

Rusiya Federasiyasında idxal və ya ixrac əməliyyatları zamanı mövsümü gömrük rüsumu ödənilən malların siyahısı və müvafiq mövsümi rüsum dərəcələri bu rüsumların tətbiqinə başlamazdan ən geci 30 gün əvvəl rəsmi şəkildə dərc edilməlidir.

Həmçinin Rusiyada mövsümü gömrük rüsumlarının qüvvədə olma müddəti ildə altı aydan çox ola bilməz.

Mövsümi gömrük rüsumlarının tətbiq edilməsi halında, mövsümi gömrük rüsumları müəyyən edilmiş mallara Rusiya Federasiyası Gömrük Tarifində nəzərdə tutulmuş gömrük rüsum dərəcələri tətbiq edilmir. (3, s. 113-120)

Rusiya modelinə dair nümunə (Xam şəkər üçün mövsümi rüsumların tətbiqi)

2007-ci ilin sentyabr ayında İqtisadi İnkişaf və Ticarət Nazirliyi Rusiya hökumətinə xam şəkər üçün mövsümü rüsumların tətbiqi barədə fərman layihəsini təqdim etdi.

1) Mövsümü gömrük rüsumunun həcmi xam şəkərin 1 tonu üçün 160-220 dollar olacağı güman edilirdi.
2) Mövsümü gömrük rüsumunun tətbiqindən əvvəl bu həcm xam şəkərin 1 tonu üçün 140 dollar dollar idi.
3) 2007-ci ilin dekabrından etibarən Rusiya 220-270 dollar / ton mövsümi rüsumu tətbiq edərək xam şəkər idxalına olan tələblərini sərtləşdirdi.

Dekabr ayında mövsümi gömrük rüsumu $ 220 / t olaraq təyin edildi. Hökumət may ayına qədər mövsümü gömrük rüsumunun saxlanacağını açıqladı.Tacirlər Rusiyaya şəkər tədarükünü artırmaq və mövsümi idxal rüsumunu ləğv etməklə maraqlanırlar ki, bu da rus şəkər çuğunduru istehsalçılarının gəlirlərinə mənfi təsir

göstərəcək idi eyni zamanda, bu təsir dərhal nəzərə çarpmayacaq, çünki mövsümü rüsum tətbiq edilməzdən əvvəl ölkədə 5 aylıq daxili tələbatı ödəmək üçün kifayət qədər şəkər ehtiyatı yığılmışdı. Nəticədə, rusiyada qısa müddətdə şəkər çuğunduru kəsiri gözlənilmirdi. (5, s. 41-47)

Həmçinin 2006-cı il ilə 2007-ci ilin müqayisəsi aparıldıqda 2006-cı ildə Rusiyaya şəkər idxalı ***2 milyon 900 min ton.*** 2007-ci ildə isə biraz azalaraq ***2 milyon 630 min*** ton olmuşdur.

2) Mövsümü Gömrük Rüsumlarının Beynəlxalq Təcrübədə Tətbiq Edilməsi (İsveçrə modeli)

İsveçrədə mövrümü gömrük rüsumlarının tətbiq edilməsində əsas hədəf daxili istehsalçı qiymətlərini yüksək tutaraq onların təsərrüfat gəlirlərini dəstəkləmək və həmçinin İsveçrənin kənt təsərüffatı tələbatının özünün yetərincə təmin etmək gücü olmadığından ehtiyyac duyulan ərzaq təminatına mövsümü rüsumları tətbiq edərək ölkə bazarını bu resurslarla təmin etməkdir.

İsveçrə ehtiyyac duyulan kənt təsərüffatı məhsullarını əsasən qonşu ölkələrdən idxal edir. (Məsələn İtaliya)

Burada Mövsümü rüsumların tətbiq edildiyi zaman (Rüsumların idarə edilmədiyi dövr yəniki minumum rüsum dövrü) və tətbiq edilmədiyi zaman isə (Rüsumların idarə edildiyi dövr yəniki normal rüsum dövrü) vardır. (6, s.seasonal tariff rate)

İsveçrə modelinə dair nümunə (Pomidor istehsalı üçün Mövsümü rüsumların təhlili)



İsveçrədə May və Oktyabr aylarında yerli pomidar istehsalı daxili tələbatı ödədiyi üçün bu dövr ərzində İtaliyadan həftə ərzində ortalama 5-10 ton pomidor idxal olunur və bu idxala 1.50 CHF / kq və 2.64 CHF aralığında normal rüsum tətbiq edilir həmçinin burada kvota siyasətindən də istifadə edilir.

Cədvəl 1.1

- Lakin Qış və bəzi Payız aylarında isə İsveçrənin yerli pomidor istehsalı azalır bu zaman isə həftə ərzində ortalama İtaliyadan 60-80 tona yaxın pomidor idxal olunur amma bu zaman isə gömrük rüsumları minumum halda tətbiq edilir və ortalama 0.05 CHF / kq və ya 0.00 CHF aralığında dəyişir. Biz həmçinin sağdakı qrafikə baxaraq İdarə olunmayan dövrdək minumum gömrük rüsumu həcmi ilə İdarə olunan dövrdəki maximum gömrük rüsumu arasında tarif fərqini həmçinin bu tarif fərqinə əsaslanaraq dəyişən həftəlik məhsul idxalı həcmində görə bilərik. **Cədvəl 1.2 və 1.3**

$$Tariff_t^{marg} = \max_i(Tariff_i) \text{ for all transactions } i \text{ in week } t.$$

$$Tariff_t^{avg} = \frac{\sum_i (Vol_i \times Tariff_i)}{\sum_i Vol_i} \text{ for all transactions } i \text{ in week } t.$$

- Tarif marjinallığı dedikdə rüsum zamanı tətbiq edilən maksimum gömrük tarifinin həcmi başa düşülür.
- Tarif ortalaması dedikdə isə ümumi idxal həcminin miqdarını faktiki gömrük tarifinə vuraraq ümumi idxal həcminin miqdarına bölünməsi başa düşülür.

	$P^{CH} - P^{IT}$ (CHF / kq)	$Tarif^{ortalaması}$ (CHF / kq)	$Tarif^{marjı}$ (CHF / kq)	Ticarət həcmi (ton / həftə)
Bütün müşahidələr	1.77	0.38	0.80	42.30
	(0,67)	(0,59)	(1.06)	(35.51)
İdarə olunan dövr	2.39	1.03	2.16	7.96
	(0,55)	(0,59)	(0,56)	(11.41)
İdarə olunmayan dövr	1.43	0.03	0,05	63.10
	(0,45)	(0,02)	(0.00)	(28.22)

İsveçrə modelinin səmərəliliyi

Təhlil göstərir ki, həm bazar inteqrasiyası, həm də bazar səmərəliliyi idarə olunan yay dövrü ilə idarə olunmayan qış dövrü arasında fərqlənir. İdarə olunmayan dövrdə, yalnız aşağı gömrük rüsumu ilə kütləvi pomidor idxalına nail olmaq olur, beləliklə bazarlar məhsul idxalçıları üçün əlverişli hala gəlir və idxalçılar bazara sərbəst daxil ola bilərlər. Lakin İdarə edilən dövrdə isə daha artıq gömrük rüsumları və aşağı kvotalar qarşısında məhsul idxal edənlər bazarda rəqabətə tab gətirə bilməyib həmin müddətlərdə daha az məhsul idxal edə bilirlər. (6, s.-)

Bu dediyimiz hallar İsveçrə dövlətinin mövsümü gömrük rüsumlarını tətbiq edərək yerli istehsalçılarının mənafeyini qorumasına və daxili bazarını məhsullarla təmin etməsinə nümunədir.

3) Azərbaycanda mövsümü gömrük rüsumlarının tətbiqini sahəsində görülən işlər.

2019-cu ildə daxili bazarda kartof, soğan və kələmin qiymətlərində ciddi artım baş vermişdi. Bununla əlaqədar, Nazirlər Kabinetinin 5 aprel 2019-cu il tarixli qərarı ilə beynəlxalq təcrübəyə uyğun olaraq, həmin məhsulların istehsal mövsümü də nəzərə alınmaqla, kartofun ixracına 2019-cu il aprelin 30-na qədər, soğan və kələmin ixracına isə 2019-cu il mayın 31-nə qədər ixrac rüsumu tətbiq edilmişdi. Bundan başqa, soğanın idxalına tətbiq olunan spesifik rüsum həmin müddətə qədər ləğv edilmişdi. (customs.gov.az)

Həmçinin 2020-ci ildən Pandemiyanın yaranması ilə əlaqədar buğda və s. zəruri istehlak məhsullarına tələbatın artması ilə bağlı Nazirlər Kabineti və İqtisadiyyat Nazirliyi tərəfindən həmin məhsulların rüsumlarında bir sıra güzəştlər həyata keçirilmiş habelə kvotalar yenidən təçkil edilmişdir. Əlavə olaraq Ölkə bazarlarının buğda və un məhsulları ilə tam təminatını təmin etmək üçün ölkədən ixrac olunan buğdanın hər 1000 kiloqramına 200 ABŞ dolları ixrac gömrük rüsumu tətbiq edilmişdir. (customs.gov.az)

Atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir. Sahibkarların məhsullarının satışında yarana biləcək çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcək,

Həmçinin 2018-ci ildə ölkəyə yem idxalı 2013-cü ilə nisbətən təqribən 4,7 dəfə (ABŞ dolları ilə) artmışdır buna əsas səbəb isə həmin illər ərzində tətbiq edilən mövsümü rüsumlar və düzgün kvota siyasəti olmuşdur. Balıqdan və ya xərçəngkimilərdən, molyusklardan və ya digər su onurğasızlarından narın və qaba üyüdülmüş un və qranulların, ələntilər və digər qalıqların idxalına 5 faizlik idxal rüsumu tətbiq edilir, soya, araxis (yerfındığı) və günəbaxan toxumlarının yağının çıxarılması nəticəsində alınan üyüdülmüş və ya üyüdülməmiş, qranullaşdırılmış və ya qranullaşdırılmamış cecələr və digər bərk tullantıların idxalı isə gömrük rüsumundan azad edilmişdir.

Broyler təsərrüfatında quş yeminin tərkibində qarğıdalı dəni, günəbaxan və soya şrotunun cəmi payının təqribən 44 faizə bərabər olduğunu nəzərə alsaq, onda gömrük rüsumunun 15 faizdən 0-a qədər azaldılması quş ətinin maya dəyərini təqribən 4,6 faiz, yumurtanın maya dəyərini isə təqribən 4,3 faiz aşağı salır. Bu sahəyə investisiya qoyuluşları baxımından idxal rüsumlarının azaldılması həlledici əhəmiyyətə malikdir. Belə ki, idxal rüsumu 15 faizə qaldırıldıqda yerli quş sənayesinin zərərlə işləməsinə və ya yumurtanın qiymətinin təqribən 4,5 faiz, quş ətinin qiymətinin təqribən 4 faiz artmasına səbəb olur.

Həmçinin 2022-ci ildə Rusiya ilə Ukrayna arasında baş vermiş müharibənin də uzunmüddətli dövrdə Azərbaycan Respublikasına idxal olunan əmtəə və məhsullara da təsiri qaçınılmazdır. Lakin bu məqama qısamüddətli dövrdə baxsaq Rusiya Federasiyası da daxil olmaqla əksər MDB ölkələri ilə olan Preferensial

müqavilələrimiz və həmin ölkələrdən idxal olunan əksər istehlak mallarına tətbiq edilən 0%-lik rüsum həmin məhsulların qiymət artışının qarşısın alır. Əlavə olaraq qeyri-tarif məhdudiyyətlərindən hesab edilən Kvotanın da tətbiqinin dayandırılması və ya daha limiti yüksək kvotanın tətbiqi həmin məhsulların rahat şəkildə ölkəyə idxalına şərait yaratacaq və süni qiymət artışına səbəb olacaq məqamlara son verəcək.

Nəticə

Beynəlxalq təcrübədə edilən araşdırmalar Azərbaycan modelinin yaradılması üçün aşağıdakı səciyyəvi cəhətləri zəruri edir.

1) Kənd təsərrüfatı və digər malların qiymətlərindəki əhəmiyyətli mövsümi dəyişikliklərə Gömrük Qanunvericiliyi dərhal mövsümü gömrük rüsumları ilə reaksiya verməlidir.

2) Mövsümü gömrük rüsumları tətbiq edilən zaman yerli istehlakçıların və istehsalçıların mənafelərinin dünya bazarının mənfi təsirlərindən səmərəli şəkildə qorunması təmin olunmalıdır.

3) Milli mövsümü məhsulların bolluğu varsa, daxili bazarı idxal olunan xarici mövsümü məhsullardan və qeyri-sağlam rəqabətdən qorumaq üçün mövsümü gömrük rüsumları yüksəldilməlidir və kvotalar tətbiq edilməlidir əgər daxili istehsal tam tələbatı ödəmirsə və məhsul çatışmamazlığı varsa istehlakçıların ziyan görməməsi üçün güzəştli mövsümü gömrük rüsumlarından istifadə olunmalıdır.

4) Əlavə olaraq mövsümü gömrük rüsumları haqqında qayda-qanun formalaşdırılan zaman düzgün şəkildə əvvəlcədən illik ehtiyyacların ortalama səviyyəsi təyin edilməlidir və rüsum dərəcəsi ilə kvotalar buna əsasən formalaşdırılmalıdır.

Ədəbiyyat Siyahısı.

1. Gömrük tarifi haqqında qanun (Qanunvercilik aktı) – E-qanun 687-IVQ
2. A.Ş.Şəkərəliyev, C.Q.Nuriyev - Gömrük İşinin Təşkili və İdarə Edilməsi (Dərslik) – 2018-ci il Səhifə 187-200
3. Bondarenko N.P.-Xarici iqtisadi fəaliyyətin gömrük və tarif tənzimlənməsi (Kitab)-2010-cu il
4. Judith Hillen - Market Integration and Market Efficiency under Seasonal Tariff Rate Quotas (Online Məqalə) – 2019-cu il
5. Rudova Sovershenstvovanie - Rusiya Federasiyasında mövsümi rüsumların tətbiqi təcrübəsi (Kitab) – 2012-ci il
6. Switzerland customs (Rəsmi intern et səhifəsi) (www.ch.ch)

AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK ORQANLARINDA RİSKLƏRİN İDARƏOLUNMASI SİSTEMİ TƏCRÜBƏSİ

Nuranə Axundova, magistrant
nur.axundzade@gmail.com
Gömrük işinin təşkili / Dünya iqtisadiyyatı ixtisası
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: Məqalədə gömrük riskinə məruz qalmanı minimuma endirmək üçün istər Avropa, istərsə də dünya ölkələrinin praktikalarına, İSO beynəlxalq standartlarının, ÜGT- SAFE Çərçivə Standardlarının və yenilənmiş Kyoto Konvensiyasının tələblərinə uyğun olaraq, gömrük orqanlarının fəaliyyətində risklərin idarə edilməsi üçün müasir metodların hazırlanması və tətbiqinin zəruriliyindən, Azərbaycan Respublikasının gömrük sistemində bu sahənin tənzimlənməsi üzrə qəbul olunmuş milli qanunvericilik aktları və həyata keçirilən fəaliyyətlərdən bəhs olunur. Şübhəsiz ki, gömrük sərhədini keçən hər bir mal və ya nəqliyyat vasitəsini yoxlamaq beynəlxalq ticarətin asanlaşdırılması yolunda atılan addımlara və məqsədlərə çatmağa manea yaradar. Bu səbəbdən, müasir gömrük nəzarəti sistemi öz fəaliyyətini "selektivlik" yanaşması və risklərin idarəolunması üzərində qurur.Risklərin identifikləşdirilməsi, təhlili, qiymətləndirilməsi və aradan qaldırılması yolu ilə, gömrük orqanları gündəlik fəaliyyətlərini idarə edir və bu, onların performans göstəricilərinin əhəmiyyətli inkişafına şərait yaradır.

Açar sözlər: gömrük sistemi, risklərin idarə olunması, yaşıl dəhliz, Kyoto konvensiyası

Giriş

Müasir dövrdə dünyada və regionda beynəlxalq ticarət dövriyyəsinin gündən - günə artdığı bir vaxtda gömrük orqanlarının işinin təşkilini risklərin idarə edilməsi sisteminin tətbiqi olmadan təsəvvür etmək mümkün deyil. Hazırda ölkə büdcəsinin formalaşmasında əhəmiyyətli rol oynayan gömrük orqanları eyni zamanda sərhədlərin, mədəni irsin, milli sərvətlərin qorunmasında da vacib rol oynayır. Gömrük rəsmiləşdirilməsi prosesi ticarət obyekti olan malların, nəqliyyat vasitələrinin, müxtəlif tipli sənədlərin, xarici iqtisadi fəaliyyət iştirakçılarının ciddi şəkildə yoxlanılması ilə müşayiət olunur ki, bu da rəsmiləşdirilmə prosesinin ləngiməsinə, bürokratiyaya və nəticə etibarilə ticarət dövriyyəsinin azalmasına gətirib çıxarır. Beynəlxalq ticarətlə məşğul olan şirkətlər və ölkələr tranzit ölkə seçərkən belə bu məsələlərə xüsusi diqqət yetirirlər. Daha sürətli və daha asan rəsmiləşdirilmə prosesi aparılan ölkələrə tranzit ölkə kimi daha çox üstünlük verilir. Bu kimi halların yaxşılaşdırılması üçün gömrük işində riskin idarə olunması gömrük nəzarətinin aparılmasının sadələşdirilməsinə kömək edən çox mühüm prosesdir. Hal-hazırda dünyanın əksər ölkələrində gətirilən malların 80- 90 faizi gömrük nəzarətinə məruz qalır. Bu da öz növbəsində gömrük rəsmiləşdirilməsinin çətinləşməsi - yüklərin sərhəd məntəqələrindən buraxılmasının gecikdirilməsi, insan və texniki resurslardan səmərəli istifadə olunmaması, lazımsız bürokratiya və s. kimi problemlərin yaranmasına gətirib çıxarır.

Gömrük sistemində risk- gömrük qanunvericiliyinə riayət olunmaması ehtimalı kimi nəzərdən keçirilir. Ölkələrin gömrük orqanları təhlükələrin təhlili mexanizmini, nəzarət formalarının seçilməsini, həmçinin daha səmərəli iş üsullarının müəyyən edilməsini özündə cəmləşdirən risklərin idarə edilməsi sistemini yaradır və avtomatlaşdırır. Göndərilən mal və nəqliyyat vasitələri barəsində məlumatların əvvəlcədən alınması, yaradıla biləcək təhlükənin səviyyəsinin müəyyən edilməsi, müvafiq nəzarət formalarının seçilməsi və gömrük sərhədindən yüklərin qısa müddət ərzində buraxılmasının təmin edilməsi müasir gömrük işinin təşkilinin əsas amillərini formalaşdırır. Bununla əlaqədar risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin konsepsiyası bu məsələləri həll etməyə imkan yaradır [1].

Risk əsaslı idarəetmə konsepsiyası hər bir biznes sektoru və dövlət üçün tətbiqolunandır. Gömrük nöqteyi-nəzərindən baxdıqda, risk- gömrük qanunvericiliyinə (məsələn, xüsusi icazə və ya lisenziya tələbləri) əməl olunmayan və ya tabe olmayan, gömrük dəyərləndirməsi, mənşə qaydaları, gömrük ödənişlərindən azad olunan rejimləri, ticarət məhdudiyyətlərini və təhlükəsizlik qaydalarının pozulması ehtimallarını özündə ehtiva edir ki, bu da beynəlxalq ticarətin asanlaşdırılması yönündə atılan addımların uğursuzluqla nəticələnməsinə imkan yaradır. Risklərin idarəolunması sistemi, gömrük riskinə məruz qalmanı minimuma endirmək üçün lazım olan bütün tədbirlərin sistematik şəkildə müəyyən edilməsi və həyata keçirilməsi kimi başa düşülərək, hansı şəxslərin, malların və nəqliyyat vasitələrinin gömrük yoxlamasına məruz qalacağını və bunun hansı ölçüdə tətbiq olunacağını müəyyən edir [2]. Yüksək riskli şəxslər, mallar və nəqliyyat vasitələri yüksək səviyyəli gömrük nəzarətinin və müdaxilələrin subyekti olduğu halda, aşağı riskli olanlar isə ticarətin asanlaşdırılması və sürətləndirilməsinin üstünlüklərindən faydalanırlar. Gömrük qaydalarına riayət olunmaqla beynəlxalq ticarətin asanlaşdırılmasını təmin etmək yalnız risk idarəetmə yanaşması ilə mümkün ola bilər.

Bununla əlaqədar olaraq, ilk dəfə 4 may 2015- ci il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının (bundan sonra Kollegiya) 100/03/002 nömrəli "Gömrük orqanları sistemində risklərin idarə edilməsi sisteminin tətbiqi qaydaları və formaları"nın təsdiq edilməsi barədə və 100/03/001 nömrəli "Ümumi risklərin idarə edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə qərarları qəbul olunmuşdur. Beynəlxalq ticarətdə baş verən dəyişikliklərlə birgə yenilənən beynəlxalq hüquq normaları ilə milli qanunvericiliyin inteqarasiyasını təmin etmək məqsədilə 100/03/001 nömrəli nömrəli 4 may 2015- ci il tarixli qərar ləğv olunaraq, 2021- ci ilin 22 sentyabr tarixində Kollegiyanın yeni şərtləri özündə əks etdirən " Ümumi risklərin idaraedilməsi Qaydaları"nın təsdiq edilməsi barədə 1000/03/001 nömrəli qərarı qüvvəyə minmişdir. Bu Qaydalar "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın (Yenilənmiş Kyoto Konvensiyası), Ümumdünya Gömrük Təşkilatının Gömrük Risklərinin İdarəolunması üzrə Kompendiumuna, Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) 31000 (Risklərin idarəolunması) standartına uyğun olaraq hazırlanmışdır və gömrük orqanları sistemində risklərin idarəolunması prosesini tənzimləyir [3].

Risklərin idarə edilməsinin bütün sahələrində tətbiq olunan ümumi meyarlara, anlayışa, metodologiyaya və prosedurlara əsaslanan dayanıqlı strateji yanaşma qərar qəbul etmə prosesində lazımsız subyektivliyi minimuma endirməlidir. Kriteriyalar, prosedurlar və məlumatlar daxil olmaqla verilənlərin ardıcıl və düzgün istifadəsi, ümumi ölçmə şkalasına uyğun olaraq, prioritet müəyyənləşdirilmiş risklər kimi müqayisə

edilə bilən nəticələrin istehsalına imkan yaradacaq. Müəyyən edilmiş risklərin qiymətləndirilməsi üçün prioritet səviyyəsini təyin etmək üçün risklərin məntiqi təsnifatı zəruri hesab olunur [4]:

- Yüksək risklər baş vermə ehtimalı yüksək olan risklərdir və ciddi təsirlərə malikdir. Bu cür risklər üçün mübarizə tədbirləri yüksək səviyyəli rəhbərliyin diqqətində olmalı və bunlarla bağlı nəzarət planları razılaşdırılmalıdır. Nəzarətin həyata keçirilmədiyi müstəsna hallarda, hərəkətsizliyin səbəbləri sənədləşdirilməli və riskin qiymətləndirilməsinə cavabdeh olan şəxslər üçün açıq- aydın göstərilməlidir.
- Orta risklərin başvermə ehtimalı nisbətən azdır və daha az ciddi təsirlərə malik ola bilər, lakin bu mütləq deyil. Həmçinin, orta risklərdə də hərəkətsizliyin səbəblərini sənədləşdirmək lazımlı hesab olunur.
- Aşağı risklər standart və ya rutin prosedurlarla və hətta heç bir hərəkətə ehtiyac duyulmadan qiymətləndirilə bilən məqbul risklərdir.

Aşağı və çox aşağı səviyyəli risklər davamlı monitorinq şərti ilə normal olaraq qəbul edilə bilər. Bütün digər risklər idarəetmə planına daxil edilir. Planda risklər, risk səviyyələri kataloqlaşdırılır və ona qarşı görüləcək olan tədbirlər təsvir edilir. Bu tədbirlər təklif olunan hərəkətlərdir (və həmçinin ayrılan resurslar). Bununla əlaqədar olaraq, gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin (bundan sonra – elektron sistem) imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları" qəbul olunmuşdur. Bu qaydalar "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın (Kyoto Konvensiyasının yeni redaksiyası), Ümumdünya Gömrük Təşkilatının Gömrük Risklərinin İdarəolunması üzrə Kompendiumuna, Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) 31000 (Risklərin idarəolunması) standartına uyğun olaraq hazırlanmışdır və gömrük orqanları sistemində risklərin idarəolunması prosesini tənzimləyir. Bu qaydalara əsasən qısa idxal bəyannaməsi əsasında malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılmasının yaşıl, mavi, sarı və qırmızı dəhliz buraxılış sistemləri mövcuddur:

- "Yaşıl dəhliz" – əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük proseduruna uyğun gömrük ərazisinə buraxılışını nəzərdə tutan buraxılış sistemidir. Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydaları Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur.
- "Mavi dəhliz" – əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılışından sonra gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemidir.
- "Sarı dəhliz" – əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin, məlumatların, elektron və ya kağız daşıyıcıda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatların (şəhadətnamələrin), qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın, mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən xüsusi icazənin mövcudluğunun və digər hüquq müəyyənedici sənədlərlə müşayiət olunmasının yoxlanmasını və gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemidir.
- "Qırmızı dəhliz" – əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük məqsədləri

üçün lazım olan məlumatların və sənədlərin, eləcə də malların və nəqliyyat vasitələrinin, habelə tələb olunan hallarda şəxsin yoxlanmasını nəzərdə tutan buraxılış sistemidir [5].

Nəticə

Risklərin idarəolunması sistemi gömrük əməkdaşları və bütün maraqlı tərəflər üçün aydın olmalı, subyektiv qiymətləndirici ifadələrdən istifadə olunmasına yol verməməlidir. Gömrük sistemində risklərin idarəolunması sisteminin tətbiqi ilə həm gömrük orqanları, həm də xarici fəaliyyət iştirakçıları bir sıra üstünlüklərdən faydalanma imkanı əldə edirlər. Risklərin idarə olunması qeyri- müəyyənliyin mahiyyətini, mənbəyini müəyyənləşdirməklə və təsvir etməklə qeyri- müəyyənliyi təqib edir, sistematik, strukturlaşdırılmış və vaxtında tətbiq edilməklə ümumi fəaliyyətin səmərəliliyini artıran ardıcıl, müqayisə oluna bilən və etibarlı nəticələr təmin edir, qərar qəbul edənlərə məlumat əsaslı seçimlər etməyə, hərəkətləri prioritetləndirməyə və alternativ seçimləri fərqləndirməyə kömək edir [3]. Xarici ticarət iştirakçıları nöqteyi nəzərindən baxdıqda isə, aşağı risk göstəricilərinə malik olan yaşıl dəhliz iştirakçıları malların və nəqliyyat vasitələrinin gömrük sərhəd buraxılış məntəqələrindən daha sürətli keçidinə, gömrük sərhəd buraxılış məntəqələrində, ticarətin asanlaşdırılması mərkəzlərində və gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün müəyyən edilmiş digər yerlərdə gömrük orqanlarının göstərdikləri xidmətlərin prioritet qaydada yerinə yetirilməsinə, gömrük auditinin tətbiqi ilə fiziki gömrük yoxlamalarının minimuma endirilməsinə nail olurlar [6].

Ədəbiyyat siyahısı

1. Elektron gömrük sistemində gömrük risklərinin idarə edilməsi məsələsi- Üzeyir Qurbanlı, 04.12.2014
2. Redaksiya olunmuş Kyoto Konvensiyası, 1999
3. "Ümumi risklərin idaraedilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 1000/03/001 nömrəli 22.09.2021-ci il tarixli qərarı
4. Avropa İttifaqının Vahid Gömrük Məcəlləsi
5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında Fərmanı
6. "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı

YAŞIL DƏHLIZ BURAXILIŞ SISTEMININ IXRACA TƏSIRININ TƏHLILI

i.ü.f.d. Əlirzayev Elvin Vahid oğlu
elvin.alirzayev@ascca.edu.az

Namiq Qəfərli
namiq.qeferli@ascca.edu.az
Gömrük işi ixtisaslaşması, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Məqalədə "Yaşıl dəhliz" buraxılış sisteminin ixraca təsiri elmi dəlillərlə təhlil edilmişdir. İxrac potensialının artırılması hər bir ölkənin xarici siyasətinin və iqtisadiyyatının əsasını təşkil edir. Ölkəmizdə bu yöndə atılan addımların əsas məqsədi mal və xidmətlərin ölkə hüdudlarından kənara aparılması ilə ölkəyə valyuta axının təşkil edilməsidir. Gömrük rəsmiləşdirilməsi və nəzarətinin sadələşdirilməsi, eyni zamanda ixracatçılar üçün əlverişli şəraitin yaradılması, gömrük əməliyyatları zamanı elektron idarəetmə sistemindən maksimum istifadə edilməsi və sürətli keçidin təmin edilməsi dövlət tərəfindən bu yöndə atılan əsas addımlardır. Qeyri-neft sektorunun payının artırılması, neft-sektorundan əldə edilən gəlirin qeyri-neft

sektoruna yönəldilməsi, ixracın diversifikasiyalaşdırılması, ixrac olunan malların potensialının artırılması, sahibkarların istehsal etdiyi məhsulların aşağı xərc və yüksək keyfiyyətlə xaricə bazara çıxışının təmin edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan əsas tələblərdəndir.

Açar sözlər: yaşıl dəhliz, ixrac potensialı, gömrük rəsmiləşdirilməsi, sürətli keçid.

GIRIŞ

Azərbaycanda ixrac olunan məhsulların ümumi payına nəzər saldıqda, ümumi ixracın 88 faizi neft-qaz sektoruna daxil olan mallar təşkil edir. Neft-qaz sektorunun tükənən və bərpa olunmayan təbii ehtiyatlar sırasına daxil olduğundan, qeyri-neft sektorunu inkişaf etdirilməsi uzun perspektivdə ölkənin inkişafında mühüm rol oynayır. İxracın həcminin payında kənd təsərrüfatı neft-qaz sektoruna daxil olmayan məhsullardan sonra liderdir [2]. Kənd təsərrüfatı məhsullarının tez-xarab olan məhsullar siyahısına daxil olduğu üçün, bu məhsulların xaricə bazara çıxışının qısa zamanda təmin edilməsi, sahibkarlar üçün ixrac gömrük prosedurunda sürətli keçidin və prioritet qaydada həyat keçirilməsi olduqca vacibdir. Ölkəmizdə hal-hazırda ixrac əməliyyatları üzrə 269 xarici ticarət iştirakçısına, idxal üzrə isə 492 xarici ticarət iştirakçısına Yaşıl dəhlizdən istifadə hüququ verilibdir [1].

Məqalənin əsas məqsədi ixrac gömrük proseduru zamanı sahibkarların "Yaşıl dəhliz" buraxılış sistemindən istifadəsinin genişləndirilməsi baxımından məlumatlandırılması, buraxılışından istifadə üçün prosedurların sadələşdirilməsi və qiymətləndirilməsi, qeyd olunan buraxılış sistemindən öncə və sonra kənd təsərrüfatı və digər ixrac yönümlü malların həcminin ölçülməsi və buraxılış sisteminin tətbiqindən sonra ixracın həcmində və keyfiyyətində analizlərinin aparılmasıdır.

TƏDQİQAT METODU

Müasir dövrdə bütün dünya dövlətlərinin iqtisadi hədəfinin əsasını ixracın həcminin artırılması təşkil edir. Ölkəmizin əsas ixrac strukturunu neft-qaz sektoru təşkil etdiyi üçün, digər sahələrdə olan aslılıq və yerli bazarda daxili tələbatın ödənilməsində olan çatışmazlıq, həmin sahələrin inkişaf etdirilməsi, daxili bazara olan tələbatı ödəməkdən savayı, həmin sahələrinin ixracının genişləndirilməsi, prosedurların sadələşdirilməsi, sahibkarların işinin asanlaşdırılması, susbsidiyaların verilməsi, vergilərdən azad olunması və həmin sahələrə marağın artırılması dövlətin iqtisadi siyasətində prioritetlik təşkil edir [5]. 2025-ci ilədək qeyri-neft ixracının həcminin 2 dəfə artırılması və ixracın genişləndirilməsi məqsədilə 120-dək məhsulun 20-dən çox hədəf bazarına çıxarılması nəzərdə tutulur. [6].

Xarici ticarət siyasətinin əsasını qədim dövrlərdə merkantilizm siyasəti təşkil edirdi ki, burada dövlətlər ölkənin milli sərvlətlərinin əsasını qızıl və gümüş ehtiyatı hesab edir, malların xaricdən idxal olunmasını zərərli olduğunu, ixracın isə xeyirli olduğunu, ticarətin alıcıdan deyil, yalnız satıcıdan mənfəət götürməsini düzgün hesab edirdi. Bir ölkənin hər hansı məhsulu idxal etməsi qarşılığında onun valyuta ehtiyatı ölkə hüdudundan kənara transfer olmasına, ixracının isə xarici valyutanın ölkə büdcəsinə daxil olmasına səbəb olduğundan, hər bir dövlət ixracın artırılmasına çalışır. Tarif eskalasiyasının da əsas məqsədi idxal zamanı xammallara aşağı idxal gömrük rüsumu, hazır məhsullara isə daha yüksək gömrük rüsumunun tətbiqi, ixrac zamanı isə əksinə olaraq, xammal ehtiyatlarına yüksək idxal gömrük rüsumunun tətbiqi və hazır məhsullara isə aşağı idxal gömrük rüsumunun tətbiqidir. Burada məqsəd dövlətin xammalları aşağı rüsumla idxal edərək, onları hazır məhsula çevirib ixracatçısına çevrilmək və bu sahədə ixtisaslaşmaqdır.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may 920 nömrəli fərmanına əsasən ölkəmizdə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə üçün ilk addım atılmışdır. Bu fərmandan irəli gələn əsas məsələ gömrük sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi ilə bağlı münasibətləri tənzimləyir. "Yaşıl dəhliz" buraxılış sistemində əsas məqsəd gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin öncədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin optimallaşdırılmaq, loqistika xərclərin minimuma endirməkdən ibarətdir. [3].

"Yaşıl dəhliz"dən istifadə zamanı sahibkarlar gömrük orqanına gəlmədən, gömrük əməkdaşı ilə təmasda olmadan öncədən elektron qaydada qısa idxal bəyannaməsini təqdim etməklə gömrük rəsmiləşdirməsi prosesini icra edə bilir. Sahibkarlar nəqliyyat vasitələrinin gömrük təminatının tanınma nişanları, plomblarla təmin edərək istənilən gömrük sərhəd buraxılış məntəqəsində ixrac əməliyyatlarını icra edirlər. İxrac gömrük prosedurunda "Yaşıl dəhlizdən" istifadə hüququ əldə etmək üçün sahibkarlar gömrük orqanlarının təqdim etdikləri elektron xidmətlərdən istifadə bacarıqları olan yaxud bu xidmətlərdən istifadəni təmin edəcək səlahiyyətli şəxslə müqaviləsi olan, daşımaları beynəlxalq daşıma standartlarına

cavab verən nəqliyyat vasitələrindən istifadə edilməklə həyata keçirən, qaçaqmalçılıq yaxud gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə bağlı cinayətə görə məhkumluğu olmayan, eyni zamanda məhkumluğu ödənilmiş və ya götürülmüş olmalıdır.

"Yaşıl dəhliz" buraxılış sistemindən istifadənin ixracatçılar üçün ümumi üstünlüyü ondan ibarətdir ki, sərhəd buraxılış məntəqələrində keçid zamanı, eyni zamanda gömrük xidmətlərindən istifadə zamanı prioritetlik, fiziki yoxlamaların minimuma endirilməsi ilə artıq gözləmə xərclərinin qarşısının alınması, gömrük ekspertizasının prioritet qaydada həyata keçirilməsi, gömrük rəsmiləşdirilməsinin iş yerindən və iş vaxtından kənar aparılması (bu Gömrük Məcəlləsinin 106-cı maddəsində müəyyən olunmuş halda ixracatçılar üçün ikiqat yığıma səbəb olur) və xarici ticarət zamanı təlimlərdə üstünlüyə səbəb olur. Spesifik üstünlüyü ondan ibarətdir ki, gömrüyə gəlmədən malların ixracını birbaşa öz anbarında həyata keçirmək üçün şərait yaradır. Bu baxımdan qeyd olunan dəhlizdən istifadənin daha əlverişli biznez mühitinə, sürətli sərhəd keçidinə, yüksək ixrac potensialına, çevik və şəffaf gömrük nəzarətinə və qanunvericiliyə könüllü riayət edilməsini formalaşdırır [4]. "Yaşıl dəhliz" buraxılış proseduru ixracatçıların electron qaydada Dövlət Gömrük Komitəsinə müraciətinə 1 ay müddətində yoxlanılmaqla istifadə hüququnun verilib-verilməməsi ilə bağlı qərarla yekunlaşır.

Qrafik 1. Azərbaycanda son 5 ildə qeyri-neft sektoru üzrə ixracın dinamikası



Mənbə: Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyri-neft sektoru üzrə ixracın son 5 ildə dinamikasından göründüyü kimi, meyvə-tərəvəz məhsulların ölkənin ümumi ixrac payında liderdir. Bu sahənin tez-xarab mallar və xüsusi saxlanc şəraiti tələb etdiyini nəzərə alsaq burada "Yaşıl dəhliz" buraxılış sistemindən istifadənin önəmi görülməkdədir. 2019-cu ildən başlayan pandemiyaya baxmayaraq, ixracın ümumi strukturunda ciddi azalmalar müşahidə olunması gözlənilsə də, kəskin azalma baş verməmişdir.

Cədvəl 1. "Yaşıl dəhliz" sistemindən istifadə hüququnun verildiyi müəssisələrin əməliyyatları.
(Bütün mal qruplarının ixracı üzrə. Xarici ticarətin gömrük statistikasına daxil olan mallar üzrə.)

	01.01.2021-31.12.2021		01.01.2020-31.12.2020		2020-ci ilə nisbətən	
	Netto (ton)	Statistik dəyər (USD)	Netto (ton)	Statistik dəyər (USD)	Netto	Statistik dəyər
CƏMİ	47,595 mln	22,206, 655 mln	42,406 mln	13,732,637 mln	112.23	161.71
ondan:						
"Yaşıl dəhliz" istifadəçilərinin əməliyyatlarının həcmi	10,909 mly	5,391,341 mln	11,516 mln	4,490,448 mln	94.72	120.06
"Yaşıl dəhliz" istifadəçilərinin əməliyyatlarının həcminin xüsusi çəkisi	22.92	24.28	27.16	32.70		
Digər müəssisələrin əməliyyatlarının həcmi	36,685 mln	16,815,31 4 mln	30,890 mln	9,242,188 mln	118.76	181.94

Mənbə: Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Statistikadan görsəndiyi kimi, 2021-ci il üzrə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən müəssisələrin əməliyyatların həcmində çəki baxımından azalma olsa da, statistik dəyər baxımından artım müşahidə olunmuşdur. 2020-ci ildə ixrac üzrə əməliyyatların 27,16 faizi "Yaşıl dəhliz" iştirakçıları tərəfindən həyata keçirilmişdirsə, 2021-ci ildə bu statistika 22,92 faizə bərabər olmuşdur. 2020-ci ildə pandemiya ilə bağlı çətinliklər zamanı "Yaşıl dəhliz" iştirakçılar üçün olan üstünlüklər həmin iştirakçıların xüsusi payının daha yüksək olmasına şərait yaratmışdır.

Cədvəl 2. "Yaşıl dəhliz" sistemindən istifadə hüququnun verildiyi müəssisələrin əməliyyatları. (Kənd təsərrüfatı və yeyinti məhsullarının ixracı üzrə). Xarici ticarətin gömrük statistikasına daxil olan mallar üzrə.

	01.01.2021-31.12.2021		**01.01.2020-31.12.2020**		**2020-ci ilə nisbətən**	
	Netto (ton)	Statistik dəyər (USD)	Netto (ton)	Statistik dəyər (USD)	Netto (ton)	Statistik dəyər (USD)
CƏMİ ONDAN:	920,836 min	816,226 min	786,682 min	759,879 min	117,05	107,42
"Yaşıl dəhliz" istifadəçilərinin əməliyyatlarının həcmi	343,874 min	378,349 min	353,543 min	401,795 min	97,27	94,16
"Yaşıl dəhliz" istifadəçilərinin əməliyyatlarının həcminin xüsusi çəkisi	37,34	46,35	44,94	52,88		
Digər müəssisələrin əməliyyatlarının həcmi	576,962 min	437,877 min	433,139 min	358,083	133,20	122,28

Mənbə: Dövlət Gömrük Komitəsinin statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Kənd təsərrüfatı və yeyinti məhsullarının ixracı üzrə 2021-ci ildə olan əməliyyatların çəkisində (netto çəkiyə nəzərən) 2020-ci ilə nisbətən 17,05 faiz artım, statistik dəyərə nəzərən isə 7,42 faiz artım müşahidə olunsa da, "Yaşıl dəhliz" iştirakçılarının ümumi ixracda faiz payında (netto çəkiyə nəzərən) 7,6 faiz azalma, statistik dəyər baxımından isə 6,53 faiz azalma yaranmışdır. Burada əsas səbəblərdən biri, 2020-ci ildə pandemiyanın kəskin şərait alması əksər ixracatçılara əngəllər yaratsa da, "Yaşıl dəhliz" iştirakçılarına verilən xüsusi və spesifik üstünlüklər (gömrük orqanına gəlmədən malların öz anbarlarından rəsmiləşdirilməsi) həmin iştirkçıların ixracda payının yüksək olmasına səbəb olmuşdur.

NƏTİCƏ

"Yaşıl dəhliz" buraxılış sistemindən istifadə məhsulların xarici bazara çıxışında əvvəllər mövcud olan uzun gömrükləmə prosesinin, eyni zamanda malların ixracında yaranan süni əngəllərin aradan qaldırılmasında olduqca vacib rol oynayır. Neft sektorundan sonra ölkəmizin ixracında 2-ci yeri kənd təsərüffatı olduğunu nəzərə alsaq və kənd təsərrüfatı mallarının tez xarab olan və saxlanc şəraiti tələb edən mallar siyahısında olduğundan, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edilməsi həm sahibkarlar üçün xarici bazara çıxışın daha qısa zamanda təmin edilməsi, əlavə xərclərin azaldılması, gəlirlərinin artmasına və eyni zamanda dövlət büdcəsinə daxil olmaların artmasına səbəb olur. 44 günlük müharibədən sonra işğaldan azad edilmiş torpaqların böyük qismininin kənd təsərrüfatı üçün yararlı olması və Kiçik Qafqaz dağlarının çaylarının kifayət qədər su ehtiyatı olması, həmin ərazilərdə kənd təsərrüfatında yüksək məhsuldarlığın olmasına və sahibkarlar üçün qeyd olunan ərazilərdə vergilərdə veriləcək imtiyazlar, malların aşağı xərc və yüksək keyfiyyətlə xarici bazara çıxışını təmin edəcək və "Yaşıl dəhliz" buraxılışından istifadə etməklə sahibkarlar hər tərəfli üstünlüklər qazanacaq və gömrükləmə prosesində qısa zamanda əməliyyatları yerinə yetirməklə ölkənin ixrac potensialına ciddi təsir göstərəcək. Həmin ərazilərdə kənd təsərrüfatından başqa, digər sənaye sahələrinin yaradılması, təməli qoyulan Araz İqtisadi Zonası sənaye parkının inkişaf etdirilməsi və həmin sənaye parkında sahibkarlar üçün tətbiq olunan güzəştlər və imtiyazlar sahibkarlar üçün əlavə üstünlüklər yaradacaq. Eyni zamanda bu cür təşviqlər və imtiyazlardan istifadə etməklə ixrac potensialında qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması və gömrük sisteminin tələblərə uyğun inkişaf etdirilməsi gömrük orqanlarının üzərinə böyük məsuliyyətə səbəb olur. Bu baxımdan azad olunmuş ərazilərdə yeni gömrük orqanlarının və

idarələrinin yaradılması, sahibkarların daha rahat şəkildə öz mallarını xarici bazara çıxışının təmin edilməsində "Yaşıl dəhliz" buraxılış sisteminin rolu əsas rol oynayacaq.

ƏDƏBIYYAT SIYAHISI

1. DGK. www.customs.gov.az - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi saytı
2. DSK. www.stat.gov.az- Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı
3. Alirzayev. Elvin How the reforms lead to more custom revenues: case of Azerbaijan 2022.
4. Fərman.2018. Azərbaycan Respublikasının Prezidentinin Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydaları. 21.12.2018 №427. https://e-qanun.az/framework/41888
5. Sərəncam. NK. 2011-2013-cü illər üçün qeyri-neft sektoru məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı №40, Bakı: 8 fevral 2011-ci il. https://e-qanun.az/downloadPdf/21350
6. Vergilər Nazirliyi. www.taxes.gov.az – Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi saytı.

RƏQƏMSAL İQTİSADİYYATIN KRİPTOVALYUTA DÖVRÜ

Roman İdris oğlu Salahov

roman.salahov@ascca.edu.az

Gömrük işi ixtisaslaşması, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə:

Bilindiyi kimi ticarət mal və xidmətlərin satılması və əldə olunması ilə əlaqədar fəaliyyətlərdir. İnternet şəbəkələrinin yaranmasından sonra ənənəvi ticarət forması artıq rəqəmsallaşmaya doğru yönəlmişdir. Rəqəmsal ticarət anlayışı ənənəvi ticarətin elektron formada həyata keçirilməsidir. Elektron ticarət əmtəə və xidmətlərin istehsal, reklam, satış, sığorta, daşınma və ödəniş əməliyyatlarının hər birinin kompüter şəbəkəsi üzərində aparılmasıdır. Elektron ticarətin qarşısında duran müasir problemlərdən birincisi ödəniş sistemləri idi. Alıcı və satıcı arasında baş tutan rəqəmsal satışın dəyərinin ödənilməsi də rəqəmsal formada həyata keçirilməlidir. Lakin vəsaitlərin rəqəmsal olaraq istifadəsi zamanı ortaya müxtəlif problemlər çıxmışdır. Ənənəvi pul vəsaitlərinin rəqəmsal formalarının istifadəsi mümkün olsa belə "dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi", "yaşıl iqtisadiyyat" və eyni zamanda rəqəmsal vəsaitlərin təhlükəsizliyi baxımından imkanları zəiflədirdi. Kriptovalyutaların və blockchain texnologiyalarının hazırlanması bütün problemləri aradan qaldırdı, iqtisadiyyatı rəqəmsal yöndə dəyişdirməyi bacardı.

Açar sözlər: *rəqəmsal iqtisadiyyat, rəqəmsal ticarət, kriptovalyuta, rəqəmsal inkişaf*

Keywords: *digital economy, digital trading, cryptocurrency, digital development*

Material və Metodika

Bir çox mənbələrin yazdıqlarına görə informasiya və əlaqə (informasiya əlaqəsi) sahəsində 1800-cü illərdən öncə yalnız 17 böyük ixtira və yenilik olduğu halda 1800-cü ildən günümüzə qədərki dövrdə bu yeniliklərin sayı 100-ə qədərdir. Bütün bunların fonunda rəqəmsallaşma və elektronika durur. Qədim dövrlərdə bir çox ixtiralar müharibələrlə bağlı olmuşdur. Məhz təhlükəsiz və rahat yaşamaq istəyi insanoğlunu yeni kəşflər etməyə, daha yaxşılarını hazırlamağa təhrik etmişdir. İnternet də müharibədən sonrakı soyuq müharibə dövründə qurulmuşdur. İlk şəbəkə 1969-cu ildə Amerika mərkəzli ARPA (Advanced Research Projects Agency – Qabaqcıl tədqiqat layihələri agentliyi) tərəfindən ARPANET adı ilə qurulmuşdur. Əsas məqsədi baş verə biləcək mümkün nüvə partlayışı zamanı silahların məsafədən idarə edilə bilməsidir. İnternetin ümumi istifadəyə verilməsindən sonra istifadə təyinatında kəskin dəyişikliklər baş vermiş, insan həyatının bütün sahələrinə inteqrasiya olunmağa başlamışdır. Müasir dövrdə internet məlumat mübadiləsi, əlaqə vasitəsi, əyləncə, ticarət və s. digər fəaliyyətlər üçün istifadə olunur. [1]

Elektron ticarət haqqında ölkələrin müxtəlif yanaşmaları vardır. Lakin qəbul edilmiş ümumi tərif 1997-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf (OECD) tərəfindən verilmişdir. Tərifə görə elektron ticarət aşağıdakı əməliyyatları özündə birləşdirən bir fəaliyyətdir:

- İstehsal qabağı müəssisələr informasiyaları elektron səviyyədə həyata keçirir;
- İstehsal firmaları elektron mühitdə görüşür;
- Ödəmə sistemləri elektron qaydada həyata keçirilir;
- Çatdırılmanın həyata keçirilməsi. Mal və xidmətlər istehlakçıya çatıdırılır;
- Satışdan sonrakı dəstək xidmətləri mümkünlüyü daxilində elektron qaydada həyata keçirilir.

Ümumiləşdirilmiş şəkildə elektron ticarət iş, idarə və istehsal fəaliyyətlərinin həyata keçirilməsi üçün iş informasiyalarının istehsalçılar, istehlakçılar və dövlət qurumları ilə digər təşkilatlar arasında elektron vasitələrlə paylaşılmasıdır.

İnternetin qloballaşması heç də bütün şəxslər tərəfindən birmənalı qarşılanmamışdır. Pentaqonda, ABŞ Müdafiə Sənayesində işləyən fizik Jonathan Huebner 2005-ci ildə "Qlobal miqyasda innovasiya istehsalının geriləmə trendi" adlı araşdırmasında həqiqi ixtiraların zəiflədiyini, rəqəmsallaşmanın insan təfəkküründə mənfi təsir etdiyini müəyyən etmişdir. Araşdırmaya görə insanların elektrik, telefon, təyyarə, tranzistor kimi ixtiraları dünyanın inkişafını sürətləndirdiyi halda rəqəmsal informasiya sistemləri insan düşüncəsinə mənfi təsir göstərmiş, həqiqi ixtiraların edilməsinə mənfi təsir göstərmişdir. "Yüksək səviyyəli bir ixtira edilməsi ehtimalı çox aşağıdır. İnnovasiya və internet tükənən bir mənbədir. İnternetin yaranmasına qədər olan dövrdəki adam sayına düşən patent sayı ilə internetin yaranmasından sonrakı dövrdə olan say arasında ciddi azalma var." demişdir Huebner. 2010-cu ildə Founders Fund şirkəti "Gələcəyə nə oldu?" adlı yazısında 1980-ci illərin başlanğıcında "Yaşıl iqtisadiyyat", "Elektron ticarət və ətraf mühit çirklənməsinə son", "Rəqəmsal iqtisadiyyatın qloballaşması" konsepsiyalarının artıq öz qüvvəsini itirdiyini, internetin real inkişafı ləngitdiyinə diqqət cəlb etməyə çalışmışlar. [2]

Hazırda dünyanın ən varlı insanı olan Elon Musk 1995-ci ildə ZİP2 şirkətini təsis edərkən rəqəmsal texnologiyanın inkişafı ilə bağlı demişdir: "İnternetin inkişafı rəqəmsal reklam üçün geniş imkan yaradacaqdır. Ənənəvi reklamlardan daha çox kütləyə malik olan internet reklamları gələcəkdə yeni mühit yaradacaqdır. İnsanlar satış etmək üçün səhərlər iş yerlərinə getmək əvəzinə öz evlərindən satışlarına nəzarət edəcəklər. Reklamlar insanların gündəlik işlərinin bir hissəsinə çevriləcək. Biz də bunun üçün ZİP2 sistemini qurduq və .com dünyasına (internetin yeni yarandığı dövrlərdə internet saytlarına daha çox .com dünyası deyə müraciət olunurdu.) yenilikləri tətbiq etməyə başladıq". [2]

Məsafədən informasiya ötürülməsi sistemlərinin inkişaf etdirilməsi iqtisadiyyatda da dəyişikliklərə təsir etdi. İqtisadiyyatın təməli istehsal və xidmət sektorları ilə istehlakçıların qarşılıqlı əlaqəsi və bölgü üzərində qurulmuşdur. İnternet texnologiyaları isə informasiyaların daha sürətli və təhlükəsiz göndərilməsini təmin edir. Beləliklə, iqtisadi sektor üzrə istehsal-istehlak, mübadilə-bölgü informasiyalarının əldə edilməsi sürətləndi və qərarların qəbulu prosesinə ciddi təsir göstərdi. Əgər investorların qərarlarına təsir göstərən informasiyalar əvvəlki dövrlərdə yalnız kağız daşıyıcılarda yerləşdirilirdisə, artıq rəqəmsal informasiyalar bütün internet istifadəçiləri üçün əlçatandır. İnformasiyaların əldə edilməsinin asanlaşması rəqəmsal iqtisadiyyat anlayışını yaratdı. "Rəqəmsal iqtisadiyyat rəqəmsal kompüter şəbəkələri vasitəsilə həyata keçirilən iqtisadiyyatdır. Rəqəmsal iqtisadiyyat insanlar, bizneslər, cihazlar, müəssisələr, məlumatlar və proseslər arasında gündəlik milyardlarla əlaqənin nəticəsidir. İnternet, mobil texnologiya və əşyaların interneti nəticəsində yaranan insan-təşkilat-maşın əlaqəsinə əsaslanır." [3], [4]

İqtisadi sferada həyata keçirilən bütün əməliyyatlar üçün təhükəsizlik birinci şərtdir. İqtisadiyyatın təməlini təşkil edən fərdlər və qurumların həyata keçirdikləri iqtisadi fəaliyyətlərdə inam (təhlükəsizliyə) əsas faktordur. İqtisadi fəaliyyətin davamlı həyata keçirilməsi üçün alıcı və satıcı ilə yanaşı bu iki tərəf arasında fəaliyyətin təhlükəsizliyinə nəzarət edəcək üçüncü tərəfə ehtiyac duyulur. Rəqəmsal iqtisadiyyatın yaranmasından öncə bütün ödəmə əməliyyatları üz-üzə və ya üçüncü şəxslərin fəaliyyəti vasitəsilə məsafədən maddi formada həyata keçirilmişdir. İnternet texnologiyalarının inkişaf etdirilməsi iqtisadiyyatda məsafə anlayışını aradan qaldırdı. Artıq qlobal iqtisadi sfera formalaşmış, istehsalçılar məhsullarını dünya üzrə satışa (world-wide shipping) çıxarmışlar. Lakin bu zaman da satış əməliyyatı zamanı ödəmə problemi ortaya çıxmışdır. Eynilə ənənəvi ödəmələrdə olduğu kimi internet ödəmələri zamanı da üçüncü şəxslərin iştirakı vacibdir. Vəsaitlərin hərəkətini təmin edən belə maliyyə institutları alıcı və satıcı arasında vəsait axımını təşkil etmiş, bu axının təhlükəsizliyinə və eyni zamanda alıcı və satıcının əməliyyatlarının hesabatlarının yaradılmasına cavabdeh olmuşlar. Belə maliyyə institutları alıcının istifadə etdiyi plastik kartın və ya elektron hesabın saxlanıldığı bank, birjalarda əməliyyatların həyata keçirilməsini təmin edən üçüncü şirkətlər və ya birbaşa dövlət ola bilər. [5]

İnternet şəbəkələrinin dünya üzrə kəskin yayılması yeni iqtisadi sahələrin yaranmasına şərait yaratmışdır. Bunlar arasında elektron ticarət sahəsi xüsusi yer tutur. Amazon, eBay, AliBaba kimi elektron ticarət

şirkətlərinin yaranması ənənəvi ticarət anlayışını dəyişdirdi. Elektron ticarət fəaliyyətinin yaranması maliyyə sektoruna ciddi təsir etmişdir.

Rəqəmsal dünyada mövcud olan bütün pulların maddi qarşılığı vardır. Bu da pul vəsaitlərinin onlayn hərəkəti zamanı həm də fiziki yerdəyişməsinin həyata keçirilməsini tələb edir. Fiziki yerdəyişmə isə məsrəflərlə müşayiət olunduğundan vəsaitlərin rəqəmsal yerdəyişməsi zamanı müxtəlif dəyər əlavəsi yaranır. Bunları müasir dövrdə komissiya, satış əlavəsi, yerləşdirmə-yerdəyişmə komissiyası və s. adlandırırlar.

Rəqəmsal pul anlayışı 1980-ci illərin sonlarında meydana çıxmağa başlamışdır. Program təminatlarının yaradılmasına 1990-cı illərdə başlanılmışdır. İlk dəfə hər hansı idarəetmə bazasına/qurumuna ehtiyyac duymayan "B-Money" fikrini Wei Dei adlı kompüter mühəndisi irəli sürmüşdür. Daha sonra bu fikri daha da təkmilləşdirən Nick Szabi adlı proqramçı tranzaksiyanın uğurla həyata keçdiyini göstərən "proof of word" sistemi qurdu. İlk rəqəmsal valyutaların yaranması bu sistemlərdən sonra mümkün oldu. Rəqəmsal pulların yaradıla bilməsi üçün əsas zəminlərdən birincisi Blockchain texnologiyasının qurulmasıdır. Müxtəlif blokların vasitəsilə kodlamanı və informasiya reysterini yadda saxlamağı təmin edən sistem xarici təhlükələrə qarşı təhlükəsizdir. Ola biləcək kiber hücumlar zamanı sistemə daxil olan blokların ən azı 51%-i eyni anda dəyişdirilməlidir ki, bu da müasir texnologiyalar müddətində mümkünsüzə yaxın bir prosesdir. Blockchain texnologiyası rəqəmsal valyutalarda tranzaksiya reysteri kimi istifadə olunur. Rəqəmsal valyuta üzrə əməliyyatlar həyata keçirirlərkən müxtəlif yerlərdəki "minerlər" (maynerlər-qazıcılar) vasitəsilə məlumatlar blok zincirinə işlənir və beləliklə rəqəmsal valyuta yaradılmış olur. Eyni zamanda prosesin sonunda maynerlər də müxtəlif gəlir əldə edirlər. [5]

Nəyə görə kriptovalyutalar ənənəvi pulların elektron qarşılığından daha mütərəqqi hesab edilir? Ənənəvi valyutalardan fərqli olaraq kriptovalyutalar yalnız rəqəmsal formada olur. Fiziki qarşılığı olmadan, dünyadakı heç bir maliyyə institutlarının nəzarət sisteminə daxil deyil. Ümumiyyətlə kriptovalyutalara nəzarət mexanizmi hazırda fəaliyyət göstərmir. Eyni zamanda heç bir qarşılığı olmadığına görə infilyasiyaya məruz qalmır, vəsait hərəkəti zamanı komissiya tutulmur. Bütün bunlar kriptovalyutaları ənənəvi elektron vəsaitlərə nisbətdə daha mütərəqqi edir.

Blockchain texnologiyasından, "B-Money" və "Proof of work" texnologiyasından istifadə edilməklə yaradılmış ilk kriptovalyuta Bitcoin olmuşdur. 2009-ci ildə Satoşi Nakamuta ləqəbli (daha sonralar bu şəxsin Kreyq Rayt (Craight Wright) adlı şəxs olduğu üzə çıxır) bir şəxs tərəfindən yaraılmışdır. Bitcoinin ilk alıcıları əsasən informasiya texnologiyaları ilə məşğul olan şəxslər olmuşdur. 2013-cü ilin sonlarına qədər dəyəri 15 dolları keçməyən bitcoin həmin ilin sonlarında 1.5 min ABŞ dollarını keçir. Əsas səbəb kriptovalyutaya olan tələbin artması, oyun şəbəkələrinin kriptovalyuta üzərindən ödəmə sistemlərinə keçməsi və bəzi üniversitetlərin (Kipr üniversitetləri üstünlük təşkil edirdi) bu sistem üzərindən ödənişlər almağa başlaması idi. Rəqəmsal valyuta sahiblərinin gizli olması qeyri-leqal fəaliyyət göstərən və gizli iqtisadiyyat iştirakçılarının kəskin marağına səbəb olmuşdur. Müasir dövrdə internetin qaranlıq tərəfi olan "Dark Web"-də bütün ödənişlər kriptovalyutalarla həyata keçirilir. Kriptovalyuta ilə insan alveri, silah satışı həyata keçirildiyindən 2013-cü ilə ABŞ-da ödəniş sistemi kimi istifadəsi qadağan olunmuşdur. 2015-ci ildə Onecoin yaradılır və bitcoində olan çatışmazlıqlar aradan qaldırılır. Beləliklə bütün dünya yeni növ ödəniş sistemi ilə tanış olur. [6]

2021-ci ilin sentyabr ayından El Salvador dövləti bitcoini rəsmi ödəniş vasitəsi kimi qəbul etdi. Bundan sonra digər ölkələr də daxili ödəmələrdə kriptovalyutaların tətbiqi üçün işlərə başladılar. Kripto ödəmələrlə bağlı ilk məsələ ödəniş sisteminin məlumat və işlənmə (mining) bazasının yaradılmasıdır. Hazırda ödəniş sistemi kimi kriptovalyutaları kiçik bizneslər səviyyəsində tətbiq etməyə başlayan qabaqcıl ölkələrə ABŞ, Kanada, Avstraliya, Avropa Birliyi və İsraildir. Dünya üzrə 15 min kiçik biznes sistemləri kriptovalyutaları rəsmi ödəniş sistemi kimi qəbul etmişdir ki, onların da 2 minə qədəri ABŞ-da yerləşir. Eyni zamanda hazırda dünyanın ən bahalı avtomobil şirkəti olan Tesla da kriptovalyutaları ödəniş vasitəsi kimi qəbul etmişdir.

Bazar dəyərinə görə ən böyük 5 kriptovalyuta:

- Bitcoin (BTC) – bazar dəyəri 892 milyard dollar
- Ethereum (ETH) – bazar dəyəri 388 milyard dollar
- Tether (USDT) – bazar dəyəri 82 milyard dollar
- Binance Coin (BNB) – bazar dəyəri 72 milyard dollar
- USD Coin (USDC) – bazar dəyəri 51 milyard dollar [6]

Hazırda Azərbaycanda kriptovalyutaların xüsusi tənzimlənmə mexanizmi yoxdur. Qanuni kriptovalyuta rejimi olmasa da "Banklar Haqqında Qanun"-un müddəaları tətbiq olunur. Bu qanuna uyğun

olaraq rəqəmsal vəsaitlərin hərəkəti zamanı yalnız ənənəvi formada olan elektron vəsaitlərin hərəkətinə xüsusi rüsumlar tətbiq olunur. Eyni zamanda "Valyuta tənzimi haqqında" qanunda da xarici valyuta anlayışı açıqlanır və xarici valyutaların mübadiləsi zamanı hüquqi proseduralar sadalanır. Azərbaycan Vergi Məcəlləsinə uyğun olaraq virtual valyutaların ticarətindən əldə edilmiş gəlirlər vergilərə (qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilmiş vəsaitlər kimi. Rüsum dərəcəsi 14%) cəlb edilir. Kriptovalyutalar Azərbaycanda rəsmi ödəniş vasitəsi deyil. 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq ölkə ərazisində rəsmi ödəniş vasitəsi Azərbaycan Manatıdır. Ödəniş vasitələrinin yaradılması üzrə səlahiyyət Konstitusiya tərəfindən Mərkəzi Banka həvalə olunur. [6]

Nəticə

Hazırda Azərbaycanda kriptovalyuta ticarətinə daxil olmaq istəyən şəxslərin qarşısında duran əsas xərclər bunlardır: 1. Birjaya mədaxil zamanı bank rüsumu (18%) 2. Birjada alqı-satqı zamanı birjanın komissiyası 3. Birjadan vəsaitlərin məxarici zamanı birjanın komissiyası 4. Bank hesablarından mədaxil olunmuş vəsaitlərin nağdlaşdırılması zamanı bankın komissiyası. Beləliklə, kripto ticarətə daxil olmuş şəxslər 2 qat vergi ödənişinə məruz qalırlar. Hazırda kriptovalyuta sahəsində tənzimlənməsi mühüm olan əsas problem bundan ibarətdir.

Digər tərəfdən inkişaf etmiş Avropa ölkələrinin çoxunda kriptovalyuta mübadilə məntəqələri/köşkləri vardır. Lakin bu texnologiya da hazırda Azərbaycanda tətbiq olunmur. Mübadilə məntəqələrinin olmaması kriptovalyuta bazarına daxil olmaq istəyən şəxslər üçün daha bir problem halına gəlir. Çünki kripto vəsaitlərin nağdlaşdırılması üçün xarici şirkətlərə müraciət etmək və eyni zamanda xarici şirkətlər üçün əlavə komissiyalar ödəmək məcburiyyətində qalırlar. İnvestopedia nəşrinin məlumatlarına əsasən hazırda Azərbaycanda aktiv mindən çox mayner (qazıcı) vardır. Bunların da əldə etdikləri xarici vəsaitlərin ölkəyə daxil olduğunu nəzərə alaraq bu fəaliyyəti stimullaşdırmaq məqsədəuyğundur. Xarici vəsaitlərin cəlbini stimullaşdırmaq inkişaf etməkdə olan ölkələr üçün ənənəvi siyasətdir. Kriptovalyuta haqqında qanun layihəsinin hazırlanması və tətbiqi qlobal iqtisadi trendləri daim tətbiq edən ölkəmiz üçün mütləq olmalıdır.

Ədəbiyyat:

1. "İNTERNET VE TÜRKİYEDE İNTERNETİN GELİŞİMİ" Yrd.Doç. Dr. Hasan Hüseyin BALIK
2. Ashlee Vance "Elon Musk: Tesla, SpaceX, and the Quest for a Fantastic Future"
3. Bukth, R. & R Heeks, Defining, Conceptualising and Measuring the Digital Economy, Working Paper Series, Paper No. 68. 2017. UNCTAD, Digital Economy Report, 2019
4. Currarini, S., Marchiori, C., & Tavoni, A. (2014). Network Economics and the Environment: Insights and Perspectives. Fondazione Eni Enrico Mattei (FEEM). http://www.jstor.org/stable/resrep01018
5. Yavuz,M.(2019).EKONOMİDE DİJİTAL DÖNÜŞÜM: BLOCKCHAIN TEKNOLOJİSİ VE UYGULAMA ALANLARI ÜZERİNE BİR İNCELEME . Finans Ekonomi ve Sosyal Araştırmalar Dergisi , 4 (1) , 15-29 . DOI: 10.29106/fesa.498053
6. www.Investopedia.com

KÖLGƏ İQTİSADİYYATINA SƏBƏB OLAN AMİLLƏR

Qiyas Bəhruz oğlu Əhmədzadə
qiyas.ehmedzade@ascca.edu.az

Xülasə

Müasir dövrdə dünya iqtisadiyyatının qarşısında duran ən böyük problemlərdən biri də məhz kölgə iqtisadiyyatıdır.Kölgə iqtisadiyyatı ölkə iqtisadiyyatı, əmək bazarı, sosial həyat və ictimai həyat üzərində mənfi təsirlərə malik bir sahədir.Kölgə iqtisadiyyatı iqtisadiyyatın rəsmi şəkildə qeydiyyata düşməyən hissəsidir.Bu isə dünya iqtisadiyyatına çox böyük zərərlər vurur.Buna görə də kölgə iqtisadiyyatının qarşısının alınması mühüm məsələlərdən biridir.

Açar sözlər: Kölgə iqtisadiyyatı, milli gəlir, sahibkarlıq,məşğulluq,vergi,vergi ödəyiciləri

Key words: Shadow economy, national income, entrepreneurship,employment, taxes, taxpayers

Giriş

Qeyri-rəsmi və ya paralel iqtisadiyyat adlanan kölgə iqtisadiyyatı təkcə qeyri-qanuni fəaliyyətləri deyil, həmçinin qanuni mal və xidmətlərin istehsalından, valyuta və ya barter əməliyyatlarından əldə edilən və qeydiyyata alınmayan gəlirləri də əhatə edir. Beləliklə, Kölgə iqtisadiyyatı ümumi olaraq vergiyə cəlb ediləcək bütün iqtisadi fəaliyyətləri əhatə edir. Kölgə iqtisadiyyatı termini 1970-ci illərin sonunda yayımlanan məqalələrlə iqtisadi ədəbiyyata daxil olmasına baxmayaraq bu mövzuda ilkin tədqiqatlar 1940-cı illərin əvvələrindən başlamışdır. Kölgə iqtisadiyyatı ilə bağlı ilk elmi tədqiqat 1958-ci ildə Filip Cagan tərəfindən həyata keçirilmişdir.O, ABŞ-ın İkinci Dünya müharibəsi ərzində və sonrasında vergi ödəyiciləri tərəfindən bəyan edilməyən gəlirləri müəyyən etməyə çalışmışdır.

Kölgə iqtisadiyyatının həcmini müəyyən etmək olduqca şətin bir prosesdir. Bu səbəblə bir sıra tədqiqatçılar 1991-ci ildən 2015-ci ilə kimi 158 ölkədə kölgə iqtisadiyyatının həcmini müəyyən etmək,onun güclü və zəif tərəflərini müəyyən etmək üçün araşdırmalar aparmışdır.Bu araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, 1991-ci ildən 2015-ci ilə qədər olan müddətdə kölgə iqtisadiyyatının orta ölçüsü dünyanın 158 ölkəsində 31.9 % təşkil etmişdir.

Kölgə iqtisadiyyatı milli gəlir, ümumi daxili məhsul, məşğulluq səviyyəsi kimi makroiqtisadi məlumatları keyfiyyətsiz hala gətirməklə bu məlumatlar əsasında hazırlanmış ölkə siyasətinin effektivliyini və səmərəliliyini azaldır.Həmçinin kölgə iqtisadiyyatının artması statistik hesablamalarda və iqtisadi göstəricilərdə xətalar, vergi itkiləri, vergidən yayınma, haqsız rəqabət, əmək qanunvericiliyinin və sosial təminat sistemlərinin korlanması, məhsulun keyfiyyətinin pisləşməsi, keyfiyyətsiz məhsulların bazara daxil olması, ixtisassız işçi qüvvəsinin formalaşması kimi bir çox problemlərə səbəb olur.Buna görə də ölkənin iqtisadi və maliyyə siyasətinin daha effektiv həyata keçirilməsi üçün kölgə iqtisadiyyatının qarşısının alınması vacibdir.

Son illər ərzində iqtisadi artıma və onun strukturuna nəzər salsaq görərik ki, kölgə iqtisadiyyatı iqtisadi artıma əhəmiyyətli dərəcə də təsir göstərmişdir. Kölgə iqtisadiyyatı qanunla qadağan olunmayan, lakin vergilər başda olmaqla bəzi ödənişlərdən yayınmaq məqsədilə həyata keçirilən sahibkarlıq fəaliyyətidir.

İqtisadi ədəbiyyatlarda kölgə iqtisadiyyatı olaraq müəyyən edilən iqtisadi fəaliyyətlər, digər iqtisadi fəaliyyətlərə nəzərən fərqlilikləri mövcud olduğu üçün özünə xas xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərə aid etmək olar:

1. Statistik olaraq ölçülə bilməməsi
2. Əldə edilən gəlirin gizlədilməsi
3. Qanunvericiliyə əsasən qadağan edilmiş fəaliyyətlər
4. Qeyri-rəsmi məşğulluq

Kölgə iqtisadiyyatının bir çox səbəbləri ola bilər.Bunları iqtisadi və maliyyə, hüquqi və inzibati, sosial və struktur səbəblər kimi qruplaşdırmaq olar.Ölkənin iqtisadi sistemi və onun struktur xüsusiyyətləri kölgə iqtisadiyyatı üçün əlverişli zəmin yarada bilər.İqtisadi tənzimləmələrin və məhdudiyyətlərin daha çox olduğu inkişaf etməmiş ölkələrdə iqtisadiyyatın qeyri-rəsmi sahəsinin digər ölkələrə nisbətən daha çox olduğu müşahidə edilir.Gəlir bölgüsündəki qeyri-bərabərlik, aşağı gəlirli qrupun çoxluğu və orta gəlirli qrup üzvlərinin nisbi qıtlığı kölgə iqtisadiyyatının səbəbləri arasındadır.İqtisadi böhran və iqtisadi tənəzzül dövrləri kölgə iqtisadiyyatı üçün əlverişli şərait yaratmaqdadır.Belə dövrlərdə işsiz əhalinin rifah səviyyəsi yaxşı olmadığı üçün onlar qeyri-rəsmi fəaliyyətlərlə məşğul olmağa başlayırlar

İqtisadi subyektlərin kölgə iqtisadiyyatına yönəlməyinin əsas səbəblərindən biri də qanunvericiliyin şərtlərinin ağır olmasıdır. Qanunvericiliyin tez-tez dəyişdirilməsi və mürəkkəbliyi iqtisadi subyektlərin kölgə iqtisadiyyatına yönəlməsinə səbəb olur. Buraya həmçinin mövcud olan korrupsiya amilini, vergi ilə bağlı olmayan və bilavasitə biznes mühitinə təsir edən,enerjiyə,su təchizatlarına,kommunal şəbəkəyə və s. qoşulma prosedurlarının da xüsusi təsirini göstərmək mümkündür.

Vergi ödəmənin alıcılıq qabiliyyətini aşağı saldığını düşünən vergi ödəyiciləri vergi ödəməkdən çəkinirlər. Bu vəziyyəti minimuma endirmək üçün verginin əslində dövlət xidmətinə ödənilən təzminat olduğunu, vergilər ödənmədiyi təqdirdə dövlət xərclərinin inflyasiya effekti yaradan borclanma hesabına ödəniləcəyini və ən sonda bunun yenidən vergi ödəyicilərindən çıxılacığını izah etmək böyük əhəmiyyət kəsb edir.

Tədqiqat metodu

Kölgə iqtisadiyyatı ilə mübarizə aparmağın bir sıra yolları vardır. Bu yollardan biri də nağd ödənişlərin məhdudlaşdırılmasıdır.Bu cür fəalliyətlə məşğul olan subyektlər daha çox nağd şəkildə ödənişlərdən istifadə edirlər.Bu isə iqtisadiyyatda nağd pula olan ehtiyacı artırır.Bunun qarşısının alınması üçün elektron kassa aparatlarından və terminallardan istifadə stimullaşdırılmalıdır. Müəssisələrin və istehlakçıların

stimullaşdırılması yollarına isə hal-hazırda tətbiq edilən "ƏDV-ni geri al" kompaniyasını missal göstərmək olar.İqtisadiyyatın bu sahəsinə qarşı sosial şüurun formlaşdırılması mühüm əhəmiyyət kəsb edir.
Kölgə iqtisadiyyatının azalması və vergi daxilolmalarının artması üçün ilk növbədə qanunvericiliyin şərtlərinin yumşaldılması, vaxtaşırı yoxlamaların aradan qaldırılması, nəzarətin obyektiv şəkildə aparılması lazımdır.

Nəticə

Kölgə iqtisadiyyatı müasir dövrün qarşısında duran ən böyük problemlərdən biridir.Kölgə iqtisadiyyatına qarşı bir çox dövlətlər tərəfindən tədbirlər planı və xüsusi proqramlar işlənib hazırlanır.Həyata keçirilən bütün tədbirlərə baxmayaraq kölgə iqtisadiyyatının qarşısını tam olaraq mümkün olmamışdır.Lakin son zamanlarda kölgə iqtisadiyyatının səviyyəsində kəskin şəkildə azalma müşahidə olunur.Buna səbəb müəssisələrin və istehlakçıların stimullaşdırılması yolu ilə iqtisadiyyatın bu fəaliyyət növünə olan marağın azalmasıdır.Normativ-hüquqi bazanın inkişaf etdirilməsi və şüurlu cəmiyyətin formalaşdırılması kölgə iqtisadiyyatının səviyyəsinin aşağı enməsinə səbəb olacaqdır.

Ədəbiyyat siyahısı

1. Nihat Işık,Mustafa Acar "KAYITDIŞI EKONOMİ:ÖLÇME YÖNTEMLERİ, BOYUTLARI, YARA VE ZARARLARI ÜZERİNE BİR DEĞERLENDİRME" Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi,sayı 21,Temmuz-Aralık 2003, ss117-136
2. Friedrich Schneider, Dominik Enste "Hiding in the Shadows The Growth of the Underground Economy*"* ,2002 International Monetary Fund ,March 2002
3. F.Musayev "Kölgə iqtisadiyyatının yaranma prosesinin gizlədilmiş rentabellik vasitəsilə modelləşdirilməsi" 2021 Mingəçevir Dövlət Universiteti ,Dayanıqlı İnkişaf cild 1,№1,2021
4. Elif Bervi Ağanoğlu "Kayıt Dışı Ekonominin Etkileri: Türkiye'den Bir Uygulama" İstanbul 2019
5. Serkan Avcıoğlu "Kayıt Dışı Ekonominin Makro Ekonomik Göstergelere Etkileri Ve Seçilmiş Ülke Örnekleri" Eylül 2021

ZƏNGƏZUR DƏHLİZİNİN BEYNƏLXALQ NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Cəfərli Elşən Fəxrəddin oğlu
magistrant,
elsenceferli9@gmail.com
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsindən sonra Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli bəyanatın şərtlərindən biridə Naxçıvan MR və Azərbaycan respublikası arasındakı nəqliyyat dəhlizinin bərpasıdır. Zəngəzur dəhlizi həm ölkəmiz, həm də, beynəlxalq arena üçün böyük əhəmiyyəti malikdir. Şanlı ordumuzun qələbə çaldığı, İkinci Qarabağ müharibəsindən sonra mövzu üzrə qısıtlı sayda tədqiqatlar aparılmışdır. Bu səbəbdən mövzu hazırkı dövrlə yanaşı, gələcəkdə də, aktuallığını qoruyacaqdır.

Açar sözlər: *Zəngəzur, dəhliz, əhəmiyyət, Azərbaycan, qlobal sfera*

Giriş

Zəngəzur dəhlizi Çinlə Mərkəzi Asiyanı, eləcə də Ermənistan və Avropanı, eləcə də Azərbaycanı daha asan birləşdirmək potensialına malik mühüm sosial, iqtisadi, geosiyasi və geostrateji layihə kimi xarakterizə olunur. Regionda hərbi və siyasi münaqişələrin azalması ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Rusiya, Azərbaycan, Türkiyə, Ermənistan və İran arasında dəmir yolu xəttinin genişləndirilməsi ilə yanaşı, Qafqaz regionunda ticarət həcmini artıracaq bir çox ticarət yollarının açılmasını da sürətləndirəcək. Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi ilə Qafqaz regionunda avtomobil və dəmir yolları regionun tranzit təhlükəsizliyini artıracaq, yeni rəqabət və yeni imkanlar yaradacaq. Təbii ki, bu kontekstdə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin tikintisi və marşrutları, Xəzər dənizindən Avropaya uzanan neft-qaz kəmərləri sisteminin tikintisi yeni inkişaflar gətirəcək [1,s.1].

Zəngəzur dəhlizinin beynəlxalq nəqliyyat-logistika sistemi baxımından perspektivliyi

1920-ci ildə Sovet Hökumətinin qurulması ilə Türkiyənin Azərbaycan və Naxçıvanla quru əlaqələri kəsildi. 1990-cı illərin əvvəllərində Qarabağ müharibəsindən sonra 30 ilə yaxındır ki, Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında sovet dövründə yaradılmış nəqliyyat marşrutlarından istifadə olunmur. Azərbaycan ilə Naxçıvan arasında nəqliyyat və dəmir yolu dəhlizi olan Zəngəzur dəhlizi regionda təhlükəsizlik və əməkdaşlığa yol açır, regionda infrastrukturu canlandırır. [4].

Ümumiyyətlə, Zəngəzur dəhlizinin modernləşdirilməsinin Qars-Gümrü dəmir yolu xətti ilə həyata keçirilməsi planlaşdırılır. Bu layihəyə əsasən, Qars-Gümrü-Naxçıvan-Meğri-Bakı dəmir yolu xəttinin tikintisinin ümumi dəyəri 434 milyon ABŞ dollarıdır. Bu layihə reallaşarsa, 13 ildən sonra marşrut üzrə yükdaşıma qabiliyyəti 10 milyon tona çata bilər.

Çin və Aİ arasında yeni investisiya sazişləri Orta Dəhliz vasitəsilə ticarətdə müsbət tendensiyaları göstərəcək. Məsələn, 2018-ci ildə Çinin Azərbaycanla ticarət həcmi 898,2 milyon ABŞ dolları təşkil etdiyi halda, 2019-cu ildə bu rəqəm 1,4 milyard dolları ötüb. 2019-cu ildə Türkiyə ilə Çin arasında ticarət həcmi 21,8 milyard ABŞ dollarına çatıb, 2020-ci ildə pandemiya dövrünə baxmayaraq ticarət dövriyyəsi 24 milyard dollara çatıb və 2021-ci ilin ilk üç ayında bu rəqəm eyni dövrlə müqayisədə 44 faiz artıb. 2021-ci ilin birinci rübündə Bakı-Tbilisi-Qars və digər yollar üzrə yükdaşıma 2019-cu ilin ilk üç ayı ilə müqayisədə 104% artaraq 396 min 778 tona çatıb ki, bu da Mərkəzi Dəhlizin tələbatının və tutumunun hər il artdığını göstərir. [3, s.4].

Prezident İlham Əliyev 2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) VII qurultayındakı çıxışında və aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin Azərbaycan və bütün region üçün əhəmiyyətini dəfələrlə vurğulayıb. Prezident Əliyev sonuncu dəfə Zəngəzur dəhlizinin Azərbaycanın bütün milli, tarixi və gələcək maraqlarına xidmət edəcəyini söylədi. Dəmir yolu və avtomobil yollarının tikintisi üçün tələb olunan vaxt və səy sayəsində bu mühüm layihəni başa çatdırmaq üçün bütün mövcud resurslar səfərbər edilmişdir. Ermənistanın Azərbaycanın tarixi və dini yerlərini dağıdmasına baxmayaraq, prezident Azərbaycanın Ermənistanla əməkdaşlığa hazır olduğunu bəyan edib. Prezident Əliyev Yeni Azərbaycan Partiyasının VII Qurultayında bildirib ki, Zəngəzur dəhlizinin üçtərəfli sazişə salınması Azərbaycan üçün mühüm siyasi nailiyyətdir.

Şərq-Qərb dəhlizi Türkiyə ilə Mərkəzi Asiya arasında ticarət, eləcə də Türkiyə-Çin ticarət dövriyyəsi üçün mühüm əhəmiyyət kəsb edir (2019-cu ildə 21 milyard idi). Bundan başqa, Zəngəzur dəhlizi 1,1 trilyon dollarlıq ümumi daxili məhsula malik türkdilli xalqları birləşdirəcək.

Bundan başqa, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın Azərbaycana quru yolu da azalacaq. Hazırda Azərbaycanla Naxçıvanı yalnız hava yolu və ya İran və Türkiyə üzərindən quru yolu birləşdirir. Naxçıvanla qısa yol yaratmaqla, Naxçıvandakı bizneslər Şərq-Qərb nəqliyyat dəhlizinə çıxış əldə etməklə yanaşı, Azərbaycan və Rusiyaya gediş məsafəsini azaltmaqla inkişaf edə biləcəklər [5].

Zəngəzur dəhlizi Türkiyə üçün də, əhəmiyyət kəsb edir. Dəhliz son illərdə bu məqsədə doğru iddialı gündəm hazırlayan türk dövlətlərinin regional inteqrasiyaya baxışını genişləndirir. Martın 31-də Türk Şurasının qeyri-rəsmi Zirvə toplantısında Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, "Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək". Zəngəzur dəhlizi türkdilli ölkələri nominal ÜDM-i 1,1 trilyon dolları keçən ölkələri birləşdirməklə yanaşı, həm də Azərbaycanın strateji əhəmiyyətini gücləndirəcək. [6].

Şəkil 1: Zəngəzur dəmir yolunun xəritəsi

Mənbə: https://cdn.axar.az/2021/07/12/zengezur-dehlizi.jpg

Azərbaycan və Türkiyə ilə yanaşı, Zəngəzur dəhlizindən həm Rusiya, həm də Ermənistan faydalanacaq. Bu dəhliz Rusiyanın Cənubi Qafqaza və qonşu ölkələrə yük daşımaları üçün əsas marşruta çevrilmək potensialına malikdir. Rusiya qatarları Azərbaycandan keçməklə Ermənistan, Türkiyə və İranı birləşdirən Zəngəzur dəhlizinə, Rusiya malları isə Türkiyədən keçməklə Yaxın Şərqə və digər Cənubi Asiya ölkələrinə gedə bilərdi. Zəngəzur dəhlizi Rusiya ilə Ermənistanı dəmir yolu ilə qısa məsafədə birləşdirəcək. Bundan başqa, Rusiya ilə Ermənistan arasında dəmir yolu əlaqəsinin yaradılması erməni bizneslərinin Rusiya və Avrasiya İqtisadi İttifaqı bazarlarına çıxışını asanlaşdıracaq.

Ümumiyyətlə, Zəngəzur dəhlizindən dinc məqsədlər üçün istifadə həm Azərbaycan, həm də Ermənistan üçün uzunmüddətli sabitliyi təmin edir. Nəticə etibarı ilə dəhliz Azərbaycanın Ermənistanda infrastruktur layihələrinə gələcək sərmayəsinə, eləcə də transsərhəd biznes əlaqələrinin artmasına səbəb ola bilər. Bu, uzunmüddətli perspektivdə iki ölkə arasında uzunmüddətli sabitliyə və regional əməkdaşlığa töhfə verəcək [7].

Azərbaycan-Ermənistan əlaqələrini bərpa etmək və mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək imkanı var. Zəngəzur dəhlizi ölkələri iqtisadi cəhətdən əlaqələndirmək və uzunmüddətli sülhə töhfə vermək potensialına malikdir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və Azərbaycanla sülh sazişi imzalamalıdır. Azərbaycan prezidenti dəfələrlə təsdiqləyib ki, Ermənistan Azərbaycanın tarixi və dini abidələrini dağıdsa da, Azərbaycan Ermənistanla işləməyə hazırdır. Zəngəzur dəhlizi iki ölkə üçün faydalı olacağından Ermənistan əməkdaşlığa oxşar yanaşma nümayiş etdirməlidir.

Azərbaycan Respublikası İqtisadi İslahatlar və Kommunikasiya Mərkəzinin araşdırmasına görə, daşımaların canlanması ilə ixracın həcminin 710 milyon ABŞ dollarına çatacağı təxmin edilir. Dəhlizin açılması həm də hökumətə Bakı-Naxçıvan aviareyslərinin subsidiyalaşdırılmasına hər il xərclədiyi 10 milyon dollara qənaət etməyə imkan verəcək [3, s.5-7]. Zəngəzur dəhlizi sayəsində Azərbaycanın İran üzərindən Naxçıvana qaz tranzitinə görə köçürmə haqqı əvəzinə 15% kimi ödədiyi xərclər tədricən aradan qaldırılacaq. Rusiya ilə İran arasında dəmir yolu xətti üçün yeni imkanlar açılacaq və Ermənistan da gələcəkdə bu dəhlizin verdiyi imkanlardan yararlanacaq. Ermənistanın Zəngəzur dəhlizinə qarşı hazırkı etirazlarının zaman keçdikcə azalacağı, üçtərəfli saziş çərçivəsində öz maraqları baxımından qiymətləndirildikdə dəhlizin onun işinə mane olmayacağı gözlənilir. Bundan başqa, Rusiyanın regionun təhlükəsizliyini təmin etmək üçün 1960 əsgər, 90 zirehli transportyor və 380 maşın və xüsusi texnika yerləşdirməsi dəhlizin təhlükəsizliyini təmin etməklə yanaşı, onun rahat işləməsini təmin edəcək.

Nəticə etibarı ilə Zəngəzur dəhlizi Asiya ilə Avropanı Azərbaycan üzərindən birləşdirən bir çox tranzit daşıma layihələri üçün yeni imkandır. Bu, Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirəcək. Dəmir və avtomobil yollarının tikintisi ilə Zəngəzur dəhlizinin regionda xüsusilə kiçik və orta sahibkarlıq üçün investisiya mühitinin yaradılması və bununla da ölkə iqtisadiyyatının inkişafına töhfə verəcəyi gözlənilir. Digər tərəfdən, bu iqtisadi töhfənin və nəqliyyat infrastrukturunun üstünlüyünün təkcə Naxçıvan və Azərbaycanla məhdudlaşmaması, həm də regional miqyasda əhəmiyyətli müsbət nəticələr verməsi bu layihənin əsas üstünlüyü olacaqdır. Bu baxımdan Zəngəzur dəhlizi region ölkələrinin, o cümlədən Ermənistanın iqtisadi inkişafına töhfə vermək potensialına malik olan sülhməramlı layihə kimi qiymətləndirilməlidir. Digər tərəfdən, bu prosesə region dövlətləri ilə yanaşı, müxtəlif beynəlxalq təşkilatlar və region dövlətləri ilə sıx əlaqələri olan regionun aparıcı dövlətləri də öz töhfəsini verməlidir. Beləliklə, çox güman ki, region ölkələri arasında gərginlik azalacaq və gücünü inkişaf edən iqtisadi əlaqələrdən alan əməkdaşlıq mühiti öz yerini tutacaq. Bundan əlavə, region ölkələrində infrastruktur layihələrinin inkişafı üçün mühüm imkanlar və yeni investisiya imkanlarının yaradılması gözlənilir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Cəfərli. R. Hərbi zəfərin diplomatik təntənəsi: Prezident İlham Əliyev ötən il Moskva, Soçi və Brüsseldə keçirilən üçtərəfli görüşlərdə Azərbaycanın maraqlarını layiqincə təmin etdi // Azərbaycan. - 2022.- 9 yanvar. - № 4. - S. 1-3.

2. Əliyeva. İ. Mədəniyyət diplomatiyası: İlham Əliyevin bu sahədə yürütdüyü siyasət xalqımızın bəşəri miqyasda tanınmasında mühüm rol oynayır // Azərbaycan. - 2021.- 12 avqust. - № 167. - S. 1-6.

3. Səmədzadə. Z. İşğaldan azad olunmuş ərazilərin bərpası problemi proqramı və iqtisadi rayonlaşma məsələləri, Sumqayıt 2021, s. 4-11

İnternet resursları

4. https://science.gov.az/az/news/open/19329

5. "Karabağ Zaferi'nin Birinci Yılında Güney Kafkasya", Anadolu Ajansı, https://www.aa.com.tr/tr/analiz/karabag-zaferinin-birinci-yilinda-guneykafkasya/2415647

6. “Zengezur Koridoru’nda İlk Adım”, Dünya Bülteni, https://www.dunyabulteni.net/kafkaslar/zengezur-koridorunda-ilk-adim-h512576.html
7. “Zəngəzur dalanı: Qars müqaviləsi Krımın ilhaqının ən yaxşı presedenti ola bilər”, Ovqat, https://ovqat.com/prizma/51800-zngzur-dalan.html

Оценка влияния Зангезурского коридора на международную транспортно-логистическую систему

РЕЗЮМЕ
Зангезурский коридор является одним из древних исторических транспортных центров Азербайджана. Из этой важности можно отметить, что Зангезурский коридор имеет большое значение даже в современное время. Благодаря победе Азербайджана во Второй карабахской войне Зангезурский коридор был освобожден от оккупации, и район вернул себе былое значение. В статье проводится обширное исследование по данной теме.
Ключевые слова: *Зангезур, коридор, значение, Азербайджан, глобальная сфера.*

Assessment of the impact of the Zangazur corridor on the international transport and logistics system

SUMMARY
The Zangazur corridor is one of the ancient historical transport centers of Azerbaijan. From this importance we can note that the Zangazur corridor is of great importance even in modern times. Due to Azerbaijan's victory in the Second Karabakh War, the Zangazur Corridor was liberated from occupation and the region regained its former importance. The article conducts extensive research on this topic.
Keywords: *Zangazur, corridor, importance, Azerbaijan, global sphere*

GÖMRÜK IŞI SAHƏSINDƏ HÜQUQPOZMALARLA MÜBARIZƏ FƏALIYYƏTININ HÜQUQI VƏ TƏCRÜBI PROBLEMLƏRI

Nəsirova Leyla
leylabrhml@gmail.com
Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası ixtisaslaşması, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ
Gömrük əraziləri ticarət siyasətinin tətbiq olunduğu yerlərdir. Yəni müxtəlif gömrük tariflərinin, kvotaların, antidempinq qanunlarının, ticarət embarqolarının həyata keçirildiyi və qadağan olunmuş, mülki dövriyyəsi məhdudlaşdırılan malların (narkotik vasitələrin, silahların, təhlükəli kimyəvi maddələrin və s.) ölkəyə daxil olmasının qarşısının alındığı ərazilərdir. Gömrük orqanları, həmçinin beynəlxalq müqavilələrlə qadağan olunmuş mallara münasibətdə (məsələn, fil dişləri, nəsli kəsilməkdə olan heyvanlara) milli öhdəlikləri də yerinə yetirir. Müasir dövrdə yeni texnologiyalar gömrük orqanlarının işini daha da asanlaşdırmış və hüquqpozmaların vaxtında və operativ aşkara çıxarılması və qarşısının alınması üçün geniş imkanlar açmışdır. Bu zaman cinayətkarlığın qarşısı alınsa belə, qarşı tərəfin, yəni şəxsin şəxsi həyatının konfidensiallığı aspekti bir qədər “təhlükə” altına düşür. Süni intellekt sistemləri bir tərəfdən hüquqpozmaların vaxtında və operativ aşkar olunması və qarşısının alınması məqsədi daşıyırsa, digər tərəfdən cinayətkarların bu texnoloji yeniliklərdən krminal məqsədlərdən istifadəsi işi bir qədər çətinləşdirir.
Açar sözlər: gömrük hüquqpozuntusu, gömrük orqanları, fərdi məlumat**.**

İlk öncə qeyd etməliyik ki, hər hansı bir gömrük hüquqpozuntusu faktı ilə saxlanılan şəxsin əməlinin cinayət yoxsa inzibati xəta olması hələ dəqiq olmur. Bu sonrakı araşdırmaların hüquqi nəticəsi olaraq dəqiqləşir. Gömrük hüquqpozmalarının ictimai təhlükəlilik dərəcəsinə görə ən təhlükəli növü cinayətlər hesab olunaraq, inzibati xətalarla müqayisədə şəxsiyyətə, cəmiyyətə, dövlətə daha artıq ziyan vurur. Gömrük işi sahəsində hüquqpozmalar yalnız dövlətin iqtisadi həyatına ziyan vurmur, paralel şəkildə sosial

ədalətin və ictimai rifahın da pozulmasına təsir göstərir. Gömrük işi sahəsində cinayətlər və hüquqpozmalara dair kifayət qədər məlumatlara malik olan şəxslər də belə hüquqpozmaların yarada biləcəyi hüquqi nəticələrdən agah olduğu təqdirdə onların qarşısının vaxtında alınması məqsədilə Dövlət Gömrük Komitəsinə müraciət edə bilər. Həmin müraciətlərin elektron formada həyata keçirilməsi qaydası da DGK-in rəsmi internet səhifəsində tənzimlənir. Bu sahədə informasiya əldə etmənin sadələşdirilməsi bir tərəfdən dövlətin vətəndaş üzərindəki izləmə və nəzarət fəaliyyətini asanlaşdırdığı təqdirdə, digər tərəfdən isə fərdi məlumatların səlahiyyəti olmayan şəxslər tərəfindən istifadəsi təhlükəsini də yaratmış olur [6, s.81]. Əslində bu növ hüquqpozuntular ictimaiyyətdə maraq doğuran hadisələr kimi qiymətləndirildiyi üçün kütləvi informasiya vasitələrinin də maraq dairəsində olur. Burada diqqət çəkən əsas məqam gömrük işi sahəsində hüquqpozuntularının isti izlərlə aşkar edilməsi zamanı şəxslərin foto və video çəkilişlərinin yayımlanması ilə bağlıdır.

Belə ki, əgər söhbət inzibati xətadan gedirsə, İnzibati Xətalar Məcəlləsi birmənalı şəkildə icraat zamanı həyata keçirilmiş foto, video çəkiliş, səsyazma materiallarının iki qrup subyektdən icazə alınmadan KİV-də yayılmasını qanunsuz sayır: Həmin şəxslər zərər çəkmiş şəxs və barəsində inzibati icraat aparılan şəxsdir [3]. Burada "və ya" bağlayıcısının deyil, "və" bağlayıcısının istifadə edilməsi o deməkdir ki, hər iki subyektin razılığı olmadan belə yayımlanma inzibati məsuliyyətlə nəticələnəcəkdir (İXM 376-cı maddə). Lakin nə Cinayət-Prosessual Məcəllə, nə də Cinayət Məcəlləsində sırf cinayət mühakimə icraatı ilə bağlı bu cür yayımlanmaya dair konkret qadağa müəyyən olunmamışdır. Əslində Cinayət-Prosessual Məcəllənin 222-ci maddəsinin 52-ci maddəyə göndərişi və eləcə də müvafiq normalarda "identikləşdirməyə imkan vermə" tələbi foto, video və səsyazmalara da aid edilməlidir. Həmçinin "Fərdi məlumatlar haqqında" Qanunun 5.3-cü maddəsində şəxsin açıq fərdi məlumatlarına onun fotosu daxil deyil, yalnız ad, soyad, atasının adı aiddir [4]. Həmçinin 5.6-cı maddədə qeyd olunur ki, şəxsin şəklinin ümumi istifadə üçün nəzərdə tutulmuş informasiya sistemlərinə daxil olunması yalnız onun razılığı (yazılı) əsasında mümkündür. Buradan belə qənaətə gəlirik ki, milli-hüquqi yanaşma şəxs hüquqpozuntusu törətsə belə, onun şəklinin və ya videosunun KİV-də öz razılığı olmadan yayımlamağa icazə vermir. Bu məsələ ilə bağlı Cinayət-Prosessual Məcəllənin 222-ci maddəsində birbaşa göstəriş nəzərdə tutulsa, gömrük orqanlarının hüquqpozmalarla mübarizə işində nəzərə alınması üçün daha asan olar.

Süni intellekt sistemlərindən bəhs edən zaman dronlardan narkotik vasitə, psixotrop maddə və onların prekursorlarının qaçaqmalçılığında istifadə edilməsi ilə bağlı faktları bariz nümunə kimi qeyd edə bilərik. Hüquq-mühafizə orqanları narkodronların mövcudluğu ilə məşğul olsalar da, qaçaqmalçılar isə öz növbələrində daha da təkmilləşirlər. Ona görə də bu sahədə gömrük orqanlarının, sərhəd xidməti orqanlarının əməkdaşlarına təlimlərin keçirilməsi və bu cür dronların necə aşkar olunması ilə bağlı texniki təminatın mükəmməl səviyyədə olması vacibdir.

Hüquqpozmalarla mübarizə fəaliyyətində qarşılaşdığımız digər bir problemli məsələ Cinayət-Prosessual Məcəllənin 222-ci maddəsində yalnız iki növ əməlin (terrorçuluq və silahlı dəstələr tərəfindən törədilən əməllərin) ibitidai araşdırması üzrə məlumatların yayılmaması qadağasının birbaşa müəyyən olunması ilə əlaqədardır [2]. Bu normanın nəzərdə tutulma səbəbini araşdırarkən, cavabı cinayət qanunvericiliyində tapmağa çalışdıq. Məsələ burasındadır ki, Cinayət Məcəlləsində həmin əməllər üzrə məlumatların yayılması ayrıca cinayət tərkibi kimi nəzərdə tutulmamışdır [1]. Digər tərəfdən, heç də belə təsəvvür yaranmamalıdır ki, yalnız bu cinayətlər daha çox ictimai təhlükəliliyi ilə xarakterizə olunur. Ona görə də Cinayət-Prosessual Məcəllədə bu cür konkretləşdirmələr gömrük orqanlarının hüquqpozmalara qarşı mübarizə fəaliyyətində də qeyri-müəyyənliyə gətirib çıxarır. Əgər qanunverici ümumi şəkildə yayılması qadağan edilmiş ibitidai araşdırma məlumatlarının dairəsi ilə bağlı səlahiyyəti müvafiq cinayət təqibi orqanları və hakim üçün nəzərdə tutursa, bu yanaşma daha məqbul sayılır.

Həmin norma ilə bağlı növbəti ziddiyyət sənədləşdirilmiş informasiya ilə bağlıdır. Cinayət- Prosessual Məcəllə 52-ci maddəyə uyğun formada tərtib olunmuş və informasiya qanunvericiliyinə uyğun olaraq bütün sənədləşdirilmiş informasiyaların olduğu kimi yayılmasına qadağa qoyur. Konkretləşmə aparsaq, müvafiq istintaq hərəkəti protokolu "İnformasiya əldə etmək haqqında" Qanunun tələb etdiyi formalardan (mətn, təsvir və yaxud səs) birində (məsələn mətn) tərtib olunduğu və eyniləşdirməyə imkan verən rekvizitlərə malik olduğu üçün sənədləşdirilmiş informasiya sayıla bilər [5]. Belə olduğu halda, kütləvi informasiya vasitələrində (xüsusilə cinayət mühakimə icraatına dair televiziya verilişlərində və ya müvafiq portallarda) həmin protokolların yayımlanması qeyri-qanuni hesab olunur. Əgər bu cür pozuntu törədilərsə, hansı növ məsuliyyətin yaranacağı da problemlidir. Çünki həmin məlumatların istintaq başa çatdıqdan sonra da yayılmasının qadağan olunub-olunmaması qanunda nəzərdə tutulmamışdır. Lakin 222-ci maddənin adından gəldiyimiz məntiqi nəticəyə görə, belə yayılma ibtidai araşdırma dövründə baş verərsə,

cinayət məsuliyyəti yaranacaqdır (CM-maddə 300). Lakin həmin sənədlərdə müxtəlif konfidensial məlumatlar da nəzərdə tutula bilər. Ona görə də qanunverici birmənalı şəkildə bu tip sənədləşdirilmiş informasiyanın yayılmasına icazə verməməlidir. Başqa sözlə desək, aşkarlıq prinispi yalnız ədalət mühakiməsinə aid edilməlidir.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi – http://www.e-qanun.az/framework/46947
2. Azərbaycan Republikasının Cinayət-Prosessual Məcəlləsi – https://e-qanun.az/framework/46950
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi - https://e-qanun.az/framework/46960
4. Azərbaycan Respublikasının 11 may 2011-ci il tarixli "Fərdi məlumatlar haqqında" Qanunu- https://e-qanun.az/framework/19675
5. Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli "İnformasiya əldə etmək haqqında" Qanunu- https://e-qanun.az/framework/11142
6. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ: Dərslik. Bakı: Nurlar, 2019, 448 s.

TERRORÇULUĞA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Səbinə Sarıyeva
sabinasariyeva831@gmail.com
Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası ixtisaslaşması, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Mənşəyi Fransa burjua inqilabı dövründə baş verən zorakılıq hərərkətləri ilə əlaqələndirilən "terrorizm" müasir anlamda ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə olaraq başa düşülür.

Terrorizmlə bağlı cinayətlərə qarşı məqsədyönlü mübarizənin təşkili və aparılması üçün kriminoloji təsnifat olaraq daxili və beynəlxalq terrorçuluq fərqləndirilir. Bir dövlətin ərazisində həyata keçirilən, terrorçular və terror qurbanlarının həmin dövlətin vətəndaşı olması faktı ilə xarakterizə edilən terrorçuluq daxili terrorçuluqdur. Törədilmiş terror aktı dövlətlərarası münasibətlərə, beynəlxalq hüquq normalarına, beynəlxalq nizama və təhlükəsizliyə, dövlətin beynəlxalq maraqlarına təhlükə yaratdıqda, şəxs aid olduğu dövlətin ərazisində digər bir dövlətin vətəndaşına qarşı terror aktı törətdikdə, terrorçu və zərərçəkən eyni və ya müxtəlif dövlətin vətəndaşları olduqları halda, cinayət üçüncü bir dövlətin ərazisində baş verdikdə, terror aktı beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya digər beynəlxalq obyektlərə qarşı yönəldildikdə, hər hansı bir dövlətin dəstəyi ilə digər dövlətin ərazisində terror aktı həyata keçirildikdə əməl beynəlxalq terrorçuluq hesab olunur. Dünya birliyi üçün terrorçuluğun xüsusi təhlükəliliyin tanınması, cinayətkarların verilməsi yolu ilə hüquqi yardımın göstərilməsi, zəruri informasiyaların mübadiləsi, texniki yardımın göstərilməsi, terrorçuların zəruri resurslardan məhrum edilməsi, terrorçuluğa qarşı mübarizə üzrə qanunvericiliyin unifikasiyası, hüquq-mühafizə orqanlarının iş birliyinin vacibliyi terrorçuluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığı mütləq edir.

Açar sözlər: Terrorçuluq, beynəlxalq əməkdaşlıq, konvensiya

GİRİŞ

Terrorçuluq müasir dövrdə bütün ölkələri hədəfə çevirə biləcəyi üçün dünya ictimaiyyətini narahat edən əsas qlobal problem halına çevrilmişdir. Bu təhlükənin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir dövlətin belə sarsıntılara və təhlükələrə məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları səylərini birləşdirilməli, terrorçuçuluğa qarşı mübarizə mövqeyini əməli işlə yanaşı sıx

əməkdaşlıqda da sübuta yetirməlidir. Terrorçuluğa qarşı beynəlxalq əməkdaşlığın rəsmi olaraq bir əsrə yaxın davam etməsinə baxmayaraq baş verən terror aktlarının mövcudluğu və daha da artımı beynəlxalq əməkdaşlığın mahiyyət etibarilə əsaslı və yetərli olmadığını göstərir. Bunun üçün ilk olaraq ötən əsrdə terrorçuluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın tarixinə və səmərələləyinə, qəbul edilmiş beynəlxalq hüquqi normativ-aktlardakı boşluqlara diqqət olunmalıdır.

TERRORÇULUĞA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN TARİXİ

Beynəlxalq səviyyədə terrorçuluğa qarşı mübarizənin tarixi XX əsrin 20-ci illərinin sonlarında – 1926-cı ildə Beynəlxalq Birinci Cinayət Hüququ üzrə Beynəlxalq Konqresin (Brüssel) qəbul etdiyi qərarla terrorçuluq problemlərinə həsr olunmuş silsilə konfrasların keçirilməsi ilə başladı. Brüssel (1930), Paris (1931), Madrid (1934) və Kopenhagen (1935) konfraslarında son olaraq bir əsas fikir bəyan edildi: "Beynəlxalq hüququn prinsiplərinə müvafiq olaraq, cəmiyyətə təhlükə yarada bilən, törədildiyi yerdən, subyektin milliyətindən asılı olmayaraq, istənilən vasitələrdən istifadə etməklə qəsdən törədilən hər hansı cinayət mütləq şəkildə cəzalandırılmalıdır".

20 ilə yaxın davam edən beynəlxalq müzakirələr Millətlər Cəmiyyətində 2 beynəlxalq konvensiyanın qəbul edilməsi ilə başa çatdı. Konvensiyalardan yalnız biri – "Beynəlxalq Cinayət Məhkəməsinin təmin edilməsi haqqında" Konvensiya terror aktlarına hazırlığın və ya onun törədilməsinin qadağan edilməsi, dövlətlərarası əməkdaşlığın təmin edilməsi və beynəlxalq xarakterli terror aktlarına görə cinayət təqibinin zəruriliyi maddələri ilə terrorçuluğa qarşı mübarizədə qismən müsbət rol oynadı.

Lakin, ümumilikdə, II Dünya müharibəsinə qədər olan dövr terrorçuluğa qarşı mübarizə aspektindən uğurlu hesab edilmir. Belə ki, konfrasların yekunu olaraq qəbul edilən konvensiyalara 23 dövlət qoşulsa da, yalnız 1 dövlətdə – Hindistanda ratifikasiya edilmişdir. Bu da özlüyündə ardı-arası kəsilməyən terror aktlarının həyata keçirilməsinə təkan verdi. Davam edən iqtisadi-siyasi böhran, əvvəllər həyata keçirilən beynəlxalq hüquqi mübarizə tədbirlərinin nəticəsiz qalması, terrorçuluğun nəyinki ekstremist təşkilatların, həm də ayrı-ayrı dövlət xadimlərinin siyasi strategiyasına çevrilməsi daha bir dünya müharibəsinin başlamasına səbəb oldu. Bütün bunlar terrorçuluğa qarşı mübarizənin yeni səviyyədə və fərqli prinsiplərlə aparılmalı olduğunu təsdiqlədi.

Konvension mexanizmin köməyi ilə beynəlxalq terrorçuluqla mübarizə XX əsrin sonlarına doğru 13-dən çox beynəlxalq-hüquqi normativ aktların qəbul edilməsi ilə nəticələndi. Beynəlxalq terror aktları ilə əlaqədar hədə-qorxu ilə tələbetmə, mülki aviasiya və dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəlmiş qeyri- qanuni aktlarla mübarizə, sığınacaq verməkdən imtina, milli sərhədlərin müdafiəsi, nüvə materiallarının fiziki müdafiəsi, qitə şelfindəki platformaların təhlükəsizliyinə qarşı yönəldilmiş aktlar, adamların girov götürülməsi ilə mübarizə, terrorçuların zəruri resurslardan məhrum edilməsi, terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə və s. qəbul edilən beynəlxalq hüquqi normativ aktların əsas başlıqları idi. Terrorçuluğa qarşı beynəlxalq mübarizə sahəsində müxtəlif ikitərəfli regional və qlobal səviyyədə əməkdaşlıqla yanaşı Beynəlxalq Cinayət Polisi təşkilatı – İnterpol çərçivəsində də iş birliyi həyata keçirilir. İnterpol ilk növbədə BMT-nin beynəlxalq terrorçuluğa qarşı mübarizə məsələləri ilə əlaqədar əsas qərarlarını, o cümlədən, beynəlxalq konvensiyaları əsas tutur. Terror aktlarının motivi siyasi, irqi, hərbi və ya dini məsələ olduqda İnterpol öz Nizamnaməsinə əsasən bu növ cinayətlərə görə mübarizə aparmaq və müdaxilə etmək səlahiyyətində deyil. Bu prinsipə əsasən, törədilmiş terror aktlarına görə məsuliyyət heç bir təşkilat və ya siyasi xadim tərəfindən öz üzərinə götürülmədiyi halllarda və terror aktının motivi haqqında heç bir məlumat təsdiqini tapmadığı hallarda İnterpolun terrorçuluğa qarşı əməkdaşlığı istisna edilmir.

NƏTİCƏ

Müasir dövrə nəzər yetirdikdə terrorçuluq və digər bu tipli cinayətlərin hələ də qlobal problem olaraq qalması ilə yanaşı ictimai təhlükəliliyin daha da artması bir neçə aspektdən asılıdır. İlk öncə, "müasir" terrorçu xeyrinə istifadə edə biləcəyi bütün üsul və vasitələrin mümkünlüyü baxımından əvvəlki yüzillikdə yaşayan terrorçudan "daha mobil, məlumatlı və dövlət sərhədlərinin hüdudları ilə kifayətlənməyən" bir cinayətkardır. Bu da özlüyündə təkcə terrorçuluğun öncədən aşkar edilməsini deyil, hətta törədildikdən sonra açılmasını da xeyli çətinləşdirir. Bununla da, qəbul edilən beynəlxalq hüquqi- normativ aktlarda terrorçuluq cinayətinə anlayış verməklə əlaqədar istifadə olunan metod – bu cinayətin konkret əməllərinin sadalanması yolu ilə verilən anlayış yalnız müəyyən dövr üçün uğurlu hesab edilə bilər. Belə ki, elm və texnikanın sürətli şəkildə inkişafı ilə əlaqədar terrorçuluq əməli törədilməsinin yeni forma və növlərinin meydana çıxması "predmetli" beynəlxalq konvensiyaların tənzimetmə dairəsindən kənarda qalan terrorçuluq aktlarının mövcud olmasına səbəb olacaqdır. Eyni zamanda qüvvədə olan beynəlxalq hüquqi normativ-aktlarda terrorçuluq cinayətinə vahid tərifin və anlayışın olmaması terrorçuluğa qarşı mübarizəni yetərincə mürəkkəb hala salır. Bu hal əməlin özünün mürəkkəb xarakterli olması ilə yanaşı terrorçuluq

cinayətinin siyasi motivli olması ilə əlaqələndirilir. Ümumimilikdə, vahid anlayışın olmamasının bir neçə başlıca səbəbi sadalana bilər:

1. Müxtəlif dövlətlərdə bu cinayətə münasibətin fərqli olması. Bəzi dövlətlərdə terrorçuluq cinayətinin sanksiyasında ölüm cəzası nəzərdə tutulsa da, bəzilərində qanunvericilikdə belə bir cinayətin nəzərdə tutulmaması nəzəri və praktiki olaraq beynəlxalq əməkdaşlığı çətinləşdirir. Belə ki, bu hal ötən əsrə münasibətdə qeyd edilsə də, qanunvericiliklərdəki boşluqların tam aradan qaldırılmaması və bu yanaşmanın tam dəyişməsi üçün müəyyən müddət lazım gəlməsi terrorçuluq cinayətinə vahid anlayış verilməsinə mane olmuşdur.
2. Dövlətin rəsmi münasibəti ilə qeyri-rəsmi mövqeyi arasındakı ziddiyyət. Beynəlxalq əməkdaşlıq çərçivəsində qəbul edilmiş beynəlxalq hüquqi normativ-aktlara qoşulmuş dövlətlərin qəbul etdikləri öhdəlikləri icra etməsindəki məsuliyyətsiz yanaşma praktikada xüsusilə çətinlik yaradır.
3. Beynəlxalq təşkilatların mövqeyi arasındakı ciddi fərq. Beynəlxalq təşkilat və qurumların əksər hissəsi terrorçuluğa beynəlxalq səviyyədə vahid anlayış verilməsinin vacibliyini bildirsə də, digər hissə dövlətlərin milli qanunvericiliklərindəki anlayışa uyğun olaraq terrorçuluğa qarşı beynəlxalq əməkdaşlıqdakı iştirakı ilə kifayətlənirlər.

ƏDƏBİYYAT SİYAHISI

1. Bəxtiyar Əliyev: Terrorizm: kompleks hüquqi və seküritoloji tədqiqatlar. Qanun nəşriyyatı (Kitab**)**, Bakı/Azərbaycan. 2003: 7-40
2. Məhəmməd İmanov: Terrorçuluq əməlləri ilə mübarizənin cinayət hüquqi və kriminoloji problemləri. "Digesta" nəşriyyatı (Kitab**)**. Bakı/Azərbaycan. 2004: 10-47
3. Waugh W. L. International terrorism: How nations respond to terrorists. Salisbuy: doc.pull., p.27
4. https://www.oecd.org/g20/summits/antalya/G20-Statement-on-the-Fight-Against-Terrorism.pdf
5. https://www.mofa.go.jp/files/000271330.pdf

VƏZİFƏ CİNAYƏTLƏRİNİN ANLAYIŞI VƏ NÖVLƏRİ

Hacıyev Vüsal Sədi oğlu,
law802552@gmail.com
Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası ixtisaslaşması, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ: Məqalədə vəzifə cinayətlərinin anlayışı və mahiyyəti, hüquq ədəbiyyatlarında ona verilən tərifl ər, anlayış və izahatlardan bəhs edilərək, vəzifə cinayətlərinin növlərinin hüquqi təhlili də aparılır. Vəzifə cinayətləri cəmiyyətdə idarəetmə aparatı yarandığı vaxtdan mövcud olsa da, bu qrup cinayətlərin baş vermə tezliyi və yayılma miqyası müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə heç də eyni olmamışdır. Hazırda, ədəbiyyatlarda və bütün dünyada vəzifə cinayətləri korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlər kimi adlandırılmaqdadır. Lakin hələ də korrupsiyaya birmənalı anlayış verilməmiş, müxtəlif dövlətlərin qa-nunvericiliklərində vəzifə cinayətlərilə bağlı anlayışlar birmənalı qəbul olunmamış-dır. Bəzi ölkələrdə bu problemə konkret cinayət tərkibi yaradan və konkret hüquq normaları ilə tənzimlənən cinayət hadisəsi kimi yanaşılır (məsələn, korrupsiya cina-yətləri); digər dövlətlərdə isə, bunu ayrıca olaraq bütövlükdə rüşvətxorluq kimi töv-sif edirlər. Vəzifə cinayətlərinin konkret hüquq normaları ilə tənzimlənmədiyi ölkə-lərin hüquq sistemlərində rüşvətxorluğu, dövlət əmlakının mənimsənilməsini, dələ-duzluq yolu ilə əmlakın ələ keçirilməsini və ya mənimsənilməsini, vəzifə səlahiyyət-lərindən sui-istifadə edib əmlak və əmlak xarakterli səmərə əldə etməni, vergidən yayınmanı, kommersiya sirrinin yayılmasını, rüşvət almanı və s.-i korrupsiyaya aid edirlər. Lakin ayrı-ayrılıqda bunların heç biri korrupsiya cinayətinin tərkibini yaratmır və hər biri ayrılıqda konkret hüquq normaları ilə tənzimlənir.
Vəzifə cinayətləri Respublikamızın hazırda qüvvədə olan CM-də nəzərdə tutulmaqla, cinayət-hüquqi tövsif zamanı müxtəlif tərkib əlamətləri (həmçinin, ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı da daxil olmaqla) altında

birləşən cinayətlər qrupunu ifadə edir. Vəzifə cinayətləri ilə əlaqədar 1999-cu il CM-in 33-cü Fəsli hazırda "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" kimi adlandırılır. Bundan əlavə, vəzifə cinayətləri ilə əlaqədar başqa cinayət tərkiblərini nəzərdə tutan digər normalar da Respublikanın hazırki Cinayət Məcəlləsinin Xüsusi hissəsinin ayrı-ayrı fəsil və bölmələrində mövcuddur. Lakin 1999-cu il CM-in 33-cü Fəslində vəzifə cinayətlərinin növləri kimi onların müəyyən növ təsnifatını aparmaq mümkün olsa da, ədəbiyyatlarda həmin ictimai təhlükəli əmələri kriminalistik baxımdan korrupsiya ilə bağlı cinayətlərə aid edirlər.

Açar sözlər: vəzifə cinayətləri, qulluq mənafeyi, vəzifədən sui-istifadə, korrupsiya, rüşvətxorluq

GİRİŞ: Hal-hazırda, vəzifə cinayətləri bütün dünya dövlətlərinin əziyyət çəkdiyi, özünün yüksək ictimai təhlükəliliyi ilə səciyyələnən cinayətlərdəndir. Ona görə ki, vəzifəli şəxslər öz vəzifələrindən (qulluq mövqeyindən) sui-istifadə edərək insanların talan edilməsi, cəmiyyətin qütblərə bölünməsi, yuxarı təbəqələrin hədsiz imtiyazları, aşağı təbəqələrin onlardan asılılığı, bunun nəticəsində insanların dövlətə olan inamlarının azalması, dövlət aparatının getdikcə dağılması və s. bu kimi mənfi təzahürlərə gətirib çıxarır; bütün bunlar isə, öz növbəsində, vəzifə cinayətlərini asan qazanc mənbəyinə çevirmiş olur. Bu baxımdan, mövzunun aktuallığı və əhəmiyyəti də məhz bundan ibarətdir. Ona görə də tədqiqat işində vəzifə cinayətlərinin anlayışı verilməklə yanaşı, onun təsnifat növləri də göstərilir. Odur ki, işin əsas məqsədi adı çəkilən cinayət əmələri ilə mübarizədə müsbət nəticələr əldə edilməsindən ötrü onların anlayışının verilməsi, növlərə görə təsnifatının qeyd edilərək göstərilməsi və həmin növlərin hüquqi aspektlərinin düzgün təhlilinin verilməsindən ibarətdir.

Dövlət və cəmiyyət üçün təhlükəli təzahürlərdən biri olan vəzifə cinayətlərinin tarixi qədim dövrlərə qədər gedib çıxır. Belə ki, onun tarixi dövlətin və hüququn, o cümlədən vəzifəli şəxslərin formalaşması tarixi ilə üst-üstə düşür. Bir-birini əvəz edən müxtəlif tarixi formasiyalarda istehsal münasibətlərinin sürətlə inkişafı, kapital bazarının formalaşması, cəmiyyətin qütblərə bölünməsi, yuxarı təbəqələrin hədsiz imtiyazları, aşağı təbəqələrin isə, onlardan asılılığı insanlar arasındakı münasibətlərdə vəzifə cinayətlərini bir qazanc mənbəyinə çevirmişdir. Odur ki, bu dövrə qədər aparılan elmi tədqiqatlar göstərir ki, vəzifə cinayətləri cəmiyyətdə idarəetmə aparatı yarandığı vaxtdan həmişə olmuşdur. Lakin bu qrup cinayətlərin baş vermə tezliyi və yayılma miqyası müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə heç də eyni olmamışdır. Qeyd edək ki, bütün dövrlərdə vəzifə cinayətlərin-dən doğan bəlanın kökü tam kəsilməsə də, onun nisbətən cilovlanmasına çoxsaylı cəhdlər göstərilmişdir. Diqqətə çatdıraq ki, hazırda, həm ədəbiyyatlarda, həm də bütün dünyada vəzifə cinayətləri korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlər kimi adlandırıl-maqdadır. Ancaq buna baxmayaraq, ədəbiyyatlarda korrupsiyaya birmənalı anlayış verilməmişdir.

Etimoloji cəhətdən götürdükdə, korrupsiya sözü ("corruptio") latın dilindən tərcümədə "satın almaq " mənasını verir. Yəni korrupsiya siyasi və ictimai xadimlərin, vəzifəli şəxslərin pul və ya digər maddi nemətlərlə ələ alınmasını nəzərdə tutur. Ona görə ki, korrupsiya şəxsi mənfəət əldə etmək məqsədi ilə dövlət hakimiyyətindən sui-istifadədir. Bu baxımdan, bir sıra izahlı lüğətlərdə korrupsiya qeyd edilən şəxslərin alınıb-satılması kimi xarakterizə olunur. Məsələn, A.M.Proxorovun redaktorluğu ilə nəşrdən çıxmış "Sovet ensiklopedik lüğəti"ndə korrupsiya – vəzifəli şəxslərin tutduqları vəzifələrdən irəli gələn hüquqlardan şəxsi mənfəət naminə birbaşa istifadə etməsi kimi səciyyələndirilmişdir [12, s.640]. Yaxud A.Y.Suxorevanın redaktorluğu ilə nəşr olunmuş "Hüquq lüğəti"ndə korrupsiyaya hüquq və hakimiyyət səlahiyyətindən istifadə etməklə vəzifəli şəxslərin şəxsi mənfəətini təmin etmək məqsədi ilə siyasi və dövlət idarəçiliyi sahəsində yol verilən cinayətkar fəaliyyət kimi anlayış verilmişdir [9, s.320].

İstər dünya, istərsə də ayrıca götürülmüş bir ölkə miqyasında korrupsiyanın öyrənilməsi və onunla mübarizə üzrə tanınmış qeyri-hökumət təşkilatı olan "Transperensi İnterneşnl" ("Beynəlxalq Şəffaflıq Təşkilatı") təşkilatı apardığı tədqiqatlar nəticəsində, ilk dəfə, "Ümumdövlət Davranış Etikası Sistemləri" barədə tərtib etdiyi vəsaitdə korrupsiyaya "şəxsi mənfəət əldə etmək məqsədi ilə dövlət hakimiyyətindən sui-istifadə etmək" məzmununda anlayış vermişdir. Həmin vəsaitdə daha sonra göstərilirdi ki, korrupsiya dövlət qulluqçularının elə hərəkət tərzidir ki, bu zaman, həmin qulluqçular qanun və mənəviyyat normalarının ziddinə olaraq varlanırlar və yaxud onlara verilmiş hakimiyyətdən sui-istifadə edərək, yaxın adamlarının varlanmasına şərait yaradırlar [8, s.1].

Qeyd edək ki, korrupsiyanın daha yığcam və daha məzmunlu tərifi "Korrupsi-ya ilə beynəlxalq mübarizə haqqında" BMT tərəfindən qəbul edilmiş sənəddə verilmişdir: "Korrupsiya şəxsi məqsədlərlə fayda, mənfəət əldə etmək üçün dövlət hakimiyyətindən sui-istifadə etmək deməkdir." Bu yerdə, onu diqqətə çatdıraq ki, bu məfhum özündə rüşvətxorluğu (şəxsi vəzifə borcu mövqeyindən çəkindirmək üçün ona

mükafatın verilməsi), qohumbazlığı (himayəçiliklə qohumların və ya "öz adamlarının" gəlirli və ya sərfəli vəzifəyə qoyulması) və dövlət vəsaitlərinin şəxsi istifadə üçün qeyri-qanuni mənimsənilməsini əks etdirir [4, s.19].

Korrupsiya əməllərinin subyekt dairəsini genişləndirən daha əhatəli anlayışı Avropa Şurasının "Korrupsiya üzrə xüsusi işçi qrupu" tərəfindən verilmişdir. Onlar bu fenomeni təkcə "rüşvətxorluq" kimi deyil, həmçinin, "dövlət və ya xüsusi sektorda müəyyən vəzifələrin yerinə yetirilməsi tapşırılmış şəxslərin özləri və ya digərləri üçün istənilən hərəkət və ya hərəkətsizliklə, qanunsuz fayda əldə etmək məqsədi ilə öz vəzifə səlahiyyətlərindən, statusundan qanunsuz sui-istifadəsi" kimi qiymətləndirmişdilər [11, s.14].

Onu da diqqətə çatdıraq ki, vəzifə cinayətləri kimi korrupsiya cinayətlərinin elmi tədqiqi ilə məşğul olan hüquqşunas-alimlərin korrupsiya anlayışına yanaşma tərzləri də müxtəlifdir. Məsələn, N.Həsənov korrupsiyaya belə bir tərif verir ki, mütəşəkkil cinayətkarlığın bir forması kimi korrupsiya, əsasən, dövlət orqanlarında və hakimiyyət dairələrində çalışan məmurların öz statuslarından, dövləti funksiyaları həyata keçirmələrindən, bununla bağlı imkan və nüfuzlarından qanunsuz olaraq maddi, digər nemətlərin və üstünlüklərin əldə edilməsi məqsədi ilə "öz xidmətlərini" dövlət nüfuzuna xələl gətirib fiziki və hüquqi şəxslərə "satmaq"; sonuncuların isə, bunun əvəzində dövlət və cəmiyyətin maraqlarına ziyan vuran, dövlət büdcəsinə toplanan və s. vəsaitin talanması, digər imkanların əldə edilməsi üçün dövlət və qeyri-strukturlardan öz maraqları naminə istifadə etmələri kimi başa düşülməlidir [2, s.14]. İ.A.İsmayılov korrupsiyaya dair hüquqpozmalara – korrupsiyaya şərait yaradan, eləcə də qanuna zidd olaraq nemətlər və üstünlüklərin verilməsi və əldə edilməsi yolu ilə həyata keçirilən intizam, mülki-hüquqi, inzibati və cinayət məsuliyyətinə səbəb olan hərəkət və hərəkətsizliyin məcmusu kimi anlayış vermişdir [3, s.172]. R.Məmmədov korrupsiyaya dövlət siyasəti və dövlətin idarə olunması prosesinə qəsd edən ictimai-təhlükəsizlik təzahürü kimi müxtəlif maraqlı şəxs və dairələrin dövlət hakimiyyəti nümayəndələrini dövlət məmurlarını pulla, əmlak və qeyri-əmlak 14mlak xarakterli şirniklərdirmələrlə, hətta şantaj və provakasiyalarla ələ almaq yolu ilə dövlətin siyasi və iqtisadi əsasına pozucu təsir göstərən fəaliyyəti kimi anlayış verilmişdir [6, s.19]. Rusiya müəlliflərindən isə, Q.K.Mişin, A.İ.Dolqova, B.V.Voljenkin, S.V.Maksimov tərəfindən vəzifə cinayət-ləri kimi korrupsiyaya müxtəlif anlayışlar verilsə də, korrupsiyanın bitkin xarakteris-tikası A.İ.Kirpiçnikov tərəfindən verilmişdir: "Korrupsiya – hakimiyyətin korrozi-yasıdır. Pas dəmiri dağıtdığı kimi, korrupsiya da dövlət aparatını dağıdır, cəmiyyətin mənəvi dayaqlarını laxladaraq, sarsıdır. Korrupsiyanın səviyyəsi cəmiyyətin özünəməxsus termometridir; onun mənəvi vəziyyətinin göstəricisi dövlət aparatının öz xüsusi məqsədləri üçün deyil, cəmiyyətin maraqları ilə bağlı olan vəzifələri həll etmək bacarığının göstəricisidir. Metal üçün korroziya həddi onun davamlılıq qabiliyyətinin aşağı düşməsini, cəmiyyət üçün də korrupsiya həddi neqativ hadisələrə müqavimət qabiliyyətinin aşağı düşməsini göstərir [10, s.17]."

Yuxarıda diqqətə çatdırdığımız kimi, müxtəlif dövlətlərin qanunvericilikləri tərəfindən vəzifə cinayətləri ilə bağlı anlayışlar birmənalı qəbul olunmur. Belə ki, bəzi ölkələrdə bu problemə konkret cinayət tərkibi yaradan və konkret hüquq normaları ilə tənzimlənən cinayət hadisəsi kimi yanaşılır (məsələn, korrupsiya cinayətləri); digər dövlətlərdə isə, bunu ayrıca olaraq bütövlükdə rüşvətxorluq kimi tövsif edirlər. Mövzu ilə əlaqədar V.Q.Məmmədov yazır ki, vəzifə cinayətlərinin konkret hüquq normaları ilə tənzimlənmədiyi ölkələrin hüquq sistemlərində rüşvətxorluğu, dövlət əmlakının mənimsənilməsini, dələduzluq yolu ilə ictimai və ya şəxsi əmlakın oğurlanması və mənimsənilməsini, vəzifə səlahiyyətlərindən sui-istifadə edib əmlak və əmlak xarakterli səmərə əldə etməni, vergidən yayınmanı, kommersiya sirrinin yayılmasını, təhrik yolu ilə rüşvət almanı və s.-i korrupsiyaya aid edirlər. Ayrı-ayrılıqda bunların heç biri korrupsiya cinayətinin tərkibini yaratmır və hər biri ayrılıqda konkret hüquq normaları ilə tənzimlənir [7, s.38].

Qeyd edək ki, vəzifə cinayətləri Azərbaycan Respublikasının hazırda qüvvədə olan 1999-cu il Cinayət Məcəlləsində nəzərdə tutulmaqla, cinayət-hüquqi tövsif zamanı müxtəlif tərkib əlamətləri (həmçinin, ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı da daxil olmaqla) altında birləşən cinayətlər qrupunu ifadə edir. Belə ki, məsələn, vəzifə cinayətləri ilə əlaqədar 1999-cu il CM-in 33-cü Fəsli hazırda "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" kimi adlandırılır. Əvvəllər isə, bu Fəsil "Korrupsiya cinayətləri və dövlət hakimiyyəti, dövlət qulluğu mənafeyi, yerli özünüidarə orqanlarında, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarında qulluq mənafeyi əleyhinə olan cinayətlər" olaraq adlandırılırdı [15]. Bundan əlavə, vəzifə cinayətləri ilə əlaqədar başqa cinayət tərkiblərini nəzərdə tutan digər normalar da Azərbaycan Respublikasının hazırki Cinayət Məcəlləsinin Xüsusi hissəsinin ayrı-ayrı fəsil və bölmələrində mövcuddur. Azərbaycan Respublikasının 1999-cu il CM-in 33-cü Fəslində **vəzifə cinayətlərinin növləri** kimi onların müəyyən növ təsnifatını aparmaq mümkün olsa da, ədəbiyyatlarda həmin ictimai təhlükəli əməlləri kriminalistik baxımdan korrupsiya ilə bağlı cinayətlərə aid edirlər.

Bütövlükdə götürdükdə isə, 1999-cu il CM-in Xüsusi hissəsinin müxtəlif maddələrində, eləcə də yuxarıda adını çəkdiyimiz 33-cü Fəslində təsbit olunan vəzifə cinayətlərinin aşağıdakı növlərini göstərə bilərik:

1. Vəzifə səlahiyyətlərindən sui-istifadə. Bu cinayət vəzifəli şəxs tərəfindən tamah və ya sair şəxsi marağına görə öz qulluq mövqeyindən irəli gələn səlahiyyətlə-rindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə, yaxud qulluq mənafe-yi tələb etdiyi halda istifadə etməməklə, vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, eləcə də cəmiyyətin və ya dövlətin qanunla qorunan məna-felərinə mühüm zərər vurulmasını nəzərdə tutur. Elə qüvvədə olan cinayət qanunve-riciliyi də vəzifə səlahiyyətlərindən sui-istifadə tərkibi adı altında bunu nəzərdə tutur ki, vəzifə səlahiyyətlərindən sui-istifadə vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelarinə mühüm zərər vurduqda mövcud olur [14].

Vəzifəli şəxsin fəaliyyət dairəsi geniş olduğundan, vəzifə səlahiyyətlərindən sui-istifadənin konkret formaları da müxtəlif ola bilər. Bu isə, həm hərəkətlə (öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi), həm də hərəkətsizliklə (vəzifəli şəxsin qulluq mənafeyi tələb etdiyi halda öz qulluq səlahiyyətlərindən istifadə etməməsi) edilə bilər.

2. Vəzifə səlahiyyətlərini aşma vəzifəli şəxs tərəfindən səlahiyyət hüdudla-rından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi nəticəsində fiziki və ya hüquqi şəxslərin hüquqları və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelarinə mühüm zərər vurulmasından ibarətdir. Ümumiyyətlə, vəzifə səlahiyyətlərini aşmanın mövcud bütün hallar üçün ümumi olan cəhəti ondan ibarətdir ki, vəzifəli şəxs qanunla ona verilmiş hüquq və səlahiyyətlərdən kənara çıxan davranışa yol verir. Qeyd edək ki, "Hakimiyyət səlahiyyətindən və ya qulluq mövqeyindən sui-istifadə etmək, hakimiyyət və ya qulluq səlahiyyətini aşmaq, səhlənkarlıq və vəzifə saxtakarlığı haqqında işlər üzrə məhkəmə təcrübəsi haqqında" SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il tarixli 4 saylı Qərarının 11-ci bəndində vəzifə səlahiyyətlərini aşmanın aşağıdakı əsas növləri göstərilmişdir:

a) Vəzifəli şəxsin başqa vəzifəli şəxsin səlahiyyətinə aid hərəkətləri etməsi;

b) Vəzifəli şəxsin yalnız xüsusi hallarda, qanunda və ya qanun qüvvəli aktlarda göstərilən hallarda etməli olduğu hərəkətləri adi halda etməsi;

c) Kollegial orqanın etmək hüququ olduğu hərəkətləri vəzifəli şəxsin təkbaşına etməsi;

d) Vəzifəli şəxsin heç kimin və heç bir halda etmək hüququ olmayan hərəkətləri etməsi [1, s.638-639].

3. Rüşvətxorluq (rüşvət alma (passiv rüşvətxorluq), rüşvət vermə (aktiv rüşvətxorluq) və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)). **Rüşvət alma** və rüşvət vermə eyni bir faktın qarşı tərəfləridir. Ona görə ki, həqiqətən rüşvət alma vardırsa, deməli, rüşvət vermə də mövcuddur və ya əksinə. Bəzən ədəbiyyatlarda rüşvət almanı rüşvət verməyə nisbətən daha təhlükəli əməl hesab edirlər: "Rüşvət alma korrupsiyanın ən geniş yayılmış və təhlükəli təzahür formalarından biridir. Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, rüşvət alma hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdır, dövlət orqanlarını əhali arasında hörmətdən və nüfuzdan salır, vətəndaşların hüquq və mənafelərinin, mühüm sosial prinsiplər olan ədalətliliyin və bərabərliyin pozulmasına səbəb olur [1, s.642-643]." Ümumiyyətlə, rüşvət alma dedikdə, vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi başa düşülür [14]. Bu kriminal əməlin predmeti "rüşvət" adı altında ümumiləşdirilmiş terminlə ifadə edilərək, onun məzmununa pul, qiymətli kağızlar, maddi dəyəri olan əşyalar, digər əmlak və ya əmlak xarakterli mənfəət daxildir. Bu baxımdan, rüşvəti səciyyələndirən əlamətlər olaraq, onun əmlak mükafatı olmasını, vəzifəli şəxslərə verilməsini, mükafatın təqdim edilməsinin vəzifəli şəxsin, rüşvəti verənin xeyrinə öz səlahiyyətləri dairəsinə daxil olan müəyyən hərəkətlərin edilməsi ilə şərtləndirilməsini göstərmək olar. Ona görə də rüşvət vəzifəli şəxsin vəzifə səlahiyyətlərinə daxil olan, yaxud xidmət üzrə ümumi himayədarlıq və ya laqeydliyinə görə verilir.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 8-ci maddəsinə görə, vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan va ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bundan savayı, fiziki və hüquqi şəxslərlə mülki-hüquqi

əqdlərin bağlanması və ya onların icrası zamanı vəzifəli şəxslər tərəfindən xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi də rüşvət alma kimi qiymətləndirilməlidir. Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs onlardan imtina etməlidir [13].

Rüşvət vermə də vəzifə cinayətləri arasında geniş yayılmış əməllərdəndir. CM-in 312-ci maddəsində rüşvət verməyə belə anlayış verilib ki, rüşvət vermə, xid-məti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsidir [14].” Cinayətin ictimai təhlükəliliyi onda ifadə olunur ki, bu əməlin törədilməsi ilə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət və ya yerli özünüidarə orqanlarında, müəssisə, idarə və təşkilatlarında, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən vəzifəli şəxslərin korrupsiyaya qur-şanmasına münbit zəmin yaranır, vətəndaşlar arasında qanun çərçivəsindən kənara çıxan davranışa yol verməyin mümkünlüyünə meyl yaranır, insanların qanun və dövlət hakimiyyəti qarşısında bərabərliyi və sosial ədalət prinsipləri pozulmuş olur.

Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) dedikdə, şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa vəya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazlar və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi başa düşülür. Göründüyü kimi, maddədə iki müstəqil cinayət tərkibi verilmişdir. Belə ki, CM-in 312-1.1-ci maddəsində nəzərdə tutulmuş əməl mahiyyət etibarilə nüfuzun satılmasından ibarətdir. 312-1.2-ci maddədə isə, nüfuzun alınması cinayət əməli kimi təsbit olunub. Onu da bildirək ki, hər iki əməldə xüsusi məqsəd həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etməkdən ibarətdir.

4. Vəzifə saxtakarlığı vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə və informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi, habelə göstərilən sənədlər və ya informasiya resurslarında onların həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsinin tamah və ya sair şəxsi niyyətlərlə törədilməsindən ibarətdir. Bu əməllə-rin törədilməsi nəticəsində dövlət hakimiyyət və idaraetmə orqanlarının normal fəaliyyəti pozulur, dövlət və bələdiyyə xidmətinin mənafeyinə qəsd edilir.

5. Mənimsəmə və ya israf etmə. Ümumiyyətlə, mənimsəmə və israf etmə dedikdə, təqsirkara etibar edilmiş özgə əmlakını talama başa düşülür və belə əməllər mülkiyyətə qəsd etdiyindən mülkiyyət əleyhinə edilən cinayətlərdən sayılır. Lakin adı çəkilən cinayətin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi ağırlaşdırıcı tərkib əlaməti onu vəzifə cinayətləri ilə yaxınlaşdırır. Bu baxımdan, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmiş mənimsəmə və ya israf etmə o halda mövcud olacaqdır ki, həmin əməllər əmlakın etibar edildiyi və öz qulluq mövqeyinə görə həmin əmlak barəsində müəyyən səlahiyyətlərə malik maddi məsul şəxs tərəfindən törədilmiş olsun. Bu zaman, şəxs təhlil edilən cinayəti törədərkən məhz öz qulluq səlahiyyətlərindən istifadə edir.

NƏTİCƏ: Tədqiqatın aparılması ilə gəldiyimiz nəticə ondan ibarətdir ki, vəzifə cinayətləri özünün ictimai təhlükəliliyi, təcrübədə baş vermə tezliyi ilə dünya miqyasında fərqlənən əməllərdən biridir. Azərbaycan Respublikası hazırda, vəzifə cinayətlərinə qarşı mübarizə sahəsində atdığı əhəmiyyətli addımlar, həyata keçirdiyi hüquqi tədbirlər, qəbul etdiyi normativ-hüquqi aktlarla dünya dövlətləri arasında xüsusi olaraq seçilməkdədir və belə cinayətlərlə mübarizə sahəsində həyata keçirilən ardıcıl tədbirlər bu istiqamətdə Azərbaycanda məqsədyönlü dövlət siyasətinin aparıldığının bariz nümunəsindən xəbər verir. Belə ki, bir-birinin ardınca qəbul edilmiş normativ-hüquqi aktlar, həyata keçirilmiş dövlət proqramları, bu istiqamətli müxtəlif beynəlxalq konvensiyalara Azərbaycan Respublikasının qoşulması və ölkə qanunvericiliyinin həmin beynəlxalq sənədlərin tələblərinə uyğunlaşdırılması bu sahədə ölkəmizdə dövlət səviyyəsində aparılan siyasəti özündə əks etdirir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası / H.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Yenidən işlənmiş təkrar nəşr. II Hissə. CM-in 190 – 353-cü maddələrinin şərhi. – Bakı: Hüquq Yayın Evi, – 2018. – 800 s.
2. Həsənov N. Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq və digər hüquq-mühafizə orqanları arasında olan münasibətlər // Qanunçuluq. Bakı, 1998, №1, s.14-19.
3. İsmayılov İ.A. Hüquqi dövlət: mülahizələr və təkliflər. – Bakı: Qanun, – 1999. – 190 s.

4. Qədirov A.X. Korrupsiya cinayətlərinin istintaqının prosessual-taktiki və elmi-metodiki problemləri. H.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2010, 196 s.
5. Quliyev R.İ., İmanov M.N. Cinayət hüququ. Xüsusi hissə: Dərslik. Təkrar nəşr. – Bakı: Qanun, – 2004. – 816 s.
6. Məmmədov R. Yeni qanunvericiliyin tələbləri baxımından korruspiyaya qarşı mübarizənin bəzi məsələləri haqqında. Korrupsiya və ona qarşı mübarizə mövzusunda keçirilmiş elmi seminarın materialları. – Bakı: Qanun, – 2001, s.19-20
7. Məmmədov V.Q. Korrupsiya ilə bağlı cinayətlərlə mübarizənin problem məsələləri. – Bakı: Adiloğlu, – 2006. 186 s.
8. Ümumdövlət davranış etikası sistemləri. Transpransi İnterneşnl vəsaiti. – Bakı: Mütərcim, – 2000. – 11 s.
9. Большой юридический словар / Под ред. А.Я.Сухарева, В.Д.Зорькина, В.Е.Крутских. – М.: Инфра-М, – 1998. 790 с.
10. Кирпичников А.И. Взятка и коррупция в России. – СПб.: Альфа, – 1997. – 352 с.
11. Максимов С.В. Коррупция. Закон. Ответственность. – М.: ЮрИнформ, – 2000. – 143 с.
12. Советский Энциклопедический словар / Гл. ред. А.М.Прохоров. 4-е изд. – М.: Сов. Энциклопедия, – 1989. – 1632 с.
13. http://e-qanun.az/framwork/5809 – "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanunu
14. http://e-qanun.az/framework/46947 – Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il Cinayət Məcəlləsi.
15. http://www.e-qanun.az

ÖLKƏ İQTİSADİYYATININ TƏNZİMLƏNMƏSİNDƏ AQRAR SFERANIN ƏSAS İSTİQAMƏTLƏRİ

Həşimova Albina Çingiz qızı,
albina.heshimova@ascca.edu.az

İbrahimova Günay Elnur qızı,
ibrahimovagunay01@gmail.com
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: Aqrar sfera kənd təsərrüfatı məhsulları istehsalı və bu istehsal formaları ilə bağlı digər istehsal sahələri arasındakı qarşılıqlı əlaqələri və bu əlaqələr əsasında formalaşan iqtisadi münasibətləri ifadə edən iqtisadi bir kateqoriyadır. Göründüyü kimi, aqrar sfera dedikdə birinci növbədə kənd təsərrüfatı istehsalı və onun formaları, torpaq üzərində mülkiyyət formaları və onlara uyğun istehsalın təşkili, kəndin sosial-iqtisadi inkişaf problemləri nəzərdə tutulur. Deməli aqrar sferanın kökündə birinci növbədə kənd təsərrüfatı iqtisadiyyatı, onun inkişaf qanunauyğunluqları, forma və idarəetmə metodları dayanır. Kənd təsərrüfatı iqtisadiyyatı nə qədər yüksək səviyyədə qurularsa, obyektiv iqtisadi qanunların tələblərinə əsaslanarsa və elm-texnikanın geniş tətbiqini nəzərə alarsa bütövlükdə aqrar sferanın inkişafı da bir o qədər sürətlənmiş olar. Bu isə ölkədə ərzaq təhlükəsizliyinin təminatı və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi deməkdir.
Açar sözlər: aqrar sektor, ərzaq təhlükəsizliyi, iqtisadiyyatın dövlət tənzimlənməsi, dövlət proqramları.
Summary: The agrarian sphere is an economic category that expresses the interaction between the production of agricultural products and other forms of production related to these forms of production and the economic relations formed on the basis of these relations. As can be seen, the agrarian sphere means, first of all, agricultural production and its forms, forms of land ownership and the organization of production in accordance with them, the problems of socio-economic development of the village. So, at the root of the agrarian sphere, first of all, is the agricultural economy, its development patterns, forms and

methods of management. The higher the level of the agricultural economy, the more the development of the agrarian sphere as a whole will be accelerated if it is based on the requirements of objective economic laws and takes into account the wide application of science and technology. This means ensuring food security in the country and accelerating the socio-economic development of the regions.
Keywords: agricultural sector, food security, state regulation of the economy, state programs.

Qlobal inkişaf məqsədlərinə nail olmaq üçün sağlam, davamlı və inklüziv qida sistemləri çox vacibdir. Kənd təsərrüfatının inkişafı ifrat yoxsulluğa son qoymaq, ümumi rifahı artırmaq və 2050-ci ilə qədər təxminən 9,7 milyard insanı qidalandırmaq üçün ən güclü vasitələrdən biridir. Kənd təsərrüfatı sektorunda artım digər sektorlarla müqayisədə ən yoxsul təbəqənin gəlirlərinin artırılmasında iki-dörd dəfə daha effektivdir.

Kənd təsərrüfatı iqtisadi artım üçün də mühüm əhəmiyyət kəsb edir, 2018-ci ildə dünyanın ümumi daxili məhsulunun (ÜDM) 4%-ni təşkil edir və bəzi inkişaf etməkdə olan ölkələrdə bu, ÜDM-in 25%-dən çoxunu təşkil edə bilər. Dünyada istehsal olunan qidanın üçdə biri ya itir, ya da israf olunur. Ərzaq itkisi və tullantılarının aradan qaldırılması qida və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması, eləcə də iqlim və ekoloji hədəflərə çatmaq üçün çox vacibdir.

Qidalanma ilə bağlı risklər də bütün dünyada ölümün əsas səbəbidir. Milyonlarla insan ya az qidalanır, ya da yanlış qida növləri yeyir, nəticədə xəstəliklərə və sağlamlıq böhranlarına səbəb ola biləcək ikiqat qida çatışmazlığı yükü yaranır. 2021-ci il hesabatı göstərdi ki, 2020-ci ildə 720 milyondan 811 milyona qədər insan ac idi ki, bu da dünya əhalisinin 10%-dən çoxunu təşkil edir[1,2].

Ərzaq sektorunun və kənd təsərrüfatı istehsalının son məhsulu ərzaqdır. Amma qida məhsullarına tələbatın qiymət elastikliyi bir qayda olaraq aşağıdır. İstehlakçılar qiymətlərin azalması və ya artımından asılı olmayaraq əsas ərzaq növlərini praktiki olaraq dəyişməz həcmdə alırlar. Təxminən hesablanıb ki, kənd təsərrüfatı məhsullarının elastiklik əmsalı sənaye cəhətdən inkişaf etmiş ölkələrdə orta hesabla 0,20-0,25 təşkil edir, yəni məhsul satışını 10% artırmaq üçün, fermerlər 40-50% qiymətləri aşağı olmalıdır. Digər tərəfdən, kənd təsərrüfatı və ərzaq məhsullarına tələb də gəlirə görə qeyri elastikdir. Ailənin maddi rifahı aşağı səviyyədə olanda ilk növbədə o, hər əlavə qazanılan manatınıbirinci növbədə qidaya olan ehtiyacını ödəmək üçün sərf eləyir. Ərzaq problemi arxa plana keçəndə əlavə gələn gəliri insan digər mal və xidmətlərin alınması üçün istifadə edir. İnsan fizioloji olaraq gəlirin çoxalması ilə yeməyini artıra bilməz. Ona görə də gəlirlərin artımı ilə ərzaq və kənd təsərrüfatı məhsullarına tələb qeyri-proporsional artır.

Göründüyü kimi, aqrar iqtisadiyyat ölkə iqtisadi sisteminin çox vacib bir sahəsi olmaqla iqtisadi siyasətdə daim diqqətdə olmalı və onun dinamik inkişafı təmin edilməlidir. Yuxarıda deyildiyi kimi o hər şeydən əvvəl ölkə ərzaq təhlükəsizliyinin əsasını təşkil edir və əhalinin ərzaq təminatı birinci növbədə bu sahənin inkişafından asılıdır. Bu barədə qəbul edilmiş Dövlət Proqramlarında - "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" - ətraflı göstərilmişdir. Təbii ki, bu istiqamətdə müəyyən işlər görülmüş və aqrar bölmənin, o cümlədən bütövlükdə ASK-nin inkişafında müəyyən irəliləyişlər vardır. Bazar iqtisadiyyatının tələblərinə uyğun aqrar bölmədə özəlləşmə tam başa çatmış, aqrar sahibkarlıq geniş vüsət almış və istehsalın maddi-texniki bazası xeyli yüksəlmişdir. Bununla belə iqtisadi təhlil göstərir ki, aqrar bölmə və bütövlükdə ASK qarşısında çox mühüm və təxirəsalınmaz vəzifələr durur. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində aqrar sferanın sabit və həm də intensiv inkişafının təmin olunması məqsədilə dərin struktur dəyişiklikləri aparılmalı, ərzaq və strateji məhsullar istehsalının artırılması, onun emalının həyata keçirilməsi üçün əsaslı tədbirlər sistemi işlənib həyata keçirilməlidir. Burada taxılçılıq, pambıqçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik, çayçılıq, maldarlıq və qoyunçuluq sahələrinin inkişafına üstünlük verilməlidir. Bu məqsədlə bazara keçid dövründə meliorasiya, irriqasiya tədbirləri aparmaqla respublikada mövcud olan 1,5 milyon hektar əkin sahəsi 2,0 milyon hektara çatdırılmalı, bütün növ bitkiçilik və heyvandarlıq məhsulları istehsalının artırılması dövlətin aqrar siyasətinin əsas xəttini təşkil etməlidir. Əsas ərzaq məhsulu olan taxılçılığın inkişafına böyük əhəmiyyət verilməlidir. Bu məqsədlə ümumi əkin sahəsinin 60%-ə qədəri taxıl bitkisi altına verilməli, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üçün əkin sahələrinin genişləndirilməsi istiqamətində mühüm tədbirlər sistemi hazırlanmalı və həyata keçirilməlidir[3].

Bu tədbirlər sisteminə aşağıdakılar daxildir:

- təsərrüfatçılığın fəaliyyətdə olan iqtisadi mexanizminin təkmilləşdirilməsi və onun bazar münasibətləri əsasında yenidən qurulması;
- ölkə əhalisinin ərzaq və ekoloji təminatını həyata keçirmək;

- bütün regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə nail olmaq;
- kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün zəruri sayılan infrastrukturu yaratmaq;
- özəlləşdirməyə dair dövlət proqramının həyata keçirilməsi və sahibkarlıq fəaliyyətinin üstün inkişafının təmin edilməsi;
- aqrar bölmədə yeni iqtisadi və mülkiyyət münasibətlərini həyata keçirməklə məhsul istehsalının artırılmasının potensial imkanlarından istifadə edilməsi;
- inkişaf etmiş bazar ölkələrinin təcrübəsinin nəticələrini ümumiləşdirmək yolu ilə onların geniş yayılmasına əməli kömək edilməsi;
- kənd təsərrüfatının və onunla bağlı sahələrin sabit inkişafının təmin edilməsi;
- kəndin sosial cəhətdən yenidən qurulması;
- xarici investisiyaların aqrar bölmənin sahələrinə cəlb edilməsi;
- yerlərdə mövcud potensialdan səmərəli istifadə etmək emal müəssisələrini xammal regionlarına yaxşılaşdırmaq yolu ilə məşğulluq probleminin yaxşılaşdırılması.

Bununla yanaşı ərzaq ehtiyatlarını artırmaq üçün çoxukladlı iqtisadiyyatın formalaşması, burada başqa strukturlarla yanaşı kəndli (fermer) təsərrüfatlarının üstün inkişafının təmin edilməsi aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi elmi qarşısında bir vəzifə kimi durur. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi elmi, həmçinin iqtisadiyyatın aqrar bölməsinin potensial imkanlarının xalqın, dövlətçiliyimiz bütün üstünlüklərinin hərəkətə gətirilməsində, ona ən müasir formalar verilməsində öz nəzəri, metodoloji ümumiləşdirmələri ilə Azərbaycan Respublikasının aqrar siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsinə əməli köməklik göstərilməlidir[4,5].

ASK(Aqrar Sənaye Kompleksləri) ölkə iqtisadiyyatında ən iri təsərrüfat komplekslərindən biridir və bir-biri ilə əlaqəli üç sahəni özündə birləşdirir - kənd təsərrüfatı və onunla bağlı iki sahələr qrupu: kənd təsərrüfatı üçün tələb olunan avadanlıq, texnika, gübrə və s. istehsal edən sahələr və kənd təsərrüfatı məhsullarını emal edən sahələr. ASK-da kənd təsərrüfatı aparıcı rol oynayır. Kənd təsərrüfatında torpaq, bitki və heyvanlar, su, işıq, havanın hərarəti kimi təbii və bioloji amillərdən istifadə olunması sahənin iqtisadi qanunlardan başqa təbii qanunlardan da asılı olduğunu göstərir. Təbii amillərdən asılılığı bu sahənin tənzimlənməsinin mürəkkəb olmasını göstərir. Kapital tutumlu olan kənd təsərrüfatı sahələrinin iqlim şəraitindən, canlıların (heyvanların) sağlamlığından asılılığı bu sahədə risk səviyyəsini artırır və bu səbəbdən də potensial investorlar üçün cəlbedici olmur.

Dünyada effektiv siyasətlərdən biri də Avropa Birliyinin Ümumi Kənd Təsərrüfatı Siyasətidir (CAP – Common Agriculture Policy). Ümumi Kənd Təsərrüfatı Siyasəti (CAP) Aİ-nin ən qədim siyasətlərindən biridir. İkinci Dünya Müharibəsindən sonra on ildən çox davam edən ərzaq qıtlığı və aclıqdan sonra, 1962-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, fermerlərin həyat keyfiyyətinin qorunması və bazarları sabitləşdirməklə yanaşı, qiymətləri istehlakçılar üçün münasib saxlamaq üçün tətbiq edilmişdir. Ümumi Kənd Təsərrüfatı Siyasətinin (CAP) məqsədləri aşağıdakılardır.

- Texniki tərəqqini dəstəkləmək, kənd təsərrüfatı istehsalını rasionallaşdırmaq və istehsal xüsusiyyətlərini, xüsusən işçi qüvvəsini müvafiq qaydada istifadə edərək məhsuldarlığı artırmaq;
- Kənd təsərrüfatında məhsuldarlığı artırmaq,
- Məhsul tədarükünün təhlükəsizliyini təmin etmək,
- Kənd təsərrüfatı istehsalı vasitələrindən səmərəli istifadəni təmin etmək üçün
- Kənd təsərrüfatı sektorunda çalışanların gəlirlərini artırmaq,
- İstehlakçılara daha real və əlverişli qiymətlər təklif etmək,
- Bazarlarda sabitliyi təmin etmək,
- Qiymətlərin üzv ölkələr arasında haqsız rəqabətə səbəb olmasının qarşısını almaq[6,7].

CAP bütün Aİ ölkələri üçün ümumi siyasətdir. O, Avropa səviyyəsində Aİ büdcəsindən idarə olunur və maliyyələşdirilir. CAP Aİ büdcəsinin bir hissəsi kimi iki fond vasitəsilə maliyyələşdirilir:

1. Avropa Kənd Təsərrüfatı Zəmanət Fondu (EAGF) birbaşa dəstək və bazar tədbirlərini maliyyələşdirir;
2. Kənd İnkişafı üçün Avropa Kənd Təsərrüfatı Fondu (EAFRD) kənd yerlərinin inkişafını maliyyələşdirir.

Ödənişlər hər bir Aİ ölkəsi tərəfindən milli səviyyədə idarə olunur. CAP ödənişlərinin alıcıları haqqında məlumat Aİ şəffaflıq qaydalarına uyğun olaraq hər bir ölkə tərəfindən dərc olunur.Gələcək üçün Avropa kənd təsərrüfatının rolunu möhkəmləndirmək üçün CAP dəyişən iqtisadi şəraitə və vətəndaşların tələb və ehtiyaclarına cavab vermək üçün illər ərzində təkamül etmişdir.

2018-ci ilin iyun ayında Avropa Komissiyası yeni CAP üçün qanunvericilik təkliflərini təqdim etdi. Təkliflər Avropa Yaşıl Sövdələşmənin davamlı ambisiyalarını özündə birləşdirəcək daha sadə və daha səmərəli siyasətdən ibarət idi.Avropa Parlamenti, Aİ Şurası və Avropa Komissiyası arasında aparılan geniş danışıqlardan sonra CAP islahatı üzrə razılıq əldə olunub və 2 dekabr 2021-ci ildə yeni CAP rəsmi olaraq qəbul edilib[8].

"Farm to Fork" strategiyası qida sistemlərini ədalətli, sağlam və ekoloji cəhətdən təmiz etmək üçün Avropa Yaşıl Sövdələşmənin mərkəzində dayanır. Strategiyanın məqsədi qismən daha az pestisidlər və gübrələrdən istifadə etməklə qida istehsalını daha davamlılıq istiqamətində təkmilləşdirməkdir. Aİ bu qənaətə gəlib ki, hazırda gübrələrdən, xüsusən azotdan (xüsusi problemlərə səbəb olur) və fosfat gübrələrindən həddindən artıq istifadə var. Bundan əlavə, tədqiqatlar müəyyən etdi ki, bütün qida maddələrinin bitkilər tərəfindən effektiv şəkildə mənimsənilmədiyini nəzərə alsaq, həddindən artıq gübrə istifadəsinin kənd təsərrüfatına və kənd təsərrüfatı məhsuldarlığına real faydası yoxdur. Artıq qida maddələri daha sonra havanın, torpağın və suyun çirklənməsinə səbəb ola bilər və iqlimə təsir göstərə bilər.

Nəticədə, Avropa Komissiyası 2030-cu ilə qədər müvafiq ekoloji və iqlim qanunvericiliyini tam şəkildə həyata keçirmək və tətbiq etməklə gübrə istifadəsini ən azı 20% azaltmağı təklif edir. Avropa Komissiyası bu qida yükünün azaldılmasını təmin etmək üçün Üzv Dövlətlərlə sıx əməkdaşlıq etmək niyyətindədir. Milli CAP Strateji Planlarına əlavə olaraq, Komissiya üzv dövlətlərlə qida maddələrinin çirklənməsini mənbəyində həll etmək üçün İnteqrasiya edilmiş Qida Elementlərinin İdarə Edilməsi üzrə Fəaliyyət Planı hazırlayacaqdır[9].

Azərbaycan hissəsi:

Aqrar sektor Azərbaycanın qeyri-neft sektorunda mühüm rola malikdir.Dünyada 11 iqlim tipindən 9u Azəbaycandadır. Son dövrlərdə kən təsərrüfatı müasirləşirKənd Təsərrüfatına yararlı torpaqlar ümumi ərazinin 55%- ni təşkil edir.Əkin yerləri Kənd təsərrüdatına yararlı torpaqların 42.8%-ni, ümumi sahənin 23.6%-ni təşkil edir.

İqtisadi islahatlardan bir növü də aqrar islahatlardır.Müstəqillik əldə etdikdən sonra aqrar islahatlar əsasən 3 yöndə aparıldı:

1. Yeni mülkiyyət formalarının formalaşdırılması
2. Fərqli təşkilati-hüquqi formalı təsərrüfat tiplərinin formalaşdırılması
3. Dövlət dəstəyinin yaradılması

Ümumiyyətlə aqrar islahatların obyekti torpaqdır.Torpaq fondundakı torpaqlar 3 yerə bölünür:

1. Dövlət mülkiyyətində olan torpaqlar
2. Bələdiyyə mülkiyyətində olan torpaqlar
3. Özəlləşdirilmiş xüsusi mülkiyyət

Azərbaycanda aqrar sektor dövlət tərəfindən birbaşa və dolayı yolla dəstəklənir. Kənd təsərrüfatı ilə məşğul olan əhali 9 növ verginin 7 növündən azad edilmişdir. Aqrar məqsədlər üçün idxal edilən avadanlıqlar, toxumlar, gübrələr idxal rüsumuna və ƏDV-ə cəlb olunmurlar.Bundan başqa Dövlət Taxıl Fonduna tədarük məqsədilə idxal olunan taxıl və taxıl emalı məhsulları idxal rüsumu və ƏDV-ə cəlb edilmir.

Aqrar sahənin təkmilləşməsi üçün başqa addımlar da atılmışdır. Bunlardan biri də Aqrar Kredit və İnkişaf Agentliyidir.AKİA kənd təsərrüfatına investisiya cəlb etmək,güzəştli kredit və təminat verilməsi, fermerlərə subsidiyaların verilməsini təmin edir. Aqrar Sığorta Fondu aqrar sığortanın təşkili, inkişafı və dayanıqlılığını təmin etməküçün yaradılmışdır. ASF ərzaq təhlükəsizliyinin təmin olunmasını, aqrar sektorun qeyri- neft sektorunda payının artmasını, aqrar sektora investisiyanın cəlbediciliyini artırmaq, kəndlilərin həyat səviyyəsinin yüksəldilməsini və s. hədəfləyir. Ödəniləcək sığorta haqqının 50 faizini dövlət , digər 50 faizini isə kəndli ödəyir. Aqrar Xidmətlər Agentliyi ölkədə bitki və heyvan sağlamlığı, seleksiya nəaliyyətləri, toxumçuluq , kənd təsərrüfatı texnikaları ilə bağlı dövlət xidmətlərinin təşkili və bu saydıqlarımız üzrə dövlət nəzarəti həyata keçirir. AXA-nın hədəfləri itki və heyvan sağlamlığını təmin etmək, bitkiçilik və heyvandarlığın məhsuldarlığının artırılmasını, toxumçuluq və kənd təsərrüfatı texnikalarının texniki vəziyyət və istismarına innovativ dövlət nəzarəti formaları həyata keçirməkdir.

Ölkədə yüksək məhsulda toxum tələbatını ödəmək üçün Dövlət Toxum Fondu yaradılmışdır. Fond ölkədə keyfiyətli toxumun istifadəsinin təşviqi, toxum satışı, toxum qiymət artımının qarşısının alınması, "Toxumart" şəbəkəsinin genişləndirilməsi və s. özündə hədəfləyir. [10,11].

NƏTICƏ

Hər il ÜDM-də kənd təsərrüfatının payı artmaqdadır. 2019cu il üzrə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq ÜDM-də 5.7 faiz idisə, 2020ci il üzrə bu 6.9 faiz olmuşdur. Dünya təcrübəsində aqrar sektorun inkişafının böyüməsinin ən geniş yayılmış üsulu dövlət tərəfindən verilən subsidiyalar, maliyyə dəstəyi,

vergi və digər güzəştlərdir. Ölkəmizdə hər il kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülür.İlbəil aqrar sektora qoyulan investisiya artmaqdadır. ASK-lər təkmilləşir, yeni texnikanın daha əlçatan olması üçün Aqrolizinq ASC fəaliyyət göstərir.Əhalinin ərzaq məhsullara olan tələbatını daxili potensial hesabına ödəmək üçün toxumçuluq sahəsində Dövlət Toxum Fondu yaradılmışdır.

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Ərzaq Təhlükəsizliyi Komitəsi tərəfindən müəyyən edildiyi kimi, ərzaq təhlükəsizliyi o deməkdir ki, bütün insanların aktiv və sağlam həyat müddətində qida üstünlüklərini və pəhriz ehtiyaclarını ödəmək üçün kifayət qədər, təhlükəsiz və qidalı qidaya hər zaman fiziki, sosial və iqtisadi çıxışı var. Azərbaycan Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinə görə 2019-cu il üzrə 55ci yer(56.7faiz), 2020 ildə 56cı yerdə (62.3 faiz), 2021ci ildə 56cı yerdə (62.6 faiz) olmuşdur. Yoxsulluğun aradan qalxması, bərabərliyin yaradılması, məşğulluğun artırılması üçün sosial-iqtisadi inkişafi dövlət proqramları hazırlanıb icra edilmiş bu da öz nəticəsini vermişdir. 2014-2018- ci illər ərzində ölkə prezidenti tərəfindən imzalanmış çoxsaylı fərman və sərəncamların icra edilməsi, kənd təsərrüfatı və aqrar sənayenin davamlı inkişafını təmin edir.

ƏDƏBİYYAT SİYAHISI

1. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. 25 avqust 2008-ci il
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı.29 dekabr 2012-ci il
3. "Azərbaycan-2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixl Sərəncamı
4. Abbasov İ.-Ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı. "Elm və təhsil" 2011.640 s
5. "Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi" (prof: Qarayev.İ.Ş rəhbərliyi ilə) Bakı 2011
6. Ataşov B.X-Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı. "Elm" 2005,335 s.
7. E.Quliyev "Aqrar iqtisadiyyat" (Dərslik) Bakı 2015 səh 320
8. brahimov. İ.H. "Aqrar sahələrin iqtisadiyyatı" Bakı 2016
9. V.H.Abbasov "Aqrar iqtisadiyyat" (Dərslik) Bakı 2017 səh 468
10. https://www.agro.gov.az/
11. https://www.stat.gov.az/

REGİONLARDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA İNNOVASİYALI SAHİBKARLIĞIN MÖVCUD VƏZİYYƏTİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

Həşimova Albina Çingiz qızı
albina.heshimova@ascca.edu.az

Cəfərova Lalə Baxış qızı
lalacafarova10@gmail.com
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: Son illərdə ölkəmizdə kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması, ölkənin aqrar potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyevin ölkəmizdə aqrar sahibkarlığın inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının səmərəsini artırmaq, bu məhsulların istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsini təmin etmək məqsədilə verdiyi qərarlar bu sektorun ildən-ilə böyüməsini, istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsini stimullaşdırır, mütərəqqi texnoloji yeniliklərin, innovativ üsulların tətbiqi imkanlarını genişləndirir. Bu isə öz növbəsində ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, idxaldan asılılığın azaldılmasına, eləcə də bolluq yaradılmasına və rifahın yaxşılaşdırılmasına, həmçinin aqrar sahənin ixrac potensialının artırılmasına gətirib çıxarır.

Açar sözlər: aqrar sektor, sahibkarlıq fəaliyyəti, sahibkarlığın prioritet istiqamətləri, kənd təsərrüfatı,

Summary: In recent years, our country has made significant progress in modernizing agriculture, a systematic and comprehensive approach to solving problems in the agricultural sector, and promoting the country's agricultural potential. The decisions made by President Ilham Aliyev to develop agrarian entrepreneurship in our country, increase the efficiency of agricultural production, provide state financial assistance to producers of these products stimulate the growth of this sector year by year, continuous improvement of production indicators, opportunities for application of advanced technological innovations. expands. This, in turn, leads to ensuring food security in the country, reducing dependence on imports, as well as creating abundance and improving welfare, as well as increasing the export potential of the agricultural sector.
Keywords: agrarian sector, entrepreneurial activity, priority areas of entrepreneurship, agriculture

Ümumilli liderimiz Heydər Əliyev cənablarının dediyi məşhur kəlamı ilə də kənd təsərrüfatı və heyvandarlıq sektoru,həqiqətən, qeyri-neft sektorları arasında Azərbaycanın sosial-iqtisadi inkişafında təsirli ola biləcək ən mühüm sektordur. Azərbaycandakı zəngin kənd təsərrüfatı sahələri və müxtəlif iqlimə malik olan regionlar, geniş növdə və keyfiyyətli məhsulun yetişdirilməsini mümkün hala gətirir. Dünyada mövcud olan 11 iqlim tipinin 9-u Azərbaycanda mövcuddur. Bu müxtəliflik suptropik iqlimdən tundra iqliminə qədər uzanır. Bir mövsümdə bir dəfədən çox məhsul əldə etmək mümkündür. Ölkə iqliminin müxtəlifliyi cürbəcür növdə məhsulların yetişdirilməsinə imkan verir. Qısacası, iqlimi kənd təsərrüfatı üçün əlverişli olan Azərbaycanın başlıca kənd təsərrüfatı məhsulları buğda, tütün, çay, zeytun, meyvə və tərəvəzdir. Ölkənin özünü təmin edə biləcək qədər taxıl istehsal etmək potensialı vardır. Xüsusən ölkəmizdə makroiqtisadi və siyasi stabilliyin əldə edilməsi ilə, dövlət kənd təsərrüfatı sahəsində islahatları sürətləndirmişdir. 1995-ci ildə həyata keçirilən Kənd Təsərrüfatı İslahatı Qanunu və torpaq islahatına dair hüquqi tənzimləmələr (Torpaq Qanunu, Mülkiyyət Haqqında Qanun, Fermer Təsərrüfatlarının Qurulması Haqqında Qanun, Sahibkarlıq Haqqında Qanun v.s.) həyata keçirilməsi ilə birlikdə, sovxoz və kolxozların sayı azalarkən, fermerlərin sayı artmağa başlamışdı. Azərbaycanın müstəqillik qazanmasından sonra həmçinin özəlləşdirmələr başlandı.Ölkəmizdə özəlləşdirmələrin,o cümlədən aqrar sahədə islahatların,proqramların sayı artdıqca aqrar sahibkarlığın da rolu artdı[1,2].

Mövzumuzun timsalında bəs innovasiyalı sahibkarlıq nədir desək, iqtisadi ədəbiyyatlarda aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyyətinin aşağıdakı xarakterik xüsusiyyətlərini görərik:

- Bu sektorda faydalılığı və perspektivliliyini qiymətləndirmək;
- Nəzərdə tutulmuş riskə getməyə hazır olmaq;
- Bazarın tələbatına cəld reaksiya vermək, yeni əmtəə istehsalına və xidmət göstərilməsinə hazır olmaq;
- İstər daxili,istərsə də xarici investorları və əlavə maliyyələşdirmə mənbələrini tapmağı bacarmaq;
- Son nəticəyə yönəlmiş fəaliyyət göstərmək;
- Rəqibləri arasında həmişə ən yaxşı olmağa cəhd etmək[3].

Kənd təsərrüfatının inkişafında innovasiyalı sahibkarlığın mövcud vəziyyəti:

Aqrar islahatların müasir mərhələsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş qərarlar, ölkədə bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsinə təkan verib. Belə ki, Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən aqrar sektorda şəffaflığın, hesabatlılığın və operativliyin təmin edilməsi məqsədilə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) yaradılıb. Bu günə olan məlumata görə, EKTİS-də artıq 600 mindən çox fermer qeydiyyatdan keçib. Bu sistemdə şəxsi kabinet yaratmaq, məlumatları ardıcıl şəkildə sistemə daxil etmək üçün Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları, Aqrar İnkişaf Könüllüləri və ASAN Könüllüləri fermerlərə informasiya məsləhət xidməti göstərirlər. EKTİS sisteminin tətbiqinə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi də dəstək verir. Fermerlər DAİM-lərə və ASAN Xidmət mərkəzlərində yaradılmış xüsusi xidmət pəncərələrinə yaxınlaşaraq EKTİS-in tətbiqi ilə bağlı məsləhət ala bilirlər.Bu sektorlarla məşğul olan sahibkarlar aqrar subsidiyalarını da artıq EKTİS üzərindən alırlar.

Subsidiyaların ayrılması, güzəştli şərtlərlə gübrələrin verilməsi ilə bərabər, fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb. Bunun üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi fəaliyyətə başlamışdır. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

1. aqrar inkişaf layihələrinin güzəştli kreditləşdirilməsini və idarə edilməsini həyata keçirmək;
2. aqrar sahədə dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsində iştirak;

3. aqrar sahədə innovativ metodları və qabaqcıl təcrübəni təşviq etmək, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi üçün müvəkkil banklar, bank olmayan kredit təşkilatları və lizinq təşkilatları (bundan sonra – müvəkkil kredit təşkilatları) vasitəsilə kreditlər və həmin kreditlərə təminat vermək;
4. aqrar sahədə dövlət-özəl tərəfdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin etmək
5. kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar subsidiyaların verilməsini, habelə bu sahədə fəaliyyətin təşkilini və əlaqələndirilməsini həyata keçirir[4].

Kredit vəsaitlərinin verilmə həddi;istifadə müddəti;güzəşt müddəti:

- Mikrokreditlər-15 000 manatadək ;3 ilədək;12 ayadək
- Kiçikhəcmli kreditlər-15 001 manatdan 30 000 manatadək;3 ilədək;18 ayadək
- Ortahəcmli kreditlər-30 001 manatdan 100 000 manatadək; 3 ilədək;18 ayadək
- Böyükhəcmli kreditlər-100 001 manatdan 200 000 manatadək;5 ilədək;24 ayadək
- Kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər-1 000 000 manatədək;5 il

Güzəşt müddətində sahibkarlıq subyekti yalnız faiz borcunu ödəyir, əsas borc üzrə hər hansı ödəniş həyata keçirmir.Sahibkarlıq subyektləri alınmış kreditlər üzrə faiz borclarını və əsas borcu güzəşt müddəti bitdikdən sonra növbəti aydan başlayaraq, kredit müqaviləsinə uyğun olaraq, hər ayın ilk iş günü bərabər hissələrlə ödəyirlər[5].

Deməli,kənd təsərrüfatı sahibkarlığının inkişafı sahəsində son illər görülən bəzi tədbirlər:

• Kənd təsərrüfatı istehsalçılarının torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad edilməsi;
• Kənd təsərrüfatı istehsalçılarının idxal etdiyi maşın-avadanlıq və bir sıra xammal məhsulalrının idxal rüsumları və ƏDV-dən azad edilməsi;
• Kənd təsərrüfatı istehsalçılarına kənd təsərrüfatı texnikasının lizinq yolu ilə verilməsi;
• Kənd təsərrüfatı istehsalçılarına əvəzsiz maliyyə (buğda və çəltik istehsalçılarına hər hekatara 40 manat), yanacaq və motor yağı dəstəyinin (bütün istehsalıçılara hər hektara 40 manat) verilməsi;
• Şəkər çuğunduru, pambıq, tütün və barama istehsalçılarına, süni mayalanma ilə alınmış buzovlara görə subsidiyaların verilməsi;
• Kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə kredit, mineral gübrələr, toxum, texnika və damazlıq mal-qara almaq imkanının yaradılması[6].

Kənd təsərrüfatı inkişafında innovasiyalı sahibkarlığın mövcud vəziyyətinin SWOT analizi:

1) *Strengths* (güclü tərəflər)
-Ölkəmizdə sahibkarlığın inkişafı üçün sabit makroiqtisadi mühit(tədiyyə balansındakı müsbət saldo);
-Regionların sosial-iqtisadi inkişaf proqramlarında kənd təsərrüfatının inkişafına xüsusi önəm verilməsi ;
- Qlobal rəqabət qabiliyyəti indeksində 38ci yer;
- İşğaldan azad olunmuş ərazilərimizdə "Ağıllı kənd" və "Ağıllı kənd təsərrüfatı" layihələri;
- Aqrar sektorda şəffaflığın, hesabatlılığın və operativliyin təmin edilməsi məqsədilə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) yaradılması;
- Fermerlər üçün "Vahid sahədə vahid əkin" yanaşması adlı Azərbaycan modeli;
-Biznesə,innovasiyaya dövlət tərəfindən birbaşa və dolayı dəstək infrastrukturu(Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi);
-"Aqrar tədarük və təchizat" ASC-in daxilində AFAQ(Aqrar fəaliyyətli Azərbaycan sahibkar Qadınları),≪Kənddən şəhərə≫ və ≪Şəhərdən kənara≫ layihələri;
-Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi.
2) *Weaknesses* (zəif tərəflər)
-Aqrar sahə üzrə sahibkarlıq siyasətinin bir neçə dövlət proqramında fraqmentlər halında paylanması,rəsmi koordinasiya və hərtərəfli strategiyanın yoxluğu;
-Bank maliyyə resurslarına çıxışın məhdudluğu,digər mənbələrin yaxşı inkişaf etməməsi;
-Dövlət və özəl sektor arasında konsultasiyalarda qeyri-formal əməkdaşlıq;
-Monitorinq və qiymətləndirmənin olmaması;
-Gömrük baryerlərinin nisbətən az olması,AZPROMO-nun fəaliyyətinə baxmayaraq,aqrar sahibkarlığın aşağı səviyyəli beynəlmiləşməsi;
-Korrupsiya qavrayışına yalnız biznesə maneə kimi baxılması.
3) *Opportunities* (imkanlar)
-İqtisadiyyatın şaxələndirilməsi,Gələcəyə baxış konsepsiyasının hazırlanması;
-İri infrasturktur layihələri yeni inkişaf fürsətlərinə rəvac verəcək;

-Qeyri-neft məhsulları xüsusən kənd təsərrüfatı məhsulları üzrə yeni ixrac proqramlarının hazırlanması;
-Bank sektorunun genişlənməsi;
-ÜTT-ə üzvlük perspektivi ticarəti artıracaq;
-İşğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatı sahəsi üzrə istifadə olunmamış potensial;
-Aqrar sahibkarlıq üzrə təlimlərinin keçirilməsində və planlaşdırılmasında innovativ yanaşma.
4) *Threats* (təhlükələr).
-Təbii resurslardan asılılıq iqtisadi qeyri-sabitliklə nəticələnir;
-Xüsusən qeyri-neft sektorunda Rusiya regionun hərəkətverici qüvvələrinin təsirinə məruz qalma;
-İnnovasiya və sahibkarlıq kimi əsas sahələrdə müstəqil icraçı agentliklərinin olmaması;
-Xüsusən kənd təsərrüfatı sahəsində beynəlxaq keyfiyyət sertifikatlaşdırılmanın məhdudluğu;
-Aqrar sahibkarlıq üzrə innovasiyaları əhatə etməyən strategiya istiqamətində təşəbbüslər[7,8].

Kənd təsərrüfatının inkişafında innovasiyalı sahibkarlığın prioritet istiqamətləri:

1. Kənd təsərrüfatına birbaşa xarici investisiya üçün cəlbedici maliyyə və investisiya mühitinin yaradılması. Buna kənd təsərrüfatında milli prioritet olaraq güzəştlərin dövlət tərəfindən maliyyələşdirilməsi, elmə kredit verilməsi, elmi və texnoloji tərəqqinin əsas istiqamətləri kömək edə bilər. Bundan əlavə, əqli mülkiyyətin qorunması haqqında qanunun icrası lazımdır. Patent qanunlarında islahat, əqli mülkiyyətin dövlət qurumlarından özəllərə ötürülməsi mexanizmini daha şəffaf edərdi. Texniki qaydaların, vergi rejiminin təkmilləşdirilməsi, sadələşdirilmiş lisenziyalaşdırma proseduru, sertifikatlaşdırma və əmək qanunvericiliyinin liberallaşdırılması yenilik üçün daha cəlbedici şərait yaradacaqdır.
2. İnnovativ potensialdan istifadə. Bu problemi həll etmək üçün dövlət və özəl sektorların elmə, yüksək texnoloji sahələrə, bazar əsaslı innovativ mexanizmlərin rəqabət qabiliyyətini yaradan və yayan sahələrdə optimal birləşməsini yaratmaq lazımdır.
3. Aqrosənaye kompleksinin prioritet inkişafı üçün şərait yaradılması. İnnovativ infrastruktur müəssisələrinə münasibətdə dövlət proteksionizmini həyata keçirmək, kənd təsərrüfatının hüquqi tənzimlənməsini və stimullaşdırılmasını təmin etmək, dövlətin innovativ siyasətinin həyata keçirilməsində hökumətin bütün səviyyələrinin rolunu və məsuliyyətini artırmaq lazımdır.
4. Aqrosənaye kompleksinin kadr potensialının inkişafı. Peşə təhsili almaq üçün şərait və proseslərin yaxşılaşdırılması, təhsil müəssisələri məzunlarının müəyyən edilmiş peşə qabiliyyətlərinin innovativ istehsalın ixtisas tələblərinə uyğunlaşdırılması, əmək bazarında tarazlı tələbə nail olunması, kənd təsərrüfatı müəssisələrinin gənc mütəxəssislərlə təminatının yaxşılaşdırılması problemlərini həll etmək lazımdır. Aqrar sahənin spesifikliyi onunla şərtlənir ki, burada bəzən səmərəsi özünü uzun illər göstərən təcrübi tədqiqatları da maliyyələşdirmək zərurəti yaranır. Yəni elmi tədqiqatlara ayrılan vəsaitlər bəzən uzun müddət sonrakı iqtisadi inkişaf üçün zəruri olan elmi-innovativ yenilikləri stimullaşdırır [9].

Azərbaycana gəlincə, aqrar sahədə elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi mexanizmlərinin dövrün tələblərinə cavab verməməsi hazırda hökumət səviyyəsində də etiraf olunur. Lakin hazırda bu sahədə mövcud olan problemləri "maliyyə çatışmazlığı" kimi ümumi sözlərlə pərdələmək də doğru yanaşma deyildir. Təcrübə göstərir ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı sahəsində müasir tələblərə cavab verən kadr potensialının olması həlledici əhəmiyyət kəsb edir. Ali və orta ixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin müasir tələblər baxımından professional hazırlıq səviyyəsi isə hələ aşağıdır. Bu ixtisasların kənd yerlərində cəlbedici olması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə, mütəxəssislərin sosial-məişət problemlərinin həllinə ehtiyac duyulur. Hazırda Azərbaycan Respublikasının ali məktəblərində 30, orta ixtisas məktəblərində 6, texniki peşə məktəblərində 23 ixtisas üzrə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması və iqtisadiyyatı sahəsində mütəxəssis hazırlanır.

5. Sosial sahənin dövlət tənzimlənməsi. Dövlətin ən vacib vəzifəsi kənd sakinlərinin yüksək həyat səviyyəsini təmin etmək və sosial gərginliyi azaltmaqdır. Maliyyə, sənaye və sosial sahələrdə balanslaşdırılmış dövlət siyasəti sayəsində əhalinin gəlir səviyyəsi artırılmalıdır.

6. Yerli sığorta bazarını inkişaf etdirməklə aqrar sığorta mexanizminin təkmilləşdirilməsi-Prezident İlham Əliyevin "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə" Fərmanının icrası ilə əlaqədar dünyadakı mövcud aqrar sığorta modelləri araşdırılıb və ölkəmizdə mütərəqqi kənd təsərrüfatı sığortası sisteminə malik olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin təcrübəsi öyrənilməklə, aqrar sığortanın dövlət-özəl tərəfdaşlığı modeli əsas götürülməklə Aqrar Sığorta Fondu yaradılıb və aqrar sığorta mexanizminin tətbiqi təmin olunub.Lakin bildiyimiz kimi kənd təsərrüfatı sığortası müxtəlif riskləri daşıyan və bir çoxunun reallaşması ciddi nəticələrə səbəb olan bir sığorta növü olaraq qalmaqdadır.Həmçinin ölkəmizdə aqrar istehsalçıların maliyyə

resurslarına çıxışın məhdudluğu bu sahədə aktiv sığorta mexanizminin, dövlət dəstəkli aqrar sığorta mexanizminin təkmilləşdirməsini obyektiv reallığa çevirmişdir[10].

Aparılan tədqiqatlara əsasən qeyd etmək olar ki, müasir şəraitdə:

- hazır məhsul sığortasının effektiv idarə edilməsi sisteminin formalaşdırılması;
- sığorta riskini azaltmaq, yerli sığorta bazarını inkişaf etdirmək və səmərəliliyini artırmaq bu sektora xarici investorların cəlb edilməsi üçün sığorta tənzimləmə bazasının modernləşdirilməsi;
- aqrar sahədə hazır məhsulların sığortalanması sahəsində dövlət proqramının qəbul edilməsi və bunun əsasında fermerlərin dayanıqlığının artırılması;
- aqrar sığortaya dövlət dəstəyini müəyyənləşdirərkən sığorta sahəsində bağlanmış sığorta müqavilələrinin sayını tədricən artırılması məqsədəuyğundur.

Aqrar sahədə sığorta üzrə potensialın artırılmasına, təhsilə və innovativ texnologiyalara investisiya qoyuluşu nəticəsində də innnovasiyalı sahibkarların sayı artmaqla yanaşı kənd təsərrüfatında məhsuldarlıq artacaq və milli ərzaq təhlükəsizliyi təmin ediləcəkdir.

Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın xüsusilə qeyri-neft sektorunun innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir[11].

NƏTİCƏ

Beləliklə, kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq və ərzaq təhlükəsizliyini yalnız yüksək inkişaf etmiş maddi-texniki bazanın fəaliyyət göstərməsi və onun yenilənməsi, yəni təsərrüfatların yeni mühəndislik məhsulları ilə modernləşdirilməsi və texnikanın yenidən təchiz edilməsi, mexanikləşdirmə və avtomatlaşdırma maşınları kompleksinin yaradılması əsasında təmin etmək mümkündür. İnnovasiyalı sahibkarlar innovativ inkişaf modelinə keçməyə imkan verir, qlobal iqtisadi böhranın mənfi nəticələrini kompensasiya edir və kənd təsərrüfatı mühəndisliyi, bitkiçilik və heyvandarlıq istehsalı və emal sənayesində qabaqcıl texnologiyaların geniş tətbiqi ilə yerli kənd təsərrüfatının rəqabət qabiliyyətini artırır.Bu sahibkarlara dövlət dəstəyi, investisiya ehtiyatlarını kənd təsərrüfatının prioritet sahələri üzərində cəmləşdirə biləcək effektiv mexanizmin təşkili, kənd təsərrüfatı sektorunda yeniliklərin tətbiqi üçün şərait yaradılması və innovasiya üçün kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. 25 avqust 2008-ci il
2. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı.29 dekabr 2012-ci il
3. “Azərbaycan-2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixl Sərəncamı
4. Abbasov İ.-Ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı. “Elm və təhsil” 2011.640 s
5. “Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi” (prof: Qarayev.İ.Ş rəhbərliyi ilə) Bakı 2011
6. Ataşov B.X-Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı. “Elm” 2005,335 s.
7. E.Quliyev “Aqrar iqtisadiyyat” (Dərslik) Bakı 2015 səh 320
8. Əliyev Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. - Dərs vəsaiti. Bakı, “Təhsil”, 2017, 136s.
9. İbrahimov. İ.H. “Aqrar sahələrin iqtisadiyyatı” Bakı 2016
10. V.H.Abbasov “Aqrar iqtisadiyyat” (Dərslik) Bakı 2017 səh 468
11. Rəhmanov. F.P. Sosial sfera və sosial siyasət, Dərs vəsaiti, Bakı 2021

2015 DEVALVASIYASI, SƏBƏB, NƏTICƏ, PROQNOZ

Mirsahib Eminov
mirsahib.eminov@ascca.edu.az

Nuranə Balaşlı
Nurane.Balashli@ascca.edu.az
Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ
Azərbaycan hər il xarici ölkələrə məhsullar ixrac edir, eyni zamanda da idxal edir. Bildiyimiz kimi qeyri-neft sektorunda idxaldan asılı ölkəyik və xarici ölkələrdən alışımızın 90 faizdən yuxarısını dollarla aparırıq. Buna görə də bizneslərdə dollar daim olmalıdır ki, xarici iqtisadi əlaqələr dayanmasın. Təbii ki, Mərkəzi bankın digər valyutalarda da, avroda, Rubulda, Türk lirəsində və.s pul ehtiyatı olur. Amma əsas önəmli valyuta dollardır.
Açar sözlər: devalvasiya, Mərkəzi Bank, dollarlaşma

GIRIŞ
Devalvasiya milli valyutanın xarici valyutaya nəzərən məzənnəsinin ucuzlaşdırılmasıdır. Manatın Dollar qarşısında devalvasiya prosesinin necə getdiyinə baxaq: Birinci mərhələdə, Azərbaycanın ixracının 90 faizini təşkil edən neftin qiyməti aşağı düşür, Azərbaycana daxil olan dollarlar azalır. İkinci mərhələdə, psixoloji faktorların təsiri ilə iqtisadi durumu hiss edən insanlar banklara üz tutur və valyutalarını dollara dəyişirlər. Dollar xarici ölkələrlə əlaqələri olan insanlarla yanaşı digər insanlarda da olur, onlar da ehtiyat saxlayırlar. Bu proses də dollları daha da qıtlığa aparır. İqtisadi donma yaranır və Azərbaycana xaricdən mal gətirən insan dollar tapmır ki, Azərbaycana məhsul gətirsin. Mərkəzi Bank vəziyyəti müvəqqəti idarə etmək üçün dollar rezervlərindən banklara dollar satır ki, iqtisadiyyat çökməsin, lazım olan insanlar dollar ala bilsin. Təbii ki, bu şəraitdə Mərkəzi Bankın da bir dollar limiti var,o da tam əriyib bitə bilər. Bu proses davamlı baş verərsə , Mərkəzi Bank artıq məcbur olur ki, Manatı ucuzlaşdırsın. Bu zaman Azərbaycanda dollar da bahalaşır. Nəticədə isə insanlar üçün dolları almaq daha çətin, Manatı almaq isə daha asan olmuş olur. Dollar bahalaşdığına görə ,dollara qarşı olan tələb aşağı düşməyə başlayır , xarici iqtisadi əlaqələri olmayan insanlar tədricən dollar ehtiyatlarını Manata mübadilə edirlər. Bu durumda xarici iqtisadi əlqələr bərpa olur. Mərkəzi Bank rezervlərinin əriməsi dayanır. Eyni zamanda ölkə iqtisadiyyatında inflyasiya başlayır. Çünki artıq xaricdən Azərbaycana gələn məhsulların maya dəyəri artmış olur.

1. TƏDQIQAT METODU
Azərbaycanın iqtisadiyyatı və milli valyutası neft qiymətlərindən çox asılı olduğuna görə dünya bazarında neft qiymətlərinin 2014-cü ilin iyul ayından başlamış enişi manatın məzənnəsinə təsir etdi. Azərbaycanın Mərkəzi Bankı xarici valyuta rezervlərindən istifadə edərək məzənnənin stabil qalmasını təmin etdi.



Mənbə: "Ekonomist" jurnalının analitika şöbəsi, ARDNF, Maliyyə Nazirliyi

Manatın məzənnəsinin aşağı düşməsinə təsir edən amillər



1. 2016-cı ilin may ayının sonuna
2. ARDNF-in 33,6 milyard ehtiyatları daxil deyil
3. Maliyyə Nazirliyinin ilin sonuna hesablamaları

Mənbə: Azərbaycan Mərkəzi Bankı, "Ekonomist" jurnalının analitika şöbəsi, Maliyyə Nazirliyi

Azərbaycan Mərkəzi Bankının strateji valyuta ehtiyatları 2014-cü ilin dekabrında 1,2 milyard dollar yaxud 2,8 faiz azalıb, 2015-ci ildə 8 milyard 741.6 milyon dollar, yaxud 2.74 dəfə azalıb. 2015-ci ilin dekabr ayı ərzində rezervlərin həcmi 1 milyard 228.9 milyon, yaxud, 19.7 faiz aşağı düşüb. 2015-ci ilin yanvarında orta hesabla hər ay 1,1 milyard dollar azalaraq 12,7 milyard dollara düşdü. AMB-nin ehtiyatları fevralda 1,7 milyard dollar, martın əvvəlində isə cəmi 11 milyard dollar qalıb.

Tarix	Dəyər
31.12.2014	13758.3
30.11.2014	14996.3
31.10.2014	15033.6
30.09.2014	15042.4
31.08.2014	15190.9
31.07.2014	15193.4
30.06.2014	15163.2
31.05.2014	15091.3
30.04.2014	14871.1
31.03.2014	14715.7
28.02.2014	14444.8
31.01.2014	14219.3

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı



Mənbə: Azərbaycan banklar Assosiasiyası, Tədiyə balansı-2016 Tarazlaşma meyilləri



Mənbə: Azərbaycan banklar Assosiasiyası, Tədiyə balansı-2016 Tarazlaşma meyilləri

Beləliklə, 2015-ci il fevralın 21-nə qədər 1 manat 0,78 dollar təşkil etsə də, Azərbaycan Mərkəzi Bankı manatın dollar qarşılığında məzənnəsinin ucuzlaşdırılmasına qərar verdi. Mərkəzi Bankın qərarı ilə 1 manat 1,05 dollara qədər ucuzlaşdırıldı və 34,5%-lik devalvasiya baş verdi. 1994-1995 və 1999-cu illərdən sonra manatın 3-cü ən böyük ucuzlaşmasıdır. 2015-ci ilin iyul ayının sonlarından etibarən dünya bazarında neftin qiymətinin sürətlə aşağı düşməsi valyuta bazarına və məzənnəyə təzyiqi yenidən artırdı. Nəticədə Mərkəzi Bankın İdarə Heyəti 21 dekabr 2015-ci il tarixində manatın "üzən məzənnə" rejiminə keçilməsi barədə qərar qəbul etdi. Bu qərar manatın 4-cü devalvasiyası idi. 21 dekabr 2015-ci il tarixindən sonra 1 dollar 1,55 manata bərabər oldu. 2015-ci ildə manat iki dəfə devalvasiyaya uğrayaraq dollar qarşısında dəyər itirdi. Həmin gündən manat dollar qarşısında dəyərini tədricən itirir.

Tarix	Dəyər
30.12.2015	5016,7
30.11.2015	6245.6
30.10.2015	6834.6
30.09.2015	7014.7
31.08.2015	7315.4
31.07.2015	8501.5
30.06.2015	8520.2
29.05.2015	8430.8
30.04.2015	8387.9
31.03.2015	9472.1
28.02.2015	11004.4
31.01.2015	12680.8

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

NƏTICƏ

Devalvasiya ilk növbədə bank sektoruna zərbə vurdu. Ölkədə fəaliyyət göstərən bankların təxminən 1/3-i, bank olmayan kredit təşkilatlarının 8,3%-i bağlanaraq bazarı tərk etdi. Bank sektoru sürətli dollarlaşdı. Əhalinin gəlirlərinin azalması səbəbindən alıcılıq qabiliyyəti zəiflədi. Manatın dəyərsizləşməsi nəticəsində qiymətlərin bahalaşması baş verdi və mal və xidmətlərə tələbat kəskin azaldı. Neftin ucuzlaşmasının təsiri olaraq ÜDM artımın tempi 2012-ci ildə 2.2% olduğu halda 2016-cı ildə 4%-ə yaxın azalma qeydə alınıb. Bu müddətdə inflyasiya təzyiqi yüksələrək ikirəqəmli səviyyədə olub. 2012-2014-cü illərdə orta illik inflyasiya 1.1-2.4% intervalında olduğu halda, 2016-cı ildə 12.4%-ə yüksəlib. Mərkəzi Bank inflyasiyanın cilovlanması və milli valyutaya təzyiqi azaltmaq məqsədilə iqtisadiyyatın pulla təminat səviyyəsi əvvəlki dövrlərlə müqayisədə xeyli azaldıb. Devalvasiyadan öncə monetizasiya səviyyəsi 25.2-29.4% intervalında olduğu halda 2015-2016-cı illərdə 16-17%-ə düşüb. Dollarlaşma prosesi ona gətirib çıxardıb ki, 2012-2016-cı illərdə cəmi kreditlərdə xarici valyuta kreditlərinin payı 31,2%-dən 53,8%-ə yüksəldi. Depozitlərin dollarlaşması 2016-cı ilin sonuna 75,6%-ə qədər yüksəlib.

2016-cı ildə «ucuz manat»a reaksiya olaraq tədiyə balansının qeyri-neft bölməsində - həm cari hesab, həm də maliyyə hesabı üzrə tarazlıq meylləri müşhidə olunmağa başlamışdır:

- ✓ Qeyri-neft sektoru üzrə xarici ticarət kəsri 357 mln. dollar kiçilmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə xidmətlər hesabının kəsri 750.2 mln. dollar kiçilmişdir (xüsusilə
- ✓ turizm və tikinti sektorları hesabına);
- ✓ Qeyri-neft sektoru üzrə birbaşa investisiyalar balansı 635.6 mln. dollarlıq kəsirdən, 1150.4
- ✓ mln. dollarlıq profisitə keçmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə portfel investisiyaları kəsri 269.2 mln. dollar kiçilmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə digər maliyyə axınları kəsri 6860.6 mln. dollar kiçilmişdir

ƏDƏBIYYAT SIYAHISI

7. Azərbaycan banklar Assosiasiyası, Tədiyə balansı-2016 Tarazlaşma meylləri https://aba.az/wp-content/uploads/2016/03/BOP_2016_Aze-3.pdf
8. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi: səh 32-34
9. Mərkəzi Bank, https://www.cbar.az/
10. https://1news.az/az/news/20160205053757705-Yanvar-ayi-erzinde-Azerbaycan-Merkezi-Bankinin-valyuta-rezervleri-12-3-ashagi-dushub
11. https://web.archive.org/web/20150225080041/http://az.apa.az/news/373606

THE ANALYSIS OF TARIFF BARRIERS IN IMPORT TRANSACTIONS

Huseyn Huseynzade
Huseyn.Huseyinzade@ascca.edu.az
International trade and logistics, Academy of The State Customs Committee

SUMMARY
This article analyses details of concept of tariff barriers in process of importation. Market access for goods and services from other countries can be, and frequently is, impeded or restricted in various ways. The substantial reduction of tariff barriers to trade is, together with the elimination of discrimination, the key instrument of the World Trade Organization to achieve its overall objectives. The law does not prohibit the imposition of customs duties on imports, however members are called upon to negotiate the reduction of customs duties. Nevertheless, customs duties remain a significant barrier in international trade and further negotiations on the reduction of tariffs are therefore necessary.
Keywords: customs duties, tariff barriers, market access, WTO

INTRODUCTION

There can be no international trade without access to the domestic markets of other countries, and it is essential for traders in goods and services that this access is secure and predictable. Therefore, rules on market access are at the core of WTO law. But there are some restrictions or barriers in these processes. Two main categories of barriers to market access can be distinguished: (1) tariff barriers and (2) non-tariff barriers. The category of tariff barriers primarily includes customs duties, but also other duties and charges on imports and exports. Tariff barriers are particularly relevant for trade in goods; they are of marginal importance for trade in services. Unlike tariff barriers, non-tariff barriers significantly affect both trade in goods and trade in services.

1. METHOD OF RESEARCH

Analysis of theoretical materials and method of analysis-synthesis.

As set out in the Preamble to the WTO Agreement, WTO Members pursue the objectives of higher standarts of living, full employment, growth and economic development by entering into reciprocal and mutually advantageous arrangements directed to the substantial reduction of tariffs and other barriers to trade. Few economists and trade policy-makers dispute that further trade liberalisation can make a significant contribution to the economic development of countries. Significantly, developing-country members are expected to benefit more than developed-country members from a successful conclusion of these tariff negotiations. Some barriers to market access, such as quantitative restrictions on trade in goods, are prohibited, while other barriers, such as customs duties, are allowed in principle and are only limited to the extent of a member's spesific agreement. Thus, different rules apply to diffirent forms of barriers. This difference in rules reflects a difference in the negative effects they have on trade and on the economy.

A very common and widely used barrier to market access for goods are customs duties, also referred to a tariffs. The term 'customs duty' is not defined in the GATT 1994 or in any of the other multilateral agreements on trade in goods. Moreover, these agreements use not only the term 'customs duty' but also the term 'tariff' and they use these terms as synonyms. The GATT 1994 and the other multilateral agreements on trade in goods also do not set out the different types of customs duties. However, it is important to define what a customs duty is, as well as to distinguish between the various types of customs duties. Generally speaking, a customs duty or tariff on imports is a financial charge or tax on imported goods, due because of their importation. Market access for the goods concerned is conditional upon the payment of the customs duty. Customs duties are either ad valorem or non-ad valorem. An ad valorem customs duty on a good is an amount based on the value of that good. It is a percentage of the value of the imported good, for example a 15 per cent ad valorem duty on computers. In that case, the duty on a computer worth €1000, it will be €150. Non-ad valorem customs duties can be specific, compound, mixed or 'other' customs duties. A spesific customs duty on a good is an amount based on a unit of quantity such as weight (kg), length (m), area (m^2), volume (m^3 or l) or numbers (pieces, pairs, dozens or packs) of that good, for example a duty of €100 per hectolitre of vegetable oil or a duty of €3000 on each car. A compound customs duty is a duty comprising an ad valorem duty to which a specific duty is added or, less frequently, substracted, for example a customs duty on wool of 10 per cent ad valorem and €50 per tonne. In that case, the duty on three tonnes of wool worth €1000 per tonne will be €450. A mixed customs duty is a duty that can be either an ad valorem duty or a specific duty, subject to an upper and/or a lower limit, for

example a customs duty on shirts of 10 percent ad valorem or €4 per shirt, whichever duty is the higher. 'Other' non-ad valorem customs duties, also referred to as technical customs duties, are duties determined by technical factors often related to the content, composition or nature of the goods concerned. [4, p.417-19]

Ad valorem customs duties are by far the most common type of customs duties. They are preferable to non-ad valorem duties for several reasons. First, ad valorem duties are more transparent than non-ad valorem duties. The protectionist impact and the negative effect on prices for consumers are easier to assess for ad valorem duties than for non-ad valorem duties. The lack of transparency of non-ad valorem duties makes it easier for special interest groups to obtain government support for high levels of protection. Second, by definition, ad valorem customs duties are index-linked. In times of inflation, the government's tariff revenue will keep up with price increases and the level of protection will remain the same. By contrast, non-ad valorem duties will constantly have to be changed to maintain the same real tariff revenue or maintain the same level of protection. Third, non-ad valorem duties 'punish' efficiency, because the cheaper like products are subject to a higher duty in ad valorem terms. Overall, with respect to industrial products, non-ad valorem duties are unusual. With respect to agricultural products, however, non-ad valorem duties and in particular compound duties, are still common. Ad valorem or non- ad valorem duties can be MFN duties, preferential duties or neither of the two. MFN duties are the 'standart' customs duties applicable to all other WTO members in compliance with the non-discrimination MFN treatment obligation of Article I:1 of the GATT 1994. Preferential duties are customs duties applied to specific countries pursuant to conventional or autonomous arrangements under which products from these countries are subject to duties lower than MFN duties. For example, the customs duties applied by the European Union and sixteen Caribbean countries on each other's products under the terms of the CARIFORUM-EC Economic Partnership Agreement are conventional prefenetial duties. The customs duties applied by the European Union on products from developing countries under the EU's Generalised System of Preferences (GSP) are autonomous preferential duties. There are customs duties that are neither MFN duties nor preferential duties. These are the duties applicable to goods from countries which are not WTO members and do not benefit from MFN treatment. However, since the number of countries that are not members of the WTO is now very small and their share in world trade is negligible, the latter category of customs duties is therefore of limited importance. [2]

A stated above, the terms 'customs duty' and 'tariff' are used as synonyms in the multilateral agreements on trade in goods. However, the term 'tariff' has a second meaning, different from 'customs duty'. A 'tariff', or 'customs tariff', is also a structured list of product descriptions and their corresponding customs duty. The customs duties or tariffs, which are due on importation, are set out in a country's customs tariff. Most national customs tariffs now follow or reflect the structure set out in the Harmonized Commodity Description and Coding System, usually referred to as the 'Harmonized System' or 'HS', is an international commodity classification system, developed under the auspices of the Brussels-based Customs Cooperation Council (CCC), known today as the World Customs Organization (WCO). As of 1 January 2016, 207 countries, territories or customs or economic unions are applying the Harmonized System. The Harmonized System consists of 21 sections covering 97 chapters, 1241 headings and over 5000 commodity groups. For instance, Chapters 1-5, live animals and animal products are included to Section I, Chapters 16-24, prepared foodstuffs, beverages and spirits, tobacco are included to Section IV and etc. For example, an excerpt from the customs tariff of India, shows that the MFN customs duties on cocoa are 30 per cent ad valorem. India's customs duties on some goods are even higher than 30 per cent, while on other goods they are lower. The customs duty on, for example, tariff item 1704 10 00 ('Chewing gum ...') is 45 per cent ad valorem and the customs duty on tariff item 8703 21 10 ('Vehicles principally designed for the transport of more than seven persons, including the driver) is 125 per cent ad valorem. The customs duty on tariff item 2501 00 10 ('Common salt ...') is 10 per cent ad valorem. As discussed, average customs duties imposed by developing-country members are, generally speaking, considerably higher than those of developed-country members. [1]

Customs duties or tariffs on imports serve two main purposes. First, customs duties are a source of revenue for governments. In fact, it is one of the oldest ways for a government to collect revenue. This purpose is now less important for industrialised countries with a well-developed system of direct and indirect taxation. For many developing countries, however, customs duties are an important source of government revenue. In comparison with income taxes and sales taxes, customs duties are easy to collect. Imports are relatively easy to monitor and the collection of customs duties can be concentrated in a few points of entry. Second,

customs duties are used to protect and/or promote domestic industries. The customs duties imposed on imported products make the 'like' domestic products relatively cheaper, giving them a price advantage and thus some degree of protection from import competition. Developing countries are likely to use customs duties to protect infant industries (and thus as an instrument of economic development policy), while developed countries use them more often to protect industries in decline.

Importance of Customs Duties as Trade Barriers. In principle, WTO members are free to impose customs duties on imported products. WTO law, and in particular the GATT 1994, does not prohibit the imposition of customs duties on imports. This is in sharp contrast to the general prohibition on quantitative restrictions. In India-Additional Import Duties (2008), the Appellate Body stated: 'Tariffs are legitimate instruments to accomplish certain trade policy or other objectives such as to generate fiscal revenue. Indeed, under the GATT 1994, they are the preferred trade policy instrument, whereas quantitative restrictions are in principle prohibited. Irrespective of the underlying objective, tariffs are permissible.' Customs duties,unlike quantitative restrictions, represent an instrument of protection against imports generally allowed by the GATT 1994. While WTO law does not prohibit customs duties, it does recognise that customs duties constitute an obstacle to trade. Note that Article XXXVII:1 of the GATT 1994 calls upon developed-country members to accord, in the interest of the economic development of developing-country members: 'high priority to the reduction and elimination of barriers to products currently or potentially of particular export interest to [developing-country members]'.

Economists often consider a customs duty below 5 per cent ad valorem to be a nuisance rather than a barrier to trade. Nevertheless, customs duties remain a significant barrier in international trade for several reasons. First, most developing-country members still impose relatively high customs duties. Many of them have a simple average duty ranging between 10 and 15 per cent ad valorem. The simple average duty of Argentina is 13.6 per cent, of Bangladesh 13.9 per cent, of Brazil 13.5 per cent, China 9.6 per cent, India 13.5 per cent, Mexico 7.5 per cent, Nigeria 11.9 per cent and Pakistan 13.4 per cent. In comparison, the simple average applied MFN duty of Japan is 4.2 per cent, the European Union 5.3 per cent, Canada 4.2 per cent, United States 3.5 per cent and Hong Kong 0 per cent. Second, developed-country members as well as developing-country members still have high, to very high, duties on specific groups of 'sensitive' industrial and agricultural products. With respect to industrial products, these so-called 'tariff peaks' are quite common for textiles and clothing, leather and to a lesser extent, transport equipment. With respect to agricultural products, under the WTO Agreement on Agriculture, all non-tariff barriers to trade have been eliminated and substituted by customs duties at often very high levels. Third, in very competitive markets and in trade between neighbouring countries, a very low duty may still constitute a barrier. In addition, customs duties may also impede the economic development of developing-country members to the extent that duties increase with the level of processing that products have undergone. The duties on processed and semi-processed products are often higher than the duties on non-processed products and raw materials. This phenomenon is referred to as 'tariff escalation'. Tariff escalation discourages manufacturing or processing in countries where those non-processed products or raw materials are produced, often developing countries. The customs duties of Canada and Australia increase at each production stage. US customs duties increase significantly only between raw materials and semi-processed products. The same holds true for the customs duties of Japan. [4, p. 424-25]

On average, the customs duties of the European Union appear to de-escalate, i.e they are higher on raw materials than on semi-processed or processed products. However, this is not always the case. As a clear example of tariff escalation, consider that the MFN duty applied by the European Union on cotton is zero per cent; on cotton yarn between 4 and 5 per cent; on woven fabric of cotton 8 per cent; and on men's or boy's shirts of cotton 12 per cent. Article XXVIII bis of the GATT 1994 calls for negotiations on the reduction of customs duties, in short tariff negotiations, on a 'reciprocal and mutually advantageous basis'. The basic principles and rules governing tariff negotiations are thus: (1) the principle of reciprocity and mutual advantage and (2) the most-favoured-nation (MFN) treatment obligation.

Tariff negotiations can be organised in different ways. Tariff negotiations may be carried out on a selective product-by-product basis or by the application of such multilateral procedures as may be accepted by the members concerned. Negotiators may thus opt for different tariff reduction approaches or methodologies. During the first GATT Rounds (up to and including the 1961-2 Dillon Round), negotiators opted for a product-by-product approach to tariff negotiations. Under this approach, each of the participants in the tariff negotiations submits first its request list and then its offer list, identifying respectively the products with regard to which it is seeking and is willing to make tariff reductions. But, this approach has one major

disadvantage. For practical reasons, the number of products that can be subject to this kind of tariff negotiation is necessarily limited and the product coverage of the tariff reductions that can be achieved is thus 'restricted'. This approach to tariff negotiations is still used, in bilateral or plurilateral negotiations outside a Round. But, multilateral tariff negotiations have been primarily conducted on the basis of a formula approach. Under the formula approach, tariff reductions that are derived from the application of a mathematical formula. To mitigate some problems, the negotiators in the Tokyo Round (1973-9) applied a mathematical formula, often referred to as the 'Swiss formula', which requires larger cuts of higher customs duties than of lower customs duties. [3]

CONCLUSION

As a result of the article, I consider that the role of customs duties as a trade barrier should be reduced. In order to tariff negotiations have to offer effective ways of tariff concessions or tariff bindings. A tariff concession, or a tariff binding, is a commitment not to raise the customs duty on a certain product above an agreed level. As a result of the Uruguay Round tariff negotiations, almost all customs duties imposed by developed-country members are now 'bound', i.e are subject to a maximum level. Most Latin American developing-country members have bound all customs duties. However, for Asian and African developing-country members the situation is more varied. While members such as Indonesia and South Africa have bound more than 95 per cent of their customs duties, India and Thailand have bound about 75 per cent; Hong Kong, China, 45.9 per cent; Zimbabwe, 22.2 per cent; Bangladesh, 15.5 per cent; and Cameroon, 13.3 per cent.

REFERENCES

1. A.Osnago, R.Piermartini and N.Rocha, 'Trade Policy Uncertainty as Barrier to Trade', WTO Working Paper ERSD-2015-05, WTO.
2. M.Daly, 'Is the WTO a World Tax Organization? A Primer on WTO Rules for Tax Policymakers', Fiscal Affairs Department, International Monetary Fund, March 2016.
3. O.Ralph, 'A "New Trade" Theory of GATT/WTO Negotiations', Journal of Political Economy, 2011, 119(1), 122-52
4. Peter Van den Bossche, Werner Zdouc. The law and policy of the World Trade Organization: text, cases and materials. Cambridge University Press, 2019: 415-61.

ÜMUMMILLI LIDER HEYDƏR ƏLIYEVIN RƏHBƏRLIYI DÖVRÜNDƏ MÜSTƏQIL AZƏRBAYCANIN MDB TƏŞKILATI ÖLKƏLƏRI ILƏ IQTISADI-TICARƏT ƏLAQƏLƏRI

Cəlal Abasov
celal.abasov@ascca.edu.az
Beynəlxalq ticarət və logistika ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya olunması və beynəlxalq qurumlarla əməkdaşlıq dövlətimizin iqtisadi inkişaf strategiyasında proritet rol oynamışdır. Bu əməkdaşlıqlar çox şaxəlidir və bir çox istiqamətləri əhatə edir. 70 ildən bir qədər artıq müddətdə dünya tarixi səhnəsində olan və iki super gücdən birinə çevrilən "Qırmızı İmperiya" adlanmış SSRİ dağılmasından sonra, tərkibində Azərbaycanın da olduğu dövlətlərin xarici ticarət dövriyyəsi kəskin şəkildə azaldı. Çünki, hər bir dövlət yenidən qurma üçün islahatların labüd olduğu bir dövrü yəni, keçid dövrünü yaşayırdı. Bu mövzunun da aktuallığı məhz buradan qaynaqlanır. Xoşbəxtlikdən, əsas araşdırma nöqtəsi olan Azərbaycan iqtisadiyyatında həmin dövrlər əsas söz sahibi Ulu Öndər kimi uzaqgörən siyasətçi olmuşdur. Tədqiqiat mövzusu hər zaman üçün öz əhəmiyyətini və xüsusiliyini qorumuşdur. Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk zamanlarda xarici ticarətdə ixrac və idxal əlaqələri şaxələnərək bir çox ölkələri və regionları əhatə etsə belə Azərbaycanın xarici iqtisadiyyatda yaxın tərəfdaşları MDB ölkələri olmuşdur.

Niyə məhz, MDB ölkələri ilə ticarət Azərbaycan iqtisadiyyatı üçün önəmlidir ?. Tədqiqatın əsas sualı da elə budur. Bu suala cavab axtararkən istifadə edəcəyim əsas metodologiyalar analiz və empirik metodları

olacaq, güvənilir hazır datalar və statistiklar isə əsas istinad nöqtələrim. Tədqiqat zamanı əsas büruzə çıxan məqamlardan nəticə çıxarsaq görmüş olarıq ki, MDB ölkələrinin bəziləri ilə əlaqələrin Azərbaycan iqtisadiyyatı və qida təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıdığı halda, bir qrup ölkələrlə, həmçinin, bütöv bir regionla ilə olan iqtisadi əlaqələr müstəqilliyi əldə etdiyimiz müddətdən bu yana atılmış addımlara baxmayaraq, istənilən səviyyəyə çata bilməmişdir. Sevindirici hal isə, bu ölkələr ilə olan əlaqələrin Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə sürətlə inişaf etməsidir.

Açar sözlər: MDB, Azərbaycan, iqtisadi münasibətlər

1. GIRIŞ

Bu məqalənin əhəmiyyətini artıran digər bir nüans isə bu təşkilata üzv olan dövlətlərin Azərbaycan ilə eyni tarixi hadisələri yaşayaraq bir nəhəng imperiyanın çöküşü ilə müstəqillik əldə etmələri və bəzən müxtəlif olsa da məzmunca eyni istiqamətli iqtisadi layihələr və islahatlar həyata keçirərək öz iqtisadiyyatlarını dirçəltməyə cəhd etmələridir. Bu təşkilat daxilindəki əlaqələrin aktuallığını indiki zamana qədər qoruması isə olduqca gözləniləndir. Çünki, MDB ölkələri tarixən Azərbaycanla yaxın iqtisadi əlaqələrdə olan ölkələr olduğu üçün bu münasibətlərin hələ də heç bir zərər görmədən indiki dövrümüzə qədər davam etməsi təbiidir və anlaşılandır.

İlk olaraq, keçmiş sovet ölkələri müstəqilliklərini bərpa etdikdən sonra öz coğrafi-tarixi ərazi və əlaqələrinin onlara qazandırdığı iqtisadi imkanlardan yararlanaraq, öz xarici iqtisadiyyatlarını fərqli istiqamətdə qurmağa cəhd göstərdilər. Lakin, təbii ki, bu iqtisadi inteqrasiyalar ümumi xarici ticarət əlaqələrində ilk dövrlər yalnız cüzi bir dəyişikliklər yaratdı. Hələ də, postsovet ölkələrinin həmin dövr üçün ən böyük ixarc və idxal tərəfdaşı Rusiya Federasiyası və digər keçmiş sovet ölkələri idi. Çünki, adı çəkilən ölkələr yarım əsrdən artıq planlı iqtisadiyyata sahib, xarici ölkələrlə əlaqəsinin məhdud olduğu və daxilən sıx inteqrasiyaya malik ittifaqın tərkib hissələri olduğu üçün bu siyasi, mədəni, iqtisadi əlaqələr bir aya və ya bir ilə qopa bilməzdi. Bu səbəblərdən xarici iqtisadi əlaqələr və gömrük işi sahəsində əməkdaşlıq münasibətlərinin yeni bir istiqamətdə qurulmasına şərait yaradacaq təşkilata ehtiyac yarandı. Bu cümlələr, heç şübhəsiz ki, müstəqilliyini yenicə əldə etmiş Azərbaycan üçün də keçərli idi.

Bunu da qeyd etmək lazımdır ki, MDB təşkilatının ilk vaxtlar fəaliyyəti bir struktur olaraq sahəsiz idi. Bu faktı Ümumilli lider Heydər Əliyev də verdiyi müsahibədə təsdiqləmiş və iqtisadi inteqrasiyanın səmərəli təşkil edilməli olduğunu, birgə fəaliyyət üçün konkret məsələlərin müəyyənləşdirilməli olduğunu, fəaliyyətin o istiqamətdə cəmləşməli olduğunu qeyd etmişdir.

Çatışmayan cəhətlərin mövcudluğuna rəğmən 1993-cü ildə təməli atılmış bu əlaqələr məqalənin çərçivəsini müəyyən edən 2003-cü ilə qədər müsbət istiqamətli irəliləyişlər əldə etmişdir. Bu zaman ərzində dövlət başçıları və nazirliklər çərçivəsində bir sıra əhəmiyyətli görüşlər keçirilmiş və razılaşmalar əldə edilmişdir. 1991-2004-cü illəri əhatə edən dövrdə MDB ölkələri ilə müxtəlif sahələri əhatə edən 141 sənəd imzalanmışdır. 2004-cü ildə bir sıra MDB ölkələri ilə ticarət saldomuz mənfi olsa belə Moldova, Özbəkistan, Qazaxıstan, Rusiya, Ukrayna və Türkmənistan dövlətləri ilə ixracat göstəriciləri xeyli yüksəlmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın xarici ticarətinin tarazılaşdırılmasının vacib prespektivlərindən birinin Rusiya Federasiyası ilə qurulan əlaqələrin olduğunu çox yaxşı anlamışdır. MDB ölkələri ilə qurulan əlaqələrin həm Rusiyanın həm də digər təşkilat üzvü olan dövlətlərin qarşılıqlı mənafeyinə cavab verdiyini qeyd etmişdir. Zəngin nəqliyyat yolları, qaz və neft kəmərlərinə sahib Rusiya həm də Azərbaycan aqrar məhsulları üçün əlverişli bazar olmuşdur. Həmçinin, Azərbaycan və Rusiya dövlətlərinin sıx inteqrasiyaya malik olduğunu da qeyd etmək lazımdır. Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə Rusiya rəhbərliyi ilə aparılan danışıqlar və imzalanan sazişlərin bəhrələri statistik göstəricilərdə özünü büruzə vermiş və 2003-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 1,5 dəfə artaraq 249,3 milyon dollardan 532,9 milyon dollara yüksəlmişdir.

MDB ölkələrinin bir qrupunu birləşdirən amil eyni regionda, Mərkəzi Asiyada yerləşmələridir. Azərbaycanı ilə Mərkəzi Asiya ölkələri ilə təkcə uzun illər eyni bir ittifaqın daxilində olduğu zaman quruduğu əlaqələr və ya müasir iqtisadi əlaqələr bağlamır. Mərkəzi Asiyayla Azərbaycanı bağlayan tarixi dostluq-qardaşlıq telləri, eyni soykök, eyni mədəni və mənəvi amillərdir. Strateji tərəfdaşımız olan Azərbaycan və Qazaxıstan əməkdaşlığının qurulmasında və inkişafında Ümummilli lider Heydər Əliyev və Qazaxıstanın o dövrkü rəhbəri Nursultan Nazarbayevin müstəsna xidmətləri olub. İki ölkə arasında yanacaq-energetika, nəqliyyat, aqrar sektor və qida təhlükəsizliyi, miqrasiya və digər sahələrdə sıx əməkdaşlığın təməli XX əsrin sonlarında qoyulmuşdur. Ulu öndərin əsasını qoyduğu bu münasibətıər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və iki ölkə arasında münasibətlər getdikcə genişləndirilir.

TRASEKA layihəsi çərçivəsində Transqafqaz dəhlizindən daha səmərəli istifadə, ölkələr arasında ticarət dövriyyəsinin artması üçün Avropa-Qafqaz-Asiya marşrutunu vacib amil sayan Azərbaycan və Özbəkistan dövlətlərinin iqtisadi əlaqləri daim inkişaf edən xətt üzərində irəliləmişdir. Əgər 2001-ci ildə Özbəkistanla Azərbaycan arasında ticarət dövriyyəsi cəmi 12,3 milyon ABŞ dolları təşkil edirdisə, 2004-cü ildə bu rəqəm 12 dəfə artaraq 153 milyon dollara çatıb.

Türkmənistanla əlaqələr Azərbaycanın xarici siyasətinin mühüm, vacib istiqamətlərdən birini təşkil edir. Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin əsası 1992-ci ilin iyunundan qoyulmasına baxmayaraq zəngin neft və qaz ehtiyatlarına malik bu iki eyni soykökə sahib dövlətlər arasında siyasi əlaqələr uzun müddət formal mahiyyət daşımışdı. Yalnız 2000-ci ilin sonlarına doğru Azərbaycan ilə Türkmənistanın iqtisadi münasibətləri tədricən inkişaf etməyə başlamışdır. Digər bir Mərkəzi Asiya ölkəsi olan Qırğızıstan ilə əlaqələrin təməli hələ SSRİ tərkibində olan zamanlardan atılmışdır. Azərbaycan və qırğız xalqları tarix, dil, din və mədəni dəyərlər baxımından bir-birinə çox sıx tellərlə bağlıdırlar. 1997-ci ildə Azərbaycan Respublikası Hökuməti və Qırğızıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında, ticarət-iqtisadi əməkdaşlığı haqqında sazişlərin imzalanmasına, tərəflərin iqtisadi sahədə münasibətləri genişləndirmək niyyətlərinə baxmayaraq, Azərbaycanla Qırğızıstan arasında iqtisadi münasibətlər hələ də istənilən səviyyəyə yüksəlməmişdir.

Azərbaycan ilə Tacikistan münasibətləri qədim tarixə malikdir. Hər iki ölkə keçmiş SSRİ-nin tərkibində müttəfiq respublika olan dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşmışdır. SSRİ dağıldıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlamışdır. Bu əlaqələr, əsasən, beynəlxalq təşkilatlar çərçivəsində mövcud olmuşdur. Bu təşkilatlardan biri də məqalənin əsas araşdırma mövzusu olan MDB-dir. 2007-ci ilin martında iki ölkə arasında imzalanmış müqavilələr iqtisadi sahədə əlaqələrin inkişafı üçün mühüm addım olmuşdur.

Belarus MBD məkanında və bütün dünyada Azərbaycanın ən yaxın tərəfdaşlarından biridir. Ötən müddət ərzində ikitərəfli münasibətlərin möhkəm ənənələri – etibarlılıq və dostluq əsasında formalaşıb. 2004-cü ildə hökumət nümayəndələrinin qarşılıqlı görüşü reallaşıb. O zaman ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyası yaradılıb. Bu komissiya iqtisadi proqram və layihələrin həyata keçirilməsində müsbət rol oynayıb. Rəsmi Kişinyov Azərbaycanla iqtisadi əlaqələrin inkişafına böyük əhəmiyyət verir. İki ölkə arasında çoxtərəfli platformalarda uğurlu əməkdaşlıq mövcuddur və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əsl nümunəsidir. "Şərq tərəfdaşlığı" Azərbaycan və Moldovanın Avropa İttifaqının MDB ölkələri ilə münasibətlərinin yaxşılaşdırılmasına yönəldilmiş təşəbbüsdür və sahədə də uğurlu əməkdaşlıq davam edir.

Azərbaycanla Ukrayna dövlət müstəqilliklərini bərpa etdikdən sonra əlaqələr yeni müstəvidə formalaşıb. Diplomatik münasibətlər 1992-ci ildə qurulsa da, məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə Prezident seçilməsindən sonra ikitərəfli əlaqələr inkişaf etməyə başlayıb. Keçmişdə bir ittifaqın tərkibində olmuş, indi isə hər biri müstəqil ölkə kimi regional lider olmağa layiq bu iki dövlət beynəlxalq əməkdaşlığı keyfiyyətcə daha yüksək səviyyədə simvolizə edir. Qeyd edək ki, 2001-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 53,7 milyon dollar olub.

TƏDQIQAT METODU

Müstəqilliyimizin ilk illərində yeni yaranmış MDB təşkilatı ölkələri ilə iqtisadi-ticarət əlaqələrini analiz etdiyim məqalə məqsədinə görə təsviredicidir. Seçdiyim araşdırma mövzusunu sistematik şəkildə və empirik metodla şərh etməyə çalışdım. Müqayisə və analizlər Azərbaycan Respublikasını və digər MDB ölkələrini (Rusiya, Qazaxıstan, Moldova və s.) əhatə etmişdir.



Şəkil 1 və 2. 2000-ci ildə ölkəmizin MDB ölkələrindən ixrac və idxal strukturu.

Mənbə: https://www.stat.gov.az/news/index.php?id=4769

1991-2003-cü illəri əhatə edən dövrdə Azərbaycanın əsas ticarət tərəfdaşları MDB ölkələri olmuşdur.



Şəkil 3. Azərbaycanın illər üzrə ixrac statistikası.
Mənbə: https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_5.xls

Ölkələr	Azərbaycanın xarici ticarət dövriyyəsində payları (faizlə)
İtaliya	27%
Rusiya	10.2%
Türkiyə	5.8%
ABŞ	3.8%
Türkmənistan	3.7%

Şəkil 4. 2003-cü ildə Azərbaycanın xarici ticarət tərəfdaşları.
Mənbə:https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_3.xls,
https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_5.xls
Əgər müstəqillik əldə etdikdən sonrakı ilk illərdə idxal və ixracın bir hissəsi əsasən MDB ölkələri ilə aparılırdısa, sonrakı illərdə xarici ticarət dövriyyəsində inkişaf etmiş ölkələr üstünlük təşkil etməyə başladı.



Şəkil 5. Müvafiq illər üzrə Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi. *Mənbə*: https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_3.xls,
https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_5.xls
Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi dövrdən başlayaraq əvvəlki hökumətin səhvini təkrarlamayaraq MDB üzvü olan Mərkəzi Asiya ölkələri ilə diplomatik, ictimai, mədəni əlaqələrlə yanaşı xarici ticarətdə də əhəmiyyətli inkişafa nail oldu.

NƏTICƏ

1991-1993-cü illəri əhatə edən dövrdə Azərbaycan MDB ölkələri ilə normal xarici iqtisadi əlaqələr qurmağa cəhd göstərmişdir. Lakin, ağır ictimai-sosial böhran və hakimiyyətin yarıtmaz siyasəti, sanki ölkədə anarxiya vəziyyəti yaratmış, ölkənin ticarət qapısı hesab olunan gömrük orqanları daxil olmaqla heç bir dövlər orqanı düzgün qurula bilməmişdi. Yalnız, Ümummilli liderin gəlişindən sonra ölkədəki böhran vəziyyti nəzarətə alınmış və iqtisadi sahələr də daxil olmaqla bir sıra zəruri islahatlar həyata keçirilmişdir. Heydər Əliyevin böyük siyasətə qayıtması MDB ölkələri ilə olan əlaqələri də hər tərəfli şəkildə inkişaf etdirdi. Keçmiş səhv xarici siyasəti nəticəsində diplomatik və iqtisadi əlaqələrin qurulması mümkün olmayan Mərkəzi Asiya ölkələri ilə münasibətlər nizama salındı. MDB ölkələri ilə ticarət Azərbaycan iqtisadiyyatı üçün önəmlidir ?. Tədqiqat sualına qayıtdığımız zaman 70 ildən bir müddət eyni ittifaqın daxilində olduğumuz və yaxın coğrafiyada yerləşən, xarici ticarət dövriyyəmizdə əhəmiyyətli yer tutan yaxın tərəfdaşlarımız olan MDB ölkələri ilə qurulan iqtisadi əlaqələrin önəmini bir daha anlamış oluruq.

Ölkə iqtisadiyyatımız üçün önəmli tərəfdaşlar olan bu ölkələr ilə iqtisad-ticarət əlaqələrinə xüsusi önəm verilməli və yeni prespektivlər araşdırılmalıdır.
Xarici iqtisadi siyasətimizin əsas hissələrindən birini, xüsusilə də, müstəqilliyimizi bərpa etdiyimiz ilk zamanlarda MDB ölkələri ilə əlaqələr təşkil etmişdir. Lakin, biz daha sonra xarici ticarət dövriyyəsində, xüsusilə də, iri neft kontraktları və iqtisadi əlaqələrin inkişafına istiqamətlənmiş sazişlərin imzalanması nəticəsində MDB ölkələri ilə olan xarici ticarət dövriyyəsinin faiz göstəricisi azalmış və inkişaf etmiş ölkələrlə olan xarici ticarət dövriyyəsinin faizlə göstəricisində ciddi yüksəliş olmuşdur. Bu statistik göstəricilərə baxmayaraq, MDB təşkilatı ölkələri ilə Azərbaycanın iqtisadi əlaqələri hər zaman ölkəmiz üçün prioritet məsələlərdən olmuşdur. MDB təşkilatının ən iri iqtisadiyyata sahib olan ölkəsi Rusiya Federasiyası ilə Azərbaycanın idxal-ixrac göstəriciləri hər il daha da yüksəlmişdir. Ulu öndərin iqtisadi siyasəti nəticəsində şimal qonşumuz ilə əlaqələrimiz daha da şaxələnmişdir.
MDB təşkilatının Mərkəzi Asiya regionunda yerləşən ölkələri ilə, soydaşlarımız ilə iqtisadi-ticarət münasibətləri Ulu öndərin rəhbərliyi dövründə yenidən quruldu və sürətli inkişaf dövrünə qədəm qoydu. Yaxın tərəfdaşlarımız olan Belarus, Ukrayna və Moldova Respublikaları ilə iqtisadi-ticarət münasibətləri yenidən qurulmuş və yeni sahələrdə mümkün ticarət imkanları gözdən keçirilmişdir. Son olaraq qeyd etmək lazımdır ki, məhz, Ümummilli lider Heydər Əliyevin təərfindən işlənib-hazırlanmış iqtisadi siyasət davamlı şəkildə həyata keçirilməsi nəticəsində dövlətimiz MDB təşkilatının mühüm iqtisadiyyat tərəfdaşlarından birinə çevrilmək yolunda əmin addımlar atdı. Buna səbəb olan isə, ölkə daxilində iqtisadi inkişafın əldə edilməsi üçün münbit şəraitin yaradılması, xarici və daxili siyasətin nizamlanması və xarici iqtisadi strategiyasının yenidən qurulması idi.

ƏDƏBIYYAT SIYAHISI

12. Röfət Quliyev. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. Turxan Nəşriyyat-Poliqrafiya Birliyi (Kitab), Pages 703-709 Bakı/Azərbaycan. 2015:1-448
13. Hicran Xəlilova, Guam çərçivəsində Azərbaycan – Ukrayna münasibətləri, Uluslarası Türk Dünyası Araştırmaları Dergisi (Jurnal məqaləsi), Həcm 1, Çap 1, İyul 2018, Səhifələr 1-10
14. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. "Azərbaycan" nəşriyyatı (Kitab). Bakı/Azərbaycan. 2005:1-631
15. Tahir Budaqov, https://www.stat.gov.az/news/index.php?id=4213, (online məqalə)
16. Əliqismət Bədəlov, https://xalqqazeti.com/az/news/924, (online məqalə)
17. DSK, Dövlət Statistika Komitəsi statistik məlumatları, https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_3.xls , https://www.stat.gov.az/source/trade/az/f_trade/xt002_5.xls https://www.stat.gov.az/news/index.php?id=4769

ELEKTRON TICARƏT

Şəfa Məlikzadə
Shefa.Melikzade@ascca.edu.az
İqtisadiyyat ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə
Müasir dövrdə dünyanın bir çox ölkələrində ticarət əməliyyatlarının çox hissəsi internet vasitəsilə həyata keçirilir. Qərbi Avropa, Amerika, Yaponiyada geniş yayılan ticarət əməliyyatlarının bir növü olan elektron ticarət Azərbaycanda da inkişaf etməkdədir. E- ticarət- əmtəə və xidmətlərin inkişaf etmiş kompüter texnologiyası, rabitə kanalları və müvafiq texnologiyalar istifadə edilməklə həyata keçirilir. Bu məqalədə ölkəmizdə e-ticarətin inkişafına maneə olan amillər, onların səbəbləri və nəticələri təhlil olunub.

Açar sözlər: Azərbaycan iqtisadiyyatı, e-ticarət, internet

Giriş

Elektron ticarət və ya e-kommersiya (e-commerce) dedikdə elektron informasiya ötürülməsi, mübadilə, elektron bankinq kapitalın elektron hərəkəti, elektron pullar elektron sığorta nəzərdə tutulur. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının qanununa görə *elektron ticarət*- informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən, İnternet

şəbəkəsi vasitəsi ilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyətdir. Prosesdə iştirak edən tərəflər-satıcı (təchizatçı), alıcı (sifarişçi) və elektron sənəd dövriyyəsi vasitəçisidir. Satıcı adından da məlum olduğu kimi əmtəələri satan, xidmətlər göstərən tərəfdir. Alıcı isə əmtəə və xidmətləri sifariş edən tərəfdir. Vasitəçi- elektron sənədi göndərən və alan arasında elektron sənəd dövriyyəsi xidmətlərini göstərən fiziki və ya hüquqi şəxsdir.

Elektron ticarətin inkişafı əsasən inkişaf etmiş texnika-texnologiya, sürətli və əlçatan internet infrastrukturu, gömrük tənzimləməsi vergi və s. dən asılıdır. Aparılan araşdırmalara əsasən hazırda dünyada elektron ticarətin həcminə görə ABŞ, Çin,Yaponiya, İngiltərə, Almaniya kimi ölkələr öndədirlər. Son dövrlər Azərbaycanda da elektron ticarətə nəzərəçarpacaq dərəcədə maraq artmışdır. Lakin bununla belə hələ də onlayn ticarətlə müqayisədə ənənəvi ticarətə üstünlük verənlərin sayında kəskin fərq olduğu məlumdur.

Elektron ticarətin müsbət xüsusiyyətləri:

✓ İstənilən zaman, istənilən yerdə əlçatan olması. Müştərilər günün istənilən vaxtı ticarət edə bilərlər. Xüsusilə saytların daha əlçatan şəkildə dizayn edilməsi müştərilən işini asanlaşdırır;

✓ Elektron vəsaitlərin daha sürətli köçürülməsi;

✓ Əmtəə və xidmətlərin evdən və ya iş yerindən alınması və ya satılması;

✓ Firmalar dünya üzrə müştərilərlə əlaqə saxlaya bilirlər;

✓ Həmçinin təchizat zəncirinin idarəedilməsi e-ticarətdən istifadə etdikdə daha əlçatan və sadədir;

✓ Alıcı hər hansı əmtəə və ya xidmətin ən aşağı qiymətini axtara bilər.

Elektron ticarətin çatışmazlıqları:

✓ Elektron əməliyyatların məxfiliyinə zəmanət verilmir;

✓ Təhlükəsizlik çox da güclü olmadığından viruslar, haker hücumları e- ticarətə zərər verə bilər

✓ EDI (electronic data interchange) istifadə edərək elektron məlumat mübadiləsi etmək kiçik biznes sahibləri üçün bahadır;

✓ Elektron ticarət alış-verişi fərdiləşdirir.

Elektron ticarətin iki növü var. Birbaşa və dolayı.

a) Birbaşa elektron ticarət-- ticarət ödəmə sisteminin və texnika-texnologiyaların bir sözlə elektron vasitələrin köməyilə aparılır. Məsələn: internetdən audio və video faylların alınmasını misal göstərmək olar.

b) Dolayı elektron ticarət- ticarətdə çatdırılma ənənəvi formada həyata keçirilir. Lakin elektron ödəmə vasitələrindən istifadə olunur.

Elektron ticarətin iştirakçılarına görə elektron ticarət əməliyyatları dörd növə ayrılır:

❖ Business to consumer (B2C)- bu növ əsasən istehlakçılar və şirkətlər arasında olan elektron ticarəti müəyyənləşdirir;

❖ Business to government (B2G)- şirkətlər və dövlətlər arasındakı elektron ticarəti bildirir;

❖ Business to business (B2B)- şirkətlər arasında olan elektron ticarəti bildirir;

❖ Consumer to consumer (C2C)- fərdi sahibkarlar ilə istehlakçılar arasında ticarəti bildirir.

Azərbaycanda elektron ticarət ilə bağlı araşdırmalardan məlumdur ki, bu sahədə bəzi problemlər var. Əsas problemlərdən biri internet provayderlərinin tənzimlənməməsi-xidmət səviyyəsinin aşağı olması və internet paketlərinin baha olması, bəzi sahələrdə inhisarçılıqdır. Əvvəlki illərlə müqayisədə şəhər və kəndlərdə interternetdən istifadəyə görə fərqlərdə kəskin azalma müşahidə olunmuşdur. Bu elektron ticarətin inkişaf etməsi üçün müsbət xəbər ola bilər. Bundan əlavə olaraq digər ölkələrlər ilə müqayisədə internetin keyfiyyətinin və sürətinin aşağı olması, yüksək tariflər istifadəçilər üçün problemlər yaradır. Hansı ki, nəticədə bütün bunlar elektron ticarətin inkişafına mənfi təsir göstərir. Ümümiyyətlə internet istifadəçilərinin çox hissəsi gənc nəsil olduğundan onlar alqı-satqıda fəal iştirak etmirlər. İnsanların əksəriyyəti internetdən məlumat toplamaq və əylənmək üçün istifadə edirlər. Digər problem isə əhalinin çox az hissəsində plastik kartların olmasıdır. Və əksər alıcılar internetdə şəxsi məlumatlarını yerləşdirməkdən çəkinirlər. Plastik kartlardan istifadənin az olmasının əsas səbəbləri bu haqda anlayışın az olması və maarifləndirmə tədbirlərinin aparılmamasıdır. Ümumi olaraq e- ticarətin inkişafı üçün bəzi güzəştlərin tətbiq olunması və bu sahədə konkret addımların atılması onun inkişafına səbəb olacaqdır. Bir sözlə elektron ticarət üçün yeni əlverişli mühit yaradılmalıdır.

Tədqiqat metodu

Ölkələrdə elektron ticarətin inkişafına bir sıra amillər təsir göstərir. Bunlara nümunə kimi ölkənin siyasi-iqtisadi vəziyyəti və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsi ola bilər. Statistik məlumatlara

əsasən 2005- ci ildə internet istifadəçilərinin sayı 1.1 milyard nəfərdən artaraq 2019- cu ildə 4 milyarda çatmışdır. 2019-cu ildə Azərbaycanda internet istifadəçilərinin ümumi sayı 7 991 630 nəfər olub ki, bu da əhalinin 78.8 %-i deməkdir. Aşağıdakı cədvəldə Azərbaycan ilə sərhəd olan və olmayan ölkələrin müqayisəli təhlili verilib:

Ölkə	Əhali	ÜDM (adam başına, $)	İnternet istifadəçilərinin sayı (2020-ci il)	Penetrasiya, % hər IWS
Azərbaycan	10139177	4721	7991630	78.8
Belarus	9449323	6289	7521628	79.6
Rusiya	145934462	4302	1693942	93.6
İran	83992949	5627	67602731	80.5
Gürcüstan	3989167	4717	2658311	66.6
Ukrayna	43733762	3095	40912381	93.5
Türkiyə	84339067	9370	69107183	81.9
Qazaxıstan	18776707	9812	14669853	78.9
Ermənistan	2963243	4212	2126716	71.8
Özbəkistan	33469203	1532	17161534	51.3

Cədvəl 1. Seçilmiş ölkələrin statistikası

Cədvəl 1- ə əsasən demək olar ki, ən yüksək penetrasiya göstəriciləri Rusiya və Ukraynandadır. Ən aşağı göstəricilər isə Özbəkistan və Gürcüstandadır. Azərbaycan isə seçilmiş 10 ölkə arasında 7-ci yerdə qərarlaşıb. Adambaşına düşən ÜDM-nin həcminə görə Qazaxıstan və Türkiyə ən yüksək, Özbəkistan və Ukrayna isə ən aşağı göstəricilərə malikdir. Azərbaycan isə seçilmiş ölkələr arasında 5-ci yerdədir.

Nəticə

Elektron ticarət ölkəmizdə yeni yaranan sahə olduğundan onun inkişafında bir sıra problemlər var. Cədvəl 1-dən alınan nəticəyə əsasən, elektron ticarətin inkişafı Azərbaycanda seçilmiş ölkələrlə müqayisədə aşağı səviyyədədir. Onun inkişaf etdirilməsi üçün bir neçə əsas yol vardır. Bunlardan birincisi- dövlətin əsas funksiyalarının icrası zamanı elektron ticarətlə bağlı olan imkanlardan istifadə etməsidir. Nümunə olaraq əhalinin qeydiyyatı, dövlətin əmtəə və xidmət satın alarkən onlayn ticarətdən istifadə etməsi ola bilər. İkinci yol isə e-ticarəti inkişaf etdirmək üçün lazımi hüquqi və fiziki infrastrukturu yaratmaqdır. Dövlətin bu sahədə keçirdiyi tədbirlər də onun inkişafına təsir göstərəcəkdir. Lakin bu bir sıra amillərdən asılıdır.

- Dövlət orqanlarında bu istiqamətdə həyata keçirilən işlər koordinasiyalı olmalı və bu sahədə özəl sektorla əlaqələr aparılmalıdır;
- Dövlət sektoru e-ticarətdən istifadəni genişləndirməlidir;
- İstifadəçilərin təhlükəsizliyinin təmin olunması üçün lazımi tədbirlər həyata keçirilməlidir;

Bunlardan əlavə olaraq əhali arasında elektron ticarətin təşviqi,onlayn ticarəti dəstəkləyən vergi siyasətinin aparılması, internet provayderlərinin fəaliyyətinin tənzimlənməsi,internetin sürətinin və keyfiyyətinin yaxşılaşdırılması istiqamətində addımların atılması və s.

Ədəbiyyat siyahısı

1. “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının qanunu
2. Elchin Suleymanov,Fuzuli Aliyev,” e-ticarət və azərbaycanda tətbiqinin səmərəliliyi”, (PDF) E-Ticaret Ve Azerbaycanda Tetbiqinin Iqtisadi Semereliliyi (E-Commerce and Probable Effects on Azerbaijan Economy) (researchgate.net)
3. Suleymanov Elchin, and Khayala Ibrahimova. "Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri (Perspectives of E-Commerce Development in Azerbaijan)." 1st International Science and Engineering Conference in Baku, Azerbaijan. 2018.
4. Leyla Hajiyeva,”The prospects and problems of e- commerce in Azerbaijan in the context of glabalization”. Conference: Globalization and its Socio-Economic Consequences 2020 At: The Slovak Republic.
5. Ghada Taher, “E-commerce-advantages and limitations”.International journal of academic research in accounting, finance and management sciences. Vol.11, No.1,2021,Pg153-165

RƏQƏMSAL İQTİSADİYYAT

Kamran Muradlı
kamranmuradli183@gmail.com
İqtisadiyyat ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə
Məqalədə "Rəqəmsal iqtisadiyyat" anlayışı və onun informasiya ilə əlaqəsi, 21-ci əsrin kommunikasiya texnologiyaları,iqtisadi nəzəriyyə və praktiki baxımdan araşdırılır. Həmçinin, məqalədə rəqəmsal iqtisadiyyatın tətbiqi və istifadəsinə də toxunulur. Rəqəmsal iqtisadiyyatın nailiyyətlərindən sənaye və sosial sahələrdə istifadəsi vurğulanır.
Açar sözlər: rəqəmsal iqtisadiyyat, informasiya və kommunikasiya texnologiyaları, rəqəmsal şirkət.

Giriş
Rəqəmsal iqtisadiyyat termini elmi jurnalistikadan kütləvi informasiya vasitələrinə son 5-6 ildə keçmişdir. Lakin, indi bu termin ictimai sahədə geniş istifadə olunur. Rəqəmsal iqtisadiyyatın inkişafının məqsəd, vəzifə və məzmununu aydınlaşdırmaq üçün yerli iqtisadiyyatın əsas anlayışlarını nəzərdən keçirməliyik.
Dünya Bankının tərifinə görə, ən ümumi mənada rəqəmsal iqtisadiyyat rəqəmsal informasiya və kommunikasiyanın istifadəsinə əsaslanan iqtisadi, sosial və mədəni əlaqələr toplusudur. Elmi ədəbiyyatda hal-hazırda onun vahid tərifi yoxdur. Gartner analitiklərinə görə, rəqəmsal iqtisadiyyat rəqəmsal məhsullar, xidmətlər ilə əlaqəli dəyərin yaradılması, istehlakı və idarə edilməsindən bəhs edir.
Boston Consulting Group məsləhətçiləri hesab edirlər ki, rəqəmsal iqtisadiyyat bütün iştirakçılar üçün onlayn ünsiyyət imkanlarından və innovativ rəqəmsal texnologiyadan istifadə edən iqtisadi sistemdir.
21-ci əsrin əvvələrindən etibarən genişzolaqlı internetə çıxışın hər yerdə yayılması, mobil texnologiyaların inkişafı, yüksək sürətlə informasiyanın ötürülməsi, telekommunikasiya şəbəkələrinin genişlənməsi nəticəsində rəqəmsal iqtisadiyyat yaranmışdır. Amma, təkcə söhbət bundan getmir. Rəqəmsal iqtisadiyyatda istehlakçılara elektron formada mal və xidmətlərin təqdim olunmasından, habelə, sənayenin, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin geniş avtomatlaşdırılması diqqətəlayiq sahələrdəndir. Rəqəmsallaşma və qloballaşma anlayışları ayrılmazdır. Belə ki, sərhədlər nə qədər az olsa, rəqəmsal iqtisadiyyat bir o qədər sürətli inkişaf edəcək. Buna görə də, qabaqcıl ölkələr vahid iqtisadi məkanın yaradılması və inkişafı üçün səy göstərirlər. Bütün dünya rəqəmsal tranformasiya ideyası ilə əhatə olunmuşdur. Xidmətləri rəqəmsallaşdırmaq daha asan başa gəlir və bunun təsiri maliyyə sektoru və dövlət idarəçiliyində nəzərə çarpılır.
Bunlar biznes üçün üstünlük nöqtələridir. Rəqəmsal iqtisadiyyatın müsbət cəhətləri çoxdur. Ödəmə xərclərini azaldır və gəlir üçün yeni mənbələr tapır. Onlayn mühitdə, xidmət xərcləri ənənəvi iqtisadiyyatda olduğundan daha azdır. Rəqəmsal dünyada mal və xidmətlər dünyanın istənilən nöqtəsində qlobal bazara çıxa və insanların istifadəsinə verilə bilər. Təklif olunan məhsul yeni gözləntiləri qarşılamaq üçün dərhal qlobal bazardan çıxarıla və ya dəyişdirilə bilər. Rəqəmsal iqtisadiyyat istehlakçılara daha müxtəlif məzmunlar təqdim edir: Məlumat, təhsil, elm, əyləncə. Bu 4 faktor rəqəmsallaşmanın əsas tərkib hissəsi hesab olunur.

Tədqiqat metodu
Rəqəmsal iqtisadiyyatın fəaliyyətinin əsas məzmunu qlobal iqtisadi və sosial şəbəkədir. Bunlar internet, mobil, və sensor şəbəkələr kimi platformalar vasitəsilə həyata keçirilir. Rəqəmsal iqtisadiyyatın alətləri isə informasiya və kommunikasiya texnologiyalarıdır (İKT).

Cədvəl 1. 2017-ci ildə qlobal İKT bazarında satış həcmi, milyard dollarla

2017-ci ildə qlobal İKT bazarında satışın həcmi 4 trilyon ABŞ dolları həcmində olmuşdur.		
1.	Kompüter avadanlığı	368.7
2.	Telekommunikasiya servisləri	608.1
3.	Proqram təminatı	634.2
4.	Texniki autsorsinq və qulluq	475.8
5.	Telekommunikasiya vasitələri	331.8
6.	Texniki konsultasiya və xidmətlər sistemi inteqrasiyası	573.3

Müasir dövrdə rəqəmsal iqtisadiyyat bizneslərə tətbiq olunur. Buna görə də bizneslərin uğurlu olması üçün 3 əsas komponent nəzərə çarpır :

1. İnfrastruktur – internet, proqram təminatı, telekommunikasiya
2. E-biznes - kompüter şəbəkələri vasitəsilə biznesin aparılması
3. E-kommersiya – internet vasitəsilə ticarət

Bu faktorlar rəqəmsal iqtisadiyyatın biznesə yansımasıdır. Müasir dövrdə əminliklə deyə bilərik ki, rəqəmsallaşmadan istifadə olunan biznes ənənəvi biznesdən daha effektli olacaq.

Rəqəmsal iqtisadiyyatı tətbiq edirik, bəs onu necə inkişaf etdirə bilərik?

Rəqəmsal iqtisadiyyatın inkişafı birbaşa olaraq elm tutumlu sahələrlə əlaqədardır. Nanotexnologiya, biotexnologiya, enerji texnologiyası, kvant texnologiyası və s. Bu sahələrdən də öncə İKT ilə bağlı sahələrin inkişafı: Bulud hesablamaları texnologiyası, emal texnologiyası, mobil texnologiyalar, internet, coğrafi yer texnologiyaları və s.

Gəlin bu anlayışları izah edək.

Bulud hesablamaları texnologiyası – Resurs və infrastrukturun qurulmasında istifadə edilir. Avropa İttifaqında bulud xidmətlərinin həcmi Aİ Rəqəmsal Vahid Bazar strategiyası ilə müəyyən edilir, yəni bütün rəqəmsal məlumatlar birləşdirilir və "database" yaradılır. Bunu deyə bilərəm ki, 5 il ərzində Aİ-də bulud hesablama texnologiyalarına 6.7 milyard Avro xərclənib.

Mobil texnologiya – mobil şəbəkələrin yaradılması, məlumat ötürmə sürəti, trafik həcmin hesablanması, bulud hesablama texnologiyaların ehtiyaclarının ödənməsi daxildir.

Lokasiya xidmətləri – informasiya təminatı üçün yeni imkanlar açıb, müştərinin yerini nəzərə almaqla, peyk izləmə sistemlərinin (GPS, QLONASS) tətbiqi.

Ekosistem - data mərkəzlərinin, magistral şəbəkə infrastrukturunun, trafik mübadiləsi nöqtələrinin yaradılması.

Bu sahələrlə əlaqəli olaraq rəqəmsal iqtisadiyyat inkişaf etdirilir.

Gəlin, bəzi G20 dövlətlərində rəqəmsal iqtisadiyyatın artım dinamikasına baxaq.

Cədvəl 2. G20 dövlətlərində rəqəmsal iqtisadiyyatın artım dinamikası

Ölkə	2010	2016
Böyük Britaniya	8.3%	12.4%
Cənubi Koreya	7.3%	8.1%
Çin	5.5%	6.9%
ABŞ	8.7%	14.8%
Avstraliya	3.3%	3.7%
Kanada	5.9%	8.5%
Brazilya	2.2%	2.4%

Nəticə

Son illərdə rəqəmsal texnologiyada sürətli inkişaf vardır və bundan istifadə edilməlidir. Belə ki, 2005-2016 illəri arasında internet istifadəçi sayı 1 milyarddan 3.4 milyarda qədər artmışdır. Bu, planetin 40% əhalisi deməkdir. İnkişaf etməkdə olan ölkələrdə mobil telefon mövcudluğu içməli su və elektrik enerjisindən daha yüksəkdir.

Rəqəmsallaşma iqtisadiyyatın simasını və strukturunu dəyişir, adi biznes modellərini qırır, bazarların və imkanların genişlənməsinə, rəqabətin artmasına və böyüməsinə gətirib çıxarır. Həm fərdi sahibkarlıq subyektlərini, həm də bütün ölkələr arasında rəqabət qabiliyyətini artırır.

McKinsey Qlobal İnstutunun məlumatına görə, 20 illik artımdan sonra (1987-2007-ci illərdə) qlobal ÜDM-də ənənəvi mal, xidmət və maliyyə axınları 2007-ci ildəki 53%-dən 2014-cü ildə 39%-ə düşüb. 2005-2014-cü illərdə məlumat mübadiləsinin həcmi isə 45 dəfə artıb. 2014-cü ildə dünya ticarətinin təxminən 12%-i beynəlxalq elektron ticarət vasitəsilə həyata keçirilib, təxminən dünya ticarətinin 50%-i artıq rəqəmsallaşdırılıb. Buna görə də bir çox ekspert rəqəmsallaşma ilə razılaşır və transformasiya qlobal iqtisadi artımın əsas amillərindən birinə çevrilir.

Son onilliklərdə qlobal iqtisadiyyatın əsas tendensiyalarından biri onun sürətli rəqəmsallaşmasıdır. Rəqəmsal transformasiya iqtisadiyyatların şəklini və strukturunu dəyişir, adi iş modellərini qırır, bazarların və maliyyə bazarlarının genişlənməsinə gətirib çıxarır. Yaxın gələcəkdə, ölkələrin rəqabətə davamlılıq səviyyəsi rəqəmsallaşma ilə ölçüləcək.

Azərbaycan müstəqillik əldə etdikdən sonra informasiya və kommunikasiya texnologiyalarının inkişafına, onların iqtisadiyyata tətbiqi, rəqəmsal infrastruktur layihələrinin qurulması, o cümlədən, ictimai elektron xidmətlərin inkişafı və genişləndirilməsi üçün genişmiqyaslı işlər həyata keçirir. Ölkənin "Sənaye 4.0"

xəttinə keçirilməsi və müvafiq sahələrə rəqəmsallaşmanın tətbiqi davam etdirilir. Bu layihələri ölkə prezidenti İlham Əliyevin qəbul etdiyi qərarlardan açıq şəkildə görə bilərik. Prezident İlham Əliyevin 2021-ci il, 17 oktyabr tarixində verdiyi fərmana əsasən, ölkə sənayesinin modernləşdirilməsi və "Sənaye 4.0" xəttinə keçilməsi üçün müvafiq tədbirlər görülür. Beləliklə, rəqəmsal iqtisadiyyat güclü bir yenilik, böyümə, sosial rifahdır. Onun inkişafı Azərbaycan Respublikasının müasir dövr tələbidir. Daxili iqtisadiyyatın dünya arenasında rəqabət qabiliyyətinə tab gətirməsi üçün müvafiq tədbirlər görülür və görüləcəkdir.

Ədəbiyyat siyahısı:

1. Dünya bankı, Dünya inkişaf reportu 2016, Digital Dividends/World Bank Group 2016
2. Tsvetkov V.A. Implementation of New Industrialization Strategies Economics // Bulletin of the Financial University, 2016. - T. 20. - №6 (96). -P. 19-30.
3. https://president.az/az/articles/view/53407
4. Kovalchuk Yu.A., Ishchenko M.M. High-tech production as a "new window of opportunity" in the post-crisis economy // Corporate management and innovative development of the economy of the North: Bulletin of the Research Center for Corporate Law, Management and Venture Capital investment of the Syktyvkar State University, 2016. - №3. -P. 25-33
5. Electronic economy // Wikipedia [2016–2016] [Electronic resource]. - Access mode: http://ru.wikipedia.org/?oldid=81412399 (dateaccess: 07/18/2016).

TEXNOLOGİYANIN GÖMRÜKDƏ ROLU

Sənan Məmmədov
senan.memmedov@ascca.edu.az
İnformasiya texnologiyaları ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə
Dövrümüzdə texnalogiyalardan geniş istifadə olunur. Gömrük sahəsidə texnalogiyalarla bağlı uğurlu addımlar atır. Azərbaycanda gömrük böyük rol oynayır. Dövlət Gömrük Komitəsi (DGK) Azərbaycanda yeni texnologiyaların tətbiqini həyata keçirən, dünya praktikasında istifadə edilən texnoloji avadanlıqları, elektron idarəetmə sistemlərini ölkənin gömrük xidmətində reallaşdıran bir qurumdur. Gömrük sahəsində texnalogiyalardan geniş istifadə olunur. Bu sahədə qazanılmış çoxlu nailiyyətlər var. DGK-i kağızsız ticarətin həyata keçirilməsində, gömrük əməkdaşı ilə vətəndaş təmasının minimuma endirilməsində, gömrük işində şəffaflığın təmin edilməsində mühüm addımlar ataraq, bu istiqamətdə ardıcıl işlər həyata keçirməyə davam edir.

Açar sözlər: texnologiya, DGK, kağızsız ticarət

GIRIŞ

Dövrümüzdə texnologiyalar dünyanın hər yerində böyük rol oynayır. Texnologiya ("sənət elmi", Yunanca: τέχνη, techne, "sənət, bacarıq, əl hiyləsi"; və -λογία, -logia) — malların və ya xidmətlərin istehsalında və ya elmi tədqiqat kimi məqsədlərin həyata keçirilməsində istifadə olunan hər hansı texnika, bacarıq, üsul və proseslərin məcmusudur. Bu baxımdan kompüter texnologiyası baxılan sahədə kompüter texnikasının aparat və proqram vasitələrindən istifadə texnologiyası deməkdir.

Texnologiyalardan istifadə gömrük xidmətindədə önəmli rol oynayır. Azərbaycanda zəngin bir tarixi yol keçmiş gömrük xidməti, hələ qədim İpək Yolu dövründə mövcud olmuşdur. Çar Rusiyası dövründə I Aleksandrın fərmanı ilə 1807-ci il fevralın 7-də Bakı Gömrük İdarəsi qurulmuşdur. Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra təşəkkül tapmış yeni strukturlardan biri olan gömrük sistemi (Dövlət Gömrük Komitəsi) 1992-ci il yanvarın 30-da yaradılmış və müstəqil gömrük xidməti kimi ölkəmizin təhlükəsizliyi istiqamətində mühüm işlər görür.

Dövlət Gömrük Komitəsi (DGK) Azərbaycanda yeni texnologiyaların tətbiqini həyata keçirən, dünya praktikasında istifadə edilən texnoloji avadanlıqları, elektron idarəetmə sistemlərini ölkənin gömrük xidmətində reallaşdıran bir qurumdur. DGK-i kağızsız ticarətin həyata keçirilməsində, gömrük əməkdaşı ilə vətəndaş təmasının minimuma endirilməsində, gömrük işində şəffaflığın təmin edilməsində mühüm

addımlar ataraq, bu istiqamətdə ardıcıl işlər həyata keçirməyə davam edir. Azərbaycan gömrüyündə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə hələ 1995-ci ildə start verilib və 1999-cu ildə gömrüyün İKT strategiyası artıq beynəlxalq standartlar səviyyəsində qurulmağa başlanılıb. Dövlət gömrük komitəsi öz fəaliyyətində "elektron hökumət" layihəsinə töhfə vermək, vətəndaşlara xidmət, beynəlxalq ticarətin asanlaşdırılmasına şərait yaratmaq üçün mühüm islahatlar aparıb. "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sisteminin yaradılması istiqamətində ciddi tədbirlər görülüb. "Gömrük Xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS)" layihəsi bugünkü elektron gömrük xidmətinin əsasını təşkil edir. Kağızsız ticarətin həyata keçirilməsi istiqamətində atılan əsas addımlardan biri də Məhz 2011-cu ildə Dövlət gömrük komitəsində "VAİS-Kargüzarlıq" avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiq edilməsidir. Bununla da komitənin strukturuna daxil olan bütün təşkilatları əhatə edən avtomatlaşdırılmış kargüzarlıq işi tam şəkildə tətbiq edilib, 2011-ci ilin əvvəlindən gömrük rəsmiləşdirilməsi üzrə müraciətlərin qeydiyyatının VAİS-də elektron formada aparılmasına başlanılıb.

Bundan başqa, Ümumdünya Gömrük Təşkilatının malların buraxılış vaxtının ölçülməsinə dair təlimat metodologiyasından istifadə etməklə, malların buraxılış vaxtının ölçülməsi layihəsi hazırlanıb və vahid avtomatlaşdırılmış idarəetmə sisteminə inteqrasiyası təmin edilib. Layihə gömrük prosedurlarındakı və malların, eləcə də nəqliyyat vasitələrinin sərhəd boyu hərəkətindəki boşluqları Müəyyən etməyə imkan yaradır. Həmçinin 2016-cı ildən başlayaraq risklərin idarə edilməsi sistemi VAİS çərçivəsində fəaliyyət göstərir. Bununla yanaşı, tranzit yük Maşınlarına GPS qurğuları quraşdırılır. Bu, Dövlət Gömrük Komitəsində yaradılan "Hədəf" mərkəzindən onların izlənilməsinə və təyin edilmiş marşrutdan yayındıqları zaman mobil qruplar sayəsində zəruri tədbirlər görməyə imkan yaradır. Azərbaycanın istənilən Gömrük Sərhəd-keçid Məntəqəsində vətəndaşların, mal və nəqliyyat vasitələrinin sürətli keçidinin təmin edilməsi üçün bir çox elektron xidmətlər tətbiq olunub. Hazırda "elektron hökumət" portalı üzərindən 14 elektron gömrük xidməti istifadəyə verilib. Elektron gömrük xidmətlərinə və onların yaratdığı imkanlara bir neçə misal gətirmək olar. "gömrük bəyannamələri haqqında məlumatın verilməsi" elektron xidməti vasitəsilə Müvəkkil banklar və digər aidiyyəti təşkilatlar bəyannaməsinin VÖİN-ini və gömrük bəyannaməsinin qeydiyyat nömrəsini daxil etməklə gömrük bəyannaməsini elektron formada əldə edə bilirlər. "Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu" xidmətində şəxslər Azərbaycan Respublikasının gömrük sərhədindən keçirdikləri mallar üçün bəyannamələri elektron formada tərtib edərək gömrük orqanlarına təqdim edirlər. Bəyannamədə və ona əlavə edilmiş sənədlərdə olan məlumatlar interaktiv qaydada yoxlanılır və nəticəsi barədə istifadəçiyə məlumat verilir. "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin bəyannaməsinin qəbulu" elektron xidmətinə əsasən fiziki şəxslər Azərbaycan Respublikasına keçirdikləri mallar və nəqliyyat vasitələri, həmçinin valyuta sərvətləri barədə məlumatları gömrük orqanlarına onlayn qaydada təqdim edirlər. Bu xidmət sərhədkeçmə zamanı ləngimə hallarının qarşısını almağa imkan verir. Həmçinin "gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin həyata keçirilməsi" xidməti hüquqi və fiziki şəxslər tərəfindən gömrük əməliyyatları və ya gömrük proseduru ilə bağlı ödəniləcək gömrük ödənişlərinin müasir ödəniş mexanizmlərindən istifadə etməklə elektron formada həyata keçirilməsini təmin edir.

"Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi" elektron xidməti vasitəsilə isə xarici iqtisadi fəaliyyət iştirakçıları həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatları elektron qaydada əldə edə bilərlər. "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda idxal-ixrac vergilərindən azadolma haqqında sertifikatın verilməsi" xidməti sayəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq Müqavilələrlə Müəyyən edilmiş hallarda hasilatın pay bölgüsü üzrə saziş iştirakçısı olan şirkətlər idxal-ixrac əməliyyatları üzrə vergi və rüsumlardan azad olunmalarını təsdiqləyən sertifikatı əldə etmək üçün Dövlət gömrük komitəsinə müraciət edirlər. Müraciət əsaslı olduqda sertifikat sahibi olurlar. Bunda başqa "Dövlət sərhədindən keçirilən Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün ilkin məlumatlandırma üzrə Müraciətin və sənədlərin qəbulu" xidməti vasitəsilə fiziki və hüquqi şəxslər gömrük sərhədindən keçirdikləri mallar və nəqliyyat vasitələri barədə məlumatları gömrük orqanlarına onlayn qaydada təqdim edirlər. Bu gömrük rəsmiləşdirilməsi

prosedurlarının sürətləndirilməsinə və sərhədkeçmə zamanı ləngimə hallarının qarşısını almağa imkan verir. Qeyd edək ki, son olaraq istifadəyə verilən elektron gömrük xidmətlərindən biri DGK-da yaradılan vahid "SMS-məlumatlandırma" sistemidir və bu ilin may ayının 29- dan qismən tətbiq edilir. Sistemə əsasən hazırda sahibkarlara idxal zamanı yük gömrük ərazisindən çıxdıqda və təyinat nöqtəsinə çatdıqda SMS vasitəsilə bildiriş göndərilir. Təkmilləşdirmə işləri aparıldıqdan sonra yüklərin sənədləşdirilməsi, ödəniləcək gömrük rüsumu ilə bağlı da SMS-lə məlumat veriləcək.

Elektron gömrük xidmətlərinin tətbiqi ticarətin asanlaşdırılması ilə yanaşı, həmçinin təhlükəsizliyin də daha rahat təmin edilməsinə səbəb olur. Belə ki, GPS sistemindən istifadə, başqa ölkələrin gömrük orqanları ilə qarşılıqlı informasiya mübadiləsi, "Hədəf" mərkəzinin fəaliyyəti, yaradılan mobil qruplar, həmçinin reallaşdırılması planlaşdırılan sürətli poçt göndərişləri ilə bağlı layihə də ölkəyə gətirilən malların qanunvericiliyə uyğunluğunu təmin edəcək. Dövlət gömrük komitəsinin elektron xidmətlə bağlı gələcək fəaliyyətinə GUAM və digər ikitərəfli əməkdaşlıq platformaları çərçivəsində elektron imzaların qarşılıqlı tanınması, tranzitlə bağlı Avropa İttifaqının Yeni kompüterləşdirilmiş Tranzit sisteminin (NCTS) tətbiqi, etir layihəsinin hazırlanması da daxildir. Qeyd etmək vacibdir ki, Prezident ilham Əliyevin 2018-ci il iyunun 28-də imzaladığı "İdxal ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncamında idxal olunan Malların elektron formada əvvəlcədən bəyan edilməsi sistemini tətbiq edəcək icraçı orqanlardan biri DGK-dır. Tədbirlər Planında gömrük prosedurlarının sadələşdirilməsi və gömrük rəsmiləşdirilməsi prosesində "Bir pəncərə" sisteminə qoşulan dövlət orqanları arasında sənəd mübadiləsinin təkmilləşdirilməsi də nəzərdə tutulub. Bütün bunların bəhrəsi olaraq Azərbaycan BMT-nin Ticarətin asanlaşdırılması və Kağızsız Ticarətin Tətbiqi üzrə qlobal sorğu 2015-2017-ci illərdə 120 ölkə arasında 3-cü yerdə qərarlaşıb.

Açıq dənizə çıxışı olmayan ölkələr arasında isə 75% göstərici ilə Azərbaycan birinci yerdədir və təsadüfi deyil ki, bir çox ölkələrdən Azərbaycan gömrük xidmətinin təcrübəsindən yararlanmaq üçün müraciətlər edilir, ölkəmizdə elektron gömrük mövzusunda təlimlər, seminarlar, konfranslar təşkil olunur. Dövlət Gömrük Komitəsinin müasir tələblər nəzərə alınmaqla istifadəyə verilən internet saytı Azərbaycan Milli İnternet mükafatı olan NETTY 2017-nin "Dövlət saytı" nominasiyası üzrə ikinci yerə layiq görülüb. Gömrük qanunvericiliyi, gömrük orqanlarının fəaliyyəti, gömrük xidməti ilə bağlı digər məsələlərə dair yeniliklər haqqında ictimaiyyətin komitənin internet saytı vasitəsilə məlumatlandırılması təmin edilib. Komitənin saytında DGK sədrinə birbaşa müraciət ünvanlamaq üçün "Virtual qəbul" bölməsi yaradılıb. Gələcəkdə də gömrük xidməti respublikamızın iqtisadi inkişafına təkan verməklə, ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında Azərbaycan Prezidenti ilham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin yeni-yeni uğurlar qazanmasında mühüm rol oynayacaq. Azərbaycan gömrükçüləri dövlət başçısının müstəqil Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, xalqımızın firavan gələcəyinin təmin edilməsi uğrunda göstərdiyi fəaliyyətdə yaxından iştirak edəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

NƏTICƏ

Gömrük orqanlarının fəaliyyətinə yeni informasiya texnologiyalarının tətbiqi, onların modernləşdirilməsi yaxın gələcəkdə gömrük xidmətlərinin inkişafı üçün ən vacib vəzifələr olaraq qalır. Gömrük sisteminin bütün strukturlarının qarşılıqlı fəaliyyətini, hərəkətliliyini, operativliyini, şəffaflığını, qərarların sağlamlığını və uyğunluğunu təmin etmək tədbirlər, informasiya texnologiyaları gömrük xidmətlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Gömrük xidmətinin keyfiyyətinin artmasında əsasən innovatik elementlərin inkişafı mühüm əhəmiyyətə malikdir. Gömrük xidməti prosesinin innovatik elementlərində əsas istiqamətlərin müəyyənləşdirilməsinə istiqamətlənmiş konseptual əsaslandırmaya uyğun olan məlumatlandırma, informasiyalaşdırma formalarının struktur siyasətinin həyata keçirilməsinə, onların iqtisadi inkişafına və təşkilati quruluşuna, informasiya infrastrukturunun yaradılmasına yönəlmiş strateji bir yanaşmanın işlənib hazırlanması xüsusi yer tutur. Hal hazırda Azərbaycan Respubliasının bütün gömrük orqanları vahid avtomatlaşdırılmış məlumat sistemi ilə birləşir. İnformasiya texnologiyalarının tətbiqi ilə gömrük orqanlarının bank sistemi, digər tənzimləmə və hüquq Mühafizə orqanları ilə qarşılıqlı informasiya mübadiləsi qurulmuşdur. Gömrük postlarında malların elektron bəyannaməsi, o cümlədən neft məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı elektron uçot üçün təcrübə kimi qabaqcıl gömrük texnologiyası fəal tətbiq olunur. Bu texnologiyanın istifadəsi zamanı elektron sənəd idarəetməsi üçün bütün zəruri şərtlər yaradılmışdır. Gömrük xidmətləri sahəsinin informasiya sferasi aşağıdakılara istiqamətlənmişdir:

1. Gömrük bəyannaməsinin təqdim edilməsi prosesinin sadələşdirilməsi və sənədlərin bəyan edilməsinin zəruriliyi;
2. Gömrük rəsmiləşdirilməsi prosesində olan malların olduğu dövrlə əlaqəli sərf edilən vaxtın azaldılması (Azərbaycan Respublikasının ərazisindən xaricə çıxana qədər gömrük nəzarəti zonasında olan, Azərbaycan Respublikasının ərazisindən çıxanadək müvəqqəti saxlamada olan);
3. Bəyanedici ilə (deklarantla) və ya gömrük brokkeri ilə gömrük orqanının vəzifəli şəxsinin birbaşa əlaqə ehtiyacının minimuma endirilməsi. Bu günə qədər gömrük fəaliyyətinin informasiya təminatı problemlərinin həllinə hərtərəfli kompleks yanaşma demək olar ki, yoxdur. Mövcud sistemlər ya xarici iqtisadi fəaliyyət iştirakçıları üçün məlumat vərəqəsi kimi fəaliyyət göstərir, ya da elektron gömrük bəyannamələri üçün poçt qutusu kimi. Azərbaycan Respublikası gömrük orqanlarının normativ bazasının, iş proseslərinin və informasiya texnologiyalarının təkmilləşdirilməsini təmin edən məlumat sisteminin hərtərəfli modernləşdirilməsinə daha böyük ehtiyac vardır.

ƏDƏBIYYAT SIYAHISI

1. T.A.YADİGAROV. “Gömrük statistikası və müasir informasiya texnologiyaları” (Monoqrafiya). Bakı, «Avropa» nəşriyyatı, 2020,-520 səh
2. https://customs.gov.az/az/faydali/innovativ-layiheler/vais/
3. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı – 2015. - 168 səh.
4. https://president.az/az/articles/view/33524/print

GÖMRÜK SİSTEMİNİN FORMALAŞMASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ADI VƏ FƏALİYYƏTİ İLƏ BAĞLIDIR

Hüseyn Məmmədov
huseynm6262@gmail.com
Beynəlxalq ticarət və logistika ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Azərbaycanın müasir gömrük sistemi birbaşa ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gömrük sistemi 30 ildən çoxdur ki, öz fəaliyyətini uğurlu davam etdirir. Ölkənin iqtisadi təhlükəsizliyi və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişəndirilməsində müstəsna rolu var. XX əsrin sonu ulu öndər Heydər Əliyev tərəfindən yaradılan gömrük sistemi müstəqilliyin əsas atributlarından biri olmuşdur. Yarandığı müddətdən ölkənin iqtisadiyyatına birbaşa təsir edən ən böyük dövlət qurumlarından biri olmuşdur.

Açar sözlər: innovativ islahatlar, inkişaf, gömrük sistemi

GİRİŞ:

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ölkənin əsas vəzifələrindən biri iqtisadiyyatı gücləndirmək və iqtisadi təhlükəsizliyi təmin etmək idi. Dövlət Gömrük Komitəsi 1992-ci il yanvarın 30-da yaradıldı. Lakin 1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında Azərbaycanda hökm sürmüş şəraitdə zəruri hüquqi-normativ bazaya malik yüksək səviyyəli gömrük sisteminin formalaşdırılması mümkün ola bilməzdi. Bu dövrdə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə keçmiş SSRİ-nin Gömrük Məcəlləsi və Gömrük Tarifi haqqında qanunları respublika ərazisində qüvvəsini saxlayırdı. Həmin dövrdə də gömrük orqanları öz vəzifələrini demək olar ki yerinə yetirmirdilər. 1993-cü ilin ikinci yarısından isə Azərbaycanın iqtisadi və siyasi sahələrində inkişaf baş verdi bunun da səbəbi Heydər Əliyevin təşəbbüsü ilə xarici dövlətlərlə imzalanan müqavilələr oldu. 1995-ci il yanvarın 9-da Azərbaycan Prezidentinin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirə respublikada gömrük xidmətinin yenidən qurulmasının, inkişafının əsas istiqamətlərini müəyyən etdi.

Heydər Əliyev həmin müşavirədə Dövlət Gömrük Komitəsinin fəaliyyətini təhlil edərkən demişdir: "Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir,

ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır". Heydər Əliyevin əsas məqsədi gömrük orqanlarının işinin kökündən dəyişdirilməsi, daha yüksək səviyyəli orqan yaratmaq idi. Ümummilli lider Heydər Əliyev 1997-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqdakı nitqində gömrük orqanlarının fəaliyyətini son dərəcə dəqiqliklə təhlil edərək, bu sistemdə yaranmış problemlərin həlli yolunun nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, hər bir gömrük işçisinin öz dövlətinə sadiqlik prinsipinin əsas meyara çevrilməsi sayəsində mümkünlüyünü göstərmişdir. "Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri layiqincə yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni, gömrük xidməti Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi, eyni zamanda, başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz" -deyən Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifəsinin yerinə yetirilməsində, hüquqi dövlət olaraq tanınmasında gömrük xidmətini də mühüm dövlət orqanı kimi ön cərgədə görmək istədiyini bildirirdi.

Müstəqil Azərbaycan Respublikasında gömrük işinin təşkili və inkişafı tarixini tədqiq edənlər bu dövrü üç mərhələyə bölürlər: 1992-1994-cü, 1995-2000-ci illər və 2001-ci ildən başlayan daha yüksək inkişaf dövrü.Birinci mərhələdə, məlum olduğu kimi, gömrük orqanları yaradılsa da, milli maraqlara xidmət edən dövlət strukturu olaraq öz funksiyasını, demək olar ki, həyata keçirə bilmədi. İkinci mərhələdə gömrük işinin yenidən qurulması, maddi-texniki və hüquqi-normativ bazanın möhkəmləndirilməsi, büdcə gəlirlərinin artırılması, gömrüyün kadr potensialının gücləndirilməsi, xidmət mədəniyyətinin yüksəldilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin qurulması işi vüsət aldı. Gömrük Məcəlləsi və Gömrük Tarifi haqqında qanun əsasında qurulan gömrük fəaliyyəti bu mərhələnin əsas xüsusiyyəti idi. Azərbaycan gömrüyünün inkişafında üçüncü mərhələ 2001-ci ildə yeni tarif sisteminin qəbul edilməsi ilə gömrük orqanlarının fəaliyyətində yeni bir dövrün başlanğıcını qoydu. Bu dövr dünya təcrübəsinin mənimsənilməsi, inkişaf etmiş ölkələrin gömrük xidmətlərilə sıx əlaqələrin qurulması, ölkəmizdə gömrük işinin köklü surətdə yaxşılaşdırılması ilə müşayiət olunan keyfiyyətcə yeni bir mərhələdir. Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Prezidentinin 27 oktyabr 1998-ci il tarixli fərmanı ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə də mühüm yer tutur. Bu sənəddə ölkədə gömrük siyasətinin strateji məsələlərinin müəyyənləşdirilməsi və həlli mərhələsində DGK-nın funksiyaları öz əksini tapmışdır.Ölkəmizin gömrük təşkilatının işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq olunmuş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" oldu. Gömrük orqanlarına hüquq-mühafizə səlahiyyətinin verilməsi ona qaçaqmalçılığın və gömrük işi sahəsində digər cinayətlərin qarşısının alınmasında məqsədyönlü tədbirləri həyata keçirməyə imkan verdi. Bundan sonrakı illərdə də mühüm müqavilələr imzalanıb.

Bu gün Azərbaycan Gömrük Xidməti Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı inkişaf strategiyasına uyğun olaraq daha da inkişaf edib ölkəmizin mühüm dövlət təsisatlarından birinə çevrilməklə yanaşı, dünya gömrük ailəsində yüksək etibar və etimad qazanıb. Gömrük sistemində aparılan struktur və kadr islahatları idarəetmənin təkmilləşdirilməsinə, kadrların peşə hazırlığının artırılmasına, bir sözlə, gömrük işinin müasir dünyanın çağırışlarına uyğun şəkildə yenidən qurulmasına əlverişli şərait yaradıb. Gömrük qurumlarının fəaliyyətinin uğurlu olmasını biz rəqəmlərdən də görə bilərik. 2019-cu il üzrə Dövlət Gömrük Komitəsi üçün nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı 4 milyard 408 milyon 620 min manat gömrük ödənişləri toplanaraq dövlət büdcəsinə köçürülüb. Beləliklə, proqnoz göstəriciləri ilə müqayisədə 706 milyon 620 min manat artıq gömrük vergi və rüsumları toplanıb və ya proqnoza 119,1 faiz əməl olunub.Bununla da Dövlət Gömrük Komitəsi yarandığı dövrdən rekord fiskal göstəriciləri nümayiş etdirərək son 2 il ərzində büdcə proqnozunda nəzərdə tutulduğundan 2 milyard manata yaxın artıq vəsaitin dövlət büdcəsinə köçürülməsini təmin edib.

Yarandığı ilk illərdə gömrük orqanları öz vəzifə və öhdəliklərini yerinə yetirmirdilər. Bunun qarşısını almaq üçün Heydər Əliyev islahatlar həyata keçirdi. Bu islahatlara bazanın möhkəmləndirilməsi, kadr potensialının artırılması və xarici qurumlarla əlaqələr aid idi. Bu problemlər aradan qaldırıldı və gömrük orqanları uğurlu yolda davam edirlər. İndi isə son illərdə dövlət büdcəsinə Dövlət Gömrük Komitəsinin təsirini göstərim:

Diaqram 1. Dövlət Gömrük Komitəsinin Dövlət büdcəsində yeri, 2020-ci il



Mənbə: http://maliyye.nakhchivan.az/145-naxcivan-muxtar-respublikasinin-2020-ci-il-dovlt-budcsi-layihsinin-thlili.html

Gömrük sisteminin dövlət büdcəsindəki mövqeyi hər il artır:

Cədvəl 2. 2019 və 2020-ci illərin yanvar-aprel ayları üzrə gömrük istiqaməti üzrə büdcə daxilolmaları (min manat)

Ay	Gömrük rüsumları		ƏDV		Aksiz		Yol vergisi		CƏMİ	
	2019	2020	2019	2020	2019	2020	2019	2020	2019	2020
Yanvar	76 480,40	84 361,40	233 048,70	235 905,00	16 862,30	9 679,30	3 254,30	3 755,60	329 645,70	333 701,30
Fevral	72 164,30	86 308,70	248 642,90	230 080,30	12 048,50	9 834,10	3 176,90	3 381,90	336 032,60	329 605,00
Mart	78 669,90	87 137,80	218 165,10	225 236,80	48 162,30	11 852,10	3 394,40	3 490,40	348 391,70	327 717,10
Aprel	87 485,80	69 674,70	267 921,30	272 702,50	18 990,60	12 475,80	3 391,20	2 009,20	377 788,90	356 862,20
CƏMİ	**314 800,40**	**327 482,60**	**967 778,00**	**963 924,60**	**96 063,70**	**43 841,30**	**13 216,80**	**12 637,10**	**1 391 858,90**	**1 347 885,60**

https://markzone.az/2021-ci-il-azerbaycan-budce-sistemi-t%C9%99xminl%C9%99ri/

NƏTİCƏ:

Son olaraq da müasir dövrdə Azərbaycanın mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olan ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyan, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparan bir sözlə, ölkəmizdə dünyanın ən təkmil sistemlərindən biri olan gömrük sistemini yaradan ümumilli lider Heydər Əliyevə Azərbaycan xalqı minnətdardır. Bundan sonra da biz inanırıq ki, Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayacaq!

ƏDƏBİYYAT SİYAHISI:

1) http://www.e-qanun.az/framework/12755
2) http://anl.az/down/meqale/azerbaycan/2010/may/118515.htm
3) http://dgk.nmr.az/az/article/1349/
4) https://www.stat.gov.az/search/?q=dgk
5) https://markzone.az/2021-ci-il-azerbaycan-budce-sistemi-t%C9%99xminl%C9%99ri/
6) http://maliyye.nakhchivan.az/145-naxcivan-muxtar-respublikasinin-2020-ci-il-dovlt-budcsi-layihsinin-thlili.html

MAKROIQTISADI TƏHLIL-AZƏRBAYCAN

Rüstəm Sadıqzadə
rustamsadigzada8@gmail.com
İqtisadiyyat ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: Məqalədə Makroiqtisadiyyatın nə olduğunu,nələri əhatə etdiyi qeyd edilmişdir. Həmçinin, Azərbaycanda ÜDM artımı,Azərbaycanda İşsizlik haqqında da məlumat verilmişdir.
Açar Sözlər: ÜDM, Makroiqtisadi Təhlil, Neft və Qeyri-Neft məhsulları, İşsizlik.

Giriş

Makroiqtisadiyyat terminini 1934-cü ildə elmə Norveç iqtisadçısı Raqnar Friş tərəfindən gətirilmişdir. Makroiqtisadiyyat iqtisadi davranışları milli səviyyədə öyrənir. Makroiqtisadiyyat 2 yerə bölünür: Uzunmüddətli və Qısamüddətli. Qısamüddətli iqtisadiyatda qısa müddətdə baş verən hadisələrin səbəb və nəticələrini öyrənərkən uzunmüddətli isə uzunmüddətdə iqtisadi artımı təmin edəcək komponentləri və yollarını öyrənir. Əhatə etməsinə görə milli,regional və qlobal olur. Makro iqtisadiyyat ÜDM,ÜMM,Qiymət İndeksi,İşsizlik Dərəcəsi kimi əsas göstəricilərə sahibdir.ÜMM- Ümumi Milli Məhsul -(Gross National Product)- ölkə vətəndaşlarının ölkə daxilində istehsal etdikləri bütün son əmtəə və xidmətlər ilə, ölkədən xaricdə yaşayan vətəndaşların ölkəyə transfer etdikləri iqtisadi gəlirlərinin məcmu bazar dəyəridir.ÜDM- Ümumi Daxili Məhsul-(Gross Domestic Product) - müəyyən zaman daxilində ölkə daxilində istehsal olunan əmtəə və xidmətlərin bazar dəyəridir. Keçmişdə istehsal edilən məhsullara aid sövdələşmələr ÜDM-də əks olunmur. Adətən bu interval il və ya rüblərdir. ÜDM istehsalın həcmini ölkənin coğrafi hüdudları daxilində ölçür. Məsələn, İspaniya şirkəti İtaliyada fəaliyyət göstərirsə, onun yaratdığı dəyər İtaliya ÜDM-də əks olunur və əksinə İtaliya şirkəti İspaniyada fəaliyyət göstərirsə, onun istehsal etdiyi məhsul və ya göstəridiyi xidmət İspaniya ÜDM-də əks olunacaq.

ÜDM-un tərkibi 4 hissəyə ayrılır: İstehlak,İnvestisiya, Dövlət Xərcləri və Xalis İxrac. *İstehlak*- Ev təssərrüfatlarının əmtəə və xidmətlərinin əldə olunmasına çəkdiyi xərcdir. *İnvestisiya*- Avadanlıqların və daşınmaz əmlakın alınmasına görə çəkilən xərcdir. *Dövlət Xərci*- istənilən səviyyədə dövlət orqanlarının saxlanması üçün zəruri olan bütün əmtəə və xidmətlərin alınması üçün xərclərdir. *Xalis İxrac*- İxracdan əldə olunan gəlirlərin məbləği ilə idxala çəkilən xərclərin məbləği arasındakı fərqi əks etdirir.İşsizlik-(unemployment)- İqtisadi fəal əhalinin müəyyən hissəsinin öz iş qüvvəsini tətbiq edə bilmədiyini əks etdirən sosial-iqtisadi hadisədir. İşsizlik insanlara birbaşa və ən sərt şəkildə təsir edən makroiqtisadi problemdir. İşsizliyin yüksək səviyyəsi iş qüvvəsi resursundan dövlətin səmərəli istifadə qabiliyyətinin olmadığını göstərir.

İşsizliyi doğuran amillər: iqtisadi böhran, yüksək inflyasiya, dövlətin demoqrafik siyasəti və s. Ölkədə işsizliyin səviyyəsinin xarakteristikası üçün müxtəlif göstəricilərdən istifadə olunur; işsizlərin ümumi sayı, iqtisadi fəal əhalinin ümumi sayında işsizlərin xüsusi çəkisi və s. İqtisadiyyatda işsizliyin həcmi işçi qüvvəsində çalışmayan hissənin faiz göstəricisi əks etdirən işsizlik dərəcəsi ilə ölçülür. İşsizliyin formalarına aiddir: Friksion işsizlik, Struktur işsizlik və Dövrü işsizlik.

Tədqiqat Metodları

Qiymət indeksi- (Price index) - Müəyyən zaman müddətində və müəyyən ərazidə verilmiş əmtəə və xidmətlərin qiymətindəki orta dəyişikliyi əks etdirən göstəricidir. Bu statistik göstəricinin yaradılmasında səbəb müxtəlif regionlarda və dövrlərdə qiymətlər arasındakı əlaqəni müəyyən etməkdir.Qiymət indekslərinin əsas iki növü vardır. Bunlar İstehlak Qiymət İndeksi və ÜDM Deflyatorudur. İstehlak qiymət indeksi (Consumer Price İndex) -İstehlakçı tərəfindən istehlak edilmiş əmtəə və xidmətlərin ümumi dəyər göstəricisidir. Müəyyən bir dövr üçün hesablanır və hesablandıqdan sonra yeni indeks əvvəlki dövrün indeksi ilə müqayisə edilir və inflyasiya dərəcəsi hesablanır.

ÜDM Deflyatoru-Nominal ÜDM və real ÜDM-un köməyi ilə hesablanılır. Nominal ÜDM-un Real ÜDM-a nisbətinin 100-ə hasili ilə tapılır. Nominal ÜDM-də müəyyən zaman daxilində mövcud qiymətlərlə (Qiymət*Həcm)olaraq hesablanır ,lakin Real ÜDM-da biz qiymət artımından istifadə etmirik, bazis ilinə əsasən hesablayırıq. Biz ÜDM Deflyatoru sayəsində müəyyən dövr ərzində məhsulların qiymətinin nə qədər dəyişməsini müəyyən edə bilərik. ÜDM Deflyatoru və İQİ bir-birinə bənzəsədə aralarında fərqlər mövcuddur. ÜDM Deflyatoru daxili istehsalçılar tərəfindən istehsal olunmuş əmtəə və xidmətlərin qiymət səviyyəsini əks etdirir, İQİ isə istehlakçılar tərəfindən istehlak olunmuş əmtəə və xidmətlərin qiymət səviyyəsini əks etdirir.

Azərbaycanda isə 1991-1994-cü illərdə iqtisadi olaraq tənəzzül dövrünü keçirtmiş, 1995-2004-cü illərdə isə keçid dövrünü yaşamışdır. 2005 və sonrası isə Neft Bumu dövrü olaraq adlandırılmışdır. Respublikamızda bu dövrlərdə gəlirlər əsasən neft və neft məhsullarından əldə edilmişdir,lakin son dövrlərdə neft sahəsi qədər qeyri neft məhsullarınada xüsusi önəm verilmişdir. 1993-cü ildə 395.347 milyon manat olan büdcə uğurlu iqtisadi siyasət nəticəsində 2021-ci ildə 26 419, 100 min manat olmuşdur. Respublikamızdakı bu iqtisadi dəyişiklik həmçinin makroiqtisadi vəziyyətdə də özünü göstərmişdir.

Azərbaycanda Makroiqtisadi inkişaf

	Ölçü vahidi	**2010**
REAL SEKTOR		
ÜDM bazar qiymətləri ilə	**mln. manat**	**41574.7**
real artım tempi	%	5.0
deflyator	%	11.3
Qeyri-neft sektoru, ÜDM, əsas qiymətlərlə	mln. manat	18442.7
real artım tempi	%	7.9
deflyator	%	2.2
Neft sektoru, ÜDM, əsas qiymətlərlə	mln. manat	20165.0
real artım tempi	%	1.8
deflyator	%	23.3
neft sektorunun ÜDM-də payı	%	48.5
ÜDM-in istehsal strukturu:		
Sənaye	mln. manat	21852.5
real artım tempi	%	2.1
deflyator	%	22.4
Qeyri-neft sənayesi	*mln. manat*	1687.5
real artım tempi	%	6.2
deflyator	%	11.6

Bundan 10 il sonra yəni 2020-ci ildə isə həyata keçirilən kompleks tədbirlər pandemiyanın sahibkarlığın inkişafına və əhalinin həyat səviyyəsinə təsirinin minimum səviyyəyə endirilməsinə, iqtisadiyyatımızın sürətli geriləməsinin qarşısını almağa imkan vermiş və nəticədə ÜDM 2020-ci il ərzində 2019-cu ilə nisbətən 4.3 faiz azalmışdır. Geriləməyə əsas səbəb OPEC+ ölkələri üzrə hasilatın azaldılması barədə öhdəliklərin ölkəmiz tərəfindən tam icra edilməsi olmuş və nəticədə neft-qaz sektoru üzrə 2020-ci ilin yanvar-dekabr aylarında 2019-cu ilin müvafiq dövrünə nisbətən 7.0% azalma qeydə alınmışdır. ÜDM-in qeyri-neft sektoru isə 2020-ci ilin yanvar-dekabr aylarında ötən ilin müvafiq dövrünə nisbətən real ifadədə cəmi 2.6% azalmışdır (2019-cu ilin yanvar-dekabr aylarında 3.5% artmışdır). Həmin dövr ərzində qeyri-neft sənayesi 12.2% artmışdır. Pandemiya ölkə iqtisadiyyatında ən çox turizm sektoruna mənfi təsir göstərmiş və nəticədə cari ilin yanvar-sentyabr aylarında turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi üzrə 58.9 faiz azalma qeydə alınmışdır.

COVID-19 pandemiyasının mənfi təsirləri 2021-ci ildə davam etsə də, sahibkarlığın dəstəklənməsi, peyvəndləmə prosesinin sürətlə davam etdirilməsi və karantin rejimindəki yumşalma 2021-ci ilin əvvəllərindən başlayaraq iqtisadi aktivliyin bərpasında özünü göstərmişdir. Belə ki, 2021-ci il üzrə həm neft-qaz sektorunda, həm də qeyri neft-qaz sektorunda iqtisadi artım müşahidə olunub. Nəticədə 2020-ci il ilə müqayisədə 2021-ci ildə ÜDM real ifadədə 5.6% artaraq cari qiymətlərlə 92.9 mlrd. manat təşkil etmişdir. Adambaşına düşən real ÜDM 5.1% artaraq 5452.5 ABŞ dolları (əvvəlki ilin eyni dövründə 4272.2 ABŞ dolları) olub. ÜDM-in istehsal strukturunda əsas pay 54,3 % ilə malların istehsalına aid olub. Qeyri-neft iqtisadiyyatı sürətlə bərpa olunub, o cümlədən, qeyri-neft sənayesində 17.8%, nəqliyyat və anbar təsərrüfatında 16.0%, kənd, meşə və balıqçılıq təsərrüfatları 3.3%, informasiya və rabitə 6.1%, ticarət 5.3% və digər xidmətlər üzrə 5.1% artım qeydə alınıb.

Azərbaycanda işsizlik- 1 yanvar 2020-ci ilə görə, Azərbaycanda işsizlərin sayı **251,6 min nəfərdir**. Bu isə iqtisadi fəal əhalinin təxminən **4,84 faizidir**. Ölkədə az sayda işsizlərin mövcudluğu hətta inkişaf etmiş iqtisadiyyat üçün belə normaldır. Ölkədə iş yaşı həddinə çatanlar- Muzdlu işçilər – 1 645 436,Fərdi sahibkarlar – 914 621,Kənd təsərrüfatı ilə məşğul olanlar – 1 559 022,Ali məktəblərin əyani şöbəsində təhsil alanlar – 164 119,Çağırışçılar (təxminən 50 min nəfərə yaxın).

Diaqram 1. Azərbaycanda əmək bazarının strukturu, 2020-ci il



Nəticə

Azərbaycan son 10 ildə Makroiqtisadi cəhətdən xeyli inkişaf etmiş, Neft sənayesi qədər Qeyri-Neft sektoruda xüsusi inkişaf etmişdir. Bu hadisə ölkəmiz üçün çox önəmlidir. Çünki sadəcə bir sahəyə ixtisaslaşan ölkələrdə Holland sindromu baş verə bilər. Azərbaycan işsizlik cəhətdən də yaxşı göstəricilərə sahibdir. İnkişaf etməkdə olan ölkə olmasın baxmayaraq 5% işsizlik yaxşı nəticədir. Lakin Azərbaycan bununla kifayətlənmir, ölkədəki kadrların iş yerlərinə cəlb olunmasına şərait yaradır, xarici sahibkarları ölkəyə cəlb edərək yeni iş yeri imkanları yaradır. Dünyada bir sıra iqtisadi böhranlar baş verməsinə baxmayaraq Azərbaycan inflyasiyanı cilovlamağı bacarmışdır. 2007-2022-ci il göstəricilərinə baxsaq inflyasiya bu illərdə minimum -1.8%, maksimum isə 25.4% olmuşdur. Hal-hazırda isə 12.2%-dir.

Ədəbiyyat siyahısı

1. https://az.wikipedia.org/wiki/Makroiqtisadiyyat
2. https://tradingeconomics.com/azerbaijan/inflation-cpi (Online məqalə)
3. https://jam-news.net/az/az%C9%99rbaycanda-issizlik/ (Online məqalə)
4. Q.Menkyu-Ekonomiksin prinsipləri 2-ci nəşr Bakı-2009 (Kitab)
5. https://www.economy.gov.az/article/indicators/21330 (Online məqalə)

ƏMƏK MÜQAVİLƏSİ BAĞLAMADAN IŞÇILƏRIN IŞƏ CƏLB EDILMƏSI.QEYRI-FORMAL MƏŞĞULLUQ

Rail Yaqubov
rail.yaqubov009@mail.ru
Hüquqşünaslıq ixtisası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası

1. XÜLASƏ

Tədqiqat işində qeyri-formal məşğulluq,əmək müqaviləsi olmadan işçilərin işə cəlb edilməsi,hüquqi əsası bu sahədə yaranan problemlər və onların həlli məsələsi araşdırılmışdır. Son illər qəbul olunmuş məşğulluq haqqında qanunvericilikdə qeyri-formal məşğulluğun aydın izahı verilib. Belə ki, qeyri-formal məşğulluq əmək müqaviləsi (kontrakt) və ya mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc əldə edilməsidir. Ölkəmiz artıq keçid dövrünü başa vuraraq dayanıqlı iqtisadi bazis üzərində hüquqi və sosial dövlət quruculuğu yolunda inamla irəliləyir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyasında insan amili özynəməxsus yer tutur. Keçən illər ərzində vətəndaşların sosial-iqtisadi həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar bir milyondan artıq yeni iş yerlərinin açılması ilə nəticələnib. Bu amil əmək

bazarında hüquqi tənzimlənməni zərurətə çevirir.Əmək sistemində əsas normativ-hüquqi baza rolunda isə təbii ki, hər bir vətəndaşın sabit iqtisadi gəlir əldə etməsinə, təqaüd yaşı çatdığında müasir standartlara uyğun ölkə qanunvericiliyi əsasında sosial təminatına, təhlükəsiz iş şəraitində çalışmasına və s. imkan yaradan əmək müqaviləsi çıxış edir.

Açar sözlər: qeyri-formal məşğulluq, əmək müqaviləsi, maariflənmə

GIRIŞ

Qeyri-formal məşğulluq kölgə iqtisadiyyatının əsas göstəricisidir. İşçi ilə qeyri-formal əmək münasibətləri işəgötürənin vergi və məcburi sığorta ödəmələrindən yayınmaq məqsədinə xidmət edir. Ancaq belə hallar bir tərəfdən işçinin gələcək sosial müdafiə hüquqlarını, pensiya təminatını sual altında qoyur, o cümlədən iş yerlərində bədbəxt hadisə zamanı xəsarət aldıqda belə onun köməksiz vəziyyətdə qalmasına səbəb olur. Digər tərəfdən, qeyri-formal məşğulluq dövlət büdcəsinə ciddi ziyan vurur. Eyni zamanda, qeyri-formal məşğulluq əmək ehtiyatlarından səmərəli istifadə olunmasına, layiqli əməyin dəstəklənməsinə, işəgötürənlərin də iqtisadi mənafelərinə, müəssisədə əmək məhsuldarlığına, keyfiyyətli istehsal və xidmət prosesinə ciddi zərər vurur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılan sosial dövlət konsepsiyasının başlıca istiqaməti əhalinin rifah səviyyəsinin yüksəldilməsi, hər bir vətəndaşın iqtisadi və sosial hüquqlarının qorunmasıdır. Bu baxımdan qeyri-formal məşğulluğun aradan qaldırılması dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsidir.

Hər bir işçi ilə işəgötürən arasında əmək münasibətləri əmək müqaviləsi ilə rəsmiləşdirilməlidir. Belə münasibətlər işçinin həyatını və gələcəyini təmin edir. Gəlin, əmək müqaviləsinin üstünlüklərini müqavilə ilə və müqaviləsiz çalışan iki işçininin timsalında göstərək. İlk fərq ondan ibarətdir ki, əmək müqaviləsi ilə çalışan işçi əmək stajına müvafiq olaraq gələcəkdə pensiya təminat hüququ əldə edəcəkdir. Müqaviləsiz çalışan şəxs isə bu hüquqdan məhrum olur və illərlə çəkdiyi əziyyətin bəhrəsinin müvafiq yaş həddinə çatdıqdan sonra görür. İkinci fərq odur ki, əmək müqaviləsi ilə çalışan işçi sığortalıdır.

Bakıda və bölgələrdə qeydiyyatsız fəaliyyət göstərən mağaza, salon, sex və digərlərində kişilərin, qadınların əməyindən faktiki olaraq müqaviləsiz istifadə olunur. Məhz əmək müqaviləsi bağlanmadığından, sözügedən qadınlar və kişilər cüzi məbləğdə pul alırlar. İstədikləri vaxt onları işdən azad edirlər, işdən çıxdıqdan sonra onlara kompensasiya verilmir və s. Bir növ əmək müqaviləsiz işləyən işçi ilə bəzi işəgötürənlər qul kimi davranır desək yanılmarıq. Kənd yerlərində əsasən yay mövsümündə işçilərin əməyindən müqaviləsiz istifadə olunur. Qeyd edək ki, bağlarda, bostan sahələrində və tarlalarda bəzi məhsulların yığımı daha çox yay aylarına təsadüf edir. Bundan başqa, "qul bazarları" adlanan yerlərdə özlərinə iş axtaranlar günəmuzd işləməklə pul qazanmaq istədikləri üçün onlar daha çox karxanalarda, tikinti və xidmət sektorunda çalışırlar. Ancaq əmək müqaviləsi olmadığından, məhsul yığımında iştirak edənlər, eləcə də tikintidə və karxanada işləmək üçün "qul bazarın"dan gətirilənlər və digər işçilər ilan, əqrəb və qara qurd sancmalarına məruz qalanda onlara dəyən maddi və mənəvi zərər ödənilmir. Hətta ölüm halları baş verdikdə əmək müqaviləsi bağlanmadığı üçün işəgötürən məsuliyyəti öz üzərinə götürmür. Nəticədə ilan, əqrəb və qara qurdun sancmasından dünyasını dəyişənlərin ailələrinə kompensasiyaların ödənilməsi mümkün olmur. Narahatedici məqam ondan ibarətdir ki, bu istiqamətdə aparılan bir sıra təbliğat, reklam xarakterli tədbirlərə rəğmən, işəgötürənlə işçilər buna saymazyana yanaşır.

Beynəlxalq Əmək Təşkilatının hesabatına görə, il ərzində dünyada təxminən 2 milyon 300 min nəfər istehsalatda baş vermiş bədbəxt hadisələr nəticəsində dünyasını dəyişir. Azərbaycanda 2012-ci ildə istehsalatda 212 bədbəxt hadisə baş verib. Bu hadisələr zamanı 82 nəfər ölüb, 159 nəfər müxtəlif bədən xəsarətləri alıb. İstehsalatda, o cümlədən tikintidə baş vermiş bədbəxt hadisələr zamanı, tərəflər arasında əmək müqaviləsinin bağlanmaması səbəbindən, işçilərin həmin müəssisələrdə işlədiyini sübuta yetirmək çətin olur. Bu cür xoşagəlməz hadisələrin qarşısının alınması üçünsə işəgötürənlə işçi arasında əmək müqaviləsinin imzalanmasına nail olmaq çıxış yolu kimi irəli sürülür.

TƏDQIQAT METODU

Əksər hallarda işçilərlə əmək müqavilələrinin deyil, mülki-hüquqi müqavilənin imzalanması da ən ciddi problemlərdən biridir. Qanunvericiliyə görə, işçi ilə mülki-hüquqi müqavilə müəyyən müddət üçün imzalana bilər. Lakin bəzən işəgötürənlər işçiləri uzun illər ərzində, sadəcə, mülki-hüquqi müqavilə əsasında işlədirlər. Nəticədə işçilər əmək müqaviləsinin yaratdığı bir sıra hüquqlardan məhrum olurlar.

Ekspertlərin gəldiyi qənaət belədir ki, qeyri-formal məşğulluğun aradan qaldırılması ona görə çətindir ki, bəzən vətəndaş könüllü olaraq əmək müqaviləsi olmadan işləməyə razı olur, aldığı məvacib onu razı salır. Lakin belələri sabah işsiz qalacaqları təqdirdə dövlət məşğulluq orqanları onların barələrində hər hansı sosial müdafiə tədbirləri həyata keçirə bilməyəcək, həmin şəxslər normal pensiya almaq imkanından

məhrum olacaqlar. Bu səbəbdən də əmək münasibətlərinin rəsmiləşdirilməsi məsələsində işçinin və işəgötürənin eyni dərəcədə fəallığı lazımdır.

Araşdırmamamız nəticəsində məlum olub ki, işçilərin, yaxud işləməyə hazırlaşanların böyük əksəriyyəti əmək müqavilələrinin mahiyyəti, əmək hüquqları barədə ətraflı məlumata malik deyillər, yaxud məlumatlanmada maraqlı olmurlar. Bu səbəbdən də işəgötürənlər işçilərin hüquqi savadsızlığından və məlumatsızlığından sui-istifadə edirlər. Ona görə də bu istiqamətdə geniş təbliğat-təşviqat tədbirlərin həyata keçirilməsi vacibdir. Bunun üçün KİV-lər vasitəsilə hüquqi maarifləndirilmə işləri aparılmalı, müxtəlif reklam çarxları hazırlanmalı və telekanallarda yayımlanmalı, qeyri-formal məşğulluğun fəsadları, əmək müqavilələri bağlamadan çalışan işçiləri hansı təhlükələrin gözləməsi və sair məsələlərlə bağlı ətraflı və hüquqi cəhətdən əsaslandırılmış tövsiyə xarakterli məlumatları özündə əks etdirən kitabçalar və broşuralar hazırlanaraq çap edilməli və onlar vətəndaşlara paylanılmalıdır. Əhaliyə başa salınmalıdır ki, hər bir vətəndaşın sosial təminatının gələcəyi onun öz əlindədir və bu prosesdə fəal iştirak etmək gələcəkdə sosial hüquqların tam təmin olunması ilə nəticələnir. Əmək müqaviləsinin bağlanılması, əməkhaqının leqallaşdırılması, məcburi dövlət sosial sığorta haqının vaxtında ödənilməsi hər bir işçinin gələcəkdə pensiya-müavinət təminatında mühüm rol oynayır. Çünki Azərbaycanda əmək pensiyaları vətəndaşın ödədiyi sosial sığorta haqları əsasında hesablanır. Amma əmək müqaviləsi olmayan, leqallaşdırılmış əməkhaqı almayan və məcburi dövlət sosial sığorta haqqı ödəməyən vətəndaşlar gələcəkdə pensiya təminatı ilə bağlı ciddi problemlər yaşayacaqlar. Ona görə də qeyri-leqal əmək fəaliyyəti göstərən işçilərin öz məşğulluqlarını leqallaşdırmaları və vergilərə cəlb olunmaları geniş təbliğ edilməlidir. Bunlardan əlavə, işçilərlə qeyri-leqal əmək münasibətləri həyata keçirən işəgötürənlər barədə inzibati tədbirlər, həmçinin onlara qarşı cəzalar və cərimələr sərtləşdirilməlidir. Eyni zamanda qeyri-formal məşğulluğun aradan qaldırılması üçün milli qanunvericilik təkmilləşdirilməli, bütün iş yerlərində həmkarlar ittifaqları yaradılmalıdır.

NƏTICƏ

Prezident İlham Əliyevin hələ beş il əvvəl imzaladığı 2017-ci il 14 mart tarixli sərəncamla Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının yaradılması da qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində aparılan sosial-iqtisadi siyasətin daha da gücləndirilməsi və bu sahədə praktik nəticələrə nail olunması məqsədi daşıyıb. Həmin sərəncamla yaradılmış 7 nəfər aidiyyəti qurumların rəhbər səviyyəsində təmsil olunduqları komissiyaya Baş Nazirin müavini Əli Əhmədov sədrlik edir. Sərəncamda əmək münasibətləri iştirakçılarının iqtisadi və sosial hüquqlarının tənzimlənməsi və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər planının hazırlanmasını və təsdiq edilməsini, eləcə də bu nəzarət tədbirlərinin əlaqələndirilməsini təmin etmək tapşırılmışdı. Qısa müddət ərzində mütərəqqi təcrübə nəzərə alınmaqla qeyri-formal məşğulluğun aradan qaldırılması istiqamətində aparılacaq tədbirlər müəyyənləşdirilib. Tədbirlər planı isə Prezidentin 2017-ci il 9 oktyabr tarixli sərəncamı ilə təsdiqlənib. Onu da qeyd edim ki, sərəncama əsasən cari fəaliyyətin təşkili məqsədilə komissiyanın katibliyi fəaliyyət göstərir və katibliyin funksiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Əlavə olaraq bildirim ki, komissiya daxilində 3 işçi qrupu da fəaliyyət göstərir və mütəmadi olaraq verilmiş tapşırıqlar üzrə onların gördükləri işlərə dair hesabatları dinlənilir.

Komissiyanın fəaliyyəti ərzində ölkədə formal məşğulluğun təşviqi məqsədilə bir çox qanunvericilik aktları qəbul edilib, o cümlədən yeni "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib, "İşsizlikdən sığorta haqqında" Qanun qüvvəyə minib, İşsizlikdən Sığorta Fondu yaradılıb, işçilərin və işəgötürənlərin formal məşğulluğa marağını artırmaq məqsədilə vergi və sosial sığorta sahəsində islahatların dəstəklənməsi məqsədilə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

ƏDƏBIYYAT SIYAHISI

İstinad edilmiş ədəbiyyat siyahısı qeyd edilir. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:

1. Татьяна Ирметова, Работник есть, а трудового договора у вас с ним нет — каковы реальные риски? https://hh.ru/article/24870
2. Təbriz Vəfalı, Əmək müqaviləsi: gələcəyin təminatı, Vergilər Nazirliyinin "Vergilər" qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdiyi müsabiqəyə təqdim etmək üçün, Həftə içi.- 2014.- 13 may.- S.7.
3. Philippe Richer, Biggest Employer Mistake - No Written Employment Agreement, https://www.tlrlaw.ca/blog/biggest-employer-mistake
4. Qeyri-formal məşğulluğun qarşısının alınması aparılan sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsidir, Azərbaycan.- 2020.- 4 sentyabr.- S.4.
5. i.ü.f.d Rəsmiyyə Abdullayeva, Aparılan islahatlar qeyri-formal məşğulluğun səviyyəsinin azaldılmasına müsbət təsir göstərir https://vergiler.az/news/economy/6114.html

ÜMUMİ MÜLKİYYƏT HÜQUQU, ONUN LEQAL TƏHLİLİ VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNDƏ MEYDANA ÇIXAN AKTUAL PROBLEMLƏR

Sübhan Qarayev
subhanqarayev851@gmail.com
Hüquqşünaslıq ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə
Üzərində elmi tədqiqat apardığım mövzunu seçməkdə və onu aktual hesab etməkdə əsas səbəb ümumi mülkiyyət münasibətləri çox maraqlı dünyəvi və real hadisələrin nəticəsində meydana gəlməsi ilə bağlıdır. Məsələn, iki və daha artıq subyektin birgə tikinti aparması, əmlak alması, vərəsəlik qaydasında əmlak əldə etməsi nəticəsində yaranır. Həmçinin mən ümumi mülkiyyət hüququnu mülki dövriyyə subyektləri üçün çox faydalı hesab edirəm, çünki bu səlahiyyətlərin məcmusu subyektlərə imkan verir ki, onlar öz maddi və mənəvi tələbatlarını ödəmək üçün güclərini birləşdirsinlər, əmlakdan birlikdə istifadə etsinlər. Bəzən elə hallar olur ki, əmlakın bir şəxs tərəfindən idarə olunması ona çətinlik yaradır və ya mümkün olmur, bu zaman həmin şəxs başqa subyektlərlə əmlakı birgə istifadə edərək bu çətinliyi və mümkünsüzlüyü aradan qaldıra bilər.
Açar söz: Ümumi mülkiyyət hüququ; paylı mülkiyyət; birgə mülkiyyət;

Giriş

Mülki Məcəlləmizin 10- cu fəsli ilə ümumi mülkiyyət hüququ mülki hüququn xüsusi növü hesab edilir. Xüsusi mülkiyyət hüququ o zaman yaranır ki, əmlak mülkiyyət hüququ əsasında bir şəxsin mülkiyyətində olur. Əmlak üzərində mülkiyyət hüququnun bir neçə şəxsə məxsus olanda isə onun üzərində ümum mülkiyyət hüququ yaranır. Mülkiyyət hüququnun bu xüsusi halı bizim mülki qanunvericiliyimizdə, həmçinin sivilist alimlərin doktrinasında ümumi mülkiyyət adlanır.

"Ümumi mülkiyyət" konsepsiyasının əksər xarici ölkələrin qanunvericiliyində təsbit olunmasıdır. İtaliya Mülki Məcəlləsinin 2- ci kitabının 7 – ci bölməsinə daxil olan normalar ümumi mülkiyyətlə bağlı olan münasibətləri tənzimləyir. Almaniya hüquq doktrinasında ümumi mülkiyyət anlayışı fərdi mülkiyyət anlayışına qarşı qoyulur. Yəni Alman alimlərinin fikrincə, "ümumi mülkiyyət" anlayışı "xüsusi mülkiyyət" anlayışının əks qütbündə dayanır, bu anlayışlar bir- birindən tamamamilə fərqlənir. Yaponiyanın sivilist alimlərinin doktrinalarında qeyd olunur ki, "ümumi mülkiyyət" eyni bir əşyanın bir neçə şəxsə birlikdə aid olması və ona birlikdə yiyəlik etməsi başa düşülür.

"Ümumi mülkiyyət" institunun tarix boyu aktuallığını saxlamış, hələ Qədim Roma Hüqunda bu barədə müddəaların olmuşdur. Ümumi mülkiyyət anlayışına Roma hüququnda bir əşyanın bir neç mülkiyyətçiyə birlikdə məxsus olması kimi baxılırdı. Roma hüquqşünasları ümumi mülkiyyət münasibətini " communio" və ya "condominium" anlayışı ilə əhatə edirdi. Gəlin bu sözü təhlil edək. Latınca "con" birlikdə, "domunium" isə mülkiyyət, sahiblik adlanırdı. Roma hüquqşünasları ümumi mülkiyyət hüququ anlayışını irəli sürmüşdülər. Klassik Roma hüquqşünaslarından biri "bir neçə şəxsin eyni əşyaya ideal paylarla mülkiyyəti" ideyasını təqdim etmişdir.

Tədqiqatın metodu:

Məqaləni tərtib edərkən AR MM-in 10-cu fəslində yerləşən, mülkiyyət hüququnun xüsusi növləri adı altında verilən, ümumi mülkiyyətlə bağlı olan 213-cü maddədən 225.6 -cı maddəyə qədər olan hüquq normalarından, həmçinin ailə, əmək, mənzil məcəlləsinin ümumi birgə və ümumi paylı mülkiyyətlə bağlı olan müddəalarından, ümumi mülkiyyətlə bağlı olan yerli məhkəmə təcrübələrindən, Konstitusiya məhkəməsinin bir plenum qərarından istifadə etmişəm. Həmçinin bir sıra xarici dövlətlərin(İsveçrə, Niderland, Almaniya, Türkiyə v.s) mülki məcəllələrində ümumi mülkiyyətlə bağlı olan müddəaları öz milli qanunvericiliyimizdə olan müddalarla müqayisə etmişəm. Bundan əlavə nəzəri məlumatların oxucular tərəfindən daha yaxşı başa düşülməsi üçün onlara müvfiq praktiki məlumatlar vermişəm.

1. Ümumi Mülkiyyət hüququnun anlayışı

Ümumi mülkiyyət hüququ dedikdə, eyni bir əmlakın bir yox, bir neçə şəxsə məxsus olduğunu təsbit edən, həmin əmlak üzərində həmmülkiyyətçilər tərəfindən birlikdə sərəncam verilməsini, sahibliyini və istifadə etməsini nizama salan hüquq normalarının məcmusu başa düşülür.

Ümumi mülkiyyət hüququ aşağıdakı əsas əlamətləri ilə xarakterizə edilirlər:

- Ümumi mülkiyyət hüququ subyekt çoxluğuna əsaslanır. Burada subyektlərin sayı həmişə iki və daha artıq olur.
- Ümumi mülkiyyət hüququ özünün obyekt vahidliyi ilə xarakterizə olunur. Burada iki və daha artıq subyektin məxsus olan vahid obyekt olur.
- Həmmülkiyyətçilər mülkiyyət hüquqlarını bir- birinin razılığı ilə həyata keçirirlər. Subyektlərdən heç birinin digər mülkiyyətçilərin razılığı olmadan əmlak üzərində sərəncam verməyə haqqı yoxdur.
- Ümumi mülkiyyət hüququ qanundan, müqavilədən, vərəsəlikdən və digər əsaslardan əmələ gələ bilər. (Bu barədə irəlidə daha geniş danışacam deyə, bu abzas daxilində məlumat vermirəm.)

Ümumi mülkiyyət təyinatını dəyişdirmədən bölünməsi istisna edilən və mümkün olmayan əmlaklar üzərində yaranır:

- Məsələn, minik avtomobil.

Minik avtomobili öz əvvəlki funksiyasını(təyinatını) itirməməsi, həmçinin əvvəlki təyinatının(funksiyasının) dəyişdirilməməsi şərtilə bölmək mümkün deyil. Əgər bölünsə, ya təyinatını itirəcək, ya da dəyişəcək. Bu növ əşyalara səhm, bir yerli qaraj, bir otaqlı ev v.s kimi əşyaları aid edə bilərik. Əmlakın bölünə bilməməsi qanunla da müəyyən oluna bilər (MM- in 135- ci maddəsinin 6- cı bəndi). Bölünən əşyaya ümumi ümumi mülkiyyət hüququnun əmələ gəlməsi də mümkündür. Bu növ əşyaya ümumi mülkiyyət qanunda və müqavilədə nəzərdə tutulmuş hallarda yaranır (MM- in 213- cü maddəsinin 4- cü bəndi). Məsələn, ölən vətəndaşın mirasına əmlak kütləsinə müxtəlif cür bölünən əmlak-pul, kənd təsərrüfat məhsulları v.s daxil ola bilər. Göstərilən həmin əmlak növləri vərəsələr arasında bölünən vaxta kimi ümumi mülkiyyət hüququ əsasında onlara məxsus olur. Nümunədən də bizə aydın olur ki, bölünən əşya üzərində ümümi mülkiyyət hüququ konkret zaman intervalında olur. Lakin buna baxmayaraq ümumi mülkiyyət hüququnun obyekti kimi əsasən bölünməz əmlak növləri çıxış edir.

Gəlin bölünən və bölünməz əşya anlayışına daha dərindən nəzər salaq:

1. Bölünən əşyalar- Bölünərkən öz təsərrüfat təyinatını itirmirlər

(1 otaqlı mənzillər bölünməsə də, iki və daha çox otaqlı mənzillər ümumi mülkiyyətçilər arasında bölünə bilər;

Atanın 1 hektar torpaq sahəsi və 4 oğlu var, onun ölümündən sonra 1 hektarlıq 4 torpaq sahəsi 4 oğul arasında bölünür, hərəsinə 25 sot torpaq payı düşür.)

2. Bölünməz əşyalar- Bölünərkən öz təsərrüfat təyinatını itirirlər. Bütün əşyalar fiziki olaraq bölünə bilərlər. Lakin bölünməz əşya fiziki olaraq bölündükdə məhv olacaq. Məslən, bar verən ağacı, avtomobili, cib telefonunu, noutbuk kompüterini fiziki olaraq böldükdə bu əşyaların funksional təyinatı itəcək və onları istifadə etmək mümkün olmayacaq. Lakin qida məhsullarını, buğdanı, unu, çörəyi, suyu, sənaye məhsullarını, nefti benzini, sürtkü yağını, gipsi, kömürü, fiziki olaraq böldükdə onlar öz funksional təyinatını itirmirlər.

2. Ümumi mülkiyyət hüququnun yaranma əsasları və subyektləri

Ümumi mülkiyyət hüququ da həm ilkin, həm də törəmə üsullarla yarana bilər. İlkin üsullara misal olaraq qanunvericilikdə təsbit olunmuş müxtəlif faktları misal göstərə bilərik:

- Mülki Məcəllənin "Torpaq sahəsində tikinti" adlanan 240- cı maddəsində nəzərədə tutulan hal. İki və daha artıq şəxsin birləşərək torpaq sahəsində birləşərək ev, tikinti və digər daşınmaz əmlak yaratması;
- Mülki Məcəllənin "Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi əsasları" adlanan 181- ci maddəsinin 4- cü bəndində nəzərdə tutulan hal. Bir şəxsin mülkiyyətçisi olmayan əşyaya əşyanın əsl sahibi ilə birlikdə sahiblik etməsi;
- Mülki Məcəllənin "Dəfinə" adlanan 187- ci maddəsində nəzərdə tutulan hal. Şəxsin başqa şəxsə məxsus olan tikintidə və ya torpaqa dəfinə aşkar etməsi(İki və daha artıq şəxsin birlikdə dəfinə aşkar etməsi bu münasibətin yaranması əsası ola bilər);
- Mülki Məcəllənin "Tapıntı" adlanan 186- cı maddəsində nəzərdə tutulan hal. Birgə tapıntı;
- Mülki Məcəllənin "Emal" adlanan 188- ci maddəsində nəzərdə tutulan hal. Ümumi əşyanın birgə emalı.
- Ümumi əşyanın iki və daha çox şəxs tərəfindən yaradılması və hazırlanması halı.

Ş. B. Yusifovun Mülki Hüquq Ümumi hissə dərsliyində şəkdiyi misala nəzər salaraq ümumi mülkiyyət hüququn anlayışı haqqında daha dərin məlumat əldə edə bilərik.

Misal 1: A şəxs özünə ev tikmək məqsədilə usta dəvət edir. Usta qazıntı işləri aparan zaman dəfinə aşkar edir. Dəfinənin aşkar edilməsi ilə ilkin üsulla dəvət edilən ustanın və torpağın mülkiyyətçisin olan A şəxsin dəfinə üzərində ümumi mülkiyyət hüququ yarandı. Çünki, torpaq mülkiyyətçisinin razılığı ilə qazıntə işləri aparılıb.

Misal 2: Digər bir misal: Meşəyə ov məqsədilə gedən iki və daha artıq şəxs 20 baş sahibsiz heyvan aşkar etdilər. Nəticədə, onların sahibsiz heyvanlar üzərində ilkin üsulla ümumi mülkiyyət hüquq yaranır. Yaxud iki və daha artıq şəxs başqasına aid olan materialdan birgə məmulat hazırladıqda, onların həmin məmulat üzərində ilkin üsulla ümumi mülkiyyət hüququ yaranır.

Yuxarıda sistemli şəkildə sadaladığım hallar ümumi mülkiyyət hüququnun ilkin əsaslarla əmələ gəlməsinə aid olan praktiki nümunələr idi. Aşağıda isə törəmə üsullar haqqında məlumatlar sadalanıb.

Ümumi mülkiyyət hüququnu yaradan başlıca törəmə üsul mülki- hüquqi əqdlərdir.

Misal1: İki və ya bir neçə şəxsin birləşərək alğı- satqı, dəyişmə, bağışlama və s. müqavilələri əsasında əmlak əldə etməsi

Misal2: Vərəsəlik hüquq münasibətlərində miras qoyan öz vəsiyyətnaməsində qeyd edir ki, mənə məxsus olan evi oğlum və qazım A, B, C şəxslərinə vəsiyyət edirəm. Bu şəxslərin ev üzərində törəmə üsulla ümumi mülkiyyət hüququ yaranır. Həmçinin müvafiq icra hakimiyyəti orqanında qeydə alındıqdan sonra əldə edilən əmlak üzərində ümumi mülkiyyət hüququnun yaranması.

Qeyd etdiyim kimi ümumi mülkiyyət hüququnun əldə edilməsi mülki- hüquqi müqavilələr vasitəsilə də mümkün ola bilər. Məsələn, dəyəri 300. 000 manat olan zavodu 5(beş) nəfər mülki hüquqi müqavilə bağlayaraq əldə edirlər. Nəticədə, törəmə üsulla zavod üzərində ümum mülkiyyət hüququ əldə edilir.

3. Ümumi mülkiyyət hüququnun növləri

Məzmununa görə ümumi mülkiyyətin iki növü fərqləndirilir:

1. Paylar məlum olan ümumi mülkiyyət (paylı mülkiyyət)
2. Paylar məlum olmayan ümumi mülkiyyət (birgə mülkiyyət)

Ümumi mülkiyyətin növləri arasındakı fərq ondan ibarətdir ki, paylı ümumi mülkiyyətdə iştirak edən hər bir subyektin payları əvvəcədən məlum olur. Birgə ümumi mülkiyyətdə isə iştirakçıların payı əvvəlcədən məlum olmur. MM- in 213- cü maddəsinin 2- ci bəndinə uyğun olaraq əşya mülkiyyət hüququnda 2- cür ola bilər. Paylı mülkiyyət şəklində, yəni mülkiyyətçilərin hər birinin payını müəyyənləşdirməklə və Birgə mülkiyyət şəklində, yəni belə payları müəyyənləşdirmədən ümumi mülkiyyətdə ola bilər.

Paylı ümumi mülkiyyət halı odur ki, iştirakçıların (həmmülkiyyətçilərdən) hər birinin bu mülkiyyətdəki payı dəqiq olaraq müəyyən edilir. Bir sözlə, bu növ mülkiyyətdə iştirakçılardan hər birinə müəyyən pay məxsus olur. Maraqlısı budur ki, payları məlum olan ümumi mülkiyyətin iştirkçılarının payaları həm bərabər, həm qeyri-bərabər ola bilər. Mülki Məcəllənin 214-cü maddəsinə (Paylı ümumi mülkiyyət hüququnda payların müəyyənləşdirilməsi) əsasən və bütün mülkiyyətçilərin razılaşması ilə müəyyənləşdirilməyibsə, paylar bərabər sayılır. Paylı mülkiyyətin bütün mülkiyyətçilərinin razılaşması ilə ümumi mülkiyyətin yaradılmasına və artırılmasına onların hər birinin qoyduğu mayadan asılı olaraq onların paylarının müəyyənləşdirilməsi və dəyişdirilməsi qaydası təyin edilə bilər. Məssələn, 10 hektarlıq bir torpaq sahəsi var. Bu torpaq sahəsi 2 həmmülkiyytəçi arasında həm 5 hektarlıq bərabər hissələrə də bölünə bilər, həm də 7 hektar birinci, 3 hektar ikinciyə verilməklə qeyri- bərabər şəkildə də bölünə bilər.

Paylı mülkiyyətdə əşya üzərində mülkiyyət hüququnun bir neçə şəxsə məxsus olması mülkiyyətçilərin mənafelərinin qorunması üçün onlar arasında müəyyən tənzimlənmə- nin və hüquqi alətlərin olması zərurətini yaradır. Paydaşların istənilən biri tərəfindən bu tənzimləməyə zidd addım atması həmin paydaşa qarşı hüquqi məsuliyyət tədbirlərinin görülməsinə səbəb olur. Ümumi paylı mülkiyyət hüququnun məzmunu ümumi mülkiyyətdə olan əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam verməkdən üzrə səlahiyyətlərini, həmçinin hər bir mülkiyyətçinin öz payına sərəncam vermək səlahiyyətini təşkil edir.

Misal 1. İki nəfər dost bölünməz əmlak olan minik avtomobili almaqla, bu barədə atıcı ilə alqı- satqı müqaviləsi imzalamaqla onun üzərində ümumi paylı mülkiyyət hüququ qazanırlar.

Misal 2. Bağda yaşayan üç nəfər qonşu özlərinin şəxsi məişət ehtiyaclarını ödəmək üçün su çıxarmaq məqsədi ilə quyu qazırlar və birgə fəaliyyət haqqında da müqavilə bağlayırlar. Birgə fəaliyyət nəticəsində yaranan su quyusu onların ümumi paylı mülkiyyətinə daxil olur.

Paylı mülkiyyət halı əksər hallarda vərəsəlik və ya boşanma əsaslarından da yarana bilər. Vərəsəlik hüququ varisin ölümündən sonra ona məxsus olan əmlakın taleyi ilə bağlı yaranır. Varisindən qalan mirasın bölünməsində bütün yaxın qohumlar iştirak edir və miras qoyanın iradəsindən asılı olmayaraq bir sıra şəxslər məcburi pay hüququna malik olurlar.

Misal: A şəxs evlidir, iki uşağı və həyat yoldaşı var. A şəxs öldükdən sonra ona məxsus olan əmlak, (məsələn ev, maşın və s.) iki övladı və həyat yoldaşı arasında bərabər şəkildə bölünəcək.

Ümumi birgə mülkiyyət paysız mülkiyyətdir. Ona görə bəzi vaxt onu paysız mülkiyyət də adlandırırlar. Paylar yalnız ümumi əmlak bölündükdə və ya ondan pay ayrıldıqda müəyyən edilir. Ayrıldıqdan sonra müəyyənləşdirilən paylar həm bərabər, həm də qeyri- bərabər ola bilər. Mülki Məcəllənin 223- cü

maddəsinin 3- cü bəndində qeyd edilir ki,ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasından ayrı qayda irəli gəlmirsə, bərabər sayılır.
Ümumibirgə mülkiyyət hüququnun aşağıdakı xüsusiyyətləri var:
- Vətəndaşların qarşılıqlı şəxsi etibar münasibətləri bu cür mülkiyyətin yaranmasında əsas şərtdir. Şəxsi etibar münasibətləri vətəndaşların bir- birilə nikaha girmək (ər-arvadın mülkiyyəti), kirayəçi ilə birlikdə yaşamaq və onun ailə üzvünə daxil olmaq kimi faktlara əsaslanır.
- Ümumbirgə mülkiyyət hüququnun subyekti rolunda yalnız vətəndaşlar çıxış edə bilərlər. 2-ci fəslin 1-ci paraqrafında da qeyd etdiyim kimi mülki hüququn digər subyektlərinin- dövlətin, bələdiyyələrin və hüquqi şəxslərin ümumbirgə mülkiyyət hüququnda subyekt qismində iştirakı mümkün deyil.
- Birgə mülkiyyətdə paylı mülkiyyətdən fərqli olaraq, qabaqcadan paylar müəyyənləşdirilməmiş (naməlum) olur. Yalnız pay birgə mülkiyyətdə olan ümumi əmlak bölündükdə və ya ondan pay ayrıldıqda müəyyən edilə bilir.

Birgə mülkiyyətin yaranması əsaslarından biri nikahdır. Bu yolla ər- arvadın birgə mülkiyyəti yaranır. Birgə mülkiyyətin növlərindən yalnız ər- arvadın ümumi mülkiyyəti haqqında olan hüquq normaları Mülki Məcəllənin 225- ci maddəsində təsbit olunmuşdur. Bu maddə də qeyd edilir ki, nikahın müvafiq icra hakimiyyəti orqanında rəsmi qeydiyyata alındıqdan sonra ər və arvadın əldə etdikləri əmlak onların birgə mülkiyyəti hesab olunur. Qeyd etməliyik ki, sığə, kəbin və digər ayinlər nəticəsində həyata keçirilən ailə-nikah münasibətlərinin bu halda heç bir hüquqi əhəmiyyəti yoxdur. Ailə məcəlləsində də qeyd edilir ki, yalnız müvafiq icra hakimiyyətində qeydə alınmış nikah hüquqi əhəmiyyət kəsb edir.
Bu mülkiyyətin digər növü olan ailə- kəndli təsərrüfatının əmlakı adlanır. Birgə mülkiyyətin bu növünün hüquqi rejimi xüsusi qanunla müəyyən edilir. Bu barədə normalar öz təsbitini Azərbaycan Respublikasının "Ailə- kəndli təsərrüfatı haqqında" qanunda tapmışdır.
Ər- arvadın ümumi mülkiyyətində olan əmlakın hüquqi rejimi barədə müddəalar Mülki Məcəllənin 225- ci, Ailə Məcəlləsinin 31- 37- ci maddələri ilə təsbit olunmuşdur.
Mülki Məcllənin 225. 1- ci maddəsində qeyd olunur ki, Ər- arvadın birgə ümumi mülkiyyət hüququnun obyekti kimi birgə nikah dövründə əldə edilən və qazanılan əmlak çıxış edir. Əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, onların ümumi mülkiyyətidir. Həmçinin, Ailə Məcllləsinin 32.1- ci maddəsində qeyd olunur ki, nikah müddətində ər- arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Ər- arvadın birgə mülkiyyətinə onların hər birinin qanunla qadağan edilməyən fəaliyyət (Əmək, sahibkarlıq və ya intelektual fəaliyyət) nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, onların ümumi gəlirləri hesabına əldə edilən əşyalar, qiymətli kağızlar, kredit idarələrinə qoyulmuş əmanətlər və nikah dövründə ər- arvadın qazandığı qanunla qadağan edilməyən istənilən əmlak daxildir.
Ər- arvadın birgə mülkiyyət hüququnun obyekti kimi aşağıdakılar çıxış edə bilməz:
- Nikaha girənədək ər- arvadın hər birinə mənsub olmuş əmlak;
- Ər və arvaddan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak;
- Zinət əşyaları və daş- qaş şeyləri istisna olmaqla, fərdi istifadədə olan əmlak (Paltar, ayaqqabı, yataq dəsti v.s).

Bu obyektlər birgə mülkiyyət hüququnun obyekti deyil və ər- arvadın hər birinin ayrıca mülkiyyəti hesab olunur. Ola bilər ki, fərdi istifadədə olan əmlaklar (paltar, ayaqqabı, geyim v.s) birgə nikah dövründə ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsin, buna baxmayaraq ər- arvaddan kimin istifadəsində olursa, ona məxsusdur.
h.ü.f.d, dosent, Ş.B.Yusifov qeyd edir ki, nikaha qədər ərə və ya arvada keçən əmlak nikaha xitam verilərkən onların birgə ümlkiyyəti hesab edilmir. Həmin əmlak o halda birgə mülkiyyət hesab edilir ki, birgə nikah dövründə həmin əmlakın dəyərinin əhəmiyyətli dərəcədə artmasına əlavələr və dəyişikliklər edilmiş olsun.
Misal: Oğlanın və ya qızın nikaha girməzdən əvvəl birmərtəbəli evi var. Əgər nikaha girdikdən sonra yardımçı tikililər vasitəsilə evə yeni bir mərtəbə artırılırsa və ya qiymətinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərən əlavələr və dəyişikliklər edilibsə, nikaha xitam verilərkən ər- arvadın evin əvvəlki vəziyyəti nəzərə alınmaqla birgə mülkiyəti yaranır.
Baxmayaraq ki, zinət əşyaları ər və arvadın hər birinin fərdi istifadə əşyasıdır, onlar nikaha xitam verilərkən birgə mülkiyyət hesab olunur.

4. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər

Araşdırmam nəticəsində belə qənaətə gəldim ki, MM- nin 218- ci maddəsində təsbit olunan "Satın almaqda üstünlük hüququ", həmin məcəllənin 6- cı maddəsində təsbit olunmuş müqavilələr azadlığı prinsipinin istisna halıdır. Çünki bu prinsipə görə, tərəflər müqvilənin tərəflərini seçməkdə azaddır. Lakin paydaşlardan biri öz payını istədiyi dərhal hər kəsə sata bilməz. İlk növbədə digər paydaşlara təklif etməlidir, çünki digər paydaşların həmin hissəni almaqda üstünlük hüququ var.

Araşdırdığım məhkəmə təcrübələrindən belə qənaətə gəldim ki, "Nikah Kontraktı" insitituti xarixi ölkələrdə, o cümlədən qonşu Türkiyədə geniş yayılsa da, bizim milli qanunvericiliyimiz üçün yeni bir institutdir. Qeyd olunur ki, əgər nikah kontraktında başqa hal nəzərdə tutlmayıbsa, birgə nikah dövründə əldə edilən əmlak ər- arvadın birgə mülkiyyəti hesab olunur və nikaha xitam verildikdə əmlak cütlüklər arasında bərabər şəkildə (50% və 50%) bölünür. Nikah kontraktınında mahiyyəti ondadır ki, ər və arvad nikaha daxil olduqları zaman və ya nikahda olduqları istənilən dövrdə əmlak barəsində nikah kontraktı bağlaya bilər və bu sənəddə birgə nikah dövründə əldə edilən əmlakın nisbətini müəyyən edə bilərlər. Məsələn, ər və arvad müəyyənləşdirə bilər ki, birgə nikah dövründə əldə edilən əmlakın 40 %- i arvadın, 60 %- i ərin olsun. Lakin nikah kontraktı qanunvericilikdə formal olaraq təsbit olunsa da, mental dəyərlərimiz önə çəkilərək bu imkandan istifadə edilmir. Vətəndaşlarımız ailə münasibətlərinə daxil olan zaman nikah kontraktının bağlanmasına birmənalı yanaşmırlar. Bu səbəbdən də nikaha xitam verildikdə, ar və arvad arasında əmlakın bölünməsi zamanı çox ciddi mübahisələr yaranır. Çox təəssüf ki, nikah kontraktına əməl olunmamasından bəzi vətəndaşar sui- istifadə edir. Bəzən ərin və ya arvadın ailə qurmaqda niyyəti təsərrüfatı birgə idarə etmək yox, birgə nikah dövründə yoldaşından əmlak ələ keçirmək olur.

Misal: Oğlan və ya qız məşhur ifaçıdır, illik gəliri kifayət qədərdir. Bir şəxs onun əmlakını ələ keçirmək üçün onunla ailə münasibətlərinə daxil olur, qısa bir müddət sonra isə boşanmaq üçün iddia qaldırır. Nəticədə qısa bir vaxt ərzində əldə edilən əmlak onların birgə mülkiyyətinə çevrilir, sui istifadə edən ər və ya arvad bu əmlakdan özünə pay tələb etmək hüququ qazanır. Məncə, bu halların qarşısını almaq üçün dövlət səviyyəsində " Nikah kontraktı" institutunun əhəmiyyəti barədə ilə bağlı maarifləmdirmə tədbirləri həyata keçirilməlidir. Bu barədə hüquq normalarının sayı artırılmalıdır. Zənn edirəm ki, belə olsa, məhkəmə qaydasında birgə mülkiyyətdə olan əmlakla bağlı qaldırılan iddiaların sayı əhəmiyyətli dərəcədə azalacaq. Metronun İnşaatçılar, Elmlər Aakademiyası, 28 May, Gənclik və N. Nərimanov stansiyası yaxınlığında apardığım müsahiblərin nəticələrinə əsasən belə qənaətə gəldim ki, əhalinin 90%; - dən çoxu nikah müqaviləsi bağlamadan ailə- nikah münasibətlərinə daxil olur. Müsahiblərimin gənc nəslə olan hissəsi nikah müqaviləsinin qarşılıqlı məhəbbət, etibar, hörmət hislərini öldürdüyünü, cütlüklər arasında səmimi münasibətlərin yoxa çıxmasına səbəb oluduğunu bildirdilər. Yaşlı nəslə aid olan hissəsi isə məhkəmənin predmeti olan ailə mübahisələrinin əksəriyyətini əmlak münasibətləri təşkil etdiyi üçün nikah müqaviləsinin mütləq bağlanmalı olduğunu vurğuladılar. Deməli, hüquqi maarifləndirmə xüsusilə də çılğın və ehtiraslı eşq yaşayan gənc nəsil arasında aparılsa, daha effektiv nəticələr əldə etmək mümkündür.

Mən hüquqşünaslıq ixtisasında təhsil alan bir tələbə kimi hesab edirəm ki, ər- arvad onların birgə mülkiyyətində olan əmlakı üzərində paylı mülkiyyət rejimi yarada və onları paylı mülkiyyət şəklində idarə edə bilərlər. Misal: A şəxs və B şəxs qanuni nikahdadırlar, lakin nikah kontraktı bağlamayıblar. Onlar, nikah dövründə müəyyən əmlak (Məsələn, mənzil) əldə edirlər. Bir müddət sonra istəyirlər ki, onlar əldə etdikləri əmlak üzərində bərabər paya sahib olsunlar. Bir çox dünya dövlətlərində ər- arvada bu cür hüquq verilir və bu hüquq müqavilələr vasitəsilə realizə olunur. Bu müqavilələr notariuslar tərfindən rəsmiləşdirilir və daşınmaz əmlaka hüquqların qeydiyyatı orqanlarında qeydiyyatdan keçirilir. Nəticədə, arvad (ər) özünə düşən paya digər tərəfin razılığı olmadan müstəqil şəkildə sərəncam vermək imkanı qazanır. Hesab edirəm ki, bu imkan mülkiyyətçilərə öz mülkiyyət hüquqlarını öz azad iradələrinə əsasən həyata keçirmələri(iradə azadlığı) prinsipinə uyğundur. Bir sözlə, mənim fikrimcə birgə mülkiyyət üzərində paylı mülkiyyət rejimi yaratmaq olar. Amma paylı mülkiyyət üzərində birgə mülkiyyət rejimi yaratmaq mümkün deyil.

Araşdırdığım məhkəmə təcrübələrindən belə qənaətə gəldim ki, dövrümüzdə məhkəmələrdə ər və ya arvadın iddia qaldırdığı iddia uydurma əqdlərlə bağlıdır.

Misal 1. Nikah dövründə ər- arvad bağ evi əldə edir. Ər boşanmaq fikrinə düşür və evdən arvada pay verməmək üçün bir növ hiylə işlədir. Nikaha xitam verilməmişdən qabaq arvadın da razılığını alaraq bağ evini üçüncü bir şəxsə bağışlama müqaviləsi ilə bağışlayır. Nikaha xitam verildikdə arvada məlum olur ki, bağ evi uydurma əqd vasitəsilə üçüncü şəxsə bağışlanıb və mülkiyyət hüququ hələ də ərin özündədir. Nəticə də, arvad məhkəmə qaydasında iddia qaldırmaqda haqlıdır ki, bağ evi üzərində mülkiyyət hüququ deyure(hüquqi) olaraq başqa şəxsin əlində olsa da, defakto(faktiki) olaraq ərin əlindədir. Bu yolla əmlakdan pay tələb edə bilər.

Misal 2. Nikah dövründə əldə olunan avtomobili ər etbarnamə ilə bir şəxsə verir. Bu vəziyyətdə əqdin növü alğı- satqı müqaviləsi yox, etibarnamə olduğuna görə notarius arvadın imzasını tələb etmir. Nikaha xitam verilərkən arvad məhkəmə qaydasında iddia qaldırmaqda haqqlıdır ki, bu əqd uydurma əqd olub alqı- satqı müqaviləsinin əvəzinə bağlanıb. 30.000 manat dəyərində olan avtomobilin 15.000 manatını tələb edirəm.

İkinci misalda təsbit olunan problemlərin sayının azaldılması üçün təklifim budur ki, birgə mülkiyyətdə olan əmlak etibarnamə ilə üçüncü şəxsə verilirsə, yalnız ərin və ya arvadın birinin yox, hər ikisinin imzası(icazəsi) olsun. Çünki əmlak onların birgə mülkiyyətindədir, hər ikisinin daxili inamı olmalıdır. Zənnimcə, belə olsa, bu halla bağlı məhkəmə qaydasında qaldırılan iddiaların sayı əhəmiyyətli dərəcədə azalacaq.

Bu abzas daxilində şəxsi araşdırmalarım nəticəsində qanunvericiliyimizin müxtəlif sahələrində aşkarlanmış ziddiyyət nəzərinizə çatdırılacaqdır. İlk öncə konkret kazusa nəzər salaq. Məsələn, bir şəxs bir qadınla Azrbaycan Respublikasında rəsmi nikahdadır. Lakin 18 ildir ki, Moskva şəhərində yaşayır, Azərbaycanda nikahda olduğu arvadı ilə son 18 ildə heç bir əlaqəsi yoxdur. Bu 18 il ərzində həm Azərbaycanda, həm də Rusiyada müxtəlif çoxsaylı mənzillər əldə edib. 19- cu ilə keçdikdə isə ər vəfat edir. Sual yarana bilər ki, 19 ildir bir- biri ilə heç bir əlaqəsi olmayan cütlüklərin bu illər ərzində əldə edilən əmlaka birgə mülkiyyət hüququ yaranır yoxsa, yaranmır? Bu məslənin həlli üçün bir -birilə ziddiyyət təşkil edən normalar mövcududur. Ailə qanunveriliyində qeyd edilir ki, birgə nikah dövründə əldə edilən əmlak ər- arvadı birgə mülkiyyəti hesab olunur. Mülki qanunvericiliyimizin "Vərəsəlik hüququ institutu" daxilində isə qeyd edilir ki, rəsmi nikahda olan ər və arvad bir- birlərindən sonra vərəsə ola bilərlər. Vərəsəlik hüququ daxilində konkret qeyd edilir ki, ər- arvad rəsmi nikahda olsalar belə, son 3 il ərzində onlar ər- arvad münasibətlərində olmayıblarsa, təsərrüfatlarını birgə idarə etməyiblərsə, bu zaman onlar boşanmış şəxslərə bərabər tutulur. Həmçinin, ərin ölümündən sonra arvad ərdən sonra vərəsə ola bilməz. Ərin övladları məhkəmə qaydasında mübahisələndirə bilər ki, anamızın son 19 ildə atamızla heç bir əlaqəsi yoxdur. Gördüyümüz kimi vərəsəlik qaunvericiliyi 3 il ər- arvad münasibətlərində olmayan, təsərrüfatı birlikdə idarə edə bilməyən şəxsləri boşanmış şəxslərə bərabər tutur. Həmçinin rus müəlliflərinin mövqeyi də bu fikri təstiqləyir. Çünki onlar qeyd edirlər ki, nikah dedikdə, yalnız bir kağız parçasında rəsmi nikahın qeydiyyata alınması deyil, ailə qurmaq niyyəti əsasında təsərrüfatın birlikdə idarə edilməsi başa düşülür. Mən Ailə məcəlləsində bu barədə təsbit olunmuş müvafiq normaların vərəsəlik qanunvericiliuyində təsbit olunmuş bu normaya uzlaşdırılmasını, qanunvericiliyimizin iki müxtəlif sahəsi arasında ziddiyyətlərin(kolliziyaların) aradan qaldırılmasımı təklif edirəm.

Nəticə

Bütün qeyd etdiklərim bizə belə qənaətə gəlirməyə əsas verir ki, Ümumi mülkiyyət hüququ mülkiyyət hüququnun xüsusi bir növüdür. Hələ Qədim Roma hüququndan Mülkiyyət hüququnun üç əsas özəyi (sahiblik, istifadə və sərəncam) bizə məlumdur. Həmçinin Roma hüquqşünasları mülkiyyət hüququnun xüsusi növü olan "ümumi mülkiyyət" anlayışını da qəbul edirdilər. Əşya üzərində mülkiyyət hüququnun bir şəxsə məxsus olması ilə xüsusi(fərdi) mülkiyyət, iki və daha artıq subyektə məxsus ümumi mülkiyyət yaranır. Ümumi mülkiyyət hüququnu xüsusi bir növ edən ən əsas amil subyektlərin say çoxluğudur. Ümumi mülkiyyət məzmununa görə paylı və birgə mülkiyyət olmaqla iki yerə bölünür. Ümumi mülkiyyət hüququnun spesifik xüsusiyyətləri var, ümumi mülkiyyət hüququ müxtəlif əsaslarla yaranır. Bütünlükdə, ümumi mülkiyyət hüququ yalnız mülki hüquq qanunvericilik vasitəsilə yox, həmçinin ailə hüquq qanunvericiliyi, mənzillə bağlı olan hüquq normaları vasitsilə də formalaşdırılmışdır. Müxtəlif mənbələrə nəzər saldıqdan sonra mənə aydın oldu ki, həm yerli, həm də xarici sivilist alimlər ümumi mülkiyyət hüququnun fərqli xüsuiyyətlərini müəyyənləşdirib. Lakin onların yanaşmaları məzmun etibarilə eynidir. Məsələn, hər birinin yanaşmasından müşahidə edə bilərik ki, bu əlamətlərə əşya üzərində sahiblik, istifadə və sərəncam hüquqlarının subyektlər tərəfindən birlikdə həyata keçirilir; Subyektlərin çoxluğu müşahidə edilir; ümumi mülkiyyət hüququnun obyektinin vahidlik xüsusiyyəti var v.s.

İstinad edilən mənbələr:

1. R.A,Göyüşov / R.A,Göyüşov/ Ş.M.Yusifov - Mülki Hüquq(ümumi hissə) dərsliyi
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Hüquq yayın evi .BAKI-2020
3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Hüquq yayın evi. BAKI-2020
4. Prof. Sabir Allahverdiyev Azərbaycan Respublikasının Mülki Hüquq kursu 2- ci cild
5. MÜLKİ MƏCƏLLƏ/FƏSİL 10/MÜLKİYYƏT HÜQUQUNUN XÜSUSİ NÖVLƏRİ/ ÜMUMİ MÜLKİYYƏT (MADDƏ213-225.6)

6. BİRGƏ MÜLKİYYƏTLƏ BAĞLI MƏHKƏMƏ İŞİ--- *http://www.bakuappealcourt.gov.az/uploads/images/document/3195_d116ca72c5439fde541bded08070edcd.pdf*
7. PAYLI MÜLKİYYƏTLƏ BAĞLI OLAN MƏHKƏMƏ İŞİ--- *http://bakuappealcourt.gov.az/uploads/images/document/606_549ea6d9ed47be5c7640ddcc57fd0499.pdf*
8. Mülki və əmək hüququ - Ümumi mülkiyyət hüququ (Piriyeva İlhamə)
9. AR KONSTİTUSİYASI, İKİNCİ BÖLMƏ: ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR, III FƏSİL: ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARI MADDƏ 29. MÜLKİYYƏT HÜQUQU
10. BAKI DÖVLƏT ÜNİVERSİTETİNİN TƏLƏBƏ HÜQUQ JURNALI/ƏMRAH RƏHMANOV/ PAYLI MÜLKİYƏT
11. *Azərbaycan Respublikası Mülki Məcəlləsinin 220.6 və 221-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin plenum qərarı-*

FİKİR VƏ İFADƏ AZADLIĞI ƏSAS SİYASİ HÜQUQ VƏ AZADLIQLARDAN BİRİ KİMİ

Dilarə Əlisoylu
alisoyludilara@gmail.com
Hüquqşünaslıq ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Fikir və ifadə azadlığı bir-biri ilə daim qarşılıqlı əlaqədə olan hüquqlardır. Sadə dildə desək, fikir azadlığı ifadə azadlığının realizəsinin əsasını təşkil edir. Konstitusion norma olan fikir və ifadə azadlığı bir sıra beynəlxalq paktlarda və konvensiyalarda da öz əksini tapmışdır. XX əsrin beynəlxalq təcrübəsinə əsaslanaraq qeyd edə bilərik ki, ifadə azadlığı elə bir azadlıqdır ki, burada hətta təhqiramiz çıxışlar qanunla qorunur, qeyri-qanuni fəaliyyət göstərən mətbuatın fəaliyyəti öz əksini tapır və hər bir şəxs öz sözlərini seçməkdə azad olur. Fikir və ifadə azadlığı bu günkü həyatımızda mühüm yerə sahib olan KİV ilə sıx əlaqədədir və bu sahədə baş verə biləcək qanun pozuntuları hüquqi məsuliyyətə səbəb olur. Həmçinin ifadə azadlığı mütləq hüquq olmadığından nəzərdə tutulmuş hallarda məhdudlaşır. İfadə azadlığı sahəsində olan problemli məsələlərə də toxunulur.

Açar sözlər: Fikir azadlığı, ifadə azadlığı, söz azadlığı, kütləvi informasiya vasitələri, hüquqi məsuliyyət.

GİRİŞ

Düşünmək insanı digər canlılardan fərqləndirən bir qabiliyyətdir. İnsan daim araşdırır, yeni şeylər kəşf edir və bunun nəticəsidir ki, o, faktları müşahidə etmək, onları qiymətləndirmək, mühakimə etmək və davranışlarını buna uyğun istiqamətləndirməklə həyatına məna verir.

Fikir və ifadə azadlığı bütün insanlara fikirlərini ifadə etmək, məlumat axtarmaq, almaq və yaymaq hüququ verir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi fikir və ifadə azadlığını "şəxsin hərtərəfli inkişafı üçün əvəzsiz şərtlər" kimi qiymətləndirib. İfadə azadlığı plüralist dialoqa imkan verir və tənqidi səslər üçün təhlükəsiz platforma yaradır. İfadə azadlığı hüququnun pozulması, bütövlükdə, cəmiyyət üçün geniş təsirlərə malikdir. İfadə azadlığı demokratiyanın təməl dəyərlərinin əsasını təşkil edir və azad və müstəqil media məkanı üçün vacibdir. Buraya hər kəsin, xüsusən də, insan hüquqları müdafiəçilərinin informasiya texnologiyaları və radio, televiziya və internet də daxil olmaqla öz seçdiyi mediaya çıxış və onlardan istifadə etmək hüququ daxildir.

Fikir və ifadə azadlığı hazırda kifayət qədər yaxşı həyata keçirilə bilmir. Buna səbəb isə insanların bu azadlığı düzgün dərk etməyərək müxtəlif qanun pozuntusu törətməsi, jurnalistlərin təqiblərə məruz qalması və s.dir.

Bu məqalədə fikir və ifadə azadlığının anlayışı, bu sahədə beynəlxalq təcrübə, KİVlə sıx əlaqəsi, məhdudlaşdırılma əsasları, bu sahədə olan problemli hallara toxunulmuşdur.

3. TƏDQİQAT METODU

Bu məqalə yazılarkən yerli və xarici internet resurslarından, bu sahədə mövcud məqalələrdən istifadə edilmişdir. Araşdırma aparılarkən analiz, sintez, induksiya, deduksiya və müqayisəli metodlara üstünlük verilmişdir.

Fikir və ifadə azadlığı. Sözsüz ki, hər bir demokratik cəmiyyətin tendensiyalı inkişafı üçün fikir və ifadə azadlığının rolu danılmazdır. Fikir və ifadə azadlığı çox geniş məfhum olduğundan bir çox sahədə öz əksini tapır. Biz gündəlik həyatımızda heç özümüz də bilmədən bu hüququmuzu realizə edirik. Məsələn, istədiyimiz şəxslərlə görüşürük, istədiyimiz geyimi geyinirik, saçımızı istədiyimiz rəngə, formaya salırıq və s.

İfadə azadlığı bir şəxsin və ya bir topluluğun senzuradan və ya qanuni sanksiyadan qorxmadan fikir və düşüncələrini ifadə etmək azadlığını dəstəkləyən bir prinsipdir. Başqa sözlə, ifadə azadlığı, bir şəxsin və ya bir qrup şəxsin hökumət senzurasından azad olaraq fərqli mövzularda inanclarını, düşüncələrini, fikirlərini və duyğularını ifadə etmə qabiliyyətini ifadə edir, xüsusən də bir şəxsin ifadə azadlığı hüququnun qanunsuz olaraq məhdudlaşdırıldığı zaman başqalarının məlumat və fikirləri 'almaq' hüququnun da pozulduğu deməkdir. Professor T. İ. Emersonun da qeyd etdiyi kimi, ifadə azadlığı insanın adi bir fərd olaraq haqqıdır. İnsan həyatının ən böyük məqsədi bir insan olaraq xarakter və potensialını gerçəkləşdirməkdir. Düşüncə insanın daxili həyatının ən gizli sahəsindən yaranır. Bu zaman, əslində, bu düşüncə öz xüsusiyyəti ilə hüququn tənzimlənməsi sahəsinə daxil olmur, çünki hüquq öz məqsədi etibarilə xaricdə ifadə olunan davranışı tənzim edir. Şəxsiyyətin daxili məkanı, onun mənəvi dünyası nə redaktə edilə bilir, nə müdaxilə edilə bilir, nə məhdudlaşdırıla bilir, nə də rəsmi orqanların və üçüncü şəxslərin hücumuna məruz qalır. Lakin düşüncə öz-özünə meydana gəlmir. Ona, əsasən, xarici amillər, siyasi düşüncələr, iqtisadi şərait, milli mentalitet, radio, televiziya və digər ünsürlər təsir edir və formalaşdırır.

Çox zaman müşahidə edirik ki, cəmiyyətdə, xüsusən hüquqi biliyi olmayan fərdlərdə fikir və ifadə azadlığına eyni məfhum kimi yanaşılır. Lakin bu iki azadlıq hər nə qədər bir-biri ilə bağlı olsalar da, fərqlidirlər. Belə ki, fikir azadlığı adından da göründüyü kimi, hər bir fərdin və ya topluluğun sərbəst öz düşüncəsini formalaşdırmaq azadlığıdır. Bəzi cəmiyyətlərdə ideoloji sistem ele qurulur ki, fərdlərin sərbəst düşünmək azadlığı olmur və ya bu düşüncə kənar təsirə məruz qalır. Lakin hər nə qədər bir şəxsin fikrinə müdaxilə edilsə də, onu dəyişməyə çalışılsa da, sərbəst düşüncəyə imkan yaradılmasa da, onun bütöv fikrinə hakimlik etmək qeyri-mümkündür. İfadə azadlığı isə fikir azadlığının realizə formasıdır. Hesab edirəm ki, ifadə azadlığı cəmiyyətdə daha çox və mühüm nəticələrə səbəb olur, nəinki fikir azadlığı. Çünki fikir şəxsin düşüncəsinin məhsuludur və bu düşüncə, qeyd etdiyim kimi, dəyişdirilə, təsirə məruz qala bilməz, hətta, bəlkə də, ümumiyyətlə bu düşüncədən xəbər tutula bilməz. Lakin ifadə azadlığı artıq xaricdə ifadə edildiyinə görə nəticəsiz qalmır. Avtoritar, totalitar, qısası, anti-demokratik ölkələrdə ifadə azadlığı bir hüquq kimi realizə oluna bilmir. Ötən əsrdə baş tutmuş və təxminən otuz il davam etmiş represiya hadisələri və onun qurbanları ifadə azadlığının pozulmasına ən yaxşı nümunə ola bilər. Əsərlərində represiyanı pisləyən, milli dövlətçilik əqidəsinə, milli hissiyata bağlı olan yazıçılarımız, şairlərimiz represiya qurbanları olmuşlar.

Fikir azadlığı 3 əsas elementdən ibarətdir:

1. Məlumat əldə etmək azadlığı- Şəxsin düşüncəsinin formalaşmasından əvvəlki mərhələyə aiddir. İnsanlar araşdırmaq, hər hansı mövzu ilə bağlı fikir formalaşdırmaq üçün informasiya resurslarına sərbəst şəkildə daxil olurlar, onların arasından istədikləri resursu seçir və beləliklə, istədikləri nəticəyə gəlirlər. Məlumat azadlığı insanlar üçün fikir formalaşdırmaq məqsədi ilə xammal rolu oynayır. Bu hüquq müəyyən rəy formalaşdırmaq və düşünmək imkanı verdiyi üçün azadlığın ilkin şərti və ya əsas elementidir.

2. Fikir azadlığı- Məlumat azadlığının nəticəsi kimi fikir azadlığı formalaşır. Heç kəs öz düşüncələrinə görə təqibə məruz qala bilməz. Hər kəsin öz fikrini formalaşdırmaq hüququ var və heç kəs şəxsi zorlayaraq ondan fikrini açıqlamağı tələb edə bilməz.

3. İfadə azadlığı- Fikir azadlığının xaricdə ifadə formasıdır. İfadə azadlığı olmadan fikir azadlığının əhəmiyyəti yoxdur. İnsanın zehninə həbs olmuş və xaricdə ifadə olunmayan düşüncə ona heç bir fayda vermir. Şəxsin beynində formalaşıb, elə beynində bitən "azadlığ"a heç "azadlıq" da demək olmaz.

Fikir azadlığı insanın sərbəst şəkildə məlumat əldə edə bilməsini, fikir və mülahizələrinə görə qınanmamaq, təkbaşına və ya başqaları ilə (birliklər, həmkarlar ittifaqları və s.), müxtəlif yollarla (söz, mətbuat, şəkil, kino, teatr və s.), müdafiə etmək və başqalarına ötürmək qabiliyyətini ifadə edir. Bu azadlıqda əsas məsələ fərdin formalaşdırdığı düşüncəni ifadə edə bilməsidir. Şəxsin açıqlaya bilmədiyi,

yaya bilmədiyi, müdafiə edə bilmədiyi fikrin qanunla qorunması fikir azadlığının varlığının sübutu ola bilməz.

Fikir və ifadə azadlığı beynəlxalq aktlarda. Fikir və ifadə azadlığı əsas beynəlxalq insan hüququdur. Azərbaycan Respublikası bu hüququn səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün bir sıra beynəlxalq aktlara tərəf çıxmışdır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin18 və 19-cu maddələri bu azadlığı özündə ehtiva edir. 18-ci maddədə deyilir: "hər bir şəxs düşüncə, vicdan və din azadlığı hüququna malikdir"; 19-cu maddədə deyilir: "Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir: bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir."

Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda da 18 və 19-cu maddələrdə bu hüquq öz əksini tapır. Avropa İnsan Hüquqları Konvensiyasının 9-cu maddəsində "vicdan və din azadlığı" "fikir azadlığı" ilə yanaşı qeyd olunub və fikir və ifadə azadlığına dair əsas tənzimləmə 10-cu maddədə əks olunub. " Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir."

Azərbaycan Respublikası fikir və ifadə azadlığını özünün ən yaxşı səviyyəsində həyata keçirmək üçün həm konstitusion normalarda bu hüququ təsbit edir, həm də beynəlxalq aktları uğurla ratifikasiya edir. Bu, inkaredilməz bir haldır ki, hər bir cəmiyyətin inkişafı üçün demokratiyanın yeri əvəzedilməzdir. Və məhz demokratiya şəraitində fikir və ifadə azadlığı həyata keçirilir. Çünki fikir və ifadə azadlığı elə öz-özlüyündə demokratiyanın inkişafına təkan verir. Azərbaycan Respublikası da demokratik ölkə olduğundan fərdlərin, mətbuatın, internet saytlarının, radio və televiziyanın da bu hüququ həyata keçirilir. Azərbaycan Respublikasının Konstitusiyanın 47-ci maddəsində hər kəsin fikir və söz azadlığının olduğu, bu azadlığın irqi, cinsi, dini, sosial və s. meyarlara əsasən hər hansı bir ayrı-seçkiçiliyə məruz qalmaması qeyd olunmuş, eyni zamanda bildirilmişdir ki, heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya bu əqidə və fikirlərdən imtina etməyə məcbur edilə bilməz.

Gəlin, fikir və ifadə azadlığının mahiyyətini daha yaxşı dərk etmək üçün beynəxalq təcrübədə öz əksini tapmış 3 real hadisəyə istinad edək.

1) **Bu azadlıq elədir ki, hətta təhqiramiz çıxışlar belə beynəlxalq səviyyədə qorunur.** Məsələn, Brandenbuqun Ohayoya qarşı çıxışı. 1964-cü ildə irqçi təşkilat olan Ku Klux Klan-ın bir qolunun lideri lentə alınan mitinqdə etdiyi çıxışda zorakılığı təbliğ etdiyi üçün həbs olundu. Çıxışlarında o, afroamerikalılara və yəhudilərə qarşı "intiqam" almaqdan danışdı. Ali Məhkəmə təhrikedici çıxışın Konstitusiya ilə qorunduğuna qərar verib.Belə ki, Məhkəmə cinayət əməlini müdafiə edən çıxışla dərhal cinayətə təhrik edən çıxış arasında fərq qoymuşdur. Hüquq professoru E. Volox deyir, "Beləliklə, əgər kimsə binanın kənarında camaata nitq söyləyirsə və "gəlin bu binanı yandıraq" deyirsə, bu, cəzalandırıla bilər."

2) **Qorxusuz mətbuatın fəaliyyəti.** 1960-cı ildə The New York Times, Alabama ştatının Montqomeri şəhərində polisin hərəkətlərini pisləyən Vətəndaş Hüquqları hərəkatını dəstəkləyən bir reklam dərc etdi. Montqomeridəki ictimai təhlükəsizlik komissarı qəzeti böhtan (yalan bəyanatlar dərc etmək) üçün məhkəməyə verdi, çünki reklamdakı bəzi iddialar açıq şəkildə yalan idi. Lakin Ali Məhkəmə qəzetin bu hüququnun qanunla qorunduğu nəticəsinə gəlib. E. Volox qeyd edir ki, işin mühüm presedenti ondan ibarətdir ki, "hökumət məmurları ilə bağlı vicdanlı səhvlər, hətta yalan və məmura ziyan vuran olsa belə, konstitusiya ilə qorunmalıdır, çünki əks halda insanlar hökumət rəsmilərini tənqid etməkdən çəkinəcəklər".

3) **Sözləri seçməkdə azad olmaq.** On doqquz yaşlı Paul Koen, Kaliforniya məhkəməsində ədəbsiz sözlərlə layihəyə etiraz edən pencək geyindiyinə görə həbs edilib. Məhkəmə bildirib ki, Koenin layihəyə qarşı çıxış etmək hüququ var, lakin bunu ictimai yerdə nalayiq sözlərlə etmək hüququ yoxdur. İşdən Ali Məhkəməyə şikayət verildikdə, Məhkəmə bununla razılaşmayıb. "Məhkəmə insanların öz sözlərini seçməkdə azad olmasının vacib olduğunu söylədi" E.Volox qeyd edib. "Bu sözlər qəzəbli sözlər olsa belə, hətta təhqiredici sözlər kimi görünən sözlər belə. Bunun özü də mesajın mühüm hissəsi ola bilər".

Təhlilinin sonunda Volox bu məsələyə toxunur ki, bu halların hər biri həm də söz azadlığının konkret və çox dar sərhədlərini göstərir. Ku Klux Klan liderinin həyata keçirdiyi əməl, əgər onun çıxışı dinləyiciləri dərhal cinayət törətməyə, dərhal talan etməyə, iğtişaşlar törətməyə və ya binaları yandırmağa sövq edərdisə, bu artıq qanunla qorunmayacaq. Qeyri-dəqiq məlumatı dərc edən qəzetə gəldikdə, qəzet bilərəkdən və məqsədyönlü şəkildə yalan dərc edərsə, həmin nitq forması qorunmur. Volox deyir ki, ictimai yerdə ədəbsizlikdən istifadə konkret bir şəxsə qarşı yönəlsəydi və "döyüş sözləri" kimi nəzərdə

tutulsaydı, qorunmazdı. Yuxarıda qeyd etdim ki, fikir və ifadə azadlığı digər sahələrlə qarşılıqlı əlaqədədir. Ən əsas isə informasiya hüququ, KİVlə bu hüququn əlaqəsi genişdir. Artıq elə bir dövrdür ki, insanlar öz düşüncələrini sosial media üzərindən tvit atmaqla və ya paylaşılan hər hansı şəkilə, məlumata şərh yazmaqla bildirirlər. Tez-tez şahidi oluruq ki, insanlar "instagram" , "twitter" kimi platformalarda kiçik ziddiyətlər və ya düşüncələrinin fərqli yöndə olması nəticəsində hörmətsizlik nümayiş etdirərək bir-birlərini təhqir edirlər. Bəs "klaviatura arxasında şirə çevrilənlər"in bu əməllərinin hüquqi nəticəsi nə olur? Belə ki, real kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya internetdə böhtan və təhqir etmə Cinayət Məcəlləsinin (CM) 147 və 148-ci maddələri ilə məsuliyyətə səbəb olur.

Hüquq ədəbiyyatlarında belə bir ifadəyə rast gəlinir: "Bir şəxsin hüquq və azadlıqları digər şəxsin hüquq və azadlıqlarının başladığı ana qədərdir". Buradan belə bir nəticə çıxır ki, ifadə azadlığı mütləq hüquq deyildir, yəni bu azadlıq başqa şəxslərin maraq və mənafelərinə qəsd etdikdə, hüquqa zidd olduqda məhdudlaşdırılır. Milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq , sağlamlığın, yaxud mənəviyyatın qorunması, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq, dövlət və peşə sirri sayılan məlumatların təhlükəsizliyinin təmin olunması, ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün ifadə azadlığı qanunla nəzərdə tutulmuş müəyyən məhdudlaşmalara, sanksiyalara məruz qala bilər.

5. NƏTİCƏ

Qeyd edilənlərdən ümumi belə bir nəticəyə gəlmək olar ki, insan hüquqlarının əsas müddəalarından biri olan fikir və ifadə azadlığının təmin edilməsində respublikamızda kifayət qədər tədbirlər görülür. Beynəlxalq səviyyədə də mühüm tədbirlərin görülməsi bu sahəyə olan diqqəti artırır. Bu gün bu sahənin qorunmasının mühüm səbəbləri var:

1.İfadə azadlığı digər hüquqların da təməlidir və onlara platforma verir.
2.Azad mətbuat cəmiyyəti maarifləndirməyə kömək edir.
3.Məlumatlı seçicilər daha güclü demokratiya deməkdir.
4.Həmçinin daha ədalətli seçkilər daha yaxşı demokratiya deməkdir.
5.İfadə azadlığı olmadan hesabat məhdudlaşır.
6. Həmçinin digər azlıqların hüquqları da müdafiə edilir və s.

İfadə azadlığının bu qədər yüksək səviyyədə qorunmasına baxmayaraq, söz azadlığı hüququ olmayan bir cəmiyyətin daha pis vəziyyətə düşdüyünü göstərən bir neçə nümunə var. Özünü söz azadlığının qurucusu hesab edən Amerika konstitusiyasındakı ilk dəyişikliyə görə xalqının əsas hüquqlarını təmin edə bilmədi. Bununla yanaşı, bir çox başqa ölkə də siyasi qazanclarına görə insan haqlarını və söz azadlığını pozur. Nəticə olaraq, söz azadlığının cəmiyyət üçün qəlbin insanlar üçün vacib olduğu qədər vacib olduğunu söyləmək olar. İnsanlar bu faydanı uzun bir mübarizə nəticəsində qazandı. Bu səbəbdən, beynəlxalq mədəniyyətin işbirliyi ilə səy göstərməsi lazımdır, çünki bu, demokratik mədəniyyətin onurğasıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycana Beynəlxalq İfadə Azadlığı Missiyasının 7-9 sentyabr 2010-cu il tarixli hesabat- İfadə azadlığı təqib altında Azərbaycanda pisləşən media mühiti, səh 6-16
2. Ömer Korkmaz- Düşüncü özgürlüğü ve sınırları, səh 117-150
3. Ələsgər Məmmədli- İfadə azadlığında hüquqi məhdudiyyətlər və məsələlər, səh 4-12
4. Səyyad Məcidli- Beynəlxalq hüquq və Azərbaycan Respublikasının media qanunvericiliyi, səh 17-32, səh 49-66
5. İfadə azadlığı hüququ-təlim materialları toplusu, səh 29-36
6. Vəfa Məmmədli- Söz və fikir azadlığı sivil cəmiyyətin atributu kimi (məqalə)
7. Natiq Abdullayev- Söz azadlığı və cəmiyyətin gerçək maraqları (məqalə)
8. İFADƏ AZADLIĞI: Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu Maddəsinin Şərhi və Məzmunu üzrə Bələdçi, səh 6-11, səh 22-53
9. Azərbaycan Respublikasının Baş Prokurorluğunun internet saytı-İfadə azadlığı, məhdudiyyətlər
10. ShareAmerica website-Free speech
11. Council of Europe- Manual for Human Rights Education with Young people
12. Human Rights House Foundation website-Freedom of expression
13. Legal Service İndia e-journal-Social media and freedom of speech and expression

İNTERNET RESURSLARI

14. https://akinchi.org/ifade-azadligi-nedir/
15. https://www.ohchr.org/en/stories/2011/11/freedom-expression-everywhere-including-cyberspace

16. https://www.humanrights.is/en/human-rights-education-project/comparative-analysis-of-selected-case-law-achpr-iachr-echr-hrc/the-right-to-freedom-of-opinion-and-expression/what-is-freedom-of-opinion-and-expression
17. https://www.international.gc.ca/world-monde/issues_development-enjeux_developpement/human_rights-droits_homme/freedom_expression_media-liberte_expression_medias.aspx?lang=eng
18. https://www.equalityhumanrights.com/en/human-rights-act/article-10-freedom-expression

GƏLƏCƏYIN KRIMINOLOGIYASI: ELMIN INKIŞAFI CINAYƏTLƏRI ARAŞDIRMAQDA NECƏ KÖMƏK EDIR?

Mahmud Bayramov
mahmud.byram.03@gmail.com
Hüquqşünaslıq ixtisası, Dövlət Gömrük Komitəsinin Akademiyası

XÜLASƏ

Cinayət səhnəsini təsəvvür edin. Yatan bir cəsəd, səpələnmiş əşyalar, yerdə qan. Bir şəxs cinayətə görə ittiham olunur. İndi bu məqamda bir neçə sual yaranır. Təqsirləndirilən şəxsin qurbanı öldürməsinin səbəbi nə ola bilər, onu necə qətlə yetirib, təqsirləndirilən şəxsin həqiqətən də cinayəti törətməsinə dəlalət edən hər hansı sübut varmı, onun psixi durumu və şəraiti necə olub? Bu, kriminologiyanın cinayətin arxasındakı halların və səbəblərin müəyyən edilməsində öz rolunu oynadığı mərhələdir. Digər tərəfdən, elm dəqiq, etibarlı və qərəzsiz məlumat verən şəraitlə sübutlar arasında əlaqə yaratmağa kömək edir. Buna görə də, cinayət təhqiqatında kriminalistika və ədli tibb yanaşı gedir. Cəmiyyətin böyük texnoloji dəyişikliklərə məruz qaldığı bir həqiqətdir və bu dəyişikliklərlə cinayətkarlar da öz texnikalarını təkmilləşdirərək, şəxsiyyətlərini gizlətmək üçün daha yaxşı yollar mənimsəmişlər. Bununla yanaşı, indiki dövrdə hər bir insanın ağıllı telefonlara və internetə çıxışı var ki, bu da ortalama hər insanda elm və texnologiya haqqında daha yaxşı biliklərin əldə olunmasına səbəb olur. Texniki tərəqqi cinayəti barmağın ucunda əlçatan etdi. Bununla belə, elmin davamlı inkişafı cinayətkarları ələ keçirmək üçün yeni üsullar tapmağa kömək edir. Ədli Tibb biologiya, sosiologiya, cinayət psixologiyası, DNT profili, fizika, kimya, maye analizi, əl yazısı analizi, kompüter elmləri və s. kimi müxtəlif anlayışlardan ibarət bir vasitə olmaqla daha yaxşı cinayət araşdırması və ədalət mühakiməsi üçün qabaqcıl metodu təmin edir.

AÇAR SÖZLƏR: kriminologiya, DNT, məhkəmə ekspertizası

GIRIŞ

Məhkəmə ekspertizasının öyrənilməsində irəliləyiş bizə cinayət işlərinin açılması və təhqiqat zamanı yol verilən səhvlərin ifşa edilməsi üçün görünməmiş bir fürsət təqdim edir. Nəhayət, müstəntiqlərə cinayət işlərinə baxmaq və təqsirləndirilən şəxsləri tutmaq üçün lazımi vaxtda düzgün yola getməyə kömək edir. Buna görə də, cinayətlərin işlənməsi sahəsində işlərin ən tez və olduqca dəqiqliklə həllinə kömək edəcək inkişaf edən texniki irəliləyiş bildiyimizdən də artıq zəruridir. Yeganə tələb cinayət yerinin elmi təhlilindən perspektivli bir ipucudur və bu, müstəntiqlərə doğru yola getməyə kömək edir. Bu yolla, elm bütün istintaq prosesini sürətləndirmək üçün kriminologiya sahəsi və cinayət ədliyyə sistemi üçün faydalıdır.

Bir çox bəşəriyyətə yenilik gətirən kəşflərin banisi ABŞ vətəndaşı və ya digər dövlətlərə nisbətdə çox böyük resurslara malik olan dövlətlərin maliyyələşdirdiyi şəxslər olur ki, təəssüf ki bu prosesdə hətta yaxından iştirak edən həmyerlilərimiz olsa belə, bu əməyin nəticəsi Azərbaycan Respublikasına kifayət qədər xeyli müddət sonra çatır və bu ölkədaxili tərəqqi prosesinin bütün sahələrdə tədricən yavaşlanmasına səbəb olur.Eynilə də, kriminologiya cinayətkarları yaxalamaq və istifadə etdikləri üsul və vasitələri ifşaya çıxarmaq məqsədilə aparılan təhqiqat işlərinə böyük töhfə verir və kriminologiyanın tibb, fizika, kimya, DNT profili, biologiya, kompüter elmləri ilə olan sıx bağlılığı bu elm sahələrindəki yenilikləri dərhal tətbiqə yönəltməyi məcbur edir. Məhz bu səbəbdən elmin inkişafı daim hüquq-mühafizə orqanlarının, istintaq prosesini həyata keçirən şəxslərin diqqət mərkəzində qalmalıdır. Azərbaycan Respublikası

daxilində baş verən cinayətləri törədən şəxslərin yaxalanması statistikaya əsasən çətin proses olmadığı aşkar olunur, amma müəmmalı məsələ onunla bağlıdır ki, bəzən ibtidai istintaq mərhələsində yetərli sübutun olmaması, düzgün mexanikanın istifadə edilməməsi və əldə olan üsulların yenilənməsi zərurətindən təqsirli şəxs azadlığa çıxır və ya təqsiri olmayan bir şəxsin mühakimə olunaraq həbs olunmasına və azadlığının məhdudlaşdırılmasına səbəb olur. Bu hallar təkcə Azərbaycan Respublikasında deyil, hətta hazırda belə hallar ABŞ kimi dövlətlərdə də davam edir. Bunun da səbəbi cinayətkarların daim yenilənmiş texnika və üsullara ayaq uydurmağa çalışmasıdır. Hər nə qədər cinayətkarlar elmi inkişafa əks təsir göstərməyə çalışsa da, kriminologiya üçün çox böyük töhfə verəcək kəşflər elə də uzaqda deyil.

Məhkəmə metodologiyasında edilən irəliləyişlər gələcəkdə möcüzələr yaratmağa qadirdir. İndiki məhkəmə analizi qüsursuz olmasa da, gələcək daha yaxşı texnika təklif edə bilər. DNT analizi cinayət ədliyyə sistemində bəzi böyük inkişaflar edəcək. Gələcəkdə çox şey təklif edəcək müxtəlif məhkəmə vasitələrinə nəzər salaq:

- **DNT Fenotipi** - Bu texnika kriminologiya dünyasında böyük dəyişikliyə səbəb olacaq. Bu texnikadan istifadə etməklə, yalnız DNT nümunəsindən istifadə etməklə bir insanın portreti yaradıla bilər. Genlər dəri rəngi, saç rəngi, boy, göz rəngi, üz forması və bəzən hətta çəki kimi fiziki xüsusiyyətlərdən məsuldur. DNT insanın saysız-hesabsız xüsusiyyətlərini özündə cəmləşdirir və mütəxəssislərin fikrincə, hətta insanın coğrafi əcdadını belə deyə bilir. Ancaq insan bədəninin bəzi cəhətləri var ki, onları DNT daşımır. DNT-nin fenotiplənməsi hələ də tədqiq edilir və onun etibarlılığı sübut olunarsa, bu, cinayət araşdırması üçün əlamətdar bir inkişaf olacaqdır.
- **Bakterial imzalar** - İnsanların yalnız toxunduğumuz səthlərdə deyil, həm də nəfəs aldığımız havada hər yerdə buraxdığı bakteriya izləri üzərində araşdırma aparılır. Elmi araşdırmalar göstərir ki, insan orqanizmində hər kəsə xas olan bir çox bakteriya var. Bu bakteriya nümunələri cinayət yerində aşkar edilmiş izlərə uyğun gəlmək üçün şübhəli şəxsin nəcisindən götürülə bilər.

Barmaq izləri - Barmaq izləri uzun müddətdir ki, bir insanı tanımaq üçün istifadə olunur. Lakin elə hallar olub ki, onlar yanlış şəxsin məhkumluğa gətirib çıxarıb və bu, onların yanılmaz olmadığını göstərir. Ancaq son araşdırmalar, barmaqların uclarının insanın pəhrizinin bir hissəsi olaraq istehlak etdiyi yağlar və zülallar kimi bir çox maddə ifraz etdiyini göstərdi. Bu şeylər bəlkə də gələcəkdə izləri yoxlanılan şəxsin pəhrizində nə istehlak etdiyini də deyə bilər. Lakin bu cür mütərəqqi üsullar indiki dövrdə müstəntiqlər tərəfindən hələ də istifadə olunmur

İmmunoxromatoqrafiya, hazırlanmış test zolağına kiçik bir nümunə atmaqla xəstəlikləri yoxlamaq üsuludur. Nəticələr nisbətən tezdir və bu texnikadan istifadə edən ümumi testlərə COVID, İİV və hətta hamiləlik testləri daxildir. Məhkəmə ekspertizasında immunoxromatoqrafiya testləri subyektlərin bədən mayelərində olan maddələri, məsələn, dərmanlar və dərmanlar aşkar etmək üçün istifadə olunur.

Hətta laboratoriyaya ehtiyac olmadan tüpürcək nümunəsini immunoxromatoqrafiya vasitəsilə qiymətləndirmək üçün smartfon əsaslı sensor hazırlanmışdır.

LA-ICP-MS maşını, sınıq şüşə cinayət hadisəsində tapıldıqda, hətta kiçik parçaları birləşdirmək güllələrin istiqaməti, təsir gücü və ya cinayətdə istifadə olunan silahın növü kimi vacib ipuçlarını tapmaq üçün əsas ola bilər. Yüksək həssas izotopik tanınma qabiliyyəti sayəsində LA-ICP-MS maşını demək olar ki, istənilən ölçülü şüşə nümunələrini atom quruluşuna qədər sındırır.Sonra məhkəmə-tibb ekspertləri paltarda tapılan ən kiçik şüşə qırıntılarını belə cinayət yerindən götürülmüş şüşə nümunəsinə uyğunlaşdıra bilirlər.

TƏDQIQAT METODU

Elmi tədqiqat metodları olan müqayisəli təhlildən istifadə edilərək müxtəlif ölkələrdəki kriminalogiya elmini Azərbaycan Respublikası kriminologiya elmi ilə qarşılıqlı təhlilin aparılması məqalənin hazırlanması üçün mühüm rola malik oldu. Ayrı-ayrı elm sahələrinin kriminologiyaya verdiyi töhfəni analiz metodundan istifadə etməklə ümumi aspektdən nəzərdən keçirməklə bu elm sahələrinin gələcək inkişafını cinayət araşdırmasında rolu müəyyən olunur. İstifadə olunan materiallar qismində , əsasən, xarici hüquq bürolarının saytlarında yerləşdirilən məqalələr, həmçinin milli kitabxanada mövcud olan kriminologiya elminə aid mənbələr çıxış edir.

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Bu fəsildə tədqiqat işinin səmərəliliyi açıqlanmır, ancaq aparılmış təcrübə və nəticəsi açıqlanır.

NƏTICƏ

Məhkəmə-tibbi araşdırmaların asanlaşdırılması bizə cinayət işlərini həll etmək və istintaq zamanı buraxılmış səhvləri üzə çıxarmaq üçün misilsiz imkan yaradır. Nəhayət, o, müstəntiqlərə cinayət işlərini lazımi vaxtda və düzgün yolda təqib etməyə və təqsirləndirilən şəxsləri həbs etməyə kömək edir. Buna görə

də, cinayət ittihamları sahəsində işin mümkün qədər tez və ədalətli şəkildə həllinə kömək edəcək inkişaf edən texnoloji irəliləyişlərə həddən çox ehtiyac var . Əsas tələb cinayət yerinin elmi təhlilindən əldə edilən perspektivli ipucu, müstəntiqləri düzgün yola getməyə xəbərdar etməkdir. Bu yolla, elm kriminologiya və cinayət ədliyyə sistemi sahələrində bütün istintaq prosesini sadələşdirməyə kömək edir. Yuxarıdakı müzakirədən belə bir nəticəyə gəlmək olar ki, DNT cinayət təhqiqatında məhkəmə tibb elminin gələcəyi olacaq. DNT bədənin bir neçə komponentində olur. Dırnaq, saç, tüpürcək, dəri toxuması, qan və s. nümunələrdən götürülə bilər. Bundan əlavə, bir çox şübhəli şəxsin olduğu hallarda DNT nümunəsi kömək üçün gəlir. DNT-dən başqa, kompüter və süni intellekt gələcəkdə şübhəli yer və ya şəxs haqqında heç bir şahidə ehtiyac olmadan yeri və digər şəxsi məlumatlar əsasında hər şeyi söyləyə bilər. Ola bilsin ki, gələcəkdə süni intellekt və kriminalistikanın digər sahələrində irəliləyiş kimin şübhəli, kimin şübhəli olması lazım olduğunu dəqiq deyə bilər. Baxmayaraq ki, bu irəliləyişlər cinayət təhqiqatı üçün yol xəritəsini müəyyən edəcək, lakin hələ də qarşı-qarşıya qalacaq bir çox problem var. Hakimlərin o qədər də dərin elmi biliyi yoxdur və prosedura düzgün əməl olunub-olunmadığını ancaq ekspertlər anlaya bilər. Bu cür məsələlər məhkəmənin qəbul etdiyi mühafizəkar yanaşmaya gətirib çıxarır. Cinayət təhqiqatında məhkəmə-tibb elmindən bəhrələnmək üçün həm müstəntiqlər, həm də məhkəmə orqanları onu istintaqın etibarlı aləti kimi başa düşməli və qiymətləndirməli, cinayətin açılmasında möcüzələr yarada bilər.

ƏDƏBIYYAT SIYAHISI

2. Tanaya Aklekar (DY Patil School of Law, Nerul). The Criminology of the future (**Konfrans məqaləsi**)
3. Pallavi Singh, Future of Forensic Science, https://www.lawyersclubindia.com/articles/the-criminology-of-the-future/article (**online məqalə)**
4. https://www.britannica.com/science/criminology (**İnternet resursları**)
5. Mustafayev, Çingiz. hüquq üzrə e. d-ru, Kriminologiya. (**Kitab**). Bakı/Azərbaycan. 2015

GÖMRÜK IŞININ TƏŞKILI VƏ IDARƏ OLUNMASININ ƏHƏMİYYƏTİ

Səmayə Bədirova
bdirovasma4@gmail. com
İnformasiya texnologiyaları ixtisası, İnformasiya texnologiyaları və texniki elmlər kafedrası Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası

1. XÜLASƏ

Bu məqalədə müstəqil Azərbaycan Respublikasının Gömrük işinin təşkili və idarə edilməsi haqqında fikirlər irəli sürülür. Bununla yanaşı, gömrük sistemində idarəetmənin mahiyyəti və təsnifatı haqqında məlumat verilir. Həmçinin hal-hazırda aktual məsələlərdən olan gömrük siyasətinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi istiqamətləri haqqında araşdırılmalar aparılmışdır.

Açar sözlər: Gömrük sistemində idarəetmə, ticarət əlaqələri, gömrük siyasəti

2. GIRIŞ

Gömrük işi yüzilliklərdir ki fəaliyyət göstərir və dünyanın istənilən dövlətində əsas sturuktur elementlərindən biri sayılır. Gömrük fəaliyyəti bir başa ticarətin inkişafı ilə bağlıdır. Gömrük işinin mahiyyətini və sturukturunun izahı və əsaslandırılması məsələsi təkcə konseptual nəzərini deyil, həm də təcrübi əhəmiyyət daşıyır. Dövlət gəlirlərinin formalaşmasında gömrük işinin təşkili mühüm rol oynayır. Müstəqilliyini əldə etmiş Azərbaycanın xarici iqtisadi siyasət sahəsində əsas vəzifəsi beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə əsasında dünya təsərrüfat əlaqələri sisteminə bərabərhüquqlu inteqrasiya olunmasıdır. Azərbaycanda gömrük işinin təşkili və idarə edilməsində önəmli addımlar atılmaqda davam edir.

3. Gömrük işinin təşkili və idarə edilməsi.

Gömrük işi – gömrük siyasəti və həmçinin bu siyasəti həyata keçirəcək vasitələr: mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin qayda və şərtləri, gömrük ödənişlərinin tutulması,

gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və s. kimi xarakterizə edilir. Gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsi prinsiplərini nizama salan və rəsmiləşdirmə əməliyyatlarının yerinə yetirilməsi üçün mövcud 11 qanunvericiliyə əməl olunmasını təmin edəcək olan dövlət tərəfindən müəyyənləşdirilmiş hərəkət qaydaları gömrük hüquq normaları adlanır. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri başa düşülür. İlk baxışda gömrük işi bir qədər sadə görünsə də , bu iş olduqca mürəkkəb bir sistemdən ibarətdir. Qeyd etdiklərimdən əlavə olaraq gömrük işinin daxilinə gömrük statistikası və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının (XİFMN) aparılması, qaçaqmalçılıq və gömrük işi sahəsindəki digər cinayətlərə qarşı mübarizə,gömrük qaydalarının pozulması ilə bağlı işlərin icraata götürülməsi və baxılması da aid edilir. Gömrük işinin stutukturu 12 əsas blokdan ibarətdir.

a. Gömrük siyasəti;
b. Gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsi prinsipləri;
c. Gömrük rejimləri;
d. Gömrük-tarif tənzimlənməsi;
e. Gömrük ödənişləri;
f. Gömrük rəsmiləşdirilməsi;
g. Gömrük nəzarəti;
h. Gömrük statistikası və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası;
i. Qaçaqmalçılıq və gömrük işi sahəsindəki digər cinayətlər;
j. Gömrük qaydalarının pozulması və ona görə məsuliyyət;
k. Gömrük qaydalarının pozulmasına görə işlərin icraatı;

Gömrük qaydalarının pozulması üzrə işlərə baxılması.

Bu bloklar gömrük işinin təşkilində nə qədər müstəqil hesab edilsə də, bir o qədər də şərti xarakter daşıyır. Çünki onların adı, mahiyyəti, rolu və statusu müxtəlif olsa da, ümumilikdə gömrük işinin bütövlüyünə, daha geniş mənada isə ölkəmizin iqtisadi təhlükəsizliyinə xidmət edir.

Gömrük sistemində idarəetmənin mahiyyəti və təsnifatı.

İnsan əməyinin olduğu istənilən sahədə olduğu kimi idarəetmə gömrük sistemində mühüm əhəmiyyətə malikdir. İlk öncə gömrük xidmətində idarəetmə anlayışı ilə tanış olaq. İdarəetmə – gömrük orqanları əməkdaşlarına elə fasiləsiz informasiya təsiri prosesidir ki, idarəçilik qərarlarının qəbul olunması və həyata keçirilməsi vasitəsilə dəyişən xarici və daxili şəraitdə onların məqsədyönlü davranışını təmin edir. İdarəetmə prosesi – idarəetmənin məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyətdir. Gömrük orqanlarında idarəetmənin mahiyyəti dərindən başa düşmək üçün bu idarəetməyə xas olan bəzi xüsusiyyətləri bilmək lazımdır. İdarəetmə subyekti və onların arasında qarşılıqlı əlaqələr gömrük orqanlarında idarəetmə sistemini əmələ gətirir. Gömrük orqanlarında idarəetmə subyektlərinə idarəetmə qərarları qəbul etmək, tabeliyindəki əməkdaşlara və kollektivlərə tapşırıq vermək və onların icrasını tələb etmək səlahiyyəti olan bütün rəhbərlər, yəni məqsədyönlü təsiri həyata keçirən gömrük postunun, gömrükxananın, gömrük idarəsinin və Dövlət Gömrük Komitəsinin bütün elementləri və yarımsistemləri aiddir. İdarəetmənin müxtəlif səviyyələri gömrük sistemində eyni vaxtda idarəetmənin həm subyekti, həm də obyekti kimi çıxış edir. İdarəetmənin hər pilləsinə və ya səviyyəsinə öz idarəetmə subyekti və obyekti uyğun gəlir. Ona görə də gömrük orqanlarının vahid sistemində idarəetmə obyekti sonrakı idarəetmə və icra hərəkətləri kimi nəzərdən keçirilməlidir. Beləliklə, idarəetmə bu strukturda fəaliyyət növü olaraq sərəncamverici və idarəedici tərəflərə malikdir. İdarəetmə subyekti və obyekti arasında təşkilati idarəetmə strukturundan, digər faktorlardan asılı olaraq qarşılıqlı əlaqə və münasibətlər mövcuddur. İdarəetmə sistemində onlar əhəmiyyətli rol oynayır. İdarəetmə subyekti idarəetmə obyektinin faktik vəziyyəti və onu əhatə edən xarici mühit haqqında informasiya alır. Bu informasiya idarəetmə subyekti tərəfindən işlənir ki, bunun da nəticəsi olaraq qərar qəbul edilir. Məzmunu birbaşa əlaqə kanalı üzrə idarəetmə obyektinə ötürmək üçün həmin qərara idarəçilik qərarının formalarından (əmr, göstəriş, qətnamə və s.) biri verilir. Bu qərarın icrası haqqında informasiya və eləcə də idarəetmə obyektinin (idarəedilən sistemin) yeni vəziyyəti haqqında informasiya yenidən əks-əlaqə kanalı üzrə idarəetmə subyektinə daxil olur. Beləliklə, idarəetmə nisbi və fasiləsiz prosesdir. Gömrük orqanları tərəfindən idarəetmənin fasiləsiz xarakteri onlardan keçən informasiya proseslərinin daimiliyi və arasıkəsilməzliyi ilə şərtlənir. Məsələn, idarəetmə məqsədlərinin müəyyənləşdirilməsi gömrük orqanları sisteminin əsas inkişaf istiqamətlərinin işlənib hazırlanması, planlaşdırılması formasında həyata keçirilə bilər.

4. Gömrük siyasətinin müasir vəziyyəti və onun təkmilləşdirilməsi.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, daxili bazarı müdafiə etmək və ölkə istehsalına dayaq durmaq üçün gömrük siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Yalnız Azərbaycan sahibkarlarının beynəlxalq kooperasiyaya cəlb edilməsini stimullaşdıran və xarici sənayeçilər ilə yerli subyektlərin vicdanlı rəqabətinə kömək edən zəif proteksionizm tədbirlərini tarazlaşldırmağa cəhd etməklə iqtsadiyyatda müsbət dəyişikliklərə nail olmaq olar. Azərbaycanın gömrük siyasəti, ölkədəki iqtisadi və siyasi vəziyyətə təsir göstərən bütün amillər nəzərə alınmaqla qurulur. Bu gün ixracın inzibati tənzimetmə vasitələrinin demək olar ki, hamısı ləğv edilmişdir. Lakin, ixrac kvotalarının və rüsumlarının ləğvi o demək deyildir ki, gömrük orqanları ixrac sövdələşmələrinə fikir verməməlidir. Ölkədən kapital axınının qarşısını yalnız iqtisadi metodlarla almaq olmaz. İxrac hasilatının qaytarılması problemi əvvəlki kimi mühüm problemlərdən biri olaraq qalır. İstehsalın və istehlakın milli strukturunun xüsusiyyətlərin nəzərə almaqla ölkənin iqtisadi inkişaf səviyyəsi,eləcə də müxtəlif obyektiv və subyektivliy amillərin təsiri xarici ticarət tənzimləməsi sisteminə, onun icarə edilməso müxanizminə kompleks yanaşmanı tələb edir. Hazırkı şəraitdə respublikada yeni iqtisadi münasibətlərin təkamülü, onun beynəlxalq əmək bölgüsünə və dünya təsərrüfat əlaqələri sisteminə qoşulması, Beynəlxalq Ticarət Təşkilatına üzv olmağa hazırlıq xarici iqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafı və təkmilləşdirilməsinin proqram-məqsədli yanaşma əsasında aparılmasını məqsədəuyğun nümayiş etdirir. Bu baxımdan respublikamızda gömrük sisteminin inkişafi və təkmilləşdirilməsi proqramının yaradılmasına ehtiyac var. Respublikanın milli xüsusiyyətləri, MDB ölkələri ilə 70 idxal-ixrac əlaqələrinin genişlənməsi gömrük sisteminin müvəffəqiyyətə zəmanət verə biləcək prinsip və metodlar əsasında təkmilləşdirilməsini tələb edir. Azərbaycan Respublikası hazırda dünyanın 150-dən çox ölkəsi ilə beynəlxalq ticarət əlaqələri aparır. Beynəlxalq ticarətin iqtisadi əsasları arasında müxtəlif malların istehsalı üzrə ixtisaslaşır və hər bir ölkədə digər ölkənin malına ehtiyac yaranır.

NƏTICƏ

Məqaləmi ümumilli lider Heydər Əliyevin gömrük xidməti ilə bağlı dediyi sözlərlə bitirmək istəyərdim. Ümummilli lider Heydər Əliyev Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görürdü. Məhz dahi rəhbərin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da modernləşməsinə yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşıb. Hal-hazırda Azərbaycanın inkişafında mühüm yer tutan gömrük xidməti gün-gündən inkişaf edir. Gömrük xidmətinin inkişafında Ümumilli lider Heydər Əliyevin davamçısı İlham Əliyev böyük töhvələr verir. Azərbaycan gömrük xidməti öz fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verərək bu sahədə köklü islahatlar aparır. Gömrük sistemində şəffaflığın təmin olunması, idarəçiliyin təkmilləşdirilməsi, elektron xidmətlərin sayının artırılması və digər sahələrdə islahatların əhatə dairəsi genişləndirilib ki, bu da xidmət mədəniyyətinin yüksəldilməsində, xarici ticarət iştirakçılarında könüllü riayət prinsiplərinin formalaşdırılmasında və beynəlxalq ticarətin asanlaşdırılmasında əhəmiyyətli rol oynayır.

ƏDƏBIYYAT SIYAHISI

1. A. S Şəkərəliyev , Z. A Şəkərəliyeva “Gömrük işinin təşkili və idarə olunması” (**Kitab**) Bakı/Azərbaycan 2014: 1-160
2. C. Q. Nuriyev, A. Ə. Əliyev, M. C. Atakişiyev Gömrük işinin təşkili və idarə olunması (**Kitab**) Bakı/Azərbaycan 2009: 1-293
3. Səfər Mehdiyev, Ulu öndər Ə. Heydər Azərbaycanın davamlı və dayanıqlı inkişaf strategiyasının təməlini qoydu https://customs. gov. az/az/faydali/xeberler/4300_/ **(online məqalə)**

CUCKOO SANDBOX-UN QURAŞDIRILMASI VƏ ZƏRƏRLI PROQRAMIN TƏHLILI

Rəsul Əhmədov, Elmir Əhmədov
İnformasiya texnologiyaları ixtisası, İnformasiya texnologiyaları və texniki elmlər kafedrası
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan
Resul.Ehmedov@ascca.edu.az, Elmir.Ehmedov@ascca.edu.az
Bakı Azərbaycan

Xülasə – bu məqalədə zərərli proqram təhlili alətlərindən olan Cuckoo Sandbox-un Host maşına quraşdırılması, Guest maşının sazlanması və analizin aparılmasına baxacağıq.
Açar sözlər: sandbox, host, guest, malware, analysis.

I. GİRİŞ

Cuckoo, Windows, Linux, macOS və Android kimi müxtəlif əməliyyat sistemlərində işləyən müxtəlif zərərli faylları təhlil etməyə imkan verən açıq mənbəli avtomatlaşdırılmış zərərli proqram təhlili vasitəsidir. Zərərli proqram analizinin iki növü var:

1. Statik zərərli proqram təhlili — Zərərli proqram təminatının işə salınmadan təhlili. Fayl adı, MD5 yoxlama cəmi və ya hash, fayl növü, fayl ölçüsü və antivirus aşkarlama vasitələri ilə tanınma kimi xüsusiyyətləri nəzərdən keçirəcək.
2. Zərərli proqram təminatının dinamik təhlili — Zərərli proqramı işə salmaqla təhlil etmək və onun API istəkləri, yaddaş istifadəsi, şəbəkə trafiki və s. kimi davranışlarını təhlil etmək (Cuckoo dinamik zərərli proqram təhlili vasitəsidir)

II. Sandboxing

Kompüter təhlükəsizliyində naməlum sınaqları həyata keçirmək, etibarsız proqramlar və ya kodlaryazmaq üçün virtual mühitlərdən istifadə edilir. Bununla əsas maşınımızı (host) və ya əməliyyat sistemimizi riskə atmadan sınaqlar apara bilirik. Buna sandboxing deyilir və Cuckoo da bu məqsədlə hazırlanmış sandbox-lardan biridir. Cuckoo Sandbox bizə naməlum və etibarsız proqram və ya faylı təcrid olunmuş mühitdə işə salmaq və onun davranışını təhlil etmək imkanı verir.

III. Əsas maşının (host machine) qurulması

Mənim əsas maşınım 8 GB RAM ilə Ubuntu 18.04-dir. Mən sizə əsas maşın kimi Linux maşınından istifadə etməyi məsləhət görürəm. Cuckoo-nu host maşınımıza quraşdırmadan əvvəl bəzi python kitabxanaları və proqram paketləri quraşdırmaq tələb olunur. Həm də nəzərə almalıyıq ki, Cuckoo-nu idarə etmək üçün python 2.7 tələb olunur. (Cuckoo python və ya python 3-ün köhnə versiyalarını dəstəkləmir).

- *Paket məlumatını yeniləyək və mövcud yeniləmələri endirək.*
- *Sonra, Cuckoo üçün tələb olunan python asılılıqlarını quraşdıraq.*
- *Django əsaslı Veb İnterfeysindən istifadə etmək üçün MongoDB tələb olunur.*
- *PostgreSQL-dən verilənlər bazası kimi istifadə etmək üçün PostgreSQL də quraşdırılmalıdır.*

Növbəti addım Virtual Maşın proqramını host maşınınıza quraşdırmaqdır. Cuckoo VirtualBox-dan VM proqramı kimi istifadə etməyi tövsiyə edir. VirtualBox uyğun versiyasını quraşdırmaq tövsiyə olunur.

- *Zərərli proqramın icrası zamanı həyata keçirilən şəbəkə fəaliyyətini saxlamaq üçün tcpdump quraşdıraq.*
- *M2Crypto quraşdıraq.*

Bu paketləri quraşdırdıqdan sonra indi sistemimizdə Cuckoo quraşdıra bilərsik. Quraşdırmaq üçün aşağıdakı əmrləri yerinə yetirək. Və ya sadəcə zip faylını yükləyə bilərik.

Cuckoo quraşdırdıqdan sonra VirtualBox və onun şəbəkəsini düzgün qurmalıyıq.

- *Aşağıdakı əmr vasitəsilə "Host-Only Adapter" yarada bilərik:*
- *Yaratdığımız vboxnet0 interfeysi üçün IP ünvanını təyin edək:*

Sonra, VirtualBox-da virtual maşın yarada və ƏS quraşdıra bilərik. Windows 7 tövsiyə olunur. ƏS-ni quraşdırdıqdan sonra VM şəbəkə adapterini “Host-Only Adapter”ə konfiqurasiya etməliyik. Bunu asanlıqla qrafik istifadəçi interfeysindən (GUI) edə bilərik

Bundan sonra, IP yönləndirməsini konfiqurasiya etməliyik ki, internet bağlantısı host maşından guest VM-ə yönləndirilsin. Burada VM-mizə təyin edilmiş interfeys vboxnet0 və VM-nin IP ünvanı 192.168.56.0/24 alt şəbəkəsində olan 192.168.56.101-dir. İnternetə qoşulan çıxış interfeysi isə eth0-dır.



Şəkil 1. Qrafik istifadəçi interfeysi, şəbəkə adaoteri: cuckoo1

IV. Guest maşınının qurulması

İndi Windows 7-ni quraşdırmış qonaq maşını qurmağa başlaya bilərik. Əvvəlcə Şəbəkə Adapterinin parametrlərini aşağıdakı kimi konfiqurasiya edək.

- *Şəbəkə konfiqurasiyalarını dəyişdirdikdən sonra VM-də aşağıdakı fərdiləşdirmələri etməliyik:*

1. Windows Update və Windows Firewall-u söndürək.
2. İstifadəçi Hesabına Nəzarət Parametrlərini dəyişdirək.
3. İstədiyimiz Adobe Reader, Adobe Flash Player, Microsoft Office və Java versiyalarını quraşdıraq. (Məcburi deyil)
4. Windows üçün *python 2.7*-ni quraşdıraq.\
5. *~/.cuckoo/agent* kataloqunda (directory-də) tapıla bilən agent.py faylını host maşınınızdan yükləyək. Onu *"C:\Users\%USERNAME%\AppData\Roaming\Microsoft\Windows\StartMenu\Programs\Startup"* daxilində yerləşən Windows başlanğıc qovluğuna qoyaq. VM-i yenidən işə saldıqdan sonra VM-də açılmış terminalı görə biləcəyik. (VirtualBox parametrlərində sürüklə və buraxma funksiyasını aktivləşdirə bilərik. Yalnız hostdan qonağa sürüklə və buraxma funksiyasını aktivləşdirə bilərik).

V. Cuckoo Proqram Konfiqurasiyasını dəyişdirək.

Cuckoo konfiqurasiya faylları *~/.cuckoo/conf* qovluğunda yerləşir. Bu əmrdən istifadə edərək həmin faylları gedit-də aça bilərik:

sudo gedit cuckoo.conf

İndi isə aşağıdakı konfiqurasiya "conf" fayllarında dəyişiklikləri edək.

cuckoo.conf, auxiliary.conf, virtualbox.conf, processing.conf, reporting.conf

VI. Cuckoo istifadə edərək analiz aparma:

Cuckoo və Cuckoo veb interfeysini işə salmaq üçün aşağıdakı əmrləri yerinə yetirək. Bunları iki ayrı terminal pəncərəsində işlədək.

İndi isə sevimli veb brauzerimizdə bu ünvana daxil olaraq Cuckoo veb interfeysinə daxil ola bilərik: Veb interfeysi (şəkil 2) yükləndikdə buna bənzər olacaq:

goto: localhost:8000



Şəkil 2. Cuckoo Veb interfeysinin nəticəsi

Hissələrinə aydın şəkildə nəzər salaq:

- Cuckoo Installation – Quraşdırılmış Cuckoo nümunəsinin versiya təfərrüatları və hər hansı mövcud yeniləmələr haqda məlumat ala bilərik.
- Usage Statistics – Sandboxa təqdim edilmiş nümunələrin sayı və onların cari vəziyyəti haqda məlumat ala bilərik.
- File Submission – İdarə paneli nümunələri, hashləri və URL-ləri sandboxa təqdim etmək üçün Linux commandline-ına alternativ kimi də istifadə edilə bilər.
- System Info – Boş disk sahəsi, CPU yükü və yaddaş istifadəsi kimi məlumatlar qrafik təsvirlə birlikdə göstərilir.
- Recent Analyses – Daha öncədən təqdim edilmiş fayllar haqda məlumat verilir. Həmin məlumata təqdim nömrəsi, tarix, fayl adı və Cuckoo tərəfindən nümunəyə verilən qiymət kimi bəzi əsas məlumatlar aiddir.



Şəkil 3. Commandline nəticəsi

Commandline dakı hər bir hissəyə ayrılıqda baxaq:

- Yuxarı Sol – Bu, “sudo cuckoo rooter” əmrini yerinə yetirmək üçün istifadə olunur. "Rooter" əmri Cuckoo-ya "root" imtiyazları ilə məhdud sayda əmrləri yerinə yetirməyə imkan verir.
- Yuxarı Sağ – Bu, ‘cuckoo’ əmrini yerinə yetirmək üçün istifadə olunur. ‘cuckoo’ əmri sandbox-u işə salır.

- Aşağı Sol – Bu, ‘cuckoo web runserver’ əmrini yerinə yetirmək üçün istifadə olunur, onun vasitəsilə cuckoo web GUI işə salınır.
- Aşağı Sağ – Bu, ‘cuckoo submit <filename>’ əmrini yerinə yetirmək üçün istifadə olunur. Bu əmr analiz zamanı faylları Cuckoo sandbox-a yükləmək üçün istifadə edilir.

Analizə başlamaq üçün sağ altdakı terminalda fayl adını daxil edək, “Enter” düyməsini vuraq:

Bu analizlərin aparılma zamanı yüklənmiş fayllara, tərkibinə, həcminə və s. görə dəyişə bilər. Buna görə səhifədə aşağı enib daha öncədən apardığımız bir analizə baxaq:

Məsələn *267.exe* faylının üstünə klik edərək ətraflı məlumata baxaq.

Açılmış səhifədə sağ tərəfdə Cuckoo tərəfindən fayla verilmiş qiyməti görə bilərik. Cari faylda bu qiymət 10 üzərindən 5,8-dir. Bu qiymət kifayət qədər şübhəli olduğu mənasına gəlir, kritiklik dərəcəsini göstərir.

- Dahada aşağı enərək *Signatures* hissəsinə baxa bilərik. Bu hissədə kompüter adı, Windows api funksiyası *pdb path* (yerləşdiyi yeri aydın göstərən cığır – C:users\user\documents\Visual studio 2015\projects\emetim\release\Emetim.pdb) hər bir analiz edilmiş hissə *Signatures*-də var və sağ tərəfdəki “>” vasitəsilə təfərrüatlarına baxmaq və haqqında məlumat almaq olur. Kritik (sarı və ya qırmızı rəngli) hissələr haqda daha aydın məlumat almamıza yardım edir. Bir sözlə aparılan proseslər burada yoxlanır.

Daha aşağıda isə davranışına görə daha riskli olanlar yer alır. Burada 34 event var. Heç bir DNS sorğusu yerinə yetirilmədən host ilə saxlanmış əlaqələr buradadır. Bu hissədə C2-lər (C&C) saxlanılır. C2-nin mənası “Malware Command and Control (C&C)” yəni zərərli proqram komandanlığı və nəzarəti-dir. Yoluxmuş sistemdə təcavüzkarların necə əlaqə saxladığı və nəzarətini zərərli proqram komandanlığı və nəzarəti nümayiş etdirir.Zərərli proqramların əksəriyyəti ya əmrləri qəbul etmək, əlavə komponentləri yükləmək, ya da məlumatları çıxarmaq üçün hücumçu tərəfindən idarə olunan server (C2 server) ilə əlaqə saxlayır. Məhz belə hallara görə bu hissədə diqqətli analiz aparmaq lazım gəlir.

Statik analiz. Burada hansı hissələrin (.txt, .rdata və s.) icra edildiyi və resurslar göstərilir. Zərərli proqram tərəfindən daxil edilən DLL-lərin və API-lərin siyahısı da qeydə alınır, zərərli proqramın bir parçası paketdən çıxarmanız və x64dbg kimi alətlərdən istifadə edərək *reverse engineering* etməniz faydalı olar.

Davranış təhlili. Fərqli proseslərə kliklədikdə Cuckoo zərərli proqram tərəfindən hansı API-nin işlədildiyini sadalayacaq. Hansı daxil edilmiş funksionallığın istifadə olunduğunu yoxlamaq və hər hansı məlumatın qaytarılıb-qaytarılmadığını görmək analiz zamanı faydalıdır.

Şəbəkə təhlili. Şəbəkə analizi istifadəçiyə DNS, TCP, UDP, HTTP, ICMP və IRC trafikini filtrləməyə imkan verir. Cuckoo analitiklərə PCAP-ı bu səhifədən yükləməyə də icazə verir.

VII. Nəticə. Bu məqalədə Cuckoo Sandbox-un zərərli proqram analizində nə qədər yararlı və kompleks bir həll yolu olduğuna baxdıq. Windows əməliyyat sistemi üçün *x64dbg, Pe Studio, ProcMon, ProcDot, Process Hacker, Process Monitor* kimi alətlərlərlə (tətbiqlərlə) bir faylı araşdıra, haqqında ətraflı məlumat ala, nəqədər resurs istifadə etdiyini, hara müraciət etdiyini və s. məlumatlar əldə edə bilərik. Cuckoo sanki bütün bu ayrı-ayrı alətlərin funksiyalarına sahib kompleks bir alətdir. Burada yalnız 1 əmr icra etməklə daha asanlıqla məlumatları, hesabatları veb interfeysdə nümayiş etdirməsi Cuckoo-nun üstünlüyüdür. Bu məntiqlə çalışan və hal-hazırda populyar olan Virus total, Hybrid Analysis (online mühitdir, zərərli proqram analizi üçün.) də var. Amma Cuckoo sandbox öz ayırdığımız yaddaş sahəsində icra edildiyi üçün online mühitlərə görə daha daha güvənlidir.

VIII. References

[1] https://cuckoo.sh/docs/installation/index.html
[2] Məqalə. Cuckoo Sandbox VS Hybrid-Analysis.com. Article. Cuckoo Sandbox VS Hybrid-Analysis.com https://www.saashub.com/compare-cuckoo-sandbox-vs-hybrid-analysis-com
[3] Məqalə: Cuckoo Sandbox İcmalı. Article: Cuckoo Sandbox Overview https://www.varonis.com/blog/cuckoo-sandbox
[4] Məqalə: 11 ən yaxşı zərərli proqram təhlili alətləri və onların xüsusiyyətləri. Article: 11 Best Malware Analysis Tools and Their Features https://www.varonis.com/blog/malware-analysis-tools
[5] https://www.oreilly.com/library/view/learning-malware-analysis
[6] Məqalə: Zərərli proqram təhlili alətləri. Article: Malware Analysis Tools https://malwareanalysis.tools

"CINAYƏT PROSESSUAL HÜQUQDA QƏTIMKAN TƏDBIRININ ANLAYIŞI, SISTEMI VƏ TƏSNIFAT BÖLGÜSÜNÜN ARAŞDIRILMASININ NƏZƏRI-TƏCRÜBI IMKANLARININ MÜQAYISƏLI TƏHLILININ ƏSASLARI"

Allahverdiyev Ömər Taleh oğlu
Dövlət Gömrük Komitəsinin Akademiyası
Hüquq Fakültəsi
omer-allahverdiyev@bk.ru

Xülasə.

Xülasə. Məqalənin aktuallığı baş vermiş cinayətlərdə təqsirləndirilən və ya şübhəli şəxsə qətimkan tədbirlərinin tətbiq edilməsi üçün həm nəzəriyyənin, həm də cinayət prosessual qanunvericiliyin təhlil edilməsi vacibdir. Məqalənin məqsədi qətimkan tədbirlərinin tətbiqi xüsusi əhəmiyyətə malik olduğu üçün məhz təqsirləndirilən və ya şübhəli şəxsə qətimkan tədbirlərindən hər hansı biri seçilərək həmin cinayətə dair sübutların gizlədilməsinin, hökmün icrasına maneəçiliyin törədilməsinin, həmin şəxs tərəfindən yeni cinayətin törədilməsinin, habelə cinayət prosesini həyata keçirən orqandan qaçıb gizlənilməsinin qarşısını alır və cinayətlərin istintaqı zamanı da təqsirləndirilən və ya şübhəli şəxsə qətimkan tədbirlərinin tətbiqi Cinayət Prosessual Məcəllədə nəzərdə tutulan qaydalara əsasən tətbiq edilir. Məqalənin elmi yeniliyi və praktiki əhəmiyyəti qətimkan tədbirinin anlayışı, sistemi və təsnifat bölgüsünün həm nəzəri, həm də təcrübi imkanları müqayisəli şəkildə araşdırılaraq cinayət prosessual qanunvericilik baxımından təhlil edilmişdir. Məqalənin üstünlüyü cinayət prosessual qanunvericiliyin ümumi hissəsinin daha dəqiq 7-ci maddəsində qətimkan tədbirinin sistemi və təsnifat bölgüsü qeyd edilmədiyindən, anlayışı isə bağlı verilən formula isə nəzəriyyədə və təcrübədə müəyyən fikir ayrılığı yaratdığı üçün boşluqlara səbəb olur. Məqalənin nəticə hissəsində təhlil edilən mövzu ilə bağlı konkret nəticələrə gəlinmişdir ki, bu da praktiki baxımından əlverişlidir.

Açar sözlər: Subyektlər, sistem, təsnifat bölgüsü.

Giriş. Məqalənin məqsədi və aktuallığı cinayət–prosessual qanunvericliyi cinayət mühakimə icraatında prosesin iştirakçıları tərəfindən qanunla onlara verilmiş hüquq və vəzifələrdən qərəzli istifadə etmələrini, yaxud onlar tərəfindən cinayətin açılması və cinayəti törətmiş şəxsin ifşa edilməsini çətinləşdirən hərəkətlərin edilməsininin qarşısını almaq məqsədilə müxtəlif xarakterli prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi imkanını müəyyən edir. Məqalənin elmi yeniliyi və praktiki əhəmiyyəti budur ki, cinayət prosessual qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı müəyyən təkliflər verilmişdir ki, bu da təcrübədə yaradan çaşqınlıqları aradan qaldırır. Məqalədə induksiya və deduksiya, analiz və sintez, müqayisəli hüquqi təhlil kimi metodlar və metodologiyadan istifadə edilmişdir.

1.Qətimkan tədbirinin anlayışı və sisteminin hüquqi əsasları.

Cinayət Prosessual Məcəlləsinin 154-cü maddəsinə uyğun olaraq qətimkan tədbiri cinayət işi üzrə icraatda şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qabağını almaq və hökmün icrasını təmin etmək məqsədilə səlahiyyətli subyektlər tərəfindən qanunla müəyyən edilmiş hallarda və qaydada şəxsin onun hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmaqla seçilən prosessual məcburiyyət tədbiridir.

Qətimkan tədbirlərinin anlayışı haqqında cinayət prosessual hüquq elmində onun dövlət məcburiyyət tədbirləri aspektindən izahı demək olar ki, hər kəs tərəfindən qəbul edilir. Z.Z.Zinatullin hesab edirdi ki, dövlət məcburiyyət tədbirləri səlahiyyətli orqanlar və səlahiyyətli subyektlər tərəfindən müvafiq hüquq normaları çərçivəsində ictimai həyatın subyektinə psixi, fiziki və maddi təsir göstərməklə onun iradəsini və davranışını cəmiyyətin və dövlətin qanunda ifadə olunan maraqlarına uyğun tabe etdirməkdən ibarətdir [14; s.6].

M.S.Stroqoviç hesab edir ki, qətimkan tədbirlərini təqsirləndirilən şəxsin azadlığına yönəlmiş qanunla müəyyən edilmiş məcbur etmə tədbiri olmaqla, qətimkan tədbirlərinin aşağıda göstərilən əsaslar olduqda tətbiq edilməsini göstərir:

1.Təhqiqat, ibtidai istintaq və məhkəmədən gizləndikdə;
2.Cinayət işi üzrə həqiqətin müəyyən edilməsinə maneəçilik yaratdıqda;
3.Cinayət əməlini etməyə davam etdikdə [12; s.273].

C.H.Mövsümov belə bir fikir ifadə edirdi ki, cinayət mühakimə icraatında proses iştirakçıları onlara verilmiş hüquq və vəzifələrdən qərəzli istifadə etmələrinin, yaxud onlar tərəfindən cinayətin açılması və cinayət törətmiş şəxsin ifşa edilməsini çətinləşdirən hərəkətlərin edilməsinin qarşısını almaq məqsədilə prosessual məcburiyyət hesab edilən qətimkan tədbirləri tətbiq edilir [8; s.118].

Cinayət prosessual hüquq elminə nəzər yetirsək görərik ki, bəzi müəlliflər onun tətbiqi aspektinə diqqəti cəlb edərək belə bir fikir ifadədə edirdilər ki, qətimkan tədbirləri prosessual məcburiyyət tədbirlərinin bir növü olmaqla yanaşı təhqiqat, ibtidai istintaq və prokurorluq orqanları tərəfindən təqsirləndirilən şəxsə onun istintaq və məhkəmədən gizlənməsini və ya cinayətin davam etdirə bilməsini nəzərə alaraq tətbiq edilir [9; s.172].

K.F.Quçenko tərəfindən qətimkan tədbirlərinin ümumi xarakterikasını verərkən digər alimlərin mövqeyini təsdiqləməklə yanaşı qətimkan tədbirlərini digər prosessual məcburiyyət tədbirlərindən fərqləndirən cəhətlərinin olduğunu qeyd etmişdir:

1.Tətbiq edilmə məqsədinə görə-cinayət işinin icraatına maneə olmamaq üçün təqsirləndirilən (müstəsna hallarda şübhə edilən) şəxsə tətbiq edilir;

2.Tətbiq edilmə əsasına görə -qətimkan tədbirinin tətbiq edilməsi üçün kifayət qədər əsas olmalıdır ki, onun tətbiq edilməməsi müəyyən mənfi nəticələrə səbəb ola bilər;

3.Qətimkan tədbiri şəxsin yalnız özünə tətbiq edilməklə yanaşı, təqsirləndirilən və ya şübhə edilən şəxsin hüquq və azadlıqlarının məhdudlaşdırılmasına səbəb olur [10; s.163].

Qətimkan tədbirinin anlayışı Cinayət Prosessual Məcəlləsinin 7.0.38-ci maddəsində verilmişdir ki, qeyd olunan maddə qətimkan tədbrini prosessual məcburiyyət tədbiri kimi qiymətləndirir və burada əsas etibarilə hüquq və azadlıqların müvəqqəti məhdudlaşdırılması ön plana çəkilir. Digər bir tərəfdən qətimkan tədbirləri-qanunla nəzərdə tutulmuş şübhəli şəxsə və ya təqsirləndirilən şəxsə təsir vasitələridir və azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması ,müəyyən fəaliyyətlə məşğul olmaq imkanından məhrum etmə, əmlak itkilərinin təhlükəsi və ya göstərilən şəxslər üzərində nəzarətin müəyyən edilməsindən ibarətdir [2;s.80]. Qətimkan tədbirinin tətbiqi konkret məqsəd daşıyır. Həmin məqsədlər Cinayət Prosessual Məcəlləsinin 154.1-ci maddəsində təsbit edilmişdir.

Qanuna zidd davranış dedikdə, cinayət prosesi iştirakçılarına qanunsuz təsir göstərərək, iş üzrə sübutetmə əhəmiyyəti kəsb edən materialların gizlədilməsi və ya saxtalaşdırılması yolu ilə, habelə cinayətkar fəaliyyətin davam etdirilməsi və ya təkrar cinayətlərin törədilməsi yolu ilə ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq başa düşülməlidir. Bundan əlavə cinayət prosesini həyata keçirən orqandan qaçış və ya boyun qaçırma da hökmün icrasını mürəkkəbləşdirəcək qanunsuz davranış hesab edilir [2; s.82].

M.Ə.Cəfərquliyev qeyd edirdi ki, qanun qətimkan tədbirinin tətbiq edilməsi üçün iki qrup əsasların- maddi (cinayət hüququ) və prosessual əsasların mövcud olmasını tələb edir. Cinayət hüquqi əsaslar dedikdə, cinayətin baş verməsi faktını və onun hallarını müəyyən edən kifayət qədər sübutların mövcud olması başa düşülür. Cinayət prosesində qətimkan tədbirinin tətbiq edilməsi üçün ümumi prosessual əsas konkret şəxsin təqsirləndirilən şəxs kimi cinayət məsuliyyətinə cəlb edilməsidir [4; s.363-364].

Cinayət Prosessual Məcəllənin 154.2-ci maddəsində qətimkan tədbirlərinin qəti siyahısı verilmişdir. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində həmin normada göstərilməmiş qətimkan tədbirləri tətbiq edilə bilməz. Qətimkan tədbirlərinin siyahısına diqqət yetirdikdə həmin tədbirlərin tətbiq edildiyi şübhəli və təqsirləndirilən şəxs üçün müxtəlif xarakterli məcburiyyəti özündə əks etdirdiyini görə bilərik. Hüquq ədəbiyyatında təəssüf hissi ilə qeyd olunur ki, normada qətimkan tədbirləri özündə ifadə etdirdiyi məcburiyyətin intensivlik dərəcəsinə (həmin tədbirlərin ağırlığına və ya yüngüllüyünə) görə müəyyən ardıcıllıqla düzülməmişdir. Həmin ardıcıllığın düzgün müəyyən edilməsi mühüm təcrübi əhəmiyyətə malikdir, çünki cinayət prosesini həyata keçirən orqanlar qətimkan tədbirlərinin tətbiqi zamanı bu ardıcıllığı nəzərə alır [3; s.473].

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə nəzər yetirdikdə qətimkan tədbirlərinin sistemi daha ciddidən yüngülə doğru sıralama qaydasında müəyyən edilmişdir. Rusiya Cinayət Prosessual Məcəlləsində qətimkan tədbirləri yüngüldən ağıra doğru sıralama qaydasından istifadə edilmişdir. Rusiya hüquqşünasları bu ardıcıllığın bir qətimkan tədbirinin digəri ilə əvəz edilməsi zamanı nəzərə alınmasının vacibliyini göstərirlər. Onlar Rusiya qanunvericiliyi timsalında misal olaraq göstərirlər ki, girov qətimkan tədbirinin şərtləri pozulduğu halda o başqa yerə getməmək iltizam tədbiri ilə əvəz edilə bilməz, yalnız həbsə alınma növündə qətimkan tədbiri ilə əvəz edilməlidir [7; s.5].

Qətimkan tədbirlərinin xarakterini və mahiyyətini nəzərə alaraq, onları özlərində əks etdirdiyi məcburiyyətin xarakterinə görə azalan istiqamətdə (ağırdan yüngülə doğru) düzülməsi məqsədə uyğun hesab edilir [3; s.473-474].

Cinayət Prosessual Məcəllənin 154.2-ci maddəsinə, əsasən, qətimkan tədbirləri aşağıdakılardır:

1.Həbs; 2.Ev dustaqlığı 3.Girov; 4.Başqa yerə getməmək barədə iltizam; 5.Şəxsi zaminlik; 6. Təşkilati zaminlik; 7.Polis nəzarəti altına vermə; 8.Yetkinlik yaşına çatmayanı nəzarət altına vermə; 9.Komandanlığın müşahidəsi altına vermə; 10.Vəzifədən kənarlaşdırma.

1960-cı ildən 1 sentyabr 2000-ci il tarixə qədər qüvvədə olmuş Cinayət Prosessual Məcəllənin 84-cü maddəsində aşağıdakı qətimkan tədbirləri öz təsbitini tapmışdır: [5; s.302]

1.Həbs; 2.Başqa yerə getməmək barədə iltizam; 3.Şəxsi zaminlik; 4.İctimai təşkilatların zaminliyi; 5.Yetkinlik yaşına çatmayan şəxsləri müvafiq uşaq idarələrinə yerləşdirmək və ya valideynlərin, qəyyumların və ya himayəçilərin nəzarəti altına vermək; 6.Komandanlığın müşahidəsi altına vermək.

2.Qətimkan tədbirlərinin təsnifat bölgüsünün hüquqi əsasları.

Cinayət prosessual hüquq nəzəriyyəsində qətimkan tədbirlərinin təsnifatı əsas məsələlərdəndir və alimlər tərəfindən qətimkan tədbirlərini müxtəlif meyarlar əsasında qruplaşdırırlar.

Bəzi müəlliflər tərəfindən belə bir təsnifat əsas götürülməklə məcburiyyətin növü üzrə qətimkan tədbirlərini psixi məcburiyyət xarakterli və fiziki məcburiyyət xarakterli qətimkan tədbirlərinə bölür və qətimkan tədbirləri bu iki qrup üzrə verirdi. Həmin müəlliflər məcburiyyətin xarakter əlamətinə görə qətimkan tədbirinin bu cür təsnifatını qeyd edirdi: Fiziki məcburiyyətlə müşahidə olunan qətimkan tədbirləri- təqsirləndirilən şəxsin şəxsi azadlığının məhdudlaşdırılmasına və cəmiyyətdən təcrid edilməsinə yönələn ev dustaqlığı və həbs qətimkan tədbirləri aid edilirdi, psixoloji məcburiyyət ilə xarakterizə olunan qətimkan tədbirləri-bu meyar üzrə girov, başqa yerə getməmək barədə iltizam, şəxsi zaminlik,təşkilatın zaminliyi, polisin nəzarəti altına vermə, komandanlığın müşahidəsi altına vermə, vəzifədən kənarlaşdırma daxil idi. Müəlliflər bunlarla yanaşı, psixoloji məcburiyyətlə müşahidə olunan qətimkan tədbirlərini də təsnifatını müəyyən edərək, onları 3 qrupa bölürdülər:

1.Təqsirləndirilən şəxsin vəd verməsinə əsaslanan qətimkan tədbiri –başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri göstərilir ;

2.Əmlak məsuliyyətinə əsaslanan qətimkan tədbiri-girov ;

3.Üçüncü şəxslərin hərəkətlərinə əsaslanan qətimkan tədbiri-şəxsi zaminlik, komandanlığın müşahidəsi altına vermə, nəzarət altına vermə,üçüncü şəxs tərəfindən qoyulan girov [11; s.254-255].

Qətimkan tədbirlərinin tətbiqi zamanı yaranan nəticələrin artan ağırlıq (intensivilik) dərəcəsinə görə təsnifatı A.İ.Trusov tərəfindən aparılmışdır:

1.Başqa yerə getməmək barədə iltizam;

2.Təşkilatın zaminliyi,şəxsi zaminlik,nəzarət altına vermə,komandanlığın müşahidəsi altına vermə;

3.Girov;

4.Həbs [10; s.166].

M.Ə.Cəfərquliyev qətimkan tədbirlərinin leqal təsnifatını şərh edərək, digər təsnifatlarla yanaşı diqqəti fiziki və psixi məcburiyyətlə xarakterizə olunma əlaməti üzrə qruplaşdırmaya cəlb edir. Onun yanaşmasına görə, həbs, eləcə də ev dustaqlığı məzmun etibarilə fiziki məcburiyyətlə müşayiət olunur. Lakin digər tədbirlər isə daha çox psixoloji məcburiyyətlə müşayiət olunur [5; s.301-302], [6; s.207].

Nəticə. Bildiyimiz kimi cinayət prosesi dərsliklərində prosessual məcburiyyət tədbirləri dövlət məcburiyyət tədbirlərinin bir növü hesab edilir. Prosessual məcburiyyət tədbirlərinin 3 növü fərqləndirilir. Bunlardan biri də qətimkan tədbirləri hesab edilir. Qətimkan tədbirləri dövlət məcburiyyət tədbirlərinin xüsusi bir növü olmaqla yanaşı, prossessual məcburiyyət tədbirləri kimi insan hüquq və azadlıqlarına müdaxilə ilə xarakterizə olunur və cinayət prosesinin normal gedişini təmin etməyə xidmət etməklə insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına hüquqi əsas yaradır.

Qətimkan tədbirlərinin anlayışı Cinayət Prosessual Məcəllənin 7.0.38-ci və 154.1-ci maddəsində verilmişdir. Qanunvericliyin qətimkan tədbirinə verdiyi bu anlayışı müsbət hal olaraq qiymətləndirsəkdə, bu anlayışı dəqiq hesab etmirik. Məhz buna görə də hesab edirik ki, qətimkan tədbirinin anlayışının dəqiqləşdirilməsinə zərurət var.

Qeyd edilənlərə əsaslanaraq Cinayət Prosessual Məcəllənin 7.0.38-ci və 154.1-ci maddəsində verilən anlayışı ümumiləşdirərək qətimkan tədbirinə belə bir anlayışın formulə edilməsini məqbul hesab edirik: "Qətimkan tədbiri Cinayət Prosessual Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını

müvəqqəti məhdudlaşdırmaqla onların qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etmək məqsədilə, kifayət qədər zəruri əsaslar olduqda seçilən prosessual məcburiyyət tədbiridir".

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəllənin 154.2-ci maddsində qətimkan tədbirlərinin sistemi verilmişdir. Hesab edirik ki, qanunvericliyin qətimkan tədbirinin düzülüşünü ağırlığına görə verilməsi məntiqi cəhətdən anlaşılmazdır. Nəzərə alsaq ki, cinayət prosesini həyata keçirən orqanlar qətimkan tədbirlərinin tətbiqi zamanı bir qətimkan tədbirinin digəri ilə əvəz edilməsi zamanı bu ardıcıllığı nəzərə almalıdırlar. Buna görə də bu ardıcıllığın düzgün müəyyən olunması mühüm təcrübi əhəmiyyətə malikdir. Bu məsələyə daha düzgün yanaşmanı Rusiya Cinayət Prosessual Məcəlləsi etmişdir. Beləki, Rusiya Cinayət Prosessual Məcəllənin 98-ci maddəsində qətimkan tədbirləri yüngüldən ağıra doğru sistemləşdirilmişdir.

Məhz bu əsaslara görə hesab edirik ki, qətimkan tədbirinin xarakterini və mahiyyətini nəzərə alaraq, onların özlərində əks etdirdiyi məcburiyyətin intensivliyinə görə yüngüldən ağıra doğru düzülməsini azalan istiqamətdə (yüngüldən ağıra doğru) aşağıdakı kimi sistemləşdirilməsini məqsədə uyğundur:

1.Başqa yerə getməmək barədə iltizam;
2.Şəxsi zaminlik;
3.Təşkilati zaminlik;
4.Yetkinlik yaşına çatmayanı nəzarət altına vermə;
5.Komandanlığın müşahidəsi altına vermə;
6.Polisin nəzarəti altına vermə;
7.Vəzifədən kənarlaşdırma;
8.Girov;
9.Ev dustaqlığı;
10.Həbs.

Ədəbiyyat siyahısı

1.Abbasova F.M. Cinayət Prosesi. Dərslik. Ümumi hissə. Yenidən işənmiş 2-ci nəşr. Bakı: "Zərdabi LTD" MMC, 2015, 412 s.
2. C.Süleymanov, İ.Zeynalovun redaktəsi ilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası /Bakı: Qanun, 2004 , s.227.
3. C.H.Mövsümov, B.C.Kərimov və Ə.H.Hüseyinovun redaktəsi ilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası./Bakı: Digesta, 2016, 1336 s.
4.Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət prosesi. Bakı: Qanun, 2002, s.902.
5.Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik. Yenidən işlənmiş 3-cü nəşr. Bakı: Qanun, 2008, 852 s.
6.Cəfərquliyev M.Ə. Cinayət Prosesi. Ümumi hissə. Bakı: Qanun, 2001, s.271.
7.Qəfərov M.S. Cinayət prosesində qətimkan tədbirlərinin sistemi və təsnifatı haqqında//Bakı, Qanun, 2016, № 12 (266), s. 118-125.
8.Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989, 312 s.
9.Алексеев Н.С., Лукашевич В.З. Советский уголовный процесс. Ленинград, 1989, 472с.
10.Уголовный процесс. Под редакцией Гуценко К.Ф. М., 1997,с.509.
11.Смирнов А.Б., Калиновский К.Б. Уголовный процесс. Питер, 2005, 699 с.
12.Строгович М.С. Курс советского уголовного процесса. Том I. М.: Наука, 1968, 468 с.
13.Трунов И.Л., Трунова Л.К. Меры пресечения в уголовном процессе. Санкт- Петербург: Юридический центр Пресс, 2003, 356 с.
14.Зинатуллин З.З. Уголовно-процессуальное принуждение и его эффективность. Казань, 1981, с.136.

İDARƏETMƏ

FRANÇAYZİNQ YOLU İLƏ MARKETİNQİN TƏŞKİLİNİN NƏZƏRİ ASPEKTLƏRİ

NƏSİMİ KAMALOV
Baki Mühəndislik Universiteti
"Biznesin idarə edilməsi" kafedrası
nkamalov@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə marketinqin təşkili yollarından biri kimi françayzinqin nəzəri aspektlərindən bəhs olunur. Burada françayzinqin mahiyyəti, tərəfləri, müsbət və mənfi cəhətlərinə toxunulmuşdur.

GİRİŞ

Uğurlu bir mal, ximət və ya brendi dünyanın hər tərəfinə yaymaq üçün istifadə olunan françayzinq, xüsusilə pizza salonları, hamburger restoranları kimi ayaq üstü yeyilən hazır gıda sahəsində geniş istifadə olunur. Fransız dilində "franchır, ya da affranchır" sözündən gələn françayzinq, dilimizdə hərfi mənada "sərbəst buraxmaq" mənasını verir və elmi ədəbiyyatlarda bir qayda olaraq, ingilis dilində olduğu kimi "françayzinq" şəklində istifadə edilir. Tam qarşılığı olmamaqla birlikdə, "patent müqaviləsi" kimi qəbul edilə bilər.

AÇAR SÖZLƏR: françayzinq, marketinq, inkişaf

Françayzinqin mahiyyəti

Ədəbiyyatlard françayzinq, "imtiyaz, seçmə, satış-distribütorluq hüquqlarının verilməsi, ad və brendin istifadəsi" mənasında işlədilir. Dolayılı olaraq françayzinq, françayzinq verən tərəfindən françayzinq alan tərəfə dəstək verilməsi, onun üzərində daimi nəzarət və verilən xidmət qarşılığında françayzinq alandan periodik olaraq müəyyən bir pay almaq şərti ilə verilən bir hüquq şəklində tərif edilə bilər.

Françayzinqdə, françayzinq verən mal və ya xidmətlərin ölkə daxilində ya da ölkə xaricində investisiya qoymadan bir başqa firma tərəfindən istehsalını və satışını təmin etməkdir. Dolayısı ilə françayzinq, françayzinq verən baxımından bir marketinq fəaliyyəti kimi, françayzinqin alıcısı baxımından isə, investisiya seçimi və iş qurma yolu olaraq düşünülə bilər. Təcrübədə mövcud olan filial, patent, təmsilçilik kimi müqavilələr françayzinqə bənzəməklə bərabər, əhatəsinə görə françayzinq müqaviləsi bu sadalananlardan daha genişdir. Belə ki, bir vaxtlar dayanıqlı istehlak mallarının distribütorluğu və satış sonrası xidməti şəkilində başlayan françayzinq, artıq istehsalçının brendini, adını, emblemini və hətta bütün müəssisə sisteminin istifadəsini ehtiva etməklə əhatə dairəsini xeyli genişləndirmişdir.

Françayzinq ölkə daxili və ya ölkə xarici həyata keçirilə bilər. İşin tərəflərinin eyni ölkə daxilində olması şəraitində "ölkədaxili françayzinq", əks halda "beynəlxalq françayzinq"dən söhbət gedir. Başqa sözlə, françayzinq verənin öz ölkəsi xaricindəki ölkələrə françayzinq verməsi halında "beynəlxalq françayzinq" baş verməkdədir. Tərəflərin hüquqi sərbəstliklərini itirmədikləri beynəlxalq françayzinq nəticəsində, françayzinq alıcısının yerləşdiyi ölkədəki müştərilər, françayzinq verənin təqdim etdiyi eyni mal, xidmət və ya brendi, eyni keyfiyyət və eyni standartlar daxilində əldə edə bilirlər. Beynəlxalq françayzinq sayəsində, özünü doğrultmuş firmalar beynəlxalq bazarlarda genişləmə strategiyasını tətbiq etdiklərindən, daim inkişaf etmək imkanı əldə edirlər.

Françayzinqin tərəfləri və işləyişi

İstər ölkə daxili, istərsə də beynəlxalq françayzinqdə iki ana tərəf vardır. Beynəlxalq françayzinqdə araya bir bankın girməsi ilə tərəf sayısı üçə çıxmaqdadır. Aşağıda françayzinqin tərəfləri haqqında qısa məlumat verilmişdir:

Françayzinq verən (franchisor): özünə aid bəzi haqq və imtiyazları müəyyən bir ödəmə qarşılığında françayzinq müqaviləsi ilə başqasına verən tərəf,

Françayzinq alıcısı (franchisee): bəzi haqq və imtiyazları müəyyən bir ödəmə qarşılığında françayzinq müqaviləsi ilə istifadə haqqına sahib olan tərəfdir.

Bank: Françayzinq əsasən banklar yardımıyla həyata keçirildiyindən, banklar da françayzinqdə tərəf kimi rol ala bilərlər. Xüsusilə, ABŞ-da son illərdə First Interstate Bank of Los Angeles, françayzinqin vericisi olaraq fəaliyyət göstərməkdədir. Alıcı banklar adlarının önünə "First İnterstate" sözlərini əlavə etməkdədirlər.

Praktikada beynəlxalq françayzinq, ya franchisorun birbaşa françayzinq, ya dolayılı françayzinq, ya da sözü gedən ölkədə bir şöbə açması yolu ilə həyata keçirilməkdədir. Françayzinqdə tərəflər mənfəətlərini ən üst səviyyəyə çıxarmaq üçün bir-birilərini seçmə hüququna sahibdirlər.

Françayzinqdə verən tərəf, alıcıya istifadə etdiyi ad, brend, mal və ya xidmətin istehsal texnologiyası, idarə etməsi ilə əlaqədar informasıyanı verməli və alıcını daimi olaraq dəstəkləməkdədir. Buna qarşılıq, alıcı tərəf isə ad, brend, imtiyaz haqqını bir ödəmə qarşılığında istifadə etməklə birlikdə özünə verilən texnoloji məlumat və xidmətlərdən də müqavilə hökümləri çərçivəsində faydalanır.

Françayzinqin əlbətdə bir çox funksiyası vardır. Françayzinqin funksiyaları, franchiseeyə bir paket halında təqdim olunur. Buna paketləmə funksiyası da deyilməkdədir. Bütün funksiyaların içində toplandığı bu paketə "françayzinq paketi" deyilir. Françayzinq paketi "idarə etmə paketi (administrative)" və fəaliyyət paketi (opetations package) olmaqla iki bölmədən ibarət olur.

Françayzinq növləri, üstün və zəif cəhətləri

Təcrübədə françayzinqin çox fərqli şəkillərdə tətbiqinə rast gəlmək mümkündür. Burada françayzinq növlərinin hamısını sayma və açıqlama imkanımız olmadığından, bəzi françayzinq növlərinin adlarının verilməsiylə ilə kifayətlənmişdir: Mal və ya brend françayzinqi; Fəaliyyət franchingi; Çoxlu françayzinq; Master françayzinq; Ölkədaxili françayzinq; Beynəlxalq françayzinq; Ənənəvi françayzinq; Patent (İstehsal patenti); Distibütorluq; Təmsilçilik.

Françayzinqin üstün və zəif tərəfləri həm françayzinqin verən, həm də alan baxımından müztəlifdir. Odur ki, bunları bir-birindən ayrı sadalamaqda fayda vardır.

a. Alıcısı baxımından françayzinqin üstünlükləri:
- Məşhur bir ada sığınaraq, rahatlıqla bazara girmə,
- Françayzinqi alan firma digər firmalara görə daha az faizli kredit tapmaq şansına sahib olur,
- Bənzər bir firmanın rəqabəti ilə qarşılaşmamaq,
- Françayzinqi verən firma quruluş yerinin təsbiti, ehtiyatların təmini və s. kimi mövzularda yardımçı olur,
- Quruluş və müəssisə məsrəfləri müstəqil iş qurma ilə müqayisədə daha azdır,
- Françayzinqi verən firmanın innovasiya nəticələrindən yararlanma imkanı.

b. Alıcısı baxımından françayzinqin mənfi cəhətləri:
- Françayzinqi verən firmanın alıcı üzərində hər zaman nəzarəti vardır,
- Alıcı firma girdiyi işdə umduğunu əldə etməyə bilər,
- Françayzinqi verən firma ilə əlaqədar mənfi xüsusiyyətlər alıcıya da təsir edir,
- Alıcı firmanın françayzinq müqaviləsini ləğv etmə ya da başqa bir müəssisəyə devr etmə haqqı çox məhduddur.

c. Françayzinqi verən firma baxımından françayzinqin üstünlükləri:
- Daimi və periodik bir gəlir qaynağı yaradır,
- Bir şəbəkə qurmaq istənilirsə, öz mağazalarını qurmaq yerinə alternativ bir yoldur,
- Alıcılar işlərinin sahibi olduqlarına görə, maaşlı idarəçilərdən daha çox stimullaşdırılmış olurlar,

d. Françayzinqi verən firma baxımından françayzinqin mənfi cəhətləri:
- Alıcının françayzinqi verən firmanın tələblərinə tam olaraq uymaması,
- Alıcının daimi nəzarətdən bezməsi,
- Alıcının françayzinqi verən firmaya doğru məlumatları ötürməməsi,
- Alıcının vaxt ötdükcə öz sistemini qurmağa yönələrək, françayzinqi verən firma ilə rəqabətə girişməsi.

Göründüyü kimi, insan övladı tərəfindən ortaya atılan bütün məsələlərdə olduğu kimi, françayzinqin də sadəcə müsbət yox, həm də mənfi cəhətləri mövcuddur. Odur ki, bu metodun tətbinqindən öncə tərəflərin məsələnin ətraflı düşünmələrinə və onun nəticəsində qərar vermələrinə ehtiyac vardır.

NƏTİCƏ

Dünyanın inkişafetmiş və inkişaf etməkdə olan ölkələr şəklində iki yerə bölünməsi, insanların harada yaşamalarına görə fərqli rəfah səviyyələrinə sahib olacaqlarının təyin edir desək, yanılmarıq. Böyük ölkələrdə bəzən rəfah səviyyəsi regioanlar arasında belə fərqlənməkdədir. Fərqli məkanlardakı fərqli potensial imkanlar, istər ölkələr arasında, istərsə də bir ölkə daxilində mövcud olan fərqliliklərin ortadan qaldırılmasına əngəllər törədir. Məsələyə bu baxımdan yanaşdıqda françayzinq bərabər sosial-iqtisadi inkişafın təmini baxımdan son dərəcə faydalı metod olaraq özünü göstərir. Belə ki, françayzinq sayəsində

yüksək inkişaf etmiş bölgələrdə əldə edilmiş nailiyyətlər, inkişaf baxımından geri qalan bölgələrə transfer olunur və daha qısa zamanda yüksək uğurlu nəticələrin əldə edilməsinə şərait yaranır. Digər tərəfdən, bu metodla tanınmış müəssisələrin daha sərfəli şərtlər daxilində yeni bazarlara çıxış imkanı təmin olunur. Nəticə etibarı ilə, qazan-qazan prinsipinə əsaslana ümumi faydanın əldə edilməsi reallşır. Qeyd olunanlar nəzərə alındığında, nəzəri baxımdan françayzinqin tətbiqinin məqsədəuyğunluğu şübhə doğurmur.

ƏDƏBİYYAT SİYAHISI

1. İslamov E., Musayeva G., Babaşov B., Ağayeva Ş. Françayzinq: kiçik sahibkarlar üçün bələdçi, İqtisadi tədqiqatlar mərkəzi, Bakı, 2017
2. Cebeci R., Franchising rehberi, KOSGEB Girişimciliği geliştirme merkezi, Ankara, 2005
3. Kazançoğlu İ., Ötkem Ö. Endüstriyel işletmelerde franchising model önerisi: Hazır beton sektöründe bir uygulama, Dokuz Eylül Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2016, s. 251-285.
4. Küçük B. Uluslararası giriş stratejilerinde franchising sistemi ve bir uygulama, Karadeniz Teknik Üniversitesi Sosyal Bilimler Dergisi, 2011, s. 17-29.
5. Nart S. Türkiye'de franchising sisteminin gelişimi ve franchise alan girişimcilerin iş memnuniyyeti belirleyicilerinin analizi üzerine bir araştırma, Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2005, s. 123-149.
6. Ulaş D. Franchising sisteminin girişimcilik açısından değerlendirilmesi, Gazi Üniversitesi iktisadi ve idari bilimler fakültesi dergisi, 2006, №8, s. 133-151

İSTEHLAK BAZARINDA İSTEHLAKÇILARIN ALICILIQ QABİLİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ (YUYUCU TOZ BAZARI TİMSALINDA)

RÜFƏT MƏMMƏDOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə Fakültəsi, Biznesin idarəedilməsi
rmammadov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qeyd etmək lazımdır ki, istehlakçı bazarında müştəri davranışları müxtəlif amillərin təsirindən fərqliliklər göstərə bilir. Bu da öz növbəsində müxtəlif şirkətlərin marketinq fəaliyyətləri üçün çətinliklər törədir. Marketinqin əsas məqsədi müştəri məmnuniyyətini artıraraq müştərilərlə uzun müddətli faydalı əlaqələrin qurulmasıdır. Bu istiqamətdə belə əlaqələrin qurulması üçün müştəri davranışları mütləq şəkildə öyrənilməlidir. Müştəri alıcı davranışarının əsasını da onların alıcılıq qabiliyyətinə təsir edən amillərin öyrənilməsidir. Əfsuslar olsun ki, bu sahədə ciddi tədqiqat işləri aparılmamışdır. Buna görə də bu tədqiqatın əsas məqsədi istehlakçı bazarlarında müştərilərin alıcılıq qabiliyyətinə təsir edən amillərin qiymətləndirilməsidir. Tədqiqat işində yuyucu toz bazarı və onun müştəriləri əsas alınmışdır. Qeyd etmək lazımdır ki, bu iş əvvəllər tədqiq edilməmiş və yenidir. Tədqiqat işinin əsas nəticələri sonrakı elmi məqalələrdə və tədqiqat işlərində istifadə edilə bilər.

AÇAR SÖZLƏR: ISTEHLAKÇI BAZARLARI, MÜŞTƏRI, YUYUCU TOZ BAZARI

GIRIŞ

İstehlakçı bazarları hər zaman müxtəlif amillərin təsiri nəticəsində müxtəlif müştəri davranışları sərgiləmişdir. İstehlakçı qismində çıxış edən müştərilər alıcılıq qabiliyyətlərini məhsul və xidmətə görə dəyişirlər. Elmi ədəniyyatda Filip Kotler, Gary Armstrong, Sümer, İsmet Mucuk və digərləri tədqiq etmişlər. Azərbaycan elmi ədəbiyyatında isə istehlakçı davranışlarına Nəsimi Kamalov, Rasim Abutalıbov və digərlərinin elmi əsərlərində yer almışdır. Məsələyə ümumi aspektdən yanaşdıqda istehlakçıların alıcılıq qabiliyyətinə təsir edən amilləri Kotlerin müəyyən etdiyi amillər əsasında 4 ana qrupda cəmləşdirmək olar. Bunlar

- Mədəni
- Sosial
- Psixoloji
- Şəxsi

amillər daxildir. Mədəni amillərə əsasən istehlakçının doğulduğu və böyüdüyü ölkənin və ailəni mədəni amilləri daxildir. Eyni zamanda alt mədəni qruplar da bu amilin tərkibində qeyd edilir. Digər tərəfdən sosial amillərə qrup və qrup davranışları, ailə, referans qruplar, rollar və status, sosial şəbəkələr kimi amillər daxildir. Psixoloji amillərə əsasən öyrənmə, dərketmə, motivasiya, inam, düşüncə kimi amillər daxildir. Son olaraq şəxsi amillərə yaş, cins, təhsil, gəlir səviyyəsi, yaşam tərzi kimi amillər daxildir.

TƏDQIQAT METODU

İstehlakçıların alıcılıq qabiliyyətinə təsir edən amillərin qiymətləndirilməsi üçün anket üsulundan istifadə edilmişdir. Anket 27 sualdan ibarət olmaqla 6 sual demoqrafik, 20 sual əsas anlayışlar və 1 sual açıq şəklində tərtib edilmişdir. Anket sorğusu 01.03.2022 - 01.04.2022 tarixləri arasında Bakı şəhərində keçirilmişdir. Sorğu da strukturlaşdırılmış seçmə üsulu tətbiq edilmiş və 405 respondent iştirak etmişdir.

NƏTICƏ

Aparılan tədqiqatın nəticələrinə əsasən istehlakçılar yuyucu tozları alarkən əsasən keyfiyyətə, brendə və daha sonra qiymətə fikir verirlər. Ən son açıq suala verilmiş cavablara əsasən yuyucu toz markası Ariel olaraq seçilmişdir. Sorğularda istehlakçıların davranışlarına ən çox təsir edən amil isə reklamın və ələxsus televizya reklamlarının olması müəyyən edilmişdir. Buradan da nəticə olaraq qeyd etmək lazımdır ki, istehlakçı davranışlarına təsir edən kommunikasiya vasitələridir. Qeyd edək ki, müəssisələr məhsul və xidmətlərinin marketinqində istehlakçılarla düzgün kommunikasiya vasitələri ilə ünsiyyət qura bilsələr bazarda mütəmadi olaraq həmin müəssisələrin məhsul və xidmətləri tələb ediləcəkdir.

ƏDƏBIYYAT SIYAHISI

1. https://core.ac.uk/download/pdf/38124382.pdf - 12.04.2022
2. https://www.researchgate.net/publication/341407314_Factor_Affecting_Consumer_Buying_Behavior_A_Conceptual_Study - 12.04.2022
3. Nəsimi K. Marketinq, Bakı Mühəndislik Universiteti, Xırdalan 2018:1-142
4. Philip K. and Gary A. Principles of Marketing, Pearson, 2021:1-683
5. Rüfət M. və Lalə Ə. Azərbaycanda Xidmət Sənayesində Müştəri Məmnuniyyətinin Əhəmiyyəti: Qonaqlama Və Restoran Xidməti Nümunəsində, Journal of Baku Engineering University, Volume 2, İssue 1, 2018, Səh. 15-26

MÜƏSSISƏLƏRIN BEYNƏLXALQ BAZARLARA AÇILMA SƏBƏBLƏRI

TAHIRƏ SALAYEVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə/Biznesin idarə edilməsi
tasalayeva@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işinin qısa icmalı. Burada işin aktuallığı, məqsədi, elmi yeniliyi, praktiki əhəmiyyəti, üstünlükləri və nəticəsi yer almalıdır. Xülasə bir paraqrafdan ibarət olmalıdır və 100-250 sözü keçməməlidir. Qısaltmalar, istinadlar və haşiyələr istifadə edilməməlidir.

Hazırki dövrdə texnologiyanın inkişafı, kommunikasiya sisteminin irəliləməsi, dünyadaki ümumi siyasi vəziyyətin dəyişməsi, dünya iqtisadiyyatının inkişafı, ölkələrarası əlaqələrin genişlənməsi, qloballaşma prosesinin sürətlə yayılması bir çox müəssisələrin inkişafını təmin etməklə bərabər rəqabəti, müəssisələrin istehsal gücünü artırmış və bu hal da artıq bir sıra müəssisələrin lokal bazarda doyma həddinə gətirib

çıxarmışdır. Məhsuldarlığı artan müəssisələr artıq doyma həddinə çatan yerli bazardan beynəlxalq bazarlara açılma yolunu seçməyə başlamışdır. Belə ki, beynəlxalq bazarlara açılmaq yolundakı əngəllərin azalması bu işi hər zamakından daha asan hala gətirmişdir. Beynəlxalq bazarlara açılmaq müəssisələrə çoxyönlü, geniş, olduqca böyük və saysız yeni imkanlar təqdim edir. Məhz bu səbəblərdən dolayı günümüzdə müəssisələr beynəlxalq bazarlara çıxmağa daha istəklidir.

Məqalənin əsas məqsədi müəssisələrin beynəlxalq bazarlara yönəlmə səbəblərinin araşdırılması, analizi və bu prosesin müəssiələr üçün yaratdığı imkanları tədqiq etməkdir. Burada beynəlxalq bazar məhfumu, müəssisələrin beynəlxalq bazarlara yönəlmə səbəbləri və beynəlxalq bazarların müəssisələr üçün yaratdığı imkanlar öz əksini tapmışdır. İşin araşdırılması zamanı, bir sıra xarici ədəbiyyatlar ilə tanış olunmuş, müəlliflərin yanaşmaları təhlil olunaraq nəticə çıxarılmış, etibarlı internet resurslarına da müraciət olunmuş, maraqlı faktlar araşdırılaraq müəyyən təkliflər irəli sürülmüşdür.

Tədqiqat apararkən müasir baxışlara, müasir həll üsullarına müraciət olunmuş, bir sıra yeni metodların təhlili verilmiş, bu metodlar üzərində əlaqələndirmələr və qarşılıqlı tətbiqetmə imkanları müəyyən olunmuşdur.

AÇAR SÖZLƏR: beynəlxalq bazarlar, müəssisələrin beynəlxalq bazarlara açılma səbəbləri, beynəlxalq bazarların müəssisələr üçün yaratdığı imkanlar

GIRIŞ

Hazırda dünya iqtisadiyyatı sürətlə genişlənir, faəliyyət göstərən müəssisələrin sayı günü-gündən artır və nəticədə müəssisələr arasındakı rəqabətin şiddəti daha da artır. Bu günki dövrdə müəssisələr fəaliyyətini davam etdirə bilmək üçün artıq hər zamankından daha çox çalışmalı, əmək sərf etməli, öz sahələrində ən yaxşı olmağa can atmalıdırlar.

Rəqabətin kəskinləşməsi, müəssisələrin məhsuldarlığının artması, yerli bazarların doyma həddinə çatması kimi hallar müəssisələri yeni imkanlar axtramağa sövq etmişdir. Belə ki, qloballaşmanın artması müəssisələrə yeni imkanlar tanıyır. Əgər yerli bazarlar müəssisələrə artıq öz fəaliyyətlərini davam etdirməyə yararlı olmursa və yaxud yerli bazarlar müəssisələrin istehsal imkanlarına cavab verə bilmirsə, beynəlxalq bazarlara açılma bir növ onların xilaskarı olacaqdır.

Tədqiqat mövzusunun məqsədi müəssisələrin beynəlxalq bazarlara açılma səbəblərinin qiymətləndirilməsidir.

Tədqiqat işinin əsasını müəssisələrin beynəlxalq bazarlara açılma səbəblərinin və beynəlxalq bazarların müəssisələrə yaratdığı imkanların araşdırılması təşkil edir.

TədqiQat metodu

Tədqiqat mövzusunun araşdırılması zamanı xarici ədəbiyyatlardan və bir sıra internet resurslarından isifadə olunmuşdur. İşin ərsəyə gətirilməsi zamanı xarici ədəbiyyatlara müraciət olunmuş, qarşılaşdırmalar aparılmış, təhlillər və dəyərləndirmələr aparılmaqla meydana gəlmişdir.

Beynəlxalq bazarlar ölkə sərhədləri xaricindəki bazarlardır. Hər hansı ölkədə fəaliyyət göstərən bir müəssisənin həmin ölkə xaricində bir və ya birdən artıq xarici bazara çıması onun artıq beynəlxalq bazarlara açılması və dolayısıyla beynəlxalq şirkətə çevrilməsi deməkdir. Beynəlxalq ticarət isə sərhədlər xaricində məhsul və xidmətlərin mübadiləsidir [2, s. 20].

Beynəlxalq bazarlar ayrı-ayrı xarici ölkə bazarlarından ibarət olduğundan həm yerli bazar ilə oxşar əlamətlərə sahib ola bilər, həm də bazarlar arasında tamamilə böyük fərqliliklər ola bilər. Xüsusilə də, əgər çıxılacaq ölkə ilə eyni regionda yerləşirsə və ölkələr arasında sosial-mədəni yaxınlıq mövcuddursa, bu bazarlara xas xüsusiyyətlər oxşarlıq göstərə bilər. Amma ümumilikdə, adətən bazarlar arasında fərqliliklər çox olur, beynəlxalq bazarlardakı fəaliyyət yerli bazara nisbətən daha çətin, daha mürəkkəb hala gəlir. Beynəlxalq bazarlar adətən aşağıdakı xüsusiyyətlərə malik olur:

- Beynəlxalq bazarlarda mürəkkəbliklər, qeyri-müəyyənliklər özünü daha çox biruzə verir
- Müəssisələrarası rəqabət daha kəskin olur
- Bazar araşdırmalarının daha çətin olması (dil əngəli, fərqli adət-ənənə və s.), daha çox zaman alması və daha çox xərc tələb etməsi
- Kommunikasiyanın daha zəif və gec olması
- Nəzarətin daha çətin olması
- Ölkələrə görə dəyişən ehtiyac və tələblər
- Fərqli ölkə qanunları, qoyduğu əngəllər
- Yerli bazara nəzərən daha az informasiyaya malik olmaq

Müəssisələr yerli bazarlarda fəaliyyət göstərərkən beynəlxalq bazarlara çıxma qərarı verməsi olduqca əhəmiyyətli bir prosesdir. Beynəlxalq bazarlardakı fəaliyyət müəssisələrin maksimum böyümə potensialına

çatmaları üçün böyük əhəmiyyət kəsb edir [5, s. 14]. Beynəlxalq biznesin arxasında duran digər əhəmiyyətli motiv müəssisələrin satış və mənfəətdəki dalğalanmaları minimallaşdırmaq üçün riskin minimuma endirilməsi istəyidir [3, s. 10].

Beynəlxalq bazarlara çıxış prosesi müəssisələrə yeni imkanlar verərkən həm də özü ilə bərabər daha böyük risklər gətirir. Buna görə də beynəlxalq bazarlara çıxış prosesinin doğru qurulması, doğru idarə edilməsi, doğru strategiyanın seçilib və tətbiq edilməsi lazımdır. Beynəlxalq bazarlara çıxış prosesi zamanı müəssisələr adətən aşağıda göstərilən mərhələləri izləyir:

- Beynəlxalq bazarlarda müəssisənin fəaliyyətinə təsir göstərəcək faktorların analiz edilməsi
- Analizdən sonra beynəlxalq bazarlara çıxmağın müəssisə üçün faydalı olub-olmamasının təhlil edilməsi
- Təhlildən sonra beynəlxalq bazarlara çıxıb-çıxmama qərarının verilməsi
- Daxil olunacaq xarici bazar və yaxud bazarların araşdırılması
- Araşdırmanın nəticəsində hansı xarici bazar və yaxud bazarlara çıxmaq qərarının verilməsi
- Beynəlxalq bazarlara hansı strategiya ilə çıxılmasının müəssisə üçün səmərəli olacağının araşdırılması
- Beynəlxalq bazarlara çıxış strategiyasının müəyyən edilməsi

Bəs müəssisələr nə üçün beynəlxalq bazarlara açılma qərarını verir? Artıq uzun müddətdir fəaliyyət göstərdiyi, nəticədə daha yaxşı bildiyi yerli bazardan qeyri-müəyyənliyin daha yüksək olduğu, bir bilinməzliyin hökm sürdüyü beynəlxalq bazarlara açılmağa onları nələr sövq edir? Müəssisələrin beynəlxalq bazarlara yönəlməsinin bir çox səbəbləri vardır. Əgər müəssisə daha çox istehsal gücünə malikdirsə, xarici bazarlarda onun üçün daha yaxşı fürsətlər mövuddursa, beynəlxalq bazarlara çıxma qərarı müəssisə üçün olduqca doğru bir qərardır. Belə ki, əgər doğru proses və strategiya izlənilərsə, bu hal müəssisəin daha da böyüməsinə, gəlirinin artırmasına gətirib çıxara bilər.Müəssisələri beynəlxalq bazarlara çıxmağa həm daxili, həm də xarici səbəblər təşfiq edə bilər. Belə ki, hər hansı bir müəssisəin xarici bazara çıxma istəyi öz daxili potensialı, məqsəd və hədəfi, fəaliyyət göstərdiyi ölkədəki vəziyyətdən asılı olan və s. səbəblərdən, eləcə də çımaq istədiyi xarici bazardakı şəraitdən irəli gələn səbəblərdən qaynaqlana bilər. Müəssisələri beynəlxalq bazarlara çıxmağa sövq edən səbəblər aşağıda kimi göstərilmişdir:

Daxili bazarların doyma həddinə çatması- hər bir bazarındoyum həddi vardır**.** Bazarların doyum həddinə çatmasının bir sıra səbəblər təsir göstərir. Məsələn, əhalisinin sayı- ayrı-ayrı ölkələrdə əhalinin sayı müxtəlifdir. Bir ölkənin əhalisinin sayı milyarda çatarkən, digər ölkədıki əhali sayı minlərdə ola bilər. Əhalinin sayına təsir etmək müəssisəin iqtidarında olmayan bir prosesdir. Əhali sayı minlərdə olan, turistlərin, qeyri-rezidentlərin az gəldiyi bir ölkədə milyonların tələbini yaratmaq olmaz. Maksimum istehlak miqdarı əhalinin sayını keçə bilməz.

Xarici bazarlarda yeni imkanların yaranması- buna hər hansı bir xarici bazarda müəssisəin istehsal etdiyi məhsullara hansısa səbəbdən dolayı güclü tələbatın olması və s. kimi xarici müəssisələr üçünyeni imkanlar yaradacaq hallar aiddir.

Ölkədaxili bazarların hədəflənmiş mənfəət üçün yetərsiz olması- hər bir daxili bazarın müəyyən bir alıcılıq səviyyəsi vardır. Sizin məhsullarınız daxili bazarda satıla biləcəyinin ən yüksək nöqtəsində olsa belə, bu, hədəflənən mənfəət üçün yetərsiz qala bilər. Belə olan halda hədəfinə çatmaq üçün müəssisələr yeni bazarların axtarışına yönəlməyə başlayır.

Ölkədaxili alıcılıq səviyyəsinin aşağı olması- bir çox hallarda iqtisadi səbəblərdən dolayı müşahidə olunan bir prosesdir. Əgər ölkədə alıcılıq səviyyəsi aşağıdırsa, orada fəaliyyət göstərmək gəlirlilik baxımından sırfəli olmayacaqdır. Bu zamanyeni bazarların axtraılması şərt halına gəlir

Müəssisənin varlığının qorunub saxlanılması- yerli bazarda məhsulun artıq qəbul olunmadığı hallardamüəssisə varlığını davam etdirmək üçün başqa bazarlara çıxmaq qərarı alır. Yəni bu halda beynəlxalq bazarlara çıxış müəssisələr üçün artıq seçim deyil, bir növ varlığını qoruyub saxlaya bilmək üçün çıxış yolu olur.

Ölkələrarası ticarətdəki maneələrin azaldılması, hətta xarici ticarətə təşviqin artması- günümüzdə ölkələrarası ticarət hər zamankından daha asan həyata keçirilir. Artıq ölkələrin əksəriyyəti ölkəyə girişə əngəl yaratmaq əvəzinə, əksinə dövlətlərin özləri xarici müəssisələrin, inmvestorların, məhsulların daxil olmasına şərait yaradır.

Beynəlxalq ticarəti artırmaq, təşfiq etmək məqsədi ilə yaradılan xarici təşkilatlar- Buna ən yaxşı misallardan biri Ümumdünya Ticarət Təşkilatıdır (ÜTT). ÜTT-nin əsas funksiyalarından biri ölkələrarası ticarətin tarazlı, maneəsiz, və azad şəkildə aparılmasını təmin etməkdir. Bununla da ölkələrarası ticarətin genişlənməsinə və nəticədə üzv ölkələrin əhalisinin rifah səviyyəsininartmasına zəmin yaratmaqdır.

Bəzi ölkələrdə xarici investisiyaların cəlbi üçün əlverişli mühitin yaradılması, təşviqedici vergi dərəcələri- xüsusilə də, inkişaf etməkdə olan ölkələr bunu tətbiq edərək ölkə iqtisadiyyatına fayda qatmaq, məşğulluq yaratmaq səbəblərindən dolayı xarici investorların cəlbinə can atır.

Ölkə daxilində vergi güzəştləri- Bəzi ölkələr ticarəti təşfiq etmək məqsədi ilə xarici ölkələrə ixrac həyata keçirən müəssisələrə vergi dərəcələrində müəyyən güzəştlər edir. Bəzi müəssisələr də bu güzəştlərdən yararlanmaq üçün beynəlxalq bazarlara çıxmaqda maraqlı olur.

Ölkə daxilində fəaliyyət göstərən müəssisəin həddindən artıq böyüməsi- əgər müəssisə ölkə daxilindəki tələbdən daha çox istehsal potensialına malikdirsə, bu zaman müəssisəin öz gücündən tam istifadə edə bilməsi üçün beynəlxalq bazarlara çıxması labüd olur. Əgər istehsal edilə biləcək məhsul daxili bazarda satılmırsa, bu zaman xarici bazara yönəlinəcəkdir.

Texnologiyanın inkişafı- texnologiyanın inkişafı bütün sahələrdə olduğu kimi ticarət sahəsində də müəssisələrə yeni imkanlar təqdim edir. Texnologiyanın inkişafı artıq qloballaşma proaesini daha asan hala gətirmiş, sürətləndirmişdir.

İstehsal xərclərinin ayrı-ayrı ölkələrdə müxtəlif olması- müasir dövrdə bir çox müəssisələr istehsalın daha ucuz başa gəldiyi ölkələrə üz tutmağa başlamışdır. İstehsal xərclərinin aşağı, işçi qüvvəsinin ucuz olması və bəzi ölkələrin bu yöndəki təşviqləri son vaxtlar bu prosesi daha da yayqın hala gətirmişdir. Cənub-Şərqi və Cənubi Asiyada daha çox müşahidə olunur.

Məhsulun həyat dövrünü uzatmaq-adətən ana vətəni inkişaf etmiş ölkə olan müəssisələrin beynəlxalq bazarlara yönəlmə səbəbi olur. Belə ki, artıq yerli bazarda rəğbət görməyən məhsulun hələ də istehsal olunaraq tələbin olduğu bir xarici bazara çıxarılması qərara alınaraq məhsulun həyat dövrü uzadılır.

Müəssisənin böyümə istəyi- yuxarıda qeyd olunduğu kimi beynəlxalq bazarlara çıxmaq müəssisəin böyümə yolunda atdığı ən böyük addımlardan biridir. Nəzər yetirsək, aydın olar ki, günümüzün ən böyük müəssisələri beynəlxalq müəssisəidir.

Məhsulun satışında mövsümi fluktuasiyaların izlənməsi- xarakterindən, növündən asılı olaraq bəzi məhsullar mövsümi xarakter daşıyaraq ilin bütün fəsillərində istehlakçılar tərəfindən eyni maraqla qarşılanmır. Müəssisələr istehsal prosesini daimi etmək, ilin bütün fəsillərində mənfəətlə çalışmaq üçün xarici bazarlara çıxma qərarı ala bilər.Əgər daxili bazarlardakı satışlarda mövsümi dalğalanmalar müşahidə olunursa, beynəlxalq bazarlara çıxmaq istehsalın fasiləsiz olmasına gətirib çıxaracaqdır.

Nəticə

Müəssisələrin rəqabətin kəskinləşdiyi, yerli bazarların kifayət etmədiyi hallarda və nəticədə daha çox gəlir əldə etmək yönündə atacağı ən uğurlu addımlardan biri beynəlxalq bazarlara açılmaqdır. Beynəlxalq bazarlara açılmaq nə qədər də müəssisələrin bir xilaskarı, inkişafı və böyüməyi demək olsa da, eyni zamandy mövcud rəqabət şəraitindən daha kəskin bir dünyaya açılmaqdır, belə ki, burada adətən şərtlər daha kəskin, rəqiblər, daha güclüdür. Müəssisələr beynəlxalq bazarlara yeni addım atarkən adətən riski maksimum dərəcədə aşağı tutacaq vasitələr ilə yavaş-yavaş irəliləyir və artıq beynəlxalq bazarlarda yerini tutduqdan, təcrübəyə sahib olduqdan sonra uzunmüddətli dövr üçün daha gəlirli, təbii olaraq da riskin daha yüksək olduğu metodlar ilə beynəlxalq bazarlarda fəaliyyət göstərir.

Beynəlxalq bazarlara çıxış prosesi qeyri müəyyənliklərdən və bir sıra səbəblərdən dolayı nə qədər riskli olsa da, müəssisələrin fəaliyyətini davam etdirmək, daha geniş bazara açılmaq, gəlirlərini artırmaq, bəzən yerli bazarda mövcud olan bəzi əngəllərdən xilas olmaq üçün seçilmiş ən yaxşı yoldur. Belə ki, bir qayda olaraq, riskin yüksək olduğu yollar daha gəlirli olur. Lakin beynəlxalq bazarlara açılmaq nə qədər riskli olsa da, əslində tək bir bazardan asılı qalmaq bəzən daha riskli ola bilər. Belə ki, hər zaman dəyişən iqtisadi, siyasi, sosial mühitdə birtərəfli, yəni yalnız bir bazara yönəlmək özü özlüyündə böyük bir risk deməkdir.

Beləliklə, müəssisələr beynəlxalq bazarlara açılması qeyri-müəyyənliklər çox olsa da, bu hal onların fəaliyyətini davam etməsi, inkişafı, böyüməsi və daha rəqabətcil bir müəssisə halına çevrilməsi yolunda böyük imkanlar yaradır. Bununla yanaşı hər nə qədər beynəlxalq bazarlarda fəaliyyətin yerli bazarlara nəzərən daha riskli olduğunu vurğulasaq da, tək bazardan asılı qalmayaraq əslində müəssisələr öz risklərini azaltmış olurlar.

ƏDƏBIYYAT SIYAHISI

6. Christoph Lymbersky, “Market Entry Strategies: Text, Cases and Readings in Market Entry Management”, 2008
7. Oded Shenkar,Yadong Luo, “International Business”, 2008
8. Sanjay Misra, P. K. Yadav, İnternational Business: Text and Cases, 2009
9. Simon Majaro, International Marketing: A Strategic Approach to World Markets, 2012
10. Warren J. Keegan, Bodo B. Schlemelgilch, Global Marketing Management: A European Perspective, 2001

PANDEMİYA DÖVRÜNDƏ EFFEKTİV SATIŞIN TƏŞKİLİ METODOLOGİYASI

ELNUR RƏHIMOV
Baki Mühəndislik Universiteti
"Biznesin idarə edilməsi" kafedrası
elrehimov@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Bu bir danılmaz faktdır ki, COVİD-19 Pandemiyası qiymətlərdə kəskin artışa və dünyadakı iqtisadi proseslərdə geriləməyə səbəb oldu. Eyni zamanda pandemiyanın marketinq fəaliyyətlərinə də ciddi təsir etməsi, istehlakçı davranışlarında, alış-veriş proseslərində, satış stragiyalarında dəyişməni labüd edirdi. Bu tədqiqatda COVİD-19 pandemiyasının marketinq fəaliyyətlərinə təsirləri araşdırılmış, pandemiya dövrünə məxsus yeni satış strategiyaları və effektiv satışın təşkili metodları analiz edilmişdir. Sonda nəticə və təkliflər verilmişdir.

GİRİŞ

COVID-19 pandemiyası bütün dünyada olduğu kimi, ölkəmizdə də həyat tərzinə ciddi təsir edir və uzunmüddətli perspektivdə nəzərə çarpan dəyişikliklərə səbəb olur. Epidemiyanın yayılmasına nəzarət etmək üçün görülən tədbirlərlə, beynəlxalq tədarük zəncirləri, tələb-təklif balansları, istehsalçı və istehlakçı davranışları, işləmə üsulları, iş modelləri, təhsil-təlim üsulları və gündəlik həyat kəskin şəkildə dəyişir. Dünyada, həmçinin Azərbaycanda, COVID-19 yoluxmaları görülməyə başlayan kimi insanlar təşvişə düşərək indiyə qədər vərdiş etmədikləri tərzdə alış-veriş etməyə başladılar. Bu da öz növbəsində bəzi sektorlarda, xüsusilə də qida və təmizlik məhsulları sektorlarında həddindən artıq tələb artımına səbəb oldu. İqtisadiyyatda belə dəyişikliklər yarandığı zaman şirkətlərdən bu dəyişikliklərə cavab vermək üçün çevik idarəetmə proseslərini yenidən nəzərdən keçirmələri və sosial məsuliyyət çərçivəsində funksiyaları prioritetləşdirmələri gözlənilir.

İstehlakçı davranışlarının anidən dəyişdiyi bu dövrdə, fürsətlər və risklər bir arada mövcud olur. Müəssisələr yaranmış yeni vəziyyətə uyğun strategiyalar hazırlayıb, ortaya çıxan riskləri fürsətə çevirmək üçün müxtəlif taktikalar tətbiq edirlər. Pandemiya, həmçinin, informasiya texnologiyalarınıdan istifadənin sürətini də artıraraq, bir çox biznes sahəsi üçün rəqəmsallaşma layihələri hazırlamağa məcbur edən amilə çevrildi. Yeni dövr; məhsullarında yeniliklər edən və rəqəmsal dünyaya inteqrasiya edən, yeni satış strategiyaları ilə çıxış edən bizneslər üçün fürsətlər dövrüdür.

Bu tədqiqatın məqsədi, pandemiya dövründə müəssisələrin effektiv satışının təşkilini araşdırmaq, mövcud problemləri ortaya çıxarmaq və müəyyən həll yolları təklif etməkdir.

Belə ki, birinci fəsildə virusun ortaya çıxması, yayılması prosesi, virusun gətirdiyi problemlər ümumilikdə pandemiya dövrünün spesifik xüsusiyyətlərindən bəhs edilmişdir. Pandemiyanın başlanğıcından indiyə qədər olan dövrü əhatə edən bir sıra spesifik xüsusiyyətlər ələ alınmışdır.

Daha sonra ikinci fəsildə, pandemiyanın müəssisələrin fəaliyyətinə təsirləri, bir sıra məhdudiyyətlər və sosial izolyasiyalar zamanı insanların davranışları və pandemiyadan mənfəət və zərərlə çıxan sektorlar araşdırılmışdır.

Son fəsildə isə pandemiya şəraiti üçün effektiv satış metodları və tətbiqi yolları göstərilmişdir. Əlavə olaraq nəticə verilmiş və həmçinin bir sıra təkliflər irəli sürülmüşdür.

AÇAR SÖZLƏR: pandemiya, effektivlik, satışın təşkili

Pandemiya dövrünün spesifik xüsusiyyətləri

17 noyabr 2019-cu ildə ilk dəfə Çinin Uhan şəhərində xəstələrdə hər hansı bir səbəb olmadan inkişaf edən, müalicə və peyvəndlərə cavab verməyən koronavirusun yeni bir növü aşkar olundu. Bu virusun digərlərindən əsas fərqi yoluxmanın həddən artıq sürətli baş verməsi və ölüm hallarının kütləvi şəkildə olması idi. COVID-19 virusu ilk dəfə Çində tapıldığına görə ilk vaxtlar sadəcə lokal epidemiya zənn edilirdi. Bu səbəbdən əvvəlcə yalnız Çindən təmin edilən xammadələr və məhsullara qadağalar qoyulmağa başlandı. Beləliklə, tədarük zəncirində yaranan problem dünya iqtisadiyyatına böyük mənfi təsir göstərdi. Lakin, davam edən dövrlərdə virus sürətlə qərbə doğru yayılmağa başladı. Nəticədə, 2020-ci ilin 11 martında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən qlobal pandemiya elan olundu. Pandemiya;

dünyada birdən çox ölkədə və ya qitədə geniş bir ərazidə yayılan və təsirini göstərən epidemik xəstəliklər kimi xarakterizə edilir.

Pandemiya elan olunduqdan sonra ölkələr müəyyən böyük şəhərlərini bir-birinin ardınca karantinaya aldılar və koronavirusun yayılmasını zəiflətməyə çalışdılar. Qapanmaya gedən ölkələrdə məktəblər, universitetlər, ibadətxanalar, muzeylər, idman zalları, restoranlar, teatrlar, kino klublar, bütün qapalı məkanlar, turistik yerlər, hava limanları, ictimai nəqliyyat vasitələri, küçəyə çıxma qadağaları, yeni il şənlikləri, toy və yas məraimləri, beynəlxalq yarışların keçirilməsi və bir sıra məhdudiyyətlər gətirildi.

Hazırki dövrdə bütün dünyanın Çin ilə olan ticarət əlaqəsi nəzərə alındığında, pandemiya zamanı ortaya çıxan mənzərənin heç də qənaətbəxş olmadığı məlum oldu. Sonrakı dövrlərdə, ölkələrin də qapanması nəticəsində tədarük zəncirində yaranan durğunluqlar, tələb-təklif balansının pozulmasına, xüsusilə tibbi məhsulların (spirt, maska, əlcək və s.) qiymətlərində kəskin artışa və dünyadakı iqtisadi proseslərdə geriləməyə səbəb oldu. Belə olan halda şirkətlər, bir-birinin ardınca fəaliyyətlərini ya dayandırır, ya da, onlayn işləmə rejiminə keçərək, sosial-iqtisadi cəhətdən vəziyyəti stabil saxlamağa çalışırdılar.

Koronavirusun yeni növü olan bu virus, bu gün artıq sadəcə tibb elminin mübarizə apardığı virus deyil, həm də, sosial-iqtisadi problemləri önə çıxaran, və dünya iqtisadiyyatında böyük durğunluğa, hətta kiçilməyə səbəb olan faktor halına gəldi. Xüsusilə də turizm, təhsil, xidmət və enerji sektorları böyük zərbə aldılar. Təhsil sektoru, digərlərinə nisbətən, informasiya kommunikasiya texnologiyası bazasının əlverişli olduğuna görə onlayn təhsilə daha sürətli keçid edə bildilər. Buna baxmayaraq, maddi texniki təminat cəhətdən zəif olan məktəblər və universitetlər onlayn təhsilə adaptasiya olma prosesində biraz gecikdi. Bu da öz növbəsində tələbə və şagirdlərin lazımi elmi biliklərə yiyələnməsinin qarşısını alan səbəb oldu.

Marketinq fəaliyyətlərinə də mənfi təsir edən bu virus, bir sıra problemlərə, xüsusilə də, şirkətlərdə satışların kəskin azalmasına gətirib çıxardı. Belə ki, şirkətlər baş verən bu yeni dəyişikliyə uyğunlaşmaq üçün marketinq və idarəetmə strategiyalarını yenidən gözdən keçirməyə başladı. Vəziyətdən yeganə çıxış yolu internet üzərindən (onlayn) satış etmək idi. Nəticədə, bir çox müəssisə üçün onlayn satış konsepsiyası ön plana çıxmağa başladı.

Pandemiyanın müəssisələrin fəaliyyətinə təsiri

Pandemiya, bir sıra müəssisələrə və şirkətlərə ciddi mənada təsir göstərdi. Ciddi mənada təsir deyilən zaman, ilk olaraq sanki mənfi mənada təsir göstərdiyi anlaşılsa da, zərər dəymiş sektorlarla yanaşı, pandemiya zamanı, ciddi olaraq maksimum qazanc əldə etmiş şirkətlər də vardır. Buradan belə bir sual yaranır. "Nəyə görə pandemiya, şirkətlərə fərqli təsirlər göstərdi?" və ya, "Niyə bəzi şirkətlərə mənfi bəzi şirkətlərə isə müsbət təsir göstərdi?". Bu sualların cavablarını araşdırmaq üçün, aşağıdakı əsas xüsusiyyətləri gözdən keçirmək lazımdır.

Məhdudiyyətlər və qapanmalar

COVID-19 pandemiyası zamanı, yoluxmaların maksimum həddə qalxması və xətəxanalarda kifayət qədər yer olmaması səbəbilə dövlətlər, həftə sonları tam qapanma, həftə içi isə, müəyyən məhdudiyyətlər tətbiq edərək vəziyyəti stabil saxlamağa çalışırdılar. İlkin vəziyyətdə insanlar istədikləri kimi ticarət mərkəzlərinə gedib, alış-veriş etsələr də, qapanmalar olduqdan sonra, insanlar əvvəlki davranış tərzlərini dəyişərək tətbiq edilən qadağalara əməl etmək məcburiyyətində qaldılar. Məsələn, "çölə çıxma qadağası" tətbiq edilən zaman, istehlakçıların fiziki məhsul istehlakı, nəzərə çarpacaq dərəcədə azalmağa başladı. Buradan belə bir sual yarana bilər ki, yerində satış azalmış və ortadan qalxmış ola bilər, bəs şirkətlər bu zərəri bağlamaq üçün onlayn qaydada e-ticarət keçərək bu vəziyyətdən çıxmadılarmı? İlk olaraq bildirək ki, bütün şirkətlərin e-ticarətə keçməyə müəyyən səbəblərdən imkanı yoxdur. Çünki, bu sahə xərc tələb edir. İkinci səbəb, bütün məhsul və xidmətlərin internet üzərindən satışı mümkün deyil. Məsələn, xidmər sektoru – kino klubların göstərdiyi xidmətlər, ticarət mərkəzlərindəki əyləncə xidmətləri və s. bu kimi müəssisələrin xidmətləri yalnız yerində həyata keçirilir. Son olaraq isə, insanlar sadəcə məhdudiyyətlər qoyulduğuna görə yox, eyni zamanda pandemiyadan psixolojik olaraq da mənfi təsirləndilər. Belə ki, pandemiyada yoluxmalar pik nöqtəyə çatdığı zaman, KİV-lər vasitəsi ilə yoluxmalar, ölüm sayları, insanların xəstəxanalarda çəkdikləri əziyyətlər və s. biraz daha qabardılaraq ictimaiyyətə təqdim olunurdu. Bu isə, insanların psixilogoiyalarına mənfi təsir göstərirdi. Belə olduğu halda, insan gələcəyi haqqında daha çox düşünür. Məsələn, "görəsən sabah necə olacaq?", "qiymətlər qalxacaqmı?", "maaşlar veriləcəkmi?" və s bu kimi suallar insanları narahat edirdi. Çox təəssüf ki, həmin anda gələcək haqqında müsbət fikirlər düşünmək də, real görünmürdü. Sadalanan bu fikirləri cəmləşdirdiyimiz zaman, insanların istehlak etmək imkanı olsa belə, gələcəyi fikirləşdiyi və psixolojik olaraq da təsir altında olduqları üçün, daha təmkinli hərəkət edəcək, yəni, proses onlayn formaya dəyişsə belə, əvvəlki kimi pullarını çox rahat bir formada xərcləməyəcəkdir.

Panika, "qazanan" və "itirən" sektorlar.

İnsanlar panikaya düşdükləri zaman hər zamanki satınalma davranışlarını göstərmirlər. Hər zamankından fərqli olaraq gələcəkdə də nə baş verəcəyi qaranlıq qaldığından, alış-verişləri kəskin surətdə artış göstərir. Bunun nəticəsində də bəzi məhsulların qiyməti artır. Bu baxımdan pandemiyanın ilk günlərində marketlərdə və apteklərdə müəyyən məhsulları əldə etmənin çətin olması səbəbilə şirkətlər artan tələb qarşısında, tələbi qarşılaya biləcək gücə sahib olmadığından bazarda qıtlıq yarandı. Bu da bəzi şirkətlərin fəaliyyətinə mənfi təsir göstərən amil oldu.

Pandemiya dövründə mənfəət əldə edən sektorların başında əczaçılıq, telekommunikasiya və ərzaq sektorları gəlir. Virus səbəbilə xəstəlikdən əziyyət çəkən insanların istehlak etdiyi müxtəlif gigiyenik vasitələr, evlərə qapanan insanların internetdə daha çox vaxt keçirmələri bunu deməyə əsas verir. Araşdırmalar göstərir ki, evə qapanan insanlarda stress səbəbi ilə qidalanma vərdişlərində artış baş verir. Bu da öz növbəsində ərzaq məhsullarına olan tələbatın artmasına gətirib çıxarır.

Digər tərəfdən pandemiyadan mənfi təsirlənən sektorlar, turizm, inşaat, təhsil, əyləncə və enerji sektoru oldu. Daha sonralar dövlətlərin müəyyən yumşalmalara getməsi ilə bu sektorlarda az da olsa inkişaf göründü.

Pandemiya şəraiti üçün effektiv satış metodları

Dünya COVID-19 pandemiyası ilə sarsıldı, demək olar ki, bütün insanlığa bütün dünya iqtisadiyyatına təsir etdi. Hökumətlər vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün çalışarkən, iqtisadiyyatlar sabit qalmaq üçün mübarizə aparır. Dünyadakı kiçik bizneslər maliyyə cəhətdən çətinlik çəkirlər, yeni satış üsullarına uyğunlaşmalı olurlar.

Təbii ki, dünyanın başına gələ biləcək ən böyük problemlərdən biri olan bu pandemiya üçün həll yolları hazırlanır və sona çatmağa çalışılır. Mövcud vəziyyəti nəzərdə tutaraq, biznesi inkişaf etdirəcək, COVID-19 zamanı və ondan sonra satışları artırmağa kömək edə biləcək bəzi faydalı satış strategiyaları təqdim edilmişdir.

Əlbəttəki strategiyalar sektordan sektora fərqlilik göstərə bilər. Lakin, bu referatda ümumi müddəalar və bəzi qaydalar araşdırılmışdır.

Məhsul kompleksinin yenidən nəzərdən keçirilməsi.

Ola bilər ki, hər hansı bir şirkətin satdığı məhsullardan bəziləri pandemiya dönəmində çox satıla bilən olsun, bəziləri isə pandemiya üçün əlverişsiz məhsul olsun. Pandemiya zamanı və ondan sonra nəyin satılmalı olduğunu müəyyən etmək üçün qarşıya bu məqsədlər qoyulmalıdır:

Pandemiya dövründə müştərilərin marağını çəkməyən məhsulların məhsul kompleksindən çıxarılması

Pandemiya zamanı şirkətlərin istehlakçılara aidiyyatı olmayan məhsulları satmağa çalışması bir çox problemə səbəb olur. Buna görə də, günün tələblərinə cavab vermək və satışları artırmaq üçün bu məhsullar satış portfelindən çıxarılmalı və başqa məhsullar ilə əvəz olunmalıdır. Əslində pandemiyanın ilk günlərində belə hallar müşahidə olundu. Bir çox şirkət pandemiyanın başlaması ilə maska, spirt və əlcək satmağa başladılar. Belə ki, bəzi marketlər, köşklər və s. maska və digər məhsulların satışına keçdilər.

Məhsul kompleksinə yeni məhsulların əlavə edilməsi

COVİD-19 pandemiyasından təsirlənən təkcə şirkətlər deyil, istehlakçılar da maddi cəhətdən ciddi təsirləniblər. Tələb-təklif balansından yola çıxaraq deyilə bilər ki, əsas qayda dinamik bazar şəraitində baş verən dəyişikliklərə tez uyğunlaşa bilmək bacarığına sahib olmaq lazımdır. Məlumdur ki, bu gün həddindən artıq tələbat olan məhsula sabah tələbat olmaya bilər. Müştərilərin ehtiyaclarını ödəyən məhsulları məhsul kompleksinə əlavə etmək və onu anbar idarəetmə modelləri ilə satış portfelində saxlamaq və onların əlçatan olduğunu göstərmək vacib nüansdır.

Satış və iş fəaliyyətini onlayn platformaya daşımaq

Dövlət tərəfindən sosial izolyasiya tədbirləri nəticəsində, əksər şirkətlər, o cümlədən satış işi ilə məşğul olan şirkətlər biznes və iş fəaliyyətilərini onlayn platformaya daşıdılar. İstehlakçıların sağlamlıqlarını risk altında qoymadan, məhsula müştərinin daha rahat əlçatanlığını təmin etmək məqsədilə onlayn mağaza yaratmaq düzgün seçimdir. Onlayn mağaza uzun müddətdə şirkətə kömək edə bilər. Qlobal miqyaslı e-ticarət satışlarının trilyonlarla dollar olduğu düşünülsə, onlayn platforma ilə, bu platformanın təmin edəcəyi imkanlardan faydalanmaq üçün ən gözəl addımdır.

Müxtəlif kampaniyaların təşkil edilməsi.

Hazırki pandemiya və inflyasiya şəraitində şirkətə müştəri axını təmin etmək endirimlər və kampaniyalar təşkil etməkdən keçir. Aydın məsələdir ki, endirim və kampaniyaların nəticəsində daha çox hədəf kütləyə xitab etmək mümkündür. Bu da zamanla müştərilərin yaddaşında güvənli bir brend olaraq formalaşacağa kömək edəcəkdir.

Sosial media reklamları
Satılan məhsullardan və təşkil olunan kampaniyalardan daha çox istehlakçının məlumatlı olması, xərci nisbətən az amma daha çox müştəri kütləsinin qarşısına çıxan sosial media reklamlarının aktiv istifadəsindən asılıdır. Aydın məsələdir ki, sosial media platformalarında göstərilən reklamlarda əsas şərt davamlı olmaqdır. Çünkü sosial media reklamları müəyyən periodlarda düzgün nəticə verməyə bilər. Bu səbəbdən prefessional dəstək almaq vacib məsələdir.

NƏTİCƏ

Təqdim olunan elmi referatda pandemiya dövrünün spesifik xüsusiyyətləri, pandemiyanın müəssisələrin fəaliyyətinə təsirləri, pandemiya şəraiti üçün effektiv satış metodları və tətbiqi yolları əks olunmuşdur. Dünya iqtisadiyyatında, həmçinin marketinq fəaliyyətlərinə olduqca ciddi təsirləri olan COVID-19 pandemiyasının satış strategiyalarına əhəmiyyətli mənfi təsir göstərdiyi danılmaz faktdır. Lakin, bu təsirin elmi qiymətləndirmə ilə dəyərləndirilməsi doğru addımların atılması baxımından mühüm əhəmiyyət daşıyır.

Təqdim edilən elmi referatda yerinə yetirilmiş araşdırmadan belə nəticəyə gəlmək olar ki, pandemiya bir sıra problemlərə, xüsusilə də, şirkətlərdə satışların kəskin azalmasına səbəb olmuşdur. Yəni, şirkətlər baş verən bu dəyişikliyə uyğunlaşmaq üçün marketinq və idarəetmə strategiyalarını yenidən gözdən keçirmiş çıxış yolu olaraq, internet üzərindən (onlayn) satış etməyə başlamışdırlar. Nəticədə, bir çox müəssisə üçün onlayn satış konsepsiyası ön plana çıxmışdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Özgür ÇENGEL, Serdar PİRTİNİ, Ilgın ÇAKIROĞLU, COVID-19 sürecinde işletmelerde kurumsal yönetim ve sosyal sorumluluk stratejilerinin yeniden yapılandırılması üzerine pazarlama yönlü bir yaklaşım, İstanbul Ticaret Üniversitesi Girişimcilik Dergisi, Sayı: 7, Bahar 2020/1, s.1-21
2. Sinan BAYRAKTAR, Pandemi ve sonrası değişen satış stratejileri, Türkiyə, 2021 https://www.expermio.com/gonderi/pandemi-ve-sonrasi-degisen-satis-stratejileri _37cd6993-ccf1-4fb6-a0f8-d8a78517f150
3. Yücel UYGUN, Pandemi sürecinde satış gücüne katkı sağlayacak bazı önlemler, https://www.dunya.com/kose-yazisi/pandemi-surecinde-satis-gucune-katki-saglayacak-bazi-onlemler/473700, Türkiyə, 2020
4. İbrahim YILDIRIM, Pandeminin pazarlama stratejilerine etkisi, https://www.perakende.org/pandeminin-pazarlama-stratejilerine-etkisi, Türkiyə, 2020
5. Türkiye Cumhuriyyeti Sanayi ve teknoloji bakanlığı, TÜBİTAK, COVID-19 ve Toplum, Salgının sosyal, ekonomik, ve beşeri etkileri, bulgular, sonuçlar ve öneriler, TÜBİTAK yayınları, 2020
6. Deloitte, COVID-19 sonrası tedarik zincirlerinde kazananlar ve kaybedenler, https://www2.deloitte.com/tr/tr/pages/consumer-business/articles/Covid-19-sonrasi-tedarik-zinciri.html
7. Devrim ERDEM, Bir küçük işletme pandemide online satışlarını nasıl artırdı?, https://www.thinkwithgoogle.com/intl/tr-tr/icgoruler/basari-hikayeleri/bir-kucuk-isletme-pandemi-doneminde-akilli-cozumlerle-online-satislarini-nasil-artirdi/ 1/3

PEŞƏ TƏHSILININ DƏYIŞƏN ƏMƏK BAZARININ TƏLƏBLƏRINƏ UYĞUNLAŞDIRILMASININ ƏHƏMIYYƏTI

Fərzanə Səmədzadə
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə
fsamadzade@beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Təhsil hər mənada inkişafın təməl amillərindən biridir. İnsan kapitalına ciddi investisiya qoyulmadan heç bir ölkə davamlı iqtisadi inkişafa nail ola bilməz. Təhsil insanların özləri və dünya haqqında anlayışlarını zənginləşdirir, həyat keyfiyyətini yaxşılaşdırır və cəmiyyətə sosial fayda gətirir. Yaxşı təhsilli işçi qüvvəsi, artıq biliklə idarə olunan qlobal iqtisadiyyatda rəqabət qabiliyyətinin təməl daşlarından biridir. Bununla yanaşı, işəgötürənlər üçün vacib olan bir məsələ də verilən təhsilin iş yerlərinin tələblərinə uyğunluğudur. Xüsusilə müasir dövrdə iş dünyasında tələb olunan yumşaq bacarıqların rolu peşə təhsilinin təkmilləşdirilməsində getdikcə artır. Bundan əlavə işəgötürənlərin ehtiyacları ilə peşə təhsili sisteminin

təmin etdikləri arasındakı uyğunsuzluqlar bacarıq boşluqlarına, idxal olunan işçi qüvvəsinə daha çox inama, daxili işsizlik və daha az rəqabətli iqtisadiyyata səbəb olur. Tədqiqat zamanı müqayisəli-analitik təhlil və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Bu məqalədə peşə təhsilini müxtəlif istiqamətlərdə dəstəkləyərək əmək bazarının müasir tələblərinə uyğunlaşdırmağın əhəmiyyəti açıqlanmışdır.

AÇAR SÖZLƏR: peşə təhsili, yumşaq və sərt bacarıqlar, əmək bazarı

ABSTRACT

Education is one of the key factors of development. Any country can`t achieve sustainable economic development without serious investment in human capital. Education enriches people's understanding of themselves and the world, improves their quality of life and brings social benefits to society. A well-educated workforce is one of the cornerstones of competitiveness in an already knowledge-driven global economy. At the same time, an important issue for employers is the adequacy of education to the requirements of the workplace. The role of soft skills required in the world of work, especially in modern times, is growing in the improvement of vocational education. In addition, inconsistencies between the needs of employers and those provided by the vocational education system lead to skill gaps, greater confidence in imported labor, internal unemployment and a less competitive economy. Comparative-analytical analysis and systematic methods were used during the research. This article explains the importance of adapting vocational education to modern requirements of the labor market by supporting it in various directions.

KEYWORDS: vocational education, soft and hard skills, labor market

Giriş

Təhsil həmişə iqtisadi azadlıq, sosial mobillik və siyasi sabitlik üçün ən təsirli vasitələrdən biri kimi qəbul edilir. Təhsilli olmaq artıq müəyyən qədər iş, əmək haqqı, məsuliyyət, prestij və sosial kapitala nail olmaq deməkdir. Ehtimal olunur ki, təhsil səviyyəsi nə qədər yüksəkdirsə, yuxarıda qeyd olunan fürsətlərdən istifadə etmək şansı o qədər çox olacaqdır.

Yaranan qloballaşma, texnoloji inkişaf, işçi qüvvəsinin hərəkətliliyi mövcud vəziyyəti kəskin şəkildə dəyişdirərək peşə təhsilini ön plana çıxardı. Təhsil inkişafın açarıdırsa, peşə və texniki təhsil iş dünyasına və iqtisadiyyata qapıları açan, yoxsulluğu aradan qaldıran, ətraf mühiti xilas edən və həyat keyfiyyətini artıran əsas açardır [5].

Qloballaşma termini son əlli illik bir dövrdə informasiya texnologiyalarında baş tutmuş çoxsaylı inqilablardan, mallar, xidmətlər və sərmayələr üzrə daim artan transmilli hərəkətlərdə milli və geosiyasi sərhədlərin azaldılmasınadək dünyada formalaşmış müxtəlif iqtisadi, mədəni, sosial və siyasi dəyişikliklərin müxtəlifliyini təsvir etmək üçün istifadə olunan bir termindir [6]. Qloballaşma dörd əsas aspekti fərqləndirilir: ticarət, investisiya hərəkəti, miqrasiya və biliklərin yayılması [10]. Miqrasiya, yəni insanların hərəkəti və biliklərin ötürülməsində peşə təhsilinin rolu özünü göstərir. Göründüyü kimi, dünya bazarlarının prinsipləri ilə rəqabət etmək və qloballaşma çağırışlarına cavab vermək üçün yenilənmiş xüsusiyyətlərə malik kurikulum dizaynına əsaslanan peşə təhsilinin təmin olunması ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyini artıra bilər. Buna görə də, təhsillə bağlı strateji qərar qəbul edənlər, təhsil işçiləri və təhsil tədqiqatçıları peşə təhsili proqramlarını geniş bazar araşdırmaları nəticəsində hazırlanmasına və ya "modernləşdirilməsinə" çalışmalıdırlar. Çünki, peşə təhsili üçün əsas həll edilməsi gərəkən problem iş dünyasının işçilər üçün müəyyən etdiyi bacarıqlara dəyişkən ehtiyaclarını ömür boyu öyrənmə prinsipinə uyğun olaraq qarşılamaqdır. Yeni ixtisaslı işçilərə tələb artdığından və peşə təhsili istiqamətləri daim şaxələndiyindən, iqtisadi rəqabət şəraitində təhsilin oynadığı əsas rolun miqyası daha artır.

Tədqiqat metodu

Tədqiqat zamanı müqayisəli-analitik təhlil və sistemli yanaşma metodlarından istifadə edilmişdir.

Bu gün dünya, xüsusən də informasiya axını ilə əlaqəli sürətli dəyişikliklər, məlumat çoxluğu və yeniliyin sürətli templəri ilə xarakterizə olunur və bu tendensiya sürətlənir. Artıq ömürlük peşə anlayışı yoxa çıxır, yalnız bir xüsusi vəziyyətə yönəlmiş səriştələr sürətlə köhnəlir, yararsız hala gəlir. Bu səbəbdən, bütün inkişaf etmiş ölkələrdə, fərdlərin müxtəlif işləri yerinə yetirmək üçün bir sıra vəzifə və funksiyalar tutmalarını təmin edən əksər peşələrdə də faydalı olan, bir insanın işdəki, şəxsi və ictimai həyatdakı sürətli dəyişikliklərin müvəffəqiyyətlə öhdəsindən gəlməsinə imkan verən, əsasən gözlənilməz problemləri həll etmək üçün uyğun olan bu cür səriştələri tapmaq, müəyyənləşdirmək və inkişaf etdirmək üçün səy göstərilir. Bu səriştələrə əsas səriştələr deyilir. Fərqli kontekstlərdə çoxsaylı problemləri həll etmək, çoxsaylı hədəflərə çatmaq üçün, yalnız müxtəlif peşələrdə deyil, həm də insan fəaliyyətinin müxtəlif sahələrində, məktəbdə, işdə, ictimai və şəxsi həyatda tətbiq olunmaları nəzərdə tutulur. Əsas səriştələrin

əldə edilməsi və təkmilləşdirilməsi təkcə məktəbdə deyil, həm də işdə, ailədə, mədəni, ictimai və siyasi həyatda və s. ömür boyu davam edən öyrənmə prosesi kimi qəbul edilir. Əsas səriştələrə yiyələnmək yalnız şəxsi cəhd məsələsi deyil, həm də əlverişli bir sosial mühit tələb edir.

Əsas səriştələrin mənimsədilməsi üçün ən böyük təzyiq iqtisadiyyat tərəfindən edilir, çünki əsas səriştələr iqtisadi baxımdan əmək məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılması, bacarıqlı işçi qüvvəsinin inkişafı, qlobal bazar iqtisadiyyatında xüsusilə vacib olan innovativ mühitin yaradılmasına kömək edir.

Xüsusilə, son illərdə işəgötürənlər ənənəvi peşə təhsili məzunlarının digər peşə qruplarının üzvləri ilə və daha geniş ictimaiyyət ilə əlaqə qurmaq üçün tələb olunan geniş yazılı və danışıq ünsiyyət bacarıqlarına malik olmadıqlarını qeyd edirlər. Həm ünsiyyət bacarıqlarını, həm də karyera müvəffəqiyyətini artırmaq üçün texniki peşə bacarıqları ilə yanaşı peşə təhsili məzunlarının yumşaq bacarıqlara yiyələnmələrinə olan ehtiyac getdikcə daha çox artır.

Yumşaq bacarıqlar dedikdə "insani bacarıqlar", "şəxslərarası bacarıqlar" və eyni zamanda 'transfer edilə bilən bacarıqlar' kimi ifadələr də nəzardə tutulur. Yumşaq bacarıqlar bir insanın başqaları ilə qarşılıqlı əlaqələrini, iş performansını və karyera perspektivlərini artıran şəxsi xüsusiyyətlərdən sayılır [3]. Başqa sözlə, iş mühitini və ya başqa bir şəxslə qarşılıqlı əlaqəni idarə etməyi asanlaşdıran incə davranışlar və ünsiyyət tərzləridir. Fortune 500 CEO-ları arasında Stanford Tədqiqat İnstitutu və Carnegie Mellon Fondunun apardığı araşdırmalar, uzunmüddətli iş müvəffəqiyyətinin 75% -nin yumşaq bacarıqlardan və yalnız 25% -nin texniki bacarıqlardan qaynaqlandığını müəyyən etmişdi [8]. Yumşaq bacarıqlar sosial və ünsiyyət bacarıqlarının, xarakter və ya şəxsiyyət xüsusiyyətlərinin, sosial və emosional zəkanın elə bir birləşməsidir ki, insanlara ətraf mühitlə əlaqə qurmağa, başqaları ilə rahat işləməyə, yaxşı performans göstərməyə və malik olduqları sərt bacarıqları tamamlamağa kömək edir. Buna görə də peşə təhsili məzunlarının iş həyatına atılarkən bu bacarıqlara malik olması, onların öz peşələri ilə bağlı texniki biliklərə malik olmaları qədər önəmlidir. Əksər rəqabətli əmək bazarlarında işə qəbul meyarları texniki bacarıq və peşə bilikləri ilə məhdudlaşmır. İşəgötürənlər artıq lider ola biləcək insanlar axtarırlar və liderlik özü bir neçə əsas yumşaq bacarıqdan asılıdır. Xüsusilə, ünsiyyət qabiliyyətinin həm təhsil, həm də peşə mühitində kritik rol oynaması artıq bir çox araşdırma nəticəsində beynəlxalq səviyyədə tanınmışdır.

Əsasən texniki peşə ixtisaslarının əksəriyyətində yumşaq bacarıqlara ehtiyac olmadığını sadəcə sərt bacarıqların ön planda olması gərəkdiyi düşünülür. Lakin texniki peşə mütəxəssisləri üçün yumşaq bacarıqların əhəmiyyəti danılmamalıdır, çünki gələcəyin uğulu mütəxəssislərinin bütün davranışları və digər insanlar ilə qarşılıqlı əlaqələrin əsasında bu bacarıqlar dayanırlar. Sərt bacarıq dedikdə isə, işin yerinə yetirilməsi üçün hər gün istifadə edilən texniki bacarıq nəzərdə tutulur [3]. Məsələn, işdə tətbiq olunan kompüter bacarıqları və ya iş əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı bacarıqlar ola bilər. Ölçülə bilən sərt bacarıqlardan fərqli olaraq, yumşaq bacarıqlar qeyri-maddi və ölçülməsi çətin olan, lakin şəxslərarası münasibətləri asanlaşdırmağa kömək edən bacarıqlardır. Sərt bacarıq, müəyyən bir tapşırıq növünə xas olan yanaşma olduğu təqdirdə, yumşaq bacarıq geniş şəkildə bütün iş prosesində tətbiq oluna bilər.

Bu baxımdan həm texniki, həm də qeyri-texniki sahədə çalışan mütəxəssislər səmərəli peşəkar fəaliyyət üçün birlikdə çalışmalı və bir-birlərindən öyrənməlidirlər. Bunun üçün də, bütün peşəkarlar, hərəkətlərinin və reaksiyalarının davranışlarına və iş münasibətlərinə necə təsir etdiyini anlamalıdırlar və ona uyğun olaraq fəaliyyət göstərməlidirlər.

Nəticə

Beləliklə, yuxarıda qeyd olunanlardan göründüyü kimi peşə təhsili məzunlarının müasir dövrdəki əmək bazarının tələblərinə cavab verməsi üçün onların nəinki peşələri ilə bağlı texniki və sərt bacarıqlara malik olması gərəklidir, həmçinin gələcək karyeralarının inkişafı üçün artıq bütün peşəkar işçilərdən tələb olunan yumşaq bacarıqlara da yiyələnməlidirlər. Bunun effektiv olması üçün peşə təhsili müəssisələrinin tədris planlarına yumşaq bacarıqların mənimsədilməsinə yönəlik fənlərin – "Yazılı və şifahi ünsiyyət texnikaları", "Təqdimat bacarıqları", "Zamanın idarə edilməsi", "Münaqişələrin həll olunması", "Problem həlletmə və yaradıcı düşünmə" daxil edilməsi tətbiq oluna bilər.

ƏDƏBİYYAT SİYAHISI

11. Dennis R Laker and Jimmy LP. (2011). The differences between hard and soft skills and their relative impact on training transfer. Human Resource Development Quarterly, 22(1), 111–122.
12. Galeh Nur Indriatno Putra Pratama, Moch. Bruri Triyono, development of production unit model based on secondary high school schoolprneneurship, https://www.researchgate.net/publication/322761986_Development_Of_Production_Unit_Model_Based_On_Secondary_High_School_Schoolprneneurship

13. Jane A and Helen H. (2008). Graduate Employability, 'Soft Skills' Versus 'Hard Skills' Business Knowledge: A European Study, Journal of Higher Education in Europe, 33(4), 412- 422
14. Kathrin Hoeckel. Costs and Benefits in Vocational Education and Training.OECD.2008.
15. Quisumbing, L. (2005), Values for learning and Working Together in a Globalized World: Paper Presented during the Sub-regional Seminar on UNEVOC Networking and Improvement of Technical and Vocational Education and Training (TVET) and Orienting it for Sustainable Development, Bangkok, Thailand, August 10-13, 2005
16. Shalmali Guttal, "Qloballaşma" Təcrübədə İnkişafda, cild. 17 no. 4/5, Avqust 2007, s. 523-531 www.jstor.org/stable/25548249
17. Stephen Billett, Christian Harteis, Hans Gruber. International Handbook of Research in Professional and Practice-based Learning. Springer/ Netherlands. 2014.
18. https://managementhelp.org/interpersonal/index.htm
19. https://www.bmbf.de/en/the-german-vocational-training-system-2129.html

https://www.imf.org/external/np/exr/ib/2000/041200to.htm

ACADEMIC RESEARCH OF INNOVATIVE FEATURES FOR IMPLEMENTATION OF THE ENTREPRENEURIAL POTENTIAL

HASANOV ELNUR LATIF
Ganja Branch of Azerbaijan National Academy of Sciences
lnurh273@gmail.com
GANJA, AZERBAIJAN

ABSTRACT

Efficiency of the enterprise economic activity is quite multilateral economic category that was thoroughly investigated by scientists over a considerable period of time. At the current stage of the development, company's success at the international market depends on its ability to adapt rapid development of technologies, innovations, and conditions for conducting international business. In general, native and foreign scientists concluded the course of recent year's research on the success and effectiveness of an enterprise determined by how quickly and with help of what resources the enterprise achieves its strategic orientations. At the current stage of the development, company's success at the international market depends on its ability to adapt rapid development of technologies, innovations, and conditions for conducting international business.

Key words: business-process, strategic targets, strategic management, organizational culture.

INTRODUCTION

At the same time, the presented elements of this concept do not have an essential argument, they are a logical continuation of each other, and promote effective management of the efficiency of international economic activity of the enterprise at different stages of making managerial decisions [2-4].

Therefore, the next approach to be included into the concept of formalized management of the international economic activity efficiency is Total Performance Scorecard, based on the business processes of the enterprise coordination basis, acceptance and distribution of the mission, vision, objectives between the employees and management of the enterprise at the international economic sphere. Strategic level of its implementation is aimed to optimize enterprise's business processes, taking into account strategic vision, trends influence and external factors development regularities at the international economic sphere. For the current period of time, the implementation of this formalized management direction is appropriate to organize five main vectors of activity, depending on the intensity of changes that occurred at the enterprise.

One of such areas is efficiency management (Performance Management) – it is management of the international economic activity transforming strategy into plans and corresponding specific results of international economic activity.

Therefore, when choosing target values and actions for improvement in the examined enterprises international economic activity, it was taken into account the impact of all examined basic indicators [5].

MATERIALS AND METHODS OF RESEARCH

According to the results of the ranking of the basic indicators on the criterion of the average impact on the enterprise International Economic Activity (IEA) efficiency it was found that the following 10 indicators are the main basic indicators that are subject to continuous monitoring and of strategic importance for the examined enterprises, as their overall impact on the IEA efficiency is 60% - are: volume of export goods, sell price for export goods, number of employees who completed extension courses, probation, participated at seminars, training by occupation during a year, commercial value of the enterprise, number of new and improved working methods implementation, implementation of technologies, total number of partners at international markets, actual hours worked by employeesat IEA sphere, labor time expenditure because of conflicts, sum of sales volume at new international markets, employees' work productiveness growth rate at the IEA sphere [3].

Other basic indicators discussed in this study are of secondary importance, may have a certain interval of monitoring and are taken into account when making managerial decisions at the tactical level.

The use of the principle of a integrated indicators limited number of the examined enterprises IEA efficiency on the one hand is a positive factor in the proposed concept, because it allows you to focus on important processes, but on the other hand, it can be a serious drawback, because when tracking a limited number of indicators one can miss significant deviations of the components that neutralize the each other influence [6].

CONCLUSION

In the practical testing of the concept of formalization of the IEA efficiency management, the author of this research carried out a verification of the proposed indicators values sensitivity to change the structural components and the environment, which made it possible to further distribute the basic indicators of the examined enterprises IEA to the main ones of strategic importance to the enterprise and should have continuous informational support and auxiliaries that may be subject to an interval research because they do not have a significant impact on the enterprise IEA efficiency, but their monitoring allows for in-depth study of the emerging problem.

Thus, in this study it is proposed the concept of formalized enterprise international activity efficiency management, which combines the strategic and tactical component of the management process at different stages of the enterprise development at the international market in ecological cycle.

The definition of the efficiency indicators as a structural component of this concept on the basis of the logical-semantic maps formation and the causal relationships establishment allows conducting a ranking of the basic indicators during the formalization stage. Using of the criterion of the average base indicator impact on the enterprise IEA efficiency allows conducting a ranking of the basic indicators and to determine the main and auxiliary IEA indicators, which promotes efficient organization of internal business-processes, optimal allocation of enterprise information systems available resources and contributes to increasing the IEA efficiency.

REFERENCES

1. Bogomolova, E. V., Selezneva, L. Y., Izmalkova, I. V., Popova, E. V., &Troyanskaya, M. A. (2017). Development of modern entrepreneurship: Competition and cooperation. European Research Studies Journal, 20(3), pp. 539-547.
2. Bezrukov, T. L., Stepanova, Yu. N., Ermatova, A. I., Shtondin, A. A. (2017). Complementary mechanism for regulating the regional business system. Fundamental Research, No. 4-1, pp. 121-125.
3. Kazimagomedova, Z. A., Aliev, B. Kh.,Akhmedov, M. Sh., Hajiyev, O. S. (2017). The role of small business in the economy of Russia and its regions. Fundamental Research, No. 8-1, pp. 164-168.
4. Kudratov, Z. G., Toshboev B. B., Berdiev G. I. (2015). Experience in supporting small and medium-sized businesses in some developed countries, Fundamental research, No. 1, pp. 242-245.
5. Luskatova, O. V., Glenkova, E. O., Shalova, V. A. (2016). Methodical approach to the economic evaluation of the influence of entrepreneurship on the dynamics of the development of the region. Fundamental Research, No. 2-3, pp. 594-598.
6. Mirazizov, A., Radzhabova, I., Abdulaeva, M., Rasulov, N., Faizulloev, M., Rasulova, L., &Okilov, I. (2018). Small business lending in developing countries. Journal of Entrepreneurship Education, 2018 Special Issue, Vol. 21, pp. 1-12.

ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK ÜZRƏ İDARƏETMƏNİN TƏŞKİLİ VƏ PRİNSİPLƏRİ

Hüseynov Habil Əkrəm oğlu
Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Hərbi kafedrasının müəllimi, baş leytenant
habil.huseynov.98@mail.ru

Xülasə
İş yerində əmək şəraiti vəziyyətinin təkmilləşdirilməsi, təhlükəsizliklə bağlı normalara riayət olunması, işçi sağlamlığının qorunmasına diqqətin artırılması müasir dövrün ən böyük tələblərindən birinə çevrilmişdir. İl ərzində istehsalatda baş verən neqativ hadisələrə görə milyonlarla insan öz həyat və sağlamlığını itirir. Bu baxımdan əməyin təhlükəsizliyi işi günümüzün ən aktual problemlərindən birinə çevrilmişdir. Məqalədə istehsalatda baş verən neqativ hadisələr və Əməyin təhlükəsizliyi ilə əlaqəli olan qaydalar qısaca şərh olunmuşdur.
Açar sözlər: *Azərbaycan Respublikasının Əmək Məcəlləsi, AR-nın Konstitusiyası, Texnogen amillər, Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik, Peşə xəstəlikləri.*

Abstract
Improving working conditions in the workplace, following with safety standards, increasing attention to the protection of workers' health has become one of the greatest demands of modern era. Millions of people lose their lives and health due to negative industrial accidents during the year. In this regard, occupational safety has become one of the most pressing issues today. The negative events in the workplace and the rules related to occupational safety briefly has been commented in the article.
Keywords: *Labor Code of the Republic of Azerbaijan, Constitution of the Republic of Azerbaijan, Man-made factors, Occupational Health and Safety, Occupational Diseases.*

Аннотация
Улучшение условий труда на рабочем месте в соответствии со стандартами безопасности, повышенное внимание к защите здоровья рабочих стало одним из важнейших требований современной эпохи. Миллионы людей теряют жизнь и здоровье в результате несчастных случаев, произошедших на производстве в течениигода. В связи с этим безопасность труда стала сегодня одной из самых актуальных проблем. В статье кратко прокомментированы негативные события, случившиеся на рабочем месте и правила, связанные с безопасностью труда.
Ключевые слова: *Трудовой Кодекс Азербайджанской Республики, Конституция Азербайджанской Республики, Техногенные факторы, Охрана Труда и Безопасность, Профессиональные заболевания.*

Giriş

Dünya ictimaiyyətinin nəzərini əməyin təhlükəsizliyinə, işçilər üçün tam sağlam olan iş şəraitinin yaradılmasına yönəltmək məqsədiylə Beynəlxalq Əmək Təşkilatının qərarına əsasən 2001-ci ildən başlayaraq hər il aprel ayının 28-i "Əmək Mühafizəsi Günü" adıyla qeyd olunur. İnsanlar öz əmək fəaliyyətlərini inkişaf etdirdikcə təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması da zəruri hal alır. Bildiyimiz kimi, işçilər hər bir müəssisənin "onurğa sütununu" təşkil edir. Onların həyat və sağlamlığına dəyəcək hər bir zərər özünü müəssisənin normal fəaliyyətindən uzaqlaşmasında göstərə bilər. Bu baxımdan bütün müəssisələr öz işçilərinin qayğısına qalmağa, onların təhlükəsiz iş şəraiti ilə təmin olunmasına borcludur.

Əməyin təhlükəsizliyi, onun təşkili və idarə edilməsi problemlərinin müxtəlif aspektləri azərbaycanlı alimlər F.Şıxəliyev, Yunis Heydər oğlu Bünyətov, M.M.Həsənov, C.Q.Abbasov, O.R.Əliyev, N.Cəfərov, Ə.Q.Abbasov, K.Kərimov, N.Ə.Əliyev və başqaları tərəfindən tədqiq olunmuşdur.

1919-cu ildə Beynəlxalq Əməyin Mühafizəsi Təşkilatı yaradıldı. Həmin təşkilatın məqsədi sosial bərabərlik, əməyin mühafizəsi və təhlükəsizliyini təşkil etmək idi. Hazırda 187 ölkə həmin təşkilata üzvdür. Bu təşkilat əməyin təhlükəsizliyi üzrə beynəlxalq normaları təyin edir. Təşkilatın qərarları ona üzv olmuş dövlətlər üçün hüquqi əhəmiyyət daşıyır.

İnsan fəaliyyətinin əsas formalarından biri istehsal prosesində həyata keçirilən əməkdir. Əmək prosesi zamanı işçilər istehsal mühitinin müxtəlif elementləri ilə qarşılıqlı əlaqədə olurlar. Bunlar aşağıdakılardır:

- İstehsal vasitələri, əmək alətləri və əmək cisimləri.
- Texnogen amillər: təbiətlə birbaşa bağlı olan təhlükələr.

- Zərərli olan texnoloji proseslər və s. [1].

Texnogen amillərə birbaşa təbiətlə bağlı olan gözlənilməz təhlükələr (vulkan püskürməsi, zəlzələ, sunami, tufan və s.) aiddir. Onların nəticəsində baş verən hadisələr işçilərin zədələnməsinə və ölümünə səbəb ola bilir. Zərərli istehsal amillərinə istehsal prosesləri və onlarla əlaqəli olan işlər zamanı təhlükəsizlik qaydalarına əməl olunmaması və ölümlə nəticələnən amillər aiddir.

Təhlükəli və zəhərli amillər tərkib və xüsusiyyətlərinə görə 4 yerə bölünürlər: fiziki, kimyəvi, psixofizioloji və bioloji amillər. Bu amilləri aşağıdakı kimi izah edə bilərik:

✓ Fiziki təhlükəli və zəhərli amillərə - işçi zonanın havasının yüksək tozluluğu, qazlılığı, yüksək yaxud alçaq temperaturu, yüksək ya da alçaq barometrik təzyiq, ionlaşdıran şüalanmanın yüksək səviyyəsi, titrəyişin işıqlanmasının kifayət dərəcədə olmaması, infraqırmızı radiasiyanın yüksək səviyyəsi, ultrabənövşəyi radiasiyanın yüksək səviyyəsi, səs-küyün, titrəyişin yüksək səviyyəsi, havanın yüksək və ya alçaq nəmliyi, ionlaşması, hərəkətliliyi, elektrik sahəsinin yüksək gərginliyi və s. aiddir.

✓ Kimyəvi təhlükəli və zəhərli amillərə - insan orqanizminə təsirinə görə zəhərli, qıcıqlandırıcı, sensibilizasiya edici (hər hansı bir təsirə qarşı orqanizmin həssaslığını artıran), kanserogen (kadmium, nikel və onların birləşmələri) və uçan maddələr daxildir. İnsan orqanizminə daxil olma yollarına görə isə insan orqanizminə nəfəsalma orqanları, həzm yolu, dəri örtüyü və selikli qişa vasitəsiylə daxil olanlar aid edilir.

✓ Psixofizioloji təhlükəli və zəhərli istehsal amilləri təsiretmə xüsusiyyətinə görə fiziki yüklənmə ilə əsəb-psixi yüklənməyə bölünür. Fiziki yüklənmə özü də 2 yerə bölünür: statik yüklənmə, dinamik yüklənmə. Əsəb-psixi yüklənmə isə əqli gərginlik (həddən artıq gərginik), analizatorların həddən artıq gərginliyi, əməyin monotonlu (yorucu) olması, emosional (həyəcanlılıqla) yüklənmə kimi qruplaşdırılır.

✓ Bioloji təhlükəli və zəhərli istehsal amillərinə patogen mikroorqanizmlər (bakteriyalar, viruslar, göbələklər və s.) aiddir [2].

Hər hansısa bir təhlükəli və zərərli istehsalat amili öz təsiri təbiətinə görə adı çəkilən bu qruplardan eyni zamanda bir neçəsinə aid ola bilər.

İstehsal amilləri və istehsal mühitinin elementləri işçilərə təsir edən şəraiti formalaşdırır və onlar aşağıdakı siniflərə bölünürlər:

❖ Optimal sinfə - işçilərin sağlamlığı və yüksək iş qabiliyyəti vəziyyətinin qorunması üçün vacib olan şərtlərin yaradılması;

❖ Təhlükəlilər sinfinə - insan həyatı üçün təhlükə kəsb edən texnogen amillər;

❖ Mümkün sinfə - orqanizmanın funksional durumunun mümkün dəyişikliklərinin bərpa edilə bilməsi üçün ilkin şərtlər;

❖ Zərərli sinifə - işçinin orqanizminə mənfi təsir göstərən və gigiyenik normativlərə görə zərərli olan texnogen amillər daxildirlər.

Xarici təcrübələrə nəzər yetirsək görərik ki, iqtisadi yanaşmalar əməyin təhlükəsizliyi probleminin daha elastik formasını qurur və onlar əmək şərtlərini yaxşılaşdırmağa imkan yaradırlar. İnsanların əmək fəaliyyətləri olduqca müxtəlifdir. Bu baxımdan əməyi iki əsas növə bölə bilərik: fiziki və əqli əmək. Fiziki iş insanın hərəkətedici və orqanizminin funksional sistemləri olan əsəb, əzələ, tənəffüs, ürək-damar və başqalarının yüklənməsi ilə səciyyələnir. Əqli əmək insanın düşüncələri və gərginliklə nəticələnə bilən informasiyanın emalı və saxlanılması ilə bağlı işlərin məcmusudur [5,6].

Əsas hissə

AR-nın Konstitusiyasına əsasən hər bir vətəndaşın təhlükəsiz olan əmək şəraitində işləmək hüququ vardır. Əmək ictimaiyətin və ayrılıqda fərdlərin rifahının əsasını təşkil edir, yəni hər bir vətəndaş sərbəst olaraq qabiliyyətinə əsasən özünə ixtisas və iş yeri seçə bilər. Tam təhlükəsiz iş şəraitində işləyib, dövlətin müəyyən etdiyi minimum əmək haqqından az olmayan miqdarda məvacib almaq hər kəsin hüququdur. AR-nın Konstitusiyasının 37-ci maddəsində istirahət hüququ, 38-ci maddəsində sosial təminat hüquqları, 39-cu maddəsində sağlam ətraf mühitində yaşamaq hüququ, 41-ci maddəsində isə sağlamlığın qorunması ilə bağlı qaydalar verilmişdir. Bunlar hər kəsin hüququdur. Müəssisələrin hər biri əməyin təhlükəsizliyinin norma, qayda və prinsiplərinə əməl etməlidir. Bu qaydalar qanunvericilik aktları əsasında formalaşdırılır. Baş verən hər hansısa bədbəxt hadisəyə görə işəgötürənlər milli qanunvericiliyimizə uyğun şəkildə məsuliyyət daşıyırlar.

Müəssisə rəhbərləri iş yerlərində AR-nın Əmək Məcəlləsi, AR Nazirlər Kabineti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qəbul olunmuş qərar, standart, təlimat, və normativlərin tətbiq olunmasında bilavasitə cavabdehdirlər [3,4].

Hər bir müəssisədə təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması üzrə işlərə ümumi rəhbərliyi müəssisə rəhbəri həyata keçirir. İşçilərin əmək qanunvericiliyinə riayət etmələrinə, işçilərin işə qəbulu, işdən azad

edilməsi, xüsusi geyim, ayaqqabı və digər mühafizə vasitələri ilə təmin edilməsinə, zərərli əmək şəraitinə görə əlavə məzuniyyətlərə, qadın və yeniyetmələrin əməyindən düzgün istifadə olunmasına nəzarət edir. Fəhlələrə təhlükəsiz iş qaydalarının öyrədilməsinə, peşə hazırlıqlarının təşkil edilməsinə ümumi rəhbərlik edir. Həmçinin müdir istehsalat proseslərinin təşkilini, avadanlıqların istismarını, istehsalat sahələrinin təhlükəsizlik standartlarının tələblərinə uyğunluğunu təmin edir. Müdirlər istehsalatda yaranmış qəzalar zamanı onların təhqiqi üçün şərait yaradırlar. Peşə xəstəlikləri, zəhərlənmələr, ölümlə nəticələnən bədbəxt qəzalar barəsində yuxarı təşkilatlara və digər orqanlara məlumat verir, ağır itki və ya ölümlə nəticələnən bədbəxt hadisələrin qarşısının alınması üçün tədbirlər planının hazırlanmasında əsas rol oynayırlar.

Müəssisənin müdir müavini və baş mühəndisi istehsalatda təhlükəsiz iş şəraitinin qurulması işlərini təşkil edirlər. Əmək təhlükəsizliyi sahəsindəki müasir təşkilati formaları istehsalatda tətbiq edirlər. Onlar işçilərinin tələb olunan təhlükəsizlik standartlarına riayət etmələrinə, dövlət orqanlarının sərəncamlarının yerinə yetirilməsinə nəzarət edirlər. Təşkilatın baş mühəndisi, müdir müavini işçilərin peşə hazırlığını, onlara təhlükəsiz iş üsullarının, mühafizə vasitələrindən düzgün istifadə qaydalarının öyrədilməsini təmin edir. Mühəndis-texniki işçilərə əmək təhlükəsizliyi məsələlərinin öyrədilməsini və ixtisaslarının artırılmasını təşkil edirlər. Daha sonra işçilərin biliyi yoxlanılır. Bu zaman təlimatlandırma proqramına, işçilərin biliklərinin yoxlanılması məqsədiylə tərtib olunmuş suallara baxırlar. İş şəraitinin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı işlərin planının tərtib və tətbiq olunmasına nəzarət edirlər [1].

Əməyin mühafizəsiylə təhlükəsizlik texnikası xidmətinin əsas vəzifəsi müəssisədə əməyin təhlükəsizliyinin təmini üzrə işlərin həyata keçirilməsindən ibarətdir. İşçilərə təhlükəsiz iş üsullarının öyrədilməsinin, sənədlərinin düzgün formada rəsmiləşdirilməsinin təşkil edilməsinə metodiki rəhbərlik və nəzarət müəssisəsinin və müvafiq yuxarı təşkilatların əməyin mühafizəsi xidmətlərinə tapşırılır.

Nəticə

Bu sahə gözardı edilə biləcək sahə deyil. Təşkilatın rəhbər və MTİ-ləri başlıca vəzifələrini yerinə yetirmək üçün zavodda, onun bölmə və sexlərində olarkən təhlükəsiz əmək şəraitini də yoxlamalı, aşkar olunan problemləri yoluna qoymaq üçün lazımi tədbirlər həyata keçirməli, müəssisə rəhbərliyinə əməyin təhlükəsizliyi məsələlərində kömək etməlidir.

Yoxlamada üzə çıxarılan mənfi hallar haqqında akt yazılır. Bu aktlar "İş Şəraitinin Yoxlanılması Jurnalı"na yığılır. Yoxlama nəticələri müəssisə rəhbərlərinin də iştirakı ilə keçirilən iclasda müzakirə olunur. Aşkarlanmış problemlərin düzəldilməsi üçün tədbirlər müəyyən edilir, lazım gələndə isə əmr verilir. Bundan doğuran səbəblərə görə də Əməyin mühafizəsi üzrə görüləcək işlərə vacibiyyat daha da artırılmalıdır.

Ədəbiyyat

1. http://socar.az/socar/az/compafny/organization/heydar-aliyev-oil-refinery;
2. https://www.ilo.org/global/standards/subjects-covered-by-international-labour-standards/occupational-safety-and-health/lang--en/index.htm;
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
4. Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik qaydaları;
5. Abbasov Ə.Q. (2014), Əməyin mühafizəsi və elektrik təhlükəsizliyi Sumqayıt;
6. Kərimov K. (2016) Erqonomika və iş təhlükəsizliyi.

DÖVLƏT VƏ BİZNES, O CÜMLƏDƏN HOTEL BİZNESİNDƏ MÜNASİBƏTLƏRİN FORMALAŞMASI ZAMANI OYUNLAR NƏZƏRİYYƏSİNİN TƏTBİQİ

BAHAR QULİYEVA
Biznes idarəçiliyi fakültəsi/Menecment (xidmətlər sahəsi üzrə) ixtisası
guliyeva.bahar.2101@atmu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalə dövlət və biznes münasibətlərində oyunlar nəzəriyyəsinin tətbiqinin nəzəri üsulla tədqiqi barədə olub, bütün sahələrdə olduğu kimi hotel biznesində də rəqabətin xüsusiyyətlərinə əsaslanır. Oyunlar nəzəriyyəsi – fərdi strateji münasibətlərin qarşılıqlı təsir etdiyi mövcud vəziyyətin təhlili məqsədilə istifadə edilən analitik metoddur [1]. Oyunlar nəzəriyyəsi haqqında danışarkən onun əsas elementi kimi "oyun" anlayışını araşdırmaq məqsədəuyğun olardı. Bu anlayış hər hansı aksiomatik nəzəriyyənin əsas anlayışı deyil və riyazi cəhətdən dəqiq təyin oluna bilmir. Buradan belə nəticəyə gəlmək olar ki, oyun anlayışının günümüzədək universal təsviri verilmədiyinə baxmayaraq, bir-biri ilə sıx əlaqəli olan müəyyən sinif oyun məsələləri mövcuddur. İqtisadi proseslərin təhlili zamanı riyazi metodların, o cümlədən oyunlar nəzəriyyəsinin tətbiqi inkişafın, qarşılıqlı əlaqənin digər metodların istifadəsi zamanı aşkar edilməyən tərəflərini aşkara çıxarmağa imkan verir.

AÇAR SÖZLƏR: oyunlar nəzəriyyəsi, münaqişə, dövlət və biznes münasibətləri

GİRİŞ

Oyunlar nəzəriyyəsi – fərdi strateji münasibətlərin qarşılıqlı təsir etdiyi mövcud vəziyyətin təhlili məqsədilə istifadə edilən analitik metoddur [1]. Şahmat – nəticənin rəqibin davranışından asılı olduğu qədər oyunçunun da davranışından asılı olduğu strateji oyunun prototipidir [1]. Bu gün bildiyimiz "Oyunlar nəzəriyyəsi" iki əsas teoremə söykənir. Bunlar, Con Von Neymanın 1928-ci ildə yaratdığı "minimum-maksimum" teoremi və Con Forbes Neşə Nobel mükafatı qazandıran 1950-ci ildə meydana gələn "Tarazlıq Teoremi" anlayışıdır. Oyunlar nəzəriyyəsi haqqında danışarkən onun əsas elementi kimi "oyun" anlayışını araşdırmaq məqsədəuyğun olardı. Bu anlayış hər hansı aksiomatik nəzəriyyənin əsas anlayışı deyil və riyazi cəhətdən dəqiq təyin oluna bilmir. Buradan belə nəticəyə gəlmək olar ki, oyun anlayışının günümüzədək universal təsviri verilmədiyinə baxmayaraq, bir-biri ilə sıx əlaqəli olan müəyyən sinif oyun məsələləri mövcuddur. Sözügedən nəzəriyyənin elementi yalnız, "oyun" anlayışı ilə məhdudlaşmır.

Klassik oyunlar nəzəriyyəsinin elementlərinə nəzər salsaq, bura şahmatda olduğu kimi "gediş", "seçim" və "partiya" (debüt) aid ediləcəkdir.

- Gediş – oyunçunun qərarı olub, mövcud imkanlardan qaynaqlanır və həyata keçirilir.
- Seçim – oyunçunun fiziki olaraq seçdiyi imkandır.
- Partiya – seçimlərin ardıcıllığıdır [2, səh. 82].
- Deyilənləri ümumiləşdirsək:
- Oyunçuların gediş variantları
- Rəqibin hərəkəti barədə oyunçunun məlumatlılığının həcmi
- Uduş – bütün hərəkətlərin məğzini təşkil edir.

Bir qayda olaraq, uduş (və ya itki) kəmiyyətlə ifadə edilir, itki sıfırla, uduş vahidlə, heç-heçə isə ½ ilə ifadə edilir.

TƏDQİQATIN AKTUALLIĞI

Son illər Azərbaycanda turizm sektorunun, xüsusilə də, otel biznesinin inkişafına böyük diqqət göstərilir. Ölkəmizdə yeni otellərin sayı artdıqca onlar arasında gedən rəqabət mübarizəsində də bir sıra problemlər yaranır. hotellər bazarda öz mövqelərini qorumaq üçün müxtəlif rəqabət vasitələrindən istifadə edirlər. Bunlara yeni avadanlıqlardan istifadə, yüksək xidmət, təcrübəli kollektiv, maliyyə mənbələrinin mövcudluğu, müştəri portfeli, qiymət siyasəti və s. amilləri nümunə göstərmək olar. Buna görə də hotellər öz aralarında rəqabət mübarizəsi yolu ilə istehsalda, satışda-alışda əlverişli şəraitə nail olmağa çalışırlar. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, inkişaf etdirməkdə maraqlı edir, çünki rəqabət mübarizəsinə dözməməkdə həmişə iflasa uğramaq təhlükəsi var. İşin əhəmiyyəti böyükdür. Çünki ölkəmizdə hotel biznesinin xüsusən də, biznes hotellərin inkişafı yüksəkdir. Azərbaycanda fəaliyyət

göstərən hotellərin demək olar ki, hamısı biznes tipli hotellərdir. Resort hotellər isə xarici turistlərdən daha çox yerli turistlər üçün fəaliyyət göstərir ki, bu da, turizm gəlirlərinin az olmasına gətirib çıxarır.
İqtisadi proseslərin təhlili zamanı riyazi metodların, o cümlədən oyunlar nəzəriyyəsinin tətbiqi inkişafın, qarşılıqlı əlaqənin digər metodların istifadəsi zamanı aşkar edilməyən tərəflərini aşkara çıxarmağa imkan verir.
Fəaliyyəti dövründə insanlar, eləcə də şirkətlər hər addımda bir-biri ilə birincilik üzrə mübarizə aparır ki, "oyunlar nəzəriyyəsi" bu vəziyyətlərin öyrənilməsinə xidmət edir.

QARŞIYA QOYULMUŞ PROBLEMLƏR

Son illər beynəlxalq turizmin inkişafı, respublikamızda turizm şirkətlərinin və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərə baxmayaraq, hotel biznesinin konsepsiyaları heç də bütün hotel işçiləri tərəfindən tam mənimsənilməyib. Ölkəmizdə hələ də, xarici mütəxəssislərin, xüsusən də, Türkiyədən dəvət olunmuş mütəxəssislərin təcrübələrindən istifadə olunur. Bundan başqa, Azərbaycanın bir çox turizm şirkətləri hotellərlə olan əlaqələrini çox zəif hesab edirlər. Turizm şirkətləri bu qənaətdədirlər ki, ölkədəki hotellərdə qiymətlər baha olduğu üçün onlar orada turist yerləşdirə bilmirlər. Göstərilən bu faktorlar turizm bazarında mövqeyin qorunması, rəqabətin əmələ gəlməsi, ona təsir edən faktorlar, keyfiyyət standartlarının xidmətdə tətbiqi və s. məsələlərə aydınlıq gətirir.
Beləliklə, qeyd edilənləri ümumiləşdirsək, bütün oyunların həyata keçirilməsi bu və ya digər dərəcədə müxtəlif səviyyəli biliklər tələb edir. Məsələn, basketbolçunun topu səbətə atması, hüquqi presedentləri bilmək və ya soyuqqanlılığı qorumaq qabiliyyəti – bir elm sahəsinə aiddirsə, strateji düşünmə qabiliyyəti – digər elm sahəsini təşkil edir. Strateji düşünmə baza biliklərinə əsaslanır və onlardan maksimal faydanı necə əldə etməyi anlamağa kömək edir. Əgər siz qanunları bilirsizsə, bu zaman müştərinin maraqlarını qoruyan strategiya hazırlamalısınız. Digər nümunədə əgər siz, meneceri olduğunuz futbol komandasının üzvlərinin hansı səviyyədə ötmə və ya ötürmə hərəkəti icra etdiyinə, eləcə də rəqib komandanın necə müdafiə olunduğuna bələd olsanız, bu zaman ötmə yoxsa ötürmə etməlisiniz sualına cavab verməlisiniz.
Bəzən isə strateji düşünmə həm də oyunu məqsədyönlü şəkildə dayandırmaq anlayışını da özündə ehtiva edir [3, səh. 11].

3.3 İŞİN MƏQSƏDİ

Tədqiqatın əsas məqsədi – hotellərin rəqabət qabiliyyətliliyinin araşdırılması və Azərbaycanda fəaliyyət göstərən hotellərin rəqabət mübarizəsində istifadə etdikləri strategiyaları, rəqabət qabiliyyətliliyinə təsir edən əsas faktorları müəyyən etməkdir. Turizm rəqabətli sahədir, buna görə də hotellərdə aparılan rəqabət strategiyası daima dəyişir. Başqa sözlə desək, işin əsas məqsədi hotellərdə rəqabətqabiliyyətliliyin yüksəldilməsi istiqamətində müvafiq oyun növləri sayəsində düzgün rəqabət strategiyasını tətbiq etmək və əldə edilən nəticələrin düzgün qiymətləndirilməsidir.

TƏDQİQAT METODU

Rəqabət və rəqabətqabiliyyətlilik haqqında Azərbaycan dilində ədəbiyyatların kifayət qədər olmasına baxmayaraq, məhz turizm müəssisələrinin, eləcə də, hotel biznesinin rəqabətqabiliyyətliliyinin formalaşdırılmasında oyunlar nəzəriyyəsinin tətbiqi barədə ədəbiyyat mənbələri ilə bağlı müəyyən çatışmazlıqlar mövcuddur. Bu səbəbdən məqalədə xarici müəlliflərin, xüsusən də, rus müəlliflərinin kitabları, hotellərin rəqabətqabiliyyətlilik istiqamətlərini araşdırmaq üçün internet mənbələrindən əldə olunmuş məlumatlar istifadə edilmişdir. Oyunlar nəzəriyyəsinin dövlət və biznesin qarşılıqlı münasibətlərinin təhlilində tətbiq edilməsi onların həm oyunçu olaraq həm də qarşılıqlı fəaliyyətlərinin gedişatının yeni tərəflərinin aşkarlanması imkanı verir ki, bu da, xüsusilə, milli iqtisadiyyatların artan qloballaşması şəraitində əhəmiyyətli hesab edilir.
Dövlət və biznes münasibətləri istehsalda, dövriyyədə, iqtisadiyyatın real və monetar (pul) sektorlarında, müxtəlif sənaye sahələrində və idarəetmə səviyyələrində, ölkə və dünya bazarlarında müxtəlif növ oyunlar növü olaraq ayrılır.
Oyunlar nəzəriyyəsi qeyri-müəyyənlik şəraitində iqtisadi qərarların qəbul edildiyi iqtisadi vəziyyətlərə, yəni tədqiq olunan proses və ya hadisə modelinin əsas parametrlərini və dəyişənlərini birmənalı şəkildə müəyyən etmək mümkün olmadıqda tətbiq edilir.
İki növ qeyri-müəyyənlik mövcuddur.
Birinci növ stoxastik qeyri-müəyyənlikdir (birinci dərəcəli qeyri-müəyyənlik) ki, bu vəziyyət qeyri-müəyyən parametrlər üçün ehtimal bölgüsü qurulması ilə xarakterizə edilir. Bu halda, təsadüfi dəyişənin orta qiyməti, yəni dispersiya müəyyən edilir və bunun əsasında əvvəlcədən hesablanmış həddi meyarına

uyğun olaraq iqtisadi qərarın məqbul variantı müəyyən olunur. Məsələn, bu tip qeyri-müəyyənlik biznes riskləri ilə əlaqəlidir.

İkinci növ qeyri-müəyyənlikmüvafiq kəmiyyətinin naməlum ehtimalla paylanması, lakin onun mövcudluğu ilə xarakterizə edilir. Bu növ qeyri-müəyyənlik ilk növbədə, müəyyən iqtisadi şəraitdə hər biri öz məqsədlərini güdən subyektlərin fəaliyyəti, həmçinin bəzi gözlənilməz faktorların, o cümlədən təbii amillərin hərəkəti ilə əlaqədar yaranır.İqtisadi qərarların qəbulu müxtəlif yanaşmalara və seçim meyarlarına əsaslanır. Bu yanaşmalardan biri qarantiyalınəticə prinsipidir ki, bu da x-parametrinin (plan, vergilər, idarəetmə və digər) seçilməsindən ibarətdir ki, bu zaman müəyyən W (x, y) göstəricisi ən yaxşı (ən böyük) səviyyəyə çatır. Bu isə bir şərtlə mümkündür ki, y, qeyri-müəyyən parametrdir və ən pis (ən aşağı) dəyəri alır. Müəyyən edilməmiş y parametrinin ən pis qiymətinə zəmanət verilə bilən W (x, y) dəyərinin seçilməsi üçün bu kriteriya Vald kriteriyası adlanır. Qarantiyalı nəticə yanaşmasının əksi optimist təxmin yanaşması adlanır. Bu isə öz növbəsində, naməlum y parametrinin iştirak edən tərəflər üçün ən yaxşı dəyəri alacağı fərziyyəsinə əsaslanır. Bu qarantiyalı nəticə prinsipi ilə optimist yanaşma arasında aralıq mövqe tutan x nəzarətinin seçilməsindən ibarətdir ki, belə olduqda əksər hallarda Hurvitz meyarından istifadə olunur.

İkinci dərəcəli qeyri-müəyyənlik oyunlar nəzəriyyəsi ilə əlaqəlidir. Qeyri-müəyyənlik şəraitində iqtisadi biznes qərarlarının qəbul edilməsi vəziyyətləri oyun adlandırılır. Bu cür halların mahiyyəti ondan ibarətdir ki, qərarların qəbulu bu prosesdə bir neçə tərəfin iştirak etdiyi və çox vaxt ziddiyyətli maraqların toqquşduğu şəraitdə həyata keçirilməlidir. Bu vəziyyətin klassik nümunəsi satıcı və alıcı arasındakı qarşılıqlı əlaqələrdir ki, həmin vəziyyət oyun adlanır (müvafiq olaraq, iştirakçılar oyunçu).

Tərəflərin hər birinin strategiya adlanan mümkün hərəkətlərinin də təsnifatı vardır. Strategiyalar təmiz və qarışıqdır. Təmiz strategiya rəqib oyunçunun xüsusi davranışına yönəlir. Qarışıq strategiya rəqib oyunçunun davranışı üçün bir neçə mümkün strategiyanı nəzərə almalıdır.

Dövlət və biznes arasındakı əlaqəni öyrənmək üçün oyun nəzəriyyəsinin tətbiqi istifadəsi, ilk növbədə,aydın konseptual aparatın müəyyən edilməsi, habelə onlar arasında inkişaf edən oyun vəziyyətlərinin növünün (növlərinin) qurulmasını aydınlaşdırmaq vacibdir.

Beləliklə, oyunlarımızda iki oyunçu iştirak edir - dövlət və biznes, onların hər birinin məhdud sayda strategiyası mövcuddur. Hədəf parametrlərindən asılı olaraq, oyunçuların maraqları əks ola bilər ki, bu oyunlar antaqonist (dövlətin bizneslə bağlı antiinhisar fəaliyyəti) adlanır.

Əgər oyunçuların maraqları üst-üstə düşərsə və onlar ilkin danışıqlara gedə bilsələr, o zaman oyunlar kooperativ olacaqdır (daxili biznes üçün dövlət proteksionizmi, proteksionizm — idxal olunan mallara görə tariflər, idxal kvotaları və başqa bir sıra dövlət tənzimləmələri ilə digər ölkələrdən idxalın məhdudlaşdırılmasına yönəlmiş iqtisadi siyasət).

Əgər maraqların üst-üstə düşməsi halında ilkin danışıqlar aparılmazsa və oyunçular arasında fəaliyyətləri barədə kommunikasiya olmazsa, bu oyunlar qeyri-kooperativ olacaqdır (Mərkəzi Bankın maliyyə bazarındakı hərəkətləri biznesin işgüzar fəaliyyəti ilə birbaşa əlaqəli olan diskont dərəcəsi, diskont dərəcəsi - 1. Mərkəzi Bank tərəfindən kommersiya banklarına verilən qısamüddətli borcun faiz dərəcəsi. Bu cürə borclanmaq limitli olduğu üçün kommersiya bankları adətən digər borclanma mexanizmlərindən istifadə edirlər; 2. Gələcək pul axınlarının cari dəyərinin hesablanmasında istifadəolunan faiz dərəcəsi).

Hökumət və biznes arasında əlaqələr həm təmiz, həm də qarışıq strategiyalara əsaslana bilər. Nəzərdən keçirdiyimiz subyektlərin hər birinin öz məqsədli funksiyaları və fəaliyyət meyarları, iqtisadi maraqları var və başqa subyektin (rəqibin) hərəkətləri haqqında tam məlumata malik ola bilməz, yəni qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərir.

Eyni zamanda, subyektlərin hər biri digərinin hesabına öz davranışlarını optimallaşdırmağa, öz məqsədlərinə və üstünlüklərinə uyğun hərəkət etməyə qadirdir. Buna görə də, oyun qurma problemlərində əsas suallardan biri optimallığın müəyyən edilməsidir, yəni oyun iştirakçılarının müxtəlif maraqlarını əks etdirən bir neçə meyarlara uyğun olaraq optimallaşdırma vəziyyətində hansı həllər ən yaxşısı kimi tanınmalıdır. Bu zamanmühümolan oyun prosesində əhəmiyyətli məzmuna malik həll tapmaqdır.

Oyun şəraitində məsələləri formalaşdırmaq üçün ardıcıl olaraq aşağıdakı mərhələləri inkişaf etdirmək və həyata keçirmək lazımdır.

1. Oyunda iştirak edənlərin və onların strategiyalarının müəyyən edilməsi. Bu mərhələdə ortaya qoyulmuş məsələ təhlil edilir (məsələn, vergilərin optimallaşdırılması), oyunun iştirakçıları müəyyən edilir və onlar arasındakı əlaqənin (münaqişə və ya qarşılıqlı tərəfdaşlıq, əməkdaşlıq) mahiyyəti açılır. Oyunçu strategiyalarının müəyyən edilməsi oyun nəzəriyyəsində əsasən qeyri-rəsmi proses hesab olunur. Hər bir oyunçunun strategiyalarını vurğulamaq üçün onun son məqsədlərini və onlara necə nail olacağını bilmək lazımdır.

Əgər oyunçular arasındakı münaqişələrdən (antaqonist oyunlar) danışırıqsa, onların məqsədləri əksdir və birinin qazanması digərinin itirilməsi deməkdir ki, bu da sıfır cəmli oyunlardır.

2. Hər bir strategiyadan istifadə edərkən oyunçuların qazanclarının müəyyən edilməsi. Burada uduşların (ödənişlərin) kəmiyyət xarakteri daşıması və müvafiq oyunçunun hədəfə çatma dərəcəsinə uyğun göstəricilərin olması vacibdir. Uduşların ölçüsü oyunçuların müxtəlif strategiyalarını birləşdirərək müəyyən edilir. Nümunə olaraq, optimal vergitutma variantı seçilərkən dövlətlə biznes arasında əlaqə nəzərə alınır.

3. Ödənişlərin (ödənişlərin) matrisasının normal formada təqdim edilməsi. Təqdimat ödənişlərin (ödənişlərin) tapılmış dəyərlərini matrisə daxil etməklə həyata keçirilir. Vergitutmanın optimal variantı oyununda dövlətlə biznesin maraqları bir-birinə ziddir - dövlət dövlət xəzinəsini doldurmaq üçün vergiləri artırmaqda maraqlıdır, biznes gəliri maksimuma çatdırmaq üçün vergiləri azaltmağa çalışır. Matris antaqonist oyunlarının həllinin əsas prinsipi, hər bir oyunçunun tərəfdaşının hər hansı bir hərəkəti üçün mümkün olan maksimum qazancı təmin etməyə çalışdığı fərziyyədir. Bu şərtlərdə, ikinci oyunçunun (biznesin) strategiyasından asılı olmayaraq, birinci oyunçunun (dövlətin) optimal strategiyası minimum gəliri maksimuma çatdıran strategiya olacaq, yəni maksimum strategiya, ikinci oyunçu (biznes) üçün isə optimal strategiya qazancı minimuma endirən strategiya olacaq, yəniminimaks strategiyası olacaqdır.

Oyun nəzəriyyəsində optimal strategiyanı tapmaq üçün minimaks teoremindən istifadə olunur ki, ona görə I və II oyunçu üçün tərtib edilmiş problemlər həmişə istənilən ödəmə matrisi üçün həllərə malikdir və həllər üst-üstə düşür.

Kiçik oyunlar üçün optimal strategiyalar asanlıqla tapılır, lakin strategiyaların sayı artdıqca optimal strategiyaları hesablamaq üçün müxtəlif üsullardan istifadə edilir.

Münaqişələrlə əlaqəli biznes və dövlət arasındakı münasibətlərin təhlilinə oyunlar nəzəriyyəsini tətbiq edərək, antaqonist oyunların iki sinfə bölündüyünü qeyd edirik:

1) tam oyunlar (I oyunçunun maksimal strategiyanı seçdiyi zaman qazancının minimaks strategiyası ilə II oyunçunun itkisinə bərabər olan oyunlar), tarazlıq vəziyyəti və təmiz strategiyalarda oyunun həlli;

2) natamam oyunlar, tarazlıq vəziyyətləri və təmiz strategiyalarda oyunun həlli. Bu zaman yuxarıda göstərilən həll prinsipi qəbuledilməzdir.

2-ci sinif oyunlar üçün oyunun həlləri yalnız təmiz strategiya anlayışının "qarışıq strategiya" anlayışının tətbiqi ilə genişləndirdiyimiz zaman tapılır. Bu halda, oyunun həlli qarışıq strategiyalar müstəvisində tapılmış olacaqdır.

Biznes və dövlət münasibətlərinin özəlliyi ondan ibarətdir ki, onlar hər iki tərəfin maraqlarını nəzərə almağa və uyğunlaşdırmağa imkan verən mövcud optimal strategiyalara (ən azı birinin) uyğun olaraq konkret məqsədə çatmaq üçün müxtəlif strategiyalardan istifadə edirlər.

Bu və ya digər oyunda məğlub olan hər bir oyunçu, ona itkiləri ilə müqayisədə daha çox qazandıran oyunda iştirak etməklə, itkilərini kompensasiya etməyə çalışır. Bu o deməkdir ki, əgər dövlət bizneslə antiinhisar hərəkətlərində qalib gələrsə, o zaman sonuncu nəinki onun itkilərini kompensasiya edəcək, həm də əhəmiyyətli qazanclar verəcək oyuna sürükləyəcək, məsələn, xarici ticarətin məcburi satış sürətinin azalması, ixrac fəaliyyətindən mübadilə gəlirləri və ya daha güclü təminatların verilməsi - təbii ehtiyatlardan istifadədən icarə haqqı alan biznes.

Biznes və dövlət eyni vaxtda müxtəlif növ bazarlarda qarşılıqlı fəaliyyət göstərir: resurslar bazarında (istehsal amilləri); son məhsul, mal və xidmətlər üçün bazar; maliyyə bazarı, o cümlədən valyuta, qiymətli kağızlar, kapital bazarı; milli bazarlar və dünya bazarı [1].

Cədvəl 3. Dövlət və biznes münasibətləri

Antiinhisar fəaliyyət	Dövlət	
Biznes	Güclü antiinhisar idarəetmə	Zəif antiinhisar idarəetmə
İstehsalın açıq şəkildə monopolizasiyalaşdırılması və bazarda dominant mövqenin yaradılması	İnhisarçı firmaların əmtəə və xidmətlərinin qiymət və tariflərinin tənzimlənməsi, inhisarçı firmaların məcburi şəkildə ayrılması. Bu tədbirlərin tətbiqi nəticəsində sahibkarlıq subyekti tərəfindən gəlirin bir hissəsinin itirilməsi.	İnflyasiya və dağıdıcılıq yaradan istehsal olunan mal və xidmətlər üçün inhisarçı firmalar tərəfindən özbaşına qiymətlərin müəyyən edilməsi. Biznes tərəfindən əlavə gəlir əldə etmək. Makroiqtisadi sabitliyin dövlət tərəfindən itirilməsi, dövlət tənzimlənməsini təmin etmək məqsədilə həyata keçirilən əlavə tədbirlərə çəkilən xərclər.

NƏTİCƏ

Beləliklə, aydın olur ki, dövlət və biznes münasibətləri iqtisadiyyatın ayrılmaz hissəsidir və daim vəhdət təşkil etməsi məqsədəuyğundur. Bu zaman həm dövlətin, həm də biznesin məsuliyyəti danılmazdır. Hər iki tərəf üçün də qazanc gətirən və münasibətləri tarazlayan oyun növünün kooperativ oyun tipi olduğunu nəzərə alsaq, qeyd edilən növbəti təkliflərə nəzər salmaq olar.

Dövlət aspektindən yanaşdıqda verilən təkliflər,

- Mövcud, o cümlədən yeni biznes sahələrinin inkişafı üçün dövlət proqramlarının işlənib hazırlanması;
- Qanunvericiliyə, o cümlədən qüvvədə olan normativ texniki hüquqi aktlara mütəmadi baxış keçirilməsinin təmin edilməsi;
- Dövlət qurumlarının sahibkarlıq subyektləri ilə əməkdaşlıq müstəvisində fəaliyyət göstərməyə sövq edilməsi, o cümlədən bu sahədə maarifləndirmə işlərinin təşkil və təbliğ edilməsi.

Biznes aspektindən yanaşdıqda verilən təkliflər,

- Hər bir biznes fəaliyyət göstərdiyi ölkənin qanunvericiliyə uyğun istiqamət seçməli və orada mövcud olmalı;
- Dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərərkən daim sənədləşmə bazasını yeniləməli və qanunvericiliyə əsaslandırmalı, lazımi hallarda, müxtəlif sorğular, rəsmi yazışmalar əsasında hökumətin tərəfdar çıxdığı qanunlara uyğun olub olmamasını təsdiqlətməli;
- Mütəmadi olaraq, işçi heyətin dövlət qurumları, eləcə də digər nüfuzlu sahibkarlıq subyektləri tərəfindən təşkil edilən maarifləndirici təlim və seminarlarda iştirakına maraqlı olmalı və təşkil etməklə əməkdaşların peşəkarlıq səviyyəsini artırmalı.

ƏDƏBİYYAT SİYAHISI

1. Sibir Dövlət Avtomobil Yol Universiteti, mühazirə №9 “Oyunlar nəzəriyyəsi və onun institusional iqtisadiyyatda rolu",
https://portal.sibadi.org/mod/resource/view.php?id=61467&forceview=1
2. N.A.Karpenko "İqtisadi nəzəriyyə və onun sərhədləri",
https://elar.urfu.ru/bitstream/10995/4297/2/sf-02-13.pdf
3. Rusiyanın "Ali İqtisadiyyat məktəbi" Milli Tədqiqat Universiteti, https://seinst.ru/page132/

MÜKAFATLARIN İDARƏ EDİLMƏSİ: MÜƏSSİSƏLƏR ÜÇÜN ROLU

TURAL TAĞIYEV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə / Sənaye və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi
turaltagizade125@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Mükafatların idarə edilməsi işçilərin ədalətli və ardıcıl mükafatlandırılması üçün təşkilatların strategiya və siyasətlərinin yaradılması və həyata keçirilməsi prosesidir. Mükafatlandırmaların idarə olunmasında təşkilatlar, işçilərin təşkilati məqsədlərə uyğun motivasiya edilməsi üçün mükafatlandırma sistemlərindən istifadə edirlər. İşçilərin motivasiya olunması qabiliyyəti bütün işçilər tərəfindən yaxşı hazırlanmış mükafat sistemləri və bu sistemlərin qəbul edilməsindən asılıdır. Mükafatlandırma siyasəti təşkilatın mükafatlandırma təcrübəsi barədə qərar qəbul edərkən istifadə etdiyi prinsiplərdir.

Mükafat strategiyaları göstərir ki, təşkilatlar uzunmüddətli perspektivdə mükafat siyasətinin həyata keçirilməsini planlaşdırırlar. Mükafatlandırma fəlsəfəsi mükafatlandırma strategiyaları, təşkilat strategiyaları, kadrların idarə edilməsi strategiyaları və rəhbərlik baxımından hazırlanmış və işçilərin mükafatlandırılmasına yönəldilmiş prinsiplərdir.

AÇAR SÖZLƏR: mükafat, idarəetmə mükafatları, mükafat sistemi, müəssisələrin inkişafı, motivasiya məsələsi

GIRIŞ

Təşkilatlardakı ən vacib element, şübhəsiz ki, insandır. Təşkilatların idarə edilməsinin əsas strategiyalarından biri işçilərə investisiya qoymaqdır. Mükafatlandırmaların idarə edilməsi sayəsində işçilərin həvəsləndirilməsi, saxlanılması, onların səmərəliliyinin artırılması və təşkilata töhfə verilməsi mümkündür ki, bu da insan resurslarının idarə olunmasının əvəzsiz funksiyasıdır.

Təşkilatların ən mürəkkəb iqtisadi şəraitdə mövcud ola biləcəyi ən yaxşı yol, mükafatların idarə olunmasına diqqət yetirməkdir. Motivasiyalı işçi qüvvəsi təşkilatın uğur qazanmasında həlledici rol oynayır. Belə ki, işçilər daha yüksək performans üçün mükafatlandırmalar ilə motivasiya edildikdə, təşkilat bütövlükdə daha səmərəli fəaliyyət göstərə bilər.

TƏDQIQAT METODU

Mükafatların idarə edilməsinin məqsədləri

Təşkilatların böyük əksəriyyəti mükafatlara işçiləri müəyyən davranışlara yönəltmək üçün bir yol kimi baxır. Ümumiyyətlə, işçilərin mükafatlarla və beləliklə də mükafatların idarə edilməsi ilə təşkilati məqsədlərə uyğun olaraq effektiv və səmərəli fəaliyyət göstərməsi hədəflənir. Mükafatların idarə edilməsinin digər məqsədləri:

Şəkil 1.1. Mükafatların idarə edilməsinin məqsədləri



Mənbə: https://dergipark.org.tr/en/download/article-file/884871 - ödül yönetimi 2021

Mükafatların idarə edilməsi, təşkilatın digər idarəetmə və İR funksiyaları kimi baş verir və müxtəlif komponentləri ehtiva edir. Mükafat strategiyası mükafatın idarə edilməsi prosesi üçün istiqamət müəyyən edir ki, mükafat idarəetmə təkmilləşdirmələri biznes strategiyasını dəstəkləsin [1, s. 67].

Mükafat strategiyasına uyğun olaraq sinif və əmək haqqı strukturu siyasəti müəyyən edildikdən sonra təşkilatdaxili iş və rollar nisbətən qiymətləndirilir və əmək bazarında əmək haqqı dərəcələri araşdırılır.

Mükafatın idarə olunması prosesində sadalanan fəaliyyətlərə əlavə olaraq; İşçilərin gözləntilərinin müəyyən edildiyi, onların fəaliyyətinin və töhfələrinin qiymətləndirildiyi, həmçinin şərti əmək haqqı qərarları üçün məlumatların təqdim olunduğu performans idarəetmə təcrübələri həyata keçirilir.

Mükafatların İdarə Edilməsi Siyasətinə və Təcrübəsinə təsir edən amillər

Mükafatların idarə edilməsi siyasətinə və təcrübəsinə təsir edən bir çox amillər var. Bunlar; strateji idarəetmə, daxili və xarici amillər, ümumi mükafat, əmək haqqı səviyyəsinə təsir edən amillər, insan kapitalının idarə edilməsi, motivasiya, iştirak, öhdəlik və psixoloji müqavilə aiddir [2, s. 13].

Strateji idarəetmə: Bu, təşkilatın məqsədlərinə çatmaq üçün hazırlanmış strategiyaların həyata keçirilməsi üçün tədbirləri əhatə edir.

Daxili mühit: Daxili mühit təşkilat mədəniyyəti, biznes, texnologiya və işçilərdən ibarətdir.

Xarici mühit: Xarici mühitə qloballaşma, rəqabət təzyiqi, demoqrafik struktur və məşğulluqdakı dəyişikliklər daxildir.
Ümumi mükafat: Ümumi mükafat siyasəti mükafatların idarə edilməsinə vahid yanaşma təklif edərək ardıcıllığı təmin edir.
Əmək haqqı səviyyəsinə təsir edən amillər: Bu amillər iş, bazar və əmək haqqı dərəcələri ilə bağlı ödəniş qərarlarına təsir göstərir.
İnsan kapitalının idarə edilməsi: İnsan kapitalının idarə edilməsi strateji və əməliyyat qərarlarının istiqamətini məlumatlandıran informasiyaların əldə edilməsi, təhlili və hesabatı ilə məşğul olur.
Motivasiya: Motivasiya ümumi mükafatın qeyri-maliyyə elementlərinin istifadəsinə rəhbərlik edir.
İştirak və öhdəlik: İştirak və təşkilati öhdəlik anlayışları ümumi mükafat siyasətlərinin formalaşmasında rəhbər rol oynayır.
Psixoloji müqavilə: Psixoloji müqavilə mükafat siyasətində təşkilat və işçilər arasındakı münasibətlərin əsas aspektinə istinad edir.

Satış və Müştəri Xidmətləri Nümayəndələrinin mükafatlandırılması

Satış və müştəri xidməti personalı biznes nəticələrinə çox güclü və dərhal təsir göstərir. Bu vəziyyət müştəri ilə birbaşa təmasda olan bu kadrların digər işçilərdən fərqli qiymətləndirilməsinə və onları motivasiya etmək üçün maddi həvəsləndirmənin vacibliyini vurğulamasına səbəb olur [3, s. 34].

Satış nümayəndələrinin mükafatlandırılması

Satış nümayəndələrinin fəaliyyəti onların həyata keçirdiyi satışlardan asılı olduğundan, onların cari fəaliyyətinin maddi həvəsləndirmə ilə yaxşılaşdırılması fikri onlara digər işçilərdən daha çox komissiya və ya mükafat almaq hüququ verir. Təşkilatlarda, o cümlədən pərakəndə satışın həyata keçirildiyi yerlərdə, satış işçilərinə tez-tez satış komissiyaları olan spot tariflər ödənilir.
Maliyyə mükafatları satış işçiləri üçün son dərəcə vacibdir, lakin onların uğurlarını reallaşdırmağa kömək edəcək qeyri-maliyyə mükafatları da var. "Ayın satış nümayəndəsi" və s. tətbiqlər bu qeyri-maliyyə mükafatları arasındadır [4, s. 67].

Maliyyə Mükafatları

Yalnız əsas əmək haqqı: Təşkilatlar satış işçilərinin satış həcminə az təsir göstərdiyi və çox vaxt məhsul və ya xidmətlərin təşviqinin birbaşa satışdan daha vacib olduğu yerlərdə yalnız əsas ödəniş yanaşmasını tətbiq edə bilər. Bu kimi təşkilatlar satış işçilərini yüksək həcmdə satışdansa müştəriləri ilə yaxşı və uzunmüddətli əlaqələr qurmağa təşviq edirlər.
Əsas əmək haqqı + bonus: Bu proqramda pul mükafatı əsas əmək haqqına əlavə olaraq ödənilir. Bu, satış həcmi üçün əvvəlcədən müəyyən edilmiş hədəflərə və ya kvotalara nail olmaq prinsipinə əsaslanır. Bonus proqramı bəzən yalnız satış həcmi üçün hədəflər təyin edə bilər, lakin bəzən aşağı marja məhsulları ilə satış həcmini hədəfləməkdənsə, işçilərin motivasiyasını təşviq etmək üçün yüksək marjalı məhsulların satışını da əhatə edə bilər.
Əsas əmək haqqı + komissiya: Bu yanaşmanı tətbiq edən təşkilatlarda əsas əmək haqqı ilə birlikdə ümumi qazancın müəyyən faizi komisyon şəklində ödənilir. Satışların məbləğinin faizi kimi hesablanan komissiya dərəcəsi, nəticələrin işçilərin fəaliyyətinə və səylərinə əsaslandığı təşkilatlarda daha yüksək müəyyən edilir [5].
Yalnız komissiya: Satışın "çətin" olduğu təşkilatlarda satıcılar yalnız satış dəyərinin faizinə əsasən komissiya ala bilərlər.

1. NƏTICƏ

Məqalədə idarəetmə funksiyasının tərkib hissəsi olan və əmək haqqı/əmək sövdələşməsi nəticəsində yaranan əmək münasibətlərindən irəli gələn mükafatların idarə edilməsi anlayışı araşdırılır. Təşkilatlarda mükafatların idarə edilməsi, həm ixtisaslı şəxsləri cəlb etmək və saxlamaq, həm də mövcud işçiləri fəaliyyət göstərməyə həvəsləndirmək baxımından son illərdə getdikcə daha vacib insan resurslarının idarə edilməsi funksiyasına çevrilmişdir. İşçilər təşkilata əlavə etdikləri dəyərə görə mükafatlandırılırlar.
Effektiv mükafat idarəetməsində mükafatlar işçilərin fərdi ehtiyacları nəzərə alınmaqla tərtib edilir. Mənalı, başa düşülən və böyük təsirə malik olan və vaxtında verilən mükafatlar işçilər üçün həvəsləndirici keyfiyyətə malikdir. Bu səbəbdən təşkilatlar mükafat idarəetməsi çərçivəsində mükafat sistemlərini yaradarkən bütün bunları nəzərə alaraq hərəkət etməlidirlər.
Yaxşı mükafatlandırılan işçi təşkilat tərəfindən ona dəyər verildiyini düşünür. Bundan xəbərdar olan təşkilatlar mükafat idarəçiliyindən ən yaxşı şəkildə istifadə edərək, işçiləri təşkilati məqsədlərinə çatmağa təşviq edə bilərlər. Təşkilatlar öz insan resurslarını effektiv idarə etmək və işçilərindən ən yüksək səmərəliliyi əldə etmək üçün mükafatların idarə edilməsinə diqqət yetirməlidirlər. Çünki rəqabətli bazar

mühitində ayaqda qalmaq və rəqibləri geridə qoymaq ancaq mükafatın idarə olunması ilə mümkün ola bilər.

Ədəbiyyat siyahısı

Anku, Joycelyn Samatha and others (2018), "Concept of Reward Management, Reward System and Corporate Efficiency", International Journal of Economics, Commerce and Management, 6 (2): 637 p.

Armstrong, Michael (2006), A Handbook of Human Resource Management Practice, London and Philadelphia: Kogan Page (Tenth Edition), 566 p.

Karalar, Serol (2015), Ödül Yönetiminin Örgütsel Özdeşleşme ile İşgücü Atikliği Üzerine Etkisi ve Bir Araştırma (Yayınlanmamış Doktora Tezi), Edirne: Trakya Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İşletme Anabilim Dalı, 453 s.

Rubino, A. John (1997), "A Guide to Successfully Managing Employee Performance: Linking Performance Management, Reward Systems, And Management Training", Employment Relations Today, 24 (2): 353 p.

https://dergipark.org.tr/en/download/article-file/884871

REWARD MANAGEMENT: ITS ROLE FOR BUSINESSES

Summary

Reward management is the process of establishing and implementing the strategies and policies of organizations in order to reward employees fairly and consistently. In reward management, organizations use reward systems to motivate employees according to organizational goals. The ability of employees to motivate depends on the reward systems well designed by all employees and the adoption of these systems. Remuneration policy are the principles that the organization uses when deciding on remuneration practice.

Reward strategies show that organizations plan to implement reward policies in the long run. The philosophy of remuneration is that remuneration strategies, organization strategies, personnel management strategies and principles designed in terms of leadership and focused on employee remuneration.

Keywords: reward, management rewards, reward system, Enterprise Development, motivation issue

УПРАВЛЕНИЕ ВОЗНАГРАЖДЕНИЯМИ: ЕГО РОЛЬ ДЛЯ БИЗНЕСА

Резюме

Управление вознаграждениями - это процесс разработки и реализации стратегий и политики организаций с целью справедливого и последовательного вознаграждения сотрудников. В управлении вознаграждениями организации используют системы вознаграждения для мотивации сотрудников в соответствии с целями организации. Способность сотрудников мотивировать зависит от систем вознаграждения, хорошо разработанных всеми сотрудниками, и от внедрения этих систем. Политика вознаграждения - это принципы, которые организация использует при принятии решений о практике вознаграждения.

Стратегии вознаграждения показывают, что организации планируют внедрять политику вознаграждения в долгосрочной перспективе. Философия вознаграждения заключается в том, что стратегии вознаграждения, организационные стратегии, стратегии и принципы управления персоналом разработаны с точки зрения лидерства и ориентированы на вознаграждение сотрудников.

Ключевые слова: вознаграждение, вознаграждение руководства, система вознаграждения, развитие предприятия, проблема мотивации

RƏQƏMSAL MARKETİNQ

ALLAHVERDİYEVA LƏMAN RAFİQ
ADİU-nun nəzdində Qida Sənayesi Kollecinin müəllimi
Marketinq ixtisası,
ilaxh@mail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dövrdə marketinq xidmətləri istehsal və tələbatın uzlaşdırılmasına, iqtisadi fəaliyyət sahələrinin səmərəli fəaliyyət göstərməsinə, istehlakçıların mənafeyinə xidmət edir. Marketinq xidmətləri bazarının təkmilləşdirilməsi müəssisələrdə həm istisadi səmərəliliyin yüksəldilməsinə, həm rəqabət üstünlüyünün əldə olunmasına, həm də satışın həyata keçirilməsinə əhəmiyyətli təsir edir. Ölkəmizdə ənənəvi marketinq xidmətləri bazarı ilə bərabər rəqəmsal(digital) marketinq xidmətləri bazarında da kifayət qədər inkişaf var.Rəqəmsal marketinqin inkişaf etdirilməsi yeni sahələrin formalaşması və genişlənməsinə, göstərilən ximət çeşidlərinin artmasına və təkmilləşməsinə səbəb olur. Bu baxımdan da sürətlə inkişaf edən ölkəmizdə rəqəmsal marketinq konsepsiyasının hazırlanması, onun inkişaf istiqamətlərinin öyrənilməsi, bu yolda yaranan problemlərin aşkar edilməsi və həllinin müəyyən edilməsi çox mühüm məsələlərdəndir.

AÇAR SÖZLƏR: rəqəmsal marketinq , rəqəmsal marketinqin alətləri , rəqəmsal marketinq kanalları

GİRİŞ

Marketinq rəqəmsal platformalara yönəldikcə rəqəmsal marketinqin arxasında olan anlayışlar ənənəvi marketinqdən fərqlənərək getdikcə öz terminlərini yaradır və bununla marketoloqlar yeni terminlər, konseptlər kəşf edirlər. Rəqəmsal marketinq şirkəti bazarda tanıtmaq, istehlakçılarla əlaqə qurmaq, onlara müxtəlif xidmətlər göstərmək, şatışı təşkil etmək üçün uğurlu marketinq fəaliyyətindən biridir.

Rəqəmsal marketinqin üstünlükləri kimi aşağıdakıları qeyd edə bilərik:

- Rəqəmsal marketinq satışları artırır. Oflayn olaraq xidmət yəni, elektron olaraq xidmət istəməyən müştərilərə belə geniş paylama şəbəkəsi və ya mağazalardakından fərqli olaraq daha geniş məlumat çeşidi ilə və ya digər kanallarla müqayisədə daha aşağı qiymətlə təmin edilərək satışlar artırıla bilər.
- Rəqəmsal marketinqin virtual istehlakçını real istehlakçıyə çevirə bilir: məhsul və xidmətlərin onlayn satışını həyata keçirən müəssisələr platformanın məqsədlərindən asılı olaraq gələn istehlakçı trafikinin hansı dərəcədə potensial abunəçiyə və satışa çevrilməsini ölçür. Bu dönüşüm olmadan platformalar üzrə edilən reklamların hər hansısa bir faydası olmaz və bütün xərclər boşa çəkilmiş olar. Bu səbəbdən biznes sahibləri rəqəmsal marketinq kampaniyalarında əsas olaraq virtual istehlakçılərin real istehlakçılərə çevrilməsi üzrə optimallaşdırılmasına diqqət ayırır.
- Rəqəmsal marketinq ənənəvi marketinqə nisbətən daha az xərc tələb edir və daha çox qazanc əldə etməyə kömək edir:. Məhsilların onlayn şəkildə təqdimat, satış və xidmət sistemləri kadr, nəşr və poçt xərclərini azaldır.
- Rəqəmsal marketinq müştərilərə daha yaxın olmağa imkan verir. Veb və e-mail forumları vasitəsilə anketlərlə qarşılıqlı dialoq yaradılaraq rəsmi onlayn bazar araşdırmaları həyata keçirilir. Eyni zamanda PR (ictimaiyyətlə əlaqələr) yolu ilə də müştərilərlə onlayn olaraq əlaqə saxlamaq mümkündür.
- Rəqəmsal marketinq brendin məşhurluğunu və brendə sadiqliyi artırır:
- Rəqəmsal marketinq hədəf auditoriyası ilə qarşılıqlı əlaqəni asanlaşdırır: Rəqəmsal marketinqinin ənənəvi marketinqi geridə qoymasının əsas səbəblərindən biri də onun alətlərindən istifadə sayəsində hədəf auditoriyası ilə birbaşa əlaqə qurulmasının mümkün olmasıdır. Istehlakçı sənin brendin və biznesin ilə maraqlandıqda onunla istənilən formada qarşılıqlı əlaqənin qurulmasını gözləyir.
- Rəqəmsal marketinq qoyulmuş investiyaların vaxtında daha tez geri qayıtmasına imkan verir.

Ənənəvi marketinq və rəqəmsal marketinq arasındakı fərqlər isə cədvəl 1-də verilmişdir.

Ənənəvi marketinq	Rəqəmsal marketinq
Dərc olunan jurnallar qəzetlər və s., birbaşa marketinq, telemarketinq daxildir.	Onlayn reklam, e-mail marketinq, sosial media, afilliate marketinq, SEO, SEM
İstehlakçılarla qarşılıqlı əlaqə yoxdur	İstehlakçılarla qarşılıqlı əlaqə var

Nəticələri ölçmək çox vaxt çətin olur	Nəticələri ölçmək çox asan olur
Reklam kampaniyaları uzun müddət ərzində planlaşdırılır	Reklam kampaniyaları qısa müddət ərzində planlaşdırılır
Əgər şirkət yerli bazarın geniş kütləsinə çata bilirsə bu zaman müvəffəqiyyət əldə etmiş hesab olunur	Əgər şirkət yerli bazarın spesifik hədəf kütləsinə çata bilirsə bu zaman müvəffəqiyyət əldə etmiş olur.
Uzun müddətli dövr üçün bir kampaniya üstünlük təşkil edir	Kampaniya istənilən vaxt asanlıqla dəyişilə bilər və hər hansı kampaniya içərisində istənilən yenilik təqdim edilə bilər
Viral olma xüsusiyyəti olmur.	Viral xüsusiyyəti vardır.
Tək tərəfli danışıq	Qarşılıqı kommunikasiya
Cavablar yalnız iş vaxtı mümkün olur	Cavablar və ya "feedback"lar istənilən vaxt mümkündür

Rəqəmsal (rəqəmsal) marketinq – istehlakçıları əhatə etmək üçün rəqəmsal kanallardan istifadə edərək məhsul və xidmətlərin irəlilədilməsi marketinqidir. Son zamanlar geniş şəkildə işlədilən digital marketinq, rəqəmsal marketinq, elektron marketinq, Internet marketinq, interaktiv marketinq ifadələrinə tez- tez rast gəlirik.Onların hamısı eyni məqsədə xidmət edir, istehsal olunan məhsul və xidmətlərə potensial istehlakçılar cəlb etmək üçündür. Bu zaman brendlərin bazara irəlilədilməsi və kompaniyaların satışını artırmaq məqsədilə müştərilərin cəlb olunmasının və saxlanılmasının müxtəlif və forma və üsullarından istifadə olunur.

Rəqəmsal marketinqin həmin forma və üsullarına texnologiyalar,alətlər,kanallar,taktikalar,internet-xidmətlər və digər imkanlar aid edilir.

"Digital marketinq" anlayışı "internet marketinq" anlayışından daha genişdir,çünki özündə İnternetdən istifadəni tələb etməyən kanalları birləşdirir. Digital-rəqəmsal kommunikasiya informasiyaya, kontentə,həmçinin informasiya ötürən qurğulara da (mobil telefon, player,noutbuk və s.) tətbiq oluna bilər.

Rəqəmsal marketinq kanalları tərəflər arasında əlaqənin yaradılması,informasiyanın ötürülməsi və mübadiləsinin təşkili üşün nəzərdə tutulan maddi-texniki fəzadır. Kommunikasiya kanalının funksiyası əlaqələrin yaradılması,informasiyanın ötürülməsi və mübadiləsidir. Digital-marketinq kommunikasiyasının funksiyası isə tərəflər arasında informasiyanın ötürülməsi və mübadiləsi,tərəflərin aktiv iştirakı şəraitində "yeni rellığın" yaradılmasıdır. Bu konteksdə tərəflər kimi reklam istehsalçısı və istehlakçı çıxış edir. Reklam istehsalçısı tədbirlər kompleksininvasitəsi ilə potensial istehlakçıları brend haqqında məlumatlandırır.İstehlakşı isə informasiyanı qəbul edərək ,öz seçimini edir.

Ənənəvi və digital marketinqin kanal və alətlərinin müqayisəli xarakteristikası cədvəl 2-də verilmişdir.

Marketinqin ənənəvi kanalları	**Rəqəmsal marketinqin kanalları**	**Rəqəmsal marketinqin alətləri**
KİV-də reklam(ATL-reklam)	Komputer və planşetlər	Yeni media,media+
Satışın həvəsləndirilməsi	Smartfonlar	E-mail(elektron poçt)
İctimaiyyətlə əlaqələr(PR)	Ağıllı qacetlər	Konteks reklamı
Şəxsi satış	Veb-saytlar və bloqlar	Banner reklamı
Xarici reklam	Sosial şəbəkələr	Tarqet(hədəfli) reklamı
Sərgi/yarmarkalar	Post-terminallar,video kameralar	Təbii reklam (native advertising
Direct marketinq oflayn(birbaşa marketinq)	Lokal şəbəkələr	İnternetdə virus və partizan reklamı
Virus və partizan reklamı	Rəqəmsal televiziya	SMM(sosial media)
Qablaşdırma	İnteraktiv ekranlar	Sosial şəbəkələrdə reklam
Sponsorluq	Oyun konsolları	SEO
Lisenziyalaşdırma	Özünəxidmət terminlları	Mobil marketinq Displey reklamı Bloqinq
Servis xidməti	Reklam plakatları və jurnallarda QR kodları	Digital Art
Event (hadisə)-tədbirlər		SMS-paylaşımları
Xüsusi suvenirlər		Affilate marketinq
Marketinq-miks		QR-kodları

Digital marketinqin alətlərinə çox sayda insanı məlumatlandırmağa və ya hədəf auditoriyasının diqqətini kompaniyaların,təşkilatların məhsul və ya xidmətlərinə cəlb etməyə imkan verən tədbirlər aid edilir. Çox zaman digital marketinqin bir neçə alətinin birgə tətbiqi daha səmərəli olur.
Axtarış marketinqi Google və ya Yandeks kimi axtarış sistemlərində biznes üçün yaxşı mövqe tutmağa çalışanda istifadə olunur.Yeni ziyarətçi cəlb olunan kimi mətninn yerləşdirilməsi və fəaliyyətə çağırış ziyarətçini saytda uzun müddət saxlamalı və onu marketinq tunelinə yönləndirməlidir.
Onlayn-sorğular.Rəqəmsal marketinqə və ya rəqəmsal mediakanallara aid bir sıra onlayn-sorğular vardır ki onların tərkibində müxtəlif yanaşmalar vardır.
Tərəfdaşlıq marketinqi (Affiliate marketing) saytlarının öyrənilməsi maraq doöurur və bir çox böyük olamayan saytlardan müəyyən gəlir gətirmək tendensiyasına malikdirvə s. texnologiyaları özündə birləşdirir .
OZON –nun çox uğurlu tərəfdaşlıq proqramı vardır ki,onun sayəsində böyk olmayan saytların sahibləri öz saytlarında OZON-nun tədarük etdiyi kitabların reklamı üçün kod yerləşdirə bilərlər.Bu yolla,bağçılığa aid veb-sayt yaratmaq olar və orada tərəvəzlərin becərilməsinə dair kitabları reklam etmək olar.
Alıcıların diqqətini cəlb etmək baxımından rəqabət mübarizəsində aparıcı rol korporaiv saytların payına düşür. Sayt-müxtəlif informasiyaları əhatə edən sənədlərin toplusudur.Bu informasiyalara mətn,şəkil,video və audion materiallar və s. aiddir.Saytın bütün səhifələri bir –biriləxüsusi şriftlə fərqləndirilmiş hiper keçidlərlə əlaqəlidir. Sayt İnternetdə domen adına malik bir sahədir,məsələn : internet-mağaza,xəbər portal,sosial şəbəkə,bloq və s. Bloq,müntəzəm yazıların ,mətnlərin,şəkil və ya multimedianın əlavə olunuğu saytın başqa növü, i nternet-gündəlik, internet-jurnal kimi çıxış edir. Bloqda onun müəllifinin özü özü haqqında danışır,saytda isə bu mümkün deyil.Saytda əsas və zəruri informasiya xidmət və ya biznes barədə olan informasiyalardır. Saytda məqalələr rəsmi dildə yazılır, bloqda isə bloqqer öz fikirlərini sadə və hamının başa düşəcəyi dildə yazır. Bloq insanların,oxucuların ünsiyyət qurduğu məkan sayılır.
Sosial şəbəkələr. Sosial şəbəkə (social networking service) sosial qarşılıqlı əlaqələrin qurulması ,əks etdirilməsi ,təşkili və social qrafların köməyi ilə vizuallaşdırılmasını nəzərdə tutan onalyn- xidmətdir.Sosial şəbəkələrin xarakterik xüsusiyyətlərinə:

- Real şəxsi informasiyaların tələb olunduğu şəxsi profillərin yaradılması;
- Şəkillər, video yazılar, mətnlər kimi müxtəlif informasiyaların yerləşdirilməsi və mübadiləsinə şərait yaradan geniş spektrli imkanların mövcudluğu;
- Bəzi şəxsi əlaqələrimizin olduğu (məsələn:dostluq,qohumluq, iş əlaqələri və s.) istifadəçilərin siyahısına dəstək aiddir.

Sosial şəbəkələr marketinq üçün mediakanal sayılır. (SMM). SMM (social media marketing) social platformalar üzərindən brendə və ya məhsula istifadəçilərin trafikinin və ya diqqətinin cəlb olunması prosesidir.O,sosial mediadan kompaniyaların irəlilədilməsi kanalı və digər biznes məsələlərinin həlli kimi istifadə edən tədbirlər kompleksidir.Sosial şəbəkələr və onunla əlaqəli olan SMM-in tədbirlər kompleksi marketinq kommunukasiya kanallarının və alətlərinnin qarşılıqlı əlaqə və təsirini nümayiş etdirir və vahid digital-mühitdə fəaliyyət göstərir.

Facebook hal-hazırda dünyada ən böyük sosial şəbəkə sayılır. və sosial media meneceri üçün bir çox üstünlükləri vardır. Facebook ilk dəfə 2004-cü ildə universitet tələbələrinin bir-biriləri ilə kommunkasiyalarını asanlaşdırmaq məqsədilə yaradılmışdır. Facebookun yaradıcısı Mark Zukerberqdir. Geniş və çoxsaylı auditoriya ilə yanaşı Facebook biznesin inkişafı üçün imkan yaradır. Xüsusi səhifələrin (business pages) köməyi ilə kompaniyalar şəxsi səhifələrinə mane olmadan istifadəçilərlə qarşılıqlı əlaqəni təşkil edirlər.Biznes üçün səhifələr şəxsi səhifələr kimi işləyir.İstifadəçi “like “ qoyduğu halda xəbər lentində əks olunur. Həmin səhifə düzgün idarə olunduğu təqdirdə irəlilədimə üçün çox güclü alətə cevrilə bilər. Həmçinin, Facebook Insights aləti irəlilədilmənin bu shaəsinə yatırılmış investisiyaların səmərəliliyini qiymətləndirməyə imkan verir. Onun köməyi ilə unikal istifadəçilərin, səhifə “fanat”larının,baxışların,neçə posta baxıldığının “like” və paylaşma saylarının izləməyə imkanı yaranır.
Hal-hazırda yeni məhsulların testləşdirilməsi, yeni məhsullara istifadəçilərin münasibətinin yoxlanılmasında Facebookun istifadəsi çox aktualdır. Bu şəbəkənin foto və video yükləmək imkanı olduğundan kompaniyalar son istehlakçılara nümayiş elətdirmək üçün asanlıqla məhsulların kataloqunu yarada bilirlər.
Facebookun reklam kabinetləri isə effektiv reklam kampaniyalarını yönəltmək, bu şəbəkədə reklam elanlarının göstərilməsini idarə etmək, keçirilmiş reklam kampaniyaları haqqında hesabat almaq kimi

funksiyalarla təchiz edilmişdir. Facebook şirkətlərə banner reklamları və digər tanıtım reklamları yayımlamaq imkanları təqdim edir və şirkətlər yerləşdirdiyi reklamları mobil və veb platformalardan istifadə edən istifadəçilərin diqqətinə çatdırır. Reklamların yerləşdirilməsi hədəf auditoriyasının sosial şəbəkədə aktivlik dərəcəsinə görə qurulur. Bütün sosial şəbəkələr kimi Facebook da istifadəçilərə qarşılıqlı münasibətlərin yaradılmasında üstün alət sayılır. Ziyarətçilərlə açıq dialoq, suallara vaxtlı-vaxtında cavab verilməsi brendə sadiqliyin yüksəldilməsində kömək edir.

Twitter (twitter.com).2006-cı ildə yaradılan Tvitter əvvəldə evdə istifadə edilən anında mesajlaşmaq üçün idi və Sonra digər istifadəçilər tərəfindən də istifadə edilməyə başladı. Istifadəçilər bir- birilərinə "tweet" adlanan mesajlar göndərirlər.

Potensial müştəriyə biznes, məhsul və ya xidmət haqqındam məlumat vermək, onu alışın zəruriliyinə inandırmaq və bu zaman yalnız 140 simvoldan istifadə etmək çox qeyri-adi görünür. Məhz, bu çətinliklə Twitterdə kompaniyalar öz məhsullarının irəlilədilməsi cəhdlərində rastlaşırlar. Bu veb-saytın yaratdığl fenomen kimi mikrobloqinqi göstərmək olar.

Twitter vasitəsilə şirkət menecerləri məhsulları haqqında istifadəçilərin düşüncələrini izləyir, geri bildirimlərinə cavab verir, insanlarla ünsiyyət qurur və müxtəlif yaradıcı reklam vasitəsi ilə pul qazanır. Bu şəbəkədə yalnız akkaunta sahib olmaq kifayət etmir. Həmin akkauntun ulduzların, siyasətçilərin və sadə istifadəçilərin akkauntları kimi tez-tez yenilənməsi zəruridir.

İnstaqram (instagram.com). İnstaqram ən sürətlə inkişaf edən sosial şəbəkədir. İnstaqram Kevin Systrom və Mayk Kriqer tərəfindən yaradılmış, 2010-cu ilin oktyabr ayından etibarən istifadəyə verilmişdir. Əvvəllər İnstaqramın istifadəsi yalnız iPhone, iPad və iPod Touch kimi alətlərdə mümkün idi. 2012-ci ilin aprel ayından etibarən xidmət 100 milyondan çox aktiv istifadəçi ilə populyarlıq qazanmışdır. 2014-cü ildə istifadəçi sayı 300 milyona çatdı. Qısa zaman ərzində istifadəçilərin sayının artması ilə 1 milyon dollar qarşılığında Facebook tərəfindən satın alınmışdır.

İnstaqram öz istifadəçilərinə onlayn şəkildə pulsuz şəkil-video paylaşımı etməyə imkanı verən sosial şəbəkədir. İstifadəçilərin yüksək səviyyədə aktivliyi və cəlb olunması ilə xarakterizə olunur Auditoriyası keyfiyyətli və ödəməqabiliyyətlidir. Auditoriyanın 70 % -ni qadınlar təşkil edir. Auditoriyanın orta yaşı 18-35 arasındadır.

YouTube. 2005-ci ildə üç internet investoru tərəfindən yaradılan YouTube uğur əldə edərək Google tərəfindən 1.65 dollara satın alınmışdır Youtube abunəçilərin video yükləyə bildiyi və başqaları tərəfindən paylaşılan videolara şərh edə bildiyi veb-saytdır Bu platforma marketinq və reklam üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan videolar milyonlarca insana çata bilər və şirkətlərə çoxlu mənfəət gətirə biləcək gücə sahibdir. Youtube-un seçilməsinə təsir edən ən mühüm amil kommunikasiyanın və istifadəçilər ilə əməkdaşlığın asan olmasıdır. YouTube-da paylaşımlarla bağlı, şərhlərin görülməsi, statistik məlumatların verilməsi, istifadəçilərin öz virtual kanallarını yarada bilmələri, axtarışlarda əlaqəli videoların nümayişi və istifadəçilərin bəyəndikləri videoları digər sosial şəbəkələrdə paylaşa bilmələri kimi imkanlara sahibdir.

Mobil marketinq: Mobil marketinq, marka, məhsul və xidmətlə bağlı məlumatları telefon və ağıllı telefonlara göndərilməsidir. Şirkətlər bu məlumatları qısa mesajla, şəkil, video və ya səsli mesaj kimi göndərə bilərlər. 2000-ci illərin əvvəlində cib telefonlarında qısa mesaj ilə mobil marketinq çox məşhur idi. Mobil marketinq vasitəsilə şirkətlər hədəf auditoriyasına real vaxtda stimullaşdırma mesajı göndərə bilər və müştəri tərəfindən həmin mesajın görülməsinə əmin ola bilər. Mobil telefonların xüsusəndə smartfonların artığı dünyada mobil marketinq mühüm əhəmiyyət kəsb edir.

E-mail marketinq: E-mail, birbaşa marketinqin və müştərilərə birbaşa İnternet üzərindən əlaqə saxlmağın ən təsirli yollarından biridir. E-mail marketinq markaların müəyyənləşdirdiyi hədəf auditoriyasının göndərdiyi mesajların email vasitəsilə göndərməsidir. Bu mesajlar təbrik etmə (bayram, ad günü və s.), informasiya vermə, məhsulun tanıtılması haqqında ola bilər. Həmçinin bura xüsusi məhsul və xidmət təklifləri, müştərilərin təklifləri və şikayətlərinə cavab verilməsi, endirimli satış təklifləri kimi mesajlar da bura aiddir. E-mail marketinqində əsas məsələ insanların e-mail mesajlarını mümkün olduqca görməklərini təmin etməkdir. Əgər e-mail marketinqi düzgün strategiya ilə qurulsa markalar üçün yüksək qazanca səbəb olar E-mail marketinq maliyyə cəhətdən əlverişli, yüksək hədəfli, kütləvi miqyasda və tamamilə ölçülə bilən ən güclü rəqəmsal marketinqin qollarından biridir. Bu dəyərli kontent və stimullaşdırma mesajları vasitəsilə mövcud və potensial müştərilərlə əlaqə qurmaq üçün vasitədir. E-mail marketinq sayəsində müştəriləri əldə tutmaqla barəbər nəticəsində şirkətin bütünlükdə daha çox gəlir əldə etməsini təmin edər.

NƏTİCƏ

Rəqəmsal marketinq xidmətləri bazarının effektiv təşkili yalnız bu bazar subyektləri üçün deyil, ölkədə marketinq xidmətləri potensialının güclənməsində və onun səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.Bundan başqa, rəqabət mühitinin dərinləşdiyi müasir dövrdə marketinq xidmətləri, təkcə, bazar subyektlərinin səmərəli fəaliyyət göstərmələri üçün deyil, həm də, ictimai münasibətlər sisteminin demokratik əsaslarla inkişaf etdirilməsi və bu münasibətlərin uğurlu şəkildə tənzimlənməsində zəruri vasitə hesab olunur.

ƏDƏBİYYAT SİYAHISI

1. Akar, E., & Kayahan, C. (2010). Elektronik Ticaret ve Elektronik İş - Uygulamalar, Modeller, Stratejiler. İstanbul: Nobel Yayın. s 216
2. Aksoy, R. (2012). İnternet Ortamında Pazarlama. İstanbul: Seçkin Yayıncılık
3. Tasneem A., Yasmin K., & Fatema, (2015) Effectiveness of Digital Marketing in the Challenging Age. An Empirical Study s. 71-72
4. Катаев А.В., Катаева Т.М.. Интернет-маркетинг: учебное пособие 2017. – 170 с.
5. Шевченко Д.А. Интегрированные коммуникации. – С. 162

TƏŞKILATI MÜNAQIŞƏLƏR XIDMƏTI VƏ MÜNAQIŞƏLƏRIN ARADAN QALDIRILMASI

BƏHRUZ QARAŞLI
Azərbaycan Dövlət İqtisad Universiteti
qarashli1907@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir menecmentə əsasən rəhbər münaqişə vəziyyətində fəal mövqe tutur, müxtəlif tipli münaqişələri idarə edirlər. İdarəetmə prosesi özündə aşağıdakı elementləri əks etdirir:
Münaqişənin açılışı-səbəblərin müəyyən olunması münaqişənin səviyyəsi dərəcəsinin müəyyən olunması-idarəetmə metodlarının tapılması və yaxud münaqişənin həll olunmasıdır.
Münaqişə vəziyyətində ilkin yol kimi münaqişənin əsl səbəbini müəyyən etmək lazımdır. Odur ki, rəhbər öz fəaliyyətində dəqiq müəyyən etməlidir ki, hansı münaqişənin qarşısını almaq, yaxud həll etmək lazımdır. Məsələn, şəxslərarası münaqişə davam edərək ümumkollektiv münaqişəyə çevrilə və təşkilatın işini poza bilər. Onu qeyd etmək lazımdır ki, münaqişə iştirakçısı özünə onu dəstəkləyən tərəfdarlar axtarır ki, rəhbəri öz tərəfinə çəksin.
Təcrübədə təsərrüfat rəhbəri çox vaxt öz yerini qoruyub saxlamaq üçün: "parçala və hökm sür" prinsiplərindən istifadə edir. Bu, özünü daha çox bürokratik təşkilatlarda özünü göstərir. Münaqişənin rolu onun nə qədər səmərəli idarə edilməsindən asılıdır.

AÇAR SÖZLƏR: TƏŞKILAT, MÜNAQIŞƏ, MENECMENT, ZİDDİYƏT

GIRIŞ

Təşkilati münaqişə xidməti dedikdə adətən təşkilatlarda baş verən və onun spesifik xüsusiyyətləri, struktur tərkibi, digər təşkilatlarla qarşılıqlı əlaqələri ilə əlaqədar olan münaqişə nəzərdə, tutulur.
Təşkilat daxilində baş verən münaqişəni aşağıdakı kimi qeyd etmək məqsədəuyğundur:
-Əhali özləri ilə işə ailə münaqişələrini gətirə bilər.
-Münaqişəni yerli vasitələrlə, təşkilatlarda aradan qaldırmaq cəhdləri həyata keçirilir.
Müasir təşkilatda baş verən münaqişə idarəedici fikir tarixində müxtəlif şərhə malik olmuşdur. Elmi menecment məktəbi və nəzəriyyəçiləri münaqişəni təşkilat üçün xoşagəlməz bir hadisə kimi nəzərdən keçirmişlər. Hər hansı bir münaqişənin baş verməməsinə çalışmaq lazımdır. Odur ki,

münaqişənin yaranmasına şərait yaradan problemlərin aradan qaldırılması yolları araşdırılır və həlli yolları müəyyən edilir [1, 2].

Ümumiyyətlə, münaqişədən qaçmaq lazımdır. Təşkilat daxilində başverən ziddiyyətləri aradan qaldırmalı,münaqişəni təşkilatın qeyri-səmərəli fəaliyyətinin mənfi idarə sisteminin ünsürü hesab edilir.təşkilatda qarşılıqlı münasibətlərin yaxşı olması münaqişənin yaranmasının qarşısını alır.

Müasir nöqteyi-nəzər ondan ibarətdir ki, səmərəli idarə sisteminə malik təşkilatlardabelə münaqişələrin baş verməməsi mümkündür. Bu,təşkilatın məqsədyönlü işi ilə əlaqədardır. Münaqişə hərbir zaman müsbət xarakter daşımır. Bəzi hallarda o, konkret bir insanın tələbatlarının ödənilməsinə və təşkilatın məqsədlərinə və təşkilatın məqsədlərinə nail olunmasına maneə yarada bilər.bəzən kollektiv xoşagəlməz hadisələrin baş verməməsivə münaqişəli şəxsi sakitləşdirmək üçün əvvəlcədən səhv qərar qəbul edərək bir insanın dediyi ilə razılaşmalı olur.

Bir çox hallarda münaqişə fikirlərin fərqlərini üzə çıxarmaqda yaradıcı olur, əlavə məlumatverir, alternativ və problemlərin əksəriyyətini açmağa imkan verir. Bu qərarların qəbul edilməsi prosesini daha da effektli edir, əhaliyə öz fikirlərini söyləməyə və bununla da tələbatlarını ödəməyəimkan verir.

Beləliklə, təşkilati uyğunsuzluqlar münaqişəli vəziyyətlərə və münaqişələrə gətirib çıxarır. Eyni zamanda münaqişələrdən yaxa qurtarmaq istəyir. Həm münaqişələrin özünü, həm də onun yaranma təhlükəsini ayrı-ayrı uyğunsuzluqların ləğv edilmə vasitəsinə çevrilir. Təşkilati münaqişələrin ən azı bir hissəsinin pozitiv rolu bundan ibarətdir [5].

Münaqişələrin əsas mənbəyi formal və qeyri-formal əlaqələr ziddiyyətlər adlanır. Təşkilati münaqişələrin konkret səbəbləri aşağıdakılardan ibarətdir.

1.Əhali tərəfindən işlənib hazırlanması səbəbindən qaydaların qeyri-dəqiqliyi. Münaqişələr təşkilatın işinin effektivliyini azaldır,onun strukturunu pozur.

2.Münaqişə təşkilatlarda konstruktiv rol oynayır və ən yaxşı qərarın qəbul edilməsi, qarşılıqlı nəzarət vəs. məqsədilə yaradıla bilər. Lakin o, əhali arasında münaqişəyə çevrilə bilər və öz səmərəsini itirə bilər.

3.Subyektiv xaraker daşıyan bir sıra səbəblər vardır:

a) Təşkilati-idarəedici funksiyaları yerinə yetirilməsi və ya pozulması ilə əsaslanan nöqsanları;

b) Hüquqi-qanunların, hüquqların, maliyyə qaydalarının yalnız rəhbər tərəfindən deyil, həmdə kollektivin üzvləri tərəfindən də pozulması;

c) Psixoloji-psixoloji uyğunsuzluq, yalnız fikrə əsaslanan neqativ qayda.

Münaqişə nəzəriyyəsi ənənəvi olaraq tərəflərin iddialarının uyğunsuzluğunu münaqişənin universal mənbəyi hesab edir vəonların həyata keçirilməsiimkanları məhduddur.

Konfliktoloq M.Doyç münaqişəsinin gedişatında öz təsirini göstərən aşağıdakı sosial-psixoloji şərtləri qeyd etmişdir:

1.Münaqişədəolan tələblərin xüsusiyyətləri:

Onun cəhd və məqsədləri üzrə sosial imkanları, münaqişə haqqında təsəvvürləri.

2.Tərəflərin münaqişədən əvvəlki münasibətləri: formalaşmış qaydalar, əqidə və ümüdlər, tərəflərin bir-birinin fiziki barəsində təsəvvürləri.

3.Münaqişəyə səbəb olan mərkəzi problem:

Onun yaranmasının miqyası, tezliyi, kəskinliyi,problemin dərk olunması.

4.Münaqişənin gedişatının sosial sahəsi: imkanlar, məhdudiyyətlər, əlverişli şərait, əngəllər və onların münaqişənin tənzimlənməsinə təsiri olur. Münaqişənin tənzimlənməsinin ictimai normalarının vəistifadə formalarının xüsusiyyətləri.

5.Münaqişədə marağı olan müşahidəçilər: onların münaqişədə olan tərəflərlə vəbir-birilə münasibətləri, onların xüsusiyyətləri, münaqişənin gedişatına təsir vasitələri(hədələr).

6.Münaqişədə olan tərəflərin istifadə etdiyi strategiya və taktika: qarşı tərəfin təsəvvürlərinə təsiri, pozitiv və neqativ stimulların tətbiqi (vədlər, mükafatlar, cəza), qərarların qəbul edilməsində aşkarlıq və inam mühüm əhəmiyyət kəsb edir [6, 8].

TƏDQİQAT METODU

Müasir mərhələdə münaqişənin nəticələri iştirakçılar və digər maraqlı tərəflər üçün müxtəlif olur. Bu hər bir tərəf üçün uduş və itgi ola bilər.

Təşkilatlarda münaqişələrin aradan qaldırılması adətən onun mərhələləri qeyd edilir.

Münaqişə dinamikası üç mərhələdən ibarətdir: münaqişədən əvvəlki, münaqişə və münaqişədən sonrakı mərhələ.

Münaqişənin ilkin mərhələsində şəxslər arasında və qrupdaxili münasibətlər sistemində ziddiyyətlərin toplanması və kəskinləşməsi ilə xarakterizə edilir. İlk növbədə bunun səbəbi münaqişədə olanların maraq-

larının kəskin şəkildə fərqlənməsidir. Yaranmış sosial gərginlik normal insani münasibətlərə maneə yaradan və münaqişəli maraqların işgüzar münasibətlərdən şəxsi münasibətlərə keçirilməsinə yardım edən psixoloji maneələri və neqativ tipləri təsdiq edir [4].

Münaqişənin ikinci mərhələsi iki fazaya bölünür:

1. insanlar arasında münasibətlər neqativ emosiyalar, qərəzli "düşmən timsalında". Özünü biruzə verən aşkar düşmənçilik kimi göstərir.
2. tərəflərdən biri münaqişəli ziddiyyəti həll etmək məqsədilə öz rəqibinə qarşı hücuma keçir, lakin bunu aşkar qarşıdurma vasitəsilə edir. Qarşıdurma aşkar və ya gizli təcavüz formasını alır.

Kütləvi münaqişələr zamanı bu tətil, sabotaj, açıq aksiya və s. ola bilər.

Münaqişənin üçüncü mərhələsi bir neçə fazaya malikdir. Bu münaqişənin normalaşdırılması və aradan qaldırılması məsələləri qeyd edilir. Belə hallar zamanı tərəflərdən birinin qələbəsi, digərinin isə ziyana düşmüşdür. Münaqişə subyektləri öz ehtiyatlarını elə bir səviyyədə bitirir ki, özündən asılı olmayaraq kompromis öz aralarında və ya üçüncü tərəfin köməyi ilə danışıqların zərurəti haqda fikrə gəlməlidirlər. Lakin onların arasında bir-birlərinə qarşı edilmiş pisliklər qalır. Stresin neytrallaşdırılması üçün bəzi profilaktik tədbirlər görmək lazımdır [3].

Onu qeyd etmək lazımdır ki, təşkilatda qruplar arasında baş verən menaqişələr dedikdə sənaye müəssisələri nəzərdə tutulur. Belə olduğu halda münaqişə aparan qruplar müəyyən tərzdə təşkil edilmişdir. Bu əsasən qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərmişdir. Belə münaqişələr təşkilatda baş verən qruplar arası toqquşmaları tam olaraq istisna etmir [7].

NƏTİCƏ

Qruplar arasında baş verən münaqişələr məxfi xarakter daşıyır. Belə ki, müəssisə rəhbərliyinin onlara qarşı ədalətsiz davrandığı hesab edilən işçi briqadası qeyri-formal lider ətrafında birləşə bilər.

Belə hallar olur ki, təşkilat daxilində rəqabət aparan qruplar yaranır. Onların mübahisəsinin predmeti rəhbərliyə və qərarların qəbul edilməsi prosesinə təsir edə bilər. Bəzi hallarda belə mübahisələr aşkar qarşıdurmaya gətirib çıxarır [9].

Müasir mərhələdə şəxslə qrup arasında baş verən münaqişə konkret bir şəxs tərəfindən qrup normalarının pozulması misalı üzərində qurulması ola bilər. Belə bir misal göstərək: təhsil alan qrup yoxlama işinə hazırlaşmamışdır. Yalnız bir nəfər tapşırıqların yerinə yetirilməsinə hazır idi. Bu səbəbdən də əla qiymətlə qiymətləndirilmişdir. Bu vəziyyət qrupla şəxs arasında münaqişəyə səbəb ola bilər.

Cəmiyyətdə şəxslər arasında baş verən münaqişə - təşkilatda baş verən ən geniş yayılmış münaqişədir. Şəxslər arasında olan münaqışələr, həm də şəxslərin qarşıdurması kimi də özünü göstərə bilər. Müxtəlif xarakterlərə, baxışlara və dəyərlərə malik insanlar bir-birilə normal münasibətlər saxlaya bilmir.

Təşkilatda baş verən bütün münaqişələr iki növə bölünür: şaquli və maili münaqişələr. Maili münaqişələr əməkdaşların bir-birinin tabeliyində olmadıqları zaman baş verir. Şaquli münaqişələrə təşkilatlarda tez-tez rast gəlinir (tədqiqatlara əsasən 70-80%-ə qədər).

ƏDƏBIYYAT SIYAHISI

20. M.Əliyev.,H.Həmidov.,A.Hüseyinli.«Korporativ idarəetmə» Bakı, 2011.137.s.
21. Abdullayev Z.S. Bağırova Z.Ə. Bazar iqtisadiyyatı şəraitində təsərrüfatçılıq formaları. Bakı, 1995. 93.s.
22. Əliyev Q.İ. «İnvestisiyaların maliyyələşdirilməsi və kreditləşdirilməsi». Бакы. "İqtisad nəşriyyatı. 2009. 161.s.
23. Иванова М.В. Региональная экономика в контексте российского
24. федерализма/М.В. Иванова//Север и рынок: формирование экономического порядка. — 2011. — Т. 2. — № 28. — С. 146-149.
25. David B. Herts "Risk Analysis in Capital Investment", Harvard Business Review, January/February, 1964
26. https://www.justice.gov.az/categories/500
27. http://journal-of-conflictology.uoc.edu/joc/en/index.php/journal-of conflictology/article/view/vol1iss1-vinyamata.html
28. https://rowman.com/ISBN/9781793615060/Conflictology-Systems-Institutions-and-Mechanisms-in-Africa

COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ ELEKTRON KOMMERSİYA VƏ DƏYİŞƏN İSTEHLAKÇI DAVRANIŞLARI

GÜLNAR MƏMMƏDOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
gulnar.mammadovaa@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Çində başlayan və qısa müddətdə bütün dünyaya yayılan Covid-19 virusu 2020-ci ildən etibarən bütün dünyada qlobal sağlamlıq mübarizəsinə səbəb oldu. Bu prosesdə ölkələr həm milli, həm də beynəlxalq səviyyədə müxtəlif tədbirlər görərək, yoluxmaların sayını və ölüm nisbətlərini azaltmağa, pandemiya prosesinin sosial təsirlərini nəzarət altında saxlamağa çalışıblar. Sosial uzaqlaşma, fərdi təcrid və karantin tədbirləri bütün dünyada cəmiyyətlərdə sosial-iqtisadi dəyişikliklərə səbəb olub. Covid-19 pandemiyası ilə onlayn xərclərin artması, e-ticarət də təsir etdi. Tədqiqat əlaqəli sahədə müxtəlif milli və beynəlxalq araşdırmaları araşdıraraq pandemiya prosesi zamanı istehlak təcrübələrinin və e-ticarətin dəyişdirilməsi ilə bağlı hazırlanmış nəzəri məqalədir. Tədqiqatın məqsədi; Müasir istehlak nəzəriyyələrinin qeyri-kafi olduğu Covid-19 pandemiyasında fərdlərin istehlak təcrübələri onlayn xərclərin e-ticarətə təsir etdiyi sahələrlə məşğul olmalıdır. Araşdırma nəticəsində; Pandemiya dövründə ehtiyacından çoxunu götürərək, saxlayaraq, bu yolla özünü təhlükəsiz hiss edərək "ehtiyat" edən istehlakçılar diqqət çəkir. Prosesdən ən çox təsirlənən sektorların başında; Turizm, səyahət, əyləncə mərkəzləri, restoran və kafelər gəlirkən, bazar-ərzaq sektorunda edilən "ehtiyac əsaslı" istehlak xərclərinin əhəmiyyətli dərəcədə artdığı araşdırmalarla üzə çıxıb. Rəqəmsal marketinqin yüksəlişdə olduğu Covid-19 pandemiyasında bir çox sektorda müvəqqəti xidmət kəsilməsi e-ticarət xərclərinin əksinə olaraq reklam investisiyalarının azalmasına səbəb olub.

AÇAR SÖZLƏR: PANDEMIYA, ELEKTRON KOMMERSIYA, ISTEHLAKÇI DAVRANIŞI

GIRIŞ

İlk dəfə 2019-cu ildə Çində başlayan və qısa müddətdə bütün dünyanı təsir altına alan Covid-19 virusundan sonra bütün dünyada qlobal sağlamlıq mübarizəsi başladı. İnsanlar və ölkələr arasında virusun yayılma sürəti yoluxma halları ilə yanaşı ölüm nisbətinin də sürətlə artmasına səbəb olub. Çindəki artım sürəti qısa müddətdə Avropa, Şimali Amerika, Asiya və Cənubi Amerika kimi qitələrdə müşahidə edildi. Xüsusilə ABŞ, İtaliya və İspaniya kimi ölkələrdə yoluxmaların sayı yüksək ölüm nisbətləri ilə müşayiət olunub. Bu prosesdə ölkələrin səhiyyə sahəsində infrastrukturu, iqtisadi vəziyyəti, gördüyü tədbirlər, sanksiya qərarları virusun yayılmasında və müalicə proseslərində çox həlledici olub. Əslində, 2003-cü ildə Çində baş verən SARS epidemiyası təcrübəsinə görə, Covid-19 prosesində Çində görülən tədbirlərlə kütləvi karantinin epidemiya ilə mübarizədə mühüm yer tutduğu bir daha anlaşıldı. və yaşanan halların azalması. Lakin İtaliya və İspaniya başda olmaqla Avropada epidemiyadan ciddi şəkildə təsirlənən ölkələrin kifayət qədər hazırlıqlı olmaması qısa zamanda yayılan virusun yoluxma sayında da özünü göstərdiyini göstərdi (Türkiyə Tibb Birliyi, 2020). Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilk dəfə 11 mart 2020-ci ildə Covid-19 pandemiyasını elan etdi və fəaliyyətə başladı (ÜST, 2020).

Bütün dünyada sosial, mədəni və iqtisadi dəyişikliklərə səbəb olan pandemiya prosesi istehlak praktikalarında və istehlakçı davranışlarında müxtəlif dəyişiklikləri də gətirib. Pandemiya prosesi zamanı komendant saatları və bəzən məcburi karantin tətbiqləri (xüsusilə də xarici təmas hallarında) məhdud ərazilərdə qalan şəxslər üçün onlayn alış-veriş təcrübəsini artırıb. Ona görə də onlayn alış-verişin sürətlə yayıldığı pandemiya dövrü e-ticarət tətbiqlərinin və bu sahəyə qoyulan investisiyaların artmasına təsir göstərib. Tədqiqat çərçivəsində Covid-19 virusundan sonra dünyada və Azərbaycanda dəyişən istehlak təcrübələri, e-ticarət xərcləri və rəqəmsal reklam investisiyaları nəzəri şəkildə müzakirə edilib. Bu araşdırma tipli araşdırmada bu sahədə milli və beynəlxalq araşdırmalar araşdırılmış və pandemiya prosesi zamanı yaşanan dəyişikliklər araşdırılmışdır.

TƏDQIQAT METODU

Sürətlə yayılan Covid-19 virusunun səbəbinin dəqiq bilinməməsi və onun müalicəsi üçün peyvəndin olmaması ölkələrin bu virusla həm milli, həm də beynəlxalq səviyyədə qlobal səviyyədə mübarizə aparmasını zəruri edib. 2020-ci ilin fevral ayında ÜST virusun yayılma sürətini nəzərə alaraq qlobal risk səviyyəsini "yüksək"dən "çox yüksək"ə qaldırıb. 2020-ci ilin mart ayında Avropanı epidemiyanın episentri

elan edən ÜST G20 ölkələrinin liderlərini eyni tarixlərdə Covid-19 pandemiyası ilə bağlı araşdırmalarda əməkdaşlığa dəvət etdi. 2020-ci ilin ilk aylarında bütün dünyada həyat "yeni" qaydalar və "yeni" təcrübələrlə formalaşmağa başladı. Bu prosesdə ölkələr tədricən müəyyən tədbirlər həyata keçirdilər. 2020-ci ilin may məlumatlarına görə, ən çox yoluxma qeydə alınan ölkə; Amerika Birləşmiş Ştatları kimi qeydiyyatdan keçmişdir. Onu İspaniya, İtaliya və İngiltərə kimi Avropa ölkələri izləyib. Əslində əhaliyə görə yoluxma və ölüm sayına görə ən çox ölkə; İspaniya idi. Rusiya, Fransa, Almaniya, Türkiyə, Braziliya və İran ümumi yoluxma sayına görə dünyanın ilk on ölkəsi sırasındadır (Worldometer, 2020).

Qlobal ictimai sağlamlıq problemi olan Covid-19 pandemiya prosesi ölkələr tərəfindən şəhər və rayonlar əsasında həyata keçirilən tədbirlərlə yeni qaydalara əlavə olaraq bəzi məhdudiyyətlər çərçivəsində həyata keçirilib. İlk növbədə ölkələr virusun müxtəlif ölkələrdən beynəlxalq aləmdə "səyahət maneələri" ilə yayılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirib. Təcrübələr şəhər əsaslı karantinlər, festivalların, tədbirlərin, idman yarışlarının təxirə salınması, ölkədaxili səyahətlərin məhdudlaşdırılması, bütün ictimai yerlərdə (restoranlar, ticarət mərkəzləri, əyləncə yerləri) xidmətlərin müvəqqəti dayandırılması, məktəblərin və dini mərkəzlərin bağlanması ilə davam etdi. Həm ənənəvi (televiziya), həm də rəqəmsal əsaslı platformalarda (müxtəlif proqramlar vasitəsilə) distant təhsilin davam etdirilməsi, bank fəaliyyətinin elektron mühitdə davam etdirilməsinin təşviq edilməsi, dövlət və bir çox özəl müəssisələrdə fırlanan iş sistemi, sosiallaşma ehtiyacının internet əsaslı platformaya köçürülməsi ətraf mühit, Covid-19, dünyanın bir çox ölkəsi tərəfindən həyata keçirilən oxşar tədbirlər arasında idi.

Ölkələrin idxal-ixrac sahəsində mövcud nizam-intizamına mənfi təsir göstərən, dünyada bir çox sektorlarda istehsal mexanizminin (zavodlar, iri biznes mərkəzləri və s.) müvəqqəti dayanmasına səbəb olan pandemiya prosesi Azərbaycanda da ciddi təhlükələr yaratmışdır. iqtisadi mənada. Birləşmiş Millətlər Təşkilatının (BMT) 2020-ci il üçün Dünya İqtisadi Vəziyyəti və Gözləntiləri Hesabatında Covid-19 epidemiyasının təsiri ilə qlobal iqtisadiyyatın bu il 3,2 faiz daralacağı proqnozlaşdırılıb. 1930-cu illərdən bu yana ən ciddi daralmanın olacağına diqqət çəkən hesabatda, epidemiya səbəbiylə 2020 və 2021-ci illərdə təxminən 8,5 trilyon dollar itki gözlənildiyi və son 4 ildə əldə edilən qazancların olduğu ifadə edildi. yox olacağı gözlənilir (Birləşmiş Millətlər, 2020). ABŞ-da Covid-19 səbəbiylə iqtisadiyyatda baş verən dalğalanmaların ev təsərrüfatlarının xərclərinə və makroiqtisadi gözləntilərə təsiri ilə bağlı aparılan araşdırmada iştirakçıların təxminən yüzdə 50-si epidemiya səbəbindən gəlirlərini itirdiklərini bildirib. Səyahət və geyim xərcləri ümumi istehlak xərclərində 31 ballıq azalma ilə diqqət çəkərkən, önümüzdəki on iki ayda işsizlik nisbətinin 13 faiz bəndi artacağının gözləndiyi ifadə edildi. Bundan əlavə, araşdırmada yaxın 3-5 ildə daha yüksək işsizlik nisbətlərini gözlədikləri ifadə edilir (Coibion, Gorodnichenko, & Weber, 2020).

Dünyada qısa və uzunmüddətli dövrdə epidemiyadan ən çox təsirlənən sektorlar; turizm, hava yolu idarəçiliyi, əyləncə sektoru, restoran və kafelər, avtomobil sənayesi, enerji sektoru, xüsusilə neft və təbii qaz, kənd təsərrüfatı sektoru, istehlak məhsulları və son olaraq istehsal sənayesi. Epidemiyadan sonra insanların turistik səyahət planlarını ləğv etməsi və ölkələr tərəfindən görülən tədbirlər çərçivəsində uçuşların dayandırılması səbəbindən 2019-cu il məlumatları göstərir ki, dünyanın ümumi ümumi məhsulu birbaşa olaraq 3,3 faizlə 2,9 trilyon dollara bərabərdir. dollara və dolayısı ilə yüzdə 10,4 ilə 9,16 trilyon dollara çatmışdır.USD payı olan turizm sektoru son 20 ilin ən böyük geriləməsini yaşamışdır (Yorlmaz və Kaptan, 2020). Digər tərəfdən, bu prosesdə artan tələbat olan mal və xidmətlər də var. Sürətlə gedən istehlak malları arasında yer alan qida və içkilərə, təmizlik və fərdi qulluq məhsullarına tələbat artıb. Eyni zamanda, bu məhsulların internetdən alınmasının artması e-ticarətin əhəmiyyətini ortaya qoydu (İqtisadi İnkişaf Fondu, 2020).

Covid-19 pandemiya prosesi e-ticarət sahəsində ciddi dəyişikliklərə səbəb oldu və prosesə tez uyğunlaşan brendlər ön plana çıxdı. Mobil tətbiqlərə artan tələblər, internetdə sərf olunan vaxt və gündəlik həyatdakı bütün sosiallaşma proseslərinin rəqəmsal mühitə inteqrasiyası ilə e-ticarət həcmində artım müşahidə edilmişdir.

Pandemiyada dəyişən istehlakçı alışqanlıqları və e-kommersiya

Bioloji varlıq olan insanların həyatlarını davam etdirmələri üçün onların fizioloji ehtiyaclarının ödənilməsi zərurətdir. İstehlak bir məfhum olaraq cəmiyyətlərin sosial, siyasi, mədəni və iqtisadi proseslərinin təsirinə məruz qalmış, keçmişdən bu günə qədər ictimai quruluşun mühüm elementlərindən biridir. Tarixi perspektivdə istehlak məfhumunun mənası müxtəlif nəzəri baxışlara görə müxtəlifləşə və şaxələndirilə bilər, eyni zamanda bir baxış çərçivəsində həmin dövrdən asılı olaraq da fərqlənə bilər. XX əsrin sonlarına doğru Qərb tipli kapitalizmdə rast gəlinən istehlak fenomeninə həm utilitar, həm iqtisadi proses kimi, həm də işarə və simvolların daxil olduğu proses kimi baxmaq olar. Müasir istehlak ideologiyası və sosial və

mədəni təcrübələrdən təsirlənən insanlar istehsal olunan malların göstərici və simvolik dəyərlərindən istifadə etmək istədilər və bu, istehlak və istəklər arasında əlaqəyə səbəb oldu. Beləliklə, kommunikasiya vasitələri və müasir reklam vasitəsi ilə istehlak istəklərinin stimullaşdırılması nəticəsində "istehlak" vasitəsilə öz şəxsiyyətini və həyat məqsədini yaradan insanların sayı artır (Bocock, 2009). İstehlak yerinin gündəlik həyat olduğunu bildirərək (Baudrillard, 2012) gündəlik həyatın təkcə gündəlik hərəkətlərin, sıradanlığın və təkrarların ölçüsü deyil, həm də siyasi, sosial və mədəni ölçülərdə vahid paraksisin bölünməsi olduğunu ifadə etdi. muxtar və mücərrəd ərazi. Buna görə də ictimai praktikada istehlak ideologiyaları; Status, həyat tərzi, sosial sinif kimi göstəricilərə aiddir.

Bütün dünyanı əhatə edən qlobal pandemiya müasir istehlak nəzəriyyələrinin demək olar ki, qeyri-adekvat olduğu bir proses yaradıb. Panikanın yaratdığı bir sıra psixoloji faktorlar və Covid-19 pandemiyası adlandırılan bu prosesdə fizioloji ehtiyaclara çata bilməmə ehtimalı istehlak praktikalarında "ehtiyaclara" əsaslanan yeni bir dövrə işarə edir. Virusun yayılma sürəti və bütün dünyada pandemiya prosesi yeni tətbiqləri, xüsusən də ehtiyat tədbirlərinə qadağaları məcbur etdi. Əhalinin sıx olduğu böyük şəhərlərdə komendant saatının tətbiqi, maskaların və sosial məsafənin məcburi edilməsi görülən tədbirlər sırasındadır. Statistikalar; 25-31 May 2020-ci il tarixləri arasında 18 və daha yuxarı yaşda olan 2137 iştirakçı ilə Almaniya, Böyük Britaniya və Amerikanı əhatə edən araşdırmasında Covid-19 pandemiya prosesi ilə gündəlik həyat təcrübələrindəki dəyişiklikləri belə sadaladı:

Cədvəl 1: COVID-19 pandemiyası dövründə dəyişən yaşam tərzi elementləri

	Azərbaycan	Almaniya	Amerika
Evdə daha çox qalmaq	71%	84%	77%
Əlləri daha çox yumaq	70%	75%	73%
Sosial məsafə	61%	78%	69%
Qoruyucu maska istifadə etmək	52%	20%	66%
Restoran və kafe kimi xalqa açıq yerlərdən qaçınmaq	58%	67%	65%
Daha az alış-verişə getmək	59%	71%	62%
Daha az səyahət etmək	51%	69%	56%
Ailə və dostlarla edilən planları təxirə salmaq	54%	69%	56%
Daha çox online alış-veriş	30%	46%	52%
Daha çox ev təmizləmə	20%	40%	43%
Az nağd istifadə etmək	35%	63%	36%
İctimai nəqliyyatdan qaçınmaq	50%	60%	36%
Müəyyən saatlarda alış-veriş etmək	37%	43%	35%
Evdən işləmək	22%	28%	30%
İdman fəaliyyətində azalma	20%	19%	16%
Yaşam tərzini dəyişdirməmək	5%	2%	5%

Mənbə: Statista, 2020

Tədqiqat nəticəsində pandemiyadan sonra Cədvəl 1-də qeyd olunan üç ölkədə yaşayan şəxslərin gündəlik həyat təcrübələrindəki dəyişiklikləri görmək mümkündür. Həyat tərzində heç bir dəyişiklik etmədiyini bildirən iştirakçıların faizi olduqca aşağıdır (2%-5%). Fərdlərin evdə daha çox vaxt keçirməsi, fərdi izolyasiyaya əhəmiyyət verməsi və gigiyena baxımından daha diqqətli davranması ilə bağlı nəticə çıxarmaq mümkündür. Digər tərəfdən, onlayn alış-verişdə artan nisbətlər diqqət çəkir. Evdə qalma vaxtı artan fərd ehtiyaclarını ödəmək üçün pandemiyadan əvvəlkindən daha çox onlayn alış-verişə üstünlük verir. Ona görə də bu vəziyyət fərdlərin istehlak seçimlərində və satın alma təcrübələrində dəyişiklikdən xəbər verir.

ABŞ-da ev təsərrüfatlarının maliyyə məlumatlarından istifadə edən fərdlərin istehlak təcrübələri ilə epidemiya arasındakı əlaqənin olduğu araşdırmada, hadisələrin sayı artdıqca xərcləmə davranışlarında da müxtəlif dəyişikliklər müşahidə edildi. 26 fevral - 11 mart 2020-ci il tarixləri arasında qida xərcləri və kredit kartı xərclərində yüzdə 50 artım oldu. Bununla birlikdə, virus yayılmağa davam etdikcə, ev təsərrüfatlarının evdə qalma müddəti artdı, mart ayının sonuna doğru restoranlar, hava səyahətləri və ictimai nəqliyyatda kəskin azalma oldu. Bu səbəbdən ümumi xərcləmə meylindəki daralmanın əsas səbəbi olaraq; xidmət sektorunda sosial təcrid və məhdudiyyətlər göstərilir (Baker, Farrokhnia, Meyer, Pagel, & Yannelis, 2020).

Müasir istehlak nəzəriyyələrinin yetərli olmadığı bu dövrdə fərdlər dəyişən satın alma davranışları və istehlak təcrübələri ilə yeni dövrün siqnallarını verirlər. Ərzaq üzərində cəmlənmiş tələblər, lazım olandan

daha çox almaq, saxlamaq və almaqla özünü təhlükəsiz hiss etmək və rahatlıq hissi kimi müxtəlif mənəvi nəticələr yaratmışdır. Xüsusilə qida istehsalında "yerli"nin əhəmiyyətinin artdığı görünür. Epidemiya dövründə ölkələrin sərhədlərinin bağlanması idxal və ixrac həcminə təsir etsə də, istehlakçının yerli məhsula ehtiyacının artmasına səbəb olub. 2020-ci ilin aprel ayında istehlakçı davranışının dəyişdirilməsi sahəsində Amerika, Kanada, İngiltərə, Fransa və Almaniyada 4859 istehlakçının iştirakı ilə aparılan araşdırmada Covid-19-dan sonra dörd fərqli istehlakçı profilinin ortaya çıxdığı ifadə edildi (Rogers & Cosgrove, 2020):

• İstehlakçıların ehtiyat toplaması (35%): Pandemiya zamanı ailələri üçün narahat olan və uzunmüddətli perspektivdə proses haqqında bədbin düşünənlər. Bu istehlakçılar bazar sektorunda ən çox pul xərcləyənlərdir.

• Ehtiyatlı istehlakçılar (27%): Pandemiya prosesindən ən çox əziyyət çəkən və gələcəyə ən bədbin baxan istehlakçılar qrupu. Adətən 45 yaşdan yuxarı olan bu istehlakçılar bütün kateqoriyalar üzrə ən az pul xərcləyənlərdir. İşini müvəqqəti və ya daimi olaraq tərk etməli olan və yalnız "lazım olanı" almağa meylli olan istehlakçıların demək olar ki, dörddə biri, xüsusən də 33 faizi epidemiya dövründən sonra brendlərin onlar üçün daha az əhəmiyyət kəsb etdiyini düşünür.

• Stabil istehlakçılar (26%): İstehlak vərdişlərində ciddi dəyişiklik olmayan, pandemiya dövründən o qədər də təsirlənməyən və ehtiyat yığanlardan narahat olan istehlakçılardır.

• Zəmanətli istehlakçılar (11%): Bu, 18-44 yaş arası və pandemiyadan narahat olan istehlakçı profilidir. "Gələcəyə" nikbin baxan və prosesin öhdəsindən gəlmək mümkün olan bu istehlakçıların yüzdə 42-si aldıqları məhsulların Covid-19-dan sonra əhəmiyyətli dərəcədə dəyişdiyini söyləsələr də, yüzdə 46-sı markaların onlar üçün daha vacib olduğunu söyləyir.

29 mart və 12 aprel 2020-ci il tarixləri arasında Qərbi və Mərkəzi Avropada mağaza sahibi pərakəndə satıcıların onlayn sifarişləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 52 faizdən 76 faizə yüksəldi (Van Deel, 2020). Araşdırmalar göstərir ki, 2020-ci ilin mart ayından etibarən bütün dünyada e-ticarət xərclərində ciddi sürətlənmə var. "Covid-19 Commerce Insight" adlı layihə çərçivəsində Avropa və dünya ölkələrində pandemiya prosesinin elektron ticarətə təsiri araşdırılıb. ABŞ, İngiltərə və Almaniyada xüsusilə mart-may aylarında e-ticarət həcmində 150 faizə yaxınlaşan sürətlənmə müşahidə olunub. Azərbaycanda; İlk halın 11 Martda görülməsindən sonra, xüsusilə aprel ayında e-ticarət həcmində yüzdə 200 artım oldu. May ayının son həftəsində ani bir azalma oldu, lakin e-ticarət xərclərində iyun ayında olduğu kimi yenidən yüzdə 200-ə çatan rəqəmlər diqqət çəkir.

Qrafik 1: Covid-19 Pandemiyasında Elektron Kommersiya Həcmində Dəyişikliklər



Mənbə: Ccinsight, 2020

McKinsey & Company (2020) araşdırma şirkəti tərəfindən 15 mart - 6 aprel 2020-ci il tarixləri arasında qlobal miqyasda aparılan araşdırmada restoranlar, əyləncə mərkəzləri və səyahət sektorlarındakı böhrana diqqət çəkilib. Bununla belə, nəqliyyat sektorlarında ciddi bir daralma olduğu görünür. Ölkə daxilində və şəhərlərarası qadağalardan təsirlənən səyahət və turizm sektoru, epidemiyanın yayılma sürəti və riskləri nəzərə alınaraq daşımalarda şəxsi avtomobillərə üstünlük verilməsinə səbəb olub. Bir çox sektorun rəqəmsal əsaslı iş sisteminə keçməsi və prosesi evdən izləməsi əvvəllər e-ticarətdə əhəmiyyətli bir həcmə malik olan geyim sektorunda bazar payını azaldıb. Evdən işləyən işçilərin rəsmi geyimə ehtiyacı azaldığından bu, istehlak maddəsində də özünü göstərmişdir.

NƏTICƏ

Covid-19 dövründə rəqəmsallaşma prosesini tamamlayan şirkətlərin asanlıqla yeni istehlak sisteminə inteqrasiya olunduğu müşahidə edilib. Evdə olan fərdin internetdən istifadə nisbəti artdı və e-ticarət sektoru həcm baxımından əhəmiyyətli dərəcədə böyüdü. Bundan əlavə, qlobal miqyasda bir çox sektorlar epidemiya dövründə ciddi böhran yaşadıqlarını bildiriblər. Pandemiya dövründə elektron ticarətin yüksəlişinin əsas səbəbləri; rəqəmsal mühitdə məhsulların geniş çeşidi və müqayisə aparmağa imkan verən mühitin strukturu; kampaniya və endirimlərdən yararlanmaq imkanı; zaman və yer kimi məhdudiyyətlərin olmaması; Evdə qalan və ya qalmalı olan şəxs üçün praktiki tətbiq xüsusiyyətləri də onlayn ödəniş rahatlığı kimi qeyd edilə bilər. Bu dövrdə istehlakçının brendə "güvənmə" ehtiyacı çox mühüm hala gəlib. İstehlakçı istehsal, daşınma və çatdırılma proseslərində məhsulun "təmiz" olmasını tələb edir və bunu satınalma fəaliyyətinin meyarı hesab edir. Üstəlik, bu, təkcə qidaya deyil, həm də geyimə (tekstil) və elektronikaya aiddir.

Nielsen Araşdırma Şirkətinin məlumatlarına görə, Covid-19-dan sonra istehlakçıların məcburi evdə qalma prosesləri, milyonlarla insanın evdən işləməyə məcbur edilməsi və gündəlik həyatın bir parçası olaraq rəqəmsallaşma prosesinin sürətləndirilməsi bunlar arasındadır. yeni istehlak təcrübələrinin səbəbləri. Araşdırmalarda istehlakçıların yeni davranışları; ilk dəfə onlayn bazar xərclərini həyata keçirmək, onlayn istifadəni artırmaq və yeni texnoloji alətlərdən və ya proqram təminatından (tətbiqlərdən) istifadə etmək.

Ipsos Qlobal Araşdırma Hesabatında 15 ölkədə cəmi 28 min adamla həyata keçirilən araşdırmada; Bildirilib ki, hər beş nəfərdən dördü evdə özünü təcrid edir və epidemiya zamanı fərdlərin narahatlıq səviyyələri yüksəkdir. 2020-ci ilin aprel ayında hazırlanan hesabatda sosial izolyasiyanın xüsusilə mart ayında pik həddə çatdığı bildirilir. Azərbaycanda virusun açıqlanmasından sonra odekolon, sirkə, makaron, paxlalılar və s. kateqoriyalar əhəmiyyətli dərəcədə artmışdır.

Həm dövlət siyasəti çərçivəsində görülən tədbirlərlə, həm də şüurlu sosial təcrid tədbirləri ilə virusun sürətlə yayılmasının, yaşanan qorxu və narahatlıq səviyyəsinin artmasının qarşısı alınmağa çalışılıb. Araşdırmalar göstərir ki, bu dövrdə evdə qalan fərdlər sağlam qidalanma və içmə vərdişləri inkişaf etdirmiş, xüsusilə qida və içki kateqoriyasında istehlak təcrübələrini artırmış, elektronika kateqoriyasında isə yüksək nisbətdə mətbəx əşyaları almışdır. Görünür ki, istehlakçının qidaya olan ehtiyacı "immuniteti gücləndirmək" və "sağlam olmaq" əsasında formalaşır.

ƏDƏBIYYAT SIYAHISI

29. Baker, R. S., Farrokhnia, R., Meyer, S., Pagel, M., & Yannelis, C. (2020, Nisan). How does household spending respond to an epidemic? Consumption during the 2020 COVID-19 pandemic. National Bureau of Economic Research.(26949).
30. Coibion, O., Gorodnichenko, Y., & Weber, M. (2020, Mayıs). The cost of the Covid-19 crisis: lockdowns, macroeconomic expectations, and consumer spending. NATIONAL BUREAU OF ECONOMIC RESEARCH NBER Working Paper.
31. McKinsey & Company. (2020). A global view of how consumer behavior is changing amid COVID-19. McKinsey & Company. McKinsey & Company
32. Statista. (2020, Mayıs). Thinking about your everyday life, since the COVID-19 / coronavirus pandemic, have you made any changes to your general lifestyle? Statista: https://www.statista.com/statistics/1105960/changes-to-the-generallifestyle-due-to-covid-19-in-selected-countries/
33. WHO, W. H. (2020). Coronavirus disease (COVID-19) situation report https://www.who.int/docs/default-source/coronaviruse/situationreports/20200506covid-19-sitrep-107.pdf?sfvrsn=159c3dc_2
34. Van Deel, M. (2020, May 27). It's time to expand your ecommerce capabilities fast. Capgemini: https://www.capgemini.com/2020/05/its-time-toexpand-your-ecommerce-capabilities-fast/
35. Rogers, K., & Cosgrove, A. (2020, Nisan 16). Future consumer ındex: How COVID-19 is changing consumer behaviors. EY Global: https://www.ey.com/en_gl/consumer-products-retail/how-covid-19-could-changeconsumer-behavior

ŞİRKƏTİN İDARƏ OLUNMASINDA LOGİSTİKA SİSTEMİNİN ƏHƏMİYYƏTİ VƏ ROLU

VÜQAR QARDAŞOV
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər və iqtisadiyyat
vuqarqardasov98@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işində şirkətlərin idarə olunmasında logistika sisteminin əhəmiyyəti və rolundan bəhs olunmuşdur. Müasir dövrdə sürətli inkişaf, şirkətlər arasında rəqabətin artması, müştəri məmnuniyyətinin əldə olunması, məhsulların istehsaldan istehlakçılara ən az xərclə çatdırılmasının təmin olunması baxımından bu mövzunun öyrənilməsi aktualdır. Bu tədqiqat işinin əsas məqsədi şirkətlərin logistika sisteminin əhəmiyyəti və rolunu, eləcə də şirkətlər üçün hansı üstünlüklər təmin etdiyini araşdırmaqdan ibarətdir. Tədqiqat zamanı xarici mənbələrdən istifadə edərək aparılan araşdırmaları tədqiqat işinin elmi yeniliyi olaraq göstərmək olar. Tədqiqat işinin öyrənilməsi şirkətlərin qarşılarına qoyduqları məqsədlərə çatması, logistika sisteminin əhəmiyyətinin öyrənilməsi baxımından praktiki əhəmiyyətə malikdir. Şirkətlərin öz məqsədlərinə çatması üçün lazım olan logistika sisteminin və dilimizdə az təhlil olunmuş məsələlərin araşdırılması tədqiqat işinin üstünlüyü kimi göstərilə bilər. Tədqiqat işinin nəticə hissəsində isə şirkətin idarə olunmasının logistika sisteminin əhəmiyyətindən və rolundan bəhs olunmuş, mövzu ilə bağlı təkliflər irəli sürülmüşdür.

AÇAR SÖZLƏR: Logistika, logistika idarəetməsi, logistika sistemi

GİRİŞ

1. Tədqiqat işində şirkətlərin idarə olunmasında logistika sisteminin rolu və əhəmiyyətindən bəhs olunmuş və eləcə də logistika idarəetməsinin əsas məqsədləri göstərilmişdir. Bu işin əsas məqsədi və vəzifəsi də yuxarıda göstərilən məsələləri təhlil edərək logistika sisteminin əhəmiyyətini, şirkətlər üçün günümüzdə nə dərəcə əhəmiyyətə malik olmasını göstərməkdən ibarətdir. Müasir dövrdə şirkətlərin qarşılarına qoyduqları məqsədlərinə çatması, müştəri məmnuniyyətinin əldə olunması, məhsul və ya xidmətlərin doğru zamanda, doğru məkana və doğru müştəriyə çatdırılmasının az xərclə həyata keçirilməsi baxımından şirkətlərdə logistika sisteminin tətbiqi və onun təkmilləşdirilməsi olduqca aktual və əhəmiyyətli məsələlərdən biri hesab olunur.
2. Şirkətlərin logistika sistemində olan boşluqlar onların öz məqsədlərinə çatmamasına, müştəri məmnuniyyətinin əldə olunmamasına, məhsul və ya xidmətlərin əldə qalıb daha da baha başa gəlməsinə və nəticədə şirkətin fəaliyyətini dayandırmasına səbəb olacaqdır. Bu səbəbdən şirkətlərin idarə olunmasında logistika sisteminin araşdırılaraq öyrənilməsi və onun təkmilləşdirilməsinə çalışılması ehtiyaclı bir hala gəlir. Tədqiqat işində logistika sisteminin şirkətlər üçün əhəmiyyətindən və rolundan bəhs olunmuş, eləcə də onun üstünlükləri, əsas məqsədləri və maliyyə xərcləri göstərilmişdir.
3. Yuxarıda da göstərildiyi kimi araşdırmada şirkətlərin səmərəli fəaliyyəti və qarşılarına qoyduqları məqsədlərə çatması üçün logistika sisteminin əhəmiyyətindən, həmçinin başlıca məqsəd və üstünlüklərindən söz açılmışdır. Son olaraq isə bu araşdırma ilə bağlı nəticə hissəsində bu araşdırmanın şirkətlər baxımından vacibliyi qeyd olunmuş, təkliflər irəli sürülmüşdür.
4. Yazılmış tədqiqat işinin strukturunda xülasə, açar sözlər, giriş, tədqiqat metodu, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı göstərilmişdir. Tədqiqat metodu (əsas hissə) 1 fəsildən ibarətdir. Yazılmış tədqiqat işi ümumən 4 səhifədən ibarətdir.

TƏDQİQAT METODU

Logistika müasir iş dünyasında olduqca vacib bir yerə sahib olan və tarixin dərinliklərindən bu yana istifadə olunan bir anlayışdır. Bu anlayış XX əsrin əvvəllərində daha çox istifadə olunmağa başlamış və 1960-cı illərdə ticarət ədəbiyyatına daxil olmuşdur. Dünyadakı sürətli inkişaf və artan rəqabət istehlakçıların ehtiyaclarını təmin etmək üçün ilkin maddə və materialların, ehtiyatların, məlumatların çıxış nöqtəsindən son istehlak nöqtəsinə qədər səmərəli və xərcləri ən aza endirilmiş bir şəkildə çatdırılması ehtiyacını doğurmuşdur. Bu ehtiyacları qarşılaya biləcək həll yolu logistika anlayışı ətrafında cəmlənmişdir. [1/s.98]

Logistika şirkətlər ilə istehlakçılar arasında məhsul və ya xidmət təqdimatında körpü rolunu oynayır. Buna görə də bir şirkətin məhsul və ya xidmət təqdimatındakı uğuru logistika gücünə bağlıdır və bu baxımdan logistika çox önəmli bir funksiyadır. Müasir dövrdə şirkətlərarası rəqabətin ölçü dəyişdirməsinə paralel olaraq logistikanın rolu artmış və logistik fəaliyyətlər böyük önəm qazanmışdır. İstehlakçıların tələblərinə və gözləntilərinə bağlı olaraq, şirkətlərin istehsal və marketinq xərclərindən qaça bilməmələri logistika fəaliyyətindən dolayı mövcud olan logistika xərclərinə fokuslanmaq məcburiyyətini ortaya çıxarır. Logistika xərcləri ortaya çıxmasına mane oluna bilinməyən, lakin müəyyən qədər azaldıla bilən xərclərdir. Buna rəğmən şirkət idarəçilərinin logistika xərclərinə lazımı diqqəti göstərdiklərini demək doğru olmaz. [2/s.303]

Logistika idarəetməsinin şirkətlər üçün 6 başlıca üstünlüyü vardır. Logistika idarəetməsinin şirkətlərin fəaliyyəti üçün əsas üstünlükləri aşağıdakılardan ibarətdir:

1. Görmə qabiliyyəti: Logistika idarəetməsi təchizat zəncirində daha çox görmə şansı təmin edir. Bu, şirkətlərin xərclərə daha yaxşı nəzarət etməsinə, təchizat zəncirinin problemlərini aşkar etməsinə, tələb planlamasının aparılmasına və imkanlarla bağlı fikir əldə edilməsinə imkan verir.
2. Azaldılmış əlavə xərclər: Logistika idarəetməsi şirkətlərə inventar səviyyələrinə proaktiv şəkildə nəzarət etməklə daşınma xərclərini azaltmaqdan tutmuş, ehtiyac duyduqları anbar həcmini daraltmağa kimi müxtəlif sahələrdə əlavə xərcləri azaltmağa imkan verir.
3. İtkilərin qarşısının alınması: Logistika idarəetməsi itkilərin bir neçə şəkildə qarşısının alınmasına kömək olur. Bununla şirkət hər hansı bir zamanda əlində tam olaraq nə qədər ehtiyat olduğunu bilir. Şirkətlər həmçinin hərəkəti və mövcud məkanı da izləyə bilər, belə ki ehtiyatlar xəbərdar edilmədən yanlış yerləşdirilmir və ya yönləndirilmir. Bundan əlavə, logistika temperatur və rütubətin idarə edilməsi kimi optimal saxlama və daşıma şəraitini təmin etməklə xarab olma və zədələnmənin qarşısını alır.
4. Təkmilləşdirilmiş müştəri təcrübəsi: Müştəri təcrübəsi təkrar satışların arxasında duran əsas amillərdən biridir. Sifarişləri dəqiq və tez çatdırmaqla müştəri təcrübəsini yaxşılaşdırır, müştəri məmnuniyyəti formalaşır, bu da öz növbəsində marka sadiqliyinə və gələcək satışların artmasına gətirib çıxarır.
5. Genişlənməyə dəstək: Tələbin proqnozlaşdırılması inventar ehtiyaclarını real olaraq hesablamaqla və müvafiq olaraq sifariş vermək, göndərmək və ehtiyat saxlamaqla genişlənməni dəstəkləyir. Bundan əlavə, logistika idarəçiliyinin inkişaf etməsi şirkətlərə daha çox müştəri sifarişini vaxtında yerinə yetirmək üçün böyük ölçüdə kömək edir.
6. Rəqabət üstünlüyü: Sifarişlərin doğru və zamanında çatdırılması müştəri təcrübəsində əsas elementdir və yaxşı müştəri təcrübəsi təkrar sifarişlər üçün şirkətə yeni alıcılar cəlb etmək, eləcə də möhkəm marka etibarı üçün bir açardır. [5]

Logistika idarəetməsinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

1. Doğru məhsul: Birinci vəzifə sifariş edilmiş məhsulu sfesifikasiyalara uyğun çatdırmaqdır: rəng, ölçü, marka, miqdar. Məqsəd alıcıların özlərinə və ya vəziyyətlərinə uyğun məhsul əldə edə bilməsini təmin etməkdir.
2. Doğru vəziyyət: Yeni, istifadə edilmiş və ya yenilənmiş müştərilər məhsulun düzgün işləməsini və başqa cür istifadəyə yararlı olmasını gözləyirlər. Buna görə məhsullar göndərilməzdən əvvəl qüsur və zədələrə görə yoxlanılmalıdır, geri göndərmə prosesləri müştərilər üçün sadə və rahat olmalıdır.
3. Doğru məkan: Göndərilən malların düzgün ünvana çatdırılmasını təmin etmək üçün izləmə və nəzarət logistika idarəetməsinin vacib hissəsidir. Heç vaxt alınmayan və dəyişdirilməsi lazım olan bir paket şirkətə iki dəfə baha başa gəlir və müştəri münasibətlərinə xələl gətirir.
4. Doğru zaman: Çox vaxt müştərinin nöqteyi-nəzərindən zaman hər şeydir. İstər ad günü və ya bayram hədiyyəsi sifariş edən istehlakçı olsun, istərsə də öz planını yerinə yetirmək üçün xammala ehtiyacı olan istehsalçı olsun, gecikmələr müştəriyə baha başa gələ bilər və ya artıq ehtiyac olmadığı üçün məhsul geri qaytarıla bilər.
5. Doğru müştəri: Sifariş qarışıqları, ünvan səhvləri və digər uğursuzluqlar müştəriyə hörmətsizlik, detallara diqqət yetirməmək deməkdir. Logistikanı avtomatlaşdıran ERP sistemi səhvləri minimuma endirə və şirkətin təchizat zəncirinin tətbiqini maksimum dərəcədə artıra bilər.
6. Doğru qiymət: Doğru qiymət siyasətinin aparılması müştərilərin etimadının qazanılması baxımından şirkətlər üçün önəmlidir. Tələbat əsasında qiymətlərin (yuxarı və ya aşağı) tənzimlənməsi də vacibdir. Burada müvəffəqiyyətli olmaq üçün şirkətlərin gəlirlilik nisbətləri və vahid marjaları ilə bağlı davamlı fikirlərə ehtiyacı var. [5]

Logistika fəaliyyətləri və rəqabət üstünlükləri

Müəssisələrin oxşar texnologiyalardan istifadə etdikləri dövrdə məqsədə çatmaq üçün logistika fəaliyyətləri artıqlaması ilə ciddiyə alınması lazım olan bir fəaliyyətə çevrilmişdir. Logistika müasir dövrdə müəssisələrin rəqabət üstünlüklərinin ortaya qoyulmasında istifadə olunan ünsürlərdən biri halına gəlmişdir. Müəssisələrin logistika fəaliyyətləri ilə xammalların daşınmalarını, istehsal proseslərini, müştərilərə məhsulların təslimatını həyata keçirmələri əsas məsələdir. Logistika idarəetməsi müəssisələr baxımından vacib olmaqla yanaşı eyni zamanda olduqca böyük xərclərə səbəb olmaqdadır. Sektordan sektora dəyişsə də, ortalama olaraq bir məhsulun satış qiymətinin 4%-20%-ni logistika xərcləri formalaşdırır. Logistika xərcləri nəzərə alındığında müəssisənin səmərəli fəaliyyət göstərməsi üçün logistikanın başlıca önəm daşıdığı görünür. [3/s.7]

Dəyişən müştəri ehtiyacları qarşısında bazardakı rəqib şirkətlərə qarşı davamlı olaraq bir üstünlük əldə etməyin yollarından biri də şirkətlərin logistika fəaliyyətlərindəki uğuruna bağlıdır. Müəssisələrdə effektiv və səmərəli bir logistika sisteminin mövcudluğu effektli bir məhsul hərəkətliliyinin təmin olunması yolu ilə müştərilərə verdiyi zaman və məkan faydası sayəsində müəssisələrə rəqabət üstünlüyü verir.

Uğurlu bir logistika idarəetməsi sayəsində müəssisələr məhsul və ya xidmətləri doğru yerdə və doğru zamanda təqdim edərək mövcud bazar şəraitində rəqabət üstünlüyü əldə edirlər. Bununla yanaşı, həmçinin müştərilərin dəyişən seçimlərinə və meyllərinə cavab vermə sürəti də müştəri məmnuniyyətinə çox təsir edir. Logistika idarəetməsində əsas məqsəd satınalma fəaliyyəti, istehsal prosesi, paylama şəbəkəsi və bazar arasında əlaqə quraraq müştərilərə ən yüksək səviyyədə xidmətin keyfiyyətli və ən az xərclə təqdim olunmasını təmin etməkdir.

Rəqabətdə uğurlu ola bilmək üçün istehsal olunan məhsul və bu məhsul və ya xidmətin istehsal olunması üçün lazım olan proseslərin mükəmməl bir şəkildə yaxşılaşdırılması vacibdir. [4/s.678]

Müasir dövrdə müəssisələrin rəqabət yarışında mövcudluqlarını davam etdirə bilmələri, mövcud olan müştəri portfelini qoruya bilmələri və bazar paylarını artıra bilmələri uğurlu logistika xidməti təqdim etməklə mümkündür. Logistika xidmətinin uğurlu olması da ancaq logistika fəaliyyətlərinin səmərəli və mümkün qədər minimum xərclə həyata keçirilməsinə bağlıdır.

Qlobal iş mühitinin qeyri-sabit quruluşu və davamlı olaraq artan müştərilərin tələblərini nəzərə alaraq müəssisələrin logistika idarəetməsi fəaliyyətlərində səmərəli olmağa məcburdur. Logistika qərarlarının dəstəklənməsi, əlaqəli iş proseslərinin planlanması, nəzarət edilməsi və izlənilməsi isə logistik maliyyə idarəetməsi ilə mümkündür. Logistika xərcləri logistika fəaliyyətlərinin həyata keçirilməsi üçün lazım olan xərclərdir. Digər bir tərifə görə isə logistika xərcləri bir məhsulun tədarük edilməsi üçün səylərdən tutmuş müştəriyə təslim edildiyi ana qədər edilən bütün fəaliyyətlərlə bağlı xərclərdən formalaşır.

Amerika Birləşmiş Ştatlarında aparılan bir tədqiqata görə, logistika xərclərindəki 5%-lik bir azalmanın gəlirlilik üzərindəki təsiri şirkət satışlarının 20% artırılmasından sonra əldə olunacaq gəlirliliyə bərabər və ya daha artıqdır. Türkiyədə aparılan tədqiqatlarda isə müəssisələrin logistika xərcləri arasında böyük xərclər olduğu görülmüşdür. Bəhs edilən araşdırmalar göstərir ki, logistika xərclərinin idarəsi və nəzarəti müəssisələr baxımından nə qədər önəmlidir. [2/s.307]

NƏTİCƏ

Müasir dövrdə logistika fəaliyyətləri müəssisələrin rəqabət səviyyəsini müəyyən edən önəmli ünsürlərdən biri olmağa başlamışdır. Belə ki, müəssisələrarası rəqabətin artıq logistika fəaliyyətlərindəki rəqabətə çevrildiyini söyləmək mümkün hala gəlmişdir. Logistika fəaliyyətlərinin yerinə yetirmiş olduğu funksiyalar yoxlanıldığında və müəssisələr üçün formalaşdırdığı əlavə dəyərləri nəzərə alaraq logistika fəaliyyətlərinin müəssisələr baxımından nə qədər vacib olduğunu daha yaxşı başa düşmək olur. Araşdırma nəticəsində göstərilir ki, logistika sisteminin düzgün qurulması müəssisələrin daha səmərəli fəaliyyət göstərmələrinə, qarşılarına qoyduqları məqsədlərinə çatmalarına, məhsul və ya xidmətin doğru zamanda, doğru yerdə, doğru müştərilərə çatdırılmasını təmin etməklə müştəri məmnuniyyətinin əldə olunmasına, rəqib şirkətlər üzərində rəqabət üstünlüyünün əldə olunmasına səbəb olur. Bu səbəbdən logistika idarəetmə sisteminin düzgün qurulması üçün müəssisələrə bu sahənin mütəxəssislərini cəlb etmək, başqa xarici şirkətlərin bu sahədə sınanmış təcrübələrindən istifadə etmək və ya onlarla əməkdaşlıq etmək, bu sahədə işçilərin təlimlərə göndərilməsini təmin etmək olar.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1. Dr. Yusuf Gümüş. Lojistik faaliyetlerin rekabet stratejileri ve işletme karı ile olan ilişkisi. **(Məqalə).** Dumlupınar Üniversitesi/Türkiye. 2007: 98

2. Nilgün Kayalı, Ayşe Necef Yerli, Gökay Onur. İşletme yönüticilerinin lojistik maliyetlere bakış açılarının değerlendirilmesi. **(Məqalə).** Van Yüzüncü Yıl Üniversitesi/Türkiye. 2020: 303-307

3. Özdemir A., Nalçakan M., Lojistik ilkeleri. **(Məqalə).** Anadolu Üniversitesi/Eskişehir. 2012: 7

4. Sinan Çıkmak. Üretim işletmelerinde lojistik faaliyetlerin rekabet algısı: Düzce ilinde bir araştırma. **(Məqalə).** Düzce Üniversitesi/Türkiye. 2015: 678-679
5. Burcu Nihal Demirci. İşletmeler için lojistik: rolü ve faydaları. https://erphaber.com.tr/isletmeler-icin-lojistik-rolu-ve-faydalari/ **(online məqalə)**

AZƏRBAYCANDA HALAL OTELÇILIYIN INKIŞAF PERSPEKTIVLƏRI

SƏDA SEYIDZADƏ
Bakı Mühəndislik Universiteti
Biznesin təşkili və idarə olunması
Email: sada.seyidzada@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə halal turizm otelləri və ölkəmizdə onların inkişaf perspektivləri təhlil edilmişdir. Halal turizm İslam dininin tələblərinə uyğun restoran, hotel, iaşə və s. obyektlərin qurulmasıdır. Halal turizm bu gün müsəlmanların çoxluq təşkil etdiyi ölkələrdə var və artır. Ölkəmizə daha çox İran və ərəb ölkələrindən turistlərin gəldiyini nəzərə alsaq, halal turizm modelinin yaradılması qaçılmazdır. Ekspertlər də turizmin bu növünün yaradılmasını təqdirəlayiq hesab edirlər. Son illərdə ölkəmizə səfər edən müsəlmanların sayında artımı nəzərə alsaq, Azərbaycanda da bu turizm növünün inkişafı, halal otel və restoranların fəaliyyətə başlaması labüddür.

Açar sözlər: halal turizm, turist, islam, mehmanxana, yerləşdirmə obyektləri

GIRIŞ

Turizm, əvvəlki illərdə olduğu kimi, bu gün də bir çox ölkələr üçün əhəmiyyət kəsb edir, mühüm gəlir mənbəyi olmaqda davam edir. Dünya ölkələri gündən-günə artan turizm gəlirlərindən daha böyük pay almaq üçün bir-biriləri ilə rəqabətdədirlər və dəyişən turizm tendensiyalarını yaxından izləyirlər. Diqqət çəkən yeni və böyük turizmə çevrilən halal turizm formalaşıb. Bu turizm günü-gündən böyüyən mühüm bazara çevrilib. Hər bir turizm müəssisəsi və müsəlman bazarını cəlb etmək istəyən ölkələr müsəlman turistlərin də istirahət edə biləcək obyektləri yaradırlar. Tətildə olan müsəlmanlar qaldıqları yerlərdə dinlərinin tələblərini rahat şəkildə yerinə yetirə bilmək, onlar tətillərini dinlərinin tələb etdiyi kimi keçirməyi gözləyirlər. Bu yeni turizm obyektlərinin reallaşdırılmasına gətirib çıxarır. Müsəlman bazarının diqqətini çəkən ölkələr bu bazara getdikcə daha çox müraciət edirlər. Araşdırmalara görə, müsəlmanlar daha çox Dubay, Kuala-Lumpur, İstanbul və Antalyanı seçirlər. Dünyada 350 halal otel var və bunlardan 160-ı Türkiyədə yerləşir. Azərbaycan son vaxtlar turizmin inkişafına çalışsa da, hələlik bizdə "halal turizm" yoxdur. Mütəxəssislərə görə, ölkədə bu turizm növü yaradılsa, müraciət edənlər olacaq, amma inkişafı sual altındadır.

Tədqiqat metodu: Məqalənin hazırlanmasına ümumiləşdirmə metodundan istifadə edilmişdir.

HALAL TURIZMIN MAHIYYƏTI

Son illərdə populyarlığı artan halal turizm sürətlə ümumi turizm konsepsiyasının bir hissəsinə çevrilir. Bu xidmətlər və məhsullar Halal qida xidməti, kişilər və qadınlar üçün ayrıca hovuzlar, SPA-lar, istirahət və əyləncə zonaları, alkoqolsuz yeməkxanalar, ibadət yerləri, islam qaydalarına uyğun əyləncə və hətta İslam etik qaydalarına uyğun olaraq yalnız qadınlar üçün nəzərdə tutulmuş çimərliklər kimi elementlər daxildir. bu gün müsəlmanların orta təbəqəsi gəlir səviyyələrində artım, səyahət asanlığı və gündəlik səyahət həyatın dəyişməz hissəsi olduğu üçün müsəlmanların üstünlüklərində. Bu tətil rayonlarına doğru dəyişiklik müşahidə olunur. Halal turizm anlayışını təyin etməzdən əvvəl halal anlayışını müəyyənləşdirməkdə fayda var. Halal dinin qaydalarına zidd olmayan, haramın əksi olaraq təyin olunur. Quranda bildirilən məsələlərə uyğun olaraq turizm obyektinin üstünlük verdiyi məhsullar halal məhsul adlanır.

Dünyada "dini turizm" deyilən bir başqa turizm də var ki, bu, halal turizmdən tamamilə fərqlidir: "Dini turizmlə səfər edənlər ildə bir dəfə müxtəlif müqəddəs şəhərlərə, İranın, İraqın şəhərlərinə səfər edirlər. Bu başqa dinlərdə də var. Məsələn dini məqsədlə Romaya, Qüdsə səfərlər təşkil edilir.

Turizm obyektləri insanların müxtəlif məqsədlər üçün yaşadığı bir yerdir. Bu, onların səyahət nəticəsində yaranan bir hərəkətidir. Bu hərəkətlilik getdikləri yerlərdə qonaqlama ehtiyacı yaradır. Bu qonaqlama ehtiyacı müsəlman tətilçilərdə həssaslığa səbəb olur və seçici olmalarına səbəb olur. Müsəlman bazarının sürətli böyüməsi nəticəsində ortaya çıxan yeni turizm konsepsiyası ilə yanaşı, ehtiyacları qarşılayacaq obyektlərdə də ortaya çıxmağa başlamışdır. Bu obyektlərin ən əsası halal otellərdir. Tətildə olan müsəlman turistlərin dini ehtiyaclarını ödəmək istəyi onları ehtiyaclarını rahatlıqla qarşılaya biləcəkləri, ehtiyacları üçün xidmət göstərən yaşayış yerləri axtarmağa vadar etmişdir. Bu çərçivədə müsəlman tətilçilərə xidmət edə biləcək obyektlərə ehtiyac var. Keçən illərdə müsəlman turistlər qarışıq otellərdə qalmaq üçün alternativ təklif edirdisə, bu gün bu vəziyyət müsəlmanların rahat qala biləcəyi obyektlərə keçib. Müasir marketinqin məqsədi istehlakçıya mümkün olan ən yaxşı məmnuniyyəti təmin etməkdir.

HALAL OTELLƏRIN SPESIFIK XÜSUSIYYƏTLƏRI

Halal otellər İslam qaydalarına uyğun dizayn edilmiş, əsas funksiyası mehmanxana anlayışında olduğu kimi yerləşmə ehtiyacını ödəmək olan və bu xidmətlə yanaşı, onların yemək, içmə və əyləncə ehtiyaclarını İslam qayda və inanclarına uyğun qarşılayan obyektlərdir. Belə istirahət mərkəzlərində ilk növbədə məscid olur. Qadınların istirahət etdiyi ərazi ilə kişilərin istirahət etdiyi məkanlar ayrıdır. Yeməklər İslam dininə uyğun hazırlanır. Belə obyektlərdə spirtli içki, eləcə də İslam dininin qəbul etmədiyi heç nə olmur. Yəni insanlar ibadət etdikləri dinin tələblərinə tam uyğun yerdə istirahət edirlər. Bu obyektlərdə İslam dininin qadağan etdiyi yemək və içkilər yoxdur, otaqlar da daxil olmaqla müştərilərin namaz qılmasına köməklik göstərən obyektlər, hovuz, SPA, istirahət zonaları kimi bəzi xidmətlər kişilər və qadınlar üçün ayrıca təklif olunur. Halal turizm obyektləri adi otellər ilə ümumiyyətlə eynidir. Ən əsas fərq otelin İslam prinsiplərinə uyğun qurulmasıdır. Məsələn, Halal turizm obyektlərində İslam dininə zidd olmayan, halal yemək və içki təklif edən mətbəx və digər ehtiyacları ödəyəcək fəaliyyət və xidmətlər olmalıdır. Bundan əlavə, oteldə spirtli içkilər, diskoteka, bar, pub və İslam qaydalarına zidd olan hər hansı əyləncə növü təqdim edilməməlidir. Bundan əlavə, müsəlmanların namazlarını qılmaq üçün qibləni göstərən işarələr olmalıdır. Kişilər üçün kişi işçi, qadınlar üçün isə qonaqların suallarını cavablandıra bilən qadın işçi olmalıdır. Bir sözlə, müsəlman qonaqların qaldıqları müddətdə rahatlıq yaradacaq düzgün mühit, mövzu, memarlıq və digər tənzimləmələrin edilməsi halal turizm obyektlərində əsas tələbdir.

Halal turizm anlayışında xidmət göstərən turizm müəssisələri üç fərqli qrupda araşdırılır:

✓ **Adi otellər:** Alkoqollu məhsullar turizm obyektlərinin təklif etdiyi xidmətlərin heç bir mərhələsində bu kateqoriyaya daxil edilmir.

✓ **Qismən islam otellər:** Bu ərazidəki turizm obyektlərində qida və içki istehsal proseslərində Halal anlayışına önəm verilir, turistlər üçün ibadət yerləri və ərazilər təklif edilir, kişilər və qadınlar üçün ayrı-ayrı fəaliyyətlər keçirilir.

✓ **Tamamilə islami otellər:** Bu müəssisələr xidmət proseslərindən idarəetmə siyasətlərinə, arxitekturadan obyektin dizaynına qədər İslam prinsiplərini nəzərə alaraq xidmət göstərir.

Halal otellərdə təşkil olunacaq fəaliyyətlərlə bağlı şərtlər aşağıdakılardır:

- Oteldəki bütün tualetlər su və bide ilə təchiz olunmalıdır.
- Tualetlər elə yerləşdirilməlidir ki, imkan daxilində insanın önü və ya arxası qibləyə tərəf olmasın.
- Birdən çox qapalı və ya açıq hovuz varsa, kişi və qadın hovuzları bir-birindən müstəqil olmalıdır. Əgər qapalı və ya açıq üzgüçülük hovuzları təkdirsə, kişilərin qadınların növbə ilə istifadə edilməsini və məxfiliyin qorunması şərtlərinin təmin edilməsini təmin etmək üçün tədbirlər görülməlidir. Qadınlar üçün ayrılmış hovuz və günəş vannası yerləri elə qurulmalıdır ki, qapalı olsun və kənardan görünməsin.
- 6 yaşdan yuxarı uşaqlar üçün eynicinsli ayrı-seçkiliyə hörmət edilməlidir.
- Şəxsi yerlərdə (otaqlar, tualetlər, duşlar, hovuzlar, türk hamamları, masaj salonları, paltardəyişmə otaqları və s.) video və səs çəkilişləri aparılmamalıdır.
- Eyni cinsdən olan işçilər qadın və kişilərin ayrıldığı xüsusi yerlərdə xidmət etməli və əks cinsdən olan şəxslərin daxil olmasının qarşısı alınmalıdır. Açarların yalnız aid olduqları otaqları açması təmin edilməli və lazımi tədbirlər görülməlidir.
- Şəxsi həyatı qorumaq üçün otaqlarda səs izolyasiyası təmin edilməlidir.
- Həm qonaqlar, həm də işçilər dekolteli olmayan və İslam ölçülərinə uyğun paltar geyinməlidir.
- Əgər mehmanxana ev heyvanlarını qəbul edirsə, bu heyvanlar üçün xüsusi sahələr və yaxud sığınacaqlar ayrılmalı, heyvanların binanın ətrafında dolaşmasının qarşısını almaq üçün tədbirlər görülməlidir.
- İctimai və ya qapalı yerlərdə bildiriş lövhələri ərəb və ingilis dillərində, habelə obyektin yerləşdiyi ölkənin dilində hazırlanmalıdır. Bunlara əlavə olaraq, arzu olunarsa, obyekt rəhbərliyi tərəfindən başqa dillərdə hazırlanmış lövhələr də ola bilər.

- Ödənişli televiziya verilişlərində İslam əxlaqına zidd verilişlər olmamalıdır. İnternetə çıxışı olan otellərdə "Ailə filtri" tətbiq edilməlidir.
- Təmizləmə və dezinfeksiya prosesləri spirtə əsaslanmamalıdır. Bütün mətbəx alətləri və qabları gigiyenik şəraitə uyğun olaraq müntəzəm olaraq təmizlənməlidir. Kadrlar gigiyena qaydaları ilə bağlı təlim keçməli və öz iş qaydalarını bu şərtlərə uyğun qurmalıdırlar.
- Restoran, kafe və bufetlərdə halal menyular olmalı, yemək və içkilər üçün İslam ölkələrindən gələn müxtəlif məzhəblərdən olan müsəlman müştərilər üçün məzhəb loqoları yerləşdirilməlidir. İslam şərtlərinə görə restoran, kafe, bufet kimi yerlərdə musiqi ifa etmək uyğun deyil.
- Ramazan ayı üçün xüsusi yemək və fəaliyyət proqramları hazırlanmalıdır. Ramazan ayı ərzində müəssisədə iftar və sahur vaxtlarına uyğun xidmət göstərilməlidir. Ancaq oruc tuta bilməyən xəstələr və qocalar üçün lazımi tədbirlər görülməlidir.
- Kazino və kazino kimi yerlər qadağandır. Müəssisədə tətbiq edilməsinə qətiyyən icazə verilmir. Spirtli içkilər və narkotiklər haramdır.

NƏTICƏ

Azərbaycanda halal otellər yoxdur. Düzdür, halal otellər yaratmağa cəhd edirlər. Təbii ki, onların da müştərisi olacaq. Amma geniş şəkildə inkişaf gözlənilmir. Bu işə sərmayə yatıranlar da dinə bağlı insanlar olur. Bu otellərdə qiymətlər həddən artıq baha olur. Orada verilən qidalar xüsusi sifarişlə hazırlandığı üçün, ərzaq məhsulları İslam qaydalarına uyğun alındığı üçün, bu otellərdə istirahət digər otellərdən, təxminən 2 dəfə baha olur. İnsanlar elə başa düşürlər ki, obyektdə içki verilmirsə, o, halaldır. Halallıq təkcə içki verilməməsi ilə olmur. Həm də dildə "halaldır" deməklə olmaz. Gərək bunu dəlillərlə də sübut edəsən. Azərbaycanda "halal turizm" hoteli olmasa da, dindar müştərilərə fərdi qaydada yanaşılır. Elə müştərilər var ki, onlar spirtli içki, donuz əti və digər İslam adətlərinə uyğun olmayan xidmətləri istəmir. Bu zaman mətbəxə və başqa müvafiq bölmələrə xəbər verilir ki, bunlar nəzərə alınsın. Xüsusilə spirtli içkilər yığışdırılır. Amma tamamilə "halal" hotel kimi xidmət göstərilmir. Hazırda ölkəmizdə bu turizm növünə tələb var. Bu sahəni inkişaf etdirmək üçün maarifləndirmə, təbliğat işi aparılmalı, müvafiq hotellərdə işləmək üçün mütəxəssislər hazırlanmalıdır. Bu sahə üzrə ixtisaslaşan turizm şirkətləri fəaliyyət göstərməlidir. Ölkəmizə ilk dəfə gələn turistlər hər bir turistin zövqünə uyğun turizm növünün təşkil olunduğunu görməlidirlər. Biz həm Qərb, həm də Şərqdən gələn insanların arzularına uyğun marşrutlar təklif etmək iqtidarındayıq. Müsəlman ölkələrindən Azərbaycana səfər edən turistlərin sayı getdikcə artır. Odur ki, "halal turizm"in standartlarının yaradılması vacibdir. Bu, müsəlman ölkələrindən gələn turist sayının artmasına səbəb olar. Bir çox ərəb ölkələri ilə sadələşdirilmiş viza sisteminin tətbiqi bu sahədə əvəzsiz rola malikdir.

Məqalənin nəticəsi olaraq deyə bilərik ki, Halal turizmin yaradılması ümumi turizm sektorunda irəliyə atılmış addım olsa da, xidmət sferasının təkmilləşməsi də qarşıda duran prioritetlərdəndir. O mənada ki, xidmət mədəniyyəti də inkişafa dəstək olmalıdır. Yüksək səviyyəli peşəkarlar hansı ölkədən turistlər qəbul edilirsə, o ölkənin əhalisinin istək və arzularını, niyyətlərini nəzərə alaraq ona uyğun marşrutlar təklif etməlidirlər. Hər bir ölkədən gələn turistlər eyni səviyyəli olmur. Məsələn, Pribaltika ölkələrindən gələn turistlər bizim mədəniyyətimizə və tariximizə daha çox önəm verir və ekskursiyalarda iştirak edirlər. Digər ölkələrdən gələn qonaqlar milli mətbəximizə və koloritimizə, adət-ənənələrimizə, sənət nümunələrimizə daha çox diqqət yetirirlər. Onlar ölkəmizdən gedəndə sənətkarlarımızın hazırladığı suvenirləri almağa üstünlük verirlər. Ona görə turistləri daha çox cəlb etmək üçün hər bir ölkənin mentalitetini və psixologiyasını nəzərə alıb onlar üçün marşrutlar və proqramlar təşkil etmək lazımdır. Turizm şirkətləri bu məqamlara diqqət verib qastronomik, şərab turizmi, çimərlik turizmi və s. üzrə proqramlar təşkil etməlidirlər. Halal turizm son dövrlərin turizm trendlərindən biridir. Artıq Türkiyədə booking.com uçuş, hotel bron sisteminin halal turizmə uyğunlaşdırılmış halalbooking.com saytı istifadəyə verilib. Həmçinin, bu yaxınlarda istifadəyə verilən halaltourism.com adlı yeni portal dünya üzrə "halal" hotelləri, restoranları, əyləncə mərkəzləri və s. özündə birləşdirir. İslam ölkələri, müsəlmanları daha çox yaşadığı ölkələrdə bu trend artıq ənənə halını alıb.

ƏDƏBIYYAT SIYAHISI

36. Nedim YÜZBAŞIOĞLU, Pınar ÇELİK ÇAYLAK. "Helal Turizm" (Muhafazakar Dostu), Dekabr 2019: 71-84.
37. Kutay OKTAY, Huseyn PAMUKÇU. "International halal tourism congress", April 2009: 4-14.
38. Orhan BATMAN. "Otel işletmelerinin yönetimi", Yanvar 2015: 214-223.
39. Özgür YAYLA, Hakan ÇETİNER. "Turizm alanında güncel konular ve yaklaşımlar", Fevral 2021: 42-49.
40. Pərvanə İSMAYILOVA, "Turizmin yeni istiqamətləri", https://www.researchgate.net/profile/Parvana-Ismayilova (**online məqalə**)

MALİYYƏ VƏ MÜHASİBAT UÇOTU

XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ KASSA ƏMƏLİYYATLARININ UÇOTU VƏ AUDİTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

AYGÜN ƏLİYEVA
Sumqayıt Dövlət Universiteti
alizadaconi@gmail.com
SUMQAYIT, AZƏRBAYCAN

ZABİT ƏKBƏROV
AKU
zabit.ekberov@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Hər bir müəssisə gündəlik fəaliyyəti ilə əlaqədar olaraq müəyyən miqdarda pul vəsaitini öz kassasında saxlayır. Digər vəsaitləri isə bankdakı hesablaşma hesabı və digər hesablarında saxlayır. Əlbəttə, müəssisə kassasındakı pul vəsaitlərinin hərəkəti müntəzəm olaraq təhlil edilməli, audit yoxlanması həyata keçirilməli və onların qalıq məbləğlərinə nəzarəti təmin edilməlidir. Bu baxımdan tədqiqat işində kassada pul vəsaitlərinin hərəkəti istiqamətlərinin təhlili, kassa əməliyyatlarının uçotunun təşkili və onların yoxlanılmasının auditor prosedurlarının təhlili məsələləri nəzəri-praktiki materiallar əsasında araşdırılmışdır. Həmçinin, xidmət sferası müəssisələrində kassa əməliyyatlarının audit yoxlama nəticələrinin müəyyən edilməsi və tənzimlənməsi, nağd pul vəsaitlərinin uçotunun və kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının təkmilləşdirilməsi istiqamətləri üzrə müvafiq təkliflər verilmişdir.

Açar sözlər: xidmət sferası, kassa əməliyyatları, auditor prosedurları, uçot, nağd pul vəsaitləri

GİRİŞ

Müəssisələrdə təsərüfat vəsaitlərinin düzgün və vaxtında dövriyyəsini təmin etmək üçün tətbiq edilən hesablaşma formasının əhəmiyyəti böyükdür. Hesablaşmaların səmərəli formalarından istifadə olunması mövcud olan təsərüfat fəaliyyətinin fasiləsizliyinin və nağd əməliyyatların işini təmin edir. Mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin əməliyyatlarının qeyri-nağdsız hesablaşma formadasında aparılması müəyyən olunsa da müəyyən alqı-satqı əməliyyatlarının nağd pulla hesablaşması da nəzərdə tutulur. Belə ki, müəssisələrdə hesablaşma əməliyyatlarının faydalı və məqsədəuyğun təşkili pul vəsaitinin nağd əməliyyatlarının aparılması səviyyəsindən çox asılıdır. Məsələyə bu mövqedən yanaşaraq qeyd etmək lazımdır ki, pul vəsaiti nağd hesablaşmaların vaxtında, tam və operativ sənədləşdirilməsinə, pul vəsaitinin hazırda qüvvədə olan qanunçuluğa uyğun olaraq müəyyən olunmuş limit, smeta və fondlar üzrə istifadəsinin təmin edilməsinə, müəyyən edilmiş vaxtlarda pul vəsaitinin, hesablaşmaların vəziyyətinin inventarlaşdırılmasının aparılmasına, kassadakı pul vəsaitinin qalığı və saxlanmasına nəzarətin təmin olunmasına, hesablaşma-ödəmə intizamının gözlənilməsinə, alınmış material dəyərləri və xidmətlər üzrə pul vəsaitinin vaxtında ödənilməsinə xüsusi diqqət verilməlidir. Bu məsələlərin həlli müasir dövrdə aktual olub, elmi-praktiki əhəmiyyət kəsb edərək, xidmət sferası müəssisələrində kassa əməliyyatlarının zəruriliyi və onların uçotunun düzgün təşkili, operativ qiymətləndirilməsi, kassada pul vəsaitlərinin hərəkəti istiqamətlərinin və onların yoxlanılmasının auditor prosedurlarının təhlilinə imkan verə bilər.

Tədqiqat içinin məqsədi xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətində nəzəri və praktiki əhəmiyyətə malik müvafiq tövsiyə və təkliflərin hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin həlli tədqiqatın vəzifəsini təşkil etmişdir:

- müasir bazar iqtisadiyyatı şəraitində xidmət sferası müəssisələrində kassa əməliyyatlarının zəruriliyi və onların uçotunun düzgün təşkilinin müəyyən edilməsi,

❖ xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılmasının qiymətləndirilməsi və auditin aparılmasının təkmil həll variantının tapılması;
❖ kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının konseptual əsaslarının müəyyənləşdirilməsi;
❖ kassada pul vəsaitlərinin hərəkəti istiqamətlərinin təhlili;
❖ kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının təhlili;
❖ xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının təkmilləşdirilməsi üzrə müvaviq təkliflərin işlənib hazırlanması və s.

Aparılmış tədqiqat işinin nəticələrindən və metodikalardan xidmət sferası müəssisələri, firmalar və iqtisadi sahənin digər şirkətlərinin nağd pul vəsaitlərinin uçotu və qiymətləndirilməsi, maliyyə fəaliyyətlərinin təhlilinin aparılmasında istifadə edilə bilər.

TƏDQİQAT METODU

Məlumdur ki, sərbəst bazar iqtisadiyyatı şəraitində müəssisələr təsərrüfat-maliyyə fəaliyyətində nağd pul qalıqlarının saxlanması və həmin pul vəsaiti ilə hesablaşmalar aparmaq üçün kassa əməliyyatlarından istifadə edirlər. Kassa əməliyyatlarının uçotunun əsas vəzifələri kassada pul vəsaitlərinin düzgün saxlanması, kassa və bank əməliyyatları qaydalarına düzgün riayət etmək, pul vəsaitlərinin hərəkətinin mühasibat uçotu registrlərində və sənədlərində düzgün nizama salmaqdan ibarətdir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, pul vəsaitlərinin uçotunun düzgün təşkili müəssisə üçün, onun normal və səmərəli bir şəkildə fəaliyyətini davam etdirməsi üçün olduqca əhəmiyyətlidir.

Müəssisənin kassadakı əməliyyatlarının faydalı və məqsədəuyğun təşkili pul vəsaitləri üzrə əməliyyatların aparılması səviyyəsindən xeyli dərəcədə asılıdır. Kassa əməliyyatlarının mühasibat uçotu qarşısında əsasən aşağıdakı vəzifələr durur[2]:

- nağd hesablaşmaların vaxtında sənədləşdirilməsi və düzgün aparılması;
- mühasibat uçotu yazılışlarında nağd pul vəsaitinin tam və operativ əks olunması;
- pul vəsaitinin hazırda qüvvədə olan qanunçuluğa uyğun olaraq müəyyən olunmuş limit, smeta və fondlar üzrə istifadə olunmasını təmin etmək;
- müəyyən olunmuş vaxtlarda kassada pul vəsaitinin, hesablaşmaların vəziyyətinin inventarlaşdırılmasını aparmaq;
- müəssisə kassasında pul vəsaitinin qalığı və saxlanmasına nəzarətin təmin olunması;
- alınmış material dəyərləri və xidmətləri üzrə pul vəsaitinin vaxtında ödənilməsinə nəzarət etmək və s.

Kassa əməliyyatlarının uçotu

Qeyd edək ki, kassada pul vəsaitlərinin uçotu mühasibat uçotunun ən məsuliyyətli sahəsidir. Çünki onun uçot obyekti pul vəsaitləridir. Kassada pul vəsaitinin qalığı və hərəkətini mühasibat uçotunda əks etdirmək üçün hesablar planında 221 «Kassa» hesabı müəyyən olunmuşdur. Hesab aktivdir, onun debetində müəssisənin kassasına daxil olan pul vəsaitinin, kreditində isə pul vəsaitinin verilməsinin uçotu əks etdirilir [2].

Müəssisələrdə hesablaşma əməliyyatlarının faydalı və məqsədəuyğun təşkili kassa əməliyyatlarının aparılması səviyyəsindən çox asılıdır. Məsələyə bu mövqedən yanaşaraq qeyd etmək lazımdır ki, pul vəsaiti nəğd hesablaşmaların vaxtında, tam və operativ sənədləşdirilməsinə, pul vəsaitinin hazırda qüvvədə olan qanunçuluğa uyğun olaraq müəyyən ounmuş limit, smeta və fondlar üzrə istifadəsinin təmin edilməsinə, müəyyən olunmuş vaxtlarda pul vəsaitinin, hesablaşmaların vəziyyətinin inventarlaşdırılmasının aparılmasına, müəssisə kassasında pul vəsaitinin qalığı və saxlanmasına nəzarətin təmin olunmasına, hesablaşma-ödəmə intizamının gözlənilməsinə, alınmış material dəyərləri və xidmətlər üzrə pul vəsaitinin vaxtında ödənilməsinə xüsusi diqqət verilməlidir.

Təbii ki, müəssisələr nağd pulları ancaq öz təyinatı üzrə xərcləməlidirlər. Çeklə bankdan alınan pul vəsaitləri (məsələn, əmək haqqına, məzuniyyətə, pensiyaya, ezamiyyəyə, xırda təsərrüfat ehtiyaclarına, maddi həvəsləndirmə fondu hesabına mükafatlandırmaya və i.a.) ancaq öz təyinatına sərf edilməlidir [5]. Pul vəsaitlərinin öz təyinatına sərf edilməsi müəssisələrdə aparılan təftiş işləri, planlı və qəflətən inventarizasiya vasitəsilə də həyata keçirilir. Ən başlıcası isə ondan ibarətdir ki, müəssisələrdə gündəlik kassa hesabatının təşkili də pul vəsaitinin öz təyinatı üzrə xərclənməsinə yaxından köməklik edir. Pul vəsaitinin sərf edilməsi üzrə maliyyə intizamına ciddi əməl edilir. Kassa sənədlərində hər hansı bir səhf etmə və ya qaralama etmə qadağandır. Hər hansı bir səhf yazılış olduğu halda həmin vərəqənin üzərində ləğv edilir sözləri yazılır və digər səhifələrlə birlikdə saxlanılır. Ümumən kassada olan vəsaitə baş mühasibin nəzarəti əsasında xəzinədar məsuliyyət daşıyır.

Hesab edirik ki, nağd pul vəsaiti əməliyyatlarının mühasibat uçotu qarşısında əsasən nağd hesablaşmaların vaxtında sənədləşdirilməsi və düzgün aparılması, mühasibat uçotu yazılışlarında nağd pul vəsaiti üzrə hesablaşmaların tam və operativ əks etdirilməsi, pul vəsaitinin hazırda qüvvədə olan qanunçuluğa uyğun olaraq müəyyən olunmuş limit, smeta və fondlar üzrə istifadə olunmasını təmin etmək, müəyyən olunmuş vaxtlarda nağd pul vəsaiti üzrə hesablaşmaların vəziyyətinin inventarlaşdırılmasını aparmaq, vaxtı keçmiş debitor və kreditor borclarının əmələ gəlməsinin qarşısını almaq, müəssisə kassasında pul vəsaitinin qalığı və saxlanmasına nəzarətin təmin olunması, hesablaşma–ödəmə intizamının gözlənilməsi, alınmış material qiymətliləri və xidmətlər üzrə pul vəsaitinin vaxtında ödənilməsinə nəzarət etmək vəzifələri qoyur [4] ki, bu sahədə auditin həyata keçirilməsi əsas şərt hesab edilir.

Kassa əməliyyatlarının uçotu ilə əlaqədar mühasibat hesablarının əks etdirilməsinə aşağıda qeyd edilən bir neçə nümunəni göstərmək olar [3,4,5,6]:

Satılmış məhsullara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə kassaya pul vəsaiti daxil olmuşdur.

D-t 221 "Kassa"
K-t 171 "Alıcıların və sifarişçilərin uzunmüddətli debitor borcları"
K-t 211 "Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları"

Hesablaşma hesabından yaxud valyuta hesabından pul mədaxil edilmişdir:

D-t 221 "Kassa"
K-t 223 "Bank hesablaşma hesabları"

Yolda olan pul vəsaitləri kassaya ödənilmişdir:

D-t 221 "Kassa"
K-t 222 "Yolda olan pul köçürmələri"

Avans alınmışdır:

D-t 221 "Kassa"
K-t 443 "Alınmış uzunmüddətli avanslar"
K-t 543 "Alınmış qısamüddətli avanslar"

İcarəyə verilmiş əsas vəsaitlərə icarə haqqı daxil olmuşdur**:**

D-t 221 "Kassa"
K-t 174 "İcarə üzrə uzunmüddətli debitor borcları"
K-t 214 "İcarə üzrə qısamüddətli debitor borcları"

İşçilər tərəfindən alınan borclar qaytarılmışdır:

D-t 221 "Kassa"
K-t 173 "Əsas idarəetmə heyətinin uzunmüddəli debitor borcları"

Gələcək dövrün hesabına nağd ödənişlər kassaya alınmışdır:

D-t 221 "Kassa"
K-t 442 "Gələcək hesabat dövrünün gəlirləri"

Kassada saxlanılan xarici valyutanın məzənnəsi artmışdır:

D-t 221 "Kassa"
K-t 332 "Məzənnə fərqləri üzrə ehtiyat"

Kassada saxlanılan xarici valyutanın məzənnəsi azalmışdır:

D-t 332 "Məzənnə fərqləri üzrə ehtiyat"
K-t 221 "Kassa"

Əmək haqqı üzrə borclar ödənilmişdir:

D-t 533 "Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar"
K-t 221 "Kassa"

Təhtəlhesab şəxslərə avans verilmişdir:

D-t 244 "Təhtəlhesab məbləğlər"
K-t 221 "Kassa"

İşçilərə maddi kömək göstərilmişdir:

D-t 341 "Hesabat dövrünün xalis mənfəəti"
K-t 221 "Kassa"

İnventarlaşma zamanı kassada əksik gələn pul kassirin əmək haqqından tutulmuşdur:

D-t 533 "Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar"
K-t 221 "Kassa"

Torpaq, tikili və avadanlıqların satışından vəsait daxil olmuşdur:

D-t 221 "Kassa"

K-t 601 "Satış"
Törəmə müəssisələrdən daxil olmuşdur:
D-t 221 "Kassa"
K-t 212 "Törəmə (asılı) müəssisələrin qısamüddətli debitor borcları"
İşçilər tərəfindən müəssisəyə dəyən zərər ödənilmişdir:
D-t 221 "Kassa"
K-t 173 "Əsas idarəetmə heyətinin uzunmüddətli debitor borcları"
Bankın xidmət haqqı ödənilmişdir:
D-t 202 "İstehsal məsrəfləri"
D-t 721 "İnzibati xərclər"
K-t 221 "Kassa"
Kommersiya xərcləri ödənilmişdir:
D-t 711 "Kommersiya xərcləri"
K-t 221 "Kassa"
Digər müəssisələrə avans verilmişdir:
D-t 192 "Verilmiş uzunmüddətli avanslar"
D-t 243 "Verilmiş qısamüddətli avanslar"
K-t 221 "Kassa"
Kommunal xərclər ödənilmişdir:
D-t 538 "Digər qısamüddətli kreditor borcları"
K-t 221 "Kassa"

Kassa əməliyyatlarının auditinin qiymətləndirilməsi

Kassa əməliyyatlarının auditi zamanı hansı sübutların toplanacağını auditorun özü müəyyən edir. Bu, kassa əməliyyatlarına daxili nəzarət riskinin qiymətləndirilməsi, auditor ümumi kassa hesabatları üzrə riskin səviyyəsinin xüsusiyyətini qiymətləndirilməsi, yoxlanılan məlumatların dəqiqliyi, məlumatların alınma mənbələri və onların etibarlılıq dərəcəsi ola bilər. Kassa əməliyyatlarının yoxlanılmasında tətbiq edilən auditor sübutlarının toplanmasından çox şey asılıdır. Belə ki, auditor sübutları toplandıqdan sonra kassa əməliyyatları auditinin necə aparılmasına qərar verilir. Auditor ilk növbədə xəzinədarın kimliyini (yaşı, təhsilini) kassa hesabatlarının kim tərəfindən qəbul edildiyini və işləndiyini, onların nömrələnməsi sistemini, kassa kitabını, kassa orderlərinin qeydiyyatı jurnalını və daxil olmuş vəsaitdən təyinatı üzrə istifadə olunmasını yoxlayır [3]. Eyni zamanda kassa orderlərinin xəzinədarlığa təqdim edilməsi qaydası, kassa limitinin mövcudluğu və ona riayət edilməsi, kassa orderlərində bütün rekvizitlərin doldurulması, kassa hesabatlarının işlənməsi texnologiyası yoxlamanın obyektlərinə daxildir. Auditor həmçinin, onun kimin qarşısında hesabat verdiyini, yerinə yetirdiyi işlərə kimin nəzarət etməsini, xəzinədarla maddi məsuliyyət haqqında müqavilənin mövcudluğunu, xəzinənin mövcud şəraitinin bütün tələblərə cavab verməsini, yoxlanılan dövr üçün kassa kitablarının bütün nüsxələrinin mövcudluğunu yoxlayır. Audit prosesində kassa əməliyyatları üzrə xəzinədarın hesabatlarının mədaxil-məxaric sənədlərinə, hesablaşma-ödəmə cədvəllərinə uyğunluğu və onların tərtib edilməsi də yoxlanılır.

Kassa əməliyyatlarının auditinin aparılması gedişatında bankdan və ya digər motivlər üzrə alınmış nağd pulun mədaxil edilməsinin tamlığı, kassa kitablarında yazılışların bank çıxarışlarında göstərilən məbləğlərə uyğunluğu, xəzinəyə daxil olan bütün pul vəsaitlərinin əsaslı olması da yoxlanılmalıdır. Əgər kassa kitabı üzrə kassa qalıqları böyük məbləğ təşkil edirsə, uzun müddət azalmırsa, gündəlik daxilolma və istifadəsindən çoxdursa, müəssisə rəhbərliyinə dərhal kassanın inventarizasiyasının aparılması təklif olunmalıdır.

Yoxlanılan dövrün hər gün üçün bank tərəfindən təyin olunmuş kassa qalıqları limitinin gözlənilməsi, pul gəlirlərinin təhvil verilməsi müddəti və qaydası yoxlanılır. Qalıqların daima limitdən artıq olması müşayət olunduqda bunun səbəbləri müəyyən edilir və müvafiq tədbir görülür. Xəzinədən bütün nağd pul buraxılışı və onların hüquqi əsası yoxlanılır. Bütün kassa məxaric orderlərində şəxsiyyət vəsiqəsinin məlumatları olmalıdır. Kassa orderlərinin təkrar nüsxəsinin, düzəlişlərin, pozuntuların, ödəmə cədvəllərində baş mühasibin qeydi olmayan düzəlişlərin mövcudluğu, rekvizitlərin doldurulması yoxlanılır. Kassa orderlərinin məlumatlarının qruplaşdırıcı cədvəllərin (jurnal-orderin, qalıq-dövriyyə cədvəllərinin, memorial-orderin və b.), baş kitabın və hesabat balansında qalıq məlumatlarına uyğunluğu yoxlanılır [1].

Audit yoxlama nəticələri sənədləşdirildikdən sonra, nəticə göstəriciləri mühasibatlığa təqdim olunur və inventarlaşma siyahısının məlumatları konkret müəyyən tarixə olan uçot göstəriciləri ilə üzləşdirilir (cədvəl).

Cədvəl. Kassa üzrə əməliyyatların balansda, baş kitabda, 1 saylı jurnal orderdə (rüblük) əks olunmuş məbləğə uygunluğunun auditi

Tarix	Dövrün əvvəlinə saldo	Debet dövriyyəsi			Kredit dövriyyəsi			Dövrün sonuna saldo
		Balans üzrə	Baş kitab üzrə	1 №-li jurnal order üzrə	Balans üzrə	Baş kitab üzrə	1 №-li jurnal order üzrə	
01.01.22								
01.04.22								
01.07.22								
01.10.22								
31.12.22								

*Müəllif tərəfindən tərtib edilmişdir.

Qalıqda sənədsiz olaraq müəyyən olunmuş pul vəsaiti artıq məbləğ hesab olunur və müəssisə xeyrinə mədaxil olunur. Burada əsas məqsəd pul vəsaitləri ilə aparılan əməliyyatların mövcud olan qanunvericiliyə uyğunluğu, doğru, düzgün və məqsədəuyğun aparılması və icra olunmuş əməliyyatların mühasibat uçotunda düzgün əks olunmasını müəyyən etməkdən ibarətdir.

NƏTİCƏ

Beləliklə, mövcud qanunvericilik normalarının ikili şərhinin aradan qaldırılmasına yönəldilən daxili reqlamentlərin işlənib hazırlanması vasitəsilə xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılmasında nəticələrin faktorlu təhlilini aparmaq və avtomatlaşdırılmış uçot sistemlərində auditor prosedurlarının nəticələrinin yoxlanılması metodikasını nizamlanmaqla xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılması prosedurlarının təkmilləşdirilməsi əsas şərtdir.

Fikrimizcə, xidmət sferası müəssisələrində kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurlarının aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilməsi zəruridir:

* müəssisələrdə kassa əməliyyatlarının audit yoxlama nəticələrinin müəyyən edilməli;
* kassa əməliyyatlarının yoxlanılmasının auditor prosedurları tənzimlənməli;
* kassa əməliyyatlarının komputerləşdirilməsi məsələləri öz həllini tapmalı;
*nağd pul vəsaitlərinin uçotunun təkmilləşdirilməsi istiqamətləri genişləndirilməli və s.

Hesabat dövründə kassa əməliyyatlarının uçotu və yoxlanılması məsələlərini tənzimləyən normativ-qanunvericilik bazası təkmilləşdirilməlidir. Bu məqsədlə dövlət səviyyəsində normativ-hüquqi bazanın ümumi məxrəcə gətirilməsi ilə bağlı məsələlərin həlli üçün hüquqi tənzimləmənin aparılması lazımdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası. (2012-2020-ci illər). Bakı-2013.68 səh.
2. “Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları”. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Q-01 saylı 30.01.2017-ci il tarixli qərarı.
3. Əliyeva A.H. Mühasibat uçotu. Dərs vəsaiti. “Elm və təhsil” nəşriyyatı. Bakı/Azərbaycan. 2016:1-256
4. Sadıqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. “Mühasibat uçotu”. Dərs vəsaiti.“Təhsil İşçisi Mətbəəsi” MMC. Bakı/Azərbaycan. 2012: 1-688
5. Səbzəliyev S.M., Abbasov Q.Ə. Xidmət sahələrində mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti.“Təknur” nəşriyyatı. Bakı/Azərbaycan. 2015:1-384
6. Kərimov A.R.“Mühasibat uçotu və vergilər”.Nəzəri-paktik vəsait.Ozan nəşriyyatı.Bakı/Azərbaycan.2018:1-465

HESABLAŞMALARIN RƏQƏMSALLAŞDIRILMASI ZAMANI NEQATIV HALLARIN ARADAN QALDIRILMASI VƏ NƏZARƏTIN DÜZGÜN QURULMASI

SƏRDAR MƏTLƏB oğlu HÜMBƏTOV
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
İqtisadiyyat və idarəetmə/Maliyyə menecmenti
shumbetov1@std.beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Tədqiqatın aktuallığı: 2015-ci ildə baş verən milli pul vahidimizin devalvasiyası maliyyə-bank sistemimizi və bilasvasitə iqtisadiyyatımızı ciddi böhranla üz-üzə qoymuşdur. Xüsusən həmin dövrdəki zərurəti nəzərə alsaq, ödəniş sisteminin nağdsız formada təkmilləşdirilməsi cəmiyyət üçün şəffaf maliyyə bazasının yaradılması üçün vacib məsələdir.

Tədqiqatın əsas məqsədi: Tədqiqatın əsas məqsədi ölkə səviyyəsində rəqəmsal hesablaşmaların miqyasının artırılması və nağd pul dövriyyəsinin aradan qaldırılmasıdır .

Elmi yenilik: Mövzunun müasir səviyyədə ən son məlumatlar (əsasən 2021 və 2022 ci illərin) əsasında araşdırılması onun elm sahəsində yeniliyidir.

Praktik əhəmiyyəti , üstünlükləri : Nağd pul dövriyyəsinin əhəmiyyətli həddə üstünlük təşkil etməsi bir sıra struktur problemlərin , o cümlədən şəffaflığın və maliyyə dayanıqlılığının pozulması və ticarət əməliyyatlarının qeyri-mütəşəkkil şəkildə aparılması və bu kimi digər problemlərə gətirib çıxarır ki ,rəqəmsal hesablaşmaların miqyasının artması bunuların qarşısını əhəmiyyətli dərəcdə alır.

Nəticə: Əldə olunan nəticələr rəqəmsallaşmanı inkişaf elətdirəcək ki nəticədə bir çox problemlər öz həllini tapacaq.

The devaluation of our national currency, which took place in 2015, put our financial and banking system and, indirectly, our economy in serious crisis. Especially in view of the need of that period, the improvement of the payment system in a non-cash form is important for the creation of a transparent financial base for society.

The main purpose of the study is to increase the scale of digital payments at the national level and eliminate cash turnover.

The research of the topic on the basis of the latest data (mainly 2021 and 2022) at the modern level is its novelty in the field of science.

The significant predominance of cash flows leads to a number of structural problems, including breaches of transparency and financial stability, and the disorganized conduct of trade, which in turn leads to a number of other problems.

The results will promote the development of digitalization, which will solve many problems.

Açar sözlər: Nağsız hesablaşmalar -1, rəqəmsallaşma -2,nağdsız pul -3 , maliyyə- kredit sistemi-4,rəqəmsal keçid -5 ,müasir dövr -6

GİRİŞ

İşin aktuallığı:Beynəlxalq səviyyədə ölkənin iqtisadi inkişafının qiymətləndirilməsi zamanı nağdsız pul dövriyyəsinin miqyası da önəmli faktorlardan biri sayılır. Bunun əsas səbəbi isə odur ki, iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş ölkələr həm hökumət, həm də əhali olaraq sistemli bir pul-maliyyə mexanizminin onların ictimai rifahı və ödəmələrinin şəffaf və risk baxımından daha az təhlükədə olduğunun fərqində və inkişafını dəstəkləməkdədirlər.

Tədqiqat işinə olan ehtiyac: Mövzunun araşdırılmasında əsas ehtiyyac heablaşmaların daha asan , sürətli və şəffaf şəkildə olmasıdır.Buna görə də mövzunu müassir səviyyədə araşdırmaq vacibdir.

Tədqiqatın əsas məqsədi: Nağd pulun miqyasının böyük olması ayrı-ayrı iqtisadi subyektləri investisiya və kredit imkanlarından məhrum edir , bankların əsas funksiyalarından biri olan maliyyə vasitəçiliyini yekun xeyli dərəcədə məhdudlaşdırır.

Tədqiqatın strukturu:İki dildə xülasə, giriş , əsas hissə , tədqiqat metodu ,nəticə və təkliflər və ədəbiyyat siyahısından təşkil olunmuşdur.

Azərbaycanda nağdsız ödənişlərin hazırki vəziyyəti

Son otuz ildə Azərbaycan Respublikası iki vacib keçid yaşayır: bazar iqtisadiyyatına keçid və rəqəmsal keçid.Bazar iqtisadiyyatına keçid təqribən 50% elimlə bağlı idisə,rəqəmsal keçid tamamilə elimdir,elimin məhsuludur.

Ölkəmizdə nağdsız hesablaşmalar son illərdə yaranıb və hazırda özünün inkişaf mərhələsini yaşayır. Dünyada baş verən qlobal proseslərə baxsaq, nağdsız pul dövriyyəsinin əsasını iqtisadiyyatın dinamik inkişafını yüksək həddə dəstəkləyə bilmək üçün araşdırmaq zəruridir.

Nağdsız ödənişlərlə bağlı başlıca problemlər

Ölkəmizdə maliyyə-kredit sistemində nağdsız ödənişlər çox da yüksək inkişaf etməyib.Bunun başlıca səbəbi ondadır ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan orta və kiçik hüquqi şəxslər , həmçinin fiziki şəxslər daha cox nağd əməliyyatlara üstünlük verirlər.Əhalinin böyük hissəsinin nagdız ödənişlərdən istifadə etməməsinin əsas səbəbi isə bu sahədə insanların kifayət qədər məlumatlı olmaması , maliyyə savadlılığının aşağı olması, həmcinin tələb olunan infrastukturun hələdə qurulmamış olmasıdır .Digər məhdudiyyət isə insanların gündəlik istifadə etdiyi ənənəvi üsullardan imtina edib ödənişləri nağdsız qaydada etməsi üçün stimullaşşdırıcı səbəblər kifayət etmir.Yəniki, gündəlik ticarətini nağd olaraq həyata keçirməyə adət etmiş şəxsin adət etdiyi üsuldan imtina edib ödənişlərini nağdsız qaydada həyata keçirməsinə səbəb olacaq maraqları olmalıdır.

Ölkəmizdə iri müəssisələrin böyük əksəriyyəti artıq nagdsız hesablaşmalar sistemindən istifadə etməkdədir.Amma burada dövr edən məbləğlər ümumi maliyyə sektorunun bir hissəsini təşkil edir. Günümüzdə ölkə iqtisadiyyatının sütunlarından hesabolunan ticarət və xidmət sahələrində hələdə nağd ödənişlər geniş istifadə olunur. Buna görə də Azərbaycanda nağdsız pul dövriyyəsinin ölkə iqtisadiyyatındakı xüsusi çəkisini artırmaq məqsədilə kompleks şəkildə tədbirlərin hazırlanıb həyata keçirilməsi zəruridir.

Nağdsız ödənişlərlə bağlı problemlərin həllinə kömək

Banklar həmçinin digər maliyyə təşkilatlarının nağdsız hesablaşma sistemində texniki və marifləndirmə məsələlərini həll etməlidir o cümlədən dövlət qanunvercilik bazasında bu istiqamətdə dəyişikliklərin edilməsiylə bağlı işlər aparmalıdır.Əgər kifayət edən hüquqi baza çərçivəsində məhdudlaşdırma və sitimullaşdırıcı tədbirlərdən istifadə etsək, həmçinin əhalinin marifləndirilməsi üçün addımlar atsaq nağdsız hesablaşmalar sistemini ölkəmizdə kifayət qədər inkişaf etdirə bilərik .Bu istiqamətdə atılan addımlardan ən vacibi dünya praktikasındada tez-tez rastlaşdığımız məhdudlaşdırma prinsipidirki ,burada nağdlaşdırma limitini keçən istifadəçilər müvafiq qaydalara uyğun olaraq cərimələnir.Birsözlə inzibati cəzalar tətbiq etməklə ödənişləri tamamilə nağdsız sferaya keçirilməsini təbliğ etmək olar . Başqa bir alternativ isə cəza yox , həvəsləndirmə etiva edir ki, burda əsas məqsəd müəyyən güzəşt metodlarının seçilib tətbiq edilməsidir.Yəni ki, bu sahədə güzəştləri əhatə edən stimullaşdırıcı vergi islahatlarının aparılması nəticə verəcək tədbirlərdən sayıla bilər.

Siravi vətəndaşı bu sistemə hər-hansı məhdudlaşdırıcı və ya cəza sistemi ilə cəlb etmək mümkün deyildir. Yəni ki, siravi vətəndaşlarda əsas üstünlüyü stimullaşdırıcı islahatlara vermək lazımdır. Məsələn, plastik kartların müştərilərə daha ucuz təqdim edilməsi, kart sahiblərinin uduşlu, mükafatlı həvəsləndirici kompaniyalara cəlb edilməsi, dövrlər üzrə kartla edilmiş ödənişlərə görə yığılmış faizlərin müştərilərə qaytarılması kommersiya bankları tərəfindən tətbiq olunan və müəyyən qədər nəticə göstərən tədbirlərdən sayılır. Bucür sitimullaşdırıcı tədbirlərin kütləviləşdirilməsi və imkanlarının artırılması isə arzuolunan haldır.

TƏDQİQAT METODU

Əhalinin müasir dövrdə nağdsız dövriyyəyə münasibəti onlayn sorğu vasitəsilə qiymətləndirilmiş və tədqiqatda nəticələrdən istifadə edilmişdir. Sorğunun əsas məqsədi insanların nağdsız ödəniş alətlərinə münasibətini müxtəlif aspektlərdən qiymətləndirməkdir.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Son illər ödəniş sistemlərində nəzərə çarpacaq inkişafın əsas səbəbləri hökumət qurumlarının və ayrı-ayrı iqtisadi subyektlər qismində çıxış edən tərəflərin yenilənmiş nağdsız hesablaşmalar sisteminə cəlb olunması ilə əlaqədardır. Lakin nağdsız dövriyyənin həcminin artırılması və bu sahədəkə effektivliyin yüksəldilməsi məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlərin artırılmasının vacib olduğunu da qeyd etməliyik:

1. Bank sistemində inhisarın aradan qaldırılması
2. Bank,maliyyə və valyuta məhdudiyyətlərinin aradan qaldırılması
3. Nağdsız hesablaşma sahəsində hüquqi və institusional bazanın gücləndirilməsi
4. İnzibati cərimələrin, vergi və gömrük rüsumlarının ödənilməsində nağdsız hesablaşma

infrastrukturunun genişləndirilməsi, bu sahədə nağd dövriyyənin məhdudlaşdırılması.
5. PIN kodun dələduzlar tərəfindən öyrənilməməsi üçün klaviatura üzərində yalnız istifadəçi şəxsin görmə imkanı olan sistem yaradılması.
6. Nağdsız ödənişlər sahəsində baş verən fırıldaqçılıq hallarının ciddi şəkildə araşdırılması və tələb olunan təhlükəsizlik infrastrukturunun qurulması.
7. Aparılan işlərin regionlara da tətbiqinin genişləndirilməsi. Məsələyə ölkə səviyyəsində yanaşılması.
8. Nağdsız ödəniş alətlərindən istifadəsinin genişləndirilməsi üçün situmullaşdırıcı tədbirlərdən istifadə edilməsi.
9. Və ən vacib məsələlərdən biri olan əhalinin maliyyə sahəsində savadlılığını artılıması.

Əgər bu istiqamətdə kifayət qədər səmərəli işlər görülərsə, nağdsız pul kütləsi artacaq.Birsözlə nağd pul kütləsinin məhdudlaşması nəticəsinə bank sistemindən kənardakı dövriyyə azalacaq. Bunun nəticəsində ödənişlərin şəffaflığı və iqtisadiyyatda investisiya imkanlarının genişlənəcək. Ölkə də maliyyə xidmətlərinin təhlükəsiz və yüksək səviyyədə olmasını təmin edəcək. Şəffaf ödəniş sistemi üstündə qurulan maliyyə-kredit sistemi güclüdür. Burada yayınmalar və artıq ödəmə, fırıldaqçılıq kimi risklər azalacaq.
Rəqəmsal keçid bütün korrupsiya,rüşvət elementlərini tamamilə aradan qaldırılmasını nəzərdə tutur.Nağd hesablaşmalar , nağd pul insanların üzbə-üz təmasları aradan qaldırılır, bütün əməliyyatlar şəffaflaşır , ödəmələr hesabdan hesaba keçir və daim qeydiyyatda qalır.

ƏDƏBİYYAT SİYAHISI

1. Saleh Məmmədov "Rəqəmsal keçid və elmi texnoloji inkişafın sürətləndirilməsi zəruriliyi" (Kitab) Bakı /Azərbaycan. 2021 :1-379
2. Şükürzadə İlkin "Ödəniş sisteminin inkişafında yeni meyllər"(Magistr dissertasiyası) Bakı/Azərbaycan .2015: 1-76
3. Məmmədov Z.F : "Pul,Kredit və banklar"(Dərslik), Azərnəşr, Bakı,2010: 1-325
4. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı https://www.cbar.az/law-11/decree-no-508
5. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyası https://uploads.cbar.az/assets/7095796a70cfdfac360b9a15a.pdf

MALİYYƏ TƏHLİLİNDƏ KOMPÜTER TEXNOLOGİYALARININ TƏTBİQİNİN ZƏRURİLİYİ VƏ PROBLEMLƏRİ

ELAY ZEYNALLI
Azərbaycan Dövlət Aqrar Universiteti
Mühasibat uçotu və audit
elayzeynalli@yahoo.com
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Tezis rəqəmsal iqtisadiyyatın mühüm təzahürlərindən biri olan kompüter texnologiyalarının maliyyə təhlilinə tətbiqinin müxtəlif aspektlər üzrə tədqiqinə həsr olunmuş. Bu məqsədlə hesabatlığın ilk elementi kimi mühasibat uçotunda bu texnologiyaların tətbiqi tarixi, ölkəmizdəki bu sahədə olan vəziyyət və avtomatlaşdırmanın maliyyə təhlilində əhəmiyyəti, tətbiqi məqsədləri öyrənilmişdir. Həmçinin maliyyə təhlilinin avtomatlaşdırılmasının təhlil prosesinə təsiri və problemləri tədqiq olunmuşdur.

AÇAR SÖZLƏR: avtomatlaşdirma, problem, tətbiq imkani

GIRIŞ

XXI əsrdə insan fəaliyyətinin bütün sahələrində olduğu kimi mühasibat uçotunda da kompüter texnologiyalarının nailiyyətlərindən istifadə zəruridir, hətta bir çox hallarda icbaridir. İlk dəfə 1985-ci ildə "Lotus" proqramının tətbiqi ilə başlanılan kompüter texnologiyalarının mühasibat uçotuna tətbiqi özünü avtomatlaşdırma prosesi ilə göstərdi [2], növbəti dövrlərdə daha da inkişaf etdi, mühasibat uçotunun müxtəlif sahələrində innovativ həllərə əsaslanan və müxtəlif miqyaslı müəssisələrdə tətbiq olunma imkanına malik kompüter texnologiyalarının mühasibat uçotu və maliyyə hesabatlılığa tamami ilə inteqrasiya olunmasına gətirib çıxardı. Əlbəttə ki, bu proses özü ilə birlikdə konkret üstünlüklər və

problemləri də formalaşdırır ki, bu da milli iqtisadiyyatın rəqəmsal transformasiyalara uyğunlaşması dövründə adıçəkilən amillərin tədqiqini bir daha aktuallaşdırır

TƏDQIQAT METODU

Azərbaycanda mühasibat uçotunun avtomatlaşdırılması məqsədi ilə istifadə olunan kompüter proqramlarının tətbiqi müstəqilliyimizin ilk illərinə təsadüf edirdi və uçot prinsiplərinin uyğunluğu səbəbi ilə əksəriyyəti Rusiya istehsalı idi [3]. Bu gün, demək olar ki, bütün sahibkarlıq subyektlərində həm yerli ("AzMühasib", "Günəş", "Zirvə", "SERP"), həm də xarici ("1C", "Mikro", "Logo", "Oracle", "SAP") mühasibat uçotu proqramlarına rast gəlmək mümkündür. Sadalanan proqramların tətbiqi nəticəsində uçot prosesində səhvlərin azalması, xeyli zaman tələb edən eyni əməliyyatların daha qısa zamanda və bir komandada icra olunması, dövriyyə cədvəllərinin, baş kitab qeydlərinin avtomatik icrası, maliyyə hesabatlılığının operativliyini daha da yüksəltdi və etibarlılığını artırdı, nəticədə mühasibat işinin səmərəliliyi yeni mərhələyə qədəm qoydu.

Sözsüz ki, mühasibat uçotunda baş verən bu yenilik, özünü informasiya axınının növbəti mərhələsi olan təhlil və auditdə də büruzə verdi. Maliyyə təhlilinin avtomatlaşdırılması təhlil prosesinin bütövlüyünə, obyektivliyinə və etibarlılığına nail olma vasitəsi kimi çıxış edir. İnformasiya bazası rolunda çıxış edən məlumatların çoxluğu və mürəkkəbliyi, ilkin məlumatların gündəlik strukturlaşdırılması və təhlilində müxtəlif metodlarından istifadə, eləcə də müəssisənin cari və gələcək vəziyyətini əks etdirən göstəricilərin hesablanmasının (proqnozlaşdırılması) kifayət qədər vaxt və peşəkarlıq tələb etməsi kimi amillərin fonunda müəssisədə maliyyə təhlili prosesinin avtomatlaşdırılmasını və müvafiq kompüter texnologiyalarından istifadə olunmasını mütləq zərurətə çevirir. Tədqiqatçılar bu zərurətə müxtəlif yanaşmalar ortaya qoyur, prosesi müxtəlif aspektlərdən izah etməyə, onun üstünlükləri və texnologiyaların inkişafının biznes, investor və digər maraqlı tərəflər üçün əhəmiyyətini göstərməyə çalışırlar. Fikrimizcə, prosesin üstünlükləri, tərəflər üçün əhəmiyyəti və problemləri milli iqtisadiyyatımız üçün qlobal tendensiyalardan fərqlənir.

Tədqiqatçılar maliyyə təhlilinin avtomatlaşdırılması məqsədini aşağıdakı kimi müəyyənləşdirir [5]:

- Təsərrüfat subyektinin idarə olunması üçün maliyyə vəziyyəti və fəaliyyətinin nəticələrinin səmərəliliyi barədə vaxtında və etibarlı məlumatların formalaşdırılması;
- Təsərrüfat subyektinin mövcud vəziyyətinə təsir edən amillərin və səbəblərin müəyyənləşdirilməsi;
- Təsərrüfat subyektinin maliyyə vəziyyətinin sabitləşdirilməsi və yaxşılaşdırılması;
- Təsərrüfat subyekti barədə qəbul edilmiş qərarların əsaslandırılması.

Hesab edirik ki, kompüter texnologiyalarının maliyyə təhlilinə tətbiq edilməsinin məqsədlərinə yuxarıda sadalananlarla yanaşı, müəssisənin maliyyə vəziyyətinin optimallaşdırılması üçün metodların seçilməsi, bütün fəaliyyət növləri üzrə səmərəliliyinin artırılması üçün ehtiyatların müəyyənləşdirilməsi və proqnozlaşdırılması, xarici mühit amillərinin tədqiq olunması və makroiqtisadi tendensiyaların izlənilməsi, müəssisənin gələcək inkişafı üçün maliyyə strategiyalarının qiymətləndirilməsi, habelə müəssisənin kompleks maliyyə təhlilinin aparılması da aid edilməlidir.

Aydın məsələdir ki, kompüter texnologiyalarının tətbiqi maliyyə təhlilinin effektivliyini artırır, keçirilmə müddətinin azaldılması, maliyyə-təsərrüfat fəaliyyəti haqqında çoxlu sayda informasiyadan istifadə imkanları, hesablamalarda səhvlərin azaldılması, vizual təqdimat imkanlarının genişlənməsi, modelləşdirmə və optimallaşdırma kimi üsullarından istifadə edilməsinə gətirib çıxarır, bir sözlə, mexaniki üsullarla yerinə yetirilməyən imkanlar hesabına səmərəliliyin artmasını təmin edir. Bundan əlavə, xarici tərəflər üçün hesabat və digər məlumatların təqdim edilməsi, təhlil prosesində iyerarxik quruluşun təmin edilməsi və idarəetmənin bütün mərhələlərində müvafiq təhlil nəticələrinin operativ rejimdə əldə olunması, müəssisənin strategiyasına uyğun olaraq hədəf göstəricilərinin müəyyənləşdirilməsi və göstəricilərə nail olunmasına əsaslanan yanaşmaların tətbiq olunması kompüter texnologiyalarının tətbiq olunması nəticəsində meydana gələn üstünlüklərdəndir.

Təhlil prosesində kompüter proqramlarından istifadə idarəetmə qərarlarının qəbul edilməsini dəstəkləmək və mühasibat uçotu məlumatlarının işlənməsi üçün müəyyən metodik əsasların, alqoritmlərin mövcudluğunu nəzərdə tutur. Proqramlar üçün ilkin verilənlər müəssisələrin maliyyə hesabatlarının, o cümlədən uçot sisteminə inteqrasiya edilmiş digər məlumatlarına əsaslanır. Məlumatların proqrama daxil edilməsi mexaniki və ya müəyyən hesabat formalarını yaradan hər hansı bir mühasibat proqramından idxal ilə mümkündür. Göstəricilər müəyyən müddət ərzində və ya bir neçə ay, rüb, il ərzində dinamik təhlil edilir, həmçinin artım tempi, nisbi və mütləq artım göstəriciləri hesablanır. Proqramın xarakteristikasına uyğun olaraq hər hansı valyuta üzrə yenidən qiymətləndirmə aparmaqla göstəricilər öyrənilə bilər. Məhz

yuxarıda qeyd etdiyimiz bu amillərə görə, tədqiqatçılar hesab edir ki, idarəetmədə bu texnologiyaların tətbiqi avtomatlaşdırılmış idarəetmə sistemlərinin təşkilində keyfiyyət sıçrayışına təkan vermişdir [1], [4].
Sözsüz ki, müasir dövrdə tətbiq olunan bütün maliyyə təhlili proqramların özünə məxsus üstünlükləri və tətbiq perspektivləri mövcuddur. Lakin bu avtomatlaşdırılmış analitik proqram təminatlarının tətbiqində ümumi problemlər də özünü göstərir. Fikrimizcə, bu problemlərə aşağıdakı hallarda rast gəlinir:

- Avtomatlaşdırılmış təhlilin həyata keçirilməsi üçün çox vaxt kənar mütəxəssisin dəvət olunması ilə əlaqəli olaraq, müəssisənin uçot siyasəti ilə bağlı məlumatsız olduğu üçün təhlil nəticələri ilə bağlı obyektiv interpretasiyanın edilməməsi və müəssisə əməkdaşlarının istifadə bacarıqlarının məhdud olması;
- İstifadəçilər tərəfindən proqramdan istifadə üçün kifayət qədər məlumatı olmaması səbəbindən məlumatların natamam və ya səhv daxil edilməsi ilə bağlı təhlil nəticələrinin düzgün olmaması, real göstəricilərə uyğun gəlməməsi;
- Subyektdə bir neçə müxtəlif hesabat və məlumatların idarə edilməsi sistemlərindən istifadə halında məlumatların alınması və ötürülməsi, habelə oxunması prosesində problemlərin yaranması;
- Analitik vasitələrin əksər hallarda yalnız daxili istifadəçiyə yönəldilməsi ilə bağlı, əlaqəli tərəflər (səhmdar, investor və onların nümayəndələri) üçün analitik hesabatların hazırlanmasında əlverişsiz və natamam informasiya təminatı;
- Proqrama xidmət, səhvlərin düzəldilməsi, yeniliklərin tətbiqi və təhlükəsizliyin artırılması ilə bağlı texniki dəstək xidmətin periodik olaraq həyata keçirilməsi tələbi;
- Kiber təhlükəsizlik və elektron identifikasiya vasitələrinin tam təmin edilməməsi və yaxud bunun üçün kifayət qədər yüksək maliyyə vəsaiti tələb etməsi.

Sadaladığımız problemlərlə yanaşı, onu da qeyd etməliyik ki, hər nə qədər mühasibat uçotu ilə bağlı yerli proqram məhsulları olsa da, əfsuslar olsun ki, maliyyə təhlili ilə bağlı yerli intellektual məhsullar yoxdur. Milli bazarımızda mövqe tutan mühasibat uçotu proqramlarının bəzilərində maliyyə təhlili üzrə modul və ya funksiya mövcud olduğu halda, əksəriyyətində digər proqramlara inteqrasiya halında məhdud imkanlardan istifadə etmək mümkün olur yaxud ümumiyyətlə mümkün olmur.

NƏTICƏ

Hazırda informasiya texnologiyaları tətbiqi insan fəaliyyətinin bütün sahələrinə özünü müsbət töhfələri göstərir, təhlükəsizlik şəraitində operativ imkanları daha yüksək olan "smart" texnologiyalar tətbiq olunur, rəqəmsal iqtisadiyyat bu tendensiyalarla şərtlənir. Hesab edirik ki, rəqəmsallaşmanın müsbət dinamikası yaxın gələcəkdə bu problemlərin də aradan qalxmasına səbəb olacaq "smart" texnologiyaların tətbiqi ilə mümkün olacaqdır. Eyni zamanda, milli mühasibat uçotu qaydalarının tələblərinə uyğun olan yerli analitik təcrübənin formalaşmasına və inkişafına təkan verəcək milli analitik texnologiyaların meydana gəlməsi də, müəssisələrdə maliyyə təhlili imkanlarından istifadə və Strateji Yol Xəritələrində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasını təmin edəcəkdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Akamanwam Itang. Computerized accounting systems: measuring structural characteristics. Research Journal of Finance and Accounting, Vol.11, No.16, 2020, 38-54 p.
2. Cabbarov Ayətulla. Mühasibat uçotunda iqtisadi informasiyasının texnologiyası və proqram təminatı. Bakı Biznes Universiteti Nəşriyyatı. Bakı/ Azərbaycan 2017:284 səh.
3. Фокина Анастасия, Гурьянова Анастасия. Исследование программных продуктов, применяемых при анализе финансового состояния предприятия. Инновации и инвестиции, № 6, 2017 с. 138-143
4. Ağca Ahmet, Alagöz Ali, Erdoğan Melih, Azaltun Murat. Muhasebede bilgi yönetimi. Anadolu Universitesi yayınları, Ankara/Türkiye. 2013:159 səh.
5. Ефимова О., Бородина Е., Володина Н., Дроздова Л., Мельник М., Соколова Г. Анализ финансовой отчетности. ОМЕГА–Л, Москва/Россия. 2006:408 с.

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZILƏRIN INVESTISIYA POTENSIALININ TƏHLILI VƏ QIYMƏTLƏNDIRILMƏSI

LAMIYƏ FEYZULLAYEVA
Bakı Biznes Universiteti
Magistratura şöbəsi
lamiyafeyzullayeva@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müharibə dövründə işğal altında olan bölgələrə dəyən zərərin aradan qaldırılması, infrastrukturun bərpası və yenidənqurma işlərinin həyata keçirilməsi gündəmdə olan məsələlər sırasındadır. Bu məqsədlə həm yerli, həm də xarici investorların marağını bu sahəyə çəkməklə yanaşı dövlət səviyəsində yenidənqurma layihələrini icra etmək, investorlara vergi və gömrük güzəştləri təklif etmək, həmçinin onların əlverişli şərtlərlə biznes kreditləri götürməsini təmin etmək və tenderlərdə iştirakını təmin etmək məqsədi ilə tədbirlər görülməlidir. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin əlverişli təbii-coğrafi mövqeyi, faydalı qazıntı ehtiyatları ilə zənginliyi həm yerli, həm də xarici investorların diqqətini cəlb edir.

Açar sözlər: İnvestisiya potensialı, kiçik və orta sahibkarlıq, investisiya layihələri

GIRIŞ

Azərbaycan Respublikasının Prezidenti işğaldan azad olunumuş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi və investisiya mühtinin yaxşılaşdırılması, maliyyə və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların və layihələrin tətbiqi, sənaye potensialının imkanlarından istifadə edilməsi, stimullaşdırıcı mexanizmlərin və güzəştlərin tətbiqi məqsədilə sərəncam imzalayıb, həmçinin tədbirlər planı müəyyənləşdirilib. Bu təbirlər planında investisiya potensialından istifadə edilməsi ilə bağlı aşağıdakılar nəzərdə tutulub:

1. İşğaldan azad olunmuş ərazilərdə investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin tətbiqi;
2. İşğaldan azad olunmuş ərazilərdə sahibkarların maliyyə resurslarına çıxışının təmin edilməsi və bu istiqamətdə dövlət dəstəyinin artırılması.

İşğaldan azad olunmuş ərazilərimizin böyük investisiya potensialı və təbii ehtiyatları var. Azad olunmuş rayonlar işğaldan əvvəlki dövrdə pambıqçılıq, üzümçülük, heyvandarlıq, taxılçılıq sahəsində ixtisaslaşmışdı. Bu ərazilərin ixrac və istehsal potensialı kifayət qədər böyükdür. Xüsusilə Kəlbəcər və Şuşa əraziləri böyük turizm potensialına sahibdir. Dünyanın ən qədim insan məskənləri bu ərazilərdə yerləşir. Bu rayonlarda turizm imkanlarında böyük gəlir götürmək olar. Erməni işğalına məruz qalmış ərazilərin əvvəlki vəziyyətinə qaytarılması üçün müəyyən vaxt və vəsait tələb olunsa da, qısa zamanda layihələrin reallaşadırlması imkanı var.

TƏDQIQAT METODU

İşğaldan azad edilmiş bölgələrdə əlverişli investisiya potensialından faydalanaraq yerli və xarici investorların marağını cəlb etmək üçün Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu tərəfindən yerli və xarici investorlarla çoxtərəfli görüşlər keçirilir. Dövlət ilkin mərhələdə bütün xərcləri özü maliyyələşdirsə də, növbəti mərhələdə özəl sektorun investisiyaları olmadan iqtisadi inkişafa nail olmaq mümkün olmayacaq. Bu səbəbdən hökumət işğaldan azad edilən bölgələrdə investisiya cəlbinə nail olmaq məqsədilə stimullaşdırıcı tədbirlər görür. İşğaldan azad olunmuş bölgələrin investisiya potensialının qiymətləndirilməsi və müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsi istiqamətində AMEA-nın İqtisadiyyat İnstitutu və "Boston Consulting Group" konsaltinq şirkəti ilə birgə əməkdaşlıq edir. Hazırlanmış strateji təhlil sənədinə əsasən işğaldan azad olunmuş bölgələrdə zəruri maliyyə infrastrukturunun yaradılması, investisiya potensialının müəyyənləşdirilməsi, həmçinin əhalinin bölgəyə qayıdışı ilə bağlı onların məşğulluq imkanlarının tarazlıq modeli əsasında proqnozlaşdırılması istiqamətində tədqiqatlar aparılır. Qeyd edək ki, sahibkarların bölgəyə investisiya istəyi və marağı da az deyil. Sadəcə, müəyyən tərəddüdlər yaranır ki, bu da əsasən aşağıdakı amillərlə bağlıdır:

1) Sahibkarların çoxu qısamüddətli qazanca meyl edir,
2) İşğaldan azad edilmiş rayonların potensialına dair bilgi səviyyəsi qənaətbəxş həddə deyil,
3) Təhlükəsizliyə zəmanət istəyi mövcuddur,

4) İşğaldan azad edilmiş bölgələrdə sahibkarlıq fəaliyyəti və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində əlavə güzəştlər gözlənilir və s.

İşğaldan azad olunmuş rayonlarının itisadi və investisiya potensialı müəyyən göstəricilər baxımından digər rayonlarda yoxdur. Təbii ehtiyatlar, dövlət layihələri və tədbirlər planı ilə bu ərazilərdə yaradılmış şəarit, bölgənin əlverişli coğrafi mövqedə yerləşməsi və qonşu ölkələrin bazarlarına çıxış imkanının olması mühüm amillərdir. Təhlükəsizlik zəmanətinə gəldikdə isə, bir reallığa diqqət yetirmək kafidir. Ölkə başçısı işğaldan azad edilmiş bölgələrə səfərləri zamanı müxtəlif layihələrin açılışına, yaxud da tikintisinə başlanılması ilə əlaqədar tədbirlərdə iştirak etməklə yanaşı, ən müasir təchizata malik olan hərbi hissələrin fəaliyyətə başlamasına dair də tədbirlərə qatılır və beləliklə nəzərdə tutulmuş iqtisadi perspektivləri heç bir hərbi-siyasi təhlükə gözləmədiyini nümayiş etdirir. İnvestorlar üçün işğaldan azad olunmuş bölgələrdə istehsal, turizm, tikinti, kənd təsərrüfatı məhsulları tədarükü, eyni zamanda ticarət və müxtəlif növ xidmət sahələrinə yatırım etmək və fəaliyyət göstərmək imkanları var. Həmçinin bu bölgədə qeyd olunan sahələrdə hələ ki, rəqabət olmadığına görə, investisiya qoyuluşunda birincilik daha çox gəlir gətirə bilər. Təbii sərvətlərin işlənilməsi investisiya qoyuluşları üçün böyük perspektiv vəd edir. Son dövrdə Azərbaycanın qeyri-neft məhsullarının ixracında qızıl da yer alır. Dünya bazarında qızılın qiymətinin qalxması, həmşinin bu sahədəki müəssisələrin ən müasir istehsal texnologiyalarına malik olması bunu deməyə əsas verir ki, işğaldan azad olunmuş bölgələrdə qızıl yataqlarının istismarı gələcək illərdə iqtisadiyyata böyük töhfə verəcəkdir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinin aparılması tikinti sektoru üçün də yeni imkanlar açır. Bütün bunlar işğaldan azad olunmuş ərazilərdə kiçik və orta sahibkarlığın inkişafına səbəb olacaqdır. Təbii ki, böyük şirkətlərin fəaliyyəti də vacibdir və bu şirkətlər sərmayə qoyuluşlarında vı məşğulluğun artırılmasında böyük paya sahibdirlər. Buna baxmayaraq, iqtisadi sistemin mərkəzində kiçik və orta sahibkarlar yer almalıdır. Təbii ki, burada maliyyə və xidmət infrastrukturu ilə bağlı bəzi problemlər də ola bilər, lakin mühüm olan KOB-ların maliyyə mənbələrinə çıxışının təmin edilməsidir.

NƏTICƏ

İşğaldan azad olunmuş ərazilərin faydalı qazıntı ehtiyatları ilə zəngin olması, həmçinin turizm-rekreasiya ehtiyatlarının bol olması, eləcə də dövlət tərəfindən azad edilmiş bölgələrdə infrastrukturun təmin edilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, bu ərazilərin investisiya potensialı yüksəkdir və investorların da bu ərazilərə marağı böyükdür. Qısa bir dövrdə işğaldan azad olunmuş ərazilərə edilən investisiya qoyuluşları və bu ərazilərdə fəaliyyət göstərən şirkətlərə güzəştlərin tətbiq edilməsi buna sübutdur. İşğaldan azad olunmuş ərazilər həm yerli, həm də xarici investorların maraq dairəsindədir. Həmçinin yenidənqurma və inkişafla bağlı layihələrin icrası zamanı keçirilən tenderlərdə tikinti şirkətləri də aktiv işitrak edir. Əsasən dağ-mədən sənayesinə və tikinti sektoruna edilən yerli və birbaşa xarici investisyaların həcmi durmadan artır

ƏDƏBIYYAT SIYAHISI

1. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
2. AUDİT elmi-praktiki jurnalı, № 4 – 2021
3. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), https://azertag.az/
4. https://www.economy.gov.az/
5. https://president.az/

QEYRİ SƏLİS MƏNTİQ NƏZƏRİYYƏSİ ƏSASINDA QURULMUŞ ELEKTRON NÖVBƏ SİSTEMLƏRİNİN BANK SEKTORUNDA TƏTBİQİ

Əliyev İlkin Rafael oğlu
Bakı Biznes Universiteti, doktorant
Azərbaycan Beynəlxalq Bankı ASC-pərakəndə xidmətlər üzrə mütəxəssis

Xülasə

Bütün xidmət sektorlarında olduğu kimi bank sektoru da daim inkişaf etməkdədir. Zaman keçdikcə xidmətin müəyyən bir hissəsi tam və ya qismən rəqəmsallaşmasıdır. Belə ki, bir neçə il öncə bankdan insanlar tərəfindən müştərilərə göstərilən bir sıra xidmətlər artıq tam qaydada avtomatlaşdırılmış və ATM-lər vasitəsi ilə həyata keçirilməkdədir. Lakin bir sıra xidmət növləri hələ də insanlar tərəfindən mexaniki şəkildə həyata keçirilir. (Kredit rəsmiləşdirilməsi, təqaüd kartlarının təqdimi, pul köçürmələri və.s) . Bu isə bəzi bank filiallarında müştərilərin çox olmasına və bir müştərinin hər hansı bir xidmətdən istifadə etməsi üçün uzun müddətli növbə gözləməsinə səbəb olur. Bu isə sözsüz ki, bir sıra narazılıqlara səbəb olur . Bu araşdırmanın məqsədi insanların xidmət sektorlarında növbə gözləməsi prosesinin təkmilləşdirilməsindən ibarətdir. Araşdırmada son 10 ilin məlumatlarından istifadə olunmuş, Azərbaycan, Türkiyə, Nigeriya və qeyri-səlis məntiqə əsaslanan bir neçə Amerika Birləşmiş Ştatları kommersiya banklarının təcrübələrindən istifadə olunmuşdur.

Açar sözlər: Bank, Kommersiya, Elektron növbə, Rəqəmsallaşma,Alqoritm

Автор: Алиев Илькин Рафаэль оглы
Бакинский Университет Бизнеса - докторант
ОАО «Международный Банк Азербайджана»- специалист по розничным услугам
Ilkin_aliyev@mail.ru
+994517799657

Резюме

Как и все отрасли сферы услуг, банковский сектор постоянно развивается. Со временем определенная часть услуг полностью или частично оцифровывается. Так, ряд услуг, которые банк предоставлял клиентам несколько лет назад, сегодня полностью автоматизированы и осуществляются через банкоматы. Однако некоторые услуги по-прежнему выполняются людьми механически. (Оформление кредита, предъявление пенсионных карт, денежные переводы и т.д.). Это приводит к переполненности некоторых банковских отделений и возникновению длинных очередей на получение какой-либо услуги клиентом. И это, безусловно, вызывает ряд недовольств. Целью данного исследования является совершенствование процесса ожидания людей в очереди в сфере обслуживания. В исследовании использовались данные за последние 10 лет, опыт коммерческих банков Азербайджана, Турции, Нигерии и нескольких Соединенных Штатов Америки, основанных на нечеткой логике.

Ключевые слова: Банк, Коммерция, Электронная очередь, Цифровизация, Алгоритм

Author: Ilkin Alıyev Rafael
Baku Business University PhD student
International Bank of Azerbaijan OJSC - Retail Services Specialist
Ilkin_aliyev@mail.ru
+994517799657

Summary

As in all service sectors, the banking sector is constantly evolving. Over time, a certain part of the service is fully or partially digitized. Thus, a number of services provided to customers by banks a few years ago are now fully automated and implemented through ATMs. (credit processing, presentation of pension cards, money transfers, etc.) This leads to overcrowding in some bank branches and long queues for one customer to use any service. Of course, this is causes a number of complaints. The aim of this study is to improve the process of queuing people in the service sector. The study used data from the last 10 years, as well as the experiences of commercial banks in Azerbaijan, Turkey, Nigeria and several United States countries based on fuzzy logic.

Keywords: Bank, Commerce, Electronic queue, Digitization, Algorithm

Giriş

Xidmət sektorlarında müştərilərin qarşılaşdığı ən böyük problemlərindən biri də məhz növbə gözləməkdir. Hal-hazırda banklarda olan elektron-növbə sistemlərindən istifadə olunur. Klassik alqoritm nəticəsində müştəri bir neçə dəqiqəlik əməliyyatın icrası üçün bir neçə saat gözləmiş olur. Bir çox hallarda isə bir neçə mənfi kredit tarixçəli müştəriyə xidmət göstərilməsi zamanı hər hansı vip müştəri və ya korperativ müştəri xidmətdən imtina etmiş olur ki, bu da bankın satışına və gəlirlərinin azalmasına səbəb olur. Qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan yeni alqoritmli elektron növbə sistemində isə bank gəlir gətirəcək müştərilərə daha tez xidmət göstərilməsi nəzərdə tutulmuşdur.

Banklarda xidmət keyfiyyətinin əsas göstəricilərindən biri də xidmət zamanı gözləmə müddətinin ölçüsüdür [1]. Bu müddət həm müştərinin banka daxil olduğu vaxtlar xidmətin bitmə vaxtına qədər olan müddəti həm də müştərinin bank işçisi qarşısında xidmətə başladığı müddətdən xidmətin tamamlandığı qədər olan vaxt intervalını əhatə edir.

Banklarda gözləmə müddəti bir sıra amillərdən, alınacaq xidmətin növündən , günün müəyyən vaxtından (nahar fasiləsi sonrası müştəri sıxlığının çoxluğu), xidmət göstərən işçi sayından asılıdır. Bütün bu amillər ilə yanaşı növbə sistemi banklarda elektron-növbə sistemində istifadə olunan alqoritmdən də asılıdır. Məhz bu alqoritmlər gözləmə müddətini müəyyən edən əsas amillərdən biridir [2]. Bu alqoritmlər banklarda, xəstəxanalarda və bir sıra digər xidmət məntəqələrində geniş istifadə olunur [3]. Bu alqoritmlərdən biri də "First in First out'' (FİFO) alqoritmidir. Bu alqoritmin əsas fəaliyyət prinsipi ilk daxil olan müştərinin ilk olaraq da xidmət görməsi kimi işləyir.

Buna paralel olaraq bir sıra əlavə elektron-növbə alqoritmləri də mövcuddur. Bu alqoritmlər ən çox banklarda tətbiq olunur [4].

Banklarda xidmət göstərilən müştəri kontingenti fərqli olduğu üçün banklarda daha mürəkkəb elektron növbə alqoritmlərindən istifadə olunur. Bu alqoritmdə müştərilərə müxtəlif qruplar üzrə təsnifləşdirilir və bankın daha maraqlı olduğu bir sıra müştərilər daha az gözləmə müddəti ilə xidmət olunur. Misal üçün bir sıra banklarda təkrar müştərilərə və ya "Vip" statuslu müştərilərə verilən növbə-prioritet verildiyi üçün daha tez xidmət olunur. Bu xidmətə nümunə olaraq müharibə sonrası bir sıra Azərbaycan banklarında hərbçilərə və ya müharibə iştirakçılarına daha tez və operativ xidmət göstərilməsi məqsədi ilə elektron növbə verilmişdir.

Türkiyədə mövcud növbə sistemi müştəri banka daxil olduğu zaman şəxsiyyət vəsiqəsi ilə növbə götürməsi ilə başlayır. Bir sıra banklarda ilk növbə götürən müştəriyə ilk olaraq xidmət göstərilməsi prinsipi bankın bir sıra potensial müştəriləri itirməsi ilə nəticələnir.

Hal-hazırda bank sistemlərində tətbiq olunan bütün elektron növbə sistemlərində qeyri-müəyənliklərə əsaslanan alqoritmlərdən istifadə olunur. Bu tədqiqatda isə elektron növbə sistemlərində qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan elektron növbə alqoritminin tətbiqidir.

Banklarda elektron növbə sistemlərində tətbiq olunan innovativ yanaşmalardan biri də 'Kredit reytinqi"(CRO) üzrə təsnifləşdirilməsidir. Kredit reytinqi müştərinin bank sistemindəki ödəmə qabiliyyətinə, kredit tarixçəsinin keyfiyyətinə görə mərkəzi qiymətləndirmə sistemidir. Bu nəzəriyyəyə görə müştərilərin ümumi reytinqi 0-1400 ballıq bir interval ilə müəyyən edilir.



Qrafik №1: Qeyri-səlis məntiq nəzəriyyəsi ilə kredit reytinqinin (CRO) təsviri.

Qeyri-səlis məntiq nəzəriyyəsində müştərilərin qiymətləndirilməsində konkret rəqəmlər mövcud deyil. Klassik məntiq nəzəriyyəsinə əsaslanan CRO reytinq sistemində isə yalnız 0 və 1 qiymətləri mövcuddur. Ortalama qiymət mövcud deyil. (Qrafik 2)



Qrafik №2: Klassik çoxluq nəzəriyyəsinə əsaslanan kredit reytinqinin (CRO) təsviri.

Qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan elektron növbə sistemində müştərilərin bankda gözləmə müddəti, banka giriş tarixi, kredit reytinqi (CRO) avtomatik olaraq elektron növbə sisteminin alqoritmləri tərəfindən qiymətləndirilərək növbələnir və bu struktur Qrafik №3- də tam olaraq göstərilmişdir [5].



Qrafik №3: Hazırlanmış qeyri-səlis məntiq nəzəryyəsinə əsaslanan elektron növbə gözləmə sisteminə giriş və çıxış parametrləri.

Qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan elektron növbə sistemində müştərilərin gözləmə müddəti bir neçə kateqoriyaya görə təsnifləşdirilmişdir. Bu təsnifləşdirmə aşağıdakı cədvəldə qeyd olunmuşdur.

№	Müştəri tipi	Gözləmədə olan müştəri sayı	Kredit reytinqi (CRO)	Fərdi növbə qrupu	Ortalama gözləmə müddəti
1	Özəl müştəri	Çox	--	Özəl müştəri	0-5
-	-	-	-	-	-
5	Korperativ və ya VİP müştəri	Normal	-	Korperativ və ya VİP müştəri	10-14
-	-	-	-	-	-
7	Vip və ya yüksək kredit reytinqli (CRO) müştəri	Normal	-	Vip və ya yüksək kredit reytinqli (CRO) müştəri	13-19
		Az	Yaxşı	Vip və ya yüksək kredit reytinqli (CRO) müştəri	4-10
		Çox	Normal	Normal müştəri və ya Normal kredit tarixçəsi (CRO) olan müştəri	30-40

Cədvəl № 1: Qeyri-səlis məntiq nəzəriyyəsi əsasında hazırlanmış elektron növbə gözləmə alqoritmləri

Qeyri-səlis məntiqə əsaslanan elektron növbə sistemində müştərilərə xidmət müddətinin maksimum həcminin müəyyənləşdirilməsi məqsədi ilə 24 qayda yaradılmışdır ki, bu qaydalardan bəziləri aşağıdakılardır:

-Əgər müştəri kateqoriyası "Özəl" müştəridirsə və gözləyən müştəri sayı "normal"dırsa maksimum gözləmə müddəti 5 dəqiqə ola bilər.

-Əgər müştəri "Korperativ müştəri və ya vip" statuslu müştəridirsə və gözləyən müştəri sayı "normal"dırsa maksimum gözləmə müddəti 10-14 dəqiqə ola bilər.

-Əgər müştəri "Vip statuslu" müştəridirsə kredit reytinqi yüksək olduğu halda maksimum gözləmə müddəti 4-10 dəqiqə ola bilər.

-Əgər müştərinin kredit reytinqi "aşağı", gözləyən müştəri sayı isə çox olarsa maksimum gözləmə müddəti 40 dəqiqə ola bilər.

Bu səlis-məntiq nəzəriyyəsinə əsaslanan elektron-növbə sisteminin əsas fəaliyyət istiqaməti zalda gözləmədə olan potensial müştərilərə daha tez xidmət göstərilməsindən ibarətdir.

Azərbaycanda bu mexanizmin tətbiqində bir sıra çətinliklər vardır. Belə ki, ölkə ərazisində tətbiq olunan elektron-növbə sistemlərində "elektron növbə aparatları" müştərinin tanımadan yalnız verilən sifarişə uyğun olaraq növbə verir. Bu zaman müştərinin kimliyindən, statusundan və kredit tarixçəsindən asılı olmayaraq növbə gözləmiş olur. Şəxsiyyət vəsiqəsini və ya bank kartı vasitəsi ilə işləyən elektron növbə aparatlarında isə müştərinin statusu, kredit tarixçəsi sistem tərəfindən hesablanılaraq növbə verilir və bu müştəriyə daha tez xidmət göstərməyə imkan verir.

Nəticə.

Bu nəzəriyyəyə əsasən hesablamalardan məlum olur ki, qeyri-səlis məntiqə əsaslanan elektron növbə sistemində vip statuslu və ya kredit reytinqi (CRO) yüksək olan müştərilər bankda daha az vaxt itkisi ilə qarşılaşırlar. Mənfi kredit tarixçəsi olan müştərilər isə qismən uzun müddətli gözləmə ilə kifayətlənməli olurlar. Bu bankın potensial yaxşı müştəriləri itirməməsi ilə və daha çox satış etməsi ilə nəticələnən bir prosesdir. Lakin bu sistemin tətbiqində də bir sıra çatışmazlıqlar mövcuddur. Belə ki, bu sistemin tam tətbiqi üçün ölkəmizdə Azərbaycan Kredit Bürosu tərəfindən (AKB) müştərilərinin kredit reytinqinin tam hesablanılması və vahid elektron növbə sistemi üzrə təsnifləşdirilməsi mütləqdir.

Ədəbiyyat siyahısı:

[1] M. Mutingi, H. Mapfaira, NPK Moakofi, SA Moeng, and C. Mbohwa, "Simulation and analysis of a bank queuing system," in 2015 International Conference on Industrial Engineering and Operations Management (IEOM), 2015, s. . 1–6, doi: 10.1109/IEOM.2015.7093836.

[2] N. Madadi, AH Roudsari, KY Wong, and MR Galankashi, "Modeling and Simulation of a Bank Queuing System," 2013-cü ildə Beşinci Beynəlxalq Hesablama İntellekt, Modelləşdirmə və Simulyasiya Konfransı, 2013, səh. 209–215, doi: 10.1109/CIMSim.2013.41.

[3] HR Bakari, HA Chamalwa və AM Baba, "Növbəyə düşmə prosesi və onun müştəri xidmətlərinin çatdırılmasına tətbiqi (Fidelity Bank Plc, Maiduguri-nin nümunə araşdırması)," Int. J. Riyaziyyat. stat. İxtira., cild. 2, yox. 1, səh. 14–21, 2014.

[4] Ullah, K. Iqbal, X. Zhang, and M. Ayat, "Sub-optimization of bank queuing system by quality and quantitative analysis," 2014-cü ildə 11-ci Beynəlxalq Xidmət Sistemləri və Xidmət İdarəetmə Konfransı (ICSSSM), 2014, səh. 1–6, doi: 10.1109/ICSSSM.2014.6874038.

[5] Halil Kılıf, İlkər Əli Özkan - BEYNƏLXALQ TƏTBİQİ RİYAZİYYAT JURNALI- "Qeyri-səlis məntiqlə Bank Queuing Sistemlərinin Qiymətləndirilməsi"- səh 1-6.2014

MALIYYƏ TEXNOLOGIYALARININ(FINTECH) PROQRAM TƏMINATI VƏ ISTIFADƏ DƏRƏCƏSI

TAĞIYEVA SELCAN
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
Selcan179@gmail.com
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Bugünkü maliyyə texnologiyası maliyyə xidmətlərini təkmilləşdirmək və sadələşdirmək üçün istifadə olunur. Eyni zamanda, onlar son vaxtlar əhatə dairələrini artırıb və inkişaf etdiriblər. Təkcə kompüter və mobil telefonlarda deyil, həm də müxtəlif sənaye sahələrində bu texnologiyalar təkmilləşmişdir. Beynəlxalq səviyyədə bu mövzuya investisiyalar son illərdə on dəfə artıb. Tədqiqat real dünya təcrübəsinə və müxtəlif metodologiyalara əsaslanacaq. Biz həmçinin maliyyə texnologiyalarının ölkəmizdə necə tətbiq edildiyini, proqramlaşdırma dillərinin necə səmərəli istifadə edildiyini və onların hansı rol oynadığını nəzərdən keçirəcəyik. Bu sahədə ölkəmizə kömək edəcək təhlillər müzakirə olunacaq.

AÇAR SÖZLƏR:Maliyyə texnologiyaları,mobil bankçılıq,süni intellekt

GIRIŞ

Tədqiqat işinin məqsədi maliyyə texnologiyalarının beynəlxalq səviyyədə istifadə dərəcəsi,vacibliyi və bu texnologiyaların istifadəsi üçün hansı proqramlaşdırma dillərindən istifadənin vacib olduğu barədə bəhs olunmuşdur.İlkin olaraq maliyyə texnologiyaları haqqında məlumat verilmişdir.Həmçinin bu sahənin süni intellektlə əlaqələndirilərək daha necə təkminləşdirməyin mümkün olacağı açıqlanmışdır.Bu məqsədlərə çatmaq üçün isə müxtəlif təhlillər aparılmış,həmçinin kəmiyyət və keyfiyyət metodlarına əsasən nəticələrə gəlinmişdir.

Azərbaycanda ilk növbədə bu sahənin inkişaf etdiyi sahələr araşdırılacaq.Müasir dövrdə ölkəmizdə maliyyə texnologiyalarının inkişafı ölkə iqtisadiyyatına, həmçinin müəssisələrə maliyyə əməliyyatlarını asan və sürətli həyata keçirməsinə təkan verəcəkdir.

İstehsal və istehlakı asanlaşdırmaq üçün texnologiyanın inkişafı üçün maliyyə sahəsində bu səylərə ehtiyac var. Həmçinin ölkəmizdə maliyyə texnologiyalarının necə istifadə olunduğu,proqramlaşdırma dillərindən səmərəli istifadəsi,hansı töhfələri verdiyini aydınlaşdıracayıq.Tədqiqat işində maliyyə texnologiyalarının yaratdığı üstünlükləri kəmiyyət və keyfiyyət metodlarına əsaslanaraq təhlil olunacaq.

Tədqiqat işində maliyyə texnologiyalarının(FinTech) müasir dövrdə rolu haqqında məlumat veriləcəkdir.Son dövrlərin statistikasına və araşdırmalarına əsasən ölkəmizin beynəlxalq səviyyədə maliyyə texnologiyalarının tətbiqində sıralaması haqqında məlumat verilmişdir.Həmçinin bu yeni texnologiyaların beynəlxalq səviyyədə istifadəsinə istinadən ölkəmizdə necə istifadə olunması barədə təkliflər veriləcəkdir.

TƏDQIQAT METODU

Tədqiqat işində kəmiyyət və keyfiyyət metoduna əsasən təhlillər aparılmışdır.Son dövrlərin statistik göstəricilərinə əsasən maliyyə texnologiyalarının inkişaf dinamikası və ölkəmizdə cari vəziyyəti təhlil edilmişdir.Həmçinin araşdırılmarda bu sahənin inkişafı üçün tələb olunan proqramlaşdırma dilləri aydınlaşdırılıb.Aparılan araşdırma və təhlillərə görə Azərbaycanda bu sahənin inkişafını sürətləndirəcək əsas göstəricilərdən birinin ölkə əhalisinin maliyyə texnologiyaları sahəsində biliklərdirmək olduğu nəticəsinə gəlinmişdir.Əhalinin inkişaf meyilli olması,yeniliyə açıq olması və iqtisadiyyatın inkişafı maliyyə texnologiyalarının inkişafında rol oynayan vacib amillərdəndir.Həmçinin proqramlaşdırma sahəsində maliyyə texnologiyalarının tətbiqini asanlaşdıracaq proqramlaşdırma dillərinin ölkəmizdə tətbiqinin vacibliyi irəli sürülmüşdür.

KƏMIYYƏT VƏ KEYFIYYƏT METODU ILƏ MALIYYƏ TEXNOLOGIYALARININ TƏHLILI

FinTech maliyyə xidmətlərini təkmilləşdirmək və ya onlarla qarşılıqlı əlaqə yaratmaq üçün texnologiya və innovativ yanaşmalardan istifadə edən proqram təminatı kateqoriyasıdır. Bu proqram münasib tariflər və ödəniş variantları, həmçinin istifadə rahatlığı, rahat giriş və təkmilləşdirilmiş xidmət təmin edir. FinTech proqram təminatı internet, mobil cihazlar və digər xidmətləri sayəsində biznes və fiziki şəxslərin bankdan istifadə etmədən pul qazanma, alma, investisiya və borc götürmə üsullarını dəyişdirdi. Proqram xüsusiyyətlərini və imkanlarını təkmilləşdirmək üçün FinTech-də maşın öyrənməsi, kəşfiyyat, süni intellektdən istifadə olunur(4).

FinTech proqram təminatı aşağıdakılar üçün istifadə olunur:
• Mobil ödəniş (smartfon ödəniş proqramları, təmassız ödəniş)
• Şəxsi maliyyə planlaması (mobil bankçılıq, investisiya və borc alma)
• Birja (Robo məsləhət və ticarət)
• Blokçeyn və kriptovalyuta (ödənişlər, ağıllı müqavilələr)
• Kraudfandinq (bir çox ianəçidən kiçik məbləğlərdə vəsait toplamaq)
• Kredit
• Sığorta (ev, sağlamlıq üçün fərdi sığorta məhsulları)
• Risk (riskin idarə edilməsi, fırıldaqçılıq, uyğunluq və qaydalar)

Biznesdən biznesə (B2B), biznesdən sahibkarlara (B2C) və fiziki şəxslər hamısı FinTech proqram təminatından istifadə edir (3).

Müasir FinTech təkcə bank sənayesi üçün deyil. Əlavə sığorta, kredit və ipoteka, aktivlərin və risklərin idarə edilməsi, etibarlılıq və digər mövzular əhatə olunur. Nəzərə alınacaq başqa aspektlər də var, o cümlədən. Artıq 20-ci ildir ki, sektor o qədər sürətlə genişlənir ki, 21-ci əsr Fintech startaplarının sayı 25.000-dən çox artıb və insanlar inkişaf yolu ilə qarşılanır.

2021-ci ildə Fintech proqram təminatının ən gəlirli sektorları aşağıdakı kimi olacaq:
1. Onlayn bankçılıq
2. Blockchain texnologiyası
3. Biznes planların işlənib hazırlanması proqramı

1990-cı illərdə gələn ilk onlayn bankçılıq sistemləri on ildən artıqdır ki, biznesdə üstünlük təşkil edirdi. Bundan sonra, mobil bankçılıq tətbiqləri daha da qarışdı və rəqəmsal bankçılığın 21-ci əsrin maliyyə biznesi üçün oyun dəyişdirici olduğu aydın oldu(4).

Funksional proqram olmadan, bu gün kifayət qədər etibarlı bir banka zəng etmək çətindir. Rəqəmsal bank xidmətləri JPMorgan Chase, UBS, NAB və Barclays-dan mövcuddur (4).

Rəqəmsal bankçılıq biznesi maliyyə texnologiyalarından istifadə etməklə müxtəlif üstünlüklər əldə etmişdir.

Aşağıdakı qrafikdə beynəlxlq təcrübələrə istinadən günümüzə kimi mobil bankçılıqdan istifadədən gələn gəlirlər qeyd edilmişdir ki,bu statistikaya görə gələcək il üçün də proqnoz verilmişdir(Qrafik 1).



Qrafik 1.Mobil bankçılıq tətbiqlərindən istifadədən gəlir(Types of FinTech Software that Makes Money | Light IT (light-it.net))

Maliyyə texnologiyası proqram təminatının alınması potensial inkişaf üstünlüyü ilə nəticələndi. Bu cür texnologiya və ödəniş xidmətlərin göstərilməsi üçün lazımdır. Bu, banklar üçün təhlükəsiz əməliyyat kanalının yaradılmasına və istifadəçilər üçün etibarlı rəqəmsal şəxsiyyətin yaradılmasına kömək edir. Sürətli bir yoxlama prosesini təmin edərkən blockchain investisiyaları etmək mümkündür. Seçimlər demək olar ki, sonsuzdur(3).

Əsas blokçeyn texnologiyası mərkəzləşdirilməmiş və dəyişməz bir kitab saxlayır. Bu o deməkdir ki, məlumat zəncirdən alındıqdan sonra bütün qeydlər dəyişdirilə bilməz. Təhlükəsizliyin ən vacib aspektlərindən biri də budur.

Həmçinin, blokçeyn və kriptovalyutaların bir müddətdir mövcud olmasına baxmayaraq, insanlar bu texnologiyanın nə qədər dəyərli və təhlükəsiz olduğunu indi dərk etməyə başlayıblar.
Bu proqram təminatının əsas addım-addım idarəetmə texnikası sahibkarlıq biznes planının yaradılması prosesinə başlamaqdır. Onun məqsədi planı daha asan başa düşmək və riskləri idarə etmək, eləcə də bütün mümkün düzəlişləri yoxlamaqdır(1).
Rəqəmsal pul vahidinin də əsasını təşkil edən blokçeyn sistemi eyni anda bir çox mənbədən pul axınını təsdiqləmə məntiqi ilə işləyir. Təhlükəsiz və sürətli olduğu üçün fərq yaradan blokçeyn, fintech sənayesindəki bank alternativlərini çox daha təsirli və səhvsiz edir.Bu sahədə fintech-in əsas rolu müxtəlif mənbələrdən vəsait əldə edərək bizneslərin davamlılığını təmin etməkdir.Burada müxtəlif ənənəvi mənbələr mövcuddur ki,bunlara bank kreditləri,mənfəət,dövlət maliyyələşmələri,françayzinq və s. aid edə bilərik. Fintech bu sahədə bir sıra alternativ yollar təklif edir ki, bu da ənənəvi metodlardan fərqlənir.Məsələn,kraudfandinq müəssisələrə aşağı xərclə yeni, ənənəvi sistemlərdən kənar alternativ maliyyələşdirmə üsulları təqdim edir(1).
Ölkəmizin maliyyə texnologiyalarının inkişafı hələ ilkin mərhələdədir. Onu da qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin seçilməsi iqtisadiyyatın genişlənməsini və rəqəmsal həllərin geniş tətbiqini təmin etdi. Maliyyə texnologiyalarının hələ başlanğıc mərhələsində olmasına baxmayaraq, onların layihələri, əsasən də bankların və sığorta şirkətlərinin layihələri sahənin sürətli inkişafına töhfə verir. Bütün banklar müştərilərinə mobil və rəqəmsal bankçılığı öyrədə və istifadə edə bilər. Chatbox firmaları süni intellektə əsaslanan proqram təminatı və müxtəlif xidmətlər təqdim ediblər(1).
Süni intellektin maliyyə texnologiyasının təməli olduğuna inanmaq olar. Ölkəmiz 2021-ci ildən bu sorğuda 67-ci yerdədir. Reytinqə görə ABŞ, Sinqapur və Böyük Britaniya süni intellekt tətbiqi üzrə liderdir. İndeksin qiymətləndirmə meyarları qanunların və bacarıqların mövcudluğu, identifikasiya strategiyasının intellekti, təhsil və bacarıqların tətbiqinə imkan verən infrastrukturun səviyyəsi və idarəetmə xidmətlərinin idarə edilməsi kimi idarəetmənin cari vəziyyətini müəyyən etməyə kömək edir. (Government AI Readiness Index 2021 — Oxford Insights).
Son illər Azərbaycanda maliyyə texnologiyalarının inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilib.Bu istiqamətdə cənab Prezidentin təsdiq etdiyi “Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsinə dair 2018-2020-ci illər üçün Dövlət Proqramı” çox mühüm hesab edilir(1).
Ölkəmizdə İKT məhsullarının idxalı və ixracına nəzər salsaq idxalin ildən-ilə artdığını görə bilərik.Bunu nəzərə alaraq maliyyə texnologiyaları sahəsində öz mövqeyini göstərmiş bir sıra proqramlaşdırma dillərini idxal etməklə ölkəmizdə bu sahəni daha sürətlə inkişaf etdirə bilərik(Qrafik 2 və qrafik 3).



Qrafik 2.Ölkəyə idxal olunan İKT məhsulları(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi)



Qrafik 3.Ölkədən ixrac olunan İKT məhsulları(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi)

Python maliyyə texnologiyasında ən çox istifadə olunan proqramlaşdırma dilidir. Python, maliyyə texnologiyaları və maliyyə strukturları üçün ən böyük proqramlaşdırma dillərindən biri olmaqdan kriptovalyuta və risklərin idarə edilməsi də daxil olmaqla, geniş tətbiq sahəsinə qədər irəliləmişdir. Bu, analitiklərə, akademiklərə, praktikantlara və tacirlərə davamlı modelləşdirmə bacarıqları təqdim edən bir vasitədir. İstehlakçıların birjada qazanclarını tənzimləmək və optimallaşdırmaq üçün kompüter ekranında həyata keçirdikləri bütün prosedurlar sadələşdirilib. Yüksək səviyyəli proqramlaşdırma dili olan Python bu vaxt aparan prosesi əhəmiyyətli dərəcədə asanlaşdırır. Maliyyə şirkətləri öz müəssisələri üçün python veb tərtibatçılarını cəlb etmək istəyirlər(5).

Python maliyyə institutları və bankların əksəriyyəti tərəfindən istifadə olunur və o, Java-nı tədricən sıxışdırır. Bir çox tanınmış şirkətlər Python-u uğurla tətbiq ediblər. Python maliyyə sənayesində ən çox istifadə olunan proqramlaşdırma dillərindən biridir. Python mürəkkəb maliyyə xidmətləri sistemlərini idarə etmək üçün ideal proqramlaşdırma dilidir, çünki onu qurmaq və quraşdırmaq asandır. Rəqəmləri idarə etmək qabiliyyəti onun ən vacib xüsusiyyətidir. Yalnız bu deyil, həm də biznesin böyüməsinə və marketinqinə kömək edir. təşviqi tələb edən proqramın hazırlanmasına kömək edir.

Proqramlaşdırma dillərindən istifadə edən insanların əksəriyyəti özəl sektorda işləyir. Komandanın qalan hissəsi müstəqil işləyir və ya frilanser kimi işləyir. Proses proqramçılarının təxminən 25%-i sorğunun sonunda bir ildən az kodlaşdırma təcrübəsinə malikdir. Üç illik kodlaşdırma təcrübəsi olan təvazökar bir proqram təklif olunur. Gördüyünüz kimi, o, bazar müştəriləri üçün işləyən frilanserdir.Ölkə bu dillərdən istifadə edərək veb-layihə yaratmağı qarşısına məqsəd qoyub. PH-nin tələb etdiyi proqramlaşdırma dilində də birinci yeri tutur. Java proqramlaşdırma dili ilə heç bir fərqi yoxdur. Java tədris olunan dillərdən biridir. PHP və Java-nın ölkədə ən populyar olduğunu nəzərə alaraq, fərdlərin hansı proqramlaşdırma dilləri ilə maraqlandığını öyrənirik. Resurslar sahəsində insanlar ən populyar Python proqramlaşdırma dilini mənimsəməlidirlər(Technote-Texnologiya və Startup Platforması).

Azərbaycanda istifadə edilən proqramlaşdırma dilləri müəyyən etmək üçün sorğu keçirilib. Sorğu iştirakçılarının bildirdiyi nəticələr aşağıdakılardır: 107 nəfər yəni Javascript-dən istifadə edən 56 faiz artıb. Məlumatlara görə, 157 nəfər eyni vaxtda PHP proqramlaşdırma dilindən istifadə edir. SQL, qarşılıqlı əlaqədə olmaq üçün PHP və Javascript tələb edən verilənlər bazası üçün dəstək dilidir. Java üçüncü ən populyar proqramlaşdırma dilidir. Nəticədə ən çox istifadə olunan proqramlaşdırma dilləri Javascript, SQL, PHP və Java-dır.

NƏTICƏ

Sonda qeyd etmək lazımdır ki, maliyyə texnologiyalarının əsasını ilk növbədə rəqəmsallaşmaya keçid təşkil edir.Qeyd etdiyimiz kimi maliyyə texnologiyalarının əsas yer aldığı sahə rəqəmsal bankçılıqdır.Bu da lazımi əməliyyatların uzaqdan qısa müddətdə həyata keçirməsinə şərait yaradır.Həmçinin aparılan araşdırılmara və sorğulara əsasən rəqəmsal bankçılıqda maliyyə texnologiyalarının istifadəsinin genişləndirilməsi üçün Python proqramlaşdırma dili vacib rol oynayır.Ümumi dəyərləndirsək bunlar əsasən insanların düşüncəsindən, infrastrukturun inkişafından asılıdır. Araşdırmaların nəticələrinə əsasən Azərbaycan qonşu ölkələrlə müqayisədə xeyli öndədir.Bu texnologiyaların tətbiqinə daim açıqdır və hər yenilik öz nəticəsini göstərir.

Rəqəmsallaşmaya keçid bu sahənin inkişafına tələbat yaradacaq və beləliklə, maliyyə texnologiyalarının intensiv inkişafı olacaq.Aparılan araşdırmalara əsasən ölkəmizdə elə bir müəssisə yaradılmalıdır ki,burada maliyyə texnologiyaları Azərbaycanda ilk növbədə bu sahədə biliklərin artırılması, müəllim və ixtisaslı

kadrların hazırlanması təhsil müəssisələri çox vacibdir. Müasir dövrdə ölkəmizdə maliyyə texnologiyalarının inkişafı ölkə iqtisadiyyatına maliyyə əməliyyatlarını asan və sürətli həyata keçirməsinə təkan verəcəkdir.Bundan əlavə, ölkəmizdə əhalinin və iqtisadi artım tendensiyası bu sahənin sürətli inkişafına səbəb olur.Həmçinin ölkəmizdə maliyyə texnologiyalarının sürətlə inkişafına səbəb olacaq əsas amillərdən də biri proqramlaşdırma dillərindən istifadədir ki,ən uğurlu olan Python proqramlaşdırma dilini tədris olunaraq insanlara öyrədilməsi irəli sürdüyümüz təkliflərdən biridir.

ƏDƏBIYYAT SIYAHISI

1. Saleh Məmmədov Rəqəmsal Keçid və Elmi Texnoloji İnkişafın Sürətləndirilməsi Zəruriliyi.(Kitab).Bakı/Azərbaycan.2020:1-408
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
3. Bruce Carlin, Arna Olafsson & Michaela Pagel FinTech Adoption Across Generations: Financial Fitness in the Information Age | NBER(**online məqalə**)
4. Evlogi Georgiev FinTech trends to watch in 2021. By Evlogi Georgiev, COO & Practice… | by Sciant | Sciant | Medium **(online məqalə)**
5. Philippe Aghion, Benjamin F. Jones, Charles I. Jones Artificial Intelligence and Economic Growth artificial_intelligence.pdf (harvard.edu) (**online məqalə**)

ESG ATTENTION AND BANK PERFORMANCE

EMIN HUSEYNOV
Sapienza University of Rome
Faculty of Economics
Banking and Finace
emin.huseynov@uniroma1.it
ROMA, ITALY

ABSTRACT

Global warming, which has significantly affected the agenda in recent years, has increased the environmental awareness of governments and businesses. The finance sector, on the other hand, participated in this issue with green financial products. In this sense, in the study, first of all, the concept of "green finance" is given in general terms, and green financial products and services are introduced. Then, the applications of green finance in the world are examined

Keywords: *Global Warming, Green Finance, Green Financial Products and Services*

Introduction

Today, as a result of various environmental problems such as the reduction of underground and water resources in the world, deforestation, climate change, global warming, environmental and air pollution, human beings use the sun to restore the balance of nature, which is deteriorated due to unconsciously consumed fossil fuels (oil, coal, natural gas, etc.). and to renewable energy sources such as wind energy. Again, energy-saving products have been used to protect natural resources, pollute the environment less, and reduce the emission of toxic gases into the atmosphere. Encouraging people to this new energy use, which is formed with environmental awareness and environmental awareness, and financing this use is also an important issue.

The term green financing is the use of environmentally friendly, environmentally beneficial, or less harmful products and the funding for these products and projects by providing appropriate opportunities for implementing the projects. Here you can find low- interest rates, bank charges, donations to environmental organizations, etc. In these ways, customers are encouraged to use “green” financial products. Today, green finance is one of the essential pillars of sustainable global development.

In this study, green finance and green (environmental) financial products were introduced, and the situation of green finance in terms of world countries was examined.

Methodology

In the article titled "The effect of financial constraints, technological progress and long- term contracts on tradable green certificates," Paolo Agnolucci, in the 2019 issue of Energy Policy magazine, draws attention to the importance of commercial green certificates in the renewable energy markets of OECD countries.

In the study titled "Financial Risks for Green Electricity Investors and Producers in a Tradable Green Certificate Market," published by author named Jacob Lemming in 2003, the financial risk of the green certificate market was examined in terms of renewable energy (wind energy) producers and potential investors to invest in this field.

David Berry (2020)'s study named "The Market for Tradable Renewable Energy Credits" reveals the relationship of renewable energy loans with renewable portfolio standards in some states of the United States in terms of cost and risk.

In the article titled "Financing Models for Renewable Power Plants (YES): Project and Syndication Loans," written by Murat Durak in 2019, syndication and project loans for financing high-cost renewable energy power plants were examined.

Banking and finance play critical roles in all trade and industry sectors. While playing these roles, they may indirectly cause environmental pollution by giving loans to companies or projects that cause significant harm to the environment. On the other hand, environmental problems can affect banking management strategies and daily banking activities. (Zhang, Yang, 2020 1321).

Initially, environmental issues did not attract the attention of the financial industry and banks. Until the last century or so, the relationship between environmental protection and the financial sector began to emerge with the establishment of ecological awareness and stricter requirements of ecological standards. In 1980, the US Environmental Response Compensation and the US Accountability Act (CERCLA) aimed to increase the environmental awareness of banks. With CERCLA, banks began to pay closer attention to the potential risks of ecological performance in banks' assets and liabilities. Banks have started to pay more attention to environmental impacts, especially in their loans, asset management, investments, and insurance business. At the same time, international organizations such as the United Nations and the World Bank ensured the integration of banks into the issue through policies and rules for sustainable development. (Zhang, Yang, 20201: 1321). In 1997, a study showed that some of the banks within the scope of the UN Environment Program Finance Initiative established environmental departments and started to design environmentally focused products. A growing number of financial institutions have begun to devote their resources to curbing ecological degradation to achieve sustainable customer satisfaction (UNEP FI, 2019: 10)

Conclusion

As a result The product should provide customers with a transparent option to mitigate the indirect effects of banking activities. Adverse environmental impacts must be eliminated, or environmental benefits must be achieved. The following includes environmentally friendly financial products and services in developed regions such as Europe, USA, Australia, Japan, as well as unique green financial regulations proposed or implemented by the International Finance Corporation (IFC). The financial services sector is handled in four sub-sectors. These are 1) Retail Banking; 2) Corporate Banking and Investment Banking; 3) Asset Management; and 4) Insurance (UNEP FI, 2019; 15).

Reference List

1. Albertini, E. (2020). Does environmental management improve financial performance?
2. A meta-analytical review. Organization & Environment, 26(4), 431-457.
3. Alareeni, B. (2018). Does corporate governance influence earnings management in listed companies in Bahrain bourse?. Journal of Asia Business Studies.
4. Baird, P. L., Geylani, P. C., & Roberts, J. A. (2019). Corporate social and financial performance re-examined: Industry effects in a linear mixed model analysis. Journal of business ethics, 109(3), 367-388.
5. Bénabou, R., & Tirole, J. (2020). Individual and corporate social responsibility. Economica, 77(305), 1-19.
6. Brammer, S., & Millington, A. (2020). Does it pay to be different? An analysis of the relationship between corporate social and financial performance. Strategic management journal, 29(12), 1325-1343.
7. Buallay, A. (2019). Sustainability reporting and firm's performance: Comparative study between manufacturing and banking sectors. International Journal of Productivity and Performance Management.
8. Cornett, M. M., Erhemjamts, O., & Tehranian, H. (2021). Greed or good deeds: An examination of the relation between corporate social responsibility and the financial performance of US commercial banks around the financial crisis. Journal of Banking & Finance, 70, 137-159.
9. Esteban-Sanchez, P., de la Cuesta-Gonzalez, M., & Paredes-Gazquez, J. D. (2020). Corporate social performance and its

relation with corporate financial performance: International evidence in the banking industry. Journal of cleaner production, 162, 1102-1110.
10. Friede, G., Busch, T., & Bassen, A. (2019). ESG and financial performance: aggregated evidence from more than 2000 empirical studies. Journal of Sustainable Finance & Investment, 5(4), 210-233.
11. Miralles-Quirós, M. M., Miralles-Quirós, J. L., & Redondo-Hernández, J. (2019). The impact of environmental, social, and governance performance on stock prices: Evidence from the banking industry. Corporate Social Responsibility and Environmental Management, 26(6), 1446-1456.
12. Ofori, D. F., S-Darko, M. D., & Nyuur, R. B. (2018). Corporate social responsibility and financial performance: Fact or fiction? A look at Ghanaian banks. Acta Commercii, 14(1), 1-11.
13. Shakil, M. H., Mahmood, N., Tasnia, M., & Munim, Z. H. (2019). Do environmental, social and governance performance affect the financial performance of banks? A cross- country study of emerging market banks. Management of Environmental Quality: An International Journal.
14. Shen, C. H., Wu, M. W., Chen, T. H., & Fang, H. (2016). To engage or not to engage in corporate social responsibility: Empirical evidence from global banking sector. Economic Modelling, 55, 207-225.
15. Soana, M. G. (2011). The relationship between corporate social performance and corporate financial performance in the banking sector. Journal of business ethics, 104(1), 133-148.
16. . Wu, M. W., & Shen, C. H. (2020). Corporate social responsibility in the banking industry: Motives and financial performance. Journal of Banking & Finance, 37(9), 3529-3547.
17. Kurnaz N. and Chestnut A. (2019). "The Relationship Between Economical Analysis of Corporate Sustainability and Investor Behaviors: An Application in the BIST Sustainability Index", Journal of Social Sciences, July, 49, 278-302.
18. Kutut V., Zavadskas E. and Lazauskas M. (2020). "Evaluation of Priority Alternatives for Conservation of Historic Buildings Using Model Based on ARAS and AHP Methods", Archive of Civil and Mechanical Engineering, 14 (2), 287-294.
19. Mulliner E., Smallbone K. and Maliene V. (2019). "Assessment of Sustainable Housing Affordability Using a Multi-Criteria Decision Making Method", Omega, 41 (2), 270- 279.
20. Ömürbek N. and Eren H. (2020). "Evaluation of Ratio Analysis Results with PROMETHEE, MOORA and COPRAS Methods: An Application", Mehmet Akif Ersoy University Journal of Social Sciences Institute, 8 (16,), 174-187.
21. Ömürbek N. and Aksoy E. (2021). "Performance Evaluation of an Petroleum Company with Multi-Criteria Decision-Making Techniques", Süleyman Demirel University Faculty of Economics and Administrative Sciences Journal, 21 (3), 723-756.
22. Ömürbek N., Karaatlı M. and Balcı H.F. (2020). "Performance Evaluation of Automotive Companies with Entropy Based MAUT and SAW Methods", Dokuz Eylül University, Journal of Dokuz Eylül University Faculty of Economics and Administrative Sciences, 31 (1), 227-255.
23. First S., Onay A. and Yeşilçelebi G. (2019). "Corporate Sustainability Reporting and the Situation in Turkey", Journal of Economics, Finance and Accounting, 2 (2), 230- 252.
24. Özçelik F. and Avcı Öztürk B. (2021). "Assessing the Sustainability Performance of Banks in Turkey with Gray Relational Analysis", Journal of Accounting and Finance, July, 63, 189-210.
25. Ozdagoglu A. (2021). "The Effect of Normalization Techniques on Results in Multi- Criteria Decision-Making Models: COPRAS Example", Eskişehir Osmangazi University Journal of FEAS, 8 (2), 229-252.
26. Ozdagoglu A. (2020). "Comparison of Eccentric Press Alternatives for Manufacturing Companies with COPRAS Method", Gümüşhane University Electronic Journal of Social Sciences, 4 (8), 1-22.

RƏQƏMSAL MÜHASIBATLIQ VƏ AZƏRBAYCANDA TƏTBIQI

JALƏ NADIROVA
Bakı Mühəndsilik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi/Biznesin təşkili və idarə edilməsi
jale.nadirova5@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Rəqəmsallaşmanın surətlə yayılması və hər yerdə tətbiqi dünyada qloblallaşmanın nəticəsi olaraq qəbul edilə bilər. Rəməqsallaşma iqtisadiyyatda köklü dəyişikliklərə yol açdı Müəssisələrin marketinq siyasəsiti, müştərilərin tələbləri və s. dəyişdi. Bu dəyişikliklər peşələrə təsirsiz ötüşə bilməzdi. Bir çox peşələr tamamilə yox olmağa məcbur oldu, qalan peşələr isə rəqəmsallaşdı. Artıq rəqəmsal vasitələr bütün həyatımızı zəbt edib. Sadəcə iş həyatımızda yox, sosial həyatımızda da bunu görmək mümkündür.

Rəqəmsallaşmanın müsbət cəhətləri olduğu kimi mənfi təsirləri də var. Məsələn rəqəmsallaşma sayəsində yox olmağa məhkum peşə sahibləri işsiz qaldığı kimi digər sahələrdə də işçi sayı azaldıldı. Çünki rəqəmsal vasitələr bir neçə insanın işini bir insanın görməsinə şərait yaratdı. Ancaq bununla birlikdə yeni peşələr ortaya çıxdı.

Bu məqalədə rəqəmsallaşmağa məcbur olan peşələrdən biri olan mühasibatlıqdan bəhs olunacaq. Mühasibatlığa rəqəmsallaşmanın təsirlərinə, mühasiblər üçün yaratdığı problemlərə toxunacağıq. Azərbaycanda rəqəmsal mühasibatlığın hansı dərəcədə tətbiq olunduğundan bəhs edəcəyik.

AÇAR SÖZLƏR: Rəqəmsal mühasibatlıq-1, rəqəmsal iqtisadiyyat-2, texnologiya-3

GIRIŞ

Mühasibatlıq istənilən sahədə, hətta qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan təşkilatlarda çox böyük əhəmiyyətə sahibdir. Şirkətlər də öz fəaliyyətlərində irəli getmək istəyirsə şəffaf və surətli işləyən mühasibatlıq bölməsinə sahib olmalıdı. Mühasibatlığa rəqəmsallaşmanın etdiyi təsirlər və yaratdığı dəyişikliklər yekunda Rəqəmsal mühasibatlıq anlayışını ortaya çıxartdı. Rəqəmsal mühasibatlıq bütün dünyada surətlə yayıldı. Azərbaycanda tətbiq edilən rəqəmsal mühasibatlıq mühasiblər üçün ilk başda çox çətinlik yaratdı. Ancaq şirkətlər kağız mühasibatlıqdan rəqəmsal mühasibatlığa keçid dövrünü tamamlamalı və mühasiblər də buna uyğunlaşmalıdır.

Biz rəqəmsal mühasibatlığın Azərbaycanda necə və nə dərəcədə tətbiq edildiyi barədə məlumat verməyə çalışacağıq. Rəqəmsal mühasibatlığın tətbiqinin burda mühasiblər üçün yaratdığı çətinliklər indiki dövrdə ən çox araşdırılmalı olan mövzulardan biridir. Çünki rəqəmsal mühasibatlığın tam tətbiqini və tətbiqinin effekt verməyini istəyiriksə mühasiblər üçün yaranan problemlər aradan qaldırılmalıdı.

TƏDQIQAT METODU

Rəqəmsallaşma

Texnologiya inkişaf etdikcə gündəlik həyata keçirtdiyimiz əməliyyatların əksəriyyəti də rəqəmsal texnologiya vasitəsi ilə həyata keçirilməyə başladı. Və dövrün tələbi ilə iqtisadiyyat rəqəmsallaşdı. Bank sahəsində rəqəmsallaşma surətlə gedir. Əvvəllər ən sadə əməliyyatlar üçün banka yaxınlaşmalı olurduqsa indi artıq "online banking" var. Online banking bu məcburiyyəti aradan qaldırdı. Əksər əməliyyatları online formada istənilən yerdə və istənilən vaxt mobil telefon vasitəsilə həyata keçirə bilirik. Bununla da biz həm vaxtımıza qənaət edə, həm də istədiyimiz əməliyyatları daha rahat formada reallaşdıra bilirik.

Beləliklə texnologiyanın həyatımıza surətlə inteqrasiya etməsi və iqtisadiyyatı cənginə alması bir çox sahələri rəqəmsallaşmağa məcbur edirdi. Belə bir dövrdə şirkətlər rəqəmsallaşmadan qaça bilməzdi. Rəqabətin artması ilə şirkətlər fəaliyyətini davam etdirə bilmək üçün rəqəmsal vasitələrdən istifadə etməyə başladılar. Bu sadəcə məlumatların komputerdə qeyd edilməsi ilə bitmirdi. Rəqəmsal vasitələrdən şirkətin bütün bölmələrində istifadə edilməli idi. Ancaq bu halda effekt verə bilərdi. Hansısa bölmə rəqəmsal vasitələrdən istifadə etməsə ümumi işin gecikməsinə səbəb olardı. Rəqəmsal iqtisadiyyatda surət uğur qazanmaq üçün vacib amillərdən biridir.

İstehsalatda, xidmət sahələrində müasir texnologiyadan istifadə etmək məcburiyyəti dövrün tələbidir. İstehsal zamanı müasir texnologiyadan istifadə edən şirkətlərin məhsulları daha çox rəğbət qazanır. İstehsalda insan faktorunun azaldılması həm də maliyyəti aşağı salır. Maliyyəti aşağı salmaqla bərabər rəqəmsal texnlogiyadan istifadə istehsalı da surətləndirir. İstehsal xətalarının da azalmasına səbəb olan rəqəmsal vasitələr xidmət sahəsində də köklü dəyişikliklərə yol açdı. Hətta xidmət sahələrində artıq insan yerinə robotdan istifadə edirlər. Buna nümunə olaraq Yaponyada olan robot otel Henn-na Hotel i göstərmək mümkündür.

Şirkətlərin rəqəmsal vasitələrdən istifadə etməsinin ən əsas səbəblərdən biri müştərilərdir. Bunu məhsullar üçün çəkilən reklamlarda istifadəsinə üstünlük verilən məlumatlarda da görmək mümkündür."İnsan əli dəymədən" bu ifadə bir çox məhsulun reklamında istifadə olunur. Bununla insanlarda həmin məhsula qarşı inam yaratmaq istəyirlər. Çünki bu formada istehsal olunan məhsulların daha təmiz və gigenik olduğu düşünülür.

Rəqəmsallaşmanın bu qədər surətlə getməsinin səbəbi təkcə bunlar deyildi. Son dövrlərdə Covid virusunun yayılması da rəqəmsallaşma prossesini surətləndirdi. Pandemiyanın çox yayıldığı dövrdə sərt karantin rejimi tətbiq edildikdə uzaqdan işləmək məcburiyyəti yarandı. İnsanların bir-birilə olan təmasının azalması virusun yayılmasının qarşısını almaq üçün alınmalı olan tədbirlərdən biri idi.

Hər bir insan istər istəməz pul əskinazlarından gün ərzində çox istifadə edirdi. Dünyada kartla olan ödənişlər artsa da bizdə hələ də bu göstərici çox aşağı idi. Dövlət nağdsız ödənişlərin artırılması üçün insanları təşviq etməyə başlamışdı. ƏDV geri alda nağdsız ödənişlərdə 15 % geri qaytarıldığı halda nağd olan ödənişlərdə daha az 10% geri qaytarılması nağdsız ödənişlər üçün dövlət tərəfindən olan təşviqlərə

nümunə olaraq göstərilə bilər. İndi nağdsız ödənişlər artıq nağd ödənişlərə nisbətdə daha çox həyata keçirilir.



Rəqəmsal mühasibatlıq

Şirkətlərin rəqəmsal texnologiyalardan istifadə etməyə məcbur olması daxildəki bütün bölmələrini rəqəmsallaşmağa məcbur etdi. Bu bölmələrdən biri də mühasibatlıqdır. Mühasibatlıq şirkətlərdə ən əhəmiyyətli strukturlardan biridir. Belə ki şirkətin fəaliyyəti ilə bağlı bir çox qərarlar mühasibatlığın verdiyi məlumatlar əsasında qəbul olunur. Mühasibatlığın verdiyi məlumatlara sadəcə şirkət rəhbərləri yaxud da sahibkarlar yox, həm də müştərilər baxmaq istəyir.

Şirkətdə gün ərzində rutin olaraq həyata keçirilən əməliyyatların avtomatik olaraq qeydiyyata alınması mühasiblərin işini yüngülləşdirir. İndiki dövrdə mühasibatlıqda uğurun sirri rəqəmsal mühsaibatlıqdır.

Rəqəmsal mühasibatlığın təsirləri və Azərbaycanda tətbiqi

Azərbaycan da digər ölkələr kimi indiki dövrə uyğunlaşmalı və müasir texnologiyadan istifadə etməyə məcbur idi. Bu qloballaşmanın nəticəsidi. Dövrün tələbi olan rəqəmsallaşma burda da iqtisadiyyatı və sosial həyatı cənginə aldı. Rəqəmsal iqtisadiyyatın getdikcə hakim olduğu yerdə təbii ki, müəssisələrdə də bütün bölmələr rəqəmsallaşmalı oldu. Belə ki, Azərbaycanda da mühasibatlıq sahəsi rəqəmsallaşdı. Ümumi olaraq Azərbaycanda mühasibatlıq sahəsində istifadə olunan rəqəmsal vasitələr bunlardır: E-Qaimə(Elektron hökumət portalı), BTP, mühasibatlıq proqramları, online banking, Asan imza və s.

Mühasibatlıq sahəsinin rəqəmsallaşmasının müsbət cəhətləri çoxdur. Məlumatların avtomatik olarak proqram vasitəsi ilə qeydiyyata alınması prossesin surətlənməsini təmin edir. Bununla yanaşı qeydiyyata alınmış məlumatların arxivdə saxlanılmasının maliyyəsini də aşağı salır. Həm də arxivdəki məlumatları daha asan formada tapmağımıza və yaxud istifadə etməyimizə də imkan yaradır. Kağız mühasibatlıq dövründəki kimi böyük arxiv otaqlarına və işçilərinə ehtiyac qalmır. Əlavə olaraq isə proqramda arxivlənmiş məlumatları daha uzun müddət saxlanmaq mümkündür. Kağızda saxlanılan məlumatların vaxt keçdikcə zərər görmə və sənədlərin istifadəyə yararsız hala gəlmə ehtimalı çox yüksəkdir.

Kağız mühasibatlıqda baş kitab tərtib olunurdu və ondan sonra yoxlama balansı baş kitabın əsasında tərtib olunurdu. Sonra yoxlama balansına əsasən balans hesabatı tərtib olunurdu. Bunların hamısı vaxt və əmək tələb edirdi. İndi isə mühasibatlıq proqramı ilə bütün hesabatlar daha asan formada tərtib edilir.

Mühasibatlığın rəqəmsallaşması şəffaflığın təmin olunmasını da təmin edir. Kağız mühasibatlıq dövründə hesabatlar tərtib olunduqdan sonra Nazirliyə fiziki olaraq təhvil verilirdi. Ancaq 2007-ci ildən sonra hesabatlar bu formada təqdim edilmədi. Rəqəmsallaşmanın nəticəsi olaraq artıq hesabatlar online formada göndərilməyə başlandı.Vergilər Nazirliyinə təqdim olunan hesabatların elektron formada göndərilməsi ilə bağlı 27 iyul 2007-ci il tarixində Nazirlər Kabineti tərəfindən qərar qəbul olundu. Bundan sonra istifadəyə verilmiş BTP proqramı vasitəsi ilə hesabatlar verilməyə başlandı. Son günlərdə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi və şəffaflığın təmini məqsədi ilə "e-mühasibat" electron portalının yaradılması planlaşdırılır. Bu portal vasitısi ilə Maliyyə Nazirliyinə təqdim olunmalı olan hesabatlar hazırlanacaq. Bu plan öz əksini 4 aprel 2022-ci il tarixində Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nında tapıb. Portalın yaradılması ilə bağlı işlər Maliyyə Nazirliyinə həvalə olunub.

Mühasibatlığın rəqəmsallaşması mühasiblərin işini sürətləndirsə də onlar üçün yaratdığı problemlər də gözdən qaça bilməz. Məsələn əvvəlcə mühasiblər sadəcə Mühasibat uçotunu və Vergi məcəlləsini bilməklə

işləyə bilirdilərsə indi bunlar kifayət etmir. Artıq istifadə olunan proqramları bilmədən iş tapmaq hardasa imkansızdı. Mühasibatlıqda 1 C, SAP, Logo, Günəş və s. kimi proqramlar istifadə olunur. Mühasibatlığın rəqəmsallaşdığı dövrdə mühasiblər bu proqramlardan hər hansısa birini bilməlidi ki, iş tapa bilsinlər. Bəzi universitetlərdə bu proqramlardan birinin dərsini keçirlər , ancaq belə bir problem var ki, bu proqramlar praktikada daha yaxşı öyrənilə bilər. Proqramlardan birini öyrənmək də kifayət etmir, çünki hər şirkət bir proqramla işləyir. Mühasib bir şirkətdə proqramın biri ilə işləməyi öyrənir, təcrübəsi yaranır. Əgər bir gün işini dəyişmək istəsə artıq bildiyi proqramla işləyən şirkət tapmalı olur. Əgər ölkədə az istifadə olunan proqramla işləmişdisə iş tapmağı daha da çətinləşir. Ən yaxşı halda kursa gedib öyrəndikdən sonra iş tapa bilir. Bu rəqəmsallaşmanın mühasiblərə yaratdığı əlavə problemdi.

Təcrübəli işçi hər zaman tələb olunub ancaq rəqəmsal mühasibatlıqda bu tələb daha çox əhəmiyyət kəsb edir. Bunun səbəbi proqramların öyrədilməsi zaman alır. Buna görə də təcrübəsiz işçilər işə alınmır.

Mühasiblər üçün bəzən problemə çevrilən bu proqramlar yeni iş yerlərinin yaranmasına səbəb olub. Proqramlar üzrə mütəxəssislərə çox böyük tələbat yarandı. Proqramist proqrama konfiqurasiya verdikdən sonra proqramda dəyişikliklər edilməli də olur. Əlavə bölmələr yaradıla bilər və s. Sadəcə mühasibatlıq üzrə olan proqramlarla bağlı deyil Office proqramları ilə bağlı mütəxəssislərə də ehtiyac artıb. Mühasibatlıqda Excel proqramı da çox istifadə olunur. Hətta bəzi şirkətlər bütün hesabatı, əməliyyatları Excel proqramında aparırdılar. Azərbaycanda hələ də Excellə işləyən şirkətlər var. Ancaq Excellə işləmək daha çətindi, çünki səhv etmək ehtimalı çox, səhvi tapmaq isə daha çətin olur.

Rəqəmsal mühasibatlıq işsizliyin artmasına səbəb olur və işsizliyi artıracağı qaçınılmazdı. Kağız mühasibatlıq dövründə bir neçə mühasibin gördüyü işi tək bir mühasibin görməsi mümkündür. Məsələn şirkətə gələn E Qaimənin bizə düz kəsilib kəsilmədiyini yoxlamağı əvvəl manual etmək mümkün idisə, indi bütün qaimələri proqramın bir anda yoxlayıb düz olanları sistemə daxil edə bilməsi vaxta və əməyə qənaət edilməsinə şərait yaradır.

NƏTICƏ

Azərbaycanda kağız mühasibatlıqdan rəqəmsal mühasibatlığa keçid dövrü demək olarki bitib. Hələ də bəzi məlumatlar kağızda saxlanılır. Buna bir müddətdən sonra ehtiyac qalmayacaq.

Mühasiblər üçün rəqəmsal mühasibatlığın yaratdığı ən böyük çətinliklərdən biri olan mühasibatlıq proqramları və onların sayının çox olmasıdır. Şirkətlər yeni işçi axtaranda proqram biliyi tələb etməsə və ya istifadə edilən proqramların sayı azalsa bu problem də aradan qalxar.

ƏDƏBİYYAT

1. "Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası"nın təsdiq edilməsi barədə; https://e-qanun.az/framework/13696
2. Shawnie Kruspof, Charlotta Lobbas, Hanna Meinnander, Kira Soderling, Minna Martikainnen, Othmar Lehmer: ACRN Journal of Finance and Risk Perspectives, Journal of Digital accounting and the Human Factor: Theory and Practice. 27 May 2020 Pages 78-89
3. Kornchai PHORNLAPHATRACHAKORN, Khajit NA KALASINDHU :Digital Accounting, Financial Reporting Quality and Digital Transformation: Evidence from Thai Listed Firms, Journal of Asian Finance, Economics and Business Volume 8 No 8 (2021) Pages 0409–0419
4. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı: https://president.az/az/articles/view/55719
5. John Quiggin, National Accounting and the Digital Economy, Journal of Twenty-third Colin Clark Memorial Lecture, 14 Noyabr 2013.

ELM FƏLSƏFƏSİ PRİZMASINDA İQTİSAD ELMİ KİMİ "MALİYYƏ+DATA ELMİ"

KAMRAN ƏSGƏROV
Magistr, Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi,
kamranasgerov28@gmail.com

Xülasə

Demək olar ki, maliyyə mahiyyətcə texniki sahədir və "maliyyə" bir elm kimi daha çox iqtisadiyyat və təbiət elmlərinin metodoloji dəstəyi ilə mövcuddur.

İnsan yaradıcılığı olduğunu inkar etsə də, sosial elmlərin bir alt qolu və uzantısı olan "maliyyə"nin iqtisadiyyatda öz kökləri və sərhədləri var: "İqtisadiyyatın" öyrənmə vasitəsi və sahəsi olan pul və bazar, əmtəələrin istehsalı, paylaşılması və istehlakı kimi geniş prosesi araşdıran. Bu araşdırma iqtisadiyyata əsaslanan "maliyyə" nin sosial elmlərdəki anlayışlar və müzakirələr kontekstində tənqidi qiymətləndirilməsini hədəfləyir.

Tədqiqatda elm fəlsəfəsindəki müvafiq müzakirələrə istinad edilməklə, ilk növbədə "maliyyə"nin yer aldığı sosial elm və onun qarşılıqlı əlaqədə olduğu iqtisadiyyat elmi vurğulanır, daha sonra maliyyənin elmi mövqeyi və problemləri qiymətləndirilir. Nəhayət, "maliyyə"nin öz gələcəyi haqqında uzaqgörənliyi əldə etmək üçün müxtəlif yanaşmalar və təkliflər verilir.

Açar sözlər: *elm fəlsəfəsi, sosial elmlər fəlsəfəsi, iqtisadiyyat, maliyyə, maliyyənin mahiyyəti*

GİRİŞ

Cəmiyyətin bütün fərdlərinin gündəlik həyatda qəbul etdikləri və bütün fərdləri əhatə edən qərarlar əsasən iqtisadi qərarlardır. Ümumiyyətlə, qeyd etməliyik ki, ən azı, bizim dövrümüzdə belə şərh olunur: Çox vaxt fərdlər mübadilə üçün münasibətlər qurur və ailə mühütündən dövlətə qədər bu münasibət ətrafında sosial strukturlar formalaşır. Bu, iqtisadiyyatın sosial həyatın mərkəzində olduğunu göstərir. İqtisadiyyat sözünün mənşəyi "oikos-nomos"dur, yunanca ev təsərrüfatı deməkdir (M.S. Məmmədov, 2000).

Eyni mənada işlənən "iqtisadiyyat" ərəbcə qənaət deməkdir. Buradan da başa düşüldüyü kimi, iqtisadiyyat elmi və ya elmi olmayan bütün fərdləri maraqlandıran, hər kəsin rəy bildirdiyi bir sahədir. Maliyyə isə pul ticarəti ilə əlaqəli maliyyə, pul deməkdir. Bu tərifl "maliyyə" yuxarıda qeyd olunan iqtisadiyyatın ümumi xarakteristikasına malik olsa da, "iqtisadiyyat"ın törəməsi kimi qəbul edilə bilər. İqtisadiyyat dünyadakı istehsal, bölgü və istehlak proseslərini və bu proseslərdə fərdlərin, qurumların və cəmiyyətlərin davranışlarını araşdıran sosial elmdir.

Tarix bir sosial elm kimi siyasi, sosial və mədəni inkişaflarla bağlıdır. Mövcud iqtisadi nizamda, pul mübadilələrinin və bazarların meydana gəldiyi strukturda maliyyə iqtisadiyyatın əsas fəaliyyətində alət və iqtisadi münasibətləri əks etdirən güzgü kimi görünə bilər.

Maliyyənin iqtisadiyyatın fəaliyyətində prosedur aləti olması və güzgü bənzətməsi onun passiv strukturunun təmsili kimi qəbul oluna bilər ki, bu da onun digər sosial elementlərin, əsasən də iqtisadiyyatın üstünlük təşkil etməsini nəzərdə tutur. Bu halda demək olar ki, "maliyyə" elmi tədqiqat sahəsi kimi "iqtisadiyyat" və digər ictimai elmlərdən ayrı nəzərdən keçirilə bilməz.

Tədqiqat Metodu

Tədqiqat işində iqtisadi statistik təhlil, qruplaşma və müqayisə, sistemli təhlil və.s metodlardan istifadə edilmişdir.

Statistik iqtisadi analiz üçün məlumatlar müxtəlif statistik mənbələrdən götürülür və eyni zamanda sosioloji müşahidələr nəticəsində əldə edilir. Statistik analiz tamamlanmış və qismən ola bilər.

Elmi düşüncə və müasir elm

Maliyyə dünyası həmişə məlumatlarla bağlı olub. Hətta iddia etmək olar ki, maliyyə mütəxəssisləri məlumat elmi, maşın öyrənməsi və süni intellektin yaranmasından əvvəl də gündəlik əməliyyatlarında məlumatlardan istifadə edirdilər. Ən əhəmiyyətli sübut 1958-ci ildə FICO skorlarının inkişafıdır.

Hesablama emal imkanlarında irəliləyişlər, böyük məlumatlara çıxış asanlığı və mürəkkəb alqoritmik modellərin inkişafı yalnız maliyyə mütəxəssisləri tərəfindən ML və AI-nin sürətlə mənimsənilməsinə xidmət etdi. Təəccüblü deyil ki, ABŞ-ın ən böyük bankı və ümumi aktivlərinə görə dünyanın 7-ci ən böyük bankı olan JPMorgan Chase & Co, yeni texnologiyalara ildə 11 milyard dollar sərmayə qoyur (S. Məmmədov, M. Sadıqov, 2010).

Məlumat elminin maliyyə mütəxəssislərinə və maliyyə institutlarına daha təsirli və səmərəli olmasına kömək etdiyi xüsusi istifadə hallarına baxaq.
Müştəri məlumatlarının təhlükəsizliyinin təmin edilməsi və fırıldaq əməliyyatlarının minimuma endirilməsi maliyyə institutunun davam edən əməliyyatları üçün mühüm əhəmiyyət kəsb edir və adətən tənzimləyici orqanlar tərəfindən icra edilir və tələb olunur. ML alqoritmləri tarixi məlumatlardan öyrənə və qeyri-adi davranışları, nümunələri və ya əməliyyatları müəyyən edə bilər. Belə alqoritmlərə aşağıdakılar daxildir.
Müasir elmi mənalandırmaq üçün elmi fikrin mərhələlərini, qollarını və anlayışlarını nəzərdən keçirmək faydalıdır. Qədim dövrlərdən bəri davam edən mübahisələrdə anlayışlar müxtəlif olsa da, müasir elm anlayışına çatana qədər müəyyən məqamlar həmişə ön planda olmuşdur.
Leybnisə görə, empirik bilik faktiki həqiqət və ağıl biliyi ilə birlikdə nəzərdən keçirilməlidir. Ağlın biliyi tarixi bilikdə istifadə olunmur və ona görə də etibarlı deyil. Tarixi bilik ehtimal biliklərdir. Bunun doğru olub-olmaması dəqiq bilinə bilməz. Təfəkkür tarixində Tarix anlayışı ilə tarixdə bir sonluq axtarmaq və sonluğa çatmaq, nəticədə daimi və dəyişməz qanunlara hakim olmaq meyli açıq şəkildə müşahidə olunur.
Alman idealizmi "mənəvi qanunlara", Aguste Comte "pozitiv qanunlara", Marks isə "maddi qanunlara" önəm vermiş və bu tarixi axının müəyyən istiqamətdə getdiyini irəli sürmüşdür. Bu məqamda Herderin tarixə baxışı mühümdür: Tarix xətti bir yolla getmir, o, dəyişkən bir məcradadır.

Sosial elm kimi iqtisadiyyat

İqtisadiyyat elmində hökmranlığını davam etdirən modernist baxışa görə, bilik yalnış obrazların arxasında gizlənən reallığın "mahiyyətini" üzə çıxaracaq və onu düşüncədə təmsil edəcək dərəcədə dəqiq elmidir.
Buna görə də, biliyin istifadəsi bilik istehsalı və "yoxlama" prosesindən asılı olmayaraq texniki məsələ kimi nəzərdən keçirilir; Beləliklə, biliyin tətbiqi prosesində yaranan sosial faydalılıq problemi, yəni biliyin istifadə dəyəri biliyin epistemik dəyərinin kölgəsində qalır (T. Benton, I. Craib, 2018).
Bununla belə, biliyin istehsalı və istifadəsi arasında gizli və açıq, ikitərəfli, mürəkkəb və ayrılmaz qarşılıqlı əlaqələr mövcuddur; İqtisadi fikir öz tarixi kontekstində problemlərə reaksiyalara görə inkişaf etdiyi halda (məsələn, Adam Smitin yazıları merkantilistlərə reaksiyadır), bu fikirlər də tarixə təsir edə bilər (məsələn, Karl Marksın fikirləri).
Bu vəziyyətə baxmayaraq, biliyin dəyərini yalnız doğru/yanlış oxuna çəkən qnosemik perspektiv, məsələn, iqtisadi düşüncənin hansı formalarının cəmiyyətin xeyrinə olduğunu müzakirə etməyi lazım görmür.
Məqalədə qeyd olunan bazar tərifi görünməz əl qaydaları ilə iqtisadiyyat elminə istinad edilir; İqtisadiyyatın məhsulları iqtisadi nizamın çevrilməsində rol oynayır. Təbiət elminin metodologiyasına ziddiyyət bu əsas məqamdan başlayır. İqtisadiyyat elmi hər cəhddə müşahidə etdiyi mühitə müdaxilə edir və eksperimental quruluşu manipulyasiya edir - könüllü və ya qeyri-iradi (T. Benton, I. Craib, 2018).

Data elmi və maliyyə

Data maliyyəyə bir neçə yolla tətbiq oluna bilər. Bir neçə nümunəyə fırıldaqçılığın qarşısının alınması, risklərin idarə edilməsi, kreditlərin ayrılması, müştəri analitikası və alqoritmik ticarət daxildir.

Fırıldaqlığın qarşısının alınması

Ənənəvi dələduzluğun aşkarlanması qeyri-adi əməliyyatları müəyyən edən qaydaya əsaslanan modellərdən istifadə edir. Bu modellər eyni vaxtda milyonlarla əməliyyat baş verdikdə pozulmuş qaydalara və ya saxta fəaliyyətlərə əsaslanan qanuni əməliyyatları qeyd edir.
Əksinə, maşın öyrənməsi istifadəçi davranışı və saxtakarlıq ehtimalı arasında gizli korrelyasiya tapmaq üçün çoxlu dəyişənlərlə böyük verilənlər toplusunu emal edən alqoritmlər yaradır.
Maşın öyrənmə üsullarından və böyük məlumat analitikasından istifadə edərək, banklar və digər maliyyə xidmətləri firmaları möhtəkir ticarət, qırmızı ticarət və tənzimləmə pozuntuları da daxil olmaqla saxta fəaliyyətləri aşkar etmək və qarşısını almaq üçün yüksək səmərəli sistemlər yaradır (J. Brockman, 2017).

Risklərin idarə edilməsi

2008-ci il maliyyə böhranı ənənəvi risklərin idarə edilməsi alətlərində zəifliyi üzə çıxarmış və artan maliyyə tənzimlənməsinə və risk götürmə məhdudiyyətlərinə səbəb olmuşdur. Məlumat elmi şirkətlərə yeni strukturlaşdırılmamış məlumat mənbələrinin real vaxt rejimində risk aşkarlama sistemlərinə daxil edilməsini təmin etmək üçün böyük verilənlər analitikasından və maşın öyrənməsindən istifadə edərək təşkilat daxilində riski ölçmək və idarə etmək üçün daha yaxşı yollar tapmağa kömək edir. Kredit və bazar riskləri və qiymətləndirmələri daha dəqiq simulyasiya edilə bilər ki, bu da banklara və maliyyə firmalarına təşkilat daxilində riskləri proaktiv şəkildə izləməyə kömək edir.

Kreditlərin ayrılması

Maliyyə nəticələrinin uçotu və təhlili bütün hüquqi formalı müəssisələr, o cümlədən MMC üçün məcburi prosedurlardır. Maliyyə nəticələri haqqında məlumat şirkətin kommersiya fəaliyyətinin hərtərəfli

qiymətləndirilməsi üçün lazımdır. Bu məlumatlar sahiblər və rəhbərlər üçün düzgün idarəetmə qərarları qəbul etmək üçün vacibdir. Bundan əlavə, investorlar, banklar, sığorta şirkətləri və tənzimləyici orqanlar adətən bu cür məlumatları tələb edirlər.

Vebsayta daxil olan və ya qeydiyyatdan keçən hər bir şəxs rəqəmsal iz adlanan məlumat izi buraxır. Böyük verilənlər və yüksək hesablama gücü ilə dəstəklənən maşın öyrənmə alqoritmləri, yeni amillər və müştəri davranışı arasında əvvəllər məlum olmayan əlaqələri açmaq üçün rəqəmsal izləri təhlil edə bilər. Bu anlayışlar kreditin ayrılmasına təsir göstərə bilər və müştərinin krediti qaytarma ehtimalını proqnozlaşdırmaqda ənənəvi kredit skorinq modellərindən üstün ola bilər (J. Brockman, 2017).

Müştəri Analitikası

Bir çox maliyyə institutları müştəri təcrübəsini və fərdiləşdirməni əsas prioritet hesab ediblər. Məlumat elminin köməyi ilə onlar daha yaxşı strateji biznes qərarları qəbul etmək və ya istehlakçılara bankçılıq və ya investisiya üstünlükləri əsasında tövsiyələr təklif etmək üçün real vaxt analitikasının köməyi ilə baş verən müştəri davranışı haqqında fikir əldə edə bilərlər.

Məsələn, sığortaçılar istehlakçı davranışının səbəblərini başa düşmək, sıfır dəyəri olan müştəriləri aradan qaldırmaqla itkiləri azaltmaq, çarpaz satış imkanlarını artırmaq və müştərilərin ümumi ömür boyu dəyərini ölçmək üçün nəzarət edilən maşın öyrənməsindən istifadə edirlər (J. Brockman, 2017).

Müştəriləri başa düşmək üçün banklar və maliyyə firmaları da nəzarətsiz maşın öyrənməsinə müraciət edirlər, burada qruplaşma üsullarından istifadə etməklə oxşar davranışlı müştəri qruplarını müəyyən etmək olar.

Alqoritmik Ticarət

Alqoritmik ticarətdə mürəkkəb riyazi düsturlar və yüksək sürətli hesablamalar maliyyə şirkətlərinə yeni ticarət strategiyaları hazırlamağa kömək edir. Artan və yeni məlumat axınları şəklində daha böyük data alqoritmik ticarət modelləri üçün davamlı problemlər yaradır. Bu cür modellər əsas məlumat axınlarını ölçür və təsvir edir. Analitik mühərrik kütləvi məlumat dəstlərini tez bir zamanda daxil edərək və emal edərək bazar proqnozlarını verir. Başqa bir tətbiq bazar iştirakçılarının şəxsiyyətini müəyyən etmək üçün proqnozlaşdırıcı maşın öyrənmə üsullarından istifadə etməyi əhatə edir.

Maliyyədə Data Elminin Nümunələri

Məlumat elmi maliyyəyə tətbiq edildikdə, birləşmə müxtəlif formalarda maliyyə məlumatlarından anlayışlar çıxarmaq üçün sistemlər və proseslərin qurulmasına kömək edir. O, risk təhlili və anomaliyaların aşkar edilməsini əhəmiyyətli dərəcədə təkmilləşdirərək, saxta əməliyyatları və çirkli pulların yuyulması fəaliyyətlərini aşkar etmək qabiliyyətinin tanınmış təkmilləşməsinə gətirib çıxarmışdır. Maliyyə xidmətləri firmalarının və banklarının maliyyə məlumatları elmindən necə istifadə etdiyinə dair real dünya nümunələri:

Müştəri xidmətləri sahəsində, perspektivli banklar və fintechlər müxtəlif məlumat elmi alqoritmlərindən istifadə edərək, onların əməliyyat və davranış məlumatlarını təhlil edərək müştərilərinə daha yaxşı xidmət göstərirlər.

Dünyanın ən böyük banklarından bəziləri əvvəlki müştəri alışları, tapşırıqları və onlara ən uyğun olan hesablar haqqında məlumat əldə etmək üçün artıq məlumat elmindən istifadə edirlər. İndi onlar ilk növbədə investisiya məhsulları, sığorta təminatı, bank hesabları, ipoteka və maraqlarını əks etdirən digər məhsullar haqqında bildirişlər alırlar.

NƏTİCƏ

Son onillikdə hesablama və informasiya texnologiyalarında baş verən son partlayış, Big Data olaraq adlandırılan müxtəlif domenlərdə böyük həcmdə məlumat əldə etməyə imkan verdi. İqtisadiyyat və maliyyə sahələrində, xüsusən də bu məlumatlara toxunmaq tədqiqat və biznesi bir-birinə yaxınlaşdırır, çünki adi iqtisadi fəaliyyətdə əldə edilən məlumatlar effektiv və fərdiləşdirilmiş modellər üçün istifadə edilə bilər.

Bu kontekstdə, son vaxtlar iqtisadiyyat və maliyyə üçün məlumat elmi texnologiyalarından istifadə həm alimlər, həm də peşəkarlar üçün qarşılıqlı fayda təmin edir, bir neçə növ tətbiq üçün proqnozlaşdırmanı təkmilləşdirir.

Məlumatların işlənməsi və qorunması, modelləşdirmə, inteqrasiya və şərh kimi əsas texniki çətinliklər vasitəsilə mövzunu təqdim edir. O, həmçinin məlumat elmi texnologiyaları ilə iqtisadi modelləşdirmədə bəzi ümumi məsələləri təsvir edir və iqtisadiyyat, maliyyədə məlumat elmi metodlarından istifadəni motivasiya edən müvafiq böyük verilənlərin idarə edilməsi və analitik həlləri araşdırır

Nəticə olaraq "financial data science" əsasən daha yaxşı risklərin idarə edilməsi və risk təhlili üçün istifadə edilən maliyyə sənayesində çox vacib bir sistemdir. Daha yaxşı təhlil maliyyə institutları üçün mənfəətin

artmasına səbəb olan daha yaxşı qərarlara gətirib çıxarır. Şirkətlər həmçinin biznes kəşfiyyatı alətləri vasitəsilə məlumatların tendensiyalarını təhlil edirlər. Bu baxımdan bu mövzu müasir dövr üçün olduqca aktualdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Məmmədov M.S. (2000), "Azərbaycanın sosial-iqtisadi inkişaf proqramı (2000-2050-ci illər)" kitabı, Bakı, Qanun, 100 s.
2. Məmmədov S., Sadıqov M. (2010), Maliyyə, Dərslik, Bakı, Elm, 145 s.
3. Məmmədov S.M. (1997), Maliyyə, Ali məktəblər üçün dərslik, Azərnəşr, 426 s.
4. Benton T. ve Craib I. (2018). Sosyal Bilim Felsefesi, (çev. Ümit Tatlıcan, Berivan Binay), İstanbul: Sentez, 344 s.
5. Brockman J. (der.) (2017). Kanıtı Olmayan Gerçekler, (çev. Duygu Akın), İstanbul: NTV, 400 s.
6. https://www.schweser.com/fdp/blog/data-science-in-finance#:~:text=Financial%20data%20science%20is%20the,complex%20systems%2C%20communication%20and%20business.

K.Y.Asgarov
Master, Azerbaijan State University of Economics,
International Master's and Doctoral Center,
kamranasgerov28@gmail.com

"FINANCE" AS ECONOMIC SCIENCE IN THE PRISM OF PHILOSOPHY OF SCIENCE

Summary

It can be said that finance is essentially a technical field, and "finance" as a science exists more with the methodological support of economics and natural sciences. Although it denies the existence of human creativity, "finance", a sub-branch and extension of the social sciences, has its roots and boundaries in economics: money and the market, the means and field of study of economics, which examines a broad process such as production, distribution and consumption of goods. This study aims to critically evaluate economics-based "finance" in the context of concepts and discussions in the social sciences.

Referring to the relevant discussions in the philosophy of science, the study first emphasizes the social science in which "finance" takes place and the science of economics in which it interacts, and then evaluates the scientific position and problems of finance. Finally, various approaches and suggestions are made to gain a foresight for the future of "finance".

Keywords: *philosophy of science, philosophy of social sciences, economics, finance, the essence of finance*

К.Ю. Аскеров
Магистр, Азербайджанский государственный экономический университет, Международный магистерский и докторский центр,
kamranasgerov28@gmail.com

«ФИНАНСЫ» КАК ЭКОНОМИЧЕСКАЯ НАУКА В ПРИЗМЕ ФИЛОСОФИИ НАУКИ

Резюме

Можно сказать, что финансы по своей сути являются технической областью, а «финансы» как наука существуют в большей степени при методологическом обеспечении экономики и естественных наук.

Хотя она отрицает существование человеческого творчества, «финансы», подотрасль и расширение социальных наук, имеют свои корни и границы в экономической науке: деньги и рынок, средства и область изучения экономики, которая исследует широкий спектр таких процессов, как производство, распределение и потребление товаров. Это исследование направлено на критическую оценку основанных на экономике «финансов» в контексте концепций и дискуссий в социальных науках.

Ссылаясь на соответствующие дискуссии в философии науки, в исследовании сначала делается акцент на социальной науке, в которой «финансы» имеют место, и экономической науке, в которой они взаимодействуют, а затем оцениваются научная позиция и проблемы финансов. Наконец, выдвигаются различные подходы и предложения, позволяющие предвидеть будущее «финансов».

Ключевые слова: *философия науки, философия социальных наук, экономика, финансы, сущность финансов.*

NEYROMÜHASİBATLIQ

SƏNAN HÜSEYNZADƏ
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə / Mühasibat uçotu və audit
shuseynzade@beu.az
BAKI, AZƏRBAYCAN

ELVİN ƏLƏKBƏROV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə / Mühasibat uçotu və audit
ealakbaraov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

GÜNAY ƏHMƏDLİ
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə / Mühasibat uçotu və audit
gahmedli@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qərar vermə prosesində qərar verənlərin neyroljik vəziyyətləri hər zaman nəticəyə təsir göstərmişdir. Belə ki, elm və texnologiyanın inkişafı nəticəsində tibb elminin inkişafı insanların neyroloji vəziyyətlərini analiz edərək ölçmə imkanı yaratmışdır. Başlanğıcda iqtisadiyyat elmində istifadə olunan bu elmi naliyyət mühasibatlıq elmində də neyromühasibatlıq olaraq yeni tendensiya yaratmışdır. Neyromühasibatlıq, neyrologiya və mühasibatlıq elmlərinin sintezi ilə qərar verənlərin, qərar vermə mərhələlərində obyektivliyini, məntiqliliyini, dəqiqliyini və optimallığını təmin edir. Bu məqalədə neyromühasibatlıq - müəssisə rəhbərlərinin maliyyə hesabatları və qərar vermə davranışlarına təsir etmə məqsədi daşıyır.

AÇAR SÖZLƏR: neyrologiya, neyromühasibatlıq, davranış mühasibatlığı

GIRIŞ

Mühasibat uçotu, müəssisənin iqtisadi fəaliyyəti və vəziyyəti haqqında pulla ifadə olunan və balansda qalan ümumi və xüsusi ədədi məlumatların davamlı olaraq tanınması, qruplaşdırılması, təqdim edilməsi və şərh edilməsi sistemidir. Mühasibat uçotu əsasən, iqtisadi xarakterli iqtisadi aktivlər haqqında kəmiyyət məlumatlarının verilməsini əhatə edən bir sahədir. İqtisadi qərar qəbuletmədə və alternativ fəaliyyətlər arasında rasional seçimlərdə mühasibat uçotundan istifadə olunur. Qısa olaraq, mühasibat uçotu dedikdə məlumatların davamlı və sistemli şəkildə toplanması, tətbiq edilməsi , iqtisadi və maliyyə məlumatlarının təqdim edilməsi üçün əhatəli bir sistem olaraq ifadə edilir(Mackowiak, 2018:158).

Cədvəl 1. Mühasibat uçotunun metodları

Mühasibat uçotunun əhatə dairəsi	İstinad sahəsi	İnsanın qavrayışı
Geniş mənada mühasibat uçotu	İqtisadiyyat, idarəetmə, hüquq	Mühasibat uçotu sisteminin "avtomatik" hissəsi insana və fərdi insan davranışlarına laqeyd yanaşmaqdadır.
Davranış mühasibatlığı	Psixologiya, sosiologiya	Mühasibat uçotunun bu növündə, görünən insan davranışları,münasibatlər və hisslər əsasdır
Neyromühasibatlıq	Biologiya, kimya, tibb	İnsan beynindəki sinir prosesləri neyromühasibatla bağlıdır.

Mənbə: *Mackowiak, (2018:159)*

Cədvəl 1-dən gördüyünü kim, mühasibat uçotunun metodlarından biri də davranış mühasibatlığıdır. Davranış mühasibatlığı, insan davranışlarının psixoloji aspektlərinin uçot prosesinə təsirini öyrənir. Neyromühasibatlıq isə mühasibat uçotunda davranış mühasibatlığı nəticəsində yaramışdır alt metoddur. Bu metodda ən mühüm faktor, insan beynindəki sinir proseslərinin maliyyə hesabatlarında qərar qəbuletmə prosesinə təsirinin qiymətləndirilməsidir.

TƏDQIQAT METODU

Neyrologiya

Neyrologiya, mühasibat uçotu prinsiplərinin, uçot siyasətinin formalaşdırılmasının və məlumatların maliyyə hesabatlarında necə təqdim olunduğunun seçilməsi haqqında əsas anlayışı təmin edir. Neyrologiya tədqiqatı, xüsusi davranış uçotu təcrübələrinin əsasını təşkil edir. Neyrologiyanın mühasibat uçotunda tətbiqi, bazarlar və təşkilatlar daxilindəki maliyyə proseslərini daha dərindən anlamağa gətirib çıxarır (Artienwicz, 2016: 258).

Neyrologiya tədqiqat metodları, tədqiqat aparmaqda və mühasibat uçotu mütəxəssislərinin beyninin, mühasibat uçotunda iqtisadi əməliyyatların təqdim edilməsi, onların qiymətləndirilməsi və müvafiq məlumatların təqdim edilməsi ilə bağlı bir və ya bir neçə qərarın qəbulu nəticəsində yaranan mübahisələri necə həll edə biləcəyini müəyyən etmək üçün önəmlidir (Guptor və Rudžioniene, 2018:29).

Neyrologiya, mərkəzi sinir sistemini (beyin, onurğa beyni və tor qişa) və periferik sinir sistemini (sensor neyronları) təşkil edən bütün neyronlar kimi ifadə edilir. Bu sistemlər, bədənimizin hisslərini və sonrakı hərəkətlərini idarə edir, elektrokimyəvi dalğalara səbəb olan fiziki stimullar mürəkkəb sinir yollarından keçir, xarici mühit şəraiti haqqında məlumat verir və müvafiq olaraq cavabları stimullaşdırır. Neyrologiyanın əhatə dairəsi aşağıda ümumiləşdirilmişdir (Hughes, 2016: 4).

- Emosional neyrologiya: Duyğu, əhval-ruhiyyə və şəxsiyyətlə əlaqəli sinir mexanizmlərini anlamağa çalışır.
- Koqnitiv neyrologiya: psixoloji və idrak funksiyalarının beyin tərəfindən istehsal olunduğu və idarə olunduğu prosesləri araşdırır.
- Sosial neyrologiya: fizioloji sistemlər və sosial proseslər və qarşılıqlı təsirlər arasındakı qarşılıqlı əlaqə ilə məşğul olur, bioloji sistemlərin sosial davranışı izah etməyə necə kömək edə biləcəyini öyrənir.
- İnkişaf neyrologiyası: Qocalma prosesləri ilə sinir sisteminin fizioloji yetişməsini izləyir.

Son zamanlarda neyrologiya, sosial elmlər və davranışlar üzərində tədqiqatların aparılmasında geniş istifadə olunur. Neyrologiya "son qara qutu" üzərinə fokslanmışdır. Beyin, beyin fəaliyyəti və oxşar üsulların görüntülərindən məlumatı təmin edir. Neyrologiya, istifadə olunan nəzəriyyələrin tədqiqinə imkan verən və retrospektiv qərəzliyi aradan qaldıran geniş üsullara istinad edən ümumi bir termindir (Krueger və Welpe, 2014:66).

Neyrologiya (beynin anatomiyası və fiziologiyası) və psixologiyanı (insan şüuru və insan davranışının öyrənilməsi) birləşdirən yanaşma, neyroiqtisadiyyat, neyromarketinq, neyromühasibatlıq, neyroliderlik kimi müxtəlif fənlərarası biznes sahələrini yaratmağa imkan verir. İş dünyası daha sürətli, daha ucuz istehsal vasitələrinə yönələrkən, effektiv liderlik və nəzarət vasitəsilə işçilərindən daha yüksək məhsuldarlıq tələb edir. Neyrologiya aşağıdakı suallara cavab axtarır (Ahmed, 2010:1).

- Beynimizi iş dünyasında necə istifadə edə bilərik?
- Beynə necə sərmayə qoymaq olar?
- Ən yaxşı qərarı necə verə bilərik?
- Beyində effektiv "isti düymələri"-ni necə tapa bilərik?

Bu kimi suallar, biznes və neyrologiyanın müxtəlif yanaşmalar (neyromühasibatlıq, neyroiqtisadiyyat, neyromarketinq) və sahələrinin ortaya çıxmasına səbəb olur. Bundan əlavə, bu yanaşmalar insan qərarları və qərarların verilməsi mərhələsində neyrologiya ilə sıx bağlıdır (Rahayuningsih, 2018:23; Ahmed, 2010:2).

Neyromühasibatlıq və onun əhəmiyyəti

Son zamanlar, qərar vermə prosesini araşdıran tədqiqatçılar, yeni bir yanaşma olan neyromühasibatlığı mənimsədilər. Neyromühasibat, mühasibat uçotu və beynin iqtisadi qurumların yaradılmasındakı mərkəzi rolunu elmi cəhətdən nəzərdən keçirmək üçün yeni bir üsuldur. Neyrologiya metodlarından istifadə edərək, iqtisadi qərarların verilməsi zamanında beyin fəaliyyətinin ölçüsü uzunmüddətli mühasibat uçotu prinsiplərinə zidd olan yeni siyasətlərin həyata keçirmək istəyini qiymətləndirmək üçün faydalıdır (Ahmed, 2010:2).

Neyromühasibatlıq maliyyə hesabatlarının tətbiqində insanların qərar vermə prosesində faydaları aşağıdakı kimidir (Rahayuningsih, 2017:1):

- maliyyə hesabatlarını proqnozlaşdırarkən və təhlil edərkən və ya mühasibat məlumatlarını açıqlayanda investorların necə reaksiya verdiyini araşdırır.
- nəzarət tapşırıqlarını yerinə yetirərkən nəzarətçilərin necə reaksiya verdiyini göstərir.
- mühasiblər üçün neyro-mühasibat büdcə tərtibatı və digər mühasibat uçotu tapşırıqlarını qeyd və təhlil edərkən onların necə reaksiya verdiyini aşkar etməklə ən dəqiq qərar qəbuletmə prosesini təmin edir.

Qısa olaraq, neyromühasibatlıq elmi qiymətləndirilməsinin yeni üsuludur və onun tədqiqat nəticələri həm maliyyə hesabatlarını təhlil edən investorlar, həm audit vəzifələrini yerinə yetirən auditorlar, həm də biznes hadisələrini qeyd edən, təhlil edən və əks etdirən, büdcənin formalaşmasını həyata keçirən mühasiblər üçün vacibdir (Guptor və Rudžionienė, 2018). :29).

Neyromühasibatlıq, insanların qərar vermə mərhələsində beyindəki neyvroloji əsasları araşdaraq, qərar vermə prosesində ortaya çıxan hormonların qərar vermədə təsirini öyrənir. Bu kontekstdə neyromühasibatlıq anlayışının iki əsas başlanğıc nöqtəsi var. İlk növbədə, davranış mühasibatlığı anlayışında ortaya çıxan yeniliklərdir. İkinci növbədə isə, neyroiqtisadiyyat və neyroelm anlayışları sahəsindəki irəliləmələrdir (Usul və Çağlan, 2018: 452).

NƏTICƏ

Nəticə olaraq, neyromühasibatlıq, neyroelmi metodları mühasibat uçotuna tətbiq etməklə qərar qəbulu proseslərinin mühasibat hadisələrinə reaksiyasını qiymətləndirir. Bu mövzu yeni bir mövzu olduğundan bununla bağlı akademik və elmi tədqiqatlar azdır. Çünki, bu sahədə araşdırma aparmaq istəyən şəxs külli miqdarda tədqiqat xərclərini maliyyələşdirməli və neyrologiya sahəsində bacarıqlı ekspertlərdən dəstək almalıdır. Buna baxmayaraq bu sahədə edilən tədqiqatlar mühasibat uçotundaki araşdırmalara böyük töhfə verəcəyi düşünülür. Bu səbəbdən gələcəkdə neyromühasibatlıqla bağlı bir çox araşdırmalar edilərək mühasibatlıq peşəsinə yeniliklər gətirilə bilər

ƏDƏBIYYAT SIYAHISI

6. AHMAD, Z. A. (2010). BRAİN İN BUSİNESS: THE ECONOMİCS OF NEUROSCİENCE. THE MALAYSİAN JOURNAL OF MEDİCAL SCİENCES: MJMS, 17(2), 1.
7. ARTİENWİCZ, N. (2016). BEHAVİORAL STREAM İN POLİSH ACCOUNTİNG: İTS RELATİON TO BEHAVİORAL FİNANCE AND THE PERSPECTİVES FOR NEUROACCOUNTİNG DEVELOPMENT İN POLAND. IN NEUROECONOMİCS AND THE DECİSİON-MAKİNG PROCESS (PP. 246-261). IGI GLOBAL.
8. GUPTOR, M., & RUDŽİONİENĖ, K. (2018). SEARCHİNG FOR INFORMATİON QUALİTY OF FİNANCİAL STATEMENTS: FROM THE MAİN PRİNCİPLES UP TO NEUROACCOUNTİNG. ACCOUNTİNG THEORY AND PRACTİCE, 29-42.
9. HUGHES, N. (2016). THE BURGEONİNG INFLUENCE OF DEVELOPMENTAL NEUROSCİENCE ON POLİCY- MAKİNG: CONTRASTED TALES OF PİTFALLS AND POTENTİALS. WORKİNG PAPER. APRİL. WEB SAYFASI: HTTPS://WWW.RESEARCHGATE.NET/PROFİLE/NATHAN_HUGHES2/PUBLİCATİON/301542769_TH_E_BURGEONİNG_INFLUENCE_OF_DEVELOPMENTAL_NEUROSCİENCE_ON_POLİCY-MAKİNG_CONTRASTED_TALES_OF_PİTFALLS_AND_POTENTİALS/LİNKS/5717DD3808AED8A339E5B05F.PDF, ERİŞİM TARİHİ: 25.11.2018.
10. KRUEGER, N., & WELPE, I. (2014). NEUROENTREPRENEURSHİP: WHAT CAN ENTREPRENEURSHİP LEARN FROM NEUROSCİENCE. ANNALS OF ENTREPRENEURSHİP EDUCATİON AND PEDAGOGY, 60-90.
11. MACKOWİAK, E. (2018). FROM BEHAVİROL ACCOUNTTİNG TO AGGRESSİVE ACCOUNTİNG. IN ECONOMİC AND SOCİAL DEVELOPMENT (BOOK OF PROCEEDİNGS), 29TH INTERNATİONAL SCİENTİFİC CONFERENCE ON ECONOMİC AND SOCİAL (VOL. 43, NO. 4, P. 153-162).
12. RAHAYUNİNGSİH, D. A. (2018). THE WORD FRAMİNG EFFECTS, MORAL DİLEMMA AND DECİSİON MAKİNG: CONCEPTUAL PAPER. SOUTH EAST ASİA JOURNAL OF CONTEMPORARY BUSİNESS, ECONOMİCS AND LAW, VOL. 15, ISSUE 2(APRİL). ISSN 2289-1560.
13. USUL, H. & ÇAĞLAN, E. (2018). NÖROMUHASEBE. MUHASEBE BİLİM DÜNYASI DERGİSİ, 20(2), 450-465.

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT BÜDCƏSİNİN FORMALAŞMASINDA VERGİLƏRİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəbiyeva Şahnaz
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə snebiyeva1@std.beu.edu.az
Azərbaycan, Bakı

XÜLASƏ

Tədqiqatın aktuallığı: Güclü iqtisadiyyat bir ölkənin inkişaf səviyyəsi üçün çox önəmlidir. Güclü iqtisadiyyatın isə təməli büdcədir. Dövlət büdcəsi ölkənin inkişafı üçün önəmli olan tədbirlərin təşkil olunmasına sərf olunur.İlk dövlətlərin yarandığı zamanlardan bəri xəzinə adlandırılan, lakin mahiyyəti baxımından büdcəni xatırladan bir qavram mövcud olmuşdur. Buradan belə nəticəyə gəlmək olar ki, büdcə qədim tarixə malik olan ilk iqtisadi anlayışlardan biridir. Büdcənin əsası gəlirlər və xərclərdən ibarətdir. Büdcəni təşkil edən müxtəlif gəlir növləri mövcuddur. Bunlardan ən önəmlisi vergilərdir. Büdcə kimi vergilər də ilk dövlətlərin yaranması ilə eyni vaxtda yaranmış və dövlət xəzinəsinin əsasını təşkil etmişdir. Hər il hesablanan dövlət büdcəsinin əhəmiyyətli bir hissəsi vergilərdən gələn vəsaitlərdən ibarət olur.
Tədqiqatın əsas məqsədi: Bu tədqiqatda Azərbaycan Respublikasının büdcə sistemi və büdcəyə vəsait axınını təmin edən vergilərin bu sahədə rolundan bəhs edilmişdir.
Elmi yenilik: Tədqiqat mövzusunun müasir iqtisadiyyata uyğun son məlumatlar əsasında araşdırılması və tərtib olunması onun yeniliyini göstərir.
Praktiki əhəmiyyəti, üstünlükləri: Mövzunun praktiki əhəmiyyəti eləcə də üstünlüyü əldə edilən nəticələrin dövlət büdcə sisteminin layihəsinin tərtibi zamanı istifadə edilə bilər.
Nəticə: Büdcəyə vəsait axının əsas mənbələrindən biri olan vergilərdən daha çox gəlir əldə etmək üçün ölkədə qeyri- neft sektorunun daha da inkişaf etdirilməsi ilə vergi tətbiq oluna biləcək sahələrin sayının artırılması yolunda işlər görülə bilər.
Açar sözlər: dövlət büdcəsi, büdcə gəlirləri, vergi, vergilərdən gəlirlər

GİRİŞ

İşin aktuallığı və əhəmiyyəti: Dövlət büdcəsi ölkə iqtisadiyyatına dəstək verən tədbirlərin həyata keçirilməsi üçün istifadə olunan maddi baza və ölkənin maliyyə baxımından ən önəmli siyasi alətidir. Dövlət büdcəsi nə qədər zəngin olarsa, bu iqtisadiyyata da inkişaf etmək üçün təkan verəcəkdir. Azərbaycan Respublikasının dövlət büdcəsində vergilər xüsusi rola malikdir. Büdcə layihəsi hər il üçün yenidən hesablanır və tərtib olunur. Bütün bu faktları əsas götürərək qeyd edə bilərik ki, mövzu müasir dövr üçün kifayət qədər aktualdır.
Tədqiqat işinə olan ehtiyac: Bu izahatlar əhatəsində dövlət büdcəsi və onun strukturu, büdcəni təşkil edən parametrlər və onların ətraflı izahı, vergilərin büdcə sisteminin formalaşmasında olan rolunun qiymətləndirilməsi və son illər ərzində büdcənin gəlir və xərclərinin miqdarı, eləcə də, vergilərin büdcə gəlirlərində olan payının ayrı-ayrılıqda göstərilməsi tədqiqatın ədəbiyyatda əhəmiyyətli yer tutacağı düşünülür.
Tədqiqatın əsas məqsədi: Bu tədqiqatda Azərbaycan Respublikasının büdcə sistemi və büdcəyə vəsait axınını təmin edən vergilərin bu sahədə rolundan bəhs edilmişdir.
Tədqiqatın strukturu: üç dildə verilmiş xülasə, giriş, tədqiqat metodu, əsas hissə, nəticə və tədqiqatda istifadə olunmuş ədəbiyyat siyahısı əsasında təşkil olunmuşdur.

TƏDQİQAT METODU

Tədqiqatın nəzəri və metodoloji əsasını xarici ədəbiyyatlardan büdcə haqqında nəzəri məlumatlar alınması və yerli ədəbiyyatlardan istifadə edilməklə Azərbaycan Respublikasının büdcə sisteminin izahı təşkil edir.

Azərbaycan Respublikasında dövlət büdcəsinin formalaşmasında vergilərin rolunun qiymətləndirilməsi

Tarixə nəzər salsaq, büdcə qavramının hərfi mənasının "budget", yəni torba və ya çanta anlamına gəldiyini görərik. Bu kəlimə təxminən on səkkizinci əsrdən sonra maliyyə ilə bağlı bir termin kimi lüğətə daxil olmuş, leksik mənasına görə xəzinə sözü ilə bərabər işlədilmişdir.

Büdcə dövlətin xəzinəsidir, belə ki, büdcədə toplanan vəsaitlər hesabına dövlət və yerli icra hakimiyyəti orqanları dövlət və cəmiyyət üçün öz öhdəliklərinə düşən vəzifələri yerinə yetirirlər. Büdcə maliyyə ilə bağlı bir qavramdır və bu iqtisadi kateqoriya vasitəsi ilə dövlət qurumları vəzifələrininin eləcə də, funksiyalarının icrasını həyata keçirirlər. Bir sözlə, dövlət öz büdcəsindəki pullar hesabına iqtisadiyyatı idarə edir, ordu üçün gərəkli olan xərcləri qarşılayır, müxtəlif tədbirlər keçirir. Beləliklə, deyə bilərik ki, dövlət büdcə hesabına ölkənin və cəmiyyətin inkişafı üçün çalışır.[2, s 3]

Dövlət büdcəsi maliyyə qavramıdır və maliyyə ilə bağlı funksiyalarda özünü göstərir. Bir iqtisadi faktor kimi büdcənin funksiyaları aşağıda göstərildiyi kimidir:

- Ölkə iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi və inkişafa doğru həvəsləndirilməsi
- Ümumi daxili məhsul məvhumunun təkrar bölgüsü
- Dövlətin sosial və siyasi tədbirləri təşkil ütməsi üçün maliyyə dəstəyi [2,s 3]

İstənilən dövlət kimi Azərbaycan Respublikasının dövlət büdcəsi də büdcə haqqında dövlət tərəfindən müəyyən edilmiş qanunvericilik tərəfindən tənzimlənir. Onu da vurğulamaq lazımdır ki, müstəqilliyini yenidın qazandığı ilk illərdən bəri "Büdcə sistemi haqqında" ilk dövlət qanunu 1992-ci ildə qəbul edilmiş və on illik bir müddətdə qüvvədə qalaraq 2002-ci ilə qədər yəni, yeni qanun tərtib edilənədək bu qanun əsas sayılmışdır. [5, s 8]

1992-ci ildə müstəqilliyin yenidən bərpa edilməsinin ilk illərində qəbul olunan büdcə haqqında qanun 2002-ci ildə yenidən tərtib olunmuşdur. Azərbaycan Respublikasının struktur baxımından büdcə sisteminin tərtib olunması qaydası növbəti ilə on bir ay müddət qaldığı zaman başlanır və bu da hazırlanmış büdcə hesabatının Milli Məclisə verilməsinə qədər olan müddəti əhatə edir. [3, s 2]

Azərbaycanda büdcə ilə bağlı fondların yaradılması və bu fondların istifadə olunması dövlət büdcəsinə əsaslanır. Hər il hesablanmış büdcədəki vəsaitlər dövlətin ölkə, cəmiyyət və ordu qarşısında olan vəzifələrini yerinə yetirmək üçün istifadə olunur. Dövlət maliyyəsi dedikdə sözsüz ki, ağıla gələn ilk qavram büdcədir. Burada yada salmaq olar ki, dövlət maliyyəsi dedikdə bir başqa anlayış da büdcədənkənar fondlardır, hansı ki, büdcədənkənar fondlar Azərbaycan Respublikasında dövlətə aid olub amma dövlətin büdcə strukturuna daxil olmayan maliyyə planıdır. [4, s 35]

Büdcə layihəsini Azərbaycan Respublikasının ali dövlət orqanlarından biri olan Maliyyə Nazirliyi hazırlayır və bu proses ərzində ölkənin iqtisadi və siyasi inkişaf səviyyəsini əks etdirən proqnozlar, eləcə də digər dövlət orqanlarının proqram və layihələri nəzərə alınır. Tərtib olunmuş büdcə hesabatı Dövlətin əsas mərkəzi və digər yerli qurumları, eləcə də bu qurumların tabeliyində fəaliyyət göstərən digər qurumlar tərəfindən icra olunur. [3, s 11-12]

Büdcə haqqında Azərbaycan Respublikası qanunvericilik aktlarına konstitusiya, büdcə sistemi barəsində dövlət qanunu, həmçinin bu qanuna tabe olmaqla hər il mütəmadi olaraq açıqlanan Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanun aiddir.

Azərbaycan Respublikasının struktur baxımından büdcə sisteminə nəzər yetirsək, buraya dövlət büdcəsinin, eləcə də Respublika tabeliyində olan Naxçıvan Muxtar Respublikasının öz büdcəsinin, həmçinin yerli orqanların büdcələrinin daxil olduğunu görə bilərik. Dövlət büdcəsini təşkil edən kateqoriyaların vahid şəkildə birlikdə fəaliyyəti ölkə iqtisadiyyatında dayanıqlı büdcə sisteminin olmasının təməl prinsiplərindən biridir.

Ölkənin vahid büdcə siyasəti əsas gəlir mənbələrindən istifadə edilməsi, müəyyən məqsədlərə xidmət edən büdcə fondlarının təşkil olunması, dövlətin xəzinəsində yer alan maliyyə vəsaitlərinin müxtəlif səviyyəli büdcələr üzrə paylanması yolları ilə büdcələrin bir-biriləri ilə qarşılıqlı əlaqəsi ilə tənzimlənir. [7]

Büdcə onu təşkil edən iki əsas parametrdən büdcəyə vəsait axınını təmin edən gəlirlərdən və həmçinin büdcədəki vəsaitlərin dövlətin vəzifə və öhdəliklərinə sərf edilməsi ilə meydana gələn xərclərdən ibarətdir. Sözsüz ki, büdcəyə maddi vəsait axınının aparıcı ünsürü olan gəlirlərin xərclərə nisbətən daha böyük həcmdə olması üstünlükdür və iqtisadiyyatda bu vəziyyət profisit adlanır. Bunun əksinə xərclər gəlirləri üstələyərsə büdcədə kəsr formalaşır və bu da öz növbəsində iqtisadiyyat üçün mənfi səciyyə daşıyır.

Azərbaycan Respublikasının büdcə sisteminə görə büdcəyə vəsait axını dörd mənbədən daxil olur: vergilər, qrantlar, sosial ayırmalar və digər gəlirlər.

Sosial ayırmalardan gələn vəsaitlər dedikdə adından da göründüyü kimi dövlətin təşkil etdiyi sosial tədbir proqramlarından əldə olunan mədaxillər sosial təminat və sosial ehtiyac adı altında iki kateqoriyaya ayrılır. Bu iki kateqoriyadan sosial təminat olanı məcburidir.

Büdcəyə gəlir axını baxımından bir digər parametr olaraq qrantlardan bəhs edə bilərik. Bu gəlir növü bir növ yardım olmaqla dövlət üçün mahiyyəti baxımından əhəmiyyət daşıyan proqram və tədbirlərin təşkil

olunması ilə bağlıdır. Qrantlarda yardım göstərən əsas tərəf xarici dövlətlər, dünya üzərindən beynəlxalq təşkilatlar, xarici ölkələrə məxsus fiziki və hüquqi şəxslər ola bilər. Qrantlar cari və əsaslı olmaqla iki qrupa ayrılır. Əsaslı qrantlar aktivlərin alınması və verilməsi ilə əlaqəli ödəniş növü olduğu halda, cari qrantlar aktivlərlə bağlı əməliyyatlarla bağlı deyil. [5, s 41]

Büdcə sistemində gəlirlərə aid olan digər gəlir adlı təsnifat qrupuna nümunə olaraq mallarından satışından əldə olunan gəlir, müəyyən xidmətlər göstərilməklə qazanılan gəlir, tətbiq olunan cərimə və sanksiyalar üzrə büdcəyə daxil olan gəlirlər və s. aiddir.

Büdcəyə vəsait axınının böyük bir hissəsini vergilər təşkil edir. Gəlirlərdən, mənfəətdən, əmlakdan, torpaqdan və başqa bir neçə mənbədən vergi adı altında gələn gəlirlər büdcədə toplanır. [5, s 41]

Demək olar ki, dünyanın əksər ölkələrində büdcənin 80-90% qədər hissəsi vergilərdən toplanılır. Bu baxımdan vergilərin rolunun büdcədə böyük olduğunu deyə bilərik. Açıq bir həqiqətdir ki, ilk dövlətlər yarandığı andan bəri büdcə qavramı mövcuddur və hələ çox minilliklər öncədən bəri xəzinə adı altında dövlət büdcəsi əhalidən toplanan vergilər hesabına formalaşdırılırdı. Azərbaycan Respublikasında vergilər sistemli bir şəkildə dövlətin qanunvericilik sənədlərinə uyğun olmaqla toplanılır. Vergilərdən əldə olunan gəlir büdcədə əhəmiyyətli paya malikdir.

Son iki illik dövrü əhatə edən müddətdə həm 2021-ci il, həm də 2022-ci il üzrə dövlət büdcəsinə, o cümlədən bu iki il üçün hər bir büdcə planında vergilərin payına nəzər yetirək. Qeyd edək ki, büdcə konstitusiya ilə tənzimlənən iqtisadi faktordur və büdcə haqqında qərar konstitusiyanın 95-ci bəndini əsas götürməklə tərtib olunur. Ötən 2021-ci il üzrə dövlət büdcəsinə nəzər yetirsək, heaablanmış büdcədə gəlirlərin payının 25 milyon 427 min manat, büdcə xərclərinin isə 28 milyon 543 min manat olduğunu və 2021-ci ilin yekununda büdcənin kəsrlə yekunlaşdığını görə bilərik. 2021-ci il üzrə büdcə üçün gəlir mənbələri arasında bəzilərini sadalasaq, fiziki şəxslərin gəlir vergisi kimi vergi payı 1 milyon 150 min manat, hüquqi şəxslərin mənfəət vergisi üzrə 2 milyon 144 min manat, əlavə dəyər vergisi üzrə əldə olunam vəsaitlərin 4 milyon 710 min manat dəyərində olduğunu qeyd etmək olar. [6]

Bəzi xərclərə nəzər salsaq, ümumi dövlət xidmətləri adı altında dövlət büdcəsindən sərf edilən xərclərin 2021-ci il üzrə məbləği 4 milyon 160 min manat, müdafiə və milli təhlükəsizliyin təmin olunması üçün sərf olunam büdcə xərcləri 4 milyard 585 milyon 850 min manat dəyərində olmuşdur.[6]

2022-ci il üzrə Azərbaycan Respublikasının tərtib olunmuş büdcəsinə nəzər yetirək. Bu il üzrə büdcə gəlirləri 26 milyon 816 min manat olduğu halda, dövlət büdcəsinin xərcləri 29 milyon 879 min manat təşkil etmişdir. Təəssüflə qeyd etmək olar ki, 2022-ci il üzrə Azərbaycan Respublikasının büdcəsində xərclər gəlirləri təxminən 3 milyon manatlıq fərqlə üstələmişdir. [8, s 10]

Vergilərin rolunu nəzərə alaraq büdcə gəlirlərində vergilərin hər birinin ayrı-ayrılıqda həcminə baxaq. Belə ki, 2022-ci il üzrə dövlət büdcəsində fiziki şəxslərin gəlir vergisi üzrə büdcədə vergi payı 1 milyon 485 min manat, o cümlədən hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcədə olan vergi vəsaitlərinin gəlir payı 2 milyon 670 min manat təşkil etmişdir. Əlavə olaraq cari il üçün hesablanmış büdcədə torpaq vergisindən 46 min, hüquqi şəxslərə məxsus əmlak vergisindən 236 min, sadələşdirilmiş vergi üzrə isə 200 min manat gəlir əldə olunmuşdur. Əlavə dəyər vergisi üzrə vergi payı 5 milyon 278 min mamat olduğu halda, aksizlərdə bu məbləğ 1 milyon 266 min manat dəyərində qeydə alınmışdır. O cümlədən ölkə sərhədləri daxilinə gətirilən mallar üzrə əlavə dəyər vergisi üzrə gəlir 2 milyon 910 min manat, aksizlərdə isə 160 min manat olmuşdur. 2022-ci il üzrə yol vergisinin büdcədəki payı 116 min manat, mədən vergisi üzrə isə 142 min manat dəyərində olmuşdur. [1, s 1-2]

Yuxarıda qeyd olunduğu kimi 2021-ci il və 2022-ci il üzrə dövlət büdcəsi dövrün sonunda kəsrlə yekunlaşmışdır. Bununla belə qeyd etməliyik ki, qeyd olunan məbləğlərə nəzər yetirdikdə vergilərin payının mühüm yerdə olduğunu görmək qaçınılmazdır.

NƏTİCƏ

Büdcə bir dövlətin əsas maddi bazası olmaqla iqtisadiyyatın inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Bu tədqiqatda Azərbaycan Respublikasının dövlət büdcəsindən eləcə də, büdcənin formalaşmasında vergilərin rolundan bəhs olunur. Azərbaycanda ölkənin büdcəsində toplanan vəsaitlər cəmiyyətin, ölkənin inkişafı o cümlədən rifahı üçün, eyni zamanda ordunun saxlanılması, dövlət üçün gərəkli olan zərurətlərin qarşılanması üçün istifadə olunur.

Araşdırmalardan gördüyümüz kimi Azərbaycan Respublikasının dövlət büdcəsi gəlirlərdən və xərclərdən təşkil olunub. Büdcə gəlirlərinin xərcləri üstələməsi müsbət hal olaraq qeydə alınsa da, son illər ərzində Azərbatcan büdcəsində xərclər gəlirləri üstələyərək iqtisadiyyatda büdcə kəsri yaranmasına səbəbiyyət vermişdir. Büdcə gəlirlərinin həcmcə böyük bir hissəsi dövlət vergilirindən əldə olunan vəsaitlərdən ibarətdir. Vergi tətbiq edilən əksər ölkələr kimi Azərbaycan Respublikasının büdcəsi üçün vergilərin rolu

böyükdür. Hər il növbəti il üçün büdcə təxminləri hazırlanır, büdcə hesablanır. Hazırlanmış büdcə sənədində ölkədə tətbiq edilən vergilərdən gələn vəsaitlər hər biri ayrı-ayrılıqda qeyd olunur. Verilmiş hesabatlardan da göründüyü kimi vergilər həqiqətən dövlət büdcəsində mühüm rol oynayır. Bu baxımdan deyə bilərik ki, mümkün qədər vergidən yayınma hallarının qarşısı alınmalı, vergilərin büdcəyə axarlılığının daimiliyi qorunmalıdır.

Azərbaycan neft ölkəsidir və iqtisadiyyatın neftdən asılılığını azaldıb qeyri- neft sektoruna daha çox yer verilməsi ölkənin iqtisadiyyatı baxımından üstünlük ola bilər. Nəzərə alsaq ki, vergilər daha çox iqtisadiyyatın qeyri- neft sektoruna məxsus sferalarından toplanır, ona görə də bu sahəyə daha çox yer ayırmaq lazımdır. Çünki, əksər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasının da dövlət büdcəsinin böyük bir hissəsi vergilərdən gələn vəsaitlərdən ibarətdir. Buna görə də büdcəyə vergi vəsaitlərini daha da artırmaq üçün mövcud vergi dərəcələrini qaldırmaq yerinə vergi tətbiq oluna biləcək sahələri artırmaq və inkişaf etdirmək lazımdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 3 dekabr 2021-ci il, 11 s
2. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi. "Büdcə sistemi" mövzusu üzrə təlim materialı, Bakı 2020, 18 s
3. "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI. Bakı şəhəri, 24 may 2004-cü il, 40 s
4. Süleymanov E., Bulut C. Dövlət Maliyyəsi. Qafqaz Universiteti nəşrləri №38, Bakı 2016, 235 s
5. Vəliyev Zaur. Dövlət büdcəsi. Məlumat-sorğu kitabı. Bakı 2006, 216 s
6. http://www.e-qanun.az/framework/46590
7. http://www.e-qanun.az/framework/1126
8. https://president.az/az/articles/view/54776

STATE BUDGET OF THE REPUBLİC OF AZERBAİJAN AND ASSESMENT OF THE ROLE OF TAXES İN THE FORMATİON OF THE STATE BUDGET

SUMMARY

Relevance of the study: A strong economy is very important for the development of a country. The basis of a strong economy is the budget. The state budget is spent on organizing events that are important for the country's development. Since the creation of the first states, there has been a concept called the treasury, but in essence reminiscent of the budget. It can be concluded that the budget is one of the first economic concepts with an ancient history. The basis of the budget consists of revenues and expenditures. There are different types of income that make up the budget. The most important of these are taxes. Like the budget, taxes were created at the same time as the first states and formed the basis of the state treasury. A significant part of the annual state budget consists of tax revenues.

The main purpose of the study: In this study, it discusses the budget system of the Republic of Azerbaijan and the role of taxes providing the flow of funds to the budget in this field.

Scientific innovation: The research and compilation of the research topic on the basis of the latest data in accordance with the modern economy shows its novelty.

Practical significance, advantages: The practical significance of the topic, as well as the advantages obtained, can be used in the drafting of the state budget system.

Conclusion: Work can be done to increase the number of areas where taxes can be applied by further developing the country's non-oil sector in order to generate more revenue from taxes, which are one of the main sources of budget revenue.

Keywords: state budget, budget revenues, taxes, revenues from taxes

ОЦЕНИВАНИЕ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И РОЛИ НАЛОГОВ В ФОРМИРОВАНИЕ БЮДЖЕТА

РЕЗЮМЕ

Актуальность исследования: Сильная экономика очень важна для уровня развития страны. А основой сильной экономики является бюджет. Государственный бюджет расходуется на организации мероприятий, важных для развития страны. С момента возникновения первых государств существовало такое восприятие, которое называлось казначейством, но по своей сути напоминало бюджет. Отсюда можно сделать вывод, что бюджет-одно из первых экономических понятий, имеющих древнюю историю. Основу бюджета составляют доходы и расходы. Эти два параметра всегда должны быть сбалансированы друг с другом, чтобы государственный бюджет был стабильным. Существуют различные виды доходов, которые составляют бюджет. Наиболее важными из них являются налоги. Налоги, как и бюджет, возникли одновременно с образованием

первых государств и составили основу государственной казны. Значительная часть государственного бюджета, исчисляемая ежегодно, состоит из средств, поступающих от налогов.
Основной целью исследования было обсуждение бюджетной системы Азербайджанской Республики и роли налогов в обеспечении поступления денежных средств в бюджет.
Научная инновационность: Исследование и составление темы исследования на основе новейших данных в соответствии с современной экономикой показывает ее новизну.
Практическая значимость, преимущества: Практическая значимость темы, а также полученные преимущества могут быть использованы при составлении проекта государственной бюджетной системы.
Вывод: Можно провести работу по увеличению числа сфер применения налогов за счет дальнейшего развития ненефтяного сектора страны с целью увеличения доходов от налогов, которые являются одним из основных источников доходов бюджета.
Ключевые слова: государственный бюджет, доходы бюджета, налоги, поступления от налогов

İŞĞALDAN AZAD OLUNAN REGİONLARIN BƏRPASINA BEYNƏLXALQ MALİYYƏ İNSİTUTLARININ CƏLB OLUNMASI

Allahverdiyeva Günel
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə
gallahverdiyeva1@std.beu.edu.az
Azərbaycan, Bakı

XÜLASƏ

Tədqiqatın aktuallığı: İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpasının sürətləndirilməsi və beynəlxalq maliyyə institutlarının cəlb olunması, müasir və səmərəli istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal stimulların inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılmasına əsas verir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişaf üçün ən vacib məsələlərdən biri regionun potensial müqayisəli üstünlüklərinin müəyyən edilməsidir. İstər ölkədaxili, istərsə də beynəlxalq üstünlüklərin müəyyən edilməsində işğaldan azad edilmiş ərazilərin iqtisadi resursları, işğaldan əvvəlki ənənəvi məşğulluq, repatriantların vərdiş və peşəkarlıq səviyyəsi nəzərə alınmalıdır.
Tədqiqatın əsas məqsədi: İşğaldan azad edilmiş ərazilərin bərpa olunması üçün beynəlxalq maliyyə insitutlarının cəlb olunması istiqamətlərini araşdırmaqdır.
Elmi yenilik: Mövzunun müasir səviyyədə son məlumatlar əsasında araşdırılması onun yeniliyindən xəbər verir.
Praktiki əhəmiyyəti, üstünlükləri: Mövzunun praktiki əhəmiyyəti və üstünlüyü əldə edilən nəticələrin işğaldan azad edilən ərazilərin maliyyələşdirilməsi təcrübəsində istifadə oluna bilər.
Nəticə: Ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad edilmiş torpaqların bərpa edilməsi istiqamətində iqtisadi modelin əsas prinsiplərinə əsaslanan alternativ maliyyə mənbələrinin cəlb edilməsi Qarabağda inkişaf və bərpa üçün əsas prioritetlərdən biri ola bilər.
Açar sözlər: II Qarabağ müharibəsi, işğaldan azad edilmiş ərazilər, maliyyə mənbələri, maliyyə insitutları

GİRİŞ

İşin aktuallığı və əhəmiyyəti: Qarabağın iqtisadiyyatının bərpası həm alternativ beynəlxalq maliyyə investisiyalarına ehtiyacı var, həm də bazar kimi Qarabağ iqtisadiyyatı onlar üçün çox cəlbedici ola bilər. Ona görə də işğaldan azad edilmiş Qarabağ torpaqlarının bərpasında beynəlxalq maliyyənin imkanlarından

yararlanmaq lazımdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, mövzu müasir dövr üçün olduqca aktualdır.

Tədqiqat işinə olan ehtiyac: Bu izahatlar çərçivəsində Qarabağda maliyyələşdirmə layihələrinin həyata keçirilməsi üçün layihələrin seçilməsi və hazırlanması, maliyyə savadlılığının artırılması üçün şirkət və təşkilatlara təlimlərin keçirilməsi məsələlərinin təhlili tədqiqatın ədəbiyyatda mühüm yer tutacağı düşünülür.

Tədqiqatın əsas məqsədi: İşğaldan azad edilmiş ərazilərin bərba olunması üçün beynəlxalq maliyyə insitutlarının cəlb olunması istiqamətlərini araşdırmaqdır.

Tədqiqatın strukturu: üç dildə xülasə, giriş, tədqiqtat metodu, əsas hissə, nəticə və ədəbiyyat siyahısından təşkil olunmuşdur.

TƏDQİQAT METODU

Tədqiqatın nəzəri və metodoloji əsasını dünya və ölkəmizdən olan tədqiqatçıların elmi araşdırmaları, bu problemlə bağlı qərarlar, hökumət qərarları və digər normativ sənədlər təşkil edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası üçün alternativ maliyyə mənbələri

Qarabağda uzun müddət dondurulmuş və beynəlxalq ictimaiyyət tərəfindən məhəl qoyulmayan açıq qəsb və beynəlxalq hüququn pozulması 44 günlük Qarabağ Qələbəsi ilə nəticələndi. Uğurlu əməliyyat nəticəsində Azərbaycan ordusu Ermənistan ordusunu darmadağın edərək parlaq qələbə qazanıb. 44 gün davam edən əməliyyat nəticəsində Azərbaycan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını və Şuşa şəhərinin bəzi hissələrini, Xocavənd, Xocalı və Ağdərə rayonlarını azad etmişdir. Dekabrın 10-da Moskvada imzalanmış müqaviləyə əsasən, Ermənistan silahlı qüvvələri Ağdam, Kəlbəcər və Laçın rayonlarını da təhvil vermişdir. Azərbaycan Prezidenti İlham Əliyev: "Biz düşməni öz torpaqlarımızdan qovduq, yeni reallıq yaratdıq. Hər kəs bu faktı qəbul edəcək" demişdir. İndi yeni reallıq ondan ibarətdir ki, illərdir işğal altında olan torpaqlar indi Azərbaycanın nəzarəti altındadır və məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar [2, s.17].

Milli sosial rifah səviyyəsinin daim yüksəldilməsi və əhalinin işğaldan azad edilmiş ərazilərə qayıtmasının təmin edilməsi məqsədilə yüksək, davamlı, əhatəli və əsasən özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın sürətləndirilməsi Azərbaycanın yeni inkişaf yolunun ideoloji əsasını təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, iş və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmlənəcək. Bu məqsədlərə nail olmaq üçün davamlı makroiqtisadi sabitlik, iqtisadi inkişafın orta və uzunmüddətli hərəkətverici amillərinin gücləndirilməsi - insan kapitalının modernləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və tam iqtisadi suverenliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılması tələb olunur [1].

Artıq işğaldan azad edilmiş torpaqlarda bərpa işlərinə başlanılıb. 2022-ci ilin dövlət büdcəsində Qarabağda tikinti işlərinin aparılması üçün 2,2 milyard manat vəsait ayrılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş torpaqlarda davamlı məskunlaşmanın müasir və layiqli yaşayışını təmin etmək, bütün sahələrdə quruculuq və abadlıq işlərinin aparılması, regionun inkişafını, o cümlədən davamlı yaşayışını, məhsuldar işini və rifahını dəstəkləmək üçün "Qarabağı Canlandırma Fondu" yaradılmışdır. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş torpaqlarının bərpası və yenidən qurulması, ölkənin dayanıqlı iqtisadiyyatı və yüksək rifahı olan regiona çevrilməsi, habelə dövlət-özəl sektorun inkişafı üçün maliyyə dəstəyi və investisiyalar yatırır. Bu sahədə tərəfdaşlıq, xaricdə zəruri təşviqat fəaliyyətini həyata keçirən publik hüquqi şəxsdir[3].

Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya, ABŞ və s. işğaldan azad edilmiş torpaqlarımızın bərpasında iştirak etmək arzusunda olduğunu bildirib. Azərbaycan dövləti də bu sahədə dost ölkələrlə əməkdaşlıq etmək niyyətində olduğunu bəyan edib. MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Prezident İlham Əliyev bu məsələ ilə bağlı fikirlərini belə ifadə etdi: "Biz dost ölkələri Azərbaycana cəlb edirik və edəcəyik. Birinci müqavilə türk firması ilə imzalanıb, ikinci müqavilənin isə İtaliya firması ilə imzalanması planlaşdırılır. Fürsətdən istifadə edərək, Azərbaycanın dostluq münasibətləri olduğu dövlətlərin və ölkələrin başçılarını onların şirkətlərini podratçı qismində bu layihələrdə fəal iştirak etməyə çağırmaq istərdim. Bərpa işlərini özümüz, öz vəsaitimiz hesabına maliyyələşdirəcəyik. Amma biz istəyirik ki, dost ölkələrin şirkətləri şəhərlərimizin və kəndlərimizin yenidən qurulmasında iştirak etsinlər. Bu layihələri həyata keçirsinlər, həmrəylik nümayiş etdirsinlər, çünki biz şübhəsiz ki, bütün şəhərləri bərpa edəcəyik, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş rayonlarından birinə çevirəcəyik".

Artıq Qarabağda tikinti işləri sahəsində xarici şirkətlərlə konkret əməkdaşlığa başlanılıb. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında elektrik enerjisi infrastrukturunun yaradılması məqsədilə

"Azərenerji" ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, İtaliya şirkəti Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında tikiləcək 4 ədəd 110 kilovoltluq yarımstansiyanı təchiz edəcək. Türkiyədə 130 texnologiya şirkətinə dəstək verən GOSB Texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanan Mədəni və Elmi Əməkdaşlıq Memorandumuna əsasən, Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılacaq. Azərbaycan və Macarıstan şirkətləri Macarıstan şirkətlərinin Qarabağda torpaqların bərpasında iştirakını müzakirə ediblər. Macarıstanın EximBankı restrukturizasiya proqramında iştirak etmək istəyən Macarıstan şirkətləri üçün 100 milyon dollarlıq kredit xətti açıb. Müharibənin bir hissəsi olaraq Macarıstan minaların təmizlənməsi üçün 25 min avro qrant təklif etmişdir. Böyük Britaniya işğaldan azad edilmiş Qarabağ ərazisini minalardan və partlamamış hərbi sursatlardan təmizləməkdə Azərbaycana kömək edə biləcəyini bildirmişdir [3].

Qarabağ bölgəsində irimiqyaslı meqalayihələri təmin etmək üçün alternativ maliyyə mənbələrinə ehtiyac var. İslam iqtisadiyyatının potensialından nə qədər tez istifadə etsək, sahibkarlarımız ondan bir o qədər tez faydalana bilərlər. Qarabağda bu imkanlardan yararlanmağın vaxtı çatıb. Regional sahibkarların Qarabağda İslam bazarına çıxış imkanlarını genişləndirməklə kiçik və orta sahibkarlığın inkişafına güclü təkan vermək olar. Biz hesab edirik ki, Qarabağda İslam iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi qida və moda sənayesidir. Fikrimizcə, İslam maliyyə sektoru ilk növbədə maliyyə məhsullarına tələbi stimullaşdıra bilən iki sektorun (qida və moda) inkişafına uyğunlaşdırılıb. Transmilli şirkətlər General Electric və Goldman Sachs korporativ sukuk-islam istiqrazları buraxır. Qarabağda fəaliyyət göstərən şirkətlər əlavə maliyyə mənbəyi kimi sukuk istiqrazlarından istifadə edə bilərlər.

Çin, İtaliya, Türkiyə və Fransanın moda sənayesi "islami və mühafizəkar" geyim çeşidlərinin genişlənməsinə mühüm töhfə verir. Qarabağ iqtisadiyyatının bərpası layihəsinə Türkiyə, Çin və İtaliyanın moda və tekstil şirkətlərinin cəlb edilməsi məqsədəuyğun olardı. Qarabağın bərpası iqtisadiyyatının həm alternativ beynəlxalq maliyyə investisiyalarına ehtiyacı var, həm də bir bazar kimi Qarabağ iqtisadiyyatı onlar üçün çox cəlbedici ola bilər. Ona görə də işğaldan azad edilmiş Qarabağ ərazilərinin bərpasında İslam maliyyəsinin imkanlarından istifadə etmək lazımdır. Hesab edirik ki, bu, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında iqtisadi və maliyyə əlaqələrinin inkişafı üçün davamlı platforma ola bilər [4].

2050-ci ilədək Qarabağ iqtisadi rayonunun maliyyə potensialının (regonun öz vəsaiti və cəlb olunmuş resurslarının cəmi) ölkənin maliyyə potensialının 30-40%-nə qədər artacağı ehtimalı kifayət qədər realdır. Qeyri-karbohidrogen ehtiyatları sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi prosesinin dərinləşməsi bu qənaətə gəlməyə əsas verir. Qrafik 1-dən göründüyü kimi 2030-2050-ci illər arasında Qarabağ iqtisadi rayonunun maliyyə potensialının on dəfədən çox artacağı aydındır. Bu baxımdan, əsrin ortalarında Qarabağ ən inkişaf etmiş regiona çevriləcək.

Qrafik 1: 2030-2050-ci illər ərzində Qarabağda maliyyə potensialının artım dinamikasının proqnozu, milyard ABŞ dolları



Mənbə: https://iqtisadiyyat.com/az/pages/5/news/1222

Apardılan iqtisadi təhlillər nəticəsində artıq azad edilmiş rayonlarda müəyyən gəlir bazasının yaradılması prosesinin dinamikasını görmək olar. Belə ki, təkcə 2021-ci ilin büdcəsində Qarabağ iqtisadi rayonu bir çox rayonlarda yerli xərcləri hələ də ödəyə bilməməsinə baxmayaraq, sabit yerli gəlirlər formalaşıb (cədvəl 1).

Cədvəl 1: 2021-ci il üzrə Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərinin gəlir və xərcləri (min manat)

№	Rayonlar	Yerli gəlirlər	Yerli xərclər	Yerli gəlir və xərcləri tarazlaşdırmaq üçün mərkəzləşdirilmiş xərclərdən ayrılmalar
1	Ağdam	5385	10425	5075
2	Cəbrayıl	998	3669	2687
3	Füzuli	7966	10351	2402
4	Kəlbəcər	1300	4989	3693
5	Qubadlı	3147	3413	-
6	Laçın	2420	5459	3114
7	Zəngilan	1631	2855	1227

Mənbə: https://iqtisadiyyat.com/az/pages/5/news/1222

Fikrimizcə, müəyyən mənada bu gəlirlər yaxın gələcəkdə Qarabağ bölgəsinə milyardlarla dollarlıq daxili və xarici maliyyə axınının simvolik başlanğıcı sayıla bilər.

NƏTİCƏ

İqtisadiyyatın ənənəvi sahələri kənd təsərrüfatı, emal sənayesi, yüngül, o cümlədən toxuculuq sənayesi, qida istehsalı, kənd təsərrüfatı maşınqayırması və cihazqayırma, tikinti sektoru, aktiv turizm, xidmət və əyləncə sektoru, sanatoriya-kurort müalicəsi və s. sahələrin inkişafı Qarabağ bölgəsinin iqtisadi və maliyyə potensialının artırılması üçün real maddi bazaya çevriləcəkdir. Azərbaycan, Türkiyə və digər İslam ölkələrinin akademik dairələri ilə birlikdə işçi qrupu yaratmaq, Qarabağın bərpası və inkişafı kontekstində Qarabağda maliyyə layihələrinin həyata keçirilməsi üçün layihələrin seçilməsi və hazırlanması, maliyyə savadlılığının artırılması üçün şirkət və təşkilatlara təlimlərin keçirilməsi əsas şərtlərdən sayıla bilər.

ƏDƏBİYYAT

1. Məmmədov S. Rəqamsal keçid və elmi texxnoloji inkişafın sürətləndirilməsi zəruriliyi. Bakı, Ecoprint, 2021, s.408.
2. Azərbaycan 2030: Milli Sosial-İqtisadi İnkişaf Prioritetləri 02 Fevral 2021.
3. Mustafa S.B. "Karabağ Zaferine Giden Süreç ve Jeopolitik Sonuçları ULİSA12", Sayı 8 2020, Aralık, 2020, s.14-19.
4. https://science.gov.az/az/news/open/16136.
5. https://az.trend.az/business/3361062.html
6. https://iqtisadiyyat.com/az/pages/5/news/1222

INVOLVEMENT OF İNTERNATİONAL FİNANCİAL İNSTİTUTİONS İN THE RECONSTRUCTİON OF LİBERATED REGİONS

SUMMARY

Relevance of the study: Acceleration of economic recovery in the liberated territories and involvement of international financial institutions, creation of modern and efficient production, trade and service infrastructure, application of innovative technologies, realization of industrial potential, development of optimal incentives and improvement of business environment. One of the most important issues for economic development in the liberated territories is to identify the region's potential comparative advantages. The economic resources of the liberated territories, traditional pre-occupation employment, and the level of habit and professionalism of the repatriates must be taken into account in determining both domestic and international priorities.

The main purpose of the study is to investigate the involvement of international financial institutions in the rehabilitation of the liberated territories.

Scientific innovation: The study of the topic at the modern level on the basis of the latest information indicates its novelty.

Practical significance, advantages: The practical significance and advantage of the topic can be used in the practice of financing the liberated territories.
Conclusion: The involvement of alternative sources of funding based on the basic principles of the economic model for the restoration of liberated lands within the economic development model defined by the President of the country may be one of the main priorities for development and recovery in Karabakh.
Keywords: II Karabakh war, liberated territories, financial sources, financial institutions

УЧАСТИЕ МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ ИНСТИТУТОВ В ВОССТАНОВЛЕНИИ ОСВОБОЖДЕННЫХ РЕГИОНОВ

РЕЗЮМЕ

Актуальность исследования: Ускорение восстановления экономики на освобожденных территориях и привлечение международных финансовых институтов, создание современной и эффективной производственной, торговой и сервисной инфраструктуры, применение инновационных технологий, реализация промышленного потенциала, разработка оптимальных стимулов и совершенствование бизнеса Окружающая среда. Одним из важнейших вопросов экономического развития освобожденных территорий является выявление потенциальных сравнительных преимуществ региона. Экономические ресурсы освобожденных территорий, традиционная дооккупационная занятость, уровень привычки и профессионализма репатриантов должны учитываться при определении как внутренних, так и международных предпочтений.
Основной целью исследования является исследование участия международных финансовых институтов в реабилитации освобожденных территорий.
Научная инновационность: Изучение темы на современном уровне на основе новейшей информации свидетельствует о ее новизне.
Практическая значимость, преимущества: Практическая значимость и польза темы могут быть использованы в практике финансирования освобожденных территорий.
Вывод: Привлечение альтернативных источников финансирования на основе основных принципов экономической модели восстановления освобожденных земель в рамках модели экономического развития, определенной Президентом страны, может быть одним из основных приоритетов развития и восстановления в Карабахе.
Ключевые слова: II Карабахская война, освобожденные территории, финансовые источники, финансовые институты.

MÜƏSSİSƏNİN İDARƏETMƏ UÇOTUNUN TƏŞKİLİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Mətanət Alim qızı Əliyeva
metanet.91w@gmail.com
Göygöl rayonu, Azərbaycan

XÜLASƏ

Tədqiqatın məqsədi - Mövzunun əsas tədqiqat məqsədi müəssisələrin gəlirliliyinin, fəaliyyətin fasiləsizliyinin təmin olunması və idarəetmə uçotunun fəaliyyət prosesində vacibliyini izah etməkdir. Araşdırmalara əsaslanaraq idarəetmə uçotunun əsas vəzifəsi bütün fəaliyyət sahələri üzrə rəhbərliyə doğru və vaxtında hesabat vermək, bunun əsasında növbəti qərarlar qəbul etməkdə köməklik etməkdir.
Tədqiqatın metedologiyası - Təsərrüfat fəaliyyətinin nəticələri haqqında rəhbərliyə faydalı olan məlumatların toplanması, işlənməsi, təhlili və təqdim edilməsi kimi prosesləri, qarşısında duran bütün vəzifələrə çatmaq üçün müəyyən qanunauyğunluqlardan, metodlardan və yerinə yetirmək üçün müxtəlif üsullardan geniş istifadə olunur. Tədqiqatın aparılmasında sənədləşmə, inventar, təsnifat, planlaşdırma,

rasionlaşdırma, nəzarət və s.kimi üsullar əsas yer tutur.

Tədqiqatın tədbiqi əhəmiyyəti - Bazar münasibətlərinin inkişafı şəraitində tam təsərrüfat hesablı və maliyyə müstəqilliyi olan müəssisələrin idarə edilməsi prosesi xeyli mürəkkəbləşir və uçotunun aparılmasında bəzi çətinliklər yaranır. İş fəaliyyətindən asılı olmayaraq müəsissənin işinin səmərəliliyi və planlı maliyyə strukturu onun rəqabət qabiliyyətli olmasını, real iqtisadi sərbəstliyini təmin edən idarəetmə fəaliyyətindən daha çox asılıdır.

Tədqiqatın nəticələri - Nəticə olaraq müəssisə faəliyyətinin təkmilləşdirilməsi üçün müəyyən müqayisə və metodlardan istifadə etmək daha məqsədə uyğundur. Eyni zamanda, avtomatlaşdırılmış sistem, proseslərin sadələşdirilməsi və ən uyğun və yeni praktikanın tətbiq edilməsi keyfiyyətin yüksəldilməsi, müştəri məmnuniyyətinin artırılması, boş dayanmaların və itkilərin, kənarlaşmaların aradan qaldırılması və xərclərin aşağı salınması informasiya sistemində idarəetmə uçotunun əsasını təşkil edir**.**

Tədqiqatın elmi yeniliyi - Tədqiqatın elmi yeniliyinin əsasını müasir dövrdə fərdi və peşəkar inkişafın genişlənməsi, çoxfunksiyalı proqram təminatı, idarəetmə uçotunda yeni biliklərin əldə olunması, mühasibat və maliyyə sektoru işçilərini maliyyə sahəsində yeni qəbul olunmuş qaydalarla tanış etmək və mövcud biliklərin təzələnməsi üçün həyata keçirilmiş kurslar və təlimlər təşkil edir.

Açar sözlər: idarəetmə uçotu, sənədləşmə, inventar, rəqabət qabiliyyəti, xərc

Giriş. Nəzarət informasiya sistemi kimi idarəetmə uçotunun əsas rolu müəssisənin fəaliyyətinin fasiləsizliyini təmin etmək, doğru idarəetmə qərarları qəbul etmək və müəssisənin fəaliyyətinin gələcək inkişaf prespektivlərini planlaşdırmaqdır. Hər hansı bir müəsissənin mövcudluğunun məqsədi minimum xərclərlə maksimum mənfəət əldə etməkdir. Buna görə də müəssisədə bütün fəaliyyət növləri birbaşa gəlir gətirməsələr də, dolayı yolla bu məqsədə çatmağa yönəliblər. Mühasibat uçotu və hesabat ilk növbədə informasiya xarakterlidir və idarəetmə funksiyaları xərclərin planlaşdırılması, nəzarəti və təhlili sisteminə və buna görə şirkətin fəaliyyətinin maliyyə nəticələrinin optimallaşdırılmasına təsir göstərir. Mühasibat uçotu və idarəetmə uçotu qarşılıqlı müəsissə tələblərinə cavab verir. Mühasibatlıq yazılışları biznesin necə pul qazandığı və xərclədiyi barədə bir çox faydalı məlumatları özündə daşıdığı halda, idarəetmə uçotu bu məlumatları elə formada işləyib təqdim edir ki, şirkətin rəhbərliyi onun əsasında strateji qərarlar qəbul edə və yeni uğurlara addımlaya bilsin. İdarəetmə uçotu əvvəlcə idarəetmə ilə bağlı məlumatlara nəzarət etməyə kömək edən bir hissədir, əsasdır və gələcək inkişafa yönəlir. Bu istiqamət mühasibat uçotundan kənara çıxır, çünki artıq başa çatdırılmış və müvafiq sənədlərdə qeyd olunan maliyyə əməliyyatları üzrə uçot məlumatları kifayət deyil. İdarəetmə uçotu əməliyyat planlaşdırılmasına və biznesin idarə edilməsinə nəzarət sistemidir.

Materiallar və metodlar. Hər bir müəssisənin strukturu və iş planı fərqli olduğu üçün müəssisələrdə aparılan idarəetmə və maliyyə prosesləri fərqli olacaqdır. Belə ki, idarəetmə uçotu müəssisənin idarə edilməsi üçün hazırlanmış və alternativ faəliyyətdə çalışması üçün yığılmış uçot, təhlil və planlaşmanın yığılmış bir formasıdır, metodudur.

İdarəetmə uçotunun məqsədi və vəzifələri:

İdarəetmə uçotunun əsas məqsədi rəhbərliyə öz işlərini səmərəli və daha az xərclə daha çox gəlir əldə etməyə kömək etməkdir. İdarəetmənin əsas funksiyaları proseslərin planlaşdırılması və proqnozlaşdırılması, idarəetmənin təşkil edilməsi, istiqamətlərin verilməsi və nəzarət etmədir. İdarəetmə uçotu bu funksiyaları düzgün şəkildə yerinə yetirməklə rəhbərliyə köməklik edir. İdarəetmə uçotu bir növ müəssələrdə kordinasiya verici əsas amil hesab olunur.

Məlumatların idarə olunması İdarəetmə sisteminin ən mühüm elementlərindən biridir. Menecerlər informasiyalar toplusunu qəbul edir və həmin informasiyaları məlumata çevirib öz fəaliyyətlərində məqsədlərinə çatmağa şərait yaradacaq nəticələr əldə edir və müəyyən qərarlar verirlər. Müəssisə üçün məlumat bazası, informasiya toplusu pul, avadanlıq və işçi qüvvəsi qədər dəyərli və önəmli amildir. Bu məlumatlar hər zaman yenilənməlidir və obyektiv olmalıdır. Bir çox hallarda bir məlumat eyni anda bir neçə insana lazım ola bilər. Buna görə də həmin məlumat dəqiq, aydın, düzgün, yığcam, bütöv, yaxşı təqdim olunan, qərəzsiz və saxlanıla bilən olmalıdır. Məlumatlar müəssisənin indiki və gələcək uğurları üçün lazımi və vacib resurs kimi çıxış edir. Hazırkı dövrdə müəssisələrin böyük əksəriyyətinin işi elektron kompyüter informasiya tətbiqi sistemlərindən asılıdır. " İnformasiya İdarəetmə Sistemi " (İİS) termininin mənası kompyüterlərə əsaslananaraq onun təqdim etdiyi məlumat bazasına əsasən əldə olunan informasiya sistemi deməkdir. İİS müəssisənin idarəetmə fəaliyyətlərini məlumatla təmin edən bütün sistemləri əhatə edir. Məlumatın müəssisə daxilində asanlıqla əlçatan olmasını və yayılmasını təmin edən avtosistemdir. İnformasiya sistemi menecerlərə məlumatı istədikləri şəkildə və istədikləri vaxtda əldə etmək imkanı verən bir faktordur. Bu faktor menecerləri qərarvermə zamanı, ehtiyac duyulduğu anda münasib məlumatlarla

təmin edərək onların işini asanlaşdırır və doğru nəticələrə yönləndirir. Kompyüter sistemləri müəssisələrə verilənlərin dəqiq, düzgün təqdim olunan, yenilənmiş və daha sürətli təqdim edilmiş faydalı informasiya şəklində emal olunmasında yaxından yardım göstərir. İnformasiyanın yığcam, münasib, vaxta uyğun və tam olub-olmaması onun emal və seçimində iştirak edən insanların potensialından, işi aparmasından və bilik səviyyəsindən asılıdır. Nəticə etibarilə, informasiya hər hansı bir biznesin uğurla fəaliyyət göstərməsi və biznesin inkişafı üçün səmərəli şəkildə idarə edilməli və nəzarətə ehtiyacı olan bir resursdur. Bu məqalənin mövzusunda idarəetmə üçün keyfiyyətli məlumat və onun xüsusiyyətləri ilə bağlı anlayışlardan bəhs edilir və keyfiyyətli məlumat sistemlərinin planlaşdırılma, qərarvermə və nəzarət üzrə idarəetmə proseslərinə verdiyi töhvə nümayiş etdirilir.

İdarəetmə informasiya sistemi (İİS) bütün səviyyələr üzrə menecerlərin öz işlərini rahat görə bilməsi üçün müəssisə tərəfindən məlumatları yayma vasitəsidir. Bütün təqdim olunan informasiyalar kağız və elektron formatda təqdim oluna bilər. Müəssisənin mühasibat sistemləri ümumi idarəetmə sisteminin ayrılmaz hissəsidir. Digər mənbələrdəki verilənləri də nəzərə alaraq maliyyə üzrə verilənlər toplanır və informasiya şəklində təhlil edilir. Bu da öz növbəsində bütün səviyyə və vəzifələr üzrə menecerlərin vaxtında və səmərəli qərarlar qəbul etməsinə şərait yaradır.

Müəsissənin mülkiyyətçilərini, malsatanları, malalanları, kreditorları, vergi orqanlarını, səhmdarları və maraqlı olan digər şəxsləri informasiyalar maraqlandırır (məsələn, xüsusi kapitalın çəkisinin dəyişilməsi haqda, müəssisənin fasiləsizliyi haqda, aktivlərin dəyəri haqda, investisiyaların səmərəliliyi haqda, borc vəsaitləri və resurslardan istifadənin səmərəliliyi haqda və s). Hər bir müəssisədə mühasibatlıqda bu informasiyalar müxtəlif ola bilər. Bununla yanaşı müəssisələrin böyük əksəriyyətində informasiyaya tələbat demək olar ki, eynidir. Texniki-iqtisadi planlaşmanın ən mühüm tərkib hissəsi müəssisə üçün bütövlükdə konkret dövr ərzində smetanın əsaslı şəkildə tərtib olunmasıdır. Smetanın başlıca və əsas məqsədi istehsal və xidmət müəssisələrinin struktur bölmələrinin müxtəlif planlarının necə istiqamətlənməsi hesab olunur. Operativ-istehsal planlaşması isə texniki-iqtisadi planlaşmadan fərqli olaraq müəssisə üzrə ümumilikdə və onun ayrı-ayrı struktur bölmələrinin plan işlərini dəqiqləşdirmək və konkretləşdirmək məqsədini güdür. Operativ-istehsal planlaşmanın ən mühüm fərqləndirici xüsusiyyəti odur ki, belə planların birbaşa müəssisədə yaranmış proseslər və mövcud olan istehsal normativləri əsasında hazırlanmasındadır. Planların hazırlanması və təqdim edilməsi onların icrasına təminat vermir, yəni hazırlanma icra demək deyil. Hər bir bölmənin rəhbəri bunun üçün məsuliyyət daşıyır və müəyyən tədbirlər görməlidir. Eyni zamanda hər bir menecer planların yerinə yetirilməsinə nəzarət etməli və hər bir kənarlaşma aşkara çıxarıldıqda kənarlaşmanın səbəbləri araşdırılmalı və bu istiqamətdə tədbirlər görməlidir. Müəssisə daxili planlaşmanın iki hissəsi də təsdiq etməyə imkan verir ki, onun müəssisə çərçivəsində məqsəd və vəzifələri üst-üstə düşür, hədəflərə adaptasiya və daha tez çatmağa imkan yaranır. Planlaşmanın hər iki hissəsinin əsasını eyni performanslar və iqtisadi standartlar təşkil etməlidir. Normativ-sorğu informasiyası iqtisadi informasiyaların digər növləri arasında əsas əlaqələndirici köməkçidir. Normativ-sorğu informasiyasının tərkibi istehsalın miqdarı, məhsul növü, tipləri, buraxılan məmulatların nomenkulaturası və mürəkkəbliyi, istehsalın texnologiyası və tərkibi, əməyin, xidmətlərin daxili bölgüsü, daxili əlaqələrinin inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. Bu əlamətlər texniki-iqisadi və operativ-istehsal planlarının üsullarının tətbiqində, istehsalın uçotunun aparılmasında, istehsal məsrəflərinin uçotu və məhsulların maya dəyərinin kalkulyasiyası metodlarının tətbiqində özünü göstərməkdədir və daha düzgün nəticələrə səbəb olur. İqtisadi informasiyaların digər növləri kimi uçot informasiyaları da normativ-sorğu və plan-iqtisadi növləri ilə ümumi əlamətlərə və prinsiplərə malikdir. Uçot informasiya sistemi aşağıdakı mərhələləri əhatə edir: ilkin məlumatların yığılması, dəyişdirilməsi, qeydiyyatı, yenidən işlənilmək üçün hesablama mərkəzinə və yaxud idarəetmə aparatına ötürülməsi, məlumatların müəyyən əlamətlər üzrə yığılması və qruplaşdırılması, analitik və sintetik uçotda istifadə olunan ümumi informasiyaların və hesablamaların həyata keçirilməsi, məlumatların induktiv və deduktiv təhlili, daxili və kənar informasiyaların çox böyük kütləsi meydana çıxır. İlkin informasiyalar maliyyə və idarəetmə uçotunu ilkin yığılmış məlumatlarla təmin edir.

İdarəetmə uçotu aşağıda göstərilən məsələlərdə istifadə ediləcək "məlumatların təyin edilməsi, toplanması, təqdim edilməsi və mənasının izah edilməsi ilə məşğul olan idarəetmənin ayrılmaz bir hissəsidir."

a) Strategiyanın qurulması. Məs: məişət texnikası, geyim və s. Kimi biznes sahələrində fəaliyyəti genişləndirmək məqsədilə mövcud mənbələri təhlil edərək əldə edilən məlumat bazası.

b) Fəaliyyətlərin planlaşdırılması və onlara nəzarət. Məs: istehsalın planlaşdırılması üçün bazardakı tələb və təklifə nəzarət məqsədilə verilən faktiki istehsal üzrə məhsul vahidləri ilə bağlı məlumat.

c) Qərarvermə. Məs: məhsul istehsalı həcmi ilə bağlı qərar vermək üçün əlverişli və uyğun nəticə üçün lazımi mənbələrdən əldə edilən məlumat.

ç) Mövcud resursların ən uyğun şəkildə istifadə edilməsi. Məs: mebel istehsalında mismar yerinə yapışqandan isitifadə edilməsi kimi hər hansı materialın əvəzləyiciləri barədə məlumata malik olaraq məsrəfləri azaltmaq.
d) Maraqlı tərəflərə və müəssisə ilə əlaqəsi olmayan digər kənar şəxslərə müəssisə haqqında məlumatın verilməsi. Məs: kənar tərəflərə müəssisənin fəaliyyəti üzrə mövcud gəlirlər və gələcək biznes planları barədə məlumat.
e) İşçilərin məlumatlandırılması. Məs: ödəniş strukturuna yenidən baxılması, gələcək inkişaf miqyası və işçilərin işləyə və vəzifələrini artıra biləcəyi müəssisədaxili yeni iş sahələri barədə məlumatlar.
ə) Aktivlərin mühafizə edilməsi. Məs: aktivlərin sığorta xərcləri, onların işlənib sıradan çıxması və köhnəlməsi barədə məlumat.
İdarəetmə uçotunda istifadə edilən məlumatlar onların əvvəlcədən nəzərdə tutulan məqsədlərinə xidmət etməlidir. Müvafiq metod və ya anlayış mühasibatın digər sahələrindən və ya riyaziyyat və iqtisadiyyat kimi fənnlərdən əldə edilsə də, bunlardan idarəetmə uçotu məqsədləri üçün də istifadə edilə bilər. [ACCA - F2 – İdarəetmə uçotu].

Nəticələr və müzakirə. İnformasiya sisteminin daha çox inkişaf etməsi, məlumat çoxluğu, genişmiqyaslı informasiya bazaları idarəetmə uçotunun işinin daha da asanlaşmasında birbaşa köməklik edir. Xərclərin hardan haraya gəlməsində, hesabatların düzgün tərtib edilməsində, rəhbərliyin sürətli qərar verməsində, xidmət və ya istehsal sahələrində işin daha düzgün formada aparılmasında informasiya mənbələri böyük rol oynayır. Müəssisə fəaliyyətinin genişlənməsi, iş prinsipinin daha çox ukladlı olması idarəetmənin məqsəd və vəzifələrindən asılıdır. İdarəetmə uçotunun aparılmasında proqram təminatının yeni çoxsaylı versiyalarının icadı daha böyük işlər görməyə şərait yaratdı. Uçotun operativ qaydada aparılması və əlçatan məlumat bazası uğura daha tez çatmağa zəmin yaradır. Müəssisə və təşkilatların gələcək inkişafı üçün əvvəlcədən xəbərdarlıq etmək, baş verə biləcək kənarlarşmaları əvvəlcədən görmək və qarşısını almaq kimi prinsipləri proqram vasitəsilə daha tez təmin etmək olar.

Yekun nəticə. Mövzunun araşdırılmasında diqqət çəkən əsas hissə hər bir müəssisədə uçot sisteminin olması və düzgün və vaxtında aparılmasıdır. Maya dəyərinin hesablanmasının metodlarının düzgün seçilməsi, istehsal ehtiyatlarının düzgün uçota alınması, rəqabətli bazarın risklərinin nəzərə alınması ayrı-ayrılıqda idarəetmə qərarlarına birbaşa təsir göstərəcək. Aparılmış bütün araşdırmalar göstərir ki, doğru idarəetmə doğru uçotdan qaynaqlanır.

Ədəbiyyat siyahısı

1. Yükçü Süleyman. “ Yöneticiler için Maliyet muhasebesi ” 2007.
2. Foster, George ve Charles T. Horngren, 1987, “ JIT: Cost Accounting And Cost Management Issues ”. Management Accounting.
3. S.M.Səbzəliyev, V.Quliyev “İdarəetmə uçotu” Bakı, 2014
4. Muhasibat.az internet saytı
5. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995
6. Milli mühasibat uçotu standartları, Bakı-2008
7. Ə.A.Sadıqov, T.Ə.Sadıqov, Ş.Ə.Cəfərova, C.Ə.Sadıqov “ Mühasibat uçotu ”- Bakı – 2012.
8. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, S.H.Pürhani “ Menecment ” Odlar Yurdu Universiteti, 2013.
9. Q.G.Abbasov, İdarəetmə uçotunun təşkili prinsipləri, Bakı-2006.
10. L.İ.Abdullayev, Maliyyə uçotu, Sumqayıt – 2017
11. Ковалев В.В. “Финансовый анализ”, М.1995.
12. Koçel T. “ İşletme Yöneticiliği ”, 9.B., Beta Basım Yayım Dağıtım, İstanbul, 2003
13. Q.Ə.Abbasov “ İdarəetmə uçotunun təşkili prinsipləri ”. Monoqrafiya. Bakı 2006.
14. Radil Fətullayev “ Beynəlxalq mühasibatlığa giriş ” (IFRS əsasında) - Bakı – 2016.
15. İdarəetmə uçotu – ACCA (F2) – 2016.

TƏHSIL MÜƏSSISƏLƏRINDƏ GƏLIRLƏR VƏ XƏRCLƏRIN UÇOTU

Təranə Zamanova Məhəmməd qızı
Bakı Biznes Universiteti magistrantı
Elektron poçt ünvanı: tarana.zm@gmail.com

Xülasə: Məqalədə müasir dövrdə təhsil müəssisələrində təhsil prosesinin təşkili və həyata keçirilməsində gəlir və xərclərin uçotunun aparılması və təhlili araşdırılmışdır. Belə ki, Ali təhsil müəssisələrində xərclərin və gəlirlərin uçotunun təkmilləşdirilməsinin özünəməxsus xüsusiyyətləri vardır ki, bu da təhsilin müxtəlif istiqamətləri və formalarının mövcudluğu, təhsil müəssisəsinin strukturu, bir neçə növ fəaliyyətin aparılması təhlil olunmuşdur.

Açar sözlər: Azərbaycan Respublikası, Maliyyə Nazirliyi, uçot, təhsil, bank, gəlir, xərc, hesabat.

Giriş

Dövlət və özəl təhsil müəssisələrinin aktivləri və bu aktivlərin yaranmasında aparılan bütün tapşırıqlar ilkin sənədlər əsasında icra olunur. Həmin sənədlər təhsil müəssisəsinin gəlirlərinin artması, azalması və yerdəyişməsi hallarını təsdiq edən hüquqi sənədlər hesab olunur. Hal – hazırda bütün təhsil müəssisələrində istifadə edilən uçot registrləri və ilk uçot sənədləri Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş və standartlaşdırılmışdır. Uçot registrləri ciddi uçot blankları və sadə uçot blankları kimi iki tipə bölünürlər və təhsil sahəsində bir qayda olaraq bunlardan istifadə edilir.

İlkin sənədlərə istinad edilərək icmal mühasibat sənədləri tərtib edilir. Burada əsas məqsəd ondan ibarətdir ki, həmin sənədlərdə müəyyən edilmiş əməliyyatların düzgünlüyünə nəzarət etməkdir. Bunun üçün də ilkin sənədlər mühasibatlığa təqdim edilməzdən əvvəl müəssisə rəhbərinin təyin etdiyi qaydalara uyğun hala gətirilir.

Təhsil müəssisələrində baş kitab tərtib edilir ki, bunlarda ilkin sənədlərə görə hazırlanmış hesabat registrlərinə əsasən həyata keçirilir. Tərtib edilmiş Baş kitaba uyğun olaraq hesabat dövrü zamanı dövriyyə cədvəli işlənib hazırlanır. Bu cədvəl 6 sütunlu formada düzəldilir. Bir qayda olaraq ilkin iki sütunda hesabat dövrünün əvvəlindəki sintetik və subhesabların qalıqları, sonrakı iki sütunda sintetik hesablar üzrə qəbz, sonuncu iki sütunda isə hesabat ayının sonuna uyğun gələn qalıqlar qeyd edilir.

Dövlət və özəl təhsil müəssisələrində mühasibat uçotunun təşkil edilməsi və qurulması üçün Azərbaycan Respublikası Prezidentinin "Mühasibat uçotu haqqında 2 sentyabr 2004-cü ildə dərc olunmuş Qanun"undan və həmçinin "Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarından istifadə edilir.

Dövlət və özəl şəkildə fəaliyyət göstərən təhsil müəssisələri öz fəaliyyətlərini xüsusi mülkiyyət məsuliyyəti əsasında yerinə yetirirlər. Təhsil müəssisələri təhsil haqqına əlavə olaraq, qeyri – sabit bazar iqtisadiyyatı şəraitində xərcləri və gəlirləri hesablamalı və digər hallarda yarana biləcək itkiləri ödəmək üçün əlavə resurslar axtarmalıdır.

Qazancın əldə olunması məsələsi sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın birinci məqsədlərindən biridir. Uyğun olaraq, fəaliyyət göstərən təşkilatların qazanclarının nəticələri, qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyəti istiqamətində əldə etdikləri xərcləri və gəlirləri uçotun son obyektinə aid edilir.

“Gəlirlər” anlayışı mürəkkəb iqtisadi kateqoriyadır. Gəlir dedikdə, hər-hansı bir istehsal amilindən əldə olunan natural və pul daxil olmaları başa düşülür. [12] Gəlir ümumi olaraq biznesdə mənfəət əldə edilməsi üçün və yaxud kapitalın artırılması üçün əsas vasitə sayılır. Gəlirin tanınması bəzi hallarda olduqca sadədir. Malların satışından əldə olunmuş gəlir aşağıdakı şərtlərin yerinə yetirildiyi hallarda tanınır:

- Müəssisədə malların mülkiyyət hüququ ilə bağlı olan risklərin və mükafatların əhəmiyyətli dərəcəsinin alıcıya ötürüldüyü zaman;
- Müəssisədə mülkiyyət hüququ ilə əlaqəli olan idarəetmədə iştirak edilmədiyi və satılmış mallar üzərində nəzarətin saxlanılmadığı zaman;
- Gəlirin məbləğinin etibarlı əsasda qiymətləndirilməsi mümkün olan zaman;
- Əməliyyat ilə əlaqədar iqtisadi səmərələrin müəssisəyə daxil olması ehtimal edildikdə;

- Əməliyyat ilə əlaqədar keçmiş və gələcək xərclərin etibarlı əsasda qiymətləndirilməsi mümkün olduqda.

Gəlir öz növbəsində 4 əsas kateqoriyaya bölünə bilər. Əsas əməliyyat gəliri, sair əməliyyat gəlirləri, fəaliyyətin dayandırılmasından mənfəətlər və maliyyə gəlirlərinə bölünür.[12]

Təhsil müəssində şirkətinin gəlirləri onun əldə edilməsi istiqamətlərinə görə aşağıdakı siniflərə ayrılır:

- Adi fəaliyyətdən gəlir;
- Əməliyyat gəlirləri;
- Qeyri-əməliyyat gəlirləri

Təhsil prosesinə çəkilən xərclər isə olduqca qeyri-bərabər səviyyədə həyata keçirilir, xərclərin çox böyük hissəsi aşağıdakı xərc növlərindən ibarət olur:

- Auditoriyaların təmirinə çəkilən xərclər;
- Tədris ədəbiyyaatının alınmasına çəkilən xərclər;
- Metodik vəsaitlərin və paylaşdırma materiallarının tirajının çoxaldılmasma çəkilən xərclər;
- Tədris planlarında düzəlişlərin aparılması ilə bağlı xərclər,
- Qəbul komissiyasının işi ilə bağlı xərclər;
- Reklam xərcləri.

Hazırda respublikanın təhsil müəssisələrinin əksəriyyətində xərc maddələrinin aşağıdakı nomenklaturası tətbiq olunur:

1. Əməkhaqqı;
2. Sosial fondlara ayırmalar;
3. Material xərcləri;
4. Ezamiyyə xərcləri;
5. Rabitə xidməti xərcləri;
6. Kommunal xidmətlərin, o cümlədən binaların idarəsi xərcləri;
7. Avadanlıqların və ləvazimatların cari təmiri;
8. Bina və qurğuların cari təmiri;
9. Tədris və metodik ədəbiyyatın hazırlanması və əldə olunması xərcləri;
10. Sair cari xərclər;
11. Uzun müddət istifadə olunan avadanlıqların və əşyaların alınması xərcləri.

Eyni zamanda xərc maddələrinin nomenklaturasına təhsil müəssisəsinin fəalİyyətinin təşkilinin aşağıdakı xüsusiyyətləri təsir göstərir:

- Binaların təhsil müəssisəsinin mülkiyyətində olması, yaxud onun icarəyə götürülməsi;
- Müəllimlərin tədrisə birdəfəlik cəlb olunması, yaxud onların ştata keçirilməsi.

Təhsil müəssisələrində maliyyə nəticələri auditinin daha düzgün və səmərəli təşkili gəlir və xərclərin etibarlı, dəqiq, dolgun və əlaqəli məlumatların olması mühüm əhəmiyyət kəsb edir. Çünki maliyyə nəticələri təsərrüfat-maliyyə fəaliyyətinin yekun göstəricisidir. Burada sadəcə olaraq mənfəətin kütləsindən və səviyyəsindən söhbət getmir. Maliyyə nəticələri təsərrüfat ili ərzində məhsul istehsalı, onlara çəkilən məsrəflər, məhsulun reallaşdırılması ilə bağlı olan əməliyyatlar və bu əməliyyatlara təsir edən mənfi və müsbət amillərin nəticəsində formalaşır. Ona görə də mənfəətin əmələ gəlməsi, onun bölüşdürülməsi və istifadə edilməsinə sadəcə bir göstərici kimi yanaşmaq olmaz.

Təhsil müəssisələrində gəlir və xərclərin audit yoxlama-ekspertizasına əsas etibarı ilə 4 prinsipial mövqedən yanaşılma tələb olunur:

- gəlir və xərclər üzrə əməliyyatların normativ hüquqi bazasına dair yoxlama-ekspertiza işləri;
- gəlir və xərclər üzrə əməliyyatların audit yoxlama-ekspertizasının prosedur qaydaları və metodikası;
- gəlir və xərclər üzrə uçot-hesabat işlərinin vəziyyəti;
- gəlir və xərclər üzrə yoxlama-ekspertiza işlərinin yekunlaşdırılması.

NƏTİCƏ

Tərəfimizdən aparılmış tədqiqat nəticəsində aşağıdakı nəticələr və əsaslandırılmış təkliflər formalaşmıdır:

1. Universitetlərin fəaliyyətinin qiymətləndirilməsi üçün mühüm göstəricilərdən biri də bir tələbənin hazırlanması və bir mütəxəssisin hazırlanması xərclərinin cəmidir.
2. Universitetlərdə mövcud olan mühasibat uçotu müəyyən xərc növlərini və mütəxəssis hazırlığı üçün çəkilən xərclərin məbləğini müəyyən etmək üçün zəruri olan bəzi məlumatların əldə edilməsinə imkan vermir.
3. Maliyyə nəticələrini formalaşdıran iki əsas komponent olan gəlir və xərclər üzrə daxili nəzarət sisteminin yaradılması yeyinti hallrının və kənarlaşmaların qarşısını alır;

İSTİFADƏ OLUNMUŞ ƏDƏBIYYAT

Azərbaycan dilində:

1. Abbasov İ.M., Məmmədov İ.A., Cabbarov A.S., Mühasibat uçotu (sahələr üzrə)\ Dərslik. Bakı-2017, 408 s.
2. Abbasov, Q.Ə. Mühasibat uçotu. Dərslik və metodik vəsait. / Bakı, “Təknur” nəşriyyatı-2017, 528 səh.

Abbasov, T.A. Mühasibat uçotunun beynəlxalq və milli standartlarının əsasları. / Dərs vəsaiti. Bakı, 2010. 253s.

BEYNƏLXALQ MÜNASİBƏTLƏR

VƏTƏN MÜHARIBƏSINDƏ AZƏRBAYCAN MULTIKULTURALIZM ƏNƏNƏLƏRININ NÜMAYIŞI

Aytən Firidunlu
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə
a.firidunlu1998@gmail.com
BAKI, AZƏRBAYCAN

Xülasə

Müxtəlif sivilizasiyaların qovşağında yerləşən Azərbaycan əsrlər boyu milli mədəni müxtəliflik ab-havasının formalaşdığı müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi şöhrət qazanmışdır. Bu gün Azərbaycanlıların həyatında tarixən xas olan multikulturalizm və tolerantlıq milli mənsubiyyətindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyatının ayrılmaz xüsusiyyətinə çevrilmişdir. Təkcə xalqımızın bugünki tolerant həyat tərzi deyil, həm də bu xalqın yaratdığı ədəbi-sənət, elmi-fəlsəfi, siyasi-hüquqi mənbələr və sənədlər Azərbaycan xalqının zəngin multikultural keçmişinə sübutdur. Məqalədə 44 günlük Vətən müharibəsində Azərbaycanın necə multikultural dəyərlərə malik olduğu bəhs edilir. Həmçinin "Xarıbülbül" musiqi festivalında ölkəmizin tolerantlıq ənənələrinin yüksək səviyyədə qorunması qeyd olunur.

Açar sözlər: Multikulturalizm, tolerantlıq, Dağlıq Qarabağ, 44 günlük Vətən müharibəsi, "Xarıbülbül" festivalı.

Summary

Located at the crossroads of different civilizations, Azerbaijan has been known for centuries as a country where people of different nationalities and faiths live in peace and harmony, mutual understanding and dialogue, where the atmosphere of national cultural diversity is formed. Today, multiculturalism and tolerance, which are historically inherent in the life of Azerbaijanis, have become an integral feature of the daily life of every citizen of the Azerbaijani state, regardless of nationality, language and religion. Not only the tolerant way of life of our people today, but also the literary, artistic, scientific, philosophical, political and legal sources and documents created by this people are evidence of the rich multicultural past of the Azerbaijani people. The article discusses how multicultural values Azerbaijan has in the 44-day Patriotic War. The "Kharibulbul" music festival also celebrates the high level of protection of the traditions of tolerance in our country.

Keywords: Multiculturalism, tolerance, Nagorno-Karabakh, 44-day Patriotic War, "Kharibulbul" festival.

Giriş

Bu gün Azərbaycan multikulturalizmin əsas ünvanlarından biridir. Cənab prezident İlham Əliyev öz prezidentliyi dövründə dövlət siyasətinin əsas istiqamətlərindən birini məhz multikulturalizm siyasəti elan etmişdir.

Belə ki, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri bütün dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasıdır. Qeyd edək ki, bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atmışdır. Sözsüz ki, multikulturalizm ölkənin daxili siyasətinin tərkib hissəsidir. Belə bir qanunauyğunluq mövcuddur ki, daxili siyasət xarici siyasətə münasibətdə müəyyənedici rol oynayır. Yəni, ölkənin daxilində əmin-amanlığın olması, ölkənin əhalisinin rifah şəraitinin yüksək olması ölkənin xarici siyasətini sülhyönümlü və digər ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığa yönəldir. Azərbaycan da bu qanunauyğunluğun bariz nümunəsidir. Azərbaycan multikulturalizm siyasəti vasitəsilə sabitlik adasına çevrilmişdir.

Azərbaycanda tolerantlıq mühiti həmişə ən yüksək səviyyədədir. Məhz buna görə də burada bir çox beynəlxalq səviyyəli tədbirlər, multikulturalizm, beynəlxalq və dinlərarası münasibətlər dialoq məsələlərinə həsr olunmuş elmi konfranslar keçirilir [2, s 5].

Düşünürəm ki, multikultural dəyərlərə Prezident İlham Əliyev qədər yüksək dəyər verən ikinci dövlət başçısı yox deyiləcək dərəcədədir. Məhz İlham Əliyevin siyasi iradəsi Azərbaycanda multikultural cəmiyyətin inkişafına ciddi dəstək ifadə etmiş və bu mühüm amil bilavasitə ölkədə beynəlxalq hüquqa əsaslanan insan hüquq və azadlıqlarının qorunmasına göstərilən bariz nümunə kimi beynəlxalq ictimaiyyətin diqqətini çəkir.

Məqalədə əsasən elmi məqalələr və kitab vəsaitləri nəzərdən keçirilərkən empirik və ipotetik-deduktiv (nəzəri) metodlar vasitəsilə mövzuya dair araşdırılma edilib və yekun nəticələr çıxarılmışdır. Məqalənin tədqiqat işi prosesində sistemli və müqayisəli təhlil prinsipi üzərində qurulmuş, nəzəri metodların tətbiqinə üstünlük verilmişdir.

I. II Qarabağ müharibəsində multikultural dəyərlərin qorunması

Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi ordumuzun şanlı qələbəsi ilə sona çatdı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. [4, s 165-167, 241-242].

İkinci Qarabağ müharibəsi göstərdi ki, Azərbaycanda yaşayan bütün xalqlar, bütün konfessiyalar bu torpaqları özünün Vətəni hesab edir və öz qanları bahasına, öz canlarını qurban vermə bahasına hər kəs bir ideanın ətrafında birləşdi.

Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olub. Qədimdən burada avarlar, talışlar, ləzgilər, udinlər və digər millətlər sülh və əmin-amanlıq şəraitində yaşayıblar. İllər əvvəl Qafqaza, daha dəqiq desək, Azərbaycanın ərazisinə köçürülən ermənilərin əslində heç bir tarixi olmamasına baxmayaraq, biz onların sonralar tikib-yaratdığı abidələrə həssaslıqla yanaşdıq. Əvəzində isə onların barbarlığı ilə qarşılaşdıq. Torpaqlarımızda yaşamaqları bir kənara əsrlər boyu mövcud olan tarixi abidələrimizi darmadağın etdilər. [3, s 408].

Prezident İlham Əliyevin də söylədiyi kimi düşmənlərimizdən geri alınmış ərazilərimizdə nəinki tarixi abidələrimiz hətta adi tikililər belə məhv edilib. Bundan başqa ermənipərəst qəddarləri xüsusilə də xarici media nümayəndələri tərəfindən irəli sürülən əsassız iddialar sübut edir ki, ermənilər həmin ərazilərdə milli, mədəni, dini abidələri, eləcə də yaşayış məntəqələri və qəbirləri dağıtmaqla özlərinə xas heç bir mədəniyyət nümunəsinin olmadığını əyani olaraq diqqətə çatdırırlar. Daha dəqiq desək, dağılmış şəhərlərimiz erməni vəhşiliyinin ən canlı şahidləridir.

2020-ci ildə ərazi bütövlüyünü bərpa etdikdən qısa müddət sonra Azərbaycan hakimiyyəti işğaldan azad edilmiş torpaqlarda tarixi, mədəniyyət və dini abidələrin bərpası ilə bağlı bir sıra tədbirlər planı hazırlayıb. Azərbaycanın Qarabağ bölgəsindəki bütün abidələr demək olar ki, 30 ilə yaxın qeyri-qanuni erməni işğalı zamanı erməni vandalizmindən əziyyət çəkib. Prezident İlham Əliyev işğaldan azad edilmiş rayonlara səfərləri zamanı çoxsaylı xristian məbədlərində ermənilərin törətdiyi mədəni vandalizm izlərini şəxsən ifşa edib [1, s 93-94].

Xocavənd rayonunun Hünarlı kəndində qədim Alban məbədi, Hadrut qəsəbəsi yaxınlığındakı Ağ xaç məbədi və eyni zamanda Xocavənd rayonunda yerləşən Müqəddəs Məryəm kilsəsi mundarlanaraq qəsdən " erməni kilsələri" kimi dəyişdirilib. Şuşa şəhərindəki Qazançı kilsəsi və Ağdam rayonundakı Beşikdaş kilsəsi kimi Alban məbədləri, Kəlbəcərdə Gəncəsər və Xudavəng monastr kompleksləri, Laçında Ağoğlan məbədi, Ağdərədəki Müqəddəs Yelisey məbədi kompleksi və digər abidələr ermənilər tərəfindən mədəni vandalizm və " ermənileşdirmə" siyasətinə məruz qalmışlar.

Prezident İlham Əliyev 2020-ci il noyabrın 14-də bildirib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə yerləşən xristian məbədlərini layiqincə qoruyacaq və ölkədə yaşayan xristianlar bu məbədlərdən istifadə edə biləcəklər. Azərbaycan Qarabağ bölgəsində qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının və Rus Provoslavlığının mirası olan xristian irsi abidələrini bərpa edir və onun Erməni Qriqorian kilsəsinə mənsub olduğunu iddia edən hər hansı bəyanatı birmənalı olaraq rədd edir. Bu gün Azərbaycanda 24 xristian dini icması 16 kilsədə ibadət edir. Azərbaycanın on milyonluq əhalisinin dörd faizini Rus Provoslov kilsəsinə ibadət edənlər təşkil edir.

Danılmaz faktdır ki, erməni millətçiləri xüsusilə də bu ölkənin indiki və keçmiş siyasi rəhbərliyinin təlqin etdiyi nifrət, rivanşizm ideologiyası birgə evimiz olan Cənubi Qafqazda vəziyyətin daha da gərginləşməsinə xidmət edir. Bu isə onu göstərir ki, bu gün dünyada həlledici rol oynayan güc amili, eləcə də haqq-ədalət bizim tərəfimizdədir. Bəli, reallıq ondan ibarətdir ki, düşmən illər uzunu törətdiyi müharibə cinayətləri dinc əhali və mülki infrastruktura qarşı vurduğu ziyana görə mütləq şəkildə beynəlxalq hüquqa uyğun olaraq cavab verməli olacaq. Çünki hüququn başlıca prinsipi ədalətdir. Hüquq insanlara deyil, konkret əməllərə qiymət verir. [5].

II. Azərbaycan multikulturalizm ənənələrinin rəmzinə çevrilən "Xarıbülbül" festivalı

Xarıbülbül" festivalı ilə dünyaya səs salan Azərbaycan həm də ölkəmizdə yaşayan müxtəlif xalqların mədəniyyətini, musiqi və rəqs ənənələrini nümayiş etdirən çıxışlarla dini və etnik tolerantlığın yüksək səviyyədə qorunmasına dair dünyaya vacib mesajlar verdi. Necə ki, 44 günlük müharibə ərzində torpaqlarımızın işğaldan azad olunması üçün bütün etnik və dini icmaların nümayəndələri vahid amal, vahid bayraq altında birləşərək çiyin-çiyinə döyüşmüşdü, canını fəda etmişdi.

Azərbaycan Prezidentinin tövsiyəsi əsasında 30 ildən sonra bərpa olunan Xarıbülbül festivalı həm də Azərbaycan multikulturalizm ənənələrinin simvoluna çevrildi. Təsadüfi deyildi ki, məhz festivalın ilk günü Azərbaycan musiqisində multikulturalizm mövzusunda təqdim edildi. 44 günlük zəfər dastanımızda Vətən üçün bir olub, birlik olub döyüşə atılan dilindən, dinindən asılı olmayaraq, bütövləşən xalqımız məhz Şuşadan, Cıdır düzündən milli birliyimizi, həmrəyliyimizi bir daha nümayiş etdirdi. Festivalda avar, talış, tat, ləzgi, gürcü, saxur və digər xalqların musiqi qrupları öz çıxışları ilə Azərbaycanın millətindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırdı. [7]

Təsadüfi deyil ki, uzun fasilədən sonra ilk dəfə keçirilən Xarıbülbül musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Bu işıqlı gün uğrunda canlarından keçən igid Vətən övladlarına, sağlamlığını itirmiş qazilərə, igid Ordumuza, Azərbaycan əsgərinə borcluyuq. Xalqımız və Ordumuz Prezidentimizin, Ali Baş Komandanımızın ətrafında birləşdi və bu, Qələbəni şərtləndirən əsas amil oldu. Bu arzunu gerçəyə çevirən hər kəsə baş əyirik! Şəhid olan qəhrəmanlarımızın xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır!

Festivalın programı və təşkili xüsusi qeyd olunmağa layiqdir. Səhnədə müxtəlif etnosların nümayəndələri bir-birini əvəz ediblər. Bir saat yarıma yaxın davam edən tədbirin ilk dəqiqələrindən hiss olunurdu ki, bu ideya Prezidentimizdən gəlib. Bütün festival boyu biz bir daha Heydər Əliyev Fondunun Prezidenti, birinci vitse-prezident Mehriban Əliyevanın qüsursuz zövqünün və təşkilatçılıq bacarığının şahidi olduq. Bu, hər bir detalda- səhnə tərtibatından tutmuş musiqi seçiminə və tamaşaların ardıcıllığına qədər aydın şəkildə özünü büruzə verirdi. [5].

Bu yazı üzərində işləyərkən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında Zəfər Paradında söylədiyi təsirli sözləri xatırlaya bilərik. "Şuşa dağlarında duman indi o qədər də tutqun deyil. Xarıbülbül çiçəyi azaddır və daha da gözəlləşəcək. Kəndələnçay suyu daha da bollaşacaq. Araz çayı öz nəğməsini daha da ucadan oxuyacaq. "Qarabağ şikəstəsi"-ni ifa edən səslər daha da yüksək səslənəcək". Hörmətli prezident Ərdoğanın ötən qış günlərinin birində dediyi sözlərin təsdiqini bir yaz günündə gördük. Azad edilmiş Xarıbülbül daha da gözəl çiçəklənir, çaylarımız daha da gurlaşır, Cıdır düzündə oxunan "Qarabağ şikəstəsi" ürəklərdə, dağlarda əks-səda verir. İki il əvvəl bu yerlərdə bəzi yadplanetlilərin musiqisi səslənirdi. Üç il əvvəl Paşinyan sərxoş halda Cıdır düzündə rəqs edirdi. Artıq bu yerlərin əsl sahibləri geri döndü. İndi Şuşanın ətrafındakı dağlarda eşidilən muğam səsidir. Ətrafımızda doğma musiqi səsləri eşidilir, məscidlərdə yenidən azan səslənir. İgid Azərbaycan ordusu qalib Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, cəsarəti və liderlik məharəti sayəsində 30 illik işğala və illərlə intizara 44 gündə son qoydu, bununla da misilsiz bir qəhrəmanlıq dastanı yazdı. Şuşa əməliyyatı isə, şübhəsiz ki, bu eposun ən şərəfli səhifəsi, finalı idi. [6].

Şuşa dörd tərəfdən keçilməz dağlar, dərələr və sıldırım qayalarla əhatə olunmuş təbii istehkamdır. Düşmən dağların başına tank və toplar yerləşdirərək müdafiə mövqeyi tutdu. İgid Azərbaycan əsgərləri tankların və topların atəşi altında sıldırım qayalara qalxaraq əlbəyaxa döyüşdə düşməni darmadağın etdilər. Şuşa uğrunda gedən döyüşlərdə itkilər verdik, lakin igidlərimiz bir an belə tərəddüd etmədən, möhlət vermədən irəliləməyə davam etdilər. Prezidentin təbirincə desək, onları milli ruh irəli aparırdı. Məhz bu amil Qələbəni təmin etdi. "Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin sonu demək idi, çünki ondan bir gün sonra Ermənistan bizim şərtlərimizlə tərtib edilmiş təslim aktını imzalamağa məcbur oldu və biz Laçın, Kəlbəcər, və Ağdam rayonlarını bir dəfə də olsun atəşə tutmadan geri qaytardıq. Təsadüfi deyil ki, Şuşanın işğaldan azad edildiyi gün 8 noyabr Azərbaycanda rəsmi dövlət bayramı, Qələbə günü elan edilib və biz hər il bu bayramı qeyd edəcəyik". Prezidentin Cıdır düzündə festivalın açılışında söylədiyi bu sözlər sürəkli alqışlarla qarşılandı və festivalın əhəmiyyətini bir daha vurğuladı. [9]

Eyni zamanda, bu gün Şuşada yaşananlar həm də kimin kim olduğuna sübutdur. Ötən 28 ildə ermənilər heç nə yaratmayıblar. Əksinə, şəhəri viran qoyublar, bulaqları qurudublar ki, bu şəhər və bu bulaqlar onlara aid deyil, onlara yaddır. Bu yerlərin əsl sahibləri qayıtdıqdan dərhal sonra orada tikib-yaratmağa başladılar və bunu bütün dünya görür ki, Azərbaycan xalqı bundan sonra Şuşada əbədi yaşamaq niyyətindədir. Artıq şəhərdə bərpa işlərinə başlanılıb. Təmir olunmuş Yuxarı Gövhərağa məscidində bayram namazı qılınıb.

Vətən müharibəsi, Şuşa əməliyyatının şanlı epizodu, Azərbaycanla Ermənistanın bu təkbətək döyüşü "erməni ordusunun yenilməzliyi" mifinə son qoydu və gücümüzü həm düşmənə, həm də bütün dünyaya nümayiş etdirdi. Müharibə zamanı da Prezidentimiz "Şuşasız missiyamız yarımçıq qalacaq" demişdi. Həmişə olduğu kimi, sözünün üstündə durdu. Şuşasız Azərbaycan qanadı yaralı qartal kimi idi. Quş qanadsız uça bilmədiyi kimi biz də Şuşasız yaşaya bilməzdik. Şuşanı qaytaran Prezident bizə nəfəs verdi. Bu gün bu yerləri görmək istəməyən yoxdur. Çox tezliklə tale bu xoşbəxtliyi hamıya bəxş edəcək. Prezident İlham Əliyevin ailə üzvləri, birinci xanım Mehriban Əliyeva və qızları leyla Əliyeva və Arzu Əliyeva ilə birgə Şuşaya hər səfəri Qarabağı tərk etmək məcburiyyətində qalan düşmənə tarixi hadisə və tikan kimi qəbul edilir. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə Azərbaycan bayrağını qaldırır, məscidlərdə namaz qılır, Qarabağda yolların, hava limanlarının və digər infrastruktur layihələrinin təməlini qoyur, Arazın sularında əl-üzünü yuyur,məşhur Xudafərin körpüsünün qarşısında şəkillər çəkdirir, Zəngilanda nəhəng Çinar ağacını qucaqlayır. Bütün bunlar Qarabağın Azərbaycan xalqına tarixi mənsubluğunu, öz torpağına sevgisini nümayiş etdirən təsirli məqamlardır. [8]

Nəticə

Dünya ictimaiyyətinə də yaxşı məlumdur ki, etnik və dini mənsubiyyətinə görə müxtəlif olan Azərbaycan Respublikası öz tarixi ərazilərini xristianlıqla heç bir əlaqəsi olmayan işğaldan azad etmək üçün mübarizə aparıb. Azərbaycan silahlı qüvvələrinin tərkibində ölkəmizdə yaşayan bütün millətlərin və dinlərin müsəlman, xristian, yəhudi nümayəndələri Azərbaycanlılarla bərabər döyüşüblər. Bu insanlar qalib ordunun Ali Baş Komandanı Cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır" şüarı ətrafında birləşdilər. Onların arasında misilsiz qəhrəmanlıq göstərənlər, şəhid olanlar, yaralananlar və Azərbaycan Respublikasının ali orden və medalları ilə təltif edilənlər də oldu.

Xarıbülbül musiqi festivalı da bütün dünyaya göndərilən mühüm mesaj baxımından kifayət qədər diqqətəlayiq oldu. Şuşada ölkəmizin müxtəlif bölgələrindən olan folklor orkestrləri, tanınmış incəsənət xadimləri, Azərbaycanın görkəmli mədəniyyət xadimləri KİV nümayəndələri toplaşdı. Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin çıxışları göstərdi ki, ölkələr məhz belə inkişaf etməlidir. Yalnız çoxkonfessiyalı və çoxmillətli ölkə və cəmiyyətlər inkişaf edə, birliyə, milli həmrəyliyə, sülhə malik ola bilər. Azərbaycan uzun illərdir ki, həm ölkədə həm də beynəlxalq aləmdə multikulturalizmi və müxtəlif xalqların birgə yaşayışını təbliğ edir. Biz öz təcrübəmizi bölüşürük və bunun mümkün olduğunu göstəririk. Xarıbülbül musiqi festivalı bunun daha bir təsdiqi oldu.

Ədəbiyyat siyahisi

1. Böyük Qayıdış, Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri. I kitab. Bakı. 2021.
2. Nağıyev A. Tolerantlıq Azərbaycan multikulturalizminin əsas sütunudur / "Azərbaycan" qəzeti. 19 yanvar 2016. s 5.
3. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı. 2015 s 408.
4. Vətən Müharibəsi Tarixi, Şəxsiyyət Faktoru. Elmi redaktor: Kərim Şükürov. Bakı. 2021.
5. http://www.anl.az/down/meqale/azerbaycan/2021/may/744906.htm [Sayta giriş tarixi:13.04.2022].
6. https://president.az/az/articles/view/51478 [Sayta giriş tarixi: 14.04.2022].
7. https://www.azerbaijan-news.az/posts/detail/xaribulbul-festivali-xos-gunlerin-mujdesidir-1621283937 [Sayta giriş tarixi: 14.04.2022].
8. https://sia.az/az/news/politics/870243.html [Sayta giriş tarixi: 15.04.2022].
9. https://medeniyyettv.az/az/news/1555/tarixi-xari-bulbul-festivali [Sayta giriş tarixi: 15.04.2022].
10. https://azertag.az/xeber/Isgaldan_azad_edilen_Susa_seherinde_ilk_defe_Xaribulbul_musiqi_festivali_kechirilir-1779459 [Sayta giriş tarixi: 16.04.2022].

ALMANİYADA YAŞAYAN TÜRKLƏR

Nilufər Hüseynzadə
Bakı Slavyan Universiteti
nt19941998@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Almaniyada yaşayan türklərin qürbət macərası 1961-ci ildə başlamış və o gündən sonra fərqli problemlərlə davam etmişdir. Əslində 1961-ci ilə qədər də Almaniyaya təhsil almaq üçün gedən türk gəncləri var idi. Almaniyada türk əhalisinin mövcudluğu 1878-ci ilə qədər gedib çıxır. Bunlar əsasən imkanlı ailələrin övladlarıdır və onlar xaricdə və daha çox Almaniyada təhsil aldıqdan sonra Türkiyədə yaxşı iş imkanları tapıblar. Ancaq Almaniyadakı türklər deyildikdə xaricə oxumağa gedən gənclər deyil, işləməyə gedən türklər başa düşülür və bu adamlara Almaniyada qonaq işçi (Gastarbeiter) deyirlər. Almaniyaya gedənlər gələcəkdə ikinci vətən hesab edəcəkləri ölkəyə yollanarkən, geridə qalanlar üçün həsrətin, sönməz sevgi atəşinin və ayrılıq ağrılarını da özləri ilə aparırlar. Aradan keçən illər türklərdən heç nə əskiltmədi, aparmadı hələ də Türkiyə sevgisi qəlblərindədir və yenə həsrət nəğməsini oxuyurlar. Öz aralarında təşkil etdikləri məclislərdə xalq mahnıları oxuyaraq vətən həsrətini, ağrısını azaltmağa çalışırlar.
Açar Sözlər: Almaniya, türklər, qürbət, yaşamaq.

Keçmişdən bu günə qədər yaşadıqları problemlərlə isə heç bir dəstək almadan təkbaşına mübarizə aparmalı oldular və getmələri ilə əslində bəlkə də bilmədən Türkiyənin işsizlik problemini, valyuta dilemmasını qismən həll etdilər. Türkiyənin Almaniya ilə əmək müqaviləsini imzalaması ona gələcəkdə fərqli faydalar əldə etməyə imkan verirdi. Burada əsas məqsəd ölkədəki gərgin işsizliyin qarşısını almaq, işçilərin göndərdiyi pul köçürmələrini qiymətləndirmək, geri dönərkən qazandıqları təcrübə və texniki bilikləri Türkiyə sənayesinə qazandırmaq idi. Qürbətdəki türklərin problemlərini isə görməzlikdən gəlirdilər. Bəzən də qohumları tərəfindən əyləncə obyektinə, məsğərəyə çevrilirdilər. Bu gün də bu adamlar "alman", "alamancı" kimi sözlərlə yadlaşdırılırlar. Ancaq il boyu ümid və evə getmək həsrəti ilə yaşayan türklər belə ittihamlara layiq deyillər. Sürdüyü avtomobil və geyindiyi paltarla tənqid hədəfinə çevrilən Almaniyadaki türklərin aidiyyət problemi var. Almaniyada əcnəbi, Türkiyədə alman olduqları üçün nə Almaniyaya, nə də Türkiyəyə aid olduqlarını hiss edirlər. Türkiyədə yaşayan qohumların xaricdə işləyənlərə qarşı bu və buna bənzər neqativ münasibəti həmin insanların Türkiyədən uzaq durmalarına və vətənlərinə qayıtmalarının sual altına düşməsinə səbəb olub. Birinci nəsli təmsil edən türklərin əksəriyyətinin arzusu gerçəkləşməyincə, təqaüdə çıxdıqlarında qalan ömürlərini Türkiyədə deyil, Almaniyada qocalar evlərində keçirirlər.

Birinci nəsil türklər. Almaniyada türk cəmiyyəti üç fərqli nəsil olaraq inkişaf edib. Təbii ki, buna paralel olaraq türklərə verilən adlarda dəyişir. 1980-ci illərə qədər Almaniya ölkədəki əcnəbiləri "Gastarbeiter" (qonaq işçi) kimi təyin edirdi. Çünki o, "immiqrantlar ölkəsi" olmaq istəmirdi. Lakin onların geri dönüşü gecikəndə "Mitarbeiter" (iş yoldaşı/işçi), ölkədə daimi olduqları məlum olduqda isə "Migranten" (imiqrantlar) ifadəsi işlədilməyə başladı.

Almaniyaya gedən ilk türk vətəndaşları kəndlərindən və ya şəhərdəki kiçik, kasıb evlərindən yola düşdülər. Türkiyədə hər şeyin çox çətin olduğu bir vaxtda Almaniyaya getmək, pul qazanmaq və ailələrə kömək etmək və ən qısa zamanda ölkəyə qayıtmaq fikri demək olar ki, hamının düşüncəsində hakim idi. 1964-cü il tarixinə görə 1-ci nəsil mühacir türklərin ixtisas bölgüsü beləidi: "66.216 nəfərdən 24.468 (37%) ixtisaslıdır, yəni bir peşə təhsili var, 41 748 nəfərin (63%) heç birinin peşə təhsili yoxdur". Çantalarına, sandıq və ya taxta çamadanlarına bir neçə əşya ilə Sirkeci Dəmiryol Stansiyasına yollanan bu insanların beynində yola çıxan kimi yaranan hər cür düşüncə, şübhə və həsrətlə gedəcəkdilər Almaniyaya. Birinci nəsildən olanlar daha çox millətçi, mühafizəkar idilər və Almaniyada çəkdikləri əziyyət baxımından onlardan sonrakılara nisbətən daha çox çətinliklərlə üzləşiblər. Türklərin Almaniyaya getməsinin 50-ci ildönümündə o ilk qatar səfərini xatırlamaq üçün TRT 2011-ci ildə Almaniyaya səfər təşkil edir. Almaniya qatarı Sirkeci stansiyasından yola düşdükdən sonra sıra ilə Bolqarıstan, Serbiya, Xorvatiya, Slovakiya, Avstriya və daha sonra Almaniyaya gəlir. Almaniyanın Berlin və Hamburqdan sonra 3-cü ən böyük şəhəri olan Münhen, əlbəttə ki, ilk işçi vətəndaşların qalıb məskunlaşacağı yer deyil. Bu gözəl şəhər sadəcə olaraq

onların bir çoxunun başqa şəhərlərə köçürülməsi üçün əsas mərkəzdir. Türkiyədən gələn qonaq işçilər (Gastarbeiter) əvvəlcə Münhen qatar stansiyasına, sonra isə digər şəhərlərə yollanıb. Türklərin birinci nəsildə yaşadıqları problemləri sadalamaq lazım gələrsə, dil, mədəniyyət, təhsil, qidalanma və yerləşdirmənin prioritet olduğunu söyləmək olar.

Dil. Alman dili tarixdə iz qoymuş və ingilis dilindən sonra ikinci elm dili kimi qəbul edilən dillərdən biridir. Martin Lüterin İncilin alman dilinə tərcüməsi ilə Xristianlıqda ilk məzhəb qarşıdurmaları baş vermiş, nisbilik nəzəriyyəsinin sahibi Eynşteyn alman idi, Höte, Şiller, Kafkanın, Nitsşe, Marks, Engelsin əsərlərinin alman dilində olması alman dilini əhəmiyyətli bir dil etmək üçün kifayətdir. Hər iki dilə struktur olaraq baxıldığında türk dili yazıldığı kimi oxunur, aqlütinativdir və fleksiyada sözün kökündə heç bir dəyişiklik yoxdur, alman dili isə flektiv bir dildir və sözün kökü dəyişmişdir . Alman dilini bilməməsi təbii olaraq birinci nəsil türklər üçün böyük çətinliklər yaratsa da, alman dilinin türk dili ilə eyni dil qrupunda olmaması və strukturca türk dilindən çox fərqli olması sonrakı dövrlərdə də onun öyrənilməsini çətinləşdirirdi.

Dil nəzəri cəhətdən qiymətləndirildikdə iki yolla öyrənilə bilər: təbii və sonradan. Birincisi, təbii mühit adlanan dildə ana dili kimi danışan, ölkədə doğulub böyüyərək öyrənməkdir və buna təbii dil mənimsəmə deyilir. Dil təkcə birinci gedənlərin deyil, sonrakı nəsillərin də ən vacib problemlərindən biridir. Bu dəfə Almaniyada almanlarla evlilikdən olan ikinci və üçüncü nəsil türk övladlarının yaşadıqları dil problemləri babalarının yaşadıqlarının əksinədir. Babaları alman dilini bilmədiyi halda, yeni nəsil türk dilində ya yarı, ya da heç

danışa bilmirdilər. Belə evliliklərdən doğulan uşaqların nitq üstünlükləri bir araşdırma ilə müəyyən edilmişdir:

1. Ananızla hansı dildə danışırsınız: türk 0%, alman 50%, hər iki dil 50%.
2. Atanızla hansı dildə danışırsınız: türk 0%, alman 52%, hər iki dil 48%.
3. Hansı dildə oxuyursunuz: türk 0%, alman 95%, hər iki dil 5%.
4. Hansı dildə yazırsınız: türk 0%, alman 100%, hər iki dil 0%.
5. Hansı dildə yuxu görürsünüz: türkcə 0%, almanca 99%, hər iki dildə 1%.

Mədəniyyət. Dil sosial həyatı və həmin cəmiyyəti təşkil edən dəyərləri əks etdirən göstərici olmaqla yanaşı, həm də "ictimaiyyətə millət xarakteri verilməsində nəzərə alınan ən mühüm meyardır". Mədəniyyət isə bir xalqın bütün maddi və mənəvi ünsürləri özündə birləşdirən, mənbəyini dildən götürən davranışıdır. Mədəniyyət müəyyən bir cəmiyyətin öz üzvlərindən təbiətdə tapıla biləndən daha çox məmnunluq əldə etmək üçün əldə etdiyi bütün maddi və davranış nizamlarının nümunəsidir; O, insanın cəmiyyətin bir üzvü kimi inkişaf etdirdiyi bütün bilikləri, inancları, sənəti, əxlaqı, adətləri, istedad və vərdişləri və ictimai təsisatları ehtiva edir. Bundan əlavə, dil mədəni xüsusiyyətləri gələcək nəsillərə ötürən əsas ünsürlərdən biri olduğu da bir həqiqətdir. Mədəniyyət və mədəniyyəti təşkil edən dəyərlər, əlbəttə ki, təcrübələrin, keçmişin ifadəsidir və əsrlər boyu qazanılan bir dəyərdir. Lakin bu, cəmiyyətin başqa xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqədə olmadığını göstərmir. Bunun ən gözəl nümunəsi Osmanlı İmperatorluğu dövründə Fransaya göndərilən tələbələrdir. Fransaya təhsil üçün gedən Osmanlı tələbələri vətənlərinə döndükləri zaman oradan əldə etdikləri mədəni xüsusiyyətləridə yaymağa çalışırdılar.

Almaniyaya fəhlə kimi gedən ilk nəsil türklərin bəlkə də ən mühüm problemi mədəniyyətlərin toqquşması idi. Bunun ən mühüm səbəbi din, dil, tarix, sosial və ictimai hadisələr kimi milli mədəniyyəti qidalandıran ünsürlərin heç birinin ortaq və ya oxşar olmamasıdır. Türklərdən əvvəl bəzi Avropa ölkələri ilə əmək müqavilələri çərçivəsində gələn işçilər daha çox İspaniya, İtaliya, Yunanıstan və Portuqaliya kimi ölkələrdən idi. Bu ölkələrin mədəni xüsusiyyətlərini formalaşdıran ortaq məxrəc xristianlıq dinidir. Odur ki, türklərin almanlara, almanların türklərə uyğunlaşma prosesi hər iki xalqın çox fərqli coğrafiyalardan olması və ortaq məxrəcə malik olmaması səbəbindən çox çətin olmuşdur. Qapalı ictimai quruluşdan açıq ictimai qruluşlu Avropa ölkəsinə gedib məskunlaşmaq türkləri Almaniyada bir araya gəlməyə, bir-birinə sıx bağlı olmağa, millətçi olmağa sövq etdi. Türklərin dil öyrənməkdə yaşadığı bu uğursuzluğu gələcəkdə alman xalqı ilə birbaşa uyğunsuzluq şəklində özünü göstərəcəkdi. Almaniyadakı türk cəmiyyətinin Türkiyədəki kimi mühitlər yaratmaq cəhdləri zamanla Almaniyada türk məhəllələrinin yaranmasına səbəb oldu. Birinci nəsil özlərini yad mədəniyyətə bağladıqları üçün alman dilini öyrənmək şansları yox idi.

Bu dövrdə yazıb- yaratmaq istəyən türklər fəhlə mənşəli idilər və yazıları ədəbi xüsusiyyətlərdən uzaq idi. Mənim həyatım, roman anlayışı ilə yazılan məqalələr daha çox türkcəidi və ana vətən Türkiyədə pulla çap olunurdu. Xüsusilə 1970-ci illərdə Almaniyada ədəbi dəyəri olmasa da əsərlərini kitab halına salmaq istəyən işçilər Türkiyədəki bəzi nəşriyyatlar üçün əsl qazanc mənbəyi olmuşdurlar. Qəhrəmanları türk işçiləri olan fəhlə əsilli yazarlar daha çox fabrik, gündəlik həyat, alman xalqı, ayrılıq, vətən həsrəti, sevgi və

ayrılma kimi mövzuları məkan-zaman və hadisə fantastikasını çox nəzərə almadan işləyiblər. Birinci nəsil yazıçıların ən böyük qüsuru alman mədəniyyətinə malik olmadıqları üçün almanlar
haqqında yazılarında qərəzlərinə məğlub olmalarıdır. Bu qrupdakı müəlliflər, Güney Dalın və onun yazdığı "E-5" (1979) kitabı ölən atasını dəfn etməmək üçün onu televizor qutusuna qoyub Türkiyəyə apararkən yolda qutunu oğurlayan fəhlədən bəhs edir. Almaniyadaki türklərin dilemmaları, narahatlıqları və həll yolları axtarışları ifadə edilirdi. Aras Ören 1980-ci ildə nəşr etdiyi "Berlin Trilogy" adlı əsərində Kreuzbergdən nümunə götürərək, xaricdə yaşayan türklərin mübarizəsindən bəhs edir. Özü də birinci nəsildən olan Nevzat Üstün "Bir Qadın" (1976) adlı kitabında o dövrdə adi olan bir faciəyə işıq salır. Alman fabrikləri, xüsusən də elektronika sənayesində qadın işçilər tələb etdikdə, Türkiyədən ərlərini və uşaqlarını geridə qoyub dolanmaq üçün Almaniyaya gedən qadınların sayı xeyli idi. Bir müddət sonra ailələrini yanlarına aparan bu qadınlar ərlərinin qarşısına bir az dəyişmiş halda çıxanda ya ciddi şəkildə döyülüb, ya da həyatlarını itiriblər. Bu transformasiya təbii ki, alman mədəniyyətinə və qərb dünyasına uyğunlaşma ilə sıx bağlıdır və ümumiyyətlə geyim və görünüşlə bağlıdır. Üstün bu kitabda ərindən əvvəl Almaniyaya gələn Nazife adlı qadının hekayəsindən bəhs edir. Təəssüf ki, bu gündə kişi hegemoniyası, eqoları ilə idarə olunan dünyada hələdə belə halla davam edir.

Yuxarıda göstərilən nümunələr türklərin Almaniyada özünəməxsus şəkildə təcrid olunmuş dünya yaratdıqlarını göstərir. Alman xalqı mədəni istinad mənbəyini xristianlıq dinindən və əsrlər boyu toplanmış alman ənənəsindən götürdüyü kimi, türk xalqının qidalandığı mənbə də türk-islam sintezidir. Türk mühacirlərinin Almaniyada yalnız fabriklərdə işləyərək qazanc əldə etmələri onların iqtisadi yönlərini təmin etdiyi halda, onların mənəvi aclıqlarını doyura biləcəkləri bir yer zəruri idi. Bu səbəbdən də onların ibadət edə biləcəyi, hətta boş vaxtlarında oturub söhbət edə biləcəyi yerlər icarəyə götürülür və ya alınırdı. Mütəmadi olaraq məscidlərə gedən türklərin nisbəti 30%, məscidlərdə Quran kurslarına gedən tələbələrin nisbəti isə 7% təşkil edir. Türklərin Almaniyada bir müddət sonra milli və dini kimliklərini açıq şəkildə ortaya qoyması onlarla alman xalqı arasında soyuq küləklərin əsməsinə səbəb olur. Türklərin Almaniyada İslamı qəbul etmələrinin başqa bir səbəbi də öz aralarında ortaq dəyər yaratma səyləridir. Beləliklə, bu ümumi dəyər ətrafında birləşmək və tək qalmamaq daha asan olacaq. Türk xalqını subkulturu simvolizə edən qeyri-adi bir cəmiyyətə çevirən bu milli və dini refleks gələcəkdə ksenofobiyanı alovlandırmaqda rol oynayacaq. Sosial-mədəni səviyyəsi almanlardan aşağı olan birinci nəsil türklər əcnəbi olmaq duyğuları və düşüncələri ilə özlərini alman mədəniyyətinə tamamilə bağlamışdırlar.

İkinci nəsil türklər. İkinci nəsil adlandırılan köçəri türklər Almaniyaya gedən ilk türklərin övladlarıdır və bəlkə də bəzi xüsusiyyətləri ilə bütün digər nəsillərdən şanslıdırlar. Əvvəla, xarici ölkəyə uyğunlaşmaq kimi problemlə qarşılaşmayıblar. Əslində, 2. nəsil adlanan türkləri iki yerə bölmək düzgün olardı. Bunlardan birincisi Almaniyada doğulanlar, ikincisi isə Türkiyədən uşaq və ya gənc olaraq ailələri tərəfindən Almaniyaya aparılanlardır. Almaniyada doğulub böyüyən və orada təhsilə başlayanlar təbii olaraq alman dilini mükəmməl bilirlər və evdə türkcə danışdıqları üçün türk dilini də yaxşı bilirlər. Bu qrupa daxil olan türklər zamanla mühitə uyğunlaşa bilmiş və almanlarla dostluqlarını gücləndirmişlər. İnsanlar mövqelərinə uyğun olaraq yeni dostlar qazanırlar, formalaşdıqları cəmiyyətdən fərqli düşünə bilirlər və onlara təqdim etdikləri fikirləri doğru və yaxın gördükləri təhsillə düz mütənasib olaraq mənimsəyərək fərqli düşüncələr qazanmağa
başlayırlar. Türkiyədə doğulan və sonradan Almaniyaya aparılan uşaq və gənclər xaricdə müəyyən çətinliklər yaşamalı olurlar vəbunların sırasında təhsil birinci yerdədir.

Təhsil. Keçmişdən bu günə Almaniyada türklərin təhsili həmişə problem olub. Birinci nəsil ata və anaların təhsil səviyyəsinin aşağı olması, xarici dil bilməməsi kimi bəzi səbəblər qismən uşaqlarda özünü göstərir. Xüsusilə Almaniyaya aparılan uşaqlar getdikləri məktəblərdə sonradan dil, uyğunlaşma, qavrama kimi problemlərlə qarşılaşırlar. Bu qrupdakı türklərin digər nəsillərlə müqayisədə ən böyük üstünlüyü hər iki mədəniyyətə yaxın olmalarıdır. Evdə hər zaman türkcə danışıldığından türkcə yaxşı danışırlar, məktəbdə dərslər almanca keçdiyi üçün alman dilini öyrənirlər, üstəlik gənc yaşlarından Almaniyada olduqları üçün alman və xristian mədəniyyətinə bələddirlər.

Dil problemi olan türk uşaqlar üçün ilk həll yolu yalnız türk uşaqlarla xüsusi siniflər yaratmaqdır. Bu siniflərdə məktəb həyatına başlayan uşaqlar ya Türkiyədə doğulub, ya da Almaniyada doğulub, ancaq valideynləri işlədiyi üçün nənələrinin yanına göndərilib, sonradan gətirilib. Sonrakı siniflərdə xarici dildə irəliləyişlərə uyğun olaraq alman məktəbinə aparılırlar. Bu qrupdakı şagirdlərin təhsil həyatı böyük problem və maneələrlə doludur. Çünki onlar 4-cü sinifdən sonra ya Sonderschule adlı məktəblərə (əlil və ya əqli qüsurlu uşaqların göndərildiyi məktəblərə) gedirlər, bu məktəbləri bitirənlər isə həyata başlayırlar. Heç bir peşə öyrənmədən, yaxud peşə məktəblərinə (Berufsschule) gedib işə düzəlirlər. Gymnasium adlı

məktəblərdə (liseyi Abitur adlı buraxılış imtahanı ilə bitirib) və Türkiyədəki liseylərə bərabər olan məktəblərdə müvəffəqiyyət qazanan çox az türk şagird var. Beləliklə, 3. nəsil türklərin ailələrini təşkil edəcək bu 2. nəsil türklərin istisnalarla nə iş həyatında, nə də təhsil həyatında müvəffəqiyyətli olmadıqlarını başa düşmək olar.

Üçüncü nəsil türklər. Bu qrupa daxil olan türklər yuxarıda qeyd olunan ilk iki qrupdan bəzi cəhətlərə görə fərqlənirlər. Məsələn, demək olar ki, hamısı Almaniyada doğulub boya-başa çatmış, alman mədəniyyəti ilə qarışmış insanlardır. 1. və 2. nəsillə müqayisədə 3. və 4. nəsillər Almaniyada daha çox savadlıdırlar və sosial həmçinin iş həyatında aktiv iştirak edirlər. Onlar təhsil həyatına birbaşa alman məktəblərində başlamış və heç bir çətinliklə üzləşməyiblər. 3. nəsil adlanan bu insanların ən böyük problemi öz mədəniyyətindən, dilindən uzaq düşmələridir. Bu özgələşmədir.

Dil-Mədəniyyət. Əvvəlki iki qrupdakı insanların problemləri bu qrupdakılardan çox fərqlidir. 3. nəsil türklərin də ata-babası olan 1. qrupdakı türklər alman dilini bilməsələr də, 2. nəsil hər ikisinə üstünlük təşkil edir, lakin təəssüf ki, bu qrupdakılar öz dillərinə yad olaraq qalırlar. Buna səbəb olan məktəbdə dərslərin alman dilində keçməsi, dostların əksəriyyətinin alman olması, ən əsası isə təbii mühitin onları alman dilində danışmağa məcbur etməsi kimi amilləri sadalamaq olar. Türk dili biliklərinin məhdud olması türk mədəniyyətinə və Türkiyəyə qarşı müəyyən qərəzlərə səbəb olur. Məktəblərdə ədəbiyyat dərslərində şagirdlərin yalnız alman ədəbiyyatını oxuması onların alman mədəniyyətinə yaxınlaşmasına şərait yaradır. Ədəbiyyatın materialı mədəniyyət və dildir. İnsan hansı ədəbiyyatı oxuyursa, öyrənirsə, o ədəbiyyatı yaradan cəmiyyətin mədəniyyətinə, dilinə yaxın hiss edir. Araşdırmalara və sorğulara əsasən deyə bilərik ki, 3. nəsil türk xalqı öz kökündən uzaq yaşayan bir toplum olaraq türk dilindən , eləcə də türk adət-ənənələrindən, vətəni Türkiyədən uzaqlaşıb.

Nəticə

Əvvəla onu qeyd edim ki, Almaniyadakı türklərin həyatı bir gün bitməyəcək, əksinə oradakı türk əhalisi illər keçdikcə artmağa davam edəcək. Mühacir türklərə gəldikdə, ən çox bəhs edilən problemlər dil, mədəniyyət və uyğunlaşma prblemidir. Bu adamlar həmişə uyğunlaşa bilməməkdə ara mədəniyyətə malik olmaqda ittiham olunublar. 2016-cı ildən etibarən alman dili Almaniyadakı türklər üçün problem olmaqdan çıxdı və hətta onların ana dilləri ilə eyni vaxtda öyrəndikləri ikinci ana dilinə çevrildi. Bu məqamda bundan sonra düşünülməli olan məsələ türk dilinin unudulmaması və öyrədilməsidir.

Mədəniyyət probleminə nəzər saldıqda türklərin türk və alman mədəniyyətlərini qarışdıraraq ara mədəniyyət yaratması zərərli deyil, həm Almaniya, həm də Türkiyə üçün bir rəngarənglik kimi qəbul edilməlidir. Çünki bu sintez mədəniyyəti həqiqətən də bu insanların təbii prosesdə irəli sürdükləri qaçılmaz olan şəxsiyyət formalaşmasının göstəricisidir. Çevrilmə, dəyişmə və inkişafın bütün canlıların təbiətinə xas xüsusiyyətlər olduğunu nəzərə alsaq, bu təkamül hadisəsini olduqca normal hesab etmək olar. Buradan nəticə çıxmamalıdır ki, türklərin kimlik xüsusiyyətləri silinir, sadecə yaşadıqları cəmiyyətdə qarşılıqlı əlaqənin önünü kəsmək mümkün deyil. Türkiyənin Almaniyadakı konsulluqları, səfirlikləri, attaşelikləri və bu mövzuda Türkiyəyə gedən türk müəllimlərin üzərinə bir çox məsuliyyət və vəzifə düşür. Almaniyada türk mədəniyyətini qorumaq və yaşatmaq vəzifəsini rəsmi olaraq üzərinə götürən şəxslər bu məsələdə diqqətli olmalı və daima daha yaxşı nəticələr üçün çalışmalıdırlar.

Ədəbiyyat siyahısı

1. Beytullah Bekar. “Almanya’da Türkler ve Türkçe”. 2013.
2. Bülent Kırmızı, Göçmen Türklerin Almanya’da Yaşadığı Sorunların Dünü ve Bugünü. 2016.
3. Erkan Perşembe. Almanya’daki Türk Kimliği, Araştırma Yayınları. Ankara. 2005.
4. İrfan Başkurt. “Almanya’da Yaşayan Türk Göçmenlerin Kimlik Problemi”. 2009.
5. https://www.bbc.com/turkce/haberler/2011/03/110315_guardian_germany_turks
6. https://www.dw.com/tr/almanyay%C4%B1-evi-g%C3%B6ren-t%C3%BCrklerin-say%C4%B1s%C4%B1-art%C4%B1yor/a-57197503

AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ MİQRASİYA MƏSƏLƏLƏRİNİN TƏHLİLİ

AQİL ƏHMƏDOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə elmlər
doktoru proqramının dissertantı, dosent, t.ü.f.d.,
agilahma@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Beynəlxalq münasibətlər tarixində Azərbaycan-Türkiyə əməkdaşlığının xüsusi yeri var. Hər iki respublika zəngin dövlətçilik ənənələrinə malik, dili, dini və mədəniyyəti bir olmaqla, strateji müttəfiqlikdən daha möhkəm qardaşlıq bağları ilə bir-birinə sıx bağlıdırlar. Bunun bariz nümunəsi kimi 2020-ci ilin "44 günlük" Vətən müharibəsində Türkiyənin Azərbaycana açıq siyasi və mənəvi dəstəyini qeyd etmək olar. XX əsrin əvvəllərində çarizmin, ardından bolşevizmin təqiblərindən qurtularaq Osmanlıya və Türkiyə Respublikasına emiqrasiya edən Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri, yazıçı, ədib və mədəniyyət xadimləri uzun illər həmin ölkədə fəaliyyət göstərərək vətən həsrəti ilə yaşamış, əksəriyyəti ömürlərini Türkiyədə başa vurmuşlar. Azərbaycan-Türkiyə münasibətləri SSRİ-nin süqutundan sonra dinamik və daim inkişafda olan müasir mərhələyə keçid almış, əlaqələr gün keçdikcə genişlənmişdir. Hazırda Azərbaycan-Türkiyə çoxtərəfli əməkdaşlığında miqrasiya məsələləri əhəmiyyətli yer tutur. Mövcud sahədə ikitərəfli əməkdaşlıq üçün hüquqi bazanın və siyasi dialoqun təməl prinsip olması miqrasiya idarəçiliyi sahəsində hər iki ölkənin qarşılıqlı təcrübələrinin öyrənilməsində faydalı olmuşdur.

Məqalədə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya prosesləri təhlil olunaraq, qlobal miqrasiya fonunda ikitərəfli əməkdaşlıq, qarşılıqlı görüşlər, dioplomatik münasibətlər, qanunsuz miqrasiya, qaçaqmalçılıq, sərhəd nəzarəti, insan alveri, emiqrasiya, immiqrasiya, readmissiya sazişləri və s. məsələlər tədqiqat obyektinə çevrilir.

AÇAR SÖZLƏR: əməkdaşlıq, miqrasiya, iqtisadiyyat, dialoq, münasibətlər, emiqrasiya, immiqrasiya.

GİRİŞ

İnsan yarandığı gündən miqrasiya edir, dəyişir, həyat səviyyəsinin yüksəldilməsi uğrunda mübarizə apararaq yaşam üçün yeni ərazilər kəşf edir. Miqrasiya müasir dünya nizamını rekonstruksiya edən hüquqi, sosial-iqtisadi, siyasi mahiyyəti ilə daha çox önə çıxır. Dövlətlərarası münasibətlərdə miqrasiya proseslərinin tənzimlənməsinə artan diqqət Azərbaycan-Türkiyə münasibətlərində də müsbət inkişaf meylləri ilə müşahidə olunur. Azərbaycan Respublikasının "44 günlük" Vətən müharibəsində qazandığı parlaq qələbə Cənubi Qafaqaz regionunda daimi sülh və əminamanlığın yaranmasına, əməkdaşlıq üçün mühüm və davamlı iqtisadi layihələrin hazırlanmasına əsas yaratmışdır. Tədqiq və təqdim olunan mövzu bu baxımdan aktuallıq kəsb edir.

Eləcə də Türkiyə təmsil olunduğu Yaxın Şərq regionunda sülhün və təhlükəsizliyin qarantı kimi əməkdaşlığa, dialoqa açıq respublika olaraq qonşuları ilə balanslaşdırılmış siyasət yürüdür. Belə olduğu halda Azərbaycanın tarixi qələbəsi ilə nəticələnən II Qarabağ müharibəsindən sonra həyatın bütün sahələrində, həmçinin miqrasiya siyasətinin uğurlu inkişafı postkonflikt dövründə yeni imkanların, layihələrin reallaşması üçün əlverişli şərait yaratmışdır. Azərbaycanın Türkiyə ilə dahada yaxınlaşması hər iki ölkənin əmək miqrasiyasına müsbət təsir göstərmiş, açılan yeni iş yerləri, qlobal layihələr emiqrasiya və immiqrasiya kimi proseslərin aktiv fazaya keçməsində faydalı olmuşdur. Azərbaycanın 2020-ci ildə işğalda qalan torpaqları üzərində əldə etdiyi tam qələbəsi ilə yanaşı məhz Türkiyə ilə həmin ildə qarşılıqlı viza rejiminin ləgv olunması da diplomatik münasibətlərdə əmək miqrasiyasının inkişafına və genişlənməsinə əhəmiyyətli təsir göstərmiş, gələcək perspektivlərinin müəyyən olunmasında yeni üfüqlər açmışdır. Sadalanan məqamlar mövzunun aktual olduğunu gösərməklə, əvvəllər tədqiqat obyektinə çevrilmədiyini əks etdirir.

Ümumilikdə Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya ilə bağlı həlli mürəkkəb olan problemlər yaşanmamaqdadır. Hər iki respublikanın daxili qanunvericiliklə yanaşı, miqrasiya ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməsi, insan hüquq və azadlıqlarının müdafiəsinə həssas yanaşması əmək miqrasiyasının tənzimlənməsində mühüm amil olaraq qalır. Tədqiqat işi ilə bağlı qarşıya qoyulan məqsəd və vəzifələrdən çıxış edərək qeyd etmək lazımdır ki,: 1) Azərbaycan və Türkiyə strateji müttəfiq,

qardaş dövlətlər kimi tarixi missiyaya bu gün də sadiq qalır və ikitərəfli münasibətlərin, əməkdaşlığın inkişafına səy göstərirlər. Bu fakt məqalədə əsas xətt təşkil edir; 2) Azərbaycanda Dövlət Miqrasiya Xidmətinin (DMX) fəaliyyəti, mövcud sahədə vahid dövlət siyasətini həyata keçirməsi, xarici dövlətlərlə mövcud sahədə münasibətlərin qurulması və əməkdaşlığın möhkəmlndirilməsinə müsbət təsir göstərmişdir. Bu baxımdan qonşu və qardaş Türkiyə ilə əməkdaşlıq diqqət çəkir; 3) Türkiyənin Daxili İşlər Nazirliyi nəzdində yaradılmış Miqrasiya İdarəsi ilə Azərbaycan DMX-si arasında intensiv əlaqələrin qurulması mövcud sahədə yarana biləcək problemlərin aradan qaldırılmasına ciddi təsir göstərir; 4) İkitərəfli əməkdaşlıqda siyasi dialoqun əhəmiyyəti əmək miqrasiyasının tənzimlənməsi və idarə olunmasında effektiv olmuşdur. Bununla bağlı tədqiqat işində təhlil aparılmışdır.

Mövzu ilə bağlı qeyd olunan məqamlar Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya proseslərinin yüksək səviyyədə tənzimləndiyini, daxili və beynəlxalq qanunların tətbiq edildiyini, sərhəd nəzarəti, qaçaqmalçılıq, insan alveri, qeyri-leqal miqrasiya kimi neqativ halların aşağı səviyyədə, demək olar ki, olmadığını göstərir. Miqrasiya həssas və kompleks yanaşma tələb edən sahə olduğu üçün burada diplomatik münasibətlərdə əmək miqrasiyasının idarə olunmasında davamlı görüş və dialoqun dəstəklənməsinə ehtiyac var. Bu baxımdan Azərbaycan və Türkiyə rəsmilərinin keçirdiyi mütəmadi təmaslar və müzakirələr miqrasiya sahəsində yeni perspektivlərin yaranmasına təkan verir.

TƏDQİQAT METODU

Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə inkişaf edir. Hər iki dövlət əlverişli coğrafi və geosiyasi regionlarda yerləşdiyindən, XXI əsdə miqrasiya proseslərinin aktiv iştirakçısı kimi çıxış edir. Bu səbəbdən, tədqiqat işində Azərbaycan və Türkiyə arasında miqrasiya idarəçiliyi və mövcud sahədə yarana biləcək problemlərlə bağlı məsələlər analiz edilmiş, perspektivlər sadalanmış, ümumiləşdirmələr aparılmış, elmi-nəzəri, metodoloji prinsiplər əsas alınmışdır. İşin xronolo çərçivəsi son 13 ili əhatə etməklə, keçirilən rəsmi görüşlər və imzalanan miqrasiya sənədlərinin hüquqi bazası önə çəkilmiş, diplomatik-siyasi, sosial-iqtisadi münasibətlərdə dialoqa diqqət yetirilmiş, müxtəlif informasiyalar və mənbələr sistemli müqayisə olunaraq elmi yenilik, nəticə əks olunmuşdur.

1. Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya proseslərinin dinamikası

Son 13 ildə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında miqrasiya proseslərinin idarə olunması sahəsində rəsmi görüşlər keçirilmiş, sazişlər bağlanmışdır. Bu baxımdan, Türkiyənin Azərbaycandakı səfirinin 2009-cu ilin 5 martında, 2018-ci ilin 5 mart və 12 sentyabr tarixlərində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində keçirdiyi müzakirələr diqqət çəkir [1, 27]. 1991-ci ilin 9 noyabrında Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət kimi tarixə düşən Türkiyə ilə diplomatik əlaqələr mahiyyətcə yeni müstəviyə keçid almış, burada müxtəlif sahələrlə yanaşı miqrasiya məsələləri də daim gündəmdə saxlanmışdır. Türkiyə səfirinin DMX-də keçirdiyi mütəmadi görüşlər Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya idarəçiliyi kimi həssas mövzuda yeni sənədlərin imzalanmasının vacibliyini göstərir.

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 2013-cü ilin noyabrında Türkiyəyə rəsmi səfəri çərçivəsində iki ölkənin hökumətləri arasında bir sıra sahələrdə olduğu kimi, əmək, əmək miqrasiyası, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlıqla bağlı "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair" Saziş imzalaması münasibətlərin inkişafına müsbət təsir göstərməklə, miqrasiya təcrübəsinin öyrənilməsində mahiyyətcə yeni hüquqi baza təşkil etmişdir [3; 11, 5]. Mövcud saziş Türkiyədə fəaliyyət göstərən azərbaycanlı əmək miqrantlarının hüquqlarının qorunmasında, onların çalışdıqları cəmiyyətə inteqrasiya olunmasında az əhəmiyyət daşımır. Hüquqi sənədlə ynaşı din, dil, mədəniyyət birliyi hər iki ölkənin miqrantlarına qarşı hər hansı bir ayrıseçkiliyin olmadığını, əksinə türk-islam həmrəyliyindən çıxış edərək qardaşlıq münasibətlərinə riayət olunduğunu göstərmiş olur.

Türkiyə iş adamlarının Azərbaycana yatırdığı sərmayələr, sosial-iqtisadi mühitin inkişafına və Türkiyədən əməkçi miqrantların respublikaya gəlişi üçün müsbət şərait yaratmışdır. Həmçinin, Azərbaycan hökumətinin Türkiyə ilə enerji sahəsində həyata keçirdiyi nəhəng projelər, bu ölkəyə yatırılan investisiyalar əmək miqrasiyasının inkişafına müsbət təsirini davam etdirir.

2 iyul 2018-ci ildə Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB) rəhbər heyətinin DMX-də keçirdiyi görüş bu baxımdan faydalı olmuş, respublikada Türkiyədən immiqrasiya etmiş əmək miqrantlarının hüquqlarının qorunması kimi məsələlərə diqqət çəkmişdir. Ardından 20 yanvar 2019-cu ildə DMX rəisinin TÜİB üzvləri ilə görüşü ikitərəfli əlaqələrə yeni dinamizm qatmışdır. Miqrasiya sahəsində maarifləndirici tədbilər də ikitərəfli əməkdaşlıq münasibətlərinə fayda vermişdir. 21 dekabr 2018-ci ildə DMX-nin, Türkiyənin Gəncədəki Baş Konsulluğunda keçirdiyi miqrasiya qanunvericiliyi

sahəsində maarifləndirmə tədbirində bir daha vurğulanmışdır ki, Azzərbaycan-Türkiyə münasibətlərinin inkişafında gənclər siyasəti, gənc nüfus miqrasiya proseslərində yaxından iştirak edir [4]. Hazırda Türkiyənin aparıcı şirkətlərində, xüsusilə özəl şirkətlərdə azərbaycanlı yüksəkixtisaslı əmək miqrantları rahatlıqla çalışır, bilik və bacarığını artırır. 1990-cı illərin əvvəllərində Azərbaycandan Türkiyəyə beyin axını, intellektual miqrasiya müşahidə olunurdusa, 1993-cü ildən bu proses səngimiş, hazırda respublikada aparılan sosial-iqtisadi tərəqqi, bölgələrdə intensiv quruculuq işləri, yeni fabrik və zavodların, şirkətlərin fəaliyyəti Azərbaycandan Türkiyəyə emiqrasiyanı kəskin azaltmışdır.

28 dekabr 2018-ci ildə DMX-nin rəisi Vüsal Hüseynovun Türkiyənin daxili işlər naziri Süleyman Soylu ilə rəsmi görüşü əhəmiyyətli olmuş, miqrasiya sahəsində ikitərəfli əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur. Ardından 2019-cu ilin 18 yanvar və 6 noyabr tarixlərində Türkiyə daxili işlər naziri müavininin Azərbaycana səfəri çərçivəsində DMX-də keçirdiyi görüş mövcud sahədə hər iki tərəfin həssas davrandığını, qeyr-qanuni miqrasiyanın, insan alveri, qaçaqmalçılıq kimi qlobal problemlərin həllinin vacibliyinə vurğu etmişdir [5]. 2019-cu ilin 18 yanvarında Türkiyə daxili işlər naziri müavininin rəhbərliyi ilə həmin ölkənin Miqrasiya İdarəsi baş direkotrunun DMX rəisi ilə keçirdiyi görüşdə miqrasiya sahəsində əməkdaşlığın yüksək səviyyəyə qaldırıla biləcəyinə əminlik ifadə olunmuş və hər iki dövlət qurumu ilə əlaqələrin möhkəmləndirilməsinin vacib olduğu bildirilmişdir. Göründüyü kimi ötən illər ərzində Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya sahəsində əməkdaşlıq əlaqələri genişlənmiş, dövlət rəsmilərinin qarşılıqlı səfərləri mövcud sahənin inkişafı və idarə olunmasında mühüm rol oynamışdır.

2. Çoxtərəfli münasibətlərdə viza ləğvi və əmək miqrasiyası

2020-ci il fevralın 25-də Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı vizadan azad etmə haqqında Saziş" 13 avqust 2020-ci il tarixdə qüvvəyə minmişdir. Həmin sənəd hər iki ölkənin əməkçi miqrantlarının sosial hüquqlarının qorunması kimi mühüm sahədə rahat gediş-gəlişə əhəmiyyətli təsir göstərmişdir. Bununla yanaşı 1 aprel 2021-ci il tarixdən Azərbaycan və Türkiyə vətəndaşları hər iki ölkə ərazisinə birbaşa səfər zamanı biometrik şəxsiyyət vəsiqəsindən istifadə edirlər. Həmin şəxslər vizadan azad edilməklə 90 gün ölkədə qalmaq imkanı əldə edirlər. Bu zaman sərhədkeçmə sənədləri: şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu (xarici pasport) ölkə ərazisinə giriş tarixindən azı 30 gün etibarlılıq müddətinə malik olmalıdır [9, 53]. Qəbul olunan hüquqi sənəd Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya sahəsində əməkdaşlıq üçün yeni üfüqlər açır. Burada müqavilə-hüquq bazasının möhkəmləndirilməsi son dərəcə vacibdir. Qeyri-müəyyən vəziyyətdə olan vətəndaşların leqallaşdırılması və statuslarının müəyyənləşdirilməsi məqsədini daşıyan "Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin nəzdində Miqrasiya İdarəsi üzrə Baş Direktorluğu ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti arasında həyata keçirilən Razılaşma Memorandumu" layihəsi dövlətlər arasında miqrasiya proseslərinin yüksək səviyyədə tənzimlənməsi və idarə olunmasına, readmissiya – könüllülük prinsipi əsasında evə qayıdışı nəzərdə tutan sənədlərin icrasına yol açacaq.

9 iyun 2021-ci ildə Türkiyənin Azərbaycandakı səfirinin DMX rəhbərliyi ilə keçirdiyi görüşdə də ikitərəfli münasibətlərdə miqrasiya, mövcud sahədə maarifləndirici kursların təşkil olunması diqqət mərkəzində saxlanmışdır. Ardından 14 dekabr 2021-ci ildə Türkiyə Daxili İşlər Nazirliyinin və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Türkiyədəki Nümayəndəliyinin əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycana təlim səfəri reallaşmışdır. "COVID-19 pandemiyası kontekstində Türkiyənin cənub-şərqində miqrantlar və ev sahibi icmaların ehtiyaclarına çoxsahəli yardım" layihəsinin sərhəd idarəetmə komponenti üzrə həyata keçirilən səfər çərçivəsində Türkiyə Daxili İşlər Nazirliyinin Əyalət Baş İdarəsi baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti DMX-də müzakirələr keçirmişdir. DMX-nin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi V.Qəhrəmanov Xidmətin fəaliyyət istiqamətləri, miqrasiya qanunvericiliyi, vətəndaş məmnunluğunun təminatı istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir. Ağır pandemiya dövründə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin rahatlığının təmin olunması üçün DMX tərəfindən həyata keçirilən elektron xidmətlərin çeşidi və əldə olunmuş müsbət nəticələr diqqətə çatdırılmışdır [3]. Qeyd etmək lazımdır ki, sərt qlobal pandemiya dövründə Azərbaycan ərazisini tərk edə bilməyən əmək miqrantları, onların arasında Türkiyədən gələn miqrantlara dövlət dəstəyi, sosial hüquqlarının qorunması, tibbi xidmətlər, qurumlara elektron müraciətləri təmin olunmuşdur.

Ümumilikdə Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya sahəsində əməkdaşlıq qənaətbəxş sayıla bilər. İstər aktiv pandemiya, sərt karantin rejimi dövründə və hazırda diplomatik münasibətlərdə, hər iki respublikanın miqrasiya qurumları arasında əməkdaşlıq müvəffəqiyyətlə davam etdirlir. Yarana biləcək hər hansı hüquqi problem hər iki tərəfin humanizm prinsiplərində nəzərə alınmaqla öz həllini tapır və iki qardaş dövlət arasında əməkdaşlıq əlaqələri genişlənməkdə davam edir.

NƏTİCƏ

Azərbaycan-Türkiyə münasibətlərində miqrasiya kimi qlobal proseslərin təhlili və tədqiqi bir daha onu göstərmiş olur ki, hər iki respublika ərazisində çalışan azərbaycanlı və türk əmək miqrantlarının hüquqlarının qorunması fundamental insan hüquqlarının bir parçası kimi daim diqqət mərkəzində saxlanır. Burada sosial-iqtisadi, siyasi, hüquqi, təhlükəsizlik kimi mühüm amillər iki tərəf arasında miqrasiya proseslərinin tənzimlənməsində başlıca rola malikdir. Dövlət səviyyəsində qəbul olunan sənədlər, imzalanan sazişlər, rəsmi görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin davamlı inkişafına və möhkəmlənməsinə öz töhfəsini verir. Azərbaycanda DMX kimi xüsusi dövlət qurumunun yaradılması və qısa vaxt ərzində uğur qazanması qonşu ölkələr üçün müsbət nümunə ola bilər. Bu baxımdan Türkiyədə daxili işlər nazirliyi nəzdində fəaliyyət göstərən miqrasiya idarəsinin Azərbaycanın miqrasiya təcrübəsindən yararlanmaq imkanları açıqdır. Həmçinin Azərbaycanın çoxmillətli dövlət olan Türkiyənin miqrasiya idarəçiliyi sahəsində gördüyü dövlət tədbirləri, əcnəbilərə ölkə ərazisində yaradılan şərait, digər məsələlərin müsbət təcrübə kimi öyrənilməsi qarşılıqlı faydalı əməkdaşlığa əhəmiyyətli təsir göstərir.

Azərbaycan-Türkiyə çoxtərəfli əməkdaşlığı müxtəlif sahələrdə olduğu kimi miqrasiya kimi həssas mövzuda da diqqət çəkir və dinamik inkişafı ilə digər qonşu ölkələr üçün nümunə təşkil edə biləcək səviyyəyə yüksəlmişdir. Viza şərtlərinin sadələşdirilməsi və aradan götürülməsi, biometrik vəsiqələrin dövriyyəyə daxil edilməsi qısa müddət ərzində hər iki tərəfin qarşılıqlı əmək miqrasiyasının inkişafına və genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Azərbaycan və Türkiyə təmsil olunduqları bölgələrdə sülhün və təhlükəsizliyin qarantı rolunda çıxış edərək regional inkişafa öz töhfələrini vermiş demokratik dövlətlərdir. Məhz hər iki respublikanın regionda reallaşdırdığı meqa layihələr, nəhəng infrastrurktur sazişlər bölgəyə xarici kapitalın, əmək miqrasiyasının, miqrant marağının artmasına əsas yaratmışdır.

Tədqiqat boyu sadalanan müsbət məqamları, alınan elmi yeniliyi və nəticəni aşağdakı kimi sadalamaq mümükndür:

- Tarixi keçmişi, çoxəsrlik dövlətçilik və zəngin mədəniyyət ənənələrinə söykənən Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə uğurla davam etdirlir;
- Türkiyənin 30 ilə yaxın vaxt ərzində Azərbaycanın haqq işinə durmadan dəstək verməsi, "44 günlük" Vətən müharibəsində yanında olması dünyada nadir görülən, bəlkədə yeganə iki dövlət arasında qardaşlıq münasibətlərinə malik olması nə Avropada nə də Qərbdə, Asiyada müşahidə olunmamaqdadır;
- Hazırda postkonflikt dövrünü yaşayan Azərbaycanın regionda daimi sülh və əminamanlığın, təhlükəsizliyin qarantiyası kimi çıxış etməsi Türkiyə ilə münasibətlərinə, xüsusilə də miqrasiya sahəsində əməkdaşlığına əlverişli mühit yaratmışdır;
- Uzun illər regionda sünii münaqişə ocağı yaratmış Ermənistanın cinayətkar və qəsbkar əməllərinə son qoyulması Azərbaycanın regionda yeni reallıq yaratdığını açıq şəkildə göstərməklə, bölgədə əmək miqrasiyasının inkişafına münbit şərait yaradacağına ümidləri artırmış olur;
- Hər iki dövlət arasında miqrasiya sahəsində qəbul olunan hüquqi baza – imzalanan saziş və sərəncamlar, qəbul olunan qərarlar öz bəhrəsini verir;
- İndi Azərbaycan və Türkiyə əmək miqrantlarının ölkələrarası münasibətlərdə yaradılmış viza sadələşdirmələrindən yararlanması mövcud sahədə müsbət inkişafa səbəb yaratmışdır;
- Azərbaycan DMX-sinin Türkiyə Daxili İşlər Nazirliyi nəzdində yaradılmış Miqrasiya İdarəsi ilə qarşılıqlı əməkdaşlığı miqrasiya proseslərinin tənzimlənməsində mühüm rol oynayır;
- Mövcud sahədə treninqlərin, seminarların, maarifləndirici tədbirlərin təşkil olunması miqrasiyanın qlobal və regional mahiyyətini ortaya qoymaqdadır;
- Qurumlararası baş tutan rəsmi görüşlər isə yarana biləcək problemlərin siyasi və hüquqi baza əsasında tənzimləndiyini, həm də Azərbaycanda türk əmək miqrantlarına, eləcə də Türkiyədə azərbaycanlı miqrantlara münasibətin müsbət olduğunu deməyə əsas verir;
- Azərbaycan və Türkiyə miqrasiya və digər məsələlərlə bağlı beynəlxalq qurumlarda da (BMT, BMqT, Aİ) bir-birini dəstəkləməkdə davam edir.
- Hazırki Azərbaycan-Türkiyə yüksəksəviyyəli münasibətləri, qardaşlıq əlaqələri bölgədə davam edən Rusiya-Ukrayna hərbi əməliyyatlarına müsbət nümunə göstərilərək, münaqişənin həllinə və işğalçının geri çəkilməsinə müsbət təsir göstərə bilər və iki slavyan xalq sülh içində yaşamağa davam edər.

ƏDƏBİYYAT SİYAHISI
1. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu). Bakı: CBS, 2011, 158 s.
2. Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat. Vyana: Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, aprel 2018, 82 s.
3. Azərbaycan ilə Türkiyə arasında miqrasiya sahəsində münasibətlərin perspektivləri müzakirə edilib / https://www.migration.gov.az/az/news_detail/12482 (10.05.2018).
4. Azerbaycan çalışma ziyareti / https://www.goc.gov.tr/azerbaycan-calisma-ziyareti / (21.01.2019).
5. Əhmədov E.İ. Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da möhkəmlənir // "İki sahil" qəzeti, № 200, 2 noyabr, 2017.
6. Yesevi C.G., Tıftıkcıgıl B.Y. Turkey-Azerbaijan Energy Relations: A Political and Economic Analysis // "International Journal of Energy Economics and Policy". Vol. 5, № 1, 2015, pp. 27-44.
7. İltica ve Göç Mevzuatı. Ankara: Başkent Matbaası, (Avrupa Komisyonu ile ortaklaşa finanse edilen
Üst Düzey Çalışma Grubu Projesi), 2005, 409 s.
8. Türkiye ve göç. T.C. İçişleri Bakanlığı Göç İdaresi Genel Müdürlügü, (türk və ingilis dillərində), 47 s.
9. Türkiyede Yaşam Rehberi / yayın kurulu: A.Buran, A.R.Beşkat, B.Yaşar, C.Özoğlu, E.Kömleksiz, S.A.Özen. Ankara: Ütopya Grafik, 2019, 168 s.
10. Константин В.Ю., Ксения Н.С. Азербайджано-турецкое взаимодействие в контексте международных отношений на Южном Кавказе (1992–2020 гг.) // Вестник Кемеровского государственного университета, № 22(4), 2020, с. 963-971.
11. Статистика миграции в Азербайджанской Республике. Баку: Государственный Комитет Азербайджанской Республики по Статистике, 2019, 8 с.

AVROPA İTTİFAQININ ENERJİ SİYASƏTİ: ENERJİ İSTEHLAKI VƏ ENERJİ EHTİYYACI

Günel Allahyarova
Bakı Mühəndislik Universitetinin magistrantı
gallahyarova@std.beu.edu.az

XÜLASƏ

Avropa İttifaqı (Aİ) özündə 500 milyona yaxın əhalisi olan 27 dövləti cəmləşdirən ən böyük inteqrasiya birliyidir.Son 60 ildə iqtisadi inteqrasiya sahəsində böyük nailiyyətlər əldə etmiş bu Aİ dünya iqtisadiyyatının kifayət qədər əhəmiyyətli hissəsini özündə təmərküzləşdirib və dünyanın ümumdaxili məhsulunun təxminən dörddə bir hissəsi onun payına düşür.

İkiqütblü ideoloji bloklaşmanın başa çatmasından sonra Avropanın ABŞ-dan hərbi-siyasi asılılığının azalması və postbipolyar dövrdə beynəlxalq təhlükəsizlik, o cümlədən Avropa təhlükəsizliyi üçün yeni təhdidlərin meydana gəlməsi Aİ-ni müstəqil xarici və təhlükəsizlik siyasəti yeritmək istiqamətində konkret qərarlar qəbul etmək məcburiyyəti qarşısında qoymuşdu.

Açar sözlər: Avropa İttifaqı,strategiya,təhlükəsizlik,enerji,statistika

SUMMARY

The European Union (EU) is the largest intregration bloc,comprising 27 countries with a population of about 500 million. The EU, which has made great strides in economic integration over the past 60 years, has concentrated a significant portion of the world economy, accounting for about a quarter of the world's gross domestic product.

Following the end of the bipolar ideological blockade, Europe's declining military-political dependence on the United States and the emergence of new threats to international security in the post-bipolar period, including European security, forced the EU to take concrete foreign and security policies.

Keywords: European Union, strategy, security, energy, statistics

Mövzunun aktuallığı: Dünyada əhalinin sürətli artımı və iqtisadi artımın təmin edilməsi; istehsal proseslərinin mexanikləşmədən texnolojiyaya yönəlməsi; müasir həyatın şərtlərinə uyğun olaraq texnoloji cihazlardan istifadə; nəqliyyat sistemlərinin inkişafı və qloballaşma nəticəsində ölkələr arasında səyahətlərin artması bütün dünyada enerjiyə olan tələbatı artırmaqdadır. Bundan başqa hərbi-siyasi və geosiyasi proseslər nəticəsində enerji resursları silah olaraq istifadə edilməsi mövzunun aktuallığını sübut edir.

GİRİŞ

Müasir dövrdə enerji təhlükəsizliyi ölkələrin siyasətində prioritet məsələlərdəndir. Beynəlxalq münasibətlər zamanı ölkələrin qərar vermə prosesində, enerji qaynaqlarını ixrac və idxal edən, həmçinin tranzit ölkə olan dövlətlərin milli və iqtisadi təhlükəsizlik sistemində enerji təhlükəsizliyinin birbaşa təsir vardır .Avropa İttifaqının (Aİ) daxili enerji resurslarının onun istehlakına nisbətində çox az olması Aİ-nin enerji asılılığına səbəb olmaqdadır. Bu baxımdan Aİ-nin xarici siyasətinin ən önəmli istiqamətlərindən birisi enerji təhlükəsizliyinin təmin edilməsidir. Bu baxımdan enerji resursları ilə zəngin olan Xəzər hövzəsi və Mərkəzi Asiya regionundan enerji resurslarının Aİ-yə daşınması və Rusiyadan asılılığın minimuma endirilməsi Aİ üçün stratejik məsələlərdən biridir. Cənubi Qafqaz, xüsusilə də Azərbaycan həm enerji ixracatçısı kimi, həm də tranzit bölgə kimi böyük önəm qazanmaqdadır.2022-ci il etibarilə Rusiyanın Ukraynaya genişmiqyaslı hücumu və buna cavab olaraq Qərbin (ABŞ, Aİ ölkələri, Böyük Britaniya və s) ölkələrinin sanksiyalarına cavab olaraq Rusiyanın "enerji kartı"ını ortaya atması həm enerji ixracatçısı (Azərbaycan nümunəsi), həm də tranzit bölgə kimi Cənubi Qafqazın önəmini daha da artmışdır.

I.Aİ-nin enerji siyasəti dedikdə iki fərqli anlayışdan istifadə olunur. Bu anlayışlar, xüsusilə 2000-ci illərin əvvəllərindən istifadə olunmağa başlayan "Avropa İttifaqının Xarici Enerji Siyasəti" (European Union External Energy Policy) və "Avropa İttifaqının Daxili Enerji Siyasəti" (European Union Domestic Energy Policy) anlayışlarıdır [1, ss.128-129]

Aİ-nin daxili enerji siyasəti Aİ səviyyəsində qurumlar tərəfindən formalaşdırılan və üzv dövlətlərinə həyata keçirməyə borclu olduqları qaydaları və məqsədlər toplusunu ifadə edir. Buraya İttifaq institutları tərəfindən qəbul edilən əsasnamələr, direktivlər, qərarlar, qaydalar kimi məcburi hüquqi aktlar; tövsiyələr, rəylər və bəyanatlar kimi məcburi xarakter daşımayan aktlar daxildir. Bunlara son illərdə enerji sektorunda çalışan mütəxəssislərin iştirakı ilə formalaşan sessiyalardaki müzakirələrin nəticələrini də əlavə etmək də olar.

Müasir dövrdə Aİ-nin enerjiyə olan tələbatı hələ də, əsasən, neft, təbii qaz, kömür və uranium kimi resurslar vasitəsilə qarşılanmaqdadır. Bu resursları gələcəkdə enerji tələbatının ödənilməsində mühüm rol oynaması gözlənilməkdədir. Ancaq 2000-ci illərdən bəri ortaya çıxan Aİ-nin "Yeni Enerji Siyasəti"nin həyata keçirilməsi ilə Aİ-nin enerji tələbatının azaldılması və eyni zamanda istifadə olunan enerji resurslarında dəyişikliyin baş verməsi planlaşdırılır. [2, ss. 31]

Şəkil 2-də Avropa Statistika Qurumu (Eurostat) tərəfindən açıqlanan bilgilərə görə 2000 və 2020-ci illər arasında Avropada elektrik enerjisinin istehsalının qrafiki verilmişdir. Yeni Enerji Siyasəti nəticəsində Avropada fosil və atom enerjisinin elektrik istehsalında payı azalmış, buna paralel olaraq isə bərpa olunan enerji resurslarının payı sürətlə artmışdır.

Şəkil 2. Avropada elektrik enerjisi istehsalı.



Mənbə: Eurostat, 2021

Şəkil 3. Gələcəkdə dünya enerji istehsalında resurs istifadəsinin proqnozlaşdırılması



Mənbə: UN, 2019

Şəkil 3-də isə 2040-cı ilədək dövlətlərin enerji istehsalında istifadə etmək qaynaqların və BMT-nin davamlı inkişaf konsepsiyasının enerji istehsalında resursların proqnozları təsvir edilməkdədir. Şəkil 3-dən də görüldüyü kimi müasir dövrdə hələ də fosil yanacaqlar dünya enerji istehsalında resursların əsasını təşkil edir, ancaq 2040-cı ilədək bərpa olunan eneji resurslarının dünya enerji istehsalında payının artması proqnozlaşdırılır. Bu baxımdan da Aİ ölkələrinin enerji siyasəti BMT-nin davamlı inkişaf konsepsiyası ilə səsləşir. Aİ ölkələrində də bərpa olunan enerji qaynaqlarına böyük yatırımlar edilməkdədir.

II.Bütün dünyada enerji istehlakı günü-gündən artır. Bu artımın davam edəcəyi proqnozlaşdırılır. Bu artımın bir neçə səbəbi vardır ki, bunların bir çoxu Aİ ölkələrinə də aid etmək olar.

Ümumiyyətlə, əhalinin sürətli artımı ilə əlaqədar insanların ehtiyaclarının qarşılanması, yeni iş yerlərinin yaradılması, məşğuliyyətin formalaşdırılması və iqtisadi inkişafı təmin etmək üçün enerjidən istifadə artır. Əslində, Aİ üzvlərinin çoxunda əhalinin sürətli artımı yoxdur və bu ölkələrdə enerji istehlakının artmasının ümumi tendensiyadan fərqlənir.

İkincisi, mövcud yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə müasir həyatın tələb etdiyi evlərdə və iş yerlərində, dövlət qurumlarında kondisionerlər və elektron cihazlar kimi texnoloji cihazların geniş yayılması nəticəsində enerjiyə tələbat artır. Fərdlər üçün yüksək həyat standartlarına malik olan Aİ ölkələri üçün bu element enerji istehlakında mühüm rol oynayır.

Üçüncüsü, istehsal prosesinin mexanikləşdirilməsi nəticəsində əmək tutumlu kənd təsərrüfatı və sənayedə istehsal texnikası əvəzinə texnologiya tutumlu istehsal üsullarından istifadə və bu üsulların get-gedə artması enerji istehlakını artıran səbəblər sırasındadır.

Dördüncüsü, dünyada qloballaşma prosesləri nəticəsində səyahət imkanları artmaqdadır və bu enerjiyə olan tələbatın artmasına səbəb olur. Varşava blokunun və SSRİ-nin dağılması ilə Şərqlə Qərb arasında səyahət azadlığı qarşısındakı maneələrin aradan qaldırılması, daşıma imkanlarının artması, daha çox insan ölkələr arasında hərəkəti ilə nəticələnmişdir. Xüsusilə, Aİ-də insanların, mal və xidmətlərin sərbəst hərəkəti nəqliyyat vasitələri və nəqliyyat sahəsində infrastrukturun qurulması və nəqliyyat sektorunun inkişafına investisiyalar enerjiyə olan tələbatı sürətlə artırmaqdadır.

Cədvəl 1. Avropa İttifaqında enerji istehlakında istifadə olunan qaynaqlar (2000-2020)

Enerji istehlakında istifadə olunan qaynaq	2000-ci il	2020-ci il
Neft və neft məhsulları	38.7 %	38.7 %
Təbii qaz	20,6%	23,1%
Sərt fosil(kömür)	18,6%	11,6%
Nüvə enerjisi	14,8%	13,6%
Tullantı	0,4%	1,0%
Bərpa olunan və bioenerji	6,4%	15,8%
Digərləri	0,4%	0,4%

Mənbə: Eurostat, 2021.

Cədvəl 1-dən də göründüyü kimi 2000 və 2020-ci illər arasında Aİ-də enerji istehlakında neft və neft məhsulları liderliyini qorumaqda davam edir. Eyni zamanda təbii qaz və bərpa olunan enerji resurslarının

istifadəsində artım nəzərə çarpmaqdadır. Kömür kimi ətrafa zərər vuran və nüvə enerjisi kimi təhlükəli qaynaqların istifadəsində azalma vardır.

III.Aİ ölkələrinin daxili enerji resurslarına nəzər saldıqda bu resursların tələbatı qarşılaya bilməməsi görülməkdədir. Belə ki, Aİ-yə üzv olan ölkələrin ümumi neft ehtiyatları təxminən 7,6 milyard barel idi. Bu, bütün dünya neft ehtiyatlarının təxminən 0,4%-nə uyğundur. Böyük Britaniyanın Aİ-dən çıxması ilə birlikdə ehtiyatlar daha da azalmışdır, çünki Böyük Britaniya Aİ-nin ən çox enerji ehtiyatlarına sahib ölkəsi idi (Hal-hazırda təqribən 4,8 milyard barel neft ehtiyatı var). Onun 2,8 milyard barel təsdiqlənmiş neft ehtiyatıları olduğu bilinməkdədir. İkinci yerdə olan İtaliyanın təqribən 1,4 milyard barel təstiqlənmiş neft ehtiyatları var. Ehtiyatlarına görə üçüncü yerdə olan Danimarkanın təxminən 0,8 milyard barel, dördüncü yerdəki Rumıniyanın isə təxminən 0,6 milyard barel ehtiyatı vardır [3,ss.418]

Təbii qaz ehtiyatları baxımından da Aİ ölkələri tələbatından çox az ehtiyatlara malikdir. Belə ki, Aİ-nin təsdiqlənmiş təbii qaz ehtiyatları təxminən 1,6 trilyon m^3 təşkil edir. Bu dünya ehtiyatlarının təxminən 0,9%-ni təşkil edir. Aİ ölkələri arasında ən böyük təbii qaz ehtiyatı 1,1 trilyon m^3 ilə Hollandiyaya məxsusdur. Almaniya 0,1 trilyon m^3 ilə ikinci yerdədir (BP, 20). İnkişaf etmiş sənaye ölkələrinin çoxluq təşkil etdiyi Aİ ölkələrində bu ehtiyatlar tələbatı ödəməkdən çox uzaqdır.

Kömür ehtiyatları Aİ üçün vacib enerji mənbələrindən biridir. Aİ-nin kömür ehtiyatlarına baxdıqda Aİ-nin təxminən 57 milyard ton kömür ehtiyatı var. Aİ təsdiqlənmiş kömür ehtiyatları dünyadakı ehtiyatların təxminən 6,5%-ni təşkil edir. Aİ-yə üzv dövlətlər arasında ən böyük kömür ehtiyatlarına malik ölkə 40 milyard 699 milyon ton kömür ehtiyatına malik Almaniyadır. Təxminən 7 milyard 709 milyon ton təsdiqlənmiş kömür ehtiyatına malik Polşa İttifaqın ikinci ən böyük təsdiqlənmiş kömür ehtiyatlarına malik ölkəsidir. Yunanıstan təxminən 3 milyard 20 milyon ton kömür ehtiyatı ilə üçüncü yeri tutur. [4,ss.432]

Atom Enerjisi Aİ üçün digər enerji mənbələrindən fərqli əhəmiyyətə malikdir, çünki Aİ-nin yerli enerji qaynaqları ilə istehsal etdiyi enerjidə birinci sıradadır. Bu baxımdan İttifaq ərazisində neft və təbii qaz hasilatından daha çoxdur . [5,ss.2]

Beləliklə, soyuq müharibənin bitməsindən sonra Aİ-də enerjiyə tələbat sürətlə artmağa başlamışdır. Daxili resurslarla tələbatın ödənilməsi mümkün olmadığından Yeni Enerji Siyasəti tətbiq olunmağa başlamış, bərpa olunan enerji resurslarına yatırımlar artırılmışdır. Buna baxmayaraq, artan tələbat qarşısında Aİ-nin tədbirləri tam olaraq yetərli olmamışdır.

NƏTİCƏ

Aİ ölkələri dünyanın ən inkişaf etmiş sənaye ölkələrindən biridirlər. Get-gedə sənayedə mexaniki işlərin yeni texnologiyalar ilə əvəzlənməsi, Avropadakı həyat standartlarını artması ilə ev və iş yerlərində elektron cihazlar və kondisionerlərin yayılması, qloballaşma və "dəmir pərdə"nin yıxılması ilə nəqliyyat imkanlarının və infrastrukturunun Avropada sürətli artımı Aİ-də enerji istehlakının sürətlə artmasına səbəb olmuşdur. Aİ ölkələrinin artan enerji tələbatı baxmayaraq, məhdud enerji resurslarına malik olan Aİ ölkələri Rusiya, Afrika, Yaxın Şərq, Xəzər hövzəsi və Şimali Amerikadakı enerji resurslarına asılı vəziyyətə düşməsinə səbəb olmaqdadır. Hər nə qədər XXI əsrin əvvəllərin Yeni Enerji Siyasəti həyata keçirilsə də, Aİ ölkələrinin enerji resurslarından asılılığı davam etməkdədir.

ƏDƏBİYYAT SİYAHISI

1. Jacques Lesourne/ The External Energy Policy of the European Union/ Brussels: Palais Egmont/ 2009/ s. 142.
2. Dursun S./ Avrupa Birliği'nin Enerji Politikasi Ve Türkiye/ Ankara Üniversitesi Avrupa Toplulukları Araştırma ve Uygulama Merkezi Araştırma Dizisi/ №: 36/ 2011/ s.103
3. Borda J. ve Kiss F./ The Environmental Policy of EU and The Sustainable Development/ Studia Universitatis "Vasile Goldiş"/ 2011/ 21(2)/ s. 417-420.
4. Cheskidov V./ Performance Potential of the Coal Strip Mining in the East of Russia/ Journal of Mining Science/ 2007/ 43(4)/ s. 429-435
5. Taner A. C./ Avrupa'da Nükleer Santraller ve Nükleer Enerji Perspektifleri/ 2013/s.2

AZƏRBAYCAN DIASPORASININ RUSIYADA TƏŞKILATLANMA VƏZIYYƏTI

NƏCMƏDDİN HÜSEYNZADƏ FİRUDİN
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə
nhuseynzade3@std.beu.edu.az
BAKI,AZƏRBAYCAN

Xülasə: İki ölkə arasında siyasət, iqtisadiyyat və mədəniyyətin müxtəlif sahələrində inkişafın və əməkdaşlığın geniş spektrli aktual məsələlərini müzakirə edən, müzakirələrdə iştirak edən Rusiya və Azərbaycanın tanınmış alimləri, Azərbaycan diasporunun xadimləri qeyd ediblər ki, Birinci postsovet onilliyi Azərbaycan üçün dərin ictimai-siyasi və iqtisadi transformasiyalar və sarsıntılar, dünya arenasına müstəqil çıxış, geniş xarici siyasət əlaqələrinin qurulması, Rusiya və Azərbaycanın digər respublikaları ilə dövlətlərarası münasibətlərin qurulması dövrü idi.
Açar sözlər: təşkilat, diaspora, dövlətlərarası münasibətlər, politoloq, etnik icmal
Summary: Well-known Russian and Azerbaijani scholars and figures of the Azerbaijani Diaspora, who discussed a wide range of topical issues of development and cooperation between the two countries in various fields of politics, economy and culture, noted that the First Post-Soviet Decade was a profound socio-political and economic transformation and upheaval for Azerbaijan. It was a period of independent access to the world arena, the establishment of broad foreign policy relations, the establishment of interstate relations with Russia and other republics of Azerbaijan.
K**eywords:** organization, diaspora, interstate relations, political scientist, ethnic review

GİRİŞ

20-ci əsrin beynəlxalq münasibətlər tarixinin xarakterik xüsusiyyəti mühacirət etnik icmalarının formalaşmasına səbəb olan miqrasiya proseslərinin intensivləşməsi idi. Miqrasiya fəallığının zirvəsi İkinci Dünya Müharibəsindən sonrakı dövrə təsadüf edir. 1990-cı illərin ortalarında təxminən 125 milyon insan öz ölkələrindən kənarda yaşayırdı. Hər il onların sayı 2-4 milyon nəfər artır.

Müasir dünyada etnik icmalar getdikcə əhəmiyyətli rol oynamağa başlayıb. Yeni yaşayış yerində miqrantlar öz adət və ənənələrini qorumaq üçün birləşməyə çalışdılar ki, bu da son nəticədə onların milli ideya çərçivəsində möhkəmlənməsinə təkan oldu. Diasporlaşma prosesi başladı, onun sürətinə görə Rusiya dünyada ilk yerlərdən birini tutur. YUNESKO-nun məlumatına görə, 40 milyon azərbaycanlının 50%-i İranda, 7,5 milyona yaxını Azərbaycanın özündə, 1,5 milyona yaxını isə Rusiyada yaşayır. Əhalinin Azərbaycandan miqrasiyası bir neçə mərhələdə baş vermişdir. Miqrantların ilk dalğası 1950-1960-cı illərdə Rusiyaya gələn tələbələr və neftçilər idi. İkinci miqrasiya dalğası 1980-1990-cı illərdə baş verdi. Buna səbəb Ermənistan-Azərbaycan münaqişəsi və Gürcüstandakı iqtisadi böhran olub. Azərbaycanlıların bir qismi 1988-1990-cı illərdə Ermənistandan Rusiyaya gedib. Rəsmi məlumatlara görə, 1992-ci ildə Gürcüstanı 10 minə yaxın, 1993-1994-cü illərdə isə 23 minə yaxın azərbaycanlı tərk edib.Onların əksəriyyəti Rusiyaya köçüb. Azərbaycanlıların Rusiyaya üçüncü miqrasiya axını Azərbaycanda SSRİ-nin dağılması və keçmiş iqtisadi əlaqələrin kəsilməsi nəticəsində yaranan iqtisadi böhranla bağlı idi. Əhalinin həyat səviyyəsinin pisləşməsi MR-dən olan əmək miqrantlarının Rusiya Federasiyasının ərazisinə gəlməsinə səbəb oldu. Maraqlıdır ki, Rusiyadakı azərbaycanlıların sayı ilə bağlı məlumatlar müxtəlifliyi ilə seçilir. Belə ki, 2001-ci ildə prezident V.Putin Azərbaycana səfəri zamanı 2,7 milyon nəfərin adını çəkdi ki, onlardan 660 mini ölkə vətəndaşları, qalanları isə əmək miqrantlarıdır. 2002-ci ilin siyahıyaalınmasına əsasən, 1989-cu illə müqayisədə Rusiyada yaşayan azərbaycanlıların sayı təxminən iki dəfə artaraq 621.840 nəfər təşkil etmişdir. Üstəlik, bu, təbii artım deyil, genişmiqyaslı miqrasiya hesabına baş verdi. Eyni zamanda, 154 911 nəfər (25%) Azərbaycan, qalan 466 929 nəfər isə Rusiya vətəndaşları olub. Zaman keçdikcə Rusiya Federasiyasında yaşayan azərbaycanlılar müxtəlif ictimai təşkilatlar yaratmağa başladılar. Bu və ya digər icma çərçivəsində bir-biri ilə birləşmək, özlərini daha qorunmuş hiss edirdilər. Bundan əlavə, bu cür təşkilatların fəaliyyət göstərməsi azərbaycanlıların mədəni kimliyinin qorunub saxlanmasına öz töhfəsini verdi. Rusiyadakı azərbaycanlılar bütün dövrlərdə həm paytaxtda, həm də ölkənin regionlarında bir neçə onlarla ictimai birlik yaradıblar. Lakin onların heç birinin Rusiya Federasiyası ərazisində Azərbaycan xalqının maraqlarını təmsil etmək üçün kifayət qədər potensialı yox idi. 2000-ci ildə

Rusiya Federasiyasında azərbaycanlıların ilk rəsmi diaspor strukturunun - Ümumrusiya Azərbaycan Konqresinin yaradılması ilə vəziyyət dəyişdi. 2000-ci il iyunun 22-də Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində Ali Attestasiya Komissiyasının təsis yığıncağı keçirilmişdir. Bu tarix yəhudi və erməni diasporlarının tarixindən fərqli olaraq cəmi bir neçə il olan Rusiyadakı Azərbaycan diasporunun tarixində başlanğıc nöqtəsi sayıla bilər. Və buna görə də, nisbətən yaxınlarda tədqiqatçıların diqqətini cəlb etməyə başladı.

Maraqlıdır ki, diaspora terminin özü əvvəlcə yalnız yəhudi icmasına şamil edilmişdir. Hərfi mənada "Fələstindən kənara səpələnmiş yəhudilərin (e.ə. 586-cı ildən Babil əsarətindən) milliyyətinin məcmusudur". Lakin zaman keçdikcə bu anlayış milli-mədəni azlıq kimi məskunlaşdıqları yeni ərazidə yaşayan digər dini və etnik qruplara da şamil olunmağa başladı. Yuxarıda sadalanan səbəblərdən birbaşa Azərbaycan diasporu mövzusundan bəhs edən əsərlər o qədər də çox deyil. Bundan əlavə, bu mövzunun tədqiqi ilə əsasən iqtisadçılar, politoloqlar, sosioloqlar və etnoqraflar məşğul olurdular. Bu yanaşma, müəlliflərin problemi müəyyən bir elmi intizam çərçivəsində nəzərdən keçirmələri səbəbindən əsərlərin dar istiqamətini müəyyənləşdirdi. Onu da qeyd etmək lazımdır ki, əksər hallarda tədqiqatların müəllifləri diaspora daxilindəki işlərin real vəziyyəti ilə tanış deyildilər. Bu səbəbdən araşdırmalarda onların çıxardıqları nəticələr heç də həmişə doğru və obyektiv sayıla bilməz.

Beləliklə, məsələn, V. A. Tişkovun fikrincə, "Rusiya ilə Azərbaycan arasında dolaşan 1 milyon azərbaycanlını diaspor adlandırmaq çətindir". Eyni zamanda o, əlavə edir ki, "onların mədəniyyətində və sosial praktikasında, şübhəsiz ki, Rusiyada uzun müddət qalanlar arasında bir xüsusiyyət olan diasporizm var". Termin şərhindəki uyğunsuzluq onun inkişafının qeyri-kafi dərəcəsini göstərir. Bu dissertasiya tədqiqatı "Rusiya Federasiyasındakı Azərbaycan diasporu" terminin bu barədə hazırda mövcud olan bütün elmi məlumatlara əsaslanaraq ona ən doğru tərifini verməyə cəhddir.

Bu, ona əldə etdiyi elmi və praktiki bilikləri müqayisə edərək Rusiyadakı Azərbaycan diasporunu ən dəqiq səciyyələndirən xüsusiyyətləri vurğulamağa imkan verdi. Müəllif Azərbaycan diasporunun xüsusiyyətlərini üzə çıxararaq, onun Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında sosial-mədəni sahədə ikitərəfli əlaqələrin qurulmasındakı əhəmiyyətini təhlil edə bilmişdir.

Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin böyük tarixi var və bu, 19-cu əsrin əvvəllərinə, Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil olduğu vaxta gedib çıxır. Elə həmin andan İranın güclü təsirini yaşayan Azərbaycanın rus mədəniyyətinə uyğunluğu aydın oldu. Çar Rusiyası ilhaq edilmiş əraziyə ilk növbədə siyasi, hüquqi və inzibati baxımdan nəzarət etməsinə baxmayaraq, Azərbaycan əhalisini tam mədəni azadlıqla təmin edirdi. Azərbaycanda mənəvi dəyərlərin yenidən qiymətləndirilməsi Rusiya ilə mədəniyyət sahəsində birbaşa əlaqələr və qarşılıqlı fəaliyyət nəticəsində baş verib. Azərbaycan və Rusiya mədəniyyətinin qabaqcıl xadimləri arasında ünsiyyət Azərbaycan xalqının inkişafında mühüm rol oynamışdır. Görkəmli tarixçi və yazıçı Abbasquli Bakıxanov, filosof və dramaturq Mirzə Fətəli Axundov Rusiya ilə yaxınlaşmanın tərəfdarı idilər. Axundovun özü böyük rus şairi A. S. Puşkinin yaradıcılığından çox təsirlənmişdir. Azərbaycana rus mədəniyyəti ilə yanaşı, mütərəqqi demokratiya ideyaları, azadlıq eşqi də nüfuz etmişdir. Azərbaycan mədəniyyətində əsrlər boyu formalaşmış müsəlman itaət ideyası ilə yanaşı, mənəvi azadlıq ideyası da meydana çıxmışdır.

SSRİ-nin dağılması təkcə vahid dövlətin ləğvinə deyil, həm də ümumi humanitar məkanın məhvinə səbəb oldu. Buna baxmayaraq, bəzi ölkələr nəinki köhnə münasibətləri qoruyub saxlamağa, hətta müxtəlif sahələrdə əməkdaşlıq qurmağa nail oldular. Rusiya ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq postsovet məkanının digər ölkələri üçün ikitərəfli münasibətlərə nümunə ola bilər. "Yumşaq güc"dən istifadə ilə bağlı xarici siyasətə təsirin alternativ resursları bu gün xüsusi əhəmiyyət kəsb etdiyi üçün sosial-mədəni əməkdaşlıq problemləri xüsusi aktuallıq kəsb edir. Maraqlıdır ki, ölkələrimiz arasında mədəni əlaqələr XIX əsrin əvvəllərinə gedib çıxır. Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra Azərbaycan rus mədəniyyətinin güclü təsirini hiss etdi ki, bu da özünü mənəvi dəyərlərin yenidən qiymətləndirilməsi və milli mənlik şüurunda azadlıq ideyasının inkişafında göstərdi. Rusiyada Azərbaycan İli və Azərbaycanda Rusiya İlinin keçirilməsi müasir mərhələdə humanitar əməkdaşlıq sahəsində əlamətdar hadisəyə çevrilib. İki mədəniyyət arasında dialoqa Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm töhfə verir. Fondun təşəbbüsü ilə, xüsusən də hər il ənənəvi Qəbələ Klassik Musiqi Festivalı keçirilir. Rus incəsənətinin Azərbaycanda təbliğinə Səməd Vurğun adına Rus Dram Teatrının, Nərgiz Paşayevanın rəhbərlik etdiyi ÜNS teatrının fəaliyyəti kömək edir. Öz növbəsində Rusiyada Azərbaycan dilində tamaşalar nümayiş etdirilən teatrlar var. Uğurlu əməkdaşlığın açarı həm də məktəblərdə və universitetlərdə tədrisi tam şəkildə qorunan rus dilidir. Azərbaycanda onlarla informasiya agentliyi və çap nəşrləri rus dilində fəaliyyət göstərir. Rus Kitabları Evi açıldı, Rusiya Beynəlxalq və

Mədəni Əməkdaşlıq Mərkəzinin (Roszarubezhsentr) nümayəndəliyi fəaliyyət göstərir. Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının ən böyük təhsil mərkəzləri arasında yaradılmış əlaqələr, tələbə mübadiləsi, birgə elmi konfransların keçirilməsi təhsil sahəsində uğurlu qarşılıqlı fəaliyyətə şərait yaradır. 2008-ci ildə Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin filialı açılıb. 2010-cu ilin yanvarında keçirilmiş Birinci Azərbaycan-Rusiya Humanitar Forumu iki ölkə arasında sosial-mədəni sahədə əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini göstərdi. Bu, daha çox Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında birbaşa əlaqələrin qurulmasına töhfə verən vətəndaş cəmiyyəti nümayəndələrinin sayəsində mümkün olmuşdur.

Müasir beynəlxalq münasibətlər sistemində insan amili getdikcə daha çox ön plana çıxır. Təbii ki, bu, Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlərə də aiddir ki, bu gün Azərbaycanda ruslar da, Rusiyadakı azərbaycanlılar da mühüm rol oynayırlar. Bu və ya digər təşkilata üzv olmaqla azərbaycanlı öz həmvətənləri ilə mütəmadi ünsiyyətdə olmaq imkanı qazanıb. Ana dilində ünsiyyət, milli bayramlara, yaddaqalan tarixlərə həsr olunmuş tədbirlərdə iştirak onun üçün yeni mühitdə qəriblik hiss etmədən, özünü tarixi vətəninə daha da yaxın hiss etməyə imkan verirdi. Lakin zaman keçdikcə Rusiyada yaşayan azərbaycanlıların maraqlarını müdafiə etmək zərurəti yarananda məlum oldu ki, mövcud strukturların heç biri bu işin öhdəsindən gələ bilmir. Yeni, daha səmərəli təşkilatın yaradılması qərara alındı.

Ümumrusiya Azərbaycan Konqresi belə bir struktura çevrildi. Konqres onlarla kiçik diaspor təşkilatını, xüsusən də Rusiyanın regionlarında birləşdirə bildi. Onun Rusiyadakı azərbaycanlıların əsas diaspor strukturu statusu 2001-ci il martın 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirak etdiyi Təsis Qurultayında təsdiq edilmişdir. DAK-ın istər Azərbaycan, istərsə də Rusiya tərəfindən dövlət səviyyəsində göstərdiyi dəstək, təşkilatın səmərəli idarəetmə rıçaqları, soydaşların konsolidasiyasına yönəlmiş düşünülmüş taktikası onun Rusiya Federasiyasında azərbaycanlıların ən səmərəli strukturuna çevrilməsinə imkan verdi.

Ali Attestasiya Komissiyasının yaradılması Rusiya-Azərbaycan münasibətləri tarixində yeni mərhələni qeyd etdi. Onun fəaliyyəti sayəsində bu gün Rusiyada öz maraqlarını müdafiə etməyə qadir olan tam hüquqlu rus azərbaycanlı diasporunun mövcudluğundan danışmaq olar. 2009-cu ildə Rusiya Federasiyasında rəsmi olaraq daha bir təşkilat - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Assosiasiyası fəaliyyətə başlayıb. AMOR-un yaradılmasından əvvəl Rusiyada yaşayan azərbaycanlı gənclərlə uzun və gərgin iş aparılıb. Moskvanın aparıcı universitetlərində Azərbaycan klubları, eləcə də regionlarda təşkilat hücrələri yaradılıb. AMOR Rusiya Federasiyasının ən böyük gənclər təşkilatıdır.

Bu gün gənclərin Rusiyanın azərbaycanlı əhalisinin diaspora ən çox inteqrasiya olunmuş hissəsini təşkil etməsi onun səmərəli fəaliyyətindən xəbər verir. Lakin "diaspora" termini Rusiya Federasiyasında yaşayan bütün azərbaycanlılara tanış deyil. Rusiyaya pul qazanmaq üçün gələn, ticarət və kiçik bizneslə məşğul olan insanların çoxu bir dənə də olsun diaspor təşkilatını tanımır. Onların öz fikrincə, hər hansı problemi olduqda müraciət edə biləcəkləri yeganə struktur Azərbaycanın Rusiyadakı səfirliyidir. Rusiya Federasiyasının ərazisində yerləşən əcnəbi vətəndaşlar kimi hüquq və vəzifələrini bilməmələri onları həssas edir, bəzən isə Rusiyada azərbaycanlı imicinə xələl gətirir. Bu mənada diaspor birlikləri həmin vətəndaşlarla bağlı davranış xətti üzərində düşünməlidir ki, onları diaspora cəlb etsin. Bu və ya digər şəkildə, bu gün biz əminliklə deyə bilərik ki, dünyada ən güclü Azərbaycan diasporalarından biri Rusiya Federasiyası ərazisindəki diaspordur. Rusiyadakı Azərbaycan diasporu öz inkişafında ciddi irəliləyişlər əldə edib, lakin təbii ki, hələ də bir sıra problemlər var. Bunlardan azərbaycanlıların ətrafında birləşdiyi yeni ictimai strukturların yaranması faktı kimi problemi ayırmaq olar. Bir tərəfdən, onların hamısı vətənindən kənarda yaşayan azərbaycanlıların tarixi yaddaşının qorunub saxlanmasına öz töhfəsini verir. Digər tərəfdən, Azərbaycan diasporunun parçalanmasına töhfə verirlər. Onun fəaliyyəti bir və ya iki təşkilatın ətrafında cəmlənsəydi, daha səmərəli olardı. İndi isə əksinə, həmvətənlərin bir-biri ilə rəqabət aparan ayrı-ayrı qruplarda birləşməsinə töhfə verən ilkin şərtlər yaradılır.

Nəticə

Bu şəraitdə Azərbaycan və Rusiya hökuməti səviyyəsində dəstəklənən yeganə təşkilat olan Ümumrusiya Azərbaycan Konqresinin üzərinə xüsusi məsuliyyət düşür. Bu, VAK-ın bu gün mövcud olan ictimai-siyasi reallıqlarda özünü necə aparmasından, on ildən sonra Rusiya Federasiyasının digər ən böyük etnik icmaları ilə birlikdə güclü, sıx bağlı diasporu görüb-görə bilməyəcəyimizdən asılıdır. öz millətinin nümayəndələrinin maraqlarını müdafiə edir. Bakı ilə Moskva arasında münasibətlərin gələcəkdə necə inkişaf edəcəyi əsasən iki ölkə arasında əlaqə olan Rusiyadakı Azərbaycan diasporundan asılıdır. Axı istər

Xəzərdə, istərsə də Qafqazda Rusiya və Azərbaycan üçün siyasi və iqtisadi əməkdaşlıq problemləri nə qədər önəmli olsa da, ikitərəfli münasibətlərdə insan amili həmişə birinci dərəcəli rol oynayacaq.

İstifadə Olunmuş Ədəbiyyat

1. Азербайджан и Россия: исторический диалог: Сборник – М., 2004
2. Азербайджан и Россия: общества и государства: [Сб. ст.] / Ред.-сост. Фурман Д.Е. – М., 2001
3. Азербайджанцы в России – смена имиджа и социальных ролей // Диаспоры. – М., 2005. - № 3. С. 293 – 315
4. Бороноева Д. Ц. Диаспоры в социокультурном контексте современности // Вестн. Бурят. гос. ун-та. Философия. Социология. Политология. Культурология. – Улан-Удэ, 2010. – Вып. 14а. – с. 209 – 215
5. Пивовар Е. И. Российско-азербайджанские отношения. Конец XX – начало XXI века. М., 2012

FƏRAT QALXANI, ZEYTUN BUDAĞI VƏ SÜLH BULAĞI ƏMƏLIYYATLARI

Tamerlan Abduləzimov
Bakı Mühəndislik Universitetinin magistrantı
tabdulezimov@std.beu.edu.az

Xülasə

Regional hadisələrin inkişafına uyğun olaraq, Türkiyənin Suriya istiqamətindəki xarici siyasəti 2016-cı ildən etibarən dəyişməyə başlamışdır. Haqqında danışılan dəyişiklik 2016-2018-ci illər arasında həyata keçirilən hərbi əməliyyatlarla öz təsdiqin tapmışdır. Xüsusilə 15 İyul xain xunta cəhdindən sonra daxili və xarici təhdidlərin Türkiyənin dövlət kimi varlığına və suverenliyinə yönəlmiş ciddi bir təhlükəyə çevrilməsi xarici siyasət prioritetlərinin və vasitələrinin dəyişdirilməsinə səbəb olmuşdur. Bu çərçivədə, Türkiyə, üz-üzə qaldığı təhlükəsizlik problemlərinə qarşı vahid bir anlayış formalaşdırmışdır. 15 İyul sonrasında ölkə daxilində və xaricində FETÖ, PKK, PYD və İŞİD-ə qarşı genişmiqyaslı bir antiterror mübarizəsinə başlanmışdır. Əlavə olaraq, bəhs olunan dövrdə, Türkiyə regional və qlobal oyunçularla münasibətlərini beynəlxalq mənfəətləri və təhlükəsizlik problemlərini əsas tutaraq qurmuşdur. Bu səbəbdən, ortaya qoyulan təhdidlə mübarizə, regional güc balansına praqmatik yanaşma və beynəlxalq aktyorlarla aparılan siyasət, daha çox Prezident Ərdoğanın siyasi xəttinə uyğunlaşdırıldı.

Açar sözlər: Fərat Qalxanı, Zeytun Budağı, Sülh Bulağı, antiterror əməliyyatı, Türkiyənin təhlükəsizlik problemi.

Abstract

In line with the development of regional events, Turkey's foreign policy towards Syria began to change in 2016. The mentioned change was confirmed by military operations carried out between 2016-2018. Especially after the July 15 treacherous junta's attempt, internal and external threats have become a serious threat to Turkey's existence and sovereignty as a state, leading to a change in foreign policy priorities and tools. In this context, Turkey has formed a common understanding of the security challenges it faces. After July 15, a large-scale anti-terrorist fight was launched against FETO, PKK, PYD and ISIS inside and outside the country. In addition, during this period, Turkey built its relations with regional and global players on the basis of international interests and security issues. Therefore, the fight against the threat, the pragmatic approach to the balance of regional power and the policy pursued by international actors have been more in line with President Erdogan's political line.

Keywords: Euphrates Shield, Olive Branch, Fountain of Peace, anti-terrorist operation, Turkey's security problem.

Mövzunun aktuallığı: Türkiyənin 2016-cı ildən etibarən realpolitik xəttə keçidi və sərhədlərində mövcud olan terror təhlükəsini aradan qaldırma istəyi, İraq və Suriya ərazilərində hələ də var olan terror təşkilatları səbəbilə öz aktuallığını saxlamaqdadır.

Giriş

2016-cı il siyasi xəttin dəyişikliyinə qədər, Türkiyənin Suriya məsələsinə yanaşması, humanizm böhranına humanist çarələr axtaran, bu çərçivədə vətəndaş müharibəsindən və daxili xaosdan qaçan qaçqınların təhlükəsizliyinin təmin edilməsi və yeni bir miqrant axınının qarşısının alınması ilə ölkənin vahidliyinin qorunması və daxili sabitliyin bərpasını prioritet hesab edən, Suriyanın yenidən təhlükəsiz bir bölgə olmağına imkan yardacaq diplomatik cəhdlərdən ibarət idi. Şam rejiminə qarşı diplomatik razılaşma cəhdlərinin nəticəsiz qalması, ABŞ-ın Suriya siyasətini dəyişdirməsi, Türkiyəni həm Əsədin hakimiyyətdən uzaqlaşdırılması məsələsində tək qoymuş, həm də ABŞ və PKK-nın qolu olan PYD/YPG terror təşkilatı ilə üz-üzə qalmışdır[1, s.86]. Belə ki, artıq 2013-cü ildən ABŞ-ın Suriyanın şimalına hərbi bazalar yerləşdirdiyi və PYD/YPG-nin də Suriyanın şimalında məntəqələr yaratdığı məlumdur. Beləcə ABŞ, Türkiyənin əvəzinə, yerli ünsür olaraq gördüyü PYD/YPG terror təşkilatını müttəfiq olaraq seçmişdir. Türkiyə digər tərəfdən, 2017-ci ildən etibarən Rusiya və İran ilə Astana danışıqlarına daxil olaraq, diplomatik həll yolları axtarmağa davam etmişdir[2, s.17-18]. Fərat Qalxanı və Zeytun Budağı əməliyyatları ilə qətiləşən dəyişikliyin təməlini isə Suriyaya qarşı liberal bir xarici siyasət anlayışından realizmi və qarşıya çıxan sınaqları praqmatik yollarla həll etməyi hədəfləyən perspektiv dəyişikliyi təşkil etməkdədir. Bu dəyişiklik, siyasi quruluş və məqsədlərinin tamamilə fərqli bir aspektə fokuslanması şəklində yox, hədəflərin sabit qalaraq prioritet sıralamasının regional konyunktura uyğun yer dəyişdirdiyi bir anlayışa çevrilmişdir**.**

I. Türkiyə, 24 avqust 2016-cı ildə, BMT nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, zəruri özünümüdafiə haqqına əsasən Fərat Qalxanı əməliyyatına başladığını elan etmişdir. Birləşmiş Millətlər Təşkilatı, Təhlükəsizlik Şurasının 30 noyabr 2016-cı ildə verdiyi açıqlamaya əsasən, hərbi əməliyyatın məqsədinin sərhəddə təhlükəsizliyi təmin etmək və BMT Nizamnaməsi çərçivəsində, İŞİD terroru ilə mübarizə olduğu qeyd olunmuş, PKK və PYD/YPG terror təşkilatlarının Türkiyə sərhəddində terror koridoru yaratmaq cəhdlərinin qarşısının qətiyyətlə alınacağı bildirilmişdir. Coğrafi və strateji mənada əsas məqsəd isə, xüsusilə Cərablus-Əzez xəttini ön planda tutaraq, PYD terror təşkilatının Fərat çayının qərbinə çataraq Əzez ilə əlaqə qurmasını əngəlləmək idi. Bu çərçivədə, Türkiyənin ən geniş miqyaslı hərbi əməliyyatlarından biri olan Fərat Qalxanının ilk mərhələsində, Cərablusdan başlayaraq, vacib əhəmiyyətli hədəflər ələ keçirilmiş, və əməliyyatın ilk 50 günündə 1100 kvadrat kilometrlik ərazi terror ünsürlərindən təmizlənmişdir.

Fərat Qalxanı əməliyyatı, Türkiyənin Suriya sərhəddindəki təhlükəsizlik probleminin öhdəsindən gəlmək və siyasi xaosa, eləcə də daxili çəkilşmələrə diplomatik həll tapana qədər, sərhəddən kənarda vəziyətə nəzarət etmək üçün yaranan geosiyasi məcburiyyətdən doğan ehtiyac idi. Bu çərçivədə, konkret siyasi və hərbi fundamentə söykənməkdədir. Ümumi olaraq nəzər salındıqda, Türkiyə, Suriyaya yönəlmiş xarici siyasətini əvvəlcə yumşaq gücdən sərt gücə çevirmiş və 2016-cı ildə ilk dəfə birbaşa hərbi müdaxilə edərək hərbi strategiyaya yönəlmiş, Suriyada bölgəyə bilavasitə qüvvə cəmləşdirərək mövqelərə yiyələnmək strategiyası yürütmüşdür. 30 mart 2017-ci ildə 216 gün davam edən hərbi əməliyyat sona çatmış, Azad Suriya Ordusu ilə birgə aparılan döyüş əməliyyatları 3 mindən çox terrorçu zərərsizləşdirilmiş, 67 Türk əsgəri isə şəhid olmuşdur. Mart ayının 31-i, 2017-ci ildə Türk Silahlı Qüvvələri bəyan etmişdir ki:

"BMT Nizamnaməsinin 51-ci maddəsindən qaynaqlanan qanuni müdafiə haqqımız çərçivəsində, ölkəmizin və xalqımızın təlükəsizliyini təhdid edən İŞİD Terror Təşkilatı üzvləri başda olmaqla, bölgədə mövcud olan terrorçuları zərərsizləşdirmək və sərhədlərimizin təhlükəsizliyini təmin etnək məqsədilə; 24 Avqust 2016-cı ildə Müttəfiq Güclər ilə koordinasiyalı olaraq başlanan Fərat Qalxanı Əməliyyatının bu mərhələsi uğurla başa çatdırılmışdır[3].

II. Türkiyənin Suriya siyasətində, sərt güc istifadəsinə keçid çərçivəsində ikinci böyük hərbi əməliyyat isə Zeytun Budağı olmuşdur. Bu əməliyyatı əsas məqsədi, PKK və onun əlaltılarının təsir gücünü qırmaq və "dövlətləşmə" planlarının qarşısını almaq idi. Zeytun Budağı əməliyyatının bir digər məqsədi ABŞ-ın Türkiyənin cənubunda PKK/PYD terror koridoru və terror təşkilatına ordu qurduraraq dövlətləşdirmə siyasətinə əngəl olmaq idi. ABŞ-ın PYD ilə birlikdə Suriyada sərhədd təhlükəsizliyi məqsədilə 30 minlik hərbi güc yaradacaqlarını bəyan etməsi, rəsmi Ankara tərəfindən Türkiyənin milli təhlükəsizliyinə yönəlmiş təhdid olaraq görülmüşdür. ABŞ-ın bu bəyanatından sonra Türk Silahlı Qüvvələri, Azad Suriya Ordusu ilə birgə Afrin şəhəri istiqamətində Zeytun Budağı əməliyyatına start vermişdir. Bu əməliyyatın məqsəd və hədəfləri barədə dövlətin rəsmi bəyanatı, 20 Yanvar 2018-ci ildə dərc olunmuşdur:

"Türk Silahlı Qüvvələri tərəfindən, sərhədlərimizdə və bölgədə təhlükəsizliyi və sabitliyi təmin etmək məqsədilə, Suriyanın şimal-qərbində Afrin bölgəsində, PKK/PYD/YPG/KCK və İŞİD terror təşkilatlarına

məxsus terrorçuları zərərsizləşdirmək, dost və qardaş bölgə xalqını bunların təzyiq və zülmündən xilas etmək üçün, 20 Yanvar 2018-ci il saat 17:00-dan etibarən "Zeytun Budağı Əməliyyatı" başlamışdır[4].
Əməliyyat, ölkəmizin beynəlxalq hüquqdan irəli gələn haqları, BMT TŞ-nın terrorla mübarizə istiqamətində xüsusilə 1624 (2005), 2170 (2014) və 2178 (2104) saylı qətnamələri və BMT Nizamnaməsinin 51-ci maddəsində qeyd olunan Hüquqi Müdafiə Haqqı çərçivəsində, Suriyanın ərazi bütövlüyünə hörmətlə yanaşaraq icra edilməkdədir.
Əməliyyatın planlama və icrasında sadəcə terrorçular və onlara məxsus sığınacaq, anbar, mövqe, silah və logistik sistemlər hədəf alınaraq, sivil vətəndaşların zərər görməməsi üçün maksimum diqqət və həssaslıq mümayiş etdirilməkdədir."
Qeyd olunan açıqlamalar Türk qərarverici mexanizmlərinin xarici siyasət məqsədlərini davam etdirməklə birlikdə prioritetlərinin dəyişdiyini göstərməkdədir. Türkiyə, Fərat Qalxanı və Zeytun Budağı əməliyyatları ilə birlikdə əvvəlcə öz təhlükəsizlik problemlərini sona çatdırmağı və cənub sərhəddinin təhlükəsizliyini təmin etmək məqsədi güdmüşdür. Bu mənada, Türkiyə terrorla mübarizə strategiyasını, terrorun mənbəyin qurutmaq olaraq müəyyənləşdirmişdir. Bu çərçivədə, reallaşdırılan hərbi müdaxilələr, imperialist və ya idealist anlayışdan çox, milli mənfəətə fokuslanan realist siyasət olaraq dəyərləndirilir. Bununla birlikdə, 2016-cı ildən sonra Türkiyənin öz xarici siyasətdəki mənfəətləri və hədəflərinə uyğun olaraq hərəkət edən regional bir güc halına gəldiyi qeyd edilməkdədir. Regional gücdən qlobal gücə çevrilməyi hədəfləyən Türkiyə üçün Suriya böhranında aktiv rol almaq, təkcə terrorla mübarizə mövzusunda yox, həm də gələcəkdə qlobal gücə çevrilmək baxımından faydalı olacağı düşünülməkdədir. Digər yandan Türkiyənin milli mənfəət məqsədli realist anlayışında və terrorla mübarizə siyasətində beynəlxalq hüquq və standartları ön planda tutaraq sərt güc istifadəsinin hüquqi zəmində reallaşdırdığına diqqət edilməlidir. Bu cür qeyd etmək olar ki, Türkiyə, mərkəzində sərt güc dayanan realist yanaşma humanist dəyərləri bir arada istifadə edərək, hibrid xarici siyasət formalaşdırmışdır. Türkiyə bir yandan qaçqın böhranına humanist yanaşma sərgiləyərkən, digər yandan Fərat Qalxanı və Zeytun Budağı əməliyyatları ilə Suriyada terror təşkilatlarına qarşı haqqlı mübarizəyə qətiyyətlə davam etməkdədir.
III. Türkiyə, 9 oktyabr 2019-cu ildə,milli təhlükəsizliyini təhdid edən terrorçu ünsürləri öz sərhəddindən uzaqlaşdırmaq, Suriyanın şimalında yaşayan yerli xalqın təhlekəsizliyini təmin etmək, PYD/YPG terror təşkilatlarının kriminal fəaliyyətlərinin qarşısını almaq və Suriyanın ərazi bütövlüyünü qorumaq məqsədilə, Suriyanın şimalında Sülh Bulağı hərbi əməliyyatını icra etmişdir. Türkiyə dövlət rəsmiləri, əməliyyatın məqsədini, Türkiyənin milli təhlükəsizliyini təhdid edən terror qruplaşmalarını sərhəddən təmizləmək və sərhədd xəttinin təhlükəsizliyini təmin etmək, Türkiyə-Suriya sərhəddinin cənubunda terror koridoru yaradılmasının qarşısını almaq, Suriyanın şimalında yaşayan yerli xalqın təhlükəsizliyini təmin edərək onlar üçün sağlam mühit yaratmaq, İŞİD və PKK/PYD/YPG başda olmaqla, Türkiyənin təhlükəsizliyinə təhdid yaradan terror təşkilatlarını zərərsizləşdirmək və doğma yurdlarından qaçqın düşmüş suriyalıların evlərinə qayıtmaları üçün münasib şəraiti təşkil etmək olaraq bəyan etmişdilər. Bu əməliyyat, Fərat Qalxanı və Zeytun Budağı əməliyyatlarında olduğu kimi, beynəlxalq hüquqa, BMT TŞ-nın terrorla mübarizə çərçivəsində qəbul etdiyi 1373 (2001), 1624 (2005), 2170 (2014), 2178 (2014), 2249 (2015), 2254 (2015) saylı qərarlara və BMT Nizamnaməsinin 51-ci maddəsində əks olunan özünümüdafiə hüququna arxalanaraq, Suriyanın ərazi bütövlüyünə hörmət çərçivəsində həyata keçirilmişdir[5]. Əməliyyatın icrası zamanı PKK-nın Suriya qolu olan PYD/YPG terror təşkilatlarına aid canlı qüvvə, sığınacaqlar, mövqelər, silahlar, texniki vasitələr, logistik sistemlər hədəf alınmış, mülki əhalini və əməliyyat bölgəsindəki tarixi, mədəni, dini abidələrin, kommunukasiya vasitələri və infrastrukturun, eləcə də dost və müttəfiq güclərin zərər görməməsi üçün bütün tədbirləri alaraq, maksimum həssaslıq göstərilmişdir. Əməliyyat başlanan gündən dünyanın fərqli kəsimlərindən gələn tənqidlərə qarşı, Türkiyə hökuməti, beynəlxalq aləmdən, terrorizmə qarşı apardığı mübarizəyə görə dəstək gözlədiyini, əvvələr də olduğu kimi terrora qarşı qətiyyətlə mübarizə aparacaqlarını bildirmişdir.
Əməliyyatın başlandığı andan, həm NATO, həm də Aİ-dan Türkiyə əleyhinə tənqidi fikirlər səslənməyə başladı. 17 Oktyabr 2019-cu ildə ABŞ Prezidentinin köməkçisi Mayk Pens, Dövlət katibi Mayk Pompeo, Milli Təhlükəsizlik müşaviri Robert Obrayn və Suriya xüsusi nümayəndəsi Ceyms Cefridən ibarət ABŞ heyəti ilə aparılan gərgin danışıqlardan sonra, 120 saat içində terror təşkilatlarının təhlükəsiz zonadan geri çəkilməsi, eləcə də ABŞ tərəfindən terror təşkilatına təmin edilən ağır silah və sursatların təhvil verilməsi şərtilə atəşkəs imzalandı. Bəhs olunan razılaşma çərçivəsində PKK/YPG-ə məxsus terrorçular avtomobil karvanları ilə ərazini tərk etməyə başlamış və eyni zamanda bir neçə dəfə yüngül silahlardan atəş açmışlar. 120 saatın tamamında ABŞ, PKK/YPG terror təşkilatlarının ərazidən geri çəkildiyini rəsmən təsdiqləmişdir. Bu səbəblə Müdafiə naziri Akar, Sülh Bulağı əməliyyatını əhatə edən ərazinin xaricindəki

sərhədlərin təhlükəsizliyi və YPG terror təşkilatının 30 kilometrlik təhlükəsiz zonanın xaricinə çıxarılmasını da özündə birləşdirən razılaşmaya əsasən, mövcud əməliyyat ərazisinin xaricində yeni bir əməliyyatın icrasına ehtiyac qalmadığını bildirmişdir. Beləcə, Rəsulayn və Tel Əbyad arasındakı 120 kilometrlik ərazidə həyata keçirilən Sülh Bulağı əməliyyatı sonlanmış, lakin Türkiyə, Fərat çayının şərqi ilə qərbi arasında qalan əraziləri birləşdirə bilməmişdir. Əməliyyatdan sonra Türkiyə nəzarət altına aldığı ərazilərdə mina və əldəqayırma partlayıcı maddələri təmizləmək üçün axtarış əməliyyatları həyata keçirmişdir. Bundan əlavə, 22 Oktyabr 2019-cu ilə Soçi şəhərində Rusiya ilə, birgə patrul fəaliyyəti aparmaq barədə razılıq əldə olunmuşdur.

Nəticə

2016-cı ildən sonra daxili və xarici təhlükəsizlik məsələlərində, Suriya daxili çaxnaşmasında və bölgədə mövcud olan terror təşkilatlarının təsir dairələrini böyüdərək Türkiyəyə qarşı təhdid ünsürü təşkil etmək məqsədilə gerçəkləşdirdikləri terror fəaliyyətləri, Türk xarici siyasətində nəzəri və praktiki səviyyədə dəyişikliklər yaratmışdır. Bu mənada Orta Şərqdəki güc balansı və təhlükəsizlik məsələləri nəzərə alınaraq, xarici siyasətdə realist bir perspektiv ortaya qoyulmuşdur. Bəhsi keçən anlayışın təbii bir nəticəsi olaraq Türkiyə, bölgədə qarşılaşdığı təhlükəsizlik problemlərini həll etmək, hərbi yolla çəkindirməni davam etdirmək və regional güc balansında daha mühüm bir yer tutmaq üçün sərt güc vasitələrindən istifadə etmişdir. Əslində, Fərat Qalxanı, Zeytun Budağı və Sülh Bulağı əməliyyatlarının bir səbəbi də Türkiyə və Qərb gücləri arasında bəzi mövzularda yaşanan qarşıdurmadır. Təhlükəsizlik qayğılarının qərb dövlətləri tərəfindən Suriya siyasətinə daxil edilmədiyini görən Türkiyə, realist bir anlayışla öz problemlərini özü həll etmək üçün iradə nümayiş etdirmişdir**.**

Ədəbiyyat siyahısı:

1. Muharrem Ekşi. "Türk Dış Politikasının Ultimo Ratiosu: Yumuşak Güçten Sert Güçe Türkiyenin Suriye Politikası". Karadeniz araştırmaları, cilt 15, sayı 60, 2018, s. 86
2. Ataman ve Özdemir: Turkey`s Syria Policy, s. 17-18
3. Sabah, "TSK: Fırat Kalkanı Başarıyla Tamamlandı" Mart 31, 2017
4. BBC, "TSK: Zeytin Dalı Operasyonu, Suriye`nin Toprak Bütünlüğüne Saygılı Olarak Yürütülüyor", Ocak 20, 2018. https://www.bbc.com/turkce/haberler-turkiye-42760737
5. https://www.msb.gov.tr/SlaytHaber/9102019-02880

IN THE POST-PANDEMY PERIOD CHARACTER OF INTERNATIONAL ECONOMY RELATIONS AND ECONOMIC POLICY OF AZERBAIJAN

Rahim Jabbar Najafov
rahimnajaf@hotmail.com
Nakhcihivan State University, Diplomacy and International Relations, Master
Nakhchivan Autonomous Republic, Azerbaijan
info@ndu.edu.az

ABSTRACT. The spread of the Covid-19 pandemic around the world since 2020 has led to the largest contractions in the world economy since the financial crisis in 2008 and a significant weakening of economic development. As a result of the pandemic, bans imposed in various countries around the world have led to unprecedented cessation of activities in various areas of economic activity, which has led to a significant weakening of economic activity. The pandemic also revealed the disadvantages of the global economic system's high dependence on countries. Thus, the disruption of the sustainability of the global supply chain under the influence of the pandemic has led to the deterioration of the production process in many areas and the emergence of shortages in a number of products. In particular, China's large role and share in the formation of the supply chain, and the first mass pandemic in China, made supply chain problems more severe at the beginning of the pandemic. In the following period, the problems related to the supply chain have decreased to some extent, but still remain and affect both production processes and product prices.

Keywords: *Azerbaijan, diplomacy, politics, economy, pandemiya*

INTRODUCTION. The negative economic consequences of the pandemic are expected to be felt for a long time to come. In the long run, the pandemic will continue to weaken investment, erode human capital and reduce jobs, reduce the effectiveness of education, undermine the sustainability of international trade, increase the propensity for economic isolation, and reduce confidence in the global economic system. Despite the large-scale support measures taken by various governments during the pandemic to support the economy and the population, it is still unable to offset the long-lasting effects of the pandemic on the world economy.

Impact of the pandemic on the world economy- The main areas affected by the pandemic are both the labor market and poverty. The economic problems created by the pandemic have affected young people, women and low-skilled workers the most. Those in this group have faced more unemployment as a result of the shrinking labor market. This has exacerbated inequality in the distribution of income among population groups. It is estimated that during the pandemic, 95 million people worldwide were living in extreme poverty compared to the pre-pandemic period. At the same time, the problems in the field of education for low-income countries have become more uncontrollable, which has led to a further deterioration of the already weak education system in those countries. [1,s.34]

The main features of the recovery process in the post-pandemic period-Although the pandemic continues, its previous rapid spread and impact on economies have diminished. In particular, the mass spread of vaccines around the world since the beginning of 2021 has reduced the impact of the pandemic and led to the easing of existing bans. Although there is a process of re-application or easing of sanctions in certain countries, depending on the level of infection, after the first half of 2021, large-scale sanctions have not been applied as before. Both the proliferation of vaccines and the reduction of sanctions have led to the recovery of the world economy from the second and third quarters of 2021.

Despite the beginning of the post-pandemic period and the ongoing process of economic recovery in many countries, in parallel with these processes, there is a significant increase in inflation around the world, which has a significant impact on the welfare of the world's population. The most expensive products and services include food, transportation and utilities, which affect the daily lives of the world's population. Estimates show that two-thirds of the world's population is directly affected by price increases. This worsens the financial situation of the world's low-income population. Inflation rates for countries and organizations also show a significant increase in prices. In many developing countries, where inflation is very high, central banks have already been forced to raise interest rates. In other countries, especially in most developed countries, interest rate increases have not started. However, the persistence of high inflation suggests that in 2022, the process of raising interest rates in these countries will begin. [2,s.21]

The nature of international economic relations in the post-pandemic period-All the issues related to the pandemic mentioned above affect the system of international economic relations and lead to changes in its nature. In a broader sense, the impact of the pandemic on the system of international economic relations has occurred mainly in two directions. First of all, we can note the increase in inequality. The transformation of the liberal economic system into the world's dominant system since the 1980s has led to the rapid development of the world economy, as well as the widening gap in economic development between countries. This has led to the formation of groups of developed, developing and underdeveloped countries. With the exception of a few rapidly developing developing countries, the differences between these groups have deepened. The pandemic has accelerated this process and led to higher levels of inequality. This is due to the fact that both developed countries have more developed health care systems, more financial resources to implement economic support programs, and the percentage of low-income people is lower. At the same time, there are differences from a political point of view, which make decisions at the international level more in the interests of developed countries. In this sense, the distribution of vaccines by country can be noted. [3,s.51]

Azerbaijan's economic policy in the post-pandemic period- Both during the pandemic and in the post-pandemic period, the processes taking place in the world economy did not pass unnoticed to the Azerbaijani economy. Although the impact of these processes on the economy of Azerbaijan occurs in several areas, the most important in these areas, of course, were the processes taking place in world oil and gas markets. Therefore, it would be useful to first look at the developments in the international oil and gas market over the past two years. At the onset of the pandemic, a sharp decline in global economic activity also led to a decline in demand for energy, which in turn led to lower oil and gas prices on world markets. If in June 2019 the price of a barrel of Brent oil fluctuated between 62-65 US dollars (hereinafter - the dollar), in April 2020 this figure fell to $ 25. In order to prevent a sharp decline in oil prices, the

Organization of the Petroleum Exporting Countries (OPEC) has repeatedly agreed to reduce oil production in member countries. For example, an agreement was reached to reduce daily oil production by 9.7 million barrels from May 1, 2020. Although these measures have affected the oil market and prices, the recovery in oil prices began mainly in October 2020, and the price of Brent oil in March 2021 was already close to $ 70. Although short-term declines were observed in the following period, the process of price increase continued and in November 2021 approached $ 83. [4]

The large share of the oil and gas sector in the economy of Azerbaijan has directly affected it from the above-mentioned problems. Although the sharp decline in oil and gas prices observed in the early stages of the pandemic was a cause for concern, its long absence did not create serious economic problems for Azerbaijan. Although price reductions have narrowed export opportunities, the sale of most oil and gas at contract prices has not resulted in significant financial losses for Azerbaijan. This allowed the Azerbaijani government to implement large-scale support measures to prevent a sharp deterioration in the socio-economic situation of the population during the pandemic. In the post-pandemic period, the rise in prices allows Azerbaijan to ensure the sustainability of exports and further increase its extensive financial resources. It should be noted that the Southern Gas Corridor will be launched in 2020. The launch of this project, which will transport Azerbaijani gas to Europe, will make Azerbaijan one of Europe's main gas suppliers. It is in Azerbaijan's interest to have high gas prices in order for this project to be profitable and for Azerbaijan to be able to recoup its financial costs. Therefore, the current changes in world gas prices serve the interests of Azerbaijan. The growing capacity to fight the pandemic and the fact that the pandemic is unlikely to cause as many economic problems as before also suggest that gas demand will remain high in the coming years and that Azerbaijan will be able to profit from gas sales. [5]

SUMMARY. The emergence of high inflation can also be considered as a factor influencing the nature of international economic relations. Because the existence of high inflation has a significant impact on international trade relations. An increase in the price of a number of products produced as a result of inflation reduces the competitiveness of both those products and the countries in which they are produced. Along with the ongoing processes in the oil and gas sector, it should be noted that high inflation observed in the world during the post-pandemic period also affects the economy of Azerbaijan. The significant share of imported products in the structure of consumer goods in Azerbaijan leads to an increase in inflationary imports. This has an increasing effect on prices in the local market. As a result, the purchasing power of the population is declining and the government is forced to increase social spending. In order to overcome the difficulties caused by inflation, an order has already been issued to increase wages from 2022 in many areas. In this sense, high gas and oil prices in the post-pandemic period allow to meet the additional socio-economic costs caused by high inflation. On the other hand, rising inflationary imports increase the competitiveness of local producers. Therefore, it is possible to take advantage of the opportunities created by the negative inflation trend formed by the pandemic. It would also be useful for the state to provide support to local producers in this direction.

Reference:

1. A. Hasanov, "Modern international relations and foreign policy of Azerbaijan", Baku, 2005.
2. J. Kerimov, A.Orujov, H. Israfilov, “World economy”, Baku-2007.
3. Gulzar Ibrahimova, Forecasting of International Relations, Istanbul-2019
4. www.worldbank.org
5. www.stat.gov.az

В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД ХАРАКТЕР МЕЖДУНАРОДНО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ И ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

Нахчыванская Автономная Республика, Азербайджан
Рахим Джаббар Наджафов
rahimnajaf@hotmail.com
Нахчыванский государственный университет, Дипломатия и международные отношения, магистр
info@ndu.edu.az

РЕЗЮМЕ. Распространение пандемии Covid-19 по всему миру с 2020 года привело к самому большому сокращению мировой экономики со времен финансового кризиса 2008 года и значительному ослаблению экономического развития. В результате пандемии введенные в различных странах мира запреты привели к беспрецедентному прекращению деятельности в

различных сферах экономической деятельности, что привело к значительному ослаблению экономической активности. Пандемия выявила и недостатки высокой зависимости мировой экономической системы от стран. Таким образом, нарушение устойчивости глобальной цепочки поставок под влиянием пандемии привело к ухудшению производственного процесса по многим направлениям и возникновению дефицита по ряду товаров. В частности, большая роль и доля Китая в формировании цепочки поставок, а также первая массовая пандемия в Китае усугубили проблемы с цепочкой поставок в начале пандемии. В последующий период проблемы, связанные с цепочкой поставок, несколько уменьшились, но все еще остаются и влияют как на производственные процессы, так и на цены на продукцию.

Ключевые слова: *Азербайджан, дипломатия, политика, экономика, пандемия*

İRANDA İSLAM INQILABI VƏ ŞIƏÇILIYIN ÖN PLANA ÇIXMASI

Lalə Muradova
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə
lmuradova@std.beu.edu.az
Bakı, Azərbaycan

Xülasə

XX-ci əsrin əvvəllərində Osmanlı İmperiyasının dağılmasından sonra Orta Şərqin ən əhəmiyyətli hadisələrindən biri də 1979-cu ildə baş verən İran İslam İnqilabıdır. Bu inqilab neftin kəşf olunması, müstəqil ərəb dövlətlərinin ortaya çıxması və İsrailin qurulması üçbucağında inkişaf edən hadisələrlə bağlı bölgə tarixində öz aktuallığını qoruyan bir məsələdir. Ümumi siyasi tarix baxımından İran İslam İnqilabı, inqilabdan əvvəlki hadisələrin gedişatı və inqilabdan sonrakı siyasi-iqtisadi, mədəni strukturları ilə və dünya siyasətinə təsirləri baxımından ancaq Fransız, bolşevik və Çin inqilabları ilə müqayisə oluna bilən bir mövqedədir. 20-ci əsrdə bütün liberal və sosialist inqilablarının ortaq şüarına çevrilən azadlıq,"bərabərlik, ədalət, müstəqillik" kimi anlayışlar İran inqilabçılarının da ən təməl prinsiplərinə çevrilmişdir. İnqilabın nəticəsi olaraq, İslamın beynəlxalq siyasətdəki gücü artmış, Yaxın Şərqdə radikal İslam hərəkatı güclənmişdir.

Açar sözlər: İran İslam İnqilabı, Xomeyni, respublika, şiəçilik, Orta Şərq

Summary

Iran Islamic Revolution of 1979 was one of the most significant developments in the Middle East following the downfall of the Ottoman Empire in the beginning of the 20th century. The revolution, which is marked by the trio of events in the discovery of new oil reserves, the emergence of sovereign Arab states in the region and the formation of the state of Israel, still holds its prominence. With the nature of the events leading up to the revolution, post-revolution structural changes in socio-economic and cultural spheres, and its impact on the global political landscape Iran Islamic Revolution might bear close resemblance to French, Bolshevik and the Chinese Communist Revolution. The ideological dogmas of "Independence, Equity and Justice", the centerpiece of almost all liberal and socialist revolutions of the 20th century, were also at the forefront of Iran Islamic Revolution. As a result of the revolution, Islam as a religion expanded its area of influence globally, and the radical Islamic ideology garnered renewed support in the Middle East.

Keywords: İran İslamic Revolution, Khomeini,republic, shiism, Middle East

Giriş

İnqilab İrandakı xarici təsirə, xaricilərin İranın daxili işlərinə qarışmasına, Pəhləvi-ABŞ yaxınlaşmasına, pis iqtisadi şəraitə, İranın qərbləşdirilməsinə və modernləşdirilməsinə reaksiya olaraq ortaya çıxmış olsa da, bütün bu ritorikanın arxasında təsirləri çox qüvvətli olan şiə tarixinin simvolik hadisələri ilə işıqlandırılır.

Bu inqilab İran tarixində yeni bir dövrün başlanğıcı olsa da, bir çox siyasi böhranları da özü ilə gətirmişdir. Mövzunun aktuallığı təkcə İran və Orta Şərq baxımından deyil, həm də İslamın gələcəyi baxımından da çox önəmlidir. Şübhəsiz ki, İran İslam İnqilabının da iqtisadi, dini, siyasi və s. səbəbləri çoxdur. Məlumdur ki, bu səbəblərdən biri də şiəlikdir. Şiəlik, xüsusilə, Yaxın Şərqdə baş verənləri düzgün dəyərləndirmək üçün ən mühüm açarlardan biridir.

19-cu əsrin son rübündə baş vermiş "Tütün üsyanı" və 20-ci əsrin əvvəllərində baş verən "Məşrutə hərəkatları"nı İran tarixində mühüm hadisələr kimi sıralamaq olar. Bu iki hadisə, İran xalqının idarəetmədə iştirak etmə səylərinin və gələcəkdə ortaya çıxacaq inqilabi hərəkatların anlaşılması baxımından əhəmiyyətlidir.

İran 1800-cü illərin ortalarından etibarən faktiki olaraq bir neçə dəfə işğal olunmuş və dövlətin qərar vermə prosesləri iflic vəziyyətinə düşmüşdür. Xarici qüvvələrin müdaxiləsi nəticəsində İranda saray rəhbərliyi əslində 20-ci əsrin əvvəllərində çökmüşdür. Lakin bu çöküşün rəsmi olaraq elan edilməsi yalnız 1924-cü ildə hakimiyyəti ələ keçirən Pəhləvi sülaləsinin köməyi ilə 1979-cu ilə qədər təxirə salına bildi. Bu çərçivədə, İran İslam İnqilabı, İslamın Şiə qolunun yenidən canlanması kimi də qiymətləndirmək olar.

İran İslam Respublikası 1979-cu ildə İranda hökmranlıq edən Məhəmməd Rza Pəhləvi monarxiyasının Ayətullah Xomeyninin başçılıq etdiyi çevrilişlə devrilməsi və şiə məzhəbinin mərkəzində bir İslam Respublikasının qurulması ilə başa çatan inqilabdır. 1979-cu ildə baş verən və İranın adını "İran İslam Respublikası" olaraq dəyişdirən İran İslam İnqilabı bütün İslam dünyasında ciddi bir həyəcan dalğası yaratmışdır. 1979-cu il dekabrın 3-də referendumla qəbul edilən və dəyişdirilə bilməyən Konstitusiyanın 12-ci maddəsinə əsasən, İranın rəsmi dini İslam, məzhəbi isə "Cəfərilik" (İsnaəşəriyyə) dinidir. [1, səh 224]

İran İslam İnqilabının əsas səbəbləri:

Məhəmməd Rza şahın hakimiyyətə başlaması ilə atası Rza şahın islahat hərəkatlarının yerini hökmdarın səlahiyyətlərini gücləndirəcək daha avtoritar islahatlarla əvəz olundu. Avtoritar islahatlar baxımından ən önəmli iki islahatdan birincisi; 1957-ci ildə gizli polis təşkilatı SAVAK-ın yaradılması oldu. SAVAK-ın müxalif İran vətəndaşlarına qarşı basqı və işgəncələri nasist Almaniyasının Gestapo rejimi ilə müqayisə oluna biləcək səviyyəyə çatmışdı. Digəri və daha geniş miqyasda xalq arasında qarışıqlığa səbəb olan islahat isə yenidən ABŞ-ın dəstəyi ilə 1963-cü ildə "Ağ İnqilab" adlı milli inkişaf proqramının tətbiqi oldu. Ağ İnqilabın gətirdiyi diqqətəlayiq yeniliklər arasında milliləşdirilmiş torpaqların bölünərək kəndlilərə paylanması, müəssisənin qazancının 20%-nin fəhlələrə verilməsi, bununla yanaşı qadınlara səsvermə hüququnun verilməsi olmuşdur. [3]

Ağ İnqilaba ən böyük müqavimət din xadimlərindən gəldi.O vaxta qədər o qədər də tanınmayan din xadimi İmam Rûhullah Musəvi Xomeyni (1902-1989) 1963-cü ildə rejim və onun İsraillə əlaqələri əleyhinə olan müxalifət hərəkatına rəhbərlik etdi. 1963-cü ildə qadınlara səsvermə hüququnun verilməsi kimi demokratik bir irəliləyiş olsa da, şah 1975-ci ildə bütün digər demokratik partiyaları bağlamış və ölkə daxilində təkpartiyalı sistemi tətbiq etdi. Daha sonra 1976-cı ildə şah silah alışının maliyyələşdirilməsini təmin etmək istədiyi üçün neftin qiymətini 20-25% artırmağa çalışdı. ABŞ isə bu artımın iqtisadiyyatına vuracağı zərəri anladı və İran əvəzinə qiyməti artırmayan Səudiyyə Ərəbistanı ilə razılaşdı. Bunun üzərinə İranın neft ixracatında qiymətlər aşağı düşdü və ölkə 1977-ci ildə Neft İxrac Edən Ölkələr Təşkilatı OPEC (Neft İxrac Edən Ölkələr Təşkilatı) neft böhranı ilə iqtisadi böhrana girdi. [4]

Xomeyni 1979-cu ildə sürgündə olduğu Parisdən ölkəsinə qayıtdı və üç milyon insan tərəfindən qarşılandı. Bununla da, İranda şah rejimi devrildi və Xomeyni vahid lider kimi meydana çıxdı. 1979-cu ildəki referandumla xalqın 99% səsi ilə monarxiyaya son verilmiş ve İran İslam Respublikası elan edilmişdir. 1980-ci ildə beynəlxalq sanksiyalar və embarqolardan istifadə edən Səddam Hüseyn 1975-ci ildə şahla bağladığı Əlcəzair müqaviləsini bir kənara qoyub, Şatt əl-Ərəblə bağlı fikir ayrılığını ortaya ataraq İrana hücum etdi. İran ordusunun inqilaba görə zəif olduğunu düşünən Səddam Hüseyn kimyəvi silahdan istifadə etməyə cəhd göstərsə də, istədiyi işğalçılıq siyasətlərini həyata keçirə bilmədi. 1988-ci ildə imzalanmış sülh müqaviləsinə əsasən, tərəflər müharibədən əvvəlki sərhədlərə qayıtmaq barədə razılığa gəliblər. [2522]

Rejimə əleyhinə olan partiyalar sıxışdırılmağa çalışılsa da, 80-ci illər rejimə qarşı çoxlu sui-qəsdin baş verdiyi illər olmuşdur. Bu sui-qəsd hadisələri ictimaiyyətin gözündə siyasi atmosferin Xomeyniyə doğru dəyişməsinə səbəb oldu. Həm bu daxili qarışıqlıqları, həm də müharibə vəziyyətinin aktuallığını bəhanə edərək, daha avtoritar dövlət tərəfindən cəmiyyətə böyük bir İslami qənaət siyasəti yeridildi.

İran İslam İnqilabının nəticəsi olaraq digər bir hadisə də İran mədəni inqilabı olmuşdur. Mao Zedong tərəfindən həyata keçirilən Çin Mədəni İnqilabından təsirləndiyi güman edilən İran Mədəni İnqilabı, 1980-ci ilin iyununda Xomeyni tərəfindən verilən fərmanla həyata keçirilməyə başlandı. Bu

çərçivədə ibtidai məktəblərdən universitetlərə qədər genişmiqyaslı "təmizləmə" hərəkatları həyata keçirilməyə başlanıldı. Xomeyni tərəfindən təyin edilmiş Mədəni İnqilabın Ali Şurası Xomeyni tərəfindən universitetlərdəki bütün qeyri-islami ünsürləri təmizləmək üçün əmr edilmişdi.

Mədəni İnqilabın son nöqtəsi 1980-ci il iyunun 4-də onu sistemli şəkildə təmizləmək üçün ümummilli universitetlərin bağlanması oldu. Təmizliyin böyük hissəsi bu qurumların üç il bağlı qalması hesabına həyata keçirilmiş oldu.[5]

Nəticə

İran İnqilabının orijinallığı və Yaxın Şərqlə birlikdə qlobal siyasətə təsirini nəzərə alsaq, ötən əsrin ən mühüm siyasi hadisələrindən biri olduğunu söyləmək olar. İnqilabla yanaşı siyasi İslamın beynəlxalq siyasətdəki gücü artmış, İslami qruplar daha özünə əmin almış, Yaxın Şərqdə radikal İslam hərəkatı güclənmiş ve ictimaiyyət arasında daha tanınmışdır. Bundan əlavə, sözügedən inqilab monarxiya ilə idarə olunan bir çox körfəz ölkələrinə təsir etdi. Bu ölkələrdə olan şiə nüfusu ilə birlikdə inqilabın ortaya çıxardığı "müstəqillik, ədalət və xalqa əsaslanan İran hakimiyyəti" Körfəz krallarının təhdid qavrayışını maksimum səviyəyə yüksəltmişdir.

İnqilabdan sonra İranın xarici siyasət perspektivi də köklü şəkildə dəyişdi. İran İslam Respublikasının xarici siyasətini müəyyən edən ən mühüm amil inqilab ideologiyasıdır. Bu ideologiyaya uyğun olaraq ABŞ-la yaxşı münasibətlər içərisində olan şah hakimiyyətinin əvəzinə antiimperialist ritorika ilə hərəkət edən Qərbə qarşı olan bir hökumət gəldi. İran İslam inqilabı nəticəsində İran soyuq müharibə dövründə olan əlaqələri də rədd etmiş, əvəzində nə Qərbə, nə də Şərqə üstünlük verməmiş,nəticə olaraq müsəlman xalqlarla birgə hərəkət edəcəyini bəyan etmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Berk Cem Tatar - İran devrimi, kurumları ve olası karşı-devrim
2. İran-Irak Savaşı'nda Kullanılan İran Propaganda Posterlerinin Göstergebilimsel Analizi, 2018, cilt 2
3. Prof. Dr. Hasan ONAT - İRAN İSLAM DEVRİMİ VE ŞİÎLİK(224)
4. https://tarihibilgi.org/iran-islam-devrimi/
5. http://www.aljazeera.com.tr/kronoloji/kronoloji-devrimden-gunumuze-iran

MÜASIR DÖVLƏT FENOMENI: TÜRKIYƏDƏ KAMALIST DÖVLƏT NÜMUNƏSI

NAMIG KARIMOV
Azərbaycan Turizm və Menecment Universiteti
Turizm Biznesi
namig.karimov@atmu.edu.az
BAKU/AZERBAIJAN

XÜLASƏ

Bu araşdırmada əsas olaraq dövlət anlayışından və bu çərçivədə həyata keçirilən nəzəriyyəçilərin tənqidi müzakirələrindən bəhs edilir. Bununla yanaşı Türkiyədə Kamalizm prinsiplərini və dövlətçiliyin mahiyyətini araşdırmaq üçün Dövlətçilik nəzəriyyələri müqayisəli şəkildə də müzakirə edilmişdir. Bu baxımdan Türkiyə dövləti daxilində Kamalizm ideologiyasının təkamülü ilə bağlı ədəbiyyatlar nəzərdən keçirildikdən sonra müvafiq olaraq dövlətin keçmiş ictimai, dini və dövlət quruluşuna münasibətdə Dövlətçilik prinsipləri müzakirə və təhlil edilmişdir. Bu minvalla məqalənin əsas məqsədi Dövlətçilik nəzəriyyələri və Müasir Dövlət anlayışını müzakirə edərək, Türkiyədə Dövlətçiliyin yerini Kamalizmin altı prinsipi əsasında təhlil edərək araşdırmaqdır. Beləliklə Dövlətçilik nəzəriyyələri Marksist paradiqma çətiri altında tətbiq edilərək, Dövlətçilik siyasətlərinin müxtəlif ölçüləri və onların Dövlət anlayışına təsiri müzakirə edilmişdir. Daha sonra Kamalist Dövlət və onun müasir dövrə qədər gəlib çıxması ilə bağlı nəzəriyyələr və ədəbiyyatlar müzakirə olunduqdan sonra əsas tədqiqat problemi kimi təhlil edilmişdir.

AÇARSÖZLƏR: MÜASIR DÖVLƏT, KAMALİZM, DÖVLƏTÇİLİK

GIRIŞ

Müasir dövlətlər rəsmi və qeyri-qanuni qurumlardan və həmçinin formal və qeyri-formal hökmranlıq vasitələrindən istifadə edərək (Weber, 2012/1922) öz siyasi nəzarətini və ölkənin təhlükəsizliyini xüsusi prioritetlər çətiri altında saxlamaq naminə xüsusi bir struktur ərsəyə gətirmişdir (Çiftçi, 2013). Beləliklə, özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik dövlət qurumları (Lauth, 2000) hakim sinifdən uzaqlaşdırılan dövlət məmurlarına qanuni güc tətbiq edir (Lenin, 1992/1917) və qanuni zorakılıq adı altında vətəndaşlara təzyiq etdiyi qədər (Weber, 2012/1922) "millətin qoruyucularını" da yəni hakim sinifi dövlətin gələcəyinin təminatçısı olaraq qəbul etməkdədir (Jongerden, 2019). Siyasi ədəbiyyatda mübahisəli bir anlayış olan və əsrlər boyu müzakirə edilən Dövlət anlayışı hələdə konkret və razılaşdırılmış standart tərifə sahib deyildir. Dövləti izah etmək üçün nəzəriyyələr arasındakı fərqlər bizi müxtəlif məqamlara yönləndirsə də, müasir dövlət anlayışını ələ almaqla bütün dövlətlərə xas bəzi xarakterik xüsusiyyətləri bir arada cəmləyə bilərik.

Belə ki, Dövlət anlayışı əsası XVI əsrdə formalaşmağa başlayan maarifçilik və modernizmin məhsulu olan Müasir Dövlət kimi başa düşülür (Hawkesworth & Kogan, 2002). Qeyd edək ki, lüğətlərdəki tərifl ərə daxil edilən və müxtəlif fəlsəfi, sosioloji və ideoloji yanaşmaların yer aldığı müasir dövlət anlayışında yer alan iki termin, yəni ərazi və suverenlik terminləri dövləti izah etmək üçün əsas terminlər olaraq götürülməkdədir. Belə ki, suverenlik anlayışı, hansı ki, siyasi ədəbiyyatda həm də xalq hakimiyyəti (Duguit, 2013), siyasi hakimiyyət və dövlətin qüdrəti anlayışlarını özlərində ehtiva etdiyi qədər ərazi üzərindəki yekdil hakimiyyətə (Harris, 1986) yəni dövlətin mövcudluğu üçün ən əhəmiyyətli anlayışa daha çox vurğu vurmaqdadır (Göze, 1959). Bununla yanaşı Müasir Dövlət anlayışına aydınlıq gətirmək üçün digər tipli ictimai müqavilə, təbii bütünlük, dominantlıq və hegemonluq kimi terminlərə də müraciət edilir. Bəhsi keçən Dövlət fenomeninin əsasını təşkil edən anlayışlar, dövlətlər arasında münasibəti tənzimləmək ilə yanaşı digər üçüncü tərəflər ilə münasibətlərin qurulmasında da əsas rol oynayır.

Bu məqalədə müasir dövlət anlayışı əsasında Türkiyə dövlətinin ideoloji əsasları analiz edilmiş və həmçinin Kamalist dövlət anlayışı da ələ alınılmışdır. Kamalist dövlət ideyasını başa düşmək üçün onun əsas quruluş və funksiyalarını müxtəlif prizmalardan baxaraq təhlil etmək mümkündür. Bunlara dövlət sistemi, onun təşkilatlanmasını, ideoloji sistemini, institutlarını əlavə edə bilər və hərtərəfli tədqiq etməklə müəyyən nəticə əldə edə bilərik. Lakin bu məqalədə, əsasən Türkiyə dövlətinin ideoloji sistemi ələ alınaraq onun siyasi tənqidi həyata keçirilmişdir. Bu çərçivədə Kamalizm ideologiyasının və onun altı prinspinin Türkiyə dövlətinin formalaşmasındakı roluna diqqət yetirilmişdir.

MÜASIR DÖVLƏT FEMOMENI VƏ KAMALIZM

Ümumilikdə dövlətin var olma səbəbini və əsas xüsusiyyətlərini izah etmək üçün mövcud nəzəriyyələri təbii inteqrasiya və münaqişəyə əsaslanan nəzəriyyələr kimi kateqoriyalara bölmək olar. İlk növbədə, müasir dövləti təbii inteqrasiyaya əsaslanan nəzəriyyələr ilə izah etməyə çalışan tədqiqatçılar (Hobbes, 1993/1651) əsasən ictimai müqavilə anlayışına daha çox istinad edirlər (Strauss, 2011/1953). Həmin tədqiqatçılara görə Dövlət insanlarla təbiət arasında qarşıdurma və mübarizənin qarşısını almaq üçün mövcuddur (Machiavelli, 2001/1532) və dövlətin olmadığı yerdə isə cəmiyyətlərdə münaqişə və qarışıqlıq hökm sürməkdədir (Aydın, 2009). Bəzi nəzəriyyəçilər mülkiyyət hüququnu qəbul edərək (Lock, 2017/1689) daha liberal dövlət anlayışında israr etsələr də, bəziləri dövlətin xalq ilə arasında bağladığı ictimai müqaviləyə əsaslanaraq (Rousseau, 2008/1762) zəruri hallarda hətta əmlakı da ələ keçirə biləcəyini iddia edirdilər (Hobbes, 1993/1651). Bununla belə, Hegel (1991/1820) dövləti yüksək səlahiyyətə sahib, ailə və vətəndaş cəmiyyəti qarşısında xarici zərurət kimi müəyyən edərək bildirirdi ki, ailənin və vətəndaş cəmiyyətinin prinsip və maraqları dövlətin mahiyyətinin əsasını təşkil edir və ona sıx şəkildə bağlıdır.

Digər qrup nəzəriyyəçilər isə Dövlət fenomenini müəyyən etmək üçün münaqişə anlayışına istinad edirlər. Münaqişə əsasında dövlətin mənşəyini və funksiyasını izah edən marksist nəzəriyyəyə görə, dövlət cəmiyyətin bütün siniflərinin mənafeyini deyil, sadəcə olaraq konkret müəyyən sinifin mənafeyini əks etdirir (Marks və Engels, 1999/1848). Belə ki, Engels (2000/1877) də dövləti hakim sinfin hakimiyyət aparatı kimi cəmiyyətin siniflərə bölünməsindən irəli gələn zərurət kimi formalaşdığını irəli sürmüşdür. Leninə görə (Stenlidə qeyd edildiyi kimi, 1989/1957), dövlət müəyyən sinifləri sıxışdırmaq üçün təşkil edilmiş güc və zorakılığın formalaşmasıdır. Faşizm isə dövləti müqəddəsləşdirən siyasi ideologiyadır və onun üçün dövlətdən kənar heç nə yoxdur. Lakin faşist hərəkatlar təşkilatlanaraq hakimiyyətə gəlmək üçün, xırda burjua kütlələrini arxasınca yığmaq naminə özlərini bir çox demaqoq elementlərlə bəzədilmiş unikal ideoloji və ya siyasi cərəyan kimi təqdim edirlər (Çağlı, 2004).

Nasist Almaniyasında və Mussolini İtaliyasında gördüyümüz faşist dövlətində hər şey dövlət üçün idi. Bu çərçivədə fərdi hüquq və azadlıqlar dövlətə qurban verildi, dövlət fenomeni isə az qala dinə çevrilmişdi

(Özdemir, 2018). Beləliklə, Lenin (2006/1917) dövləti marksist nəzəriyyəyə əsaslanan bir sinfin və cəmiyyətdən uzaqlaşmış bir qurumun hakimiyyət aparatı kimi qiymətləndirərək qeyd edirdi ki, dövlət xalqdan ayrı silahlı dəstələrin kütlələr üzərində həyata keçirdiyi hökmranlıqdır. Lakin dövlət zorakılığı və hökmranlığı anlayışı yalnız marksist nəzəriyyəçilərin yuxarıda qeyd etdikləri ilə məhdudlaşmır. Belə ki, neo-marksistlərə görə, hakim sinfin dövlət vasitəsilə hegemonluğu təkcə zorakılıq ilə deyil, həm də ideoloji manipulyasiya yolu ilə də əldə edilir (Heywood, 2002). Bu baxımdan Türkiyədəki Kamalist ideologiya dövlətin güclənməsində müxtəlif metodlar tətbiq edərək öz varlığını qorumaq və möhkəmləndirmək yolunu seçmişdir. Kamalizm, "sivilləşdirmə missiyası" çərçivəsində xalqın yetişdirilməsi və türk kimliyi adı altında əridilməsi (Bovenkerk & Yesilgöz, 1999) ilə digər mədəniyyətləri hədəf alan son dərəcə milliyyətçi bir ideologiya olaraq qəbul edilməkdədir. Xüsusilə, türk mədəniyyəti ölkənin müxtəlif dini və etnik fərqliliklərini birləşdirən əsas anlayış kimi qəbul edilmişdir.

Türkiyədə Kamalist dövləti başa düşməyin başqa bir yolu da dövlət aparatının siyasi fəaliyyətinə praktikada baxmaqdan keçir. Bu baxımdan, Kamalist dövlətin yuxarıda dövlətin tərifərində qeyd edildiyi kimi, istər vətəndaşların ümumi mənafeyini təmsil etməsi, istərsə də müəyyən bir qrupun mənafeyini müdafiə edən bir qurum olub-olmamasını öyrənmək mühim əhəmiyyət daşımaqdadır. Kamalist ideoloqların yetişdiyi mühit (Çaha, 1999) onları insan və cəmiyyət mərkəzli deyil, dövlət mərkəzli (Ərdoğan, 2001) düşünməyə yönləndirmiş və ya digər bir ifadə ilə vadar etmişdir. Bu kontekstdə qeyd etmək lazımdır ki, transsendental dövlət ənənəsi kamalist ideoloqlara güclü təsir göstərmişdir.

Bir çox tədqiqatçı və ekspertlərin razılaşdıqları ikinci məqam isə ondan ibarətdir ki, Türkiyədə Kamalist dövləti metafizik ənənədən ilhamlanan oliqarxik quruluşu müdafiə etməkdədir və ümumi ictimai maraqları əks etdirən bir qurum kimi heç bir xüsusiyyətə sahib deyildir. Beləliklə, dövlət cəmiyyətin qalan hissəsinə qarşı bəzi yuxarı sosial qrupların yaratdığı ittifaq ilə fəaliyyət göstərməkdədir. Yuxarıda qeyd olunan yuxarı sosial qruplar hərbi və mülki bürokratiyanı, biznesdəki dövlətçi insanları, medianı, universitetləri və elm adamlarını əhatə edir (Türköne, 2008). Bu çərçivədə Kamalist dövlət, təhlükəsizlik iyerarxiyasına uyğun fəaliyyət göstərən struktur sahibdir (Ərdoğan, 2001) və bu dövlət adi dövlət iyerarxiyası üzrə fəaliyyət göstərən demokratik hökümətin qəbul etdiyi qərarlara veto qoymaq səlahiyyətinə malikdir (Morgenthau, 1962).

KAMALİST DÖVLƏT FENOMENİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: ALTI PRİNSİP

Kamalist Dövlət modelinin və Türkiyə dövlətçilik modelinin adekvat qiymətləndirilməsi Kamalizmin altı prinsipinin araşdırılmasından asılıdır. Ona görə də Türkiyədə dövlət anlayışına aydınlıq gətirmək üçün aşağıdakı altı prinsipi bir-bir araşdırmaq lazımdır. Beləliklə, birinci prinsip Atatürkün düşüncələri çərçivəsində türk xalqı anlayışına əsaslanan "xalqçılıq"dır. Bu tərifdə xalq və millət məfhumunun bir-birinin içindəki bütöv bir fenomen kimi istinad edildiyi görünür (Angi, 2010). Altı prinspinin arasında əsas yerlərdən birini tutan prinsip isə "Respublikaçılıqdır". Atatürk hələ Türkiyə Respublikasının elan edilməsindən xeyli əvvəl belə bir fikrə gəlmişdi ki, millətin qurtuluş yolu Respublika əsaslı hökumətindən keçir. Kamalizmin tətbiq etdiyi əritmə və xalqı yetişdirmə prosesində din fenomeninə qarşı ən fəal rol oynayan üçüncü prinsip "inqilabçılıqdır". Kamalist "İnqilabçılıq" tərəqqi ideyası ilə açıqlana bilən və həmçinin bəzən cəmiyyətin inkişafının əksinə olaraq təyin oluna bilən bir anlayışdır (Angi, 2010). Bundan əlavə, inqilabçılıq yeni siyasi quruluşu qorumaq və Kamalist dövlətin həyata keçirdiyi dəyişikliklərə qarşı çıxa biləcək müqavimətləri qırmaq deməkdir. Bu mənada "İnqilabçılıq" "xalq üçün, həm də xalqa rəğmən" metodunu özündə ehtiva edir (Köker, 2004).

Növbəti dördüncü prinsip sənayeləşmə ilə modernləşmənin sürətlənməsi və yeni kollektiv tələblərə uyğun olaraq əhəmiyyət kəsb edən "Millətçilik"dir. (Smith, 1992). Millətçilik prinsipinin məzmununu araşdırmaq üçün Kamalist ziyalıların "millət" anlayışından nə başa düşdüklərini bilmək lazımdır. Atatürkə görə, millət eyni torpaqda yaşayan, eyni qanunlara tabe olan, əxlaq və dil birliyinində meydana gələn vəhdət içində yaşayan bir qrup insandır. Odur ki, millətin suverenliyi dəyərlərinə əsaslanan kamalizm, modernləşmə çərçivəsində və ümumi dəyərlər altında millətə çevrilməyi hədəfləyən cəmiyyətin uğurlu bir şəkildə çevrilməsi üçün "yeni bir millətin yaradılması" layihəsidir və türk milləti adı altında milli birliyi təmin edən təcrübələrə malikdir. (Kaynar, 2001). Atatürkün "Millətçilik" ideyası dar çərçivədə din və irq anlayışından çox, Avropada olduğu kimi milli sərhədlər daxilində milli konsensusa əsaslanan ümumi vətəndaşlığa əsaslanır (Sander, 2001).

Türkiyə tarixinin bir çox mərhələlərində, xüsusən də Ədalət və İnkişaf Partiyası hökuməti dövründə dünyəvi dövlətə qarşı aparılan islahatlarda problemlərin dərindən araşdırılması üçün "Laiklik" prinsipi həyati əhəmiyyət kəsb edir (Kərimov, 2018). Belə ki, Müsəlman ölkələrində dövlət quruculuğu proseslərinə baxdığımız zaman, dini və dövlət işləri həmişə bir fərdi hakimiyyətin, yəni xəlifələrin,

sultanların, əmirlərin və s. əlində olub. Tarixə nəzər saldığımız zaman Qərb mühafizəkarlıq dairəsini qırıb müasir dövlət anlayışını qəbul etdiyi zamanlarda, Osmanlı İmperatorluğu azad, rasional düşüncəyə qapılarını bağlamağa başlamışdı. Bu səbəbdən "Laiklik" İslam dünyasına, daha dəqiq desək, Türkiyə Respublikasına çox gec daxil oldu (Angi, 2010). Nəticədə, dövlətin əhalisinin böyük əksəriyyəti müsəlman olsa da, qərbləşməni dövlət olaraq mövcudluğun və inkişafın yeganə məqsədi elan edən Kamalist dövləti üçün bu vəziyyət mühüm problem kimi qəbul edilirdi və sözügedən problem hələ də öz aktuallığını qorumaqdadır.

Bu çərçivədə, İslama rəğmən dünyəviliyi təbliğ edəcək bir üsul hazırlamaq lazım olduğundan, iki mümkün tətbiq üzərində araşdırmalar aparılmışdır: İslamın yenidən müəyyən edilməsi və laikliyin Türkiyənin xüsusi şərtlərinə uyğunlaşdırılması (İlhan, 1990). Beləliklə, Kamalist dövlət prinsiplərinə əsaslanan laiklik dörd fərqli səviyyədə həyata keçirilirdi: funksional, simvolik, institutsional və hüquqi. (Giritli, 1990). Bununla belə, Türkiyədə laiklik sahəsində atılan ilk ciddi addım Sultanlığın ləğvi oldu (Angi, 2010), 1928-ci ildə Konstitusiyada edilən dəyişikliklə "Dövlətin dini İslamdır" maddəsi ləğv edilsə də 1929-cu ildə tətbiq olunmağa başlanıldı. Nəhayət, 1937-ci ildə dövləti teokratik hakimiyyətdən tamamilə azad etmək üçün "Laiklik" prinsipi qəbul edildi (Emini, 2002). Bu dövrdə dini təriqətlərin rəsmi varlığına son qoyulsa da, məlum olduğu kimi, dini təriqətlər bu gün də çox fəal və aktualdırlar (Akşin, 2010).

Kamalizmin "Laiklik" və "Millətçilik" prinsipləri ilə yanaşı, "Dövlətçilik" prinsipi də pozitivist anlayışla əlaqəli kritik prinsiplərdən biridir və kamalizmin hegemonluğunun qurulmasına və qorunub saxlanmasına yönəlmişdir (Akşin, 2010). Törə (1978) görə, Kamalist "dövlətçilik" kapitalizmdən və sosializmdən fərqlənən "xüsusi sistem"dir, burada ideologiyanın əsas missiyası dövlət naminə sinfi ziddiyyətlərin qarşısını almaqdır. Lakin Zürcherə (2011) görə isə, Cümhuriyyətin bu prinsip ətrafında apardığı sosial-iqtisadi siyasətlər Osmanlı İmperiyasının son dövründəki köhnə milli iqtisadiyyat proqramının davamıdır. Bu arada, Atatürkə görə dövlətin varlığı türk milləti ilə əvəzolunmaz bir vəhdətə malikdir. Başqa baxışları vətənə xəyanət kimi sərt ittiham etmək, hər siyasi müzakirəni dövlətin varlığı probleminə çevirmək meyli kamalizmdə də sıx-sıx meydana çıxan tendensiya olaraq görünür.

NƏTICƏ

Birinci Dünya Müharibəsinin məğlubiyyətindən sonra Osmanlı İmperatorluğunun dağıdılması nəticəsində Atatürk və silahdaşları Türkiyədə müasir və islahatçı Respublika qurdu. Kamalist Respublikanın qurulmasından sonra türk kimliyinin və müasir dövlətin bütün hegemon elementlərini özündə birləşdirən dünyəvilik, Dövlətçilik və digər amillər əsasında islahatlar aparılmağa başlandı.

Əvvəlki araşdırmalar və tədqiqatımızın analizləri əsasında deyə bilərik ki, Türkiyədə Dövlətçilik türk kimliyi üzərində qurulub, başqa yad adlandırdığı kimliklərə düşmən münasibəti göstərir və Dövlət düşmənlərinə qarşı alternativ bir sistemi daim inkişaf etdirməyi əsas hədəf olaraq qəbul etmişdir. Beləki, Kamalizmdə təcrübə və ideya eyni şəkildə bir-birini əhatə edir, dəstəkləyir və tamamlayır. "Birlik", "hakimiyyət" və "bərabərlik" problemləri, xüsusilə "altı prinsip"də öz intellektual cəhətlərini Kamalist İnqilab Modelində tapmışdır. Bu baxımdan şübhəsiz ki, "birlik" yaratmaq üçün milli kimlik probleminin həlli, millətin formalaşması, millətin varlığının möhkəmlənməsi zəruri bir məsələ idi. Digər tərəfdən isə dövlətin mövcudluğu və gücü üçün "hakimiyyət" probleminin həlli də vacib idi. Son olarq "Bərabərlik" həm də müasirləşmə və vətəndaşlıq ideyalarının möhkəm və sağlam təməl üzərində qurulması üçün kritik şərt idi. Nəticə olaraq, təhlillərə əsasən deyə bilərik ki, dövlətin mahiyyəti və həmçinin də Kamalist dövlətin əsas mahiyyəti hakimiyyətin ideologiyasından və hədəflərindən asılı olmayaraq, dövlət aparatının təhlükəsizliyini və dayanıqlığını qorumaq məqsədi daşıyır. Türkiyə Respublikası uzun müddət davam edən müharibələrdən, inqilabdan və konkret Dövlətçilik prinsiplərinə əsaslanan islahatlardan sonra qurulduğu üçün, müəyyən edilmiş spesifik qurumlar mövcud status-kvonun dağılmasının qarşısını almaq üçün dövlət aparatının idarə edilməsi ilə məşğul olmaqdadırlar. Türkiyədə "Modernləşmə Missiyasını" həyata keçirməyi qarşısına məqsəd qoyan Kamalist hakimiyyətlər milliyyətçi və dünyəvi status-kvonu möhkəmlətməyə çalışdılar və konkret modeldən istifadə edərək monolit dünyəvi türk milləti yaratdılar.

ƏDƏBIYYAT SIYAHISI

1. Akşin, S. (2010). Kısa Türkiye Tarihi. Türkiye İş Bankası Kültür Yayınları.
2. Angı, H. (2010). Atatürk İlkeleri Ve Türk Devrimi. ANGI Yayıncılık.
3. Bovenkerk, F., & Yesilgöz, Y. (1999). De maffia van Turkije. Crime, Law and Social Change 31, 80–85. https://doi.org/10.1023/A:1008348914973
4. Ciftci, K. (2013). The Kemalist Hegemony in Turkey and the Justice and Development Party. L'Europe en Formation VL - 367. https://doi.org/10.3917/eufor.367.0143
5. Çaha, O. (1999). Aşkın Devletten Sivil Topluma. Gendas Yayınları.

6. Çağlı, E. (2004). Bonapartizmden Faşizme: Olağanüstü Burjuva Rejimlerin Marksist Bir Tahlili. Tarih Bilinci Yayinevi.
7. Duguit, L. (2013). Egemenlik ve Özgürlük. Dost Kitabevi Yayınları, p. 379-386.
8. Emini, E. (2002). Atatürk'te Devlet Anlayışı. Selçuk Üniversitesi Hukuk Fakültesi Dergisi, Cilt 10, Sayı 1-2.
9. Engels, F. (2000). Anti-Dühring. (İsmail H. Yarkın, Trans). İnter Yaynları. (Original work published 1877).
10. Erdoğan, M. (2001). Anayasal Demokrasi. Siyasal Kitabevi.
11. Giritli, İ. (1990). Atatürkçü Laiklik Anlayışı . Atatürk Araştırma Merkezi Dergisi. 6 (18) , p. 473-478.
12. Göze, A. (1959). Devletin Ülke Unsuru (Sınırları ve Devletle Olan Münasebeti), İstanbul Üniversitesi Hukuk Fakültesi Yayını, p. 5-6.
13. Hawkesworth, M., & Kogan, M. (2002). Routledge, London and New York, p. 44.
14. Harris, P. (1986). Foundations of Political Science, London and Melbourne. Hutchinson & Co. Ltd.
15. Hobbes, T. (1993). Leviathan, (Semih Lin, Trans.). Yapı Kredi Yayınları. Istanbul. (Original work published 1651).
16. Hegel, F. (1991). Hukuk Felsefesinin Prensipleri. (Cenap Karakaya, Trans.). Sosyal Yayınlar. (Original work published 1820).
17. Heywood, A. (2002). Political ideologies, An Introduction. Basingstoke, Macmillan.
18. Ilhan, S. (1990). "Türk Çağdaşlaşması". Atatürk Araştırma Merkezi Dergisi 7, pp. 7-20.
19. Jongerden, J. (2019). Conquering the state and subordinating society under AKP rule: a Kurdish perspective on the development of a new autocracy in Turkey. Journal of Balkan and Near Eastern Studies, 21:3, 260-273. https://doi.org/10.1080/19448953.2018.1497751
20. Köker, L. (2004). Modernleşme, Kemalizm ve Demokrasi. İletişim Yayınları.
21. Kaynar, M. (2001). Devletin Ülkesi ve Milleti. Özgür Üniversite Yayınları.
22. Karimov, N. (2018). Ak Parti Dönemi Türkiye-Rusiya İlişkileri: Bölgesel Çatişma İçinde İşbirliği Arayişi. Baku Engineering University, The Sustainable Development Of Economy And Administration: Problems And Perspectives, p. 322-326.
23. Lenin, V. (1992). 1917 The state and revolution. Penguin Classics. (Original work published 1917).
24. Locke, J. (2017). Second treatise of government. Gece Kitaplığı Yayın evi. (Original work publish 1689)
25. Lenin, V. (2006). Nisan Tezleri ve Ekim Devrimi. (Muzaffer Erdost, Trans). Sol Yayınları. (Original work published 1917).
26. Machiavelli, N. (2001). Prens (Semra Kunt, Trans.). Alkım Yayınları. (Original work published 1532).
27. Marx, K & Engels, F. (1999). Komünist Parti Manifestosu (Yılmaz Onay, Trans.). Evrensel Basım Yayın. (Original work published 1848).
28. Morgenthau, H. (1962). The decline of the democratic politics: politics in the twentieth century, vol. 1. Chicago: University of Chicago Press.
29. Özdemir Ç, A. (2018). "İşgal Edilmiş Devlet": Modern Devletin İkili Yapısı Üzerine Kavramsal Bir Bakış . OPUS Uluslararası Toplum Araştırmaları Dergisi , 8 (14) , 677-703. https://doi.org/10.26466/opus.414474
30. Rousseau, J. (2008). Toplum Sözleşmesi. (Vedat Günyol, Trans).Türkiye İş Bankası Kültür
31. Sander, O. (2001). Siyasi Tarih-İlk Çağlardan 1918'e, Ankara, İmge Kitabevi Yayinları.
32. Smith, A. D. (1992). Nationalism and the Historians, International Journal of Comparative Sociology, 33(1-2), 58-80. https://doi.org/10.1163/002071592X00059
33. Strauss, L. (2011). Doğal hak ve tarih (Murat Erşen, Trans.) Say Yayınları. Ankara. (Original work published 1953).
34. Türköne, M. (2008). Siyaset. Lotus Yayınevi.
35. Tör, V. (1933). "Devletin Yapıcılık ve İdarecilik Kudretine İnanmak Gereği". Kadro Dergisi, Ankara İktisadi ve Ticari İlimler Akademisi Yayınları, 13-19
36. Zürcher, E. (2011). "Kemalist Düşüncenin Osmanlı Kaynakları". Modern Türkiye'de Siyasi Düşünce: Kemalizm içinde, İletişim Yayınları, 44-55.
37. Weber, M. (2012). Ekonomi ve toplum. (Latif Boyacı. Trans). Yarın. (Original work published 1922).

NAFTALİ BENNETİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ İSRAİL-UKRAYNA MÜNASİBƏTLƏRİ

NƏRMİN QƏHRƏMANLI
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə/Beynəlxalq münasibətlər və Diplomatiya
Narminghrmnl@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İsrail ilə Ukrayna arasındakı münasibətləri həm uzaq, həm də yaxın kimi xarakterizə etmək olar. İki ölkə arasinda çoxsaylı əlaqələr var: dini, etnik, tarixi və s. İkinci dünya müharibəsindən əvvəl Avropanın ən böyük yəhudi icmasının evi kimi Ukrayna müəyyən tarixi anda yəhudi mədəniyyətinin və görkəmli yəhudi sənətkarlarının, dini və siyasi liderlərinin beşiyinə çevrilmişdi. Bəlkə də dünyada siyasi elitanin bu qədər çox hissəsinin Ukrayna mənşəli olduğu ikinci ölkə yoxdur.

Öz növbəsində, İsrail, xüsusilə Yerusəlim Ukrayna xristianları üçün tarixi ziyarət yeri olmuş və bu müasir dövrdə də davam edir. Sovet İttifaqının dağılmasından və ukraynalı yəhudilərin bir neçə mühacirət dalğasından sonra Ukrayna və İsrail vətəndaşları arasında güclü əlaqələr yaranmışdır. İki ölkə arasında yüksək turizm potensialı da var: 2012-ci ildən, Ukrayna və İsrail viza rejimini ləğv etdikdən sonra turistlərin axını hər il artır.

İsrail və Ukrayna arasındakı münasibətlər Avromaydan inqilabından sonra, xüsusilə Krım məsələsi və İsrail-Fələstin münaqişəsi səbəbindən enişli-çıxışlı olmuşdur. Çünki hər iki ölkə beynəlxalq arenada qarşılıqlı dəstək axtarır: Ukrayna Rusiyanın təcavüzünə qarşı mübarizədə İsrailin köməyinə, İsrail isə Fələstinlə qarşıdurmada Ukraynanın dəstəyinə ehtiyac duyur. Bu milli maraqlara can atma və geniş geosiyasi kontekstdən asılılıq hər zaman iki dövlətin davamlı müttəfiq qalmasına imkan vermir və bəzən qarşılıqlı inamsızlığa və münasibətlərin korlanmasına səbəb olur.

Naftali Bennet hakimiyyətə gəldikdən sonra və Rusiyanın Ukraynaya müdaxiləsi zamanı İsrailin balanslaşdırılmış siyasət həyata keçirməsi, Ukraynaya sadəcə humanitar yardım göstərməsi və Rusiya-Ukrayna arasında mediator rolunu üzərinə götürməsi Ukraynanın ümidlərini doğrultmamış və iki ölkə arasında gərginliyə səbəb olmuşdur. Lakin İsrail regiondakı maraqları üçün Rusiya ilə münasibətləri korlamaq niyyətində olmadığını bildirmişdir.

AÇAR SÖZLƏR: İsrail, Ukrayna, ikitərəfli münasibətlər, antisemitizm, balanslaşdırılmış xarici siyasət

GİRİŞ

İsrail və Ukrayna arasında diplomatik münasibətlər 26 dekabr 1991-ci ildə Ukrayna müstəqillik qazandıqdan sonra qurulmuşdur. İsrailin Ukrayna, Kiyevdə səfirliyi, Ukraynanın isə Təl-Əvivdə səfirliyi, Hayfada isə konsulluğu fəaliyyət göstərir.

Qarşılıqlı münasibətlərin tarixində əsasən israillilərin kollektiv yaddaşında Ukrayna ilə bağlı olan yəhudilərə qarşı qətliamlar, daha sonra isə Holokost irsi dayanır. Həmin dövrdə yəhudilərin qətlə yetirilməsində bir çox ukraynalı milliyətçi də iştirak etmişdir. Bunun bir nümunəsi kimi Babi Yar qətliamını göstərmək olar. Babi Yar Ukraynada Kiyev yaxınlığında yerləşən ərazidir, həmin ərazidə 1943-cü ildə 30.000-dən çox yəhudi alman faşistləri və onlaın tərəfdaşları olan Ukrayna milliyyətçiləri tərəfindən qətlə yetirilmişdir. 2021-ci ildə Babi Yar qətliamının Ukraynada anım günü keçirilmiş və xatirəsinə abidə ucaldılmışdır. Mərasimdə İsrail və Ukrayna hökumət nümayəndələri iştirak etmişdirlər.

Ölkələr turizm, kənd təsərrüfatı, texnologiya, təhlükəsizlik kimi sahələrdə əməkdaşlığa maraqlıdırlar. Lakin son dövrdə baş verən Rusiya və Ukrayna arasında olan müharibədə İsrailin neytral mövqe sərgiləməsi və Ukraynaya yardımda maraqlı olmaması, əvəzində isə Ukrayna yəhudilərini İsrailə çağırması Ukrayna hakimiyyətinin qəzəbinə və münasibətlərdə gərginliyə səbəb olmuşdur.

Avromaydan inqilabının İsrail-Ukrayna münasibətlərinə təsiri

2013-cü il noyabrın 21-də Ukraynanın o vaxtkı prezidenti Viktor Yanukoviç Avropa İttifaqı ilə Assosiasiya Sazişindən çıxdı. Bu 2004-cü il "Narıncı inqilab"dan sonra Ukraynada ən böyük kütləvi etirazlara səbəb olan və sonradan "Avromaydan" adlı inqilaba çevrildi. İnqilabi hadisələr nəticəsində Yanukoviç rejimi devrildi və sosial iğtişaşlar bütün Ukraynaya yayıldı. Avropayönlü etirazçılar heç vaxt Ukrayna müxalifətinin liderlərinə etibar etməsələr də, üst-üstə düşən böhran ən radikal təşkilatlar və siyasi partiyalar

üçün siyasi təsir imkanlarını genişləndirmək şansı oldu. Qeyd etmək yerinə düşər ki, bu təşkilatlar, yəni "Pravy Sektor" (Sağ sektor) və ya "ÜmumUkrayna İttifaqı Svoboda" (Azadlıq) "Ukrayna millətçiliyi" irsinə müraciət ediblər. Onların iştirakı Rusiya təbliğatı tərəfindən Avromaydan inqilabını "faşist dövlət çevrilişi" kimi təsvir etmək üçün istifadə edildi. Yanukoviçin devrilməsi nəticəsində Kiyevdə yeni qərbyönlü siyasi elitalar hakimiyyətə gəldi. Avropayönümlü olmasına baxmayaraq, yeni Ukrayna hökuməti "Ukrayna millətçiliyi" irsini də əhatə edən bütöv Ukrayna milli kimliyini qurmaq üçün tarixi povest prosesinə başladı.

Rusiyanın təcavüzü qarşısında Kiyevdə yeni hakimiyyət ümidsizcə öz şərq düşməninə qarşı vuruşmuş tarixi qəhrəmanları axtarırdı. Onların arasında, Stepan Banderanın da olduğu Ukrayna Millətçiləri Təşkilatının (UMT) fraksiyasından və Ukrayna Üsyan Ordusundan (UÜO) olan ukraynalı millətçilər bu hekayənin obyektinə çevrildi. Lakin Ukraynanın bu milliyətçiləri qəhrəmanlıq simvoluna çevirməsi nəinki İsrailin, hətta Aİ-nin mənfi reaksiyasına səbəb oldu. Çünki həmin milliyətçilər yəhudilərə qarşı törədilən cinayətlərə görə məsuliyyət daşıyan faşist hərəkatlarında iştirak etmişdilər.

Avromaydan inqilabından sonra İsrail-Ukrayna diplomatik münasibətlərində ən çox iki hadisə hakim oldu və hər ikisi bu dövlətlərin Birləşmiş Millətlər Təşkilatındakı fəaliyyəti ilə bağlı idi. 2014-cü ildə İsrail naziri BMT-nin bütün dövlətləri və beynəlxalq təşkilatları Rusiyanın Krımı ilhaqını tanımamağa çağıran qətnaməsini dəstəkləmədi. İsrail nümayəndəsi qətnamənin əleyhinə səs verməsə də, bunun əvəzinə sadəcə olaraq BMT Baş Assambleyasının səsverməsində iştirak etmədi. Rusiyanın Yaxın Şərqdəki fəaliyyətinə, xüsusən də Suriyadakı əməliyyatlarına, eləcə də regional təhlükəsizliklə bağlı İsrailin Kiyev və Moskva arasında balansa ehtiyacı olduğu aydındır. 2016-cı ildə İsrail-Ukrayna münasibətlərinə əhəmiyyətli dərəcədə aidiyyəti olan ikinci məsələ ortaya çıxdı. Məhz, dekabr ayında BMT Təhlükəsizlik Şurasındakı Ukrayna nümayəndəsi İsrailin Yerusəlimdəki yaşayış məntəqələrinin əleyhinə səs verdi və bu, İsraildə hiddətə səbəb olmaqla yanaşı, diplomatik qalmaqalla da nəticələndi. Kiyevin bu fəallığına birbaşa cavab olaraq Benyamin Netanyahu Ukraynanın o vaxtki baş naziri Volodüimir Qroysmanın İsrailə səfərini ləğv etdi. Ukraynanın belə mövqeyinin əsas səbəbi Rusiyanın Ukraynaya təcavüzündən bəri Kiyev Moskvanı qeyri-qanuni hərəkətlərdə ittiham etməsi, münaqişəni beynəlmiləlləşdirərək əvvəllər Kiyevin nəzarətində olan nəzarətsiz ərazilərə hüququnu saxlamaq üçün daim "beynəlxalq hüquq pozuntusu" arqumentindən istifadə etməsidir. Ona görə də Kiyev İsrail-Fələstin münaqişəsində İsrailin lehinə səs verə bilməzdi.

İkitərəfli münasibətlərdə tərəflərin maraqları

Avropayönlü inkişaf vektoruna və Avropa dəyərlərinə önəm verən sistem İsraillə münasibətlərdə işləmir. Ukrayna ilə birlikdə Avropa Qonşuluq Siyasətinin iştirakçısı olmasına baxmayaraq, İsrailin Aİ ilə bağlı siyasəti Ukraynanınkından tamamilə fərqlidir. İsrail diplomatlarının izah etdiyi kimi, "biz İsrailin Avropanın bir hissəsi olduğunu iddia etmirik və Avropanın bir hissəsi olmaq istəmirik; buna baxmayaraq, biz Avropa qədər yaxşı olmağa çalışırıq". Digər tərəfdən, İsrail yəhudi mədəniyyətini müasir Qərb mənasında "Avropa dəyərləri"nin beşiyi hesab edir və onları yəhudi ictimai və siyasi ənənəsindən götürülmüş hesab edir. Bütün fikir ayrılıqlarına baxmayaraq, Ukrayna və İsrail bir-birləri üçün önəmli tərəfdaşlardır. Xüsusilə, Ukrayna üçün İsraillə əlaqələr effektiv və uğurlu Yaxın Şərq siyasəti üçün bir vasitədir, İsrail üçün isə Ukrayna dəyərli müttəfiqdir.

Bundan əlavə, Ukrayna kənd təsərrüfatından müdafiə və təhlükəsizliyə qədər bir çox sahələrdə İsrail sərmayələrini və texnologiya və yüksək standartların idxalını cəlb etməkdə maraqlıdır; İsrail də öz növbəsində Ukraynadakı yəhudi icmasını antisemitizmdən qorumağa çalışır.

Bennetin hakimiyyəti dövründə münasibətlərin inkişaf dinamikası

Naftali Bennet İsrailin ilk ortodoks baş naziridir. O hakimiyyətə gəldikdən sonra (13.06.2021-ci il) Ukrayna prezidenti Volodimir Zelenski onu yeni hökumətin seçilməsi münasibəti ilə ilk təbrik edən dövlət liderlərindən olmuşdur. (Eləcə də qeyd etmək yerinə düşərdi ki, Volodimir Zelenski Ukraynın ilk yəhudi əslli dövlət başçısıdır.) Bu zaman Zelenski Benneti sentyabr ayında baş tutacaq "Babi Yar" abidəsinin açılışına dəvət etmişdir. Həmçinin Bennet öz növbəsində Zelenskini Yerusəlimə Ukrayna İnnovasiya Mərkəzinin açılışında iştiraka dəvət etmişdir. Ölkə liderləri ikitərəfli münasibətləri xüsusilə texnologiya sahəsində inkişaf etdirmək barəsində razılığa gəlmişdirlər.

2022-ci ilin fevral ayında Rusiyanın Ukraynaya qarşı təcavüzü başladığı zaman Təl-Əviv rəhbərliyi rəsmi açıqlamalarında Ukraynaya hücum edən aktyorun adını çəkməkdən çəkinmişdir. İsrail Rusiyanı açıq şəkildə qınamayaraq, Ukraynaya silah dəstəyi verməyərək, Vladimir Putin və onun yaxın adamlarına sanksiya tətbiq etməyərək Qərb müttəfiqləri arasında diqqət çəkmişdir.

Şübhəsiz ki, Suriya İsrailin Qərb müttəfiqləri, xüsusən də ABŞ ilə Rusiyaya qarşı sanksiyalara qoşulmaqdan çəkinməsinin ən böyük səbəblərindən biridir. Ərəb baharından sonra İsrail Rusiya ilə qonşu

olmuşdur. Moskvanın Suriyadakı mövcudluğunu region üçün balansın saxlanılması hesab edən İsrail Rusiya ilə münasibətləri qorumaqda maraqlıdır.

Çünki müharibənin ilk günündə İsrailin reaksiyası son dərəcə mülayim olsa da, Moskva Suriya üzərindən İsrailə cavabını gecikdirmədi. İsrail Xarici İşlər Nazirliyinin Ukraynadakı vəziyyətdən "narahat olduğunu" bildirən və "diplomatik həll" tövsiyə edən bəyanatından sonra Rusiya "İsrailin Qolan Təpələrində olmasının beynəlxalq hüquqa zidd olduğunu" xatırlatmışdır. "Biz Təl-Əvivin işğal etdiyi Qolan Təpələrində yaşayış məskənlərinin genişləndirilməsi planlarını açıqlamasından narahatıq. Rusiya Suriyanın bir hissəsi olan Qolan Təpələrində İsrailin suverenliyini tanımır", - Rusiya bəyanatında bildirilmişdir. Moskva Birləşmiş Millətlər Təşkilatındakı missiyası vasitəsilə verdiyi bu açıqlama ilə beynəlxalq arenada İsrail rəhbərliyinə qarşı atacağı addımların ilk mesajını göndərmişdir.

Baş nazir Naftali Bennet, 1 mart 2022-ci il, Təl-Əvivdəki Mossad qərargahında İsrailin Rusiyanın Ukraynaya müdaxiləsi boyu öz maraqlarını qoruyaraq münaqişənin aradan qaldırılmasına kömək etmək üçün çalışdığını bildirmişdir. O bildirmişdir: "İsrail Dövləti əvvəldən ölçülüb-biçilmiş və məsuliyyətli yanaşma nümayiş etdirib ki, bu da bizə nəinki öz maraqlarımızı qorumağa, həm də faydalı olmağa imkan verir. Etibarlı oyunçu olmaq, hər iki tərəflə birbaşa əlaqə saxlaya bilən və lazım olduqda köməklik göstərə bilən azsaylı oyunçulardan biri olmaq. Sakitcə kömək etmək."

Yerusəlim həm Kiyev, həm də Moskva ilə mehriban münasibətlərə malikdir və Rusiyanın Ukraynaya müdaxiləsi zamanı iki ölkə arasında diplomatik əlaqə ilə gedir; Bennet hər iki prezidentlə danışıb və böhranda vasitəçilik etməyi təklif edib. Bennet qeyd edib: "əsasən dərmanlarla dolu üç təyyarə ilə dolu humanitar yardım göndərmişik və lazım gəldikdə daha çoxunu göndərəcəyik. Biz həmçinin yerlərdə humanitar yardım göstərməyə və təbii ki, bütün müvafiq yerlərdən yəhudilərin immiqrasiyasını asanlaşdırmağa hazırlaşırıq".

İsrail Ukraynaya minlərlə palto, yataq çantaları, tibbi avadanlıqlar, çadırlar və su təmizləmə avadanlığı daşımağa başlayıb. Bununla belə, Bennet Ukrayna prezidenti Volodimir Zelenskinin telefon danışığında hərbi yardım tələbini rədd etmişdir. Bundan sonrakı telefon danışığı zamanı Zelenski həmçinin İsrailin Ukrayna və Rusiya arasında vasitəçi olmasını istəmişdir. Bennet bu ideyanı telefon danışığı zamanı Rusiya prezidenti Vladimir Putinə təklif etsə də o, təklifi qəbul etməyib.

Mossad qərargahında çıxışı zamanı Bennet həmçinin İran və dünya gücləri arasında nüvə sazişi üzrə Vyana danışıqlarına toxunub və onun sözlərinə görə, "həqiqət məqamına yaxınlaşır - pul vaxtıdır". O həmçinin bildirdi ki, il yarım sonra İrana uranı zənginləşdirmək üçün qabaqcıl sentrifuqalar quraşdırmağa və işlətməyə imkan verəcək. Bununla yanaşı İsrail dəfələrlə bildirib ki, ekzistensial təhlükə hiss edərsə, İranın nüvə obyektlərinə zərbə endirmək hüququnu özündə saxlayır.

Yuxarıda qeyd olunanlarla yanaşı, Ukrayna-Rusiya böhranı başlayandan bəri İsrail hakimiyyəti 150 minə (bəzi mənbələrə görə 200 min) yaxın ukraynalı yəhudini "Aliya" adı altında mühacirət etməyə çağırmışdır ki, bu da diaspor yəhudilərinin İsrailə immiqrasiyası deməkdir. Baş nazir Naftali Bennet fevralın 23-də dünyadakı yəhudilərə müraciət edərək, qapılarının açıq olduğunu və "İsraildə onları bir evin gözlədiyini", Aliya və inteqrasiya naziri Pnina Tamano-Şata isə Ukraynadan gələn minlərlə yəhudini qəbul etməyə hazır olduqlarını bildirmişdir. Çünki "Qayıdış" adlanan qanuna əsasən, İsrail diaspor yəhudilərinin İsrailə immiqrasiyasına zəmanət verir və onlara vətəndaşlıq verir.

2022-ci ilin mart ayında Ukrayna prezidenti və Knesset üzvləri arasında baş tutan "Zoom" görüşdə Zelenski bildirmişdir: "Siz öz siyasi maraqlarınızı və Ukraynaya kömək etməyi, ukraynalıları və Ukrayna yəhudilərini necə qorumağı bilirsiniz". Bennetin Kiyev və Moskva arasında vasitəçilik səyləri ilə bağlı düşüncələrini isə belə ifadə etdi: "Siz ölkələr arasında vasitəçilik edə bilərsiniz, amma yaxşı və pis arasında deyil. İsrail və israillilər bu müharibə zamanı etdikləri seçimlərlə yaşamalı olacaqlar." Zelenski kiçik "Zoom" qutularında siyasi liderləri izləyənlərə müraciət etdi.

"Hebrew" mediası Zelenskinin bu çıxışından sonra Bennett və xarici işlər naziri Yair Lapidin Ukrayna prezidentinin çıxışına "təəccübləndiyini" bildirdi. Buna baxmayaraq, "Kanal 12" İsrailin siyasətini dəyişməyəcəyini bildirmişdir.

TƏDQİQAT METODU

Tədqiqatın mövzusu hazırda beynəlxalq münasibətlər kontekstində olduqca aktualdır. Tədqiqatda kontent analiz metodundan istifadə edilmişdir ki, bu da tədqiq edilən mövzunun müxtəlif üsullarla nəzərdən keçirilməsinə şərait yaradacaqdır.

NƏTİCƏ

İsrail-Ukrayna münasibətlərinin tarixi boyu baş verən hadisələr, iki ölkənin regiondakı xarici siyasət maraqlarının toqquşması münasibətlərin zaman-zaman korlanmasına səbəb olmuşdur. Çünki Ukrayna

Krım münaqişəsi ilə bağlı beynəlxalq hüquq normalarına əməl edilməsini tələb etdiyi üçün İsrailin Fələstin qarşıdurmasına, İsrailin BMT qətnamələrinə əməl etməməsində neytral mövqe sərgiləyə bilmir. İsrail isə Rusiyanın Suriyadakı fəaliyyəti səbəbindən Rusiya ilə Ukrayna arasında olan müharibə zamanı Ukraynaya tam dəstək ola bilmir, eləcə də bu onun Ukrayanaya silah yardımı etməsinin qarşısını alır. Lakin xalqlar arasında olan tarixi bağ, yəhudi diasporunun Ukraynada üstünlük təşkil etməsi, Ukraynanın İsrail ilə kənd təsərrüfatı, texnologiya, təhlükəsizlik, müdafiə və digər sahələrdə əməkdaşlığa maraq göstərməsi gələcəkdə münasibətlərin müsbət yöndə inkişafına təkan ola bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Kateryna Zarembo "Foreign Policy Audit: Ukraine-Israel" Institute Of World Policy, **(konfrans məqaləsi, tezis)** Kiyev, Ukrayna, 2017: 4-30
2. Jakub Bornio "Israeli-Ukrainian Relations After 'The Euromaidan Revolution '- The Holocaust And The New Ukrainian Identity In The Context Of The European Aspirations Of Ukraine" Polish Political Science Yearbook, **(Jurnal məqaləsi)** Volume 47(2) Vroslav, Polşa, 2018, pages: 331–345
3. Pm: Israel Helping in Russia-Ukraine Crisis, While Also Safeguarding Our Interests Https://www.timesofisrael.com/bennett-we-aim-to-help-in-russia-ukraine-crisis-but-also-safeguard-our-interests/ **(onlayn məqalə**)
4. 'You can't mediate between good and evil': Zelensky tells Israel how he really feels https://www.timesofisrael.com/you-cant-mediate-between-good-and-evil-zelensky-tells-israel-how-he-really-feels/ **(onlayn məqalə)**

TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİ

Nurlanə Məlikli
Lənkəran Dövlət Universiteti, müəllim
nurlanamalikli@gmail.com

Xülasə

Müasir dövrdə Cənubi Qafqaz regionu beynəlxalq münasibətlərin əsas geostrateji regionlarından birinə çevrilmişdir. Qara dəniz və Xəzər dənizi arasında yerləşən bu region şimal-cənub və şərq-qərb enerji və nəqliyyat xəttlərinin kəsişməsi və Xəzər hövzəsi enerji mənbələrinə sahib olması baxımından böyük əhəmiyyətə malikdir. SSRİ-nin dağılmasından sonra region ABŞ, Türkiyə, Rusiya və İran kimi dövlətlərin yeni maraq dairəsinə çevrildi.

Türkiyə soyuq müharibədən sonrakı dövrdə Cənubi Qafqazda daha çox geostrateji və geosiyasi əhəmiyyət qazanmışdır və Türkiyənin Cənubi Qafqaz siyasəti Türkiyənin həm regional, həm də türk dünyası siyasəti ilə əlaqədardır.

Məqalədə Türkiyənin Cənubi Qafqazda mövcud olan əsas geosiyasi maraqları, region ölkələri ilə siyasi münasibətləri, iqtisadi maraqlar və Türkiyə-Azərbaycan iqtisadi əlaqələri, Türkiyənin regionda hərbi-siyasi maraqları və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri araşdırılmışdır.

Açar sözlər: Türkiyə, Cənubi Qafqaz, Azərbaycan

Giriş

Cənubi Qafqaz Türkiyənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının birbaşa təmsil olunduğu region hesab olunur. Bu ölkənin Orta Asiyanın zəngin enerji resursları və əhəmiyyətli geosiyasi məkanına, türk dövlətləri və xalqlarına, öz sənaye malları üçün geniş satış bazarına təminatlı çıxışı və Cənub-Şərqi Asiyaya ilə kontinental əlaqəsi ilk növbədə Cənubi Qafqaz, xüsusən də Azərbaycan və Gürcüstan vasitəsilə həyata keçirilir. Xəzər hövzəsi Türkiyənin illik, orta hesabla 55 milyon tonluq neft və 40-50 milyrad kub metrlik təbii qaz ehtiyacının böyük qismini təmin etməklə yanaşı, həm də ona neft-qaz ixracı marşurutları və kəmərlərinin mərkəzinə çevrilmək anlamında küllü miqdarda maddi və geoiqtisadi dividentlər qazandırır (5).

Türkiyənin regiondakı əhəmiyyətini qısa olaraq aşağıdakı amillərlə əsaslandırmaq olar:

- Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;
- Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;
- Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;
- İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;
- NATO-nun Cənubdakı dayağıdır və s.

NATO çərçivəsində Cənubi Qafqazda yürütdüyü koordinasiyalı fəaliyyətin kənarında, Türkiyə ayrıca olaraq da , bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji sabitliyində, enerji istehsalı və transmilli ixrac marşurutlarının, kəmərlərin və s. infrastrukturların təhlükəsiziyinin tənin olunmasında ən maraqlı ölkələrdən biri hesab olunur. Bu siyasətlə Türkiyə həm də gələcəkdə bölgənin qeyri-sabitliyi fonunda "nizam-intizam yaratmağa" çalışan hər hansı təsirli region ölkəsi, yaxud beynəlxalq qüvvə ilə üz-üzə qalmaq ehtimalını azaldır.

Bundan başqa, Ermənistan öz beynəlxalq (dünya xristian təəəssübkeşliyi və erməni diasporası) və regional havadarlarına (Rusiya və onun yaratdığı regional hərbi blok- Kollektiv Təhlükəsizlik Təşkilatı) söykənərək Cənubi Qafqazda Türkiyəyə qarşı birbaşa ərazi iddiası irəli sürür, onun milli təhlükəsizliyini təhdid edir, bütövlüyünü pozmağa çalışan sepsratçı qüvvələri dəstəkləyir, onların bölgədəki sərbəst fəaliyyətinə şərait yaradır.

Türkiyə 90-cı illərin əvvəllərindən başlayaraq ona mane olmaq istəyən Rusiya və İranın təzyiqlərinə baxmayaraq, Cənubi Qafqazda Azərbaycan və Gürcüstanla təhlükəsizlik sahəsində, hərbi-geostrateji tərəfdaşlığının möhkəmlənməsi istiqamətində ciddi addımlar atmağa nail olmuşdur. Belə ki, Türkiyə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həm Azərbaycan, həm də Gürcüstan ordusunun Qərb standartlarına uyğunlaşdırılması sahəsində nəzərdə tutulan bütün əsas işləri həyata keçirmişdir (3). Bundan başqa, Türkiyə BTC neft, BTƏ qaz və BTK dəmir yolu layihələrinə hərtərəfli dəstək verərək, özünü təminatlı tranzit gəlirləri ilə təmin etmiş, Azərbaycan və Gürcüstanı Rusiyanın enerji ixracı və alternativ nəqliyyat təsirindən qurtarməş, Qərbi isə yenə də Rusiyanın enerji asılılığından xilas etmiş və təhlükəsizliyinə dəstək vermişdir. Tədqiqatçılar hesab edir ki, Türkiyə hazırda bu kəmər və dəhlizlərdən maksimim istifadə etməklə, Avropanın transmilli enerji, xammal və əmtəə bazarının, Şərq-Qərb tranzit-daşıma sistemlərinin əsas oyunçusuna, regionun böyük enerji-nəqliyyat mərkəzinə çevrilməyə can atır, Xəzər hövzəsi və Orta Asiyanın enerji daşıyıcılarının transmilli nəqli üçün tranzit mərkəz mövqeyini möhkəmləndirməklə, Avropa İttifaqına daxil olmaq şanslarını artırmağa çalışır.

Hazırda Türkiyə Ermənistan istisna olmaqla regionun bütün ölkələri ilə, o cümlədən özünün keçmiş geostrateji rəqibləri sayılan Rusiya və İranla konstruktiv əməkdaşlıq xətti yürüdür. Türkiyə fərqli geosiyasi yanaşma əsasında "qonşularla maksimum inteqrasiya, minimum problem" taktikası yürüdərək İran, Suriya, İraq və digər qonşu ölkələrlə münasibətlərin nizama salınması istiqamətində fəallıq nümayiş etdirir.

Tədqiqat metodu

Təqdim olunan məqalədə tarixi proseslər təhlil edilir, Türkiyənin Cənubi Qafqazdakı geosiyasi, siyasi və hərbi-iqtisadi maraqları diqqətlə öyrənilir və tarixi reallıqlar obyektiv yanaşmada əks olunur. Tədqiqat işi müqayisəli tarixi araşdırma metodu ilə tədqiq olunmuşdur.

Türkiyənin Cənubi Qafqazda geosiyasi maraqları. Siyasi əlaqələr

Türkiyə bütün Qafqazın taleyində önəmli rol oynayan üç əsas region dövlətindən (Rusiya və İranla birgə) biridir. Hələ qədim zamanlardan bu ölkə özünün Qafqaz, eləcə də Cənubi Qafqaz siyasətinə çox ciddi önəm vermiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir. Türkiyənin Cənubi Qafqazdakı mövqeyi əsasən Azərbaycanın və Azərbaycanla müttəfiqliyə, sıx münasibətlər qurmağa ehtiyacı olan Gürcüstanın hesabına təmin olunur. Azərbaycanla demək olar ki, birbaşa quru əlaqəsi olmayan (təcrid edilmiş Naxçıvanla əlaqə istisna olmaqla) Türkiyə yalnız Gürcüstan, Rusiya və İran vasitəsilə Azərbaycana və Orta Asiyaya daxil olmaq, onlarla hərtərəfli inteqrasiyaya girmək imkanına malikdir.

Azərbaycan Türkiyə üçün Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən türkdilli dövlətlərlə əlaqə üçün mühüm vasitə rolunu oynayır. Azərbaycan - Türkiyə münasibətlərinin inkşafında hər iki tərəf maraqlıdır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artırması deməkdir. Ona görə də bu iki dövlətin münasibətlərinin beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkşafı zəruridir.

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi qəbul edilir (7).

Türkiyənin Azərbaycan strategiyasında Dağlıq Qarabağ münaqişəsinin həlli əsas yer tutur. Belə ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinə böyük diqqət yetirməsi Türkiyənin türk dövlətlərinə yaxınlaşması və soyuq müharibədən sonra Türkiyənin yeni xarici siyasət strategiyası ilə əlaqəlidir (9).

Türkiyənin Azərbaycanda strateji maraqlarının təmin edilməsinin Dağlıq Qarabağ münaqişəsinə təsir edən müsbət tərəflərini aşağıdakı şəkildə göstərmək olar:

1. Azərbaycanla Türkiyə arasındakı tarixi dostluq və strateji tərəfdaşlıq münasibətləri Azərbaycanın regionda siyasi mövqeyinin möhkəmlənməsinə səbəb olur;
2. Azərbaycanın NATO ilə inteqrasiyasına Türkiyə ilə münasibətləri müsbət təsir edir. İki dövlət arasında hərbi sahədəki əlaqələr Azərbaycan ordusunun güclənməsinə xidmət edir;
3. Türkiyənin Azərbaycanın enerji sektorunda və digər iqtisadi sahələrdəki strateji maraqlarının təmin edilməsi bu dövlətin Azərbaycana olan siyasi diqqətini artırır;
4. Türkiyənin ABŞ və Qərbi Avropa ilə hərbi-siyasi əməlkdaşlığı və NATO-da iştirakı Rusiya və İranın Azərbaycana təzyiqlərini neytrallaşdırır. Bu amil Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya və İranın birtərəfli siyasətinin dərinləşməsinin qarşısını alır;
5. ABŞ-ın xüsusi maraq kəsb etdiyi Azərbaycanın enerji layihələrinin Türkiyə ərazisindən keçməsi və bu layihələrin reallaşmasında Türkiyəyə arxalanması Türkiyənin regiondakı nüfuzunu artırır və bu amil Ermənistanın regionda işğalçılıq siyasətinin qarşısını alır;
6. Türkiyənin Ermənistanla rəsmi əlaqələr qurmaması, əlaqələrin qurulmasında Ermənistanın önündə Azərbaycan torpaqlarının işğalından çəkinməsi şərtini qoyması Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə dair qeyri-ədalətli mövqeyini dəyişə bilər;
7.Cənubi Qafqazın mühüm iqtisadi layihələrindən Ermənistanın kənarlaşdırılmasında Azərbaycanla Türkiyənin vahid siyasəti Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən əl çəkməsinə müsbət təsir edə bilər.

Qeyd edilənlərlə yanaşı, Türkiyənin Azərbaycandakı strateji maraqlarının təmin edilməsi Dağlıq Qarabağ münaqişəsinə öz mənfi təsirlərini də göstərir:

1. Qafqaz Rusiya və Türkiyə arasında tarixi müharibələr məskəni olmuşdur. Hal-hazırda da hər iki dövlətin regionda strateji maraqları toqquşur. Türkiyənin Azərbaycandakı maraqlarını Rusiya öz dövlətçiliyi üçün təhlükə hesab edir. Rusiya ərazisindəki türkdilli qurumların Türkiyəyə inteqrasiyasını qəbul etmir. Ona görə də Türkiyənin təsirlərini azaltmaq məqsədilə Rusiya Cənubi Qafqazda Türkiyəyə qarşı güclənmək məcburiyyətindədir. Azərbaycan Rusiyadakı türkdilli qurumların Türkiyəyə inteqrasiyasında əlverişli geosiyasi mövqeyə malikdir. Rusiya Azərbaycanın Türkiyə ilə sıx münasibətlərindən ehtiyatlanaraq Azərbaycana təzyiq vasitəsi olaraq Dağlıq Qarabağ münaqişəsini dəstəkləyir;
2. Türkiyənin Azərbaycanda iqtisadi maraqlarının artmasından ehtiyatlanan Rusiya bölgədə iqtisadi bazarı itirməmək məqsədilə Azərbaycanın Türkiyə ilə yaxınlaşmasına çox da imkan verməmək üçün Dağlıq Qarabağ münaqişəsindən Azərbaycana təzyiq vasitəsi kimi istifadə edir;
3. Rusiya və İran Türkiyənin Azərbaycanda və Gürcüstanda hərbi-siyasi maraqlarının təmin olunmasına NATO-nun region maraqları kimi baxır. Bu səbəbdən də Rusiya və İran Azərbaycanın NATO-ya inteqrasiyasının qarşısını almaq məqəsədilə Dağlıq Qarabağ münaqişəsində Ermənistanı müdafiə edirlər;
4. Türkiyənin türk dünyası siyasəti İranın dövlətçiliyi üçün təhlükə olduğundan Türkiyənin region maraqlarının əleyhinə olaraq İran Ermənistanı müdafiə edir.

Türkiyənin Cənubi Qafqaz strategiyasında Gürcüstanla münasibətlər mühüm rol oynayır. Belə ki, Türkiyə, 1991-ci ildə Sovet İttifaqının dağılmasının dərhal sonra 16 dekabr 1991-ci ildə Gürcüstanın müstəqilliyini tanımış, 21 may 1992-ci ildə də iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasına dair Protokol imzalanmışdır. İki ölkənin Ankara və Tiflisdəki Səfirlikləri ilə yanaşı, Türkiyənin Batumda, Gürcüstanın isə İstanbul və Trabzonda Baş konsulluqları vardır. İki ölkə arasında nizamlı olaraq üst səviyyə səfərlər reallaşdırılmaqdadır (11).

Türkiyənin Gürcüstandakı strategiyasına dair aşağıdakı müsbət amilləri qeyd etmək olar: 1) Gürcüstan Qafqaz dövləti olaraq Türkiyənin region maraqları zonasına aiddir; 2) Gürcüstanın əlverişli coğrafi mövqeyi Türkiyənin Azərbaycanla iqtisadi əlaqələrində mühüm rol oynayır; 3) Gürcüstan Türkiyə üçün əlverişli iqtisadi bazadır; 4) Siyasi baxımdan Gürcüstan Türkiyə ilə Rusiya arasında "bufer zona" rolunu oynayır (9, s.135).

Türkiyənin Cənubi Qafqazın digər bir dövləti olan Ermənistanla da münasibətlərini normallaşdırmaq strategiyası mövcuddur. Lakin Ermənistanın qeyri-konsturktiv mövqeyi Türkiyənin bu strategiyasını həyata keçirməyə imkan vermir. Belə ki, Cənubi Qafqazın digər ölkələri ilə yanaşı Türkiyə Ermənistanın da müstəqilliyini 1991-ci il dekabrın 16-da tanıdı. Türkiyə müstəqilliyinin ardından iqtisadi böhranla qarşılaşan Ermənistana humanitar yardım göstərmiş, regional təşkilatlar vasitəsilə inteqrasiya olunması istiqamətində aktiv səy göstərmişdir. Ancaq, bu günə qədər bu ölkə silə diplomatik əlaqələrin təsis edilməsi üçün uyğun şərtlər meydana gəlməmişdir (11).

Türkiyə-Ermənistan münasibətləri düşmənçilik xarakteri daşısa da Türkiyə Ermənistanda öz strateji maraqlarının təmin olunmasına çalışır və bu məqsədlə ilk növbədə beynəlxalq aləmdə Ermənistanın mövqeyini dəyişdirməyi qarşısına məqsəd qoymuşdur. Türkiyənin Ermənistanda strateji maraqları əsasən aşağıdakılardan ibarətdir: 1) Ermənistan da Cənubi Qafqazın digər bir dövləti kimi Türkiyənin regional geosiyasi strategiyasında mühüm rol oynaya bilər; 2) Ermənistan Türkiyənin ticarət məhsulları üçün iqtisadi bazara çevrilə bilər; 3) Ermənistan regional iqtisadi layihələrdə geniş iştirak edə bilər, nəticədə Türkiyənin Orta Asiya ilə iqtisadi münasibətlərində əlverişli tranzit rolu oynaya bilər; 4) Ermənistan Türkiyə və Azərbaycana qarşı siaysi mövqeyini dəyişərsə Türkiyənin Qafqaz siyasəti daha da möhkəmlənə bilər (9, s.141).

Türkiyənin regionda iqtisadi maraqları. Türkiyə-Azərbaycan iqtisadi əlaqələri

Türkiyənin Cənubi Qafqazdakı maraqları arasında iqtisadi maraqlar mühüm rol oynayır. Türkiyənin Cənubi Qafqazda iqtisadi maraqları neft və qeyri-neft sektorunda cəmləşmişdir. Cənubi Qafqazda Rusiyanın öz üstünlüyünü əldən verməsindən sonra Türkiyə 90-cı illərin əvvəllərindən burada siyasətini fəallaşdırmışdır. Region Türkiyə iş adamları üçün böyük mənimsənilmiş bazar, habelə Mərkəzi Asiyaya əlverişli tranzit yoludur.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin inkişafında yeni dövrün əsası qoyuldu. Türkiyə ilk dəfə olaraq Azərbaycanı suveren dövlət kimi tanımış və ona mad-di, mənəvi və siyasi dəstək vermişdir.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas məqsədi ilk növbədə onların malik olduqları təbii, maddi və intellektual potensialdan sə-mərəli istifadə etmək, hər iki ölkənin iqtisadi müstəqilliyini təmin edə biləcək bütün zəruri istehsal və həyati əhəmiyyət kəsb edən sahələrini genişləndirmək, başqa dövlətlərdən asılı olmayan inkişafını təmin etmək, öz daxili ehtiyatlarını ödəmək və dünya bazarına yüksək keyfiyyətli məhsul çıxarmaqdan ibarətdir. Azərabaycan–Türkiyə iqtisadi əlaqələrinin əsasında, hər iki ölkə üçün faydalı olan dərin iqtisadi inteqrasiyaya qovuşmaq, onların istehsal imkanlarını mühüm sosial–iqtisadi vəzifələrin həllinə yönəltmək məqsədi durur. Azərbaycan Respublikası da özünün yaxın qonşusu-Türkiyə ilə iqtisadi əlaqələrin genişlənməsinə çox böyük əhəmiyyət verərək bu istiqamətdə konkret işlər görməyə nail olmuşdur (4).

Türkiyə üçün Azərbaycanda iqtisadiyyatın müəyyən həlledici amilləri mövcuddur:

1. Azərbaycan Türkiyənin ixracat məhsullarını geosiyasi nöqteyi–nəzərdən Türkiyəni Qafqazda Rusiya və İran təzyiqindən qoruyan ölkədir.
2. Azərbaycan türk şirkətlərinin qazanc əldə etməsi üçün ucuz xammal və işçi qüvvəsinin olması baxımından əlverişli iqtisadi məkandır.
3. Azərbaycan Türkiyənin Orta Asiya ilə iqtisadi əlaqələrində əsas tranzit ölkədir.

Azərbaycan, qlobal və regional SSRİ tərkibində olarkən də, iki ölkə arasında birbaşa əlaqələrin yaradılmasına cəhd edilmişdir. Xüsusilə də, 1990-cı ildən başlayaraq Azərbaycan ilə Türkiyə arasında bir çox sahələr üzrə müqavilələr imzalanmışdır. 1994-cü il sentyabrın 20-də enerji layihəsi olan "Əsrin müqaviləsi" nin imzalanması ilə başlayan neft strategiyasının həyata keçirilməsində ən təntənə-li, dünya əhəmiyyətli hadisələrdən biri baş vermişdir. XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına BTC əsas ixrac boru kəmərinin təntənəli açılışına, Azərbaycanın Xəzər dənizindəki sektorundan çıxarılacaq neftin Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarlarına nəqlini nəzərdə tutan bu layihənin baş tutacağına inanmayanlar, onun həyata keçirilmərinə mane olan qüvvələr də az deyildi. Lakin Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyə-ti və siyasi cəsarəti, habelə Gürcüstan və Türkiyə rəhbərlərinin iradəsi, ABŞ hökumətinin yaxından dəstəyi, beynəlxalq maliyyə qurumlarının köməyi sayəsində layihənin həyata keçirilməsi mümkün oldu.

Azərbaycan iqtisadiyyatının daha bir uğurlu addımı Bakı-Tbilisi–Qars layihəsidir. Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə əlaqədar anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbay-can Prezidenti İ.Əliyev, Türkiyənin baş naziri R.T.Ərdoğan və Gürcüstan prezidenti M.Saakaşvili imzalamışlar. Azərbaycan, demək olar ki, bu dəmir yol layihəsinin lokomotivi, Qərbə yeni

ixrac marşrutlarını nəzərdə tutan neft-qaz layilələrinin əsas təşəbbüsçüsüdür. Onun maliyyə dəstəyi nəticəsində həm Türkiyə sərhədindən Axalkalakiyə qədər, həm də Axalkalakidən Gürcüstan–Azərbaycan sərhədinə qədər tikilməsi və modernləşdirilməsi nəzərdə tutulan Bakı–Tbilisi–Qars dəmir yolunun Türkiyə hissəsinin 2008–ci il 24 iyul tarixində təməlqoyma mərasimi keçirilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Layihədə nəzərdə tutulan işlər tam olaraq 2011-ci ilin sonunda bitəcəyi, bütövlükdə isə dəmir yolu xətti 2012 -ci ilin ortalarında istifadəyə veriləcəyi nəzərdə tutulur (4).

Azərbaycan–Türkiyə iqtisadi münasibətləri həm ümumi həcmi, həm də əməkdaşlıq sahələri üzrə inkişaf edir və genişlənir. Bu gün iki qardaş ölkənin strateji tərəfdaşlığı bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitlik, iqtisadi inkişaf üçün əsaslı zəmin rolunu oynayır. Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə daim aparıcı mövqeyə malikdir. Xarici iqtisadi siyasətdə qardaş dövlətlə əlaqələrin genişləndirilməsi mühüm istiqamətdir. Bundan əlavə, Türkiyə Azərbaycanın qeyri–neft sektorunda ən çox kapitalı olan ölkələrdəndir.

İki ölkə arasında ticarət əlaqələri müəyyən çətinliklərə baxmayaraq, artan templə inkişaf etmişdir. Bu da gələcəkdə Azərbaycan və Türkiyə Respublikalarının yerləşdikləri geosiyasi məkanda ticarət-iqtisadi əlaqələrin daha səmərəli və faydalı, ən əsası isə strateji forma almasına öz müsbət təsirini göstərəcəkdir.

Türkiyənin regionda hərbi-siyasi maraqları. Təhlükəsizlik sahəsində əməkdaşlıq

Türkiyənin regionda əsas strategiyalarından biri də təhlükəsizliyin təmin edilməsi və hərbi-siyasi maraqlardır. Türkiyə Cənubi Qafqazda, ümumiyyətlə Qafqaz regionunda sabitliyə çox əhəmiyyət verir. Türkiyə sülh və sabitliyə ona görə yardım edir ki, Qafqaz münaqişə deyil, əməkdaşlıq regionu olsun, münaqişələr dinc yolla həll edilsin. Bu məqsədlə, Türkiyə ATƏT, BMT, və NATO kimi beynəlxalq qurumlarla çalışır. Türkiyə həmçinin Qafqazda regional təşəbbüslərə himayədarlıq edir.

Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq 1990-cı illərin əvvəllərində başlasa da daha sonra bu əməkdaşlıq beynəlxalq aləmdə və regionda cərəyan edən təhlükəsizlik anlayışına paralel olaraq inkişaf etməmişdir. Son 20 ildir Cənubi Qafqazda ciddi təhlükəsizlik boşluğu yaşanır. Sovet İttifaqının dağılmasından sonra Rusiya, ABŞ, Türkiyə və İran bu boşluğu dolduracaq qədər təsirli siyasət həyata keçirə bilməmişdir.

Azərbaycan və Türkiyə arasında ilk hərbi müqavilə 1992-ci ildə imzalanmış, daha sonrakı illərdə bu sahədə bir çox müqavilə bağlanmışdır. Azərbaycanın ilk sülhməramlı hərbi qüvvələrinin 1999-cu ildə Türkiyə sülhməramlı taborunun komandanlığı altında Kosovada xidmətə başlaması iki ölkə arasında bu sahədə müvafiq müqavilənin imzalanmasından sonra baş tutdu.

İki ölkə arasında imzalanmış müqavilələr hərbi əməkdaşlığın müxtəlif sahələrini - hərbi təhsil, hərbi yardım, silah və sursat satışı, ortaq silah istehsalı - əhatə edir. Ancaq geniş əhatəli müdafiə müqaviləsinin hələ də imzalanmamış olması hər iki ölkə üçün ciddi strateji çatışmazlıq kimi qiymətləndirilə bilər.

İki ölkə arasında 16 avqust 2010-cu ildə "Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə imzalansa da, bu təhlükəsizlik və müdafiə sahələri üçün yetərli deyil. Müqavilə 22 dekabr 2010-cu ildə Azərbaycan Milli Məclisində, 2011-ci ilin mart ayında isə Türkiyə Böyük Millət Məclisində ratifikasiya edilmişdir. Bu müqavilədə tərəflər arasında təhlükəsizlik sahəsində əməkdaşlığın ümumi çərçivəsi hazırlanmışdır.

Türkiyə və Azərbaycan arasında hərbi əməkdaşlıq sadəcə hərbi malların ticarəti, hərbi kəşfiyyat, ortaq manevrlər, ortaq istehsal, raket və kosmos texnologiyası sahələrində deyil, bu əməkdaşlığa paralel olaraq müdafiə sahəsində də inkişaf etdirilməlidir.

Tərəflər arasındakı hərbi əməkdaşlığın digər bir əhəmiyyətli sahəsi də hərbi sənaye sahəsində əməkdaşlığın genişləndirilməsidir. Azərbaycan və Türkiyə başqa dövlətlərdən asılı olmadan müstəqil olaraq silah sənayesini inkişaf etdirmək üçün insan kapitalına sahibdir. Tərəflər bu sahədə əməkdaşlığın sadəcə hüquqi və texniki infrastrukturunu hazırlamalıdır. Hərbi sənayedə başqa dövlətlərdən asılı olmaq iki ölkə arasındakı hərbi sahədəki əməkdaşlığın inkişaf etdirilməsi qarşısında ciddi əngəldir. Hər iki ölkənin hərbi sənayesinin müstəqil olması, əsas parçaların Azərbaycan və yaxud Türkiyədə istehsal edilməsi hər baxımdan üstünlük təmin edəcəkdir. Tərəflərin ortaq istehsal etdikləri silahların keyfiyyəti dünya

standartlarına uyğun olarsa, bu zaman silah ticarətində mövqelərini gücləndirərək, istehsal edilən silahların maya dəyərini də əhəmiyyətli dərəcədə azaltmaq mümkün ola bilər (2).

Nəticə

Nəticə olaraq qeyd etmək olar ki, Türkiyə regionda öz strateji maraqlarını Cənubi Qafqaz dövlətləri olan Azərbaycan və Gürcüstanla ikitərəfli münasibətlərin qurulması əsasında həyata keçirir.
Türkiyənin Ermənistanda strateji maraqları dövlətlərarası münasibətlərin olmaması səbəbindən təmin olunmur. Hətta Ermənistanın düşmənçilik siyasəti, Türkiyəyə qarşı ərazi iddiası, qondarma "soyqırım" faktının olması səbəbindən Türkiyə hətta öz dövlət sərhədlərinin təhlükəsizliyinin qorunması strategiyasını da qarşısına məqsəd qoymuşdur.
Türkiyənin Gürcüstanla münasibətləri yüksələn xəttlə inkişaf edir. Türkiyənin bu dövlətdəki iqtisadi, siyasi və hərbi sahədəki maraqlarından eyni zamanda Gürcüstan da faydalanmaqadadır. Belə ki, Türkiyə NATO vasitəsilə Gürcüstan ordusunun təlimatlandırılmasında daha aktiv iştirak edir. Gürcüstanın Qərbə inteqrasiyasında məhz Türkiyənin rolu mühüm əhəmiyyət daşıyır.
Türkiyənin Cənubi Qafqaz siyasəti Azərbaycanla sıx bağlıdır və Azərbaycan Türkiyənin həm regional, həm türk dünyası siyasətində əsas rol oynayır. Azərbaaycan türk dünyasını Türkiyə ilə birləşdirən "güc mərkəzidir" (9, s.142). Türkiyə öz Cənubi Qafqaz siyasətinin mərkəzində etnik, dil, mədəni və dini özəlliklər baxımından ortaq dəyərlərə sahib olduğu Azərbaycanı yerləşdirmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Aktan, Gündüz, *"Türkiyenin Güney Kafkasya politikası"* http://www.kafkas.org.tr/ajans/2002/ocak/16.01.2002_konferans_gunduz_aktan_.htm
2. Cabbarlı, Hatəm, "Azərbaycan və Türkiyənin hərbi əməkdaşlıq və təhlükəsizlik siyasəti" http://sesqazeti.az/az/news/analytics/383220
3. Çelikpala, Mitat, *"Türkiye ve Kafkasya: Reaksiyoner Dış Politikadan Proaktif Ritmik Diplomasiye Geçiş", Uluslararası İlişkiler Dergisi,* Cilt 7, Sayı 25 (Bahar 2010), s. 93-126. http://www.uidergisi.com/wp-content/uploads/2013/02/turkiye-ve-kafkasya.pdf
4. Hacıyeva, Şəbnəm, *"Türkiyə-Azərbaycan iqtisadi əlaqələri (1990-2010)", Bakı Dövlət Universitetinin Xəbərlər jurnalı* (humanitar elmlər seriyası), 2012, №2, s.119. http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%20%202012%20%202/119-125.pdf
5. Həsənov, Əli, "*Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına yanaşması, Azərbaycanın geostrateji maraqları"* http:/ /www.strategiya.az/?m=xeber&id=11716
6. Həsənov, Əli, *"Transmilli dünya gücləri və bölgə dövlətlərinin Xəzər hövzəsindəki geoiqtisadi siyasəti, maraqları və fəaliyyətinin xarakteristikası",* http://www.strategiya.az/?m=xeber&id=10213
7. "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana, *"Azərbaycan-Türkiyə münasibətləri"* http://lib.aliyev-heritage.org/az/4610295.html
8. Güngörmüş Kona, Gamze, *"Kafkasyada yeni gelişmeler ve Türkiye"* http://www.politikadergisi.com/makale/kafkasya%E2%80%99da-yeni-gelismeler-ve-turkiye
9. Nəsibov, Elşən*, "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası"*, Bakı, 2006
10. Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı, *"Türkiye - Gürcistan siyasi ilişkileri",* http://www.mfa.gov.tr/turkiye-gurcistan-siyasi-iliskileri.tr.mfa
11. Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı, "Türkiye - Ermenistan siyasi ilişkileri" http://www.mfa.gov.tr/turkiye-ermenistan-siyasi-iliskileri.tr.mfa
12. Şen, Levent, *"Soğuk savaş sonrası Türkiyenin Güney Kafkasya politikası"* http://acikarsiv.atilim.edu.tr/browse/251/264.pdf?show
13. Yrd.Doç.Dr. Yılmaz, Sait, *"Türkiye-Kafkasya ilişkileri"* http://usam.aydin.edu.tr/TURKIYE_KAFKASYA_ILISKILERI(3a2a2e).pdf

RUSİYANIN XXI ƏSRDƏ ENERJİ STRATEGİYALARI

HƏSƏN ABDULLAYEV
BAKI MÜHƏNDISLIK UNIVERSITETI
İQTISADIYYAT VƏ İDARƏETMƏ FAKÜLTƏSI
HABDULLAYEV@STD.BEU.EDU.AZ
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Enerji XXI əsrdə insanların yaşamı, sənaye və nəqliyyatın ilkin ehtiyaclarından biridir. Dünyada enerjiyə olan tələbat sürətlə artmaqda, lakin enerji istehsalının əsas hissəsini təşkil edən karbohidrogen ehtiyatlar isə azalmaqda və əldə edilməsi çətinləşməkdədir. Dünya yanacaq ehtiyatlarının böyük hissəsinə sahib olan Rusiya Federasiyası qlobal enerji bazarında önəmli yer tutur. Vladimir Putinin hakimiyyətə gəlməsi ilə Rusiyanın enerji siyasətində köklü dəyişikliklər baş verdi. Mərkəzi hakimiyyətin gücləndirilmiş, uzunmüddətli enerji strategiyaları qəbul edilmişdir. Xüsusilə neft və qazdan bir silah kimi istifadə edilməyə başlanmışdır. Nəticədə Rusiya xarici enerji siyasətinin yeni yüzillikdə ümumi xarici siyasətin əsas tərəfi olduğu və yeni bazarlara daxil olmaq, mövcud bazarlarda mövqelərini qorumaq, alternativləri sıxışdırmaq, ixrac marşrutlarının şaxələndirilməsi, alternativ enerji mənbələrindən istifadəni genişləndirmək kimi bir sıra mühüm məsələlərə toxunulmuşdur.

AÇAR SÖZLƏR: Rusiya, Enerji Strategiyası, Vladimir Putin, neft, təbii qaz.

GİRİŞ

Enerji məsələsinin əhəmiyyətinin davamlı artdığı dünyanın enerji strukturu və münasibətlərinin ən mühüm aktorlarından biri olan Rusiya Federasiyası enerji sahəsində atdığı addımlarla daxili və xarici siyasətdə uğurlu imic nümayiş etdirir. Xüsusən də 2000-ci ildən sonra Rusiya xarici siyasətində enerji resurslarından bir silah kimi istifadə etməyə başladı. 2020-ci il məlumatına əsasən altıncı ən böyük neft ölkəsi, ən böyük təbii qaz ölkəsi olaraq dünyanın ümumi təsdiq edilmiş neft ehtiyatlarının 6,2%-nə və təsdiqlənmiş təbii qaz ehtiyatlarının 19,9%-nə malikdir. Bu karbohidrogen ehtiyatlarının əsas ixrac bazarları olan Avropa və qonşu ölkələrdə inhisarçı mövqeyini itirməməyə yönəlmiş siyasətlər hazırlayır. O, həmçinin enerji istehlakı artan Asiya bazarlarına açılmaq strategiyasını qəbul edib. Bu baxımdan, tədqiqatın məqsədi Rusiyanın xarici siyasətində enerjiinin bir sənaye sahəsi kimi inkişaf prosesini və mövcud resurs və ticarət strukturunu, 21-ci əsrin əvvəllərindən bu günə qədər Rusiya enerji strategiyasının əsas inkişaf istiqamətini və məzmununu müəyyənləşdirməkdir.

RUSİYANIN ENERJİ STRATEGİYALARI

2000-ci il mayın 7-də prezident seçilən Vladimir Putinlə Rusiyada geniş dəyişikliklər baş verməyə başladı. Həyata keçirdiyi mərkəzçi siyasətlər nəticəsində ölkədə nəzarət mexanizmini yenidən quran Putin Rusiya Federasiyasının beynəlxalq aləmdə imicini dəyişməkdə də uğur qazandı.

1990-cı illərdən fərqli olaraq Rusiya 2000-ci illərin əvvəllərindən xarici siyasətini dəyişməyə başladı. Ölkə iqtisadi strategiyasını dəyişdirərək, metal, taxıl və xüsusilə enerji kimi təbii sərvətlərini inkişaf etdirərək ixrac etməyə başladı. Bu strategiya Rusiyanın öhdəsindən gələ biləcəyi və ölkəni ən azı ortamüddətli perspektivdə inkişaf etdirə biləcək iqtisadi sistem yaratdı. "Qazprom"u xarici siyasətdə Rusiya hökumətinin qoluna çevirməklə yanaşı, Avropanı təbii qazda özündən asılı vəziyyətə salmaqla dövləti geosiyasi baxımdan gücləndirdi.

Kreml xarici siyasətdə bəzi vasitələrdən daha səmərəli istifadə etməyə başladı. Postsovet dövrünün ilk onilliyində daxili siyasi problemlərlə məşğul olan Rusiya, Putin faktoru ilə birlikdə ölkənin yenidən dirçəlməsinə və beynəlxalq aləmdə nüfuzlu aktora çevrilmək üçün atdığı addımlara beynəlxalq mühitin təsir göstərməsi faktı nəzərdən qaçırılmamalıdır. Çünki dünyada baş verən sürətli iqtisadi inkişaf, Çin və Hindistan iqtisadiyyatlarının sürətli böyüməsi ilə enerji tələbinin artması və enerji ehtiyatlarının cəmləşdiyi regionlardakı qeyri-sabitlik enerji qiymətlərinin artması ilə nəticələndi.

Rusiya iqtisadiyyatının enerji ixracından asılılığı səbəbindən ilk dövrlərdə dövlətin enerji strategiyalarının əsas məqsədi onun dünya enerji bazarında mövqeyini möhkəmləndirərək bunu davamlı hala gətirmək olmuşdur. Bu enerji strategiyalarını aşağıdakı komponentlər baxımından ifadə etmək mümkündür:

1. Mərkəzi Asiya dövlətləri nəzdində enerji təchizatındakı monopolist mövqeyini davam etdirmək.
2. Mərkəzi Asiyada neft və təbii qaz enerji ehtiyatlarının öz nəzarətindən kənar alternativ boru kəmərləri vasitəsilə dünya bazarına çıxmasının qarşısını almaq; bu kontekstdə enerjini daha münasib qiymətə daşıyacaq yeni boru kəmərləri çəkərək potensial boru kəmərlərini əlverişsiz vəziyyətə salmaq.

3. Avropada enerji ixrac etdiyi ölkələrə üçüncü ölkəyə ehtiyac olmadan yeni boru kəmərləri inşa edərək enerji transferini həyata keçirmək.
4. Qazprom tərəfindən Avropa bazarında enerji paylayıcı şirkətləri almaqla Rusiyadan kənarda alternativ layihələrin qarşısını almaq.
5. Rusiyanın nəzarətində təbii qaz nəhəngi olan Qazprom-un inhisarçı mövqeyini qoruyub saxlamaq, digər enerji şirkətlərinin Rusiya və ya Mərkəzi Asiyada enerji sahələrinə nəzarət etməsinə mane olmaq, hasilat və nəqldə söz sahibi olmasını əngəlləmək.
6. Qətər və İranın enerji istehsalçılarının Avropa bazarına çıxmasının qarşısını almaq siyasətinin həyata keçirilməsi.
7. Xarici təbii qaz istehsalçılarının səhmlərini almaqla, qeyd olunan istehsalçıların təbii qaz satış siyasətlərinə təsir göstərmək.

Rusiyanın 2003-cü ildə yekunlaşan "2020-ci il Rusiya Enerji Strategiyası" adlı sənədinə qədər ardıcıl, təsirli və əhəmiyyətli xarici siyasət aləti kimi istifadə oluna bilən enerji siyasətindən danışmaq demək olar ki, mümkün deyil. Onu da demək olar ki, daxili və xarici siyasi mühit indiyə qədər belə bir alətin formalaşmasına imkan verməyib. Bu vaxtadək mövcud enerji siyasəti böyük ölçüdə özəl və bəzi dövlət şirkətlərinin də daxil olduğu aktorlar tərəfindən müəyyən edilib. Sovet dövründə olduğu kimi mərkəzi planlaşdırma və nəzarət mexanizmindən danışmaq mümkün deyil. Bu da Yeltsin dövrünün sürətli özəlləşdirmə siyasəti çərçivəsində dövlətin neft sənayesini özəlləşdirərək daxili və xarici siyasətdə qeyri-dövlət subyektlərinin ölkənin idarə olunmasında söz sahibi olmaq hüququnu təmin etdi. Bununla da 11 özəl şirkətə verilən struktur mərkəzi hökumətin nəzarətindən kənarda qalıb. Bu dövrdə özəl şirkət menecerləri enerji sahəsində dövlət büdcəsinə pul köçürən ən mühüm aktorlar kimi hökumətin qərar qəbuletmə mexanizminə təsir göstərə, hətta həlledici mövqeyə sahib ola billirdilər. Belə bir vəziyyətin yaranması Sovet İttifaqı dövründə olduğu kimi mərkəzi planlaşdırma və nəzarət mexanizminin olmamasından irəli gəlirdi.

Putinin hakimiyyətin bölüşdürülməsi və özəlləşdirmədən imtina edərək, mərkəzləşdirmə və milliləşdirmə istiqamətində ölkə siyasətini dəyişdirməyə başladığını görmək mümkündür. Ölkənin xarici siyasətində ən güclü silah olan neft və təbii qaz kimi enerji resurslarını idarə edən şirkətlər sistemli şəkildə milliləşdirilməyə başlandı. Təbii sərvətlərə nəzarət mexanizmini təmin etməyin bir yolu milliləşdirmə idisə, başqa bir yol vilayət idarələrinin (respublikaların, əyalətlərin və s.) səlahiyyətlərinin azaldılması və regional idarəçilərin mərkəzdən daha çox asılı vəziyyətə salınması idi.

Putin hökuməti enerjidən təsirli bir xarici siyasət vasitəsi kimi istifadə etmək üçün hələ də dövlətin əlində olan enerji nəhəngi "Qazpromu" yeni siyasətin qurulması prosesinin mərkəzinə yerləşdirərək fərqli bir strategiya izlədi. Eyni dövrdə ABŞ-ın İraqı işğal etməsi, enerji sahəsində artan neft qiymətləri ilə birlikdə həm qiymət, həm də ekoloji faktorlar baxımından daha uyğun olan təbii qazın geniş şəkildə istifadəsi Putinin izlədiyi enerji siyasətini uğurlu etmiş və Moskvanın bu vəziyyət qarşısında enerji məsələsinə daha fərqli yanaşmasına səbəb olmuşdur.

2008-2009-cu illərin iqtisadi böhranı Rusiya üçün cüzi zərərlə aradan qaldırılsa da, ölkənin neft hasilatı, geoloji kəşfiyyat fəaliyyəti və investisiyalarına təsir göstərmişdi. Bu böhran zamanı Rusiyanın həm daxili istehsalı, həm də enerji ixracı rəqəmlərinin azalması planlaşdırılan büdcə proqnozlarına təsir etmiş və 2020-ci ilə qədərki dövrü əhatə edən Enerji Strategiya Sənədinin yenilənməsi zərurətə çevrilmişdi. Rusiya enerji sənayesini ən qısa zamanda bərpa etməyi qarşısına məqsəd qoyan bu plan hökumət tərəfindən üç mərhələdə hazırlanaraq 2009-cu ildə yenidən nəşr edildi. Qısaca; 2013-2015-ci illəri əhatə edən birinci dövr, 2008-ci ildəki iqtisadi böhranın təsirlərinin tamamilə aradan qaldırılması və hasilatın azaldığı yataqların yeniləri ilə əvəz edilərək enerji sektorunun modernləşdirilməsi hədəflənib. 2015-2022-ci illər arasında ikinci dövrdə Rusiyanın Uzaq Şərq və Şərqi Sibir bölgələrində yeni neft və təbii qaz yataqlarının yaradılması hədəflənir. Üçüncü və sonuncu mərhələni əhatə edən 2022-2030-cu illər arasında neft və təbii qazla yanaşı, alternativ enerji mənbələrinin də ölkə iqtisadiyyatına daxil edilməsi yolu ilə iqtisadiyyatda karbohidrogen ixracının yaratdığı asılılığın azaldılması hədəflənir.

"2030-cu il Enerji Strategiyası" sənədində digər mühüm məsələ Rusiyanın ümumi enerji ixracında Avropa enerji bazarının faizinin tədricən azaldılmasıdır. Bunun səbəbi Uzaq Şərqdə yeni bazarlar olan Çin, Yaponiya və Cənubi Koreyanın enerji idxalında mühüm aktor kimi özlərini göstərmələridir. Bundan başqa, Strategiya sənədinin digər mərhələsi üçün edilən hesablamalara görə, Rusiya neftini idxal edəcək Şərq bazarının Rusiyanın ümumi enerji ixracında payı 6%-dən 22-25%-ə, təbii qaz idxalının 0%-dən 19-20%-ə çıxması hədəflənir. Buna görə də Çin, Yaponiya və Cənubi Koreya Rusiyanın yeni enerji strategiyasının mərkəzindədir. Həm enerji ixracında Rusiyanın Avropadan asılılığı, həm də enerji idxalında Avropanın

Rusiya enerji resurslarından asılılığı enerji təhlükəsizliyi baxımından əhəmiyyətli risklər daşıyır. Bunun üçün Rusiyanın yeni ixrac bazarları (Uzaq Şərq) və Avropanın da idxal bazarları (Azərbaycan və Mərkəzi Asiya) axtarışı tərəflərin iqtisadiyyatları üçün çox vacib məsələlərdir.

Rusiya nəhayət "2035-ci il Enerji Strategiyası"nı, xüsusilə enerji təchizatı təhlükəsizliyi ilə bağlı qlobal dəyişikliklərdən və 2014-cü il Ukrayna böhranının təsirindən sonra hazırladı və bu strategiya 2020-ci ilin iyununda hökumət tərəfindən təsdiqləndi. Sənəddə Rusiyanın yeni qaz mühərriki yanacağı və hidrogen enerjisi yataqları ilə yanaşı, ənənəvi inkişaf sahələri kimi LNG və neft kimyasının inkişafı da yer alır. Bundan əlavə, rəqəmsallaşma, Rusiyanın qlobal bazarlarda öz mövqeyini qorumaq səyləri, idxaldan daha az asılılıq və yanacaq-energetika sektorunun innovativ sahələrinin inkişafına xüsusi diqqət yetirilib. Bir sektorlararası strategiya olaraq da dəyərləndirilən 2035 Strategiyasında infrastrukturun inkişafı, neft və qaz hasilatının saxlanması, Arktikada yeni neft və qaz ehtiyatlarının kəşfiyyatı və istismarı kimi mövcud hədəflərdən əlavə enerji təhlükəsizliyini təmin etmək üçün kilid mövqedəki yeniliklər və texnoloji dəyişikliklər də vurğulanmışdır. Bu kontekstdə 2035-ci il Strategiyasının enerji sahəsində beş əsas təhdid və riskə qarşı Rusiyanın yaratdığı uzunmüddətli strategiya olduğu görünür. Bunlar: Yeni enerji sektoru texnologiyalarının sürətli inkişafı; dünya enerji bazarının qloballaşması; LNG və şist nefti ilə rəqabətin artması; rəqabətsiz iqtisadi alətlərin, yəni sanksiyaların intensivləşdirilməsi və yaşıl (bərpa olunan) enerjinin təşviq edilməsidir. Bu risk və təhdidlərin aradan qaldırılması üçün müəyyən edilmiş strateji məqsədləri belə ümumiləşdirmək olar: Rusiyanın qlobal enerji bazarında mövqeyini qorumaq, Asiya bazarlarına enerji ixracını diversifikasiya etmək; daxili istehlakçılar üçün enerji məhsullarının və qiymətlərdə münasibliyin təmin edilməsi; enerji intensivliyinin və emissiyaların azaldılması və bərpa olunan enerji sistemlərinin inkişafı.

NƏTİCƏ

Rusiya neft sahəsində əsas aktorlardan biri, təbii qazda ən böyük aktor olmaqda davam edir. Lakin ölkə iqtisadiyyatının enerji ixracatından hədsiz dərəcədə asılı olması və ölkə gəlirlərində böyük paya malik olması enerji qiymətlərindəki dəyişikliyin mənfi təsirlərinin ciddi fəsadlar törətməsinə səbəb olur. Bu kontekstdə Rusiya 2000-ci illərin əvvəllərindən etibarən Putinin aktiv, uzaqgörən və praqmatik xarici siyasətində böyük əhəmiyyət verdiyi enerji siyasətini sistemli şəkildə planlaşdırmağa və həyata keçirməyə başladı. Bir tərəfdən asılılığın gətirdiyi problemləri həll etməyi, digər tərəfdən isə enerji istehsalçısı və ixracatçısı olma qabiliyyətini inteqrasiya etməyi hədəfləyən uzunmüddətli strategiyalar olaraq ortaya çıxan bu planlar, Rusiyanın regionlararası və hətta uzunmüddətli perspektivdə qlobal iddialarının davam edəcəyini göstərir. Ənənəvi Avropa bazarı ilə yanaşı, xüsusilə Cənubi və Cənub-Şərqi Asiya bazarlarına həm ənənəvi, həm də yeni enerji mənbələri ilə çıxmaq strategiyası yaxın onilliklərdə Rusiyanın Asiya bazarında da mühüm aktor kimi rol oynamaq niyyətinin göstəricisi kimi qəbul edilə bilər.

ƏDƏBİYYAT SİYAHISI

38. Çelikpala Mitat (2007). Rusya'nın Enerjiye Dayalı Egemenlik Anlayışı (Cumhuriyet Strateji Eki). TMMOB Elektrik Mühendisleri Odası.
39. Kochajdova Monika. "Energy Strategy 2035 As Key Document For Russian Energy Security", Geopolitics of Energy. 2020 V. 42, N. 10, p. 12-15.
40. Sevim Cenk. Küresel Enerji Stratejileri ve Jeopolitik, (2. basım), Ankara: Seçkin Yayınları. 2013. s. 73
41. Sukhankin Sergey. "Russia's Energy Strategy 2035: A Breakthrough or Another Impasse?", Eurasia Daily Monitor, 2020. V. 17, N. 78
42. Özel Sadri. Bitmeyen Opera Nabucco: Türkiye'den Avrupa'ya Bir Gaz Yolculuğu, İstanbul: Bizim Avrupa Yayınları. 2010. s. 123-125

AZƏRBAYCANÇILIQ IDEOLOGIYASININ FORMALAŞMASI VƏ INKIŞAFINDA ÜMUMILLI LIDER H.ƏLIYEVIN ROLU VƏ XIDMƏTLƏRI

SABİNA ƏZİMLİ KAMRAN
BAKI MÜHƏNDISLIK UNIVERSITETI
İQTISADIYYAT VƏ İDARƏETMƏ
SEZIMLI1@STD.BEU.AZ
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə azərbacançılıq ideologiyasının formalaşması və Ümumilli lider Heydər Əliyevin xidmətləri sayəsində dövlət siyasəti səviyyəsinə qaldırılmasından, dövlətçiliyin bütün sahələrində inkişaf etdirilməsindən bəhs olunur. Azərbaycançılıq iki əsas ideyanı ehtiva edir: "dövlətçilik və vətənpərvərlik". Bildiyiniz kimi, Azərbaycan müstəqilliyinin ilk illərində Ermənistanın təcavüzü ilə qarşılaşmışdır. Bundan başqa, bəzi bölgələrdə bir sıra etnik problemlər və seperatist hərəkətlər ortaya çıxmışdır. Bu baxımdan, Ümumilli lider Heydər Əliyev tərəfindən ölkədə milli ideologiya kimi formalaşdırılan Azərbaycançılıq deklarasiyası Azərbaycan dövlətçiliyində önəmli və tarixi addımlardan biri idi. Şübhəsiz ki, bu ideologiya bir çox etnik, separatist hərkətlərə və fərqli istiqamətlərdən gələn hücumlara qarşı güclü ideoloji və siyasi qalxan idi.

Açar sözlər: azərbaycançılıq, ideologiya, konstitusiya, milli birlik, dövlətçilik, vətəndaş həmrəyliyi.

Summary: This article discusses forming of Azerbaijanism ideology and to lift to level of state politics due to services of National leader H.Aliyev, developing in all areas of state. Azerbajanism includes two basic ideas: statehood and patriotism. As you know, during first years of independence Azerbaijan was exposed to violation of Armenia. İn addition a number of ethnic issues and separatist movements showed up in some regions. İn this respect, declaration of "Azerbaijanism" as national ideology by national leader H.Aliyev was one of important and historical steps in Azebaijani statehood. Undoubtfully, this ideology was a strong ideological and political shield against all ethnic,separatist movements and attacks from different directions.

K**eywords:** azerbaijanism, idology, constitution, nationl unity, statism, civic solidarity.

GIRIŞ

1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti Dövlətin Əsas Qanununu qəbul edə bilmədi. Ona görə də ilk konstitusiya RSFSR Konstitusiyası əsasında hazırlanmış və 1921-ci il mayın 19-da qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasıdır. Azərbaycanın ikinci konstitusiyası 1927-ci ilin martında qəbul edilib. Həmin dövrdə Azərbaycan Zaqafqaziya Sovet Sosialist Respublikasının tərkibində idi və həm də SSRİ-nin tərkibində idi. 1936-cı ildə SSRİ-nin yeni Əsas Qanunu qəbul edildikdən sonra ona uyğun olaraq 1937-ci ildə Azərbaycanın üçüncü Konstitusiyası qəbul edilmişdir. Azərbaycan SSR-in dördüncü konstitusiyası 1977-ci il SSRİ Konstitusiyası əsasında 1978-ci ildə qəbul edilmişdir. Bu konstitusiyanın hazırlanması və qəbulu o vaxt Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdir. Bu sənəd milli maraqların qorunması baxımından əvvəlkilərdən xeyli fərqlənirdi. Məhz ümummilli lider Heydər Əliyevin təkidi ilə 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi rəsmi statusu öz əksini tapdı.

1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, həm də ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Bu konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa və azad bazar iqtisadiyyatına təminat verən, cəmiyyətin siyasi, sosial, mədəni və iqtisadi həyatında tətbiq olunan əsas normaları özündə əks etdirən, müstəqil dövlət quruculuğu prosesini tənzimləyən mükəmməl və mütərəqqi sənəddir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev həm də özünün milli məfkurəsinin - azərbaycançılığın, azərbaycançılıq ideologiyasına əsaslanan ilk Konstitusiyanın banisi hesab olunur.

Ümummilli lider öz çıxışlarında Konstitusiya ilə milli ideologiyanın vəhdətindən danışaraq vurğulamışdır ki, milli ideologiyamız ilk növbədə dövlətimizin konstitusiya normalarından, tarixi keçmişimizdən, xalqımızın milli-mənəvi dəyərlərindən asılı olmalıdır.

Göründüyü kimi, bu yanaşmanın nəticəsidir ki, Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyası və onun məzmununu təşkil edən əsas prinsiplər ölkə konstitusiyasında konkret formada öz əksini tapıb.
Dövlət maraqlarının qorunmasından danışan ümummilli lider, ilk növbədə, ölkənin ali qanununun, konstitusiya normalarının müddəalarına əməl olunmasının hər bir Azərbaycan vətəndaşının milli borcu olduğunu xüsusi vurğulamışdır. Bu normalar Əsas Qanunun preambulasında təsbit olunub və ilk növbədə ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasını, xalqın iradəsi əsasında vətəndaş cəmiyyəti, hüquqi, dünyəvi dövlət quruculuğunun yaradılmasını özündə ehtiva edir.
Heydər Əliyev Konstitusiyanın, eləcə də azərbaycançılıq ideologiyasının əsasını, ilk növbədə, bütün vətəndaşların davamlı, firavan və dinamik inkişafına cavab verən milli dövlətçiliyi - müstəqil Azərbaycan Respublikasının əsaını qoydu. Ulu öndər öz çıxışlarında bu məsələni belə şərh edirdi: "Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir, onu qorumaq, əbədiliyini təmin etmək hər bir azərbaycanlının müqəddəs borcudur". Heydər Əliyev milli ideologiyadan danışarkən qeyd edirdi ki, "ilk növbədə biz bütün xalqı, bütün soydaşlarımızı müstəqil Azərbaycan dövlətçiliyi ətrafında birləşdirməliyik, gəncləri, gələcək nəsli dövlətçilik prinsiplərinə sədaqət ruhunda tərbiyə etməliyik".
Məzmundan da göründüyü kimi, həm Əsas Qanunun, həm də azərbaycançılıq ideologiyasının mərkəzində, ilk növbədə, dövlət maraqları – güclü Azərbaycan dövlətinin yaradılması və onun bütün sahələrdə inkişafının təmin edilməsi prinsipi dayanır. Vurğulanan güclü Azərbaycan dövləti konsepsiyası çoxəsrlik dövlətçilik ənənələrinə söykənən, xalqımızı daim yaşadacaq, zənginləşdirəcək siyasi-iqtisadi və sosial-mənəvi idarəçilik institutunun mövcudluğunu nəzərdə tutur. Bu dövlət də sabit və multikultural olmalıdır.
Azərbaycançılıq Konstitusiyasında və ideologiyasındakı digər əsas tələb (norma) ümumi azərbaycançılıq (ümumi vətəndaşlıq) ideyasına əsaslanan milli birlik və vətəndaş həmrəyliyi prinsipidir.
Bu prinsip müasir Azərbaycan dövlətçiliyinin əsasında dayanır və bütün digər siyasi, sosial-etnik maraqlardan üstündür. Bütöv Azərbaycan idealı sosial həyatın hamı üçün məqbul olan ədalətli normalarına riayət edilməsinə, hər bir ölkə vətəndaşının Azərbaycan dövlətinə bağlılığına, onun öz etibarlı yerinə çevrilməsinə, Vətəni mənbəyə çevirməsinə əsaslanır.
Bu tələblərin yerinə yetirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən və bu dövləti idarə etmək iddiasında olan hər bir vətəndaş və ya təşkilat üçün əsas olmalıdır. Hər hansı bir şəxs və ya təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə təsbit olunmuş daxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, o, dövlətin bu sistemin təminatçısı olduğunu mütləq qəbul etməlidir. Yəni bu prizmadan baxsanız, azərbaycançılığın konstitusiya normaları və ideologiyası hər hansı siyasi liderin, partiyanın, siyasi təşkilatın deyil, ölkənin milli maraqlarından çıxış edərək bütün Azərbaycan xalqının ümumi mənafeyinin ifadəsinə çevrilib. Belə olan halda bu ideologiyadan imtina milli maraqlardan, ictimai rəydən, mövqedən imtinaya bərabərdir.
Bir faktı xüsusilə vurğulamaq istəyirəm ki, Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sistemini formalaşdırarkən həm tarixi prinsipləri, həm də davamlılıq ənənələrini qoruyub saxlamışdır. Ulu öndər XIX əsrin sonu, XX əsrin birinci yarısının milli-vətənpərvər və maarifçi-demokratik ziyalılarının, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. O isə sadəcə müraciət etməyib, onu real və hərtərəfli məzmunla zənginləşdirərək dövlət siyasəti səviyyəsinə qaldırıb. Konstitusiyamızda və milli ideologiyamızda dövlətçilik, milli birlik və vətəndaş həmrəyliyi prinsipləri ilə yanaşı, yeni vətəndaş amilinə - ədalətli və fəal, millətini sevən fəal mövqeyə malik Azərbaycan vətəndaşının yetişdirilməsi ideyasına da xüsusi önəm verilir.
Heydər Əliyev Azərbaycan gənclərini azad düşüncəli, cəmiyyətdə və dünyada baş verən prosesləri dərk edən, vətənpərvər, savadlı, bacarıqlı, inkişaf etmiş dövlət təfəkkürlü fəal insanlar kimi görürdü.
Ümummilli lider demişdir: "Biz öz dövlətini sevən, onu qoruyan və bütün dünyada ləyaqətlə təmsil edə bilən nəsil yetişdirməliyik. Gənc nəsil öz milli adət və ənənələrinə sadiq qalmalı, ana dilini, milli mədəniyyətini dərindən öyrənməli, eyni zamanda ümumbəşəri dəyərləri mənimsəməlidir".
Beləliklə, ölkəmizin tarixinin çətin və taleyüklü bir dövründə dövlətə rəhbərlik etmək kimi ağır məsuliyyəti öz üzərinə götürmüş ulu öndərin dövlətçilik təlimi və onun tərkib hissəsi olan Konstitusiya bugünkü mövcudluğun əsasını təşkil edir. müstəqil Azərbaycanın daha da inkişafına, ölkənin davamlı inkişafına və tərəqqisinə xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin səmərəli siyasi kursunu ardıcıl olaraq uğurla davam etdirərək, müstəqil dövlət quruculuğu yolunda uğurla addımlayır.
Ümummilli lider Heydər Əliyevin parlaq ideyalarında və ümumbəşəri dəyərlərdə təcəssüm tapmış milli dövlət, Azərbaycan Konstitusiyası və azərbaycançılıq məfkurəsi dövlətimizin gələcək inkişaf və tərəqqi yolunu daim işıqlandıracaqdır.

NƏTICƏ

Azərbaycançılıq ideologiyasının formalaşması və müsir günümüzdə bütün dünya azərbaycanlılarını vahid bayraq altında birləşdirən dəyərə çevrilməsi, müstəqil Azərbaycan Respulikasının təməlini təşkil etməsi Ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu öndər Heydər Əliyev hələ Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə bütün azərbaycanlılar arasında azərbaycançılıq məfkurəsinin təbliğinə, bu ideyanın geniş kütlələr arasında yayılmasına və ictimai dəyər qazanmasına çalışırdı. O dövrdə Azərbaycan ədəbiyyatında, musiqidə, kinoda, təsviri sənətdə və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər meydana gəlib. Həmin dövrdə Heydər Əliyev ölkə xaricində yaşayan soydaşlarımızın güclü bir şəkildə təşkilatlanmasına və azərbaycan diasporunun inkişafına xüsusi diqqət ayırırdı. 1990-cı illərdə hakimiyyətə qayıtdıqdan sonra Ulu öndər, xaricdəki həmvətənlərimizin mütəşəkkil qüvvəyə çevrilməsinə, onların doğma vətənlə əlaqələrinin möhkəmlənməsini vacib hesab etmişdir. Çünki inkişaf etmiş və möhkəm azərbaycanlı diasporu müstəqil Azərbaycan dövlətinin təməl dayağlarındandır.

Bir ideologiya kimi azərbaycançılıq vacib funksional elementlərlə zəngindir,bu isə ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumağ üçün mühüm amildir. Bu ideologiya siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik, inzibati-ərazi quruluşuna görə unitar dövlət olan müstəqil Azərbaycan Respublikasının möhkəmlənməsinə və inkişafına istiqamətlənib.

Azərbaycan tarixən müxtəlif etnik azlıqların birlikdə dinc yaşadığı, milli və dini tolerantlığın mövcud olduğu ölkə olub. Burada dinindən və milliyyətindən asılı olmayaraq hər kəsə bərabər münasibət göstərilib və hüquqlar verilib. Bu səbəbdən hətta fərqli etnosların nümayəndələri belə bir Azərbaycan vətəndaşı olaraq azərbaycançılıq ideyası ətrafında birləşmişdir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə ehtiva edən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna müsbət təsir etmişdir.

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə yanaşı, millətçilik və şovinizm ideyalarına qarşı formalaşmışdır. Azərbaycançılıq ideyasının təməlini millətçilik deyil, vətəndaşlıq prinsipi təşkil edir. azərbaycançılıq ideyasının əsas məqsədi çoxmillətli Azərbaycan xalqının vahid ideologiya altına birləşməsi və demokratik yolla inkişafına zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdan ibarətdir.

ƏDƏBIYYAT SIYAHISI

1 Əli Həsənov. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Heydər Əliyev və müasir Azərbaycan. Bakı: 2003. s. 29-52.

2 Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik – Bakı: «Azərbaycan» nəşriyyatı, 2005

3 Həsənov Ə., "Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti", Bakı, 2005

4 Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.

5 Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. «Qafqaz Universiteti» jurnalı, 2003, №1, s.47-61.

6 https://525.az/news/176617-azerbaycanciliq-umummilli-ve-beseri-ideyalarin-misilsiz-vehdeti

SOMALİDƏ VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ SOMALİNİN MÜASİR DÖVRDƏKİ VƏZİYYƏTİ.

Tural Hüseynzadə
Bakı Mühəndislik Universiteti
turalcomerdoglu@gmail.com
Bakı, Azərbaycan

Xülasə
İllərlə ardıcıl olaraq ingilis və italyan müstəmləkəsi altında yaşayan Somali xalqı, 1960-cı ildə müstəqil bir Somali Respublikasını qurdu.1969-cu ildə idarəetməni ələ keçirən Məhəmməd Siad Bare Somali Demokratik Respublikasını elan etdi.
1977-ci ildə Efiopiyanın Ogedan bölgəsində somalilərin yaşaması səbəbilə, böyük Somalini qurmaq xəyalı ilə Məhəmməd Siad rəhbərliyindəki Somali ordusu yerli qəbilələrin dəstəyi ilə Ogedanı işğal etdi. Lakin Efiopiya ordusu Sovet Respublikası və Kubanın dəstəyi ilə Somali ordusunu məğlub etdi və Somali ordusu geri çəkildi. Əvəzində Efiopiyada yaşayan 700 min somalili qaçqın olaraq, Somaliyə gəldi. Ali baş komandan, dövlət başçısı Məhəmməd Siadın bu məğlubiyyətdən sonra, xalq arasındakı nüfuzu azalmağa başladı. Daha sonra somalili generallar Məhəmməd Siada qarşı 1978-ci il 10 aprel tarixində hərbi çevriliş təşkil etdilər.
Lakin bu çevriliş uğurlu olmadı və çevrilişi təşkil edənlərin çoxu həbs, daha sonra isə edam edildi. Bəzi qaçan şəxslər isə Somali Qurtuluş Demokratik Cəbhəsini qurdular və 13 il sonra Məhəmməd Siadı hakimiyyətdən salan üsyanı başlatdılar.
Açar Sözlər: Somali, BMT, AMİSOM, toqquşma, müharibə,
1986-cı ilin may ayında Məhəmməd Siad yağışlı bir havada, Moqadişu yaxınlarında maşında qəzaya uğradı və ağır yaralandı. Səudiyyə Ərəbistanında xəstəxanaya yerləşdirilən Məhəmməd Siad, baş-beyin travması, qabırğa sınığı və şok yaşaması səbəbi ilə 1 ay müalicə aldı. O dövrün baş nazir müavini Məhəmməd Əli Səmətər bir neçə ay ölkənin başçısı vəzifəsini icra etdi. Məhəmməd Siad daha sonrakı seçkilərə qatılmaq istəyirdi. İqtidarı əlində saxlamaq istəyən Siadın hökumət üzvlərinin fəaliyyəti daha totalitar olmağa başladı. Bunun qarşısında isə müxalif cəbhələr daha da böyüməyə başladılar. Siad milliyətçilik idealogiyasından əl çəkərək, ətrafındakı şəxlərə də inanaraq müxalifəti klan düşmənliyi ilə susdurmağa çalışdı.
1980-ci illərin ortalarında artıq Efiopiya hökumətinin dəstəklədiyi üsyan hərəkətləri ölkənin hər yerində yayıldı. Siad xüsusilə şimaldakı üsyançıların cəzalanmalarını istəyirdi və Somali Milli Hərəkatının qalası olan Hargeisa şəhərini bombalamağa başladı.
1988-ci ildə Siad Bare və Efiopiya diktatoru Mengistu ilə bir-birinin ölkəsindəki üsyançılara dəstək verməyəcəklərinə dair gizli bir müqavilə imzaladılar. Amma nəticə olaraq Somali Milli Hərəkatı Efiopiya sərhəddindən Somalinin Şimalına zərbələr endirməyə başladı. Məhəmməd Siad bunlara qarşılıq olaraq insan hüquqlarını heçə sayaraq İsak tayfasına qarşı soyqırımı törətdi və bunun nəticəsində iki yüz min mülki şəxs qətlə yetirildi. Yarım milyon şəxs isə qonşu Efiopiyaya qaçqın olaraq sığındılar. Qısa vaxt sonra qərb Somaliyə ayırdığı yardımları kəsdi.
1990-cı ildə atışmaların çoxaldığı dövrdə Somalinin ilk prezidenti Aden Abdullah və yüzə yaxın Somalili siyasətçi tərəflər arasında kompromisi müdafiə edən bir bəyənat imzaladılar. İmza atanların çoxu Siad tərəfindən həbs edildi. Siadın bu qatı hərəkətləri üsyançı qrupları daha da gücləndirirdi, üsyan edənlərin tək məqsədi Məhəmməd Siadı devirmək idi. Əlavə olaraq bu üsyanlar Somali dəniz quldurluğunun çoxalmasına da zəmin yaratdı. Ölkənin şimalında üsyançılar və hakimiyyətin qüvvələri arasında şiddətli döyüşlər baş verdi. Bu artıq vətəndaş müharibəsi idi.
1990-cı ilin ortalarında Birləşmiş Somali Konqresi üsyançıları Moqadişuyu əhatə edən bir çox qəsəbə və kəndi ələ keçirdi. Dekabr ayında birləşmiş qüvvələr Moqadişuya daxil oldu. Məhəmməd Siaddan geriyə qalan qüvvələr ilə 4 həftəlik döyüşlər başladı. Sonda üsyançı qüvvələr qələbə qazandı və hakimiyyətin son qalıqları da məğlub oldu.
1991-ci ilin yanvarında Somalinin şimalında vətəndaş müharibəsinin son anlarında Somali Milli Hərəkatının silahlı birləşmələri, hökümət tərəfdarı qüvvələri Dilla qəsəbəsinə qədər sıxışdırdılar. 4 fevrala qədər Somalinin şimalı üsyançı qüvvələrin nəzarətinə keçdi. Üsyançı qüvvələrin yaratdığı Birləşmiş Somali Konqresi Məhəmməd Siadı devirdi.

Bəzi nizamsız güclər, qəbilə üzvləri isə döyüş vəziyyətinə gətirildilər. Birləşmiş Somali Konqresi Məhəmməd Siadı devirdikdən sonra, digər üsyançı qruplarla birlikdə fəaliyyət göstərmək istəmədilər, çünki hər bir qüvvə öz bölgəsindən dəstək alırdı. Bu qüvvələrin içində Somali Vətənsevənlər Hərakatı, Somali Milli Hərəkatı və İsak qüvvələrinə qarşı qurulmuş Somali Demokratik İttifaqı var idi. Əvvəlcə Somali Milli Hərəkatı, Birləşmiş Somali Konqresini tanımağı rədd etdi.

1991-ci ilin mart ayında Somali Milli Hərəkatının keçmiş lideri Əhməd Məhəmməd Silanyo iki tərəf arasında güc bölüşdürülməsini təklif etdi, bu hadisə keçid hökuməti dövründə baş verməli idi. Müxalif qüvvələrin çoxu çevrilişdən sonra öz gücləri hesabına hakimiyyətə gəlmək istəyirdilər.

Cənubda Birləşmiş Somali Konqresi komandiri general Məhəmməd Fərəh Aidid və Əli Mehdi Məhəmməd liderliyindəki ayrı-ayrılıqdakı silahlı qruplar paytaxt üzərində hakimiyyət əldə etmək istəyirdilər.

1991-ci ilin aprel-may aylarında şimal qərbdə baş tutan Burao konfransında Somali Milli Hərəkatı 1960-cı ildən əvvəlki İngilis Somalilandı adlanan bölgədə Somaliland Respublikasını qurduqlarını elan etdilər. Əbdürrəhman Əhməd isə ölkənin lideri seçildi.

1992-ci ildə Moqadişuya nəzarət etmək üçün davam edən 5 aylıq döyüşlərdən sonra Əli Mehdi Məhəmməd və Məhəmməd Fərəh Aidid arasında atəşkəs imzalandı. Hər ikisi paytaxta nəzarəti ələ keçirmişdi və məntiqi olaraq paytaxtı şimal və cənub hissələrə böldülər və ortada yaşıl xətt quruldu.

Somalidə baş verən dəhşətli hadisələrdən sonra Birləşmiş Millətlər Təhlükəsizlik Şurasının Təşkilatının (BMT TŞ) 733, 746-cİ qərarlarına əsasən bölgədəki humanitar fəlakətin qarşısın almaq, Somalidəki siyasi vəziyyəti normal hala salmaq üçün BMT-nin UNOSOM adlı xüsusi missiyası yaradıldı. Amerikanın başçılığı altında Somalidə sülhməramlı missiya başladıldı. Missiya Somalinin cənubunda 1993-cü ildə başladı. missiyanın əsas məqsədi mülki əhalini humanitar böhrandan xilas etmək idi.

1993 və 1995-ci illər ərzində davam edən missiya və danışıqlar nəticəsində Xaber Qədir və Majertin klanları arasında atəşkəs imzalandı, ticarət yolları açıldı, digər güclər arasında da ,1993-cü ildə Muduq sülh müqaviləsi imzalandı.

1994-cü ildə Moqadişuda Əbdal və Xaber Qədirin qüvvələri arası da UNOSOM vasitəsilə Hirab uzlaşması baş tutdu. Bu digər siyasətçilər tərəfindən də dəstəkləndi, əsas məqsəd düşmənçiliyi bitirmək, şəhəri ikiyə bölən yaşıl xətti ləğv etmək idi.

1994-cü ildə Bardhara Konfransı nəticəsində təbii ehtiyatlardan istifadə qaydaları müəyyən edildi. 9 fərqli qüvvənin uzlaşması nəticəsində 1995-ci il mart ayı da Cənubi Körfəz və Bakol bölgələri üçün qısa ömürlü idarəetmə heyəti yaradıldı. O dövrdə iqtidar üçün yarışan şəxslərin bir qismi UNOSOM-un varlığını öz hakimiyyətləri üçün təhdid hesab edirdilər. Nəticə olaraq Moqadişuda yerli silahlı birləşmələr və sülhməramlılar arasında silahlı toqquşmalar baş verdi. Bunun müqabilində Amerika qüvvələri Hizib lideri Aididi təqib edib, onu tutmağa çalışırdılar. Amma bu məqsəd uğursuz alındı. 1993-cü ilin oktyabr ayında Moqadişuda tərəflər arasında döyüşlər başladı. Nəhayət 1995-ci il 3 mart tarixində BMT əsgərləri Somalini tamamilə tərk etdilər. Daha sonra yerli mətbuata əsasən UNOSOM-un Somalidən ayrılmasından sonra yerli qruplar arasında silahlı toqquşmaların azaldığı görunürdü. Kiçik toqquşmalar istisna halda olsa da böyük münaqişələrin qarşısı alınmışdı.

Ümumi olaraq BMT-nin müdaxiləsi uğurlu şəkildə sonlanmışdı.

Aidid 1995-ci il 15 iyun tarixində özünü Somalinin prezidenti elan etdi. Ancaq rəqibi Əli Mehdi Məhəmməd Cibutidəki bir konfransda müvəqqəti prezident olaraq seçildi və beynəlxalq aləm tərəfindən tanındı.1995-ci il sentyabr ayında Aididə məxsus silahlı qüvvələr Baidoa şəhərinə hücum edərək, şəhəri işğal etdi. Bu işğal 1996-cı ilin yanvar ayına kimi davam etdi. 1995-ci ilin ikinci yarısında Cənuni Kismago və Juba vadisinin cənub qərbində və orta Somalidə silahlı toqquşmalar davam etdi.

1996-cı ildə Əli Mehdi şimali Moqadişuda yerləşən Birləşmiş Somali Konqresi, Somali Azadlıq İttifaqının sədrliyinə seçildi. Şəhərin cənubunda Aididin qüvvələri şəhərin strateji yerlərinə nəzarət etmək üçün mübarizə aparırdılar. Qəbilə ağsaqqalların müdaxiləsi nəticəsində bu toqquşma dayandı. 1996-cı ildə Aidid Mədinə bölgəsində toqquşma sırasında güllə yarası alaraq öldü.

1998-ci ildə 3 aylıq müddətdə davam edən şimal qərbdəki Qarova qəsəbəsində yeni konstitusiya konfransı baş tutdu. Bölgənin siyasi elitası, ağsaqqallar, iş adamları, intellektual şəxslər və digər şəxslərin qatılımı ilə təhlükəsizliyi təmin etmək, ticarəti asanlaşdırmaq üçün Puntland əyaləti quruldu.

1999-cu ildə Eritreya Respublikası Aididin oğlu Hüseyn Fərrah Aididin rəhbərliyindəki Somali Milli İttifaq güclərini dəstəklədiyini qeyd etdi. Aididin oğlu Hüseyn isə bu iddianın yalan olduğunu bildirdi. Beynəlxalq Strateji Araşdırmalar İnstitutu Hüseyn Aididin həm Eritreya həm də, Uqanda tərəfindən dəstək aldığını bildirmişdir. Aididin silahlı qüvvələri 1999-cu il may ayında Baidoanı işğal etdi. Rahanveyn Dirəniş Ordusu Aididi məğlub etdi və ilin sonuna qədər cənub Körfəzini və Bakol əyalətini idarəsi altına aldı.

Əli Mehdi 2000-ci ildə Cibutidə başqa bir konfransa qatıldı. 2000-ci ildə Somalidə Milli Keçid Hökuməti quruldu. Hökumətin iki yüz üzvü millət vəkili seçilənlər 2004-cü ildə Nairobidə and içdilər və Abdullah Yusif Əhmədi prezident seçdilər. Ancaq 2005-ci ildə daxili fikir ayrılıqlarına görə milli məclisdə dava baş tutdu və 2005-ci ilin mart ayında parlament sədri bəzi üzvləri Moqadişuya apardı. Prezident və digərləri Nairobidə qaldılar. 2005-ci ilim iyun ayında Kenya dəstəkli digər üzvlər Nairobidən Cövhərə getdi. 2006-cı ilin fevralında parlament Baidoada toplandı.

2006-cı ilin ilk rübündə Moqadişu müharibəsi başladı. Amerika dəstəkli liderlərdən qurulan koalisiya gücü, İslami Məhkəmələr Birliyi ilə qarşı-qarşıya gəldi. İkinci tərəf burada qalib oldu və nəzərətini cənuba kimi uzatdı.

2006-cı ilim dekabr ayında Efiopiya silahlı qüvvələri, İslami Məhkəmlər Birliyinə qarşı Somaliyə daxil oldu və ilk olaraq Baidoa döyüşündə qələbə qazandı. Somali hökumət gücləri onların dəstəyi ilə paytaxtı İslami Məhkəmələr Birliyindən geri aldı.

2007-ci ilim 8 yanvarında Abdullah Yusif Əhməd ilk dəfə Moqadişuya daxil oldu.

Lakin yerli xalq bu hökuməti Efiopiyanın əl altısı olaraq bilirdi, xalq tərəfində hökumətə və Efiopiya silahlı qüvvələrinə qarşı silahlı üsyanlar başlandı.

BMT Somaliyə olan silah embarqosunu 2007-ci ildə yumuşaltdı. Lakin Somalidəki tərəfləri silahlandırılmaqla ilə bağlı müəyyən məhdudiyyətlər qaldı. 2007-ci ildə Afrika İttifaqının tabeliyində AMİSOM-adlı BMT-nin yeni sülhməramlı missiyası fəaliyyətə başladı.

Məğlubiyyətlərdən sonra İslami Məhkəmələr Birliyi müxtəlif fraksiyalara bölündü. Bəziləri Əş-Şəbab kimi radikal ünsürlərə qoşuldular. Digərləri isə Efiopiyaya qarşı mübarizə aparmaq üçün birləşmək qərarı aldılar. 2007-2008-ci illər ərzində Əş-Şəbab Cənubi Somalidəki vacib qəsəbə və limanları nəzarət altına aldı, Baidoanı ələ keçirsə də, Maqodişunu ələ keçirə bilmədilər. 2008-ci ilin 1 may tarixində Amerika Dobley şəhərinə avia zərbələr endirdi. Bu zərbələr nəticəsində Əş-Şəbab itkilər verdi. Buna baxmayaraq Əş-Şəbab Efiopiya silahlı qüvvələrini geri çəkilməyə məcbur etdi. BMT-nin sülhməramlı missiyası bu proseslər boyu aciz qaldı. Çətin vəziyyətdə olan Prezident Əhməd Yusif Putlantın müdafiəsi üçün yerli qüvvələrə kömək etdi, maddi və silah çətinliyi yaşayan Somali hökuməti terror və dəniz quldurları ilə mübarizədə aciz qaldı. 2008-ci ildə Əhməd Yusif istefa etdi.

Somali Qurtuluş İttifaqının təmsilçiləri, BMT-nin keçmiş Somali təmsilçisi Əhmədou Abdullahın səyləri nəticəsində Cibutidə sülh görüşünə qatıldılar. Konfransın əsas məqsədi silahlı toqquşmaları qarsısın almaq idi. Konfransın nəticəsində imzalanan sənəddə Efiopiya ordusu Somalini tərk etməli idi. Bundan əlavə bütün siyasi qüvvələrin dövlətdə təmsil olunması üçün parlamentdə üzv sayı 550-ə qaldırıldı. Daha sonra Şeyx Şərif parlament tərəfindən yeni prezident seçildi.

AMİSOM-un da köməyi ilə dövlət qüvvələri ölkənin cənubunda idarəetməni geri aldılar. İslam Məhkəmələr Birliyi və digər qüvvələr öz aralarında ittifaq qurdular. 2009-cu ilin ortalarında Əş-Şəbab və Hizbul İslam qrupları öz aralarında döyüşməyə başladılar.

Somalinin koalisiya hökuməti digər qruplarla atəşkəs etmək istəyərək, şəriət idarəetməsi ilə yeni mühakimə sisteminin tətbiq olunacağını ifadə etdilər. Lakin ölkənin mərkəzi və cənub hissəsində toqquşmalar davam etdi. Daha sonra isə hökumət mübahisəli ərazilərin 80 faizinin islamçı üsyançılar qarşısında itirməyə başladı.

2014-cü ilin yanvar ayında Əddis-Əbəbədə təşkil olunmuş Afrika İttifaqı zirvəsində Somali prezidenti Həsən Mahmud BMT TŞ-nın mart ayı bitdikdən sonra ki dövrdə də silah alma səlahiyyətinin müddətinin uzadılmasını tələb etdi. Somali müdafiə ordusunun daha müasir silah və təchizata ehtiyac olduğunu qeyd etdi. Növbəti ay BMT Somali izləmə qrupu Somali rəsmilərinin və təhlükəsizlik güclərinin silahların Əş-Şəbab üzvlərinin əlinə keçməsinə izin verdiklərini qeyd etdi. Lakin Somali ordu rəhbərləri bu iddianı rədd etdi.

2014-cü il fevral ayında Somali baş naziri Əbdülvəli Şeyx Əhməd Əddis-Əbəbədə bir həyətlə iki ölkə arasındakı əlaqələri gücləndirmək məqsədilə Efiopiya baş naziri Hailemariam Desaleyn ilə görüş keçirdi. Somali baş naziri Somalidə davam edən sülhün bərpa olunması prosesində iştirak edən Efiopiyanın rolunu, Efiopiyanın AMİSOM-a qatılmasını yüksək qiymətləndirdi. Bunun qarşılığında Efiopiya baş naziri Somalidə sülhün bərqərar olması üçün təcrübə paylaşımı, təhsil yolu ilə Somali təhlükəsizlik qüvvələrinin fəaliyyətinin genişləndirilməsi prosesində, polis qüvvələrinin yetişdirilməsində hər cür dəstəyin verilə biləcəyini qeyd etdi.

2014-cü il 5 mart tarixində BMT TŞ səs birliyi ilə Somaliyə tətbiq olunan silah embarqosunun yumşaldılmasını 25 oktyabra kimi uzatdı. Burada əsas şərt alınan silahların başqa qruplaşmalara

verilməməsi idi. Həmçinin Somali ordusu kiçik silahlar ala bilərdi. Ayrıca Somali hökuməti davamlı olaraq öz ordusu, silah anbarları, silahlı qüvvələrinin fəaliyyəti barədə BMT-yə məlumat verməli idi.
2014-cü ildə Somali hərbi qüvvələri və AMİSOM qüvvələrinin iştirakı ilə qarşı cənubi Somalidə Əş-Şəbab qarşı əməliyyatlar başlandı. Əsas məqsəd cənubdakı torpaqları azad etmək idi. Somali müdafiə nazirliyi həmin bölgələrdəki yerli əhaliyə təhlükəsizlik təminatı verdi, loqistik və humanitar dəstək təmin edildi. 26 marta qədər müttəfiq qüvvələr Qoryoley və Əl-Bur daxil olmaqla 10 şəhəri azad etdilər. BMT Somali xüsusi təmsilçisi Nikolas Kay, hərbi irəliləməni 2007-ci ildən bu yana olan ən vacib irəliləmə kimi qeyd etdi. 2014-cü il 1 sentyabr tarixində Əş-Şəbab lideri Muxtar Əli Zubeyr Amerika pilotsuz təyyarəsi tərəfindən öldürüldü. Amerika bu hücumu Əş-Şəbabın mənəvi qırılması kimi qiymətləndirdi.2017-ci ildə Somalinin yeni prezidentdi Məhəmməd Abdullah seçildi.
2018-ci ildə müxalifət nümayəndələri tərəfindən aksiyalar təşkil olunmağa başladı. 13 dekabrda Baidoa şəhərində prezidentliyə nazmizəd Muxtar Rovbov həbs edildi. 15 dekabrda onun tərəfdarları mitinqlər təşkil etdilər. Qeyd edek ki, Rovbov Əş-Şəbab keçmiş bir üzvüdür. AMİSOM-un dəstəyi ilə Somali hökumət başçısı Moqadişuya gətirildi və aksiyalar yatırıldı.
2020-ci ildə Amerika prezidenti Donald Tramp Somalidə olan hərbçilərinin bir qrupunu Amerikaya geri gətirmək istəyirdi. 25 noyabrda Somalidə bir CİA agenti öldürüldü. Dekabrda Tramp Somalidən 700 hərbçinin Amerikaya geri gəlməsini müdafiə nazirliyinə əmr etdi.
2021-ci ildə Somalidə yeni siyasi böhran yaşandı. Məhəmməd Abdullahın prezidentlik müddəti 2021-ci 8 fevral tarixində bitdi. Seçkilərin keçirilməsi və yeni prezidentin seçilməsi gözlənilən bir anda hökumət seçkiləri təxirə saldı. 19-20 fevral tarixində Moqadişuda hökumətə qarşı aksiyalar başladı. 12 aprel tarixində parlamentin alt məclisi prezidentin hakimiyyət dövrünün daha iki il uzadılmasını üçün səs vermət təşkil edib, müsbət səs verdilər. 2021-ci il 27 dekabr tarixində prezident Məhəmməd Abdullah, baş nazir Məhəmməd Hüseyn Roblenin dövlətə çevriliş etmək ittihamı ilə vəzifəsini dondurdu. Səhəri gün baş nazirin dəstəkçiləri və silahlı birləşmələr prezident sarayını mühasirəyə aldılar. 2022-ci il 10 yanvar tarixində parlamentin alt məclisi seçkilərin 25 fevrala qədər baş tutacağı zəmanətini verdi. 19 fevral tarixində Əş-Şəbab üzvü Beledveyndə bir restoranda özünü partlatdı və 14 nəfər həlak oldu. 25 fevralda baş tutmalı olan seçkilər 15 marta təxirə salındı. 15 martda isə məclisinin seçki hazırlığını tamamlamadığı üçün 31 marta təxirə salındı. 14 aprel tarixində yüzlərlə millətvəkili and içərək parlamentdəki işlərinə başladılar. İndi parlamentin əsas vəzifəsi isə yeni prezidentin seçilməsidir.

Nəticə

Nəticə olaraq onu qeyd edə bilərik ki, ümumilikdə 1991-ci ildən bu günə kimi Somalidə vətəndaş müharibəsi vaxtı yarım milyon insan həlak olmuşdur. Minlərlə insan öz yaşadığı ərazini tərk etmişdir. Müasir dövrümüzdə də Somalidəki problemlər tam həll ola bilməmişdir. Siyasi liderlər adi bir anlaşılmazlıqda belə, bir birini ittiham edib öz qüvvələrini qarşı-qarşıya gətirirlər. BMT-nin AMİSOM missiyasının və qonşu dövlətlərin səyləri nəticəsində hal-hazırda Somalidə keçmiş illərə nisbətən daha sakit həyat keçir. Dəniz quldurluğu, quraqlıq, aclıq ölkənin ən böyük problemləri olsa da, şəxsiyyətlər öz mənafelərini daha üstün tutmağı seçirlər. Son 1 il ərzində yeni prezidentin seçilə bilməməsi, iqtidarda olan qüvvələrin qeyri-demokratik fəaliyyətləri, Somali xalqının gələcəyə olan ümidlərini daha da öldürür. Ölkədə yerli qəbilələrin hər birinin öz düşüncə tərzi, siyasi iradəsi olması və insanların bir-biri ilə uzlaşa bilməməsi ölkənin gələcəyini qaranlığa aparır. İllərlə müstəmləkə içərisində yaşayan insanlara anidən yeni dövlət və demokratiya anlayışını aşılamaq Somalidə mənfi nəticə göstərmişdir. Qonşu dövlətlərin öz marağında olduqları qüvvələri dəstəkləməsi, sanki Somali bir oyun meydançasıdır, ölkədəki siyasi qüvvələr personaj, qonşu dövlətlər isə bu personajları idarə edən oyunçulardır kimi düşünsək, Somali xalqının nə qədər acınacaqlı bir vəziyyətdə olduğunu görə bilərik.
Yaxın günlərdə yeni prezidentin seçilməsi baş tutacaqdır. Təbi ki, bu seçkidən sonra belə digər qüvvələr bundan narazı qalacaq və yeni anlaşılmazlıqlar, mübahisələr başlayacaqdır. Afrika qitəsindəki vəziyyətinin siyasi və humanitar olaraq belə acınacaqlı vəzityyətdə olmasının əsas səbəbi məhz müstəmləkə dövrüdür. Hal-hazırda Qərb və Avropa sanki öz günahını yumaq istəyirmiş kimi problemləri həll etməyə çalışırlar. Lakin yüz illərdir bəxti gətirməyən Afrika qitəsində silahlı toqquşmaların davam etməsi aktualdır

Ədəbiyyat siyahısı

1. Ahmet Kavas- “Tarihten Bugüne Somali”, AFAM, Afrika Araştırmacıları Derneği, Rapor 5, 2017.
2. Berdal Aral,-“Küresel Güvenlikten Küresel Tahakküme” BM Güvenlik Sistemi ve İslam Dünyası, Küre Yayınları, Birinci Basım, Kasım 2016.

3. Erlich Haggai-Islam and Christianity in the Horn of Africa, Lynne Reinner Publishers, London, 2010.
4. Katz Samuel-Operation Restore Hope and UNOSOM, Hong Kong, Concord Publications, 1993.
5. Lewis I.M,- Modern History of the Somali, Oxford, James Currey, 2002.
6. Moller B- Somalia Conflict: The role of External Actors. copenhegan : Danish Institute for International Studies . (2009).
7. Nazlı Müdüroğlu-"Birleşmiş Milletler ve İnsani Müdahale", Ankara Üniversitesi, Tezsiz Yüksek Lisans Bitirme Projesi, 2007.
8. https://www.usnews.com/news/world/articles/2022-04-14/somalia-swears-in-lawmakers-paving-way-for-presidential-vote
9. https://www.france24.com/en/live-news/20211228-deepening-somalia-crisis-sparks-international-alarm
10. https://www.kureselsiyaset.org/somali-ic-savasi

DEMOKRAT PARTİYASININ HAKİMİYYƏTİ İLLƏRİNDƏ TÜRKİYƏNİN DAXİLİ SİYASƏTİ (1950-1960)

Tural Hüseynzadə
Bakı Mühəndislik Universiteti
turalcomerdoglu@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Demokrat partiyasının 1950-ci ildəki seçkilərdə qalib olması bütün ölkədə böyük coşqu ilə qarşılandı. Hər bölgədən seçkidə qalib olan millət vəkilləri Ankaraya and içmə mərasiminə böyük təm-tərah ilə göndərildi. Türkiyə Böyük Millət Məclisinin (TBMM) ilk iclası böyük bir tamaşa rolunu aldı. 1950-ci il 22 may tarixində millət vəkillərinin and içmə mərasimi baş tutdu.

Eyni gün keçirilən prezident seçkilərində Cəlal Bayar prezident seçildi. Millət vəkili Rəfik Koraltan məclis sədri, Sıtkı Yırcalı, Hulusi Köymən isə sədr müavinləri seçildilər.

Bas nazir isə Adnan Məndərəs təyin olundu və birinci Məndərəs hökümətinin qurulmasına başlandı.

Nazirlər seçilərkən isə daha çox bürokratik keyfiyyətləri öz planda olan şəxslərə üstünlük verilmişdir.

Hər kəs yeni hökümətə böyük rəğbət bəsləyir, hər şeyin daha yaxşı olacağına inam böyük idi. Yeni qurulan Məndərəs hökümətinin daxili siyasəti maraq kəsb edən məqamlardan idi.

Açar Sözlər: Demokrat Partiyası, Adnan Məndərəs, Cümhuriyyət Xalq Partiyası, Türkiyə.

Demokrat Partiyası (DP) hakimiyyətə gəldikdən sonra daxili siyasətində etdiyi ilk islahatlardan biri hərbi və bürokratik tərkibdə etdiyi dəyişikliklər oldu. Tək partiyalı dövrdə Cümhuriyyət Xalq Partiyasının dövlət nümayəndələrinin çoxu hərbçilər idi. Yeni hökumət qurulduqdan sonra 5 iyun tarixində baş nazir Adnan Məndərəsi bir sıra yüksək rütbəli hərbçi ziyarət etmiş və 8-9 iyun tarixində ona qarşı hərbi çəvriliş olacağını bildirmişdilər. Bundan sonra Məndərəs bütün işlərini ataraq məsələni Cəlal Bayarla müzakirə etmiş və özünü qorumaq üçün tədbirlər almağa başlamışdır.

1950-ci il 6 iyun tarixində türk ordusunda o dövrə qədər görülməmiş bir həcmdə yüksək rütbəli hərbçilərin vəzifədən çıxarılışı və yerlərinə yenilərinin təyin olunması baş tutdu.

Baş qərargah rəisi General Əbdülrəhman Nafiz yerinə general Nuri Yamut, ikinci müavin olan İzzət Aksalur yerine Şahap Gürlər təyin edildi. Generallar Salih Omur Tok, Kazım Orbay və Haqqı Oğuz isə təqaüdə göndərildilər.

Birinci ordu komandanı Asım Tınaztəpə, ikinci ordu komandanı Müzəffər Tuğsavul və üçüncü ordu komandanı Mahmud Bərköy hərbi şuraya təyin edildilər. Hərbi dəniz qüvvələri komandanı Məhmət Əli Ülgən ilə hərbi hava qüvvələri komandanı Zəki Doğan da mərkəzə təyin olundular. Daha sonra 15 general və 150 polkovnikdə 2- 3 ay içində təqaüdə çıxarıldı. Bu islahatlardan sonra Məndərəs ordu üzərində öz hakimiyyətini qurmağı bacardı. Orduda baş verən bu geniş miqyaslı dəyişikliklər iqtidar və müxalifət

tərəfdə böyük çaşqınlıqlar yaratdı. Məndərəsin hərbi islahatlar aparmağı normal idi, yeni hökumət qurulduqdan sonra köhnə idarəçilərin və məmurların dəyişməsi normal haldır.
Əvvəlki dövrdən fərqli olaraq, vətəndaşlər tərəfindən yerli idarə etmə orqanlarına qarşı böyük şikayətlər olunurdu. Hökümət yerli idarə etmələrdə də böyük dəyişikliklər etdi.Samsun valisi İzzəttin Çağpar, Kastamonu valisi Tofiq Sırrı Gür, Seyhan valisi Zühdü Durukan, Biləcik valisi Şinasi Tolqa, Çankırı valisi Orxan Sami Güvənç, Afyon valisi Abidin Özmən, Konya valisi Şefik Soyər ve Ordu valisi Salih Kılıç təqaüdə göndərildilər.
Demokrat partiyası hakimiyyətə gəlməzdən əvvəl hər dəfə anti-demokratik qanunları ləğv edəcəklərini söz verirdilər. Yeni hökumətin digər əsas dəyişikliyi ərəbcə azan qadağasının qaldırılması oldu. Ərəbcə azan oxunmasını qadağa edən türk cəza qanununun 526-cı maddəsi ləğv edildi. Məndərəs bu barədə Zəfər qəzetinə verdiyi müsahibədə bəhs edərək, "Onsuzda əhali duaları məscidlərdə ərəbcə edir, azanın ərəbcə səslənməməsi vicdan, din azadlığının təmin olunmasına maneə yaradır. Ərəbcə azan məsələsi 13 iyun 1950 ci il tarixində Millət Məclisi toplantısında Bas nazir Məndərəsin açıqlamasından sonra səs verməyə qoyuldu. Maraqlı məqam o idi ki, səs verməyə qatılan Cümhuriyyət Xalq Partiyasının(CXP) vəkilləridə məsələnin lehinə səs verdilər və yekdilliklə qanun ləğv olundu.
Daha sonra bu haqda bütün bölgələrə teleqraf ilə xəbər göndərildi və məscidlərdə azan yenidən ərəbcə səslənməyə başladı.
Türkiyədə Tək partiyalı dövrdə ölkəde Xalq evləri əsas mədəni və siyasi rolu oynayırdı. Xalq evi 1932-ci ilində ilk dəfə qurulmuşdur və 1950-ci ildə artıq onların sayı 487 idi. Xalq otaqlarının sayı isə 4327 idi. Bu qurumlar eyni vaxtda CXP-nin yan quruluşları idi. DP müxalifət vaxtlarında xalq evlərinin qorunmasının tərəfdarı idi, lakin iqtidar olduqdan sonra, CXP-nin iqtisadi vəziyyətini artırıb, yenidən hakimiyyətə gələcəyindən çəkindiyi üçün xalq evlərinin bağlanmasını istəyirdi. Demokrat partiyasının mətbuat orqanı Zəfər qəzətində "Hesab gunü gəlmişdir, CXP-nin xalqdan qəsb etdiyi xərcləmələrin hesabını verəcəklər" deyə bir yazı yayınlandı. Bu yazı Demokrat partiyasının, CXP-nin mal varlığını müsadirə etmək istədiyinin xəbəri idi. 1950-ci il 12 dekabr tarixində bu məsələ məclis gündəminə gətirildi. DP-lilər mətbuat və xalq qabağında haqqlı görünmək istəyirdilər.Onlar 16 dekabr tarixində Atatürkün vəsiyyətnaməsini açıqladılar. Ancaq CXP-nin mallarını müsadirə etmək plani bir müddət daha gözləməli idi, çünki iqtidarın başqa həll etməli olduğu problemləri var idi. Nəhayət 1951-ci il 24, iyul tarixində bu məsələ yenidən məclis gündəminə salındı. CXP-nin dövlət mallarının haqsız mənimsədiyi üçün, bütün malları dövlətə qaytarmaq barədə qanunda düzəliş olundu. Düzəlişlə bütün binalar, əşyalar, mülklər dövlətin adına keçməli idi. CXP-lilər xalq evlərinin mədəni bir qurumlar olaraq fəaliyyət göstərməsini istəyirdilər. CXP-lilər bu qanunu boykot etmək üçun İstanbulda mitinqlər təşkil etdilər. Qanun prezident tərəfindən imzalandıqdan sonra qüvvəyə mindi, bu qanunla CXP-nin və xalq evlərinin bir çox mülkləri dövlətin xəzinə hesabına keçdi. Bununla da xalq evlərinin varlığına son qoyuldu.

Demokrat partiyasının iqtidar illərində Atatürk və onun şəxsiyyətinə edilən hücumların artması və bu hadisələrin türk xalqının, xüsusəndə gənclərin etirazına səbəb olması ilə əlaqədar, iqtidar Atatürk ilə bağlı bir qanunu gündəmə gətirdi.Həmin dövrdə Ankara, Aydın, Balıkəsirdə ardı-ardına Atatürkün şəxsiyyətinə hücumlar olunmuşdur.Buna qarşı olaraq Milli Türk Tələbə Federasiyası bunların qarşısını almaq üçün yeni qanunun qüvvəyə minməsini tələb edirdi.
1951-ci il 29 mart tarixinde DP Ədalət nazirliyinə "Atatürkün əleyhinə işlənən cinayətlər haqqında qanun" nümunəsi hazırlayaraq təqdim etdi. Eyni tarixdə qanun Türkiyə Böyük Millət Məclisinə də təqdim edilmişdir. Müxalifət ümumi olaraq bu qanunu dəstəkladi, lakin edilən hücumların təkcə Atatürkü deyil, respublika və türk inqilabını da qorumalı olduğunu qeyd edərək, qanunun daha da radikal olmasını istəyirdilər. Nəhayət 31 iyul tarixində 232 müsbət səs ilə qanun TBMM-də qəbul olundu. Qanuna görə; Atatürkün xatirəsini açıq şəkildə təhqir edən və ya söyən kimsə bir ildən, üç ilə qədər həbs edilə, heykəl,büsd və xatirə lövhələrini qıran, çirkləndirən isə bir ildən beş ilə qədər həbs edilə bilərdi. Atatürk qanunun əsas bir boşluğu doldurmuşdur. Bu qanun ilə iqtidar edilən hücumların qabağını kəskin şəkildə almışdır.

Demokrat partiyası hökuməti müxalifətin birləşməsinin qarşısın almaq və onları siyasətdən qismən kənarlaşdırmaq məqsədilə, 5545 saylı seçim qanununun 35,71,89,91,109,110,135,166 maddələrini dəyişdirib, 45,46,47,48 ci maddələri isə qüvvədən qaldıran 6428 saylı qanunu qəbul etdi. Bu qanuna görə bir seçim bölgəsindən bir siyasi partiyanın siyahısına daxil olan namizədi başqa bir partiyadan, hətta bitərəf belə namizəd ola bilməzdi. Qanuna əsasən dövlət məmurlarının seçkilərdə namizəd ola bilmələri üçün öz vəzifələrindən seçkidən altı ay əvvəl istifa vermələri məcburiyyət halına gətirildi. Müxalifət seçim vaxtı radyolardan istifadə edə bilməyəcəkdi. Demokratik olmayan bu dəyişikliklər müxalifətin kəskin etirazına

səbəb oldu. Müxalifət bu qanunlarla iqtidarın vətəndaşın əxlaq və normalarına qarşı çıxdığını, məmurları seçkilərdən uzaq salmaq istədiyini, radyonu öz mənafeləri üçün istifadə etmək istədiklərini bildirərək iqtidarı sərt tənqid edirdi.

DP-nin TBMM-nin gündəliyinə gətirdiyi digər bir qanun məhkəmə üzvlərinin, universitet işçilərinin 60 yaşına çatdıqdan sonra 25 illik iş xidmətlərini tamamladıqları halda məcburən təqaüdə göndərilmələri ilə bağlı idi. DP-nin vəkillərinin səsi ilə bu qanun da qəbul olundu. Müxalifət bu qanununa da qeyri-demokratik hesab edərək etiraz etdi.

DP 1954-cü il 6 iyul tarixində daha bir qeyri-adi qanununu qəbul etdilər. Bu qanuna əsasən məmurların təqaüdə çıxarılmaları üçün müəyyən il stajın olması vacib sayılmır, istənilən an işdən qovula bilərdilər. Ayrıca qanunun digər maddəsinə görə Təhsil Nazirliyi universitetlərdən istənilən şəxsi işindən azad edə bilərdi.

Türkiyənin daxili və xarici siyasətində iqtisadi problemlərin 1956-ci ildə daha da ağırlaşması müxalifətin və mətbuatın hökuməti sərt tənqid etməsinə səbəb olmuşdu. Müxalifət etirazlarını bəzən mitinqlər təşkil edərəkdə nümayiş etdirir və xalq tərəfində müsbət rəy alırdı. Bu vəziyyət iqtidarın narahatlıq hiss etməsinə səbəb yaratdı. Buna əsasən 1956-cı ildə 5680 saylı mətbuat qanununda bəzi maddələrinin dəyişdirilməsi və yeni üç maddənin əlavə olunmasını istəyirdilər. Dəyişikliyə əsasən mətbuat qurumlarının rəhbətləri ən azı orta məktəb məzun olmalı, Türkiyədə yaşamalı, 6 aydan çox həbs cəzası almamaları idilər. DP-lilər tərəfə\indən 6334 saylı "yayın yolu və ya radio ilə həyata keçirilən cinayətlər"qanununada dəyişikliklər hazırlanmışdı. Bu düzəlişlərə əsasən nəşr və radio yolu ilə namus, şərəf və şəxsiyyətə təcavüz edilməsi və şəxsin təhqir olunmasına görə bir ildən üç ilə kimi həbs cəzası təyin olunacaqdı. Mətbuata tətbiq olunan bu qadağalar müxalifətin kəskin etirazına səbəb olmuşdur. Müxalifət mətbuatın qorxu içində işini düzgün edə bilməməsini əsas arqument kimi ortaya qoymuşdu. Ümumi bu qanuna bütün mətbuat orqanları kəskin şəkildə qarşı çıxmış, sadəcə iqtidarin Zəfər qəzeti bu qanunu dəstəkləmişdir. TBMM-də səs vermə vaxtı DP millətvəkillərin bir qismi bu qanunun əleyhinə olaraq səs verməyə qatılmadılar.

Demokrat partiyası 1956-cı il 27 iyun tarixində "Toplantı və Nümayiş" qanunu qəbul elədi. Bu qanuna əsasən siyasi partiyalar seçki təbliğatından başqa heç vaxt açıq havada toplanıb, mitinq və yaxud toplantı keçirə bilməzdilər. Qapalı iclasların təşkili isə məhəllələrin mülki amirlərinin icazəsi ilə baş tuta bilərdi. Qanunun 12-ci maddəsinə görə harda olursa olsun, mitinq, etiraz məqsədilə bir yerdə toplanmaq qanun pozuntusu sayılırdı.13-cü maddədə qanun pozuntusu sayılan mitinqlərin və yaxud toplantıların qarşısının alınması üçün, polis hədəf təyin etmədən atəş açа bilər və qanuna qarşı gələnlərə 3 aydan 3 ilə qədər həbs və ya 500 ilə 5000 türk lirəsi arasında pul cəzası təyin edilə bilərdi.

Bu qanuna görə çarəsiz qalan müxalifət TBMM-ni tərk etdi, eyni günlərdə Fuad Körpülü ikinci dəfə xarici işlər naziri vəzifəsindən istefa etdi. Nə olursa olsun, Məndərəs bildiyi yoldan geri dönməyəcəkdi, müxalifətin məclisi boykot etməsi də bu barədə çarəsiz qaldı.

1956-ci il 11 iyul tarixində 3 müxalif partiya məclisə geri qayıtmaq qərarı aldı. Məndərəs isə bu hadisəyə "tıpış, tıpış geri qayıtdılar", dəyərək onları məzxərəyə saldı.

Yeni qanunun ilk qurbanı Qasım Gülək oldu. O, 2 avqust günü Qaradəniz bölgəsində Xalq partiyalılar ilə gəzintidə idi, iclasları yarımçıq saxlanıldı və Qasım Gülək Rizədə məhkəməyə verildi. Günahı isə gəzinti vaxtında bəzi dükan sahiblərinin əllərini sıxdığına görə mitinq təşkil etmə təşəbbüsünü yaradaraq qanunu pozmaqda ittiham edildi. Gülək bu pozuntudan dolayı 6 ay həbs edildi.

Müxalifət kəskin şəkildə təqib olunurdu. 3 avqustda CXP-nın İnönü üçün təşkil etdikləri ziyarətə qadağa qoyuldu. Hüriyyət partiyasının Ankarada baş tutacaq olan tədbiri qadağan olundu. Siyasi məsələlərin müzakirə edilə bilinəcəyi tək yer TBMM qalmışdı.

Bu qanun ilə gətirilən qadağalar hər nə qədər daxili siyasəti əldə saxlamaq üçün tətbiq olunsada, bütün bu qərarlar, qanunlar demokratiyaya qarşı idi

Demokrat partiyasının hakimiyyətdə qaldığı son aylarda iqtidar və müxalifət arasındakı rəqabət və gərginlik daha çox artmışdı. Ankara və İstanbul universitetlərindəki hüquq fakültələrindəki professor, müəllim heyəti arasından iqtidara sərt tənqidlər olunurdu. Bu tənqid və etirazlar tələbələr arasındada yayılmağa başladı. İlk tələbə aksiyası 1960-cı il 28 aprel tarixində İstanbulda baş tutdu. Etiraz 7 saat davam etdi, polis tələbələrin qabağını barikatlarla almağa çalışsada, tələbələrin qarşısı alına bilmədi. Tərəflər arasında silahlı atışmalar başladı, kənd təsərrüfatı fakültəsində oxuyan Turan Əməksiz adında tələbə, polis gülləsi nəticəsində həlak oldu. Bir digər tələbə isə tankın altında qalaraq öldü. Hadisə nəticəsində 16 polis yaralandı. Mətbuata tətbiq edilmiş qadağalar nəticəsində xalq bu hadisəni olduğu kimi öyrənə bilmədi və insanlar arasında çox sayda tələbələrin öldüyü haqqında şaiələr yayıldı. Hadisələr əsnasında İstanbul

universitetin rektoru Sıddık Sami Onar da polis şiddətinə məruz qaldı və yaralandı.Ümumi 150 tələbə polis tərəfindən həbs edildi. Eyni gün İstanbul Texniki universitetin tələbələridə dərsləri boykot edərək, nümayiş təşkil etdilər. Bu etiraz İstanbul tibb fakültəsində də başladı. Hadisələrin böyüməsinə əsasən hökümət 28 aprelə qədər Ankara və İstanbulda komendant saatı tətbiq etdi. İstanbul universitetində tətil elan edildi, gecə küçəyə çıxmaq qadağası qüvvəyə mindi. DP məclisi 29 aprel günündə iki dəfə toplandı. Toplantıda danışan baş nazir Adnan Məndərəs, hadisələri təhrik edənlərin Xalq partiyalıların uşaqları və universitetdəki Xalq partiyalı üzvlərin etdiyini qeyd etmişdir. 1960-cı il 29 aprel tarixindən etibarən Ankarada hər gün etiraz askiyaları baş tutdu, iştirakçılar "Məndərəs istefa, Məndərəs diktator ifadələrini səsləndirirdilər".

Ankara universiteti siyasət fakültəsində iqtidar əleyhinə baş tutan etirazlarda, polislər tələbələrin olduğu binalara atəş açırdılar, tələbələrdə əvəzində daş və taxta parçalarını polislərin üzərinə atırdılar. Ankarada təşkil edilən etiraz aksiyalarından ən diqqət çəkəni 5 mayda təşkil edilen "555K"(5-ci ayın, 5-ci günü, saat 5-də) paroluyla edilən aksiya oldu. İqtidar etirazçılarla uzlaşmaq yerinə öz tərəfdarlarınıda eyni vaxtda Qızıl ay meydanında hökümətə dəstək aksiyası keçirməyi istəmişdi. Eyni anda, eyni yerdə iki fərqli ideologiyaya sahib insanlar aksiya keçirəcəkdilər. Aksiyalar baş tutdu, tərəflər arasında toqquşmalar oldu. Eyni yerdə olan Məndərəs maşınından düşərək aksiyaçılara öz etirazını bildirmişdir.

Beləliklə DP hökumətinin daxili siyasətindəki qeyri-demokratik qərarları iqtidara mənfi təsirlər göstərirdi.

Bütün bu hadisələrdə sonra Türkiyədə hərbi çevriliş oldu və Baş nazir Adnan Məndərəs edam edildi, Demokrat partiyası iqtidardan salındı.

Nəticə

Nəticə olaraq qeyd etmək istəyirəm ki. Demokrat partiyası türk siyasi həyatını uzun illər idarə edən, təsirləri müasir dövrə kimi uzanan bir siyasətin memarı olmuşdur. Partiyanın, Atatürkün son baş naziri qərbləşmə tərəfdarı olan Bayar və dostları tərəfindən qurulması cümhuriyyət dəyərlərinə qarşı partiya olmamasının göstəricisi idi. Partiya daha çox siyasi və iqtisadi liberalizm üzərinə qurulmuşdur. Partiyanı dəstəkləyənlər əvvəlcə ticarətçi, torpaq ağaları və kəndlilər olmuşdur. Bu da partiyanın daxili siyasətə daha çox önəm verməsinə şərait yaratmışdır.

Demokrat partiyası türk siyasətini "milli irədə" termini ilə tanış etmişdir. 1946-cı ildən bəri Türkiyədə milli iradənin təbliğatını aparmış və türk vətəndaşlarina vətənin, dövlətin əsl sahiblərinin onlar olduğunu göstərməyə çalışmışdır. Partiya iqtidarında xalq aktiv siyasətə qoşuldu. Beləliklə, Demokrat partiyası siyasi mədəniyyətdə bürökratik sıxıcı dövlət adət-ənənəsinin yumuşadılmasında böyük rol oynamışdır. Demokrat partiyası məmur özbaşınalığı ilə mübarizə aparan bir partiya olduğundan xalqın qəlbində gözəl bir yer almışdır. 1950-ci illərdə kəndli qrupunun hər hansı bir səbəblə "vali" otaqlarını doldurmaları və idarəçiləri kəskin tənqid etmələri illərcə davam edən bürökratik təyziqlərin təzahürü idi.

Daxili siyasətdə Demokrat partiyanın həyata keçirtdiyi anti-demokratik fəaliyyətlər, iqtidarı zəiflədən əsas faktor oldu. Qeyri-demokratik qanunların qəbul olunması, müxalifətin kəskin şəkildə təqib olunması buna misal göstərə bilərik.

Lakin bütün qeyri-demokratik addımlara baxmayaraq Adnan Məndərəsin dövlət protokolunu əsas tutaraq xalqın içinə qarışması, onları demək istədiklərini səsləndirməsi, gülər üzlü, təvəzökar olması xalqın sevgisini qazanmasında böyük rol oynamışdır.

Səməd Ağaoğluya görə son yüz ildə Türkiyədə xalq tərəfindən Atatürkdən sonra Məndərəs qədər sevilən olmamışdır.

Demokrat partiyasının daxildə gördüyü bir çox işlər, kənd təsərrüfatının inkişafı, hidroelektrik stansiyaların tikilməsi, təhsil, turizm sahələrində yeniliklərin olması türk siyasi tarixində yeni bir nəfəs olaraq xalqın ümidlərini dirçəltmişdir. Demokrat partiyası türk demokratikləşmə tarixi içərsində əsas bir dönüş nöqtəsi olmuşdur, özündən sonrakı türk siyasi tarixinədə dərin bir miras qoymuşdur.

Ədəbiyyat siyahısı

1. Ağaoğlu S-Demokrat Partinin Doğuş ve Yükseliş Sebepleri Bir Soru, Baha Matbaası,İstanbul. (1972).
2. Azak G-Ben Adnan Menderes, Zafer Yayınları, İstanbul. (2000).
3. Birand M A, Dündar C ve Çaplı B-Demirkırat: Bir Demokrasinin Doğuşu, MilliyetYayınları, İstanbul. (1995).
4. Dilipak A-Menderes Dönemi, Beyan Yayınları, İstanbul. (1990).
5. Eroğul C-Demokrat Parti Tarihi veİdeolojisi, İmge Yayınları, İstanbul. (1998).
6. Konyar H-Ulus Gazetesi, CHP ve Kemalist İlkeler, Bağlam Yayınları, İstanbul. (1999).
7. Sarıbay A.Y-Türkiye'de Demokrasi ve Politik Partiler, Alfa Yayınları, İstanbul. (2001).
8. Timur T-Türkiye'de Çok Partili Hayata Geçiş, İmge Kitabevi, Ankara. (2003).
9. Yücel M.S-Demokrat Parti, Ülke Kitapları,istanbul. (2001).

ŞİMALI KİPR TÜRK RESPUBLİKASI VƏ AZƏRBAYCAN ƏLAQƏLƏRİ.

Tural Hüseynzadə
Bakı Mühəndislik Universiteti
turalcomerdoglu@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Azərbaycan-Türkiyə əlaqələrinin əsas məğzində "bir millət iki dövlət"ifadəsi uzun müddət təsirli vasitə olmuşdur. Bu ifadəyə xüsusilə Kiprdəki Annan planı çərçivəsində yunan və türk tərəfində keçirilən referendum dövründə Şimali Kipr Türk Respublikasıda (ŞKTR) daxil olmuş və "bir millət üç dövlət" ifadəsi də səslənməyə başlanmışdır. Əslində bu ifadənin qabardılmasını düşünən də az deyil, lakin həqiqətən də Azərbaycan, Türkiyə və ŞKTR eyni irq, din, dil və ortaq mədəniyyətə sahib dövlətlərdir.

Azərbaycan hər zaman erməni problemi səbəbi ilə ŞKTR-sı ilə rəsmi diplomatik əlaqələr qura bilməmiş və ŞKTR-nın müstəqilliyini tanıya bilməmişdir. Bu halda vəziyyəti hamıdan gərgin olan ŞKTR-dır. ŞKTR Türkiyənin maddi, mənəvi dəstəyi ilə ayaqda qalsa da, dünyadan izolyasiya olunmuş şəkildə öz fəaliyyətini davam etdirməkdədir.

Müəyyən dövrlər ərzində Azərbaycan ŞKTR-sı ilə rəsmi əlaqələr qurmağa çalışmış, lakin mövcud geosiyasi vəziyyət buna imkan verməmişdir.

Açar Sözlər: Şimali Kipr Türk Respublikası, Türkiyə, Azərbaycan, Kipr.

Kiprdəki yunanların "bütün adaya tək sahib olmaq" siyasəti və bu siyasətlərini Avropa İttifaqı üzvü olaraq uğurla davam etdirilməsi Kiprdəki türklərin siyasi həyatına çox mənfi təsir göstərmişdir. ŞKTR-nın dünyadan izolyasiya olunmasına baxmayaraq, Azərbaycanda iqtidara gələn bütün hökümətlər ŞKTR-nı nəzərə almış və məcazi mənada ifadə etsək, Şimali Kiprə nəsə etməyi özlərinə vacib saymışlardır. Bu hisslər içində Annan planı referundumundan sonra, iki tərəf arasında əlaqələrin genişlənməsi üçün ciddi addımlar atılmışdır. Amma təəssüf ki, ŞKTR-nın müstəqilliyinin Azərbaycan tərəfindən tanınması mümkün ola bilməmişdir. Azərbaycanın geosiyasi vəziyyəti, Dağlıq Qarabağ problemi, erməni məsələsi və digər faktorlar bu prosesə mənfi təsir etmişdir.

İllərdir eyni taleyi yaşayan soyqırımına, qətllərə məruz qalan Kipr və Azərbaycan türklərinin qovuşması çox çətin siyasi proseslərin təsiri ilə mümkün olmamışdır. BMT-nin müəyyən qərarlarına əsasən ŞKTR-sı ilə əlaqə qurmaq məcazi mənada dəsək az qala cinayətlə bir tutulurdu.

ŞKTR-sı 1991-ci il 11 noyabr tarixində Azərbaycanın müstəqilliyini tanımışdır.

Azərbaycanın Ümumilli lideri Həydər Əliyəv 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Sovetində ŞKTR-nın müstəqilliyinin tanınması ilə bağlı böyük bir qərar almışdır.

Lakin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin tək başına belə bir rəsmi qərar ala bilməməsi ilə, hüquqi olaraq ŞKTR-nın müstəqilliyinin tanınması baş tutmamışdır.

ŞKTR-nın Bakıda "Ticarət Otağı Təmsilciliyi" mövcuddur. Lakin Azərbaycanın Lefkoşada heç bir buna bənzər təmsilçiliyi mövcud deyildir.

İki ölkə arasındakı əlaqələrə nəzər saldıqda, bu əlaqələr daha çox sosial və mədəni səviyyələrdədir. İqtisadi əlaqələr demək olar ki, yox səviyyəsindədir. Qarşılıqlı olaraq turizm sektorunda və kiçik ölçülü ədəbiyyat, folklor tədbirlərinin birlikdə təşkil olunması baş tutmuşdur. Qeyri rəsmi idman oyunlarında, xüsusilə universitetlər arası yarışlarda ŞKTR və Azərbaycan arasında əlaqələri görə bilərik.

Bunlardan əlavə 15 noyabr ŞKTR-nın müstəqillik günündə Azərbaycan nümayəndə heyyəti, millət vəkilləri, jurnalistlər, elm adamları ŞKTR-sındakı tədbirlərdə iştirak edirlər.

Həmçinin Türksoy təşkilatındakı ŞKTR-nın tədbirlərində də Azərbaycan iştirak edir.

1997-2001 ci illər arasında Azərbaycan İqtisadiyyat, Rabitə və İnformasiya nazirləri və ümumilikdə 64 Azərbaycanlı millət vəkili, 200 jurnalist və müxtəlif ölkələrin Azərbaycanda fəaliyyət göstərən 8 səfiri ŞKTR-nı ziyarət etmişdir.

Azərbaycan və ŞKTR arasındakı əlaqələrinin genişlənməsi 2000-ci ildən sonrakı dövrə təsadüf edir.

2004-ci ilin aprel ayında Annan planına əsasən keçirilən referendum dövründə Kiprin türk əhalisi böyük ümidlər içində idi. Amerika, Avropa İttifaqı, Türkiyənin hakim partiyası "Ədalət və Qalxınma", Kiprdəki hakim partiya “Cümhuriyyətçi Türk Partiyası”nın sədri belə tək qurtuluşun bu referundum olduğunu bildirmişdi. Türklərin hə, yunanların yox deyəcəyi təqdirdə belə ŞKTR-nın dünyadan izolyasi olunmasının başa çatacağına Kiprin türk əhalisi inanmışdı.

2004-cü ildə Azərbaycan prezidenti İlham Əliyəv Türkiyədə səfərdə olarkən ona verilən suallardan biri də Azərbaycanın ŞKTR-nın tanınması ilə bağlı idi. Onda İlham Əliyev demişdi ki, əgər Cənubi Kipr əhalisi referendumda yox desə, onda Azərbaycan Şimali Kiprin müstəqilliyini tanıyacaq. Bu fikrə Yeni Azərbaycan Partiyasının millət vəkili Mübariz Qurbanlı, Müsavat Partiyası sədri İsa Qəmbərdə dəstək olmuşdu. Lakin referendumun nəticələrindən sonra hər şey deyildiyi kimi olmadı. Birləşməyə türklər "hə", yunanlar isə "yox" dedilər, lakin buna baxmayaraq ŞKTR-nın izolyasiyadan azad olması baş tutmadı. Buda Avropanın və Qərbin iki tərəfli siyasət aparmasının bariz nümunəsi idi.

Azərbaycanda beynəlxalq hüquqa, və təzyiqlərə əsaslanaraq ŞKTR-nın müstəqilliyin tanıya bilmədi. Yunan tərəfi, Avropa İttifaqının iclaslarında Azərbaycan əleyhinə çıxışlar etmiş və Avropanın Azerbaycana təyziq göstərməsini istəmişdirlər. Avropa parlamentində yunan nümayəndələrinin Azərbaycan millət vəkillərinə də təyziqləri olmuşdur.

2005-ci ildə baş verən iki hadisədən sonra Azərbaycan-ŞKTR əlaqələrinə müsbət təsir etdi. Birincisi Amerika konqresinin bir heyətinin 2005-ci 30 may tarixində Ərcan hava limanına gələrək ŞKTR-nı ziyarət etmələri, digəri isə İslam Konfransı təşkilatının 2005-ci il iyununda baş tutan "Xarici İşlər Nazirləri"nin görüşü vaxtı üzv dövlətlərin ŞKTR-sı ilə əlaqələrin yaranması ilə bağlı çağırış edilməsi, əlaqələrin genişlənməsinə zəmin yaratdı.

Bu hadisələr yaşanan günlərdə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan Amerikaya səfər etmişdir. Bu ziyarətdən dərhal sonra 29-30 iyun tarixində isə Bakıya səfərə gəlmişdir. Bu ziyarətlər ərzində Azərbaycan prezidenti İlham Əliyəv yenidən ŞKTR-sı ilə bağlı bəzi açıqlamalar vermişdir. Belə ki, Azərbaycanda ŞKTR-na birbaşa təyyarə uçuşlarının başlanacağını, Azərbaycan gömrük keçid məntəqələrində ŞKTR-na məxsus pasportların qəbul ediləcəyini və ən qısa zamanda Azərbaycanlı şirkətlərin ŞKTR-da ofislər açaraq buraya sərmayələr qoyacağını qeyd etmişdi. İlham Əliyəvin bu sözlərindən sonra Amerika Xarici İşlər Nazirliyinin mətbuat katibinə Azərbaycanla-ŞKTR arasında uçuşların başlayacaq ola bilinməsi ilə bağlı bir sual verildi.

Bu suala cavab olaraq katib, bu məsələnin Azərbaycan və ŞKTR arasında olduğunu qeyd etmiş və Amerikanın ŞKTR-na olan embarqoların azaldılması hədəflədiyini qeyd etmişdir. İlham Əliyəvin bu açıqlamaları qısa zamanda öz effektini göstərmişdir, ŞKTR-da 20 iyul dövlət bayramı tədbirlərinə Azərbaycandan 8 nəfəri millət vəkili olmaqla, çox sayda şəxslər iştirak etmişdirlər. Əsas vacib məsələ isə 22-27 iyul və 27-31 iyul 2005-ci il tarixlərində Azərbaycanlı iş adamları böyük heyyətlə ŞKTR-na gəlmişdirlər. Azərbaycanın ən böyük şirkətlərindən 60 iş adamı, 23 jurnalist və mədəniyyət adamlarından təşkil olunmuş heyyət, Azərbaycan bayraqlı bir təyyarə ilə Bakıdan Ərcan hava limanına uçdular.

Azərbaycan Türkiyə İşadamları Birliyinin (ATİB) sədri Əhməd Ərəntok bu ziyarətlər çərçivəsində ilk əvvəl ŞKTR-nın dövlət adamları ilə görüşmüş, daha sonra "Kipr Türk Sənayə Otağı", "Kipr Banklar Birliyi", "ŞKTR Sığorta Birliyi", "Kiprli Gənc İş Adamları Birliyi" üzvləri ile geniş miqyasda göruşlər keçirmiş və protokol imzalanmışdır. İmzalanan bu protokollara əsasən Azərbaycan ilə ŞKTR-sı arasında ticarət həcminin ilk mərhələdə 5-7 milyon dollar, daha sonrakı illərdə isə 50 milyon dollara qədər artırılması hədəflənmişdir.

Azərbaycanın ŞKTR-dan portağal idxal etməsi, Şimali Kiprdə azərbaycanlılar tərəfindən böyük bir hotelin tikilməsi, Azərbaycanın Sky Life turizm şirkətinin ŞKTR-na turların təşkil etməsi, ŞKTR-lı corab istehsalçılarının Azərbaycanda fabrik açmaları, Azərbaycan Star televizor və kondisioner fabriklərinin ŞKTR-da rəsmi nümayəndəliklərinin açması, Azərbaycanın ŞKTR-dan zeytun yağı və portağal konservası idxal edəcəyi, uçuşların isə iyul ayından başlayacağı açıqlanmışdı. Bu xoş ziyarətlərə vaxt itirilmədən 28-31 avqust tarixlərində ŞKTR-nın xarici işlər naziri Sərdar Dənkdaşın, Prezident Rauf Dənkdaşında olduğu 93 nəfərlik bir heyətlə cavab verilmişdir. Şimali Kipr hava yollarının təyyarəsi Ərcan hava limanından qalxaraq Bakıya endi, ilk dəfə Türkiyədən başqa bir ölkəyə Ərcan hava limanından bir təyyarə yola düşmüşdü.

Bakıda böyük sevgi ilə qarşılanan Kiprli türklər və xüsusilə Rauf Dənktaş öz məmnuniyyətini media önündədə ifadə etmişdi. Hər iki ölkənin dövlət nümayəndələri ilk əvvəl ŞKTR-da vəqf açmaqları mövzusunda razılaşdılar. Bundan sonra baş tutan görüşlərdə ŞKTR-Azərbaycan iş formundan sonra ATİB ilə "Kiprli Türk Hotelçilər Birliyi", "Kipr Türk Sitrus Meyvələri İxracatcılar Birliyi" və Kiprli Türk Təsərrüfatçılar" birliyi ilə beş ayrı protokol imzalandı. 2005-ci il 3-5 oktyabr tarixlərində Lefkoşada ŞKTR-Azərbaycan vəqfinin açılış mərasimi oldu. Tədbirə 60 nəfərlik Azərbaycan heyyətidə qatılmışdı.

Şübhəsiz ki, Azərbaycanın ŞKTR-na doğru atdığı bu addımların əsas səbəbi kimi İslam Konfransı Təşkilatını və ya Amerika heyətini göstərsək səhv olardı. Əsas səbəblərdən biri Türkiyənin beyxəlxalq arenada, illərdir davam edən Dağlıq Qarabağ münaqişəsində daima Azərbaycanın yanında olması idi.

Amerikanın və Avropanın bütün təyziqlərinə baxmayaraq Türkiyə işğalçı Ermənistan ilə diplomatik əlaqələr qurmamış, dövlət sərhədlərini açmamışdır .Bu mənada Türkiyənin Azərbaycanın mənafeyini qoruması, Azərbaycanında Şimali Kiprlə bağlı bu qərarları böyük bir jest olmuşdur. Lakin bütün bu hədəflər və istəklərin reallaşması mümkün olmadı.

Bilindiyim kimi 2004-cü il 1 may tarixində Kipr Respublikası Avropa İttifaqının üzvü olmuşdur. Bu üzvlük Kiprə Avropa İttifaqının qərarlarına təsir etmə gücü vermişdir. Belə ki, Kipr, Yunanıstan ilə birlikdə Türkiyənin Avropa İttifaqı ilə əlaqələrində daima maneə törətmiş və veto hüququ ilə Türkiyəni mədəni formada təhdit etmişdirlər. Avropa İttifaqında ŞKTR-na embarqoların davam etmələri üçün əllərindən gələni etmiş, bu embarqoları yumuşaldılmasına çalışan ölkələri isə, BMT və Aİ-nın əli ilə bundan əl çəkməyə sövq etmişdirlər. Yunanlar bütün bu cəhdlər nəticəsində Azerbaycan və ŞKTR əlaqələrini dondurmağı bacardılar. Bu əlaqələr formatında yunanların Azərbaycanın yaralı yeri olan Dağlıq Qarabağ münaqişəsində tarixi dostları ermənilərin yanında olmaları bu prosesdə böyük rol oynamışdır.

Azərbaycanın ŞKTR-sı ilə əlaqələrinin yaranması ərəfində Azərbaycanın Afinadakı səfiri, xarici işlər nazirliyinə dəvət edilmiş və Azərbaycana nota verilmişdir. Əgər Azərbaycan ilə ŞKTR arasında əlqələr davam ediləcəyi halda, Yunanıstan və Kiprin Qarabağı müstəqil olaraq tanıyacağı, diplomatik əlaqələrin başlanacağını, birbaşa uçuşların həyata keçiriləcəyi Azərbaycan tərəfinə bildirilmişdir. Hətta yunanlar Azərbaycandan Şimali Kiprə baş tutacaq olan uçuşların Avropa İttifaqı bir ölkənin hava məkanını pozacağı üçün Avropa İttifaqına şikayət ediləcəyini ifadə etdilər. Daha sonra Yunanıstanın telekomunikası şirkəti olan Vivacell 2005-ci il oktytabr ayından Qarabağda qanunsuz fəaliyyətə başlamış erməni şirkətinin əli ilə bölgəyə 22.8 milyonluq bir yatırım etmişdir. Yunan tərəfinin təyziqləri sayəsində Avropa İttifaqı bunlardan əlavə olaraq Azərbaycanla davam etdirdiyi hava- nəqliyyat müqaviləsini dondurmuşdur. Əgər Şimali Kiprlə əlaqələrin davam etməsi halında Azərbaycanın Avropa Qonşuluq Proqramındakı fəlaliyyətinin sonlandırılacağı da ifadə edilmişdir. Lakin proqramı Azərbaycansız davam erdirmək istəməyən Avropa İttifaqı proqramı müvəqqəti olaraq dondurmuşdur. Yunanıstan və Kipr Avropa İttifaqına o qədər təyziq göstərdilər ki, sonda Avropa İttifaqının xarici əlaqalər üzrə təmasilçisi Ferrore Valdner "Azərbaycana ŞKTR-ilə əlaqlərin kəsilməsini istəmiş, əks halda Avropa İttifaqının Azərbaycan ilə əlaqələrinə yenidən baxılacağını" rəsmi səkildə qeyd etmişdir.

Bunlardan sonra Azərbaycan tərəfi ŞKTR ilə heç bir rəsmi əlaqələrinin olmayacağını açıqlamış və əlaqalər dondurulmuşdur.Növbəti illərdə rəsmi heç bir əlaqə olmamışdır, sadəcə olaraq Azərbaycanlı tələbələr ŞKTR-da təhsil almışdırlar.

2011-ci ildə Bakıda Türkiyədən gələn jurnalistlərlə görüşən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin rəhbəri Əli Həsənova jurnalistlər tərəfindən ŞKTR-nı tanımaqla bağlı sual ünvanlandı. O isə sualın cavabında "Azərbaycanın Şimali Kiprin müstəqilliyini tanımasını istəməyə haqqınız vardır biz bunu başa duşürük, lakin sizin dövlət rəhbərlərin bunu çox gözəl bilir ki, Azərbaycan ŞKTR-nın müstəqilliyin tanısa, onda 15 dövlət də Dağlıq Qarabagın müstəqilliyini tanıyacaqdır. Bunu gözünüzdə tərəziyə qoyun, Türkiyə bunu istəməz.

Nəticə

Ümumilikdə ŞKTR və Azərbaycan arasındakı əlaqələr diplomatik olmasa da, mədəni, milli və etnik şəkildə davam etməkdədir.

Araşdırmamızda gördüyümüz kimi Azərbaycan öz qardaşına fürsət düşdükcə dəstək verməк istəmiş, lakik bir çox səbəbə görə istəklər həyata keçə bilməmişdir.

Eyni milli kimliyə, etnik mənşəyə sahib iki dövlət, eyni bəlalardan da keçmişdirlər. Həm Kipr türkləri, həm də Azərbaycanlılar vandallar tərəfindən soyqırımına məruz qalmış, əhalinin müəyyən hissəsi öz torpağından məcburi köçkün düşmüşdür. Eyni taleyi paylaşanlar, bir-birinidə eyni şəkildə başa düşürlərdir.

Hazırki dövrdə Qarabağ azad olunsa da, Azərbaycanın ŞKTR-nı tanıması aktual məsələ deyil. Qarabağda yerləşən seperatçıların müəyyən qalıqlarının hələ də orada olması, beynəlxalq aləmin Kipri bütöv dövlət kimi müstəqil tanıması, Kiprin Avropa İttifaqının üzvü olması, bölgədəki geosiyasi vəziyyət, Azərbaycanın qarşısında duran məneələrdir. Təbii ki, Türkiyə və ŞKTR tərəfi də bütün bunların fərqindədir və Azərbaycana heç bir mədəni təyziq göstərilmir. Əksinə, Türkiyə 44 günlük vətən müharibəsi dövründə və müharibədən sonrakı müddət ərzindədə daima Azərbaycanı dəstəkləmişdir. Həmçinin, ŞKTR-nın baş naziri Ərsin Tatar da Azərbaycana dəstəklərini ifadə etmiş və Azərbaycanlıları özlərinə qardaş olaraq bildiklərini söyləmişdir.

Bəlkə bir gün, dünyada gesosiyasi vəziyyət və aktorlar dəyişdikdə, Azərbaycan və ŞKTR arasında diplomatik əlaqələr yaranar və Azərbaycanda ŞKTR-nın suverenliyin tanıyar.

Hər nə qədər Azərbaycan dövlət olaraq ŞKTR-nı tanıya bilməsə də Azərbaycan xalqı hər zaman öz qardaş xalqını dəstəkləmiş və onların yanında olmağa çalışmışdır. Hal-hazlırda yüzlərlə tələbə Şimali Kiprdə təhsil alaraq, mədəni təşkilatların fəaliyyəti ilə Kipr türkləri və Azərbaycanlılar arasında körpü rolunu oynamaqdadırlar.

Ədəbiyyat siyahısı

1. AB'de Rumlardan Azerbaycan'a veto. Halkın Sesi Gazetesi, 14 Ekim 2005, sh.6. (2005).
2. Akgönenç, O. Azerbaycan, Ermenistan ve Türkiye, Dünya Gündemi, 26 Nisan-3 Mayıs 2009. (2009).
3. Arıklı, E. Azerbaycan KKTC'yi tanıtabilir mi? 21 Mayıs 2005 tarihinde http://kibrisligazetesi.net adresinden erişildi. (2005).
4. Atina'dan Azerilere misilleme. Milliyet Gazetesi, 22 Temmuz 2005, sh.6. (2005).
5. Azerbaycan yanlış bir adım atmamıştır. 31 Ocak 2007 tarihinde http://www.trncinfo.com adresinden erişildi. (2007).
6. Azerbaycan-KKTC ticareti gelişecek. 31 Ocak 2005 tarihinde http://www.tumgazeteler.com adresinden erişildi. (2005).
7. Bölgesel gelişmelere göre politikalarımızı değiştireceğiz. Kıbrıs Gazetesi, 29 .04.2009, sh. 40. (2009).
8. Cabbarlı, H. Azerbaycan'lı işadamlarının Kuzey Kıbrıs Türk Cumhuriyeti'ni ziyaret etmeleri, 29 Ocak 2007 tarihinde http://www.turksam.org adresinden erişildi. (2007).
9. Çeçen, A. Türkiye-Azerbaycan bütünleşmesi bölgesel planları bozar. (2003)
10. Dağı, İ. Azerbaycan'ın tercihi: Rusya mı, Türkiye mi?, Zaman Gazetesi, 21.04.2009, sh. 19. (2009).
11. https://www.cnnturk.com/2005/dunya/06/30/bakuden.kktc.acilimi/107770.0/index.html
12. https://www.haberturk.com/dunya/haber/650735-azerbaycan-kktcyi-taniyamaz-cunku
13. https://www.hurriyet.com.tr/dunya/aliyev-rumlar-hayir-derse-kktcyi-taniriz-217895

ŞİMALİ KİPR TÜRK RESPUBLİKASININ ELAN EDİLMƏSİ VƏ TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİ

Tural Hüseynzadə
Bakı Mühəndislik Universiteti
turalcomerdoglu@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Osmanlı İmperiyası 1878-ci il tarixində Kipri Böyük Britaniyaya 50 il müddətinə kirayəyə verdi. Kirayə müddətinin bitməsinə 8 il qalmış müddətdə yəni 1920-ci ildə türklər ilə yunanlar arasından ilk hadisələr başladı. Bu hadisələr sadəcə siyasi deyil, silahlı münaqişəyə qədər davam etdi. 1920-ci ildə yunanlar Böyük Britaniyanın razılığını almadan adanı Yunanıstana birləşdirmək istəyirdilər. Yunanlar daha sonra bundan xəbər tutan Britaniya əsgərlərini adadan çıxarmaq istəyirdilər.

1950-ci ilin sonuna qədər davam edən müstəqillik mübarizəsi 1960-cı ildə beynəlxalq razılaşmalara əsasən Kipr Respublikasının qurulmasına şərait yaratdı. Yunanlar ingilislərin adanı tərk etməsindən sonran türklərlə birlikdə ortaq dövlətə razı olmadılar. Kiprin bütün idarəçiliyini əllərinə almağa çalışdılar. Beynəlxalq razılaşmanı və öz konstitusiyalarını heçə sayaraq türklərə hücumlar etməyə başladılar. Kipr 1963-cü il 27 dekbar günündə dəhşətli bir vandalizmə şahid oldu. Silahsız və günahsız türklər güllələr ilə cəzalandırıldılar. Tək günahları Kiprdə yaşamaqları və türk olmaları idi. Uşaq, qadın, qoca görmədən yunanlar qabağlarına çıxan hər kəsi amansızlıqla qətlə yetirirdilər. Bu hadisə tarixdə "Qanlı Milad" adı altında qaldı.

Daha sonrakı dövrlərdə 1974-cü ilə qədər Kiprin müxtəlif yerlərində türklər qətl edilib, soyqırımına məruz qaldı, kütləvi məzarlıqlarda basdırıldı, minlərlə insan öz yurdundan köç etmək məcburiyyətində qaldı. Bütün bunlar, yunanların türklərə qarşı hiss etdiyi nifrət və ambisiyalar Kiprdə türklərin öz təhlükəsizliyini təmin etmək məqsədilə yeni bir quruluşun yaradılmasını vacib etdi.

Açar Sözlər: Şimali Kipr Türk Respublikası, Türkiyə, Yunanıstan, Kipr.

Yunanlı zabitlərinin, EOKA terrorçuları ilə etdikləri çevrilişdən xilas olan Kipr prezidenti Makarios, Nyu-Yorka qaçaraq, BMT-yə Yunanıstanı şikayət etmişdir. BMT təhlükəsizlik şurasında etdiyi müzakirədə - "Yunanlar Kipri işğal etmişlər, dövlət binalarında yunan bayraqları dalğalanmaqdadır. Təcili yardım maşınları davamlı olaraq yaralı daşımaqdadır. Onlar türklərdən daha çox təhlükəlidirlər. Vuruşmalar qanlı bir şəkildə davam etməkdədir. Türklər də böyük təhlükə içindədirlər. Bu işğal hərəkatı Kiprin müstəqilliyini tamamilə ortadan qaldırmışdır" kimi fikirlər səslənmişdir.

Makariosun yerinə, ondan daha çox türk düşməni olan Nikos Samsonun keçməsiylə birlikdə türklər üzərindəki təzyiq dahada artmışdır. Çevrilişdən sonrakı günlərdə, 1975-ci il 30 iyulda Almaniyanın səsi radiosunda aparıcı xanım İngrid Hebil çıxışında bu təzyiqlərə və türklərə istiqamətli vəhşiliyə diqqət çəkmişdir :

-İnsanlıq yunanların etdiyi bu cəlladlığı əsla qəbul edə bilməz. Türk evlərinə girən yunan milli milisləri, qadın və uşaqlar üzərinə güllə yağdırır, böyüklərin başlarını kəsir, tutduqları türk qadınlarının hamısına təcavüz edirlər.

Kiprdəki türklərin necə bir təhlükə ilə qarşı-qarşıya qaldığını qatil Nikos Samson belə etiraf etmişdir :

-Türkiyə müdaxilə etməsəydi, yalnız ENOSİS-I (Kiprin Yunanıtana birləşdirilməsi planı) elan etməklə qalmayacaq, eyni zamanda türkləri də məhv edəcəkdim.

Məhz belə bir halda Türkiyə hərəkətə keçmişdir. "Zəmanət və İttifaq Müqaviləsi"-də qeyd edilən haqqlarını birlikdə istifadə etmək üzrə İngiltərəyə müraciət etmiş, ancaq müsbət cavab ala bilməmişdir. İngiltərə, hadisəni qınamaq və yeni hökuməti tanımadığını elan etməklə kifayətlənmişdir.

Nəhayət Türkiyə tək başına adaya müdaxilə etdi və 1974-cü il iyulun 20-sində Kipr türklərinin qurtuluş hərəkatı başlamışdır.

15 iyuldakı Samson çevrilişi üzərinə BMT Təhlükəsizlik Şurasını hərəkətə keçirən Türkiyə olmuşdur. Yunanıstanın müdaxiləsi mövzusunda bir şey edə bilməyən Təhlükəsizlik Şurası, Türkiyənin Kiprə qarşıdurması ilə birdən-birə hərəkətlənmişdir. Buna, Türkiyənin adaya müdaxiləsi ilə birlikdə türk-yunan münasibətlərinin birdən-birə gərginləşməsi və iki ölkə arasında tam bir döyüş atmosferi yaranması mühüm rol oynamışdır. Çünki, Türkiyə və Yunanıstan hər an bir döyüşə girmək üzrə idilər. Kiprdəki türkləri yunan qırğınından qurtarmaq üzrə müdaxilə edən türk ordusu, iki gün ərzində Girnə-Lefkoşa yolunu nəzarət altına almış, Girnə sahillərində türk mövqelərini bir az genişlətmişdir. Ancaq, bütün bunlar təhlükəsizlik baxımından yetərsiz idi. İyulun 22-sin də atəşkəs baş tutmuşdur. Ayın 23-ü günü yunan quruplaşması istefa verdiyi kimi Samson da vəzifədən uzaqlaşdırılıb yerinə Qlafkos Klerides gətirilmişdir.

Bütün xoş məramlı cəhdlərə baxmayaraq yunanlar məsələnin həlli yolunda heç bir səy göstərməyib Kiprdəki türkləri təhdid etməyə davam etmişlərdir. Bu səbəblə Türk Silahlı Qüvvələri 1974-cü ilin 14 avqustunda ikinci hərəkata başlamışdır. 16 avqusta qədər davam edən bu hərəkatda, Türk Silahlı Qüvvələri Kiprin 38%-ini nəzarət altına almışdır.

Bu irəlliləyişlərə SSRİ və ABŞ tərəfindən sərt reaksiya verilmiş, ABŞ 1975-cil 5 fevraldan etibarən Türkiyəyə silah embargosu tətbiq etmişdir. Amerikanın silah embarqosuna Türkiyənin cavabı isə, 1975-ci il 13 gevralda Kipr Türk Federasiyasının qurulması olmuşdur.

Yunanlara üz verməkdən başqa bir işə yaramayan Amerika embarqosu 1978-ci il 26 sentyabr tarixində ləğv edilmişdir.

Kipr Məsələsinin həllinə istiqamətli olaraq edilən danışıqlar 1975-ci il 28 aprel tarixindən etibarən müəyyən fasilələrlə davam etmişdir.

Yunanların uzlaşmaz və Kiprdə türkləri yox sayan rəftarları qarşısında, Kipr Türk Federasiya Məclisi 1983-cü il 5 Noyabr tarixində səs vermə yolu ilə Şimali Kipr Türk Respublikasını rəsmi olaraq elan etmişdir. Şimal Kipr Türk Respublikasını Türkiyə ilk gündən etibarən bir dövlət kimi tanımışdır. Ölkənin prezidenti Kipr türklərin lideri Rauf Dəndaş seçilmişdir.

Şimali Kipr Türk Respublikasının elanına ABŞ, SSRİ, Aİ üzvü dövlətlər, BMT sərt reaksiya verərək bu hadisəni qınadılar. Ən maraqlı qınama isə 48 dövlətdən ibarət olan İngilis Millətləri Birliyindən gəlmişdir. Bu dövlətlər 1983-cü il noyabr ayında Yeni Dehlidə etdikləri yığıncaq da ortaq məlumatda yeni türk dövləti elanı qərarını qınadı. Hətta Kipr problemi üçün, Avstraliya, Hindistan, Nigeriya və Zambiyadan

qurulmuş bir hərəkat qrupu quruldu. Bütün bu ölkələr sadecə yarım əsr əvvəl İngilis müstəmləkəsi olduqlarını və müstəmləkəçilikdə nələr çəkdiklərini unutmuş kimi idilər.
Yunanlar və onların idarə etdiyi digər qüvvələrə rəğmən Şimali Kipr Türk Respublikası inkişaf etməkdə davam edirdi. Yunanlar isə bu inkişafa mane olmaq üçün hər fürsəti dəyərləndirirdilər. Yunanıstan, həm qurularkən, həm də qurulduğu tarixdən bu günə qədər Türkiyəyə qarşı qərb dünyasını istifadə etmişdir. Bu adəti Kipr mövzusunda da davam etdirdilər. Yunanıstan, Kipr mövzusunu həm Avropa ölkələri, həm də ABŞ-da Türkiyə əleyhinə istifadə etməyə davam etməkdə idi.
Yunanıstan 1981-ci ildə Avropa İttifaqına girərkən bu təşkilat içərisində Türkiyəyə qarşı fəaliyyət göstərməyəcəyi istiqamətində bir tərəddüd vardı. Bu gün Ai-nın üzvü olmasını Türkiyəyə qarşı bir üstünlük olaraq istifadə edən Yunanıstan, Cənub Kipr Yunanlar seqmentini də bütün Kipr adına Ai-na üzvü etdirərək, Türkiyənin haqqlarını ləğv etməyə çalışmaqda idi . Bu vəziyyəti Qlafkos Klerides, 1995-ci ildə bu sözlərlə etiraf etmişdir :
Kiprin Avropa İttifaqına daxil olması Türkiyənin "Zəmanət və İttifaq Müqaviləsi"-dən qaynaqlanan tək tərəfli müdaxilə haqqını ortadan qaldıracaq.
Türkiyə, 1983-ci il 15 noyabr tarixində müstəqilliyini elan edən Şimali Kipr Türk Respublikasını tanıdığını elan etmiş və qarşılıqlı olaraq səfir təyin etmələri reallaşdırılmışdır.
1990-cı illərin ikinci yarısında Kiprlə bağlı müzakirələr təkrar artdı. Bu müzakirələrdə ŞKTR, Kiprdə federal quruluşun mümkün ola bilməyəcəyini, buna qarşılıq konfederasiya qurula biləcəyi tezisini irəli sürmüşdür. Beynəlxalq arenada tanınmamasına baxmayaraq ŞKTR-nin Kiprin gələcəyini təyin etmədə bərabər haqq və statusa sahib olma mübarizəsi davam etməkdədir. BMT Baş katibinin xoş niyyət səyləri çərçivəsində davam edilməyə çalışılan dialoq prosesi, Kipr Yunan Rəhbərliyinin Kipr türklərinə bərabər status tanımaqda istəksiz davranmaları və Kiprin tək qanuni nümayəndəsi olduqları iddiaları danışığı sıxlıqla kəsilməyə uğratmışdır.
Bu vaxt Yunanıstan və Kipr yunan rəhbərliyi 1994-cü ildə "Ortaq Müdafiə Doktrinası" adlı bir sənəd imzaladı. Bu doktrina çərçivəsində Yunanıstan, adadakı türk hərbi varlığının 30 mindən üstünə çıxarılması halında buna uyğun tədbirlərini artıra və Kipr yunan əhalisinə istiqamətli hər hansı bir müdaxiləni döyüş səbəbi olaraq qəbul edəcəkdir. Bu sənəd, Türkiyənin də Kipr Türk Cəmiyyəti ilə olan əlaqələrini artırmasını zəruri etmişdir.
Kipr probleminin həll etmək üzrə ŞKTR prezidenti Rauf Denktaş, 20 yanvar 1995 tarixində 14 maddəlik bir layihə hazırlayaraq yunan tərəfini görüşməyə dəvət etmişdir. Lakin, bu təklif 21 yanvarda Klerides tərəfindən rədd edildi. 1995-ci ilin mayında Londondakı iki tərəf arasında baş tutan görüşdə heç bir nəticə əldə edilməmişdir. 1996-1997-ci illərdə Kipr problemində əhəmiyyətli irəliləyişlər yaşandı. bunlar; Kiprdəki sərhəd nümayişləri və qarşıdurmaları, Yunanıstan və motivimindəki Cənubi Kipr Rəhbərliyinin xüsusilə 1996 və 1997-ci ildə həyata keçirdiyi sərhəd dəlmə hərəkətləri, edilən müştərək hərbi manevrlər, həddindən artıq silahlanma proqramı çərçivəsində Rusiyadan tank və S-300 raketləri almaları və yunan tərəfinin Aİ-na üzv olmağa çalışmasıdır.
Yunan tərəfinin adaya raket yerləşdirməsi, sərhəd pozuntuları kimi təcavüzkar fəaliyyətlərə qarşı ŞKTR ilə Türkiyə arasında ortaq bir bəyanat imzalanaraq, ŞKTR-na edilmiş bir hücumun Türkiyəyə edilmiş sayılacağı, lazım olduğunda Türkiyənin adada hərbi dəniz və hava bazaları qura biləcəyi ifadə edilmişdir. Bənzər bir qərar Kipr Türk iclasında qəbul edildi.
1997-ci ildə iki ölkə arasındakı iqtisadi və maliyyə sahələrində "Birlik Şurası" qurulması qərara alındı. Bu Şuranın həmçinin təhlükəsizlik, müdafiə və xarici siyasət sahəsində əməkdaşlığa yönəldilməsi də nəzərdə tutulur.
1998-ci il yanvar ayında ŞKTR və Türkiyə arasında sərmayələrdə dövlət yardımları razılaşması imzalanmışdır. Bu razılaşmadan sonra, fevral 1998-ci ildə iki ölkə arasında "Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi" və 1999-cu ildə isə iki ölkənin vətəndaşları üçün əlavə imkanın tanınması haqqında saziş imzalanmışdır.
Uzun illərdən bu yana məhdudiyyətlərə məruz qalan ŞKTC-nin bu zülmü bir azda olsa aradan qaldırılması üçün Türkiyə Respublikası əlindən gələn bütün töhfəni vermiş və iki ölkə arasında edilən razılaşmalarla; bu məhdudiyyətlər tamamilə ləğv edilənədək, ŞKTR-nın başda Türkiyə və Avropa ölkələri olmaq üzrə bütün dünyaya ixrac ən yaxşı şərtlərlə etməsini təmin etmək və ŞKTR-nın beynəlxalq ticarət sisteminə açılımını təmin etmək hədəflənmişdir.
2000-ci ilin əvvəllərində ŞKTR-da yaşanan banklar böhranı nəticəsində böyüyən struktur və iqtisadi problemlərin həllinə istiqamətli olaraq 2000-ci ildən etibarən iqtisadi inkişaf proqramları həyata keçirilmiş,

Türkiyənin bu proqramlara maliyyə və texniki dəstək təmin etməsinə imkan verən iqtisadi və maliyyə əməkdaşlıq protokolları imzalanmışdır.
2000-ci ildən etibarən ŞKTR ilə Türkiyə arasındakı iqtisadi və mədəni əlaqələr daha da artmışdır. Türkiyə ilə ŞKTR arasındakı iqtisadi, maliyyə əlaqələrinin əsas məqsədi ŞKTR-nın iqtisadi yüksəlişini hədəfləməkdə idi. İqtisadi və maliyyə əlaqələri iki tərəf arasındakı imzalanan müqavilələrin çərçivəsindədir.
2001-ci ildə iki ölkə arasında 3 illik iqtisadi və maliyyə əlaqələrinin genişləndirilməsi haqqında protokol imzalanmışdır.2 004-cü ildə ŞKTR-nın iqtisadiyyatında baş verən müsbət irəliləyişləri nəzərə alaraq 3 illik protokolun müddəti uzadılmışdır.
2004-cü ildə BMT-nin tövsiyyə etdiyi "Annan planı"na əsasən Kiprdə hər iki tərəfdə referendum keçirildi. Plana əsasən iki xalq birləşərək bir dövlət qurulacaq və 10 aydan bir hakimiyyət türklər və yunanıar arasında dəyişdiriləcəkdi. Dövlətin nazirlərinin üçdə biri türklərdən olacaqdır. Hər iki tərəfdə referendum keçirildi. Nəticə olaraq türk tərəfi birləşməyə hə, yunan tərəfi isə yox dedi. Sonda məsələ yenə həll olunmamış qaldır. Bu plana Türkiyədə Kipr türkləri ki, müsbət yanaşdı.
2008-ci ildə ŞKTR iqtisadiyyatında baş verən böhran nəticəsində Türkiyə ilə iqtisadi əlaqələr daha yaxın bir əlaqə şəklinə gəlmişdir. İqtisadi böhran səbəbilə 2007-2009 dövrü əlaqələr programının yerinə yetirilə bilməmişdir.Hər iki tərəf 2010-2012 illər arasında özəl sektorda rəqabət gücünün artırılması, xidmət sektorunun inkişaf etdirilməsi barədə yeni proqram paketi həyata keçirilmişdir. Proqram iki ölkə arasinda imzalanan və 3 illik müddət ərazində ŞKTR-na nə qədər yardımın ediləcəyini də qeyd edilən beynəlxalq bir müqaviləyə esaslanmışdır. 3 illik proqramın həyata keçdiyi dövrdə hər ilin sonunda yekun protokol tərtib edilməli idi.
İki ölkə arasında 2013-2015 illəri əhadə edən "Davamlı iqtisadiyyata keçid proqramı" qəbul olunmuşdur. Proqramda əsas məqsəd dövlət xərclərinin iqtisadiyyat içində payının azaldılması, vergi gəlirlərinin özəl səktorun inkişafına ayrılması, daxili borc, faiz ödəmələrinin başladılması, biznesdə rəqabətin artırılması, liberal bir bazar mühitinin yaradılması əsas məqsədlərdən idi.
ŞKTR ilə Türkiyə arasında yeni bir proqram protokolu imzalandı. 2016-2018 illəri əhatə edən "Sruktur Transformasiya proqramı" qəbul edilmişdir. Bu proqram ŞKTR-sı tarixində ən əlverişli islahat proqramı idi. Digər tərəfdən Türkiyə hər zaman olduğu kimi bu dövrdədə ŞKTR-nın ehtiyacı olan maddi, texniki dəstəyi verməkdə davam etmişdir. Qeyd edilən proqram həcm olaraq kiçik olsa da, daha müsbət irəliləyişləri hədəfləyən,səviyyəli bir özəl sektoru formalaşdırmaq üçün ən ideal islahat proqramı idi. Proqram əsasında boş daxili xərcləmələrin yerinə, müəyyən sektorları inkişaf etdirəcək xərcləmələr aparılmalı idi.
Bu proqramlardan əlavə Türkiyə ilə illər ərzində müxtəlif sahələrdə müqavilələr imzalanır və Türkiyə öz dəstəyini ŞKTR-na maksimum gücü ilə göstərir.
Covid-19 pandemiyası başlayandan Türkiyə Kiprə çox sayda test, dərman məhsulları göndərmişdir. Pandemiyanın ŞKTR-nın səhiyyəsinə, iqtisadiyyatına vurduğu zərbəni azaltmaq üçün, maddi-texniki dəstəklər olunmuşdur.
2021-ci ildə Ankarada ŞKTR və Türkiyə arasında "İqtisadi və maliyyə işbirliyinə dair" protokol imzalandı. Protokola əsasən Türkiyə ŞKTR-na iki milyard iki yüz əlli milyon lirə pulu hədiyyə etmişdir. Protokol Covid-19 pandemiyası dövründə yaşanılan sıxıntıların aradan qaldırılması, səhiyyə sahəsində boşluqların tamamlanması, elektron dövlət layihəsinin həyata keçirilməsi, iqtisadi sektorlardakı problemlərin aradan qaldırılmasını hədəfləyirdi.
2021-ci ilin iyul ayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ŞKTR-na rəsmi səfərə getmişdir.2021-ci ilin dekabr ayında isə ŞKTR-nın prezidenti Ərsin Tatar Türkiyəyə rəsmi səfər etmişdir.Səfərlərdə dövlər başçıları ŞKTR-nın gələcək dövründən, iki tərəflər arasında əlaqələrin daha da genişləndirilməsindən söhbətlər etmişlərdir.

Nəticə

Nəticə olaraq onu qeyd edə bilərik ki, illərnən davam edən yunan zülmündən sonra adada türklərin azad və demokratik yaşamasının əsas rolunu məhz Türkiyə oynamaqdadır. Şirin suyundan, geyim vasitələrinə qədər olan demək olar ki, hər məhsul məhz Türkiyədən tədarük edilir. Buna səbəb isə Türkiyənin ambisiyası deyil, əksinə beynəlxalq aləmin Kiprdəki türklərə olan ambisiyalarıdır. Dünyadan təcrid olundurulmaq istəyən Kipr türklərinin təhlükəsiz yaşamaq yolları bir türk dövlətinin qurulması idi.
Kiprli türklərin əsas məqsədi Türkiyənin adada hər zaman haqq və öhdəliklərinin olmasıdır. Cənubdakı hökumət ilə imzalanacaq hər bir razılaşma məhz Türkiyənin və kiprli türklərin maraqlarına cavab verməlidir. Buna əsasəndə ŞKTR və Türkiyə arasındalı xarici əlaqələr hər zaman ön planda olmalıdır.

Türkiyə Respublikası adadakı iki tərəf arasında illərdir davam edən müzakirə müddətində daima kiprli türklərin mənafeyini müdafə etmiş və ən ədalətli həll yolunu dəstəkləmişdir.
Kiprli türk xalqı və ŞKTR-na tətbiq olunan izolyasiyanın başa çatması və beynəlxalq arenada kipr türkünün səsinin eşidilməsi, siyasi olaraq Türkiyə ilə yaxın işbirliyinin əsasında həyata keçirilməkdədir.
Kiprli türklər çətin bir iqtisadi vəziyyətdə yaşasalarda, yunan zülmündən, yeni bir soyqırım yaşamaq təhlükəsindən uzaqdırlar. Türk əsgərinin qətiyyətli duruşu, ŞKTR-nın və Türkiyənin Kiprlə bağlı qətiyyətli mövqeyi buna əsas verir.
Türkiyəni yeganə real zamin dövlət olmasını tarix özü göstərmişdir. 1974-cü ildə Bülənt Əcəvit hökümətinin qətiyyətli hərəkəti olmasaydı bəlkə də, Kiprdə hal-hazırda bir türk belə qalmayacaqdı.
Məqaləni Kipr türklərinin əfsanəvi lideri Rauf Dənktaşın bir ifadəsi ilə bitirmək yerinə düşərdi. "Kipr türkdür və türk qalacaqdır".

Ədəbiyyat siyahısı

1. Bozkurt Enver ve Havva Demirel-Birleşmiş Milletler ve Avrupa Birliği Kapsamında Kıbrıs. (2004).
2. Eroğlu Hamza Kıbrıs Uyuşmazlığı ve Kıbrıs Barış Harekatı. Ankara: Emel Matbaacılık. (1975).
3. Hakeri Bener Hakkı Başlangıcından 1878'e Dek Kıbrıs Tarihi. Lefkoşa: KKTC Milli Eğitim Kültür Bakanlığı Yayınları. (1993).
4. İsmail Sebahattin Kıbrıs'ta Yunan Sorunu (1821-2000). Lefkoşa: Özyay Matbaacılık. (2000).
5. Özarslan Bahadır Bümin Uluslararası Hukuk Açısından Kıbrıs Sorunu ve Avrupa Birliğinin Yaklaşımı. İstanbul: IQ Kültür Sanat Yayıncılık. (2007).
6. https://mfa.gov.ct.tr/tr/dis-politika/turkiye-cumhuriyeti-ile-iliskiler/
7. https://www.tarihiolaylar.com/tarihi-olaylar/kanli-noel-1395

TÜRKIYƏDƏ SURIYALI MIQRANTLAR

VILYAM SADIQOV YAŞA
BAKI MÜHƏNDISLIK UNIVERSITETI
İQTISADIYYAT VƏ IDARƏETMƏ
VSADIQOV@STD.BEU.EDU.AZ
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Suriyadakı vətəndaş müharibəsi Türkiyə, İordaniya, İraq və Livan kimi qonşu ölkələrə köçən çoxlu sayda qaçqınlara səbəb oldu. Hazırda BMT-nin məlumatına görə, qaçqınların sayı, təxminən, 6 milyon nəfərə çatır. Suriyalı qaçqınların əksəriyyəti Türkiyəyə, ilk növbədə, ölkənin cənub-şərq sərhəd rayonlarında köçüb. Türkiyədə daxili təhlükəsizlik təhdidi əhali arasında etnik və dini tərkibə görə fərqlə özünü göstərir ki, bu da bütün türk cəmiyyətinin sabitliyinin və inkişafının qorunmasına səbəb olmuşdur. Məqalədə Türkiyəyə miqyaslı miqrasiya axınının səbəbləri və nəticələri, həmçinin Türkiyə hökumətinin Suriya qaçqınlarına qarşı siyasəti təhlil edilir.
AÇAR SÖZLƏR: TÜRKIYƏ, SURIYA, MIQRANTLAR, AÇIQ QAPI, 3RP
Abstract. The civil war in Syria has caused a large number of refugees who migrated to neighboring countries such as Turkey, Jordan, Iraq and Lebanon. Currently, according to the UN, the number of refugees is about 6 million. The largest number of Syrian refugees resettled in Turkey, primarily in the border south-eastern regions of the country. The threat to internal security in Turkey is manifested by the difference in ethnic and religious composition of the population, which has become a challenge to the preservation of stability and sustainable development of the entire Turkish society. The article analyzes the causes and consequences of the large-scale migration flow to Turkey, as well as the policy of the Turkish government against Syrian refugees.
Keywords: Turkey, Syria, migrants, open door, 3RP

GIRIŞ

Suriyadakı vətəndaş müharibəsi qaçqınların ən böyük axınına və bəlkə də ən pis humanitar böhrana gətirib çıxardı. Suriyada vətəndaş müharibəsinin başlanmasından bəri qaçqınların böyük axınlarından biri Türkiyəyə idi və bu gün Türkiyədə 3,763,565 [10] suriyalı qaçqın qeydiyyata alınıb. 2011-ci ildən bəri Suriyada davam edən vətəndaş müharibəsindən qaçan 3,4 milyondan çox suriyalı Türkiyədə sığınacaq axtarıb və həmin dövrdə Türkiyə hökuməti qaçqınlara yardım göstərməyə fəal şəkildə kömək etməyə başladı. Türkiyə hökuməti və Birləşmiş Millətlər Təşkilatının (BMT) agentlikləri, donorlar və tərəfdaşlardan ibarət koalisiyası, qeyri-hökumət təşkilatları, Aİ və müxtəlif digər qurumlar sığınacaq, ərzaq və keyfiyyətli, əlverişli xidmətlərə ədalətli çıxış təmin etməklə müvəqqəti müdafiə altında olan suriyalılara dəstək göstərmək üçün birgə səylər göstəriblər. 2011-2013-cü illər ərzində Türkiyədə suriyalı qaçqınların sayının getdikcə artması müşahidə olunmuş, sonrakı bir neçə il ərzində qəbul və məskunlaşma dövrlərində kəskin artım, daha sonra isə 2015-2016-cı illərin sonlarına inteqrasiya və naturalizasiya dövrünə potensial keçid dövründə sabitləşmə müşahidə edilmişdir. Qəbul və məskunlaşma mərhələləri "açıq qapı" siyasətinin qəbul edilməsi və "qonaqlar" ın "müvəqqəti müdafiə" hüquqlarının genişləndirilməsi ilə başladı.

- İlk dövr 2011-ci ildə suriyalıların Türkiyəyə ilk axınından başlayıb və 2015-ci ilin yayına qədər davam edib. Türkiyə hökuməti "açıq qapı" siyasətinə sadiq qalaraq, Hatay, Kilis, Qaziantep və Şanlıurfun cənub əyalətlərində çadırlar qurmağa başlayıb və suriyalı qaçqınları "qonaq" adlandırıb. Bu dövrdə, xüsusilə də 2012-ci ilin ikinci yarısında Kofi Annanın Suriyada atəşi dayandırmaq üçün altı məntəqədən olan planının iflasa uğramasından sonra, Suriyada münaqişələr dərinləşdi və orta hesabla Türkiyəyə hər ay 20 000-dən çox qaçqın gəldi ki, onların da sayı 2013-cü il ərzində artmaqda davam etdi. 2013-cü ildə Suriyadakı vətəndaş müharibəsinin üçüncü mərhələsində Suriyalı qaçqınların Türkiyəyə axını pik nöqtəsinə çatdı. İlin birinci yarısında ölkəyə gələn qaçqınların orta aylıq sayı təxminən 40 000 nəfər təşkil edirdi.
- 2015-ci ilin yayında Türkiyədən Avropaya qaçqın axını ən yüksək səviyyəyə çatmışdır. Bu dövrdə minlərlə qaçqın ciddi zərər çəkib. Bəziləri dənizdə faciəli şəkildə həlak olublar. Bu hadisələr suriyalıların Avropaya miqrasiyasının ikinci mərhələsini qeyd etdi. Beynəlxalq Müdafiə axtarışlarında Avropaya gələn qaçqınların sayı 138 000-dən 2014-cü ildə 500 000-ə qədər 2015-ci ilin sonunda artıb.[3, 60-61]

Türk hökumətinin ilkin siyasəti qaçqınlara sığınacaq verilməsi və qidalanma məqsədi ilə qısamüddətli fövqəladə planlaşdırma idi. Lakin Suriyada vətəndaş müharibəsinin uzanması Türkiyənin immiqrasiya siyasətinə yenidən baxılmasına gətirib çıxardı və 2014-cü ildə parlament sığınacaq və qaçqınlar haqqında hərtərəfli və mütərəqqi qanun qəbul etdi.[1] Hazırda Türkiyədə suriyalı qaçqınların əksəriyyəti müvəqqəti müdafiə statusuna malikdir. Türkiyə üçün qaçqınların qəbul edilməsi iqtisadi və maliyyə çətinliklərində özünü göstərir ki, bu da Beynəlxalq Birliyin maliyyə yardımı göstərməyə məcbur olması ilə şərtlənir.

Türkiyənin suriyalı qaçqınlara açıq yanaşması digər üç siyasət elementi ilə müşayiət olunurdu:

1. müvəqqəti müdafiənin təmin edilməsi,
2. geri qaytarılmama prinsipinə hörmət edilməsi
3. optimal humanitar yardımın göstərilməsi.

Türkiyə hökumət rəsmiləri Suriya qaçqınlarının müvəqqəti olaraq qorunduğunu söyləsələr də, bu statusun verilməsi üçün hüquqi baza böhran boyunca dəyişdi. 2014-cü ilin sonunda Türkiyəyə gələn suriyalı qaçqınların ümumi sayı 1,5 milyona çatıb. Bu mərhələdə yaxın gələcəkdə suriyalı qaçqınların hələ uzun müddət Türkiyədə qalacağı bəlli oldu. Siyasi reallıqları nəzərə alaraq, ölkə yeni qanunvericilik- Əcnəbilər və Beynəlxalq Mühafizə haqqında qərarı (LIFP) tətbiq etməklə hüquqi qeyri-müəyyənliyə son qoymaq qərarına gəldi.

Əcnəbilər və Beynəlxalq Mühafizə qərarı qüvvəyə minməzdən əvvəl 1994-cü ilin sığınacaq verilməsi haqqında əsasnamə müvəqqəti qorunmanın bəzi elementlərini təklif edən yeganə mövcud hüquqi inzibati alət idi. Lakin qərarın fəaliyyət dairəsi Açıq qapı siyasətini hazırkı böhranın tələb etdiyi optimal humanitar yardımlara təminat verilməsini nəzərdə tutmurdu. [9, 8]

Türkiyənin qaçqın axınının qarşısının alınması üzrə hökumətin səylərinin əlaqələndirilməsi üzrə aparıcı müəssisəsi də təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə Türkiyə agentliyidir. İlkin olaraq zəlzələ kimi təbii fəlakətlərlə mübarizə üçün yaradılsa da, agentlik ilk suriyalı qaçqınların gəlişindən dərhal sonra özünü yenidən qurmuş və Türkiyənin cənub sərhədində artan humanitar fəlakətin öhdəsindən gəlmək üçün yerli bölmələrini yenidən təşkil etmişdir. AFAD (Təbii fəlakətlərə və fövqəladə hallara qarşı Mübarizə üzrə agentlik) ilk dəfə olaraq 2011-ci ilin yayında Suriyalılar üçün qaçqın düşərgələrinin tikintisinə başlayıb. 2014-cü ilin sonuna kimi AFAD 23 düşərgə (rəsmi olaraq müvəqqəti məskunlaşma mərkəzləri adlandırılan) tikdi, orada 230 000 suriyalı qaçqın yerləşdi və beynəlxalq ictimaiyyəti yüksək

qiymətləndirən rahatlıq təmin edildi. Nəticədə, AFAD 26 belə düşərgələr qurdu. Düşərgələrdə Yaşayış yeri verilsə də, Suriyalılar orada yaşamağı tələb etmirdilər və düşərgələrin sakinləri düşərgələrə sərbəst girərək oradan çıxa bilirdilər. [6,4]

Miqrasiya və sığınacaq verilməsi məsələləri həmişə Aİ-Türkiyə münasibətlərinin siyasi gündəmində çox mühüm yer tutmuşdur. Türkiyə hökuməti miqrasiya haqqında qanunvericiliyin dəyişdirilməsi və sığınacaq verilməsi ilə bir neçə dəfə məşğul olmuşdur. Bu istiqamətdə ilk misallardan biri 2003-cü ildə qəbul edilmiş və xaricilər üçün iş icazəsi haqqında yeni qanun oldu ki, bu da əmək miqrantlarına Türkiyədə sənədlərini daha asan əldə etməyə imkan verdi.[2] Bu qanunun qəbul edilməsi xarici vətəndaşlara Türkiyədə iş axtarmağı və işlə təmin etməyi asanlaşdırır və dövlətin öz işçi qüvvəsinə, miqrantlara daha xeyirxah münasibət bəslədiyini göstərir. Əcnəbilər və beynəlxalq qorunma haqqında qanun 2013-cü ilin aprelində qəbul edilmiş həmin qərarla Türkiyə immiqrantların ölkəyə inteqrasiyasına, sığınacaq istəyənlərə və qeyri-leqal miqrantlara beynəlxalq normalara uyğun müraciət etməyə sadiqliyini nümayiş etdirdi.

2021-ci ilin sonunda Avropa İttifaqı Türkiyəyə miqrant ehtiyacları üçün 560 mln.avro ayrılması barədə qərar qəbul edib, maliyyə 3 milyard avro məbləğində AB əlavə yardım paketi çərçivəsində veriləcək. Avropa İttifaqı "Suriya uşaqlarının Türkiyə təhsil sisteminə (PİKTES) inteqrasiyasına yardım"layihəsinin reallaşdırılmasına da kömək edəcək. Layihə müəllimlərə əmək haqlarının verilməsi, nəqliyyat xərcləri, məktəb ləvazimatlarının əldə edilməsi, əlavə dərslərin keçirilməsi, türk dilində təlim, müəllim hazırlığı, peşəyönümlü proqramların həyata keçirilməsi, eləcə də məktəbəqədər təhsil xərclərini nəzərdə tutur.

Həmçinin 2011-ci ildən sonra Türkiyədə doğulan suriyalıların sayı artmaqdadır. Həyatın normallaşması nəticəsində 2011-2015-ci illər arasında doğulan uşaqların sayı ilə bağlı qeyri-müəyyənliyə baxmayaraq, bu rəqəmin ümumilikdə 100.000 civarında olduğu təxmin edilməsi tamamilə başa düşüləndir. Ancaq Türkiyə Səhiyyə Nazirliyinin rəsmi rəqəmlərinə görə, 2016-cı ildə Türkiyədə 82.850, 2017-ci ildə 111.325, 2018-ci ildə isə 140.000 suriyalı doğulub.[11]

Qeyd etmək vacibdir ki, Türkiyədə Qaçqınların və həyat davamlılığının müdafiəsi üzrə regional planın (3 RP) ilk təşəbbüsü 2014-2015-ci illərdə gerçəkləşdirilib və ilk növbədə qaçqınların əsas insan tələbatının ödənilməsinə yönəldilib. Türkiyə hökuməti bütün tədbirlərin planlaşdırılması və həyata keçirilməsində mühüm rol oynayır və BMT-nin müəssisələri və onların tərəfdaşları tərəfindən əsas texniki dəstək və yardım kanalıdır. Türkiyənin 3RP-nin 2018-2019-cu illər üçün strateji məqsədləri: Suriya qaçqınlarının müdafiəsinin təmin edilməsi, əsas xidmətlərin göstərilməsinin dəstəklənməsi (səhiyyə, təhsil, sosial xidmətlər) milli sistemlər vasitəsilə Suriya qaçqınlarına və Türkiyədəki həssas şəxslərə dərhal yardım göstərir, yoxsulluq və yerdəyişmənin fəsadlarına məruz qalır, suriyalı qaçqınlar və Türkiyədəki həssas şəxslər üçün yaşayış və işədüzəlmə imkanlarını genişləndirir. [5, 6] Türkiyənin qaçqınlara qarşı həyata keçirdiyi müsbət siyasət faktorlarından biri də odur ki, Türkiyə öz öhdəliklərini yerinə yetirmək üçün bir neçə müsbət addım atıb. Məsələn, 2014-cü ildə hökumət suriyalılardan dövlət məktəblərinə qəbul üçün Türkiyədə yaşayış icazəsi tələb edən məhdudiyyətləri ləğv edib. Türkiyə hökuməti həmçinin ərəb dilində tədris proqramı təklif edən paralel "müvəqqəti təhsil mərkəzləri" sistemini akkreditasiya etməyə başlayıb.

Düşərgələrdə məktəblər, məscidlər, səhiyyə mərkəzləri, uşaq meydançaları da daxil olmaqla, bütün zəruri infrastrukturla təchiz olunur. Bundan əlavə, Ailə, Əmək və Sosial Xidmətlər Nazirliyi "Müvəqqəti qoruma altında olan qaçqınlar üçün iş icazələri haqqında" Əsasnamə və "Beynəlxalq mühafizə ərizəçilərinin və beynəlxalq müdafiə statuslu şəxslərin işi haqqında" Əsasnamə əsasında sığınacaq istəyən əcnəbilərə Türkiyə rəsmi məşğulluq imkanlarına çıxış imkanı verir.

Düşərgədəki vəziyyətə görə, Türkiyəyə gələn kişi və qadınların ən böyük qrupu, - 34,30-30,30% (32,90%) Hələbdən ikinci böyük qrup - İdlipdən 28-28,90% (28,30%); üçüncü böyük qrup - Latakiyadan 16,80-9,20% (14,20%) və nəhayət, dördüncü böyük qrup - 10,50-13,20% (11,40%).) Hamadan. Suriyanın digər şəhərlərindən gələnlərin sayı 5,30% və daha az təşkil edir. Düşərgələrdə yaşayan qonaqları nəzərə alsaq, demək olar ki, suriyalı qonaqların əksəriyyəti müvafiq olaraq Şanlıurfda (27,40%), Qaziantepdə (22,40%) və Xatayda (18,30%) yaşayırlar. [8, 21-24]

Suriya qonaqlarının Türkiyəyə uyğunlaşmasına mane olan faktorları qeyd etmək vacibdir. Müvafiq olaraq, Suriya qonaqlarının Türkiyəyə uyğunlaşmasına mane olan amillər maliyyə çatışmazlıqları (71,80%), müharibənin yaratdığı psixologiya (60,10%), mədəni fərqlər (44,40%), ictimai həyatda fərqlər (40,30%), mənəvi fərqlər (28,50%) və dini həyatda fərqlər (18,10%) vardır. Bu əmsallar həm düşərgə daxilində, həm də xaricində suriyalı qonaqlar üçün praktiki olaraq eynidir. Kişilər və qadınlar kontekstində ranjlama və nisbətlərdə əhəmiyyətli fərqlər müşahidə edilmir. Həmçinin, suriyalı qonaqlar bu nəticələrə əlavə olaraq tez-tez dini həyatı (81,90%) və mənəvi fərqləri (71,50%) əhəmiyyətli bir manea hesab etmirlər. [8, 116]

NƏTICƏ

Belə qənaətə gəlmək olar ki, bu böhranı idarə edən Türkiyə xaricilər və beynəlxalq müdafiə və müvəqqəti Müdafiə haqqında qanun qəbul edib, qaçaqmalçılıq və təhlükəsizliyin təmininə mane olan Suriya-Türkiyə və İran-Türkiyə baryerini təsis edib və Suriyada atəşin dayandırılmasında iştirak edib, Nəticədə döyüş əməliyyatlarını dayandırmaq üçün təhlükəsiz zonalar yaradılıb. Türkiyə təkcə qaçqınları qəbul edən ölkə deyil, həm də qaçqın axınının Balkanlara və Qərbi Avropaya axışdığı tranzit ərazidir. Digər insanların köməyinə ehtiyac olmadan sosial həyatın bütün sahələrində müstəqil fəaliyyət üçün 2018-ci ildə Türkiyə əcnəbilər, müvəqqəti və beynəlxalq himayə altında olan şəxslər və cəmiyyət arasında qarşılıqlı uyğunlaşmanın təşviq edilməsi, habelə əcnəbilərə zəruri bilik və bacarıqların verilməsi məqsədi ilə Milli Uyğunlaşma Strategiyasını və Uyğunlaşma Konsepsiyanın həyata keçirilməsi üzrə Fəaliyyət Planını qəbul etmişdir. Xaricilər və Beynəlxalq Müdafiə haqqında qanun, həmçinin müvəqqəti mühafizə haqqında əsasnamə Türkiyədə əcnəbilər üçün qanuni qalma, qeydiyyat, sənədləşdirmə və hüquq və xidmətlərə çıxış üçün möhkəm hüquqi əsası təmin etməkdə davam edir. Nəticədə, düşərgələrdə yaşayan suriyalıların böyük əksəriyyəti Hələbdən, İdlipdən, Latakiyadan və Xamadan gəlmişlər və 2015-ci ildə Türkiyədə tətbiq olunduğundan bəri, Regional Qaçqınlar və Dayanıqlılıq Planı (3RP) bu günə qədər təxminən 4,5 milyard ABŞ dollarının səfərbər edilməsinə töhfə verib. 3RP Davamlı İnkişaf Məqsədlərinə doğru irəliləyişdə Türkiyə hökumətini dəstəkləmək üçün Birləşmiş Millətlər Təşkilatının İnkişaf sahəsində strateji əməkdaşlıq çərçivəsində (BMT-nin UNSDCF, 2021-25) milli inkişaf prosesləri ilə uzlaşma səylərini davam etdirir.

ƏDƏBIYYAT SIYAHISI

1. Turkey: Law No. 6458 of 2013 on Foreigners and International Protection [Turkey], 4 April 2013, available at: https://www.refworld.org/docid/5167fbb20.html [accessed 14 April 2022]
2. Turkey: Law No. 4817 of 2003 on the Work Permit for Foreigners [Turkey], 27 February 2003, available at: https://www.refworld.org/docid/4496b3d44.html [accessed 14 April 2022]
3. Ahmet İçduygu & Doğuş Şimşek Syrian Refugees In Turkey: Towards Integration Policies p 11
4. Ahmet İçduygu and Evin Millet Syrian Refugees in Turkey: Insecure Lives in an Environment of Pseudo-Integration p 7
5. FAO TURKEY Syrian Refugee Resilience Plan 2018-2019
6. Laura Batalla & Juliette Tolay Toward Long-Term Solidarity with Syrian Refugees? Turkey's Policy Response and Challenges p 18
7. M. Murat ERDOĞAN SYRIAN REFUGEES IN TURKEY p 27
8. Türkiye'deki Suriyelilerin Demografik Görünümü,Yaşam Koşulları ve Gelecek Beklentilerine Yönelik Saha Araştırması 22 T.C. Başbakanlık Afet ve Acil Durum Yönetimi Başkanlığı s 123
9. Syrian Refugees in Turkey: The Long Road Ahead p 23
10. Refugees Operational Data Portal by UNHCR URL: https://data2.unhcr.org/en/situations/syria/location/113
11. ЕС выделил €560 млн на поддержку сирийцев в Турции URL: https://www.aa.com.tr/ru/

XARICI TERRORIST DÖYÜŞÇÜLƏRIN PROKSI (VƏKALƏT) MÜHARIBƏLƏRDƏ İŞTIRAKININ TƏHLÜKƏSIZLIK ASPEKTLƏRI

MÜSEYİB ŞİRƏLİYEV
ANKARA HACI BAYRAM VƏLI ÜNIVERSITETI
İQTISADI VƏ İNZIBATI ELMLƏR FAKÜLTƏSI/BEYNƏLXALQ MÜNASIBƏTLƏR KAFEDRASI
MSIRLIYEV@MAIL.RU
ANKARA / TÜRKİYƏ

XÜLASƏ

Dövlətlər arasında münaqişələri ifadə etmək üçün istifadə edilən müharibə anlayışı, müasir dövrdə ənənəvi mənasını itirərək, öz mübarizə üsul və vasitələri, müddəti, forma və aktorları ilə asimmetrik xarakter almışdır. Güc tətbiqi inhisarının qeyri-dövlət aktorları ilə getdikcə daha çox paylaşıldığı XXI əsrdə müharibələr dövlətlərarası səviyyədən dövlətdaxili səviyyəyə doğru sürətlə təkamül etməkdədir. Beləliklə, yeni müharibə kontekstində nizami ordular əvəzinə müxtəlif motivlərə malik "xarici döyüşçülər", proksi (vəkalət) savaşların zorakı qeyri-dövlət aktorları qismində çıxış etməkdədir. Müharibə aktorları kimi milli dövlətlərin öz mövqelərini itirməsi və zorakılığın simmetrik müharibə qanunlarını nəzərə almayan qruplar tərəfindən tətbiq edilməsi beynəlxalq hüququn pozulması kimi tövsif edilə bilər. Bu araşdırmanın məqsədi "yeni müharibələr" olaraq xarakterizə edilən münaqişə formalarından biri olan proksi (vəkalət) savaşları araşdırmaq, həmçinin bu yeni formatın yaratdığı təhlükəsizlik aspektlərini müzakirə etməkdir. Mövzunun müəyyən edilməsində müasir dünyada təhlükəli problemə çevrilmiş "xarici terrorçu döyüşçülər" fenomeni və bu məsələyə vəkalət savaşının təsirləri həlledici olmuşdur. Mövzunun tədqiq olunmasının praktiki əhəmiyyəti isə ölkəmizdə edilən orijinal tədqiqatlar baxımından proksi müharibə çərçivəsində çox məhdud sayda araşdırmaların olmasıdır. Tədqiqatda ilk növbədə, yeni müharibələrdə milli və beynəlxalq çərçivədə təhlükəsizliyin təmin olunmasına dair yol xəritəsini tərtib etməyə kömək edən təhlil aparılmağa çalışılmış və bu kontekstdə müharibə nizamını dəyişdirən amillər və onların siyasi nəzəriyyəyə təsirləri şərh edilmişdir. Nəticə hissəsində isə ənənəvi müharibə fenomeninin vəkalət savaş kimi asimmetrik müharibə mühitinə transformasiyası və inteqrasiyası ilə bağlı göstəricilər təqdim edilmişdir.

AÇAR SÖZLƏR: Terrorizm, vəkalət savaşı, zorakı qeyri-dövlət aktorları

GIRIŞ

Soyuq Müharibənin sona çatması ilə ortaya çıxan ən mühüm hadisələrdən biri də müharibənin simmetrik quruluşunun asimmetrik xarakter almasıdır. Bu nöqtədə dövlətlərarası müharibələrdə zorakı (silahlı) qeyri-dövlət aktorlarının meydana çıxması qeyd olunan asimmetriya anlayışını təmsil edir. Yeni müharibə mühiti ilə yanaşı, ənənəvi müharibə fenomeninin transformasiyaya uğradığı və proksi savaş, terrorizm, hibrid müharibə kimi asimmetrik müharibə mühiti ilə inteqrasiya olunduğu görünməkdədir.

Dövlətlərin ordularında, həmin ölkənin vətandaşı olmayan, bəzən muzdlu şəkildə, bəzən də fərdi və ya kollektiv məqsəd uğrunda könüllü döyüşən insanlara ədəbiyyatda "xarici döyüşçülər" deyilir. "Xarici terrorçu döyüşçü" anlayışı isə son vətəndaş müharibələri ilə birlikdə terrorizmin və zorakılığın qlobal səviyyədə yayılması nəticəsində ortaya çıxmış və bu fenomen milli və beynəlxalq hüquqi qurumlar qarşısında qeyri-legitim elan edilmişdir. Terminlərdən düzgün və məqsədəuyğun istifadə etmək üçün araşdırmanın əvvəlində bu fərqi qısaca qeyd etmək faydalı hesab olunur.

Demək olar ki, bütün orduların tarixində rast gəlinən "xarici döyüşçülər" fenomeninin legitimliyi ilə bağlı yaxın vaxtlara qədər heç bir şübhə yox idi. Soyuq Müharibə dövründə dünyanın bir çox münaqişə zonalarında müşahidə olunan "xarici döyüşçülər"in bir "proksi müharibə strategiyası" olduğu və dövlətlərin öz təşəbbüsü və təşviqi ilə həyata keçirildiyi üçün ortada şübhə ediləcək heç nəyin qalmadığı qeyd edilməkdədir. Lakin Əfqanıstan, Balkanlar, Qafqaz və nəhayət, İraqda baş verən qarşıdurmalarla artan transmilli radikal qrupların hərəkətliliyi, Suriya vətəndaş müharibəsində İŞİD-in beynəlxalq səhnəyə çıxmasıyla qlobal terror dalğasına çatdıqda, xarici döyüşçülər fenomeni rəsmi olaraq, terrorizmlə birlikdə hallanmağa başlamışdır. Həmçinin sub-dövlət münaqişələrdə zorakı qeyri-dövlət aktorlarının kadr ehtiyatlarının mühüm hissəsini təşkil edən xarici terrorçu döyüşçülər sözügedən yeni müharibə mühitinin differensial xüsusiyyəti kimi önə çıxmışdır.

Mövzu ilə bağlı aparılan əksər tədqiqatlara nəzər yetirdikdə, xarici terrorçu döyüşçülərin iştirak etdikləri münaqişələrə təsiri ilə bağlı müvafiq ədəbiyyatda nisbi çatışmazlıqlar mövcuddur. Bu məqamda, onların

iştirak etdikləri münaqişələrdə üsyançı (cihadçı) qruplara kömək edib-etmədikləri müəmmalı qalmaqda davam edir. Eyni şəkildə strateji maraqlarını üçüncü tərəflər vasitəsilə əldə etmək istəyən dövlətlərin dolayı və ya təmsili savaşı olaraq xarakterizə olunan proksi (vəkalət) müharibə strategiyası çərçivəsində xarici terrorçu döyüşçülərə verilən rolların araşdırılması vacibdir. Beləliklə, nizamlı və nizamsız müharibələr arasındakı sərhədin getdikcə bulanıqlaşdığı 21-ci əsrin hibrid müharibə mühiti daha geniş perspektivdən təhlil edilməlidir.

Qeyd etmək lazımdır ki, tədqiqatın başlanğıc nöqtəsi xarici terrorçu döyüşçülərin yeni münaqişə mühitində – proksi (vəkalət) müharibələrdə iştirakından meydana gələn təhlükəsizlik aspektlərini analiz etməyə əsaslanır. Bununla əlaqədar olaraq proksi müharibələrin xüsusiyyətlərinin təhlili tədqiqatın alt suallarına cavab axtarmağa yönəlmişdir. Beləliklə, araşdırmanın birinci hissəsində yeni müharibələrin xüsusiyyətlərindən bəhs ediləcək, ikinci hissədə isə yeni müharibə mühitində xarici terrorist döyüşçülərin iştirakı mövzusuna toxunulmağa çalışılacaqdır. Nəticə hissəsində isə güc tətbiqi çərçivəsində vəkalət müharibəsinin təhlükəsizlik baxımından yaratdığı problemləri dərk etmək üçün onun üstünlükləri və mənfi cəhətləri müzakirə olunacaq.

TƏDQIQAT METODU

Bu tezisdə qarşıya qoyulmuş məqsədlərə uyğun olaraq, hüquqi sənədlərə istinadla "xarici terrorist döyüşçü" konsepti araşdırılmış və "yeni müharibə"lərdə xarici döyüşçülərin rolu təhlil edilməyə çalışılmışdır. Bu çərçivədə müharibənin dəyişən təbiəti və proksi müharibə ilə bağlı resurslar tədqiq edilmiş və onların analizində nəzəri tədqiqat metodları istifadə olunmuşdur.

"Yeni müharibələr"in xüsusiyyətləri

Beynəlxalq münasibətlərdə, xüsusilə İkinci Dünya Müharibəsi illərində əhəmiyyət qazanan və 1970-ci illərə qədər akademik araşdırmaların təməlini təşkil edən klassik realizm, dövlətlərin beynəlxalq siyasətdə güc və maraq güddüyünü iddia etməkdədir. Buna görə də güc və maraqlar uğrunda mübarizə aparan aktorların olduğu anarxik quruluşdan ibarət olan beynəlxalq sistemdə müharibə qorxu və təhlükəsizlik dilemması kimi səbəblərlə qəbul edilən bir fenomendir. Bundan əlavə, klassik realistlərin fikrincə, istənilən dövlət başqa bir dövlətin güclənməsinə səssiz qalmaqdansa, müharibəyə əl atmalıdır. Bu təklif düşmən dövlətlərə qarşı daha təsirli görünür. Ona görə də bu strukturda müharibəyə əl atmaq qanunauyğundur. Dinamik bir fenomen olan müharibənin tərifləri nəzər saldıqda, bu anlayışın akademik dairələrdən beynəlxalq təşkilatlara qədər geniş bir diapazonda müzakirə edildiyi görə bilərik.

Soyuq Müharibədən sonra beynəlxalq sistemin böyük dəyişikliklərə məruz qalması, etnik və dini kimlik məsələlərinin ön plana çıxması, transmilli qeyri-dövlət aktorlarının müharibə tərəfi kimi çıxış etməsi, milli dövlət anlayışının nisbiləşməsi və demokratik dəyərlərin üstünlük qazanması və s. kimi arqumentlər müharibənin mahiyyətinin dəyişməsi ilə bağlı elmi müzakirələrə səbəb olmuşdur. Nəticə olaraq, ənənəvi xarakterindən çox asimmetrik ölçüləri ilə seçilən post-modern müharibə mühiti meydana gəlmişdir.

"Yeni müharibələr" konsepsiyasına əsasən, dövlətlərarası müharibələr əvəzinə vətəndaş müharibələrinin geniş vüsət aldığı, bu müharibələrdə kimlik məsələsinin daha qabarıq şəkildə özünü büruzə verdiyi, müharibələrin çox vaxt qeyri-bərabər tərəflər arasında aparılan asimmetrik xarakterə malik olduğu, mülki-hərbi fərqin aradan qalxdığı və zorakılığın artdığı müəyyən edilmişdir. Beləliklə, gücdən istifadə monopoliyası çoxmillətli qoşunlardan ibarət nizami ordular, özəl hərbi şirkətlər, hərbiləşdirilmiş qruplar, partizanlar, xarici muzdlu əsgərlər və beynəlxalq terror qrupları kimi qeyri-dövlət subyektlərinin əlinə keçmişdir. Bu nöqteyi-nəzərdən belə şərh oluna bilər ki, yeni müharibələr uğursuz dövlətlər daxilində liberal iqtisadi qüvvələr tərəfindən idarə olunan qloballaşma və sosial transformasiya ilə xarakterizə olunur.

Yeni müharibələrin fərqləndirici xüsusiyyəti olan müharibələrin lokallaşdırılması ilə yanaşı, onların ölçüsündə də ciddi dəyişikliklərin baş verdiyini müşahidə edə bilərik. Bu kontekstdə bu gün müharibə anlayışı əvəzinə konflikt termininin istifadəsi ön plana çıxmışdır. Bundan əlavə, yeni müharibələrin siyasi ideologiyası üçün etnik və dini zəmində baş verən münaqişələr xarakterikdir və bu baxımdan onların səciyyəvi xüsusiyyəti daha çox rəqib kimliklər arasında mədəni ziddiyyətlər nəticəsində yaranmasıdır. Kimlik müharibələri insanların kollektiv kimliyinin rəsmi və siyasi tanınması tələbini ifadə edən, mədəni dirçəliş axtarışlarının münaqişənin əsas motivini təşkil etdiyi müharibələr kimi təyin edilir.

Proksi (vəkalət) müharibələr və xarici terrorist döyüşçülər

Yeni müharibələrdə diqqət çəkən digər bir anlayış "proksi (vəkalət) müharibə" fenomenidir. Dar çərçivədə proksi müharibə anlayışı regional münaqişələrə siyasi mənfəət məqsədilə daxil olan üçüncü dövlətlər tərəfindən münaqişənin gedişatının müəyyən edilməsi kimi ifadə oluna bilər. Beynəlxalq güc mübarizəsinin gizli formasına çevrilmiş proksi müharibələr geniş çərçivədə isə, beynəlxalq hüququn güc tətbiq etməmək və dövlətlərin daxili yurisdiksiyasında olan məsələlərə qarışmamaq prinsiplərinə, həmçinin

BMT-nin qərarlarına zidd hərəkət edərək beynəlxalq sanksiyalara məruz qalmamaq üçün dövlətlərin qeyri-dövlət aktorlarından istifadə edərək nəticə əldə etməyə çalışdıqları bir strategiyadır. Bu müharibə konsepsiyasında böyük dövlətlər müharibəyə birbaşa hərbi müdaxilə etmədən və ya yalnız xüsusi təyinatlı qüvvələrdən istifadə etməklə öz regional maraqlarını qorumağa çalışırlar. Dövlətlərin bu strategiyanı həyata keçirməsinin səbəbləri milli maraqlara və münaqişələrin yaranma motivlərinə əsaslanır:

1) Orduların öz ölkələrindən uzaqda olan münaqişə ocaqlarına cəlb edilməsinin baha başa gəlməsi kimi iqtisadi səbəblərə görə vəkalət (dolayı) savaşlarının birbaşa müharibələrə nisbətdə əlverişliliyi;
2) İmperialist və ya qeyri-demokratik dövlətlərin daxili işlərinə müdaxilə etmə haqqını müdafiə edən ABŞ başda olmaqla Qərbin beynəlxalq ictimaiyyətin reaksiyasına baxmayaraq bu siyasətdən əl çəkməməsi;
3) Müharibələrdən sonra Qərb cəmiyyətlərində yeni hərbi münaqişələrə qarşı yaranan qəzəb;
4) Hər cür qanuni və ya qeyri-qanuni proyeksiyalarda proksi aktorların faydalılığı;
5) Hərbi itki hallarında milli cavabdehlik və s.

Yaxın Şərqdəki hadisələr region ölkələri və qlobal güclər istisna edilməklə təhlil edilə bilməz və bölgədəki xarici terrorist döyüşçülər kimi zorakı qeyri-dövlət aktorları diqqətlə nəzərdən keçirilməlidir. Sözügedən aktorların sərhədlərarası ittifaqları və dəstək aldıqları mərkəzlər əhəmiyyət kəsb edir. Bu gün zorakı qeyri-dövlət aktorları regional və qlobal güc mübarizəsi çərçivəsində proksi savaşlarda "böyük şahmat taxtasındakı piyadalar" kimi istifadə edilirlər. Bundan əlavə, ABŞ terror təşkilatları və digərləri vasitəsilə dini və etnik münaqişələri qızışdırmaqla Yaxın Şərqdə davamlı olaraq qeyri-sabitlik layihəsi həyata keçirir. Bu yolla regiondakı digər aktorların özünə olan loyallığını gücləndirməyə, Rusiya və İran kimi dövlətlərin mövqeyinin möhkəmlənməsinin qarşısını almağa çalışır.

2000-ci illərin əvvəllərində İraqda başlayan qütbləşmə Ərəb Baharı zamanı da bölgəyə yayılmışdır. Bu məqamda İraq, Suriya, Livan və Yəməndə müxtəlif məzhəb qrupları arasında qarşıdurmalar geniş vüsət almış və region həm birbaşa, həm də vəkalət müharibələri vasitəsilə lokal və qlobal güclərin mübarizə səhnəsinə çevrilmişdir. Nəticədə, böyük dövlətlərin istədiyi kimi siyasi strukturlar dağılmış, bölgədə münaqişə və xaos hökm sürmüşdür. Bir məqamı vurğulamaq lazımdır ki, dövlətlərin proksi aktorlarla, xüsusilə terror təşkilatları kimi qeyri-dövlət subyektləri ilə əməkdaşlığı müvəqqəti və taktiki xarakterlidir. Zamanın tələbinə uyğun olaraq ehtiyac duyulan xarici terrorçu döyüşçülər, şərtlər dəyişdikdə və ya xərclər artdıqda, ilkin olaraq tərk edilməli olan aktorlardır və bu qarşılıqlı əlaqənin uzunmüddətli perspektivdə davam etmə ehtimalı çox azdır.

Bu gün beynəlxalq sistemdə artan terror hadisələri, proksi müharibələr və asimmetrik təhlükələr nəticəsində siyasi kəşfiyyatın əhəmiyyəti getdikcə artır. Bu kontekstdə siyasi kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi ilk növbədə diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər, eləcə də digər aktorlar vasitəsilə həyata keçirilir. Bunların siyahısına lobbi qruplarını, assosiasiyalar və fondlar kimi qeyri-hökumət təşkilatlarını, beynəlxalq şirkətləri və s. əlavə etmək olar. Bu aktorlar, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına – "çirkli pulların yuyulması"na və terrorçuluğun maliyyələşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsində başlıca rol oynamaqdadır.

Qeyd etmək lazımdır ki, Vətən Müharibəsi zamanı beynəlxalq hüququn prinsiplərinə zidd olaraq Azərbaycanın işğaldakı ərazilərinə YPG, PKK terror təşkilatlarının üzvlərini köçürən Ermənistan tərəfindən Azərbaycana qarşı muzdlu əsgərlərdən və əcnəbi terrorçu döyüşçülərdən istifadə edilmişdir. Erməni diaspor təşkilatları tərəfindən təsis edilmiş fondlar, "xeyriyyə təşkilatları" adı altında xarici terrorist döyüşçülərə maliyyə dəstəyi həyata keçirən qurumlar, eləcə də onlara xidmət göstərən bank və maliyyə təşkilatları vasitəsilə işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejimə və silahlı birləşmələrə maliyyə dəstəyi göstərilmişdir. Həmçinin bu dövr ərzində, Azərbaycana qarşı hərbi təcavüzü çərçivəsində Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq pozulmuş, o cümlədən mülki şəxslər məqsədyönlü şəkildə hədəf alınaraq öldürülmüş, ictimai və şəxsi mülkiyyət, mülki infrastrukturlar hədəf alınmışdır. Göründüyü kimi, mülki itkilər və məcburi köçkünlər münaqişələrdə itkiləri əhəmiyyətli dərəcədə artırır, buna görə də mülki əhali qəsdən yeni müharibələrin hədəfinə çevrilməkdədir.

NƏTICƏ

Proksi (vəkalət) müharibələr qısamüddətli hərbi qazanclar gətirsə belə, uzunmüddətli perspektivdə gündəlik həyatın militarizasiyasını təşviq etməkdə, beləliklə yerli toplumları potensial olaraq kifayət qədər dağıdıcı hala gətirməklə qeyri-sabitlik və güvənsizlik mühiti formalaşdırmaqdadır. Yeni müharibələr kontekstində yeni müharibə hüququna (*jus in bello*) ehtiyac olduğundan, münaqişə tərəfləri və tərəflərin öhdəlikləri baxımından yeni qaydalar toplusunun yaradılmasının vacibliyini qeyd edən araşdırmalar olsa da, bəşəriyyətin əsrlər boyu inkişaf etdirdiyi müasir müharibə hüququ çərçivəsini yenidən nəzərdən

keçirmək o qədər də asan deyil. Bundan əlavə, "yeni müharibə qanunları" yuxarıda qeyd olunan bir çox problemli mövzuların normallaşdırılması və milli orduların, yəni suveren dövlətlərin silahlı qüvvələrinin apardığı müntəzəm müharibələrin subordinasiyası təhlükəsini ehtiva edir.

Müharibə hüququnun artıq mülki şəxsləri və infrastrukturu müdafiə edə bilməməsi faktı, milli dövlətlərin suverenlik hüquqlarına dair yeni konseptual çərçivənin də formalaşdırılmasını tələb edir. Vətəndaş müharibələri, dağıdıcı ictimai hərəkatlar, terrorizmin beynəlmiləlləşməsi, uzunmüddətli münaqişələr nəticəsində siyasi və iqtisadi cəhətdən qeyri-sabit vəziyyətə düşmüş regionlarda dövlətlərin qanuni suverenlik hüquqlarının "eroziyaya uğraması", "uğursuz dövlətlər" və "quldur dövlət" kimi ifadələrin beynəlxalq münasibətlər lüğətinə daxil olması təhlükəli qırılma nöqtəsinə doğru irəlilədiyimizin göstəricisidir. Yeni dövrdə vəkalət müharibələrinin sonlandırılması və yaratdığı təhlükəsizlik problemlərinin nəzarət altına alına bilməsi, milli dövlətlər və proksi müharibələrin intensiv şəkildə olduğu qeyri-sabit bölgələr arasında davamlı sülh, sabitlik və təhlükəsizlik mühitinin yaradılmasından asılıdır. Bundan başqa, proksi savaşlarda əcnəbi döyüşçülərin rolu və funksiyaları empirik şəkildə araşdırıldıqda, fərdlərin və qrupların motivasiyası və mövqeləri haqqında daha dəqiq məlumatlar əldə oluna bilər.

Tədqiqat nəticəsində, xüsusilə dövlət mərkəzli təhlükəsizlik arxitekturasının yeni müharibələrlə sarsıldığı ölkələrdə güc tətbiqi inhisarının böyük ölçüdə zorakı qeyri-dövlət aktorlarının əlinə keçdiyi qənaətinə gəlinmişdir. Müharibə qanun və adətləri ilə hərəkət etmək artıq xarici siyasətdə nəticə əldə etmək üçün effektiv üsul olmadığından dövlətlərin real siyasi münaqişəsi daha çox siyasi, iqtisadi və sosial baxımından zəif dövlətlərin (Suriya, Liviya, Yəmən və s.) ərazilərində baş verir. Bu dövlətlərdə qanuni hakimiyyətin zəifləməsi zorakı qeyri-dövlət aktorlarının daha da güclənməsinə səbəb olur və bu da öz növbəsində, həmin aktorlar tərəfindən güclənmək üçün xarici terrorçu döyüşçülərin bu bölgələrə yönləndirilməsini qaçılmaz hala gətirir.

ƏDƏBIYYAT SIYAHISI

43. Azərbaycan XİN 2020-ci ilin yekunlarına dair mətbuat buraxılışını təqdim edib // Xalq qəzeti, № 276, 30 dekabr, 2020

44. Deniz Alca, Kim: Yeni Savaşlarda Asil Vekil Sorunu, Savunma Bilimleri Dergisi, Cilt 19/1, Sayı 37, Mayıs 2020, 25-48

45. Heywood A. Global Politics. Palgrave Macmillan. New York/USA. 2011:1-560

46. Ömer Çona, Yeni Savaş Ortamında Eski Bir Aktör: Yabancı Terörist Savaşçılar ve Yeni Çatışmalardaki Rolleri, Savunma Bilimleri Dergisi, Sayı 39, Mayıs 2021, 275-303

47. Mehmet Seyfettin Erol, Kadir Ertaç Çelik, ABD'nin Suriye Politikasında Vekil Aktör Olarak Terör Örgütleri: YPG Örneği, Bölgesel Araştırmalar Dergisi, Cilt 2, Sayı 2, Aralık 2018, 14-45

AZƏRBAYCAN RESPUBLIKASININ IQTISADI INKIŞAFININ QAFQAZ REGIONUNDA GEOSIYASI SITUASIYANIN DƏYIŞMƏSINƏ TƏSIRI

Ləman Qocayeva
Azərbaycan Turizm və Menecment Universiteti
Bakı, Azərbaycan

***Summary**: The article discusses the geostrategic position of the South Caucasus region. The article reflects the factors that increase the significance of the South Caucasus. The main focus is on the projects related to the South Caucasus. The TRASEKA project is being investigated as an international project. Geostrategic and economic aspects of this project have been studied. The ethnic diversity of the South Caucasus has also been analyzed in the article. Problems caused by ethnic diversity are also discussed in the article.*

Key words: South Caucasus, Caspian region, Azerbaijan, geostrategy

Резюме: *В статье обсуждается геостратегическое положение Южно-Кавказского региона. В статье отражены факторы, повышающие значимость Южного Кавказа. Основное внимание уделяется проектам, связанным с Южным Кавказом. Проект ТРАСЕКА рассматривается как международный проект. Были изучены геостратегические и экономические аспекты этого проекта. В статье также проанализировано этническое разнообразие Южного Кавказа. В статье также рассматриваются проблемы, вызванные этническим разнообразием.*

Ключевые слова: Южный Кавказ, Каспийский регион, Азербайджан, геостратегия

Müsair dövrün siyasi strategiya konsepsiyaları içərisində geosiyasət konsepsiyası mühüm yer tutur. Geosiyasət özündə dövlətin daxili və xarici siyasi strategiyası, beynəlxalq və regional münasibətlər, milli təhlükəsizlik, etnosun yaranması və inkişafı problemlərini ehtiva edir. Beynəlxalq münasibətlərdə geosiyasət dedikdə, müəyyən coğrafi məkanda yerləşən dövlətin xüsusiyyətləri, regional və qlobal beynəlxalq proseslərdən iştirakı başa düşülür. Geosiyasətdə ən önəmli faktorlardan biri iqtisadi gücdür. Hər hansı bir dövlətin iqtisadi potensialı güclü olarsa, o zaman onun daxili və xarici siyasəti uğurla inkşaf etmiş olar.

Azərbaycan Respublikasının yerləşdiyi Qafqaz regionu tarixən geosiyasi cəhətdən dünya dövlətlərinin diqqət mərkəzində olmuşdur. Qafqazda əhalinin sayına, ərazinin genişliyinə, faydalı resursların zənginliyinə görə fərqlənən Azərbaycan Respublikası Qafqazdakı siyasi hadisələrə təsir göstərə bilir. Son illər Azərbaycan iqtisadiyyatı intensiv şəkildə inkşaf edir. Azərbaycan Qafqaz regionunda davamlı və sabit iqtisadi inkşaf tempinə görə liderdir. Avropa və Asiyanın strateji nəqliyyat yollarını birləşdirən Azərbaycan nəhəng ölkələrin xarici siyasətində başlıca yer tutur.

Regionda Azərbaycanın iqtisadi gücü onun enerji ehtiyatları ilə ölçülür. Enerji qaynaqları ilə zəngin olan Azərbaycan üçün daha vacib məsələ enerjinin beynəlxalq bazara nəqlidir. 1994-cü ildə Azərbaycan neft diplomasiyası özünün ən böyük uğurunu qazandı. "Əsrin müqaviləsi" adı altında Azərbaycan dünyanın iri neft şirkətləri ilə müqavilələr imzladı. 1997-1999-cu illərdə daha 3 neft müqaviləsi bağlandı. 1999-cu ildə ATƏT-in İstanbul sammitində Bakı-Ceyhan neft layihəsi təsdiqlənmişdir. [1, s.91]

BTC dünyanın unikal neft kəmərlərindən biridir. Bakı-Ceyhan neft magistralının geosiyasi əhəmiyyəti aşağıdakılardır :

1. Bakı-Ceyhan xətti Cənubi Qafqaz regionunda iqtisadi təhlükəsizlik yaradır.
2. Bu xətt Avropa-Azərbaycan əlaqələrinə müsbət təsir edir.
3. Azərbaycan Mərkəzi Asiya regionu ölkələri ilə iqtisadi və siyasi işbirliyi qurur.
4. Bakı-Ceyhan xətti Qafqazda sülhün bərqərar olmasına kömək edir. [2]

Neft Azərbaycan üçün geostrateji və milli təhlükəsizliyi təmin edən amildir.

Məhz buna görə də Bakı-Ceyhan özündə yalnız iqtisadi cəhəti deyil, həm də siyasi cəhəti ehtiva edir. Neft amili beynəlxalq münasibətlərə, geosiyasi maraqlara əsaslı təsir göstərir. Neft sahəsində beynəlxalq təhlükəsizlik sistemi yaradılır. Hal-hazırda Azərbaycanda mövcud olan siyasi və iqtisadi stabillik onun regionda aparıcı qüvvə edir. Azərbaycan bir sıra regional iqtisadi təşkilatların işində fəal iştirak edir. ABŞ politoloqu Z.Bjezinski özünün "Böyük şahmat lövhəsi" kitabında yazır: "Məhdud ərazi miqyasına və kiçik əhalisinə baxmayaraq, nəhəng enerji ehtiyatlarına malik Azərbaycan həm də əsas geosiyasi əhəmiyyətə malikdir. Xəzər dənizinin və Orta Asiyanın sərvətlərini daşıyan gəmidəki mantardır. Azərbaycan tamamilə Moskvanın nəzarətinə tabe olarsa, Mərkəzi Asiya dövlətlərinin müstəqilliyinə az qala mənasız bir anlayış kimi baxmaq olar." [3, s. 26] *(Несмотря на ограниченные территориальные масштабы и незначительное по численности население, Азербайджан с его огромными энергетическими ресурсами также в геополитическом плане имеет ключевое значение. Это пробка в сосуде, содержащем богатства бассейна Каспийского моря и Средней Азии. Независимость государств Средней Азии можно рассматривать как практически бессмысленное понятие, если Азербайджан будет полностью подчинен московскому контролю.)*

Maraqlıdır ki, ABŞ geosiyasətində Cənubi Qafqaza baxış sırf iqtisadi aspektdən olsa da, Rusiya və İran regiona hələ də köhnə "imperiya ərazisi" prinsipi ilə yanaşır. Təəccüblüdür ki, Rusiyada elə siyasətçilər vardır ki, onlar Xəzər neftinin Qərbə daşınmasını hətta açıq şəkildə pisləyirlər. [4, s.121]

Lakin Rusiya unudur ki, indi XXI əsrdir və Cənubi Qafqaz artıq onun müstəmləkəsi deyildir. Rusiya geosiyasətində Azərbaycanın rolu aşağıdakılardan ibarətdir :

1. Azərbaycanda möhkəmlənməklə Rusiya Mərkəzi Asiyanın türk dövlətlərini qərbə o cümlədən Türkiyəyə meylinin qarşısını ala bilər.
2. Rusiya-İran münsibətlərində Azərbaycan bufer rolunda çıxış edir.

3. Region dövlətləri içərsində Azərbaycan həm də geoiqtisadi mərkəzdir.

Rusiya tədqiqatçısı V.A.Derqaçev "Geopolitika" kitabında yazır: "İki əsrdən çoxdur ki, Qafqaz rus-sovet imperiyasının geosiyasi nəzarətində olmuşdur.... Postsovet məkanında Qafqazın geosiyasi mövqeyi dəyişib.... Cənubi Qafqazın yenicə müstəqillik qazanmış dövlətləri yüksək gözləntilər, demokratiyaya imitasiya və müstəqilliklərinin qarantı ola biləcək "böyük qardaş" axtarışı sindromu ilə xarakterizə olunur". [5, s.239] (*«На протяжении более двух веков Кавказ находился в геополитическом пространстве Российской/Советской империи. В постсоветском пространстве изменилось геополитическое положение Кавказа, ... Для новых независимых государств Южного Кавказа характерен синдром завышенных ожиданий, имитация демократии и поиск «большого брата», способного стать гарантом их независимости»)*. Əlbəttə, V.A.Derqaçevin mövqeyini Rusiya dövlətinin mövqeyi kimi qələmə vermək lazım deyil. Təəssüf olsun ki, əksər Rusiya tədqiqatçıları öz kitablarında hələ də köhnəçilikdən əl çəkə bilmirlər. Rusiya rəsmiləri isə dəfələrlə Qafqazda sülhün, sabitliyin tərəfdarı olduqlarını qeyd edirlər. Son illərdə rəsmi səviyyədə Azərbaycana qarşı loyal münasibət hiss olunur. Rusiyanın Cənubi Qafqazda iqtisadi layihələrə dəstək verməsi onun özünə də xeyir vermiş olar.

Belə ki, Cənubi Qafqaz Rusiya neftini və qazını Avropa ölkələrinə ixrac etmək baxımından çox önəmli bölgədir. Əgər Rusiya BTC-yə qoşularsa bu Türkiyə-Rusiya münasibətlərinin möhkəmlənməsinə gətirib çıxara bilər. Bu Ermənistanda ciddi narahatlıq yaradır. Uzun illər (hələ I.Pyotr dövründən başlayaraq) Rusiyanın Cənubi Qafqazdakı, özəlliklə Türkiyə ilə sərhəddə əsas hərbi dayağı olan və bu for-pos funksiyasını yerinə yetirən ermənilər hadisələrin belə inkşafına hazır deyillər. Belə ki, onlar Azərbaycan-Ermənistan münaqişəsinin sahmanlanmasında arzu etmədikləri regional və geosiyasi situasiyaya düşə bilərlər. Ermənilərin marijinal siyasi dünya görüşü böyük siyasətin və dövlətlərarası münasibətlərin bu cür reallıqlarını həzm edə biləcək səviyyədə deyil. [6]

Dünyanın supergüc dövləti olan ABŞ geosiyasətində Qafqaz önəmli yer tutur. ABŞ regionda sülhün tərəfdarı kimi çıxış edir. Regional konfliktlərin həllində beynəlxalq hüquq normalarını və xalqların qarşılıqlı anlaşmalarını vacib hesab edir. ABŞ Qafqazda həyata keçirilən iqtisadi layihələri dəstəkləyir. Rusiyanın for-postu olan Ermənistandan fərqli olaraq, Azərbaycan ABŞ-la əlaqələrə üstünlük verir. ABŞ siyasi nəzəriyyəsində hesab edirlər ki, Azərbaycanda, bütövlükdə Xəzər siyasi regionda möhkəmlənməklə həm Mərkəzi Asiyaya, həm də Fars körfəzinə nəzarət etmək mümkündür. Rusiya və İrandan fərqli olaraq ABŞ Azərbaycana normal dövlət statusunda yanaşır. Fikrimizcə, Azərbaycanda aparılan siyasət ABŞ-ın milli mənafeyinə uyğundur. Həmin mənafelər bunlardır :

1. Xəzər neftinin tez və fasiləsiz işlənilməsi.
2. İarnın islam təməlçiliyinin qarşısının alınması.
3. Rusiyanın eksponsionist meyllərinin məhdudlaşdırılması.
4. Dağlıq Qarabağ konfliktinin dincliklə aradan qaldırılması.
5. İxrac imkanlarının və iş yerlərinin açılması, aparılan uğurlu iqtisadi siyasət.
6. Müstəqil, qərbə meylli və azad bazar iqtisadiyyatına malik demokratik dövlətin yaradılması. [7, 189-191]

Hal-hazırda Qafqaz regionu üçün xüsusilə Azərbaycan və Gürcüstan kimi sivil dövlətlər üçün İran böyük təhlükədir. İnsan haqlarının kobudcasına pozulduğu bu ölkənin nüvə silahı əldə etməsi bütün dünya üçün, o cümlədən bizim bölgə üçün yaxşı heç nə vəd etmir. İran dini pərdə altında Azərbaycanda separatçılıq meyllərini salmaq istəyir. Lakin Azərbaycanda dini tolerantlıq yüksək səviyyədir. Bu amil sivil dövlətlərini tam qane edir.

Xarici siyasət məsələlərində mehriban qonşuluq münasibətlərinə üstünlük verən Azərbaycan İranla da normal əlaqələrin tərəfdarıdır. ABŞ tədrici siyasət yolu ilə Qafqazda və Xəzər regionunda Rusiya və İranı sıxışdırır. Müstəqil dövlətçiliyin əhəmiyyəti ondan ibarətdir ki, gənc ölkələr milli iqtisadiyyatın yaradılmasına ciddi fikir verirlər. Qafqazın cənub bölgəsində Azərbaycan iqtisadi potensialına görə güclü ölkədir. ABŞ analitikləri məhz bu amilə görə Azərbaycanı yüksək dəyərləndirirlər. Müasir dövrdə ABŞ-ın şərq istiqamətində siyasi strategiyasını aşağıdakı sxem üzrə vermək olar: ABŞ→Avropa→Türkiyə→Azərbaycan→Orta Asiya



Z.Bjezinski öz kitabında Qafqaz regionunu "Avrasiyanın Balkanı" hesab edir. O, Qafqazdakı konfliktlərin daha kəskin olduğunu da qeyd edir.

Regional təsir rıçaqlarına malik dövlətlərdən biri də Türkiyə Respublikasıdır. Bu dövlət "regional lider" olmağa ən real namizəddir. Bunu Türkiyənin tarixən Qafqaza etnik, dini, siyasi, iqtisadi təsiri ilə izah etmək olar. Türkiyə xüsusilə Azərbaycanla iqtisadi, siyasi, mədəni əlaqələrə malikdir. Türkiyə ilə Azərbaycanın yaxın münasibətlərinin əsas amilləri aşağıdakılardır :

1) Tarixi soykök birliyi.
2) Dil birliyi.
3) Mədəniyyət birliy.
4) Beynəlxalq münsibətlərdə geosiyasi mövqe birliyi.

Türkiyə Azərbaycanın əsas iqtisadi partnyorlarından biridir. BTC-nin çəkilməsi ilə iqtisadi əlaqələr daha da inkişaf edir. Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi Türkiyənin mənafeyinə uyğundur. Türkiyənin Qafqazda və Orta Asiyada əlaqələrinin genişlənməsində Azərbaycan körpü rolunu oynayır. Lakin Türkiyənin bu regionlarda möhkəmlənməsinə Rusiya və Ermənistan mane olur. Tarixi dövrlərdə də Rusiya xarici siyasətində isti dənizlərə çıxmaq prioritet məsələ olmuşdur. Onun dənizlərdə əsas rəqibi isə Osmanlı dövləti idi. Elə bu səbəbdəndir ki, Osmanlı dövlətiin sələfi olan Türkiyə ilə əlaqələrə rus diplomatiyası rəqabət prizmasından yanaşır. Türkiyə isə Rusiya ilə münasibətləri iqtisadi zəmində yaxşılaşdırmaq siyasəti yeridir. Türkiyənin geosiyasi durumunu aşağıdakı kimi göstərmək olar:

1) NATO ölkələri ilə əməkdaşlıq;
2) Türk dünyası ilə əməkdaşlıq;
3) islam ölkələri ilə əməkdaşlıq.

Hal-hazırda Türkiyənin Qafqaz regionunda əsas müttəfiqi Azərbaycandır. [8]

Qərbi Avropa ölkələrinin geosiyasətində Qafqaz regionu, o cümlədən Azərbaycan önəmli yer tutur. İngilis diplomatiyası hesab edir ki, Azərbaycan Qafqaz və Orta Asiyanın birləşdirən geosiyasi məkandır, ona görə də bu ölkə ilə münasibətlərdə diqqətli olmaq tələb olunur. Azərbaycan Respublikasının yeritdiyi xarici siyasət istiqamətində Avropa meyli güclənir. Azərbaycanda olan iqtisadi inkşaf, demokratik idarəetmə prinsipləri Avropa tərəfindən yüksək qiymətləndirilir. Böyük Britaniya Azərbaycan vasitəsilə Qafqaz və Orta Şərq siyasi regionunda mövqeyini möhkəmləndirir. Avropanın köklü demokrat ölkəsi olan Almaniyanın xarici siyasəti sabit siyasət olub, bütün Qafqazda siyasi sabitliyin saxlanılmasına yönəlmişdir.

Qafqaz ölkələrinin Almaniya ilə iqtisadi və siyaysi əlaqələri inkşaf edir. Fransız diplomatiyasında Qafqaz mühüm yer tutur. Müstəqillik illərinin başlanğıcında bu ölkə ilə münasibətlərdə emosionallıq nəzərindən yanaşılır. Lakin, 1993-cü ildən başlayaraq Azərbaycan praqmatik xarici siyasət yeritməyə başladı. Azərbaycan-Fransa münasibətləri intensiv şəkildə tərəqqi etdi. Fransanın Qafqazdakı əsas müttəfiqi Ermənistan olsa da, bu ölkə Dağlıq Qarabağ konfliktinə ədalətli mövqedən yanaşmağa çalışır.

Hər bir ölkə sabit və iqtisadi təhlükəsizliyi olan əraziyə sərmayə qoymağa çalışır. Bu səbəbdən də Azərbaycanda mövcud olan münbit şərait, azad və sabit bazar diqqəti cəlb edir. Məlumdur ki, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı kifayət qədər böyük uğurlar qazandı. Hal-hazırda Azərbaycan iqtisadiyyatı özünün pik dövrünü yaşayır. İnkşaf yalnız neft sənayesi ilə məhdudlaşmır, qeyri-neft sektoru sürətlə tərəqqi

edir. Odur ki, sivil ölkələrin investorlarını nə qeyri-sabit Gürcüstan, nə də ki, normal iqtisadi sistemi olmayan Ermənistan cəlb edir. Onlar böyük prespektiv vəd edən Azərbaycanı regionda iqtisadi lider kimi görürlər.

Fikrimizcə, Azərbaycanda olan iqtisadi inkşaf gələcəkdə Qafqaz regionunda qüvvələr nisbətini dəyişəcək. Dağlıq Qarabağ konfliktinin həllində iqtisadi amil əsas faktordur. Ermənistan başa düşməlidir ki, region yalnız iqtisadiyyatın tərəqqisi ilə dirçələ bilər. Qafqaz regionu beynəlxalq iqtisadi münasibətlərin subyektinə çevrilməlidir. Azərbaycan Respublikası "iqtisadi rifah, sabit dövlət" prinsipini əsas gətirərək region dövlətlərini iqtisadi işbirliyinə dəvət edir.

Ədəbiyyat:

1. Добаев И., Дугин А. Геополитические трансформации в Кавказско-Каспийском регионе // Центральная Азия и Кавказ, 2005, № 5 (41),
2. Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemlərihttp://sia.az/az/news/analysis/309496-cenubi-qafqazin-geosiyasi-movqeyi-ve-tehlukesizlik-problemleri
3. Бжезинский З. Б. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. - М.: Международные отношения, 1999. - 256 с.
4. Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, 2004.-200 с.
5. Дергачев В.А. Геополитика. М.: Юнити-Дана, 2004. - 526 с.
6. Современная геостратегия Запада на Южном Кавказе. http://nvo.ng.ru/wars/2007-02-09/1_zapad.html
7. Adams T.D. Caspian Oil and Gas Development and the Black Sea Region: An Overview. Вкн.: Europe's Black Sea Dimension. Brussels: CEPS, 2002.
8. Роль России и Турции в системе безопасности Южного Кавказа. Нигяр Гексель. Динамика партнерства Анкара – Москва относительно Южного Кавказа. SAM, BAKI, 2012 - http://sam.az/uploads/gallery/20.04/Meqaleler%20kitab.pdf

DÖVLƏT VƏ BƏLƏDİYYƏ İDARƏETMƏSİ

A COMPARATIVE APPROACH TO WOMEN'S POLITICAL PARTICIPATION IN THE U.K. AND AZERBAIJAN

Shams Maharramli
Baku Engineering University
Economics and Management department
smeherremli2@std.beu.edu.az
Baku, Azerbaijan

ABSTRACT

The purpose of this task is to compare the political participation, power, and leadership of women in the four countries of the United Kingdom and Azerbaijan. Over the past 100 years reflect the important role of women in society and governance in both countries, and identify key changes that have hindered progress in raising awareness of women's contributions to government, civil society, education, etc.The study assesses any assets and strengths of women's experiences in the U.K. and Azerbaijan, as well as identifying any gaps and opportunities for learning. It helps to assess the political role of women in both countries by making clear comparisons with the current picture of women's political participation, strength, and leadership in the United Kingdom and Azerbaijan.

KEY WORDS: Women's politicial participation, United Kingdom, Azerbaijan, leadership, political activity.

INTRODUCTION

According to studies, having more women in parliament leads to more attention being paid to women's issues. Women's political engagement is a necessary condition for achieving gender equality and true democracy. It promotes women's direct participation in public decision-making and ensures more accountability to women.

This essay's center is about women's political participation in UK and Azerbaijan, such as evaluating comparatively between UK and Azerbaijan. Focusing on three aspects including to women's leadership, political participations, and political activity.

RESEARCH METHOD

From this part, analyzing and understanding the value of women's role in political activity in both two countries. From historical time until today women's play the main role of society and politics in UK and also Azerbaijan.

It has been 100 years since the first woman was granted the right to vote, and the United Kingdom has seen the first woman elected to parliament. Over the past 100 years, significant progress has been made, and the number of women active in politics in the UK and around the world has increased significantly. So, what has changed in the last century, and what remains to be done?

The Representation of the People Act is passed in the United Kingdom to change the election system. It allows all men over the age of 21 and women over the age of 30 who own property the right to vote. This is a significant step forward for women's political engagement and strength, as it makes 8.5 million women eligible to vote in the General Election of December 1918. Women above the age of 21 can run for election as Members of Parliament under the Parliament (Qualification of Women) Act.

From 1964 until 1970, Barbara Castle serves as Secretary of State for Employment, becoming the first female Secretary of State. From 1964 to 1970, she holds a number of positions in the government.

In 1979, Margaret Thatcher becomes the first woman to ever serve as Prime Minister of the United Kingdom. The Committee on the Elimination of Discrimination against Women (CEDAW) of the United Nations (UN) is founded.

Women's leadership and their latent potential are becoming increasingly recognized. Women's presence in national parliaments has steadily increased over the last two decades, rising from 11.8 percent in 1998 to 17.8 percent in 2008 to 23.5 percent in 2018. Some regions have witnessed particularly dramatic increases,

such as Sub-Saharan Africa, where women in parliaments have increased from 11 to 23.6 percent in the previous 20 years, and the Arab States region, where women in parliaments have increased from 3.1 to 17.5 percent. Total global representation is still significantly below the 30% threshold typically cited as the minimum required attaining "critical mass" - a sizable minority of all lawmakers with significant influence, rather than a token few individuals - not to mention the fact that women make up half of the world's population. As a result, women's meaningful participation in national, municipal, and community leadership roles has become a major focus of international development strategy.

As mentioned before, women are leadership and participation in political life such as executive government positions, national parliaments, and the local government.

According to the executive government positions, there are 26 women serving as Heads of State and Government in 24 countries as of September 1, 2021, moreover, just 10 countries have a woman Head of State, besides, 13 countries have a woman Head of Government.

From the perspective of national parliaments, women now make approximately 25% of all national parliamentarians, up from 11% in 1995. A total of 19 countries, including nine in Europe, five in Latin America and the Caribbean, four in Africa, and one in the Pacific, have attained or exceeded 40%.

Finally, including to the women in local government as of January 2020, there were regional differences in women's representation in local deliberative bodies: 41% in Central and Southern Asia, 35% in Europe and Northern America, 32% in Oceania, 32% in Sub-Saharan Africa, 29% in Eastern and South-Eastern Asia, 25% in Latin America and the Caribbean, and 18% in Western Asia and Northern Africa.

In Azerbaijan, women's voices are becoming more powerful. Women human rights defenders, including activists, journalists, and attorneys, are speaking out to bring those guilty for a variety of human rights breaches accountable and to support women's human rights, particularly the freedom of expression and association.

In additionally, The Azerbaijan Democratic Republic implemented universal suffrage in 1919, becoming Azerbaijan the first Muslim-majority country to do so.

Women have no legal constraints when it comes to participating in politics. The 125-seat parliament included 22 women in 2020, including the Speaker of the National Assembly. Between 2005 and 2020, the percentage of female members of parliament climbed from 11 to 17.6 percent.

Women made up 78.1 percent of all teaching personnel in Azerbaijan in 2017, including 51.9 percent of all university professors, 64.9 percent of all medical professionals, and 40.2 percent of athletes. During the same time period, however, women made up only 28.7% of civil servants and 20.9 percent of registered company owners.

Mehriban Aliyeva (the president's wife) was appointed Vice President of Azerbaijan in 2017, the highest position a woman has held in the country since the office of Secretary of State, which was last held by Lala Shovkat, was abolished in 1994.

Sahiba Gafarova was elected Speaker of the Azerbaijani National Assembly in 2020. In the same year, Azerbaijan had one female cabinet minister (Mahabbat Valiyeva, Minister of Education), one regional cabinet minister (Natavan Gadimova, Minister of Culture of the Nakhchivan AR), one state committee chair (Bahar Muradova, chair of the State Committee for Family, Women, and Children Affairs), one head of a regional executive government (Irada Gulmammadova, head of the Absheron District). Women made up three of the 16 members of the Central Election Commission, while four of the 125 district election commissioners were chaired by women.

In conclusion, focusing on the some essential scopes as women’s activism, tenacity, political workplace, and leadership.

Strong women have paved the path for change throughout history, from the late 19th and early 20th century suffragist and suffragette campaigns to the 1960s and 1970s second wave of feminism and more recent rallies, besides that, from Azerbaijan in 1931s became the first female aviator, moreover in 1938s became the first female cabinet minister. Women activists and the women's movement have played a critical role in bridging the gap between politics and ordinary people's lives.

In both the national and local legislatures in the United Kingdom, conditions for women in the political workplace have improved. However, cultural transformation has taken longer, and patriarchal patterns of thinking remain engrained in the fabric of British political systems. Many women have felt that they've taken two steps forward and one step back at times.

Also both the national and local legislatures in the Azerbaijan, conditions have improved for women in political workplace. Although women in Azerbaijan have the same legal rights as males, societal prejudice still exists.

In the previous century, the United Kingdom has had two female Prime Ministers and an increasing number of female political leaders. In 2018, half of the political parties represented in the UK Parliament and devolved administrations are led or co-led by women, and women are the First Ministers of Scotland and Northern Ireland, as well as the UK Prime Minister. This is a significant shift, but the treatment and perception of women leaders has progressed far more slowly.

In Azerbaijan's 2005 parliamentary elections, The first lady (Mahriban Aliyeva) was elected to the National Assembly of Azerbaijan. According to a Milli Majlis decision on March 4, 2016, she was appointed as the leader of the Azerbaijan-France working group on inter-parliamentary cooperation.

CONCLUSION

In conclusion, Azerbaijan and United Kingdom, like many other countries on the world, still has a long way to go in terms of ensuring women's rights and achieving true gender equality. However, because to the commitment of female leaders and politicians, the country is making significant progress toward equality. From each countries, focus on improving the role of women in the society and political activities.

In additionally, politicians commented frequently about the changing nature and tone of political debate, citing a significantly stronger female voice as a result of the growing number of women in parliamentary organizations. Parliamentarians all throughout the world agree with this. Women and girls' lives have improved as a result of a growing number of women working together to influence the political agenda and the law.

REFERENCES:

1. Flabbi, L., et al., Do Female Executives Make a Difference? The Impact of Female Leadership on Gender Gaps and Firm Performance, IZA Discussion Paper No. 8602, Institute for the Study of Labor (IZA), 2014.
2. "Global Gender Gap Report 2021" (PDF). World Economic Forum. Retrieved 3 March 2022.
3. Violence Against Women in Azerbaijan Archived 2008-05-16 at the Wayback Machine. World Organisation Against Torture (November 2004).
4. 'Azerbaijan www.amnesty.org. 12 May 2021. *Retrieved 16 December 2021*
5. *"Gender Inequality Index" (PDF). HUMAN DEVELOPMENT REPORTS. Retrieved 27 October 2021*

YENİ DÖVLƏT İDARƏETMƏSİ KONSEPSİYASI VƏ ONUN MÜQAYİSƏLİ TƏHLİLİ

MİRZƏZADƏ BARAT
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə
Email: bmirzezade@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə XX əsrin sonlarında ortaya çıxan Yeni dövlət idarəçiliyi anlayışı araşdırılmışdır. Lakin bu ideyanın daha dərindən anlaşılması üçün Ənənəvi idarəçilik yanaşmasından da bəhs olunmuşdur. 1970 – ci illərdən başlayaraq Yeni dövlət idarəçiliyi düşüncəsinin ipucularına dünyanın bir çox ölkəsində rast gəlinmiş və bu isə mövzunu daha da əhəmiyyətli olmasına səbəb olmuşdur. Bu tədqiqatda əsas məqsəd Ənənəvi idarəetmə anlayışını onun əsas xətləri ilə izah edərək, Yeni dövlət idarəçiliyi düşüncəsinin ortaya çıxaran səbəbləri təhlil etmək, daha sonra isə onlar arasında müqayisənin aparılmasından ibarətdir. Tədqiqatda Ənənəvi idarəetmə yanaşması və onun əsas xüsusiyyətləri, Yeni dövlət idarəetməsi, inkişafı, əsas xüsusiyyətləri və ona tənqidi yanaşmalar kimi məsələlərə toxunulmuşdur. Araşdırmada iki düşüncə arasında müqayisə aparılmış və yalnız qeyd olunan məsələlərdən bəhs olunaraq nəticə əldə olunmuşdur.

AÇAR SÖZLƏR: İdarəetmə və dövlət idarəetməsi, ənənəvi dövlət idarəetməsi, yeni dövlət idarəetməsi.

GİRİŞ

1. Tədqiqat işində yeni dövlət idarəetməsi və ənənəvi dövlət idarəetməsi anlayışlarının əsas xüsusiyyətləri və onların müqayisəsi araşdırılmışdır. Tədqiqat işinin məqsədi ənənəvi dövlət idarəetməsi anlayışının formalaşması, əlamətləri və xüsusiyyətlərinin izah olunması ilə yeni dövlət idarəetməsi düşüncəsinin yaranma səbəblərinin araşdırmaq, onun əsas cəhətlərini öyrənmək və bu iki konsepsiya arasında müqayisə təhlilinin aparılmasından ibarətdir. Ənənəvi dövlət idarəçiliyi və sosial rifah dövləti anlayışına edilən tənqidlər kiçik, effektiv və səmərəli bir dövlət gözləntisini ortaya çıxarmışdır. Məhs bu gözləntilər, liberal və özəl sektora əsaslanan yeni dövlət idarəçiliyi anlayışını ortaya çıxarmışdır ki, bu da müasir dövr üçün aktual əhəmiyyət daşıyan mövzuya çevrilmişdir. Dövlət idarəetməsində baş verən dəyişikliklər yeni dövlət idarəetməsinin əhəmiyyətini daha da artırdığı üçün tədqiqat işində yeni dövlət idarəetməsi öyrənilmiş və müqayisəli təhlil aparılmışdır.

2. Yaşadığımız informasiya və texnologiya əsri, həyatın çox sürətli dəyişdiyi bir vaxtdır. Bu dövrdə bütün sahələrdən və sektordan dəyişikliklərə sürətli uyğunlaşma, səmərəlilik, sürət, keyfiyyət və effektivlik gözlənilir. Ənənəvi dövlət idarəçiliyi isə bu ehtiyacları qarşılıya bilmədiyindən dövlət idarəçiliyində bir sıra problemlərin yaranmasına səbəb olur və idarəetmə sahəsində geriləmələr baş verir. Buna qarşılıq olaraq isə yeni dövlət idarəetməsi dövlətin minimumlaşdırılması, xidmətlərin qeyri – mərkəzləşdirilməsi, özəl sektorun idarə edilməsi üzrə bilik və texnikaların dövlətə ötürülməsini müdafiə edir. Yeni dövlət idarəçiliyi, bununla da yöndəmsizlik və səmərəsizliklə ittiham olunan dövlət sektorunun, informasiya cəmiyyətinin ehtiyaclarına cavab verilməsini təmin etməyə çalışır. Tədqiqat işində bu kimi məsələlər ön plandadır.

3. Tədqiqat işində yeni dövlət idarəetmə konsepsiyası dəyərləndirilmiş, müqayisə aparılmış və ona tənqidi yanaşmalar göstərilmişdir. Tədqiqat işində müxtəlif xarici ədəbiyyatlardan istifadə olunmuş və 5 əsas mənbə ədəbiyyat siyahısında göstərilmişdir. Tədqiqat işində müqayisəli təhlil aparılmış və nəticə əldə olunmuşdur.

4. Tədqiqat işi xülasə, açar sözlər, giriş, tədqiqat metodu, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat metodu isə 3 hissədən ibarətdir. Tədqiqat metodunun sonuncu hissəsində bir cədvəldən istifadə olunmuşdur.

TƏDQİQAT METODU

1. Ənənəvi dövlət idarəetməsi, əsas xüsusiyyətləri və yeni dövlət idarəetməsi anlayışının yaranması

Dövlət idarəetməsi bütün bir cəmiyyətin bir-birinə qarışmış və çox vaxt zidiyyətli problemlər arasında fəaliyyət göstərən, dövlət xidmətlərini həyata keçirən inzibati mexanizm kimi müəyyən edilir. Dövlət idarəetməsi paradiqmalarını klassik, ənənəvi dövlət idarəetməsi yanaşması və yeni dövlət idarəetməsi yanaşması kimi təsnif etmək mümkündür.

Ənənəvi dövlət idarəetməsi, XIX əsrin ikinci yarısından XX əsrin son rübünə qədər qüvvədə olan dominant paradiqmanın adıdır. İlk ortaya çıxdığı zamanlarda dövrün böyük bir islahat hərəkatı kimi xarakterizə olunur. Ənənəvi model ilə dövlət idarəçiliyi, ləyaqətin əsas qəbul edildiyi peşəkar bir sənət olmuşdur. 1980-ci illərə qədər dövlət idarəçiliyində dominant paradiqma olan ənənəvi dövlət idarəçiliyi anlayışının əsas bazasını Vudro Vilson, Maks Veber və Fredrik Teylorun baxışları və düşüncələri formalaşdırır. 1887-ci ildə "İdarəetmənin öyrənilməsi" adlı məqaləsini yazan Vilson, dövlət idarəetməsinin siyasi elmdən ayrı bir sahə olduğunu ifadə edərək dövlət idarəetməsinin çərçivəsini cızdı. Alman sosioloq Maks Veber isə buna uyğun olaraq dövlət idarəetməsinin təşkilatlanmasına diqqət yetirmiş, ənənəvi idarəetmə yanaşması anlayışının əsas nüvəsi, bu gün də istifadə etdiyimiz "bürokratik təşkilat modelini" inkişaf etdirmişdir. Teylor isə "Elmi idarəetmənin prinsipləri" adlı əsərində də ifadə etdiyi kimi pis idarəetmə nəticəsində ölkənin verdiyi itkiyə diqqət çəkir və bu istiqamətdə inkişaf etdirdiyi təklifləri ifadə etmişdir.

Xüsusilə ikinci dünya müharibəsindən sonra dövlətlər, sosial dövlət və rifah dövlət anlayışlarının təsiri ilə dəyişən siyasi, iqtisadi və sosial şərtlərə uyğun bir şəkildə təhsil, səhiyyə, kənd təsərrüfatı, nəqliyyat, sənaye, ticarət və mədəniyyət kimi müxtəlif sahələrdə fəaliyyət göstərməyə başladılar.

Dövlətlərin inkişaf edən fərdi və sosial ehtiyaclarını qarşılıya bilməsi üçün yeni funksiyalar və vəzifələrin görülməsi, dövlətlərin struktur olaraq böyüməsinə, yəni dövlət idarəetməsi təşkilatının böyüməsinə səbəb olmuşdur. Bu artım nəticəsində texnokratik qərar vermə prosesləri demokratik prosesləri qabaqlamağa başlamış, dövlət bürokratlardan daha çox asılı hala gəlmiş, bürokratiya artmış, fərdlərin siyasi və inzibati proseslərdə iştirakı mümkün olmamış, səmərəsizlik, artan dövlət xərcləri və inflyasiya kimi problemlər ortaya çıxmışdır.[2/s.31]

1970 – ci illərdə isə bu proses daha da genişləndi. Lakin, bu tarixdən başlayaraq liberalizmin canlanması ilə bir çox dövlət fəaliyyətləri və xidmətləri dövlət üzərində artıq yük olduğu başa düşüldü, özəlləşdirmə və

dövlət xidmətlərinin qismən və tamamilə dövlətin fəaliyyət sahəsindən çıxarılması baş verdi. Beləliklə, dövlətin kiçilməsi üçün addımlar atıldı.

Bu kontekstdə neoliberal siyasətlər çərçivəsində dövlətə verilən rollarda dəyişikliklər oldu, ənənəvi dövlət idarəetməsi konsepsiyası əvvəlki gücünü itirmiş və normativ yönümlü idarəetmə anlayışı yerini yeni dövlət idarəetməsi konsepsiyasına verdi. Bu yanaşma dövlət təşkilatlarının iqtisadi, rasionallıq, səmərəlilik və məhsuldarlıq çərçivəsində yenidən tənzimlənməsini ifadə edir.[3/s.23]

Ənənəvi dövlət idarəetməsinin əsas xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

1. Dövlət sektorunun ictimai ölçüsünə, hüquqi və bürokratik proseslərə önəm verir;
2. Veberin bürokratiya modelinə əsaslanır;
3. Dövlət sektoru ilə özəl sektor idarəetməsinin bir-birindən fərqli olduğunu düşünür;
4. Siyasət və idarəetmə arasındakı fərqə əsaslanan düşüncə sistemi var.

Ənənəvi model inkişaf etdiyi dövrdə ehtiyacları artıqlaması ilə qarşılayaraq, çox böyük nəticələr vermişdir. Bununla belə, dəyişən və inkişaf edən dünyada yeni ehtiyaclar yarandıqca yeni modellər ortaya çıxmış və inkişaf etmişdir. Bu ehtiyaclar nəticəsində ortaya qoyulan fəaliyyətlər və siyasətlərlə birlikdə inkişaf edən nəzəriyyənin adı Yeni dövlət idarəetməsidir.

2. Yeni dövlət idarəetməsinin inkişafı və ona tənqidi yanaşmalar

Xarici ədəbiyyatlarda "New Public Management" və ya "Yeni Kamu Yönetimi" adlanan bu anlayış 1980-ci illərdən başlayaraq dövlət idarəetməsində əsas konsepsiyaya çevrildi. Yeni dövlət idarəetməsi adlandırılan bu anlayışın ortaya çıxmasına bir sıra amillər təsir etmişdir ki, bu amilləridə iqtisadi, sosial və siyasi amillər olmaqla üç qrupda cəmləşdirmək mümkündür. Bunlara qısa da olsa toxunmaq zəruridir:

1. İqtisadi amillər: Keyns siyasətləri və rifah dövləti anlayışı yeni dövlət idarəetməsi yanaşmasına keçidin ən əsas iqtisadi səbəblərindəndir. Daha sonra 1973-74-cü illərdə Ərəb-İsrail müharibələri nəticəsində ərəblərin neft embarqoları Qərb ölkələrinə təsir etdi. Sənayenin və dolayısı ilə iqtisadiyyatın hərəkətverici qüvvəsi olan enerji ehtiyacında meydana gələn artım, sənaye təşkilatlarının istehsallarının dayanması və zəifləməsi dövlətə vergi ödəyə bilməmələri ilə nəticələndi və bu da dövlətin böyük gəlir itkisinə səbəb oldu. Bu proseslərdən sonra hökumətlər səmərəlilik məsələlərinə xüsusi önəm verməyə başladılar.

2.Sosial amillər: Təhsil səviyyəsinin yüksəlməsi və kommunikasiya imkanlarının təkmilləşdirilməsi nəticəsində vətəndaşların təhsil səviyyələri yüksəlmiş və bu da cəmiyyətin yaxşı və ya pis vəziyyətlərini bir-birinə ötürmək halı almışdır. Dövrün təhsilli insanı daha çox xidmət tələb etməkdən əlavə, daha keyfiyyətli xidmət tələb edirlər.Təbii olaraq bu hökumətlərin xidmət standartlarını yüksəltmələri nəticəsini doğurmuşdur.[4/s.83]

3. Siyasi amillər: Yeni dövlət idarəetməsi anlayışının əsasındakı siyasi motivlər bürokratiyanın azaldılması, səmərəsizliyin və israfçılığın qarşısının alınması, hesabatlı və qənaətcil bir dövlət idarəetməsi meydana çıxarmaqdadır.

Klassik dövlət idarəçiliyində dövlət idarəçilərinin səlahiyyətləri və məsuliyyəti qabaqcadan müəyyən edilir və məqsədlərə çatmaq üçün proqramlaşdırılır. Yeni yanaşmada isə əksinə, hədəflərin müəyyənləşdirilməsi əsas məsuliyyət sahəsi kimi görünür. Yeni dövlət idarəetməsində dövlətin təşkilati strukturu çevik olmalı, iyerarxiya yumuşaq olmalı, səlahiyyətlər mərkəzləşdirilməməlidir. Yeni dövlət idarəetməsi konsepsiyası əsasən inkişaf etmiş ölkələrdə və anglo-sakson sistemin hakim olduğu ölkələrdə yaranmış və inkişaf etmişdir. Yeni dövlət idarəetməsi anlayışının inkişafını üç mərhələyə ayırmaq olar. Birinci mərhələ 1979 – cu ildən başlayaraq, 1980 – ci ilin ortalarına qədər davam etmişdir. Bu dövr ərzində dövlət sektorunda hüquqi-strukturun liberallaşdırılması, ictimai mallara və xidmətlərə görə subsidiyaların ləğvi və digər qənaət tədbirlərinin həyata keçirilməsi baş vermişdir. İkinci mərhələ 1985 – ci ildən başlayaraq intensivləşən ictimai təsərrüfat müəssisələrinin özəlləşdirilməsi, ingilis terminlərinin baş hərflərindən ibarət 3-E, Economy – qənaətcillik, Efficieny – məhsuldarlıq, Effectiveness – effektivlik siyasətləridir. Nəhayət, 1990 – cı illərdən başlayaraq üçüncü mərhələ davam edir. Bu mərhələnin siyasətlərinə dövlət xidmətlərində keyfiyyət, vətəndaş yönümlü, idarəetmədə iştirak, hesabatlılıq, şəffaflıq və performansa əsaslanan idarəetmə kimi prinsiplər daxildir. Bu üçüncü mərhələ dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsi üçün açıq bir prosesdir. Ölkələr baxımından fərqlilik yaradacaq məqam hər bir ölkənin və yaxud idarəetmə bölməsinin bu sahədə edəcəyi inkişaf səviyyəsidir.

Bir çox yeniliklər gətirməsinə baxmayaraq yeni dövlət idarəetməsinə bir sıra tənqidlərdə vardır. Bunlardan ilki bazar mexanizmini təməl kimi götürən bu yanaşma nəticəsində ictimai məsuliyyət, ictimai maraq, xidmətlərin geniş məqsədləri kimi ənənəvi prinsiplərin ortadan qalxacağını ifadə edir. Bundan əlavə, intensiv özəlləşdirmə proqramları nəticəsində dövlətin ictimai xidməti olaraq təklif olunan funksiyalar

üzərindəki nəzarəti də azalacaq və dövlətin dövlət olmasından qaynaqlanan idarə edilməsi əsasını təşkil edən "Sükanı əlində tutmaq" qabiliyyəti də zəifləyəcəkdir.

Yeni dövlət idarəetməsi konsepsiyasına digər tənqidi yanaşmaları aşağıdakı kimi sıralamaq olar:

1. Bu anlayışa qarşı tənqidlərdən ən çox üzərində qalınanlardan biri başlıqdakı "yeni" sözü ilə bağlıdır. Tənqidlərə görə bu söz yeni dövlət idarəetməsi anlayışını məhşurlaşdırmaq üçün istifadə edilir ki, artıq bu konsepsiyanın ifadə etdiyi hər şey əvvəlcədən bəyan edilmişdir.
2. Başqa bir tənqidi yanaşmada yeni dövlət idarəetməsi anlayışının demokratik prinsip və dəyərlərə uyğun olmadığı bildirilir.
3. Yeni dövlət idarəetməsi anlayışı yeni sağ düşüncəsi ilə əlaqəli olduğu üçün də tənqid olunur. Bu baxımdan yeni dövlət idarəetməsinin məsuliyyət və nəzarət münasibətlərini dəyişən ideoloji bir proses olduğu iddia edilir.[1/s.21]

3. Ənənəvi dövlət idarəetmə anlayışı ilə yeni dövlət idarəetməsi anlayışının müqayisəli təhlili

Yeni dövlət idarəetməsinin bir çox xüsuiyyətləri vardır və bu müxtəlif formada təsnif edilir. Lakin bu tədqiqat işinin daha dərindən və aydın başa düşülməsi üçün bu konsepsiyanın ənənəvi dövlət idarəetmə yanaşması ilə yanaşı təhlil edilməsi daha məqsədə uyğundur.[5/s.28]

Ənənəvi dövlət idarəçiliyi ilə yeni dövlət idarəçiliyi yanaşması arasındakı fərqlərin izahını asanlaşdırmaq üçün müqayisəli olaraq aşağıdakı cədvəldə göstərilməyə çalışılmışdır.

Cədvəl 1: Ənənəvi idarəetmə ilə yeni idarəetmə anlayışının müqayisəsi

	Ənənəvi İdarəetmə	Yeni idarəetmə
Struktur	• Möhkəm təşkilati struktur • Mərkəzçi • Ciddi iyerarxiya • Xidmət dövləti • Böyük ölçülü struktur • Bürokratiya yönümlü	• Çevik təşkilati struktur • Mərkəzləşdirilməmiş • Yumşaq iyerarxik • Minimal dövlət • Kiçik miqyaslı struktur • Bazar yönümlü
Rollar Prinsiplər Siyasətlər	• İdarəetmə • Təşkilat mərkəzli • Qaydalarla bağlı yaxından nəzarət • Menecment və idarəetmə • Sabit əmək haqqı • Bürokrat tip idarəçi • Daha az səlahiyyətli idarəçi • Gizlilik • Xidmətlərdə kəmiyyət • Yuxarı idarəçiyə bağlı dəyərləndirmə • Qapalı məlumat kanalları • Səlahiyyətləri cəmləşdirən • Risk etmək istəməyən • Göstərişli və çevik olmayan • Giriş və proses yönümlü • Fərdi idarəli	• Menecment • Müştəri-vətəndaş mərkəzli • Performans məqsədli audit • Aktiv idarəçilik • Performansa əsaslanan əmək haqqı • Sahibkarlıq meneceri • Səlahiyyətli idarəçi • Şəffaflıq • Xidmətlərdə keyfiyyət • Çox yönlü qiymətləndirmə • Açıq məlumat kanalları • Səlahiyyəti paylaşan • Risk etmək istəyən • Vizyoner və çevik • Çıxış və nəticə yönümlü • Qrup, komanda idarəliyi

Mənbə: Bilal Eryılmaz, Kamu Yönetimi, Okutman Yayıncılık, Ankara-2009, 26-27

Bu cədvəlin köməyi ilə iki konsepsiya arasındakı fərqləri aydın şəkildə görmək olar.

NƏTİCƏ

Tədqiqat işində gəlinən son nöqtə onu göstərir ki, müasir dövrdə dəyişən dünya idarəetmə sahəsinədə birbaşa təsir göstərir. Dövlət idarəetməsində yaranan yeni yanaşmalar onların tətbiq istiqamətlərini yenidən təhlil edərək, qiymətləndirilməsini tələb edir. XIX əsrdən başlayaraq XX əsrə kimi öz damğasını vuran ənənəvi idarəetmə yanaşması 1970 – ci illərdən başlayaraq yaranan bir çox problemlərlə öz əhəmiyyətini itirdi. Bu problemlərdən çıxış yolu kimi yaranan yeni dövlət idarəetməsi bir çox inkişaf etmiş ölkələrdə tətbiq olunmağa başlandı. Qeyd etmək lazımdır ki, dövlət idarəetməsində yeni səmərəli və məhsuldar nəticə almaq üçün bu sistemin tətbiqi vacib əhəmiyyət daşıyır. Bir çox ölkələr artıq bununla bağlı bir sıra qanunlar tətbiq edirlər. Müasir dövrdə sürətlə inkişaf edən və dəyişkən ehtiyacların təsiri ilə bu məsələ daha

da aktual hal almışdır. İnkişaf etmiş ölkələr yeni dövlət idarəetməsi ilə bir sıra müsbət nəticələr əldə etmişlər. Bütün bunlar isə tədqiqat işinin əhəmiyyətini daha da artırır və dövlət idarəetməsi sahəsində vacibliyini ortaya qoyur.

ƏDƏBİYYAT SİYAHISI

1. Murat Akçakaya, Geleneksel kamu yönetiminden yeni kamu yönetimine kamu yönetimi disiplininin gelişimi. Sosyal Bilimler Enstitüsü Dergisi (**Jurnal məqaləsi**), Sayı 34, 2017, Sayfa 4-31
2. Eryılmaz, Bilal, Kamu yönetimi. Yedinci baskı, Kocaeli: Umuttepe Yayınları (**Nəşr**), 2014, Sayfa 1-230
3. Arslan, Nagehan Talat, Klasik - Neo Klasik Dönüşüm Süreci: Yeni Kamu Yönetimi. İktisadi ve İdari Bilimler Dergisi (**Jurnal məqaləsi**), 2010, Sayfa 19-44
4. Kurt, M., Uğurlu, Ö.Y. Yeni Kamu Yönetimi Ve Yeni Kamu Yönetimi Yaklaşımının Gelişiminde Avrupa Birliğinin Rolü: İlerleme Raporları İçerik Analizi. Afyon Kocatepe Üniversitesi İİBF Dergisi (**Jurnal məqaləsi**), 2007, Sayfa 81-111
5. Jannatul Ferdous, The Journey Of New Public Management: An Analysıs. International Journal of Business, Economics and Law (**Jurnal məqaləsi**) Vol. 11, Issue 2, 2016, Pages 26-31

AVROPA İTTIFAQINDA QLOBALLAŞMA PROSESININ SOSIAL SIYASƏTƏ TƏSIRLƏRI

ZÖHRAB AĞAYEV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyatın idarə edilməsi / Dövlət strukturlarında menecment
Zagayev1@std.beu.edu.az
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

Tədqiqat işində Avropa İttifaqı üzrə qloballaşma prosesinin sosial siyasətə təsirləri öyrənilmişdir. İlkin olaraq, sosial siyasət anlayışının elmi-nəzəri əsasları müzakirə olunmuşdur. Sosial siyasət anlayışı, Avropada sosial siyasətin tarixi inkişafı, sosial dövlət və sosial siyasət arasındakı fərqlər haqqında geniş məlumatlar verilmişdir. Avropa İttifaqında qloballaşma və onun sosial təsirləri istiqamətində təhlil aparılmışdır. Bu gün Avropa İttifaqı kimi tanınan inteqrasiyanın yaradılmasında əsas məqsəd müharibə edən dövlətlərin arasında barışıq yaratmaqdır, habelə bu ölkələr arasında davamlı olaraq sülhün bərqərar olması, ölkə iqtisadiyyatının yenidən qurulması, həmin ölkələr arasında münaqişələrdən daha çox dövlətlərarası əməkdaşlıqların inkişafıdır.Tədqiqat zamanı transmilli sfera ilə bağlı yanaşmalarda müxtəlif perspektivlərlə irəli sürülən bir çox fərziyyələr və nəzəri mövqelər müzakirə edilmişdir. Qloballaşma və Avropa İttifaqında sosial siyasətin transformasiyası təsiri müəyyən edilmişdir. Belə ki, sosial siyasətin transformasiyasını zəruri edən faktorlar araşdırma nəticəsində qeyd edilmişdir. Bundan başqa, tədqiqat nəticəsində sosial dövlət strukturunda və funksiyalarında baş verən dəyişikliklər də müzakirə olunmuşdur.

AÇAR SÖZLƏR: AVROPA İTTIFAQI, QLOBALLAŞMA, SOSIAL SIYASƏT

GIRIŞ

Avropa İttifaqında sosial siyasətinin əsas problemlərindən biri üzv ölkələrin müxtəlif sosial, iqtisadi və mədəni xüsusiyyətlərə malik olması və bu vəziyyətin sosial siyasət praktikasında İttifaq standartının yaradılmasında çətinliklər yaratmasıdır. Üzv ölkələr müxtəlif institusional strukturlar, qanunlar və problemlərlə üzləşirlər və bu ölkələrlə oxşar üsul və həll yolları ilə məşğul olmaq çox çətindir. Digər tərəfdən, İttifaq səviyyəsində qəbul edilən qərarların məcburiliyi və tətbiq edilən sanksiyaların sərtliyi də mühüm məsələdir və Avropa İttifaqına üzv dövlətlər məcburi olmayan qaydaları qəbul etsələr belə, bu qaydalara əməl etmək üçün ləng hərəkət edə bilərlər.

Avropa İttifaqının uğurlu sosial siyasəti, şübhəsiz ki, qəbul edilən qərarların məcburi olması və bu qərarların üzv dövlətlər tərəfindən həyata keçirilməsi ilə mümkün olacaqdır. Bunun baş verməsi üçün güclü

Avropa İttifaqı lazımdır. Bununla belə, bir tərəfdən Avropa İttifaqı ölkələrində yaşanan iqtisadi qeyri-sabitlik, digər tərəfdən isə Avropa İttifaqının mərkəzdə daha güclü bir struktur kimi meydana çıxmasını çətinləşdirir və üzv ölkələr üzərində dominantlığını və təsirini daraldır. Digər tərəfdən, Avropa İttifaqında sosial siyasətlə bağlı tədbirlər milli səviyyədə büdcə şərtləri ilə məhdudlaşıb və İttifaq daxilində möhkəm sosial dayağa malik mütərəqqi Avropa sosial siyasəti hələ də qurulmayıb. Əvəzində, əmək bazarları, rifah sistemləri, sosial və əmək hüquq normaları, iqtisadi və pul ittifaqı istehsal şərtləri ilə daha da uyğunlaşdırılmalı olduğu inamı ilə sosial siyasətin instrumental anlayışı davam edir.

Avropa İttifaqının qurulması hər şeydən əvvəl iqtisadi xarakter daşıyır və buna görə də bazar dinamikası ilə idarə olunur. Bununla belə, İttifaqın üzvü olan ölkələrdə sosial problemlərin həlli, o cümlədən iqtisadi problemlərin həlli üçün ittifaq səviyyəsində səylərin göstərilməsi, standartların yaradılması və bu standartlara əməl olunmasının təmin edilməsi böyük əhəmiyyət kəsb edir. Yalnız bu yolla Avropa İttifaqı Amsterdam Müqaviləsində müəyyən edilmiş azadlıq, təhlükəsizlik və rifah sahəsinə çevrilə biləcək. Bu çərçivədə, son dövrdə mühüm sosial siyasət təşəbbüsü olan Avropa İttifaqı "Sosial Hüquqlar Sütunu" ilə işsizlik, yoxsulluq, sosial təcrid, hər cür cinayət və narkotiklərlə mübarizə, gender bərabərliyinin qorunması kimi müəyyən edilmişdir.

Bu məqsədlərlə yanaşı, Avropa İttifaqının Sosial Hüquqlar Sütunu da Avropa İttifaqı vətəndaşlarına aidiyyət və şəxsiyyət hissi verəcək bir layihə hazırlamağı hədəfləyir. Digər tərəfdən, qloballaşma dönəmində iş həyatı ilə əlaqədar olaraq, texnologiyadakı irəliləyişlərin, avtomatlaşdırmadan istifadənin artmasının və telekommunikasiya imkanlarının genişlənməsinin bütün dünyada olduğu kimi Avropada da biznes və sektorlara təsir edəcəyi təxmin edilir. iş yeri əhəmiyyətini itirəcək, yeni çevik iş növləri ortaya çıxacaq və mövcud olmağa davam edəcəkdir.

Tədqiqat işinin strukturu aşağıdakı kimi olacağı planlaşdırılmışdır:

Fəsil 1. Sosial siyasət anlayışının elmi-nəzəri əsasları

1.1. Sosial Siyasət anlayışı

1.2. Avropada sosial siyasətin tarixi inkişafı

1.3. Sosial dövlət və sosial siyasət

Fəsil 2. Avropa İttifaqı və qloballaşma prosesi

2.1. Qloballaşma və onun sosial təsirləri

2.2. Avropa İttifaqı və sosial siyasət

2.3. Avropada transmilli sferanın inteqrasiyası

Fəsil 3. Qloballaşma və Avropa İttifaqında sosial siyasətin transformasiyası

3.1. Sosial Siyasətin transformasiyasını zəruri edən faktorlar

3.2. Sosial dövlət strukturunda və funksiyalarında baş verən dəyişikliklər

TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həllində təhlil metodu əsasında bir çox xarici və yerli mənbələrdən istifadə edilərək Avropa İttifaqında qloballaşma prosesinin sosial siyasətə təsirləri tədqiq edilmişdir. Tədqiqat işində təhlil, müqayisə və sintez metodlarından istifadə edilmişdir. Müqayisə metodu vasitəsilə təhlil nəticəsində əldə olunmuş məlumatlar Avropa İttifaqı üzv ölkələrin sosial siyasət və sosial dövlət üzrə yanaşmaları müqayisə edilmişdir.

Aparılmış elmi təcrübələr nəticəsində1970-ci ildə baş verən neft böhranından sonra yaşanan iqtisadi problemlər dünyada sosial dövlətə qarşı tənqidləri daha da artırdığı müəyyən edilmişdir. Son 40 il ərzində müxtəlif sahələrdə bir çox dövlət xərclərini azaltmaq, o cümlədən dəyişən cəmiyyətin ehtiyaclarına cavab vermək üçün bazarlaşmaya gətirib çıxaran bir çox islahatlar aparılmışdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı sosial dövlətin böhranını elan etdiyi 1980-ci illərdən 2020-ci ilə qədər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrinin sosial xərclərində ciddi azalma müşahidə olunmamışdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı orta göstəricisinə nəzər saldıqda, dövlət sosial xərclərinin ümumi daxili məhsula nisbətinin 1980-ci illərdəki 14%-dən 2018-ci ildə 20%-ə yüksəldiyi görülür.

Cədvəl 1. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində dövlət sosial xərclərinin ümumi daxili məhsula nisbəti, 1980-2018

	1980	1985	1990	1995	2000	2005	2010	2015	2018
ABŞ	12,8	12,6	13,2	15,1	14,3	15,6	19,4	18,8	18,7
Almaniya	21,8	22,2	21,4	25,2	25,4	26,2	25,9	24,9	25,1
Avstraliya	10,3	12,1	13,1	16,9	18,3	16,7	16,6	18,5	17,8
Belçika	23,1	25,6	24,4	25,2	23,5	25,2	28,3	29,2	28,9
Fransa	20,1	25,2	24,3	28,3	27,6	28,7	31,0	32,0	31,2
Cənubi Koreya	-	-	2,7	3,1	4,5	6,1	8,2	10,2	11,1
Niderland	23,3	23,8	24,0	22,4	18,8	20,2	17,8	17,7	16,7
Böyük Britaniya	15,6	18,2	14,9	16,7	16,2	18,3	22,4	21,6	20,6
İspaniya	15,0	17,1	19,2	20,7	19,5	20,4	24,7	24,7	23,7
İsveç	24,8	27,0	27,2	30,6	26,8	27,3	26,3	26,3	26,1
İtaliya	17,4	20,1	20,7	21,1	22,7	24,2	27,1	28,5	27,9
Yaponiya	10,0	10,8	10,9	13,3	15,4	17,2	21,3	21,9	21,9
Kanada	13,3	16,4	17,5	18,4	15,8	16,1	17,5	17,6	17,3
Meksika	-	1,9	3,1	3,7	4,4	6,1	7,4	7,7	7,5
Norveç	16,1	17,2	21,6	22,5	20,4	20,7	22,0	24,7	25,0
Portuqaliya	9,5	9,8	12,2	16,0	18,5	22,3	24,5	24,0	22,6
Türkiyə	2,2	2,0	3,8	3,4	7,5	10,1	12,3	11,6	12,5
İƏİT Orta	14,4	16,1	16,4	18,0	17,4	18,2	20,6	19,0	20,1

Mənbə: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, https://www.oecd.org/

Tədqiqat zamanı Avropa Ədalət Məhkəməsi və Avropa Birliyinin Müqaviləsindən toplanan məlumat əsasında Avropaya inteqrasiya yolu ilə Milli Sosial Siyasətlərin Transformasiyası üzrə cədvəl tərtib olunmuşdur.

Cədvəl 2. Avropaya inteqrasiya yolu ilə Milli Sosial Siyasətlərin Transformasiyası

Metod növləri	Əsas qurumlar	Nümunə
Uyğunlaşdırılmış Avropa rifah standartlarına nail olmağa yönəlmiş sosial siyasətdə "müsbət" təşəbbüslər	Komissiya, ekspertlər, komitə üzvləri, Avropa Ədalət Məhkəməsi, (Əsas aktyorlar: Avropa Parlamenti, Avropa işəgötürən təşkilatları və həmkarlar ittifaqları, Sosial Komitə)	Gender bərabərliyi (maddə 141, Avropa Birliyinin Müqaviləsi); əməyin mühafizəsi və təhlükəsizliyi; İcma Konvensiyası (1989); Sosial Siyasət üzrə Maastrixt Müqaviləsi (1992) və ya Amsterdam Müqaviləsinin Sosial Fəsli (1997)
Bazara uyğunlaşmaq üçün vahid bazar proqramı vasitəsilə "mənfi" sosial siyasət tədbirlərinin həyata keçirilməsi	Avropa Ədalət Məhkəməsi, Komissiya, Avropa Şurası (=üzv dövlət hökumətləri)	Azadlıq: Koordinasiya ; məşğulluq azadlığı (maddə 14, 49-55, ATA) - və regional və sektoral subsidiyalara da nəzarət edən Avropa "rəqabət rejimi" (maddə 8, 86, Avropa Birliyinin Müqaviləsi)
milli rifah dövlətlərinin uyğunlaşması ilə nəticələnən inteqrasiya üçün "de-fakto" təzyiqlər	Bazarın əsas oyunçuları (işəgötürənlər, həmkarlar ittifaqları), Avropa Şurası (=üzv dövlətlərin hökumətləri)	"Sosial dempinq"; inteqrasiya olunmuş Avropa özəl sığorta bazarı; vergi sisteminin uyğunlaşdırılması; pul birliyinin müxtəlif mərhələləri (Avro)

Mənbə: Avropa Ədalət Məhkəməsi və Avropa Birliyinin Müqaviləsindən toplanan məlumat əsasında müəllif tərəfindən tərtib olunub.

NƏTİCƏ

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr əsasında Avropa İttifaqı qloballaşma ilə iş həyatında baş verən dəyişikliklərin dolayısı ilə təhsil sisteminə təsir edəcəyi, yeni iş növlərinin meydana çıxacağı, bu işlərə kadr hazırlığı üçün təhsilin müasirləşdirilməsinin tələb olunacağı müəyyən edilmişdir. Digər tərəfdən, fənlərarası biliklərin və yaradıcı bacarıqların ötürülməsi, dövri yenidən hazırlıq və ömür boyu təhsil və s. kimi mövzular önümüzdəki dövrdə Avropa İttifaqının sosial siyasətinin gündəmində daha çox ön plana çıxacaq.

Nəticədə iş həyatındakı dəyişikliklər gündəmə yeni sosial hüquqlar gətirəcək. Bütün bu hadisələrin fonunda Avropada sosial siyasətin gələcəkdə necə formalaşacağı maraq doğuran mühüm məsələdir. Şübhəsiz ki,

İttifaq və üzv dövlətlərin bu sahədə qəbul edəcəyi qərarlar Avropa İttifaqının sosial siyasətinin gələcəyinə təsir edəcək.

Fikrimcə, qloballaşma ilə Avropa sosial modeli işsizliyə, yoxsulluğa və rəqəmsal texnologiyalar dövründə artacaq bütün sosial və iqtisadi böhranlara qarşı yenidən nəzərdən keçiriləcək və əsas mülki hüquqların iqtisadi və sosial hüquqlarla birlikdə qorunduğu insan hüquqlarına əsaslanan güclü sosial siyasət yaradılacaqdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Blauberger Michael, Susanne Schmidt. The European Court of Justice and its political impact. West European Politics, Volume 40, Issue 4, 2017, Pages 907-918.
2. Chryssochoou D. N., Tsinisizelis M. J., Stavridis S., Ifantis K. Theory and reform in the European Union. In Theory and reform in the European Union. Manchester University Press, Manchester/ England. 2018: 1-248
3. Kərimova Təranə, Sosial siyasət dövlətin daxili siyasətinin tərkib hissəsidir, https://sesqazeti.az/news/social/579760.html
4. Məmmədova S.D. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri. "AVROPA" nəşriyyatı, Bakı/Azərbaycan. 2017: 1-232
5. Гумбатов Т.С. Процесс нейтрализации международного терроризма в условиях глобализации, Баку/Азербайджан. 2014: 1-182.

BEYNƏLXALQ ƏMƏK TƏŞKILATINA ÜZV OLMANIN AZƏRBAYCAN RESPUBLIKASININ ƏMƏK QANUNVERICILIYINƏ TƏSIRI

Yunis Vəlizadə
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi /azərbaycan bölməsi
yvelizade@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Digər ölkələrin əmək qanunvericilikləri ilə müqayisədə Azərbaycanın əmək qanunvericiliyi, bir tərəfdən, işçinin hüquqlarını əhəmiyyətli dərəcədə müdafiə edir, digər tərəfdən isə işəgötürənlərə iş vaxtının əməliyyat ehtiyaclarına uyğunlaşdırması üçün geniş imkanlar yaradır. Qeyd edək ki, Dövlət Əmək Müfəttişliyinin yoxlama zamanı aşkar etdiyi qanunpozuntuları və ödənilən cərimələrin əksəriyyəti qəsdən xətanın törədilməsindən deyil, bir sıra boşluqlar və iki mənalı müddəaların olması səbəbindən baş verir. Bu cür hallara görə Beynəlxalq Əmək Təşkilatı (BƏT) nizamnaməsi özünün proqram əsasnaməsinə malikdir və bu beynəlxalq əmək standartlarının da səviyyəsini təyin edir. Buna BƏT əməklə bağlı olan problemləri həll etmək üçün müxtəlif konvensiyalar qəbul etmişdir. Hansı ki, daha sonra Azərbaycan bu konvensiyalara qoşulmuş və beynəlxalq əmək standartlarını qəbul etmişdir. Bu standartlar bizim Əmək Məcəlləsində dolğun şəkildə öz əksini tapmışdır.

AÇAR SÖZLƏR: ƏMƏK MƏCƏLLƏSİ, QANUNVERİCİLİK, İŞÇİ, İŞƏGÖTÜRƏN, KONVENSİYA

Summary

Compared to the labor legislation of other countries, the labor legislation of Azerbaijan, on the one hand, significantly protects the rights of the employee, on the other hand, creates ample opportunities for employers to adapt working hours to operational needs. It should be noted that most of the violations and fines paid by the State Labor Inspectorate during the inspection are not due to an intentional error, but due to a number of gaps and ambiguous provisions. In such cases, the ILO Charter has its own program regulations and sets the level of these international labor standards. To this end, the ILO has adopted various conventions to address labor issues. Later, Azerbaijan joined these conventions and adopted international labor standards. The Buddha is especially prominent in our labor code.

KEY WORDS: LABOR CODE, LEGISLATION, EMPLOYEE, EMPLOYER, CONVENTION

GİRİŞ

Bəzən iş yerlərinin təhlükəlilik xarakterinin yüksək olması, əmək şəraitinin mürəkkəbliyi, bədbəxt hadisələrə və qəzalara qarşı həssaslığı səbəbindən qanunvericilik bu sahə üzrə bir sıra məhdudiyyətlər nəzərdə tutur. Dövlət Əmək Müfəttişliyi davamlı olaraq qaydalara riayət olunması, təhlükəsiz əmək şəraitinin yaradılması, istirahət və iş rejiminin təmin edilməsi ilə bağlı fəaliyyət göstərir. Bütün bunlar əmək qanunvericiliyinin digər tələblərinin təmin edilməsi istiqamətində görülən çoxsaylı tədbirlərdir.Azərbaycanın əmək qanunvericiliyi beynəlxalq təşkilatların təsiri nəticəsində formalaşmışdır. Buna görə təhlükəsiz və sağlam iş mühiti yaratmaq və istirahət vaxtını təmin etmək məqsədilə yerli qanunvericiliyə beynəlxalq standartlar da qəbul edilmişdir.

Azərbaycan Respublikası müstəqillikdən sonra bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə başladı. Bunlara Birləşmiş Millətlər Təşkilatı (BMT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Avropa Şurası (AŞ), Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və.s təşkilatlarla əməkdaşlıq etdi. Bu təşkilatlardan əlavə olaraq Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq etməyə başlayıb. 1992-ci ilin may ayından etibarən Azərbaycan Respublikası BƏT-in tam hüquqlu üzvüdür. Buna görə Azərbaycan BƏT-in əmək və məşğulluq sahəsində əsas insan hüquqlarını əhatə edən 8 təməl və 4 prioritet Konvensiyasına, ümumilikdə 57 Konvensiyasına qoşulmuşdur. Bu Konvensiyaların müddəaları nəzərə alınmaqla ölkəmizdə beynəlxalq standartlara cavab verən milli əmək qanunvericiliyi qəbul edilmişdir və bu qanunvericilik daim təkmilləşdirilərək zamanın tələblərinə uyğunlaşdırılır. Bu konvensiyalardan bir neçəsinin əmək qanunvericiliyinə təsirinə nəzər salaq.

İş Vaxtı

Azərbaycan Beynəlxalq Əmək Təşkilatının "Qırxsaatlıq iş həftəsi haqqında" Konvensiyasina qoşulduğu üçün bu ölkənin əmək qanunvericiliyinədə öz əksini tapıb. Azərbaycan Beynəlxalq Əmək Təşkilatının üzvü olaraq gündəlik 8 saatdan, həftəlik 40 saatdan artıq olmayan normal iş vaxtını təsdiqləmişdir. Bir qayda olaraq həftədə 2 gün istirahət olmaqla 5 günlük iş həftəsi müəyyən edilib. Bütün bunlar Azərbaycandaki tam iş vaxtını göstərir. "Tam iş vaxtı — müddəti Məcəllədə nəzərdə tutulmuş həftəlik və gündəlik iş saatları ərzində işçilərin əmək funksiyasını yerinə yetirməsi üçün müəyyən edilmiş zamandır." [1]

İş vaxtında dəyişikliklər də baş verə bilər. Azərbaycanda iş vaxtından artıq iş saatlarının son həddi qanunvericilik tərəfindən tənzimlənir və ardıcıl gələn iki iş günü ərzində dörd saat təşkil edir. Bu müddət ağır və zərərli işlərdə işləyən işçilər üçün daha aşağı olur. Azərbaycanda işçiləri iş vaxtından artıq işə cəlb etməzdən öncə hər hansı dövlət qurumundan təsdiq alınması tələb olunmur, lakin bu cür işlərə yalnız müstəsna hallarda icazə verilir. Həmçinin, yerli qanunvericilik işçinin iş vaxtından artıq işə məcburi və ya könüllü cəlb edilməsilə bağlı heç bir fərq qoymur və bütün işçilərin iş vaxtından artıq işdən imtina etmək hüququnun olduğunu vurğulayır. Lakin beynəlxalq standartlar iş vaxtından artıq işə görə əlavə ödəniş və ya ona bərabər istirahəti nəzərdə tutsa belə, yerli qanunvericilik iş vaxtından artıq işin əlavə qeyri-iş günü ilə əvəz olunmasına yol vermir.

Azərbaycanın əmək qanunvericiliyində işçilərin yaşı, səhhəti, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri və digər hallar nəzərə alınmaqla qısaldılmış iş vaxtı müəyyən edilir. Qısaldılmış iş vaxtı əmək şəraiti zərərli olan (kimyəvi, bioloji və.s), xüsusi xarakterli işlərdə çalışan işçilərə (yüksək həssaslıq, həyəcan, zehni və.s kimi fəaliyyət sahələri) və fiziki sağlamlığına və ailə məşqlərinə görə tam iş saatında işləyə bilməyən şəxslərə şamil olunur. Bu cür hallar əmək məcəlləsi, müvafiq normativ hüquqi aktlarla, habelə əmək müqaviləsinin və kollektiv müqavilənin şərtləri ilə tənzimlənir.

Beynəlxalq Əmək Təşkilatının əvvəllər SSRİ tərəfindən qəbul olunmuş konvensiyalarının bəzilərinin Azərbaycan Respublikasına da şamil edilməsi ilə bağlı Milli Məclis qərar qəbul etmişdir. Bu konvensiyalara "Sənaye müəssisələrində həftəlik istirahət haqqında" 14 nömrəli Konvensiyasını, "Ticarətdə və idarələrdə həftəlik istirahət haqqında" 106 nömrəli Konvensiyasını aid etmək olar. Bu qərara əsasən, ölkə ərazisində beynəlxalq standartlara uyğun iş həftəsi müddətində əhəmiyyətli istirahət vaxtını, bununla yanaşı iş və şəxsi həyat arasında olan balansın tənzimlənməsinin təmin edilməsi üçün həftəlik istirahət günü(günləri) nəzərdə tutulur. Yerli qanunvericilik ilə işə götürəndən işçiləri nahar fasiləsi və gün ərzində ən azı 12 saatlıq fasiləsiz istirahət vaxtı ilə təmin etməsi tələb olunur. İstirahət və nahar fasilələrinin müddəti iş vaxtına daxil edilmir, yəni əmək haqqının hesablanmasında bu müddət nəzərə alınmır. İşçi istirahət və nahar fasilələrini öz istədiyi kimi istifadə bilər.

Həftəlik istirahət vaxtına dair qaydalar nisbətən daha yaxşıdır. Belə ki, qanunvericilik istirahət vaxtının seçilmiş iş rejiminə uyğunlaşdırmasına yol verir məs: 6 günlük iş həftəsi üzrə 1 gün, 5 günlük iş həftəsi üzrə 2 gün və növbə qrafikinə uyğun olan digər istirahət günləri. Yerli qanunvericilikdə iş və ya qeyri-iş günlərinin seçilməsi üçün mütləq qaydalar müəyyən olunmamışdır, belə ki bu məsələlər tərəflərin

aralarındakı sövdələşməyə uyğun olaraq müəyyən edilir . Ölkəmizdə istirahət günləri adətən şənbə və bazar günləri sayılır.

Əksər ölkələrdə olduğu kimi Azərbaycanda da qanunvericilikdə nəzərdə tutulmuş müstəsna hallar və fasiləsiz istehsalat zamanı (ticarət, ictimai iaşə, rabitə, nəqliyyat və digər xidmət müəssisələri)işçilər həftəlik istirahət günlərində işə cəlb oluna bilər. Bu halda, işçiyə başqa istirahət günü verilə bilər və yaxud həmin günün əmək haqqısı qanunvericiliyə uyğun olaraq ikiqat hesablanmalıdır.

İstirahət və Məzuniyyətlər

Əmək müqaviləsi üzrə işləyən hər bir işçinin əsas hüquqlarından biri müvafiq məzuniyyətlərdən istifadə etməkdir. Məzuniyyət hüququ ilə bağlı əmək qanunvericiliyindəki müddəalar 1994-cü il 19 iyun tarixində Azərbaycanın qoşulduğu Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" Konvensiyası ilə tənzimlənir. Mövcud qanunvericiliyə uyğun olaraq hər bir işçinin vəzifəsindən, peşəsindən, iş şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq ödənişli əmək məzuniyyətindən istifadə etmək hüququ vardır. Bu hər bir işçinin əsas hüquqlarından biri olduğundan işəgötürənin işçiyə əmək məzuniyyətini verməməsi qanunla qadağandır. Azərbaycan qanunvericiliyində ödənişli əmək məzuniyyəti 21 gündən az olmayaraq verilir. İşçinin əmək şəraitinə, fəaliyyət sahəsinə, iş stajına və dövlət qarşısında xüsusi xidmətlərinə uyğun olaraq bu müddət daha artıq ola bilər. Əmək məzuniyyəti işçi ilə işəgötürənin arasındakı sövdələşmə ilə hissə-hissə də götürülə bilər. Lakin hissələrə bölünmüş məzuniyyət iki həftədən az olmaması şərtilə verilməlidir. Əmək məcəlləsində bu da göstərilmişdir ki, məzuniyyət dövrünə təsadüf edən bayram və digər iş günü hesab olunmayan günlər məzuniyyətə aid edilmir və onun üçün işçiyə ödəniş olunmur. İşçi il ərzində məzuniyyətini götürmədiyi təqdirdə ya onu kompensasiya etmək üçün pul ödənişi edilir ya da növbəti ilki məzuniyyətinin üstünə 21 gün əlavə olunur.

Ödənişli məzuniyyətlərin bir növü hesab edilən təhsil məzuniyyətləri işləməklə bərabər həm də təhsil alan işçilərə verilir. Azərbaycan Milli Məclisin 27 yanvar 1993-cü il qərarı ilə, Beynəlxalq Əmək Təşkilatının başqa bir konvensiyasına "Ödənişli təhsil məzuniyyətləri haqqında" Konvensiyasına qoşulmuşdur. Buna görə işəgötürənlər işləməklə bərabər müəllifliklə məşğul olan və yaxud təhsilin aspirantura və doktorantura pilləsində təhsil alan işçilərinin təhsillərini tamamlaması üçün ödənişli məzuniyyətlər verirlər. İşçilərin ali, orta, peşə ixtisas məktəblərində oxumağından asılı olaraq müxtəlif ödənişli təqvim məzuniyyətləri nəzərdə tutulmuşdur. Əmək məcəlləsində aspirantura və doktorantura tələbələri üçün 30 günlük, dərslik və dərs vəsaitlərinin yazılması ilə məşğul olan müəlliflər üçün isə 3 aylıq məzuniyyət nəzərdə tutulmuşdur. Bunlardan əlavə işçilərə smestr imtahanlarına, laboratoriya işlərinə, dövlət imtahanlarına görə də təhsil məzuniyyətləri verilir. Bunuda qeyd etmək yerinə düşər ki, bu məzuniyyətlərin heç biri işçinin illik məzuniyyətinə aid edilmir. Məsələn, işçi təhsil məzuniyyətini istifadə etdikdən sonra müvafiq olaraq özünün illik məzuniyyətini də götürə bilər.

Əmək Məcəlləsində Qadınların Yeri

Azərbaycan qadın hüquqlarının müdafiəsi sahəsində də bir sıra mühüm beynəlxalq konvensiya və müqavilələrə qoşulmuşdur.Bunlara Beynəlxalq Əmək Təşkilatının "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında" Konvensiyasını və Azərbaycanın 2010-cu ilin 11 mayında qoşulduğu "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasını misal göstərmək olar. Konvensiyanın maddələrinə uyğun olaraq əmək məcəlləsində hamiləliyinə və 3 yaşdan balaca uşağı olmasına görə işəgötürənin qadınlarla əmək müqaviləsi bağlanmaqdan boyun qaçırması qadağandır. Bunu yalnız o vaxt edə bilər ki, həmin iş üzrə boş yeri olmasın və yaxud da işin qadın əməyinin tətbiq olunması qadağan olan ağır və zərərli əmək şəraitinin olmasıdır". Qadın əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir ".[1] Əmək məcəlləsində konvensiyanın 10-cu maddəsinə uyğun olaraq işəgötürən uşağını yedizdirməli(əmizdirməli) olan hər bir qadına iş vaxtı ərzində icazələr verməlidir. Bu müddət minimum 30 dəqiqə olmaq şərtilə 3 saatdan bir verilir.Bu fasilə vaxtına görə əmək haqqından tutulmalar edilməsi qadağandır. Qanunvericilikdə bu fasilələr iş vaxtına aid edildiyi üçün işçinin orta əmək haqqı olduğu kimi saxlanılır. [7]

Qəbul edilmiş konvensiyaya uyğun olaraq, uşaqlı və hamilə qadınlara əlavə məzuniyyətlər verilir. Bu məzuniyyətlər 3 və daha artıq uşağı olan və 16 yaşınadək əlil uşağı olan qadınlara 5 gün, 14 yaşınadək iki uşağı olan qadınlara isə 2 gün əlavə məzuniyyət verilir. Bu qaydalar təkcə xanımlara deyil, həmçinin uşaqlarını təkbaşına böyüdən atalara da aiddir. Hamilə qadınlara isə ümumilikdə 126 gün məzuniyyət verilir. Amma doğuş çətin keçərsə, bu məzuniyyətin müddəti də uzadıla bilər.

Nəticə

Müstəqilliyin qazanıldığı ilk illərdə Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq etmək və daha sonra ora üzv olmaq yerində verilmiş bir qərar idi. Bu ölkədə işçi və işəgötürən arasındakı münasibətləri

tənzimlənməsində çox önəmli rol oynamışdır. Düzdür ki, SSRİ-də bir sıra konvensiyalara qoşulmuşdur, yəni ölkədə əmək qanunvericiliyi yox səviyyədə deyildi. Lakin Azərbaycan müstəqil dövlət olaraq özünə uyğun Əmək Məcəlləsini yaratmalı idi. Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına qoşulmaqla, beynəlxalq standartlara uyğun Əmək Məcəlləsinin yardılmasına nail oldu. Əmək Məcəlləsi beynəlxalq standartlardan geri qalmamaqla yanaşı yerli əmək şəraitinə də uyğunlaşdırılmışdır.Əgər məcəllədəki müddəalar lazımınca yerinə yetirilərsə, işçi ilə işəgötürən arasındakı münasibətlərdə problem olmaz. Nəticə etibarı ilə, Azərbaycanın Beynəlxalq Əmək Təşkilatı ilə münasibətlərini və onun ölkə qanunvericiliyinə təsirini müsbət qiymətləndirməkdə yanılmarıq.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi
2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
https://www.google.com/search?q=%C9%99m%C9%99k+v%C9%99+%C9%99halinin+sosial+m%C3%BCdafi%C9%99si+nazirliyi&oq=%C9%99&aqs=chrome.1.69i59l2j69i57j69i59j46i131i175i199i433i512j69i61l3.3195j0j7&sourceid=chrome&ie=UTF-8
3. Beynəlxalq Əmək Təşkilatı
https://www.ilo.org/global/lang--en/index.htm
4. "Qırxsaatlıq iş həftəsi haqqında" Konvensiya
https://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---normes/documents/normativeinstrument/wcms_c047_ru.htm
5. "Ödənişli məzuniyyətlər haqqında" Konvensiya
https://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---normes/documents/normativeinstrument/wcms_c132_ru.htm
6. "Ödənişli təhsil məzuniyyətləri haqqında" Konvensiya
https://www.conventions.ru/view_base.php?id=316
7. "Analığın mühafizəsi haqqında" Konvensiya
https://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---normes/documents/normativeinstrument/wcms_c183_ru.htm

SƏNAYE INQILABI HƏMKARLAR ITTIFAQLARININ YARANMASININ ƏSAS ŞƏRTI KIMI

XƏLİLLİ FİDAN
Bakı Mühəndislik Universiteti
"İqtisadiyyat və idarəetmə" fakültəsi
fxelilli1@std.beu.edu.az
BAKI/AZƏRBAYCAN

XÜLASƏ

Müasir həmkarlar ittifaqı 19-cu əsrdə yaranıb və inkişaf edib. Müasir mənada həmkarlar ittifaqlarının yaranması Sənaye İnqilabına əsaslansa da,ittifaqla bağlı bəzi faktların bu birliklərin faktiki mövcudluğundan çox daha əvvəl meydana gəldiyinə dair məlumatlar mövcuddur.Sənaye hərəkatının ən mühüm ünsürlərindən biri olan tətil aksiyası nümunələrinə sənaye inqilabəndan çox əvvəl rast gəlmək mümkündür.E.ə. 1490-cı ildə Misirdə işləyən yəhudi kərpicçilərin tətili bunun bariz və çox qədim nümunəsidir.Bundan başqa,sənaye inqilabından əvvəlki dövrdə kapitalizmin inkişafı ilə zəifləmiş olan gildiya münasibətləri daxilində fəhlələr müxtəlif birliklər,qarşılıqlı yardım fondları yaratmışdılar.Bu şəkildə meydana gələn birlikləri Avropada həmkarlar ittifaqlarının əcdadı hesab etmək olar.

AÇAR SÖZLƏR:Sənaye İnqilabı,Həmkarlar ittifaqları

GİRİŞ

1750-1850-ci illər arasında inkişaf edən Sənaye İnqilabı ilk dəfə İngiltərədə meydana çıxmışdır.Daha sonralar Fransa və Qərbi Avropadan Amerikaya yayılmışdır.Bu inqilab xarici ticarətin və sərmayə yığımının səbəb olması ilə yanaşı texniki ixtiraların təsiri ilə texnikanın istehsalata daxil olması nəticəsində baş vermişdir.Bu inqilab burjuaziyanı hakimiyyətə gətirərək iqtisadiyyata "laissez faire(qoyun etsinlər)"i yerləşdirəcəkdi.İntellektual infrastrukturun və tarixi transformasiyaların təsiri,iqtisadi və sosial sahələrdə dəyişikliklər də sənaye inqilabının reallaşmasında qatqısı olmuşdur.Əhalinin artımı,şəhərlərə miqrasiya,işçi axını,ucuz işçi qüvvəsi,kənd təsərrüfatı sahələrində məhsul istehsalının çoxalması,ucuz faiq dərəcələri və investisiyaların sürətlənməsi,beynəlxalq ticarət və bu kimi səbəblər də inqilabı ortaya çıxarmışdır. Sənaye inqilabı 18-ci əsrdə buxar maşınının ixtirası ilə başlamış,1789-cu ildə Fransa İnqilabı ilə siyasi-ictimai xarakter almışdır.

Dünyada həmkarlar ittifaqları işçi sinfinin meydana çıxması ilə gündəmə gəlmişdir.İşçi sinfi sənaye inqilabı ilə meydana çıxmış və bu inqilabla yeni iş münasibətləri yaranmışdır.Bu münasibətlərin işləyən tərəfi "işçilər",işlədən tərəfi isə sonradan "işəgötürən" adlandırılan fabrik sahibləri olmuşdur.Bu yeni statusda işləyənlər sənayeləşmənin yayılması və inkişafı ilə paralel olaraq artıb sənaye cəmiyyətlərində yeni bir təbəqə halına gəlmişdilər.

HƏMKARLAR İTTİFAQLARININ MEYDANA GƏLMƏSİ

İşçilərin təşkilatlanaraq bir basqı qrupu yaratmalarından sonra sənayeləşmiş bütün ölkələrdə işəgötürənlər də təşkilatlanma ehtiyacı duymuşdur.Həmin dövrdə iş tapmaq çox çətin idi,işçi çox,iş yeri isə az idi.Bu da işçilərin əmək haqqlarının kifayət qədər azaldılmasına gətirib çıxarırdı.Bundan başqa,həmin dövrdə işçilər xəstəlik,bədbəxt hadisələrin sığortası,pensiya,iş mühitinin təhlükəsizliyi,işdən çıxarıldıqda kompensasiya,illik və həftəlik məzuniyyət kimi hüquqları yox idi.İşçilər gün ərizndə 16 saat və bəzən daha çox işləyirdilər.

Tarixdə bir sinif kimi fəhlə sinfinin burjuaziyaya qarşı ilk mütəşəkkil müqaviməti maşın qırma(ludizm) hərəkatı olmuşdur.Maşın sənaye inqilabının mərkəzində idi.Tək alətdən istifadə etməyi bacaran işçilər birdən çox alətin yerini tutan maşınlarla əvəz edildi.İşləri əllərindən alınan kütlənin ilk reaksiyası də onların etibarsız sayılmalarının səbəbi kimi gördükləri maşınlara qarşı baş tutdu.

Tarixdə maşın qırma kimi tanınan dövr 1758-ci ildə ingilis fəhlələrin mexaniki yun biçənləri sındırması ilə başlamışdır.Nottingemdə Ned Ludham(va yaxud Ned Ludd) adlı biringilis corab dəzgahını məhv etmiş və bu kimi hadisələr bütün İngiltərəyə yayıldı və ludizm meydana gəlmişdir.Hətta İngiltərədə maşınların və fabriklərin dağıdılmasına görə verilən ağər cəzalar,o cümlədən ölüm hökmü ludizmin qarşısını ala bilmədi.

Bu dövrdə İngiltərədə həmkarlar ittifaqları öz mübarizliyi ilə şöhrət əldə etmiş,fəhlə mübarizəsinin şiddətlənəcəyindən qorxan burjuaziya 1924-cü ildə həmkarlar ittifaqlarının təşkilatlanmasını qadağan edən Birləşmə aktını(Combination act) ləğv etməyə məcbur oldu.1924 qanunu bu birlikləri tanıdı və həmin tarixdən etibarən işçi qüvvəsi İngiltərədə əsas qüvvəyə çevrildi.Qadağanın aradan qaldırılmasından sonra güclənən həmkarlar ittifaqları bir tərəfdən yeni üzvlər qəbul edib böyüyərkən,digər tərəfdən üzvlərin iştirakı ilə rəhbərlərinə qarşı mübarizənin yollarını axtarmağa başladılar.İşçilərin əsasən iş mühiti,əmək haqqları məsələləri ilə məhdudlaşan mübarizələri zaman keçdikcə genişlənmiş və demokratik-siyasi tələbləri də əhatə etmişdir.

1850-ci illərdə Britaniya Britaniya həmkarlar ittifaqı hərəkatı mühüm irəliləyişlər əldə etdi.Lakin,1857-ci ildə tikinti sənayesinin dağılması zamanı kütləvi tətillər baş verdi.İngilis işəgötürənləri tətilləri dayandırmaq üçün Fransa,Almaniya və Belçikadan tətil dağıdanlar gətirdilər.London həmkarlar ittifaqları bütün bu cəhdlərin qarşısını almaq məqsədilə 1860-cı ildə London Həmkarlar İttifaqı Şurasını yaratdılar.Sonra isə fransız və alman fəhlə təşkilatları ilə əlaqələr inkişaf etdirildi.Müxtəlif vaxtlarda təşkil edilən beynəlxalq görüşlərdə əlaqələr daha da möhkəmləndirildi.Bunların nəticəsi olaraq 1864-cü ildə ingilis,alman,fransız,italyan,polyak və isveçrəli işçilərin daxil olduğu Beynəlxalq Fəhlə Cəmiyyəti(Birinci Beynəlxalq) yaradıldı.Təşkilatlarla yanaşı ayrı-ayrı fərdlərin də bu cəmiyyətə üzv olmaq haqqı var idi.Bu cəmiyyət xüsusilə 1968-ci il tətillərindən sonra gücləndi və Paris, London,Belşika,İsveçrə tətillərində həmrəklik kompaniyası aparıb və tətillərin qarşısının alınmasına mühüm töhvə verib.

Lakin bu dövrdə müxtəlif ölkələrdə həmkarlar ittifaqı hərəkatları hələ də kifayət qədər güclü deyildi.Beynəlxalq Fəhlə Cəmiyyətinə güclü təziqlər var idi.Bundan başqa,1871-ci ildəki Fransa-Prussiya müharibəsindən və qurulan Paris Kommunasından sonra Fransada həmkarlar ittifaqlarına güclü təziqlər oldu.Digər Avropa ölkələrində həmkarlar ittifaqlarının beynəlxalq fəhlə təşkilatlarına üzvlüyü qadağan edildi.Bütün bu şərtlər altında Birinci Beynəlxalq Fəhlə Cəmiyyətinin qərargahı 1872-ci ildə Nyu Yorka köçürüldü.

Müxtəlif ölkələrdə həmkarlar ittifaqı hərəkatının meydana gəlməsi fərqli olmuşdur.ABŞ-da həmkarlar ittifaqı hərəkatının meydana gəlməsi 1860-cı illərə təsadüf edir.1884-cü ildə işçi hərəkatına əhəmiyyətli qatqıları olan Əmək Cəngavərləri Təşkilatı(Knights of Labor) yaradıldı.1886-cı ildə isə Amerikada ilk işçi konfederasiyası olan AFL(America Federation of Labor) yaradılmışdır.Həmkarlar ittifaqları 20-ci əsrdə çox nüfuzlu təşkilatlara çevrildi.Bu prosesdə fəhlə sinfinin şüur səviyyəsi də xeyli yüksəlmişdi.1910-cu ildə dünyada üç milyon işçi həmkarlar ittifaqı təşkilatında iştirak edirdi.

1900-cü illərin əvvəllərindən etibarən müxtəlif ölkələrdən bir çox həmkərlar ittifaqının milli federasiyalarının başqa ölkələrdə də qurulmağa başlaması və beynəlxalq əlaqələrlə məşğul olduğu müşahidə olunur.Zaman keçdikcə həmkarlar ittifaqlarının beynəlxalq səviyyədə əməkdaşlıq etməli olduğu fikrinin inkişaf etməsi ilə bu məqsədə xidmət edən struktur kimi "Həmkarlar İttifaqı Mərkəzlərinin Beynəlxalq Katibliyi(İnternational Secretariat of Trade Union Centers)" yaradılmışdır.1913-cü ildə bu strukturun adı dəyişdirilərək "Beynəlxalq Həmkarlar İttifaqları Federasiyası(İnternational Federation of Trade Unions)" adlandırılmışdır.

20-ci əsrə damğasını vuran ən mühüm siyasi-ictimai inkişaf I Dünya Müharibəsinin son illərində Rusiyada fəhlə sinfinin digər işçilərlə birləşərək hakimiyyətə gəlməsi idi.1917-ci il Oktyabr inqilabı ilə Rusiyada dünyanın ilk sosialist dövləti quruldu.1918-ci ildə I dünya müharibəsi bitdi və 1920-ci illərdə dünyada həmkarlar ittifaqlarına üzv olan işçilərin sayı əlli milyona çatmışdı.

II Dünya Müharibəsindən sonrakı dövr Avropada həmkarlar ittifaqı hərəkatını gücləndirən inkişafa yol açdı.Həmkarlar itifaqları baxımından "qızıl dövr" kimi ifadə edilən II Dünya Müharibəsindən sonrakı illərdə həmkarlar ittifaqı hərəkatı "Avropa cəmiyyət modeli(European model of society)"nin yaradılmasına böyük töhvə verdi.

NƏTİCƏ

Günümüzdə iqtisadiyyatın qloballaşması və bu prosesin yaratdığı beynəlxalq rəqabət ittifaqçılığı müdafiə mövqeyinə sövq etmişdir.Başqa sözlə desək,ittifaqçılıq "müdafiə ittifaqı" ilə birlikdə tərəflər arasında əməkdaşlıq və dialoqa əsaslanan "barışdırıcı birlik" ölçüsünü qazanmışdır.Bir sözlə,XX əsrin son rübünə qədər ittifaqçılıqda yaşanan "inqilabçı ittifaqçılıq" ilə "islahatçı ittifaqçılıq" arasındakı qarşıdurma bu gün də "mübarizə aparan ittifaqçılıq" ilə "işbirlikçi ittifaqçılıq" arasında münasibətlər kimi ortaya çıxmış və nəticədə döyüşkən ittifaqçılıq yerini barışıq ittifaqçılığa verdi.Əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə mübarizə ittifaqının barışıq ittifaqçılığa çevrilməsinin göstəricisi mübarizə ittifaqçılığının həll yolu olan tətil və lokavtlarda iştirak edən işçilərin sayının 1990-cı illərdən etibarən əhəmiyyətli dərəcədə azalmasıdır.

ƏDƏBİYYAT SİYAHISI

1.Adnan Mahiroğulları, XXI. Yüzyıla girerken sendikacılık:Günümüzdeki değişim,dönüşüm ve gelecek için arayışlar, HAK-İŞ Uluslararası Emek ve Toplum Dergisi, 2012

2.Erkan Aydoğanoğlu, Sendikalar ve işyeri örgütlemesi,2010

3. Hüsne Erdoğan, Türkiyede bir baskı grubu olarak sendikaların 1960 sonrası ekonomi ve siyaset üzerindeki etkisi (yeksek lisans tezi), Bilecik, 2016

4. Mehtap Hüner, Sendikalaşmayı etkileyen faktörler ve işgörenlerin sendikalaşmaya ilişkin tutumlarına yönelik bir araştırma (yüksek lisans tezi), İstanbul, 2004

5.Sedat Murat, Sosyal siyaset, Istanbul, 2010

QLOBALLAŞMA VƏ MƏŞĞULLUQ MÜNASİBƏTLƏRİ

RAMAL ƏSƏD
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi/Azərbaycan bölməsi
resed@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında, ilk növbədə, iqtisadiyyat sahəsində qarşılıqlı əlaqələr mövcuddur. Beynəlxalq səviyyədə rəqabət və texnologiyanın inkişafı dünya iqtisadiyyatında mühüm dəyişikliklərə səbəb olur. Kapitalın, əməyin və xidmətin mobilliyi geniş miqyasda artır. Qloballaşmanın təsiri ilə sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid edilmiş və əmək tutumlu işləri elm tutumlu işlər əvəz edərək iqtisadi və sosial dəyişikliklərə səbəb olmuşdur. Bu proses məşğulluq münasibətlərinə də ciddi təsir etmişdir. Bir tərəfdən yüksək ixtisaslı kadrlar üçün əməklərini təklif edə biləcəkləri qlobal bazarlara çıxış imkanı yaransa da, digər tərəfdən işsizliyin səviyyəsində artım müşahidə olunmuş, neoliberal siyasətin təsiri ilə sosial dövlətin həssas olduğu sahələrdə də geriyə addım atılmışdır. Məruzədə qloballaşmanın məşğulluğa olan müsbət və mənfi təsirləri araşdırılmışdır.

AÇAR SÖZLƏR: QLOBALLAŞMA, İŞÇİ QÜVVƏSİ, ƏMƏK BAZARI, ELASTİKLİK, İŞSİZLİK

SUMMARY

First of all, there are mutual contacts between developed and developing countries in the economic field. International competition and technology development causes significant changes in the world economy. The mobility of capital, labor and services grows on a large scale. Under the influence of globalization, the transition from an industrial society to an information society has taken place, and labor-intensive works has replaced scientific works, leading to economic and social changes. This process had an impact significant on employment relations. On the one hand, there is access to global markets where they can offer their labors for highly qualified personals, but on the other hand, there has been an increase in unemployment, ıt has stepped back in areas where the social state is sensitive, under the impact of neoliberal policy. It is examined the positive and negative effects of globalization on employment in the article.

KEY WORDS: GLOBALIZATION, WORKFORCE, LABOUR MARKET, ELASTICITY, UNEMPLOYMENT

GİRİŞ

Dünya iqtisadiyyatında xüsusilə 1980-ci illərin sonlarında qloballaşma məfhumu tez-tez işlədilməyə başlanmışdır. Qloballaşma dedikdə iqtisadiyyat, siyasət, sosial və mədəni sahələrdə bəzi ortaq dəyərlərin milli sərhədləri aşaraq dünya miqyasında yayılması nəzərdə tutulur. Qloballaşma istehsal faktorlarının və dəyərlərinin milli sərhədləri aşaraq yayılması, xarici sərmayələrlə dünya ölkələrinin inteqrasiyası və xalqların iqtisadi, siyasi, sosial və mədəni fərqliliklərinə baxmayaraq ortaq bir nöqtədə birləşərək millətlərarası əlaqələrin möhkəmləndirilməsi olaraq ifadə edilməkdədir.

Qloballaşma ilə birlikdə insan və cəmiyyətlərarası əlaqələr genişlənmişdir. Ticarət, turizm kimi bir çox fəaliyyət sahələri qlobal bazarlara çıxış imkanı əldə etmişdir. Bu nöqteyi-nəzərdən baxıldığında aydın olur ki, qloballaşma insanlar və millətlərarası əlaqələri zənginləşdirir.

Qloballaşma ilə birlikdə insanlar mal, xidmət və fikir mübadiləsi edərək milli səviyyədə düşüncə tərzini tərk edir, beynəlxalq miqyasda yeni münasibət və düşüncə tərzinə keçid edirlər.

Qloballaşmanın ən çox təsir etdiyi sahələrdən biri də məşğulluq sahəsidir. Belə ki, qloballaşmanın inkişafı ilə Keynsçi siyasət zəifləyərək yerini neoliberalizmə vermişdir. Bununla da əməyin elastikliyi artmış, işsizliyin səviyyəsi yüksəlmiş, həmkarlar ittifaqlarının rolu azalmış, qadınların və uşaqların əmək fəaliyyətinə cəlb edilməsi, xüsusilə aşağı gəlirli ölkələrdə azyaşlıların əməyindən istifadə geniş vüsət almışdır. Sənaye sektorunda işləyənlərin sayının azalması ilə paralel olaraq xidmət sektorunda işləyənlərin sayında artım müşahidə olunmuşdur. İşçi qüvvəsinə olan tələbi mavi yaxalıqlıların əvəzinə bəyaz yaxalıqlılar əvəz etmişdir. Subpodratçı və müqaviləli istehsaldan asılı olaraq mərkəz-periferiya əməyi formasında ikili əmək bazarı formalaşmışdır. Qeyri-formal məşğulluq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə artmışdır. Tam iş günü yerini yarımştat iş gününə, əmək müqaviləli işlər isə yerini xidməti müqaviləli işlərə vermişdir [1].

Məruzədə qloballaşma və məşğulluq anlayışlarının mənaları açıqlanmış və qloballaşmanın məşğulluğa nə kimi müsbət və mənfi təsirlərinin olduğu təhlil edilmişdir.

QLOBALLAŞMA VƏ MƏŞĞULLUQ ANLAYIŞLARI

Qloballaşma malların və xidmətlərin beynəlxalq ticarət həcminin və çeşidinin liberallaşdırılması və nəticələrinin artması, nəqliyyat xərclərinin düşməsi, kapitalın beynəlxalq nüfuzunun intensivliyinin artması, qlobal işçi qüvvəsində böyük artımın olması, texnologiyanın, xüsusilə də kommunikasiya texnologiyalarının yayılması ilə nəticələnməklə bütün dünya ölkələrinin daha sıx iqtisadi inteqrasiyası kimi təsvir edilə bilər (Avropa Şurası Parlament Assambleyası).

Qloballaşma beynəlxalq kapitalın dünya miqyasında hərəkətliliyinə, bazarların bir-birinə açılmasına və ticarətin liberallaşmasına, milli şirkətlərin qlobal şirkətlərə çevrilməsinə, yəni kapitalist iqtisadiyyatın dünyaya daha çox yayılmasına şərait yaradan bir inkişafdır. Bu inkişaf nəticəsində beynəlxalq kapital idarə oluna bilmir və bir çox cəmiyyətlərdə və işçi qüvvəsində problemlər yaşanır.

Qloballaşmanın 400 ildən artıq tarixi var. Lakin 1960-cı illərin əvvəllərinə qədər qloballaşma məfhumundan istifadə çox da geniş yayılmırdı. İqtisadi inteqrasiya hərəkatı da adlandırıla bilən qloballaşma 1950-1960-cı illərdə beynəlxalq ticarət sahəsində öz təsirini göstərməyə başladı. İkinci Dünya Müharibəsindən sonra Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı və Gömrük, Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) yaradılmışdır. Bu təşkilatların məqsədi beynəlxalq iqtisadi nizamın infrastrukturunu yaratmaq, dünyada makroiqtisadi tarazlığa nail olmaq və xarici ticarətdə gəlir əldə etməkdir. Başqa sözlə desək, iqtisadi qloballaşmanı sürətləndirməkdir.

Məşğulluq ölkədə mövcud olan işçi qüvvəsinin iqtisadi fəaliyyətlər çərçivəsində davamlı məşğulluğudur. İqtisadiyyatda iqtisadi fəaliyyətlərə cəlb edilə biləcək işçi qüvvəsinin istifadəsi məşğulluğu yaratmaqdadır. Yəni məşğulluq istehsala yönələn əmək faktorunu ifadə edir. İşçi qüvvəsinin əmək fəaliyyətindən kənar qalması isə işsizlik anlayışını ortaya çıxarır. Bəşəriyyətin ehtiyaclarını ödəmək üçün əmtəə və xidmətlər istehsal edən sahibkar bütün digər istehsal amilləri ilə bərabər əməkdən istehsal amili kimi istifadə edir və bunun müqabilində yaradılmış dəyərdən əməyə pay verir. Bununla belə, mövcud işçi qüvvəsinin heç də hamısı istehsalda istifadə oluna bilməz. Məşğulluq səviyyəsini əmək bazarında əməyini təklif edərək cari əmək haqqı səviyəsində iş tapa bilən işçilər formalaşdırır.

QLOBALLAŞMANIN MƏŞĞULLUĞA TƏSİRLƏRİ

Yaşadığımız dövrdə ölkələrin inkişaf səviyyəsi hansı mərhələdə olursa olsun ölkə iqtisadiyyatlarının yaşadığı ən böyük problemlərdən biri işsizlikdir. Dünyada sənaye cəmiyyətindən informasiya cəmiyyətinə doğru sürətli keçid sezilməkdədir. İqtisadi və sosial transformasiya əmək tutumlu iş yerini informasiya tutumlu işə buraxmaqla baş verir. Artan kapital hərəkətliliyi, xarici investisiyalar və şirkətlərin birləşməsi ilə transmilli şirkətlər qlobal bazarlarda əhəmiyyət qazanır və dil bilən işçi qüvvəsinə üstünlük verilir. Marketinqin də əhəmiyyəti getdikcə artır və yüksək satış bacarığına malik işçi qüvvəsi ön plana çıxır.

Qloballaşma və texnoloji inqilabın məşğulluğa təsirlərini daha dəqiq təhlil etmək üçün məşğulluq problemi beynəlxalq rəqabətə açıq sektorlar və qapalı sektorlar baxımından ayrıca qiymətləndirilir. Nəqliyyat, rabitə, maliyyə və sığorta kimi kənd təsərrüfatı, sənaye və xidmət sahələri beynəlxalq rəqabətə açıq sektorlardır. Beynəlxalq rəqabətə qapalı olan sektorlara xidmət sektorunda yerli istehlak üçün topdan və pərakəndə ticarət, yaşayış xidmətləri, təhsil və səhiyyə xidmətləri aid edilə bilər. Yüksək və aşağı keyfiyyətli işçi qüvvəsinin məşğulluğu baxımından beynəlxalq rəqabətə açıq sektorlar və qapalı sektorlar fərqli nəticələr verə bilər. Yüksək ixtisaslı işçi qüvvəsinə rəqabətə açıq sektorlarda daha çox məşğulluq imkanları təklif edilərkən, yüksək ixtisaslı işçi qüvvəsi rəqabətə qapalı sektorlarda işsizliklə üz-üzə gəlir. Aşağı ixtisaslı işçi qüvvəsi üçün məşğulluq imkanları rəqabətə qapalı sektorlarda üstünlük təşkil edir. ABŞ-la Avropa İttifaqı ölkələri müqayisə edildikdə beynəlxalq rəqabətə qapalı sektorlarda ən yüksək şəkildə məşğulluğu təmin edən ABŞ-dır. Buna səbəb Amerika Birləşmiş Ştatlarındakı aşağı, elastik əmək haqqı və zəif sosial müdafiə tədbirləridir. ABŞ-da bu sektor həm aşağı, həm də yüksək ixtisaslı işçi qüvvəsi üçün əhəmiyyətli məşğulluq yaradır.

Qloballaşan iqtisadiyyatlarda ön plana çıxan əsas sektor xidmət sektorudur. Xüsusilə inkişaf etmiş ölkələrdə keçən əsrin ikinci yarısından indiyədək aqrar və sənaye sektorunda məşğulluğun payı azalmış, xidmət sektorunda isə əhəmiyyətli dərəcədə artmışdır [5]. ABŞ-da işçi qüvvəsinin 78,7 faizi xidmət sektorunda, 20 faizi sənaye sektorunda, 1,3 faizi isə aqrar sektorda çalışır. Avropa İttifaqı ölkələrində isə 73,9 faizi xidmət, 21,6 faizi sənaye, 4.5 faizi aqrar sektorun payına düşür. İnkişaf etməkdə olan ölkələrdə məşğulluğun təmin edilməsində xidmət sektorunun payı az, digər sektorların payı isə yüksəkdir.

Dünyada makroiqtisadi inkişafların təsiri ilə tekstil sektoru dünya iqtisadiyyatında fərqli mövqe tutdu. Bu sektor qloballaşmadan ən çox təsirlənən sektorlardan biridir. Belə ki, inkişaf etmiş ölkələrdə əməyin

dəyərinin yüksəkliyi və sosial müdafiə tədbirlərinin sərtliyi transmilli şirkətlərin ucuz işçi qüvvəsi səbəbi ilə istehsal müəssisələrini Şərqi və Cənub-şərqi Asiya ölkələrinə köçürməsinə səbəb olmuşdur. Dünyada toxuculuq sənayesinin əsas cəmləşdiyi yerlər Honq-Konq, Çin, Cənubi Koreya və Tayvandır. Bu ölkələrdə xammalın ucuzluğu Avropalı investorları bu ölkələrə cəlb edərək dünyada tekstil məhsullarının ixracında ilk sırada yer tutmasına səbəb oldu.

Ötən əsrin 80-ci illərindən başlayaraq dünya iqtisadiyyatının yenidən qurulması tendensiyası, bu tendensiyanın mərkəzində dayanan qloballaşma fenomeni bir çox dəyişikliklərə səbəb olmuşdur [2]. Dəyişən dünya nizamında dəyişikliyə ayaq uydurmaq və dinamik bazar mühitində varlığını qoruyub saxlamaq istəyən müəssisə və təşkilatlar indi daha elastik bir quruluşa keçirlər. Bununla əlaqədar olaraq tam iş günün əvəzində yarımştat, frilanser işlər gündəmə gəlir. Əsasən əmək bazarında müxtəlif sərtlikləri azaltmaq və ya aradan qaldırmaq üçün həyata keçirilən siyasətləri ifadə etmək üçün istifadə edilən elastiklik anlayışı həmkarlar ittifaqlarının gücünü azaltmaq və firmanın əmək məşğulluğu və mükafatlandırmaya təsir edən sabit xərclərini azaltmaq məqsədi daşıyır. Post-fordist istehsalın artan tempi ilə iş yerində tətbiq olunan elastiklik ilk növbədə iş yerlərinin və əmək haqqılarının elastikləşməsində özünü göstərir. Belə ki, müəssisələr istehsalın fərqli mərhələlərində podratçıların xidmətlərindən yararlanırlar [3]. Digər bir elastiklik növü isə iş vaxtlarındakı elastiklikdir. İşçilər iş vaxtını öz təşəbbüslərinə uyğun olaraq sərbəst formada müəyyən edə bilərlər, müəssisələr isə işi ehtiyac yarandığı halda gördürə bilərlər. Elastikliyin başqa bir növü isə iş və işçi elastikliyidir. Dəyişən iqtisadi və texnoloji şərtlərə yüksək dərəcədə uyğunlaşma, bazar tələbi, yeni istehsal və idarəetmə üsulları, təyinat, köçürmə və iş dəyişikliklərindəki asanlıq, müvəqqəti və mövsümi işçilər, qısamüddətli və ya qismən iş kimi tətbiqləri əhatə edən bir yanaşmadır.

Son onilliklərə nəzər saldıqda həmkarlar ittifaqları ilə bağlı diqqət çəkən məqamlardan biri ittifaqlara üzv olanların əhəmiyyətli dərəcədə azalması və həmkarlar ittifaqlarının dövlət, işəgötürən və işçilər baxımından gücünün zəifləməsidir. Bunun əsas səbəbləri elastiklik, özəlləşdirmə və insan resurslarının idarə edilməsinin ön plana çıxmasıdır. Əlavə olaraq, işsizlik ittifaqların gücünü itirməsinin əsas səbəblərindəndir. Məşğulluq imkanlarının azalması və işsizlərin sayının artması üzvlərin həmkarlar ittifaqlarının sıralarını tərk etməsinə gətirib çıxarır. Həmçinin ittifaqların gücünün üstünlük təşkil etdiyi fəaliyyət sahələrində məşğulluğun azalması ittifaq üzvlərinin sayının azalmasına səbəb olur [4].

Dünyada qloballaşmanın təsiri ilə əmək miqrasiyası və qadınlar ilə azyaşlıların da əmək fəaliyyətinə cəlb edilməsi geniş miqyasda artmağa başladı. Həm yüksək ixtisaslı, həm də ixtisassız kadrlar bu miqrasiyanın subyektləri kimi götürülə bilər. Yüksək ixtisaslı kadrlar əsasən öz əməklərinin qarşılığında yüksək əmək haqqı almaq məqsədilə inkişaf etmiş ölkələrə, ixtisassız kadrlar isə əsasən qonşu ölkələrə üz tutur. Bu şəraitdə ilkin baxışda qadınlar üçün daha çox məşğulluq imkanlarının yarandığı görünsə də bu işlərin çoxu aşağı gəlirli, sosial müdafiə cəhətdən zəif olan işlərdir. Ümumiyyətlə, bütün dünyada məşğulluq ilə əhali nisbəti qadınlar üçün kişilərə nisbətən daha aşağı olaraq qalır. 15 yaşdan yuxarı qadınların yarısı işləyərkən, kişilərdə isə 10 nəfərdən 7-i işləyir. Şərqi və Şimali Afrikada qadınların vəziyyəti daha pisdir, hər on qadından ikisi işləyir. Beynəlxalq Əmək Təşkilatının məlumatlarına əsasən qadın və kişilər arasında gəlir qeyri-bərabərliyi də hökm sürür.

Qloballaşma ilə dəyişən məşğulluq strukturlarında qadınlar ehtiyat işçi qüvvəsi kimi daha çox qeyri-rəsmi əmək bazarlarında işə götürülür, qadın əməyinin elastik və ucuz olması xüsusi əhəmiyyət kəsb edir. Qeyri-formal sektorda çalışanların əksəriyyətini qadınların təşkil etməsinin səbəbi onların daha az təhsilli olmasıdır. Qloballaşmanın məşğulluğa ən mənfi təsirlərindən biri isə azyaşlıların əməyindən istifadədir. Bunun əsas səbəbi yoxsulluqdur. Xüsusilə inkişaf etməkdə olanlar ölkələrdə bu hala çox rast gəlinir. Həmin ölkələrdə ailə təsərrüfatlarında gəlirlərin azlığı əsas sosial təminat xərclərini ödəmək üçün uşaqların işləməsinə gətirib çıxardır. İnkişaf etmiş ölkələrdə də bu hala rast gəlinir. Bu ölkələrdə əsasən immiqrantlar bu fəaliyyətlərə cəlb edilir.

NƏTICƏ

Qloballaşma və məşğulluq anlayışlarının mənaları açıqlanaraq, onlar arasındakı münasibətlər ətraflı təhlil edilərək qloballaşmanın bir çox aspektlərdən məşğulluğa həm mənfi, həm də müsbət təsirlərinin olduğu müəyyən edildi. Müsbət təsir elmi potensialı yüksək olanların bir çox vasitələrlə məşğulluq imkanlarından yararlana bilməsi, əmək miqrasiyasının subyekti olaraq qlobal əmək bazarlarına çıxış imkanı əldə edərək daha yaxşı iş imkanları tapa bilməsidir. Mənfi tərəfləri isə sosial müdafiə tədbirlərinin zəifləməsi, gəlirlərdə qeyri-bərabərliyin artması, həmkarlar ittifaqlarının öz güclərini itirməsi, xüsusilə inkişaf etməkdə olan ölkələrdə uşaqların və qadınların aşağı şəraitli və aşağı əmək haqqı olan iş yerlərində işləməyə məcbur qalmasıdır. İş yerlərinin, əmək haqqılarının, iş vaxtlarının elastikləşməsi də qloballaşmanın məşğulluğa olan təsirlərindəndir.

ƏDƏBIYYAT SIYAHISI
6. Yücel Uyanık, Neoliberal küreselleşme sürecinde işgücü piyasaları, Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2008, səhifə 1-16.
https://dergipark.org.tr/en/download/article-file/287448
7. Zeynep Erdinç, Küreselleşmenin istihdama etkileri, Sosyal Bilimler dergisi, Dumlupınar Üniversitesi, Sayı: 3, 1999, səh: 1-10.
https://dergipark.org.tr/tr/download/article-file/55132
8. Nur Beşikkaya, Küreselleşme sürecinin ücretler üzerindeki etkisi, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Çalışma Ekonomisi ve Endüstri İlişkileri Anabilim Dalı Çalışma Ekonomisi Bilim Dalı, 2012, nəşr olunmamış dissertasiya işi.
http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/49217.pdf
9. Fatma Yahşi, Küreselleşme ve istihdam, 2007, nəşr olunmamış dissertasiya işi.
http://libratez.cu.edu.tr/tezler/6691.pdf
10. Michel A., Esther M., Alain V. The impact of Globalisation on Employment, Swiss Federal Statistical Office (FSO), pages 1-13.
https://ec.europa.eu/eurostat/documents/1001617/4576272/SESSION-II-DOC-4.pdf

YENİ DÖVLƏT İDARƏÇİLİYİ VƏ PERFORMANS MENECMENTİ

İlqar Soin oğlu Sofiyev
Bakı Mühəndislik Universiteti
Dövlət və Bələdiyyə idarəetməsi/Dövlət Strukturlarında Menecment
isofiyev@std.beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ
20-ci əsrin ikinci yarısından etibarən bütün dünyada dövlət idarəçiliyi hərtərəfli şəkildə bir dəyişiklik və transformasiya mərhələsinə girmiş, və ənənəvi mənası getdikcə daha çox təzyiq altında qalmağa başlamışdır. Yeni dövlət idarəçiliyi və idarəetməsi də bu mərhələdə ən çox təsirlənən cərəyanlardan olmuşdur. Bu çərçivədə ənənəvi idarəetmə anlayışından yeni idarəetmə anlayışına doğru bir keçid müşahidə edilir və bu yeni sistemdə də milli hökümətlər və idarəçilər, artıq, dövlət siyasətlərində tək həlledici aktyorlar olmurlar.
Son bir neçə on illik ərzində dövlət idarəetməsindəki bu dəyişimlər əslində ənənəvi dövlət idarəetməsi ilə yeni dövlət idarəetməsi arasındakı ziddiyətlərlə açıqlanmışdır. Yeni dövlət idarəetməsinin bir ölçüsü də, özəl sektorun idarəetmə anlayışı və texnikalarının dövlətdə istifadə edilməsi və müştəri əsaslı bir ictimai mədəniyyətin yaradılmasıdır.
AÇAR SÖZLƏR: İdarəetmə, Yeni Dövlət İdarəçiliyi (YDİ), Dövlət-Özəl Sektor, Performans
SUMMARY
Beginning in the second half of the 20th century, public administration around the world entered a phase of comprehensive change and transformation, and its traditional meaning began to come under increasing pressure. The new public administration and governance was also one of the most affected currents at this stage. In this context, there is a transition from the traditional concept of governance to a new concept of governance, and in this new system, national governments and administrators are no longer the only decisive actors in public policy.
These changes in public administration over the past few decades have in fact been explained by the contradictions between the traditional public administration and the new public administration. One dimension of the new public administration is the use of the private sector management concept and techniques in the state and the creation of a customer-based public culture.
KEYWORDS: Management, New Public Administration (NPA), Public-Private Sector, Performance

GİRİŞ

Vətəndaş olaraq biz doğumdan ölənə qədər hər gün dövlətin istehsal etdiyi mal və xidmətlərdən faydalanırıq. Keçmişdə adı məlum olmayan bir çox fəaliyyət bu gün ictimaiyyətin maraq dairəsinə çevrilib. Dövlət idarəçiliyi sahəsində aparılan və ya cəhd edilən islahatlar son otuz ildə təsirini ən çox hiss etdiyimiz hadisələrdən biri olub və onların əsasında iqtisadi problemlərin dayandığı müşahidə olunur.

1970-ci illərdə əvvəlki dövrdəki inhisarçı kapitalist tənzimləmə tərzinin yaratdığı böhrandan sonra ortaya çıxan neoliberal ideologiya böhranın günahını dövlətin üzərinə atdı. Böhrana qarşı "kiçik dövlət, güclü bazar" formalaşdırılması təklif edilmiş və dövlətin rolu bu çərçivəyə uyğun olaraq yenidən müəyyən edilməli olmuşdur.

Bu restrukturizasiya mərhələsində biznesin idarə edilməsi üsullarından istifadə edilir. Klassik menecment anlayışı işlərin proseslərə, üsullara və qaydalara uyğun idarə olunmasına aiddir. Biznesin idarə edilməsi isə öz işini yalnız göstərişlərə uyğun aparmaq əvəzinə, məqsəd və prioritetlərin müəyyən edilməsi, onların həyata keçirilməsi üçün icra planlarının hazırlanması, insan resurslarından səmərəli istifadə, performansın dəyərləndirilməsinə və görülən işlərə görə məsuliyyət daşıması kimi bir çox funksiyaları özündə ehtiva edir.

YENİ DÖVLƏT İDARƏÇİLİYİ DÜŞÜNCƏSİ

Zaman keçdikcə ənənəvi yanaşma daha çox nəzəri və praktiki əsaslarla dəyərləndirildi və dövlət idarəçiliyində bu yanaşma xeyli nüfuz itkisinə səbəb oldu. Buna görə də, Yeni Dövlət İdarəçiliyi ənənəvi dövlət idarəçiliyinə və onun məhdud təbiətinə, mədəniyyətinə və prinsiplərinə çağırış kimi yeni bir paradiqma olaraq meydana çıxdı [9, səh.517].

1960-cı illərdə və 1970-ci illərin başlarında bir çox akademik dairələr ABŞ-da hazırlanmış təhlil ədəbiyyatından olduqca təsirlənmişdir. Bu vəziyyət Qərbi Avropa administrasiyalarının planlaşdırma tərzi ilə birləşmiş və strateji siyasətin qurulmasında iştirak edən düşüncə və rasional təcrübələrin görünməsinə imkan verdi. Dövlət qurumları özlərini bu vəziyyətin içində gördülər [9, səh.518].

Klassik idarəetmə anlayışı işlərin proseslərə, üsullara və qaydalara uyğun idarə olunmasına aid olduğu halda, biznesin idarə edilməsi hədəflərin və prioritetlərin müəyyən edilməsi, onların həyata keçirilməsi üçün icra planlarının hazırlanması, insan resurslarından səmərəli istifadə, fəaliyyətin qiymətləndirilməsidir [1, səh. 112].

Bu prosesdə ön plana çıxan dövlət müəssisələrinin idarə edilməsi yanaşması dövlət idarəçiliyinə rəqib olaraq işə salındı. 1980 və 1990-cı illərdə Yeni Dövlət İdarəçiliyi adlanan bu yanaşmanın dövlət idarəçiliyinin normativ prosedurlarından, siyasətin qurulmasından və özəl sektorun idarə edilməsi strategiyalarından təsirinin şahidi olduq. Bu dövrdə Yeni Dövlət İdarəçiliyinin yüksəlişi, rəhbərliyə böyük və mürəkkəb təşkilatları necə idarə etmək barəsində töhfələr verdi [8, səh.320].

Yeni Dövlət İdarəçiliyi dövlət qurumlarında bu dörd əsas prosesi, ətraflı nəzərdən keçirdikdə, daha yaxşı başa düşüləcək:

1. Dağıdıcı proses: Bu, ilk növbədə malların və xidmətlərin müəyyən kateqoriyalara, qruplara və fərdlərə paylanmasını nəzərdə tutan xarici bölgü prosesidir [4, səh.372-374].
2. Bütünləşdirici proses: Bu, hakimiyyət münasibətlərinin və onun koordinasiyasının çox vacib olduğu prosesdir. Burada formal iyerarxiya üçün heç bir problem yoxdur. İdarəçilər onları asanlıqla əlaqələndirə bilər [4, səh.374].
3. Məhdud mübadilə prosesi: Bu proses dövlət qurumları ilə qruplar və müştərilər arasında münasibətləri göstərir. Dövlət qurumları özlərini siyasi, iqtisadi və sosial mühitdə tapır və bu mühitdə dəstək axtarırlar.
4. Sosial həyəcan-emosiya prosesi: Dövlət idarəçiliyi bir-birindən fərqli olan fərdi və qrup xüsusiyyətlərinə malikdir. [4, səh.377].

Ümumilikdə Yeni Dövlət İdarəçiliyinin yaranmasında iki proses qeyd olunur. Birincisi, rəqabət və istifadəçi üstünlüklərini, şəffaflığı və motivasiyanı vurğulayan korporativ iqtisadiyyat düşüncəsidir [3, səh.29]. İkinci Dünya Müharibəsindən sonra formalaşan ictimai seçim, məsuliyyət və əməliyyat dəyəri nəzəriyyələri bu ideyanı formalaşdırmışdır [7, səh.5]. İkinci proses kimi dövlət sektorunda iqtisadi idarəetmənin özəl sektor modelinin həyata keçirilməsi qəbul edilir. Bu hərəkət peşəkar idarəetməni, texniki təcrübəni, uğurlu nəticələr əldə etmək üçün səlahiyyətlərin verilməsini, müvafiq təşkilat mədəniyyətlərinin inkişafı vasitəsilə daha yaxşı təşkilati performansın həyata keçirilməsi göstərilir [7, səh.6].

Yeni Dövlət İdarəçiliyinin əsas məqsədləri: səmərəliliyi təmin etmək, siyasi və inzibati sistemin daha yaxşı işləməsini təmin etmək, məhdud nəzarət, inzibati muxtariyyət, daha çox açıqlıq, səlahiyyətlərin verilməsi və müqavilələr vasitəsilə sistemdə əhəmiyyətli dəyişikliklər etməkdir [2, səh.19]. Bu məqsədlə günümüzdə, kadr və dövlət xərcləri baxımından rəhbərliyin böyüməsini ləngitmək, dövlət xidmətlərinin istehsalında və paylanmasında xüsusilə informasiya texnologiyalarından istifadə yoluyla avtomatikliyi təkmilləşdirmək kimi proseslərdən yararlanaraq, daha çox Yeni Dövlət İdarəçiliyinin ümumi problemlərini, siyasi dizaynını, qərarvermə şəkillərini və dövlətlərarası təşkilatları da içinə alan dövlətlərarası bir tendensiya hazırlamaq üçün səy göstərməkdədir [7, səh.3].

Klassik dövlət idarəetməsi mövcud qaynaqlarla necə daha çox və daha yaxşı xidmətlər təklif edə bilər? sualına səmərəlilik; az vəsait xərcləyərək xidmətin keyfiyyət və miqdar səviyyəsi necə qoruna bilər? sualına da əlverişlilik cavabını vermişdir. Son zamanlarda ortaya çıxan Yeni Dövlət İdarəçiliyi düşüncəsi isə buna üçüncü bir sual olaraq dövlət xidmətlərində sosial bərabərlik tətbiq edilə bilərmi? sualını əlavə etmişdir. Beləliklə, Yeni Dövlət İdarəçiliyi özəl sektor planlarını və gəlir yönümlü məqsədləri uyğunlaşdırmaq, dəyişməz qaydalar yerinə giriş və istiqamətləndirici bələdçilərdən istifadə etmək, mümkün qədər mərkəzi nəzarətdən uzaqlaşmaq, çevik iş və ödəniş tənzimləmələrini və müştəri ehtiyaclarını inkişaf etdirmək funksiyalarını yerinə yetirərək dövlət xidmətlərinin göstərilməsində sosial bərabərliyi təmin etmək məqsədinə nail olmağa çalışır [8. səh.337].

Bu prosesdə aşağıdakı prinsiplərdən faydalanılır:

1. Kiçilmə: Bu prinsipə uyğun olaraq, rəhbərliyin fəaliyyət sahəsinin həcm baxımından azaldılması nəzərdə tutulur. [11, səh.362]. Lakin bunun üçün ilk növbədə ənənəvi dövlət idarəçilik mədəniyyətini dəyişmək lazımdır. Çeviklik, innovasiya, problemlərin həlli, sahibkarlıq və məhsuldarlıq üçün yeni mədəniyyətlər yaradılmalıdır [5, səh.394].
2. İdarəetmə ideologiyası (menecerializm) nəzəriyyəsinin dövlət idarəçiliyinə uyğunlaşdırılması: Nəzəriyyə ümumiyyətlə özəl sektorun təcrübəsinin dövlət idarəçiliyinə uyğunlaşdırılmasını nəzərdə tutur, bu məqsədlə fəaliyyətin ölçülməsi sistemləri qurur və müxtəlif göstəricilərdən istifadə edir [11, səh.362].
3. Sahibkarlıq idarələrinin məntiqinin dövlət idarəçiliyinə ötürülməsi: Belə idarələr sayəsində xidmət göstərənlər arasında rəqabət təşviq edilir. Cəmiyyətdə vətəndaşlar bürokratiyanın nəzarətindən kənarlaşdırılaraq səlahiyyətləndirilir, fəaliyyətin girişindən çox qurumların çıxışlarına diqqət yetirilir, qurumların qayda və qanunlarla deyil, öz missiya və məqsədlərinin irəliləməsi nəzərdə tutulur [6, səh.2-3].
4. Lokallaşdırma: Beləliklə, qərar vermə prosesləri xidmətdən istifadə edənlərə yaxınlaşdırılır, rəqabət artır və yeniliklər gündəmə gəlir. [11, səh.362].
5. Bürokratiyanın azaldılması: İerarxiya və iştirak proseslərindən çox nəticələrə diqqət yetirilir. Müvafiq olaraq, idarəetmə strukturu dəyişdirilir və dövlət qurumlarına çeviklik və mülahizə verilir. Protokollardan asılı olmayaraq nəticələrin qiymətləndirilməsinə diqqət yetirilir [11, səh.392].
6. Özəlləşdirmə: Bəzi hallarda və lazımi şərtlər yerinə yetirildikdə, idarələr mal və xidmətlərin çatdırılmasını özəl sektor şirkətlərinə təhvil verə bilərlər. Bu prosesdə müqaviləli şəkildə kifayət qədər rəqabətin olduğu özəl sektordan mümkün qədər istifadə edilməli olduğu ifadə edilir [11, səh.393].

YENİ DÖVLƏT İDARƏÇİLİYİNDƏ PERFORMANSIN İDARƏ EDİLMƏSİNİN TƏTBİQİ

Yeni Dövlət İdarəçiliyi islahatçıları performansın idarə edilməsini 3 fərqli məqsədlə əlaqələndirirlər:

1. İdarəetmənin inkişafı və xidmətlərin daha yaxşı göstərilməsi
2. Hesabatlılığın və nəzarətin gücləndirilməsi
3. Qənaət və maliyyə məhdudiyyətlərinin həyata keçirilməsi.

Bu məqsədlərin nisbi üstünlüyünə əsaslanaraq, performansın idarə edilməsi tamamilə fərqli yollarla dizayn edilə bilər və müxtəlif anlayışlar və alətlər tətbiq edilə bilər.

Performans yönümlü dövlət sektoru təşkilatları 2 əsas mərhələdə iştirak edir. Birinci mərhələ "giriş-çıxış" mərhələsidir. Bu mərhələdə, əsas olaraq giriş və çıxışa fokuslanılır. İkinci mərhələ daha geniş perspektivdə təsvir edilə bilər: çıxış və nəticə. Buna misal olaraq nəticə üçün hədəfləri siyasi cəhətdən müəyyən etmək və onların əldə olunmasına nəzarət etmək olar.

Dövlətin yenidən təşkili üçün aparılan islahat tədqiqatları mərkəzi hökumətlərin dövlət siyasəti prosesinin səmərəli formalaşdırılması və həyata keçirilməsini müdafiə edir. Bu fikirdə olanların fikrincə, dövlət siyasətləri yenidən formalaşdırılmalı, onlara əməl edilməli, onların dəyərləri mənimsənilməli və sistemə qayıdaraq nəticələrinə yenidən baxılmalıdır. Dövlətin iyerarxik quruluşu əvəzinə qurumlar arasında şəbəkə yaratmaqla koordinasiya təmin edilməli, bunun üçün idarəetmə üslublarına yenidən baxılmalıdır. [12]

Dövlət idarəçiliyi üçün performansın idarə edilməsinin həyata keçirilməsini aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Əslində, bu, strateji planlaşdırma ilə başlayan bir prosesdir.
2. Bu planlarda strateji hədəflər müəyyən edilir.
3. Hədəflərin müəyyən edilməsindən sonra növbəti addım performans dəyərlərinin müəyyən edilməsidir.
4. Dövlət qurumlarının (təşkilatlarının) performansının ölçülməsi dəyərlərə uyğun aparılır.
5. Növbəti addım bu ölçmə nəticələrinə əsasən performans auditini həyata keçirməkdir.

6. Dövlət qurumlarının fəaliyyəti qiymətləndirilir və qurumun və onun rəhbərlərinin performansı strateji hədəflərə nə dərəcədə çatması ilə qiymətləndirilir. Əslində, bütün bu proses təşkilatı idarə edən insanların təşkilatın məqsədlərinə nə dərəcədə nail ola biləcəyini müəyyən etmək üçün edilir.
7. Bu prosesdə təşkilatın məqsədlərinə çata bilmədiyi müəyyən olunarsa, təşkilatın rəhbərləri şəffaflıq və hesabatlılıq prinsipləri çərçivəsində aşağı performansın hesabını verməlidirlər.

NƏTİCƏ

Yeni Dövlət İdarəçiliyi ideyası həm nəzəri, həm də praktiki olaraq bütün dünyada öz təsir dairəsini genişləndirməkdə davam edir. Bu yaxınlarda Yeni Dövlət İdarəçiliyinin fərdi təşəbbüsə əhəmiyyəti də müzakirə edilmişdir. Bildirilir ki, fərdi təşəbbüskarlığın artması ilə bütün dünyada rəqabət mühitində istehsal resurslarından səmərəli, rasional və optimal nəticələr əldə etmək imkanları artacaq. Fərdi davranışın rasional olması, müdaxilə olmadıqda insanın özü üçün ən yaxşısını seçə bilməsi və şəxsi rifahın son təhlildə sosial rifahın təməl daşını təşkil etməsinə işarə edilir. Ona görə də bu gün mərkəzləşmə tendensiyasının dayandırılması və geri qaytarılması, hakimiyyətin və təşəbbüsün vətəndaş cəmiyyətinə qaytarılması üçün tədbirlər görülməlidir.

Yeni Dünya nizamına uyğunlaşmaq üçün edilən müasir tənzimləmələrlə yenidən qurulan dövlət idarəçiliyi anlayışına:

1. Performansın ölçülməsi,
2. Məsuliyyət götürmək,
3. Resurslardan səmərəli istifadə etmək,
4. Hədəfin, strategiyanın və prioritetlərin müəyyən edilməsi üçün meyarları daxildir.

Ölkəmizdə həm yeni dövlət idarəçiliyi, həm də dövlət qurumlarında vətəndaşlara yaxşı xidmət etmək,keyfiyyəti və performansı yaxşılaşdırma sahələrində imkanları əldən verməmək barədə gərgin ictimai fikir formalaşıb. Lakin bu baxımdan, sürətli dəyişmə, fərqliləşmə və qloballaşma prosesində keçmişdə olduğu kimi, müəyyən mədəni mühitlərdə yetişmiş inzibati quruluş və anlayışı az inkişaf etmiş və inkişafda olan ölkələrə tətbiq etmək edilə biləcək ən böyük səhvlərdən biri kimi görünür. Bu anlayışlara və yeni dövlət idarəçiliyi sisteminə keçid tədricən baş verməlidir və ya həmin ölkələrin öz ixtiyarına buraxılmalıdır.

Ölkəmizdə həm yerli, həm də mərkəzi səviyyədə göstərilən xidmətlərin keyfiyyətini artırmaq üçün, performans daha üst səviyyəyə çatdırılmalı, performansın idarə edilməsi yeni dövlət idarəçiliyində geniş perspektivdə ələ alınmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. AL, Hazma (2002), Kamu Yönetiminde Paradigma Değişimi, Doktora Tezi, Sakarya; Sakarya Üniversitesi.
2. CHRISTENSEN, Tom And Per LEGREİD (2002a), "A Transformative Perspective on Administrative Reforms", Tom Christensen and PerLegreid (Ed.), New Public Management, England: Ashgate. 13-39
3. DUNSIRE, Andrew (1995), "Administrative Theory in the 1980's: A Viewpoint", Public Administration, 73: 25-35
4. FREDERICKSON, H. George (1992), "Toward a New Public Administration", Robert B. DENHARDT (Ed.), Public Administration in Action Readings-Profiles-Cases, USA: BrooksPub. 368-381
5. GALNOOR, Itzhak-David H. ROSENBLOOM-Allan YARONİ (1998),"Creating NPM Reforms: Lessons from Israel", Administration &Society, 30, 4:393-419.
6. HUGHES, Owen (1998), Public Management&Administration, USA: ST.Martin's Press.
7. HOOD, Christopher (1991), "A Public Management For All Seasons?" ,Public Administration Review, 69:3-19.
8. IVES, Denis (1994), "Next Steps in Public Management", Australian Journal of Public Administration , 53, 3:335-341.
9. MARTIN, Denis Saint (1988), "The New Managerialism and the Policy Influence of Consultants in Government: Governance", An International Journal of Policy And Administration, 2, 3:315-335.
10. ÖMÜRGÖNÜLŞEN, Uğur (1997), "The New Public Management", AÜSBF Dergisi, 52: 517-566.
11. WEIKART, A.Lynne (2001), "The Giuliani Administration and the New Public Management in New York City", Urban Affairs Review, 36, 3:359-382.
12. Güler, Birgül Ayman, Devletin Yapısal ve İşlevsel Dönüşümü Küreselleşme , Sayıştaş dergisi, İstanbul, Sayı: 49, səh. 32-45
13. http://fbemoodle.emu.edu.tr/pluginfile.php/37896/mod_resource/content/1/kuresellesme.pdf

MÜHƏNDİSLİK, MEMARLIQ VƏ İNŞAAT ELMLƏRİ

AVTOMATİKA VƏ ELEKTRONİKA

NEFT/QAZ QAZMA PROSESININ AVTOMATLAŞDIRILMASINDA RƏQƏMSAL ƏKIZ TEXNOLOGIYASINDAN ISTIFADƏ.

AYSEL ƏLİMİRZƏYEVA
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Texniki sistemlərdə informatika və idarəetmə.
aelimirzeyeva@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Rəqəmsal əkizin potensialı:minlərlə sensor davamlı,qeyri-trivial ölçülər alaraq rəqəmsal platformaya ötürülür.Proqnozlaşdırılan texniki xidmət layihələrinin həyata keçirilməsinin üstünlüyü.Rəqəmsal əkizdən xəta komponentlərin davranışını əldə etmək.Xətanın aşkarlanması alqoritmini mümkün qədər real olan məlumatlar əsasında öyrənmək.Misal olaraq məqalədə neft və qaz sənayesində qazma sistemlərinin avtomatlaşdırılması göstərilmişdir.Bu prosesin analizi üçün Matlab proqram paketinin Predictive Maintenance Toolbox™ -dan istifadə edilmişdir.

AÇAR SÖZLƏR:Rəqəmsal əkiz,istehsal prosesinin rəqəmsal əkiz modeli, çoxdomenli simscape simulyasiyası.

GIRIŞ

Rəqəmsal əkiz fiziki obyektin və ya sistemin rəqəmsal təsviridir,yəni rəqəmsal əkizlər canlı mühitdə obyekti simulyasiya edən fiziki obyektin sensorla işləyən rəqəmsal modeli kimi təsvir edilir. Rəqəmsal əkizin tərkib elementləri:Vericilər(sensorlar),verilənlər(data),inteqrasiya, təhlil(analytic), aktuatorlar(icra mexanizmi) [4].

Bu yanaşmanın reallaşdığı misal [5] gösərilmişdir.Bu misalda neft nəqlində istifadə edilən nasosun texniki vəziyyətini proqnoz etmək üçün onun əkizi yaradılmışdır.Bu texnologiya bahalı təcürbə aparmaq yerinə bütün vəziyyətləri rəqəmsal əkiz üzərində aparır.

Rəqəmsal əkiz fiziki obyektin və ya sistemin rəqəmsal təsviridir,yəni rəqəmsal əkizlər canlı mühitdə obyekti simulyasiya edən,fiziki obyektin sensorla işləyən rəqəmsal modeli kimi təsvir edilir. Rəqəmsal əkiz kütləvi, məcmu, real vaxt verilən (data) ölçmələrinə əsaslanır. Bu ölçmələr, rəqəmsal dünyada obyektin performansı və ya sistemin performansı haqqında vacib məlumatları təmin edir.

Rəqəmsal əkiz mürəkkəb modelləşdirmə üçün nəzərdə tutulur.Rəqəmsal əkiz geniş çeşiddə yaradılır və müxtəlif məqsədlərə xidmət edir. Misal olaraq neft və qaz sənayesinin müxtəlif sahələrini göstərmək olar.

İSTEHSAL PROSESININ RƏQƏMSAL ƏKIZ MODELI.

Rəqəmsal əkiz fiziki obyekti dəqiq əks etdirmək üçün nəzərdə tutulmuş virtual modeldir. Minlərlə sensor fiziki istehsal prosesi boyunca kollektiv şəkildə paylanır və geniş diapazonda məlumat əldə edir.Bu məlumatlar davamlı olaraq ötürülür və rəqəmsal əkiz tətbiqi tərəfindən toplanılır.Rəqəmsal əkiz tətbiqi davamlı olaraq daxil olan məlumatları təhlil edir.Bu,fiziki və rəqəmsal dünyalar arasında interaktiv səyahətdir.



Şəkil 4.1.İstehsal prosesinin rəqəmsal əkiz modeli [İndustry 4.0 and digital twin**]**

Bu şəkildə vericilər, verilənlər, inteqrasiya, təhlil və icra mexnizmləri göstərilmişdir:
-Vericilər (Sensorlar) – sensorlar istehsal prosesi boyunca paylanır və rəqəmsal əkizin real dünyadakı fiziki proseslə əlaqədar əməliyyat,ətraf mühit məlumatlarını əldə etməsinə imkan verən siqnallar yaradır.
-Verilən (Data) – sensorlardan əldə edilən real dünyadakı əməliyyat və ətraf mühit verilənləri, materialların fakturası,müəssisə sistemi və dizayn spesifikasiyaları kimi müəssisənin məlumatları toplanılır.Verilənlərdə mühəndislik təsvirləri,xarici data mənbələrinə qoşulmalar və müştəri şikayət qeydləri kimi başqa məlumatlar da ola bilər.
-İnteqrasiya – sensorlar dataları fiziki dünya ilə rəqəmsal dünya (bura kənar, rabitə interfeysləri və təhlükəsizlik daxildir) arasındakı inteqrasiya texnologiyası vasitəsilə rəqəmsal dünyaya ötürür və ya əksinə.
-Təhlil (Analytics) – təhlil texnikaları,analiz üçün rəqəmsal əkiz tərəfindən istifadə olunan alqoritmik simulyasiyalar və vizaullaşdırma rutinləri vasitəsilə dataları analiz emək üçün istifadə olunur.
-Aktuatorlar(icra mexanizmləri) – real dünyada bir əmr veriləcəyi təqdirdə rəqəmsal əkiz həmin hərəkəti insan müdaxiləsinə tabe olan aktuatorlar vasitəsilə istehsal edir.

5.PROQNOZLAŞDIRILAN BAXIMDA RƏQƏMSAL ƏKIZDƏN ISTIFADƏ.

Sənaye artıq rəqəmsallaşmanın ortasında olsa da,neftin qiymətinin düşməsi onun innovasiya və yeni texnologiyalardan isifadə edərək xərcləri azaltma məsələsini ortaya çıxardı.Bu məsələnin həll edilməsində istifadə olunan texnologiyalardan biri də proqnozlaşdırıcı texniki xidmətdir.Qazma qurğusundakı avadanlıq xarab olduqda,nəticədə yaranan problemi çox vaxt dəyişdirməklə deyil, hasilat və ya qazma zamanı məcburi dayandırmaqla həll edirlər.Buna görə də, avadanlığın və ya sistemin nə vaxt sıradan çıxacağını proqnozlaşdırmaq və nasazlığın əsas səbəbini müəyyən etmək çox vacibdir.Bəzi şirkətlər əvvəlcədən proqnozlaşdırılan texniki xidmətin faydalarını görürlər.Məsələn, Baker Hughes şirkətinin mühəndisləri şirkətin yük maşınları parkında proqnozlaşdırıcı texniki xidmət göstərirlər. Onlar bu yük maşınlarında olan nasoslardan təxminən bir terabayt məlumat toplayıb.Daha sonra sağlam nasosu qeyri-sağlam nasosdan ayırd etmək üçün maşın öyrənmə üsullarını tətbiq edib və ümumi xərcləri 10 milyon dollar azaldmışdılar.

6.Neft/qaz qazma prosesinin avtomatlasşdırılmasında rəqəmsal əkiz.

Qazma sistemlərinin modelləşdirilməsi və avtomatlaşdırılması: Neft və qaz qazma qurğuları uzaq muhitdə və sərt hava şəraitində sutkada 24 saat işləməli olan minlərlə prosesi cəmləşdirən çox mürəkkəb sistemdir.Neft və qaz sənayesində qazma sistemlərinin avtomatlaşdırılması vasitəsilə əməliyyatların səmərəliliyini və maya dəyərini artırırlar.Çəkmə işləri neft və qaz sənayesində qazma tətbiqləri üçün istifadə olunan ağır avadanlıq parçasıdır. Dəyişən tezlik ötürücüsü qazma zamanı qazma trosunu və üst sürücüsünü qaldırmaq və endirmək üçün istifadə olunur.



Fall-related injuries carry substantial life risks for millions of people around the globe. Mainly older adults with weakened lower-limb muscles and lower-extremity amputees suffer a lot from such occurrences. Robotic lower-limb exoskeletons hold the massive potential that can contribute to human balance control by providing active power to the controlled joints. Achieving balance in the frontal plane is a relatively harder neuromuscular task than in the sagittal plane, even for healthy people. Thus, attempting to gain medial-lateral balance control with the help of lower-limb exoskeletons requires a comprehensive interdisciplinary approach. On that account, this report aims to summarize the technological advances of a mentioned task by describing relevant studies carried out so far.

KEYWORDS: medial-lateral balance, lower-limb exoskeleton, posture control

INTRODUCTION

Several developed exoskeletons by various academic and industrial groups showed decent results in terms of walking assistance with [1], [2], and without [3]–[6] balance control. However, none can provide full balance assistance in frontal and sagittal planes, thus requiring crutches while walking. Although many positive results have been achieved regarding balance control in an anterior-posterior direction, medial-lateral (ML) balance control of powered lower-limb exoskeletons still challenges many engineers and researchers. The reason for that is, lots of open and complex research questions must be answered like "Which body segments should be prioritized in terms of support?", "How many degrees of freedom (DoF) should a lower-limb exoskeleton possess?", "What kind of high- and low-level control architectures would provide the best assistance?", "How assist-as-needed (AAN) paradigm could be realized along with intelligent human-machine interaction behavior?", "Which metrics should be used for balance decision making?". As can be seen from a couple of questions mentioned here, the development of a lower-limb exoskeleton with balance control capacity requires an interdisciplinary approach. Thus, the scope of this paper will mainly cover the human balance control in the frontal plane with the help of the lower-limb

exoskeleton because walking in this direction is relatively unstable compared to the anterior-posterior movements [7], [8]. This report aims to outline the vivid representatives of lower-limb exoskeletons attempting to balance human-exoskeleton systems and their control architectures.

LOWER LIMB EXOSKELETON AND CONTROL APPROACHES FOR BALANCE ASSISTANCE

According to the supported area of the body, exoskeletons can be divided into three categories: upper limb [9]–[11], lower limb [12]–[14], and full-body exoskeleton [15]. Yan et al. [16] introduced the notion of the multi- and single-joint lower-limb exoskeleton to ease the description of the devices in terms of covered joints. The authors suggested the differentiation of trunk–hip–knee–ankle–foot (THKAF), hip–knee–ankle–foot (HKAF), trunk–hip–knee (THK), hip–knee (H.K.), or knee–ankle–foot (KAF) orthoses and exoskeletons, as shown in Fig. 1.



Fig. 1. Different versions of multi-joint exoskeletons

In order to achieve practical and accurate usage of the exoskeleton device along with smooth human-exoskeleton coordination, it is essential to employ advanced control strategies that will enable a comfortable integration. Authors of [16], [17] have termed high-level control techniques used for lower limb exoskeletons as assistive strategies and classified them as shown in Fig. 2. Reference trajectory-based gait control is the most used technique for exoskeleton users who are entirely unable to move their joints, making the approach impractical for people who have some control over joints. The desired joint trajectory is either recorded from a healthy person or extrapolated from gait analysis. Model-based stability control provides robotic motion relying on the human-exoskeleton model considering gravity compensation and balance criterion. This approach is highly susceptive to model accuracy and kinematic/dynamic variable measurements. The adaptive oscillator-based control method utilizes the periodicity of gait patterns for extrapolating the future posture of lower limbs by imitating the central pattern generator. This approach is limited to cases where subjects can deliver periodic and stable locomotion signals and is mostly validated on the hip exoskeletons. Unlike reference trajectory control, predefined motion-based control runs the exoskeleton system synchronously with expected gait events where the desired assistance level depends on the time of control command and characteristics of the included elastic elements (stiffness, inertia, damping). The sensitivity magnification strategy usually relies on the inverse dynamic model of the exoskeleton and is used to increase the load-carrying capability of the user. The decision-based fuzzy control approach becomes handy when it is difficult to structure the exact dynamic model. However, heavy dependence on expert's heuristics and too many variables to be tuned is the primary deficiency of this method. Hybrid-assisted control strategies are utilized in multi-joint exoskeleton systems by combining various control strategies simultaneously. Muscle stiffness control is primarily applied on the

musculoskeletal model of the knee joint by considering the non-linear relation between the activated muscle and the joint torque. Proportional EMG-based control relies on the myoelectric signals received from the user's musculoskeletal motion impulses and is mainly used for single-limb exoskeletons. Some noteworthy studies that aimed to achieve the ML balance control with the help of various lower-limb exoskeletons are going to be discussed next.



Fig. 2. Assistive strategies utilized for lower-limb exoskeletons.

Karavas et al. [18] presented similar and early work for standing balance assistance applied to a knee exoskeleton. According to EMG-driven musculoskeletal model, authors have estimated the knee joint stiffness that was experimentally calibrated in isometric conditions. They found out that knee stiffness profiles are positively correlated with CoP excursions in the AP direction. Thus, these variables were utilized to calculate desired stiffness for the impedance controller, which composed an outermost position loop and an inner torque loop. The developed controller did not impede the subject's motion as long as AP CoP lay within the dead band. According to the real-time knee joint stiffness estimations, the exoskeleton regulated its stiffness and intervened when AP CoP increased.

Monaco et al. [19], [20] studied the slippery avoidance capability of the hip exoskeleton for eight elderly persons and two transfemoral amputees within the "Assist-as-needed" paradigm. Authors have hypothesized that the increase of the hip joint stiffness in the AP direction against limb movements caused by the treadmill belts could provide balance recovery. Therefore, when the assist mode was enabled, exoskeleton hip joint motors extended the perturbed limb and flexed the unperturbed one. The balance perturbation detection is accomplished by comparing the actual leg joint angles and those predicted by a pool of adaptive oscillators. The time needed for balance loss identification was about 350 ms. The hip exoskeleton control system consisted of two layers. The high-level layer comprised the model-free adaptive oscillators (AO) with the capacity to synchronize with periodic characteristics of the input signal (i.e., amplitude, frequency, and lead phase) rather than tracking the signal itself. The required assistive torque is then calculated by estimating the hip joint angles with AO and applied to the exoskeleton hip joints through the second – low-level layer of the control system. Closed-loop torque control executed by the PID controller was in charge of decreasing the error between desired and measured torques. Authors have used the margin of stability and COM stability along AP direction as the metrics for balance recovery analysis.

A similar approach of single-joint hip exoskeleton but with 4 DoFs (hip ab/adduction, hip flexion/extension) at each leg has been proposed by Zhang et al. [21] to maintain the balance in both sagittal and frontal planes. The authors aimed to develop an AAN gait assistance system for people who has a muscular weakness but still retains voluntary motor control of their lower limbs for balance recovery. Assistive walking without a perturbation was realized by a finite state machine (FSM) at a high control level through the utilization of five gait-phase states, namely, left leg flexion/extension, double support, and right leg flexion/extension. Each state of four hip joints is defined by impedance parameters – joint stiffness, damping, and equilibrium angle. A low-level admittance controller provided a cooperative rendering of the joint impedance with the integrated series compliance within the SEA mechanism. The hip exoskeleton added a new control input regarding weight shift ratio and lateral XCoM metric if any loss of stability was detected. So, the step width was adjusted appropriately by changing desired hip joint abduction/adduction angles.

In the sense of exoskeleton utilization for balance control, Chiu et al. [22] proposed and developed a tethered emulator system that mimics the hip exoskeleton with flexion/extension and ad/abduction features.

The study's main aim was to develop a unified system that will allow experimentation of various control approaches without designing customized hardware for each technique. The emulator system comprises off-board motors and computers, a lightweight end-effector designed for the user, flexible Bowden cables that transmit mechanical power from the motors to the user worn hip exoskeleton, and a data cable to transmit data to the computer. The rotary encoders featured in each actuator and two sets of strain gauges attached to each thigh tube have been used to detect hip angles and applied torques, respectively. The authors implemented and tested three high-level controllers: a spring-like controller, a foot placement controller, and a hip assistance controller. Desired torques calculated at a high level were later sent to the low-level torque controller, where each actuation set acted in agonist and antagonist fashion based on the sign of the desired torque.

The Symbitron Exoskeleton with eight powered joints and four passive joints developed under the European Union Seventh Framework Programme [23] is one of the latest representatives of THKAF exoskeletons where the researchers aimed to assist people with complete and incomplete SCI. The full lower-limb exoskeleton attracts attention with the capability of providing modular support to any joint suffering from SCI. The authors exploited the reflex-based musculoskeletal model proposed by Geyer et al. [24] for designing the high-level neuromuscular controller (NMC) since their aim was also to assist SCI people who partially own control over some joints. In conclusion, the final high-level control consisted of (1) NMC for people with incomplete SCI where each joint torque independently generated by local reflex loops to mimic the natural gait, and (2) combined trajectory controller with NMC for complete SCI individuals. Trajectory controller had the overriding feature on NMC if the joint angle deviates much from referenced value. The low-level controller mainly consisted of a closed-loop torque controller that provided the desired torque according to the command sent by a high-level counterpart. The authors guaranteed subject and device safety by implementing the end stop behavior that could take precedence over the torques control where trade off was relatively poor torque tracking of the joint.

CONCLUSION

The primary purpose of this report was to attempt to review the main technological advances for the ML control of lower limb exoskeletons.

REFERENCES

1. "HOME - Wandercraft." https://www.wandercraft.eu/ (accessed Jul. 17, 2021).
2. "MINDWALKER." https://www.tudelft.nl/en/3me/about/departments/biomechanical-engineering/research/dbl-delft-biorobotics-lab/leg-exoskeletons/mindwalker (accessed Jul. 17, 2021).
3. Indego | Powering People Forward." http://www.indego.com/indego/us/en/home (accessed Jul. 17, 2021).
4. "ReWalk Robotics - More Than Walking." https://rewalk.com/?gclid=Cj0KCQjw_8mHBhClARIsABfFgpgxICq_JKFSa41YyBR7zO5fJU01MbgUEXuKltVru1b8P1bjw4Y0tEwaAnBkEALw_wcB (accessed Jul. 17, 2021).
5. "ExoAtlet Home." https://exoatlet.lu/ (accessed Jul. 17, 2021).
6. "Myosuit - Support and Strength For Your Muscles - Myoswiss." https://myo.swiss/en/ (accessed Jul. 17, 2021).440
7. C. E. Bauby and A. D. Kuo, "Active control of lateral balance in human walking," J. Biomech., vol. 33, no. 11, pp. 1433–1440, Nov. 2000, doi: 10.1016/S0021-9290(00)00101-9.
8. C. D. MacKinnon and D. A. Winter, "Control of whole body balance in the frontal plane during human walking," J. Biomech., vol. 26, no. 6, pp. 633–644, Jun. 1993, doi: 10.1016/0021-9290(93)90027-C.
9. N. Rehmat, J. Zuo, W. Meng, Q. Liu, S. Q. Xie, and H. Liang, "Upper limb rehabilitation using robotic exoskeleton systems: a systematic review," Int. J. Intell. Robot. Appl. 2018 23, vol. 2, no. 3, pp. 283–295, Aug. 2018, doi: 10.1007/S41315-018-0064-8.
10. H. S. Lo and S. Q. Xie, "Exoskeleton robots for upper-limb rehabilitation: State of the art and future prospects," Med. Eng. Phys., vol. 34, no. 3, pp. 261–268, Apr. 2012, doi: 10.1016/J.MEDENGPHY.2011.10.004.
11. R. C. V. Loureiro, W. S. Harwin, K. Nagai, and M. Johnson, "Advances in upper limb stroke rehabilitation: a technology push," Med. Biol. Eng. Comput. 2011 4910, vol. 49, no. 10, pp. 1103–1118, Jul. 2011, doi: 10.1007/S11517-011-0797-0.
12. N. Aliman, R. Ramli, and S. M. M. Haris, "Design and development of lower limb exoskeletons: A survey," Rob. Auton. Syst., vol. 95, pp. 102–116, Sep. 2017, doi: 10.1016/J.ROBOT.2017.05.013.

13. W. Huo, S. Mohammed, J. C. Moreno, and Y. Amirat, "Lower Limb Wearable Robots for Assistance and Rehabilitation: A State of the Art," IEEE Syst. J., vol. 10, no. 3, pp. 1068–1081, Sep. 2016, doi: 10.1109/JSYST.2014.2351491.
14. B. Chen et al., "Recent developments and challenges of lower extremity exoskeletons," J. Orthop. Transl., vol. 5, pp. 26–37, Apr. 2016, doi: 10.1016/J.JOT.2015.09.007.
15. M. Fontana, R. Vertechy, S. Marcheschi, F. Salsedo, and M. Bergamasco, "The body extender: A full-body exoskeleton for the transport and handling of heavy loads," IEEE Robot. Autom. Mag., vol. 21, no. 4, pp. 34–44, Dec. 2014, doi: 10.1109/MRA.2014.2360287.
16. T. Yan, M. Cempini, C. M. Oddo, and N. Vitiello, "Review of assistive strategies in powered lower-limb orthoses and exoskeletons," Rob. Auton. Syst., vol. 64, pp. 120–136, Feb. 2015, doi: 10.1016/J.ROBOT.2014.09.032.
17. B. Kalita, J. Narayan, and S. K. Dwivedy, "Development of Active Lower Limb Robotic-Based Orthosis and Exoskeleton Devices: A Systematic Review," Int. J. Soc. Robot. 2020 134, vol. 13, no. 4, pp. 775–793, Jun. 2020, doi: 10.1007/S12369-020-00662-9.
18. N. Karavas, A. Ajoudani, N. Tsagarakis, and D. Caldwell, "Human-inspired balancing assistance: Application to a knee exoskeleton," 2013 IEEE Int. Conf. Robot. Biomimetics, ROBIO 2013, pp. 292–297, 2013, doi: 10.1109/ROBIO.2013.6739474.
19. F. Giovacchini et al., "A light-weight active orthosis for hip movement assistance," Rob. Auton. Syst., vol. 73, pp. 123–134, Nov. 2015, doi: 10.1016/J.ROBOT.2014.08.015.
20. [58] V. Monaco et al., "An ecologically-controlled exoskeleton can improve balance recovery after slippage," Sci. Reports 2017 71, vol. 7, no. 1, pp. 1–10, May 2017, doi: 10.1038/srep46721.
21. [59] T. Zhang, M. Tran, and H. Huang, "Design and experimental verification of hip exoskeleton with balance capacities for walking assistance," IEEE/ASME Trans. Mechatronics, vol. 23, no. 1, pp. 274–285, Feb. 2018, doi: 10.1109/TMECH.2018.2790358.
22. V. L. Chiu, M. Raitor, and S. H. Collins, "Design of a Hip Exoskeleton with Actuation in Frontal and Sagittal Planes," IEEE Trans. Med. Robot. Bionics, pp. 1–1, Jun. 2021, doi: 10.1109/TMRB.2021.3088521.
23. C. Meijneke et al., "Symbitron Exoskeleton: Design, Control, and Evaluation of a Modular Exoskeleton for Incomplete and Complete Spinal Cord Injured Individuals," IEEE Trans. Neural Syst. Rehabil. Eng., vol. 29, pp. 330–339, 2021, doi: 10.1109/TNSRE.2021.3049960.
24. H. Geyer and H. Herr, "A Muscle-reflex model that encodes principles of legged mechanics produces human walking dynamics and muscle activities," IEEE Trans. Neural Syst. Rehabil. Eng., vol. 18, no. 3, pp. 263–273, Jun. 2010, doi: 10.1109/TNSRE.2010.2047592.

TELEKOMMUNIKASIYA VERİLİŞ SİSTEMLƏRİNƏ TƏSİR EDƏN XARİCİ VƏ DAXİLİ MANEƏ MƏNBƏLƏRİ

B.Q.İBRAHIMOV
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Avtomatika və elektroenergetika
i.bayram@mail.ru
XIRDALAN, AZƏRBAYCAN

M. B.NAMAZOV
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Avtomatika və elektroenergetika
manaf1963@mail.ru
XIRDALAN, AZƏRBAYCAN

F.İ.ƏMƏNULLAZADƏ
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Avtomatika və elektroenergetika
feqan1996f@gmail.com
XIRDALAN,AZƏRBAYCAN

Məlumat mübadiləsi zamanı rabitə kanallarında ötürülən siqnallar müxtəlif maneə mənbələrinin təsirinə məruz qalır. Bu maneələr rabitə kanallarında real zamanda daima mövcuddur. Maneə mənbələri (MM) rabitə kanallarının aşağıdakı göstəricilərinə mənfi təsir göstərir [1, 2, 3]:

a) qəbulda siqnalların informasiyaya görə səhv ehtimalı (məsələn, sənədli məlumat mübadiləsində $P_{səh}$ böyük əhəmiyyət kəsb edir);

b) kanalların maksimum buraxma qabiliyyəti - C_{max};

c) siqnalın və maneənin gücü - P_S, P_m;

d) kanalların tezlik zolağının eni - ΔF;

s) rabitə kanallarında 1 km-ə düşən sönmənin qiyməti - $\Delta\alpha_s$ və s.

Şəkil 1-də maneə mənbələrinin ümumi təsnifatı verilmişdir.

Şəkil 1-də telekommunikasiya veriliş sistemlərinə təsir edən iki əsas – xarici və daxili maneə mənbələri göstərilmişdir.

Ümumiyyətlə, rabitə kanallarında faydalı siqnalların ötürülməsi zamanı, onlara aşağıdakı MM təsir edir [2, 3]:

1. Xarici MM; 2. Daxili MM:

– additiv və multiplekativ maneələr;
– atmosfer maneələri (radiokanallarda);
– sənaye maneələri;
– rabitə avadanlıqlarının kənar radiostansiyaların yaratdığı maneələr və s.
– impuls, fluktuasiya və simvollararası maneələr (simvollararası interferensiya da deyilir).
–

Baxılan maneələr arasında telekommunikasiya rabitə kanalarında additiv maneələrin aşağıdakı tipləri də mövcuddur: harmonik, fluktuasiya, impuls və Hauss maneələri. Eyni zamanda optik diapazonda optik rabitə kanalarına MM kimi kvant küyləri də təsir edir. Bu optik siqnalların diskret təbiəti ilə bağlıdır ($\Delta F_{OVS} = 10^{12},...,10^{15}$ Hs, $\lambda_i = 0.85,...,1.55\,mkm$).

Rabitə kanalarında faydalı siqnala S[u(t)] MM-in $N_m(t)$ təsiri operator formasında aşağıdakı kimi yazılır:

$$z(t) = L[S(u(t), N_m(t)]. \quad (1)$$

Xüsusi hal kimi operatoru cəmlə ifadə edəriksə, (1) belə yazılar:

$$z(t) = S[(u(t)] + N_m(t). \quad (2)$$

Bu halda maneə additiv maneə hesab olunur $N_m(t) = N_{m.a}(t)$.

Əgər, MM multiplekativ xarakterli olarsa, $z(t) = s(t) = N_{m.m}(t)\cdot u(t)$ olar.

Real rabitə kanallarına hər iki MM-si təsir, onda (2) ifadəsi belə formada yazılar:

$$s(t) = z(t) = N_{m.m}(t)\cdot U(t) + N_{m.a}(t). \quad (3)$$

Məlumdur ki, elektrik fasiləsiz, diskret və rəqəm siqnallarının rabitə kanalları vastəsi ilə ötürülməsi zamanı additiv maneələr toplusu geniş spektrdə təsir edir**.**

Rabitə kanallarının keyfiyyət göstəricilərinin geniş aspektdə öyrənilməsi üçün ilk növbədə ötürülən məlumata təsir edən maneə mənbələrini tədqiq etmək vacib məsələlərdən biri hesab olunur.



Şəkil 1. Maneə mənbələrinin ümumi təsnifatı

Rabitə kanallarında elektrik siqnallarının verilməsi və ötürülməsi zamanı additiv maneələri daima müxtəlif formalarda olurlar. Bu onların xarakteri ilə əlaqədardır.

Veriliş sistemlərində MM kimi additiv maneələri üç əsas sinfə ayırmaq olar:

1. Fluktasiya (zamana və tezliklər üzrə paylanmış) maneələri (kosmik maneələri göstərmək olar);
2. Tezliklər üzrə yığılmış (cəmləşmiş) maneələr (sənaye və təbii maneələri, donmaları göstərmək olar);
3. İmpuls maneələri və ya zamana görə yığılmış maneələr (atmosfer, sənaye və s. maneələr).

Ümumilikdə additiv maneələrə rabitə kanalarının elementlərində gedən proseslərə təsir kimi də baxılır (kosmik şüalanmalar, ildırım çaxması, maqnit təsirləri, sənaye avadanlıqların təsiri, elektrik ötürmə xətləri, radiostansiyalar və s. təsiri). Çünki baxılan məsələnin həlli rabitə kanallarının riyazi modellərinin və əsas xarakteristikalarının öyrənilməsi ilə sıx bağlıdır.

Telekommunikasiya sistemlərinin və şəbəkələrin effektiv qurulması üçün ilk növbədə real rabitə kanalları və onların riyazi modelləri məlum olmalıdır. Riyazi model rabitə kanalarının real olaraq iş alqoritmini, təsir edən maneə mənbələrini və veriliş prosesini xarakterizə edən çoxluqlar sistemi kimi qəbul edilir və aşağıdakı kimi yazılır [1, 2]:

$$Y(t) = L\{X(t)\},\ S(t,b) = \{U(t,b), N_m(t)\}. \quad (4)$$

Operator L formasında təsvir olunmuş rabitə kanalarının girişində x(t) və çıxışında olan prosesi xarakterizə edən riyazi ifadə çoxluqda ifadə olunmuşdur. Rabitə kanalarının riyazi modelini hazırlamaq üçün ilk növbədə kanala xətti və qeyri-xətti rabitə sistemi kimi baxılır. Eyni zamanda kanalda gedən determinə olunmuş və təsadüfi proseslər nəzərə alınır. Ötürülən məlumat və onun tipləri, forması və onlara təsir edən maneələr və təhriflər riyazi modeldə öz əksini tapmalıdır.

Rabitə sistemlərində və kanallarında real olaraq additiv maneələr daima mövjuddur. Additiv maneələr elektrik və statistik xarakterinə görə rabitə kanalarına üç formada təsir göstərirlər: fluktasiya, kvaziharmonik və impuls maneələri.

Rabitə kanallarında fluktasiya maneəsinə təsadüfi proses kimi baxılır və gücün spektral sıxlığı ilə belə qiymətləndirilir [1]:

$$G_m(f) = 0{,}5hf\left[\exp\left(\frac{hf}{kT}-1\right)\right]^{-1}, \quad (5)$$

burada h - Plank sabiti (h = $6{,}62\cdot10^{-34}$ C·san); k – Bolsman sabiti (k = $1{,}3.8\cdot10^{-23}$ C/dər.);T - maneə mənbəyinin mütləq temperaturu; f – tezlikdir, Hs.

Telekommunikasiya sistemlərində radiotezliklər və səs siqnalları üçün hf << kT olduğu üçün (3.8) ifadəsini sıraya ayırmaqla aşağıdakı kimi yazmaq olar:

$$G_m(f) = \frac{k\cdot T}{2} = \frac{N_0}{2}, \quad (6)$$

burada N_0 – birtərəfli müsbət tezlikdə maneənin spektral sıxlığıdı,Vt/Hs.

Fluktasiya maneələrinə orta qiyməti sıfra bərabər olan stasionar Hauss təsadüfi proses kimi də baxılır.

Rabitə kanallarında geniş təsir dairəsinə malik maneələrdən biri də impuls maneəsidir. İmpuls maneələrinə təsadüfi və genişzolaqlı proses kimi baxılır və zamana görə paylanmış olurlar. İmpuls maneəsinin xarakteri loqarifmik-normal qanunla yazılır və aşağıdakı kimi ifadə olunur:

$$W(\rho) = \frac{1}{\beta\sqrt{2\pi\beta^2}}\exp\left[-\frac{(\rho-a)^2}{2\beta^2}\right], \qquad W(A) = \frac{1}{\sqrt{2\pi\beta^2}}\exp\left[-\frac{(\ln A-a)^2}{2\beta^2}\right], \quad (7)$$

burada a, β^2 - təsadüfi proseslərin ρ = lnA çevrilməsində riyazi gözləmə və dispersiyasıdır.

Yuxarıda göstərilmiş maneələrin xarakteri məlum olduqdan sonra onlara qarşı müəyyən edilmiş metodlarla mübarizə aparmaqla təhrifləri minimallaşdırmaq mümkündür.

Rabitə kanallarında siqnalların spektrlərinin təhrifə uğraması bəzən əlavə maneələrin yaranmasına səbəb olur. Məsələn: Rabitə kanallarında siqnalın ötürmə əmsalının təsadüfi dəyişməsi, fiziki aralıqların xarakterinə görə və siqnalların interferensiyası hesabına multiplikativ maneələrin təsiri genişlənir. Multiplikativ maneələr iki yerə ayrılır, yavaş-yavaş təsir edən maneə kimi baxılır:

$$(\Delta\tau_k/\Delta\tau_s) >> 1, \ (\Delta\tau_k/\Delta\tau_s) << 1, \quad (8)$$

burada $\Delta\tau_k$ – təsadüfi prosesin kanalda korrelyasiya intervalı; $\Delta\tau_s$ – determiniq hal kimi baxılan zaman siqnalın davametmə müddəti hesab olunur.

Multiplikativ maneələr $\Delta\tau_k$ və $\Delta\tau_s$ münasibətindən asılı olaraq ümumi və seçimli olurlar. Bu zaman multiplikativ maneələr – siqnalların donması, sabit qalmasına çevrilirlər. Siqnalın parametrlərinin eyni dəyişməsi $(\Delta\tau_k/\Delta\tau_s)$ = const, k = 1,2 … siqnalların donması kimi, sabit qalması kimi baxılır və ümumi multiplikativ maneə hesab olunur.

Maneələr və küylər – telekommunikasiya texnikasında fundamental olaraq tamamilə aradan qaldırılmayan faktorlar hesab olunur. Onlar bütün telekommunikasiya sistemlərində öyrənilən şantipli mobil rabitə sistemlərində GSM və 5G/IMT-2020 şəbəkələrində uzaq məsafəyə rabitənin təşkilini məhdudlaşdırır, radiorabitədə antenaların ölçülərini və radiovericilərin tələb olunan gücünü təyin edir.

Telekommunikasiya sistemlərində küy şüalandırıcıların mənbələrini aşağıdakılar hesab etmək olar:

- sistemin qəbuledici terminallarında istilik küyləri;
- detektorların, generatorların, gücləndiricilərin və s. parçalanma küyləri;
- kosmik fəzanın və atmosferin küy şüalandırıjıları;
- sənaye maneələri.

Rabitə kanallarında küy gərginliklərin cəmi Hauss paylanmasının sıxlıq ehtimalı ilə aşağıdakı kimi qiymətləndirilir:

$$W(u) = \frac{1}{\sigma\sqrt{2\pi}}\exp(-u^2/2\sigma^2), \quad (9)$$

burada u – küyün ani gərginliyi; σ^2 – küy fluktuasiyasının dispersiya və ya gücü ($P_{küy}= \sigma^2$) olub, rabitə kanalın razılaşdırılmış süzgəcinin çıxışında belə təyin edilir:

$$P_{küy} = P_s\cdot\left(\frac{2E_b}{N_0}\right)^{-1}, \ P_s = 0{,}5U_s^2, \quad (10)$$

burada P_s – faydalı siqnalın gücü; (E_b/N_0) – keyfiyyət göstəricisi olub, siqnal-küy nisbəti hesab olunur.

NƏTICƏ

Yuxarıda öyrənilən parametrlər məlum olduqdan sonra telekommunikasiya sistemlərinin keyfiyyət göstəricilərini qiymətləndirmək olar.

Beləliklə, telekommunikasiya sistemlərində istifadə olunan rabitə kanallarına təsir edən maneələrin və küylərin xarakteri məlum olduqdan sonra onların riyazi modelini hazırlamaq və elektrik parametrlərinin hesabatını yerinə yetirmək olar.

ƏDƏBIYYAT SIYAHISI

1. İbrahimov B.Q. Elektrik rabitə nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, 2016. – 384 s.
2. İbrahimov B.Q. Telekommunikasiya sistemləri və texnologiyaları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, AzTU, 2021. – 354 s.
3. İbrahimov B.Q., Namazov M. B., Amanuluyev F. Internet şəbəkəsində elektron ticarətin təşkili və təhlükəsizlik məsələləri// "Azərbaycanın innovativ inkişafında mühəndisliyin rolu: Hədəflər, və perspektivlə" adlı Beynəlxalq elmi-praktiki konfransının materialları. BMU. 29-30 noyabr, Bakı, 2019. –S. 98-100.

IT VƏ KOMPÜTER MÜHƏNDİSLİYİ

AODV MARŞURUTLAŞDIRMA PROTOKOLUNUN MOBIL AD HOC ŞƏBƏKƏLƏRDƏ TƏTBIQI

TURAB EYBALIYEV
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter mühəndisliyi
teybaliyev1@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Simsiz şəbəkələrdə marşurutlaşdırma protokolları barəsində aparılan araşdırmalar əsasında marşurutlaşdırmanın xüsusən Mobil Ad Hoc Şəbəkələr (MANET) üçün böyük əhəmiyyətə malik olan məsələlərdən biri olduğu, uzun müddət ərzində hələ də öz aktuallığını qoruyub saxladığı və həmçinin bu prosesin bir qədər çətin həyata keçirildiyi haqqında qənaətə gəlmək olar. Müəyyən mühiti və həmçinin tələbləri nəzərə alaraq, mövcud olan marşurutlaşdırma protokollarından ən optimalının seçilməsi Ad Hoc Şəbəkələri üçün çox mühüm əhəmiyyət kəsb edir. Mobil Ad Hoc Şəbəkələrində qovşaqlar(düyünlər) arasındakı marşurutun müəyyən edilməsi üçün ən çox istifadə edilən protokollardan biri olan Ad Hoc On-Demand Distance Vector (AODV) marşurutlaşdırma protokolu haqqında araşdırmalar aparılmış, bu protokolun ümumi iş prinsipi, üstün və zəif cəhətləri haqqında məlumatlar verilmişdir.

AÇAR SÖZLƏR: AODV, MANET, marşuritizasiya, marşurutlaşdırma, qovşaq, düyün

GIRIŞ

MANET simsiz şəbəkə tiplərindən biridir və digər simsiz şəbəkələrdən fərqli olaraq əvvəlcədən qurulmuş baza stansiyaların mövcudluğuna ehtiyac duymur [1, 4]. Qovşaqlar arasında məlumat mübadiləsi edə bilmək üçün mütləq ki, qovşaqlar arasında bağlantı qurulmalı və marşurut təyin edilməlidir. MANET-lər üçün bir sıra marşurutlaşdırma protokolları mövcuddur. Bu protokollardan biri də AODV marşurutlaşdırma protokoludur. AODV protokolu [Perkins və başqaları. 2003] reaktiv marşurutlaşdırma protokolları sinifinə aiddir və C. Perkins, S. Das tərəfindən Kaliforniya, Santa Barbara və Cincinnati Universitetlərinin Nokia Araşdırma Mərkəzində birgə işlənib hazırlanmışdır [1]. Reaktiv marşurutlaşdırma protokollarının məxsus olduğu başlıca xüsusiyyət onların tələb əsaslı olmasıdır. Belə ki, reaktiv marşurutlaşdırma protokolları lazım olduğu təqdirdə marşurutun tapılmasını həyata keçirir [1, 4]. Buna görə də, reaktiv marşurutlaşdırma protokolları daha az kommunikasiya yükünə, qovşaqlarda daha az enerji sərfinə gətirib çıxarır. Bu da öz növbəsində şəbəkədəki tıxacın yaranmasının qarşısını almağa kömək olur.

TƏDQIQAT METHODU

AODV protokolu iki əməliyyat rejimindən ibarətdir: marşurutun aşkarlanması (route discovery) və marşuruta texniki nəzarət (route maintenance) [3]. Marşurutun aşkarlanması məlumatın göndərilməsini tələb edən mənbə qovşağı tərəfindən həyata keçirilir. Mənbə qovşağı özünün marşurutlaşdırma cədvəlində əgər tələb etdiyi təyinat qovşağı üçün uyğun marşurutu tapa bilməzsə, o zaman marşurutun aşkarlanması əməliyyatını icra edəcək. Mövcud olan marşurutlar üçün marşuruta texniki nəzarət əməliyyatı tətbiq edilir ki, bu da marşurutlarda baş verən bağlantı xətaları, mövcud bağlantıların sıradan çıxması zamanı bu marşurutda iştirak edən qovşaqların xəbərdar olmasını və öz marşurutlaşdırma cədvəllərindəki məlumatları buna uyğun hazırlamalarına şərait yaradır. AODV-də Marşurut Sorğusu (RREQ – Route Request), Marşurut Cavabı (RREP – Route Reply), Marşurut Xətası (RERR – Route Error) və 'Hello' kimi kontrol mesaj tipləri mövcuddur. Bu mesaj tipləri, marşurutun aşkarlanması və marşuruta texniki nəzarət əməliyyatlarında istifadə olunur [2].

AODV protokolunda istifadə edilən bəzi terminlər mövcuddur. Bunlardan bəziləri aşağıda verilmişdir [2]:

- Aktiv marşurut (active route) – aktiv şəkildə istifadə edilən, həyat döngüsü sona çatmayan marşurutdur. Aktiv marşurutlar məlumat paketlərinin yönləndirilməsində iştirak edir;
- Yönləndirmə marşurutu (forward route) – tələb olunan təyinat qovşağına məlumat paketlərinin ötürülməsi üçün istifadə edilən marşurut;

- Etibarsız marşurut (invalid route) – bu tip marşurutlar hər hansısa bir bağlantı xətalarından qaynaqlanır və müəyyən müddətdən sonra marşurutlaşdırma cədvəlindən silinir;
- Əks marşurut (reverse route) – bu marşurut RREP mesajlarının mənbə qovşağına yönləndirilməsində istifadə edilir;
- Sıra nömrəsi (sequence number) – əgər hər hansısa bir qovşaq əvvəlcədən emal etdiyi paketi yenidən qəbul edərsə, bu zaman sıra nömrəsi həmin paketin təkrarlandığını müəyyən etməyə kömək edəcək və bununla da dövrlərdən xilas olmuş olacaq;

Marşurutun aşkarlanması. AODV protokolu marşurutun aşkarlanması prosesini həyata keçirərkən RREQ mesajlarından istifadə edir (şəkil 1). RREQ mesajı özündə tip, RREQ ID, təyinat İP ünvanı, təyinat sıra nömrəsi, mənbə İP ünvanı, mənbə sıra nömrəsi, hop sayı və digər məlumatları saxlayır [2]. Marşurutun aşkarlanması prosesi, RREQ mesajının mənbə qovşağı tərəfindən qonşu qovşaqlara yayımlanması ilə başlayır. RREQ mesajı yayımlanmamışdan əvvəl mənbə qovşağı bu mesaj üçün olan İD-ni və özünün İP ünvanını saxlayır [2]. Bu məlumatlar sayəsində, əgər qovşaq eyni paketi yenidən qəbul edərsə onu emal etmir və qonşu qovşaqlara yönləndirmir. Marşurutun aşkarlanması prosesi, mənbə qovşağında tələb edilən təyinat qovşağı üçün aktiv marşurut tapılmadıqda həyata keçirilir. RREQ mesajı, qonşu qovşaqlar tərəfindən qəbul edildiyi zaman ilk öncə təyinat qovşağı üçün mövcud (əvvəlcədən müəyyən olunmuş) marşurutun olub-olmaması yoxlanılır, əgər əvvəlcədən müəyyən olunmuş aktiv marşurut tapılarsa, o zaman bu qovşaq RREP mesajını yönləndirmə marşurutundan istifadə edərək mənbə qovşağına yönləndirir, əks halda RREQ mesajı, bu qovşağın qonşularına ötürülür. RREQ mesajını qəbul edən qovşaqlar, bu mesajı yaradan qovşağa (mənbə qovşağına) əks marşurut yaradır və ya mövcud olan formasında dəyişikliklər edir [2].



Şəkil 1. AODV marşurutun aşkarlanması. A - mənbə qovşağı, D - təyinat qovşağı

Qovşaqlar tərəfindən qəbul edilən RREQ mesajları tələb olunan təyinat qovşağına çatdıqda və ya digər qovşaqlarda uyğun marşurut tapıldığı halda RREP mesajı yaradılır və əks marşurut vasitəsilə bu RREQ-in yaradıcısı olan mənbə qovşağına göndərilir. RREP mesajını qəbul edən mənbə qovşağı yaradılmış yönləndirmə marşurutu vasitəsilə tələb etdiyi təyinat qovşağına məlumat paketlərini göndərə bilir (şəkil 1). Müəyyən marşurutun aşkarlanması prosesi üçün RREP mesajı yaradılmazsa və ya yaradılan RREP mesajı mənbə qovşağı tərəfindən qəbul edilməzsə, bu proses konfiqurasiyalarda əvvəlcədən təyin olunmuş (RREQ_RETRIES) dəyər qədər təkrar həyata keçiriləcək. RREP mesajı RREQ mesajının daşıdığı məlumatlardan əlavə olaraq, marşurutun həyat dövrü (lifetime) adlı məlumatı da özündə ehtiva edir. Marşurutun həyat dövrü, aktiv olmayan marşurutların marşurutlaşdırma cədvəlindən silinməsində böyük rol oynayır [3].

Marşuruta texniki nəzarət. Marşurutlarda baş verən xətalar, bağlantı qırılmaları zamanı, marşurutların etibarsız hesab edilməsi, təsirlənən qovşaqların siyahıya alınması və RERR mesajının təsirlənən qovşaqlara çatdırılması baş verir (şəkil 2) [3]. RERR mesajı özündə əlçatmaz təyinat qovşaqlarının İP ünvanını, sıra nömrəsini (sequence number) və digər məlumatları ehtiva edir. Bu mesaj qovşaqlar tərəfindən qəbul edilən zaman onlar öz marşurutlaşdırma cədvəllərində müəyyən dəyişiklikləri (marşurutun deaktiv edilməsi, marşurutun həyat dövrünü müəyyən edən vaxtın dəyişdirilməsi) həyata keçirirlər.



Şəkil 2. AODV marşuruta texniki nəzarət. A – mənbə qovşağı, D – təyinat qovşağı

Aktiv qovşaqlar tərəfindən 'Hello' mesajları da istifadə olunur ki, bu mesajlar periodik olaraq yayımlanır və istifadə məqsədi, mövcud aktiv marşurutların yoxlanması və onların əlyetən olub-olmadığını müəyyən etməkdir. 'Hello' mesajları üçün periodik yayımlanma vaxtı (HELLO_INTERVAL) konfiqurasiyalarda əvvəlcədən müəyyən edilir [2].

NƏTICƏ

AODV protokolunun dinamik bağlantı şərtlərinə tez uyğunlaşa bilməsi və həmçinin aşağı səviyyədə şəbəkə istifadəsi, aşağı emal və yaddaş yükü ilə çalışan bir protokol olması onun MANET-də istifadə edilməsi tövsiyyə edilən protokollar sırasına aid edilməsinə gətirib çıxarır. Əgər MANET-i təşkil edən qovşaqlar son dərəcə aktiv dinamikliyə sahib olarlarsa, bu qovşaqlar üçün marşurutun müəyyən edilməsində AODV protokolunun seçilməsi çox da optimal üsul deyildir. Belə ki, hərəkətliliyi zəif olan qovşaqlardan təşkil olunmuş MANET-də AODV-nin istifadəsi yaxşı nəticələr əldə etməyə imkan yaradır. AODV protokolunun tətbiqində marşurutun aşkarlanması zamanı RREQ mesajlarının qovşaqlar arasında yayımlanması ən pis halda, şəbəkənin bütün qovşaqlarında həyata keçiriləcək və hansı ki bu da, qovşaqların əlavə yüklənməsinə yol açacaq.

ƏDƏBIYYAT SIYAHISI

1. S. Corson and J. Macker, ìMobile Ad-Hoc Networking (MANET): Routing Protocol Performance Issues and Evaluation Considerationsî, IETF RFC 2501, January 1999.
2. C. Perkins, E. Belding-Royer, S. Das: Ad hoc On-Demand Distance Vector (AODV) Routing. RFC 3561 (Experimental), Network Working Group (2003). URL https://www.ietf.org/rfc/rfc3561.txt
3. H. Moudni, M. Er-Rouidi, H. Mouncif, and B. El Hadadi, "Performance analysis of AODV routing protocol in MANET under the influence of routing attacks," Proc. 2016 Int. Conf. Electr. Inf. Technol. ICEIT 2016, pp. 536–542, 2016. https://doi.org/10.1109/eitech.2016.7519658
4. Jonathan Loo, Jaime Lloret Mauri, Jesús Hamilton Ortiz (eds.): Mobile Ad Hoc Networks: Current Status and Future Trends // CRS press, 2012, p.19-35

MOBIL AD HOC ŞƏBƏKƏLƏRDƏ MARŞURUTLAŞDIRMA PROTOKOLLARI

TURAB EYBALIYEV
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter mühəndisliyi
teybaliyev1@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Verilmiş işdə, MANET- i təşkil edən düyünlər arasında kommunikasiyanın yaradılmasının, məlumat mübadiləsinin həyata keçirilməsi üçün tələb olunan optimal yolun tapılmasının nə qədər vacib bir məsələ olduğu qeyd edilmişdir. Mobil düyünlərin fiziki olaraq tez-tez yerlərini dəyişdirməsi şəbəkənin topologiyasının dəyişilməsinə səbəb olduğundan, marşurutun aşkarlanması və mövcud marşuruta texniki baxış proseslərinin işini qəlizləşdirir. Marşurutlaşdırma üçün mövcud olan bəzi protokollar qeyd olunmuş, bu istiqamətdə müəyyən araşdırmalar aparılmış, protokollar qrupunun sahib olduqları üstünlüklər və zəifliklər müəyyən nisbətdə qeyd edilmişdir.

AÇAR SÖZLƏR: MANET, marşurutlaşdırma, qovşaq, düyün

GIRIŞ

Mobil Ad Hoc Şəbəkəsi (MANET) bir-biriləri ilə simsiz bağlantı vasitəsilə əlaqədə olan mobil düyünlərdən (qovşaqlardan) təşkil olunmuş simsiz şəbəkədir. Bu şəbəkə, hər hansısa əvvəlcədən qurulmuş baza stansiyalarına, mərkəzi administartora ehtiyac duyulmadan qurulur. MANET-i təşkil edən düyünlər müxtəlifcinsli ola bilər və onlar üçün başlıca xüsusiyyətlərdən biri bu düyünlərin aktiv hərəkətli olmasıdır. MANET-i təşkil edən düyünlər, hər biri həm göndərici, həm qəbuledici, həm də ötürücü funksiyonallığına malik olur [1]. Göndərici funksiyonallığı, məlumatın istənilən bir təyinat düyününə göndərilməsini, qəbuledici funksiyonallığı, məlumatın istənilən bir düyündən qəbul edilməsini, ötürücü funksiyonallığı isə, məlumatın digər düyünlərə ötürülməsini və bununla da məlumatın tələb edilən təyinat düyününə çatmasını təmin edir. Ümumi olaraq simsiz şəbəkədə düyünlər məlumatın ötürülməsi üçün müəyyən bir ötürmə diapazonuna malikdir. Əgər mənbə və təyinat düyünləri məxsus olduqları ötürmə diapazonundan kənarda olarsa, bu zaman digər düyünlər ötürücü funksiyonallığı sayəsində məlumatın ötürülməsində iştirak edəcək və beləliklə məlumatın təyinat düyününə çatmasında birgə iştirak etmiş olacaqlar. MANET-də məlumatın ötürülməsi bir çox düyünün iştirakı ilə baş verə bildiyindən, bu ötürmədə iştirak edən bütün düyünlərdə performans itkisinə, batareya enerjisi itkisinə səbəb olacaq. MANET-i təşkil edən mobil düyünlərin aktiv hərəkətlilik xüsusiyyəti bu şəbəkənin topologiyasının daim dəyişilməsinə və düyünlər arasında mövcud olan marşurutun pozulmasına (sıradan çıxmasına) gətirib çıxarır [2]. Belə ki, MANET-də düyünlər arasındakı daha optimal yolun tapılması və yaxud mövcud olan yolun qorunub saxlanması, bu şəbəkə üçün ən vacib və aktual məsələlərdən biridir.

TƏDQIQAT METHODU

Marşuritizasiya protokolları MANET üçün iki əsas qrupa bölünür: proaktiv marşuritizasiya protokulu və reaktiv marşuritizasiya protokolu [1]. Bundan əlavə olaraq yeni hibrid marşuritizasiya protokolu da mövcuddur ki, bu protokol yuxarıda qeyd edilən iki əsas protokulun hər birinin üstünlüklərini özündə əhatə edir [4].

Proaktiv marşuritizasiya protokolu cədvəl əsaslıdır, yəni MANET-i təşkil edən hər bir düyün bu protokolun tələbi olaraq marşuritizasiya üçün cədvəl saxlayır. Bu cədvəldə marşuritizasiya üçün lazımlı olan informasiyalar saxlanılır və müəyyən sabit vaxt intervalları aralığında bu informasiyalar yenilənir və beləliklə bütün düyünlər uzlaşan (uyğunlaşan) marşuritizasiya informasiyasına sahib olurlar. MANET-i təşkil edən düyünlərin aktiv hərəkətlilik xüsusiyyəti mövcud olan marşuritizasiyanın dəyişilməsinə səbəb olduğundan əvvəlcədən müəyyən olunmuş vaxt aralıqlarında hər bir düyün üçün marşuritizasiya məlumatlarının yenilənməsi əməliyyatı həyata keçirilir. Bu əməliyyat düyünlər üçün performans itkisinə, batareya enerjisi sərfinə və bir sıra digər itkilərə səbəb olur. Marşurutun yenilənməsi üçün olan vaxt aralığını bir qədər böyük tutaraq baş verə biləcək itkiləri azaltmaq mümkündür, amma bu halda düyünlərdə mövcud marşurutizasiya məlumatlarının uzlaşmama ehtimalı daha yüksək olur. Belə ki, proaktiv marşuritizasiya protokolu çox da aktiv hərəkətliliyi olmayan və düyünlər arasında tez-tez məlumat ötürülməsi baş verən hallarda daha yaxşı nəticə göstərir və belə hallar üçün daha optimal seçimdir. Proaktiv marşuritizasiya protokoluna misal olaraq, DSDV (Destination-Sequenced Distance Vector), OLSR

(Optimized-Link State Routing), TBRPF (Topology-Based Reverse Path Forwarding), GSR (Global State Routing), FSR (Fisheye State Routing), WRP (Wireless Routing Protocol), CGSR (Clusterhead Gateway Switch Routing Protocol) protokollarını göstərmək olar [1][4].

Reaktiv marşuritizasiya protokolu verilmiş təyinat düyününə marşuritizasiyanın tapılmasını yalnız ehtiyac duyulduqda həyata keçirir, buna görə də bu protokola bəzən tələb üzrə marşrutlaşdırma protokolu da deyilir [3]. Məlumatın mənbə düyünündən təyinat düyününə göndərilməsi zamanı mənbə düyünü ilk öncə mövcud olan marşurutlara baxır, əgər bu marşurutlar içində mövcud məlumatın ötürülməsi üçün uyğun marşurut tapılmazsa, o zaman mənbə düyünü tərəfindən marşurutun aşkarlanması prosesi həyata keçirilir və əldə olunmuş marşurut, düyündə saxlanılır və həmin marşurut əlçatan olduğu müddətcə istifadə edilir. Düyünlərdə saxlanılan marşurutlar, uzun müddət ərzində istifadə olunmadığı təqdirdə və ya bu marşurutda iştirak edən düyünlər arasındakı bağlantılarda qırılmalar baş verdiyi halda bu marşurut deaktiv edilir və ya silinir. Reaktiv marşuritizasiya prokolunun istifadəsi, düyünlər arasında tez-tez baş verən məlumat mübadiləsi halında uzun gecikmələrə gətirib çıxara bilir, buna görə də belə bir vəziyyət üçün bu protokolun istifadəsi heç də qənaətbəxş deyil və bu gecikmələrin əsas səbəbi marşurutun aşkarlanması prosesinin icra edilməsi müddətinin uzun olmasıdır. Reaktiv marşuritizasiya protokolu, proaktiv marşuritizasiya protokoluna nisbətdə daha çox batareya enerjisinə qənaət edir və düyünlərdə böyük həcmli marşurutlaşdırma məlumatlarını saxlamağa ehtiyac duymur. Reaktiv marşuritizasiya protokoluna misal olaraq, AODV (Ad hoc On-demand Distance Vector), DSR (Dynamic Source Routing), TORA (Temporally-Ordered Routing Algorithm), ABR (Associativity Based Routing), SSA (Stability based Adaptive) protokollarını göstərmək olar [1][4].

Hibrid marşuritizasiya protokolu proaktiv və reaktiv marşuritizasiya protokollarına xas olan xüsusiyyətləri özündə cəmləşdirərək müxtəlif mühitlərdə daha səmərəli həll üsulu təqdim edir. Hibrid marşuritizasiya protokoluna misal olaraq, ZRP (Zone Routing Protocol), ZHLS (Zone-Based Hierarchical Link State) protokollarını göstərmək lar [1][4].

NƏTICƏ

MANET-də arzu edilən optimal marşuritizasiya protokolları üçün bir sıra xüsusiyyətlər tələb olunur. Bu xüsusiyyətlərdən bəziləri aşağıdakı kimidir:

- Protokol paylanmış olmalıdır – Protokol, hər hansısa mərkəzi idarəetmə düyünündən asılı olmamalıdır.
- Protokol ‘Loop free’ (döngəsiz) olmadır – Bununla da əlavə CPU xərclərinin qarşısını almaq mümkündür.
- Tələb əsaslı olmalıdır – Bununla da əlavə yüklənmələri azaltmaq mümkündür;
- Protokolda təhlükəsizlik qorunmalıdır – Təhlükəsizliyi qoruyub saxlamaq üçün tədbirlərin görülməsi.
- Protokolda enerji sərfiyyatı nəzərə alınmalıdır – MANET-dəki düyünlər limitli batareya enerjisinə məxsus olduqları üçün protokollar bu məsələyə xüsusi diqqət yetirməlidirlər.
- Çoxlu marşurutlar mövcud olmalıdır – Əgər mövcud olan marşurutlardan biri sıradan çıxarsa, digər alternativ marşurutları istifadə etmək mümkün olmalıdır.

ƏDƏBIYYAT SIYAHISI

5. Jonathan Loo, Jaime Lloret Mauri, Jesús Hamilton Ortiz (eds.): Mobile Ad Hoc Networks: Current Status and Future Trends // CRS press, 2012, p.19-35
6. An Overview of Mobile Ad Hoc Networks for the Existing Protocols and Applications // Journal of Applications of Graph Theory in Wireless Ad Hoc Networks and Sensor Networks(J GRAPH-HOC) Vol.2, No.1, March 2010
7. M. Abolhasan, T. Wysocki, and E. Dutkiewicz. A Review of Routing Protocols for Mobile Ad hoc Networks, vol. 2, 2004, p. 1–22.
8. J. Broch, D.A. Maltz, D.B. Johnson, Y.-C. Hu, and J. Jetcheva. A performance comparison of multi-hop wireless ad hoc network routing protocols. In Proceedings of the Fourth Annual ACM/IEEE International Conference on Mobile Computing and Networking, October 1998, p. 85–97.

MÜƏSSISƏLƏRDƏ BI(BUSINESS İNTELLIGENCE) PROQRAM ALƏTLƏRININ ISTIFADƏSININ TƏDQIQI

Firuzə Əhmədli
Bakı Mühəndislik Universiteti
fehmedli1@std.beu.edu.az
AZƏRBAYCAN

Ph.D..Hümbət Əliyev
Bakı Mühəndislik Universiteti
hualiyev@beu.edu.az
AZƏRBAYCAN

Xülasə

Müasir dövrdə hər bir müəssisə üçün verilənlər mühüm əhəmiyyət kəsb edir. Belə ki, müəssisələr üçün onlara məxsus məlumatların uzun müddət, təhlükəsiz formada saxlanması zəruri məsələ hesab edilir. Bu prosesin həyata keçirilməsi üçün verilənlər bazası, verilənlər anbarı (datawarehouse) anlayışlarından istifadə olunur. Əlavə olaraq saxlanılan bu məlumatların əsasında hesabatların hazırlanması üçün isə Business Intelligence proqram alətlərinin istifadəsi məqsədəuyğun hesab olunur.

Açar sözlər: Oracle BI, Business Intelligence, Datawarehouse, Oracle Data Integrator, Oracle Adminstration tool, Oracle Database

Verilənlər bazası nədir? Verilənlər bazası kompüter sistemində elektron şəkildə saxlanılan strukturlaşdırılmış məlumatların və ya verilənlərin mütəşəkkil toplusudur. Verilənlər bazası adətən verilənlər bazası idarəetmə sistemi (VBİS) tərəfindən idarə olunur. Verilənlər, VBİS və onlarla əlaqəli proqramlar birlikdə verilənlər bazası sistemi adlanır. Hazırda təhlükəsizliyi baxımından istifadəsinə görə geniş yayılmış verilənlər bazasının idarəetmə sistemlərindən biri Oracle-dır [1].

Datawarehouse nədir? DataWarehouse (DWH), başqa formada desək verilənlər anbarı verilənlərin idarə edilməsinə, eyni zamanda Business İntelligence (BI) fəaliyyəti üçün imkan verən bir sistemdir. Verilənlər anbarı sorğular yaratmaq və verilənlərin təhlilini həyata keçirmək üçün nəzərdə tutulub. Eyni zamanda verilənlər anbarı çoxlu mənbələrdən böyük həcmdə məlumatları mərkəzləşdirir və birləşdirir ki, bununla da onun analitik imkanları təşkilatlara qərar qəbulunu təkmilləşdirmək üçün öz verilənlərindən dəyərli biznes ideyaları əldə etməyə imkan verir [2].

Oracle Business Intelligence (BI) bir veb arxitekturadır ki, təşkilatlara, iri müəssisələrə aylıq, rüblük yaxud illik hesabatlarının təmin edilməsinə, məlumatların asan, başa düşülən formatda (məs. cədvəllər, qrafiklər və sairə) rəhbərliyə işçilərə yaxud rəhbərliyə çatdırılmasına imkan verir. BI – da hesabatların yaradılması üçün bir çox alətlər mövcuddur, hansı ki bu alətlər vasitəsi ilə BI verilənlər anbarına qoşulur, buradan hesabatın yaradılması üçün gərəkli olan məlumatları çəkərək, onun əsasında qurulmuş hesabatı istifadəçiyə təqdim edir.

Oracle BI proqram alətlərindən biri ODI – (Oracle Data Integrator)-dır. Bu proqram aləti vasitəsi ilə böyük həcmli məlumatları çəkən prosedurları, paketləri qısa müddət ərzində yaratmaq, verilmiş bazadan verilənlər anbarına məlumatların ötürülməsini təmin etmək mümkün olur. Əlavə olaraq bu proqram alətində yaradılmış prosedurların, paketlərin gündəlik, həftəlik və ya saatlıq olaraq neçə dəfə işləməsini təyin etmək mümkün olur ki, bu da müəssisənin zaman baxımından xeyli qənaətinə gətirib çıxarır [3].

Oracle BI proqram alətlərindən digəri Oracle Adminstration Tool – dur. Proqram alətinin pəncərəsi 3 hissədən ibarətdir: physical, business model və presentation. Burada ilk növbədə yaradılacaq hesabat üçün lazımlı olan cədvəllər physical bölməsinə daxil edilir, daha sonda həmin cədvəllərin bir biri ilə əlaqələri yaradılaraq bir model yaradılır və business model bölməsinə göndərilir. Son olaraq isə yekun modeli qurulmuş cədvəllərin sütun başlıqları üzərində lazım olan dəyişikliklər edilərək presentation bölməsinə göndərilir. Bu proseslər bitdikdən sonra modeldə hər hansı bir problemin olub olmaması yoxlama (CheckIn) düyməsi vasitəsi ilə yoxlanılır. Əgər səhv mövcud olarsa, yoxlama bitdikdən sonra açılan pəncərədə səhvin təfərrüatları göstərilir [4].



Şəkil 1.1

Təsvirdə Oracle Adminstration Tool proqram alətinin ümumi strukturu göstərilmişdir (Şəkil 1.1). Bütün bu mərhələlərdən sonra artıq Oracle BI veb arxitekturası daxilində hesabatın görünüşü üzərində dəyişikliklər olunur. Lakin Adminstration Tool-da bu proseslərin həyata keçirilməsi üçün öncəliklə qoşulma həyata keçirilməlidir. Bu proqram alətinə qoşulmanın müxtəlif formaları mövcuddur (məs. onlayn, oflayn və sairə) [3].

Oflayn qoşulmanın həyata keçirilməsi üçün ".rpds" uzantılı "Oracle BI Repository File" dan istifadə olunur. Bu fayllarda server, qoşulma portları və sairə kimi məlumatlar qeyd olunur ki, belə faylları həm istifadəçi özü yarada bilər, həm də hazır fayllardan istifadə edə bilər. Onlayn olduqda isə sadəcə istifadəçiyə verilən istifadəçi adı (username) və şifrə (password) daxil edərək qoşulma təmin edilir. Bu zaman bütün qoşulma məlumatları sistem tərəfindən müəyyənləşdirilir və bütün istifadəçilər üçün eyni olur [4].

Müşahidələr bunu göstərir ki, onlayn qoşulmanın daha rahat və az vaxt alan olmasına baxmayaraq bir sıra problemləri mövcuddur. Belə ki, bir neçə istifadəçi onlayn qoşularaq proqramda işlədiyi zaman sistemin zəifləməsi səbəbindən işin gecikməsi ilə üzləşir. Bununla yanaşı, məsələn, 5 istifadəçi eyni zamanda onlayn qoşularaq proqramda işlədiyi zaman onlardan biri əlavə etdiyi məlumatların düzgünlüyünü yoxlamaq üçün yoxlama (CheckIn) düyməsindən istifadə etdiyi təqdirdə digər istifadəçilərin işini davam etdirməsi mümkün olmur və ya yoxlanma prosesi müvəffəqiyyətlə tamamlana bilmir.

Məhz bu səbəbdən belə qənaətə gəlmək olar ki, müəssisə tərəfindən onlayn qoşulmanın fərdiləşdirilməsi həyata keçirilə bilər. Yəni, qoşulma məlumatlarının sistem tərəfindən avtomatik və bütün istifadəçilər üçün eyni deyil, sistemin heç olmasa bir faktora görə bir istifadəçini digərindən ayırd edə bilməsi müəssisə tərəfindən təmin edilə bilər. Bu da onlayn qoşulmaq üçün istifadəçilərin bir birini növbəli şəkildə gözləməsinin, onların işinin yubanmasının qarşısını alacaqdır.

İstifadə olunan mənbələr

1. https://www.oracle.com/database/what-is-database/ 14.11.2021
Following the extraction of the MFCC coefficients,the Euclidian distance between these parameters and a stated reference is computed in the verification stage.These steps are implemented on a smartphone as the Android application.

EXPERIMENTAL RESULTS

In this step,the performance of android application is measured using two different databases.

GREYC database:It is made up of voice signals which is collected by Samsung Galaxy Note 1.While 18 users speak 5 times,the data gathering was carried out in a peaceful environment.

Sphinx database:The voice signals are collected by the PDA device.16 users say 50 sentences about 4-8 seconds.

The acquisition criteria for the GREYC database are explained here.

Enrollment:User records his(her) voice for 7-10 seconds on the phone,the template is created and saved in the mobile.

Authentication:The user talks for 6-7 seconds and then android application compares this voice with previously saved reference for the claimed individual.

Now,we will go through to evaluate the performance of biometric system in a nutshell.The assessment of a similarity distance is used in the judgement process.It determines the user matches to the claimed identity or not.Two error rates are defined as:

False match rate(FMR):It assesses the probability of invader rather than a legitimate user.

False match non rate(FMNR):It assesses the probability for legitimate user being incorrectly denied.

These error rates are determined by an operator's threshold which sets the maximum distance between captured template and stored template.Error rates change in an opposite direction while the threshold varies.As a result, certain value of threshold named as Equal Error Rate(EER) in which FNMR=FMR.Following that,the performance of biometric sytstem is assessed by computation of its EER.The system with a low number EER is considered as a good system.[1]



1.4. The screenshots of developed Android application [1]

CONCLUSION

The goal of paper is to create speaker recognition system and implement it to the voice of unknown speaker.In this paper, we used biometric authentication implementation on a mobile device.While considering mobile phone,voice recognition is most natural way for user authentication.By studying the derived features of an unknown voice and then comparing them to the stored extracted features for each individual speaker,the unknown speaker can be identified.MFFC (Mel-frequency cepstral coefficients) are utilized to extract features.The FFT and MFFC methods are primitive methods to recognize unknown speaker saying the same word in the testing and training phases.They produces good results for recognizing the speaker.But,these methods are not efficient as vector quantization method which recognizes speaker talking the same or different word with high accuracy.

REFERENCES

1. Kevin Brunet, Karim Taam, Estelle Cherrier, Ndiaga Faye, Christophe Rosenberger Speaker Recognition for Mobile User Authentication: An Android Solution.
2. Mike Engle: 1Kosmos Blog / Biometric Authentication-Biometric ID: Benefits & Risks of Biometric Identification - 1Kosmos.
3. M. Baloul, E. Cherrier and C. Rosenberger: Challenge-based Speaker Recognition For Mobile Authentication.
4. Tomi Kinnunen: Spectral Features for Automatic Text-Independent Speaker Recognition. University of Joensuu Department of Computer Science P.O. Box 111, FIN-80101 Joens

MULTI-MODAL BIOMETRIK DOĞRULAMA TEXNOLOGIYALARINDA : "ÜZ TANIMA VƏ QULAQ TANIMA ÜSULLARININ BIRLIKDƏ ISTIFADƏSI"

Quliyev Vüsal
Azərbaycan Dövlət İqtisad Universiteti
MBA, Kiber Təhlükəsizlik
vqpsru@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Günümüzdə fiziki şəxslərdən tutmuş dünya çapında məşhurluğa sahib şirkətlərə qədər təhıükəsizlik təminatı üçün biometriklərdən istifadə edilir. Buda biometrik texnologiyaların bir çox fərqli sahədə tətbiqinə və buna uyğun olaraq təkmilləşdirilməsinə yol açır. Hal-hazırda biometrik texnologiyalardan daha çox qurum təhlükəsizliyi, bank əməliyyatları və dövlət sərhədlərində təhlükəsizliyin təmini üçün geniş istifadə edilir. Lakin əksər texnologiyalar kimi bu texnologiyalarında zəif nöqtələri mövcuddur. Tədqiqat işində üz tanıma əsaslı və qulaq tanıma əsaslı biometrik doğrulama texnologiyalarından birlikdə istifadə edərək təhlükəsizlik səviyyəsinin, dəqiqlik göstəricisinin artırılması ilə təmin edilməsi göstərilmişdir. Bunun vasitəsilə bir doğrulama prosesi müddətində iki doğrulama metodundan istifadə etmiş olaraq təhlükəsizlik təminatın yüksəldərək məlumatların qorunmasını əldə edəcəyik.

AÇAR SÖZLƏR: biometrik, doğrulama, texnologiya, sistem, üz tanıma, qulaq tanıma.

GİRİŞ

Biometrika yunan sözü olub "bio"-həyat (yaşam), "metric"-ölçü (ölçmək) deməkdir. İnsanlıq tarixin dəmək olarki, hər dövründə biometrik göstəricilərə rast gəlinmişdir. Buna misal olaraq: İlk insanların daşlara çəkdikləri rəsmlərdə əl izlərini yerləşdirərək kimə məxsus olduğuni bildirmələri, qədim Çin və Babil qalıntılarında ticarət məsələlərində barmaq izlərindən istifadəni, qərbi avropada şübəhəlilərin üz simalarının rəsm edilərək axtarılması və Amerika Birləşmiş Ştatlarında bəzi müqavilələrin əl izi ilə təsdiqlənməsini göstərə bilərik. Biometriya 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərindən etibarən texnologiya sahəsində istofadə edilməyə başlandı. Burada ilkin olaraq barmaq izi və əl həndəsəsi əsasında işləyən biometrik doğrulama texnologiyalarından istifadə edilmişdir.

Biometrik doğrula texnologiyaları iki əsas qrupa ayrılırlar. Bunlardan birincisi fiziki göstəricilər əsasında işləyən biometrik doğrulama texnologiyalarıdır. Fiziki göstəricələr əsasında işləyən biometrik doğrulama texnologiyalarının iş prinsipi sabit formada qalan bədən göstıricilərinin oxunaraq tanınması və doğrulanmasına əsaslanır. Bu texnologiyalar birinci nəsil biometrik doğrulama texnologiyaları hesab edilir. Bu doğrulama texnologiyalarına aşağıdakılar aiddir.

- Barmaq izinin tanınması
- Əl həndəsəsinin tanınması
- Gözün qüzehli qişasının tanıması
- Gözün torlu qişasının tanınması
- Səs tanınması
- Üz tanıması
- Qulaq tanıması

Davranış əsaslı biometrik texnologiyaları isə bir fiziki göstəricinin sabit qalması əsaında deyil, hərəkət əsaslı göstəricilərin qeydə alınmasına, tanınmasına və sonda doğrulanmasına əsasən işləyirlər. Bu texnologiyalar ikinci nəsil biometrik doğrulama texnologiyaları hesab edilirlər. Davranış əsaslı biometrik doğrulama sistemlərindən bəziləri aşağıda göstərilmişdir.

- İmzanın tanınması
- Klaviatura vuruşunun tanınması
- Nitqin tanınması
- Yeriyiş (hərəkət) tanınması
- Mimika tanınması

Yuxarıda göstərilmiş olan biometrik doğrulama texnologiyaların özlərinə məxsus müsbət və mənfi cəhətləri mövcuddur. Bu problemləri aradan qaldırmaq üçün texnologiyaların təkmilləşdirilməsi ilə

birlikdə, iki və daha çox biometrik doğrulama texnologiyasından birlikdə istifadə edilməsidə bir həll yoludur. Bu sistemlərdə multi-modal xüsusiyyəti təmin edildiyindən multibiometrik sistemlərə aid edilirlər. Multi-modal xüsusiyyətindən əlavə olaraq multi-sensor, multi-alqoritm, multi-instansiya və multi-nümünə xüsusiyyətləridə multi-biometriklərin əsas xüsusiyyətləridir.

Günümüzdə biometrik doğrulama texnologiyalarının aldadılması böyük problemdir. Beləki, bu sistemlərin aldadılması əsasında şəxsi məlumatların, sağlamlıq məlumatlarının, bank məlumatlarının və.s kimi məlumatların oğurlanması ilə qarşılaşa bilərik. Biz bu tədqiqatda öncəliklə üz tanıma əsasında işləyən doğrulama texnologiyalarına qısa bir baxış edəcəyik. Davamında qulaq əsasında doğrulama texnologiyalarına nəzər yetirəcəyik. Son mərhələdə isə bu iki biometrik doğrulama texnologiyasından istifadə edərək təhlükəsizlik təminatının necə əldə ediləcəyinə baxış keçirəcəyik.

TƏDQİQAT METODU

Tədqiqatda nəzəri olaraq üz tanınması və qulaq tanınmasının birlikdə multi-modal biometrik sistem formasında işləməsinə nəzər yetirəcəyik. Bunun üçün hər iki biometrik doğrulama texnologiyasına ayrı-ayrılıqda nəzər yetirək və sonrasında birlikdə tətbiq edilməsini hansı nəticələr verdiyini qiymətləndirək.

Üz tanınma əsalı biometrik doğrulama texnologiyası.

Üz tanıma orta-əsrlər dövründə etibarən axtarışda olan insanların tapılması üçün istifadə edilmiş bir üsuldur. Bunun istifadə edilməsində əsas rolu Fransanın paytaxtı Parisdə məhşur kriminoloq olan Alphonse Bertillion oynamışdır. Bələki onun sahəsində insanın fiziki göstəriciləri əsasında axtarışlar aparılmışdır. Burada diqqət çəkən hissə fiziki göstəricilərin baş hissəsindən ibarət olması idi. Beləki Alphonse Bertillion üz, baş ölçüsü və qulaqlar əsasında hazırlanan axtarış məlumatlarının daha dəqiq olduğunu kəşf etmişdir, əlavə olaraq bədənin digər fiziki xüsusiyyətlərinin qeydə alınmasını isə axtarışda olan şəxsin özünün üz, qulaq və baş hissəsində edə biləcəyi dəyişikliklərə qarşı önləm olaraq düşünmüşdür.

Texnologiya kimi 1950-lərin sonu 1960-ların əvvələrindən istifadə edilməyə başlanmışdır. (Bəzi mənbələrdə 1960-cı il kimi qeyd edilmişdir). Üz tanıma prosesinin aparılması üçün üzün xəritələnməsi prosesi aparılır. Bu zaman üzün seçilmiş nöqtələrindən keçərək bu nöqtələri birləşdirən düzxətlərilə yaranan bir həndəsi forma əldə etmiş oluruq. Proses zamanı ağız kənarları, yanaq sümükləri, gözlər arası məsafə, burun genişliyi, çənə xətti və.s kimi seçilmiş nöqtələr qeydə alınır. Şəkil 1-də qeydə alınan nöqtələr göstərilmişdir. Qeyd etməliyikki, hər alqoritm və sistemin özünü məxsus qeyd nöqtələri mövcuddur lakin, əksəriyyətlə seçilmiş nöqtələr eyni olur.



Şəkil 1. Üz xəritələnməsi prosesində qeydə alınan nöqtələr

Həndəsi forma əldə edildikdən sonra isə sırası ilə, rəqəmsallaşdırma və müqayisə alqoritmi ilə proses dəvam etdirilir. Burada proses iki ölçülü və üç ölçülü məlumatların əldə edilməsi ilə aparılar bilər. Hər iki halda aparılan proses dəyişmir. Prosesin aparılmasında əsas rolu skanerlər (oxuyucular) oynayır. Beləki oxuma prosesi zamanı hərəkətsiz formada skanerə baxılmalıdır. Burada bir çox növ skanerlər istifadə edilə bilər. Əsas iki skaner növü lazer və hibrid skanerlər. Skaner prosesi apardığı zaman işıqlandırma doğru formada yerləşdirilməlidir bunun səbəbi isə üz təsviri qeydə alınarlən təsvirdə kölgələrin olmamasıdır. Hibrid skanerlərdə işıqlandırma mövcud olduğundan bu tip problemlərlə hibrid skanerlərdə qarşılaşmırıq digər tərəfdən isə hibrid skanerlərin dəqiqlik göstəriciləri lazer skanerlərlə müqayisədə daha aşağıdır.

Üz tanıma əsaslı biometrik doğrulama texnologiyası günümüzdə barmaq izi əsaslı doğrulama texnologiyaları ilə birlikdə ən geniş yayılmış doğrulama texnologiyalarından biridir. Lakin bu sistemin bəzi zəifliklərı mövcuddur. Buna misal olaraq iki ölçülü doğrulamalarda cihazların şəkillər ilə aldadıla bilməsi, üç ölçülü doğrulamalarda isə xüsusi formada hazırlanmış maskalar ilə aldadıla bilmələrini göstərmək mümkündür.

Qulaq tanıma əsaslı biometrik doğrulama texnologiyası.

Qulaq tanıma əsaslı biometrik doğrulama texnologiyasıda üz tanıma kimi ilkin olaraq Alphonse Bertillon tərəfindən təklif edilmişdir. Texnologiya olaraq isə 1950-ci illərdən etibarən tətbiq edilməyə başlanmışdır. Qulaq məlumatının unikallığı texnologiyanın dəqiqliyinə müsbət təsir etməsi texnologiyanın üstün cəhətidir. Beləki insan qulaq ölçüləri insan yaşlandıqca formaca və ölçücə dəyişir. Araşdırmalara görə əkizlərdə belə qulaq göstəricilərində fərqliliklər yüksək səviyyədədir və bu araşdırmaların sonunda texnologiyanın dəqiqlik dərəcəsi 96-98% arasında olduğu nəticəsi əldə edilmişdir. Prosesin aparılması üçün qulaq ölçüləri qeydə alınır. Burada qulağın xarici hissəsinin 12 göstəricisinin məlumatları alınır. Bu 12 fərqli göstərici Şəkil 1.1-də qeyd edilmişdir.



Şəkil 1.1. Qulağın xarici hissəsinin 12 fərqli göstəricisi

Qulaq tanıması əsaslı biometrik texnologiyalardan istifadə digər doğrulama texnologiyaları ilə müqayisədə daha aşağıdır, lakin təkmilləşdirmə üçün araşdırmalar aparılmaqdadır. Burada əsas problemlər qulağın saç və ya baş geyimi ilə gizlədilməsi və zərər görə bilməsi ehtimalıdır.

Üz tanıma və qulaq tanıma əsaslı biometrik doğrulama texnologiyalarından birlikdə istifadə.

Tədqiqatda üç ölçülü üz tanıma texnogiyasından istifadə edirik. Buna səbəb iki ölçülü qeydiyyat prosesində üçün yalnız ön hissədən adətən tək kamera ilə qeydiyyatı aparılır buda dərinlik anlayışının aşağı göstəricilərə (bəzən ümumiyyətlə olmaması) sahib olmasına yol açır. Bu tip texnologiyaların aldadılması pis niyyətli şəxs tərəfindən daha rahat olur. Üç ölçulü qeydiyyat prosesində üzün ön hissəsində və kənarlardan (əlavə olaraq bəzi hallarda yuxarıdan) qeydiyyatı aparılır. Üç ölçülü tanıma vasitəsilə əldə etdiyimiz dərinlik ölçüsünə sahib olan təsvirimizdə əlavə olaraq qulaq ölçülərinin yerləşdirilməsi üçün üz təsvirləri ilə qulaq ölçülərinin təsvirləri bir sistem üzərində yığılaraq məlumat bazasına ötürülür. Burada üz məlumatlarının alınması prosesi normal formada aparılarkən, qulaq məlumatlarının alınmasında Hausdorff metodundan istifadə edəcəyik. Bu metod qula]ın xarici xətlərinin xüsusiyyətlərinə və aralarındakı məsəfələrin təyininə əsaslanır. Bu metodun üstün cəhəti işıqlandırma problemlərinə qarşı dözümlü olmasıdır. Burada əldə edilən təsvirin fonu ağrəngdə özü isə nisbətən tündləşdirilərək digər proseslərə keçid edilir. Hausdorff metodu Şəkil 1.2-də göstərilmişdir.

Şəkil 1.2. Hausdorff metodu

Məlumat bazasına təsvirlər ötürülərkən normallaşdırma, klasifikasiya və virtuallaşdırma prosesləri həyata keçirilir. Doğrulama mərhələsində üz tanıma prosesi ayrı qulaq tanıma prosesi ayrı formada aparılır və sonda təyin edilən oxşarlıq dərəcəsi təmin edilərsə doğrulama prosesi müvəffəqiyyətlə başa çatır. Artıq əlimizdə yüksəldilmiş təhlükəsizliyə sahib biometrik doğrulama sistemi mövcuddur. Burada üz tanıma biometrik doğrulama texnologiyası ilə birlikdə istifadə etmək üçün seçdiyimiz əsas biometrik texnologiyanın qulaq əsaslı olmasının əsas səbəbləri aşağıda göstərilmişdir.

- Üz tanıma əsaslı biometrik doğrulama texnologiyalarında əldə edilən məlumatların ölçüsü kifayət qədər böyükdür. Qulaq məlumatlarının ölçü kiçik olduundan məlumat bazasında saxlama üçün digər biometrik göstəricilərlə müqayisədə daha uyğundur.
- Dəqiqlik dərəcəsinin artırılması üçün əlavə olaraq 12 göstəricinin və ya Hausdorf məsəfəsi təqbiqinin mövcud olması və bu texnologiyanın göstəricilərinin unikallığının digər biometrik texnologiyaların göstəricilərindən çoxda aşağı olmaması.
- Üz tanıma prosesi ilə birlikdə qulaq tanıma prosesinin aparılma müddətini uzatmır. Əgər burada gözün qüzehli qişasının və ya gözün torlu qişasının tanınması əsaslı biometrik doğrulama texnologiyası seçilsəydi proses müddəti uzana və istifadəçi narazılığı yarana bilərdi.
- İki fərqli biometrik doğrulama prosesinin aparılmasına baxmayaraq prosesin kontaktsız formada aparılması. Əgər qulaq tanıma yerinə əl həndəsəsi və ya barmaq izi tanıma seçsəydik proses kontaktlı formaya keçid edəcəkdik buda bəzi istifadəçilər baxımından gigiyenik problemlər yarada bilərdi.

NƏTİCƏ

Tədqiqat işində biometrik doğrulama texnologiyaları haqqındada , üz tanıma əsaslı və qulaq tanıma əsaslı biometrik doğrulama texnologiyalarının qısa tarixi və işləmə prosesləri haqqında məlumatlar verildi. Seçilmiş iki biometrik doğrulama üsulunun nəyə görə bir-birilərinə uyğun olduqları və bu multi-modal biometrik sistem ilə təhlükəsizlik səviyyəsinin necə yüksəldiyinin təmin edilməsi haqda məlumatlar verildi.

ƏDƏBİYYAT SİYAHISI

1. Introduction to Biometrics - Anil K.Jain, Arun A.Ross, Karthik Nandakumar. (Kitab) Springer Science & Business Media (2016), 312 pages.
2. Biometric-Based Physical and Cybersecurity Systems – Mohammad S. Obaidat, Issa Traore, Isaac Woungang. (Kitab) Springer (2018), 590 pages.
3. Encyclopedia of Biometrics 2nd ed. 2015 edition – Stan Z.Li, Anil K.Jain. (Kitab) Springer (2015), 1664 pages.
4. Advances In Biometrics: Modern Methods and Implemantation Strategies – G.R.Sinha. (Kitab) Springer (2019), 360 pages.
5. Handbook of Biometrics for Forensic Science – Massimo Tistarelli, Christophe Champod. (Kitab) Springer (2017), 377 pages.

ELEKTRON TƏHSILDƏ ISTIFADƏ OLUNAN PROQRAM TƏMINATI

NÜBIYYƏ ARIF QIZI
Gəncə Dövlət Universiteti
Riyaziyyat İnformatika/Mühəndislik elmləri
a.nubiyya@gmail.com
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə elektron təhsil sistemində istifadə olunan proqram təminatından bəhs olunur. Göstərilir ki, bütün elektron tədris vasitələri dövlətin aidiyyatı institutları tərəfindən sertifikatlaşdırılmalı, bu prosesin elmi-metodiki bazası yaradılmalıdır. Lakin, təəssüf ki, bu gün də tmpt-lərin yaranmasına və tətbiqinə kortəbii yanaşma hökm sürür, onların yaradılmasında əsasən tədris prosesini dərindən bilməyən kompüter proqramçıları və bu işə öz təşəbbüsü ilə girişən müxtəlif müəllim kollektivləri aktivlik göstərirlər.

AÇAR SÖZLƏR: kompüter proqramları, elektron təhsil, informasiya

GIRIŞ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ili "İnformasiya- kommunikasiya texnologiyaları ili" elan etməsi, təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən birinə çevrilmişdir. Müasir təhsil texnologiyalarının genişmiqyaslı tətbiqi ilk növbədə, təhsil müəssisələrinin kompüter avadanlıqları ilə təminatının köklü şəkildə yaxşılaşdırılmasını nəzərdə tutur. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə elmi-metodik bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi olaraq qalır. Buna görə də Azərbaycan hökuməti İKT sahəsinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə uzunmüddətli Milli Strategiya həyata

keçirməkdədir. Bu çərçivədə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) Azərbaycanda ali təhsil müəssisələrində elektron təhsil sisteminin yaradılması və potensialın gücləndirilməsinə dəstək verir.
Cənubi Koreya Azərbaycanda başqa sahələrlə yanaşı, təhsillə bağlı da bir sıra əhəmiyyətli layihələr həyata keçirib və keçirməkdədir. Bunlara misal olaraq Bakı Dövlət Universitetində və Azərbaycan Texniki Universitetində reallaşdırılan layihələri, Bakı şəhərində ali peşə təhsili mərkəzinin yaradılması ilə bağlı həyata keçirilən layihəni göstərmək olar. Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması bu layihələrin davamı və miqyasına görə Koreyanın həyata keçirdiyi ən irimiqyaslı layihədir.
Məqalənin yazılmasında əsas məqsəd elektron təhsildə həyata keçirilən proqram təminatını araşdırmaqdır. Müasir dövrdə bu cür təhsil formasından aktiv formada istifadə edildiyindən mövzunun öyrənilməsini aktual edir.
Məsafədən təhsilin təminatında aşğıdakı bir sıra onlayn təlim platformalarından istifadə edilir:
a) Canlı video rabitəsini dəstəkləyən əməkdaşlıq platformaları
-Microsoft Teams;
-Zoom;
- Go to meeting;
-Skype
b) Rəqəmsal təlim idarəetmə sistemləri
-Google classroom
-Edmodo;
-Eduman;
-Blackboard
Təlim məqsədli proqram təminatı (TMPT) dedikdə, öyrənənlə münasibətdə pedaqoji təlim-tədris funksiyasını reallaşdırmaq ucun xüsusi hazırlanmış və ya bu məqsədlə uyğunlaşdırılmış və ən əsası isə, artıq sınaqdan keçirilmiş və istifadəsinə rəsmi icazə (lisenziya) verilmiş kompüter proqramı başa düşülür. Bu terminin sinonimi kimi növbəti ifadələrdən də istifadə oluna bilər: kompüter təlim vasitələri, təlim məqsədli kompüter proqramları, pedaqoji məqsədli kompüter proqramları və s. Bu qrup proqramlar hər hansı bir sahədə kompüter vasitəsilə informasiya əldə etmə və biliklər formalaşdırma prosesinə, bacarıq, vərdişlərin inkişaf etdirilməsinə, nəzarət və ya testləşdirməyə dəqiq istiqamətləndirilmişdir. Bu, onun - yəni təlim məqsədli proqramların (instrumental sistem, mühit və paketlərin) ozunun yaradılmasını və istismarını asanlaşdıran proqramlardan əsas fərqidir. TMPT-lərin hazırlanmasında, əsasən də TMPT-in real təlim prosesinə tətbiqi zamanı kor-təbii yanaşmaya yol verilməməlidir.
Bütün elektron tədris vasitələri dövlətin aidiyyatı institutları tərəfindən sertifikatlaşdırılmalı, bu prosesin elmi-metodiki bazası yaradılmalıdır. Lakin, təəssüf ki, bu gün də TMPT-lərin yaranmasına və tətbiqinə kortəbii yanaşma hökm sürür, onların yaradılmasında əsasən tədris prosesini dərindən bilməyən kompüter proqramçıları və bu işə öz təşəbbüsü ilə girişən müxtəlif müəllim kollektivləri aktivlik göstərirlər. Bu isə öz növbəsində TMPT-nin xüsusiyyətləri, onların təsnifatı, tətbiq sahələri, nəhayət kompüter təlim texnologiyasının ənənəvi təlim texnologiyalarından prinsipial fərqi baxımından müəyyən dağınıqlığın əmələ gəlməsinə səbəb olmuşdur. Odur ki, belə vəziyyətin aradan qaldırılması, dağınıq təlim proqramlarının tam kompüter təlim proqramlarına uyğunlaşdırılması günün aktual problemlərindəndir. Müasir TMPT-lər aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:
- Artıq müvafiq qurum tərəfindən təsdiqlənmiş təhsil standartlarına uyğun gəlməlidir;
- kompüterləşdirilən təlim metodikalarını dəstəkləməlidir;
- müasir instrumental vasitələr əsasında reallaşdırılmış olmalıdır;
- Bütün proqramlar müvafiq istifadəçi təlimatları ilə təmin olunmalı onlar HELP sistemi ilə təmin olunmalıdır, xüsusi istifadəçi təlimatları ilə təmin olunmalıdır. TMPT-nin təlim prosesində yeri və tətbiq üsulu təyin olunmalıdır. Təlim proqramlarının tətbiqi zamanı telekommunikasiyanın imkanları və bu sahənin aktiv inkişafı nəzərə alınmalı və telesistemlər ucun təlim və tədris əlavələri reallaşdırılmalıdır. Bununla yanaşı TMPT-yə daxil olan informasiyanın etibarlılığı və onun təhsil standartlarına uyğun təlim vasitəsi kimi faydalılığı da daimi diqqətdə saxlanılmalıdır. Bütün bunlarla yanaşı, yaradılan proqram təminatı müvafiq dövlət orqanları tərəfindən qeydiyyata alınmalı və sertifikatlaşdırılmalıdır. Bu proqramlar elə yaradılmalıdır ki, onlar "ikinci müəllif" – yəni istifadəçi pedaqoq-müəllimlər tərəfindən dəyişdirilə bilmək imkanlarına da malik olsunlar. TMPT-lərin istifadəsi zamanı müəllif hüququnun qorunmasına da ciddi fikir verilməlidir.

Bundan başqa TMPT-nin istifadə üsul və formalarını, həmçinin telekommunikasiyalarda yayılması qaydalarını da təyin etmək və reallaşdırmaq lazımdır. Kompüter təlim vasitələri mövzusunda ədəbiyyatlarda təlim (bəzi nəşrlərdə pedaqoji) məqsədli proqram tiplərini səciyyələndirən çox sayda terminlərdən istifadə edilir. Bu zaman müxtəlif müəlliflər tez-tez eyni bir terminə əhəmiyyətli dərəcədə fərqli və ya əks məna verirlər. Belə ki, eyni tipli proqramlar müxtəlif terminlərlə səciyyələndirilir. Müasir dövrdə təlim prosesinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün hazırlanmış bir çox kompüter proqramları mövcuddur. Psixoloqların ayırdıqları iki əsas idrak fəaliyyətlərinə (təlim və tədris) uyğun olaraq təlim vasitələrini iki böyük sinfə bölürlər: təlim mühitləri və təlim proqramları. Təlim mühitlərinin qlobal pedaqoji məqsədi - müvəffəqiyyətli mühitin yaradılması yolu ilə öyrənənin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsidir. Bu mühitdə öyrənən lazımı biliklər əldə edir.

Müasir dövrümüzdə İnformasiya Texnologiyalarının imkanlarından çox geniş istifadə olunur. Distant Təhsil – müəyyən məsafədən keçirilən təlim sistemidir. Belə sistemlərdə təlimlər televiziya kanalları, multimedia diskləri, internet şəbəkəsinin imkanları vasitəsi, hazır proqram paketləri ilə həyata keçirilir. Distant təhsil qiyabi təhsil formasının daha da çox üstünlüklər ilə olan formasıdır. Bu sistemlər üçün proqram paketləri yaradılır. Qlobal internet şəbəkəsinin bir çox müsbət xassələri olduğundan, internetdə e-poçt, çat sistemləri, saytlar vastəsi ilə distant təlim kursları keçirilir. Bu cür sistemlərə misal olaraq çat proqramları olaraq MSN Messenger, Paltalk, Net Meeting saytlara nümunə olaraq www.baumantraining.com, www.brainbench.com saytlarını göstərmək olar. Bu gün dünyada müxtəlif həyat sferalarında informasiya kommunikasiya texnologiyalarının(İKT) tətbiqi geniş yayılmışdır. Tədris prosesi də İKT –dən birbaşa asılıdır və heç bir təhsil müəssisəsi müasir informasiya texnologiyalarından istifadə etmədən səmərəli fəaliyyət göstərə bilməz. Belə texnologiyalardan biri də informasiyalaşdırma sahəsində nisbətən yeni istiqamət olan bulud texnologiyalarıdır. E-Learning Server 3000, Lotus Learnin Space, xDLS, Distance Learning - bu proqramlar xüsusi olaraq müştəri/server hissəsinə bölünür və təlim keçmək istəyən tələbələr müştəri tərəfdə qurulmuş proqram vasitəsi ilə müəllimin server proqramı ilə əlaqə saxlaya bilirlər. Bununla da müəllim öz hissəsində yerləşdirdiyi tapşırıqları bu proqramların köməkliyi ilə tələbələrə çatdıra bilir.

Distant təhsilin keçirilməsi üçün bir çox texnologiyalardan istifadə olunur ki bunlardan bəziləri aşağıda qeyd olunub.

- Audiokonferensiyalar

Audiokonferensiyalar - bu iştirakçiların səsli konferensiyaları keçirilən müxtəlif telekonferensiya növüdür. Audiokonferensiyaları rəqəmli və ya analoqlu əlaqə xətlərində təşkil etmək olar. Audiokenferensiyaları birtərəfli video (one-way video), sputnik TV, həmçinin elektron yığıncaqların keçirilməsi üçün istifadə edirlər. Verilmiş telekonferensiya tipi distant təhsil kurslarının keçirilməsi üçün məhdud imkanlar verir. Burada radio və audio kassetlərin imkanlarından da kifayət qədər istifadə edilir.

- Videokonferensiyalar

Videokonferensiyalar – videoəks, səs və verilənlərin aparatura və müvafiq proqram təminatları olan iki və ya daha artıq nöqtədə mübadiləsi üçün nəzərdə tutulub. Onun iştirakçıları real vaxtda bir-birlərini görə və eşidə, həmçinin verilənlər mübadiləsi edib onlara cavablar da verə bilərlər.

TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün analiz metodundan istifadə edilmişdir.

NƏTICƏ

Təlim proqramı növbəti pedaqoji məqsədlərin reallaşdırılmasını təmin etməlidir: təlim materialının nümayiş etdirilməsi; müəyyən sahədə təlim; təlim prosesi gedişinin idarə edilməsi üçün testləşdirmə və diaqnostika; xüsusi təlim. Yerinə yetirilən metodik funksiya nöqteyi-nəzərdən təlim mühiti və təlim proqramları arasında dəqiq "çəkilmiş sərhədlər" yoxdur. Bu sinifdən olan təlim vasitələri arasındakı yeganə fərq təlim mühitlərində gedən proseslərə nəzarətin olmaması, təlim proqramlarında isə bu nəzarətin olmasıdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyalar, ilə təminat proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqmda Azərbaycan Respublikası Prezidentinin sərəncamı. «Xalq qəzeti», 2004, 22 avqust
2. Stephan Vincent-Lancrin, Kiira Karkkainen, Sebastian Pfotenhauer, Adele Atkinson, at all: “Measuring Innovation in Education, A new Perspective”. Educational Research and Innovation, OECD Publishing, France, 2014. ISBN 978-92-64-21568-9 – P. 335. (https://read.oecd-ilibrary.org/education/measuring-innovation-in-education_9789264215696-en#page4);
3. Sadıqov F. “Pedaqigika” dərs vəsaiti, Bakı, “Adiloğlu” nəşriyyatı, 2009. – S. 600

WEB PROYEKTLƏRINDƏ SSR VƏ CSR TEXNOLOGIYALARININ ARAŞDIRILMASI

FƏRDI BABAZADƏ
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter mühəndisliyi
fbabazade1@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Bildiyimiz kimi axtarış motorları tərəfindən hər bir web proyektinin oxunub yuxarı sıralarda istifadəçilərə göstərilməsi arzuolunan haldır və bunun üçün web proyektlərində **SSR** və **CSR** texnologiyalarından hansının və nə vaxt istifadə olunmasının daha məqsədəuyğun olması barədə bu məqalədə araşdırmışam.

AÇAR SÖZLƏR: Axtarış motorlarının optimizasiyası (SEO),Server tərəfli renderinq(SSR), Klient tərəfli renderinq(CSR)

GIRIŞ

Seo nədir?

İlk öncə bu anlayış haqqında qısaca məlumat verim.

Seo (**Search Engine Optimization**)- (**Axtarış motorlarının optimizasiyası**)

Bizim yazdığımız saytların, veb proqramların axtarış motorları tərəfindən oxunaraq ən üst sıralarda görünməyini istəyirik, çünki istifadəçilər açar sözlər yazmaqla rahatlıqla bizim proqramları görüb istifadə etməlidir (əlçatan olmalıdır).

Javascript SEO nədir?.

Javascript SEO əsasən məzmunun əksəriyyətinin axtarış motorları tərəfindən Javascript ilə təqdim olunduğu veb saytların rəvan taraması, indeksləşdirilməsi və sıralanması üçün görülən bütün işlərdir.

Müasir interfeys inkişaf kitabxanaları veb saytlarda,veb proyektlərdə əsasən 2 fərqli şəkildə görünür. Bu fərq veb saytların brauzer və ya server tərəfində göstərilməsi ilə bağlıdır. Bu məqalədə veb proyektlərində istifadə olunan SEO texnologiyalarının hansı hallarda brauzer və ya server tərəfli istifadə olmasını araşdırdım

TƏDQIQAT METHODU

İndi bu iki üsulla bir az daha yaxından tanış olaq [1]:

1. **Client-side rendering (CSR): web proyektinin istifadəçi tərəfində render olunması**
2. **Server-side rendering (SSR): web proyektinin server tərəfində render olunması**

CSR

CSR nədir? - **Client Side Rendering** yəni "İstifadəçi tərəfdən render olunma" deməkdir. Əgər bir JavaScript framework`ü istifadə edirsinizsə (**React**, **Angular**, **Vue** kimi), spesifik olaraq **SSR (Server Side Rendering)** aktiv etmədiyiniz müddətcə **CSR** istifadə edirsiniz deməkdir.

CSR`də bir **URL**`ə istək etdiyimiz zaman serverimiz istifadəçiyə içi demək olarki boş olan bir **HTML** səhifəsi döndürər. Və bütün müddət ərzində istifadəçi bu səhifəni görməkdədir. Ardından isə istifadəçinin brauzeri səhifəni dizayn etmək üçün bundle edilmiş **JS** kodlarını yükləyər ardından isə brauzer **React** kodumuzu execute edər. Bütün bu prosseslər ərzində istifadəçi **HTML** səhifəsi döndürülməyinə rəğmən sadəcə "loading..." ekranını görər. Ancaq son aşamada isə **HTML** səhifəmizə React Virtual DOM yüklənər və JS kodlarıda compiler edildikdən sonra səhifəmiz artıq interactable hala gələr. İstifadəçi ancaq son prosses tamamlandıqdan sonra istifadə edə biləcəyi bir veb səhifəsi görməkdədir. "create-react-app" ilə yaratdığımız React proyektləridə CSR methodikasını istifadə etməkdədir. Müasir brauzerlərlə həyatımıza daxil olan bu texnikada internet saytları əlaqə sorğularına çox kiçik bir **HTML** cavabı verir. Bu **HTML** cavabında səhifənin məzmununu təşkil edən Javascript kodları var. Bu Javascript kodları işə salınmasa, vebsayt boş səhifədir. Brauzer bu Javascript fayllarını skan edir, məzmunu göstərir və veb səhifəni bizə təqdim edir.[2]

SSR

SSR nədir?

Əsasən, serverdə brauzerin işini görmək kimi müəyyən edilə bilər. Server tərəfinə qoşulma sorğularında server bütün səhifə məzmunu oxuna bilən HTML cavabı qaytarır. Javascript kodları işlədilməyəndə belə, biz oxuna bilən məzmunla qarşılaşırıq, lakin səhifədə Javascript kodları tərəfindən təmin edilən dinamika yoxdur. Sonra Javascript kodları işə salınır və səhifə müasir interfeys kitabxanalarından istifadə etməyə başlayır.



CSR və **SSR**-in müsbət və mənfi cəhətləri

CSR-in avantajları

Tez yaradılır- Səhifə ilkin yükləmə müddətindən sonra tez yaradılır.

Daha sürətli veb sayt naviqasiyası təklif

Serverdə daha az yük – Javascript müştərinin brauzerində yerinə yetirilir və serverə daha az yük qoyulur.

CSR-in devantajları

Yavaş yükləmə – HTML, CSS və Javascript əvvəlcə göstərilməli, sonra isə ilk səhifənin yüklənməsi üçün lazım olan vaxtı artıraraq istifadəçiyə göstərilməlidir.

Düzgün həyata keçirilmədiyi təqdirdə SEO-nu bloklayır – Bu, səhifənizin sürətini artıra və onu istifadəçi üçün cavabsız edə bilər.

Tarama və indeksləşdirməni gecikdirir – Axtarış motoru botu bütün səhifə resurslarının yüklənməsini gözləməlidir.

SSR-in avantajları

Daha sürətli ilk səhifə yükləmə müddəti - Bu, yaxşı istifadəçi təcrübəsi təmin edir.

Daha yaxşı SEO – Daha sürətli ilkin yükləmə vaxtı sayəsində axtarış motoru botları səhifələri daha yaxşı tarayıb indeksləşdirə bilər.

Yavaş internet bağlantısı olan istifadəçilər üçün idealdır – onlar JS təqdim edərkən göstərilən HTML-ni görə bilərlər.

SSR-in dezavantajları

Yüksək server yükü - Bütün səhifə resursları serverdə mövcud olduğundan brauzer serverə sorğu göndərməyə davam edir.

Vaxt problemi– Serverdə böyük proqramların yaradılması çox vaxt apara bilər.
Daha az interaktiv – Səhifə istifadəçilər üçün görünən olsa da, onlar səhifə ilə əlaqə saxlaya bilmirlər.[4]

NƏTİCƏ

Müasir web kitabxanaları ilə hazırlanmış veb-saytlar iki növdə konfiqurasiya edilə bilər: CSR və SSR və bizim əsas indeksləmə mənbəyimiz olan Google Bots bu iki texnologiyadan CSR-i indeksliyə bilmir. Bu halda da cavab aydın olur; Əgər artıq CSR ilə qurulmuş veb saytınız varsa və indeksləşdirmə ilə bağlı probleminiz varsa, sizin üçün uyğun görünür. Amma kodlaşdırma sıfırdan həyata keçirilməlidirsə, biz SSR-ni məntiqli görürük.

ƏDƏBIYYAT SIYAHISI

1. https://zeo.org/tr/blog/javascript-seo-ssr-ve-csr-nedir-avantajlari-ve-dezavantajlari/
2. Oil palm ssr resource interface (opsri) – web-based bioinformatic analysis pipeline for ssr mining
3. https://dev.to/jeremypanjaitan/ssr-vs-csr-2617
4. https://www.affdu.com/tr/server-side-rendering-vs-client-side-rendering-infidigit.html
5.Comprehensive analysis of SSRs and database construction using all complete gene-coding sequences in major horticultural and representative plants

APPLICATION OF MACHINE LEARNING ALGORITHMS TO IMPROVE EDUCATION SYSTEM

NIZAM NOVRUZOV
Baku Engineering University
İnformation Technology and Management/Information Technology and Systems
nnovruzov3@std.beu.edu.az

ABSTRACT

Machine Learning is the interaction which changes over the data into keen activities. This paper presents a writing survey on utilization of various Machine Learning calculations on gigantic measure of information gathered by the intellectual organizations. Prescient examination utilizing the AI calculations has turned into another device of this advanced period, as it helps scholastic foundations in working on the maintenance and achievement rate of understudies and to get outline of execution before the assessment to decrease the gamble of disappointment. The principle point of the paper is to depict the different manners by which the machine learning is utilized in instructive establishments and how organizations can get forecast of understudies' presentation and the significant highlights that are required to have been considered while making forecast for various things. Notwithstanding this the concentrate additionally thinks about the expectation given by various machine learning algorithms.

Keywords— Prescient examination, Machine Learning

INTRODUCTION

The objective of Machine Learning is to program PCs to utilize model information or previous experience to tackle a given issue. With machine learning, for instance, self-driving vehicles are truly near be on streets consistently. Patter acknowledgment, schooling, PC vision, bioinformatics, regular language handling, and so forth are only some of fields where machine learning can be applied at.

Prescient investigation is the subset of factual examination which incorporates the course of data extraction from existing informational collections by utilizing different strategies to track down the patterns and examples and give forecast of future results. It has wide applications in the field of assembling, Supply chain the board, banks, retail and advertising enterprises. As of late, expanding number of instructive organizations are applying prescient examination for taking critical choices with respect to working on understudy's enlistment, understudy's maintenance, bringing down the dropout rate, keeping up with long haul relationship with graduated class and for knowing the in general of arrangements ahead of time.

Campbell, DeBlois, Diana, and Obliger expressed that investigation can be applied to inspect major institutional issues yet to proceed with its utilization relies upon the senior proficient bosses.[1]

DIFFERENT APPLICATION OF MACHINE LEARNING ALGORITHMS IN ACADEMICS

Arthur Samuel expresses that AI enables the PC with the capacity to learn without intercession of human programming [2]. In the field of Predictive Analytics, AI has wide application to carry out complex models and calculations that will generally create the expectations. These models help experts, information researcher, engineers, scientists to produce dependable and precise choices and results. AI calculations can be classified under two standards: directed students and solo students [3]. Contingent on the learning errand to be achieved the calculations among the two sort are chosen. The regulated students are utilized to build prescient models; it is utilized to observe one specific worth utilizing the others. The learning calculation attempts to track down the connection between the target variable and different factors. As these kinds of prescient models are knowledgeable with the errand to be learnt and the manner by which they can get familiar with the errand, the preparation cycle is known as directed learning. The unaided students help in building unmistakable models. An unmistakable model is utilized to acquire the knowledge by summing up information in different ways. Here all the factors are of equivalent significance and the graphic models have no objective to advance thus the preparation cycle is named as solo learning [3]. The most regularly utilized calculations are given underneath:

A. LINEAR REGRESSION:

Linear regression attempts to form connection between a target highlight and other indicator include utilizing a line which is addressed by a situation in the accompanying structure:

$Y=\alpha + \beta*X$

The straight line regression it was applied to utilize the least squares to foresee the imprints got by the understudies in their last test of the year utilizing the signs of the mid test. The review was led on 49 understudies where there was one objective variable of conclusive year imprints and one indicator variable of mid test marks. The burden of linear regression was failure to catch nonlinear patterns between the factors by the straight model and the exactness of expectation gets brought down [4]. Then again, the use of direct relapse model with regularization to anticipate the understudy's presentation was planned by Poh, Norman, and Ian Smythe [5]. The information was gathered utilizing a web-based understudy profiling device which gathered information into three classifications for example socioeconomics, financial as well as performing scholarly and mental assessments. The four distinct models with various data sources were worked to foresee the English understanding outcomes. The review uncovered the effect of socioeconomics and financial elements on understudies' presentation.

B. LOGISTIC REGRESSION:

Logistic regression estimates the connection between the subordinate component and at least one free highlights by assessing probabilities by using logistic capacity [6].

$$f(x) = 1/(1+e^{-x})$$

Logistic regression model was executed for improvement of position indicator framework (PPS) that anticipated the arrangement of an understudy in impending enlistment meeting. The outcomes were produced from an open source GNU Octave programming tool. The logistic classifier anticipated the likelihood of the understudy's position and Gradient descent algorithm was utilized to become familiar with the boundaries which were vital to work out the likelihood of getting put [7].

D.SUPPORT VECTOR

The Support vector relapse was carried out to see as the connection between's student's presentation and their character attributes. The anecdotal information, character profile, past scholastic execution were the contributions to 15 SVR models and the resultant result was Undergraduate scholastic execution, Language capacity, Behavior. The SVR models did the best expectation with respect to Chinese speaking, Chinese composing, English tuning in, and English perusing.

For picking fitting boundaries, hereditary calculation based on Darwinian advancement standard was utilized and the gauge is made utilizing Support Vector Regression and BP neural networks what's more, after examination the outcomes uncovered that among both the calculations support vector relapse technique had the option to give higher anticipating precision in contrast with BP neural network [11].

MACHINE LEARNING IN EDUCATION SCIENCE FOR EDUCATIONAL RESEARCH

Education was for the most part restricted to the students examining is any course, region or Institute. So the information related with the instructive examination was restricted. Measurable instruments used to dissect these measure of information were not adequate o model the boundaries is gotten from this colossal

measure of information number in millions of understudies through Massive open web-based courses. Different Machine learning have more noteworthy potential for the investigation of huge information sets that are created through the Massive Open Online courses. Informational indexes of these courses is additionally shifting in nature because of high variety in the foundations of the understudies, their calculated information, their segment area and so on. Numerous information Researcher are gathering information from these destinations and this information is used by instructive analysts and researcher for examination. Different sorts of Machine learning can be utilized to anticipate the result of understudies. Administered learning is used the autonomous variable to foresee the way of behaving of ward variable. Information is changed utilizing methods like exploratory Data Examination and in view of these changed information, important information is sifted for instance

Applications of Machine Learning



level of students following through with the tasks or submitting task, prescient model is made that can anticipate the grades of understudies, assuming they have gotten done with tasks .

CONCLUSION

This paper presents various models on utilization of prescient investigation in Education foundations. It features the utilization of various Machine Learning calculations utilized for benefit understudies, personnel and directors. Prescient investigation alongside Machine Learning has been shown to be gainful instrument to investigate open doors and ad lib the secret escape clauses in Education system.

REFERENCES

1. Academic Analytics: A New Tool for a New Era
https://er.educause.edu/articles/2007/7/academic-analytics-a-new-tool-for-a-new-era
2. Kotsiantis, Sotiris B., and Panayiotis E. Pintelas. "Predicting student's marks in Hellenic open university." In Fifth IEEE international conference on Advanced learning technologies, ICALT 2005, pp. 664- 668. IEEE, 2005
3. Phil Simon (March 18, 2013). Too Big to Ignore: The Business Case for Big Data. Wiley. p. 89. ISBN 978-1-118-63817-0.
4. Rao, G. Narasinga, and Srinivasan Nagaraj. "A Study on the Prediction of Student's Performance by applying straight-line regression analysis using the method of least squares." International Journal of Computer Science Engineering 3, no. 1 (2014).
5. Poh, Norman, and Ian Smythe. "To what extend can we predict students' performance? A case study in colleges in South Africa." In Computational Intelligence and Data Mining (CIDM), 2014 IEEE Symposium on, pp. 416-421. IEEE, 2014.
6. Brett Lantz, Machine Learning with R. Birmingham: Packt,2013.
7. Sharma, Ajay Shiv, Swaraj Prince, Shubham Kapoor, and Kush Kumar. "PPS—Placement prediction system using logistic regression." In MOOC, Innovation and Technology in Education (MITE), 2014 IEEE International Conference on, pp. 337-341. IEEE, 2014
8. R. Chuchra. "Use Data Mining Technique for The Evaluation of Student Performance: A Case Study," International Journal of Computer Science and Management Research, Vol 1, October, 2012.
9. Bin Mat, Usamah, Norlida Buniyamin, Pauziah Mohd Arsad, and RosniAbu Kassim. "An overview of using academic analytics to predict and improve students' achievement: A proposed proactive intelligent intervention." In 2013 IEEE 5th Conference onEngineering Education (ICEED), pp. 126-130. IEEE, 2013.
10. Bekele, Rahel, and Wolfgang Menzel. "A Bayesian approach to predict performance of a student (BAPPS): A Case with Ethiopian Students." algorithms 22, no. 23 (2005): 24.
11. Fu, Jui-Hsi, Jui-Hung Chang, Yueh-Min Huang, and Han-Chieh Chao. "A Support Vector Regression-Based Prediction of Students' School Performance." In Computer, Consumer and Control (IS3C), 2012 International Symposium on, pp. 84-87. IEEE, 2012.

MOBİL SİSTEMLƏRDƏ AÇIQ AÇAR ŞİFRƏLƏMƏ ÜSULUNUN TƏDQİQİ

KƏNAN YUSUBOV
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter mühəndisliyi
kyusubov@std.beu.edu.az
Bakı, Azərbaycaan

XÜLASƏ

Verilmiş iş mobil tətbiqlərdə tətbiq oluna bilən şifrələmə alqoritmlərindən bəhs edir. Bu səbəbdən mövcud həllərin araşdırılması və təhlili aparılmışdır. Maqalədə kirptoqrafiya alqoritmlərinin növləri və onlar haqqında məlumat verilmişdir. Assimmetrik və hash şifrələmə alqoritmlərinə məşhur olan alqoritm nümunələri verilmişdir. Mobil tətbiqlərdə istifadə oluna biləcək hallarla bağlı nümumə verilmişdir.

AÇAR SÖZLƏR: şifrələmə üsulları, kriptoqrafiya, mobil tətbiqlərin təhlükəsizliyi

GIRIŞ

İstər mobil, istərsə də digər sistemlərdə, rəqəmsal təhlükəsizliyi qorumaq əsas məsələlərdən biridir. Bunun üçün əvvəlcə Kiber Təhlükəsizlik mövzusuna hakim olmaq lazımdır.

Kiber Təhlükəsizlik - sistemləri, serverləri, mobil cihazları kompüterləri təhlükəli hücumlardan qorumaq üsuludur [1]. Mobil tətbiqlərdə təhlükəsizliyin qorunması üçün əsasən müxtəlif identifikasiya üsullarından - barmaq izi, üz tanıma, şifrə, token, otp və s kimi müxtəlif növlərdən istifadə olunur. Bundan əlavə olaraq, Mobil tətbiq daxilində istifadəçinin yalnız hüququ olduğu informasiyaları əldə etməsi üçün müxtəlif növ tokenlər ilə autentifikasiya icra olunur.

Tədqiqat işini məqsədi mobil tətbiqin təhlükəsizliyinin qorunmasıdır. İstifadəçilərin informasiya təhlükəsizliyinin qorunması vacibdir. Tətbiqin təhlükəsizliyinin artırılması üçün müxtəlif şifrələmə üsullarından istifadə olunmuşdur.

TƏDQIQAT METODU

Kiber Təhlükəsizliyin əsas qollarından biri də kriptoqrafikadır. Kriptoqrafika müxtəlif riyazi üsullardan istifadə etməkdə, şəxsi məlumatların təhlükəsizliyini artırmaq, digərləri tərəfindən əlçatan olmasının qarşısını almağa xidmət edir. Şəxsi məlumatın şifrələnməsi və deşifrələnməsi yolu ilə onun təhlükəsizliyi qorunur. Günümüzdə, kriptoqrafiyanı əsasən 3 yerə bölmək olar: simmetrik (gizli açar), assimmetrik (açıq açar) və hash şifrələmə [2].

Simmetrik şifrələmə daha dəqim və günümüzdə az istifadə olunan şifrələmə metodlarından biridir. Bu metodun mənfi cəhəti, eyni şifrəni istifadə edərək, şifrələmə və deşifrələmə prosesinin həyata keçirilməsidir. Assimmetrik şifrələmə isə, iki növ açardan - açıq açardan və gizli açardan istifadə olunur. Bu növ şifrələmədə açıq açar istənilən şəxslə paylaşıla bilər, lakin gizli açar qorunmalıdır. Alqoritmin assimmetrik adlanmasının əsas səbəbi hər iki açarla şifrələmə-deşifrələmə prosesinin edilə bilməsidir. Bu şifrələmə metodundan əsas çətin məsələ, gizli açarın tərəflərə ötürülməsi prosesidir. Hash şifrələmə isə, bir tərəfli şifrələmə metodudur. Bu metod vasitəsilə şifrlənən mətni geri çevirmək qeyri-mümkün sayılır. Buna görə də, verilənlər bazasında istifadəçilərin şəxsi məlumatları - məsələn - şifrəsi hash üsulu ilə şifrələndikdən sonra saxlanılır.

Məhşur assimmetrik alqoritmlərdən biri RSA alqoritmidir. Bu alqoritm Ron Rivest, Adi Samir və Len Adleman tərəfindən 1977-ci ildə yaradılır [3]. RSA alqoritminin əsas işləmə məntiqi aşağıdakı kimidir [4]:

- İki sadə ədəd seçilir (p və q). Bu ədədlərin böyük olması təhlükəsizliyi artırır.
- Daha sonra base dəyəri hesablanır. Bunun üçün p və q dəyərlərinin hasili hesablanır:

$$\boldsymbol{n = p\ x\ q} \quad (1)$$

Bu dəyər hər iki açar üçün önəmlidir.

- Daha sonra totient funksiyası hesablanır:

$$\boldsymbol{f(n) = (p - 1)(q - 1)} \quad (2)$$

- Açıq açara e deyək. E-ni tapmaq üçün

$$\boldsymbol{1 < e < f(n)} \quad (3)$$

arasında bir sadə ədəd seçilir. Artıq e açıq açardır.

- Gizli açara isə d deyək.

$$\boldsymbol{d\ x\ e = 1\ x\ mod(n)} \quad (4)$$

düsturudan d-ni hesablayaraq tapılır.

- Şifrələmək istədiyimiz informasiyaya m deyək. Şifrələmək üçün aşağıdakı düstur istifadə olunur:

$$c = m^e \; x \; mod(f(n)) \quad (5)$$

- Eyni şəkildə şifrələnmiş mətni deşifrə etmək üçün aşağıdakı düstur istifadə olunur:

$$m = \; c^d \; x \; mod(f(n)) \quad (6)$$

Bu alqoritmin birinci üstün cəhəti, sadə ədədlərə əsaslanmasıdır. Çünki iki sadə ədədin hasilindən törəyən açarları istifadə edərək, ilkin istifadə olunan sadə ədədlərin tapılması o qədər də sadə deyil. Bu şifrələmə alqoritmində gizli açarın paylanmasına ehtiyac yoxdur. Açıq açar vasitəsilə RSA alqoritmini tətbiq edərək, gizli açarı tapmaq olar. Bundan əlavə, digər alqoritmlərə nisbətən daha sürətlidir [5].

Hash şifrələmə alqoritmləri arasında məşhur olan alqoritm ailəsindən biri SHA (Secure Hash Algorithms) alqoritmləridir. Bu alqoritm ailəsi arasında məşhur olan alqoritmlərdən biri də SHA-256 alqoritmidir. Bu alqoritm 2001-ci ildə yaradılıb. Bu alqoritmə əsasən, əvvəlcə aşağıdakılar doğru olmalıdı [6]:

- Mesajın uzunluğu - şifrələmək istədiyimiz məlumatın uzunluğu 264 bitdən artıq olmamalıdır.
- Digest uzunluğu - hash prosesi üçün lazım olan digest-in uzunluğu 256 bit olmalıdır. Digestin daha uzun olması, alqoritmin daha uzun zaman tələb etməsinə və daha çox yer tutmasına səbəb olur.

Hash alqoritmlərinin əsas istifadə yerlərinə - tamlığın yoxlanması, istifadəçi şifrələrinin şifrələnməsi, rəqəmsal imzanın yoxlanması və s. misal göstərmək olar.

Bəs mobil tətbiqdə bu alqoritmlərdən necə istifadə edə bilərik? Bunlara nəzər salaq. Əgər tətbiqimizdə, iki və daha artıq insan bir birinə hər-hansı informasiyanı canlı olaraq göndərmək istəyirsə, bu zaman bizə assimmetrik şifrələmə metodu lazım olacaq. Belə ki, məlumatı göndərən tərəf, açıq açar ilə bu məlumatı şifrələyir və məlumatı qəbul edən tərəf isə, özündə olan gizli açar vasitəsilə bu məlumatı açır. Burda ən böyük problem gizli açarın təhlükəsizliyinin qorunmasıdır. Bunun üçün isə, bizə veb servis lazım ola bilər ki, o bizə gizli açar yaratsın.

- SIEM-i bir çox fərqli nöqtədən məlumat almaq üçün konfiqurasiya edin.

- İcazəsiz obyektləri və proqram təminatını aşkar etmək üçün SIEM-i konfiqurasiya edin.
- Serverlərdə, iş stansiyalarında və noutbuklarda proqram və aparat konfiqurasiyalarına nəzarət etmək üçün SIEM-i konfiqurasiya edin.
- Simsiz cihazların və simsiz müdaxilələrin konfiqurasiyalarına nəzarət etmək və problemlər yarandıqda həyəcan siqnalı vermək üçün SIEM-dən istifadə edin[5].

Açıq mənbəli SIEM sitemi. Kommersiya SİEM sistemləri ilə yanaşı, OSSİM sistemləri mövcuddur. OSSİM infrastrukturu dörd əsas komponentdən ibarətdir: sensorlar, verilənlər bazası, istifaədçi interfeysi və təhlükəsizlik cihazlarınızı idarəetmə servisinizə birləşdirən OSSİM server. Digər SİEM-lər kimi, OSSİM açıq mənbə kodu ilə təhlükəsizlik və şəbəkə idarəçiliyi baxımından hərtərəfli xüsusiyyətlər təqdim edir.

OSSİM bu funksiyaları veb interfeysi ilə bir çox açıq mənbəli təhlükəsizlik proqramlarını bir dam altında məlumatlar toplayaraq yerinə yetirir. Bu açıq mənbəli təhlükəsizlik proqramından toplanan məlumatlar mərkəzləşdirilmiş şəkildə idarə olunur. OSSİM daxilində açıq mənbəli təhlükəsizlik proqram təminatından bəziləri və onların yerinə yetirdiyi fəaliyyətlər aşağıda təqdim olunur.

- **Arpwatch.** Fəaliyyət qeydlərini saxlamaq və anomaliyalarını aşkar etməklə, ünvanın həlli protokolunu (ARP) izləyir. O, İP.MAC ünvan kombinasiyalarını qeyd edir və hərhansı dəyişiklik və ya problem olduqda sizi xəbərdar edir.
- **P0F.** Son cihazlarda əməliyyat sistemləri və proqram təminatının aşkarlanması, İnternet necə qoşulmasını göstərən və paket filtrasiyasını göstərən passiv alətdir.
- **PADS.** Bu xidmət anomalogiyalarını aşkar etmək üçün istifadə olunur.
- **OpenVAS.** Nessus kimi güclü zəifliyin skan edilməsi və idarə etmə sistemidir.
- **OCS-NG.** Bu açıq mənbəli aktivlərin idarə edilməsi proqramıdır.
- **OSSEC.** Log analizi, sistem bütövlüyünün yoxlanılmasını həyata keçirir.
- **OSVBD.** Açıq mənbə zəifliyi verilənlər bazasıdır
- **Munin.** Şəbəkə və infrastruktur monitorinq alətidir.
- **Nfdump.** Nfdump NetFlow məlumatlarını toplamaq və emal etmək üçün bir vasitədir.
- **NfSen.** NfSen Veb əsaslı NetFlow vizuallaşdırma proqramı və Nfdump-ın yoxlama vasitəsidir. [6,7].

1. ƏDƏBİYYAT SİYAHISI

1. Siber güvenlik saldırı ve savunma stratejileri-Dr.Erdal Özkaya Msc.İS.Raif Sarıca Msc.CS.Şükrü Durmaz
2. G. Abdiyeva-Aliyeva, M. Hematyar and S. Bakan, "Development of System for Detection and Prevention of Cyber Attacks Using Artificial Intelligence Methods," 2021 2nd Global Conference for Advancement in Technology (GCAT), 2021, pp. 1-5, doi: 10.1109/GCAT52182.2021.9587584.
3. J.N.L.A.P.B.S.W.Belton Myers, Cybersec First Responder: Threat Detection And Response, Logical Operations, Inc., 2015.
4. A Infosec İnstitutu, "Giriş Nəzarəti: Modellər Və Metodlar" Resources.Infosecinstitute.Com/Access-Control-Models-And-Methods/ Graft.
5. HM.Özen, «Access Control Systems » Https://Mustafaozen.Wordpress.Com/2016/02/10/Erisim-Kontrol-Sistemleri/.
6. Bunfo, «Şəxsiyyət İdarəetmə Sistemi,» Bunfoteknoloji.Com/Kimlik-Yonetim-Sistemi/.

BİLİYƏ ƏSASLANAN İNTELLEKTUAL SİSTEMLƏRİN İNKİŞAFI

M.T.Abdullayeva
Naxçıvan Dövlət Universiteti
amehbube56@mail.ru

Xülasə

Biliyə əsaslanan intellektual sistemlər Sİ-in əsas sahələrindən biridir. Belə sistemlərin qurulmasında əsas məqsəd təcrübədə yaranan mürəkkəb problemlərin həlli üçün yüksək ixtisaslı mütəxəssislərin biliklərini müəyyən etmək, öyrənmək və tətbiq etməkdir. Biliyə əsaslanan sistemləri qurarkən, müəyyən problemlərin həlli üçün xüsusi qaydalar şəklində mütəxəssislər tərəfindən toplanan biliklərdən istifadə olunur. Bu istiqamət strukturlaşdırılmamış və yarımstrukturlaşdırılmış problemlərin təhlili kimi insan sənətinin təqlidi məqsədini güdür. Tədqiqatın bu sahəsində biliyin təmsili, çıxarılması və strukturlaşdırılması üçün modellərin hazırlanması həyata keçirilir, həmçinin biliyə əsaslanan sistemlərin əsasını təşkil edən bilik bazalarının (BB) yaradılması problemləri öyrənilir. Ekspert sistemləri (ES) biliyə əsaslanan sistemlərin xüsusi halıdır.

Açar sözlər: ***intellektual sistemlər, ekspert sistemləri, ağıllı robotlar.***

Giriş.

Hesablama dilçiliyi və maşın tərcüməsi problemləri 1950-ci illərdən etibarən süni intellektdə işlənib hazırlanmışdır. Bir təbii dildən digərinə maşın tərcüməsi sistemləri məlumatlara sürətli və sistemli çıxışı, böyük axınların tərcüməsinin səmərəliliyini və vahidliyini təmin edir. Maşın tərcüməsi sistemləri intellektual sistemlər kimi qurulur, çünki onlar müəyyən bir mövzu sahəsində tərcüməni təmin edən mürəkkəb modellərə əsaslanır. Onlar təbii dil məlumatlarının ardıcıl təhlili və sintezi daxil olmaqla struktur-məntiqi yanaşmaya əsaslanır. Bundan əlavə, onlar oxşar mətn fraqmentləri və onların xüsusi verilənlər bazalarında (DB) tərcümələri üçün assosiativ axtarış aparırlar. Bu istiqamət həm də metodların tədqiqini və insanların kompüterlə ünsiyyəti prosesinin təbii dildə həyata keçirilməsini təmin edən sistemlərin işlənməsini əhatə edir. Bundan əlavə, kompüterə məlumat daxiletmə sürətini artırmaq, görmə və eşitmə, həmçinin xeyli məsafədə nitq rabitəsini həyata keçirmək üçün nitq rabitə sistemləri yaradılır.

Bu elmi istiqamətdə təsvirlərin emalı, təhlili və sintezi problemləri həll edilir. Təsvirin işlənməsi vəzifəsi qrafik şəkillərin çevrilməsi ilə bağlıdır və də yeni şəkillər alınır. Təhlil tapşırığında orijinal şəkillər fərqli tipli məlumatlara, məsələn, mətn təsvirlərinə çevrilir. Şəkilləri sintez edərkən sistemin girişi təsvirin qurulması alqoritmi, çıxışı isə məlumatların qrafik obyektlərdir (kompüter qrafikası sistemləri).

Tədqiqatın predmeti.

Si-in bu aktual sahəsinə məlumatların təhlili və ümumiləşdirmə prosedurlarından istifadə edərək avtomatik toplanması və biliyin formalaşmasına yönəlmiş modellər, metodlar və alqoritmlər daxildir. Bu sahəyə 90-cı illərdə yaranmış verilənlərin öyrənilməsi sistemləri və kompüter verilənlər bazalarında nümunələrin axtarışı sistemləri (Knowledge Discovery) daxildir.

Maşın yaradıcılığı kompüter musiqisinin, şeirin, yeni obyektlərin ixtirası üçün intellektual sistemlərin tərkibini əhatə edir. İntellektual kompüter oyunlarının yaradılması proqram təminatının hazırlanması sahəsində ən inkişaf etmiş kommersiya sahələrindən biridir. Bundan əlavə, kompüter oyunları öyrənmə üçün istifadə olunan müxtəlif alətlərin güclü arsenalını təmin edir.

İntellektual sistemlərin inkişafı üçün simvolik məlumatların emalına yönəlmiş xüsusi proqramlaşdırma dilləri (LISP, SMALLTALK, REFAL), məntiqi proqramlaşdırma dilləri (PROLOG), biliklərin təmsil dilləri (OPS5, KRL, FRL), intelektual sistemlərinin (KE, ARTS, GURU, G2) yaradılması üçün alətlər toplusu, həmçinin proqramlaşdırmaya müraciət etmədən tətbiqi BB yaratmağa imkan verən ekspert sistemlərinin inteqrasiya olunmuş proqram mühitləridir.

Bu istiqamət simvolik informasiyanın emalına yönəlmiş Con Neyman arxitekturasından fərqlənən kompüterlərinin yaradılması ilə bağlıdır. Paralel və vektor kompüterlər üçün uğurlu sənaye həlləri məlumdur, lakin hazırda onlar çox yüksək qiymətə malikdirlər, həmçinin mövcud hesablama vasitələri ilə kifayət qədər uyğunluqda deyillər.

Ağıllı robotların yaradılması robototexnikanın əsas məqsədidir. Hal-hazırda, əsasən birinci nəsil robotlar adlanan sərt idarəetmə sxeminə malik proqramlaşdırıla bilən manipulyatorlardan istifadə olunur. Fərdi inkişafların aşkar uğurlarına baxmayaraq, ağıllı avtonom robotlar dövrü hələ gəlməyib. Avtonom robotların inkişafını məhdudlaşdıran əsas amillər biliklərin şərhi, maşın görmə, üçölçülü vizual məlumatların adekvat saxlanması və emalı sahəsində həll edilməmiş problemlərdir.

Müasir nəsil informasiya kommunikasiya texnologiyalarının əsas xüsusiyyətlərindən biri də hər hansı bir oblasta məxsus olan tapşırıqlarda proqram vasitələrinin adaptiv (uyğunlaşan) və çevik (rejimdən-rejimə keçə bilən) olmasıdır. Bu deməkdir ki, yerinə yetirilməsi lazım olan tapşırıqların və ya bilinən situasiyanın hansı modelə, hansı alqoritmik təsfirə və hansı proqram təminatı vasitəsilə yerinə yetiriliəcəyini əvvəlcədən təxmin etmək mümkün deyildir. Məsələn, hər hansı bir insan üçün tibbi diaqnoz qoymaqdan ötəri ekspert sistemi tətbiq edərək vaxtından əvvəl demək mümkün deyil ki, ekspert sistemin emal etdiyi nəticə hansı alqoritmik təsvir üzrə alınacaqdır. Bu əlamət bütün intellektual tətbiqi proqram paketlərinə də aiddir.
Məlumdur ki, süni intellekt sistemlərinin əsası biliklər bazasına əsaslanan sistemlər olduğundan, belə sistemlərinin və müasir informasiya kommunikasiya texnologiyalarının inkişafı aşağıda göstərilən üç əsas nəzəri problemin inkişaf etdirilməsi ilə bağlıdır:
- biliklər bazasının yaradılması - süni intellekt sisteminin əsas problemidir;
- kompüter məntiqi - ekspert sistemlərinin inkişaf etdirilməsində xüsusi rolu vardır.
Yuxarıda göstərildiyi kimi, süni intellekt müxtəlif istiqamətlər üzrə tədqiqat aparan bir kompleks elmi-texniki problemdir. Müasir dünyada elmi-texniki tərəqqinin sürətli inkişafı sayəsində müasir texnologiyalardan, xüsusən verilənlərin emalı sənayesindən intellektual sistemlər sənayesinə keçid baş verir.
İnsan fəaliyyətinin müxtəlif sahələrində, məsələn, informasiyanın idarəetmə sistemlərinə, ən yeni texnoloji sistemlərin layihələşdirilməsinə və hazırlanmasına müasir texnikanın və robotların tətbiqi süni intellekt üzrə aparılan elmi tədqiqat işlərinin ön sıralara keçirərək, süni intellektual sistemlər bərqərar olmasına gətirib çıxarmışdır. Eyni zamanda bu proqramlar İngiltərə, Fransa, Almaniya və digər Qərbi Avropa ölkələri tərəfindən də qəbul edilmişdir.
Bu proqramda həmçinin mürəkkəb elmi – texniki məsələlərin həllində, iqtisadiyyatın idarə edilməsində, verilənlər bazalarının yaradılmasında istifadə edilən maşınla insan arasında mükəmməl ünsiyyət vasitələrinin yaradılması məqsəd olaraq təyin edilmişdi.
İlk öncə məlum olan informasiya kommunikasiya texnologiyalarına baxaq. Məlumdur ki, bu texnologiya külli kağız istifadə edən bir texnologiyadır. Müasir EHM-ın tətbiqi kağız istifadəsi baxımından əvvəlkilərdən fərqlənmir. Tətbiq sahələri müxtəlif olsa da informasiya kağız daşıyıcılarında mətn formasında saxlanılır.
İndi baxaq görək biliklər necə istifadə edilir?
Biliklər bilik mənbəyi olan ədəbiyyatlarda öyrənilir. Həmin biliklərin mahiyyəti dərk edilir, buna uyğun riyazi model qurulur, qurulmuş riyazi modelə əsasən alqoritm yazılır, yazılmış alqoritmə əsasən müəyyən olunmuş alqoritmik dildə proqram tərtib olunur, sonrakı mərhələdə tərtib olunmuş proqram həll olunması üçün EHM-ə verilir. EHM-ə ötürülən bu informasiyalar müasir texnologiyada sintaksis və semantika xarakterli modellər əsas mövqeyə malikdir. Məsələn, matris şəklində təyin olunmuş riyazi modellər müxtəlif təbiətli prosesləri analiz edir. Bu cür qanunauyğunluq xətti və qeyri-xətti proqramlaşdırma məsələlərdə də özünü göstərir. Riyazi modellər izahsız təqdim edilərsə, hansı obyektin və ya hansı prosesin yerinə yetiriləcəyini demək olmaz. Hazırlanmış riyazi modelin semantikası hər hansı bir obyekt və ya prosesi modelləşdirən (riyazi düsturlar və s.) mütəxəssisdən başqa heç kəsə məlum olmur. Demək lazımdır ki, formal-riyazi modellərin semantikası, obyekt və ya proses haqqında olan biliklər EHM-dən kənarda saxalanılır.
Müasir informasiya kommunikasiya texnologiyalarının işlənib hazırlanması professor D.A.Pospelovun layihələndirdiyi və əvvəllər situasion idarəetmə nəzəriyyəsində, daha sonra süni intellekt nəzəriyyəsində tətbiq edilən məntiqi - linqvistik modellərlə əlaqəlidir. Belə ki, D.A.Pospelovun göstərdiyi modellər idarəetmədə və orada gedən proseslər haqda olan bilikləri formallaşdırmağa, yəni riyazi modellərlə bərabər, məntiqi-linqvistik modelləri də EHM-ə daxil etməyə imkan yaradır. D.A.Pospelovun göstərdiyi məntiqi-linqvistik modellər, semantik əlaqələr, freymlər, produksion sistemlər – birləşərək süni intellekt sistemlərində proqram-aparat vasitələri" adlandırılır. Biliklər bazası da elə bu məntiqi-linqvistik modellər əsasında qurulur.
Yuxarıda deyilənlərə əsasən, deyə bilərik ki, müasir informasiya texnologiyalarını əvvəlki informasiya texnologiyalarından fərqləndirən əlamətlər aşağıdakılardır:
Xüsusi məntiqi-linqvistik modellərin dəstəyi ilə deklarativ əsərlər və prosedur biliklər müasir informasiya texnologiyalarına elektron formada təqdim edilir və bu təqdimat əsaında EHM-in köməyi ilə məsələlərin yerinə yetirilməsi daha keyfiyyətli olur;
Məntiqi-linqvistik modelləşdirmə həlli çətin və ya qeyri-mümkün olan bilik obyektləri və fəaliyyət sahələri (təbabət, biologiya, geologiya, robototexnika, mexatronik, idarəetmə və s.) hesabına müasir EHM-lərin tətbiqini olduqca genişləndirdi;

Beləliklə mütəxəssislərin birbaşa (vasitəçi olmadan) EHM-ə müraciət etməsi təmin olunur və süni intellektin proqram-aparat vasitələrinin interfeysin köməyi ilə istifadəçi öz problemlərini EHM-də dialoq rejimində həll edə bilir;
EHM-lə istifadəçi arasında əlaqə istifadəçinin ixtisas dilində, işgüzar dildə həyata keçirilir.
Süni intellektdə tətbiq edilən alətlərlə təchiz edilmiş və şəbəkəyə qoşulmuş EHM -lər kağız texnologiyası ilə deyil, mürəkkəb məsələ və prosesləri həll etmək qabiliyyətinə malik ola bilən müəssisə daxili prosesi yeni informasiya kommunikasiya texnologiyaları ilə təsvir edir. Beləliklə, akademik V.M.Qluşkovunda qeyd etdiyi kimi yeni texnologiya kağızsız informatikaya keçidə imkan verir.
Müasir informasiya kommunikasiya texnologiyalarına əsaslanan süni intellekt sistemi aşağıdakı növlərə bölünür:
- intellektual informasiya-axtarış sistemləri (sorğu sistemləri).
- intellektual informasiya-axtarış sistemləri ilə işləyən istifadəçilər verilənlər və biliklər bazaları ilə təbii dilə yaxın olan ixtisas dilində işləyir;
- hesab -məntiq sistemi. Komputerdə mikroprosessorun verilən əmrləri yerinə yetirən və onları emal (registr) edən qurğuya hesab-məntiq qurğusu, blokların idarə edilməsi funksiyalarını yerinə yetirən qurğuya isə idarəetmə qurğusu deyilir. Bunlar informasiya texnologiyaları üzrə ixtisasçı olmayan istifadəçilərə öz layihələrini komputerlə dialoq rejimində riyazi metodları və uyğun tətbiq proqramlarını tətbiq etməklə həll edirlər;
- ekspert sistemləri. Bu sistemlər harda tətbiq olunursa o sahəyə uyğun problemləri həll edən, müəyyən məsləhətlər verən, uyğun qərar qəbul edə bilən sistemlərdir. Bu sistemlər dəqiq elmlərə aid olan mürəkkəb riyazi modellərdən istifadənin mümkün olmadığı tətbiq sahələrinin səmərəli modelləşdirilməsini yerinə yetirməyə kömək edir.

Nəticə.

Ekspert sistemləri hesabına süni intellekt elmdə, istehsalın idarə olunmasında uğurla tətbiq olunur. Hal hazırda Hibrid ekspert sistemləri daha çox tətbiq olunur. Hibrid sistemlər adi ekspert sistemilə hesablama-məntiq sisteminin birləşdirilməsi yolu ilə yaradılır. Hibrid ekspert sistemlərdə məntiqi-modelləri riyazi modellərlə birlikdə tətbiq edilir. Hal hazırda informasiya kommunikasiya texnologiyasının əsas səciyəvi cəhəti müxtəlif tətbiq oblastına uyğun məsələlərlə münasibətdə proqram formalarının adaptiv və çevik olmasıdır. Bu o deməkdir ki, üzərində işlənən məsələnin və ya məlum situasiyanın hansı model, alqoritm və proqramlar vasitəsilə yerinə yetiriləcəyini əvvəlcədən söyləmək çətindir. Məsələn, xəstəyə hər hansı bir diaqnoz qoyulması zamanı ekspert sistemlərini tətbiq edərkən qabaqdan söyləmək mümkün deyil ki, ekspert sistemin emal etdiyi məhsul hansı tip alqoritmin tətbiqi ilə alınacaqdır. Bu xüsusiyyət həmçinin istənilən intellektual tətbiqi proqram paketlərinə aiddir.
Süni intellektin tədqiqat istiqamətləri aşağıdakılardır:
- EHM-də layihələndiriləcək proseslərinin həlli, teoremlərin isbatı, yazılmış proqramların və musiqi əsərlərinin sintezi və modelləşdirilmə;
- EHM-in periferiya qurğularının intellektuallaşdırılması:
- EHM-in daxili qurğularının intellektuallaşdırılması:
- intelektual robotların yaradılması .
- quruda , havada və suda sərbəst hərəkət edən nəqliyyat vasitələrinin yaradılması.

Bildiyimiz kimi süni intelekt ilk növbədə EHM-də layihələndiriləcək proseslərinin həlli, teoremlərin isbatı, yazılmış proqramların və musiqi əsərlərinin sintezi və modelləşdirilmə istiqamətdə yaranmışdır.
EHM-in periferiya qurğularının intellektuallaşdırılması sahəsi daha perspektiv inkişaf edir və praktiki cəhətdən süni intellektin əsas istiqamətidir. Süni intellekt avtomatlaşdırılmış idarəetmə və layihələndirmə sistemlərinin, elmi tədqiqat və istehsalat sistemlərinin operativ idarə edilməsi sistemlərinin səmərəliliyini xeyli şəkildə yüksəltmişdir.
Müasir intellektual robotların yaradılması suni intelektin digər vacib istiqamətlərindəndir. Müasir robotların yaradılması ixtisaslaşdırılmış EHM-lərin, mexaniki və energetik sistemlərin,eləcə də sensorların, qida bloklarının, mühərriklərin, texniki avadanlıqların və s. layihələndirməsini tələb edən yeni elmi-texniki problemdir.
Robot insana bənzəyən, yüksək məhsuldarlıqla işləyən bir maşın modelidir. Ümumiyyətlə, robot dedikdə, ağla gələn ilk şey insanın mexaniki surətinin yaradılmasıdır. Xəyalımızda düşündüyümüz robotlar nədən ibarətdir? Bu suala düzgün cavab vermək üçün-kompüter, elektronika, riyaziyyat, kimya, materialşünaslıq və maşın anlayışlarını bilməliyik.

Robotlarda görmə funksiyasını yaxşılaşdırmaq üçün müxtəlif tətqiqat üsullarından istifadə olunur. Məsələn, bir qutuda fərqli hissələr yerləşdirilir. Robota bu qutudan əvvəlcədən təyin olunmuş bir hissənin tapılması tapırığı verilir. Yaxın keçmişimizdə insanların necə gördüklərini araşdıraraq bu problemin bir çox həll yolları olduğunu görürük. Lakin bu həll yolları baxdığımız məsələnin həllində kifayət qədər etibarlı olmadığı müşahidə olunur. Yəni kompüter bu məsələ ilə bağlı bütün həlləri və formaları əzbərləyərək nəticəyə gələ bilərmi?

Ədəbiyyat siyahısı.

1.Balayev Rəsul Ənvər oğlu, Əlizadə Mətləb Nuruş oğlu "İntellektual sistemlər və texnologiyalar, Bakı 2016, "MSV NƏŞR" nəşriyyatı, Dərs vəsaiti,256 səhifə.
2. Çetin Elmas "Yapay zeka uyğulamarı" Ankara 2021,479 səhifə
3. Vasif Nəbiyev "Yapay zeka" Makine Öğrenmesi, Ankara 2021,816 səhifə

QEYRİ-MÜƏYYƏN VƏ DAĞINIQ MÜHİTLƏRDƏ HƏDƏFLƏRİN AYIRD EDİLMƏSI ÜÇÜN PUA NAVİQASİYASI

Asif Qanbayev
Bakı Mühəndislik Universiteti
Baş müəllim, Ph.D
aqanbayev@beu.edu.az
Bakı, Azərbaycan

Asif Hacıyev
Bakı Mühəndislik Universiteti
Magistr/Kompüter mühəndisliyi
ahaciyev5@std.beu.edu.az
Bakı, Azərbaycan

Xülasə

Kiçik pilotsuz uçuş aparatlarından (kPUA) istifadə avtonom imkanların genişlənməsi sayəsində sürətlə artır. Avtomatlaşdırılmış funksiyalara kritik enerji səviyyələrində evə qayıtma, toqquşmanın qarşısını alma, qalxma, enmə və hədəf izləmə daxildir. Bununla belə axtarış və xilasetmə (AVX) kimi real və zaman baxımından krtik ssenarilərdə kPUAların tətbiqi hələ də məhduddur. AVX tətbiqlərində avtonom kPUA naviqasiyasının əsas məqsədi zərərçəkmiş zonalarda fövqəladə hallara operativ reaksiya verməkk üçün zərərçəkənlərin tez lokallaşdırılması, identifikasiyası və sayının müəyyən edilməsidir. Bu yazıda görmə əsaslı kameralar vasitəsilə hədəf aşkarlama qeyri-müəyyənliyini özündə birləşdirən kPUA naviqasiyası üçün avtonom Ardıcıl Qərar Prosesi (AQP) haqqında bəhs edilir.

Giriş

Pilotsuz Uçuş Aparatları (PUA) hazırda təbii fəlakətlərin monitorinqi, müşahidə, Axtarış və Xilasetmə (AVX) kimi əhəmiyyətli proseslerdə istifadə olunur [1]. Bu texnologiyanın uğurunun bir hissəsi daha ucuz aparat və sensor sistemlərindəki irəliləyişlər, kompüter vasitəsilə görmə, təsvirin işlənməsi və avtonom naviqasiya ilə bağlıdır. AVX tətbiqləri üçün avtonom kPUAlarda son nailiyyətlərə baxmayaraq [2-3], hələ də həll olunmamış problemlər var. Məsələn, bu sistemlərin real dünya hadisələrində özünü tam doğrultmaması, mürəkkəb təsvirlər altında obyektlərin identifikasiyası, yeri və sayılmasında qeyri-müəyyənlik başlıca problemlərdir. Bu yazıda problem Qismən Müşahidə Edilə Bilən Markov Qərar Prosesi (POMDP) kimi formalaşdırılıb və Adaptive Belief Tree (ABT) alqoritmi ilə həll edilir. Xüsusilə, dərin öyrənmə obyekti detektoru alqoritmindən əldə edilən qeyri-müəyyənliyin ətraflı modeli nümayiş etdirilir. Təqdim olunan sistem qeyri-müəyyənlik altında avtonom kPUA naviqasiyasını, yolun planlaşdırılması, maneələrdən yayınma, hərəkətə nəzarət və hədəf aşkarlama tapşırıqlarından ibarət çoxməqsədli problem kimi idarə edir. Təklif olunan yanaşma aşağıdakı problemləri həll edir:

1. AVX tətbiqlərində ətraf mühitin qeyri-müəyyənliyi vəziyyətində avtonom kPUAların qərar qəbulu.
2. Dağınıq və GPS-in icazə verilmədiyi mühitlərdə obyektlərin identifikasiyası və yeri ilə bağlı qeyri-müəyyənlik.
3. Görmə əsaslı sensorlardan hədəf aşkarlama qeyri-müəyyənliyinin modelləşdirilməsi.

4. Məhdud resurs avadanlıqlarında hesablama baxımından çətin qərarların qəbulu və obyektlərin aşkarlanması alqoritmlərinin icrası.

Qeyri-müəyyənliyin təsviri

Görmə əsaslı kameralardan obyektin qismən müşahidə oluna bilməsi hədəfin qeyri-müəyyən görünməsinə şərait yaradır. Bunları aşağıdakı kimi təsnif etmək olar:

Yer: hədəf yerinin qeyri-müəyyənliyi, görüntüləri çəkmək üçün görmə əsaslı sensorların məhdud miqyasından qaynaqlanır (həmçinin Field of View (FOV) kimi də tanınır). Bu məhdudiyyətlər xəritəçəkmə, müşahidə və hər hansı qarışıq və çətin mühitlərdə hədəf tapmaq tətbiqlərində mövcuddur. AVX əməliyyatlarında obyektlərin yeri bəzi hallarda çətinləşə bilir, məsələn, görmə əsaslı sensorlar xüsusi FOV konfiqurasiyalarını düzgün tətbiq edə bilmədikdə, və ya ərazinin quruluşu, fəlakət səbəbi və ya təbii olaraq hava vəziyyəti ilə əlaqədar olaraq obyektlər qismən də olsa görünməz olur.

İdentifikasiya: bu, obyektin xüsusi identifikasiya xüsusiyyətinin tanınmasına dair məhdudiyyətlərə aiddir. Bu obyektlərin şəxsiyyəti ilə bağlı qeyri-müəyyənliyə yaş, cins və sağlamlıq vəziyyəti daxildir.

Kəmiyyət: hədəfin hesablanması qeyri-müəyyənliyi çoxsaylı obyektlərin öz aralarında, ətraf mühit obyektləri və ya görmə əsaslı sensorların və ətraf mühit amillərinin təsvir keyfiyyətinə təsir etiyi hallarda tətbiq edilir. Humanitar yardım əməliyyatlarında Xilasedicilərdən obyektlərin sayını təxmin etməklə fövqəladə hallara müdaxiləyə üstünlük vermələri tələb olunduqda bu hesablama vacibdir. Bu statistik məlumatların toplanması dərhal müdaxilə tələb edən sahələri müəyyən etməyə kömək edir.

Ölçülər: bu tip qeyri-müəyyənlik ölçmə tətbiqi obyektlərin morfoloji xüsusiyyətlərinin toplanması tələb olunduqda baş verir. Nümunələrə insanın boyu və həcmi daxildir. AVX əməliyyatlarında obyektin hündürlüyü və ya həcmi barədə məlumatlılıq bir-birini tamamlayan xilasetmə şərtlərini çıxara bilər və onlara kömək etmək üçün lazım olan resursları və prosesləri müəyyən edə bilər.

Problemin həlli üçün istifadə edilən metodlar

Qismən Müşahidə Edilə Bilən Markov Qərar Prosesi

Qeyri-müəyyən mühitlərdə kPUAya idrak imkanlarının əlavə edilməsi prosesi qərar qəbul etmə problemi kimi kataloqlaşdırıla bilər. Avtonom kPUA sistemi uçuş missiyasını yerinə yetirmək ehtimallarını maksimum dərəcədə artıran optimal hərəkət ardıcıllığına qərar verməlidir. Uçuş missiyası obyekti axtarmaqdan ibarətdir və ilk obyekt tapıldıqdan sonra bitir. Fəaliyyətlər ardıcıllığının bu seçimi təkcə əsas axtarış məqsədinə nail olmaqla deyil, həm də ətraf mühitlə bəzi qarşılıqlı əlaqə qaydalarına riayət etməklə, yəni toqquşmadan yayınma, əvvəlcədən müəyyən edilmiş Maraq Regionu (Region of Interest- ROI) daxilində kəşfiyyat və qısa uçuş müddətləri ilə qiymətləndirilir. Real mühitin dinamik olduğunu nəzərə alaraq, kPUA ətraf mühitdəki dəyişiklikləri də qiymətləndirməli və yol planlaşdırma strategiyasını yeniləməlidir. Buna görə də, kPUA və ətraf mühit arasında daimi qarşılıqlı əlaqə olmalıdır, burada t anında pilotsuz təyyarə tərəfindən görülən hər bir hərəkət ətraf mühitdən müşahidələr şəklində toplanmış məlumatlardan istifadə etməklə izlənilməlidir. Bu məlumat təhlili sistemin hazırkı şərtlərini (və ya vəziyyətlərini) və kPUAnın əsas missiya məqsədinə çatmaq üçün nə qədər yaxın olduğunu müəyyən etmək məqsədi daşıyır. Həmin təhlilə əsasən, kPUA missiyanı yerinə yetirmək şansını artıran t + 1 zamanında növbəti görülən tədbirlərə qərar verməlidir. Bu optimallaşdırma problemi ətraf mühitin cari vəziyyətindən və fərdi toplanmış məlumatlardan asılı olaraq, uzun müddətdə həmin uğurlu əməliyyat sayını maksimuma çatdıran hərəkətlər ardıcıllığını müəyyən etmək məqsədi daşıyır. MDP-lər qeyri-müəyyənlik altında olan mühitlərdə Ardıcıl Qərar Proseslərinin (Sequential Decision Proccess- SDP) təsvirinə imkan verən diskret zamanlı riyazi modellərdir [4]. MDP-lər üzrə problemin formalaşdırılması sistem vəziyyətlərinin tam müşahidə oluna biləcəyini nəzərdə tutur. Əksinə olaraq, POMDP-lər isə sistem vəziyyətlərində agentdən (yəni kPUA) qeyri-müəyyənlik və qismən müşahidə oluna bilənliyi özündə birləşdirir. POMDP lar bir sıra halların çoxluğu şəklində göstərilir. (S; A; T; R; O; Z; □□□burada S sonlu vəziyyətlər, A isə sonlu hərəkətlər toplusudur, T vəziyyətə keçid ehtimalı matrisidir. $T_{ss'}^{a}$=P(S_{t+1} = s' | S_t = S, A_t = A) R tapılma ehtimalı matrisidir. O sonlu müşahidələr toplusudur, Z müşahidə ehtimalı matrisidir, □□isə endirim faktorudur. POMDP-lərdə sistem vəziyyətlərində qeyri-müəyyənlik sistemin öz fəzasındakı bütün hallar üçün ehtimal paylaşımı b ilə ifadə olunur.

b(h) = (P[$S_t = s^1$ | H_t = h], ... , P[$S_t = s^1$ | H_t = h]

burada H agentin t vaxtına qədər yaşadığı hərəkətlərin, müşahidələrin və mükafatların tarixidir.

Adaptive Belief Tree

Bir çox onlayn POMDP həllediciləri hər addımda sıfırdan optimal nəticəni yenidən hesablayır. Bu konsepsiya və ya yenidən planlaşdırma əvvəlki zaman addımlarında hesablanmış nəticəni ləğv etməklə hesablama və vaxt resurslarının itirilməsi səbəbindən real vaxt tətbiqləri üçün səmərəsizdir. Bu itki statik, strukturlaşdırılmış mühitlərdə o qədər də vacib olmasa da, real mühitlərdə tez-tez tədricən və ya qismən

dəyişikliklər olur ki, bu da resursların itkisini daha da artırır. Kurniawati və Yadav [5] tərəfindən hazırlanmış ABT həlledicisi əvvəlki hesablanmış siyasətin təkrar istifadəsini təklif edir və POMDP modelində dəyişikliklər aşkar edildikdə siyasət yeniləmələrini yaradır. Qismən Müşahidə Edilə bilən Monte Karlo Planlaşdırmasına (POMCP) oxşar olaraq, ABT davamlı dövlət məkanlarında optimal siyasətləri təxmini edə bilər. ABT həlledicisi çoxlu nümunə epizodlarının dəstini saxlamaqla həlli təxmin edir. Nəticə etibarilə, POMDP-nin ehtimal paylamaları açıq şəkildə deyil, generativ model kimi müəyyən edilir.

Tətbiqi

Təklif olunan üsul Şəkil 1-də göstərildiyi kimi simulyasiya altında çox rotorlu kPUA ilə qarşılıqlı əlaqədə olan dörd moduldan ibarətdir.

Proqram təminatı modulu

Bu kPUA Dronecode Layihəsi [6] tərəfindən hazırlanmış açıq mənbə proqram təminatı olan PX4 vasitəsilə idarə olunur. PX4 arxitekturası iki qatdan ibarətdir: uçuş yığını təbəqəsi və ara proqram qatı. Uçuş yığını təbəqəsi zəngin PUA-lar dəsti (çox rotorlu, sabit qanadlı və VTOL(vertical take-off and landing)), hündürlük və mövqe qiymətləndiriciləri üçün uçuş nəzarətçiləri boru kəmərini ehtiva edir. Bu qiymətləndiricilər adətən IMU və GPS kimi bir və ya bir neçə sensor girişindən proqnozlar verirlər. PX4 uçuş idarəedicisi mövqe və sürət təyinat nöqtəsi dəyərləri, PID nəzarətçi və qiymətləndiricilərdən gələn əks əlaqə siqnalları üçün əks əlaqəyə nəzarət dövrə prosesini izləyir. Ara proqram təbəqəsi sUAV sensorları, rabitə interfeysləri və simulyasiya təbəqəsi üçün cihaz sürücülərindən təşkil olunub.

Simulyasiya təbəqəsi (PX4 Proqram Təminatı Döngüdə (SITL)) PX4 arxitekturasını simulyasiya edilmiş kPUA platformasında və mühitdə yerli maşına köçürür. kPUA (3DR Iris) və endirilən görünüşlü kamera (ov7251) Gazebo simulyatoru altında simulyasiya edilib.

Aparat təminatı modulu

kPUA-larda texniki məhdudiyyətləri nəzərə alaraq, sistemə Intel R Neural Compute Stick inteqrasiya olunub. Çubuq, dərin öyrənmə modellərindən nəticə çıxarmağı gücləndirən optimallaşdırılmış mikroprosessor olan, plug-and-play Vision Processing Unit (VPU) cihazıdır. Intel, OpenVINO kitabxanası vasitəsilə performans artımlarını əldə etmək üçün xüsusi proqram alətləri dəsti təqdim edir. OpenVINO TensorFlow, Caffee və PyTorch kimi bir sıra dərin öyrənmə çərçivələrini və standart təsvirin emal əməliyyatları üçün OpenCV və OpenVX-in optimallaşdırılmış versiyalarını dəstəkləyir. OpenVINO ilə hədəfin aşkarlanması üçün mənbə kodu, PX4 SITL və Gazebo vasitəsilə həm real testlər, həm də simulyasiya mühitləri üçün bu avadanlıqdan istifadə etməyə imkan verən Python-da ROS bağlamalarından təşkil olunub. Buna görə də, sonuncu, Döngüdə Təchizat (HITL) interfeysi altında dəstəyi təmin edir.

Detektor modulu

Aşkarlama modulu dərin öyrənmə obyekti detektorundan ibarətdir. Seçilmiş detektor Google MobileNet Single Shot Multibox Detector (SSD) arxitekturasının açıq mənbə nümunəsidir.

Qərarvermə modulu

POMDP formulası TAPIR alət dəstindən istifadə etməklə hesablanır. Alətlər dəsti davamlı vəziyyətləri idarə edən ABT həlledicisini özündə birləşdirir. Bundan əlavə, TAPIR həlledici ilə sUAV uçuş nəzarətçisi (PX4 SITL) arasında əlaqəni asanlaşdıran ROS interfeysindən təşkil olunur.



Şəkil 1.

Nəticə

Bu yazıda obyektlərin ehtimal olunan yeri ilə bağlı əvvəlcədən ehtimalla onaların axtarışı probleminin həlli göstərildi. Qeyri-müəyyənliyi və qismən müşahidə oluna bilənliyi özündə birləşdirən çoxməqsədli kPUA naviqasiya problemi kimi tapşırığı həll etmək üçün Qismən Müşahidə Edilə bilən Markov Qərar Prosesi istifadə olundu.

Referans

[1] G. Pajares, "Overview and current status of remote sensing applications based on unmanned aerial vehicles (uavs)," Photogrammetric Engineering & Remote Sensing, vol. 81, no. 4, pp. 281–330, Apr. 2015.

[2] C. Sampedro, A. Rodriguez-Ramos, H. Bavle, A. Carrio, P. de la Puente, and P. Campoy, "A fullyautonomous aerial robot for search and rescue applications in indoor environments using learning-based techniques," Journal of Intelligent & Robotic Systems, pp. 1–27, Jul. 2018.

[3] V. San Juan, M. Santos, and J. M. Andújar, "Intelligent uav map generation and discrete path planning forsearch and rescue operations," Complexity, vol. 2018, pp. 1–17, 2018.

[4] S. Thrun, W. Burgard, and D. Fox, Probabilistic Robotics. Cambridge, MA: MIT Press, 2005.

[5] H. Kurniawati and V. Yadav, "An online pomdp solver for uncertainty planning in dynamic environment," in Springer Tracts in Advanced Robotics, 2016, vol. 114, pp. 611–629.

[6] L. Meier, D. Honegger, and M. Pollefeys, "Px4: A nodebased multithreaded open source robotics framework for deeply embedded platforms," in International Conference on Robotics and Automation, no. June. IEEE, May 2015, pp. 6235–6240.

MEXANİKA MÜHƏNDİSLİYİ

AVTOMOBİLİN İNFORMASİYALILIĞININ HƏRƏKƏT TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

Elmi rəhbər: Dos.Əliyev Məftun Eynulla oğlu
Naxçıvan Dövlət Universiteti
meftun-aliyev@rambler.ru

Magistrant: Məmmədova Ülviyyə Cahangir qızı.
Naxçıvan Dövlət Universiteti
orucovterxan@gmail.com

Xülasə: Sürücü nəqliyyat vasitəsini idarə edərkən o xarici qıcıqlanmaların onun hissiyat orqanlarına (görmə, eşitmə və s.) təsiri ilə informasiya alır, onları beynində təhlil edir və lazımi qərar qəbul edir. Bəzən o məlumatları gec qəbul edir və ya qərarı gecikdirir yol qəza hadisələri baş verir. Bu o vaxtda baş verə bilir ki, sürücüyə görünüş sahəsində potensial qəza məqamlarında belə şərait lazımi qədər məlumat qəbul edilməyə imkan vermir. Ona görə də yol hərəkətinin təhlükəsizliyi sürücünün qəbul etdiyi informasiya və onun keyfiyyətindən əsaslı surətdə asılıdır.

Açar sözlər: Sürücü, avtomobil, informasiya, təhlükəsizlik.

Harəkət təhlükəsizliyinin təmin edilməsində informasiyanın miqdarı və keyfiyyəti çox böyük rol oynayır. Bu informasiyalar xarici qıcıqlandırıcıların insanın analizatorlarına (görmə, eşitmə, iybilmə və s.) təsiri nəticəsində yaranır. Sürücüləri və digər hərəkət iştirakçılarını lazımi malumatlarla təmin etmək xüsusiyyəti informasiyalılıq adlanır. Məlumatlar yoldan, hava şəraitlərindən, işıqforlardan, yol nişanlarından, avtomobillərin siqnal məlumat əks etdirici vasitələrdən, idarəetmə orqanlarından və s.- dən daxil olur. Sürücü öz idarəedici təsirlərini bu məlumatlar asasında formalaşdırır. Yollarda olan digar naqliyyat vasitələri, yol örtüyünün vaziyyəti və s. haqqındakı natamam malumatlar çox hallarda yol-nəqliyyat hadisələrinə səbəb olur. Malumat çatdırıcı siqnallar təbii və süni ola bilər.

Avtomobilin informasiyalılığının aşağıdakı növləri var:

-səs (səs siqnalizatorları, aparıcı dalğa, mühərrikin, transmissiyanın və s.-nin səsi);

-vizual (avtomobilin kuzasının forma ölçüləri, rəngi, avtonom işıqlandırma sistemi, işıq-siqnal avadanlıqları, cihazlar lövhasinin elementləri, müşahidəlik parametrləri);

-taktil və kinestetik (idarəetmə orqanlarının sürücünün təsirlərinə reaksiyası).

İnformasiyalılıq daxili, xarici və əlavə olmaqla üç hissədən ibarətdir.

Daxili informasiyalılıq sürücünü avtomobili idarə etmək üçün lazımi məlumatlarla tamin edir. O, aşağıdakı amillərdən asıldır:

- müşahidəlik sürücüyə imkan verməlidir ki, o, yol şəraitləri haqqında vaxtında və maneəsiz olaraq lazımi məlumatları əldə etsin;
- cihazlar lövhəsinin, düymələrin, idarəetmə düymələrinin (klavişlarinin), sürətlər qutusu dəstəyinin və s.-nin yerdəyişməsi sürücüyə qısa vaxt ərzində cihazların göstəricilərinə nəzarət etməyə, açarlara təsir etməyə və s. imkan yaratmalıdır.

Xarici informasiyalılıq digər hərəkət iştirakçılarını avtomobil ilə düzgün qarşılıqlı əlaqədə ola bilmələri üçün lazımı məlumatlarla təmin edir. Buraya xarici işıq siqnallarını, səs siqnallarını, kuzanın ölçülərini, rəngini va formasını aid etmək olar [1,117-118 səh].

Minik avtomobillərinin informasiyalılığı onların rənginin yol örtüyünün rənginə nəzərən ziddiyətindən asılıdır. Statistika göstərir ki, qara, yaşıl, boz və göy rəngli avtomobillər onların məhdud görünmə şəraitlərində və gecə vaxtı pis seçilmələri səbəbindən digər rəngli avtomobillərə nəzərən iki dəfə artıq qəzalara məruz qalırlar. Nasaz dönmə siqnalları, stop-siqnalları və qabarit fənərləri sürücülərin niyyətinin və fikirlərinin digər hərəkət iştirakçıları tərəfindən vaxtında aşkar edilməsini və düzgün qərarlar qəbul etməsini çətinləşdirir.

Əlava informasiyalılıq avtomobilin məhdud görünmə şəraitlərində, gecə, duman və çiskinli hava şəraitlərində istismarını təmin etmək xüsusiyyətidir. O, sürücü tərəfindən hərəkət şəraitinin qavranılmasını yaxşılaşdıran işıqlandırma sistemi cihazlarının və digər qurğuların xarakteristikalarından asılıdır.

Avtomobilin kuzası, işıq əksetdiriciləri, avtonom işıqlandırma sistemi və xarici işıq siqnalları sistemi xarici vizual informasiyalığa malikdirlər.
Xüsusən də minik avtomobillarinin kuzasınım rəngi yol örtüyünün rəngi ilə ziddiyyət (təzad) təşkil etməlidir. Ən təhlükəsiz avtomobil rangləri çəhrayı, sarı, qırmızı və ağ rənglərdir. Əlavə rəng fonunda ixtiyari rəng daha dolğun və aydın qavranılır. Bu rənglərdən biri ən böyük görünmə məsafəsinə malik olmalıdır. Avtomobilin xarici səthi rangləndikdə yadda saxlamaq lazımdır ki, o, ümumi nəqliyyat axınından seçilməli və taninmalıdır[1,120-122 səh].
Böyük əks olunma əmsalına malik olan yüksək tezlikli rənglər, qısa müddətli müşahidələr zamanı sürücüləri həyacanlandırdığından, avtomobilin ümumi nəqliyyat axınından seçilməsini təmin edirlər. Uzunmüddətli müşahidələr zamanı isə belə rənglər yorğunluq gətirir. Beləliklə, kiçik ölçülü avtomobillərdə qırmızı, sari rənglərdən və onların müxtəlif çalarlarından istifadə edilməlidir. Yük avtomobillari, avtoqatarlar va avtobuslar yaşıl, mavi, göy rənglərlə və onların müxtəlif çalarları ilə, həmçinin, tutqun rənglə rənglənməlidirlər. Bu, görmə garginliyini azaldır və qarşıdan gələn avtomobil sürücülərinin yorğunluğunun azalmasına müsbət təsir göstərir. Avtomobillərin daimi olaraq görmə sahəsində olan hissələrinin (kapot, kuzanın arxa hissəsi) kiçik əks olunma əmsalına malik olan tutqun rənglə rənglənməsi məqsədəuyğundur. Yol hərəkətinin tahlükəsizliyinin təmin edilməsi üçün günün qaranlıq vaxtlarında istər dayanmış, istarsə də hərəkət edən avtomobillərin mühitdə seçilməsinin təmin edilməsi məqsədilə onların qabaritləri və bəzi başqa elementləri işıq əks etdirici materiallarla işarələnməlidir [2,60-70səh]. Beynalxalq standartlaşdırma taşkilatı ISO-R-303-ün təkliflərinə görə işıq aksetdiriciləri günün qaranlıq vaxtlarında xarici işıq mənbəyindən daxil olan işıq şualarını əks etdirməklə avtomobillərin qabaritini göstərməlidir.
Avtomobillərin arxa tərəfində hökmən üçbucaqlı olmayan formada qırmızı rəngli işiqqaytarıcı qurğu olmalıdır. Uzunluğu 8 m-dən çox olan nəqliyyat vasitələri, qoşqu ve yarımqoş- quların yan səthlərində çəhrayı rəngli əlavə iki ədəd işıqqaytarıcıları quraşdırılır. Qoşqu və yarımqoşqular arxa və yan işıq qaytarıcılarından başqa qabaqda iki adad ağ rəngli əlavə işıq qaytarıcılara malik olmalıdırlar.

BMT-nin Avropa İqtisadi Komissiyasının 3№-li Qaydalarına görə öz fotometrik xarakteristikaları va tətbiq dairələrinə görə işıqqaytarıcılar üç qrupa bölünürlər:
- Birinci qrup - avtomobillər üçün;
- Ikinci qrup - kiçik sürətli nəqliyyat vasitələri üçün;
-Üçüncü qrup - qoşqu nəqliyyat vasitələri üçün.

Gecə vaxtı hərəkətin təhlükəsizliyi görmə məsafəsinin lazımi qiymətinin təmin edilməsindən çox asılıdır. Süni işıqlandırılmayan yol sahələrində belə görmə məsafəsinin təmin edilməsində avtomobilin xarici işıqlandırma sistemi çox mühüm rol oynayır.
Yollarda görmə masafəsi dedikdə iki cür - fizioloji va həndəsi görmə məsafələri başa düşülür. Yollarda obyektlərin fizioloji görünmə məsafəsi kontrastla (təzadla) müəyyən edilir və onun qiyməti nə qadar yüksək olarsa, obyekt yolun fonunda daha aydın görünəcəkdir.
Sərbəst hərəkət şəraitlərində belə, avtomobil ilə işıqlandırma zamanı, sürücünün görmə analizatorunun işi müxtəlif səbəblər üzündən çətinləşə bilər:
- görmə sahəsində şəffaflığın qeyri-bərabər şəkildə paylanmsı;
- avtomobilin hərəkət dinamikliyi;
- yol va meteoroloji şəraitlər (atmosfer və qabaq külək şüşəsinin şəffaflığına tasir edən amillər).

Sürücünün görməsinin informasiya zonaları dedikdə ətraf mühitin aşağıda qeyd olunan elementlərindən ona lazım olan informasiyaların alına bilmə zonalarının hüdudları başa düşülür, yəni yolun istiqaməti, yol hərəkətini tənzimləyən əsas həndəsi və abadlaşdırılma elementlərinin yerləşməsi, piyadalar və digər hərəkət iştirakçıları şəklindəki maneələr, yolun hərəkət hissəsindəki dağılmalar, çuxurlar və təsadüfi əşyalar.
Avtomobilin daxili vizual informasiyalılığına cihazlar lövhəsi və onun müşahidəliliyini yüksəldən digər quruluşlar aiddir. Hərəkat prosesində sürücüyə onun idarə etdiyi avtomobilin sistem və aqreqatlarının vəziyyəti haqqında məlumatlar (cihazların göstəriciləri, daxili sensor sahəsindən və ya cihaz lövhəsindan indikatorlar şəklində yığcam və kodlaşdırılmış) lazımdır.
Avtomobilin cihazlar lövhəsinin nəzarət ölçü cihazlarının göstəriciləri və siqnalları kifayət qədər müxtəlif məlumatlar daşıyır. Onlar mənasının əhəmiyyətinə görə aşağıdakı məlumatlara bölünürlər:
- avtomobilin bilavasitə hərəkət təhlükəsizliyini təmin edən sistemlərin vəziyyəti haqqında;
- avtomobilin məkanda hərəkət xarakteristikaları (axında hərəkət zamanı sürət və kritik intervalın azalması), sistem va aqreqatlarının istismar vəziyyətləri haqqında;

- digər məlumatlar.
Mənasına görə informasiyalar aşağıdakı növlərə bölünür:
- hadisənin baş verməsi, onun davamiyyət müddəti və ya sonu haqqında;
- prosesin inkişaf istiqaməti haqqında;
- obyektin cari vəziyyəti haqqında.
Sürücünün nəzarat cihazları və siqnallarından aldığı ən geniş məlumatlara aşağıdakıları aid etmək olar:
- avtomobilin bilavasitə hərəkat təhlükəsizliyini təmin edən sistemlərin cari vəziyyəti (tormoz sistemi, işıq siqnalları avadanlıqları, qoşqu ilə rabitə, passiv təhlükəsizlik sistemi);
hərəkət xarakteristikaları (sürət, qabaqdakı nəqliyyat vasitələri ilə ara masafasi);
- istismarın düzgünlüyü (avtomobilin, mühərrikin, hərəkət hissəsi və transmissiyanın, elektrik avadanlığının);
-digər məlumatlar (cari zaman, nəqliyyat prosesinə nəzarət).
Sürücü avtomobilin vəziyyəti haqqında məlumatı eyni zamanda avtomobilin səs informasiyalılığıdan əldə edə bilər. Avtomobilin hərəkəti zamanı sürücünün eşitmə orqanlarına aşağıda qeyd edilən iki qrup səslər təsir edir:
1. Sürücünü avtomobili idarə etməkdən yayındıran təsadüfi səslər (mühərrikin, transmissiyanın, hərəkət hissəsinin, şinlərin, asqıların və kuzanın yaratdığı səs-küylər);
2. Sürücüyə ətrafdakı vəziyyətlərdən, avtomobilin aqreqat və mexanizmlərindən və bir sıra digər mənbələrdən informasiya gətirən səslər.
Səs avtomobilin daxilinə pəncərədən, divarlardan, döşəmədən daxil olur və həmçinin, metal konstruksiyalar vasitəsilə yayılır. Belə səs-küyün təsiri ilə aydın görmənin dayanıqlığı azalır, qaranlıqda görmə zəifləyir, vestibulyar cihazın fəaliyyəti pozulur va vaxtından əvvəl yorğunluq yaranır. Bu, əsasən, kabinasında səsin intensivliyi buraxılabilən həddən böyük ola bilən yük avtomobillərinə aiddir. Səs-küyün kabinaya daxil olmasına qarşı mübarizə avtomobilin konstruksiyasını təkmilləşdirmək, konstruksiya materiallarını dəqiq seçmək və səsuducu araqatlarından istifadə etmək yolu ilə aparılır[1,130-133 səh].
Beləliklə, avtomobillərin informasiyalılığının təmin edilməsi və artırılması istiqamətində aparılan araşdırmalar avtomobillərin konstruktiv təhlükəsizliyinin yüksəlməsinə və yol nəqliyyat hadisələrinin azalmasına səbəb olmuşdur.

Ədəbiyyat:

1.A.A.Əliyev, S.M.Vəliyev Avtomobillərin konstruktiv təhlükəsizliyi. Dərs vəsaiti. ADPU-nəşriyyatı.Bakı.2019. 295 səh.
2. Ə.H.Tğızadə, R.P.Bayramov Yol hərəkətinin təşkili və təhlükəsizliyi.Bakı, Çaşıoğlu.2002. 243 səh.

STANSIYA YOLLARINDA HƏRƏKƏT TƏRKIBLƏRININ TORMOZ BAŞMAKLARI ILƏ BƏRKIDILMƏSININ NORMA VƏ QAYDALARI

YADULLA HƏSƏN OĞLU HƏZIYEV
Naxçıvan Dövlət Universiteti
Memarlıq və mühəndislik fakültəsi
"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
email: yadohazi@gmail.com
NAXÇIVAN ŞƏHƏRİ, AZƏRBAYCAN RESPUBLIKASI

XÜLASƏ

Məqalədə dəmiryol stansiyalarında və mənzillərdə lokomotivsiz dayanmış tək-tək vaqonların, vaqon qruplarının və xüsusi hərəkət tərkiblərinin özbaşına hərəkətə gəlməsinin qarşısını almaq məqsədi ilə onların tormoz başmakları ilə bərkidilməsinin norma və qaydalarından ətraflı söhbət açılır. Stansiya yollarında lokomotivsiz dayanmış vaqonların sayına, yüklü və yüksüz vəziyyətlərinə görə bərkidilmə normaları izah edilmiş, vaqonların bərkidilməsinə aid nümunələr verilmişdir.

AÇAR SÖZLƏR: tormoz başmağı, vaqonların bərkidilməsi, maillik, yüklü və yüksüz vaqonlar, yolun profili.

GİRİŞ

Azərbayan Dəmir Yolları Texniki İstismar Qaydalarının 15.21 bəndinə əsasən stansiya yollarında lokomotivsiz dayanmış hərəkət tərkibləri, vaqonlar və xüsusi hərəkət tərkibləri özbaşına hərəkətə gəlməsin deyə tormoz başmakları ilə etibarlı bərkidilməlidir. Həmçinin mövcud çeşidləmə stansiyalarının böyük əksəriyyətində təpəaltı parkların 3-cü tormozlama mövqelərində ayırmaların hərəkət sürətlərini tənzimləmək, eləcə də, ayırmaları dayandirmaq üçün tormoz başmaklarından geniş istifadə edilir (1). Tormoz başmaklarının iş prinsipi diyirlənmə sürtünmə qüvvəsinin sürüşmə sürtünmə qüvvəsi ilə əvəz olunmasına əsaslanmışdır. Tormoz başmakları, adətən, poladdan hazırlanır. Lakin tez alışan və partlayıcı maddələr yüklənmiş vaqonların bərkidilməsi üçün alüminium və latundan hazırlanmış tormoz başmaklarından istifadə etmək daha məqsədəuyğun olar. Çünki, bu zaman sürtünmə nətiəsində qığılcımın əmələ gəlmə ehtimalı az olur (2).

Şəkil 1 Tormoz başmakları

Tormoz başmaklarının qeydiyyatı ciddi şəkildə aparılır. Qeydiyyat kitabı nömrələnib tikildikdən sonra möhürlənir. Tormoz başmakları mütləq təlimata uyğun damğalanmalı, stansiyanın texniki-səeəncam Aktında nəzərdə tutulan yerdə saxlanılmalıdır. Vaqonların bərkitmə normalarını dəqiq hesablamaq üçün stansiya yollarının mailliyinin qiyməti məlum olmalıdır. Yolun mailliyi promillərlə ölçülür. Bir promil 1000 metr məsafədə yolun səviyyəsinin nə qədər dəyişdiyini bildirir. Vaqonların stansiya yollarında bərkidilməsinin normaları və qaydaları yerli şəraitə uyğun olaraq təyin edilir və stansiyanın texniki–sərəncam Aktında öz əksini tapır. Stansiyaya daxil olmuş qatarların maşinistlərinə hərəkət tərkibinin bərkidilməsi haqda məlumat almadan lokomotivi qatardan açmağa iazə verilmir.

TƏDQIQAT METODU

Stansiya yollarında hərəkət tərkiblərinin tormoz başmakları ilə bərkidilməsi zamanı aşağıdakı norma və qaydalara əməl olunması vacibdir: (3)

1.Üfiqi və mailliyi 0,0005 -ə qədər olan yollarda istənilən sayda vaqonlar hər iki tərəfdən bir tormoz başmağı ilə bərkidilməlidir;

2. Mailliyi 0,0005-dən çox olan yollarda bərkitmə normaları aşağıdakı qaydada müəyyən olunur :

2.1. Çəkisinə görə müxtəlif növlü vaqonlardan (yüklü və boş vaqonlardan və ya müxtəlif çəkili yük vaqonlarından) ibarət olan qarışıq hərəkət tərkibinin bərkidilməsi zamanı tormoz başmaklarının sayının təyin edilməsinin iki mümkün halı var:

2.1.1. Tormoz başmakları boş vaqonların, hər oxa 15 tondan az yük ağırlığı düşən vaqonların və ya hər oxa naməlum yük ağırlığı düşən vaqonların altına qoyulduqda;

2.1.2. Tormoz başmakları hər oxuna düşən yük ağırlığı 15 tondan az olmayan vaqonların və ya hər oxa maksimal yük ağırlığı düşən vaqonların altına qoyulduqda;

- birinci halda tormoz başmaklarının sayı

$K=\frac{n}{200} \cdot (4i+1)$;

-ikinci halda isə, tormoz başmaklarının sayı

$K=\frac{n}{200} \cdot (1,5i+1)$

düsturu ilə hesablanınır. burada,

-K-tormoz başmaklarının zəruri miqdarı, sayı;

-n-tərkibdəki oxların sayı;

-i-yolun mailliyinin orta qiyməti;

- (1,5i+1) və ya (4i+1) – hər 200 oxa düşən tormoz başmaklarının sayıdır.

3.Sərnişin vaqonları yüklü vaqonların tormoz başmakları ilə bərkidilmə qaydasına uyğun bərkidilir, (əmsal 1,5);

4.Yalnız boş vaqonlardan ibarət tərkib də yüklü vaqonların bərkidilmə qaydasına uyğun bərkidilir,(əmsal 1,5);

Qeyd :

- tormoz başmaklarının sayı kəsrlə aiındıqda say böyük tam rəqəmə qədər yuvarlaqlaşdırılır;
- relslərin səthi yağlanmış stansiya yollarında bərkitmə normaları 1,5 dəfə artırılır;
- sınıq profilli yollarda bərkitmə normalarını hesablamaq üün mailliyin orta qiyməti tapılır:

$i_{or}= (i_1l_1+i_2l_2+i_3l_3+...+i_nl_n) / (l_1+l_2+l_3+...+l_n)$;

- vaqonlar yolların ayrı-ayrı kəsiklərində qoyulduqda bərkitmə normaları hesablanarkən həmin kəsiyin mailliyinin faktiki qiyməti götrülür;
- yükün boşaldılması üçün verilmiş vaqon qrupları bərkidilərkən tormoz başmakları sonuncu boşalacaq vaqonun altında qoyulmalıdır;
- tormoz başmakları saz olmalıdır;
- tormoz başmağı oxların altina elə qoyulmalıdır ki , başmağın xizəyinin oxu təkərin çəmbərinə toxunsun; (4)

Şəkil 2 Tormoz başmaklarının qoyulma qaydası

- bərkitmə iki və daha artıq başmaklarla aparıldıqda onları eyni vaqonun oxları altına qoymaq olmaz;
- vaqonların bərkidilməsi üçün xizəyi buzlaşmış və ya yağlanmış tormoz başmaklarından istifadə etmək qadağandır;
- maili yollarda tormoz başmakları eniş tərəfdən qoyulur;
- mailliyi 0,0005-dən çox və 0,001-ə qədər olan yollarda vaqonlar enişə əks istiqamətdəki tərəfdən də əlavə olaraq bir tormoz başmağı ilə bərkidilir .
- tormoz başmağı bərkidilən qrupun qaça biləcək tərəfdən sonuncu vaqonunun altına qoyulduqda həmin vaqonla qrupun digər vaqonlarının qoşulmasının etibarlığı bir daha yoxlanılmalıdır .
- istiqaməti vaqonların qaça biləcək istiqamətdə təsadüf edilən güclü küləkdə (saniyədə 15 metrdən çox) bərkitmə norması 3 tormoz başmağı qədər artırılır . Çox güclü küləkdə isə 7 tormoz başmağı artırılır.
- bərkitmə zamanı kifayət qədər tormoz başmağı olmadıqda qeyri-işlək vəziyyətdə olan lokomotivlərinin , motorvaqonlatın, qatarların əl tormozlarndan istifadə etmək olar. Bu zaman nəzərə almaq lazımdır ki, 5 oxun əl tormozu bir tormoz başmağını əvəz edir.

Şəkil 3 Əl tormozları

- üfüqü yollarda və ya mailliyi 0,0005 və az olan yollarda hərəkət tərkibi qoşulan qrupun hər hansı hissəsindədə bir vaqonun və ya lokomotivin əl tormozunun işə salınması onun hər iki tərəfdən tormoz başmaqları ilə bərkidilməsini əvəz edir .
- tormoz başmaklarının daimi qoyulduğu yerlərdə qumla dolu yeşiklər olmalıdır .(5)

Hərəkət tərkibinin tormoz başmakları ilə bərkidilməsi normalarının hesablanmasına dair

N Ü M U N Ə L Ə R

S/S	Hərəkət tərkibinin oxlarının sayı	Yolun mailliyinin qiyməti	Hərəkət tərkibinin növü	Tormoz başmaklarının qoyulduğu yer	Tələb olunan tormoz başmaklarının sayı
1	80	0,0025	qarışıq	boş vaqonların altı	$\frac{80 \cdot (2,5 \cdot 4 + 1)}{200} = 4,4 = 5$
2	80	0,0025	qarışıq	hər oxa 15 tondan artıq yük düşən vaqonların altı	$\frac{80 \cdot (2,5 + 1,5 + 1)}{200} = 1,9 = 2$
3	240	0,0015	kömür maşrutu	hər oxa 15 tondan artıq yük düşən vaqonların altı	$\frac{80 \cdot (1,5 \cdot 1,5 + 1)}{200} = 3,9 = 4$
4	240	0,0015	boş vaqomlardan ibarət tərkib	–	$\frac{80 \cdot (1,5 \cdot 1,5 + 1)}{200} = 3,9 = 4$
5	72	0,003	sərnişin qatarı tərkibi	–	$\frac{72 \cdot (3 \cdot 1,5 + 1)}{200} = 1,98 = 2$

NƏTİCƏ

Stansiya və mənzillərdə lokomotivsiz dayanmiş tək-tək vaqonlarin, vaqon qruplarinin və xüsusi hərəkət tərkiblərinin özbaşina hərəkətə gəlməsinin qarşisini almaq məqsədi ilə onlarin tormoz başmaklari ilə bərkidilməsinin norma və qaydalarının öyrənilməsi və qoyulan tələblərə ciddi riayət olunması mühüm əhəmiyyət kəsb edir. Tormoz başmaklarında düzgün istifadə edilməsi, tormoz başmaklarının sayının təyin ediməsinin dəqiqliyi staniya və mənzillərdə hərəkətin təhlükəsizliyinin təmin edilməsində nəzərdə tutulan ən vacib məsələlərdəndir. Bu şərtlərin nöqsansız yerinə yetirilməsi nəticəsində neçə-neçə xoşagəlməz hadisələrin qarşısı alınr, vaqon və lokomotivlərin sıradan çıxması baş vermir.

ƏDƏBIYYAT SIYAHISI

1. Savçenko İ.E. «Dəmir yolu stansiya və qovşaqları» **(Kitab).** Moskva.Transport.1980: 1-479
2. Bukanov M.A. « Stansiya növbətçisinin məlumat kitabçası» **(Kitab).** Moskva.Transport.1984:
3. Qabulzadə.A.H. « Yol təsərrüfatı və stansiyalar. »**(Kitab).** Bakı.Təhsil. NPM.2006: 1-384
4. Azərbaycan Dövlət Dəmir Yolunun Texniki İstismar Qaydaları. **(Kitab).** Bakı.2000: 1-252
5. Azərbaycan Dövlət Dəmir Yolunun Qatarların hərəkəti və manevr işlərinə dair Təlimatı. **(Kitab).** Bakı.2001:

OVUNTU POLADLARIN YEYİLMƏYƏDÖZÜMLÜLÜYÜNƏ KİMYƏVİ TƏRKİBİN TƏSİRİNİN TƏDQİQİ

QƏHRƏMANOV VURĞUN
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
MÜHƏNDİSLİK/MÜHƏNDİSLİK ELMLƏRİ
qehremanovvurqun@gmail.com
XIRDALAN /AZƏRBAYCAN

XÜLASƏ .
Sənayenin inkişafı ilə əlaqədar olaraq texnikanın müxtəlif sahələrində statiki və dinamiki möhkəmlik, kövrək dağılmalara qarşı müqavimət, yeyilməyədözümlülük və korroziyayadzümlülük tələb olunur. Qeyd edilən bu parametrlər detalların, maşın və mexanizmlərin, o cümlədən texnoloji avadanlıqların etibarlılığını təmin edir. Bütün bunları nəzərə alaraq maşın və mexanizmlərin sıradan çıxmasına əsas səbəb kimi avadanlıqların səthin yeyilməsi göstərilir. Əsasən detalın tez yeyilmə-sinə səbəb, abraziv və aktiv mühitlərdə eyni vaxtda yüklənməsi, yüksək temperatur və səthdə baş verən sürüşmədir.
AÇAR SÖZLƏR: korroziyayadözümlülük, abraziv yeyilmə, ovuntu, legirləmə, bərk-lik, detal, presləmə, temperatur, dissosasiya

GİRİŞ.

Konstruksiya və alət materiallarından hazırlanmış kəsici və ştamp poladlarının struktur analizindən aydın olmuşdur ki, maşın detallarının intensiv yeyilməsinə səbəb olan amillərdən biri də legirləmə prosesidir. Yüksəklegirli alət poladları və bərk ərintilərdən hazırlanmış maşın hissələri güclü yeyilməyə və sürtünməyə məruz qaldığından, onlarda baş verən proseslər daha ciddi şəkildə öyrənilməlidir. Ona görə də ovuntudan hazırlanan hissələrin yeyilməyədözümlülüyünə kimyəvi tər-kibin təsirinin araşdırılma-sı aktual məsələdir.

TƏDQİQATIN METODU.

İlkin olaraq ovuntu poladlarının zərblə-abraziv yeyilməyədözümlülüyünün artırılması üçün, legirləmə prosesinin araşdırılmalıdır. Legirləmə prosesi ilə məmulatların bərkliyini, özlülüyünü və möhkəmliyini artırmaqla, yeyilməyədözümlülüyünü də artırmaq mümkündür. Bu səbəbdən də işdə əsas məqsəd kimyəvi tərkibin və strukturun homogenləşməsini öyrənməklə, ovuntu poladlarından hazırlanmış məmulatların zərblə-abraziv yeyilməyədözümlülüyünü müəyyənləşdirməkdir.

Nümunələrin hazırlanması zamanı istifadə edilən legirləyici elementlər qismində ən səmərilisi xrom və nikeldir. Ovuntu şixtəsinin hazırlanması üçün əsası ПЖВ3.160.26 markalı dəmir ovuntusu, ГК-3 markalı karandaş qrafiti, ПВ-Х18Н15-056 və ПР-65Х25Г13Н3 markalı polad ovuntusu və ПНК-1Л5 markalı nikel ovuntusu götürülmüşdür. Müxtəlif tərkibli ovuntular konusvari qarışdırıcıda 2 saat müddətində qarışdırılmış, 600 MPa təzyiq altında statiki soyuq presləmə əməliyyatına uğradılmışdır. Preslənmiş nümunələr 1150 ^{0}C temperaturda disossasiya olunmuş amonyak mühitində 2 saat müddətində bişirilmişdir. Hər şixtədən müxtəlif kimyəvi tərkiblərə malik olan 6 nümunə hazırlanmış, 3 müxtəlif termiki emal əməliyyatlarına uğradılmışdır.

Qrafitin şixtədə 1%-dən 2,5%-ə qədər artması zamanı yeyilmə 0,033 qrama qədər artmış, bu səbəbdən də nümunələrin səthində kələ-kötürlüyün dərinliyi artmağa başlamışdır (şəkil 2, a və b). Aparılmış sınaqlardan məlum olmuşdur ki, ən yüksək bərklik tərkibində 2% qrafit olan ovuntu şixtəsindən hazırlanmış nümunələrdə əldə olunmuşdur. Yeyilməyədözümlülüyün təyin edilməsi üçün istifadə edilən nümunələrin əksəriyyətinin tərkibində 1,2%-ə qədər qrafit olmuşdur

Yeyilməyədözümlülüyün təyin edilməsi üçün istifadə edilən nümunələrin əksəriyyətinin tərkibində 1,2%-ə qədər qrafit olmuşdur. Nümunələrin yeyilməyədözümlülüyü, zərbə enerjisi 4,9 Coul/sm2 , zərbə sü-rəti isə 1,6 m/san olan sınaqlarda öyrənilib.

Nümunələrin bişirilməsi zamanı kimyəti tərkibdə olan qrafitin rolu böyükdür. Belə ki, bişir-mə zamanı tərkibdə olan qrafit, bişirmə prosesinə (temperatur və müddətə) təsir etdiyi kimi, alınmış nümunələrin yeyilməyədözümlülüyünə də təsirsiz ötüşmür. Ümumiyyətlə, sınaqların həyata keçiril-məsi üçün istifadə olunan nümunələrin tərkibində olan qrafit sərbəst və karbon şəklində olmuşdur. Tərkibdə olan qrafitin və karbonun miqdarının bişirmə prosesindən sonrakı təsirini araşdırılmış. Bu-rada alınmış nəticələr əsasən tərkibində 0,6-0,8% qrafit və 0,12-0,14% karbon olan nümunələrə aiddir [3].

Nümunələrin yeyilmə xarakterini müəyyənləşdirmək üçün yeyilmiş səthin relyefini qiymət-ləndirmək kifayət edər. Əgər polad yüksək olmayan (tərkibində karbonun miqdarı 0,5%-dən az ol-mamaq şərti ilə) bərkliyə malikdirsə, bu zaman yeyilmə zonasında plastiki deformasiyanın baş ver-məsi müşahidə olunur. Abraziv yeyilmə zamanı legirləyici elementlərin məmulatın səthindən kiçik hissəciklər formasında dağılaraq səthdə baş verən yeyilmə prosesini bir qədər sürətləndirir. Bu pro-ses o zaman baş verir ki, hər hansı bir legirləyici elementlərin ayrı-ayrılıqdakı bərkliyi, nümunənin matrisasının bərkliyindən yüksək olsun. Əksər hallarda bərkliyi matrisaya nisbətən yüksək olan le-girləyici elementin hissəcikləri yeyilmə zonasında kələ-kötürlüyün yaranmasına səbəb olmaqla, səthin relyefini tamamilə dəyişir. Şəkil 2-dən (a) göründüyü kimi tərkibində 0,5% karbon (qrafit) olan nümunələrin səth qatında yeyilmə zamanı plastiki deformasiya baş verir [4]

Ovuntu poladlarının tərkibində qrafitin miqdarı 1,5%-dən artıq olanda, yeyilməyədözümlü-lük aşağı düşür, ikinci sementitin miqdarı isə artır. İkinci sementinin miqdarının artması əsasən his-səciklərarası sərhəddə baş verir və bu zaman nümunələrin bərkliyi 700 HV-dən 1000 HV-ə qədər artır. Sementit zərblə-abraziv yeyilmə prosesini sürətləndirir, kövrək olduğundan asanlıqla hissəcik-lərə parçalanaraq, özləri abraziv hissəciklərə çevrilirlər [1]. Bu zaman məmulatın səthi yeyilməsi daha da sürətlənir. Rentgenostruktur analizi zamanı müəyyən olunmuşdur ki, bu zaman strukturda olan faza 100% dəmir karbidindən ibarət olmuşdur

Tərkibdə olan qrafitin miqdarının artması ilə yeyilmə prosesi də sürətlənir və bu isə öz növ-bəsində yeni məsamələrin yaranmasına səbəb olur. Qrafit strukturda boşluqların olması hesab edil-diyindən, materialın məsaməliliyinin artmasına da gətirib çıxardır. Ümumiyyətlə isə qrafit bişirmə zamanı austenitdə yüksək həll olma qabiliyyətinə malikdir.

Yüksək məsaməli materiallarda sürtünmə və yeyilmə prosesi, kompakt materiallara nisbətən daha intensiv baş verir. Məsaməli materiallarda sürtünmə zamanı səthdən qopan dispers hissəciklər, məmulatın səthinin yeyilməsini sürətləndirir.

Tərkibində yüksək miqdarda qrafit olan nümunələrin səthində kələ-kötürlüyün ölçülərinin azalması, yeyilmə mexanizminin dəyişməsinə səbəb olan əsas amillərdən biridir. Məlumdur ki, tər-kibdə olan karbo-nun miqdarının artması ilə poladların bərkliyi artır, plastikliyi azalır. Bu isə öz növ-bəsində poladların yeyilməsi zamanı kövrək dağılma hadisəsini yaradır, bərk struktur formalaşma-sını əmələ gətirir [3]

Ovuntu şixtəsinə əlavə olunan ПВ-Х181115-56 və ПР-65Х25Г13Н3 markalı korroziya-yadözümlü polad ovuntusu alınan nümunələrin zərblə-abraziv yeyilməyədözümlülüyünü artırır. Bu zaman ovuntu şixtəsinin tərkibində 20% liqatur olmuşdur. Yeyilməyədözümlülüyün müqayisəli təh-lili zamanı aydın olmuşdur ki, ən yüksək nəticələr ПР-65Х25Г13Н3 markalı bərpa olunmuş ovun-tulardan hazırlanmış nümunələrdə alınmışdır.

Şixtənin optimal tərkibə çatdırılması üçün riyazi planlaşdırma metodundan istifadə edilmiş-dir. Bu metod bir qayda olaraq təcrübələrə söykənən nəticələr əsasında qurulur və bunun üçün də-yişən amillər və bir sıra parametrlər nəzərə alınmalıdır

Tərkibə verilən qrafit qismində ГК-3 markalı qrafitdən, xrom qismində ПР-65Х25Г13Н3 markalı liqaturdan və ПНК-1Л5 markalı karbonil-nikel ovuntusundan istifadə edilmişdir. Bununla da kimyəvi tərkibin yeyilməyədözümlülüyə təsiri aydınlaşdırılışdır.

Nümunələrin alınma texnologiyası; 2 saat müddətində ovuntu şixtəsinin qranulrışdırılması, 600 MPa təzyiq altında preslənməsi, 2 saat müddətində 1150 ^{0}C temperaturda bişirilməsi, termiki emalı (940 ^{0}C-də yağda tablalma və 200^{0}C-də aşağı-temperaturlu tabəksiltmə) proseslərdir. Sonda alınmış nümunələr zərblə-abraziv yeyilmə sınaqlarına uğradılır. Zərblə-abraziv yeyilməyədözümlü-lüyün təyin edilməsi zamanı zərbə enerjisi 4,9 kCoul/sm, zərbənin sürəti isə 1,6 m/san təşkil etmiş-dir. Alınmış təcrübə nəticələri müqayisə edilmiş, statistikası tərtib edilmiş, məlum olmayan əmsallar və bir sıra amillər nəzərə alınaraq, aşağıdakı (1) ifadə alınmışdır.

$$\Delta m = 0{,}068 + 0{,}0029Cr - 0{,}0172Ni + 0{,}017Ni^2 \quad (1)$$

İstifadə etdiyimiz (1) ifadəsində göründüyü kimi mütləq yeyilmənin qiyməti əsas olaraq tər-kibdə olan xrom (Cr) və nikeldən (Ni) asılıdır. Zərblə-abraziv yeyilmə sınaqlarına uğradılan nümu-nələrin tərkibində olan xrom, ПР-65Х25Г13Н3 markalı ovuntu şəklində (liqatur şəklində) əlavə edilməklə əldə olunmuşdur. Bu zaman nümunələrin yeyilməsi xromun miqdarının dəyişməsi ilə müxtəlif qiymətlər almışdır. Şixtəyə əlavə olunan 4%-ə qədər nikel, gözlənildiyi kimi nümunələrin yeyilməsini intensiv olaraq azaltmışdır. Lakin şixtədə olan nikelin miqdarı 4,5-5% həddində olduq-da bunları demək mümkün olmamışdır. Belə ki, tərkibdə nikelin miqdarı 4,5-5% olduqda, nümunə-lərin səthi yeyilməsi zamanı müxtəlif səthi əyilmələr,

kənarların deformasi-yası, lokal (yerli) yeyil-mə şəraiti əmələ gəlir [6]. bu zaman nümunələrin kütlə itkisi isə 0,01-0,04 qram təşkil edir

Tərkibində nikel olmayan nümunələrin zərblə-abraziv yeyilmə sınaqlarından əldə olunan mik-rostruktur-larının analizindən aydın olmuşdur ki, sınıqların yaranma səbəbləri kimi əsas çatların ya-ranmasıdır (şəkil 2, ağ sahələr). Bu zaman ПР-65Х25Г13Н3 ərintisi (ağ sahə) ilə ayrılma sərhəddi əmələ gətirən çatların yaranması zərblə-abraziv yeyilmə zamanı dağılma prosesini intensivləşdirir. Nəticədə hissəciklərarası əlaqə qüvvəsinin azalması daha da sürətlənir, nümunə asanlıqla defor-masiyaya müqavimətini itirərək dağılır. Bu səbəbdən də ПР-65Х25Г13Н3 markalı ovuntu hissəcik-lərindən hazırlanmış nümunələrdə səthin yeyilməsi bilavasitə tərkibdə olan xromun miqdarından asılı olaraq dəyişir.



Şəkil 1. Fe-Cr-Ni-C (qrafit) əsaslı bişirilmiş poladların yeyilməsinin tərkibdə olan xrom (Cr) və nikeldən (Ni) asılılığı

Tərkibində xrom olan nümunələrin yeyilmə prosesinin belə modeli, xətti xarak-ter daşıyır (şəkil 1). Nikellə legirlənmiş ovuntu poladlarının yeyilməyədözümlülüyünün artırılması bişirmə zamanı diffuziyanın baş verməsi ilə əlaqəli olaraq dəyişir.

Bişirmə zamanı ПР-65Х25Г13Н3 markalı ovuntu hissəcikləri ilə nikel və dəmir hissəciklə-rinin əlaqə qüvvəsi artdığından zərblə-abraziv yeyilmə zamanı çatların əmələ gəlməsi xeyli ləngiyir (şəkil 2, b). Aparılmış təcrübələrdən məlum olmuşdur ki, legirli ovuntu poladlarının yeyilməyədö-zümlülüyünə təsirinə görə qrafit az əhəmiyyətlidir. Bu onunla izah olunur ki, yeyilməyədözümlülü-yünə təsirinə görə struktur formalaşması daha vacibdir. Belə ki, tərkibdə olan qrafit səthi yeyilmə prosesində elə də önəmli rol daşımır, səthin dağılması prosesində rolu demək olar ki, çox azdır. An-caq nümunələrin struktur formalaşmasının lazımi səviyyədə olması nümunələrin bütün səthi və həc-mi boyu yeyilməyədözümlülüyünü artırır. Lakin bu deyilənləri qrafit üçün demək bir qədər çətindir. Çünki qrafit səthə yaxın zonalarda bərk yağlayıcı rolunu oynasa da, məmulatın daxilində gərginlik mənbəyi kimi qalaraq etibarlılığı azaldır.



a x64 b

Şəkil 2. Zərblə-abraziv yeyilmədən sonra nümunələrin səthinin mikrostrukturu, x640,
a- Fe(əsas)+Гр(1,2%)+Cr(2,7%)+Ni(2,5%),
b- Fe(əsas)+Гр(1,2%)+Cr(2,7%)+Ni(5%)

Təcrübələrdən alınmış ümumi nəticələrə əsasən onu demək olar ki, zərblə-abraziv yeyilməyəyədözümlülüyün artırılması üçün kimyəvi tərkib kifayət etmir. Belə ki, zərblə-abraziv yeyilməyədözümlülüyün yüksək olması üçün kimyəvi tərkibdən başqa legirləyici elementlərin homogenləşmə dərəcəsi, bişirmə zamanı diffuziya və digər amillər böyük rol oynayır.
Tərkibdə xrom və nikelin miqdarı kütləyə görə 5%-ə qədər olduqda, yeyilmə böyük intervalda dəyişir. Bir çox poladlarda nikelin miqdarı, hətta 4-5%-ə qədər ola bilir. Bu halda tərkibdə xrom və nikeldən başqa qrafitin olması da vacib hesab edilir, lakin qrafitin miqdarından başqa yeyilməyədözümlülüyə təsir edən ikinci böyük amil təcrübələrin düzgünlük dərəcəsidir.

NƏTİCƏLƏR:

1. Təcrübələrin aparılması zamanı məlum olmuşdur ki, ən yaxşı yeyilməyədözümlü ovuntu poladları, tərki-bində bircins paylanmış 0,8-1,0% karbon, 3,5-4% xrom və 4-5% nikel olan ovuntu poladlardır.
2. Müəyyən edilmişdir ki, ovuntu poladlarının tərkibində olan xrom karbidi bərk struktur təşkiledicisi olsa da, zərblə-abraziv yeyilməyədözümlülüyü aşağı salır.
3. Ovuntu poladlarının məsaməliliyi zərblə-abraziv yeyilməsi zamanı gərginliklər konsentrasiyasının yaran-masına səbəb olur və çatların yayılması sahəsini genişləndirir. Təcrübələr göstərir ki, nümunələrin qa-lıq məsaməliliyinin azalması ilə yeyilmə də azalır.
4. Zərblə-abraziv yeyilmə şəraitində işləyən legirli ovuntu poladlarının bişiril-mə rejimi, hissəciklərarası möhkəm əlaqəni və legirləyici elementlərin həcm boyu bərabər paylanmasını təmin etməlidir.

İSTFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Анциферов В.Н.,Акименко В.Б. Спеченные легированные стали. М: «Металлургия», 1983. 88с.
2. Виноградов В.Н., Сорокин Г.М., Колокольцев М.Г. Абразивное изна-шивание.-М.: Машинострое-ние, 1990-224с: ил.
3. Цыркин А.Т. Исследование особенностей получения, структуры и свойств металлокерамических материалов для тяжелонагруженных узлов тепловоза. Дисс. ...к.т.н. Новочеркасск 1970.
4. Тененбаум М.М. Сопротивление абразивному изнашиванию. М: Машиностроение, 1976. 270 с.
3. 5. Виноградов В.Н. и др. Изнашивание при ударе.—М .Машинострое-ние, 1982-192 с. Дубинин Г.Н. “Диффизионные покрытия на металлах”, Киев, Наука думка, 1985, 420с.
6. Мищенко А.Н. Повышение долговечности объемноармированных изделий работающих в условиях абразивного и ударно-абразивного изнаши-вания за счет использования в качестве основы нестабиль-но-аустенитных сталей. Дисс.канд. техн. наук.-Новочеркасск.: 1984.-186 с.

AZƏRBAYCANDA TERMAL SULARDAN ELEKTRİK ENERJİSİ İSTEHSALINDA İSTİFADƏ ZAMANI GÖZLƏNİLƏN SƏMƏRƏLİLİK

M.M.Bəşirov, E.Cəfərzadə (qr.1080a)
Bakı Mühəndislik Universiteti,Azərbaycan, Xırdalan şəhəri,H,Əliyev küç.120, AZ 0101
mbashirov@beu.edu.az

Azərbaycan Respublikasının zəngin enerji resursları potensialına malik olması onun inkişafına və dünyada tanınmasına imkan verir. Bu resurslar içərisində xüsusi yer tutan termal və mineral suların çox cüzi bir hissəsindən istifadə edilir. Bu tip sulardan geniş miqyasda və səmərəli istifadə etməklə respublikamızda bir çox yeni təsərrüfat sahələri–mineral sudoldurma müəssisələri, kimya və energetika sənayesi, tibbi sağlamlıq ocaqları, turizm və rekreasiya obyektləri yaratmaq olar ki, bu da ölkədə əmək ehtiyatlarının işlə təmin olunmasına müsbət təsir edər. Bunun nəticəsində işsizlik problemi qismən də olsa aradan qaldırılar, iaşə müəssisələri genişlənər, turistlərin ərzaq məhsullarına olan tələbatlarının ödənilməsi üçün kənd təsərrüfatı sahələri inkişaf etdirilər. Ancaq müasir dövrdə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələrində termal və mineral sulardan göstərilən bütün sahələrdə səmərəli istifadə edilir və onlardan əlavə gəlir mənbəyi kimi xeyli qazanc götürülür.

Azərbaycanda çoxsaylı mineral və termal suların az bir hissəsi müxtəlif məqsədli istismara cəlb edilmişdir. Halbuki, sahəcə və əhalisinin sayına görə demək olar ki, eyni olan Macarıstanda mövcud olan termal sulardan səmərəli istifadə edilməklə ölkəyə hər il öz sağlamlıqlarını bərpa etmək üçün inkişaf etmiş ölkələrdən milyonlarla turist gəlir. Bunun nəticəsində işsizlik problemi azalır, iaşə müəssisələri genişlənir, kənd təsərrüfatı sahələri güclü inkişaf edir. Başqa sözlə ölkədə turizmin inkişafı ölkə xalq təsərrüfatının bir çox sahələrinin inkişafı üçün zəmin yaradır. Turizmin son illərdə yüksək dərəcədə inkişafı ilə əlaqədar Macarıstanın ümumi daxili məhsul istehsalı 2016-cı ilin nəticəsinə görə 132,683 milyard dollar olduğu halda, 2017-ci ildə bu rəqəm 140,328 milyard dollara qədər yüksələcəyi proqnozlaşdırılır [1]. Macarıstanın çoxsaylı termal suları əsasında ölkəyə müalicə məqsədi ilə gələn turistlərin sayı artaraq 5-6 milyon nəfər təşkil edir. Əhalisi cəmi 18 min nəfər olan Adisobobo şəhərində 150-dən çox otel, mehmanxana, kempinq fəaliyyət göstərir. Şəhərdə il boyu fəaliyyət göstərən mehmanxana və otellərdə müalicə və istirahət məqsədi ilə gələnlər 100 min nəfərlərlə hesablanır. Göstərilən kiçik bir şəhərdə il boyu fəaliyyət göstərən və üstü örtülü hovuzdan istifadə edənlərin illik sayı 200-250 min nəfər təşkil edir. Belə hovuzun illik gəliri 1-1,5 milyon avro təşkil edir.

Azərbaycan Respublikasında mövcud olan termal suların istismar ehtiyatı 249000 m^3/sutka təşkil edir. Termal sular Azərbaycanda, o cümlədən Böyük Qafqazın Azərbaycan hissəsində çox geniş yayılmasına baxmayaraq, onların çox cüzi bir hissəsindən yalnız əhalinin sağlamlığının bərpası və istirahət məqsədi üçün istifadə edilir.

Azərbaycanda mineral su mənbələri 200 qrupda cəmlənmişdir ki, onların da 1000-dən çox təbii çıxışları mövcuddur. Lakin onlardan yalnız 30 qrupa qədər mineral su mənbələrində geoloji kəşfiyyat işləri aparılaraq istismar ehtiyatları müəyyən edilmişdi. Azərbaycanda mineral suların sayı 1000-dən çox olmaqla onun 90%-dən çoxu və ya 905-i dağlıq ərazilərdə, qalan 95-i isə düzən ərazilərdə yerləşir.

İstismar ehtiyatları daima bərpa olunan termal sulardan Azərbaycanın bir çox bölgələrində həm də elektrik enerjisi alınmasında istifadə olunarsa bu, həm karbohidrogenlərə qənaət etməyə şərait yaradar, həm də iqtisadi baxımdan tez bir zamanda çəkilən xərcləri ödəyər.

Müqayisə üçün ümumi gücü $W = 7mVt = 7 \cdot 10^3 kVt$ olan və qaz yanacağı ilə işləyən kiçik İES-lərdə termal sulardan istifadə ediləcəyi halda gözlənilən iqtisadi səmərənin hesablanmasına baxılmışdır. Belə ki, mövcud kiçik İES-lərdə elektrik enerjisi almaq üçün istifadə edilən suyun temperaturu təqribən 15°C- dən başlayaraq qızdırılır, yəni həmin suyun 15°C- dən termal suyun çıxma temperaturuna qədər (məsələn 80° C-dək) qızdırmaq üçün müəyyən xərc tələb olunur. Əgər kiçik İES-lərdə birbaşa termal sulardan istifadə edilərsə 15°C temperaturlu suyu 80°C-ə qədər qızdırmaq üçün çəkilən xərc iqtisadi səmərəlilik hesab olunar.

Əvvəlcə 1m^3 suyu 15°C-dən 80°C-dək qazla qızdırmaq üçün $(\Delta t = 65° C)$ çəkilən xərc hesablanmışdır. Belə ki, suyun xüsusi istilik tutumu $c = 4{,}19 \frac{kC}{kq \cdot °C}$ [2,3], yəni 1 kq suyu 1°C qızdırmaq üçün lazım olan istilik enerjisinin miqdarı 4,19 kC-dur. Onda, 1m^3 (1000 kq) suyu Δt = 65°C qızdırmaq üçün lazım olan istilik enerjisinin miqdarı istilik balansı tənliyindən [2,3] aşağıdakı kimi hesablanır:

Q = cmΔt, kC (1),

burada m – suyun kütləsidir, [kq]. Onda (1)-dən alarıq:

Q = 4,19 · 1000 · 65 = 272350 kC = 272,35 mC. (2)

Kiçik İES-lərdə istifadə olunan qaz qızdırıcılarının faydalı işinin 85% $(\eta = 0{,}85)$ [2,3] olduğunu nəzərə alaraq (2)-dən 1000kq suyu 65°C qızdırmaq üçün lazım olan istilik enerjisinin miqdarı:

$Q_{qaz} = \frac{Q}{\eta} = \frac{272.35}{0{,}85} = 320.4$ mC olar. (3)

Təbii metan qaz yanacağının aşağı yanma istiliyi $q = 35{,}845 \frac{mC}{m^3}$ götürülür [2,3] . Onda 1m^3 (1000 kq) suyun qızdırılması üçün $(\Delta t = 65° C$ olduqda) lazım olan qazın həcmi aşağıdakı kimi tapılar:

$V = \frac{Q_{qaz}}{q} = 8.94$ m^3. (4)

Azərbaycan Respublikasında hal-hazırda 1m^3 təbii qazın elektrik enerjisi istehsalçıları üçün topdansatış qiymətinin 12qəp=0,12 man olduğunu nəzərə alsaq [4,5], istifadə olunacaq 8.93 m^3 qazın qiyməti X_{qaz} = 8.93 · 0,12 = 1.07 man olar.

Kiçik İES-lərdə elektrik enerjisi almaq üçün istifadə edilən müasir turbinlərdə 1kVt qoyuluş gücünə düşən suyun xüsusi sərfiyyatının orta qiymətini $X_{sərf}$ = 0,2 $\frac{m^3}{kVt \cdot saat}$ qəbul etsək [2,3], onda hesabat aparılan $W = 7mVt = 7 \cdot 10^3 kVt$ gücünə malik elektrik stansiyası üçün qızdırılması lazım olacaq suyun həcmi:
$M = W \cdot X_{sərf} = 1400\ m^3$
olacaqdır.
Burada $W=7 \cdot 10^3$ kVt gücündə olan və qaz yanacağı ilə işləyən kiçik İES-lərdə 1 saatda tələb olunan $M=1400m^3$ suyu $\Delta t = 65° C$ qızdırdıqda lazım olan xərc iqtisadi səmərəlilik hesab olunur və aşağıdakı kimi tapılır:
$İ.S_{saat}=1400 \cdot 1.07= 1498$ man
İllik iqtisadi səmərəlilik isə: $İ.S_{illik}=İ.S_{saat} \cdot 24 \cdot 365=13122480$ man olacaqdır.
Göstərilən ardıcıllıqla Δt-nin müxtəlif qiymətləri üçün də $İ.S_{illik}$ hesablanır və termal suların temperaturuna $(t = \Delta t + 15°C)$ uyğun cədvəl 1-də verilmişdir:

Cədvəl 1.

t,°C	30	40	50	60	70	80
$İ.S_{illik}$,man	3 035 786	5 052 768	7 083 500	9 107 358	11 131 215	13 122 480

Cədvəl 1-ə əsasən $İ.S_{illik}=f(t)$ asılılığının qrafiki şəkil 1-də verilmişdir:



Şəkil 1. $İ.S_{illik}=f(t)$ asılılığının qrafiki

Şəkil 1-dən gürünür ki, termal suların temperaturları artdıqca onlardan elektrik enerjisi istehsalında istifadə etdikdə gözlənilən iqtisadi səmərə də artacaqdır.

Ədəbiyyat siyahısı

1. http://az.wikipedia.org/wiki/Macar%C4%B1stan#sitat_istinad-imf2_6-0
2. Абрамов Н.Н. Водоснабжение. Учебник для вузов. Изд. 2-е перераб. и доп. М., Стройиздат, 1974, 480с.
3. Кудинов А. Тепловые электрические станции. Схемы и оборудование. М., 2014, 315 с.
4. http://www.tariffcouncil.gov.az/?/az/content/66/
5. http://tariff.gov.az/?/az/news/view/145/

Müəlliflər haqqında məlumat:

1. Bəşirov Mahir Məcnun oğlu- Bakı Mühəndislik Universiteti, "Magistratura və doktorantura" şöbəsinin müdiri, həmin Universitetin "Avtomatika və elektroenergetika" kafedrasının professoru, texnika elmlər doktoru. Alternativ enerji resuslarının istilik-fiziki xassələrinin tədqiqi.
2. Cəfərzadə Elvin- Bakı Mühəndislik Universiteti, Mühəndislik fakültəsi, qrup 1080a tələbəsi.

INCREASE OF NEW PROPOSED BALL VALVE WORKABILITY BY PROVISION OF NEW DESIGN FOR THE SEALING ELEMENT

JAMALADDIN ASLANOV
Azerbaijan State Oil and Industry University
Dept. of Mechanical Engineering
tribo72@mail.ru
BAKU, AZERBAIJAN

KHALIG MAMMADOV
Azerbaijan State Oil and Industry University
Mechanical Engineering
khalig.mammadov1993@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT

Thesis is dedicated to the study the increase of workability for improved ball valve. A new Solidworks model for studied ball valve has been produced considering the main parameters of the construction. The distrubition of the forces over modelled hermetic element is obtained from commercial CAD program. A simulation run to identify the maximum displacement of seal for suggested new construction. By applying proposed change to sealing element it is managed to maintain the approximate equal distrubition of pressure over the seal surface, and consequently to decrease displacement of the item. As a result of simulation, it has been summarized that increase of ball valve's workability can be gained by changing its seal construction, which is part of its hermetic elements.

KEYWORDS: BALL VALVE, SEALING ELEMENT, WORKABILITY, HERMETIC ELEMENTS

INTRODUCTION

Ball valve is one of the main unit which is being currently used in oil and gas industry in order to direct the flow or shut on/off the movement of fluid in the pipeline. They are also a type of the constructions which considered as quick closing device in case of emergencies as well as their performances are evaluated to be durable, reliable, after even having the many cycles [1]. They are mostly being used in industries in comparision with the globe and gate valves, considering those kind of closing devices are designed to be more felxible in applications.

They are used not only in environments requiring low pressure and low temperature, but also in environments requiring high pressure and high temperature [2,3].

It reaches its working pressure of 100 MPa, at temperature of 400 °C based on the materials used for construction and design parameters defined to construct the unit. It's constructed at several dimensions and range varies from 5.1 to 1,219.2 mm [4,5].

Despite several improvements made to its constructions, the sealing problem in ball valve constructions remain the main issue and could not be fully solved. It makes further studies important to carry out in order to increase workability and reliability of the construction.

In current study the hermetic elements of existing structures reviewed, and a new solution proposed in order to increase the workability of ball valves. The thesis is consisted of Abstract, keywords, introduction, methods used for research, result and literature.

METHODS OF RESEARCH

Sealing elements of the ball valve are considered its main pats which are under intenious loading condition and work against wear and tear. It is consequently being lost at the result of wear-tear simultaneous affect. Due to specified reasons, it is paramount to determine the shapae and size as well as the material of sealing elements for a valve construction.

One of the main reasons for rejection of valve is due to its hermetic elements which is working under harsh wearing condition and exposed relevantly to the types of abrasive wear. Intensity of seals working conditions lead them to fail earlier than the time indicated in its technical passport. Wear and tear accalarate working surfaces degradation by keeping them under certain unequally distrubited pressure.

The current research has been conducted by using the solidworks program and run several simulations to evaluate the effectiveness of new proposed seal construction which has a profile of trapezoid cross section. The main aim of this research is to verify the working condition of new seal model as a part of ball valve hermetic element and visualize the distribution of displacement as well as Equivalent Strain over the surface of the consruction.

New proposed sealing element has a trapezoid shape cross section. It is considered fixed onto 2 roller supports in Solidworks to run the simulation. Standard used for material is AISI and chosen material is AISI 316 SS. Model type has been chosen as Linear Elastic Isotropic based on the modelling configuration of solidworks.

Default failure critertion is based on Max von Mises Stress method and tensile strengh considered to be more than 580 N/m^2 for the material chosen. Elastic modulus is and poisson's ratio also have been chosen based on the material being used for development of the valve hermetic element. The overall specific details for the chosen material is as per the information given in Figure 1.

Model Reference	Properties	
	Name:	**AISI 316 Stainless Steel Sheet (SS)**
	Model type:	**Linear Elastic Isotropic**
	Default failure criterion:	**Max von Mises Stress**
	Yield strength:	**1.72369e+08 N/m^2**
	Tensile strength:	**5.8e+08 N/m^2**
	Elastic modulus:	**1.93e+11 N/m^2**
	Poisson's ratio:	**0.27**
	Mass density:	**8,000 kg/m^3**
	Thermal expansion coefficient:	**1.6e-05 /Kelvin**

Figure 1. Parameters of chosen steel materials for simulation

The new improved valve proposal is designed to resist 70MPa and its nominal diameter is 65mm. The simulation standard is prepared based on these two main parameters.

The gained results are based on the visualization of pressure, strain distribution (Fig.2) over the valve hermetic element and also the displacement (Fig 3), caused by such a distribution. Reaction forces for entire system over XYZ axis extracted during simulation and several comparisions made in order to determine the optimium of proposed new model's material withstanding point for displacement.

To solve the problem meshing model of solidworks program is utilized.



Figure 2. Maximum displacement of the new proposed element



Figure 3. Maximum strain of the new proposed element

RESULT

1. Improved ball valve's sealing element is modelled in solidworks and it is tested for pressure disturbance and displacement
2. As a result of simulations, it is observed that one of the ways to increase workability of ball valves is to change the construction of sealing element.
3. Comparisions of simulations proved that trapezoidal cross sectioned sealing element is able to withstand 70MPa pressure for proposed construction. Gained approximate equal pressure disturbition over the sealing element will consequently decrease the displacement.

1. LITERATURE

1. Aslanov J.N., Abasova S.M., Huseynli Z.S. "The Management of Characteristics of the new two-layer rubber matrix seals", Eureka Physics and Engineering, Vol.5, pp. 60–68, September 2021.
2. Satish M. S., Vilas B. S. "Design Optimization and Analysis of 12”-150 # Ball Valve for Weight Reduction", International Journal of Research and Analytical Reviews (IJRAR), Volume 6, Issue 2, pp. 488–494, May 2019.
3. Aslanov J.N., Baxman S. A., Habibov I.A., "Model Design for Predicting. The Efficiency of Improved Valve Constructions During Statistical Data Based Exploitation", IFAC-Papers Online, Vol. 52, No. 25, pp. 547–550, September 2019.
4. Zhang Z., Jia L., Yang L., "Numerical simulation study on the opening process of the atmospheric relief valve", Nuclear Engineering and Design Vol. 351, pp.106–115, 2019.
5. Babanlı M.B., Aslanov J.N., Mammadov G.A., Mammadov V.T., Features of the calculaton whole non stationary dynamic loadings for the downhole packer sealing. Science and Education. Materials of the XII International research and practice conference. 1-2 July, 2016. Munich, Germany 2016

YAĞLAMANIN DİŞLİ ÇARXLARIN İSTİSMAR KEYFİYYƏTİNƏ TƏSİRİ

QƏHRƏMANOV VURĞUN AĞAYEVA SEVİNC
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
MÜHƏNDİSLİK / MÜHNDİSLİK ELMLƏRİ MÜHƏNDİSLİK / MÜHNDİSLİK ELMLƏRİ
vqahremanov@beu.edu.az sagayeva3@std.beu.edu.az
XIRDALAN /AZƏRBAYCAN XIRDALAN /AZƏRBAYCAN

XÜLASƏ
Dişli çarxlarda yağlamanın tətbiqinin əsas məqsədi sürtünməni azaltmaq, faydalı iş əmsalını artırmaq, təmasda olan diş səthlərinin yeyilməsini və kontakt yorğunluğunu azaltmaq və uzunömürlülüyü artırmaqdır.

AÇAR SÖZLƏR. Dişli çarx, yağlama, temperatur, mineral yağ, fırlanan səth, yorğunluq

GİRİŞ.
Dişli çarxlar tribologiyasında yağlama xüsusiyyətləri on doqquzuncu əsrdən bəri müzakirə edilir, bunun ardınca bir çox mühəndis və tədqiqatçı dişli çarxların yağlama üsulları və vasitələri üzrə davamlı naliyyətlər əldə etmişdir. T.Sasaki və başqaları sürüşmə effektinin nəzərə alındığı fırlanan və təmasda olan iki silindr üçün fundamental maye yağlama nəzəriyyəsini irəli sürmüşdür.

TƏDQİQATIN METODU
D.Dowson və başqaları elastohidrodinamik yağlama (EHL) nəzəriyyəsini nəzərə alaraq dişlərin ilişməsi zamanı gərginliyin paylanmasını nəzəri olaraq təhlil etdi. Son bir neçə onillikdə EHL inkişafını və onun müvafiq praktik tətbiqlərini təqdim etdi (EHL nəzəriyyəsinə əsaslanaraq) və EHL araşdırmalarının gələcək yağlama prosesləri üçün vacib olduğunu vurğuladı [1]. Şəkil 1 -də mühəndislik təcrübələrində dişli çarx yağlamasının bir neçə növünü göstərilir.
Yağa batırmaqla dişli çarx cütünün Yağ şırnağı ilə dişli çarx Harmonik intiqalın konsistent
yağlanması cütünün yağlanması yağlanması



Şəkil 1

Dişli çarxların tətbiqində mineral yağlar və digər sürtkü yağları, məsələn, plastik yağlar, sintetik yağlar və s. geniş şəkildə istifadə olunur. Ədəbiyyatlarda müxtəlif yağ tipləri, onlara əlavə olunan müxtəlif növ yağ aşqarlar və həmin yağların təsir fərqləri göstərilmişdir. Konsistent yağla yağlama maye yağlamadan kəskin şəkildə fərqlənir çünki, burada quru sürtünmənin yaranma təhlükəsi vardır. Bəzi tədqiqatçılar tərəfindən iki sənaye dişli çarx yağının yağlama xassələrini müqayisə etmək üçün eksprimentlər aparılıb. Bu yağların biri mikropittinqə qarşı aşqar qoşulmuş parafinli mineral yağ, digəri isə bioloji parçalana bilən toksik olmayan mürəkkəb efir əsaslı (ester) yağ idi [2]. Azotlanmış polad dişli çarxlarda mikropitinq zədlərini qiymətləndirmək üçün standart mineral yağ və iki bioloji parçalana bilən efir əsaslı yağın iştirakında eksprimentlər tərtib etmişlər [3]. Nəticələr onu göstərmişdir ki, efir əsaslı yağlar mikropitinqə qarşı müqaviməti daha yaxşı təmin edir. Bu tədqiqat yüksək məhsuldarlıqlı və ekoloji cəhətdən təmiz olan dişli çarx yağları kimi bioloji parçalana bilən efir əsaslı sürtgü yağlarının potensial dəyərini ortaya çıxarır. Poli (alkilen qlikollar) və ya sintetik karbohidrogenlər kimi uyğun sintetik sürtkü yağları dişli çarxların kontaktı zamanı sürtünmə itgilərini və temperaturu azaltmaqla mineral yağlardan bir neçə dəfə daha uzun xidmət müddəti təmin edir. Lakin sintetik sürtkü yağlarının qiyməti ümumiyyətlə daha yüksəkdir.
Yağlama mexanizmi və onun dişli çarx mexanizmlərinə təsirini araşdırmaq məqsədi ilə triboloji modelləşdirmə üzrə bir çox nəzəri tədqiqatlar aparılmışdır. Yağlama xüsusiyyətlərinin dişli çarx

performansına təsiri ilə bağlı rəqəmsal tədqiqatlar arasında statistik və deterministik modellərə bölünə bilən EHL/Termal EHL (TEHL), qarışıq EHL və Plasto-EHL ilə bağlı araşdırmalar geniş şəkildə müzakirə olunur.

Rəqəmsal simulyasiyalardan başqa, yağlamanın dişli çarxlara təsirini başa düşmək üçün eksperimental araşdırmalar vacibdir. Dişli çarxların və ya ekvivalent komponentlərin sınaqları adətən müxtəlif iş şəraitində əsas yağların və aşqarların fərqlərini nəzərə alaraq, çox diskli maşınlarda, disk üzərində kürə (ball-on-top) aparatlarında və ya FZG dişli çarx sınaq qurğularında həyata keçirilir. Bundan əlavə, yağ qatının qalınlığı, səthin topoqrafiyası, mikrostruktur formasiyaları, temperatur və s. daxil olmaqla mühüm parametrlər hərtərəfli triboloji tədqiqatlarda müxtəlif eksperimental üsullarla xarakterizə edilə bilər.

Dişli çarxların yağlanmasında davamlı təkmilləşdirmələr aparılıb və tədqiqatların nəticələri praktiki tətbiqə gətirib çıxarıb. Tam yağla dolmuş, izotermik hamar səth şəraitində proqnozlaşdırılan yağ təbəqəsinin qalınlığı çox vaxt həddindən artıq qiymətləndirilmişdir. Errichello, EHL ilə bağlı bir araşdırma dərc etdi, buna əsasən Blokun ani temperatur nəzəriyyəsinin qarışıq yağlama və ya tam EHL yağlama rejimi üçün tətbiq oluna bilməyəcəyinə işarə etdi [4]. Olver EHL xüsusiyyətlərinin (yəni plyonka qalınlığı) və yağlama şəraitinin (yəni qarışıq və sərhəd yağlama) dişli mexanizmin işləməsinə təsirlərini həll etmək üçün dişli yağlama məqalələrini nəzərdən keçirdi. Ümumi bir nəticəyə gəlindi ki, tam su basmış, izotermik hamar səth şəraiti fərziyyəsi ilə proqnozlaşdırılan neft təbəqəsinin qalınlığı çox vaxt həddindən artıq qiymətləndirilmişdir. Errichello, EHL ilə bağlı bir araşdırma dərc etdi, əsasən Blokun flaş temperatur nəzəriyyəsinin qarışıq film və ya tam EHL rejiminə tətbiq oluna bilməyəcəyinə işarə etdi. Hazırkı işlər yağlamanın F.İ.Ə -na, materialın yorulma müqavimətinə və dinamikaya təsiri ilə bağlı müvafiq araşdırmalar, xüsusən də eksperimental araşdırmalar ilə bağlıdır. Bundan əlavə, müəlliflər tərəfindən əldə edilən son nəticələr dəstəkləyici sübut kimi təqdim edilib, müzakirə edilir. Bu araşdırmaların nəticələri dişli çarxların layihələndirilməsində istinad kimi çıxış edir.

Yağlamanın dişli çarxların mexaniki faydalı iş əmsalına təsiri

Dişli çarx ötürməsinin məhsuldarlığının ölçülməsi və proqnozlaşdırılması enerji sərfi, ətraf mühit və iqtisadi amillər baxımından dişli çarx sistemlərinin layihələndirilməsi və istismarında vacib məsələdir. Optimallaşdırılmış sürtkü yağlarından istifadə avtomobillər, külək turbinləri, təyyarələr və s. daxil olmaqla, müvafiq mexaniki sistemlərdə əhəmiyyətli dərəcədə enerjiyə qənaət olunmasına və emissiyaların azaldılmasına şərait yaradır. Dişli çarxlarda ümumi güc itgisi dişlər arasında yaranan sürtünmə, sürtkü yağının çalxalanması (churning) və sıxılması (squeezing) və çarx müqaviməti (gear windage) kimi səbəblərdən yaranır.

Dişli çarx ötürmələrində F.İ.Ə və güc itgisini araşdırmaq üçün termiki effektlər də nəzərə alınmaqla sürtünmədən baş verən güc itgiləri riyazi olaraq hesabla N;R. Bu zaman yoxlama üçün dişli çarxların məhsuldarlıq sınaqları aparıldı və enerjinin paylanmasında istiliyin təsirinin mütləq nəzərə alınması vurğulandı. Burdan belə nəticəyə gəlmək olar ki, ilişmə zamanı sürtgü yağının tempraturunu dəqiq təyin etmək üçün mütləq termo – mexaniki model tələb olunur. Bronshteyn və Kreiner, təkmilləşdirilmiş özlülük indeksinə malik dişli çarxlar üçün sürtkü yağlarının sürtünmə və yağın çalxalanmasından (churning) yaranan itkiləri əhəmiyyətli dərəcədə azaltdığı qənaətinə gəldilər. Bundan əlavə, yağların təzyiq – özlülük kompleksindən minimal asılılığı əhəmiyyətli dərəcədə enerji qənaətinə və aşınmaya qarşı (anti – wear) qabiliyyətinin artmasına gətirib çıxarır. Martins və başqaları kommersiya mineral yağları ilə müqayisədə bioloji parçalana bilən, aşağı toksikliyə malik, efir əsaslı yağlarla FZG sınaqları aparmaqla dişli çarxlarda F.İ.Ə - nı qiymətləndirdi. Nəticələr aydın şəkildə göstərirdi ki, bioloji parçalana bilən, toksiklik dərəcəsi az olan, efir əsaslı sürtgü yağı yüksək temperaturda işləyərkən belə daha az diş sürtünməsi yaradır və nəticədə mineral yağ ilə müqayisədə 1000 rpm-də FZG sürət qutusunun səmərəliliyinin 0,25% artmasına səbəb olur.. Onlar təyin etdilər ki, polialfaolefin sürtkü yağları mineral yağlarla müqayisədə enerji itkisini təxminən 10% azalma, poliqlikol ilə isə 20% azalma mümkündür. Müxtəlif sürtkü yağları üçün dişli çarxlarda yüklənmədən asılı itkiləri araşdırmaq üçün TEHL simulyasiyasını təklif edilir. Nəticələr sınaq testləri ilə təsdiq edilmişdir. Polialfaolefin və poliqlikol yağları mineral yağlarla müqayisədə daha az sürtünmə, istismar zamanı daha aşağı maksimum maye temperaturu və daha az güc itkisini təmin edir.

Aparılan təcrübələr eyni özlülük dərəcəsinə malik sürtkü yağlarının əsas yağ növündən və aşqardan asılı olaraq fərqli güc itgisi yarada biləcəyi qənaətinə gətirib çıxarmışdır. Eksperimental nəticələrə əsasən, PAGD əsaslı sürtkü yağları mineral yağlarla müqayisədə enerji itkisini təxminən 30% azalda bilər. MINR həmişə ən böyük enerji itkiləri göstəricilərinə sahibdir, PAOR və MİNA isə PAGD və MINR bir – birilərinə yaxın nəticələr göstərdi. Onlar həmçinin belə qənaətə gəldilər ki, işçi temperatur sürət qutusunun yükləmə qabiliyyəti və gücə qənaət baxımından ən vacib məhdudiyyətlərdən biridir, çünki çoxsaylı sürtkü

yağları termiki proseslərə qarşı həssasdır. Bundan belə nəticəyə gəlmək olar ki, dişli çarxların istismar göstəricilərini yaxşılaşdırmaq üçün keyfiyyətli və iqtisadi baxımdan səmərəli sürtgü yağlarına zəmanət verilməlidir.

Yağlama üsulu dişli çarx sisteminin F.İ.Ə -na əhəmiyyətli dərəcədə təsir göstərir və bu sahədə bir sıra təkmilləşdirmələr edilmişdir. Ötürücü şəbəkənin daha yaxşı işləməsi üçün təmas bölgəsində quru sürtünmədən yayınmaq lazımdır. Sürüşmə sürtünməsi dişli çarxlarda güc itkisinin əsas amillərindən biridir və bu da yağlama üsulu və vasitələrinin həlledici rolunu göstərir [4].

Li və başqaları kobud səthlərin tam yağlama/quru sürtünmə şəraitlərində yağlama parametrlərinin dişli çarxlarda sürtünmədən yaranan gücü itgisinə və məhsuldarlığa təsirini analitik olaraq tədqiq etdi. Nəticələr göstərdi ki, yağ təbəqəsinin qalınlığının artırılması məhsuldarlığını artırır, sürtünmədən yaranan güc itgisi isə azalır. Bu işdən belə nəticə çıxarmaq olar ki, ideal elestohidrodinamik yağlama (EHL) rejiminin yaradılması praktiki olaraq çətindir. Kontakt zamanı girişdəki yağ təbəqəsinin qalınlığı azaldıqca sürtünmə əmsalının artacağını və daha çox sürtünmədən yaranan gücü itkilərinə səbəb olacağını ümumiləşdirdi. Girişdəki yağ təbəqəsinin qalınlığı artmağa başlayanda, sürtünmə əmsalı tam yağlama şəraitinə uyğun gələn sabit dəyərə çatır.

Hətta oxşar sürtkü yağları istifadə olunsa belə, yağa batırma və yağ şırnağı ilə yağlama kimi bir neçə yağlama üsulları arasında dişli çarxların mahsuldarlıq göstəricilərində fərqlər müşahidə oluna bilər. Bu da onu göstərir ki, dişli çarxların məhsuldarlığının optimallaşdırılması uyğun yağlama üsulu seçilməsi ilə həyata keçirilir. Eksperimentlər nəticəsində müəyyən olunmuşdur ki, enerji itkiləri, xüsusən də yükdən asılı olmayan itkilər yağa batma dərinliyinin artması ilə azalır.

Yağlamanın dişli çarxların yorulma müddətinə təsiri

Dişli çarx ötürməsində yorulma müddəti və etibarlılıq yağlamanın xüsiyyətləri ilə sıx bağlıdır. Yağlamanın yorğunluq müddətinə təsiri ilə bağlı araşdırmalar əsasən dişli çarxların yorğunluq sınaqları vasitəsilə aparılır və burada əsas olaraq sürtkü yağlarının və aşqarların növlərinə diqqət yetirir. AISI 9310 markalı materialdan hazırlanmış düz dişli çarxların səthi yorğunluq müddətinə yüksək təzyiq (extreme pressure - EP) aşqarı əlavə edilmiş sürtkü yağının təsirini aşkar etməyə çalışan sınaqlar həyata keçirildi. EP aşqarlı sürtkü yağları istifadə edilmiş dişli çarxların yorğunluq müddəti istinad yağları ilə yağlanmış dişli çarxlarla müqayisədə 10-50% artım göstərmişdir. Bununla belə, statistik məlumatlara malik olmaq üçün daha çox sınaqların aparılması vacibdir. Beş sürtkü yağının (oxşar özlülük və təzyiq-özlülük əmsallarına malik) AISI 9310 markalı sementitlənmiş poladdan hazırlanmış dişli çarxların yorulma müddətinə təsirini qiymətləndirməyə imkan vermişddir Nəticələr göstərdi ki, fosforlu yeyilməyə qarşı (anti – wear) aşqar əlavəsi səthin yorğunluq müddətinə müsbət təsir göstərir. Bunun əksinə olaraq, kükürd tərkibli aşqar isə səthin yorulma müddətinə heç bir açıq təsir göstərmir. Bundan əlavə, səthin superfiniş əməliyyatı ilə emalı dişli çarxın səthi yorğunluq müqavimətini kəskin şəkildə artıra bilər və nəticədə daha uzun səth yorulma müddəti təmin edilə bilər.

Temperatur artmasının səbəb olduğu sürtkü yağının köhnəlməsinin dişli çarxı materialının yorulma müddətinə təsirini eksperimental olaraq araşdırdılar. Nəticələr onu göstərdi ki, bu zaman pitinqə qarşı müqaviməti kəskin azalır, amma yeyilməyə müqavimət artır və yağın köhnəlməsi ilə özlülük artır. Sınaq nəticələrindən daha maraqlı bir fakt – mikropitinq müqaviməti yağın az köhnəlməsi şəraitində azalır lakin, həddindən artıq köhnəlmədə isə artır.



Şəkil 2

Dişli çarxlarda istifadə olunan sürtgü yağının özlülüyünün yeyilmə dərəcəsinə və kontakt yorğunluğuna təsirini eksperimental olaraq müəyyənləşdirilmişdir Nəticələrə əsasən demək olar ki, yüksək özlülük daha böyük lambda nisbətinə (yağ təbəqəsinin qalınlığının səthin kələ - kötürlüyünə nisbəti $\lambda = \frac{d}{\sigma}$) gətirib çıxarır və beləliklə, dişli çarxın səthinin daha uzun yorulma müddətdə yorulmasına səbəb olur. Bununla belə, sürtkü yağının özlülüyünün artması ilə yeyilmə azalır. Aparılan tədqiqatlar göstərir ki, yeyilmə dərəcəsi yüksək özlülüklü sürtkü yağlarının tətbiqi ilə yaxşılaşdırıla bilər, amma səth yorğunluğuna qarşı müqavimət haqqında bunu demək olmaz. Nəticə etibarı ilə dişli çarxların mikropitinq kimi yorulmadan yaranan nasazlıqların qarşısını almaq üçün sürtgü yağının növünün seçilməsində bunlar nəzərə alınmalıdır.
Sürtgü yağının növündən əlavə onun kontakt zonasına verilmə üsulu da önəmli xarakter daşıyır.. Yağa batırma ilə yağlama ilə müqayisədə həm yüksək, həm də aşağı sürətli şırnaqlı yağlama üsulu ilişmədə və ilişmədən kənarda tətbiq edilmişdir. Şəkil 2 eksprimentlərin nəticəsi olaraq hər iki yağlama şəraitində kontakt dövr müddətini göstərir. Şırnaqla yağlama (ucluğun diametri 6,83 mm, şırnağın sürəti 21 m/s) yağa batırma (yarı batırılmış) ilə müqayisədə daha uzun yorulma müddəti və yağın dişlər arasından sızmasının qarşısını alır. Amma bu zaman şırnağın sürəti 0.28 m/s – dən az olmamalıdır.

NƏTİCƏLƏR

Burada yağlamanın dişli çarxların F.İ.Ə - na, kontakt yorğunluğuna və yeyilməyə təsiri ilə bağlı analitik və eksperimental araşdırmalar nəzərdən keçirildi. Bundan əlavə, mütəxəsislər tərəfindən aparılan araşdırmalar və onların nəticələri təqdim olundu. Nəticələrİ aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Dişli çarxlarda güc itkilərinə səbəb sürtünmə, yağın sıxılması və çalxalanması və çarx müqavimətindən (windage) ibarətdir. Efir əsaslı sürtgü yağı və konsistent yağlar yüksək temperaturlarda işləyərkən belə məhsuldarlığı artırır, lakin istiliyin təsirini nəzərdən qaçırmaq olmaz. Özlülüyü yüksək olan sürtkü yağları daha yaxşı enerji qənaətinə və daha yaxşı yeyilmə müqavətinə gətirib çıxarır. Ümumiyyətlə, sürət qutusunun məhsuladarlığını şırnaqla yağlama yağa batırma ilə yağlamadan daha yaxşl təmin edir. Quru sürtünmə sürtünmə və güc itkisini əhəmiyyətli dərəcədə artırır.

2. Yeyilməyə qarşı, yüksək təzyiqə qarşı yağ aşqarları və yüksək özlülüklü sürtkü yağları dişli çarxların səthinin daha uzun yorulma müddətini təmin edir. Quru sürtünmə termal təsirləri gücləndirir, sürtünmə və yeyilmənin intensivləşməsinə səbəb olur. Şırnaqla yağlama, sürəti aşağı olmadıqda, yağa batırma ilə yağlama ilə müqayisədə daha uzun yorulma müddəti təmin edir.

Yuxarıda göstərilən araşdırmalar onu göstərir ki, mexaniki F.İ.Ə, kontakt yorğunluğu, dinamika kimi dişli çarxların istismarına təsir edən parametrlər sürtkü yağları, yağlama şəraiti və ya yağlama üsullarından əhəmiyyətli dərəcədə aslıdır. Eksperimental tədqiqatlar gələcək tədqiqatlar üçün mühüm əhəmiyyət kəsb edir. Çünki bəzi yağlamaya aid nəzəriyyələr cari sənaye yağları və ya iş şəraiti üçün uyğun olmaya bilər. Həmçinin, dişli çarxların tribologiyası və kontakt yorğunluğu təkcə mexaniki və fiziki proseslərlə deyil, həm də kimyəvi proseslərlə əlaqədardır ki, bu da araşdırmaların nəticələrinin riyazi və ya analitik modellərlə hərtərəfli təsviri üçün böyük çətinliklər yaradır. Sürtkü yağlarının tərkibləri dişli çarxların mikropitting və aşınma müqavimətini artırmaq üçün tədqiqatçılar və mühəndislər üçün böyük maraq doğurur. Amma hal hazırda dişli çarxların triboloji xüsusiyyətlərinin tədqiq edilməsində riyazi modelləşdirmə hələ də açar faktordur.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT.

1. S. Li , A. Kahraman , Prediction of spur gear mechanical power losses using a transient elastohydrodynamic lubrication model, Tribol. Trans. 53 (4) (2010) 554–563
2. A. Olver , Gear lubricationa review, Proc. Inst. Mech. Eng. J: J. Eng. Tribol. 216 (5) (2002) 255–267
3. G. Koffel , F. Ville , C. Changenet , P. Velex , Investigations on the power losses and thermal effects in gear transmissions, Proc. Inst. Mech. Eng. J: J. Eng.Tribol. 223 (3) (2009) 469–479 .
4. P. Dawson , Effect of metallic contact on the pitting of lubricated rolling surfaces, J. Mech. Eng. Sci. 4 (1) (1962) 16–21 .

TƏRPƏNMƏZ MANEƏ İLƏ MƏHDUDLAŞAN MÜŞAHİDƏLİK ŞƏRAİTİNDƏ PİYADANIN VURULMASI HADİSƏLƏRİNİN EKSPERT TƏDQİQATI

ASƏF ƏLİYEV
Naxçıvan Dövlət Universiteti
aliyev-asef@mail.ru

XÜLASƏ

Məqalədə tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadanın vurulması hadisəsinin ekspert tədqiqatı aparılmışdır. Burada, hadisələrə nəqliyyat vasitəsinin sabit sürətində və nəqliyyat vasitəsinin tormozlanmış vəziyyətində baxılmışdır. Hər iki variantda hadisənin baş verdiyi ana qədər verilmiş yol şəraitində hadisənin qarşısını almaq üçün sürücünün vaxtında tormozlama aparmaq imkanının olub-olmaması müəyyən edilmişdir.

Açar sözlər: ekspert tədqiqatı, tərpənməz maneə, görünmə məsafəsi, hərəkət sürəti, tormozlanma şəraiti.

IN THE CONDITIONS OF OBSERVATION LIMITED BY IMMOVABLE OBSTACLE EXPERT INVESTIGATION OF PEDESTRIAN ACCIDENTS

Summary

The article provides an expert study of the incident of hitting a pedestrian in the conditions of observation, which is limited to a fixed obstacle. Here, the events are considered at a constant speed of the vehicle and in the braked position of the vehicle. In both cases, it was determined whether the driver was able to apply the brakes in time to prevent the accident in the given road conditions before the accident.

Keywords: expert study, motionless barrier, visible distance, speed, braking conditions.

Avtomobil parkının durmadan inkişafı, yük və sərnişin daşımalarının artması yol nəqliyyat hadisələri nəticəsində insanların ölümü, yaralanması halları və maddi itkilərin artmasına səbəb olur. Yol nəqliyyat hadisələrinin öyrənilməsində ən çətin, həm də tam öyrənilməyən məsələ onların baş vermə səbəblərinin müəyyən edilməsidir. Ona görə də, nəqliyyat vasitələri ilə piyadaların vurulması hadisələrinin öyrənilməsi və araşdırılması öz aktuallığını saxlamaqdadır.

Ümumiyyətlə ekspertiza aparılarkən piyadanın vurulması hadisələri müşahidəliyin və görünmənin xarakterinə görə təsnif olunarkən aşağıdakı əlamətlər nəzərdən keçirilir: məhdud olmayan görünmə və müşahidəlik şəraitində piyadanın vurulması; müşahidəliyin tərpənməz obyektlə məhdudlaşdırıldığı şəraitdə piyadanın vurulması; müşahidəliyin qarşıdan gələn və eyni istiqamətdə hərəkət edən nəqliyyat vasitəsi ilə məhdudlaşdırıldığı şəraitdə piyadanın vurulması; görünmənin məhdudluğu şəraitində piyadanın vurulması.

Məqalədə tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində nəqliyyat vasitəsinin sabit sürətində və tormozlanmış vəziyyətində piyadanı vurması hadisələrinin tədqiqi nəzərdən keçirilmişdir.

Müşahidəliyin tərpənməz maneə ilə məhdudlaşdığı şəraitdə piyadanın vurulması hadisəsinin avtotexniki ekspertizası hesabatlarına diqqət yetirək. Burada iki hala, yəni, nəqliyyat vasitəsinin sabit sürətlə hərəkəti və tormozlanma hərəkətinə baxılır. Nəqliyyat vasitəsinin sabit sürətlə hərəkəti zamanı piyadanın onun qabaq hissəsilə vurulması sxemi 1 şəklində göstərilmişdir.



Şəkil 1. Tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində sabit sürətlə hərəkət edən nəqliyyat vasitəsinin qabaq hissəsi ilə piyadanın vurulması sxemi

Bu cür hadisələrin ekspertiza tədqiqatlarında təhlükəli vəziyyətlərin yaranması anı piyadanın müşahidəliyi məhdudlaşdıran maneə arxasından sürücünün görmə sahəsində aşkar olunması anı ilə eyniləşdirilir. Bu an piyadanın təhlükəli zonanı kəsmə anı və ya onun hərəkət istiqaməti və tempini dəyişdiyi anla üst-üstə düşmür. Şəkilə əsasən sürücünün piyadanı gördüyü anda nəqliyyat vasitəsinin hadisə yerindən uzaqlıq məsafəsini tapaq. ABC və CDE görmə düzbucaqlı müşahidəlik üçbucaqlarının oxşarlığı şərtindən aşağıdakı ifadəni yazmaq olar [1]:

$$\frac{S_u + a_x - \Delta_x}{\Delta_y + a_y} = \frac{\Delta_x}{S_p - \Delta_y - l_y}. \quad (1)$$

Nəqliyyat vasitəsi və piyada bərabərsürətli hərəkət etdiklərindən eyni zamanda ərzində onların getdikləri yol da bərabər olacaqdır. Başqa sözlə aşağıdakı kinematik şərti yaza bilərik:

$$\frac{S_u}{v} = \frac{S_p}{v_p}. \quad (2)$$

Sonuncu iki ifadədən piyadanın getdiyi yolu ləğv etsək həndəsi şərti aşağıdakı kimi yazmaq olar:

$$\frac{S_u + a_x - \Delta_x}{\frac{S_u v_p}{v} - \Delta_y - l_y} = \frac{\Delta_y + a_y}{\Delta_x}. \quad (3)$$

Məlum kəmiyyətlərin qiymətlərini bu ifadəyə yerinə qoyaraq, S_u-nu asanlıqla təyin edə bilərik. Bundan sonra tədqiqatların ardıcıllığı [2] -də, yəni, məhdud olmayan görmə şəraitlərində piyadanın vurulması hadisəsində olduğu kimidir. Yəni, nəqliyyat vasitəsinin uzaqlıq məsafəsinin təyin edilmiş qiyməti onun dayanma yolunun uzunluğu ilə müqayisə edilir. Əgər onlar arasındakı fərq mənfidirsə, nəqliyyat vasitəsinin sürətini azaldaraq sürücünün piyadanı özündən əvvələ buraxmaq imkanı araşdırılır. Piyadanın nəqliyyat vasitəsinin yan səthi ilə vurulması halında, sürücü piyadanı gördüyü anda tormozlama aparmışdırsa, piyadanın nəqliyyat vasitəsinin hərəkət zolağını təhlükəsiz keçməsi şərti aşağıdakı kimi ifadə olunur:

$$S_p^{/} = v_p t_{dn}^{/} > (S_p + B_a - l_y).$$

Qeyd etmək lazımdır ki, bu halda piyadanın vurulma anına qədər getdiyi yolun həmişə nəqliyyat vasitəsinin hərəkət zolağı ilə hərəkət hissəsinin sərhəddi arasındakı məsafədən kiçik olduğu qəbul edilir. Piyada üçün təhlükəli vəziyyətin başlanma anı onun hərəkət hissəsinin sərhəddini keçdiyi an hesab olunur.
İndi isə tormozlanmış nəqliyyat vasitəsinin qabaq hissəi ilə piyadanı vurma hadisəsinin ekspert hesabatına baxaq (şəkil 2). Şəkilə əsasən müşahidəliyin həndəsi şərtini aşağıdakı kimi yazmaq olar:

$$\frac{S_u + a_x - \Delta_x}{\Delta_y + a_y} = \frac{\Delta_x}{S_p - \Delta_y - l_y}. \quad (4)$$

Bu ifadədən piyadanın yerdəyişmə məsafəsini aşağıdakı kimi təyin edərik:

$$S_p = \frac{\Delta_x (\Delta_y + a_y)}{S_u + a_x - \Delta_x} + \Delta_y + l_y.$$



Şəkil 2. Tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində tormozlanmış nəqliyyat vasitəsinin qabaq hissəsi ilə piyadanın vurulması sxemi

Bundan başqa,

$$S_u = \frac{S_p v}{v_p} - \frac{(v - v_n)^2}{2j}$$

olduğunu nəzərə alsaq, piyadanın yerdəyişmə məsafəsi üçün aşağıdakı ifadəni alarıq:

$$S_p = \frac{v_p}{\frac{v\left[S_u + (v - v_n)^2\right]}{2j}}. \quad (5)$$

Sonuncu iki ifadənin sağ tərəflərini bir-birinə bərabərləşdirək və onu S_u-ya görə həll edək. Bundan sonra piyadanın vurulmasının bu varaiantının ekspertiza hesabatlarını aşağıdakı ardıcıllıqla aparırıq [3]:

Tormozlamadan qabaq nəqliyyat vasitəsinin hərəkət sürəti:

$$v = 0{,}5 t_T j + \sqrt{2 S_i j}.$$

Piyadanı vurduğu anda nəqliyyat vasitəsinin sürəti:

$$v_n = \sqrt{2 S_i j}$$

olar.

Piyadanın görünmə məsafəsi təhlükəli vəziyyətin yaranması anında nəqliyyat vasitəsinin hadisə yerindən uzaqlıq məsafəsinə bərabər götürülür.

Bundan sonra sürücü hadisənin qarşısını almaq üçün vaxtında tədbirlər gördüyü şəraitdə nəqliyyat vasitəsinin sabit sürətlə piyadanın yanından təhlükəsiz keçə bilməsi şərti yoxlanılır:

$$\frac{S_p - l_y - \Delta_T}{v_p} > \frac{S_u + L_a}{v}.$$

Piyadanın hərəkət vaxtının hesabatla alınmış qiyməti onun sürücünün görmə sahəsində hərəkət vaxtından bəzi hallarda kiçik olur. Bu halda (5) düsturuna görə görmə məsafəsi sıfır və hətta mənfi qiymət ala bilər. Bu o deməkdir ki, nəqliyyat vasitəsindən kənarda yerləşən obyekt müşahidəliyi məhdudlaşdırmamışdır və onu sürücünün piyadanı vaxtında görməsi üçün maneə hesab etmək olmaz. Belə olan halda bütün ekspertiza hesabatları [2]-də yəni, məhdud olmayan müşahidəlik və görünmə şəraitində piyadanın vurulması hadisəsinin ekspert tədqiqatlarında olduğu kimi aparılır.

Bu zaman tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadaların vurulması hadisələri tədqiq edilməklə, nəqliyyat vasitəsinin piyadanı vurmamışdan əvvəl onun tormozlama aparmaq imkanının olub-olmaması müəyyən edilmiş olur. Bu da avtotexniki ekspertizanın aparılması üçün mühüm əhəmiyyətə malikdir. Bu zaman yol nəqliyyat hadisəsinin səbəbkarı müəyyənləşdirməklə ekspert tədqiqatın düzgün aparılmasına nail olmuş olur.

ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov R.P., Çobanzadə İ.M. Yol nəqliyyat hadisələrinin tədqiqi və avtotexniki ekspertizası. Dərslik. Bakı, 2005, 350 səh.
2. Əliyev A.A. Məhdud olmayan görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatı. Bakı Mühəndislik Universiteti. Gənc tədqiqatçıların V Beynəlxalq elmi konfransı. Bakı, 2021, səh.104-109
3. Əliyev A.A. Avtotexniki ekspertizanın təyin edilməsi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Təbiət və texniki elmlər seriyası. Naxçıvan, 2010, №2, səh. 255-258.

MÜƏLLİF HAQQINDA MƏLUMAT

Əliyev Asəf Asif oğlu-Naxçıvan Dövlət Universitetinin "Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının müəllimi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent.

AÇIQ SILSILƏLI MANIPULYATORLARIN KINEMATIK TƏDQIQATININ DÜZ MƏSƏLƏSININ HƏLLININ BƏZI XÜSUSIYYƏTLƏRI

Baş müəllim, Bağırova Səmayə Əli qızı
(Azərbaycan Texniki Universiteti, "Mexatronika və maşın dizaynı" kafedrası),

Magistr Məmmədov Aydın Köçəri oğlu
(Azərbaycan Texniki Universiteti, "Mexatronika və maşın dizaynı" kafedrası),
Asiman (Bakı Mühəndislik Universiteti,

Abstrakt

Məqalədə açıq silsiləli manipulyatorların kinematikasının düz məsələsinin həlli nəzərdən keçirilir. Bu məsələnin həlli fəza koordinat çevirmələri ilə əlaqədardır. Fəza koordinat çevirməsi operatoru qismində dual kvaternionlardan istifadə edilməsi təklif olunur. Məqalədə altı sərbəstlik dərəcəsinə malik olan manipulyatora baxılmışdır.

Açar sözlər

Açıq silsilə, düz məsələ, kvaternion, dual ədəd, dual kvaternion, fəza koordinat çevirməsi.

Giriş

Həm açıq silsiləli, həm də platforma tipli manipulyatorların kinematik analizinin düz məsələsinin həllinə bir sıra tədqiqatçıların elmi işləri həsr olunmuşdur. [1] məqaləsində dual kvaternionlardan kinematık silsilənin və tutqacın vəziyyətinin müəyyənləşdirilməsi üçün istifadə olunur. Daha sonra 6R tipli manipulyatorun vəziyyətlər məsələsinin həlli üçün tənliklər tərtib olunur. [2] elmi işində kvaternionlar mürəkkəb fəza mexanizmlərinin kinematik tədqiqatına, o cümlədən vəziyyətlər məsələsinin həllinə tətbiq olunur, kvaternionların mexanizmlərin sintezinə tətbiq olunması barədə qisa məlumat verılir. [3] məqaləsində müəlliflər vektor-koordinat üsulu ilə platforma tipli fəza manipulyarunun düz və əks məsələlərinin həllinə baxılır. [4] məqaləsində müəlliflər, xüsusi tipli "yastı" kvaternionları müstəvi hərəkətli robotların tənliklərinin tərtıb olunmasına tətbiq edir ki, bunlar həmçinin sferik hərəkətli manipulyarorların tədqiq edilməsində də istifadə oluna bilər. [5] məqaləsində Martines və başqaları, bərk cismin sferik hərəkət halında bucaq sürəti və bucaq təcilinin təyin olunması üçün kvaternion operatorlarından istifadə edirlər. Pennestri və digərləri [6] məqaləsində dual kvaternionlardan insan əlinin kinematikasını modelləşdirmək üçün istifadə etmışlər. [7] məqaləsində Banavar və digərləri kvaternion cəbrindən istifadə etməklə yeni sferik robotun kinematik analiz və sintez məsələlərini tədqiq etmişlər. [8] məqaləsində Liao və başqaları kvaternionları 6R tipli manipulyatorun əks məsələsinin həllinə tətbiq etməyə cəhd etmişlər.

Baxılan məqalədə kvaternionların ən ümumi fəza koordinat çevirməsi operatoru kimi istifadə olunması vasitəsilə açıq silsiləli mürəkkəb, altı sərbəstlik dərəcəsinə malik olan manipulyatorun vəziyyətlərinin düz məsələsinin həllinə baxılır.

Kvaternionlar haqqında qisa məlumat.

Həqiqi 1 ədədindən və 3 dənə xəyali $\bar{i}_1, \bar{i}_2, \bar{i}_3$ vahidlərindən ibarət kompleks ədədə kvaternion deyilir:

$\boldsymbol{\lambda} = 1\lambda_o + \lambda_1\bar{i}_1 + \lambda_2\bar{i}_2 + \lambda_3\bar{i}_3$ (1)

$\lambda_o, \lambda_1, \lambda_2, \lambda_3$ həqiqi ədədlərinə kvaternionun komponentləri deyilir.

Vahidlərin vurulma qaydası belədir:

$1 \circ \bar{i}_1 = \bar{i}_1 \circ 1 = \bar{i}_1,\ 1 \circ \bar{i}_2 = \bar{i}_2 \circ 1 = \bar{i}_2,\ 1 \circ \bar{i}_3 = \bar{i}_3 \circ 1 = \bar{i}_3,\ 1 \circ 1 = 1,$

$\bar{i}_1 \circ \bar{i}_1 = -1,\ \bar{i}_2 \circ \bar{i}_2 = -1,\ \bar{i}_3 \circ \bar{i}_3 = -1,$

$\bar{i}_1 \circ \bar{i}_2 = -\bar{i}_2 \circ \bar{i}_1 = \bar{i}_3,\ \bar{i}_3 \circ \bar{i}_1 = -\bar{i}_1 \circ \bar{i}_3 = \bar{i}_2,\ \bar{i}_2 \circ \bar{i}_3 = -\bar{i}_3 \circ \bar{i}_2 = \bar{i}_1$

Vurulma qaydasından görünür ki, 1-ə vurulma kvaternionu dəyişmir, ona görə də sonrakı ifadələrdə λ_o vahidsiz göstəriləcəkdir.

$\bar{i}_1, \bar{i}_2, \bar{i}_3$ vahidlərini üç ölçülü vektor fəzasının vahid ort vektorları ilə uyğunlaşdırsaq, onların komponentlərini vektor komponentləri kimi təsəvvür etmək olar. Deməli, kvaternionu skalyar və vektor hissələrinin cəmi şəklində ifadə etmək olar:

$\boldsymbol{\lambda} = sqal\ \boldsymbol{\lambda} + vect\ \boldsymbol{\lambda}$, (2)

burada

$sqal\ \boldsymbol{\lambda} = \lambda_o, vect\ \boldsymbol{\lambda} = \lambda_1\bar{\boldsymbol{i}}_1 + \lambda_2\bar{\boldsymbol{i}}_2 + \lambda_3\bar{\boldsymbol{i}}_3$

Kvaternionların hasili assosiativ və distributiv xassələrə malikdir:

$(\boldsymbol{\lambda_1\lambda_2})\boldsymbol{\lambda_3} = \boldsymbol{\lambda_1}(\boldsymbol{\lambda_2\lambda_3}),\ \boldsymbol{\lambda_1}(\boldsymbol{\lambda_2} + \boldsymbol{\lambda_3}) = \boldsymbol{\lambda_1\lambda_2} + \boldsymbol{\lambda_1\lambda_3}$,

lakin kvaternionlar hasili qeyri kommutativdir. Çünki,

$\boldsymbol{\lambda} = 1\lambda_o + \lambda_1\bar{\boldsymbol{i}}_1 + \lambda_2\bar{\boldsymbol{i}}_2 + \lambda_3\bar{\boldsymbol{i}}_3$ və $\boldsymbol{\mu} = \mu_0 + \mu_1\bar{\boldsymbol{i}}_1 + \mu_2\bar{\boldsymbol{i}}_2 + \mu_3\bar{\boldsymbol{i}}_3$

kvaternionlarının hasilini yerinə yetirsək alarıq ki:

$$\boldsymbol{\lambda}\circ\boldsymbol{\mu} = \lambda_o\mu_0 - \lambda_1\mu_1 - \lambda_2\mu_2 - \lambda_3\mu_3 + \lambda_o\left(\mu_1\bar{\boldsymbol{i}}_1 + \mu_2\bar{\boldsymbol{i}}_2 + \mu_3\bar{\boldsymbol{i}}_3\right) +$$

$$+\mu_0\left(\lambda_1\bar{\boldsymbol{i}}_1 + \lambda_2\bar{\boldsymbol{i}}_2 + \lambda_3\bar{\boldsymbol{i}}_3\right) + \begin{vmatrix} \bar{\boldsymbol{i}}_1 & \bar{\boldsymbol{i}}_2 & \bar{\boldsymbol{i}}_3 \\ \lambda_1 & \lambda_2 & \lambda_3 \\ \mu_1 & \mu_2 & \mu_3 \end{vmatrix} \quad (3)$$

Alınmış ifadədən görünür ki,

$$\boldsymbol{\lambda}\circ\boldsymbol{\mu} = \boldsymbol{\mu}\circ\boldsymbol{\lambda}$$

ifadəsi yalnız o zaman ödənir ki, (3) ifadəsindəki determinant yox olsun, bu isə aşağıdakı iki şərtlərdən biri daxilində ödənilir:

1) ya $\lambda_1 = \lambda_2 = \lambda_3 = 0$, ya da $\mu_1 = \mu_2 = \mu_3 = 0$ şərti ödənilməlidir, yəni kvaternionlardan biri skalyar olmalıdır;

2) $vect(\boldsymbol{\lambda}) = a\ vect(\boldsymbol{\mu})$ (a – həqiqi ədəddir) şərti ödənilməlidir, yəni kvaternionların vektorial hissələri mütənasib olmalıdırlar.

(2) ifadəsindən həmçinin görünür ki, adi vektorların kvaternion hasili həmin vektorların həm skalyar, həm də vektorial hasillərini içəriləyir, doğrudan da (3) ifadəsində $\lambda_o = \mu_0 = 0$ qəbul etsək,

alariq:

$$\boldsymbol{\lambda}\circ\boldsymbol{\mu} = -\lambda_1\mu_1 - \lambda_2\mu_2 - \lambda_3\mu_3 + \begin{vmatrix} \bar{\boldsymbol{i}}_1 & \bar{\boldsymbol{i}}_2 & \bar{\boldsymbol{i}}_3 \\ \lambda_1 & \lambda_2 & \lambda_3 \\ \mu_1 & \mu_2 & \mu_3 \end{vmatrix} \quad (4)$$

(2) ifadəsində vektorial hissənin işarəsini dəyişdikdə kvaternionun qoşması alınır:

$$\tilde{\boldsymbol{\lambda}} = sqal\ \boldsymbol{\lambda} - vect\ \boldsymbol{\lambda}$$

Kvaternionun öz qoşmasına hasili kvaternionun norması adlanır:

$$\boldsymbol{\lambda}\circ\tilde{\boldsymbol{\lambda}} = \tilde{\boldsymbol{\lambda}}\circ\boldsymbol{\lambda} = {\lambda_o}^2 + {\lambda_1}^2 + {\lambda_2}^2 + {\lambda_3}^2 \quad (5)$$

Kvaternionun norması $|\boldsymbol{\lambda}|$ və ya λ simvolu ilə işarə olunur; $|\boldsymbol{\lambda}| = 1$ olarsa, kvaternion vahid və ya normallaşdırılmış kvaternion adlanır. Sonrakı araşdırmalarda yalnız vahid kvaternionlardan istifadə edəcəyik.

İstənilən kvaternionu triqonametrik şəkildə ifadə etmək olar:

$$\boldsymbol{\lambda} = \lambda(cos\varphi + \boldsymbol{e}\ sin\varphi)$$

burada

$$\boldsymbol{e} = \frac{vect\ \boldsymbol{\lambda}}{\sqrt{{\lambda_1}^2+{\lambda_2}^2+{\lambda_3}^2}} = \frac{\lambda_1\bar{\boldsymbol{i}}_1+\lambda_2\bar{\boldsymbol{i}}_2+\lambda_3\bar{\boldsymbol{i}}_3}{\sqrt{{\lambda_1}^2+{\lambda_2}^2+{\lambda_3}^2}}$$

kvaternionun vektorial hissəsinin ($vect\ \boldsymbol{\lambda}$) vahid vektorudur;

$$cos\varphi = \frac{\lambda_o}{{\lambda_o}^2+{\lambda_1}^2+{\lambda_2}^2+{\lambda_3}^2}\ ;\ sin\varphi = \frac{\sqrt{{\lambda_1}^2+{\lambda_2}^2+{\lambda_3}^2}}{{\lambda_o}^2+{\lambda_1}^2+{\lambda_2}^2+{\lambda_3}^2}$$

Uyğun olaraq, vahid kvaternion triqonametrik şəkildə belə ifadə olunacaqdır:

$\boldsymbol{\lambda} = cos\varphi + \boldsymbol{e}\ sin\varphi$ (7)

Fəzada dönmə əməliyyatı.

Kvaternionlar fəzada dönmə hərəkətini sadə şəkildə təsvir etməyə imkan yaradır. Bu aşağıdakı kvaternion hasili ilə ifadə olunur:

$\boldsymbol{r}' = \boldsymbol{\lambda}\circ\boldsymbol{r}\circ\tilde{\boldsymbol{\lambda}}$ (8)

burada $\boldsymbol{r}$ ilkin vektor, $\boldsymbol{r}'$ döndərilmiş vektrdur, $\boldsymbol{\lambda}$ döndərməni həyata keçirən kvaterniondur; bu döndərmə əməliyyatı belə həyata keçirilir: $\boldsymbol{r}$ vektoru, $\boldsymbol{\lambda}$ kvaternionunun vektorial hissəsinin ($vect\ \boldsymbol{\lambda}$) vahid vektoru $\boldsymbol{e}$ - yə nəzərən 2φ bucağı qədər döndərilməklə $\boldsymbol{r}'$ vektoru alınır. (8) əməliyyatı nəticəsində $\boldsymbol{r}$ – in norması dəyişməz qalır, ona görə də (8) əməliyyatı ortoqonal koordinat çevirməsidir.

(8) kvaternion hasilini yerinə yetirib 1, $\bar{\boldsymbol{i}}_1$, $\bar{\boldsymbol{i}}_2$, $\bar{\boldsymbol{i}}_3$ vahidlərinin qarşısındakı əmsalları bərabərləşdirsək, alarıq:

$$r_0' = r_0$$
$$r_1' = \frac{\lambda_0^2+\lambda_1^2-\lambda_2^2-\lambda_3^2}{\lambda^2}r_1 + \frac{2(\lambda_1\lambda_2-\lambda_0\lambda_3)}{\lambda^2}r_2 + \frac{2(\lambda_1\lambda_3+\lambda_0\lambda_2)}{\lambda^2}r_3$$
$$r_2' = \frac{2(\lambda_1\lambda_2+\lambda_0\lambda_3)}{\lambda^2}r_1 + \frac{\lambda_0^2+\lambda_2^2-\lambda_1^2-\lambda_3^2}{\lambda^2}r_2 + \frac{2(\lambda_2\lambda_3-\lambda_0\lambda_1)}{\lambda^2}r_3$$
$$r_3' = \frac{2(\lambda_1\lambda_3-\lambda_0\lambda_2)}{\lambda^2}r_1 + \frac{2(\lambda_2\lambda_3+\lambda_0\lambda_1)}{\lambda^2}r_2 + \frac{\lambda_0^2+\lambda_3^2-\lambda_1^2-\lambda_2^2}{\lambda^2}r_3$$

Əgər (8) koordinat çevirməsini həyata keçirən kvaternion vahid kvaternion olarsa, axırıncı ifadə daha da sadələşir:

$$r_0' = r_0$$
$$\begin{aligned} r_1' &= (\lambda_0^2+\lambda_1^2-\lambda_2^2-\lambda_3^2)r_1 + 2(\lambda_1\lambda_2-\lambda_0\lambda_3)r_2 + 2(\lambda_1\lambda_3+\lambda_0\lambda_2)r_3 \\ r_2' &= 2(\lambda_1\lambda_2+\lambda_0\lambda_3)r_1 + (\lambda_0^2+\lambda_2^2-\lambda_1^2-\lambda_3^2)r_2 + 2(\lambda_2\lambda_3-\lambda_0\lambda_1)r_3 \\ r_3' &= 2(\lambda_1\lambda_3-\lambda_0\lambda_2)r_1 + 2(\lambda_2\lambda_3+\lambda_0\lambda_1)r_2 + (\lambda_0^2+\lambda_3^2-\lambda_1^2-\lambda_2^2)r_3 \end{aligned} \quad (9)$$

Əgər $\boldsymbol{r}$ vektoru ardıcıl olaraq $\boldsymbol{\lambda_1, \lambda_2, \dots, \lambda_n}$ kvaternionları ilə koordinat çevirmələrinə məruz qalarlarsa, onda yekun koordinat çevirməsini əks etdirən kvaternion iki üsulla tapıla bilər:

$\boldsymbol{\lambda = \lambda_n \circ \lambda_{n-1}, \dots, \circ \lambda_1}$, (10)

və ya:

$\boldsymbol{\lambda = \lambda_1 \circ \lambda_2 \circ, \dots, \circ \lambda_n}$ (11)

(10) ifadəsindəki kvaternionlarin komponentləri ilkin koordinat sistemində ifadə olunurlar. Ona görə də bu ifadədən istifadə etmək çətin olur, çünki kvaternionların ilkin sistemdəki komponentlərini hesablamaq lazım gəlir və bu böyük həcmli hesabatların aparılmasını tələb edir. (11) ifadəsindəki kvaternionlar isə öz lokal sistemlərində, yəni həmin kvaternionların özlərinin koordinat çevirməsinə uğratdığı sistemlərdə ifadə olunurlar. Kvaternionun özünün döndərməyə uğratdığı koordinat sistemindəki komponentlərlə ifadəsinə Rodriq-Hamilton parametrləri deyilir. Aydındır ki, (11) ifadəsindən istifadə edilməsi (10) ifadəsinə nəzərən xeyli rahatdır, hesabat həcmı azdır. Ona görə də fəza mexanizmlərinin kinematik analizində (11) ifadəsindən istifadə olunur.

Dual kvaternionlar.

Əgər (1) ifadəsindəki həqiqi $\lambda_o, \lambda_1, \lambda_2, \lambda_3$ ədədlərini dual ədədlərlə əvəz etsək, dual kvaternion alınacaqdır:

$\boldsymbol{\Lambda = \Lambda_o + \Lambda_1\bar{i}_1 + \Lambda_2\bar{i}_2 + \Lambda_3\bar{i}_3}$ (12)

burada $\Lambda_к = \lambda_к + \delta\lambda_к^0$ *(k=1,2,3,4)* dual kvaternionun komponentləri adlanır,

δ- Klifford operatoru adlanır və $\delta^2 = 0$ xassəsinə malikdir. Adi kvaternion kimi, dual kvaternion da triqonametrik şəkildə ifadə oluna bilər:

$$\boldsymbol{\Lambda = cos\Phi + E\, sin\Phi}$$

burada

$\boldsymbol{\Phi}$ – dual bucaqdır, $\boldsymbol{E}$ – dual kvaternionun vint hissəsinin vahid vintidir.

Açıq silsiləli mexanizmlərin vəziyyətlər məsələsinin həlli.

Məlum olduğu kimi açıq silsiləli mexanizmlərin, yəni manipulyatorların vəziyyətlərinin təyin olunmasında iki cür məsələ həll oluna bilər:

- düz məsələ - kinematik cütlərdəki nisbi yerdəyişmələrə görə manipulyatorun tutqacının və deməli, hərəkət etdirilən bərk cisimlə əlaqəli koordinat sisteminin vəziyyətinin və oriyentasiyasının təyin olunması;
-əks məsələ - bərk cisim və onunla əlaqəli koordinat sisteminin tələb olunan vəziyyətinin və oriyentasiyasını təmin olunması məqsədi ilə kinematik cütlərdəki nisbi hərəkətlərin tapılması.

Qeyd etmək lazımdır ki, 2-ci məsələnin həlli 1-ci məsələnin həllinə nəzərən xeyli çətindir.

Düz məsələnin həllinə baxaq. Məsələnin ümumiliyinə xələl gətirmədən alti sərbəstliyə malik firlanma kinamatik cütlərindən yaradılmış 6R manipulyatorunu nəzərdən keçirək (Şəkil 1).



Şəkil 1. Fəza 6R manipulyatoru.

Bu manipulyatorun kontur tənliyi belə ifadə olunacaqdır:

$$\boldsymbol{X} = \boldsymbol{\Lambda_1}\circ\boldsymbol{A_1}\circ\boldsymbol{\Lambda_2}\circ\boldsymbol{A_2}\circ, \dots ,\circ\boldsymbol{\Lambda_6}\circ\boldsymbol{A_6} \quad (13)$$

Burada

$\boldsymbol{X}$ – bərk cismin vəziyyətini müəyyən edən dual kvaterniondur;

$\boldsymbol{\Lambda_k} = cos\Phi_k + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_k$ kinematik cütlərdəki hərəkətləri xarakterizə edən dual kvaternionlardır($k = 1 - 7$);

$\boldsymbol{A_k} = cosB_k + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,B_k$ bəndlərin ölçülərini xarakterizə edən dual kvaternionlardır($k = 1 - 7$).

(13) – ifadəsini açıq şəkildə yazaq:

$$\boldsymbol{X} = \left(cos\Phi_1 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_1\right)\circ (cosB_1 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}} sin\,B_1)\circ \left(cos\Phi_2 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_2\right)\circ(cosB_2 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}} sin\,B_2)\circ \cdots$$
$$\cdots\circ\left(cos\Phi_6 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_6\right)\circ (cosB_6 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}} sin\,B_6), \quad (14)$$

(14) kvaternion hasilini edib *1*, $\bar{\boldsymbol{i}}_{\boldsymbol{1}}, \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}}, \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}}$ vahidlərinin qarşısındakı əmsallarin qiymətlərini alarıq və beləliklə bərk cisimlə əlaqədar koordinat sisteminin vəziyyətini təyin etmiş oluruq.

Kvaternion hasilinin yerinə yetirilməsi riyazi cəhətdən heç bir çətinlik yaratmır və bu proses alqoritmləşdirilərək hər hansı bir proqram dilində proqramlaşdırılır. Burada bir məsələni qeyd edək.

(14) ifadəsində, məsələn ilk dörd dual kvaternionun hasilini yerinə yetirək:

$$\boldsymbol{P} = \left(cos\Phi_1 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_1\right)\circ (cosB_1 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}} sin\,B_1)\circ \left(cos\Phi_2 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{3}} sin\,\Phi_2\right)\circ\left(cosB_2 + \bar{\boldsymbol{i}}_{\boldsymbol{2}} sin\,B_2\right) =$$
$$= C\Phi_1 CB_1 C\Phi_2 CB_2 - C\Phi_1 SB_1 C\Phi_2 SB_2 - S\Phi_1 CB_1 SB_2 CB_2 - S\Phi_1 SB_1 SB_2 SB_2 +$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{1}}[-C\Phi_1 CB_1 S\Phi_2 SB_2 + C\Phi_1 SB_1 S\Phi_2 CB_2 - S\Phi_1 CB_1 CB_2 B_2 - S\Phi_1 SB_1 CB_2 CB_2] +$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{2}}[-C\Phi_1 CB_1 C\Phi_2 SB_2 + C\Phi_1 SB_1 C\Phi_2 CB_2 - S\Phi_1 CB_1 SB_2 SB_2 + S\Phi_1 SB_1 SB_2 CB_2] + \quad (15)$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{3}}[C\Phi_1 CB_1 S\Phi_2 CB_2 + C\Phi_1 SB_1 S\Phi_2 SB_2 + S\Phi_1 CB_1 CB_2 CB_2 - S\Phi_1 SB_1 CB_2 SB_2]$$

bu ifadələrdə sadəlik üçün *sin* funksiyası *S* simvolu ilə, *cos* funksiyası isə *C* simvolu ilə işarələnmişdir. Axırıncı ifadələri müəyyən çevirmələrdən sonra, belə yaza bilərik:

$$\boldsymbol{P} = [CB_1 CB_2 C(\Phi_1 + \Phi_2) - SB_1 SB_2 C(\Phi_1 - \Phi_2)] +$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{1}}[-CB_1 SB_2 S(\Phi_1 + \Phi_2) - SB_1 CB_2 S(\Phi_1 - \Phi_2)] + \quad (16)$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{2}}[CB_1 SB_2 S(\Phi_1 + \Phi_2) + SB_1 CB_2 C(\Phi_1 - \Phi_2)]$$
$$+\bar{\boldsymbol{i}}_{\boldsymbol{3}}[CB_1 CB_2 S(\Phi_1 + \Phi_2) - SB_1 SB_2 S(\Phi_1 - \Phi_2)]$$

(16) ifadələrini (15) ifadələri ilə müqayisə etdikdə sonuncuların xeyli sadələşdiyi aydınlaşır. Beləliklə (14) ifadələrinin kvaternion hasillərini yerinə yetirib göstərilən qayda ilə qruplaşmalar aparsaq, $\Phi_1, \Phi_2, \Phi_3, \Phi_4, \Phi_5, \Phi_6$ bucaqlarının müxtəlif variantlarda cəbri cəmlərini alarıq. Bu isə kvaternion hasilinin xeyli sadələşməsinə, alınmış ifadələrin manipulyatorların kinematikasının 2-ci məsələsinin həllini xeyli sadələşdirməyə imkan verir.

Nəticələr

Fəza mexanizmlərinin, o cümlədən fəza hərəkətli manipulyatorların vəziyyətlər məsələsinin həllində, digər ənənəvi üsullarla müqayisədə, dual kvaternionlrdan istifadə olunması daha effektlidir. Belə ki, ənənəvi riyazi aparatlar vasitəsilə hətta kontur tənliklərinin alınması belə böyük çətinliklərlə əlaqədar oldugu halda, dual kvaternionlardan istifadə etdikdə bu proses asanlıqla həyata keçirilir, və həmçinin alınmış ifadələr sadə və bircins olduğuna görə onların həlli də xeyli asan yerinə yetirilir.

Ədəbiyyat
[1] F.H. Mammadov, Particular drawing biquaternion closure equations of complex
spatial mechanisms, Proceedinqs of the second İnternational Sympozium of mechanicm and machine science, 2017, Baku, pages 87-92.
[2] Мамедов Ф.Г.(1994), Бикватерниионная алгебра в задачах анализа и синтеза механизмов. Диссертационная работа на соискание ученой степени кандидата технических наук.
[3] R.İ.Alizade, N.R. Tagiyev, A Forward and Reverse Displasement Analisis of a 6-DOF In-Paralleli Manipulator, Mech. Mach. Theory Vol. 29, No. 1, pp. 115-124, 1994.
[4] Collins, C. L., McCarthy, J. M. (1998). The quartic singularity surfaces of planar platforms in the Clifford algebra of the projective plane. Mech. Mach. Theory, 33(7), 931-944.
[5] Martines, J. M., Gallardo-Alvarado, J. (2000). A simple method for the determination of angular velocity and acceleration of a spherical motion through quaternion. Nederlands, Meccanica, 35, 111-118.
[6] Pennestri., Valentini, P. P. (2009). Dual quaternions as a tool for rigid body motion analysis: a tutorial with an application to biomechanics. Multibody Dinamics 2009, Eccomas Thematic Conference K. Arczewski, J. Frajaczek, M. Wojtyra (eds.) Warsaw, Poland, 1-17.
[7] Banavar, N. R. et. al. (2010) Design and analisis of a spherical mobile robot. Mech. Mach. Theory, 45, 130-136.
[8] Liao , Q. (2010). Inverse kinematic analysis of the general 6R serial manipulator based on double quaternions. Mech. Mach. Theory, 45, 193-199.

YÜKSƏK TEZLİKLİ MAQNİT SAHƏSİNDƏ ÖRTÜKÇƏKMƏ ƏMƏLİYYATININ ANALİZİ

Şirzadov Fərhad
fashirzadov@beu.edu.az
Bakı Mühəndislik Universiteti

Dilarə Əliyeva
deliyeva@std.beu.edu.az
Bakı Mühəndislik Universiteti

İmaməli Əsgərli
iesgerli1@std.beu.edu.az
Bakı Mühəndislik Universiteti

Xülasə: Məqalədə maqnit sahəsinin təsir sahələrinə kompleks baxılmış və materialların emalında istifadə olunabiləcək xüsusiyyətlər araşdırılaraq, maqnit sahəsinin təsiri altında materialda baş vermiş həndəsi, fiziki və mexaniki dəyişikliklər nəzəri və praktiki baxımdan araşdırılmış, texnoloji prosesin səmərəliliyinin yüksəldilməsi nöqteyi - nəzərdən gələcək işlər üçün tövsiyyələr verilmişdir. Tədqiq olunmuş materiallar əritmə əməliyyatları zamanı, maye metalın qarışdırılmasında, hərəkətinin məhdudlaşdırılmasında və ona formanın verilməsində, atom reaktorlarında plazmanın hərəkətinin idarə edilməsində, plazma silahlarında və s. tətbiq oluna bilər.
Açar sözlər: maqnit sahəsi, örtükçəkmə, maye metal

Örtükçəkmə əməliyyatları zamanı tətbiq olunan üsulların geniş yayılmasına baxmayaraq bu sahədə hələ də qeyri-müəyyənliklər və çətinliklər mövcuddur ki, bu da səth mühəndisliyinin diqqət mərkəzində olmaqla, daim texniki və iqtisadi baxımdan tədqiq olunmaqdadır. Səth texnologiyalarının səmərəli tətbiqinin tədqiqində material və texnoloji parametrlərin ayrı-ayrılıqda və kombinasiyası ilə çoxsaylı eksperimentlər aparılmış, müxtəlif üsullar eyni zamanda tətbiq olunmuş və digər kənar parametrlərin prosesə təsiri qismən öyrənilmişdir [1].

1990- cı illərin sonunda artıq məlum olmuşdur ki, əridilmiş materiala elektromaqnit qüvvəsini tətbiq etməklə, əritmə prosesinin səmərəliliyini və stabilliyni yüksəltmək mümkündür [5]. Sübut olunmuşdur ki, lazerlə örtükçəkmə əməliyyatları zamanı qaynaq vannasına əlavə elektromaqnit sahəsi tətbiq etməklə onun həndəsəsinə təsir etmək mümkündür. Belə ki, qaynaq vannasında cərəyanın və ya maqnit induksiya vektorunun istiqamətini dəyişməklə qaynaq tikişini sıxmaq, qaldırmaq və yana əymək mümkündür. Qeyd olunun təkliflərin verilməsi ilə aparılan tədqiqatların nəticələrinə əsasən demək olar ki, maqnit sahəsinin təsiri altında qaynaq vannasının qeyri-stabilliyi və örtük keyfiyyətinə maqnit təsirlərinin qeyri – müəyyənlikləri yeni tədqiqatların aparılmasını tələb edir. Dəyişən elektromaqnit qüvvəsinin təsiri altında materialın asılı vəziyyətdə saxlanılması bu gün fasiləsiz yüksək keyfiyyətli tökmə əməliyyatlarında tətbiq olunmaqdadır. Tökülən metal mayenin axama həcminin məhdudlaşdırılması üçün maqnit drossellər və mayenin asılı vəziyyətdə saxlanılması mayeyə induksiya olunan enerji hesabına baş verir. Belə bir qüvvə ilə 40 cm aluminium və 31 cm polad maye hündürlüyünün axınının qarşısını almaq mümkündür. Maqnit sahəsinin təsiri altında formavermə əməliyyatına misal olaraq, əridərək yerli formavermədə elektromaqnit qüvvəsinin tətbiqini də misal göstərmək olar [2]. Burada yüksək tezliyə malik birinci induktorla hissənin səthi əridilir, aşağı tezlikli ikinci induktorla deformasiya olunabiləcək səth sıxılaraq ona forma verilir. Bu zaman ərimiş materialın qeyri-stabilliyi mürəkkəb səthlərin əridilərək formaverilməsində səmərəli tətbiq oluna bilmir. Mürəkkəb həndəsi formaya malik hissələr məsələn turbin pərləri tiqelin əlavə forma divarlarına söykənərək əldə olunur. Materialın induksiya üsulu ilə əridilməsi zamanı ona maqnit sahəsi tərəfindən qüvvə təsir edir ki, bu da həmçinin elektrik keçiriciliyinə malik olan maye metalın qarışdırılmasına təsir edir.

Səthin əridilərək ona forma verilməsi əməliyyatlarına maqnit sahəsinin tətbiqi barədə bir sıra iş mövcuddur ki, bu da əsasən lazerlə üstəəritmə əməliyyatlarında tətbiq olunmuşdur. Prosesin tətbiq sahəsi emal temperaturunun artması ilə qaynaq vannasında mayenin qeyri-stabilliyi ilə məhdudlaşır. Ədəbiyyatlara əsasən maqnit qüvvəsinin tətbiqi ilə qaynaq vannasının yaxşı qarışdırılması izah olunmuş və ən kiçik maqnit sahəsi - 60mT və tezlik 20Hs müəyyən olunaraq maqnetohidrodinamik effekt izah olunmuşdur.

Yüksək tezlikli maqnit sahəsində səthin termiki emalı və örtükçəkmə əməliyyatlarına aid görülmüş iş həcminin xüsusən səth təbəqəsinin keyfiyyətinin yüksəldilməsi nöqteyi-nəzərdən az olması bu sahədə görüləcək yeni iş potensinin aktuallığını əsaslandırır və maqnit sahəsinin digər sahələrdə tətbiqi nəzəriyyəsi və təcrübəsi üstəritmə/üstəəritmə əməliyyatları zamanı səth keyfiyyətinin yüksəldilməsi üçün baza olmuşdur. Belə ki, qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün şüşə ərintisinin elektromaqnit üsulu ilə qarışdırılması maye metalın hərəkətinin məhdudlaşdırılması, detalları maqnit sahəsində əridərək onlara formanın verilməsi, plazmanın hərəkətinin məhdudlaşdırılması istiqamətində görülmüş işlər analiz olunaraq, üstəritmə/üstəəritmə prosesinə tətbiqi imkanlarına baxılmışdır.

Məqalədə sabit və dəyişən maqnit sahələrinin tətbiqi tədqiq olunmuşdur. Qaynaq vannasının stabilliyinin təminatı üçün maye metalın dəyişən maqnit sahəsində hərəkəti tədqiq olunaraq, onun stabilliyinin təminatı üçün əsaslandırılmış tədbirlər təklif olunmuşdur. Məqsədə məntiqi yanaşmaq üçün maqnetohidrodinamika sahəsində görülən işlərin analizi aparılmış, maye metalın səthinin stabilliyi haqqında nəzəri və təcrübi mənbələrlə yanaşı bu qeyri - stabilliyin elmi əsasları öyrənilmişdir. Laboratoriyada və kənar mənbələrdə maye metalın maqnit sahəsində hərəkətinin tədqiqi üçün yüksək sürətli kamera vasitəsi ilə qeydə alınmış video materiallar analiz olunaraq, prosesin fiziki mahiyyəti izah olunmuşdur [1-5].

Ümumiyyətlə, əritmə əməliyyatları üçün qaynaq vannasının modelinin tərtibində yalnız səthin gərilməsi, mayenin özlülüyü və ağırlıq qüvvəsinin təsiri nəzərə alınmışdır. Əritmə əməliyyatlarına maqnit sahəsini tətbiq etdikdə, elektromaqnit sahə qüvvəsi və prosesin stabilliyini ifadə edən əlavə toplananlar modelə daxil edilməlidir. Buna görə də mövcud model daha da inkişaf edirilməli, səthə təsir edən maqnit qüvvəsi və induksiya hesabına forma veriləcək metalda yaranan temperatur nəzərə alınmalıdır [1-5].

Müasir maşınqayırmada yüksək tezlikli maqnit sahəsinin təsiri altında materialın termiki emalı geniş yayılmış və bu texnoloji əməliyyat zamanı maqnit sahəsinin materiala təsiri geniş tədqiq olunmamışdır. Qeyd olunduğu kimi belə bir prinsipin metalın əridilərək ona forma verilməsi zamanı tətbiqi böyük maraq doğurur. Burada həm sabit və həm də dəyişən maqnit sahələrinin tətbiqi mümkündür. Dəyişən maqnit sahəsinin tətbiqi, sabit maqnit sahəsinin tətbiqinə nisbətən daha yükəsək potensiala malikdir. Belə ki, maye metal ətrafında dəyişən maqnit sahəsinin tətbiqi zamanı maqnit sahə qüvvəsini gücləndirmək məqsədi ilə maye metala əlavə cərəyanın verilməsinə ehtiyac qalmır, maye metalın ətrafında onu əritmək və ya forma vermək üçün yerləşdirilmiş induktorlar maye metalda elektrik cərəyanı induksiya edir. Bu cərəyanın yaratdığı Lorens qüvvəsi ətraf maqnit sahəsinin (induktor tərəfindən) yaratdığı Lorens qüvvəsi ilə qarşılıqlı təsirdə olaraq, maye metalın həndəsi formasına təsir edir.

Dəyişən maqnit sahəsinin tətbiqi ilə materialın səthinin qızdırılaraq tablanması ilə yanaşı həmçinin onu asılı vəziyyətdə əridərək emal edib, yüksək təmizliyə malik material da əldə etmək mümkündür. Dəyişən elektromaqnit sahəsindən istifadə edərək təmiz materialın alınması müxtəlif texnologiyalarla əldə edilə bilər. Bunlara elektromaqnit tökmə, elektromaqnit levitasiya, soyuq tiqeldə induksiya əritmə texnologiyası və s. daxildir. Elektromaqnit tökmə ilə alınmış külçələr narın mikrostrukturlu, tikişsiz yumşaq səthlə fərqlənirlər. Tökmə ucluğu ilə maye metal arasındakı sürtünmənin azaldılması və eyni zamanda elektromaqnit qarışdırma prosesi üsulun üstünlükləridir. Elektromaqnit levitasiya texnologiyası isə əsasən materialların fiziki-kimyəvi xüsusiyyətlərinin tədqiqində tətbiq olunur. Məsələn, maye metalın termofiziki parametrlərinin dəqiq ölçülməsində, istilik tutumu, səthi gərilmə, yüksək ərimə temperaturunda reaktiv metalın özlülüyünün təyinində tətbiq olunur. Qeyd olunan üsullardan fərqli olarq soyuq tiqellə induksiya əritmə texnologiyası əsasən odadavamlı və aktiv metal kütlələrin çirklənmədən əridilməsində tətbiq olunur [2].

Maqnit sahəsinin təsiri altında formavermə üsulunun ərimiş materiala tətbiqi ilə qismən səmərə əldə olunsa da, prosesin termofiziki qeyri-stabilliyindən asılı olan kəmiyyətlər onun səmərəliliyinin yüksəldilməsində geniş nəzəri-praktiki biliklərin işlənməsini tələb edir. Burada maye metala maqnit sahəsi tərəfindən təsir edən Lorens qüvvəsi mayenin həcmində qeyri-bərabər paylanmış temperaturlar hesabına dəyişir və bu da maye halında olan forma veriləcək hissənin materialının qeyri-stabilliyinə və sonda bərkimiş mayedə forma xətalarına səbəb olur. Belə ki, dəyişən temperatur materialın maqnit nüfuzluluğunun, mayeinin elektrik keçiriciliyinin, sıxlığının, "Nüfuzetmə-dərinliyi"nin və s. kimi parametrlərin qeyri-stabilliyinə səbəb olaraq, mayedə ayrı-ayrı elementar həcmlərdə axan induksiya cərəyanının qiymət və istiqamətlərinin dəyişməsinə və sonda mayeyə forma verəcək Lorens qüvvəsinin bircinsliyinə məqsədəmüvafiq olmayan təsirlər göstərəcəkdir [3].

Yüksək tezlikli maqnit sahəsinin təsiri altında elektrik keçiriciliyinə malik maye metalın fəaliyyətinin qiymətləndirilməsi üçün otaq temperaturunda maye halda olan qalinstan ərintisindən istifadə edərək eksperimentlər aparılmışdır. Belə bir mühitdə səmərəli proses maye metalın maksimum sıxılmasında onun az hərəkətliliyi və formasının xüsusi hal olaraq düzbucaqlı şəklində alınması ilə qəbul olunmuşdur. Ümumiyyətlə, maqnit sahəsində maye metalın həndəsəsi layihələndirilmiş induktor həndəsəsinə uyğun olaraq, tələb olunan formada olmalıdır. Yüksək tezlikli maqnit sahəsinin təsiri altında əritmə əməliyyatlarında əridilən materialın həndəsəsi ilə yanaşı, bərkimiş materialın mikrostrukturu və legirləyici elementlərin tərkibdə paylanması, bərkliyin qiyməti və en kəsik üzrə paylanması tədqiq olunaraq, emal olunmuş materialın tribotexniki xüsusiyyətləri haqqında ilkin mülahizələr söylənilmiş və onların tribotexniki sınaqları aparılmışdır [5].

Maqnit sahəsinin üstəritmə və ya üstəəritmə prosesinə tətbiqində əsas məqsədlərdən biri də ərimiş materialın hərəkətinin məhdudlaşdırılması və bir gedişdə alınan təbəqə hündürlüyünün qalınlığının artırılması olmuşdur. Qalın səth təbəqəsinin lazerlə üstəərəitməklə əldə olunması üçün hazırda bir neçə gediş tətbiq olunur ki, bu da texniki – iqtisadi baxımdan əlverişsiz hesab olunur. Bir gedişdə alınan təbəqənin hündürlüyü üçün sıxma dərəcəsinin qiyməti (qaynaq tikişinin hündürlüyünün onun eninı nisbəti) vahiddən kiçik alınır. Yüksək tezlikli maqnit sahəsinin qaynaq vannasına tətbiqi ilə onu yandan Lorens qüvvəsi ilə sıxmaqla bir gedişdə alınan tikişin hündürlüyünü artırmaq mümkündür. Sıxma dərəcəsinin maksimal hünürlüyü qaynaq vannasının qeyri-stabilliyi ilə - yəni onun hərəkəti ilə məhdudlaşır [1,3,4].

Mayenin özlülüyünün, onun səthi gərilməsinin, texnolоloji qaynaq parametrlərinin, maqnit sahəsinin və onun nəticəsində yaranan parametrlərin temperturdan asılı olaraq birgə dinamik həll olunması mürəkkəbliyini və belə sistemdə hesablama xətalarının qaçılmazlığını nəzərə alaraq, işdə əsasən eksperimentlərə üstünlük verilməlidir. Qeyd olunan parametrlərdən asılı maqnetohidrodinamik modelin əritmə texnoloji əməliyyat parametrləri ilə birgə həll modelinin işlənməsi hələ də öz həllini tam doğrultmamışdır [2].

Nəticə. Məqalədə sabit və dəyişən maqnit sahəsinin örtükçəkmə əməliyyatlarına tətbiqinə aid görülmüş işlərin ədəbiyyat analizi aparılaraq, proseslər qiymətləndirilmiş və gələcəkdə görüləcək işlər üçün yeni təkliflər verilmişdir.

Tədqiq və təklif olunmuş materiallar əsasında maqnit sahəsinin təsiri altında emal məqsədi ilə görüləcək yeni işlər maye materiala formavermə əməliyyatının və başqa əməliyyatların keyfiyyətinin yüksəldilməsində aktualdır və bu aktuallığın nəticəsində nisbətən az həndəsi xətaya malik əritməklə emal olunmuş detalların əldə olunması, atom reaktorlarında plazmanın səmərəli idarə olunması, bir gedişdə qaynaq tikişinin qalınlığının artırılması, legirləmə və əritmə keyfiyyətinin yüksəldilməsi, plazma silahlarında plazma atış keyfiyyətinin yüksəldilməsi və s. mümkündür.

ƏDƏBİYYAT SİYAHISI
1. Barnes, S. High power diode laser cladding / S.Barnes, N.Timms, B.Bryden [etc.] // Journal of Materials Processing Technology, - England: - 2003. №1, №138, - p. 411-416.
2. Shen, J., Li, J., Fu, H. Electromagnetic confinement and shaping for a plate-form part // - New York: Journal of materials Processing Technology, - 2000. Volume 102, ISSUE 1-3, - p. 109-114.
3. Theiler, C. Seefeld, T. Sepold, G. Laserstrahlbeschichten mit hoher Prozessgeschwindigkeit // International Thermal Spray Conference, - Düsseldorf: DVS-Verlag , - 2002, - S. 262-267.
4. Beyer, E. Survey of Laser Hybrid Processes // Proceeding of the first international WLT-conference on lasers in manufacturing, - Munich: LIM 2001, - 2001, - S. 404-415.
5. Ambrosy, G. Berger, P. Hügel, H. Lindenau, D. Improvement of laser beam welding by electromagnetic forces in the weld pool // First International Symposium on High-Power Laser Macroprocessing, - Osaka: Band 4831, - 2003, - p. 175-179.

NAXÇIVAN MUXTAR RESPUBLIKASININ DARIDAĞ TERMAL SUYUNUN İSTILIK-FIZIKI XASSƏLƏRININ TƏCRÜBİ MƏLUMATLARININ ÜMUMİLƏŞDİRİLMƏSI

Mahir Bəşirov ,Vüsal Qurbanov (Qrup 1309a)
Bakı Mühəndislik Universiteti, "Avtomatika və elektroenergetika" kafedrası"
mbashirov@beu.edu.az

XÜLASƏ

Tədqiq olunan məqalədə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun istilik-fiziki xassələrinin-izobarik istilik tutumunun və sıxlığının atmosfer təzyiqində və müxtəlif temperaturlardakı təcrübi nəticələrinin analitik ümumiləşdirilmiş təhlili verilmişdir. Təcrübələr izobarik istilik tutumu üçün Pyris 1 tipli differensial skaner kalorimetrində , sıxlıq üçün isə DSA 5000M vibrasiyalı borulu densimetr qurğusunda yüksək dəqiqiliklə yerinə yetirilmişdir. Seçilmiş temperaturlardakı $c_p = f(\rho)$ təcrübi qiymətlərindən istifadə edərək, termal suların analitik asılılıqları qurulmuşdur. Alınmış qiymətlər polinomial tənliklər vasitəsi ilə təsvir edilmişdir.
Açar sözlər: *bərpa olunan enerji mənbələri, izobarik istilik tutumu , sıxlıq, termal sular.*

GENERALIZATION OF EXPERIMENTAL DATA OF THE HEATING AND PHYSICAL PROPERTIES OF DARIDAGH TERMAL WATER OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

ABSTRACT

Analytical generalized analysis of experimental results of isobaric heat capacity and density of "Daridagh" thermal water of Julfa region of Nakhchivan Autonomous Republic of Azerbaijan at atmospheric pressure and different temperatures is given. The experiments were performed with high accuracy on a Pyris 1 differential scanner calorimeter for isobaric heat capacity, and on a DSA 5000M vibrating tubular densitometer for density. Analytical dependences of thermal waters were constructed using experimental values of $c_p = f(\rho)$ at selected temperatures. The obtained values are described by polynomial equations.
Keywords*: Renewable energy sources, heat capasity, density, thermal water.*

ОБОБЩЕНИЕ ЭКСПЕРИМЕНТАЛЬНЫХ ДАННЫХ ПО ТЕПЛОФИЗИЧЕСКИМ СВОЙСТВАМ ДАРИДАГСКИХ ТЕРМАЛЬНЫХ ВОД НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

РЕЗЮМЕ

Дан аналитический обобщенный анализ экспериментальных результатов изобарной теплоемкости и плотности термальной воды «Даридаг» Джульфинского района Нахчыванской Автономной

Республики Азербайджана при атмосферном давлении и различных температурах. Эксперименты выполнены с высокой точностью на дифференциальном сканирующем калориметре типа Pyris 1 для изобарной теплоемкости и на вибрационном трубчатом плотномере DSA 5000M для плотности. Аналитические зависимости термальных вод построены с использованием экспериментальных значений $c_p = f(\rho)$ при выбранных температурах. Полученные значения описываются полиномиальными уравнениями.
Ключевые слова: возобновляемые источники энергии, изобарная теплоемкость, плотность, термальная вода.

Giriş

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı''na uyğun olaraq respiblikada günəş, külək, biokütlə, termal, hidroenerji kimi alternativ və bərpa olunan enerji mənbələrindən geniş miqyaslı tətbiqi sahəsində real tədbirlər görülür. Termal su mənbələrindən alınan istilik və ya elektrik enerjisi bu sahədə dünya praktikasında geniş tətbiq olunan alternativ enerji mənbələrindən biridir.

Azərbaycanda çoxsaylı termal su mənbələri mövcuddur. Bunlar əsasən Naxçıvan Muxtar Respublikası , Böyük və Kiçik Qafqaz dağları , Abşeron Yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı-Quba ərazisi kimi geniş sahələri əhatə edir. Azərbaycanda termal enerji və mineral su yataqlarının aşkara çıxarılması və onların analizi sahəsində uzun müddət ərzində əhəmiyyətli elmi işlər görülmüşdür. Termal suların kimyəvi analizi əhəmiyyətli dərəcədə öyrənilmişdir. Təqdim olunan bu məqalədə Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində Culfa şəhərindən 8 km şimal-şərqdə Darıdağın ətəyində, okean səviyyəsindən 900 m yüksəklikdə yerləşən Darıdağ termal suyunun istilik-fiziki xassələri analiz olunmuşdur.Yer altından təzyiqlə çıxan mineral tərkibli Darıdağ termal suyu karbon qazlı və yüksək minerallanmış xlorlu-hidrokarbonatlı-natriumludur. Darıdağ termal suyu, eyni zamanda, arsenli su kimi də adlandırılır. Suyun mənbədən çıxan ilk anda temperaturu 52 dərəcə Selsidir. Ancaq xəstələrin müalicə vannalarına daxil olan suyun temperaturu 37 - 39 dərəcə selsi həddindədir. Darıdağ termal suyu yüksək minerallaşma dərəcəsinə görə də digər sulardan əsaslı dərəcədə seçilir. Uzun müddət Darıdağ termal suyu üzrə aparılan tədqiqatlar ancaq onun müalicəvi xassələrinin öyrənilməsinə həsr olunmuşdur. Lakin 1970 – 80-i illərdən başlayaraq Darıdağ termal suyu kimyaçıların da diqqətini cəlb etmişdir. Bunun səbəbi isə suyun tərkibində karbon qazı, arsen, bor və bromun texnoloji baxımından əhəmiyyətli miqdarda olmasıdır. Darıdağ termal və ya arsenli suyu ən zəngin və güclü mineral tərkibə malik olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. Ona görə də Darıdağ arsenli suyundan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu sudan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan patologiyalar və onun müxtəlif fəsadlarında və dəri xəstəliklərində geniş istifadə edilib. Hazırda su mənbəyinin yanında Darıdağ Arsenli Su Müalicəxanası fəaliyyət göstərir. Aparılan tədqiqatlar bu nəticəyə gəlməyə imkan verir: Darıdağ termal suyu karbon qazı, arsen, bor, brom və s. maddələrin alınması üçün unikal xammal mənbəyi olmaqla yanaşı həm də bir sıra xəstəliklərin sağaldılmasında güclü müalicəvi təsirə malikdir. Bununla yanaşı tədqiq olunan termal sudan energetikada da istifadə olunması müəyyən iqtisadi səmərəliliklə nəticələnə bilər.

Tədqiqatın məqsədi:

Azərbaycanın Naxçıvan Muxtar Respublikası karbon anhidridi-karbonatlı, karbon anhidridi-xloridli, həm-çinin hidrogen sulfidi-sulfatlı suların bütün növlərini özündə cəmləşdirən qiymətli geotermal enerji resursları ilə zəngindir. Bu regionun kurort yeri olması bir neçə mineral mənbənin mövcudluğu ilə müəyyən olunur. Geotermal enerji resurslarının rəngarəngliyinə görə Naxçıvan Muxtar Respublikası sözün həqiqi mənasında "geokimyəvi muzeyi" xatırladır. Altı qrup mənbə – Darıdağ, Sirab, Vayxir, Nahacır, Badamlı və Qızılvəng içməli balneoloji kurortlar üçün fövqəladə hidromineral resurslardır.

Darıdağ mənbələri ən yüksəkdebitli arsenli mineral mənbələrdir. Bu suyun qiymətli müalicəvi keyfiyyəti onunla şərtlənir ki, kifayət qədər arsenlə yanaşı o, bor turşusuna, litiuma, böyük miqdarda hidrogen qazına, yoda, broma, dəmirə və digər komponentlərə malikdir.

Bu işin əsas məqsədi – Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun izobarik istilik tutumunun və sıxlığının müxtəlif temperaturlardakı təcrübi nəticələrinin analitik ümumiləşdirilməsindən ibarətdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun "Darıdağ" termal suyunun izobarik istilik tutumunun və sıxlığının müxtəlif temperaturlardakı təcrübi nəticələrinin dəqiq elmi tədqiqi üçün Azərbaycan Texniki Universitetinin "Enerji effektivliyi və yaşıl enerji texnologiyaları" kafedrasında intensiv təcrübi tədqiqatlar aparılmış və bu tədqiqatların nəticələri müxtəlif jurnallarda dərc edilmişdir [2-7].

Təcrübələr zamanı istifadə olunan termal sular bilavasitə suyun çıxdığı yerdən götürülmüş və filtrdən keçirilərək təmizlənmişdir. Termal suların nümunələrinin çıxdığı yerin coğrafi koordinatları və Yerdən çıxan andakı temperaturları [3]-də verilmişdir. Təcrübələr atmosfer təzyiqində və T = (274.15-413.15) K temperatur diapazonunda həyata keçirilmişdir.

Tədqiqat işinin müzakirəsi və onun nəticələri:

Təcrübələr Pyris 1 tipli differensial skaner kalorimetrində yerinə yetirilmişdir (şəkil 1). Bu cür kalorimetrlər materialların xüsusi ərimə istiliyi, faza keçidləri və s. hallarında, kimyəvi reaksiyalar zamanı udulan və ya ayrılan istiliyin çox dəqiqliklə təyin olunmasında, fiziki və kimyəvi xassələrin tədqiq etməkdə böyük rol oynayırlar. Qurğunun əsas elementi daxilində ölçüləcək maddə olan platin-iridium ərintisi ilə örtülmüş paslanmayan poladdan hazırlanmış yuva (şəkil 2), qızdırıcılar və platin termorezistorlardır. Ölçü yuvası 573.15 K temperatura və 24 bar təzyiqə qədər davamldır.



Şəkil 1. Pyris 1 tipli differensial skaner kalorimetri

Şəkil 2. Ölçü yuvası

Ölçü yuvaları termoizolə edilir və çox az istilik inersiyasına malikdirlər. Onların daxilinə sıxlığından asılı olaraq 30-70 mq nümunə yerləşdirilir. Sonra ölçü yuvası xüsusi alətin köməyi ilə kip bağlanır. Qapaqlar arasına yüksək təzyiqlərdə yaranan doymuş buxar təzyiqinə davam gətirmək üçün xüsusi rezin kiplik yerləşdirilir. Ölçü yuvaları bu halda təcrübəyə hazır vəziyyətə gətirilir .

Ölçmələr iki paralel ölçü yuvasından istifadə etməklə yerinə yetirilir. Yuvanın birində ölçüləcək maddə, ikincisində isə etalon maddə (sapfir) yerləşdirilir. Ölçmələr temperaturun sabit saxlanılması və ya sabit sürətlə dəyişməsi ilə aparıla bilər. Bizim apardığımız təcrübələr temperaturun sabit sürətlə dəyişməsi metodu ilə yerinə yetirilmişdir. Bu zaman hər iki ölçü yuvasının temperaturu tamamilə bir-birinə bərabər halda saxlanılır. Ölçü yuvalarında temperaturun eyni saxlanması üçün lazım olan istilik zamanın və temperaturun funksiyası halında qeyd olunur. Bu zaman qurğuda alınmış qrafikin sahəsi faza keçidi zamanı lazım olan istiyə bərabərdir. Təcrübələr zamanı 3 K/dəq. istilikvermə sürəti seçilmişdir. Ölçü

yuvalarında nümunələr iki müxtəlif (ölçüləcək nümunə və ədəbiyyat qiymətləri əvvəlcədən dəqiq məlum olan etalon nümunə) olduqlarına görə, yuvaların hər ikisinin sabit temperaturda saxlanması üçün onlara verilən istiliyin miqdarı fərqli olur. Bu istilik fərqlərinə görə istilik tutumu hesablanır.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun izobarik istilik tutumunun $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ təcrübi T = (274.15 - 413.15) K intervalında temperaturdan asılılığı cədvəl 1-də verilmişdir.

Təcrübələrin T=(278.15-363.15)K intervalından kənar qiymətləri məqaləyə daxil edilməmişdir. Bu ona görədir ki, termal suyun təcrübi (p,ρ,T) qiymətləri T=(278.15 - 363.15) K intervalında ölçülmüşdür. Ona görə də hesablamalara yalnız izobarik istilik tutumunun $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ bu intervalında qiymətləri daxil edilmişdir. İzobarik istilik tutumunun $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ geniş intervalda ölçülməsi yalnız faza keçidlərinin qabaqcadan görünməsi, prosesin dəqiq yerinə yetirilməsi və ölçü yuvasının kipliyinin yoxlanılması üçündür.

Alınmış nəticələrinin verilmiş temperatur asılılığına nəzər salsaq onu qeyd etmək olar ki, əsasən termal suların izobarik $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ istilik tutumları IAPWS-95 standarına cavab verən təmiz suyun izobarik $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ istilik tutumundan azdır. "Darıdag" termal suyunda isə bu fərq daha çoxdur. Bu da əlbəttə termal suların tərkiblərindəki bərk mineral maddələrin miqdarı ilə izah edilə bilər. Belə ki, bərk maddələrin islitik tutumları mayelərər nisbətən aşağıdır.

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun atmosfer təzyiqində (p=0.101 MPa) sıxlığı DSA 5000M vibrasiyalı borulu densimetr qurğusunda, yüksək təzyiqlərində sıxlığın ölçülməsindən 10 dəfə dəqiq ölçülmüşdür [6-8]. Vibrasiyalı borulu densimetr metodu ilə işləyən DSA 5000M qurğusunun ümumi strukturu və iş prinsipi [4,6-8]-də ətraflı təsvir edilmişdir. Bu qurğu zavod şəraitində yoxlanılır və əlavə kalibrləməyə ehtiyac yoxdur. Zaman keçdikcə, qurğunun işləmə qabiliyyətinin yoxlanılmasını etalon mayelərin sıxlığının ölçülməsi yolu ilə yerinə yetirmək olar. Qurğu eyni zamanda ölçü temperaturunda sıxlıq ilə birlikdə səs sürətinin u/m·s^{-1} də yüksək dəqiqliklə ölçülməsinə imkan verir. Sıxlığın ölçülməsi T=(278,15 – 363,15) K temperatur intervalında və atmosfer təzyiqində aparılmışdır. Ölçmələrin nəticələri cədvəl 2-də verilmişdir.

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun sıxlığının ρ/kq·m^{-3} temperaturdan asılılığı göstərir ki, tədqiq olunmuş su resurslarının sıxlığı bu suların böyük hissəsini təşkil edən təmiz suyun qiymətlərindən yüksəkdir. Bu nəticə molkulyar-kinetik nəzəriyyəyə uyğundur, belə ki, termal sular müxtəlif mineral duzların və bərk maddələrin böyük hissəsindən ibarətdir.

Aşağıdakı polinomial tənliyin köməyi ilə təyin olunmuş c_p - ρ koordinat sistemində eyni temperatur şərtlərində götürülmüş "Darıdağ" termal suyunun alınmış təcrübi nəticələri əsasında məqalədə $c_p = f(\rho)$ asılılığı təklif olunmuşdur.

$$c_p = \sum_{i=0}^{3} a_i \cdot \rho^i \quad (2)$$

burada: a_i və b_j – təcrübi məlumatlardan ən kiçik kvadratlar metodu ilə hesablanmış polinom əmsallarıdır və cədvəl 3-də verilmişdir.

(2) tənliyi və polinom əmsalları (cədvəl 3) nəzərə alınmaqla, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun müxtəlif temperaturlardakı izobarik istilik tutumunun $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ təcrübi qiymətlərini maksimum 0,9% xəta ilə hesablamaq mümkündür.

Cədvəl 1.

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun izobarik istilik tutumunun $c_p/(C\cdot kg^{-1}\cdot K^{-1})$ atmosfer təzyiqində və müxtəlif temperaturlarda T/(K) təcrübi qiymətləri.

T	274.15	278.15	283.15	293.15	298.15	303.15	313.15	323.15	333.15	343.15	353.15	363.15	373.15	383.15	393.15	413.15
c_p	4101.74	4095.95	4090.04	4082.22	4080.08	4079.00	4079.63	4083.46	4089.92	4098.57	4109.04	4121.08	4134.54	4149.36	4165.59	4202.94

Cədvəl 2.

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun sıxlığının $\rho/(kq\cdot m^{-3})$ atmosfer təzyiqində və müxtəlif temperaturlarda T/(K) təcrübi qiymətləri.

T	278.12	288.13	293.13	298.14	303.15	313.16	328.17	343.17	363.15
ρ	1016.74	1015.10	1013.93	1012.61	1011.01	1007.35	1000.46	991.92	979.16

Cədvəl 3.

Naxçıvan Muxtar Respublikasında yerləşən "Darıdağ" termal suyunun a_i əmsallarının (2) tənliyindən alınmış qiymətləri

a_i			
a_0	a_1	a_2	a_3
-3256623.40309	9866.14935912	-9.94858135044	0.00334313816398

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında Alternativ və Bərpa olunan olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət poqramı (Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 №-li sərəncamı ilə təsdiq edilmişdir).
2. Bəşirov M.,Əhmədov A. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Darıdağ geotermal suyunun kimyəvi analizi və buxar təzyiqinin tədqiqi. H.Əliyev və Azərbaycanda Energetikanın inkişafı Respublika Elmi Konfransının Materialları, 28-29 noyabr, Mingəçevir, 2014,s.
3. Əhmədov A., Səfərov C., Bəşirov M. Azərbaycanın termal sularının istilik tutumunun tədqiqi. Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri Fizika və Astranomiya institutu.cild 35, №2, Bakı-2015,s.125-130
4. Əhmədov A., Səfərov C., Bəşirov M. Darıdağ termal suyunun istilik-fiziki xassələri. Azərbaycan Texniki Universiteti. Elmi Əsərlər cild2,№2,Bakı-2015,s.34-40
5. Əhmədov A., Səfərov C., Bəşirov M., Hassel E. Termophysical properties of north-west Azerbaijan geothermal waters. Azərbaycan Texniki Universiteti "Thermophysical and mechanical properties of advanced materials".
6. Safarov J., Bashirov M., Hassel E., Ahmadov A. Density of Ilisu geothermal water resources of Gakh region of Azerbaijan. Ondokuz mayıs Üniversitesi Uluslal isi Bilimi ve Teknigi kongresi Samsun 09-12 eylül 2013,ss.
7. Safarov J, Ahmadov A., Bashirov M., Shahverdiyev A., Hassel E. Density and sound velocity measurements of geothermal water resources of Gabala-Gakh regions of Azerbaijan. Institute of Technical Thermodynamics University of Rostok,Germany,27-28 mart ,2013, ss.
8. R.Pippo. Geotermal Power Plants, Second edition, Principles, Aplications, Casa Studies and Environmental Impact, Butterworth-Heinemann; 2d edition, 2008, 520 p.

Müəlliflər haqqında məlumat:

3. Bəşirov Mahir Məcnun oğlu- Bakı Mühəndislik Universiteti, "Magistratura və doktorantura" şöbəsinin müdiri, həmin Universitetin "Avtomatika və elektroenergetika" kafedrasının professoru, texnika elmlər doktoru. Alternativ enerji resuslarının istilik-fiziki xassələrinin tədqiqi.
4. Qurbanov Vüsal- Bakı Mühəndislik Universiteti, Mühəndislik fakültəsi, qrup 1309a tələbəsi.

YERLİ HİDRAVLİK MÜQAVİMƏT ƏMSALININ EKSPERİMENTAL TƏDQİQİ

Bakı Mühəndislik Universiteti,
"Mexanika mühəndisliyi" kafedrası
Asif Quliyev **asquliyev@beu.edu.az**
Nicat Hüseynov BMU, **nicathuseynov660@gmail.com** ;
Nurməhəmməd Qasımov BMU, **nurmahammad.qasimov@ gmaıl.com**

XÜLASƏ

Məqalədə müxtəlif bucaqlı döngələrdə yerli hidravlik müqavimət əmsalının eksperimenral tədqiqinə baxılmışdır. Məlum olduğu kimi magistral boru kəmərlərində təzyiq itkilərinin düzgün hesablanması və layihələndirilməsi üçün hidravlik müqavimət əmsallarının cədvəl qiymətləri məlum olmalıdır. Hidravlik müqavimət əmsallarının doğru nəticələri ancaq təctübi tədqiqatlar nəticəsində alınır. Buna görə də təzyiq itkilərinin düzgün hesablanması optimal parametrlərə malik olan nasos və nasos stansiyalarını seçilməsi və layihələndirilməsi üçün əsas şərtdir.

AÇAR SÖZLƏR: maye və qaz, boru kəməri, armaturlar, hidravlik müqavimət, nasos.

GİRİŞ

Maye və qazların ,həmçinin qaışıq mayelərin nəqli zamanı əsasən boru kəməri və armaturlardan istifadə edirlər. Bununla əlaqədar olaraq əlverişli parametrlərə malik boru kəmərinin layihələndirilməsi üçün onların əsas parametrlərinin öyrənilməsi əsas şərtlərdən biridir.Layihələndirilmə zamanı hidravlik

müqavimət əmsallarının qiymətlərinin məlum olması vacibdir. Ədəbiyyatların analizi göstərir ki, istənilən materialdan olan boru və armaturlarda hidravlik müqavimət əmsallarının qiymətləri əsasən təcrübi yolla əldə edilir. Maye və qazların bir mətəqdən digər məntəqəyə nəql olunmasında müxtəlif hidravlik müqavimətlər nəticəsində təzyiq itkiləri baş verir. Bununla əlaqədar olaraq maye və qazların boru kəməri və armaturlarda hərəkəti zamanı hidravlik hesablanmasında sürtünmə müqavimətindən başqa, yerli müqavimətlərdən yaranan təzyiq itkisini də nəzərə almaq lazımdır. Yerli hidravlik müqavimətlər, axının canlı kəsiyinin birdən dəyişməsi ilə axma sürətinin həm qiymətcə, həm də istiqamətcə kəskin dəyişməsi vaxtı alınan enerji itkiləridir.

Yerli itkilər axının genişlənməsində, sıxılmasında, habelə döngələrdə, kran, ventil, siyirtmə və başqa diafraqmalı cihazlar və s. olan yerlərdə çox alınır.

Yerli müqavimət sərhədində su burulğanı sərhəddinin zərbə halı müşahidə olunur ki, bu da xüsusi halda yerli enerji itkisinin əsas mənbəyidir.

Yerli müqavimətlərdə itkinin təyin edilməsi üçün ümumi tənliyin çıxarılması basqı itkisində olduğu kimi hələlik mümkün deyildir. Lakin, yerli müqavimətlərin praktiki tədqiq edilməsi onun müxtəlif olmasına görə həmişə axının dinamik basqısı ilə mütənasib olmasını göstərmişdir. Bir sıra təcrübələr nəticəsində müəyyən edilmişdir ki, yerli itkilər, enerji itkisinin ümumi qanununa görə turbulent hərəkətdə sürətin ikinci dərəcəsi ilə,laminar hərəkətdə isə sürətin birinci dərəcəsi ilə mütənasibdir.

Turbulent hərəkətdə yerli enerji itkisinin aşağıdakı düsturla göstərilməsi qəbul olunmuşdur:

$$h_y = \xi \frac{\vartheta^2}{2g} \quad (1)$$

burada ξ - ölçüsüz yerli müqavimət əmsalı adlanan əmsaldır və müqavimətin hər bir növü üçün təcrübi təyin edilir.

Hesablamalarda ξ əmsalının ədədi qiyməti təcrübi ədədlərdən götürülr.

Praktikada ən çox rast gələn hallara görə su üçün ξ kəmiyyətinin aşağıdakı ədədi qiymətləri verilir: dirsək üçün – 0,13 ; bucaq üçün – 2,0; siyirtmə üçün (tamam açıq olarsa) – 0,05; ventil üçün – 2÷4; qəbuledicidə qoruyucu tor və əks klapan üçün – 5÷10 .

Ümumi halda yerli müqavimət əmsalı Reynolds ədədindən,yerli müqavimətin formasından, səthlərin kələ-kötürlüyündən; siyirtmə, ventil, kranlar və bağlayıcı quruluşlarda isə onların açılış dərəcəsindən asılıdır. (1) düsturunda ϑ – mayenin axma sürətidir.

(1) düsturunu özlü sürtünmədə, h_y itkisini müəyyən etmək üçün universal qəbul etmək olar, onda h_y üçün yerli müqavimət əmsalı bu düsturla təyin olunur:

$$\xi = \lambda \frac{l}{d} \text{ və ya } \xi = \lambda \frac{l}{4R_h} \quad (2)$$

ξ əmsalı yalnız çox sadə hallarda analitik təyin edilir.

TƏDQIQAT METODU

Bu əmsalın nəzəri yol ilə təyin edilməsi hidravlikanın indiki vəziyyətində çox nadir hallarda mümkündür. Odur ki, təcrübi məlumatlardan istifadə etmək lazım gəlir. Təssüf ki, bu məlumatlar da kafi qədər qəti və tam deyildir, çünki bu vaxta qədər hidravlikanın bu sahəsində müəyyən edilməmiş çoxlu məsələlər qalmışdır. Ona görə də yerli hidravlik müqavimətlər üçün praktiki hesablamalarda ξ - nin qiymətləri məlumat kitablarında verilmiş cədvəllərdən götürülür və ya sadələşdirilmiş düsturlarla hesablanır. Yerli müqavimətləri dəf edərkən ən çox rast gələn itkilərdən axının birdən genişlənməsində alınan basqı itkisidir ki, borunun en kəsiyi birdən ω_1 –dən ω_2–yə kimi dəyişir.

Qeyd etmək lazımdır ki, axının qəflətən genişlənməsində həqiqi enerji itkisi

$$h_{q.gen.} = \xi_{q.gen.} \frac{\vartheta^2}{2g} \quad (3)$$

düsturu ilə təyin edilir, burada $\xi_{q.gen.}$ - qəflətən genişlənmədə yerli hidravlik müqavi-mət əmsalıdır və aşağıdakı kimi təyin olunur.

$$\xi_{q.gen.} = \left(1 - \frac{\omega_1}{\omega_2}\right)^2 \quad (4)$$

Axının qəflətən genişlənməsində həqiqi enerji itkisi (4) düsturu ilə hesablandıqda bir qədər çox olur. Odur ki, nəzəri düstura praktiki yolla təyin edilən düzəliş əmsalının daxil edilməsi məsləhət görülür:

$$h_{q.gen.} = k \cdot \xi_{q.gen.} \frac{\vartheta^2}{2g} \quad (5)$$

Diametri d=1,25 ÷ 15 sm olan borularda, $\frac{\omega_2}{\omega_1}$ nisbəti 2-dən 12 -yə qədər dəyişərsə, düzəliş əmsalı aşağıdakı kimi təyin edilir:

$$k = 1{,}025 + 0{,}0025\frac{\omega_2}{\omega_1} - 0{,}0079d_1$$

burada d_1 – borunu kiçik diametridir.

N.Z.Frenkel, eksperimental yolla laminar rejimli şəraitdə hərəkətin yerli enerji itkilərinin, yerli müqavimət sahəsində laminar hərəkətin pozulma dərəcəsindən asılı o0laraq sürətin $n < 2$ dərəcəsinə mütənasib olmasını təyin etmişdir. Bu halda, yerli müqavimət əmsalı Re ədədindən asılıdır. Laminar hərəkətin pozulmadığı hallarda enerji itkiləri sürətin birinci dərəcəsi ilə mütənasibdir və yerli müqavimət əmsalı bu bu düsturla ifadə oluna bilər:

$$\xi = \frac{B}{\mathrm{Re}} \quad (6)$$

burada, B – sabit əmsal olub, yerli müqavimətin tipindən asılıdır.

Yerli müqavimətin təsiri nəticəsində axının dayanıqlı laminar rejimi pozulursa, enerji itkiləri sürətin *n=1,73* dərəcəsi ilə mütənasib olur və müqavimət əmsalı:

$$\xi = \frac{C}{\mathrm{Re}^{0,27}} \quad (7)$$

Nəhayət laminar hərəkətin dayanıqsız pozulma sərhəddində (*n=1,47* qiymətində) aşağıdakı asılılıq alınır:

$$\xi = \frac{D}{\mathrm{Re}^{0,53}} \quad (8)$$

burada C və D – yerli müqavimətin tipindən asılı olan sabit əmsaldır.

Şəkil1-də dörd diafraqmanın təcrübi nəticələrinin loqarifmik koordinat sis-temində ξ-nin *Re*-dən asılılığı verilmişdir. Maili düz, müqavimətin xətti qanununa (ξ əmsalı Re ilə əks mütənasibdir), əyri sahələr – keçid zonasına, horizontal düz sahəsi isə kvadratik qanununa və yaxud avtomodelə (ξ əmsalı Re -dən asılı deyil) uyğundur. Bu tip qrafiklər konkret yerli müqavimətlər üçün adətən təcrübi qiymət-lər əsasında qururlur.

Müasir eksperimental tədqiqatlar göstərir ki, Re ədədinin çox kiçik qiymətlərində (Re< 9)





Şəkil 1. Diafraqmada ξ-nin *Re*-dən asılılığı qrafiki. 1 – fetrli süzgəc; 2 – diafraqma(n=0,05); 3 – diyircəkli klapan; 4 – sökülən klapan; 5 – döngə, (dirsək); 6 – üçlük.

Şəkil 2. ξ-nin Re ədədindən asılılığı

qəflətən genişlənmə zamanı yerli hidravlik müqavimət əmsalı sahə-lər nisbətindən az asılı olur və Re aşağıdakı düsturla təyin olunur.

$$\xi = \frac{A}{\mathrm{Re}} \quad (9)$$

Bu o deməkdir ki, axının hərəkəti fasiləsiz hesab olunur və genişlənmə zamanı itki sürətin birinci dərəcəsi ilə mütənasibdir. 9< Re < 3500 olduqda müqavimət əmsalı Re və sahələr nisbətindən asılıdır. Re > 3500 olduqda Borda – Karno teoremini düzgün hesab etmək olar.

Şəkil2-də müxtəlif tədqiqatçılar tərəfindən aparılmış təcrübələrdən alınan nəticələr əsasında qurulmuş asılılıqlar verilmişdir. Qrafiklərdən görünür ki, yerli hidravlik müqavimət əmsalı Re ədədinin qiymətinin dəyişməsindən asılı olaraq müəyyən qanunauyğunluqla dəyişir. 2 – diafraqmanin n=0,05 qiyməti istisna olmaqla Re ədədi artdıqca yerli hidravlik müqavimət əmsalı azalır və Re-nin müəyyəm qiymətlərində hərəkət rejimindən asılı olmur. Bu halda əvvəldə qeyd etdiyimiz kimi yerli hidravlik müqavimət əmsalı başqa faktorlardan asılı olur.





Şəkil 3. 90^0 -li bucaqlıq üçün yerli hidravlik müqavimət əmsalının Reynolds ədədindən *(ζ=f(Re))* asılılığı

Şəkil 4. 135^0 -li bucaqlıq üçün yerli hidravlik müqavimət əmsalının Reynolds ədədindən*(ζ=f(Re))* asılılığı

Qeyd etdiyimiz kimi yerli hidravlik müqavimətlərin əksəriyyəti maye axınının en kəsik sahəsinin dəyişməsindən asılı olur. Hidravliki nöqteyi nəzərincə diafraqmada olduğu kimi (8) ifadəsinin doğuluğunu şəkil 3 və şəkil 4-də göstərilmiş əyrilər üçün yetərli olduğuna əmin olmaq olar. N.B.Levkovın MAİ elmi-tədqiqat laboratoriyasında apardığı nəticələrə əsasən təyyarənin hidravlik sistemlərində tipik yerli hidravlik müqavimətlərin Reynolds ədədindən asılı olması bir daha təsdiqlənmişdir və alınmış nəticələr loqarifmik koordinat sistemində qrafiklərlə verilmişdir. Şəkil 3 və şəkil 4-ə əsasən Reynolds ədədi və yerli hidravlik müqavimət əmsalı boru kəmərində sürətə və onun diametrinə görə hesablanmışdır.

Araşdırmalar onu göstərir ki, layihələndirmə zamanı yerli hidravlik müqavimət əmsallarının qiymətlərindən istifadə olunduğu üçün cədvəl qiymətlərinə ehiyac yaranır. Odur ki, müxtəlif dia-metrli armaturlarda təcrübi tədqiqitların aparılması vacibdir. Bunları nəzərə alaraq tərəfimizdən BMU-nun "Mexanika mühəndisliyi" kafedrasının elmi-tədqiqat laboratoriyasında GUNT HM150.11.firması tərə-findən hazırlanmış eksperimental qurğuda (Şəkil 5.) təcrübələr aparılmışdır.



Şəkil 5. Yerli hidravlik müqavimətləri tədqiq etmək üçün eksperimental qurğu

Təcrübə qurğusu əsasən təzyiq yaratma, tənzimləmə və ölçmə hissələrindən ibarətdir. Təcrübə qurğusunda 1 – sorma çəni, 2- torlu daban klapanı, 3- sorma borusu, 4,7,8,9 və 22 –tənzimləyici ventillət,10,13,16 və 19 pyezometrlər, 11,12 –nisbətən 14,15 açıq 90^0-li döngə,17,18-135^0-li döngə, 20-qəbul çəni, 21-isə ölçmə xətkeşidir.

Təcrübə aşağıdakı ardıcıllıqla aparılmışdır. Nasosun boş iş rejimində işləmə qabiliyyətini yoxla-maq üçün 8 və 9 ventilləri bağlanılmış 7 ventili açılmış və nasos qurğusu işə salınmışdır. Sonra əsas təcrübələrə başlanılmışdır. Bununla bağlı olaraq əvvəlcə 8 ventili tam açılmış, 7 ventili tam bağlanılmış, 9 ventili bit dövr açılaraq ölçmələr 90^0-li döngələr üçün 10,13- pyezometrlərində, 135^0-li döngələr üçün 16,19-pyezometrlərində hündürlüklərə görə aparılmışdır.Axının sərfi isə həcm üsulu ilə 20 çənində 21 ölçmə xətkeşi ilə ölçülmüşdür.

Yerli müqavimətlərlə əlaqədar basqı itkisi aşağıdakı məlum düsturla təyin edilir.

$$\Delta h_y = \xi \frac{\vartheta^2}{2g}$$

burada Δh_y- pyezometrlər arasındakı hündürlüklər fərqi, ξ- yerli hidravlik müqavimət əmsalı, ϑ - axının sürəti olub aşağıdakı kimi təyin edilmişdir

$$\upsilon = \frac{Q}{\omega} = \frac{4Q}{\pi d^2} = \frac{4V}{\pi d^2 t} \quad (10)$$

Axının sürətini - ϑ , borunun diametrini -d və kinematik özlülüyü - ν bilməklə Reynolds ədədi aşağıdakı düsturla hesablanmışdır.

$$\mathrm{Re} = \frac{\upsilon \cdot d}{\nu} \quad (11)$$

Beləliklə, alınmış və hesablanmış qiymətlər əsasında cədvəllər tərtib olunmuşdur.

Görülmüş işlərlə bağlı alınmış nəticələr üzərində araşdırmalar davam etdirilir.

NƏTİCƏLƏR

Yerli hidravlik müqavimətlərin tədqiqi ilə əlaqədar müxtəlif tədqiqatçıların apardığı elm-tədqiqat işləri analiz olundu . Diamerti d=20mm olan döngələrdə yerli hidravlik müqavimət əmsalını təyin etmək üçün sürətin müxtəlif qiymətlərində eksperimental tədqiqatlar aparıldı.Bununları nəzərə olaraq nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Təcrübə qurğusunun işləmə qabiliyyətinin yoxlamaq üçün əvvəlcə yoxlam–sınaq təcrübələri aparıldı və alınmış nəticələr ədəbiyyat göstəricisi ilə müqayisə olunmuşdur.
2. Müxtəlif formalı armaturlarda yerli hidravlik müqavimət əmsalını tədqiq etmək üçün sürətin müxtəlif qiymətlərində eksperimental tədqiqatlar aparmaq tövsiyə olunur.
3. Təcrübi qiymətlər əsasında hesablamalar aparılaraq cədvəl qiymətləri tərtib olunmuşdur.
4. Mühəndis məsələlərinin layhələndirilməsi zamanı alınmış nəticələrdən istidadə edərək yerli təzyiq itkilərinin hesablanmasında istifadə etmək olar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Варнафтик Н.Б. Справочник по теплофизическим свойствам газов и жидкостей. М.Наука, 1972 – 729 стр.
2. Альтшуль А.Д., Камксун В.И. Гидравлическое сопротивление трубопроводов. М. Стройиздат, 1964.
3. Идельчик И.Е. Справочник по гидровлическим сопротивлениям. М., Машиностроение, 1975
4. http://www.gidroplast.ru/doc/7/htm
5. http://www.spolohi.ru/technologies/index.php.gid-74

НЕЛИНЕЙНАЯ ДЕФОРМАЦИЯ ВРАЩАЮЩЕГОСЯ ДИСКА ИЗ ВЯЗКОУПРУГОГО МАТЕРИАЛА

ВУСАЛЕ Б. РЗАЕВА
Институт Математики и Механики НАНА - магистр
Отдел механики деформируемого твердого тела
rzayevavusale01@gmail.com
БАКУ, АЗЕРБАЙДЖАН

РЕЗЮМЕ

Исследуется напряженно-деформированное состояние вращающегося кольцевого диска из вязкоупругого материала. Диск является важнейшем элементом многих конструкций, в том числе паровых турбин. Вязкоупругие свойства материала диска описываются известными нелинейными соотношениями В.В.Москвитина [**1**] в виде нелинейных интегральных уравнений Вольтера второго рода. Толщина диска считается постоянный. В диске реализуется плоское напряженное состояние. Сформулировано постановка математической задачи. В качестве метода решения используется метод последовательных приближений, аналогичный методу упругих решений в теории пластичности. Определены компоненты тензоров напряжений, деформаций и вектора перемещения, которые возникают в кольцевом диске при его вращении. Полученные результаты могут быть использованы при проектировании и расчете на прочность дисков различного назначения.

КЛЮЧЕВЫЕ СЛОВА: кольцевой диск; физически нелинейный вязкоупругий материал; напряжение; деформация; метод последовательных приближений

ВВЕДЕНИЕ

Как известно, диски являются важнейшими элементами различных конструкций, в том числе паровых турбин, автомобильных колес и т.д. При эксплуатации диски деформируются, причем ее деформация зависят от материала диска и нагрузки, которые они испытывают. Цель настоящей статьи состоит в определении компонентов тензоров напряжений, деформаций и вектора перемещения, возникающие в физически нелинейно деформируемом кольцевом диске из вязкоупругого материала при его вращении. Актуальность данной темы обусловливается тем, что вопросы прогнозирования прочности дисков неносредственно связаны с определением его напряженно-деформированного состояния под действием различных нагрузок.

К настоящему времени аналогичные задачи решены в случаях, когда свойства материала диска подчиняются упругим законом [2], законам установившейся ползучести [3]. Здесь же исследуется напряженно-деформированное состояние кольцевого диска из физически нелинейного вязкоупругого материала. Диск вращается с угловой скоростью $\omega(t)$, где t-время. Вязкоупругие свойства материала диска описываются известными нелинейными соотношениями В. В. Москвитина [1]. Контуры диска не нагружены. Сформулируется постановка математической задачи. Для решения поставленной задачи используется метод упругих решений в теории пластичности. Считаем, что в диске реализуется плоское напряженное состояние.

ПОСТАНОВКА ЗАДАЧИ. Пусть кольцевой диск постоянной толщины с внутренним радиусом a, внешним – $в$ вращается с угловой скоростью $\boldsymbol{\omega(t)}$, где t-время. Механические свойства диска описываются соотношениями нелинейной теорий вязкоупругости для материалов, кривые ползучести которых геометрически подобны между собой [**1**]:

$$\frac{s_{ij}}{2G_0} = \varphi(\varepsilon_i)\varepsilon_{ij} - \int_0^t R(t-\tau)\varphi\big(\varepsilon_i(\tau)\big)e_{ij}(\tau)d\tau \quad (1)$$

$$\theta = 0 \quad (2)$$

Здесь $s_{ij} = \sigma_{ij} - \sigma\delta_{ij}$- девиатор напряжнений σ_{ij}; $\sigma = \sigma_{ij}\delta_{ij}/3$- среднее напряжение; δ_{ij}-символы Кронокера; $e_{ij} = \varepsilon_{ij} - \varepsilon\delta_{ij}$–девиатор деформаций ε_{ij}; $\varepsilon = \varepsilon_{ij}\delta_{ij}/3$-средняя деформация; $\theta = 3\varepsilon$-относительное изменения обьема; $\varepsilon_i = \left(\frac{2}{3}e_{ij}e_{ij}\right)^{\frac{1}{2}}$-интенсивность деформаций; $\varphi(\varepsilon_i)$-функция физической нелинейности; G_0-мьновенный модуль упругости; $R(t)$ есть функция наследственности–ядро релаксации. Согласно (1.2), материал диска считаем механически несжимаемым. В соотношених (2.1) координаты точек тела опущены.

Воспользуемся цилиндрической системой координат (r, φ, z). Пусть $z=0$ является срединной плоскостью диска. В силу осевой симметрии имеем: $\sigma_{\varphi z} = 0, \sigma_{r\varphi} = 0$. Компоненты $\sigma_{zz} = \sigma_z$ и σ_{zr} в плоскостях, параллельных срединной плоскости, малы по сравнении с компонентами $\sigma_{rr} = \sigma_r$ и $\sigma_{\varphi\varphi} = \sigma_\varphi$ в плоскостях, нормальных к ней. Поэтому, примем $\sigma_z \approx 0, \sigma_{zr} \approx 0$. Кроме того, компоненты деформации будет: $\varepsilon_{\varphi z} = 0, \varepsilon_{r\varphi} = 0, \varepsilon_{zr} = 0$.

Применительно к нашей задаче имеем:

$$\sigma = \frac{1}{3}(\sigma_r + \sigma_\varphi);\ S_r = \frac{1}{3}(2\sigma_r - \sigma_\varphi);\ S_\varphi = \frac{1}{3}(2\sigma_\varphi - \sigma_r)$$

$$S_z = -\frac{1}{3}(\sigma_r + \sigma_\varphi);\ \varepsilon = 0;\ e_r = \varepsilon_r;\ e_\varphi = \varepsilon_\varphi;\ e_z = \varepsilon_z = -(\varepsilon_r + \varepsilon_\varphi)$$

Интенсивность деформаций ε_i в случае нашей задачи имеет вид:

$$\varepsilon_i = \frac{2}{\sqrt{3}}\sqrt{\varepsilon_r^2 + \varepsilon_r\varepsilon_\varphi + \varepsilon_\varphi^2}$$

Определяющие уравнения (1), (2) с учетом этих формул, преобразуются к соотношениям:

$\frac{S_r}{2G_0} = \varphi(\varepsilon_i)\varepsilon_r - \int_0^t R(t-\tau)\varphi(\varepsilon_i)\varepsilon_r(\tau)d\tau$, (3)

$\frac{S_\varphi}{2G_0} = \varphi(\varepsilon_i)\varepsilon_\varphi - \int_0^t R(t-\tau)\varphi(\varepsilon_i)\varepsilon_\varphi(\tau)d\tau$, (4)

$\frac{S_t}{2G_0} = \varphi(\varepsilon_i)\varepsilon_z - \int_0^t R(t-\tau)\varphi(\varepsilon_i)\varepsilon_z(\tau)d\tau$, (5)

Для постановки задачи к уравнениям (3)-(5) присоединим уравнение равновесия (ρ-плотность материала диска)

$\frac{\partial\sigma_r}{\partial r} + \frac{\sigma_r - \sigma_\varphi}{r} + \rho\omega^2(t)r = 0$, (6)

Связь между перемещением u и компонентами деформаций $\varepsilon_r;\ \varepsilon_\varphi$

$\varepsilon_r = \frac{\partial u}{\partial r}, \varepsilon_\varphi = \frac{u}{r}$ (7)

и граничные условия, которые для диска с круговым центральным отверстием радиуса a-

$$\sigma_r\big|_{r=a} = 0;\quad \sigma_r\big|_{r=b} = 0.\ (8)$$

Следовательно, задача определения величин $\sigma_r, \sigma_\varphi, \varepsilon_r, \varepsilon_\varphi, u$ является задача (3)-(8). Как видим, задача (3)-(8) есть существенная нелинейная задача.

ПРИВЕДЕНИЕ К ЗАДАЧЕ БЕЗ ОБЬЕМНЫХ СИЛ. Решение задачи (3)-(8), согласно [4], представим в виде:

$u = u', \sigma_r = \sigma_r' - \Phi(r,t), \sigma_\varphi = \sigma_\varphi' - \Phi(r,t), \sigma_z = \sigma_z' - \Phi(r,t)$ (9)

Здесь через $\Phi(r,t)$ обозначено потенциал обьемный силы, которая входит в уравнения разновесия. При этом $\frac{\partial\Phi}{\partial r} = \rho\omega^2(t)r$. Отсюда

$\Phi = \frac{1}{2}\rho\omega^2(t)(r^2 - a^2)$ (10)

Поскольку, для рассматрывоемой задачи $\sigma_z = 0$ то из последной формулы (9) следует $\sigma_z{}' = \Phi(r,t)$.

Вычислим средного напряжения σ:

$$\sigma' = \frac{1}{3}\left(\sigma_r' + \sigma_\varphi + \sigma_z\right) = \frac{1}{3}\left(\sigma_r' + \sigma_\varphi' + \sigma_z'\right) - \Phi(r,t) \equiv \sigma' - \Phi(r,t)$$

При этом имеем:

$$S_r = \sigma_r - \sigma = \sigma_r' - \sigma' = S_r';$$

$$\boldsymbol{S_\varphi = \sigma_\varphi - \sigma} = \sigma_\varphi' - \boldsymbol{\sigma'} = S_\varphi';$$

$$\boldsymbol{S_z = \sigma_z - \sigma} = \sigma_z' - \boldsymbol{\sigma'} = \boldsymbol{S_z'};$$

$$\boldsymbol{\varepsilon_r = \frac{\partial u}{\partial r} = \frac{\partial u'}{\partial r}} = \varepsilon_r';\ \boldsymbol{\varepsilon_\varphi = \frac{u}{r} = \frac{u'}{r}} = \varepsilon_\varphi'$$

$$\boldsymbol{\varepsilon_i = \frac{2}{\sqrt{3}}\sqrt{\varepsilon_r^2 + \varepsilon_r\varepsilon_\varphi + \varepsilon_\varphi^2}} = \boldsymbol{\frac{2}{\sqrt{3}}\sqrt{\varepsilon_r'^2 + \varepsilon_r'\,\varepsilon_\varphi' + \varepsilon_\varphi'^2}} = \varepsilon_i'$$

С применением последних соотношения. (3)-(8)принимают вид:

$$\frac{S'_r}{2G_0} = \varphi\left(\varepsilon'_i\right)\varepsilon_r{}' - \int_0^t R(t-\tau)\varphi\left(\varepsilon'_i\right)\varepsilon'_r(\tau)d\tau \text{ , (11)}$$

$$\frac{S'_\varphi}{2G_0} = \varphi\left(\varepsilon'_i\right)\varepsilon'_\varphi - \int_0^t R(t-\tau)\varphi\left(\varepsilon'_i\right)\varepsilon'_\varphi(\tau)d\tau \text{ (12)}$$

$$\frac{S'_r}{2G_0} = \varphi\left(\varepsilon'_i\right)\varepsilon'_z - \int_0^t R(t-\tau)\varphi\left(\varepsilon'_i\right)\varepsilon'_z(\tau)d\tau \text{ (13)}$$

$$\frac{\partial\sigma_r}{\partial r} + \frac{\sigma_r-\sigma_\varphi}{r} = 0 \text{ (14)}$$

$$\varepsilon'_r = \frac{\partial u'}{\partial r},\ \ \varepsilon'_\varphi = \frac{u'}{r} \quad \text{(15)}$$

$$\sigma'_r\big|_{r=a} = 0,\quad \sigma'_r\big|_{r=b} = \Phi(b,t), \quad \text{(16)}$$

где $\Phi(b,t) = \frac{1}{2}\rho\omega^2(t)\left(b^2 - a^2\right)$.

Как видим, исходная задача (3)-(8) формулами (9) приведена к соответствующей задаче (11)-(16) без наличия обьемных сил. Решим задачу (11)-(16) "Определяющие" уравнения (11)-(13) могут быть заменены следующими соотношениями:

$$\sigma'_r = 2G_0\left[\varphi\left(\varepsilon'_i\right)\left(2\,\varepsilon'_r + \varepsilon'_\varphi\right) - \int_0^t R(t-\tau)\varphi\left(\varepsilon'_i\right)\left(2\,\varepsilon'_r + \varepsilon'_\varphi\right)d\tau\right], \text{(17)}$$

$$\sigma'_\varphi = 2G_0\left[\varphi\left(\varepsilon'_i\right)\left(2\,\varepsilon'_\varphi + \varepsilon'_r\right) - \int_0^t R(t-\tau)\varphi\left(\varepsilon'_i\right)\left(2\,\varepsilon'_\varphi + \varepsilon'_r\right)d\tau\right] \text{(18)}$$

Для решения задачи (17), (18), (14)-(16) воспользуемся методом последовательных приближений, подобно методу упругих решений А.А.Ильюшина в теорий пластичности. Предворительно решим соответствуюшую задачу физически линейной вязкоупругости, т.е. рассмотрим случай $\varphi\left(\varepsilon'_i\right) = 0$.

4. РЕШЕНИЕ ЗАДАЧИ ВЯЗКОУПРУГОСТИ. При этом соотношения (17), (18) переходят к уравнению:

$$\sigma'_r = 2G_0\left[\left(2\,\varepsilon'_r + \varepsilon'_\varphi\right) - \int_0^t R(t-\tau)\left(2\,\varepsilon'_r + \varepsilon'_\varphi\right)d\tau\right], \text{(19)}$$

$$\sigma'_\varphi = 2G_0\left[\left(2\,\varepsilon'_\varphi + \varepsilon'_r\right) - \int_0^t R(t-\tau)\left(2\,\varepsilon'_\varphi + \varepsilon'_r\right)d\tau\right] \text{(20)}$$

Учетем (15) в соотношениях (19) и (20) с последующей подставкой результатов в уравнения "равновесия " (14). При этом для определения $u'(r,t)$ получим уравнения:

$$\frac{\partial^2 u'}{\partial r^2} + \frac{1}{r}\frac{\partial u'}{\partial r} - \frac{u'}{r^2} = 0 \text{ (21)}$$

Уравнения (21) перепишем в виде

$$\frac{\partial}{\partial r}\left[\frac{1}{r}\frac{\partial\left(r\,u'\right)}{\partial r}\right] = 0.$$

Общее решение последнего уравнения следующее:

$$u'(r,t) = c_1(t)r + \frac{c_2(t)}{r} \text{ (22)}$$

Функций $\mathrm{c}_1(t)$ и $c_2(t)$ должны быть определены из граничных условий (16). С использованием (22) , из (15) получим:

$$\varepsilon'_r = c_1(t) - \frac{c_2(t)}{r^2};\ \varepsilon'_\varphi = c_1(t) + \frac{c_2(t)}{r^2} \text{ (23)}$$

Наконец, из соотношений (17), (18) определим $\sigma'_r, \sigma'_\varphi$

$$\sigma'_r = 2G_0\left[3c_1(t) - \frac{c_2(t)}{r^2} - \int_0^t R(t-\tau)\left(3c_1(\tau) - \frac{c_2(\tau)}{r^2}\right)d\tau\right], \text{(24)}$$

$$\sigma'_\varphi = 2G_0\left[3c_1(t) + \frac{c_2(t)}{r^2} - \int_0^t R(t-\tau)\left(3c_1(\tau) + \frac{c_2(\tau)}{r^2}\right)d\tau\right] \text{(25)}$$

При учете граничных условий (14) определим $\mathrm{c}_1(t)$ и $c_2(t)$:

$$\mathrm{c}_1(t) = \frac{b^2}{2G_0(b^2-\mathrm{a}^2)}\left(\Phi(b,t) + \int_0^t \Gamma(t-\tau)\,\Phi(b,\tau)d\tau\right), \text{(26)}$$

$$c_2(t) = \frac{a^2 b^2}{2G_0(b^2 - a^2)}\left(\Phi(b,t) + \int_0^t \Gamma(t-\tau)\,\Phi(b,\tau)d\tau\right) \quad (27)$$

Здесь $\Gamma(t)$ есть резольвента ядра $R(t)$. Функция $\Phi(b,t)$ определяется формулой: $\Phi(b,t) = \frac{1}{2}\rho\omega^2 t(b^2 - a^2)$

Теперь вернемся к решению задачи (17), (18), (14)-(16).

РЕШЕНИЕ НЕЛИНЕЙНОЙ ЗАДАЧИ ВЯЗКОУПРУГОСТИ. Будем использовать следующий метод последовательных приближений. Функцую $\varphi\left(\varepsilon_i'\right)$ представим в виде: $\varphi\left(\varepsilon_i'\right) = 1 - \omega\left(\varepsilon_i'\right)$. При нулевом приближении принимаем; $\omega\left(\varepsilon_i'\right) = 0$. При этом $\varphi\left(\varepsilon_{i0}'\right) = 1$. При этом задача определения $u'_{(0)}$, $\varepsilon'_{r(0)}$, $\varepsilon'_{\varphi(0)}$, $\sigma'_{r(0)}$, $\sigma'_{\varphi(0)}$, является задачей линейной теории вязкоупругости, решение которой получено выше.

Задача любого *к*-го приближения состоит из следующих соотношений:

$$\frac{\sigma'_{r(k)}}{2G_0} = 2\varepsilon'_{r(k)} + \varepsilon'_{\varphi(k)} - \int_0^t R(t-\tau)\left(2\varepsilon'_{r(k)} + \varepsilon'_{\varphi(k)}\right)d\tau -$$
$$-\left\{\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)} + \varepsilon'_{\varphi(k-1)}\right) - \int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)} + \varepsilon'_{\varphi(k-1)}\right)d\tau\right\}, \quad (28)$$

$$\frac{\sigma'_{\varphi(k)}}{2G_0} = 2\varepsilon'_{\varphi(k)} + \varepsilon'_{r(k)} - \int_0^t R(t-\tau)\left(2\varepsilon'_{\varphi(k)} + \varepsilon'_{r(k)}\right)d\tau -$$
$$-\left\{\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{\varphi(k-1)} + \varepsilon'_{r(k-1)}\right) - \int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{\varphi(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)} + \varepsilon'_{r(k-1)}\right)d\tau\right\} \quad (29)$$

$$\frac{\partial\sigma'_{r(k)}}{\partial r} + \frac{\sigma'_{r(k)} - \sigma'_{\varphi(k)}}{r} = 0; \quad (30)$$

$$\varepsilon'_{r(k)} = \frac{\partial u'_{(k)}}{\partial r}, \quad \varepsilon'_{\varphi(k)} = \frac{u'_{(k)}}{r}, \quad (31)$$

$$\sigma'_{r(k)}\Big|_{r=a} = 0; \quad \sigma'_{r(k)}\Big|_{r=b} = 0. \quad (32)$$

Решение задачи (28)-(32) представим в виде:

$$\sigma'_{r(k)} = \sigma''_{r(k)} - 2G_0\left\{\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)} + \varepsilon'_{\varphi(k-1)}\right) -\right.$$
$$\left. - \int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)} + \varepsilon'_{\varphi(k-1)}\right)d\tau\right\}, \quad (33)$$

$$\sigma'_{\varphi(k)} = \sigma''_{\varphi(k)} - 2G_0\left\{\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{\varphi(k-1)} + \varepsilon'_{r(k-1)}\right) -\right.$$
$$\left. - \int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{\varphi(k-1)} + \varepsilon'_{r(k-1)}\right)d\tau\right\}, \quad (34)$$

$$u'_{(k)} = u''_{(k)}, \ \varepsilon'_{r(k)} = \frac{\partial u'_{(k)}}{\partial r} = \frac{\partial u''_{(k)}}{\partial r} = \varepsilon''_{r(k)}, \quad (35)$$

$$\varepsilon'_{\varphi(k)} = \frac{\partial u'_{(k)}}{r} = \frac{u''_{(k)}}{r} = \varepsilon''_{\varphi(k)} \quad (36)$$

При учете формул (33)-(36) в соотношениях (28)-(32), получим следующую задачу для определения $u''_{(k)}$, $\varepsilon''_{r(k)}$, $\varepsilon''_{\varphi(k)}$, $\sigma''_{r(k)}$, $\sigma''_{\varphi(k)}$

$$\frac{\sigma''_{r(k)}}{2G_0} = 2\varepsilon''_{r(k)} + \varepsilon''_{\varphi(k)} - \int_0^t R(t-\tau)\left(2\varepsilon''_{r(k)} + \varepsilon''_{\varphi(k)}\right)d\tau, \quad (37)$$

$$\frac{\sigma''_{\varphi(k)}}{2G_0} = 2\varepsilon''_{\varphi(k)} + \varepsilon''_{r(k)} - \int_0^t R(t-\tau)\left(2\varepsilon''_{\varphi(k)} + \varepsilon''_{r(k)}\right)d\tau, \quad (38)$$

$$\frac{\partial \sigma''_{r(k)}}{\partial r}+\frac{\sigma''_{r(k)}-\sigma''_{\varphi(k)}}{r}-2G_0F_{k-1}(r,t)=0\ , \quad (39)$$

$$\varepsilon''_{r(k)}=\frac{\partial u''_{(k)}}{\partial r},\quad \varepsilon''_{\varphi(k)}=\frac{u'_{(k)}}{r},\ (40)$$

$$\sigma''_{r(k)}\Big|_{r=a}=2G_0R_{k-1}(r,t)\Big|_{r=a}\ ,\ \ \sigma''_{r(k)}\Big|_{r=b}=2G_0R_{k-1}(r,t)\Big|_{r=b} \qquad (41)$$

Здесь приняты обозначения:

$$R_{k-1}(r,t)=\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)}+\varepsilon'_{\varphi(k-1)}\right)-$$

$$-\int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(2\varepsilon'_{r(k-1)}+\varepsilon'_{\varphi(k-1)}\right)d\tau\ .\ (42)$$

$$F_{k-1}(r,t)=\frac{\partial R_{k-1}(r,t)}{\partial r}-\frac{1}{r}\left[\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(\varepsilon'_{\varphi(k-1)}-\varepsilon'_{r(k-1)}\right)-\right.$$

$$-\int_0^t R(t-\tau)\omega\left(\varepsilon'_{i(k-1)}\right)\left(\varepsilon'_{\varphi(k-1)}-\varepsilon'_{r(k-1)}\right)d\tau\ \ (43)$$

Задача (37)-(41) отличается от задачи (19), (20), (14)-(16) только наличием дополнительных “обьемной “ и “поверхностной “ сил, определимые формулами (41) и (42) соответственно. “Обьемная” сила $F_{k-1}(r,t)$, которая определяется формулой (42), т.е. предшествующим приближением, имеет потенциал. Сила $F_{k-1}(r,t)$ может быть исключена, согласно работе [4]. Полученная при этом задача будет задачей линейной вязкоупругости, решение которой может быть построено с использованием решения задачи (19), (20), (14)-(16). После определения величин $u'\ \sigma_r'\ ,\sigma_\varphi'$ искомые величины находим по формулам (9) при учете (10).

Наконец заметим, что использованный здесь метод последовательных приближений аналогичен методу упругих решений А.А.Ильюшина в теорий пластичности [5]. Сходимость этого метода при естественном условии $|\omega(\varepsilon_i)|<M$ где М положительное число, доказана в работе [6].

Выражаю искреннюю признательность научному руководителю доктору физико- математических наук, профессору Л.Х.Талыблы за постановку задачи и за советы.

ЛИТЕРАТУРА

1. Москвитин В.В. Сопротивление вязкоупругих материалов, Москва: Наука, 1972, 327с.
2. Аменздаде Ю.А. Теория упругости. Москва: Высшая школа, 1976, 272с.
3. Малинин Н.Н. Прикладная теория пластичности и ползучести. Москва: Машиностроение, 1975. 400с.
4. Талыблы Л.Х. Ободной возможности исключения объемных сил в задачах механики деформируемого тела. Известия А.Н. Азерб. ССР. Ср. физ-техн. И мат. Наук, 1982. Том 3, №5, с. 56-61.
5. Ильюшин А.А. Пластичность. Часть 1. Упругопластической деформаций. Москва: Гостехиздат. 1948. 376с.
6. Быков Д.Л. О некоторых методах решение задач теорий пластичности. В книге: Упругость и не упругость . Москва: Изд-во МГУ, 1975, вып 4. С.119-138.

QRAFEN VƏ ONUN MÜDAFİƏ SƏNAYƏSİNDƏ İSTİFADƏSİ

Kərimbəyli Müzəffər İlham oğlu
BMU, Mexanika mühəndisliyi kafedrası
mkarimbayli@beu.edu.az

Xülasə

XXI əsrin dəyişən texnologiyalarının qidalandığı əsas mənbələrdən biri materialşünaslıqdakı irəliləyişlərdir. Materialşünaslığın tədqiqat və təkmilləşdirmə fəaliyyəti sayəsində kompüter prosessorlarının, sensorların, peyklərin, ölçü cihazlarının, kameraların və digər optik cihazların tutumları əhəmiyyətli dərəcədə artmış, həcmləri isə sürətlə azalmışdır. Yeni texnologiyaların və yeni materialların xərcləri azalsa da, tətbiq sahələri genişləndi və tarixdə görünməmiş yenilik sürətinə nail olundu. Məqalədə qlobal qrafen sənayesinin vəziyyəti, tətbiq sahələri, xüsusən də müdafiə sənayesində istifadəsi araşdırılıb, müxtəlif nümunələr nəzərdən keçirilərək qrafenlə bağlı proqnozlaşma məsələsinə baxılmışdır.

Açar sözlər: Qrafen, ikiölçülü quruluş, Müdafiə sənayesi, qrafen örtük.

GRAPHENE AND ITS USE IN THE DEFENSE INDUSTRY

Summary

One of the main sources of the changing technologies of the 21st century is advances in materials science. Thanks to the research and development of materials science, the capacity of computer processors, sensors, satellites, measuring devices, cameras and other optical devices has increased significantly, and their volume has decreased rapidly. Although the cost of new technologies and new materials has decreased, the scope of application has expanded and an unprecedented rate of innovation has been achieved. This article examines the state of the global graphene industry, its applications, especially the defense industry, and examines various examples to bring you the forecasts for graphene.

Keywords: Graphene, two-dimensional structure, Defense industry, graphene coating.

1. Giriş. 2004-cü ildə Mançester Universitetinin rus alimləri Andre Geim və Konstantin Novoselov tərəfindən qrafit kristallarını təşkil edən karbon atomlarının altıbucaqlı təbəqələrini adi yapışqan lentin köməyi ilə ayıraraq əldə etdikləri qrafen - yüksək keçiriciliyi, elastikliyi və davamlılığı ilə diqqəti cəlb etdi və tezliklə "möcüzə materialı" adlandırılmağa başladı.

Geim və Novoselova 2010-cu ildə Kimya üzrə Nobel Mükafatını qazandıran qrafenin istehsalını və kommersiyalaşdırılmasını artırmaq üçün müxtəlif ölkələr və investorlar yarışlar keçirdilər, lakin zaman keçdikcə qənaətbəxş nəticələr əldə oluna bilmədi. Bununla belə, qrafenlə bağlı təhlillərdə tez-tez qeyd edildiyi kimi, son illərdə həm istehsal və tətbiq müxtəlifliyinin artması, həm də qrafenə tələbatın artması ilə əhəmiyyətli bir canlanma müşahidə edilməkdədir. Tələb və təklifin canlanması ilə qrafenin tətbiq sahələrinin artacağına dair təxminlər tez-tez dilə gətirilməyə başladı. Bu tətbiq sahələri arasında müdafiə sənayesi də var.

Kəşf edilməsindən 18 il keçməsinə baxmayaraq, qrafen materialının kommersiya istifadəsi məhdud olaraq qalır. Bu vəziyyətin müxtəlif səbəbləri var. Dünyanın hər yerindən 10.000-dən çox fərd, təşkilat və ya şirkətin üzv olduğu qrafen sahəsində ən böyük birlik olan The Graphene Council tərəfindən 2019-cu ildə dərc edilmiş hesabata görə, qrafen sənayesinin inkişafına təsir edən maneələr aşağıdakılardır [1] :

1. Yüksək istehsal dəyəri və material qiymətləri;
2. İstehsal keyfiyyətinin yüksək olması;
3. Tətbiq sahələrinin məhdudlaşdırılması;
4. Universal standartların və məhsul xüsusiyyətlərinin olmaması;
5. Ekalogiyaya vurulan zərər;

Qrafen materialı bir çox üstünlüklərə baxmayaraq, hələ də lazımi şəkildə istifadə edilmir. Buna əsas səbəb istehsal problemləridir. İki ölçülü material olan qrafenin istehsalında hələ də geniş miqyasda qənaət əldə olunmayıb. Materialın ən məhsuldar xassələri ikiölçülü və yüksək təmizlik səviyyəsində olduqda qrafenin kütləvi istehsalında çətinliklər ortaya çıxır. Qrafen karbon atomlarının bir-birinə altıbucaqlı şəkildə bağlanması nəticəsində əmələ gəlir və tək atomlu qalın materialdır. İki ölçülü altıbucaqlı quruluşda düzülmüş karbon atomlarının bu forması qrafeni qeyri-adi xüsusiyyətlərə malikdir. Qrafenin tək təbəqəsi o qədər sıxdır ki, hətta helium atomları da keçə bilmir. Onun istilik keçiriciliyi misdən 10 dəfə yüksəkdir. Elektron keçiriciliyi elektron cihazlarda istifadə edilən silisiumdan (silisium) 100 dəfə yüksəkdir.

2. Qrafenin istehsal gələcəyi. Qrafen bilinən ən nazik material olmaqla yanaşı, onun güclü karbon bağları qrafeni ən güclü material edir. Qrafen poladdan təxminən 100-300 dəfə güclüdür və almazdan daha yaxşı

istilik keçiriciliyinə malikdir. Bundan əlavə, hər kvadrat metrə cəmi 0,77 milliqram ağırlığında olan qrafen 2011-ci ildə kəşf edilən üstün yapışma xüsusiyyəti sayəsində asanlıqla dartılır və müxtəlif formalarda bir çox materialın səthində asanlıqla örtülə bilir [2].

Qrafen bu üstün xüsusiyyətləri ilə materialşünaslığın diqqət mərkəzinə çevrilmişdir. Bununla belə, qrafenin kütləvi istehsalı üçün iqtisadi texnika hələ işlənməmişdir. Qeim və Novoselovun qrafit təbəqələrinin yapışan lentlə ayrılması texnikası sadədir və əldə edilən qrafen ən yüksək keyfiyyətə malikdir. Bununla belə, qrafenin istehsal texnologiyasının işlənməsi sürəti çox yavaşdır və bir mikrometr qrafenin istehsalı üçün 1000 dollara yaxın vəsait tələb olunur.

Çin şirkətləri qlobal qrafen bazarının 22,1 faizinə sahibdirlər. Çin müəssisə və təşkilatları da qrafen patentlərinin təxminən 60 faizinə sahibdirlər. 2017-ci ildə dünyada tanınan qrafenlə bağlı 13 371 patentdən 5 603-ü Çin şirkətləri tərəfindən alınıb. 2004-cü ildən bəri qrafenlə bağlı dünyada tanınan patentlərin sayı 2017-ci ilin sonuna 53 644-ə çatdığı halda, onlardan 32 143-ü Çin şirkətlərinə verilib. Çindən sonra patent sayına görə 2-ci və 3-cü yeri Cənubi Koreya və ABŞ tutur [3].

Bütün bu şirkətlər Graphene Flagship tərəfindən müəyyən edilmiş yol xəritəsinə uyğun işləyir. Konsorsium tərəfindən açıqlanan 2019-2030 yol xəritəsinə əsasən, müxtəlif qrafen tətbiqlərinin yetişmə vaxtları aşağıdakı kimi verilmişdir[4]:

2022-ci ildə və ondan əvvəl:

1. Funksional örtük və səth dəyişdirici materiallar;
2. Gücləndirilmiş tikinti materialları;
3. Sürətli şarj batareyaları;
4. Təkmil fotovoltik cihazlar;
5. Təkmil uzun məsafəli optik rabitə;
6. Aşağı qiymətə çap edilə bilən elektron məhsullar;
7. İşıq detektorları, fiziki və kimyəvi detektorlar;
8. Genişzolaqlı kameralar və spektrometrlər;
9. Biosensorlar;

2023-2029-cu illərdə:

1. Çoxfunksiyalı tikinti materialları;
2. Suyun təmizlənməsi və dəniz suyunun duzsuzlaşdırılması;
3. Anbar logistikası üçün superkapasitorlar;
4. Çevik perovskit günəş batareyaları;
5. Perovskite çox birləşməli fotovoltik panellər;
6. Qabaqcıl şəbəkə üst strukturları;
7. Yüksək tezlikli elektron cihazlar;
8. Çevik elektron cihazlar;
9. Beynin koqnitiv və sensor-motor funksiyalarına kömək edən beyin-kompüter interfeysləri;

2030-cu ildən sonra:

1. Nəqliyyat vasitələri üçün yanacaq elementləri;
2. 6g və sonrakılar üçün simsiz şəbəkələr;
3. Çip üzərindəki optik məlumatlar;
4. Aşağı enerjili "spin logic" elektron cihazları;
5. Bədəndə fəaliyyət göstərən və hədəfini tapan dərmanlar;
6. Bədənin elektrik cərəyanını oxumaq və dəyişdirməklə real vaxt rejimində müalicə (bioelektrik təbabət);

3. Müdafiə sənayesində qrafenin istifadəsi. Dünyada qrafen istehsalının artması və daim genişlənən məhsul çeşidi bu materialın istifadə oluna biləcəyi sektorların sayını sürətlə artırıb. 10.000-dən çox üzvü olan Qrafen Şurası müdafiə sənayesi daxil olmaqla qrafenin istifadə oluna biləcəyi 40-dan çox sektoru müəyyən etmişdir.

Qrafenin istifadə sahəsi sürətlə genişləndikcə müdafiə sənayesi dairələri bu inkişafları yaxından izləməyə və araşdırmaları dəstəkləməyə başladılar. Əslində, AB-nin "Müdafiə Nazirliyi" olan Avropa Müdafiə Agentliyi (EDA) 2017-ci ildə "Qrafenin Müdafiəyə Təsiri" adlı araşdırmaya başlamışdır. EDA bu layihə çərçivəsində 2018-ci ilin may ayında keçirilən texniki iclasda qrafenin müdafiə ilə bağlı altı tətbiq sahəsini müəyyən edildi:

1. Elektron/ optoelektron materiallar və cihazlar;
2. Çevik sistemlər;

3. Enerji cihazları;
4. Çoxfunksiyalı materiallar;
5. Kamuflyaj və izlərin idarə edilməsi;
6. Sensorlar;

Qrafenin müdafiə sənayesində istifadə potensialını ortaya qoymağa çalışacaq bu bölmədə ilk növbədə EDA-nın müdafiə ilə bağlı qrafenin tətbiqi sahələrindəki işləri, müdafiə şirkətləri və tədqiqat qurumlarının bu sahədəki işləri nəzərdən keçirildi.

Graphene elektronika sənayesini hərəkətə gətirəcək bir çox xüsusiyyətlərə malikdir. Onun qalınlığı cəmi 0,34 nanometrdir. Bu, indiyə qədər hazırlanmış ən nazik materialdır və polad və almazdan daha yaxşı dartılma gücünə malikdir. Bu olduqca yüngül materialdır, hər kvadrat metrə cəmi 0,77 milliqram material sərf olunur. Çox elastiktir, ilkin formasının 20 faizinə endirilənə qədər deformasiyaya uğramadan qatlana bilər. Çox keçirici materialdır. Bəzi üsullarla elektrik cərəyanını 100 faiz keçirən superkeçiriciyə çevrilə bilər. Bundan əlavə, qrafen istiliyi sürətlə və bütün istiqamətlərdə keçirə bilir. Qrafenin bu üstün xüsusiyyətləri elektron cihazları miniatürləşdirmək, onları çevik etmək və ünsiyyəti sürətli, səmərəli və təhlükəsiz etmək yollarını axtaran elektronika sənayesinə yeni innovasiyaların qapılarını açır. Əslində, bir çox qurum və təşkilat daha incə, həssas və çevik ekranlar, çevik çiplər, qrafenlə daha sürətli məlumat rabitəsi qarşılıqlı əlaqə vasitələri inkişaf etdirmək üçün çalışır və müdafiə sənayesi şirkətləri də bu araşdırmaları dəstəkləyir [5].

Fotonika və Optoelektronika Saf (bir qatlı) qrafenin optik xassələri həm də elektrooptika sahəsində böyük yeniliklərə səbəb olacaq yeni imkanlar təklif edir. Qara karbon atomlarından ibarət olan qrafen çox nazik, lakin yenə də adi gözlə görülə bilən bir materialdır. Ağ işığın yalnız 2,3 faizini udur. Bu, qrafeni həm şəffaf, həm də keçirici material edir. Qrafen həm də qeyri-adi bağ quruluşuna görə elektromaqnit şüalanma ilə qarşılıqlı təsir göstərə bilən materialdır. Qrafen infraqırmızı və ya terahertz diapazonlarında işığın aşkarlanmasında yarımkeçirici materiallardan daha faydalıdır. Bu xüsusiyyətlər qrafeni optika, fotonika, optoelektronika, elektrooptika və fotovoltik enerji (günəş enerjisi) sahələrində qiymətli materiala çevirir.

Qrafen örtükləri ballistik müqavimət xüsusiyyəti ilə hərbi sahədə diqqət çəkib. ABŞ-da aparılan tədqiqatlar qrafenin mərmilərin kinetik enerjisini aradan qaldırmaq üçün kifayət qədər güclü olduğunu ortaya qoydu. Bu qabiliyyət qrafenin son dərəcə yüngül və nazik zirehlər və ya gülləkeçirməz jiletlər kimi geyilə bilən ballistik mühafizə vasitələrində istifadə oluna bilmə imkanını açır. Çinin Z-10 hücum helikopterlərində qrafen zirehindən istifadə etdiyi iddia edilir. Çin alimlərinin xüsusilə Cənubi Çin dənizindəki hərbi-dəniz bazalarında döyüş platformalarını, elektron avadanlıqları və silahları korroziyadan qorumaq üçün qrafen örtük materialı hazırlamaq üzərində çalışdıqları da bildirilmişdir [6].

Qrafen örtüyü və kompozitlər aviasiyada layiq olduqları diqqəti cəlb edərkən, müdafiə dairələri də bu tədqiqatlarda iştirak edirlər. Qrafen örtükləri təyyarələri atmosfer şəraitindən qorusa da, qrafen kompozitləri təyyarənin çəkisini və yanacaq sərfiyyatını azaldır. İngiltərədə yerləşən müdafiə sənayesi şirkəti BEA Systems tərəfindən dəstəklənən layihədə Mançester Universitetinin alimləri qrafenlə örtülmüş pilotsuz uçuş aparatını sınaqdan keçiriblər və qrafen örtüyü sayəsində təyyarənin yüksək qoruma qabiliyyəti olduğu sübuta yetirilib.

Müdafiə sənayesinin diqqətini qrafen örtüklərinə və kompozitlərə yönəltməsinin başqa bir səbəbi yüksək qorunma qabiliyyətinin təmin olunması və kamuflyajdır. Qrafen örtüyü və kompozitlər radiotezliklər və elektromaqnit şüalanma ilə üzlərində olduqları səthlərin formalarını aşkar etməyi çətinləşdirir. Bu səbəbdən, döyüş platformalarının düşmən tərəfindən qəbul edilməsinin qarşısını almaq üçün qrafen materiallarından istifadə etmək üçün araşdırmalar aparılır. Müdafiə sənayesi problemlərinin həllərini araşdıran İsveç sənaye nəhəngi Saab, 2015-ci ildə təyyarələrin, gəmilərin, sualtı qayıqların və hətta hərbi geyimlərin kamuflyajında qrafendən istifadə etməyin çox əlverişli olduğunu elan etdi.

4. Nəticə. Qrafen üstün fiziki, kimyəvi və mexaniki xüsusiyyətləri ilə demək olar ki, bütün sahələrdə qeyri-məhdud imkanlar təqdim edən bir materialdır. Halbuki, bir atom qalınlığında bu iki ölçülü materialı istehsal edib, tətbiq oluna bilən hala gətirmək çox çətin bir prosesdir. Materialın davamlı kütləvi istehsalı üsulu hələ də araşdırılır. Bu materialın dünyada kommersiyalaşdırılması səyləri yalnız 2017-ci ildə, qrafen üçün ilk standartların müəyyən edilməsi və potensial istifadəçilərin müxtəlif qrafen məhsulları və tətbiq sahələri haqqında məlumatlılığının artması ilə mümkün olmuşdur. 2018-ci ildən etibarən qrafen məhsullarının müxtəlif sektorlarda istifadə olunmağa başladığı və qrafen texnologiyasının ilkin mərhələsini tərk edərək sürətlə böyüməyə başladığı anlaşılır. Qrafen materialı 40-dan çox iqtisadi sektorun marağında olmuşdur. Bu 40 sektordan biri olan müdafiə sektoru da qrafenin hərbi sənayedə istifadə potensialını araşdırmağa başlayıb. Müdafiə sektorunda qrafen istifadəsinin inkişafı digər sektorlardakı inkişaflardan

asılı olacaq. Proqnozlar göstərir ki, qrafen 2023-ci ildən sonrakı dövrdə istehsalda ən çox seçilən materiallardan biri olacaq. Eyni zamanda ölkəmizin elmi araşdırmalara, qrafenin istehsalına və tətbiqinə başlaması ölkəmizin bir çox sektorlarında mükəmməl nəticələrə nail olmağa imkan verəcək.

5. Ədəbiyyat siyahısı

1. Barkan CAE, Terrance; "Qrafan Sənayesinin Gələcəyi – Keyfiyyət və Kəmiyyət, slayd 7", The Graphene Council, https://www. thegraphenecouncil.org/page/About.

2. Globenewswire, (2018), "Qlobal və Çin Qrafen Bazarı 2018 - 2023-cü ilə qədər proqnoz", (1 noyabr 2018), https://globenewswire.com

3. 2D Materials Magazine, (2019), "The Global Market for Graphene, 2D Materials and Carbon Nanotubes " (26 Aprel 2019),

4. MK, Kavitha; Jaiswal, Manu; (2016), "Qrafen: Optik xassələrin və fotonik tətbiqlərin nəzərdən keçirilməsi", (Yanvar 2016), https://www.researchgate.net/publication/312070999_Grap.

5. Avropa Müdafiə Agentliyi, (2018), "Müdafiədə Qrafen Yol Xəritəsi üzərində iş", (29 May 2018), https://www.eda.europa.eu/in fo-hub/press-centre /

6. Peleq, Roni; (2019), "AMD mülki və hərbi sahədə ds-də qrafen əsaslı imza idarəetmə tətbiqləri üçün DASA maliyyələşdirməsini təmin edir", Graphene Info, (8 Avqust 2019), https://www.graphene-info.

XƏTTİ HİDRAVLİK MÜQAVİMƏT ƏMSALININ TƏCTÜBİ TƏDQİQİ

BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ,
"**MEXANİKA MÜHƏNDİSLİYİ**" kafedrası
Asif Quliyev BMU, **asquliyev@beu.edu.az**
Heydər Gülalıyev BMU, **hgulaliyev@std.beu.edu.az;**
Vüsal Qurbanov BMU, **vqurbanov1@std.beu.edu.az;**

XÜLASƏ

Məqalədə diametri d=20mm olan qeyri-metal boruda xətti hidravlik müqavimət əmsalının təcrübi tədqiqinə baxılmışdır. Mayelərin borularda nəqli zamanı məntəqələr arası məsafədə təzyiq düşküləri baş verir. Təzyiq düşküsünün yaranması müxtəlif səbəblərdən ola bilir. Belə səbələrdən biri də borunun uzunluğu boyunca sürtünmədən yaranan enerji itkisidr. Təzyiq itkisinin yaranmasına əsas səbəb hidravlik müqavimətin olmasıdır. Hidravlik müqavimətin müəyyən edilməsi əsasən təcrübələr yolu ilə əldə olunur. Hidravlik müqavimətlərin qiymətlərini biməklə optimal parametrlərə malik olan nasos və hidromühərriklər seçmək olur. Belə məsələlələr ilk növbədə magisrtal boru kəmərlərinin layihələndirilməsi zamanı lazım olur.

AÇAR SÖZLƏR: mayelərin xassələri, hidravlik müqavimət, maye-qaz qarışığı, boru kəməri, nasos, hidravlik armaturlar.

GİRİŞ

Mayelərin borularda nəqli zamanı problem məsələlərdən biri də hidravlik müqavimət məsələsidir. Hidravlik müqavimətləri əsasən qəralaşmış hərəkətdə öyrənmək mümkündür. Qərarlaşmamış axında hidravlik müqavimətlərin təyin olunması üçün müəyyən metod və üsul olmadığı üçün əsasən qərarlaşmış hərəkətdə müqavimətlərin öyrənilməsindən alınan nəticələrdən istifadə olunur. İstənilən növ hidravlik hesablamalarda enerji itkisinin təyin edilməsi vacib məslələrdən biridir. Mayelərin hərəkəti zamanı enerji itkisi hidravlik müqavimətlərin dəf edilməsinə sərf olunur. Belə ki, hidravlik müqavimətlər nəticəsində magistral boru kəmərlərində təzyiq düşküləri müşahidə olunur. Qeyd olunduğu kimi təzyiq itkilərinin yaranması əsas etibarilə enerji itkisi kimi dəyərləndirilir. Ona görə də hidravlik müqavimətlərin öyrənilməsi optimal paramertrlərə malik olan avadanlıqların seçilməsi üçün əsas şərtlərdən biridir.

Hidravlik müqavimətlər əsasən uzunluğu boyunca,yəni sürtünmə müqaviməti axının hərəkət istiqamətində, borunun uzunluğu üzrə yaranır. Bu müqavimət bərabərsürətli hərəkətdə yarandığı üçün uzunluğun artması ilə proporsional olaraq artır. Bu sürtünmə müqavimətinin yaranmasına əsas səbəb mayenin daxili sürtünmə qüvvəsi olduğundan bunlara kələ-kötür borulardan başqa hamar borularda da təsadüf etmək olur.Ümumiyyətlə hidravlik müqavimətlərə sərf olunan basqı itkisi aşağıdakı kimi təyin edilir.

$\sum H = h_{sür} + h_{yer}$ (1)

burada, $h_{sür}$ – sürtünmə müqavimətinə sərf olan basqı itkisi; h_{yer} – yerli müqavimətlərə sərf olunan basqı itkisidir.

TƏDQIQAT METODU

Aparılmış elmi-tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, canlı kəsiklər arasındakı tam xüsusi enerji itkisi bu kəsiklər arasında olan təzyiq itkisi - Δp ilə xarakterizə olunur. Həmin təzyiq itkisi Δp bir çox faktorlardan, o cümlədən axının orta sürətindən ϑ, borunun diametrindən d, məntəqələr arası məsafədən l , kələ-kötürlükdən Δ , mayenin özlülüyündən μ və sıxlığından ρ asılıdır.

$\Delta p = f(\mu, l, \Delta, \rho, \vartheta, d)$ (2)

Yerli hidravlik itkilər boru birləşmələrində, boruların en kəsik sahələrinin dəyişdiyi zonalarda, boruların qaynaq birləşmələrində, hidravlik armaturlarda və hidroaparatlarda və s. yaranır.

Magistral boru kəmərlərinində təzyiq itkilərini hesablayan zaman yerli itkilər hesablanmır, lakin borunun uzunluğu boyunca yaranmış təzyiq itkisiin 10% qəbul olunur, xətti təzyiq itkisinin üzərinə əlavə olunur. Lakin qısa boru kəmərlərində *(l/d≤100)* yerli təzyiq itkiləri ayarı-ayrılıqda hesablanır. Xüsusilə ,həcm tipli nasoslarla təchiz olunmuş hidrosistemlərdə hidravlik hesablamalarda yerli təzyiq itkiləri nəzərə alınmalıdır. Hidrodinamik oxşarlığa əsasən hamar borularda hidravlik müqavimət əmsalı - λ Reynolds ədədindən asılıdır

$\lambda = f(Re) = f\left(\frac{\vartheta \cdot d}{\nu}\right)$ (3)

Hidravlik müqavimət əmsalı λ -nın təyin olunması üçün bir çox empirik və yarımempirik düsturlar vardır. Hamar borularda Reynolds ədədinin qiyməti $2300 \div 10^5$ olduqda Blazius düsturundan

$\lambda = \frac{0.3164}{Re^{0,25}}$ (4)

Reynolds ədədinin dəyişmə sərhəddindən asılı olmayan və əlverişli düstur hesab olunan P.K.Konakovun

$\lambda = \frac{1}{(1,8lgRe - 1,52)^2}$ (5)

düsturundan istifadə olunur. Bu düsturlardan görünür ki, Reynolds ədədinin artması ilə hidravlik müqavimət əmsalı azalır.Lakin bu azalma laminar rejimdəkinə nisbətən azdır. Buna əsas səbəb turbulent axında özlülüyün hidravliki müqavimətlərə təsirinin laminarınkından az olmasıdır. Laminar rejimli hərəkətdə hidravlik müqavimət əmsalı Puazeyl düsturu ilə təyin edilir.

$\lambda = \frac{64}{Re}$ (6)

(4) və (6) düsturlarından görünür ki, laminar rejimdə sürtünməyə sərf olan basqı özlülüklə düz mütənasib olduğu halda , turbulent rejimdə özlülüyün $\frac{1}{4}$ dərəcəsi ilə mütənasibdir.

1938-ci ildə Kolbruq apardığı təcrübə nəticəsində və başqa tədqiqatçıların təcrübələrinə əsaslanaraq λ-nı hesablamaq üçün belə düstur təklif etmişdir:

$\frac{1}{\sqrt{\lambda}} = -2lg\left(\frac{2,5}{Re} \cdot \frac{1}{\sqrt{\lambda}} + \frac{\Delta_e}{3,7d}\right)$ (7)

Bu düstura daxil olan λ-nı seçmək lazım olduğundan düsturdan istifadə etmək çətinləşir. Odur ki, (7) düsturunun əvəzinə A.D.Altşul aşağıdakı düsturu təklif etmişdir.

$\lambda = 0,11\left(\frac{\Delta_e}{d} + \frac{68}{Re}\right)^2$ (8)

$Re < 100000$ olduqda(8) düsturu borular üçün (4), $Re > 100000$ olduqda isə kvadratik zona üçün olan Şifrinson düsturunu alır:

$\lambda = 0,11\sqrt[4]{\frac{\Delta_e}{d}}$ (9)

İstismarda olmuş polad və çuğun su kəmərləri üçün F.Şevelyovun empirik düsrurundan istifadə etmək olar:

kvadratik zonaya qədər $Re \leq 9,2 \cdot 10^5$,

$$\lambda = \frac{0{,}021}{\sqrt[3]{d}} = \frac{0{,}021}{d^{0{,}3}} \quad (10)$$

kvadratik zona üçün $Re \geq 9{,}2 \cdot 10^5$,

$$\lambda = \left(\frac{1{,}5 \cdot 10^{-6}}{d} + \frac{1}{Re}\right)^{0{,}3} \quad (11)$$

(11) düsturundan λ–nın qiymətinin göstərilən faktorlardan başqa borunun diametrindən də asılı olduğu görünür.

Nəzəri və təcrübi tədqiqatların analizi onu gösrəri ki, yeni nəsil boru və armaturlarda təzyiq itkilərini hesablamaq üçün hidravlik müqavimətlərin eksperimental tədqiqinə ehtiyac vardır.

Bunları nəzərə alaraq BMU-nun "Mexanika mühəndisliyi" kafedrasının elmi-tədqiat laboratoriyasında GUNT HM150.11.firması tərəfindən yığılmış və tərəfimizdən müəyyən konsttuktiv dəyişikliklər etməklə eksperimental qurğuda (Şəkil 1.) təcrübələr aparılmışdır

Şəkil 1. Təcrübə qurğusunun ümumi görünüşü.

Şəkil 1. 1-də tərəfimizdən konstruktiv dəyişlik edilmiş eksperimental qurğunun sxemi verilmişdur.



.

Şəkil 1.1 Təcrübə qurğusunun sxemi

Təcrübə qurğusu əsasən təzyiq yaratma - nasos, tənzimləmə - ventillər və ölçmə cihazlarından – pyezometrlərdən ibarətdir. Təcrübə qurğusunda 1 – sorma çəni, 2- torlu əks klapanı, 3- sorma borusu, 4,7,8,9 və 15 –tənzimləyici ventillər,10,11- pyezometrlər, 12 – tədqiqat borusu, 13-qəbul çəni, 14-isə ölçmə xətkeşidir.

Təcrübə aşağıdakı ardıcıllıqla aparılmışdır. Nasosun boş iş rejimində işləmə qabiliyyətini yoxlamaq üçün 8 və 9 ventilləri bağlanılmış 7 ventili tam açılmış və nasos qurğusu işə salınmışdır. Sonra əsas təcrübələrə başlanılmışdır. Bunun üçün əvvəlcə 9 ventili tam açılmış, 7 ventili tam bağlanılmış, 8 ventili bir dövr açılaraq ölçmələr uzunluğu l=0,8m, diametri d =20mm tədqiqat borusunda 10 və 11- pyezometrlərində hündürlüklər ölçülmüşdür. Eyni zamanda axının sərfi həcm üsulu ilə 13 çənində 14 ölçmə xətkeşi ilə ölçülmüşdür. Beləliklə, təcrübələr 8 ventilinin tam açılma ,9 ventilinin tam bağlanma dərəcəsinə qədər sürətin müxtəlif qiymətlərində aparılmışdır. Təcrübəlrin hər qiymətlərinə uyğun olaraq 10 və 11-pyezometrlərində hündürlüklər fərqi ölçülmüşdür. Tədqiqatlar başa çatdıqdan sonra 15 ventili vasitəsilə qəbul çənindəki su sorma çəninə boşaldılmışdır.

Borunun uzunluğu boyunca sürtünmə qüvvəsinin təsirindən yaranan basqı itkisini təyin etmək üçün Darsi-Vesbax düsturundan istifadə olunur:

$$h_{sür} = \lambda \frac{l}{d} \cdot \frac{\vartheta^2}{2g} \quad (12)$$

burada, $h_{sür}$- h_1 və h_2 pyezometrlərinin göstərişlərinin fərqi $(h_{sür} = h_1 - h_2 = \Delta h)$, l və d – uyğun olaraq

tədqiqat borusunun uzunluğu və diametri, ϑ – axınn orta sürəti olub həcm üsulu ilə sərfə görə aşağıdakı kimi təyin edilir.

$$\vartheta = \frac{4V}{\pi d^2 t} \quad (13)$$

Sürtünmə müqavimət əmsalı - λ (12) düsrurundan təyin edilir:

$$\lambda = \frac{2gd}{l} \cdot \frac{\Delta h}{\vartheta^2} \quad (14)$$

Alınmış qiymətlər əsasında mayenin hərəkət rejimi Reynolds düsturui lə təyin edimişdir:

$Re = \frac{\vartheta \cdot d}{\nu}$ (15) burada, ν 20^0S tempetarurda suyu kinematik özlülüyü olub, $\nu_{20} = 0{,}012 \cdot 10^{-4} \frac{m^2}{san}$.

Beləliklə, alınmış təcrübi qiymətlər əsasında hesalamalar aparılmış və cədvəl qiymətləri tətib olunmuşdur. Həmin cədvəl qiymətlərindən istifadə etməklə boru kəmərlərinin layihələndirilməsi və hesablanmsı zamanı istifadə etmək olar. Aparılmış tədqiqatlarla əladədar ümumiləşdirici ifadələrin alınası üçün araşdırmalar davam etdirilir.

NƏTİCƏLƏR

Borunun uzunluğu boyunca hidravlik müqavimətlərin tədqiqi ilə əlaqədar müxtəlif tədqiqatçıların apardığı elm-tədqiqat işlərində araşdırmalar aparılmışdır.Diamerti d=20mm, uznluğu l=0,8m boruda xətti hidravlik müqavimət əmsalını təyin etmək üçün sürətin müxtəlif qiymətlərində eksperimental tədqiqatlar aparılmışdır.Bununları nəzərə olaraq nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

5. Əsas təcrübələrə başlamazdan təcrübə qurğusunun işləmə qabiliyyətinin yoxlamaq üçün yoxlam–sınaq təcrübələri aparılmış və alınmış nəticələr ədəbiyyat göstəricisi ilə müqayisə olunmuşdur.
6. Xətti hidravlik müqavimət əmsalını Reynolds ədədinin tədqiq olunmuş diapazonunda bilməklə magistral boru kəmərində təzyiq itkisini hesablamaq olar.
7. Təqdim olunmuş təcrübə qurğusunda sürətin müxtəlif qiymətlərində müxtəlif diametrli qeyri-metal borularda xətti hidravlik müqavimət əmsalının tədqiq olunması tövsiyə olunur.
8. Təcrübi qiymətlər əsasında hesablamalar aparılaraq cədvəl qiymətləri tərtib olunmuşdur.
9. Mühəndis məsələlərinin layhələndirilməsi zamanı alınmış nəticələrdən istidadə edərək borunun uzunluğu boyunca təzyiq itkilərinin hesablanmasında istifadə etmək olar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

6. Альтшуль А.Д., Камксун В.И. Гидравлическое сопротивление трубопроводов. М. Стройиздат, 1964.
7. Идельчик И.Е. Справочник по гидровлическим сопротивлениям. М., Машиностроение, 1975
8. Варнафтик Н.Б. Справочник по теплофизическим свойствам газов и жидкостей. М.Наука, 1972 – 729 стр.
9. Quliyev A.H., İbrahimov S.S. Plastik kütlədən hazırlanmış borularda xətti hidravlik müqavimətin tədqiqi. Azərbayjan xalqının ümummilli lideri H.Əliyevin anadan olmasının 86 – cı ildönümünə həsr olunmuş 52 –ci tələbə elmi – texniki konfransının materialları. Bakı – 2009.
10. http://www.ogbus.ru. Состояние и перспективы развития пластмассовых трубопроводов.

TIXACLI SİYİRTMƏNİN YÜKSƏK TƏZYİQDƏ STATİK ANALİZİ

VƏZZUHA VƏLİYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Neft-mexanika
vezzuhaveliyeva@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tıxaclı siyirtmələr yüksək təzyiqli sistemlərdə işlədikləri üçün, hissələri (xüsusilədə tıxac və örtük) müəyyən zamandan sonra yeyilməyə başlayır və gövdəsində təzyiqdən kiçik çatlar əmələ gəlir. Yarana biləcək bu kimi problemləri öncədən müəyyən etmək üçün "Statik analiz" aparılmışdır. Burada-tıxac hissənin üzərindəki gərilmələr,deformasiyalar, təzyiqdən yaranan çatlar və digər nəticələr hələ məhsul istehsal olunmadan əldə olunmuşdur.

AÇAR SÖZLƏR: Analiz, gərginlik, deformasiya

GIRIŞ

Bağlayıcı quruluşlarının hissə və düyünlərində xüsusilədə yüksək təzyiq altında istismar olunan siyirtmələrdə sürtünmə və yeyilmənin analizi zamanı onun uzun müddət iş prosesi zamanı tıxayıcı səthlərin bir birinə yapışması nəticəsində problemləri aşkarlanır ki, bu problemin mahiyyətini sürtünmədən yaranan yeyilmə hadisəsinin məlum SEÜ köməyi ilə SolidWorks proqramında analizinə baxılmışdır. Göstərilən bu problem ən çox müxtəlif avadanlığların təzyiq altında birbirinə ilişən düyünlərində meydana gəlir. Burada təmas səthlərində yaranan sürtünmənin və yeyilmənin elmi əsaslarının işlənməsi üçün təmasdan yaranan mexaniki proseslərin mükəmməl öyrənilməsi tələb olunur.

Bu avadanlıqlara olan tələbat artan dinamika üzrə inkişaf etdiyindən onların resursunun yüksəldilməsi və eyni zamanda maya dəyərlərinin azaldılması xüsusi önəm kəsb edir. Bu istiqamətdə aparılan konstruktiv və texniki tədbirlərlə yanaşı, siyirtmələrin hissə və düyünləri üçün optimal material seçimi, həmçinin də hazırlanma texnologiyalarının təkmilləşdirilməsi maşınqayırma sənayesinin əsas problemlərindən biri hesab olunur.

Nəticədə gərginliyin daha çox təmas etdiyi səthlər müəyyənləşdirilmiş və tədqiqat aparılmışdır.

TƏDQIQAT METODU

Aparılan bütün statik analizlər zamanı tətbiq etdiyimiz yük müəyyən şəkildəyişmələrə və deformasiyalardan və ya gərginliklərdən çatın yaranmasına gətirib çıxarmışdır.



Şəkil 1. Gərilmə diaqramı

"SolidWorks Simulation" proqramından istifadə edərək statik analiz aparırıq və alınan nəticələrin şəkil 1-ə əsasən verilmiş həddlərin təcrübədən alınmış nəticələrlə uyğunluğunu müqayisə edirik. Qrafikdən göründüyü kimi bərk cisimlərdə yaranan biləcək mexaniki gərginliyin nisbi uzanmadan asılılıq qrafiki yəni, gərilmə diaqramı göstərilmişdir.

OA hissəsi-Huq qanunun ödənildiyi hissədir yəni, kiçik deformasiyalar tətbiq olunduğu müddətdə mexaniki gərginlik nisbi uzanma ilə düz mütənasib olubdur. Və bu digər tərəfdən mütənasiblik həddi də adlanır.

AB hissəsi-materialın elastiki deformasiyaya məruz qaldığı hissədir. Biz hissəmizə elastiklik həddinə qədər müxtəlif təsirlər etdikdə, təsir kəsildikdən sonra o öz əvvəlki halına qayıda biləcək.

BC hissəsində B nöqtəsindən sonrakı bütün təsirlər artıq hissədə qalıcı, bərpa olunmayan deformasiyalara səbəb olur.

Diaqramda CD hissəsi “materialın axmasına” uyğundur. Burada hissənin formasını dəyişməsi,təsir sabit olaraq qalsa da, hissə dəyişməyəy başlayır.
Yuxarıdakı bütün mərhələlər yekunlaşdıqdan sonra növbə D-E-ə çatır. Bu artıq hissənin öz bütövlüyünü qoruduğu son həddir.Biz kənardan təsiri artırdıqca o E nöqtəsinə qədər dözümlük göstərir, özünü qorumağa çalışır. Və E-nöqtəsində artıq bir daha bərpası mümkün olmayacaq qədər qırılmağa başlayır. Yarnan son nöqtəyə möhkəmlik həddi deyirlər.
Tıxaclı siyirtmənin tıxac hissəsinin statik analizinə baxaq:



Şəkil 2.Tıxacın yüklərin təsiri ilə görünüşü
Yuxarıda göstərilmiş şəkil 2-də Statik analiz üçün tıxac Sonlu elementlər üsulunun (SEÜ) köməyi ilə “SolidWorks Simulation” proqramında olan “mesh” alqoritimi ilə ən kiçik qəfəslərə bölünmüşdür. Aşağı hissədən bir tir olaraq bağlanmış və yan tərəflərdən xarici təsirlərə məruz qalmışdır. Qəfəsin xəttlərinin kəsişdiyi nöqtələr düyüm nöqtələri adlanır.Və nöqtələrin də statik analiz zamanı deformasiyalarına baxılır.



Şəkil 3. Maksimum və minimum deformasiya zamanı tıxacının vəziyyəti
Şəkil 3-də hissənin səthində meydana gələn deformasiyaların qəbul ediləbiləcək aralıqda olub olmadığını araşdırılıb.Əgər hissə qırılacaqsa buna hansı gərginlik səbəb olacaqdır.



Şəkil 4. Hissədə yarana biləcək yerdəyişmə
Şəkil 4-dən də göründüyü kimi ən çox yarana biləcək yerdəyişmə 0.006mm-dir. Bu maksimum qiymətdir və tıxacın açılıb bağlanan hissəsində müşahidə edilir.



Şəkil 5. Müxtəlif nöqtələrdə gərginlik analizinin qiymətləri

Son olaraq şəkil 4-dən istifadə edərək alınan gərginliyin qiymətini hesablaya bilərik.Şəkildən bizə məlum oldu ki, ən çox deformasiyalar və gərginliklər tıxacın siyirtmənin səthi ilə görüşdüyü hissələrdədir.

NƏTICƏ

Statik analiz zamanı əldə etdiyimiz nəticələr-deformasiyaların kiçik, hissənin xətti, yüklərin sabit və prosesin zamandan asılı olmadığı faktorları özündə birləşdirdi. Sınaqdan əldə olunan nəticələr hissənin emal texnologiyalarının inkişafına və yaranan xarici təsirlərin minumuma endirilməsini özündə cəmləşdirdi. Siyirtmənin örtük hissəsinin materialının dəyişdirilməsi yaxud tıxac elementinə səthi təsirlərinin azaldılması üzərində tədqiqat aparılmışdır.

ƏDƏBIYYAT SIYAHISI

6. Schlumberger/Well Services Training & Development, IPC (JET Manual 01 Treating Equipment, December 18, 2005, səhifə 35-38).
7. “Hydraulic Control Systems” By Herbert E. Merritt (Coverage includes a review of applicable topics in fluid mechanisms; components encountered in hydraulic servo controlled systems; systems oriented issues and much more.)
8. Əliyev E.Ə., Həbıbov İ.Ə., Qarayeva Z. “Yüksək təzyiqli siyirtmələrdə sipərin resursunun artırılmasında dəmirləmə prosesinin tətbiqi ilə baglı tədqiqatların nəticələri”,səhifə 10-84.
9. “Composition and Properties of Drilling and Completion Fluids, Seventh Edition” (11/16/2016) Ryen Caenn, HCH Darley, George R. Gray

STRUCTURAL SYNTHESIS AND VELOCITY ANALYSIS BY PARAMETRIC DESIGN OF SIX-BAND FLAT MECHANISM

SULEYMAN SOLTANOV
Azerbaijan Technical University
ssoltanov@beu.edu.az
KHIRDALAN, AZERBAIJAN

MIRAGHA RZAYEV
Baku Engineering University
mrzayev@std.beu.edu.az
KHIRDALAN, AZERBAIJAN

SUMMARY

The article examines the issues of structural synthesis and velocity analysis by the method of parametric design of a six-point flat mechanism, and the research process was carried out by help of design software AutoCAD. The parametric model of the six-point flat mechanism was built by the parametric design method, which allows to automatically calculate the results at any change of its input angle. The obtained results were analyzed by grapho-analytical methods.

1. Keywords: parametric design, structural synthesis, velocity analysis, variable and constant parameters, control panel.

2. Introduction

Various types of mechanisms are used in technology, the most common of which are flat mechanisms. As we know, flat mechanisms consist of one and two moving kinematic pairs. Examples of the most common types of flat mechanisms are forubar mechanism, slider-crank mechanism, whithworth mechanism, geneva mechanism, watts mechanism and others. These mechanisms can be used alone as well as in combination with others. There is a great deal of research work on the structural synthesis and velocity analysis of flat mechanisms, and it has been carried out in many literatures using a variety of methods.

The literature [1, 2] also explains the course of the theory of machines and mechanisms. It analyzes various issues related to the synthesis and analysis of machines and mechanisms. In 2013, the methods of

parametric design of simple lines using the design method in AutoCAD were studied [3]. Parametric design methods using VBA for rotating surface details have been studied in the literature [4]. S. Soltanov, H. Mirzayev [5] carried out structural synthesis and analysis of the four-point mechanism by the parametric design method. In 2012, John R. Bordeau [6] wrote a book on parametric design in AutoCAD. The literature [7] presents methods of synthesis and analysis of mechanisms in different ways. At the same time, Norton Associates Engineering offers several computer programs that are used effectively in solving synthesis and analysis problems. Neil Sclater Nicholas P. Chironis [8] gave extensive information about different types of mechanisms and their combinations.

Mechanisms include qualitative synthesis, type synthesis, quantitative synthesis or analytical synthesis, dimensional synthesis. During dimensional synthesis, the mechanism needs to be reconstructed for each new situation. This, in time, results in a longer, more complicated process and errors. Although constructive operations are eliminated during analytical synthesis, the application of many mathematical expressions complicates the problem for complex mechanisms. This, in turn, creates certain difficulties for resolving the issue. The article uses the parametric design method, which uses lines and formulas, as in qualitative synthesis. In parametric design, changing the input parameters automatically obtains the results in a simpler way and eliminates reconstruction operations and complex mathematical reports.

3. Research method

The study examined a six-point mechanism obtained from a combination of a whithworth mechanism and a slider-crank mechanism (Figure 1). First, the outline of the mechanism to be studied is drawn in Auto CAD on a predetermined scale. In the next step, the geometric dependencies between the items in the six-point flat mechanism are created using the commands of the parametric section (Figure 1, a). Variable and fixed parameters are set by setting the dimensions of the items. Velocity analysis for a state of the considered mechanism is performed by qualitative synthesis method. A parametric relationship is established between the vectors in the obtained velocity diagram and the items of the mechanism (Figure 1, b).



Figure 1. Schematic of parametric design of a six-point flat mechanism. a) plan of situations of six-point joint mechanism, b) plan of velocitys.

Let's take a look at the sequence of case analysis and velocity analysis of the six-point flat mechanism under consideration. Geometric dimensions of items as constant parameters of the mechanism $L_{AB} = 0.12\ m, L_{AC} = 0.25\ m, L_{CD} = 0.5\ m, L_{DE} = 0.3\ m, L_Y = 0.2\ m$ being given. Lets asume the length of the entry clause AB in the line $40\ mm$. In the next stage, the scale of the situation plan is determined and the lengths of the other items are determined.

$$\mu_L = \frac{L_{AB}}{AB} = \frac{0.12}{40} = 0.003\ m/mm$$

$$AC = L_{AC}/\mu = 0.25/0.003 = 83.3\ mm$$

$CD = L_{CD}/\mu = 0.5/0.003 = 166.6\,mm$
$DE = L_{DE}/\mu = 0.3/0.003 = 100\,mm$
$Y = L_Y/\mu = 0.2/0.003 = 66.6\,mm$

Since the six-point flat mechanism studied is derived from a combination of whithworth and slider-crank mechanisms, in the next step we will consider the velocity analysis of the slider-crank mechanism with the whithworth mechanism separately and apply it to our work. Assume the angular velocity of the entry point $\omega_1 = 16\,sec^{-1}$.

$$V_{B2} = \omega_1 \cdot L_{AB} = 16 \cdot 0.12 = 1.92\,m/sec$$

To find the scale of the plan of velocities, assume that the length of the pb is $50\,mm$

$$\mu_V = \frac{V_{B2}}{pb} = \frac{1.92}{50} = 0.0384\,m/sec \cdot mm$$

It is known that CD the final velocity of the point V_{B3C} on the link is the sum of the velocity $B_3$of the transfer movement and the velocity of the V_{B2}relative movement V_{B3B2}.

$\frac{V_{B2}}{\perp AB} + \frac{V_{B3B2}}{//CB} = \frac{V_{B3C}}{\perp CB}$

Velocity of $pb_1 = 50\,mm, pb_3 = 40\,mm, b_1b_3 = 30\,mm$ is determined from the diagram. In the next step velocity of the point D and pd distance are determined. If for the situation under consideration $CB = 106.1\,mm$.

$$pd = pb_3 \cdot \frac{CD}{CB} = 40 \cdot \frac{166.6}{106.1} = 62.8\,mm$$

The location of point D is determined by marking the pd section in the plan of velocities. In the second part, let's define the equation of motion for a slider-crank mechanism as follows.

$$\frac{V_E}{//XX} = \frac{V_D}{\perp CD} + \frac{V_{DE}}{\perp DE}$$

The velocity plan d is executed starting from the e point and the location of the point is determined. Once the velocity plan of the six-point flat mechanism is established $de = 20\,mm$, and the $pe = 65\,mm$lengths of the parts are determined. As a result of research $V_D$and V_{DE}velocities are found.

$$V_{DE} = \mu_V \cdot de = 0.0384 \cdot 20 = 0.768\,m/sec$$
$$V_E = \mu_V \cdot pe = 0.0384 \cdot 65 = 2.496\,m/sec$$

Qualitative synthesis were obtained only for one working condition of the considered mechanism. For other situations, performing the same process again requires additional setup operations and mathematical reporting. To simplify this task, the parametric design uses the Parameters Manager section to set the desired angle value of the input point, and the velocities of the points on the mechanism are automatically found as the output parameter. The next operating condition ($\varphi = 0\,degree$) and velocity plan of the mechanism are shown below (Figure 2, a, b).



a) b)

Figure 2. Schematic of parametric design of a six-point flat mechanism. a) plan of situations of six-point joint mechanism, b) plan of velocitys.



Figure 3. Parameters Manager panel.

Additional conditions for the Parameter Manager board and parametric design are shown in Figure 3. An additional condition is $B_3$the distance from the displacement of the point to the reference point CB_3, $C$and the resulting distances in the plan of velocities pd, pb_3, pe, de. We can easily define a new situation and velocity plan by changing any input parameter.

Results

1. The synthesis and analysis of the mechanism considered by the parametric design method has been simplified.
2. The planning of the situation of the mechanism and the analysis of velocities are automated and simplified using parametric design.
3. Parametric design was modeled in AutoCAD, which is considered more suitable for switching to other CAD and CAM programs.
4. As a result of the research, the solution of the problems of kinematic synthesis and analysis of the mechanism was simplified. In the next stages , it is possible to build an acceleration plan and perform dynamic analysis processes.
5. Using the parametric design method, errors were obtained in the synthesis and analysis processes to obtain more accurate measurements in manual calculations.
6. The use of the developed subroutine is simpler than other CAD programs (Solidworks, CATIA and other similar programs require more knowledge to use these processes).
7. In the example of the processes of synthesis and velocity analysis of the six-point flat mechanism, it is recommended to create other types of flat-lined mechanisms by the method of parametric design of synthesis and analysis processes and their application in laboratory and course work.

Bibliography

1. S.K.Kerimov, E.G.Hashimov, Q.E.Hasanov. The course of the theory of machines and mechanisms. Textbook. Baku, NPM "Education", 2012. p. 350.
2. S.N.Aliyev, L.A.Kangarli. The course of the theory of machines and mechanisms. Textbook. Baku, "Education", 2009, 186 p.
3. S. Soltanov , Parametric design by AutoCAD. Ministry of Education of the Republic of Azerbaijan. Azerbaijan Technical University. Azerbaijan, Baku -2013.
4. S. Soltanov , VBA parametric design of spinning surfaces with AutoCAD. Ministry of Education of the Republic of Azerbaijan. Azerbaijan Technical University. Azerbaijan, Baku -2014.
5. S. Soltanov , H. Mirzayev , Synthesis and analysis of four-bar linkage mechanism by using method of parametric design. III International Scientific Conference of Young Researchers. Baku Engineering University. Azerbaijan, Khirdalan - 2019.
6. John R. Bordeau. Introduction to Parametric Drafting in AutoCAD 2012. Kankakee Community College, Illinois, USA.
7. Robert L. Norton, Design of Machinery, An introduction to the Synthesis and Analysis of the Mechanisms and Machines, 897 pg, 2020.
8. Neil Sclater Nicholas P. Chironis, Mechanisms and Mechanical Devices Sourcebook, 551 pg, 2007.

AVTOMATİK DÖNƏN GÜNƏŞ PANELİ

HÜSEYN MIRZƏYEV
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi/Mexanika mühəndisliyi
humirzeyev@beu.edu.az
BAKI, AZƏRBAYCAN

NADIR DAŞDIYEV
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi / Avtomatika və Elektroenergetika
ndashdiyev@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə
Məqalə Mühəndislik fakültəsində yaradılan mini günəş panelinin modelinin təsvirinə, iş prinsipinin təhlilinə həsr olunmuşdur. Avtomatik dönmə mexanizi ilə təchiz edilmiş bu model işığa həssas elementlərlə və dönmə mexanizmi ilə təchiz edilmişdir ki, bu da onun işıq şüalarına tərəf dönməsini reallaşdırır. Dönmə bucağı və bucaq sürəti avtomatik seçilir. Model gələcəkdə günəş şüalarına doğru dönəbilən günəş panellərinin layihələndiriləsində və tətbiqində istifadə edilə bilər.
Açar sözlər: GÜNƏŞ ENERJISI, GÜNƏŞ PANELI, DÖNMƏ MEXANIZMI, FOTOREZISTOR

Giriş

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdə biridir. Belə ki, ölkəmizdə iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27 000 MVt təşkil edir ki, onun da 23 000 MVt-ı günəş enerjisinin payına düşür. Hələlik bu potensialdan tam istifadə edilmsə də, 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi bu sahənin strateji əhəmiyyətini, gələcək perspektivlərini göstərir. Artıq 2020-ci ildən Energetika Nazliyi yanında Bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır.

Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 7542,2 MVt, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1304,5 MVt-dır ki, bu da ümumi gücün 17,3%-ni təşkil edir.

Hidroenerji gücü 1154,8 MVt (30 ədəd stansiya, 20-i kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66,1 MVt (7 stansiya, 2-i hibrid), bioenerji gücü 37,7 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 45,9 MVt (12 stansiya, 2-i hibrid) təşkil edir. 1 ədəd hibrid elektrik stansiyasında (Qobustan) külək – 2,7 MVt, günəş – 3 MVt və bioenerji – 0,7 MVt əsaslı qurğular quraşdırılıb. Naxçıvan Muxtar Respublikasında ümumi gücü 33 MVt olan 4 günəş elektrik stansiyası istismar edilir. İri su elektrik stansiyaları daxil edilmədən bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü 2021-ci ildə 194 MVt olmaqla ümumi elektrik enerjisi istehsalı gücünün 2,5%-ni təşkil edib.

2021-ci il ərzində respublikada elektrik enerjisinin istehsalı 27,8 milyard kVt·st təşkil edib. Bu dövrdə elektrik enerjisinin istehsalı İES-lərdə 26,2 milyard kVt·st, SES-lərdə 1277,3 mln. kVt·st, digər mənbələr (KES, GES və BMTYZ) üzrə isə 339,9 mln. kVt·st olub. İl ərzində külək elektrik stansiyalarında 91,5 mln. kVt·st, Günəş Elektrik Stansiyalarında 55,2 mln. kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 193,2 mln. kVt.st elektrik enerjisi istehsal edilib. Bərpa olunan enerji mənbələri hesabına istehsal olunmuş elektrik enerjisi ümumi istehsalın təqribən 5,8 %-ni təşkil edib [1].

Bərpa olunan enerji mənbələri üzrə ölkəmizdə potensial ərazilər müəyyənləşdirilmiş və prioritləşdirilmiş istiqamətlərdə 8 ərazi seçilmiş, onların 3-də pilot layihələrin həyata keçirilməsinə başlanılmışdır. Külək enerjisi ilə müqayisədə ölkəmizin bütün ərazisində mövcud olan günəş enerjisinin potensialından istifadə etmək daha səmərəli ola bilər. Günəş panellərini təkcə kənd təsərrüfatına yararsız sahələrdə deyil, binaların damında, hətta divarlarında da quraşdırmaq olar. Təcrübə göstərir ki, fərdi yaşayış evinin damında quraşdırılan bi-iki günəş paneli ilin əksər günlərində həmin mənzilin ən azı isti su ehtiyyatını təmin edə bilir.

2020-ci ilin 9 yanvar tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında

bərpa olunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı İcra müqavilələri imzalanıb. Müqavilələrə uyğun olaraq "ACWA Power" şirkəti ilə 240 MVt gücündə külək, "Masdar" şirkəti ilə isə 230 MVt gücündə günəş elektrik stansiyalarının tikintisi ilə bağlı pilot layihələr icra edilməsi nəzərdə tutulub. 2022-ci ilin birinci rübündə ölkəmizdə 230 MVt gücündə günəş elektrik stansiyasının təməlinin qoyulması gözlənilir.

İşğaldan azad edilmiş ərazilərimizdə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial vardır. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur. İlkin müşahidələr nəticəsində əlverişli günəş radiasiyanına malik müvafiq ərazilər müəyyən edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi potensialı 7200 MVt-dan artıq qiymətləndirilir. Aparılan ilkin tədqiqatlar, günəş enerjisi layihələri üçün topoqrafiya, iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında Cəbrayıl və Zəngilan rayonlarının ərazisi məqsədəuyğun hesab edilmişdir.

Adətən günəş panelləri stasionar quraşdırılır ki, bu da Günəş enerjisindən istifadə əmsalını aşağı salır. Belə ki, panellərin maksimal enerji toplaması üçün Günəş şüalarının onların üzərinə daha çox düşməsinə çalışmaq lazımdır. Planetimiz Günəşin ətrafında döndüyündən stasionar panellərin üzü hər zaman Günəşə doğru olmur. Bu problemi iki üsulla aradan qaldırmaq olar:

1. Günəş panellərini Yerin Günəş ətrafında dönmə sürətinə uyğun sürətlə fırlatmaq üçün böyük ötürmə nisbətinə malik dönmə mexanizmləri tətbiq etməklə;
2. Günəş panellərini fotorezistorlarla və avtomatik dönmə mexanizmləri ilə təchiz etməklə.

Birinci konsepsiyanın həlli mürəkkəb ötürücü mexanizmin layihələndirilməsini və tətbiqini tələb edir, bu da daha böyük xərclər tələbə edir, ona görə də reallaşdırılması asan deyil. İkinci konsepsiyanın reallaşdırılması daha uyğundur, çünki təşkiledici elementlər müasir zamanda daha əlçatan olmuşdur.

Məqalədə dönən günəş paneli modelində ikinci kosepsiyanın işlənməsi və tətbqi verilmişdir.

1. Günəş elektrik stansiyaları

Alternativ enerji mənbələrindən istifadə ehtiyacı, quraşdırılmış generasiya sistemlərinin qlobal ssenarisinin qiymətləndirilməsi, müxtəlif günəş enerjisi ilə işləyən cihazların əsasını təşkil edən texnologiyalar və onların tətbiq, həmçinin problemləri [2] də müzakirə edilmişdir. Bundan əlavə, bu məqalə yerləşdirmə, texniki xidmət və istismar xərclərini, eləcə də günəş enerjisi sistemlərinin quraşdırılmasını təşviq edən iqtisadi siyasətləri əhatə edir.

[3] də günəş enerjisindən istifadə etməklə sənaye prosesində istilik üçün aşağı və orta temperaturlu suyun istehsalı nəzərdən keçirilir. Günəş şüalanması, sistem arxitekturası, dizayn məhdudiyyətləri, yükün növü və paylanması, dizayn və optimallaşdırma meyarlarını nəzərə alan optimal dizayn metodunun perspektivliyi təsvir edilir.

Bakı Mühəndislik Universitetinin həyətində 40 paneldən ibarət günəş elektrik stansiyası 2013-cü ildə Tempus proqramı əsasında qurulmuşdur (şəkil 1a). Türkiyənin Alfa Solar Energy şirkətindən alınmış bu panellərin hər biri 245 Vt olmaqla, stansiyanın ümumi gücü 9,8 kVt-a çata bilər. Müəyyən edilmişdir ki, bu günəş elektrik stansiyası universitetin bütün həyətinin işıqlandırılmasını təmin edə bilər [4].

Bakı Mühəndislik Universitetinin Mexanika mühəndisliyi laboratoriyasında iki paneldən ibarət bir səyyar günəş elektrik modulu (ET 250) da vardır. Onun panellərindən hər birinin gücü 85 Vt-dır. Modul Almaniyanın Gunt firmasının istehsalıdır, günəş işığını birbaşa elektrik enerjisinə çevirir, buna görə də bərpa olunan enerji təchizatı üçün çox idealdır. Panellərin mailliyi əllə idarəolunan vintli mexanizmlə dəyişdirilə bilər. Modullar ardıcıl və parelel birləşdirilə bilər. Qurğu günəş enerjisinin elektrik enerjisinə çevrilməsini laboratoriya şəraitində öyrədir, ona görə də qapalı şəraitdə işlədildikdə günəş əvəzinə sünii işıq mənbəyindən (HL 313.01) istifadə olunur. Həmin günəş enerjisi modulunun volt-amper xarakteristikası şəkil 1c-də verilmişdir.

ET 250 Günəş Modulunun sahəsi 0,64 m^2, maksimal işıqlandırma gücü 3 kVt/m^2-dır. Mailliyi 0 – 90 dərəcə arasında dəyişdirilə bilər. Panellər monokristial silisium materialından hazırlanmış, 36 hüceyrədən ibarətdir.

a)



b) c)

Şəkil 1. Bakı Mühəndislik Universitetinin Mexanika labaratoriyasının günəş panelləri: a) həyətində qurulmuş; b) səyyar, vintli mexanizmlə mailliyi dəyişdirilən.

BMU-nun Mexanika mühəndisliyi kafedrasının laboratoriyasında Elektrik və elektronika mühəndisliyi ixtisasının birinci kurs tələbəsi Nadir Daşdıyevin qurduğu dönən panelli mini günəş elektrik stansiyasının laboratoriya modeli şəkil 2 a-da, onun elektrik-elektronik sxemi isə şəkil 2 b-də göstərilmişdir.

Fotorezistorlardan alınan işıq seli TDA2822m mikroçipinə ötürülür və bu çip potensiallar fərqini tarazlaşdırmaq üçün sabit cərəyan mühərrikinə müvafiq güc tədbiq edir, onun valını müəyyən bucaq qədər döndərir. Nəticədə qurğu işıq intensivliyinin böyük olduğu istiqamətə yönəlir. Yönəlmə zamanı enerji sərfiyyatı minimum, enerji toplanması maksimum səviyyəyə çıxarıla bilər.


a)



b)

Şəkil. 2. Mini günəş panelinin laboratoriya modeli (a) və onun prinsipial elektrik sxemi (b)

Qurğunun elektrik seximindən göründüyü kimi onun iki mühərriki vardır. Onlardan biri qurğunu işığa doğru 360 dərəcə döndərən, digəri isə günəş panelinin şaquli müstəviyə nəzərən mailliyini dəyişən mexanizmləri qidalandırmaq üçündür. Panellərin üzərinə bərkidilmiş 4 ədəd fotorezistor işıq selinin istiqamətini müəyyən edir, siqnalı müvafiq mikroçipə ötürür. O da funksional parametrlərin kəmiyyətlərini müəyyənləşdirərək müvafiq mühərrikin tələb olunan rejimdə işə salınmasını təmin edir. Panellər günəşin enerjisini elektrik enerjisinə çevrir, buradan alınan enerji 3,7 V gərginlikdə xüsusi lithium ion akumlyatorunda toplanır. Bu enerji USB vasitəsilə mobil telefon və oxşar cihazların bateriyalarının doldurulması üçün istifadə edilə bilər. Qurğuda gərginliyin 6 V-a yüksəldilməsi və istifadəsi üçün konvertor quraşdırılmışdır.

NƏTİCƏ

Bakı Mühhəndislik Universitetində Günəş enerjisindən istifadə və laboratoriya məqsədləri üçün öyrənmə imkanları araşdırılmışdır.

Təklif edilən model əsasında hazırlanan qurğunun əsas üstünlükləri aşağıdakılardır:

1. Alternativ enerji mənbəyidir, təbiətə zərəri yoxdur;
2. Avtomatik dönmə funksiyasına malikdir, stasionar panellərə nisbətən 60% və daha çox energi hasil etməyə imkan verir;
3. Elektrik kəsildikdə bir neçə mobil telefon və digər cihazlar üçün enerji mənbəyi kimi istifadə edilə bilər.

Təklif edilən model gələcəkdə günəş elektrik stansiyalarınınqurulmasında model kimi istifadə edilə bilər.

Ədəbiyyat siyahısı

2. https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
3. Devabhakturi V. and oth. Solar energy: Trends and enabling technologies. Journal of Renewable and Sustainable Energy Reviews (**Jurnal məqaləsi**), Volume 19, Mart 2013, Pages 555-564
4. Franco A. Methods for the sustainable design of solar energy systems for industrial process heat. Sustainability, MDPI Open Acsess Journals. Vol 12, 2020. 10.3390/su12125127. (**Online məqalə**)
5. Gurbanova S.A. Optımızatıon of hybrıd renewable energy system desıgn in Baku Engıneerıng Unıversıty campus (**Konfrans məqaləsi**),. 1st International Science and Engineering Conferece. BEU, 29-30 November, 2018. Conference Proceedings. Pages 143-147

A STUDY OF RELATIONSHIP BETWEEN STINGER AND DEPARTURE ANGLE AND SOME INSTALLATION PARAMETRS IN SOME SUBSEA PIPELAY VESSELS

MANSUR SHAHLARLI
Oil Gas Scientific Research Project Institute
Oil and gas fields development department
Email: mansursahlarli1994@gmail.com
BAKU, AZERBAIJAN

Abstract

Deepwater pipelines play an important role in transporting oil, gas and other energy resources. Therefore, the study of some parameters during the construction of the subsea pipeline is a priority. Initially, the process of construction of subsea pipelines by the S-method was given and the types of stingers were shown. The installation stress that occurred during the construction of the pipes was investigated and the bending stress was determined. Simplified laying criteria for overbend and sagbend zones were specified according to DNV OS F101 standard.

For the determination of some technical parameters, the parameters of the pipe-laying vessels by the S-method were given, and the calculation of departure agle on the stingers was shown.

1. key words: S – LAY METHOD , STINGER, DEPARTURE ANGLE, OVERBEND, SAGBEND

2. Introduction

There are several types of installing subsea pipelines:

- S-lay method
- J-lay method
- Reeling method
- Towing method

S-lay is one of the subsea pipeline installation methods which is characterized by “S” curve during laying. Before laying to the seabed, the pipes are stored and assembled on the vessel. Figure 1 shows the process of constructing submarine pipes using the S-laying method.



Figure 1. Construction process of subsea pipelines by S-lay method [1]

Some installation equipments during S-lay method.

- Stinger
- Tensioners

Stinger tupes [2]

There are three fundamentally different types of stitches that have been used so far when laying pipes in the North Sea.

1. Rigid stinger firmly connected to the lay vessel
2. Rigid stinger hinged to the lay vessel
3. Articulated stinger



Figire 1 a-e. Stinger types

The Stinger buoyancy can be calculated using the equation [2]:

$o \sim w_1 + \frac{K}{\cos\alpha}$ (1)

o - The buoyancy of the stinger per unit length.
w1 -The submerged weight of the pipeline per unit length.
α - The horizontal angle of the stinger
K - Factor proportional with the tension force and opposite proportional to the radius of curvature.

Tensioners- Device on a lay-vessel for applying tension to the suspended pipeline [3]



Figure 2. Typical tensioner support [1].

During the construction of deepwater pipelines, some installation stresses appear.

- lay stresses,
- overbend stress,
- sagbend stress,
- horizontal bending stress.

During S-laying , two regions must be taken into account:

- the overbend region
- the sagbend region.

The bending strain can be calculated with the following equation [4]:

$$\varepsilon = \frac{D}{2R_{cv}}$$

ε - axial bending stress
D- pipe outer diameter
R_{cv} - pipeline radius of curvature.

Therefore, the minimum radius of curvature can be calculated as [4]:

$$R_{cv} = \frac{ED}{2\sigma_o DF}$$

σ_o-Minimum specified yield stress
DF - Design factor, usually 0.85
E - Elastic modulus of the pipeline

In general, the overbend radius of curvature (including stinger) is selected such that the m a x im u m bending stress in the pipe does not exceed 85% of the m inim um specified yield stress (MSYS) [4].

Simplified laying criteria (DNV OS F101)

3. Overbend

For static loading the calculated strain shall satisfy Criterion I in Table 13-5. The strain shall include effects of bending, axial force and local roller loads. Effects due to varying stiffness (e.g. strain concentration at field joints or buckle arrestors) need not be included. For static plus dynamic loading the calculated strain shall satisfy Criterion II in Table 13-5. The strain shall include all effects, including varying stiffness due to field joints or buckle arrestors.

Table 13-5 Simplified criteria, overbend				
Criterion	*X70*	*X65*	*X60*	*X52*
I	0.270%	0.250%	0.230%	0.205%
II	0.325%	0.305%	0.290%	0.260%

Table 1. Simplified criteria for overbend area

4. Sagbend

For combined static and dynamic loads the equivalent stress in the sagbend and at the stinger tip shall be less than with all load effect factors set to unity.

$\sigma_{eq} < 0.87\ times\ f_y$ (2)

Effects due to varying stiffness or residual strain from the overbend may be ignored. For the sagbend in deeper water, where collapse is a potential problem, the normative buckling criteria in the standard shall also be satisfied.

3. INVESTIGATION METHOD

Some pipe lay vessels

1. HYSY201 [5]

The stinger of HYSY201 has three sections: a tail section, an intermediate section, and a hitch section, with lengths of 19.6 m, 22.9 m, and 33.2 m, respectively. Ten boxes of regularly spaced rollers are on the stingers, as showed in Figure 2a; it can be seen that the pipeline is in contact with the stinger rollers as described in Figure 2b.



Figure 2. Stinger for S-laying operations: (**a**) articulated stinger of the HYSY201 and (**b**) the pipeline in contact with the stinger roller.

2. Pieter Schelte [6]

Pioneering Spirit (formerly Pieter Schelte) is the largest construction vessel in the world. Inspired by the offshore heavy lifting pioneer Pieter Schelte Heerema (1908–81) and designed completely in-house, the vessel is designed for the single-lift installation and removal of large oil and gas platforms and the installation of record-weight pipelines.

Some data about pipe lay vessel:

- Length overall : 477 m (incl. tilting lift beam and stinger)
- Breadth : 124 m
- Installed tension capacity : 4 × 500T
- Pipe diameters: From 2" to 68" OD
- Accommodation : 571 persons

Figure 3. Pioonering Spirit with the pipelay stinger

3. Solitare [7]

Solitaire has laid numerous deepwater pipelines. In 2005 her S-lay capacity was increased to a holding force of 1050 t, enabling her to lay the heaviest pipelines. In 2007 she set the world record for ultra-deepwater pipeline installation, laying pipe to a depth of 2775 m (9100 ft). Solitaire's high cruising speed, high laying speed and substantial carrying capacity make her competitive for pipelay projects anywhere in the world.

- Length overall : 397 m (1,302 ft)
- Breadth : 41 m
- Installed tension capacity : 3 x 350 t (3 x 770 kips)
- Pipe diameters: From 2" to 60" OD
- Accommodation : 420 persons

Figure 4. Solitare pipe lay vessel

4. Castorone [8]

Castorone is one of the most efficient pipelaying vessels in the offshore industry, due to its high production rate and the capability to lay in shallow to ultra-deep waters in S-lay configuration

- Length overall (excluding ramp/stinger): 325 m

- Moulded breadth: 39 m
- Operational draft: min. 9.5 m, max. 10.6 m
- Pipe size up to 48" (60" including coating)
- Tensioners: 3 x 250 t
- Max. speed: 14 kn
- Accommodations: 702 persons
- Transit draft: 10 m approx
- Height (keel to top of mast crane pedestal): 67.5 m
- Pipelaying capacity: triple joint 12 m or double joint 18 m
- A/R winch: 910 t (6" diam. x 4,003 m length)
- Deck area: 4,300 m^2
- Ballast water: 36,000 m3 - 20,000 t pipe storage in cargo holds
- S-lay stern ramp: 120 m long hinged stinger composed of 3 articulated and adjustable sections

Figure 5. Castorone pipe lay vessel

The departure angle can be calculated depending on the stinger length and stinger radius with the following formula [9]

$$\xi = \frac{30}{R_{sti}} \times \frac{180}{2\pi} + \frac{(L_{sti} - 30)}{R_{sti}} \times \frac{180}{\pi} + \alpha_{ramp-angle}$$

- ξ - departure angle
- R_{sti} - stinger radius
- L_{sti} - stinger length
- $\alpha_{ramp-angle}$ – stinger/ramp angle

Figure 6 shows the stinger radius and departure angle in the Solitare pipe layer vessel.



Figure 6. Schematic showing the Solitaire deepwater stinger

Conclusion

Today's larger S-lay vessels are fitted with total tension capacity of 300 to 600 tonnes. The stingers are 60 to 100 m long to cope with installing pipelines in 300 m to 700 m water depths [1] . To obtain the lowest residual tension, the stinger must provide a departure angle as steep as possible [1].

Research shows that the relationship between stinger radius and departure angle is one of the key issues in the installation of subsea pipeline. Overbend curvature is controlled by the stinger radius. In extremely deep water, the departure angle of the pipe becomes so steep that the required stinger length may not be feasible [1].

The required tension depends on the water depth, the submerged weight of the pipeline, the allowable radius of curvature at overbend, departure angle and the allowable curvature at the sagbend [11].

Studies show that determination of relationship between departure angle and stinger play an important role to obtain the static configuration of the pipeline.

4. References

5. Qiang Bai and Yong Bai; Subsea Pipeline Design, Analysis, and Installation
6. NOU 1974: 40; Rørledninger På Dypt Vann, Universitetsforlaget, Oslo-Bergen, 1974.
7. Stelios Kyriakides and Edmundo Corona; Mechanics of Offshore Pipelines
8. Mousselli, A.H. ''Offshore Pipeline Design, Analysis and Methods,'' PennWell Books (1981).
9. Yingfei Zan, Lihao Yuan, Kuo Huang, Song Ding and Zhaohui Wu; Numerical Simulations of Dynamic Pipeline-Vessel Response on a Deepwater S-Laying Vessel;
10. https://allseas.com/equipment/pioneering-spirit/
11. https://allseas.com/equipment/solitaire/
12. https://www.saipem.com/sites/default/files/2021-04/Castorone_datasheet_0.pdf
13. Johannesen, M. J. "Installasjon av rørledninger på dypt vann". Master thesis at the Department of Mechanical and Structural Engineering and Materials Science, the University of Stavanger, Stavanger, Norway, 2001.
14. Solitaire (2006). Description of D.P. Pipelay Vessel Solitaire. Allseas Brochure.
15. YONG BAI; PIPELINES AND RISERS; ELSEVIER OCEAN ENGINEERING BOOK SERIES

TƏCHİZAT ZƏNCİRİNDƏ QAMÇI EFFEKTİ, YARANMA SƏBƏBLƏRİ VƏ ONUN AZALDILMA ÜSULLARI

QOCAYEV ƏLI ƏKBƏR OĞLU
BAKI MÜHƏNDISLIK UNIVERSITETI
Mühəndislik Fakültəsi/Logistika və Nəqliyyat Texnologiyaları kafedrası
Email: aqocayev1@beu.edu.az
BAKI ŞƏHƏRİ, AZƏRBAYCAN

DOS. BƏXTIYAR NAMAZOV
BAKI MÜHƏNDISLIK UNIVERSITETI

Mühəndislik Fakültəsi/Logistika və Nəqliyyat Texnologiyaları kafedrası
Email: banamazov@beu.edu.az
BAKI ŞƏHƏRİ, AZƏRBAYCAN

Xülasə

Bildiyimiz kimi təchizat zəncirinin üzvləri bir-biri ilə daim qarşılıqlı əlaqədədir. Təchizat zəncirində məlumat mübadiləsinin pozulması bu zəncirdə informasiya şəbəkəsində qırılmalara və nəzərdə tutulan işin effektiv şəkildə həyata keçirilməsinə mənfi təsir göstərərək səmərəsizliyə səbəb olur, sonda həddindən artıq ehtiyatların yığılması, şişirdilmiş sifariş səviyyələri və xərclərin ümumi miqdarının artmasına səbəb olan tələb dalğalanmaları ilə nəticələnir. Bu araşdırmada ilk növbədə tədarük zənciri anlayışından bəhs edilir, bu konsepsiyanın inkişafı və daha sonra bu konsepsiyada görülən problemlər qısa şəkildə izah edilir. Daha sonra tədarük zənciri problemi olaraq görülən qamçı effekti ilə bağlı indiyə qədər edilən işlər daxil edilir və ədəbiyyat araşdırması nəticəsində vəziyyət təhlili aparılmışdır. Nəticədə qamçı effektinin səbəb və nəticələri sistemli şəkildə izah edilmiş və onların standartlaşdırılmasının vacibliyi qeyd edilmişdir. Bundan əlavə, sistem nəzəriyyəsinin mürəkkəbliyinə görə bu modelin çətinlikləri qeyd edilmiş və modelə yeni yanaşmalar tətbiq edilmişdir. Bu yanaşmalara görə, qamçı effektinin aradan qaldırılmasında qamçı effektinin səbəbləri ilə məşğul olmaqdansa, zəncirin strukturunun təkmilləşdirilməsinin daha uğurlu olacağı göstərilmişdir. Nəticədə kompleks bir yanaşma olan sistem nəzəriyyəsi və tədarük zəncirinin inteqrasiyası sayəsində meydana gələcək müntəzəm məlumat axını ilə qamçı effektinin qarşısını almaq mümkün olduğu ortaya çıxmışdır.

Açar sözlər: Təchizat zəncirinin idarə olunması, Qamçı effekti.

Giriş

Qamçı effekti tədarük zəncirində ciddi əhəmiyyətə malik olan problemlərdən biri kimi qəbul olunmaqdadır. Qamçı effekti sadə dillə desək, tədarük zəncirinin bütün mərhələlərində inventar və tələb arasındakı təhrif məlumatı kimi də xarakterizə oluna bilər. Bu məsələ ilə bağlı çoxlu sayda araşdırmalar aparılmasına baxmayaraq, hələ də günümüzün aktual problemlərindən biri olaraq qalmaqdadır. Bu tədqiqatın məqsədi qamçı effektini həll etmək üçün bu çoxbaşlı vəziyyətdən xilas olmaq, ilk növbədə qamçı effekti daxilində səbəb-nəticə əlaqələrini araşdırmaq, sonra isə qamçı effektini tədarük prosesində qeyri-sabit vəziyyət kimi dəyərləndirməkdir.

Araşdırmanın birinci fəslində təchizat zənciri haqqında ətraflı məlumat vurğulanır, təchizat zənciri boyunca həyata keçirilən proseslər qeyd olunur. İkinci fəsildə qamçı effektindən bəhs edilir və bir çox mənbələrdən istifadə olunmaqla aparılan ədəbiyyat araşdırması nəticəsində qamçı effektinin səbəb və nəticələri və bu problemə qarşı yanaşmalar araşdırılır.

Fəsil 1. Təchizat zəncirinin idarə olunması

Hər şeydən əvvəl təchizat zəncirinin nə demək olduğunu müəyyən etmək məqsədəuyğun olardı. Təchizat zənciri xammalı tədarük edən, onları aralıq mallara və hazır məhsula çevirən və hazır məhsulları müştərilərə paylayan istehsalçılar və distribyutorlar şəbəkəsidir. Başqa bir tərif isə təchizat zəncirini tədarükçüləri, logistik xidmət təminatçılarını, istehsalçıları, distributorları və pərakəndə satıcıları özündə cəmləşdirən və materialların, məhsulların və məlumat axınının daxil olduğu elementlər toplusu kimi müəyyən edir. Təchizat zənciri, müştəri ehtiyaclarını doğru zamanda, yerdə və münasib qiymətə təqdim etmək üçün satınalma, satış, müştəri meyllərinin müəyyən edilməsi, istehsal kimi təchizatçıdan son

müştəriyə qədər bütün fəaliyyətlərdir. Şirkətin təchizat zənciri; Xammal istehsalçıları xammalın və yarımfabrikatların hazır məhsula çevrilməsi zamanı dəyər yaradan bütün elementlərdir, yəni istehsal prosesləri zamanı satınalma ilə məşğul olan və sonra hazır məhsulları paylama kanallarında son istehlakçıya çatdıranlardır. Bu tərifi istehlakçı baxımından ifadə etsək, tədarük zənciri tələbləri yerinə yetirmək üçün bir məhsul və ya xidmət üçün tələb olunan dəyəri yaradan bütün mərhələlər və ya elementlər toplusu kimi başa düşülməkdədir.

Qısaca desək, təchizat zəncirinin idarə edilməsi xammal tədarükündən istehsala və son müştəriyə paylanmasına qədər bir əmtəəyə çatmaq üçün dəyər zəncirində təchizatçılar, istehsalçılar, distributorlar, pərakəndə satıcılar və müştərilər arasında material/məhsul, pul və məlumatın idarə edilməsidir.

Təchizat zəncirinin idarə edilməsinin əsas məqsədləri aşağıdakı kimi ifadə edilə bilər:

- Müştəri məmnuniyyətini artırmaq,
- Döngə vaxtının azaldılması,
- İnventar və inventarla bağlı xərcləri azaltmaq,
- Məhsul qüsurlarının azaldılması,
- Əməliyyat xərclərinin azaldılması

Effektiv təchizat zəncirinin idarə edilməsinin təşkili müəssisənin istehsal və marketinq fəaliyyətinə müsbət təsir göstərir, daha çox müştəri məmnuniyyətini təmin edir, daha effektiv və səmərəli biznesə çevrilir, daha az xərc və yüksək mənfəətlə sabit artıma yol açır. Effektiv təchizat zəncirinin idarə edilməsi biznes üçün aşağıdakı aspektlərdə vacibdir:

- Giriş materiallarının tədarükünü təmin etməklə istehsalın davamlılığını təmin edir. Təchizat müddətini azaltmaqla bazardakı dəyişikliklərə qısa cavab verir.
- İstehlakçı tələblərini ən yaxşı şəkildə qarşılayaraq keyfiyyəti artırır.
- Texnologiyadan istifadə edərək innovasiyaları təşviq edir.
- Ümumi xərcləri azaldır.
- Biznesin bütün məlumat, material və pul axını idarə oluna bilir.

Təchizat zəncirinin effektiv idarə edilməsinin biznesə faydaları ilə bağlı aparılan araşdırmada tədarük zəncirinin optimallaşdırılması ilə biznesə verilən əlavə dəyər aşağıdakı cədvəldə ümumiləşdirilmişdir.

Optimallaşdırmanın təmin olunduğu sahələr	Optimallaşdırılma faizi
İnventarın azaldılması	25-60
Sifariş yerinə yetirmə faizinin yaxşılaşdırılması	20-30
Tələb təxmini bacarığı	25-80
Logistik xərclərin azaldılması	25-50
Məhsuldarlıq və həcm artımı	10-20

Təchizat zəncirinin təhlilində əhatə olunan əsas mövzular

Təchizat zəncirinin idarə edilməsi davamlı olaraq üzərində işləməli və davamlı olaraq dəyişiklik və yeniliklərin edilməsi lazım olan dinamik bir quruluşa malikdir. "SCOR" (Supply Chain Transactions Reference Model) bu baxımdan biznes menecerlərinə rəhbərlik edir. Təchizat zənciri şurası tərəfindən hazırlanmış idarəetmə vasitəsi olan bu model beş prosesi əhatə edir.

- Planlaşdırma prosesi: Tələb və təklif balansını nəzərə alaraq resurs, xammal, istehsal və çatdırılma ehtiyaclarının müəyyən edilməsini əhatə edir.
- Satınalma prosesinə planlaşdırılmış və ya faktiki tələbatı ödəmək üçün mal və xidmətlərin satın alınması daxildir.
- İstehsal / istehsal prosesi: planlaşdırılmış və ya faktiki tələbatı ödəmək üçün istehsalın hazırlanması işlərini əhatə edir.
- Çatdırılma prosesi: İstehsal olunan malların çatdırılması ilə bağlı sifariş, daşıma və paylamanın idarə edilməsi ilə bağlı işləri əhatə edir.
- Geri qaytarma prosesi: Buraya hər hansı səbəbdən malların geri qaytarılması, müştəri ödənişləri kimi müştəri cavab sistemi məsələləri daxildir.

Fəsil 2. Qamçı effekti

Qamçı effekti, tədarük zəncirində son istehlakçıdan istehsalçıya keçdikdə tələbin dəyişkənliyinin tədricən artdığı bir vəziyyətdir. Qamçı effekti təchizat zəncirində potensialın səmərəsiz istifadəsindən tutmuş aşağı müştəri xidməti səviyyələrinə qədər bir çox problemlərin əsas səbəblərindən biri kimi qeyd olunmaqdadır.

Qamçı effekti ilə bağlı araşdırmalar göstərir ki, bu problemin əsas səbəbi təchizat zənciri boyunca həyata keçirilən məlumat axınında öncədən planlaşdırılmış koordinasiyanın olmamasıdır və bu təsirin aradan qaldırılması üçün təchizat zənciri üzvləri arasında daimi və kəsintisiz şəkildə aparılan məlumat mübadiləsi olmalıdır. Bu prosesi daha aydın şəkildə anlamaq üçün belə bir durum təsəvvür edək: əlimizdə uzun bir qamçı var və həmin qamçının sapını bir az silkələsəniz, bu sapa ən yaxın hissələrdə kiçik titrəyişlər başlayar, lakin uzaqdakı hissələrdə isə getdikcə daha çox titrəyişlər yaranar. Eynilə, tədarük zənciri dünyasında, son müştərilərin əlində xəyali "qamçı sapı" olur və onların tələbdə kiçik bir hərəkətlilik yaratmaları tədarük zəncirinin ümumi tələbində artan bir şəkildə dinamikaya səbəb olacaqdır. Yəni müştəridən uzaqlaşdıqca bu hərəkətliliyinin daha da artdığını görə bilərik.



Hər kəs tədarük zəncirindəki dəyişkənlikdən qorunmaq üçün əlavə inventar saxlayaraq ehtiyatlı vəziyyətlərdən və qaçırılmış müştəri sifarişlərindən qorunmağa çalışır. Bu da bəzi hallarda son müştəri ilə xammal tədarükçüsü arasında altı aylıq həcmində böyük ehtiyat buferi yarada bilər. Qamçı effekti sonda yuxarı səviyyədəki istehsalçıların əldə etdiyi informasiyada qeyri -müəyyənliyinin artmasına səbəb olur. Proqnoz dəqiqliyinin aşağı səviyyədə olması isə daha böyük miqdarda ehtiyatların yaranmasına gətirib çıxarır. Qamçı effektinin ilkin mərhələdə pərakəndə satış səviyyəsində təsiri aşağı olsa da, əsas təsirini istehsalçıya doğru getdikcə sonda istehsalçının ən çox əziyyət çəkməsi ilə özünü büruzə verir.

Tədarük zənciri boyunca bu zəncirin iştirakçıları arasında qarşılıqlı ünsiyyətin olmaması və bunun nəticəsində yaranan anlaşılmazlıq qamçı effektinin mənfi təsirinin əsas səbəblərindən biridir. Tədarük zəncirindəki iştirakçılar tərəfindən irəli sürülən fərziyyələr özünü proqnozlarda yaranan artıqlıqla büruzə verir. Əlavə olaraq, şirkətlər proqnozlaşdırmağa və planlaşdırmağa kömək edəcək kəşfiyyat xarakterli məlumatlara malik olmadıqları durumda da qamçı effektinin təsirinə daha çox məruz qalırlar. Pərakəndə satıcılar və distributorlar tələbdəki qeyri -müəyyənlikləri planlaşdırmaq və toplu alış qiymətlərində endirimlərdən istifadə etmək üçün öz proqnozlarını nizamlayırlar. İstehsalçılar da müştəri tələbatının pərakəndə satış səviyyəsindəki informasiyaya sahib olmadığından zəruri tələbdən daha artıq istehsal edir.

Qamçı effektinin meydana gəlmə səbəbləri:

Təchizat zənciri boyunca ünsiyyət çatışmazlığı və nizamsızlıq - bu, hər bir təchizat zənciri iştirakçıları arasında ola bilər. Belə ki, menecerlər tədarük zəncirinin fərqli əlaqələri daxilində məhsula olan tələbatı fərqli şəkildə dəyişə bilərlər, yəni tələb olunan miqdardan ya daha az və ya böyük miqdarda sifariş verə bilərlər. Bu cür yanlış ünsiyyət nizamsızlığa səbəb olur və təchizat zənciri proseslərinin düzgün işləməsinə mane olur.

Sifariş toplama - Şirkətlər bəzən sifariş aldıqdan sonra distributorun sifarişini vaxtında yerinə yetirmirlər. Onlar tələblərin əvvəlcə ümumi yığılmasını gözləyirlər. Bu da tələbdə dəyişkənliyə səbəb olur, çünki bir zamanlar tələbatda yaranan artım , digər vaxtlarda enmələrlə müşayiət oluna bilər.

Qiymət dəyişikliyi - Promosyon endirimləri, xüsusi təkliflər məhsullara olan normal tələbatı poza bilər. Alıcıların bu artan tələbdən qısa müddətdə ən yaxşı şəkildə yararlanmaq istəyi məhsul istehsalında qeyri-dəqiq tələb proqnozuna və nəticədə izafi məhsul ehtiyatlarının yaranmasına səbəb ola bilər.

Yanlış Tələb Proqnozları

Tələbin proqnozlaşdırılması mürəkkəb məsələdir və proqnozlaşdırma geniş çeşiddə inventarlaşdırma və e-ticarət sistemlərinin qurulmasını və təhlil edilməsini tələb edir. Tədarük zənciri boyunca hər hansı bir səhv, qeyri-dəqiq proqnoza səbəb ola bilər. Bu da öz növbəsində tələbatı ödəyə bilməməyə və ya çox miqdarda ehtiyat yığmağa səbəb olur. Proqnozun yanlış olmasına səbəb ola biləcək bir çox xarici amillər də mövcuddur. Mütəmadi olaraq inventar yoxlanması aparmaq və tələb proqnozunu nəzərdən keçirmək və daima yeniləmək vacibdir.

Qamçı effektinə qarşı mübarizə. Onun ümumi səviyyəsinin minimuma endirilməsi yolları.
Qamçı effektinin təsirini minimuma endirmək üçün aşağıda daha geniş şəkildə istifadə olunan bəzi üsullar verilmişdir:
Qamçı effektinin mövcudluğunu qəbul edin və anlayın
Tədarük zənciri boyunca təkmilləşdirmə yolunda ilk və ən vacib addım, qamçı effektinin varlığının tanınmasıdır. Bir çox şirkət, tədarük zənciri boyunca yüksək tampon ehtiyatlarının mövcud olduğundan xəbərsiz olur. Mağazalardan xammal tədarükçülərinə qədər olan inventar nöqtələrinin ətraflı stok təhlili, izafi ehtiyatların aşkarlanmasına kömək edəcəkdir. Bununla da təchizat zənciri menecerləri artıq ehtiyatların səbəblərini daha dərindən təhlil edə, düzəldici tədbirlər görə bilər və buna uyğun normalar təyin edə bilərlər.
İnventar planlaşdırma prosesini təkmilləşdirin
İnventar planlaşdırması, mövsümi tələbat, perspektivli tələbat, yeni məhsul təqdimatı və köhnə məhsulların dayandırılması ilə qarşılıqlı əlaqədədir. Bunun üçün hər bir inventar nöqtəsinin təhlükəsizlik ehtiyatı parametrləri və minimum-maksimum ehtiyat çeşidi nəzərdən keçirilməli və vaxtaşırı düzəlişlər edilməlidir. Bütün şəbəkədə olan ehtiyatlar regional tələblərə əsaslanaraq balanslaşdırılmalıdır. Müəyyən edilmiş inventar normalarından böyük sapmalar üçün müntəzəm hesabat və erkən xəbərdarlıq sistemi tətbiq edilməlidir.
Xammal planlaşdırma prosesini təkmilləşdirin
Satınalma menecerləri ümumiyyətlə istehsalın pozulmaması üçün əvvəlcədən sifariş verməyə və yüksək xammal ehtiyatları saxlamağa meyllidirlər. Xammal planlaşdırılması birbaşa istehsal planı ilə əlaqələndirilməlidir. İstehsal planının ümumi satınalma müddətinə uyğun olaraq kifayət qədər əvvəlcədən açıqlanması lazımdır. Bənzər bir xammal üçün daha böyük bir satıcı bazasından daha kiçik bir satıcı bazasına əlaqəli hərəkəti, tədarükün elastikliyini və etibarlılığını artıracaq. Bu da öz növbəsində izafi xammal ehtiyatlarının azalması ilə nəticələnəcək.
Menecerlər arasında əməkdaşlıq və məlumat mübadiləsi
Satınalma menecerləri, istehsal menecerləri, logistika menecerləri və satış menecerləri arasında bəzi ziddiyyətli hədəflər ola bilər. Performansın qiymətləndirilməsində ümumi şirkətin məqsədlərinə daha çox əhəmiyyət verilməsi müxtəlif şöbələr arasında əməkdaşlığı yaxşılaşdıracaq. Həmçinin mütəmadi şəkildə təşkil olunan şöbələrarası görüşlərin keçirilməsi məlumat mübadiləsini və qərarvermə prosesini yaxşılaşdıracaq.
Minimum sifariş miqdarını optimallaşdırın və sabit qiymət təklif edin
Bəzi məhsullar, son müştərilər üçün yüksək minimum sifariş miqdarına malik olur və nəticədə sonrakı sifarişlər arasında ümumi boşluqlar yaranır. Minimum sifariş miqdarını optimal səviyyəyə endirmək, daha hamar sifariş nümunələri yaratmağa kömək edəcək. Tez -tez təqdim olunan təkliflər və endirimlərdənsə şirkətin məhsul üçün il ərzində sabit tutduğu qiymətlər, sabit və proqnozlaşdırıla bilən tələb yarada bilər.

Tədqiqat metodu
"Qamçı effekti"nin tədarük zəncirinin hər bir iştirakçısının əməliyyatlarının səmərəliliyinə çox mənfi təsir göstərdiyini güman etmək məqsədəuyğundur və müəyyən bir ədədi dəyərin vurduğu zərəri ifadə etmək üçün aşağıdakı nisbətdən istifadə olunur:

$$Qamçı\ effekti\ \text{ölçüsü} = \frac{Sifarişlərin\ dəyişkənliyi}{Tələbin\ dəyişkənliyi} = \frac{\sigma^2 təklifdə\ variasiya}{\sigma^2 tələbdə\ variasiya}$$

Pərakəndə satıcılar, distributorlar və istehsalçılar proqnozlar verərkən, tələbdə olan qəfil sıçrayışları qarşılamaq üçün bu prosesi öncədən tənzimləməyə çalışırlar. Qamçı effektinin necə yarandığını anlamağa çalışaq: Misal üçün, əgər müştərilər 50 məhsul alsaydı, buna qarşılıq pərakəndə satıcı da distributorundan 60 məhsul sifariş edər və yəni əlavə 10 məhsulu da öz anbarına əlavə ehtiyat kimi yerləşdirərdi. Distributor da bu zaman istehsalçıdan toplu endirimlərdən yararlanmaq üçün 90 məhsul sifariş edər. İstehsalçı isə öz növbəsində daha çox istehsal zamanı məhsul başına daha az xərc çəkdiyini nəzərə alaraq, istehsal etdiyi məhsul sayını 150-yə çatdırar.

	Miqdar	Qamçı effekti variasiyası
Müştəri	50	50:50=1
Pərakəndə satıcı	60	60:50=1.2
Distributor	90	90:60=1.5
İstehsalçı	150	150:90=1.66

Nümunədən də göründüyü kimi "qamçı effekti"nin təsir dərəcəsi təchizat zənciri üzvləri arasında dəqiq proqnoz yetərsizliyi səbəbindən hər bir səviyyə üzrə get-gedə artmaqdadır.

Nəticə

Təchizat zəncirindəki firmalar öz gəlirliliklərini qorumaq və rəqabətli bazar şərtləri ilə qloballaşan bazar əraziləri qarşısında sağ qalmaq üçün aşağı qiymətə və yüksək müştəri xidməti səviyyəsinə malik yeni idarəetmə yanaşmalarını tətbiq etməyə üstünlük verirlər. Lakin bazar sahələrinin qloballaşması ilə firma tələbləri; İstehlakçı və satınalma davranışları, təchizatçılar və rəqabət aparan şirkətlərin fərqləndirilməsi kimi amillərlə formalaşan yeni bazar strukturu qeyri-müəyyənləşir. Bu qeyri-müəyyənlik nəticəsində "qamçı effekti" ortaya çıxır. Firmalar qeyri-müəyyənlik şərtlərini aradan qaldırmaq üçün inventar idarəetmə yanaşmalarında dözümlülüklərini artırır və bu dəyişiklik təchizat şəbəkəsi boyunca pillələr yüksəldikcə daha qabarıq şəkildə özünü büruzə verir, bütün şəbəkədə qeyri-sabit struktura səbəb olur və ümumi şəbəkə performansını azaldır. Həddindən artıq inventar saxlama nəticəsində ümumi maya dəyərini artıran bu vəziyyətlə mübarizə aparmaq üçün klassik inventar idarəetmə yanaşmalarına yeni alternativlər təklif etmək lazımdır.

Ədəbiyyat Siyahısı

1. https://www.techtarget.com/searcherp/definition/bullwhip-effect
2. Hau L. Lee. V. Padmanabhan. Seungjin Whang. The Bullwhip Effect in Supply Chains. SPRING 1997. Page 95
3. https://blog.arkieva.com/what-is-bullwhip-effect/
4. https://www.fishbowlinventory.com/bullwhip-effect
5. OPERATIONS MANAGEMENT Sustainability and Supply Chain Management TWELFTH EDITION OPERATIONS MANAGEMENT TWELFTH EDITION. JAY HEIZER | BARRY RENDER | CHUCK MUNSON HEIZE Page 475

FONTAN ARMATURUN DAYANIQLIĞININ HESABLANMA METODİKASI

Osman Həsən oğlu Mirzəyev
BMU, Mexanika mühəndisliyi kafedrası, dosent
omirzayev@beu.edu.az

Osman Həsən oğlu Mirzəyev BMU, Mexanika mühəndisliyi kafedrası, dosent omirzayev@beu.edu.az	Nicat Məmmədliyev BMU "Mexanika mühəndisliyi" Kafedrasının magistri nmemmedeliyev1@std.beu.edu.az

Xülasə

Neft sənayesinin inkişafında texnika və texnologiyanın rolu çox böyükdür. Seriya ilə buraxılan neft mədən avadanlıqlarının rəqabətə davamlı, iqtisadi səmərəli və yüksək keyfiyyətli olması günün tələbidir. Ona görə də neft-mədən avadanlıqlarını layihələndirən zaman müasir layihələndirmə üsulları nəzərə alınmalıdır. Belə avadanlıqlardan biri də fontan armaturlarıdır. Fontan armaturları quyuların iş rejimini tənzimləmək, çıxarılan məhsulu lazımı istiqamətə yönəltmək, quyunun iş rejiminə nəzarət etmək, həmçinin müvafiq texnoloji əməliyyatlar aparmaq üçün nəzərdə tutulmuşdur. Fontan armaturlarının işinə nəzarət etməklə baş verə biləcək qəzaları vaxtında aradan qaldırmaq, vaxt və iqtisadi itkiləri azaltmaq olar. Bu məqalədə də belə aktual məsələlərə baxılmışdır.

Açar sözlər: neft, avadanlıqlar, fontan armaturu, siyirtmə, qəza, kəmər

THE METHODOLOGY OF CALCULATING THE STABILITY OF FOUNTAIN FITTINGS

Abstract:

The role of technique and technology in the development of the oil industry is very large. The demand of the day is that the oil production equipment produced in series be competitive, cost-effective and of high quality. Therefore, modern design methods must be taken into account when designing oilfield equipment. One such equipment is fountain fittings. Fountain fittings are designed to regulate the operation of wells, to direct the product in the right direction, to control the operation of the well, as well as to carry out appropriate technological operations. By controlling the operation of fountain fittings, it is possible to eliminate potential accidents in a timely manner and reduce time and economic losses. This article also discusses such topical issues.

Keywords: oil, equipment, fountain fittings, valve, accident, belt

МЕТОДИКА РАСЧЕТА УСТОЙЧИВОСТИ ФОНТАННОЙ АРМАТУРЫ

Аннотация:

Роль техники и технологии в развитии нефтяной промышленности очень велика. Требование дня состоит в том, чтобы серийно выпускаемое нефтедобывающее оборудование было конкурентоспособным, экономичным и качественным. Поэтому при проектировании нефтепромыслового оборудования необходимо учитывать современные методы проектирования. Одним из таких устройств является фонтанная арматура. Фонтанная арматура предназначена для регулирования работы колодцев, направления продукта в нужном направлении, контроля работы колодца, а также проведения соответствующих технологических операций. Контролируя работу фонтанной арматуры, можно своевременно устранить возможные аварии, сократить временные и экономические потери. В данной статье также рассматриваются такие актуальные вопросы.

Ключевые слова: масло, оборудование, фонтанная арматура, клапан, авария, ремень.

Giriş. Neft sənayesinin inkişafında texnika və texnologiyanın rolu çox böyükdür. Seriya ilə buraxılan neft mədən avadanlıqlarının rəqabətə davamlı, iqtisadi səmərəli və yüksək keyfiyyətli olması günün tələbidir. Ona görə də neft-mədən avadanlıqlarını layihələndirən zaman müasir layihələndirmə üsulları nəzərə alınmalıdır. Belə avadanlıqlardan biri də fontan armaturlarıdır. Fontan armaturları quyuların iş rejimini tənzimləmək, çıxarılan məhsulu lazımı istiqamətə yönəltmək, quyunun iş rejiminə nəzarət etmək, həmçinin müvafiq texnoloji əməliyyatlar aparmaq üçün nəzərdə tutulmuşdur. Fontan armaturlarının işinə nəzarət etməklə baş verə biləcək qəzaları vaxtında aradan qaldırmaq, vaxt və iqtisadi itkiləri azaltmaq olar.

Fontan armaturunun funksiyası qaldırıcı boruların (nasos kompressor borularının) və istismar boru kəmərinin (istismar sütununun) ağzını kipləşdirmək üçün nəzərdə tutulmuşdur. O, boru kəmərinin ağzını kipləşdirərək məhsulu tələb olunanistiqamətə yönəldir, həmçinin çıxarılam məhsulun təzyiqini tənzimləyir. Sütun sarğısının funksiyası qoruyucu kəmərin yuxarı uclarında borulararası fəzanı kipləşdirmək üçündür. Əsasən quyuüstü avadanlığın ağırlığını öz üzərinə götürür. Bir neçə quyunun eyni zamanda istismarı nəzərdə tutulan fontan armaturu- boru başlığından, fontan yolkasından və monifolddan ibarətdir. Burada siyirtmələrdə istifadə edilir.

Tədqiqat metodu. Fontan armaturunun istismar prosesində müxtəlif problemıər yaranır. Bunlardan biri də avadanlığın işinə təsir edən izafi təzyiq qüvvəsidir.

Avadanlığa təsir edən izafi təzyiq təhlükəli kəsikdə (fontan armaturu üçün bu qoruyucu kəmərin sıxıldığı kəsikdir) ekvivalent gərginlik yaradır və bu aşağıdakı düsturla müəyyən edilir

$$\sigma_{ekv} = \sqrt{\sigma^2 + 3\tau^2} \quad (1)$$

Barada σ və τ müvafiq olaraq təhlükəli kəsikdə yaranan normal və toxunan gərginliklərdir.

Öz növbəsində qorxulu kəsikdə olan normal gərginlik:

$$\sigma = \frac{M_{əy}}{W} \quad (2)$$

Burada $M_{əy}$ - qorxulu kəsikdə olan əyici momentdir; W -kəsiyin müqavimət momentidir.

Ümumi şəkildə nazikdivarlı oymaq üçün həmin kəsikdə olan toxunan gərginlik

$$\tau = \frac{2Q}{\pi D_{or}\delta} \quad (3)$$

təşkil edəcək.

Burada Q–qorxulu kəsikdə olan kəsən qüvvədir; D_{or} -oymağın orta diametridir; δ - oymağın qalınlığıdır.

Yükün (qüvvənin) zərbə xarakterini dinamik əmsal ilə nəzərə alsaq, onda dinamik gərginlik

$$\sigma_{din} = \eta_d \cdot \sigma_{eks} \quad (4)$$

Hər iki müqayisə edilən armaturun gərginliklərini müəyyən etdikdə, η_d əmsalı eyni götürülür.

(2) və (3) düsturlarına daxil olan kəmiyyətləri müəyyən etmək üçün müqayisə edilən armaturların şaquli səthə olan proyeksiyasının tam sahəsi hissələrə elə bölünür ki,

$$F = F_1 + F_2 + ... + F_n \quad (5)$$

ağırlıq mərkəzindən keçən oxlara nisbətən olan bu sahələrin statik momentləri sıfıra bərabər olsun, yəni

$$\int_F y dF = 0 \quad (6)$$

Burada *y*- dF elementar sahənin oxlara nəzərən ordinatıdır:

O_1-O_1 - F_1 sahəsi üçün;

O_2-O_2 - F_2 sahəsi üçün;

.....

O_n-O_n - F_n sahəsi üçün;

Onda qorxulu kəsikdə olan əyici moment

$$M_{izq} = P(F_1 y_1 + F_2 y_2 + ... + F_n y_n) \quad (7)$$

Barada *P*-armatura təsir edən izafi təzyiqdir: $y_1, y_2, ..., y_n$ – müvafiq olaraq O_1-O_1, O_2-O_2,…,O_n-O_n oxların qorxulu kəsiyə nəzərən olan ordinatlarıdır.

Kəsən qüvvə

$$Q = PF \quad (8)$$

təşkil edəcək.

Qorxulu kəsiyin həndəsi ölçülərini təsvir edən kəmiyyətlər, bu kəsiklərin müqayisə olunan armaturların ölçülərinə əsaslanaraq təyin edilir.

$$\sigma'_{din} = \sigma''_{din} \quad (9)$$

Nəticə. Beləliklə, müqayisə edilən armaturların ekvivalent dinamiki gərginlikləri (4) düsturu ilə P_1 və P_2 izafi təzyiqləri ilə ifadə edilir. Bu gərginlikləri bərabərləşdirərək, armaturların qorxulu kəsiklərində olan

ekvivalent gərginliklərinin eyni olması üçün, müqayisə olunan birinci armatura təsir edən P_1 izafi təzyiqinin, ikinci armatura təsir edən izafi P_2 təzyiqindən neçə dəfə çox və ya az olması müəyyən edilir.

Ədəbiyyat siyahısı

1. V.T.Məmmədov, O.H.Mirzəyev Neft mədən texnikasının təmir və bərpası. Bakı-2012, 425 s.
2. T.Ş.Salavatov, F.S.İsmayılov, B.A.Osmanov Neftin quyu ilə çıxarılması texnologiyası. Bakı-2012. 536s.
3. R.S.İbrahimov, B.A.Osmanov Neft və qaz quyularının əsas təmiri. Bakı-2013. 317 s.

KİMYA MÜHƏNDİSLİYİ

QLÜKOZANIN N,N-DIMETILASETAMIDDƏ ION MAYE IŞTIRAKINDA 5-HIDROKSIMETILFURFURALA ÇEVRILMƏSI

ZEYNƏB MUSTAFAYEVA
Bakı Mühəndislik Universiteti
Kimya mühəndisiyi kafedrası
zeynabmustafayevaa@gmail.com
BAKI, AZƏRBAYCAN

GUNAY VALADOVA
Kimya mühəndisiyi kafedrası, Bakı Mühəndislik Universiteti,
AMEA Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
guvaladova@beu.edu.az
BAKU, AZERBAIJAN

YUSIF ABDULLAYEV
Kimya mühəndisiyi kafedrası, Bakı Mühəndislik Universiteti,
AMEA Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
yabdullayev@beu.edu.az
BAKU, AZERBAIJAN

XÜLASƏ

Karbohidratların 5-hidroksimetilfurfurala (HMF) çevrilməsi bərpa olunan biokütlə əsaslı kimyəvi maddələr və yanacaq platformasına nail olmaq üçün yeni bir addım təmin edir. Bu məqalədə həlledici kimi N, N-dimetilasetamid (DMA), katalizator kimi N, N-dimetil-p-fenilenediamin dihidroxlorid ion mayedən istifadə edərək qlükozadan 5-HMF alınması araşdırılmışdır. Eyni şəraitdə 120C temperaturda 15dəqiqə ərzində aparılmış reaksiyada ən yüksək HMF çıxımı hesablanmışdır. Sabit temperaturda reaksiya müddəti artdıqca alınan HMF çıxımının azalması müşahidə olunur.

AÇAR SÖZLƏR: QLÜKOZA, ION MAYE, KATALIZATOR, BIOKÜTLƏ

GIRIŞ

Biokütlə zəngin və yeganə davamlı karbon mənbəyidir və biokütlədən əldə edilən karbohidratlar bir çox yüksək dəyərli məhsullar istehsal etmək üçün əsas biokütlə komponentləri və kimyəvi ara məhsulların mühüm potensial mənbələridir. Onların arasında 5-hidroksimetilfurfural mühüm birləşmədir. HMF herbisidlər, qida əlavələri və ya tibbi ləvazimatlar kimi tətbiqləri olan qiymətli birləşmədir. Biokütləni HMF-ə çevirmək üçün sadə və effektiv proseslərin işlənib hazırlanması böyük əhəmiyyət kəsb edir.

TƏDQIQAT METODU

Materiallar:

Qlükoza, N, N-dimetilasetamid (DMA, 99%), N, N-dimetil-p-fenilenediamin dihidroxlorid ($C_8H_{12}N_2 \cdot 2HCl$, 98%).

4.2. İş proseduru:

1 q qlükoza, 30 mol% katalizator ($C_8H_{12}N_2 \cdot 2HCl$, 98%), 9 ml DMA yumru dibli kolbaya tökülür. Katalizatorun hesablanması aşağıdakı düsturla yerinə yetirilir:

$$\frac{m(qlükoza)}{M(qlükoza)} \times \frac{30}{100} \times M(katalizator) \quad (1)$$

Reaksiyalar 120C temperaturda yağ vannasının içərisinə yerləşdiriliş kolbada 300rpm sürətlə davamlı qarışdırılaraq aparılır. Təcrübələr 15, 30, 60, 90 və 120 dəqiqə reaksiya müddətlərində aparılır və reaksiya müddəti bitdikdən sonra HMF-in çıxımı hesablanır. Bu nəticələrə əsasən 15 dəq ərzində aparılmış reaksiyadan alınan məhsulun tərkibindəki HMF miqdarı digər nəticələrlə müqayisədə ən yüksək, təqribən 71% olmuşdur. Reaksiya müddəti artırıldıqda isə yan məhsullar əmələ gəlir və bu nəticə tədricən aşağı düşərək 30dəq ərzində təxminən 69%, 60 dəq ərzində 66%, 90 dəq reaksiya müddətində isə 54.9% HMF miqdarı əldə edilir. 5-HMF miqdarının ən az (49%) müəyyən edildiyi reaksiya məhsulunun 120 dəq

ərzində alındığı təcrübələr vasitəsilə öyrənilmişdir.
Hesablamalar spektrofotometrdə alınan nəticələrə əsasən aparılmışdır. Reaksiya müddəti bitdikdən sonra reaksiya qarışığı buz vannasında otaq temperaturuna qədər soyudulur. Bu qarışıqdan 0.1 ml nümunə götürülüb 500 ml-lik kolbaya tökülür. Üzərinə distillə suyu əlavə edilərək 500 ml məhlul alınana qədər durulaşdırılır. UV-spektrofotometrdə ölçmələr aparılaraq 284 nm-də, HMF-ə uyğun gələn pik nöqtədə absorbsiya müəyyən edilərək nəticələr hesablanır. Alınmış nəticələr cədvəl1-də göstərilmişdir.
Əldə edilmiş nəticələrə əsasən aşağıdakı düsturla HMF-in çıxımı hesablanır:

$$HMF\ çıxımı = \frac{HMF\ molu}{qlükozanın\ ilkin\ molu} \times 100\% \quad (2)$$

Cədvəl 1. Hesablamalardan alınan 5-HMF-in çıxımı

Temperature(120°C)			1q(qlükoza) 30mol% katalizator (0,348q)		9ML DMA
zaman	dalğa uzunluğu	abs	konsentrasiya (mmol/L)	MOL(mmol)	çıxım(%)
15	284,5	0,917	0,078586535	3,929326754	70,67134
30	283,5	0,894	0,076559746	3,827987311	68,84869
60	283,5	0,861	0,073651745	3,68258724	66,23358
90	284	0,718	0,061050405	3,052520268	54,90144
120	284,6	0,644	0,054529432	2,726471625	49,03726



Qrafik 1. HMF-in çıxımının reaksiya müddətindən asılılığı

NƏTICƏ

Bu işdə, HMF sintezi üçün əlverişli prosedur, səmərəli katalizator/həlledici sistemi və ekoloji cəhətdən təmiz reaksiya şərtləri təklif edilmişdir. Hesablamalardan görünür ki, ən yüksək çıxım (70.67%) 15 dəqiqədə alınmışdır. Ən aşağı çıxım (49%) isə 120 dəqiqədə alınmışdır. Buradan aydın olur ki, həlledici kimi DMA, katalizator kimi N, N-dimetil-p-fenilenediamin dihidrixlorid götürdükdə 120°C temperaturda qlükozadan HMF-in alınmasında ən optimal reaksiya müddəti 15 dəqiqədir.

ƏDƏBIYYAT SIYAHISI

1. Jianjian Wang, Jiawen Ren, Xiaohui Liu, Guanzhong Lu, and Yanqin Wang. High Yield Production and Purification of 5-Hydroxymethylfurfural, Shanghai Key Laboratory of Functional Materials Chemistry and Research Institute of Industrial Catalysis, East China University of Science and Technology, Shanghai 200237, China
2. Yusif Abdullayev, Orkhan Ahmadov, Gunay Valadova, Ayan Karimli, Jochen Autschbach. Unveiling the catalytic effects of Brønsted acidic ionic liquid on quantitative α-glucose conversion to 5-HMF: Experimental and computational studies, Renewable Energy171, (2021)383-390
3. Yosuke Muranaka, Kenta Matsubara, Taisuke Maki, Shusako Asano, Hiroyuki Nakagawa, Kazuhiro Mae. 5-hydroxymethylfurfural Synthesis from Monosaccharides by a Biphasic Reaction – Extraction System Using a Microreactor and Extractor

LABORATORIYA ŞƏRAİTİNDƏ REAGENTLƏRİN NEFTİN REOLOJİ PARAMETRLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

ABDULLAYEVA Z.A.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: abddali@yandex.ru
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

Az parafinli və yüksək parafinli neftlərin eksperimental tədqiqatlarının nəticələri göstərir ki, neftdə asfalten və qatran dispers sistemlərinin olması depressiya effektlərinin yaranmasına gətirə bilər. Məqalədə neftlərin təsnifatlarına uyğun AQPÇ yaranma mexanizmi təhlil edilmişdir. Müxtəlif yataqlardan çıxarılan neftlərin əmələ gətirdikləri AQPÇ tərkibinə və qurluşuna uyğun müqayisəli anlizləri hazırlanmış və onların aradan qaldırılmasının səmərəli üsulu təklif olunmuşdur. Effektiv özlülük və sürüşmə gərginliy, ГОСТ 26581-85 standartının tələblərinə uyğun, PEOTECT-2 rotasion reometrində ölçülmüşdür. Balaxanı yatağından çıxarılan neftin elektron mikroskopik tədqiqatlarının nəticələri göstərmişdir ki, təkcə BAF-1 reagentini əlavə etməklə asfalten-qatran-parafin assosiatları dağılaraq, neftin bütün həcmində həll olur. Alınmış nəticələrə əsasən müəyyən edilmişdir ki, asfalten-qatran komponentləri neftin tipindən asılı olaraq parafinlərin kristallaşma temteraturunu aşağı salan təbii depressatorlardır. Məqalədə aşqarlar kimi Difron-4201 və BAF-1-in ayr-ayrı nisbətlərindəndən istifadə edilmişdir. Balaxanı ağır neftinin tərkibində olan parafin-qatran-asfalten qarışığının 1:1:1 nisbətində olan kütləsinə BAF-1 və Difron 4201 regentləri ayr-ayrılqda Difron 4201 və BAF-1 reagentlərinin 1:1 nisbətində kompoziti əlavə edilmişdir. Difron 4201 və BAF-1 reagentlərinin 1:1 nisbətində kompozitinin qarışığa təsiri nəticəsində parafin-qatran-asfaltenin əmələ gətirdiyi asosiatların eyni formada paylanması müşahidə edilmişdir ki, bu da neftin relogiyasının yaxşılaşmasını göstərən əsas şərtlərdəndir. Difron-4201 və BAF-1 aşqarlarının daha yüksək parafinli Bulla yatağından hasil olunan neft nümunəsinin xassələrinə təsiridə öyrənilmişdir. Tədqiq olunan AQPÇ-yə qarşı aşqarlar arasında daha effektivlisi 1:1 nisbətində qarışıqdan ibarət olan Difron-4201 və BAF-1 kompoziti olduğu müəyyən edilmişdir, bu da 200-800 kq/ton qatılıq intervalında neft nümunəsinin donma temperaturunu aşağı salır. Difron-4201 və BAF-1 kompozitinin optimal qatılığının 600 kq/ton olduğu müəyyən edilmişdir.

Oxşar tədqiqatlar Balaxanı ağır və Suraxanı neft nümunələri üzərində də aparılmışdır. BAF-1 və Difron-4201 aşqarları ilə Bulla və Balaxanı neft nümunələrindən ayrılmış qatran-asfalten-parafin birləşmələrinə təsirindən sonra onların elektron mikroskopik tədqiqatları öyrənilmişdir.

Tədqiqata əsəsən parafinli, qatranlı, asfaltenli neftlərin reoloji xassələrinin yaxşılaşdırılması üçün, BAF-1 və Difron-4201 reagentləri qarışığından hazırlanmış kompozitdən istifadə edilməsi daha məqsədə uyğun hesab edilmişdir.

AÇAR SÖZLƏR: özlülük, asfalten, qatran, parafin, assosiat, aşqar, difron-4201, baf-1

GIRIŞ

Neft- təbii çoxkomponentli maye olub, onun əsasını metan, naften, aromatik və parafin karbohidrogenləri təşkil edir. Neft 1000-ə yaxın xüsusi maddələr qarışığından ibarət olub, onların əksər hissəsi maye karbohidrogenlər və heteroatomlu üzvi birləşmələrdən, əsasən kükürdlü, azotlu və oksigenli metal üzvi birləşmələrdən, qalan komponentləri isə həll olmuş karbohidrogen qazlarından, sudan, mineral duzlardan, üzvi turşuların duzlarının məhsullarından və s., mexaniki qarışıqlardan ibarətdir. Bütün bu komponentlərin miqdarı neft yataqlarından asılı olaraq geniş intervalda dəyişə bilər. Neftin tərkibinə 425-ə qədər karbohidrogen birləşmələri daxildir [1-4]. Başqa sözlə, neft müxtəlif qaynama temperaturuna malik çoxlu sayda karbohidrogenlərdən və qeyri karbohidrogenlərdən ibarət ola bilər. Ona görə də neftin mütəmadi müraciət olunan xassəsi müxtəlif temperatur intervalında qaynayan, ayrı-ayrı fraksiyaların miqdarı ilə xarakterizə olunan fraksiya tərkibidir. Komponentlərin belə çox saylı müxtəlifliyi içərisində 300°C-yə qədər adətən, neftin yalnız 50 %-ə qədər kütləsi qaynayır. Qalıq isə yüksək molekullu karbohidrogenlərdən, qatranlardan, asfaltenlərdən, mineral maddələrdən ibarət olur və neft ağırlaşdıqca bu maddələrin miqdarı da artır. Hazırda hasil olunan neftlərin əsas hissəsi, tərkibinə görə ağır neftlər olub, əsasən parafin karbohidrogenlərindən və/və ya qatran-asfalten birləşmələrindən ibarətdir. Tədqiqatlar göstərmişdir ki, neftdə parafin çox olduqca onun tərkibində qatranlar və asfaltenlər az olur. Həmçinin, belə bir qanunauyğunluq da müşahidə edilir ki, neftin geoloji yaşı çox olduqca onun tərkibində parafinlər çox olur.

Yüksək parafinli neftlər həm də onların tərkibində kükürdün, vanadiumun və nikelin miqdarının aşağı olması ilə xarakterizə olunurlar [5]. Asfalten-qatran-parafin çöküntüləri (AQPÇ) həm layda, həm də nasos-kompressor borularında, boru kəmərlərində və çənlərdə əmələ gələ bilər.

Özlülüklü neftlərin boru kəmərlərilə nəqlinnin ən geniş yayılmış üsüulu neftlərin əvvəlcədən qızdırılaraq nəql olunması üsuludur. Bu üsul zamanı əvvəlcədən qızdırılmış neft magistral neft kəmərinə daxil olur, sonra o, boru kəməri boyunca müəyyən məsafələrdən bir quraşdırılmış istilik stansiyalarında qızdırılaraq nəql davam etdirilir. İlkin məlumat olaraq, boru kəmərinin çox sulu şəraitdən, bataqlıqdan, daimi buzlaq sahələrindən keçən məlumatları götürülür. Arktik iqlimdən savayı inşaat rayonu özünəməxsus geoloji və hidrogeoloji şəraitlər də xarakterizə olunur. Boru kəmərlərinin keçiricilik qabiliyyətini yalnız neftin qızdırılması ilə artırmaq ətraf mühitin təsiri baxımından səmərəli olmur [6-9]. Bununla bağlı olaraq müəlliflər tərəfindən aşqarlardan istifadə olunması təklif olunur. Ona görə də yerli və xarici praktikada müxtəlif aşqarlardan istifadənin yoxlanılması həyata keçirildi. Tətbiq edilən aşqarlar əmtəə formasının tipinə görə iki qrupa bölünürlər: dispersləşdirilmiş və gel kimi [10].

Son illər neft və qazçıxarma şəraitində mədən boru kəmərlərində tətbiq olunmasına hesablanmış suspenziya-emulsiya aşqarlarının işlənməsi və tətbiqi istiqamətində işlər aparılmaqdadır. Boru kəməri sistemilə nəql olunan neft və neft məhsullarının fiziki-kimyəvi xassələrinin müxtəlifliyi ilə əlaqədar olaraq hər bir halda kimyəvi reagentlərdən istifadə edilməsi, boru kəmərinin fərdi xüsusiyyətidir. Neftlərin reoloji xassələri, yataqların işlənməsi və sonradan boru kəməri ilə nəqli zamanı layihələndirmə və istismar məsələlərinin həlli üçün əsas ilkin məlumatlar kimi istifadə edilir [11, 12].

TƏDQIQAT METODU

Məlum olduğu kimi, reoloji tədqiqatların əsas məsələlərindən biri, tədqiq olunan mühitə təsir qüvvəsilə, bu qüvvənin təsiri altında meydana çıxan deformasiya qüvvələri arasındakı qarşılıqlı əlaqənin təyinindən ibarətdir . Bu işin məqsədi aşqarların Azərbaycanın Bulla, Balaxanı ağır və Suraxanı yataqlarından hasil olunan neftlərinin reoloji xassələrinə təsirinin öyrənilməsidir

İşdə aşqarlar kimi Difron-4201 və BAF-1 markalı reagentlərdən istifadə edilmişdir.

Parafinlərin, asfaltenlərin və qatranların neftlərdən ayrılması ГОСТ 11851-85 və ГОСТ 11858-66 metodikalarına uyğun olaraq həyata keçirilmişdir.

Axıcılığın itməsi və ya bərkimə temperaturu isə СТ РК 1530-2006 uyğun olaraq 0,-17 və 34 ^{o}C temperatutları sabit saxlamaq üçün üç kamera ilə təchiz olunmuş «S.D.M. – 530» (Almaniya) qurğusunda təyin edilmişdir.

Effektiv özlülük və hərəkət gərginliyi isə ГОСТ 26581-85 standartına uyğun ölçmə sisteminin istifadəsi ilə PEOTECT-2 rotasiya reometrində ölçülmüşdür.

AQPÇ-nin mikroquruluş tədqiqatları CEOL-6810 LV firmasının SEM (skanedən elektron mikroskop) cihazında aparılmışdır.

İşdə Bulla, Balaxanı ağır və Suraxanı yataqlarından hasil olunan neftlərin əsas fiziki-kimyəvi xarakteristikaları, daha dəqiq desək özlülükləri, bərkimə temperaturları, parafinin miqdarı və s. öyrənilmişdir

Həmçinin, onu da qeyd etmək lazımdır ki, Suraxanı yatağından hasil olunmuş neft, müsbət bərkimə temperaturuna malikdir ki, bu da onun yüksək parafinli olmasının nəticəsidir.

Məlumdur ki, yüksək parafinli neftlərin nəqli zamanı boru kəmərlərinin daxili divarlarında parafinin çökməsi müşahidə edilir. Bunu aradan qaldırmaq üçün yüksək parafinli neftlərin nəqli zamanı isti nəql üsulu tətbiq edilir. Bu məqsədlə boru xətti boyunca hər 25-150 km-dən bir neft təkrar qızdırılır. Qızdırılma yüksək parafinli neftlərin nəqli prosesinin problemlərini nisbətən həll etsə də, bu onun çıxarılması, nəqli və emalı proseslərini mürəkkəbləşdirir və bahalaşdırır.

Xam neftdən AQPÇ-nin ayrılması prosesini, magistral boru kəmərində AQPÇ çökməsi prosesinin modelləşdirilməsi qurğusunun köməyilə tədqiq edilmişdir.

Bu halda ayrılan AQPÇ sıx olur ki, bu da onların mexaniki təmizlənməsini çətinləşdirir. Özü də belə AQPÇ-nin tərkibində asfalten-qatran maddələrinin artması baş verir.Özlərinin fiziki hallarina görə AQPÇ nümunələri daha yumşaq, otaq temperaturunda daha axıcı olurlar və mexaniki olaraq asan təmizlənirlər .

Tərəfimizdən Balaxanı ağır neftinin tərkibində olan parafin-qatran-asfalten qarışığının 1:1:1 nisbətində olan kütləsinə BAF-1 və Difron 4201 regentləri ayr-ayrılqda Difron 4201 və BAF-1 reagentlərinin 1:1 nisbətində kompoziti əlavə edilmiş və onların işıq fonunda fotoşəkli çəkilmişdir.Fotoşəkillərdən BAF-1 regentinin qarışığa daha yaxşı təsir etdiyi (assosiatların dağılması) daha aydın görünür. Difron 4201 və BAF-1 reagentlərinin 1:1 nisbətində kompozitinin qarışığa təsiri nəticəsində parafin-qatran-asfaltenin əmələ gətirdiyi asosiatların eyni formada paylanması müşahidə edilmişdir ki, bu da neftin relogiyasının yaxşılaşmasını göstərən əsas şərtlərdəndir.

. Tədqiq olunan AQPÇ-yə qarşı aşqarlar arasında daha effektivlisi 1:1 nisbətində qarışıqdan ibarət olan Difron-4201 və BAF-1 kompoziti olduğu müəyyən edilmişdir ki, bu da 200-800 kq/ton qatılıq intervalında neft nümunəsinin bərkimə temperaturunu aşağı salır. Difron-4201 və BAF-1 kompozitinin optimal qatılığının 600 kq/ton olduğu müəyyən edilmişdir.

Reagentlərin qatılığının sonrakı artımı neftin donma temperaturuna və özlülüyünə təsir etmir. Həmçinin qrafikdən o da görünür ki, neftin özlülüyünün daha çox aşağı düşməsi BAF-1 aşqarının təsiri altında baş verir.

Oxşar tədqiqatlar Balaxanı ağır və Suraxanı neft nümunələri üzərində də aparılmışdır.

Balaxanı ağır və Suraxanı neft nümunələrində də özlülüyün daha aşağı qiyməti BAF-1reagentinin təsiri altında mümkün olmuşdur.

Beləliklə, sonrakı tədqiqatlar üçün ən effektli aşqar kimi BAF-1reagenti seçilmişdir.

BAF-1 və Difron-4201 aşqarları ilə Bulla və Balaxanı neft nümunələrindən ayrılmış qatran-asfalten-parafin birləşmələrinə təsirindən sonra onların elektron mikroskopik tədqiqatları da aparılmışdır.. Qeyd etmək lazımdır ki, neftlərin quruluş özlülüklərinin öyrənilməsi zamanı elektron mikroskopik analizin nəticələri böyük əhəmiyyət kəsb edir.

Bulla yatağından hasil olunan neft nümunəsinə ayrı-ayrılıqda BAF-1 və Difron-4201 reagentləri ilə təsir etdikdə qatran-asfalten-parafin assosiatlarını dağılması o qədər də müşahidə olunmur. Ona görə ki, BAF-1 reagentinin əlavəsindən sonra assosiat nisbətən dağılsa da parafin faktoru onun tam dağılmasına imkan vermir. Ayrılıqda Difron-4201 əlavəsindən sonra parafin faktoru aradan götürülsə də qatran faktorunun qalması assosiatın tam dağılmasına imkan vermir. Odur ki, çoxparafinli neftlərin reoloji xassələrinin yaxşılaşdırılması istiqamətində aparılan işlər zamanı parafin faktorunu aradan qaldıraraq, assosiatların tam dağılmasını təmin etmək üçün bu iki reagentin birlikdə- kompozit halında istifadəsi hökmən təmin olunmalıdır.

Balaxanı yatağından hasil olunan neft nümunəsinin elektron mikroskopik tədqiqatlarının nəticəsi isə göstərir ki, təkcə BAF-1 reagentinin əlavəsi ilə asfalten-qatran-parafin assosiatları tamamilə dağılaraq, neftin həcmində həll olur .

NƏTICƏ

Çoxparafinli neftlərin reoloji xassələrinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlər zamanı parafin faktorunu aradan qaldırmaq və assosiatların tam dağılmasını təmin etmək üçün BAF-1 və Difron-4201 reagentləri qarışığından hazırlanmış kompozitdən istifadə hökmən təmin olunmalıdır

Azparafinli və parafinsiz neftlərin reoloji xassələrinin yaxşılaşdırılması zamanı isə BAF-1 reagentinin tək istifadəsi kifayətdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Musser B. J., Kilpatrick P. K. Molecular Characterization of Wax Isolated from a Variety of Crude Oils // Energy Fuels. 1998. №12. P. 715−725
2. Mehrabian H., Bellucci M. A., Walsh M. R., Trout B. L. Effect of Salt on Antiagglomerant Surface Adsorption in Natural Gas Hydrates // J. Phys. Chem. 2018. №122. P. 12839−12849
3. Redelius P. Bitumen Solubility Model Using Hansen Solubility Parameter // Energy Fuels. 2004. №18. P. 1087−1092
4. Garcia M. C. Crude Oil Wax Crystallization. The Effect of Heavy n-Paraffins and Flocculated Asphaltenes // Energy Fuels. 2000. №14. P. 1043−1048
5. Carbognani L., DeLima L., Orea M., Ehrmann U. Studies on Large Crude Oil Alkanes. II. Isolation and Characterization of Aromatic Waxes and Waxy Asphaltenes // Pet. Sci. Technol. 2000. №18. P. 607−634
6. Nurullayev V. H., Usubaliyev B. T., Taghiyev D. B. The Study on the Reduction of the Viscosity of Transported Heavy Crude Oil by Fe (II) and Fe (III) Complexes with Phthalic Acid // Iranian Journal of Chemistry and Chemical Engineering. 2019. Vol. 38 №6. P. 135-140
7. Nurullayev V. H., Ismayilov G. G., Usubaliyev B. T. Influence of hydrodynamic cavitation on the rheological properties and microstructure of formulated crude oil // World Scientific News. 2018. №91. P. 44-58
8. Nassar N. N. Asphaltene Adsorption onto Alumina Nanoparticles: Kinetics and Thermodynamic Studies // Energy Fuels. 2010. №24. P. 4116−4122
9. Nurullayev V. H. The Theoretikal analysis of crude oil vapour pressure and cavitational technologies studying of physical and chemical properties of transported oil in the course of cavitation // Science and applied engineering quarterly. 2014. №5 P. 23-29.
10. Andersen S. I., Jensen J. O., Speight J. G. X-Ray Diffraction of Subfractions of Petroleum Asphaltenes // Energy Fuels. 2005. №19. P. 2371− 2377
11. Adams, J. J. Asphaltene Adsorption, a Literature Review // Energy Fuels. 2014. №28. P. 2831−2856
12. Hassanpouryouzband A., Joonaki E., Taghikhani V., Bozorgmehry Boozarjomehry R., Chapoy A., Tohidi B. New TwoDimensional Particle-Scale Model To Simulate Asphaltene Deposition in Wellbores and Pipelines // Energy Fuels. 2017. №32. P. 2661−2672

KARBAMID-FORMALDEHID OLIQOMERININ MODIFIKASIYASI VƏ TƏDQIQI

Abdullayeva İ.Q., Cəfərov M.C.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Azadlıq pr.20
Mehemmedeliceferov99@gmail.com

Xülasə

Təqdim olunan məqalədə sənaye miqyasında istehsal olunan və müxtəlif kompozisiyaların hazırlanmasında istifadə olunan karbamid-formaldehid oliqomerinin modifikasiyasına, tədqiqinə və tətbiqinə dair məlumat verilmişdir. Toplanmış ədəbiyyat materiallarının təhlilindən görünmüşdür ki, bu oliqomerin müxtəlif birləşmələrlə modifikasiyası onun bəzi çatışmayan xüsusiyyətlərini aradan qaldırır və yeni kompleks istismar xassələrinə malik oliqomerə çevirir.

Açar sözlər: karbamid, formaldehid**,** modifikasiya, kompozisiya, yapışqanlıq, penoplast, ağac materialı.

РЕЗЮМЕ

олигомера, выпускаемого в промышленных масштабах и используемого при приготовлении различных композиций. Анализ собранной литературы показывает, что модификация этого олигомера различными соединениями устраняет некоторые его недостатки и превращает в олигомер с новыми комплексными эксплуатационными свойствами.

Ключевые слова: карбамид, формальдегид, модификация, композиция, клей, пенапласт, древесный материал.

ABSTRACT

The presented article provides information on the modification, research and application of urea-formaldehyde oligomer, produced on an industrial scale and used in the preparation of various В представленной статье приведены сведения о модификации, исследовании и применении карбамидоформальдегидного compositions. Analysis of the collected literature shows that the modification of this oligomer with various compounds eliminates some of its shortcomings and turns it into an oligomer with new complex operational properties.

Keywords: urea, formaldehyde, modification, composition, adhesive, foam, wood material.

Hal-hazırda karbamid-formaldehid oliqomerləri (KFO) sellüloz və kağız sənayesində geniş tətbiqini tapmışdır. Onların əsas xüsusiyyəti kağızın texniki növlərinə möhkəmlik verməkdir. Bu oliqomerlərin digər sintetik əlavələrlə müqayisədə əsas üstünlüyü yüksək sürətlə bərkiməsi, yüksək qatılıqda aşağı özlülülüyü, saxlama müddətində dayanıqlığı, rəngsizliyi, ucuzluğu və zəngin xammal bazasının olmasıdır. Bununla belə, KFO suda qeyri-kafi həllolması, bəzi toksikliyi və kifayət qədər yüksək olmayan yapışqanlığı ilə xarakterizə olunur.

Bu oliqomerləri modifikasiya etməklə bu mənfi cəhətlərini aradan qaldırmaq mümkündür. Modifikasiyaedici agent seçərkən bunları nəzərə almaq lazımdır: kimyəvi təbiətə, oliqomerlərlə kimyəvi reaksiyaya girmək imkanına malik olmasını, suda həllolmasını, toksiki olmamalı və əlçatan olmalıdır.

Məqalədə amin-formaldehid oliqomerlərinin yeni sintez üsullarının işlənib hazırlanması və təcrübi tətbiqi yollarının axtarışı istiqamətində son illərdə aparılan tədqiqatların informasiya icmalı verilmişdir. Bu istiqamətdə aparılan elmi işlərin təcrübi əhəmiyyəti əsaslandırılmışdır. Karbamid-formaldehid, melamin-formaldehid, karbamid-melamin-formaldehid və digər amin qətranlarının alınmasının yeni üsulları, xassələrinin məqsəd yönlü dəyişməsi məqsədilə onların müxtəlif birləşmələrlə modifikasiya üsulları, həmçinin sintez olunan maddələrin tətbiq sahələri təsvir edilmişdir [1-5].

Aminoplastlara formaldehidin karbamid, tiokarbamid, disiandiamid, melamin və digər azot tərkibli birləşmələrlə polikondensasiya məhsulları daxildir. Əsasən karbamid-formaldehid (KF) və melamin-formaldehid (MLF) polimerləri texniki əhəmiyyətə malikdir. Karbamid polimerləri istehsalın bir çox sahələrində uğurla istifadə olunur. Poliefirlərlə birlikdə lak örtükləri əmələ gətirirlər. Metilol qruplarının spirtlərlə eterifikasiyası və ya poliefir polimerlərinin və uducu yağların köməyi ilə modifikasiya olunmuş MLF polimerləri şəffaflığı, istiliyə davamlılığı və yaxşı dielektrik xassələri ilə seçilir. Aminformaldehid qatranlarından istifadə perspektivlərini nəzərə alaraq onların istehsalı və modifikasiyası üçün yeni üsulların işlənib hazırlanması böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Son illərin elmi nəşrlərinin təhlili bu istiqamətdə aparılan tədqiqatların əhəmiyyətini təsdiqləyir [6-10].

Rus alimləri karbamid (sidik cövhəri)-formaldehid qatranlarının (KFQ) istehsalı üçün bir sıra patentlər almışlar. Onlardan birində kondensasiya prosesi formaldehid və karbamidin ilkin molar nisbəti 1,72-2,3:1, temperatur 80-95^{0}C, pH 6-9-də aparılmışdır. Kondensasiyanın davamı 30 -80 s özlülüyünə qədər karbamid əlavə etməklə davam etmiş və formaldehidin karbamidə son molar nisbəti 0,9-1,70: 1 və mühitin pH-ı 3,5-5,5-ə çatdırılmışdır. Mühitin pH səviyyəsini azaltmaq üçün, KF kütləsinin 0,1-3,0 % miqdarında alifatik amin spirtlərinin qeyri-üzvi və üzvi turşuları və ya onların anhidridləri ilə qarışığına əsaslanan maddələrdən istifadə edilmişdir.

Eyni müəlliflər başqa bir patentdə ağac emalı sənayesində DSP, DVP və faner istehsalı üçün istifadə edilən KFO 3,2-3,3: 1 molar nisbətində və mühit pH ≥3, ≥ 80^{0}C temperaturda formaldehidin karbamid ilə polikondensasiyasından əldə edilmişdir. Artıq miqdarda karbamid ilə kondensasiya əvvəlki işdən fərqli olaraq qələvi mühitdə və 20 -70^{0}C temperaturda aparılmışdır.

Yuxarıdakı materialın ümumiləşdirilməsi nəticəsində məlum oldu ki, KFO əldə etmək üsulu əsasən iki mərhələdən ibarətdir:

1. KF konsentratının alınması, yəni, başlanğıc komponentlərin ilkin polikondensasiyası;
2. Alınan məhsulun əlavə miqdarda karbamid ilə əvvəlcədən kondensasiyası.

Bəzi materiallarda sintezin birinci mərhələsi turşu, ikincisi isə qələvi digərlərində əksinə, birinci mərhələ turşu, sonra isə əlavə qələvi mühitdə kondensasiya aparılmışdır [11-12].

KF konsentratını sabitləşdirmək üçün difenilolpropanolun iştirakı ilə suya davamlı qatran əldə edilmişdir. Formaldehidin miqdarı az olan penoplastlar, digər kompozit materiallar üçün əlaqələndiricı kimi istifadə edilən KFO-nin sintezi çoxatomlu spirtin (1,5-2,5 küt.h. spirt 100 küt.h.karbamidə görə) iştirakı ilə aparılmışdır [13].

Tədqiqat işində alınmış qatran həm də aşağı toksikliyi ilə xarakterizə olunur, ətraf mühitin temperaturunda bərkiyə bilən və möhkəmlənmiş qruntun yüksək möhkəmliyini təmin edən sərbəst axan əlaqələndiricı kimi istifadə olunur

Digər tədqiqatçılar tərəfindən təklif edilən sintez üsulu onunla fərqlənir ki, karbamidin formaldehidlə qələvi mühitdə polikondensasiyası üçün maye natrium şüşəsi, turşu mühitdə polikondensasiya üçün isə alüminium sulfatın 20% sulu məhlulundan istifadə olunur. Alınmış qatran ağac yapışdırmaq üçün, fanerlər, lövhələr, təbəqə plastikləri, penoplastlar, laklar və digər məhsulların hazırlanmasında istifadə olunur [14-15] .

Mühitin pH-nın müxtəlif qiymətlərində tiokarbamid qatranlarının alınması tədqiq olunmuş və onların xassələri öyrənilmişdir. Aşağı toksikliyi ilə xarakterizə olunan KFO qatranlarının sintezində tiokarbamidin formaldehidə mol nisbəti 1:2 götürülmüşdür [16-21] .

Rus müəlliflərinin bir sıra işləri KFQ-nin amin birləşmələri ilə modifikasiyasına istinad edir, ümumi formul [$H(HNCH_2NHCH_2)_n$] ($H_2NCH_2NHCH_2$) NCON [$(CH_2NHCH_2NH)_{m-1}H$] ($CH_2NHCH_2NH_2$) şəklində olan poliaminin sulu məhlulu kimi istifadə olunur, burada n = 0,1; m = l, 2; n + m = l-3 [30], dietanolamin, müxtəlif hidroksialkilaminlər, alifatik (mono-, di-, trietanolaminlər, 1- (2-oksietil) etilendiamin) və tsikloalifatik, əsasən də heterotsiklik amin spirtləri, eləcə də digər amin birləşmələri ilə modifikasiya olunmuşdur.

Tədqiqat işində dietanolaminlə yanaşı, azot və fosfor tərkibli birləşmə triaminotoluolfosfatdan da istifadə olunur ki, burada modifikasiya prosesində əldə edilən qatran yanğına davamlı örtük kimi istifadə olunur. Fosfor turşusunun amin spirtləri ilə birlikdə istifadəsi həm yapışdırıcı xüsusiyyətlərə, həm də yüksək yanğına davamlı effektivliyə malik olan KFO-lərin istehsalına gətirib çıxarır. Onlar həmçinin müxtəlif hidroksialkilaminlərin, komponentlərin molyar nisbətinin və mühitin pH-nın kompozisiyaların sabitliyinə və xassələrinə təsiri ilə bağlı tədqiqatların nəticələrini təqdim edir ki, bu da hopdurma xüsusiyyətlərini birləşdirən yeni nəsil yanğın gecikdiricilərinə aid edilə bilər. Belə ki, alovun səthə yayılmasının qarşısını alan polimer odadavamlı örtük əmələ gətirik [22-24].

Beləliklə, yuxarıda deyilənlərin hamısı rəsm əsərinin memarın yaradıcılıq metodunun əsas vizual vasitəsi, bütün layihələndirmə problemlərinin daha mükəmməl həllinə daim səy göstərmək vasitələrindən biri olduğuna inandırır. Memar rəsm sənətini yaxşı bilməlidir - bu, hər hansı bir dizayn tapşırığını uğurla yerinə yetirməyin açarıdır.

Odur ki, rəsmin tədrisi memar yetişdirilməsində aparıcı fənlərdən biri kimi qalmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1.Kokorina E.V. Memarlıq rəsm peşəkar ünsiyyət dilinin yaradıcı komponenti kimi. mücərrəd cand. diss. Voronej, 2011. 24 s.

2.Akademik rəsminin əsasları. Nikolay Li. Moskva, 2003. 478 s.

3. Zaha Hadid URL: http://www.archplatforma.ru/?act=2&tgid

4. Sergei Tchoban. Architectural Drawings. Italy, Skira, 2015. arch:speech URL: http://archspeech.com/article/sergey-choban-arhitekturnye-risunki

5. Memarlar üçün rəsm: İspan Yu.V. Sevostyanovadan tərcümə: Elmi məsləhətçi O.B. Antonenko. M.: Art-Rodnik, 2005. 191 s.

GEODEZİYA ALƏTLƏRİNİN İNKİŞAFINA QISA TARİXİ NƏZƏR

ŞİRİN SADIQOVA
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /İnşaat mühəndisliyi
shisadıqova@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Geodeziya ən qədim elimələrdən biridir. Arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, geodeziya eramızdan 30- 35 əsr əvvəl qədim şərqdə yaranmışdır. Mənbələrə əsasən eramızdan 3500 il əvvəl Misirdə Nil çayı daşdıqdan sonra torpaq bölgüsü ilə əlaqədar olaraq yerölçmə işləri aparılmasında, Misirlilərin suvarılma üçün su kanalı çəkmək, bəndlər qurmaq, əzəmətli Misir pramidalarının tikilməsi ilə bağlı ölşmə işlərində, eramızdan 600 il əvvəl Aralıq və Qırmızı dənizləri kanal ilə birləşdirmək üçün səviyyələrin fərqini müəyyən etmək üçün sadə geodeziya alətlərindən istifadə edilmişdir. Bunlara missal olaraq sadə su nivelirini, cəhətgöstərmə xassəsi olan maqnit əqrəbli aləti və s. göstərmək olar. Məqalədə geodeziya alətlərinin inkişaf tarixi, yerüstü ölçmə işlərində istifadə edilən qədim və müasir alətlərdən və onların işləmə prinsiplərindən bəhs olunmuşdur.

AÇAR SÖZLƏR: Ölçü alətləri, nivelir, teodalit, məsafəölçən, kompas ,aldida, limb

КРАТКИЙ ИСТОРИЧЕСКИЙ ЭКСКУРС В РАЗВИТИЕ ГЕОДЕЗИЧЕСКИХ ПРИБОРОВ

РЕЗЮМЕ

Геодезия – одна из древнейших наук. Археологические раскопки выявили, что геодезия зародилась на древнем Востоке в 30-35 веках до нашей эры. Согласно источникам, после разлива Нила в Египте 3500 лет назад египтяне занимались межеванием земель, строительством каналов для орошения, строительством дамб, измерениями для строительства великолепных египетских пирамид, соединением Средиземного и Красного морей с каналов 600 лет назад.Для определения перепада уровней использовались простые геодезические приборы. Примеры включают простые уровни воды, магнитную стрелку со свойством направления и так далее. можно показать. В статье рассматривается история развития геодезических приборов, древние и современные инструменты, применяемые при наземных измерениях, и принципы их действия.

Ключевые слова: измерительные приборы, нивелир, теодолит, дальномер, компас, альдида, конечность

A BRIEF HISTORICAL LOOK AT THE DEVELOPMENT OF GEODETIC INSTRUMENTS

ABSTRACT

Geodesy is one of the oldest sciences. Archaeological excavations have revealed that geodesy originated in the ancient East 30-35 centuries BC. According to sources, after the Nile overflowed in Egypt 3,500 years ago, the Egyptians were involved in land surveying, construction of canals for irrigation, construction of dams, measurements for the construction of magnificent Egyptian pyramids, and connection of the Mediterranean and Red Seas with canals 600 years ago. Simple geodetic instruments were used to determine the difference in levels. Examples include simple water levels, a magnetic needle with a directional property, and so on. can be shown. The article discusses the history of development of geodetic instruments, ancient and modern tools used in surface measurements and the principles of their operation.

Keywords: measuring instruments, level, theodolite, rangefinder, compass, aldida, limb

GİRİŞ

Geodeziya alətlərinin tarixi eramızdan əvvəl XIII əsrdən yəni qədim Babil, Çin və Misirdə suvarma kanallarının çəkilməsindən, başlayır. Geodeziya ölçmə texnikasına mühüm töhfəni ərəblər, yunanlar və romalılar tərəfindən vermişlər. Eratosfen eramızdan əvvəl 200-cü ildə gnomonu (günəş saatı) kəşf etmişdir. İlk dəfə Yerin çevrəsinin uzunluğunu dərəcə ilə təyin etmişdir. Ptolemey, əlli il sonra, şaquli bucaqlar üçün bir xətkeş icad etmiş, iyirmi il sonra isə Hipparx teodolitin prototipi olan limb dairəli astrolabanı təklif etmişdir.

Maqnit kompas geodeziya tarixində ən mühüm alətlərdən biridir. Kompas, çox böyük ehtimalla, Quin sülaləsinin hakimiyyəti dövründə (e.ə. 221-206) çinlilər tərəfindən icad edilmişdir. Çinli falçılar öz fal lövhələrini qurmaq üçün lodestones (dəmir oksidindən ibarət mineral, şimal-cənub istiqamətində düzlənir) istifadə edirdilər. Nəhayət, ilk kompaslara aparan daşların real istiqamətləri göstərməkdə daha yaxşı olduğ məlum oldu. Həmin dövrlərdə kompası əsas nöqtələr və bürclər üçün işarələri olan kvadrat plitə üzərində tərtib edirdilər. İşarə edən iynə, həmişə cənuba baxan saplı, qaşıq formalı, daşdan hazırlanmış bir cihaz idi. Eramızın VIII əsrində Çində qaşıqvari lodestones əvəzinə istiqamət göstəriciləri kimi istifadə edilən maqnitləşdirilmiş iynələr yaradılmış və 850 ilə 1050-ci illər arasında gəmilərdə naviqasiya cihazları kimi istifadə olunmuşdur.

XVII əsrdə menzula, optik dürbinli nivelir və teodolitin ixtirası geodeziya ölçmə işlərini daha da təkmilləşdirdi.

Yer səthində peyk üsulu ilə geodeziya ölçmələrinin aparılması geodeziyada inqilabi dönüşə səbəb oldu. Yerüstü ölçmə işlərində müasir alətlərin və metodların istifadəsi geniş yayılsa da, ənənəvi və sadə alətlərin istifadəsi öz aktuallığını hələ də itirməmişdir.

TƏDQIQAT METODU

Geodeziya alətləri - Yerdə ölçmələrin aparılması, planların və irimiqyaslı xəritələrin tərtib edilməsi üçün istifadə olunan mexaniki, optik-mexaniki, elektro-optik və radioelektron alətlər məcmusudur. Geodeziya alətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- məsafələrin ölçülməsi üçün: ölçü lenti, məsafəölçənlər;
- bucaqların ölçülməsi üçün: teodolitlər;
- nisbi hündürlükləri ölçülməsi üçün: nivelir;
- ərazinin kompleks çəkilişi üçün: kipregel və s.

Astrolab- Stereoqrafik proyeksiya prinsipi əsasında üfüqi bucaqları ölçmək və göy cisimlərinin enlik və uzunluqlarını təyin etmək üçün istifadə edilən ən qədim astronomik alətlərdən biridir **(Şək. 1).**



Şək. 1

Qoniometr (yunanca gonio-bucaq +metr yəni bucaq ölçən mənasındadır) - kristalın üzləri, arasındakı bucaqları ölçmək üçün cihazdır. Əsasən iki növü var: tətbiqi qoniometr və əksedici qoniometr. Tətbiqi qoniometr, qoniometr transportir və onun mərkəzinə bərkidilmiş sərbəst fırlanan xətkeşdən ibarətdir. Tətbiqi qoniometrlə böyük ölçülü, əksetdici qoniometrlər isə nisbətən kiçik ölçülü kristallar üzərində ölçmələr aparılır **(Şək. 2).**



Şək. 2

Kipregel- topoqrafik tədqiqatlar apararkən şaquli bucaqları, məsafələri, hündürlükləri və istiqamətlərin qrafik konstruksiyalarını ölçmək üçün istifadə edilən geodeziya alətidir **(Şək. 3).**

Şək. 3

Bussol- cəhət bucaqlarını ölçmək üçün istifadə olunan sadə geodeziya alətidir. Bussollar stolüstü, ştativli, prizmalı və s. olur **(Şək. 4).**

Şək. 4

Menzula - planşetdən, ştativdən və onları bağlayan stenddən ibarət sahə rəsm masasıdır **(Şək. 5).**

Şək. 5

Ştativ - foto, geodeziya və digər alətlərin sərt şəkildə bərkidilməsi üçün qatlanan ştativ və ya sıxac formasında olan cihazdır **(Şək. 6).**

Şək. 6

Polad lent- eni 3 sm, qalınlığı 0,3-0,4 mm və uzunluğu 20 ve ya 24 metr olan metal zolaqdır. Təcrübədə 20 m uzunluğunda polad lentlərdən daha çox istifadə edilir. Lentin hər iki üzündə metrlər (bir-birinin əksinə) rəqəmlərlə, 0,5 m-lik bölgülər düymələrlə, destimetrlər isə deşiklərlə qeyd olunur. Lentin uclarında qarmaq və dəstək olur. Dəstək lenti dartmaq, qarmaq isə onu sancağa keçirmək üçündür . **(Şək. 7).**

Şək. 7

Pantometr - meşələrin və torf bataqlıqlarının tədqiqində istifadə olunan goniometrik geodeziya alətidir **(Şək. 8).**

Şək. 8

Məsafəölçən-birbaşa yerdə ölçmədən məsafələri təyin etmək üçün istifadə olunan bir cihazdır. Məsafəölçən bir çox ölçmə alətlərinin teleskopunda quraşdırılmışdır. Bu halda, məsafə ölçülmüş seqmentin digər ucunda dayanan bölmələri olan bir relsdən istifadə edərək müəyyən edilir. İşıq, radio və lazer məsafəölçənlər müvafiq diapazondakı dalğaların məsafəölçəndən ölçülmüş xəttin ikinci ucuna və arxaya keçmə vaxtının ölçülməsinə əsaslanır **(Şək. 9).**

Şək. 9

Eklimetr - yerdəki meyl bucaqlarını çox yüksək olmayan dəqiqliklə ölçmək üçün daşınan geodeziya cihazıdır. Eklimetr bir vizer borusuna bərkidilmiş yuvarlaq bir qutudur. Qutunun içərisində bölmələri olan disk var, onun ağırlıq mərkəzi elə yerləşdirilib ki, nişan borusu üfüqi vəziyyətdə olduqda diskin şkalasında "0" dərəcə oxunsun, meyilli olduqda isə müvafiq qiymət verilir **(Şək. 10).**

Şək. 10

Stereofotoqrammetrik cihaz - relyefin stereoskopik təsvirlərindən istifadə etməklə onlarda təsvir olunan obyektlərin ölçüsünü, formasını və mövqeyini (koordinatlarını) müəyyən etməyə, habelə topoqrafik plan və xəritələr çəkməyə imkan verir. Bu cihazlar bəzi hallarda kompyuterlər və avtomatlaşdırma avadanlıqları ilə tamamlanan optik-mexaniki və elektron cihazlardır **(Şək. 11).**



Şək. 11

Teodoit- yerdə üfüqi və şaquli bucaqların ölçülməsi üçün əsas geodeziya alətilərindən biridir. Teodolit teleskopun üfüqi fırlanma oxunun və şaquli dairənin dayaqları üzərində dayandığı alidada ilə şaquli ox ətrafında fırlanan üfüqi dairədən (limb) ibarətdir. Teodolit geodeziya, astronomik, mühəndislik işlərində geniş istifadə olunur **.**



a b

Şək. 12 a,b

1 - əsas; 2 - qaldırıcı vintlər; 3 - dayaq; 4 - əzanın bərkidici vint; 5 - əzanın aparıcı vint; 6 - alidade fiksasiya vinti; 7 - alidadanın aparıcı vinti; 8 – üfüqi dairənin alidada səviyyəsi; 9 - borunun fiksasiya vinti; 10 - borunun aparıcı vinti; 11 - fokuslama çarxı; 12 - boru göz qapağı; 13 - optik görmə; 15 - miqyaslı mikroskopun göz qapağının fokus halqası; 16 - şaquli dairə **(Şək. 12 a,b)**

Nivelir — (fransız dilində nivelir-hamarlamaq deməkdir) - Yer səthində olan nöqtələrin hündürlük fərqinin müəyyən edilməsi üçün istifadə olunan geodeziya alətidir. Nivelirin əsas hissəsi düzgün olaraq üfüqi istiqamətdə qurulmuş baxış borusundan ibarətdir. Üzərində bölgüləri olan iki şaquli reykanın nivelrdən görünən rəqəmləri arasında fərq, reykanın qurulduğu nöqtələrin hündürlük fərqinə bərabərdir. Nivelirlə hündürlüklər fərqinin müəyyən edilməsi **nivelirləmə** adlanır. Təpənin müəyyən yamaclarından ölçülən zaman nisbi hündürlük müxtəlif qiymətlər ala bilər. Ona görə mütləq hüdürlükdən istifadə olunur.



a b

Şək. 13 a,b

Nivelir H-3; 1 - gövdə, 2 - ön görünüş, 3.8 - taraz, 4 - vint, 5 - yay lövhəsi, 6 - alt vintlər, 7 - dayaq, 9 - qaldırıcı vint, 10 - dayaq platforması, 11 - əl çarxı, 12 - okulyar , 13 – boru **(Şək. 13 a,b)**

Totalstation- Uzunluq, bucaq və yüksəklik ölçməyə yarayan elektronik ölçmə cihazıdır. Cihazdan göndərilən lazer və ya infrared şüa, reflektordan əks etdirilir, alətin içindəki kompyuter işıq şüasının sürətindən istifadə edərək məsafələrii hesablayır. Reflektorun(teleskop) yüksəkliyi və alətin qurulu olduğu masanın yüksəkliyi diqqətə alınaraq ,əsasən x,y,z qiyməti bilinən bir nöqtədən müşahidə aparıldığı üçün digər nöqtənin x,y,z kəmiyyətləri hesablanılır.

Daimi və avtomatik olaraq üfuqi və şaquli bucaq ölçmələrini edən, mm-ə qədər həssaslığında məsafə oxuyabilən, alınmış nəticələri anında ekranda göstərən və yaddaşa köçürən cihazlara **totalstation** deyilir.

Bir çox inşaat işlərində lazerli məsafə ölçən reflektorsuz totalstationlar istifadə edilir. Tək adamlıq istifadəsi mümkün olması, çatması çətin olan hədəflərə lazerli ölçməsi edə bilməsi reflektorsuz totalstation cihazının əhəmiyyətini xeyli dərəcədə artırır. Xəritəçəkmədə, memarlıqda, mədən müəssisələrində daha çox istifadə olunur **(Şək. 14).**

Şək. 14

NƏTİCƏ

Elmi-texniki tərəqqinin daimi inkişafı , həyatımızın daha çox sahələrini əhatə edir. Son on illikdə tikinti və quraşdırma işlərinin sürəti xeyli artmışdır. Bu, geodeziya elminin yeni müasir avadanlıqlarının inkişafına geniş imkanlar yaratmışdır. Ümumiyyətlə tikinti-quraşdırma işlərinin elə bir sahəsi yoxdur ki, orada geodeziyanın üsulları və avadanlıqlarında istifadə edilməsin. Kompyuter innovasiyaları geodeziya avadanlıqlarının daha da modernləşdirməsinə və təkmilləşdirilməsinə imkan vermişdir.

ƏDƏBİYYAT

1. Q. Məmmədov, İ.Əhmədov. «Geodeziya».Bakı,"Maarif" nəşriyyatı, 2002-520 səh.
2. Piriyev R.X. Geodezihyanın əsasları və topoqrafiya. Bakı, 1994.
3. M.H.Əliyev,M.M.Əliyev,H.A.Əbdüsalamov,X.M.Tsopikov. Geodeziya və topoqrafiya rəsmxət. Bakı, 1961
4. Геодезические приборы и инструменты https://www.gsi.ru/art.php?id=436
5. Instruments for topographic and geodetic surveys https://www.archiproducts.com/en/products/instruments-for-topographic-and-geodetic-surveys
6. "What Is Geodesy". National Ocean Service. Retrieved 8 February 2018.

ƏRAZİNİN SEYSMİK XÜSUSİYYƏTİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ MÜHƏNDİSİ-SEYSMİK KƏŞFİYYAT İŞLƏRİ

ETIBAR QARAVƏLIYEV
AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
getibar@gmail.com
BAKI, AZƏRBAYCAN

FƏRIDƏ AĞAKIŞIYEVA
AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
feride_nuruzade@mail.ru
BAKI, AZƏRBAYCAN

SƏRVƏT QURBANZADƏ
AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
qurbanzadeservet@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Seysmik rayonlarda bina və qurğuların inşaası zamanı müasir tələblərə cavab verən inşaat norma və qaydalarından istifadə edilməsi aktual məsələdir. Müasir inşaat norma və qaydaları bina və qurğuların əsasının tədqiqi məqsədilə eninə dalğa sürətlərinin öyrənilməsini vacib sayır. Çünki, eninə dalğa sürəti bina və qurğuların zəlzələyə davamlı hesablanması məqsədilə yerli qurunt şəraitinin müəyyən edilməsində xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan seysmik rayonlarda yerin dərinlik quruluşunun öyrənilməsi və yerli qrunt şəraitinin eninə dalğa sürəti parametrindən asılı olaraq seysmik xüsusiyyətlərinin öyrənilməsi praktiki əhəmiyyətə malikdir. Tədqiqat işində istifadə olunan müasir cihaz və avadanlıqlar, mühəndisi seysmik kəşfiyyat işlərində aparılacaq ölçmə işlərinin metodikası, alınan məlumatların təhlil və təfsiri əsasında elastik dalğaların laylarda yayılma xüsusiyyətləri araşdırılmış, sahədə 30 metr dərinliyə görə eninə seysmik dalğa sürətinin orta qiyməti hesablanmış və qruntun sinfi müəyyən edilmişdir.

AÇAR SÖZLƏR: Mühəndisi-seysmik kəşfiyyat, eninə dalğa sürəti

GIRIŞ

Azərbaycan ərazisi seysmik zonada yerləşir və burada müxtəlif illərdə çoxsaylı dağıdıcı zəlzələlər baş vermişdir (427, 1123, 1139, 1225, 1667, 1859, 1902, 2000-ci illər və s). Seysmik zonalarda inşaa olunan binaların seysmik dayanaqlılığı Dövlət Tikinti Norma və Qaydalarının "Seysmik Rayonlarda Tikinti" sənədi ilə tənzimlənilir.

Müasir inşaat norma və qaydaları bina və qurğuların əsasının tədqiqi məqsədilə eninə dalğa sürətlərinin öyrənilməsini vacib sayır.

Tədqiqat işində seysmik kəşfiyyatın fiziki əsaslarına, elastik dalğaların laylarda yayılma xüsusiyyətlərinə, istifadə olunan cihaz və avadanlıqlara, mühəndisi seysmik kəşfiyyat işlərində aparılacaq ölçmə işlərinin metodikasına, alınan məlumatların təhlil və təfsiri məsələlərinə baxılmışdır.

Seysmik kəşfiyyat Geofizikanın bir bölməsi olub, süni yaradılmış elastiki dalğaların öyrənilməsinə əsaslanır. Seysmik kəşfiyyat üsulundan Yerin dərinlik quruluşunun öyrənilməsində, hidrogeoloji, mühəndisi-geoloji və s. məsələlərin həll olunmasında istifadə olunur. Yerüstü seysmik kəşfiyyat işlərinin aparılmasında məqsəd: sahənin eninə dalğa sürəti parametrinə əsasən seysmik kəsilişinin tərtib olunması; ərazidə qruntların seysmik xüsusiyyətinin müəyyənləşdirilməsidir.

TƏDQIQAT METODU

Seysmik kəşfiyyat işlərinin metodikası dedikdə, növün, metodun, süni elastiki dalğa mənbələrinin tipinin, cihazların, müşahidə sistemlərinin (dalğa mənbələrinin və qəbuledidcilərin yerləşməsi), qarşıya qoyulan məsələlərin daha keyfiyyətli həll olunmasını təmin edə biləcək çöl işlərinin aparılması və təşkili üsullarının seçilməsi başa düşülür.

Çöl seysmik kəşfiyyat işləri zamanı texniki tapşırığa və qarşıya qoyulan məsələlərin həll olunmasında, parametrləri bu işlərin yerinə yetirilməsinə imkan verən seysmik cihazlardan istifadə edilməlidir. Hal-hazırda seysmik kəşfiyyat işləri zamanı az kanallı (1-3 yazı kanallı), orta kanallı (6-12 kanal) və çox kanallı

(24 və daha artıq kanallı) seysmik stansiyalardan istifadə olunur. Bizim apardığımız tədqiqat işləri çoxkanallı, yəni 24 kanallı seysmik kəşfiyyat cihazı ilə yerinə yetirilmişdir. Bu cihaz ABŞ-ın "Geometrics" şirkətinin istehsalı olan və mühəndisi-geoloji tədqiqatlar üçün nəzərdə tutulmuş GEODE-24 seysmoqrafıdır (şək.1).



Şəkil 1. GEODE-24 seysmoqrafı və portativ kompyuter

Tədqiqat sahələrində elastik rəqslərin yaradılmasında ən geniş yayılmış üsullardan biri zərbə üsuludur. Bu üsulda gürz və yaxud da ağır çəkicdən istifadə olunur. İstifadə olunacaq istənilən üsul faydalı dalğa yazılarının alınmasına imkan verməlidir. Ağır çəkiyə malik çəkic sadə mühəndisi-geoloji şəraitə malik və kiçik dərinlikləri tədqiq edən zaman məqsədyönlü sayılır. Bu zaman çəkic vasitəsilə zərbənin daha da effektli olması üçün onun maksimal mümkün və münasib zərbə sahəsi olmalıdır. Boş və zəif sementliliyə malik qruntlarda ağac və ya metal lövhələrdən istifadə olunmalıdır. Bu lövhələrin sahəsi çəkicin zərbə sahəsindən azı 2 dəfə böyük olmalıdır. Tədqiqatlarımız zamanı istifadə olunan çəkic 11 kq çəkiyə malikdir, eyni zamanda zərbənin daha effektli alınması məqsədilə alüminium lövhədən də istifadə olunmuşdur (şək.2).

Şəkil 2. 11 kq-lıq gürz və alüminium lövhə

Seysmik kəşfiyyat işləri zamanı müxtəlif tezlikli seysmik qəbuledicilərdən istifadə edilir. Seysmik qəbuledicilərin təyinatı, torpağın mexaniki rəqslərini qəbul edib onu elektrik rəqslərinə çevirməkdir. Mühəndisi seysmik kəşfiyyat işləri zamanı tərəfimizdən 4 hs tezlikli şaquli seysmik qəbuledicilərdən istifadə olunur (şək. 3).

Şəkil 3. Seysmik qəbuledici və seysmik hörük

Seysmik qəbuledicilər qruntla yaxşı təmasda olmalıdır. Səs və küləyin təsirindən səs-küylər olarsa seysmik qəbuledicilərі 0.2-0.3 m dərinlikli çala qazılıb üzəri isə yumşaq torpaqla örtülür.
Seysmik qəbuledicilərin maksimal hissetmə oxu, yəni şaquli oxu 15°-dən artıq olmamalıdır.
Seysmik kəşfiyyat hörüyünün təyinatı, seysmik qəbuledicilərdən alınan siqnalların seysmik stansiyaya çatdırılmasından ibarətdir. Seysmik kəşfiyyat işlərində istifadə ediləcək hörüyün uzunluğu 115 m-dir. Bu hörüyün üzərində seysmik qəbuledicilər arası məsafə 5 m-dir. Tədqiqat sahəsinin ölçülərindən asılı olaraq kanalların sayını və seysmik qəbuledicilər arası məsafəni azaltmaq mümkündür (şək.4).

Şəkil 4. Seysmik kəşfiyyat hörüyü

Müşahidə şəbəkələrinin yerləşməsi iş tapşırığından, yerüstü və yeraltı şəraitdən asılı olaraq seçilir. Müxtəlif müşahidə sistemlərindən istifadə olunur. Müşahidə sistemləri əlverişli izləmə şəraitində bütün faydalı dalğaları izləməyə imkan verməlidir. Müşahidə sistemləri dedikdə, tədqiqat zamanı istifadə olunacaq süni dalğa mənbələrinin və qəbuledidcilərin yerləşməsi sxemi başa düşülür. Əgər dalğa mənbələri və qəbuledicilər bir düz xətt üzərində yerləşərsə, onda belə profil uzununa profil adlanır. Əgər dalğa mənbəyinə endirilmiş perpendikulyar profil üzərinə düşərsə, onda belə profilə eninə profil deyilir. Bizim tədqiqatlar zamanı uzununa profil üzrə müşahidə sistemi yaradılmışdır (şək.5).



Şəkil 5. Seysmik kəşfiyyat hörüyünün və GEODE-24 seysmoqrafının sahədə yerləşmə sxemi.

Müşahidə sistemlərini tədqiqat sahəsində (və yaxud da yaxınlığında) olan qazma quyuları ilə əlaqələndirmək lazımdır. Əgər tədqiqatlar sahəvi profillər üzrə yerinə yetirilərsə o zaman profil şəbəkəsinə, bilavasitə qazma quyularından keçən xüsusi profillər əlavə edilməli və profil üzrə işləri relyefdən asılı olmayaraq düz xətt üzrə aparmaq məsləhət görülür.
Müasir inşaat norma və qaydaları bina və qurğuların əsasının tədqiqi məqsədilə eninə dalğa sürətlərinin öyrənilməsini vacib sayır. Eninə dalğa sürətləri bina və qurğuların zəlzələyə davamlı hesablanması məqsədilə yerli qurunt şəraitinin müəyyən edilməsində xüsusi əhəmiyyətə malikdir. Bu məsələnin həll edilməsi məqsədilə Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 687-ci məhəllədə mühəndisi-seysmik kəşfiyyat işləri yerinə yetirilmişdir (şəkil 6).

Şəkil 6. Tədqiqat sahəsində iş zamanı.

Tədqiqat zamanı seysmik kəşfiyyatın Sınan Mikrotremor (Sınan Mikroseysmlər) üsulundan istifadə olunmuşdur (Loui, 2001). Üsul tədqiqat sahəsində eninə dalğa kəsilişini hesablamaq üçün sübut olunmuş seysmik metod sayılır, maddi və zaman baxımından sərfəli bir metoddur. Bu üsul bilavasitə səs-küylü urbanizasiya sahələrində faydalı seysmik məlumatları əldə etməyə imkan verir. Sınan Mikrotremor (Sınan Mikroseysmlər) üsulunda qeyd olunmuş dalğa sahəsinin faza məlumatlarından istifadə olunur.
Məlumatların alınması və toplanması üsulu 30 saniyəlik 12 mikrotitrəyiş yazılarının əldə olunmasından ibarətdir. Alınmış yazıların çevirilmiş dalğa sahəsi eninə dalğaların dispersiya əyrisini göstərir.
Çevrilmiş dalğa sahəsindən eninə dalğaların dispersiya əyrisi seçilir və sonra bu seçimlər yeraltı eninə dalğaların sürətlər profilini hesablamaq üçün modelləşdirilmişdir.
Tədqiqat sahəsində yazıların əldə olunması məqsədilə Seismodule Controller proqram paketindən, alınmış yazı nəticələrinin emalı zamanı isə ReMiVspect4.0 və ReMiDisper4.0 kimi proqram təminatlarından istifadə olunmuşdur.
Sahədə hər birinin uzunluğu 55 m olan 2 yerüstü seysmik profil üzrə tədqiqat işləri yerinə yetirilmişdir. Görülən işlərin ümumi həcmi 110 xətti metr təşkil etmişdir. 1-ciu profil ərazidə qazılmış 20, 23 və 26 saylı, 2-ci profil isə 22 və 25 saylı geoloji kəşfiyyat quyularına bağlanmışdır (şək. 7).

Şəkil 7. Tədqiqat sahəsində seysmik profilin yerləşməsi sxemi.
Ərazidə açılmış 1-ci seysmik profil üzrə eninə dalğanın 1 və 2 ölçülü sürət kəsilişləri aşağıda verilmişdir (şək.8, 9):



Şəkil 8.1-ci seysmik profil üzrə eninə dalğanın 1 ölçülü sürət kəsilişi



Şəkil 9. 1-ci seysmik profil üzrə eninə dalğanın 2 ölçülü sürət kəsilişi

Azərbaycan ərazisi seysmik zona olduğu üçün bina və qurğuların inşaasında Azərbaycan Dövlət Tikinti Norma və Qaydalarının (AzDTN 2.3-1) "Seysmik Rayonlarda Tikinti" sənədindən istifadə olunur. Son onilliklərə qədər respublika ərazisində tikinti meydançasında qruntların qeyri-bircins olduğu halda, onların seysmik xüsusiyyətlərə görə sinfləşdirilməsi 10 m dərinliyə əsasən müəyyən-ləşdirilirdi. Başqa sözlə, ərazinin seysmik effektinə 10 m dərinlikdə yerləşən geoloji kəsilişin təsir etməsi qəbul edilirdi.

Lakin, bir çox xarici alimlər, məsələn, Borcherdt və başqaları (1994), Dobry və başqaları (2000), Shoji və başqaları (2005) qeyd etmişlər ki, seysmik dalğa sürətinin daha çox dəyişməsinə yer səthinə yaxın (yer səthindən 30 m dərinliyə qədər) allyuvial qatlar təsir edir. Bu baxımdan dünyanın bir çox inkişaf etmiş ölkələrinin tikinti normativlərində Vs30 orta-yəni, 30 metr dərinliyə qədər eninə dalğa sürətinin orta qiyməti parametrindən istifadə olunmağa başlandı.

2011-ci ildən Azərbaycan Dövlət Tikinti Norma və Qaydalarının (AzDTN 2.3-1) "Seysmik Rayonlarda Tikinti" bölməsində də bu beynəlxalq təcrübə nəzərə alınaraq orta Vs30 parametrinin təyin olunması tələb olunur.

Odur ki, tədqiq olunan sahədə 30 m dərinliyə qədər orta eninə dalğa sürəti parametri hesablanmışdır. Orta eninə dalğa sürəti parametri seysmik kəsiliş əsasında aşağıdakı düstur ilə hesablanır (1):

$$V_{s30} = \frac{30}{\sum_{i=1,N} \frac{h_i}{V_i}} \quad 1)$$

burada, h_i və V_i -30 m dərinliyə qədər layların qalınlıqları və onlara müvafiq eninə dalğa sürətləridir. Hesablama əsasında alırıq:

V_{s30}= 382 m/s.

2-ci seysmik profil üzrə eninə dalğanın 1 və 2 ölçülü sürət kəsilişləri aşağıda verilmişdir (şək.10, 11):



Şəkil 10. 2-ci seysmik profil üzrə eninə dalğanın 1 ölçülü sürət kəsilişi



Şəkil 11. Seysmik profil üzrə eninə dalğanın 2 ölçülü sürət kəsilişi

2-ci seysmik profil üzrə eninə dalğanın 30 m dərinliyə qədər orta eninə dalğa sürəti parametri də hesablanmış və V_{s30}= 382 m/s olması müəyyən olunmuşdur.

NƏTICƏ

- sahədə hər iki profil üzrə seysmik kəsilişin qeyri-bircins laylardan ibarət olması və hər iki profildə 30 m dərinliyə qədər orta eninə dalğa sürəti parametrinin V_{s30}= 382 m/s olması müəyyən olunmuşdur.
- seysmik xüsusiyyətlərinə görə ərazidəki qruntların II sinfə aid edilib allyuvial çöküntülərdən təşkil olunması müəyyən edilmiş və zəlzələ zamanı aşağı eninə dalğa sürətinə görə sahədə seysmik effektin güclənməsi ehtimal edilir.

ƏDƏBIYYAT SIYAHISI

1. Borcherdt, R.D., Estimates of Site-dependent Response Spectra for Design Methodology and Justification. (**Jurnal məqaləsi**) Earthq. Spectra 11, 1994, p.173.
2. Dobry, R., Borcherdt, R.D., Crouse, C.B., Idriss, I.M., Joyner, W.B., Martin, G., Power, M.S., Rinne, E.E., Seed, R.B., New site coefficients and site classification system used in recent building seismic code provisions. (**Jurnal məqaləsi**) Earthq. Spectra 16, 2000, p.41– 67.
3. Louie, J, N., Faster, better: Shear-wave velocity to 100 meters depth from refraction microtremor arrays: (**Jurnal məqaləsi**) Bulletin of the Seismological Society of America, v. 91, 2001, pp. 347-364.
4. Shoji, Y., Tanii, K., Kamiyama, M. A study on the duration and amplitude characteristics of earthquake ground motions. (**Jurnal məqaləsi**) Soil Dynamics and Earthquake Engineering. 25, 2005, 505-512.

SUSTAINABLE DEVELOPMENT AND CONNECTION BETWEEN THE URBAN PLANNING AND LANDSCAPE ENVIRONMENT OF BAKU

AQİL QƏDİM OĞLU KAZIMOV
Bakı Engineering University
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
akazimov1@beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

Abstract

This chapter aims to present landscape and urban planning as systematic tools for renewed urban intervention that offer opportunities for the physical and spatial reconstruction of urban landscapes and a better quality of life. The current proposal considers the landscape both as a system and as an active part of the entire urban planning process. In addition to social participation, recognition and analysis of various landscape systems, including urban, biophysical and socio-cultural relations, play a key role in this process and can be the basis for the development of proposal-oriented systematic planning guidelines. system of open spaces as a structural element of urban occupation.

Keywords: Urban, landscaping, population, sustainable, rural

XÜLASƏ

Urbanizasiya insanlıq tarixinin yaranış dövrünə daynır və məskunlaşmanın böyüməsi prosesidir və əhalinin get-gedə daha çox faizinin şəhərlərdə yaşamağa başlaması ilə nəticələnir. İnsan populyasiyaları zaman keçdikcə artmağa meyllidir. Daha çox insan sayı artdıqca kiçik qruplar yarandı və bu qruplar bir araya gələrək daha böyük qruplar yaratdılar və əmək bölgüsü ilə bağlı kənd təsərrüfatının meydana çıxması ilə kiçik oturaq icmalar yaratmaq üçün səbəblər tapdılar. Bu yaşayış məntəqələrinin az bir hissəsi böyüyərək indi şəhər adlandırdığımız ərazilərə çevrildi. Bu cür artım tez-tez əməyin təşkilinin bir üsulundan digərinə keçidi ilə uyğun gəlir.

AÇAR SÖZLƏR: Şəhər, landşaft, əhali, davamlılıq, kənd

INTRODUCTION

Sustainable development and connection between Baku's urban planning and landscape environment.

Landscape architecture is a profession that systematically analyzes the laws of ecology, planning and design, combines art, science, engineering and technology, along with the protection and management of man and his physical environment, natural and cultural resources. In our modern world, landscape architecture is the backbone of urban planning. In some countries, it is generally not possible to start any construction without landscape architecture. The biggest reason for this is the ability to repair damage to the ecosystem during the construction process with landscape architecture.

If we look at a brief history, we can say that the concept of landscape architecture first came to the fore in 1863, when F.L. Olmsted and C. Vaux designed the Central Park in New York in the United States. Since then, landscape architecture has continued to compete with other environmental professionals (architects, engineers, etc.). At present, it is simply impossible to imagine any architectural structure without landscape architecture.

In general, the purpose of landscape architecture is to shape the construction of open spaces as a specific area of urban planning.

The geographical relief of the city, which formed the planning structure of Baku, as well as landscape architecture, and today is famous in the world for this landscape.

As landscape architecture changes according to the relief and geographical location of the land, it takes on a visually different appearance, which adapts to people's use of it from time to time and also changes the appearance of the city. There are also diametrically and horizontally located landscapes of greenery in Baku, which are directly related to the main entrances and exits of Baku.

It is clear that as the elements of urban planning increase in the modernization of Baku from time to time, the elements of large-scale landscape architecture must be connected in the composition of the relief elements of the city's natural landscape and have the same visual, artistic and aesthetic effect.

To this end, the measures and proposals taken to address the current problems of landscape architecture in Baku should be carried out in parallel with the issues of urban planning in Baku. However, the difference is that if these two issues are interchangeable, they must be different in design, scale and approach.

Thus, it is important to plan and use all components of landscape architecture, both in Baku and in its territory, the only difference is that the relationship to these components is different, the scale differs and, most importantly, without compromising the image of the historical planning structure of Baku. The ability of landscape and urban planning specialists alone is not enough to achieve its active use, it is very important to carry out engineering measures in a very rational way, and in some cases to reveal them. In today's situation, the planned scheme of landscape architecture and urban planning components is irrational in almost every respect as a result of the proper use of natural conditions. Therefore, the form of organization should be chosen in accordance with the requirements of each situation, in particular, it can be applied to the environment of Baku and the volume of space, because a comprehensive approach is needed to actively use and at the same time protect this environment. Here, its geographical location, relief features, climate with special ecological value and, most importantly, the preservation of material architectural monuments that attract tourists, make the city rich in terms of urban planning and landscape architecture and facilitate lifestyle.

As Baku's urban planning expanded, the components of landscape architecture (water, relief, greenery - because of their large scale) mixed with these components in various ways and created a perceived landscape architecture from time to time. For example, the perception of the slope of the natural Gulf landscape from the sea as a panorama in the modern life of the city creates the illusion that this place is quite an urban environment.

Baku has always been rich in natural components. The leading factors related to these components - relief, climate, water and natural greenery - have many internal capabilities, and experience shows that they simply need to be identified and reconciled with new forms. This, in turn, leads to the city having more opportunities from the point of view of urban planning.

Assessing the factors influencing the development of mutual and sustainable connection between the landscape architecture and urban planning of Baku, it became clear that some of them play a leading role, while others play a supporting role. As the components of landscape architecture take on a natural and artificial arrangement, they have an impact on the development of the city and take on different values. In the former - the relief is leading, water (underground canals - system) and greenery, although auxiliary, are affected by the activity of the former. Artificial buildings, retaining walls, small forms, coverings, various art workshops, shops, exhibition halls, shops, etc.

Pic 1. Urban planning and landscape planning of Baku until 2035

In accordance with the agreement between the Government of the Republic of Azerbaijan and the International Bank for Reconstruction and Development, the Greater Baku Regional Development Plan (282,322 ha), the Special Baku Territorial Zoning Plan (33,333 ha) and finally the entire Baku The development of the Baku Territorial Zoning Plan / Master Plan (247,641 ha) covering the territory of Baku has already been completed.

The goal of the project is to achieve a balance in the development of the city with the development of each of the planning zones, to ensure the rational distribution of new housing, to use advanced international experience in solving employment problems.

As part of improving the environment, it is planned to increase the area of green space per capita, which currently stands at 12 m3, to 30 m3 in the future. For this purpose, the expansion of green areas and parks, the use of lakes, especially around the Great Shor and Zykh lakes for recreational purposes, the construction of an ecological corridor between the Great Shor Lake and the Caspian Sea (475 ha), the relevant Coastal National Extending the park by 70-100 m to the sea and extending it to the territory of Zykh settlement, etc. such measures are envisaged.

Taking into account the favorable geographical position, climate, unique cultural heritage, spiritual values, unique national architectural features of Mashtaga and surrounding settlements, and in order to protect them, the area will be developed in accordance with the concept of the Pacific city. This model, which encourages people to lead a quiet lifestyle, was introduced in Italy in the early 1990s and has been used in the United Kingdom, Switzerland, France and other countries. spread throughout Europe, including. Such development of Mashtaga and surrounding settlements will encourage the creation of zones away from urban stress in the future.

Pic 2. Reconciliation of the concept of urban planning and landscape of modern Baku

The sustainable development and connection between the urban planning and the landscape of modern Baku creates a mutual harmony, which attracts the attention of the city population, visitors and foreign tourists and contributes to the sustainable development of the city and modern world urban architecture.

CONCLUSION

Land is sometimes used as equivalent to countryside; however, the city also consists of land plots.

The activities taking place in each plot are, together with the activities taking place in other plots, shaping the urban landscape. The urban landscape is what we have around us, all individuals in their own way. It is shaped from private initiatives on single land plots and from authoritative initiatives on public land, such as streets, squares, parks and land reserves (land usually rented out, controlled by
the rentiers as if it was private, but kept by, e.g., a municipality to give action space later). Even if few should argue against these descriptions of urban land and landscape, they are not commonly used as important assets, but more or less taken for granted. Land is owned. Landscape is around us.

The concept land use is crucial in a discussion of land and landscape. We can argue that landscapes are created or changed by land use, thus, how we use the land should determine what landscape we

have. This is sometimes true, especially for very large estates. One estate, with a certain land use, can determine the landscape if it is big enough. It is, however, much more common that activities on many estates, more or less aware of each other, become a landscape, perceived by people from a position in the public space, or from their owned or rented land.

International cooperation in the field of urban planning activities in the Republic of Azerbaijan is carried out in accordance with interstate agreements to which the Republic of Azerbaijan is a party.

REFERENCES

1. On the basics of urban planning Law of the Republic of Azerbaijan.
2. Azizov A.M City and environment (frame concept in Azerbaijan) Urbanism, № 9, OUA, Baku, MVM, 2006, pp.16–18.
3. Hasanova AA Landscape architecture of Azerbaijan. Baku: Abilov, Zeynalov and his sons Publishing House of Printing House, 2006, 252 p.
4. State planning norms and rules for cities, towns and villages planning and construction of settlements landscaping. AzDTN 2.6 – 1
5. Urban development in Baku in the early 19th and 20th centuries. Shamil Fatullayev.
6. Авдотьин Л.Н., Лежава И.Г., Смоляр И.М. Градостроительноепроектирование (учебник для вузов– всерии Архитектура).– М.:, Стройиздат,1989.

LANKARAN DEFENSE STRUCTURES

AYSEL HÜSEYNZADƏ AMİL
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
aysel.huseynzade2015@gmail.com
XIRDALAN,AZƏRBAYCAN

Abstract

The article deals with the defense of the buildings in the territory of Lankaran and the lighthouse monument in the southern part of the country, which is distinguished by the originality of local architecture, as well as the unique buildings located in this area. In this article the issues of history of Lankaran,the structure and originality of the monuments, the role of architecture in sosiety, and local culture, the impact of architecture in the economy of the area, mentioned above are investigated . Although special research has been conducted on this topic, it has not been fully investigated.

Keywords: Fortress, defensive structure, rare building

XÜLASƏ

Məqalədə Lənkəran ərazisində tikililərin və ölkənin cənub bölgəsində yerli memarlığın özünəməxsusluğu ilə seçilən mayak abidəsinin, eləcə də bu ərazidə yerləşən nadir tikililərin müdafiəsindən bəhs edilir. Bu məqalədə yuxarıda qeyd olunan Lənkəranın tarixi, abidələrinin quruluşu və özünəməxsusluğu, memarlığın cəmiyyətdə və yerli mədəniyyətdə rolu, memarlığın ərazinin iqtisadiyyatına təsiri məsələləri araşdırılır. Bu mövzuda xüsusi araşdırmalar aparılsa da, tam araşdırılmamışdır.

AÇAR SÖZLƏR: Qala, müdafiə tikili, nadir tikili

GİRİŞ

Tarixi abidələri ilə çox zəngin memarlığa sahib olan Azərbaycan hər zonası memarlıq üslubuna, ayrı bir milli - mentalitetə və memarlıq elementlərinə sahibdir . Hər bir zonanın özünə xas memarlıq üslubu və zonanı xarakterizə edən memarlıq elementləri vardır. Hər biri relyefinə, təbii iqliminə, yerləşdiyi ərazinin sosial - iqtisadi tələblərinə uyğun formalaşmışdır. Bu ərazilər, yaşayış zonaları, guşələr, özünün funksional təyinatlarına və memarlıq mahiyyətinə görə və milli mədəniyyətimizin, memarlıq irsimizin hər zaman qorunub saxlanılmasına xüsusi diqqət göstərilir.

Azərbaycanın tarixi çox qədim, ən gözəl guşələrindən biri olan Lənkəran, respublikanın cənub-şərqində əlverişli fiziki coğrafi şərait malik ərazidə yerləşir. Bu ərazi Azərbaycan daxilində mövcud olan beş təbii coğrafi vilayətlərdən biridir. Tarixi çox qədim olan bu zona XVII əsrlər də " Lənkaran "adı altında formalaşır.

Təkcə yaşayış zonası olaraq deyil eyni zamanda, dəmirçilik, dulusçuluq və bir çox sənət növləri qədim işçilik sahələri geniş yayılmış, ticarət xanlığının sosial - iqtisadi inkişafında mühüm rol oynamışdır. İran, Türkiyə, Rusiya, Orta Asiya və Çinlə çox əhatəli və sürətlə inkişaf etmişdir.

Bol atmosfer yağıntıları ilə xüsusi olaraq seçilən, Lənkəran subtropik bölgəsi binaların mühüm hissələrində istifadə olunan zəngin ağac növləri ilə məşhur idi. Eyni ilə, Quba - Xaçmaz bölgəsində olduğu kimi, məhz burada da sifarişçinin maddi vəziyyətindən asılı olaraq bişmiş kərpic və çiy kərpic əsas tikinti materialı olaraq, istifadə edilirdi. Ölkəmizin cənub bölgəsində olan xalq yaşayış üslubu və bədii xüsusiyyətləri, özünəməxsusluğu ilə seçilir. Bu memarlıq və tarixi - mədəni abidələr, xüsusi memarlıq görünüşü yaratmaqla yanaşı , həm də çox peşəkar sənətkarlıqla tikilib. Müdafiə tikililəri əsasən Lənkəranın dəniz sahili, dağlıq ərazisində aşkarlanmışdır. Bu tikililər də, həmçinin Talış bölgəsinin xalq yaşayış arxitekturasını əks etdirir və özünə xas üslubu ilə seçilir. Bu kimi tikililər dağətəyi və dəniz sahili ərazilərdə üstünlük təşkil edirdi. Bunlardan günümüzə gəlib çıxmış Dairəvi Zindan qalası , Mayak və qalıqları mövcüd olan Bəlləbür qalası haqqında danışarıq . Hal-hazırda,onlar xüsusi və yerli əhəmiyyətli abidə olaraq dövlət tərəfindən mühafizə olunmaqdadır.

TƏDQİQAT METODU

VXIII əsrin 40 - 80-cı illərdə Lənkəran mayakının 1747 - 1786-cı illərdə inşa edildiyi düşünülür. Azərbaycanın Lənkəran şəhərinin şimal-şərqində yerləşən, fəaliyyətdə olan mayak, hündürlüyü 30,5 m olan bir tikilinin üzərində 2,9 metrlik fanarın quraşdırılması ilə meydana gəlmişdir. O dövrdə mayak və həbsxana binaları bir kompleks olaraq fəaliyyət göstərirdi. İki bina arasında gizli bir yol var. Fənərin bazasında xüsusi bir quyu var , kanal, həbsxana binasına tunel kimi yeraltı yol idi. Gəmi ilə həbs olunanlar mayakdan zindana aparıldı. Bu şəkildə iki nəfər sərbəst şəkildə yan-yana gəzə bilirdi. Kanalın yan divarlarına iki metrdən bir ayrı raflarda şam yandırmaq üçün şamlar yerinə saxsı nəlbəkilər qoyulurdu. Hər iki binanın hər mərtəbəsində 7 dairəvi otaq vardır ki, bu da hər iki binanın eyni məqsədlə tikildiyini bir daha sübut edir. 1869-cu ildə həbsxana ləğv edildi və şəhər rəhbərliyinin sərəncamına verildi. Şəhər rəhbərliyi minarənin və fənərin üst hissəsinə fənər yerləşdirmək üçün əlavə bir cihaz quraşdıraraq Xəzər Donanmasının hidroqrafik xidmətinə təhvil verdi. Hazırda Mayak hazırda Dövlət Təhlükəsizlik Xidmətinin himayəsindədir. Hazırda Mayaka giriş qadağandır və dövlət tərafindən xüsusi şəkildə qorunur.

1747-1786-cı illər Lənkəranın ən məşhur memarlıq abidələrindən biri də məhz Dairəvi (Zindan qalası)qaladır. Belə ki, bu qala 1747-1786-cı illərdə Lənkəran qalası ilə eyni vaxtda tikilmişdir. Qalanın peyki ikinci oxşar mayakdır. İran şahı Nadir şahın 1747-ci ildə Lənkərana gəldiyi və Səfəvilər nəslindən olan Seyid Abbas Nadir şahın fərmanı ilə Talış hakimi elan edildiyi deyilir. Elə həmin ildə bu qalanın möhkəmləndirilməsi üçün onun inşasına başlanıldı. Lakin Nadir şahın ölümündən sonra Seyid Abbas xan müstəqilliyini elan etdi və bu iki qala ortaq Lənkəran qala sisteminin hər iki tərəfində qalaya çevrildi. Lənkəran qalasının ümumi sahəsi belə, Bakı qalasından təxminən iki dəfə böyük idi. 1869-cu ilə qədər bu qala burada baş verən müharibələrdə müdafiə və dəstək rolunu oynadı. Rus qoşunlarının işğalından sonra ortaq qala divarları yıxıldı və hərbi qala dağıdıldı və bu möhtəşəm bina həbsxana kimi istifadə olunmağa başladı. [38] Məhkumların buraya gətirilənlərin məxfiliyini təmin edən zindan ilə mayak arasındakı gizli yeraltı keçid yolu ilə gətirildiyi və hətta məşhurlardan biri İosif Stalinin poçtu oğurlandıqdan sonra bir müddət həbsdə olduğu deyilir(Bax şəkil-1).

Şəkil-1

Lənkəranın şimal-şərq hissəsində yerləşəm məşhur abidələrdən biri də məhz Lənkəran mayakıdır. Mayakın şərq uzunluğu 38 dərəcə 46 dəqiqə və şimal enli 48 dərəcə 51 dəqiqə kəsişməsində yerləşir. Fənərin hündürlüyü fənər quraşdırılmasına qədər 30,5 m, fənərlə birlikdə 33,4 m-dir. Mayakın divarları 2 metr qalındır. Mayak 1957- ci ildə təmir edilmiş və böyük dairə dəmirlə örtülmüşdür 1969-cu ildə mayakın xidmətinin 100 illiyi qeyd olundu və qapısına aşağıdakı yazılı bürünc lövhə qoyuldu. Lakin ikinci bina (Zindan) uzun müddət həbsxana kimi istifadə edilmişdir. 2002-ci ilin əvvəlində mayakın divarları suvandı(Bax şəkil-2).

Şəkil-2

Burada yerləşən Bəlləbur qalası , orta əsr memarlığının nümunəsidir. Bu abidənin tarixi VIII-IX əsrlərə söykənir. Şəhərin qərbində Bəlləbur qalasının xarabaları var. Bu qalanın tikilməsində çay daşından və bişmiş qırmızı kərpicdən istifadə edilmişdir. Saxsı su kəməri boruları hələ də salamat qalmışdır. Qalanın qalıqları Lənkəran şəhərindən 9 km aralı Bəlləbur kəndi yaxınlığında yerləşir. Uca dağlar qoynunda salınmış bu qala təqribən bir hektar sahəni əhatə edir. Hündürlüyü 4-5 metr, eni 2metr olan qala divarları kvadrat formada olan (22 x 22 x 6 sm) qırmızı kərpicdən və çay daşından hörülüb. [18] Hər tərəfi dağ, ətrafı yaşayış məntəqələri ilə hüdudlanmış Bəlləburun yerləşdiyi ərazi böyük hərbi-strateji əhəmiyyətə malik imiş. Yerləşdiyi ərazi dağlıq ərazidir. Burada Bəlləbur qalası dağlıq ərazidə olan meşənin 76 metr yüksəkliyində yerləşir. Dağlıq ərazidə yerləşdiyi üçün qalaya dik yamac yol ilə çətinliklə olsa da, qalaya qalxmaq mümkün olur. Hal - hazırda bu qalanın çox az faizi torpaq üzündə qalmışdır. Qalanın üzərini şəkildə göründüyü kimi bitki örtüyü əhatələmişdir. Buradan qalanın üç tərəfini görmək mümkündür. Atmosfer çöküntüsündən abidənin hər tərəfində mamır görünür. Qalanın üzərindəki kərpic qopub düşmüşdür. [20] Rəvayətə görə qalanın içərisində VIII-IX əsrə aid qızıl vardır və bu yeddi başlı ilan tərəfindən qorunur. Qalanın ən uca yerində qüllə ucalmışdır və yerli əhali bu qalanı “ Boz qala ” adlandırır. Belə ki , VIII-XIV əsrlərdə böyük bir ərazinin hər bir tərəfi bu ərazidən diqqətdə saxlanılırmış. Bəlləbur həmçinin də füsunkar qala şəhəri imiş. Qalanın yerləşdiyi ərazidə saxsı su boruları olan məişət binalarının

qalıqları hələ də qalmaqdadır. Səidəli Kazımbəyoğlu əsərində Bəlləbur qalasını məhz belə canlandırmışdır: “ Lənkəran çayından ayrılan qolun yanındakı dağın üzərində, bu çayın yarım ağaclığında daşdan və kərpicdən inşa olunmuş uzun və qalın bir divar mövcuddur. Hal-hazırda həmin bu ərazini böyük meşə, divarların üstünü isə meşə bitkiləri əhatə edib. Meşə daxilində divarın hasarının izləri qalmaqdadır(Bax şəkil-3). [9]



Şəkil-3

Əsas araşdırılmış memari abidələrin qorunması səviyyəsinin cədvəli:

1. Bərpaya ehtiyacı olan abidələr,mutləq şəkildə restavrasiya olunmalı və eksplatasiyaya yararlı vəziyyətə gətirilməli.
2. Bərpaya ehtiyacı olan, müəyyən bir əsas hissələrin restavrasiya eksplatasının yararlı vəziyyətə gətirilməsi
3. Abidə qənaətbəxş vəziyyətdədir müəyyən hissələrin restav olunmalı rekreasiya zonası yaradılmalıdır.
4. Abidə yaxşı vəziyyətdədir,ayri-ayrı hissələrin restavrasiya işləri görülməlidir ki abidə qorunsun. Obyekt hal-hazırda işlək vəziyyətdədir
5. Abidə yaxın zamanda restav olunub və fəaliyyət göstərir
6. Abidə itirilib
7. Abidə tamamilə yenidən tikilib, yalnız ayrı-ayrı element və hissələr saxlanılıb
8. Abidənin vəziyyəti aydın deyil, yaxud muəyyənləşdirmək mumkün olmayıb

NƏTİCƏ

Bir sözlə, Lənkəranda Dairəvi Zindan qalası, Mayak və qalıqları mövcüd olan Bəlləbür qalası Azərbaycanın ən nadir arxitektura və bədii xüsusiyyətlər nümunələrindəndir. Məhz bu tikililər dövrünün çox gözəl sənətkarlığı ilə tikilmişdirlər. Qalanın və Mayakın özünəməxsus görkəmə və orijinallığa,üsluba malik olduğundan, eyni zamanda, Azərbaycanın yalnız Talış yaşayış məskənlərində mövcud olduğuna görə, tarixi abidə kimi də diqqəti çəkən tikililərdəndir. Dairəvi Zindan qalası,Mayak və qalıqları mövcüd olan Bəlləbür qalası, həmçinin özünəməxsusluğu ilə diqqət çəkməkdədir. Ölkə başçısı cənab İlham Əliyevin tarixi abidələrimizin mühafizəsi və bərpası ilə əlaqədar sərəncam və göstərişlərinə əsasən, rayonda ardıcıll tədbirlər görülür. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq , XVIIIəsrin yadigarı olan Dairəvi qalada - “ Zindan ” tarixi abidəsində hazırda bərpa-planlama işləri aparılır. Qeyd etmək lazımdır ki, hazırda Lənkəranda genişmiqyaslı tikinti-quruculuq,abadlıq işləri həyata keçirilir.Tikilən, yaradılan hər obyekt öz mahiyyəti,məzmunu etibarilə gələcək nəsillər üçün tarixi abidə nümunəsidir.Bütün bunlar isə Lənkəranda turizmin inkişafına geniş imkanlar açır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyarlı S. “ Azərbaycan tarixi üzrə qaynaqlar ”. Bakı, “Çıraq”, 2007
2. Hüseynbalaoğlu B. Talışlı M., “Lənkəran” 1990
3. Şəfiyev Ə. “Azərbaycanın cənub bölgəsinin tarix və mədəniyyət abidələri”. Bakı-2007.
4. Lənkəran ləmləri. Kəpəz TV, 29.03.2013.
5. “Söz” jurnalı, oktyabr 2016

ARCHITECTURE AND INTERIOR IN HISTORICAL RELIGIOUS BUILDINGS

XƏDİCƏ ƏHƏDOVA
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
xehedova@std.beu.edu.az XIRDALAN,AZƏRBAYCAN

AYSEL HÜSEYNZADƏ AMİL
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
aysel.huseynzade2015@gmail.com
XIRDALAN,AZƏRBAYCAN

Abstract

The article discusses the construction of interior design in Islamic architecture, its history and the general structure of such buildings. In general, Islamic Architecture has its own characteristics that have been formed together with cultures since ancient times. Muslims have created hundreds of unique architectural monuments, houses of worship, such as Masjid-e-Sharif, Al-Aqsa, Kazimiyah, Abbas Tomb, Salimiya, Masjid al-Haram, Ali Tomb, which are the highest monuments of Islamic architecture. Islamic architectural monuments can be found on a large scale in Azerbaijan. For example: Maiden's Tower, Bibiheybat Mosque, Mahammad Mosque, etc**.**

Keywords: Islamic history, religious buildings, interior in Islam;

XÜLASƏ

Məqalədə İslam memarlığında İnteryer dizaynını qurulması, onun tarixi və bu kimi tikililərin ümumi quruluşundan bəhs edir. Ümumiyyətlə İslam Memarlığını özünəməxsus xüsussiyətləri vardırki keçmiş dövürlərdən bu yana mədəniyyətlərlə birlikdə formalaşmışdır. Müsəlmanlar Məscidi-Şərif, Əl-Əqsa, Kazimiyyə, Abbas türbəsi, Səlimiyyə, Məscidül-Həram, Əli türbəsi kimi bənzərsiz yüzlərlə memarlıq abidələri, ibadət evi, yaratmışlar ki, bunlar da İslam memarlığının uca abidələridir. Azərbaycanda islam memarlıq abidələrinə geniş miqyasda rast gəlmək olar. Məsələn: Qız Qalası, Bibiheybət Məscidi Məhənməd məscidi və s

AÇAR SÖZLƏR: İslam tarixi, dini tikililər, islamda interyer;

GİRİŞ

Ən qədim dövrlərdən memarlıq abidələrinin inşası üçün böyük icraçılar birliyi və mürəkkəb iş təşkili tələb edilirdi. Bu zaman birliyə yüksək ixtisaslı şəxslər – memarlar və mühəndislərlə yanaşı, müxtəlif texniki icraçılar (sex fəhlələri), ümumiyyətlə, işçi qüvvəsi lazım idi. Əlavə etmək lazımdır ki, tikintidə çox vaxt heyvan qüvvəsindən də geniş istifadə edilirdi. Hətta Osmanlı hökmdarı Sultan Süleyman Qanuni Sultaniyyə məscid-universitetini tikdirərkən yük daşıyan heyvanlar üçün bir cədvəl tutaraq onların yem və istirahətlərini təmin etmişdi. Bu qaydalar daxilində heyvanların da halları nəzərə alınmışdı. İnşaat işlərinin yerinə yetirilməsinin göstərilən birliyi ixtisaslaşdırılmış tətbiqçi və əmək bölgüsü onun daha keyfiyyətlə yerinə yetirilməsinə səbəb olurdu. İslam abidələrinin tikintisində memar, bənna, usta, bəndkir, nəqqaş və s. sənətkarlar iştirak edirdilər.

11-ci əsrin ikinci yarısı və 12-ci əsrdə aparılan geniş tikinti işləri Azərbaycan memarlığının yeni bina növləri (mədrəsə, qülləvari türbə), konstruktiv fəndlər (ikiqatlı örtük, mərkəzi dayaq sütunu), quruluş elementləri (silindrik minarə, baştağ), bəzək vasitələri (həndəsi naxış, şirəli kərpic, bloklarla) və sairlə zənginləşirdi. Bu zaman orta əsr Azərbaycan memarlığı üçün ümumi üslub sistemi də formalaşırdı.

TƏDQİQAT METODU

İslam dünyasının hər bir bölgəsinin memarlığı – Səudiyyə Ərəbistanın, İraqın, Türkiyənin, İranın, Azərbaycanın, Suriyanın, Fələstinin, Misirin, Məqribin, Cənubi İspaniyanın yerli köklərindən yaranırdı. Hər bir islam ölkələrinin özünə məxsus xüsusiyyətləri olmuşdur. Ən məhşur İslam memarlığı abidələri Əməvilər məscidi (Dəməşq), Qübbə-us-Səhra, Əl-Əqsa (Qüds), Böyük came (Kayruan, Tunis), Göy məscid, Əlişah məscidi (Təbriz), Qütbiyyə və Həsən məscidləri (Mərakeş), Gəlan məscidi (Buxara), Cümə məscidi (İsfahan), Süleymaniyyə, Səlimiyyə məscidləri (İstanbul), Əl-Əzhər, Məhəmməd Əli məscidləri

(Qahirə), Kazimiyyə məscidi (Bağdad), İmam Rza məqbərə-məscidi (Məşhəd), Həzrəti Xızır məscidi (Səmərqənd), Azərbaycanda Bibiheybət, Şah İsmayıl, Sınıqqala məscidləri, Göy məscid, Şirvanşahlar sarayı kompleksi, Mərdəkan, Nardaran, və Ramanadakı qalalar və başqa sənət abidələri ərəb və digər ölkələrin İslam memarlığının nadir incilərindəndir. Azərbaycan memarlarının Yaxın Şərqin memarlıq tipologiyasının inkişafında, xüsusilə də aparıcı memarlıq tiplərinin formalaşmasında böyük xidmətləri olmuşdur. Dini memarlıqda bu xidmət özünü Təbrizdə Əlişah məscidi və Göy məscid kimi nadir memarlıq abidələrində göstərmişdir. Azərbaycanın möhtəşəm memarlıq abidələri barədə qısa da olsa məlumat:

Məhəmməd məscidi – 11-ci əsr Azərbaycan memarlıq abidəsi. Bakıda, İçəri şəhərdə yerləşən abidə bir-biri ilə bağlılığı olmayan məscid və minarədən ibarətdir. Məhəmməd məscidi 1078-ci ildə memar Məhəmməd Əbubəkr oğlu tərəfindən tikilmişdir. Bu onun bizə məlum olan yeganə əsəridir. Bu məscidin minarəsi Azərbaycan ərazisində salamat qalan minarələrin ən qocamanıdır. Məscidin şimal divarındakı kitabədə kompleksin tikilmə tarixi və memarın adı ilə yanaşı "ustad-rəis" sözləri də həkk edilmişdir. Məscidin minarəsi yuxarıya getdikcə daralan silindr şəklindədir. Minarənin hündürlüyü 20 m-dən artıqdır və daxilindən dolama pilləkənlə şərəfə hissəsinə yol qalxır. İçəri şəhər planının quruluşunda tutduğu mövqeyə görə bu minarədən müşahidə məntəqəsi kimi də istifadə olunmuşdur. Minarənin yuxarı hissəsini maşikul qurşağı əvəzinə iri stalaktitlər dövrəyə alır. Stalaktitlər burada bəzək elementi olmaqdan əlavə, həm də konstruktiv hissə əmələ gətirib daş balkonu saxlayır. Balkonaltı daşların üzərində dərin relyefli həndəsi ornamentlər həkk olunmuşdur. Yonulmuş daşdan tikilmiş Məhəmməd məscidi tək minarəsi, asimmetrik və yığcam quruluşu, bəzək azlığı ilə səciyyəvi Abşeron məscididir. Sınıq-qalada orta əsr Şirvan memarlıq məktəbinin üslub xüsusiyyətləri öz əksini tapmışdır

Qız qalası – Bakıda, İçəri şəhərdə ən möhtəşəm memarlıq abidələrindən biri. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun adı həkk edilmişdir; bu yazı Məsudu qalanın memarı hesab etməyə imkan verir.

Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Əhəng daşından tikilmiş qala nəhəng qaya üzərində salınmışdır. Abidənin hündürlüyü 28 m, diametri 16-16,5 m-dir. Divarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Bəzən bu çıxıntını kontrfors da adlandırırlar. Silindrik hissə daxildə səkkiz mərtəbəlidir.

Mərtəbələr yonma daşlardan hörülmüş günbəzlərlə örtülmüşdür. Mərtəbələrarası əlaqə qalanın cənub-şərq divarının içərisində düzəldilmiş pilləkənlər vasitəsilə saxlanılır. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. 1-ci mərtəbənin hünd. 3 m, qalan mərtəbələrin hünd. isə orta hesabla 2,5 m-dir. Qalanın yuxarı hissəsi

19-cu əsrin ortalarındakı təmirdən sonra indiki şəklə salınmışdır .Qız qalası iki hörgü sistemi ilə tikilmişdir. Birincisi 12 m hündürlüyədək olan hamar hissədir. İkinci hörgü sistemi isə 12 m-dən yuxarı hissədə tətbiq edilmişdir. Buradakı yonma daşların növbə ilə batıq və çıxıntı şəklində hörülməsi qalaya əzəmətli görkəm verir. Qalanın yuxarı hissəsində, divarın bir çox yerində bərkimiş suvaq qalıqları var. Hörgüdəki bu müxtəlifliyə əsaslanan bəzi tədqiqatçılar Qız qalasının aşağı hissəsinin 5-6-cı əsrlərdə tikildiyini və kitabənin sonradan səlcuq sultanı Mahmudun nəvəsi Məsudun adını əbədiləşdirmək üçün qala divarına qoydurduğunu ehtimal edirlər; qalanın qədim dini etiqadlarla əlaqədar olduğu, onun daha əvvəllər tikildiyi barədə də fikirlər var. Arxeoloji qazıntılara əsasən Qız qalasının orta əsrlərdə Bakı-Abşeron müdafiə sistemində mühüm rol oynadığını söyləmək olar.



Bibiheybət məscidi və ya Bibiheybət türbəsi – Bakının Şıx qəsəbəsində türbə. Rəvayətə görə, türbədə VII imam Museyi Kazımın qızı) Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. Mühacirət zamanı Hökümə xanım və onun qulamı Heybət Bakı şəhəri civarında, indiki Şıx ərazisində məskunlaşırlar. Heybət Hökümə xanımı "Bibi" adlandırdığı üçün İslam aləmində ona bəzən "Həzrəti Bibi" də deyirdilər. Orada tikilən məscid isə "Bibiheybət məscidi" adlanır. Onlar vəfat etdikdən sonra burada dəfn olunmuşlar. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 m-lik minarəsi olan məscid tikilmişdir. Məscid tikilib qurtardıqdan sonra onun ətrafında şeyxlər məskunlaşırlar. İslam dini cərəyanının üzvləri olan bu şeyxlərin şərəfinə həmin kənd Şıx (Şeyx) kəndi adlanmağa başlayır. Məscidin cənub divarında memar Mahmud Sə'd oğlunun və Şirvanşah Fərruxzadın adları olan ərəbcə kitabələr olmuşdur. Buna əsasən, məscidin 13-cü əsrin sonunda tikildiyi ehtimal edilir. Belə güman etmək olar ki, məbəd inşa olunan vaxt o qədər də böyük olmamışdır. Təəssüf ki, məscidin ilkin tam görkəmini bərpa etmək üçün heç bir mənbə yoxdur. 20-ci əsrin əvvəllərində Bibiheybət məscidində yenidənqurma işləri görülməyə başlanmışdır.



Dünya miqyasında istər möhtəşəmliyinə, istərsə də memarlıq və bəzək işlərinə görə bunlar əsl memarlıq abidələrindəndir. Əməvilər məscidi , Qübbə-us-Səhra, Əl-Əqsa , Böyük came , Göy məscid, Əlişah məscidi , Qütbiyyə və Həsən məscidləri , Gələn məscidi , Səlimiyyə məscidləri , Əl-Əzhər, Məhəmməd Əli məscidləri, İmam Rza məqbərə-məscidi və başqa sənət abidələri ərəb və digər ölkələrin İslam memarlığının nadir incilərindəndir.

Kəbə (Əl-Kəbə) və ya Həcərül-Əs-vəd (Qara daş – qiblə) – müsəlmanların Məkkədə müqəddəs məbədidir. Ərəbcə "Əl-Kəbə" sözünün hərfi mənası "kub" deməkdir. Hündürlüyü 15 m, uzunluğu 13 m, eni 12 m-dir. Yastı damdan və kubabənzər binadan ibarət olan Kəbə boz daşdan tikilmiş, sütun larla əhatə olunmuşdur. Məşhur "Qara daş" Kəbədədir. Kəbənin üzəri "kisvah" adlanan, qızıl saplarla işlənmiş ipək parça ilə örtülür. Bu örtük hər il həcc mövsümündə yenisi ilə əvəz olunur. Kisvah 658 m² bir sahəni örtür

və onun toxunulmasına 670 kiloqram xalis ipək işlədilir. Onun üzərindəki naxışların vurulması üçün isə 15 kiloqram qızıl saplardan istifadə olunur. Bu naxışlarla ipəyin üzərinə şəhadət kəliməsi və Quran ayələri yazılır. Bu örtük 47 hissədən ibarətdir. Bu örtük Kəbənin üzərinə örtülür və yerə mis halqalarla bərkidilir. Onun düzəldilməsi təqribən 4.5 milyon ABŞ dollarına başa gəlir.

Kəbənin cənub-qərb divarının qabağında hündürlüyü 90 sm və eni 1,5 m olan yarım dairə şəkilli, ağ mərmərdən tikilən divar var. Bu ərazi "Hatim" adlanır ve Kəbənin bir parçası hesab olunduğu üçün, təvaf zamanı oraya daxil olunmasına icazə verilmir.

Kəbənin qapısı yerdən 2 m hündürlükdə şimal-şərq divarında yerləşir. Oraya qalxmaq üçün təkərlər üzərində quraşdırılan taxta pilləkəndən istifadə olunur. Bu pilləkən adətən məsciddə, arka formalı Bəni Şeybə qapısı ilə Zəm-zəm quyusunun arasında saxlanılır. Kəbənin döşəməsi qranitdəndir. Divarlar içəri üzdən yarıya qədər Quran ayələri ilə bəzədilən qranitdən, yarıdan yuxarı isə üzərində qızıl saplarla Quran ayələri işlənilən yaşıl parçadan ibarətdir.

Kəbənin planı, yuxarıdan görünüş:



NƏTİCƏ

İslam Memarlıq abidələrinin özünə məxsusluq xüsusiyyətləri vardır. Bunların bir çoxunu məhşur memarlıq abidələrinin haqqında danışarkən vurğuladım. Hər bir islam ölkələrinin özünə məxsus xüsusiyyətləri olmuşdur. Ən məhşur İslam memarlığı abidələri , Qübbə-us-Səhra, Əl-Əqsa, Böyük came (Kayruan, Tunis), Göy məscid, Gəlan məscidi (Buxara), Cümə məscidi (İsfahan), Süleymaniyyə, Səlimiyyə məscidləri , Əl-Əzhər, Məhəmməd Əli məscidləri (Qahirə), İmam Rza məqbərə-məscidi (Məşhəd), Azərbaycanda Bibiheybət, Şah İsmayıl, Sınıqqala məscidləri, Göy məscid, Şirvanşahlar sarayı kompleksi, Mərdəkan, Nardaran, və Ramanadakı qalalar və başqa sənət abidələri ərəb və digər ölkələrin İslam memarlığının nadir incilərindəndir.Məqalədə xüsusi ilə Bibiheybət məscidi, Qız Qalası və Məhəmməd Məscidi haqqında ətraflı danışılıb.

ƏDƏBİYYAT

1. İşlam memarlığı və İnşaat Arif Xanlar oğlu Abasov,Elçin Arif oğlu Abasov ,Elmira Novruz qızı Hüseynova
2. İslam, tarix, fəlsəfə, ibadətlər. Bakı, “Elm”, 1994
3. İmran Cəfərzadə. Əcəmi ilk Azərbaycan memarlıq məktəbinin banisidir. “İqtisadiyyat” qəzeti, 4- 10 oktyabr, 1999

WATER POLLUTİON

EMİL RAMİN OĞLU ƏLİYEV
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
eeliyev24@std.beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

AQİL QƏDİM OĞLU KAZIMOV
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
akazimov1@beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

Abstract

This article discusses the importance of water and the pollution of nature. In particular, the pollution of nature, especially water, as a result of carelessness in the disposal of waste products used in our daily lives. Emphasizing that the demand for water depends on the increase in the number of people, this article addresses the issues that cause water pollution in the industrial process. It also addresses water pollution and wastewater treatment costs.

Key words : industrial wastes; atmospheric precipitation; bacteriology in waters; urbanization

XÜLASƏ

Bu məqalədə suyun əhəmiyyətindən və təbiətin çirlənməsindən bəhs edir. Xüsusən də gündəlik həyatımızda istifadə olunan tullantı məhsularının aradan qaldırılmasına olan qarşı diqqətsizlik nəticəsində təbiətin, xüsusilə də, suyun çirkləndirilməsindən bəhs olunmuşdur. Suya olan tələbatın insanların sayının artmasından asılı olduğunu vurğulayan bu məqalədə sənaye prosesində suyun çirklənməsinə səbəb olan məsələlərə toxunulur. Burada həmçinin suyun çirklənməsi və çirklənmiş suyun təmizlənməsi xərclərinə də toxunulur.

AÇAR SÖZLƏR : sənaye tullantıları; atmosfer yağıntıları; sularda baktrologiya; urbanizasiya

GİRİŞ

Planetimiz əsasən sudan ibarətdir . Su ekosistemləri Yer səthinin üçdə ikisindən çoxunu əhatə edir. Dünyadakı bütün həyat, bildiyimiz kimi sağ qalmaq üçün suya güvənir. Yer kürəsinin əhalisi artmaqda davam etdikcə, insanlar planetin su ehtiyatlarına getdikcə artan təzyiq göstərirlər.

Suyun keyfiyyətinin aşağı olması suyun çirklənməsi deməkdir. Biz bilirik ki, çirklənmə insan problemidir , çünki bu, planetin tarixində nisbətən yeni bir inkişafdır: 19-cu əsr Sənaye İnqilabına qədər insanlar ətraf mühitlə daha çox harmoniyada yaşayırdılar. Sənayeləşmə bütün dünyaya yayıldıqca, çirklənmə problemi də onunla birlikdə yayıldı. Yer kürəsinin əhalisi daha az olanda heç kim çirklənmənin ciddi problem yaradacağına inanmazdı.

Ancaq suyun çirklənməsi həyatımız üçün çox real bir təhdiddir. Əksər alimlər və siyasətçilər tərəfindən dünyanın ən böyük sağlamlıq riski sayılır və yalnız insanları deyil, yaşamaq üçün suya güvənən saysız-hesabsız bitki və heyvanlarıda təhdid edir.

TƏDQİQAT METODU

Suyun çirklənməsi zərərli maddələrin (çox vaxt kimyəvi maddələr və ya mikroorqanizmlərin) çayı, gölü, okeanı, akiferi və ya digər su hövzəsini çirkləndirərək suyun keyfiyyətini pisləşdirərək onu insanlar və ya ətraf mühit üçün zəhərli hala gətirdikdə baş verir. Suyun çirklənməsi, çirkləndiricilərin onları udmaq və ya təmizləmək gücünə malik olmayan su ekosistemlərinə atıldığı zaman baş verir.

Son illər biz su sərfiyyatına fikir vermədiyimiz kimi, onun çirklənməsinə də göz yumuruq. Bunun üçün heç bir səy göstərmirik. Çox istifadə etdiyimiz yuyucu vasitələr, sabunlar, kimyəvi təmizləyici materiallar, yanmış yağlar, nəzarətsiz tullantılar suyun çirklənməsinə səbəb olur. Çirklənmiş suyun görünüşü və qoxusu dəyişir.

Çirklənməyə plastik su şüşələri və ya rezin təkərlər kimi fiziki zibillər səbəb ola bilər və ya fabriklərdən, təsərrüfatlardan, şəhərlərdən, avtomobillərdən, kanalizasiya təmizləyici qurğulardan və havanın çirklənməsindən su yollarına axışan yol kimi kimyəvi maddələr ola bilər.

Sənaye prosesi: İstehsalçılara və fabriklərə təmizlənmədən əvvəl sadəcə olaraq su obyektlərinə zəhərli kimyəvi maddələr tökməyə icazə verildikdə, su çirklənir. Suda oksigen səviyyəsi də azalır.



Ev təsərrüfatlarının təmizlənməmiş çirkab suları: Boya, losyon, sabun, saç yağı, şampun, toz, dezodorant, nəmləndirici və bir çox digər bu kimi məhsullar da suyun çirklənməsinə səbəb olur. Bu məhsullar heç bir təmizlənmədən kanalizasiyaya gedir. Ev təsərrüfatlarından təmizlənməmiş çirkab suları proses zamanı müxtəlif su obyektlərini çirkləndirə bilər. Kanalizasiya boruları qırıldıqda, tullantıların içməli suyu çirkləndirmə şansı var. Bəzən pis təmizlənmiş çirkab suları su obyektlərinə buraxılır. Ev təmizliyi məhsulları çox təhlükəli çirkləndiricilər ola bilər.

Zibil: Plastiklər bioloji parçalanmır. Kütləvi plastiklər su obyektlərini bağlayır və suyu çirkləndirir.

Bərk tullantıların atılması: İnsanlar tez-tez ehtiyatsızlıqdan zibilləri dənizə və ya çayların yaxınlığında atırlar.
Neft dağılmaları: Təsadüfi neft dağılmaları dənizlərə dağıdıcı təsir göstərir.
Həll edilmiş qazlar: Havadakı çirkləndirici qazlar duz və şirin suda həll olunaraq onu çirkləndirə bilər.
Qayıq yanacaqları: Gəmiçilik sənayesində istifadə edilən qalıq yanacaqlar həm havanın, həm də suyun çirklənməsinin ən böyük səbəblərindən biridir.
Elektrik stansiyalarından qızdırılan su : Bəzi elektrik stansiyaları qızdırılan suyu su obyektlərinə buraxır. Bu, suda oksigen miqdarını azaldır. Elektrik stansiyaları adətən maşınlarını soyutmaq üçün qızdırılan sudan istifadə edirlər.
Urbanizasiya
Urbanizasiya meşələrin qırılması ilə əlaqədardır, çünki bu çirklənmə növlərinin hər ikisi insanlar öz şəhərlərini və qəsəbələrini ətraf mühitin əvvəllər yaşayış olmayan hissələrinə genişləndirmək qərarına gəldikdə baş verir. Bununla belə, urbanizasiyaya gəldikdə, bu, insanların ətraflarında yaşayan və onlara təsir edən nəticələrinə daha çox diqqət yetirir. Buraya insanların torpaqda evlər və yollar tikməsinin, eləcə də torpaqda əkinçilik üçün gübrələrdən istifadə etməsinin nəticələri daxildir. Buraya kimyəvi çirklənmə də daxildir, baxmayaraq ki, bu problem aşağıda sadalanan digər səbəblərə bölünə bilər. Nəhayət, urbanizasiyaya insanlar tərəfindən atılan və tez-tez su mənbələrinə yol tapan zibil də daxildir.

Bəzi mənalarda urbanizasiya yaxşı olsa da, suyu çirkləndiricilərdən təhlükəsiz saxlamaq üçün ona daha effektiv nəzarət edilməlidir. Tərəqqi etmək və genişləndirmək həmişə yaxşıdır, lakin su təchizatını təhlükəsiz saxlamaq hər hansı bir genişləndirmə layihəsinin ilk günündən əsas narahatlıq doğurmalıdır. İnsanlar həmçinin zibilləri avtomobilin şüşələrindən atmamaq və ya asanlıqla su mənbələrinə sıçraya biləcəyi yerlərdə yığılmamaq üçün daha diqqətli olmalıdırlar. Şəhərlər suyun müntəzəm sınaqdan keçirilməsinə diqqət yetirməli və su təchizatına gedən bütün axınların təmiz və zibildən təmiz olmasını təmin etməlidir.

Suyun çirklənməsi insan sağlamlığına ziyan vurur, həyat şəraitimizi təhlükəli edir və planetdəki həyatı təhlükə altına alır.
Su içmək təhlükəli olur: İnsanlarda daha az təhlükəsiz içməli su var.
Kənd təsərrüfatı üçün daha az təmiz su: əkinləri suvarmaq üçün də çirklənməmiş suya ehtiyacımız var.
İqtisadi xərclər: Su çirkləndikdə suyun təmizlənməsi, su obyektlərindən plastiklərin çıxarılması və s. üçün pul lazımdır.

Su rənginin dəyişməsi: Çirklənmiş su nəzərəçarpacaq dərəcədə fərqli olur.

Su ilə ötürülən xəstəliklər: Çirklənmiş suyun yaxınlığında yaşamaq insanları xəstəliklər riski altına qoya bilər. Su ilə ötürülən xəstəliklər: Kanalizasiya içməli su ilə birləşdikdə xəstəliklərin baş vermə ehtimalı var. İnsanlar bu suyu içsələr, tif, vəba və dizenteriya kimi xəstəliklərdən əziyyət çəkə bilərlər.

Müalicə bitkiləri. Xüsusilə hər gün böyük miqdarda suyun axdığı şəhərlərdə təmizləyici qurğular qurulmalıdır. Drenaj sistemindən axan su düzgün təmizlənməli və zərərli çirkləndiricilərdən təmizlənməlidir.

Turşu yağışı: Sənaye, avtomobil və evlərdən zəhərli qazlar və tüstü ayrıldıqda, qazlar turşu yağışının əmələ gəlməsinə səbəb olur. Turşu yağışları insan sağlamlığı üçün təhlükə olmaqla yanaşı, torpaqdakı canlı orqanizmlərə də təsir edir.

Genetik mutasiyalar: Dəniz və şirin su bitkiləri və heyvanlarının genləri mutasiyaya uğrayır.

Yosunların çiçəklənməsi : Kimyəvi tərkibin dəyişməsi səbəbindən sularda oksigenin çox olması yosunların həddindən artıq çiçəklənməsinə və hovuzlarda və çaylarda işığın qarşısını almasına səbəb olur.

Ekosistemlərə ziyan: Ekosistem canlıların həyat boyu bir-birindən asılı olan qarşılıqlı əlaqəsidir. Onların vərdişləri çirkləndikdə, dəniz və şirin su orqanizmləri yox olmaq təhlükəsi ilə üzləşir. Su həyatı təhlükə altında olduqda bütün ekosistem pozulur.

İqlim təsiri. Əlavə edilmiş maddələr və ya asılmış qatı maddələr nəticəsində suyun temperaturu, pH və digər xüsusiyyətlərindəki dəyişikliklər mayenin kütlələrinin davranışına təsir göstərir, buxarlanmasını azaldır və bu səbəbdən yağıntıları azaldır və yerli iqlim dəyişir.

Torpaq və havanın çirklənməsi. Suyun çirklənməsi təkcə suda qalmır, su dövranına görə quruya və havaya yayılır, gözlənilməz nəticələrə səbəb olan domino təsiri ilə.Suyun çirklənməsinin qarşısını almaq və ya azaltmaq üçün bu barədə məlumatlı olmaq və onun ən qənaətcil, səmərəli və məsuliyyətli istifadəsini təmin etmək kifayətdir. Bu baş verir:

Daha məsuliyyətli şəhər və sənaye siyasətləri. Bu tullantıların dənizə və göllərə vurduğu təsiri azaltmaqla, sənayenin və kanalizasiya məhsullarının yan məhsullarının düzgün şəkildə atılmasını məcbur etməlidirlər.

İstehlakçı məlumatlandırma kampaniyaları. İçməli suyun israfı, əllərimizi köpürdükdə açıq qalan krandan səkiyə "təmizləməyə" sərf etdiyimiz içməli suya qədər dəyişən gündəlik bir gerçəklikdir.

Çirklənmiş suyun tez-tez həll yollarından bir neçəsini qeyd edək : Bakterioloji mübarizə üsulları və sulara bioloji nəzarət. Tullantı sularını dənizə qaytarmadan əvvəl təmizləyin və yenidən istifadə edin. Müxtəlif növ filtrasiya mexanizmləri. Həm də hava və torpaq çirkliliyi ilə mübarizə aparın.

Təkrar mədəniyyət. Bu və ya digər şəkildə qrunt suları ilə təmasda olan su və ya sanitar zibilxanalarına veriləcək qatı tullantıların azaldılması təkrar emal və daha məsuliyyətli istehlak yolu ilə baş verə bilər.

Bakterioloji mübarizə üsulları və sulara bioloji nəzarət. Tullantı sularını dənizə qaytarmadan əvvəl təmizləyin və yenidən istifadə edin. Müxtəlif növ filtrasiya mexanizmləri. Həm də hava və torpaq çirkliliyi ilə mübarizə aparın.

NƏTİCƏ

Su əsas zərurətdir. Suyun çirklənməsinə nəzarət edilməzsə, bu əmtəə çox az adamın ödəyə biləcəyi bir əmtəəyə çevrilə bilər. Beləliklə, hamımız bu gündən etibarən suyun çirklənməsini azaltmaq üçün tədbirlər görməliyik. Üstəlik, çox gec olmamışdan əvvəl dostları və yaxınlarımızı, güc və səlahiyyət sahibi olanları da eyni şeyi etməyə təşviq etməliyik.

ƏDƏBİYYAT SİYAHISI

1. https://akuaturk.com/2012/11/su-kirliliği-ve-kaynaklari-ekoloji/
2. https://www.populertarim.com/su-kirliliği-nedenleri-etkileri-ve-cozum-onerileri
3. https://importantindia.com/26138/water-pollution-causes-effects-solution/
4. https://www.explainthatstuff.com/waterpollution.html

PROBLEMS OF PROTECTION AND USE OF MIKAYIL USEYNOV ARCHITECTURAL HERITAGE

FƏRİDƏ YUSİF QIZI RÜSTƏMOVA
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
frustemova3@std.beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

AYSEL HÜSEYNZADƏ AMİL
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
aysel.huseynzade2015@gmail.com
XIRDALAN,AZƏRBAYCAN

Abstract

Architectural searches in Azerbaijan and Formed a major stage of development. The most famous in the history of architecture of Azerbaijan. One of the figures is the world-famous architect – academician Mikail Useynov. State and Republic. Laureate of the Prize, People's Architect of the USSR, Academician of the Academy of Sciences of the Azerbaijan SSR, Doctor of Architecture, Honorary Member of the Royal Asian Society of Great Britain and Ireland, Professor – Mikayil Useynov's creativity and scientific-social activity are multifaceted. But a lot created by M. Useynov over a long period of time buildings have been demolished and some have been remodeled. In this regard, Michael in the article. Created by Useynov as a result of nearly half a century of creative activity and to date, the classification of projects with the most selected architectural samples of the city has been carried out, as well the problems of their current use and preservation were also noted.

Keywords: Mikayil Useynov, stages of development, architectural heritage

XÜLASƏ

Azərbaycanda memarlıq axtarışları və İnkişafının böyük mərhələsini təşkil etmişdir. Azərbaycanın memarlıq tarixində ən tanınmış simalardan biri dünya şöhrətli memar – akademik Mikayıl Useynovdur. Dövlət və Respublika. Mükafatı laureatı, SSRİ xalq memarı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, Memarlıq doktoru, Böyük Britaniya və İrlandiya Kral Asiya Cəmiyyətinin fəxri üzvü professor Mikayıl Useynovun yaradıcılığı və elmi-ictimai fəaliyyəti çoxşaxəlidir.Lakin böyük zaman ərzində M.Useynovun yaratdığı bir çox tikililər sökülmüş, bəzilərinin siması dəyişdirilmişdir. Bu baxımdan məqalədə Mikayıl Useynovun yarım əsrə yaxın davam etmiş yaradıcılıq fəaliyyəti nəticəsində ərsəyə gətirdiyi və günümüzdə də şəhərin ən seçilən memarlıq nümunələri olan layihələrin təsnifatı aparılmış, eləcə də onların hal-hazırki dövrdə istifadə və qorunulub saxlanılma problemləri qeyd olunmuşdur.

AÇAR SÖZLƏR: Mikayıl Useynov, inkişaf mərhələləri, memarlıq irsi

GİRİŞ

Mikayıl Ələsgər oğlu Useynov 1905-ci il, aprel ayının 19-u Bakı şəhərində dünyaya gəlmişdir. Memar ali təhsilini 1922-29-cu illərdə Politexnik institutunda, mühəndis-memar ixtisası üzrə bitirmişdir. M.Useynov Azərbaycanın milli memarlıq ənənələrini yeni axtarışları ilə zənginləşdirib, Şərq və Qərb memarlıq məktəbinin 6 sintezindən yararlanaraq əzəmətli yaşayış və ictimai binaların layihələrini hazırlamışdır.

Azərbaycanda böyük memarlıq məktəbinin yaradıcısı olan akademik M.Useynovun təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da müxtəlif abidələrin, sənət nümunələrinin ərsəyə gəlməsində böyük əməyi olmuşdur. Azərbaycan memarlığının elm kimi təşəkkülündə xüsusi rolu olan alimin yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm xidmətləri vardır. Ömrünün təqribən 50 ilini memarlığa həsr edən memar iki Lenin ordeni, iki Qırmızı əmək bayrağı ordeni və SSRİ-nin başqa orden və medalları ilə təltif olunub. 1992-ci ildə M.Useynovun təşəbbüsü ilə Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyası yaradılmışdır və onun ilk prezidenti Mikayıl Ələsgər oğlu Useynov seçilmişdir. Az vaxtda akademik Mikayıl Useynovun layihələri əsasında Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, eləcə də Düşənbədə, Moskvada və s. şəhərlərdə mədəni-məişət binaları tikilmişdir. 1946-cı ildən sonrakı memarlıq işləri: M.F.Axundov adına Azərbaycan Dövlət kütləvi kitabxanası (1960), Akademiya şəhərciyi kompleksi (1951-1966), Bakı Metropoliteni "Nərimanov" (1967), "Nizami" (1976) və "Elmlər Akademiyası" (1985) stansiyaları, "Moskva" mehmanxanası (1978). Dünya şöhrətli memar, alim, pedaqoq, akademik Mikayıl Useynov Azərbaycan memarlığının inkişaf 7 tapmasında böyük xidmətləri olub. 1992 ildə Beynəlxalq Memarlıq Akademiyasının Moskvadakı şöbəsinə fəxri üzv seçilmişdir. Akademik Mikayıl Useynovun yaradıcılıq irsinin araşdırılmasına bir çox əsərlər həsr edilmişdir. Bundan əlavə onun yaradıcılıq fəaliyyətinin mərhələləri Azərbaycanın müasir dövr memarlığının tədqiqi üzrə yazılmış bir çox əsərlərdə öz geniş əksini tapmışdır. Bu danılmaz bir faktdır ki, müasir dövr memarlığının inkişafı Mikayıl Useynovun yaradıcılığının və onun davamçılarının məhsuludur. Ölkə ərazisində həmin tikililərin rolu xüsusilə qeyd olunmalıdır. Bu səbəbdən də Akademik Mikayıl Useynovun yaradıcılıq irsinin ətraflı tədqiqinə və mühafizəsi üçün kompleks tədbirlərinin işlənib hazırlanmasına hal-hazırda böyük ehtiyac duyulur.

TƏDQİQAT METODU

Mikayıl Useynov irsinin mühafizəsi bir çox səbəbdən, yəni tarixi, iqtisadi, mədəni, tarixi və s. baxımdan olduqca aktual və əhəmiyyətli bir məsələdir. Tərəfindən layihələndirilmiş binaların qoruması və saxlanılması həm dövlətə bağlı aidiyyatı qurumlar, həm müasir memar cəmiyyəti, həm də əhali tərəfindən eyni dərəcədə məsuliyyətlə və diqqətlə yerinə yetirilməlidir.

Mikayıl Useynovun inşa tarixindən asılı olmayaraq, layihələndirdiyi əksər tikililərin unikallığı, möhtəşəmliyi, əhəmiyyəti onlara tamamilə memarlıq abidəsi kimi yanaşmağa imkan yaradır. M.Useynovun həm fərdi şəkildə, həm də Sadıq Dadaşov, Konstantin Sençixin və s. həmkarları ilə birgə layihələndirdiyi binaların müasir dövrdə istismarının və ümumi saxlanılma vəziyyətini araşdırılmışdır. Aparılan analiz və araşdırmalar həmin layihələrin aşağıdakı qruplara uyğun təsnifatını aparmağa imkan verir.

1. Təmir-bərpa işləri aparılıb, vəziyyəti qənaetbəxşdir:
2. İlkin görünüşü saxlanılır, lakin müdaxilələr var:
3. İlkin görünüşü təhrif olunub:
4. Təmir və ya bərpa işlərinə ehtiyac var:
5. Hal-hazırda təmir-bərpa işləri aparılır:
6. Sökülüb/Rekonstruksiya olunub:

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (4). Tibb Universitetinin tədris korpusu (4)



Nizami metro stansiyası (5)

Abşeron mehmanxanası (6) Moskva mehmanxanası (6)

1920-ci ildə Azərbaycanda baş verən inqilab mədəniyyətin bütün sahələrində köklü dəyişikliklərə səbəb oldu və bu dəyişikliklər memarlıq və şəhərsalmadan da kənar keçmədi. Azərbaycan memarlığının və şəhərsalmasının inkişafı XX əsrin 20-ci illərindən XXI əsrin əvvəllərinə qədər olan bir periodu əhatə edir və bir neçə mərhələyə bölünür. 1920-1940-cı illər müasir memarlıq tarixinin inkişaf mərhələsi hesab edilir. Sosialist ideallar və hədəflər şəhərsalmanın inkişafına təkan verir və nəticədə inşaat sahəsi fəallaşmağa başlayır. Azərbaycanda köhnə şəhərlərin yenidən qurulması, yeni yaşayış məntəqələrinin inşasına maraq xeyli artır. Bu dövr ərzində müxtəlif illərdə Bakının baş planları işlənilib hazırlanır. Ümumiyyətlə böyük ustad Mikayıl Useynovun yaradıcılığının bir-birindən ciddi şəkildə fərqlənən dörd mərhələsini qeyd etmək olar:

- 1929-1934 – Konstruktivizm
- 1934-1953 – Milli memarlıq irsinə əsaslanan axtarış
- 1955-1965 – Romantik konstruktivizm
- 1967-1992 – Fərdi dəsti-xətt

M.Useynovun yaradıcılığına həsr edilmiş tədqiqatın xronoloji şərşivələri Azərbaycanın XX əsr müasir memarlığı dövrünü, ərazi sərhədləri isə Azərbaycanın paytaxtı Bakı şəhərinin memarlıq tikililərini əhatə edir. Tədqiqatın obyekti Bakı ərazisində yerləşən və akademik Mikayıl Useynov tərəfindən layiləndirilmiş ictimai, o cümlədən, təhsil, idman, tamaşa binaları və yaşayış kompleksləri təşkil edir.. Bakı ərazisində yerləşən bu tikililər ayrıca tədqiqat obyekti kimi baxılmışdır. Bakı memarlarının bir qrupu 1928-1930-cu illər ərzində konstruktivizm – yeni üslub istiqamətini öz yaradıcılığında sınamağı üstün tuturdular. Həmin illərdə konstruktivizmə fərqli münasibət var idi. Bəziləri bunda maraqlı və faydalı bir şey görməyərək ona qarşı qeyri-obyektiv mövqe tuturdular. Digər bir qrup isə, konstruktivizmi 1920-30-cu illərin ən yüksək nailiyyətlərindən biri kimi qiymətləndirirdi. Bu baxımdan Mikayıl Useynovun konstruktivizm fəlsəfəsi ilə öz səmərəliliyi ilə fərqlənmək yanaşı kompozisiyalı formalaşmada dəmir-beton konstruksiyaların tətbiq olunmasının böyük imkanlarından istifadə edilməsini nəzərdə tuturdu. Bütün yenilikləri maraqla qarşılayan Useynov da XX əsrin 20-30-cu illərində konstruktivizmi təcrübədə sınaqdan keçirir və Dadaşov ilə birlikdə maraqlı layihələrlə çıxış edir. Məsələn, Azərbaycan Sənaye İnstitutunun yeni binası, fəhlə rayonlarının biri olan Bayılda böyük mətbəx-fabrik layihəsi.

Özündə müxtəlif epoxaları cəmləşdirən, zəngin memarlığa malik Bakının abidələrinin qorunması isə xüsusilə mühüm bir məsələdir. Lakin, Bakının halhazırda növbəti "tikinti bumlarından" biri yaşaması ilə vəziyyət bir qədər gərginləşir. Belə ki, günümüzün reallığına əsaslanaraq təəssüflə qeyd eləməliyik ki, şəhərimizin bütün abidələri eyni dərəcədə və düzgün şəkildə mühafizə olunmur. Tarixi binaların əksər hissəsi şəhərin mərkəzində yerləşsə də, digər qismi şəhərin yenidən qurma işlərinin nəzərdə tutulduğu ərazilərdə yerləşir. Bu halda tarixi binalar sökülərək, yerində tamamlilə yeni və həmin ərazinin ansamblına və kompozisiyasına tamamilə yad bir obyektlə əvəz olunur. Digər hallarda isə, tarixi binalar, xüsusilə də kapitalizm və Sovet dövrünün 60-80-ci illərə aid binaların fasadları kobudcasına cilalanaraq ağardılır və ya ağ aqlay daşı ilə artıq dəb halına gəlmiş "psevdo-klassika" üslubunda üzlənirərək tamamilə zövqsüz bir görünüş alır. Bu hallar yolverilməzdir və qəbul olunmazdır. Akademik, professor Mikayıl Useynovun əlli ildən artıq zəngin yaradıcılıq fəaliyyətinin ərzində ərsəyə gələn onlarla tikili Sovet dövrünü əhatə eləyən böyük zaman kəsiyində Azərbaycanda yaradılmış ən gözəl memarlıq inciləri və abidələri sayılır. Onun layihələri əsasında Bakı və ya digər şəhərlərdə inşa olunmuş istər ictimai , yaşayış binaları, istərsə də tədris ocaqları və ya digər təyinatlı binalar şəhər oraqnizminin bir parçasına çevrilməklə yanaşı, yerli əhalinin yaddaşında silinməz iz buraxmışdır.

NƏTİCƏ

Mikayıl Useynovun layihələrinin ideyası və üslubu öz müasir dövrdə də aktuallığını saxlamaqdadır. Lakin, təəssüf hissi ilə onu da qeyd eləmək lazımdır ki, bu tikililərin bir qismi öz ilkin vəziyyətini saxlamamış, düzgün istismar olunmamış və hətta bəziləri artıq sökülmüşdür. Şəhərin ən sıx hissələrində yerlərşən bu layihələrin əksəriyyətində son onilliklər ərzində dəfələrlə təmir-yeniləmə işləri getmiş, birinci mərtəbələrində müxtəlif müəssisələr, mağazalar, kafe-restoranlar və.s fəaliyyət göstərərək bu tikililərdə izlərini buraxmışdır. Fasadlarının original görünüşü təhrifə uğramış və layihələr də az deyil. Mikayıl Useynov irsinin qorunulması və düzgün istifadəsi həm milli memarlığımız, həm də tariximizin qorunması baxımımdan çox mühüm məsələdir. Sovet Azərbaycanı memarlığının müxtəlif epoxalarına təsadüf eləmiş Useynov yaradıcılığı, milli memarlığın inkişaf yolunun və formalaşmasının əyani sübutudur. Müəllif tərəfindən layihələndirilmiş və inşa olunmuş tikililərə çoxsaylı inzibati binalar, tədris və elm müəssisələri, yaşayış binaları, mehmanxanalar, metro stansiyaları və eləcə də monumental heykəltəraşlıq nümunələrini aid etmək lazımdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əbdülrəhimov R.H., Abdullayeva N.C. Azərbaycan Memarlıq Tarixi. 5 Cildlik. Erkən kapitalizm dövrünün memarlığı (XIX-XX əsrin əvvəli), IV Cild. Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013, 352 səh.
2. Nağıyev.N.H., Hüseynov.F.M. Azərbaycan Memarlıq Tarixi. 5 cildlik Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi (memarlıq doktoru, Prof. G.H.Məmmədovanın redaktəsi ilə), V cild. Bakı, "Şərq-Qərb" nəşriyyat Evi, 2013, 352 səh
3. Məmmədzadə.K.M. SSRİ Xalq Memarı Mikayıl Useynov. Bakı, "ELM" Nəşriyyatı, 1989, 400 səh.
4. Əliyev N. Sadıq Dadaşov və Mikayıl Hüseynov. "Şərq-Qərb" nəşriyyat evi, 2013, 39 səh.
5. Бретаницкий Л., Саламзаде А.. Архитектура советского Азербайджана. Под редакцией М.Усейнова. Москва, 1973, 264с.

AZERBAIJAN RELIEF AND GENERAL CHARACTERISTICS OF RELIEF

FƏRİDƏ YUSİF QIZI RÜSTƏMOVA
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
frustemova3@std.beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN
AQİL QƏDİM OĞLU KAZIMOV
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
akazimov1@beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

Abstract

The relief of the territory of the Republic of Azerbaijan is very diverse and complex. More than half of the area is mainly 400-500 m (800-1000 m in the Middle and Lower Araz basins), 100-120 m in some places (Talysh, Jeyranchol-Acinohur and Langabiz-Alat front mountains) and 0-50 m (Gobustan, Absheron) It consists of mountain ranges and ridges starting from the absolute height, plateaus and plateaus, and the rest of the plains and lowlands.

Keywords: relief, Azerbaijan, territory

XÜLASƏ

Azərbaycan Respublikası ərazisinin relyefi çox müxtəlif və mürəkkəbdir. Ərazinin yarıdan çoxu əsasən, 400-500 m (Orta və Aşağı Araz çökəkliklərində 800-1000 m), bəzi yerlərdə 100-120 m (Talış, Ceyrançöl-Acınohur və Ləngəbiz-Ələt ön dağlıqları) və 0-50 m (Qobustan, Abşeron) mütləq hündürlükdən başlayan dağ silsilələri və tirələrindən, yayla və platolardan, qalan hissəsi isə düzənlik və ovalıqlardan ibarətdir.

AÇAR SÖZLƏR: relyef, Azərbaycan, ərazi

GİRİŞ

Azərbaycanın iri relyef formaları tektonik proseslər nəticəsində əmələ gəlmişdir. Bu formalar yüz və minlərlə kvadrat kilometr əraziləri əhatə edən tektonik zonaları əmələ gətirir. Tektonik zonalar Yer qabığının üfüqi və şaquli hərəkəti nəticəsində yaranır. Şaquli tektonik hərəkətlər qalxan və ya enən ola bilir. Qalxan hərəkətlər tektonik qalxma zonaları, enən hərəkətlər isə tektonik çökmə zonalarını əmələ gətirir. Azərbaycan Respublikasının ərazisi Şərqi Avropanın litosfer tavası ilə Ərəbistan litosfer tavasının toqquşduğu sərhəddə yerləşir. Ərazi tamamilə Alp-Himalay qırışıq zonasına daxildir. Azərbaycan ərazisi 5 iri tektonik zonaya ayrılır: 1. Ön Qafqaz çökmə (əyilmə) zonasına Samur-Dəvəçi ovalığı, Şollar düzü aiddir. 2. Böyük Qafqaz qalxma zonasına Böyük Qafqazın cənub və şimal-şərq yamacı, Abşeron-Qobustan

və həmçinin də Qusar maili düzənliyinin əsas hissəsi daxildir. 3. Kür çökəkliyi zonasına Qanıx-Əyriçay çökəkliyi, Acınohur-Ceyrançöl öndağlığı və Kür-Araz ovalığı aiddir. 4. Kiçik Qafqaz qalxma zonası bütün Kiçik Qafqaz dağlarını, (o cümlədən, Naxçıvanın dağlıq hissəsini) və Talış dağlarını əhatə edir. 5. Araz cavan platformasına Naxçıvanın Arazboyu maili düzənlikləri daxildir. Tektonik proseslər nəticəsində süxurlarda tektonik qırılmalar əmələ gələ bilər.



Belə qırılmalar relyefdə aydın əks olunur. Azərbaycanda düzənlik və dağlar arasındakı sərhədlər tektonik qırılmalar boyu keçir. Qırılmalar boyunca dağ yamacları dik olur, tez-tez sürüşmələr baş verir. Bu ərazilərdə termal və mineral suların Yer səthinə çıxması ehtimalı böyükdür. Azərbaycanın çox hissəsi 7–8 ballıq, Gəncəətrafı ərazilər, Naxçıvanda Qapıcıq zirvəsi ətrafı və Böyük Qafqazın cənub yamacı (xüsusilə Şamaxı və onun ətrafları) 9–10 ballıq zəlzələ zonasına aiddir. Azərbaycan ərazisi mürəkkəb geoloji quruluşa malikdir. Geoloji quruluş hər hansı bir ərazidə süxurların xüsusiyyətləri, yəni onların yaşı, mənşəyi və yatım istiqamətlərini əks etdirir, milyon illər ərzində formalaşır. Azərbaycanda ən qədim süxurlar Naxçıvanda (Dərələyəz silsiləsində və Sədərək qalxmasında) və Kiçik Qafqazın şimal hissəsində (Tovuzçay, Zəyəmçay, Əsrikçay hövzələrində) aşkar edilmişdir. Onların yaşı 400–450 milyon ildən çoxdur. 130–250 milyon il əvvəl Azərbaycanın indiki ərazisi Tetis okeanı suları ilə örtülü olmuşdur. Böyük və Kiçik Qafqazın yerində hündür olmayan adalar mövcud olmuşdur. 1.5–1,8 milyon il əvvəl hazırda mövcud olan düzənliklər üzə çıxmış, dağların mütləq hündürlüyü isə artmışdır.

TƏDQİQAT METODU

Azərbaycanın ərazisi relyef xüsusiyyətlərinə görə kəskin seçilən Böyük Qafqaz, Kiçik Qafqaz, Talış dağları, Kür-Araz ovalığı, Arazboyu düzənliklərdən ibarətdir:Böyük Qafqaz Taman yarımadasından (Rusiya) Abşeron yarımadasına qədər 1500 km məsafədə şimal-qərbdən cənub-şərqə doğru uzanır. Azərbaycan ərazisində onun yalnız cənub-şərq hissəsi yerləşir. Bu hissə Tinov-Rosso zirvəsindən başlayaraq yastı yayla və alçaq sualtı tirələrlə Xəzər dənizinə keçərək Türkmənistan sahillərinə qədər uzanır. Böyük Qafqaz dağlarında əsas yeri Baş Qafqaz silsiləsi tutur. Həmin silsilənin Babadağ (3629 m) zirvəsinə qədər olan hissəsi kəskin parçalanmışdır, daha hündürdür və ən yüksək zirvələr (Bazardüzü, 4466 m) burada yerləşir. Babadağdan cənub-şərqə doğru silsilə tədricən alçalır, yamaclar hamarlanır. Bunun səbəbi həmin istiqamətdə dağəmələgəlmə prosesinin zəifləməsidir. Kiçik Qafqaz dağları Böyük Qafqaza nisbətən az parçalanmışdır. Azərbaycan daxilində Kiçik Qafqaz dağlarının ən mühüm silsilələri Şahdağ, Murovdağ, Şərqi Göyçə, Qarabağ dağları və Qarabağ vulkan yaylası, həmçinin Naxçıvan ərazisində yerləşən Zəngəzur və Dərələyəz silsilələridir. Kiçik Qafqazın ən yüksək zirvəsi – Qapıcıq (3904 m) Zəngəzur silsiləsində yerləşir. Araz çayının sol sahilində yüksəkliyi 600 m-dən artıq olan Arazboyu (Orta Araz) maili düzənlikləri uzanır. Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Gülüstan, Yaycı və Ordubad düzləri buradadır. Talı dağları respublikamızın cənub-şərq qurtaracağında yerləşir. Bu dağ sistemi paralel uzanan Talış, Peştəsər və Burovar silsilələrindən ibarətdir. Ən uca zirvələri Kömürköy (2493 m) və Qızyurdu (2433 m) Talış silsiləsində yerləşir. Dağlar tədricən Xəzər sahilinə doğru ensiz Lənkəran ovalığına keçir. Kür-Araz ovalığı (Mərkəzi Aran) Böyük və Kiçik Qafqaz dağları arasında yerləşir. Bu ovalıq Kür çökəkliyinin çox hissəsini əhatə edir və qərbdən şərqə doğru tədricən genişlənərək Xəzər sahillərinə qədər uzanır. Ovalığın ərazisinin xeyli hissəsi okean səviyyəsindən aşağıda yerləşir. Təsərrüfatın ayrı-ayrı sahələrini inkişaf etdirmək üçün Azərbaycanın relyefinin istifadə olunma imkanları eyni deyil. Ölkəmizin düzənlik və dağətəyi rayonları suvarma və dəmyə əkinçiliyi, qış otlaqları kimi istifadə olunur. Əsas sənaye mərkəzləri, iri şəhərlər, nəqliyyat magistralları da buradadır. Yüksəklik və yamacların meyilliliyi artdıqca ərazinin mənimsənilməsi də çətinləşir. Orta dağlıq ərazilərdə isə dəmyə əkinçiliyi üstünlük təşkil edir. 2000 metrdən yüksəkdə mürəkkəb relief şəraiti, sıldırımlı yamaclar, dərin dərələr təbii sərvətlərin

mənimsənilməsini və nəqliyyatın işini çətinləşdirir. Bu ərazilərdən otlaq və biçənək kimi istifadə olunur.İri relyef formalarını endogen, kiçik relyef formalarının ekzogen prosesslər əmələ gətirir. Daxili və xarici qüvvələrin birgə təsirindən asılı olaraq, relyef fasiləsiz olaraq dəyişir. Bu, əsasən, denudasiya (süxurların dağılması və daşınması) və akkumulyasiya (süxurların toplanması) prosesləri nəticəsində baş verir. Denudasiya yüksəklik, yayla və dağlıq, akkumulyasiya isə hamar düzənlik ərazilərdə baş verir. Dağ yamaclarında sukeçirməyən gilli süxurların üzərində sukeçirən qumlu-çınqıllı laylar üst-üstə yerləşdikdə yamaclarda sürüşmə baş verir. Ağırlıq qüvvəsinin təsiri ilə sukeçirən süxur layı sukeçirməyən süxurların islanmış səthinin üzəri ilə aşağı şürüşür. Sürüşmələr gur yağışlar və qarların əriməsi nəticəsində baş verir. Seysmik hadisələr və təsərrüfat işləri zamanı bu proses daha da fəallaşır. Bu hadisə yüksək dağların daha çox meyilliliyə malik olan yamaclarında tez-tez baş verir. Sürüşmələr əkin sahələrinə, yaşayış məntəqələrinə, yollara böyük ziyan vurur. Onların qarşısını almaq üçün yamacbərkitmə işləri görülür, terraslaşdırma aparılır, drenajlar vasitəsilə sürüşmə zonalarında toplanan yeraltı sular axıdılır, çılpaq yamaclarda meşə və kolluqlar salınır. Quraq iqlimə malik ərazilərdə müvəqqəti axınların təsiri ilə yaranan relief formaları arid-denudasion relyef adlanır. Bu relyef formaları gillərin və qum daşlarının yayıldığı Ceyrançöl-Acınohur alçaq dağlığında, Abşeron-Qobustanda, Naxçıvanın orta dağlıq ərazilərində yayılmışdır. Arid-denudasion relyef formalarına yarğanlar, qobular, bedlendlər aiddir. Yarğanlar yağış və qar sularının süxurları yuması nəticəsində yaranan quru dərələrdir. Qobu- yarğanın son mərhələsində yaranan və dibi kol və ot bitkiləri ilə örtülən dərin dərədir. Bedlend (ing. "pis torpaqlar") səhra və yarımsəhra zonalarında gilli torpaqların külək və sular tərəfindən eroziyası nəticəsində yaranan əkinə yararsız ərazilərdir. Yüksək dağlıq ərazilərdə nival-buzlaq relyef formaları (troq dərələri, karlar, morenlər, sirklər) əmələ gəlmişdir. Relyefin eroziyası nəticəsində yaranan çay dərələri formalarına görə bir-birindən kəskin fərqlənir. Yumşaq əhəngdaşı süxurlarını kəsib keçən çaylar kanyonvari dərələr yaradır. Belə dərələr Böyük Qafqazın şimal-şərq yamaclarında daha çoxdur. Bərk süxurlarda yaranan çay dərələri dərin, dar, çox hallarda isə V-şəkilli olur. Böyük və Kiçik Qafqazda, həmçinin Naxçıvanın yüksək dağlıq zonalarında belə dərələr geniş yayılmışdır. Gilli süxurları kəsən çay dərələri, adətən, geniş olmaqla yamaclarının nisbətən az meyilliliyi ilə fərqlənir və Uşəkilli dərələr adlanır. Belə dərələr respublikamızın alçaq dağlıq və dağətəyi zonaları üçün daha səciyyəvidir.

Respublikanın bütün düzənlikləri akkumluyativ relyef formalarına malikdir. Dağətəyi düzənliklərdə, xüsusilə Qanıx-Əyriçay çökəkliyində, Şirvan düzündə Gəncə-Qazax və Qarabağ maili düzənliyində çayların yaratdığı yelpikvari gətirmə konusları, Kür-Araz ovalığında allüvial çay düzənlikləri, Lənkəran, Samur-Dəvəçi ovalıqlarında və Kür-Araz ovalığının Xəzərsahili ərazilərində dəniz dalğalarının fəaliyyəti nəticəsində abrazion düzənliklər yaranmışdır. Dağlıq ərazilərdə karst mağaralarına rast gəlinir. Onlar suda həll olan yumşaq əhəngdaşı, gips, dolomit süxurlarının yeraltı sularda həll olaraq boşluqlar əmələ gətirməsindən yaranır. Düzən rayonlarında insanların təsərrüfat fəaliyyəti ilə əlaqədar antropogen relief adlandırılan süni relyef formaları – kanallar, kollektorlar və drenajlar, su anbarları, bəndlər, yollar və s. yaradılmışdır.Azərbaycan ərazisində ilk antropogen landşaftlar eramızdan çox-çox əwəl yaranmışdır. Düzənlik meşələrinin böyük hissəsinin müxtəlif məqsədlər üçün qırılması da bu dövrə təsadüf edir. Eramızın ilk əsrlərində yaşayış məskənləri bütün dağlıq və düzənlik ərazilərimizdə yayılmışdır. Yaşayış məntəqələri meşələrin içərilərinə doğru irəliləyirdi. Bu dövrlərdə yüksək dağ landşaftlarından başqa, bütün təbii komplekslər insanların təsirinə məruz qalırdı. Orta əsrlərdə Azərbaycanın düzənlik və dağlıq hissələrində əhalinin sayı xeyii artmışdır. Kütləvi surətdə oturaq həyata keçən əhali yeni torpaq sahələrini istifadə etməldə, təbii landşaftları dəyişdirdi. Respublikamızın indiki ərazisində olan iri yaşayış məntəqələrinin əksəriyyəti artıq orta əsrlərdə mövcud idi. Maldarlıq yüksək sürətlə inkişaf etdiyi üçün yüksək dağ landşaftlarının mənimsənüməsi artmışdı. Alp və subalp çəmənliklərində minlərlə baş mal-qara, at bəslənirdi. Məhz həmin dövrlərdən etibarən torpaqların eroziyası başlamışdır. Maldarlar adətən öz alaçıq və meşənin yuxarı sərhədlərində qurduğu üçün, meşələrin sahəsi azalmış, onların yerində dağ bozqırları yaranmışdır. Alimlərimizin apardığı tədqiqatlar göstərir kı', vaxtı ilə Böyük və Kiçik Qafqaz dağlarının yamacları, Alcizan-Əyriçay vadisi, Lənkəran ovalığı, Gəncə- Qcizax düzənliyi, Qarabağ düzünün əksər hissəsi, Kür çayı boyunca olan ərazilər Qusar maili düzənliyi meşələrlə örtülü olmuşdur. İnsanların təsərrüfat təsirləri nəticəsində həmin meşələrin xeyli hissəsi qırılmış, əkin və bağlara çevrilmişdir.

NƏTİCƏ

Relyefin xarakterik cəhəti onun eynicinsli olmaması, onu təşkil edən hissələrin (sferaların) kontrastlılığıdır (təzadlılıq). Onlar arasındakı lay (qat) xüsusi landşaft sferasını yaradır ki, burada günəş enercisi müxtəlif növlu yer enerjisi çevrilir və həyatın inkişafı üçün əlverişli mühit yaranır. Bu layın qalınlığı okean və yer səthindən 10-250 m təşkil edir. Bu sahələrlə litosferanın, atmosferin və hidrosferanın fəal qarşılıqlı təsirinin

nəticəsində quru və okeanların landşaftı formalaşır. Landşaft sferasının tərkibinə aşınma qabığı, torpaq, bitki və canlı aləm, yerəyaxın atmosfer layı daxildir. Digər sözlə landşaft sferası-yer səthindəki təbii komplekslərin toplusudur.

ƏDƏBİYYAT SİYAHISI

1. Landşaft memarlığının nəzəriyyəsi və təcrübəsi, Kazımov Aqil Qədim oğlu.
2. https://gsaz.az/articles/view/107/Azarbaycan-Respublikasi-arazisinin-relyefi
3. https://melumatlar.az/blog/14637/azerbaycan-relyefi
4. https://osmanemin.wordpress.com/2018/11/11/az%C9%99rbaycanin-s%C9%99rh%C9%99dl%C9%99ri-relyefi-geoloji-qurlusu-v%C9%99-faydali-qazintilari/

İSLAM MEMARLIQ ABİDƏLƏRİNİN GÜNÜMÜZDƏ İSTİFADƏSİ VƏ BƏRPA PROBLEMLƏRİ

FİRUQİ FATİMƏ XƏZƏR QIZI
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
ffiruqi@std.beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

Abstract

The article discusses the restoration of Islamic architectural monuments and the current use and problems of Islamic architectural monuments. Today, many historical and religious monuments are preserved as architectural monuments, and some are used or in need of restoration. Monuments for the construction of mosques, madrassas, tombs and other Islamic buildings have been important in world and local architecture throughout history. Religious monuments are considered to be one of the most important structures of urban architecture in the Middle Ages. He will get acquainted with the history, architecture, history and analysis of the problems of religious monuments built during the settlement of people in those times.

Keywords: Islamic architecture, mosques, religious buildings, restoration, restoration rules

XÜLASƏ

Məqalədə islam memarlıq abidələrinin bərpası və islam memarlıq abidələrinin günümüzdəki istifadəsi və problemləri haqqın danışılır. Hazırda tarixi dini abidələrinin bir çoxu memarlıq abidəsi kimi qorunub saxlanılır, bir neçəsi isə istifadə olunur və ya bərpaya ehtiyyacı vardır. Dünya və yerli memarlıqda məscid, mədrəsə, türbə və başqa islami tikililərin inşası abidələri bütün tarixi zamanda mühüm əhəmiyyəti olmuşdur. Dini abidələri orta əsrdə şəhər memarlığının mühim inşalarından sayılır. Həmin dövrlərdə insanlar məskünlaşan zaman inşa olunan tarixi, dini abidələrin memarlığı, tarixi və problemlərinin təhlili ilə yaxından tanış olacağıq.

AÇAR SÖZLƏR: islam memarlığı,məscid,dini tikililər,bərpa,bərpa qaydaları

GİRİŞ

İslam dini yer üzərində böyük bir sahədə - Çindən Atlantik okeanına qədər uzanan - bütün fərqli sivilizasiyaları birləşdirərək vahid İslam mədəniyyətini yaratdı. Eyni zamanda qeyd etmək lazımdır ki,bu mədəniyyətin bir qolu kimi gözəlliyə,əxlaqi saflığa,kamilliyə xidmət edən İslam memarlığını yaratdı.İslam memarlığı müxtəlif islam ölkələrinin ənənələrini özündə birləşdirən memarlıqın bir qoludur.

İslam mədəniyyətinin bir qolu kimi İslam memarlığı və inşaat elmi də yarandı və günü-gündən inkişat etməyə başladı. İslam dünyasında hələ o zamana qədər görünməmiş yeni İslam abidələrinin – məscid,mədrəsə,türbə və başqa islami tikililərin inşası bu memarlığın yaranmasına və inkişafına sebeb olmuşdur. Məhəmməd peyğənbərin(s)dövründə tikilmiş bir neçə binanı islam memarlığının ilki hesab olunsada,ilk məscid Mədinədə inşa olundu.

İslamın came və məscidlərinin daxili və xarici görünüşləri insan oğlunun gözünü açır,qəlblərə bir rahatlıq gətirir. Bu yerlərə daxil olan insanların sıxıntılarının yox olduğunu,yerinə mənəvi rahatlığın gəldiyini hiss edirdilər. İslam memarlığı tanrının xəlq etdiyi təbiətin insan əli ilə işləyən dünyanın davamıdır. Bunu nəzərə almalı olan müsəlman memarı elə bir mühit ,abu-hava yaratmalıdır ki, o özlüyünde rahatlığa və sakitliyə malik olsun.

TƏDQİQAT METODU

Memarlıq abidələrinin bütün dövrlərdə qayğıya ehtiyacı olmuşdur. Onları qorumuş, təmiri aparılmış, bəzi hallarda isə bərpa etmişlər. Onlar öz zamanında müəyyən funksiyalar üçün inşa edilmişdi, bu funksiya cəmiyyətin tələbatına uyğun gəldiyi zamana qədər, tikililərin özləri də lazımlı hesab edilirdi.

Bərpa və möhkəmləndirmə işlərinin gedişindəki çətinlik bir də onunla mürəkkəbləşirdi ki,bərpaya başlanan ilk illərdə bəzi memarlıq abidələri həddən artıq köhnəlmiş və tamamilə uçulmaq təhlükəsi doğuran acınacaqlı vəziyyətdə idi.Bəzi abidələrdə aparılan ilk tədqiqatlar tikililərin yükdaşıyan konstruksiyalarının açılması abidələrdə o vaxta qədər məlum olmayan ciddi zədələri aşkara çıxarırdı.Belə hallarda abidənin uçmasının qarşısını almaq üçün tikilinin təcili tam bərpasını bütün təfərrüatı ilə nəzərə alan layihənin hazırlanmasını gözləmədən daşıyıcı konstruksiyaların möhkəmləndirilməsinə aid bir sıra mürəkkəb elmi və texniki məsələləri həll etmək və onları əməli işdə yerinə yetirmək lazım gəlirdi.Məsələn,Yusif Küseyir oğlunun türbəsinin gövdəsinin diametral müstəvi boyunca çatlamasının və piramidal örtüyün uçmasının qarşısını almaq,Bərdə türbəsinin kürsülüyünü,XIV əsr Mərdəkan qalasının gövdəsini,Diri - baba türbəsinin divar və özülünü möhkəmlətmək üçün görülən tədbirlər buna əsil nümunəsidir abidəsinin ətraf ərazisinin abadlaşdırılması həyata keçirilmədən onun bərpasını tamamlanmış hesab etmək mümkün deyildir.

Şəkil-3

Digər ölkələrə görə Bərpa Azərbaycanda olduğu qədər vacib məsələdir.Ekspertlər qədim abidələrin bərpası üçün müasir inşaat materiallarının istifadəsinə aid müxtəlif təkliflər qəbul etdilər.İştirakçılar bütün resursların ağılla istifadəsini və müasir texnikadan,xüsusilə dəmir-betondan xilas olmaq fikrini bəyəndilər.İştirakçılar bərpa olunmuş abidənin aspektinin və xarakterinin qorunması məqsədilə

konservasiya işlərinin mümkün qədər nəzərə çarpdırılmamasını müəyyən etdilər.İştirakçılar tövsiyyə etdilər ki,mühafizəsi lazım olan hissələrin demontajı və bərpası zamanı təhlükəyə yol verməmək üçün müasir materialların tətbiqinə yol verilə bilər.Vite yazırdı: «Bərpa olunan hər şeyin, bunları yaratmış rəssamların, həmin zamanda yaşamış insanların müasiri olmaq üçün müasir ideyaları inkar etmək,yaşadığın zamanı unutmaq lazımdır.Nəinki əsas dövrlərin bütün bədii metodlarını, fərziyyə və kaprizlərə görə deyil, ciddi induksiyaya görə sadə fraqmentlərin qalıqlarına əsasən binanı bərpa etmək üçün hər bir əsri dövrbədövr bilmək lazımdır». Bərpanın prinsipləri Violle–le–Dük tərəfindən birdən tərtib edilməmişdi. Onlar tədricən, uzun praktiki fəaliyyət nəticəsində cilalanmışdı.Bərpa ilə məşğul olan memarlar içərisində onun birinci yerə çıxmasına səbəb olan ilk böyük işi 1840-cı ildə bərpası başlanmış Vezledəki çox köhnəlmiş Sent Madelen kilsəsi idi. Viol-le-le-Dük binanın zədələnmiş hissələrini arkbutanları, tağbəndləri, üzlüyün böyük bir hissəsini yenidən qurdu və əlavələr etdi, onun konstruksiyalarına dəyişikliklər gətirdi: XIV əsrə aid deformasiyalı tağbəndləri sökərək onların hündürlüyünü əvvəlki səviyyəyə endirdi. V.Dükun ən önəmli işlərindən biri onun memar Lassü ilə birlikdə apardığı Paris Notre-Dame kilsəsinin bərpası idi.Bərpanın məqsədi binanı texniki cəhətdən möhkəmləndirmək deyil katolik kilsənin tələblərinə uyğun olaraq ona daha böyük möhtəşəmlik və əzəmət vermək idi.İlk layihə 1843-cü ildə işlənildi,1845-ci və 1864-cü illərdə layihəyə əlavələr edildi.Müəlliflərin ilkin olaraq qəbul etdikləri qərara görə onlar nəinki binanın fasadında,hətta onun konstruksiyalarında da önəmli dəyişikliklər aparmaq arzusundaydılar.

Belə ki,ilkin fikrin icrası olaraq onlar XIII əsrə aid pəncərələrin bir qismini əsassız olaraq ləğv edərək,əvəzinə XII əsrə mənsub pəncərələri bərpa etdilər.«Binanı bərpa etmək–onu mühafizə, təmir və ya onun dayanıqlığını bərpa etmək deyildir,bərpa–binanı,bəlkə də,əvvəllər real mövcud olmamış şəkildə tamamlamaqdır»Bu müddəalardan bir neçə qaçılmaz nəticə meydana çıxırdı.Hər şeydən əvvəl,bu kontekstdə «tamamlanmış görünüş»tam bərpanı deyil,eyni zamanda abidənin aid olduğu dövrə mənsub yad ünsürləri yox etməklə,üslub vahidliyini də xarakterizə edir.Bu şəkildə olan konsepsiya sonralar«üslub bərpası»adını aldı.XIX əsrin ortalarında o,geniş yayılmışdı.Abidələrə olan marağın artması bərpa fəaliyyətinin genişlənməsinə səbəb olurdu.XIX əsrin sonlarına doğru bərpa işlərinin aparılmasına daha böyük ciddiliklə yanaşılması təsəvvürləri tədricən yetişirdi.Bərpada iki əsas an mövcuddur-açılma və bərpa.Abidədəki bədii və tarixi cəhətdən dəyərli heç bir şeyin məhv edilməməsi baxımından birincisinə daha üstünlük verilməlidir.Hər bir bərpa «zərurətdən doğmalıdır, bərpa-bərpa xatirinə aparılmamalıdır»Texniki səbəblərdən əlavə,bərpaya zərurət«abidə yöndəmsiz,bizim estetik hisslərimizi təhqir edən vəziyyət aldığı zaman yaranır».Abidənin bərpası və rekonstruksiyası sintez təşkil etməlidir.Rekonstruksiya və bərpanı sözün əsil mənasında yalnız sırf elmi tələblərdən əlavə,ansamblın bunu tələb etdiyi,memarlıq formalarının tamamlanması və abidənin tamlığı zərurət doğurduğu hallarda aparmaq lazımdır.

(bax Şəkil-1).

Bərdə türbəsinin yerüstü hissəsi xatirə abidəsi olub, monumental xarakter daşıyır. Bu hissə daşdan hörülmüş kürsülük, silindirik gövdə və günbəzdən ibarətdir. Türbənin gövdəsinin xarici diametri 10 metr, hündürlüyü isə 12,5 metrdir. Onun divarları adi və üzərinə firuzəyi rəngli kaşı çəkilmiş kərpiclərlə üzlənmişdir. Bu cür orijinal hörgünün kərpic naxışlarında bütün gövdə boyu çoxlu sayda "Allah" sözü yazılmışdır(bax Şəkil-2).

Şəki Xan sarayının memarı şirazlı Zeynal Abidin olmuşdur.Divar rəsmləri XVIII əsrdə yaradılsa da, sonralar dəfələrlə bərpa edilib. Sarayın divar təsvirlərini işləyən bir neçə nəqqaş və ustanın adı binanın içində müxtəlif yerlərdə yazılıb. Burada şuşalı usta Qəmbərin, şamaxılı ustalar Əliqulu və Qurbanəlinin, rəssam-nəqqaş Mirzə Cəfərin adlarına rast gəlmək mümkündür. Divarlardakı kitabələrdən məlum olur ki, həmin sənətkarlar XlX əsrin sonunda binada işləmişlər. Dünya abidələri siyahısına daxil edilmiş bu sarayın özünəməxsus inşa üslubu var. Burada tətbiqi incəsənətin bir çox növləri, eləcə də XVIII-XIX əsrlərə məxsus divar rəssamlığı nümunələri öz əksini tapıb(bax Şəkil-3).

Yusif Küseyr oğlu türbəsi Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1162-ci ildə Naxçıvan şəhərinin cənub-şərq tərəfində inşa edilmişdir.El arasında "Atababa günbəzi" kimi də tanınan abidə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir.Türbənin bütün səkkiz səthi müxtəlif şəkilli həndəsi ornamentlə bəzənib. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, sonra gəc məhlulu ilə tavalar şəklində bərkidilərək səthlərin üzərində möhkəmləndirilib. Quruluşu etibarilə türbənin yalnız bir səthi, qərb tərəfə baxan səthi, başqa şəkildə həll edilib. Burada türbənin giriş qapısı yerləşdirilib. Çatmatağ şəkilli bu qapı üzərində haşiyələr formasında verilmiş həmin hissə çıxıntılar vasitəsilə bir portal şəklini alıb.(bax Şəkil-4).

NƏTİCƏ

Hər keçmiş tarixi abidənin özünə xas xüsusiyyətləri və istifadə olunan materialları var.Buna görə bərpanın başlanğıcında hər nə qədər əvvəlki vəziyyətə uyğunlaşdırmaq dursada,onun tarixi bir o qədər vacib faktordur.Bununla belə bir çox abidənın bərpası aparılır və tarixi anlaşılmağa davam edir.Bərpa bu şəkildə professional ixtisaslaşma sahəsinə çevrildi.

ƏDƏBİYYAT SİYAHISI

1.Zahidə Məmmədova.Bərpanın elmi-nəzəri əsasları,Bakı,2007
2. Zahidə Məmmədova.Memarlıq abidələrinin bərpasının əsasları,Bakı,2004
3. Гендель Э.М. Инъенерные работы при реставрации памятников архитектуры.М.1980.-198 с.
4. Prof.Dr.Ramiz Abdülrahimov-Restorasyonda yapım teknikleri-Trabzon,1999.
5. Memarlıq abidələrinin bərpasında mühəndis problemləri. Memarlıq fakültəsinin magistrləri üçün metodik vəsait,Bakı,2004.35s.

İÇƏRI ŞƏHƏRIN BAKININ DƏYİŞƏN OBRAZINDA DƏYIŞMƏZ YERİ

LƏMAN ABDULLAZADƏ VAQIF
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat / Memarlıq və Dizayn
Laabdullazada@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Bakı şəhərinin tarixinin orta əsrlərə dayanmasın canlı nümunəsi olan İçəri şəhərin Bakının obrazında əhəmiyyətli yer tutur. Bakı şəhərinin ən zəngin və ən qədim nümunələri əsasən orta əsrlərdə inşa olunmuşdur. Bu nümunələrə Romana qalası, Məhəmməd məscidi, Nardaran qalası, Şah məscidi, Atəşgah tikilisini və Hacı Qayıb hamamını misal olaraq göstərə bilərik. Lakin orta əsrlərdən günümüzə qədərki inkişaf mərhələləri fərqli olduğundan hər yeni mərhələ İçəri Şəhərin Bakının bədii estetik obrazı baxımından müəyyən təsirlərə məruz qalmışdır. İnkişaf mərhələlərində xaotik görünüşlü İslami şəhər strukturlu İçəri şəhəri dəfələrlə müxtəlif yanaşmalarla avropasayağı nizamlı küçə və meydanlarla əvəz olunması istənilsə də müxtəlif planlar qurulsa da xoşbəxtlikdən şəhər özünəməxsus strukturunu qoruyub saxlaya bilmişdir.

AÇAR SÖZLƏR: İçəri şəhər, Bakı şəhəri, vizual obraz

GIRIŞ

Bakı şəhərinin tarixinə nəzər yetirsək, onun sorağı çox uzaq keçmiş ənənələrə getdiyini görə bilərik. Tarixi islam şəhəri olan Bakı Xəzərin əsasən qərb sahili istiqamətində , şimal istiqamətdən küləklərinin daim əsdiyi, qərb və cənub istiqamətdən yüksək təpələr və dağlarla əhatələnmiş çökəklikdə yaradılmışdır. Yanar torpaqların çox olduğu şəhərin adı elə ərazisinə uyğun şəkildə "Odlar diyarı" kimi tariximizin səhifələrinə qeyd olunmuşdur. Şəhərimiz Asiya qitəsində məskunlaşmış atəşpərəstlərin müqəddəs dini mərkəzlərindən sayılmışdır. Bakı şəhərini Azərbaycanın digər şəhərlərindən fərqləndirən cəhət qədim dövrlərdən müqəddəs mərkəz sayılması və bədii estetik obrazının fərqli şəkildə qurulması idi. Amfiteatr şəklində yaranmış şəhər orta əsrlərdən təbii – coğrafi elementləri zənginliyi ilə diqqəti çəkmişdir. Bakı şəhərinin adı müxtəlif dövrlərdə müxtəlif adlarla adlandırılsa da, adların mənası hər zaman eyni məna kəsb etmişdir – "Tanrının şəhəri". Mənasının "Tanrının şəhəri" olması burada daimi şəkildə güclü küləklər əsməsi ilə əlaqələndirilmişdir.

Bakı şəhəri əsasən XX əsirin 2 – inci yarsından etibarən şəhərlər arası liman şəhəri və ticarət mərkəzi rolunu oynayırdı. Bir çox xəritələrdə "Liman şəhəri" və bəzi hallarda "Ticarət mərkəzi" adlanan şəhərdə sakinlərin və şəhərə gəlibdə məskunlaşan əhalinin məşğuliyyəti əsasən dənizçilik idi.

11 – 12 – ci əsrlərdə Şirvanşahlar dövlətinin şəhəri olan Bakı şəhəri ərazisinə görə Şamaxı şəhərindən sonra gələn ikinci böyük şəhərlərindən biri idi. Şəhəri əhatə edən 1 - ci qala divarları da əsasən bu dövrlərdə tikilmişdi. XII əsrlərdən sonrakı dövrlərdən 1 – ci qala divarına nisbətən alçaq şəkildə tikilən divarı inşa olunduğu ehtimal olunur.

Orta əsrlərdə şəhərdə istehkam sistemi halqavari sistem şəkildə qurulmuşdur. İstehkam sistem şimal istiqamətindən, cənub istiqamətindən və dəniz istiqamətindən hücum edən düşmənlərin hücumlarını dəf etmək üçün yaradılmış sistem idi. Bakı şəhərini dəniz istiqamətindən düşmənlərdən qorumaq üçün və Xəzər dənizi sahili istiqamətində güclü donannma yaratmaq məqsədi körfəz daxilində yerləşdirilmiş "Bayıl qalasını" inşa etdilər. Təəssüfki "Bayıl qalası" 1306-ıncı illərdə baş vermiş güclü zəlzələ nəticəsində suyun altında qalmışdır. O zamanlar maraqlı təbii – coğrafi dominatn və aksentə malik şəhərin yüksək hissəsində inşaa olunan Şirvanşahlar saray kompleksi Şirvanşahlar dövlətinin hakimiyyəti dövrünə təsadüf edir.

Şirvanşahlar saray kompleksinin fasadının zəngin rəngli qaşlarla bəzədilməsi sarayı görənləri hələ o dövrlərdən valeh etməyi bacarırdı. Şirvanşahlar dövlətinin ikinci böyük şəhəri Bakı şəhəri zaman-zaman hücum və qarətlərə məruz qalırdı.Və bu neqativ halların baş verməsi səbəbindən günümüzə qədər sarayda olan əşyalardan heç biri qalmamışdır.

Hazırda İçəri şəhər qala divarları içərisində gördüyümüz mədrəsə,məscid,karvansaralar və hamamlar Şirvanşahlar dövlətinin hakimiyyəti dövründə inşa olunmuş abidələrdir.

Bakı şəhərinin memarlıq və şəhərsalma baxımından ən yüksək inkişaf dövru orta əsrlərə (XII - XV) təsadüf edir.

Bakı (İçəri şəhər) bir çox tarixi dövrlərdən keçmişdir:

- XII əsrdə Şirvanşahlar dövləti;
- XVI əsrdə Səfəvilər dövləti;
- XVII əsrdə Osmanlı imperiyası;
- XVIII əsrlərdə isə Bakı xanlığının tərkibində əsas şəhərlərindən biri kimi qeyd olunmuşdur.

Müharibələr, döyüşlər, hücumlar bütün dövlətlərdə olduğu kimi Azərbaycandan o cümlədən Bakı şəhərindən də yan keçməmişdir. Bu neqativ hallar təbii ki, şəhərin mədəni və iqtisadi inkişafına hər zaman maneçilik törətmişdir.

XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə kimi Bakı şəhəri bu zamanlar Azərbaycanda yaranan çoxlu sayda xanlıqlardan biri olan "Bakı xanlığı" tərəfindən idarə edilmişdir. Bakı şəhərinin Qoşaqala qapısının sol hissəsində "Xan" sarayı tikilisi yerləşirdi. O dövrlərdə zəngin landşaft elementləri ilə bəzədilmiş həyəti ilə və memari cəhətdən gözoxşayan 2 mərtəbəli kompleksdən ibarət idi. Lakin rus istilasından sonra dövrünün böyük ölçüyə malik tikilisi olan "Xan" sarayı tikilisi memarlığında böyük dəyişikliklər edilmişdir. Bu əzəmətli tikilidən günümüzə sadələşdirilmiş portal və kiçik məscid gəlib çata bilmişdir.

1859 - cu və 1860 – cı illərdə imperator Aleksandrın qərarı ilə Bakı şəhərində Bakının quberniyası yaranır. Bakının qubernatoru şəhərin abadlaşdırılması məqsədilə 1883 - üncü ildə 2-ci qala divarının sökülməsi qərarını alır.

"Şah Abbasın qapısı" 1886-cı ildə "Şamaxı qapısı" yaxınlığında inşa olundu. Memarlıq quruluşu baxımından çox maraqlı və diqqəti çəkən kompozisiya, "Qoşa qala qapıları" yaradıldı və şəhər "İçərişəhər" və "Bayır şəhər" adlandırılmağa başladı.

Tariximizin möhtəşəm nümunəsi olan İçəri şəhər və şəhərin qala divarları ilə əhatə etdiyi möhtəşəm abidələr qala divarının xaricində olan tikililərlər təmasda olmadığından özünəməxsus memarlıq və şəhərsalma quruluşunu qoruyub saxlaya bilmişdir.

Bakı şəhəri yuxarıda da qeyd olunduğu kimi hələ qədim zamanlardan sıx məskunlaşmış şəhərlərdən biri кimi əhəmiyyətli ticarət yollarına bağlı, məhsuldar torpağı, bol suyu olduğundan zaman – zaman yüksəliş dövrlərini yaşamışdır.

Əsrlərlə odlar yurdu кimi tanınmış Bakı şəhəri əlverişli təbii iqlim şəraitinə, sütətlə inkişaf edən iqtisadiyata, ticarət və sənətkarlığna görə daim diqqət mərkəzində olmuşdur.

Orta əsrlərdə yüksək təpə üzərində amfiteatr şəklində formalaşan şəhər üçqat qala divarları, "Qız qalası" və digər müdafiə qurğuları ilə əhatə olunmuşdur. Qala divarı içərisində olan bütün tikililər (Şəhristan)də müdafiə xarakterli olmaqla şəhərin plan quruluşu qorunmaq üçün əlverişli labirint şəklində formalaşdırılmışdı.

Qala divarları ilə əhatələnmiş İçəri şəhər Bakı şəhərinin bünövrəsini təşkil edir. Orta əsrlərdən usta memarların ərsəyə gətirdikləri memarlıq abidələri ilə zəngin, Avropa ölkələrindən fərqli olaraq,canlı orqanizm şəklində inkişaf etmiş İçəri şəhər 22 hektar ərazini əhatə edir.

İçəri şəhərin qala divarları 12- ci əsrlərdə çəkilmiş, İçəri şəhəri əhatələyən qala divarları dənizin 26-30 metr dərinliyinə qədər uzanaraq "qapalı liman" yaratmışdır.
Burada tikilən əsrarəngiz memarlıq nümunələri əsasən Şərq və Avropa ənənələrinin birləşməsi və sintezi ilə yaranan üslubda inşa edilmiş və İçəri şəhərin bədii estetik obrazının əsasını təşkil etmişdir.
Şirvanşahlar saray kompleksi, çox saylı karvansaralar, məscidlər, hamamlar, bazar meydanı və meydana yaxın "Qız qalası" orta əsr şəhərinin əsas dominant və aksentləri olaraq şəhərin özünəməxsus simasını formalaşdırmışlar.
Bakı şəhərinin obrazı qədim dövrlərdən formalaşmağa başlamışdır. Əsasən Bakı şəhəri və Abşeron yarımadası ərazilərində hələ o dövrlərdən çoxlu sayda əhalinin məskunlaşdığı deyilir. Buna səbəb isə Bakı şəhərinin ticarət məntəqəsi mərkəzi üzərində yerləşməsi Şərqdən-qərbə, cənubdan-şimala gediş-gəlişin rahat olması, iqlim şəraitinin uyğun olması və Bakı şəhərinin neftin mərkəzi olması göstərilir. Bakı şəhəri ərazisində arxenoloji qazıntılar zamanı tapılmış qədim insanların yaşayış məntəqələri materialları, Bakı şəhərinin təxminən eramızdan əvvəl birinci və üçüncü minilliklərdə formalaşdığını bir daha sübut edir. Şəhərin tam dəqiq yarandığı vaxt isə hələki dəqiqləşdirilməmişdir lakin ərazisində yerləşən abidələrin nə zamandan yaradıldığını qeyd etsək şəhərin tarixinin çox qədim zamanlara getdiyinin şahidi olarıq.
Azərbaycanın memarlığının əsrarəngiz abidə nümunələrindən sayılan "Qız Qalası"İçəri şəhər qala divarlarının şərq-cənub istiqamətində inşa olunmuş abidədir. Qız qalası abidəsinin ümumi diametric təxminən 16-17 metr ərazini əhatələyir. Hündürlüyü isə 29-30 metr təşkil edir. Səkkiz yarusdan təşkil olunan abidənin divar qalınlıqları da çoxdur. Qalanın alt hissəsində 5 metr, üst hissəsində isə 4 metrdən ibarətdir. Qız qalası, Şirvanşahlar saray kompleksi və ümumilikdə İçəri şəhər 2000-ci ildə UNESCO-nın "Ümumdünya mədəni irsi" siyahısına əlavə olunmuşdur.
İçəri şəhərin yer üstü və yer altı hissəsi mövcuddur.Yeraltı hissəsindən müxtəlif yerlərə keçid rolunu oynayan yolların olması deyilir.
Bütün orta əsr tarixi şəhərləri sonrakı inkişaf dövrlərində tədricən böyüyən şəhər strukturlarında öz mövqelərinə görə əhəmiyyətli rol oynamışlar. Hər zaman şəhərlərin nüvəsini təşkil edən orta əsr qala şəhərləri bu və ya digər şəkildə yeni yaranan strukturların əhatəsində qalsada hətta bəzi hallarda önü kəsilən hissələri olsada böyüməkdə olan şəhərlərin bədii obrazlarının dominantları olaraq qala bilmişlər. Bu baxımdan içəri şəhərdə daim böyüyən Bakı şəhərinin ümumi obrazında əhəmiyyətli dərəcədə rol oynamışdır. Xoşbəxtlikdən içəri şəhər yaranılışından dəniz sahilində olduğundan demək olarki, dəniz tərəfdən olan panoram görüntüsü şəhərin ümumi obrazında öz dominant rolunu itirməmişdir. Bakı şəhərinin İçəri şəhər qala divarlarının ətrafındakı sonrakı inkişafına nəzər yetirsək şəhərin ümumi plan-məkan strukturunda tarixi şəhərin dominant mövqeyini görmək olar.
Orta əsrlərdən günümüzə qədərki inkişaf mərhələləri fərqli olduğundan hər yeni mərhələ içəri şəhərin Bakının bədii estetik obrazı baxımından müəyyən təsirlərə məruz qalmışdır. Beləki,içəri şəhərin özünün bədii obrazında əsas rol oynayan dominant və aksentlər sonrakı inkişaf dövrlərində ətrafda diqqəti çəkən yeni yaranmış vizual aksentlərin kölgəsində qalır. Bununla belə içəri şəhərin monolit bütöv görüntüsü və daim öz estetik əhəmiyyətini itirməyən Şirvanşahlar saray kompleksi,Qız qalası və digər zəngin memarlıq abidələri İçəri şəhərin böyüyən şəhər obrazında dəyişməz əhəmiyyətini qoruyub saxlaya bilmişdir.
Şamil Fətullayevin kitabındanda gördüyümüz kimi 1806-il tarixindən 1918-ci il tarixinə kimi bakı şəhərin inkişafında içəri şəhər ətrafındakı şəhər strukturlarının inkişafını izləmək olar.(Əhmədli tikililəri)
Ümumilikdə Bakı şəhərinin həm plan məkan strukturunda, həm onun bədii estetik obrazında İçəri şəhərin estetik və vizual əhəmiyyəti tarixi şəhərin özünəməxsus monolit strukturu ilə izah olunmalıdır. Klassik müsəlman şəhərsalması nümunəsi olan içəri şəhər rus istilası dövrlərində ciddi basqılara, xırda söküntülərə və dəyişikliklərə məruz qalsada, öz ənənəvi quruluşunu qoruyub saxlaya bilmişdir. Hələ rus istilasını ilk dövrlərində şəhərin plan quruluşunun dəyişdirilməsinə dair bir neçə layihələr hazırlanmışdır.
XVIII əsrin əvvəlindən etibarən İçəri şəhərlə bağlı əsas üç istiqamətdə yanaşmanın olduğu göstərir:
I yanaşma-İçəri şəhərin daxilində rekonstruktiv tədbirlərlə nizamlı strukturun yaradılması məqsədi;
II yanaşma-İçəri şəhərə bitişik şəkildə yeni nizamlı strukturli ikinci qala şəhərinin planlaşdırılması;
III yanaşma- İçəri şəhərdən kənarda yeni avropa tipli qala şəhərinin yaradılması.
Təklif olunan rekonstruksiya layihələrindən görünür ki, şəhər avropa şəhərsalma qanunlarına uyğun şəkildə yenidən planlaşdırılması nəzərdə tutulmuşdur. Belə ki, xaotik görünən islam şəhər strukturu nizamlı küçə və meydanlarla əvəz olunması istənilir.Əslində bu cür yanaşma digər tarixi müsəlman şəhərlərinin də başına gətirilmişdir. bariz nümunəsi olaraq Həmədan şəhərinin bir mərkəzdən altı bərabər hissəyə bölünməsini göstərmək olar.

Tarixi şəhərlərin ümumi cəhətləri ilə yanaşı fərqli cəhətləri ilə də tanınmışlar. Mədəniyyətlər, fərqli dövrü formalaşmalar özünəməxsus şəhər strukturlarının formalaşmasına səbəb olmuşdur. İslam mədəniyyətinin müsəlman dünyasında tam fərqli struktur quruluşuna malik şəhərlərin formalaşmasına təsir etmişdir. İçəri şəhərdə bunlardan birisidir.

Avropa mədəniyyətlərinin (xristian aləminin) yaratmış olduğu şəhərlərdən fərqli olaraq müsəlman şəhəri monolit və orqanik strukturu ilə bənzərsizdir. Elə bu səbəbdən avropa şəhər strukturları ilə ziddiyət təşkil edir. Bu səbəbdən də Avropa istilalarından sonra müsəlman şəhər strukturları dağılmalara məruz qalmışdır. Səbəb isə təkcə istila siyasəti yox, həm də dövrün mütəxəssislərinin fərqli baxış və qavrama xüsusiyyətləri olmuşdur. Həm avropa, həm də rus səyyah, rəssamlarının müsəlman şəhərlərinə baxışları tarixi qravyuralarında, rəsm əsərlərində mühəndis cizgilərində öz əksini tapmışdır. Evlərin müxtəlif təyinatlı tikililərinin bir baxışda sayıla bildiyi avropa tarixi şəhərlərdən fərqli olaraq, müsəlman şəhər strukturlarında evlərin sayılmasında çox həyətlərin sayıla bilməsini görürük. Elə bu səbəbdən də Avropa mühəndislərinin İçəri şəhər,Şamaxı şəhəri,İrəvan şəhəri və s. Tarixi şəhərlərlə bağlı cizgilərində yalnış olaraq panoram görüntülərində onlar evləri düzülmüş, sayıla bilən, küçələri düzgün meydanları açıq şəkildə təsviri olunmuşdur. Dövrünün realist rus rəssamı Vereşagininrəsm əsərində isə içəri şəhərin monolit quruluşunu görmək mümkündür. Qeyd olunan yalnış baxış, təsəvvürlər tarixi müsəlman şəhərlərinin "taleyində"ciddi ziyanlara yol açmışdır. Beləki, Avropa öz mədəni dəyərlərini qəbul etdirmək üçün tarixi müsəlman şəhər strukturlarını "doğrayaraq", "nizam-düzən" yaratmaq istəmişlər, özünəməxsus islam şəhəri obrazını dəyişdirməyə nail olmuşlar.Bu vəziyyəti demək olarki, istilaya məruz qalmış bütün müsəlman şəhərlərinə aid etmək olar. Məşəd,Həmədan və s bu tip şəhərlər haqqında şəhərlərin günümüzə çatmış plan-məkan quruluşlarında bunların izlərini görmək mümkündür.

Təəssüflə qeyd etmək lazımdırki, bütün bunlar günümüzə qədər milli şüurumuza da hakim kəsildiyindən ənənəvi şəhərsalma mədəniyyətimiz itirilmiş layiq inkişaf yolunu müəyyən olunmamışdır. Təbii ki, burada biz daim universallaşan şəhərsalma prinsiplərinin də rolunu görməzdən gələ bilmərik. Bununla belə unutmaq olmazki, şəhərlər sosial həyatımızın, psixoloji mənliyimizin, mədəni varlığımızın güzgüsü, yaşam alanıdır. Öz milli, mədəni varlığımızı qorumaq üçün ənənəvi dəyərlərə əsaslanan şəhərsalma prinsiplərini yaşatmalıyıq.

Nəzərə almalıyıq ki, bütün tarixi müsəlman şəhərləri o cümlədən ,İçəri şəhər XVIII yüz illikdən başlayaraq ingilis, alman, fransız, rus istilası dövrlərindən şəhərlər avropa ənənəsinə uyğun şəkildə inkişaf etməyə başlamış, ənənəvi strukturlar isə dəyişməyə məruz qalmışdır. Bu baxmdan İçəri şəhər digər tarixi Müsəlman şəhərlərindən fərqli olaraq sonrakı inkişafın şəhər kənarında baş verməsi ilə bağlı az zərər görmüş, demək olarki ənənəvi şəhər strukturunu günümüzə qədər qoruyub saxlaya bilmişdir. Bunun tam tərsi olaraq(şəhərsalma nöqteyi nəzərdən) Gəncə şəhərini misal götürsək görərik ki, düzbucaqlı plan quruluşuna malik gəncəni uzunu istiqamətdə yarı bölən dəmir yolunun inşası demək olarki tarixi Gəncə şəhərinin ənənəvi strukturunu tamamilə dağıtmişdir.Bu misalların sayını digər müsəlman şəhərləri üzərindən xeyli artırmaq olar. İçəri şəhər ətrafı sonrakı inkişfa gəldikdə xoşbəxtlikdən İçəri şəhərin özünə heç bir zədə toxunulmamış, Avropa tipli şəhər strukturu nəhayət bu günki Təzə pir məhəlləsində reallaşdırıla bilmişdir.Forştat adlandırılan tarixi strukturla tam Avropa şəhərsalma prinsipləri əsasında qurulmuşdur.Burada diqqəti çəkər bir şeyi qeyd etmək lazımdır ki, düzbucaqlı biçimdə planlaşdırılmış kvartallar sonradan daxilə doğru sıxlaşmış, İslam şəhərsalmasının qanuna uyğunluqlarına oxşar şəkildə kiçik dalanların formalaşması meydana gəlmişdir.

Bakının kapitalist dövrü inkişafı mərhələlərinin şəhərin bədii estetik obrazına təsiri baxımından dəyərləndirdiyimiz zaman belə bir qənaətə gəlmək mümkündürki, İçəri şəhərin ümumi şəhər bədii estetik obrazında demək olar ki, əhəmiyyəti zədələnməmişdir.[Şəkil 1.][Şəkil 2.]Bütün hallarda orta əsr tarixi şəhərin dəniz tərəfdən görüntüsü (xəttində) istiqamətində iri miqyaslı binalar inşa edilmədiyindən İçəri şəhər öz zəngin bədii estetik obrazını qoruyub saxlaya bilmişdir. Şəhərin aparıcı dominant və aksentləri olan sirvanşahlar saray kompleksi, qiz qalası və digər dini ictimai binalar vizual məzmunun formalaşmasında aktiv rol oynamışlar. İçəri şəhərin qala divarları yaxınlığında şimal – qərb, şimal cəbhələrində inşa olunan binalara gəldikdə isə bu günki Bakı icra hakimiyyəti binası, İqtisad universitetinin, Əl yazmalar institutunun, AMEA reyaset heyyəti və s. binasların timsalında müasir Bakının zəngin tarixi irsi ilə qarşılaşmış oluruq.

Şəkil 1. 1895– ci il. Şəkil 2. 1900 – cü il.

Ümumiyyətlə kapitalist dövrü xoşbəxtlikdən içəri şəhərin özəlliyinə xələl gətirə biləcək ön kəsmə hallarına yol verilməmiş inşa olunan binalar 3 – 4 mərtəbədən çox tikilməmişdir. Əksinə zəngin, bir çox baxımdan maraqlı tip tikililərin inşasi bu dövrə məxsus olmuşdur.

TƏDQIQAT METODU

Foto və tarixi materialların qraf-analitik təhlili, klassifikasiyası, sistemləşdirilməsi üzərində qurulmuşdur.

NƏTICƏ

Ümumiləşdirərək demək olar ki, Bakıda (İçəri şəhər) və Bakının məhəllələrində yenidən qurma işlərinin aparılmasından ötrü onun planlaşdırma strukturunun tarixi haqqında geniş məlumata malik olmaq lazımdır. Bu isə yalnız arxiv, mətn, qrafik və digər sənədlərin öyrənilməsi, əsaslı mövcud tikintinin, həmin dövrün mühüm memarlıq abidələrinin qiymətinin aşkar edilməsi əsasında mümkündür. Bütün bu materiallar Bakı da daxil olmaqla qədim şəhərlərin yenidən qurulması vəzifəsinin mahiyyətinə varmağa kömək edir. Məhz buna görə də 19-cu əsr və 20-vi əsrin əvvəllərində Bakının şəhərsalması haqqında monoqrafiya bu qədər aktualdır. Çünki keçmişin xüsusilə yaxın keçmişin təcrübəsindən istifadə etmədən şəhərin perspektiv inkişafı ilə bağlı məsələlərin düzgün həlli yollarını müəyyənləşdirmək mümkün deyildir.

ƏDƏBIYYAT SIYAHISI

5. Şamil Fətullayev “Bakının Memarlıq Ensiklopediyası”, "Şərq-Qərb" Nəşriyyat Evi. **(Kitab)** Bakı - 2013
6. S. Aşurbəyli “Bakı şəhərinin tarixi”. **(Kitab)** Bakı – 2007
7. Sadıq Dadaşov “Bakının memarlıq abidələri”. **(Kitab)** Bakı - 1955.
8. Şamil Fətullayev «XIX-XX əsrin əvvəlləri Bakının şəhərsalma memarlığı». **(Kitab)** Bakı - 1978
9. Qilman İlkin “Köhnə Bakını tanıyırsanmı”, Şirvan nəşr. **(Kitab)** Bakı – 2004

TODAY'S PROBLEMS OF BATHS İN ABSHERON ARCHİTECTURE

AYGÜN İLHAM QIZI ŞƏRİFOVA
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat /Memarlıq və Dizayn
asherifova@std.beu.edu.az
XIRDALAN,AZƏRBAYCAN

AYSEL HÜSEYNZADƏ AMİL
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Memarlıq və Dizayn
aysel.huseynzade2015@gmail.com
XIRDALAN,AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə Abşeron memarlığında hamamların bugünkü problemləri haqqında danışılır. Azərbaycanın hamam abidələri insanların həyatında həmişə xüsusi yer tutmuşdur. Hazırda tarixi hamam abidələrinin bir çoxu memarlıq abidəsi kimi qorunub saxlanılır, bir neçəsi isə istifadə olunur. Azərbaycanın arxitekturasında hamam abidələri bütün tarixi zamanda mühüm əhəmiyyəti olmuşdur. Hamam abidələri orta əsrdə şəhər arxitekturasının mühim inşalarından sayılır. Abşeron ərazisində inşa olunan həmin tarixi hamam abidələrin memarlığı, tarixi və problemlərinin təhlili ilə yaxından tanış olacağıq.

AÇAR SÖZLƏR: Abşeron hamamları, Abşeron abidələri, abidə problemləri

Abstract

The article discusses the current problems of baths in Absheron architecture.Bath monuments of Azerbaijan have always had a special place in people`s lives.Today many historical bath monuments are preserved as architectural monuments,and some are used.Bath monuments have been important in the architecture of Azerbaijan throughout history.Bath monuments are considered to be one of the most important constructions of medieval urban architecture.We will get acquainted with the analysis of the architecture,history and problems of these historical baths builth in the territory.

Key words: Absheron baths, Absheron monuments, monument problems

GİRİŞ

Abidənin mühafizəsi tədbirlərinin bəziləri bərpaçılar tərəfindən müvafiq obyektin hərtərəfli müayinəsi və vəziyyətinin qiymətləndirilməsi ilə başlayır və zəruri hallarda konservasiya və ya bərpa ilə başa çatır. Abidələr bizə keçmişi və tariximizi xatırladan dəyərli mədəni irsi təmsil edir. Bunlar heykəllər, binalar, abidələr və ya digər incəsənət və mədəniyyət sərvətləridir.

Abidələrin mühafizəsi ilə bağlı ilk müasir qanunlar 100 ildən çox əvvəl qəbul edilmiş və o vaxtdan bəri davamlı olaraq inkişaf etdirilmişdir. Abidələrdə ən çox görülən işlərdən biri sadə il boyu qulluqdur. Buraya müxtəlif xidmətlər, təmir-bərpa işləri, konservasiya tədbirləri və ya müntəzəm rəngləmə işləri, yaxın ətrafı da daxil olmaqla abidənin təmizlənməsi və baxımı daxildir. Bərpa ilkin vəziyyətin bərpasına xidmət edir, konservasiya tədbirləri isə abidəni məhv olmadan profilaktik olaraq qorumaq məqsədi daşıyır. Hər iki halda bərpaçılar tərəfindən kimyəvi, bioloji və fiziki təsir göstərən çox fərqli abidə mühafizə tədbirlərindən istifadə oluna bilər. Konservasiya edərkən, məsələn, obyektin havaya məruz qalmaması üçün bir dam tikmək buna misaldır. Abidə konservatoru peşəsi üçün abidənin mühafizəsi üzrə təhsil və ya dərəcə tövsiyə olunur. Kurs texniki kolleclərdə, universitetlərdə və xüsusi institutlarda tamamlana bilər. Perspektivli abidə konservatorları və bərpaçıları tədbirləri səriştəli, peşəkar və davamlı şəkildə həyata keçirməyə kömək edən elmi əsasları və texniki bacarıqları öyrənirlər. Abidələrin əksəriyyəti unikal və əvəzolunmazdır, buna görə də abidələrin mühafizəsi üzrə yaxşı təhsil öz bəhrəsini verir. Abidə mühafizəsi termini mədəniyyət abidələrinin və mədəni-tarixi cəhətdən aktual olan sistemlərin fəal mühafizəsinə aiddir ki, bunun üçün ansambl mühafizəsi termini də istifadə olunur.

TƏDQİQAT METODU

Hər bir xalqın zəngin mədəni irsini təsdiqləyən elementlərdən biri də tarixi tikililər və tarixi yerlərdir. Bunu respublikamızın ərazisində olan qədim yaşayış yerləri, müxtəlif dövrlərdən çıxaraq bu günə gəlib çatmış qiymətli tarixi tikililər də aydın göstərir. Ölkəmizdən kənarda yerləşən elə məhz Azərbaycana

məxsus abidələrin müvafiq icra hakimiyyəti orqanı xüsusi siyahı tərtib etməklə dövlətin qeydiyyatına alır və onların bərpası, qorunması ilə bağlı problemlərin həllində abidələrin yerləşdiyi ölkələrin müvafiq orqanları ilə əməkdaşlıq edir.

Azərbaycanın paytaxtı Bakı mühüm sərvətlər şəhəridir və bu, şəhərin memarlığında öz əksini tapır. Bu gün şəhərin memarlığında artıq təkcə orta əsr qalalarının qüllələri deyil, həm də futuristik göydələnlərin formaları üstünlük təşkil edir. Xoşbəxtlikdən, tarixi şəhər mərkəzi İçərişəhərin gözəlliyi zamanın dağıdıcılığından xilas olub. Köhnə şəhərdə ziyarət edilə bilən çoxsaylı binalar UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmişdir .

Yalnız Bakının deyil, Abşeron zonasının digər bögələrində də zəngin memarlıq abidələri mövcuddur Ölkəmizdə bir qədər məşhur tarixi abidələr mövcud olmaqdadır. Onlardan tarixi hamam abidələri ən məşhurlarındandır. Hamamlar Orta əsrlərdən bəri müxtəlif cür tikiliblər. Abşeronunda XVIII əsrə qədər gedib çıxan qum hamamlarına daha tez-tez rast gəlinir. Bu hamamlar yerin altında inşa edilmiş tikiliərdir. Bəziləri yerin üstündə, bir bəziləri isə yerin üstündə tikilib. Bu tikililər həmçinin ona görə qiymətlidir ki, onların yaradıması zamanı texnika yox idi, belə abidələr ustaların əlinin əməyidir. Digər üstünlük ondadır ki, yerin altında hamamların tikilməsi soyuq aylarda istiliyi saxamaq, su axınını və kanalizasiya sistemini təmin etmək məqsədi idi. XIX əsrdən Avropa tipli hamamlar yaranmağa başladı. Şərq ölkələrində hamamlar mədəniyyətin müəyyən hissəsini təşkil edirdi. Bu səbəbdən hamamların qorunması vacib vəzifələrdəndir. Azərbaycanın bütün bölgələrində hamam abidələrinə rast gəlmək mümkündür. Abşeronun kəndlərində bir neçə ictimai hamam abidələri mövcuddur.

Yaşı yüzillikləri keçən hamam abidələri var. Bu abidələr xalqımızın adət-ənənəsinin bir hissəsi kimi uzun bir müddət ərzində fəaliyyət göstərmişlər. Hamamların bir qismi isə bərpa olunaraq qalereya, muzey kimi fəaliyyət göstərməkdədir. Abşeron bölgəsində dövlətin mühafizəsinə götürülmüş 54 tarixi hamam qeydə alınmışdır. Konservasiya və bərpaya ehtiyacı olan hamam abidələri investisiya planına salınır və ona uyğun işlər görülür.

Abşeronda yerləşən digər hamam abidəsi isə Qasım bəy hamamıdır. Belə ki, hamamın yuyunma yeri, hovuzu, soyunub-geyinmə otağı və qazanxanadan ibarətdir. Burada mühim problemlərindən biri abidənin qorunub saxlanılması əvəzinə aptek kimi istifadə olunması olmuşdur. Ancaq bu gün orta əsrlərə məxsus bu tikili mühim abidə kimi dövlət tərəfindən qorunmaqdadır. Həmin hamam abidəsi başqa hamamlardan daxili otaqların geniş olması ilə fərqlənir. Memarlıq kompozisiyasını günbəzlər və çatma tağlar proporsional yaruslara bölür. Abidə ölkəmizin qədim hamam abidələrinin quruluşu və strukturu ilə tanımaq istəyən çox saylı turisti cəzb edir (Bax şəkil-1)



ŞƏKİL-1

XX əsrin başlanğıcında Saray hamamının təkcə günbəzlərinin qalıqları torpaq altından görünürdü. Saray hamamı Şirvanşah dövlətinin mövcud olduğu zaman tikilmişdir. Tarixçilərin söylədiklərinə əsasən həmin hamamda tarixi ornament və yazılar mövcud olmuşdur. Bu hissədə mühim problem tarixi tikilinin

qorunmaması və torpağın altında qalması ilə şəbəkə təşkil eləyən yazılar və ornament tamamilə məhv olmuşdur. Təkcə kiçik bir hissədə kaşı bəzəklərinin fraqmentləri qalmaqdadır.

2016-cı ildə son orta əsrlərə aid olan Qoşa qala qapısı , yaxınlığında aparılmış arxeoloji qazıntı işlərində hamam tikilisinin qalıqları aşkar olundu. Orta əsrlərdə Bakıda gigiyena və sanitariya qaydalarına mütləq əməl olunurdu. Həmin səbəbə görə qədim İpək yolu vasitəsilə şəhərə daxil olan tacirlər gömrük xəttini keçdikdən sonra hamama göndərilir və yalnız təmizləndiyi təqdirdə onların şəhərə daxil olmalarına icazə verilərdi. Həmin tarixi tikili üçün də mühim problem onu qorumaq və ya saxlamaq əvəzinə XIX əsrdə Bakının ruslar tərəfindən işğalı zamanı hamamın fəaliyyəti dayandırıldı və günbəzlər söküldü, otaqları təsərrüfat tullantıları, torpaqla dolduruldu və ərazisində hərbi komendatura yerləşdirilmişdir. (Bax şəkil-2)

ŞƏKİL 2

Bakinin qədim kəndlərindən biri olan Pirşağı təxminən XVII əsrdən etibarən formalaşmağa başlamışdır. Kəndin daxilində çoxsaylı tarixi tikililər olsa da, bəziləri zamanla aşınmaya uğrayıb və sıradan çıxmışdır. Pirşağıda diqqətdən kənarda qalan, dağılıb, uçulmaq üzrə olan tarixi tikililərdən biri də adı məlum olmayan hamamdır. Nə zaman tikildiyi də məlum olmamışdır. Hazırda ətrafı hər hansı bir şəxs tərəfindən hasarlanıb və hamamın olduğu ərazini özəlləşdirib. Hamamın adı naməlum olduğu üçün "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil olunmayıb. Yəni, hamam tarixi tikili sayılmadan məhv olub gedir. Bu da təbii ki, tarixi tikililər üçün ən actual problemdir. Abşeronda orta əsrlərdə çoxlu sayda hamam abidələri inşa olunsa da bu günə qədər çox az sayda hamam qalıb. Abşeronun yaşayış məntəqləinin planlaşdırılmasında hamamlar dini binalardan sonra üstün rol oynamışdır.

Bu gün ölkənin sürətli inkişafı, şəhərlərin genişləndirilməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi və yenidən tikilməsi, müasirləşməsi bütün dünyada olduğu kimi Azərbaycanda da tarixi irsə təhlükə yaradır.

Digər mühim problem isə mövcud olmuş tarixi hamam tikililərin artıq aşınması və sıradan çıxması probemidir. Vaxtılə həmin tikililəri qorunmaması, mədəni irsimizin bir parçasını gələcək nəsillərə ötürmə imkanından məhrum olmaq deməkdir. Dövlət qurumları, bir qrup şəxslər ilə yanaşı insanların da tarixi abidələri qorumaq ən mühim borcu və vəzifəsidir.

Abşeronda digər tarixi hamam tikililəri ilə bağlı mühim bir problem də mövcuddur ki, bu da bəzi vətəndaşların həyətində tarixi, nadir tikili hamamların mövcud olması və həmin vətəndaşların bir qisminin bu nadir tikililərə abidə statusu verməyə razılaşmamasıdır. Səbəb olaraq isə onun ailə yadigarı olduğunu və ailə əmlakı kimi istədikləri kimi istifadə edə biləcəklərini qeyd edirlər. Problem odur ki, əgər onlara abidə statusu verilsə, belə bir miras nümunələrini gələcək nəsillərə ötürmək imkanı olardı. Abidə dövlət qeydiyyatında olmalıdır ki, daim nəzarətdə olsun və ehtiyac olduqda konservasiya tədbirləri görülsün və bərpa edilsin.

NƏTİCƏ

Abşeronda hamamların və digər tarixi abidələrin qorunmasında maarifləndirmə məsələlərində, bəzi abidələrin artıq aşınması, nəzarətdə saxlanmaması probleməri mövcud olmuşdur. Tarixi-mədəni mirasların gələcək nəsillərə çatdırılması üçün onların təmir-bərpası vacibdir. Ölkəmizdə həmin mirasın bərpası, təbliği, qorunması və tədqiqi dövlətimizin məlum mədəniyyət siyasəti ilə tənzimlənir. Bununla bağlı olaraq Mədəniyyət Nazirliyi nəzdində Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti fəaliyyət göstərməkdədir.

ƏDƏBİYYAT SİYAHISI

1. Emil Eyyubov, , "Azərbaycanın Qədim Hamamlarının Dəbdəbəsi", Azərtac, 2018
2. Lalə Azəri, , "Təyinatı üzrə fəaliyyətini dayandıran bütün hamamlar tarixi-mədəni irs obyekti sayılmalıdırmı?", , Mədəniyyət qəzeti, 2022
3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasinin Qanunu, maddə 8
4. D V Gnezdilov, , E V Kapnina, E S Martynyuk ,, "The Problem of Preservation, Restoration and Reconstruction of the World Architectural Heritage", , Materials Science and Engineering 2019, , p.6
5. Oleksandr Ivashko, "Zagadnienia konserwacji, restauracji i rewitalizacji zabytków architektury przemysłowej", Wiadomości Konserwatorskie, 2019, p.113-117

CODE BASED STUDY ON SIMPLE STEEL CONNECTIONS

G.I. HAJIYEVA
Baku Engineering University
ghaciyeva8@std.beu.edu.az
Khirdalan, Azərbaycan

O.D. JAFAROV
Baku Engineering University
ocafarov@beu.edu.az
Khirdalan, Azərbaycan

Abstract

Design, fabrication, and erection of steel members can be taken place at different locations because of rapid globalization; the use of widely accepted steel design codes required. Therefore, engineers are faced with the challenge of being competent with several design specifications for a particular material type. American Institute of Steel Construction-360 and Eurocode3 standards are widely accepted steel structure design specifications that utilize simple steel connections with some similarities and differences in application. Hereby a study has been undertaken to put together the expressions presented in codes, to identify the similarities and the differences of simple steel connections. Only simple connections are investigated in this study. Basic shear and moment connection equations are directly compared with each other wherever possible.

Keywords: bolt, weld, AISC-360, EC3, steel connections

XÜLASƏ

Müasir dövrdə, qloballaşmanın da bir nəticəsi olaraq: metal konstruksiyaların layihələndirilməsi, istehsal və tətbiq yerlərinin bir birindən fərqli ölkə və ərazilərdə aparılması, beynəlxalq norma və standartların öyrənilməsində və istifadəsinə zərurət yaratmışdır. American Institute of Steel Construction-360 və Eurocode 3 standartları Amerika və Avropada qəbul edilmiş və geniş istifadə olunan standartlardır. Bir birinə bənzər və fərqli tərəfləri vardır. Bu məqalədə sadəcə bəsit düyün birləşmələri diqqətə alınaraq boltlu və qaynaqlı birləşmələr müqayisə edilmişdir.

AÇAR SÖZLƏR: Bolt, qaynaq, AISC-360, EC3, metal düyünlər

INTRODUCTION

A very important task of any engineer is to size the steel elements for safety of the structure. Connections in steel structure are used to transfer forces from one member to another. Welded and bolted connections can be used in steel structures. Steel connection is one of the most crucial design components, in terms of cost as well as integrity of the structure.

Hence increasing size can be allowed if it can simplify the steel connection. Detailing of a connection is equally important as designing a connection. United States, specification for structural steel buildings was developed by the American Institute of Steel Construction-360 (AISC-360) [1] which utilizes both load and resistance factor design (LRFD) and allowable strength design (ASD) formats. In Europe, "Design of Steel Structures, EN 1993 (EC3)" [2] was developed by the European Committee for Standardization. This study presents a comparison of both specifications for the design of bolted and welded connections those are AISC, EC3.

Based on force transfer mechanism, the connections can be classified into following categories.

- Simple Shear Connections
- Simple Moment Connections
- Complex Moment Connections.

SIMPLE STEEL CONNECTIONS

Simple shear connections are one of the most common steel connections in practice. As the name, these connections can transfer only shear forces to connected members. Moment transfer or moment continuity cannot be achieved using in this steel connection.

Simple moment connections are an advanced type of steel connection, which is used when moment transfer is necessary between connected members. The complexity of connection depends on the shape of connecting members, percentage of moment transfer required and application.

Complex moment connections capable of achieving 100% moment transfer between members.

DESIGN OF CONNECTIONS

Welds and bolts are considered to compare AISC-360 and EC3 in terms of connections in this study. For both specifications, fillet weld resistance is determined by using effective area of weld which is effective throat thickness multiplied by the effective length of the weld [3]. AISC-360 and EC3 utilize effective throat thickness, t_e which is the height of the largest triangle that can be inscribed within the fusion faces and the weld surface, measured perpendicular to the outer side of this triangle to determine the effective area. The minimum throat thickness shall not be less than 3mm for both international codes. Throat thickness of the fillet weld is given in figure 1 below.



Figure1. Throat thickness of a fillet weld

These codes, utilize simplified method for design resistance of fillet welds. In EC3, independent of the orientation of the weld throat plane to the applied force, the design resistance of the fillet weld is determined by EC3 as follows:

$$R_n = \frac{F_u}{\beta_w \sqrt{3}} A_{wl} \quad (1)$$

F_u is the nominal ultimate tensile strength of the weaker part joined and β_w is the correlation factor, which is depending on grade of steel. β_w 0.80 for S235, 0.85 for S275 and 0.90 for S355 grades etc. A_{wl} is the effective area of the weld and R_n is the nominal resistance. According to AISC-360, the design resistance of the fillet is determined considering direction of the applied load. Resistance of the fillet weld is determined by AISC-360 as follows [3]:

$$R_n = F_{wl} A_{wl}$$

$$F_{wl} = 0.60 F_{EXX}(1 + 0.50 sin^{1.5}\theta) \quad (2)$$

F_{EXX} is the electrode strength and θ is the angle of loading measured from the weld longitudinal axis. The main difference between AISC-360 and EC 3 for fillet weld strength is that AISC-360 considers the direction of the loading but EC3 does not take into consideration of the loading direction. Both specifications allow considering the directional method. AISC-360 allows elastic vector analysis to be used. Similarly, EC3 explicitly mentions about the directional method [4]. The design stresses which occur during transmission of design force on the throat thickness as below figure:



Figure 2. Stresses on the Throat Section of a Fillet Weld

$\sigma_\parallel$ is not considered during the calculation of design resistance of the weld. AISC-360 considers design resistance of weld as follows:

$$\sigma_r = \sqrt{\sigma_\perp^2 + \tau_\perp^2 + \tau_\parallel^2} \quad (3)$$

The design stress, σ_r is compared to 0.6 times electrode strength F_{EXX}. However, EC3 uses von Mises yield criterion to determine the stress due to applied load. The stress occurred due to applied load is given below which is considering von Mises yield criteria.

$$\sigma_r = \left[\sigma_\perp^2 + 3\left(\tau_\perp^2 + \tau_\parallel^2\right)\right]^{0.5} \quad (4)$$

The main difference between those methods is that AISC-360 directly uses elastic vector analysis. However, EC3 utilizes von Mises yield criteria. Therefore, perpendicular, and parallel shear stresses are multiplied by 3. It must be also noticed that AISC-360 compares the elastic vectoral stresses to the 0.6 times the electrode strength, F_{EXX}. However, AISC-360, EC3 compares the design stress with the parent material ultimate tensile strength.

Full penetration welds: Full penetration is also called as full penetration groove (butt) weld. In EC 3, the design resistance of a complete joint penetration groove weld is considered as equal to the design of the weaker of the parts joined. According to AISC-360, the design is controlled by the base metal for a complete joint groove weld. Both specifications consider the base metal strength as a governing control for a complete joint groove weld.

Partial Penetration Welds: Partial joint penetration weld is also called as partial penetration groove (butt) weld. According to AISC-360, the minimum throat thickness is 3 mm if thicker part is less than 6 mm. The throat thickness is 5 mm where the thicker part is in between 6 mm to 13 mm. When the thicker part is in between 13 mm to 19 mm, the throat thickness is 6 mm. In EC3, the design resistance of a partial penetration butt weld is determined as for a deep penetration fillet weld. According to AISC-360, the design strength of welds shall be the lower value of the base material and the weld metal strength determined according to the

limit states of tensile rupture, shear rupture or yielding as follows:

$R_n = F_y t_e$ (tension and compression) (base material)

$R_n = F_{yw} t_e$ (tension and compression) (weld metal)

$R_n = 0.6 F_y t_e$ (shear) (base material)

$R_n = 0.6 F_{EXX}\, t_e$ (shear) (weld material)

Bolts: EC3 and AISC-360 classified bolts according to ISO 898. EC3 represents the bolts with their ultimate tensile and yield strength such as 4.6, 5.6, 8.8, etc. For example, bolt classification 4.6 represents the bolts which have 400 MPa ultimate tensile strength and 240 MPa yield strength. The first number 4 represents the 400 MPa and multiplication of 4 and 6 which is 2.4 represents the 240 MPa yield strength. Unlike to EC3, AISC-360 has different approach to designate the bolts such as A325 and A490 bolts.

Table 1. Nominal Yield and Ultimate Tensile Strength of Bolts [2]

Bolt Class	4.6	4.8	5.6	5.8	6.8	8.8	10.9	12.9
F_{yb} (MPa)	240	320	300	400	480	640	900	1080
F_{ub} (MPa)	400	400	500	500	600	800	1000	1200

Bolt Tension Capacity: Both specifications consider bolt tension capacity depending upon the bolt ultimate tensile strength, F_{ub}. According to AISC-360, the tensile stress area is the net area through the threads. Therefore, the tensile area of the bolt is equal to 0.75 times the area of unthreaded portion of the bolt. In EC3, the tensile capacity of a bolt is determined by using tensile stress bolt area, ultimate tensile strength of the bolt and a constant k_2 which is equal to 0.9.

$R_n = 0.75F_{ub} A_b$ (AISC-360)

$R_n = k_2 F_{ub} A_s$ (EC3)

There is no definition for the net tensile area, A_s, in EC3. Engineer is responsible for finding out the net tensile area, also it can be found from the manufacturer catalogs. There is a nearly 10 percent difference for tensile capacity of bolts between two specifications.

Bolt Shear Capacity: Depending on the shear plane location which passes through threaded part or unthreaded part, shear strength capacity of bolts in EC3:

$R_n = \alpha_v F_{ub} A_s$ (threads included)

$R_n = \alpha_v F_{ub} A_b$ (threads excluded)

α_v varies depending upon the bolt quality and shear plane orientation. When the shear plane passes through the threaded portion of the bolt and for 4.6, 5.6, 8.8 classes α_v=0.6. Additionally, α_v=0.5 for classes 4.8, 5.8, 6.8, 10.9 when threads are not extruded from shear plane. Shear capacity of bolts depending on AISC-360 is calculated by using nominal shear stress capacity, F_{nv}, which is 0.4 times of the ultimate tensile strength when threaded parts are included in the shear plane or 0.5 times of the ultimate tensile strength of the bolt when threaded parts are excluded from the shear plane.

$R_n = \alpha_v F_{nv} A_s$ (threads included)

$R_n = \alpha_v F_{nv} A_b$ (threads excluded)

The main difference between AISC-360 and EC3 in terms of shear capacity of bolts is that EC3 reduces design strength depending upon the shear plane orientation and an extra multiplier α_v but AISC-360 reduces the bolt shear area depending upon the shear plane orientation.

CONCLUSION

The aim of this paper is to give information about simple steel connections as per AISC-360 and EC3 codes, the following conclusions can be drawn:

1. AISC-360 and EC3 specifications utilize simplified and directional methods for weld strength. AISC-360 considers the angle of loading whereas EC3 does not take into consideration the direction of the loading. For directional methods, AISC-360 uses elastic vector analysis but EC 3 uses the von Mises yield criterion to determine stress occurring during the application of loads.
2. EC3 does not give any information about how the net tensile area is determined. Therefore, engineers are responsible for using the net tensile area from the manufacturer catalogs or etc. However, AISC-360 are explicitly consider 0.75 times the gross section area as the net tensile area for coarse threads.
3. Tension and shear interaction diagrams for shear plane in threaded portion and unthreaded portion present that EC3 may give the higher shear capacity than that of AISC-360 for pure shear. However, AISC-360 may give higher tensile capacity for pure tension.

REFERENCES

1. ANSI/AISC 360-16: An American National Standard- Specification for Structural Steel Buildings
2. Eurocode 3: Design of Steel Structures-Part 1-1: General Rules and Rules for Buildings. (2003). Brussels: European Committee for Standardization.
3. Shahin, S (2009). A comparative study of AISC-360 and Eurocode 3 strength limit states
4. Demirci, A., 2012, Laboratuvar ortamında Scada'nın Plc tabanlı deney setlərində uygulanması,Yüksek Lisans, Fen Bilimleri Ensititüsü.
5. Seçen, H.İ., 2014, *PLC'nin gələcəyi,* https://www.elektrikport.com/teknik-kutuphane/SIEMENS-plc-teknolojileri/12311#ad-image-0, Giriş tarixi: 10 Mart 2022
6. Brodzik. R., 2014, PMK-nın tarixi, https://www.controleng.com/articles/inside-the-competition-for-the-first-plc/,Giriş tarixi: 13 Mart
7. Carmine, F., Step motor, https://www.monolithicpower.com/en/stepper-motors-basics-types-uses, Giriş tarixi: 13 Mart
8. Demir, D., Tepe, C. & Eminoğlu, İ. (2019). Experimental setup for AC motor speed control by using PLC, Journal of Scientific Perspectives, 3(3), 177-188. DOI: 10.26900/jsp.3.018.
9. Biswanath P. «Industrial Electronics and Control: Including Programmable Logic Controller», 3rd edition-PHI Learning Private Limited, 2014, pp.640.
10. Karl-Heinz John, Tiegelkamp M. «IEC 61131-3: Programming Industrial Automation Systems. Concepts and Programming Languages, Requirements for Programming Systems», Decision-Making Tools. Springer-Verlag Berlin Heidelberg, 2001.
11. Gastreich, B., 2018, Servo motor, https://realpars.com/servo-motor/ , Giriş tarixi: 01 Mart

S7-1500 MARKALI PMK İLƏ KONVEYERDƏN KEÇEN MƏHSULLARA NƏZARƏT

E.S.Yusubov, M.İ.Məmmədli
Bakı Mühəndislik Universiteti; Azərbaycan Memarlıq və İnşaat Universiteti
eyusubov@beu.edu.az, maryammammdli@gmail.com

Xülasə: Elektromexaniki sistemlərin texniki xidmət və istismar xərclərinin yüksək olması, bu sistemlərin mexaniki hissələrinin işləvliyinin itməsinə səbəb olmuş və elektron idarəetmənin cəlbediciliyini artırmışdır. Beləliklə, cihazların standart iş vəziyyətindən daimi olaraq yeni tələblərə cavab verməsi zərurətə çevrilmişdir. Cihazların müxtəlif işlər görməsini təmin etmək üçün ayrı-ayrı idarəetmə sistemləri əlavə etmək əvəzinə bütün bu əməliyyatları tək bir idarəetmə sistemi ilə idarə etmək, cihazların həm ölçüsü, həm də funksionallığı nöqteyi-nəzərindən əhəmiyyət qazanmışdır. Bu prosesdə rəqəmsal emalı həyata keçirən mikroprosessorlu sistemlər ön plana çıxmışdır. Sənayenin avtomatlaşdırmasında bu mikroprosessor sistemlərindən ən çox istifadə ediləni proqramlaşdırıla bilən idarəetmə cihazlarıdır. Qısaca PMK olaraq adlandırılan idarəetmə cihazlarının bu gün olduğu kimi gələcəkdə də əvəzedilməz olacağı şübhəsizdir. Bu işin həyata keçirilməsi üçün idarəetmə sistemlərinin qəlbi hesab edilən və SİEMENS markasının istifadəçilərə təqdim etdiyi S7-1500 PMK markası istifadə edilmişdir. S7-1500 markalı PMK ilə qurulacaq sistemdə konveyerdən keçən məhsullar iki fərqli sensorla oxunacaq və operatorun istəyinə uyğun olaraq yazılmış alqoritmə görə məhsulun xətalı olub olmadığına qərar veriləcəkdir. Xətalı məhsullar pnevmatik klapan ilə konveyerdən uzaqlaşdırılacaqdır.

Açar sözlər: ***İdarəetmə Sitemləri, PMK, S7-1500 PMK, Konveyer, Sensor.***

Summary: High maintenance and operating costs of electromechanical systems have led to the loss of functionality of the mechanical parts of these systems and increased the attractiveness of electronic control. Thus, it has become necessary for devices to constantly meet new requirements from standard operating conditions. Instead of adding separate control systems to ensure that the devices perform different functions, it has become important to manage all these operations with a single control system, both in terms of the size and functionality of the devices. In this process, microprocessor systems that perform digital processing have come to the fore. The most widely used of these microprocessor systems in industrial automation are programmable control devices. There is no doubt that the so-called PLC control devices will be as irreplaceable in the future as they are today. The S7-1500 PLC brand, which is considered to be the heart of control systems and is presented to users by the SIEMENS brand, has been used to carry out this work. In the system to be installed with S7-1500 PLC, the products passing through the conveyor will be read by two different sensors, and according to the algorithm written at the request of the operator, it will be decided whether the product is faulty or not. Defective products will be removed from the conveyor by a pneumatic valve.

Keywords*: C*ontrol Systems, PLC, S7-1500 PLC, Conveyor, Sensor.

Giriş

İdarəetmə sitemlərinin qəlbi hesab edilən bu cihazlar, PIC prosessorlarını, eləcə də EEPROM proqramçıları əhatə edərək, istifadəçinin yazdığı proqrama uyğun olaraq düymələr və sensorlar kimi elementlərdən aldığı məlumatları gərginlik dəyərlərinə çevirərək çıxış hissəsinə ötürən və müasir texnologiyada mühüm yer tutan kontrol elementləridir [1]. Bu qurğuların Proqramlaşdırılan Məntiq Kontrollerlər adlandırılmasının səbəbi onların məntiqə əsaslanan rele sistemlərinə alternativ olaraq dizayn edilməsidir. PMK-ların mühüm xüsusiyyətlərindən biri də yaddaş funksiyaları, sayğac və vaxt kimi elementlərin istehsalçılar tərəfindən hazır şəkildə PMK-nın yaddaşına yüklənməsidir. İdarəetmə məsələlərinin həllində PMK-nın bu xüsusiyyətindən sadə proqramlaşdırma ilə asanlıqla istifadə etmək mümkündür [2]. Avtomatlaşdırma texnologiyasının tətbiq olunduğu hər hansı bir sahəni PMK olmadan düşünmək mümkün deyil [3]. Başqa sözlə, PMK avtomatlaşdırma texnologiyasının ürəyi və ən vacib idarəetmə elementlərindən biridir. PLC tərəfindən idarə olunacaq sistem hər cəhətdən fərqlənə bilər. Məsələn, böyük bir fabrikdə bir maşın PLC ilə idarə oluna bilər. Aralarındakı fərq istifadə olunan PLC-nin tutumudur. Sənayenin demək olar ki, ağla gələn hər sahəsində istifadə edilir [4].

TƏTBİQ MATERİALLARI

S7-1500 PMK ilə qurulacaq sistemdə konveyerin üstündən keçən məhsullar iki fərqli sensorla oxunacaq və PMK-dakı alqoritmə görə məhsulun nasaz olub olmadığına qərar veriləcəkdir. Qüsurlu məhsullar pnevmatik valf ilə konveyerdən atılacaqdır.

Cədvəl 1. İstifadə olanan cihazların siyahısı

Cihazın adı		Sayı	Cihazın xüsusiyyətləri
1	PMK cihazı	1	S7-1500/ CPU 1511-1 PN DI 16x24 VDC HF DQ 8x24 VDC/2A HF
2	İnvertor	1	Siemens Sinamix V20
3	İnduktiflik Sensoru	1	IMB08-02-BDSVU2S, Sıck markalı
4	Fotoelektrik sensoru	1	Wtb4S3n3132, Sick markalı
5	Pnevmatik valfer	1	4V210-08
6	3~ Asenxron Mühərrik	1	-
7	Konveyer	1	-
8	Kompressor	1	fiveStar Markalı

Aşağıdakı şəkillərdə S7-1500 PMK ilə Siemens Sinamix V20 invertor istifadə edilərək laboratoriya şəraitində qurulmuş sistem göstərilmişdir .



Şəkil 1. Laboratoriya şəraitində qurulmuş S7-1500 PMK sistemi

III. TIA-portal proqramında S7-1500 PMK ilə konveyerdən keçən məhsula nəzarət

Bu çalışmada S7-1500 PMK-nın proqramlanması üçün TIA-Portal proqram təminatı, proqramlaşdırma dili olaraq da LADDER (LD) dili istifadə edilmişdir. TIA-Portal proqram təminatında LADDER dili vasitəsilə 7 ədəd network qurulmuşdur.



Şəkil 2. TİA-Portal proqramında qurulmuş olan S7-1500 markalı PMK ilə kontrol sistemi

S7-1500 PMK-nın mərkəzi emal qurğusu olaraq CPU 1511-1PN növü seçilmişdir. S7-1500 PMK-nın TIA-Portal proqramında seçilmiş olan CPU 1511-1P növü aşağıdakı şəkildə göstərilmişdir. PMK-nın mərkəzi emal qurğusu seçildikdən sonra işin heyata keçirilməsi üçün LADDER diaqramlar qurulmağa başlanılır. İlk olaraq istifadə ediləcək olan funksiyaların tağ cədvəli yaradılır. Aşağıdakı şəkildə istifadə ediləcək PMK tağ cədvəli göstərilmişdir.

Default tag table

	Name	Data type	Address	Retain	Visibl...	Acces...
1	stop	Bool	%I0.0	☐	☑	☑
2	start	Bool	%I0.1	☐	☑	☑
3	muherrik_start	Bool	%I0.2	☐	☑	☑
4	muherrik_stop	Bool	%I0.3	☐	☑	☑
5	dovr_sensoru	Bool	%I0.4	☐	☑	☑
6	optik_sensor	Bool	%I0.5	☐	☑	☑
7	metal_sensor	Bool	%I0.6	☐	☑	☑
8	muherrik_isleme	Bool	%Q0.0	☐	☑	☑
9	konveyer	Bool	%Q0.1	☐	☑	☑
10	xetalı_mehsul_kontrolu	Bool	%Q0.2	☐	☑	☑
11	sistem_dovrede	Bool	%M0.0	☐	☑	☑
12	muherrik_suret	Bool	%M0.1	☐	☑	☑
13	mehsul_xeta	Bool	%M1.7	☐	☑	☑
14	Tag_1	Bool	%M100.0	☐	☑	☑
15	Tag_2	Bool	%M100.1	☐	☑	☑
16	Tag_3	Bool	%M100.2	☐	☑	☑
17	Tag_4	DWord	%MD1	☐	☑	☑
18	valf_isleme	Bool	%M4.0	☐	☑	☑

Şəkil 3. S7-1500 PMK sisteminin tağ cədvəli

Sistem start düyməsi (set) və ya M0.1 köməkçi biti ilə Scada vasitəsilə işə salınır. Sistemi dayandırmaq üçün stop düyməsi və ya M0.4 köməkçi bit ünvanına qoşulmuş scada_stop düyməsi istifadə olunur. Ladder diaqramlar aşağıdakı şəkillərdə göstərilmişdir:



Şəkil 4. Network 1 və 2.

Sistem işə salındıqda, konveyeri idarə edən mühərrik I0.2 girişi ilə işə salınır. Mühərrikin davamlı işləməsi üçün kilitləmə əməliyyatı həyata keçirilir.



Şəkil 5. Network 3.

Mühərrikin hansı sürətlə fırlanması haqqında məlumat, Q0.3 çıxışından inverterin CN0003-ün rəqəmsal girişinə qoşularaq, göndərilir. Mühərrikin sürəti Q0.3 çıxışı vasitəsi ilə tənzimlənir.



Şəkil 6. Network 4.

Konveyerdən keçən məhsulun tərkibində əgər metal varsa, o, eyni zamanda induktivlik və işıq sensorunu işə salacaq. İşəsalma nəticəsində xətalı məhsul biti aktivləşəcəkdir. Sensorlardan daxil edilən məlumatların yanlış olmaması halına ehtiyat tədbiri olaraq sensordan eyni zamanda 100 ms-lik siqnal gəlməsi şərti qoyulmuşdur. Bu şərt TON taymeri ilə həyata keçirilir.



Şəkil 7. Network 5.

Məhsul seçildikdən sonra xəta bitinin təyin edilməsini aktivləşdirmək üçün neqativ kənar işəsalma istifadə edilir. M1.7 biti təyin edildikdən sonra konveyer mühərrikinə qoşulmuş sürət sensorunu işə salmaqla, M1.7-nin qoşulduğu MD1 biti, SHR əmri ilə neqatif şift edilir.



Şəkil 8. Network 6.

Dövr sensorundan gələn hər siqnalla yerdəyişən nasaz məhsul biti, konveyerin sonuna yerləşdirilmiş klapan işlədəcək M4.0 bitinə keçdikdə məhsulun çeşidləmə sahəsinə çatdığı başa düşülür. Pnevmatik klapan vasitəsi ilə xətalı məhsul konveyerdən uzaqlaşdırılır. Xətalı məhsul klapanının düzgün işləməsi üçün 1 saniyə ara ilə işləməsi nəzərdə tutulmuşdur. Taymer növlərindən biri olan TP də Ladder diaqrama əlavə edilmişdir.



Şəkil 8. Network 7.

NƏTİCƏ

Siemens markasının istehsal etdiyi PMK növlərindən biri olan S7-1500 ilə qurulan konveyer sistemində məhsulların, operatorun istəyinə uyğun olaraq xətalı və ya xətasız olması məsələsi tədqiq edilmişdir. Laboratoriya şəraitində quraşdırılmış konveyerdən keçən plastik və metal məhsullar sensorlar vasitəsilə aşkar edilmişdir. Sick markalı optik və induktiflik sensorları ilə təchiz edilmiş sistemdə oxunmuş dəyərlərə, əsasən, PLC-dəki alqoritmə uyğun olaraq məhsulun metal və ya plastik olduğu müəyyən edilmişdir. Bu çalışmada isə istifadəçinin istəyindən asılı olaraq plastik məhsullar xətasız hesab edilmiş, metal məhsullar isə pnevmatik klapan ilə çeşidləmə sahəsinə atılmışdır. Bu çalışma 3 hissədən ibarətdir. Birinci hissədə idarəetmə sistemlərinin qəlbi hesab edilən elementlərindən olan PMK haqqında məlumat verilmişdir. İkinci hissədə isə çalışmanın həyata keçirilməsi üçün lazım olan qurğular haqqında qeyd edilmişdir. Üçüncü hissədə isə işin həyata keçirilməsi ardıcıllığı LADDER (Nərdivan) proqramlama dilində yazılmış olan diaqramlar vasitəsi ilə göstərilmişdir. TON və TP timer növləri istifadə edilərək, sensorlar vasitəsi ilə məhsulların aşkar edilməsində yol verilə biləcək xeta payı minumuma endirilmişdir.

ƏDƏBİYYAT

1. Məmmədlı M., 2020, *Scada Tabanlı Plc İle Servo Motor Hız Kontrolü,* Yüksək Lisans, Lisansüstü Eğitim Enstitüsü.
2. Mammadlı M., Kabaoglu R, Ortach., Simultaneous Monitoring and Control of Automation Systems with SCADA Based PLC, *BSEU Journal of Science,* 8(1), 336-344, 2020.
3. Eminoglu, Y. (2016). PLC Programming and S7 300/400, Birsen Publication, Istanbul, ISBN: 978-975-511-550-4.
4. Demirci, A., 2012, Laboratuvar ortamında Scada'nın Plc tabanlı deney setlərində uygulanması,Yüksek Lisans, Fen Bilimleri Ensititüsü.
5. Kayri, İ., 2003, *PLC ilə mühitin temperaturunun kontrol edilməsi,* Yüksek Lisans, Fen Bilimleri Ensititüsü.
6. Seçen, H.İ., 2014, *PLC'nin gələcəyii,* https://www.elektrikport.com/teknik-kutuphane/siemens-plc-teknolojileri/12311#ad-image-0, Giriş tarixi: 10 Mart 2022
7. Brodzik. R., 2014, PMK-nın tarixi, https://www.controleng.com/articles/inside-the-competition-for-the-first-plc/,Giriş tarixi: 07 Noyabr
8. Kayri, İ., 2003, *PLC ile ortamın sıcaklık değerinin kontrol edilmesi,* Yüksek Lisans, Fen Bilimleri Ensititüsü.
9. Demir, D., Tepe, C. & Eminoğlu, İ. (2019). Experimental setup for AC motor speed control by using PLC, Journal of Scientific Perspectives, 3(3), 177-188. DOI: 10.26900/jsp.3.018.

ARDUİNO İLƏ İSTİXANANIN TEMPERATUR VƏ NƏMLİK MƏLUMATLARININ OXUNMASI

E.S.Yusubov, M.İ.Məmmədli
Bakı Mühəndislik Universiteti; Azərbaycan Memarlıq və İnşaat Universiteti
eyusubov@beu.edu.az, maryammammdli@gmail.com

Xülasə: Müasir texnologiyalar araşdırıldığında mikrokontrollerlərin mühüm yer tutduğu müşahidə edilir. Son zamanlara qədər mikrokontroller təlimi PIC ailəsi ilə məhdudlaşırdı. Bu gün isə Arm, Atmega, Arduino, IoIo, Raspery Pi və s. kimi mikrokontroller daxil edilmişdir. Arduino bu gün ən çox istifadə edilən mikrokontrollerlərdən biridir. Komputerlər kimi mərkəzi emal qurğusu (CPU), giriş-çıxış və yaddaşı kimi elementlərdən təşkil edilmiş mikrokontrollerlər tək inteqral sxem üzərində istehsal edilərək istifadəçilərinə təqdim edilir. Açıq mənbə kodlu Arduino ilə asanlıqla proqramlaşdırma etmək mümkündür. Arduino proqramı bir çox tətbiqlərdə istifadə olunur. Arduino kartlarının strukturu bir Atmel AVR mikrokontroller proqramlama və bununla bərabər digər dövrələr ilə əlaqəya girmək üçün lazımlı olan elementlərdən təşkil edilmişdir. Bu kartlar arasında ən geniş yayılmışı isə Arduino Uno-dur. Bu kartda mikrokontroller olduğu üçün bir mikrokontrollerdə olması lazım olan hər bir şey mövcuddur. Həyata keçiriləcək olan istixananın temperatur və nəmlik parametrlərinə nəzarət sistemində Arduino Uno kartdan istifadə edilmişdir. İlk olaraq laboratoriya şəraitində qurulması lazım olan sistemin prototip variantı Fritzing proqram təminatında hazırlanmışdır. Qurulan sistemdə Arduino Uno kartla bərabər, DHT11 temperatur və nəmlik sensoru da istifadə edilmişdir. Proqramlama bölməsində isə Arduino IDE proqram təminatı istiafdə edilərək DHT11 temperatur və nəmlik sensorunun kitabxanası və Modbus RT kitabxanası əlavə edilmişdir. Aurdino ilə qurulacaq sistemdə rabitə protokolu olaraq isə Modbus istifadə olunacaqdır. Modbus rabitə protokolunu digərlərindən üstün edən mühüm xüsusiyyətləri isə onun sadə və etibarlı quruluşa malik olmasıdır.

Açar sözlər: **Mikrokontroller,** ***Arduino UNO, DHT11, Modbus, Ardıcıl rabitə..***

Summary: It is observed that microcontrollers play an important role in the study of modern technologies. Until recently, microcontroller training was limited to the PIC family. Today, Arm, Atmega, Arduino, IoIo, Raspery Pi and others. as microcontrollers were included. Arduino is one of the most widely used microcontrollers today. Microcontrollers, which are composed of elements such as computers, central processing unit (CPU), input-output and memory, are manufactured on a single integrated circuit and provided to users. It is easy to program with open source Arduino. Arduino software is used in many applications. The structure of Arduino cards consists of the elements needed to communicate with an Atmel AVR microcontroller programming and at the same time other circuits. The most common of these cards is the Arduino Uno. Because this card has a microcontroller, it has everything you need to have a microcontroller. An Arduino Uno card was used to control the temperature and humidity parameters of the greenhouse to be implemented. The prototype version of the system, which must first be installed in a laboratory, was developed in Fritzing software. Along with the Arduino Uno card, DHT11 temperature and humidity sensor was used in the installed system. In the programming section, the Arduino IDE software was used and the DHT11 temperature and humidity sensor library and the Modbus RT library were added. Modbus will be used as a communication protocol in the system to be established with Aurdino. An important feature that makes Modbus communication protocol superior to others is that it has a simple and reliable structure.

Keywords*: *Microcontroller, Arduino UNO, DHT11, Modbus, Serial communication.

Giriş

Modbus rabitə protokolunu digərlərindən üstün edən mühüm xüsusiyyətlər biri onun sadə və etibarlı quruluşa malik olmasıdır. MODBUS heç bir ödəniş etmədən istifadə edilə bilən açıq mənbəli rabitə protokoludur. 1979-cu ildə Modicon şirkəti tərəfindən istifadəçilərə təqdim edilmişdir. MODBUS protokolu olan sistemlərdə 1 usta (master) və 247-yə qədər köməkçi (slave) qurğu ola bilər. Əsas cihaz köməkçi cihazdan gələn məlumat əsasında digər köməkçi cihaza nəzarət edə bilər. Bu rabitə protokolu qısa məsafələr üçün RS232 ardıcıl rabitə interfeyslərindən və uzun məsafələr üçün isə RS485 ardıcıl rabitə interfeysindən istifadə edir.

Bu çalışmada isə RS485 ardıcıl rabitə interfeysi istifadə edilmişdir. RS485 üzərindən Arduino ilə MODBUS rabitəsini təmin etmək üçün TTL-RS485 çevirici kartı tələb olunur. Məlum olduğu kimi,

Arduino kartında RS485 infrastrukturu mövcuddur. Bu infrastrukturdan gələn məlumatların Arduino kartdakı RX, TX pinləri vasitəsilə ötürmək üçün TTL-RS485 çevirici kartı istifadə olunur. Aşağıdakı şəkildə RS485 çevirici kart gösterilmişdir:



Şəkil 1. RS 485 çevirici kart

RS485 çevirici kartının çıxış gərginliyi 5V-dir. Onun strukturunda Max485 çevirici çipi və müxtəlif əlaqələr yaratmaq məqsədi ilə erkək və dişi konnektorlar mövcuddur.

TƏTBİQ MATERİALLARI

Arduino vasitəsilə həyata keçirləcək olan tətbiqdə sistemin bağlı olduğu istixananın temperatur və nəmlik parametrləri idarə ediləcəkdir. Temperatur və nəmlik sensorlarından oxunan dəyərlər ardıcıl rabitə vasitəsilə master cihaz istifadə edilərək, SCADA sisteminə göndəriləcəkdir. Arduinodan verilənlərin oxunması nəticəsində kompüter vasitəsilə temperatur və nəmlik dəyərlərinin monitorinqi mümkün olacaqdır.

Cədvəl 1. İstifadə olanan cihazların siyahısı

Cihazın adı	Sayı	Cihazın xüsusiyyətləri
Arduino kart	**1**	**UNO**
Temperatur ve nemlik sensoru	**1**	**DHT11**
Ardıcıl rabitə interfeysi	**1**	**RS485 ardıcıl rabitə Shield'i**
Çevirici kart	**1**	**TTL - RS 485**

Yuxarıda göstərilən cədvəli təşkil edən cihazlar istifadə edilərək laboratoriya şəraitində qurulmuş sistem aşağıdakı şəkildə göstərilmişdir .



Şəkil 2. Arduino ilə DHT11 temperatur və nəmlik sensoru arasında qurulan sistem

Arduino IDE proqram təminatında istixananın temperatur və nəmlik parametrlərinə nəzarət

Bu çalışmada proqramın yazılması üçün Arduino IDE proqram təminatı istifadə edilmişdir. Eyni zamanda ModbusRtu ilə DHT11 temperatur və nəmlik sensoruna aid hazır kitabxanalarda əlavə edilmişdir.

Arduino ilə DHT11 temperatur və nəmlik sensoru arasında qurulan sistem laboratoriya şəraitində qurulmaqla bərabər, eyni zamanda elektronik dövrələrin qurulması və simulasiyası üçün istifadə edilən Fritzing proqram təminatı vasitəsilə də həyata keçirilmişdir.

Fritzing proqram təminatı, Arduino və digər elektronika əsaslı layihələrdə prototipdən istehsala keçid zamanı istehsal xərclərini azaltmaq və potensial fiziki problemləri minimuma endirmək məqsədi daşıyan açıq mənbəli dövrə dizayn proqramıdır. Beləliklə, qurulan sistemdə yarana biləcək problemlərin qarşısını almaq məqsədilə ilk olaraq bu proqram vasitəsilə prototip hazırlanmışdır.
Aşağıdakı şəkildə Fritzing program təminatında qurulmuş sistemin prototipi göstərilmişdir.



Şəkil 3. Fritzing proqram təminatında qurulmuş olan kontrol sistemi

Qurulacaq sistemin temperatur və nəmlik nəzarəti üçün Arduino kodları ardıcıllıqla aşağıdakı göstərilmişdir:

#include <ModbusRtu.h> //Modbus RT kitabxanası əlavə edilir.
#include <dht11.h> // DHT11 kitabxanası əlavə edilir.
#define DHT11PIN 2 // DHT11 PIN olaraq Rəqəmsal 2-yə bağlanır.
Kitabxanaları əlavə etdikdən sonra DHT11 sensorundan gələn məlumatlar, 2 nömrəli pindən oxunmaqla müəyyən edilir.
dht11 DHT11;
Modbus ModbusBaglanti;

Modbus və DHT11 kitabxanalarında müəyyən edilmiş funksiyalar **"DHT11"** və **"ModbusBaglanti"** adlanır.

uint16_t Modbus_VeriDizisi[] = {0,0,0}; // Register Adresləri 40001'dən başlayacaq şəkildə 3 Register-lik sıra müəyyən edilir. (40001 , 40002 , 40003)
int sicaklik,nem;
40001-dən başlayaraq 3 ədəd register üçün temperatur və nəmlik dəyərləri üçün tam dəyişən müəyyən edilir.
void setup()
{
ModbusBaglanti = Modbus(1,1,4); //Slave ID "1" , Sabit 1 olacaq, Ardıcıl Rabitə Enable Pin Nömrəsi
ModbusBaglanti.begin(19200); // Modbus BaudRate Parity : None
}
Proqramın quraşdırılma dövründə Modbus bağlantı konfiqurasiyası aşağıdakı məlumatlara uyğun olaraq ediləcəkdir.
Baudrate : 19200 bps
Slave ID: 1
Parity : None
Ardıcıl rabitə Enable pini : 4
void loop()
{
int chk = DHT11.read(DHT11PIN); //DHT11-dən oxuma əməliyyatı edilir.

istilik=DHT11.temperature; // DHT11 sensorundan istilik dəyərini oxuyuruq ve istilik adlı dəyişənə aid edilmişdir.
nem=DHT11.humidity; // DHT11 sensorundan nəm dəyərini oxuyuruq ve nəm adlı dəyişənə aid edilmişdir.
ModbusBaglanti.poll(Modbus_VeriDizisi,sizeof(Modbus_VeriDizisi)/sizeof(Modbus_VeriDizisi[0]));
Modbus_VeriDizisi[1] = istiliklik ; // 40002 adresinə istilik dəyəri yazılmışdır.
Modbus_VeriDizisi[2] = nem ; // 40003 adresinə nem dəyəri yazılmışdır.
Əsas dövrədə, ilk olaraq, **DHT11PIN** olaraq təyin olunan Arduinonun 2 nömrəli pinindən gələn məlumatlar oxunur.

DHT11.temperature funksiyası ilə temperaturun oxunması və **DHT11.humudity** funksiyası ilə isə nəmliyin oxunması həyata keçirilib.

ModbusBaglanti.poll ilə modbus rabitəsi üçün təyin edilən registerlər əlçatan edilmişdir.

Modbus_VeriDizisi [1] adresinə "istilik" dəyəri, Modbus_VeriDizisi[2] adresinə isə "nəm" dəyəri təyin edilmişdir.

IV. NƏTİCƏ

İstixananın temperatur və nəmlik parametrlərinə nəzarətin həyata keçirilməsi üçün Arduino IDE proqram təminatı istifadə edilmişdir. Sistemi təşkil edəcək cihazlar lazımi qaydada bir-birilə əlaqələnərək, temperatur və nəmlik sensoru vasitəsilə istixananın temperatur və nəmlik parametrləri müəyyən edilmişdir. Sistem laboratoriya şəraitində qurulmadan əvvəl prototip forması Fritzing proqram təminatında hazırlanmışdır. Rabitə növü kimi ardıcıl rabitədən istifadə olunmuşdur. İstixananın temperatur dəyərinin $\mathbf{50^0}$ **C**, nəmlik dəyərinin isə **30** olduğu müşahidə edilmişdir. Bu çalışma 3 hissədən ibarətdir. Birinci hissədə temperatur sensorlarının bir növü olan DHT12 temperatur və nəmlik sensoru haqqında məlumat verilmişdir. İkinci hissədə isə çalışmanın həyata keçirilməsi üçün lazım olan qurğuların xüsusiyyətləri haqqında, eyni zamanda laboratoriya şəraitində qurulmuş olan sistem göstərilmişdir. Üçüncü hissədə isə işin həyata keçirilməsi ardıcıllığı Arduino proqramlama təminatında yazılmış olan kodlar vasitəsi ilə göstərilmişdir. İstifadə edilmiş olan **DHT11.temperature** funksiyası ilə temperaturun oxunması, **DHT11.humudity** funksiyası ilə isə nəmliyin oxunması həyata keçirilmişdir.

ƏDƏBİYYAT

1. Məmmədlı M., 2020, *Scada Tabanlı Plc İle Servo Motor Hız Kontrolü,* Yüksək Lisans, Lisansüstü Eğitim Enstitüsü.
2. Mammadlı M., Kabaoglu R, Ortach., Simultaneous Monitoring and Control of Automation Systems with SCADA Based PLC, *BSEU Journal of Science*, 8(1), 336-344, 2020.
3. BachnakR. (2005). Teaching microcontrollers with hands-on hardware experiments. Journal of Computing Sciences in Colleges archive, 20(4), 207 – 213.
4. Chaya H. (2002, June). An embedded systems courseusing the PIC microcontroller. Proc. of the 2002 ASEE Annual Conference, Montreal.
5. Arduino temperature control library. Available at: https://github.com/milesburton/Arduino-Temperature-Control-Library (accessed 11 May 2019).
6. Bezerra, A. Z. L. N., Cabreira, F. M., Freitas, W. P. S., Cena, C. R., Alves, D. C. B., Reis, D. D., & Goncalves, A. M. B. (2019). Using an arduino to demonstrate faraday's law. Physics Education, 54(4), 043011.
7. URL-1. Arduino website. Available at: https://www.arduino.cc / (accessed 01 April 2022).
8. Hahn, M. D., de Oliveira Cruz, F. A., & Carvalho, P. S. (2019). Determining the speed of sound as a function of temperature using arduino. The Physics Teacher, 57(2), 114-115.

COVİD – 19 PANDEMİYASININ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

Zeyneddin Azaqov Kamran Oğlu
zazaqov1@std.beu.edu.az
Vüqar Muradov Ağamurad oğlu
vmuradov@beu.edu.az
Bakı Mühəndislik Universteti

XÜLASƏ

2019-cu ilin sonunda Çinin Vuhan şəhərində başlayan və bütün dünyaya yayılan Covid-19 epidemiyası, 2020-ci ilin sonuna baxmayaraq, gündəlik həyatın bütün sahələrinə, xüsusən də sağlamlıqvə iqtisadiyyata mənfi təsir etməyə davam edir.

Qeyd etməliyik ki, iqtisadiyyatın qloballaşması və tədarük zəncirləri olan ölkələrin qarşılıqlı ticarət əlaqələrindən qaynaqlanan epidemiyanın iqtisadi təsiri də qlobal səviyyədədir. Ölkələrdə bir -birinin ardınca müşahidə olunan neqativ səhnələr iqtisadiyyatların belə bir prosesə nə qədər hazır olmadığını göstərir.

Araşdırmanın məqsədi Covid-19-un digər pandemiyalardan fərqini nümayiş etdirmək və pandemiya ilə mübarizə çərçivəsində onun Azərbaycan iqtisadiyyatına təsirini araşdırmaqdır.

Açar sözlər: pandemiya, iqtisadiyyat, mübarizə tədbirləri, iqtisadiyyatın qloballaşması, COVİD – 19

SUMMARY

The Covid-19 epidemic, which began in Wuhan, China in late 2019 and spread around the world, continues to affect all areas of daily life, especially health and the economy, despite the end of 2020.

It should be noted that the economic impact of the globalization of the economy and the epidemic caused by the mutual trade relations of countries with supply chains is also global.

Successive negative scenes in the countries show how unprepared the economies are for such a process.

The aim of the study is to demonstrate the difference between Covid-19 and other pandemics and to study its impact on the Azerbaijani economy in the fight against the pandemic.

Keywords: pandemic, economy, control measures, economic globalization, COVID - 19

GİRİŞ

İnsan cəmiyyətinin yaranmasından bəri müxtəlif xəstəliklər olmuşdur və bu xəstəliklər o qədər geniş yayılmışdır ki, minlərlə, hətta milyonlarla insanın ölümünə səbəb olmuşdur. Təbii ki, bu cür xəstəliklərin və epidemiyaların qarşısının alınması yalnız epidemiyanın mövcud olduğu ölkədə deyil, bütün dünyada aparılır.

Epidemiya yerli ola və xaricdən gətirilə bilər. Epidemiya bir neçə ölkəyə, qitəyə və ya bütün dünyaya yayıldıqda ona pandemiya, birdən meydana gəldiyinə isə partlayıcı və ya epidemik virus deyilir.

İnsan sağlamlığı üçün təhlükələrdən əlavə, epidemiyaların bir sıra mənfi iqtisadi təsirləri də var. Çinin Hubei əyalətinin Vuhan şəhərində 2019 - cu ilin qlobal mübahisə mövzusu olan yeni bir koronavirus infeksiyası (COVID-19), Çin ətrafında sürətlə yayılmışdır. Hal -hazırda bir çox ölkələr bu pandemiya ilə mübarizə aparır - vaksinasiya tədbirləri görülür [1, s. 111]. Hətta keçən ay Danimarka ölkə vətəndaşlarının 99% - nin vaksin olunması səbəbiylə artıq maskalara yox şüarını açıq elan etmişdir.

Ümumiyyətlə, geniş yayılmış epidemiyaların əhalinin sağlamlığına və sosial-iqtisadi inkişafına təsiri qaçılmazdır. Bu baxımdan dünya təcrübəsi epidemiyaların iqtisadiyyata təsirinin fərqli aspektlərini araşdırmış və onların qiymətləndirilməsində fərqli yanaşmalardan istifadə etmişdir.

Məqalənin hazırlanmasında beynəlxalq təşkilatların hesabatları, analitik materiallar və İqtisadiyyat Nazirliyi və Dövlət Turizm Xidməti tərəfindən verilən məlumatlar geniş istifadə edilmişdir.

TƏDQİQAT METODU

Elmi işdə tədqiqat metodları kimi müşahidə, təhlil, induksiya ve ümumiləşdirmə kimi elmi metodlar tətbiq edilmişdir.

Koronovirus pandemiyasının iqtisadiyyata təsir mexanizmini araşdırmadan əvvəl qeyd etmək lazımdır ki, bu faktor iqtisadi faktor deyil və onun yayılma formaları iqtisadi nümunələrə uyğun gəlmir.

Beləliklə, təbii fəlakətlərin iqtisadiyyata təsiri hər zaman aydın olsa da, iqtisadi təsirlərinin öyrənilməsi bir araşdırma mövzusu olaraq iqtisadiyyatın ön sıralarında olmamışdır. Məsələn, qlobal istiləşmə, ətraf mühitin çirklənməsi və s. kimi fövqəladə hallar. Ekologiya bu cür kataklizmlərin nəticələrindən bəhs edir.

İqtisadiyyat müəyyən bir coğrafi mühitin məhdud qaynaqlarına uyğun olaraq istehsal, bölüşdürmə, mübadilə və istehlakı öyrənir. İqtisadi baxımdan, koronovirus pandemiyasının iqtisadiyyata təsiri, yeni coğrafi mühitdə ictimai istehsal prosesi, yəni ictimai istehsal prosesinin özü və iqtisadi agentlərin davranışını dəyişəcəkdir.

Koronavirusun (COVID-19) yayılması dünya iqtisadiyyatına ciddi təsir göstərir. İstehsalın zəifləməsi qlobal dəyər zəncirinin azalmasına, turizm və əmtəə bazarlarında mənfi tendensiyalara, eləcə də zəif iş performansına səbəb olmuşdur [5].

Dünyada hər gün 200.000 və daha çox infeksiya aşkarlanmasına baxmayaraq, Azərbaycan kimi bir çox ölkədə xüsusi karantin rejimləri mart ayının əvvəlindən etibarən yumşaldılmış və infeksiyaların sayına görə yenidən tətbiq olunan rejim yenidən tətbiq edilmişdir [1, s. 100].

Bəzi ölkələrdə səhiyyə orqanları pandemiyanın ikinci dalğasını elan etmişdir. Pandemiyanın inkişaf perspektivləri qeyri - müəyyən olaraq qalır, çünki koronavirusun genişlənmə istiqamətini və iqtisadi təsirini təyin etmək mümkün deyil.

Dünyada artan koronavirus pandemiyası dünya iqtisadiyyatının daha çox problemlə üzləşə biləcəyi ilə bağlı narahatlıq yaradır. İnkişaf etməkdə olan ölkələrdən investorların risklərdən qorunmaq üçün geri çəkilməsi maliyyə sabitliyi üçün təhlükə yaradır.

İnkişaf etməkdə olan bazarlar mart və aprel aylarında bütün dünyada iqtisadi tənəzzülə səbəb olan böyük kapital axını yaşamışdır [2]. Qlobal tələb zəiflədikcə əmtəə qiymətləri, xüsusən də neft kəskin düşüşə məruz qalmışdır.

Hər hansı bir agent və onun iqtisadi fəaliyyəti pandemiyanın iqtisadiyyata təsirini qiymətləndirmək üçün başlanğıc nöqtəsi olaraq seçilməlidir. Koronavirus infeksiyası yalnız idxal yolu ilə görülürsə (bu, Ümumdünya Səhiyyə Təşkilatının nəticəsidir), müəyyən bir ölkədə virusun yayılma kanalı olaraq qalan qlobal agentlərlə iqtisadi əlaqələrdən qaynaqlana bilər. Bu hərəkət agentlərin mal, iş və xidmət idxalı ilə birbaşa məşğul olduğu iqtisadi fəaliyyət sahələri ilə əlaqədar olacaqdır.

Dünyanın digər ölkələri kimi, Azərbaycan iqtisadiyyatı da COVID-19 pandemiyasından əziyyət çəkir. Beynəlxalq təşkilatlar və hökumət COVID-19-un Azərbaycan iqtisadiyyatına mümkün təsirini qiymətləndirməyə başlayıb.

Karantin rejiminin tətbiqi və neftin qiymətinə ciddi təsir edən beynəlxalq nəqliyyat sistemlərinin durğunluğu səbəbindən dünyada neft məhsullarından istifadə azalır. Asiya İnkişaf Bankının proqnozuna görə, COVID-19 səbəbindən neftin qiymətinin aşağı düşməsiylə Azərbaycanda iqtisadi artım 2020 və 2021-ci illərdə müvafiq olaraq 0,5% və 1,5% olmuşdur [4, s. 119].

Əmtəə qiymətləri.

Koronavirusun istehsal və xidmət sektoruna təsirinin davam edəcəyi gözlənilir [1, s. 119 - 120]. Beynəlxalq Valyuta Fondunun hesabatında bir barel neftin orta qiymətinin 37,5 dollar olacağı təxmin edilir.

Gələcək neft əyriləri göstərir ki, qiymətlərin 2021 -ci ilin son aylarına doğru ilin ortalamasından 25% aşağı olan 46 dollara qalxacağı gözlənilir. Hazırda neft qiymətləri də daxil olmaqla dünya əmtəə qiymətlərinin bərpası prosesi davam edir.

Qlobal ticarət.

Qlobal ticarət artımının yavaşlaması, proteksionist meyllərin artması, Asiya və Avropada, xüsusən də sıx avtomobil ticarəti və texnologiya məhsullarına olan tələbatın azalması, həmçinin investisiya artımının azalması ilə əlaqələndirilir [5]. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) 36 beynəlxalq təşkilatının birgə hesabatında yayımlanan son məlumatlara görə, COVID-19 pandemiyası bu ilin ilk rübündə 3% azalma göstərib.

Statistika üzrə Koordinasiya Komitəsinin hesabatına görə, dünya ticarətinin bu ilin ikinci rübündə 27% azalacağı gözlənilir [6]. Bu il koronavirusun yayılması Çində aralıq məhsulların istehsalını pozmuş və bunun qlobal dəyər zəncirinə təsiri digər ölkələrdəki istehsalçılarda da öz əksini tapmışdır. Bu siyahıda Azərbaycanın da adı var.

Hazırda dünya ticarətinin 20% -ni Çində istehsal olunan aralıq mallar təşkil edir [4, s. 69]. Eyni zamanda, koronavirusun digər ölkələrdə, xüsusən də Avropada yayılması və bu prosesin uzunömürlülüyü dünya iqtisadiyyatında son istehsalın azalmasına və dünya ticarətinin daha da zəifləməsinə səbəb ola bilər.

Turizm və Səyahət.

Səyahət və turizm pandemiyanın ən çox təsirləndiyi sahələrdən biridir. COVID-19-un qloballaşması zamanı qoyulan məhdudiyyətlər, sərhədlərin bağlanması və tələbatın azalması sərnişin hava axınının kəskin azalmasına və dünyada turizmin zəifləməsinə səbəb olumuşdur [4, s. 34].

Dünyada 330 milyon insanın çalışdığı turizm sənayesi pandemiyada ən çox təsirlənən iqtisadiyyatlardandır (Dünya Ticarət və Turizm Şurası). Mövcud ssenarilər göstərir ki, beynəlxalq turistlər məhdudiyyətlərin sürəti və müddətinə, eləcə də sərhədlərin bağlanmasına bağlı olaraq ildə 78% səyahət edən turistlərin sayı 58% -ə düşüb.

Ölkədə mövcud olan xüsusi pandemiya rejimi bir neçə iqtisadi sektorun qismən bərpası və sosial təcrid tədbirlərinin asanlaşdırılması ilə davam edir [2]. Qeyd etmək lazımdır ki, dünyada itkilərin qiymətləndirilməsi üçün istifadə olunan metodlar, eləcə də ölkələrin itkilərin qiymətləndirilməsi təcrübəsi göstərir ki, bu cür qiymətləndirmə bu cür fəlakətlərdən, iqtisadi şərait başlamazdan əvvəl aparılır. Bu halda vacib şərtlərdən biri, planlaşdırılan işlərin nəticələrinə əsaslanan qısa müddətli fərziyyələri təhlil etməkdir.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

2019-cu ilin sonundan bəri, Covid-19 pandemiyası dünya iqtisadiyyatına mənfi təsir göstərməyə və dövlətlərin yükünü artırmağa davam edir. Mövzuyla bağlı aşağıdakı təkliflərə verilə bilər:

- İqtisadi idarəçilik strategiyalarını gücləndirmək;
- Əhaliyə mümükün tibbi dəstəyin göstərilməsi;
- Uğurlu təcrübələrə əsaslanaraq iqtisadi sahədə yeni tədbirlər lanı hazırlamaq;
- Pandemiya zamanı əlavə pula ehtiyacı olanlara şirkət rəhbərliyi tərəfindən maddi dəstəyin göstərilməsi; Pandemiyanın mənfi iqtisadi təsirlərini aradan qaldırmaq məqsədlə, alınan tədbirlər pandemiya dövründə elan edilən dəstək paketləri ilə əlaqədar məlumatlardan istifadə edərək beynəlxalq səviyyədə müqayisə edilməlidir;
- İş yerlərində xüsusi tədbirlərin alınması: həm maliyyə, həm də gigyenik baxımdan;
- Dünya iqtisadiyyatının təcrübələrindən istifadə etmək

ƏDƏBİYYAT SİYAHISI

1. Ahmet K.A. Pandemi döneminde çalışan motivasyonu. İstanbul: Koçak, 2019, 289 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi https://www.stat.gov.az/
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi, https://www.economy.gov.az/
4. Bülent S.A. pandemic döneminde çalışanların motive edilmesinde etkin yöntemler. İstanbul: Koçak, 2020, 432 s.
5. Koronavirüs İçin Markaların ve Ajansların Aldığı Önlemler Nelerdir? https://pazarlamaturkiye.com/koronavirus-icin-markalarin-ve-ajanslarin-aldiklari-onlemler-nelerdir/
6. Pandemide İyileştiren İletişim - https://www.kid.com.tr/wp-content/uploads/2020/07/son607.pdf

LƏNKƏRAN TƏBİİ VİLAYƏTİNİN MEŞƏ ÖRTÜYÜNDƏ BAŞ VERƏN DƏYİŞKƏNLİKLƏRİN CİS TEXNOLOGİYALARI ƏSASINDA EKOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MONİTORİNQİ

A.N.Bədəlova., H.N.Məmmədov., N.S.Valehov., F.A.Valehova
Milli Aviasiya Akademiyası
Milli Aerokosmik Agentlik,
Ekologiya İnstitutu

Tədqiqat obyekti kimi Lənkaran təbii vilayətinin kənd təsərüfatına yararlı 124567 ha sahəsi, əsasən çay, sitrus, üzüm, taxıl, tərəvəzaltı torpaqlar götürülmüşdür. Ümümüləşdirilmiş tədqiqat obyekti 636338 hektar əhatə etmişdir. Məqalədə Lənkəran təbii vilayətinin torpaq və bitki örtüyünün kosmik şəkillər və coğrafi informasiya sistemləri vasitəsilə öyrənilməsi, torpaqların ekoloji qiymətləndirilməsi və xəritələşdirilməsindən bəhs edilir. Əldə olunan məlumatlar əsasında Lənkəran təbii vilayətinin rayonunun torpaq və bitki örtüyünün son zamanlar təbii və antropogen amillərin təsiri nəticəsində müxtəlif dərəcədə deqradasiya proseslərinə məruz qalması müəyyənləşdirilmişdir.

Açar sözlər:*, kosmik şəkillər, qiymətləndirmə, xəritələşdirmə, NDVİ indeksi, klassfikasiya*

Ölkənin meşə ehtiyatlarına, adambaşına düşən meşə sahəsi və oduncağın həcminə görə göstəriciləri aşağı səviyyədədir. Meşələrin təbii və süni bərpası da hal—hazırda qənaətbəxş deyil. Ənənəvi olaraq, ölkəyə ildə 1,2—1,5 milyon kub m oduncaq gətirilirdi ki, da hal—hazırda bu dəfələrlə azalıb. İldə 200—250 min ton həcmində gətirilən daş kömürün də idxalı kəskin azalıb. Qeyd etmək lazımdır ki, işğal edilmiş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin repatriasiya prosesində 2000—dən çox yaşayış məntəqəsi bərpa olunmalı, evlər tikilməli, mebel hazırlanmalı və s. işlər aparılmalıdır. Aydındır ki, belə şəraitdə təbii meşələrə təzyiqin artmasının ehtimalı olduqca böyükdür.

İşin əsas məqsədi: Lənkəran vilayəti hüdudlarında təbii və kənd təsərrüfatı istifadəsində olan torpaq qruplarını və landşaft komplekslərini qiymətləndirmək, torpaq monitorinqi əsasında iri çay hövzələri daxilində torpaqların ekoloji durumunu araşdırmaq və ayrı-ayrı tarixi mərhələlərdə aparılmış tədqiqat materiallarının müqayisəli təhlili (monitorinqi) əsasında torpağın münbitlik göstəricilərinin çoxillik dinamikasını öyrənmək və torpaqların ekologiyasında təbii və antropogen səbəblərdən yaranmış tendensiyaları müəyyən etməkdir.

Tədqiqatın obyekti: Tədqiqat obyekti kimi Lənkaran təbii vilayətinin kənd təsərüfatına yararlı 124567 ha sahəsi, əsasən çay, sitrus, üzüm, taxıl, tərəvəzaltı torpaqlar götürülmüşdür. Ümümiləşdirilmiş tədqiqat obyekti 636338 hektar əhatə etmişdir. Lənkaran təbii vilayətinin ərazinin tədqiqatında Landsat 5 və Landsat 8 kosmik şəkillərindən, Coğrafi informasiya sistemləri (CİS) texnologiyasından ArcGİS 10.8, ArcGİS Pro, ENVİ 5.2, ERDAS İMAGİNE 2014, PHOTOMOD və Surfer 9 proqram paketlərindən, arxiv (2010-2016-cı illər üzrə peyk təsvirləri), internet materiallarından istifadə olunmuşdur. Şəkil 1. Tədqiqat ərazisinin peyk təsvirləri (2010-2016-cı illər üzrə) təqdim olunur.



Şəkil 1. Lənkaran təbii vilayətinin peyk təsvirləri (2010-2016-cı illər üzrə)

Tədqiqat işində CİS texnologiyasının proqram paketlərindən istifadə etməklə tədqiqat obyektinin topoqrafik xəritəsi əsasında ərazinin relyefinin rəqəmli modeli qurulmuş, meyllik xəritəsi yaradılmış, tədqiqat obyektini əks etdirən kosmik şəkillər vizual və avtomatlaşdırılmış deşifrlənmə prosesləri vasitəsilə emal olunmuş, alınan bütün nəticələr qruplaşdırılaraq ərazidəki torpaq və bitki örtüyünün vəziyyəti qiymətləndirilmiş və xəritələşdirilmişdir [5]. Şəkil 2. Ərazinin relyefinin 3D rəqəmli modeli və meyllik xəritəsi verilib.



Şəkil 2. Lənkaran təbii vilayətinin relyefinin 3D rəqəmli modeli (SRTM) və meyllik xəritsəi (Slope)

Yuxarıda qeyd edildiyi kimi olduqca zəngin və çoxsaylı iqlim, bitki və relyef şəraiti Lənkəran vilayətində özünəməxsus torpaq örtüyünün formalaşmasına səbəb olmuşdur [].Vilayət daxilində təsərrüfat əhəmiyyətli torpaq ehtiyyatlarının tiplər üzrə sahəsi və onların vilayətin torpaq balansında tutduğu yer şəkil 3 və cədvəl 1–də verilmişdir.



Şəkil 3. Lənkəran təbii vilayətinin torpaq ehtiyatları

1-Sarı dağ meşə; 2-Podzollu-sarı; 3-podzollu-sarı-qleyli; 4-qəhvəyi; 5-çəmən-qəhvəyi; 6-boz-qəhvəyi; 7-çəmən boz-qəhvəyi; 8-qonur-dağ meşə; 9-dağ-çəmən bozqır; 10-dağ şabalıdı; 11-çəmən-bataqlı; 12-bataqlı; 13-dəniz sahilli qumluqlar; 14-digər torpaqlar.

Cədvəldən göründüyü kimi vilayətin torpaq ehtiyyatları genetik tiplər üzrə qeyri-bərabər paylanmışdır. Ərazidə qonur dağ-meşə (17,2%), qəhvəyi (14,8), boz-qəhvəyi (14,1%) və sarı dağ meşə (13,4%) torpaqlardaha böyük çəkiyə malikdirlər. Bütövlükdə torpaq fondunun 59,5%-i və ya 378240 hektarı bu torpaqlarda cəmlənmişdir. Araşdırmalar göstərir ki, Lənkəran təbii vilayətində şoranlaşmaya məruz torpaqların 23,4%-i və ya 4558 ha bu və ya digər dərəcədə şorakətləşməyə məruz qalmışdır.

Landsat 8 2010 və 2016-cı il peyk təsvirləri əsasında hesablanmış vegetasiya indekslərinə görə Lənkəran təbii vilayətinin lokal ərazilərinin sahələrinin müəyyən olunması və təsnifat obyektlərinin elektron xəritələri hazırlanmışdır. Növbəti mərhələdə rastr təsvirləri üzərində NDVİ indeksləri hesablanmış və vegetasiya indeksi üzrə ən yüksək vəziyyəti maksimal qiymət olaraq götürülmüşdür. Bitkinin nisbi normalaşma indeksi – aktiv fotosintetik biokütlənin (adətən vegetasiya indeksi adlandırılır) sadə miqdar göstəricisidir. Bu bitki örtüyünün kəmiyyət qiymətləndirməsi və problemlərini həll etmək üçün ən geniş yayılmış indekslərdən biridir. Digər geniş yayılmış vegetasiya indeksləri də vardır (EVİ - Enhanced Vegetation İndex, PVİ - Perpendicular İndex, RVİ - Ration Vegetation İndex). Bu da aşağıdakı düsturla hesablanır:

$$NDVI = (NIR - Red) / (NIR + Red) \quad (1)$$

$$NDVI = (Band\ 5 - Band\ 4) / (Band\ 5 + Band\ 4) \quad (2)$$

Bu düstura əsasən, təsvirin müəyyən bir nöqtəsində bitki sıxlığı (NDVI) qırmızı və infraqırmızı diapazonda əks olunan işığın intensivlik fərqi ilə onların intensivliklərinin cəmi nisbəti kimi müəyyən olunur. NDVİ indeksinin qiymətu -1 və 1 aralığında dəyişir.



Şəkil 4. 2010-cu il üçün tərtib edilmiş NDVI dərəcələrinin xəritəsi



Şəkil 5. 2016-cı il üçün tərtib edilmiş NDVI dərəcələrinin xəritəsi

Tədqiqatda becərilən əkinlərin tipinin təyin edilməsi və onların sahələrinin parsel səviyyəsində qiymətləndirilməsi məqsədi ilə obyekt yönümlü təsnifatlaşdırma metodu istifadə edilmişdir. Birinci mərhələdə peyk təsvirlərinin seqmentasiyası üçün optimal parametrlərin təyin edilməsi və bu parametrlər əsasında təsvirlərin seqmentasiyası yerinə yetirilmişdir. Növbəti mərhələdə seqmentasiya prosesi nəticəsində alınmış təsvir obyektlərinin təsnifatlaşdırma prosesi həyata keçirilmişdir [4]. Ənənəvi piksel əsaslı təsnifatlaşdırma alqoritmləri əsasında tematik xəritələrin tərtib olunması yüksək və çox yüksək məkan ayırdetməli peyk təsvirləri əsasında obyekt daxili variasiyanın yüksək olması nəticəsində məlum çətinliklərlə müşayiət olunur, belə ki obyektlər çoxlu sayda piksellər vasitəsilə təqdim olunur. Hal-hazırda təsvirlərin seqmentasiyası üçün nəzərdə tutulmuş müxtəlif alqoritmlər mövcuddur. Bu tədqiqatda kosmik təsvirlərin seqmentasiyası məqsədi ilə geniş istifadə olunan multiresolution seqmentasiya alqoritmi istifadə edilmişdir. Seqmentasiya prosesində təsvirin hər bir bəndinə həmin bənddə piksellərin standart səpələnməsinə uyğun çəki əmsalları təyin edilmişdir. Optimal parametrlər toplusunu təyin etmək məqsədi ilə müxtəlif seqmentasiya parametrləri test olunmuş və onların nəticələri müqayisə edilmişdir. Müxtəlif parametrlər istifadə edilməklə yaranan seqmentlər vasitəsi ilə obyektlərin təyin edilmə dəqiqliyi vizual olaraq yoxlanılmışdır [5].

Supervised və Unsupervised təsnifatları: Bu təsnifat əsasında yer səthinin xüsusi ərazilərinin statusu, fəaliyyəti və xarakteristikası haqqında əsaslı məlumatlar əldə edilir. Unsupervised təsnifatında piksellər əksolunma xüsusiyyətinə görə qruplaşdırılır. Bu qruplaşmalar klaster adlanır. İstifadəçi klasterlərin sayını və hansı diapazondan istifadə edəcəyini müəyyənləşdirir. Bu informasiyanın köməyi ilə, təsvirləri təsnif edən proqram təminatında klasterlər yaradılır. Klasterləri yaratmaq üçün K-means və ISODATA kimi müxtəlif təsvirləri klasterləşmə alqoritmləri var. İstifadəçi torpaq örtüyünün tipinin hər klasterini özü müəyyən edir. Bəzən bir torpaq örtüyü tipinin bir neçə klasteri olur. Bu halda, istifadəçi torpaq örtüyünün tiplərinə uyğun olararaq klasterləri birləşdirir. Təsvirlərin təsnifatı metodikası kimi unsupervised təsnifatı geniş istifadə olunur. Supervised təsnifatında istifadəçi rəqəmli təsvirdə torpaq örtüyünün hər sinfi üçün nümunələri seçir. Torpaq örtüyü tiplərinin bu nümunəsi "training sites" adlanır. Təsvirləri təsnif edən proqram təminatı bütün təsvirlərdə torpaq örtüyü tiplərində "training sites" müəyyən etmək üçün istifadə olunur. Torpaq örtüyünün təsnifatı spektral xüsusiyyətləri əsasında aparılır. Təsvirləri təsnif edən proqram təminatı hər sinfə bənzəyən əraziləri tapır. Ümumilikdə ***supervised*** təsnifatının maximum ***likelihood*** və ***minimum-distance classification*** alqorimləri istifadə edilir. Şəkil 6-da Lənkəran təbii vilayətinin 2010-2016-cı illər üzrə emal olunmuş xəritələri və qrafikləri göstərilmişdir [3,7].



Şəkil 6. Lənkəran təbii vilayətinin 2010-2016-cı illər üzrə nəzarətli deşifrə olunmuş xəritələri



Şəkil 7. 2010-2016-cı illər arasında torpaq örtüyü siniflərinin dinamikası



Şəkil 8. a) 2010 və 2016-cı illər arasında torpaq örtüyünün məhv olması və bərpa edilməsi
b) 2010 və 2016-cı illər arasında torpaq örtüyünün dinamikası

Lənkəran təbii vilayətinin torpaq fondunun müasir vəziyyəti, onun strukturu, kənd təsərrüfatı yerləri üzrə paylanmasının təhlili aparılmışdır. Müəyyən olunmuşdur ki, kənd təsərrüfatına yararlı torpaqların 15,4 %-i (43261,3 ha) eroziyaya, 12,7%-i (19503 ha) şorlaşmaya məruz qalmışdır. Lənkəran təbii vilayətinin çay, üzüm, taxıl və tərəvəzaltı torpaqların aqroekoloji əsasda bonitirovkasının ümumi müddəaları, qiymət meyarlarının və təshih əmsallarının seçilməsinin yanaşma qaydaları əsaslandırılmış, zona torpaqlarının daxili diaqnostik əlamətləri ilə üzüm, çay, taxıl və tərəvəzin məhsuldarlığı arasında çox sıx korelyativ əlaqənin olması müəyyən olunmuşdur.

NƏTİCƏ

Lənkaran vilayəti üçün kənd təsərufatı bitkilərinin ekoloji tələbinə uyğun qiymət meyarları və təshih əmsalları seçilmiş və torpaqlarını aqroekoloji qiymətləndirilməsi aparılmışdır. Lənkaran vilayəti torpaqlarının aqroekoloji əsasda qiymətləndirilməsinin təklif olunmuş sistemi qiymətlədirmə işlərinin obyektivliyini artırır. Torpaqların ekoloji qiymət şkalaları və ayrı-ayrı kənd təssufatı bitkilərinin aqroekoloji modelləri torpaq fondundan səmərəli istifadə olunmasına, münbitliyin qorunmasına və artırılmasına xidmət edir. İri çay hövzələri daxilində mühbitlik göstəricilərinin dinamikası üzərində aparılmış müşahidələrin (monitorinqin) nəticələri vilayətin ekoloji problemlərinin həllində istifadə oluna bilər:

-vilayətin müasir ekoloji şəraitini tədqiq etməklə torpaq örtüyünə antropogen amillərin çoxillik təsirini səciyyələndirmək;

- yeni ictimai-iqtisadi şəraitdə torpaqlarla bağlı yaranmış ekoloji problemləri təhlil etmək.

- çay, taxıl, üzüm və tərəvəzaltı torpaqların aqroekoloji əsasla, həmçinin torpaq-iqlim düsturlarından istifadə etməklə onun qiymətləndirilməsini aparmaq;

-landşaft komplekslərini müqayisəli şəkildə qimətləndirmək;

-vilayətin iri ay hövzələrində ayri-ayri tarixi mərhələlərdə aparılmış torpaq tədqiqat materiallarının müqayisəli təhlili (motironqi) əsasında torpağın münbitlik göstəricilərinin çox illilik dinamikasını öyrənmək və torpaqların ekologiyasında təbii və antropogen səbəblərdən yaranmış tendensiyaları müəyyənləşdirmək.

ЭКОЛОГИЧЕСКАЯ ОЦЕНКА ЛЕНКОРАНСКОЙ ПРИРОДНОЙ ПРОВИНЦИИ НА ОСНОВЕ ТЕХНОЛОГИЙ ИЗМЕНЕНИЯ ЛЕСА

А.Н.Бадалова, Х.Н.Мамедов,
Н.С.Валехов, Ф.А. Валехова

В качестве объекта исследования были взяты 124567 га сельскохозяйственных угодий Лянкоранского природного района, в основном чайные, цитрусовые, виноградные, зерновые, овощные угодья. Обобщенный объект исследования охватил 636338 га. В статье рассматриваются вопросы изучения почв и растительности Ленкоранской природной области с помощью космических снимков и геоинформационных систем, экологической оценки и картографирования земель. На основании полученной информации установлено, что почва и растительность района Лянкоранского природного района в последнее время в результате воздействия природных и антропогенных факторов подверглись разной степени деградационным процессам.

Ключевые слова: *космические снимки, оценка, картографирование, индекс NDVI, классификация.*

ECOLOGICAL ASSESSMENT OF LANKARAN NATURAL PROVINCE ON THE BASIS OF CHANGE TECHNOLOGIES OF CHANGES IN THE FOREST

A.N.Badalova., H.N.Mammadov., N.S.Valehov., F.A.Valehova

124567 ha of agricultural land of Lankaran natural region, mainly tea, citrus, grape, grain, vegetable lands were taken as the object of research. The generalized research object covered 636338 hectares. The article discusses the study of soil and vegetation of Lankaran natural region through space images and geographic information systems, ecological assessment and mapping of lands. Based on the information obtained, it was determined that the soil and vegetation of the region of Lankaran natural region have recently been subjected to various degrees of degradation processes as a result of the impact of natural and anthropogenic factors.

Keywords: *space images, evaluation, mapping, NDVI index, classification*

ƏDƏBİYYAT SİYAHISI

1. Enhanced use of GIS and Remote Sensing for the restoration monitoring of construction footprints and prediction of soil erosion risks along petroleum and gas pipelines. Conference: Eurasian GIS Congress At: https://eurasiangis2018.selcuk.edu.tr/images/abstract_book.pdf
2. Мехтиев А.С., Азизов Б.М., Мехтиев Ю.С., Аэрокосмический мониторинг. Баку: Наука, 2005.
3. Mehdiyev A.Ş., Əzizov B.M., Bədələva A.N., Məsafədən Zondlamanın Fiziki Əsasları. Bakı: Elm, 2015, 303 s.
4. R.Bayramov, R.Cuvarov, H.Məmmədov "Geodeziyanın əsasları və kartoqrafiya". Bakı: MAA, 2018, 178 s.
5. http://www.gis.leica-geosystems.com/Products/Imagine/
6. http://imgs.intergraph.com/gimage
7. Y.Ə.Qəribov "Azərbaycan Respublikasının təbii landşaftlarının optimallaşdırılması" Bakı: AzTU, 2012, 216 s.

GEOINFORMASIYA SISTEMLƏRININ NÖVLƏRI (ARCGİS PROQRAM TƏMINATI TIMSALINDA)

ZAHID İDRISZADƏ
Bakı Mühəndislik Universiteti
zahid.idriszade@gmail.com
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Ümumiləşdirilmiş mənada, Geo İnformasiya Sistemi (GİS) yer səthinin hər hansı bir hissəsinə aid informasiyanı emal etmək üçün alət kimi başa düşülür. GİS coğrafi məlumatların idarə edilməsini, təhlilini və təsvirini təmin edir. Müxtəlif tipli coğrafi məsələlərin həlli məqsədi ilə GİS çoxlu sayda alətlər panelinə malikdir. Bu gün GİS təkcə ətraf mühitin tədqiqində və kartoqrafiyada deyil, xalq təsərrüfatının əksər sahələrində (yolların çəkilməsi, fövqəladə hallarda, hərbidə, polisdə, səhiyyədə, rabitədə, statistikada, ticarətdə, şəhərsalmada, kadastr məsələlərində) istifadə edilir. GİS-dən istifadə sahələri praktiki cəhətdən məhdudiyyət tanımır və zaman keçdikcə digər sahələrə də geniş tətbiq olunmaqdadır.

AÇAR SÖZLƏR: ArcGİS, VEKTOR, RASTR, GEOİNFORMASİYA

GIRIŞ

GİS proqram təminatları (ArcGİS). GİS proqram təminatlarını AutoDesk MAP, ArcGİS, MapİnfoProfessional və s. göstərmək olar. GİS proqram təminatları bir mənalı olaraq məkan məlumatlarının təhlili və idarə edilməsini təmin edir.

ArcGİS proqram təminatı məkan məlumatlarını idarə etmək üçün bir çox funksiyalara malikdir. Burada təhlil modulları, analitik modullar, idarəetmə əməliyyatlarını həyata keçirən alətlər paneli və s. funksiyalar öz əksini tapır.

ArcGİS proqram təminatı timsalında GİS üç növ təsvir oluna bilər. Geoməlumatlar bazası şəklində, Geo emal, Geovizualizasiya.

Bu proqram təminatında aparılası işlərin məqsədindən asılı olaraq lisenziyaların əldə edilməsi mütləqdir. Üç lisenziya mövcuddur. ArcİNFO, ArcView, ArcEditor

ArcİNFO lisenziyasına bütün təhlil modulları və funksiyalar şamil edilir. Analitik modullara aşağıdakılar aiddir:

- ArcGİS Spatial Analyst
- ArcGİS 3d Analyst
- ArcGİS Geostatistical Analyst
- ArcGİS Network Analyst
- ArcGIS Schematics
- ArcGIS Survey Analyst
- ArcGIS Tracking Analyst

ArcGİS Spatial Analyst – Məkan məlumatlarının geniş formada təhlili məsələlərini həyata keçirir

ArcGİS 3d Analyst – üçölçülü məlumatların realistik təsviri və təhlili məsələləri aiddir

ArcGİS Geostatistical Analyst – Statistik metodlar vasitəsilə məkan məlumatlarının təhlili və araşdırılması məsələləri

ArcGİS Network Analyst – Marşrutla bağlı bütün məsələləri, yaxın ərazidə yerləşən punktların tapılması, zonaların təhlili

ArcGIS Schematics - Şəbəkələrin müxtəlif planlarda təsviri və bu məqsədlə onların strukturalarına baxmaq təminatı və nəhayət operativ olaraq şəbəkə daxili məsələlərin həlli

ArcGIS Survey Analyst – Çöl ölçü və kadastr məlumatlarının idarə edilməsi, emalı, saxlanılması, həmçinin mərkəzləşdirilməsi məsələlərini həll edir.

ArcGIS Tracking Analyst – hadisələrin analizi, vizuallaşdırılması, real vaxtda təyini məsələlərini həll edir. Spesifik modullardan biri **Crime analyst** sayıla bilər. Tematik formalaşmış moduldur. Cinayətkarlığın təhlili məsələlərinə baxır.

Vektor və rastr məlumatları. CİS köməyi ilə coğrafi obyektlər 2 model formasında təqdim oluna bilər. Bunlardan biri vektor digəri isə rastr formasıdır.

Vektor modelində obyektin forması nöqtələrin x, y koordinatı ilə müəyyən edilir. CİS köməyi ilə nöqtələr xətlər və konturlar şəklində birləşdirilir. Məsələn hər hansı bir istinad nöqtəsi və ya ünvan coğrafi koordinatlara malik nöqtə kimi göstərilir:



Şəkil 1. Vektor modeli

Çaylar, yollar, boru kəmərləri kimi xətti obyektlər ardıcıl koordinat cütlükləri şəklində əks olunur.
Sahə xarakterli obyektlər qapalı olmaqla sərhədlərlə müəyyən olunur. Buna misal olaraq torpaq sahələrinin, inzibati ərazi vahidlərinin sərhədlərini göstərmək olar.
Qeyd etmək lazımdır ki, sahə xarakterli obyektlərdə təbii sərhədlər də istifadə oluna bilər. Məsələn, çay hövzələrinin sərhədləri. Vektorlu verilənlər təhlil olunarkən, işin xeyli hissəsi laylar üzrə atributlara sərf olunur.
Rastr modellərdə obyektlər matrisa ilə fasiləsiz məkan şəklində təqdim edilir. Bu halda təhlilin böyük hissəsi rastr laylarının kombinə edilməsindən ibarət olur.

TƏDQİQAT METODU

Coğrafi məlumatlarla işləmək üçün GİS bir neçə növlərdən təşkil edilmişdir:

a) Geo məlumatlar bazası
b) Geovizualizasiya
c) Geo emal

Geo məlumatlar bazası – GİS məlumatlarının ümumi modeli olub və məlumatlar toplusunu təşkil (vektor obyektlər, rastr təsvirlər, topologiya, şəbəkələr və s.) edən məkan məlumatlar bazasıdır. Geo məlumatlar bazası ətraf mühit haqqında bir informasiya sistemidir.

İstifadəçi GİS-də geo məlumatlar bazası yaratdıqda, müxtəlif tipli məkan məlumatlarının necə təsvir edilməsini təyin etməsi zəruridir. Məkan məlumatları GİS-də poliqon, xətti və nöqtəvi şəkildə (torpaq sahələri poliqon, yollar xətti, işıqforlar nöqtəvi)
təsvir edilə bilər.



Şəkil 2: Poliqon, xətti və nöqtəvi təsvirlər

Geoməlumatlar bazasında topologiyaya xüsusi diqqət yetirilməli və əsasən poliqon, xətti kimi obyektlərlə işlədikdə şəbəkələrin yaradılması təmin edilməlidir. Topologiya – coğrafi obyektlər arasında məkan əlaqələrini tənzimləyir. Məkan məlumatlarının tərkib hissələrinin əsasını təşkil etməklə onların keyfiyyətinə zəmanət verir. Topologiya GİS-in geoməlumatlar bazasında fundamental rol oynamaqla yanaşı, yüksək idarəetmə kimi məsələlərin həllində də özünü biruzə verir. ArcGİS proqram təminatının ArcEditor və ArcİnfoO lisenziyalarını əldə edən şəxs geoməlumatlar bazasında topologiya ilə bağlı qarşıya çıxmış bir çox məsələləri həll edə bilər. Topologiya məkan obyektlərinin tamlığını təmin etməklə yanaşı, məlumatların müxtəlif istiqamətlərdə və ali səviyyədə idarə edilməsini, digər məkan obyektlərlə əlaqələndirilməsini reallaşdırır. Topologiyanın aparılması sayəsində məkan məlumatları GİS-də naturada (real obyektlər) olduğu kimi formaya düşə bilir. Geoməlumatlar bazasında topologiyanın aparılması məkan obyektləri ilə bağlı qarşıya çıxmış məsələlərin (obyektlərin-bitişikliyi, əlaqələndirilməsi, yaxınlığı, üst-üstə düşmə halları) həlli üçün vacibdir.
Geoməlumatlar bazasında məkan obyektləri arasında topoloji məkan əlaqələri və topoloji bağlılıq mövcuddur. Topoloji məkan əlaqələri deyəndə geo informasiya texnologiyaları çərçivəsində idarə olunası obyektlər arasında topoloji əlaqələr başa düşülür. Topoloji məkan əlaqəsi GİS proqram təminatları vasitəsi ilə avtomatik və ya operatot (mütəxəssis) tərəfindən tətbiq edilə bilər. Topoloji məkan əlaqələri obyektlər

yaxud onların ayrılmaz hissələri arasında abstrakt məkan əlaqəsini təmin edir. Rəqəmli xəritələrin tərtib edilməsində və geoməlumatlar bazasının yaradılmasında topoloji obyektlər şəbəkəsinə xüsusi ilə diqqət yetirilməlidir. Topoloji məkan əlaqəsi kimi topoloji şəbəkələr də hər hansı bir obyektin qonşu obyektlərlə oxşar cəhətlərinə görə vahid sistemə daxil edilməsini təmin edir. Bu sistem də öz növbəsində iki hissəyə bölünür:

- Topoloji məkan əlaqəsi şəbəkələri
- Topoloji bağlılıq şəbəkələri

Topoloji bağlılıq şəbəkələri topoloji modellərin əsasını təşkil edir. Bu modellərə misal olaraq yol şəbəkəsini, yüksəkgərginli elektrik şəbəkələrini, su qüllələri şəbəkəsini və s. göstərmək olar. Topoloji bağlılıq şəbəkələri çoxlaylılara da tətbiq edilə bilər.

Rəqəmli xəritələrin tərtib edilməsində və geoməlumatlar bazasının yaradılmasında verilən tələblərə aşağıdakı topoloji bağlılıq şəbəkələri aiddir:

- Magistral komunikasiyaların topoloji şəbəkəsi;
- Kvartaldaxili komunikasiyaların topoloji şəbəkəsi;
- Elektrik şəbəkələri;
- Qaz komunikasiyaların topoloji şəbəkəsi;
- Telefon komunikasiyaların topoloji şəbəkəsi;
- Kanalizasiya topoloji şəbəkəsi;
- Transport topoloji şəbəkələri

NƏTİCƏ

Ümumi qayda olaraq GİS proqram təminatları vasitəsi ilə tərtib edilmiş rəqəmli xəritələrdə relyefi təsvir etmək üçün müxtəlif üsullardan istifadə edilir. Bu üsullardan bəzilərnə baxaq:

- Yuma üsulu
- Horizontallar üsulu
- Hipsometrik üsul

Yuma üsulu – relyefi təsvir etmək ən sadə üsul hesab edilir. Bu üsulda çox dik yamaclar tünd, az meylli yamaclar isə açıq rənglənir (diklik artdıqca daha tünd rəngləmə). Yuma üsulunda yamacın dikliyindən asılı olaraq eyni bir rəngin müxtəlif tonlarından istifadə olunur. Yuma üsulu horizontallarla və hipsometrik rəngləmə ilə birgə olaraq tətbiq oluna bilər.

Horizontallar üsulu – horizontallar (izohipslər) relyefi təsvir etmək üçün universal üsul hesab edilir. Bu üsulun üstünlüyü əsas etibarilə ondan ibarətdir ki, nöqtənin mütləq və nisbi yüksəkliklərini, yamacların istiqamətini, meylliyini və s. kəmiyyət göstəricilərini təyin etmək olur. Bundan əlavə horizontallar relyefin forması və parçalanması haqqında təsəvvür yaradır.

Hipsometrik üsul – relyefin yüksəkliyini əyani olaraq göstərmək üçün qonşu horizontallar arasındakı sahə müxtəlif rənglərlə rənglənir. Relyefin bu qaydada təsvir edilməsi yüksəklik pillələri üzrə rəngləmə və yaxud hipsometrik üsul adlanır. Bu üsulda mavi, yaşıl və qəhvəyi rənglərdən istifadə edilir. Sular mavi, ovalıqlar yaşıl, dağlar qəhvəyi rənglərin müxtəlif tonları ilə rənglənir.

ArcGİS proqram təminatı vasitəsilə relyefin qurulması əsas etibarilə Geostatistik, Spatial və 3D təhlil modullarından istifadə edilməklə həyata keçirtmək olar. Nəticə etibarilə qurulmuş modelin üçölçülü və ya ikiölçülü vəziyyətdə baxılmasını təmin etmək üçün ArcScene paketdən istifadə olunur. Səth təhlil məsələlərində istifadə edilir və əsasən 3D təhlil modulunun laylarını emal etmək üçün nəzərdə tutulmuşdur. 3D təhlil modulu vasitəsi ilə rastr təsvirlərdə olan horizontalları vektorizasiya etmək və alınmış vektor məlumatlar əsasında tin (qeyri müntəzəm şəbəkə) yaratmaq mümkündür.



Şəkil 3: Rastr və TİN səthləri



Şəkil 4: Yuma üsulu vasitəsi ilə relyefin təsviri

ArcGİS proqram təminatının ArcCatalog bölməsi vasitəsi ilə də üçölçülü məlumatlara baxmaq mümkündür.

ƏDƏBIYYAT SIYAHISI

1. Bayramov R.V. rəqəmli xəritələtin tərtibi və CİS, Coğrafiya fakultəsi, Geodeziya və Kartoqrafiya kafedrası, magistr hazırlığı üçün proqramlar toplusu. Bakı, "Ulu", 2006, s.20-25
2. Orta məktəblərdə CİS-in yaranması və tətbiqi. Akademik H. Əliyevin 100 illik yubleyinə həsr olunmuş " Ekologiya: Təbiət və cəmiyyət problemləri" beynəlxalq elmi konfrans. Bakı, BDU, 2007, s.38-40
3. Берлянт А.М. Геоинформционное картографирование. М.МГУ. 2001.
4. Ширяев Е.Е Новые методы картографического отображения и анализа геоинформации с применением ЭВМ. Недра,1997
5. https://www.esri.com/en-us/arcgis/products/arcgis-online/resources
6. https://www.nationalgeographic.org/encyclopedia/geographic-information-system-gis/
7. https://researchguides.library.wisc.edu/GIS

ZƏLZƏLƏLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASINDA TEXNOLOGİYALARIN TƏKMİLLƏŞDİRİLMƏSİ

CƏFƏROV ŞƏMSİ
AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ
MAGİSTR MƏRKƏZİ
shemsi.cefer@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Zəlzələlərin nəticələrinin aradan qaldırılmasında, əsas risk faktorlarını nəzərə alaraq "Dron" texnologiyasından isifadə daha məqsədə uyğundur. Belə ki, təbii fəlakət zamanı evakuasiya və sağ qalanların tapılması əsas məqsəddir. Bu məqalədə, zəlzələlərin nəticələrinin aradan qaldırılmasında yeni nəsl texnologiya olan, "DRON" texnologiyalarının isifadəsi, xüsusiyyətləri və xarakterik parametrləri haqqında məlumatlar qeyd olunmşdur.

Açar sözlər: "Dron" texnologiyası, zəlzələ, yeni nəsl texnologiya.

GİRİŞ

Texnologiya davamlı olaraq təkmilləşdikcə və təbii fəlakələtlərin zərərli təsirlərini yumşaltmağa cəhdlər daha çox ön plana çıxdıqca, mütəxəssislər insanlara və ərazilərə əvvəlki şəkildə deyil, daha tez çatmaları üçün dronlardan isifadə daha çox əlverişlidir.

Zərər daha böyükdürsə, ərazilərə çatmaq ya böyük problem, ya da təhlükəli ola bilər. Buna görə də, dronlar potensial təhlükələri və insanları skan etmək üçün sürətli və təhlükəsiz bir yol təqdim edir. Bundan əlavə, Dronlar yerdəki komandolardan daha böyük əraziləri daha sürətli əhatə edə bilir. Əksər dronlar real vaxt reimində kompüterə məlumat göndərən yüksək ayırdetmə kamerası ilə təchiz edilə bilir. Bu məlumalatlar daha sonra xilasetmə qruplarına və monitorinq qruplarına ötürülə bilər. Bu cür məlumatlar çox vacibdir, çünki məruz qalma müddəti artdıqca sağ qalma ehtimalı əhəmiyyətli dərəcədə azalır.
Dron texnolgoyasının faydalarına və istifadəsinə dünya mediasından baxıb nəzərdən keçirdikdə, "UNİCEF"- in fəlakətdən zərər çəkmiş əraziləri çəkmək və xilasedici ləvazimatları ucqar ərazilərə sürətlə çatdırmaq üçün pilotsuz uçuş aparalarından istifadə etməyə başlayıb.

Nəticə

Texnologiyaların inkişafı insanın bütün fəaliyyət sahələrinə təsir edir. Dron texnologiyasından istifadə nəticəsində zəlzələlərin nəticələrin aradan qaldırılması prosesi daha asanlaşacaq və bu iqtisadi cəhətdən də, xeyli səmərəli olacaq.

Ədəbiyyat

1.https://www.google.com/search?q=technologies+used+in+earthquake+response.&oq=&aqs=chrome.2.35i39i362l5...5.-1j0j7&client=ms-android-xiaomi-rvo3&sourceid=chrome-mobile&ie=UTF-8
2. H.O.Ocaqov "Fövqaladə halların nəticələrinin aradan qaldırılması" B-2009

SƏNAYE ÇİRKAB SULARININ TƏMİZLƏMƏSİNİ TƏMİN EDƏN ƏSAS METOD VƏ PROSESLƏR

Sadıqova A.Ə., Məmmədov H.N.
Milli Aviasiya Akademiyası
ekoluna@ymail.com
hikmat.mammadov@mail.ru

Xülasə. *Məqalədə sənaye müəssisələrinin çirkab sularının çirkləndiricilərdən təmizlənməsi texnologiyalarına aid mövcud problemlərin vəziyyətinə baxılıb. Bu suların tərkibindən, müvafiq sənaye proseslərinin xüsusiyyətlərindən asılı olaraq bu və ya diqər təmizləmə üsülün tətbiq edilməsi, seçilməsi əsaslandırılıb. Çirkab suların çirkləndiricilərdən təmizlənməsi üçün hazırda əksosmos və nanotexnologiyanın, eləcədə xüsusi kompleks təmizləyici qurğu və stansiyaların istifadə edilməsinin vacibliyi qöstərilib. .*

Açar sözlər*: sənaye prosesləri , çirkab sular, təmizləyici qurğular,kompleks sistemlər, əks-osmos, membran nanotexnologiyalar.*

Müasir sənaye müəssisələrində suyun keyfiyyətinə və bunun üçün istifadə edilən su təmizləmə üsul və metodlarına yüksək tələblər qoyulur. Sənaye müəssisələrin çirkab sularının təkrar istifadəsi əsasən su təhcizatını təkmilləşdirmək və səmərəliliyinin artırılması məqsədini daşıyır.
Müxtəlif sənaye müəssisələrinin sularının tərkibi bir-birindən fərqlidir. Çirkləndiricilərin xüsusiyyətləri həmin müəssisələrindən, onların təyinatından və tətbiq edilən texnologiyalardan asılıdır.
Göstərilən suların mürəkkəb fiziki-kimyəvi tərkibi onların təmizlənməsi və sənaye prosesinə qaytarılması üçün xüsusi texnoloji metodların tətbiqini tələb edir. Təmizləmə prosesindən keçdikdən sonra sular təkrar istifadəyə, və yaxud kanalizasiya sistemi vasitəsi ilə yaxınlıqda yerləşən su hövzələrinə daxil edilməsindən öncə müxtəlif tələblərə uyğunluğu müəyyən edilir. Bu suların hidrosferə daxil edilməsi üçün onların buraxıla bilən qatılıq həddi $\leq$530 mq/l, sulfatların qatılığı$\leq$ 500, xloridlərin $\leq 350,$ sinkin $\leq 1,$ dəmirin 0,3 və fenolların isə $\leq$0,1 mq/l kimi olması lazımdır və bu tələblərə ciddi nəzarət edilir.
Azərbaycanda təbiətin qorunmasına yönəldilən qanunların sərtləşdirilməsinin rolu daim artmaqdadır və bunu nəzərə alaraq respublikamızın bütün sənaye müəssisələrində ayrılan çirkab suların mütləq şəkildə

yüksək dərəcədə təmizlənməsinə və təkrar istifadəsinə böyük önəm verilir. Mürəkkəb fiziki-kimyəvi göstəricilərə malik olduğu səbəbindən bütün təmizlənməsini tələb edən sənaye çirkab suları müxtəlif su təmizləmə metodlarının istifadəsi ilə təmizlənərək müəssisələrin su təhcizatı probleminin həll edilməsinə qulluq edir.

Bu səbəbdən xüsusi təmizləmə metodların reallaşdırılmasına, prosesin xüsusi qurğularda, bəzən isə kompleks şəkildə həyata keçirməsi zərurəti yaranır. Məhz buna görə sənaye müəssisələrinin çoxunda daim yeniləndirilən kifayət qədər mürəkkəb və ildən ilə təkmilləşdirilən blok-modul tipli qurğu və stansiyalardan istifadə edilir. Məsələn, metallurgiya sənayesində istifadə edilən suya əsas tələb ondan ibarətdir ki, onun tərkibində duzların miqadrı mümkün qədər az olsun. Belə tələb eləcə də mikroelektronika və farmakologiya sənaye müəssisələrinə də xasdır.

Sənaye müəssisələrində suların təmizləməsi üçün son zamanlar yeni və daha müasir texnologiyalara tələblər yaranır. Bunun üçün, məsələn, ultrabənövşəyi şualanmanın, elektrokimyəvi aerasiyanın və ozonlaşdırmanın tətbiq edilməsi zərurətin vacib olduğunu göstərmək olar.

ÜB-şualanmanın reagentsiz olduğu üçün onun istifadəsi iqtisadi nöqteyi nəzərdən çox qeniş tətbiq edilə bilən maraqlı və faydalı metodlara aiddir.

Müasir dövrdə bütün texnoloji metodların tətbiqinin əsas məqsədi əlbəttə ki, müxtəlif fərqli tərkibli çirkab suların təmizlənməsin həyata keçirməklə təbiətin qjrunması, həmin sənaye müəssisələrin ekoloji təhlükəsizliyinin artırılması, digər tərəfdən isə mümkün dərəcədə sərf edilən reagenlərin, ümumi xərclərin azaldılması məqsədini daşıyır.

Göstərilən üsulların tətbiqi çirkab suların kompleks təmizlənməsi və proseslərdə suların normativ dərəcələrə uyğunlaşdırılması xüsusən qalvanik üsulla metall emalı sənaye qurğularından ayrılan çirkab sularına, yüksək minerallaşma dərəcəsinə malik çirkab suların təmizlənməsinə, ağır metallarla zəngin çirkab suların təmizlənməsinə və digər istehsal sahələrində çirkab suların təmizlənməsinə aid etmək olar. Bunun reallaşdırılması üçüçn son zamanlar istehsal sahəsindən asılı olmadan sənaye müəssisələrinin çirkab sularının təmizlənməsinə yönəldilən kompleks texnoloji sistemlərin yaradılması və istifadəsinə üstünlük verilir.

Ümumiyyətlə, çirkab suların kompleks təmizləmə sistemlərində ənənəvi effektli reagent emalı, filtrasiya, ion mübadiləsi, sorbiya və qızdırılmaqla buxarlanmaya əsaslanan texnoloji üsulların tətbiqi ilə yanaşı daha səmərəli mebran nano-texnologiyaların (ultrafiltrasiya, əksosmos və s.) istifadəsinə önəm verilir.

Sənaye çirkab suların çirkləndiricilərdən təmizlənməsi üçün hazırda xüsusi kompleks təmizləyici qurğu və stansiyalardan istifadə edilir. Hər bir müəssisədə toksik xassəli maye tullantıları var və onların təmizlənməməsi və birbaşa suxur və hidrosfer obyektlərinə daxil olması təbiətə və insanların sağlamlığına güclü mənfi təsir göstərir.

Çirkab sular mexaniki təmizləmədən ardıcıl olaraq bioloji təmizləmə mərhələsində aerotenklərdə, lildən, çöküntüdən ayrılma və bioloji süzgəclər vasitəsilə təmizləmə proseslərdən keçərək, onların təmizlik dərəcələri 90-95%-ə çatdırılır. Sonrakı mərhələdə təmizlənmiş sular onların tərkibində qalan çirkləndiricilərin aerasiya və oksidləşdirilməsi məqsədilə bioloji reaktorlara daxil eidlir və dezinfeksiya və zərərsizləşmədən keçir. Bunun üçün əsasən aşağıda qöstərilən üsullar tətbiq olunur: ÜB və qamma şualanma, ultrasəslə təsir, xlorlaşdırma və s. Son zamanlarda patent ədəbiyyatdan məlumdur ki, suların fotokimyəvi təmizlənməsinə aid çoxlu işlər mövcuddur. Bu üsullar suların mikrobioloji çirkləndiricilərdən zərərsizləşməni yüksək səviyyəyə-təxminən 99%-ə çatdırılmasına yönəlib.

Çirkab suların əksosmos üsulu ilə təmizlənməsi metodu onların çox vacib olan fiziki- kimyəvi təmizləmə metoduna aiddir. Bəzi hallarda xüsusi məqsədlər üçün ultraminerallaşmamış, yəni ionsuz suyun alınması prosesinin reallaşdırılması ötrü elektroionsuzlaşdırıcı qurğularından istifadə edilir. Bu proses suda həll olmuş duzların ionlarının sabit cərəyan altında xüsusi membranlardan keçirilməsi vasitəsilə əldə olunur. Bunun üçün da müasir dövrdə membran texnologiyaanın və nanomaterialların yeni ekoloji təmiz texnologiyaların tətbiqi, olduqca vacib sayılır. Çirkab suların bir çox sənay müəssisələrdə üzvi birləşmələrdən və ağır metallardan təmizlənməsi məqsədlə yeni texnoloji üsullara və faydalı madəllərə də böyük önəm verilir. Məsələn, çox komponentli çirkləndiricilərdən (neft ayırmada, neft kimyasında, maşınqayırmada, yüngül və, xüsusilə də qida və bəzi diqər sənayelərdə) PVX korpusunda üfüqi müstəvilərdə yerləşdirilən sayı 20, qalınlığı 15 mm olan elektrodlardan ibarət olan qurğudan istifadə etməklə xüsusi absorbent vasitəsilə flotasiya şlamın sudan ayrılması təmin olunur.

Nəticə

Təbiətin qorunmasında, ətraf mühitin təhlükəsizliyinin təmini məqsədlə sənaye müəssisələrinin çirkab sularının kompleks şəkildə təmizlənməsi muasir nanomateriallarına, əksosmos və membran

texnologiyasına əsaslanan proseslər vasitəsi ilə önəmli və böyuk perspektivlərə malik olması araşdırılaraq təsdiqlənib.

Summary. The article examines the current problems related to the technology of wastewater treatment of industrial enterprises. Depending on the composition of these waters and the characteristics of the relevant industrial processes, the choice of one or another treatment method is justified. The importance of using aerospace and nanotechnology, as well as special complex treatment plants and stations for the treatment of wastewater from contaminants has been highlighted.

Keywords: *industrial processes, sewage, treatment plants, complex systems, space, membrane nanotechnology.*

Ədəbiyyat

1. B.M. Əzizov, M.İ. Əliyev, C.S. Mehdiyev "Tətbiqi ekologiyanın əsasları" Bakı 2015, 437s.
2. Вал Френкель « Эволюция метода обратного осмоса», Мембранная технология, 2011, с,4-6,
3. Б, Павлов «Высокоэффективные технологии и оборудование в сфере экологической переработки отходов и очистки воды», Нанотехнологии , 2017, т, 71, №1, с. 22-31
4. А.Д. Сунчалина «Нанотехнология в экологии»2016, 185 с,
5. О. Н. Борисова, И. Г. Доронкина, В. М. Феоктистова «Ресурсосберегающие нанотехнологии в водоочистке», Нанотехнологии в строительстве,2021, т.13, №2, с.124-130

İŞLƏNMƏ OBYEKTİNDƏ CARİ NEFTQAZLA DOYUMLULUĞUN TƏYİNİ

SEVIL QƏHRƏMANLI
AMEA-nın Neft və Qaz İnstitutu
sevila65@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Neft-qaz yatağı quyularının kəsilişində işlənmə obyektinin cari neftqazla doyumluluq əmsalının təyini vacib məsələlərdən hesab edilir. İşdə bu məsələnin həllinə dair konkret yataq nümunəsi üçün petrofiziki modelləşdirmə və mədən geologiyası məlumatları əsasında cari neftqazla doyumluluğun təyini proseduru təqdim edilir.

AÇAR SÖZLƏR: işlənmə obyekti, neftqazla doyumluluq, petrofiziki model

Dinamik proses gedən neft-qaz yatağı quyularının kəsilişində işlənmə obyektinin cari neftqazla doyumluluq əmsalının təyini, xüsusilə, uzun müddət işlənmədə olan yataqlarda, vacib olduğu kimi, həm də, çətin həll olunan məsələdir.

Bu əmsalın təyininin iki yolu mövcuddur. Birinci yolla cari neftqazla doyumluluq əmsalının təyini obyektə qazılan yeni quyuda geofiziki kompleks tədqiqat məlumatlarının araşdırılması ilə yerinə yetirilir. İkinci yol kəmər buraxılmış, müvəqqəti dayandırılmış quyu kəsilişində İNNK (impuls neytron-neytron karotaj) üsulu ilə (üsulunun tələblərinə uyğun geoloji şərait olduğu halda) quyuda aparılmış tədqiqat məlumatlarını araşdırmaqla cari neftqazla doyma əmsalının təyin edilməsidir ki, bunun üçün kontur daxilində çoxsaylı quyu tədqiqatı yerinə yetirilməlidir.

Hazırda neft çıxarma müəssələrində iqtisadi və texniki vəziyyətlə bağlı tələb olunan sayda quyu tədqiqatının yerinə yetirilməsi imkanı məhdud olduğuna görə, sahəvi araşdırma üsulu ilə işlənmə obyektinin kəsilişində cari neftqazla doyma əmsalı obyektin quyu kəsilişindəki kollektorların süzülmə-həcm parametrləri, quyunun süzgəc açılmış aralığından çıxarılan neftin həcmini (neftvermə əmsalını) nəzərə alaraq, məlum həcm üsulundan istifadə etməklə hesablama yolu ilə təyin edilir.

Bu yolla işlənmədə olan horizontun hər bir quyusunun cari neftqazla doyumluluq qiyməti tapılır və bu qiymətlər əsasında obyektin petrofiziki modeli tərtib edilir (şəkil 1).



Şəkil 1. Tədqiqat obyektinin cari neftlədoyumluluq əmsali üzrə tərtib olunmuş petrofiziki modeli

Quyu kəsilişində fəal işlənməyə cəlb olunmayan, süzgəc açılmayan aralıqda cari neftqazla doyumluluq qiymətləndirilərkən, həmin il üçün (təhlil aparılan il üçün) obyektin neftvermə əmsalına əsasən düzəliş verilir.

Alınan məlumatlar, faktiki quyu tədqiqatları ilə yoxlanılmalıdır və bunun üçün quyuların kəsilişində hesablama yolu ilə tapılmış məlumatlar əsasında sahə aralıqları üzrə cari neftqazla doyumluluq petrofiziki modeli tərtib edilir. Bu modeldə yüksək neftqazla doyumluluq müşahidə olunan sahələrdə nəticələri yoxlamaq üçün quyular seçilərək İNNK üsulu ilə həmin quyuların kəsilişində aparılan tədqiqatla neftqazla doyumluluq təyin edilir.

ƏDƏBIYYAT SIYAHISI

1. Азаров Е.С., Тарачева Е.С. Анализ применяемых методов обоснования коэффициента остаточной нефтенасыщенности объектов с трудноизвлекаемыми запасами нефти. Геология, геофизика и разработка нефтяных и газовых месторождений. 2021, №1, с. 44-48.
2. Токарев М.А. Исследования геолого-статистических моделей пласта для контроля нефтеотдачи и подсчета запасов. Нефтепромысловое дело, 1983, № 2, с.1-2
3. Зейналов З.И. и др. Геология, нефтегазоность и экономическое развитие Артемского района. Баку: Азернешр, 1963г.
4. Гаджиев Ч.А. Комплекс мероприятий по использованию геофизической и геолого-промысловой информации (на примере старейшего месторождения нефти Азербайджана). Каротажник, 2012, №1 (211), с.21-27
5. Hacıyev Ç.A. Neft Daşları yatağı quyularında məhlulun udulma zonasında neftlə doyumluğun tədqiqi haqqında. Azərbaycan Neft Təsərrüfatı jurnalı, 2012, №6,s.3-6

MƏSAFƏDƏN MÜŞAHİDƏ ÜSULLARI VƏ CİS-NİN TƏTBİQİ İLƏ AZƏRBAYCANDA MÜASİR TORPAQ TƏDQİQATLARININ APARILMASI İMKANLARI

Sara Əlizadə Hamlet Əli İbrahimov Həsən
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakultəsi Memarlıq və inşaat fakultəsi
selizade10@std.beu.edu.az aibrahimov1@beu.edu.az
BAKI, AZƏRBAYCAN BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə Azərbaycanda müasir torpaq tədqiqatlarının Məsafədən müşahidə üsulları və CİS-in tətbiqi ilə aparılması imkanları haqqında məlumat verilmişdir. Məqalədə qeyd olunan müasir proqram təminatlarından istifadə etməklə torpaq örtüyünün daha genişmiqyaslı monitorinqini aparmaq mümkündür.
AÇAR SÖZLƏR: Məsafədən müşahidə sensorları , torpağın rütubətliyi**,** qlobal torpaq şəbəkəsi

GİRİŞ

Mövzunun aktuallığı: Torpaq çox sayda ekosistem xidmətlərini təmin edən təbii resursdur. Qlobal ekoloji dəyişikliklər hazırda torpaqların təmin etdiyi əsas ekosistem xidmətlərini dəyişdirir. Bu baxımdan, torpaq örtüyünün vəziyyətinin monitorinqini aparmaq və bu ekosistem xidmətlərinin davamlılığını təmin etmək üçün yerli, regional və qlobal miqyasda aktual torpaq məlumatlarına sahib olmaq lazımdır. Bu konteksdə, Məsafədən müşahidə üsulları və Coğrafi İnformasiya Sistemləri torpaq parametrlərinin genişmiqyaslı monitorinqini, xəritələşdirilməsini təmin və inkişaf etdirmək məqsədi daşıyır. Hal-hazırda Məsafədən müşahidə üsulları və CİS metodologiyaları adi torpaq xəritəçəkmə üsulları ilə müqayisədə daha çox zaman və böyük məkan miqyasında torpağın xəritələşdirilməsini asanlaşdırmaq üçün əhəmiyyətli potensiala malikdir.

Torpaq tədqiqatlarında CİS-nin vacibliyi: Müasir dövrümüzdə torpaq tədqiqatlarının rəqəmsal xəritələrlə tətbiqi təsviri məqsədindən daha çox ətraf mühitdə torpağın mövcud vəziyyətin öyrənilməsi, sistemləşdirilməsi, təhlili və tarazlığının qorunması üçün çox zəruridir.

Tədqiqat işi: Məsafədən müşahidə üsulları və CİS-in tətbiqi ilə torpaq örtüyündə istifadə olunan metodologiyalar, Azərbaycanda torpağın müxtəlif parametrlərinin xəritələşdirilməsi imkanları araşdırılmışdır.

İşin strukturu : Tədqiqat işi xülasə, açar sözlər, giriş, tədqiqat metodu, tədqiqat mövzusu, nəticə, ədəbiyyat siyahısından ibarət olmaqla tərtib edilmişdir.

TƏQDIQAT METODU

Tədqiqat işində kitablardan , xəritələrdən və müxtəlif internet resurslarından istifadə olunmuşdur.

Məsafədən müşahidə üsulları və CİS-in tətbiqi ilə Azərbaycanda aparılmış torpaq tədqiqatları

Bu gün inkişaf etmiş ölkələrdə Coğrafi İnformasiya Sistemindən istifadə edən sahələrin sayı sürətlə artmaqdadır. 1000-dən çox mövzuda istifadə ediləbiləcəyi müəyyən olunmuş Məsafədən müşahidə və CİS texnologiyalarının tətbiqi aşağıda qeyd olunan işləri qısa müddət ərzində yüksək keyfiyyətdə və dəqiqlikdə reallaşdırmaq mümkündür: Ərazi məlumat sistemi, mədən sahələrinin inventarı, əkinçilik sahələrinin inventarı, bioremediasiya işlərində-torpaq və su həcmlərinin hesablanması, uyğun ərazilərin seçilməsi, yeraltı və yerüstü su (göl, çay, qrunt, artezian, qar) ehtiyatlarının idarə olunması (əsasən də çirklənmə mənbələrinin monitorinqi) və s. Torpaq ehtiyatlarının idarə edilməsi və monitorinqi üçün dəqiq torpaq məlumatı tələb olunur. Torpağın məkan paylanmasının tədqiq olunması, torpağın kimyəvi və fiziki prosesləri arasında qarşılıqlı əlaqəni qiymətləndirmək və ərazinin idarə olunmasından qlobal iqlim dəyişikliyinin təsirlərinin öyrənilməsinə qədər müxtəlif miqyaslarda ətraf mühitin qorunması üçün vacibdir. Ənənəvi torpaq tədqiqatı konseptual modellər əsasında bir neçə sahədə torpaq xassələrinin, onların landşaft və ətraf mühitin dəyişənləri ilə keyfiyyət əlaqəsinin tanınmasına əsaslanır. Baxmayaraq ki, bu yanaşma üstüörtülü şəkildə torpaqşünasın təcrübəsini özündə cəmləşdirir, lakin o, hazırda geniş yayılmış geokomputasiya texnologiyalarından istifadə etmir. Məsafədən müşahidə və fotoqrammetrik üsullar böyük həcmdə məlumatların səmərəli saxlanmasına və təhlilinə imkan vermək üçün CİS-də torpaq məlumatları ilə birləşdirilə bilən Yer səthinin rəqəmsal təsvirlərini təmin edir. Son bir neçə onillikdə texnoloji irəliləyişlər torpaq xəritələrinin hazırlanmasında təkmilləşdirmə potensialı yaratmışdır. Rəqəmsal torpaq

xəritəsi "torpaqların fəza və qeyri-məkan çıxarış sistemi ilə birlikdə sahə və laboratoriya müşahidə metodlarından istifadə etməklə fəza torpaq məlumatının yaradılması və populyasiyası kimi müəyyən edilir. Rəqəmsal torpaq xəritəsi, az mövcud olan torpaq xüsusiyyətləri ilə geniş şəkildə mövcud olan köməkçi məlumatlar arasında əlaqələri qiymətləndirərək torpaq xəritələrinin kompüter dəstəyi ilə istehsalına əsaslanır. Torpağın rəqəmsal xəritələşdirilməsi kontekstində topoqrafik atributlardan və məsafədən müşahidə məlumatlarından istifadə əsas rol oynayır.

Son onilliklərdə Azərbaycanda Məsafədən müşahidə üsulları və CİS-in tətbiqi ilə torpaq parametrlərinin araşdırılması daha da inkişaf etmişdir. Təbii ehtiyatların xəritələşdirilməsi və torpaqların taksonomik tətbiqi üçün CİS-dən ölkədə uğurla istifadə olunur. Bunun köməyi ilə, Azərbaycanın hətta ucqar ərazilərində belə torpaq örtüyünün vəziyyəti qiymətləndirilir və təhlili aparılır. Torpaq tədqiqatlarında CİS tez-tez Məsafədən müşahidə üsulları və GPS texnologiyası ilə birlikdə istifadə olunur və məlumatların toplanmasının kulminasiya nöqtəsinə çevrilir.

Azərbaycanda müasir torpaq tədqiqatlarının aparılmasında Məsafədən müşahidə sensorları və CİS-nin 3 növ metodologiyasından istifadə daha məqbul hesab olunur. Bunlara peyk və yer məlumat bazalarına əsaslanan empirik, fiziki və məsafədən müşahidə sensorları ilə torpaq örtüyü arasındakı əlaqəyə əsaslanan yarıempirik modellər daxildir. Bu modellər əsasında torpaq örtüyünün bir sıra parametrlərini tədqiq etmək mümkündür: torpağın strukturunu, rütübətliyini, hamarlığını, temperaturunu, mineroloji tərkibini, kation mübadiləsi qabiliyyətini, torpağın üzvi karbon və ph səviyyəsini, şoranlığını və s. Torpağın rütubətliyi torpaqda suyun həcmini göstərməklə yanaşı, yağış suyunun buxarlanma, infiltrasiya proseslərinə təsir edən parametridir. Məsafədən müşahidə sensorları ilə torpağın rütubətliyinin tədqiq olunması ölkədəki kənd təsərrüfatı torpaqlarının suvarılmasını idarə etmək üçün çox əlverişlidir. Torpaq örtüyünün hamarlığı torpaqda su axımının ayrılması ilə əlaqədardır. Bu parametrin köməyi ilə kənd təsərrüfatı torpaqlarında eroziya riskini qiymətləndirmək mümkündür. Torpağın üzvi karbon səviyyəsi, torpağın üzvi maddələrinin ölçülə bilən tərkib hissəsidir. kənd təsərrüfatı torpaqlarının fiziki, kimyəvi və bioloji funksiyasında mühüm rol oynayır. Məsafədən müşahidə sensorları ilə torpaq örtüyündəki karbonat ehtiyatını tətbiq etməklə, bitkinin böyüməsinə mənfi təsir göstərən amillərin qarşısını almaq mümkündür. Torpağın pH səviyyəsinin yüksəlməsi bitkilərin qidalandığı maddələrin mövcudluğuna xüsusi təsir göstərərək, torpaqda üzvi maddələrin itirilməsinə, torpağın münbitliyinin azalmasına, eroziyaya və s. mənfi dəyişikliklərə səbəb olur. Bu tədqiqat torpağın pH-ni proqnozlaşdırmaq üçün böyük məlumat analitikasından istifadə potensialını artırır ki, bu da torpaqların dəqiq xəritələşdirilməsinə kömək edir.

Şəkil 1. Torpaq Şəbəkələri (SoilGridsTM) - proqram təminatında hazırlanmış torpağın gil tərkibi xəritəsi



Şəkil 2. Torpaq Şəbəkələri (SoilGridsTM) - proqram təminatında hazırlanmış torpağın üzvi karbon səviyyəsinin xəritəsi



Şəkil 3. Torpaq Şəbəkələri (SoilGridsTM) - proqram təminatında hazırlanmış torpağın pH səviyyəsinin xəritəsi



Şəkil 4. Torpaq Şəbəkələri (SoilGridsTM) - proqram təminatında hazırlanmış torpağın kation mübadiləsi qabiliyyətinin xəritəsi

Torpaq Şəbəkələri (SoilGridsTM) torpaq parametrlərinin dünya üzrə məkan paylanmasını xəritələşdirmək üçün Məsafədən müşahidə üsulları və CİS-dən istifadə edən ən müasir rəqəmsal torpaq xəritələşdirilməsi sistemidir. Torpaq Şəbəkələri proqnozlaşdırma modelləri bazasından 230 000-dən çox torpaq profili müşahidələrindən istifadə etməklə quraşdırılır. Bu proqram təminatında Azərbaycanın torpaq örtüyünün parametrlərinin xəritəsi 250 metrlik məkan ayırdetmə ilə altı standart dərinlik intervalından götürülmüşdür. Təqdim olunan xəritələrdə torpaq örtüyünün parametrlərinin səviyyəsi- torpağın üzvi karbon səviyyəsi, kation mübadiləsi qabiliyyəti, torpağın pH səviyyəsi, gil tərkibi göstərilmişdir.

Nəticə

Nəticəyə əsasən belə qənaətə gəlmək olar ki, torpaq örtüyünün tədqiqində məkan, zaman və çəkilən xərclər baxımından CİS-ləri və Məsafədən müşahidə üsulları adi xəritəçəkmə üsulundan olduqca üstündür.

Azərbaycanda Məsafədən müşahidə üsulları və CİS-nin tətbiqi ilə kənd təsərrüfatında, ətraf mühitin mühafizəsində mühüm əhəmiyyət kəsb edən torpaq eroziya riski və torpağın deqradasiya vəziyyəti haqqında məlumat əldə etmək mümkündür. Həmçinin, torpaq örtüyündə çirkləndiricilərin yayılma arealını daha dəqiq tətbiq etməklə, bu problemin həll yollarını da səmərəli şəkildə idarə etmək olur.

Ədəbiyyat siyahısı

1. MEHDİYEV A.Ş., ƏZİZOV B.M., BƏDƏLOVA A.N.- MƏSAFƏDƏN ZONDLAMANIN FİZİKİ ƏSASLARI- Bakı 2014.
2. https://www.researchgate.net/publication/329361783_Modern_approaches_to_study_of_soil_covering_with_the_use_of_information-communication_techniques
3. file:///C:/Users/admin/Downloads/Using_Remote_Sensing_Techniques_for_Appraisal_of_I.pdf
4. https://dergipark.org.tr/tr/download/article-file/664902
5. Kaya, S., Musaoglu, N., Ormeci, C., and Muftuoglu, O. 1998. Forest Damage Assesment by using Remote Sensing Data.ISPRS Commision IV Symposium on GIS- Between Vision and applications, Vol.32/4, pp.284-287.

SƏNAYEDƏ İŞ STRESSINƏ SƏBƏB OLA BILƏCƏK AMILLƏR

Nurlana KAZIMOVA, İlqar XURŞUDOV
Bakı Mühəndislik Universiteti

Xülasə:

Əsas məqsəd sənaye sektorunda insanlara stress, narahatçılıq, gərginlik yarada biləcək amilləri müəyyən etməkdir. Bununla da insanların rifahı, təhlükəsizliyi üçün lazım olan çıxış yollarını tapmaqdır. Biz bu məqalədə stress, narahatçılıq, gərginlik yarada biləcək amilləri 2 kateqoriyaya bölərək daha aydın şəkildə müşahidə etmiş olacayıq. Həmin kateqoriyaya daxil olan faktorları da öz növbəsində ayrı-ayrı başlıq olaraq qeyd etmişik. Məqalənin sonunda isə biz ümumi həll yolları tapmağa çalışdıq və bu çıxış yolları ilə sənayedəki işçilərin təhlükəsizliyi zamanı özlərini necə stressdən uzaq hiss edə biləcəklərini bilmiş olduq

Açar sözlər:

Stress mənbələri, psixoloji amillər, ətraf mühitin təsiri

Giriş

Ən aktual olan mövzulardan biri də iş mühitində insanların necə özünü gərgin və stressli hiss etməsidir. İnsanlar iş mühitində özlərini rahat hiss etməzlərsə bu da onlarda stressə səbəb olur. Məqalədə biz stress yarada biləcək amilləri ətraf mühitin təsiri və psixoloji amillər olaraq 2 kateqoriyaya böldük. Bu iki kateqoriyanı da öz növbəsində müəyyən kateqoriyalara aid edərək stress mənbələrini aşkar etmiş olduq. Bu

amillərin insanlara necə təsir etdiyini görürük. Beləliklə, sonda biz ümumi həll yollarını da yazaraq məqaləni yekunlaşdırırıq.

Tədqiqat metodu.

İnsan həm istehsal, həm də xidmət sektorunda mühüm resurs kimi önə çıxır. İş yerlərində səbəb olacaq stress yalnız işçilərin sağlamlığına və rifahına deyil, həm də təşkilatların məhsuldarlığına təsir edə biləcək bir problemdir. İşlə bağlı stress o zaman yaranır ki, müxtəlif növ və birləşmələrdə iş tələbləri insanın öhdəsindən gəlmək qabiliyyətini üstələyir. Dünya ölkələrində işlə bağlı stress ən çox görülən kompensasiya olunan bir zədədir.

İşlə bağlı stress müxtəlif hadisələr nəticəsində yarana bilər. Məsələn, işin tələbləri (məsələn, saatlar və ya məsuliyyətlər), rahatlıqla idarə edə biləcəyindən çox olarsa, insan təzyiq altında hiss edə bilər. Digər səbəb olaraq həmkarlar və ya müdirlərlə münaqişə, daimi dəyişiliklər, iş təhlükəsizliyi kimi amillərin stress yaratma potensialına sahib olan problemlər daxildir. Bir insanın stressli kimi qəbul etdiyi şey, digəri üçün bu belə olmaya bilər. Bu isə bir insanın həmin işlə bağlı stress yaşıyıb-yaşamamasından, insanın psixoloji quruluşundan və digər amillərdən (məsələn, şəxsi həyat və ümumi sağlamlıq) asılıdır.

İndi isə bu problemləri daha aydın olması üçün aşağıdakı kateqoriyaya diqqət edək:

1. Ətraf mühitin təsiri.
2. Psixoloji amillər.

1. Ətraf mühitin təsiri:

1.1. Temperatur, rütubət və hava axını.

Müəssisələrdə, işçilərin iş yerlərinin normadan aşağı və ya yuxarı temperatur; rütubət şəraiti yorğunluga, yuxusuzluğa, işə diqqətin azalması, narahatlıq və konsentrasiyanın azalması kimi vəziyyətlərə gətirir. Müvafiq temperatur və rütubət şəraiti yaratmadan işçiləri işə götürmək və ya onları standartlardan yuxarı və ya aşağı temperatur və rütubət şəraitində işləməyə məcbur etmək istehsalat qəzalarına səbəb olur. İş müddətində həddindən artıq istilik ümumi müqaviməti və iş səmərəliyini azaldır.

Ətraf mühitin normadan daha isti olduqda darıxdırıcılıq, əsəbilik, diqqətsizlik, zehni işdə məhsuldarlığın aşağı olması, qabiliyyət və bacarıqların azalması, istehsalat qəzaların artması, ağır fiziki işlərdə səmərəliliyin aşağı olması, bədəndə qan dövranının çətinləşməsi və yorğunluq kimi mənfi xüsusiyyətlər ortaya çıxarır.

1.2 İşıqlandırma

İş yerlərində işıqlandırma vəziyyəti ilə istehsalat qəzaları arasındakı əlaqəni aşkar etmək üçün aparılan araşdırmalar; həm qeyri-kafi işıqlandırmanı həm də süni işıqlandırmanı istehsalat qəzalarını artırdığını aşkar edib. Bu istiqamətdə aparılan araşdırma süni işıqlandırmada baş verən qəzaların təbii işıqlandırmada baş verənlərdən 25% çox olduğunu ortaya çıxarıb. Yaxşı işıqlandırma həm istehsalı sürətləndirir, həm də işçilərin sağlamlığı, təhlükəsizliyi, səmərəliliyi və işə olan diqqətlərinin daha çox artıraraq mühitdəki stressdən uzaq durması əsas amillərdən biridir.

1.3 Kimyəvi maddələr.

Kimyəvi maddələr- bunlar iş mühiti (hava, qida, insanın istifadə etdiyi avadanlıq və ya bədənin xarici mühitdə təmasda olan hissələri) ilə qarışa bilən və ətraf mühitin kimyəvi tərkibini dəyişə bilən amillərdir. Bunlar bədənə birbaşa daxil olan zəhərli və ya qıcıqlandırıcı maddələrdir. İş yerlərində insanlar bilmədən zərərli kimyəvi maddələri qəbul edə bilərlər. Qəbul edilən zərərli birləşmələr həzm sistemində sorula və qan dövranına keçə bilər. Zərərli toz qida və ya tüpürcəklə udulursa, bədən mayesində həll olunmursa, birbaşa bağırsaqlar vasitəsilə xaric olur.

Qanuni olaraq kimyəvi maddələr istehsal edən şirkətlərin qablaşdırmanın üzərinə maddənin sağlamlıq risklərini göstərən etiketləri yapışdırması və bu etiketə təhlükəsiz daşınması üçün xüsusi təlimatlar əlavə etməsi mütləqdir. Bu da insanların iş mühitində yarada biləcək stressin bir az da olsa azalmasına yol açа bilər.

1.4 Maşın və avadanlıqların istifadəyə uyğunluğu.

Erqonomik tədbirlər işçilərin fiziki bütövlüyünü qorumaqla yanaşı, onların fizioloji və psixoloji qabiliyyətlərini ən yaxşı şəkildə istifadə edə biləcəkləri iş mühitini təmin etmək məqsədi daşıyır. Erqonomika baxımından iş yerlərinin təşkili ilə bağlı bəzi məsələlər nəzərə alınmalıdır:

-İş yerlərində istifadə olunan alət və materialların müəyyən yerdə saxlanması
-Materialların və alətlərin iş prosesinin ardıcıllığına uyğun yerləşdirilməsi.
-Hər bir işçi üçün ən azı 2 metr baş yerin təmin edilməsi.
-İş yerlərinin tavan hündürlüyü 3 metrdən az olmamalıdır.

Bütün bunların hamısı işçilərin təhlükəsizliyini təmin edir. Bununla da işçi özünü güvəndə hiss edərək, özünü stressdən və narahatçılıqdan uzaq tutmuş olur.

2. Psixoloji amillər.

2.1. İşçi faktorları.

Mübahisələr, kədər, ailə problemləri, peşə problemləri, iqtisadi çətinliklər, etibarsızlıq, işdə mənfi sosial ünsiyyət, işçilərlə münaqişələr işçidən yaranan amillərdir.

İşçilərin fiziki və ruhi sağlamlığı, performansı və iş səmərəliliyi baxımından erqonomik elementlərə diqqət yetirərək iş mühitlərinin təşkili çox əhəmiyyətlidir. Bununla da işçi çox rahat şəraitdə işini görə bilir və onun işləməsinə mane olan amillər minimuma endirilir.

2.2 İşin xarakterindən irəli gələn amillər.

İşin yükü və xarakteri, nəzarətçilərin təzyiqi, tağşırığın müxtəlifliyi və ya çox yönlü olması, qrup daxilində işləmək təzyiqi işin strukturundan irəli gələn amillərdir. Demək olar ki, çox iş və növbəli iş sistemi ilə bağlı stressin başqa bir mənbəyidir.

Təşkilatlarda iş saatlarının və istirahət fasilələrinin tezliyi və müddəti işçilərin əqli və fiziki tarazlığına kifayət qədər təsir etdiyini söyləmək olar.

2.3. İş mühitindən asılı olan amillər.

İstifadə olunan maşınlarda texnologiya baxımından mühüm əhəmiyyət kəsb edir və bu məsələlərin müəssisənin planlaşdırılması zamanı müəyyən edilməsi məqsədəuyğundur.

Yaxşı texniki planlaşdırma təhlükəsiz iş üçün ilkin şərtdir.

İşəgötürənlər iş və iş yerlərini ən uyğun şəkildə dizayn edərək, iş üçün ən uyğun alət və avadanlıqları seçərək erqonomik narahatlıqların qarşısını ala bilərlər. Beləliklə, işçilərin daha rahat bir şəkildə işləməsini təmin etmiş olurlar.

Nəticə

İşindən razı qalan insanın məhsuldarlığının artması həm də biznesin ümumi fəaliyyətində özünü göstərəcək və ona görə də biznesin səmərəliliyinin artırılmasına öz təsirini göstərəcək. Nəticə etibarı ilə işçilərinin iş məmnuniyyətinə əhəmiyyət verən şirkətlər məqsədlərinə yaxınlaşmaqda digər şirkətlərdən bir addım öndədirlər. Çünki müəssisələr işçilərinin məmnunluq səviyyəsini artırdıqları dərəcədə uğurlu olurlar.

Ədəbiyyat siyahısı

(1)https://www.quantumworkplace.com/future-of-work/7-ways-employees-can-reduce-stress-in-the-workplace

(2)https://justworks.com/blog/10-ways-reduce-workplace-stress

(3) https://www.betterhealth.vic.gov.au/health/healthyliving/work-related-stress

(4)https://www.iesohealth.com/en-gb/blog/the-six-main-causes-of-stress-at-work-and-how-to-avoid-them

(5) Çalışanların iş memnuniyyeti , iş stresi ve ergonomik koşulların değerlendirilmesi.

PANDEMİYA DÖVRÜNDƏ PLASTİK TULLANTI ARTIMI

BAĞIROVA CEYRAN İSMAYILOV RƏŞAİL
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat fakultəsi Memarlıq və İnşaat fakultəsi
cbagirova@std.beu.edu. azersu.az az rashail.ismayilov@
BAKI, AZƏRBAYCAN BAKI AZƏRBAYCAN

XÜLASƏ

Məqələdə, müasir dövrdə əsas ekoloji problemlərdən biri olaraq göstərilən plastik tullantıların pandemiya dövründə miqdarının daha da artmasından danışılır. Bildiyimiz kimi, pandemiya insan sağlamlığını təhtid etməklə yanaşı ətraf mühitimiz üçün də təsirsiz ötüşmədi. Pandemiyanın ətraf mühit üzrə mənfi təsirlərinin ən vaciblərindən biri olaraq məhz plastik artımını qeyd edə bilərik. Bu neqativ hallar tullantıların idarə olunmasında əhəmiyyətli çətinliklər yaradıb və hökumət orqanlarını epidemiyanın tullantıların idarə olunması sistemlərinə potensial təsirlərini azaltmaq üçün yeni təcrübələr axtarmağa vadar edib. Bu araşdırmada, Covid-19 pandemiyası zamanı ortaya çıxan plastik tullantıların səbəbləri, tullantıların idarə olunması təcrübələri və tullantıların ətraf mühitə təsiri araşdırılmağa çalışıldı.

AÇAR SÖZLƏR: Pandemiya, plastik tullantılar, ətraf mühit.

GİRİŞ

Mövzunun aktuallığı: Bildiyimiz kimi müasir dövrdə plastik tullantılar artıq hər yerdə hətta dünyanın ən dərin nöqtəsində belə rast gəlinir. Plastiklərin bu cür geniş yayılması istər insanlar üçün istərsə də ətraf mühitimiz üçün olduqca böyük risk faktoru daşıyır. Çünki digər tip tullantılardan fərqli olaraq plastik tullantıların mühitdə parçalanması çox uzun müddət tələb edir.Hansı ki, plastiklər parçalandıqdan sonra belə öz təhlükəlilik dərəcəsini itirmir, mikro plastiklərə çevrilərək ətraf mühiti təhtid etməyə davam edə bilirlər. Pandemiya dövründə plastik materiallara olan tələb isə tullantıların daha da artmasına səbəb olmuş, pandemiya plastik tullantıları ölkələri və istehlakçıları bu tip tullantıları daha diqqətli və düzgün idarə etməyə sövq etmişdir.

Problemin inkşaf dərəcəsi: Pandemiya dövründə istifadə olunan fərdi qoruyucu vasitələr yaxud karantin rejimində onlayn alış- veriş xidmətlərinə olan tələbin artması insanları bu təhlükəli virusdan qorumaq ilə yanaşı plastik tullantıların miqdarında əhəmiyyətli artışa səbəb olmuşdur. Yəni bu cür materiallardan istifadə biz insanları qorumaqla yanaşı təəssüf ki, ətraf mühitimizi çirkləndirir. Plastik pandemiya tullantıları bir çox ölkələrdə düzgün şəkildə idarə olunmayaraq qeyri-müntəzəm şəkildə ətrafa atılır, buna misal olaraq birdəfəlik istifadə üçün nəzərdə tutulan maskaları qeyd edə bilərik hansı ki, biz öz ölkəmizdə də bunu canlı şahidi oluruq. Bu cür tullantıların insanlar tərəfindən bu şəkildə atılması həm görüntü çirkliliyinə səbəb olmaqla yanaşı virusun insanlar tərəfindən ikincil dərəcəli yoluxmasına səbəb ola bilir.

Tədqiqat işi: Hazır ki dövrdə əsas ekoloji problemlərdən biri olaraq bilinən plastik tullantıların pandemiya şəraitində daha da artaraq düzgün idarə edilmədiyi təqdirdə indiki və gələcək nəsilləri təhtid edən bir təhlükəyə çevrilməsindən danışılır. Bura istər tibbi plastik tullantılar hansı ki pandemiya başlayan gündən bəri bu cür tibbi plastik materiallara yəni maska əlcək dezinfeksiya edici vasitə qabaları yaxud pandemiya dövründə kilidlənmələr səbəbi ilə onlayn alış-verişin daha çox üstünlük verilməsi nəticəsində plastik qablaşdırılmaların əmələ gəlməsi daxildir. Bu cür plastik materialların insanlar tərəfindən nə qədər çox istifadəsi elə həmin qədər də tullantıya səbəb olur.

İşin strukturu: Tədqiqat işi xülasə, açar sözlər, giriş, tədqiqat metodu, tədqiqat mövzusu, nəticə, ədəbiyyat siyahısından ibarət olmaqla tərtib edilmişdir.

TƏQDİQAT METODU

Təqdiqat işində xarici mənbələr və internet materiallarından istifadə edilmişdir**.**

PANDEMİYA DÖVRÜNDƏ PLASTİK TULLANTI ARTIMI

İlk dəfə 1869-ci ildə istehsal olunan plastik əslində karbon (C), hidrogen (H), oksigen (O), azot (N) və digər üzvi və ya qeyri-üzvi elementlərdən əmələ gələn bir formalaşmadır. Bu formalaşma monomer adlanır.

Plastik materiallar həm gündəlik həyatda, həm də sənayedə tez-tez istifadə olunan və həyatın demək olar ki, bütün sahələrində rast gəlinən materiallardır.

Plastikdən hazırlanmış bəzi əşyalar uzun illər istifadə üçün nəzərdə tutulub. Bununla belə, plastik təbiətdə əsrlər boyu toxunulmaz qala bilməsi ilə ətraf mühiti təhdid edən bir quruluşa malikdir. Bu gün ətrafımızda və hətta dünyanın ən ucqar guşələrində plastik tullantılar var.

Okean və dənizlərdə toplanan plastik tullantılar mexaniki eroziya və kimyəvi aşınma ilə çevrəsəl problemlərə səbəb olmaqdadır.İstehsal olunan plastiklərin çoxunun xam maddəsi neft və kömür kimi fosil yanacaqlardır. Plastiklər fosil yanacqlardan istehsal olunduğundan bunların istehsalı üçün minyonlarca barel xam neft və tonlarca kömürün işlənməsi gərəkir. Günümüzdə xam neftin 4 %-in plastik istehsalı üçün istifadə olunduğu bilinməktədir. İstehsal və istifadəsi digər fosil yanacaqlara görə daha asan olduğu üçün neftdən plastik istehsalı dolayı yoldan neftə olan tələbi artırmaqdadır. Bu vəziyyət daha çox miqdarda neftin işlənməsinə yol açmaqda, neftin işlənməsi və yandırılması əsnasında ətraf mühitə atılan qazlar çevrə kirliliyinə səbəb olmaqdadır.

Plastik böhranı bir neçə əsas səbəbi olan bərk məişət tullantılarının idarə olunması probleminin nəticəsidir:

- məhsulun dizaynı, çox vaxt təkrar emala üstünlük verməyən (məsələn, birdəfəlik qablar və qablaşdırmalar vəziyyətində);
- aşağı və orta gəlirli ölkələr üçün aşağı yığım dərəcələri (dünya üzrə 39% - 51% arasında);
- təkrar emalın aşağı səviyyəsi (qlobal miqyasda 19%)
- istehlakçıların zəif ekoloji maarifləndirilməsi.

Bütün bu amillər qlobal miqyasda hər il 8 milyon ton plastikin okeanlara atılmasına səbəb olur və bunun üçdə birindən çoxu birdəfəlik istifadə olunan əşyalardır.

Hazır ki dövrdə bütün dünyanı ələ alan milyonlarla insanın ölümünə və yoluxmasına səbəb olan COVİD-19 eyni zamanda ətraf mühitə mənfi təsiri ilə də ötüşmədi. Onsuzda yer üzərində kifayət qədər rast gəlinən plastik tullantıların həcmi bu dövrdə daha da artmış- Plastik pandemiyası adlı məhfum ortaya çıxmışdır.

Epidemiya zamanı mühüm ekoloji problem təşkil edən plastik tullantıların əsas mənbələri; fərdi qoruyucu vasitələr, əczaçılıq məhsulları, qablaşdırma qida xidmətlərindən gələn plastik qablaşdırılmış məhsullar. Bildirilir ki, koronavirus plastik üzərində 3 gün, əlcəklərdə 8 saat, kartonda isə 24 saat qalmaq qabiliyyətinə malikdir. Ancaq birdəfəlik plastikdən virusun yayılma riskinin insanlarda aşağı olduğu qənaətinə görə birdəfəlik plastikdən istifadənin artdığı görünür. Qlobal miqyasda pandemiya ilə əlaqəli səkkiz milyon tondan çox plastik tullantı əmələ gəlib və 25.000 tondan çoxu qlobal okeana daxil olub. Okean və dənizlərə atılan bu qədər plastik hələ ki düşünsək ki pandemiya davam edir və nəticədə buna uyğun olaraq tullantıların miqdarının artacağı gözlənilir bunun necə bir təhlükəyə səbəb olacağını zənn etmək o qədər də çətin deyil. Bizlər bir tərəfdən özümüzü bu təhlükəli virusdan qorumaqla bir növ öz gələcəyimizi təhlükə altında qoyuruq.

Hazırki dövrdə dünya COVİD-19 pandemiyası ilə yanaşı indi bunun nəticəsi olaraq başqa problemlə üzləşir- tibbi tullantılar və onların effektiv idarə olunması. Pandemiya zamanı yaranan tibbi tullantıların xarakterində dəyişiklər müşahidə olunur- yoluxmuş maskalar əlcəklər və digər qoruyucu vasitələr (PPE) daxil olmaqla bir çox əlavə tibbi və təhlükəli tullantılar yaranır. Dünya mediasında koronavirusla bağlı xəbərlər yayımlandıqdan sonra qeyd etdiyimiz fərdi qoruyucu vasitələr və digər bununla bağlı tibbi tullantıların miqdarında olduqca sürətli artım müşahidə edildi ki, bu da nəticədə plastik tullantı artımına səbəb oldu. Təxmin edirik ki, qlobal miqyasda COVID-19 pandemiyası nəticəsində hər gün təxminən 3,4 milyard tək istifadəlik üz maskası atılır.



Şəkil 1. Okeana Pandemiya plastik tullantıları atan 5 əsas çay.

Digər tərəfdən, Covid-19 xəstələrinin müalicəsi üçün tibbi ləvazimatlardan istifadə, müalicə zamanı dərman istifadəsi və xəstə olmayan insanların özlərini qorumaq üçün reseptsiz immun gücləndirici dərmanlar almağa meyli də tibbi plastik tullantıların artmasına gətirib çıxardı. İstifadə edildikdən sonra artıq təhlükəli bir tullantıya çevrilən bu materialların düzgün şəkildə idarə edilməməsi istər ətraf mühit

üçün istərsə də insanlar üçün olduqca böyük risk faktoruna çevrilə bilir. Əgər qeyd etdiyimiz kimi tullantıların düzgün idarə edilməməsi yoluxmuş tibbi tullantıların ətraf mühitdə toksinlərin sərbəst buraxılmasına və xəstəliyin insanlara ikinci dərəcəli ötürülməsinə gətirib çıxara bilər. Bu səbəbdən tullantıların güvənli toplanması daşınması zərərsizləşdirilməsi olduqca vacib məsələdir. Həmçinin bu tullantılar müxtəlif su mənbələrinə çatıb, çayların, dənizlərin və s. çirklənməsinə səbəb olub, buradakı canlı ekosistem üçündə böyük risk faktoruna çevrilə bilər.



Şəkil 2. Pandemiya dövründə plastik artımına səbəb olan 2 faktor və onlardan əmələ gələn plastik tullantı növləri.

Dünyanın bir çox ölkəsində pandemiya zamanı tətbiq edilən tam kilidləmələr insanları ərzaq məhsulları və baqqal məhsulları da daxil olmaqla, zəruri məhsulların alınması üçün onlayn alış-veriş və götürmə xidmətlərinə etibar etməyə vadar etdi. Əsas əşyaların evə çatdırılması onlayn alış-veriş və götürmə xidmətlərindən asılılıq daşıma çantalarına və qablaşdırma məqsədləri üçün digər plastik növlərinə tələbatın artması ilə nəticələndi. Gündəlik ehtiyaclar internet üzərindən qarşılandıqca adi hala gələn qablaşdırılmış məhsulların istehlakı plastik qablaşdırma tullantılarının artmasına səbəb olub. Üstəlik, pandemiya ilə bağlı tətbiq olunan karantinlər zamanı nəqliyyat fəaliyyətinin azalması nəticəsində neft və neft qiymətlərinin kəskin şəkildə düşməsi nəticəsində plastik istehsalının maya dəyərinin kəskin azalması plastik məmulatların istehsalının və tədarükünün kəskin artmasına səbəb olan digər amildir. Bu, istehsal sənayesinin plastik təkrar emalı ilə plastik istehsalı arasında seçim etməsinə səbəb oldu və ikincisi hazırkı vəziyyətdə birinciyə nisbətən iqtisadi cəhətdən sərfəli variant kimi ortaya çıxdı. Bir sıra ölkələrdə təkrar emal fəaliyyətləri vacib sayılmadı və müvəqqəti olaraq dayandırıldı. Təkcə ABŞ-da ən azı 5 ştat plastik torbalara olan qadağalarını dayandırdı ki, bu da ətraf mühitdə daha çox plastik torbanın olmasına səbəb oldu

Pandemiya zamanı bir çox ölkədə təkrar emal fəaliyyətlərində nəzərəçarpacaq dərəcədə azalma və mövcud yandırma qabiliyyətinin tükənməsi uzunmüddətli ekoloji fəsadlara səbəb olan əhəmiyyətli miqdarda plastik tullantıların poliqonlarda və ya təbii mühitdə perspektivli sızma və yanlış idarə olunmasını göstərir.

NƏTİCƏ

Pandemiya dövründə yaranan qeyd etdiyim plastik tullantılar əfsuslar olsun ki, düzgün idarə edilmədiyi üçün artıq hər yerdə mövcuddur. Bu cür hallarla qarşılaşmamaq üçün ölkələr öz plastik tullantılarını

müntəzəm və düzgün şəkildə idarə edilməsi vacib məsələdir. Bu həm xəstəxana daxilində yaranan tibbi plastik tullantılar, həmçinin insanların istifadə etdiyi gündəlik plastik qoruyucu vasitələr və məişətdə istifadə etdiyi müxtəlif növ plastiklər üçün keçərlidir. Əgər ki, plastik tullantılara qarşı davranışımızı dəyişməsək bizdən əlavə gələcək nəsillər bundan daha çox zərər çəkə bilər. Bunun üçün insanlar arasında plastikin necə bir təhlükə saçdığını anlamaları bilmələri üçün maarifləndirmə işləri aparmaq lazımdır. Çünki, istənilən tullantının düzgün idarə edilib ətraf mühitə daha zərərsiz olması sırf evlərdə aparılan ilkin çeşidlənmədən qaynaqlana bilir. Və təbii ki, bununla yanaşı, ölkə həmin tullantıların təkrar emalını həyata keçirmək üçün küçələrdə qoyulmuş konteynrlərdən tutmuş yığılma, toplanma, daşınma prosesslərini sırf təkrar emal prosessinə uyğun həyata keçirməlidir. Buna görə sıfır tullantı üçün biz gərək 3R texnologiyasından istifadə edək. Reduse- yəni çalışdığımız qədər plastik materiallardan çəkinək, onun əvəzində digər məsələn, pandemiya dövrünün demək olar ən çox istifadə olunan plastiki olaraq maskaları qeyd edə bilərik hansı ki biz bunun yerinə bir neçə dəfə istifadə oluna bilən parça maskalar istifadə edib ətraf mühitimizi qoruya bilərik. Reuse- təkrar istifadə edək buna misal olaraq istər pandemiya dövründə istərsə də ümümiyyətlə istifadə etdiyimiz plastiklər müxtəlif məqsədlərlə yenidən istifadə etmək. Recycle- plastik tullantıların təkrar emalını nəzərdə tutur.

ƏDƏBİYYAT SİYAHISI

1 . https://www.sciencedirect.com/science/article/pii/S0048969720378050
2 . https://www.theguardian.com/environment/2021/nov/08/about-26000-tonnes-of-plastic-covid-waste-pollutes-worlds-oceans-study
3. https://www.plastik-ambalaj.com/en/plastic-packaging-article/3010-covid-19-pandemi-suerecinin-kisisel-koruyucu-ekipman-ve-ambalaj-at-k-yoenetimine-etkileri

TAXIL ƏKİNİNDƏ İSTİFADƏ OLUNAN GÜBRƏLƏRİN İSTİFADƏ NORMALARI VƏ TAXIL MƏHSULDARLIĞINA TƏSİRLƏRİ

Xəyyam Həsənzadə Nazim Əli İbrahimov Həsən
Bakı Mühəndislik Universiteti Bakı Mühəndislik Universiteti
Memarlıq və inşaat fakultəsi Memarlıq və inşaat fakultəsi
xhesenzade1@std.beu.edu.az aibrahimov1@beu.edu.az
BAKI, AZƏRBAYCAN BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə taxıl əkini üçün istifadə edilən gübrə növlərinin birbaşa və ya dolayı yollarla taxıl məhsuldarlığına və torpağa təsirləri, haqqında məlumat verilmişdir. Məqalədə bəhs etdiyimiz gübrələrdən düzgün istifadə normalarına riayət etməklə keyfiyyətli taxıl məhuldarlığını əldə etmək mümkündür.

AÇAR SÖZLƏR: taxıl, məhsuldarlıq**,** gübrələr

GİRİŞ

Mövzunun aktuallığı : Respublikamızda davamlı əkinçilik ilə yanaşı yüksək keyfiyyətli taxıl məhsulları əldə edilməsi əsas diqqətdə olan prioritet məsələlərdəndir.taxıl təsərrüfatını inkişaf etdirmədən digər kənd təsərrüfat sahələrini inkişaf etdirmək qeyri-mümkündür. Hər il keçdikcə insanların taxıla olan tələbatları artmaqda davam edir və bunun üçün təbii olaraq gübrələrə ehtiyyac duyulur və istifadə olunur. Bitkilərin qida maddələri ilə tam təmin olunmadığı şəraitdə hətta ən yaxşı bitki sortunun toxumundan istifadə olunsa, aqrotexniki tədbirləri optimal müddətlərdə və keyfiyyətlə həyata keçirilsə belə, yenə də gözlənilən səmərəni almaq mümkün deyil. Və bu səbəbdən

Əmələ gəlmiş problemlər : Yeraltı və yerüstü sərvətlərlə zəngin olsa da ümumi olaraq əkin üçün lazım olan torpaq ehtiyyatları çox məhdud səviyyədədir. Respublikamızda adambaşına 0,18 hektar əkin sahəsi düşür ki, bu da dünyada orta göstərişdən xeyli azdır. Bu qədər sahədən alınan məhsulla ölkə əhalisini

taxılla, tərəvəzlə, heyvandarlıq məhsulları ilə və sənayeni xammalla təmin etmək lazımdır. Bu da əkinçiliyin intensivləşməsini, əkin sahəsindən məhsuldarlığını yüksəldilməsini tələb edir. Gübrələrdən istifadə qaçınılmazdır və gübrələrdən və bitki mühafizə vasitələrindən məhdud səviyyədə istifadə son nəticədə bitkiçilikdə məhsuldarlığın aşağı düşməsinə və itkilərin artmasına səbəb olur. Taxıl əkini sahələrində taxılın qeyri-üzvi və üzvi gübrələr ilə təmin olunması taxılın soyuqa, susuzluğa , xəstəliklərə qarşı dözümlülüyünü və məhsuldarlığını artıraraq taxılın inkişafını yaxşılaşdırır.

Tədqiqat işi: Fermerlər tərəfindən taxıl üçün istifadə olunan gübrələrin taxıl üçün müsbət təsirlərindən , istifadə normalarından və gübrələrin bitkidə çatışmazlığı və ya həddən artıq çox olması nəticəsində bitkilərə təsirləri araşdırılmışdır.

İşin strukturu : Tədqiqat işi xülasə, açar sözlər, giriş, tədqiqat metodu, tədqiqat mövzusu, nəticə, ədəbiyyat siyahısından ibarət olmaqla tərtib edilmişdir.

TƏQDIQAT METODU

Tədqiqat işində kitab , modul dərs vəsaiti və internet resurslarından istifadə olunmuşdur.

Gübrələrdən istifadə normaları və təsirləri

Gübrələr bitkinin biotik və abiotik xassələrini yaxşılaşdıran qeyri-üzvi(mineral) və ya üzvi maddələrdir. Tərkib və quruluşuna görə gübrələr 2 növə bölünürlər: üzvi və qeyri-üzvi (mineral) gübrələr. Mineral gübrələrdən azotlu gübrələr (kalsium nitrat, ammonyaklı su), kaliumlu gübrələr (kalium sulfat , kalium xlorid), fosfatlı gübrələr (superfosfatlar) və s. üzvi gübrələrdən isə torf , peyin, quş zılı, bitki mənşəli gübrələr kompost və s. aiddir. Bu araşdırmamızda gübrələmənin əhəmiyyətini və təsirini buğda bitkisi timsalında göstərəcəyik. Buğdanın gübrələnməsi prossesi səpinqabağı və vegetasiya zamanı gübrələnir .

Səpindən əvvəl gübrələr, bir qayda olaraq, dərin şum altına verilir. Onlar bütün vegetasiya dövründə, xüsusən bitkilər intensiv böyüyən, inkişaf edən və ən çox qida elementləri sərf edən dövrdə bitkilərin qidalanmasını təmin etmək üçündür. Buna görə səpindən əvvəl gübrələməyə əsas gübrələmə deyilir.

Buğdaların əkilməsinə onlara verilən gübrələrin dozasına üsullarına və verilmə müddətinə görə payızlıq və yazlıq buğdada müəyyən fərqlər vardır.

1. Payızlıq buğdalar - yaxşı məhsul götürmək üçün mütləq payızda əkilməlidir;
2. Yazlıq buğdalar - əkilən vaxt havada olan istilik 0 dərəcədən yüksək olmalıdır;

Belə ki yazlıq buğdada əsasən azot və peyin gübrələrindən, payızlıq buğdada isə fosfor kalium və peyin gübrələrindən istifadə olunur. Yazlıq buğda səpindən öncə vegetasiya zamanı gübrələnir. Vegetasiya müddətində Azot gübrəsindən istifadə olunur və məhlul şəklində verilir və bu da buğdanın ilkin mərhələdə yaxşı inkişafına səbəb olur. Yazlıq buğdanın çiçəkləmə dövründə də azot verilməsi buğdanın məhsuldarlığını artırır. Bunu da qeyd edəbilərik ki Yazlıq buğda payızlıq buğda ilə müqayisədə torpağın münbitliyinə daha tələbkardır.

Payızlıq buğda da əsasən peyin, fosfor , kalium və kompost gübrələrindən istifadə olunur. Daha çox peyindən istifadə olunur. Peyin bitkilərin sağlamlığını təmin etməklə torpağın bioloji fəaliyyətini artırır, üzvi və kimyəvi mənşəli qida maddələrinin, xüsusilə, fosforun mənimsənilməsini yaxşılaşdırır, torpağın turşuluğunun qarşısını alır və yaxşı vəziyyətə gətirir. Çünki peyin gübrəsi həm bitki üçün olduqca vacib həmdə insanlar üçün daha sərfəli və daha səmərəlidir. Payızlıq buğda becərilən bütün bölgələr üçün peyin daha qiymətli gübrədir.

Payızlıq buğdanın qara herikdən (sahə şumlanır, növbəti ilə qədər boş saxlanır) sonra səpilməsi yaxşı nəticə verir. Məsləhət görülür ki, əsas şumdan qabaq sahəyə 20-30 ton peyin. fosfor 200 kq/hektara fiziki çəkidə, və kalium 80 kq/hektara, gübrələri ilə birlikdə əsas gübrə şəklində torpağa verilsin. Əsas şum 28-30 sm dərinliyində aparılır .

Payızlıq buğdadan yüksək məhsul götürmək üçün istifadə olunan mineral gübrələrdən əsas azot kalium və fosfor gübrələrinin verilməsi lazımdır. Və bunu da qeyd etmək lazımdırmineral gübrələrin yüksək səmərəliliyini təmin etmək üçün turş torpaqlı tarlalarda torpaq məhlulunun reaksiyasının neytrala (pH-6,0) yaxın olması üçün əhəngləmənin aparılması zəruridir.

Fosfor gübrəsi - Payızlıq buğdanın məhsuldarlığını və soyuqadavamlılığını artırır. Belə olan halda fosfor gübrəsinin çatışmamazlığı taxılda sünbülcükdə toxum əmələ gəlməsini , dənin dolmasını , zülal sintezini yavaşladır və yarpaq damarları boyunca əvvəl yaşıl rəng tədricən mavi rəngə sonra isə şabalıdı rəngə çevrilməyə başlayır. (Şəkil 2)

Payızlıq buğdanın qışadavamlılığını artırmaq üçün səpin zamanı cərgələrə lokal üsulu ilə (cərgəyə yaxın müəyyən hüdudda) təsiredici maddə hesabı ilə 20 kq fosfor gübrəsi verilməlidir. Cərgəyə verilən hər bir kq fosfor 15-16 kq dən artımı verir.

Kalium gübrəsi - alium elementi bitkinin inkişafının ilk dövrlərindən başlayaraq çiçəkləmə fazasına qədər bitki orqanizminə daha intensiv daxil olur. Torpaqda buğdanın cücərməsindən çiçəkləməyə qədər olan dövründə asan mənimsənilən (istifadə olunan) kalium çatışmadıqda bitkilərin böyümə və inkişafı zəifləyir, onlar temperaturanın və rütubətin dəyişkənliyinə qarşı həssas olur. Payız dövründə bitkilərin fosfor və kaliumla yaxşı təmin olunması payızlıq buğdanın qışa davamlılığını yüksəldir. Becərmə şəraitindən, tətbiq olunan aqrotexnikadan və sələflərdən asılı olaraq fiziki çəkidə 120 kiloqram kalium gübrəsi verilməsi məsləhətdir. Bunuda əlavə etmək lazımdır ki tərkibində ballast elementləri (Cl, Na) də olur, yüksək dozada sistematik gübrələmə apardıqda onlar torpaqda toplanaraq onun münbitliyini aşağı salır. Kalium gübrələrinin tərkibində olan metallar (Cd, Hg, Pb,Al) canlı orqanizmlərdə toplana və qrunt sularına daxil ola bilərlər.

Azot gübrəsi - Ən çox istifadə edilən mineral gübrədir və taxıl üçün ən əsas gübrələrdən hesab olunur . o vegetativ kütlənin inkişafına təsir göstərir, dənin tərkibində zülal və kleykovinanın miqdarını artırır və məhsulun formalaşmasına təsir edir. O sadə və mürəkkəb zülalların amin turşularının, xlorofilin, bir neçə vitaminlər və fermentlərin tərkibinə daxildir. Azot gübrəsindən müəyyən mərhələlərdə istifadə olunur və bir illik istifadə normasının bir hissəsi səpindən öncə, bir hissəsi yazda və bir hissəsi də sünbülləmə mərhələsində verilir. Azot gübrəsinin normasına diqqət etmək lazımdır. Azot gübrəsinin çatışmamazlığı bitkidə saralmaya və ikişafının azalmasına, (Şəkil 1) həddindən çox artıq olması isə bitkinin əyilməsinə yerə yatmasına, xəstəliklərə qarşı davamlılığın zəifləməsinə səbəb olur. Buna görə normalara diqqət etmək lazımdır.

Şəkil 1. Azot gübrəsi çatışmadıqda

Şəkil 2. Fosfor gübrəsi çatışmadıqda

Taxıl əkini və ya digər əkinçilik ilə məşğul olanların bilməsi lazım olan digər əsas mövzu gübrə normalarının hesablanmasıdır. Bunun üçün təsir edici maddənin faizini bilməli və gübrənin fiziki çəkisini hesablamalıdırlar. Gübrənin fiziki çəkisini hesablamaq üçün 100 kq gübrəni 100-ə vurub, təsiredici maddə % -ə bölürük. Aldığımız cavab gübrənin fiziki çəkisidir.

1. NƏTİCƏ

Nəticə olaraq bunu tövsiyyə edə bilərik ki, yüksək taxıl məhsuldarlığı üçün qida maddələrinin gübrələrin normada və balansda olması vacibdir. Taxıl əkinində istifadə olunan gübrələrin norma sistemi elə təşkil edilməlidir ki torpaqda qida maddələrinin balası yaxşı olsun. Belə ki, təcrübələrdə məlum olunmuşdur ki 1 ton buğda dəni məhsulu əldə etdiyimiz zaman təqribən 50 kq azot, 12-15 kq fosfor və 20 kq kalium mənimsənilir. Bu da qida maddələrinin balans miqdarının tədricən pozulmasına gətirib çıxardır. Bu balansın doğru nizamlanması ona görə vacibdir ki, həmin maddələrin torpağa qaytarılması təmin edilsin. Halhazırda yaxşı məhsul almaq üçün mineral gübrələrdən çoxlu istifadə olunur, gələcəkdə yaxşı olar ki, bütün əkin sahələrinə bu gübrələrlə yanaşı, üzvi gübrələrdən də istifadə olunsun. TÖVSİYYƏ olaraqda bunu qeyd edəbilərik ki,

ƏDƏBİYYAT SİYAHISI

1. Nizami Seyidəliyev. Aqrokimyanin əsasları. “VEKTOR” Nəşrlər evi. Bakı -2016
2. Taxılçılıq. Modul dərs vəsaiti “SEFT Consulting MMC”. Bakı – 2017
3. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərman. Bakı- 2016
4. https://www.meliorator.az/?s=29
5. https://az.wikibooks.org/wiki/Tax%C4%B1l%C3%A7%C4%B1l%C4%B1q/Torpa%C4%9F%C4%B1n_g%C3%BCbr%C9%99l%C9%99nm%C9%99si/G%C3%BCbr%C9%99l%C9%99nm%C9%99nin_normas%C4%B1

TULLANTI SULARIN TƏMİZLƏNMƏSİNDƏ TƏTBİQ EDİLƏN MÜASİR TEXNOLOGİYALAR

PƏRVANƏ QEYBULLAYEVA SƏRDAR
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat fakultəsi
pqeybullayeva@std.beu.edu.az
rashail.Ismayilov@azersu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə, son dövrlərdə bütün dünyanın diqqət mərkəzində olan suyun idarə edilməsi ilə bağlı görülən tədbirlər sırasında yer alan suyun təmizlənərək yenidən istifadə olunması məqsədilə tətbiq edilən müasir təmizləmə texnologiyalarından məlumat verilmişdir. Məqalədə qeyd olunan təmizləmə texnologiyalarının tətbiqi nəticəsində tullantı suların sənayedə təkrar istifadəsi, həmçinin tullantı suların içməli su səviyyəsinə çatdırılaraq istifadə olunmasının mümkünlüyü qeyd edilmişdir. Tullantı suların təmizlənməsində istifadə olunan ənənəvi üsullar əsasən mexaniki, bioloji, fiziki-kimyəvi, dezinfeksiya üsullarıdır. Bu üsullarla son dövrlərdə tullantı suların təmizlənməsi aparılmış və suyun içməli su və texniki məqsədlər üçün istifadəyə yararlı səviyyəyədək təmizlənməsi aparılmışdır. Lakin son dövrlərdə, tullantı suların tərkibində müşahidə olunan müxtəlif tərkibli çirkləndirici maddələr, yeni təmizləmə metodlarının tətbiq edilməsini tələb edir. Tədqiqat işinin əsas məqsədi, tullantı suların təmizlənməsi sahəsində müasir texnologiyaları araşdırmaq, işləmə prinsipi və effektivliyini qiymətləndirməkdir.

AÇAR SÖZLƏR: müasir təmizləmə texnologiyaları, tullantı su, sudan təkrar istifadə çirkləndirici maddələr.

GİRİŞ

Mövzunun aktuallığı: Son dövrlərdə əhali sayının artması, onların başlıca ehtiyaclarının ödənilməsində problemlər yaratmışdır. Bu ehtiyaclardan ən vacibi isə təmiz su ilə təmin olunmadır. Elmi texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə sənaye sahələrinin inkişaf etməsi də suya olan tələbatı artırmışdır. Bu isə öz növbəsində su ehtiyatlarının istehlak səviyyəsini nəzərə çarpacaq dərəcədə artırmışdır. Belə olduğu təqdirdə, sudan səmərəli istifadə olunması, suyun təkrar istifadəsi kimi məsələlər ön plana keçir. Bu səbəbdən, sudan səmərəli istifadə yollarının araşdırılması, təmizləmə yollarının öyrənilməsi və təmizləmə texnologiyalarının tətbiqi, suyun təkrar istifadəsi sahəsində əhəmiyyətli rol oynayır.

Problemin inkişaf dərəcəsi: Hal hazırda dünyanın bir çox yerlərində içməli su çatışmazlığı müşahidə olunur. Xüsusilə quraq iqlimə sahib olan, iqtisadi inkişaf səviyyəsi aşağı olan ölkələrdə bu problem özünü ciddi şəkildə büruzə verir. İqtisadi inkişafı aşağı olan ölkələrdə su təchizatı sahəsində olan problemlər, daşınma zamanı yaranan su itkiləri, qəza hallarının qarşısının vaxtında alına bilməməsi kimi problemlər içməli suyun səmərəsiz istifadəsinə gətirib çıxarmışdır. Aparılan araşdırmalara əsasən, kasıb ölkələrdə, suyun daşınması zamanı 40% su ehtiyatı itkiyə gedir və ya müasir texnika və texnologiyalardan istifadə imkanları aşağı olduğu üçün daşınma zamanı baş verən itkilərin qarşısının vaxtında alınmaması ciddi su sərfinə səbəb olur. Bundan əlavə, Abşeron yarımadasında içmək üçün yararlı olan su ehtiyatları suvarma məqsədləri üçün istifadə olunur. Həmin suyu, təmizlənmiş, təkrar istifadə oluna bilən su ilə əvəz etməklə, içməli su istehlakının texniki məqsədlər üçün istifadəsinin qarşısı alınmış olar.

Tədqiqat işi: Su ehtiyatlarından səmərəli istifadə olunması üçün bir sıra təmizləmə texnologiyalarının tətbiq edilməsi tələb olunur. Burada əsas məqsəd, istifadə olunmuş su ehtiyatlarının çirklənmə dərəcəsinə, hansı çirkləndirici maddələrlə çirklənməsinə əsaslanaraq düzgün təmizləmə metodunu seçmək və uyğun təmizləmə texnologiyasını tətbiq etməklə suyu təkrar istifadə oluna biləcək səviyyəyə çatdırmaqdır. Bu sahədə, ənənəvi üsullardan istifadə geniş yayılmışdır. Lakin, son dövrlərdə tullantı suların tərkibindəki çirkləndirici maddələrin çoxçeşidliliyi və toksikliyinin yüksək olduğunu nəzərə alaraq, yeni və müasir texnologiyaların tətbiq edilməsi vacibdir. Tədqiqat işində qeyd olunan müasir texnologiyalar haqqında məlumat verilmişdir.

İşin strukturu: Tədqiqat işi xülasə, açar sözlər, giriş, tədqiqat metodu, tədqiqat mövzusu, nəticə, ədəbiyyat siyahısından ibarət olmaqla tərtib edilmişdir.

TƏQDİQAT METODU

Təqdiqat işinin yazılmasında internet materiallarından və xarici mənbələrdən istifadə edilmişdir.

TULLANTI SULARIN TƏMİZLƏNMƏSİNDƏ TƏTBİQ EDİLƏN MÜASİR TEXNOLOGİYALAR

Çirkab suların təmizlənməsində istifadə olunan ənənəvi üsulların tətbiqi, əhali sayının və sənaye sahələrinin artımı ilə əlaqədar olaraq suyun tərkibində yaranan çirkləndirici maddələrin çoxalması nəticəsində suyun təmizlənməsi prosesində bir sıra çətinliklər yaradır. Ənənəvi üsullar, çirkab suların tərkibində olan bir sıra kimyəvi və mikrobioloji maddələrin təmizlənməsində öz effektivliyini sübut etmişdir. Lakin, son iki əsrdə çirkab suların tərkibindəki çirkləndirici maddələrin çoxçeşidli və müxtəlif tərkibli olması, təmizləmə texnologiyalarına olan tələbləri daha da sərtləşdirmişdir. Bu isə öz növbəsində yeni texnologiyaların yaradılmasına tələbatı artırmışdır. Müasir təmizləmə texnologiyaları əsasən bir neçə növdə mövcuddur. Aşağıda, yeni texnologiyaların bir neçəsinin ümumi prinsipi ilə bağlı qısaca məlumat verilmişdir.

Membran təmizləmə üsulu. Membran üsulu ilə təmizləmə, aparıcı təmizləmə qurğularının işləməsinin effektivliyi üçün əhəmiyyət kəsb edir. Mikro və ultrafiltrasiya üçün istifadə olunan membranlar, geniş sprektrda yayılmış həll olmuş çirkləndirici maddələrin əhəmiyyətli dərəcədə təmizlənməsində ilkin təmizləməni həyata keçirir. Membran bioreaktor təmizləmə üsulu, çirkab suların təmizlənərək sənaye sahələrində təkrar istifadə edilməsi üçün tətbiq edilir.

Nanotexnologiya. Nanotexnologiyanın yaranması və mikroorqanizmlərin biomikroelektronik cihazlara daxil edilməsi təmizləmə prosesində inqilaba səbəb olmuşdur. Nanotexnologiyanın üstün cəhəti ondan ibarətdir ki, bu texnologiya asanlıqla digər texnologiyalarla birləşə bilər. Nanotexnologiya vasitəsilə təmizləmə zamanı zəhərli birləşmələrin parçalanması üçün nano materiallardan membranların hazırlanması üçün yeni tədqiqatlar aparılır. Təkmilləşdirilmiş membranlar, tullantı suların tərkibindən metalların, bimetallik nanohissəciklərin, qarışıq oksidlərin, seolitlərin və karbon birləşmələrinin effektiv ayrılmasını təmin edirlər. Membran filtrasiyası prosesindən əvvəl, suyun tərkibində olan bərk və iri hissəciklər təmizlənməlidir. Bu, nano membranların iri hissəciklər tərəfindən zədələnməməsi üçün tətbiq edilir.

Avtomatlaşdırılmış Dəyişən Filtrləmə. Bu texnologiya tullantı suların təmizlənməsində istifadə olunan ən müasir texnologiyadır. Bu texnologiya, daxil olan tullantı suyun yuxarı axınının, filtr materialının aşağı axın təbəqəsində təmizlənməsini yerinə yetirir. Təmizləmə prosesində filtrasiya mühiti filtrin özü tərəfindən təmizlənir. Bu səbəbdən əlavə filtrasiya mühitinə və ya təmizləmə üçün şirin suya ehtiyac yoxdur. Avtomatlaşdırılmış dəyişən filtrləmə metodu, paralel və ya ardıcıl olaraq idarə oluna bilən filtr materialından ibarətdir. İkipilləli filtrləmə yüksək səviyyədə təmizlənmiş su əldə olunması üçün idealdır. Bu metod, ikinci dərəcəli tullantı suların təmizlənərək təkrar istifadəsi üçün uyğundur. Bu texnologiyanın aşağıdakı üstünlükləri vardır:

- Bərk maddələrin tutulması yüksəkdir;
- Köməkçi avadanlıqlara ehtiyac olmaması;
- Axının bərabər paylanması;
- İlkin quraşdırma, texniki xidmət qiymətlərinin aşağı olması;
- Aşağı enerji istehlakı;
- İstismar və texniki xidmətin asanlığı.

Mikrobial yanacaq hüceyrələri. Mikrobial yanacaq hüceyrələri, mikroorqanizmlər tərəfindən istehsal olunan enerjini tutmaq üçün elektron ötürülməsindən istifadə edərək, elektrik enerjisinin birbaşa tullantı axınındakı üzvi maddələrdən çıxarılmasının mümkün olduğu bir texnologiyadır. Mikroorqanizmlər bir elektrodda biofilm kimi yetişdirilir; elektron donoru, elektron qəbuledicidən elektrik cərəyanı yaradan proton mübadiləsi membranı ilə ayrılır. Bu texnologiya hələ inkişaf mərhələsindədir və tullantı sularında mövcud olan üzvi maddələrdən birbaşa elektrik enerjisi istehsal etmək üçün geniş şəkildə istifadə edilməzdən əvvəl proseslərin səmərəliliyi və iqtisadiyyatda əhəmiyyətli irəliləyişlər tələb olunacaqdır.

Yeni Şəhər Kanalizasiya Texnologiyası. Bu texnologiya Elektroflokulyasiya (elflox) və Anaerob parçalanma texnologiyalarının kombinasiyası vasitəsilə enerji və mineralların təkrar istifadəsi ilə tullantı sularının təmizlənməsidir. Elflox üsulu ilə təmizləmə, kommunal məişət tullantı sularının tərkibindəki üzvi çirkləndiricilərin eCF reaktoru vasitəsilə təmizlənməsinə əsaslanır. Anaerob fermentasiya üsulu, iki fərqli hidroliz prosesi nəticəsində bioqaz əldə etməyə imkan verir. Bu proses, uzunzəncirli karbon birləşmələrinin daha kiçik hissəciklərə bölünməsi nəticəsində və metanogenezisin yağ turşularının bioqaza çevrilməsi yolu ilə alınır.

Tullantı suların yosunlarla təmizlənməsi. Son dövrlərdə mikroyosunlardan istifadə edərək bioloji tullantı sularının təmizlənməsi üsulu çox geniş yayılmışdır. Bu üsul, xüsusilə məişət tullantı sularının

təmizlənməsində effektivdir və bahalı sistemlərə alternativ olaraq qəbul edilmişdir. Təmizləmə prosesində istifadə edilən yosunlar, çirkab suyun tərkibində olan selenium, sink və arsen kimi təhlükəli tullantıları toplayaraq su mühitindən xaric edirlər. Həmçinin bu üsul, bir çox radioaktiv maddələrin təmizlənməsi üçün istifadə edilə bilər. Yosunların suda olan çirkləndirici maddələri tutmaq və saxlamaq qabiliyyəti yüksəkdir. Bu isə öz növbəsində müxtəlif tərkibli çirkləndirici maddələrlə çirklənmiş fərqli su mühitlərində yosunlarla təmizləmə metodunun tətbiqinə geniş imkanlar yaradır.

NƏTİCƏ

Su ehtiyatlarının qorunması və səmərəli istifadə olunması günümüzdə aktual problem olaraq qalır.

Bu problemin həllində müsbət nəticələr əldə etmək üçün, yalnızca dövlət səviyyəsində deyil, eyni zamanda əhali tərəfindən də təşəbbüs göstərilməlidir. Suyun səmərəli istifadəsi ilə bağlı maarifləndirmə işləri aparılmalı, sudan düzgün istifadə hər bir vətəndaş tərəfindən aparılmalıdır. Həmçinin sənaye sahələrində, məişətdə, texniki məqsədlərlə istifadə üçün daha çox təmizlənmiş, təkrar istifadə oluna bilən sudan istifadə edilməlidir. Sənaye sahələrində yuma işlərində, məişətdə sanitar məqsədlər üçün, suvarma işlərində içməli suyun istifadəsini təmizlənmiş su ilə əvəz etməklə həm içməli suya qənaət etmiş olarıq, həm də su ehtiyatlarından düzgün istifadəni təmin edərik. Tədqiqat işində qeyd olunan müasir təmizləmə texnologiyaları, çirkab suların tərkibindəki çirkləndirici maddələri yüksək səviyyədə təmizləməklə istifadə olunmuş suyun təkrar dövriyəyə buraxılmasına şərait yaradır. Lakin, bu texnologiyalarda istifadə olunan qurğuların işini daha effektiv etmək üçün sudan düzgün istifadə etmək şərtdir. Belə ki, İngiltərədə sudan istifadə səviyyəsi 9 dəfəyə çatdırılmışdır. Suyun ilkin olaraq içməli su kimi istifadəsindən sonra növbəti mərhələdə digər məqsədlər üçün istifadə olunur və 9 dəfə müxtəlif məqsədlər üçün istifadə olunduqdan sonra həmin su artıq yararsız olaraq atılır. Ümumi olaraq nəzər yetirsək, su ehtiyatlarının çirklənmə səviyyəsi və hansı maddələrlə çirklənməsi onun təmizlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Tərkibində çirkləndirici maddələrin, toksiki və radioaktiv maddələrin miqdarı çox olan tullantı suların təmizlənməsi bir o qədər yüksək xərc və yüksək texnologiya tələb edir. Bu isə iqtisadi baxımdan zəif olan ölkələrdə mümkün hesab edilmir. Bu səbəbdən, su ehtiyatlarının qorunması, çirklənmə səviyyəsinə nəzarət olunması məsələlərinə kompleks yanaşma tələb olunur. Məsələn, sənaye sahələrində aparılan texnoloji proses buna misal ola bilər. Bilirik ki, sənaye sahələrindən ayrılan tullantı suların tərkibi zərərli maddələrlə zəngin olur və təmizləmə aparılmadan birbaşa su təmizləyici stansiyalara ötürülür. Belə olan halda, texnoloji prosesin yenilənməsi problemin həllinə kömək ola bilər. Məsələn, xammal kimi istifadə olunan müxtəlif kimyəvi, zərərli və zəhərli, toksiki maddələrin istehsal daxilində maksimum səviyyədə istifadə olunması son nəticədə suya atılan çirkləndirici maddələrin miqdarına ciddi təsir göstərəcəkdir.

Ümumi olaraq qeyd etmək lazımdır ki, nəinki su ehtiyatlarının eləcə də həyat üçün vacib olan bütün ehtiyatların qorunması və səmərəli istifadə olunması kompleks yanaşma tələb edir. Belə olduğu təqdirdə, təmizləmə texnologiyalarına çəkilən xərclər müsbət iqtisadi və ekoloji fayda verə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. https://www.researchgate.net/profile/Prem-Baboo/post/New-Technologies-for-Wastewater-Treatment/attachment/5d372fbfcfe4a7968db875ed/AS%3A783858299572226%401563897790930/download/The-Water-Digest-Jan-2014-Wasterwater.pdf
2. https://www.ijert.org/wastewater-treatment-technologies-a-review

NİZAMİ RAYONU, QARA QARAYEV PROSPEKTİNDƏ TULLANTILARIN İDARƏ OLUNMASI

E. S. Qəhrəmanov
Bakı Mühəndislik Universiteti,

Xülasə

Hazırda Bərk Məişət Tullantılarının İdarə Olunması Azərbaycanda, əsasən də iri şəhərlərdə ciddi ekoloji problemlərdən biridir. Bu araşdırmada tədqiqat ərazisində toplanmış tullantının illik və aylıq miqdarı, mövcu toplanma sistemi, tullantı meydançaları və tullantı qabları haqqında məlumat verilmişdir. Tədqiqat ərazisi Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospektidir.

Giriş

Bərk tullantıların idarə edilməsi qlobal miqyasda şəhərlərin üzləşdiyi ən böyük problemlərdən biridir. Çünki əhali sayının sürətlə artması və buna uyğun olaraq istehlakın da çoxalması tullantıların miqdarının artması ilə nəticələnir. Bundan başqa, texnoloji inkişaf təhlükəli birləşmələrdən ibarət mürəkkəb tərkibli istehlak məhsullarının yaranmasına səbəb olur, bu da məhsulun istifadə müddətinin sonunda tullantıların idarə edilməsi sistemləri və ətraf mühitin mühafizəsi üçün əlavə problemlər yaradır (məsələn, mobil telefonlar və elektron qurğular) (Christos Chalkias və Katia Lasaridi, 2011). Bu sahədə digər problemlər tullantıların toplanması, daşınması və utilizasiyasıdır - ümumiyyətlə, inkişaf etmiş ölkələrdə bu proseslər yerli bələdiyyələr tərəfindən idarə olunur. Bununla belə, əksər şəhər ərazilərinin zibilləri ya dövlət qurumu, ya da özəl podratçı (məsələn, Bakıdakı "Təmiz Şəhər" SC) tərəfindən yığılır.

Ümumiyyətlə, 1897-ci ilin birinci siyahıya alınmasından indiyədək Azərbaycan əhalisi 5,5 dəfədən çox artaraq 1,8 milyon nəfərdən 10 milyon nəfərə çatmışdır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi). Əhalinin əksəriyyəti Bakı şəhərində yaşayır (təqribən 2 milyon 293 min 47 nəfər – statistik məlumat, qeyri-statistik məlumatlara görə isə bu göstərici 4 milyona yaxındır). Bakıda sürətli şəhər ərazilərinin artması tullantıların yaranmasına da səbəb olmuşdur. Xüsusilə Balaxanı, Qaradağ və şəhərin bir çox ərazilərində tullantıların açıq yerə atılması ciddi problemə çevrilmişdir.

Tədqiqat Ərazisi

Tədqiqat sahəsi Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospektidir (Şəkil 2). Əhalisi 201239 nəfər, rayonun sahəsi 19,6 km^2-dir. Rayonda 22 ümumtəhsil məktəbi, 20 uşaq bağçası, 1 körpələr evi, 2 kar uşaqlar üçün respublika internat məktəbi, 3 peşə liseyi, 2 kollec və 1 ali məktəb fəaliyyət göstərir. Həmçinin rayonda 9 xəstəxana və 13 ambulatoriya fəaliyyət göstərir.



Şəkil 2. Tədqiqat Ərazisi.

Cədvəl 2-də son 10 il ərzində müxtəlif mənbələrdən atılan tullantı miqdarı və adambaşına düşən tullantı miqdarı göstərilmişdir. Son illərdə olan göstəricilərə baxdığımız zaman əvvəlki illərə nisbətən tullantı miqdarı daha yüksəkdir. Eyni zamanda adambaşına düşən tullantı miqdarı da son iki ildə artmışdır. 2017-2018-ci illərdə adambaşına düşən illik tullantı miqdarı təxminən 280-290 kq olduğu halda, bu göstərici 2019-2020-ci illər ərzində 326-345 kq olmuşdur. Son illərin nəticələri onu göstərir ki, adambaşına düşən illik tullantı miqdarı hər il 5-10% artır. Tullantıların yaranma mənbələri arasında əsas yerləri households and manufacturing sahələri tutur. Təkcə households tullantıları yaranan ümumi tullantı miqdarının təxminən 67%-ni (2020-ci il) təşkil edir. Yaranan ümumi tullantı miqdarının təxminən 20%-i (2020-ci il) Manufactirng tullantılarıdır. 13% (2020-ci il) tullantı isə digər sahələrdən yaranan tullantılardır. In 2020, 3486,0 thsd. ton or compared to previous year more for 6,4 % wastes were generated in households, enterprises and organizations. Tullantı miqdarının illərcə artmasına əhali artımı, həyat səviyəsinin dəyişməsi, istehsal texnologiyalarının inkişafı, istifadə olunan məhsulların çoxçeşidli olması kimi amillər təsir göstərir.

In 2020, 74,59% of 2350,0 thousand tons of solid household waste generated was transported to landfills for disposal, 25,0% was used for energy generation, and 0,5% was sold within the country. 200,6 million kWh of electricity was generated due to the use of household waste (Statistika Komit'si).

	2010	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**	**2019**	**2020**
Yaranmış tullantıların miqdarı-cəmi	**2257,1**	**2789,7**	**3096,7**	**2575,5**	**2386,0**	**2421,3**	**3019,7**	**2754,5**	**2896,1**	**3276,5**	**3486,0**
o cümlədən fəaliyyət növləri üzrə:											
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	2,6	9,2	12,3	18,7	18,4	20,0	25,9	21,2	24,2	33,2	31,5
Mədənçıxarma sənayesi	246,6	409,5	542,9	334,3	550	196,7	644,5	186,6	204,8	208,2	206,3
Emal sənayesi	391	529,3	868,6	482,3	394,4	576,6	650,5	710,6	743,2	765,4	692,6
Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi	1,6	4,6	11,2	5,6	3,3	4,6	6,2	6,2	4,6	5,7	7,6
Tikinti	0,6	0,6	0,7	1,2	1,1	3,3	1,6	1,6	3,7	2,9	3,1
Digər iqtisadi fəaliyyət növləri	5,4	56	13,9	62,5	63,9	85,4	100,9	252,1	159,5	239,5	194,9
Ev təsərrüfatlar	1609,3	1780,5	1647,1	1670,9	1354,9	1534,7	1590,1	1576,2	1756,1	2021,6	2350,0
ÜDM vahidinə düşən bütün iqtisadi fəaliyyət növləri üzrə tullantıların miqdarı, kq/min $	**17,6**	**21,9**	**23,8**	**18,7**	**16,8**	**16,9**	**21,7**	**19,8**	**20,5**	**22,6**	**25,2**
Bir nəfərə düşən yaranan tullantılarının miqdarı, kq	**252,0**	**304,1**	**333,1**	**273,5**	**250,2**	**250,9**	**309,5**	**279,5**	**291,4**	**326,9**	**345,4**

Cədvəl 2. Tullantının yaranması (min. ton)

Cədvəl 3-də qeyd olunan məlumatlardan da göründüyü kimi həm illər üzrə həm aylar üzrə, eyni zamanda fəsillərə görə yaranan tullantı miqdarı dəyişir. Belə ki, əhali sayının artması, şəhərləşmənin güclü getməsi, həyat tərzinin dəyişməsi, yeni ticarət mərkəzləri və iaşə obyektlərinin sayının çoxalması hər növbəti ildə tullantı miqdarının artmasına səbəb olur. Bu amillər tullantının tərkibinin də dəyişməsinə təsir göstərir. Son iki ildə atılan tullantı miqdarı müqayisə etsək, görərik ki, 2019-ci ildə atılan tullantı miqdarı 2018-ci ildə atılan tullantı miqdarına nisbətən 25% artmışdır. Eyni zamanda yay aylarında və payızın ilk yarısında tullantı miqdarı daha yüksək olur. Bu ayların əksəriyyəti istirahət və turizm dövrlərini əhatə etdiyi üçün yaranan tullantı miqdarı da daha çox olur. Bu aylara Yanvar (Yeni İl) ayını daxil etmək olar.

№	Aylar	Toplanmış tullantı miqdarı (ton)			
		İllər üzrə			
		2016	2017	2018	2019
1	Yanvar	4774,00	4612,80	4436,48	5200,15
2	Fevral	3061,40	2911,64	3717,58	5300,54
3	Mart	3557,82	3495,04	3530,14	5350,45
4	Aprel	3688,02	3543,60	4216,22	5400,56

5	May	3825,01	3730,50	4189,60	5450,14
6	İyun	3972,16	3950,28	4323,12	5500,36
7	İyul	4872,66	5085,90	4975,58	5600,45
8	Avqust	4688,40	4993,16	4884,16	5750,12
9	Sentyabr	4671,50	4692,06	4994,16	5500,25
10	Oktyabr	4093,68	4366,96	4468,18	5450,55
11	Noyabr	3645,46	4209,24	4670,24	5260,52
12	Dekabr	2313,66	2775,16	3768,32	5330,28
	Cəmi:	47163,77	48366,34	52173,78	65094,37

Cədvəl 3. Nizami Rayonu, Qara Qarayev prospektində illər üzrə yığılmış tullantı miqdarı.

№	Metal Tullantı qabları (həcmi- 1000L)	Metal Tullantı qabları (həcmi- 417L)	Tullantı meydançalarının sayı	Tullantı meydançalarının sahəsi (ha)
1	110	20	17	0,0174
2	207	13	61	0,0560
3	133	-	19	0,0197
4	84	-	18	0,0202
5	94	-	11	0,0156
6	271	30	17	0,0206
7	135	5	20	0,0208
8	133	14	17	0,0174
9	132	8	20	0,0207
Cəmi:	1299	90	200	0,2081

Cədvəl 4. Tədqiqat ərazisindəki tullantı qabları və həcmi.

Tədqiqat ərazisində Nizami Rayon İcra Hakimiyyətinin nəzdində 200 tullantı meydançası var. Bu tullantı meydançalarında toplam 1389 metal tullantı qabı var. Bunlardan 1299-u 1000L və 90-i isə 417L həcmli tullantı qablarıdır. Ərazidə olan mövcud tullantı qablarının əksəriyyəti metal tərkibli tullantı qablarıdır. Bundan başqa ərazidə "Kommunal Xidmətlər Müəssisəsi" MMC-nin nəzdində olan 147 ədəd tullantı qutusu mövcuddur. Bunlardan 20 ədədi 1000l-lik metal və 127 ədədi 1100 l-lik plastik tullantı qablarıdır. Tullantı meydançalarının ümumi sahəsi 0.21 ha-dır.

Ədəbiyyat siyahısı

[1] Chalkias, C., Lasaridi, K., Benefits from GIS based Modelling for Municipal Solid Waste Management. INTECH, 2011.
[2] Dr. Oyinloye, M.A., Using GIS and Remote Sensing in Urban Waste Disposal and Management:
A Focus on Owo L.G.A, Ondo State, Nigeria. *European Journal of Science and Technology, IISN: 2304-9693*, 2007.
[3] Sule, J. O., Aliyu, Y. A., Umar, M. S., Application of GIS in Solid Waste Management in Chanchaga Local Government Area of Niger State, Nigeria Cambridge,
[4] Khan, D., Samadder, S. R., Municipal solid waste management using Geographical Information System aided methods: A mini review. *Waste Management & Research* 2014, Vol. 32(11) 1049–1062.
[5] Tavares G, Zsigraiova Z, Semiao V, et al. (2009) Optimisation of MSW collection routes for minimum fuel consumption using 3D GIS modelling. *Waste Manag* 29(3): 1176-1185.
[6] The State Statistical Committee of the Republic of Azerbaijan, (2022).
Used link: https://www.stat.gov.az/source/environment/?lang=en
[7] Azərbaycan Respublikası, Nizami Rayon İcra Hakimiyyəti, (2021).

TARİX, HÜQUQ VƏ SOSİOLOGİYA BÖLMƏSİ

AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏQİLLİK DÖVR FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİ

Bahar Qasımlı Fəzli qızı
A.A.Bakıxanov adına Tarix İnstitutunun
doktorantı
baharqasimli.93@gmail.com

РЕЗЮМЕ

В истории второго периода правления Гейдара Алиева

В азербайджанской историографии утверждается, что когда Гейдар Алиев пришел к власти в 1993 году, он поставил перед собой цель решить ряд важных вопросов. В результате успешных внутренних реформ и внешней политики, осуществленных Гейдаром Алиевым во второй период его президентства в Азербайджане, престиж нашего независимого государства стремительно вырос на международной арене. Азербайджанская Республика приобрела статус демократической, правовой, светской страны. Это также положительно повлияло на расширение наших отношений с зарубежными странами.

SUMMARY

In the history of the second period of Heydar Aliyev's rule

It is scientifically proven in Azerbaijani historiography that when Heydar Aliyev came to power in 1993, he set a goal to solve a number of important issues. As a result of successful domestic reforms and foreign policy implemented by Heydar Aliyev during his second term in office, the prestige of independent Azerbaijan in the international arena has grown rapidly, and the Republic of Azerbaijan has gained the prestige of a democratic, legal, secular state throughout the world. It also had a positive impact on the expansion of our relations with foreign countries.

Açar sözlər: Xalq, müstəqillik, tarixi dövr, inkişaf
Key words: Nation, independence, historical period, development
Ключевые слова: народ, независимость, исторический период, развитие

GİRİŞ

Azərbaycan tarixində hərtərəfli dönüş yaratmış, xalqımızın azadlığı uğrunda mübarizə aparan Heydər Əliyevin irsinin öyrənilməsi Azərbaycan tarixşünalığında xüsusi əhəmiyyətə malikdir. Tarixşünalığımızda Heydər Əliyevin hakimiyyətinin ikinci dövrünün öyrənilməsi labüd bir məsələdir. Çünki onun həmin müddət ərzində olan fəaliyyəti bugünümüz üçün aktual olan proseslərin həllinə yönəlmişdir. Heydər Əliyevin hakimiyyətinin ikinci dövrünün ictimai-siyasi fəaliyyətini araşdırmaçılar tərəfindən tədqiqi Heydər Əliyev irsi üçün mühüm əhəmiyyət kəsb edir. Ümumilli lider tariximizdə böyük rol oynamış, eyni zamanda, Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Dahi xadim Heydər Əliyev siyasətinin başlıca məqsədi ümumbəşəri dəyərlərə yönəlməklə yanaşı milli-mənəvi dəyərləri qorumaqdan ibarət olmuşdur. Məhz həmin müsbət keyfiyyətlərlə Heydər Əliyev öz adını tariximizə silinməz izlərlə yazdı.

Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində olduğu kimi, ikinci dövrünün də əsas qayəsi xalqına xidmətdən ibarət idi. Məhz Heydər Əliyevin hakimiyyətinin ikinci dövründə bugünki dövlət müstəqilliyimizin təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı.

Heydər Əliyevin 90-cı illərin əvvəllərindən başlayan siyasi fəaliyyətinin ikinci dövrü Azərbaycan tarixində xüsusi yerə malikdir. Məhz bu dövrdə sovet hakimiyyəti illərindən başlayaraq tariximizə qarşı olan qərəzli münasibətlərə son qoyulmuş, milli tariximizə obyektiv yanaşma baş vermişdir. Heydər Əliyev Naxçıvan MR-nın Ali Sovetinə rəhbərlik etdiyi dövrdə, həmçinin hərbi-siyasi vəziyyətin ağır olduğu bir şəraitdə Azərbaycanın gələcək müqəddəratını diqqət mərkəzində saxlaması təsadüf deyildi. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü, Dağlıq Qarabağ və onun ətrafındakı Azərbaycan Respublikası

ərazilərinin işğalı, Azərbaycan tarixinin bir çox problemlərinin yenidən tədqiq edilməsini daha da aktuallaşdırdı.

Azərbaycan tarixşünaslığında Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəlməsi ilə bir sıra önəmli məsələlərin həll edilməsini qarşısına məqsəd kimi qoydu. Müasir tarixşünaslığımızda həmin dövrü Azərbaycanda bir sıra problemlərin, etnik parçalanmaların hökm sürməsi kimi hadisələrin də əks olunanması kimi xarakterizə olunur. Məhz Heydər Əliyev kimi vətənə, xalqa bağlı biri əvəzsiz zəhməti sayəsində bu problemlərin öhdəsindən gələ bilərdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrünü xüsusi diqqətlə tədqiq edən tarixçi alimimiz Yaqub Mahmudov özünün "Azərbaycan dövlətçiliyin xilaskarı"(15),Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti"(16) əsərini yazmaqla (XX əsrin sonu, XXI əsrin əvvəllərində) Heydər Əliyevin dövlətçilik fəaliyyətinə dair qiymətli faktları işıqlandırdı. Çağımızda baş verən yeni məzmunlu proseslərə elmdə tam fərqli yanaşmaların tətbiqini tələb edən keçid dövründə peşəkar tədqiqatçı nəslinin yeni formalaşdığı bir dövrdə ümummilli liderin irsini müxtəlif aspektlərdən işıqlandıran əsərlərin bir-birinin ardınca işıq üzü görməsi elmi ictimaiyyət üçün əlamətdar olan amilə çevrilmişdir.

Yaqub Mahmudov özünün "Azərbaycan: qısa dövlətçilik tarixi"(17) kitabında qeyd edir: "Müstəqilliyin ilk illərində baş vermiş hərcmərclik, xaos və anarxiyadan sonra doğma xalqının təkidli tələbi ilə Azərbaycanda hakimiyyət sükanının arxasına qüdrətli bir siyasətçi keçdi – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev başçılıq etdi Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi" (17, s.99).

Yaqub Mahmudov həmin əsərində yazır: "1994-cü il iyun ayının son günləri idi. Xarici düşmənlərin və daxildəki Vətən xainlərinin havadarlıq etdiyi separatçılar Balakəndə baş qaldırmışdılar. Dövlət başçısının təşəbbüsü ilə bir qrup ziyalı təcili Balakənə yola düşdük. Bakıdan gec çıxdığımız üçün Zaqatalada gecələdik. Ertəsi gün səhər tezdən artıq Balakən icra hakimiyyətinin binasında idik. Camaatla görüşə tələsirdik. Lakin o zamankı icra başçısı bizi camaatla görüşdürməyə tələsmir, Rusiya Federasiyasından (Dağıstandan) gələcək "qonaqları" gözlədiyini bildirirdi. Dövlətimiz tərəfindən rəsmi surətdə dəvət olunmamış, başqa sözlə, çağırılmamış "qonaqların" gözlənilməsi bizə qarşı açıq-aşkar hörmətsizlik, saymazlıq idi. Yerli hakimiyyət nümayəndəsinin bu müəmmalı hərəkətindən çox narazı qalmışdıq. Gündüz saat 11 radələri idi. Birdən hökumət telefonu səsləndi. Dedilər ki, Bakıdan göndərilmiş dövlət nümayəndəsi və icra başçısı telefonun yanında olsunlar. Prezident danışacaqdır. Dövlətimizin başçısı Heydər Əliyev o gün, o məqamda Vətən üçün ən çox narahatlıq doğuran bir hadisəni şəxsi nəzarətinə götürmüşdü... Mən o zaman tələtümlü hadisələrin qaynar nöqtəsində olarkən bir daha əmin oldum və böyük qürur hissi keçirdim ki, Azərbaycan sahibsiz deyil. "Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!" - deyə bütün dünyaya bəyanat verən dahi dövlət xadimimiz Heydər Əliyev öz sözünün ağasıdır, müstəqilliyimizə zaval yoxdur..."(17, s. 115)

Yaqub Mahmudovun "Azərbaycan: qısa dövlətçilik tarixi" əsərində 1993-2003-cü illərdəki siyasi hadisələrin təzahürünə, dövlət xadimi Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qazanılması və möhkəmləndirilməsi sahəsindəki roluna və xidmətlərinə Azərbaycan Respublikasının hüquqi, demokratik dünyəvi dövlətə çevrilməsinə yönəlmiş islahatlara xüsusi diqqət yetirilir. Yaqub Mahmudov Heydər Əliyevin müstəqillik dövründə gördüyü işlər türk dünyası üçün vacib olan – Bakı- Tiflis-Ceyhan əsas neft ixrac kəmərini, eyni zamanda Bakı-Ərzurum qaz kəmərinin çəkilməsi nəinki Azərbaycan, region üçün vacibliyini vurğulayıb.

Heydər Əliyevin öz doğma yurdu qarşısında danılmaz tarixi xidmətlərinin hamısını dərindən-dərinə araşdırmaq, hərtərəfli incələmək və gələcək nəsillərə doğru-düzgün çatdırmaq elə də asan məsələ deyil. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrünün araşdırılması sahəsində mühüm xidmətləri olan akademik Yaqub Mahmudovun qeyd etdiyim əsərlərlə yanaşı, "Heydər Əliyev ideyalarının zəfər yürüşü" (18) əsəri də xüsusi əhəmiyyət kəsb edir. Akademikin öz kitablarında qeyd etdiyi kimi Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə gəlməsi ilə Azərbaycan dövlətçiliyin xilaskarı oldu. Bu, Azərbaycanın qurtuluş anı idi və iyunun 15-i tariximizə Milli Qurtuluş günü kimi daxil oldu.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatlara üzv qəbul olundu. Azərbaycan Avropa Şurasında xüsusilə böyük uğurlar qazandı. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni

millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğururdu. Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı–Tiflis–Ceyhan əsas neft ixracı kəmərinin, həmçinin Bakı – Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu hələ neçə-neçə nəsillər keçəndən sonra daha aydın və daha dərindən başa düşüləcəkdir! Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq – Qərb dəhlizini açdı. Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başladılar. İndi isə qaçılmaz məğlubiyyətlə üz-üzədirlər! Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda – məşhur «Gülüstan» sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi – mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bu gün həmin siyasətin uğurları da göz qabağındadır! Heydər Əliyevlə siyasi mükalimədə uduzan ənənəvi düşmənlərimiz, çox keçmədən Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduzmamaq üçün siyasi şantajlara, hərbi təzyiq və terror aktlarına, bir sözlə, siyasət cığallığına əl atmağa başladılar. Ermənistanda rusiyapərəst davakarların və Qarabağda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları qatillərinin hakimiyyətə gətirilməsi, Gürcüstan prezidenti E.A.Şevardnadzeyə qarşı təşkil olunmuş sui-qəsd və s. bu baxımdan uduzmuş oyunçuların cığallığından başqa bir şey deyildi.(18, s. 402-405).

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü dahi Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev yeni Azərbaycanın qurucusu, xalqımızın Qurtuluş mübarizəsinin qalibidir. Azərbaycanın ən kütləvi və ən müasir siyasi partiyasını - Yeni Azərbaycan Partiyasını o yaradıb. Ömrünün on ili ərzində Heydər Əliyev doğma xalqı üçün ən müasir, demokratik, hüquqi və dünyəvi dövlət qurub. Müstəqil dövlətimiz - Azərbaycan Respublikası Ulu Öndərin şah əsəri və doğma xalqına müqəddəs əmanətidir. (16, s. 13)

Heydər Əliyevin Azərbaycana rəhbərliyininin ikinci dövrünün araşdırılması, onun təşəbbüsü ilə görülən çoxsaylı işlərin öyrənilməsi müasir dövr tarixşünaslığımızda tədqiqatçıların əsas fəaliyyət istiqamətlərini təşkil edir. Həmin tədqiqatçıların əsərlərinin təhlilinə nəzər salaq. Azərbaycanın müasir dövrünün siyasi və fəlsəfi problemlərinin peşəkar tədqiqatçısı olan Ramiz Mehdiyevin Heydər Əliyev irsinin öyrənilməsində, təbliğində, həmçinin gələcək nəsillərə çatdırılmasında çox böyük rolu vardır. Akademik Ramiz Mehdiyev öz həyat təcrübəsi və müşahidələri ilə Heydər Əliyev haqqında son illərin mükəmməl əsərlərini ərsəyə gətirmişdir. Onun, "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr. Dünyanı heyran qoyan insan."(8) "Heydər Əliyevin siyasi portretinin cizgiləri" (9), "Heydər Əliyev : dəyişməyən lider idealımız" (10), "Heydər Əliyev təlimi dövlətçilik və azərbaycanlılıq" (11),"Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" (12), "Yeni siyasət inkişafa doğru" (13), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (14) və digər əsərlərində Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri zəngin faktlar əsasında araşdırılmış, ümumiləşdirmələr aparılmış və mükəmməl elmi sistem yaradılmışdır. Alimin tədqiqatlarında Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü barədə də olduqca maraqlı və zəngin faktlar, qiymətli ümumiləşdirmələr vardır. Oxuculara təqdim etdiyimiz bu məqalədə akademik Ramiz Mehdiyevin tədqiqatları istiqamətverici rol oynamışdır.

Heydər Əliyev hər daim tarix elmini diqqət mərkəzində saxlamış və tarixçilər nəslinin yetişməsində mühüm rolu olmuşdur. Bu baxımdan tarixçi Qurban Bayramovun "Heydər Əliyev və Azərbaycan tarix elmi"(6) kitabında bunlar geniş məzmunla şərh olunub. Əsərdə Azərbaycan tarixində Heydər Əliyevin rəhbərlik etdiyi dövrlərdə Vətənimizin böyük inkişafa nail oması üçün möhkəm baza yaradıldına məxsusi diqqət yetirilir. Adıçəkilən əsərdə Azərbaycan tarixində də kök salmış birtərəflilik tədqiqat metodunun elmimizə böyük zərbə vurduğu göstərilir. Birtərəflilik tədqiqat metodu sovet hakimiyyəti dövründə mövcud olmuş, lakin Azərbaycan müstəqilliyi bərpa edildikdən sonra fərqli formada davam etdirilirdi. Heydər Əliyev bütün bunlara cavab olaraq göstərir ki, 70 ildə bir çox sahələrdə əldə olunan uğurlar müstəqil Azərbaycan üçün böyük potensialdır. Bu məqsədlə də həmin dövrü biz layiqincə qiymətləndirməliyik. Heç bir səhifə tarixdə təhrif olunmamalıdır. Ümuymiyyətlə bu əsər Heydər Əliyevin tarix elmi sahəsində misilsiz xidmətlərinin araşdırılması zəminində xüsusi rola malikdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə həyata keçirdiyi uğurlu daxili islahatlar və xarici siyasət nəticəsində müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu sürətlə artdı və Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazandı. Həmçinin, xarici

ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərdi. Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən əsas uğurlarından biri də o idi ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq mü¬nasibətlərimiz bərpa olundu. Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvünə çevrildi. Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, öz zəmanəsinin Atatürkü kimi dərin hörmət və nüfuz qazandı. Heydər Əliyevin yorulmaz səyləri nəticəsində müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da artdı. (20)

Heydər Əliyevin nəinki müstəqillik, demək olar ki, bütün dövrlərdə elmə verdiyi töhfə diqqətəlayiqdir. Məhz onun birbaşa təşəbbüsü ilə elm sahəsində həyata keçirdiyi işlər bugünkü elmimizin tərəqqisinə yönəlib. Bu baxımdan Heydər Əliyevin Elmlər Akademiyasına olan yüksək diqqətini həmin dövrdə imzaladığı fərman və sərəncamlar da sübut edir.

Azərbaycan elminin inkişaf etdirilməsində də ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Bu barədə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Azərbaycan" qəzetinə verdiyi məqalədə geniş şərh edib. Görkəmli dövlət xadimi cəmiyyətin inkişafında elm faktoruna xüsusi əhəmiyyət verdiyi üçün ölkədə elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Ulu öndərin 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında respublika ziyalıları ilə görüşündəki tarixi nitqi geniş mənada elmin, ziyalılığın və akademik qurumların xilas edilməsi ilə əlaqədar səsləndirilmiş tarixi bəyanatdır: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. Akademiyanın fəaliyyətini tənqid də etmək olar. Ancaq ümumən götürdükdə şübhəsiz ki, elmin inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, yüksək qiymətləndirməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir". Ulu öndər Heydər Əliyev 15 may 2001–ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adını verməklə Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında 4 yanvar 2003–cü il tarixli fərmanı ilə Akademiyanın statusunu yüksəltmiş, onun qarşısında mühüm vəzifələr qoymuş, bununla da alimlərimizin xalq və dövlət qarşısında məsuliyyətini daha da artırmışdır. (25)

Artıq Azərbaycan Heydər Əliyevşünaslıq elmi özünün təşkilatlanma dövrünü yaşamaqdadır. "Əliyevşünaslıq" şöbəsi Tarix İnstitutunda aparılan struktur islahatlarına müvafiq olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 02 aprel 2008-ci il tarixli qərarı ilə yaradılmışdır. Şöbə əvvəlcə "Heydər Əliyev irsinin tədqiqi" şöbəsi kimi fəaliyyətə başlamış, 2010-cu ildən etibarən isə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə "Əliyevşünaslıq" (Əmr №Tİ-010/0098) şöbəsi adlandırılmışdır. Şöbədə 10 nəfər elmi əməkdaş çalışır. Şöbənin əsas elmi-tədqiqat istiqamətini Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin tədqiqi təşkil edir. Şöbəyə tarix üzrə elmlər doktoru Ədalət Qasım oğlu Qasımov rəhbərlik edir. Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsində hazırlanıb nəşr edilmiş ikicildlik "Heydər Əliyev" monoqrafiyasının II cildi (5), "Heydər Əliyev. Azərbaycan elminin keşiyində" (2 cildlik sənədlər və materiallar toplusu)(4), "Azərbaycan Respublikasının tarixi" 2 cildlik monoqrafiyaları (1) Əliyevşünaslıq üzrə ixtisaslaşmış alimlərin və mütəxəssislərin Azərbaycan ictimai elmlərinə sanballı və əhəmiyyətli töhfələridir. T.ü.e.d. Ədalət Qasımovun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası"(2), "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" (3), t.ü.f.d. Leyla Hüseynovanın "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (7), adlı monoqrafiyaları, o cümlədən, t.ü.f.d. Sona Qurbanovanın "Гейдар Алиев и внешенеполитический курс Азербайджанской Республики" kitabı işıq üzü görmüşdür. Şöbə əməkdaşları tərəfindən 300-ə qədər məqalə çap olunmuşdur və müxtəlif beynəlxalq elmi konfranslarda məruzələrlə çıxışlar edilmişdir.

T.ü.f.d. Leyla Hüseynova da A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin gənc tədqiqatçısı kimi Ulu Öndərin irsinə müraciət edir. 2014-cü ildə gənc tədqiqatçı t.ü.f.d. Leyla Hüseynova Yaqub Mahmudovun elmi rəhbərliyi ilə Heydər Əliyev irsinin araşdırılmasında xüsusi rolu olan "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) dissertasiyasını müdafiə etmişdir. Leyla Hüseynovanın "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) kitabı müasir mərhələdə Heydər Əliyevin Azərbaycan tarixi konsepsiyasının dərindən araşdırılmasında böyük əhəmiyyətə malikdir. Tədqiqatçı Leyla Hüseynova Heydər Əliyevin irəli sürdüyü dövrləşmənin dərin elmi əsaslara malik olduğunu göstərir.

Heydər Əliyev irsinin öyrənilməsində arxiv sənədlərinə əsaslanan fundamental araşdırmaçı kimi A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, t.ü.e.d. Ədalət Qasımovun

"Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" (3) monoqrafiyası xüsusi diqqət çəkir. Həmin tədqiqat işində indiyədək elmi ictimaiyyətə məlum olmayan arxiv sənədlərindən istifadə olunmuşdur. Uzaqgörən siyasi xadim Heydər Əliyevin həm Sovet Azərbaycanının, həm də müstəqil Azərbaycanın başçısı kimi Naxçıvan Muxtar Respublikasının inkişafı üçün göstərdiyi geniş fəaliyyəti təhlil edilmiş, xüsusilə onun 1990-1993-cü illərdə Naxçıvana göstərdiyi əvəzsiz xidmətləri hərtərəfli işiqlandırılmışdır (3, s.32).

Kitabda istifadə edilmiş sənədlər və materiallar, xüsusən Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası ilə bağlı çıxış və məruzələri,imzaladığı qərarlar və fərmanlar monoqrafiyanın mötəbərliliyini artırmaqla bərabər, muxtar respublikanı müasir siyasi tarixini öyrənmək və araşdırılmasında faydalı mənbə rolunu oynaya bilər (3, s.5).

Xalqımız üçün görülən bu xidmətlər sahəsində ölkəmizin dünyada tanınması prosesi daha da sürətlənərərək yeni mərhələyə qədəm qoydu. Heydər Əliyevin həmin dövrdə siyasi səriştəsi hesabına xarici ölkələrlə əməkdaşlığı gücləndirməsi bugünümüz üçün aktual məsələlələrdəndir.

Heydər Əliyev bu dövrdə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını işləyib hazırladı. Bu, Azərbaycan dövlətinin beynəlxalq normalara uyğun olan ən demokratik konstitusiyası olmalı idi. Konstitusiya layihəsi işlənib hazırlandıqdan sonra, ümumxalq müzakirəsinə verildi və 1995-ci ilin 12 noyabrında referendum keçirilərək qəbul edildi. Az sonra Heydər Əliyevin rəhbərliyi ilə xırda və orta dövlət müəssisələrinin özəlləşdirilməsinə və ölkədə sahibkarlığın inkişafına önəm verildi. Azərbaycan vətəndaşlarına 7,5 milyondan çox özəlləşdirmə payı verildi və ölkənin bütün əhalisi özəlləşdirmədə pulsuz iştirak etmək hüququ qazandı. Hərraclar təşkil edildi və 41 mindən çox müəssisə öz yeni sahibini tapdı. Bu dövrdə aqrar islahatlar da böyük vüsət aldı. Müvafiq qanunlar qəbul edildi və həmin qanunlara uyğun olaraq ölkədə 850 mindən yuxarı ailə torpaq mülkiyyətçisi oldu. Ailə-fermer təsərrüfatı sürətlə inkişaf etməyə başladı. Heydər Əliyevin siyasi qüdrəti sayəsində ölkədə azad vətəndaş cəmiyyəti formalaşdı. Siyasi partiyaların, qeyri-hökümət təşkilatlarının və digər vətəndaş cəmiyyətlərinin sərbəst fəaliyyətinə önəm verildi. Bir sözlə, ümummilli lider Heydər Əliyev özünün siyasi potensialının, zəngin dövlətçilik təcrübəsinin və dönməz iradəsinin sayəsində Azərbaycan Respublikasının fəlakətdən qurtararaq, qısa bir zamanda onu dünyanın ən sivil və demokratik dövlətləri sırasına çıxarmışdır (21).

Müstəqillik dövründə Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtda vətənimizdə baş verən daxili çəkişmə kimi hadisələr də öz həllini tapdı. Sabitlik və əmin-amanlığın yaranması, bügünkü Azərbaycan Respublikasının bütün dünyadakı nüfuzu, eyni zamanda xarici ölkələr ilə əlaqələrimizin genişlənməsinin təməli məhz həmin dövrdə Heydər Əliyevin həyata keçirdiyi quruculuq işlərinin nəticəsidir. Dahi xadim vətəndaşların ümidlərinə işıq saçaraq 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq , yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrləri kimi 2-ci dövrü də tədqiqatçılar tərəfindən araşdırılmış, bu sahədə bir çox əsərlər ərsəyə çıxmışdır. Bu tədqiqatlarda Heydər Əliyevin öz xalqı üçün, gələcək Azərbaycanın möhkəm təməli üçün atılan addımlar işıqlandırılmışdır. Heydər Əliyevin həmin dövrdə imzaladığı fərman və sərəncamlar bugünki Azərbaycanın büdrəmədən atdığı addımların qayəsidir. Onları nəzərdən keçirək:

"1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramına əsasən, Azərbaycan qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır. Ulu öndər 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir".(21)

Heydər Əliyevin milli–mənəvi sərvətlərimizin qorunması və inkişafı yolunda fəaliyyəti çoxşaxəlidir. Onun bu sahəyə aid fərman və sərəncamları çox mətləblərdən xəbər verir: "1948–1953–cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi–etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" (18 dekabr 1997–ci il), "Azərbaycanlıların soyqırımı haqqında" (26 mart 1998–ci il),

"Azərbaycan Xalq Cümhuriyyəti haqqında" (30 yanvar 1998–ci il), "N.Tusinin anadan olmasının 800 illiyi haqqında" (20 aprel 1997–ci il), "Kitabi–Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında" (23 fevral 1999–cu il), "C.Cabbarlının anadan olmasının 90 illiyi haqqında" (23 fevral 1999–cu il), "Naxçıvan Muxtar Respublikasının 75–ci ildönümü haqqında" (5 fevral 1999–cu il), "20 Yanvar faciəsinin 10–cu ildönümü haqqında" (16 dekabr 1999–cu il), "Dədə Qorqud heykəli" və "Dədə Qorqud dünyası tarixi–etnoqrafik kompleksinin yaradılması haqqında" (1 aprel 2000–ci il), "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" (13 iyun 2000–ci il), "R.Rzanın anadan olmasının 90 illiyi haqqında" (29 aprel 2000–ci il), "Dövlət dilinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001–ci il), "Azərbaycan Respublikası Dövlət dil komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" (4 iyul 2001–ci il), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" (9 avqust 2001–ci il), "Milli–mənəvi dəyərlərimiz haqqında" (13 avqust 2001–ci il), "Azərbaycan MEA–nın Naxçıvan bölməsinin təsis edilməsi haqqında" (8 avqust 2002–ci il), "Azərbaycanın mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar" (19 aprel 2002–ci il)", Bakı şəhərində İçərişəhər tarixi–memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" (18 fevral 2003–cü il) və s. (25)

"Heydər Əliyev.Azərbaycan elminin keşiyində" sənədlər və materiallar toplusunun ikinci cildində(4) Heydər Əliyevin müstəqillik dövründə hakimiyyəti zamanı gördüyü işlər öz əksini tapmışdır. Sözügedən topluda Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasında hakimiyyətə gəldiyi dövrdən sonra bir çox sahələr üzrə imzaladığı fərman və sərəncamlar, söylədiyi çıxışlar və nitqlər, müsahibələr əhatəli şəkildə şərh olunmuşdur. Həmin topludakı sənəd və materiallar 3 bölmə üzrə yerləşdirilib. Hansı ki, bu bölmələrin də hər biri ayrı-ayrılıqda geniş məzmunla oxuculara çatdırılması diqqətdən yayınmır. Heydər Əliyevin elm sahəsi ilə bağlı çıxış və nitqləri birinci bölmədə, Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi imzaladığı fərman, sərəncamlar ikinci, Azərbaycan Respublikasında keçirilən elmi konfrans və məclislərə yönələn təbrik məktubları, elm və mədəniyyət sahəsində xidmətlərinə görə seçilənlər üçün təbriklər isə üçüncü bölmədə qeyd olunub. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşri olan "Heydər Əliyev.Azərbaycan elminin keşiyində" sənədlər və materiallar toplu Heydər Əliyev irsinin öyrənilməsi sahəsində uğurlu bir addımdır.

İkicildlik "Heydər Əliyev" fundamental araşdırmanın ikinci cildində (5)Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti olduğu dövrdəki dövlətçilik fəaliyyətinə-hüquqi, demokratik və dünyəvi Azərbaycan dövləti qurmasına aid materiallar daxil edilib. İkicildlik "Heydər Əliyev" fundamental akademik araşdırmanın 1-ci cildində dahi xadimin vətən və xalq naminə mübarizə yolunun I-IV dövrləri, yəni 1990-cı ilə qədər olan tarixi dövrə aid, 2-ci cildində isə Heydər Əliyevin dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü, həmçinin müstəqil azərbaycan Respublikasinin prezidenti olaraq göstərdiyi dövlətçilik fəaliyyətinə aid materiallar daxil olunub.(5.s,609) Əsərin ikinci fəslində müstəqillik illərindəki daxili vəziyyət, dövlət müstəqilliyinin qorunub saxlanılması uörunda mülahizə kimi məsələlər işıq üzü gördü. Əsərin Heydər Əliyev və Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu(1996-2003) adlanan II bölməsində Heydər Əliyevin ölkəmizin demokratik dəyərlərə əsaslanan hüquqi sisteminin formalaşdırılması, milli dövlətçiliyin qorunması məsələlərinin şərh olunmasını qey etmək olar. Adıçəkilən əsərdə 1993-cü ildən başlayaraq bir çox sahələr üzrə Heydər Əliyevin quruculuq işlərinin geniş məzmunla əhatənməsi özünü göstərir ki, bu da hər fəsilə uyğun paraqraflarda göstərilir. Bu baxımdan Heydər Əliyev ikicildliyi Əliyevşünaslıq elmi üçün töhfə hesab oluna bilər. 2003-cü il oktyabrın 15-də keçirilən 17 resident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

"Azərbaycan Respublikasının tarixi" 2 cildlik monoqrafiyasının birinci cildi(1) Tarix İnstitutunun əməkdaşları və "Əliyevşünaslıq" şöbəsi tərəfindən Heydər Əliyevin hakimiyyətinin müstəqllik dövrünə aid sanballı əsərdir. Monoqrafiyada 1991-2003-cü illərdə Heydər Əliyevin dövlətçilik fəaliyyətinin hərtərəfli şəkildə araşdırılması, dahi xadimin gördüyü quruculuq işləri geniş məzmunla əhatə olunmuşdur.

NƏTİCƏ

Bütün yuxarıda qeyd olunanlardan göründüyü kimi, Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevə həm də ona görə minnətdar olmalıdır ki, o, özündən sonrakı Azərbaycanı təsadüflərin ixtiyarına buraxmadı, xalqı və dövləti güclü idarəetmə qabiliyyətinə malik gənc liderə – İlham Əliyevə etibar etdi. Məhz ulu öndərin böyük uzaqgörənliyi sayəsində bu gün ölkə Prezidenti İlham Əliyev öz komandası ilə Azərbaycan dövlətini inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmaq və bu inkişafı davamlı inkişafa çevirmək istiqamətində kompleks tədbirlər həyata keçirir. Bu bir həqiqətdir ki, aparılan islahatların, həyata keçirilən daxili və xarici siyasətin uğurlarında, ölkənin sosial-iqtisadi inkişafında dövlət idarəçiliyində çalışan kadrların hər birinin öz xidmətləri və məsuliyyəti vardır. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki,

belə idarəetməni və onu həyata keçirmək üçün komandanı, təbii ki, yalnız dahi Heydər Əliyev məktəbini keçmiş, ondan tərbiyə almış və zəngin idarəetmə qabiliyyətinə malik olan möhtərəm İlham Əliyev formalaşdıra bilərdi. Heydər Əliyev şəxsiyyəti bütün ömür yolunu usanmadan xalqına xidmətə sərf etmişdir. Yuxarıda qeyd edilənlərdən də göründüyü kimi bu nadir şəxsiyyət öz fitri istedadından bəhrələnərək Azərbaycanımız üçün böyük töhfələr vermişdir. Bu gün Azərbaycanın Cənubi Qafqazın lider dövləti olmasının təməlini qurmuşdur. Ümummilli lider Heydər Əliyev yalnız Azərbaycanın deyil, həm də dünyanın nadir tarixi və bənzərsiz şəxsiyyətlərindən biridir. Onun əziz xatirəsi hər bir azərbaycan vətəndaşının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır və yaşayacaq. Olduqca mürəkkəb və dəyişən dünyamızda Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev ölkəmizi siyasi arenada böyük müdrikliklə və qətiyyətlə idarə edir, qələbədən-qələbəyə qovuşdurur. Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatların üzvüdür. Azərbaycanın Avropa Şurasındakı uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğurur. Eyni zamanda tariximizin şanlı səhiflərinə canlı şahid olduğumuz Qarabağ probleminin həll edilməsi məhz Heydər Əliyevin yetirməsi olan cənab İlham Əliyev əzminin nəticəsidir. "Qarabağ Azərbaycandır"! şüarı altında tarixi torpaqlarımızın düşmənlərdən geri alınması, ermənilərin torpaqlarımızda tarixi abidələrimizə qarşı etdikləri vandalizmin dünya ictimaiyyətinə çatdırılması məhz İlham Əliyev siyasi zəkasının sayəsində mümkün oldu, 30 illik həsrətə son qoyuldu. Hazırda dövlətimizin sosial-iqtisadi və digər istiqamətlərdə əldə etdiyi uğurlar dünya siyasətçisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətdən idarəetmə sahəsində zəngin təcrübə toplamış cənab İlham Əliyevin yüksək idarəçilik keyfiyyətləri ilə bağlıdır. Bütün bunları 2003-2008-ci illərin statistik göstəriciləri də təsdiq edir. Belə ki, möhtərəm İlham Əliyevin ilk prezidentlik dövrünü əhatə edən 2003-2008-ci illərin yekununun statistik mənzərədən başqa simvolik mənası da vardır. Qarşıya qoyulan hər bir məqsəd, hər bir söz layihə və dövlət proqramları kimi praktik fəaliyyətdə həyata keçirilmiş, həm də son dərəcə qısa müddətdə gerçəkliyə çevrilmişdir. Ümumdünya tarixinin dahi şəxsiyyətlərindən biri olan Heydər Əliyevin layiqli varisi İlham Əliyevin rəhbərlik etdiyi müasir Azərbaycan, habelə bütün dünyanın 60 milyonluq azərbaycanlıları dirçəliş yolundadır. Azərbaycan xalqı yaxın gələcəkdə Böyük Azərbaycanın intibahını gözləyir.(22)

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikası tarixi" I cild Bakı, 2016, s. 702
2. Ə.Qasımov "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" Bakı, 2009, s.302
3. Ə.Qasımov " Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" Bakı, 2013, s.263.
4. "Heydər Əliyev.Azərbaycan elminin keşiyində" sənədlər və materiallar toplusunun ikinci cildi.Bakı 2013, s.336
5."Heydər Əliyev" monoqrafiyasının II cildi.AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, (Redaksiya heyəti).Bakı, 2013, s.700
6.Q.Bayramov. "Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı, Təhsil, 2004.-264 səh."
7. L.Hüseynova- "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) Bakı, 2011, s.213
8. R.Mehdiyev. "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr. Dünyanı heyran qoyan insan. Bakı Azərnəşr, 2004. -376 s."
9. R.Mehdiyev. "Heydər Əliyevin siyasi portretinin cizgiləri". Azərbaycan .-2007 - 10 may. - S.5,6.
10. R.Mehdiyev. "Heydər Əliyev : dəyişməyən lider idealımız". Xalq qəzeti.-2008.- 10 may.- S.2-3.
11. R.Mehdiyev. "Heydər Əliyev təlimi dövlətçilik və azərbaycanlılıq" .Bakı,2008 .-2.- S.11-29.
12. R.Mehdiyev."Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" Bakı, 2008, 215 s.
13. R.Mehdiyev."Yeni siyasət inkişafa doğru". 2 cilddə. Bakı,2008, 580 s.
14. R.Mehdiyev." Vətəndaş cəmiyyətinə yol açan ideyalar" Bakı, 2006, 583 s.
15. Y. Mahmudov "Azərbaycan dövlətçiliyinin xilaskarı". Bakı Altay, 1998, s.44
16. Y. Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, 2002, s.309.
17. Y. Mahmudov "Azərbaycan: qısa dövlətçilik tarixi" Bakı, 2005, 140 s.
18. Y. Mahmudov "Heydər Əliyev ideyalarının zəfər yürüşü" Bakı-2011, s.525
19. Y. Mahmudov "Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu". 2 cilddə. Bakı, 2013. Səhifə yaz
20. Y. Mahmudov "Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-biblioqrafik araşdırma". Bakı.2016, s.372.

21. (https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/2857-2/)
22. http://scfwca.gov.az/post/1546/heyder-eliyev-irsi-musteqil-dovletcilik-ve-muasirlik
23. https://azerbaijan.az/related-information/153
24. file:///C:/Users/HP/Downloads/internet%20meqaleler.pdfasagidakina
25. https://dq.mia.gov.az/upload/2.pdf

NAXÇIVAN MUXTAR RESPUBLİKA MUZEYLƏRİNİN GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

Nilufər Ağayeva
AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və
Arxeologiya İnstitutunun kiçik elmi işçisi
nuraagaoglu@gmail.com

Məqalədə Naxçıvan Muxtar Respublikasında olan muzeylərin gənclərin hərbi və vətənpərvər ruhda böyüməsindəki rolu diqqətə çatdırılır. Gənc nəslin muzeylərlə tanışlığı onların keçmişimiz və bu günümüz barədə dərin biliklərə, geniş dünyagörüşünə malik olması və milli dəyərlərimizə sədaqət ruhunda yetişməsindən söhbət açılır. Muxtar respublikada müxtəlif illərdə yaradılan Heydər Əliyev muzeyi, Cəmşid Naxçıvanski Muzeyi, Xatirə muzeyi və Döyüş Şöhrəti muzeyinin gənclərin milli ruhda yetişməsindəki rolu xüsusi olaraq qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikada məktəb-muzey şəbəkələrinin yaradılmasının əhəmiyyəti vurğulanır. Həmçinin muxtar respublikada hər ay sonunda müxtəlif orqanlar və təşkilatlar tərəfindən maddi-mənəvi sərvətlər xəzinəmiz olan muzeylərə edilən ziyarətlərin tariximizin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasındakı rolundan bəhs olunur.
Açar sözlər: Naxçıvan, muzey, gənc nəsil. vətənpərvər, milli ruh.

Giriş

Müasir cəmiyyətdə muzeylər təkcə elmi-marifləndirici müəssisə deyildir, həm də şəxsiyyətin inkişafı və təlim tərbiyyəsində böyük rol oynayan mədəniyyət ocağıdır. Muzeydəki eksponatlar gənc nəslin intellektual düşünmə qabiliyyətini artırır. Buradakı hər bir eksponat onlara bilik verir, onları düşündürür, vətənpərvərlik hissini alovlandırır. Müasir şəraitdə, müstəqilliyimizi yaşadığımız dövrdə muzeylər şəxsiyyətin, fərdin, bütövlükdə cəmiyyətin xalqın ümumi tərəqqisində, ümumi dünya görüşünün formalaşmasında maraq dairəsinin daha da yüksəldilməsində, elmi, mədəni, təhsil, mənəvi estetik tərbiyyəsinin yüksəldilməsində çoxsahəli və səmərəli fəaliyyət göstərir. Muzeylərə gənclərin ekskursiyasını təşkil etməklə gəncləri tərbiyə etmək, təhsilləndirmək, zənginləşdirmək, inkişaf etdirmək, yaradıcılığa meyil oyatmaq bizim ən əsas borcumuzdur.

Ümummilli lider Heydər Əliyev 1 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Gənclərinin 1-ci Forumunun birinci ildönümü münasibətilə forum nümayəndələrinin bir qrupu ilə görüşdə çıxış edərək demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi bilməyən gənc vətənpərvər ola bilməz" (3, s.394). Ümummilli liderin bu sözlərinin altına çox böyük məna yatır. Bizim üçün qiymətli olan bu sözlər hər birimizin həyat devizinə çevrilməlidir. Bu sözləri dərk edən bizlər bütün gəncliyimizin vətənpərvər böyüməsində yaxından iştirak etməliyik. Gənc nəslin muzeylərlə tanışlığı onların keçmişimiz və bu günümüz barədə dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına və milli dəyərlərimizə sədaqət ruhunda böyüməsinə xidmət edir. Çünki muzeylər keçmişimiz və bu günümüz arasında körpü rolunu oyanyır. Buna görə də muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqəli işinə xüsusi diqqət yetirilir.

Muzeylərin gənclərin vətənpərvərlik tərbiyəsindəki rolu

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli

Sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edir (7, s.22). Sərəncama əsasən, muxtar respublikada məktəb-muzey şəbəkələri yaradılmış, Azərbaycanın və onun ayrılmaz tərkib hisəssi olan Naxçıvanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimiz ilə bağlı distant dərslərin keçirilməsinə başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına (8, s.31) əsasən keçirilmiş açıq dərslərdə isə muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, tarix, turizm və otelçilik ixtisasları üzrə təhsil alan tələbələr iştirak etmişdir.

Günümüzdə gənclər arasında hərbi-vətənpərvərlik hisslərinin formalaşdırılması məsələsi də mühüm əhəmiyyət kəsb etməkdədir. Vətənə məhəbbət və sədaqət mənəviyyatımızın ayrılmaz tərkib hissəsidir. Bu sahədə hərb tariximizi və bu tarixi yaradan görkəmli sərkərdələrimizin, hərbi xadimlərimizin, milli qəhrəmanlarımızın keçdiyi döyüş yolunu təbliğ etməklə Cəmşid Naxçıvanski Muzeyi hərbi-vətənpərvərlik hisslərinin aşılanmasında təsiredici qüvvəyə malikdir. Cəmşid Naxçıvanskinin və sələflərinin keçdiyi şərəfli döyüş yolu və milli istiqlaliyyət tariximizdə xüsusi çəkisi olan Araz-Türk Respublikasının yaradılması və fəaliyyəti gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır (8). Eynilə Naxçıvan Xatirə muzeyinin ekspozisiyasında xronoloji ardıcıllıqla sərgilənən soyqırımı faktları, şəhidlərin fotoşəkilləri, ermənilərə qarşı döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Milli və Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri, şəxsi əşyaları (4) və onlara aid olan digər materiallar buranı ziyarət edən gənclərin hərbi-vətənpər şəkildə formalaşmasına yüksək təsir göstərir.

Döyüş Şöhrəti Muzeyi Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü ərəfəsində 23 iyun 2018-ci ildə istifadəyə verilib. Bu muzey Naxçıvan Muxtar Respublikasında mədəniyyət profilli olmayan ilk muzeydir (6). Naxçıvan hərbi şəhərciyində açıq səma altında yaradılan Döyüş Şöhrəti Muzeyi xalqımızın döyüş ruhunu, döyüş əzmini nümayiş etdirməklə yanaşı, həm də döyüş şöhrətini gənc nəslə aşılayır. Bu muzey hərb tariximizin şöhrəti ilə yanaşı gənclər arasında orduya inamı daha da artıraraq onların ordu sıralarında xidmət etmək, vətənin müdafiəsində dayanmaq istəyini alovlandırır. Bu muzey həmdə buradakı eksponatlara baxan uşaqlarda ilkin vətənpərvərlik hisslərinin formalaşmasına şərait yaradır.

Muxtar respublika gənclərin vətənpərvərliyinin formalaşmasında Heydər Əliyev Muzeyinin də böyük rolu vardır. Bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 18 fevral 1999-cu il sərəncamı əsasən Naxçıvan şəhərində yaradılmışdır (9, s. 66). Bu muzey Ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürərək, bu gün də həmin missiyanı uğurla həyata keçirir. Muzeyin zəngin ekspozisiyası onu seyr edən hər kəsin qəlbində dərin iz qoyaraq, yüksək təssürat yaradır. Muzey Ulu öndərimizin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ etməklə yanaşı, gəncləri ümummilli liderimiz Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır.

Dövlət atributlarımızın tarixinin öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması baxımından Dövlət Bayrağı Muzeyi müstəsna əhəmiyyətə malikdir. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerb və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libası, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında sərgilənir (2) və buranı ziyarət edən gənclərin qədim dövlətçilik tariximizi öyrənmələrinə yaxından kömək edir. Ümumiyyətlə bu gün muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan memarlıq məktəbinin qiymətli töfələri olan məqbərə, türbə və zaviyələr yüksək səviyyədə təmir olunmuşdur. Həmin memarlıq və mədəniyyət abidələri muxtar respublikada yaşayan, eləcədə buranı ziyarətə gələn gənc nəslin qədim tarixə malik Naxçıvanın keçmişinə qısa vizual ziyarət etmələrinə yaxından köməklik edir.

Muxtar respublikamızda yerləşən digər muzeylər də öz növbəsində gənclərin milli ruhda yetişməsində yaxından iştirak edir. Naxçıvanqala Muzey Kompleksində nümayiş olunan qədim tariximiz, "Xan Sarayı Dövlət Tarix-Memarlıq, Mömінə Xatın və Açıq Səma Altında Muzey Kompleksi"ndə nümayiş olunan Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi (11) kompleksin bir hissəsini təşkil edən Açıq Səma Altında Muzeyində muxtar respublikanın rayonlarından tapılaraq sərgilənən müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri -daş kitabələr, sütun altlıqları, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr (1, s.25),

mübariz xalqımızın daş yaddaşı olan Əlincə qalası və muzeyi gənc nəslin daimi ziyarət yerlərindən olub onların dünyagörüşünün formalaşmasında, vətənpərvər yetişməsində və milli dəyərlərimizin gələcək nəsillərə çatdırılmasında yaxından iştirak edirlər.

Bu gün muxtar respublikamızın muzeylərini digər muzeylərdən fərqləndirən ən başlıca cəhətlərdən biri də burada ziyarətçilərə pulsuz muzey xidmətinin göstərilməsidir. Bu xidmətin sayəsində gənc nəslin nümayəndələri olan tələbələr eləcə də məktəbli və şagirdlər milli saxlanc yerimiz olan muzeyləri daha sıxlıqla ziyarət edə və öz biliklərini daha asanlıqla yeniləyə bilərlər.

Qeyd etmək istərdik ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına (5) əsasən hər ay sonunda muxtar respublika mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivləri, həmçinin dövlət idarələrində çalışan işçilərin muzeylərə kollektiv gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərimizə marağın artmasına, tariximizin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına daha geniş imkanlar açmışdır.

Nəticə

Bu gün muxtar respublikada olan hər bir muzey gənc nəslin dünyagörüşün formalaşmasında yaxından iştirak edərək onların milli şüurunun inkişafına müsbət təsir göstərir və vətənpərvər böyüməsində yaxından iştirak edir. Gənclər bu muzeyləri ziyarət edərkən Naxçıvanın qədim və zəngin tarixini görür ulu babalarımızdan bizə miras qalan maddi-mədəniyyət nümunələri ilə yaxından tanış olur və belə qədim irsə malik bir xalqın nümayəndəsi olmaqdan qürur duyurlar.

Ədəbiyyat:

1. Ağayeva N. Açıq səma altında muzeydə qorunan maddi- mədəniyyət nümunələri / Gənc tədqiqatçıların IV respublika elmi konfransının materialları (9 aprel 2021) / Azərbaycan Universiteti. Bakı, 2021, s.25-26.
2. Dövlət Bayrağı muzeyinin bələdçi mətni.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Noyabr, 1996 - mart, 1997. Bakı: Azərnəşr, 1998, 488 s.
4. Xatirə muzeyinin bələdçi mətni.
5. Məktəblərlə muzeylər arasında virtual dərslər davam etdirilir. "Şərq qapısı" qəz., 2014, 20 dekabr, S.1.
6. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti. Naxçıvan hərbi şəhərciyində Döyüş Şöhrəti Muzeyi və istirahət parkı istifadəyə verilmişdir. "Şərq qapısı" qəz., 2018, 26 iyun, S.4.
7. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. 2014. Naxçıvan: "Əcəmi" NPB, 2015, s.160.
8. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. 2015. Naxçıvan: "Əcəmi" NPB, 2016, s.120.
9. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: "Əcəmi" NPB, 2012, s.536
10. Rəsulova R. Qələbə ruhlu ömür yolunun ünvanı - Cəmşid Naxçıvanski muzeyi. "Hərbi and" qəz., 2020, 2 oktyabr, S.8.
11.Tahirova G. Naxçıvan xanlarının iqamətgahı - Xan sarayı. "Şərq qapısı" qəz., 2018, 8 iyun, S.3.

GƏNCLƏRİN MİLLİ GENERALLARIMIZIN KEÇDİYİ DÖYÜŞ ƏNƏNƏLƏRİ RUHUNDA TƏRBİYƏSİ

"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağını, millətə sədaqət,Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Heydər Əliyev
(Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı).

Rafiq Verdiyev Yalçın Zeynalov
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti
"Humanitar fənlər" kafedrasının müəllimi. "Ümumi fənlər"kafedrasının baş müəllimi
rafiq.verdiyev1958@mail.ru yzeynalov@beu.edu.az
Bakı şəhəri, Azərbaycan Bakı şəhəri, Azərbaycan

XÜLASƏ

Məqalədə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində Azərbaycanın milli generallarının nümunəsi təsirli vasitə kimi, milli generallarımızın keçdiyi döyüş ənənələri ruhunda tərbiyəsi, hərbi işə hörmət və orduda xidmət etməyə hazır olmaq ruhunda tərbiyəsi, müasir dövrdə tələbə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin hərbi biliklərlə əlaqələndirilməsi yolları, gənclərdə qəhrəmanlıq və Vətənə sevgi hissinin aşılanması istiqamətləri, fiziki və psixoloji gərginlik şəraitində dəqiq və zirək hərəkət etmək bacarığının tərbiyə olunması, hərbi-vətənpərvərlik və milli iftixar hissinin tərbiyəsi metodları şərh olunur.

Açar sözlər: Heydər Əliyev, İlham Əliyev, milli generallarımız, hərbi vətənpərvərlik, milli ruh, gənc nəsil.

GİRİŞ

Müasir dövrdə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin təkmilləşdirilməsində ehtiyac hiss edilir. Bu gün ali və orta ixtisas məktəblərinin çoxunda tələbələrin bu yöndə hazırlığı xüsusi əhəmiyyət kəsb edir. Xüsusən, gənclərin hərbi xidmətə hazırlanması, qızların ilk tibbi yardımın göstərmək və təbii fəlakətlər zamanı, eləcə də xəstələrə qulluq etmək işini öyrənmələrinin vəziyyəti təhsil islahatının tələblərindən biri olmalıdır.

Bu cür həyati vərdişlərə yiyələnən gənclər bilavasitə Vətəni qorumağa, işğal edilmiş torpaqları tam azad etməyə, daha yaxşı hazırlanmış olarlar. Onlar Azərbaycan sərhədlərini vicdanla qoruyar, Vətənin çağrışına (hansı zəmində olursa-olsun) ləyaqətlə cavab verə bilərlər. Türk dünyasının böyük öndəri olan Heydər Əliyev demişdir: " Hərbi xidmət isə insanları daha da mətinləşdirir, daha cəsarətli, dözümlü edir, çətinlikləri aradan qaldırmaq keyfiyyəti aşılayır".

Hərbi-vətənpərvərlik tərbiyəsinin intensivləşdirilməsinə dair söylənən fikir və mülahizələri, xalqımızın Ümummili lideri, Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı, general-mayor Heydər Əliyevin tövsiyələri ali məktəblərdə tədrisin, tərbiyə işinin effektivliyinin yüksəldilməsi kimi ümumi pedaqoji problemlərin daha səmərəli həllini, yeni üsul və vasitələri tətbiq etməyi, müvafiq təhsilləndirici sistemlərin işlənməsini tələb edir.

Xalqın mənəvi tərəqqisində şəxsiyyətlər, xüsusilə görkəmli rəhbərlər çox böyük rol oynayırlar. Atatürk deyirdi ki, "Böyük şəxsiyyətləri olmayan millət iqtisadi cəhətdən nə qədər güclü olsa da, müəyyən fəlakət, sarsıntı qarşısında məhv olub gedir. O şəxsiyyətlər böyük və görkəmlidirlər ki, onlar tarixi zərurəti, cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqlarını düzgün dərk edir və kütlələrin əməli fəaliyyətini həmin istiqamətə yönəldirlər, kütlənin mənəvi, siyasi birliyinə nail ola bilirlər, xalqı öz ardınca apara bilirlər".

Mənəvi tərbiyənin məzmun mənbəyi kimi görkəmli hərb adamlarının nümunəsindən bəhrələnmək yolu ilə gənclərdə hərbi-vətənpərvərlik hissini formalaşdırmaq müasir həyatımızın ən önəmli məsələlərindəndir.

Bu gün "suverenliyimiz yolunda, ərazi bütövlüyümüz uğrunda mübarizədə erməni təcavüzünə qarşı ədalətli müharibədə qalib gəlmək üçün mənəvi katarsis keçirməli, əxlaqi kamilliyə nail olmalı, "işimiz haqdır, biz qalib gələcəyik" kimi mənəvi əqidə prinsipinə əsaslanmalıyıq. Bu ədalətli mübarizədə hər bir şagirdin, tələbənin milli mənliyi, milli iftixarı özünü göstərməlidir".

Azərbaycan Respublikasında gənclərin vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasının prioritet istiqamətləri

Son illər Respublikamızda baş verən ictimai- siyasi hadisələr, həyata keçirilən demokratik tədbirlər, Qanlı Yanvar hadisələri, Ermənistanın Azərbaycanın rayonlarında törətdiyi qanlı cinayətlər, Respublika Təhsil Qanununun, Azərbaycan Respublikasının yeni Konstitusiyasının, yeni Təhsil İslahatı Proqramının qəbul edilməsi, İslam dininə münasibətin dəyişməsi, totalitar dövlət sisteminin dağılması, iqtisadi, siyasi suverenliyin əldə edilməsi, Azərbaycanın müstəqil bir dövlət kimi BMT- nin, Avropa Şurasının tərkibinə daxil olması, milli ləyaqətin, milli mənliyin təşəkkül tapmasına təsir göstərmişdir. Hazırki şərait ali məktəblərimizdə aparılan bütün təlim-tərbiyə işlərinə, xüsusilə tərbiyə məsələlərinə yenidən baxmağı, gənc nəsildə milli ləyaqət, milli mənlik şüuru, milli iftixar hissi, vətəndaşlıq ləyaqəti və dəyanəti, mənəvi əqidə formalaşdırmağı, görkəmli milli şəxsiyyətlərin nümunəsində tərbiyə işini ön plana çəkməyi tələb edir.

Gəncliyin milli zəmində dünya standartları səviyyəsində bilik və bacarıqla, bədii, tarixi, siyasi mədəniyyətə yiyələnməsi bu gün həyati bir zərurətə çevrilir. Müstəqil ölkənin sabahının sahibləri olacaq gənclərin xalqımızın tarixini, onun görkəmli şəxsiyyətlərinin, o cümlədən, milli generallarının həyat və fəaliyyəti ilə bağlı çoxəsrlik salnaməsini öyrənmələri böyük əhəmiyyət kəsb edir.

Bu hal ali məktəblərdə ictimai-humanitar silsilə fənlərinin tədrisi prosesində tələbələrin maariflənməsini hərbi-vətənpərvərlik hissinin başlıca qayğısına çevirməyi zəruri edir. Tədrisin səmərəsini yüksəltmək vacib şərtdir. Nəticədə:

a) tələbələri milli, xəlqi və bəşəri dəyərə malik çağdaş generallarımızın həyat və yaradıcılıq yolunu daha dərindən, əyani və sistemli şəkildə tanış etməyin əsası qoyulur, onların ideya- məfkurəvi inkişafı təmin edilir;

b) gəncliyin hərb tariximizin müəyyən inkişaf mərhələsini və dünya hərb tarixini daha dərindən, əsaslı şəkildə əlavə mənbə, sənədlər, əyani-didaktik vasitələr əsasında mənimsənilməsi təmin olunur.

Bu gün ali tədris müəssisələrində gəncliyin milli generallarımızın keçdiyi şərəfli döyüş ənənələri ruhunda tərbiyəsi ideal bir məqsəd zəminində başa düşülməlidir. Yəni "gənclərimizin mənsub olduqları xalqın ədəbi- mədəni irsini mənimsəməsi, başa düşüb qiymətləndirməsi, milli psixologiya zəmnində tərbiyə olunması, əxlaq işinə, vətənə sədaqət ruhunda formalaşması həyata keçirilməlidir".

Müstəqil respublikamızın sahibi olacaq gəncliyin tarixi, milli, maddi və mənəvi dəyərlərimizi, ədəbiyyatımızı dərindən bilməsi, milli generallarımızın şanlı döyüş yolu haqqında bilgiləri əldə etməsi onların hərbi-vətənpərvərlik tərbiyəsi sisteminin formalaşması vətənpərvər vətəndaş hazırlığının, milli əqidəyə bağlı insan kimi püxtələşməsinin başlıca pedaqoji-psixoloji zəminidir. Bu məqsədlə ali məktəblərdə problemlə bağlı ictimai-humanitar və psixoloji-pedaqoji yönümlü materiallar tədrisin daha səmərəli təşkili vəzifəsinin reallaşması cəmiyyətin humanitarlaşması tələbi ilə əlaqədardır. Həmin sosial-pedaqoji vəzifənin yerinə yetirilməsində milli generallarımızın (hərbi- vətənpərvərlik tərbiyəsi kimi mənəvi- psixoloji tərəflərin formalaşması zəmnində) şəxsi nümunəsindən, cəmiyyətdə layiqli vətəndaş kimi yer tutmaq mövqelərindən istifadə bu mənbələrin daha dərindən, möhkəm mənimsənilməsi ilə nəticələnir. Həm də tələbələrin hərbi sənət, vətənpərvərlik mənəviyyatı haqqında müvafiq sahələri üzrə müəyyən bilik və bacarıqlara yiyələnmələrinə imkan verir.

Tələbələrin asudə vaxtını təlim-tərbiyə baxımından səmərəli təşkil etmək üçün ali tədris müəssisələrində "Milli generallarımız" adlı dərnək təşkil etmək məqsədəuyğundur. Buraya hərbi peşəyə, əsgəri xidmətə, tədqiqatçılığa meylli gənclər cəlb edilməlidir. Bu yolla onlara ilkin tədqiqatçılıq bacarığı aşılamaq, tələbələrin elmi-nəzəri biliklərini dərinləşdirmək, müstəqil iş vərdişlərini formalaşdırmaq mümkündür.

Ali tədris müəssisələrində bu işi daha da canlandırmaq və ümumi işə daha çox fayda vermək, müstəqil respublikamızın mənəvi sərvətləri sayılan generallarımızın həyati nümunəsində gənclərin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsi məqsədilə, habelə, ölkəmizə gələn digər millətlərin nümayəndələrində generallarımız barədə təsəvvür oyatmaq məqsədilə "Azərbaycanın milli generalları" adlı xüsusi almanaxın nəşrinə ehtiyac var.

Bu almanaxda dövlət, ictimai fəaliyyət sferasında çalışan, döyüş yolu keçmiş, hərb və ordu müsəlləhi olmuş milli generallarımızın şücaətini ideya-nəzəri irsini əks etdirən fotolar, illustrativ materiallar, şöhrət muzeyi materiallarını əks etdirən şəkillər, onların həyatı və fəaliyyətini dolğun işıqlandırmağa imkan verir. Bu işi respublika miqyasında genişləndirmək ümumi işə fayda verərdi.

- Azərbaycanın milli generalları, onların həyat və fəaliyyət tarixi, döyüş və xidmət şöhrəti muzeyləri, ev muzeylər, yaradıcılıq yollarını əks etdirən fotosərgi məkanları, soraq kitabçaları və xatirə memuarlarının, sistemli kataloqların, zəngin həyat fraqmentlərini əks etdirən biblioqrafik göstəricilərin, bukletlərin nəşri bu gün ideya-siyasi və pedaqoji baxımından çox əhəmiyyətlidir.

- Azərbaycan ictimai-kütləvi, habelə, dövri pedaqoji mətbuatda və digər kütləvi informasiya vasitələrində milli generallarımızın dolğun həyat yolu barədə daimi rubrikaların, məsələn, "İgid ölər adı qalar", "Azərbaycanın igid oğulları", "Tarixdə izi olanlar", "Heç kəs unudulmur, heç kəs yaddan çıxmır", "Şərəfli həyat yolu", "Daxili işlər orqanları generalları", "Fövqəladə hallar orqanlarının generalları", "Ədliyyə generallarımız", "Gömrük xidməti generalları", "Xüsusi xidmət generalları", "Cəsur çekistlər", "Sərhəd qoşunları generalları", "Kosmonavtika generalı" və s. bu kimi hərbi-vətənpərvərlik məzmunlu rubrikaların açılması həm sosial-mədəni, həm də tarixi, bədii, pedaqoji, humanist və ümumbəşəri tələblər baxımından əhəmiyyətli olar.

Xüsusən hərbi-vətənpərvərlik tərbiyəsi üzrə məqsədyönlü fəaliyyət milli generallarımızın həyati nümunəsində, təcrübədə özünü doğrultmuş səmərəli istiqamətlərdəndir. Bu məqsədlə ali təhsil müəssisələrində döyüş şöhrəti muzeylərinin və guşələrinin yaradılması, Çar Rusiyası dövrü generallarının (general-mayor Ehsan xanın, Kəlbalı xan Naxçıvanskinin, general İsmayıl xanın, general Hüseyn xanın, general Cəmşid xan Naxçıvanskinin, general-mayor Cəfərqulu ağa Bakıxanovun, general-mayor Həsən ağa Bakıxanovun, Abdulla ağa Bakıxanovun, general-leytenant Əliağa Şıxlinskinin və b.); "Cümhuriyyət dövrü" generallarının (general Daniyel bəyin, vitse-general Aslanbəyovun, vitse-admiral Aslanbəyov İbrahim bəy Allahverdibəy oğlunun, ilk milli ordu generalımız olan general-mayor Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyevin, general Cavad bəy Şıxlinskinin, general İbrahim ağa Vəkilovun, Səməd bəy Mehmanarovun və milli ordu quruculuğuna xidmət edən general Firudin bəy Vəzirovun, general-mayor İbrahim ağa Usubovun, general-mayor Xəlil bəy Mirəlixan oğlu Talışxanovun, general-qubernator Əmir xan Cahangir xan oğlu Xoyskinin və b.); İkinci Dünya müharibəsi dövrü generallarının (general-mayor Mustafa Nuruyevin, General-mayor Teymur Nağdəli oğlu Bünyadovun, milis general-mayoru Xəlil Məmməd oğlu Məmmədovun, Sovet İttifaqı Qəhrəmanı, general-mayor Səlahəddin Kazımovun, Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhməd oğlu Aslanovun və b.), ərazi bütövlüyümüz uğrunda Vətən müharibəsi dövrü generallarının (Milli qəhrəman şəhid general-mayor Polad Həşimovun, general-leytenant Hikmət Mirzəyevin və b,) həyat və fəaliyyəti bu yönümdən müasir gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi üçün nümunə məktəbidir.

Müstəqil Azərbaycan Dövlətinin möhkəmləndirilməsi üçün Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan Ordusunun yaradılması məsələsini birinci sıraya çəkdi. Ordu dövlətçiliyin və müstəqilliyin əsas sütunlarından biridir. Ermənistan ilə müharibə şəraitində olan respublikamızın Silahlı Qüvvələrində əsaslı keyfiyyət dəyişikliyi edilməsi, müasir tələblərə cavab verən ordu yaradılması sahəsində Ali Baş Komandan müntəzəm və məqsədyönlü iş aparmışdır. Dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə ardıcıl və intensiv danışıqlar aparmış, bunların nəticəsində "Atəşkəs" haqqında sazişin imzalanmasına nail olmuşdur.

Nəticə

Ulu Öndər Heydər Əliyevin qayğısı sayəsində Azərbaycan ordusu formalaşmış, mətinləşmiş və bu günün tələblərinə cavab verə bilən, hər hansı döyüş tapşırığını yerinə yetirməyə qadir olan bir orduya çevrilmişdir, hansı ki, Vətən müharibəsində Qarabağımızın azad olunmasında və ərazi bütövlüyümüzün təmin olunmasında özünü bir daha sübut etdi.

Bu, yalnız Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Heydər Əliyevin səyi, tükənməz və öz xalqına ölçüyəgəlməz məhəbbəti sayəsində mümkün olmuşdur. Bu, artıq tarixi faktdır. Bu, tarixi həqiqətdir.

Bu ordu quruculuğunu Ulu Öndərin davamçısı Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Heydər oğlu Əliyev davam etdirir və məlum nəticələrinin də şahidiyik.

Vətənpərvərlik ana südü, ana laylası ilə, ata vüqarı, ata dəyanəti ilə yoğrulan mənəvi bir keyfiyyətdir. Lazım gələndə vətəni qorumaq isə vətən övladlarının müqəddəs borcu olmuşdur. Ulu Dədə Qorqudun dediyi kimi "Torpağı qorumursansa becərməyə dəyməz, becərmirsənsə qorumağa dəyməz."

Məhz, bu fikirlərə istinadən tələbə gənclərin milli ruhda, milli generallarımızın tarixin şanlı səhifəsində qoyduqları nəcib izləri öyrənib-tətbiq etmək ümumxalq və ümumdövlət səviyyəli bir iş olmalıdır.

Ədəbiyyat siyahısı:

1. Abbasov Ə. Azərbaycanın Diviziya komandiri. "Elm və həyat", 1982, № 4
2. Balayev M. Vətəni qorumaq şərəfi. "Azərbaycan müəllimi", 1981, 11 sentyabr.
3. Əliyev H.Ə.Müstəqil dövlətimizin gələcəyini bu günün gəncləri qorumalıdırlar. "Azərbaycan" qəzeti, 1993, 25 sentyabr

4. Qəhrəmanov S. Tələbə gənclərdə milli iftixar hissinin tərbiyəsi. “Azərbaycan məktəbi” jurnalı, Bakı-1997,№ 2.
5. Muxtarova Nübar. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi. “Gənclik”, Bakı, 1993.
6. “Hərbi bilik” jurnalı, № 1, yanvar-fevral 2001.
7. Azərbaycan Sovet Enkslopediyası. II cild, Bakı “ASEBR”, 1997.
8. Süleymanov M. Azərbaycan ordusu(1918- 1920). Bakı, “Hərbi nəşriyyat”1998.
9. Süleymanov Ə. Burada vətənpərvərlər yetişir. “ Azərbaycan müəllimi”, 1981, 11 sentyabr.

2016-CI İL APREL DÖYÜŞLƏRİ İŞTİRAKÇILARININ MATERİALLARI (MATM-NİN VƏTƏN MÜHARİBƏSİ FONDUNA ƏSASƏN)

ŞƏFA MÖVSÜMOV
AMEA Milli Azərbaycan Tarixi Muzeyi
Vətən Müharibəsi Fondunun müdiri
shamovsumov@beu.edu.az
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Məqalənin yazılmasında məqsəd muzeyin adıçəkilən fondundakı şəhid qəhrəmanlarımıza aid eksponatların təkcə sərgilər üçün deyil, həm də elmi-tədqiqat baxımından vacib olduğunu göstərmək, şəhidlərimizin döyüş yolunu araşdırmaq, gələcək nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsi üçün təbliğat prosesində istifadə etməkdir. Həmçinin bu cür məqalələrin yazılması müasir tarixşünaslığımız üçün mənbə rolunu oynaya bilər.

Açar sözlər: 2016-cı il aprel döyüşləri, şəhidlər, müharibə, vətən müharibəsi fondu

GİRİŞ

Milli Azərbaycan Tarixi Muzeyinin yeni yaradılmış Vətən Müharibəsi Fondunun materialları əsasında tədqiqatların aparılması təkcə qəhrəmanlıq tariximizin deyil, həmçinin muzey materiallarının elmi dövriyyəyə daxil edilməsi baxımdan aktual əhəmiyyət kəsb edir (1). 2016-cı il aprel döyüşlərinin mühüm siyasi və hərbi əhəmiyyətini nəzərə alaraq bu cür mövzunun araşdırılması əsas məqsədlərdən biridir. Qarşıya qoyulan mühüm vəzifələrdən biri də həmin fond materiallarının öyrənilməsi və tarixi mənbə kimi istifadə edilməsidir. Məqalədə adıçəkilən materialların təkcə tarix elmi baxımdan deyil, həm də hərbi və muzeyşünaslıq baxımdan praktiki əhəmiyyət daşıyır (2).Tədqiqatın aparılması zamanı əyani vəsaitlərdən istifadə üsulları ilə yanaşılmış, elmi ədəbiyyatların olmaması səbəbindən daha çox eksponatların təsvirlərindən və inventar siyahısından istifadə edilmişdir. Təsvirlərin verilməsi zamanı fonddakı sənədlərdən və aktlardan istifadə edilmişdir.

Şəkil 1.şəhid Samir Kaçayevin portreti.MATM VMF.

Şəhid Samir Ziyəddin oğlu Kaçayev 5 mart 1994-cü ildə Şamaxı şəhərində anadan olmuşdur. O,ixtisasca memar olub. 2015-ci ilin noyabr ayında "Tolerant Azərbaycan Gənci" fondunun layihəsində heykəltəraşlıq üzrə ikinci yerin qalibi olmuşdur. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistri Əzizova Jalə tərəfindən hazırlanan şəhidimizin rəsmi olan portret qobelin material üzərindədir(şəkil 1).MATM-ə 24 iyun 2021-ci ildə hədiyyə edilib və VMF-də mühafizə edilir.

Şəkil 2.Şəhid Şahin Cavadzadəyə məxsus fotoşəkil, medal surəti və sənədlər. MATM VMF

Şahin Yaşar oğlu Cavadzadə 15 may 1995-ci ildə Beyləqan rayonunun Bolsulu kəndində anadan olub.Onun xatirə əşyaları Cavadov Niyazi tərəfindən muzeyə hədiyyə edilmişdir.

Hərbi səhra geyimi-şalvar və köynək,hərbi çanta, bir ədəd iri şəkil və digər sənədlər verilmişdir (Şəkil 2). 2016-cı ilin aprel döyüşlərində Talış kəndi istiqamətində gedən döyüşlərdə igidlik göstərmiş və şəhid olmuşdur. Aprelin 10-u isə Şahin Cavadzadə doğulduğu Beyləqan rayonunun Bolsulu kəndində son mənzilə yola salınmışdır. Şahin Cavadzadə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

Şəkil 3. Şəhid Mühüd Orucova məxsus hərba səhra yay geyim dəsti:kitel və şalvar.MATM VMF.

Kapitan Orucov Mühüd Qurban oğlu 1984-cü il iyul ayının 13-də Qazax rayonunun Fərəhli kəndində anadan olub. 1991-ci ildə K. Kərimov adına orta məktəbin 1-ci sinfinə getmiş 1999-cu ildə C. Naxçıvanski adına hərbi liseyə daxil olub və 2002-ci ilədək təhsilini həmin liseydə davam etdirib. 2002-ci ildə H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və 2006-cı ildə həmin məktəbi qoşun kəşfiyyatı ixtisası üzrə bitirib.Onun haqqında yazılmış kitabda döyüş yolu,almış olduğu orden-medallar barədə məlumatlarla yanaşı şeirlərə də rast gəlinir(3).

M. Orucov 2006–2007-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisası kursunu bitirib. 2007-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qərarı ilə "N" saylı hərbi hissədə kəşfiyyat bölüyünün kəşfiyyat taqım komandiri vəzifəsinə təyin edilib.. 2014-cü ilin avqust ayında uğurlu əməliyyatdan sonra Prezident İ.Əliyev M.Orucovla görüş zamanı ona xatirə olaraq saat bağışlamışdır. VMF-də ona aid fotoşəkillər, hərbi səhra geyim dəsti (Şəkil 3) hərbi əlcək, XTQ

nişanı,silah qabı və döyüş yolundan bəhs edən kitab mühafizə olunur (4). 2021-ci ilin iyulunda MATM-də onun ailəsi ilə görüş keçirilmiş və materiallar ictimaiyyətə nümayiş etdirilmişdir (5).

Nəticə

Məqalədə VMF-də qorunan materiallar arasında 2016-cı ilin aprel döyüşçülərindən bir neçəsi – Samir Kaçayev, Şahin Cavadzadə və kapitan Mühüd Oruczadəyə məxsus geyimlər,sənədlər və xatirə əşyaları təqdim edilmiş və onların xüsusiyyətləri verilmişdir. Həmçinin bu şəhidlərimizin döyüş yoluna qısa nəzər salınmışdır

Ədəbiyyat Siyahısı:

1.Şəfa Mövsümov, Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunun yaranması və fəaliyyəti (Konfrans məqaləsi) /Gənc Tədqiqatçıların IV Beynəlxalq elmi konfransı,Bakı şəhəri, Bakı Mühəndislik Universiteti //I kitab.29-30 aprel 2021-ci il,səh.404-407.

2. Şəfa Mövsümov, Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunun materialları mənbəşünaslıq kimi (Konfrans məqaləsi)//AMEA Elm Tarixi İnstitutu. "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda beynəlxalq elmi konfrans//I kitab.15 oktyabr 2021. səh.324-331.

3 .Fəridə Ləman. Mühüdüm- Şəhidim.”Ekoprint” nəşriyyatı (Kitab). Bakı/Azərbaycan. 2019:1-76

4. AMEA Milli Azərbaycan Tarixi Muzeyi VMF inv. 606-620

5. Xüsusi Təyinatlı Qüvvələrin tabor komandiri, şəhid kapitan (2016-cı il Aprel döyüşləri) Mühüd Orucova həsr olunmuş tədbirdə geyimin nümayişi və çıxış. 25 iyun 2021 http://azhistorymuseum.gov.az/az/news/3502?fbclid=IwAR1ZGbXHNzsyktaX0VkRhznS4TfeO1hZw5P7zfdnWCAGXJacmXiF2_44DuQ (online məqalə)

ŞİMALİ QAFQAZDA AZADLIQ HƏRƏKATI. (XIX ƏSRİN 50-Cİ İLLƏRİ)

VÜSAL İSGƏNDƏROV
Gəncə Dövlət Universiteti
Ümumi Tarix
isgandarovusal@gmail.com
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Təqdim edilmiş məqalədə XIX əsrin 50-ci illərində Şimali Qafqazda Rusiyanın müstəmləkəçilik siyasəti və Qafqaz xalqlarının azadlıq mübarizəsinin xarakteri, gedişi və nəticələrindən bəhs edilmişdir. Müstəmləkə və azadlıq mübarizəsi tarixən aktual olmuşdur. O cümlədən Şimali Qafqaz xalqlarının XIX əsrin 50-ci illərində apardığı mübarizə hələ də həllini tapmamışdır. Ona görə də problemin tarixi baxımdan araşdırılması aktualdır. Problemin araşdırılmasında Qafqaz xalqlarının apardığı azadlıq mübarizənin mahiyyətini tədqiqata cəlb etməkdir. Tədqiqat zamnı bir sıra arxiv materialları ilk dəfə olaraq elm dövrüyəyə daxil edilmişdir. Problemin nəticələrindən Qafqaz xalqalarının tarixinə dair tədqiqat əsərlərinin yazılmasında, ali məktəblərdə mühazirə dərslərində istifadə edilə bilər.

SUMMARY

Freedom movement in the North Caucasus. (50s of the XIX century)

The article discusses the nature, course and consequences of Russia's colonial policy in the North Caucasus in the 1950s and the liberation struggle of the peoples of the Caucasus. The struggle for colonialism and freedom has historically been relevant. In particular, the struggle of the peoples of the North Caucasus in the 1950s has not yet been resolved. Therefore, it is important to study the problem from a historical point of view. The freedom of the Caucasian peoples in the study of the problem is to study the essence of the struggle. During the research, a number of archival materials were included in the scientific cycle for the first time. The results of the problem can be used in the writing of research papers on the history of the peoples of the Caucasus, in lectures at universities.

РЕЗЮМЕ

Освободительное движение на Северном Кавказе. (50-е годы XIX века)

В статье рассматриваются характер, ход и последствия колониальной политики России на Северном Кавказе в 1950-е годы и освободительная борьба народов Кавказа. Борьба за колониализм и свободу исторически была актуальной. В частности, до сих пор не разрешена борьба народов Северного Кавказа в 1950-е гг. Поэтому важно изучить проблему с исторической точки зрения. Свобода кавказских народов в изучении проблемы заключается в изучении сущности борьбы. В ходе исследования ряд архивных материалов был впервые включен в научный цикл. Результаты задачи могут быть использованы при написании научных работ по истории народов Кавказа, при чтении лекций в вузах.

Açar Sözlər: Şimali Qafqaz, azadlıq hərəkatı, işğallar, Rusiya, müstəmləkəçilik siyasəti, Çeçenistan, Dağıstan

Keywords: North Caucasus, liberation movement, occupations, Russia, colonial policy, Chechnya, Dagestan

Ключевые Слова: Северный Кавказ, освободительное движение, оккупации, Россия, колониальная политика, Чечня, Дагестан.

GİRİŞ

XIX əsrdə Rusiyanın müstəmləkəçilik siyasətinin əsas istiqamətlərindən biri də geniş əraziyə, strateji mövqeyə və münbit torpağa malik olan Şimali Qafqazın ələ keçirilməsi idi. Rusiyanın Qafqaz siyasəti hələ XVIII əsin əvvəllərindən fəallaşmağa başlamışdı. Rusiya Şimali Qafqazda möhkəmlənmək üçün yeni qalaların tikilməsinə qərarar verdi. Rus müstəmləkəçiliyi ilə barışmaq istəməyən Qafqaz xalqları rus ordusuna ciddi şəkldə dirəniş göstərdilər. Lakin qüvvələr nisbətində olan fərqlər, yeni silahlarla təminat, eləcə də Rusiyanın nizami ordusuna qarşı yüksək vətənpərvərlik hissinin olmasına baxmayaraq hərbi təlim görməyən Qafqaz xalqlarının qeyri-nizami qüvvələrlə mübarizəsinin davam etdirilməsində ciddi çətinliklər var idi. Digər tərəfdən Qafqaz xalqları müstəmləkəyə qarşı mübarizədə vahid dövlət halında deyil, ayrı-ayrı xalqların könüllük prinsipləri əsasında azadlıq hərəkatında iştirak edirdi. Silah-sursat baxımından təminatında problemlər mövcud idi. Rusiyanın yeritdiyi məkrli siyasət nəticəsində bəzən Qafqaz xalqlarının liderləri arasında arasında fikir ayrılığı yaranır və ya yaradılırdı.

TƏDQİQAT METODU

Qarşıya Tədqiqatın aparılması zamanı tarixi müqayisə və sistemlilik metodlarından istifadə edilmişdir.

XIX əsrin 40-cı illərinin ortalarında Şamil üsyanın bazasını Mərkəzi Qafqaza yaymaqla genişləndirməyə çalışır. Artıq həmin vaxtı keçmiş Avar xanlığının və qonşu kənd icmalarının (Koysubu, Salatav, Hümbet və s.) torpaqları, eləcə də Dağlıq Çeçenistanı əhatə edən İmamət özünün qüdrətinin zirvəsinə çatmışdı. Şamilin iqamətgahı ardıcıl olaraq Axulqo (1835-1839), Darqo (1840-1845), Vedeno (1845-1859) olmuşdur. Məsləhətçi orqan - divanxana (ən nüfuzlu ilahiyyatçılar və hərbi rəhbərlərdən ibarət 30-a yaxın üzvü olan orqan) ilə yanaşı, naiblər və üləma şuraları da cari siyasət məsələlərini müzakirə etmək üçün vaxtaşırı toplaşırdılar. Divanxana həm də Dövlət Şurası da adlanırdı. Tədqiqatçı Y.U.Dadayev qeyd edir ki, Dövlət Şurasının özü tərkibinə görə beynəlmiləl idi. Dövlət Şurasının üzvləri arasında müxtəlif dövrlərdə avarlar, çeçenlər, laklardan başqa kumıklar, darginlər, inquşlar, kabardinlər, noqaylar, azərbaycanlılar, rutullar və başqa millətlərin nümayəndələr də var idi.[3s. 385]

Nəzarət funksiyalarını möhtəsiblər (şəriət qanunlarına əməl olunmasına nəzarət edənlər), daxili təhlükəsizliyi murtazagetlər (imamın şəxsi mühafizəsi) həyata keçirirdilər. İmamətin ərazisi naibliklərə bölünürdü, onların başçıları (naibləri) mürid hissələrinə və bəzi hallarda yerli əhalidən toplanan muzdlulara (ümumi sayı 300-dən 1000 nəfərə qədər olan) komandanlıq edirdilər. Naibliklərin sayı müxtəlif vaxtlarda 20-dən 50-yə qədər olmuşdur. Bir-neçə naibliyin birləşməsi nəticəsində yaranan daha böyük inzibati vahidlər də var idi.[5s. 21] Bəzi məlumatlara görə isə müxtəlif vaxtlarda naibliklərin sayı 152-ə yaxın olub. İmamət öz çiçəklənmə dövründə təxminən 900 verstlik ərazini əhatə edirdi. [4s. 100-101]

Ədaləti həyata keçirmək üçün müftilər təyin olunurdu. Onlar sərhədlərin mühafizəsinə, istehkamların tikintisinə və onlara tabe edilmiş rayonların təsərrüfat işinə nəzarət edirdilər ki, bu da öz növbəsində mazunların idarə etdiyi hissələrə bölünürdü. Ən qüdrətli zamanda imamət 10 evdən 1 təchiz edilmiş atlı prinsipi üzrə 30.000-ə qədər qoşun toplaya bilirdi (müridlər və muzdlulardan əlavə). İmamət xəzinəsinin gəlirləri zəkat, xərac, xüms (qənimətlərin beşdə biri), cərimələr, cinayətkarların və satqınların müsadirə olunan mallarından ibarət idi və əsasən silahlı qüvvələrin saxlanmasına yönəldilirdi.[5s. 21]

1847-ci ilin avqust-sentyabr aylarında Saltı kəndinin mühairəsi də ruslara çoxsaylı itkilərə başa gəlmişdi. Bu yürüş üçün ruslar səkkiz piyada batalyonu, iki snayper rotası, bir draqun eskadronu, iki yüzlük kazak,

1500 nəfərlik yerli dəstə (piyada və atlı), 15 top (üç ağır silah), qala topları, istehkamçı rotası və mühəndis taqımından ibarət 10 minlik qüvvə toplamışdı[1s. 259]. Bu müddətdə rus hissələrindən 20 zabit, 515 əsgər öldürülmüş, 95 zabit, 1793 əsgər yaralanmışdı.[2s. 84-85]

İnadla dağlara nüfuz etməyə çalışan çarizm ciddi müqavimətlə üzləşir. 1847-ci ildə Vorontsov Avariyaya girdi, Gergebili mühasirəyə aldı, lakin uğursuz, son dərəcə qanlı bir hücumdan sonra geri çəkilməyə məcbur oldu. 1849-cu ildə möhkəmləndirilmiş Çox kəndi yaxınlığında gedən mübarizə də çar qoşunlarının məğlubiyyəti ilə başa çatdı.

Çar komandanlığı Darqo məğlubiyyətindən sonra ciddi nəticələr çıxararaq 1850-ci illərin əvvəllərindən etibarən dağlılara qarşı müharibənin taktikasında ciddi dəyişikliklər edirlər. İndi onlar bir aulun ardınca digərinin mühasirəyə alınması, əkinlərin məhv edilməsi, meşələrin qırılması ilə yavaş-yavaş, ancaq sistemli şəkildə irəliləməyə başlayırlar. İşğal olunmuş ərazilər metodik olaraq möhkəmləndirilirdi. Bu cür hücum ilk növbədə imamətin taxıl anbarı olan Çeçenistanda həyata keçirilirdi. Bu taktikanın həyata keçirilməsi yavaş, lakin nəzərə çarpan nəticələr verdi. Çar qoşunları çeçen kəndlərini yerlə-yeksan edirdilər. Qocalar, qadınlar, uşaqlar kütləvi şəkildə həlak olurdular. Çarizm yavaş-yavaş, lakin israrla çeçenləri dağlara sıxmağa başladı. Meyvə bağlarından, əkin sahələrindən, otlaqlardan, sürülərdən məhrum olan dağlılar bu mübarizədə getdikcə güclərini itirirdilər. Dağlılar böyük insan və maddi itkilərə səbəb olan uzun və dağıdıcı müharibədən yorulmuşdular. Müharibənin sonu görünmürdü.

1851-ci il imamət üçün dönüş nöqtəsi oldu. Bu ildən başlayaraq Şamil dövlətinin genişlənməsi dayanır və sərhədləri getdikcə daralmağa başlayır. İmamət böhranın astanasında idi. 1850-ci ildə Şamil Tabasarana iki səfər etdi: birincisi Hacı Muradın, ikincisi isə Şelyagi kəndi yaxınlığında böyük məğlubiyyətə uğrayan Buk-Məhəmmədin başçılığı ilə. 1851-1852-ci illərdə isə Şamil həm Dağıstanda, həm də Çeçenistanda çar qoşunlarına qarşı qanlı döyüşlər aparırdı.[6s. 231]

1853-1856-cı illər Krım müharibəsinin sonu və Paris Sülh Müqaviləsinin bağlanması Rusiyaya əsas qüvvələrini Şamilə qarşı cəmləşdirməyə imkan verdi. Qafqaz Korpusu orduya çevrildi. 1856-cı ildə sərəncamında 226 min əsgər və zabit, 226 top olan Qafqaz ordusunun komandanlığı işğal olunmamış kəndlərin mühasirəsini gücləndirməyə, imamətə üçtərəfli həlledici hücuma keçməyə başladı.[4s. 101] Rusiyanın Qafqazdakı yeni baş komandanı general Aleksandr Baryatinski (1856-1860) imamətin ətrafında blokadanı gücləndirməyə davam etdi.

1857-ci ilin sonunda knyaz Orbeliani Salataudakı Yeni Burtunay kəndinə doğru irəlilədi və onu hücumla ələ keçirdi. 1858-ci ilin yanvarında general Yevdokimov strateji əhəmiyyətli Arqun dərəsini tutdu. Bundan sonra Böyük və Kiçik Çeçenistanın əksər hissəsi Rusiyanın hakimiyyətini tanıdı. General Yevdokimov cəbhə xəttini möhkəmləndirmək üçün çeçenləri dağlıq ərazidən zorla köçürməyə başlayır. İyunun 22-dən avqustun 30-dək general Vrangel Hümbet kəndini işğal etdi, qırx aulu dağıtdı və dağlıların üç istehkamını hücumla ələ keçirdi. Kordon müdafiə xəttində general Vrangel dağlıları müqaviməti dayandırmağa məcbur etdi, kəndlərini viran qoydu.[4s. 111]

1858-ci ilin sonlarında Çeçenistanda, Şamilin hakimiyyəti altında, Vedeno kəndi ilə İçkeriya qalmışdı. Buna görə də Qafqaz komandanlığı bura çoxsaylı qüvvələr göndərdi. 1859-cu ilin yanvarın ortalarında rus hissələri Şamilin oğlu Qazı Məhəmmədin başçılığı altındakı qüvvələr tərəfindən müdafiə olunan Vedenoya yürüşə başlayırlar. Fevral ayında Vedenonun mühasirəsinə başlayan ruslar həmin vaxtı davam edən aramsız yağışlar nəticəsində yolların keçilməz hala düşməsi səbəbindən müvəqqəti mühasirəni götürsələr də martın 17-də Vedenonun mühasirəsi bərpa olundu. Aprelin 1-də isə kənd hücumla alınaraq yerlə-yeksan edildi.[4s. 112]

Şamil Dağlıq Dağıstana çəkilmək məcburiyyətində qalır. 1859-cu ilin avqustunda rus qoşunları baş komandan general Baryatinskinin rəhbərliyi altında Çeçenistandan keçərək Dağıstana doğru hərəkət etdi. Naiblərin bəziləri Rusiyaya tabe olduqlarını bildirdilər, dağlıların yaxşı möhkəmləndirilmiş qalalarını təslim etdilər. Şamil son istinadgahı olan Qunibə çəkilmək məcburiyyətində qalır.

1859-cu ilin aprelində Şamilin iqamətgahı - Vedeno kəndi ələ keçirildikdən və Çeçenistan ərazisi rus qoşunları tərəfindən işğal edildikdən sonra Şamil Dağıstanın Qunib kəndinə çəkilməyə məcbur oldu. Burada 400 əsgəri ilə birlikdə mühasirəyə düşdü və avqustda 26 fəxri şərtlərə təslim oldu. Əvvəlcə Peterburqa göndərilən Şamil orada çar tərəfindən böyük təntənə ilə qəbul edilmişdi. Ardınca isə həmin ildə yaşamaq üçün Kaluqaya göndərilir.[5s. 21]

60-cı illərin əvvəllərində Şimali Qafqazın çoxsaylı dağlı xalqlarının tamamilə ram edilməsi başa çatdı. Dağlıların azadlıq hərəkatı məğlub oldu. O, öz təbiətinə görə müstəqilliyini qoruyub saxlamaq üçün çarizmə qarşı yönəlmiş milli azadlıq hərəkatı idi.

NƏTİCƏ

Aparılan Tədqiqatın nəticəsi olaraq aşağıdakı nəticəyə gəlinmişdir:

- Qafqaz xalqlarının apardığı mübarizə azadlıq, istiqlaliyyət, ədalətli və müstəmləkə rejiminə qarşı mübarizə idi;
- qüvvələr nisbəti Rusiyanın xeyrinə idi;
- Rusiya azadlıq mübarizəsinə qarşı amansız metodlardan istifadə edirdi;
- Rusiya Qafqaz xalqları arasında - xüsusilə də nüfuzlu şəxslərə xüsusi imtiyazlar verməklə azadlıq hərəkatını parçalamağa cəhd edir və bəzən də buna nail ola bilirdi.

Ədəbiyyat Siyahısı:

1. Гаммер М. Шамиль. Мусульманское сопротивление царизму. Завоевание Чечни и Дагестана (перевод с английского В.Симакова). М.: КРОН-ПРЕСС, 1998. 512 с.
2. Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско- горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис: Издательство военно-исторического отдела при штабе Кавказского военного округа, 1901, 222 с.
3. Дадаев Ю.У. Государство Шамиля. Социально-экономическое положение, политико-правовая и военно-административная система управления. - Махачкала, 2006. 505 с.
4. История Дагестана. В 4-х т. Том II. М.: Наука, 1968, 368 с.
5. Мамулиа Г. Имам Шамиль и национально-освободительная борьба горцев Северо-Восточного Кавказа в сообщениях французских консулов из Тифлиса. Документы и материалы. Частя 1-я. От осады Ахульго до вершины могущества (1839-1844). 148 стр. https://www.gfsis.org/files/library/pdf/Russian-2972.pdf
6. Очерки истории Дагестана. В 2-х томах, том 1-я. Махачкала, Дагестанское книжное издательство, 1957. 392 стр.

ВОССТАНОВЛЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ КИТАЯ В НАЧАЛЕ XIX В КОНЦЕ XX ВЕКА

ЕЛЬНАРА БУНИЯТОВА
АМЕА /Институт Востоковедения им.М.З. Буниятова
buniyatova–elnara@mail.ru
АЗЕРБАЙДЖАН/ БАКУ

РЕЗЮМЕ

В статье рассматривается территориальная целостность Китая и восстановление суверенитета над отдельными территориальными образованиями. Начиная со второй половины XVIII века, со становлением империалистической эры в мире, усилились экспансионистские тенденции по отношению Китая со стороны Англии. В современном геополитическом положении современного Китая важное место занимает проблема восстановления суверенитета над непризнанными территориальными образованиями.

Ключевые Слова: Территориальная целостность, Гонконг, юрисдикция, Тайвань, суверенитет

ВВЕДЕНИЕ

В современной истории Китая проблема восстановления суверенитета Китая над отдельными территориальными образованиями, восходит к периоду колониальных, захват западноевропейскими странами территорий различных стран Дальнего Востока и Тихоокеанского бассейна. Начиная со второй половины XVIII века, со становлением империалистической эры в мире, усилились экспансионистские тенденции по отношению Китая со стороны Англии, которая стала ведущей империалистической державой мира. В свете резкого возрастания политической и экономической мощи Англии, были созданы необходимые экономические и военно-политические

условия для усиления экспансии Великобритании на Дальнем Востоке.Вслед за успешной колонизацией Индии, центр экспансионистской политики Великобритании переместился в Китай. Характеризируя военно-политическое и экономическое положение Китая к началу 19 –го века следует отметить, что в рассматриваемый исторический период Цинская империя, переживала процесс глубокого упадка. В современном геополитическом положении современного Китая важное место занимает проблема восстановления суверенитета над непризнанными территориальными образованиями, возникшими в ходе колониальной экспансии западноевропейских государств в период правления Цинской династии. Одним из таких образований является остров Гонконг. Колониальная политика Великобритании по отношению Китая в начале 19 -го века начинается с захвата части её территории-Гонконга.

I ГЛАВА. СОБЫТИЯ I ОПИУМНОЙ ВОЙНЫ 1840 ГОДА

В начале 1840 года английское правительство направило к берегам Китая военную эскадру под командованием вице адмирала Дж. Эллиота который установил блокаду Гуанчжоу и устья реки Чжуцзяна, захватив острова Чжоушань. (3, с. 276). Основные события по колонизации Гонконга со стороны Великобритании развернулись в ходе первой опиумной войны. Ввиду безрезультатности мирных переговоров английское правительство 26 января 1841 года в одностороннем порядке официально объявило Гонконг английской колонией. 5 января 1858-го года английские войска захватили Гуанчжоу вынудив Китайское правительство подписать ряд неравноправных, торговых договоров и соглашений (3, с. 277). Продолжая интервенцию, Англия добилась аннексии новых территорий, в частности полуострова Цзюлун, который был включен в состав Гонконга в соответствии с заключеннымКитая с Англией 24 октября 1860 года Пекинской конвенцией. В соответствии с Конвенцией, подписанной 9 июня 1898 году между Великобританией и Китаем, Англия в дополнении к имеющей 29 кв. мильполучила в аренду на 99 лет территории площадью 376 кв. миль, получившие название новых территорий. Тем самым завершилось формирование территории Гонконга в качестве английской колонии. В течение истекших лет Китайская сторона не раз заявляла о своей решимости восстановить 1997 году свой суверенитет над Гонконгом 10 марта 1972 году представитель КНР в ООН Хуан Хуа передал комитету по деколонизации меморандум правительства Китая, где говорилось о необходимости восстановления суверенитета мильнад Гонконгом и Макао (3, с. 277).26 сентября1984 года подготовленная совместной китайско – английской рабочей группой китайские и английские тексты договоров, одобренные сторонами были опубликованы в Пекине, Гонконге и в Лондоне. 5 декабря 1984 года Нижняя палата, а пять дней спустя 10 декабря 1984 года верхняя палата английского парламента одобрили соглашение Китая с Англией о передаче Гонконга под юрисдикцию Китая.19-го декабря 1984 года в Пекине премьер – министр Англии М. Тэтчер и премьер Госсовета КНР ЧжаоЦзыян подписали совместную Декларацию о восстановлении суверенитета Китая над Гонконгом с 1 июля 1997 года. Другим территориальным образованием, непрекращающиеся дискуссии, о статусе которой составляют важную внешнеполитическую проблему Китая, является остров Тайвань.

Рассмотрим исторические особенности Тайваньского вопроса. Посуществу, истоки возникновения чрезвычайно важной для Китая внешнеполитической, отчасти внутриполитической проблемы заключены в истории национально – освободительной борьбы китайского народа против западных государств. Общеизвестно, что, экспансионистская политика Западноевропейских государств, в частности Англии и Франции проводимое по отношению Китая, привело к созданию мощного антиимпериалистического движения, политическим авангардом которой являлась Китайская буржуазия возглавляемые Сун-Ятсеном. В ходе национально – освободительного движения возглавляемое Сун-Ятсеном 1911 году Манчжурская династия была свергнута. 1927-29 годах китайский народ поднялся на вооруженное восстание против режима возглавляемые Чан-кайши (5). 1931 году в ходе начавшиеся интервенции японских милитаристов был создан единый антиимпериалистический блок, с целью отражения японской агрессии против Китая. Война против японских милитаристов, продлившейся с1937 по 1945 года завершилась победой китайского народа, и изгнанием японских милитаристов из страны (5). 1946 году началась гражданская война между режимом возглавляемые Чан-кайши, с китайскими коммунистами, которая 1949 году завершилась установлением новой антиимпериалистической власти, возглавляемой китайскими коммунистами. 1949 г. после поражения от вооруженных сил, возглавляемых китайскими коммунистами, на остров Тайвань эмигрировало руководство националистической партии Китая (Гоминьдана) во главе с Чан Кайши который установил личную диктатуру в целях противостояния

возможной агрессии со стороны материкового Китая (4). 1975 г. после смерти Чан Кай Ши начавшийся процесс демократизации, привел к устранению Гоминьдана от власти (5). В 1996 г. представитель Демократическойпрогрессивной партии (ДПП), Ли Дэньхуэйстал первым избранным президентом Тайваня. Следует отметить,что после второй мировой войны Республика Китай, возглавляемая Чан Кай Ши стала одним из основателей ООН. И вплоть до 1971 г. года в Китай был представлен в ООН правительством Чан КайШи, после чего дипломатическое признание перешло к КНР (4). В сложившийся ситуации стремление Тайваня к независимости составляет главную проблему тайваньского вопроса, которая осложнена вовлеченностью США в китайско-тайваньские отношения во времена Второй мировой войны, а также в годы «холодной войны»(5). Хотя США признают целостность Китая, и не признают независимость Тайваня, а также неподдерживают разделению Китая на две части и включение Тайваня в международные организации, тем не менее, отвергают силового решения тайваньской проблемы.

II ГЛАВА. ПРОБЛЕМА ВОССТАНОВЛЕНИЯ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ КИТАЯ НА РУБЕЖЕ НАЧАЛА XIX И КОНЦА XX ВЕКОВ

Резюмируя вышеизложенное в политическом решении проблемы восстановления территориальной целостности Китая, отметим следующее. В свою очередь, предложенная китайским правительством формула решения тайваньского вопроса «одно государство — две системы», успешно осуществленная в случае с Гонконгом не действует в отношении Тайваня. В 2007 году к власти в КНР пришло новое поколение руководителей во главе с Ху Цзиньтао, а на Тайване на выборах в 2008 году победу одержал Гоминьдан во главе с президентом Ма Инцзю. Начались переговоры о мирном соглашении между КНР и Тайванем и спустя год лидеры сторон обменялись посланиями (5). В 2015 году состоялась, встреча лидеров КНР и Тайваня Си Цзиньпин и Ма Инцзю. На состоявшихся 2016 году президентских выборах победу одержала кандидат от Демократической прогрессивной партии ЦайИнвэнь и большинство мест в парламенте заняли представители ДПП. Вследствие ухудшения экономической ситуации, падением уровня зарплат и ростом безработицы на острове новое правительство во главе с Цай Инвэнь ищет пути отступления от жесткой политической позиции по отношению Китая. К тому же после выборов 2016 года, Тайвань остался практически беззащитным перед Народно-освободительной армией Китая, так как США не поддерживают оказание военной помощи острову (1). 1 января 1912 года в результате Синьхайской революции в Китае была провозглашена Китайская Республика, временным президентом которой стал Сунь Ятсен, основатель и лидер партии Тунмэнхуэй (Объединенный союз), впоследствии преобразованной в партию Гоминьдан (Национальная партия, ГМД) (1). В феврале династия Цин отреклась от престола. Юань Шикай, занявший пост президента Китайской Республики в результате добровольной отставки Сунь Ятсена, готовился к установлению диктатуры. В ноябре 1913 году деятельность Гоминьдана, мощнейшей политической силы страны, была запрещена. После смерти Юань Шикая в 1916 году в Китае развернула гражданская война между милитаристами, усилившимися в годы Первой мировой войны, и республиканцами во главе с Сунь Ятсеном (Гоминьдан), в которую впоследствии включилась и Коммунистическая партия Китая (КПК), образованная в 1921 году (1). Между Гоминьданом и КПК было достигнуто соглашение о создании единого национально-революционного фронта. 1916–1926 годы известны в истории Китая как период военщины. В 1925 году в Китае началась национальная буржуазно-демократическая революция (1925–1927 годы) (1). В 1927 году при поддержке западных держав правое крыло Гоминьдана, возглавляемое главнокомандующим НРА Чан Кайши, захватило власть в крупнейших провинциях Китая. 18 апреля 1927 года Чан Кайши сформировал в Нанкине «Национальное правительство» (1). В 1928 году миндановское правительство получило официальное признание США и др. западных государств. Чан Кайши, получивший образование в Японии, стремился установить реакционный режим, основанный на союзе с землевладельческой, предпринимательской и промышленной элитой, пропаганде народного национализма, создании сильной армии, инвестициях в инфраструктуру (прежде всего, железные дороги). Ему противостояла КПК во главе с Мао Цзэдуном (1893–1976 годы), которая была объявлена вне закона (4). В итоге гражданская война приобрела новую форму. В конце 1931 года японские войска оккупировали Северо-Восточный Китай (Маньчжурию) и создали в 1932 году на его территории государство Маньчжоу-Го во главе с последним императором цинской династии Пу И, отрёкшимся

от престола в 1912 году. В 1933 году японские войска захватили провинцию Жэхэ и вторглись в провинцию Хэбэй. (2, с. 67). Далее 1935 году японское правительство выдвинуло программу подчинения Китая Японии в рамках так называемого японо-китайского политического и экономического «сотрудничества» («три принципа Хироты») (2, с. 68). Одновременно японские войска овладели новыми районами в Северном Китае, что вызвало возмущение населения. Гоминьдан и КПК заключили перемирие и договор о создании единого антияпонского национального фронта. В июле 1937 года Япония приступила к осуществлению плана по захвату всего Китая. В ответ началась Национально-освободительная война китайского народа (1937–1945 годы) и в итоге Японские войска захватили значительную часть территории Китая.(1) 25 октября 1945 года, после окончания второй мировой войны, в соответствии с решениями Каирской (1943 год) и Ялтинской (1944 год) конференций и Актом о капитуляции Японии, Тайвань был передан под юрисдикцию Китайской Республики, президентом которой являлся генералиссимус Чан Кайши (1). Китайская буржуазия, укрепив свои экономические позиции, попыталась играть и большую политическую роль. Она сделала шаг в сторону своей социально-политической консолидации. В ходе развернувшейся революции буржуазия попыталась отстаивать свои классовые интересы и в борьбе с империализмом и милитаристами, с одной стороны, и в борьбе с рабоче-крестьянским движением — с другой. Но раздробленность буржуазии, вызванная многоукладностью, делала ее позиции слабыми. Лишь шанхайская буржуазия — наиболее социально-политически развитая часть этого класса — сумела сыграть заметную роль в политических битвах и оказать воздействие на характер складывавшейся гоминдановской власти.

МЕТОД ИССЛЕДОВАНИЯ

В статье рассматривается территориальная целостность Китая и восстановление суверенитета над отдельными территориальными образованиями. Начиная со второй половины XVIIII века, со становлением империалистической эры в мире, усилились экспансионистские тенденции по отношению Китая со стороны Англии. В современном геополитическом положении современного Китая важное место занимает проблема восстановления суверенитета над непризнанными территориальными образованиями. Своеобразие политических столкновений Национальной революции, классовая широта сложившейся социально-политической коалиции, ставшей руководящей силой революции, милитаристско-буржуазная природа пришедшего к власти гоминдановского правительства, стремившегося сохранить широту коалиции и опереться на нее в новых условиях, свидетельствовали как о незавершенности класс образовательных процессов в Китае, так и о незавершенности национально-освободительной революции.

ЗАКЛЮЧЕНИЕ

Проблема восстановления территориальной целостности Китая, в современный период на рубеже начала 19 и конца 20 веков ее истории по существу своими корнями уходит в Европу, а так же связанна со сложившейся геополитической ситуацией в мире на рубеже начала 19 и конца 20 веков и собственно политическими, социально – экономическими особенностями. Как было выше отмечено резюмируя изложенные факты, в политическом решении проблемы восстановления территориальной целостности Китая, отметим следующее. Эксперты считают, что судьба Тайваня фактически уже неотделима от судьбы материкового Китая.

ЛИТЕРАТУРА:

1.Политический атлас современности правления www.hyno.ru/tom2/1559.html
2.В. Г Буров Модернизация Тайванского общества. М 1999 238 с.
3. Меликсетов А.В. История Китая https://history.wikireading.ru/96367 2-е изд., испр. и доп. - М.: 2002. - 736 с.
4.Наброски к биографии Чан Кайши в контексте анализа современной китайской историографии. Автор Карнеев А.Н. http:// WWW.synologiya . ru/a.
5.История и Современное состояние Тайваньского вопроса http://elib.bsu.by/bitstream/123456789/18057/1/sidoreyko_BMW_2009.pdf

PARİS SÜLH KONFRANSINDA AZƏRBAYCAN DİPLOMATİYASININ ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏSİ

Qocayeva Əminə
Azərbaycan Universiteti
Magistratura/Azərbaycanın yeni və ən yeni tarixi
Qocayeva_emine@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etdiyi ilk günlərdən ermənilərin ərazi iddiaları ilə üz-üzə qalmış, bu iddialara qarşı mövcud olduğu dövrdə müxtəlif beynəlxalq arenalarda mübarizə aparmışdır. Azərbaycan nümayəndə heyəti Paris Sülh konfransında ermənilərin yalançı ərazi iddialarına qarşı mübarizə aparmaqla qalmamış, həm də ermənilərin Avropa ictimaiyyətini aldadan saxtakar təxribatları ilə də üz-üzə qalmışdılar. Ermənilərin iddia etdiyi torpaqların tarixən Azərbaycana məxsus olmasını və bu ərazidə yaşayan əhalinin mütləq əksəriyyətini azərbaycanlıların təşkil etdiyini isbat etməyə çalışmışdılar. Min bir əziyyətlə Paris Sülh konfransına gedən Azərbaycan nümayəndə heyətinin qarşısında iki əsas məsələ dayanırdı, bunlardan birincisi Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanıdılması, digəri isə müstəqil Azərbaycan cümhuriyyətinin ərazi bütövlüyünün qorunması idi. Eyni zamanda, nümayəndə heyəti havadarlarına güvənən ermənilərin Qafqazdakı ərazi-sərhəd problemlərini öz xeyirlərinə həll etmələrinə imkan verməməli idilər.

Açar Sözlər: Paris Sülh konfransı, Azərbaycan Xalq Cümhuriyyəti erməni ərazi iddiaları

GİRİŞ

1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə erməni ərazi iddialarına qarşı apardığı uğurlu diplomatik mübarizə yolu işıqlandırılmışdır. Bu diplomatiya mübarizəsinin ən əhəmiyyətlisi Paris Sülh Konfransında erməni ərazi iddialarının qarşısının alınması olmuşdur. 1918-1920-ci illər Azərbaycan tarixi sovet ideologiyası altında təhrif edilmiş, lakin müstəqilliyimiz bərpa edildikdən sonra bu dövr yenidən araşdırılaraq gerçəklər açığa çıxarılmağa başlanmışdır. Eyni zamanda, günümüzdə də davam edən erməni ərazi iddialarına qarşı diplomatik mübarizə meydanında sələflərimizin təcrübələrindən bəhrənlənmək məqsədi ilə bu dövr yenidən tədqiq edilmişdir.

1914-cü ildə başlayan 1-ci dünya müharibəsi 1918-ci ildə Antanta blokunun qələbisi ilə başa çatdı. Bundan sonra dövlətlərarası münasibətləri qaydasına salmaq, müharibədən sonra yaranmış mübahisəli məsələləri həll etmək, məğlub ölkələrlə bağlanacaq sülh müqavilələrinin şərtlərini müəyyənləşdirmək məqsədi ilə sülh konfransı çağrılması qərara alınmışdı. Yeni yaranmış Azərbaycan respublikası da öz müstəqilliyinin dünya ölkələri tərəfindən tanınmasına nail olmaq və Ermənistanla olan ərazi-sərhəd problemlərinin Azərbaycanın ərazi bütövlüyü qorunmaqla öz həllini tapması məqsədi ilə bu konfransa qatılmaq niyyətində idi. Azərbaycan hökuməti hələ 1918-ci ilin noyabrında general Tomsonla görüşdə Sülh konfransında iştirak edəcəklərinə və mübahisəli ərazi məsələlərinin konfransda öz həllini tapacağına dair vəd almışdılar [5.s.33].

Ermənilərin ərazi iddialarının bir hissəsini də Azərbaycan torpaqları təşkil edirdi, bu isə təbii olaraq, Azərbaycan nümayəndə heyətinin etirazı ilə qarşılandı. Qafqaz respublikalarının etirazından sonra Müttəfiq dövlətlər Ermənistanın ərazi iddiaları ilə əlaqədar memorandum hazırladılar. Bu memorandumda Azərbaycan respublikasının ərazisi və əhalisinin sayı öz əksini tapmışdı. Burada göstərilən məlumata görə Azərbaycan respublikasının ərazisi bütün Qafqazın 60 faizini əhatə edirdi. Memorondumun 9-cu bəndinə əsasən, Bakı quberniyası - Bakı şəhəri, Cavad, Göyçay,Quba, Lənkəran qəzaları daxil olmaqla, Yelizavetpol (Gəncə) quberniyası – Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur, Qazax qəzaları daxil olmaqla, İrəvan quberniyası – Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları və Bayazid, Eçmiədzin və Sığnax qəzalarının bir hissəsi daxil olmaqla, Tiflis quberniyasının isə Borçalı, Tiflis və Sığnax qəzalarının bir hissəsi, Zaqatala qəzası, Dərbənd şəhəri və ətrafındakı ərazilər,Qaytaq-Tabasaran qəzasının bir hissəsi, Dağıstan regionunda yerləşən Kürə və Samur nahiyələrinin bir hissəsi Qafqaz Azərbaycanının keçmiş inzibati bölgüsü kimi qeyd olunmuşdu. Bu ərazilərdən Yelizavetpol (Gəncə) quberniyasının yuxarı dağlıq hissəsi Ermənistanla mübahisəli ərazi kimi qeyd edilmişdi. Bundan başqa İrəvan, Tiflis quberniyalarının, Zaqatala qəzasının sahəcə kiçik olan bəzi ərazilərinin Qafqaz respublikaları arasında ərazi-sərhəd

probleminə səbəb olduğu qeyd edilmişdi. Memorondumun bu bəndində Azərbaycanın Tiflis quberniyasına daxil olan Axalsıx, Batum və Qars vilayətlərini öz ərazilərinə birləşdirmək istəməsi haqqında da məlumat qeyd olunmuşdu [2, s. 180-181]. Daha sonra bu məlumatları Azərbaycan hökumətinə çatdırmış, Azərbaycan hökuməti isə bu ərazilərin Sülh konfransında Azərbaycana birləşdirilməsi məsələsini qaldırmışdı.

Bu dövrdə ingilislərin himayəsi altında Qars Respublikasının Ermənistana birləşdirilməsi elan edildi. Bu zaman Naxçıvan, Şərur-Dərələyəz, Sürməli mahallarının və İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsi də elan edilmişdi. Bu isə haqlı olaraq Azərbaycan nümayəndə heyəti tərəfindən etirazla qarşılanmış, hətta nümayəndəlik Paris Sülh konfransının iştirakçılarına və sədrinə bu məslə ilə bağlı etiraz notası da yollamışdı. Bu etiraz notasında Azərbaycan nümayəndəliyi bu əraziləri ermənilərə verməklə müttəfiqlərin Azərbaycanın bu ərazilərə olan hüquqlarını pozduqlarını qeyd etmiş, eyni zamanda ermənilərin bu bölgələrdə törətdikləri qırğınlara diqqət çəkməklə verilmiş qərarın yalnışlığını isbat etməyə çalışmışdılar. Notada bu ərazilərin tarixən Azərbaycana məxsus olması, bu səbəbdən də ermənilərin bu ərazilərin idarəçiliyindən məlumatlarının olmaması qeyd edilmişdi. Eyni zamanda Notada göstərilən ərazilərdə müsəlman əhalinin üstünlük təşkil etməsi və bu əhalinin dəfələrlə Azərbaycan hakimiyyətinə keçmək üçün müraciət etdiklərinə dair məlumatlar, ermənilərin buradakı dinc müsəlman əhaliyə qarşı tətbiq etdikləri zorakılıqlar, müsəlman əhalinin ermənilər tərəfindən qanlı cinayətlərə məruz qalması da qeyd edilmişdi. Bu zaman notada Müttəfiqlərdən bu ərazilərin Azərbaycan Xalq Cümhuriyyətinin idarəçiliyinə verilməsi və Müttəfiq qoşunlarının köməyi ilə bu bölgədə Azərbaycanın hakimiyyətinin qurulması xahiş edilmişdi. Bu yolla Azərbaycan hökuməti ermənilərin törətdiyi qırğınların qarşısını almağın mümkün olacığını düşünürdü. Lakin Azərbaycan nümayəndəliyinin bu etirazları heç bir dəstək görməmiş, müttəfiqlərin diqqətini çəkə bilməmişdi.

1919-cu il mayın 28-də erməni daşnak hökuməti Osmanlının 7 vilayətinin Ermənistana birləşdirilməsi haqqında akt qəbul etdilər. Bu akta görə ermənilər Qafqaz Ermənistanı ilə Osmanlı Ermənistanını birləşdirir və burada yaşayan erməni xalqına azadlıq verirdilər [1, s.259]. Aktın qəbul edilməsindən sonra İrəvandakı Ermənistan hökuməti tez bir zamanda bu məlumatı Parisdəki erməni nümayəndə heyətinə çatdırmışdı. Bu xəbərdən sonra hər iki erməni nümayəndəliyi artıq bütün məsələlərdə eyni mövqedən birgə hərəkət etməyə başlamışdılar. Bundan sonra hər iki nümayəndəlik birlikdə yeni memorandum hazırlamış və A.Aqaronyan hər iki nümayəndəlik adından bu memorandumu Sülh konfransına təqdim etmişdir. Memorandum ilə birlikdə xüsusi bir məktub da təqdim edilmişdir [1, s.260]. Bu məktub və memorandumda isə ermənilər azərbaycanlıların və türklərin Ermənistan torpaqlarından çıxarılmasını tələb edirdi. Bu memorondumda guya erməni xalqına müttəfiqlərə olan rəğbətinə görə qəzəblənən azərbaycanlıların və türklərin zülm etdyi bildirilirdi. Azərbaycan nümayəndə heyəti bu memoranduma dərhal öz etirazlarını bildirdilər, hətta, Azərbaycan Xarici İşlər Nazirliyidə bu memorandumla əlaqədar Ermənistan hökumətinə etiraz notası göndərdi.

Ermənilərin qəbul etdiyi aktdan və Sülh konfransında yaydığı saxta məlumatlardan sonra Azərbaycan hökuməti Xarici İşlər Nazirliyinə Cənubi Qafqazdakı müsəlman əhalinin vəziyyəti haqqındakı gerçəkləri Avropa dövlətlərinə çatdırmaq barədə göstəriş verdi. Eyni zamanda, Xarici İşlər Nazirliyinə Ermənistan ərazisində yaşayan türk-müsəlman əhalinin real vəziyyətini öyrənmək və Avropa ictimaiyyətini bu barədə məlumatlandırmaq məqsədi ilə azərbaycanlılardan, ermənilərdən və avropalılardan ibarət komissiya yaradılması tapşırıldı. Bu məsələ ilə bağlı Azərbaycanın Ermənistan respublikasındakı diplomatik nümayəndəsi M.Təkinskiyə iyunun 4-də şifrəli teleqramla məlumat verildi [1, s.261]. Bundan sonra M.Təkinski və İrəvandakı Müsəlman Milli Şurası birlikdə İrəvanda və Qarsda yaşayan türk-müsəlman əhaliyə qarşı ermənilərin törətdiyi qətliamlar barəsində faktlar və statistik məlumatlar əhalinin də yaxından köməyi ilə toplandı, eyni zamanda, ermənilərin bu bölgələrdə törətdikləri vəhşiliklər, müsəlmanların buradakı real vəziyyəti də daxil edilməklə onların sayı müəyyənləşdirildi. Daha sonra toplanılan bu məlumatlar əvvəlcə Azərbaycan Xarici İşlər Nazirliyinə, oradan da Parisdəki Sülh konfransının nümayəndə heyətinə göndərildi. Nümayəndə heyəti isə tez bir zamanda bu məlumatı Avropa və Amerika dövlətlərinin Parisdəki nümayəndəliklərinə çatdırdılar. Bu məlumatlardan aydın olurdu ki Ermənistandakı mübahisəli ərazilər xaricindəki bölgələrin əhalisinin hardasa yarısı azərbaycanlılardan ibarət olduğu halda onların burada heç bir hüququ olmadığı kimi ermənilər tərəfindən vəhşiliklərə məruz qalırlar. Göstərilən statistik məlumatlardan aydın olur ki təkcə İrəvandan köçən müsəlman əhalinin sayı 150 mindən çox idi [1,s.262].

Azərbaycan və Dağlılar Respublikası Pribaltika məsələsinin həllində olduğu kimi Qafqaz məsləsinin həllində də Sülh konfransının Qafqaz komissiyası yaratmasını istəyirdilər. Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar respublikasının nümayəndələri iclas keçirmək üçün avqust ayının 15-də

Azərbaycan nümayəndəliyinin binasında toplaşdılar. Ə.M.Topçubaşov iclası açaraq, iclasın proqramını oxuyub, məsələləri müzakirəyə təqdim etdi. Ə.M.Topçubaşovun verdiyi məlumata görə Sülh konfransına Müttəfiq qoşunlarının Qafqazda qalması ilə bağlı müraciət etmək məsələsini müzakirə etmək üçün avqust ayının 28-nə kimi üç dəfə nümayəndələr arasında iclas keçirmişlər. Bunlardan avqustun 23-də keçirilən iclasda Azərbaycan və Gürcüstan nümayəndə heyəti müraciətdə qafqazda qoşunların qalması tələblərinin səbəbinin xaricdən yaranan təhlükə, yəni Denikin təhlükəsinin artması ilə əlaqələndirirdilər. Azərbaycan və Gürcüstan nümayəndələri Cənubi Qafqazda yaranmış respublikaların müstəqilliklərinin Sülh konfransı iştirakçıları tərəfindən tanınmasından sonra Müttəfiqlərin qoşunlarının Qafqazı tərk etməsini istəyirdilər. Bu məsələdə ermənilərin isə fərqli niyyətləri var idi, belə ki, ermənilər Sülh konfransına Qafqazda Müttəfiq qoşunlarının qalması səbəbi kimi daxili təhlükəni, yəni Azərbaycan və Gürcüstan tərəfindən Ermənistana qarşı yarana biləcək təhlükəyə görə Müttəfiq qoşunlarının Qafqazdan çıxmasını istəmirdilər. Beləliklə, keçirilən müzakirələrin nəticəsində, gürcü nümayəndəsi Z.Avalov Qafqazda qoşunların qalması ilə əlaqədar müraciətin layihəsini hazırladı, bu layihə nümayəndələr arasında müzakirə edildikdən sonra Sülh konfransına təqdim edildi [1, s,269]. Bundan sonra Qafqaz respublikalarının nümayəndələri Sülh konfrasının iştirakçılarının diqqətini Qafqaza çəkmək üçün bir sıra addımlar atdılar. Lakin sosialist və sosial-demokrat partiyalarının nümayəndələri Müttəfiq qoşunlarının Qafqazda qalmasından narazı idilər.

Nəhayət, 1920-ci il yanvarın 11-də Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınması haqqında müzakirələr həyata keçirildi və Lord Kerzonun təklifi ilə bu iki Qafqaz respublikasının müsətiqilliyinin de-fakto tanınması haqqında qəraer qəbul edildi. Bu qərar qısa zamanda Azərbaycan hökumətinə çatdırıldı, və parlamentdə bu qərar böyük sevinclə qarşılandı. Azərbaycan hökuməti bu qərar münasibəti ilə Bakıda və digər şəhərlərdə mərasimlər həyata keçirildi, istiqlaliyyət uğrunda şəhid olmuş Azərbaycan və Osmanlı əsgərlərinin xatirələri yad edildi. Bundan sonra bu tarixi qərarı qeyd etmək üçün Bakıda hərbi parad keçirildi [3 s.161.30-31].

Azərbaycanın müstəqilliyinin tanınmasından sonra Ə.M.Topçubaşov Azərbyacan hökumətinə göndərdiyi məktublarında eyforiyaya qapılmamağı məsləhət görürdü. Onun fikrincə, istiqlaliyyətin tanınması kimi bu istiqlaliyyətin qorunub saxlanması da vacib məsələ idi. Bu yolda isə birinci olaraq daxildəki problemlərin həll edilməsi şərt idi, çünki Ə.M.Topçubaşovun fikrincə daxildən güclü olan dövləti, xarici təhlükədən qorumaq asan idi, buna görə də o, məktublarında daxili məsələlərin həllinə xüsusi diqqət ayrılmasını vurğulayırdı [4, s165iş].

TƏDQİQAT METODU

Tədqiqat işi yazılarkən tarixi təsvir, analitik və məntiqi müqayisə metodlarından istifadə olunmuşdur. Ümumiyyətlə isə tədqiqat işinin metodoloji əsası obyektivlik və tarixilik prinsiplərinə əsaslanmışdır.

NƏTİCƏ

Azərbaycan Xalq Cümhuriyyətinin uğurlu diplomatik addımlarının nəticəsi olaraq müstəqilliyi Avropa dövlətləri tərəfindən de-fakto tanınır. Ermənilərin Avropa ölkələrində apardığı saxta faktlara əsaslanan təbliğata və Avropa ölkələrinin onların himayədarlığını etməsinə baxmayaraq, Azərbaycan nümayəndə heyəti Qafqazdakı ərazi-sərhəd problemlərinin ermənilərin xeyrinə həll edilməsinə imkan verməmiş Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlaya bilmişdilər.

Ədəbiyyat Siyahısı:

1. Həsənli.C.P., Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, "GARISMA" MMC, 2009, s.576.
2. Musa İ., Azərbaycanın xarici siyasəti, Birinci hissə Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər), «Bakı Universiteti» nəşriyyatı, Bakı, 2011, s.310
3. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Məqalələr və sənədlər. Bakı, 1990.
4. Nəsibzadə N., Azərbaycan xarici siyasəti (1918-1920) “Ay-Ulduz” nəşriyyatı Bakı, 1996, s.216
5. Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателя азер-байджанской мусаватской делегации. Баку, 1931.

XXI ƏSRDƏ YAPONİYANIN TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ASEAN ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI

AFAQ NƏRİMANOVA
AMEA ak. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
afaq.nerimanova@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalə Yaponiyanın XXI əsrdə ASEAN ölkələri ilə təhlükəsizlik sahəsindəki əlaqələrinə, Cənub-Şərqi Asiya regionu üçün potensial təhlükəyə çevrilmiş problemlərin həlli yollarının tədqiqinə həsr olunmuşdur. Sakit və Hind okeanlarını birləşdirən, mühüm arteriya hesab olunan Cənubi Çin dənizində və Malakka körfəzində təhlükəsizliyin təmin olunması, münaqişələrin tənzimlənməsi və piratçılıqla mübarizə və digər məsələlər araşdırılmışdır. Yaponiyanın Asiya-Sakit Okean regionunda sabitlik, tarazlığın təmin edilməsi sahəsində ASEAN ölkələri ilə imzaladığı əməkdaşlıq haqqında saziş, müqavilə, memerondiumların, keçirdiyi görüşlərin, forumların mühüm rolu qeyd olunmuşdur.

Araşdırılan mövzu beynəlxalq münasibətlərdəki ən son durumu əks etdirməsi baxımından aktualdır. Məqalədə Yaponiya –ASEAN əməkdaşlığının elmi baxımdan araşdırılması ölkəmizdə tarix sahəsində tədqiqatlarda, elmi-tədqiqat əsərlərinin yazılması və ya tədris prosesində istifadə edilə bilər.

Açar sözlər: Yaponiya, ASEAN, Cənubi Çin dənizi, Malakka körfəzi, regional, təhlükəsizlik, stabillik, əməkdaşlıq, dialoq, forum, piratçılıq

GİRİŞ

Məqalədə Cənub-Şərqi Asiyada inkişaf, stabillik, sülhün qorunması üçün strateji əməkdaşlığı genişləndirmək, regionda dəniz təhlükəsizliyini təmin etmək, regional antiterror strategiyası ilə bağlı fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, miqrasiya nəzarətini gücləndirmək, dəniz, aviasiya təhlükəsizliyini möhkəmləndirmək, qeyri-qanuni balıq ovu və narkotiklərlə mübarizə və s. fəaliyyət tendensiyaları nəzərdən keçirilmiş, XXI əsrin əvvəllərndən etibarən Yaponiyanın siyasi mövqeyinə, təhlükəsizlik sahəsindəki ASEAN ölkələri ilə qarşılıqlı əlaqələrinə xüsusi diqqət yetirilmişdir.

İşin məqsədi Yaponiya ASEAN arasında təhlükəsizlik əlaqələrinin mahiyyətini, əsas xüsusiyyətlərini təhlil etmək, Asiya Sakit okean regionunda sülh, təhlükəsizlik, stabilliyin qorunması, Yaponiya və ASEAN arasında regional əlaqələrin gücləndirilməsi istiqamətində Yaponiyanın fəaliyyətini nəzəri cəhətdən araşdırmaqdır. Müəllifin qarşısında duran əsas vəzifə problemi tarixi və elmi baxımdan işıqlandırmaq, bu ölkələrin münasibətlərinin mahiyyətini detallı və eyni zamanda bir-birilə bağlı şəkildə təhlil etməkdir.

Bu mövzu yeni deyildir, yerli və xarici tədqiqatçıların elmi əsərlərində, məqalələrində öz əksini tapmışdır. Bunun üçün əsasən Yaponiya Xarici İşlər Nazirliyinin, Yaponiya Müdafiə Nazirliyinin, ASEAN veb saytının yapon saytlarında dərc olunmuş məqalələr, rəsmi sənədlərdən, rus və ingilis müəlliflərinin məqalələrindən istifadə edilib.

Tədqiqat işinin strukturuna giriş, iki fəsil, tədqiqat metodu, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı daxildir.

I FƏSİL. YAPONIYA REGİON ÖLKƏLƏRİNİN ƏSAS TƏRƏFDAŞI KİMİ

Yaponiya ASEAN ölkələri ilə dialoq üzrə əsas tərəfdaş ölkələrdən biridir. ASEAN ölkələri Yaponiya üçün yalnız iqtisadi nöqteyi-nəzərdən deyil, siyasi planda da mühüm rol oynayır. Bu, həm ASEAN-a üzv ölkələrin dəniz nəqliyyatı arteriyalarına yaxınlığı, həm də bu ölkələrin Yaponiya ilə hərtərəfli kommersiya əlaqələri ilə əlaqədardır. XXI əsrdə regionda təhlükəsizlik sahəsində problemlərin həlli ilə bağlı Yaponiyanın ASEAN ölkələri ilə əməkdaşlıq haqqında hərtərəfli dialoqa başlaması 2003-cü ildə Tokio bəyannaməsinin (Tokyo Declaration for the Dynamic and Enduring ASEAN-Japan Partnership in the New Millennium) imzalanması, 2004-cü ildə Cənub-Şərqi Asiyada dostluq və əməkdaşlıq haqqında sazişə qoşulması ilə baş verdi. Ölkələr arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin növbəti mərhələsi 2005-ci ildə Kuala-Lumpurda keçirilmiş IX Sammitdə (The Joint Statement for Deeping and Broadening of ASEAN-Japan Strategic Partnership) baş tutdu [1]. Sammitdə dövlət rəhbərləri Yaponiya və ASEAN ölkələrinin qarşısında duran ümumi təhlükəsizlik problemlərinin həllində dialoq əlaqələrinin sabit inkişafını qeyd etməklə yanaşı, Şərqi Asyada inkişaf, stabillik, sülhün qorunması üçün strateji əməkdaşlığın genişləndirilməsinə hazır olduqlarını da bəyan etdilər.

11 sentyabr 2001-ci il terror aktından sonra Yaponiya və ASEAN arasında bağlanmış müqavilələrdən biri beynəlxalq terrorizmə qarşı mübarizəyə dair əməkdaşlıq bəyannaməsi (ASEAN-Japan Joint Declaration for Cooperation in the Fight against İnternational Terrorizm) oldu. 2004-cü ildə imzalanmış bu bəyannaməyə görə ölkələr regonal antiterror strategiyası ilə bağlı fəaliyyət istiqamətlərini müəyyənləşdirməli, miqrasiya nəzarətini gücləndirmək, dəniz, aviasiya təhlükəsizliyini möhkəmləndirmək və s. öhdəlikləri yerinə yetirməli idilər. 2006-cı ildən Yaponiya ASEAN ölkələrinə təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, terrorizmə qarşı mübarizədə əməkdaşlıq məsələlərinə kömək məqsədilə qrant yardımı proqramı (The Qrant Aid for Cooperation on Counter-Terrorism and Security Enhancement) çərçivəsində vəsait ayırmağa başladı. Həmin ildən başlayaraq Yaponiya və ASEAN –nın iştirakçı dövlətləri arasında görülən işlər barədə fikir mübadiləsinin aparılması üçün hər il görüşlər keçirildi [2, s.4].

Regionda dəniz təhlükəsizliyi də HəmYaponiya, həm də ASEAN ölkələri üçün prioritet məsələlərdəndir. Son on illiklər ərzində Şərqi Asiya ölkələri arasında ərazi ziddiyyətləri güclənmişdir. Ona görə də Yaponiya Cənubi Çin dənizində, eləcə də Malakka körfəzində təhlükəsizliyin təminatına böyük diqqət yetirir. Yaponiya ABŞ- la birlikdə regionda təhlükəsizlik sahəsində əsas tərəfdaş və investorlardan biridir. Cənubi Çin dənizində böyük neft-qaz ehtiyyatlarının istismarı Şərqi Asiyanın sahil ölkələri arasında rəqabəti artırmışdır. Bildiyimiz kimi Cənubi Çin dənizi Sakit və Hind okeanlarını birləşdirən mühüm arteriyadır. Xüsusilə 11 mart 2011-ci ildə dünya seysmik müşahidə tarixində baş vermiş ən güclü zəlzələ nəticəsində Fukusima-1 stansiyasında baş vermiş avariya ilə əlaqədar Yaponiyada atom enerjisindən istifadə minimuma enmişdir. Cənubi Çin dənizindən neft və qaz kəmərlərinin əsas hissəsinin keçməsi, neft və sıxılmış təbii qaz idxal edən bu ölkələrin energetikasını asılı vəziyyətə salmışdır. Çin, Filippin, Vyetnam arasında Spratli və Parasel adalarına görə yaranmış konfliktlər Cənub-Şərqi Asiya regionu üçün potensial təhlükəyə çevrilmişdir. Buna görə də Yaponiya Cənubi Çin dənizində təhlükəsizliyi təmin etmək, Çinin bölgədə artan təsirini dayandırmaq üçün bu sahədə ASEAN ölkələri ilə əməkdaşlıq müqavilələri bağlamağı zəruri hesab edir. Cənub-Şərqi Asiya ölkələri içərisində Sinqapur Yaponiya dövləti ilə müdafiə mübadiləsi sahəsində əməkdaşlıq haqqında memorandum (ing. Memorandum on Defence Exchanges beteen Ministry of Defense, Japan and Ministry of Defence, Republic of Singapore) imzalayan ilk ölkə oldu. Memorandum 2009-cu il dekabr ayında imzalandı, 2012-ci ildə isə müdafiə sahəsində yerli təlimlərin keçirilməsi istiqamətində əməkdaşlığın gücləndirilməsi üçün razılığa gəldilər [3]. Həmin ilin iyul ayında Filippin müdafiə nazirinin Yaponiyaya səfəri zamanı bu ölkə ilə də oxşar müqavilə imzalandı. Ölkə başçıları hərbi-texniki əməkdaşlıq, ikitərəfli əməkdaşlıq mübadiləsinin yeni müstəvidə aparılmasına dair bəyanat imzaladılar.

II FƏSİL.REGİONDA MÜNAQİŞƏLƏRİN TƏNZİMLƏNMƏSİ VƏ PİRATÇILIĞA QARŞI MÜBARİZƏ

Piratçılıq uzun illərdir ki, regionda vacib məsələlərdəndir. Körfəzdən keçən yük daşımaların tez-tez ləngiməsi, terroristlər tərəfindən nəhəng gəmilərin suda batırılması Yaponiya iqtisadiyyatına mənfi təsir göstərir. XX əsrin sonlarından Malakka körfəzi və Cənubi-Çin dənizində yapon gəmilərinə qəfil artan pirat hücumları Yaponiya dövlətini regionu silahlı qüvvələrlə müntəzəm nəzarətdə saxlamağa məcbur etdi. Bu təşəbbüs 1999-cu ildə Yaponiyanın baş naziri Obuçi Keydzo tərəfindən ASEAN+3 sammitində irəli sürülmüşdü [4]. Körfəz Yaponiya, Malaziya, İndoneziya, Sinqapur, Çin, Cənubi Koreyanın hərbi-dəniz qüvvələri tərəfindən birgə nəzarət edilməli idi. Bu piratçılığa qarşı mübarizə məqsədilə regional sahil mühafizə sistemini yaratmaq üçün ilk cəhd idi. Lakin ASEAN ölkələri Yaponiyanın regionda artan nüfuzundan, Çin dövlətinin narazı mövqeyindən ehtiyatlanaraq Malakka körfəzi üzərində nəzarəti tam həyata keçirə bilmədilər. Sahil mühafizəsini yaratmaq cəhdi 2000-ci ilin noyabrında Sinqapurda keçirilmiş sammitdə yenidən cəhd olundu. Baş nazir Mori Yosiro dəniz quldurluğu və silahlı hücumlara qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə Asiya konfransının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu konfrans 2001-ci ilin oktyabrında baş tutdu. Bu təklif sonda 2004-cü ilin noyabrında Asiyada piratlığa, gəmilərə silahlı quldur hücumlarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Regional müqavilənin (Regional Cooperation Agreement on Combating and Armed Robbery aggainst Ships in Asia) imzalanması ilə nəticələndi. 2006-cı ilin sentyabrından qüvvəyə mindi [5]. Müqaviləni Yaponiya, Cənubi Koreya, Hindistan, Banqladeş, Şri-Lanka və ASEAN ölkələri imzaladılar. İndoneziya, Malaziya isə tam iştirak etməyərək, yalnız müşahidəçi qismində çıxış etdilər. İmzalanmış müqavilənin nəticəsi olaraq elmi-texniki məlumat mübadiləsi aparmaq, tədqiqat fəaliyyəti həyata keçirmək məqsədi ilə İnformasiya mərkəzi yaradıldı, antipirat əməliyyatlarının aparılması üçün köməyin göstərilməsi haqqında müqavilə icra edildi. Bu müqavilə regionda dəniz piratçılığı ilə mübarizə və Şərqi Asiyada dəniz təhlükəsizliyinin təminatı istiqamətində böyük addım idi.

Cənubi Çin dənizində münaqişələrin tənzimlənməsi və piratçılıqla mübarizə sahəsində dialoqun aparılmasında Dəniz forumu mühüm rol oynayır. ASEAN Dəniz forumu (ing. ASEAN Maritime Forum, AMF) 2010-cu ildə İndoneziya dövlətinin təşəbbüsü ilə dəniz təhlükəsizliyi məsələləri, axtarış-xilas etmə əməliyyatları, dənizdə fəlakətlə üzləşmiş gəmilərə və şəxslərə köməyin göstərilməsi ilə əlaqədar təşkilatın yalnız daxili problemlərini həll etmək üçün yaradıldı. Bir neçə ildən sonra Yaponiya dövlətinin təklifi ilə Forumun formatı genişləndirildi. Genişləndirilmiş ASEAN Dəniz forumunun ilk görüşü 2012-ci ilin 5 oktyabrında Manilada baş tutdu. Görüşdə ASEAN-a üzv ölkələr, Avstraliya, Çin, Hindistan, Yaponiya, Yeni Zelandiya, Koreya Respublikası, Rusiya Federasiyası, ABŞ, ASEAN Katibliyi iştirak etdilər. Dəniz forumunda Yaponiyanın xarici işlər naziri Çuruoka Kodzi öz çıxışında 1982-ci ildə qəbul olunmuş dəniz hüququ haqqında BMT-nin konvensiyasına (ing. United Nations Convention on the Law of the Sea) uyğun olaraq dəniz üzərində qaydalara riayət olunmasından və beynəlxalq əməkdaşlığın vacibliyindən bəhs etdi. Forumda nümayəndələr Cənubi-Çin dənizində mübahisəli ərazi məsələlərini sülh yolu ilə tənzimləməyə kömək edən regional davranış kodeksinin qəbul edilməsi zərurətini müzakirə etdilər. Cənubi-Çin dənizində münaqişələrin tənzimlənməsi, regionda təhlükəsizlik məsələləri tam həllini tapmadı. Forumun əsas diqqəti dəniz mühafizəsi, dəniz quldurluğu, qeyri-qanuni balıq ovu və narkotiklərlə mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə yönəldi.

XXI əsrdə Yaponiya ASEAN regionunda stabilliyin qorunmasında marağı olan ölkə kimi Mindanao adasında illərlə baş qaldırmış Filippindəki daxili, silahlı konfliktin həllində iştirak etdi. 2006-cı ilin dekabr ayında Yaponiya "J-BİRD" (ing. Japan- Bangsamoro İnitiatives for Reconstruction and Development) proqramını irəli sürdü. Bu proqramın məqsədi Filippin hökuməti və Moro İslam Azadlıq Cəbhəsi arasında sülh danışıqlarının aparılması proseslərini dəstəkləmək idi. Yaponiya Mindanao adasında sülh proseslərinin fəal iştirakçısı oldu, regionun bərpasına böyük səy göstərdi. Yaponiya demək olar ki, nəinki Filippin, həm də Moro İslam Azadlıq Cəbhəsi ilə qarşılıqlı inam və etimada əsaslanan möhkəm əlaqələr qurdu.

TƏDQİQAT METODU

Məqalədə Yaponiya ASEAN arasında təhlükəsizlik əlaqələri, Asiya-Sakit Okean bölgəsində inkişaf və tarazlığın qorunması, regionda dəniz piratçılığı ilə mübarizə, Şərqi Asiyada dəniz təhlükəsizliyinin təminatı istiqamətində Yaponiyanın fəal iştirakı əsasən faktlardan, elmi mənbələrdən istifadə olunmaqla təhlil edilmiş, regionda sülh, təhlükəsizlik, stabilliyin qorunması sahəsində Yaponiya və ASEAN ölkələrinin qarşılıqlı əməkdaşlıq çərçivəsində həm regional, həm də qlobal çağırışlara uyğun birgə fəaliyyəti araşdırılmışdır. ASEAN-Yaponiya təhlükəsizlik əlaqələrinin inkişafında ASEAN-Yaponiya tərəfdaşlıq rolunu oynamış, XXI əsrdə davamlı və hərtərəfli tərəfdaşlığın inkişafı istiqamətində hər iki tərəfin öhdəliyini əks etdirmişdir. ASEAN-Yaponiya təhlükəsizlik əlaqələrindəki bütün aşkar və görünməyən cəhətlər ayrı-ayrılıqda, hər bir problemlə əlaqəli şəkildə təhlil olunaraq, sonda bu münasibətlərin vəziyyəti, həmçinin, gələcək perspektivləri ilə bağlı tam təsəvvür yaradılmışdır.

NƏTİCƏ

XXI əsrdə Yaponiyanın ASEAN regionunda sabitliyin, inkişaf və tarazlığın qorunmasında böyük rolu danılmazdır. Yaponiya Cənub-Şərqi Asiyada təhlükəsizliyin təminatı sahəsində, bir çox cəhdlər etdi, ASEAN ölkələri ilə terrorizmlə, piratçılıqla mübarizə sahəsində bir sıra müqavilələr bağladı, müxtəlif forumlar keçirdi. Filippindəki ərazi münaqişələrinin həllində yaxından iştirakı isə onun beynəlxalq nüfuzunu daha da artırmış oldu.

Ədəbiyyat Siyahısı:

1. Joint Statement of the Ninth ASEAN-Japon Summit Deepening and Broadening Deepening and Broadening of ASEAN-Japan Strategic Partners Kuala Lumpur, 13 December 2005 https://www.mofa.go.jp/region/asia-paci/asean/conference/joint0512.html
2. Contextualizing Global Governance of Counterterrorism: ASEAN-Japan Cooperation in Southeast Asia, Jun Honna https://jcie.org/researchpdfs/ASEAN-Japan/NavChange/18.pdf, səh. 4
3. ASEAN-Japon defense cooperation ana exchange https://www.mod.go.jp/e/jdf/no38/specialfeature.html
4. Japan's Political and Security Relations with ASEAN, Nishihara Masashi, səh. 159
5. Взаимодействие Японии и АСЕАН в сфере обеспечения морской безопасности Юго-Восточной Азии, Свечникова Дарья Александровна https://cyberleninka.ru/article/

ÇİN-İRAN İQTİSADİ ƏMƏKDAŞLIĞINDA "BİR KƏMƏR – BİR YOL" LAYİHƏSİNİN ROLU

ÜLKƏR ƏLİYEVA –ABDULLAYEVA
AMEA / Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
aliyevaulker82@hotmail.com
AZƏRBAYCAN / BAKI

XÜLASƏ

İran-Çin münasibətlərində mühüm amil İran ərazisindən də keçən "İpək yolu iqtisadi kəməri" layihəsidir. Mövcud beynəlxalq siyasi və iqtisadi vəziyyətdə İran üçün bu layihənin reallaşdırılması vacib əhəmiyyət daşıyır. Məqalədə bu layihə çərçivəsində İran və Çin əlaqələri, həmçinin, Amerika Birləşmiş Ştatlarının bu münasibətləri pozmaq istiqamətində fəaliyyəti kontekstində iki ölkə münasibətlərində son durum nəzərdən keçirilmişdir.

Açar Sözlər: "Bir kəmər, bir yol", "İpək yolu iqtisadi kəməri", İran-Çin münasibətləri, İrana qarşı sanksiyalar

GİRİŞ

Çin iqtisadiyyatının davamlı inkişafı getdikcə enerji resurslarının daha çox sərfini tələb edir. Enerjiyə tələbatın artımı ildə 15 % təşkil edir və əminliklə demək olar ki, bu vəziyyət Çinin hələ sənayeləşmə mərhələsində olması səbəbi ilə dəyişməyəcəkdir. Lakin Çinin öz enerji resursları ehtiyatı kifayət qədər deyildir. Adambaşına enerji ehtiyatlarının düşən ehtiyatlarının səviyyəsi dünya səviyyəsindən aşağıdır. Çində sənayeləşmənin və urbanizasiyanın davam etməsi ilə əlaqədar olaraq, neft əsas enerji ehtiyatına çevrilir. Neft hasilatı ilə onun istehakı arasındakı fərq davamlı olaraq artır, bu isə ölkənin neft idxalından asılılığını artırır (11, 31). Bu ölkənin əsas neft mənbəyi Yaxın Şərqdir. Bu regionun digər ölkələri ABŞ müttəfiqləri olduğundan ABŞ-la ittifaqda olmayan və müstəqil siyasət yürütməyə çalışan İran Çin üçün ən uyğun əməkdaşdır. Beləliklə, Çin isə İranın neft və qaz mənbələrinə giriş əldə etməkdə, həmçinin, öz məhsulları və banklarının İran bazarına daxil olmasında maraqlıdır.

I FƏSİL. ÇİN – İRAN ƏMƏKDAŞLIĞININ ƏSASLARI VƏ "BİR KƏMƏR –BİR YOL LAYİHƏSİ"

Çinin "Yeni İpək yolu" layihəsi iki ölkə arasında iqtisadi əlaqələrdə xüsusi yer tutur. Çinlə ticarət və "Yeni İpək yolu" layihəsində iştirak İranı Qərbin təzyiqlərinə daha davamlı etmişdir. İran "Bir kəmər, bir yol" layihəsində cənub istiqamətində mühüm strateji mövqedə durur. Layihənin Çin, Yaxın Şərq və Avropanı birləşdirərək, Asiya-Sakit okean regionunu tədricən azad ticarət zonasına çevirməsi nəzərdə tutulur. Əgər layihə tam reallaşarsa, ABŞ-ın regiondakı iqtisadi təsiri sual altında qalacaq, İran kimi ölkələr isə Qərbin sanksiyalarından ehtiyat etməyəcəkdir.

Qeyd edək ki, İran və Çin Xalq Respublikası prezidentlərinin hələ Jakartada keçirilən görüşü zamanı ÇXR sədri Tszinpin "İpək yolu iqtisadi kəməri" və "XXI əsr dəniz İpək yolu" (ümumilikdə "Bir kəmər, bir yol") təşəbbüsləri üzərində xüsusi durmuşdu. Hələ o zaman Tszinpin təsdiq etmişdi ki, Çin İranla energetika sahədə uzunmüddətli və sabit əməkdaşlığı saxlamaq, sənayenin aparıcı sahələri və iki ölkə bazarları arasında arasında birbaşa əlaqələrin qurulması məqsədilə yüksək sürətli dəmir yolları, avtomobil yolları, tikinti materialları, toxuculuq məhsulları, telekommunikasiyalar, elektrik energetikası, inşaat texnikası və digər sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir (7).

O zaman ÇXR sədri Si Tszinpin və İran prezidenti Həsən Ruhani Jakarta görüşü gedişində ikitərəfli münasibətlərin inkişafına maraqları haqqında bəyanat verdilər.

Qeyd etmək lazımdır ki, Çin və İran arasında yüksək səviyyəli görüşlər artıq bir neçə il ərzində ənənə halını almışdı. 2013-cü ildə Si Tszinpin Şanxay Əməkdaşlıq Təşkilatının Bişkek sammiti çərçivəsində İran prezidenti Həsən Ruhani ilə görüş keçirmiş, bundan sonra iki ölkə liderləri dəfələrlə beynəlxalq toplantılarda görüşmüşdülər (8). 2014-cü ildə H.Ruhani Çinə səfər zamanı Asiyada etimad tədbirləri və qarşılıqlı fəaliyyət üzrə dördüncü sammitdə iştirak etmişdi (9).

İki ölkə arasında uzun müddətdir ki, əlaqələrin mövcudluğuna baxmayaraq, Çin qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinə 2015-2016-cı illərdə, İrana qarşı beynəlxalq sanksiyaların zəiflədilməsindən sonra başlamışdır. Belə ki, 2015-ci il, 14 iyul tarixində İran üçün tarixi bir hadisə baş verdi. Uzunmüddətli danışıqlar nəticəsində əldə olunan kompromissə görə, İran və "altılıq" ölkələri (BMT TŞ daimi üzvləri olan beşlik – Böyük Britaniya, Çin, Rusiya, ABŞ və Fransa və Almaniya) tərəfləri qane edən saziş bağladılar.

İranın nüvə proqramı üzrə Hərtərəfli Birgə Fəaliyyət Planı qəbul edildi və plan iyulun 20-də BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edildi (3). Müqaviləyə görə, sanksiyalar tədricən ləğv olunur, İran isə Maqate ekspertlərinə atom texnologiyalarının dinc məqsədlərlə istifadə olunduğuna əmin olmaları üçün öz nüvə obyektlərinə giriş icazəsi verirdi (5). 2016-cı ilin yanvar ayında İran İslam Respublikasına qarşı beynəlxalq sanksiyalar qismən ləğv olundu.

Qeyd olunan mühüm hadisədən sonra 2016-cı ildə ÇXR və İİR bütün sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan 10 illik biznes strtegiyasını imzaladılar.

ÇXR-nın sədri 22-23 yanvar, 2016-cı ildə İrana səfəri zamanı İslam Respublikası ilə strateji münasibətlərin əsasını qoydu. Xüsusilə, siyasət, iqtisadiyyat, hərbi sahə, mədəniyyət, atom energetikası və ətraf mühit sahələrində əməkdaşlığa dair 17 saziş imzalandı. Bu zaman 25 illik İran-Çin iş əməkdaşlığı strategiyası hazırlandı. İranın prezidenti Həsən Ruhani də bu strategiya barədə danışaraq yaxın onillik ərzində iki ölkə arasında ticarət dövriyyəsimim 600 milyard dollara çatacağını bildirdi və növbəti 25 il ərzində ikitərəfli strateji əməkdaşlıq planını elan etdi (4).

Bu səfər zamanı Si Tszinpin Çinin ənənəvi "qarışmamaq mövqeyi"ndən fərqli yanaşma nümayiş etdirdi. Bu, təkcə Çinin öz ticarət maraqlarını təminat altına almaq məqsədi ilə bağlı deyildi. Yaxın Şərq indi Çin üçün həddən artıq əhəmiyyətlidir və onu başqalarının iradəsinə təslim edə bilməz. Regionda xaosun yaranması Çin üçün mühüm itkilərə gətirə bilər və buna görə də Çin kənarda qalmaq zamanı olmadığını dərk edir. ABŞ və Rusiyanın artıq İran və Səudiyyə Ərəbistanı münasibətlərində tarazlayıcı rolu oynamadığı bir şəraitdə, ÇXR hər iki tərəflə normal münasibətləri olan qüvvə kimi özü bu boşluğu doldurdu (10).

Çin neft ixracında ləngiməyə gətirəcək hərbi toqquşmanın Çin iqtisadiyyatı üçün doğura biləcəyi mənfi nəticələrin qarşısını almağa çalışır. Lakin nəzərə almaq lazımdır ki, Çin regiondakı heç bir konfliktə cəlb olunmaq istəmir, onun buradakı maraqları yalnız iqtisadi səciyyə daşıyır. Tərəflərin heç biri ilə, o cümlədən, ABŞ da daxil olmaqla böyük dövlətlərlə münasibətlərinin tamamilə pozulmasına yol vermək istəmir.

Qeyd edək ki, ÇXR sədrinin 2016-cı il səfəri Çinin "Bir kəmər, bir yol" iqtisadi layihəsinin möhkəmləndirilməsi nöqteyi-nəzərindən də əhəmiyyət kəsb edirdi. Si Tszinpinin Yaxın Şərq ölkələrinə səfəri nəticəsində hər üç ölkənin rəhbərlərini "İpək yolu" layihəsinin vacibliyinə inandırdı və həm də bildirdi ki, "İpək yolu" ilə bağlı layihələri Çin maliyyələşdirəcək. Bu görüşlərdən sonra yenə neft və qaz ticarətinə əsas diqqət yetirildi. İran və Çin arasında neft-qaz sahəsində qarşılıqlı fəaliyyət fəallaşdı. Çinin neft hasilatçısı olan şirkətləri İran neft yataqlarınının istehlakını daha da genişləndirdi. İranda CNPCİ, China Offshore Oil Company və Sinopec kimi şirkətlər çalışırdı (5).

Çin İran iqtisadiyyatının nəqliyyat sahəsində öz iştirakını fəallaşdırdı. Qeyd edək ki, Çinin yeni İpək yolu təşəbbüsü çərçivəsində İrandan Pakistan vasitəsilə Çinə məhsullar daşınmasını nəzərdə tutan yollar çəkilişi barədə İranla razılaşmalar əldə edilmişdir. İki ölkə arasında İrandan Çinə doğru iki qaz kəməri layihəsi də nəzərdə tutulmuşdur.

Çin İran-Pakistan "Sülh" qaz kəmərinin inşasına 2,5 milyard dollar həcmində yatırımı təsdiqləyib. Qaz kəmərinin ümumi uzunluğu 1700 km-dir. İran artıq özünə aid 900 km-lik hissəni inşa etmişdir.

İranın qaz kəmərini Qvadar limanı ilə birləşdirmək və kəmərin Nəvabşaha (711 km) çatdırılması 2017-ci ilin axırınadək davam etdi (1). İranın Çindəki səfiri Əli Əsgər Haci hələ 2015-ci ilin aprelində "South China Morning Post" qəzetinə müsahibəsində qeyd etdi ki, İranın 5 illik müddət üçün nəzərdə tutulmuş inkişaf planının əsas hissəsi dəmiryolları şəbəkəsi, avtomobil yolları, limanlar şəbəkəsinin genişləndirilməsi, həmçinin telekommunikasiyalar və enerji təhlükəziliyinin inkişafına yönəlmişdir. Səfir İranın qaz kəmərlərinin Pakistan, Türkiyə və digər Yaxın Şərq ölkələrinin enerji şəbəkəsi ilə əlaqəli olduğunu da vurğuladı (7).

Səfir Əli Əsgər Hacinin sözlərinə görə, İran Çinin qlobal planı çərçivəsində neft və qaz kəmərlərinini və dəmiryolları şəbəkəsinin genişləndirilməsində əməkdaşlıq edəcək. O həm də qeyd etdi ki, inkişaf etməkdə olan ölkələr müvafiq infrastrukturun tikintisi üçün vəsaitə malik deyil. Onun sözlərinə görə, Çin bu cür layihələrə rəhbərliyi və onların istismarında əsas rolu bir qədər əvvəl yaradılmış Asiya İnfrastruktur Sərmayələr Bankına (AİİB) tapşırmağı nəzərdə tutur. Səfir bildirdi ki, "qaz kəməri bizim Pakistanla sərhəddimizə qədər uzadılmışdır. Mən əminəm ki, onun Pakistan vasitəsilə Çin sərhəddinə qədər uzadılması üçün heç bir çətinlik yaranmayacaq. Belə bir layihə bütün tərəflər - İran, Çin və Pakistan üçün maraqlıdır (7).

Çinin dövlət investisiya şirkəti "CITIC Group" 2017-ci ilin sentyabrında İİR-na dəmiryolları və avtomobil yollarının inkişafı üçün 10 milyard dollar həcmində kredit ayırdı. Qeyd edək ki, Çin məhsullarının mühüm

hərəkət marşrutlarından biri Qırğızıstan, Özbəkistan, İran və Türkiyədən keçir, bu marşrutun son nöqtəsi Almaniyadır.

2016-cı ilin fevral ayında Çin-Qazaxıstan-Türkmənistan-İran dəmiryol marşrutu işə başladı. Sonra isə bu yolun Ermənistan və Azərbaycandan da keçecəyi nəzərdə tutulmuşdu. Bu yolla da İran Çinlə kəsilməz, davamlı əmtəə mübadiləsinə nail olacaq, həm də tranzit ölkə kimi gəlir də əldə edəcək. Həmin ildə analitiklərin şərhlərində əsas fikir ondan ibarət idi ki, Vaşinqtonun sanksiyalarla bağlı qərarının necə olmasına baxmayaraq, İran üçün xüsusilə ağır nəticələrə gətirib çıxarmayacaq. Çinlə ticarət və "Yeni İpək yolu" layihəsində iştirak İranı Qərbin təzyiqinlərinə daha davamlı etmişdir (5).

Yenilənməsi üçün Çin tərəfindən İrana 1,5 milyard dollar borc ayrılmış Tehran-Məşhəd dəmir yolunun mühüm hissəsi – həm İranın "Bir kəmər-bir yol" layihəsinə daxil olan dəmiryol xəttinin Mərkəzi Asiya qanadı (Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan), həm də Türkiyə istiqamətində yönələn, sonra isə Avropaya istiqamətlənmiş qərb dəmiryolu qanadı ilə birləşir. Bundan əlavə, İran Çin və Pakistan arasında iqtisadi koridora qoşulmağa hazır olduğunu ifadə etmişdir.

İranın "Bir kəmər-bir yol" layihəsində iştirak nəticəsində əldə edəcəyi faydalardan danışarkən, bu "investisiyalar"ın nə zamansa ödənilməsi zəruri olan borclar olduğunu da unutmamaq lazımdır. Bundan əlavə, sazişlərdə tikinti işlərinə çinli fəhlələrin cəlb edilməsi, müqavilələrin icrasının Çin firmalarına verilməsi və s. kimi şərtlərin mövcudluğu diqqəti cəlb edir.

II FƏSİL. AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÇİN-İRAN İQTİSADİ ƏMƏKDAŞLIĞINDAN NARAZILIĞI VƏ AMERİKANIN ETİRAZLARININ İKİ ÖLKƏ ARASINDA ƏLAQƏLƏRƏ TƏSİRİ

İki ölkə əlaqələrində böyük miqyaslı layihələr və planlarla yanaşı, son dövr hadisələrini də nəzərdən qaçırmamaq lazımdır. Bu hadisələr fonunda İran və Çin arasında yaxınlaşmanın qısa müddətli, müvəqqəti yaxud uzunmüddətli bir əlaqə olacağı müzakirə obyektidir. Belə ki, ABŞ 2018-ci ildə birtərəfli qaydada İranın nüvə proqramı üzrə müqavilədən (2015-ci ildə bağlanmış) çıxaraq İrana və onunla biznes əlaqələri olan ölkələrə qarşı sanksiyaları daha da gücləndirdi. Belə bir şəraitdə Pekin və Vaşinqton arasında iqtisadi ziddiyyətlər də ticarət müharibəsi adlanacaq qədər gərgin həddə çatdı. Bu vəziyyət Çinin İranla münasibətlərinə öz mənfi təsirini göstərməyə başladı. Vaşinqtonun təzyiqi üzündən Pekin bu münasibətlərin genişləndirilməsini ləngidir.

ABŞ və Çin aralarındakı ticarət müharibəsini tənzimləməyə çalışdıqları müddətdə danışıqların gündəliyində Amerikanın Çindən İran neftinin idxalını dayandırmaq tələbi dururdu. Əgər Pekin Birləşmiş Ştatlarla Vaşinqtonun təklif etdiyi şərtlərlə ticarət müqaviləsi imzalayardısa, İran-Çin münasibətlərinə və İran neftinin ixracına zərbə vurulmuş olacaqdı. İqtisadi nöqteyi-nəzərdən, İrandan neft idxalının tam dayandırılması Çin üçün faydalı deyildir, çünki, İran çoxsaylı regional böhranlar (məsələn, Liviya, Əlcəzair, Venesuela və Anqolada daxili xaos və vətəndaş müharibələri ilə bağlı yaranan böhran şəraitində neft hasilatının azalması) fonunda mühüm və etibarlı neft təchizatçısı olaraq qalır (6). Buna baxmayaraq, biznes media şirkəti "Bourse & Bazaar"ın 2019-cu ilin yanvar ayında Çinin gömrük məlumatları ilə bağlı araşdırmasına görə, Çinin İrana məhsul ixracı noyabr-dekabr ayları arasında 70% azalmışdı. Eynilə, Radio Fərda tərəfindən yayımlanan İran gömrük məlumatlarına əsasən, İranın Çinə ixracatında illik 12 % enmə müşahidə olunmuşdu. Bundan əlavə, əvvəlcə Çinin Kunlun Bankının İranla ticarət əlaqələrini dayandırması və bunun ardınca 2018-ci ilin dekabrında humanitar məhsullar ticarətinin məhdudlaşdırılması barədə qərarını açıqlaması Pekinin hələ ki, ABŞ-ın istəkləri istiqamətində hərəkət etdiyini göstərirdi (2). Çin-ABŞ ticarət müharibəsi zamanı Çinin İrandan neft alışını müvəqqəti dayandırdığına dair məlumatlar da mövcuddur. Buna baxmaraq, 2021-ci ilin mart ayında 25 illik İran-Çin strateji əməkdaşlıq sazişi imzalandı.

TƏDQIQAT METODU

Məqalədə Çin və İran arasında iqtisadi əlaqələrin əsas istiqamətlərini, "Bir yol-bir kəmər" layihəsinin bu münasibətlərdəki rolunu müəyyən etmək üçün əsas mənbələr, elmi ədəbiyyat əsasında faktlar, müxtəlif fikirlər və mütəxəssis rəyləri müqayisə edilərək məniqi nəticə çıxarılmışdır. İki ölkə arasındakı iqtisadi əlaqələr, qeyd olunan layihə əsasında Çinin İranla əməkdaşlığı və bunun tərəflər üçün əhəmiyyəti təhlil olunaraq, sonda bu münasibətlərin vəziyyəti, həmçinin, gələcək perspektivləri ilə bağlı tam təsəvvür yaradılmışdır.

NƏTİCƏ

Pekin Qərbin düşmənçilik kimi dəyərləndirəcəyi qətiyyətli addımlar atmaq niyyətində deyil. Çinin xarici siyasət strategiyası çox güclü rəqiblə bir başa qarşıdurmadan yayınmaq məqsədi daşıyır və maksimal sayda əməkdaşlar cəlb etməklə ölkə iqtisadiyyatının yüksəldilməsinə üstünlük verir. Çin həm İran, həm də ABŞ-la münasibətləri tənzimləmək istiqamətində siyasət yürüdür, ortaq məxrəc axtarışındadır.

Ədəbiyyat Siyahısı:
1. Cavlah K. ABŞ İran-Pakistan-Çin iqtisadi əməkdaşlığını pozmağa çalışır, REGNUM IA, 29.07.2016- http://strateq.az/manshet/81594/rus-n%C9%99sri-abs-iran-pakistan-cin-iqtisadi-%C9%99m%C9%99kdasliq-ucbucagini-pozmaga-can-atir.html
2. Dinmuhammed A. İran-Çin ilişkilerinde son durum/ ANKASAM (Ankara Kriz ve Siyaset Araştırmaları Merkezi), 2 Haziran, 2019, https://ankasam.org/iran-cin-iliskilerinde-son-durum/
3. Kəmalvənd B. "Saziş pozulsa, İran nüvə proqramını davam etdirəcək", 18 iyul 2018 - http://deyerler.org/410344-behruz-kjmalvjnd-vsazie-pozulsa-dran-ngvj-proqramdnd-davam-etdirjcjkv.html
4. Амин-Абади С.М. Кто стратегический союзник Китая на Ближнем Востоке: Иран или Саудовская Аравия?/ FARS News agency, 03.03.2016 - http://inosmi.ru/politic/20160303/235617841.html,(7.10.2016).
5. Бокарев Д. «Новый Шелковый путь» уведет Иран от западных санкций, https://ru.journal-neo.org/2016/12/16/novy-j-shelkovy-j-put-uvedet-iran-ot-zapadny-h-sanktsij/, (12.09.2020)
6. Готов ли Китай поддержать Иран в противостоянии с США?, Москва, 14 мая - "Вести.Экономика". 11 сентября 2019, https://www.vestifinance.ru/articles/119144, (24.09.2020)
7. Иран в обьятиях Китая: дороги и газопроводы построим, http://www.vestifinance.ru/articles/56514, (24.04.2015).
8. Иран-Китай: грандиозный дипломатический прорыв редакционная статья, http://www.noravank.am/rus/news/detail.php?element_id=14383, (26.01.2016)
9. Обзор: Китай и Иран -- проверенные временем старые друзья, Тегеран, 21 января /Синьхуа/, http://russian.news.cn/2016-01/21/c_135032331.htm
10. Как меняется позиция КНР на Ближнем Востоке?- http://www.trt.net.tr/russian/programmy/2016/02/02/kak-mieniaietsia-pozitsiia-knr-na-blizhniem-vostokie-426346, (24.09.2020)
11. Ли Чуаньсюнь, Энергетическая стратегия Китая на период до 2020 г//Таможенная политика россии на Дальнем Востоке, № 1(46)/2009, s.31-34

LİVAN BÖHRANINDA ŞİƏ AMİLİ

Aydan Rzayeva
Bakı Dövlət Universiteti
Magistratura/Yaxın və Orta Şərq ölkələri tarixi
Aydan.rzayeva.adıgozal@bsu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
1979-cu ildə İranda İslam İnqilabının baş verməsi ilə regionda müxtəlif dövlətlərin daxilində yaşayan şiələr təşkilatlanmağa başladı. Ərəb-İsrail müharibələrinin gedişində fələstinli qaçqın problemi ilə üzləşən və 70-ci illərdə bir tərəfdən Suriya və İsrailin işğallarına məruz qalan, digər tərəfdən isə daxildə vətandaş müharibəsi ilə təhlükəli siyasi böhran yaşayan Livanda İran inqilabının təsiri ilə yeni siyasi qüvvə "Hizbullah" təşkilatı meydana çıxdı. Suriya rəsmi şəkildə Livan böhranını həll etməyə çalışdığını bildirsə də, əslində Livanın şiə əhalisini istifadə edərək sülh prosesinə mane olmaq siyasəti yeridirdi. İran isə umumiyyətlə Hizbullah vasitəsi ilə İsrailə qarşı hərbi əməliyyatlar keçirərək Ərəb-İsrail sülh danışıqlarını pozmağa çalışırdı. Şiə amili bəhs etdiyimiz hər iki dövlət üçün Yaxın Şərq siyasətinin əsasını təşkil edirdi. Bu baxımdan tədqiqat işi böyük əhəmiyyət və aktuallıq kəsb edir.
Açar Sözlər: Suriya, şiə müqavimət hərakatı, Livan böhranı

GİRİŞ

İsrail Livanın cənubunu ilk dəfə işğal edərkən Livanın şiə əhalisi İsrail qüvvələrini şiə icmasını fələstinlilərdən qurtaracaq xilaskar kimi qarşıladı. Lakin İsrailin maronilərlə müttəfiq olması və S. Həddadın başçılığı ilə cənubi Livanda maroni hakimiyyətini qurmaq cəhdləri şiələrin mövqeyini dəyişdirdi. [8, s. 396-397].

1979-cu ildə İran inqilabı ilə şiəliyin radikal forması hakimiyyətə gəlməsi bütün dünyada şiə toplumunun güclənməsinə səbəb oldu. Hizbullah 1982-ci ildə İranda Ayətullah Xomeyninin mənəvi və siyasi rəhbərliyi altında qlobal şiə oyanışının ayrılmaz tərkib hissəsi kimi Livanda meydana gəldi. Şiə dirçəlişi Suriyanın Livan üzərində hökmranlıq etmək məqsədinə potensial təhlükə yaratsa da, prezident H. Əsəd Livandakı şiə amilini öz xeyrinə istifadə edə bildi. İlk öncə Suriya rejimi Tehrandakı İslam hökumətinə şiələrin təşkilatlandırılması üçün Livanın Beqa vadisində İnqilab Keşikçiləri Korpusunun 1500 üzvünün yerləşməsinə icazə verdi. H. Əsəd 1982-ci ildə Suriyanın Beqa vadisinə nəzarət etməsindən İsrailə və Livanda bazalar qurmuş Qərb sülhməramlı qüvvələrinə qarşı şiə müqavimət hərəkatı üçün başlanğıc meydançası kimi istifadə edərək vəziyyəti nəzarətə götürə bildi. İsrailin Livanda Fələstin Müqavimət hərəkatının hərbi imkanlarını məhv edib FAT-ın Livandan çıxarılmasına nail olmasına baxmayaraq, Suriya şiə radikalizmi vasitəsi ilə daha təsirli müttəfiq tapdı. Suriya Kəşfiyyat Xidməti iranlı hərbi ekspertlərin və dini təlimatçıların Livana daxil olmasına şərait yaratdı. [5, s. 480-482] H. Əsədin İran ilə olan müttəfiqliyi Ərəb dövlətlərinin tənqidinə səbəb olsa da, bu, Suriyaya ən çox ehtiyacı olduğu problemdə yəni, İsrailə qarşı mübarizədə öz bəhrəsini verdi. [8, s. 396-397]

ABŞ-ın hərbi dəniz piyadalarını Livanda saxlamaqda maraqlı olması Suriyanın Livan ilə bağlı planlarını həyata keçirməsinə çətinliklər törədirdi. 1983-cü il ABŞ Nümayəndələr Palatasının və Senatın müvafiq olaraq 28 və 29 sentyabr tarixlərində ABŞ dəniz piyadalarının Livanda 18 ay qalmasına razılıq verən qərarı H. Əsədi narahat etdi. Çünki, ABŞ hərbi qüvvələri Livanda nə qədər uzun müddət ərzində qalardısa, Amerikalı hərbiçilərdən təlim görmüş Livan ordusu da bir o qədər güclənmiş olurdu. Beləliklə, H. Əsəd həm ABŞ dəniz piyadaları, həm də Livandakı Çoxmillətli Qüvvələrin (ÇQ) Fransa kontingentinə qarşı oktyabrın 23-ü Hizbullahı istifadə edərək terror əməliyyatı təşkil edir. Nəticədə, ABŞ dəniz piyadalarından 241 nəfər öldü, 70 nəfər yaralandı, Fransa Xarici Legionundan isə 58 nəfər öldü, 15 nəfər isə yaralandı. Bu terror hadisəsi ilə Suriya ABŞ və Fransaya aydın şəkildə mesaj göndərirdi ki, Livanın Suriya nəzarətindən çıxmaq cəhdi dəstəklənməməlidir. H. Əsədin Livanda əsas müttəfiqlərindən olan V. Cumbulat oktyabrın 24-də bildirdi ki, "ABŞ hökumətinin prezident Ə. Cmayilin falanqaçılarını dəstəkləyərək, Ərəb və İslam dünyasına qarşı düşmənçilik siyasətini davam edəcəksə bu terror əməliyyatları yenidən təkrarlana bilər". V. Cumbulatın sözlərindən də aydın olur ki, terror hadisəsinin baş verməsinin əsas səbəbi ABŞ-ın Suriyanın maraqlarına zidd olaraq Livan hökumətini dəstəkləməsi idi. [2, s. 91-92] Eyni gün ABŞ prezidenti R.Reyqan "Bizim Livanda həyati maraqlarımız var" deyərək Livanda yerləşdirilmiş ABŞ qüvvələrinin bu ölkədə qalacağını bildirir. Belə olduğu halda dekabrın əvvəllərində ABŞ qüvvələri və Suriya arasında toqquşmalar başladı. Dəməşq Livan səmasında ABŞ-ın F-14 kəşfiyyat təyyarəsi də daxil olmaqla 3 təyyarəsini vurdu və bir hərbiçini əsir götürdü. ABŞ isə cavab olaraq Suriyanın Livandakı mövqelərini atəşə tutdu. [1, s. 219-220] Dekabrın 28-də Barışıq və Təhlükəsizlik Komitəsinin atəşkəs elanı etməsindən sonra ABŞ-Suriya arasında olan ziddiyyətli vəziyyət nisbətən normallaşdı. Reyqanın xristian və israilpərəst Ə. Cmayili dəstəkləməsi ABŞ-ın neytral sülhməramlı imicinə zərbə vuraraq Livanın anti-Cmayil və anti-İsrail mövqeyindən çıxış edən qrupların Dəməşqə meyillənməsinə səbəb oldu. [7, s. 665] Livan hökuməti 5 yanvar 1984-cü ildə Falanqaçıların Livan Qüvvələri, Amal və Druz qüvvələri ilə bağlı Suriya və İsrailin də razılıq verdiyi döyüşən qüvvələrin ayrılmasını nəzərdə tutan "döyüşdən çıxma planı"nı təsdiq etdiyini açıqladı. Bu plana əsasən Livan ordusu Beyrutun həm şimalında, həm də cənubunda təxminən 30 millik ərazidə yerləşən sahilyanı zolaq üzərində hakimiyyətini bərpa etməli idi. Həmçinin Livan hökumətinin təhlükəsizlik qüvvələri cənubi Beyrutda yerləşən şiə məhəllələrində patrul xidməti göstərməli idi. Lakin, Beyrut və onun ətrafında, həmçinin Tripoli şəhərində davam edən döyüşlər planın reallaşdırılmasını gecikdirdi.

Yanvarın 10-da Əl-Riyadda Livanda münaqişənin sona çatması üçün müzakirələrə başlandı. Suriya Livan hökumətinin ratifikasiya etmədiyi ayrılma plandan imtina edilməsi mövqeyindən çıxış edirdi. Fevralın 1-də Suriya rejiminin müttəfiqi V. Cumbulat da öz növbəsində Livan hökumətinin döyüşdən çıxma planını "vaxt itkisi" adlandırdı. [2, s. 135-137] Livan ordusunun Beyrutda şiələrin olduğu əraziləri bombardman etməsi Amal və Cumbulat ilə Livan hökuməti arasında toqquşmalara səbəb oldu və Qərbi Beyrut Şiə və Druz qüvvələri tərəfindən tutuldu. Beləliklə, druzların və Amal milislərinin əhatəyə aldığı Livan hökumətinə dəstək verən Çox Millətli Qüvvələrin Amerika və Fransa qoşunlarının Livanı tərk etməkdən

başqa çarəsi qalmadı. [3, s. 187] 7 fevral 1984-cu ildə isə Reyqan 1400 dəniz piyadasının Livandan mərhələli şəkildə geri çəkiləcəyini açıqladı və fevral ayının sonu ABŞ qüvvələri Livanı tərk etdi. Beləliklə, ABŞ-ın Livandakı siyasəti iflasa uğradı. [7, s. 219-220] Bu xəbərdən sonra, İranın dini lideri Ayətullah Xomeyni Livandakı şiələri təbrik edərək bildirdi ki, ABŞ-ın Livanı tərk etməsi Hizbullahın qələbəsidir. [2, s. 140] Lakin, ABŞ və Fransa qüvvələrinin Livanı tərk etməsinə baxmayaraq H. Əsəd Livan ilə bağlı maraqlarının təmin etmək üçün Hizbullah qüvvələrindən istifadə edərək amerikalıları və fransızları sıxışdırmağa davam edirdi. [2, s. 102]

Livanda döyüşən qüvvələr arasında barışıq danışıqlarının növbəti raundu 1984-cü ilin martın 12-də prezident Ə. Cmayilin sədrliyi ilə İsveçrənin Lozanna şəhərində başladı. İştirakçılar dərhal atəşkəs qərarı verdilər və bir-birinə qarşı döyüşən fraksiyaların ayrılmasına nəzarət etmək üçün Yüksək Təhlükəsizlik Komitəsi yaratdılar. Ə. Cmayil 27 bənddən ibarət barışıq planını təqdim etdi. Plana əsasən, Parlament tərəfindən seçilən Baş Nazirin səlahiyyətlərinin artırılması, xristian və müsəlman deputatların bərabər şəkildə təmsil olunmasının təmin edilməsi kimi yeniliklər nəzərdə tutulmuşdu. Lakin həm Amalın lideri N. Berri, həm də V.Cumbulat bu proqramı rədd etdilər. İştirakçılar növbəti iclasda 32 nəfərdən ibarət milli barışıq və konstitusiya islahatı komissiyasının yaradılması və növbəti 6 ay ərzində Beyrutda yenidən görüşmək barədə razılığa gəldikər.

Lakin, Livan hökuməti tərəfindən atılan addımlara və ciddi səylərə baxmayaraq daimi atəşkəs əldə etmək və böhrandan çıxmaq cəhdləri uğursuzluqla nəticələndi. Çünki, Suriya rəsmi şəkildə təklif olunan təhlükəsizlik planlarını dəstəkləsə də, N. Birri və V.Cumbulat vasitəsi ilə bu planları gizli şəkildə alt-üst edirdi. H. Əsədin Livan ilə bağlı əsl məqsədi Livandakı əsas müttəfiqlərinin Suriya qoşunlarının Beyrut kimi münaqişə bölgələrinə qaytarılmasını tələb etməsi idi. Belə ki, aprelin 10-da Livanın Prezidenti S. Franjye bildirdi ki, "Livan probleminin yeganə həlli Suriya qoşunlarının geri qayıtmasıdır", 2 gün sonra V. Cumbulat da oxşar sözlərdən istifadə edərək "döyüşlərə son qoymaq üçün Suriya qüvvələrinin geri qayıtmasını" təklif etdi. [2, s. 103-104] Davam edən döyüşlər prezident Ə. Cmayili Yüksək Təhlükəsizlik Komitəsinin iclasını çağırmağa məcbur etdi. Aprelin 18-də keçirilən Yüksək Təhlükəsizlik Komitəsinin iclasında döyüşdən çıxma planının icrası qərara alındı və atəşkəs qəbul edilərək qarşılıqlı düşmənçilik təbliğatlarına son qoyulması çağırışları səsləndirildi. [6, s. 138-140]

Livan hökuməti və İsrail arasında 1984-cü ilin sonlarına doğru başlayan danışıqlar prosesi 1985-ci ilin yanvar ayı boyunca da davam etdi. Livanlılar müzakirələr zamanı İsrail qoşunlarının cənubi Livan ərazilərindən geri çəkilməsi üçün dəqiq vaxt cədvəli tələb edirdilər və BMT sülhməramlı qüvvələrinin cənubi Livanın böyük bir hissəsini əhatə edən hərbi mövcudluğunun davam etməsini Livan hökumətindən asılı olduğunu müdafiə edirdilər. Yanvarın 14-də İsrail hökuməti qoşunlarını altı-doqquz ay müddətində üç mərhələli cənubi Livandan geri çəkilmə planını qəbul etdi. Bu qərar ilə cənubi Livan ərazilərini əhatə edən İsrail tərəfindən dəstəklənən "Azad Livan Dövləti" getdikcə zəifləməyə başladı və 1985-ci ildən etibarən İsrail qoşunları mərhələli şəkildə geri çəkilməyə başladı. Cənubi Livanda öz hakimiyyətini və mövqeyini bərqərar etmək məqsədi ilə Amal, dirçəlməyə çalışan Fələstin təşkilatları, Hizbullah və Mütərəqqi Sosialist Partiyası arasında rəqabət get-gedə artaraq şiddətli toqquşmalara meydan aşdı. [3, s. 195] Beləliklə, FAT-ın yaranmış vəziyyətdən istifadə edərək Qərbi Beyrutda yenidən möhkəmlənmək cəhdləri və FAT-ın üzvləri fələstinlilər arasında yenidən təşkilatlanma işləri aparmağa başlaması Amal ilə fələstinlilər arasında gərginliyə səbəb oldu. Mayın 20-də Amal şiə təşkilatı fələstinlilərin yaşadığı Səbrə, Şətilə və Burc əl-Barajiyah düşərgələrinə hücum edərək "düşərgələr müharibəsi"nə başladı. N. Birri fələstinlilərə qarşı hərəkətlərinə haqq qazandırmaq demişdi, "Biz FAT-ın geri qayıtmasına icazə verməyəcəyik". Amal Suriyanın təzyiqi ilə Fələstin düşərgələrinə hücum etsə də, Suriyanın vitse-prezidenti Xaddam münaqişənin başlamasında FAT-ı günahlandırdı və qeyd etdi ki, "Suriya Ərafatın Livandakı qaçqın düşərgələrindən istifadə edərək Suriyanın rolunu sabotaj etmək üçün istifadə edilməsinə imkan verməyəcək". [2, s. 108]

Livan və Suriya hökumətləri may ayının sonlarında Qərbi Beyrutda başlayan döyüşlərin və təhlükəsizlik problemlərinin öhdəsindən gələ bilmək üçün Ə. Cmayil və H. Əsəd "Dəməşq Planı" adlanan siyasi və hərbi həlldən ibarət yeni sülh planı hazırladılar. İyunun sonlarında Dəməşq Planını həyata keçirmək üçün Suriya rejimi tərəfindən bəzi addımlar atıldı. İlk növbədə, Amalın fələstinlilərə qarşı başladığı düşərgələr müharibəsinin qarşısı alındı. Sülh prosesini gücləndirmək üçün Suriya hökumətinin təşkilatçılığı ilə iyulun 7-dən 10-dək Dəməşqdə Livan müsəlmanlarının sammiti keçirildi. Livanın baş naziri Rəşid Kəraminin sədrliyi ilə keçirilən sammitdə N. Berri, V. Cumbulat, həmçinin şiə və druzların ruhani liderləri və sünnilərin baş müftisi Şeyx Həsən Xalid iştirak etdilər. R. Kərami bu təhlükəsizlik layihəsinin həyata keçirilməsinə nəzarət edəcək bir komitənin yaradılması mövqeyindən çıxış etdi. Lakin, Suriya rejiminin təsiri altında Livan siyasətçilərinin sülh planını qəbul etməsinə nail ola bilmədi və buna görə də o, əsas

diqqətini Livandakı yaxın müttəfiqləri və aparıcı hərbi qüvvəyə malik təşkilatların liderləri: N. Berri, V. Cumbulat və Ə. Hobeykaya yönəltdi. Suriya sentyabrda Dəməşqdə Amal, Mütərəqqi Sosialist Partiyası və Livan Qüvvələrinin rəhbərlərinin görüşünü təşkil etdi və oktyabrın 17-də Dəməşq sülh planının 2 hissədən ibarət mətnini radio vasitəsi ilə ictimaiyyətə yayımlandı. Layihənin siyasi hissəsində maronit hegemonluğuna son qoymaq, siyasi məzhəbçiliyin ləğvi və dünyəvi idarəçilik sisteminə keçid üçün 3 illik keçid dövrü müəyyən edilirdi ki, bu müddət ərzində Livanın rəhbərliyi qorunmalı idi. Parlamentdəki deputatların sayı 99-dan 142-yə qaldırılaraq xristian və müsəlmanlar arasında bərabər şəkildə bölünməli idi. Lakin, sülh planının son versiyasında prezidentin səlahiyyətlərinin məhdudlaşdırılmasının nəzərdə tutulmasını əsas gətirən Ə. Cmayil razılaşmanı tənqid etdi və yeni bir razılaşma əldə etmək üçün daşıqlara başlamağı tələb etdi. Eyni zamanda, LQ Komandanlıq Şurasının mövcud məzhəb sistemindən dünyəvi sistemə keçidin 3 ildən 20 ilə qədər uzadılmasını təkidlə istəməsi və tərəflərin ortaq məxrəcə gələ bilməməsi ilə noyabrın 11-də H. Əsədin bu cəhdi də uğursuzluqla nəticələnmiş oldu. [4, s. 118-119]

TƏDQİQAT METODU

Tədqiqat zamanı tarixi təsvir, məntiqi müqayisə həmçinin analitik metodlardan istifadə olunmuşdur. Ümumilikdə isə işin metodoloji əsası obyektivlik və tarixilik prinsiplərinə əsaslanır.

NƏTİCƏ

Livanda vətəndaş müharibəsi və siyasi böhranın analizi Yaxın Şərq regionunda baş verən tarixi prosesləri anlamağa və regional dövlətlərin xarici siyasətlərinin, eyni zamanda beynəlxalq arenada baş verən gərginliklərin, balanslaşdırma və təsir qücünü genişləndirmək cəhdlərinin ayrı-ayrı dövlətlər daxilində münaqişə ocaqlarını alovlandırmasının səbəblərini düzgün təhlil etmək şansı verir.

Ədəbiyyat Siyahısı:

1.Andersson M. S, Waage H. H. Stew in their own juice: Reagan, Syria and Lebanon, 1981-1984, Diplomatic History, volume 44, issue 4, 2020, pages 664-691
2.Deeb M. Syria's terrorist war on Lebanon and the peace process. Palgrave Macmillan, New York/the USA. 2003: 1-285
3.Harris W. Faces of Lebanon: sects, wars, and global extensions. Markus Wiener Publishers, Princeton/the USA, 1997, 1-354
4.Hiro D. Lebanon: fire and embers: a history of the Lebanese civil war. St. Martin's Press, New York/ the USA, 1993, 1-298
5.Nizameddin T. Squaring the Middle East Triangle in Lebanon: Russia and the İran-Syria-Hezbollah Nexus, The Slavonic and East European Review, volume 86, No 3, 2008, pages 475-500
6.O'Balance E. Civil war in Lebanon, 1975-92. Palgrave Macmillan, New York/the USA. 1998, 1- 234
7.Schenker D. America and the Lebanon Issue, The middle east in focus. Lebanon: Liberation, Conflict, and Crisis, 2009, pages 213-237
8.Seale P. Asad: The struggle for the middle east. I.B. Tauris&Co Ltd, London/Great Britain. 1988: 1-552

MƏHƏMMƏD BİRİYANIN SİYASİ BİOQRAFİYASI

Xaqan Balayev
Bakı Mühəndislik Universiteti
"Ümümi fənlər" kafedrası, dosent
xabalayev@beu.edu.az
Xırdalan, Azərbaycan

XÜLASƏ

Məhəmməd Biriya Cənubi Azərbaycan milli-demokratik hərəkatının (1941-1946) ən məşhur siyasi xadimlərindən biri olmuş, 1944-1945-ci illərdə İran Azərbaycanı Birləşmiş Həmkarlar İttifaqlarının sədri olmuş, Cənubi Azərbaycan Milli Məclisinin deputatı seçilərək, Milli hökumətdə maarif naziri vəzifəsini tutmuşdu. 1946-cı ilin dekabrında İran ordusu tərəfindən Cənubi Azərbaycanda milli-demokratik hərəkat məğlub edildikdən sonra Məhəmməd Biriya ADF-nin müvəqqəti sədri kimi gizli iş aparmaq üçün bir müddət Təbrizdə qalandan sonra təhlükəsizliyinin təmin olunması üçün 1947-ci ilin mart ayında gizli yolla Bakıya gətirilmiş, Azərbaycan K(b)P MK-nın sərəncamı ilə Respublika Partiya Məktəbinə qəbul olunmuşdu. Lakin Sovet İttifaqında gördüyü ədalətsizliklərə qarşı barışmaz mövqe tutduğu üçün dəfələrlə həbslərə və təqiblərə məruz qalmışdı.

Açar sözlər; Məhəmməd Biriya, Cənubi Azərbaycan, milli-demokratik hərəkat, İran, Sovet İttifaqı, Azərbaycan SSR.

GİRİŞ

Məhəmməd Biriya (Bağırzadə) 1914-cü ildə Təbrizdə dülgər ailəsində anadan olmuşdu. 1920-ci ildən 1931-ci ilədək ailəsi ilə birlikdə Bakıda yaşamış, 1929-cu ildə yeddiillik təhsili başa vurandan sonra ilyarım ərzində Bakı Neft Maşınqayırma Texnikumunda oxumuşdu. İran vətəndaşları olduqlarına görə 1931-ci ildə SSRİ-dən çıxarılaraq, ailəsi ilə İrana qayıtdıqdan sonra Təbrizdə orta təhsilini başa vurmuş, bir neçə ay "Şahin" qəzetinin redaksiyasında korrektor, 1934-1938-ci illərdə Təbriz şəhər idarəsində qeydiyyatçı işləmişdi. 1938-1939-cu illərdə İran ordusunda hərbi xidmətdə olmuşdu. Sonra yenə şəhər idarəsində su şöbəsində katib, 1941-ci ildən dəmir yolunda hesablayıcı işləmişdi. 1941-ci ildən Biriya ciddi siyasi fəaliyyətə başlamış (həmin ilin yayında sovet ordusu Almaniyanın İranda güclənməsinə yol verməmək üçün İrana daxil olmuş və Cənubi Azərbaycanda 1941-1945-ci illəri əhatə edən milli-demokratik hərəkatın birinci mərhələsi başlanmışdı), antifaşist hərəkatının təşkilatçılarından biri olmuşdu. Onun alovlu şeir və məqalələri Qızıl Ordunun "Vətən yolunda" qəzetində dərc edilirdi. Bu zaman Biriya artıq Cənubi Azərbaycanda İran Xalq Partiyasının xadimlərindən biri idi.

İran hökuməti tərəfindən təqiblərə məruz qaldığına görə 1942-ci ilin aprel ayında ailəsi ilə birlikdə Sovet İttifaqına mühacirətə gələn Biriya Bakıda yaşayaraq, radio verilişləri idarəsində işləyir. Sovet vətəndaşlığına qəbul olunmaq üçün müraciət etsə də, sonra bu fikrindən vaz keçərək, təkidlə İrana qayıtmaq haqqında məsələ qaldırmış, İranın Bakıdakı konsuluna rəsmi ərizə ilə müraciət etmişdi. 1943-cü ilin yanvar ayında ailəsi ilə birlikdə (həyat yoldaşı, atası, ögey anası, üç bacısı və bir qardaşı) İrana qayıdan Biriya yenidən siyasi həyata qoşulmuş, Cənubi Azərbaycanın istiqlaliyyəti uğrunda fəal mübarizəyə başlamışdı.

Məhəmməd Biriyanın siyasi fəaliyyəti və ona qarşı repressiyalar. Azərbaycan Demokrat Firqəsinin yaradılmasında fəal iştirak edən Biriya 1944-1945-ci illərdə İran Azərbaycanı Birləşmiş Həmkarlar İttifaqlarının sədri olmuş, Cənubi Azərbaycan Milli Məclisinin deputatı seçilərək, Milli hökumətdə maarif naziri vəzifəsini tutmuşdu.

Hərəkatın məğlubiyyətindən sonra ADF-nin müvəqqəti sədri kimi gizli iş aparmaq üçün bir müddət Təbrizdə qalandan sonra təhlükəsizliyinin təmin olunması üçün 1947-ci ilin mart ayında gizli yolla Bakıya gətirilmiş, Azərbaycan K(b)P MK-nın sərəncamı ilə Respublika Partiya Məktəbinə qəbul olunmuşdu. Həmin il dekabrın 27-də ailəsinə qovuşmaq məqsədilə İrana qayıtmaq üçün İranın Bakıdakı konsuluna müraciət edəndən sonra Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin rəsmi nəzarəti altında saxlanılaraq, 1948-ci il avqustun 11-də həbs olunmuş, barəsində Azərbaycan SSR CM-nin 68-ci maddəsinin 1-ci bəndi (casusluq) ilə cinayət işi qaldırılmışdı. Həmin il noyabrın 27-də SSRİ Dövlət Təhlükəsizlik Nazirliyi (DTN) yanında Xüsusi Müşavirə tərəfindən 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. Məhbuslar arasında antisovet təbliğatı apardığına görə 1950-ci il dekabrın 31-də düşərgə məhkəməsi tərəfindən ona RSFSR CM-in 58-10 maddəsinin 1-ci bəndi ilə yenidən 10 il iş kəsilmişdi.

1956-cı il sentyabrın 1-də Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası SSRİ DTN yanında Xüsusi Müşavirənin Biriya haqqındakı qərarını ləğv etmişdi. SSRİ Ali Sovetinin komissiyasının qərarına əsasən həmin il sentyabrın 14-də azadlığa buraxılan Biriyaya SSRİ-nin istənilən yerində yaşamaq təklif olunsa da, o, İrana qayıtmaq istədiyinə görə Mordva Muxtar Respublikasının Potma qəsəbəsində xaricə getmək arzusunda olanlar üçün yaradılmış xüsusi məntəqədə saxlanılmışdı.

Biriyanın azad edildiyindən və İrana getmək istəyindən xəbər tutan ADF MK sentyabrın 29-da Azərbaycan KP MK-ya müraciət edərək, Biriyadan demokratik hərəkatın əleyhinə istifadə olunacağına görə onun İrana buraxılmaması, Bakıda onun üçün iş və yaşayış şəraiti yaradılması haqqında məsələ qaldırmışdı.

1956-cı il noyabrın 1-də Biriya Potmadakı məntəqədən çıxarılaraq, Bakıya gətirilmişdi. Rəsmi dairələrin Biriyaya burada yaşaması və yaradıcılıqla məşğul olması üçün şərait yaratmaq cəhdlərinə baxmayaraq, o, təkidlə İrana qayıtmaq istəyini bildirir və 1956-cı il noyabrın 12-də Moskvaya gedərək, İran səfirliyinə daxil olmaq istəsə də, bunun qarşısı alınır və o, əməliyyat işçisinin müşayiəti ilə Bakıya gətirilir. Lakin yenə də İrana getmək inadından dönməyərək, Moskvadakı İran səfirliyinə məktub göndərir və dekabrın 6-da telefonla səfir Məsud Ənsəri ilə bu məsələni müzakirə edir.

1957-ci il yanvarın 18-də Biriya Azərbaycan KP MK-ya, Azərbaycan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə məktub göndərərək, marksizm-leninizm məktəblərinin bağlanmasını, Marks, Engels, Lenin və Stalinin heykəllərinin götürülməsini, ermənilərin Azərbaycandan qovulmasını, sərhədlərin açılmasını, dini azadlıq üçün bütün şəraitin yaradılmasını, bu məqsədlə xüsusi qəzet və jurnalların nəşr edilməsini xahiş edir. Onun bu məktubu "kəskin antisovet və millətçi sənəd" (1) kimi qiymətləndirilir.

1957-ci il fevralın 21-də Azərbaycan SSR prokuroru Ə.Babayev və Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədri F.Kopılov Biriya haqqında birgə məktubla Azərbaycan KP MK-ya müraciət edirlər. Məktubda yazırdılar: "Bağırzadə öz əhatəsində olanlara heç bir vəchlə Sovet İttifaqında qalmaq istəmədiyini bəyan edir və digər siyasi mühacirləri də İrana getməyə çağırır. Tanışları ilə antisovet məzmunda söhbətlər edir, onlara antisovet və millətçi məzmunda yazdığı şeirləri oxuyur. Bağırzadə haqqında göstəriş almaq məqsədilə ona aid bütün materiallar bizim tərəfimizdən SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş idarəsinə göndərilmişdir. Bizə məlum olduğuna görə, Biriyaya aid materiallar haqqında Sov.İKP MK-nın yoldaş Ponomaryov tərəfindən rəhbərlik edilən şöbəsinə, SSRİ Nazirlər Soveti yanında DTK-nın rəhbərliyinə və SSRİ Prokurorluğuna məruzə edilmişdir. Bu il fevralın 8-də SSRİ Nazirlər Soveti yanında DTK-nın 2-ci Baş idarəsindən Bağırzadənin antisovet söhbətlərini və antisovet məzmunda şeirlər yazdığını sənədləşdirib, onu həbs etmək haqqında göstəriş almışıq"(2).

NƏTİCƏ

1957-ci ilin mart ayında Biriya həbs olunaraq, casusluq maddəsi ilə yenidən 10 il müddətinə azadlıqdan məhrum edilir. 1967-ci ildə həbs müddəti başa çatandan sonra Bakıya qayıdan Biriya yenidən İrana getməyə icazə almağa çalışsa da, buna nail ola bilmir və yenidən Moskvada İran səfirliyinə müraciət etmək istərkən təhlükəsizlik orqanlarının əməliyyatı nəticəsində "sovet milisini təhqir etdiyinə görə" 2 il müddətinə azadlıqdan məhrum edilir. 1969-cu ildə Bakıya qayıtsa da, ona burada yaşamağa icazə verilmir, 3 illiyə Şamaxıya sürgün olunur. Sürgün müddəti bitəndən sonra Bakıya dönən Biriya mübarizədən usanmış halda tənha həyat keçirərək, nisgillərini şeirə çevirməklə təsəlli tapır.

1979-cu ildə İranda baş verən İslam inqilabından sonra şairin vətənə qayıtmasına imkan yaranır. 1980-cı il sentyabrın 29-da Təbrizə gələn şair burada da adəti üzrə gördüyü haqsızlıqlara qarşı etiraz səsini ucaldır və həbs olunur. 1985-ci ildə həbsxanada vəfat edir.

İstifadə edilmiş ədəbiyyat:

1.Azərbaycan Respublikası Prezidenti İİSSA: f.1, siy. 89, iş 203, v. 122
2.Azərbaycan Respublikası Prezidenti İİSSA: f.1, siy. 89, iş 203, v. 122-124

QARABAĞIN TARİXİ İRSİNİN TƏDQİQİ VƏ BƏRPASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ

HƏSƏNOV ELNUR LƏTİF oğlu
Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi
lnurh273@gmail.com
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2022-ci il ölkəmizdə "Şuşa ili" elan edilmişdir. Qədim Şuşa şəhərinin yerləşdiyi mühüm tarixi mədəniyyət mərkəzi olan Qarabağ bölgəsinin çoxəsrlik irsindən, milli-mənəvi dəyərlərimizdən qaynaqlanan mədəniyyət ənənələri müxtəlif elmi mənbələr, yazılı məxəzlər əsasında tədqiq edilir. Bölgədə yüzilliklər boyu yaşamış əcdadlarımızın yaratdıqları zəngin maddi-mədəni mühiti, Qarabağın əvəzsiz memarlıq irsi, həmçinin minilliklərə istinad edən milli-mənəvi dəyərləri yerli mərasim ənənələrinin tədqiqi nəticəsində araşdırılır, tarixi yaddaşımızın, milli kimliyimizin sübutu qismində çıxış edən abidələrimizin, adətlərimizin təsadüfi təşəkkül tapmadığı çoxsaylı faktlar üzə çıxarılmasına istinadən araşdırılır. Vətən müharibəsi - haqq mübarizəmizin nəticəsində düşmən işğalından azad edilmiş doğma torpaqlarımızda ənənəvi həyatın bərpasının əsasında milli-mənəvi dəyərlərimizin, tarixi yaddaşımızın, memarlıq irsimizin qorunmasının və adət-ənənələrimizə qayıdışın dayandığı elmi dəlillərlə qeyd edilir.

Açar Sözlər: Azərbaycan, Qarabağ, milli-mənəvi dəyərlər, adət və ənənələr.

GİRİŞ

Ölkəmizdə 2022-ci il "Şuşa ili" elan edilmişdir. Məlumdur ki, Şuşa şəhəri Azərbaycan xalqının mədəniyyətdə əsaslı yer tutmuş, çoxəsrlik incəsənət ənənələrimizin, xüsusilə də muğam sənətinin yaşadılmasında mühüm rol oynamışdır. Qədim tarixə malik olan adətlərin xalqımıza məxsus cəhətləri müəyyən dəyişikliklərə uğrasa da, əsaslı xüsusiyyətlərini bu gün də saxlamışdır. Adət və ənənələr əyani şəkildə nəsillərə ötürülərək tarixən yaşamış, sonralar onların bir qismi adət hüququna çevrilmiş və insanların həyatlarında hüquq normaları üçün əsas olmuşdur. Əlbəttə, ictimai davranış qaydası kimi yaranan adət və ənənələr insanların maddi və mənəvi həyatını əcdadların irsinin ifadəsi kimi özündə təcəssüm etdirmişdir. Məsələn, qonşuluq, dostluq, qonaqpərvərlik, qarşılıqlı yardım, kömək, əməksevərlik, yaşlılara hörmət kimi adətlərə sadiqlik tarixən müqəddəs hesab olunmuşdur. "Qonaqsız ev uğursuz olar", "Hər şeyin təzəsi, dostun köhnəsi", "Qonşunu iki inəkli istə ki, özün də bir inəkli olasan", "E1 gücü - sel gücü", "Birlik harada - dirilik orada", "Çalışsan, nəyə əl vursan qızıl olar", "Böyüyə hörmət vacibdir" və s.

Qarabağda Azərbaycan xalqının çox böyük bir tarixi dövrdə əsas əmək forması olmuş maldarlıq və əkinçiliklə, habelə təbiət hadisələri ilə bağlı adətləri formalaşmışdır: "Dağaköçmə", "Köç günü", "Seyrə çıxmaq", "Şum bayramı", "Ata-baba" günü, yəni, ata-baba ruhuna ehtiram adəti də mövcud olmuşdur.

Ümumiyyətlə, ailə məişətində olan adətləri isə təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: qonaqpərvərlik, çörəyə hörmət, ailədə keçirilən bayram və ənənələr, məhərrəmlik, orucluq, qurban bayramının icra edilməsi, müasir ailə adətləri. Ailə bayramları, öz növbəsində ailə adətlərinin tərkib hissəsidir. Onların bir qismi ailə daxilində, müəyyən qrupu isə həm ictimai bayramlar kimi, həm də ailə daxilində qeyd olunur.Qarabağ bölgəsinin qədim və zəngin ənənələri, o cümlədən toy, mərasim adətləri Azərbaycanın digər ərazilərinin toy adətlərini xatırladır. Lakin bəzi səciyyəvilik, lokallıq müşahidə olunur. "Tabaqda çörəyim olsun, mərəkəsə ərim" xalq məsəli də təsadüfi yaranmayıb. Vaxtında ailə qurmaq, yaxşı həmdəm seçmək və övlad sahibi olmaq üçün valideyn övladının düzgün istiqamətləndirilməsində əsas rol oynayır [4, s. 45].

Ənənəvi olaraq bu bölgəyə toylara camaatı el arasında "təklifçi" adı ilə tanınan şəxs dəvət cdir. XX əsrin 60-70-ci illərinə qədər Ağcabədi rayonunun bəzi kəndlərində gəlini oğlan evinə gətirərkən qara zurna çalanlar evin damınaa çıxıb zurna çalır va hamı toyun həmin gün harada olacağını bilərək toy evinə gələrdilər. Qız üçün "süd pulunun"' verilməsi hələ də qalmaqdadır. Toylarda, adətən qıza cehiz kimi yorğan, döşək, yastıq, qab-qacaq və s. gətirilər, həmçinin "nəmər" (pul)yığılardı. Qız toyunun xərcini oğlan evi çəkirdi. Bu xərc pul və ya ərzaq formasında ödənilirdi. Bu adət indi də qalmaqdadır [1, s. 101].

TƏDQİQATIN TƏTBİQİ ƏHƏMİYYƏTİ

Bu qədim bölgədə toy günü ev sahibləri mağarda bəyin qarşısında oynamaqla toyu açıq elan edir, sonra gəlini gətirməyə gedirlər. Orada belə bir adət də var: oğlan evində gəlini otağa çıxaranda pilləkənin bütün pillələrində boşqab qoyurlar və gəlin boşqabları ayağı ilə sındırıb, qalxır. Toyun axırında bəyin dostları

"papaq-papaq"' oyunu oynayırlar. Oyun belədir: Bəy ortada oynayanda başına papaq qoyulur. Papağı kim birinci götürsə, o birinci evlənməlidir. Sonra papaq yenə də bəyin başına qoyulur və bu təkrar olunur. Bəy oturandan sonra papağı birinci götürən öz başına qoyur, sonra oyunda qalib gələnlər arasında mübarizə gedir. Oyunda bəyin 10-15 nəfər dostları iştirak edir.

Füzuli rayonunda gəlin evdən çıxarkən üzərlik yandırırlar. Gəlin bəy evinə bərəkət üçün çörək, nəzər qaytarmaq üçün qoyun ayağı və çıraq aparır. Bunları yengə götürür. Gəlin bəy evinə aparılarkən qarşısına güzgü tutur və şamları yandırırlar, başına şirniyyat, qənd tökürlər. Rayonun kəndlərində XX əsrin 20-30-cu illərində ənənəvi olaraq gəlini at belində aparırdılar. Gəlinə çəhrayı, yaxud qırmızı rəngdə tuman, kofta, üstündən qırmızı kəmər, saçaqlı, məxməri bəzəkli arxalıq geyindirir, onu at ilə aparır, atı da bəzəyirdilər [2, s. 17].

Müasir dövrdə də bu rayonda əksər toylarda toyun sonunda bəylə-gəlini oynadırlar. "Bəy tərifi" başlanır. Toyun axırında bəylə gəlinə çoxlu pul verirlər, həmçinin pulu onların başlarına səpirlər, fişəng atır, qığılcımlar yandırır, süni yağış kimi su tökürlər. "Bəy oturma" mərasimində xanəndə muğamat oxuyur və bəylə gəlinin qohum əqrabəsindən xələt istəyir, Füzuli rayonunda qız toyunu "toy başı" adlandırılan qadın idarə edir. O oynayaraq istədiyindən xələt (hədiyyə) alır, ağacının başına bağlayır və həmin şəxsin havasını çaldırır. Oğlan toyunda toy mağarı ilə yemək mağarı ayrı olur. Bəyin sağdışı və soldışının biri subay, digəri isə evli olur [3, s. 56-61].

Burada gəlini bəzəyəndən sonra əlini öz başına qoyurlar. Deyirlər ki, gəlin süd pulu istəyir. Bu pul isə anaya çatır. Toy günü oğlan evinə gedən qızlar təzəayaqqabısının altına adlarını yazırlar. Adətə görə hansı ad tez getsə, o qız da tez ərə gedir.

Laçın, Ağcabədi və bir sıra başqa rayonlarında ənənəvi toy mərasimi zamanı "Gərdək qaçırmaq"oyunu keçirilir. Belə ki, toy günü cavan və yaşlı adamlar at belində qız evinə gəlirlər. Qız evinin nümayəndəsi gərdəyi mümkün qədər öz qohum və tanışlarına verməyə çalışır ki, oğlan evindən xələt alsın. Oyunçu gərdəyi əlində yuxarı qaldıraraq at üstündə qız evindən oğlan evinə tərəf qaçır. Digər oyunçularda atlarını çaparaq gərdəyi alıb oğlan evinə birinci çatmaq uğrunda mübarizə aparırlar. Laçın rayonunun Ərikli kəndində toylarda masabəyinə "padşahlıq" deyirdilər. Xonça dağıtmaq adəti toylarda xüsusi yer tuturdu. Belə ki, xonça düzəldir, xonçaya qiymət qoyur, üstünü örtürdülər. Xonçanın örtüyünü açan şəxs xonçadakıları paylayır, xonça boşqabını isə sındırırdı. Toylarda sağdış-qardaşlıq adlanırdı. Qardaşlıq gəlinə paltar, qızıl, qoyun, mal gətirirdi. Öz növbəsində, qardaşlığa at bağışlayırdılar. Toya dəvət olunanları at ilə çağırışçı çağırırdı. Gəlini oğlan toyunun axırında aparardılar. Gəlini gətirəndə bəy qonşuda gizlənirdi. Sonra məşəl yandırar, musiqinin müşayiəti ilə bəyi gətirər və bəy tərifi olardı.Gəlin üç gün gərdəyin arxasında otururdu. Qayınata gəlinə at, mal bağışlayar və gəlin üzə çıxardı.

NƏTİCƏ

Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da toy mərasimləri zamanı, xüsusilə də toy günlərində qarşılıqlı yardım formalarından biri kimi toy evinə qohum-əqrəbanın ərzaq, qoç-qoyun gətirməsi ənənəsi var idi. Azərbaycanın bir çox bölgələrində "diz dayağı", "toy payı"adlanan bu ənənə Qarabağda da icra olunurdu. Eyni zamanda, qədim Azərbaycan toylarında "bəy durma", "bəy oturma", "bəylik taxtı", "bəybaşı" adlanan bəyin sağdış-soldışla mağara gətirilməsi ənənəsi də Qarabağda mövcud idi. Bu mərasim zamanı Qarabağ toylarında gənclər arasında "Xan-xan" və ya "Xan-vəzir" oyunu "Maral oyunu" kimi xalq-meydan tamaşaları geniş yayılmışdı.

Qədimdə Azərbaycanda, o cümlədən Qarabağda "Hümmət toyu" deyilən bir adət varmış. Kənd ağsaqqalı yoxsul, yetim bir gəncin toyunu təşkil edir və kənd camaatını bu toya dəvət eləyirdi. Toya gələnlər də imkanları müqabilində yeni yaranan ailəyə lazım olan əşyadan, ərzaqdan "toy payı" gətirirdi. Bu tip toylara indi də qismən rast gəlinir. Laçın bölgəsində toyu oğlanın qohumlarından biri təşkil edir. Zəngin irsə malik olan Qarabağ bölgəsinin toy mərasimlərində ənənəvi, lokal ənənələr indi də qalmaqdadır.Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsi olan Qarabağ ərazilərinin 30 ilə yaxın bir müddətdə təcavüzkar ermənilərin nəzarətində olması bu ərazidə yaşayan əhalinin məcburi köçkün vəziyyətində yaşamaları onların yaşayış tərzinə, adət-ənənələrinə təsir göstərmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Prezident Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribat törətdiklərini bəyan etdi. Beləliklə, 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqm birliyi, ordumuzun qüdrəti nəticəsində Azərbaycan dövləti qələbəsi ilə yekunlaşdı. Bu gün işğaldan azad edilmiş Qarabağ torpaqlarında Azərbaycan dövlətinin rəşadəti, səyi nəticəsində dağıdılmış şəhərlər, kəndlər yenidəntikiləcək, yurdlar çal-çağırlı olacaq, Qarabağ öz doğma sakinlərini yenidən qəbul edəcəkdir.

ƏDƏBİYYAT
1.Дадашзаде М.А. Духовная культура азербайджанского народа в средние века. Баку, 1985, с. 101.
2.Кулиев Т.А. Азербайджанские народные обычаи (свадебные и пагребные обряды), Баку, 1972.
3.Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005. 347 s.
4.Qarabağ: folklor da bir tarixdir. I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Bakı: "Elm və təhsil", 2012. 464 s.
5.Həmidov V.V. Azərbaycanda movcud siyasi-coğrafi problemlər və onların həlli yolları. Bakı: 2009, 184 s.

1612-1618-Cİ İLLƏR SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİNİN NƏTİCƏSİ

HACIYEVA ALIYƏ AKIF
Azərbaycan Universiteti,II kurs magistrant
Azərbaycanın qədim və orta əsrlər tarixi ixtisası
Email:haciyev.a.liya99@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ:
XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı dövlətləri arasında yeni müharibənin başlanması, Səfəvi və Osmanlı dövləti arasında müharibəyə gətirən səbəblər, XVII əsrin ilk onillikləri tərəflər arasında baş verən müharibələr,1612-ci ildə tərəflər arasında İstanbul sülh müqaviləsinin imzalanması, müqavilənin şərtləri və nəticələri, 1616-cı ildə Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı yeni müharibə elan etməsi, müharibənin başlanma səbəbləri, müharibənin gedişi, 1618-ci ildə Osmanlı və Səfəvi dövləti arasında baş verən müharibəyə Mərənd sülh müqaviləsinin imzalanması ilə son qoyulması məsələləri araşdırılmışdır.
Açar Sözlər: Səfəvi dövləti, Osmanlı dövləti, sülh müqaviləsi, ipək xərac,İstanbul müqaviləsi, Mərənd sülhü.

GİRİŞ:
XVII əsrin əvvəllərində Səfəvi dövləti və Osmanlı dövləti arasında olan münasibətlərin araşdırılması, tərəflər arasında bu dövrdə baş verən müharibələrin nəticələri, iki dövlət arasında imzalanmış sülh müqavilələri, müqavilənin şərtləri və nəticələri ilə bağlı məsələlərin araşdırılması, müasir Azərbaycan və Türkiyə dövlətlərinin qədim zamanda aralarında olan münasibətin öyrənilməsi baxımından tədqiq etdiyimiz mövzu olduqca aktual və əhəmiyyətlidir. Səfəvi və Osmanlı dövlətləri arasındakı münasibətlərin araşdırlması məsələsi, tərəflər arasındakı münasibətlərin tarixi ilə bağlı məsələlər barədə Azərbaycan tarixşünaslığında bir çox tədqiqat işləri yazılmışdır. Mövzu ilə bağlı O. Əfəndiyevin, T. Nəcəflinin, Z. Bayramlının və s. yazmış olduğu işlər olduqca diqqətə layiqdir. Bu tədqiqat işlərində müasir Azərbaycan və Türkiyə münasibətlərinin ayrı-ayrı zamanlardakı münasibətləri ətraflı olaraq təhlil olunmuş, öyrənilmişdir.
XVII əsrin əvvəllərində Səfəvi hökmdarı şah I Abbas itirilmiş Səfəvi torpaqlarını geri qaytarmaq üçün Osmanlı dövləti ilə müharibəyə başladı. Şah I Abbasın dövlət daxilində görmüş olduğu tədbirlərin nəticəsində artıq Osmanlı dövlətinə qarşı güclü dura biləcək modern bir ordu yaradılmışdı. Məhz XVII əsrin əvvəllərində Səfəvi və Osmanlı dövlətləri arasında baş verən bu müharibələrdə də Səfəvi dövləti üstünlük əldə etdi. Nəticədə tərəflər arasında razılıq əldə olunması üçün addımlar atılmağa başladı. Səfəvi dövləti Osmanlı üzərində qazanmış olduğu bu üstünlüyü rəsmiləşdirmək üçün addımlar atsa da, lakin müəyyən səbəblərdən ötürü sülhün imzalanması mümkün olmadı.
Lakin daha sonra Osmanlı sərdarı olan Nasux paşa 1612-ci ilin baharında Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh danışıqlarını bərpa etdi. Osmanlı baş vəziri olan Nasux paşa şah I Abbasın elçilərini, məktub və hədiyyələrini Diyarbəkrdə olanda qəbul etdi. Osmanlı dövləti ilə sülh danışıqlarını həyata keçirmək üçün şah I Abbasın səlahiyyətli nümayəndəsi olaraq təyin olunan Qazi xan Sədr əl–Həsən çoxsaylı nümayəndə heyətinin başında duraraq bir çox qiymətli hədiyyələrlə birlikdə 1612-ci il sentyabrın 27-də

İstanbula hökmdar sarayına göndərildi. Şah I Abbasın göndərmiş olduğu elçi heyəti 1612-ci ilin oktyabr ayının 17-də həmin vaxt Osmanlı sultanı olan Əhməd tərəfindən qəbul edildi. Beləliklə tərəflər arasında 1612-ci ilin 20 noyabr tarixində İstanbulda növbəti sülh müqaviləsi imzalandı. Şah I Abbasın irəli sürdüyü 1555-ci il Səfəvi və Osmanlı dövlətləri arasında imzalanmış müqavilənin şərtlərinin yenidən bərpa edilməsi haqqındakı təklifi qəbul edildi. Lakin bu zaman Osmanlı dövləti bir sıra başqa yeni şərtlər də irəli sürdü. Sülhə əsasən Amasiya sülhündəki sərhədlər qüvvədə qalır, Osmanlı hakimiyyətində olan ərazilər yenə onda qalırdı, İraq sərhəddində olan qiyamçı bəylərə, o cümlədən Şəhrizoru işğal edən Xilav xana və Seyyid Mübarəkə Səfəvi dövləti tərəfindən heç bir yardım edilməyəcəkdi. Həmçinin qeyd olunurdu ki, Dağıstan Şamxalı daxil olmaqla Osmanlı dövlətinə tabe olan digər xanlara Səfəvilər tərəfindən müdaxilə olunmayacaqdı. Sülh müqaviləsində o da göstərilirdi ki, Səfəvi dövlətindən olan hacılar artıq Bağdad və Bəsrə yolu üzərindən deyil, Hələb-Şam yolu ilə Həccə gedib gələcəkdilər. Səfəvi və Osmanlı dövlətləri arasında gəlinmiş razılığa əsasən Səfəvi dövləti Osmanlı dövlətinə ildə 200 tay ipək verməyi öz öhdəsinə götürdü. Əslində imzalanmış müqavilənin mətnində ipəklə bağlı olan hər hansısa bir şərt tam olaraq qeyd olunmamışdı. Lakin mənbələrin bir çoxunda əks olunur ki,(xüsusilə həmin dövrlə bağlı olan salnamələrdə) bağlanılmış sülhün əsas şərtlərindən biri məhz ipəklə bağlı olmuşdur ki, bunun da səbəbi şah I Abbasın geri aldığı torpaqların müqabilində Osmanlılara xərac kimi ipək verməsi olmuşdu.[6, 299s]

Lakin bu şərtlər yerinə yetirilmədi. Osmanlı dövlətinin tarixçisi olan Nəimanın vermiş olduğu məlumatda qeyd edilir ki, Osmanlı dövlətinin vacib digər bir şərti də o idi ki, "rusların bu ərazilərə olan yürüşlərinin qarşısını almaq məqsədilə ruslar tərəfindən tikilmiş Terek(Tarku) qalasının dağıdılması barədə əgər sultanın fərmanı olarsa, onda şah bu işə heç bir maneçilik törətməyəcəkdi". Bu cür bir şərti irəli sürməklə Osmanlı dövləti əslində Səfəvi dövləti və Rusiya arasında mümkün ola biləcək bir ittifaqın yaranmasına mane olmağa çalışırdı. Azərbaycanın Osmanlı dövləti ilə cənub-qərb və qərb sərhədlərinin müəyyən edilməsi Çuxursəəd hakimi olan Əmirgünə xan Qacara və Vanın Osmanlı hakimi olan Məhəmməd paşaya tapşırılmışdı. Axıska qalasının Osmanlı nəzarətində qalması faktı (əslində 1555-ci il sülhünə görə Səfəvilərin əlində idi), Səfəvi sarayı tərəfindən Osmanlı dövlətinə ildə 200 tay verilməli olan ipəyin göndərilməməsi halında bir növ güvəncə idi ki, bu hal da 1612-ci il sülhünün möhkəm olmadığını göstərirdi. [5,122s]

1612-ci il İstanbul sülhünə əsasən Səfəvi dövlətinin Osmanlı dövlətinə göndərməli olduğu ipək göndərilmədi və Axıska məsələsində də tərəflər arasında narazılıq oldu. Bu zaman Səfəvi dövlətinin Osmanlıya ipəyi göndərməməsinin səbəbi yeni müharibə etmək istəməsi deyildi, əksinə bu zaman şah I Abbas mövcud sülhü qorumaq üçün əlindən gələni edirdi. Səfəvi dövlətinin ipəyi göndərməməsinin səbəbini türk tarixçisi olan R.Kılıç belə qeyd edir ki, Osmanlı dövlətinin bu zaman Avropa ilə apardığı müharibə ilə bağlı olaraq Alman imperatoru ilə şah I Abbas müəyyən razılığıa gəlmişdi. Həmçinin onu da qeyd etmək yerinə düşər ki, bu zaman tərəflər arasında yeni bir müharibənin başlanılmasında əksinə Osmanlı dövləti daha maraqlı idi, səbəb isə Osmanlı ilə sülh bağlanılmasından sonra şah I Abbasın daha fəal xarici və daxili siyasətdə addımlar atması idi ki, bu da Osmanlını çox narahat edirdi. Şah I Abbasın bu vaxt Ön Qafqaz xalqlarını itaətə gətirmək üçün həyata keçirdiyi böyük ordu ilə Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana 1613-cü ilin oktyabr ayında olan yürüşü Səfəvi ordusu tərəfindən uğurla başa çatdırılmışdı. Təbiidir ki, Səfəvilərin Cənubi Qafqaz ərazisində möhkəmlənməsi Osmanlı rəsmi dairələrinin ciddi narazılığına səbəb olacaqdı.[4, 160]

Beləliklə bunun ardınca da gözlənilən oldu və Osmanlı sultanı Əhməd 1612-ci ildə Səfəvi dövləti ilə imzalanmış müqavilənin şərtlərini pozaraq, baş vəziri olan Qara Mehmed paşaya 1616-cı ilin yaz ayında böyük bir ordu ilə Səfəvilərə qarşı yeni müharibəyə başlanılması barədə əmr verdi. 1616-cı ilin aprel ayında Mehmed paşanın rəhbərliyindəki Osmanlı qüvvələri Qarsa gəldi. Yol boyu Osmanlı qoşununa Rumeli bəylərbəyi Davud paşa , Diyarbəkr bəylərbəyi Dilavər paşa, Van bəylərbəyi Təkəli Mehmed paşanın da qüvvələri də qoşuldu. Əsas İrəvanı Səfəvilərdən almaq idi. Qara Mehmed paşanın 100 min nəfərlik Osmanlı qoşunu 1616-cı ilin sentyabrın 11-də İrəvan qalasını mühasirəyə aldı. Bu xəbəri alan şah I Abbas tezliklə qorçiləri, Xorasanda olan dəstəni, İsfahan tüfəngçilər dəstəsini İrəvan əhalisinin köməyinə göndərdi. Bundan başqa, könüllülərdən ibarət xüsusi seçmə dəstə düzəldildi ki, İrəvanlıların köməyinə yetişsin. Lakin qeyd etmək lazımdır ki, İrəvanın mühasirəsi Osmanlılar üçün olduqca çətin oldu. Belə ki, mühasirə uzandıqca ordunun ərzaq və sursat ehtiyacı da artırdı və bu da vəziyyəti daha da ağırlaşdırırdı. Məhz buna görə də Mehmed paşa Xəlil adlı Osmanlı nümayəndəsini danışıqlar üçün şah I Abbasın yanına göndərməyə məcbur qaldı. Bu zaman şah I Abbas da əvvəlcə Beydilli Saru Sultanı, daha sonra isə Çıraq Sultan Ustaclını danışıq şərtlərini müzakirə üçün göndərdi. Bu vaxt danışıqlarda Səfəvi tərəfi İrəvan şəhərinin mühasirəsinin dərhal dayandırılmasını, Osmanlılara ödəniləcək olan ipək xəracın 100 taya

endirilməsini şərt kimi irəli sürdü və Osmanlı sərdarı Mehmed paşa da əslində bu təklifləri yaxşı qarşıladı. Lakin daha sonra qalanın təmiri üçün vaxt qazanan və sonradan da Osmanlıların yenidən geri qayıdacağını bilən şah I Abbas verdiyi sözü tutmadı və danışıqlar həyata keçmədi. Mühasirə yenidən davam etdirildi və noyabr ayının 5- də isə sona çatdırıldı.[3, 800s]

Şah I Abbas bu zaman yenə də Osmanlı qoşunu ilə həlledici döyüşə girmək fikrindən daşınırdı. O, Osmanlı qoşununu mühasirəyə almağı, onların geriyə yolunu bağlamağı və hər bir vasitə ilə də qoşuna ərzaq gətirilməsinə mane olmağa çalışırdı. Bu vaxt da qışın sərt keçməsi səbəbilə baş verən epidemiya və aclıq halları qələbəyə olan inamlarını itirmiş Osmanlı qoşununu geri çəkilməyə vadar etdi.

1618-ci ilin may ayında Osmanlı sultanı II Osmanın əmri ilə Xəlil paşa Diyarbəkirdən Azərbaycana doğru yenidən hərəkətə keçdi. Bu qoşunla birlikdə Osmanlı sultanın vassalı olan II Canıbəy Gəray xanın başçılığı altında Krım tatarlarının 15 min nəfərdən ibarət qoşunu da hərəkətə keçdi. Krım xanı II Canıbəy Gərayın 15 minlik dəstəsi Osmanlı sultanının əmri ilə 1617-ci ilin noyabr ayında Şimali Qafqazdan Azərbaycana soxuldu. Qoşun Gəncə və Naxçıvanı talan edərək Xəlil paşanın qoşunu ilə birləşdi. Bu xəbəri alan şah I Abbas qoşunların yaxınlaşması ilə tez bir zamanda Təbriz şəhərini, ardınca isə Ərdibili boşaltdırdı. Bu zaman müttəfiqlərin əsas məqsədi Səfəvi qoşununun əsas qüvvəsinə zərbə vurmaq idi.[2,127-132s]

Səfəvi qoşunları ilə Osmanlı qoşunları arasında həlledici döyüş isə 1618-ci ilin sentyabr ayının 10-da Sərab vilayətinin Ərəştəban və Səkəmsaray qəsəbələri arasındakı düzənlikdə, Sınıq körpü adlı ərazidə baş verdi. Osmanlı ordusu bu döyüş zamanı 15 minə yaxın əsgəri qüvvəsini itirərək ağır məğlubiyyətə uğradı. Bu döyüş zamanı Ərzurum bəylərbəyi olan Həsən paşa öldürüldü, Van bəylərbəyi olan Mehmed paşa və Krım xanının baş vəziri vəzifəsini yerinə yetirən Mirzə bəy əsir olaraq götürüldülər. Canıbəy isə döyüş zamanı qaçaraq canını qurtara bilmişdi.

Sərab yaxınlığında Səfəvi və Osmanlı qüvvələri arasında baş verən bu döyüşdə Osmanlı qoşunlarının məğlubiyyətindən sonra qoşuna rəhbərliyi həyata keçirən Xəlil paşa geriyə çəkildi və tezliklədə Səfəvilərlə danışıqlara başladı. 1618-ci ildə sentyabr ayının 26-da Mərənddə Xəlil paşa ilə şah I Abbas arasında sülh müqaviləsi imzalandı. İmzalanmış bu sülh müqaviləsinin 1612-ci ildə Səfəvi dövləti və Osmanlı dövləti arasında imzalanmış İstanbul sülh müqaviləsindən əsas fərqi əvvəlki müqaviləyə əsasən Səfəvi dövlətinin Osmanlı dövlətinə ildə ödəyəcəyi 200 tay ipək bacın miqdarının təxminən 100 taya endirilməsi idi. Tezliklə imzalanmış bu sülh müqaviləsi Osmanlı sultanı tərəfindən də təsdiq olunmaq üçün saraya göndərildi. Osmanlı sultanı olan II Osman 1619-cu ilin sentyabr ayının 29-u tarixində Səfəvi və Osmanlı dövlətləri arasında imzalanmış bu sülh müqaviləsini təsdiq etdi. Ardınca isə II Osman tez bir zamanda Avropa səfərinə yollandı.

NƏTİCƏ:

Beləliklə, növbəti dəfə də Səfəvi və Osmanlı dövlətləri arasında baş verən müharibə də Səfəvi dövlətinin parlaq qələbəsi ilə başa çatdı. Səfəvi dövləti itirilmiş ərazilərinin bir hissəsini geri qaytarmağa müvəffəq oldu. [1, 239s]

Ədəbiyyat Siyahısı:

1.Azərbaycan tarixi. Yeddi cildde. III cild(XIII-XVIII əsrlər). Bakı, Elm, 2007, 592s+56s illüstrasiya.
2.Bayramlı Z. Bəymirzə Ş. Azərbaycan Səfəvi dövləti(XVI-XVII əsrlər). Bakı, Elm və Təhsil, 2017, 360s.
3.İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi(Tarixe-aləmaraye-Abbasi). Bakı, Şərq-Qərb, 2010, 1144s.
4.Kılıç R. XVI-XVII yüzyıllarda Osmanlı-İran siyasi Antlaşmaları. İstanbul, Tez yayınları, 2001, 237s.
5.Nəcəfli T. H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti(Türkiyə tarixşünaslığında). Bakı, Turxan NPB, 2020, 520s.
6. Nəcəfli T. H. Səfəvi-Osmanlı münasibətləri(Türkiyə tarixşünaslığında). Bakı, Turxan NPB, 2014, 516s.

SƏFƏVİLƏRİN MƏNŞƏYİ MƏSƏLƏSİ

TAĞIZADƏ LEYLA MİRDAMƏD
Azərbaycan Universiteti, II kurs magistrant
Azərbaycanın qədim və orta əsrlər tarixi ixtisası,
E-mail: leila.taghizade98@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ:
Qızılbaşlar dövlətinin banisi olan Səfəvilər sülaləsinin etnik mənşəyi problemi, bu problemin Şərq və Avropa mənbələrindəki mövcud vəziyyəti və təhlili araşdırılmışdır. Bu mövzuların vaxtikən tədqiqatdan kənar qalması, eyni zamanda Qərb tarixçilərinin belə məsələlərə qeyri-obyektiv yanaşması günümüzün bu mövzusunu aktual hala gətirmişdir. Bu mövzunun dərin tədqiqat obyektinə çevrilməsinin üstünlüklərindən biri tarixi Azərbaycan dövlətini hər vəchlə kürd və ya farslaşdıran müəlliflərin istəklərini puç etməsi olmuşdur.

Açar Sözlər: etnik mənşə, səfəvilər, Şeyx Səfiəddin.

GİRİŞ:

Azərbaycan tarixinin ayrılmaz hissəsinə çevrilən Səfəvilər sülaləsinin etnik kimliyi məsələsinin tədqiqi, bu problemə bir çox tarixçilərin yanaşmaları, tədqiqatçıların öz mülahizələrini sübuta yetirməyə və yeni məlumatlar axtarmağa çalışmaları və s. bu cəhətdən araşdırdığımız mövzu son dərəcə mühüm və aktualdır. Səfəvi sülaləsinin etnik mənşəyi probleminin araşdırılmasına dair həm Azərbaycan, həm də Şərq və Avropa ölkələrinin tarixşünaslığında müxtəlif elmi-tədqiqat işləri aid edilmişdir. Tədqiqat mövzusu ilə əlaqədar Y.Mahmudov, O.Əfəndiyev, S.Əliyarlı, Ş.Fərzəliyev və digər tədqiqatçıların yazdıqları əsərlər mühüm əhəmiyyət daşıyır. Bu əsərlərdə Səfəvi sülaləsinin mənşəyi ilə bağlı Şərq və Avropa qaynaqları hərtərəfli tədqiq olunmuş, sistemli formada izah olunaraq ümumiləşdirilmişdir.

Tarix boyu Səfəvi liderlərinin etnik mənşəyi məsələsi əsas və əhəmiyyətli problemlərdən biri olmuşdur. Və bu problem xarici tarixşünaslığın bütün Səfəvi sülaləsini farslaşdırmaq niyyəti olduğu üçün daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Haqlı olaraq qeyd etmək yerinə düşər ki, Səfəvilərin etnik kimliyi problemi indinin özündə də mübahisəli olaraq qalmaqdadır.

Səfəvilər sülaləsi müxtəlif və qarışıq etnik mənşələrdən törəmişdir. Ona görə də onların türk və ya digər etnik mənşəyə mənsub olması ilə bağlı alimlər arasında müəyyən fikir ayrılığı mövcuddur. Şahzadələrin türkmən, fars, kürd, hətta erməni, hind, əfqan, gürcü analəri var idi. Onun üzvlərinin çoxu ikidilli və ya çoxdilli idi.(1,18).

Bir sıra tarixçilər öz düşüncələrinin məhsulu olaraq fərqli fikirlər ortaya atmışlar. Tarixi ədəbiyyatlarda Səfəvilərin etnik mənşəyi məsələsi haqqında əsasən, üç ideya qeyd olunur. Bir sıra tarixçilər səfəvilərin kürdmənşəli (farsmənşəli), bəziləri isə onların türk olduqlarını iddia etsələr də, Səfəvi ədəbiyyatında səfəvi yaradıcılarının ərəb olduğu qeyd olunur. Nəzərə almaq lazımdır ki, Azərbaycan tarixində Səfəvilər dövrü necə mühüm əhəmiyyət kəsb edir. Ona görə də bu məsələni ətraflı araşdırmaq lazımdır. Bunun üçün də tanınmış tarixçilərin yazılarına nəzər salmaq məqsədəuyğun olar.

V.V.Bartoldun yürütdüyü Səfəvi əcdadlarının türk mənşəli olduğu ilə bağlı iddiaları daha inanılandır və qaynaqların verdiyi məlumatlara əsasən isbat olunmuşdur. Alim Səfəvi sülaləsinin banisi Şeyx Səfiəddin və onun davamçılarından danışaraq qeyd edirdi ki, "Ərdəbil hakimləri, şəksiz, fars deyildirlər, tamamilə türkdürlər". İ.Petruşevski də bu fikri təsdiq edərək demişdir: " İlkin Səfəvi hakimləri Ərdəbildə yaşayaraq, doğma Azərbaycan dilində danışmışlar". Adları qeyd olunan iki şərqşünas Səfəvi sülaləsinin türk olduğu qənaətinə gəlmişlər. Əslində, Şeyx Cüneyddən tutmuş, Səfəvi imperiyasının banisi Şah İsmayıla qədər Səfəvilərin bütün hakim şeyxlərinin türkmən analəri olub. Bu da onların türk mənşəli olması ilə izah olunur.(2) Həmçinin, Riçard Frye də səfəvilərin türk mənşəli olmasını düşünür: " XI-XII əsrlərdə oğuzların kütləvi köçü təkcə Azərbaycanı deyil, həm də Anadolunu türkləşdirmişdir. Azərbaycan türkləri Səfəvi sülaləsinin baniləridir."

N.Şeybani, Ə.Kəsrəvi, Z.V.Toğan, S.Rəhimzadə və onlar kimi bir sıra tədqiqatçılar heç bir mənbəyə əsas gətirmədən əsassız olaraq Səfəvi rəhbərlərinin və onların davamçılarının inadla kürd mənşəli olmasını sübut etməyə çalışırlar. XIV əsrdə yaşamış Təvəkkül ibn İsmayıl ibn Bəzzazın Səfəvilərin nəsil şəcərəsinin tarixini əks etdirən əsəri olan "Səfvət əs-Səfa"nı tədqiq edən Əhməd Kəsrəvi Səfəvilərinin nəslinin seyyidlərə bağlı olmadığını qəti şəkildə bildirərək deyir ki, guya Səfəvi tarixçiləri bilərəkdən onların əcdadlarını Məhəmməd peyğəmbərə bağlayaraq, bu versiyanı "Səfvət əs-Səfa" əsərinə əlavə etmişlər.

Maraqlı məqam ondadır ki, Əhməd Kəsrəvi Şeyx Səfinin ərəb olduğunu rədd edir, lakin həmin əsərdə səfəvilərin türk mənşəli olduğuna dair bir çox faktlar olsa da, o, onların kürd olmaqlarını iddia etmiş və bu iddianı bir çox İran tarixçiləri müdafiə edərək səfəviləri iranlılaşdırmağa cəhd göstərmişlər. Z.V.Toğan heç bir dəlil olmadan dolayı yolla bu iddianı dəstəkləyərək yazır ki, XVI əsrin ilkin illərində artıq kürd mənşəli Ərdəbilli şeyxlər assimilyasiyaya uğrayaraq tamamən türkləşmişlər. Tarixçinin iddiasına əsasən, Şah I İsmayıl, Şah I Təhmasib kürd kimliklərini yox etməyə, Şah Firuzun nəslini peyğəmbərə bağlamağa və Şeyx Səfiəddinin türk olduğunu sübut etməyə çalışmışlar.

Z.V.Toğan "saxtalaşdırılmış" əsərdəki kürd ordusunun Azərbaycana gəlişi haqda məlumatlara əsaslanaraq, bu yürüşün 1025-ci ildəki Rəvvadi dövlətinin Azərbaycanı işğal etməsi hadisəsi ilə eyni olduğu qənaətinə gəlir. Toğanın gümanına əsasən, guya Şeyx Səfiəddinin əcdadlarında olduğu kimi, onun qoruyucusu olduğu Şeyx Zahidin ulu babaları da "Rəvvadilərin işğalı zamanı Gilan və Ərdəbilə gələrək, Muğan və Arran əyalətlərində islamı təbliğ etmişlər."

Fars tədqiqatçısı M.Məşkur Şah İsmayıldan danışarkən, nisbətən fərqli fikir irəli sürmüşdür. O, şahı Türk yox, mühitin təsiri səbəbilə türkcə danışmağa, türk dilində əsərlər yazmağa vadar olan bir iranlı hökmdar kimi qeyd edir. Həmin tarixçi İran ərazisində yaşayan azərbaycanlıların təsviri haqqında belə deyir: "İranda yaşayan türklər tatar və ya türkmən irqindəndir. Azərbaycanlıların türk dilində danışmaqlarına baxmayaraq, onlar əslən iranlıların köküdəndirlər, onlar təmiz iranlılar ilə türkmənlərin qarışığından ibarətdirlər." Son olaraq, yenə də səfəvilərin türk olduğunu qəbullana bilməyib, belə əsassız fikirlər söyləmişdir. (3,40)

İlkin növbədə Z.V.Toğan və o biriləri səfəvilərin kürd kimliklərini gizlətmələrinin səbəbini qeyd etmirlər. Görünən o ki, onlar bu iddianı isbat etməkdən ötrü yetərli bir sübut tapa bilməmişlər. Başqa məsələ odur ki, Toğanın bu iddialarına baxmayaraq, Şah I İsmayılın və I Təhmasibin hakimiyyət illərində Şeyx Səfinin türklüyü bir kənara qalmış, onun daha çox ərəb olması irəli sürülmüş, Səfəvişünaslar da bu dövrdən başlayaraq Şeyx Səfiəddinin və onun soykökünün Məhəmməd peyğəmbərdən olması iddiasını ortaya ataraq müdafiə etmişlər. Adı qeyd olunan bütün tarixçilər "Səfvət əs-Səfa" əsərindəki Şeyx Səfiəddinin türk olması ilə əlaqədar bir çox faktlar mövcud olduğu halda, onları göz ardı etmişlər.

Həmin "Səfvət əs-Səfa" əsərində Şeyx Səfiəddinin adı "Türkün piri" deyə qeyd olunur. Həmçinin, əsərdə göstərilir ki, Şeyx Səfiəddin öz iqamətgahında olarkən o biri millətlərə nisbətən türklərə daha çox sevgi və qayğı nümayiş etdirirmiş. Mövlana İbrahim Saravi ilə Mövlana Əhməd öz təəssüratlarını bölüşərək yazır ki, o vaxt Ərdəbildə Şeyx Səfiəddinin qonağı idik. Süfrədə bizə qara çörək və su ikram edildiyi halda, yeni gələn türk qonaqlara ağ çörək bal ikram edildi. Həmçinin, Şeyx Səfinin şeirlərinin türkcə olduğu, "Qara məcmuə"nin dilinin türkcə olduğu və Şeyx Səfiəddinin öz müridləri ilə görüşlərindən danışılan hekayələrdə onun hər dəfəsində türk deyə çağırılması bilinməkdədir. Bu və ya digər faktlar birmənalı olaraq Şeyx Səfinin türk olduğunu göstərir. (4,19)

Şeyx Səfiəddinin türk irqinə məxsus olduğunu bildirən buna oxşar bir çox faktlar "Səfvət əs-Səfa"nın bütün nəşrlərində mövcuddur. Mənbələrdə səfəvilərin öz etnik kimliklərinin gizlədilməsi və ya saxtalaşdırılması barədə heç bir əsaslı məlumatlara rast gəlinmir. Həmçinin, Şeyx Səfinin türk olduğunu göstərən mənbələrdə heç bir şübhə yoxdur.

Bu nöqteyi-nəzərdən o dövrki ərəb-fars qaynaqlarının dahiləri sayılan və cəmiyyət və elmdə görkəmli nüfuza malik olan İ.P.Petruşevski, V.F.Minorski, V.V.Bartold və bir sıra tarixçilərin elmi mülahizələri və yekunları xüsusi əhəmiyyət kəsb edir. Səfəvi xanədanı və onun yaradıcısı barəsində tədqiqatlarının nəticəsi olaraq V.V.Bartold qeyd edir ki, həqiqətən, Ərdəbil müridləri fars yox, türk olmuşlar. Tədqiqatların yekunu olaraq, Bartoldla eyni fikirdə olan İ.P.Petruşevski göstərir ki, Ərdəbil müridlərinin öz doğma dilləri də Azərbaycan dili (türk dili) olmuşdur. Dahi Rusiya şərqşünası V.F.Minorski İran adlanan ərazidə türk idarəçiliyinin 3 dövrünü qeyd etmişdir (Səlcuqlular dövrü, Baharlı və Bayandurlu dövrü və onlarla qan bağı olan Səfəvilər dövrü).

NƏTİCƏ:

Beləliklə, XVI əsrdən başlayaraq bir çox tarixşünaslar səfəvilərin nəslini ərəbl, fars və ya kürdlərə bağlasa da, türkçülük bütün Səfəvi hökmdarlarının həyatının mərkəzində önəmli yer almışdır.

Ədəbiyyat Siyahısı:

1. M. Mazzaoui, The Origins of the Safavids: Shi'ism, Sufism, and the Gulat. Wiesbaden, Germany: F. Steiner. (Kitab).1972.
2. https://www.newworldencyclopedia.org/entry/Safavid_Empire (Online məqalə)
3. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti.(Kitab). Bakı. Şərq-Qərb.2007,407 s.
4. Zabil Bayramlı, Bəymirzə Şabiyev. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər).(Kitab) Bakı. Elm və Təhsil. 2017, 360 s.

CİNLİ QALA

TALEH ƏLİYEV
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
Albanşünaslıq Elmi Mərkəzi
taleh.ali@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Azərbaycanın orta əsr qalaları içərisində şimal-qərb ərazilərində yerləşən müdafiə istehkamları xüsusi yer tutur. Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ərazisində yerləşən ilk orta əsr və orta əsr qalaları bu baxımdan əhəmiyyətlidir. Həmin müdafiə istehkamlarından biri də Qax rayonunda yerləşən Cinli qaladır. Qala Kürmükçayın sol sahilində yerləşən dağın zirvəsində inşa edilmişdir. Tərəfimizdən 2021-ci ildə qalada arxeoloji tədqiqat işləri aparılmışdır. Cinli qala İlk orta əsrlərdə inşa edilmiş alban dövrü istehkamı kimi orta əsrlərdə də bərpa edilərək müdafiə məqsədi ilə istifadə edilmişdir. Qala orta əsr müdafiə tikililərinin xüsusiyyətlərini özündə daşıyan mühüm strateji əhəmiyyətli məntəqələrdən biri olmuşdur.
Açar Sözlər: CİNLİ QALA, Qafqaz Albaniyası, istehkam, orta əsrlər

GİRİŞ

Şimal-qərbi Azərbaycanın müdafiə istehkamları ilk orta əsrlərdə və klassik orta əsrlərdə tariximizin mühüm səhifələrini özündə əks etdirən abidələr sırasındadır. Qax rayonu ərazisində Cinli qala, Zərnə qala-məbədi, Güllük qala-məbədi, Sarıbaş qalası, Ağçay və İlisuda yerləşən istehkamlar və digər müdafiə tikililəri Qafqaz Albaniyası dövrünün qala və istehkamlarının, Azərbaycanın ilk orta əsr və klassik orta əsr tarixinin, memarlığının və arxeologiyasının tədqiqi baxımından vacib yeri tutur. Cinli qala orta əsr müdafiə memarlığının parlaq nümunələrindən hesab oluna bilər. Arxeoloji tədqiqatlar qalanın interyerində mövcud olmuş tikili qalıqlarının, həmçinin, qala divarlarının və bürclərinin öyrənilməsi üçün imkan yaratmışdır.

TƏDQİQAT METODU

Cinli qala Qax rayonunun İlisu kəndi yaxınlığında yerləşən qala ilk orta əsr istehkamlarından biridir [Şəkil 1]. Qala özündə dağ qalalarının müdafiə strukturunu özündə əks etdirir. Kürmükçayın sol sahilində, İlisu kəndindən 5 km aralıda dağın başında yerləşir. Yaxınlıqda yerli əhali tərəfindən Qala dərəsi adlandırılan ərazi var. Qalanın inşası üçün olduqca strateji yer seçilmişdir. Bürclərdən baxdıqda Qaxbaş kəndindən Ulu körpüyə, eləcə də İlisu kəndinin bütün ətrafının uzaq nöqtələrinə qədər yerlər nəzarətdə saxlanıla bilir. Qalanın təbii müdafiəyə malik çay dərəsi, qaya və uçurumlar qoruyur. Qala üç tərəfdən keçilməz uçurum qayalarla əhatə olunur. Şimal hissəsi hücum üçün ən əlçatmaz yerlərindəndir. Qalaya yalnız bir giriş mövcuddur. Bu da dağ qalalarına xas olan dar keçiddən ibarətdir.

Qalanın şərqdən qərbə doğru uzanan memarlıq quruluşu və bürcləri onun möhtəşəmliyindən xəbər verir. Onun ümumi ölçüləri 12x60 m-dir. Dağın başında oranın relyefinə uyğun inşa olunmuş Cinli qala olduqca böyük əhəmiyyətə malikdir. Təbii-topoqrafik şərtlər qalanın müdafiəsi üçün çox əlverişlidir. Qalanın müdafiə divarlarında 13 bürc inşa edilmişdir. Qalanın cənub fasadında divarlar və bürclər elə inşa edilib ki, oradan aşağıya doğru atılan daşlar hücum edən düşməni darmadağın etməklə istehkama girişinə asanlıqla mane olurdu. Bəzi yerlərdə qalanın divarları 7 m hündürlüyə qədər salamat qalmışdır. Divarların qalınlığı cəhətdən və relyefdən asılı olaraq 60-120 sm arasında dəyişir. Qalanın yerləşdiyi relyefin ən hündür hissəsində onun əsas dördkünc qülləsi tikilmişdir. Hündürlüyü 10 m olan qüllə iki mərtəbəlidir. Onun içərisində pilləkən yerlərinin divarlarda izləri qalır. Pilləkənlər taxtadan olduğu üçün çürümüşdür. Qüllə bir növ "donjon" rolunu oynamışdır. Həmin qüllədən ərazinin bütün hissələrinə, hətta mümkün olan ən uzaq məsafələrə qədər nəzarət etmək mümkün idi [3; 4; 5].

Şəkil 1. Cinli qalanın yerləşdiyi dağın Kürmükçay sahilindən görünüşü

Cinli qalanın müdafiə divarlarından içəridə bir sıra tikililərin qalıqları qalmaqdadır. Həmin tikililər yerli daşlardan inşa edilmişdir. Şimal divarına yaxın hissədə bəzi tikili qalıqlarının divarları gözə çarpır. Onların üzərində suvaq izləri də görünür. Həmin tikililər böyük ehtimalla su və ərzaq saxlamaq üçün istifadə edilmişdir. Qalanın əsas qapısı cənub divarında yerləşir [Şəkil 2]. 1,95 m eni olan qapının arxasından iri odun parçaları ilə bağlanması üçün yerləri də gözə çarpır. Bürclərdə bəzən təhlükə zamanı tonqal yandıraraq xəbər vermə adəti də olmuşdur. Bunu orada qalan kömür qalıqları da aydın göstərir. Qalanın yerləşdiyi ərazinin relyefi olduqca çətindir. Qala şərqdən qəbrə doğru uzansa da onun daxilində qəribə quruluşa rast gəlirik. Belə ki, şimal və cənub divarları arasında qala sanki iki hissəyə bölünür. Şimal divarlarında gizli çıxış var ki, bu da kəskin təhlükəli hallarda qalanı oradan tərk etməyə imkan verirdi. Bu üsul təhlükəli olsa da düşmənə qarşı çox yaxşı hiylə idi. Qeyd etdiyimiz iki hissəyə bölünmə də bununla əlaqədardır [3; 5].



Şəkil 2. Cinli qalanın giriş hissəsinin daxildən görünüşü

Cənubdan ümumi girişdən girə biləcək düşmən cənub divarları yanında güclü müqavimətə rast gəlir, həmin müddətdə isə şimal divarlarında əhali oranı tərk edə bilirdi. Lakin onu da vurğulayaq ki, qalaya girmək qeyri-mümkündür. Cinli qalanın daxilində yerləşən bir sıra tikililər əslində qalanın içərisində həyat üçün lazım olanların təminatına və müdafiəni asanlaşdırmağa xidmət edirdi. Bu cür mütəşəkkil müdafiə sisteminə malik olan bir istehkamın düşməndən qorunması çox rahat başa gəlirdi [3; 5].

2021-ci ildə Oğuz-Qax arxeoloji ekspedisiyası Qax rayonunun şimal hissəsində, Ağçay və İlisu kəndləri arasında, İlisunun cənub hissəsində, Kürmükçayın sol sahilində, Qala dərəsi adlanan ərazinin cənubunda, yüksək dağlıq hissədə yerləşən Cinli qala müdafiə istehkamında arxeoloji tədqiqat işlərini həyata keçirmişdir. Cinli qalada apardığımız ilkin arxeoloji tədqiqat işləri onun orta əsrlərdə müdafiə istehkamı funksiyasını daşıyan mühüm bir istinadgah olduğunu söyləməyə əsas verir. VI-VII əsrlərdə inşa olunmuş qala əslində ilk orta əsrlərin Gavurqala tipli müdafiə istehkamlarını xatırladır. Qalanın klassik orta əsrlərdə də istifadə edildiyi şübhəsizdir. XVII-XVIII əsrlərə qədər qalada zaman-zaman həyat izlərinin olduğu qənaətindəyik. Qalanın strateji əhəmiyyətli mövqeyi və su mənbəyinə yaxınlığı bu imkanı daha da

artırmışdır. Belə ki, Cinli qaladan İlisu, Ağçay və Ulu körpü çox rahat şəkildə müşahidə olunur. Əslində ardıcıl olaraq Cinli qala, Sumuq qala və Qalaça əraziləri bir-birilə əlaqəli ola bilər. Kürmükçay boyu bu müdafiə istehkamlarının strateji nöqtələri onların əhəmiyyətindən xəbər verir. Uzunluğu 60 m, eni isə ən geniş sahədə 12 m olan qalanın en sahəsi relyefə uyğun olaraq dəyişir. Qalanın 13 bürcü var. Qalaya giriş cənub hissədəndir. Ehtiyat çıxış isə şimala doğrudur. Oradan Kürmükçay dərəsinə sərt uçurum yerləşir. Qalaya yeganə girişə çətinliklə qalxmaq mümkündür. Olduqca maraqlı müdafiə sisteminə malik qalanın baş bürcü şərq istiqamətində yerləşir. Bəzi yerlərdə qala divarlarının salamat qalan hündürlüyü 7 m-dir. Baş bürcün hündürlüyü isə 10 m-dir [Şəkil 3]. Orada pilləkən üçün taxtaların keçirilməsi məqsədilə dəliklər açılmışdır. Müşahidə yerləri aydın bilinir. Bəzi hallarda onların ölçüləri 20x20 sm-dir [3].

Şəkil 3. Cinli qalanın baş bürcünün daxilinin görünüşü

Qalanın divarı boyu da müşahidə yerləri var. Qalanın mərkəzi hissəsində boşluq yeri var ki, o da tikilinin uçması nəticəsində meydana gəlmişdir. Qalanın ehtiyat çıxışına yaxın hissədə ərzaq anbarının yeri var. Giriş qapısının kənarlarında isə giriş bürcləri qalmaqdadır. Giriş qapısının eni 1,95 m-dir. Orada divarlarda qapının bağlanması üçün arxasına taxta keçirməq məqsədi ilə həmin taxtaların yerləri açılmışdır. Qalanın bürclərindən hər bir istiqamətdə müşahidə etmək mümkündür. Onu da qeyd edək ki, qaladan şimalda Orta Könə adlı yaşayış yeri var. Yaşayış yerinin qala ilə həmdövr olması şübhəsizdir. Baş bürcün içərisində eni 3 m-dir. 5 və 7 m arasında dəyişən hissələri də inşa olunmuş divarlara müvafiq olaraq dəyişir. Giriş bürclərinin diametri 5 m-dir. Bəzi bürclərdə isə bu ölçü 1 m-dir. Qala çay və qaya daşından kirəc məhlulu ilə inşa edilmişdir. Qalanın içərisində kvadrat formalı bişmiş kərpiclərə də rast gəlinmişdir. Həmin kərpiclər İsmayıllı rayonunun Talıstan kəndi yaxınlığında yerləşən Cavanşir qalasında rast gəlinən kərpiclərlə eynilik təşkil edir [1].

Cinli qalanın şimal-şərq hissəsində baş bürcə yaxın hissədə tikili qalığı müəyyən edilmişdir. Tərəfimizdən aparılmış yoxlama qazıntısı nəticəsində həmin tikilinin üzəri açılmışdır. 5x5 m ölçüdə kvadrat formalı tikilinin daxilində yalnız şərq hissəsində yarımoval səciyyəli quruluşa malikdir [3].

Şəkil 4. Cinli qalanın şimal divarının bir hissəsi

Tikiliyə giriş qərb hissədəndir. Onun şimalı qalanın şimal divarına bitişir. Həmin hissədən baş bürcə doğru şimal divar da təmizlənərək tədqiqata cəlb edilmişdir [Şəkil 4; 6]. 2 m hündürlüyündə salamat qalmış həmin hissənin şərq hissəsində kiçik çıxıntı aydın bilinir. 7 m uzunluğunda olan divarda 4 m şərqə doğru uzandıqdan sonra 1 m-lik çıxıntı görünür. Daha sonra 3 m davam edən divar cənuba dönərək baş bürclə birləşir. Yoxlama qazıntısı zamanı aşkar olunmuş tikilinin divarının qalınlığı 0,7 m-dir [Şəkil 5]. Giriş hissə daha çox dağıntıya məruz qalmışdır [3].

Şəkil 5. Cinli qalada arxeoloji qazıntı işinin aparıldığı tikili qalığı

Cənub divarı ilə qalanın cənub müdafiə divarı arasından isə baş bürcə keçmək mümkündür. Cinli qalanın dəniz səviyyəsindən hündürlüyü 1002-1020 metr arasında relyefə müvafiq olaraq dəyişir [Şəkil 7].

Şəkil 6. Cinli qalanın şimal divarının bir hissəsi

İlisuda yerləşən Sumuq qala və Qalaça adlanan müdafiə istehkamlarına baxış keçirilmişdir. Fotoları tərəfimizdən çəkilmişdir. Sumuq qala ilə Qalaça bir-birinə yaxın ərazidə yerləşir. Həmçinin, Bürc qala da İlisuda Qala məhəllədə yerləşən istehkam tipli abidələrdəndir. Qalaçanın strateji mövqeyi olduqca əhəmiyyətlidir. Dəniz səviyyəsindən 1346 m hündürlükdə yerləşən qala dairəvi formalıdır. Qalaçaya yeganə giriş şimal hissədəndir. Müşahidə pəncərələrindən ətraf ərazilər aydın müşahidə olunur. İlisu və Sarıbaş kəndlərini çox rahat şəkildə müşahidə etmək mümkündür. Kürmükçayın üzərində yerləşən Ulu körpü isə orta əsr abidələrinin incilərindəndir [3].



Şəkil 7. Cinli qalanın və arxeoloji tədqiqat aparılmış tikili hissənin planı (Taleh Əliyev)

Sarıbaş qalası Qax rayonunun Sarıbaş kəndinin yaxınlığında 1700-1800 m dəniz səviyyəsindən hündürlükdə yerləşir. Qala divarının uzunluğu 100 m-ə yaxındır. Onun bir küncündə indiyədək qalmış bürcün xarabalıqlarının eni 6 m, uzunluğu isə 10 metrdir. Divarlarının eni 100 sm olmaqla yerli materiallardan çay daşı və əhənglə tikilmişdir. Qeyd edək ki, şimal-şərq rayonlarımızda və Şirvan bölgəsində də həmdövr müdafiə istehkamları oxşar elementləri özündə daşıyır [1; 2; 3; 5]

NƏTİCƏ

Beləliklə, müdafiə istehkamları ilə zəngin olan Qax rayonunun ərazisində yerləşən Cinli qala ilk orta əsr alban dövrü və klassik orta əsrlər mərhələsinin tarixini özündə əks etdirməklə Azərbaycan tarixinin və memarlığının bir parçasıdır. Qalada aparılmış ilkin arxeoloji tədqiqatlar onun müdafiə divarları ilə yanaşı daxili hissəsində yerləşən tikili qalığı haqqında da fikir söyləməyə əsas verir. Gələcək tədqiqatlar qalanın daxilində yerləşən müxtəlif təyinatlı tikililərin sistemli şəkildə öyrənilməsinə imkan yaradacaq. Cinli qala özünün həmdövr abidələri ilə bərabər Azərbaycanın şimal-qərb torpaqlarının müdafiəsi işində mühüm rola malik tarixi abidə kimi əsrlərin yaddaşını özündə daşıyır.

Ədəbiyyat Siyahısı:

1.Cəbiyev Q.C. Girdiman tarixi və tarixi coğrafiyası, (Kitab) Bakı, "Elm və təhsil", 2015, 450 s.
2.Əliyev Ə.Ə. Gilgilçay səddi və Çıraqqala, (Kitab) Bakı, 2014, 127 s.
3.Əliyev T.V. Oğuz-Qax arxeoloji ekspedisiyasının 2021-ci ildə apardığı arxeoloji tədqiqat işlərinin hesabatı // AMEA AEİ Elmi Arxivi, (Arxeoloji tədqiqat hesabatı) Bakı, 2022, 218 s.
4.Məmmədov A.M., Əliyev T.V., Rəcəbov M.İ. Qax-Balakən arxeoloji ekspedisiyasının 2016-cı ildə apardığı arxeoloji qazıntı və çöl-tədqiqat işlərinin hesabatı, (Arxeoloji tədqiqat hesabatı) Bakı, AMEA AEİ EAF, 2016, 20 s.
5.Мурадов В.Г. Неисследованные памятники архитектуры сел. Илису Кахского района Азербайджанского ССР // Известия Академии наук Азербайджанской ССР, (Jurnal məqaləsi) 1980, № 3, с. 111-113

URARTULULARIN ETNİK-GENETİK MƏNSUBİYYƏTİNİN TƏDQİQİ BAXIMINDAN HÜRRİ DİLİNİN ƏHƏMİYYƏTİ

Əsmər Göyüşova
A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı
esmergoyusova@gmail.com
Bakı, Azərbaycan

XÜLASƏ

Urartu dövləti e.ə. I minillikdən etibarən böyük bir coğrafiyada hökm sürmüşdür. Urartu coğrafiyası Şərqi Anadolu, şimal-qərbi İran və Göyçə gölü ətrafı da daxil olmaqla təqribən 220.000 km 2 geniş bir ərazini əhatə etmişdir. Elmi nəşrlərdə Urartu kimi qeyd edilən bu dövlətin adının ilkin forması Uruatri şəklində I Salmanasarın kitabələrində qarşımıza çıxır. Daha sonrakı dövrlərə aid II Aşşurnasirpalın mətnlərində isə Urartu yazılış formasına rast gəlinir. Urartu dilinin region üçün xarakterik olan nə Sami dil ailəsi, nə də Hind-Avropa dil ailələri ilə hər hansı bağlılığı yoxdur. Lakin Urartu dili e.ə. III minillikdən etibarən şimali Mesapotamiyada hakim rol oynamağa başlayan hurri dili ilə müəyyən oxşar xüsusiyyətləri özündə ehtiva edir.

Açar Sözlər: Mesopotamiya, mixi yazılı kitabələr, Mitanni dövləti

GİRİŞ

Aşşur mənbələri vasitəsilə müxtəlif məlumatlar əldə etdiyimiz urartulular e.ə. XIII əsrdən başlayaraq Ön Asiyanın siyasi tarixində aparıcı rol oynamışlar. Şərqi Anadolu bölgəsi Orta Aşşur krallığı dönəmindən etibarən şimala edilən hərbi səfərlərin əsas hədəflərindən biri olmuşdur. Elmi nəşrlərdə Urartu kimi qeyd edilən bu dövlətin adının ilkin forması Uruatri şəklində I Salmanasarın kitabələrində qarşımıza çıxır. (1, s. 16). Daha sonrakı dövrlərə aid II Aşşurnasirpalın mətnlərində isə Urartu yazılış formasına rast gəlinir. Qeyd etmək lazımdır ki, hər iki yazılış formasının burada yaşayan əhalinin etnik-linqivistik mənsubiyyəti ilə hər hansı bağlılığı yoxdur. Umumiyyətlə, qədim yazılı mənbələrdə xatırlanan bu cür ifadələr əksər hallarda coğrafi məkanı bildirmək məqsədi ilə işlədilmişdir. Bu baxımdan Urartu-Uruatri aşşurluların I Salmanasarın hakimiyyət illərindən etibarən tez-tez hərbi yürüşlər etdiyi bölgəyə verdikləri coğrafi addır. (3, p 333-334; 4 pp. 100-104).

Urartuluların etnik-genetik mənsubiyyəti ilə bağlı qəti fikir bildirmək bir qədər çətin olsa da, deyə bilərik ki, urartu dili bu dövlətin tarix səhnəsinə çıxdığı dövrdən çox əvvəl Şərqi Anadolu bölgəsində işlədilmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, bu dilin həmin region üçün xarakterik olan nə Sami dil ailəsi, nə də Hind-Avropa dil ailələri ilə hər hansı bağlılığı yoxdur (2, pp.27). Lakin Urartu dili e.ə. III minillikdən etibarən şimali Mesapotamiyada hakim rol oynamağa başlayan hurri dili ilə müəyyən oxşar xüsusiyyətləri özündə ehtiva edir.

Uzun bir müddət gücünün zirvəsində olan Hurri-Mitanni dövləti e.ə. II minilliyin ortalarında Het dövlətinin təsir dairəsinə keçmişdir. E.ə. 1200-ci ildən etibarən isə intensiv xarakter alan Ege xalqlarının köçləri nəticəsində həm Het İmperatorluğu, həm də Mitanni dövləti tarix səhnəsindən çəkilmişdir.

Urartuluların hurrimənşəli olduğu fikrini müdafiə edən tədqiqatçıların istinad etdiyi faktları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Urartu dilinin hurri dili ilə olan bənzərlyi, 2) Urartu panteonundakı bəzi allahların hurrimənşəli olması, 3) Urartu dövlətinin mövcud olduğu ərazinin Hurri-Mitanni dövləti tərəfindən II minillikdə təsir altına alınması (4, pp 100-104).

Urartu və hurri dili arasındakı bağlılığın nə dərəcədə olduğu da mübahisəlidir. Aparılan etno-linqivistik tədqiqatlar nəticəsində hurri dilinin iki əsas dialekti olduğu məlum olmuşdur. Bunlardan ən əhəmiyyətlisi Mitanni məktublarının yazıldığı dil, digəri isə Hurri-Mitanni dövlətinin siyasi güc kimi formalaşmağa başlamasından çox əvvəl istifadə olunan qədim hurri dialektidir. Elə urartu dili də proto-hurri dillərindən ayrılaraq Şərqi Anadoluda təşəkkül tapan dillərdən biridir (5, pp. 97)

Hər iki dil arasında nəzərə çarpan oxşarlıqlar vardır. Belə ki, həm hurri, həm də urartu dili erqativ dillərdən hesab olunur. Hər iki dildə mənsubiyyət göstəricisi "hi" şəkilçisi vasitəsilə bildirilir. Urartu dilindəki "nə vaxt?, nə zaman?" sual əvəzliklərini bildirən "ase", hurri dilində 'awes' ilə ifadə olunur (5, pp. 99).

Mediasiya mübahisələrin danışıqlar yolu ilə mediatorun və tərəflərin iştirakı ilə təşkil edilən və münaqişənin alternativ həllinə çalışan bir prosesdir və bir çox ölkələrin hüquq sistemində əsaslı rol oynayır. Məhkəməyə müraciət zamanı qanuna əsasən insanlararası münaqişəyə baxıldığı halda, mediasiya prosesində münaqişə və mübahisə zamanı iştirakçı tərəflər üçün nə əhəmiyyətlidir? sualı daha aktual səslənir. Mediasiya ilə əlaqədar xarici ölkələrin təcrübələrinə baxıldığı zaman müasir mediasiya prosesinin Amerikada ortaya çıxdığı, daha sonra Avropa Birliyi ölkələrinə yayıldığı görülür. Amerikada bu sahəyə olan marağın 1960-cı illərdən başladığı, 1976-cı ildə keçirilən Roscoe Pound Konferansı ilə müasir mediasiya prosesinin əsasının qoyulduğu qeyd edilməkdədir.[14] Avropada isə 1998-ci il Vyana Fəaliyyət Planı və 1999-cu ildə Tampure Avropa Zirvəsində üzv ölkələrə mübahisələrin alternativ həlli yolu ilə əlaqədar məsləhətlər verilmişdir. 2002-ci ildə isə Yaşıl Kitab hazırlanmışdır ki, bu kitabda da mediasiyaya aid əsas prinsiplər üzərində dayanılmışdır. [8, s.25]

2004-cü ildən Yaponiyada ailə və əmlak münasibətlərindən yaranan mübahisələr məcburi mediasiyaya tabe tutulur və 2007-ci ildən isə mediasiyanın yayılması və bu sahəyə marağın artırılması çalışmaları müşahidə edilir.

2012-ci ildə isə Türkiyədə 6325 saylı "Hukuk Uyuşmazlıkları Arabuluculuk Kanunu (HUAK)"qüvvəyə minərək bu sahə inkişaf etməyə başlamışdır. Dünya ölkələrinin hüquq sistemində mediasiya prosesinin bu qədər aktual olması və eyni zamanda rəğbət görməsinin səbəbləri isə aydın idi. Belə ki, münaqişələrin və mübahisələrin kəskinləşməsi çox zaman tərəfləri şiddətə ya da məhkəməyə sövq edir. Bu isə çox zaman tərəflərdən birinin bu prosesdən məmnun qalmaması ilə nəticələnir. Son illərdə məhkəmələrin iş yükünün artması, cəmiyyətdə münaqişələrin həlli zəminində məhz mediasiya kimi alternativ yolların düşünülməsinə gətirib çıxarmışdır.

Mübahisələrin alternativ həlli yolları ilə bağlı tarixi keçmişimizə baxıldığı zaman mediasiya prosesi ilə Azərbaycan mədəniyyətində "ağsaqqal" və ya "ağbirçək" anlayışları arasında bir növ bənzətmə aparıla bilər. Bu mövqedə olan şəxs adətən tərəfləri dinləyərək onları "barışdırmağa" çalışır, ya da öz sosial mövqeyindən çıxış edərək qərarverici insana çevrilirdi. Təbii ki, bu bənzətmə mediasiya prosesini tam əks etdirməsə də, müxtəlif xalqların mübahisə yaşayan tərəflər arasında barışıq cəhdlərinin göstəricisi kimi görülə bilər. Yalnız klassik və məişət zəminində tətbiq edilən bu barışıq müasir mediasiya prosesindən əsaslı fərqlənir. Belə ki, mediasiya prosesini aparan şəxs, yəni mediator heç bir şəkildə şəxsi qərarlarına əsasən danışıqlara istiqamət vermir, o mübahisə yaşayan tərəflərə qərəzsiz yanaşaraq müstəqil davranır və etik prinsiplərə dayanaraq tərəflərlə danışıqlar aparır.

Artıq bir çox dünya ölkələrində mediasiyanın tətbiqi, yayılmasının labüd hal aldığı görülür. Mediasiya prosesində mediatorun şəxsiyyəti, ünsiyyət qura bilmə bacarıqları, effektiv sosial bacarıqlarının formalaşdırılması əhəmiyyətli mövzu kimi qarşımıza çıxır. Bu cəhətdən də mediasiya prosesinin əsas mahiyyətinin danışıqların aparılması olduğunu qeyd edərək bu prosesdə ünsiyyətin mahiyyətini açmaq və eyni zamanda mediasiya prosesində mediatorun hansı ünsiyyət bacarıqlarına sahib olması öz aktuallığını qoruyur. [8]

Bu məqsədlə ünsiyyət, ünsiyyət bacarıqlarının mediasiyada rolu, mediatorun şəxsi keyfiyyətləri və psixoloji vəziyyəti kimi məsələlər bu məqalədə öz əksini tapır.

Mediatorun peşəkar bacarıqlarından ən əsası ünsiyyət qurma bacarığı olaraq qiymətləndirilə bilər. Yaxşı münasibətlərin qurulması, tərəflərin mediatora güvən duyması məhz mediatorun ünsiyyət bacarıqları ilə sıx əlaqədardır. Bu cəhətdən də Youngın terapevtik ünsiyyət zamanı qeyd elədiyi məqamlar diqqəti çəkir.

Young tərəfindən terapevtik ünsiyyət bacarıqları 5 kateqoriyada və 19 alt başlıqdan ibarət olaraq qruplaşdırılıb. [4] Bu ünsiyyət bacarıqları arasında sözsüz ifadə bacarıqları (uyğun göz təması, vücudun pozisiyası, səs tonu, jestlər və üz ifadəsi, fiziki məsafə, fiziki təmas və s.), söhbəti təşviq etmə bacarığı, sual vermə bacarığı, tərəflərin fikirləri ilə əks əlaqə qura bilmə bacarığı əhəmiyyətli görünür. Bu bacarıqlar mediasiya prosesində də mediator və tərəflər arasında yaxşı münasibətlərin qurulmasına gətirib çıxarır.

Münasibət yaxşı qurulduğu zaman isə tərəflər,

1.Hörmətlə yanaşıldığını, başa düşüldüyünü hiss edir.

2. Onu diqqətlə dinləyən və anlayan insanın varlığından məmnun olur.

3. Mediasiya prosesində daha aktiv iştirak edərək mediatorla əməkdaşlığa daha çox meyillənir.

4. Özlərini daha güvəndə və rahat hiss edərlər.

Ünsiyyət bacarığı kimi dinləmə və ona təsir edən amillər

Ünsiyyət prosesində ən əsas məqamlardan bir də dinləmə bacarığıdır. Dinləmə və eşitmə anlayışları bir birindən fərqli olaraq qiymətləndirilə bilər. Eşitmək, dinləmək və dinlədiyini anlamaq bacarığı mediasiya prosesində çox əhəmiyyətlidir.

Dinləmə bacarığı sayəsində mediatorlar sadəcə tərəflərin problemlərini anlamaz, eyni zamanda problemin altında ötürülən alt mesaj və duyğuları daha yaxşı qavraya bilərlər. Təbii ki, bu prosesdə mediatorun diqqətli və aktiv dinləyici olması üçün diqqətini dağıtmaması önəmlidir.

Dinləmə bacarığı passiv və aktiv olaraq iki hissəyə ayrılır. Passiv dinləmə sadəcə qarşındaki insana qulaq asmaq, arada dinlədiyini göstərmək kimi şərh edilir (başını sallama, aha...kimi ifadələri işlətməklə dəstəklənir). [1, s.27-30]

Aktiv dinləmədə isə mesajın alındığı ilə əlaqədar tərəf sözlü və yaxud sözsüz reaksiyalarını bildirir. Bu dinləmə eyni zamanda tərəfə anlaşıldığı, dəyərli olduğu hissini verməklə yanaşı, qulaq asan şəxsdə empatiyanın formalaşmasına şərait yaradır.

McKay və yoldaşları dinləmə bacarığına təsir edən maneələri aşağıdaki başlıqlar altında toplayaraq belə izahat verir.

1.Müqayisə edilmək-insanlar arasında sözlü və ya sözsüz şəkildə müqayisələrin aparıldığının hiss etdirilməsi dinləmə və anlamağa təsir edən faktordur.

2.Başqasının fikrini oxuduğunu zənnetmə- dinləyərkən qarşı tərəfin ağlından keçənləri təxmin etməyə çalışmaq da yanıldıcı və dinləməyə mane olan vəziyyətdir.

3.Təkrarlama-dinləyən şəxsin daima nə deyəcəklərinə fokuslanması və tez-tez bunu təkrarlanması da dinləmə prosesinə mənfi təsir edir.

4.Danışığın sanki ələkdən keçirilərək bir hissəsinə fokuslanma-dinləyən şəxsin yalnız özünün istədiyi mövzunu dinləyib, digərlərinə diqqət etməməsi vəziyyətidir.

5.Qınama-bir insan haqqında səhv fikir və təəssüratlar da qarşı tərəfin dediklərinə qulaq asmamağa, anlamamağa səbəb ola bilir.

6.Fikrə (xəyala) getmə-dinləyən şəxsin fikrə getməsi, öz emosional vəziyyətinə fokuslanması ya da düşüncələri ilə məşğul olması qarşı tərəfin nə dediyinə fikrini cəmləməməsinə gətirib çıxarır.
7.Oxşarlıq görmə qarşı tərəfin sözünü kəsərək özünün oxşar vəziyyəti ilə əlaqədar danışmağa başlamaq da diqqətin əsas mövzudan yayınmasına gətirib çıxara bilər.
8.Məsləhət vermə-dinləyənin öz həyat təcrübəsini paylaşaraq qarşı tərəfə qulaq asmadan məsləhətlər, öyüd verməsidir ki, bu da qarşı tərəfə mən səndən "daha ağıllıyam" mesajını verə bilər.
9.Söz güləşdirmək-insanları sözlü şəkildə mübahisə etməsidir. Bu vəziyyətdə adətən qarşı tərəfi kiçiltmə və düşməncəsinə duyğular hakim olur.
10. Haqlı çıxmağa çalışmaq- səhv olmamaq üçün reallığı deməmək, günahlandırmaq, qışqırmaq, özünü müdafiəyəyə keçmək də dinləməyə mənfi təsir edən amillərdən hesab edilir.
11.Rahatlatma, şəxsin nə dediyinə fokuslanmaq əvəzinə onu sakitləşdirməyə çalışan davranışlar və sözlü ifadələrdir. Belə olduğu zaman mövzudan uzaqlaşılmaqda və real vəziyyət başa düşülməməkdədir.
Beləliklə, yuxarıda qeyd edilən dinləməyə mane olan amillərin mediatorlar tərəfindən fərq edilməsi və üzərində aktiv şəkildə işləmələri zəruridir.
Ünsiyyət bacarığı kimi tərəflə empatiya qurma
Empatiya hadisələr və vəziyyət qarşısında insanın özünü başqasının yerinə qoyaraq onu anlaması olaraq dəyərləndirilir [9, səh.8].
Empatiya fərqli şəkillərdə izah edilsə də, empatiya qura bilən insanın hədəf olaraq qarşıdakı insanla eyni şeyi yaşaması, anlaması və onun yaşadıqlarını hiss etməsi olaraq qiymətləndirilir. Empatiya qurmaq istədiyimiz şəxsin roluna girərək, onun yerinə keçib hadisələrə onun gözləri ilə baxmalıyıq. Qarşımızdakı şəxsin roluna girərək empatiya qurduğumuz zaman onun rolunda qısa müddət qalmalı və daha sonra bu roldan çıxaraq öz yerimizə keçə bilməliyik. Əks təqdirdə empatiya qurmuş olmuruq [3, səh. 157-158].
Effektiv ünsiyyət bacarığının formalaşdırılmasında sualların növləri və sual vermə
Mediasiya sessiyası zamanı verilən suallar böyük əhəmiyyət kəsb edir və bu suallar eyni zamanda prosesin axışını müəyyən edə bilir. Sualların hədsiz və yersiz istifadə edilməsi ünsiyyət prosesini pozur. Belə ki, suallar öz məzmununa görə açıq, qapalı və aydınlaşdırıcı tipli suallar olaraq ayrılmaqdadır.
Effektiv ünsiyyət qurmağa təsir edən şəxsi xüsusiyyətlə bağlı amillər:
Fikrin ifadə edilməsində yaşanan çətinlik – şəxsin söz dağarcığının az olması və ya şəxsin öz nitqi ilə əlaqədar mənfi rəyinin olmasıdır. Xüsusən kiçik yaşlardan etibarən oxuma vərdişlərinə sahib insanları fikirlərini daha dolğun ifadə etdikləri də müşahidə edilir.
Aron və digərlərinə (2005) görə utancaqlıq – sosial ünsiyyət qurmaqdan narahat olmaq və ünsiyyəti çərçivələməyə yol açan mənfi psixoloji vəziyyətdir. Bu mənada da mediatorun bu keyfiyyətə sahib olması mediasiyaya mənfi təsir edən faktor kimi ələ alına bilər.
Özünə inanmama və ya özgüvən əksikliyi –Belə ki, kiçik yaşlardan etibarən şəxsin daim tənqid edilməsi, "mükəmməliyyətçi" valideynlər tərəfindən böyüdülməsi və bunun nəticəsində özgüvənsiz olması kimi faktorlar dəyərləndirilə bilər. Özünə inanan insanlar münasibət qurmada rahat davranmaqda ikən, özgüvəni aşağı olan insanlar münasibət qurmaqda çətinlik, güvənsizlik yaşamaqdadır. Belə ki, mediatorun da bu cəhətdən öz daxili aləmini araşdırması və bu sahədə çətinlikləri varsa dəstək alması, bir başqa sözlə öz üzərində aktiv işləməsi mediasiya prosesində özünü rahat hiss etməsinə, rahat ünsiyyət qurmasına təkan verə bilər.
Sosial fobiyaya sahib olma – ünsiyyət çətinliklərinin yaranmasına səbəb olan faktorlar arasında sıralana bilər. Belə ki, sosial fobiyası olan insanlar adətən digər insanlarla ünsiyyətə girməmək üçün qaçınır və yaxud ünsiyyət qurduqları zaman hədsiz həyəcan, təşviş duyğusuna qapılırlar.
Beləliklə, mediator olmaq istəyən və ölkəmizdə bu sahəyə töhvə vermək istəyən şəxslərin öz şəxsi keyfiyyətlərini səmimi şəkildə dəyərləndirmələri və effektiv ünsiyyət bacarıqlarına sahib ola bilmələri üçün bunları təcrübədən keçirərək formalaşdırmağa və çalışmalıdırlar.

TƏDQİQAT METODU

Tədqiqatda mediasiya sahəsi üzrə elmi ədəbiyyatlar təhlil edilərək, sistemli analiz və sintez aparılmışdır.

NƏTİCƏ

Mediasiya prosesi ilə əlaqədar məqalə və tədqiqatlar bu sahədə işləyəcək mediatorların şəxsi və peşə bacarıqlarının formalaşmasına töhvə verəcəkdir. Mediator kimi fəaliyyət göstərmək istəyən şəxslər də bu tədqiqatdan faydalanaraq öz peşə və şəxsi bacarıqlarını artıra bilər, mediasiya prosesinə mənfi təsir edəcək xüsusları aradan qaldırmaq üçün səy göstərə bilərlər. Son illərdə müxtəlif elm sahələrinin inteqrasiyasını nəzərə alaraq, hüquq, psixologiya və s.kimi sahələrdəki nəzəri və praktiki məlumatların da mediasiya prosesində zəruriliyi və istifadəsinin əhəmiyyəti də məqalədə öz əksini tapmaqdadır. Mediasiya prosesinin

danışıqlar prosesi olduğu nəzərə alındığında, ünsiyyət bacarıqları, liderlik, şəxsi keyfiyyətlər və s. kimi amilləri anlamanın zəruriliyinin vurğulanması da məqalədə öz əksini tapır. Beləliklə, məqalənin ölkəmizdə yeni inkişaf edəcək mediasiya prosesinə və mediatorların fəaliyyətinə ışıq tutacağı gözlənilir

Ədəbiyyat:

1.Acar, N. (1998). Terapötik İletişim. Ankara: 4. Baskı US-A Yayıncılık.
2.Aron, E. A. (2005). Adult Shyness: The Interaction of Temperamental Sensitivity and an Adverse Childhood Environment. Personality and Social Psychology Bulletin, 21, 181-192.
3.Dökmen, Ü. (2008). İletişim Çatışmaları ve Empati. İstanbul: Remzi Kitabevi.
4.E, Y. M. (2019). Yardım sanatını öğrenme.Temel yardım becerileri ve teknikleri. Ankara: Pegem Akademik Yayıncılıq.
5.Kısmet Kekeç, E. (2014). Arabuluculuk Yoluyla Uyuşmazlık Çözümünde Temel Aşamalar ve Takikler. Adalet Yayımları: Adalet Yayınları,2 ci basım.
6.Leonardo D'Urso, K. A.-Q. (2019). Mediatorlar üçün mediasiya təlimi üçün tədris vəsaiti. Baku: International Consulting Expertise EEIG,Expertise Advisors və ADR Center.
7.Mckay, M. D. (2010). İletişim becerileri. Ankara: HYB Yayıncılık.
8.Özge, Y. (2019). Bireysel İş hukukunda arabuluculuk. İstanbul: Bahçeşehir universitesi,Sosyal Bilimler Enstitüsü,Yüksek lisans Tezi.
9.Öztürk, S. (2010). Terapotik iletişim becerilerinin kamu çalışanlarının iletişim çatışmalarına girme eğilimlerine etkisi. Erzurum: Atatürk universitesi,Sosyal Bilimler Enstitüsü,Yüksek lisans tezi.
10.Rehber, E. (2007). İlköğretim ikinci kademe öğrencilerinin empatik eğilim düzeylerine göre çatışma çözme davranışlarının incelenmesi. . Adana.: Yayınlanmamış Yüksek Lisans Tezi.Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü.
11.Sunay, İ. (2009). Aile arabuluculuğu. Toplum ve sosyal hizmet, 22-31.
12.Tekin, A. S. (2008). Türk Emniyyet Teşkilatında müzakere ve arabuluculuk. Ankara: Polis Akademisi Güvenlik Birimleri Enstitüsü.
13.Veysəlli, F. (2010). Studia Philologica. IV Mütercim.
14.Yıldırım, F. (2019). Arabuluculuk ve Ombudsmanlık. İstanbul: İstanbul Okan Universitesi, Sosial Bilimler Enstitüsü.

FİLOLOGİYA ELMLƏRİ

AZƏRBAYCAN DİLİ

İNZIBATI SƏNƏDLƏR: ƏMR, PROTOKOL, ÇIXARIŞ, ETİBARNAMƏ

AYNURƏ PAŞAYEVA

Azərbaycan Dillər Universiteti, filologiya üzrə fəlsəfə doktoru
aynure8@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İnzibati sənədlər (əmr, protokol, çıxarış, etibarnamə, məktub, müqavilə və s.) düzgün tərtib etmək, elektron yazışmaları aparmaq hər bir insanın peşə mədəniyyətinin ayrılmaz hissəsidir. İnzibati sənədlər şirkətlər, idarələr və təşkilatlarda hər gün gündəlik istifadə olunan, işə düzəltmək, işdən azad etmək, vəzifə və dərəcələrin müəyyənləşməsi, iclasların həyata keçirilməsi, mühüm məsələlərin həlli və nəticəsi üçün hər bir şəxsin özünəməxsus təqdimatı üçün lazım, vacib əhəmiyyət daşıyan sənədlər olduğundan onların araşdırılması hər zaman mühüm aktuallıq və özəl məqsəd kəsb edir. İlk dəfə bu tədqiqatda inzibati sənədlərin ayrıca olaraq tədqiqata cəlb olunması tədqiqatın elmi yeniliyidir. Tədqiqat bütün ali təhsil müəssisələrində "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni tədris aparan müəllimlər, tələbələr, müxtəlif təşkilatlarda kargüzarlıqla məşğul olan mütəxəssislər, filoloqlar, eləcə də bütün sahənin mütəxəssisləri üçün praktik əhəmiyyətə malikdir.

AÇAR SÖZLƏR: inzibati, əmr, protokol, çıxarış, etibarnamə

GIRIŞ

İnzibati sənədlər əsas vəzifəsi rəhbərin hərəkətlərinə hüquqi qüvvə verməkdir. Xidmət sənədləri bütövlükdə müəssisə və ya təşkilatın maraqlarına təsir göstərir. Funksional məqsədi ilə onlar təşkilati və təşəkkür olur, təşkilati və inzibati sənədlər həm dövlətin daxilində, həm də ayrı bir təşkilatda obyektlərin idarə olunmasını təmin edir.

İnzibati kargüzarlıqda sənədləşdirmə idarəetmənin inzibati fəaliyyətini bilavasitə özündə əks etdirir. Bütün idarələrdə bu növ kargüzarlıq idarənin fəaliyyətindən asılı olmayaraq eyni formada təşkil olunur. Bunu nəzərə alaraq idarəetmə ilə müdiriyyətlə əlaqədar inzibati sənədlərin tərtibi, göndərilməsi, qeydiyyatı, icrasına nəzarət və onlardan istifadə etmək dəftərxanaya və ya kargüzara həvalə edilir.

Tədqiqatda əsas məqsəd inzibati sənədləri qruplaşdırıb doğru strukturuna uyğun analiz etməkdir. Çünki inzibati sənədlər hər bir təşkilatın taleyini həllinə xidmət etdiyindən bu məsələni elmi cəhətdən araşdırmaq da bütün dövrlərdə aktuallıq və əhəmiyyət kəsb edir. İlk dəfə bu tədqiqatda inzibati sənədlər ayrıca olaraq tədqiqata cəlb olunması tədqiqatın elmi yeniliyidir.

Əmr və onun strukturu

«Əmr» ərəb sözü olub, bir işin görülməsi üçün verilən hökm və göstərişi özündə ehtiva edən sənəddir. Əmr nazirliklərin, baş idarələrin, yerli idarəetmə orqanlarının, onların şöbə və idarə rəhbərlərinin, habelə birliklərin, müəssisə, təşkilatların rəhbərlərinin idarəetmə aktıdır. Hüquqi akt olaraq əmrlər çoxməzmunlu olur. İşə qəbul etmək, işdən azad etmək, töhmət vermək, təşəkkür etmək, iş rejimində dəyişiklik etmək, idarə və müəssisənin daxilində struktur dəyişiklikləri etmək və s. bu kimi məsələlər müəssisə rəhbərinin əmri ilə hüquqi qüvvəyə minir (1, s.25; 2, 484).

Əmrlər ədəbi dildə verilir. Onların dili rəsmi olur. Orada heç bir subyektiv münasibət bildirən söz və ifadəyə yol verilmir. Əmr, bir qayda olaraq, şərh və sərəncam hissələrindən ibarət olur. Şərh hissəsində əmr verilməsi üçün əsas götürülən faktlar ifadə edilir, sərəncam hissəsində isə görülməli tədbirlər sadalanır. Əmrin sərəncam hissəsi mətn qaydalarından «əmr edirəm» sözləri ilə başlanır. Nəzərdə tutulan fikirlər ərəb rəqəmləri ilə nömrələnən bəndlər üzrə yerləşdirilir. Hər bənd struktur bölməsinin konkret icrasının və ya vəzifəli şəxsin adının və soyadının göstərilməsi ilə başlanır. Əmrin mətni əlaqədar struktur bölmələri lazımi

hallarda isə tabelikdə olan əlaqədar təşkilatlarla razılaşdırılır. Əmrin layihəsinin son variantına ancaq əmri imzalayan və tarix qoyan təşkilat rəhbəri düzəlişlər edə bilər. Əmri hazırlayarkən icraçı onun struktur bölmələrə və tabelikdə olan təşkilatlara göndərilmək zərurətini və əmrin tirajını müəyyən edir.
Nümunə:

“Fidan” Elm İstehsalat Birliyi üzrə
14 saylı Əmr
Bakı şəhəri 24 yanvar 2022-ci il

İlham İman oğlu İmanov 01.02.2022-ci il tarixdən maaşı ştat cədvəlinə uyğun olmaqla bir ay sınaq müddəti ilə mühəndis təyin edilsin.
Əsas: İ.İmanovun ərizəsi
Baş direktor: Əli Əliyev

Protokol və çıxarış
"Protokol" yunanca “protok” "ilk, birinci vərəq", kolos "yapışdırmaq" sözlərinin birləşməsindən düzəldilmişdir. Kollektivlərdə keçirilən müşavirə, konfrans, yığıncaq, toplantı və iclasların gedişini nizamlamaq üçün sədr və katib seçilir. Sədrin vəzifəsi yığıncağı nəzərdə tutulmuş formada aparmaq, katibin vəzifəsi isə iclasın gedişini sənədləşdirməkdir (3, s.56). Bu yazılı sənəd protokol adlanır. Forma və məzmununa görə protokol bir və ya bir neçə məsələni əhatə edə bilər. Protokolun ***tərtibi və yazılışında*** aşağıda göstərilən cəhətlər nəzərdə saxlanılır:
1. "Protokol" sözü və onun nömrəsi vərəqin yuxarısında, ortada böyük hərflərlə yazılır.
2. Təşkilatın adı, yığıncağın keçirildiyi tarix və yer qeyd edilir.
3. Yığıncaqda iştirak edən kollektiv üzvlərinin sayı, rəhbər orqanların nümayəndələrinin adı, soyadı və vəzifəsi göstərilir.
4. Giriş hissədən sonra "Gündəlik məsələlər" qeydi ortadan böyük hərflə yazılır, müzakirə olunacaq məsələ abzasdan verilir. Məsələ birdən çoxdursa, nömrələrlə qeyd aparılır.
5. Gündəlik məsələdən sonra yeni sətirdən abzasdan böyük hərflə "Eşidildi" sözü yazılır.
6. "Çıxış etdilər" hissəsində çıxış edənlərin adı və soyadı sətrin əvvəlində göstərilir, onların çıxışındakı fikirlərin qısa məzmunu aydın qeyd olunur.
7. Sonra vərəqin ortasında "Qərar" sözü yazılır. Məsələnin qərar hissəsi iclasın məqsədini ifadə etməli, bəndlər üzrə yığcam şəkildə yazılmalıdır.
8. Protokolun sonunda sədr və katibin adı, soyadı göstərilir və onlar protokolu imzalayırlar.
Çıxarış protokolun qərar hissəsini özündə əks etdirəm imzalı və möhürlü sənəddir.
Nümunə:

Azərb. DBTİA tələbə-gənclər təşkilatının 18 noyabr 2017-ci il tarixli 8 saylı iclasının Protokolu

2017-ci il dekabr ayının 18-də Azərb. DBTİA Tələbə Həmkarlar İttifaqı Təşkilatının növbəti iclası keçirildi. İclasda 25 nəfər təşkilat üzvündən 23 nəfər və Akademiyanın idman işləri üzrə prorektoru, professor D.Q. Quliyev iştirak edirdi. Təşkilatın sədri Babanlı Y.M. iclasın gündəliyini təşkilat üzvlərinin nəzərinə çatdırdı.

İclasın gündəliyi:
1. 2017-2018-ci tədris ilinin birinci yarısında tələbələrin dərsə davamiyyəti haqqında.
2. Ali məktəblər arasında keçiriləcək Spartakiadaya hazırlıq haqqında.

Eşidildi:
1. Müzakirə olunan birinci məsələ haqqında təşkilat sədrinin müavini E.Şükürov məruzə etdi (məruzənin mətni protokola əlavə olunur).
2. İkinci məsələ haqqında Akademiyanın idman işləri üzrə prorektoru D.Q.Quliyev məlumat verdi.

Çıxışlar:
“İdman təkmübarizliyi” fakültəsinin dekan müavini, dosent Q. M.Cəfərov, "İdman oyun növləri" fakultəsinin dekan müavini, dosent A.M.İbrahimli, tələbələrdən – Əliyev E. (qrup OA 17-02), Həşimov M. (qrup OA 17-10), Süleymanov Ç. (qrup TA 17-4) çıxış edərək müzakirə olunan məsələyə münasibət bildirdilər.

Qərar:

1. Birinci məsələ haqqında məruzə edənlər və çıxışçıların göstərdikləri qeydlər nəzərə alınsın. Qərarın icrasına nəzarət 367 Akademiyanın Tələbə-Gənclər Təşkilatının sədrinə həvalə edilsin.
2. Ali məktəblər arasında keçiriləcək Spartakiadaya hazırlıqla bağlı ayrı-ayrı idman növləri üzrə işləri gücləndirmək aidiyyatı olan kafedra müdirlərinin nəzərinə çatdırılsın. Növbəti iclasda görülmüş işlər haqqında Akademiyanın idman işləri üzrə prorektorunun geniş məruzəsi dinlənilsin.

Sədr: (imza) G.Qarayev
Katib:(imza) F.Həsənova

Etibarnamə və onun strukturu

Etibarnamə hər hansı bir işin icrasını bir tərəfin (etibar edən, etibarnaməni verən) başqa bir nəfərə (etibar edilənə, etibarnaməni alana) etibar etdiyini bildirən sənəddir. Sənəd hüquqi əhəmiyyət daşıyır. Etibar edilən şəxs etibar edilən işi icra etməyə borcludur. Hər hansı bir səbəbdən iş icra edilə bilmədikdə, etibar edənə mütləq məlumat verilməlidir.
Konkret bir işi görmək üçün birdəfəlik etibarnamə verilir. Buna birdəfəlik etibarnamə deyilir. Bir nəfər imkanı olmadığı üçün əmək haqqını, ev orderini, mükafatı ala bilmədikdə istədiyi adama etibarnamə verir ki, bu, birdəfəlik etibarnamə adlanır.
Nümunə:

Fiziki şəxslərin nəzərinə!!!
ETİBARNAMƏNİN NOTARIUS TƏSDİQİ MÜTLƏQDİR
"Silk Way Aviaşirkəti" MMC-nin
"GHC" filialına (SWGH)
və ya
Bakı Baş Gömrük İdarəsinə

ETİBARNAMƏ

Hazırkı Etibarnamə ilə FİZİKİ ŞƏXSİİN ADI, SOYADI, ATASININ ADI, TƏVƏLLÜDÜ, ŞƏXSİYYƏT VƏSİQƏSİNİN NÖMRƏSİ, QEYDİYYAT ÜNVANI, mənim adıma daxil olan bütün yüklərin və müşayiət edən yük sənədlərinin təhvil alınması, göndərilməsi və digər yük əməliyyatlarının aparılması, bununla bağlı bütün zəruri rəsmiləşdirmə, sənədləşmə və hesablaşma işlərinin həyata keçirilməsini aşağıdakı adı çəkilən şəxsə etibar edirəm :

- **"My Broker" MMC / VÖEN: 100422296**

Hazırkı etibarnamə üzrə səlahiyyətlər başqa şəxslərə verilə bilər.
Etibarnamə __ . __ . *20*__ tarixinədək qüvvədədir.

Qoşma :
1) Etibar edən şəxsin Şəxsiyyət Vəsiqəsinin surəti
2) Təmsilçinin qeydiyyat sənədləri (Gömrük brokeri şirkətin reyestrdən çıxarışı və VÖEN-nin surəti)

A.S.A
İmza:
_____ __ . __ . 20__

TƏDQIQAT METODU

Tədqiqatda inzibati sənədlər konkret nümunələrlə əyani misallar əsasında göstərilmişdir. Tədqiqat işi hər bir işə düzəlmək və hər hansı kargüzarlıqla məşğul olan şəxs üçün səmərəli materialdır. Tədqiqat müqayisəli metod əsasında həyata keçirilmişdir.

NƏTICƏ

İnzibati işgüzar sənədlərin (əmr, protokol, çıxarış, etibarnamə) hər birinin strukturu özünəməxsus xüsusiyyətləri ilə seçilir. Mükəmməl hazırlanmış şəxsi işgüzar sənədlər inzibati sənədlərdə işin prosesini sürətləndirib, müsbət, uğurlu nəticəyə gətirib çıxarır. Müasir İKT inkişafı və təşkilatlarda daha qısa və

konkretliyə, elektron kargüzarlığın müxtəlif vaxta qənaət üsullarından istifadəyə üstünlük verildiyindən adları çəkilən inzibati sənədlərdə ən çox elektron, yaxud asan imzadan istifadə olunur.

ƏDƏBIYYAT SIYAHISI

1. Süleyman Səfər oğlu Hüseynov, Elvira Muxtar qızı Qaracayeva. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, Elm və təhsil, 2016, 408 səh.
2. Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, Elm və təhsil, 2021, 510 səh.
3. Abdullayev Nadir Əziz oğlu. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2013, 277 səh.

ИНТРАЯЗЫКОВАЯ ЛАКУНАРНОСТЬ В УЗБЕКСКОМ ЯЗЫКЕ

Мусаева Феруза Тораxановна
Институт узбекского языка, литературы и фольклора
Терминология и лексикография
ferka28@mail.ru
ТАШКЕНТ, УЗБЕКИСТАН

АННОТАЦИЯ

В данной статье исследуется одна из актуальных проблем диалектной лексики – явление лакунарности. Лакуна, или так называемая «безэквивалентная лексика» обычно обнаруживается при сравнительном изучении языков. Естественнно, что некоторые обозначения одного языка не имеют лексической репрезентации в других и могут быть выражены описательным способом с помощью развёрнутых словосочетаний. К примеру, понятие в «кипяток» является лакуной для узбекского литературного языка, поскольку в нём данное понятие обозначается словосочетанием «қайнаган сув" и, наоборот, для отдельных узбекских диалектов, он не является лакуной, ибо в них употребляется заимствованное из таджикского «обжўш». Отсутствие обозначения определённого концепта в какой-либо форме языка по сравнению с литературным или другой формой этого же языка формирует явление интраязыковой лакунарности.

КЛЮЧЕВЫЕ СЛОВА: лакуна, концепт, межъязыковые лакуны, интраязыковая лакунарность, этнографизм, диалектное словообразование.

Исследователи феномена лакунарности в один голос утверждают, что термин лакуна впервые использован в работах канадских ученых Ж.П.Вине и Ж.Дарбелне. По их определению "явление, которое имеет место всякий раз,когда слово одного языка не имеет соответствия в другом языке" [1, 3]. Французский ученый В.Г. Гак характеризует лакуны как "пропуски в лексической системе языка, отсутствие слов, которые, казалось бы, должны были присутствовать в языке, если исходить из его отражательной функции (т.е. его задачи обозначать явления объективной действительности) и из лексической системы языка" [2, 261]". Несмотря на то, что термин лакуна впервые используется в языкознании XX века, ещё в XV веке великий среднеазиатский поэт и мыслитель Алишер Навои в своём трактате "Суждение о двух языках" обращает внимание на тот факт, что некоторые обозначения понятий в одном языке могут отсуствовать в другом. Свои размышления Навои подкрепляет наблюдениями за тюркским и персидским языками. Так, он отмечает, что персы в качестве глагола "употреблять пищу" использует слово "*хўрдан*", как для жидкостей, так и для твёрдой пищи, тогда как в тюркском языке они имеют отдельные оозначения: *ичмоқ* (пить) и *емоқ* (есть). Кроме того, Навои констатирует, что в тюркском языке имеются отдельные наименования животных в зависимости от пола и возраста, а в персидском используется общее название. Самку и самца утки персы обозначают словом "*шикор*", тогда как тюрки называют самку словом "*барчин*" а самца – "*сўна*". Также у тюрков имеются отдельные наименования для самки и

самца сайгака: самец – “*ҳуна*” а самка “*қилчоқчи*”. Самец оленя у тюрков обозначается словом “*буғу*”, а самка словом “*марал*”. А персы употребляют лишь “*оҳу*” и “*гавазн*”. И ещё у тюрков очень популярна охота на кабанов, самца которого они обозначают словом “*қобон*”, а самку “*мегачин*”, а поросёнка “*чўрпа*”. Тогда как у персов употребляются лишь “*хук*” и “*гуроз*” [3, 522]. Это доказывает, что ещё 550 лет назад, Алишер Навои обратил внимание на явление лакунарности в языке.

Современные исследования по когнитивной лингвистике определяют лакуны, как невербализованные в языке концепты. “Сопоставление с другим языком, сопоставление литературного языка с другими формами существования языка, анализ лексико-фразеологических парадигм показывают, что при наличии слова, вербализующего концепт в одном языке, в другом языке соответствующего слова может не быть. Иначе говоря, в этом языке обнаруживается словесная лакуна” [4, 55-56]. Так Г.В. Быкова отмечает, “что в действительности в нашей памяти имеют место не пустоты, а концепты – образы, которые могут искать, “требовать” себе форму языкового выражения. Это и есть лакуны – виртуальные лексические единицы, идеальные сущности, семемы, не имеющие материального воплощения в виде лексем, но способные проявиться на уровне синтаксической объективации в случае возникновения коммуникативной востребованности концепта” [5, 13].

Анализ лексики узбекского литературного языка и лексики узбекских диалектов, выявил наличие в диалектах множества наименований, которые не имеют точного обозначения в литературном, следовательно являются лакунами для него. Приведём несколько примеров: “одинокий камень, лежащий там и сям в горных речках” – *ғўрим,* “пробивающийся из-под земли” – *изма* (Дехконобод); “борода с проседью” – *кўказан* (Китоб); “шестимесячная коза” – *чибич* (Сурхандарья), “склад на втором этаже для хранения урожая” (Хорезм) – *талак*, “вязкое место на пастбище” – *газар* (Карнаб), “козлёнок, у которого умерла мать” - *чиралай* (Курганташ), “соединение верхней и нижней губы” – *эзув* (Чиракчи), “просо без кожуры” – *жугман* (Туркистан).

Причины возникновения лакунарности разнообразны. В силу того, что лакуна является весьма динамичным лексическим явлением, она может развиваться вместе с языком. Появление интраязыковых лакун может быть обусловлено своеобразием формирования лексического состава. Диалектальное словообразование несколько отличается от словообразования в литературном языке. Некоторые словообразовательные модели в диалектах весьма продуктивнее, чем в литературном. К примеру, в диалектах аффиксы *-чак, -гир* намного активнее, чем в литературном. В силу активности и продуктивности этих словообразовательных аффиксов в диалектах, в литературном языке образуются лакуны: *бўртмачак* (Дехконобод) – бугорообразная сыпь на теле, *гупчак* (Кизилча) – глубокое место, где скапливается вода при слиянии двух ручьёв, *ингирчак* (Муглон) – седло для осла, *кадичак* (Корахитой) – горлянка для молочной продукции, *пайманчак* – ступенька для спуска к реке, арыку, *қийрачак* – мелкие щепки, разлетающиеся в стороны во время рубки дров, *тугурчак* – мелкий град; *даврагир* (Гозлик) – коммуникабельный человек, который умеет привлечь внимание людей, *ёдгир* (Магзон) – умеющий быстро запоминать.

Превалирование в диалектальной номинации предметов и явлений какого-либо ономастического принципа также способствует лакунарности. К примеру, в диалектах очень актуально звукоподражательный принцип номинации, в результате чего в литературном языке обнаруживается множество лакун звукоподражательного происхождения. К примеру, в Джизакском говоре скопление снега на горных углублениях и проёмах обозначается словом “*куртик*”, которое образовано на основе звука, издаваемого при ходьбе по снегу “курт-курт”. Также можно привести следующие примеры: *чилпилдоқ* (Аёкчи) – издающий звук “чилп-чилп”, *ҳабаб* (Гозлик) – лай собаки; *дудик* (Хорезм) **–** тонкие ивовые прутья, которые могут использоваться для изготовления свистка.

Каждое диалектальное сообщество имеет специфические способы ведения хозяйства, в силу этого в диалектах встречаются детализированные наименования хозяйственных предметов, утвари, орудий труда. Например, в хорезмском диалекте встречается множество детализированных наименований рыболовной снасти: *кўтарма* – сеть для ловли крупной рыбы, *қабадан* – сеть, устанавливаемая в речках с быстрым течением, *ўрлик* – длинный шест для мечты в рыбацки лодках, *қаза* – рыболовная снасть из камыша. В речи носителей диалектов, встречаются наименования специфических орудий труда: *капча* – лопатка с ушками, *бешлик* – вилы с пятью зубцами, *чиғил* (Бухара) – сито для просеивания пшеницы. Население Сурхандарьи издревле занимается

разведением скота, поэтому в их диалекте много детализированных названий мелкого и крупного рогатого скота: *чундир* – овца с маленькими ушами, *қонжолақ* – яма для скопления крови при забое скота, *мослиқ* – содержимое ям, в которые брошены туши околевших животных.

Наличие в диалекте множества наименований, объединяющихся в общее семантическое поле, отсутствие последних в литературном языке свидетельствует о наличии в литературном языке внутрисистемных гипонимических лакун. Гипонимические лакуны в литературном языке можно передать описательным методом: *шишак* – двухгодовалая овца или коза, *чори* - четырёхгодовадый баран, *шовулоқ* – коза, предназначенная для подарка на свадьбу, *оқшоқ* – баран с белой шерсью вокруг рожек.

Исследование и изучение интраязыковых лакун способсвуют более детальноу изучению мирвоззрения носителей языка. “Выявление и описание различных типов неноминированных в говоре семем, выраженных лакунами, значительно расширяющих наше представление о концептосфере носителей диалекта, позволяют сделать явными для современных коммуникантов, а также зафиксировать и сохранить для последующих поколений неназванные концепты (лакуны), указывающие на богатство и уникальность концептосферы диалектоносителей» [6].

ИСПОЛЬЗОВАННАЯ ЛИТЕРАТУРА:

1. Муравьев В.Л. Лексические лакуны (на материале лексики французского и русского языков). - Владимир, 1975. - 96 с.
2. Гак В.Г. Сравнительная типология французского и русского языков. Л.: Просвещение, 1977.
3. Алишер Навоий. Муҳокаматул луғатайн / Алишер Навоий. Тўла асарлар тўплами 10 жилдли. 10-жилд. – Тошкент, 2011.
4. Попова З.Д., Стернин И.А. Когнитивная лингвистика. – Москва, 2007.
5. Быкова, Г. В. Феноменология лексической лакунарности русского языка. – Благовещенск: АмГУ, 1999. – 181 с.
6. Ладисова О. В. Лексическая лакунарность диалекта: На материале словаря современного русского народного говора д. Деулинотема. Автореферат на соискание ученой степени кандидата филологических наук. – Благовещенск, 2000.

MİKAYIL MÜŞFİQ və MƏHƏMMƏD FÜZULİ YARADICILIĞININ MÜQAYİSƏLİ –FİLOLOJİ TƏHLİLİ

NİGAR VƏLİZADƏ
AMEA Nəsimi adına Dilçilik İnstitutu
n.valizade@mail.ru
Bakı, Azərbaycan

XÜLASƏ

İstər Mikayıl Müşfiq, istərsə də Məhəmməd Füzuli yaradıcılığı öz dövrünün tələb və istəklərini nəzərə alaraq yazıb –yaratmış şairlərdir. Bu baxımdan onların şeir parçaları bugünkü gündə də özünəməxsus dil xüsusiyyətləri ilə seçilir. Bədii ədəbiyyatımızda hər daim böyük əhəmiyyət kəsb etmişdir.

Açar sözlər: Müşfiq, Füzuli, müqayisə, müqayisəli – filoloji təhlil
Key words: Mushfig, Fizuli, comparison, comparative - philological analysis
Ключевые слова: Мушфиг, Физули, сравнение, сравнительно-филологический анализ

GİRİŞ

Mikayıl Müşfiq yeni dövr Azərbaycan ədəbiyyatında faciəli həyat yolu və özünəməxsus yaradıcılığı ilə seçilən sənətkarlarımızdandır. Onun nakam taleyinin qəm yükü və kədəri poeziyasının nikbin ruhuna kölgə

sala bilmədi. Müşfiqin qəmli taleyi, sarsılmaz ruhu və Azərbaycan xalqına ilhamla dolu poetik ərməğanı xalqın yaddaşında dərin və silinməz izlər buraxmışdır.

TƏDQİQAT METODU

Bu məqalənin məqsədi XX əsrin əvvəllərində yaşamış Azərbaycan şairi Mikayıl Müşfiqin yaradıcılığı ilə orta əsrlər Azərbaycan şairi Məhəmməd Füzuli yaradıcılığını müqayisəli-filoloji təhlil aspektində öyrənməkdir. Bu problemi öyrənmək üçün müqayisəli- filoloji təhlil metodu seçilmişdir [6].

Mətnin linqvistik təhlili həm gündəlik həyatda (şifahi nitqdə), həm də əmək və ya elmi fəaliyyətdə, bir sözlə, həmişə və hər yerdə aktualdır. Natiqin uğuru verilən məlumatın izahı və ötürülməsi keyfiyyətindən asılıdır. Buna görə də, hər hansı nitq aktından əvvəl müzakirə ediləcək bütün məlumatları dəfələrlə diqqətlə yoxlamaq, fikir və ideyaları adekvat təsvir və təhlil etmək, əsaslandırmaq vacibdir.

Müqayisəli- filoloji təhlil şifahi və yazılı şəkildə verilə bilər. İlk növbədə burada məlumatın strukturu və keyfiyyəti, fikirlərin məntiqi ardıcıllığı, ifadələrin aktuallığı, mövzunun açıqlanmasının tamlığı, fərziyyənin inandırıcılığı və sübutu və s. qiymətləndirilməlidir. Bundan əlavə, vacib və əhəmiyyətli şərhlər əvvəlcədən xüsusi olaraq qeyd edilə bilər.

Mətnin müqayisəli – filoloji təhlili yalnız müşahidə olunan səhvləri, dil sapmalarını , uyğunsuzluqları və digər nüansları aşkarlamaq üçün materialların korreksiyası (təshihi) deyildir. Bu, ilk növbədə materialların keyfiyyətli və hərtərəfli qiymətləndirilməsidir. Burada əsasən, aşağıdakılara diqqət etmək lazımdır: mətnin strukturu və məzmununun öyrənilməsi; materialın mahiyyətinin dərki [5].

Mikayıl Müşfiqin Məhəmməd Füzuli irsinə münasibəti onun yaradıcılığının hələ tam öyrənilməmiş tərəfidir. Azərbaycan xalqının bu iki şairini hansı yaradıcılıq əlaqələri birləşdirirdi? Füzuli də, Müşfiq də sənətdə, insanda ilk növbədə sevgi və fədakarlıq görür. Hər iki sənətkar bunu müxtəlif rakurslardan, müxtəlif yollarla, bədii vasitələrlə ifadə edirdi. Onları birləşdirən əsas cəhət odur ki, hər iki şairin sevgiyə münasibəti eyni dərəcədə böyük və əzəmətli, saf, gözəlliklərlə doludur. Müşfiq sosialist realizmi adlı metodun hökmranlığı altında yaşayıb yaratmış şair idi. Bu üsul yazıçı və şairlərdən "tipik vəziyyətlərin tipik obrazlarını yaratmağı və həyat həqiqətini təsvir etməyi" tələb edirdi.

Səməd Vurğun öz xalqının poetik keçmişindən danışarkən həm Nizamini, həm də Füzulini xatırlayırsa, Müşfiq yalnız Füzulinin adı ilə kifayətlənir, onu Azərbaycan xalqının mədəni irsinin yeganə layiqli nümayəndəsi hesab edirdi. "Azadlıq dastanı" şeirində Müşfiqin Füzulini xatırladığının şahidi oluruq:

Zəncir çeynəyərkən bizim əsrdən,
Çıxıb tribunaya Leyla Misirdən,
Eşit, gör nə **deyir**, eşit, Alamu!
Tarixdə bir yeni səhifədir **bu**:
"Misirin azadlığı qadına şandır,
O da **bu** cəbhədə **bir** vuruşandır.
Qalmadı bir yerdə ərlərdən geri,
İstiqlal eşqiylə qoşdu iləri [4].

Şair azadlıq hərəkatında iştirak edən Leyla adlı misirli qadından bəhs edir. Bu qızın mərdliyi lənətə gəlmiş zamanın xüsusiyyəti kimi tərənnüm olunur.Burada Leyla Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasındakı Leylinin prototipi kimi təqdim olunur.

Şeir parçasında istifadə olunan "o", "nə", "deyir", "bu", "bir" sadə xalq deyimlərinə Füzuli şeirlərində də tez –tez rast gəlinir. Müşfiq sadə, yeni poetik formalardan istifadə edərək, Füzulini təqlid etmədən yazırdı. Hər iki şairin yaradıcılığında yüksəktezlikli sözlər bənzərlik təşkil edir. Məsələn, Füzulinin poeziyasında 20 yüksəktelikli söz: *bir, bu, ey, hər, ilə, kim, ki, ol, hər, nə, mən, eylər, oldu, ola, füzuli, var, həm, mənə, gər, yenə və s.* [3]

Mikayıl Müşfiqin dilində isə 20 yüksəktezlikli söz: *bir, bax, gün, hər, var, az, çox, ana, qızıl, xəyal, həyat, yeni, səhər, zaman, buludlar, gözəl, könül, əməl, dost, gün, sağ, sol, və s.*

Müşahidələr göstərir ki, Müşfiqin bir çox şeirlərində Füzuli yaradıcılığı ilə açıq şəkildə səsləşən ortaq fikirlərə rast gəlmək mümkündür. Məsələn, Füzulinin məşhur "Şən ruhum qəm odunda yanır" qəzəli ilə Müşfiqin "Yenə o bağ olaydı" şeirində bənzər hissi duyğuların tərənnümü öz əksini tapıb.

Müşfiq türk mənşəli sözlərdən daha çox istifadə etdiyi halda, Füzuli də ərəb –fars mənşəli sözlər üstünlük təşkil edir.

Demə Fərhad qanın tökmüş ancaq eşq şəmşiri,
Bənim gör qanlu yaşım həm ki, **həp** ol macəradəndir.

Burada "həp" kəlməsi nəzəri cəlb edir. Füzuli, "iştə" kimi, bu kəlməni də heç işlətməmişdir. "Həm ki, həp" ifadəsinin səslənişi xoş ovqat yaratmır, qulağa ağır gəlir [2].

Həp səni gözləyir, səni özləyir
Qəlbinin qərarsız çırpınışları!

Şairin şeirlərində "həp" kəlməsinə tez –tez rast gəlirik. Bundan əlavə, onların üslubuna diqqət etdikdə "tazə" kəlməsi mahiyyət baxımından eyni olub beytin daxilində ahənglə, melodik şəkildə vurğulanıb.

Füzuli :Aşiq oldum yenə bir **tazə** guli-rənayə ki,
Salır al ilə hər dəm məni yüz qovğayə [1]

Müşfiq: Yalnız ən **tazə** əməllər tanıram
Məqsədimdir oxumaq, öyrənmək,
Əməlim daim uçub yüksəlmək [4]

NƏTİCƏ

Müşfiqin həyat həqiqətinə can atması müasir dövrümüzlə, eləcə də Füzuli poeziyasıyla səsləşir. Hər iki görkəmli şairin yaradıcılıqlarının müqayisəli –filoloji təhlili zamanı eynilik təşkil edən fikirlər, ideyalar və sözlər tezisdə öz əksini tapmışdır. Bu fakt gələcək tədqiqatlarda mühüm amil rolu oynaya bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan ədəbi dili tarixi. I c., XIII-XVI əsrlər. **(kitab)**, Bakı, "Şərq –Qərb", 2007, 143 s.
2. Məhəmməd Füzuli // Əsərləri. I cild. **(kitab)**, Bakı, "Şərq –Qərb", 2005, 409 s.
3. Məhəmməd Füzuli // Nəzm əsərlərinin əlifba –tezlik sözlüyü. **(kitab)**, Bakı, "Elm", 2004, 548 s.
4. Mikayıl Müşfiq // Bütün əsərləri. II cild. **(kitab)**, Bakı, "Qanun", 2019, 800 s.
5. https://disshelp.ru/ **(online məqalə)**
6. https://docplayer.com/ **(online məqalə)**

MƏMMƏD ARAZIN POETİK DİLİNİN LEKSİKASI

Nuranə Vəliyeva
Bakı Mühəndislik Universiteti
Magistratura / Azərbaycan dili
nveliyeva1@std.beu.edu.az
Xırdalan /AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycan ədəbiyyatının görkəmli ədiblərin biri olan Məmməd Arazın dili və yaradıcılığı bütün dövrlər üçün aktual bir mövzudur. Məhz məqalənin əsas məqsədi də Məmməd Arazın poetik dili və üslubuna nəzər yetirib, onu nəzəri və praktik cəhətdən əsaslandırmaqdan ibarətdir. Bu məqsədlə Məmməd Arazın poeziyası leksik-semantik xüsusiyyətləri geniş şəkildə tədqiqata cəlb olunmuş və poeziyasında işlənən nümunələr dil baxımından təhlil olunmuşdur.

AÇAR SÖZLƏR: Məmməd, Araz, morfoloji, sintaktik, üsul, mürəkkəb sözlər

Giriş. Söz yaradıcılığı dilimizin ayrılmaz leksik hissəsidir və sözlərin yaranmasında mühüm rol oynayır. Şairin dilində sintaktik yolla yanan sözlər çoxluq təşkil edir. Ədibin poeziyasında rəngarəng sözlərə tez-tez rast gəlirik. Yazıçının ustalığı sözü yeni şəkildə işlədə bilmə bacarığıdır. Başqa sözlə desək, dildə mövcud olan sözü şairin təxəyyülü hesabına semantik yükünü dəyişməsidir. "Hər bir istedadlı yazıçı və ya şair öz doğma ana dilinin hər bir sözünün nəhayətsiz imkanlarını üzə çıxarır, sözün qüdrətini təmin edən aşkar və gizli xüsusiyyətləri, dilin zəriflik və gözəlliyini nümayiş etdirən nümunələr yaradır" (1, s.443).

TƏDQİQAT METODU. Hər bir ədibin özünəməxsus fərdi üslubu olduğu kimi, M.Arazın da orijinal və cəlbedicidir. Poetik dilində işlənə mofoloji və sintaktik yolla yaranan sözlərin çoxluğu ədibin qüdrətindən və söz ehtiyatının zənginliyindən xəbər verir. Məqalə təsviri-müqayisəli metodla tədqiq edilmişdir.

Sintaktik yolun əsasını mürəkkəb sözlər təşkil edir. Mürəkkəb sözlərin isə müxtəlif tipləri mövcuddur:

1)Mürəkkəb söz formasında olanlar. Belə sözlər müxtəlif nitq hissələrinin birləşməsindən yaranır: isim+isim, isim+sifət daha çox işlənir. Bu zaman ifadənin hər iki tərəfi həqiqi və yaxud da biri həqiqi digəri məcazi mənada olur. Şairin şeirlərində mürəkkəb sözlərə diqqət yetirək: "Sən insan deyilsən, insan deyilsən" – üstümə gülürdü qarnıpiylilər" (4, s.388); "Oğullar doğublar – qaya duruşlu; Canlılar doğublar – mağaraqarın" (4, s.419). M.Araz mürəkkəb sözlərə yeni çalar qatarаq yaradıcılığında işlətmişdir.

Bə, ha hissəciklərini eyni sözə artırmaqla yaranan müərəkkəb sözlər. "Gəzib igidlərlə qələmbəqələm; Yaxşılar ordusu yaradacağam" (2, s.86); "Torpağı çölbəçöl, dərəbədərə; oxutdu mənə" (4, s.424); "Nəğmə də oxuyur o cırhacırla; Qınla-qınla..." (2, s.99).

Sözlərin təkrarı ilə yaranan mürəkkəb sözlər.

Eyni, yaxın, müxtəlif və yaxud da əks-mənalı sözlərin köməyi ilə yaranan mürəkkəb sözlərdir.

I.İsim adlıq halda təkrar olunur: "Bu torpağı gəzməmişəm; Hələ *daş-daş*; Dərələri *kaha-kaha*, qayaları *qaş-qaş*" (2, s.111); "Bir dərənin boğazında balaca kəndim: *Dərə-dərə* şaxələndi; *dam-dam* boy atdı" (3, s.184); "Kür nəğməsi! *Qatar-qatar, karvan-karvan*" (4, s.21).

Qoşa sözlər nominativ mənada da işlənir: "Gecə pərdəsini lay-lay çevirim; Bəhrəli bağların üstünü örtüm" (3, s.220); "Yuxarıları sətir-sətir oxuyuram; Nöqtə-nöqtə yoxlayıram" (4, s.449); "Arxamda lay-lay duran; Divarlar aşdı lay-lay" (3, s.107) "Arx suyunun gətirdiyi nəğmələri; Arx boyunca cərgə-cərgə söyüdlərə paylamışdırlar" (4, s.457).

II. Bir tərəfi qrammatik şəkilçili sözlər: "Ürəyim, öz dərdim özümdən ağır, hər hökmün andınla üz-üzə durur" (3, s.80); "Mənimlə diz-dizə, üz-üzə oturan, Sirdaş bacım, həmdəm qardaşım!" (2, s.60); "Onda sığınacaq "yovşan" "dovşana"; "Yalançı" "palançı" dirsək-dirsəyə "Talançı", "palançı" kürək-kürəyə" (2, s.168).

III. Hər iki tərəfi qrammatik şəkilçi qəbul edənlər: "Daş ayaqlı, daş əlli bir insan kimi, Enib *daşdan-daşa* düşəm" (2, s.108); "Harayladım-qovuşmadı dağ-dağa, *Daşdan-daşa* qol atmadı dağdağan" (3, s.32); "Doğrudan Batıya yol uçub düyən; *İnsandan-insana* yol gözə dəymir" (3, s.116).

Sifətlərin təkrarı: "Yox bir an zəhmətsiz vursa ürəyim; Məni *diri-diri* tapşır torpağa" (2, s.157); "Dağ ömrümü qış gətirdi, yaz yıxdı; Dərdim keçən yolar *yazıq-yazıqdı"* (2, s.157); "Bir də qara kirpiyini; Gözünü sıx *dərin-dərin"* (3, s.219); "Oxu, bir *aram-aram*; oxu, bir *həzin-həzin*; oxu çöllər uyusun; Oxu dağlar titrəsin..." (2, s.28).

Əvəzliyin təkrarı ilə: "Qəza ötsün məndən dedi; Ötən kimi *mən-mən* dedi; *Mən-mən* dedi bir ölkədə, nə qədər xan; Onlar *mən-mən* deyən yerdə; Sən olmadın, Azərbaycan" (2, s.86). Buradakı *mən-mən* ifadəsi özündən razılığı ifadə eləyir. *Mənəm-mənəmlik* (göylə getmək)

Zərfin təkrarı ilə: "Bu səs hərdən pəncərimi döyüb qaçar *xısın-xısın"* (2, s.175); "Dərə *qıyma-qıyma* doğranmalıdır!" (2, s.128); "Bir də "təbrik!"; Bir də "əla!", – deyə-deyə varaqları; O çevirdi *bala-bala"* (2, s.143); "Bax beləcə daşa dönəm *yavaş-yavaş"* (2, s.108); "Bu torpağı gəzməmişəm hələ *daş-daş*; Dərələri *kaha-kaha*; qayaları hələ *qaş-qaş"* (2, s.111).

Feilin təkrarı ilə:"Mələyə-mələyə quzu bulaqlar; Daşların dibində yetim qaldılar" (2, s.151); "Özümüzü tapaq burda; *Bata-bata, itə-itə"* (4, s.185); "İndi bu insanı ayır, tap-tanı; Qələm *görə-görə*; söz *görə-görə*! Qadın təhqirlənir, qoca tapdanır; Qanun *görə-görə*, söz *görə-görə*; Onsuz da ah-vahı ölü eşitmir; *Kallaşa-kallaşa* karlaşır insan" (3, s.153); "Güllə *yağa-yağa* anıram bəzən; "Dilqəmi" üstümdə saz havasını" (4, s.347); "Bir ocağı *yana-yana* qoyub getdin; Bir ocağı *sönə-sönə* aparırsan" (3, s.193).

Sinonim sözlərin qoşalaşması ilə yaranan mürəkkəb sözlər: Səssiz-səmirsiz (2, s.44); yurd-yuva (3, s.90); səs-səda (4, s.153); söz-söhbət (2, s.123); lal-dinməz (4, s.251); ad-san (4, s.252);boylu-buxunlu (3, s.68).

Yeni sözlərin yaranmasında mühüm rol oynayan fatorlardan biri də morfoloji üsuldur. Azərbaycan dilində morfoloji yolla sözdüzəltmə ən çox yayılmış üsullardan biridir ki, bu da dilimizdəki sözlərin morfoloji quruluşu və sözdüzəldici şəkilçilərin tarixən qədim olması ilə əlaqədardır. Bu şəkilçiləri iki cür qruplaşdıra bilərik: adlardan və feillərdən düzələn şəkilçilərin köməyi ilə yaranan sözlər.

Ilk olaraq ad düzəldən şəkilçilərə baxaq:

-çı, **-çi**, **-çu**, **-çü**. Bu şəkilçilər əsasən isimlərə qoşularaq peşə, sənət adlarını bildirir. Kotançıbabası dəmirsiz qalıb; Körükçü atası kömürsüz qalıb (3, s.99); Dövrəmdə vaxt olur ki, neçə dövran rəqs edir; Tərifi – küləkçidir, Tənqidi – ələkçidir (3, s.19).

"Qorxu günü insaf günü" –**çu**, **-çü** şəkilçiləri ilə yaranan sözlərə baxaq: Sizə üz tuturam sizi deyirəm, Ölüm düzlərində *suçmu* işləyən, Toxumçu işləyən, *suçu* işləyən, *Küləkçi* işləyən, *çənçi* işləyən, *Sovrucu* işləyən, *dənçi* işləyən, *Qazmaçı* işləyən, *daşçı* işləyən, Bütün bu işlərdə *başçı* işləyən (3, s.33).
-lıq, **-lik**, **-luq**, **-lük** şəkilçiləri ən məhsuldar və qədim şəkilçilərdəndir: Nakamlığın, *ölməzliyin*, Yer üzündə övladları *gəlməzliyin,*anaları gülməzliyin Ədəbiyyat yaxınları (3, s.205).
Im, **-im**, **-um**, **üm** şəkilçiləri feil kökünə qoşularaq isim yaradır: Dur içində qorxunu boğ; Ölümlə, *qalımı* ayırd elə (3, s.132); Ədalət qamçısı qəzəb soyudur; Qırımlar, *qurumlar* itirməz onu (3, s.56).
Feil düzəldən şəkilçilər:**-la**, **-lə**. Nə qədər söz udaq, dil *sancaqlayaq(3, s.55)*; *Düyəclədim, sürüklədim* ayaqlarımda; Ürəyimdən ürəyinə gedən yolları (3, s.24).
-lan, **lən**: daşlar çilikləndi ayaqlar altda, Torpaq dilikləndi ayaqlar altda, Qəzəl bilikləndi dodaqlar altda (2, s.154); Yüngülqədəm çətinliklər üzləndi üzdən (3, s.90); Qeyrətini satmışlara xırdalandın (3, s.132).
-laş, **-ləş**: Çoxları *itləşdi* bir yalan üçün (3, s.86); *Qurdlaşar* qayalar-daşlar yenidən (3, s.145); Səhər dumanında *birləşirlər*, Axşam toranında *birgələşərlər* (2, s.145); Özümün ola-ola özgələşim (3, s.20).
NƏTİCƏ. Təbii ki dilimizdə leksik və moloji yollarla yaranan ümumişlək sözlər çoxdur. Biz, əsasən, şairin müəyyən poetik məqsədlərlə, fikrinin yığcam, obrazlı ifadəsi üçün işlətdiyi tamam yeni səslənən sözlərdən bəhs etdik.

ƏDƏBİYYAT SİYAHISI

1. Müasir Azərbaycan dili, Ic., Bakı: "Elm", 1978, 322 s.
2. Məmməd A. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: "Lider" nəşriyyat, 2004, 224 s.
3. Məmməd A. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: "Lider" nəşriyyat, 2004, 232 s.
4. Məmməd A. Seçilmiş əsərləri. Şeirlər və poemalar. Bakı: "Azərnəşr", 1986, 480 s.

AZƏRBAYCAN DİLİNDƏ TERMİN VƏ TERMİNOLOGİYANIN ÜMUMİ MƏSƏLƏLƏRİ

ƏFRANƏ HƏSƏNLİ
Bakı Dövlət Universitetinin Qazax filialı
Filologiya/Azərbaycan
efrane.hesenova96@gmail.com
QAZAX, AZƏRBAYCAN

XÜLASƏ

Ölkəmizdə elm və texnika sürətlə inkişaf edir. Bununla əlaqədar olaraq meydana gələn müxtəlif məfhumların və anlayışların ifadəsi üçün hər bir milli dildə müvafiq sözlərin – terminlərin də yaradılması ehtiyacı qarşıya çıxır. Terminlər dili zənginləşdirir, inkişaf etdirir, onu elm və texnikanın mürəkkəb fikirlərinin ifadəsi üçün yararlı hala salır.Tədqiqat işinin məqsədi Azərbaycan dilində yaranmış terminlərin sistemləşdirilməsi, semantik və struktur cəhətdən araşdırılmasıdır.

Açar sözlər: termin-1, terminyaratma-2, üsul-3

GİRİŞ

İctimai həyat təkmilləşdikcə dil də inkişaf edir. Dilin inkişaf etməsinin əsasını həmin dildə danışan xalqın tarixi, eyni zamanda cəmiyyətin tərəqqisi təşkil edir. Hər bir dilə məxsus sözlərin ilk dəfə hansı mənada işlədilməsi, necə yaranması və həmin sözlərin inkişaf tarixinin öyrənilməsi çox vacib olan məsələlərdəndir. İstənilən bir dilin leksikası keçdiyi inkişaf tarixini özündə əks etdirir. Məhz bu səbəbdən də dildə yeni yaranan anlayışlar öz əksini terminlər, sözlər şəklində tapır.
Termin nədir? "Termin" adlandırılan sözlər dildəki leksik vahidlərdən hansı xüsusiyyətlərinə görə fərqlənir? "Termin" sözü mənşə etibarilə "terminus" sözündəndir. "Terminus" sözü latınca *həd, hüdud, sərhəd* deməkdir.Terminlər elm və texnika, incəsənət və mədəniyyət sahəsində işlədilən müxtəlif

məfhumları və anlayışları dəqiq ifadə edən sözlər və söz birləşmələridir.Termin sözdür, lakin dildə olan bütün sözləri termin adlandırmaq olmaz. Çünki terminlər müasir elmin, texnikanın, incəsənətin və mədəniyyətin müxtəlif sahələrindəki xüsusi anlayışların ifadəçiləri olmaq etibarilə dildə olan ümumişlək sözlərdən bir çox xüsusiyyətlərinə görə fərqlənir. Çox zaman terminologiya ilə əlaqədar keçirilən tədqiqatlarda belə bir fikri irəli sürülmüşdür ki, guya terminologiya sahəsində heç bir şey ümumi ədəbi dildə olduğu kimi deyildir, yaxud da əksinə. Beləliklə, dilin ümumişlək leksikası ilə terminoloji leksika arasında keçilməz sədd qoyulmuşdur. M.Qasımov Azərbaycan dili terminologiyasının əsasları kitabında qeyd edir ki, " bu prinsip düzgün deyildir. Real faktlara müraciət etdikdə aydın olur ki, ümumi ədəbi dildəki sözlərə məxsus bəzi cəhətlər terminlər üçün də xarakterikdir"[6, 13].

Ümumi cəhətlərə əsaslanaraq deyə bilərik ki, terminlərlə dildəki başqa sözləri eyniləşdirmək də düzgün deyildir. Prof. B. Çobanzadə yazmışdır: "İstilah, ictimai cəhətdən götürüldükdə, başqa sözlərdən ayrılmaz. İstilah da ictimai istehsal nəticəsində məlum olan, əldə edilən hər hansı bir maddə, yaxud fikir və duyğunu ifadə edir ki, sözün də vəzifəsi budur. Lakin adi söz və istilah-termin arasında müəyyən cəhətlərdən ayrılıqlar da vardır"[1,3].

Bəs bu ayrılıqlar hansılardır? Terminlər aşağıdakı cəhətlərə görə başqa sözlərdən fərqlənir:

1.Terminlərin təkmənalılığı (monosemiya);
2.Termin dəqiqdir, nominativ funksiya daşıyır;
3.Termin üslubi cəhətdən neytraldır;
4.Termin terminologiyanın müəyyən sahəsində bir neçə dildə, hətta beynəlxalq miqyasda vahid şəkildə işlənə bilir;
5.Termin sistemləşdirici xassəyə malikdir[6, 13].

Terminlərin emosionallıq, ekspressivlik, obrazlılıq ifadə etməməsi onların elmi dilin vahidləri hesab olunması ilə bağlıdır. Terminlər elmi üslubda daha çox işlənərək elmi məfhumları dəqiq şəkildə ifadə edirlər. Çünki elmi üslubda demək olar ki, obrazlılığa, məcaziliyə yol verilmir. Elmi üslubda sözün daha çox emosional çaları yox, məzmunu əsas götürülür. Ümumi ədəbi dildəki sözlər emosionallıq, ekspressivlik, obrazlılıq və s. kimi xüsusiyyətlərə malikdir. Lakin terminlər ədəbi dildəki sözlərdən fərqli olaraq, bu kimi xüsusiyyətlərinə malik deyildir. Bəs terminyaratma nə deməkdir? Terminyaratma dünya dillərinin əksəriyyətində, o cümlədən Azərbaycan dilində terminoloji qatın zənginləşməsində rol oynayan əsas proseslərdən biridir. Belə ki, hər bir dilin daxili sözyaratma qanunauyğunluqları və alınmalar əsasında yeni terminlər yaranır. Terminyaratmanın üsul və formaları ümumi leksikadakı sözyaratma ilə demək olar ki eyniyyət təşkil edir. Azərbaycan dilinin daxili imkanları əsasında terminlər yaradılarkən aşağıdakı üsullardan istifadə edilir:

1.Semantik üsul; 2.Morfoloji üsul; 3.Sintaktik üsul; 4.Kalka üsulu; 5.Sözlərin ixtisarı və qısaldılması/abreviaturalar/ .

Hər bir dilin terminləri, əsasən, onun öz lüğət tərkibində mövcud olan sözlər üzərində qurulur. Bu prosesdə düzəltmə və mürəkkəb sözlərin, söz birləşmələrinin və nəhayət, abreviaturaların yaradılması üsulundan istifadə edilir. Lakin belə terminlər elm və texnikanın inkişafı ilə əlaqədar meydana çıxan yüzlərlə yeni anlayışı ifadə etmək üçün kifayət deyildir. Semantik üsul termin yaradıcılığında həmişə tətbiq olunan bir üsuldur. Lakin bu üsuldan ayrı-ayrı dövrlərdə müxtəlif şəkildə istifadə edilmişdir. Semantik üsulla yaradılan terminlər elm və texnikanın ayrı-ayrı sahələrinə aid terminologiyanın formalaşmasında həlledici rol oynamışdır. M.Qasımov yazır ki, yeni anlayışları yalnız mövcud sözlərlə ifadə etmək üsulu bəzən sözün semantik yükünü artırır. Semantik üsul hazırda da aktuallığını itirməmişdir.[6,122] Hazırda bu üsulla terminlər yaradılarkən daha çox mücərrəd məna daşıyan sözlərdən istifadə olunur. Məsələn: *yoğunluq, kövrəklik, həyəcan* və s. Lakin ümumiyyətlə götürüldükdə semantik üsulun məhsuldarlığı azalmışdır.

Termin yaradıcılığında morfoloji üsul məhsuldarlığına görə daha çox seçilir. Bu cəhət də dilimizdə sözdüzəldici şəkilçilərin çox zəngin olması ilə əlaqədardır. Azərbaycan dili aqlütinativ dil qrupuna daxil olduğundan bu dildə sözün sonuna şəkilçi artırmaqla da termin yaratmaq olar. Müasir Azərbaycan dilində elm və texnikanın müxtəlif sahələri üzrə terminlərin yaradılmasında iştirak edən əsas şəkilçilər aşağıdakılardır: -çı[4],-lıq[4],-ma[2],-sız[4] və s.Məs, *dilçi, podratçı, finalçı, əvəzlik, agentlik(iqtisadiyyat),faizsiz (ödəmə) və s.*

Sintaktik üsulla terminlər yaradılarkən adətən iki və daha artıq sözün birləşdirilməsindən istifadə olunur. Morfoloji üsulla terminlər yaradılması prosesində əsas tədqiqat obyekti düzətmə sözlər olduğu kimi, sintaktik üsulla terminlər yaradılması prosesində də əsas tədqiqat obyekti mürəkkəb sözlərdir. Azərbaycan

dilində mürəkkəb terminlər çox müxtəlifdir. Məsələn, elə mürəkkəb terminlər vardır ki, onlar iki və daha artıq müstəqil sözün birləşməsindən əmələ gəlmişdir: *radioqəbuledici, yarımkeçirici, özünümüdafiə, beşillik* və s. Abreviatura üsulu termin yaradıcılığının başqa üsullardan əsaslı surətdə fərqlənir. Abreviatura üsulu ilə yaranan söz və terminlərin kütləvi surətdə yayılması əsasən cəmiyyətdə baş verən dəyişikliklərlə əlaqədar olmuşdur. Müasir Azərbaycan dilinin bir çox terminoloji qatlarında abbreviaturlardan nisbətən az istifadə olunsa da, bəzi terminoloji sahələrdə , o cümlədən hərbi, informatika kibernetika və s. sahələrdə bu üsula daha tez-tez müraciət olunur. Müasir Azərbaycan dilinin terminoloji sisteminin zənginləşməsində kalka üsulu ilə söz yaradıcılığı da mühüm yer tutur. Kalka üsulunun mahiyyəti haqqında dilçilik ədəbiyyatında müxtəlif fikirlər irəli sürülmüşdür. Onlardan bir neçəsinə diqqət yetirək:

"Kalka yolu ilə yaradılan yeni söz və istilahlar hərfən tərcümə vasitəsilə dilə gətirilir. Bu proses zamanı tərcümə olunan söz həmin dildə (yəni tərcümə edilən dildə) eyni mənanı verən sözlərlə, yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır.Burada tərcümə olunan sözün tam qarşılığı verilməlidir" [2, 17].

Biz də bu müəlliflərin fikrinə şərik oluruq. Çünki kalkaetmədə, doğurdan da, hər hansı bir sözün və söz birləşməsinin tərcümə etmə üsulu ilə başqa dildə ifadə olunmasıdır. Nəzərə almaq lazımdır, belə bir prosesdə, yəni kalka yolu ilə dilimizdə terminlərin yaradılmasında milli leksik söz vahidlərindən, sözdüzəldici şəkilçilərdən və söz birləşmələrindən istifadə edilir. Deməli, kalkaetmədə hər bir dilin daxili imkanlarına əsaslanır və bu xüsusiyyət də onu alınma sözlərdən fərqləndirir.

Dilçilikdə kalka termininin meydana gəlməsinə səbəb fransız dilinə məxsus calque sözündən yeni mənada istifadə edilməsi olmuşdur. Prof. N.Xudiyev yazır: " Kalkalar dilin öz daxili imkanları hesabına (həm söz və şəkilçilər, həm də struktur milli olur) yaransa da , onların meydana çıxması üçün bilavasitə etimon dilin təsiri ilə əvvəla sözün və ya ifadənin bütün komponentləri müvafiq surətdə kalka olunur. Digər tərəfdən isə, bəzi istisnalar nəzərə alınmazsa, struktur eyniliyi saxlanılır, daha doğrusu, söz birləşməsi söz birləşməsinə, söz sözə kalka edilir[3, 232].

Kalkaetmə yolu ilə yaradılan terminlərin böyük bir qismini sintaktik üsulla yarananlar təşkil edir. Belə terminlərdən bəziləri bitişik, yaxud yanaşdırılan sözlər ayrılıqda müstəqil məna ifadə etsələr də, tərkib daxilində bir məna ifadə edir. Belə kalkalara sintaktik kalkalar deyilir.

Məs, *noòpocmoк-yeniyetmə, copywriter-nüsxəyazan, deadline- keçilməz xətt, open position- açıq mövqe, open factoring- açıq faktoriŋ, open devaluation-açıq devalvasiya, news room- xəbər otağı və s.*

Dilimizin terminoloji sistemində kalka üsulu ilə yaranan terminlər kifayət qədər çoxdur ki, bu da yeni anlayışların dil vahidləri ilə operativ şəkildə adlandırılmasına və terminoloji sistemin daha da zənginləşməsinə kömək edir.

TƏDQIQAT METODU

Tədqiqat işində dilçi alimlərin terminlər haqqında dediyi fikirlərə isnad edərək müqayisəli təhlili aparılmışdır.

NƏTICƏ

Termin sözdür, lakin dildə olan bütün sözləri termin adlandırmaq olmaz. Çünki terminlər müasir elmin, texnikanın, incəsənətin və başqa müxtəlif sahələrə aid xüsusi anlayışların ifadəçiləri olmaq etibarilə dildə olan ümumişlək sözlərdən bir çox xüsusiyyətlərə görə ilə fərqlənir. Terminlər də, digər sözlər kimi sözlər və söz kökləri əsasında yaranır. Həm dilin daxili imkanları hesabına, həm də başqa dillərdən keçən alınma sözlər hesabına. Dilimizdə müxtəlif üsullarla yaranan terminlər vardır. Onlar da dilimizin koloritinin artmasıda çox mühüm rol oynayır.

ƏDƏBIYYAT SIYAHISI

1.Çobanzadə B. İstilah-terminoloji işləri. "Azərbaycanı öyrənmə yolları", 1930, № 4-5, səh 3.
2.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı, Bakı, Azərtədris nəşr, 1962.
3.Xudiyev N. Azərbaycan ədəbi dilinin zənginləşmə yolları. Bakı, 198727.
4.İngiliscə-azərbaycanca lüğət, Bakı, 2004, 54
5.Jurnalistika terminləri lüğəti,Bakı , Altun kitab, 2016, 490
6.Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları, Bakı, Elm, 1973

BULUDXAN XƏLİLOVUN DİLÇİLİK GÖRÜŞLƏRİ

XƏLİLOVA TUĞRA BULUDXAN QIZI
OYU, Magistratura şöbəsi
Filologiya, Azərbaycan dili
xelilovatugra@gmail.com
Bakı, Azərbaycan

XÜLASƏ

Tezisdə dilçi-alim Buludxan Xəlilovun yaradıcılığı, dilimizin tarixi, bu günü, inkişaf xüsusiyyətləri, problemli və tədqiq olunmamış məsələləri əks etdirən monoqrafiya, dərs vəsaitləri və digər elmi araşdırmaları haqqında bəhs olunmuşdur. Müxtəlif ad və mövzulu kitabları, elmi tədqiqat və araşdırmaları professor Buludxan Xəlilovun böyük zəhmətinin, gərgin və yorulmaz yaradıcılıq axtarışlarının məhsuludur. Tədqiqat işinin hazırlanmasın müşahidə, tutuşdurma və təsviri metodlardan istifadə edilmişdir.

Buludxan Xəlilov xalqımızın ən dəyərli sərvətini – doğma Azərbaycan dilinin sirlərini, incəliklərini dərindən bilən, bu incəlikləri öyrətməyi qarşısına məqsəd qoyan alimlərdən biri olmuşdur. Zəngin elmi yaradıcılığı boyunca monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə və digər çoxsaylı tədqiqat işlərində dilçiliyin bütün sahə və şöbələrinə dair ən aktual, ən sanballı və tutarlı məsələləri müasir elmi tələblər səviyyəsində araşdırmış, tədqiqatdan kənarda qalan, ona qədər öyrənilməmiş, eləcə də mübahisəli mövzuları hərtərəfli tədqiq edib üzə çıxarmışdır. Elmi əsərlərində əksini tapan hər bir mövzunun dərin və hərtərəfli şərhinə nail olmuş, dil tarixi, dialektologiya, müasir ədəbi dil, üslubiyyat, türkologiya, müqayisəli qrammatika, nitq mədəniyyəti, işgüzar və akademik kommunikasiya kimi ən müxtəlif sahələrdə araşdırmalar aparmışdır.

AÇAR SÖZLƏR: Dilçilik, əsər, ədəbiyyat, təhlil, tarix, elm

GİRİŞ

Çağdaş Azərbaycan filologiyasının görkəmli nümayəndələrindən biri də filologiya elmləri doktoru, professor, əməkdar müəllim, Azərbaycan Respublikası Prezidenti yanında Ali Dil Komissiyasının, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, tanınmış dilçi alim və türkoloq Buludxan Xəlilovdur. O sanki elm üçün dünyaya gəlmişdi. Həmişə öyrənməkdə, ardıcıl və aramsız yaradıcılıq axtarışlarında idi.

Buludxan Xəlilov dilçilik elmi sahəsindəki tədqiqatlarına fonosemantika ilə başlasa da, yaradıcılıq diapazonu çox geniş olmuşdur. 1995-ci ildə çap etdirdiyi "Azərbaycan dilində təkhecalı feillərin əsasında dayanan ilkin köklərin fonosemantik inkişafı" adlı kitabında yazmaqla mövzu ilə bağlı mövcud fikirlərə istinad edib, həmin fikirləri hərtərəfli təhlil süzgəcindən keçirmiş, bu sahədə özünəqədərki tədqiqatlardan irəli getməyi bacarmışdı. "Azərbaycan dilində ikihecalı fellərin fonosemantik inkişafı" (Bakı: APİ nəşri, 1996) adlı monoqrafiyasında feil köklərinin tarixi inkişafı, günümüzə gələnədək keçirdiyi fonosemantik təkamül yolu araşdırılıb işıqlandırılmışdır. Araşdırmalarını ümumiləşdirərək 1998-ci ildə "Feillərin ilkin kökləri" monoqrafiyasını çap etdirmiş, Azərbaycan dili feillərinin əsasında duran ilkin kökləri, onların lüğət tərkibimizin inkişafındakı rolunu tarixi-müqayisəli istiqamətdə tədqiq edib üzə çıxarmışdır.

Buludxan Xəlilovun yaradıcılığı çoxşaxəlidir. Buludxan Xəlilov 2001-ci ildən 2011-ci ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaradılmış Dədə Qorqud elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmiş, "Filologiya məsələlərinə dair tematik toplu"nun redaktoru olmuşdur. Müasir ədəbi-tənqidi fikrin, ədəbi irsin araşdırılmasında öz dəst-xətti ilə tanınır. Hələ 2000-ci ildə M.F.Körpülünün "Azəri" əsərini transliterasiya edib ön söz və şərhlərlə çap etdirmiş, ədəbi dilin tədqiqinə dair bir sıra monoqrafik əsərlər yazmışdır. 400-dən çox elmi, elmi-publisistik əsəri çap edilmişdir. Bunlardan 45-i monoqrafiya, dərslik və dərs vəsaitidir.

Azərbaycan dilçiliyinin müxtəlif sahələrinin tədrisində bu gün ali məktəblərimizin əksəriyyətində istifadə olunan dərsliklərin müəllifidir. "Türkologiyaya giriş" (Bakı, 2013) adlı dərliyində türk dillərinin dünya dilləri içərisində yeri, türk xalqlarının tarixi, görkəmli şəxsiyyətləri və tarixi abidələri haqqında məlumat verilir, türk dillərinin təsnifi ilə məşğul olan dilçilərin fikirləri, türk dillərinin fonütik, leksik, qrammatik quruluşunun müqayisəsi təqdim olunur, daha sonra isə hər bir yarımqrupa daxil olan müasir türk dilləri, onların yayılma arealı, müasir dövrdə özünü göstərən spesifik xüsusiyyətləri izah olunur.

"Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya" (Bakı: 2007) adlı dərslikdə dilimizin səs sistemi, danışıq səsi və fonem, fonetik transkripsiya, dilimizdə özünü göstərən fonetik hadisə

və qanunlar, vurğu, durğu, avazlanma, yazı, əlifba, qrafika, Azərbaycan dilinin orfoepik və orfoqrafik normaları, "Müasir Azərbaycan dilinin leksikologiyası" (Bakı, 2008) dərsliyində dilimizin lüğət tərkibi, burada özünü göstərən sözlərin işlənmə dairəsinə görə qrupları, sözlərin məna qrupları, onomastik, frazeoloji vahidlər araşdırılır, dilimizdə az tədqiq olunmuş, okkozional sözlər, tabu və evfemizm, potensial sözlər, arqo, jarqon, ekzotik sözlər və digər söz qrupları haqqında məlumat verilir, dilimizin onomalogiya, derivatalogiya və leksikoqrafiyası haqqında dolğun məlumatlar çatdırılır.

"Müasir Azərbaycan dilinin morfologiyası (I hissə)" (Bakı: "Elm", 2000), "Müasir Azərbaycan dilinin morfologiyası (II hissə) (Bakı: "Elm", 2003) adlı iki hissəli dərsliyin I hissəsində qrammatika və onun növləri, qrammatik quruluş, qrammatikanın dilçiliyin digər şöbələri ilə əlaqəsi, nitq hissələrinin bölgüsü, ümumi qrammatik kateqoriyalar, II hissəsində isə əsas, köməkçi, xüsusi və qeyri-müəyyən nitq hissələri geniş şəkildə şərh edilmiş, hər bir nitq hissəsinin özünəməxsus xüsusiyyətləri, onlara aid olan xüsusi qrammatik kateqoriyalar haqqında məlumat verilmişdir. Qrammatika terminin əvvəllər ərəb dilindən götürülmüş sərf-nəhv termini ilə ifadə edildiyini, sərf sözünün morfologiya, nəhv sözünün isə sintaksis anlamı saşıdığını, birlikdə qrammatika mənasını ifadə etdiyini, qrammatika terminin isə yunan mənşəli "hərf" sözündən götürüldüyünü, əvvəllər yazı mənasını bildirdiyini, sonra isə dilin qrammatik quruluşu haqqında elm kimi başa düşüldüyünə diqqəti yönəltmişdir. Kitabda "qrammatika" terminin ilk dəfə Şərq aləmində Əflatun adı ilə tanınmış Platonun (e.ə.427-348-ci illər) əsərində işlənməsi, qədimliyinə baxmayaraq, İsgəndəriyyə dilçilik məktəbi meydana çıxana qədər "qrammatika"nın müstəqil fənn hesab edilməməsi haqqında geniş məlumat verilmiş, qrammatikanın növlərinin (məktəb qrammatikası, akademik, assosiativ, formal, taksonomik,deskriptiv, məntiqi müqayisəli qrammatika) mahiyyəti izah olunmuş, hər birinin obyekti və predmeti göstərilmişdir.

"Müasir Azərbaycan dili. Sintaksis" (Bakı,2017) dərsliyində dilimizdəki sintaktik konstruksiyalar, söz birləşməsi, cümlə və mətnlər haqqında geniş məlumat verilir, cümlənin qrammatik əsası, baş və ikinci dərəcəli üzvlərin cümlənin qurulmasında rolu, baş üzvlərin iştirakına görə cümlə növləri, cümlə üzvləri ilə qrammatik cəhətdən bağlı olmayan sözlər araşdırılır, mübahisəli məsələlərə aydınlıq gətirilir.

"Azərbaycan dilində feil" (Bakı,2018) dərsliyi ali məktəblərin filologiya fakültələrində "Seçmə fənn" kimi tədris olunan eyni adlı fənnin proqramına uyğun tərtib olunmuş, morfologiyamızın böyük bir hissəsini əks etdirən, öz milliliyi və qrammatik kateqoriyalarının zənginliyi ilə seçilən feilin səciyyəvi xüsusiyyətləri, söz yaradıcılığında rolu, sadə və mürəkkəb formaları, əsas kateqoriyaları geniş şəkildə izah olunur, feillə bağlı mübahisəli fikirlər, dilçiliyimizdə feillə bağlı aparılan çoxsaylı araşdırmalar barədə məlumat verilir.

2020-ci ilin sentyabr ayından ölkəmizin bütün ali və orta-ixtisas təhsili müəssisələrində ixtisasından asılı olmayaraq bütün fakültələrdə tədrisi nəzərdə tutulmuş "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin proqramını tərtib etmiş, dərsliyini hazırlamışdı. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adlı dərslik alimin vəfatından sonra Təhsil Nazirliyinin qrifi ilə nəşr olunmuşdur. Aydın və elmi dildə tərtib olunmuş dərslikdə işgüzar və akademik ünsiyyətin əsas xarakteri, janrları, şifahi və yazılı formaları, ünsiyyət mədəniyyətinin meyarları, xoş təəssürat yaratmağın qayda və üsulları, özünütəsdiq təqdimatı və digər mövzular günün tələblərinə uyğun şəkildə izah edilmiş, rəsmi və işgüzar sənədlərin hazırlanma qaydaları, onlara aid nümunələr təqdim olunmuşdur.

"Azərbaycan dili: dünən, bu gün" adlı monoqrafiyasında türkoloji düşüncəmizin, türkçülük, azərbaycançılıq ideologiyasının dünəni, bu günü haqqında tarixi və elmi faktları yüksək səviyyədə təhlil etmiş, əski türkcədən diferensiallaşmanın səbəblərini izah edib araşdırmışdır. Eyni zamanda Az, Xəzər, Azəri, Tatar, Azərbaycan sözlərinin izahı ilə yanaşı, tarixi, zəruri tələbata uyğun işlənməsi məsələsini aydınlaşdırmış, azərbaycançılığın bir sıra aktual problemlərinə münasibət bildirmişdir. Monoqrafiyada türkçülük və azərbaycançılıq vəhdətdə götürülmüş, onların ayrılmazlığı, birliyi ideyası irəli sürülmüş, vətənimizin, dilimizin dünəni və bu günü yüksək vətəndaşlıq ləyaqəti ilə təhlil edilib araşdırılmışdır.

"Azərbaycan dili antologiyası" adlı böyük həcmli kitabında da dilimizin inkişafında xüsusi rol oynamış tarixi şəxslər, filoloq və türkoloqlar haqqında, ədəbi dil normalarımızın yaranıb inkişaf etməsində xüsusi xidmətlər göstərmiş maarifçi mütəfəkkirlərin xidmətləri barədə geniş və hərtərəfli məlumat vermiş, dilimizin dövlət dili kimi inkişfında xüsusi rol oynamış qanun və fərmanların tarixi əhəmiyyətini izah eləmişdir.

2009-cu ildə "M.Kaşğarinin "Divani-lüğət-it türk" əsərində etnonimlər", 2010-cu ildə "Türkün hikmət xəzinəsi: Xoca Əhməd Yəsəvi" kitabları bu istiqamətin dərinləşməsinə xidmət etmişdir. Təsadüfi deyil ki, müxtəlif beynəlxalq və yerli elmi konfranslarda, elmi seminar və yığıncaqlarda türk xalqlarının birliyi, türk dillərinin qorunub inkişaf etdirilməsi kimi məsələlərdən, bu istiqamətdəki problemlərdən vətənpərvər bir alim kimi bəhs edən B.Xəlilov 2006-cı ildə VII Uluslararası Türk dili Qurultayında məruzə ilə çıxış etmiş,

2009-cu ildə türk ədəbiyyatına xidmətləri ilə bağlı olaraq Türkiyə Cümhuriyyətinin KIBATEK Akademik ÜYESİ diplomunu almış, KIBATEK Akademik Üyesi seçilmişdir. 2013-cü ildən "Türkologiya" jurnalının Azərbaycan dili, terminologiya üzrə sahə redaktoru, 2015-ci ilin aprel ayında Türk dünyası araşdırmaları uluslararası elmlər akademiyasının akademiki seçilmişdir.

Göründüyü kimi, B.Xəlilov üzə çıxarıb təhlil etdiyi məsələlərə ümumi nəzəri dilçilik mövqeyindən yanaşan, bununla bərabər milli mövqeyini və mənsubiyyətini layiqincə müdafiə edib fikirlərini əsaslandırmağı bacaran alimdir. Dilçi alimin elmi yaradıcılığına daxil olan "224 türk sözü" (2010), "Dil-söz çələngi" (2013), "Dil, ədəbiyyat, mədəniyyət", "Müasir Azərbaycan dili: milli varlığımız, mənəvi sərvətimiz" kitabları da qaldırılan məsələlərin əhəmiyyəti, elmi sanbalı baxımından diqqəti cəlb edir. Bu əsərlərdə nəzəri və tətbiqi dilçiliyin aktual problemlərindən bəhs edilir, elmi-mədəni, ictimai-siyasi əhəmiyyət kəsb edən məsələlərə toxunulur. Alimin Azərbaycan dilçiliyinin müxtəlif qollar üzrə inkişafında xidmətləri misilsizdir. Çoxsaylı kitab və məqalələri illər boyu yorulmadan apardığı elmi araşdırmaların, axtarışların və böyük zəhmətin nəticəsidir. Elmə vurğunluğu onun zəhmətkeş, istedadlı və qabiliyyətli bir alim kimi yetişməsində mühüm rol oynamış, dilçilik elmi üçün töhfə hesab ediləcək əsərlərin meydana gəlməsinə imkan yaratmışdı. Professorun əsərləri onun yüksək elmi-nəzəri səviyyəsinin, zəngin pedaqoji-metodiki müşahidələrinin nəticəsi kimi diqqəti cəlb edir. Müəllifin orijinal yaradıcılıq məhsulları içərisində Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim edilməyə layiq görülənləri də vardır.

B. Xəlilov ədəbiyyatımıza da böyük məhəbbətlə yanaşmış, bu sahədə də çoxsaylı və əhəmiyyətli əsərlər müəllifi kimi tanınmışdır. Onun haqqında hər zaman deyilən fikirlərdən biri bundan ibarət idi ki, Buludxan xəlilov ədəbiyyatı da ən azı dilimiz qədər bilir, sevir, tədqiq edib araşdırır. Müəllifin "İsmayıl Şıxlının dilçilik görüşləri", "Bəxtiyar Vahabzadənin pedaqoji görüşləri", "Bəxtiyar Vahabzadənin dilçilik görüşləri", "İsmayıl Şıxlı: müəllim haqqında müəllim sözü" kimi əsərləri ədəbiyyat, dilçilik və pedaqogika elmlərinin sintezi əsasında yazılmış yüksək elmi-bədii-estetik və pedaqoji dəyərə malik tədqiqat nümunələri hesab edilir. Alim Azərbaycanın dəyərli şair və yazıçılarının yaradıcılıq yolunu yorulmadan təhlil edir, əsərlərinin bədii keyfiyyətləri, dil xüsusiyyətləri və poetik imkanları haqqında öz əsaslandırılmış fikir və mülahizələrini təqdim edirdi.N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif və digər klassiklərin, İ.Şıxlının, B.Vahabzadənin, M.Hüseynin və onlarla digər qədim və müasir söz ustalarının yaradıcılığını yüksək səviyyədə tədqiq edib araşdıran müəllif əsl mənada ədəbiyyat vurğunu və bilicisi kimi çıxış edirdi.

Buludxan Xəlilovun yorulmaz fəaliyyəti müxtəlif dövrlərdə müxtəlif səviyyəli qurumlar tərəfindən yüksək səviyyədə qiymətləndirilmişdir. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili kafedrasında laborant kimi başlamışdır. 1992-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1994-cü ilin mart ayından müsabiqə yolu ilə Müasir Azərbaycan dili kafedrasında müəllim, 1996-cı ilin may ayından dosent, 2001-ci ilin iyul ayından professor vəzifəsində çalışmışdır. Xəlilov 2001-ci ildən 2011-ci ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaradılmış Dədə Qorqud elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. 2006-cı ildə Filologiya fakültəsinin dekanı seçilmiş, 2011-ci ildə yenidən dekan vəzifəsinə təyin olunmuşdur. 2018-ci ilin dekabr ayından Müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2006-cı ildə Azərbaycanda təhsil sisteminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 2001-ci ildə "İlin alimi" nominasiyasının, 2003-cü ildə Vektor Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə Azərbaycanın gənc alimləri Beynəlxalq layihəsinin qalibi olmuşdur. O, 2004-cü ildə Azad Qələmlər Cəmiyyəti tərəfindən Azərbaycan dili, ədəbiyyatı və türkologiya elmlərinin tədqiqi-təbliği sahəsindəki xidmətlərinə görə Qızıl qələm fəxri mükafatı laureatı seçilmiş, 2006-cı ildə XXI əsrin ziyalısı adına layiq görülmüşdür.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Yazıçılar Birliyindəki İrs komissiyasının üzvü idi. 2003-2004-cü illərdə Ali Attestasiya Komissiyasının Filologiya ixtisası üzrə Ekspert şurasının üzvü olmuşdur. 2007-2008-ci tədris illərində ADPU-da "İlin müəllimi", 2011-ci və 2013-cü illərdə "İlin alimi" müsabiqəsinin qalibi olmuşdur. 2011-ci ildən Prezident təqaüdçüsü idi (Yazıçılar Birliyinin üzvü kimi). 2011-ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqı tərəfindən "Xalqın nüfuzlu ziyalısı" mükafatına layiq görülmüşdür. 2015-ci ilin 19 mayında "Beynəlxalq Rəsul Rza" mükafatına layiq görülüb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 dekabr 2015-ci il tarixli, 450 №li sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının yeni tərkib komissiyasına üzv, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 17 fevral 2016-cı il tarixli 4/14 nömrəli qərarı ilə AMEA-nın "Türkologiya" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun və Dünya Gənc Türk Yazarlar Birliyinin təşkilatçılığı ilə "Bakıdan türk dünyasına" adlı layihə çərçivəsində tədbirlərə verdiyi dəstəyə görə "Onur bəlgəsi" ilə, azərbaycanlı şair Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş tədbirdə TÜRKSOY Genel Sekreteri Düsen Kaseinov tərəfindən "Molla Pənah Vaqif" medalı ilə təltif edilmişdir. 2018-ci ildə ADPU-nun Filologiya fakültəsinin inkişafında xidmətlərinə görə rektorluq tərəfindən fəxri fərmanla təltif edilmişdir. O, "Əməkdar müəllim" fəxri adı ilə, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı və bir sıra digər fəxri fərmanlar ilə (1973, 2008) təltif edilmiş, həmçinin dəfələrlə ADPU-nun rəhbərliyinin fəxri fərmanlarına layiq görülmüşdür.[3]

NƏTICƏ

Təqdim olunan işdə B.Xəlilovun tədqiqatları, zəngin bədii irsi, çoxşaxəli elmi yaradıcılığı, əks olunmuşdur.Bunun üçün müəllif zəngin elmi yaradıcılığı boyunca monoqrafiya, dərslik, elmi məqalə və digər çoxsaylı tədqiqat işlərində dilçiliyin bütün sahə və şöbələrinə dair mübahisəli mövzuları hərtərəfli tədqiq edib üzə çıxarmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Dil Komissiyasının üzvü olmuş, dilimizin tədqiq olunub araşdırılmasında, tədrisində və qorunub inkişaf etdirilməsində xüsusi xidmətlər göstərilmişdir. Çoxcəhətli və bənzərsiz yaradıcılığı bəhs etməklə tükənməyən dəyərli alimin yaradıcılıq yolu hər bir gənc alim və araşdırmaçı üçün örnəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Xəlilov B. "Bəxtiyar Vahabzadənin dilçilik görüşləri".Bakı, 2014, 244 səh.
2. Xəlilov B. "İsmayıl Şıxlının dilçilik görüşləri". Bakı,2014, 170 səh.
3.Xəlilov B. "Müasir Azərbaycan dilinin morfologiyası.Bakı,2000, 280 səh.
4. Xəlilov B." Müasir Azərbaycan dilinin leksikologiyasi".Bakı, 2008, 442 səh.
5. Xəlilov B. "Müasir Azərbaycan dili.Sintaksis".Bakı, "Adiloğlu" 2017, 428 səh.

AKADEMİK KOMMUNİKASİYA PROSESİNDƏ NİTQİN KEYFİYYƏTİNƏ VERİLƏN TƏLƏBLƏR

Vəliyeva Səbinə Xansuvar qızı
nasibali2011@mail.ru
Bakı Dövlət Universiteti
Azərbaycan dilçiliyi kafedrası,
filologiya üzrə fəlsəfə doktoru, müəllim
Azərbaycan, Bakı şəhəri

Xülasə:

Dil şərti xarakter daşıyan, struktur şəkildə təşkil olunmuş sözlərdən ibarət olan şifahi və ya yazılı ünsiyyət formasıdır. Dil eyni zamanda hər hansı bir ölkə və yaxud icma tərəfindən istifadə olunan kommunikasiya sistemidir. Dil insanlar arasında fikri təcəssüm etdirmə alətidir. İki əsas funksiyanı özündə ehtiva edən dil, ünsiyyət vasitəsi kimi birbaşa olaraq cəmiyyətə və cəmiyyətlə bağlı olan inkişafa xidmət edir. Sosial mühitə aid olan hər bir əlamət və hadisə ilk növbədə öz əksini dildə tapmış olur. Müasir qloballaşan cəmiyyətdə dilə məxsus olan funksiyalar əhatə baxımından genişlənmişdir. Bu birbaşa müasir dövrün informasiya əsri olması ilə bağlıdır.

Açar söz: dil, nitq, kommunikasiya, nitqin keyfiyyyəti, proses, hadisə
Ключевые слова: язык, речь, общение, качество речи, процесс, событие.
Keywords: language, speech, communication, speech quality, process, event

Mövzunun aktuallığı: Termin olaraq kommunikasiya latın sözü olub, communikato – rabitə, əlaqə mənasını ifadə edir. İnformasiyanın ötürülməsi prosesində aşağıdakı anlayışlar diqqəti cəlb edir:

Yazı və nitq kommuniksiyası – hərf və səslənmə ilə müəyyən məlumatın yazılı və şifahi, verbal və ya qeyri-verbal formada ötürülməsi;

Sosial kommunikasiya – sosial şəbəkələr vasitəsi ilə informasiyaların ötürülməsi;
Texniki kommunikasiya – bir nöqtədən, əşyadan və şəxsdən digərinə müəyyən rabitə kanalı ilə məlumatın verilməsi;
Semantik kommunikasiya – informasiyanın məzmununun qəbuledici tərəfindən başa düşülməsi şərtilə verilməsi və qəbul edilməsi;
Tədqiqatın metodu: Araşdırma zamanı təsviri metoddan istifadə olunmuşdur.
Dilin ifadə forması nitqdir. Nitq ünsiyyət prosesi ilə bağlı olub, bu və ya digər məlumatın –informasiyanın ifadə tələbinə uyğun olaraq dilin ifadə imkanları əsasında meydana çıxarır. Dil əsas, nitq isə ondan törəmədir. Dil tarixən çox az dəyişikliyə məruz qaldığı halda, nitq ona nisbətən dəyişkəndir. Çünki nitq birbaşa olaraq, nitq fəaliyyəti zamanı meydana çıxır. Nitq ictimai, psixoloji və fizioloji aktlar sistemidir. Nitqin yaranması həm mürəkkəb və mürəkkəb olduğu qədər də sürətli prosesdir. İnsan zəkasının yaratdığı heç bir texnika bu sürətə malik ola bilməz. Dil və nitqi bir-birindən ayırmaq mümkün deyil. Dil və nitq eyni bir prosesin müxtəlif təzahür formaları olub, hər ikisi də yalnız insan cəmiyyətində mövcud ola bilir.
Yenilik: Ünsiyyət prosesində şəxsin kimliyi, yaxınlıq dərəcəsi, sosial statusu, yaşı, eləcə də ünsiyyət məkanı nitqə təsir göstərən əsas amillərdir. Bu baxımdan qeyd edə bilərik ki, dil və nitq vahidləri fikirlərimizi və hisslərimizi kommunikasiya üsulu daşıyan bir yoldur. O həm insanları birləşdirir, həm də bölür. O, həmçinin insanların düşdüyü sferada öz kimliyini təsdiqləmək yoludur. Dil sosial qrupun xarakterlərini təqdim etmək üçün ideal mühərrikdir.
Nitq ən başlıca, mühüm və mürəkkəb kommunikasiya prosesidir. İnsan vaxtının 70 faizini demək olar ki, kommunikasiya təşkil edir. Göstərilən bütün xüsusiyyətlər bütün dünya dillərini əhatərək müxtəlif üslubları ortaya çıxarmış olur. Üslub ümumi və xüsusi olaraq ictimai və fərdi baxımdan fəaliyyət göstərərək yazı və nitq kommunikasiyası ilə birbaşa bağlıdır. Ümumi-ictimai məzmun daşıdığı zaman funksional üslublar əmələ gəlir ki, onlar da milli ictimai təfəkkürün müxtəlif sahələrini əhətə edərək bir neçə növü təşkil edir. Funksional üslublar bütövlükdə ədəbi dillə əlaqədardır.
Fransız maarifçisi J. Buffonun qeyd etdiyi kimi, "üslub eyni ilə insandır".
Üslub yalnız dildən istifadə olunduqda yaranır. Nitqin fəaliyyəti növü olduğundan üslublar da funksionaldır. Üslub ümumilikdə fəaliyyət sferasının təsiri əsasında meydana çıxır. Azərbaycan dilində əsas funksional üslublar bunlardır: bədii, elmi, publisistik, rəsmi-kargüzarlıq, məişət və epistolyar üslüb.
Elmi təfəkkürün ifadəsi akademik komumunikasiyanı əhatə edir. Akademik kommunikasiya müxtəlif elm sahələrinin dilidir. Bu ünsiyyət ədəbi dildə bir sıra xüsusiyyətlərə malik funksional bir nitq üslubudur. Bir bəyanat üzərində ilkin düşüncə, monoloji xarakter, dil vasitələrinin ciddi seçimi, normallaşmış nitqə meyl akademik kommunikasiya üçün əsasıdr. Bu nitqdə faktlar dəqiq və tam mümkün izah edilərək hadisələr arasında səbəb-nəticə əlaqələri göstərir. (2,78)
Akademik kommunikasiyda nitq üçün əsas tələb məntiqilik, dəqiqlik, ardıcıllıq və konkretlikdir. Burada danışan şəxs mənsub olduğu ixtisasa uyğun olaraq ixtisas sözlərindən-terminlərdən geniş şəkildə istifadə edilir ki, onlar yalnız mütəxəssislər üçün tam və dəqiq şəkildə anlaşıqlı olur. Həmçinin mürəkkəb strukturlu cümlələr, modal sözlər akademik kommunikasiya üçün xarakterikdir. Akademik kommunikasiya zamanı söz və ifadələr, elmi anlayışlar birmənalı şəkildə, birbaşa ifadə edilir (5). Danışan şəxs fikrin müxtəlif cür anlaşılmasına, mətnaltı mənaya və ya çoxmənalılığa yol verilmir. Ümmiyyətlə, akademik kommunikasiya zamanı nitqə bir sıra tələblər verilir.
Nitqin düzgünlüyü. Akademik kommunikasiya zamanı natiqin nitqini təşkil edən cümlələr məntiqi cəhətdən düzgün qurulmalı, dilin fonetik, leksik və qrammatik normaları nəzərdə saxlanımalı, ədəbi tələffüz qaydalarına riayət etməli, normal və aydın diksiya, nitq fasilələri, məntiqi vurğu nəzərdə saxlanılmalıdır.
Nitqin dəqiqliyi. Akademik kommunikasiyada nitqə verilən ən mühüm tələb dəqiqlikdir. Fikrin gerçəkliyi nitqin mənasında, məzmununda əks olunur. Dəqiqlik bir natiqdən dildə mövcud olan sözlərin mənasını, sinonimliyini, çoxmənalılığını, terminləri, müxtəlif funksional üslubları və qrammatik formalarını bilməyi tələb edir.
Nitqin aydınlığı. Nitqin aydınlığı akademmik kommunikasiya üçün çox vacibdir. Əgər natiq ifadə edəcəyi mövzu haqqında mükəmməl məlumata malik olmasa, onu dərindən və yaxşı bilməsə, müvafiq dil vasitələri hesabına nitqində sözçülüyə yol verməzsə, fikrini maraqlı qurar, dolaşıq cümlələrə deyil, sadə cümlələrlə deyəcəyi faktları ifadə etməyi bacarar.
Nitqin aydinlığına nail olma üsullarını aşağıdakı kimi tərtib etmək olar:
a) Danışılacaq mövzu ətraflı öyrənilməli, lazımi material hazırlanmalıdır;
b) Material fikirdə və ya yazılı qeydlərdə sistemləşdirilməlidir;

c) Nəzərdə tutulmuş sübut, dəlil və ya faktları ifadə edəcək sözlər məntiqi vurğu hesabına aydın nəzərə çarpdırılmalıdır;
d) Nitqin əsas hissəsindəki söz, ifadə və cümlələr aydın tələffüz edilməli, ”bunun” əvəzinə “munun”, “ gətirdi” əvəzinə “gətdi”, “gəl gedək” əvəzinə “gə gedəy”, “bəs bu” əvəzinə “bə bu”, “açar” əvəzinə “haçar” və s. deyilməməlidir;
e) Məzmuna uyğun intonasiya seçilməli, düzgün diksiya ilə ifadə olunan nitqin başa düşülməsinə cəhd göstərilməlidir. Eyni zamanda danışan səsini, nəfəsini idarəetmə bacarığını təkmilləşdirməli, diksiya ilə bağlı şivə qüsurlarını düzəltməlidir.
Nitqin təmizliyi. Akademik kommuniksiya zamanı ədəbi dilin qaydalarından kənara çıxmamaqla birbaşa nitqin təmizliyinə təmin edilir.
Bu zaman aşağıdakı məqamalar xüsusi nəzərə alınmalıdır:
Nitqdə dialekt və şivəyə məxsus dil vahidlərinə yer verilməməli. ***Məs.: hasannıxnan (asanlıqla), piyadaci (piyada),*** eyzən (tamamən), incəvara (yaxşı ki), qalxızmaq (qaldırmaq), soram (sonra), bu günlərim (bu gün), sabahlarım (sabah) və s.
Alınma sözlərdən lüzumsuz istifadə etməməli; yaşam (həyat), mesaj (sifariş), yolçu (səmişin), yapmaq (etmək), uçak (təyyarə), yazar (yazıçı), oba (vətən), düzənlənmək (keçirmək, təşkil etmək), toplantı (yığıncaq), baş yazar (baş redaktor), mutlu (xoşbəxt), yaşam təcrübəsi (həyat təcrübəsi), tanıtım keçirmək (təqdim etmək), yazıqlar ki (təəssüf ki), təpki (təzyiq), mintalitet (ruh), öyrənci (şagird), qərarı əngəlləmək (qərara qarşı çıxmaq) bu və bu qəbildən olan digər sözlərin, ifadələrin dilimizdə qarşılığı olduğu halda dilə gətirilməsi bütün hallarda məqbul sayılmamalıdır.
Terminlərdən üsluba müvafiq istifadə etməli;
Nitqdə “tüfeyli sözlər”dən istifadə etməməli (deməli, zaddır, şey, adı nədir və s.);
Yersiz fasilələr etməməli, fasilələrdə mətnlə əlaqəsi olmayan yersiz sözlər, ifadələr işlətməməlidir. Məs.: əsas etibarilə, deməli, türkün məsəli, zaddı, ən azı ona görə ki, şeydi, beləliklə, adı nədir, adını sən de, hansı ki, haradasa, canım sənə desin, baxanda baxıb görürük ki və s. bu tipli sözlər nitqi korlayır, onda uyğunsuzluq, rabitəsizlik əmələ gətirir.
Nitqdə loru sözlərdən (zollamaq, hırıldamaq, gop etmək və s.), jarqonlardan (işini bitirmək-öldürmək, əriştəsini kəsmək - həbs etmək, ütmək-pulunu əlindən almaq və s.), arqolardan (məsələn, tələbələrin işlətdiyi “quyruq”, ”kəsir”, “təkərə düşmək”, “sürüşdürmək”, müəllimlərin işlətdiyi “pəncərə”), yersiz alınma sözlərdən (***znaçit, voobşe, tem bole, mejdu proçim, niçeqo sebe, kakraz, toçno və s. kimi)*** istifadə etməməkə ***nitqin təmizliyinə*** xələl ***gətirir, onun keyfiyyətini aşağı salır.***
Nitqin sadəliyi. Akademik kommunikasiyada əsas problem nitq zamanı anlaşılmayan və ya az anlaşıqlı, konkretlik və təbiilikdən uzaq söz birləşmələrindən, mürəkkəb konstruksiyalardan, məfhumun canlandırılmasını mümkünsüz olan leksemlərdən istifadə edərək onun asan başa düşülməsini çətinləşdirir. Nitqin sadəliyi onun aydınlığı, anlaşıqlı olması, asan qavranılması ilə şərtlənir. Sadəliyi heç də fikrin, məzmununun, mahiyyətin bəsitləşməsi, ibtidailəşməsi kimi başa düşmək olmaz. Nitqin sadəliyi mürəkkəb cümlələrdən qaçmaq, məzmunun mümkün qədər sadə cümlələrlə verməklə mənasının anlaşılmasıdır. Nitqin sadəliyi tələb edir ki, orada işlədilən bütün sözlər dinləyicilərin (auditoriyanın) ümumi səviyyəsinə və xüsusiyyətlərinə uyğun gəlsin, hamı üçün aydın və anlaşıqlı olsun. Sadə nitq hər cür yabançı pafosdan, qondarma, süni ifadələrdən, müqayisələrdən uzaq olmalıdır. Sözçülük, eyni fikrin təkrar-təkrar ifadəsi daha geniş yayılmış nöqsandır.
Nitqin sadəliyinin pozulma səbəblərindən biri də anlaşılmayan və ya az anlaşılan söz və terminlərin işlədilməsidir. Burada akademik kommunikasiya zamanı öz bilik və hazırlığının yüksək səviyyədə olmasını nümayiş etdirmək məqsədilə ehtiyac olmadığı halda terminlərdən, mürəkkəb tərkiblərdən istifadə edir.
Nitqin rabitəliliyi. Akademik kommunikasiyada nitq rabitəli qurulmalı, faktın izah olunma ardıcıllığı məntiqə əsaslanmalı, əsas və ikinci dərəcəli məsələlər bir-birindən fərqləndirilərək şərh olunmalı, ikinci dərəcəli məsələnin üzərində çox dayanmayaraq əsas məsələnin izahına xüsusi diqqət yetirilməlidir.
Nitqin rabitəliliyi üçün aşağıdakılara əməl edilməlidir:
Nitq məzmunca dolğun olmalıdır.
Hər hansı bir məsələ barəsində danışarkən məntiqi ardıcıllığa riayət olunmalıdır. Fikrin ardıcıllıgı məntiqə əsaslanmalıdır.
Danışan şəxs əsas və ikinci dərəcəli məsələləri bir-birindən ayırmağı bacarmalıdır.

DIL YARUSLARININ İYERARXİYASI: FRAZEOLOJİ SƏVİYYƏ

ARZU ASLANİ
arzu.aslan68@mail.ru
Filologiya Fakultə/ Azərbaycan dilinin tətbiqi məsələləri ETL
Bakı Dövlət Universiteti

Xulasə:
Frazeoloji səviyyə də aralıq səviyyə hesab edilir. Onu da qeyd edək ki,dilin frazeoloji vahidləri və tərkibi terminləri xüsusi tip vahidlər deyildir. Bu tip vahidlər şəkilcə söz birləşmələri və cümləyə bənzəyir.Həmçinin əmələ gəlmə üsuluna, prosesin gedişinə görə sintaksis səviyyəsinin vahidləridir, lakin eyni zamanda prosesin nəticəsində əldə edilən vahidlər adlandırma xüsusiyyətinə malikdir, yəni mənaca sözə bərabərdir, buna görə də prosesin nəticəsinə görə leksik-semantik səviyyənin vahidləridir. Bütün bunları nəzərə alaraq deməliyik ki, frazeoloji vahidləri və tərkibi terminləri nə sintaksis səviyyəsinin, nə də leksik-semantik səviyyənin vahidləri hesab etmək olmaz. Ona görə də frazeoloji vahidlər və tərkibi terminlər sintaksis səviyyəsi ilə leksik-semantik səviyyənin qovşağında aralıq frazeoloji səviyyə təşkil edir. V.İ.Kodunov bu haqda bunları yazır: «…frazeoloji vahidlər ikilidir: bir tərəfdən, onlar söz birləşmələrindən təzahür edərək özünəməxsus sabit birləşmə yaradır, digər tərəfdən, onlar adi nominativ vahidlər – leksemlər kimi fəaliyyət göstərərək vahid mənaya malikdir. Frazeoloji vahidlər və tərkibi terminlər söz birləşmələri bazasında təzahür edərək sintaqmatika və sintaksisə aiddir, lakin nominativ vahidlər keyfiyyətində fəaliyyət göstərməsi şərtlərinə görə dilin leksik-semantik sisteminin özünəməxsus təbəqəsinə aid edilə bilər» (2, 147).

Açar sözlər: söz birləşmələri, frazeoloji vahidlər, dilin lüğət tərkibi;
Ключевые слова: словосочетания, фразеологизмы, лексика языка;
Key words: word combinations, phraseological units, vocabulary of the language.

GİRİŞ

Frazeoloji vahidlər şəkilcə söz birləşmələridir. Dilçilikdə söz birləşmələrini iki qrupa ayırırlar: sərbəst söz birləşmələri və sabit söz birləşmələri. Sərbəst söz birləşmələrinin komponentləri müstəqil leksik mənaya malik olur, morfoloji və sintaktik baxımdan üzvlənir.Əsas və asılı tərəfləri olur. Artıq bildiyiniz kimi, belə söz birləşmələri qrammatikanın sintaksis bölməsində öyrənilir; onlar sintaksis səviyyəsinin vahidləridir. Sabit söz birləşmələrinin komponentləri müstəqil leksik mənaya malik olmur, morfoloji və sintaktik cəhətdən üzvlənə bilmir.Nitqdə hazır şəkildə mövcud olur.Əsas və asılı təfə bölünmür. Belə söz birləşmələrinə frazeoloji birləşmələr, frazeoloji vahidlər, ya da frazeologizmlər deyilir. A.A.Axundov yazır ki, frazeoloji vahidlər «öz məna xüsusiyyətlərinə görə hazır vahidlər olub, xüsusi bir qrup yaradır. Həmin qrupa daxil olan sözlər öz leksik-semantik səciyyəsinə görə ümumi sözlərdən və xüsusi adlardan fərqlənir. Belə ki, həmin qrupa daxil olan leksik vahidlər bir qayda olaraq, öz lüğəvi mənalarından uzaq olur və əslində, müstəqil mənaya malik olmur. Daha konkret desək, birləşmələrin tərkib hissələri birləşmədə ifadə olunan ümumi bir mənanın yaranmasına xidmət göstərir. Qrammatik cəhətdən həmin birləşmələrin tərkib hissələri diskretlikdən, yəni müstəqil hüduddan məhrum olur, başqa sözlə, özlərinin ilkin morfoloji və sintaktik mənalarını itirir; yəni ayrılıqda müstəqil nitq hissəsi və cümlə üzvü olmaq qabiliyyətlərini mühafizə edə bilmir» (1, 176).

Dilçilik ədəbiyyatında frazeoloji vahidlərin dörd növünün mövcudluğu göstərilir.Bunlar aşağıdakılardan ibarətdir:

1. Tərkib hissələri arasında müəyyən müstəqillik olan frazeoloji vahidlər frazeoloji uyuşmalar adlanır. Belə frazeoloji vahidlər bir qədər sərbəst söz birləşmələrini xatırladır. Frazeoloji uyuşmalarda müəyyən sərbəstlik vardır; məsələn, *gözüm düşdü, gözün düşdü, gözü düşdü.*
2. İstinad sözü nisbətən müstəqil olan frazeoloji vahidlərə frazeoloji birləşmələr deyildir. Belə vahidlərdə istinad sözü nəinki mənsubiyyət şəkilçisi qəbul edə bilir, hətta onunla aid olduğu sözün arasına başqa sözlər də daxil ola bilir; məsələn: *baş girləmək-başını bir təhər girləmək.* Bu birləşmələr sərbəst söz birləşmələrindən məcazi mənada işlənmələri ilə fərqlənir.
3. Tərkibindəki sözlər tamamilə məcazi mənada işlənən, komponentləri arasında möhkəm bağlılıq olan frazeoloji vahidlər frazeoloji qovuşmalar adlanır. Belə frazeoloji vahidlər bölünmür, onların itsinad sözləri dəyişmir və tərkib hissələri arasına söz daxil ola bilmir: məsələn: *qulaq asmaq, əl götürmək.*

4. Frazeoloji ifadələr istiarə mənşəli olur və daha çox əbədi dildə işlənir; məsələn: *qara fikir, kəskin nəzər və* s.

Göründüyü kimi, dil hadisələrini tədqiq etmək aspekti ilə dil strukturunun səviyyələrini ayırmaq uyğun gəlmir. Belə ki, dilin hər hansı bir hadisəsi tədqiqat aspekti ola bilər. Halbuki dilin səviyyələri səviyyə quruluşunun, dilin vahid və kateqoriyalarının öyrənilməsi əsasında ayrılır (3, 135).

Gördüyümüz kimi, dilin səviyyələri və vahidləri təcrid edilmiş şəkildə fəaliyyət göstərmir, onlar bir-biri ilə sıx əlaqədə yaşayır və fəaliyyət göstərir. Dil də material və ideal gerçəkliklə sıx bağlıdır. Buna görə də dil sistemi haqqındakı təlimi dilin səvıiyyələri haqqındakı təlimlə məhdudlaşdırmaq olmaz. Dilin daxili sistemi dərin qululuşa malikdir. Dil sistemi dilin səviyyələri quruluşunu, həm də dilin səviyyələrfövqi məzmunlu daxili forma sistemini, dilin üslublar sistemini və dilin ictimai-məhəlli variantlarını əhatə edir. Dilin süni işarələr sistemindən əsas fərqi budur ki, onun srtruktur səviyyələri dilin norması, dilin özü isə şüur və təfək-kürlə əlaqədardır. Bundan başqa, dil səviyyələri strukturu öz ucqar sahələrində dilxarici gersəkliklə əlaqədardır. Dil səviyyələri strukturunun ucqar sahələrini qütblər adlandırsaq, dil sisteminin iki qütbü – material və ideal qütbləri vardır.

Material qütbdə dil işarələrinin ifadə planının əlamətləri yerləşir. Bunlar, bir tərəfdən, nitq zənciri, digər tərəfdən, dil işarələri hesab edilməyən və dil vahidi təşkil etməyən fonemlərin fərqləndirici əlamətləridir. Lakin dilin material qütbünün mövcudluğu dil vahidlərinin materiallaşması və dil hüdudlarından kənara çıxa bilməsi üçün lazımdır.

İdeal qütbdə məzmun planının əlamətləri təzahür edir. Bu, bir tərəfdən kontekst, digər tərəfdən dilin semantik vahidlərinin fərqləndirici əlamətləridir. Onlar dil vahidləri olmasa da, kommunikativ və informativ dil vahidlərinin əlamətləridir. Lakin dilin ideal qütbünün mövcudluğu dil vahidlərinin dilxarici informasını – fikir, hiss, iradə və s. – ifadə və nəql etmək üçün lazımdır.

Nitq zənciri və kontekst dil vahidlərinin fonunu yaradır, fərqləndirici əlamətlər vahidlərin bu fona daxil olmasını təmin edir. Fon və fərqləndirici əlamətlər dil vahidlərinin əlamətləri kimi linqvistik təhlilə məruz qala bilər.

Dil strukturunun dilin müxtəlif quruluşlarının vahidlərini birləşdirdiyi hələ qədim zamanlardan filosof və dilçilərə məlum idi. Hələ qədim hind və yunan dilçiləri fonetika və qrammatikanı, söz və cümləni, qədim hind dilçiləri isə, ibtidai şəkildə olsa da, hətta səs və fonemi fərqləndirirdilər; nitq hissələrinə isə dil strukturunu birləşdirən leksik-qrammatik dərəcə kimi baxırdılar. XIX əsrin əvvəllərində dilin sistem və struktur olması ideyası yayılmağa başlayır. Həmin yüzilliyin əvvəllərində dahi alman dilçisi V.fon Humboldt dil vahidinin iki şəkli – dilin xarici formasını təşkil edən material (yaxud, səs) və daxili formasını təşkil edən ideal formasını göstərir. Onun fikrincə, dilin daxili forması material formasına qarşı durur. Dilin daxili və xarici formalarının vəhdəti dilin strukturunu təşkil edir. Dilçilər eyni zamanda dil vahidlərinin – söz və cümlələrin, qrammatik kateqoriya və moryemlərin spesifik xüsusiyyətlərini öyrənməyə davam edirlər. XX yüzilliyin birinci yarısında Praqa dilçilik dərnəyinin nümayəndələri dilin təhlilinin iki bəsit vahidi – fərqləndirici əlamət və semi ayırırlar. Dil vahidlərinin təhlili və linqvistik təhlilin metodikasını işləyib hazırlayarkən məlum oldu ki, dil vahidləri və onların kateqoriyalarının ideal cəhəti material cəhətindən xeyli mürəkkəbdir. Dil vahidlərinin ideal və material cəhətləri arasındakı ziddiyyət, vahidlərin özlərinin fərqlənməsi müxtəlif fərziyyələrin meydana gəlməsinə səbəb oldu. Bu fərziyyələrin müəllifləri aşkara çıxan ziddiyyətləri linqvistik təhlil proseduralarının müntəzəmliliyi və ardıcıllığının köməyi ilə aradan qaldırmağa çalışırlar.

Ədəbiyyat

1. Кодунов В.И. Общее языкознание. Москва: 1974
2. Axundov A.A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006
3. Новое в лингвистике, III т, изд-во иностранной литературы. Москва: 1963

Резюме

Иерархия языковых уровней: фразеологический уровень

Единицы языкознания нельзя отождествлять с языковыми уровнями. Языковые уровни объективны. Разделы языкознания зависят от субъективного взгляда исследователей на объект. В настоящее время выделяют два промежуточных уровня языкознания: 1. Морфонология, 2. Фразеология. В некоторых случаях словообразование воспринимается как промежуточный уровень языка. Однако, поскольку словотворчество не является отдельной единицей, его нельзя рассматривать как отдельный языковой уровень.

Summary
Hierarchy of language levels: phraseological level
Units of linguistics can not be identified with language levels. Language levels are objective. Sections of linguistics depend on the subjective view of researchers on the object. At present, two intermediate levels of linguistics are distinguished: 1. Morphonology, 2. Phraseology. In some cases, word formation is perceived as an intermediate level of language. However, although vocabulary is not a separate unit, it is not possible to consider it as a separate language level.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ XÜSUSİ ADLARIN ANTROPONİM NÖVÜNDƏN DÜZƏLMİŞ TERMİNLƏR

Məmmədzadə Könül Əhəd
Azərbaycan Dövlət Pedaqoji Universitet
konul.kesa@yahoo.com

Açar sözlər: Xüsusi adlar, antroponimlər, şəxs adları, soyadlar, etnik xalq adları, tayfa adları, ailə adları, təxəllüslər
Ключевые слова: Специальные имена, антропонимы, личные имена, фамилии, национальные народные имена, племенные названия, фамилии, прозвища
Key words: Special names, anthroponyms, personal names, surnames, ethnic folk names, tribal names, family names, nicknames

Giriş

Xüsusi adlar həm Azərbaycan, həm də ingilis dillərində mühüm bölmələrdən biridir. Mövzunun aktuallığına səbəb hər iki dillərdə xüsusi adlardan götürülmüş terminlərin verilməsidir. Həmçinin, müqayisə hər iki dillərdə qarşılıqlı olaraq aparılmışdır. Hər iki dillərdə tərtib edilmiş nəşrlərdən, lüğətlərdən istifadə edilmişdir. Verilmiş nümunələr elmin bir çox sahələrini əhatə edir. Qeyd edilmiş terminlərdə onomastikanın müxtəlif növlərindən istifadə edilmişdir.
Azərbaycan və ingilis dillərində antroponimlərin növlərindən (şəxs adı, soyadı, etnik xalq adı, tayfa adı, ailə adı, təxəllüs)düzəlmiş kifayət qədər terminlər vardır:
Abalakov testi Vitali Mixayloviç Abalakovun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Abbası İran və Cənubi Qafqazda Səfəvi Şahı I Abbasın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
AK (Avtomat Kalaşnikov) Mixail Kalaşnikovun soyadı ilə bağlı abreviatura yolu ilə antroponimdən düzəlmiş termindir.
Aksel norveçli fiqurist Aksel Paulsenin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Amper fransız fiziki Andre Marie Amperin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Babək hərəkatı Babəkin adı ilə bağlı antroponimdən düzəlmiş termindir. [1]
Baluyev mühərriki Tver şəhər sakini Aleksandr Baluyevin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Ber qanunu Karl Ernst fon Berinsoyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Bəhlul musiqi məclisi iştirakçılarını mahnılarla əyləndirən təlxəyin adı ilə bağlı antroponimdən düzəlmiş termindir.
Bəxtiyarilər İranın cənub–qərbində, əsasən Luristanda (Bəxtiyariyyə) yaşayan tayfa adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Bofort şkalası Frensis Bofortun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Boykot İrlandiya icarədarlarının qarşı çıxdıqları iri mülk sahibi Çarlz Boykotun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Braun hərəkəti Robert Braunun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Daltonizm ingilis fiziki Con Daltonunsoyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.

Dizel alman mühəndis Rudolf Dizelinsoyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Drakon qanunları e.ə.VII əsrdə Afinada aristokrat Drakonun adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Əfqan küləyiMərkəzi Asiyada əfqan etnik xalq adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Farenheyt şkalası Daniel Qabriel Farenheytin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Gilyotin başı bədəndən ayıran qurğunu kəşf edən fransalı həkim Jozef İqnas Gilyotinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Heller büdcəsi ABŞ–da Heller ailə adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir. [4]
Heydər Əliyev irsi Ümummilli lider Heydər Əliyevin ad və soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Hippokrat andı qədim yunan həkimi, təbabətin atası olan Hippokratın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Hitlerizm Almaniyada faşist diktatura ideologiyasının banisi Adolf Hitlerin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Hüq qanunu ingilis alimi Robert Hüqün adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Xudayar təsnifi İkinci Qarabağ (Vətən müharibəsi) şəhid Xudayar Yusifzadənin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kalvinizm Jan Kalvinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kamalçılar Mustafa Kamal Atatürkün soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kelvin ingilis fiziki Vilyam Tomsonun (Lord Kelvin) soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kerenka hökumət başçısı Aleksandr Fyodoroviç Kerenskinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kolçakçılıq Vətəndaş müharibəsi dövründə Aleksandr Kolçakın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Koroğlu Aşıq yaradıcılığında Koroğlunun adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kulon qanunu fransız alim Şarl Kulonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir. [2]
Qalileo Avropa peyk naviqasiya sistemi kimi Qalileo Qalileyin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Qazıbəyi pul vahidi olaraq Şirvanşah Sultan Məhəmməd Qazinin şərəfinə adlandırılan antroponimdən düzəlmiş termindir.
Leninizm Vladimir Leninin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Lezginka Ləzgi etnik xalq adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Lüteranlıq XVI əsrdə Almaniyada Martin Lüterin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Marksizm Karl Marksın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş terminidr.
Mehranilər Mehranın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Mendeleyev dövri cədvəli rus alimi Dmitri İvanoviç Mendeleyevin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Məzdəkilər Məzdəkin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Nyuton qanunu İsaak Nyutonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Om qanunu Georq Omun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Osmanizm Osman Qazinin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Pifaqorçular qədim yunan filosofu Pifaqorun adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Pir qələbəsi Epir padşahı Pirin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Prayd təmizlənməsi polkovnik Praydın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Rentgen şüaları alman alimi Vilhelm Rentgenin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Sabancı universiteti Hacı Ömər Sabancının soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Şleyxer ağacı Avqust Şleyxerin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Volt italyan fiziki Aleksandro Voltanın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir. [1]
Acer (Acer) şirkət adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Alexander disease (İskəndər xəstəliyi) İskəndərin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Alice in Wonderland syndrome–AIWS (Alisiya möcüzələr diyarında) Alisin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Alonso model (Alyonso modeli) Villiam Alyonsonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.

Alzheimer disease (Alzeymer xəstəliyi) Alois Alzeymerin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir. [3]
Avogadro's law (Avoqadro qanunu)Amedeo Avoqadronun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Babinski response (Babinski refleksi) Jozef Babinskinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Bacon rebellion (Bakon üsyanı) ingilis immiqrant Nataniel Bakonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Beer's law (Ber qanunu) Oqust Berin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Boyle's law (Boyl–Mariot qanunu) Robert Boyl və Edm Mariotun soyadları ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Brady plan (Bredi planı) Nikolas Bredinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Calderonian honour (Kalderon şərəfi) Rosir Kalderonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Charles's law (Çarles qanunu) Jak Çarlisin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Cooper test (Kuper testi) ABŞ–da Kennet Kuperin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Coriolis force (Koriolis qüvvəsi) fransız alim Qaspard–Qustav de Koriolisin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Coulomb's law (Kulomb qanunu) Çarles Oqustin de Kulombun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Daltonism (Daltonizm) ingilis fiziki Con Daltonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Danon disease (Danon xəstəliyi) Moris Danonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Darwinism (Darvinizm nəzəriyyəsi) Çarlz Darvinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Elizabeth period (Elizabet dövrü) I Elizabetin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Galilean Moons (Qaliley peykləri) Qalileo Qalileyin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Henry's law (Henri qanunu) Villiam Henrinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Homeric culture (Homer mədəniyyəti) Homerin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Kemalism (Kamalizm) Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Magellanic Clouds (Magellan buludları) Magellanın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Marxist school (Marksist məktəbi) Karl Marksın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Marian legends (Məryəm əfsanələri) Avropada Məryəmin adı bağlı olan antroponimdən düzəlmiş termindir.
Marshall plan (Marşal planı) ABŞ–da Corc Marşalın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Milankovitch cycles (Milankoviç iqlimi) serbiyalı geofizik və astronom Milutin Milankoviçin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Newton's law of motion (Nyutonun hərəkət qanunu) İsaak Nyutonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Nobel prizes (Nobel mükafatları) Alfred Nobelin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Rachmanism (Rahmanizm) – Polşa əsilli Pitr Raxmanın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Rebecca riots (Rebekka qiyamları) Rebekkanın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Socratic irony (Sokrat ironiyası) Sokratın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Tudor period (Tudor dövrü) İngiltərədə Tudor ailəsinin adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Victorian period (Viktoriya dövrü) Böyük Britaniya kraliçası I Viktoriyanın adı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Wahabis (Vəhabilər) Məhəmməd İbn Əbdül–əl–Vəhabın soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termindir.
Yuxarıda verilmiş nümunələrdən belə nəticəyə gəlmək olar ki, ingilis dilində soyadlardan, Azərbaycan dilində adlardan düzəlmiş terminlər daha çox üstünlük təşkil edir. Onlar arasında Babilik kimi təxəllüsdən,

əfqan küləyi, ləzginka kimi etnik xalq adlarından, Sabirlər kimi bir ailə üzvünün adının bütün tayfa adını bildirdiyi terminlərə təsadüf edilir.

Resume

There are many terms in the Azerbaijani and English languages made up of types of anthroponyms (person name, surname, ethnic name, tribe name, family name, pseudonym). Terms consisting of surnames in English and names in Azerbaijani are more prevalent. Among them are nicknames such as Babylon, Afghan wind, ethnic names such as Lezginka, and the name of a family member like Sabirs, which means the name of the whole tribe.

Резюме

В азербайджанском и английском языках много терминов, состоящих из типов антропонимов (имя человека, фамилия, этническое название, название племени, фамилия, псевдоним). Более распространены термины, состоящие из фамилий на английском языке и имен на азербайджанском языке. Среди них такие прозвища, как Вавилон, Афганский ветер, этнические имена, такие как Лезгинка, и имя члена семьи, как Сабиры, означающее имя всего племени.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Zeynalov, İ. X. İzahlı tarix terminləri lüğəti / İ. X. Zeynalov. – Bakı: «Azərnəşr», – 2006. – 284 s.
2. Əmirov, Ş. Ümumi və tibbi fizika terminləri (ingilis, azərbaycan, rusca) / Ş. Əmirov. – Bakı: «Millim» nəşriyyatı, – 2008. – 311 s.
3. Browse the medical dictionary: [Electronic resource] / URL:https://www.merriam-webster.com/browse/medical/a/13
4. Mövsümov, C. İqtisadi lüğət / C. Mövsümov. – Bakı: –2012. – 484 s.

QƏDİM TÜRK DİLİNİN LEKSİK SEMANTİK XÜSUSİYYƏTLƏRİ

DİLBƏR CAMALİ
dilber.mehdiyeva@gmail.com
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
Türk dilləri şöbəsinin elmi işçisi, doktorant
Bakı/Azərbaycan

XÜLASƏ

Türk dillərinin qədim tarixi köklərini öyrənmək üçün əvəzsiz qaynaq olan –Orxon-Yenisey, Talas, uyğur, Turfan abidələri, ümumilikdə, qədim türk yazılı abidələrinin mətnləri müxtəlif yöndən araşdırılmışdır. Abidələr fonetik, leksik, morofologiya və sintaksis cəhətdən araşdırılsa da ilbəil yeni abidələr kəşf olunur. Onların dilinin tədqiq edilməsinə ehtiyac yaranır. Qədim türk yazılı abidələrinin dili olduqca zəngin və rəngarəngdir. Xüsusilə leksik vahidlərin daxilində alınmaların olmaması və ya az olması saf bir dildən xəbər verir. Məqalədə qədim türk dilinin dili leksik semantik baxımdan araşdırılmış və müəyyən qruplara bölünmüşdür.

***Açar sözlər**: qədim türk, sözlər, leksik-semantik, abidələr.*

Giriş. Ümumiyyətlə, qədim türk dilininin əsasında qədim türk yazılı abidələrinin mətnləri dayanır. Abidələrin dilində müxtəlif qəbilə və tayfa (qıpçaq və qarluq) dialekt fərqlərini nəzərə almasaq bu dil daha çox oğuz türkcəsinə yaxındır, deyə bilərik. Ümumilikdə,bir çoxu məzar daşları üzərində yazılmış olan bu yazılar qədim türk dilinin bütün xüsusiyyətlərini özündə əks etdirir. Abidələrin leksikası öz saf türkcəsi ilə diqqəti cəlb edir. Qədim türklərin bu dövrlərdə yanlız soqdlarla və çinlilərlə siyasi-iqtisadi əlaqələri olduğu üçün cüzi şəkildə yanlız bu dillərdən söz qəbul etmişdir. Abidələrin leksik tərkibi ilk dəfə Ə.Şükürlü tərəfindən qruplaşdırılmışdır []. T.Tekinin "Makaleler II: Tarihi Türk yazı dilleri" (2013) adlı kitabında toplanmış məqalələrinin də bir çoxu qədim türk yazılı abidələrinin dilinə həsr olunmuşdur. Buradaqədim türk abidələrində işlənmiş frazeoloji birləşmələrə də yer ayırılmışdır. Cengiz Alyılmaz "Orhun yazıtlarının söz dizimi" ("Orxon abidələrinin sintaksisi" (1994) adlı abidələrin leksik quruluşu daha çox abidələrin dilindəki alınma sözlər, mürəkkəb adlar ətraflı məlumat vermişdir.

Abidələrin bir qismi məzar və xatirə yazıları, bir qismi xaqanlar tərəfindən yazılmış xitabət nümunələri olduğu üçün leksik tərkibi bu yöndə formalaşmışdır. Belə ki, titul rütbə, hərbi leksika, ictimai qruluşla bağlı sözlər, inancla bağlı dini leksika, ailə qohumluq anlayışı bildirən sözlər, bir çox onomastik vahidlər çoxluq təşkil edir. Bu baxımdan biz qədim türk dilinin lüğət tərkibini leksik semantik cəhətdən aşağıdakı kimi qruplaşdırdıq. İ. Kızlasov abidələri məzmunca 12 növə ayırmışdır: 1. Epitafik yazlar, 2. Sərhəd yazıları, 2. Adlandırma yazıları, 4. dua yazıları, 5. ritual abidələr 6. Etiraf yazıları, 7. Öyünmə yazılar, 8. Ziyarətçi yazıları, 9. Dua və əfsun yazıları, 10. Açıqlama yazıları, 11. aidlik yazıları, 12. Alqış yazıları [Kızlasov, 1994, s. 180-203]. Bu mövzular sözsüz ki, abidələrin leksik qatının rəngarəngliyini təmin edir. Dua və əfsun yazılarında və dua yazılarında dini sözlərin işlənməsinə, aidlik və adlandırma yazılarında antroponimlərin işlənməsinə daha çox yer verilir.

Orxon abidələri ilə müqayisədə Yenisey abidələrinin dili daha çox qəlibləşmiş söz və ifadələrdən ibarətdir. Vəfat edən şəxsin vəfatından duyduğu qəm və kədər, qohumları, övladlarından və el-obasından ayrılmasından və həyatdan doymadığından danışılır. Həmin abidələrdə leksik qat məhdud saydadır. Və hətta bir çox ifadə və deyimlər eynidir. Bununla yanaşı bəzi abidələr isə özünəməxsus deyim və üsluba malikdir. Abidələrin dilində

İctimai quruluşu əks etdirən leksik vahidlər: *ok (nəsil), uruq (tayfa birləşməsi), el (qəbilə birləşməsi, dövlət), bağ (tayfa, qəbilə), budun (xalq), bay (dövlətli) və s.*

Titul və rütbə bildirən sözlər, *tudun, tutuk, alp, tarkan, tigin, kan, kağan, katun, kunçuy, tarkat, elteber, şor, alpaqu və s.*

Ailə və qohumluq əlaqəsi bildirən sözlər: *adaş (yoldaş, ebçi evə baxan qadın) kunçuy (xanın, bəyin arvadı) kız (qız) oğul (oğlan), eçü (böyük qohum, əmi, dayı) eş (yoldaş), kaŋ (ata), ög (ana), tünür (quda), uya (qohum), yegen (qardaş), yorç//yurç (qayın), yotaz//yutuz (zövcə) cınıl (kiçik bacı), tuli (ərsiz dul qadın), kaŋ (ata), ög (ana), tünür (quda), uya (qohum), yegen (qardaş), yorç//yurç (qayın), yotaz//yutuz (zövcə)[3] [4]* və s

Etnos adları: *oğuz, üç kurıkan, bayırku, tabğaç, kırgız, köktürk, türgiş, tatar, tatabı,karluk ve s. ;*

Heyvan və quş adlan bildirənlər: *at, tay (daylaq), adğır (ayğır), adıq (ayı),bars (pələng),ingək (inək), gökmən (maral), elik (geyik) keyik (maral), ilik (cüyür), ingen (dişi dəvə), ıt (it), tabısğan* (dovşan)[4] və s.

Dini leksika: *yalavaş//yalvaç, yükün (səcdə etmək), kut (bəxt, səadət, xoşbəxtlik), umay, tengri (tanrı, allah), sığıt/ sığıtçı/ sığıta (ağı, ağıçı balbal), uçmak (cənnət), tın (nəfəs, ruh);* Toponimik sözlər: *senir (dağ silsiləsi), kaya (qaya), yış (meşəli dağ), tağ, ügüz (çay), Ötüken yış (yer adı), taluy (dəniz), Yinçü ügüz (çay adı), Temir kapığ (yer adı)[3].*

Yaşayış yeri, məntəqə və düşərgə bildirən toponimlər: *Ağu, Tabar, Tam, Tamağ Iduk baş, Urğu [3] və s.*

Çay adları : *Ak Tərməl, Ekük katun, Ertis//Ertiş, Kara Yatuğan, Kem, Kərgü, Kök Ön, Sakış, Toğla ügüz, Təz,Tukuş , Yabaş,Yar, Yaşıl ügüz, Yinçü ügüz və s.* Şəhər adları*: Bukarak, Orkun balık, Suğçu, Toğu balık, Yer Bayırku (ölkə adı) və s.*

Göl adları: *Açığ Altır, Balıklığ, Çuş başı, Ekük katun, Ertis//Ertiş, Kara köl, Kazluk köl, Karluk köl, Tayğan köl, Yula köl və s. Dağ çöl və meşə adları: Arkaş baş,Altun yış, Ağulığ, Benlügək tağ, Bökli Çöl, Çuğay yış, Kadırkan, Kögmən, Soŋa yış, Şaŋtun, Yarış Ağluq,Yarış yazı,Tüŋkər tağ [3] və* s. *;*

Dağ çöl və meşə adları: Arkaş baş,Altun yış, Ağulığ, Benlügək tağ, Bökli Çöl, Çuğay yış, Kadırkan, Kögmən, Soŋa yış, Şaŋtun, Yarış Ağluq,Yarış yazı,Tüŋkər tağ [4]və s.

Hərbi leksika*: sünüş (vuruşmaq) uruş (vuruş), sü (qoşun), süle (qoşun çəkmək), er (döyüşçü), aday (piyada), arlıc (süvari), kul (qul), yağı (düşmən) və s.*

İl adları və cəhət adlrı: siçan yıl, toquz yıl. biryə (cənub), yırya (şimal), küntoğsuk (gündoğan, şərq), gün ortası (cənub), kunğaru (qərb) və s.*;* Bədən üzvlərinin adları: *baş, adak/ayaq, bel, elig/əl, sünük//sümük, yürək//ürək, karm//qarm, saç, kaş (qaş)[4]* və s.

Bədən üzvlərinin adları: *baş, adak/ayaq, bel, elig/əl, sünük//sümük, yürək//ürək, karm//qarm, saç, kaş (qaş)* və s.

Əlamət bildirən sözlər: *bilgə- müdrik, bengüəbədi, uluğ-ulu, sarığ-sarı, süçig-şirin və s.*

Metal adları bildirən sözlər: *altun-qızıl, kümüş- gümüş, temir-dəmir və s.*

Abidələrin dilində işlənən bu leksik vahidlər türk kulturunu və türk düşüncəsinin zənginliyini göstərir. Bu baxımdan qədim türk dilinin leksik qatı müasir türk dillərinə qaynaq olmuş bu gün də əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT
1. Şükürlü Ə. Qədim Türk yazılı abidələrinin dili, 1993
2. Kızlasov, İ. L. (1994). Runiçeskya pis'mennost' evraziyskih stepey. Moskova.
3. Rəcəbli, Ə.Ə. Qədim türk yazısı abidələri, Bakı: Nurlan. – c.2. 2010.
4. Rəcəbli, Ə.Ə. Qədim türk yazısı abidələri, Bakı : Nurlan, – c. 2. – 2009.
5. Rəcəbli, Ə.Ə. Qədim türk yazısı abidələri, Bakı : Nurlan, – c. 1. 2009.
6. Rəcəbov, Ə.Ə., Məmmədov, Y. Orxon-Yenisey abidələri, Bakı:Yazıçı, – 1993.

ƏDƏBİ DİL VƏ DİALEKT LEKSİKASI

DOS. ZABİTƏ TEYMURLU
Bakı Mühəndislik Universiteti
Azərbaycan dili və pedaqogika
zteymurlu@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Ədəbi dilin lüğət tərkibi ilə müqayisədə dialekt leksikası daha mühafizəkardır. Dialekt leksikası kənd təsərrüfatı alətlərinin, məişətin müxtəlif sahələrinin, adət-ənənə və mərasim adlarını, əmək alətləri, müxtəlif əşyalar və onların hissələrinin adlarını, bitki, ev heyvanları və quşların adlarını, xəstəlik adlarını, coğrafi şəraitlə əlaqədar olan sözlərin adlarını, ev, digər tikililər və onların hissələrinin adlarını ifadə edən sözlərdir. Dilin qədim leksik qatına aid olan bu sözlər şivələrin lüğət tərkibində daha çox qorunub saxlanılır.Dialekt leksikası ilə ədəbi dil qarşılıqlı əlaqədədir.Bu əlaqənin nəticəsidir ki, ayrı-ayrı dialektizimlər ədəbi dilə daxil olur.Dialekt leksikasına aid olan sözlər ədəbi dilə daxil olaraq onun lüğət tərkibini zənginləşdirir.Onu da qeyd etməliyik ki, dialekt leksikası ədəbi dil leksikası kimi hərtərəfli öyrənilməyib. Bu səbəbdən dialektoloji istiqamətdə aparılan araşdırma aktuallıq kəsb edir.

AÇAR SÖZLƏR: dialekt leksikası, ədəbi dil, dilin lüğət tərkibi

GIRIŞ

Dildə dialekt fərqlərinin əmələ gəlməsinin əsas səbəbi dil birliyinin müxtəlif qruplaşmalarının nisbi təcrid olunması və əlaqənin zəifləməsidir. Dialekt anlayışı altında dilçilikdə dilin məhdud ərazidə işlədilən növü nəzərdə tutulur. Arxaik sözlər ədəbi dildən sürətlə çıxdığı halda dialektlərin lüğət tərkibində uzun müddət qalır. Azərbaycan dilinin zəngin dialekt leksikası var. Bu zənginlik dillərin uzun sürən tarixi inkişafı nəticəsində meydana çıxmışdır. Xalqın həyatında, məişətində özünü göstərən dəyişikliklər dialekt leksikasında əks olunur. Cəmiyyətin və dilin inkişafı ilə əlaqədar olaraq müəyyən sözlər dialekt leksikasına daxil olur, sonradan bunların bir hissəsi işləkliyini saxlayır, bir hissəsi isə, ümumiyyətlə, ünsiyyətdən çıxır.(3,205)Dialektlər ədəbi dilin mənbələrindən biri olsa da ondan fərqlənir.Azərbaycan dilində dialektizmlər məhdud dairədə işlənən aktiv sözlərə daxil edilir.Bu sözlər hamı tərəfindən işlənməsə də bir qrup insanlar tərəfindən aktiv şəkildə istifadə edilir.Dilin tarixi inkişaf prosesini dərindən anlamaq, bu və ya digər dialekt əsasında formalaşması yollarını öyrənmək, xalqın tarixi ilə dilin tarixi arasında qarşlıqlı əlaqəni müəyyənləşdirmək, müasir dildə səs və formalarının müxtəlifliyini dərk etmək üçün dialektlərin öyrənilməsi vacibdir. Bu proses ədəbi dil ilə qarşılıqlı şəkildə yerinə yetirilməlidir.

TƏDQIQAT METODU

Dildə olan sözlərin hamısı birlikdə onun lüğət tərkibi adlanır.Dilin zənginliyi həmin dilin lüğət tərkibinin zənginliyi ilə ölçülür.Dilin əsas lüğət fondu dilin lüğət tərkibinin özəyini təşkil edir.Lüğət fondundan çıxan sözlər uzun müddət lüğət tərkibində qala da bilər. Təsviri metod vasitəsilə "Azərbaycan dilinin izahlı lüğəti", "Azərbaycan dialektoloji lüğəti", "Sinonimlər lüğəti" və "Orfoqrafiya lüğəti"ndə aşkar edilmiş dil faktları tədqiqat işinin əsas predmetini təşkil edir.Dil nümunələri müxtəlif lüğətlər vasitəsilə araşdırılıb və araşdırma nəticəsində məlum olub ki, tədqiqata cəlb olunan dialektoloji vahidlər müəyyən dövr bədii əsərlərin dilində aktiv şəkildə işlənib:

Azərbaycan dastanlarının leksikasında təsadüf etdiyimiz "heyvan yuvası, mağara" mənasında istifadə edilən **zağa** sözü "Sinonimlər lüğəti"ndə **mağara** sözünün sinonimi kimi verilib. Həmin sözə "Dialektoloji lüğət"də Ağbaba, Çənbərək, Hamamlı, Qax, Naxçıvan, Şərur dialektlərində "mağara, heyvan yuvası" mənalarında təsadüf edilir.(1, 554)

Danqa sözü dialektoloji vahid olub Naxçıvan, Şərur dialektlərində "böyük-böyük danışan, lovğa" mənalarını ifadə edir.(1,115)Həmin sözə "Orfoqrafiya lüğəti" nin 2013-cü ilin nəşrində təsadüf edilir.**Danqa** sözü "Orfoqrafiya lüğəti"nin 2021-ci ilin nəşrindən çıxardılıb.

"Xəbərçi, araqarışdıran" mənasını ifadə edən **çuğul** sözü geniş ərazidə istifadə olunan dialektoloji vahiddir.(1,107)Bu söz "Azərbaycan dilinin izahlı lüğəti" və "Orfoqrafiya" lüğəti"ndə də qeydə alınıb.

Madar sözü Qarakilsə, Zəngilan dialektlərində "tək, bircə, yeganə" mənalarını ifadə edir. (1, 341)Həmin sözə "Azərbaycan dilinin izahlı lüğəti"ndə "ən əziz, arxa, ümidgah" mənalarında təsadüf edilir. **Madar** sözü "Orfoqrafiya lüğəti"ndə də qeyd olunub. "Sinonimlər lüğəti"ndə "bircə,təkcə" sözləri *madar* sözünün sinonimi kimi verilib.

Ərov dialektoloji vahidi Naxçıvan, Qarakilsə dialektlərində "paltar yuyulduqdan sonra qalan, çirkli, sabunlu su" mənasını ifadə edir.(1,165) Həmin söz 2021-ci ilin nəşri olan "Orfoqrafiya lüğəti"ndən çıxardılıb.*Ərov* sözünə "çirkli, sabunlu paltar suyu" mənasında "Azərbaycan dilinin izahlı lüğəti"ndə də qeyd olunub.

Məhərrəm Məmmədli dialektlərin lüğət tərkibinə daxil olan sözləri iki qrupa bölür:

1.Ədəbi dillə ümumi olan leksika; 2. Spesifik leksika (xalis dialekt sözləri, məhəlli sözlər)

Müəllif ədəbi dillə ümumi olan leksikanın ümumxalq səciyyəli sözləri əhatə etdiyini qeyd edir: "Belə sözlərin işlənməsində ərazi məhdudluğu yoxdur; məs.: mən, sən, əl, torpaq, su, getmək, bilmək, danışmaq və s. Spesifik leksikaya məhdud ərazidə işlənən, ədəbi dilin lüğət tərkibinə daxil olmayan məhəlli sözlər aid edilir; məs.: püsəx`"narın yağış"( Qaz.,Zər.), arğaz "arıq" (Qaz., Tov.,Ş.), zirəzə "cəftə" (Qaz.,Tov.), bosağa "astana" (Lən.), qəzilləməx` "aldatmaq" (Nax., Ord., Şr., Zən., Cəb.) və s."(4, 273) Lakin onu da qeyd etməliyik ki, bu məhəlli sözlər bədii əsərlərin dilində öz əksini tapır.Müəllifin qeyd etdiyi *arğaz* sözü "Azərbaycan dilinin izahlı lüğəti"ndə də yer alır: sif. məh. "Nə kök, nə arıq." *Bu dərviş ucaboylu, arğaz, uzunsaçlı və saqqallıydı*. A.Divanbəyoğlu. *Bu danışığa qulaq asan hündürboylu arğaz kişi [Alo ilə Qəmərin] söhbətinə qarışdı.* S.Rəhimov.

NƏTİCƏ

Tədqiqata cəlb olunan dialektoloji vahidlər dialekt leksikasını təşkil edir.Dialektlər və ədəbi dil bir-birinə təsir edir.Dialekt sözlər ədəbi dilə daxil olur, ədəbi dil də dialekt leksikasını sıxışdırır.Tədqiqat nəticəsində aşkar etdiyimiz dialektoloji vahidlərə bədii əsərlərin dilində təsadüf edilir. Dialektoloji vahidlər daha çox bədii əsərlər vasitəsilə ədəbi dilə daxil olur.Həmin nümunələr "Azərbaycan dilinin izahlı lüğəti"ndə də qeyd olunur.Maraqlısı budur ki, vaxtilə bəzi dialektoloji vahidlər "Orfoqrafiya lüğətinə" də salınıb.Lakin yeni "Orfoqrafiya lüğəti"ndən həmin sözlər çıxarılıb.Nəticə etibarilə, dialekt leksikasını təşkil edən dialektoloji sözləri iki yerə ayıra bilərik: 1.Ədəbi dildə təsadüf olunan dialektoloji vahidlər; 2.Sadəcə dialektlərə xas sözlər. Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil edilmiş bu dialektoloji vahidlərin aşkar edilməsi "Ədəbi dil və dialekt leksikası" aspektində aparılacaq tədqiqat işləri üçün faydalı ola bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı: "Şərq-Qərb", 2007, 568 s.
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı: "Elm", 2021, 756 səh.
3. Elbrus Ə. İ. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti. 2-ci nəşri. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016, 348 s.
4. Həsrət H. Azərbaycan dilinin leksikası, Dərslik, Bakı: "Nurlan" nəşriyyatı, 2005, 452 s.
5. Məhərrəm M. Azərbaycan dialektologiyası, Dərslik, Bakı: Zərdabi LTD, 2019, 352 s.
6. https://obastan.com/madar/27901/?l=az

ÖZBEK DİLİ TIP TERMİNOLOJİSİNİN GELİŞMESİ
DEVELOPMENT OF UZBEK LANGUAGE MEDICAL TERMINOLOGY

Саидномонов Акмалхўжа Комилжонович*
akmal_sainumanov@mail.ru
Özbəkistan Elmlər Akademiyasının Özbək dili, Ədəbiyyatı və Folklor İnstitutu
Daşkənd/Özbəkistan

Abstract: *This article is important with the ideas about the contemporary Uzbek medical terminology and interpretation of medical terms in Uzbek. Besides it talks about the main principals of formation and development of Uzbek medical terms. The author links the stages of formation of Uzbek medical terms to the terms of Makhmud Koshgariy's period.*
Key words: *general Turkic, medical terminology, disease, scab, folk medicine, hemodialysis, antigens.*
Özet: *Makalede, günümüz Özbek tıp terminolojisine ve tıp terimlerinin incelendiği araştırmalara değinilmiştir. Ayrıca bu oluşumu ve Özbek tıp terimler geliştirilmesi temel ilkeleri bahsediyor. Yazar Makhmud Koshgariy, dönem şartlarını Özbek tıp terimlerin oluşum aşamaları bağlar.*
Anahtar kelimeler: *Genel Türk, tıp terminolojisi, hastalık, uyuz, tıp, hemodez, antigenler.*

Bilim dünyası, toplumsal-kültürel hayatın ve üretimin hızla geliştiği günümüzde her gün yeni keşiflere imzasını atmakta ve bu keşifleri ifade eden, gittikçe çoğalan kelime ve terimlere sahip olmaktadır. Bu bağlamda diğer dillerin yanı sıra Özbek dilinde de farklı alanlara ait terimler dizesi daha da zenginleşmektedir. Gelişmekte olan bu dizenin bilimsel açıdan değerlendirilmesi ve bir düzene sokulması, terminoloji biliminin önemli meselelerinden biridir. Nitekim, her alanın şekillenme ve gelişme seviyesi, bu alana ait terimlerin ne denli gelişmiş ve uzmanlarca değerlendirilmiş olmasına bağlıdır [Nurmanov A. Taşkent 2002: 62 – 63]. Birçok bilim dalının terminolojik yapısı, söz konusu bilim dalının şekillenme ve gelişme dönemine uygun bir şekilde devamlı olarak gelişme gösterir. Tıp terminolojisi, bu dallardan biridir. Özbek dili tıp terminolojisinin şekillenmesi çok eskilere iner.

Tıp, insan faaliyetinin önemli bir parçası olarak diğer bilim alanlarından daha önce meydana gelmiştir. Örneğin, ilkel toplum insanları henüz konut yapma, elbise dikme ya da yemek pişirme gibileri öğrenmemişken bazı hastalıkları (meselâ, doğal afet ya da avlanma sırasında vücutlarında oluşan yaraları) tedavi edebiliyorlardı. [Kadirov A. Taşkent 2005: 7] Böyle durumlarda insanın hastalıklardan, yaralardan kurtulmaya çalışması doğal bir harekettir. Böylece ilk ilkel tedavi yöntemleri meydana gelmiştir. İnsanlar keşfettikleri tedavi yöntemleriyle birbirlerini iyileştirmeye çalışmışlardır. Doğal olarak bu süreçte tedavi yöntemlerine, tedavide kullandıkları bitkilere ve maddelere ad vermişlerdir. Bunun sonucunda da tıp terminolojisi meydana gelmiştir.

Doğu, insanlığın ilk gelişme ocağı sayılır. Diğer bilim dalları gibi tıp ilmi de ilk önce Doğu'da meydana gelmiştir [Kadirov A. Taşkent 2005: 7].

Doğu tıbbını dünyaya tanıtan ünlü bilim adamları, hekimler ve düşünürler çok olmuştur. Özellikle **Ebu Bekir Muhammed b. Zekeriya Razî** (Kitab el-havî fit-tib), **Ebu Mensur Hasan b. Nuh Kamerî** (Kitabı ilel el-elil), **Ebu Ali İbn Sina** (Kitab ül-Kanun fit-tib) ve onun öğrencisi **Şerefiddin Ebu Abdullah Muhammed b. Yusuf İlakî** (Külliyati tıbbî İlakî), **Ebu Reyhan Birunî** (Kitab us-seydene fit-tib) gibi bilim adamlarının yaşadığı dönemde tıp ilmi zirve dereceye ulaşmıştı. Fakat o dönemlerde resmî dil Arapça olduğundan tıp da dahil hemen bütün bilimsel eserler Arap dilinde yazılırdı. Bu yüzden bilimsel terminolojinin temelini Arapça kelimeler oluşturmuştur.

Tıbba ait bilimsel eserler, Ebu Bekir Razî, İbn Sina'nın yaşadığı dönemden XX.yüzyılın ilk yıllarına kadar genel olarak Arapça, kısmen de Farsça yazılırdı. Belli süre sonra bu eserler Türk, Özbek, Tatar ve diğer Türk dillerine çevrilmiştir. Ebu Bekir Razî'yin öğrencisinin topladığı *Hastalıklar Tarihi* "Касалликлар тарихи" eserinin XVIII.yüzyılda gerçekleştirilen Türkçe tercümesi, Curcanî'yin XIII. yüzyıl tıp ansiklopedisi olan *Zehire-i Harezmşahî* "Заҳирайи Хоразмшоҳий" eseri, Mahmud Çağminî'yin XIV.yüzyılda yarattığı *El-kanunça* "Ал-қонунча" *(Küçük Yasa)* eseri, Yusufî'yin *Camî el-fevaid* "Жомиъ ал-фавоид" eseri, Sultan Ali Hurasanî'yin *Mukaddime-i destur el-ilaç* "Муқаддимаи дастур ал-илож" eseri, Muhammed Arzanî'yin *Mizan et-tib* "Мизон ат-тиб" eserlerinin Özbekçe tercümesi bunların bazılarıdır. [Mirahmedova Z. Taşkent 2010: 21] Söz konusu tercüme eserler, birçok Türk halklarının eselerinden yararlanma ihtiyacını doğurdu ve Özbk tıp ilmi ve tıp terminolojisinin gelişmesinde büyük

önem taşıdı. Özbek tıp terminolojisi üzerinde fikir yürütürken Kaşgarlı Mahmud'un Türk halklarının kültürel hayatında, özellikle dilbiliminde ayrı yer tutan *Divan-u lugati-t türk* eserini hatırlamak yerinde olur. Çünkü söz konusu lûgat, IX-X.yüzyıl Türk dilinin kelime dağarcığını tamamen kapsamış bir eserdir. Eserin yaratıldığı dönemden önce ve daha sonra kullanılan tıp terimlerinin söz konusu eser vasıtasıyla günümüze kadar ulaşmış olması, *Divan-u lugati-t türk*'ün değerini belirlemektedir.

Eserde ірің-*йиринг* (iriŋ-*irin*) (I,154), інäкӱ (inäkü – *göbek bağının iç tarafında oluşan bir çeşit hastalık*) (I,155), узуз – *қўтир* (uzuz – *uyuz*) (I,88), utuk-*ishal ve kusma*, утук (I,99), ig-*hastalık*, ir (I,82), учғук-*тумов* (uçğuq-*nezle, soğuk alma*) (I,124), cöräl-*касал* (sögäl-*hasta*) (I,234), чэкäк-*чечак касаллиги (чигилча)* (çekäk-*çiçek hastalığı*) (I,369), тумағу-*тумов* (tumağu-*nezle*) (I,418), қарт-*яра* (kart-*yara*) (I,328), urağun-*hastalara kullanılan Hint ilâcı*, (I,156), анумї-*махов касаллиги* (anumi-*cüzam* hastalığı) (I,155), атғақ-*қоринда сув йиғилиш касаллиги*, *қуланж* (atğak-*karında su toplanması*, *kulanc*) (I,356), кїзламуқ-*қизамиқ ва шунга ўхшаб тошиб чиқадиган тошмалар* (kızlamuk-*kızamık ve bu tip döküntüler*) (I,480), cowушған-*гижжа* (sovuşğan-*kurt, tenya*) (I,474), тубулғақ-*қуланж касаллиги* (tubulğak-*kuşanc* hastalığı) (I,461) gibi terimler çoktur. Bu terimler atalarımızın tıp alanında ne kadar ileri gittiklerinin göstergesidir.

Terimlerin uzun süre hayatta kalması, çok açıdan sözlüklere de bağlıdır. Eski dönemlere ait sözlükler, dilimizde bulunan kelimelerin asırlar boyunca yeni nesillere ulaşmasında önemli kaynaklar olmuştur. Tıp ilmine ait kelime ve terimleri içinde bulunduran sözlüklerden biri, İbni Sina'nın hocası Ebu Mensur el-Hasan b.Nuhal el-Humrî'nin (X.yüzyıl) "Китоб ат-танвир фи-л-истилоҳот ат-тиббий" *Kitap et-tenvir fil-istilahat et-tıbbî* (Tıp Terimlerini Net Açıklayan Kitap) eseridir. Söz konusu sözlük XVI.yüzyılda İsmail b.Muhammed Yusuf Tabib tarafından "Ҳалл ул-асомий" *Hall ul-asamî* (Tıbba Ait İsimlerin İzahı) adıyla Fasrça'ya tercüme edilmiş ve daha sonraki tıp eserlerinin meydana gelmesinde önemli kaynak olmuştur. Bunların dışında Yusuf b.Muhammed et-Tabib el-Harevî'yin (XVI.yüzyıl) "Баҳр ул-жавоҳир" *Bahr ul-cevahir* (Mücevherler Denizi), Yusufî b.Muhammed'in (XVI.yüzyıl) "Фарҳанги арабий ба форсий" *Ferhengi arabî be farsî* (Arapça-Farsça Sözlük) ve "Фарҳанги ҳиндий ва форсий" *Ferhengi hindî ve farsî* (Hintçe-Farsça Sözlük), Nuriddin Muhammed Abdullah'ın (XVII.yüzyıl) "Алфози адвийа" *Elfazı edviye* (Tedavi Adları, Kelimeleri) adlı sözlükleri dönemin tıp ilmini kendinde ifade eden sözlüklerdi. [Usmanhocayev A., Törehanov M. Taşkent 2006: 175].

Yukarıda kaydettiğimiz Ebu Bekir Razî, Ebu Reyhan Birunî, Ebu Ali İbn Sinaların yaşadığı dönemden XX.yüzyıla kadar olan sürenin tıp tarihi, bu dönemlere ait bilimsel eserler ve bu eserlerde kullanılan terimler günümüz tıp ilminde büyük öneme sahiptir ve çağdaş terminolojinin gelişmesi için temel olmuştur. Çağdaş Özbek tıp terminolojisi, kısmen halk hekimliğine ait terimlerini de içeriyor ise de enternasyonel bir terminolojik yapıya sahiptir [Medveliyev A. Taşkent 2009: 46]. Günümüz Özbek tıp terminolojisi yapı olarak şunlardan oluşmaktadır:

a) geleneksel halk hekimliğinde kullanılan terimler: *ўсма* (*osma* – kanser), *темиратки* (*temiratki* – liken), *терлама* (*terleme* – tifo), *мутқаноқ* (*tutkanak* –epilepsi, sara), *шиш* (*şiş* – şiş, tümor), *аксириш* (*aksiriş* – hapşırma), *шол* (*şal* – felç), *камқонлик* (*kamkanlık* – kansızlık, anemi), *қорасон* (*karasan* – kangren), *қуёнчиқ* (*kuyançık* – sara), *хафақон* (*hafakan* – hiç sebep yokken ağlama, üzülme), *қизилча* (*kızılça* – kızamıkçık), *куйдирги* (*kuydirg* – Sibirya ülseri), *қизамиқ* (*kızamık* –kızamıkçık), *кўкўтал* (*kökyötel* – boğmaca);

b) Yunan ve Latin dillerine ait terimler: *аденоидлар* (*adenoidlar* –denomiozisler), *аденома* (*adenoma* – adenomiozis), *аккомодация* (*akomodasyon* – uyum), *аллергия* (*allergiya* – alerji), *амбулатория* (*ambulatoriya* – yataksız dispanser), *ампула* (*ampula* – ampul), *ампутация* (*amplutatsiya* – amplutasyon), *ангина* (*angina* – anjin), *ангиома* (*angioma* – angioma), *апоплексия* (*apopleksiya* – apopleksi), *аптека* (*apteka* – eczane), *атапия* (*atapiya* – atapi), *атитмия* (*atitmiya* – atitmi), *рахит* (*rahit* – raşitizm), *ревматизм* (*revmatizm* – romatizma), *резекция* (*rezeksiya* – rezeksi), *рецепт* (*retsept* – reçete), *сепсис* (*sepsis* – septisemi), *скальпель* (*skalpel* – skalpel), *склероз* (*skleroz* – skleroz);

c) Yunan ve Latin dillerine ait yapım ekleri vasıtasıyla oluşturulan terimler: *неврология* (*nevrologiya* – nevroloji), *ортопедия* (*ortopediya* – ortopedi), *невралгия* (*nevralgiya* – nevralji), *гемодез* (*gemodez* – hemodez), *антигенлар* (*antigenlar* –abtigenler), *гемоглабин* (*gemoglabin* – hemoglobin), *реакция* (*reaksiya* – tepki, reaksiyon), *реанимация* (*reanimatsiya* – reanimasyon); d) Rusçadan geçmiş terimler: *палата* (*palata* – oda), *рак* (*rak* – kanser), *грелка* (*grelka* – termofor), *насилка* (*nosilka* – sedye) vb [Özbek Dilinin Açıklamalı Sözlüğü, V ciltli Taşkent, 2006 – 2008]. Özbek dili tıp terminolojisi, XX.yüzyılın 50'li-60'lı yıllarında araştırılmaya başlanmıştı. Akademisyen Y.H.Törekulov önderliğinde hazırlanan iki ciltli *Rusça-Özbekçe Tıp Sözlüğü* (cilt I, Taşkent, 1962; cilt II, 1971);

S.N.Yakubova, F.C.Tölegenovların birlikte hazırladıkları *Rusça-Latince-Özbekçe Tıp Sözlüğü* (Taşkent, 1978); birçok müellifin ortaklaşa hazırladıkları *Doktorların Yardımcısı: Rusça-Özbekçe Tıp Terimleri Sözlüğü* (Taşkent, 1990) gibi sözlüklerin yaratılması, tıbba ait ders kitapları ve bilimsel eserlerin Özbekçeye çevrilmesinde büyük katkı sağlamıştır. Yukarıda dile getirdiğimiz sözlükler, özellikle Y.H.Törekulov'un önderliğinde yaratılan *Rusça-Özbekçe Tıp Sözlüğü* ve *Rusça-Latince-Özbekçe Tıp Terimlerinin Açıklamalı Sözlüğü*, çağdaş Özbek tıp terminolojisinin 50 senelik tarihi ve gelişmesini, bu süre zarfında meydana gelen değişimleri kendinde bulunduran önemli kaynak arz eder. Demek ki 1950'li yıllardan itibaren tıp terminolojisinde başlayan yeni dönem, günümüze kadar devam etmektedir.

Günümüzde tıp ilmi gelişmektedir. Bu durum, tıp terminolojisinin de geliştiğini gösterir. Tıp terimleri iç ve dış faktörler sayesinde gelişme göstererek tıp alanında terimler sözlüğü, açıklamalı sözlük, iki ve daha çok dilli sözlük gibi sözlüklerin yaratılmasına ihtiyaç duyuldu. Bunun sonucunda birçok sözlük ve ansiklopedi yaratıldı. Bu bağlamda ilk mesleği doktorluk olan Dr. Azimcan Kasimov'un hazırladığı sözlük, çok büyük öneme sahiptir.

İlk önce sözlük üzerinde kısaca duralım. Sözlük, IV cilttir ve içinde 30000 den fazla tıp terimlerinin açıklamasını bulundurmaktadır. Vurgulanmalıdır ki yapısı, hedefi, açıklama şekli ve diğer yönleriyle tıbba ait diğer sözlüklerden tamamen ayrıcalık taşır. Söz konusu sözlükler Özbek tıp terminolojisinin düzene getirilmesinde ve değerlendirilmesinde büyük katkı sağlar. Günümüz Özbek dili tıp terminolojisi belli şekillenme ve gelişme sürecini geçmiş olmasına rağmen henüz çözümüne ulaşılmamış olan birçok mesele vardır. Örneğin, varyantlılık ve bazı terimlerin kullanımındaki farklılık gibi terminolojide rastlanan sorunların çözüme ulaştırılması, çağdaş tıp terminolojisinin en önemli vazifelerinden biridir.

KAYNAKÇA

1. Nurmanov A. (2002), v.b., Günümüz Özbek Edebî Dili, Taşkent, Şark, s.62 – 63.
2. Kadirov A. (2005), Tıp Tarihi, Taşkent, s.7.
3. A.g.e. (2005), s.22 .
4. Mirahmedov Z., (2010), Özbek Dilinin Anatomi Terimleri ve Onları Düzenleme Meseleleri, Taşkent, Fen Yayınları, s.21.
5. Usmanhocayev A., Törehanov M., (2006), Doğu'da Tıp Sözlükleri Tarihi / Dil Biliminin Önemli Meseleleri (Bilimsel Makaleler Mecmuası), Taşkent, s.175.
6. Medveliyev A., (2009), Özbek Tıp Terminolojisinin Açıklamalı ve Branşlı Sözlüklerde Sunumu / Özbek Dili ve Edebiyatı, №4, s.46.
7. Örneklerin alındığı kaynak: (2006 – 2008), Özbek Dilinin Açıklamalı Sözlüğü, V ciltli, Taşkent

AĞDAM RAYONUNUN POSESSİV MİKROTOPONİMLƏRİNİN TOPONİMİK SİSTEMDƏ ROLU

AYŞƏN ISMAYILLI
Nəsimi adına Dilçilik İnsitutu
Müasir Azərbaycan dili şöbəsinin doktorantı
aysheaxmedova4@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Toponimik vahid kimi mikrotoponimlər xalqımızın tarixi, etnogenezisi, unudulmuş adət-ənənəsi, əski inancları, mədəniyyəti ilə bağlı olaraq məsələlərin araşdırılmasına yardımçı olur. Ona görə də tədqiqatın genişləndirilməsi bir çox problemlərin aydınlaşdırılmasında çox əhəmiyyətlidir. Ancaq qeyd etmək lazımdır ki, Ağdam rayonunun mikrotoponimləri bu zamana qədər ətraflı şəkildə linqvistik aspektdən təhlil olunmamışdır. Mikrotoponim terminin mənasını düzgün izah etmək lazımdır. Yəni bu onimlər əhatə dairəsindən asılı olaraq dəyişir. Belə ki, kənd və şəhər daxilində aparılan araşdırma fərqli olacaqdır. İnsanın ətrafında dar çərçivə olaraq qəbul etdiyi ərazi təbii mühitdir, bu kənd, qəsəbə, yaylaq, qışlaq və s. ola bilər.

Toponimikada el-oba adları dilçi alimlərimiz tərəfindən nominasiyasına görə fərqli şəkillərdə təsnif olunmuşdur. Mikrotoponimlər antroponimlərdən (şəxs adı, ləqəb, titul və s.), etnonimlərdən (xalq, qəbilə, nəsil, tirə və s.), toponimlərdən (oykonim, hidronim, oronim və s.), fitonimlərdən (ağac, gül, çiçək, bitki və s. adları), zoonimlərdən (heyvan və quş adları), patronimlərdən (nəsil və tirə adları), oronimlərdən (dağ, dərə, təpə və s. adları), ekklezionimlərdən (ocaq, pir, ziyarətgah, məscid və s. adları) və s. yarana bilir. Məqalədə Ağdam rayonundakı məhdud dairədə tanınan bəzi obyektlərin adları – posessiv mikrotoponimlər tədqiqata cəlb olunmuşdur. Posessiv mikrotoponimlər coğrafi obyektin hər hansı şəxsə, ailəyə, nəslə aid olduğunu bildirir. Fikrimizcə, onları yaranma yollarını, əsasən, aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1) Ərazidə məskunlaşan kənd sakinlərinə məxsus olan posessiv mikrotoponimlər; 2) Görkəmli şəxsiyyətlərə məxsus olan posessiv mikrotoponimlər; 3) Dini şəxsiyyətlərə (seyidlər, ağalar, övliyalara) məxsus olan posessiv mikrotoponimlər; 4) Müəyyən şəxs, nəsil, tayfa, xalq, qəbiləyə məxsus olan posessiv mikrotoponimlər. Bu onimlər toponimik sistemdə mühüm rola malikdir.

AÇAR SÖZLƏR: MIKROTOPONIM, NOMINASIYA, POSESSIV

GİRİŞ

Azərbaycan dilində müxtəlif nominasiya üsullarından istifadə olunur. Nominasiya latın mənşəli söz olub mənası "nominatio" – adlandırma deməkdir. Bu prosesdə sözün verilən konkret referentə uyğun olub-olmaması araşdırılır. Dil vahidlərinin köməyi ilə hər hansı bir predmet müəyyən edilir və adlandırılır.

Coğrafi obyektlərin nominasiyasını araşdıran Nadir Məmmədovun fikrincə, "Toponimik nominasiya dedikdə yalnız oronimik, hidronimik, oykonimik, zoonimik, fitonimik obyektlərə advermə nəzərdə tutula bilər, çünki coğrafi obyektlərin bu növlərində advermədə əsasən xarakterik əlamət ön plana çəkilir. Halbuki etnotoponimlərdə əlamət yox, obyektlərin xalqa, tayfaya, nəslə, tirəyə və şəxsə mənsubiyyəti öz əksini tapır. Buradan aydın olur ki, toponimik nominasiya əsasən oronimlərə, müəyyən qədər isə hidronimik toponimlərə aiddir. Ona görə ki, oroqrafik obyektlərə advermədə rəng, say, bitki və heyvan növlərinin adlarını bildirən terminlər əsas yer tutur" (4, 196). Ancaq toponimikada advermə müxtəlif şəkildə özünü göstərə bilir.

Adlandırma prosesində ümumi sözlər yer adına çevrilir. Şəxs, xalq, qəbilə, nəsil, tirə, etnik qrup, dərə, təpə, düz, çöl, qobu, heyvan, quş, yer, dağ, ağac, bitki, gül, çiçək, ocaq, pir, ziyarətgah və s. onimlərin hansı səbəbə görə ad alması müəyyən olunur. Nitq prosesində bu üsullar birləşir. Reyhan Həbibli mikrotoponimlərin yaranma yolları haqqında öz fikrini belə əsaslandırır: "Mikrocoğrafi adlarda adlandırma prosesi təbii şəkildə həyata keçirilir. Adlar, bir qayda olaraq, obyektin təbii xüsusiyyətlərini əks etdirir. Belə coğrafi adlar insanların həyatı ilə daha sıx bağlıdır. Digər adlar kimi mikrocoğrafi adlar da status və diferensiasiya funksiyalarını üzərinə götürür, yəni həm obyekti adlandırır, həm də onu digərlərindən fərqləndirir. Müxtəlif təbii obyektlərin adlarını ehtiva edən mikroadlar sistemində xarakteristika ifadələri və cümlə strukturları çoxluq təşkil edir: Əyri dərə, Sarıqaya, Qırx bulaq, Güngörməz dərəsi, Orta dağ, Güləndamölən yatağı, Məşədi Abbas sahəsi və s. Mikrocoğrafi adların əsas mənbəyi ümumi adlardır" (2, 36). Göründüyü kimi, Reyhan Həbibli mikrocoğrafi adların fərqləndirici funksiyasını da qeyd etmişdir.

Ağdam rayonunun posessiv mikrotoponimləri toponimik sistemdə mühüm rol oynayır. Posessiv mikrotoponimlər müəyyən ərazinin onun sahibinə məxsus olduğunu bildirir. Yəni bu onimlərin məzmununda yiyəlik, aidlik, sahiblik məzmunu vardır. Posessiv (latınca "possessivus") və ya ktetik forma (qədim yunanca "ktetikos" sözündən olub) geniş mənada sahiblik münasibətini bildirmək üçün istifadə olunan söz və ya qrammatik konstruksiyadır. Bu ciddi mülkiyyət və ya ona bənzər digər münasibət növlərini əhatə edə bilər. Dilimizdə mövcud olan posessiv mikrotoponimlər daha çox ikinci və üçüncü növ təyini söz birləşmələri şəklində özünü göstərir. Bu təyini söz birləşmələrinin ikinci tərəfi aidlik, mənsubluq anlayışı ifadə edir. Ümumi şəkildə posessiv mikrotoponimlər sahib şəxslə ona məxsus olan yer arasında əlaqəni bildirir.

Mikrotoponimləri nominasiya prinsipləri üzrə təsnif edən Reyhan Həbibli posessiv mikrotoponimlər haqqında yazır: "Posessiv mikrotoponimlərə daxildir: 1) yaşayış məntəqələri üzrə adlar; 2) yaxınlıqda yaşayan insanların adları, soyadları, ləqəbləri ilə bağlı adlar; 3) ilk sakinlərin adları, soyadları, ləqəbləri ilə bağlı adlar; 4) əhali arasında geniş yayılmış soyad üzrə adlar" (3, 78). Reyhan Həbiblinin fikrindən aydın olur ki, posessiv mikrotoponimlər insanla ona məxsus olan yer arasında əlaqəyə əsasən ad alır.

Relyef anlayışı bildirən toponimləri tədqiq edən Qara Məşədiyevin fikrincə, "Azərbaycan mənşəli mikrotoponimlərin digər hissəsi xüsusi mülkiyyət münasibətlərini əks etdirir. Bu qrup mikrotoponimlər bir qayda olaraq inqilabdan əvvəl ayrı-ayrı şəxs adlarından və onlara məxsus torpaq sahələrindən ibarətdir. Məsələn, Həsən yeri, Qaraməmməd talası və s." (5, 136). Hesab edirik ki, Qara Məşədiyevin qeyd etdiyi onimlər də posessiv mikrotoponimlərdir.

Bəzən posessiv mikrotoponimlər memorial mikrotoponimlərlə qarışdırılır. Memorial mikrotoponimlər dedikdə, ziyalıların, tarixi şəxsiyyətlərin adlarını daşıyan onimlər nəzərdə tutulur. Doğrudur, bu onimlər yiyəlik və mənsubluq bildirən şəkilçilərin köməyi ilə yaranmışdır. Forması etibarilə bənzərlik olsa da, məzmunca eyni mənanı ifadə etmir, posessiv mikrotoponimlər hesab edilmir. Azərbaycan dilinin toponimik sistemində belə yolla yaradılan el-oba adları kifayət qədərdir. Məsələn: Ağdam rayonu ərazisində qeydə alınan Üzeyir Hacıbəyov küçəsi, Əbdürrəhim bəy Haqverdiyev küçəsi, İsmayıl Qayıbov küçəsi, Heydər Əliyev prospekti, Əli Bayramov küçəsi və s. Bu onimləri posessiv mikrotoponim adlandırmaq doğru fikir deyildir.

Ağdam rayonu ərazisində rast gəlinən posessiv mikrotoponimlərin hər birinə ayrılıqda nəzər salaq:

1. **Ərazidə məskunlaşan kənd sakinlərinə məxsus olan posessiv mikrotoponimlər:** Bir kənd ərazisində məskunlaşan əhali evinin qarşısından tutmuş özünəməxsus olan bağ, bağça, bostan, tarla, örüş, əkin, tala, pəyə, bulaq, sahə və s-ni adlandırır. Öz ailə üzvləri arasında onimləri işlədirlər və bir-birini anlaya bilirlər. Lakin bu nominasiya barədə yaxın qonşuların məlumatı olmaya bilər. Həmin adlar keçici mikrotoponimlər adlanır.

Kənd ərazisinə daxil olan yer adlarını təhlil edən Qara Məşədiyev yazır: "Belə adlar dərə-təpə, yol, sahə və s. ifadəsindən ibarət olan toponimlərdən ibarətdir. Bu adlardan aşağıdakıları göstərmək olar:

a) Dərə adları.

Belə adlarda da müəyyən şəxs, relyef və s. adlarına rast gəlmək mümkündür: Qoçalılar dərəsi (Ağdam rayonu), Musanın başı kəsilən dərə (Ağdam rayonu)

b) təpə və hündürlük mənası bildirən adlar: Alıbəy təpəsi, Bəbir təpəsi, Qulunun yalı, Musanın təpəsinin burnu, Namaz dərəsinin yanı (Ağdam rayonu).

c) sahə mənası bildirən adlar: Dürmək Alının meşəsi, Eşq Abdal yeri, İrzalı soyulan yol, Kəblə Hüseyn tirəsi, Abdullanın qobusu, Ağalıq yeri, Baxışın bağı, Baharın tirəsi, Qurular bağı (Ağdam rayonundadır)" (5, 132). Qara Məşədiyevin qeyd etdiyi Bəbir təpəsi, İrzalı soyulan yol toponimlərini çıxmaq şərtilə digərləri posessiv mikrotoponimlərdir.

Kənd sakinlərinin bağçasında, tarlasında, bostanında mövcud olan ərazilərə verdikləri adlar da posessiv mikrotoponimlərdir, məsələn: Almalıq, Armudluq və s. Kənd və kəndin ətrafında hər nöqtənin, hər bucağın adı vardır. Əraziyə yaxşı bələd olan daha çox yaşlı nəslin nümayəndələrinə bu onimlərin böyük hissəsi məlumdur. Ancaq onlar əhalinin köklü şəkildə yox olması, köç etməsi, yerinə başqalarının gəlməsi, təbii fəlakətlər, müharibələr səbəbi ilə unudula bilər. Məsələn: Müharibədən əvvəl Qarapirimli kəndi ərazisində qeydə alınan İsmayılın narlığı mikrotoponimi hal-hazırda mövcud olmaya bilər və ya əvəzinə başqa meyvələr əkilə bilər. Ağdam rayonu ərazisində qeydə alınan kənd sakinlərinə məxsus posessiv mikrotoponimlərə bunları aid etmək olar: Şükürün pəyəsi, Teymurun təpəsi, İsmayılın pəyəsi, Cümşüd bəyin evi, Ərşadın yeri, Bəhrəm bəyin evi, Molla Məhəmmədin yalı, Mir Sədi babanın təpəsi və s.

2. Görkəmli şəxsiyyətlərə məxsus olan posessiv mikrotoponimlər: Müxtəlif ölkələrin görkəmli şəxsiyyətləri yalnız öz dövlətlərinin deyil, eyni zamanda dünya tarixinin də dəyişməsində mühüm rol oynamışlar. Onlar ictimai-siyasi və sosial-iqtisadi əlaqələrin inkişafında müstəsna xidmətlər göstərmişlər. Belə ki, gördükləri böyük işlər ilə seçilmiş və özlərinə məxsus olan abidələrin əsasını qoymuşlar. Bu şəkildə yaranan posessiv mikrotoponimlərdən biri Ağdam rayonunda qeydə alınan Xan qızı Natəvanın məqbərəsidir. Xan qızı Natəvan yaradıcılığına XIX əsrin 50-ci illərindən etibarən başlamışdır. Qoşma, rədif, məcaz və s. bədii vasitələri işləmişdir, şeir və qəzəllər yazmışdır. Xurşidbanu Natəvan Ağdamın "İmarət" qəbiristanlığında dəfn edilmişdir.

Pənahəli xan sarayı və ya Pənah xanın imarəti Ağdam şəhərində yerləşir. Pənahəli xanın yay sarayı olmuşdur. Pənahəli xan Qarabağ xanlığının qurucusu və ilk xanı olmuşdur. Abidə XVIII əsrə aiddir.

3. Dini şəxsiyyətlərə (seyidlər, övliyalar, ağalara) məxsus olan posessiv mikrotoponimlər. Seyidlər, övliyalar, ağaların adını daşıyan posessiv mikrotoponimlər Ağdam rayonunda kifayət qədərdir. Rayon ərazisində müqəddəs hesab olunan ocaqlar, pirlər, ziyarətgahlar, türbələr toponim yaratmada fəal rol oynayır. Xalqımızın inkişaf tarixində mühüm rola malikdir. Müqəddəs inanc yerləri islam dini təşəkkül etdikdən sonra daha da çoxalmışdır. İnsanlar uzun illər boyu bu yerlərdən diləklərini həyata keçirmək, sıxıntılardan azad olunmaq və s. məqsədlər üçün istifadə etmişlər. Belə yerlər hal-hazırda da əhali tərəfindən ziyarət olunur. Bu onimləri tədqiq etmək və həqiqi tarixini açmaq olduqca əhəmiyyətlidir. Ağdam rayonunda qeydə alınan dini şəxsiyyətlərə məxsus olan posessiv mikrotoponimlərə aid etmək olar: Qarapirim ocağı, Əhmədbaba piri, Xanməmməd ocağı, Seyid Lazım Ağanın məqbərəsi, Uğurlu bəyin türbəsi, Şeyx Nigari ziyarətgahı, Xanoğlu türbəsi, Seyid Manafın qəbri, Gündoğdu baba piri, Seyid Fuğara ocağı, Seyfəddin ağa ocağı və s.

4. Müəyyən şəxs, nəsil, tayfa, xalq, qəbiləyə məxsus olan posessiv mikrotoponimlər. Onomastikada tayfa, nəsil, soy, tirə, xalq, millət, qəbilə, etnik qrup adları əsasında əmələ gələn mikrotoponimlər etnotoponimlər adlanır. Etnotoponimlər tarixi və siyasi hadisələrin nəticəsində meydana gəlir. "Azərbaycan dilində ikinci növ təyini söz birləşmələrinin ümumi məzmununda yiyəlik, sahiblik anlayışı olduğundan bu birləşmələr şəklində posessiv toponimlər geniş yayılmışdır. Lakin posessiv toponimlər yalnız bu birləşmə tipli vahidlərdən ibarət olmayıb, daha geniş ifadə xüsusiyyətinə malikdir. Dilimizdə külli miqdarda sadə və düzəltmə etnooykonimlər posessiv toponim kimi çıxış edir" (1, 389). Ağdam rayonunda bu şəkildə əmələ gələn posessiv mikrotoponimlərə aiddir: Qarapirimli təpəsi, Papravənd təpəsi, Kəngərli qəbiristanlığı, Şükürbəyli təpəsi, Kəbləhüseynli yaşayış yeri, Qarahacı yaşayış yeri, Qarahacılı nekropolu, Vəlixantəpə yaşayış yeri, Gülməmməd təpəsi yaşayış yeri, Sarıhacılı tayı yaşayış yeri, Əhmədoğlu yaşayış yeri, Yüzbaşılı təpəsi yaşayış yeri, Qaçaytəpə yaşayış yeri, Əhəd təpəsi yaşayış yeri və s.

TƏDQİQAT METODU

Məqalədə təsviri və tarixi metodlardan istifadə olunmuşdur. Təsviri metod vasitəsilə Ağdam rayonunun posessiv mikrotoponimlərinin ümumi mənzərəsi verilmişdir. Mikrotoponimik materiallar toplanılmış, sistemləşdirilmiş və qruplaşdırılmışdır. Tarixi metoddan isə onimləri araşdırmaq, xalqımızın dili və tarixini öyrənmək üçün istifadə edilmişdir. Bu metod vasitəsilə tədqiqata cəlb olunan ərazinin tarixinə daha yaxından bələd olunmuşdur. Çünki bu metod olmadan el-oba adları haqqında həqiqi məlumatları əldə etmək mümkün deyildir. Hər iki metoddan istifadə edilərək məqalə işlənilmişdir.

NƏTİCƏ

Onomastikanın dəyişikliyə məruz qalan onimlərindən biri də mikrotoponimlərdir. Mikrotoponimlərin (kiçik coğrafi obyekt adlarının) öyrənilməsi toponimik məlumatların sistemləşdirilməsinə yardımçı olur. Bu onimlərin tədqiqi mübahisə doğuran bir çox məsələlərin həll olunmasında mühüm əhəmiyyət kəsb edir. Mikrotoponimlər nominasiya prinsiplərinə görə müxtəlif olur. Onlardan biri də posessiv mikrotoponimlərdir. Ağdam rayonu ərazisində qeydə alınmış posessiv mikrotoponimlər xalqımızın keçmiş tarixi ilə bağlı bir çox məlumatların daşıyıcısıdır. Məqalədə təhlilə cəlb olunan rayonun mikrotoponimlərinin yaranma prosesi nəzərdən keçirilmişdir. Posessiv mikrotoponimlər hər hansı bir yerin (dərə, təpə, ev, pəyə, hin, saray, ocaq, pir, ziyarətgah, türbə, qəbir, qəbiristanlıq, məscid, bağ, məhəllə, bostan, örüş, həyət və s.) müəyyən şəxsə, ailəyə, xalqa, nəslə, tirəyə, tayfaya aidliyini, mənsubluğunu bildirir. İndiyə qədər Ağdam rayonunun mikrotoponimləri, o cümlədən ərazinin posessiv mikrotoponimləri tədqiqata cəlb olunmamışdır. Ona görə də həllini gözləyən problemlər çoxdur. Qarşıda duran əsas vəzifələrdən biri də posessiv mikrotoponimləri toplamaq, sistemləşdirmək, hətta ərazinin mikrotoponimlər lüğətini tərtib etməkdir.

ƏDƏBİYYAT SİYAHISI

1.Adilov M., Paşayev A. Azərbaycan onomastikası (İzahlı lüğət). Nurlan nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2005:1-488

2.Həbibli R. Adbilimsel bilimler ve sosyal etmenler. Türk Dünyası Dil ve Edebiyyat Dergisi **(Jurnal məqaləsi),** Sayı 28, May 2009, səhifə 33-38

3.Həbibli R. Azərbaycan tətbiqi onomastikası. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı/Azərbaycan. 2021:1-330

4.Məmmədov N. Toponimika. Bakı Universiteti nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2007:1-408

5.Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında. Elm və təhsil nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2010:1-232

MƏTNİN LİNQVİSTİK TƏHLİLİNDƏ DİL VƏ ŞÜUR PROBLEMİ

Hacıyeva Təranə
Bakı Mühəndislik Universiteti
Azərbaycan dili və pedaqogika kafedrası
tehaciyeva@beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Dil və şüur əlaqələrinin həmin anlayışların aid olduqları sahəyə hər hansı bir rəğbət hissindən uzaq olaraq, sistemli şəkildə dərindən, ətraflı və əsaslı öyrənilməsi müasir elmimizin mühüm problemlərindəndir. Sözün, informasiyanın silah, özünümüdafiə vasitəsi olduğu müasir dünyada rasional, irasional, emosional düşüncənin təsiri altında nəyin necə deyilməsi, daha vacibi isə nəyin nə üçün və hansı tərzdə deyildiyini dərk etmək bacarıqlarına yiyələnmək istəyi məntiqi kateqoriyalarla dil və qrammatik kateqoriyaları vəhdətdə təhlil edə bilən mentalinqvistikanın yaranmasını zəruriləşdirib. Fikrimizcə, dövlət və cəmiyyətin ideologiyasının formalaşmasında özünə xüsusi pay götürmüş bədii dil və mətnlərin də belə bir təhlilə ehtiyacı böyükdür. Geniş təsir imkanlarına, cəmiyyətin hər qatına nüfuz edərək, şəxsiyyət yetişdirmək, formalaşdırmaq bacarığına malik olan bədii dilin ondan gözlənilən zəruri keyfiyyətlərə nə dərəcədə nail ola bilməsi faktını məhz mətnlərin etibarlı və təfərrüatlı fikir demək səlahiyyətlərinə malik olan mentalinqvistik, o cümlədən, psixolinqvik, neyrolinqvistik, paralinqvistik istiqamətlərdən təhlili üzə çıxarır.

Açar sözlər: dil, şüur, bədii mətn, psixolinqvistik təhlil, neyrolinqvistik təhlil, paralinqvistik təhlil.

GİRİŞ

Mövzunun aktuallığı. Zamanın müxtəlif mərhələ və dövr məhsulları sayılan istənilən bədii, elmi, publisistik mətn tarixi, fəlsəfi, bədii artefaktdır. Fərqli məkan, dövr və mühitlərdə fəaliyyət göstərən, yaşayan-yaradan bəşər övladının şüur və təfəkküründün öz inikasını məhz bədii və digər mətnlərdə tapması həmin dil materialını dil və şüur əlaqələrinin öyrənilməsi üçün əlverişli mənbə edir. Lakin bu vacib məqam bədii mətni linqvistik təhlilə cəlb edən tədqiqatlarda demək olar ki, nəzərə alınmayıb. Halbuki mətnin, xüsusilə, bədii mətnlərin linqvistik təhlilinin ana xəttində dil və şüur əlaqələrinin öyrənilməsinin dayanması dildən bədii məqsədlərlə istifadə edənlər üçün yüksək təcrübi əhəmiyyətə malikdir və mətnin bu istiqamətdən təhlili yazarın dilin bədii imkanlarına, incəliklərinə, nitq və mühit münasibətlərinə, üslubi məqamlara nə dərəcədə bələd olmasını da göstərir.

Məruzənin məqsəd və vəzifələri. İnformasiya mexanizmi olan mətnlərdə təfəkkürün inikasının özəlliklərinin, bitbaşa şüur və dil, təfəkkür və nitq əlaqələrindən törənən nitqin mühitə uyğunluğunun, nitqin dəqiqliyinin öyrənilməsi məqalənin əsas məqsədini təşkil edir. Həmin məqsəd bədii mətnlərin nitq və mühit, təfəkkür və nitq, nitq aktında iştirak edənin psixoloji vəziyyəti və bədən dili kimi münasibətlərin vəhdətində mentalinqvistik təhlil edilməsi vəzifələri ilə reallaşır.

Problemin qoyuluşu. Dil və şüur əlaqələri adlndan da göründüyü kimi, həm fəlsəfənin, həm də dilçiliyin tədqiqat obyekti ola bilər. Lakin inkaredilməz faktdır ki, eimi cəhətdən etibarlı qənaət əldə edilməsi üçün problemin qoyuluşu dil və şüur əlaqələrinin yalnız bir deyil, iki elmin vəhdətində öyrənilməsini tələb edir. Əks halda tədqiqatçının dar ixtisas və sahə bilikləri problemə biristiqamətli və rəğbətli yanaşmasına səbəb olacaq. Sual yarana bilər ki, elmi etibarlılıq balansını qorumaq üçün hansı elmi istiqamətdən yararlanmaq mümkündür? Həmin elmi istiqamət fəlsəfə və dilçiliyin vəhdətindən yaranan mentalinqvistika sahəsidir.

Məruzənin metod və üsulları. Tədqiqat empirik metodu və onun müşahidə, təcrübə və modelləşdirmə üsullarından, təsviri metod və onun sosioloji, məntiqi, psixoloji, fizioloji üsullarından, eksperiment metodu və onun sosioloji və fikri təcrübə üsullarından, İerarxik təhlil metodu və mülahizələrin uyğunluğunu qiymətləndirilməsi üsulundan istifadə edilib.

Əsas hissə. Yaranma ardıcıllığı fəlsəfi, linqvistik tədqiqatlarda müxtəlif ictimai, eyni zamanda subyektiv nəzəriyyələrlə şərh edilən dil və şüur problemi həllini hələ də tapmayan aktual məsələlərdəndir. Əslində bu aktuallıq problemin mahiyyətindən qaynaqlanan bir məsələdir. Çünki bu sual mahiyyət və məzmununa uyğun olaraq, problemin qoyuluşuna bir neçə rakursdan yanaşmanı tələb edir. Belə ki, problemə elmin tarixinin müxtəlif mərhələlərində sırf elmi, yaxud da teoloji aspektdən yanaşılması dil və şüurun mənşəyində eynizamanlılıq, yaxud ardıcıllıq prinsiplərindən ikisindən birinin əsas götürülməsinə rəvac verməyib. Buna baxmayaraq, problemə istənilən rakursdan yanaşan klassik və müasir araşdırmalarda (1,s.3; 2.s.24; 3. s.17-34; 4, s.17; 5) dilin real praktik şüur olması inkaredilməz elmi fakt kimi qəbul edilir. Belə olan halda qarşıya bir sıra doqmalar çıxır:

1. *Bizi əhatə edən gerçəklikdə şüur və dil sistemlərinin əlaqələri vacib faktorlardandır.*
2. *Nitq dildən, təfəkkür də şüurdan istifadədir.*
3. *Dil və şüur sistemlərinin qanunauyğun əlaqəsi sistemli biliklər toplusu olan yeni bir elm sahəsinin yaranmasını zəruriləşdirir ki, bu da mentalinqvistikanın təzahüründə baş verib.*

Dil və şüur əlaqələrinin öyrənilməsi zərurətindən yaranan mentalinqvistikanın bədii mətnin təhlilində kifayət qədər etibarlı, təfərrüatlı söz demək səlahiyyət və imkanı heç bir şübhə doğurmamalıdır. Çünki mentalinqvistika dilə münasibətdə şüurun funksiyalarından çox təfəkkür və nitq qarşılığını, təfəkkürə görə nitqin funksiyalarını öyrənir. Burada bir məqama da xüsusi diqqət yetirmək lazımdır: nitq, o cümlədən, mətn informasiya verən mexanizmdir və onun dəqiqliyi mentalinqvistikanın əsas problemlərindən sayılır. Nitqin dəqiqliyi mühit, təfəkkür və nitqin uyğunluğu kimi dərk edilməlidir. Maraqlıdır, həmin qanunauyğunluğa müvafiq olaraq, konkret bir fərdin poetik təfəkkürünün məhsulu olan bədii mətnlərdə necə müəllif sözü, obrazların nitqi necə fərdi təfəkkürün tam inikası ola bilirmi? Basqa cür desək, bir fərd, yazıçı bir deyil, yaratdığı bir neçə obrazın əvəzinə onlar kimi düşünüb, həmin obrazların nitqini təfəkkürlərinin ifadəçisi kimi verməlidir. Bədii dilin təbiiliyi, canlılığı, obraz xarakterliyinin yaradılması söz ustasından müxtəlif mühitlərin yetirmələri olan, müxtəlif səviyyə, xarakter, bilik, dünyagörüşünə malik ayrı-ayrı insanların nitqini onların təfəkkürünün ifadəsi kimi verilməsi bacarığını tələb edir. Bu, bir fərdin sosial, elmi, məişət, siyasi və nəhayət poetik təfəkkürünün imkanları daxilində olmalıdır. Bədii mətndə bu inikası mental və linqvistik tarazlığı, aydınlığı qorumaq şərtilə dəqiq vermək yazıçı və şairdən xüsusi bacarıqlar, psixoloji, sosioloji, məntiqi və dil biliklərinə bələd olmagi tələb edir. Yəqin ki, dahi Nizami Gəncəvidə həmin istedad və bacarıqlar yüksək səviyyədə olmasaydı, Sirlər xəzinəsi"ni, xüsusilə "İqbalnamə"ni bu cür kamil şəkildə yarada bilməzdi.

Bədii mətnlərin mentalinqvistik aspektdən təhlili göstərir ki, nitqin dəqiqliyi hər zaman qorunmur:

"O, müstəntiqi görən kimi onlara yaxınlaşdı. Həyəcandan rəngi ağarmışdı. Əlləri də əsirdi.

- Axı bu, necə ola bilər, srağagün Vaqif müəllim, bu gün Lalə xanım? Adam az qalır, lap dəli ola".

Mətni psixolinqvistik təhlili göstərir ki, müəllif hadisənin təsirindən öz soyuqqanlığını itirən şəxsin nitqində hiss və həyəcanı, intensivliyi ifadə edən fonetik, leksik, qrammatik vahidlərə yer vermədiyindən dilin bütün səviyyələri üzrə təsvir və obrazın nitqi arasındakı qanunauyğunluq pozulub: sait və ya samit səslərin uzanmaması, emfatik vurğunun, təkrarların olmaması, emosional semantikalı sözlərin qıtlığı, nida, modal sözlərdən istifadə edilməməsi, ellipsisin azlığı obrazın nitqinin təbiiliyinə xələl gətirib. Həyəcandan rəngi ağaran, əlləri əsən şəxsin nitqinin bu cür rabitəli olması təbiiliyə xələl gəririr.

Bədii mətnlərin neyrolinqvistik təhlili bəzən kişi və qadın nitqlərinin, yaşlı və gənc nəslin, usaq nitqinin təfəkkürlə uyğunsuzluğunu, paralinqvistik təhlil isə müəllif təsviri ilə ilə obrazların nitqinin, bədən dilinin üst-üstə düşmədiyini göstərir ki, bu da son nəticədə mətnin bədiiliyinə, təbiiliyinə və ifadəliliyinə zərər vurmuş olur.

Nəticə. Bizi əhatə edən mühitin, gerçəkliyin inikası olan şüurun dildəki ifadəsi bədii dil üçün bir qədər fərqli şəkildədir. Digər funksional üslublarda dildən istifadə edən də, düşünən də eyni bir fərddir, yəni eyni bir şəxs öz nitqi ilə öz təfəkkürünü təqdim edir, bədii dildə isə bir fərd bir neçə şəxsin yerinə həm düşünən, həm də danışandır. Bu səbəbdən bədii mətn müəllifinin şəxsi keyfiyyət və bacarıqlarının, istedadının, təxəyyül və psixologiyasının şüur və dil, müvafiq olaraq, təfəkkür və nitq əlaqələrinin ifadəsinə təsir edə bilməsi reallıqdır.

Nitqin dəqiqliyinin, rasional, yoxsa emosionallığının, rasional-emosional, yaxud emosional-rasionalığının qiymətləndirilməsi üçün bədii mətnlər yalnız sırf linqvistik deyil, həm də mentalinqvistik aspektdən təhlil edilməlidir.

Şüur və dil əlaqələrinin, təfəkkürün nitqdə ifadəsinin aydın olduğu, mentalinqvisik təhlil tələblərinə cavab verən bədii mətn yalnız emosional, yaxud yalnız rasional olmur, hər iki keyfiyyət növbələşir, mətni məzmunlu, oxunaqlı, təbii, cəlbedici edir. Bədii mətn yalnız emosional təfəkkürün ifadəsi olduqda bəlagətdən, sırf rasional təfəkkürün ifadəsi olduqda isə yekcins və monotonluqdan ibarət olur, təbiilikdən uzaq informasiya mexanizmi olaraq qalır. Emosional-rasional təfəkkürün məhsulu olan bədii mətnlərdə isə müvazilik özünü saxlayır, mentalinqvistik təhlil baxımından nitqin dəqiqliyi də təmin edilmiş olur.

ƏDƏBİYYAT SİYAHISI:

1.Лурия А.Р. Язык и сознание. Москва, изд-во МГУ, 1979: 186 с.

2.Berwick R.C.,Chomsky N. Why Only Us: Language and Evolution. Cambridge, MA: The MIT Press,2016: pp 224

3.Wolfgang R. Language and consciousness. Exploring Consciousness. Humanities, Natiral Science, Religion. Proseedings of the International Symposium. Milano: Fondazione Carlo Erba. 2003: pp.17-34

4. Robbins M. Consciousness, Language and Self. Psychoanalytic,Linguistic, and Anthropological Explorations of the Dual Nature of Mind. 2018: pp 178
5.Carpendale J., Lewis C., Susswein N., Lunn J. (2009) Talking and Thinking: The Role of Speech in Social Understanding.p.15. https://www.researchgate.net

TÜRK DİLLƏRİNDƏ BAĞLAYICI

ARZU İSGƏNDƏRZADƏ
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Türk dilləri şöbəsi
arzu.isgandarzada@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Bu məqalədə müxtəlif türk dillərində geniş istifadə olunan bağlayıcılar və onların istifadə forması araşdırılacaqdır. Türkoloji dilçilikdə türk dillərinin qrammatikasının müqayisəli şəkildə araşdırılması aktual məsələlərdən biridir. Türk dillərdində bağlayıcıların tədqiqi də vacib məsələlərdəndir. Çünki bu tədqiqatlar zamanı bağlayıcıların qrammatik və leksik ifadə vasitələri meydana çıxır. Tədqiqatın əsas məqsədi türk dillərdində bağlayıcıların məna cəhətdən qruplaşdırılmalarının incələnməsi, milli və alınma bağlayıcıların müəyyən edilməsidir. Bağlayıcıların müqayisəli aspektdə öyrənilməsi nəticəsində onların mənşəyi məsələlərini, struktur və funksional cəhətlərini leksik-semantik xarakteristikasını dərindən öyrənmək mümkündür. Müasir türk dillərində digər nitq hissələrinə daxil olan sözlərin bağlayıcılara keçidi və onların əsas tiplərinin araşdırılması, öncə, bağlayıcıların bir qrammatik kateqoriya kimi formalaşma təkamülü yollarını müəyyənləşdirməkdə böyük əhəmiyyət kəsb edir. Məlum məsələdir ki, bağlayıcılar bir-birindən fərqlənirlər. Məhz bu fərqlənmə, yaratdıqları münasibətlərin məzmunu bağlayıcıların leksik mənası hesab edilməlidir. Onlardakı qrammatik məna həmin münasibətlərin sintaktik ifadəsi vaxtı meydana çıxır. Bir bağlayıcının digərinin yerində çıxış edə bilməməsi və eləcə də bu və ya digər bağlayıcını dəyişdikdə bunun məna dəyişikliyinə aparıb çıxarması bağlayıcılarda da müəyyən məna çalarlığının varlığına dəlalət edir. Məlum olduğu kimi, bağlayıcın vəzifəsini digər nitq hissələri də ifadə edir. Bu tipli sözlərdə, eləcə də söz birləşmələrində mövcud olan, asanlıqla ayrılan, nəzərə çarpan mənanı bağlayıcıların mənası ilə uyğunlaşdırmaq olmaz. Çünki bunlar bağlayıcı deyil, onların sintaktik vəzifəsini ifadə edən ünsürlərdir.
AÇAR SÖZLƏR: türk dilləri, köməkçi nitq hissəsi, bağlayıcı

GIRIŞ

Türk dillərinin köməkçi sözləri arasında bağlayıcılar özünün spesifik leksik-qrammatik xüsusiyyətləri ilə seçilir. Bağlayıcı əsas nitq hissələrindən fərqli olaraq bağladıqları hissələrin ümumi məzmunu ilə bağlı olub, birləşmələrlə birgə meydana çıxır. Bağlayıcılar əsas nitq hissələrindən fərqli olaraq söz yaradıcılığı prosesində iştirak edə bilmir. Bağlayıcılar morfoloji cəhətdən dəyişməyən kateqoriyadır. Bağlayıcılar sintaktik cəhətdən də əsas nitq hissələrndən fərqlənir. Belə ki, onlar, cümlə üzvü olmaq qabiliyyətinə malik deyildir. Türk dillərində bağlayıcılar fərqli sözlərlə adlandırılmışdır. Türk dillərində bağlayıcılar fərqli sözlərlə adlandırılmışdır. Azərbaycan dilində *bağlayıcı,* Türkiyə türkcəsində *bağlaç*, türkmən dilində *soyuzlar*, qaqauz dilində *bağlaçlar*, qırğız dilində *baylamtalar* və s.

TƏDQIQAT METODU

Tədqiqat işi əsasən sinxron planda aparılmışdır. Daha çox türk dillərdə bağlayıcıların məna cəhətdən və mənşəyinə görə mövləri üzərində üzərində durulmuş, onların mənşəyi tədqiq edilmişdir.
Müasir türk dillərində xalis türk mənşəli digər nitq hissələrinə daxil olan sözlərin bağlayıcılara keçidi və onların əsas tiplərinin araşdırılması, öncə, bağlayıcıların bir qrammatik kateqoriya kimi formalaşma təkamülü yollarını müəyyənləşdirməkdə böyük əhəmiyyət kəsb edir [5]. Günümüzdə türk dillərinin əksəriyyətində bağlayıcılar iki qrupa ayrılır. Azərbaycan dilçiliyində də bağlayıcılar tabeli və tabesiz

olmaqla iki qrupa bölünür. Türkoloji dilçilikdə bağlayıcılar məna cəhətdən də müxtəlif qruplara bölünmüşdür. Türk dillərində bağlayıcıların məna cəhətdən yeddi növünü vardır:

1. birləşdirici bağlayıcılar
2. bölüşdürücü bağlayıcılar
3. inkar bağlayıcıları
4. səbəb bağlayıcıları
5. nəticə bağlayıcıları
6. əmr bağlayıcıları
7. fərqləndirmə bağlayıcıları

Bağlayıcılar quruluşca sadə və düzəltmə olur. Türk dillərinin bağlayıcıları ilk dəfə Mirzə Kazım bəy tərəfindən sadə və tərkibi deyə iki yerə ayrılmışdır. Daha sonrasında mürəkkəb bağlayıcılar qrupu da buraya əlavə edilmişdir. Azərbaycan dilçiliyində isə bir neçə bağlayıcıdan ibarət olanlar, həm də bağlayıcı sözlər mürəkkəb hesab edilir. Azərbaycan dilçilik ədəbiyyatında bir çox tədqiqatçılar tərəfindən bağlayıcıların quruluşuna görə mürəkkəb növü də qeyd edilir. Lakin Fərhad Zeynalov qeyd edir ki, bağlayıcıların heç bir leksik mənası olmadığı üçün, leksik mənası olmayan iki və daha çox bağlayıcının birləşərək yeni bir mürəkkəb söz əmələ gətirməsi heç bir şəkildə özünü doğrulda bilməz [3]. Mürəkkəb bağlayıcılar kimi təqdim olunan söz quruplarında iki cəhəti fərqləndirmək lazımdır. Bu qrupa daxil olan bağlayıcıların bir qismi ancaq iki və daha çox bağlayıcının birləşməsi ilə meydana çıxmışdır. Fərhad Zeynalov bu bağlayıcıları "tərkibi bağlayıcılar" adı altında verməyin daha məqsədə uyğun olduğunu qeyd edir. Müasir türk dillərinin oğuz qrupunda geniş yayılmış ərəb mənşəli **"və"** bağlayıcısı söz, söz birləşməsi, tabesiz mürəkkəb cümlələri bir-birinə bağlamağa xidmət edir. Bu bağlayıcı müasir türk dillərinin ancaq altısında Azərbaycan, uyğur, türkmən, türk, qumuq, özbək dillərində müşahidə edilir. Müasir qaraqalpaq dilində isə (va/və/ve) çox nadir hallarda işlədilir [6]. "Və" bağlayıcısı mürəkkəb cümlələri də bir-birinə bağlayır. Bu bağlayıcı ən çox tabesiz mürəkkəb cümlələri yer, zaman, ardıcıllıq, səbəb-nəticə, birləşdirmə, aydınlaşdırma, ziddiyət əlaqələri ilə bir-birinə bağlanan cümlələri birləşdirməyə xidmət edir. Muhərrəm Ergin türk dillərində bağlayıcıları ədatların içində göstərmiş və onlardan "bağlama edatları" deyə bəhs etmişdir. O, "Türk dil bilgisi" kitabında yazır: "Bunlar kəlmələrdən kiçik dil vahidlərini, söz qruplarını və cümlələri şəkil və ya məna baxımından bir-birinə bağlayan, onlar arasında bir əlaqə quran ədatlardır" [2]. Muhərrəm Ergin yazır ki, türkçədə əslində bağlayıcı yoxdur. Bunlar türkcədə sonradan və xarici dillərin təsiri ilə ortaya çıxmışdır. Ona görə də türk dilində istifadə edilən bağlayıcıların bir qismi alınmadır. Türk dilində olanlar da bəzi isim və feil şəkillərinin sonradan ədatlaşması ilə ortaya çıxmışdır. Muhərrəm Ergin sıralama bağlayıcıları olaraq *və, ilə, dahı, ile* bağlayıcılarını göstərmişdir. Muharrem Ergin müasir Türkiyə türkcəsindəki bağlayıcıları aşağıdakı şəkildə qruplaşdırmışdır:

1. sıralama ədatları: ve, ile, daḫı, ile
2. berabərləşirmə ədatları: ya, veya, yahut, veyahut
3. qarşılaştırma ədatları: ya...ya, hem...hem, ne...ne, da(de).

Bunlardan ən çox istifadə olunanı ***və*** bağlayıcısıdır. Türk dilinə həm ərəbcə "*və"*, həm də farsca *"u"* sıralama bağlayıcısı keçmiş, daha sonra bunlar bir-birinə qarışdırılmış beləcə *və/u/ü/vu/vü* şəkilləri ortaya çıxmışdır. Məsələn: *yar u ağyar, Leyla vü Məcnun, Cemşid ü Xurşid* və s.

Fərhad Zeynalov oğuz qrupu türk dillərində köməkçi nitq hissələrinə qoşma, bağlayıcı və ədatları daxil edir, qoşmaların tərkibində köməkçi adlar, bağlayıcıların tərkibində bağlayıcı sözlər, ədatların tərkibində isə modal sözlər yarım qruplarını fərqləndirir. O, "Müasir türk dillərində köməkçi nitq hissələri" kitabında yazır: "Bir bağlayıcının digərinin yerində çıxış edə bilməməsi və eləcə də bu və ya digər bağlayıcını dəyişdikdə bunun məna dəyişikliyinə aparıb çıxarması bağlayıcılarda da müəyyən məna çalarlığının varlığına dəlalət edir. Məlum olduğu kimi, bağlayıcı vəzifəsini digər nitq hissələri də ifadə edir" [3]. Bağlayıcılar real məzmunlu sözlərin əks etdirdikləri münasibətləri bağlamaqla müəyyən, hər bir bağlayıcının öz xüsusiyyəti ilə bağlı münasibətlər yaradır. Bildiyimiz kimi, bağlayıcılar bir-birindən fərqlənirlər. Dolayısı ilə bu fərqlənmə, yaratdıqları münasibətlərin məzmunu bağlayıcıların leksik mənası hesab edilir. Onlardakı qrammatik məna həmin münasibətlərin sintaktik ifadəsi vaxtı meydana çıxır. Müəllif eyni zamanda müasir Türk və Azərbaycan dilində tabeli mürəkkəb cümlənin tərəflərini bağlayan vasitələr içində bağlayıcı sözlərin də əhəmiyyətli rol oynadığını yazaraq onları iki qrupa ayırır. Birinci qrupa əvəzlik və qoşmalardan (bu qrupun sonuna xalis bağlayıcılar və eləcə də ədatlar da əlavə oluna bilər) ibarət bağlayıcı vəzifəsi ifa edən birləşmələri daxil edir. İkinci qrupa isə nisbi əvəzliklərin bağlayıcı vəzifə ifa edənlərini daxil etməyin və (nisbi) bağlayıcı sözlər kimi səciyyələndirməyin düzgün olduğunu qeydi edir.

Türk dillərində bağlayıcılar mənşəyinə görə də fərqlənir. Zeynəb Korkmaz "Türk Dili Grameri" kitabında mənşələrinə görə bağlayıcıları üç yerə bölmüşdür :

1. **Alınma mənşəli bağlayıcılar:** *adeta, aksi halde, aksine, amma, ama, asıl, bahusus, mamafih, mesela, nihayet, ve, yani, zaten, zira.*

2. **Qarışıq mənşəli bağlayıcılar:** *belki bilmem ki, canım, demek ki, hiç olmazsa, hiç şübhesiz, illa ki, madem ki, meğer ki, meğerse nasıl ki, nasılsa, ne var ki, ne yazık ki, ola ki, öyle ki, sadece, sanki, şu var ki, şübhesiz.*

3. **Türk mənşəli bağlayıcılar:** *açıqcası, ancak, anlaşılan, ardından, arkasından, ayrıca, bak, bakalım, bakarsın, bakın, besbelli, bırak, bile, bilemedin, bilmem, bilsen, bir de, böylece, böylelikle, bununla birlikte ,da, dahası, dahi, değil mi, değilse, derken, doğrusu, dolayısıyla, hele, ile, ise, ister, kısaca, nasıl, ne demek, nerede, nitekim, olsa olsa, oysa, özellikle, sakın, yalnız, yine, yok* [4].

Türkiyə türkcəsinə ərəb dilindən keçmiş bağlayıcılar bunlardır: *Adeta, aksi halde, aksine, ama, amma, amma ki, velakin, bahusus, bilakis, bilhassa, bittabi, esasen, fakat, galiba, filhakika, gayri, hakikaten, hususiyle, hülasa, zaten, zira, madem, mahaza, mamafih, nihayet, lakin, madem, velakin, velev.*

Qazax türkcəsindəki bağlayıcıları aşağıdakı şəkildə qruplaşdırılır:

Sıralama bağlayıcıları: *cäne "ve", men, ben, pen "ile" , menen, benen, penen, "ile", äri "ve".*

Bərabərlik bağlayıcıları: *nemense "veya", yakiy "veya, yahut".*

Qarşılaşdırma bağlayıcıları*:* *ne...ne..., ya...ya..., birde...birde..., bazen...bazen..., bir...bir..., keyde...keyde...,ya...ya..., meyli...meyli..., quy...quy...* [1]

Müasir Qazax dilində ***ancaq*** bağlayıcısının sinonimi kimi ***birak və al*** bağlayıcıları geniş yayılmışdır. Burada qarşılaşdırma-inkarlıq yaradan *deqenmen, əytkenmen, əytnecə, əytneqende* və s bağlayıcılar da işlədilir. ***Yalnız*** sözü müasir türk dillərinin bir neçəsində bağlayıcı vəzifəsi ifadə edir: elqiz (özbək), yolquz (uyğur). Müasir Azərbaycan dilində yalnız sözünün bağlayıcılıq vəzifəsi qeyd edilmir.

Qırğız türkcəsində bağlayıcılar aşağıdakı şəkildə qruplaşdırılır:

Sıralama bağlayıcıları: *cana, mennen, da.*

Beraberleşdirme bağlayıcıları: *ce, caki.*

Qarşılaşdırma bağlayıcıları: *ce...ce..., arı...arı, narı...narı..., ...da...da, emes, meyli...meyli..., ister...ister..., ne...ne..., tügül.*

Qaraqalpaq dilində bağlayıcılar eyni ilə digər türk ləhcələrində olduğu kimi qruplaşdırılmışdır. Məsələn: sıralama bildirənlər: bu bağlayıcılar arxa-arxaya gələrək kəlmə və cümlələri bir-birinə bağlayır. *Jane* (ve, ve dahi): *oqıwşı dükennen kitap, qağaz jane qalem satıp aldı. Ham* (hem, ve, ayrıca), *menen, benen, penen* (ile) və s.

Özbək dilində də bağlayıcılar digər türk ləhcələrində olduğu kimi sıra bağlayıcıları, qarşılaşdırma bağlayıcıları, beraberlerşdirmə bağlayıcıları olmaqla üç yere ayrılır.

Sıra bağlayıcıları: *vä, bilän, yänä*

Qarşılaşdırma bağlayıcıları: *nä...nä..., häm...häm..., däm...däm..., bir...bir..., gåh...gåh..., xåh...xåh..., keräk...keräk..., yå...yå..., istär...istär...*

Bərabərləşdirmə bağlayıcıları: *yåki, yå, yåhud*

Fərhad Zeynalovun "Müasir türk dillərində köməkçi nitq hissələri" kitabında müasir türk dillərində işlədilən bağlayıcı sözlərə nümunə olaraq aşağıdakı sözlər göstərilmişdir: onun üçün, onun üçün ki, onun üçün də, bunun üçün (də), buna görə (ki), ona görədir ki, o səbəbə görə, o səbəbə görə də, ondan ötrü, ondan ötrü ki, ona binaən, ona binaən də, elə bil, elə bil ki, ona əsasən, buna əsasən də, hansı ki, necə ki [3].

Qaqauz dilində işlənən əsas bağlayıcıları funksiyalarına görə aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1.Sıralama bağlayıcıları: Qaqauz dilində əsas sıralama bağlayıcısı *həm* və şəkilçiləşən *ylan/ lan / nän* bağlayıcılarıdır.

2. Qarşılaşdırma bağlayıcıları: *a... a..., ba... ba..., ha... ha..., hem... hem..., ml... ml..., ne... ne..., tölä...bölä..., ya... ya(da)*

Qaqauz türkcəsində ərəb mənşəli və bağlayıcısı istifadə olunmur. Qədim Anadolu türkcəsi ilə Türkiyə və Azərbaycan türkcələrində geniş istifadə edilən ancaq bağlayıcısı qaqauz türkcəsində nadir istifadə edilir: *Genç literatura yaper ancak ilk adımnarı.*

Qədim türkcədə ***kanı*** ve Türkiyə türkcəsində ***hanı*** şəklində sual ədatı olaraq istifadə edilən bu bağlayıcının qaqauz türkcəsində öndəki samit səs düşmüşdür: *Kaazlar baarer gülüş koper, ani iki ahmak düüşer.*

Baare, baari, barikim fars mənşəli bağlayıcıdır, cümlənin əvvəlində gələrək cümləyə "heç olmazsa" mənası yükləyir: *Baari bir kıza sevinmek getir*.

Bolay qədim Anadolu türkcəsində, müasir qaqauz türkcəsində olduğu kimi "bəlkə" mənasında *bolayki* şəklində istifadə edilmişdir. Müasir başqırd və tatar türkcəsində *bolay* "belə" mənasında istifadə edilir: *İnsan dizer türlü laflar , bolay gençlar açsın gözlerini.*

Türk dilində olduğu kimi qaqauz dilində də cümlənin sonunda işlənən bağlayıcılar vardır. Qaqauz dilində ***da, də, ta, tə, sa*** bağlayıcıları kəlimələrin sonuna gələrək onların mənasını qüvvətləndirir: *Çırak ta o zaman demiş, süt ta vermiş.*

Ki bağlayıcısı cümlənin əvvəlində və bəzi məqamlarda sözün sonuna gələrək qüvvətləndirmə mənası daşıyır: *Ban ki dünnaa gözeli.*

Açan bağlayıcısı zaman bildirir: *Açan sa onnar gittiler, sahıra düştü.*

Ani bağlayıcısı köməkçi cümləni əsas cümləyə bağlayır, zaman bildirir: *Ama söylemeycam evda, ani evlenecez.*

Müasir qaqauz dilində ərəb və fars mənşəli bağlayıcılardan əlavə dilindən keçmiş bağlayıcılar da vardır. Qaqauz dilində, ümumiyyətlə, bağlayıcı və bağlayıcı sözlər çox işlənir. Bu da onun sintaktik quruluşunun slavyan dillərinin təsiri altında dəyişməsi ilə əlaqədardır.

Bir çox türk dillərində *güya* və *sanki* sözləri bağlayıcıların tərkibinə daxil edilir: güya, sanki (Azərbaycan); sansın (qaqauz); quye,quyeki (özbək); sönki (başqırd).

Bağlayıcılarla bağlayıcı vasitələri bir-birindən fərqləndirmək lazımdır. Bağlayıcıların vəzifəsi kəlmələri və cümlələri bir-birinə bağlamaqdır Bağlayıcılar hər hansısa bir məfhumu ifadə etmir və onlarda qrammatik məna ön planda olur. Bağlayıcılaşan sözlərdə isə leksik məna ön planda olur. Bağlayıcılaşan sözlər öz müstəqilliklərini müəyyən qədər qoruyurlar və qismən nominativliyə malik olurlar. Müasir türk dillərində bağlayıcı sözlər son dövrlərin məhsuludur və işlənmə tezliyi getdikcə artmaqdadır. Əsl bağlayıcılar miqdar etibarı ilə bağlayıcı sözlərdən daha çoxdur.

NƏTİCƏ

Türkoloji dilçilikdə köməkçi nitq hissələri ilə bağlı kifayət qədər tədqiqat aparılmışdır. Ancaq bu gün belə türk dillərində bağlayıcıların təsnifi ilə bağlı ortaq bir fikir yoxdur. Nəticə etibarı ilə onu deyə bilərik ki, ədat, modal söz və bağlayıcıların fərqləndirilmədiyi türk dilçilik ədəbiyyatında bu gün belə bağlayıcıların tərkibinə bir çox ədatlar daxil edilir.

ƏDƏBİYYAT SİYAHISI

1. Ahmet B.Ercilasun. Türk Lehçeleri Grameri. Akçağ Yayınları **(Kitab)**. Ankara /Türkiye. 2007: 332-453
2. E.Muharrem. Türk Dil Bilgisi. Boğaziçi yayınları **(Kitab)**. İstanbul/Türkiye. 2019:350,352-400.
3. F. Zeynalov. Müasir türk dillərində köməkçi nitq hissələri. Maairf nəşriyyatı **(Kitab)**. Bakı/Azərbaycan. 1971:53,302-310
4. Korkmaz Z. Türkiye Türkçesi Grameri. Türk Dil Kurumu Yayınları **(Kitab)**. Ankara/Türkiye. 2009:925-1027
5. Zeynalov. F. Türk dillərinin müqayisəli qrammatikası. Ihissə (Fonetika, leksika, morfologiya). MBM nəşriyyatı **(Kitab)**. Bakı/Azərbaycan 2008:-330-353
6. Баскаков Н.А. Каракалпакский язык, II, Фонетика морфология **(Kitab)** Изд-во АН СССР (Kitab). М. 1952:516-544

AZƏRBAYCAN DİLİNİN ZAQATALA DİALEKTİNDƏ VƏ TÜRKİYƏ TÜRKCƏSİNİN TRABZON VƏ URFA DİALEKTLƏRİNDƏ İSTİFADƏ OLUNAN BİR SIRA ORTAQ SÖZLƏR

Sərxan Hacıyev
Ondokuz Mayıs Universiteti/Dissertant
Lisansüstü Eğitim Enstitüsü/Türk dili və Ədəbiyyatı
serkhanhajiyev@gmail.com
SAMSUN, TÜRKİYƏ

XÜLASƏ

Bu məqalədə Azərbaycanın şimal-qərb dialektlərində olan Zaqatala dialekti ilə Türkiyənin şimal-şərq qrupuna aid olan Trabzon və Urfa dialektlərində istifadə olunan bir sıra ortaq sözlər qeyd olunaraq onların müqayisəli linqvistik təhlili aparılmışdır. Sözü gedən dialektlərdə istifadə olunan sözlər qarşılaşdırılaraq

leksik mənaları izah olunmuş və onların cümlə daxilində istifadə olunmasına dair örnəklər verilmişdir. Həmçinin məqalədə feillərin müxtəlif zaman formalarında rast gəlinən bənzərliklərin şəxsə və kəmiyyətə görə müqayisəli təhlili aparılmışdır. Məqalədə tədqiqat mərkəzi olan bölgələrin dialektlərində istifadə olunan sözlər dialektoloji lüğətlərdən, folklor nümunələrinə aid materiallardan seçilərək müqayisəli şəkildə araşdırılmış və dilçilik cəhətdən tədqiqata cəlb edilmişdir.

Açar sözlər: Azərbaycan dilinin dialektləri, Zaqatala dialekti, Türkiyə Türkcəsi, Urfa dialekti, Trabzon dialekti

GİRİŞ

Dillərin əvvəlki zamanlarda ortaq bir tarixi dövrə aid olmasına baxmayaraq müəyyən zaman ərzində coğrafi ərazilərdə dağılma prosesi meydana gəldiyi üçün onlar bir sıra siniflərə ayrılaraq özünəməxsus özəlliklər qazandılar. Türkiyə Türkcəsi meydana gəldiyi ilk zamanlarda onun ilkin halı günümüzdəki öz daxilində müəyyən siniflərə ayrılmış Türkiyə Türkcəsi kimi təzahür etmirdi. Orta Asiyada yaşayan türklərin öz yaşadıqları ərazilərdən digər ərazilərə köç edərək məskunlaşmaları ilə Türk dilində bəzi fərqliliklər meydana gəldi. [1, s.32].

Təbii ki, bu fərqliliklərlə bərabər ortaqlıqlar da ortaya çıxdı. Həmin bənzərliklərin meydana gəlməsinin başlıca səbəblərindən birisi türk tayfalarının Azərbaycan ərazisinin müxtəlif bölgələrində məskunlaşması, ticarət əlaqələrinin və söz alış-verişinin yaranması idi.

12-ci yüzillikdə Oğuz türklərinin axını davam etməklə bərabər 13-cü yüzilliyin əvvəllərində Çingiz xanın ortaya çıxması ilə Türküstanda məskən salan digər Oğuzlar da Anadoluya köç etmək məcburiyyətində qalmış və Azərbaycanla Anadoludakı türk nüfuzu get-gedə çoxalmağa başlamışdır. Beləliklə, yeni bir yazı dilinin ortaya çıxma ehtiyacı yaranmışdır. [2, s.433].

15-ci yüzilliyin sonlarında Azərbaycan ərazisinin Qaraqoyunlu və Ağqoyunluların, 16-cı yüzillikdə isə Səfəvi dövlətinin təsiri altına girməsi ilə Azərbaycan və Osmanlı yazı dilləri bir-birindən ayrılmışdır. 16-cı yüzillikdən etibarən günümüzə iki yazı dili gəlməkdədir. 20-ci yüzillikdə isə bunlara Türkmən və Gagavuz dilləri də daxil edilmişdir. [3, s.1802].

Azərbaycan dili öz əlamətləri ilə gah türk və qaqauz dillərinə, gah da türkmən dilinə qarşı dayanır, bəzən isə əksinə, Azərbaycan dilinin xüsusiyyətləri ya türkmən, ya da türk və qaqauz dilləri ilə uyğun gəlir. Bundan başqa, həmin dillərin uyğun və fərqli cəhətləri ədəbi dillə dialektlər arasında da özünü göstərir. Türkcədə ədəbi dil xüsusiyyəti olan bir əlamət Azərbaycan dilində dialekt xüsusiyyəti sayılır və ya əksinə. [4, s.11]

İstər Zaqatala dialekti ilə bağlı yazılmış elmi əsərlər, istərsə də Urfa və Trabzon bölgələrinin dialekt leksikasının nümunələri əsasında yazılmış tədqiqat əsərlərinə baxdığımız zaman ortaya çıxan bir sıra bənzərliklərə rast gəldiyimizi söyləmək mümkündür. Elə bu səbəbdən Azərbaycan və Türkiyə Türkcəsinin dialektlərində rast gəlinən həmin oxşar sözləri tədqiqata cəlb edərək onları Azərbaycanın Zaqatala dialekti və Türkiyə Türkcəsinin Urfa və Trabzon bölgələrinin şivəsinin nümunələri əsasında müqayisəli, linqvistik izahına yer verməyi məqsədəuyğun hesab etdik.

TƏDQİQAT METODU

Dialekt dilin məhdud ərazisində işlədilən növüdür. Dialekt bütün dilə xas olan əlamətlərlə yanaşı, eyni zamanda özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir.Müasir dialektoloji ədəbiyyatda dialekt və şivə terminləri dilin dialekt bölünməsinin vahidi hesab olunur; Bakı, Şamaxı, Şəki, Quba, Ordubad və s. dialekt, Salyan, Qax, Zaqatala, Cəbrayıl və s. şivə adlandırılır. [5, s.5]

Tədqiqata cəlb etdiyimiz Azərbaycanın Zaqatala dialekti Azərbaycan ədəbi dilinin dialekt bölgüsünə əsasən Azərbaycanın şimal-qərb qrupu şivələri içərisində yer almaqdadır. Görkəmli dialektoloq **Məmmədağa Şirəliyev** Azərbaycan dilinin dialekt və şivələrinin təsnifindən söz açarkən onların bölgüsünü tarixi coğrafi-prinsip əsasında verməklə yanaşı, dörd qrup əsasında bu bölgünü oxuculara təqdim etməkdədir. Zaqatala-Qax şivəsi Məmmədağa Şirəliyevin bölgüsünə əsasən Azərbaycan ədəbi dilinin dialekt bölgüsünün III təsnifat qrupunda, yəni şimal qrupu şivələri içərisində yer almaqdadır. [6, s.19]

Zaqatala-Qax şivəsinin dialektoloji bölgüsü bu sahədə tədqiqat aparan gənc tədqiqatçıların diqqətini cəlb etməklə bərabər həmin şivənin yaranması, meydana gəlməsi də maraq doğuran məsələlər içərisində yer almaqdadır. Belə ki, dialektoloq alim **Elbrus Əzizov** Azərbaycan ədəbi dilinin Zaqatala dialektinin meydana gəlmə səbəbini belə izah edir:

"Dialekt xüsusiyyətləri baxımından qarışıq xarakterdə olan şimal-qərb şivələri (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən) əsas etibarilə yerli əhalinin şivələri ilə gəlmələrin dialektinin əlaqəsi nəticəsində formalaşmışdır.

Bu şivələr yerli əlamətlərlə yanaşı (şimal xüsusiyyətləri, spesifik intonasiya, substrat elementlər) Azərbaycan dilinin qərb və cənub ləhcələri üçün səciyyəvi olan xüsusiyyətlərə də malikdir." [7, s.281]
Türkiyə ədəbi dilinin dialektoloji atlaslarına nəzər saldığımız zaman Türkiyə Türkcəsinin Trabzon dialekti şimal-şərq qrupu dialektləri içərisinə daxil edilməkdədir. Sözügedən dialektik bölgü görkəmli dilçi **Leyla Karahanın** təsnifatı əsasən ifadə edilməkdədir. [8, s.45]
Anadolu şivələri ilə bağlı yazılmış əsərlərə baxdığımız zaman Urfa dialekti şərq qrupu dialektləri içərisində yer almaqdadır. Anadolu şivələrinin cənub qrupu cənubda və şərqdə siyasi sərhədlər xaricinə çıxaraq Azərbaycan və İraq-Türkmən şivələri ilə birlik təşkil etməklə bərabər dialekt özəllikləri baxımından Urfa dialekti Azərbaycan Türkcəsi və İraq-Kərkük Türkmən Türkcəsi ilə bir çox bənzərliklər göstərməkdədir. [9, s.54]

Zaqatala və Trabzon Dialektlərində İstifadə Olunan Ortaq Sözlər

1. **Habı/Habu** (bu, böyle)
Zaqatala: *Habı kimindir?*
Trabzon: *Habu* gönlüm seni arar.
2. **Həblə/Habule** (belə, böyle)
Zaqatala: *Həblə* işi heç görmə.
Trabzon: Habule yar olmaz. [10, s.192; 11, 7.c]

Məmmədağa Şirəliyev **h** samitinin sözün önünə əlavə olunması məsələsini belə izah edir:
"Bundan əlavə, Şəki dialektində və Zaqatala-Qax şivəsində bu işarə əvəzliyinin **ha** sözü ilə calaqlanmış halına da təsadüf edilməkdədir. **Hab** sözü avar dilində **bu** işarə əvəzliyinin yerində işlənməkdədir. Ola bilsin ki, **habu** sözü **avar** dili ilə Azərbaycan dili işarə əvəzliklərinin calaqlanmasından meydana gəlmiş bir işarə əvəzliyidir." [6, s.181]

3. **Yengə/yengə**
Zaqatala: Qardaşımızın arvadına yengə diyarıx.
Trabzon: Yenge evlenme işlerinde aracılık eder.
[10, s.548; 11, 11.c]
4. **Çağa/çağa** (uşaq, çocuk)
Zaqatala: Ay çağa, dur biraz odun yar.
Trabzon: Bu çağa çok yaramaz.
[10, s.85; 11, 3.c]
5. **Daqar/dağar** (torba, çuval)
Zaqatala: Epbeyi daqara dolduruf getdi.
Trabzon: Avcı avını dağara koydu.
[10, s.111; 11, 4.c]
6. **Məzələməx/mezelemek** (lağ etmək, alay etmek)
Zaqatala: Dünən toyda yaman məzələdix.
Trabzon: Mezeleme, amcaoğlu.
[10, s.354; 12, s.211]
7. **Dalda/dalda** (eyvan, yağmurdan korunmak için yer)
Zaqatala: Daldanın yuxarı başında böyük bir usdol açılmışdı.
Trabzon: Yağmurdan dolayı daldaya kaçdık.
[10, s.112; 11, 6.c]
8. **geci/geçi** (keçi)
Zaqatala: Gecini satdım.
Trabzon: Geçiyi pazara satmak için götürdüm.
[10, s.175; 11, 6.c]

Trabzon və Zaqatala dialektində istifadə olunan bəzi ortaq feillər vardır ki, bu feillərin sonunda "y" samiti əlavə olunmaqla yanaşı, həmçinin açıq saitli bəzi sözlərin qapalı saitlə əvəzlənməsi, bəzilərində isə qapalı saitdən digər qapalı saitə keçməsi halına rast gəlirik

1. gəlir/gəliy
2. gedirsən/gidiysən
3. bilir/biliy
4. süpürürəm/süpüriyəm
5. yazırsınız/yaziysiniz
6. deyirlər/diyilər

7. yaşayır/yaşiyi

Buradan belə qənaətə gəlmək mümkündür ki, III şəxsin təkində və indiki zamanda olan feillərdə daha çox bənzərliklər müşahidə olunmaqdadır. Təbii ki, I,II şəxsin təkində və cəmində, III şəxsin cəmində olan feillərdə də buna rast gəlmək mümkündür.

Zaqatala və Urfa dialektində İstifadə Olunan Ortaq Sözlər

Bu başlıqda hər iki bölgədə işlədilən sözlərdən bəhs edərkən daha çox feillərin üzərində dayanmağı məqsədəuyğun hesab edirik. Belə ki, hər iki bölgədə hərəkət bildirən sözlərdə, yəni feillərdə daha çox oxşarlıqlara rast gəlindiyini nümunələ əsasında görmək mümkündür. Həmin feillər zamanından və şəxsindən asılı olaraq özünü müxtəlif formalarda göstərməklə yanaşı söz sonunda samit artımı, bəzi saitlərin bir-biri ilə əvəz olunması halı da diqqəti cəlb edən məsələlərdəndir. Bu feillərdəki ortaqlıqlar daha çox hər iki bölgənin dialektində istifadə olunan keçmiş zaman formasında olan feillərdə özünü göstərməkdədir.

sevmax/sevmah (sevmək)

Zaqatala: Kaş sevmax hamıya nesib ola.

Urfa: sevmah büyük iş, hemşerim.

Zaqatala dialektində incəsaitli feillərin kökünə "mək" şəkilçisini artıranda bu şəkilçi Zaqatala dialektində "max" fomasında təzahür edir. Urfa dialektində isə istər qalın sait olsun, istərsə də incə sait olsun, "mak" şəkilçisinin dialektdəki halı "mah" formasındadır. Buraya digər feilləri də daxil etməyimiz mümkündür; *gəlmah/gəlmax, görmah/görmax, bilmah/bilmax, əkmah/əkmax, düşmah/düşmax, gülmah/gülmax və s.*

yeddi/yeddi (yedi)

Zaqatala: yeddi insan

Urfa: yeddi adam

dişle/dişlə (dişlə, ısır)

Zaqatala: Almanı dişlə.

Urfa: Elmayı dişle.

Eyni zamanda feilin vacib şəklinin I şəxsinin cəmində, şərt şəklinin II şəxsin cəmindəki feillərdə müşahidə olunmaqdadır. Məsələn, *getsah/getsax, gelmeliyıh/gəlməliyıx*.

Yuxarıda qeyd etdiyimiz kimi Urfa və Zaqatala bölgəsinin dialektlərində daha çox müşahidə olunan ortaq feilləri və onların müxtəlif zaman formalarında rast gəlinən sözləri aşağıdakı şəkildə şəxsə və kəmiyyətə görə sıralamaq mümkündür:

1. ***Feilin indiki zaman*** formasında:

Mən: *göriyəm* (görürəm, görüyorum)

Sən: *göriysən* (görürsən, görüyorsun)

O: *göriy* (görür, görüyor)

Biz: *göriyik* (görürük, görüyoruz)

Siz: *göriysiniz* (görürsünüz, görüyorsunuz)

Onlar: *göriylər* (görürlər, görüyorlar)

Verilən nümunələrdən aydın olduğu üzrə hər iki bölgədə istifadə olunan feillərə indiki zaman formasında I, II, III şəxsin təkində və cəmində müşahidə olunmaqdadır.

2. ***Feilin keçmiş zamanında***:

Bu bənzərlik şühudi keçmiş zamanda deyil, nəqli keçmiş zaman şəkilçisindən sonra işlənən şəxs sonluğundakı samitin dəyişməsi və ya incə saitdən qalın saitə keçidlə əlaqədər olan bir prosesdə özünü göstərməkdədir. Bu hala yalnız I şəxsin cəmində rast gəlmək mümkündür. Məsələn, biz *gəlmişıh/gəlmişıx, içmişıh/içmişıx, görmüşıh/görmüşıx.*

3. ***Feilin gələcək zamanında:***

Zaqatala və Urfa dialektində istifadə oluna feillərin qeyri-qəti gələcək zamanında ciddi mənada fərqliliklər görünsə də, qəti gələcək zamanın II və III şəxsin həm təkində və cəmində və I şəxsin isə yalnız cəmində oxşar hal görünməkdədir.

Məsələn, *yeyecahsan/yiyəcaxsan, gülecahsınız/güləcaxsınız, bilecahlar/bilecaxlar, görecah/görəcax, bitirecahsan/bitirəcaxsan.*

NƏTİCƏ

Nəticə etibarı ilə deyə bilərik ki, Azərbaycan dilinin Zaqatala dialektində və Türkiyə Türkcəsinin Trabzon və Urfa dialektlərindəki ortaq sözlər tədqiqata cəlb edilərək onların müqayisəli linqvistik təhlili verilməkdədir. Bəzi sözlər Zaqatala və Trabzon bölgəsində eyni ilə istifadə olunmaqla yanaşı bəzi sözlərin isə müxtəlif hərf və səs dəyişmələrinə uğrayaraq bənzərliklər təşkil etdiyi görülməkdədir. Bəzilərinə isə

eyni ilə ədəbi dildəki istifadə halında olduğu kimi sabit qaldığı görünməkdədir. Urfa və Zaqatala ərazisində istifadə olunan oxşar kəlimələrin əksəriyyəti feillərdə və onların zaman formalarında özünü göstərdiyi müşahidə edilməkdədir. Bu tədqiqat əsərindən belə qənaətə gəlmək mümkündür ki, Azərbaycanın şimal-qərb dialektləri ilə türk xalqlarının dialektləri müqayisəli şəkildə tədqiqata cəlb edilərək həm onlayn, həm əyani lüğətlərin hazırlanmasına ehtiyac var. Tədqiqat əsərində verdiyimiz bir sıra nümunələrin bu sahədə araşdırma edən gənc tədqiqatçılar üçün meyar rolunu oynayacağını ümid edir. Həm Türkiyə Türkcəsinin Trabzon və Urfa dialektləri, həm də Azərbaycan dilinin Zaqatala bölgəsinin dialektlərinin ümumi söz varlığının müqayisəli şəkildə tədqiqata cəlb edilməsi mövzuya dair lüğətlərin hazırlanmasına, türk xalqlarına aid ortaq sözlər və dialektlər adı altında konfransların keçirilməsinə zəmin yaradacağı qənaətindəyik.

ƏDƏBİYYAT SİYAHISI

1. Prof. Dr. Mustafa Özkan Türk Dilinin Gelişme Alanları ve Eski Anadolu Türkçesi. “Filiz Kitabevi” (kitab). İstanbul/Türkiye.1995: 1-733.
2. Prof .Dr. Ahmet Bican Ercilasun Türk Dili Tarihi. “Akçağ” yayınları. (kitab).
Ankara/Türkiye. 2017: 1-477.
3. Engin Gökçür, Azerbaycan Türkçesi ile Doğu Anadolu Ağızlarındakı Ortaklıklar Üzerine.
“Journal of Turkish Studies” (jurnal məqaləsi), Volume 7, Issue 4, Payız 2012, Pages 1801-1824.
4. Fil.ü.f.d., dos Zabitə Teymurlu Azərbaycan Dilinin Dialekt Leksikası-Dərs Vəsaiti. (kitab) BMU nəşriyyatı, Bakı/Azərbaycan. 2020: 1-119
5. Məhərrəm Məmmədli Azərbaycan Dialektologiyası. “Zərdabi” Nəşr, (kitab).
Bakı/Azərbaycan. 2019: 1-355
6. Prof. Dr. Məmmədağa Şirəliyev Azərbaycan Dialektologiyasının Əsasları. “Şərq-Qərb”. (kitab). Bakı/Azərbaycan. 2008: 1-416
7. Prof. Dr. Elbrus Əzizov Azərbaycan Dilinin Tarixi Dialektologiyası. “Elm və Təhsil”. (kitab). Bakı/Azərbaycan. 2016: 1-348
8. Prof. Dr. Ahmet Buran, Türkiye Türkçesi Ağızlarının Tasnifleri Üzerine Bir Değerlendirme. “Journal of Turkish Studies” (jurnal məqaləsi), Volume 6, Issue 1, Kış 2011, Pages 41-54.
9. Prof. Dr. Leyla Karahan Anadolu Ağızlarının Sınıflandırılması, Türk Dil Kurumu Yayınları. (kitab). Türkiyə/Ankara. 1996: 1-203
10. Azərbaycan Dilinin Dialektoloji Lüğəti, “Şərq-Qərb”. (lüğət). Bakı/Azərbaycan. 2007: 1-554
11. Türkiye’de Halk Ağzından Derleme Sözlüğü, Türk Dil Kurumu Yayınları, 6 cilt, (lüğət). Ankara/Türkiye. 1978: 1-4448
12. Nurşah Turhan, Trabzon Ağzından Derleme Sözlüğü’ne Katkılar. “ASEAD” (jurnal məqaləsi), Volume 5, Isuue 2, 2018, Pages 53-58.

TÜRKDİLLI XALQLARIN MƏSKUNLAŞDIĞI COĞRAFİ AREAL TÜRKOLOJİ ƏDƏBİYYATDA

SƏMİNƏ ŞAHNİGAROVA
OYU, Humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 2-ci kurs
semineshahnigarova@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə türkdilli xalqların məskunlaşdığı coğrafi areal mövzusunun, əsasən, Azərbaycan türkoloji ədəbiyyatında verilməsi məsələsinsən bəhs olunmuşdur. Türkdilli tayfalar ta qədim zamanlardan (e.ə.IV minillikdən, ən qədim türk dövründə Altay və Hun imperiyası zamanından başlayaraq) Avrasiyanın bir çox yerlərinə yayılaraq geniş bir ərazidə məskunlaşmışlar. Təsadüfi deyil ki, hunlar tarixdə “qartlaşmış Avropanı hərəkətə gətirən” etnos hesab olunur. Böyük türk oğlu, dilçi-alim Mahmud Kaşğari hələ XI əsrdə

türk ellərini addım-addım gəzərək onların məskunlaşdığı əraziləri müəyyənləşdirməyə çalışmışdır. Müəllif ilk dəfə olaraq dəqiqliklə böyük bir ilkə imza ataraq, tarixdə türkdilli xalqların məskunlaşdığı ərazilərin xəritəsini vermişdir. Son və müasir tələblərə cavab verən və hazırda bütün ali məktəblərdə tədris olunan "Türkologiyaya giriş" kitabının müəllifi Buludxan Xəlilov da, türk dillərinin yayıldığı coğrafi arealı öyrənməyi bu fənnin əsas vəzifələrindən biri hesab etmişdir.

AÇAR SÖZLƏR: TÜRKDILLI XALQLAR, COĞRAFI AREAL, TÜRKOLOJİ, ƏDƏBİYYAT

GIRIŞ

Türk xalqlarının keçmişini, onların məskunlaşdığı coğrafi arealı araşdırmaq və bu sahədə tədbirlər görmək olduqca əhəmiyyətlidir və bir sıra səciyyəvi cəhətləri vardır.Həm elm sahəsinin bu barədə əsaslı məlumatları olur həmdə geniş tarixi əhəmiyyət kəsb etmiş türk xalqlarının həyatı,məişəti daha geniş bir şəkildə öyrənilir.

Əlisa Şükürlü qədim türk yazılı abidələrinin dili əsasında tədqiqat aparmış şəxslərdən biridir.Onun araşdırdığı sahə elə bir sahə olmuşdur ki,bu günümüzə qədər də öz aktuallığını itirməmişdir və hələdə dövrümüzü bir çox əsaslı məlumatlarla işıqlandırmaqdadır.Əlisa Şükürlüdən sonra gələn gələcək nəslin nümayəndələri də bu sahə ilə maraqlanmış və onun yolunu uğurla davam etdirmişdilər.Əlisa Şükürlü qədim türk yazılı abidələrinin dili dərsliyində türk xalqlarının keçmişi,yaşadığı ərazilər haqqında bir sıra əsaslı məlumatları xüsusi olaraq qeyd etmiş və bir çox cəhətləri vurğulamışdır.Türk xalqlarının məskən saldığı ərazilər üzrə tədqiqat aparmış və onları təsnif edərək,qruplaşdırmışdır.Türk xalqlarının özünəməxsus çox geniş və şanlı bir tarixi olmuşdur.

Əlisa Şükürlü qeyd etmişdir ki,türk xalqlarının böyük əksəriyyəti keçmiş SSRİ ərazisində məskən salıb,yaşamışlar.Təkcə bu sahədə bir çox tədqiqatçılar araşdırmalar aparmış və qiymətli əsərlər həmçinin də müasir dövrümüzü əhatə edə biləcək dərsliklər yazmışlar.Türk xalqları öz mədəniyyət və tarixinin qədimliyi,zənginliyi ilə bütün dünya xalqları sırasında həmişə öndə olublar bu xüsusiyyətlər hər bir zaman onların dünya üzrə aparıcı lider səviyyəsində zirvəyə yüksəlməsinə kömək edib.Məlum olduğu kimi türkdilli xalqlar Şərqi Sibirdən Baltik dənizinə qədər uzanıb gedən geniş bir ərazidə əvvəllər qəbilə, sonra tayfa və tayfa birlikləri şəklində yaşamışlar. Türk xalqlarının keçmişi, məskunlaşdığı ərazilər,onların adət-ənənələri və bir sıra digər səciyyəvi cəhətləri haqqında məlumat,bütün dünyada tanınmış həcmcə böyük olan və ensiklopedik lüğət xarakteri daşıyan dəyərli bir əsər Mahmud Kaşğarinin Divani-lüğət-it-türk əsərində daha dolğun şəkildə öz əksini tapmışdır.

Türk xalqlarının indiki Monqolustan,Yeddi İrmaq,Çin sərhəddi boyunda,Balxaş gölü ətrafında,Orxon və Yenisey çayları hövzələrində yaşayış üçün münbit,məhsuldar və müdafiə üçün strateji əhəmiyyətli ərazilərdə məskən salıb yaşadıqları barədə məlumatı həmin ərazilərdən tapılan daş kitabələr də təsdiqləyir.(4, səh 5) Məskunlaşdığı ərazilərə görə türk xalqlarını bir neçə cür qruplaşdırmaq olar ki,bu sahədə də Əlisa Şükürlünün rolu təqdirəlayiqdir.Əlisa Şükürlü türk xalqlarının yaşadığı ərazilərin təsnifatını belə qeyd etmişdir.1)Qərbi Sibirdə yaşayan türk xalqları 2)Orta Asiyada və Çin Türküstanında yaşayan türk xalqları 3)Qafqazda və Kiçik Asiyada yaşayan türk xalqları 4)Volqaboyunda yaşayan türk xalqları 5)SSRİ-ninQərbi Avropa ərazisində və Şərqi Avropa ölkələrində yaşayan türk xalqları.Nizami Xudiyev isə SSRİ deyilən bir məkanın olmaması,bundan əlavə olaraq cəmiyyətin sürətlə inkişaf etməsi ilə əlaqədar bu tədqiqat işini yenidən nəzərdən keçirmiş və bir sıra dəyişikliklər edərək təsnif etmişdir:

1)Qafqazda yaşayan türk xalqları;
2)Orta və Kiçik Asiyada yaşayan türk xalqları;
3)Sibirdə və Volqaboyunda yaşayan türk xalqları;
4)Çin Türküstanında yaşayan türk xalqları;
5)Avropada yaşayan türk xalqları.(1,səh 8).

Müəllif xüsusi olaraq vurğulamışdır ki,Qafqazda yaşayan xalqlar içərisində qədim mədəniyyəti,dövlətçiliyi ilə diqqəti cəlb edən Azərbaycan türkləridir.

1)Qərbi Sibirdə yaşayan türk xalqları:Sakalar,Xakaslar,Yukakirlər,Kamasinlər,Tofalar

Sakalar-qədim zamanlardan monqol,tunquz,mançur xalqları ilə yaxın əlaqədə olmuşlar buna görə də dillərində həmin xalqlara məxsus sözlər çoxluq təşkil edir.Yakut adı ilə tanınırlar və bu türk xalqlarının ümumi sayı 382 min nəfərdir.Əsasən Yakutiya Muxtar Respublikasında,qismən də rus ədəbiyyatlarında bu türk xalqının adına rast gəlmək mümkündür.(3,səh 7)

Xakaslar-Xakas Muxtar Vilayətində yaşayırlar bu xalqı çar rus işğalçıları Abakan tatarları adlandırmışlar.bu xalqın ümumi sayı isə 80 min nəfərdən daha çoxdur.Dərslikdə adı Sibirdə və Volqaboyunda yaşayan türk xalqları kimi qeydə alınmışdır.Ob çayının Çulum hövzəsində töküldüyü

yerlərdə məskunlaşan türk xalqını məhz həmin ərazinin adına uyğun olaraq Çulum tatarları adlandırıblar.N.A.Baskakov Çulum tatarlarını türkləşmiş ostyaq və ya keltlərin nəsli hesab edir.(1,səh 16)
Yukakirlər-Əsasən Sibirdə yaşayan kiçik türk xalqlarıdır.Onların sayı isə bəlli deyil.(3,səh 8)
Kamasinlər-Kiçik türk xalqıdır və tam dəqiq olmayan məlumata görə sayları 250 nəfərdir.Sibirdə məskunlaşdıqları qeydə alınmışdır.Kamasinlər Krasnoyarskda Kanı çayı sahillərində yaşayan türk xalqıdır.(1,səh 16)
Tofalar-elmi ədəbiyyatlarda əvvəllər qaparas adı ilə tanınmış kiçik türk xalqıdır.Bu xalqın ümumi sayı 800 nəfərdir.Bu türk xalqının başqa bir adı isə Qaraqaşlardır.Özlərini tıva,tıva kiji adlandırırlar və əsasən Tuva Muxtar Respublikasında və Monqolustanda yaşayırlar.(1,səh 16)
2)Orta Asiyada və Çin Türküstanında yaşayan türk xalqları
Özbəklər-monqol istilasından sonra 13-14-cü yüzilliklərdə qarluq,uyğur,qıpçaq qəbilələrinin birləşməsindən törəmiş türk xalqlarından biridir.Bu türk xalqı 20-ci yüzilin 1-ci rübünədək özünü türki,çox az hallarda isə özbək adlandırmışdır.19-cu yüzillikdə nəşr olunan bəzi rus mənbələrində özbəklər hətta sart adı ilə tanınmışdır.Əsasən Özbəkistan SSR-də qismən də başqa Orta Asiya Respublikalarında yaşayan özbəklərin ümumi sayı 16 milyon nəfərdən çoxdur.(3, səh 8)Bir çox mənbələrdə onların adı Özbək xanın adı ilə bağlansa da,bəzi tədqiqatçılara görə bu ad "uz bəy,oğuz bəy"sözləri ilə əlaqədardır.(5,online məqalə)
Qazaxlar-15-ci yüzillikdə Böyük Noqay Ordası parçalandıqdan sonra formalaşmış türk xalqıdır.Əsasən Qazaxıstan,qismən də Orta Asiya Respublikalarında yaşayan bu türk xalqının ümumi sayı 8 milyondan çoxdur.Çin Xalq Respublikasında yaşayan qazaxların sayı 550 min nəfər,Monqolustanda yaşayan qazaxların sayı 40 min,Əfqanıstanda isə 3 min hesabı ilə göstərilir.Qazaxların vətəni Qazaxıstan hesab olunur və sayları 10 milyona yaxındır.(1,səh 13)
Türkmənlər-başlıca olaraq Aral gölü,Sırdərya sahillərində qədim zamanlardan məskən salmış oğuz qəbilələrinin nəslidirlər.Əsasən Türkmənistanda yaşayan bu türk xalqının ümumi sayı 2 milyon 500 min nəfərdən artıqdır.Türkmənlər eyni zamanda İranda (400 min),Əfqanıstanda (270 min),Türkiyədə (270 min)və bir çox şərq ölkələrində yaşayırlar.(3,səh 9) Oğuz türklərinin kaspilər və qıpçaqlarla birləşməsindən yaranmış türkmənlər,əsasən,Türkmənistanda (5mln-a yaxın),eləcə də digər şərq ölkələrində yaşayırlar.
Uyğurlar-qədim hun,tukyuy,qarluq,ciyil qəbilələrinin birləşməsindən törəmiş türk xalqıdır.Başlıca olaraq Çin Xalq Respublikasında yaşayan uyğurların miqdarı 5 milyon 500 min nəfərdən çoxdur.1960-1970-ci illərdə Çinin Sintsızyan vilayətindən 3 milyondan artıq Pakistana və Türkiyəyə köçüb getmişdilər.Orta Asiyada uyğurlar başlıca olaraq Qazaxıstanda yaşayırlar.Orta Asiyada yaşayan uyğurların sayı 260 min nəfərdən artıqdır.
3)Qafqazda və kiçik Asiyada yaşayan türk xalqları
Azərbaycanlılar-qədim zamanlardan Cənubi Azərbaycanda,Qafqazda məskən salmış türk dilli sak,bulqar,az,sabir,xəzər,11-ci yüzillikdən başlayaraq oğuz və qıpçaq qəbilələrinin birləşməsindən törəmiş türk xalqıdır.Qafqazda məskən salmış oğuz,peçeneq,qıpçaq,xəzər qəbilələrinin ,eləcədə Midiya,alban tayfalarının birləşməsindən əmələ gəlmiş və formalaşmışdır.Azərbaycanlılar Azərbaycanda yaşayan türklərin ümumi adı kimi qəbul edilsə də onun kökündə müxtəlif türk etnosları dayanır.Tarixən bu xalq həmişə "türk" adı ilə tanınmışdır.Lakin 1936-cı ildən başlayaraq Şimali Azərbaycanda, Gürcüstanda, Ermənistanda,Dağıstanda məskən salıb yaşayan bu böyük türk xalqının milli türk adını "azərbaycanlı"etnonimi ilə əvəz etmişlər.
Bu proses 1939-cu ildə başa çatmışdır.1989-cu ildə siyahıyahıyaalmasının nəticəsinə görə Şimali Azərbaycanda 6 milyondan artıq,SSRİ-də isə 7 milyon azərbaycanlı yaşayır.Azərbaycanda azərbaycanlıların sayı(2011-ci ilin ilk məlumatlarına görə)artıq 9 milyondur.(1,səh 10)Lakin azərbaycanlılar yalnız Azərbaycanda deyil,dünyanın bir çox ölkələrində yaşayırlar.Həmin ölkələrin sırasında Gürcüstan,Rusiya,İran,Türkiyə,İraq,Orta Asiya dövlətləri və.s vardır.Onu da qeyd etmək yerinə düşər ki,Qərbi Azərbaycan (indiki Ermənistan)ərazisindən Azərbaycan türklərinin deportasiya edilməsi nəticəsində bu ərazidə azərbaycanlıların sayı 0%-ə enmişdir.(1,səh 11)
Türklər-başlıca olaraq Türkiyədə yaşayırlar.Əsasən oğuz,qıpçaq qəbilələrinin birləşməsindən törəyən Türkiyə türkləri 11-ci yüzillikdə başlıca olaraq Azərbaycandan Kiçik Asiya yarımadasına köçüb gedən türk qəbilələri əsasında formalaşmışlar.Türklər eyni zamanda keçmiş SSRİ-də (207 min),bir çox Avropa,Asiya,Afrika,hətta Amerika ölkələrində yaşayırlar.
Qumuqlar-poloves,uz,peçeneq qəbilələrinin qara bulqar qəbilələri ilə birləşməsindən əmələ gəlmiş türk xalqıdır.Qumuqlar əsasən Dağıstan Muxtar Respublikasında yaşayırlar və onların ümumi sayı 280 min nəfərdən artıqdır.Qafqazda yaşayan ikinci türkdilli xalqdır.(1,səh 11)
4)Volqaboyunda yaşayan türk xalqları

Tatarlar-13-cü yüzillikdə monqol-tatar qəbilələri Rusiyanın cənubunda yerləşən Qıpçaq çöllərini və Rusiyanı tutduqdan sonra Kökmən dağları ətəklərindən Volqa boyuna axıb gələn tatar qəbilələrinin yerli qıpçaq və qismən də bulqar,xəzər qəbilələri ilə birləşməsindən törəmiş türk xalqıdır.Onların ümumi sayı 6 milyon 500 min nəfərdən artıqdır.

Başqırdlar-qıpçaq və bulqar qəbilələrinin birləşməsindən törəmiş türk xalqıdır.Əsasən Başqırdıstan Muxtar Respublikasında yaşayan başqırdların sayı 1 milyon 500 min nəfərə yaxındır.

Çuvaşlar-bulqar,skif,sarmat qəbilələrin birləşməsindən törəmiş qədim türk xalqlarından biridir.Dil xüsusiyyətlərinə görə başqa türk xalqlarından daha çox fərqlənən çuvaşlar 18-ci yüzillikdən xristian dininə tapınırlar.Əsasən Çuvaş Muxtar Respublikasında yaşayan çuvaşların ümumi sayı 2 milyon nəfərə yaxındır.(3,səh 11)

5)SSRİ-nin Qərbi Avropa ərazisində və Şərqi Avropa ölkələrində yaşayan türk xalqları

Qaraimlər-başlıca olaraq Litva Respublikasında,Ukrayna Respublikasında yaşayan türk xalqıdır.1960-cı ilədək onların ümumi sayı 6 min nəfərə qədər göstərilmişdir.1989-cu uldə aparılan siyahıyaalmanın nəticəsinə görə qaraimlərin ümumi sayı 3 min nəfərə enmişdir.Bunun səbəbi yəhudi dininə sitayiş etdiklərinə görə qaraimlərin İsrailə və Avropaya,Amerikaya mühacirət etmələri ilə bağlıdır.Onların sayı bəlli deyil.(1,səh 20)

Urumlar //Qreqlər-az-çox toplu və dağınıq halda Gürcüstan Respublikasında və Şimali Qafqazda yaşayan türk xalqıdır.Özünü qrek adlandıran bu kiçik xalqın bir hissəi dağınıq və toplu halda Ukraynada xüsusilədə Azov dənizi sahillərində yaşayır.Qrek və Urumlarımn ümumi sayı haqda heç bir statistik məlumat yoxdur.Xristianlığa etiqad edirlər.(1,səh 20)

NƏTİCƏ

Apardığımız araşdırmadan əldə etdiyimiz nəticəyə əsasən qeyd edə bilərik ki, tarixən türk xalqlarının məskunlaşdığı coğrafi areal haqqında müxtəlif mənbələrdə ayrı-ayrı izahlarla bəzi məlumatlar öz əksini tapmışdır.Bu sahədə səylə çalışan,əvəzolunmaz xidmətlər göstərmiş Fərhad Zeynalov, Əlisa Şükürlü, Buludxan Xəlilov, Nizami Xudiyev, Gülxanım Vəliyeva, Əbülfəz Rəcəblinin adlarını xüsusilə qeyd etməliyik. Bu sahənin həqiqətən dolğun,izahlı bir şəkildə qeydlərə ehtiyacı olmuşdur ki,bu da hərtərəfli şəkildə özünü tədqiqatçılarımızın yazdığı dərsliklərdə çox aydın bir şəkildə büruzə vermişdir. Dərsliklər bir çox ali məktəblərin Filologiya fakültəsində tədris olunmaqdadır.Qeyd edək ki,gənclərimizdə də bu sahəyə maraq olduqca çoxdur və hər zaman da çalışmalıyıq ki,bu cür məsələlər öz aktuallğını itirməsin,yaddaşlara birdəfəlik həkk olunsun.

ƏDƏBİYYAT SİYAHISI

1. Buludxan Xəlilov. Türkologiyaya giriş. Bakı, 2013
2. Nizami Cəfərov. Türkologiyaya giriş. Bakı, 2016
3. Nizami Cəfərov, Aysel Qəribli, Emin Qəribli. Türkologiya. Bakı, 2018
4. Mübariz Yusifov. Türkologiyaya giriş. Bakı, 2000
5. Elçin İbrahimov. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, 2017.
6. Xudiyev Nizami.Qədim türk yazılı abidələrinin dili.”Elm və təhsil” Bakı, 2015, 596 səh
7. Rəcəbli Əbülfəz.Qədim türk yazısı abidələrinin dili.1 hissə.”Nurlan” Bakı,2006, 648 səh
8. Şükürlü Əlisa.Qədim türk yazılı abilərinin dili.,”Maarif” Bakı,1993, 336 səh
9. Vəliyeva Gülxanım.Qədim türk dili (dərs vəsaiti). Bakı, 2013, 118 səh
10. Zeynalov Fərhad. Türkologiyanın əsasları. Bakı, Maarif, 1981
11. Kaşğari M. Divanü lüğat-it-türk. I cild.Bakı, “Ozan”, 2006, 512 səh. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər
12. https://sonuncuesr.com (online məqalə)

QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİNİN TƏDQİQİNDƏ ƏBÜLFƏZ RƏCƏBLİNİN XİDMƏTİ

MURADLI PƏRİ
OYU, Humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 2-ci kurs
perimuradli@icloud.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə qədim türk yazılı abidələrinin tədqiqində Əbülfəz Rəcəblinin xidmətindən bəhs olunmuşdur. Ərəb dilində rəhbər "öndə gedən,yol göstərən "anlamına gəlir. Haqqında söhbət açdığımız rəhbər də alimlərin, tədqiqatçıların öndə gedəni, insanların ən zirvədən boylananı Əbülfəz Əjdər oğlu Rəcəblidir.Gərgin elmi fəaliyyəti ilə elm yolunda saç ağartmış, bir çox sanballı əsərlərin müəllifi Əbülfəz Rəcəbli dissertasiya işini müdafiə etdikdən sonra taleyini elmlə bağlamışdır. Elmi axtarış və pedaqoji fəaliyyət onun həyat fəaliyyətinin əsasını təşkil edirdi. Yüzlərlə dahilər yetişdirən Bakı Dövlət Universitetinin ümumi dilçilik kafedrasının professoru, filologiya elmləri doktoru Əbülfəz Rəcəbli göytürk dilinin araşdırılması ilə məşğul olmuş, ümumi dilçilik məsələləri ilə bağlı çoxlu sanballı əsərlər yazmışdır. Əbülfəz Rəcəbli hər bir istiqamət üzrə apardığı araşdırmada öz dəsti xətti,orijinallığı ,tədqiqatlarının sanbalı ilə seçilir.Professorun bir çox dilləri bilməsi, bu dillərdən bacarıqla istifadə etməsi ona dilçiliyin müxtəlif sahələrində dərin araşdırmalar aparmağa imkan vermişdir.

Türkoloq dillərin öyrənilməsi ilə bağlı çoxsaylı araşdırmalar aparmışdır.Professorun türk dillərinə aid bir çox elmi məqalələri və kitabları vardır."Kül tigin","Göytürklər","Göytürk dilinin leksikası","Orxan-Yenisey abidələri","Uyğurlar","Göytürk dilinin morfologiyası","Göytürk dilinin sintaksisi","Qədim türk yazısı abidələrini dili" "Qədim türkcə-azərbaycanca lüğət" kimi bir sıra digər silsilə əsərləri nümunə göstərmək olar. Professor runik abidə, runic əlifba terminlərinin işlədilməsinə qarşı çıxır,bu terminlərin əvəzinə göytürk abidələri, göytürk əlifbası terminlərinin işlədilməsini təklif edir.Qədim türk qəbilələrinin, onların erkən orta əsrlərdə yaranan göytürk və qədim uyğur dövlətlərinin tarixinin araşdırılmasına, dilçiliyin tarixinə həsr olunmuş əsərlərin hamısını tədqiq etmək ölçülməsi mümkün olmayanı ölçmək deməkdir.Əbülfəz Rəcəbli kimi geniş yaradıcılıq sahəsinə malik bir alimin fəaliyyətini bütünlüklə səciyyələndirmək mümkün deyil.Professor Əbülfəz Rəcəbli əsərlərinin həcmi və mövzularının əhatə dairəsinə görə Azərbaycan dilçiləri arasında seçilən bir dilçidir.

AÇAR SÖZLƏR: ƏBÜLFƏZ RƏCƏBLİ, QƏDIM TÜRK YAZILI ABİDƏLƏRI, GÖYTÜRK ƏLİFBASI

GIRIŞ

Bütün varlığı ilə xalq hikmətinə əsaslanan tədqiqatçımız Əbülfəz Rəcəbli öz tədqiqatları ilə dünya durduqca solmayan əbədi naxışlar saldı. Bu naxışlar fonunda qədim türk yazılı abidələri,türklərin mənəvi-əxlaqi dəyərləri bütövlükdə kainat qanunları səviyyəsində təqdim edildi.

Əbülfəz Rəcəbli hər şeydən əvvəl alim,tədqiqatçıların öndə gedəni, professordur.Bu tədqiqatçının ruhu türk ruhudur.Əbülfəz Rəcəbli qədim türk yazılı abidələrini elə ustalıqla ,elə incəliklə tədqiq etmişdir ki,bu gün bu abidələr sənət möcüzəsinə çevrilib.Qarşıya qoyulmuş məqsədə çatmaq üçün əsasən,Əbülfəz Rəcəblinin qədim türk yazılı abidələri ilə bağlı nəşr etdirdiyi kitablardan istifadə edilmişdir.Bununla yanaşı olaraq,bir neçə Azərbaycan tədqiqatçılarının nəşrlərinə də müraciət edilmişdir.

Professor Əbülfəz Rəcəblinin ali məktəblərin Filologiya fakültələrində qədim türk yazılı abidələri ilə bağlı tədris olunan bu fənnin adlandırılması ilə bağlı öz yanaşması vardır. Müəllif dördcildlik "Qədim türk yazısı abidələrinin dili" kitabının 1-ci cildinin giriş hissəsində göstərmişdir ki: "Mən bu fikirdəyəm ki, fənnin adı düz deyil. Bu adı bu fənnin xüsusiyyətlərini düzgün başa düşməyənlər təklif etmişlər. Mülahizələrimi bir neçə dəfə rəsmi şəkildə söyləmişəm, lakin qəbul edilməmişdir. Qədim türk yazılı abidələrinin dili məfhumuna göytürk (Orxon-Yenisey), qədim uyğur, hind, Suriya, nestorian, ərəb əlifbaları, Çin heroqifləri və digər əlifbalarla yazılmış türkdilli mətnlər daxildir. Tələbələrə bu qədər əlifbanın xüsusiyyətlərini, üstəlik mətnlərin dilini də öyrətmək icrası mümkün olan vəzifə deyildir. Bu qədər əlifbanı bilən müəllim də tapmaq qeyri-mümkündür. Fənni indiki adı ilə tədris etmək ya özünü, ya da elmi aldatmaqdan başqa bir şey deyildir. Buna görə də mən fənni «Qədim türk yazısı abidələrinin dili» adlandırmağı təklif edirəm və bu dərsliyi də həmin ad altında yazmışam. Bu məfhuma qədim türklərin özünəməxsus, özlərinin kəşfi olan

göytürk (Orxon-Yenisey) və qədim uyğur əlifbası ilə yazılmış mətnlər daxildir. Bu adla türk dillərinin ən qədim dövründən 1069-cu ilədək-qədim uyğur əlifbası ilə də əlyazma nüsxəsi olan «Kutadğu bilig» («Xoşbəxtlik gətirən bilik») əsərinədək olan mətnləri araşdırmıaq və tədris etmək olar. Hətta Kaşğarlı Mahmudun «Divani lüğət-it-türk» adlı əsəri də ərəb əlifbası ilə yazıldığı üçün qədim türk yazısı abidələri məfhumuna daxil olmur".

"Qədim türk yazısı abidələrinin dili" kitabının birinci cildi qədim türk yazılı abidələrinin azərbaycanlı və xarici tədqiqatçılar tərəfindən tədqiq olunması tarixinə, fonetikasına (qrafika, fonologiya və s.), leksika (semasiologiya, söz yaradıcılığı və s.) və morfologiyasına (adlar, feillər, zərflər və digər nitq hissələri və s.) həsr olunmuşdur. Bu sahələrdə müəllifin tədqiqatları ilə digər tədqiqatçılar arasında müəyyən fərqlilikləri izləyirik.

Məlum olduğu kimi, göytürk əlifbasında olan samitləri üç qrupda birləşdiririk: birvariantlı-qarşılığı olmayan samitlər; ikivariantlı-qarşılığı olan samitlər; səs birləşmələrini ifadə edən yazı işarələri. Gülxanım Vəliyeva "Qədim türk dili"(2013) kitabında qədim türk əlifbasından üç səs birləşməsini göstərmişdir: **V**-[lt], **Θ**--[nt], **C**-[nç]. Əbülfəz Rəcəbli yazmışdır ki, Göytürk əlifbasında iki qoşa səs ifadə edən işarələr vardır - abidələrin mətnlərində cəmi beş belə işarə vardır. Müəllif [iç] və [bş] qoşa səsləri bildirən işarələri də vermişdir.

Qədim türk yazılı abidələrinin dilində olan saitlərlə bağlı Əbülfəz Rəcəblinin tədqiqatlarından sonra bir çox sözlərin oxunuşunda dəyişikliklər olmuşdur. O demişdir ki, o bu ışarə təkcə qalın əsaslı sözlərdə işlənir, arxasıra, açıq, dodaqlanan o və arxasıra, qapalı, dodaqlanan u saitlərini ifadə edir. Onu yalnız sözün birinci hecasmcla o saiti kimi oxumaq olar. Göytürk dilində o saiti sözün ikinci və sonrakı hecalarında işlənmədiyi üçün bu işarə də sözün ikinci və sonrakı hecalannda yalnız u saiti kimi oxunmalıdır; məsələn; NDoB [bodun]-xalq və s. Verilən nümunədə olduğu kimi, Gülxanım Vəliyeva haqlı olaraq qeyd etmişdir ki, abidələrin dilində sait səslər çox zaman öz əksini tapmır, bu isə mətnin oxunuşunda müəyyən çətinlik yaradır.

Leksika barədə doğru olaraq Əbülfəz Rəcəbli bildirmişdir ki, qədim türk yazısı abidələri dilinin leksikası (lüğət tərkibi) müasir türk dillərinin lüğət tərkibindən dəfələrlə kiçikdir, lakin müasir türk dillərində işlənən ümumtürk sözlərinin böyük bir qismi abidələrin dilində işlənmişdir. Daha sonra müəllif abidələrin lüğət tərkibini mənşəcə iki qrupa ayırmışdır: 1) ümumtürk sözləri; 2) alınma sözlər.

Abidələrin dilində olan alınma sözlərlə bağlı olaraq müəllif fikrini belə əsaslandırmışdır: "Göytürklər ən çox tabğaçlarla, yəni çinlilərlə təmasda olmuşlar. Buna görə də Çin dilindən göytürk dilinə xeyli sözün keçdiyini güman etmək olar. Həmin sözlərə nümunə olaraq şəxs adlarını, məsələn, Lisün (BK c 11), İsyi Likən (KT şm 12) və aşağıdakı ümumişlək sözləri göstərmək olar: lüi (0 12) «əjdaha» - on iki il sikli təqvimdə il adı; kunçuy (KJ ş 20) «xanım, arvad» (Çin dilində yançji); sənjün (KT ş 32) saŋun (Y 24) «general»; çor (K.T ş 32) «ən yüksək hərbi rütbə» (Çin dilində: çjö) ; tutuk (KT ş 31, 32) «mülki inzibati vəzifə, vali» (Çin dilində: tu-tü) və s.

Yadigar Əliyevin bu sahədə irəli gedərək abidələrin dilində azlıq təşkil edən alınmaları qruplaşdırmışdır: 1. xüsusi isimlər 2. xüsusi isim olmayan leksik vahidlər. Xüsusi isimlər. Onlar dinamik ünsiyyət vahidi deyil və əsasən çin, tibet dillərinə aiddir. Məsələn: Çan Senün, Lisün Tay, Bölön və s. Digər alınmalar müxtəlif sahələri əhatə edir və Çin, monqol dillərinə aiddir. Məsələn: kutay (ipək), kunçuy (xanım), lü (əjdaha), lazğın (donuz), taluy (dəniz) və s.

Əbülfəz Rəcəbli abidələrin dilində istifadə olunan əsas və köməkçi nitq hissələrindən, onlara məxsus ümumi və xüsusi qrammatik kateqoriyalardan, əlamətlərdən də geniş və əhatəli şəkildə bəhs etmişdir. Gülxanım Vəliyeva və digər müəlliflər abidələrin dilində köməkçi nitq hissələrindən bəhs edərkən, ancaq qoşma, ədat və bağlayıcılar haqqında məlumat vermişlər. Əbülfəz Rəcəblinin tədqiqatlarında isə biz modal sözlər, nida, təqlidi və predikativ sözlər barədə məlumat və nümunələrə da rast gəlirik.

TƏDQIQAT METODU

Tədqiqat işinin aparılmasında təsviri və müqayisəli metodlardan istifadə olunmuşdur.

NƏTİCƏ

Nəticə etibarilə deyə bilərik ki, tarixdə yalnız bəşəri ideyaların daşıyıcısı olan şəxsiyyətlər qalır. Əbülfəz Rəcəblidə belə şəxsiyyətlərdən biridir. Göründüyü kimi Əbülfəz Rəcəbli özünəməxsus dünyagörüşü ilə qədim türk yazılı abidələrini mükəmməl şəkildə tədqiq edib. Apardığımız araşdırma zamanı müəyyən etdik ki, qədim türk yazılı abidələrinin hər birinin strukturu özünəməxsus xüsusiyyətləri ilə seçilir.Bizlərin borcu abidələrimizi milli dəyərimiz olaraq qoruyub saxlamaq,onların tarixini gələcək nəsillərə tanıtmaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Rəcəbli Ə.Qədim türk yazısı abidələrinin dili. 4 cilddə. Bakı, Nurlan, 2006.
2. Rəcəbli Ə.Ə. Göytürk dilinin leksikası. Bakı, "Nurlan", 2004.
3. Rəcəbli Ə.Ə. Qədim türkcə-azərbaycanca lüğət. Azərb.,Milli Ensiklopediyası Nəşriyyatı. Bakı, 2001.
4. Rəcəbov ə.Orxon-Yenisey abidələri. Bakı, 1993.
5. Vəliyeva G.Qədim türk dili (dərs vəsaiti). Bakı,2013.
6. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili.Bakı ,"Elm və təhsil", 2015.
7. Buludxan Xəlilov.Türkologiyaya giriş. Bakı, 2013
8. Nizami Cəfərov. Türkologiyaya giriş. Bakı, 2016
9. Nizami Cəfərov, Aysel Qəribli, Emin Qəribli. Türkologiya. Bakı, 2018
10. Elçin İbrahimov. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, 2017.
11. Əliyev Y.Qədim türk runik yazılı abidələrinin dili. Dərs vəsaiti. Bakı, Nurlan, 2004.
12. Şükürlü Əlisa.Qədim türk yazılı abidərinin dili,"Maarif" Bakı, 1993.

QAZAX DİLİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

BƏŞİRZADƏ İNCƏ
OYU, Humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 3-cü kurs
beshirzade.ince02@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə türk dilləri ailəsinin qıpçaq qrupuna daxil olan qazax dilinin öyrənilməsi və səciyyəvi xüsusiyyətləri haqqında bəhs olunmuşdur. Qazax ədəbi dilin inkişafında A. Kunanbayevin, S.Sayfilinin, M.Auzevin, C.Cabayevin əsərlərinin rolu böyükdür. Quruluş və tələffüz baxımından qaraqalpaq, noqay və qırğız dillərini qazaxcaya ən yaxın olan türk dilləri hesab etmək olar.

Elmin,texnologiyanın XIX əsrdən başlayan inkişafi türkoloji araşdırmalarında müəyyən obyektivliyin gözlənilməsində imkan yardır. Bununla belə imperialist iddiaların və maraqların gücləndiyi bir şəraitdə həmin imkanlar o qədər cüzidir ki,türkologiya tarixinin fəsəfəsində ümumiyyətlə nəzərə alınmaya da bilər.Türkoloqların ideoloji nəzarət altında saxlanılması, milli türkoloq kadrlarının yetişməsi üçün şəraitin məhdudlaşdırılması və s. bütün tarix boyu müşahidə edilmişdir.Türkdilli dövlətlər müstəqillik qazanandan sonra türkoloji araşdırmalar üçün geniş meydan yaranmış, onların yeni və müsir baxış bucağından tədqiq olunması, müxtəlif səviyyələrdə müqayisəyə cəlb olunması türkologiya elminə öz töhfələrini verməkdədir.

AÇAR SÖZLƏR: TÜRK DİLLƏRİ AİLƏSİ, QAZAX DİLİ, TƏDQİQAT, SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏR

GİRİŞ

Bir kökdən yaranan dillər qohum dillər hesab olunur. Qohum dillərin isə hamısına birlikdə dil ailəsi deyilir. Qazax dili türk dilləri ailəsinin qıpçaq qrupuna daxildir. Qazaxlar XX əsrin 20-ci illərinə qədər köçəri və yarımköçəri həyat tərzi yaşamışlar. Ona görə də qazax dilinin lüğət tərkibində heyvandarlıqla bağlı terminlər üstünlük təşkil edir. Qazax dilinin lüğət tərkibinin əsasını xalis türk mənşəli sözlər təşkil etsə də rus, ərəb, fars, monqol, Avropa mənşəli sözlər də vardır. Ərəb-fars sözləri qazax dilinə XVIII-XIX əsrlərdə, özbək və tacik eləcə də tatar dilləri vasitəsilə daxil olmuşdur. Monqol sözləri isə XII-XIII əsrlərdə monqol istilasından sonra keçmişdir. Qazax dili ilə bağlı xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirmək olar:

1. Qazax dilində 12 sait fonem vardır. Bu dildə uzun sait fonem yoxdur;
2. Qazax dilinfə 26 samit fonem vardır,onların 7-si sonor,8-i cingiltili,11-i isə kar samitdir.Rus dilindən ç və ş samitləridə qazax dilinə keçmişdir;
3. Bu dildə söz əvvəlində y-j əvəzlənməsi səciyyələnir. Məsələn;yaxşı-jaxsı,yaman-jaman,yol-jol. Qazax dilində jş-s,u-ğ əvəzlınmələrinə də rast gəlmək olur. Məsələn:baş-bas,qaş-kas;

4. Qazax dilində v-f,ç-x fonemləri ancaq alınma sözlərin tərkibində işlənir.
5. Qazax dilində sözün əvvəlində r,l samitləri işlənmir. Bunlardan əvvəl ı,i,u,ü saitləri əlavə olunur
6. Qazax dilində kəmiyyət kateqoriyası -lar//-ler,-dar//-der,-tar//-ter şəkilçisi ilə işlənir.Məsən:qızlar-kızdar,ayaqlar-ayaktar və s.
7. Qazax dilində n (velyar n səsi) işlədilir:an-vəhşi,ansı-ovçu,en çe-güc,dön-dönmək və s.
8. Bu dildə xəbərlik kateqoriyasının şəkilçisi özünəməxsusluğuna görə oğuz qrupu türk dillərindən fərqlənir. Misallara diqqət yetirək.

Azərbaycan dilində Qazax dilində
təkdə təkdə
I.yoldaşam joldaspın
II.yoldaşsan joldassın
III.yoldaşdır joldas
cəmdə cəmdə
I.yoldaşıq joldaşpız
II.yoldaşsınız joldassızdar
III.yoldaşdır joldas

9. Qazax dilində ismin 7 halı qeyd olunur. Yeddinci hal tarixən işlənmiş birlen//birlən qoşmasının şəkilçiləşmiş variantıdır. Müqayisə edək: qulağı ilə eşitdi-qulağımen esitti. Qazax dilində yeddinci hal birgəlik hal kimi adlanır. Yerdə qalan hallar və onların şəkilçiləri oğuz qrupu türk dillərinə uyğun gəlir.

Məsələn:
Adlıq-yoxdur üy(ev)
Yiyəlik: nın²,tın²,dın²; üynin (evin)
Yönlük ğa/qe/ke/ka; üyqe(evə)
Təsrilik hal nı²,tı²,dı²; üydi(evi)
Yerlik da/de/ta/te; üyde (evdə)
Çıxışlıq dan/den/tan/ten/nan/nen üyden(evdən)

Qazax dilində feillərin inkarı həm şəkilçilərlə **(-ma,-me,-ba,-be,pa,-pe),** həm də **jok**, **emes** sözləri ilə yaranır. Məsələn:**görme**(görmə), **jasba** (yazma), **atpa** (atma), **alğan emespin** (almadım), **ol kelqen jok** (o gələmədi) və s.

Qazax dilində feilin 3 zamanı var:indiki,keçmiş və gələcək zamanlar.

Şühudi keçmiş zaman **-tı, -ti,-dı,-di** şəkilçiləri ilə yaranır: **bardım (getdim), bardın (getdin) və s**.

Nəqli keçmişin şəkilçisi **-ğan,-qen,-kan,-ken** şəkilçisidir:**kelqenbiz** (gəlmişik),**alkansın**(almışsan) və s.

İndiki zaman **-a,-e,-y** şəkilçiləri ilə əmələ gəlir. Bu zamanın analitik forması da var: **okıp otırsın** (oxuyarsan).

Qazax dilində gələcək zamanın iki növü var.Qeyri-qəti gələcək və məqsədli gələcək.Qeyri-qəti gələcək zaman **-ar, -er,-r** şəkilçiləri ilə yaranır.Məsələn: **bararsın** (gedərsən).Onu da qeyd edək ki,bu şəkilçi oğuz qrupu türk dillərində qəti gələcək zaman şəkilçisi kimi işlənir.

Məqsədli gələcək zaman **-mak,-mek,-bak,-bek,-pak,-pek** şəkilçiləri ilə yaranır: **kelmeksin** (gəlməlisən).Məqsədli gələcək zaman Azərbaycan dilindəki vacib formaya uyğun gəlir.

Qazax dilinin dörd şivəsi vardır: cənub şivələri, qərb şivələri, mərkəz-şimal şivələri və şərq şivələri. Bu şivələr arasında az da olsa, fonetik, leksik və qrammatik fərqlər özünü göstərir. Azərbaycan dilində olan hər hansı bir sözün, qavrayışın mənası digər türk dillərində birdən çox sözə uyğun gələ bilər. Bu zaman bir sözün qarşılığrbirdən çox olmuş olur ki, bunu da semantik diferensiasiya adlandırmaq olar. Bu tip sözləri aşağıdaki kimi siniflendirmək olar.Səs və quruluş cəhətdən eyni olan, söz məna cəhətdən tam qarşılığı olmayan sözlər. Məsələn Qazax dilində kol = Azərbaycan dilində qol+əl mənalarına qarşılıq gəlməkdədir. Qazax dilində işlədilən dombıra sözünün (qazax xalqının milli musiqi aləti) digər türk dillərində qarşılığı yoxdur. Türkiyə türkcəsində istifadə edilən bağlama (üç ciit simli musiqi aləti) sözünün digər türk dillərində qarşılığı istifadə edilmir.

Azərbaycan Qazax
Ağac agaş
təyyarə samolyot
dağ taw
dünən keşe
çürü şiri
dayan tokta

fəhlə jumıssşı
dərman däri
kənd awıl
balaca kişkentay
birə bürge
söylə ayt
səs dıbıs
cəhət jak
ilan jılan
yardım kömək

Qazax dilinin artikulyasiya (birgə) yolunun rahatlaşması ilə əlaqədar qazax dilinin tələffüzündə aşağıdakı variasiyalar (dəyişikliklər) yaranmışdır. Birincisi, sözün yumşaldıcı istiqaməti belədir:

1. Yumşaq ¹5 samit və sait olan iki sait arasında gələn /b/ səsi hər iki dodağın yüngül toxunuşu ilə tələffüz edilir, lakin b hərfi yazılır. Bu, rus dilində dodaq-diş təması ilə tələffüz olunan /v/ foneması deyil, dodaq-dodaq təması ilə danışılan türk dilində yumşaq b variasiyası (dəyişikliyi). Məsələn, yebedeysiz-yevedeyesiz, sabaq-savaq, qabağan-qavaqan, abay bol-avay vol, abiger bolu-äviger voluu, tärbie-tärviye, tabaq-tavaq, cazz boyi-cazz voyu.

2. /s/, /s/-dən əvvəl gələn p fonemi "yumşaldacaq" və toxunuşu ilə p və f arasında səs çıxarır: təpsə-təfsə, qapsa-qafsa, köpşik-köfsük, tapsir-təfsir, təpsir-təfsir, topsa-tofsa".

3. //// səslərindən əvvəl /k/. Qor, qala, tapqır, kök, tək kimi sözlərdə /q/ səsləri yumşaldılaraq, ilkin rəngini itirərək nazik tələffüz olunur. Məsələn, aqsa-axşa, aq şañqan-axşañgan, aq sagala-axşañgan, baqsan baqşan etu - baxşan-baxşañ^etüu, kök şäli- stemxşäli, root-kökxcöu¹8

Çağımızın gənclərinin dilində xaç /q/ fonemini yumşaq desək dəyişiklik hesab edilir. Məsələn: maqta sözünü maxta kimi söyləmək kimi. 4. /p/ fonemi özündən sonra gələn sait və ya samit (undi) səsin təsiri ilə yumşalır və /b/ variasiyasına çevrilir: dop-döngelek - köb-döngölők,köpburış-köbbürüş

5. Qazax dilində saitlər ümumiyyətlə qalın və ya hamısı nazik tələffüz və yazılır. Bu qaydaya əməl etməyən sözlər də var. XX. əsrin əvvəllərində orfoqrafiyaya görə ənənəyə nüfuz edən qurmet, qoşemət, kitab. Əgər qüdirət, qaueset, rəqmət sözləri dil qaydasına uyğun yazılıbsa, kürmət və ya qurmat, kitab və ya qitap, qüdirət və ya küdirət, qauasat və ya kəueset kimi yazılıb tələffüz edilməli idi. Amma olmadı. Odur ki, orfoqrafiyaya uyğun oxunması ilə bağlı yalnız sərt danışıq /q/ foneminin yumşaq danışıq variasiyası yaranmışdır.

Qazax dilində samitlərin sərtləşmə prosesi özünü göstərir, dildə bu xüsusiyyət aşağıdakı kimi ifadə olunur:

1. T səsi ilə birlikdə oxunan /s/ səsində əsas ədəd, daş və s. Sözlərin deyildiyi kimi rəngindən fərqli bir ifadə tərzi var. Hər iki çarpaz səs bir araya gələndə son /s/ birləşmiş səslənir. Məsələn, südsüz-sätt, otsuz-otsuz, satsa-sattsa". Burada ts səs rəngini rus dilindəki /ts/ (u) səsi ilə qarışdırmaq olmaz (Kuderinova 2005: 36).

2. T ilə birlikdə gələn ş. /e/ səsləri yumşaq tələffüzdən yayınaraq sərtləşir. Məsələn, pişik cer-catcer, catcerlik - catcerlik. Ts. Tc səsini rus dilindəki ç səsi ilə qarışdırmaq olmaz. Bundan əlavə, /tc/ tələffüzünün /ts/ ilə müqayisədə bir qədər yumşaq olduğu deyilir (Kuderinova 2005: 37).

Ümumiyyətlə, bu qaydalar 2005-ci ildə nəşr olunmuş Qazax dilinin tələffüz lüğətində (Kazakh Dili Orfoepilik Sözlüğü 2005: 1-700) qeyd edilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, bu tələffüz qaydaları yalnız ş/ və /c/min /t/ ilə birləşdikdə baş verir. Yerli xüsusiyyət sayılan ş→ç-in c-deyə çevrilməsi ədəbi dil qaydalarına uyğun gəlmir. Qəşəng (çıxmamaq), mash (mach yox), şatak (çəngəl deyil).

Qazax dilində üç səs həm ərəb qrafikası dövründə, həm də Baytursmovun yaratdığı yazıda hərflərlə işarələnmişdir. Bu həm də ərəb əlifbasında y səsinin işarə olmamasından asılıdır. Lakin sonralar latın (1929) və kiril (1940) əlifbaları qəbul ediləndə üç səsin fonem funksiyasının olmadığı qərara alınıb.

Belə ki, müasir türk dillərinin bir çoxunda rast gəlinən /c/ fonemi qazax dialektlərində və diaspor dillərində işlənsə də yazılmır. Məsələn, əfqan, iran, türk qazaxlarında bütün hecalarda /s/ ç/ yerinə (degençe, çerva, yandamçı) (Ötebekov 1998: 43). Bu dəyişikliyə İran dilinin təsiri ola bilər (Osmanaliyeva 1966: 74). zeta^ 1 nitq Qazaxıstanın Cənub və Cənub-Şərqi Regionlarında da rast gəlinir. Bu fonetik dəyişiklik Özbəkistan, Qırğızıstan və Türkmənistanla həmsərhəd bölgələrdə danışılan qazax dilində də mövcuddur (Otebekov 1998: 43).

Tədqiqatçılar, | C / qazax dilində özbək, uyğur, qırğız dillərində səs təsirindən yarandıqlarını iddia edirlər.

Ümumiyyətlə qazax dilində (y). [bir]. mən gl. [r]. ['yod] yod, I ^ (bt) * laq] laq (oğlaq) u samitləri sözün əvvəlində gələndə. l^ bl raq^ m met] raqmet (sağ ol) və s. ^ 22 Bu saitlər bu situasiyalarda yüngül semantik

rol oynadığından məqalədə nəzərə alınmır (Uəliyev 2005: 32). Çünki bu səslər tək tələffüz olunduqda digər samitlərdə olduğu kimi ondan sonra deyil, ondan əvvəl məhdud saitlər əlavə edilməklə tələffüz olunur: il, ir , tilde m ,w,m^ 23

Eynilə, meşə (meşə), orin (torpaq), otin (ağac) kimi sözlərin əvvəlində <o> saiti əlavə səslə birləşərək [u] ilə söylənilir, ["Otan]" kimi sözlərdə (Vətən);et (ət), Eşki (keçi).Cəbhədən əlavə edilmiş <e>, I ^ y * eI / Eşki, et] kimi tələffüz olunur və s. əlavə olunur (Ualiyev 2005: 33).

Qazax dilinin əsas tələffüz qaydası sait və samitlərin harmoniyasından asılıdır. Sözün birinci hecası qalındırsa, sonrakı hecalar qalın yazılır. Əgər birinci heca nazikdirsə, söz sonuncu hecaya qədər tələffüz olunur. Bundan əlavə, sözün birinci hecası dairəvi saitlə tələffüz olunursa, sonrakı hecalardakı sait və samitlər də yuvarlaqlaşdırılır. (dodaq) olur. Deməli, qazax dilində qalın dairə ahəngdarlığı, nazik dairə ahəngdarlığı, qalın-yastı harmoniya, nazik-yastı harmoniya var. Lakin V.Radlofun tərtib etdiyi materiallarda dairəvi ahəng bəzən pozularaq dairəvi yastı ilə qarışdırılır. Bu vəziyyət XIX. O, göstərir ki, əsrin birinci yarısında qazax dilinin tələffüz qaydasında linqval sinharmonizm aparıcı rol oynamış, dairəvi ahəng (labial sinharmonizm) isə tam dəyişməmişdir.

Oljas Süleymenov qazax ədəbiyyatının görkəmli nümayəndəsidir, o, ölkə xaricində də tanınmışdır. "Aziya", "Meymun ili", "Saç" və "Gözəl zaman" kimi əsərləri xarici dillərə tərcümə edilmişdir. Oljas Süleymenov, eyni zamanda tarix və dillə də maraqlanır və türk dillərinə məxsus olan etimoloji lüğət hazırlamaqdadır. Müasir qazax şairi Dihkan Abilin "Güldəstə" şeirinə baxaq:

Taşkəntdə dəstə gül tutışdı məngə
Onı alıb qayıtdım cana can elka
Stolim üstida cilməyib turar
Mizbanlar hörmətin islatıb dilgə
Güllərning biri aq, biri naparmən
Baksam kuvantırar közimni hər an Ailəm əzizlər o şa gül ilə
Bütün Özbək eli bolqanday mihman
Künlərning artidən yangi kün kələr
Nə teyki çərə yok axir gül solar
Ama Özbək mehri bilən yoğrılqan
Güldəstə kalbimdə şeir bolib kalar.

Azərbaycan dilində:

Daşkənddə mənə bir dəstə gül verdilər. Onu alıb canım xalqımın yanına qayıtdım. O gül dəstəsi masamın üstündən ayrılmaz. Mənə hər zaman ev sahiblərinin etdiyi hörməti xatırladar, amma sonunda güllər solar.Güllərin biri ağ, digəri bənövşəyi rəngdədir. Baxdığım zaman gözlərim qürurla dolar. Ailəm ona elə dəyər verir ki, sanki bütün özbək xalqı bizim qonağımızdır. Hər ötən gündən sonra yeni bir gün gəlir. Nə edim, çarə yoxdur, güllər solacaq. Ancaq bu bir dəstə gül elə bir şeirə bənzəyir ki, özbək xalqının sevgisi ilə yoğrulub hər zaman könlümdə qalacaq.

TƏDQIQAT METODU

Tədqiqat işinin aparılmasında təsviri və müqayisəli metodlardan istifadə olunmuşdur.

NƏTİCƏ

Hər hansı bir dil yazılı və şifahi olaraq yaşıyar.Qazax dilinin təşəkkülündə,öyrənilməsində aparılan araşdırmalar bu gün onun inkişafına hər tərəfli zəmin yaradır.Qazax dilinin özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri mövcuddur. Sovetlər dönəmində Qazaxıstanda rus dili yayılmış olduğu kumi, hazırda da gənclər üçün bu rolu ingilis dili oynayır. Inanırıq ki, ikinci və üçüncü dillərin öyrənilməsi ana dilinə dərindən bələd olub gündəlik həyatda onun vasitəsilə ünsiyyət saxlamağa manea yaratmaz. Ümid edirik ki, gələcəkdə də pedaqoq və tədqiqatçılar həm qazax, həm də digər türk dillərinin öyrənilməsinə və tədrisinə böyük sevgi və qayğı ilə yanaşaraq dilin hər tərəfli inkişafı və istifadəsi üçün öz cəbhələrində mübarizə aparacaqlar.

ƏDƏBİYYAT SİYAHISI

1. Buludxan Xəlilov. Türkologiyaya giriş. Bakı, 2013
2. Nizami Cəfərov. Türkologiyaya giriş. Bakı, 2016
3. Nizami Cəfərov, Aysel Qəribli, Emin Qəribli. Türkologiya. Bakı, 2018
4. Mübariz Yusifov. Türkologiyaya giriş. Bakı, 2000
5. Elçin İbrahimov. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, 2017.
6. Xudiyev Nizami.Qədim türk yazılı abidələrinin dili.”Elm və təhsil” Bakı, 2015, 596 səh
7. Rəcəbli Əbülfəz.Qədim türk yazısı abidələrinin dili.1 hissə.”Nurlan” Bakı,2006, 648 səh
8. Şükürlü Əlisa.Qədim türk yazılı abilərinin dili.,”Maarif” Bakı,1993, 336 səh
9. Vəliyeva Gülxanım.Qədim türk dili (dərs vəsaiti). Bakı, 2013, 118 səh
10. Zeynalov Fərhad. Türkologiyanın əsasları. Bakı, Maarif, 1981
11. Kaşğari M. Divanü lüğat-it-türk. I cild.Bakı, “Ozan”, 2006, 512 səh. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər
12. Cavad Heyət,Türk dilləri və ləhcələrinin tarixi. Bakı, "Təhsil", 2011.
13. Gözde Gökova Kurt. Kazak dili lehçesi yazı dili haline gelirken. Elmi məqalə. Dil Araştırmaları, payız, 2019/25: 193-202.
14. Kuralay Kuderınova. Çağdaş kazak türkçesindeki fonetik değişiklikler. Süleyman Demirel Üniversitesi, Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2015/2, Sayı:22, s. 29-44.

İDMAN LEKSİKASINDA NORMA POZUNTULARI

İLKİN ƏSGƏROV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya fakültəsi
Ilkin-esger@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində idman leksikası xüsusi bir lay təşkil edir. İdmanla bağlı dilimizdəki sözlər də milli və alınma mənşəli olur. Demək olar ki, müstəqillik illərində müxtəlif sahələrlə yanaşı, idmanın da inkişafı dilimizə yeni-yeni terminlərin, neologizmlərin gəlməsi, işlənməsi prosesini daha da sürətləndirmişdir. Dilin inkişafı ilə bağlı olaraq belə lüğəvi vahidlərin bir hissəsi zaman-zaman ümumişlək sözə çevrilmişdir. Bu işdə publisistik üslubun da böyük rolu vardır. Buna baxmayaraq, hazırda bu üslubda yazılmış mətnlərdə kifayət qədər ədəbi dil normalarının pozulması hallarına rast gəlmək mümkündür. Bu məqalədə qəzet və saytların dilindəki idman leksikası ilə bağlı qüsurlardan, norma pozuntularından, xüsusilə də mətbuat dilində idmanla bağlı xəbərlərdə öz əksini tapmış leksik norma pozuntularından bəhs olunur. Həmin norma pozuntuları seçilmiş konkret nümunələr əsasında ümumiləşdirilərək izah olunur.

Нарушения нормы в спортивной лексике

Спортивная лексика представляет собой особый пласт в словаре современного азербайджанского литературного языка. Слова, относящиеся к спорту, в нашем языке также имеют национальное и приобретенное происхождение. Можно сказать, что за годы независимости, наряду с различными областями, развитие спорта ускорило процесс появления и развития новых терминов и неологизмов в нашем языке. В связи с развитием языка некоторые из этих лексических единиц время от времени становились общеупотребительными словами. Немаловажную роль в этой работе играет и публицистический стиль. Однако в настоящее время в текстах, написанных в этом стиле, можно встретить ряд нарушений норм литературного языка. В данной статье рассматриваются недостатки и нарушения спортивной лексики в языке газет и сайтов, особенности лексических нарушений в языке прессы, которые находят отражение в спортивных новостях. Эти нарушения обобщаются и поясняются на основе выбранных конкретных примеров.

Violations of norm in sports vocabulary

Sports vocabulary is a special layer in the dictionary of the modern Azerbaijani literary language. Words related to sports in our language also have a national and acquired origin. It can be said that during the years of independence, along with various areas, the development of sports has accelerated the process of

emergence and development of new terms and neologisms in our language. In connection with the development of the language, some of these lexical units have become common words from time to time. Publicistic style also plays an important role in this work. However, at present, in texts written in this style, one can find a number of violations of the norms of the literary language. This article discusses the shortcomings and violations of sports vocabulary in the language of newspapers and websites, the features of lexical violations in the language of the press, which are reflected in sports news. These violations are summarized and explained on the basis of selected specific examples.

AÇAR SÖZLƏR: norma, leksika, ədəbi dil, idman leksikası, mətbuat dili

КЛЮЧЕВЫЕ СЛОВА: норма, лексика, литературный язык, спортивная лексика, язык прессы

KEY WORDS: norm, vocabulary, literary language, sports vocabulary, press language

GIRIŞ

Müasir Azərbaycan ədəbi dilinin olduqca zəngin fonetik, leksik və qrammatik quruluşu vardır. Dilimiz öz təbiətinə, ahəngdarlığına, səlisliyinə, musiqiliyinə, ən əsası da qrammatik quruluşun möhkəmliyinə və sabitliyinə görə dünyanın ən zəngin dillərindən biri hesab olunur.

Bu gün dövlətimizin həyata keçirdiyi dil siyasəti dövlətin müəyyənləşdirdiyi əsas aparıcı istiqamətlərdən hesab olunur. Demək olar ki, Azərbaycan dili ilə bağlı verilmiş bütün fərman və sərəncamlarda, qərarlarda bu məsələlər xüsusilə aktuallaşdırılır, ədəbi dil normalarının qorunmasının vacib və zəruriliyi qeyd olunur. Əlbəttə, bu dilin inkişafı və gələcəyi üçün çox mühüm məqamdır. Qeyd etmək lazımdır ki, "Dövlət Proqramı, habelə bunların əsasında müəyyən dövlət qurumlarının qəbul etdiyi qərarlar, həyata keçirdiyi tədbirlər dövlətin dil siyasəti sahəsində Azərbaycanda dilçiliyinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən edən əsas məqamlar kimi çıxış edir. Məhz Azərbaycan dili ilə bağlı bu normativ hüquqi aktların sayəsində Azərbaycan dilinin hərtərəfli tədqiqi və tədrisi, o cümlədən müqayisəli şəkildə öyrənilməsi istiqamətində mühüm işlər görülmüş və bu proses uğurla davam etdirilir".[4]

Bir məqamı da xüsusi ilə vurğulamaq lazımdır ki, ana dilimizlə bağlı müvafiq sənədlərdə dilin saflığını qorumaq məsələsi xüsusi bir xətt təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda və "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli Fərmanında da ədəbi dil normalarının qorunması, ana dilimizin saflığının qorunması ilə bağlı məsələlər öz əksini tapmışdır. Məsələn, Fərmanda qeyd olunur ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir.[1]

Cənab Prezidentin 2015-ci ilin 9 noyabrında Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda və eləcə də 5 noyabr 2018-ci ildə Ağdam Muğam Mərkəzinin açılışında etdiyi çıxışın əsasını da məhz ana dilinin saflığı, onun qorunması və təmizliyi uğrunda mübarizə təşkil edir. Ağdam Muğam Mərkəzinin açılışında ölkə başçısı muğam ifaçıları ilə görüşü zamanı bu münasibətlə demişdir: "Bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir, biz dilimizi xarici təsirdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Ancaq biz görürük ki, bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Bu gün bu fürsətdən istifadə edərək, bir daha bildirmək istəyirəm ki, hamımız öz dilimizi qorumalıyıq.[4]

Çox təəssüf ki, bu gün mətbuat dilində, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması ilə bağlı çoxlu sayda faktlar var. Bu faktlar da bütün növ norma pozuntularını əhatə edir.

İdman leksikasında da belə norma pozuntuları çoxluq təşkil edir. Həmin pozuntuların arasında da leksik norma pozuntuları xüsusi bir lay təşkil edir. Leksik pozuntular əsasən daha çox sözü yerində düzgün işlətməmək və yersiz, süni alınma sözlərlə əlaqədardır. [5] Qəzet və saytların dilinin tədqiqi göstərir ki, pozuntuların böyük əksəriyyəti tipik səhvlərdir. İdman leksikasında, xüsusən də futbolla bağlı hazırlanmış

xəbərlərdə rast gəlinən həmin səhvlərə ümumiləşdirib əsasən aşağıdakı kimi vermək olar. Leksik pozuntu olan cümlələrə nəzər salaq:

“Bu itkilər növbəti raundda heyətində müəyyən problemlər olan çempionumuza mənfi təsir edə bilər”. (“Ekspress”, 25.07.18), “Əsas raundda iştirak edən 32 komanda 8 qrupa bölünüb”. (https://lent.az/xeber/idman/xeber__color_red_gozler_monakoda__color_____qarabag___in_reqibleri_mueyyenlesir__-281837), “Ağdam klubu bu raundda Fransa təmsilçisi "Marsel"lə qarşılaşacaq”.(http://www.cbcsport.az/news/list/1535.html)

İlk baxışda bu cümlələrdə hər şey qaydasında görünür. Lakin “raund” sözünün belə məqamlarda işlədilməsi tamamilə əsassızdır. Belə ki, cümlənin işləndiyi mətnin məzmunundan da məlum olur ki, fikir futbol haqqındadır. Raund isə futbolla bağlı deyil, boksla əlaqədar işlənən əsas anlayışlardan biridir. İdman terminləri lüğətində də raund sözü boksla bağlı termin kimi izah olunmuşdur.[2, s.399] Futbolda isə raund olmur. Mətnin ümumi oxunuşuna görə, belə nəticə çıxır ki, yuxarıdakı cümlələrdə söhbət növbəti turdan və ya təsnifat mərhələsindən gedir. Mətbuat dilinin tədqiqi göstərir ki, son zamanlar raund sözü heç bir ehtiyac və zərurət olmadan “mərhələ” sözünün də yerində işlədilir. Məsələn: Rusiya ilə Ukrayna arasında danışıqların növbəti raundunun vaxtı açıqlandı.(https://banker.az/rusiya-ilə-ukrayna-arasinda-danisiqlarin-novbəti-raundunun-vaxti-aciqlandi/), Rusiya Xarici İşlər Nazirliyi Ukraynadakı hərbi əməliyyatların məqsədini və danışıqların növbəti raundunda mühüm addımların atılacağını açıqlayıb.(https://report.az/diger-olkeler/rusiya-xin-ukrayna-ile-danisiqlarin-novbeti-raundunda-muhum-addimlar-atilacaq/), Türkiyə Yunanıstanla növbəti məsləhətləşmə raunduna hazırlaşır.(https://www.gununsesi.info/turkiyə-yunanistanla-novbəti-məsləhətləsmə-raunduna-hazirlasir/)

“Dani Kintana uzun müddətə sıradan çıxıb” (“Ekspress”,9-13.08.18), “Ozobiç uzun müddətə sıradan çıxdı”. (https://www.football-plus.az/11583-ozobich-uzun-muddete-siradan-chixdi.html) "Barselona"nın futbolçusu sıradan çıxdı. (https://offsideplus.az/liqalar/la-liga/52328-barselona-nın-futbolçusu-sıradan-çıxdı-4). Bu cümlələrdə “sıradan çıxmaq” birləşməsi nə qədər obrazlı, mübaliğəli şəkildə verilsə də, yerində işlənməyib. Situasiya həmin birləşmənin nəzərdə tutulmuş mənaya uyğun işlədilməsinə imkan vermir. “Sıradan çıxmaq” bir frazeoloji vahid kimi dilimizdə əsasən “xarab olmaq”, “korlanmaq”, “işə yaramamaq”, “işə düşməmək”, “qırılmaq” və s. kimi mənalar ifadə edir. İdman leksikasında isə rast gəlinən “sıradan çıxmaq” frazemi isə fərqli çalara malikdir. Maşın sıradan çıxar, texnika da. Ancaq nəzərə almaq lazımdır ki, bu və bu tip cümlələrnin subyekti insandır. Ona görə də buradakı “sıradan çıxmaq” birləşməsi uğursuz disfemizm kimi dəyərləndirilməlidir. Göstərilən məqamda həmin birləşmənin yerinə “zədələnmək” feili işlədilməli idi.

“Hazırda türkiyənin “Ərzurumspor” klubunda çıxış edən 30 yaşlı qolkiper yeni məktəbin fəaliyyəti ilə bağlı məlumat verib” (Teleqraf.com, 04.09.18) “40 yaşlı əfsanəvi forvardın parlaq karyerası ərzində dilə gətirdiyi maraqlı fikirlərlə tanış olmaq pis olmazdı”. (“Kaspi”, 14.11.18) “30 yaşlı forvard “Real”ın tarixində 200 qol həddini keçən yeddinci futbolçu olub”(“İki sahil”, 09.11.18) Müxtəlif mətbu orqanlardan verdiyimiz bu nümunələrdə işlənmiş “qolkiper” və “forvard” sözlərinin dilimizdə işlənməsinin heç bir elmi əsası yoxdur. Bu sözlər dilimizdə son illər süni şəkildə işlədilir. Əvvəllər daha çox teleşərhçilərin dilində təsadüf olunsa da, indi demək olar ki, əksər mətbu orqanların dilində rast gəlinir. Bu sözlərin dilimizdə müvafiq olaraq “qapıçı”, “hücumçu” kimi oturuşmuş və qəbul olunmuş qarşılıqları var. Ona görə də gec olmadan bu kimi sözləri dilimizdən çıxartmaq, süni işləkliyinin qarşısını almaq lazımdır.

“Referinin ardıcıl kobud səhvlərindən sonra məsələyə qarışan Afrika Futbol Konfederasiyasının (CAF) nümayəndələri əlavə dəqiqələrin oynanılacağını açıqlayıb”.(https://report.az/futbol-xeberleri/afrika-milletler-kuboku-referi-matci-2-defe-vaxtindan-evvel-bitirib/), “Qeyd edək ki, 24 referinin yer alacağı yekun siyahı 2021-ci ilin iyul ayında açıqlanacaq”. (http://ikisahil.az/post/215131-azerbaycanli-referi-dunya-chempionati-uchun-namized-hakimler-siyahisinda) Bu cümlələrdə işlənmiş “referi” sözünə dilimizdə ehtiyac yoxdur. İdman terminləri lüğətində də bu söz dörd müxtəlif mənada izah olunmuş, lakin yuxarıda verilmiş nümunələrdə nəzərdə tutulmuş mənası verilməmişdir. Qeyd edək ki, dilimizdə bu sözün qarşılığı kimi işlənən, oturuşmuş və qəbul olunan ümumşərq mənşəli idman termini olan “hakim” sözü vardır. [3]

“Sabiq milli üzvü Şahruddin Məhəmmədəliyevin Portuqaliyaya qarşı görüşdə çox seyv etməsinin normal olduğunu bildirib”. (https://www.sportinfo.az/idman_xeberleri/milli_komanda/109990.html), “Panatinaikos”un qapıçı fantastik seyv etdi. (http://sportal.az/news/87717) Bu cümlələrdəki “seyv” sözü də bu gün idman leksikasında ehtiyac olmadan və norma pozuntusu yaradan sözlərdən biridir. Dilimizdə “saxlamaq”, “qurtarmaq” mənasını verən bu söz mətbuat dilində daha çox həm “seyv”, həm də “etmək” köməkçi feili ilə birlikdə işlənir. Bu lüğəvi vahidin əvəzinə “qurtarma”, “qurtarış” sözlərini işlətmək

mümkündür. Qeyd edək ki, yuxarıdakı cümlələrdə başqa qüsurlar da var. Məslən, birinci cümlədə "sabiq" sözü düzgün işlədilməyib. Yaxşı olardı ki, cümlə belə olsun: "Millinin sabiq üzvü Şahruddin Məhəmmədəliyevin Portuqaliyaya qarşı görüşdə çox seyv etməsinin normal olduğunu bildirib". Milli indi də var… İkinci cümlədə isə "Panatinaikos" sözü müəyyənlik bildirən yiyəlik halda olduğu üçün "qapıçı" sözü üçüncü şəxsin mənsubiyyət şəkilçisi ilə işlənməli idi.

TƏDQIQAT METODU

Tədqiqat zamanı materialın xarakterinə uyğun olaraq təsviri və müqayisəli metodlardan istifadə edilmişdir.

NƏTICƏ

Nəticə kimi qeyd edə bilərik ki, idman leksikasında da rast gəlinən norma pozuntuları arasında fonetik, leksik və qrammatik normanın pozulması halları çoxdur. Lakin leksik norma pozuntuları daha çox müşahidə edilir. Bu fakt özünü həm yazılı nitqdə, həm də şifahi nitqdə göstərir. İdman leksikasının linqvistik tədqiqi də onu deməyə əsas verir ki, qüsur və pozuntuların böyük əksəriyyəti yazı müəlliflərinin fərdi xüsusiyyətləri ilə bağlıdır. Onu da qeyd edək ki, bu norma pozuntuların çoxu əvvəllər əsasən teleşərhçilərin, idman xəbərləri aparanların nitqində işlənirdi. Ancaq indi həmin norma pozuntuları özünü yazılı nitqdə, internet resurslarında, elektron media məkanında, ümumiyyətlə, kütləvi informasiya vasitələrinin dilində daha qabarıq göstərir. Leksik norma pozuntularının da böyük əksəriyyəti yersiz, ehtiyac olmadan, süni yaradılmış termin kimi işlədilən alınma mənşəli sözlərin istifadəsi ilə bağlıdır. Ona görə də belə süni, yersiz, ehtiyac olmadan işlədilən, gətirilən alınma sözlər dilimizin lüğət tərkibində sabitləşməmiş, oturuşmamış onlara qarşı mübarizə aparmaq, ana dilimizin saflığını qorumaq lazımdır. Bir çox hallarda belə sözlərə qarşı mübarizə düzgün getmir. Bu sözlər lüğətlərdə, yazılı nitqdə öz əksini tapdıqca sonradan onu nitqdən çıxartmaq çətin olur. Ona görə də yersiz alınma sözlərə qarşı vaxtında mübarizə aparmaq, onların dilimizdəki qəbul olunmuş müvafiq qarşılıqlarını işlətmək və linqvistik maarifləndirmə işinin əhatə dairəsini daha da genişləndirmək lazımdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, https://president.az/az/articles/view/30563(elektron resurs)
2. Süleyman H, Səməndər A. İdman terminlərinin izahlı lüğəti. Elm və təhsil nəşriyyatı, Bakı, 2016, 554 s.
3. Aysel Xəlilova, Azərbaycan dilində idman leksikası, http://www.azerbaycandili.az/Synopsis/Download/3248/XƏLİLOVA%20AYSEL%20.AZƏRBAYCAN%20DİLİNDƏ%20İDMAN%20LEKSİKASI.pdf (elektron resurs)
4. İlkin Əsgərov, Dövlət Proqramının linqvistik əhəmiyyəti, https://525.az/?name=xeber&news_id=162472(elektron resurs)
5. İlkin Əsgərov, Mətbuat dilində leksik norma pozuntuları, https://www.medeniyyet.az/page/news/56136/Metbuat-dilinde-leksik-norma-pozuntulari.html (elektron resurs)

QƏDİM TÜRK YAZILI ABİDƏLƏRİNİN TƏDQİQİNDƏ ƏLİSA ŞÜKÜRLÜNÜN ROLU

QƏMBƏROVA SEVİNC
OYU, Pedaqoji, humanitar və dillər fakültəsi
Filologiya və humanitar fənlər kafedrası, müəllim
sevinc.qemberova@mail.ru
BAKI, AZƏRBAYCAN

CƏFƏRZADƏ MƏLƏK
OYU, Pedaqoji, humanitar və dillər fakültəsi
Filologiya ixtisası, 2-ci kurs
melekceferzade67@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qədim türk yazılı kitabələri ümumtürk mədəniyyətinin və tarixinin ən dəyərli abidələridir. Bu abidələr əsasında türk xalqlarının tarixi köklərinin qədimliyi, hələ VIII əsrdə mükəmməl bir əlifbaya, yazı sisteminə, ailə dəyərlərini və bağlarını, həyat tərzi və məişətlərini, şanlı zəfərlərini poetik bir dillə ifadə üslubuna malik olmaqları sübuta yetirilmişdir. Qədim türk yazılı abidələrinin tədqiqində böyük bir nəsil azərbaycanlı və digər türk xalqlarına mənsub olan tədqiqatçıların əhəmiyyətli xidmətləri olmuşdur.

Tezisdə qədim türk yazılı abidələrinin tədqiqində görkəmli dilçi-alim Əlisa Şükürlünün bu sahəyə verdiyi sanballı töhfə və yeniliklər barədə bəhs olunmuşdur. Əlisa Şükürlü uzun müddət ali məktəblərdə pedqoji

fəaliyyətlə məşğul olaraq neçə nəsil filoloqların yetişdirilməsində yaxından iştirak etmişdir. 1993-cü ildə nəşr olunan və uzun müddət ali məktəblərin filologiya fakültəsində tədris olunan "Qədim türk yazılı abidələrinin dili" dərsliyi də müəllifin uzun müddət oxuduğu mühazirə mətnləri və apardığı təcrübi məşğələlər zamanı əldə etdiyi elmi nəticələri əsasında yazılmış, tərtib edilmişdir.

AÇAR SÖZLƏR: ƏLISA ŞÜKÜRLÜ, QƏDIM TÜRK YAZILI ABIDƏLƏRI, MÜQAYISƏLI TƏHLIL

GİRİŞ

Abidələrin görkəmli tədqiqatçılarından olan Əlisa Şükürlü "Qədim türk yazılı abidələrinin dili"kitabında qədim türklərin yazı mədəniyyətin yazılı abidələrdə ifadəsindən, abidələrin dilinin fonetikası, lüğət tərkibi və onları ifadə edən yazı işarələri, əsas nitq hissələri, onlara məxsus olan ümumi və xüsusi qrammatik kateqoriyalar, köməkçi nitq hissələri, həmçinin, abidələrin dilinin sintaksisindən əhatəli şəkildə bəhs etmiş və verilən fikirləri nümunələrlə əsaslandırmışdır. Kitabın sonunda tələbələrin üzərində praktik işlər apara bilməyi üçün qədim türk yazılı abidələrindən (Kül tigin, Tonyukuk, Mogilyan şərəfinə yazılmış abidələr, "Irk bitik" abidəsi və s.) mətn parçaları verilmişdir.

Məskunlaşdıqları ərazi baxımından türk xalqları bir neçə qrupa bölünür. Ə.Şükürlünün təsnifatı aşağıdakı kimi olmuşdur:

1. Qərbi Sibirdə yaşayan türk xalqları. 2. Orta Asiyada və Çin Türküstanında yaşayan türk xalqları. 3. Qafqazda və Kiçik Asiyada yaşayan türk xalqları. 4. Volqaboyunda yaşayan türk xalqları. 5. SSRİ-nin Qərbi Avropa ərazisində və Şərqi Avropa ölkələrində yaşayan türk xalqları.

Nizami Xudiyev bu barədə haqlı olaraq göstərmişdir ki, ümumiyyətlə, Ə.Şükürlünün təsnifatı türk xalqlarının yayıldığı arealı əhatə etsə də, artıq "SSRİ" deyilən bir məkanın olmaması, cəmiyyətin sürətli inkişafı bu təsnifatda dəqiqləşmələrin aparılmasını zəruriləşdirir və türkdilli xalqların məskunlaşdıqları ərazilərin aşağıdakı kimi təsnif edilməsi daha doğru olar:

1. Qafqazda yaşayan türk xalqları. 2. Orta və Kiçik Asiyada yaşayan türk xalqları. 3. Sibirdə və Volqaboyunda yaşayan türk xalqları. 4. Çin Türküstanında yaşayan türk xalqları. 5. Avropada yaşayan türk xalqları.

Abidələrin fonetikasından bəhs edərkən Əlisa Şükürlü doğru olaraq qeyd etmişdir ki, tarixi fonetika anlayışı müəyyən dərəcədə şərtidir, çünki hər hansı bir əlifba qədim dilin fonetik xüsusiyyətlərini əks etdirmək imkanından məhrumdur. Deməli, dövrümüzədək qorunub saxlanan əski yazı mətnlərini oxuyarkən, əslində biz dilin ötən yüzilliklərdə necə səsləndiyini təxmini olaraq bərpa edirik və çox hallarda onları indiki dilimizin fonetikasına uyğunlaşdırırıq.

Məlum olduğu kimi, göytürk əlifbasında olan samitləri üç qrupda birləşdiririk: birvariantlı-qarşılığı olmayan samitlər; ikivariantlı-qarşılığı olan samitlər; səs birləşmələrini ifadə edən yazı işarələri. Gülxanım Vəliyeva "Qədim türk dili"(2013) kitabında qədim türk əlifbasında istifadə olunan on səkkiz (doqquz-birvariantlı və doqquz-ikivariantlı) samit səs barəsində məlumat vermişdir. Əlisa Şükürlünün tədqiqat əsərində isə göstərilmişdir ki, Göytürk yazılı abidələrində samit səslərin sayı on altıdır. Digər samitləri isə A.N.Kononovun təxminlərinə əsaslanaraq, dialekt fərqinin təzühürü kimi vermişdir.

Əlisa Şükürlü araşdırmasında Göytürk əlifbasında qoşa səsləri ifadə edən dörd yazı işarəsinin olduğunu qeyd etmişdir. Müəllif göstərmişdir ki, bunlardan üçü qoşa samit, biri isə sait və samit səslərin qoşa tələffüzünü [aş] bildirir. Gülxanım Vəliyeva "Qədim türk dili"(2013) kitabında qədim türk əlifbasından üç səs birləşməsini göstərmişdir: **V**-[lt], **Θ**--[nt], **C**-[nç]. Əbülfəz Rəcəbli isə dördcildlik "Qədim türk yazısı abidələri" kitabının (2006) birinci cildində yazmışdır ki, abidələrin mətnlərində beş belə işarə vardır. Müəllif [iç] və [bş] qoşa səslərini bildirən yazı işarələrini də qeyd etmişdir.

Qədim türk yazılı abidələrinin leksikasından bəhs edərkən Əlisa Şükürlü böyük qayğı ilə bu sahəyə yanaşaraq haqlı olaraq qeyd etmişdir ki, türkologiya elminin qarşısında duran əsas vəzifələrdən biri qədim türk yazılı abidələrinin lüğət tərkibini elmi əsaslar üzrə öyrənməkdən ibarətdir. Müəllif abidələrin leksikasının mənşəcə təsnifindən bəhs edərkən göytürk yazılı abidələrinin, demək olar ki, başqa dillərin təsirindən uzaq olduğunu və bu abidələrdə çox az miqdarda Çin, Tibet dillərindən alınmış terminlərə, qədim uyğur yazılı abidələrində isə İran dillərindən alınmış sözlərə rast gəlmək mümkündür.

Əbülfəz Rəcəbli isə "Qədim türk yazısı abidələri" əsərində abidələrin lüğət tərkibini mənşəcə iki qrupa ayırmışdır: 1) ümumtürk sözləri; 2) alınma sözlər. Alınma sözlərə nümunə olaraq şəxs adlarını, məsələn, Lisün (BK c 11), İsyi Likən (KT şm 12) və aşağıdakı ümumişlək sözləri göstərmək olar: lüi (0 12) «əjdaha» - on iki il sikli təqvimdə il adı; kunçuy (KJ ş 20) «xanım, arvad» (Çin dilində yançji); sənjün (KT ş 32) saŋun (Y 24) «general»; çor (K.T ş 32) «ən yüksək hərbi rütbə» (Çin dilində: çjö) ; tutuk (KT ş 31, 32) «mülki inzibati vəzifə, vali» (Çin dilində: tu-tü) və s.

Yadigar Əliyevin bu sahədə irəli gedərək abidələrin dilində azlıq təşkil edən alınmaları qruplaşdırmışdır: 1. xüsusi isimlər 2. xüsusi isim olmayan leksik vahidlər. Xüsusi isimlər. Onlar dinamik ünsiyyət vahidi deyil və əsasən çin, tibet dillərinə aiddir. Məsələn: Çan Senün, Lisün Tay, Bölön və s. Digər alınmalar müxtəlif sahələri əhatə edir və Çin, monqol dillərinə aiddir. Məsələn: kutay (ipək), kunçuy (xanım), lü (əjdaha), lazğın (donuz), taluy (dəniz) və s.

Əlisa Şükürlü, Gülxanım Vəliyeva və digər müəlliflər abidələrin dilində köməkçi nitq hissələrindən bəhs edərkən, ancaq qoşma, ədat və bağlayıcılar haqqında məlumat vermişlər. Əbülfəz Rəcəblinin tədqiqatlarında isə biz modal sözlər, nida, təqlidi və predikativ sözlər barədə məlumat və nümunələrə da rast gəlirik.

Sevindirici haldır ki Əlisa Şükürlünün övladı Elşən Şükürlü atasının tədqiqatlarını davam etdirməkdədir. Belə ki, onun 2011-ci ildə "Qədim türk yazılı abidərinin dilində onomastik vahidlər" adlı tədqiqat işi dərs vəsaiti kimi nəşr olunmuşdur. Müəllif göstərmişdir ki, vəsaitdə toplanan onomastik vahidlər bu abidələrdə daha çox, ən azı iki dəfə işlənən sözlərdən ibarətdir. Onomastik vahidlərin, xüsusən də antroponimlərin formalaşmasında fellər xüsusi rol oynamışdır. Türklərin ad qoyma ənənəsinə uyğun olaraq təbii ki, bu sözlər əsasən düzəltmə və mürəkkəb sözlərdən ibarət olmuşdur. Burada abidələrin dilində etnik, şəxs, yer, heyvan və rütbə adlarını bildirən sözlər tədqiqat obyekti kimi götürülmüşdür.

TƏDQİQAT METODU

Tədqiqat işinin aparılmasında təsviri və müqayisəli metodlardan istifadə olunmuşdur.

NƏTİCƏ

Aparılan tədqiqatda qədim türk yazılı abidələrinin tədqiqində əhəmiyyətli rol oynamış azərbaycanlı türkoloq, dilçi-alim Əlisa Şükürlünün pedaqoji fəasliyyətində və araşdırmalarında gəldiyi nəticələrə nəzər salınmışdır. Tədqiqat işində digər müəlliflərin gəldiyi nəticələr də müqayisəli şəkildə işıqlandırılmışdır. Qədim türk yazılı abidələri türkdilli xalqların tarixində olan qaranlıq və saxtalaşdırılan səhifələrə hər zaman işıq tutmuşdur. Ümid edirik ki, abidələrin araşdırılması gənc tədqiqatçıların da diqqət mərkəzində olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Cəfərov Nizami, Aysel Qəribli, Emin Qəribli. Türkologiya. Bakı, 2018
2. Əliyev Yadigar. Qədim türk runik yazılı abidələrinin dili. Dərs vəsaiti. Bakı, Nurlan, 2004.
3. Xudiyev Nizami.Qədim türk yazılı abidələrinin dili."Elm və təhsil" Bakı, 2015.
4. İbrahimov Elçin. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, 2017.
5. Kaşğari Mahmud. Divanü lüğat-it-türk. I cild.Bakı, "Ozan", 2006, 512 səh. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər
6. Rəcəbli Əbülfəz.Qədim türk yazısı abidələrinin dili.I hissə."Nurlan" Bakı,2006.
7. Şükürlü Əlisa.Qədim türk yazılı abidərinin dili."Maarif" Bakı,1993.
8. Şükürlü Elşən. Qədim türk yazılı abidərinin dilində onomastik vahidlər. Bakı, Mütərcim, 2011.
9. Vəliyeva Gülxanım.Qədim türk dili (dərs vəsaiti). Bakı, 2013, 118 səh

OĞUZ GRUPU TÜRK DİLLƏRİNDƏ YALANÇI EKVİVALENT NİTQ FEİLLƏRİ

Usubova Gülnisə
AMEA akad. Z. Bünyadov adına
Şərqşünaslıq İnstitutunun kiçik elmi işçisi
usubova1992@gmail.com
Azərbaycan Bakı

Xülasə

Məqalədə oğuz grupu türk dilləri olaraq bilinən Azərbaycan, türk, türkmən və qaqauz dillərində yalançı ekvivalent feillər müəyyən olunmağa çalışılmışdır. Bu dillər qohum dillər olub, morfoloji cəhətdən iltisadi dillər topluluğuna daxildirlər. Məqalədə nitq feillərinin məna baxımından tədqiq edilməsi, yazılışı və tələffüzü bir-biri ilə eyni olan sözlərin yazılı və ya sinxron tərcümədə doğru izah edilməsinə köməklik edəcəkdir. Bu məqalədə həmin fərqlərin kiçik bir hissəsi ələ alınıb.

Açar sözlər: oğuz grupu, yalançı ekvivalentlər, nitq feilləri

Elmi tədqiqat metodu. Oğuz grupu türk dillərindəki yalançı ekvivalent nitq feillərinin təsbit edilməsində Azərbaycan, türk, türkmən və qaqauz dillərindəki lüğətlərdən istifadə olunmuşdur. Məqalə dörd türk dilinin lüğətlərindəki yazılışı və tələffüzü eyni olan feilləri taparaq, müqayisəli-qarşılaşdırma metodundan istifadə edilmişdir.

Türk xalqlarının bir-birinə yaxınlaşdığı, birlikdə lahiyələr tərtib etdiyi bu dövrdə türk dilləri arasında yalançı ekvivalentlərin müəyyən olunması böyük əhəmmiyyət kəsb edir. Əsərlərin türk ləhçələri arasında çevrilməsi və türk dillərinin öyrənilməsi hallarında yalançı ekvivalent sözlərin aşkarlanması mühüm rol oynacaqdır. Bu tədqiqatda Oğuz grupu türk dilləri olaraq bilinən Azərbaycan, türk, türkmən və qaqauz dilləri arasında saxta ekvivalent feillər müəyyən olunmağa çalışılmışdır. Bu dillər qohum dillər olub, morfoloji cəhətdən iltisadi dillər topluluğuna daxildirlər. Saxta ekvivalent sözlər iki ayrı dildə səs və forma baxımından eyni olan lakin fərqli mənalara gələn sözlərdir. Bu sözlər tərcüməçilərin ən çox səhv saldığı və yanlış tərcüməyə səbəb olan sözlərdir. Qədim ümumtürk dilinin varisləri sayılan Azərbaycan, türk, türkmən və qaqauz dillərinin qrammatik quruluşu və lüğət fondlarının müştərəkliyi tərcümədə səhvlərə yol açır. İlk baxışdan sözlərin yazılış və tələffüzunun eyniliyini görən tərcüməçi onların ana dilindəki anlamı ilə eyni sayib fərqli mənada tərcümə edə bilər. Bu feillərdən bəziləri aşağıda verilmişdir. Tədqiqat işi Oğuz grupu türk dilləri arasındaki tərcümələrdə yalançı ekvivalent sözlərin səbəb olduğu səhvlərin qarşısının alınması məqsədi ilə aparılıb. Oğuz grupu türk dillərində yalançı ekvivalent feillərin təsbit edilməsində Azərbaycan, türk, türkmən və qaqauz dillərinin lüğətlərdən istifadə olunmuşdur.

Ağızlaşmaq felinin izahlı lüğətdəki mənaları aşağıdaki kimidir: 1. bir-biri ilə sözləşmək, dillə dalaşmaq, söyüşmək. 2. Dilləşmək, məsləhətləşmək, sözü bir yerə qoymaq. (ADİL: 67). Türkmən dilin lüğətində də oxşar mənalarda ifadə olunur: kiminsə sözünə cavab vermək, dillə dalaşmaq, mübahisə etmək. (TDDS: 42). Türk dilində isə tamamilə fərqli mənada işlədilir: iki qan damarı bir-biri içinə açılmaq (BTS: 48). Qaqauz dili lüğətində ağızlaşmaq feli yoxdur. Ağızlaşmaq feli Azərbaycan və türkmən dili ilə türk dili arasında tam yalançı ekvivalent sayılır.

Atışmaq- AZ:1. Qarşı-qarşıya durub, bir-birinə güllə atmaq. 2. Atışda, nişancılıqda yarışmaq. 3. Məc. bir-birinə ağır sözlər demək, söyüşmək, dalaşmaq. (ADİL: 161). TR: Mübahisə etmək; ondan inciyən biri ilə sanki barışmış kimi danışmaq; uşaq oyunlarında komandada olanları müəyyən etmək üçün qarşılıqlı addım atmaq. (BTS: 185).Trkm: bir-birinə silah çəkmək; bir şeyi daş və ya silahla nəyisə vurmaq üçün yarışmaq; birlikdə atəş açmaq. (TDDS: 91; Saparov 1997: 32). QT: bir-birinə güllə atmaq, bir-birinə atmaq; dalaşmaq, mübahisə etmək, münaqişə etmək (GRRS: 52). Türk dillərində oxşar mənalarda işlədilən atışmaq feli qismən yalançı ekvivalent sayılır.

Avundurmaq: AZ:*sakitləşdirmək, təskin etmək, ovutmaq* (ADİL III: 537). TR:*Başını qatmaq; dərdini dindirmək, dərdi unutdurmaq, təsəlli vermək* (BTS: 193); Trkm:*Birinin bədənini bərk ağrıtmaq, kiminsə bir yerini bərk ağrıtmaq; kimisə incitmək* (TTDS: 93; TDS: 15); Qaqauz dilində mövcud deyil.

Azarlamaq sözünün Azərbaycan dilindəki mənası *xəstələnmək, naxoşlamaq.* (ADİL: 188). Türkmən dili lüğətindəki *yoluxucu xəstəlik tutmaq; narkotik istifadə etmədiyi üçün pis əhval-ruhiyyədə olmaq; kədərli olmaq; yaranın artması nəticəsində ağrının artması Azərbaycan dilindəki* əsas məna ilə örtüşür. (TDDS: 105). Felin türk dilindəki acı və ağır söz söyləmək, qınamaq, danlamaq (BTS: 214) əsas anlamı ilə də Qaqauz dilindəki *qinamaq, danlamaq; incitmək* anlamı isə eynidir. (GRRS: 64). Azarlamaq felinin Azərbaycan və türkmən dilindəki mənası ilə türk və qaqauz dilindəki mənalar ilə tam yalançı ekvivalent sayılır. Azərbaycan və türkmən dilləri arasında isə qismən yalançı ekvivalent sayılır.

Bağırmak felinin Oğuz grupu türk dilləri içində əsas mənası *qışqırmaq* olaraq keçir. Felin əsasən Türk dili ilə qaqauz dilindəki mənaları bir-biri ilə örtüşür: Azərbaycan və türkmən dilində isə ağlamaq anlamına rastlanılır: AZ: *çığırmaq, qışqırmaq. 2. Ağlatmaq.* (ADİL: 202). Trkm: *(hayvanlar üçün) böyürərək səs çıxarmaq; şikayət etmək, sızlamaq, ağlamaq* (TDS: 65; Beşen Delice 2010: 330). TR: *insan yüksək və gur səs çıxarmaq; özünü göstərmək; yüksək səslə danlamaq* (BTS:228). QT*: Ucadan danışmaq, qışqırmaq, böyürmək; çağırmaq, səsləmək; ad qoymaq. söymək, yüksək səslə danlamaq*.(GRRS: 68). Nəticə də bağırmaq feli dört türk dili arasında qismən yalançı ekvivalent xüsusiyyətə malikdir.

Dinmək felinin Azərbaycan dilinin izahlı lüğətindəki birinci mənası *danışmaq, söz söyləmək,* ikinci mənası *səslənmək, eşidilmək*, üçüncü mənası isə *acıqlanmaq, keyfinə dəymək* kimi keçir. Türk dilində isə felin ilk anlamı sona ermek, bitmek, durmak; Gözyaşlarım dindi, ferahladım, eski hayatıma kavuştum. – Y.K. Beyatlı. İkinci mənası qarın və yağışın yağması, küləyin əsməsinin kəsilməsi: *Dinmiş lodosların uğultusu içinde/İstanbul'u dinliyorum, gözlerim kapalı* -O. V. Kanık. (BTS, 595) Sözün Qaqauz dilində yer alan ilk anlamı isə *yorulmaqdır*: gezmekten dinmee (yorulmaq) (GTS, 75) Türk və Türkmən dillərindəki *kəsilmək,*

sona ərmək mənası Qaqauz lüğətində ikinci sırada yer alır. Sözün *susmaq* mənası "Qaqauz türkçəsi lüğəti"ndə ikinci sırada yer alır.

Fısıldamaq- feli Azərbaycan (ADİL II: 191), türk (TS: 871) və qaqauz (GRRS: 254) dillərində "fısıltı səsi çıxarmaq, alçaq səslə danışmaq" mənasında işlədilir. Türkmən dilində isə feil "quşların qanadlarını bir-birinə sürətlə çırpanda çıxardığı səs" mənasına gəlir. (TDDS II: 214). Feil Türkmən dili ilə digər türk ləhçələri arasında tam yalançı ekvivalent olaraq keçir.

Fitləmək- feli Azərbaycan dilində fit çalmaq, fit vermək; fitlə bildirmək ya çağırmaq (ADİL II: 200). Türk (TS: 881) və qaqauz dillərində isə təhrik etmək, sövq etmək, qızışdırmaq mənasında işlədilir. Bu məna Azərbaycan dili lüğətində məcazi anlamda verilib. Qaqauz dilində felin kələk işlətmək, dolab çevirmək, hiyləbazlıq eləmək kimi anlamları da var. (GRRS: 259) Türkmən dili lüğətində isə felə rast gəlinmir.

Gurlamaq- feli Azərbaycan dilindəki birinci anlamı *bərkdən səslənmək, gurultu qoparmaq, guruldamaq* Qaqauz dili lüğətindəki anlamla örtüşür. (GRRS: 290). Felin izahlı lüğətdəki ikinci mənası *qalın və güclü səs çıxartmaq, bu cür danışmaq.* (ADİL II: 297) isə Türk dilindəki birinci məna ilə üst-üstə düşür.

Həmçinin Türkçə sözlükdə felin *varlığını güclü və effektiv şəkildə göstərmək* kimi məcazı mənaya da rast gəlinir. (TS: 1010). Türkmən dilində isə felin ilk anlamı danışmaq, söhbət etməkdir. İkinci anlamı gurultulu səs çıxartmaq isə yalnız heyvanlar haqqında deyilir. (TDS: 218).

Gurlaşmaq – izahlı lüğətdəki anlamları *1. Daha da gurultulu olmaq, əvvəlkindən gur səslənmək. 2. Şiddətlənmək, artmaq, güclənmək* olaraq keçir. (ADİL II: 297). Türkmən dilində feil isə söhbət etmək, fikir mübadiləsi məqsədi ilə danışmaq, sohbet etmek, məsləhətləşmək (TDS: 218) mənasında işlədilir.Türk dili lüğətində felin yalnız *gurultulu olmaq* mənası var. Qaqauz dilində isə gurlamaq felinə rast gəlinmir.

Qaramaq- Azərbaycan dilində qarğış etmək, nifrin etmək anlamına gəlir. (ADİL III: 52). Türk dilində də qaralamaq, ləkələmək, pisləmək (TS: 1319). anlamları qaqauz dilindəki böhtan atmaq, pisləmək (GRRS: 354) mənalar ilə örtüşür. Türkmən dilində isə feil baxmaq, seyr etmək; mühafizə etmək, məsləhətləşmək, bir məsələyə baxmaq; bir insana bağlanıb onun sözünü yerə salmamaq kimi tamamilə fərqli mənalarda işlədilir (TDS: 147; Saparov 1997: 140).

Kəkələmək- AT: danışanda bəzi səsləri qeyri-iradi təkrar edərək çətinliklə daışmaq. (ADİL II: 668). TT: Damaq səsləri ilə başlayan sözləri və hecaları təkrarlamaq və kəsik kəsik danışmaq; (TS: 1379).TkmT: 'ke ke' səsi çıxartmaq (toyuq haqqında); təkrar-təkrar söyləmək, ancaq bir şeyi təkrarlamaq (TDDS II: 33). QT: qırıq-qırıq danışmaq, alçaq səslə danışmaq (GRRS: 376).

Qınamaq- felinin Azərbaycan və türk dilində məzəmmət edilmək, danlanmaq, təqsirləndirmək, töhmətləndirmək anlamını verir. (ADİL III: 136), (TS: 1411) felin Türkmən dilindəki anlamı isə çətinlik çəktirmək, əziyyət vermək, incitmək, zərər verməkdir. (TDS: 226).

Ovunmaq: AZ:Sakitləşmək, təskinlik tapmaq, təsəlli tapmaq. (ADİL III: 537). TR:Bir şeylə məşğul olaraq dərdini unutmaq, sıxıntılardan uzaqlaşmaq, təsəlli tapmaq; başını qatmaq; heyvanın hamilə olması (BTS: 193). Trkm: bir şeyin təsiri altında güclü şəkildə ağrıması, bədəndə güclü ağrı hiss etmək; kədərli, narahat bir vəziyyətlə qarşılaşmaq; mənəvi əziyyət çəkmək (TTDS: 93). Qaqauz dilində feilə rastlanılmır. Ovunmaq feli türkmən dilində fərqli mənalar ifadə etdiyi üçün tam, türk dili ilə azərbaycan dili arasında isə qismən yalançı ekvivalent sayılır.

Ulamaq sözü Türk, Türkmən və Qaqauz dillərində əlavə etmək, qatmaq, mənasında işlənir. Azərbaycan dilində isə sözün ilk anlamı ulama səsi çıxarmaq, uzun və iniltili səs çıxarmaq. (ADİL, IV, 401) Sözün bu anlamının Türk, türkmən və qaqauz dillərindənki mənası ilə heç bir əlaqənin olmaması, tamamilə fərqli bir mənaya gəldiyi görülür.

Ovutmaq: AZ:sakitləşdirmək, təskin etmək, ovutmaq.(ADİL III: 538); TR:Birinin ağrısını və ya sıxıntısını sakitləşdirmək,təskinlik vermək; başını qatmaq. (BTS: 194); QT:Aldadmaq, yalan demək (GRRS: 54). Türkmən dilində mövcud deyil. Oxşar mənalarda işlədilən ovutmaq feli qaqauz dilində tamamilə fərqli mənaya gəlir. Bu səbəblə qaqauz dili ilə azərbaycan və türk dili arasında tam yalançı ekvivalent xüsusiyyətə malikdir.

Ötmək- AT: (I) keçmək, keçib getmək. (ADİL III: 556). (II) oxumaq, cəh cəh vurmaq, civildəşmək (ADİL III: 556). TT: səs çıxartmaq (quş və ya həşərat haqqında); anlamsız, boş, mənasız danışmaq (TS: 1863).TkmT: keçmək, yanından keçib getmək (TDS: 509). QT: səs çıxartmaq (quşlar haqqında); civildəşmək, dınqırdamaq (GRRS: 503)

Saymaq felinin Azərbaycan, türk və qaqauz dillərindəki ilk və ortaq *anlamı rəqəmləri sıra ilə demək, sanamaq*. Sözün Türkmən dilindəki ilk mənası Azərbaycan dilinin izahlı lüğətində keçən beşinci mənası *bilmək, hesab etmək mənası* ilə örtüşür. (ADİL, 51) Saymaq sözünün bu anlamı Türd dilinin "TDK böyük

lüğəti"ndə doqquzuncu sırada verilmişdir. Eyni məna "Qaqauz türkçəsi lüğəti"ndə ikinci sırada verilmişdir. Saymaa bir kimseyi aamak erine. (Kimisə axmaq yerinə qoymaq)

Susmaq- Azərbaycan (ADİL IV: 163), Türk (TS: 2175) və qaqauz (GRRS: 612). dilində danışmamaq, ağzını açıb bir söz deməmək anlamında işlədilən feilin türkmən dilindəki mənası isə *maye, bərk və ya səpələnmiş kiçik hissələri çömçə, kürək və s. ilə yığmaqdır* (TDS: 614)

Sözləmək- TT: Evləndirmək üçün söz vermək. (TS: 2156). TkmT: danışmaq, söz demək, danışmağa başlamaq, (TDS: 607). QT: qərar vermək, təsdiq etmək, xeyir-dua vermək (GRRS: 603).

Pisləmək- Azərbaycan və türkmən dilində haqqında mənfi fikir söyləmək, lənətləmək, rüsvay etmək mənalarında işlədilir. (ADİL III: 605), (TDS: 535). Türk dilində isə yalnız murdarlamaq, kirlətmək anlamları var. (TS: 1927).

Nəticə

Oğuz grupu türk ləhçələri olaraq adlandırılan Azərbaycan, türk, türkmən və qaqauz dillərinin lüğətlərində keçən **iyirmi** yalançı ekvivalent nitq feili əlifba sırası ilə yazılaraq tədqiq edilmişdir. Yalançı ekvivalentlərin müxtəlif məna dəyişikliyi nəticəsində meydana gəldiyi görülür. Oğuz grupu türk dillərində ortaq olan, lakin məna baxımından bir-birindən fərqlənən sözlərin araşdırıldığı bu tədqiqat işi, yalnız tərcümə xətalarında olan səhvləri minimuma endirmək cəhdi olaraq görülməməli, həm də dildəki dəyişikliyi ortaya qoymaq baxımından nəzərə alınmalıdır. Yalançı ekvivalentləri yalnız tərcümə fəaliyyəti çərçivəsində qiymətləndirmək dilçilik baxımından natamam olardı. Formaca oxşar, hətta eyni kökdən olan sözlər zaman keçdikcə müxtəlif səbəblərdən yeni mənalar qazanır və ya başqa mənaya keçərək dildəki dəyişikliyi canlı görməyə imkan verir. Yəni bu cür müqayisəli lüğət tədqiqatları dildəki dəyişikliyi göstərmək baxımından əhəmiyyətlidir. Unutmamaq lazımdır ki, qohum olan bu dillər bir-birinə çox bənzəsələr də hər dilin özünəməxsus xüsusiyyətləri, öz söz xəzinəsi vardır və eyni yazılıb-tələffüz edilən sözlərdə belə anlam baxımından fərqliliklər ola bilər.

ƏDƏBİYYAT SİYAHISI

AMEA Dilçilik İnstitutu, Azərbaycan dilinin izahlı lüğəti, I-IV cild, Şərq-Qərb nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2006.
Əsgər Rəsulov, İzahlı türkçə-azərbaycanca yalançı ekvivalentlər lüğəti "Elm və Təhsil" **(Kitab).** Bakı/Azərbaycan. 2015
Nikolay Baaboğlu ve İgnat Baboğlu, Dicţionar Găgăuz-Roman Roman- Găgăuz, Editura Lumina, Chişinău. 1998
Talat Tekin, Mehmet Ölmez, Türkmence-Türkçe Sözlük. Simurg Yayıncılık **(Kitab).** Ankara/Türkiye, 1995.
TDK Büyük Sözlük, Türk Tarih Basım Evi Yayınları, Ankara/Türkiye, **(Kitab).** 1998.
Г. А. Гайдаржи, Е. к. Колца, Л. А. Покровская, Б. п. Тукан,Гагаузско-Русско-Молдавский Словарь, Издательство «Советская Энциклопедия» Москва, 1973.

AZƏRBAYCAN DİLİ DİALEKTLƏRİNDƏ FARS MƏNŞƏLİ ALINMA SÖZLƏR

İlkanə Süleymanova
Bakı Mühəndislik Universiteti
Magistratura / Azərbaycan dili
isuleymanova@std.beu.edu.az
Bakı / Azərbaycan

XÜLASƏ

Azərbaycan dili dialektlərində alınma sözlərin vəziyyəti çox vaxt ədəbi dildəki kimi deyildir. Dialektlərin lüğət tərkibindəki alınma sözlər ədəbi dildəki alınma sözlərə nisbətən dilin daxili inkişaf qanununa əsasən istər şəkil, istərsə də məzmunca dəyişikliyə daha çox məruz qalır. Bunu da qeyd etməliyik ki, bütün dialekt və şivələrimizdə alınma sözlər eyni dərəcədə işlənmir. Şərq dialekt və şivələrində ərəb və fars sözləri qərb dialekt və şivələrinə nisbətən çoxluq təşkil edir. Xüsusən də dialekt və şivələrimizin lüğət tərkibinə fars mənşəli sözlər çox qədim zamanlardan bəri daxil olduğundan , dilin qayda və qanunlarına uyğun olaraq daha çox dəyişikliyə uğramışdır.

AÇAR SÖZLƏR: Azərbaycan dili dialektləri, fars mənşəli alınmalar, alınma dialektizmlər

GİRİŞ.

Azərbaycan xalqı fars xalqı ilə qədim dövrlərdən bəri müxtəlif əlaqə və münasibətdə olmuşdur. Bunun nəticəsində də qeyd etmək olar ki, fars dili uzun əsrlər boyu Azərbaycan dilinin lüğət tərkibinə güclü təsir etmişdir. Bu səbəbdən də bir sıra fars mənşəli sözlər dialekt və şivələrimizdə öz üstün cəhətləri və işlənmə tezliyi ilə diqqəti cəlb edir. Əlbəttə ki, bu, islam dininin güclü təsiri nəticəsində baş vermişdir. Bu mövqedən yanaşılsa, Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində işlənən İran mənşəli alınma sözlər də bu dilə keçdikdə, təbii olaraq dilimizin daxili qanunauyğunluqlarına müvafiq surətdə mənimsənilmə prosesinə məruz qalır. "İran mənşəli alınma sözlərin forma və məzmunca dəyişməsi Azərbaycan dilinin daxili inkişaf qanunları ilə müəyyən olunur və leksik-semantik səciyyəsi həmin dilin qanunlarına əsasən dəyişir" (3, s.26).

TƏDQİQAT METODU.

Qarşıya qoyulmuş məsələni həll etmək üçün təsvir, müşahidə, müqayisə növlərindən istifadə edilmişdir.

Azərbaycan dili dialektləri.

Azərbaycan dili yüzilliklər boyu ərəb, fars, İber-Qafqaz dilləri ilə qarşılıqlı şəkildə əlaqədə olmuşdur ki, bunun nəticəsində də bu dillərdən bir-birinə çoxlu sayda sözlər daxil olmuşdur. Sovet dövründə isə rus xalqı ilə iqtisadi, siyasi və mədəni əlaqələr öz növbəsində slavyan mənşəli xeyli sözlərin dilimizdə işləklik qazandığını bir daha sübut edir. Bunu da nəzərə çatdırmalıyıq ki, alınma sözlər dialektlərdə əslinə uyğun şəkildə və olduğu kimi işlənməmişdir. Həmin alınma mənşəli sözlər bir sıra fonetik və semantik baxımdan dəyişikliyə uğramışdır.

Fars mənşəli alınmalar.

Azərbaycan dili dialektlərində işlənmiş alınma sözlər mənşə etibarilə müxtəlif cür xarakterizə olunur. Bu aspektdə yanaşsaq, dialektlərdə işlənmiş alınmalara fars dilindən keçən sözlər aid olunur ki, bunlar da öz spesifik xüsusiyyətləri və işləkliyi ilə diqqəti cəlb edir. " Azərbaycan-fars qarşılıqlı dil əlaqələrinin izlərinə dilimizin möhtəşəm abidəsi "Kitabi Dədə Qorqud" dastanlarında, saysız-hesabsız qədim yazılı abidələrimizdə, klassik ədəbiyyat nümunələrimizdə də rast gəlirik" (3, s.15). "Kitabi Dədə Qorqud" da və başqa abidələrdə qeydə alınmış bir çox fars sözləri indi də Azərbaycan ədəbi dilində işləkdir. Bununla yanaşı, ədəbi dilimizdə işlənməyən və ya müəyyən dəyişikliklərlə işlənən bir sıra sözlərə (adinə, dam, saxt, tən və s.) indi dialekt və şivələrimizdə rast gəlinir" (3, s.15).

Bu nöqteyi-nəzərdən yanaşsaq, bir sıra fars mənşəli alınmaların dialekt və şivələrdə işlənmə tezliyini nəzərdən keçidək.

Küflə / külbə. " Küflə (Culfa, Şahbuz, Şərur) // kiflə (Culfa, Ordubad) " təndirə hava keçməsi üçün qoyulan, təndirdən bir az aralı torpağın səthinə çıxan maili boru". – Küflə atdan hava verir kin, təmdır yaxcı yansın (Şahbuz). – Kiflə durbədı qoyullər təmdırə, o olmasa dəy yəmmaz (Ordubad)" (5, s.31).

Bəkir Əhmədova görə isə bu söz farsca "külbə" formasındadır və mənası isə "daxma", "qazma" deməkdir.

Azərbaycan dilinin bir çox dialekt və şivələrində isə bu sözə müxtəlif fonetik variantlarda və eyni mənalarda rast gəlinir. Salyan şivələrində külbə "nehrənin deşiyi", Laçında külfə "tövlədə pəncərə əvəzinə qoyulmuş deşik", Gədəbəy, Qazax, Tovuz şivələrində külfə "təndir" mənalarında işlənir.

M.Məmmədlinin "Azərbaycan dilinin Təbriz dialekti" adlı dərs vəsaitində "külbə" sözünün "odu qızışdırmaq üçün təndirin aşağısından qoyulan balaca yer" mənası göstərilmişdir.

Azman. Azərbaycan dili dialekt və şivələrində işlənmiş fars mənşəli sözlərdən biri də azman sözüdür. Dialekt və şivələrimizdə bu söz bir neçə mənalarda işlənir. "Azman I (Bakı, Ordubad) – iri, çox böyük, nəhəng. – Bakidə azman öylər tikilir (Bakı); - Atam bir azman keçi aldı (Ordubad)" (1, s.32).

"Azman II (Ağdam, Bakı, Beyləqan, Borçalı, Cəbrayıl, Füzuli, Ordubad, Şamaxı, Zəngilan) – 1.altıillik "qoyun" (Bakı, Beyləqan, Cəbrayıl, Füzuli, Şamaxı); 2. Dördillik "qoyun" (Ordubad, Zəngilan)" (1, s.32).

Azman leksik vahidi dialekt və şivələrimizdə daha çox "qoyun" mənasında işləndiyi göstərilir.

Türk ədəbi dilində isə azman leksik vahidi " çox böyük, iri; başqa-başqa cinslərin birləşməsindən törəmiş, qarışıq olan, mələz" mənalarını ifadə edir. " O ipiri, şuursuz fil azmanlarının tam tersine ufacık, neşeli, zarif....(Reşat N.Güntekin); Azman karıncalar gibi (Refik H.Karay); Van azmanı bir kedi (Şemseddin Sami)" (6, s.78).

"M.Kaşğari bu ünsürün vasitəsilə yaranan batman "bir batman ət", kətmən "yeri toxalamaq üçün işlənən alət", sökmən "igidlərə verilən ad" kimi sözləri də qeyd etmişdir" (2, s.435).

Bu sözün Naxçıvan dialekt və şivələrində, o cümlədən dilimizin digər dialekt və şivələrində işlənmə məqamlarına nəzər saldıqda görürük ki, həmin vahid abidələrdə işlənmiş mənasını günümüzdə də qoruyub saxlamaqdadır. " Orxon-Yenisey abidələrində azman həm zoonim kimi "at adı", həm də "buruq, axtalanmış qoç" kimi göstərilir" (5, s.64).

Damad. Azərbaycan dili dialekt və şivələrində bu leksik vahid öz işləkliyi ilə diqqəti cəlb edir və "qızın əri, həyat yoldaşı" mənasını özündə əks etdirir.

"Farsca olan damat sözünün türk dilindəki sinonim qarşılığı "güvey"dir. Bu söz Azərbaycan dilinin dialekt leksikasında müxtəlif fonetik tərkiblərdə işlənir: Cəbrayıl şivəsində gəyəv sözü "kürəkən" mənasını ifadə edir. Quba dialektində giyo: vəgiyov sözləri, Zaqatala şivəsində isə göyüm sözü "kürəkən" mənasında işlənir. Göy (Qazax, Tovuz, Marneuli, Göyçay) "kürəkən", gəv (Şahbuz), göy (Şəki) "yeznə" mənalarını ifadə edir" (6, s.29).

"Kitabi-Dədə Qorqud" abidəsinin dilində göygü "kürəkən" şəklində işlənmişdir: Xan babamın göygüsi, Qadın anamın sevgisi (4, s.72); Gördi düğündə göygü ox atar (4, s.63).

"Qədim türk dilində küdegü sözü "qonaq gələn, qonaq olan" mənasında küdegi-küdeği-güveği//güveyi şəklində səs dəyişiklikləri ilə qeydə alınıb. Uyğurcada küd kökündən əmələ gələn küden (qonaq, gəlib-keçici, qalıcı olmayan) ilə eyni köklüdür. İ.Z.Eyuboğlu bunu yeni evlənən birinin bu adı alması, ayrı ev tutub köçməsi, ata ocağından ayrılması hadisəsi ilə əlaqələndirir. Müəllif güveyi sözünün küdegü şəkliylə monqol dilində işlənən küregen (güveyi) arasında kök baxımından əlaqə olduğu fikrini irəli sürür" (6, s.30).

"Abdülkadir İnan bir çalışmasında bu sözün "çoban" ya da "güdücü" mənasında söyləndiyini qeyd edir. O, qədim türklərdə (monqollarda olduğu kimi) güveyinin qız evində bir müddət iş görməklə məsul olduğunu, bu səbəbdən küdegü//güveyi sözlərinin kök olarak "çoban"mənasını ifadə etdiyini qeyd edərək bu fikrinin üzərində durur" (6, s.30).

"Azərbaycan dilində "kürəkən" anlamında işlənən kürəkən leksik vahidi daha qədimdir (monqol dilində kürgen<küriken "kürəkən", kürəkən< Monqol dilində kürken. Monqol dilində eyni söz cəmdə kurget şəklində işlənir . V.İ.Aslanov kürəkən sözünün mongol dilindən alınma, göy sözünün isə türk mənşəli olduğunu bildirmişdir. Onun fikrincə, mongol mənşəli kürəkən sözü köörkək- feilindən, türk mənşəli küyəgü sözü isə güvən- feilindən yaranmışdır. Hər iki feil "güvənmək", "öyünmək" mənasını ifadə edir. Əhməd Cəfəroğlu "Azəri ləhcəsində bəzi monqol ünsürləri" adlı məqləsində türk və monqol dilləri səviyyəsində tarixi planda geniş müqayisələr aparmış, beləliklə, qədim türkcədəki eyni mənalı kürdəgü leksik vahidinin monqolcadakı gürgen lekseminin tam qarşılığı olduğunu müəyyən etmişdir (6, s.31).

"Afina Əlizadə mənşəcə türk sözü olan kür-, xür- və onun törəmələrinin kürəkən sözünün əsası olduğunu və bu sözün monqol sözü deyil, türk mənşəli olduğunu qeyd edir. Müəllifə görə kür- "qorumaq", "mühafizə etmək", "keşiyini çəkmək" mənasında semantik cəhətdən qismən kürəkən sözünə uyğun gəlir" (6, s.31).

Alınma dialektizmlər.

Azərbaycan dili dialektlərində işlənmiş alınmaları mənşə etibarilə bir neçə qrupda təsrif etmək olar ki, bunlar da öz spesifik xüsusiyyətləri və işlənmə tezliyi ilə diqqəti cəlb edir. Belə ki, dialektlərdə işlənmiş alınmaları fars dilindən keçmiş sözlərdən əlavə , ərəb dilindən və rus dilindən keçmiş sözlər kimi də qruplaşdırmaq olur.

NƏTİCƏ.

Son nəticə olaraq belə bir qənaətə gəlmək olar ki, Azərbaycan dili dialekt və şivələrində işlənmiş fars mənşəli alınma sözlər qədimliyi və işlənmə konstruksiyaları ilə diqqəti cəlb edir. Bu aspektdən yanaşılsa, Azərbaycan-İran dil əlaqələri dərin ictimai, iqtisadi, siyasi köklərə əsaslandığı danılmaz faktordur.

ƏDƏBİYYAT SİYAHISI.

1 . Azərbaycan dilinin dialektoloji lüğəti Bakı, "Şərq-Qərb", 2007, 568 səh.
2 . "Divanü lüğat-it-türk". Dörd cilddə. I cild, Bakı, "Ozan", 2006, 512 səh.
3 . İlham Tahirov. Dialekt leksikasında alınma sözlər (şərq qrupu dialekt və şivələrinin materialları üzrə). Bakı, "Nurlan" 2004, 132 səh.
4 . Kitabi- Dədə Qorqud (Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir). Bakı: Yazıçı, 1988, 265 s.
5 . Nuray Yadigar qızı Əliyeva. Naxçıvan dialekt və şivəlrinin etnoqrafik leksikası. Naxçıvan: 2018, "Əcəmi" nəşriyyatı, 2017, 296 səh.
6 . Zabitə Teymurlu. Azərbaycan dilinin dialekt leksikası. Dərs vəsaiti. "Bakı Mühəndislik Universitetinin" nəşri. Bakı, 2020 122 səh.

РОЛЬ ДИАЛЕКТИЗМОВ В ТВОРЧЕСТВЕ АМАНА МАТЖАНА

МУСАЕВА ФЕРУЗА ТОРАХАНОВНА
Институт узбекского языка, литературы и фольклора
Отдел терминологии и лексикографии
musayeva.feruza2016@gmail.com
ТАШКЕНТ, УЗБЕКИСТАН

АЗАТОВА РОЗАДЖОН ОДИЛБЕК КИЗИ
Ургенчский государственный университет
Факультет узбекской филологии
azatovarozaxon97@gmail.com
УРГЕНЧ, УЗБЕКИСТАН

Аннотация: Данная статья посвящается изучению роли диалектизмов в творчестве народного поэта Узбекистана – Амана Матжана, который является носителем одного из самых отличающихся от литературного узбекского языка диалектов – хорезмского. Выявлены виды использованных в творчестве поэта диалектизмов – фонетические, морфологические и лексические, установлены функции диалектизмов в поэтическом тексте.

Ключевые слова: литературный язык, диалект, диалектизм, этнографизм, лакуна, гиперонимическая лакуна, лингвопоэтика.

Известно, что узбекский язык богат диалектами. Это является результатом сложного процесса становления узбекского языка, в котором участвовало множество племён и народов. Все эти диалекты, естественно, объединены единым литературным языком. Несмотря на то, что литературный язык отличается от диалектов фонетически, грамматически и грамматически, он тесно контактирует с диалектами, которые являются источником его дальнейшего развития и прогресса. Не секрет, что диалектальные единицы регулярно пополняют лексический состав литературного языка.

Диалекты издревле являются объектом пристального внимания исследователей-лингвистов. Однако, как утверждает А.Дониёров “оригинальные слова, свойственные различным диалектам и говорам национального языка, не только являются темой исследования диалектологов и языковедов, они также пользуются большим вниманием у писателей, поэтов и других мастеров в качестве важных художественно-изобразительных средств. Использование диалектальных единиц в художественном тексте в качестве своеобразного эмоционально-экспрессивного и эстетического явления считается вполне закономерным событием. В этом плане, особое значение имеет изучение на материале языка художественных произведений семантико-стилистических особенностей подобных диалектальных слов”. [1, 35]

Изучение диалектизмов на стыке лингвистики и литературоведения обусловили возникновение термина диалектизм. Диалектизмы – это слова, свойственные местным диалектам, употребляемые в составе литературного языка. «Следует отметить, что понятие «диалектизм» возникает только при изучении литературного языка, при сопоставлении диалектов с литературным языком» [2, 4]. Следовательно, мы не можем говорить об использовании диалектизмов в произведениях, которые полностью написаны на определённом диалекте. Несмотря на то, что такое не практикуется в узбекской литературе, известны стихи Матназара Абдулхакима на хорезмском диалекте.

Использование в художественном тексте диалектизмов обеспечивает эмоциональную экспрессивность и придают ему народный дух. “Знание народных диалектов, диалектальной лексики способствуют более глубокому осмыслению произведений писателей и поэтов, постижению заложенной в поэтических строках мысли, помогают окунуться в национальный колорит изображаемых в произведениях событий и явлений” [3, 4].

Диалект есть национальное достояние народа. Поскольку каждый поэт или писатель является представителем того или иного диалекта, совершенно естественно и понятно, что он использует в своём творении национальное достояние – духовное богатство народа. Использование жемчужин национального языка свойственно и творчеству сына хорезмского народа – Амана Матжана. Аман Матжан – носитель одного из самых богатых и сильно отличающихся от литературного языка диалекта – хорезмского. Для более образного выражения сердечных треволнений, чувств, переполняющих его трепетную душу, он эффективно использует диалектизмы. Исследователи стилистических особенностей диалектизмов в творчестве поэтов и писателей традиционно различают фонетические, морфологические и лексические диалекты [2, 6]. Мы решили последовать примеру исследователей и классифицировать диалектизмы в творчестве Амана Матжана следующим образом:

1. **Фонетические диалектизмы**. В эту группу мы включили такие единицы, которые не отличаются семантически от литературных слов, их различия заключаются лишь в произношении. Очень часто такие единицы в творчестве Амана Матжана подчинены фонетически особенностям хорезмского диалекта, который является отвевлением огузского наречия. К примеру, в строке *Қуёнларга жуда ўч-да, Ичида энг* ***ири****си*, слово *йирик* приведено в диалектальном звучании без начального звука "й" – в форме *ири*. А в следующем примере слово *эран* использовано в том фонетическом варианте, который используют носители хорезмского диалекта: *У – шоир халқ.* ***Аран****лардан Дуо кетган дейдилар*.

2. **Морфологические диалектизмы**. Морфологическими диалектами называют единицы, имеющие грамматические изменения, совершенно не свойственные общеупотребительному языку. К примеру, в хорезмском диалекте аффикс направительного падежа *-га* имеет форму *-а*, который свойственен и староузбекскому языку. Аман Матжан очень продуктивно использует именно такую форму падежного аффикса *-га*: *Ғамгин кўрдим сени бу кез-а, Доғ ярашмас бу оппоқ юз****а****, Табассум қил!* Или же в следующем примере: *Аммо орзуларимдан Туннинг умри қисқадир, Кўкка юлдузим қайтар, Осмон****а*** *изим қайтар! Офтоб, шабада, қушлар, гул, анҳор...* Морфологическим диалектизмом также является форма пожелательного наклонения 1-лица во множественном числе *-ли*, которая в литературном имеет форму *-йлик*: *Давра олинг ўйно****ли****, Ларза солинг ўйно****ли****, Лазги чалинг ўйно****ли****. Ўйнаб қолинг, ўйно****ли****.* Также в эту группу можно отнести форму *ажабли*, которая в литературном используется в форме *ажабланарли*: *Нимаси* ***ажабли****, нимаси ғалат?*

3. **Лексические диалектизмы.** Одной из наиболее интересных для лингвистов является именно эта группа диалектизмов. Поскольку они отсутствуют в литературном языке и могут потенциально значительно пополнить его лексический запас. Исследователь М.Юлдашев, который исследует диалектизмы в качестве одного из лингвопоэтических особенностей текста, лексические элементы классифицирует следующим образом: 1) лексические диалектизмы; 2) этнографические диалектизмы; 3) семантические диалектизмы [4, 14].

Лексические диалектизмы — это используемые в языке художественной литературы слова из словарного состава говоров [2, 6]. Такие диалектизмы также неоднородны по своему характеру. Если диалектная лексема имеет синоним в литературном языке, её называют *собственно лексическим* диалектизмом. То есть понятие в литературном языке и диалекте имеет отличительное обозначение. К примеру, в творчестве Амана Матжана очень часто вместо слово *беркинмоқ* (прятаться) используется лексема *гизланмак*, свойственная огузскому наречию; *Ҳечса, борлигимни* ***гизлаб*** *ёт кўздан, Соянгни бир нафас тутақолмабман; Ер ости ганжларинг бегона кўзлар Излаб, ковлаб, ташиб,* ***гизлашга*** *тушди.* Эта группа диалектизмов в творчестве Амана Матжана весьма обширна. Литературное слово *бўямоқ* (красить) у поэта встречается в диалектном варианте *ийламак,* лексема *бўрон* (сильный ветер) заменена на диалектный вариант *дувалай,* вместо глагола *шимармоқ* поэт использует хорезмское слово *чизғамак,* а вместо литературного *эгат* – диалектальный **қорик**: *Бир пайт бирам тантиқ гўё ширинликка ўч бола, турфа рангга* ***ийлаб*** *ўзин, сочилади минг алвон; Нимадир юз берди, мўътадил иқлим* ***Дувалай*** *комида узилди ердан; Шунча олим туғилган юрт Наҳот,* ***чизғаб*** *қўлини;* ***Қорик****қа қадалган жажжи бошларни, Билмадик ким учун поя қилишди.* Такие диалектизмы способствуют более яркой передаче народного духа.

Диалектизмы, не имеющие эквивалента в литературном языке и обозначающие явления, предметы, обычаи, свойственные лишь носителям данного диалекта называют *этнографическими*. Такая группа слов в литературном языке образует лакуны. *Лакуна* – это "явление, которое имеет место всякий раз, когда слово одного языка не имеет соответствия в другом языке" [5, 3]. Например, в Хорезме имеются виды кайрагача: *гужум* и *қоромон*, древесина которых более прочная. В литературном языке для их обозначения нет отдельного слова и они объединены в вид *қайрағач*. Название *қоромон* встречаются в стихе в прозе Амана Матжана "Алла": *Ҳайит баҳорга тўғри келса яна қизларнинг куни туққани. Ё гужум, ё* ***қоромон****, ё ўрикка арқон ташлаб, арғимчоқ солишади*. *Гужум* в поэзии автора встречается более чаще: *Бунда* ***гужум****лар турар самовий элчилардай, Азал-абад меҳнаткаш бу халқ учун таъзимда*; *Қорақумда нур ийиб, жазира тўқир офтоб, Воҳа кенгликларида* ***гужумлар*** *битар китоб*. Такие виды лакун исследователи называют гиперонимическими [6, 139]. Также к лакунам можно отнести слово *қапилмак* (закрыть рот; заткнуться). Несмотря на наличие в литературном понятия "не произносить слова; закрыть рот) в отличие от хорезмского диалекта оно не выражено вербально, нет его словесного обозначения,

поэтому передаётся словосочетанием. А в Хорезме используют слово *қапил*, которое продуктивно использовал в своих стихах Аман Матжан: *Билки, қайга бекин-**қопил**, қолмагаймиз бу гал ғофил!*
Иногда использованный в художественном тексте диалектизм встречается в литературном языке, но имеет иное значение. Тогда мы имеем дело с семантическим диалектизмом. К примеру, в хорезмском диалекте слово *оғоч*, используется в значении *дерево*, что является свидетельством того, что оно сохранилось в изначальной фонетической и семантической формах, какие имело в древнетюркском языке. Ведь в словаре М.Кашгари это слово зафиксировано именно в этой форме и значении. В современном узбекском литературном языке значение слово значительно сузилось, обозначает лишь древесину и звучит как ***ёғоч***. У Амана Матжана *оғоч* также имеет значение дерева: *Хоразмда қор юкидан **оғочлар** синди, Куну тун фалак тегирмони муз сепди гўё; Илк **оғоч** гуллади Қримда, Олмага ўхшатдим тусидан.*
Диалектные слова намеренно используются в языке произведений художественной литературы. Писатели и поэты, если они рассказывают о жизни деревни, часто вводят диалектизмы как в речь персонажей, так и в авторскую речь с целью более реалистического показа действительности, с целью обогащения языка произведения [2, 4]. Использование в языке своих произведений диалектальных единиц хорезмского диалекта, их вкрапление в поэтические строки позволило Аману Матжана обрести свой неповторимый стиль, приблизило его к народу, придало его творчеству поистине народный дух. Выявление таких единиц, определение их семантических и стилистических особенностей открывают путь к изучению лингвопоэтических особенностей творчества поэта, а также весьма полезно для диалектальной лексикографии.

Использованная литература:

1. Дониёров А. Шева унсурларининг бадиий асарларда қўлланиши // Ўзбек тили ва адабиёти, 1990. – № 6.
2. Прохорова В.Н. Диалектизмы в языке художественной литературы. – М., 1957.
3. Мусаева Ф. Ўзбек шеваларининг лингвомаданий тадқиқи. – Тошкент, 2019.
4.Йўлдошев М. Чўлпоннинг бадиий тил маҳорати. Диссертация на соискание учёной степени доктора филологических наук. – Ташкент, 2000.
5. Муравьев В.Л. Лексические лакуны (на материале лексики французского и русского языков). – Владимир, 1975.
6. Дунь Н. Л. Интралингвальные лакуны в лексической системе русского языка // Вісник СумДУ. Серия Філологія. №1. – 2007. Том 1. – С. 135-141.

CƏFƏR CABBARLI YARADICILIĞINDA DİL SAFLIĞI VƏ ƏDİBİN DİLİN TƏMİZLİYİ İLƏ BAĞLI DÜŞÜNCƏLƏRİ

TÜRKAN MƏCİDOVA
AMEA, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi/ doktorant
ADPU, Şəki filialı/ baş müəllim
nuran545@mail.ru
82.(091).82-3.512.162
ŞƏKİ, AZƏRBAYCAN

XÜLASƏ

Müasir Azərbaycan ədəbiyyatı və dramaturgiyasının inkişafında əvəzsiz rol oynayan dəyərli sənətkarlardan biri də Cəfər Cabbarlıdır. Onun həm bədii, həm də ədəbi-tənqidi əsərləri ədəbiyyatımızın istər elmi-nəzəri, istərsə də əməli cəhətdən formalaşmasına xidmət göstərmişdir. C.Cabbarlı qiymətli şair olmaqla yanaşı, istedadlı bir dramaturq idi. Azərbaycan ədəbiyyatı tarixində M.F.Axundov ilə bönövrəsi qoyulan milli dramaturgyamızın layiqli davamçılarından biri məhz Cabbarlıdır. Onun pyeslərində toxunduğu məsələlər özündən sonra gələn nəsillər üçün nümunə olmuşdur. Cabbarlı irsi, Cabbarlı ənənələri dünəndə qalmamış, onlar bu gün də yaşamaqdadır. Digər tərəfdən, bütün yaradıcılığı boyu əl üzmədiyi şeir yaradıcılığı onun qələminə daim şöhrət gətirmişdir. Hələ cümhuriyyət illərində yazdığı lirik şeirlərinə bəstələnən nəğmələr bunun sübutudur.

AÇAR SÖZLƏR: C.Cabbarlı, dil saflığı, ədəbi dil

GİRİŞ

Cəfər Cabbarlı 1899-cu ildə Bakı quberniyasının Xızı kəndində anadan olmuşdur. Onun atası Qafar kişi kömürçülüklə məşğul idi. Atasının gözləri tutulduqdan sonra ailə şəhərin dağlı məhəlləsinə köçür. Bundan sonra ailənin yükü Cəfərin anası Şahbikənin üzərinə düşür. Evdəki maddi çətinliklərə rəğmən, ana kiçik oğlu Cəfəri mollaxanaya göndərir, daha sonra 7-ci "rus-tatar" məktəbinə qoyur. C.Cabbarlı məktəbi bitirib Bakı Politexnik məktəbinin elektrik-texnika şöbəsinə daxil olmuşdur. 1920-ci ildə həmin şöbədən məzun olan Cəfər ADU-nun şərq və tibb fakültələrində mühazirələri dinləmiş, sonra isə Bakı teatr texnikumunda təhsil almışdır.

Uşaqlıqdan şeirə, poeziyaya maraq göstərən C.Cabbarlının ədəbi yaradıcılığı kiçik ikən başlamış, bu yolda ona müəllimləri S.S.Axundov və A.Şaiq xüsusi mənəvi dəstək göstərmişlər.

C.Cabbarlının yaradıcılığa ilk başladığı illər Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərə təsadüf edir. Bu illərdə Cabbarlı da əsl türkçü kimi çıxış edir, yazdıqları ilə türçkülüyü təbliğ etməyə çalışırdı. "Milli müstəqillik dramaturqa milli ruhun, müasir türk tarixinin şərəfli hadisələrini bədii əsərə gətirmək üçün ona müəyyən ədəbi stimul verir. "Ulduz və ya Trablis müharibəsi" (1917), "Ədirnə fəthi" (1917), "Bakı müharibəsi (1919) dramlarını yazır." [1,s.94]

C.Cabbarlı ədəbiyyatımızda yeni tipli üsyançı qəhrəman olan Aydın obrazını yaratdığı "Aydın" pyesində kapitalizmin ağır məngənəsində əzilən insanları əks etdirmyə çalışmışdır. Aydın fikrən bu dünyaya qarşı qalib gəlsə də, sözlə kəskin etiraz bildirsə də, nəhayətdə öz acizliyini dərk edir. Kasıb, cibiboş biri kimi o, altun dünyası qarşısında məğlub olur, ailəsini belə itirir. Müəllif göstərmək istəyir ki, bu qədər kəskin fərqli ictimai münasibətlər zəminində saf sevgi də qalib gələ bilməz.

Aydından fərqli olaraq daha açıq məqsədli bir qəhərman olan Oqtay isə C.Cabbarlının müsbət qəhrəman axtarışı zamanı tapdığı irəli bir addımdır. "Oqtay Eloğlu" faciəsini 1923-cü ildə qələmə almışdır. Bu pyesin əsas mövzusu burjua-mülkədar quruluşunun anti-demokratik mahiyyətinin ifşası ilə bağlıdır. "XX əsrin tərəqqisi qarşısında geridə qalmış xalqına kömək etmək üçün Oqtay hər şeydən – anasından, bacısından, var-yoxundan keçir və ictimai idealına nail olur, arzuladığı milli səhnəni yaradır. Lakin içərisində yaşadığı burjua mühitində onun qol-qanadının qırır, məhəbbətini əlindən alırlar, onu sürgün elətdirir, hətta dəli adlandırırlar. Oqtay məğlub olur, lakin susmur, ifşa edir, lənətləyir, damğalayır. O da Aydın kimi, həyatda həqiqət, ədalət axtarır." [5, s.145]

C.Cabbarlının həqiqi realist kimi özünü tapdığı ilk pyeslərində biri "Od gəlini"dir. (1928) Bu əsərlə o, yeni yradıcılıq yoluna qədəm qoyurdu. Mövzusu tarixdən götürülən əsərdə romatizmlə realizm bir-birinə keçmiş, çulğalaşmış formadadır. Faciənin qəhrəmanı Elxan - Babək yalnız tarixi şəxsiyyət deyil, xalqının arzularını ifadə edə bilən bir el qəhrəmanıdır. O, yalnızca quru nitqlər söyləyən biri yox, lazım gələndə əlində qılınc hamı ilə birgə vuruşub döyüşən bir mübarizdir. Əsərin sonunda Elxanın qüvvələri qeyri-bərabər döyüşdə məğlub olsa da, o, milyonlarla insanın qəlbinə azadlıq toxumu əkməyi bacarır, onlarda mübarizə əzmini alovlandırır.

Dramaturqun qadın azadlığı mövzusu üçün lazımi zəmin yaratdığı pyesi "Sevil"dir. Əsər 1928-ci ildə qələmə alınıb. Əsərdə əsas qayə köhnəliyin ifşasından çox, yeniliyin təcəssümü və əksidir. Əsas qəhrəman olan Sevil əsər boyu inkişafda verilir, bəzi məqamlar sırf oxucunun gözü qarşısında baş verməsə də, yeniliyin inkişafı məsələsi öz aktuallığını itirmir.

"Almaz" (1930) və "Yaşar" (1932) pyesləri C.Cabbarlının müasir mövzu, müasir varlığı bilavasitə əks etdirmə sahəsində birər qələbəsi idi. Bütün cari ədəbiyyatda kənddə yeni həyat quruculuğunun inikasının gücləndiyi, ön plana çəkildiyi bir zamanda sinfi mübarizənin gedişini, yeniliyin möhkəmlənməsini göstərən bu əsərlər xüsusilə böyük qiymətə malik idi. Hər iki pyesdə C.Cabbarlı bilavasitə həyatın real lövhələrini yaradırdı." [5, s.147]

"Yaşar"da düşmənlərin büün cəhdlərinə baxmayaraq yenilik qələbə çalır, kənddə aparılan quruculuq işləri, mədəni tədbirlər müvəffəqiyyətlə nəticələnir. Köhnəlik qalıqlarının bütün ümidlərinin, hər cür cəhdlərinin puça çıxması da tarixi şərait fonunda əks etdirilmişdir." [5, s.150]

1905-ci il inqilabının tarixi hadisələri fonunda qələmə alınan "1905-ci ildə" (1931) pyesinin əsasməqsədi beynəlmiləlçilik məsələsinə işıq tutmaq idi. Lakin əsərin mövzusu ədibin digər pyeslərindən fəqli olaraq, bu gün üçün daha aktualdır.

C.Cabbarlı 1905-ci il inqilabı fonunda hələ bir müddət əvvəl gerçəkləşən anlı mart qırğınlarının həqiqətlərinə diqqət çəkməyə çalışmışdır. Bununla o, əslində türk-erməni münasibətlərinin ta ən başlardan pozulduğunu sübut etmişdir. İstər real faktlar, istər ayrı-ayrı obrazların replikalarındakı mətnaltı mənalar bizə həm dövrün siyasi mənzərəsini, həm də ermənilərin həmişə gizlətdikləri xislətlərini açıq-aşkar görməyə imkan yaradır. "C.Cabbarlı "1905-ci ildə" pyesində göstərir ki, qoca Baxşı milliyətcə erməni olan

gənc Baxşını öz övladı kimi qəbul edir, ocağının başında ona yer ayırır, əziyyətlərə qatlaşaraq böyüdür, oxudur... Əsərdə qoca Baxşı – xeyrixahlıqla qollarını yetimlərə, aclara, imkansızlara, qovulmuşlara açmış,qocaman odlar yurdunu, gənc Baxşı isə vətənindən uzaqlara atılaraq qayğıya, şəfqətə möhtac qalan, naəlaclıqdan Azərbaycana pənah gətirən, türk səxavətinə sığınan, qonaqpərvərliyinə güvənən ermənləri təmsil edir." [2, s.38]

A.Rüstəmli tədqiqatçısı olduğu şair haqqında yazır: "C.Cabbarlı şəxsiyyətinin böyüklüyünü, sənətinin qüdrətini şərtləndirən amillərdən biri də odur ki, bütün siyasi təzyiqlərə baxmayaraq, 30-cu illərin qasırğaönü Azərbaycanının qara cildli tarix kitabını vərəqləməyə nail olmuş, cəsarətli addım atmış, qaranlıq səhifələrə həqiqət işığı salmağı bacarmışdır. Sözün əsl mənasında o, tarixi gerçəkliyə güvənən bədii həqiqətlər ustasıdır." [2, s.42]

İlk dəfə 1932-ci ildə C.Cabbarlının özünün də rejissorluğu ilə tamaşaya qoyulan "Dönüş" pyesi Azərbaycan Dövlət Teatrının 10 illiyi münasibəti ilə yazılmışıdır. Müəllif teatrın qarşısında duran çətinliklərə "Oqtay Eloğlu"ndan sonra yenidən işıq tutmağa səy göstərmişdir. Pyesdəköhnəliklə yeniliyin mübarizəsi, lakin bu dəfəf yrniliyin qələbəsi əks olunur. Bu qələbə isə teatr aləmində inqilabi dönüş təsiri bağışlayır. "Əsərdə teatrın, eyni zamanda ədəbiyyat və incəsənətin qarşısında duran bir sıra mühüm məsələlər qoyulur və həmin məsələlərin həllinin real yolları göstərilir. Bunlardan teatrın, ədəbiyyatın və incəsənətin müasir həyatla əlaqəsi, yeni repertuar problemi, Azərbaycan qadlnlarının səhnəyə cəlb edilməsi, aktyor sənətkarlığı, teatr tənqidi, köhnə və gənc yazıçılara kömək və i.a. Bütün bu yeniliklər uğrunda mübarizənin əsas aparıcısı gənc teatr xadimi, Moskvada təhsil almış Gülsabahdır. Dramaturqun bu yeni tipli qadın surəti Gülsabah onun yaratmış olduğu mübariz müsbət qadın qəhrəman tiplərinin zirvəsi adlandırıla bilər." [5, s.153]

C.Cabbarlı hələ ibtidai təhsil illərində özünün vətənpərvər müəllimləri sayəsində milli-mənəvi dəyərlərə hörmət hissi qazanmışdı. Dövrün dəyərli pedoqoqlarından M.Mahmudbəyov, P.Qasımov öz şagirdlərində milli mənlik şüuru oyatmağa çalışır, onların öz vətənlərini, mənəvi sərvətlərini, eləcə də ana dilini sevməyə, onlara böyük ehtiram hissi bəsləməyə meyil yaratmağa çalışırdılar. Bunun nəticəsi idi ki, C.Cabbarlı hələ o illərdə dil haqqında ilk fikirlərini bildirmiş, özünün cib kitabçasında ana dilinin ən kobud sözlərinin belə alınmalardan üstün olduğunu qeyd etmişdi.

İllər keçdikcə həm şəxsiyyəti, həm qələmi kamilləşən şair zaman-zaman dil haqqında məqalələrlə də çıxış etmişdir. "Dilin tarixi dirçəlişi" adlı məqalədə ən incə detallarına qədər sözün yaranması, sözlərin birləşərək vahid bir dil əmələ gətirməsi təsvir edilir. Necə ki, bir uşaq hələ ana bətnində görünməz zərrə boyda olandan axırıncı günə kimi inkişaf yolu keçirsə, dildə eləcə böyüyüb başa çatır. Yeni doğulan uşaq instinkt ilə əvvəl hərəkət,sonra səs, daha sonra isə formasız bağırtılardan sözlü danışığa keçirsə, bir millət də ilk yarandığı gündən öz arzu və istəklərini dilə gətirmək üçün dili yaratmışdır. "Sonradan əsrlər sürən uzun bir vaxt içərisində hər başqa istəklə ifadəsi üçün səslər başqalaşmış, eyni istəyi ifadə üçün eyni səslər təkrar edilmiş, böyləliklə bu bağırtılar məşrut bir hala gəlmiş və getdikcə iki-üç səs bir araya toplaşdırılmış, nəhayət, insanın ibtidai kobud dili meydana çıxmışdır. İştə ilk ata-baba dilimiz bu kobud, yonulmamış, xam dildən ibarətdir." [3, s.185]

"Türkoloji qurultayı və sərf-nəhv məsələsi" məqaləsində isə C.Cabbarlı mövcud zamanda istifadə olunan sərf-nəhv kitablarının ərəb və avropa dilləri əsasında yazıldığından türk dili üçün yararsız olduğunu söyləyir. Şair keçirilən qurultayın bu yöndə əsaslıişlər görəcəyini ümid edir. O yazır: "Dilimiz araşdırılamlı, tabe olduğu qanunlar bulunub ortaya çıxarılmalı və müntəz bir hala salınmalıdır." [3, s.232] Bundan başqa, dildə olan alınma sözlər bütün ədəbi dil qaydalarına uyğunlaşdırılmalıdır ki, bu, "yabançı sözlər türk boğazından keçə bilsin".

Yazı və oxu qaydalarında olan qarışıqlıq, göründüyü kimi, təkcə dövrün dilçilərini deyil, bu dilsə yazıb-yaradan şairirmi də narahat edirdi.

Bu günümüz üçün də real olan tərcümə məsələləri C.Cabbarlının da diqqət etdiyi bəhslərdəndir. Onun "Tərcümə məsələsinə əhəmiyyət verilməlidir" adlı məqaləsindəki müddəalar, tərcüməçi necə olmalıdır sualına verilən cavablar indiki dövrümüz üçün də keçərlidir. Hər nə qədər hamı tərcümə edilən kitablardan narazı da qalsa, bu məsələ ətrafında daimi mübarizə aparılmır. Bu işlə məşğul olanlar isə məsələnin ciddiyətinə varmır, əksinə laqeyid yanaşırlar. "Azacıq rusca, ya başqa bir dil bildisə ilk təklif edilən kitabı alıb tərcüməyə girişiyorlar. Halbuki məsələ ruscadan bir kitabı tərcümə edə bilmək üçün yalnız rusca bilmək kafi deyildir. Bir də kitabın bəhs etdiyi məsələyi ətraflıca bilmək və bu məsələ ilə mükəmməl tanış olmaq, daha doğrusu, o dairədə bir mütəxəssis olmaq lazımdır." [3, s.233]

Qeyd edək ki, C.Cabbarlı özü U.Şeksprin "Hamlet"ini tərcümə etmişdir. M.İbrahimov onun bu tərcüməsini möcüzə adlandırır. "C.Cabbarlı onu tərcümə edərkən böyük qələm işlətmişdir. Əsərin tərcümə edildiyi

zamanın bəzi dil və istilah xüsusiyyətləri nəzərə alınarsa, Cəfərin tərcüməsi doğrudan da bir möcüzədir. "Hamlet"in məşhur "Olum, ya ölüm" - lə başlanan monoloqunun daxili qüdrətini C.Cabbarlı böyük bir məharətlə belə çatdırır.

Ölmək, uyumaq... uyumaq... bəlkə də röyalar görmək... budur məsələnin çətin yeri... həyatın boranlarıkeçdikdən sonra bu ölüm yuxusundan biz nələr görəcəyik. Budur yolun keçidini kəsdirən, budur bizi uzun həyatın sürüntülərinə məcbur edən..." [4, s.28]

C.Cabbarlının teatr, mətbuat, dil və ədəbiyyat məsələləri, tərcümə işi və s. barədə söylədiyi fikirlərdə daimi bir təəssübkeşlik hissi özünü göstərir. O, yazıları ilə yalnız insanları buna səsləmir, eyni zamanda istər əməli işində, istərsə də poetik və draaturji fəaliyyətində bu müddəalara riayət edir, oxuyanlara örnək olur. Ana dili məsələsinə qayıtmış olsaq, şairin şeir yaradıcılığında da dil saflığına nail olmağa çalışdığının şahidi olarıq.

C.Cabbarlı irsini şərti olaraq bölsək, şeir yaradıcılığı, nəsr əsərləri və dramaturgiyası olmaqla qruplaşdıra bilərik. Nəsr və dram əsərləri, əslində onun yaradıcılığa ilk başladığı poetik qələminin gəldiyi zirvə nöqtəsidir. Şeir isə C.Cabbarlı yaradıcılığında heç vaxt itməmiş bir janrdır. Şairin şeirləri onun digər qələm təcrübələri kimi, olduqca zəngin və çoxçeşidlidir. Yaradıcılığının ilk illərindən – məktəb çağlarından yazdığı satirik şeirlərdən tutmuş, qələminin daha kamil vaxtında yazdıqlarına kimi, bütün nümunələr böyük şair məsuliyətinin və həssas bir ürəyin məsullarıdır.

Şairin şeirlərindəki dil saflığı hələ onun ilk mətbu şeiri olan "Bahar"dan duyulur. Sanki bu bahar qoxulu şeir gələcək şairin daim təmiz qalacaq təravətli qələminin müjdəçisidir:

Ah, yellər nə həzin, fikr elə, san ney çalınır,
Hanı bəs qışdakı evlər uçuran qüdrətiniz?
İndi gör əsməyinizdən nə gözəl zövq alınır!
Unudulmuş o sudan qar yaradan hiddətiniz. [2, s.47]

Şairin Cümhuriyyət dönəmində yazılan, yüksək hiss-həyəcan və məhəbbətlə dilə gələn "Sevdiyim", "Azərbaycan bayrağına" kimi şeirlərində zamanın ahənginə uyğun olaraq anadolu türkcəsinin izləri hiss olunur. Lakin bu şeirlərin müəllifindən gələn təbiiliyini pozmur.

Canalıcı bir görkəmlə dağ başında durunca,
Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.
Nazlı əlin umuzunda saçlarına vurduqca,
Bir-bir oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma sellər bəkləyor
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim. [2, s.63]

Şairin məhəbbətə həsr olunmuş şeirləri o qədər təbii və sadə dillə qələmə alınıb ki, bu günümüzdə belə çətinlik çəkmədən rahatca oxuya bilərik. Üzərindən illər keçsə də, hələ də sevən qəlblərin tərcümanına çevrilə bilər bu misralar:

Məhəbbət ölkəsi qəm diyarıdır,
O diyarda ağlayan çox, gülən yox.
Cad olunmuş kimi könül çırpınır,
Ağlayormu, gülüyormu – bilən yox!
Fələk məni öylə günə salıb ki,
Bilmiyorom yaşayımmı, ölümmü?
Yazıq könlüm öylə hala qalıb ki,
Bilmiyorom ağlayımmı, gülümmü? [2, s.69]

C.Cabbarlının yaradıcılıq dili bizim xalq dilimizə əsaslanır, onun ərəb, fars sözlərindən təmizlənmiş şeir nümunələri isə sanki illər əvvəl yox, məhz bu gün yazılıb.

Bir mən idim, bir sən idin, bir də yamaclar...
Meşə yolu, yarpaq dolu yaşıl ağaclar.
Onda ki, ağ umuzlara töküldü saçlar,

Əsdi yarpaq, coşdu irmaq, güllər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı. [2, s.75]

Onun şeirləri ən təsirli romantizm dilində qələmə alınmışdır. "Bu dil qanadlı xəyalları, coşqun ehtirasları, dərin fikirləri ifadə edə bilir. Eyni zamanda, bu dil gözəldir, cazibədardır, şeirlə, ahənglə, musiqi ilədoludur. Onda dili əzən, dodaqları eybəcər şəklə salan,nəfəsi darıxdıran bir söz, bir ifadə belə yoxdur. Bu dil ən şiddətli dramatik monoloqları ifadə etməkdə acizlik çəkmir." [4, s.21]

Bir biz idik, bir düz idi, bir də al boya...
Dağ başında uçan quşlar endilər çaya.
Sən dedin ki: "Bütün dünya qoy dönsün toya!"
Çaldı qaval, uzaq kənddə ellər oynadı,
Ürəyimdə kaman kimi tellər oynadı. [2, s.76]

"Sənətkar sözləri mum kimi yumşaldaraq istədiyi şəklə salır və ildırım səsi verən ifadələr yaradır. Bu dil mürəkkəb olsa da, aydındır. Zahirən dəbdəbəli olsa da, daxilən qüdrətlidir. İnsan qəlbindəki ehtirasların səsidir. Azərbaycan dilinin ancaq sadə cümlələri sevdiyini güman edənlər bir daha C.Cabbarlını oxusunlar." [4, s.21]

Bir qönçə yetirdim, bəzədim, nazını çəkdim;
Aldı fələk əldən onu, yarım yada düşdü.

Bağlandı könül bir gülə, səs tutdu mahalı;
Guya ki, bu dünyada qan oldu, qada düşdü. [2, s.76]

C.Cabbarlının şeir dilində sadə cümlələr zərif, mürəkkəb cümlələr isə qüdrətli və təsirlidir. Şairin qələmi həm təbiət mənzərələri, həm da insan xarakterlərinin təsvirində çox məharətlidir. Bununla yanaşı, şairin satirik şeirlərində də bir sıra dil fərqləri nəzərə çarpır. Bu tərz şeirlərdən bəziləri dilcə qəliz təsiri bağışlasa da, əksəriyyəti anlaşıqlı və diləyatandır.

Harda biz aciz müsəlman görsək, ani bizlərik.
Qız nədir, arvad nədir, hər kəs danışsa, dizlərik;
Kani-hümmət, kani-qeyrət, kani-şəfqət bizlərik,
Arı namussuzluğa qatsaq, qiyamətmi qopar? [2, s.85]

NƏTİCƏ

Ana dili məsələsi hansı dövrdə araşdırılmasından asılı olmayaraq həmişə aktualdır. Bu hansı yazıçı, hansı şair yaradıcılığına müraciət edərkən də dəyişilməz olaraq qalır. Dilimizin milli xüsusiyyətlərini qoruyub saxlayaraq keçdiyi bütün inkişaf dövrlərində araşdırılmasına, tədqiq olunan dövrün qələm sahiblərinin yaradıcılığına hərtərəfli müraciət olunmasına daimi ehtiyac vardır. Ana dili daim dəyişib inkişaf edən dinamik bir varlıqdır, bu səbədən də onunla bağlı aparılan bütün araşdırmalar da həmişə aktual və yenidir. Həm şair, həm dəgörkəmli dramaturq olan C.Cabbarlı yaradıcılığının da dil saflığı mövqeyindən bir daha tədqiqata cəlb olunmasının ədəbiyyatşünaslıqla yanaşı, dilçilik baxımından da üstünlükləri var. Bu tədqiqat işində şairin əsasən şeir yaradıcılığına işıq tutulsa da, onun dram əsərləri də xatırlanmış, onların ədəbi dəyəri bir daha diqqətə çatdırılmışıdır. Digər tərəfdən, ədəbin ədəbi-tənqidi məqalələrində yer verdiyi ana dili haqqında fikirləri də araşdırmaya cəlb olunmuşdur. Beləliklə, tədqiqat işi həm ədəbi-bədii, həm ədəbiyyatşünaslıq, həm də dilçilik sahəsində araşdırma aparanlar üçün mənbə kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi. II kitab, Bakı, 2010, 436s.
2. Cabbarlı C. Əsərləri. Dörd cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 1-328
3. Cabbarlı C.Əsərləri. Dörd cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2005, 1-288
4. İbrahimov M. Ana dili-hikmət xəinsəi. Bakı, "Azərnəşr", 1991 1-136
5. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, Bakı Universiteti Nəşr., 2007, 1-504
6. Seyidov Y. Sözün şöhrəti. Bakı, "Yazıçı", 1981, 268s.

"RƏHBƏR" JURNALINDA ALINMA SÖZLƏRİN ORFOQRAFİYASI VƏ ORFOEPİYASI İLƏ ƏLAQƏDAR BƏZİ MƏSƏLƏLƏR

Kənan Bəşirov
Bakı Mühəndislik Universiteti
Pedaqoji fakültə
kbesirov@beu.edu.az / kananbashir@gmail.com
Xırdalan, Azərbaycan

20-ci əsrin əvvəllərində Bakıda ərəb qrafikalı əski Azərbaycan əlifbası ilə nəşr olunan "Rəhbər" jurnalında alınma sözlərin orfoqrafiyasında bəzi məsələlər diqqəti çəkir.
Ərəb qrafikalı əski Azərbaycan yazısında sözlərin yazılışını aşağıdakı kimi qruplaşdırmaq olar:
1. Əsl Azərbaycan sözlərinin yazılışı;
2. Ərəbcə və farsca sözlərin yazılışı;
3. Avropa dillərindən alınma sözlərinin yazılışı

Ərəbcə və farsca sözlərin yazılışı
Əski yazımızda ərəbcə və farsca sözlər əslində olduğu kimi yazılır. Bu baxımdan "Rəhbər" jurnalındakı ərəb və fars sözlərini düzgün oxumaq üçün həmin dillərdəki müəyyən imla qaydalarını bilmək lazımdır.
Ərəb və fars dillərinin sait sistemi Azərbaycan dilindən fərqlidir. Əsas fərq odur ki, bu dillərdə Azərbaycan dilində olmayan uzun saitlər var. Bundan əlavə, ərəb və fars dillərində Azərbaycan dilində olduğu qədər çox sait yoxdur. Bu dillərdə qısa saitlər ümumi orfoqrafik qayda kimi yazılmır. Yalnız uzun saitlər yazılır.
Buna uyğun olaraq ərəb və fars sözlərində sözün əvvəlində məddəli əlif آ[a] oxunur:

آزاد	آب	آتش	آسوده
azad	ab	atəş	asudə

Əlif söz ortasında və sonunda [a] oxunur:

موافق	میدان	صاحب	ادا
müvafiq	meydan	sahib	əda

Sözün ortasında və sonunda gələn vav hərfi sait funksiyasında isə, [u] tələffüz olunur:

قبول	خصوص	رجوع	جادو
qəbul	xüsus	rücu	cadu

Sözün əvvəlində əlif+ye sait funksiyasında isə, [i] oxunur:

ایضاح	ایفا	ایجاد	ایمان
izah	ifa	icad	iman

Söz ortasında və sonunda ye ی sait funksiyasında isə, [i] oxunur:

وظیفه	تعلیم	معیشت	اجتماعی
vəzifə	təlim	məişət	ictimai

Müasir Azərbaycan dilində bəzi ərəb və fars sözlərinin tələffüzü dəyişmişdir. Lakin ərəb və fars sözlərinin əslindəki yazılışları əski yazı orfoqrafiyasında dəyişdirilmir.
Yuxarıda qeyd edildiyi kimi ərəb və fars sözlərində qısa saitlər yazılmır. Ancaq **e** saiti sözün əvvəlində "həmzəli əlif" أ, sözün sonunda isə "hə" ه hərfi ilə yazılır. Əski Azərbaycan yazısında həmzə çox vaxt sözün əvvəlində yazılmır, yalnız əlif hərfi ilə göstərilir:

اساس	اثر	ابد	أمر
əsas	əsər	əbəd	əmr

Digər qısa saitlər yazıda göstərilmir.
Ərəb dilində var olan bəzi səslər Azərbaycan dilində mövcud deyildir. Ona görə də bu səsləri dilimizdə ona ən yaxın olan səslərlə tələffüz edirik.

[s] səsi. Əski Azərbaycan yazısında əsl Azərbaycan sözlərində və eyni qayda ilə yazılan Avropa mənşəli sözlərdə [s] səsi sin س hərfi ilə yazılır. Ərəb dilindən keçmiş sözlərdəki ص və ث hərfləri [s] kimi oxunur:

تصحیص	اقتصادی	بحث	حادثه
təshih	iqtisadi	bəhs	hadisə

[t] səsi. Əski Azərbaycan yazısında əsl Azərbaycan sözlərində və eyni qayda ilə yazılan Avropa mənşəli sözlərdə [t] səsi te ت hərfi ilə yazılır. Ərəb dilindən keçmiş sözlərdəki ط hərfi [t] kimi oxunur:

واسطه	طبابت	تعطیل	خطاب
vasitə	təbabət	tətil	xitab

[z] səsi. Əski Azərbaycan yazısında əsl Azərbaycan sözlərində və eyni qayda ilə yazılan Avropa mənşəli sözlərdə [z] səsi ze ز hərfi ilə yazılır. Ərəb dilindən keçmiş sözlərdəki ذ, ظ, ض hərfləri [z] kimi oxunur:

وظیفه	نظر	ضعیف	ذات
vəzifə	nəzər	zəif	zat

Ayn və həmzə

Ayn ع və həmzə ء hərfləri ərəb dilinə xas səsləri bildirir. Boğaz zərbəsi ilə yaranan bu səslərə fars və Azərbaycan mənşəli sözlərdə rast gəlinmir.

Ayn hərfi Azərbaycan tələffüzündə sözün əvvəlində yalnız saiti ilə oxunur; belə sözlərdə ayn hərfi sait kimi görünür:

عصر	علم	عموم	عهده
əsr	Elm	ümum	öhdə

Həmzə ء sözün əvvəlində əlif hərfinin üstündə və ya altında yazılır və əslindəki sözün səs dəyərinə uyğun olaraq oxunur. Mətbu yazıda, o cümlədən "Rəhbər" jurnalında həmzə işarəsi, əsasən, göstərilmir:

امّت	اجل	ابد	امر
ümmət	əcəl	əbəd	əmr

Təşdid

Ərəb dilində sözün ortasında və sonunda yan-yana gələn eyni samitlər tək hərflə yazılır. Bu hərfin təkrar oxunması üçün onun üzərinə "şəddə" yaxud "təşdid" adlanan köməkçi işarə qoyulur. Çap mətnlərində bəzən bu işarədən istifadə edilmir.

ادبیّات	قوّه	معلّم	ملّت
ədəbiyyat	qüvvə	müəllim	millət

O cümlədən, "Rəhbər" jurnalında da şəddə əsasən istifadə edilmədiyi üçün bu, əsl Azərbaycan sözlərinin orfoqrafiyasına də təsir etmiş, əslində cüt səsli olan sözlər tək hərflə göstərilmişdir:

دوققوز	سکز	قاقلداشه قاقلداشه	آغ سقاللاریندن
doqquz	səkkiz	qaqqıldaşa-qaqqıldaşa	ağsaqqallarından

Tənvin

Əski Azərbaycan yazısında işlənən hərəkə işarələrindən biri də tənvindir. Sadəcə ərəb dilindən alınan sözlərdə vardır. Tənvinin bir neçə növü var. Əski yazıda daha çox istifadə olunan tənvin iki fəthə işarəsindən ibarət olub əlif hərfinin üstünə ً qoyulur və hərfi [ən] oxudur. Tənvin daha çox zərf mənası verən sözlər düzəldir. Mətbu yazıda bu işarə əsasən istifadə olunmur:

انصافا	اناثا	ذکورا	کلیتاً
insafən	ünasən	zəkurən	külliyyətən

Avropa dillərindən alınma sözlərinin yazılışı

Müəyyən xüsusi hallar istisna olmaqla, Avropa dillərindən alınma sözlərin orfoqrafiyası əsl Azərbaycan sözlərinin orfoqrafiyası kimidir.

مارقه	روسقایا شقولا	تیرمومیتر	قلادبیشنسقی
marka	russkaya şkola	termometr	Kladbişinski

بيوراوقراتلريندن	پاسريدينك لريندن	ديريقتورلارك	زيمستوا
byurokratlarından	pasredniklərindən	direktorların	zemstva

Bəzi xüsusi hallar:

Q səsi

Əsl Azərbaycan sözlərinin orfoqrafiyasında [q] səsi üçün ق hərfi istifadə edildiyi halda, Avropa mənşəli sözlərdə, xüsusən söz əvvəlində əsasən غ hərfinə üstünlük verildiyini görürük:

غرادوس	بلغارستان	غورقی	غالیتسینگ
qradus	Bolqarıstan	Qorki	Qalitsinin

T səsi

Əsl Azərbaycan sözlərinin orfoqrafiyasında [t] səsi üçün ت hərfi istifadə edilir. Lakin Avropa mənşəli sözlərdə, əsasən qalın saitli hecalarda bəzən ط hərfi işlədilir:

پطر	ایمپراطور	قونسطیطوسیونالیزم	پوچطه
Peter	imperator	konstitusiyonalizm	poçta

Rəhbər jurnalında Azərbaycan dilinin leksikasına uyğun olaraq, həm ərəb və fars sözləri, həm də Avropa dillərindən alınmış sözlər istifadə edilmişdir. Ərəb və fars sözləri məxsus olduqları dillərdəki orfoqrafiya xüsusiyyətlərinə bağlı olaraq dəyişdirilmədən yazılır. Lakin bu sözləri oxuyarkən müasir Azərbaycan dilindəki orfoepik qaydaları nəzərə almaq lazımdır. Avropa dillərindən alınma sözlər isə ərəb qrafikalı əski Azərbaycan yazısındakı əsl Azərbaycan sözlərinin orfoqrafiyası əsasında yazılır. [q], [k], [t], [s] və s. kimi müəyyən səslərin orfoqrafiya və orfoepiyasındakı bəzi xüsusi halları nəzərə almaqla, Avropa mənşəli sözlər əsl Azərbaycan sözləri kimi yazılır və tələffüz edilir.

Ədəbiyyat

Azərbaycan dilində

1. Aşırlı Akif. Azərbaycan mətbuatı tarixi (1875-1920), Elm və Təhsil, Bakı, 2009, 171 s.
2. Əlizadə Samət. Əski Azərbaycan yazısı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1993, 141 s.
3. Ərəb və fars sözləri lüğəti / AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı: Yazıçı, 1985, 1035 s.
4. Hacıyeva Zəminə. Əski əlifba. Bakı: Elm Nəşriyyatı, 1989, 78 s.
5. Rüstəmova Təhminə. Əski əlifba. Bakı: "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1996, 82 s.
6. "Rəhbər" jurnalı, 5 nömrədə, 1-5-ci № / Mahmud bəy Mahmudbəyovun naşirliyi və redaktorluğu ilə. Bakı: "Füyuzat" və "Kaspi" qəzetinin mətbəəsi, 1906-1907, 89 s.
7. Aslanov, M., "Rəhbər" jurnalının tarixindən, "Azərbaycan müəllimi" qəz., Bakı: 1968, 5 may.

Türk dilində

8. Develi Hayati. Osmanlı Türkçesi Kılavuzu 1. İstanbul: 3F, 2006, 443 s.
9. Kaplan Muharrem. Sovyet dönemi öncesi azerbaycan matbuati araştirmalari bibliyografyasi // Journal of Qafqaz University. Philology and Pedagogy, Bakı: 2013, C.1, № 2, s. 147-162

AZƏRBAYCAN ƏDƏBİYYATI

NOVRUZ TRADITIONS AS THE SAMPLE OF FOLKLORE AND CULTURAL HERITAGE

HASANOV ELNUR LATIF
Ganja Branch of Azerbaijan National Academy of Sciences
lnurh273@gmail.com
GANJA, AZERBAIJAN

ABSTRACT
Scientific work deals with the research of special attention to the innovative study of the historical-cultural features of the spring (Novruz holiday) ceremonies, traditionally celebrated in the territory of Ganja and the western region of the country as a whole, based on scientific principles and also native characteristics. Research paper dedicated to the study of spring ceremonies as the integral part of national-moral values, which are based on millennia on the basis of various written and oral sources.
Key words: Azerbaijan, Ganja, biochemical investigation, national rituals, natural phenomena, innovative research.

INTRODUCTION

In fact, holiday of Novruz is the part of the national calendar: this holiday belongs to the different stages of the folk calendar and is united according to the ethno-cultural essence and concept. One of the main parts of this holiday is Khidir Nabi ceremony. They are the components of the unified mythical system of thinking of people about time, as independent holidays, which do not replace each other and are not alternative. However, it should be noted that Novruz is more widespread holiday due to the ethno-cultural geography than the holiday Khidir Nabi [2, p. 396-398].

The main reason of it is that Novruz and Khidir Nabi have been included into the history of the official calendar named Jalaliyya calendar since the XI century [3, p. 4].

This holiday was not included in the official calendar and continued to live as a tradition related to the folk calendar. The reason of the holiday Khidir Nabi not being included into the official calendar is that it did not have such a huge ethno-cultural geography as Novruz holiday.

MATERIALS AND METHODS OF RESEARCH

The connection of the beginning of Khidir Nabi (Khidirellaz) in the form of storm since the 10^{th} of February in Aghbaba region with Kichik Chille ("Period of twenty days of winter") is affirmed once more. Winter is 60 days in the folk calendar and consists of two stages: Period of forty cold days of winter from the beginning – "Boyuk Chille", Period of twenty days of winter – "Kichik Chille". The fact that Khidir Nabi holiday (ceremony) is in "Kichik Chille" in all cases makes it clear that it symbolizes the end of winter.

The ceremony "govut" held at Khidir Nabi holiday shows that Khidir Nabi was imagined as an anthropomorphic creature and visited the houses on the night of the holiday. People's interest looking for a sign of Khidir Nabi's knout in the morning on the roast in the plate they put to find out if he visited that house on the night of the holiday. Of course, if there is a sign of a knout on the roast, it means that Khizir came to that house (room) at night and touched the roast with his knout.

Having a sign of the knout on the roast shows that Khidir accepted the share given to him. And according to the belief it means the coming blessing. As it is said in one of the belief texts: "On the night of Khidr, from which door the prophet would take his share of wheat that house will be rich during that year and it will be blessed" [5, p. 44].

According to the cosmological nature Khidir Nabi is a cosmological creator, it means the image of world-creator. His arrival symbolizes the coming of a new space-time (spring, a new year) that will give people a new life. Khidir Nabi brings blessings to people. People ask him to bless their homes and possessions. However, the image of Khidir is also connected with the cult of ancestors.

The signs of his giving children to women are also preserved in the songs. With his arrival Khidir also brings a "pleasant voice" to the humanity, that is, the voice of a baby, signifying birth, growth and fertility.

Thus, the function of Khidir Nabi as a bearer of the cult of fertility, patron and prosperity is completed. The essence of all the ceremonies about Khidir Nabi is to receive blessings from Khidir Nabi through the mechanism "share-share". As it is seen the shares, that children collect from the houses in the name of Khidir Nabi are blessed by the energy given by Khidir Nabi and then return to the people.

CONCLUSION

The singers of songs about Khidir call themselves as "Khidir's slave" and "the cover of his horse" as in the songs of other regions. From the text of the song it is known that Khidir goes to the bazaar, too. The bazaar is a unit of space in the history of Azerbaijani culture where people gather and meet in public.

For example, in our language there are such expressions: "In order to be aware of everything one must go to a bazaar or to the center of the region"; "Because of my shame, I can't go out in public, to the bazaars or markets". It is clear from this thinking that the arrival of Khidir Nabi to the bazaar means his mass meeting with the people [1, p. 289-290; 4, p. 2291-2294].

The verses in the text of the song such as "I bought the instrument for Khidir, // Let Khidir bring spring" also attract attention. The instrument "saz" was not just a musical instrument in the history of Azerbaijani culture, in ancient times it was considered a tool with magical powers. It is also known from the history of our culture that ashiqs were called on patients and they tried to treat patients by playing the instrument "saz". The roots of it, no doubt, go back to shamanism [11, p. 18-24].

It is clear from the text of the song that people buy the instrument "saz" to Khidir Nabi so that playing and singing he can bring spring. It means that Khidir Nabi brings spring with the help of magic music and song that is by playing and singing.

REFERENCES

1. Andrews P., Temel H. Hubyar. British Journal of Middle Eastern Studies. 2010.Vol. 37. No. 3, p. 287–334.
2. Behzadi N. Nowruz Calendar and Its Emergence from Different Perspectives and Its Impact on Various Aspects of People's Lives. Journal of History Culture and Art Research. 2016. Vol. 5. No. 4, p. 395-401.
3. Erdem M. "Nevruz" in Turkmen. Central Asiatic Journal. 2009. Vol. 53. No. 1, p. 3-14.
4. Hasanov E.L. About research of features of legal culture on the basis of historical-literary heritage. Information (Japan). 2017. Vol. 20, No. 4, p. 2289-2296.
5. Osmanova L. Folk ceremonies and songs. Baku: Elm ve tehsil. 2014. 44 p.

MİRZE ELEKBER SABİR VE ŞİİRLERİNDE ELEŞTİRİ HEDEFLERİ

Hatice BAYTÜRK
T.C. Kafkas Üniversitesi, Sosyal Bilimler Enstitüsü
Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü
Azerbaycan Türkçesi ve Edebiyatı Ana Bilim Dalı
haticebayturk1@gmail.com
Kars, Türkiye

Özet

19. yy Azerbaycan edebiyatının ünlü temsilcisi Mirze Elekber Sabir, büyük bir ustalıkla kaleme aldığı şiirlerinde toplumun eksik yönlerini mizahlı bir tutumla eleştirmektedir. "Molla Nasreddin" dergisi ile birçok takma adlarıyla yayım yapan Sabir'in en bilinen takma adı "Hophop" olup, "Hophopname" adlı şiirler kitabı yayınlanmıştır. Bu çalışmada Mirze Elekber Sabir' in hayatı, edebi kişiliği ve şiirlerinde eleştiri hedeflerinin neler olduğu tespit edilip, ortaya konulmuştur.

Anahtar Kelimeler: Mirze Elekber Sabir, Mizah, Eleştiri.

Giriş

Mirze Elekber Sabir, Azerbaycan'da satirik akımın kurucusu, yeni hiciv şiirinin Doğu edebiyatındaki en önemli temsilcisi olmakla beraber kendi yüzyılının aydın sınıfına adeta girmektedir. (Öztürk, 2009: 113-164). Sabir, 1862 yılında Azerbaycan'ın Şamahı şehrinde doğmuştur. Küçük Sabir medreseye verilmiştir. Medresede Arap ve Fars dillerini öğrenmiştir. Küçük yaşlarında yazdığı "Tuttum orucu iremazanda" şiirinden de aydın olmuştur olduğu gibi medresedeki tedris usulüne razı olmamıştır.

Tutdum orucu iramazanda

Galdı iki gözlerin gazanda
Mollam da döyür yazı yazanda. (Adilov, 2015:127)

Yedi yaşında mahalle mollahanesine verilen küçük Sâbir, burada Kur'an ayetlerini, Sa'di'nin "Bostan" ve "Gülüstan" nı ezberlemiştir. İlk şiirini sekiz yaşında yazmıştır ve 1874'de Seyid Ezim Şirvânî'nin (1835-1888) Şamahı'da açtığı yeni (usûl-i cedid) okula devam etmeye başlamıştır. Talebesinin şairlik istidadını gören Seyid Ezim, onunla daha ciddî meşgul olur ve yeni şiirler yazmaya teşvik etmektedir. (Vahidoğlu, 1993: 83) Sâbir'in ilk şiirlerinden birinden çok hoşlanan hocası ona, Nizâmî'nin "Hemse"sini hediye etmiştir. Okumak ve yazmak ona ilham olmuştur ve geleceğini bu şekilde yönlendirmektedir. 1884 – 1886 yıllarında Doğu ülkelerine seyahat etmiş ve bunlar Horasan, Nişabur, Semerkand, Buhara, Aşkabad, Merv şehirleri olmaktadır.

Babasının ölüm haberini alarak memleketine dönen Sabir'in gençlik hayatı biter ve ailenin bütün ağırlığı Sabir'in omuzlarına çöker. Çabucak evlenir, birbiri ardınca kızları doğar ve şair, ömrünün sonuna kadar bir hayat mücadelesi vermek zorunda kalmaktadır. Sabir, kuyruk yağından sabun yapıp satmakla hayatını kazanmakta, yoksulluk ve sefalet içinde ömür sürdüğü halde işinden arta kalan zamanını yine de kitap okumaya ve yazmaya vermektedir. 1911 senesinde hemşehrilerinden iki şairle tanışmaktadır. (Abbas Sıhhat, Muhammed Terrah) Daha sonra şair Ağa Ali Nasih'in aracılığı ile tanınmış tenkitçi Feridun Köçerli ile tanışmakta ve bunun Sabir' in üzerinde büyük etkisi olmaktadır. (Doğru, 1975: VIII)

1903 yılında "Şark-ı Rus" gazetesinin çıkarılması, Sabir'i tam anlamıyla tetiklemektedir. "Beynelminel" şiiri 1905. yılda "Hayat" gazetesinde ışık yüzü, 1910. yılın öncelerinde Bakü'ye gelen Sabir, "Zenbur" dergisinin redaktör olarak çalışmıştır. "Güneş" ve "Hakikat" gazetelerinde faaliyet göstermiştir. 1906. yılda neşre başlayan "Molla Nasreddin" dergisi Sabir'in satira (eleştiri) yaratıcılığının genişlemesine sebep olmaktadır.

Bunların dışında Sabir'in, Yeni Hegiget, Behlul, Füyuzat, Yeni Füyuzat, Rehber, Seda, Milli Nağmeler, Debistan gibi dergi ve gazetelerde şiir ve yazıları yayımlanmıştır. Bu yönüyle Sabir, bir gazetecidir. Sabir, 1908'de Şamahı'da Ümid adlı bir okul açmıştır. Bu yönüyle Sabir, bir muallim ve eğitimci olmaktadır. (Bayram, 2011: 68) Bu okulda Azerbaycan Türkçesi, Farsça, hesap, coğrafya ve tabiat bilgisi gibi dersler verilmiştir. 1910 yılında Sâbir, dostu Sultanmecid Ganizade'nin yardımıyla Bakü yakınlarında olan Balahanı köyünde "Neşr-i Maarif" cemiyetinin açtığı "Saadet" adlı okulda Farsça ve şeriat dersleri vermiştir. (Yılmaz, 2012: 367)

20. asrın evvellerinde Abbas Sıhhat, Ağa Ali Efendizade Nasih ve Muhammed Terrah ile birlikte Şamahı' da küçük edebi meclis teşkil etmiştir. (Adilov, 2015: 127)

Ağır hayat şartları, sıkıntılar ve heyecanlar zaten hasta olan Sâbir'in bedenini daha çok yormuş ve böbreklerinden, kalbinden hastalanmaktadır. Daha önce de çok ciddi şikâyetleri olmakta ve böbrekleriyle beraber karaciğeri de iflas etmek derecesine gelmektedir. Bu zor günlerinde çevresinde ona yardımcı olan birkaç yakınından başka kimse olmamaktadır. Bu dostları içinde ise Celil Memmedguluzade, ona en çok ihtimam gösterenlerden biri olmuştur. (Taşkesenlioğlu, 2013:107)

Şair 1911 senesinin başında karaciğer hastalığına yakalanmaktadır. ve Şamahı'daki arkadaşı Abbas Sıhhat'a bu acıklı haberi bildirmektedir. Hastalığı gittikçe şiddetlendiği için artık Bakü'de kalamıyor ve Şamahı'ya dönmüştür. Burada Molla Nasreddin dergisinin idarehanesi tarafından tedavisi yaptırılmak üzere Tiflis'e gönderiliyor. Tiflis'te bazı doktorlar ameliyat yapılmasını teklif etmişlerse de Sabir buna razı olmamıştır. Büyük şair 12 Temmuz 1911 de vefat etmektedir ve Yedi Günbed mezarlığına defnedilir. (Doğru, 1975: XI)

Yaratıcılığı

Sabir 20. y.y. Azerbaycan edebiyatında şiirleriyle nam salmış bir şahsiyet olup, eğitime önem vermiş, şiirlerinde halkın kötü vaziyetini, toplumun eksik yönlerini şiirlerinde ustalıkla betimlemiş, halkı yönlendirmek, doğruya ulaştırmak için türlü hizmetler bahşetmiştir. Türk dünyasının en ünlü hiciv şâirlerinden biri, Azerbaycan'da modern şiirinin de öncülerindendir. Sabir, yaşamında çetrefilli yollar ve engeller çıksa da eğitiminden ve kendisini yetiştirmekten geri kalmamaktadır. Donanımlı hocaların etkisinde ve izinde giderek dönemi için yeni bir çığır açmaktadır. Türkçe, Farsça, Rusça ve Arapça dilleri ile edebi hayatını zenginleştirmiş ve kendinden sonrakiler için ışık yüzü olmaktadır. Molla Nasreddin dergisinde yazdığı satiralar (hiciv) bu edebi türünde gelişmesini sağlamaktadır. Amacı, cehalete karşı mücadele vererek milleti uyandırmak ve aydınlatmak olan şair, birçok şiir yayımlamıştır. Sabir'in şiirleri genel hatlarıyla toplumsal gerçekler üzerinde bariz şekilde görülmektedir. Aldığı eğitimin hakkını vererek eğitimin ne denli kıymetli olduğunu eserlerinde açıkça görülmektedir.

Azerbaycan ve tüm Şark edebiyatında, yeni mizahi şiirin, satirik akımın kurucusu olan şairin gerçek adı Elekber Tâhirzâde olup, "Sâbir" (sabr eden, sabırlı) onun şiirlerinde kullandığı takma addır. "Mirze" ise aydın bir edip olduğunu gösteren "okuma-yazma bilen kimse, tahsilli kimselere hürmet amacıyla kullanılan seslenme ifadesi" olmaktadır. (Taşkesenlioğlu, 2013: 98).

Sâbir'in şiirleri ölümünden sonra ilk defa arkadaşı Abbas Sıhhat tarafından toplanıp kullandığı "Hop Hop" imzasından esinlenerek *Hophopname* adıyla Bakü'de bastırılmış (1912), daha sonra da birçok kere yayımlanmıştır. Şiirleri İran'da da çok ilgi görmüş, defalarca basılmış ve Farsça'ya çevrilmiştir. Sâbir'in şiirleri Türkiye'de II. Meşrutiyet'ten sonra yayılmış, birçok dergide parça parça neşredilmiştir. (Akpınar, 2008: 346)

Ayrıca dönemin canlı dergisi olan Molla Nasreddin, Azerbaycan'da yayımlanan ilk mizah dergisidir. Molla Nasreddin çeşitli aralıklarla yirmi beş yıl neşredilmiştir. Molla Nasreddin dergisi, Celil Memmedguluzade ve Ömer Faig Nemanzade'nin öncülüğünde yayım hayatına başlamıştır. Dergiye dördüncü sayısından itibaren katılan Mirza Elekber Sabir, gerçek ününe Molla Nasreddin sayesinde ulaşmaktadır. (Adıgüzel, 2007: 3)

Sâbir, Molla Nasrettin'de en çok "Hophop", "Ağlar Güleyen", "Ebunasr Şeybânî", "Cingöz Bey" imzaları ile şiirler yazmıştır. Ayrıca şairin şiirleri, "Goca Emi", "Boynu Burug", "Fazil", "Din Direyi", "Boynu Yogun", "Tükezban Cici", "Goca İranlı", "Yarı Könül", "Sevdayî", "Yaramaz", "Nizedâr" ve "Çuvalduz" takma adlarıyla da yayımlanmıştır (Yılmaz, 2012: 369)

Bütün şiirlerinin toplandığı Hophopname eseri ile gelecek yüzyıllar için ders niteliği taşımakta ve rehber olmaktadır. Her kesim kendinde mutlaka bir öğreti bulabilmektedir. "Sâbir, "Hophopname" ile hem muasır halkına hem de gelecekteki vatandaşlarına yol gösteren bir ışık, aynı zamanda da aydınlar için yeni kapılar açmış bir önder hâline gelmektedir". (Taşkesenlioğlu: 2013, 110).

Her ne kadar da olsa şairlerin ve yazarların etkilendikleri üstatlar olup, Sabir'in de etkisi altında olduğu yazarlar olmaktadır. Sabir, kendi döneminin 20. y.y. da halkını uyaran, yön gösteren bir rehber olmuştur. Türlü sıkıntıların olduğunu ve onlara çare bulmanın yollarını da eserlerinde göstermektedir.

Divan Edebiyatı gelenekleri ile yetişen Sâbir, Azerbaycan Edebiyatında tamamıyla yeni bir şiir üslûbunun temelini atmaktadır. Yüzyıllar boyu Nizamîlere, Nesîmîlere, Fuzûlîlere nazire yazan, ama çoğu zaman taklitçilikden ileri gitmeyen, halktan, onun fikir ve düşüncelerinden, sosyal hayat ve mücadelesinden uzak, gazel şiirinin yerine o, kılıç kadar sert ve keskin bir mizahî şiir getirmektedir. Hocası Seyid Ezim Şirvânî gazel edebiyatının son büyük şairi olduysa, Sâbir de yeni şekil ve konulu, sosyal muhtevalı mizahî şiir mektebinin ilk büyük temsilcisi olarak şöhret kazanmaktadır.

Şiirlerinde Eleştiri Hedefleri

Mirze Elekber Sabir'in eleştirilerinde müracaat ettiği esas konular, devrin Azerbaycan için yarattığı sosyal ve siyasal zorluklar, medeni ve sosyal gerilikten kaynaklanan ciddi problemler, batıl inanç ve cehalet ile barışık olmayan savaş, kadın özgürlüğü meseleleri yer almaktadır. Sabir'in eleştiri yazmakta esas maksatları arasında ülkedeki karışık vaziyetin esas sebebi olan idare usulünü dağıtmak, halkı gaflet uykusundan uyandırmak, insanlara öz haklarını hatırlatma gösterilmektedir. Şairin eserleri arasında **halkın acınaklı vaziyeti, yoksulluk ve acizliği hakkında yazmış olduğu şiirler (**Ekinci, Dilenci, Ağlaşma, Bir cebimde eksinasım, Bize ne? , Mahi ramazandır), v**atansever olmayan, yalnız kendilerini düşünenler için yazmış olduğu şiirler** (kim ne der biz de olan gayrete?, Ne işim var, Yaşamak ister isek, Dindirir Asr Bizi Dinmeyiriz), p**ara düşkünlüğü, aç gözlülük ile ilgili şiirleri (**Paradır, Aldanmaram, Naehl Olana, Bazı yerlerde, Nuri Çeşmanımmısan, Seyehatname'den Bir Nabız. (Gerayzade, 2018: 236) olduğu görülmektedir.

Araştırma Metodu

Araştırmamızın amacı genel olarak Mirze Elekber Sabir' in yaşadığı toplumu ve düzene aykırı olan durumları şiirlerinde bir örgü şeklinde hicvederek, ne durumda olduğunun tespiti ve açıklamasıdır. Bu amaçla Türkiye ve Azerbaycan sahasında yayınlanan birçok araştırmalardan, Vügar Adilov, Ellada Gerayzade, Sedat Adıgüzel, Yavuz Akpınar, Ömer Bayram, Mecit Doğru, İsa Öztürk, Lokman Taşkesenlioğlu, Yaşar Vahidoğlu, Hayati Yılmaz gibi bilim adamlarının eserlerinden yararlanılmıştır. Konumuz ile ilgili olarak şairin şiirlerindeki eleştiri hedeflerini aşağıdaki gibi sınıflandırabiliriz:

1. Cehalet

Şair, "Ederik" şiirinde cahilliğin ne kadar çok ilerlediğini ve dert yandığını göstermektedir.

"Bir bölük boşboğazıg, heyverelik adetimiz,
Doludur le'net ile geybet ile söhbetimiz,
Ohumagdan payımız yoh, yazıdan gismetimiz,

Bu avamlıgla bele her sözü tefsir ederik."

"Yazıdan kısmetimiz, okumakta payımızın olmadığını" manidar dizeleriyle bariz açıklamaktadır. Cehalete karşı her şeyi tek tek açıklamak durumunda kalmaktadır.

Sâbir, ülkesinin gelişmesi, ilerlemesi ve halkın yoksulluktan kurtulması için başta eğitimin düzelmesi gerektiği inancında olmaktadır. Şair, şiirlerinde cehaletten ve toplumdaki gerilikten rahatsız olduğunu ifade etmektedir. "Ayılma" şiirinde cehaleti alaylı bir şekilde hicvetmektedir.

"Terpenme, amandır, bala, gefletden ayılma!
Açma gözünü, hab-ı cehaletden ayılma!"

Eskiden beridir süre gelen, insanoğlunun en çok aşamadığı olaylardan biri de cehalettir ve kendi içinde birçok olumsuz durumları da yanında getirmektedir. Cehaleti açıklayan "Çalıda gül bitmez, cahile söz yetmez" atasözü de bu durumları teşhir etmektedir.

2. Toplumsal Bozukluk

Sâbir, yaşadığı toplumdaki açgözlüleri, halkın sıkıntı ve dertlerini umursamayan, kendi çıkarını her şeyden üstün tutan kibirli ve egolu insanları, "Paradır" şiirinde alaycı biçimde tenkit etmektedir.

Ademi adem eyleyen paradır,
Parasız ademin üzü garadır."

"İnsanı, insan eden paradır, parasız ademin yüzü karadır" kısmından da anlaşılacağı üzere umarsız insanlar, çıkarcı kişiler net şekilde bu dizede görülebilmektedir. Para ile insana fiyat biçmektedirler.

3. Kadın' ın Yeri

Şairin yaşadığı dönem normal kabul edilen yaşlı adamların küçük kızları eş olarak almaları ve çok eşlilik meselesi şairin şiirlerinde geniş bir yer tutmaktadır. Şair, bu durumu "Arvad Alırız Biz!", şiiriyle gözler önüne sermektedir.

"Gavur Kızı" şiirinde de heveslerin esiri olan kişiler ve kadının yerini insanlar alçaltmaktadır. Bunu apaçık haliyle görülebilmektedir:

Gel razı ol ki, bir gız alım, men de kef çekim,
Hem eylesin sene dehi hidmet, gavur gızı!" (Doğru, 1975:147)

4. Adeletsiz Yaşam

Sâbir, yoksul işçi ve köylülerin hayatını oldukça gerçekçi bir şekilde şiirlerine aktarmaktadır. Şair'in şiirlerinde halkın yoksulluğu, çaresizliği ve zor hayat şartlarıyla beraber yoksulların aşağılanması ve toplumdan dışlanması gibi durumlar da alaycı bir şekilde tasvir ve teşhir edilmektedir. Bunu "Gem Yeme", "Bakı Fe'lelerine", "Tarane-yi Esilane", "Ağlaşma", "Ahmag Kişi, İnsanlığı Asan mı Sanırsan", "Ekinçi", "Bize Ne", "Dilençi", "Sebr Eyle" gibi şiirlerinde bunu açıkça görmek mümkündür.

Ekinçi şiirinde köylü ve yoksul halkların aşağı gören kesim vardır ve bu şiirde görülmektedir.

Cütcü babasan, buğdanı ver; darı yeyersen,
Su olmasa, gışda eridib garı yeyersen,
Daşdan yumuşag zehr nedir, marı yeyersen,
Öğrenmemisen et yağa dünyada ekinci!
Heyvan kimi ör eylemisen sade ekinci! (Doğru, 1975:86)

"Su olmasa, kışta karı eritip ye" dizesiyle nasıl hor görüldükleri aşikardır. Sonuçta köylü şehirlinin efendisidir sözü bu halkın ne denli önemli olduğunu vurgulamaktadır. İşçi ve köylüler nüfusun odak noktasıdır ve eksikliği oluştuğunda ülkeler türlü sıkıntıların eşiğinde olabilmektedirler.

Sonuç

Mirze Elekber Sabir, 20. yy başında Azerbaycan edebiyatı başta olmak üzere bütün Türk dünyası edebiyatlarında önemli bir yer tutan şairlerdendir.

Hiciv kelimesini, mizah ile süsleyen, birleştiren Mirze Elekber Sabir, şiirlerinde cahil kesime, toplumsal bozukluklara, ezilen halka, kadınların hor görülmesine, dini suistimal eden hocaları göstermiştir ve eleştirmiştir. Halkın anlayacağı tarzda yazması da şairi bir adım öne taşımaktadır. Halkı refah düzeye ulaştırmak, onlara doğru yolu göstermek için Sabir, hatrı sayılır bir mücadele içinde olmaktadır. Döneminin hiciv şairi olması çevresindekileri ve çağdaşlarını büyük ölçüde etkilemiştir.

Kaynakça

1 ADIGÜZEL, Sedat (2007) Tiflis EdebÎ Muhitinde Molla Nasreddin Dergisi ve Dergide Tartışılan Konular.
2 ADİLOV, Vügar (2015) Edebiyyat, Abituriyentler üçün ders vesaiti.
3 AKPINAR, Yavuz (2008) SABiR, Mirza Alekber, TDV İslâm Ansiklopedisi.

4 BAYRAM, Ömer (2011) / NEÜ Sosyal Bilimler Enstitüsü Dergisi 1, s. 67-74 MİRZA ELEKBER SABİR'İN KLASİK TARZDA YAZDIĞI ŞİİRLER.
5 DOĞRU, Mecit (1975) Mirze Elekber Sabir, Hophopname, Ankara.
6GERAYZADE, Ellada (2018)Yeni Azerbaycan Edebiyyatı, XIX asr – XX AsrınEvvelleri,Son Çağ Yayınları, s. 236.
7 ÖZTÜRK, İsa (2009) İslâm Araştırmaları Dergisi, Sayı 21, KİTABİYAT, s. 113 -164.
8 TAŞKESENLİOĞLU, Lokman (2013) AZERBAYCAN TÜRK EDEBİYATI MİLLÎ ŞAİRİ MİRZE ELEKBER SÂBİR VE HOPHOPNAME, s. 98.
9 VAHİDOĞLU, Yaşar (1993) Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi, C. 5.
10 YILMAZ, Hayati (2012), Türk Dünyası İncelemeleri Dergisi, Mirza Ali Ekber Sabir.

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ VƏ ƏDƏBİYYATINDA "AİLƏ" KONSEPTİNİN REPREZENTASİYA OLUNMASININ TƏHLİLİ

Sevinc Əhmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya elmləri
sevincasger@gmail.com
Bakı

Xülasə Konsept məfhumu insanın mental dünyasına, yəni mədəniyyətə və tarixə yaxındır və bu səbəbdən spesifik xarakter daşıyır. Konseptlər xalqın düşüncəsində yaşayan kollektiv irsdir, onun mənəvi mədəniyyətidir. Məhz bu səbəbdən kollektiv şüur konstantların, yəni daimi, yaxud uzun müddət mövcud olan konseptlərin qoruyucusu kimi çıxış edir. "Ailə" konsepti bir çox dillərin leksikasının məfhum-linqvistik özəyinə daxil edilir. Bu konsept özündə ümumbəşəri (qohumluq münasibətlərinin cəmi) və mədəni-spesifik (sosial, mənəvi, etik) təsəvvürlərini əks etdirir. Zəngin tarixi-mədəni məzmuna malik olan ailə konsepti ayrı-ayrı etnoslara xas olan davranış normaları və dil arasında qarşılıqlı əlaqənin bir sıra xüsusiyyətlərini özündə ehtiva edir. Fərdi-şəxsiyyət səviyyəsində adekvat mədəniyyətlərarası kontaktların yaranmasında və fərqli mədəniyyətlərin nümayəndələri, daşıyıcıları arasında gündəlik ünsiyyətin formalaşmasında bu xüsusiyyətlərə bələd olmaq, onları çox böyük əhəmiyyətə malikdir.

Açar sözlər: konsept, semantik, spesifik, linqvistik, koqnitiv

Giriş

Mövzunun aktuallığı aşağıdakılarla müəyyən edilir:1) "ailə" konsepti insan davranışının mühüm istiqamətləri sırasına daxildir və şəxsiyyətlərarası münasibətlərin psixologiyasında aparıcı konseptlərdən biridir.2) frazeologizmlərin, atalar sözləri və məsəllərin, obrazlı ifadələrin milli-linqvistik özünəməxsusluqlarını aşkar etməkdir. 3) "ailə" semantik sahəsinin situasiya semantikası baxımından nisbətən az təhlil olunması. Bununla belə, bu təsvir üsulu verilmiş obyektin gələcəkdə də tədqiq edilməsi üçün yeni perspektivlər açır. Son dövrlər Avropa dilçiliyində,rusistikada və türkologiyada koqnitiv dilçilik istiqamət tədqiqatlarının genişləndiyi müşahidə edilməkdədir. O,cümlədən sahə dilçiliyi ayrı-ayrı sahələrin araşdırılması,tədqiq olunması müasir dövrümüzdə prioritet təşkil etməkdədir. Koqnitiv dilçiliyin inkişaf etməsi və bununla bağlı dil problemlərinə birbaşa və dolayı yanaşma tendensiyaları güclənməkdədir. Rus dilçiliyinə nəzər saldıqda şahidi oluruq ki, onlarda psixo linqvistika və sosial linqvistika əsaslı tədqiqatlar kifayət qədər aparılmış və maraqlı elmi nəticələr əldə edilmişdir. Burada A.Vejbitskaya, V.Kolesov, V.İ.Karasik, Y.S.Stepanov, M.V.Pimenov və digər tədqiqatçıların adlarını qeyd etmək olar. Müşahidələr nəticəsində məlum olmuşdur ki, həm Avropa, həm də rus dilçiliyində dildəki ən mühüm konseptlər, o cümlədən ailə konsepti kifayət qədər geniş tədqiq olunmuşdur. Ancaq Azərbaycan dilçiliyində M.Adilov, F.Ağayeva, Z.Verdiyeva, F.Veysəlli, A.Balayev, A.Məmmədov və başqaları qoyulan problemə az-çox toxunsalarda, beləki ailə konseptinin sistemli araşdırılmasına rast gəlmirik. Həm də nəzərə almaq lazımdır

ki,ailə konsepti digər konseptlərlə müqaisədə daha masştablı, çox yönlü, tutumlu, spesifik və geniş tədqiqata ehtiyacı olan konseptlərdəndir.

Tədqiqatın metodu Azərbaycan ədəbiyyatında "ailə" konseptinin linqvomədəni, linqvokoqnitiv təsvirinin yaradılmasından ibarətdir.Qarşıya qoyulmuş məqsədlə əlaqədar olaraq aşağıdakı vəzifələr irəli sürülmüşdür: Dilçilikdə və ədəbiyyatda "sahə" anlayışının əsaslarını göstərmək; −Azərbaycan dilində və ədəbiyyatnda "ailə" linqvomədəni konseptinin əsas əlamətlərini müəyyən etmək; verilmiş konseptin Azərbaycan ədəbiyyatında və dil şüurunda etnospesifikasını aşkar etmək

"Ailə" universal konseptinin uzun müddət mövcud olmasına baxmayaraq, onu tam formalaşmış konsept hesab etmək düzgün olmazdı.Buna səbəb qloballaşma prosesinin insanların həyatına gətirdiyi sosial-iqtisadi, mədəni və ideoloji dəyişikliklərdir.Həmin dəyişikliklər bu konseptin məzmununu genişləndirir, yaxud daraldır və nəticədə onun verballaşması üçün yeni vasitələr yaradır. Linqvokulturologiyanın obyekti konsept sayılır.A.Vejbitskaya "konsept" terminini obrazlı şəkildə belə aydınlaşdırır: *"Konsept insan təfəkküründün, şüurunun mədəniyyət laxtasıdır. Bu laxta insanın biliyini, doğurduğu assosiasiyanı, həyəcanı sözlə birlikdə müşayiət edir"* .

"Konsept" termini "təsəvvür" mənasında işlədilir. Təsəvvür həm fəlsəfi, həm də psixoloji anlayışdır. Bu anlayış "konsept" şəklində dilçiliyin linqvokulturologiya sahəsində də işlənir.

Dildə konseptə məruz qalan bəzi sözlərin mənasının konseptual tərəfləri də meydana çıxır. "Konsept" terminindən "konsepsiya" yaranmışdır (*lat. "conseptio"* -anlama, sistem) - əsas fikir, ideya, hər hansı hadisəni başa düşmək və izah etmək üsulu.

XX yüzilliyin sonlarından başlayaraq Qərb fəlsəfəsində daha çox "konsept" (lat."conseptus" - fikir, təsəvvür) termini işlədilir. Bu söz "konsepsiya" və "kateqoriya" terminlərinin hər ikisinə olduqca yaxın anlayışdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəri İlyas Əfəndiyev, Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Süleyman Rəhimov, Anar, Ramiz Rövşən, İsi Məlikzadə və bir çox başqa yazıçı və şairləri öz əsərlərində ailə movzusuna müraciət etmişlər.

İlyas Əfəndiyev əsərlərində insani borc, vətəndaş vəzifəsi, fərdi və cəmiyyətin qarşılıqlı münasibətləri, ailə və əxlaq problemləri barədə həmişə çox geniş yer tutur, o öz düşüncələrini yaratdığı yeni bədii obrazlar vasitəsilə, özünəməxsus üslubda ifadə edir.

Azərbaycanlılarda ailə həmişə yüksəkliklərdə dayanıb və qadın bu yüksəkliyin zirvəsini fəth etməsinə baxmayaraq ailə qurmadan özünü yarımçıq hesab edir, ailə qurduqdan, ana oduqdan sonra bu natamamlıq tamamlanır. Bəşəriyyətə sağlam ruhlu, sağlam əqidəli vətəndaş yetirməyə məsuliyyət daşıyan qadının potensial enerjisi kiçik dövlət sayılan ailəyə, onun qanunları çevrəsində yaşamağa transformasiya olunur. Bu onun yetişdiyi ailə dəyərlərindən, qan və gen özəlliyindən, milli təfəkkür qatından, bir də dini mənsubiyyətindən irəli gəlir.

Məlumdur ki, 1960-cı illərdən sovetlər birliyində hər bir sahədə olduğu kimi milli ədəbiyyatda böyük dəyişmələr başladı. Onu da qeyd etmək vacibdir ki, sözügendən dövrün yazıçı və şairlərinin həm yaşlı, həm də gənc nəslinin əsərlərinə yeni ruh, yeni nəfəs gəldiyinin şahidi oluruq. Ümumiyyətlə ədəbiyyata yeni mövzular gəlməklə yanaşı, ədəbi problematika dəyişdi, yeni ideya və planlar yaradıldı. Yazıçı və şairlər mövzu seçimindı müəyyən mənada artıq azad idilər.

Oxucular arasında ən çox sevilən və oxunan "Mədinənin ürəyi" əsəri də məhz yeni ideya dalğası üzərində yaranmış əsərlərdəndir. Mirzə İbrahimovun bədii əsərlərinin tədqiqi prosesində ailə konsektini xüsusi qeyd edilməsi gərəkdir, çünki yazıçının əsərlərində demək olar ki, süjetdən asılı olmayaraq ailə mövzusu əsas yer tutur. Yazıçı əsərlərində müasir qadın mövzusuna, ailədə qadın-kişi sevgisinə xüsusi həssaslıqla yanaşır.Sözügedən mövzunu artıq M.İbrahimovun ilk hekayələrində də "Həyat", "Məhəbbət" pyeslərində də, "Böyük dayaq" romanında da görürük. "Mədinənin ürəyi" hekayəsində M.İbrahimovun dövrün təsvir etdiyi Azərbaycan qadınının ümumiləşdirilmiş obrazını Mədinənin simasında vermişdir. Əsərdə Mədinə ürəyində bir zaman bir sinifdə oxuduğu başqa bir insana yad kişiyə, rəssama qarşı hiss etdiyi sevgi duyğularına uymur, bu hissi qəlbində böğaraq ailəsinə sədaqətini qoruyub saxlayır. Əsərdə rəssamın çəkdiyi portret müəyyən psixoloji gərginliyə səbəb olur, lakin qəhrəman həmin portreti tamamlamlaya bilmir. Burda onu qeyd etmək vacibdir ki, əxlaqının ifrat aşındığı nöqtələrdə milli xarakterin üstünlüyünü nümayiş etdirən bu növ örnəklər çox vacibdir.

Mirzə İbrahimovun əsərləri bu gündə çox aktualdır və milli mentalitet baxımdan gənc nəslin, xüsusilə gənc ailənin tərbiyəsində mühüm yer tutur. Yazıçının ən məşhur və çox sevilən "Böyük dayaq" romanından bir fraqmentə müraciət edək.

Rustəm kişinin ailəsi ilə söhbətindən görürük ki, böyük nəslin ailə ənənələrinin qorunub saxlanması fikri,

"Mənim ailəm bu yumruq kimidir. Barmağımın biri açılsa, kəsib ataram" sözlərindən də məlum olduğu kimi, gənc nəslə ötürülür.

Azərbaycanda çox sağlam, nümunə ola biləcək ailələr, ailə dəyərləri, meyarları var. Bu meyarlardan biri də nikahdır. Nikah, ümumiyyətlə yalnız rəsmi sənəd deyil, həm də iki insanı ömürlük bir-birinə bağlayan, dünyaya övlad gətirən, onu layiqli övlad kimi tərbiyə etməyə məsuliyyət daşıyan möhürdür. Azərbaycanlı ailəsinin əsasında, onun təməlinin möhkəmlənməsində uşaq amilinin rolu böyükdür və nikah olmadan doğulacaq uşaq Azərbaycan ailəsinin meyarlarına sığmır. Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanında Dadaş kişinin Zaura dediyi sözlərində də əksini tapıb: *"...inan mənə, bir gün hər şey sona yetir, ən çılğın ehtiras belə bitib tükənir və əgər kişiylə qadını ehtirasdan başqa heç nə bağlamırsa, yəni ailəyə uşaqlarla, nikahla bağlı deyillərsə, onda bu cür əlaqə elə bir dəhşətli işgəncəyə çevrilir ki, gəl görəsən"* .

Yeganə İsmayılova "Dədə Qorqud kitabı" və müasir Azərbaycan ədəbi düşüncəsi" məqaləsində "V.İbrahimoğlunun rəhbərlik etdiyi "Bakı "Yuğ" teatrında "Kitabi-Dədə Qorqud" dastanının "Bamsı Beyrək" boyuna istinadən səhnələşdirdiyi "Oğul" tamaşası da bir sıra yaxşı cəhətləri ilə seçilir. Burada oğul igidliyi, dəyanəti ilə yanaşı, ana müqəddəsliyi, ana ürəyi, ana məhəbbəti öz əksini tapmışdır. Ailənin kişi ilə tamhüquqlu üzvü olan ana yalnız tərbiyəçi deyil, həm də xilaskardır. Ana adı əsərdə çox qürurla səslənir. Ailə şərəfi, saf məhəbbət uğrunda mübarizə aparan ana həm də cəfakeşdir, sədaqət rəmzidir, dözümlüdür [23, s.68].

Əzizxan Tanrıverdi "Kitabi-Dədə Qorqud"un söz dünyası" kitabında "Dədə Qorqud" dastanından ailə konseptinə dair nümunələr gətirir: "ocaq "Kitab"da ev-eşik, yurd, tayfa, nəsil mənasındadır (*Ocağıŋa bunuŋ kibi övrət gəlməsün; Oğul, ocağım issiz qoma, kərəm eylə, varma*). "Ocaq" sözü qərb ləhcəsində tayfa, nəsil mənasını eynilə saxlamaqdadır (*Bizim ojağa haram tüşmö - Bizim nəslə haram düşmür*)".

Qiymətli "Dədə Qorqud" dastanının yaranma tarixi Azərbaycanda patriarxat icmanın yaranmasının başlanğıc dövrünə təsadüf edir. O, Azərbaycanın ən qədim yazılı abidəsi kimi qadının cəmiyyətdəki yüksək mövqeyini ortaya qoyur və onu cəmiyyətin kişi ilə bərabər hüquqlara sahib üzvü kimi təqdim edir. Bu əsərdə qadının cəmiyyətdə özünəməxsus yeri və mövqeyi vardır və o, qəbilə və ailənin 2 əsas dayağından birini təşkil edir. Kişi qəbilə və ailənin başçısı kimi həmişə qadının məsləhəti və köməyi ilə rəhbərlik vəzifəsini yerinə yetirir. "Dədə Qorqud" dastanının bütün boylarında qadınlar gözəl, mərd, döyüşkən və sədaqətli kimi təsvir olunurlar. Dastanın "Buğac"boyunda Dirsəxanın övladı olmur. O, arvadı ilə məsləhətləşərək uşaqlarının olması üçün nəzir deyir. Onlar əmindirlər ki, yetimlərin qayğısına qalmaq, açları doydurmaq və lütləri geyindirmək lazımdır ki, Allah onlara bir uşaq bağışlasın. Belə də olur. Onların bir övladı dünyaya gəlir.

Burada Azərbaycanın müasir yazıçısı Mövlud Süleymalının yaradıcılığına müraciət etmək də yerinə düşər. M.Süleymanlının "Şeytan" povestindən bir neçə fraqmentdən misal gətirək. Povest-rəvayət janrında yazılmış "Şeytan" əsəri yazıçının ən maraqlı və özünəməxsus üslubda yazılmışdır.Yazıçı burada xeyirlə şərin əbədi mübarizəsini, bəzilərinin öz insani ləyaqətini qoruyub saxlaya bilməsini, əksinə, bəzilərinin şərə müqavimət göstərə bilməməsini göstərib. "Şeytan" çox şeyin nağıllardan götürüldüyü özünəməxsus bir hekayə-rəvayət növüdür. Bu əsərin süjetinin quruluşunda da özünü göstərir. Bizi bu əsərin məzmununda maraqladıran əsas fikir bir kəndin böyük ailə ilə müqayisə edilməsidir. Əsərdəki kəndin əhalisi mehriban bir ailə kimi yaşayır. Qonşular bir-birini yardım edir, qadınlar-qarılar dedi-qodu etmir. Şeytan obrazı əsərdə nağıl qəhrəmanı kimi deyil, faktiki olaraq real qəhrəman kimi verilmişdir. O da bu kənddə başqaları kimi yaşayır, o, yalnız insanın daxilində məskünlaşdığında, güclənir və gizli şər yaşayır. Artıq hekayənin əvvəlində müəllif oxucuları onun əsas personajları ilə tanış edir: Şeytan Akça, Fatı qarı, Bəkir və başqaları. Bu qəhrəmanların hər birinin özünəməxsus müsbət və mənfi xarakterik xüsusiyyətləri var.Bütün bunlara baxmayaraq bu kəndin əhalisi bir ailə kimi mehriban yaşayırlar.Lakin Şeytan kəndin insanlarının hüzurunu ara-sıra pozmağa nail olur. Əsərin əsas qəhrəmanlarından biri olan Bəkirdən çox qorxur, yalnız onun qəlbinə, beyninə girə bilmir. Onun ailə qurmasına da mane olmaq istəyir. Toy çadırına girib gənclərin arasına nifaq salmaq istəyir, lakin Bəkirin "Camaat sizə nə olub, sakit olun. Allah şeytana lənət eləsin" deyən kimi, Şeytan toz olub çadırdan qaçır.Əsərdə insanların mehriban bir ailə kimi yaşaması təsvir olunmuşdur və Şeytanın ailənin hüzurunu pozmaq niyyətini təsvir etmişdir.

Azərbaycan poeziyasında da ailə mövzusu geniş təsvir olunmuşdur. Səməd Vurğun, Süleyman Rüstəm, Baxtiyar Vahabzadə, Cabir Novruz, Nəbi Xəzri və bir çox şairlərin yaradıcılığında ailə konsepti yer tutmuşdur.

Bildiyimiz kimi S.Vurğun yaradıcılığında *ailə* mövzusu geniş yer almışdır və həyatın aktual məsələlərini nəzmə çəkən bu mövzu şairin yaradıcılığında poema üslubunda üstünlük təşkil etmişdir. S.Vurğunun ailə mövzusuna həsr etdiyi əsərlərindən biri "Aygün" poemasıdır. Əsərdə yeni evlənmiş gənclərin həyatında

baş verən hadisələri əhatəli bir şəkildə verilir. Qəhrəmanların hiss və həyacanları, aldıqları talehyüklü qərarlar onların mühiti ətraflı göstərilir. Əsərdə Aygünün həyatından yalnız bir hadisə təsvir olunmur, onun sənətkar kimi yetişməsi, ailə münasibətləri bütün təfərrüatları ilə əks etdirilir, qəhrəmanların həyatı geniş epik planda göstərilir. S.Vurğun yaradıcılığa gənc yaşlarından başlamış, ilk ədəbi əsərləri lirik şeirlər olmuşdur. Getdikcə mövzu dairəsi genişlənən, həyatın aktual məsələlərini nəzmə çəkən şairin yaradıcılığında poema canlı üstünlük təşkil etməyə başlamışdır. Şairin poema yaradıcılığında "Komsomol poeması", "Macəra", "Kənd səhəri", "Aslan qayası", "Bəsti", "Muğan" və s. kimi əsərlər qiymətli sənət nümunələridir.

S.Vurğunun ən yaxşı əsərlərindən biri "Aygün" poemasıdır. Janrına görə mənzum roman hesab olunan bu əsərdə həyat hadisələri geniş və əhatəli bir şəkildə verilir, qəhrəmanlar, onların mühiti ətraflı göstərilir. Əsərdə Aygünün həyatından yalnız bir hadisə təsvir olunmur, onun sənətkar kimi yetişməsi, ailə münasibətləri bütün təfərrüatları ilə əks etdirilir, qəhrəmanların həyatı geniş epik planda göstərilir.

Əsər Aygünlə Əmirxanın ailə həyatının ilk günlərinin təsviri ilə başlayır. Təzəcə evlənən gənclər bir-birini sevir, xoşbəxt günlərini yaşayırlar. Bu səadətli günləri müəllif hər iki gəncin bir-birinə olan saf məhəbbəti ilə bağlayır. Lakin Əmirxanın təsvirində biz şairin bir qədər qorxunu xatırladan münasibət və fikirlərinə rast gəlirik. Onun xarakterində uşaqlıq həyatından irəli gələn bir ərköyünlük və bir qədər də köhnəfikirlilik vardır. İnstitutu bitirdikdən sonra Muğan sovxozlarından birinə təyinat alan Əmirxan yalnız özünü düşünərək Aygünü təhsilini yarımçıq qoymağa məcbur edir. *"Aygün nə qədər konservatoriyada təhsilini davam etdirmək arzusu ilə alışıb yansa da, Əmirxanı sındırmır.Aygün öz ailəsini dağıtmamaq, öz eşqini yaşatmaq məqsədilə əri Əmirxana bir sıra güzəştlər etməsini və onunla birlikdə Muğana yollanır"* .

Ümumiyyətlə əsərdə ər-arvad münasibətləri kəskinləşərək son həddə çatır. Aygünü ailəsinə sona qədər sadiq qalması təsvir olunur.

Unudulmaz şairimiz Cabir Novruzunda poeziyası öz söz gözəlliyi və zənginliyilə seçilir.Ailə mövzusu onun da yaradıcılığından yan kecməmiş, əksinə əsərlərində çox dərin və təsirli təsvir olunmuşdur.

Mən dövlətli ailədə doğulmadım,
Şan-şöhrətli ailədə doğulmadım.
Ən adicə bir insandı atam mənim,
Zər-xaralı yataqlarda yatammadım.
...Söyləyimmi qohumlarım nəçi idi?
Xarrat idi, çoban idi, suçu idi.

Dildə və ədəbiyyatda əbədi mövzu olan "ailə" konsepti bu gün də yazıçı və şairlərin maraq dairəsindədir.

Ailə mövzusu ilə əlaqədar gənc Azərbaycan şairlərindən Xeyrulla Xayalın şeirləri maraqlıdır. Onun sözügedən mövzuya dair yazdığı bir sıra şeirlərində ailə ocağının istiliyi, sevildiyin mühitdə olmağın və bir sıra incə müqayisələr diqqəti cəlb edir.

Bütün bu deyilənlərə nümunə olaraq Xeyrulla Xəyalın bir şeirinə müraciət edək:

AİLƏ

Ah, o necə isti, necə xoş ocaq,
Həmişə körpəsən, beşikdir o da.
O ilk sığınacaq, son sığınacaq,
İnsan arxayın və arxalı onda.

Soyuqdan gələnin isinir canı
Odu cəhənnəmin həm də soyuyur.
Dadı başqa olur çörəyin, çayın,
Həm ürəyə yatır, həm qarın doyur.

Dərindir, şirindir yuxular onda,
Yuxuna girənlər – məzə və kefdir.
Ləzzəti ayrıdır ayılmağın da,
Səni sevənlərdir dörd tərəfində.

Sənə can deyirlər, can eşidirlər,
Başın sığallanır, əgər darıxsan.
Əgər ailən var – yerin behiştdir,
Həyatın cəhənnəm əzabı – yoxsa…

Ailə təsəvvürünü konkretləşdirmək üçün hansı dil vasitələrindən istifadə olunur?
Zaman keçdikcə insanların dünya barədə təsəvvürləri dəyişir. İndiki dövrdə ailə konsepti ailə-məişət zəminində törədilən ağır cinayətlərin timsalında dəyişməyə başlayır, şübhəsiz ki, əvvəlki dövrlərlə müqayisədə. Belə ki, əvvəllər nadir hallarda baş verən cinayətlər sanki bu gün sürətlə artır. Əvvəlki dövrlərdə ailədə oğulun atanı, yaxud ananı sözü qanun kimi qəbul olunurdu.
Valideyn və övlad arasında müqəddəs hörmətdarlıq və sevgi daha çox idi. Ailə-məişət səviyyəsində cinayət az hallarda baş verirdisə, indi bu səpkilli cinayətlərin sayında artım müşahidə olunur. Cəmiyyət bu halı necə həzm edir? sualı meydana çıxır. Cəmiyyət üçün çox arzuedilməz olan belə halların artması isə çoxlarını narahat edir. Təsəvvür bu halın səbəbini maddiyyat, ya da psixoloji amillərlə bağlayır. Beləliklə, təsəvvürdə ailə daxilində baş verən cinayətlərin kökündə genetik, sosial və psixoloji amillərin dayandığı vurğulanır. Həmçinin ailədaxili problemlər insanların psixikasına da güclü təsir göstərir.
Aydın bir həqiqətdir ki, hər hansı bir bütöv (ailə bir bütöv cəmiyyət kimi) haqqında hərtərəfli təsəvvürə malik olmaq üçün bu bütövü xırdalıqlarına qədər (ailənin üzvləri, qohumları) analitk təhlilə cəlb etmək lazımdır və əksinə, bizim hisslər, xırdalıqlar haqqında biliyimizin dərəcəsi onların əhatəsi, sinfi, yəni içində olduqları bütöv haqqında olan təsəvvürümüzdən asılıdır.

Nəticə

"Ailə" konsepti, həqiqətən, tarixən formalaşmış və şifahi şəkildə ifadə edilmiş məfhum-dil bütövlüyü kimi anlaşıla bilər. Bu bütövlük həyatın ən başlıca sahələri ilə bağlıdır, o, dil vasitələri ilə hərtərəfli düşünülür, sosial cəhətdən və subyektiv şəkildə qiymətləndirilir və fərqli istiqamətlərdə fəal və özünəməxsus şəkildə özünü göstərir.
Bu konsept baza konseptlərinə xas olan bütün əsas xüsusiyyətlərə malikdir. Belə ki, "ailə" konsepti çoxmənalı sözlə ifadə olunur və bu mənaların hər birində vahid "ailə" məfhumu mütləq mövcuddur. Həmin məfhum da, öz növbəsində, dilin deyktik sistemi ilə əlaqələndirilir; insanın ən yaxın əhatəsini təşkil edən hadisələr dairəsinə daxil edilir; fəal, yaradıcı kateqoriya kimi üç istiqamətdə fəaliyyət göstərir; daha kiçik həcmli konseptlər, okkazional və fərdi-müəllif genişləndirilmələri yaradır, yəni "ailə" və ailə üzvləri artıq metafor və sxemlərin geniş dairəsi üçün təməl kimi çıxış edir; onun kökləri hər bir xalqın tarixinin dərinliklərinə gedib çıxır. Ailə məfhumu sosial cəhətdən qiymətləndirilir və sosial cəhətdən xarakterizə edilir; eyni zamanda, bu konsept özünün "antaqonistini" yaratmaq bacarığına malikdir.
Aparılmış komponentli təhlil nəticəsində məlum olur ki, "ailə" konsepti kiçik konseptlərin əhatəsində mövcuddur - "ailə", "soy adı", "yuva", "həyət", "ev", "sülalə", "evdəkilər" və onların törəməsi olan vahidlər. "Qohum-əqrəba" konsepti "qohumlar", "əzizlər", "yaxınlar", "özününkülər", "quda, qayın, və s." kimi kiçik konseptlərlə möhkəm bağlıdır. "Nikah" konsepti "evlənmə", "izdivac", "toy", "kəbin", "nişan" və bir sıra başqa konseptlərin əhatəsində mövcuddur. Qohumluq terminlərinin şaxələnmiş sistemi "ailə" və "qohum-əqrəba" konsept sahələrinin ümumi periferiyasını təşkil edir və qısmən "nikah" konsept sahəsi ilə təmas yaradır.

Ədəbiyyat siyahısı

1. Həmidov, İ.H. Azərbaycanca-rusca atalar sözləri lüğəti / İ.H.Həmidov. – Bakı: OKA Ofset, – 2004. – 586 s.
2. Вежбицкая, А. Язык. Культура. Познание / А.Вежбицкая. – Москва: Русские словари, – 1997. – 416 с.
3. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev. – Bakı: Maarif, – 1998. – 281 s.
4. Anar. Beşmərtəbəli evin altıncı mərtəbəsi / Anar. – Bakı: Lider, – 2004. – 209 s.
5. İbrahimov, M. Böyük dayaq / İbrahimov M. – Bakı: Uşaqgəncnəşr, – 1957. – 217 s.
6. Bayramov, A.H. Səməd Vurğun: milli və ümumbəşəri / A.H.Bayramov. – Bakı: Səda, – 2006. – 316 s. Novruz, C. Seçilmiş əsərləri / C.Novruz. – Bakı: Lider, – 2004. – 288 s.
7. Novruzova, N. Mətnin koqnitiv təhlilinin nəzəri əsasları // – Bakı: Filologiya məsələləri, – 2017. № 1, – s. 3-11.

CƏLİL MƏMMƏDQULUZADƏNİN "ANAMIN KİTABI" ƏSƏRİNİN TƏHLİLİ

YUSİF SEYİDOV

Kafkas Üniversitesi, Türkiye
Çağdaş Türk Lehçeleri
ve Edebiyyatları Bölümü
Yusifseyidzade.ys@gmail.com

XÜLASƏ
XX əsr Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Cəlil Məmmədquluzadə öz zəngin, novator yaradıcılığı ilə ədəbiyyatımızın yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Milli yazıçının zəngin irsində azərbaycançılıq məfkurəsi həmişə prioritet istiqamət kimi əsas olmuşdur. Məqalədə Cəlil Məmmədquluzadənin bu tipli yaradıcılıq nümunələrindən olan "Anamın kitabı" əsəri milli məfkurə zəminində təhlil edilmiş, dövrün ictimai-siyasi və ailə-məişət münasibətləri ön plana çəkilmişdir.
Açar sözlər: Cəlil Məmmədquluzadə, ədəbi mühit, milli birlik, vətənpərvərlik.

G İ R İ Ş

Görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi, böyük demokrat kimi şöhrət qazanmış Cəlil Məmmədquluzadə mənsub olduğu ölkənin və xalqın istiqlalı və müstəqilliyi uğrunda mübarizə aparmış qüdrətli vətəndaş sənətkardır. Ədibin əsl sənətkarlıq nümunəsi sayılmağa layiq olan bədii əsərləri və publisistikası hər cür milli və dini ayrı-seçkiliyin, ictimai-mənəvi əsarətin, fanatizm və cəhalətin aradan qaldırılmasına, milli oyanışa, maariflənməyə, tərəqqi və dirçəlişə həsr olunmuşdur. Bütün bunlara görə Cəlil Məmmədquluzadə çoxəsrlik Azərbaycan ədəbiyyatının milli iftixarı, dünya bədii mədəniyyətinin görkəmli nümayəndəsidir.

Mirzə Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Azərbaycanın qədim mərkəzlərindən sayılan Naxçıvan şəhərində anadan olmuşdur. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu (1840–1905) məktəb üzü görməsə də, ibtidai səviyyədə savadı, müsəlmançılıq görüşləri olan halal və zəhmətkeş insanlardan biri kimi övladlarının, o cümlədən gənc Cəlilin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Məmmədqulu kişinin gözətçilik etdiyi Naxçıvan duz mədənindəki fəaliyyəti və ailəsiniyaşatmaq üçün Şahab məhəlləsində açdığı baqqal dükanı Cəlil Məmmədquluzadənin sadə, zəhmətkeş insanların həyatı ilə yaxından tanış olmasına, kiçik ailə mühitindən böyük şəhər mühitinə pəncərə açmasına münasib şərait yaratmışdır. Onun 1873-1878-ci illərdə təhsil aldığı mollaxana məktəbi ərəb, fars dillərini öyrənməsinə, Şərq tarixi və ədəbiyyatı haqqında ilkin məlumatlar əldə etməsinə, ailə mühitində yiyələndiyi halallıq və paklıq tərbiyəsinin daha da dərinləşməsinə müsbət təsir göstərmişdir (1, 6).

Cəlil Məmmədquluzadə 4 yanvar 1931-ci ildə Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Ədibin adı respublikamızda əbədiləşdirilmişdir. Bakıda, Naxçıvan şəhərində və Cəlilabad rayonunda heykəlləri ucaldılmışdır. Əsərləri kütləvi tirajla nəşr olunmuşdur.

Dramaturgiyası. Cəlil Məmmədquluzadə bədii yaradıcılığa 23 yaşından, kənddə müəllim ikən başlamışdır. Ədibin ilk qələm təcrübəsi "Çay dəstgahı" alleqorik dramı olmuşdur. Bundan sonra ədib müntəzəm surətdə ədəbiyyatla məşğul olmuş, qəzetlərdə işləmiş, müəllimlik etmişdir. Əsər 1889–1894-cü illər arasında yazılmışdır. "Çay dəstgahı"nda müəllif nökər Əlinin simasında kəndin ən aşağı təbəqələrinin cəmiyyətdə yazıq və acınacaqlı halını əks etdirir. Nökər Əlilərin məişətdəki gülünc hərəkətlərində müəllif onların özlərini yox, Hacı Rəhim xanları günahlandırır.

Cəlil Məmmədquluzadənin ilk əsərləri alleqorik mənzum "Çay dəstgahı" dramı və birpərdəli "Kişmiş oyunu" pyesidir. Birpərdəli "Kişmiş oyunu"nu pyesi 1892-ci ildə yazılmışdır. Pyesdə müəllifin əsas tənqid hədəfi zəhmətkeşlərin malına zorla sahiblənməyə çalışan kobud, tamahkar kənd mülkədarı Vəlisoltan və quldurluğa adət etmiş dələduzlardır (2, 43).

"Anamın kitabı" əsərinin təhlili. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası (1920) ədəbiyyatımızda milli istiqlala, azərbaycançılıq əqidəsi, düşüncəsi və ideologiyasına həsr olunmuş ən ciddi və təsirli dram əsəridir. "Anamın kitabı" – Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış silsilə əsərlərin mənəvi Anasıdır. Əgər Azərbaycan ədəbiyyatında kiçik hekayə Mirzə Cəlilin "Poçt

qutusu"ndan çıxmışdırsa, azərbaycançılıq və milli istiqlaliyyət ideyaları da bütöv bir konsepsiya kimi "Anamın kitabı"ndan doğulmuşdur. Milli müstəqillik və birlik, soykökə dərin bağlılıq, milli ideologiya və istiqlal uğrunda mübarizə kimi actual məsələlər "Anamın kitabı" əsəinin mövzusunu və qayəsini təşkil edir. Nəticə etibarilə "Anamın kitabı" - əsərdəki üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramıdır.

Mirzə Əbdüləzimin övladları olan ruspərəst Rüstəm bəy, İranpərəst Mirzə Məmmədəli, Osmanlıpərəst Səməd Vahid üçün Vətən və Ana kimi müqəddəs anlayışlar mənasını itirmişdir. Yazıçı təbbi və təsirli vasitələrlə belə müqəddəs amalların itirildiyi şəraitdə insanın düçar olduğu daxili puçluğu, mənəvi aşınmanı, ictimai iflası canlı şəkildə təqdim etmişdir. Əsərdə eyni ata-ananın ayrı-ayrı məsləkə mənsub övladları olmağın məhvə məhkumluğu, milli birliyin, Vətən qardaşlığının zəruriliyi və üstünlüyü ön mövqeyə çəkilmişdir. Dramaturq böyük ürək yanğısı ilə göstərir ki, ayrı-ayrı əqidələrə qulluq edən bu "qardaşların" Cəmiyyəti xeyriyyənin iclasında qaldırdıqları məsələlərin xalqa heç bir faydası yoxdur. Rüstəm bəy üçün rus, yaxud slavyan lüğəti hazırlamaqdan, Mirzə Məmmədəlidən ötrü xüsuf və küsuf, yəni ayın və günün tutulmasına dair dərslər verməkdən, Səməd Vahidə görə elmi qafiyə ilə məşğul olmaqdan və osmanlı şivəsində şeirlər yazmaqdan başqa hər şey puç və əfsanədir. Cəlil Məmmədquluzadə "məsləkayrı qardaşlar" mövzusuna rus çarizminin yerli millətlərin savadlı adamlarına şübhəli münasibəti motivini də əlavə etmişdir. Senzor Mirzə Cəfər bəy rus çarizminin tabeliyində olan xalqlara bəslədiyi şübhələri və yaratdığı vahiməni oxuculara çatdırır. Bu motiv vasitəsilə Rusiya hökumətinin Azərbaycan-Türkiyə münasibətlərini və müstəqil Azərbaycan dövləti yaradılması ideyasını daim nəzarətdə saxladığı xüsusi olaraq müəllif tərəfindən nəzərə çarpdırılır. Yoxlama məqsədilə "qardaşların" evinə gəlmiş Senzor Mirzə Cəfər bəyin aşağıdakı bəyanatı çarizmin şübhə və vahimələrinin bütün mahiyyətini aydınlaşdırır: "Xub, sizdən gərək pünhan olmaya ki, sizing bir para bədxahlarınız hökumət nəzərində size belə qələmə veriblər ki, siz üç qardaş söz bir və həmfikir olmusunuz ki, əvvəla, Rusiya islamlarını Türkiyə dövlətinə tərəf çəkib, ittihadi-müslimin cəmiyyətində iştirak edəsiniz. Saniyən, axır zamanlarda Azərbaycanda əmələ gələn Hübbi-vətən və Ədəmi-mərkəziyyət firqəsinin amalı yolunda çalışmaqdasınız ki, bir tərəfdən Qafqaz Azərbaycanını, digər tərəfdən İran Azərbaycanını ki, ibarət osun Təbriz, Tehran, Gilan, Osmanlı və İran Kürdüstanı, Urmu və qeyriləri – bu vilayətləri bir-birinə ilhaq edib, müstəqil Azərbaycan hökuməti əmələ gətirəsiniz. Və salisən, bu fikirdən də uzaq deyilsiniz ki, musavat və hürriyyət əsaslarını… müntəşir edirsiniz ki, min il yuxuda olan camaat hökumətin əsarət zəncirini qırıb, özləri üçün bir nicat yolu tapsınlar".

Zəhrabəyim ananın özgə məmləkətlərdə təhsil və tərbiyə almış övladlarını birliyə, qarşılıqlı anlaşmaya dəvət etmək səyləri heç bir fayda vermir. Vətəninə və ailəsinə bağlı olan ana üçün bundan ağır faciə ola bilməz. Zəhrabəyim ana övladlarının özgə millətlərə xidmət etməsinə, ayrı düşməsinə, ortaq məxrəcə gələ bilməmələrinə dözə bilməyən əsl Azərbaycan qadınının kamil bədii obrazıdır. Övladlarının əməlləri və rəftarını qəbul etməyən ananın cismən ölümü onun mənəvi qələbəsi kimi səslənir.

Cəlil Məmmədquluzadə xalq, milli birlik, vətən motivlərini "Anamın kitabı" əsərindəki Zəhrabəyim ana, Gülbaharın və habelə Qənbər, Qurban, Zaman kimi çobanların vasitəsilə mənalandırılmışdır. Əsərdəki çobanlar milli mənəviyyatı və məişəti etibarilə xalq adət-ənənələrini, dogma torpağa bağlılığı bütün incəliyi ilə yaşayır və təqdim edirlər.

Əbdüləzim bəyin övladlarından yalnız Gülbahar obrazı ana Vətənə, dogma xalqa sadiqdir. Cəlil Məmmədquluzadənin Gülbahar obrazı Azərbaycan ədəbiyyatında Vətən və millət, milli birlik və istiqlal amalının dramatic üvertürasıdır. Gülbaharın monoloqu ədəbiyyatımızda ən təsirli və ən mükəmməl milli birlik və vətənpərvərlik himnidir: "Qaldı bircə kitab: bu da anamın kitabı. Budur, atam öz əlilə yazdığı vəsiyyət…Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar. Çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl axır onlar Zəhranın ətrafında gərək dolanalar. Çünki ay və ulduzlardır. Vay o kəsin halına ki, həmin qanunu pozmaq istəyə. onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edərək, nə qədər canında nəfəs var, peşiman olacaq".

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri böyük tərbiyəvi əhəmiyyətə malik olan milli-mənəvi özünüdərk, Vətənçilik, milli birlik və müstəqillik dərsliyidir. "Anamın kitabı" – Azərbaycanın təkcə XX əsrin əvvəllərindəki deyil, həm də XXI əsrin başlanğıcındakı tale kitabıdır. Əsər çox güclü və geniş müasirlik imkanlarına malikdir (3, 20).

"Anamın kitabı" – milli ədəbiyyatımızın ən mükəmməl azərbaycannaməsidir. Cəlil Məmmədquluzadə bu əsərlə həm də azərbaycançılıq ideyası və ideologiyasının banisi olduğunu isbat etmişdir.

Tədqiqat metodu: Tədqiqat aparılarkən sistemli analiz və təhlil metodlarından istifadə edilmişdir.

NƏTİCƏ

Əsərin təhlilindən də göründüyü kimi, bu dram əsəri XX əsrin əvvəllərindəki Azərbaycan cəmiyyəti, xüsusilə də Azərbaycan ziyalıları haqqındadır. əsərdə əsas ideya kimi ön plana çıxan fikir Vətənə, xalqa, ana dilinə çağırışdır. Əsərdəki hadisələr son nəticədə Vətəni təmsil edən ananın, yəni Zəhrabəyim surətinin üzərində mərkəzləşir. Bu əsər yüksək ideyasına və dərin məzmununa görə bu gün də böyük tərbiyəvi əhəmiyyət daşıyır.

İllər, əsrlər keçəcək, Mirzə Cəlilin milli vicdanımızın fəryadı olan əsərləri hər gələn nəslin yaddaşında əməl ağacı kimi çiçək açıb bar gətirəcək. Çünki bu əsərlərdəki fəryad xalqın içindən gəlir, yenidən xalqın özünə qayıdır, ona kimliyini başa salır.

ƏDƏBİYYAT SİYAHISI

1. Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2004.
2. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə. "Əcəmi" nəşriyyatı, Naxçıvan, 2009.
3. Yusif Seyidov. Akademik İsa Həbibbəyli. "Elm və təhsil", Bakı, 2014.

NAXÇIVAN FOLKLORUNDA MƏTBƏX MƏDƏNİYYƏTİNƏ AİD BƏZİ NÜMUNƏLƏR HAQQINDA

GÜLVİRA ABBASOVA
AMEA Naxçıvan Bölməsi
email:gulvira_abbasova@mail.ru
NAXÇIVAN, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə Naxçıvan folklor nümunələri arasında mətbəx mədəniyyəti və ərzaq adları ilə bağlı Naxçıvanda istifadə edilən folklor örnəkləri (atalar sözləri və məsəllər, inanclar, tapmacalar, nağıllar, bayatılar, rəvayətlər, deyimlər) araşdırılmışdır. Naxçıvan folkloru nümunələri arasında mətbəxə aid deyimlər, atalar sözləri, bayatılar mühüm yer tutur.Araşdırmalar zamanı Naxçıvanın özünəməxsus foklor örnəklərində adıçəkilən təamlara aid ifadələrin həqiqi mənasının qısa izahları verilmişdir. Məqalədə, hələ qədim dövrlərdən Naxçıvan əhalisi arasında "süfrə mədəniyyəti"nin mühüm əhəmiyyət kəsb etməsi, Azərbaycanın, xüsusilə də Naxçıvan mətbəxinin bölgəmizə səfər edən hər kəs tərəfindən bəyənildiyi vurğulanmışdır.

AÇAR SÖZLƏR: Naxçıvan, mətbəx, folklor,duz, xalq, mədəniyyət.

GİRİŞ

Şifahi xalq sənəti olan bədii ədəbiyyatın meydana gəlməsində folkorşünaslığın mühüm rolu olmuşdur. Folklor xalq şeiri, kütləvi şifahi sənət növlərinin, müxtəlif janrlarda olan mətnlərin (nağıllar, dastanlar, mərsiyələr, tarixi nəğmələr, lətifələr) məcmusudur. Folklor bir növ xalq şüurunun nümayişidir. Bu, onu müəllifin tənha şəxsiyyəti ilə ifadə etdiyi ədəbiyyat da daxil olmaqla digər dil sənətinin növlərindən fərqləndirir. Folklor tədricən xalq arasında kollektiv olaraq yaradılmış və formalaşmışdır. Bu o deməkdir ki, folklor nümunələrinin müəyyən bir müəllifi yoxdur.

Hər bir xalqın mifoloji-bədii dünyagörüşünün izləri onun folklor nümunələrində özünü büruzə verir. Xalqımızın həyatında baş verən bütün hadisələr şifahi yaradıcılıqda, aşıq poeziyasında və xalq musiqisində əks olunmuşdur. Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvan folkloru da müxtəlif ayin və mərasimləri nəticəsində meydana gəlmişdir. Həmin folklor nümunələri janr baxımından öz rəngarəngliyi ilə diqqəti cəlb edir. Folklor nümunələri arasında milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biri sayılır. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, müxtəlif dövrlərdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Xalqın tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümunələri bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, xalqımızın mənəviyyatını əks etdirən folklor nümunələri günümüzədək qorunub

saxlanılmışdır. Nəsillər dəyişildikcə, əsrlərlə yaşadılan miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri xalqımızın yaradıcı düşüncəsinin məhsulu kimi daha da inkişaf etdirilir. Bu mənada, 3 cilddə nəşr edilmiş "Naxçıvan folkloru antologiyası" əsrlər boyu mövcud olan folklor örnəklərinin dərindən toplanıb gələcək nəsillərə çatdırılmasında əhəmiyyətli rol oynayır. Burada, şifahi xalq ədəbiyyatı nümunələri, o cümlədən miflər, mif obrazları, inanclar, sınamalar, yasaqlar, əfsanələr, rəvayətlər, mərasimlər, oyunlar, yuxuyozmalar, ovsunlar, alqışlar, qarğışlar, nağıllar, xalq hikmətləri, atalar sözləri və məsəllər, lətifələr, sancmalar, deyimlər, əmək nəğmələri, laylalar, oxşamalar, bayatılar, haxıştalar, ağılar, mahnılar, uşaq folkloru nümunələri, və s. sistemli şəkildə təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 min illik inkişaf yolu keçdiyini sübuta yetirir [4, s. 5]. Folklor nümunələrinin tədqiqi göstərir ki, Azərbaycan ərazisində folklorun tarixi ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə bağlıdır.

Ənənə folklor üçün əsas anlayışdır. Bundan başqa, ənənəvi oyunlar, xalq geyimləri, xalq mətbəxi də folklor anlayışına daxildir. Xalq arasında "süfrə mədəniyyəti"nin mühüm yeri vardır. Azərbaycanın xüsusilə də Naxçıvan mətbəxi bölgəmizə səfər edən hər kəsi müsbət mənada təəccübləndirmişdir. V. Qriqoryev 1833-cü ildə nəşr edilmiş kitabında Naxçıvanda yeməklərdən bəhs edərkən yazır ki, yerli əhali yeməkdən əvvəl və sonra əllərini yuyurlar və süfrə başında danışmırlar [2, s. 27].

TƏDQİQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Bu fəsildə tədqiqat işinin səmərəliliyi açıqlanmır, ancaq aparılmış təcrübə və nəticəsi açıqlanır.

Naxçıvan folkloru nümunələri arasında mətbəxə aid deyimlər, atalar sözləri, bayatılar mühüm yer tutur. Bunlara misal olaraq "Yeməyini bilməyənə lor da birdir, şor da birdir". Şor turş süd mənasını verir. Yəni, qatığı nehrədə çalxalayıb yağını alandan sonra nehrədə qalan ayranı duzlayıb qaynadaraq şor əldə edilir. Lor isə şordan hazırlanan yeməkdir. Daha çox Qarabağda, Naxçıvanda, dağ rayonlarımızda yayılmışdır. Görünüşcə şora bənzəsə də dadı tam fərqlidir. Naxçıvan folklor nümunəsi olan bu atalar sözünün kökündəki məlumat da bundan ibarətdir [1, s. 16]

Aşağıda qeyd edilən "bulamac" adlanan yeməklə bağlı folklor nümunəsi də Naxçıvana məxsusdur:

Bulamac qazanı asıldı
Qapı bacalar basıldı
Yandı dilim bulamac
Kəsildi kilim bulamac
Bulamacı buladım,
Buladıqca yaladım.

Naxçıvan bölgəsində, xüsusilə də Ordubadda Sucuq (bastıx) hazırlanarkən doşab, un, qoz unu, nişasta və s. qarışdırmaqla bir kütlə hazırlanır. Həmin kütlə Naxçıvan bölgəsində "bulamac" adlanır [1, s. 19].

Digər bir deyimdə "salmança" adlanan bitkinin adı çəkilir.

Salmança saldım saca
Salınca qarnım aca

Salmança kətəsini sac içində bişirilən Sədərək yeməklərinə aid etmək olar [1, s. 20].

Tapmacalar arasındada ərzaq məhsulları ilə bağlı nümunələrə rast gəlmək mümkündür [3, s 330]. Məs:

Atılıb düşər
Duzsuz-susuz bişər
Qırmızı bişər. (qovurqa)

Naxçıvan folklor materialları arasında xüsusilə duz-çörəklə bağlı bir çox nümunələr mövcuddur. Buna Naxçıvan bölgəsində geniş yayılmış "Duz-çörək kəsmək"- xalq deyimini misal göstərmək olar. Çünki duz-çörək hələ qədim dövrlərdən müqəddəs hesab edilmişdir. İnanclar, atalar sözləri və məsəllərə nəzər saldıqda duz-çörəklə bağlı xeyli nümunələrə rast gəlinir. Məsələn: "Gecələr duz-çörəyi stolun üstündə saxlamazlar, şeytan bərəkətini oğurlar" [3, s. 47], "Hansı həyətdə bayquş ulasa ev yiyəsi qorxar. Tez duz-çörək gətirib quşun qabağına qoyup deyərlər: "Səni and verirəm bu duz – çörəyə, çıx burdan get, bizdən uzaq ol". Deyirlər, quş həmin yerə birdə gəlməz [2, s. 47]. Duz yerə töküləndə savaş olar, gərək duzun üstünə qənd qoyasan" [3, s. 47], "Çörək açanı qılınc açmaz" [3, s. 315], "Qonşu çörəyi qonşuya borcdur" [3, s. 316], "Hələ duza gedir" [5], "Bir gün duz yediyin yerə qırx gün salam ver" [5] kimi nümunələr də bu qəbildəndir. Duzla bağlı Naxçıvan bayatılarına aşağıdakı nümunəni də göstərmək olar:

Naxçıvanın duz dağı,

Duz təpəsi, duz dağı.
Çəkdi yar sinəm üstə,
Dağ üstündən yüz dağı [3, s. 357].

Naxçıvanın folklor mühitindən olan el deyimləri arasında istifadə edilən çörəklə bağlı digər maraqlı nümunə "cad yeməkdən cəvcəmiz (ağızın kənarı) cadar-cadar oldu" diqqəti cəlb edir [1, s. 17]. El deyimində "cad" qarğıdalı unundan bişirilmiş çörəkdir.

NƏTİCƏ

Xalqımıza aid olan bir sıra milli dəyərlər şifahi xalq ədəbiyyatımızda öz bədii əksini geniş şəkildə tapmışdır. Dastanlarımızda və digər folklor nümunələrimizdə, şeir və poemalarımızda, nəsr əsərlərmizdə milli dəyərlərimiz obrazlı, poetik bir şəkildə öz əksini tapmışdır. Yekun olaraq demək olar ki, mətbəx mədəniyyəti xalqımızın nəsildən-nəsilə keçərək bugünə qədər gəlib çatan ilkin mədəniyyət formalarından biridir.

ƏDƏBIYYAT SIYAHISI

1. Əmiraslanov. T. Mətbəxdən gələn deyimlər//Folklor və Etnoqrafiya, 2010, №3, s. 12-23
2. Qadirzadə. Q. Duz çörəyimiz:düz çörəyimiz//Folklor və Etnoqrafiya, 2015, №4, s. 24-31
3. Naxçıvan folklor antologiyası: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2010, 496 s.
4. Naxçıvan uşaq folklorundan örnəklər. Bakı: Mütərcim, 2017, 368 s.
5. www.aqra.az/az/naxcivan-bolgəsində-duzla-bagli-folklor-numunələri-və-onlarin-sərhi/

AZƏRBAYCAN ƏDİBLƏRİNİN ƏSƏRLƏRİNDƏ "XAN QIZI" NATƏVAN OBRAZI

Əfranə Həsənlİ
Bakı Dövlət Universitetinin Qazax filialı
Filologiya/Azərbaycan
efrane.hesenova96@gmail.com
Qazax, Azərbaycan

XÜLASƏ

XIX əsrin tanınmış şairəsi Xurşidbanu Natəvan öz dövrünün tanınmış simalarından biridir . Geniş dünyagörüşə malik şairə təkcə bədii yaradıcılıqla məşğul olmamış, eyni zamanda dövrünün dəyərli rəssamlarından biri olmuşdur. Xalqın maariflənməsində, yaşadığı şəhərin abadlaşmasında , ədəbiyyatın inkişafında böyük rol oynamışdır.. "Məclisi-üns" ədəbi məclisini yaradaraq onun bütün xərclərini öz üzərinə götürmüşdür. Burada müxtəlif məşğələlər təşkil edilirdi. Klassik şairlərin yazıları haqqında danışılır, onların qəzəllərinə nəzirələr yazılırdı.

AÇAR SÖZLƏR: Qarabağ-1, "MƏCLISI-ÜNS"-2, "XAN QIZI"-3

GIRIŞ

Qarabağ xanlığının sonuncu hökmdarı Mehdi qulu xan qızı Xurşidbanu Natəvan ədəbiyyatımızın ən yaxşı lirik şairlərindən biri hesab olunur. Ədəbiyyatımızın əfsanəvi şairəsi ölkənin mədəni və ictimai həyatında dərin iz qoymuşdur. "Xan qızı" kimi tanınan Natəvan təhsilini Şuşada başa vuraraq, musiqi ilə yanaşı, Avropa və Şərq dillərini də yaxşı öyrənmişdir. O daha çox qəzəlləri və rübailəri ilə məhşurlaşmışdır. Dostluq, humanizm, məhəbbət Natəvanın qəzəllərinin ana xəttini təşkil edirdi. Onun romantik şeirləri isə xoşbəxt olmayan, oğlunu itirmiş qadının hisslərini, əzablarını ifadə edirdi. "Xan qızı" oğlunun faciəli ölümündən sonra farsca "gücsüz" anlamını ifadə edən "Natəvan" təxəllüsünü qəbul etmişdir. Onun məhşur şeirlərindən indi də xalq mahnılarında istifadə olunur. O, şeirlə yanaşı, eyni zamanda rəssamlıqla da məşğul olmuşdur. Şairənin mənzərə eskizləri Azərbaycan incəsənətində Qərb və Şərq incəsənət növlərinin elementlərini birləşdirən ilk nümunə hesab olunur.

Atasını itirdikdən sonra Natəvan xeyriyyəçiliklə daha çox məşğul olmuş, Qarabağın mədəni və sosial inkişafına çox kömək göstərmişdir. O, insanların yaxşı yaşaması üçün çox işlər görmüş, o cümlədən su qurğularının tikintisi, məktəblərin açılması və xəstəxanaların tikintisinin aparılmasına nail olmuşdur. "Xan qızı" Şuşada ilk ədəbi cəmiyyət yaratmışdır. "Məclisi-üns" Qarabağda tanınmış ədəbi məclislərdən hesab olnurdu.

Natəvanın həm Qarabağın ictimai həyatındakı roluna, həm də yaradıcılığına xüsusi rəğbət bəsləyən yazıçı və şairlərimiz öz əsərlərində də Xurşidbanunun bədii obrazını yaratmış və onu ədəbi nümunələrdə əbədiləşdiriblər. Dahi yazıçımız İlyas Əfəndiyev "Xurşidbanu Natəvan" pyesində, Əzizə Cəfərzadə şairə haqqında yazdığı silsilə hekayələrdə, Hüseyn Arif "Natəvan" adlı poemasında , Səməd Vurğunun onun haqqında yazdığı şeirində, Vasif Adıgözəlovun "Natəvan" adlı operasında şairənin obrazını yaratmışlar. Natəvan bu əsərlərdə xeyriyyəçi, Qarabağın sosial, mədəni həyatında aparıcı rol oynayan sima , şairə və rəssam kimi tərənnüm edilmişdir. Azərbaycanın xalq yazıçısı olan Əzizə Cəfərzadə Natəvan haqqında yazdığı silsilə hekayələri 1963-cü ildə kitab kimi çap etdirmişdir. "Dəniz, ah dəniz", "Dünyaya insan gəlir", "Cehizsiz qız", "Vergi", "Ağdam yolunda", "Xan qızı bulağı", "Mən günəşin tellərini", "Nəğmə", "Bu gün sənin yaşıdını gördüm" və s. hekayələrdə şairənin həyatının müxtəlif məqamlarına toxunmuşdur. Ailə qurmaq istəyənlərə kömək etməsi, cehizi olmayanlara cehiz, çörəyi olmayanlara çörək verməsi, işi olmayanlara iş verməsi bu hekayələrin əsas leytmotivini təşkil edir. Eyni zamanda da bu hekayələrdə onun tabeliyində olan işçilərlə xoş rəftarı, işçilərinin və onların ailələrinin qayğısına qalması, vaxt tapan kimi narin, özü kimi incə, həssas duyğularını kağıza, tikmələr üzərinə köçürməsindən bəhs olunur.

"İki arzu" hekayəsində Sarıbaba kəndindən şəhərə su kəməri çəkilməsindən danışılır. "Vergi" hekayəsi isə Natəvanın "Gül dəftəri" adı verilmiş albomunu qarşısına qoyub şəkil çəkməsi ilə başlayır. Vergi borcu olan erməni pinəçinin (Avanes kirvənin) pristav tərəfindən döyüldüyünü görür. Avanes kirvə və nəvəsi Hayqanuşu yanına gətirir. Eyvanda isə qəzəbi soyumuş Natəvan əyləşmiş, Gülzamanın təzə paltar geydirdiyi balaca qızı da qucağında oturtmuşdu.

-Qızım, adın nədir?

-Hayqanuş.

-Sən kimin qızısan?

-Babamın.

Aralıda diz çökmüş Havanes kirvə minnətdarlıqla deyirdi:

-Qurbanın olum, bəyim, bu, mənim bədbəxt Anuşumun yadigarıdır. Bəlkə eşitmiş olasan, üç il bundan əvvəl havalanıb özünü qayadan atmışdı.

-Eşitmişəm kirvə, sən fikir eləmə, sabah naçalniki çağırtdırıb borcunu özüm verərəm, sonra da Gülzamanın gətirdiyi boğçaya işarə ilə sözünə davam etdi:

-Bunu isə balaların üçün apar. Bir az yavanlıq, bir az da xərclikdir. Sonra yenə nə lazım olsa, gəlib deyərsən.

-Çox sağ ol, bəyim, allah bağışlasın, allah səni bizə çox görməsin, əməyin dilə, diləyin selə getməsin, izn ver mürəxxəs olaq.

-Gedin, Allah amanında". [1,s.34]

Qəlbində mərhəmət, səxavət hissi olan Azərbaycan xanımlarının simvolunu canlandıran Natəvanımızın yurdu, eli-obası, yaşadığı evi, hətta qəbri dizinin üstündə oturtduğu, ac qarnına çörək verdiyi Hayqanuşun törəmələri tərəfindən işgəncəyə məruz qalmışdır. Artıq rəşadətli, mərd, yenilməz ordumuz onun heykəlini yurduna, yuvasına, evində qovuşdurdu.

Bildiyimiz kimi, "Xan qızı" əslən Dağıstandan olan general-mayor Xasay bəy Usmiyevlə evlənmiş, Tiflisdə bir müddət yaşadıqdan sonra doğma yurdu Şuşaya köçmüşdür. Bir neçə ildən sonra Xasay bəy Xurşidbanu və övladlarını tərk edərək Dərbəndə geri qayıtmışdır. Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan xalq yazıçımız İlyas Əfəndiyev "Xurşidbanu Natəvan" pyesində "Xan qızı" və Xasay bəy arasında olan dialoqu çox gözəl təsvir etmişdir. Onun əsas məqsədi Natəvanın həm ictimai xadim, həm də elinə-obasına bağlı olan şairə obrazını yaratmaq olmuşdur. Əsərdə müəllif Natəvanın şəxsi taleyini Qarabağın taleyi ilə eyniləşdirmişdir. Natəvan Rusiya və İran dövlətinin planlarını Azərbaycanın müstəqilliyi üçün təhlükə hesab edir və bu təhlükənin dəf edilməsi üçün böyük cəhd göstərmişdir. "Xan qızı" Qafqaz canişini ilə görüşəndə Qarabağ xanlığının bütün torpaqlarını və mülkünü tələb edir. Qafqaz canişini soruşur: -Bu qədər torpaq sənin nəyinə lazımdır?

Natəvan ona belə cavab verir:

-Mən tək deyiləm,knyaz həzrətləri.Mənim yaşadığım Şuşa şəhərinin əhalisi hələ də şor su içir! Kənlilərimizin uşaqları məktəbsiz, elmsiz, kitabsız böyüyürlər.[2,s.185]
Təhsilə xüsusi önəm verən şairə məktəb və mədrəsələrin açılmasına çalışmaqla yanaşı, o, ana dilimizin qorunmasına da çalışır. Hətta Fransızların məşhur şairi olan Aleksandr Dümanın Azərbaycana səfəri zamanı dilimizin musiqisinə heyran olduğunu vurğulayır.
-Dil bizim varlığımızdır. Ağalar, nə qədər ki, Azərbaycan xalqı yaşayır, Azərbaycan dili də yaşayacaq! Mən Azərbaycan balalarının Homeri, Danteni, Şekspiri,Höteni, Puşkini öz doğma-gözəl ana dillərində oxuyacaqları günü görürəm! [2,s.200]
Qəlbinə vurulmuş yaraları unutmaq üçün "Xan qızı" xeyriyyə işləri ilə məşğul olur. "Məclisi-üns"ün fəaliyyət göstərməsində yaxından iştirak etmişdir. Əsər boyu Natəvan bədii obraz kimi bizə incə ruhlu şairə, milli birlik ideyalarının carçısı, xalqına bağlı olan, onun dərdini öz dərdi bilən, bütün problemləri həll etməyə çalışan ictimai xadim, millətinin gələcəyi naminə onun istedadlı, gənc balalarına təhsil almaqda kömək edən qeyrətli bir ziyalı kimi təqdim olunmuşdur.
Xalq şairimiz Səməd Vurğun da Natəvan poeziyasına xüsusi rəğbət bəsləmişdir. O, Xurşidbanu Natəvanın yaradıcılığını Azərbaycan qadının hiss və duyğuları hesab etmişdir. Şair onun ictimai fəaliyətini, "Məclisi-üns" ədəbi məclisini təşkil etməsini yaxşı hal hesab etmiş, şairənin bir neçə yazıçı və şairlər tərəfindən tərənnüm olduğunu da qeyd etmişdir. Səməd Vurğun şairənin lirikasına olan rəğbətini ona həsr etdiyi şeirdə də əks etdirmişdir.

Söylə, şeirlərin can verir nədən?
Ağlayır dediyin dərdli qəzəllər.
Bir çiçək qopardı hər gəlib-gedən,
Sənin də payına düşdü xəzəllər.
Baxıb qərənfilin solğun rənginə,
O şəha gözlərin incilər tökdü.
Bir qadın ruhunun dərinliyinə,
Hər axşam yeni bir qaranlıq çökdü....[5,s.39]

Şairin bu şeirində Natəvan şeirinin məna çalarını açıqlayır. Digər bir şairimiz Hüseyn Arif də öz ədəbi irsində Natəvan poeziyasına toxunmuşdur. O, "Natəvan" poemasını yazıb, oğlu Arifin xatirəsinə ithaf etmişdir. Poemada şair Natəvanın dolğun bədii obrazını yaratmış, onun öz eli-obası üçün necə əhəmiyyətli bir insan olduğunu göstərmişdir. Ümumiyyətlə, "Xan qızı" Natəvan haqqında yazılan əsərlər həm onun özünün bədii portretini, həm də XIX əsr Qarabağın-Şuşanın ədəbi-mədəni vəziyyətini, sosial mühiti əks etdirmək baxımından çox əhəmiyyətlidir.

TƏDQİQAT METODU

Tədqiqat işində şair və yazıçıların Natəvan haqqında dediyi fikirlərə isnad edərək təhlil metodundan istifadə edilmişdir.

NƏTİCƏ

Xurşidbanu Natəvan öz əməlləri ilə xalqının taleyində çox əhəmiyyətli rol oynamışdır. Ərəb və fars dillərini mükəmməl səviyyədə bilən Natəvan Füzuli, Nəvai kimi klassiklərimizin əsərlərini mütaliə etmiş və onlardan bəhrələnmişdir. O, Şuşaya su çəkdirmişdir. Cavan oğlunu itirən Natəvan şeirlərini demək olar ki, bədbin ruhda yazmışdır. Şair və yazıçılarımız öz əsərlərində Natəvanın yadda qalan obrazını yaratmışlar

ƏDƏBİYYAT SİYAHISI

1.Cəfərzadə Əzizə.Natəvan haqqında hekayələr,Bakı -2017
2.Əfəndiyev İlyas seçilmiş əsərləri. II cild,Avrasiya press, Bakı-2005
3.Xurşidbanu Natəvan əsərləri. Lider nəşriyyatı,Bakı-2004
4.Rəfibəyli N. İşıqlı həyat həsrətində.Azərbaycan qadın yazarları və bədii ədəbiyyatda qadın obrazları haqqında seçilmiş əsərləri.Bakı-Şərq-Qərb,2004
5.Tək inci kimi parlayan Xan qızı Xurşidbanu Natəvan (metodik vəsait), Bakı-2017

BƏXTİYAR VAHABZADƏNİN "ŞƏBİ-HİCRAN" POEMASINDA FÜZULİ MİLLİ RUH DAŞIYICISI KİMİ

MƏTANƏT MUSTAFAYEVA
Gəncə Dövlət Universiteti
Azərbaycan və Dünya ədəbiyyatı kafedrası/ doktorant
mustafayeva20091214@mail.ru
0000-0002-1754-590X
GƏNCƏ, AZƏRBAYCAN

XÜLASƏ

Ədəbiyyatda sələf və xələf münasibətləri hər zaman aktualdır. Keçmişin, ənənənin üzərində bu gün ucalmaqdadır. Sələfi anlamaq, duymaq, öyrənmək xələfin vicdani borcu və ehtiramıdır. Müasir Azərbaycan ədəbiyyatının fəlsəfi söz ustadı Bəxtiyar Vahabzadənin də yaradıcılığında sələflərinə izzət, ustadlardan qaynaqlanma, onları bir obraz olaraq canlandırma diqqət cəlb edən məqamlardandır. Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" poemasında Azərbaycan şairi Məhəmməd Füzuli baş qəhrəmandır. Poemada Füzulinin şair, vətəndaş, ilahi eşq ilə sevən aşiq kimi bədii həllini görmək mümkündür. Məhəmməd Füzulinin ana dilində yazıb-yaratması Bəxtiyar Vahabzadə üçün sələfinin qiymətini daha da qaldırır. Qürbətdə ömür sürmüş dahi şair azərbaycançılıq ideyasının mərkəzindədir. Məqalədə bu məsələlərin təhlili və tədqiqi müasir günümüzdə milli hisslərin və duyğuların daha çox təbliği, keçmişə müraciətlərin və sevginin artması baxımından əhəmiyyətlidir.

Açar sözlər: Bəxtiyar Vahabzadə, "Şəbi-hicran", Məhəmməd Füzuli, Azərbaycan, Vətən sevgisi, poema.

GİRİŞ

Bəxtiyar Vahabzadənin 1958-ci ildə qələmə aldığı "Şəbi-hicran" poeması klassik ədəbiyyatın görkəmli nümayəndəsi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr edilmişdir. Poemanın əsas süjet xəttini Füzulinin həyat yolu təşkil edir. Qürbətdə yaşayıb-yaratmış Füzuli bir aşiq, şair, insan və ən əsası böyük azərbaycanlı olaraq bu poemada öz bədii həllini tapır.

"Şəbi-hicran"da Füzuli eşqi yalnız insani sevgi ilə məhdudlaşmır. Vahabzadə onun qürbətdə yaşamağına baxmayaraq dərin bir Vətən sevgisi ilə doğma yurda bağlı bir sənətkar olmasını xüsusi vurğulayır. Leyla da, Məhəmməd də doğma torpaqdan uzaq düşmüş iki türkdür. Məhəmmədin aşiq olduğu da milliyyətinə və dilinə bağlıdır. Sevgililər son görüşdə bunun bir vida olduğunu hər ikisi anlayır, Leyla ona vətənə olan sevgisini çatdırır:

Vətəndə yaşayıb, onun dilinə,
Ruhuna, zövqünə, doğma elinə
Xor baxan şərəfsiz vətənsizlərə!
Ən böyük düşməndir onlar bizlərə.
..Heyhat!.. Hələ çoxdur evini Vətən,
Qohum-qardaşını millət sayanlar. (6/526)

Poema boyunca başı bəlalı vətənin dərdi, həsrəti, qəsbkarların sərvətimizi talaması, dilinə, ruhuna edilən qəsdlər xatırlanır. Lakin Füzuli yurdundan uzaqlara düşmüş qardaş-bacıların dinən həsrəti oldu, ümid oldu:

Yada düşdü ürəkdə qövr eləyən acılar;
Hərəsi bir diyara düşən qardaş, bacılar,
Füzuli şeiriylə də tanıdı bir-birini
O çatdırdı qardaşa qardaşın əllərini,
Könüllərə bir ümid, nəşə verdi Füzuli;
Parçalanmış bir eli-
Böyük Azərbaycanı
Birləşdirdi Füzuli! (6/556)

Bir məqamı qeyd etmək lazımdır ki, bu fikirlər qələmə alınarkən Azərbaycan SSRİ-nin işğalı altında idi və bu düşüncələr həmin dövr üçün həqiqi bir cəsarət işi idi. Bütöv Azərbaycan arzusu və dərdi görünən odur ki, bütün zamanların aktual problemi, millət sevərlərin priotet məsələsi olmuşdur.

Qürbətdə yaşayan Füzulinin vətəndən gələn soydaşı ilə görüşü də çox təsirli təsvir edilmişdir. Vətəndən-Ərəşdən gələn qonağı qucaqlayarkən şair onda Göygölü, Qoşqarı, Muğanı, Mili görür, Şeyx düzünə qalxır

Nizami qəbrinə baş endirir, həsrətli könlü bir az da qübar edir. Qonaq Füzuliyə vətəndən gətirdiyi çiçəkləri ilə sanki ona bütün Azərbaycanı bəxş edir. Dahi şair isə doğma yurda aparması üçün sözünü-Divanını göndərir. Vahabzadə qələmi bu səhnələri işlərkən dərin patriotizm, yanıqlı Vətən sevgisi duyulur:

Yurdu özümüzə borclu da sanır,
Onu düşünmürük yalnız bir kərə.
Vətənin qışından bəzən usanır,
Yayından qaçırıq yaylaq yerlərə.
Elə ki, vətəndən ayrılırıq biz,
Vətənçin qışqırır ürəklərimiz. (6/565)

Məhəmməd Füzuli doğma elin, ulu Şərqin, xalqının keçmişinin dərdi və əzabları ilə o qədər yüklənibdir ki, hətta Leylası onun üçün çəkdiyi portetdə bir-bir bunları təsvir edir:

Vətən qayalarının üzündə kölgəsi var,
Onun qulaqlarında "Vətən", "Vətən"- səsi var. (6/584)

Füzuli böyük Azərbaycan türküdür. Poema boyunca Türk dünyasına səslənişlərin şahidi oluruq. "Füzuliyə həsr olunan bu monumental ruhlu əsər əslində türk dünyasının birliyinə qılınc çəkən müharibələrimizi, Şah İsmayılla Sultan Səlimin mənasız mənəm-mənəmliklərini, ağılsızlıqlarını güzgüləndirirdi. " (5/65)

Tənqidçi-alim Yaşar Qarayev yazırdı: " Nəsillərin klassiklərə münasibətində bir tarixi qanunauyğunluq da var." (4/57) Milli hisslərə və soykökə qayıdış, tarixə və şəxsiyyətlərə yeni prizmadan baxış 60-cılar nəslinin yaradıcılığında ən vacib istiqamətlərindən idi. Odur ki, "Şəbi-hicran"da işlənən, bədii həllini tapan məsələlər Füzuli mərkəzli və onun bilavasitə və yaxud bilvasitə iştirakı ilə inikas edir.

Əsərin yazıldığı dövrü nəzərə almış olsaq, avtoritar bir rejimdə, türkçülükdən, soykökdən danışmağın o qədər də rahat olmadığı bir zaman kəsimində qardaşın qardaşa qılınc çəkməsinin böyük bir dərd, kədər motivi kimi poemaya gətirilməsinin böyük cəsarət tələb etdiyini qəbul edərik. Çaldıran döyüşündə qardaş qırğınının törənməsi, iki böyük Türk sərkərdəsinin nahaq qan tökməsi tarixin qaranlıq səhifəsi kimi xatırlanır. Məhəmmədin məktəb yoldaşı Əbdül Kərim şəxsən həmin tarixə şahidlik etmiş, əlinə silah alıb döyüş meydanına atılmış, qardaş qanı axıdarkən dünyanın ən böyük kədərini dərk etmişdir. O, həyatında ilk dəfə özünə nifrət edir, çünki qılıncla zərbə endirdiyi əsgər ona "Qardaş!"- deyə müraciət edir. Şahla Sultanın bu böyük tarixi səhvi-məkri Vahabzadə qələmində "Şəbi-hicran"da lakonik və bir o qədər təsiredici izharını tapır.

Mən onun nəğməsini, eşqini, ruhunu da
Anlayıram, düşmənim
Ola bilməz o mənim!
Eləysə, ah, eləysə, bəs bu kəsə-kəs neçin?
Qılınc verib əlinə şahla sultan bəs neçin,-
Bir doğma qardaşları qırdırır qardaşlara?(6/520)

"Şəbi-hicran" poemasında bütün türk dünyasının Bəxtiyarı türkün ulu ruhunun tərcümanı Füzulinin bədii-estetik doğuluşunu qələmə alır. Türkçülük və Azərbaycançılıq məfkurəsi üzərində əbədiləşən bu SÖZ heykəli yarım əsrdən artıqdır ki, böyük şairi oxuculara sevdirməkdədir." (2/24)

Vahabzadə poemanı da adlandırarkən Füzulinin irsindən qaynaqlanmışdır. Əsər boyunca Füzulidən iqtibas gətirən müəllif "Şəbi-hicran"ın qoca Şərqin varlığının adı olduğunu, məhkum millətlərin fəryadı olduğunu deyir, hətta dahi şair haqq dünyasına qovuşanda belə İrandan, Hindistandan, Türkiyədən, Vətən-Azərbaycandan, Özbəkistan ellərindən onu qəbir evinə yola salmağa gələn milyonlar elə onun ardınca "Şəbi-hicran"ı oxuyurlar. Vahabzadə "Şəbi-hicran.. yanar canım, tökər qan çeşmi-giryanım, Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı" deyən Füzulinin bu fəryadının milyonların, əsarətdə əzilən insanların qəlbinin səsi olduğunu deyir. Bu, adi sevgidən daha artığıdır:

Bu bir qəlbin səsi deyil, milyon qəlbin bir səsidir,
Ömrü-günü əsarətdə keçən xalqın naləsidir.
"Şəbi-hicran", qoca Şərqin öz varlığı, öz adıdır,
Məhkum millətlərin "yandım", deyən fəryadıdır.(6/592)

Bəxtiyar Vahabzadənin qələminin qüdrəti haqda Çingiz Aytmatov yazırdı: " Vahabzadənin poetik təffəkkürü təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri bir haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarsan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. İndiki halda sən azərbaycanlı şairi oxuyanda – dünyanı oxuyursan " (1/49)

Bəxtiyar Vahabzadə yaradıcılığının əsas prioritet istiqamətlərindən biri və bəlkə də birincisi Ana dili məsələsidir. "Şəbi-hicran"da da biz bu problemə dəfələrlə toxunulduğunu, müəllifin dil məsələsində həssas olmasını görə bilirik. Dil milli kimlik, gen yaddaşıdır ki, dildə yazıb- yaradanlar, onu qoruyub saxlayanlar müəllifin nəzərində ən uca qatdadırlar. Poemanın qəhrəmanı Məhəmmədin sevdiyi qız da özü kimi dilinə, kimliyinə sadiqdir. Son görüşdə belə "Sən Türk diyarının öz övladısan"deyə Məhəmmədə müracət edir, dilinə sadiq olmasını, öz dilində yazmasını şairə xatırladır, qürbət eldə belə bu dildə yazmağın vacibliyini qeyd edir. Dil ölməməlidir, yaşadılmalıdır. Leyla Məhəmmədə Türk olduğunu və buna görə də elə öz soykökünün dilinə sadiq olmasını ondan xahiş edir, ondan eşqini, arzusunu öz dilində əbədiləşdirməsini istəyir:

Sənin bu ilahi ilk məhəbbətin
Xalqının dilində yazılsın gərək.
Sənin ki əlində deyildir çətin,
Döndərib "düşvarı asan eyləmək".
.... Sən ərəb, sən əcəm oğlu deyilsən,
Sənin öz dilin var, öz Vətənin var.
Özgə yelkənində seyrə çıxma sən,
Sənin öz dənizin, öz yelkənin var. (6/525)

Bu məqamda klassik ədəbiyyat nümayəndələrinin öz dilində yazmamasına Vahabzadə Füzulinin diliylə işarə edir. Füzuli deyir ki, hər şeyi uşaq atadan öyərənər, görər və götürər, bəli o, türkdür, Əbül-Ülaların, Nizamilərin şagirdi olaraq, onların yolu ilə gedərək, ana dilli yaradıcılıqdan uzaq düşmüş, ancaq artıq öz sahilinə-dilinə qayıtmasının vacibliyini anlamışdır.

Poemanın başqa bir hissəsində Füzuli Nizami "Xəmsə"si ilə tanış olur, "Leyli və Məcnun"u oxuyur. Əsərdən –dastandan təsirlənən Məhəmməd məyus olur ki, hər sətri bir dastan olan bu əsrarəngiz söz xəzinəsi ana dilində yazılmayıb. Buna üsyan edən Füzuli "Leyli və Məcnun"u Leylasının öz dilində yazmaq qərarına gəlir:

Ey qulluq halqaları! Siz o sənətkarın da
Qulağını sıxdınız, unutdu öz dilini.
Danışa da bilmədi, yandırdı söz dilini.
..Azərbaycan oğluyam.. bilsin bunu, qoy aləm!
Mürəkkəbə döndərib kağıza tökməliyəm,-
"Vətən," "Vətən", -söyləyən ürəyimin qanını,
Bu köhnə əfsanəni- Leylinin dastanını.

TƏDQİQAT METODU

Tədqiqatın aparılması, məqalənin hazırlanmazı zaması qarşıya qoyulmuş məsələni həll etmək üçün analitik, sintetik, induktiv və deduktiv meodlardan istifadə edilmişdir.

NƏTİCƏ

"Şəbi-hicran" bütövlükdə bir azərbaycançılıq fəlsəfəsidir. Poemada müəllif əvvəldən sona qədər şərh olunan məsələlərə milli nöqteyi-nəzərdən yanaşır. Klassik poeziya günəşi Füzulinin bədii həllini verərkən, onun eşq dünyasını şərh edərkən, əzablarla üzləşdirərkən belə vətənə sevgi duyğusu nəinki azalmır, hətta əsas aparıcı bir motivə çevrilir. Lakin Vahabzadə vətənpərvərliyi heç də şovinist səviyyədə deyildir, əksinə, onun yaradıcılığı ümumbəşəriliyi millilik hissi ilə müvazi şəkildə saxlamaq iqtidarındadır.

ƏDƏBİYYAT SİYAHISI

1. Axundlu Y. İstiqlal şairləri. Elm nəşriyyatı. Bakı/Azərbaycan. 1998:1-126 s.
2. Əliyeva-Kəngərli G. T. Türk qayəsi və milli idrak poeziyası. 525-ci qəzet. 14 fevral, 2015
3. Dəmirli M. Şairin ədəbi görüşləri. Təfəkkür nəşriyyatı. Bakı/Azərbaycan. 2002: 1-113 s.
4. Qarayev Y. Ədəbi üfüqlər. Gənclik nəşriyyatı. Bakı/ Azərbaycan. 1985: 1- 288 s.
5. Türk Dünyasının Bəxtiyarı (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu, 1-ci hissə). Tərtib edəni: Dəmirli M. Təfəkkür nəşriyyatı. Bakı/ Azərbaycan. 2002: 1-360 s.
6. Vahabzadə B. "Əsərləri". 12 cilddə. 1-ci cild (1949-1959). Elm nəşriyyatı. Bakı/Azərbaycan. 2008: 1-612 s.

CƏMŞİD ƏMİROVUN "BRİLYANT MƏSƏLƏSİ" POVESTİ DETEKTİV NƏSRİN BƏDİİ NÜMUNƏSİ KİMİ

SEYİDNİSƏ LƏTİFLİ
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Humanitar Elmlər Bölməsi
seyidnise.letifli@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Cinayət, cinayətkarın cəzalandırılması, ədalətin bərpa olunması bir sözlə bu motivin kökləri qədim zamana qədər uzanır və müxtəlif xalqların dini görüşlərində, mifologiyasında da öz əksini tapmışdır. Bütün bu ünsürlər ədəbiyyatda detektiv növün yaranmasına şərait yaratdı. Bir növ olaraq detektivin nəsrin başlıca xüsusiyyəti bilinməyən və açıqlığa çıxarılması lazım bilinən hadisənin izlərinin araşdırılması və sübuta yetirilməsidir. Azərbaycan ədəbiyyatında detektiv nəsrin əsası Cəmşid Əmirov tərəfindən qoyulmuşdur. Görkəmli ədibin yaradıcılığındakı bu istiqamət ədəbiyyatımızda yeni cığır açmışdır. Məqalə də ədibin 1962-ci ildə qələmə almış olduğu ən çox oxunan detektiv əsərlərindən biri olan "Brilyant məsələsi" povestində detektiv nəsrin xüsusiyyətləri, prinsipləri araşdırılmışdır. Cəmşid Əmirovun "Brilyant məsələsi" əsərinin detektiv nəsr cəhətdən təhlil obyektinə çevrilməsi tədqiqatın yeniliyi hesab edilə bilər. Bir sıra tədqiqatçılar tərəfindən "Brilyant məsələsi" povesti detekiv nəsrin bədii nümunəsi olaraq qeyd edilsə də ətraflı şəkildə təhlil obyekti olmamışdır. Tədqiqat işində Azərbaycan detektiv nəsrinin özünəməxsus prinsipləri, dünya ədəbiyyatı detektiv nəsri ilə fərqli və oxşar cəhətləri, povestin ədəbiyyatımızda tutduğu mövqe, ədibin digər detektiv əsərlər ilə əlaqəsi və s. kimi məsələlər araşdırılmışdır.

AÇAR SÖZLƏR: DETEKTİV, NƏSR, CƏMŞİD ƏMİROV

GİRİŞ

Ədəbiyyat və cəmiyyət bir-biri ilə harmoniya təşkil etdiyinə əsasən deyə bilərik ki, sənət həyata estetik təsir bağışlayır. Bədii əsərlər həyat həqiqətlərindən qidalanıb hadisələrə təsir göstərərək insanın düşüncə tərzini dəyişməsinə səbəb olur. Yazıçılar hər hansı bir bədii nümunə ilə insan qəlbini, ruhunu yeni ideallar ilə işıqlandırır, həyata baxış bucağını dəyişir. Nəticə də həyatdan alınmış hadisə bədii təsvir və boyalarla yenidən həyata qayıdır. Çünki bu zaman sanki yazıçı oxucu ilə bir psixoloq kimi danışaraq mövcud olan ziddiyyətlərin fərqli yönlərini müzakirə edir. Ədəbi əsərlərin real hadisəyə təsir gücü bəzi hallarda o səviyyəyə çatır ki, insan düşüncəsini və həyati aktları idarə edə bilir, buna görə bədii əsərin dərin ədəbi-bədii, estetik qatlarına enməklə burada əks duran, ziddiyyət təşkil edən həyat hadisələrinin konyukturasını sərf-nəzər etmək, şüurun, altşüurun qneseoloji qatlarındakı ahəng və təzadların bədii əsərdə harmoniyasını araşdırmaq, həyatla bədii mətnin əlaqə keçidlərindəki fərqli və uyğun detallarını tapmaq bəzən estetik təxəyyülün imkanlarını müəyyən çərçivədən çıxarmağa kömək edir [4, 21]. Cinayət mövzusunun qədim dövrlərdən müasir zamana qədər mövcud olmasının səbəbi bu problemin insan həyatında qorxulu iz buraxmasıdır. Tarixdə cinayətin təcridən artması, zaman keçdikcə çoxalması və bu kimi hadisələr ədəbiyyata təsirsiz ötüşə bilməzdi. Cəmiyyətdə əxlaq kodeksinin formalaşması nəticəsində günahkarların cəzalandırması kimi məsələlər ön plana çıxdı. Hər bir kəs öz günahına görə məsuliyyət daşımalı idi. Məhz bu ünsürlərin yaranması nəticəsində ədəbiyyatda detektiv nəsr formalaşır. Bu terminə lüğətlərdə detektiv ədəbiyyatı və ya xəfiyyə ədəbiyyatı adı ilə rast gəlmək mümkündür. Dünya ədəbiyyatında detektiv nəsr geniş təcrübə qazanıb yayılmışdır. Azərbaycan ədəbiyyatında da detektiv nəsrin təşəkkülü və formalaşmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahədə artıq detektiv nəsrin müxtəlif mövzu və məzmun sahələri yaranmışdir. Detektiv nəsrin tipologiyası, mənşəyi, keçdiyi inkişaf yolu, inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra tədqiqatlar mövcuddur. Dünya ədəbiyyatı nümayəndələrindən ingilis yazıçısı Gilbert Kit Çesterson, amerikan detektiv yazar SS Van Dyne, ingilis yazıçısı Ronald Knox və başqaları detekiv janrın xüsusi prinsiplərini hazırlamışlar. Biz bu ümumi prinsiplərdən çıxış edərək Azərbaycan ədəbiyyatında detektiv nəsrin əlamətlərini Brilyant məsələsi povestində araşdıracağıq.

XX əsrin 50-60-cı illərində Azərbaycan ədəbiyyatında detektiv nəsr formalaşmışdır. Görkəmli ədib Cəmşid Əmirovun bu istiqamətdə yazmış olduğu bədii əsərlər dövrünün mühüm hadisəsinə çevrilmişdir. O, Azərbaycan ədəbiyyatında öz üslubu, dəst-xətti, yaradıcılıq üslubu ilə seçilən alimdir. Cəmşid Əmirov 1958-ci ildə "Sahil əməliyyatı" povestini çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrin əsasını qoymuşdur. O, 1962-ci ildə "Brilyant məsələsi" povestini dərc etdirmişdir. Povest müəllifə böyük şöhrət

gətirmiş və Azərbaycan Yazıçılar İttifaqının və Respublika İctimai Asayişi Mühafizə Nazirliyinin mükafatına layiq görülmüşdür. Müəllif əsərdə həmin illərdə baş verən xüsusi cinayətkar qrupu tərəfindən törədilmiş silsilə cinayətləri təsvir etmiş və polis əməkdaşlarının bu cinayətlərin istintaq prosesində göstərdikləri hünəri, çevikliyi, şücaəti əks etdirmişdir. Əsər Əli Rəsulovun milis işçilərininə inam göstərməyən kupe yoldaşlarına əhvalatı ilə başlayır. Müəllif əsəri yazmaqda məqsədini ta əvvəldən qeyd edir və Bakı şəhər milis idarəsində baş verən cinayətlərin həll olunmasında polis işçilərinin rolunu cəmiyyətə çatdırır.

Görkəmli ingilis yazıçısı Gilbert Kit Çesterson 1925-ci ildə yazmış olduğu "Bir detektiv hekayə necə yazılmalıdır" adlı məqaləsində detektiv hekayənin yazmağın prinsiplərindən bəhs edərkən o qeyd edirdi ki, hər bir sirli hekayənin məqsədi qaranlıq deyil, işıqlı olmağındadır. Oxucu parlaqlığın içindən qara konturları seçməlidir. Cəmşid Əmirovun detektiv nəsrinin başlıca xüsusiyyətlərindən biri də verilən məlumatların tamlığındadır. Klassik detektiv nəsrin başlıca xüsusiyyətlərindən biri oxucuya verilən məlumatların əksiksiz və reallığa uyğun olmasıdır. Baş verən hadisələr düzgün nəticəyə aparan məntiqi quruluş əsasında cərəyan etməlidir. Detektiv yazar Brilyant məsələsi povestində də cinayətlərin istintaqının düzgün aparılması üçün bütün detalları incəliyinə qədər təsvir edir. İstintaq üçün hər xırda element yoxlanılır və oxucu polis əməkdaşları ilə birlikdə istintaq prosesinin iştirakçısına çevrilir.

Detektiv nəsr müəyyən struktura sahibdir və bu quruluş oxucuya detektiv əsərin planını yaratmağa şərait yaradır. Əsərin əvvəlində cinayət törədilir, ilk qurban görülür və oxucunun beyni 3 sual ətrafında məntiqi təhlillər yürütməyə başlayır: kim? kimi? niyə?. Kim sualı detektiv əsərin ən dinamik sualıdır çünki hər şey bu sualdan başlayır və bu sual ətrafında cərəyan edir. Hadisələr irəlilədikcə detektiv struktur, istintaq prosesi, həll yolu, sübut faktların təhlili istiqaməti üzrə cərəyan edir. Nəticə etibari ilə demək mümkündür ki, detektiv mövzuda qələmə alınmış bədii nümunələrdə hadisələr bu istiqamət üzrə cərəyan edir: müəmmalı bir cinayətin aşkar edilməsi, faktların məntiqi təhlil ilə izlənilməsi, ədalət və qanunsuzluq arasında toqquşma, ədalətin qələbəsi. Brilyant məsələsi povestində müəllif 3 əsas cinayət və onun ətrafında cərəyan edən hadisələrin fonunda baş verən kiçik cinayətləri təsvir edir: 1. Qəzet müxbiri Hüseyn Dadaşovun evinin qarət olunması; 2. Əziz İslamovun qətli; 3. Laləzar İsmayılovanın qətli. Detektiv əsərlərdə məntiqi bir zəncir mövcuddur. Əsərdə təsvir olunan süjet çoxluğu oxucunu çaşdırsa da əsər irəlikədikcə kələfin ucu cinayətkar qrupun başçısı Yədullaya çıxır. Bütün cinayətlər onun tərəfindən törədilir və miliş işçiləri səfərbər olunmuş formada istintaqı apararaq dəlilləri analiz edib cinayətkarları yaxalayırlar. Bu mövzuda yazılmış əsərlərin özünəməxsus xronotopu vardır. Cinayət keçmişdə işlənir, indiki zamanda bu izlər araşdırılır, keçmişlə əlaqələndirilir. Müəllif Yədulla obrazının bütün törətmiş olduğu cinayətləri kupedə əyləşən sərnişin tərəfindən nəql etdirir və əsərin sonunda məlum olur ki, hadisələri nəql edən mayor Rəsulov imiş və o, qatara Yədulla və Ağaəli Möhtacovu təqib edərək yaxalamaq üçün gəlmişdi.

George Grella "Formal detective Fiction" adlı tədqiqat işində detektivin daim elmi və məntiqin idealı izində olduğunu qeyd etmişdir [2, 90]. Cəmşid Əmirovun detektiv əsərlərinin mahiyyətində də elm və həm cinayətkar, həm də polis işçilərinin məntiqli şəkildə öz işlərini icrası zamanı biz bunun şahidi oluruq. Hadisələrin bir-biri ilə məntiqi şəkildə zəncirlənməsi, polis işçilərinin məntiqi fikirlər yürüdərək sübut və faktları təhlil etməsi deyilənlərə dəlalət verir. Əsərlərdə müxtəlif obrazlar detektiv rolunda çıxış edə bilər: hüquq-mühafizə orqanları, özəl detektivlər, qurbanın qohum və ya dostları və s. Bu xüsusiyyətinə görə detektivləri 3 qrupa bölmək olar: peşəkar, xüsusi və həvəskar detektiv. Peşəkar detektiv dedikdə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən aparılan istintaq nəzərdə tutulur. Xüsusi detektiv üçün isə bu bir peşədir, polisə xidmət etmir. Həvəskar detektiv isə hər hansı gizli bir məsələyə yalnız şəxsi mənafeyi cəhətdən düşünərək araşdırma aparır və bu onun üçün hobbidir. Dünya ədəbiyyatı nümunələrinə diqqət yetirdikdə burada xüsusi detektiv obrazlarının şahidi oluruq. Məsələn Edqar Allan Ponun yaratmış olduğu detektiv Oqyust Düpen, Artur Konan Doylun Şerlok Holmsu, Uilyam Uilki Kollinzin Serjant Kaf obrazı və b. Cəmşid Əmirovun yaradıcılığında isə xüsusi detektiv obrazları deyil onların yerinə xüsusi milis işçiləri bu istiqamətdə işlər aparır. Əgər detektiv obraz təkbaşına cinayətin izlərini araşdırırsa, Cəmşid Əmirovun detektiv əsərlərində bu prosesə bütün milis işçiləri səfərbər olunur. Brilyant məsələsi povestində başda polkovnik İsayev olmaqla, kapitan Əli Rəsulov, ekspert Sərdar Əzimov və Səmayə Hacıyeva, müstəntiq Adilə Paşayeva və başqaları izlərin aşkara çıxarılmasında, cinayətkarların həbs olunmasında böyük səriştə göstərirlər. Cəmşid Əmirov milis işçilərinin gecə-gündüz demədən, təhlükədən qorxmadan özlərini işlərinə həsr etməsini xüsusi çalarla təsvir etmişdir. O, bu məsələyə şəffaflıqla yanaşmış polis adına yaraşmayan hərəkətlərə yol verən xəyanətkar polis işçisi Salman Niftəliyev kimi işçilərin cinayətkarlarla əlaqəsinin tez

bir zamanda ortaya çıxararaq vəzifəsindən uzaqlaşdırılması kimi faktları da təsvir etmişdir. Bununla yanaşı əsərdə istintaq prosesinin həllində kömək olan drujinaçı obrazlar yer almışdır. Vətənpərvər ukraynalı qız Lyudmila Yesenko, bağ gözətçisi Mirzə Məlik, Çəkməsilə Əbdül və başqa surətlər polisin işinə yaxından kömək edir. Cəmşid Əmirov bir cinayətin tutulmasında hər kəsin səfərbər olması ideyasını irəli sürərərək sanki cəmiyyətdə baş verən ziddiyyətli və xoşagəlməz halların qarşısını almaq üçün bütün xalq ayıq-sayıq olmalı və cinayətkarlara qarşı birgə mübarizə aparmalıdır şüarını oxuculara çatdırırdı.

Cəmşid Əmirovun detektiv əsərlərinə məxsus xarakterik xüsusiyyətlərindən biri də arqo və jarqonlardan istifadə edilməsidir. Jarqon- sosial dialekt olub, ümumxalq danışıq dilindən spesifik leksik və ifadə əlamətlərinə görə fərqlənir. Jarqonlar qaba ifadələrdir, qəhrəmanların dilini səciyyələndirməkdən ötrü istifadə olunur [1, 89]. Arqo eyni ictimai zümrə və ya peşə adamlarının nitqidir. Xalq danışıq dili və jarqolardan fərqlənən arqonun başlıca xüsusiyyəti bu və ya digər sözün, ifadənin yalnız məhdud zümrə, yaxud peşə adamlarının başa düşdüyü şərti mənada işlədilməsindədir [1, 110]. Cəmşid Əmirov əsərlərində tipi dilindən danışdırır. Müəllifin Brilyant məsələsi povestində də bu cür söz və ifadələrə rast gəlmək mümkündür. Məsələn: barıq-alverçi, şestoy-milis işçisi, siçan-pul, məclis-qumar və s. Cinayətkar dəstənin öz aralarında xüsusi parollar ilə danışması da əsərdə təsvir olunan detallardandır. Yədullanın Rantikə göndərdiyi məktubda qeyd olunur: "İyun 9 Yuranın 2 yaşı tamam olur. Unutma. (İyun 9-u Xarkovda ol, iki min manat gətir)" [3, 96]. Yədulla ilə Həlimənin məktublaşması da buna misal göstərmək olar: "Hava sakitdir. Ancaq hələ dənizə çıxma. Fırtınadan qorxuram. (Heç bir hadisə baş verməyib, hələ üzə çıxma, polisdən qorxuram.) [3, 70].

Bədii əsərlərdə ləqəblərdən süjet xəttinə emosional çalar qatmaq, qəhrəmanları obrazlı və aydın təsvir etmək üçün istifadə edilir. "Brilyant məsələsi" povestində müəllif müxtəlif ləqəblərdən istifadə etmişdir. Bu ləqəblər böyük cinayətkar dəstəsinin üzvlərinə aiddir. Məhz bu ləqəblər vasitəsilə cinayətkarlar əsl kimliklərini gizlətməyə nail olurlar. Onlar öz aralarında danışarkən, bir-birilərinə şifrəli ismarıclar göndərərkən bu ləqəblərdən istifadə edirlər. Oğru ləqəbləri öz sahibinin tutduğu mövqeyi haqqında birbaşa məlumat verir. Məsələn: Tapança-Yədulla, Qızılbarmaq-Rantik, Zerkalo- Klara və s.

Əsər povest janrının tələblərinə uyğun olaraq hadisələrin və obrazların çoxşaxəliliyi, mürəkkəb və dəyişkən situasiyaların mövcudluğu, qəhrəmanların daxili dünyasının və hadisə zəmnində psixologiyasının təsviri ilə xarakterizə edilir. Povestin xronotopu dar bir zaman və məkanda təsvir edilir.

TƏDQİQAT METODU

Tədqiqat işində təsviri və tarixi müqayisəli metodlardan istifadə edilməsi nəzərdə tutulmuşdur.

NƏTİCƏ

Aparılan tədqiqatlar nəticəsində Cəmşid Əmirovun detektiv nəsrinin özünəməxsus xüsusiyyətləri aşkara çıxarılmışdır. Dünya ədəbiyyatı ilə müqayisədə bəzi oxşarlıqlar mövcud olsa da Azərbaycan detektiv nəsrinə məxsus cəhətlər "Brilyant məsələsi" povestində əks olunmuşdur. Povest polis detektivi mövzusunda qələmə alınmışdır. Azərbaycan detektiv nəsrində xüsusi əhəmiyyətə malikdir. Detektiv ilə bağlı qaydalar hər zaman statik qalmamışdır, zaman keçdikcə prinsiplər dəyişmişdir. Tədqiqatımıza əsasən demək mümkündür ki, detektiv nəsrin bu gün dünya ədəbiyyatında tutduğu mövqe müəyyən mərhələlər keçərək formalaşmışdır. Ümumi-nəzəri prinsiplərin yaradılması bu istiqamətdə işlərin öyrənilməsinə geniş təkan vermişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, I cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası. **(Kitab).** 1980, 592 s.
2. Chesterton, G. K. "How to write a Detective Story." The Chesterton Review 10.2 (1984): **(Kitab).** 111-118.
3. Əmirov C. Brilyant məsələsi. Azərnəşr. **(Kitab).** Bakı, 2008, 360 s.
4. Freeman, R. A. The Best Dr. Thorndyke Detective Stories. Courier Dover Publications. **(Kitab).** 2017, 220 səh.
5. Rəşidzadə L. Roman və qəhrəman problemi yeni kontekstdə. http://www.anl.az/down/meqale/525/2020/fevral/236.htm **(Online məqalə).**

KÖROĞLU DESTANI ÜZERİNE

Bora Nüsret Namkoç
boris-simo@hotmail.com
Kafkas Üniversitesi, Türkiye
Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü

ÖZET

Türk edebiyatında ve Azerbaycan edebiyatında işlenen birçok edebi destanlar mevcuttur. Bu destanlardan şüphesiz önemli olanı Köroğlu destanıdır. Köroğlu destanı hem Türk edebiyatında hem de Azerbaycan edebiyatında yer alan şahane eserdir. Köroğlu'nun hayatı, yaşamı, eşleri ve destanda geçen diğer yan kahramanlar işlenmiş ve hem Türk edebiyatında hem de Azerbaycan edebiyatında nasıl aramıza çıktıkları ele alınmıştır. Köroğlu destanı yalnızca Türk ve Azerbaycan edebiyatında değil ayrıca da tüm Türk dünyası edebiyatında yer edinmiş nadide eserlerdendir.

Anahtar Sözler: Köroğlu, Destan, Hoylu, Ayvaz

Türk edebiyatına geniş açıdan bakıldığında Kitab-ı Dede Korkut, Alpamış, Tahir ile Zühre, Aşık Garip, Arzu Kamber gibi kendisine büyük bir coğrafyada yaşama imkanı bulmuş destan ve hikayelerimiz vardır. Bunlardan birisi de Köroğlu dur. Bu eserler asırlar boyunca halkımızı bir yandan eğlendirmiş bir yandan da içinde taşıdığı kültür öğeleriyle eğitmiştir. Günümüz Türklük coğrafyası içerisinde, Köroğlu'nun yaygınlığı azımsanmayacak ölçüdedir. Köroğlu'nun hangi yüzyılda ve nerede yaşadığı konusu açıklığa kavuşmuş değildir. Ancak Köroğlu kollarına bakıldığında onun Azerbaycan, Başkurdistan, Kazakistan, Kırgızistan, Özbekistan, Türkmenistan, Tataristan, Uygur, Irak, Mısır, Kafkasya, Türkiye, Suriye ve Balkanlarda yaşadığı görülür. Türk insanının hayalini süsleyen, kahramanlık ruhunu aksettiren mert kişi Köroğlu, dikkatle incelendiğinde çoğu zaman alp olarak karşımıza çıkar. Onun yüzyıllar boyunca geniş bir coğrafyaya yayılmasında halkın okuduğu veya dinlediği Köroğlu destanında kendisini bulmasının, kahramanlık ve coşkunun ön planda yer almasının, Köroğlu'nun, zenginlere ve zalimlere karşı acımasız olmasının, fakire ve zavallıya daima hamilik yapmasının büyük bir payı vardır. Köroğlu'nun nerede ve hangi yüzyılda yaşadığı konusu açıklığa kavuşmuş değildir. Destanın teşekkül zamanını Fuat Köprülü ''Türk Edebiyatı Tarihi'' adlı eserinde 16. Yüzyıl öncesini işaret eder.

Destanda Köroğlu kalın enseli, dağları gümbür-gümbür inleten müthiş sesli ve oldukça heybetlidir. Görenlerin korkudan dokuz yerden dudağı çatlar. Gözleri, ağzı, burnu, kulakları, dişleri son derecede iridir. Bütün vücudu kıllıdır. Doyma nedir bilmez. Özbek rivayetlerinde Köroğlu: ''Kulakları kalkan gibi, omuzları birkaç erin oturacağı genişliktedir.'' Uykuya daldığında üç gün uyur. Oturduğu yerden kalktığı zaman Kaf Dağı yerinden oynar. Köroğlu'nun bıyıkları inanılmaz derecede uzun ve gürdür. Köroğlu bir nalı parmağıyla bükebilecek kuvvettedir. Sarayın üst katlarına çıkarken basmağa her bastığında binayı titretir. (Durbaş,2014:54) Ölmüş bir devenin bacağı ile kırk kişiyi rahatlıkla öldürebilmektedir. Köroğlu herhangi bir mücadele içinde olmadığı zaman keyfine düşkündür. Zevk ve sefa içinde iken kendini kaybedecek derecede eğlenir. Köroğlu'nun abartılı tasvir edilmesi sadece Türkiye de değil diğer Türk boylarında da ön planda tutulmuş, hatta Köroğlu mitolojik kimliğe büründürülmüştür. Köroğlu destanına ait kollar manzum ve mensur yapıya sahiptir. (Bayaz,2015:139) Kollarda Ayvaz, Eyvaz, Ivaz gibi adlarla anılır. Kollarda Üsküdarlı, Urfalı, Gürcistanlı bir kasabın oğlu olarak adı geçer. Kasabın adı İbrahim yahut Bolduruk Kasaptır. Köroğlu'nun Türkmen seferi kolunda Ayvaz, Bir Türkmen beyi olarak geçer. Köroğlu onu kendisine bir evlat olarak kaçırır ve Çamlıbel'e getirir. Çok yakışıklı olmakla beraber aynı zamanda yiğittir. Köroğlu kollarında adı sık sık geçen Demircioğlu, Köse Kenan, Güdümen, Dağıstanlı Hasan, İstanbullu Hüseyin, Hoylu gibi yiğitlerde destani özelliklere sahiptir. Türk destanlarında at ön planda yer alır. Köroğlu denince akla atı Kırat, Kırat denince de akla Köroğlu gelir. Kırat da olağanüstülüklere sahip bir yardımcı kahramandır. Ab-ı Hayattan içtiği için ölümsüzdür. Ardından gelen atların hiçbiri ona yetişemez. Kavgadan kaçmaz. Ön ayakları bir çınarın tepesine ulaşacak şekilde büyüktür. Hz. Hamza'nın Aşkarı gibidir. Bir sıçrayışta yüksek kale duvarlarını aşar. Hatta bu arada suru bile tahrip eder. Diz boyu çamura aldırış etmeden rahatlıkla koşar, üstelik toynağına çamur ulaşmaz. Yayıldığı yerdeki otları koparınca kalan yer ekime hazır bahçe gibi olur. Ayağını vurduğu yerde, bir külek buğday alacak kadar çukur açar. Zekidir, sahibinin değil sözlerinden düşüncesinden bile ne yapmak istediğini anlar. Bazı kollarda bir insan gibi konuşur. Seksen bin kızla, seksen bin gelinle değiştirilemeyecek kıymettedir. (Bayaz,2015:145,146) Köroğlu anlatmalarında başta sayı, renk, yer, at, kılıç, ölmezlik suyu, rüya motifleri olmak üzere, kültürümüzde yer alan hemen hemen tüm motiflere yer verilir.

Köroğlu destanı, her biri müstakil anlatım özelliği taşıyan pek çok kollardan oluşur. Bugünkü tespitlerimize göre Köroğlu'nun 200 kadar (Bazı rivayette 777) kolu vardır. Bunlardan 60 kadarı Türkiye'de bilinmektedir. Türklük aleminde yaşatılan kol sayısı da azımsanmayacak ölçüdedir. Dursun Yıldırım 1983 yılındaki ''Köroğlu Destanı'nın Orta Asya Rivayetleri'' adlı çalışmasında, Köroğlu'nun Türkmen ve Karakalpaklar arasında 41, Özbekler arasında 14-16, Orta Asya'da 43, Kazaklar arasında 62, Tacikler arasında 52, versiyonunun olduğuna işaret etmiştir. (Bayaz,2015:225)

Azerbaycan, Anadolu ve Türkmenistan Köroğlu'nun en fazla anlatıldığı coğrafyalardır. Bu bölgelerde anlatılan metinlerin birçoğu derlenmiş; makale ve kitap şeklinde yayımlanmıştır. Köroğlu'nun Türkiye'de 30' dan fazla kolu bilinmektedir. Elbette ki bu sayı nihai bir sayı değildir. Daha tespit edilmemiş bazı kollarında var olduğu da ihtimal dahilindedir. Pertev Naili Boratav ''Köroğlu Destanı'' adlı eserde Köroğlu'nun Paris, Özbek, İstanbul ve Tobok olmak üzere dört rivayetine yer vermiştir. Ancak bu rivayetlerin her birinde pek çok kol vardır ve rivayetlerde toplu olarak hikaye etme esası güdülmüştür. (Bayaz,2015:226)

Köroğlu anlatma geleneği, yüzyıllardan beri geniş bir Türk coğrafyasında anlatılmaktadır. Tespit ettiğimiz kollar Türkiye, Azerbaycan, İran, Türkmenistan, Kazakistan, Karakal, Pakistan ve Uygur Özerk Cumhuriyetinde anlatılan kollardır. Bunlar aşıklar ve bahsılar tarafından icra edilmişlerdir ve edilmektedir. Anlatılanların birçoğunun derlenmiş olmasına rağmen eminiz ki derlenmemiş olan bir hayli Köroğlu daha vardır. Ancak bizlere bu kolları anlatmakla kültürümüze büyük bir hizmette bulunmuş olan bu büyük sanatçıların adını zikretmek bir vefa örneği olacaktır. (Boratav,2009:201)

Türkiye'de Köroğlu anlama geleneği Türkiye'de Sivas'tan başlamak üzere Doğu Anadolu ve Güney Anadolu bölgelerinde kendisini göstermektedir. Zikredeceğimiz iller içinde Adana, Kahramanmaraş, Erzurum ve Kars önce gelir. Köroğlu çalışmasında ilk ilmi çalışmalardan birini ortaya koyan Pertev Naili Boratav, Halk Hikayeleri ve Halk Hikayeciliği adlı kitabında Doğu Anadolu'da Köroğlu anlatan sanatçılardan şunların adına yer vermiştir: Sabit Müdafi (Posof), Battal (Erzurum), Kahraman (Bayburt). Ümit Kaftancıoğlu'nun bildirdiğine göre Köroğlu hikayelerini dinleyip, öğrenip, geleceğe taşıyan kişi 19. Yüzyılda Posof'un Hevat Köyünden olan Aşık Üzeyir'dir. Kendisi de bizzat Aşık Müdami, Bayram Köroğlu, Dursun Ceylani, Murat Çobanoğlu'ndan derlemeler yapmıştır. Bunların yanında Köroğlu Anlatıcıları olarak Düziçi'nde Karayiğit Osman, Kahramanmaraş'ta Fırıldak Ökkeş Bilal, Nuh Osman ve Hacı Demirci'yi, Sivas'ta Aşık Gafili ve Recep Altay'ı zikredebiliriz. (Boratav,2009:202,203)

Azerbaycan'da Köroğlu destanı anlatma kültürü çok yaygındır. Bugün bir kısmı Gürcistan, bir kısmı da Ermenistan topraklarında kalan Türk köylerin de pek çok aşık ustadan çırağa bu kültürü devam ettirmişlerdir. Bu çerçevede 19. Yüzyılda Ermenistan'da Göyce'nin İnek Dağ köyünde yaşayan Aşık Kahraman, yine aynı yüzyılda yaşayan Ağkilseli Aşık Musa, 1930'lu yılların başında vefat eden Aşık Kazım, Aşık Kanber (1912-2002), 1918'de Ermeniler tarafından öldürülen Daşkendli Aşık Necef, Aşık Esed Karakoyunlu, Söyünkuluağalı Aşık İslam zikredilebilir. Azerbaycan da ve Gürcistan'ın Borçalı bölgesinde Köroğlu anlatma geleneğini yaşatmış güçlü aşıklardan adlarını zikredebileceğimiz şunlardır: Aslan Koşalı (Öl. 1926), İmran Hesenov (Öl. 1990'lı yıllar), Hüseyin Saraçlı (1914-1987), Gümrülü Aşık Hakverdi, Aşık Elesger, Çorlu Mehemmed, Aşık Alışan, Aşık Meherrem (Bu aşıklar Sovyet Döneminde Kars'a kaçmışlardır.) (Boratav,2009:204)

Köroğlu kollarında kadın motifi dikkat çekecek kadar ön plandadır. Kadınların en önemli özellikleri, masal ve halk hikayelerinde olduğu gibi son derece güzel olmaları ve kendilerinden daha güzelleri mevcut olmamasıdır. Öyle ki Köroğlu pek çok seferini methini duyduğu bu kızları alıp Çamlıbel'e getirmek arzusuyla yerine getirmiştir. Köroğlu'nun alıp getirmeyi arzuladığı kızlar han, bey, padişah, paşa kızı veya kardeşidir. Destan Köroğlu'nun bu kişileri mağlup etmesi ve Köroğlu'nun muradına kavuşması ile nihayetlenir. (Boratav,2009:187,188)

Kadınların içlerinde güzelliklerinin yanında Ağa Yunus ve Nigar Hanım gibi basiret sahibi, olgun, ciddi ve dirayetli olanlar da vardır. İçlerinde bazıları bir erkek gibi meydan çıkar ve yiğitlikler gösterir. Kadınlar erkeklerine sadakatle bağlı bir eş olarak görülürler. Köroğlu Çamlıbel'e getirdiği kızlarla evlenir. Köroğlu tek eşli olmayı istemez. İkinci eşe gerek niçin ihtiyaç duyduğunu: ''Benim gibi bir yiğide iki kadın çok mudur? Biri bana bakar, biri atıma: Biri kahvem olur, biri tütünüm; biri rakı verir, biri meze!'' şeklinde cevap vermiştir. 29 Kimi zamanda Köroğlu, bir sefer sonrası getirdiği kızı ya Ayvaza ya da yiğitlerinden birine verir, üç gün üç gece, yedi gün yedi gece veya on gün on gece düğün yaptırır. (Boratav,2009:189)

Köroğlu'nun eşleri farklı coğrafyalarda farklı anlatımlara bağlı olarak çeşitlilik gösterir. Zikredilen isimler içerisinde müşterek isimler olduğu gibi farklı isimlerde çıkabilmektedir. Köroğlu'nun eşi olarak Azerbaycan'da 7, Türkiye'de 4 isim karşımıza çıkmaktadır. Bunları şöyle zikredebiliriz:

Azerbaycan'da anlatılan kollarda: Esmer Hanım, Şahsenem Hanım, Ceyran Hanım, Humar Hanım, Kumru Hanım, Leyla Hanım, Saadet Begüm Hanım.
Türkiye'de anlatılan kollarda: Döne Hanım (Döne Hoylu ve Abbas'ın kız kardeşidir.), Perizat, Hüruzat (Köroğlu'nun oğlu Hüseyin Bey). (Boratav,2009:156)
Hem Türkiye hem de Azerbaycan'da anlatılan kolların bazılarında Nigar Hanım müşterek isim olarak karşımıza çıkmaktadır. Nigar Hanım Hasan Ve Hüseyin'in anneleridir. (Boratav,2009:157)
Köroğlu Destanı'nın şüphesiz ikinci önemli kahramanı Ayvaz'dır. Türkiye'de Ayvaz olarak telaffuz edilen bu sözü Azerbaycan Türkleri Eyvaz olarak söylerler. (Boratav,2009:157)
Destanlarda Köroğlu'nun çocukları ve onların evlilikleri de söz konusu edilmiştir. Pek çok kolda Köroğlu'nun çocuğu olmadığı zikredilmekle beraber Azerbaycan'da anlatılan ''Ağca Kuzu ve Perzat Hanım'ın Çamlıbel'e gelmesi'' kolları ile anlatılan Türkiye'de anlatılan ''Köroğlu'nun oğlu Hasan Bey'' ve ''Köroğlu'nun oğlu Hüseyin Bey'' kollarında Ağca Kuzu, Hasan Bey ve Hüseyin Bey adlarında üç oğlunun olduğu hikaye edilir. (Boratav,2009:156)
Köroğlu kollarında hadiseler genellikle üç merhale halinde seyreder:

1. Methini duyduğu bir kızı gidip getirmek yahut bir yiğidi kurtarmak için düşman memleketine gidilir. Giden grubun başında çoğunlukla Köroğlu olur. Kimi zaman yakın adamlarından biri bu işi üstlenir. Düşman alt edilir ve seferden başarıyla dönülür.
2. Seferde iken Köroğlu'nun kendisi veya yiğidi yakalanır. Köroğlu bu seferlerin çoğunda kimliğini gizler, paşa ile yakın ilişki kurar, kimsenin içemeyeceği kadar içki içer.
3. Bey, paşa, padişah tutsak olan kişi tam asılmak üzereyken kurtarmaya muvaffak olunur. Muratlarına varmış olarak Çamlıbel'e dönülür.

Köroğlu kollarında, yapılan savaşlarda alet olarak kılıç, ok-yay, hançer, çıda, topuz/şeşper, kalkan ve gürz kullanıldığı görülür. Köroğlu'nun ilerleyen yaşında tüfek icat olunur. Tüfeğin icat edilmesinden sonra da Köroğlu fazla yaşamaz. Ölmeden önce de artık mertliğin bozulduğuna da şahit olmuştur. (Boratav, 2009:161,162)
Destanda Köroğlu'nun ölümü ile ilgili olarak ''Köroğlu'nun Kocalığı ve Ölümü'' kolunda da temas edildiği gibi kollar arasında müştereklik görülmez. Boratav'ın metnini yayımladığı Paris'teki Azeri rivayetinde yaşlanan Köroğlu yerine Ayvaz'ı bırakıp hacca gitmek için yola çıkar. Yolda Şah Abbas'ın gözden düşmüş iki kölesi Kırat'ı öldürür. Kırat olmadan yaşayamayacağını iyi bilen Köroğlu o iki köleye direnmez boynunu uzatır. Bazı anlatmalarda da yeni icat olan tüfeğin adam öldüremeyeceği kanaatindedir ve tüfeği elinde tutan çobana kendisine ateş etmesini ister. Çoban tüfeği ateşleyince Köroğlu ölür. Azerbaycan'da bilinen bir kolda, Köroğlu'nun ömrünün sonlarına doğru babasının intikamını almak için İsfahan'a Şah Abbas'ın yanına gitmek istemesi, ancak yolda hastalanıp Murcehurd köyünde vefat etmesi hikaye edilmiştir. (Bayaz, 2015:387)
Köroğlu mert, cömert, yoksulların yanında olması, yiğit, gözü pek, güçlü bir şair, zalimlerin karşısında olan dirayetli ve sözüne sadık olmasından dolayıdır ki Türk milletinin beyninde, gönlünde yer tutmuş; yüzyıllar boyu bütün tazeliğiyle yaşamasını bilmiştir. (Bayaz, 2015:388)

SONUÇ

Köroğlu kollarında kahramanlar, diğer destanlarda olduğu gibi fiziki ve ruhi bakımdan idealize edilmiş özellikleriyle dikkat çekicidir. Bu özellikleri şöyle sıralayabiliriz:

1. Köroğlu destanında karşımıza çıkan kahramanlar, müşkül anlarında ölme pahasına, birbirlerine yardım ederler ve yardımları karşılıksızdır.
2. Görkemli yapıları ve hünerli davranışlarıyla, bir bakıma içinde bulundukları zümrenin temsilcileri durumundadırlar.
3. Hassas ve sanatkar ruhludurlar. Yeri geldiğinde duygularını şiirle ifade ederler.
4. Saflıkları yüzünden ölümle burun buruna gelirler, fakat mağlup olmak, kabul edemedikleri tek hususdur.
5. Emre itaat ederler ve ahde vefaya sadıktırlar. Köroğlu destanı, bu kadar yüce fikirleri nesillere kazandırması bakımından haklı olarak anıt eser olma hakkını elde etmiştir.

Yüzyıllardır Türk milletinin beyninde varlığını sürdürmüş bu ve buna benzer eserlerin mevcudiyeti, bizlerin geleceğe daha güvenle bakmasını sağlamaktır.

KAYNAKÇA

BORATAV, Pertev Naili (2009). Köroğlu destanı, İstanbul
DURBAŞ, Refik (2014). Köroğlu, İstanbul
BAYAZ, Hüseyin (2015). Köroğlu, İstanbul

İNTEQRATİV FOLKLORŞÜNASLIĞIN KONSEPSİYASI

MƏLAHƏT BABAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ədəbiyyat kafedrası
milababayeva@mail.ru
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

Elmlərin inkişafında zaman-zaman sinergetiklərin sözləri ilə desək, bir növ bifurkasiya nöqtəsi baş verir ki, bundan sonra onlar başqa cür qurulmağa başlayır. Göründüyü kimi, folklor da öz problemlərinin həllində bir sıra digər elm sahələri ilə qarşılıqlı əlaqədə olmaq, inteqrativ tədqiqat sahəsini formalaşdıra bilən sistem kimi oxşar mərhələyə qədəm qoyub. Bu, onun obyektiv sərvətidir və boş tədqiqatçıların ixtirası deyil, mifologiyadan, etnoqrafiyadan, ədəbi tənqiddən müstəqillik hüququnu yenicə sübut etmiş elmə qarşı zorakılıq deyil, kontekstdə, sanki, dağılmış vəziyyətdədir. "Folklor" termininin meydana çıxması şifahi xalq yaradıcılığı elminin fərqləndirilməsinə ən əlverişli təsir göstərmişdir. Tədricən ümumi folklorşünaslıq formalaşır, folklor nəzəriyyəsi və folklorun tədqiqi metodologiyası inkişaf edir. Tədqiqat obyekti ilə etnik əlamətdar və filoloji folklor müəyyən edilir, sonuncunun konseptual əsasını folklorun söz sənəti kimi dərk etməsi təşkil edir. Tarixi inkişafda folklor janrları bədii forma və məzmun baxımından onun əsas tədqiqat predmeti seçilir.

Burada iki proses paralel gedir. Birincisi, folklor məlumatlarından başqa elmlərin istifadəsi davam edir. Ədəbiyyat nəzəriyyəsi tarixi poetika problemlərinin işlənməsində onlara müraciət edir. Mifologiya folklorsuz qala bilməz: onsuz o, ayaqları altında möhkəm zəmin itirir, elmdən kvazielmə çevrilir. Köhnə və yeni folklor qeydləri dialektologiya tərəfindən istifadə olunur, əsas diqqət diskursiv və povest folklor nəsridir. Folklor sözünü nəzərə almadan folklorşünaslığın tam müstəqil bir sahəsi olan etnomusiqişünaslıq edə bilməz. İkincisi, mərkəzdənqaçma ilə yanaşı, folklorun mərkəzdənqaçma vektoru başqa elmlərə müraciət etdikdə, lakin 19-cu əsrdə olduğundan tamamilə fərqli səviyyədə, sabit özəyi olan köklü müstəqil intizam səviyyəsində meydana çıxır.

AÇAR SÖZLƏR: Açar söz- İnteqrativ, açar söz- Mifofolkloristika, açar söz- Linqvofolkloristika

GIRIŞ

XX əsr həm təbiət, həm də humanitar elmlər sahəsində inteqrativ proseslərin güclü yüksəlişinin göstəricisidir. Biokimya, biofizika, astrofizika və buna bənzər adlar birdən-birə aydın və tanış olur. Fənlərarası tədqiqatların əhəmiyyəti və məhsuldarlığı etnolinqvistika və digər elmi sahələr tərəfindən parlaq şəkildə nümayiş etdirilmişdir. Həmin dövrdə Azərbaycan folklorşünaslarının da fənlərarası tədqiqatlarda müəyyən təcrübələri var idi. Folklorun xüsusi bir sahəsinin - inteqrativin elmi dizaynına doğru tendensiya, necə deyərlər, aydın idi. Kiçik bir iş qalmışdı - onun sosiallaşması.

Yaxın vaxtlara qədər qohum və əlaqəli elmlər dairəsində folklorşünaslığın mövqeyinə gələndə onun ədəbi tənqid, mifologiya, etnoqrafiya, dialektologiya, sonralar isə psixologiya, sosiologiya, mədəniyyətşünaslıq və s. ilə sıx əlaqəsi haqqında söhbəti gedirdi, lakin bu əlaqənin mahiyyəti aydınlaşdırılmamışdır. Fikrimizcə, müasir filoloji folklorun özünəməxsusluğu onunla müəyyən edilir ki, onun klassik özəyi istisna olmaqla, hamısı müxtəlif profilli elmlərlə qovuşur, burada inteqrasiya sahəsi formalaşır. İnteqrativ folklorşünaslıq tendensiyasını ayırmaq ən azı folklorşünaslıq, onun filoloji məqsəd və vəzifələri, tədqiqat obyekti və predmeti haqqında formalaşmış təsəvvürlərə qəsd edir. Bu, yeni tendensiyaları nəzərə almaqla elmi intizamın vəziyyətini qiymətləndirmək üçün obyektiv ehtiyacdır.

İnteqrativ folklorşünaslığın ilkin vəzifəsi ona xas olan elmi problemlərin dairəsini inandırıcı şəkildə müəyyənləşdirməkdən ibarətdir və onun ilkin nəzəri mövqeyi inteqrativlik kateqoriyası ilə aydın və birmənalı şəkildə bağlı olmalıdır. Beləliklə, inteqrativ folklorşünaslığın əsas problemləri aşağıdakılardır:

1) folklordaxili inteqrativ əlaqələrin tipoloji tədqiqi;
2) folklor yaradıcılığının qeyri-mətn inteqrativ əlaqələrinin tipoloji tədqiqi;
3) inteqrativ folklorşünaslığın filologiyaya münasibətdə nəzəri və metodoloji öz müqəddəratını təyin etmək.

Demək lazımdır ki, indiyədək "folklor" və "şifahi xalq yaradıcılığı" anlayışları bir-birindən fərqləndirilməyib. Şifahi poetik yaradıcılıq, şifahi xalq yaradıcılığı və bu kimi ifadələr son əsrdə elmi istifadədə möhkəm şəkildə təsbit edilmişdir.

Folklor, ilk növbədə, geniş xalq kütlələrinin şifahi poetik yaradıcılığına aiddir. Söz sənəti kimi folklorun mətndənkənar əlaqələri mövzusu folklor "müəllifi" olan folklor yaradıcılığı prosesində yaranır. Məhz onun bədii təfəkkürü reallığa çevrilir - maddi, mənəvi, əqli, sosial, əqli və s.. Bütün mədəniyyətlər kimi, folklor da müəyyən dövr insanın psixikasının, şüurunun dili ilə danışır. Onların izləri folklor əsərlərində bu günə kimi qorunub saxlanılır. Bu vəziyyət alimlərə folklor yaradıcılığındakı prosesləri və onun məhsullarını - folklor mətnlərini bu və ya digər şəkildə inteqrasiyanın tarixi dinamikasını bərpa etməyə imkan verir.

Aşağıdakı inteqrasiya növlərini ayırırıq: linqvistik (o olmasaydı, nəsillər folklor əsərlərini ümumiyyətlə başa düşməyəcəkdi); mifoloji (folklor ona obrazlı və ifadəli vasitələrin zənginliyinə borcludur); mifo-tarixi (etnik tarix yalnız mifin qanadlarında folklorla inteqrasiya oluna bilər); dini (folklor iki fərqli mədəniyyət – din və inanclar arasında dialoq yerinə çevrilir); intravariant (müsbət, mənfi və sıfır estetik nəticələrlə); yaradıcı və ya mexaniki çirklənmə kimi tanınan mətnlərarası və interplot; janrlararası (folklorun xüsusi inkişaf yolu, zənginləşdirilməsi); etnoqrafik (bədii əsərin üzvi hissəsinə çevrilən gündəlik hadisələrin və faktların semantlaşdırılması və estetikləşdirilməsi ilə). Gördüyümüz kimi, inteqrativlik folklor yaradıcılığının ən mühüm funksiyalarından biridir və inteqrativ proseslərin növləri müvafiq fənlərarası tədqiqatlara start verir. İnteqrativ folkloristika öz hissələrinə - linqvofolkloristikaya, etnofolkloristikaya, estofolkloristikaya, mifofolloristikaya, psixofolkloristikaya, sosiofolkloristikaya münasibətdə sistemli bir bütöv kimi çıxış edir. Onların hər birinin xüsusiyyətlərini nəzərdən keçirin.

İşin strukturu aşağıdakı paraqraflardan ibarətdir:

1. **Linqvofolkloristika;**
2. **Etnofolkloristika;**
3. **Mifofolloristika;**
4. **Estofolkloristika;**
5. **Psixofolkloristika;**
6. **"Sosiofolkloristika"**

Linqvofolkloristika- Folklor dilçiliyi folklor dilinin öyrənilməsinə nəzəri və praktiki yanaşmaların inkişafı əsasında formalaşmışdır. Folklor mətni (hər biri öz nöqteyi-nəzərindən) folklorşünaslığın özü, dil tarixi, dialektologiya, etnolinqvistika və üslubiyyat tərəfindən öyrənilir.

Linqvo-folklor poetika və etnoqrafiya subyektləri ilə təmasda olsa da, folklorla sıx bağlıdır. Məsələn, linqvo-folkloristik lüğətlər təsvirin janr prinsipinə əsaslanır, musiqi linqvo-folklorşünaslığı isə mətnlə melodiya arasındakı əlaqəni bütün səviyyələrdə - fonetikdən tutmuş leksikaya qədər araşdırır. Müasir linqvo-folklorşünaslıq dörd istiqaməti inkişaf etdirir: folklor leksikologiyası, folklor leksikoqrafiyası, folklor dialektologiyası, mədəniyyətlərarası dilçilik-folklorşünaslıq. Bir sıra linqvo-folklorşünaslıq mərkəzləri var ki, orada folklor dilinin öyrənilməsi və təsviri aparılır.

Etnofolkloristika folklorun etnoqrafik əlaqələrinin universal xarakteri konsepsiyasından irəli gəlir. Onun tədqiqat mövzusu qeyri-mətn tarixi-etnoqrafik məlumatların qorunub saxlanılması forması kimi məişətin estetika, bədiiliyə çevrilməsi mexanizmləri, milli folklorun tarixi institutlarla əlaqələrinin tipologiyası, folklorun tarixi institutlara keçid yollarıdır. tarixi-mədənidən bədiiliyə, məişət detallarının semiotikasına və s. Etnoqrafema (bizim terminimiz) bədii mənaya çevrilən etnoqrafik məlumatların kvantıdır. Bütövlükdə milli folklorun, xüsusən də onun janr-növ sisteminin müqayisəli tarixi tədqiqində etnofolklorşünas milli janr və yerli-regional paradiqmaları, folklorun fonu, ilk növbədə qohum xalqlar, milli, regional, yerli təsvir prinsiplərinin işlənməsi, o cümlədən milli folklordakı boşluqların, özünəməxsus "qara dəliklərin" səbəblərini öyrənmək məqsədi daşıyır.

Mifofolloristika milli mifosferə aid folklor əsərlərinin öyrənilməsinə əsaslanır. Öz unikallığına görə, mitosfer onun konseptual təbəqələrinin - arxaikdən müasirə qədər tarixən müəyyən edilmiş əlaqələri ilə xarakterizə olunan son bütövlükdür. "Konseptual sferada mifoloji və ya mifoloji ideya (məsələn, fərdiləşdirilməmiş qədim tanrı, dünyanın harmoniyası, keçid prosesləri və s.) folklorla inteqrasiya edərək janr-növ dizaynı alır". (1, 25)

Mif-folklorşünas mifi folklor yaradıcılığına mesaj, folklor əsəri isə bir sıra ideya və mənalarla bağlı olan mifoloqemlərin daşıyıcısı hesab edir. O, mifoloqemaları mücərrəd deyil, yalnız bədii kontekstdə, konkret əsərin ideoloji məzmununa əsaslanaraq öyrənir. Bu, mifologiyaya bu halda qeyri-adi olan özbaşına mənalar təyin etdiyi vəziyyətlərdən qaçmağa kömək edir. Folklor mifologiyası milli ənənə fonunda və milli mifosferə münasibətdə qəbul edilir. Mifosfer miflər toplusu deyil, şifahi (folklor) və qeyri-verbal formada toplu qeyri ixtiyari şüurun, mifoloji şüurun, təfəkkürün, ideyaların və mif yaradıcılığının məcmusudur.

Estofolkloristikanın məqsədi şifahi sənət sahəsində dövr edən bədii obyektlərin ikinci dərəcəli estetik təcrübəsi fenomenini, yəni ədəbiyyatın folklorşünaslığını və əks prosesini öyrənməkdir.

Başqa sözlə desək, nə folklor, nə də ədəbiyyat olmayan ədəbi və təşəbbüskar əsərlərin folklorlaşdırılması (həvəskar müəlliflərin, şəhər kantlarının və s. yaradıcılığı). Estofolklorşünasın tədqiqatları folklorşünaslığın və folklorşünaslığın tipologiyasına yönəlmişdir.

"Estofolkloristikanın xüsusi terminləri "folklorema", "avtomitoloqema" və s.. Ədəbi və folklorun inteqrasiya xarakteri və dərəcəsi folklor, ədəbi, təşəbbüskar əsərlərin qarşılıqlı təsirinin nəticələrinin estetik qiymətləndirilməsi üçün meyar rolunu oynayır". (2, 102)

Psixofolkloristikanın xüsusi tədqiq edilməli olan aşağıdakı problemləri var: folklor yaradıcılığının psixologiyası, folklor "müəllifinin" etnopsixotipi, psixopoetikanın əsasları, janr psixologizminin aspektləri, folklor qavrayış psixologiyası və daha mümkün olan başqaları. İnteqrativ folklorşünaslığın bu qolu hələ başlanğıc mərhələsindədir, lakin onun inkişafının əhəmiyyəti şübhə doğurmur. İnanırıq ki, onlar keçmiş folklorşünaslığa xas olan bir sıra spekulyativ aksiomalardan elmi əsaslandırılmış konsepsiyalara keçidi təmin edəcəklər. Məsələn, ənənəvi olaraq belə hesab olunur ki, folklor milli xarakterin ən yaxşı xüsusiyyətlərinin ifadəsidir və bu da öz növbəsində etnopsixotipin tərkib hissəsidir. Bununla belə, etnopsixotipin olması nə deməkdir

"Bəs, folklor "müəllifinin" etnopsixotipinin bizim araşdırmamıza görə nə milli psixotiplə, nə də milli xarakterlə uzlaşmaması necə? Görünür, bu təbiidir, çünki folklor "müəllifi" heç də xalqın ətindən deyil, yaradıcı azlıqdan ibarətdir." (3, 45) Məhz bu hal ona təkcə ümumi arzuların, insanların gözləntilərinin deyil, həm də xalqı zənginləşdirən, yeni mənəvi-estetik səviyyəyə yüksəldən yüksək idealların sözçüsü olmağa imkan verir.

"Sosiofolkloristika" termini qeyri-sabitdir, lakin inteqrativ folklorşünaslıq istiqamətinin özü mübahisələrlə, müzakirələrlə, folklorla bağlı diametral zidd nəzəriyyə və yanaşmalarla zəngin zəngin tarixə malikdir. Mübahisələr nə ilə bağlı idi? İlk növbədə folklorun ictimai mahiyyəti və onu yaradanlar haqqında. Folklor "müəllifinin" sosial "portreti" hələ də folklorda kifayət qədər araşdırılmamışdır.

Folklor janrlarının yaranması və mövcudluğu üçün sosial-mədəni mühit müxtəlif cür müəyyən edilirdi. Əsərlərin bu və ya digər camaata ünvanlanması, tabu və məhdudiyyətlərin şərtiliyi məsələsində hər şey aydın deyil. Folklor ictimai əhval-ruhiyyənin göstəricisidir, lakin onu aşkar etmək üsulu folklor əsərlərinin təhlilinin əsasları işlənmə mərhələsindədir. Folklorun sosial dəyərlərin və prioritetlərin formalaşmasında rolu tanınır, lakin təsir mexanizmi təsvir olunmur. Folklor keçmişdə milli mədəniyyətdə böyük və kiçik icmaların folkloru arasında əlaqə problemindən yan keçmişdir.

"Dərk edilməli olan başqa bir cəhət folklorda sosial mövzuların "dalğalarının" dinamikası, sosial problemlərin qarşıdan gələn axınlarda təcəssüm etdirilməsi və təbliği üçün kommunikativ strategiyadır - məsələn, əsgər mahnıları və əsgərlər haqqında lirik mahnılar, əmək nəğmələri mənası altında sosial mövzunun təbii təcəssümü və folklor məkanına məcburi şəkildə daxil edilməsi problemi var. Bu, sosiofolklorşünası maraqlandıra biləcək mövzular, problemlər və mövzuların yalnız kiçik bir hissəsidir". (5, 8)

İstənilən elmi konsepsiya yalnız izahedici və proqnozlaşdırıcı gücə malik olduqda mövcud olmaq hüququna malikdir. İnteqrativ folklorşünaslıq konsepsiyası müasir filoloji folklorşünaslığın başqa elmlərin məlumatlarına müraciətini şifahi xalq yaradıcılığı elminin özünün inkişafı ilə izah edir, onu yeni sərhədlərə keçməyə, yeni metodologiyaya yiyələnməyə sövq edir. Hətta folklor və ədəbiyyatı müəyyən etməyə meylli olan Y.M.Sokolov belə vurğulayırdı ki, folklor kimi mürəkkəb hadisə müxtəlif rakurslardan öyrənilən obyekt olmaya bilməz. (4) Bununla bağlı etnofolkloristikanın, linqvofolloristikanın, psixofolkloristikanın formalaşması tamamilə təbiidir. Bu istiqamətlər zəngin fona malikdir və sıfırdan deyil, müstəqil kimi formalaşıb.

TƏDQIQAT METODU

Məqalədə foklorşünaslığın tarixi-tipoloji təkamülü əsas götürülməklə bədii strukturunun məzmun, forma imkanlari geniş tədqiq olunmuşdur. Azərbayacan və dünya folklorşünaslığının əldə etdiyi son nəticələr tədqiqatın metodoloji əsasını təşkil edir. Xalq yaradıcılığının ayri-ayri janrlarının formalaşması, yaranmasının tarixi şəraiti və inkişafının tarixi-mədəni kontekstdə izahl, yeri gəldikcə, analiz və sintez, induksiya, deduksiyaya əsaslanan təhlil-tədqiqat üsullarından da istifadəyə imkan vermişdir. Xalq yaradıcılığının mifoloji, linqvistik, etnoqrafik, psixoloji, sosioloji qaynaqlarının və inteqrativ sisteminin konkret şərhi, sistemli təhlili struktur-semiotik təhlil aparilmasina imkan yaradmışdır.

NƏTICƏ

İnteqrativ folkloristika konsepsiyası, göründüyü kimi, proqnozlaşdırıcı gücə malikdir ki, bu da bizə mifofolkloristika, estofolkloristika və sosiofolkloristikaya uyğun olaraq tədqiqatın perspektivlərini müəyyən etməyə və əsaslandırmağa imkan verdi. İnteqrativ folklorun bütün sahələri yalnız nisbətən

müstəqildir. İnteqrativ planın tədqiqinə, folklor üslubuna, sözə, əsərlərin bədii dünyasına diqqəti ilə yalnız filoloji folklorun nailiyyətlərinə əsaslandıqda məna kəsb edir. Bu gün "inteqrativ folklorşünaslıq" termini açıq sonluqla onun fənlərarası tədqiqatlarının əhatə dairəsini ifadə edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Вулей і пчолы. Вектары сучаснай фальклярыстычнай школы БДУ : зб. навук. арт. / пад рэд. Р. М. Кавалёвай ; уклад. В. В. Прыемка. Мінск, 2011.
2. Ковалёва Р. М., Приемко О. В. Интегративная фольклористика : учеб.-метод. пособие. Минск, 2017.
3. Путилов Б.Н. Фольклор и народная культура. СПБ. 2003, с.166
4. Соколов. Ю. М. Очередные задачи изучения русского фольклора // Художественный фольклор 1926, Вып. 1.
5. Honko L. The Final Text of Recommendation for the Safeguarding of Folklore // NIF Newsletter. 1989. Nos. 2-3. P. 8.

NİZAMİ GƏNCƏVİ YARADICILIĞININ DÜNYA ƏDƏBİYYATI KONTEKSTİNDƏ ARAŞDIRILMASINDA

ƏKBƏR AĞAYEVİN ROLU

NURLANƏ MƏMMƏDOVA
AMEA/ Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Ədəbi tənqid
memmedovanurlane89@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycan ədəbiyyatına böyük dəyərlər verən və özündən sonrakı nəsillər üçün önəmli mənəvi irs buraxan şəxsiyyətlər sırasında ədəbiyyatşünas Əkbər Ağayevin özünəməxsus yeri vardır. Əkbər Ağayevin Azərbaycan ədəbi-nəzəri fikir tarixinin inkişafında ədəbi əlaqələr problemi ilə bağlı tədqiqatlarının əhəmiyyəti böyükdür. Belə ki, o, "Nizami və dünya ədəbiyyatı" kitabı vasitəsilə bu problemə toxunan ilk tənqidçi kimi Azərbaycan ədəbiyyatşünaslığında tanınmış, fərdi üslubu ilə elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Buna görə də ədibin irsinin araşdırılması bu gün üçün üstünlük kəsb edir və əhəmiyyətini itirmir. Xüsusilə, ədəbi tənqiddə milli ədəbi-bədii təcrübənin və dünya ədəbiyyatının inkişaf meyillərini, müqayisəli ədəbiyyatşünaslığın əsas problem və məsələlərini diqqətə çatdıra bilmişdir. O, Nizami Gəncəvinin dünya ədəbiyyatına göstərdiyi təsir barədə ümumi şəkildə danışmamış, toxunduğu problemləri nəzərdən keçirərkən, şairin öz əsərlərinə müraciət etmişdir. Məqalədə Nizaminin dünya ədəbiyyatında mövqeyini üzə çıxarmaq əsas məqsəd seçilmişdir. Qərbi Avropada intibah dövründə yetişmiş böyük şəxsiyyətlərin ideya və fikirləri ilə Nizaminin ideya və fikirləri arasında yaxın əlaqə və səsləşmənin tədqiqində Əkbər Ağayevin tutduğu mövqe müqayisəli ədəbiyyatşünaslığın inkişafına öz müsbət təsirini göstərmişdir. İntibah dövrünün yetişdirməsi olan Nizami öz təfəkkürü, kamilliyi ilə qarşılıqlı münasibətlərdə sələf funksiyasını yerinə yetirmişdir. Bu da işin aktuallığını və yeniliyini şərtləndirir.

AÇAR SÖZLƏR: Nizami Gəncəvi, Əkbər Ağayev, ədəbi əlaqələr, tənqidçi

GİRİŞ

Tarix Nizamini yaratmış, Nizami isə özlüyündə tarix yaratmışdır; yəni özündən sonrakı tarixi. Necə ki, Aristoteldən sonrakı tarix, Dantedən sonrakı tarix, Şekspirdən sonrakı tarix və s. Bu şəxsiyyətlərdən sonrakı tarix də onlara borclu qalmamış, Aristotel mifini, Nizami mifini, Dante mifini, Şekspir mifini yaratmışdır.

Teymur Kərimli

Azərbaycan klassik ədəbiyyatın tədqiqi məsələsi hər bir dövrdə aktuallığını qoruyub saxlayır. Klassiklərin yaradıcılığının obyektiv və prinsipial mövqedən tədqiq etməyə həmişə ehtiyac var. Buna görə də zaman keçdikcə müasir ədəbi irsin tədqiqi klassik irsə marağın artmasına səbəb olur. Tənqidçinin qiymətləndirmə meyarı klassik ədəbi irsə münasibətin formalaşmasına şərait yaradır. Onların yaradıcılığının özünəməxsusluğunu aşkara çıxarmaq, müasir ədəbiyyata təsirini axtarıb tapmaq tənqidçidən böyük

məsuliyyət tələb edir. Xüsusilə, klassik irsin digər xalqların ədəbiyyatında izlərinin araşdırılması və qarşılıqlı şəkildə təhlilə cəlb edilməsi üçün tənqidçi universal bilik və zəngin ədəbi təcrübəyə malik olmalıdır. Bu baxımdan Əkbər Ağayev bir tənqidçi kimi böyük bir vəzifəni yerinə yetirmişdir. Onun tədqiqatları klassik irsin dünya ədəbiyyatına təsiri məsələsinin hansı şəkildə büruzə verdiyini aydınlaşdırmağa imkan yaradır. Ortaq süjet və motivlərin mənbəyinin müəyyənləşməsi, tarixi-müqayisəli metoda üstünlük verilməsi bu tədqiqatların elmi əhəmiyyətini ortaya çıxarır: "Tarixi-müqayisəli tədqiqə meyl, həm Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı üçün son dərəcə əhəmiyyətli bir məsələnin – milli və dünya ədəbiyyatı probleminin araşdırılması üçün real imkanlar açır, milli ədəbiyyatlarda dünya ədəbiyyatının nümunələrinin oxşar və fərdi cəhətlərinin, ümumi və xüsusi yaradıcılıq məziyyətlərinin müəyyənləşməsinə zəmin hazırlamış olur" [4, s, 104].

Əkbər Ağayev Nizaminin dünya ədəbiyyatının inkişafına göstərdiyi təsiri araşdırarkən dörd nəticəni irəli sürmüş və əsaslandırmışdır:

1. Nizaminin poemaları Şərq ədəbiyyatındakı epik poeziyada qəti bir dönüş əmələ gətirmişdir.
2. Nizaminin romantik poemaları mahiyyət etibarilə Firdovsinin qəhrəmanlıq eposundan və Avropa cəngavərlik romanlarından fərqlənir.
3. Nizami şeirlə yazılmış kiçik hekayə formasının məşhur sənətkarlarındandır.
4. Nizaminin yaradıcılığı Yaxın Şərqin fokloruna təsir etmişdir [2, s.8-9].

Tənqidçinin düzgün istiqamətdə araşdırma aparması o məqamda ortaya çıxırdı ki, problemin həllində özünəqədərki tədqiqatların əsas elmi nəticələrini nəzərə alsın. Bu tədqiqatların elmi əhəmiyyəti böyük olsa da, Nizami yaradıcılığının yeni bir müstəvidə araşdırılması zərurətini ortaya çıxarırdı. Milli təcrübənin beynəlxalq səciyyəsinin diqqətə çatdırılmasında ilk addım Əkbər Ağayevə məxsusdur. Belə ki 1940-cı ildə çap olunan "Höte Nizami haqqında" məqaləsindən sonra bu tipli tədqiqatlara müraciət edildiyinin şahidi oluruq. Nizaminin anadan olmasının 800 illiyi münasibətilə yazılan yubiley məqalələri 1947-ci ildə "Nizami Gəncəvi" adlı məcmuədə toplanmışdır. Bu məqalələrin arasında Əli Sultanlının ""İskəndərnamə" və Qərbi Avropa ədəbiyyatı" məqaləsində şairin yaradıcıllığının dünya ədəbiyyatı ilə əlaqəsi məsələsinə toxunulmuşdur.

Nizami Gəncəvi özündən sonra zəngin bir irs qoymaqla orta əsrlər Avropa ədəbiyyatının nümayəndələrinin sələfi ola bilmişdisə, Əkbər Ağayevin "Nizami və dünya ədəbiyyatı" monoqrafiyası bu tipli tədqiqatlar üçün zəngin mənbə rolunu oynamışdır. O, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Nizaminin Avropada tədqiq olunması, onun əsərlərinin Qərb dünyasına mənəvi təsirini və Nizami mövzularının Höteyə, Qotsiyə, Şillerə, Heyneyə necə ilham verdiyini tədqiq etmişdir. H.Araslının "Nizaminin dünya şöhrəti", A.Hacıyevin "Nizami Şərq və Qərb intibahı kontekstində", Ə.Sərkaroğlunun "Nizami yaradıcıllığında ədəbi əlaqələr", Z.Əkbərovun "Nizami Şərq-Qərb divan"ında", Z.Həsənovanın "Azərbaycan ədəbiyyatşünaslığında Nizami və dünya ədəbiyyatı problemi", M.Quliyevin "Nizami və Şekspir" məqalələrində tənqidçinin ədəbiyyatşünaslıqda davamçılarını görmək mümkündür. Bu tədqiqatlar Azərbaycan elmində müqayisəli ədəbiyyatşünaslığın inkişafında mühüm rol oynamışdır. Çünki müqayisəli ədəbiyyatşünaslıq "oxşarlıq, yaxınlıq, təsir tədqiqatı vasitəsilə yazının və biliklərin ədəbiyyatın digər sahələrinə, birdən çox dilə və ya birdən artıq şəkilçiyə mənsub və eyni ənənəyə bağlı olduqda, onları daha yaxşı təsvir etmək, anlamaq və dadmaq üçün zaman və məkanca uzaq və ya yaxın faktları və ədəbi mətnləri bir araya gətirən metodik bir sənətdir" [3, s.257].

Şekspir və Nizaminin əsərlərində həyat həqiqətləri bütün aydınlığı ilə göstərilmişdir. Onların qələmə aldığı mühitin bütün iç üzü insanın gözü qarşısında canlanır. Yaşadığı dövrdəki quruluşu dərindən tənqid etmək onları yaxınlaşdıran əsas cəhət idi. İnsan şəxsiyyətinin azadlığı uğrunda mübarizəsi bu iki ədəbi simanın aparıcı mövzuları sırasındadır. Şekspirin əsərlərində bu mübarizədə obrazın faciəvi sonu bədii həllini tapmışdırsa, Nizaminin əsərlərində insanın yaradıcı qüvvəsinə inam güclüdür. "Dünya ədəbiyyatında insan şəxsiyyətini, insanın yaradıcı qüvvəsinin gözəlliyini Nizami qədər məharətlə tərənnüm edib yüksəldən sənətkar çox azdır" [2, s.92]. Eyni problemə müxtəlif prizmadan baxış onların sənətkar fərdiliyini üzə çıxaran faktordur. Bu baxımdan Şekspirin "Kral Lir" əsəri ilə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsəri arasında tutuşdurulma aparılması onların yaradıcılığının əsas səciyyəsi haqqında dolğun məlumat verir. Nizaminin "Fələk nədir? – Sadəcə dul bir arvad, dul qarı // Dünya nədir? – Ağacın zaval vurmuş tək barı" sual və cavabına Şekspirdə "Həyat nədir? – Sezilmədən gəlib keçən ötəri bir kölgə" şəklində təsadüf edirik. Bu fikirlər Şekspirdən əvvəl Dantenin, Bokkaçionun, Rablenin, Servantesin əsərlərində vardır. Əkbər Ağayev bu yazıçılar sırasında Şekspirə diqqət yetirmiş, üstünlüyü ona vermiş, Nizaminin fikirlərinin Şekspirdə daha çox hiss olunduğu qənaətinə gəlmişdir. Bizim fikrimizcə, "Bəşəriyyətin poetik və fəlsəfi təfəkkürü ilə tərbiyə olunan iki dahi Nizami və Şekspir arasında dərhal sələf-varis münasibətləri mövcud

deyil. Ancaq iki dahinin meydana gəlməsi prosesini təqib edərkən Yerin təsəvvür etdiyimizdən daha kiçik olduğunu göstərən heyrətamiz oxşarlıqları aşkar etmək mümkündür" [1, s.465].

Nizami əsərlərindəki süjetlərin psixoloji aspekti Hötenin diqqətini daha çox cəlb etmişdir. "Qərb-Şərq Divanı"ndakı şeirlərin Nizami yaradıcılığı ilə necə səsləşdiyini və Hötenin öz şeirlərində Nizaminin motivlərindən necə istifadə etdiyini göstərmək üçün bunu qeyd etmək kifayətdir ki, divanın "Teymurnamə" adlanan yeddinci hissəsində Nizaminin "İskəndərnamə" poemasının təsiri görünür. Eyni zamanda, "Hikmətnamə" adlanan altıncı, "Mədxəlnamə" adlanan onuncu hissələrdəki şeirlərin əxlaqi və həkimanə ruhu Nizaminin "Sirlər xəzinəsi" ilə səsləşir. "Eşqnamə" adlanan üçüncü hissəsindəki "Oxu kitabı" Nizaminin yaradıcılığından qaynaqlanmışdır. Əkbər Ağayevin bu məsələdə gəldiyi qənaət obyektiv səslənir. Tənqidçinin Hötenin Nizaminin poemalarının məzmununa diqqəti yönəltməsini şairin yaradıcılığında özünə yaxın olan cəhətlər görməsi ilə əlaqələndirməsi iki ədəbi simanın idrak üsulunun və fikir tərzinin oxşarlığına işarədir. Hötenin fikrincə, Nizami həyatda görüb müşahidə etdiyi mürəkkəb hadisələri öz əsərlərində təsvir edərkən bu hadisələri insanların əməli fəaliyyəti ilə bağlamış və buna görə də həyatın ən çətin suallarına cavab verməyi bacarmışdır.

Nizaminin süjetlərinin dünya ədəbiyyatında və Qərbi Avropa ədəbiyyatında yayılması və həmin süjetlərdən istifadə edilməsi məsələsindən danışarkən qeyd etmək lazımdır ki, böyük şairin əsərlərinin ayrı-ayrı süjetləri ya Avropa yazıçıları tərəfindən bilavasitə istifadə olunmuş, ya da həmin süjetlər dolayı yolla Avropa ədəbiyyatına gedib çıxmışdır. Nizaminin əsərlərindəki motivlərin bəzən eyni, bəzən də dəyişilmiş şəkildə Avropa ədəbiyyatında təsadüf olunur. Əkbər Ağayev bu baxımdan Nizaminin "Yeddi gözəl" əsərinin süjetindən istifadə edildiyi faktını üzə çıxarmışdır. Nizaminin məhəbbət haqqında fikirlərinin yer aldığı "Yeddi gözəl" əsəri ilə Bokkaçionun "Ameto" əsəri arasında oxşarlığın tapılması və bunun birbaşa Nizaminin təsiri ilə bağlanması tənqidçinin məsələyə geniş aspektdə yanaşdığını sübut edirdi. Bokkaçionun bədii qəhrəmanı Ameto Bəhram kimi su pərilərinin yeddi nağılının təsiri altında mənəvi inkişaf yoluna qədəm qoyur.

Karlo Qotsinin "Xoşbəxt dilənçilər" pyesində Şadzadə Özbəkin dilənçi paltarı geyinərək xalqın içinə qarışması, əhalinin şikayətlərini dinləyib saraya qayıtması, zülmkar vəziri cəzalandırmasından bəhs edilir. Bu süjetin ilkin variantına "Yeddi gözəl" poemasında təsadüf olunur. Tənqidçi Qotsinin öz qəhrəmanlarına Şərq ədəbiyyatından götürülmüş adları verməsinə belə aydınlıq gətirir ki, onun məqsədi öz əsərlərinə nağıl ruhu verməkdir.

Fransız yazıçısı Volterin "İt və at", "Paxıl" adlı kiçik novellarının süjet xəttində də bu oxşarlığı görmək mümkündür. Bertels bu süjetləri Avropa ədəbiyyatına Nəvainin təsiri ilə keçdiyi fikrinin üzərində dayanmışdır. Əkbər Ağayev isə "Paxıl" hekayəsinin süjetini "Yeddi gözəl" poemasındakı Xeyirlə Şərin süjetinə yaxınlaşdırır.

Dünya ədəbiyyatında zəhmətkeş insanın obrazı bədii əsərlərin baş qəhrəmanı səviyyəsinə qaldırılır. Hötenin "Faust" əsərinin, Volterin "Kandid yaxud optimizm" əsərlərinin qəhrəmanları həyatın mənasını zəhmətdə tapır. Faustun "Azadlığa və xoşbəxtliyə o adamlar layiqdir ki, onlar hər gün və hər dəqiqə bu azadlığın və xoşbəxliyin uğrunda mübarizə aparırlar" sözləri dünya ədəbiyyatında bir çox sənətkarların əsərlərində vardır. Eyni zamanda, bu fikirlərin ilkin mənbəyi "Sirlər xəzinəsi" əsəridir. Nizaminin yaradıcılığından qırmızı xətt kimi keçən bu mövzuya tənqidçinin diqqəti daha çox verməsi şairin əsərlərinin ideyasının kəskin gücə malik olduğunu göstərir.

Ümumiyyətlə, bu süjetlər Avropa ədəbiyyatında birbaşa Nizami Gəncəvinin təsiri ilə yaranmamışdır. Lakin Nizaminin ilk olaraq bu məsələlərə toxunması müəyyən qədər Əkbər Ağayevin fikirlərinə haqq qazandırır. Nizaminin poemalarını orta əsrlər Qərbi Avropa ədəbiyyatı ilə müqayisə etsək, görərik ki, Nizami zəhmətkeş adamların əməyinə, insanın yaradıcı fəaliyyətinə yüksək qiymət verir, bu cəhətdən Qərbi Avropa ədəbiyyatında xeyli yüksəkdə dayanır. Əkbər Ağayevin dediyi kimi, bütün bunlar Nizaminin böyük bir şair kimi, dünya ədəbiyyatının məşhur sənətkarları cərgəsində yer tutmasına haqq qazandırır.

İki ədəbiyyatı müqayisəli şəkildə təhlilə cəlb edərkən mənbə və təsirlə yanaşı, tərcümə məsələlərinə də diqqəti yönəltmək lazımdır. Çünki tərcümə mədəniyyətlərarası əlaqəni yaradan, ədəbi simaları və onların əsərlərini tanıdan bir mənbədir. Bu mənbənin hansı bir şəkildə çatdırılması, tərcümə prosesində orijinal mətinlərin məzmun və üslubunun qorunub saxlanılması vacib bir məsələdir. Əkbər Ağayev Nizaminin əsərlərinin tərcümə məsələsinə toxunmuş, rus şərqşünaslarının bu işdə əməyini qeyd etməyi də unutmamışdır. O, rus şərqşünaslarının üç əsas istiqamətdə Nizaminin dünya ədəbiyyatında tanınmasında mühüm rol oynadığını qeyd etmişdir.

1. Avropa şərqşünaslarının əsərlərini rus dilinə tərcümə etməklə və əsərlərin təfsirini verməklə
2. Nizami yaradıcılığı haqqında orijinal məqalələr yazmaqla

3. Şairin əsərlərindən parçaları rus dilinə tərcümə etməklə

Maraqlıdır ki, tənqidçi bu məsələyə geniş yer ayırmamış, tərcümə məsələlərinə toxunmamışdır. Halbuki tənqidçi XX əsrin 40-cı illərindən tərcüməçiliklə məşğul olmuş, ədəbi prosesdə bunun əhəmiyyətini bilmişdir. O, tərcümə sənətinin nəzəri məsələlərindən də xəbərdar tənqidçi idi.

TƏDQİQAT METODU

Tədqiqat zamanı müqayisəli-tarixi metoda üstünlük verilmişdir. Tədqiqat işini yazarkən Əkbər Ağayevin yazdığı materiallardan, Azərbaycan və dünya elmi-nəzəri fikrindən istifadə edilmişdir.

NƏTİCƏ

Nizami yaradıcılığının ümumbəşəri mahiyyəti dünya ədəbiyyatına təsiri məsələsinin araşdırılmasına şərait yaratmışdır. Şairin yaradıcılığının yenilikçi xüsusiyyəti, əsərlərində toxunduğu mövzuların miqyasının genişliyi əvəzedilməz şairin dünya ədəbiyyatına təsirinin labüdlüyünü ortaya çıxarmış olur. Nəticə olaraq belə qərara gəlmək olar ki, Nizami Gəncəvi dünya ədəbiyyatına öz təsirini göstərə bilmişdir. Onun dünya ədəbiyyatında mövqeyini və dünya ədəbiyyatının inkişafında göstərdiyi təsiri aydınlaşdırarkən, Əkbər Ağayevin seçdiyi istiqamət haqqında qənaətlərimizi bu şəkildə yekunlaşdıra bilərik:

- Bu problemin araşdırılması Nizami Gəncəvinin yalnız Şərqin deyil, eyni zamanda dünya ədəbiyyatının görkəmli sənətkarı olduğunu göstərmək məqsədi daşımışdır.
- Nizami Gəncəvinin XVI əsrin İntibah dövrü Qərbi Avropa yazıçılarına təsirini oxşar süjet və motivlər üzərindən axtarırıqsa, XVIII əsrin dünya ədəbiyyatına təsirini göstərən tarixi faktlar mövcuddur. Çünki bu dövrdə o Avropa ölkələrində tanınmış, əsərləri xarici dillərə tərcümə edilmişdir.
- Əkbər Ağayevin tədqiqatı göstərir ki, Nizaminin dünya ədəbiyyatındakı mövqeyi məhdud dairədə öyrənilə bilməz, dünya ədəbiyyatının qabaqcıl nümayəndələri, meyilləri ilə qarşılıqlı əlaqədə bu münasibətin əsas xüsusiyyətləri tam açılmalıdır.
- Adətən bu tipli araşdırmalarda millilik faktorunun üstünlüyü diqqəti cəlb edir. Üstünlüyü milli təcrübəyə vermək cəhdləri müəyyən qədər digər xalqların ədəbiyyatının yazıçılarının oynadığı rolu azaltmış olur. Tənqidçinin elmi dünyagörüşünün orijinallığı onda üzə çıxır ki, milli təşəbbüskeşlikdən kənar olub, düzgün elmi müddəalar irəli sürür. Əkbər Ağayevin tənqidi subyektiv fikirlərdən uzaqdır. Belə ki, o, intibah mədəniyyətini birbaşa Şərqlə bağlamağa cəhd etməmiş, mümkün qədər müqayisələrində obyektivliyə riayət etmişdir. Tənqidçi Nizami və Şekspirin əsərlərində bir-birinə yaxın ifadə və fikirləri müqayisə edəndə, paralellikləri ortaya çıxaranda təhrifə yol verməmiş, ədəbi təsir məsələsinin ayrı-ayrı yazıçılarda necə təzahür etdiyini aydınlaşdırmağa çalışmışdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Karimli Teymur. Nizami and Shakespeare: Typology of Formation of Literary Phenomenon, Mediterranean Journal of Social Sciences. MCSER Publishing (**Jurnal məqaləsi**). Rome/ Italy, Volume 6, No 3, May 2015, Pages 465-470
2. Ağayev Əkbər. Nizami və dünya ədəbiyyatı. Azərbaycan Dövlət Nəşriyyatı (**Kitab**). Bakı/ Azərbaycan. 1964:1-172
3. Kubilay Aktulum. Metinlerarası İlişkiler. Öteki Yayınevi (**Kitab**). Ankara/ Türkiye. 1999:1-240
4. Mirzəzadə Qürbət. Tənqidçi dünyası. Azərbaycan Dövlət Nəşriyyatı (**Kitab**). Bakı/ Azərbaycan. 2000:1-160

AZƏRBAYCAN LİRİK POEMASINDA TƏBİƏTİN OBRAZ KİMİ ƏKSİ

AYTAC İSMAYILLI
Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu
Ədəbiyyat nəzəriyyəsi şöbəsinin dissertantı
ismayilliaytac94@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə Səməd Vurğunun "Qız qayası", Musa Yaqubun "Bənövşə gileyi", Hüseyn Arifin "Lahıc duyğuları", "Çay göl oldu, göl-dəniz" kimi lirik səpkili poemalarında təbiət təsvirlərinin, obrazlarının spesifikliyi araşdırılır. Təbiət, insanın təbiətdə yeri və rolu incəsənəti, fəlsəfəni, eyni zamanda poeziyanı da düşündürən mühüm mövzulardandır. Təbiətlə ayrılmaz şəkildə bağlı olan şairlər onu dünyanın əbədi

gözəli, əbədi harmoniyası kimi tərənnüm edirlər. Ancaq şairlər üçün təbiət təkcə təsvir vasitəsi olmayıb həyata, mühitə, insanlara, onların mənəvi aləmlərinə münasibətin bədii üsuludur. Duyan, düşünən canlı bir varlıq kimi vəsf edilən təbiətin poetik dərki, insana xas əlamətlərin onun üzərinə köçürülməsi təbiət mövzulu lirik poemaların səciyyəvi xüsusiyyətlərindəndir. Haqqında danışdığımız lirik poemalarda təbiət obrazları - torpaq, bənövşə və digər elementlər milli-mənəvi dəyərləri, vətənpərvərlik hisslərini, duyğularını ifadə edərək rəmzi funksiya daşıyır. Təbiətlə öz dilində danışan şairlər onu insaniləşdirir, insanı təbiətin, təbiəti insanın bir parçası kimi qəbul edir, insanla vəhdətdə götürürlər. Şairlər insan münasibətlərinə təbiət mövqeyindən diqqət yetirərək ona həyatın ahəngini qorumaq üçün bir vasitə olaraq yanaşırlar. Məqalədə təbiət gözəlliklərinin əbədiliyi, taleyinin, gələcəyinin insandan, onun xeyirxah rəftarından, ünsiyyətindən asılı olduğunu hər məqamda vurğulayan şairlərin poemalarında insanları təmizliyə, ilkinliyə çağıraraq təbiətlə arasındakı harmoniyanın bərpa olunması təsvir edilmişdir.

AÇAR SÖZLƏR: LİRİK POEMA, TƏBİƏT OBRAZI, POETİK VASİTƏ

GİRİŞ

İnsan və təbiət qırılmaz şəkildə bir-birilə əlaqədədir. İnsan təbiətin qoynunda yaşamış idrakı dərinləşdikcə, təfəkküründün üfüqləri genişləndikcə onun üzərində hökmranlıq etməyə başlamışdır. Təbiət və cəmiyyəti dərk etmək üçün insanı, insanı öyrənmək üçün isə təbiət və cəmiyyəti anlamaq gərəklidir. İnsan və təbiət, insanın təbiətdə yeri və rolu incəsənəti, fəlsəfəni, eyni zamanda poeziyanı da düşündürən mühüm mövzulardandır. Təbiət sərvətlərindən istifadə, insanların ona olan münasibəti şairləri də düşündürmüş və bunu əsərlərində təcəssüm etdirmişlər. Şairlər müxtəlif zaman kəsiyində təbiətə müraciət edərək onu poetik dillə vəsf etmiş, təbiət və insan həyatının bir-birinə qovuşmasını qələmə almışlar.

Azərbaycan ədəbiyyatında lirik poemalarda təbiət təsviri dərin və çoxcəhətli, geniş şaxəli olmuşdur. Təbiət gözəlliklərini, hadisələrini poemalarda orijinal ifadələrlə, rəngarəng təsvir çalarlığı ilə canladırmaq, bu hadisələrlə cəmiyyətdə baş verən hadisələr, insan həyatı arasında uyğunluğu görə bilmək şairlərdən yüksək sənətkarlıq və qabiliyyət tələb edir. Təbiət mövzulu poemalarda qoyulan əsas məsələlərdən biri təbiətin mühafizəsidir. XX əsrin ortalarından poeziyada şairlərin təbiət sərvətlərinə daha çox qayğı ilə yanaşmasını, ona dəyən ziyana görə keçirdiyi qorxu və təşviş hissini görürük. Həmin illərdə şairlər təbiətə ictimai həyatın ən vacib, aktual problemlərindən biri kimi yanaşaraq, onun yalnızca təsvir və tərənnümü ilə məhdudlaşmayıb bir vətəndaş kimi həssas və səmimi duyğularla insan və təbiət münasibətlərinin nizamlanmasına diqqət yetirmişlər. "İctimai həyatda baş verən ciddi dəyişikliklər: texnikanın inkişafı, elektrik stansiyalarının tikilməsi, yolların salınması zamanın tələbləri ilə dəyişən təbiət obrazını formalaşdırdı. Poeziyada təbiət sosial həyatdakı sürətli inkişafın predmetinə çevrilir, bəzən də zərbələrə məruz qalan obyekt kimi canlandırılırdı" (3, 43). İnsan həyatının təbiət sərvətlərindən, onlardan səmərəli istifadə edilməsindən asılı olduğunu tam aydınlığı ilə anlayan şairlər poemalarında təbii sərvətlərin qorunmasının vacibliyini vurğulayaraq ana torpağı, meşələri, bulaqları, çayları mühafizə etməyi tələb etmişlər.

İfadə tərzinin təbiiliyi, xəlqiliyi ilə seçilən, fikirlərini sadə, anlaşıqlı dildə oxucularına çatdıran görkəmli xalq şairi Səməd Vurğun lirikasında təbiətə vurğunluğunu, heyranlığını qələmə almışdır. Şairin "Muğan", "Talıstan", "Bulaq əfsanəsi", "Qız qayası", "Yazla qışın deyişməsi" və başqa poemalarında təbiət özünün ən gözəl əksini tapır.

Şairin təbiət mövzusunda qələmə aldığı lirik səpkili poemalarından biri "Qız qayası"dır. Təbiət gözəlliklərini həssaslıqla duyan Səməd Vurğun "Qız qayası" poemasında bu sirli diyar haqqında düşünür, əxlaqi-estetik məna çalarları ilə əhəmiyyət kəsb edən təbiət obrazları insana xas əxlaqi keyfiyyətlərin daşıyıcısı kimi mənalandırılır. "Səməd Vurğunun əsərlərində Azərbaycan, onun təbiəti, daşı və torpağı dil açıb danışır, əşya və predmet canlı kimi təsvir edilir, təbiət də insan kimi sevinir, kədərlənir, yaralanır və ölür. Sadə, aydın, səmimiliyi ilə hamının qəlbinə yol tapan, folklor mənşəli, ritmik, ahəngdar səciyyəyə malik olan bu lirika, həm də gözəl musiqidir. Səməd Vurğun qələmində təbiət insan ruhunun tərcümanı kimi verilir. O, bütöv poetik tablo yaradanda təbiətə sətirlərarası münasibətində də bu məqsədə nail olur" (1, 85). Təbiətlə insanın əxlaqi keyfiyyətləri arasındakı uyğunluq poemada poetik vasitəyə çevrilir:

Burada öz-özünə gülür təbiət,
Burada çiçəklərin, quşların dəmi,
Burda könüllərin, əksi həmdəmi...
Dumanlar içində duran hər qaya
Söz vurur Günəşə, söz verir Aya.
Dağların döşündən gedən cığırlar
Qalmış babalardan bizə yadigar... (4, 107).

Doğma təbiətin gözəlliklərinə heyran qalan şair başını göylərə vuran Şahdağı, Kəpəzi, meşələr içində suyu almaz kimi parlaq İsa bulağını həssas duyğularla, müqayisələrlə qələmə alır. Təbiətin şəxsləndirilməsi metodundan istifadə edən şair həyatda baş verən hadisələri təbiətdəki hadisələrlə ayrılmaz şəkildə bağlayır, hisslərini, duyğularını təbiət şəkillərində təcəssüm etdirir:

Mən də həyatımın gənclik yaşında,
Sizə söylədiyim bulaq başında
Süfrəmi açmışam, kabab yemişəm,
Baxıb gözəllərə şeir demişəm.
O vaxt əsərlərim ağlamış fəqət,
Könlümə sığmamış qoca təbiət.
Alıb sorağını ötüb-keçəndən,
Gizli bir ilhamın xəyalilə mən
Ahımı salmışam boş dərələrə,
Küsmüşəm o gözəl mənzərələrə,
Sən ey gəncliyimin o ilk çağları! (4, 108).

Xalq yaradıcılığından məharətlə istifadə edən Səməd Vurğun poemalarının bəzisini şifahi xalq ədəbiyyatı nümunəsi olan əfsanə və rəvayətlər əsasında yazmışdır. Şair "Qız qalası" haqqında xalq arasında söylənilən əfsanəni böyük ustalıqla "Qız qayası" poemasına daxil etmişdir. Səməd Vurğunun "Qız qayası" haqqında poemaya daxil etdiyi əfsanə xalqın tarixi keçmişinin poetik elementi kimi çıxış edir. Şairin təbiət mövzulu poemaları təbiət gözəlliklərinin vəsfi, ideya-bədii xüsusiyyətləri, dilinin sadəliyi, istifadə etdiyi orijinal ifadə və təsvir vasitələri, folklora yaxınlığı ilə yüksək sənət nümunəsidir.

Təbiət poeziyasının ən başlıca məqsədi təbiəti sevmək, onun qeydinə qalmaq, qorumaq, insan təbiət münasibətlərini nizama salmaqdır. Qeyd olunan bu keyfiyyətlər təbiət şairi kimi səciyyələndirilən Musa Yaqub yaradıcılığında özünü göstərməkdədir. Şair yaradıcılığının ilk illərində təbiəti gözəllik mənbəyi kimi tərənnüm etmişdir. Ancaq şairin təbiət mövzulu əsərlərində təbiət təsvirlərinin, meşə, çay, dağ kimi obrazların canlandırılması ilə məhdudlaşılmayıb ekoloji problemlər qaldırılmışdır. Belə ki, təbiət gözəlliklərinin dağıdılmasından, nizamının pozulmasından doğan kədər və narahatlıq hissi şairin sonrakı illərdə yazdığı təbiət mövzulu əsərlərinin əsas leytmotivini təşkil edir və o təbiəti qorumağa, biganə olmamağa səsləyir. Musa Yaqubun "Bənövşə gileyi" (1985), "Qırıqovulam, təkəm mən" (1969) lirik poemaları bu cəhətdən səciyyəvidir.

Musa Yaqubun "Bənövşə gileyi" poemasında təbiətə olan münasibəti ilə lirik qəhrəmanın mənəvi-psixoloji təlatümləri, vətəndaş narahatlığı ifadə olunur. Şair təbiət təsvirləri fonunda sosial məsələləri, ictimai bəlaları poemada əks etdirir. Hələ klassik poeziyadan başlayaraq şairlər tərəfindən saflıq, məsumluq, təmizlik, utancaqlıq rəmzi kimi insanın daxili aləminin, hiss və duyğularının ifadəçisi olaraq müraciət edilən bənövşədən Musa Yaqub özünəməxsus poetik çalarla poemada istifadə etmişdir:

Sən öz əzizliyin, təmizliyinlə,
Belə az ömürlə,
belə, səbrlə,
Beləcə utancaq bir duruşunla,
Beləcə vuruşsuz bir vuruşunla
Həmişə sən bizə görünəcəksən
Ətrinlə təptəzə görünəcəksən (5, 297).

Təbiətə qayğıkeş, humanist münasibəti ilə seçilən Musa Yaqub poemasında insan və təbiət münasibətləri ictimai-əxlaqi problem səviyyəsinə qaldırılır. Bənövşə obrazı ilə təbiətə biganə olan, ona zərər yetirən, məhv edən insanları paralel şəkildə canlandırır. İctimai obraz kimi mənalandırılan bənövşə şair üçün insanın qərəzkar əməllərinin göstərilməsində bir vasitə rolunu oynayır:

Bulaqlar qurusun.
bulağa baxma,
Budaqlar kəsilsin
budağa baxma,
Bənövşəyə baxma,
Meşəyə baxma –
Bəs bu qoruqçunun insafı hanı?
İşinin ustası, sərrafı hanı? (5, 298).

İnsanın təbiətə olan amansız münasibətindən irəli gələrək şair qəlbinin təlatümü, həyəcanı, emosional əhval-ruhiyyəsi, vətəndaş narahatlığı ifadə edilir. Canlandırılan təbiət obrazı təsviri xarakter daşımayıb əxlaqi meyarları ifadə edən poetik element kimi maraq kəsb edir. Bənövşənin timsalında təbiətin korlanmasını, istismar olunmasını, insanların qədirbilməzliyini, gələcək barədə düşünməməsini bədii şəkildə əks etdirən şair onları təbiətə olan acımasız münasibətindən dərs almağa səsləyir. Şairanə bir dillə Musa Yaqub insanlara bənövşənin xeyirxahlığını, təmizliyini aşılayır. Bəzən isə şairin təəssüf, həyəcan hissini qəzəbli, üsyankar hal əvəz edir:

Hərənin öz əli, öz başı olsa
Vətən bağçasında bitən tapılmaz
Çilik-çilik olan bir şüşə kimi,
Elin işi-gücü tökülüb qalar.
Yollara boylanan bənövşə kimi
Vətənin də boynu bükülü qalar;
Hərə öz xeyrinə ayılsa heç nə... (5, 302).

Şairin vətəndaşlıq mövqeyi, vətənə məhəbbəti təbiət gözəlliklərinin, poetik detalların bədii dillə təbliğində ifadə olunur. Poemada vətənə məhəbbət, bağlılıq təkcə təbiət lövhələri ilə deyil, eyni zamanda təbiət obrazları fonunda reallaşdırılır. "Bənövşə gileyi" poemasında bənövşə obrazı vətən obrazı kimi təcəssüm olunur. Bütün bunlara əsasən qeyd edə bilər ki, təbiəti duyan, hiss edən, ruhlu varlıq kimi qələmə alan Musa Yaqub poemada yalnızca təbiət təsviri ilə kifayətlənməyib insan-təbiət-cəmiyyət münasibətlərini ictimai-əxlaqi problem səviyyəsinə qaldıraraq vətəndaş narahatlığını ifadə edir.

Müasir Azərbaycan poeziyasında öz bənzərsiz yazı üslubu, dəst-xətti ilə seçilən şairlərdən biri olan Hüseyn Arif yaradıcılığının əsas leytmotivini təbiət mövzusu təşkil edir. "İtmiş bulağın hekayəti" (1963), "Lahıc duyğuları" (1970), "Çay göl oldu, göl-dəniz" (1971), "Ana torpaq" (1972) və başqa poemalarında şair poetik dillə təbiət mənzərələrini canlandırmışdır. Şairin təbiət mövzulu poemaları ifadə zənginliyi, varlığa orijinal poetik münasibəti, bədii forma əlvanlığı, sənətkarlıq xüsusiyyətləri ilə seçilir.

Axıcılıq, misraların məna dərinliyi Hüseyn Arifin təbiət mövzusunda yazdığı poemalarının əsas səciyyəvi xüsusiyyətlərindəndir. "Lahıc duyğuları" lirik poemasında şair doğma vətəninin dilbər guşəsi olan Lahıcın təbiətinin ecazkar mənzərəsini bir rəssam incəliyi ilə canlandırır, onun tarixi keçmişi və indisi ilə bağlı ətraflı məlumat verir. Hüseyn Arif poemada təbiət lövhələrini xatirələri, müşahidələri ilə vəhdətdə təqdim edir. Şair canlı təbiət lövhələri ilə Lahıcın bənzərsiz gözəlliyini tərənnüm edir:

Aparıb əlini daş pərdələrə,
Şirin laylay çalır Girdimançay ona
Söykəyib Niyala öz arxasını,
Sığınıb dağların sərin qoynuna..
Bu dağların qucağında
Nəsil-nəsil
Ocaq çatıb lahıclılar.
Bu keçiddən, o keçidə
Cığırıb açıb
Bu zirəvdən-o zirvəyə
Kəmənd atıb lahıclılar (2, 363).

Şair həmin bölgənin spesifik cəhətlərini, insanları, tarixi ilə bağlı da məlumatları diqqətə çatdırır. Hüseyn Arif təbiət, onun mövcud olduğu məkanı təsvir edərkən ümumiləşdirmə yolu ilə insan şüurunda canlı izlər buraxır. Lahıcla bağlı təsvir və tərənnüm elementləri, peyzaj obrazları, detalları insana estetik zövq verməklə bərabər vətən sevgisi də aşılayır.

TƏDQİQAT METODU

Tədqiqat işində təsviri metoddan istifadə edilmişdir. Təsviri metoda əsaslanaraq haqqında danışdığımız poemalarda şairlərin təbiət mövzusuna müraciətinin fərdi xüsusiyyətlər ilə seçilməsi, belə ki, Səməd Vurğunun təbiətin şəxsləndirilməsi metodu ilə insana xas xüsusiyyətləri təbiət obyektlərinə köçürməsi, vətənpərvərlik duyğuları aşılaması, Musa Yaqubun təbiəti ictimai obraz, humanizm, əxlaqi meyar kimi əks etdirməsi, təbiətin mühafizəsi problemini qaldırması, təbiətin özünün bütövlükdə şairin fikirlərinin ifadəçisinə çevrilməsi, Hüseyn Arifin gözəlliyini vəsf etdiyi, insanileşdirdiyi təbiəti xatirələri, müşahidələri ilə vəhdətdə təqdim etməsi araşdırılmışdır.

NƏTİCƏ

Haqqında danışdığımız lirik poemalarda təbiət gözəlliklərini tərənnüm edən şairlərin düşüncə tərzi, təbiət obyektlərini dərk etmə səviyyəsi, onları təsvir etmə üsulları bir-birindən fərqlənir. Şairlər orijinal ifadə və təsvir vasitələri, bədii müqayisə və təzadlarla fikrin poetik ifadəsinə nail olur, təbiət obrazlarını özünəməxsus şəkildə canlandırırlar. Təbiət mövzulu bu lirik poemaların səciyyəvi xüsusiyyətlərindən biri insana məxsus əlamət və keyfiyyətlərin təbiət obrazlarının üzərinə köçürülməsidir. Bu zaman təbiət sevinən, kədərlənən, düşünən canlı bir varlıq kimi poetik vasitəyə çevrilir. Lirik qəhrəmanın öz ovqatının, psixoloji durumunun, təbii yaşantıların, anımların ifadə olunması xarakterik keyfiyyətləri kimi diqqəti cəlb edir. Şairlər təbiəti gözəllik mənbəyi kimi vəsf etmiş, bununla kifayətləməyərək bu gözəlliklərin dağıdılmasından irəli gələn insan və təbiət münasibətlərini, ictimai-əxlaqi problemləri lirik poemalarında işıqlandırılmışlar. Deyilənləri əsas tutaraq belə bir nəticəyə gələ bilərik ki, geniş mənada təbiət təsviri ictimai-əxlaqi problemlərin ifadəsinə yönəldilməklə ibrətamiz məzmun aşılayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev C. Səməd Vurğun poetikası. Gənclik nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 1976:1-158
2. Arif H. Poemalar. 9 cilddə. IV cild. MBM **(Kitab).** Bakı/Azərbaycan. 2014:1-432
3. Qarayeva G. Müasir peyzaj lirikası. Elm nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2013:1-220
4. Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Şərq-Qərb nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2005:1-424
5. Yaqub M. Dövrün dəyirmanı (poemalar, şeirlər). CBS **(Kitab).** Bakı/Azərbaycan. 2012:1-576

ALMAS YILDIRIM'IN ŞİİRLERİNDE MÜHACERET KONUSU

İlayda POSKURLU
poskurluilayda36@gmail.com
Kafkas Üniversitesi, Türkiye
Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü

Özet:
Almas Yıldırım yazmış olduğu şiirlerini vatan, sürgün yılları ve muhaceret konulu şiirler olmak üzere üç başlıkta incelenmiştir. Vatan konulu şiirlerinde özgürlük ve vatanının güzelliklerini anlatmaktadır. Sürgün yılları konulu şiirlerinde ise doğa ve ayrılık acısını anlatmaktadır. Muhaceret konulu şiirlerinde de vatanının çoğrafi güzelliklerini, vatanına duyduğu özlemi ve Azerbaycan bağımsızlığını anlatmaktadır.
Anahtar Sözler: Almas Yıldırım, Vatan, Sürgün, Muhaceret

Çocukluğu ve Gençliği (Azerbaycan Yılları)

Almas Yıldırım, 1907 de Bakü'nün Çemberekent denilen bölgesinde 25 Mart 1907'de doğdu. Yakın çevresindekilerin dediklerine göre doğduğunda ona Abdülhasan ismi verilmiş fakat dedesinin isminin Almas olmasından dolayı ona da Almas ismi ile hitap edilmiştir (NEBİYEV, 1999:61). Şair bu ismi yazdığı şiirlerinde de Almas Yıldırım imzası ile kullanmıştır. Babası Abdülmehemmed ve annesi Nisa Hanım Abşeron'ludurlar. Ailesi geçimini ticaretle sağlamıştır. 1913'te Yıldırım ailesi Şüvelen'a göç etmiş ve Yıldırım da ilk eğitimine burada başlamıştır. Bu mektep, 1914-1915'te Bakü madenlerinde çalışmaya gelen İranlı (Güney Azerbaycanlıların) işçilerin çocukları için açılan "İttihad" mektebidir. Bu okulda dersler Azerbaycan Türkçesinde verilse de kendi çabalarıyla Farsçayı iyi öğrenen şairin daha sonra üniversite eğitimi için şarkiyat bölümü seçmesinde bu tecrübesi önemli etken olur. 1925'te İttihad okulunu bitiren Yıldırım, eğitimini devam ettirmek için Bakü'nün en gözde okullarından olan Abdulla Şaik Numune Mektebini kazanmıştır. Bu okul dönemin ihtiyaç duyulan öğretmenlerini yetiştirmektedir. Seyid Hüseyin ve Abdulla Şaik gibi dönemin önemli aydınlarından dersler alması sayesinde Yıldırım'ın edebî dünyası giderek zenginleşmeye başlamıştır. Eğitimine devam ettiği bu dönemde Hüseyin Cavid, Ahmet Cevat, Cafer Cabbarlı gibi önemli ediplerle tanışmış ve onların eserlerini incelemeye başlamıştır. Bu edebiyatçılar içinden onu özellikle etkileyen ve "ruhunu en çok okşayan, ona en yakın olan" (TEYMUR, 2015: 14) Ahmet Cevat'tır. Aslında o dönemde var olan milliyetçi şairlerin birçoğu Ahmet Cevat'ı

kendisine üstat olarak görmekteydi. Ahmet Cevat, bu dönemde yeni kuruluşun yönetilebilen edebiyatına bağımlı olmaktan uzaklaşmayı hedefleyen ve genç şair ve yazarlara destek olmayı amaçlayan "Edebiyat Cemiyeti"nin katibiydi. Ahmet Cevat'ın şahsiyetine ve sanatına olan isteği 1926'da Elmas Yıldırım'ı bu cemiyete yöneltir (REMZİ, 1998: 27). 1926'da cemiyetin saygınlığının arttığını gören idare "Edebiyat Cemiyeti"ni kapatır. Cemiyet kapatıldıktan sonra bu çalışmalar "Kızıl Kalemler İttifakı"na devredilir. Almas Yıldırım üyeliğini bu kuruluşta devam ettirir. Sovyet rejiminin korumasında olan bu cemiyette Almas Yıldırım'ın üyeliğinin olması rejime hizmet olarak görülmemelidir. Bu kuruluşun yayımladığı Genç Kızıl Kalemler isimli mecmuada Yıldırım'ın Hintli Kız, Şarka, Yarın, Ey Hindistan, Neriman, Garba isimli şiirleri yayımlanmıştır.

Bu şiirlerde yeni rejime hizmet etme amacı bulunmamaktadır. Almas Yıldırım araştırmacılarından Bekir Nebiyev, şairle ilgili yazdığı "Didergin Şair" kitabında onu Azerbaycan Proleter Yazarlar Birliğinin gerçek üyesi değil "cığırdaş" şairi olarak nitelendirmiştir. "Cığırdaş" olarak değerlendirilen sanatçılar arasında Celil Memmedguluzade, Hüseyin Cavid, Abdulla Şaik gibi isimler de bulunmaktaydı. Ayrıca Nebiyev, bu kuruluşun toplantılarından birinde Almas Yıldırım'ın o dönem için büyük cesaret isteyen yeni alfabeyle ilgili fikrini söylediğini de belirterek konuşmasını verir: "Kardeşler, Arap alfabesinden Latin grafikasına geçmek oldukça gereklidir. Türkiye Türkleri de bu yoldadırlar. Fakat ben eminim ki bu yakın gelecekte uğrayacağımız en dehşetli bir olaya hazırlıktır. Bununla görevli arkadaşlar Moskova'dan verilen fetva ile Kiril alfabesine geçmeye hazırlanıyorlar" (NEBİYEV,1999:62). Toplantılardaki bu tutumuyla politik yönetimin kara listesine giren Yıldırım, 1926'da İstanbul'da yayımlanan Hayat mecmuasına gönderdiği vA Dağlar", "Sevdiğim" gibi şiirleriyle Sovyet idaresini öfkelendirmiştir. Azerbaycan Proleter Yazarlar Birliğinin üyelerinden biri olan Mustafa Guliyev, büyük şair için "Edebiyat Cemiyetinin yazarları arasında musavatçılara aşık ve Türkiye sevdalısı olarak Almas Yıldırım ismi yer almaktadır. Bu isim Ahmet Cevat ve Hüseyin Cavid'lerin yolundan gitmektedir. Millî edebiyat yaratmak amacıyla hüzünlü mersiyeler yazan bu gibi genç şairlerden edebiyatımızı temizlemeliyiz. Cevat edebiyat sahasında bazı gençlerimizi zehirlemeye muvaffak oldu. Elmas Yıldırım Cevat'ın kurbanıdır" sözleri ile Azerbaycan Sovyet idaresinin ilgisini bu tarafa yönlendirmiştir (ƏHMƏD, D. 2017:8).

Almas Yıldırım, 1927'de Bakü Devlet Üniversitesi'nin Şarkiyat Fakültesini kazanmış olsa da bu bölümde okumasına fırsat vermemişlerdir. Bunun nedeni ise Yıldırım'ın babasının mesleğinin tacir olmasıdır. Çünkü Sovyet birliği o zamanlar zengin ve tacirlikle uğraşan insanları sosyalizmin düşmanı şeklinde görmekteydi. Ortada gözüken neden bu gibi görünse de asıl neden "şiirlerindeki milli duygular ve bir kısım şiirlerinin Türkiye'de yayımlanması" (OKUMUŞ, 2015:76) şeklinde ifade edilebilir. Almas Yıldırım, 1928-1929'da Kitap Dostları Cemiyetindeki üyeliği ile cemiyetin toplantılarına katılır ve istişarelerde bulunur. Bunun sonucunda 1929'da tehlikeli görüldüğü için Azerbaycan Proleter Yazarlar Birliği tarafından üyelikten atılan Almas Yıldırım, Komunist Partisi tarafından Dağıstan'a sürgün edilir.

Sürgün Yılları

Almas Yıldırım Dağistan'da farklı çalışmalarda bulunmuş, edebi çevrelerde kendisine yer edinmeye adım atmıştır. Burada aynı din ve dile mensup olan insanlarla görüşmüş, gençlerin edebi tarafa olan alakasını arttırmaya çalışmıştır. Siyasi yönetim, sürgün, şairin Dağıstan'da yeni oluşan Proleter Cemiyetine katılmasını istemiştir. Bu yolla şairin edebi duruşu bu yöne çekilmeye çalışılmıştır. Bu durumun üzerinde çok vakit geçmeden gençler ve ziyalılar arasında etkisi artmaya başlayan Yıldırım "kızıl işgale karşı milli birliğin uyanmasında bir tehdit" olarak görülmüştür. Şairin, 1930'da Bakü'de cDağlar Seslenir" adlı kitabı rejime karşı fikirlere sebep olduğu gerekçesiyle satıştan kaldırılmıştır. Derbent'ten Bakü'ye getirilen şair bu durumlar yüzünden bu sefer de yönetim tarafından Türkmenistan'ın Aşkabat şehrine sürgüne gönderilmiştir.

Yıldırım, Aşkabat'ta İran ve Azerbaycan'dan sürgün edilen ailelerin çocuklarının olduğu bir okulda öğretmenlik etmiştir. Yıldırım burada da Türkmenistan'ın vatan sever gençleri ve ileri gelenleri ile ilişkilerini geliştirmiştir. Burada bulunan Türkmenlerin hayatlarıyla yakından ilgilenmiştir. Çevresinde etkileyici şiirleriyle "istiklalci bir topluluk" oluşturmaya çalıştırmıştır.1932 yılının başlarında Yıldırım, Şamahı'dan ailesiyle Türkmenistan'a sürülen Güney Azerbaycan'dan Tebrizli Ziver Hanım'la evlenmiş ve bu evlilikten Azer adında bir oğlu olmuştur. Yıldırım'ın Dağıstan ve Türkmenistan'a sürgün edilmesi onun milli farkındalığının daha çok artmasına sebep olmuştur. Hatıratında "Beni yurdumun her tarafında dolaştırıyorlar. Milletimin boynunda asılmış her zincir halkası, benim kinimi daha da kuvvetlendiriyor" (NEBİYEV, 1999:64) diyerek kızıl işgalcilere karşı olan tutumunu dile getirmiştir. Yıldırım'ın buradaki çalışmaları siyasi yönetimin dikkatini çekmiş ve neler yaptığının kontrol edilmesinin takibi için Sovyet heyetinden Türkmenistan'a özel bir ajan olan Ekber Ruhi gönderilmiştir. Ajanın buradaki görevi

Yıldırım'ın etkisini azaltmak ve Yıldırım'la ilgili bilgi toplamaktır. Yıldırım ise bu durum karşısında, Ekber Ruhi'nin kendisine ağır hakaretler içeren makalelerini dikkate almadan şiirlerini yazmaya devam etmiştir. Ekber Ruhi 12 Ağustos 1932'de Zahmet gazetesinde yayımladığı makalesinde "Almas Yıldırım'la ilgili Musavatçı ve Türkiyeli Kemalistlerden, biz onun bu durumunu 6-7 yıldan beri bilmekteyiz" (ƏHMƏD, D. 2017:9) şeklinde cümleler kurmuştur. Aşkabat'ta yaşama imkanı kalmadığını farkına varan Almas Yıldırım Feyzi Aküzüm'ün ifadesiyle iki yoldan birini seçecekti: "Ya Ekber Ruhi'nin (komünist rejimin) safına katılmak ya da millî heyecanını dindirmeden mücadeleye devam etmek" (AKÜZÜM, 1990:24). Almas Yıldırım ikinci yolu seçmiş 19 Haziran 1933'te evin lambalarını bile kapatmadan eşi ve üç aylık evladı Azer'le beraber İran'a giden deva kervanıyla yola çıkmıştır. Çıktıkları yolculuktan birkaç gün sonra tehlikeli durumlar sezdiği için kervandan ayrılmış ve yola ailesiyle devam etmiştir. İran sınır kapısına geldiğinde polisler tarafından sınır kurallarına uymamaktan ve Stalin'in casusu olduğu suçlamalarından dolayı yirmi beş gün hapse atılmıştır. Hapishanede birçok işkence görmüş ve bunların sonucunda ölümüne neden olacak böbrek hastalığına yakalanmıştır. Hapishanede yaşadığı onca kötü şeyden sonra suçsuz olduğu ortaya çıkan Yıldırım, serbest bırakılmış; fakat bu sefer de fakir ve sıkıntılı bir hayat yaşamaya mecbur kalmıştır. Vatanından ayrı kalmasının acısını burada da hisseden Yıldırım, çaresizliğini "Azerin Duası" adlı şiirinde bu şekilde ifade etmiştir:

''Hasret kalıp doğma yurdun nazlı müşfik kucağına
Gözler yaşlı boyun bükün vatansız mı öleceğim?
Göz dikerek yâd illerin şifa vermez ocağına,
Böyle garip bir parçacık kefensiz mi öleceğim'' (YILDIRIM, 2004:101).

Almas Yıldırım'ın İran'daki hayatı fakirlik ve sıkıntı içinde geçmiştir. Tedavisi mümkün olmayan hastalığa burada yakalanmıştır. Artık tek isteği ise "ikinci vatanı" dediği Türkiye'ye kaçmakmış. Bekir Nebiyev Elmas Yıldırım'ın İran'dan Türkiye'ye kaçmak istemesinin nedenlerinden birini de "Şah yönetiminin Türklük kadar Türkçe düşmanlığı yapması" (NEBİYEV, 1999:65) olarak açıklar.

Türkiye Yılları

Almas Yıldırım, İran'da 6-7 ay kaldıktan sonra 1934'te Türkiye'ye kaçmayı başarmıştır. İlk olarak Van'a gelen Yıldırım'a burada Ahed Alizade Ural adında bir kişi yardımcı olmuştur ve Yıldırım onun evinde misafir olmuştur. Daha sonra Ahed Alizade Ural'ın aracılığıyla Elazığ'a geçmiştir. 1934-1935 yıllarında Elazığ'ın Palu ilçesine bağlı Karacabağ mektebinde öğretmenlik yapmıştır.1936'dan 1939'a kadar Elazığ İskan Müdürlüğü, Keban ve Palu tahrirat katipliklerinde çalışır. Daha sonra 1951'e kadar sırasıyla Karabegan, Ağın, Hankenti, Balibey ve Muşan müdürlüklerinde bulunmuştur, buradan sonra da Tunceli'nin İresi bucağı müdürlüğünde görevlendirilmiştir. Ölümünden bir ay önce ise Malatya'nın Kale bucağı müdürlüğüne atanmış, 14 Ocak 1952'de İran'da gördüğü işkenceler yüzünden iyileşemediği böbrek rahatsızlığından dolayı vefat etmiştir (AKÜZÜM, 1990:26).

Şair muhaceret konulu şiirlerinde genellikle vatanının coğrafi güzelliklerini, vatanına duyduğu derin özlemini ve Azerbaycanın bağımsızlığını anlatmaktadır:

Yıldırım'ın memleketini özlediği yerlerden biri de Tahran'dır. 1934 yılında Tahran'da yazmış olduğu "Bir Parça" şiirinde, vatanın bir defa bile olsa gözünde betimlemesini, şansını güneşin doğuşu gibi anlatır. Bu şansı elde edemediği için şairliğinden şikayet eder.

Büyük şairin "Gölcükle Dertleşme" adlı şiirini Türkiye'de yazmış olmasına rağmen yaşadığı hayatın eski zamanlarından ve Ahmet Cevad ile ilişkisinden oluşan parçalara da yer vermiştir.

"Yolsuz bir aşıg kimi sanma ki,Seni buldum,
Men uzak bir "Göygölün" yolunda Beyle soldum,
Bu doğrudur: Bir dostun uğrunda gurban oldum,
Bu bizim etdiyimiz ehdi-peymandir, Gölcük!"

Yukardaki şiirinde belirtilen "Göygöl" karakteriyle Yıldırım, eski arkadaşı olan Ahmed Cevad'ı ve ona ait olan "Göy Göl" den bahsetmiştir. Dertli şair "Gızıl Galemler Dünyasma" adlı şiirinde, "halklar hapishanesinin" günü geldiğinde kesinlikle dağılacağına dair düşüncelerini yazar. Bir başka şiirinde ise Yıldırım, istiklal ve hürriyet fikrini işlemiştir. Şiirinin sonunda ise geleceğe dair umutlarından bahseder.

"Gazardım gönüllerde yalnız bir tek ideal:
İnsanlara hürriyet, milletlere istiglâl!"

"İnsanlara hürriyet, milletlere istiglal!" cümlesinde Yıldırım, insanların sahip olduğu büyük manevi güçlerini hayatına geçirebilseydi bütün günahsız insanların hayatlarının yok olmayacağından bahsetmiştir. Şairin, "Men Kimem", "Gara Dastan" ve "Men Mi?" adlı şiirlerinde Ahmed Cavad gibi eski tanıdıklarına da müracaat ederek Türklerin şanlı geçmişlerini anlatmıştır.

"Men miyem Altaylar'da başı göylere deyen,
Tarihi menmi yazdım, tarih mi meni öyen,
Men miyem indi beyle tevekküle baş eyen? "

O, çıkmış olduğu bu yolda kendi halkına Bolşevik'lerin yapmış olduğu zülümlere karşı mücadele ruhu aşılamayı amaçlamıştır.

"Verin mene yurdumu, olsun cennet bucağı
Bir dövlet gurayım ki, sülhun doğma ocağı,
Başında dalgalansa üç boyalı sancağı
O zaman zann ederem bütün cahan Menimdir!"

Şiirindeki bu mısralarıyla M.Emin Resulzâde'nin "Bir kere yükselen bayrak bir daha inmez" sözüne değinmektedir.
"Kara Dastan" adlı şiirinde savunmuş olduğu bu fikri daha da güçlendirmek isteyen Almas Yıldırım, sadece Azerbaycan halkının değil, Bolşevik zulmünün altında ezilen tüm Türklerin aynı durumlarda olduğunu vurgulayarak dünyanın dikkatini bu tarihi adaletsizliğe çekmiştir. Almas Yıldırım, şiirlerinde ele aldığı Türkçülük ve Türk halkının tarihi ile ilgili düşünce ve duygularını "Gara Dastan" şiirinde ortaya koymuştur. Bu şiirde "halklar hapishanesi"nde destanlara sığmayacak facialara "Gara Dastan" adlı başlık oldukça uygun olmuştur. "Kara Dastan" şiirinin son bendinde "Ağla şair, ağla, yurdun dağılmış!" mısrasın da kendi sahip olduğu dert ile halkın derdini bir araya getirerek duygusal bir şekilde ele almıştır. Bu durumun hüzünlü tarafı ise şiirde sürekli tekrar eden "Goca Türk'ün düştüğü dert yaman hey!" mısraları ile vurgulanır. "Ölmek mi Yaşamak mı?" adlı şiirinde, zamanın hesaplanamayışından, acı dolu ömrünün hala bitmemesinden, ölümün henüz kendisini almadığından bahseden Yıldırım, yine de umudunu yitirmez ve "Yurdum için bir az daha ağlasam" isteği ile yaşamaya devam etmek istediğinden bahseder. Şair, " Mukaddes ihtilal" adlı şiirinde gelecek hakkında umut veren ve inanç duygusu aşılayan duygulara yer vermiştir. Sovyet Rusya ise demokrasi ve bağımsızlık düşmanı olarak anlatılır. "Mukaddes İhtilâl " şiiri Yıldırım'ın yaratıcılığındaki en iyi şiirlerinden biridir.
Halkının içinde bulunduğu duruma üzülen Almas Yıldırım, "Yiğitlere Sesleniş" şiirinde geleceğin tek umudu olan gençlere seslenmektedir. Gençlere şimdi isyan edip oturmalarını değil, ayağa kalkıp mücadele etmeleri gerektiğini anlatır. "Yolunda ilk kurban ben olacağım!" diyerek ilk adımı atar. Halkının işine, emeğine, aşına ve vicdanına karışılmasına müsaade etmez. Önde gelenlere ilk olarak, Sovyet Emperyalizminin ve "halklar Hapishanesi"nin parçalanması gerektiğini gösterir.
Memleketi Bakü olan Almas Yıldırım, şiirlerinde genellikle "Bakü" imajıyla karşımıza çıkmaktadır. "Bakü…O benim kabem, o benim mihribanım, o yurdum, yolunda kanlı Çar'a yıllarca karşı durdum, ilk o Rus zencirini ben ciynedim, ben kırdım…" Bakü, Almas Yıldırım'ın doğduğu, çocukluğunun, gençliğinin geçtiği hayatında önemli bir yere sahip olan şehirdir. Hazar sahilinden, Sebayil Rayonu'ndan bahseder. "Bakü" adlı şiirinde ise, 1920'li yıllarda meydana gelen Bolşevik ihtilâlini, kentin ve halkının içinde bulunduğu durumu anlatır. Eski Yunan efsanesine göre Prometey Tanrıların koymuş olduğu yasaklara uymayarak ateşi insanların kullanımına sunmak için 'dünyanın ateş dolu sinesi' şeklinde adlandırılan Abşeron'a bırakmıştır. Bu yer günümüzde yanar kayalarıyla meşhur bir yerdir.
Yıldırım'ın içinde bulunduğu bu durumuyla, Tanrıların gazabına uğrayıp Kağdağı'nda zincirlenen Prometey'in içinde bulunduğu durumu arasında tipolojik bir benzerlik bulunmaktadır. Bakü'de yaşanan facia, Yıldırım'ı çok üzmüş ve kendini kaybetmesine sebep olmuştur.

"Bir zamanlar adına eşk okudum illerle,
İndi artık gelbimin içinde inle, Bakı!
Uğrunda çarpışanlar kolları bağlı getdi,
Men yanarak kül oldum
senin derdinle, Bakı!"

Üçüncü mısrada bulunan "kolları bağlı gitti" cümlesi, vatanı için savaşan binlerce genç Azeri münevverinin "buzul cehennemlerde" zincirlenip ağır işkencelerle öldürülmesi hatırlatılmıştır.
Dertli şairin, şiirlerinde "oy, oy" gibi kelimeleri düzenli olarak kullanmıştır. Sözlerin doğal olması insanın farkında bile olmadan onları kendisi yaşamış gibi hissetmesine ve üzülmesine sebep olmuştur. "Esir Azerbaycanım" şiiride bu şiirlerine örnektir. Çünkü, bu şiirinde derin üzüntüsünü dile getirmiştir. Bu konu hakkında yazar Anar şunları demiştir: "Bir ölkede kendden köçüp şehre gelen insanlar çox vaxt doğulduqları yerlerin hesretini çekir. Bu hesretin ilacı yoxsa, bitmesi mümkün deyilse, onun şiddeti daha çox artır. Yalnız Almas İldırım'ın deyil, bütovlükde Azerbaycan edebiyatının en yanılgı şiirlerinden biri "Esir Azerbaycanım' dır." (Elmi Eserler, 2015: 88)
Yıldırım'ın 1934 yılında Tebriz'de yazmış olduğu "Azerin Duası" adlı şiirinde ümitsizlik havası vardır. "Acaba tekrar Azerbaycan'a dönebilecek miyim?" gibi sorular onun vatanına duyduğu acısını daha fazla artırır. Şair Elazığ'da yazdığı "Batan Güneş" adlı şiirinde vatanının esaret altında kalmasından büyük üzüntü duyduğu anlatmıştır ve şiirinde vatanıyla dertleşmektedir. Vatanına farklı sorular yöneltir (ARAS, 2015:70). O, "Türküm" adlı şiirinde de olduğu gibi şiirlerinde sıklıkla karşılaştırma yapmıştır. Kendi vatanını dünyanın en güzel yerleriyle ya da cennetle karşılaştırır. Vatanına bir aşığın gözünden bakmaktadır. "1933'te yazmış olduğu "İran Qızı" adlı şiirinde vatanına tekrardan dönemeyeceğini yazmıştır. Bu durum Almas Yıldırım'ı derinden etkilemiştir. Acılarını dindirmek için vatanına şarkı söylemek istemiştir." (ARAS, 2015:70).
Almas Yıldırım'ın sürgün yıllarında vatanına duyduğu özlem gittikçe derinleşir. Almas Yıldırım'a keder, sürgün, eziyet ve acı yaşatan bu hayat onun "Bilme içimdekini ve Bir Gün" şiirlerinde olduğu gibi birçok şiirinin ortak konusu olmuştur.
Memmed Araz, Almas Yıldırım gibi birçok şair için Araz Çayı çok değerlidir. Almas Yıldırım'ın Azerbaycan'da yazdığı "Birleşen iki nehir", Türkiye'de yazdığı "Arazla Dertleşme, Yurt Hasreti, Küstüğüm Bahar" gibi şiirlerinde acı, keder ve özlem gibi kendi dünyasını yansıtan sözlerle ifade etmiştir (ARAS, 2015:71).

SONUÇ

Şairin muhaceret konulu şiirlerinden en bilinen Bir Parça, Gölcükle Dertleşme, Gızıl Kalemler Dünyasına, Men Kimem? Kara Destan, Men Mi?, Ölmek mi Yaşamak mı?, Mukaddes İhtilal, Yiğitlere Sesleniş, Bakü, Esir Azerbaycanım, Azerin Duası, Batan Güneş, Türküm, İran Kızı, Bilme İçimdekini, Bir Gün, Birleşen iki nehir, Arazla Dertleşme, Yurt Hasreti, Küstüğüm Bahar adlı şiirleridir. Şair, muhaceret konulu şiirlerinde vatanının coğrafi güzelliklerini, vatanına duyduğu özlemi ve Azerbaycan'ın bağımsızlığını anlatmaktadır.

KAYNAKÇA

1. NEBİYEV, B. (1999). *Didergin Şair Almas Yıldırım'ın Yaratıcılık Yolu* (Çvr. Aljira Topalova). s.62, Ankara, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları"
2. TEYMUR, M. (2015). "Almas İldırım'ın Qəmli Həyat Dastanı", *Xalq Cəbhəsi*.s.14, Bakü.
3. REMZİ, C. (1988). "İldırım Almaszade", *Edebiyat ve İncesenet*.s.24, Bakü.
4.ƏHMƏD, D. (2017). "Şair Almas İldırımın Anım Günüdür", *Türkistan*.s.8, 17-23 Ocak, Bakü.
5. OKUMUŞ, S. (2015). "Gurbeti Vatan Eden Şair: Elmas Yıldırım" *Yeni Türkiye*. S. 76. Ankara
6.AKÜZÜM, F. (1990). "Elmas Yıldırım'ın Hal Tercümesi" *Yiğitlere Sesleniş*. Azerbaycan Kültür Yayınları, s.24, Ankara.
7.YILDIRIM, A. (2004). "Azerin Duası", *Seçilmiş Eserleri*. Bakü, s.101,Önder Neşriyat.
8.Elmi Əsərlər, Naxçıvan Dövlət Universiteti, 2015, sayı 88
9. Aras, M. (2015). ''Almas İldirimda Vatan Mevzusu'', Nahçıvan Devlet Üniversitesi. Bilimsel Çalışmalar, № 5 (70)

ŞUŞANIN AZƏRBAYCAN ƏDƏBİ İRSİNDƏ YERİ

İmamə İsmayılova
Bakı mühəndislik Universiteti
Azərbaycan dili və ədəbiyyatı müəllimiliyi ixtisasından məzun
ismayilovaimame125@gmail.com

Xülasə

Bu məqalədə Azərbaycan ədəbi irsinə qazandırdıqları yenilikləri, zəngin yaradıcılıqları ilə yadda qalan bir sıra şuşalı sənətkarların – Qasım bəy Zakirin, Mir Möhsün Nəvvabın ədəbiyyatımıza verdiyi töhfələrdən söz açılmışdır. Bu sənətkarlar Azərbaycan ədəbiyyatına bəxş etdikləri ilklərlə yadda qalırlar. Bununla yanaşı, ölkənin müxtəlif bölgələrində bir sıra silsilə ədəbi məclislər təşkil olunurdu. Qarabağda da "Məclisi-üns", "Məclisi-fəramuşan" adlı ədəbi məclislər fəaliyyət göstərirdi. Həmin məclislərin üzvləri, iştirak edən söz sənətkarlarının üslubları barədə məlumat verilmişdir. Bu məclislərin yaranmasında, inkişaf etdirilməsində, daha da canlanıb ölkənin digər şəhərlərində fəaliyyət göstərən ədəbi məclislərlə əlaqələrindən bəhs edilmişdir.

Açar sözlər: Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, "Məclisi-fəramuşan", "Məclisi-üns"

Giriş

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən 2022-ci il "Şuşa İli" elan edildi. Şuşa Azərbaycan mədəniyyətinin beşiyi, bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin vətənidir. Mədəniyyət paytaxtımız Şuşada əsaslı bərpa işləri aparılır. İlk realist sənətkarlarımızdan hesab edilən Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin bərpası, Vaqif poeziya gecələrinin yenidən aktual məsələyə çevrilməsi ədəbiyyata, poeziyaya verilən dəyəri sübut edir. XIX əsrdə fəaliyyət göstərən ədəbi məclislər də poeziyaya xüsusi diqqətin olduğunu göstərir.

Qasım bəy Zakir

XIX əsr Azərbaycan realist poeziyasının görkəmli yaradıcılarından olan Qasım bəy Zakir aşiqanə-lirik şeirləri, dövrünün ictimai eyiblərini ifşa və tənqid edən əsərləri ilə ümumxalq şöhrəti qazanmışdır. Azərbaycan ədəbiyyatında maarifçi satirik şeirin banisi sayılan Qasım bəy Zakir (1784-1857) Şuşada bəy ailəsində anadan olmuşdur. Xındırıstan kəndində həyat sürmüşdür. Ruhani məktəbində fars dilində təhsil alması Firdovsi, Xəyyam, Xaqani, Nizami, Cəlaləddin Rumi kimi böyük klassiklərin əsərləri ilə tanış ola bilməsinə şərait yaratmışdır. Fars dili ilə yanaşı ərəb dilini mükəmməl mənimsəmişdir. Ədaləti sevən şair həmişə zülmkar bəylərin əleyhinə çıxaraq onları tənqid edirdi. M. F. Axundova göndərdiyi mənzum məktubunda özünün çar hakimləri tərəfindən haqsız təqibə məruz qaldığını, uşaqlarının isə sürgün olunduğunu qeyd etmişdi. Axundovun köməkliyi sayəsində şair Bakı sürgünündən azad edilmiş, uşaqları isə üç ilə qədər sürgündə qalmışdı. Şairin bədii irsi müxtəlif forma və mövzularda yazılmış şeirlərdən ibarətdir. Qasım bəy Zakirin şeiri ilk dəfə 1854-cü ildə "Kafqaz" qəzetində nəşr edilmişdir. 1856-cı ildə Mirzə Yusif Nersesov Qarabağinin məcmuəsində Zakirin "Şeyxi" və "Üsuli" ruhaniləri haqqında yazdığı satirası nəşr edilmişdir. [6, s. 6-7]

Zakir kimi cəsarətli, hər bir sinfin eybini, günahını apaçıq üzünə çırpıb, xəyanət və cinayətin də tamamilə gözlərinin içinə söyləyən olmamışdır. Zakir lirikasında nə qədər incə, zərifdirsə, satirasında bir o qədər kəskin və amansızdır. Çoxunun ünvanı bəlli olan bu satirik şeirlər dildə-ağızda dolaşırdı.

Görsən tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövlətü-malı,
Xandəmirov çaldı-çapdı mahalı,
O ki var tutub özün keçəl qurumsaq.

Qasım bəy Zakirin şeirlərində tipikləşdirmə və ümumiləşdirmə çox güclüdür. Ürək dostu, Qafqaz canişininin tərcüməçisi olan Mirzə Fətəliyə ünvanladığı şeir-məktublarında dövrünün seyid-mollasının, baqqalının, tacirinin, darğasının, "tamojnı"sının sözlə portretini çəkmişdir:

Həramilər kimi yol üstə yatar,
Tamojnada növkər olub mal tutar.

Dünbək çalar, şərab içər... atar,
Feli-bəyzadeyi-tərsayə bir bax!
Dolanır bazarı darğa, kvartal,
Döyülür sifətlər, yolunur saqqal;
Gecə get cibinə beş-on manat sal,
Gündüz gəlib nırxi-bahəyə bir bax! [6, s. 14]

"Şuşa mollaları haqqında" şeirində isə Zakir mollaların, üləmaların heç bir işə yaramadığını, artıq xalq arasında onların nüfuzunun qalmadığını ifadə etmişdir. Bu cür üləmaların, mollaların pis əməlləri nəticəsində xalq arasında mədrəsələrə rəğbətin də azaldığını yazan Zakirə görə, üstəlik ayrı-ayrı təriqət (şeyxilər, üsulilər və b.) mollaları da bundan sui-istifadə edib iğtişaşa səbəb olurlar. [3, s. 6]

Qasım bəy Zakir lirik növlə yanaşı, epik növdə də bir sıra əsərlər yazmışdır. Epik əsərlərində daha çox mənzum hekayələri və təmsilləri xüsusi əhəmiyyət daşıyır. Mənzum hekayələri müxtəlif mövzulara (məhəbbət, evlilik, tənqidi və s.) həsr edilmişdir. Müəllifin satiraları da digər əsərləri kimi həm əruz, həm də heca vəznlərində yazılmışdır.

Zakir dilinin lüğət tərkibinin əsasını zəngin və xalq dilindən alınmış sözlər təşkil edir. O, Azərbaycan dilinin ən gözəl xüsusiyyətlərindən, incəliklərindən, dildə olan məsəllərdən, idiomatik ifadələrdən bacarıqla istifadə etmişdir. Şeirlərinin dili canlı danışıq dilinə o qədər yaxındır ki, bu şeirlərdən bir çoxunu xalq dilində şairanə məzmun daşıyan müsahibədən, həbs-haldan seçmək çətindir.

Badi-səba, mənim dərdi dilimi,
Ol buti-zibayə dedin, nə dedi?
Ahu naləm asimanə yetdiyin,
Gərdəni-minayə dedin, nə dedi?

Zakirin dilini gözəlləşdirən xüsusiyyətlərdən biri də onun şifahi xalq yaradıcılığına dərindən bələd olmasıdır. Folklordakı müasirlik şairi ona bağlayan əsas tellərdəndir. Folklordakı ictimai haqsızlığa qarşı çevrilmiş etiraz motivlərindən bacarıqla istifadə etmək şairin yaradıcılığının gözəl məziyyətlərindəndir. Zakir satiralarındakı atalar sözü, məsəllərin özü də tipin səciyyəsini açır. Mənanı dərinləşdirir. Onun qoşma və gəraylılarının ifadə tərzi də lirik məzmuna uyğun olaraq çox oynaq, axıcı və aydındır

"Məclisi-fəramuşan"

Azərbaycan ədəbiyyatının inkişaf tarixinə nəzər saldıqda ən mühüm istiqamətlərdən birinin ədəbi mühitlərin təşəkkülü və formalaşmasının təşkilini görə bilərik. Bunu türk şeir tarixindəki təkyələr, ocaqlar, ədəbi məclislər, saray mühitləri aydınlıqla göstərir.

Görkəmli şəxsiyyətlər yetişdirən Qarabağ ədəbi mühitinin böyük simalarından biri də Mir Möhsün Nəvvab olmuşdur. Mir Möhsün Nəvvab XIX əsrdə yaşayıb-yaratmışdır. Xurşidbanu Natəvandan sonra ən məşhur sənətkar kimi tanınmışdır.

Azərbaycan poeziyasının inkişafında müxtəlif dövrlərdə yaranmış ədəbi məclislərin rolu böyük olmuşdur. Bu məclislər zaman-zaman müxtəlif şəhərlərdə fəaliyyət göstərib və bir çox şairlərin tanınmasında xüsusi rol oynayıb. 1872-ci ildə Azərbaycan mədəniyyətinin beşiyi Qarabağda – Şuşa şəhərində şair, ədəbiyyatşünas Mir Möhsün Nəvvabın evində əsası qoyulan "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") və ya "Məclisi-xamuşan" ("Dinməz, sakit adamlar məclisi") şairlər məclisi 1910-cu ilədək fəaliyyət göstərib və dövrün tanınmış şairlərindən Həsənəliağa xan Qaradağı, Fatma xanım Kəminə, Sədi Sani Qarabağı, Abdulla bəy Asi, habelə Qarabağ xanəndələri də bu məclisdə yaxından iştirak ediblər. [1, s. 3]

Mir Möhsün Nəvvab köhnə təhsil almasına baxmayaraq, ədəbi və pedaqoji fəaliyyətində yeniliyə meyil edirdi. Məclis üzvlərini dünya hadisələri və mədəni yeniliklərlə tanış etmək üçün Mir Möhsün Nəvvab Bakıdan "Əkinçi", Tiflisdən "Ziya" və "Kəşkül" qəzetlərini, Hindistanda fars dilində nəşr olunan "Həblül-mətin" məcmuəsini alırdı. Məclisin üzvləri həm bir-biriləri ilə, həm "Məclisi-üns" üzvləri ilə, həm də Şamaxıda fəaliyyət göstərən "Beytüs-səfa" adlı ədəbi məclisin üzvləri ilə əlaqə saxlayır, şeir məclisləri təşkil edirdilər. [2, s. 49]

Mir Möhsün Nəvvab "Məclisi-fəramuşan" ədəbi məclisini "Məclisi-üns" ədəbi məclisi 1872-ci ildə X. Natəvanın evinə köçdükdən sonra təşkil edilmişdir. Üzvləri isə "Məclisi-üns"ün fəramuş etdikləri, yəni

unutduqları şairlər olmuşdur. Göründüyü kimi "Məclisi-üns" bir sıra şairləri unutmuş "Məclisi-fəramuşan"ın yaranması üçün zəmin olmuşdur.

Ədəbi məclislərin əhəmiyyəti bir sıra şəxsiyyətlərin üzə çıxarılması, istedadların bir yerə cəmlənməsi, qabiliyyətlərinin daha da püxtələşdirilməsi üşün əsas şərt hesab olunur. [2, s. 51]

"Məclisi-fəramuşan"ın ən fəal üzvlərindən biri şair, pedaqoq Həsənəli xan Qaradağı olmuşdur. Demək olar ki, məclisin bütün yığıncaqlarında fəal iştirak etmişdir. Ədəbi məclisin yığıncaqları gecələr təşkil olunurdu. Məclis üzvləri müxtəlif peşə sahibləri olduqları üçün gündüzlər kəsbkarlıq edir, gecələr isə ədəbi yığıncaqda iştirak edirdilər. [2, s. 52]

Şuşanın yetirdirdiyi istedadlardan biri də Xurşidbanu Natəvan (1830-1897) idi. İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu xanı Mehdiqulu xanın qızı Natəvan həm şairə, həm də rəssam idi.

"Məclisi-üns" ("Dostluq məclisi") ədəbi məclisi ilk dəfə 1864-cü ildə Mirzə Rəhim Fənanın təşəbbüsü ilə təşkil edilmişdir. İlk dəfə şuşalı alim Mirzə Əbülqasımın mədrəsəsində təşkil edilirdi. Məşğələləri isə Hacı Abbas Agahın evində təşkil olunurdu.

1876-cı ildə Xurşidbanu Natəvanın məclisi himayəyə götürməsi ilə bu ədəbi məclisin üzvlərinin sayı otuza çatmış, fəaliyyəti daha da canlanmışdır. Xan qızı ömrünün sonlarında təşkil etdiyi "Məclisi-üns" yığıncaqlarının birində şeiri – yəni sözü Məcnuna, musiqini Leyliyə timsal edib. "Söz musiqinin aşiqi, musiqi sözün məşuqudur", - deyib.

Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Mirzə Ələsgər Növrəs, Baxış bəy Səbur, Məşədi Nəsir Lovhi və başqaları məclisin istedadlı sənətkarlarındandır. Məclis üzvlərinin əksəriyyəti həm Azərbaycan, həm də fars dilində şeirlər yazırdılar. Məhəmməd Füzulinin yaradıcılığından təsirlənərək şeirlərini daha çox klassik üslubda yazmışlar. Məclis üzvləri, həmçinin müasir həyat həqiqətlərini ifadə edən şeirlər də yazırdılar.

"Məclisi-üns"ün fəaliyyəti 1897-ci ilədək - X.Natəvanın vəfatına qədər davam edib. Onun üzvləri artıq "şeir bazarının güllərinin solduğunu", "bülbüllərin susduğunu", "dostluq məclisi başçısının aralarından getdiyini" - məclisin dağıldığını təəssüflə qələmə alıblar.

Şuşanın tarixində Gövhər Ağa, Xurşidbanu Natəvan, Ağabəyim Ağa, Fatma xanım Kəminə və Leyla xanım kimi məşhur qadınlar olub. Onlarla bir sırada Həmidə xanımın da adı hörmətlə çəkilir. Həmidə xanım Cavanşir (1873-1955) İbrahim xanın nəslindən olub, Qarabağ tarixçisi Əhməd bəy Cavanşirin qızı, böyük ədib Cəlil Məmmədquluzadənin həyat yoldaşıdır. "Mirzə Cəlil haqqında xatirələrim" adlı qiymətli əsərin müəllifidir. [5, s. 14]

Nəticə

Şuşa şəhəri, ümumiyyətlə, Qarabağ mühiti əsrlərdir hər kəsi özünə heyran etməyi bacarır. İstər təbii sərvət olaraq, istərsə də ədəbiyyata, poeziyaya bəxş etdiyi yeniliklər, incəliklər, üslub gözəlliyi baxımından xüsusi diqqətəlayiqdir. Nəcəf bəy Vəzirov da ədəbiyyat tariximizdə ilklərə imza atan şuşalı ədiblərimizdəndir. N. Vəzirov faciə janrında yazılmış ilk əsər ("Müsibəti-Fəxrəddin"), neft mövzusunda yazılmış ilk əsərlərdən hesab olunan "Pəhləvanani-zəmanə" əsərlərinin müəllifidir. Bununla belə, ədəbiyyatımızda ilk maarifçi qadın obrazını Səadət xanım obrazı ilə canlandırmışdır. "Məclisi-üns", "Məclisi-fəramuşan" ədəbi məclislərinin fəaliyyəti də o dövrdə şeirə, söz sənətinə yüksək qiymət verildiyinin sübutudur. Molla Pənah Vaqif Şuşada doğulmasa da, Şuşa ədəbi mühitinə zəngin töhfələr vermişdir. İlk realist sənətkarlarımızdandır.

Ədəbiyyat siyahısı

1. Azərbaycanlı və özbək şairlərinin poeziya məclisi. Mədəniyyət.- 2022.- 4 mart.- S.3.
2. Əli Umud oğlu Əliyev. Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvab (monoqrafiya). Avropa nəşriyyatı. Bakı-2016. 151 səh
3. Faiq Ələkbərli. Türküstan. Azərbaycan Türk fəlsəfəsindən yarpaqlar: Qasım bəy Zakir- 2018.- 5-11 iyun.- S.6.)
4. Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı, "Avrasiya Press", 2005, 400 səh.
5. Mədəniyyət.- 2011.- 6 may.- S. 14.
6. Mustafa Çəmənli. Satirik şeirimizin bayraqdarı – Qasım bəy Zakir. 525-ci qəzet. -2014. -2 avqust .-Səh 14
7. T. B. Həsənova tövsiyə ədəbiyyat göstəricisi. Bakı 1970. 16 səhifə. səh 6-7

ƏRTOĞRUL CAVİDİN İLK ŞEİRLƏRİNDƏ POETİK AXTARIŞLAR

AYAN ƏLƏKBƏRLI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistrant/ Azərbaycan ədəbiyyatı
ayan.alekberli1@gmail.com
BAKI,AZƏRBAYCAN

BAKHCHA MUSAEVA
Azərbaycan Dillər Universiteti
Magistrant/Azərbaycan ədəbiyyatı
aylinisayeva2020@gmail.com
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Ərtoğrul Cavid Rasizadə görkəmli Azərbaycan şairi və dramaturqu H.Cavidin oğludur. Məqalədə Ərtoğrul cavidin ilk şeirlərinin poeziyası və mövzusu araşdırılıb. H.Cavid yadigarının irsinin öyrənilməsi və tədqiqi müasir dövrümüz üçün də aktualdır. Məruzədə gənc şairin toxunduğu mövzular bədii baxımdan təhlilə cəlb olunmuşdur.

AÇAR SÖZLƏR: Ərtoğrul cavid, poetika, şeir, poeziya

GİRİŞ

Azərbaycan romantizm banilərindən H.Cavidin ədəbiyyatımıza bəxş etdiyi ərmağanlardan biri Ə.Caviddir. Ə.Cavid qısa ömür yaşasa da, Azərbaycan ədəbiyyatının dəyərli simalarından biridir. O, zəngin elmi və bədii irs qoyub getmişdir. Ə.Cavid qələmini şeirdə, hekayədə, dramaturgiyada sınamışdır. Bunlarla yanaşı onun musiqiyə olan marağı və istedadı ədəbiyyatla culğalaşırdı.

Ə.Cavidin ilk qələm təcrübəsi olan "Bizim bağ" şeirinin yazılması 1927-ci ilə təsadüf edir. Biz bu şeirdə uşaq təfəkküründün necə dinamik, canlı olduğunu görə bilərik. Onun bağa, torpağa, yarpağa, çiçəyə - bir sözlə təbiətə olan marağı ətraf aləmi dərk etməsinin ilk işartıları idi:

Bizim bağ çox gözəldir
Hər tərəfi çiçəkdir
İçi dolu topraqdır,
Ətrafında yapraqdır.

Bir il sonra " Qar yağdı" şeirini yazır. Uşaq olmasına baxmayaraq, ətrafında gedən prosesləri dərindən izləyən Ərtoğrul kiçik dünyasına sosial problem anlayışını daxil edir. Bu paralellik təbiət fonunda insan problemlərini göstərmək idi. Şeirin yaranmasının digər bir səbəbi isə onun ailə qayğılarından irəli gəlirdi:

Qar yağdı soyuq oldu,
Quşlar qaçıb yoq oldu.
Sular donub buz oldu,
İşçilər pulsuz oldu.

Ərtoğrul Cavidin yaşadığı dövr ziddiyətli idi. O,uşaq dünyasında aşıb-daşan istəkləri, şeirləri ilə çatdırmağı seçdi. Çünki şeir fikrin, düşüncənin, poetikanın özüdür. Bütün bu sadaladıqlarımızda H.Cavidin də rolu az olmamışdır. Atanın oğluna ötürdüyü ən böyük mükafat da məhz bu istedadı idi. Ə.Cavid təbiət vurğunu idi. Onun bu illərdə yazdığı şeirlərinin əsas mövzusu təbiət və onun gözəlliyini göstərməkdir:

Quşlar bahar olcaq cəh-cəhlər vurur,
Dəniz sakitlər,havalar durur,
Gözəl-gözəl güllər açıb dad verir,
Qar əriyir,günəş evlərə girir.

Şeir nümunəsində fəsillərin növbələşməsi, təbiətin xronoloji möcüzəsi harmoniya yaradır. Bu yazıda sənətkarlıq məziyyətlərinin formalaşmağa başladığının şahidi oluruq. Artıq Ərtoğrul poetik gücün sehrindən məharətlə istifadə etməyi bacarırdı.

14 yaşlı Ərtoğrul ilk şeirlərinin təsirindən çıxmasa da yeni fikirlər, ideyalar onun qələmini daha da oxunaqlı edir.

Dalğaların axını coşqun,kinli, əsəbi,
Çünki qırıb ayırmış yüzlərcə incə qəlbi...

Yuxarıdakı misralarda olan yetkin fikirlər şeirə H.Cavid toxunuşunun var olduğunu göstərir. Nümunəyə əsasən, əvvəldə dediyimiz hipotezin doğruluğunu əyani şəkildə sübut edirik. Ə.Cavidin "Ay" şeirinə də həmin yanaşmaların həqiqiliyini tədqiqatçı Solmaz Haşımova da təsdiqləyir:

Buludlar qarışmış parlayan aya,
Sakitlik çökmüşdü güllü baxçaya,
Yaşıl ormanlara,dənizə, çaya
Fəqət bu səhnəyə uyan olmadı
Buludlar qarışmış parlayan aya,
Bayğınlıq çökmüşdü güllü tarlaya,
Dərdini söylərkən inləyən çaya,
Yazıq! Fəryadına uyan olmadı

Bəndlərdəki nümunələrdən aydın olur ki, Ə.Cavidin şeirində nikbinlik əsasdır, H.Caviddə isə bu xətt bədbinliklə əvəz olunub.

Bu qəlibdən olan şeirlərdən biri də 1931-ci ildə qələmə aldığı " Göyərçin naləsidir". Burada uşaq düşüncə və psixlogiyasına xas olmayan ifadə və yanaşmalar tərəddüd doğurur.("Həyata əlvida etdim, küçücük qurşunla məzara getdim, rəzalət, səfalət içində yandım və.s) Bu fikirlərdən belə qənaətə gəlirik ki, şeir uşaq beyninin məhsulu deyil.

Sonrakı illərdə Ərtoğrul Cavid yaradıcılığında cilalanma, püxtələşmə görürük. Həm sənətkarlıq, həm də forma və məzmun cəhətdən zənginlik hiss olunur. Artıq təbiət lövhələri öz yerini sevgi, məhəbbət mövzusuna verir. Şeirlərindən birində Nizami qəzəlinin ab-havası açıq-aydın hiss olunur.(bax:"*Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi"*)

Gəl ilıq dodaqların
Mənliyimi isitsin,
Ətirli yanaqların
Cismimi sərxoş etsin.
Birdən gözlərimi açınca qandım,
Gördüyüm yuxudan özüm utandım.

Şeiri bütöv oxuduqda aşiqin utancaqlığı, eşqə sadiqliyi, ülvi və saf məhəbbət hissləri duyulur. Məhəbbət mövzulu digər şeirlərində daxili və xarici gözəllik vəhdətdə verilir. Bu nüans şeiri daha da maraqlı edir.

Ə.Cavid yaradıcılığında mənsur şeir anlayışına geniş yer verilib. Nümunələrə baxdıqca orijinal poetik obrazlar, canlı nitq ünsürləri, səmimi duyğular və digər sənətkarlıq xüsusiyyətləri nəzərə çarpır. Məsələn, "Gülümsər qız" mənsur şeirində "gözü açıq korlar kimi, sən ixtiyar bəşərin gülümsəməyindən doğuldun" ifadəsində müəllifin vurğuladığı gözlər - bəsirət gözüdür, baxışların gözəlliyidir.

Həcmcə nisbətən böyük mənsur şeirləri sırasında "Sükutun əks-sədası əsəri gəlir. Şeirdə "Sükutun əks-sədası olurmu? Olursa necə və hansı şəkildə, ölçüdə olur... Gənc istedadın yazıda vurğuladığı fəlsəfi fikirlər, onun böyük hiss və həyəcanından irəli gələn duyğulardır. Bu şeiri şairin bədii axtarışlarının bəhrəsi kimi düşünə bilərik.

Hansı daha dəhşətli? Hansı daha sarsıdıcı?
Əvvəlki səsli hadisəmi, sonrakı sükutmu?
Budur sükutun hikməti.

Şeirdən verdiyimiz nümunədən aydın olur ki, əsas məqam "səs və sükutdur". Hər şeyin təməlində bu iki anlayış dayanır. Şairin ifadə etdiyi "Sükutun əks-sədası yenə sükutdur" deyiminin bünövrəsində yenə sükut dayanır. Bu sükut bizim daxilimiz, özümüzü dinləməyimizdir. Müəllif "duyun,dinləyin" ifadələrini yenə bu aspektdən işlədib (Qəlbimizə atılan atəşi duyun). Şeirdə istifadə olunan deyimlər əsərin bədiiliyini artırır.

Şairin şeirlərində toxunduğu mövzulardan biri ictimai-siyasi motivi əhatə edir. Qələmə aldığı şeirlərdən görürük ki, yaşadığı sosial-siyasi problemlərə biganə yanaşmayıb. "Qalibiyyət nəğməsi" şeirini müharibə əleyhinə yazıb:

Qoy partlasın minalar,dinamitər,bombalar
Doğma yurdu, vətəni qorur gənclər,qocalar
Ayroplanlar uçacaq,qanatların açacaq,
Qartal kimi atılsan paraşyutlar saçacaq.

Şeirdə gələcəyə ümid işığı görürük. Bu fikir vətəni sevməkdə təzahür olur. Əsərdə ilk baxışdan SSR-nin qalibiyyət harayı kimi yanaşılsa da, bu münasibət milli-vətən səciyyəsi daşıyırdı. Şeirdə gözü yaşlı analar da unudulmur:

Qalibləri salamlar, dağlar, daşlar, qayalar,
Sevinəcək, güləcək gözü yaşlı analar.

Ə.Cavid 1939- cu ildə İspan qadını dilindən layla" şeirini yazır. Müharibənin insan taleyinə gətirdiyi bəlalardan, fəlakətlərdən danışılır. Şeir təhkiyə şəkilində verilir, danışan şəxsin ailəsindən başlayan fikirlər daha sonra "bəşəri məsələ" səciyyəsinə qaldırılır. Şair nənəni(qəhrəmanı) daim mübariz olmağa səsləyir,düşməni məhv etmək lazımdır fikirini aşılayır. Balaca uşağa müraciətlə deyilən hər kəlimənin altında humanizim, mübarizlik inam hissi yatır. Əsərdə yaradılan adın obrazı bütöv vətəni təmsil edir, ümumi kontekstdə milli gerçəkliyə söykənir. Şeir şairin yaradıcılığının zirvəsi sayıla bilər. Əlyazmada şair şeirin qafiyə sistemini özü yazıb:(2,2,2,2,2,2,2,2; 4+3+3+4; 3 +4; 2+4+2+3; 2+3; 2,2,2,2,2,2,2,2). Şeirin dili anlaşıqlıdır, oxucular tərəfindən asanlıqla qavranılır.

TƏDQİQAT METODU: Məqalədə faktların toplanması və seçilməsi metodundan istifadə edilmişdir.

NƏTİCƏ : Ə.Cavidin şeir yaradıcılığında təbiət, onun gözəlliyi, harmoniyası, qısa ömründə gördüklərindən, yaşadıqlarından və onlardan çıxan nəticələrdən əldə etdiyi məsələlər və problemlər əsas işlənmə əhatəliyi ilə üstünlük təşkil edir. İlk zamanlar şeirləri uğurlu poetik nümunələr sayılmasa da, sonrakı şeirlərində ədəbi cəhətdən yenilənmələr görürük. Müəllifin tutmuş olduğu mövqe onun gələcəkdəki ədəbi fəaliyyətinin uğurlu olmasının bir təsdiqi idi. İlk şeirlərini təhlilə cəlb etdikdə aydınlaşdı ki, atası H.Cavidin təsiri və rolu böyükdür. Ə.Cavid poeziyaya ötəri həvəs kimi yanaşmamış, öz üzərində işləmişdir. Şairin lirikasında axtarışlar sistematik xarakter daşımır, əksər hallarda mənsur şeirə müraciət edir. Onun bu şeirləri ilə ilk yazdıqları arasında struktur- forma baxımından fərqlilik olsa da, mövzu baxımında eynilik təşkil etdiyinin şahidi oluruq.(eşq-məhəbbət, ictimai-sosial). Ə.Cavid şeirlərində insan psixologiyasına təsir etməyə çalışırdı, bu təsir insanın "daxili dünyasının və xarici aləmin" bir-birinə təsiri idi. Nakam həyat yaşayan şair bu qısa ömrümdə özünə bir yaradıcılıq yolu axtarışında idi və tapdı da.

ƏDƏBİYYAT SİYAHISI:

1. Həşimova Solmaz Kaloğlan qızı "Ərtoğrul Cavidin ədəbi-elmi irsi",AMEA Nizami adına Ədəbiyyat İnstitutu,2002**.(kitab)**
2. Bəhruz Axundov " Ərtoğrul Cavid ömrünün dəyərli yadigarları",525-ci qəzet,2009**(jurnal məqaləsi)**
3. Sərxan Xavəri,Seyfəddin Rzasoy,"Milli folklor yaddaşı və Ərtoğrul Cavid" Xalq qəzeti.-2002,8 may.-S.9. **(jurnal məqaləsi)**
Gülbəniz Babaxanlı "Ərtoğrul Cavid", Ədəbiyyat qəzeti.2009.11 sentyabr.S.4 **(jurnal məqaləsi)**

AZƏRBAYCAN ƏDƏBİYYATININ DÖVRLƏŞDİRİLMƏSİ: MÜASİR DÖVR

SEVDA HÜSEYNOVA
Bakı Mühəndislik Universiteti
Pedaqoji/ "İngilis dili" kafedrası
shuseynova@beu.edu.az
SUMQAYIT, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işinin məqsədi Azərbaycan ədəbiyyatının dövrləşdirilməsinə dair aparılan elmi araşdırmaları, mütəxəssis yanaşmalarını, görkəmli alim və akademiklərimizin fikirlərini, təsnifatlarını təhlilə cəlb etmək və bu dövrləşdirmədə "Müasir Azərbaycan ədəbiyyatı"nın yerini müəyyən etməkdən ibarətdir. Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixi inkişaf yolunun tədqiqi proseslərində zaman və ədəbiyyat məsələsi həmişə əsas faktorlardan biri olmuşdur. Azərbaycan ədəbiyyatı həmişə bütün inkişaf mərhələlərində həm də zamanın ən aparıcı ideyalarını formalaşdırmış, proseslərin inkişafında əsas hərəkətverici qüvvə funksiyasını

yerinə yetirmiş, xalqı və ictimai fikri ümummilli ideallar uğrunda mübarizəyə doğru aparmışdır. Bu baxımdan, Azərbaycan ədəbiyyatında müasir dövrün öz başlanğıcını məhz hansı tarixi perioddan götürdüyü maraq doğurur və elmi tədqiqat üçün yeni sual yaradır.

AÇAR SÖZLƏR: dövrləşdirmə, müasir dövr, milli məfkurə

GİRİŞ

Azərbaycan ədəbiyyatı xalqımızın milli-mənəvi dəyərlərini, milli varlığını və özünəməxsusluğunu əks etdirən milli kimliyidir. Ona görə də bu ədəbiyyatın dövrləşdirilməsi Azərbaycan xalqının mədəni və mənəvi təkamül prosesini, ədəbiyyatın keçdiyi inkişaf yolunu və onun daxili qanunauyğunluqlarını ehtiva etməlidir. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının dövrləşdirilməsinə dair fərqli baxışlar, müxtəliflik və pərakəndəlik mövcud idi. Bu isə öz növbəsində Azərbaycan ədəbiyyatşünaslıq elmində milli ədəbiyyat tarixinin dövrləşdirilməsinə dair yeni elmi konsepsiyanın hazırlanması zərurətini meydana çıxarırdı. Bu istiqamətdə Yaşar Qarayevin, Nizami Cəfərovun, İsa Həbibbəylinin, Vəli Osmanlının, Nazif Qəhrəmanlının, Bədirxan Əhmədovun, Alxan Bayramoğlunun, Təyyar Salamoğlu və başqalarının irəli sürdükləri müddəalar, konseptual versiyalar, dövrləşdirmənin müasir modeli diqqətəlayiqdir.

Ədəbi tənqidçi Nazif Qəhrəmanlının dövrləşdirmə konsepsiyasında əsas prinsip tarixilik prinsipidir. O, belə hesab edir ki, hər hansı yeni konsepsiya Azərbaycan tarixinin inkişaf dinamikasına və tarixi hadisələrə əsaslanmalıdır. N.Qəhrəmanlı Azərbaycan ədəbiyyatı dövrləşdirməsində XIX əsrə qədərki dövrü "Klassik dövr", XIX-XX əsrlərdə yaranmış ədəbiyyatı isə "Müasir dövr ədəbiyyatı" adlandırır [1, s.111].

Nazif Qəhrəmanlıdan fərqli olaraq Yaşar Qarayev dövrləşmədə ədəbi prosesin özünün hərəkət və inkişaf dinamikasıının əsas götürülməsini məntiqli hesab edir. Onun təsnifatında ilk mərhələ e.ə. IX əsrdən başlayaraq bizim eranın VI-VII əsrlərinə qədər davam edir. İkinci mərhələ isə VII əsrdən başlayaraq XVIII əsri əhatə edir. Y.Qarayev XIX-XX əsr ədəbiyyatını ayrıca tədqiqata cəlb etmiş, bu dövrün ictimai-tarixi, bədii-mədəni inkişafdakı rolunu geniş kontekstdə öyrənmişdir və Azərbaycan ədəbiyyatının bu mərhələsini "Yeni dövr ədəbiyyatı" adlandırmışdır.

Ədəbiyyatşünas alim Nizami Cəfərov dövrləşdirmənin ədəbi-estetik, etnik-kulturoloji, ictimai-siyasi prinsiplərə əsaslanaraq aparılmasının ədəbiyyatın təkamül yolunu hərtərəfli təsvir etməyə imkan yaradacağı qənaətindədir. Bu prinsiplərə əsaslanaraq, N.Cəfərov Azərbaycan ədəbiyyatı tarixini Qədim dövr (V-XII əsrlər), Orta dövr (XIII-XV əsrlər), Yeni dövr (XVII əsrdən XX əsrin əvvəllərinə qədərki dövr), Müasir dövr (XX əsrin əvvəllərindən bu günə qədər) adlandırdığı mərhələlərə bölmüşdür [2, s.30].

"Azərbaycanşünaslığa giriş" adlı kitabında N.Cəfərov müasir Azərbaycan ədəbiyyatının tarixini hardan, hansı ədəbi- estetik, etnik- kulturoloji, ictimai- siyasi hadisədən başlamalı olduğuna dair sual irəli sürür. Cavabında isə belə qeyd edir:

"...1920-ci ildənmi? ...1910-cu ildənmi? əsrin ilk ilindənmi? Görünür, Azərbaycan Xalq Cümhuriyyəti dövründən milli azadlıq, müstəqillik uğrunda mübarizə ideyalarının çiçəkləndiyi illərdən başlamaq daha doğru olardı" [2, s.32-33].

N.Cəfərov fikrini belə əsaslandırır ki, 1918-20 ci illərin açıq ədəbi- ideoloji tendensiyaları, 30-cu və 50-ci illərin "boz ədəbiyyatı", 60-cı illərdən etibarən Azərbaycan ədəbiyyatında milli demokratik ideyaların meydana gəlməsi, sovet ideologiyasına müxalif fikirlərin sovet ədəbiyyatının mövqeyini sarsıtması, 70-ci və 80-ci illərdə milliliyin Azərbaycan ədəbiyyatının əsas əlamətinə çevrilməsi, milli azadlıq, müstəqillik uğrunda mənəvi-ideoloji mübarizənin başlanması zəmin yaradır ki, bu dövr Azərbaycan ədəbiyyatı tarixinin "Müasir dövrü" adlandırılsın.

Calal Abdullayev, Tofiq Hüseynoğlu və Vaqif Sultanlının həmmüəllif olduqları 2 cildli "Müasir Azərbaycan ədəbiyyatı" adlı dərslikdə müasir Azərbaycan ədəbiyyatının aşağıda qeyd olunan mərhələlər üzrə özünəməxsus inkişaf yolu keçdiyi qeyd olunur:

1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat (1918-1920)
2. Sovet dövrü Azərbaycan ədəbiyyatı (1920-1990)
3. Müstəqillik dövründə ədəbiyyat (1991- davam edir)

Bu mərhələlərin hər birində ədəbi irsin milli-nəzəri fikir müstəvisində təhlil və tədqiqi aktuallıq kəsb etmiş, ədəbiyyatşünaslığı məşğul edən məsələlər operativ şəkildə diqqət mərkəzində olmuş, çağdaş ədəbi proses dəyərləndirilmiş və ədəbiyyatın nəzəri-estetik problemlərinin araşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsi məsələsi XX əsrin 90-cı illərində başlamış və XXI əsrdə yenidən, əsaslə şəkildə icra edilmişdir. Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" adlı kitabında Azərbaycan

ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi üçün konseptual baxımdan aşağıdakı prinsiplərə əsaslanmağı faydalı hesab edir:

1. Azərbaycançılıq məfkurəsi
2. Sivilizasiya faktoru
3. Ədəbi-tarixi prosesin reallıqları
4. Azərbaycandakı ədəbi cərəyanlar [3, s.96].

Akademik İ.Həbibbəyli bu prinsiplərə əsaslananraq Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatını aşağıda qeyd olunan modelin üzrə təqdim etmişdir:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər)
2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər)
3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər)
4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)
5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər)
6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr)
7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin 90-cı illərindən Azərbaycanda sovet hakimiyyətinədək)
8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər)
9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər)
10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən) [3, s.114].

Dövrləşmənin bu elmi təsnifatı tədqiqatçılara geniş imkanlar yaradır. Belə ki, bu təsnifatda bu gün var olan müasir Azərbaycan ədəbiyyatı hansısa illərlə çərçivələnmir, hansısa bir tarixi dövrə təhkim edilmir. Çünki çoxəsrlik inkişaf dövrü keçmiş müasir Azərbaycan ədəbiyyatı elə mövcud olduğu hər bir mərhələnin özüdür, tarixi proseslərin inikasıdır, milliliyin, milli özünüdərkin bədii manifestidir. Bu dövrləşdirmə hansısa ideoloji-siyasi prinsiplər və ya ictimai formasiyalar nəzəriyyəsinə deyil, milli təfəkkür faktoruna, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycançılıq məfkurəsinə əsaslanır [4, s.26-27].

TƏDQİQAT METODU

Tədqiqat zamanı ədəbi tənqidçilər Nazif Qəhrəmanlı, Yaşar Qarayev, Nizami Cəfərov, Calal Abdullayev, Tofiq Hüseynoğlu, Vaqif Sultanlı, və akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi istiqamətində irəli sürdükləri prinsip və meyarlardan, bunların əsasında aparılmış dövrləşdirmədən nümunələr gətirilmiş, əlavə mənbələrə müraciət olunmuşdur. Bundan əlavə, tədqiqat zamanı faktların təhlilində müqayisəli-analitik və deduktiv metodlar tətbiq edilmiş, Azərbaycan ədəbiyyatşünaslığının nəzəri təcrübəsindən istifadə edilmişdir.

NƏTİCƏ

Ümumilikdə, bu müqayisələrdən də aydın görünür ki, istənilən ədəbi dövrləşdirmə nisbidir, ədəbiyyat tarixinin dəqiq konturlarını cızmaq mümkün deyil. Hətta bəzən bir əsrin sonu, digər əsrin əvvəllərində yaşayıb-yaratmış müəyyən sənətkarların, yazıçıların hansı dövrə aid olmasını müəyyənləşdirmək çətin olur. Amma ümumiləşdirmə apararaq belə nəticəyə gəlmək olar ki, Stalindən, Mircəfər Bağırovdan sonrakı mərhələdə Azərbaycan SSR-in ictimai-siyasi həyatında milli məsələlərin tədricən gündəmə gətirilməsi əsas meyillərdən birinə çevrilir. Həmin illərin əhəmiyyətliliyinə görə ən mühüm hadisələrini müəyyənləşdirməyə çalışsaq, ilk növbədə 30-cu illərin repressiya dövrünün bəzi qurbanlarına bəraət verilməsini, Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusu məsələninin açıq müzakirəyə çıxarılmasını mütləq qeyd etməliyik. Dil məsələsinin ictimai müzakirəsi 1956-cı il 25 avqust tarixində Azərbaycan SSR Ali Soveti ölkə Konstitutsiyasına dövlət dilinin Azərbaycan dili olması haqqında maddənin əlavə edilməsi barədə qanunun qəbul edilməsi ilə nəticələnir. Beləliklə, Azərbaycan dili hüquqi status aldı, dövlət idarələrində, ictimai və mədəni sahələrdə rus dili əvəzinə rəsmən Azərbaycan dilindən istifadə edilməyə başlandı. Belə bir milli bir məsələdə islahatın həyata keçirilməsi 60-70-ci illər ədəbiyyatının ideya, məzmun və estetik keyfiyyətinə müsbət mənada təsir etmişdir. Belə ki, bu dövrə qədər istər nəsr, istərsə də poeziyada, "formaca milli, məzmunca yad" xarakterə malik Azərbaycan ədəbiyyatı artıq özünün milli nəsr ənənələrini formalaşdırmağa başladı [5]. Bu mərhələdə millilik məsələsi ilə insan taleyi bədii məzmunda hibridləşməyə başladı: artıq əsərlədrə təsvir olunan tale tək formaca deyil, həm də məzmunca Azərbaycan insanına məxsus idi. Bütün bu proseslər və ədəbiyyat üzərindəki avtoritar nəzarətin nisbətən yumşalması yazıçıların müstəqilliyinin artmasına, nəsrin özünüifadə imkanları və potensialının inkişaf etməsinə şərait yaratdı. Fikrimizcə, müasir Azərbaycan ədəbiyyatının başlanğıcını məhz bu dövrdən, yəni 1960-ci illərdən götürsək, ədəbiyyatşünas alimlərimiz bizimlə razılaşarlar.

ƏDƏBİYYAT SİYAHISI
1. Qəhrəmanlı, N. Milli ədəbiyyat tarixçiliyi : genezis, inkişaf, dövrləşdirmə problemləri / N.Qəhrəmanlı. -Bakı: Elm, -2002. -124 s.
2. Cəfərov, N. Azərbaycanşünaslığa giriş / N.Cəfərov. -Bakı: AzATaM, -2002. -602 s.
3. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Həbibəyli. -Bakı: Elm, -2019. -452 s.
4. Mustafayev, M. Ədəbiyyat tariximizin yeni dövrləşdirilməsi // Ədəbiyyat qəzeti. - 2020, 1 fevral. URL: HTTP://WWW.ANL.AZ/DOWN/MEQALE/EDEBIYYAT/2020/FEVRAL/699706.HTML
5. Məmmədli, M. XX əsr Azərbaycan ədəbiyyatına dair qeydlər - 60-70-ci illər (II yazı). -8 iyul, 2015. URL: https://yarpaq.az/az/malik-memmedli-xx-esr-azerbaycan-edebiyyatna-dair-qeydler-60-70-ci-iller-ii-yazı/

AŞIQ ƏLƏSGƏRİN ŞEİRLƏRİNDƏ AZƏRBAYCAN GÖZƏLİNİN BƏDİİ OBRAZI

İlkin GULUSOY
Doç. Dr.
Kafkas Üniversitesi, Türkiye
ilkingulusoy@gmail.com
ORCID ID: 0000-0002-0768-9803

Xülasə:
Azərbaycan aşıq sənətinin ən böyük nümayəndələrindən biri olan Aşıq Ələsgərin yaradıcılığı həm məzmun və forma rəngarəngliyi, həm də canlı xalq dilindən istifadə baxımından zəngin olub, türk xalq şeiri arasında xüsusi yerə sahibdir. Qoşma, dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növlərində ölməz sənət nümunələri yaradaraq Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer qazanan Aşıq Ələsgər qoşmalarında gözəllərin təsvirinə geniş yer ayırmışdır. Aşıq bu qoşmalarda qadın gözəlliyindən bəhs edərkən saç, üz, göz, dodaq, yanaq, diş, qaş, dil, boy, qamət, əndam, sinə kimi üzvləri yüksək sənətkarlıqla şeirə gətirmiş, məcazlı söz sənətindən ustalıqla istifadə edərək Azərbaycan gözəllərinin poetik obrazını yaratmışdır.
Açar sözlər: Azərbaycan, Aşıq Ələsgər, qoşma, gözəllər, üz, qaş

Azərbaycan aşıq ədəbiyyatının ən böyük nümayəndələrindən biri olan Aşıq Ələsgərin yaradıcılığı həm məzmun və forma rəngarəngliyi, həm də canlı xalq dilindən istifadə baxımından zəngin olub, türk xalq şeiri arasında xüsusi yerə sahibdir. Demək olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət edən Aşıq Ələsgər qoşma, dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növlərində ölməz sənət nümunələri yaradaraq Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer qazanmağa nail olmuşdur.

1821-ci ilin baharında indiki Ermənistan ərazisində yerləşən qədim türk torpağı Göyçədə dünyaya gələn Aşıq Ələsgər ailənin ilk övladı olmuş, uşaqlıq və yeniyetməlik illəri Ağkilsədə keçmiş, xüsusi təhsil ala bilməmişdir. Yeniyetmə çağına gəldikdə səkkiz nəfərlik ailəni dolandırmaqda çətinlik çəkən atasına kömək etmək məqsədilə Kərbalayı Qurbanın yanında nökər olaraq çalışmağa başlamışdır. Kərbalayı Qurban Ələsgərə qarşı çox yaxşı davranmış, hətta yeganə övladı Səhnəbanu ilə aralarındakı münasibətə sevinmiş və onları evləndirmək istəsə də, qardaşı Pullu Məhərrəm qızı güclə oğlu Mustafaya alaraq bu işə əngəl olmuşdur (Ələsgər, 2004: 568). Hələ nökərlik illərindən şeir qoşan və sevgilisini vəsf edən Ələsgər bu hadisədən çox üzülmüş, 40 yaşına qədər subay qalmış, evləndikdən sonra da uğursuz sevgisini şeirlərində bədii boyalarla əks etdirmişdir.

Kərbalayı Qurbanın evindən ayrılandan sonra atası Alıməmməd kişi ona saz almış, dərs almaq üçün Aşıq Alının yanına qoymuşdur. Aşıq Alının yanında 5 il aşıqlıq sənətinin incəliklərini öyrənən Ələsgər Qızılbulaq kəndində təşkil olunan bir məclisdə ustadı ilə deyişmiş, "A yağa-yağa" dodaqdəyməz təcnisini oxumuş, Aşıq Alı ona cavab verə bilməyincə məclisi tərk etmişdir. Ələsgər isə böyük təvazökarlıq hissi ilə ona öz ehtiramını

Bir şəyird ki, ustadına kəm baxa,
Əlbəttə, gözünə qan damar, damar. - sözləri ilə ifadə etmiş, ustadına xəyanət etmədiyini dilə gətirmişdir.
Aşıq Alının yanından ayrılıb özü müstəqil şəkildə fəaliyyətə başlayan Aşıq Ələsgərin şöhrəti qısa zamanda ətraf kənd və şəhərlərə yayılmış, el şənliklərinə dəvət almağa başlamışdır. O, ustad bir sənətkar kimi İrəvana, Naxçıvana, Qazaxa, Qarabağa, Cavanşir ellərinə, Gəncəyə, Kəlbəcərə çağrılmış, hər yerdə özünün yüksək mərifəti, ədəbi, gözəl səsi, bənzərsiz ifası ilə məclisdəkiləri heyran qoymuşdur. Əslində, V. Vəliyevin də qeyd etdiyi kimi, Aşıq Ələsgərin qüdrətli bir sənətkar kimi yetişməsinin tarixi kökləri də vardır, Aşıq Ələsgər, bir tərəfdən, ozan-aşıq sənətinin Yunus Əmrə, Molla Qasım, Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Qaracaoğlan, Xəstə Qasım, Ağ Aşıq, Aşıq Alı və b. bu kimi sənətkarların saz və söz dünyasına söykənirdisə, o biri tərəfdən, yazılı poeziyamızda özünə möhkəm yer tutan M. P. Vaqif ədəbi məktəbindən qida alırdı." (Vəliyev, 1985: 216). O, özünəqədərki aşıq ənənələrini təqlidçilik, təsvirçilik, məhdud tərənnümçülük səviyyəsindən yüksək milli-mənəvi, əxlaqi dəyərləri əks etdirən, sənətkarlıq cəhətdən kamil mərhələyə yetirə bilmişdir (Nəbiyev, 2006: 201). Bu böyük aşığın bir əsrə yaxın çalıb-çağırdığı nəğmələr, bədahətən yaratdığı sənət inciləri zamanın sınağından şərəflə çıxmış, hafizələrdə yaşayaraq nəsildən-nəsilə keçmiş, geniş şöhrət qazanmışdır (Əlimirzəyev, 2009: 462). Aşıq Ələsgər müxtəlif şəkli xüsusiyyətlərə malik cinas qafiyələrdə, təcnis tiplərində sözün qüdrətli sehrini yaratmış, Azərbaycan dilinin geniş, çoxcəhətli poetik imkanlara malik olduğunu nümayiş etdirmişdir. O, danışıq dilinin zəngin söz cəbbəxanasını üzə çıxarıb xalqın istifadəsinə vermişdir. XIX-XX əsr Azərbaycan aşıq yaradıcılığının təxminən yüz ilə yaxın dövrünü əhatə edən bir mərhələsinin məzmun və sənətkarlıq baxımından tarixi yüksəlişinin zirvəsində durmuşdur (Nəbiyev, 2006: 201).
Aşıq Ələsgərin düzüb-qoşduğu şeirlər içərisində gözəlləmələr, aşiqanə qoşmalar çoxluq təşkil edir. Gözəlləmələr, demək olar ki, hər bir aşığın, el sənətkarının yaradıcılığında mühüm yer tutur və onun bədii söz sənətində önəmli rola sahibdir. Ə. Mirəhmədov "Ədəbiyyatşünaslıq" ensiklopedik lüğətində gözəlləmə haqqında yazır: "Çox vaxt qoşma və müxəmməs formalarında yaradılan gözəlləmədə şair, yaxud aşıq qəşəng qız və gəlinlərin, bəzən də sevgililərinin gözəlliyini, ağıl və mərifətini təsvir, onlara hörmət və məhəbbət duyğularını tərənnüm edirlər." (Mirəhmədov, 1998: 111). Aşıq Ələsgərin bədii ifadə baxımından zəngin olan qoşmalarında da bu xüsusiyyət özünü eynilə göstərir. "Molla Pənah Vaqifin qoşmalarında olduğu kimi, Ələsgər şeirində də Azərbaycan qızlarının təbii gözəlliyi incə bir zövqlə tərif olunur. O, dəbdəbəli, real varlıqdan təcrid olunmuş qadın obrazları yaratmır, onun tərif etdiyi gözəllər rast gəldiyi, gözü ilə gördüyü Azərbaycan qızlarıdır." (Vəliyev, 1985: 216). Zahiri və daxili gözəlliyi birlikdə dəyərləndirən Aşıq Ələsgərə görə gözəlin tərifi "Ola" və "Qanan ola" qoşmalarındakı kimidir:

Hər yetən gözələ "gözəl" demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Hər görəndə həsrət ilə sarışa,
Deyə, gülə şirin-şirin danışa.
Əl dəyəndə tez-tez küsə, barışa,
Ortalıqda söhbət ola, saz ola.

Nə uzun, nə gödək, münasib gərək,
Ağzı, burnu nazik, dodaq kip gərək,
Əndam büllur, bədən güldən saf gərək,
Baxtın vura, bu nişanda qız ola.[1] ("Ola")

Can qurban eyləsən, layıqdı, layıq,
Bir yar ki, mətləbi tez qanan ola.
İşarətlə, qaş-göz ilə anlaya,
Nəinki deməklə söz qanan ola.

Canım qurban olsun o əhli-dilə,
Qaşların oynada, gözündən gülə,
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola.

Belə yar yetirə baxtın kövkəbi,
Dəsti qana ürəkdəki mətləbi.
Nə lazım dil deyib, tərpətmək ləbi,
Nə keçsə könlündən düz qanan ola.

Ələsgər söyləyər söz müxtəsərin;
Ağlı kamil ola, kamalı dərin.
Eşidənlər deyə "əhsən", "afərin",
Əgər məclisində yüz qanan ola. ("Qanan ola")

[1] Aşığın şeirlərindən verdiyimiz bütün nümunələr *Aşıq Ələsgər (2004), Seçilmiş əsərləri (Bakı, Şərq-Qərb)* adlı kitabından götürülmüşdür.

E. Əlibəyzadənin təbirincə desək, bu parçaların bədiiliyini təmin edən, ilk növbədə, onun sadəliyidir. Buradakı bədiilik eyni zamanda fikrin dürüstlüyündən doğur; beytlər tamamilə adi, həyati təsvirdən ibarətdir. Azərbaycan gözəlinə aid el arasında yayılmış məlum fikirlərin arzu şəklində ifadəsidir; şair gözələ məxsus səciyyəvi cəhətləri sadəcə, amma poetik zövqlə saymışdır. …Həmin parçaların bədiiliyi, estetik zövq verən, ürəyə yatan cəhəti də bu əlamətlərin seçilib həyatda olduğu kimi doğru və səliqəli, canlı dildəki kimi şirin və koloritli verilməsidir (Əlibəyzadə, 2008: 307).

Fikri lirik şəkildə vermək, hər hansı konkret hadisəyə və yaxud gözəlliyə öz mövqeyini bildirərək onu qələmə almaq aşıq yaradıcılığının əsas xüsusiyyətidir (Əskər, 2016: 65). Hər zaman qadın gözəlliyi, vətən təbiətinin füsunkarlığı aşıqların telli sazına söz incilərindən bəzək vermişdir. Klassik aşıqlar öz şeirlərində təmiz, ləkəsiz, boyasız, müqəddəs duyğuları tərənnüm etmişlər." (Həkimov, 1982: 9). Aşıq Ələsgərin qoşmalarında da real insanların tərənnümü xüsusi yer tutur. M. İbrahimov yazır ki, …realizm aşıq poeziyasının həm mündəricəsinin həyatiliyində, xalqın mübarizəsini, gündəlik həyatını, arzularını əsk etdirməsində, həm də lirik qəhrəmanın real psixoloji cizgilərlə təsvirində, poetik formasının xalqa yaxın olmasında özünü göstərir (İbrahimov, 1966: 6).

Aşıq Ələsgərin gözü tutan el gözəllərinə münasibəti sadəcə xoş söz ya tərif deməkdən ibarət deyildir, o, yeri gələndə, el məclislərində qarşılaşdığı qadınlarla zarafatlaşmağı sevir, bir yandan onların gözəlliyini nəzmə çəkirsə, bir yandan da məclisi şənləndirmək, izləyicilərin diqqətini çəkmək üçün zarafatından qalmır:

Kamil ovçu ölməyincə usanmaz,
Əldən qoymaz belə sərxoş maralı.
Eşq oduna düşən aşkara yanmaz,
Pünhan-pünhan mənim kimi saralı…

Aşıq Ələsgərəm, söylənir adım,
Budu ürəyimdə mətləb-muradım:
Sənin ərin ölsün, mənim arvadım,
İkimiz də qalaq yaslı, yaralı (Kamil ovçu ölməyincə usanmaz).

Xalqın içindən çıxıb görüb-yaşadıqlarını qoşmalarında canlı və obrazlı bir şəkildə ifadə edən Aşıq Ələsgərin poeziyasında fiziki və mənəvi kamillikləri tərənnüm olunan insanın bütün gözəlliyi sənətkarın gözəllik haqqında bədii zövqünə bağlanır. Aşığın zövqü, istək və arzuları sevgiliyə münasibətində, gözəlin zahiri və mənəvi aləminin təsvirində özünü daha qabarıq göstərir. Onun elə qoşmaları vardır ki, onların hər birində Azərbaycan gözəlinin rəsmi çəkilir, bədii boyalarla təsvir və tərənnüm olunur:

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi,
Şəkər söhbətlidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi. (Gedibdi)

Xoş saatda xoş gəlibdi cahana,
Yoxdu gözəlliyə qüsur, bəhana,
Qənd əzilib dilə, dişə, dəhana,
Qaymaq dodaqlara bal bələnibdi. (Görürsənmi oğrun baxan gözəli)

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır. (Dolanır)

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala.
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, sarı köynək! (Sarı köynək).

Aşıq bu gözəllərin poetik obrazını yaradarkən məcazlı söz sənətindən, bədii təsvir və ifadə vasitələrindən ustalıqla istifadə etmişdir. Bunlar aşığın gördüyü, könlünün sevdiyi sadə, mehriban, namuslu, izzətli, həyalı, boylu-buxunlu el qızları, kənd gözəlləridir. Aşıq bu gözəlliyin elə detallarını açıqlayıb vəsf eləyir ki,

onun bütün çalarları göz önündə canlanır. Onun məhəbbət dünyasında Tellinin, Güllünün, Xurşudun, Güləndamın, Şəkərxanımın, Müşkünazın, Bəyistanın, Mələyin öz yeri vardır, onların hər birinin şəxsində Azərbaycan gözəlinin bədii obrazı ümumiləşdirilmişdir.

Ələsgər divan ədəbiyatında və aşıq yaradıcılığında olduğu kimi, qoşmalarında qadın gözəlliyini təsvir edərkən daha çox saç, üz, göz, dodaq, yanaq, diş, qaş, dil, boy, qamət, əndam, sinə kimi leksik vahidlərdən istifadə etmişdir. Doğan Kayanın da yazdığı kimi, "sevgilinin güzelliği tasvir edilirken, gerek aşık gerekse divan şiirinde hemen hemen aynı uzuvlar göz önüne alınmaktadır. Şu farkla ki, divan şairleri, çok daha yüce hayallerle, çok daha fazla sıfat ve mecazlarla sevgiliyi övmüş, onu en güzel şekilde tasavvur etmiştir. Halk şairleri ise, divan şairlerine nazaran daha yalın ve daha samimi tarzda sevgiliyi övmüştür (Kaya, 2000: 265).

Ümumiyyətlə, "Aşıq poeziyasında sövq-təbii olaraq dünyəvi gözəllik, insanın, təbiətin göz-könül oxşayan ahəngdar varlığı, fiziki kamilliyi uydurma, xəyali gözəlliklərə qarşı qoyulur. Aşıq sevgilisinin gözəllik təcəssümü olan gözlərində, al yanağında, büllur buxağında, inci kimi dişlərində, nazəndə yerişində, həmahəng qamətində, incə gülüşündə, ağıllı danışığında bu gerçək dünyanın gözəlliklərinin zirvəsini, tacını görür." (Əfəndiyev, 1983: 51).

Aşıq Ələsgərin də bəyəndiyi qızların hər birinə aid fərdi xüsusiyyətləri vardır, bunlar ay/ayna qabaqlı, nazik barmaqlı, şümşad əlli, şəkər söhbətli, şirin/tutu dilli (*Nazik barmaqlıdı, şümşad əllidi, Ayna qabaqlıdı, siyah tellidi, Şəkər söhbətlidi, şirin dillidi, Tuti kimi xoş zəbanım gedibdi; Ay nazənin, ay qabağın altından Nə göyçək çəkilib qara qaşların; Açıldı niqabın ay qabağından, Aldı başdan ağlı, kamalı, Xurşid*), ala gözlü, qələm qaşlı (*Səni gördüm, əl götürdüm dünyadan, Ala gözlü, qələm qaşlı Güləndam; Tovuz kimi şux bəzənib durubsan, Ala gözə siyah sürmə vurubsan; Getmə göz önündən, ay Şəkər xanım, Könül mayıl olub o qələm qaşa; Ala gözlərinə gözüm sataşdı, Əridi ürəyimin yağı qırmızı; Çərşənbə günündə, çeşmə başında, Gözüm bir alagöz xanıma düşdü*), mina gərdənli (*Mən sana nə deyim, ay mina gərdən?!*), qaymaq/qönçə dodaqlı (*Qənd əzilib dilə, dişə, dəhana, Qaymaq dodaqlara bal bələnibdi; Ləb qönçə, diş inci, yanağın lala, Çəkilib qaşların yay, sarı köynək; Qabaq ayna – çəkilibdi varağa, Dodaq qaymaq, gül yapışıb yanağa*), alma/lalə yanaqlı, büllür buxaqlı (*Alma yanağını, ay qabağını Görən kimi ağlım çaşdı, Güləndam; Almadı yanağın, büllur buxağın, Dodaqların meyli, məzəli, Güllü; Büllur buxaq, lalə yanaq, ay qabaq, Ala gözlü Səhnəbanım gedibdi*), inci/mirvari/sədəf dişli (*Dodağın qönçədi, dişlərin sədəf, Qaşların qüdrətdən qara, Bəyistan; Dəhanı şahlığın xəzanasıdı, Düzülüb dəndanı mirvari kimi*), sərvi boylu (bəzən də bəstə boylu) (*Tutu dilli, sərv boylu Salatın, Yoxmu mərhəməti bu səltənətin?!*), gül üzlü, ağ əndamlı (*Bəstə boyu, ağ əndamı, gül üzü, Baxdıqca qaşının tağı şirindi*), şahmar zülflü (*Həsrət baxan doymaz ay qabağından, Şahmar zülf tökülüb solu sağından*) və başqa daxili və zahiri əlamətlərə sahib gözəllərdir və hər birinin aşığın qəlbində yeri başqadır. Ancaq onların hamısı aşığın gözündə "gözəllər gözəli" (*Tovuz kimi qalxdın çeşmə başından, Cəmi gözəllərin gözəli Güllü!*), "gözəllər xası" (*Xublar məclisinə güzar eylədim, Gördüm gözəllərin xası seçilmiş*), "gözəllər sultanı"dır (*Gözəllər sultanı, mələklər şahı, Alagöz cananım, getmə, amandı!*). X. Əlimirzəyevin də qeyd etdiyi kimi, hər birinə, ayrı-ayrılıqda bir və bir neçə qoşma, müxəmməs həsr etdiyi bu gözəllərin simasında şair Azərbaycan qadınına xas olan ən ali, ən nəcib mənəvi-əxlaqi keyfiyyətləri ümumiləşdirmiş, onların parlaq, yaddaqalan obrazlarını yaratmışdır (Əlimirzəyev, 2009: 477).

Qoşmalarında təsvir etdiyi qadınların sadəcə zahiri deyil, daxili gözəlliyinə də önəm verən, gözəlliyin əsl mənasını forma ilə məzmun vəhdətində görən Aşıq Ələsgərə görə qadının əxlaqı, mərifəti, ağlı-kamalı da yerində olmalı, insanın halını bir işarədən anlaya bilməlidir:

Canım qurban olsun o əhli-dilə,
Qaşların oynada, gözündən gülə,
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola. (Qanan ola)
Olum sadağası bu gözəllərin,
Mərfətdə kamildi, kamalda dərin. (Seçilmiş)

İşarət eylədim, dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi. (Düşdü)

Ələsgər söyləyər söz müxtəsərin;
Ağlı kamil ola, kamalı dərin. ("Qanan ola")

Bütün bunlarla yanaşı, Aşıq Ələsgərin qoşmalarında sevdiyi gözəllə bağlı arzuları da var; onunla göz-gözə gəlmək, baş-başa qalmaq, nazını çəkmək, bütün sevgililər kimi küsüb-barışmaq, xoş vaxt keçirmək, gülüb-danışmaq və s. Bütün bunlar aşığın "Nə damağı var" adlı qoşmasında elə bir şəkildə ifadə olunmuşdur ki, istər-istəməz şairin arzuladığı mühit, daha doğrusu, bir eşq tablosu göz önündə canlanır:

Göz gözə baxanda məhəbbət ilə,
Ciyər alışmağın nə damağı var!
Ortalıqda işvə, qəmzə, naz olar,
Küsüb-barışmağın nə damağı var!

… Bir o ola, bir sən, bir otaq yalqız,
Deyib-danışmağın nə damağı var!

… Ələsgər, canını, qurban elə sən,
Görməyibsən, ləzzətini biləsən.
Danışasan, oynayasan, güləsən,
Öpüb sarmaşmağın nə damağı var!

Göründüyü kimi, Aşıq Ələsgərin el qızlarına həsr olunan bütün qoşmalarında gözəlin və gözəlliyin təsviri daha real, hissləri daha həssas və təbiidir. Aşığın səmimiyyəti, şeir dilinin axıcılığı, fikrin poetik ifadə zənginliyi şeirlərinə xüsusi bir gözəllik qatmışdır. O, çox şaxəli yaradıcılığı ilə köklü keçmişə malik aşıq sənəti ənənələrinə yeni məzmun qazandırmaqla yanaşı, şeirlərində canlı, xalq dili ilə zəngin poetik obraz yaratma ustalığı, üslubundakı şuxluq və nikbin əhvali-ruhiyyə ilə qəlbləri bu gün də fəth etməkdədir.

Qaynaqca

1. Aşıq Ələsgər (2004), Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb.
2. Əfəndiyev, O. (1983), Aşıq poeziyasının estetik problemləri, Bakı, Azərnəşr.
3. Ələsgər, İslam. (2004), Aşıq Ələsgər / Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, 1-ci cild, Bakı, Elm.
4. Əlibəyzadə, E. (2008). Azərbaycan dilinin tarixi, 2 cilddə, 2-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.
5. Əlimirzəyev, X. (2009), Klassiklərimizin ideal və poetik sənət dünyası, 2 cilddə, 1-ci cild, Bakı, Elm və Təhsil.
6. Əskər, N. (2016). Aşıq Nəsibin yaracılıq yolu, Bakı, Elm və Təhsil.
7. Həkimov, M. (1982). Azərbaycan klassik aşıq yaradıcılığı, Bakı, APİ.
8. İbrahimov, M. (1966), Aşıq poeziyasında realizm, Bakı, EA nəşriyyatı.
9. Kaya, Doğan. (2000), Divan Şiiri ve XIX. Yüzyıl Halk Şiirinde Güzel Tasviri, Âşık Edebiyatı Araştırmaları, İstanbul.
10. Mirəhmədov, Ə. (1998), Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı, Azərbaycan Ensiklopediyası N-PM.
11. Nəbiyev, A. (2006), Azərbaycan xalq ədəbiyyatı, II hissə (orta əsr və yeni dövr folklor yaradıcılığı), Bakı, Elm.
12. Vəliyev, V. (1985). Azərbaycan folkloru, Bakı, Maarif.

QARABAĞ MÖVZULU HEKAYƏLƏRDƏ QALİB DÖYÜŞÇÜ OBRAZI

Rəfiqə Mehdiyeva
Bakı Mühəndislik Universiteti
Filologiya/Azərbaycan ədəbiyyatı
rmehdiyeva1@std.beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

XXI əsrin siyasi arenasında Qarabağ münaqişəsinin daha da aktuallaşması, əlbəttə, ədəbiyyatdan yan keçə bilməzdi. 30 ildir ki, düyün olmuş bu məsələ artıq həllini tapmaqda israrlı idi. Məhz İkinci Vətən müharibəsi dövründə meydanda qazanılan qələbə söz sənətində sükutu pozmuş oldu. Necə deyərlər əsgərlər silaha sarıldığı kimi yazıçı və şairlərimiz də qələmə sarıldılar. Bununla da 44 günlük müharibənin

gətirmiş olduğu zəfər, söz sənətində yeni əsərlərin, yeni obrazların yaranmasına səbəb oldu. Hansı ki bir zamanlar məğlub ölkənin məğlub döyüşçüsü vardı qarşımızda. İndi isə məsələ tamamilə fərqlidir. Bizim də tədqiqat işimizin məqsədi məhz yeni yaranan əsərləri qalib döyüşçü prizmasından araşdırmaq, obrazların təhlillərini vermək, nümunələrin nəsrimizdə oynadığı rolu qiymətləndirməkdən ibarətdir.

AÇAR SÖZLƏR: Qarabağ, hekayə, qalib döyüşçü

GİRİŞ

Kamal Abdullanın "Səngərdəki səs" hekayəsinin qəhrəmanı müharibədən qələbə ilə qayıtmış döyüşçü obrazıdır. Hər nə qədər qalibiyyətli döyüş yolu olsa da, həyatını alt-üst edəcək bir mübarizənin içinə daxil olur. Bu daxili əzablarla dolu savaşda hansı tərəfin qələbəsi ilə bitməsi zamanın ixtiyarındadır. Baş verən hadisələri keçmişə çevirmək, gələcəyə ümid qapısı açmaq insanın ali zəfəri deyə bilərik. Hekayədə qələbə çalmış cavan leytenant və əsgərlərin şəhərlərinə dönməsi ilə yaxınları tərəfindən çoxlu ziyafətlərin, məclislərin təşkil edilməsi səhnəsi təsvir olunur. Havada uçuşan sağlıqlar, qədəh səsləri, deyib-gülmələr - bir sözlə, şadyanaqlıq məclisi. Qəhrəmanın keçirtdiyi haləti isə Əhməd müəllim kimilər anlamır. Belə ki, məclisdə tərifli tostların yanında kaman səsi, obrazı başqa aləmə aparır. O aləm ki, yanlız filmlərdə olur. "O səngərdədir, adətkərdə şəkildə başını əlləri arasına alıb gizlətməyə çalışır. Səngərin üstü ilə sağdan sola, soldan sağa mərmilər uçur. Ətrafda bombalar partlayır. Hələ tezdi. Əmri gözlə. Əmr olsun, o zaman. Tələsmə. Heç tələsmə!..." [1, 183]

Hekayənin qələmə alınması oktyabr ayına təsadüf edirsə də, müharibə hələ də davam edirdi. Müəllif ümumi olaraq real həyatın təsvirini verməklə yanaşı, həmçinin uzaqgörənlik etmişdir. Savaşın qələbə ilə bitmə müjdəsi ilə bərabər, insanların buna artıq inanmağının şahidi oluruq. "Müzəffər ordumuz, igid əsgərlərimiz, düşmən əsarətindən, nəhayət, qurtulmuş vətən torpaqlarımız…" [1. 183]. Müharibə bitdi, lakin obrazın daxili savaşı bitməyib. "O artıq bilirdi ki, ətrafdakı səsləri səngərdəki səslə tutuşdurmağa başlayıb. Dünən də evdə on iki yaşlı bacısının səsinə oxşatmışdı səngərdəki səsi. Və bu tutuşdurma, cavan leytenant bunu da bilirdi, həyatının sonuna qədər onu rahat buraxmayacaqdı, səngərdəki səs onu artıq həyatının sonuna qədər müşayiət edəcəkdi." [1, 184]

"Əzalar hamısı bir-birinə qarışmışdı. Onları yenidən birləşdirə bilən, bir-birindən ayrı düşmüş bu əzalara yenidən "yaşa!" əmrini verə bilən bir qüvvə olsaydı, onların belə qatmaqarışıq birləşməsindən yeni, amma bu dəfə tamam başqa, bir-birinin qəsdinə durmaq istəməyən adamlar yarana bilərdimi?!" [1, 184]. Qarabağ bucağından yanaşmasaq, müharibə hər yerdə müharibədir. Axıdılan qanlar, məzlumun göz yaşları, xeyirlə şər, haqqla batilin mübarizəsi. İnsanın ali məqsədi nəyəsə tamah salıb qəsd etmək olmamalıdır. Manumental dünya ədəbiyyatının ən gözəl əsəri olan "Hərb və sülh" əsərinin müəllifi deyirdi ki, müharibə mövzusunda əsər yazanda qətiyyən maraqlanmıram ki, hansı böyük general hansı planları cızır. Xəritədə hansı layihələr, strategiyalar, taktikalar işlənir. Məni bir sual düşündürür. İnsan insanı niyə öldürür? Əsgər əsgəri niyə öldürür? Bununla müharibə insanının, müharibə psixologiyasının, müharibə şəraitinin fəlsəfəsi açılır". Yazarın obrazın dili ilə ifadə etməsi o dərki, az da olsa o fəlsəfi toxunuşu, o humanistliyi qoruyub saxlayır.

Müəllif kiçik hekayədə xırda detalla fərqli bir yol çəkmişdir. Süjetə kaman səsinin müşayiəti fərqli hava qatmışdır. Normalda baş vermiş olayların, fəlakətlərin, adicə bir qürbət həsrətinin yanında yanıqlı kaman səsi insanın iç səsi kimi səslənir, xəyallara aparır, içdən-içə hüzünləndirir. Bu dəfə isə sualların cavabının tapılacağı, taleyin həll olunan məqamında o fonda döyüş səhnələrinin təsviri narahatçılığın yanında ümidə işıq salır- həsrət bitirdi. Bununla bağlı Elnarə Akimova belə qeyd edir ki, "Məni bu hekayədə kamança məqamı çox düşündürdü. Kamal Abdulla Cəlil Məmmədquluzadənin "Kamança" əsərindəki kamançanın missiyasını dəyişir. Bu dəfə kamançanın səsi bizim xeyrimizə işləyir. Qəhrəman Yüzbaşının ürəyini yumşaldan kamança bu dəfə Azərbaycan əsgərinin içindəki intiqam alovunu hərəkətə gətirmək üçün yaddaş daşıyıcısına çevrilir" [2] .Verilmiş müqayisənin müəyyən haqlı tərəfləri mövcuddur. Lakin yazılma vaxtı ilə indiki vəziyyəti nəzərə alanda (müharibənin bitməsi -10 noyabr), yaxud reallıq və təxəyyül prizmasında təhlil edərkən fərqli yanaşmalar ola bilər. Yaddaşın oyanışından yaranan psixi durumun zəfər ilə qayıtmış bir şəxsdə yenidən intiqam hissini yarada bilərmi? Axı o savaşda kinini qusmuşdu, bundan sonrakı həyatını o səhnələrlə, o səslərlə yaşayacaqdı.

Özü kiçik olsa da, mövzusu, təsviri, üslubu ən əsası ötürdüyü mesajlar mövcuddur və diqqət çəkəndir. Şişirilmiş müharibə səhnələrindənsə, onun fəlsəfəsini açmaq, insanda yaratdığı təsiri, verilən "dəyəri" görmək mümkün olur. Zəfər şərbətinin araq dolu qədəhlərlə gizli müqayisəsi, məclisdəkilərin bivec davranışları, hər şey bu qədər bəsitmi? sualına cavab istəyən bir hekayədir. Yazıçının da uğuru məhz müharibə gedişində real təsvirlərlə insanı düşündürən bir nümunənin ortaya qoymasındadır.

V.Məmmədlinin "Hesab dərsi və ya müqəddəs 44" hekayəsi adından da göründüyü kimi II Qarabağa həsr olunmuşdur. Belə ki əsərin qəhrəmanı keçmişin dərinliklərində yaşadığını yadına salaraq intiqam, qisas hissiylə yaşamışdır. Erməni xislətinin vəhşilikləri Samvel- riyaziyyat müəlliminin ailəsinə, kəndin gənclərinə etdikləri uşaq yaddaşında travma ilə yanaşı, əbədi həkkinə səbəb olmuşdur. "Axı niyə belə etdin, müəllim" saf düşüncədə olan obrazımız bu azmış kimi əsirlikdə işgəncələrə məruz qalır. Nənəsinin bir vaxtlar "bu vaxt meşəyə getməzlər, xortdan sizi yeyər" dediyini bu barbarların timsalında görürdü. "Nəyin bahasına olursa-olsun sağ qalmalı və ailəsini qətlə yetirəndən öz qisasını almalı idi" düşüncəsi artıq bizə insan ruhunun, psixologiyasının çevriliş başlanğıcını göstərir. Qana qan, qisasa qisas. Ta ki, intiqamını aldıqdan sonra davranışları diqqət mərkəzində olur. Müharibə, onun zərərləri elə acınacaqlıdır ki, insan işgəncələrdən başqa bir obraza bürünür. Çox faciəvi səhnədir. Nizaminin humanist, Nəsiminin kamil insanı bu dövrdə nə hallara gəlmişdir. R.Yusifoğlunun "Xiffət" romanında da əsirlik səhnəsi olmasa da, ailəsinin müsibəti səbəbindən köçkünlük, əzablı həyatına rəğmən sağ qalıb bütün kinini çıxarmaq həsrəti ilə yaşamışdır. Təbii ki, yaş kateqoriyası diqqət çəkir ki, nə yaşda olursa-olsun o hiss bir müddətlik şiddətlənəcək. Gördüyümüz kimi müəllif I Vətən müharibəsinə müraciət edərək yaramızı təzələyir. Bu əslində qalib ruhunu göstərmək üçün işlədilən bir metod ola bilər. Hətta bəzi müəlliflər I və II savaşın qəhrəmanlarının qarşılıqlı dialoqunu verərək bir bütün yaratmağa çalışırlar. Milli kimliyə qayıdış.

Ümumiyyətlə, bir xalq olaraq keçmişə bağlı insanlar olmuşuq. Etdiyimiz yanlışlıqları yada salıb gələcəyə daşımamaq, unutmamaq gərəklidir. Bununla süstləşmiş könülləri, adi məişət qayğıları bürümüş həyatımızı canlandırmaq, yatmışları oyatmaq lazımdır. Adi bu kimi keçmişə dayalı hadisələrdə insanlar nə qədər bezibsə, bir an öncə haqq yerinin tapmasının tərəfdarıdırlar.

Hekayənin adı ilə süjet xəttinin inkişafı, kiçikdən böyüyə, sadədən mürəkkəbə, bir hadisədən böyük məqsədə keçdiyinin zahiri görkəmini yaradır. Bir şəxsin hesabı gün gəlir bir xalqın haqqını istəməyə kimi gəlir. Lakin müəllif bu kiçik janrda illərlə gözlənilən həsrəti bir vərəqlə tamamlamağı məqsədəuyğun görmüşdür. Ədəbiyyatın məqsədi bu olmamalıdır ki, pafoslu sözlərlə insanda döyüş ruhunu oyatsın. O sadəcə milli kimliyimizə daxil olaraq bizi fərqli eyforiyaya sala bilər.

"Əmr gəlmişdi ki, Şuşanın azad edilməsi əməliyyatında ağır silahlardan istifadə edilməsin. Yalnız avtomat, tapança və bıçaq götürməyə icazə veriləcəkdi. "Bu lap yaxşı oldu,- deyə düşünməyə başaldı. - Şuşaya ağır silahlardan atəş açamq olmaz. Şuşa uğrunda əliyalın da döyüşmək olar". [1, 354]. Əlinlə qoymuş kimi əraziyə daxil olunanda müəllif sanki mesaj verməyə çalışmış ki, sağdan güllə səsi, irəliyə hücumdan ziyadə, çətin əməliyyatla hünər göstərmişlər. Bu qalib döyüşçünün görünməyən tərəfidir.

Lakin ümumilikdə götürəndə hekayə psixoloji fonda yazılıb. Ailə itkisiylə başlayıb, əsirlikdən xilası, intiqam hissi və ən sonda bu hissi tam görə bilməməyimiz uğurlu alınmasına manea törədən məsələlərdəndir. Müəyyən detallar əsərin ümumi təhlilini aparmağa imkan yaradır, lakin ədəbiyyatın işi düşündürmək, təsir etmək, mühiti, psixoloji vəziyyəti, reallığı, problemləri göstərməkdir. Keçmişə dayalı təsvirlər müəyyən qədər yatmış nifrət hissinin oyanmasına, həyəcanın cüzi artmasına səbəb olsa da, Qarabağ mövzusunda yazılan digər əsərlərə rəğmən zəif qalmışdır.

TƏDQİQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün müşahidə, təsvir, müqayisə, induksiya və sinxron növlərindən istifadə edilmişdir.

NƏTİCƏ

Bundan əvvəlki Qarabağ mövzulu əsərlərin əksəriyyəti pessimist ruhda yazılmışdır. Lakin 44 günlük müharibənin qələbəsi alt qatları ilə ədəbiyyata təsir edə bilməzdi. Bununla bağlı tanınan, tanınmayan şəxslərdən çoxlu sayda hekayə janrının nümunələri ortaya çıxmış oldu. Nəticədə həm də II Qarabağ nəsri deyə bir anlayış da formalaşdı. təbii ki bu əsərlərdə qalib ruhu necə, tərzdə göstərilib, oxucu kimi bizə təsir edirmi? suallarının cavablarını müəyyən qədər öyrənmiş olduq. unutmayaq ki aktual mövzu olduğuna görə nümunələr dayanmadan yaranacaqdır. və qeyd etdiyimiz motivdə dəyərli əsərlər çıxacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. 44 fəsil (hekayələr). Bakı, TEAS Press Nəşriyyat evi, 2021, 368 s.
2. http://www.anl.az/down/meqale/edebiyyat/2020/dekabr/745460(meqale).pdf (onlayn məqalə)
3. Ədəbiyyatda Qarabağ mövzusu RESPUBLİKA ELMİ KONFRANSI MATERİALLARI. 24 APREL, 2021. Bakı, Azərbaycan

"İRƏVANA GEDƏN YOLLAR" ROMANININ QƏLƏBƏ KONTEKSTİNDƏ TƏHLİLİ

Rəfiqə Mehdiyeva
Bakı Mühəndislik Universiteti
Filologiya/Azərbaycan ədəbiyyatı
rmehdiyeva1@std.beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Ədəbiyyatın müharibə mövzulu əsərlərində qarşıya qoyduğu vəzifələrdən biri müharibənin ağır nəticələrini, insanlara verdiyi mənəvi böhranı bədii şəkildə təsvir etməkdir. Lakin 44 günlük zəfərin ilk qığılcımları olan 4 günlük Aprel döyüşləri dönüş yaratdığı kimi ədəbiyyatda da əks etməyə başladı. Bu hadisə ilə istər tez, istərsə də gec yaranan nümunələr fərqli aurada yazılırdı. Belə qeyd edərdim ki, həmişə müharibə mövzusunda əsas tədqiq ediləsi məsələlər göz önündə idi. Bu dəfə isə böhranın bitməsi, 30 illik üzücü atəşkəsin yekununa inam, qələbənin doğurduğu psixoloji durumu, vəziyyətin dəyişməsinə ilk təkanı kimi bu romanda şahid oluruq. Tədqiqat işimizin obyekti qələbə motivinin müharibə mövzulu romanda araşdırmaq, əsərin təhlilini, özünəməxsus xüsusiyyətlərini göstərməkdən ibarətdir.

AÇAR SÖZLƏR: İrəvana gedən yollar, Aprel döyüşləri, qələbə

GİRİŞ

Aprel döyüşlərindən üç il sonra qələmə alınmağa başlanan roman ("İrəvanın yolları"), kitab formasında çap olunanda adında bir balaca dəyişiklik edildi. O da bununla əlaqəli ola bilər ki, II Vətən müharibəsi gedişində ərsəyə gələn romanın mövzusu qazandığımız qalibiyyətin təməlinin illər əvvəl atıldığını qeyd etməkdir.

-O yollar bilirsən hara gedir?

-....?

-O yollar İrəvana gedir, qədim dədə-baba torpaqlarımıza. Rauf, səni əmin edirəm ki, biz bir vaxt o yollarla gedib qədim ellərimizə sahib çıxacağıq. Bir ildən, beş ildən, on ildən sonra - onu dəqiq deyə bilmərəm. Amma adıma əmin olduğum kimi, səni də əmin edirəm ki, o torpaqlar bizim olacaq [1, 115]. Romanın əsas mövzusu ilk zəfər sevincimiz olan Aprel döyüşləri və Lələtəpənin alınması uğrunda gedən döyüşlərlə yanaşı, ilk qalibiyyətin həsrəti, şiddətli istək və içəridə qalmış nifrəti tökmədən savaşın bitməsi, qələbə qarışıq nikbin əhval-ruhiyyə təsvir olunmuşdur. Əsərdəki səhnələri göstərmək üçün müəllif canlı savaşın qəhrəmanların söhbətlərindən, tarixi arqumentlərə istinad etmişdir. Bu da onun jurnalist, ictimai-xadim fəaliyyətindən, tədqiqatçılıq mövqeyindən irəli gəldiyi üçün yazıçı bir növ rəsmi sənəd rolunda olmağa çalışmışdır. Real hadisələrdən çıxış edərək şüuraltında yerləşən faciələri, ruhi və bədənən rahat qoymayan ədalətsizliyi, qəzəbi, kini, qələbədən doyumsuzluğu romana əks etdirmişdir.

Əsərin "Komandir" romanından təsviri cəhətdən fərqi dörd günün baş vermiş döyüşləri, o anda yaranan psixoloji vəziyyət, qələbə nəşəsi, döyüşlər səngimişkən çadır şəhərciyinin insanlarının üzüntüsü, digər yandan hiddətlənməsi göstərilmişdir. Belə desək, müəllif o zamanın detallarına toxunmağa çalışmışdır.

Ümumiyyətlə, Qarabağ savaşı ilə bağlı kifayət qədər əsərlər yazılmışdır. Məhz qələbənin ilk rüşeymi sayılan dörd günlük müharibə ilə bağlı nümunələr azdır. Müəllif təkcə qələbə ilə kifayətlənməyib, hansı yollardan keçib də qələbəyə çatdığını, çadır şəhərciyinin cavanından qocasına, hərbçidən sıravi vətəndaşa qədər sosial-etnoqrafik mənzərə yaradıb.

Səyyad Aranın yaradıcılığında Qarabağ mövzulu nümunələr azdır. Bu otuz illik müharibə zamanında birbaşa Qarabağ mövzusunda əsər yazmamışdır, ictimai həyatdakı hadisələri qələmə almışdır. Lakin son illərdə bir-birinin ardınca "Başdaşı" (2013-2019), "İrəvana gedən yollar" (2020) və "Tacın qaytarılması (yazılır) yazıb və yazmaqda olduğu əsərlərdir. "Başdaşı" romanı I Qarabağ müharibəsinin acı nəticələrindən, mümkün olmayan vəziyyətindən danışırsa, "İrəvana gedən yollar" romanı nəticənin müsbətə çevrilməsindən, zəfərdən bəhs edir. Beləliklə, aydın olur ki, yaradıcılığının müəyyən dövrünü ictimai məsələlərə həsr edən Səyyad Aran, sonrakı zaman dilimində başqa istiqamətə doğru addımladı və Qarabağ mövzulu əsərlərə üstünlük verdi. Romanların mövzularını öz dövrünə görə təsvir etməyə çalışdı. Son sadalanan iki roman həm yaradıcılığı, həm də ədəbiyyatımızda yeni motiv kimi göstərilən qalib döyüşçü obrazı üçün yenilik idi.

Vaqif Yusiflinin, fikrincə, roman üç qatı özündə birləşdirir. Həqiqətən də, romanla tanışlıqdan sonra görürük ki, hadisələrin süjet xətti dəyişik xətlə davam edir. Müharibə şəraiti, iki qardaşın həyatla bağlı sınaqları, daha sonra zəfərlə bitən döyüş.

Əsərdə döyüş ruhunun fitilini yandıran alışqandansa, ictimai-siyasi fikirlər olmuşdur. Fiziki təlimlər, kəşfiyyat məsələləri öz yerində, təhsil baxımından fərqli olduqları üçün onların anlaya biləcəyi bir dillə danışmaq, dərdini paylaşmaq, vətənpərvərlik ruhunu kökləmək səbəbilə qan yaddaşımız təzələnir. Belə desək, yazıçı publisist bir dillə yanaşmışdır. Bu müqəddəs vəzifə uğrunda təhsilindən, yaşayış səviyyəsindən asılı olmayaraq, müdafiəsinə qalxan neçə-neçə igidlər gördük. Bu mövzuda yazılan digər janrın Əhməd müəllim kimi obrazlarından fərqli olaraq Rauf həm də tarix müəllimidir. Haqsızlığı qəbul etməməsi, bizə aid olanın bizə qaytarılması, döyüşlərdə şücaəti, müharibənin tez bitməsini qəbullana bilməyən bir obraz görürük. "Niyə müharibəyə başlamırıq? Axı biz onlardan güclüyük". Rauf hamının ürəyindən keçəni deyirdi. "Kin, nifrət, qəzəb aşıb daşırdı. Əsgərlərin hamısının gözləri alışıb yanırdı" [1, 29]. Bu səhnələrdə əsgərlərdə mənəvi- psixoloji halın, ruhun yüksəldiyini sezirik. Halbuki bu əsgərlər bəxtlərindən müharibə dövrünün uşaqlarıydı. Silah səsindən əsəbləri dözməyə bilər, açıq hədəf kimi narahat ola bilərlər, snayper gülləsinin ilan fısıltısına bənzər səsi adamın canına vahimə sala bilərdi.

Lələtəpə uğrunda döyüşlər real səhnələrdən ibarətdir. Mayorundan əsgərinə kimi bu yolda canlarından keçməyə hazırdırlar. Fədakarlıqları, yaralanmaları insana təsir etmədən keçmir. Bu zaman müharibənin baiskarlarına qarşı nifrətimiz daha da qüvvətlənməyə başlayır. Düşmən qüvvəsinin mövqeyi əlverişli olduğundan əsgərlərimizi hədəf kimi görməsi, əlbəttə ki, itkisiz ötüşməzdi. "-Salamat qalın, uşaqlar!" deyib qumbaranın üzərinə atılan mayor Elnurun bədəni parça-parça olmuşdu. "Hamının göz yaşı içinə axdı" [1, 55]. Müharibənin zahirindən ziyadə, batini açılmış olur. Demək insan duyğularını o anda xaricə ata bilmir, reaksiya verə bilmir. Beləcə sərtləşir, canlı heykələ çevrilir. Müharibə hər yerdə müharibədir. Axıdılan qanlar, məzlumun göz yaşları, xeyirlə şər, haqqla batilin mübarizəsi. İnsanın ali məqsədi nəyəsə tamah salıb qəsd etmək olmamalıdır.

Lakin qələbənin şərbəti yarıda bitir. Verilən əmrlə döyüş dayandırılır. "-Gör necə bir fürsəti əldən verdik. İndi Xankəndini, o biri rayonlarımızın da hamısını almışdıq" [1, 116]. Raufun haqlı isyanı hələdə əzmin, döyüş istəyinin bitməməsinə işarədir.

Səyyad Aranın "İrəvana gedən yollar" romanı müharibə mənzərələrini nümayiş etdirən roman olmaqla yanaşı, həm də öz içimizdə gedən müharibənin iç aləmini nəzərə çatdıran əsərdir. Ədəbiyyatımızda çox az miqdarda əsər var ki, orada döyüş səhnələri əks olunsun. Müharibə şəraiti, o şəraitdə cəbhəyanı ərazilərdə yerli əhalinin göstərdiyi dözüm, qələbənin digər üzü göstərilməyə çalışılmışdır. Şahin və onun qardaşı ilə bağlı süjet xətdi romanı fərqli bucaqdan təhlil etməyə imkan yaradır. Qızğın döyüşlərdə çiyin-çiyinə qorxmadan vuruşan Şahin, hospitalda hisslərinə hakim ola bilmir. "Qardaşını niyə qoruya bilmədin? Onu sənə tapşırmışdım axı" [1, 86] kimi cümlələr ona əzab verən cinsdən idisə, çadır şəhərciyinin cavanları "Niyə axıracan getmədiniz?" sualına cavab versə də, onların anlaya biləcəyi məsələ deyildi. Məhz bu anda necə davrandığı, daxilindəki savaşla başlamış və həyatının qərarını vermiş olur.

"İrəvana gedən yollar" romanı Şərif Ağayarın "Komandir" romanı ilə müqayisədə siyasi məzmunlu mahiyyətindədir. Belə ki, "Komandir" bir şəxsin timsalında hadisələrin cərəyan etməsi, qəhrəmanın müharibə başlayana qədər döyüş yolu, əzmi, şəxsiyyəti, qisas almaq kimi məsələlərə müraciət olunursa, "İrəvana gedən yollar" romanında isə diqqət çəkən Rauf obrazının dili ilə müəyyən himayədarların köməyi ilə bir əsrdən çoxdur ki, xalqımıza qarşı etdikləri vəhşi cinayətləri, apardıqları işğalçılıq planlarını tarixi sübutlarla isbat eləyir. Bu romanda bir nəticə var: kinin hiddətlənməsi, müharibənin nəticəsi və əsgərlərdə, insanlarda yaratdığı təəssüratlar.

"İrəvana gedən yollar" romanında ən çox diqqətimizi çəkən nüanslardan biri də yazıçının döyüşlərdə iştirak edən əsgər, mayor, komandir rütbəsini daşıyan şəxslərin isimlərini çəkməsidir. Araşdırdığımız zaman bu doğrulanır, döyüş tarixçəsi qeyd edilir. Lakin Rauf və Cəfər sanki müəllifin təxəyyülünün məhsuludur. Buna əsas verən səbəb haqqlarında məlumatın olmamasıdır. İkisinin dialoqu ilə başlayan süjet, elə hər ikisi ilə bitir. Düşmənin hücum planı ilə başlayan döyüşün təsvirindən əvvəl yazıçı döyüş ruhunu qaldırmaqdan ötrü məhz çavuş-mayor xəttində tarixdə baş vermiş olaylara səyahət edir və bu əzmlə digər torpaqlarımızın azad olunacağından uzaqgörənliklə xəbər verir.

Daha bir detay isə Ruhin və Şahin xəttidir. Gerçək hadisələrdə (romanda da) qardaşı ilə eyni cəbhədə döyüşən Qəhrəman (əsil adı), yəni Şahin aprel qazisi, Ruhin isə döyüş meydanında şəhidlik zirvəsinə ucalmışdır. Atası hadisəni belə xatırlayırdı: "Komandir dedi ki, Ruhinə yaxınlaşanda elə bildim ölməyib, yaralıdır. Çünki o gülümsəyirdi… Sonra baxıblar ki, o, şəhid olub. Oğlum şəhidliyin nə demək olduğunu yaxşı bilirdi. Həm də o, mənə qələbə söz vermişdi. Ona görə də düşmən qarşısında əyilmədən, tanrının ona

bəxş etdiyi şəhidlik zirvəsini gülümsəyərək qəbul etmişdi" [4]. Yazıçı baş vermiş hadisəni təxəyyülü ilə fərqli cür təsvir etmişdir. Ruhinin ölüm ayağında etirafı, qardaşının iki yol arasında qalması, həyatının başqa istiqamətə doğru çevirməsi bir fərd üçün çətin məsələdir. İnsan öz arzularını yıxıb yerinə başqasını inşa edir.

Roman millilik hissəsindən yanaşanda şişirdilmiş halını görmüş oluruq. Əsər bədii cümlələr, təsvir vasitələri ilə zəngindir: həyatın var olduğunu, yaşayışın davam etdiyini bildirən təkcə hərbçilər idi; çiçəklərin də, ağacların da, ən xırda bitkilərin də yaşamaq haqqı əllərindən alınırdı, qınındaca boğulurdular; kəpənək kimi səssiz, ildırım kimi sürətli və s.

Koroğlu çəkər başını,
Bəylər elər tamaşanı,
Mən özüm Aslan paşanı,
Hərəniz bir hayk üstünə [1, 103]

1990-cı illərdə professor Rəhman Bədəlov "Kitabi-Dədə Qorqud" hünərinin labüdlüyü" məqaləsində Qarabağla bağlı məğlubiyyətimizin əsasında ruhi əzikliyimizin dayandığını əsas gətirərək bunun başlıca səbəblərindən birincisini "illər boyu "Kitabi-Dədə Qorqud"suz yaşadığımızda" görürdü. Professor haqlı idi, o mübarizə ruhu, türk ərənliyi ki, dastanın bütün çevrəsini ehtiva edirdi, məhz ondan uzaq salınmışdıq. Hər şey ora dönməli, lazım olan mədəni sistemə transformasiya etməli, milli dirəniş əzmini ordan başlamaqla dirçəltməli idik [3]. "Kitabi-Dədə Qorqud" nümunələri olmasa da, mahiyyətində qəhrəmanlıq dastanın örnəkləri durur.

Əsərdəki qalib döyüşçü obrazları romanı mütaliə edən hər bir şəxsin vətənpərvərlik ruhunda böyüməsinə təkan verir. Rauf, Şahin Ruhin və s. - müəllifin qələmə aldığı hər biri xarakterik obrazlardır. Şair adı obrazın ilk baxışdan xarakteri haqqında məlumat verir. Tez-tez şeir, sitat gətirdiyinə, emosional, yüksək pafosla, sual ədatlarıyla danışdığına görə hamı elə çağırır. Sonrakı gedişatlarda isə bu ləqəbin nə tərzdə təzahür edəcəyinin şahidi oluruq. Şair yaxud bu ləqəbi daşıyan Rauf kimdir? Ədalətsizliklə barışmayıb bir an öncə əmr verilməsiylə hücuma keçmək istəyən, bu xüsusda tarixi reallıqlarla əsgərlərdə intiqam hissini qüvvətləndirən, "Necə yəni döyüşü dayandırın? Müharibə qutardı? [1, 101] çaşqınlığı, "Onun-bunun dediyi ilə oturub duracağıqsa, "bəs mənim ölkəmin varlığı hanı" [1, 102], "Niyə yenə də bizi öz qınımızda yandırırlar? Bilirsiz bunların altını necə çəkəcəyik? Nə qədər xətir üçün xəstə yatmaq olar? Bu ölkəmizə, millətimizə qarşı tələdir" [1, 104] desə də, bir cümləylə süstləşən, hirsindən uşaq kimi hönkür-hönkür ağlayan, emosialarına hakim ola bilməyib komandirin yaxasından yapışan, nə görürsən? sualına "Nəyi görəcəm? Viran qalmış evlərimizi, tüstülənən ocaqlarımızı, bizi gözləyən vətən torpaqlarımızı!..." [1, 115] deyib çərasizcəsinə içindəki qəzəblə qəbullanan obraz idi. Müəllif romantik şair kimi deyildə, haqsızlıqla barışmayıb dilə tökən şair obrazını yaratmışdır. Ruhin də öz yaşına görə igid, cəsur, qorxmadan vuruşan bir əsgər obrazı idi. Yaşının az, fiziki quruluşunu zəif olmasına baxmayaraq, vəhşi barbarlarla qarşı-qarşıya döyüşürdü. Müharibəni filmlərdə görmüşük, amma canlı iştirakçısı olmaq tamam başqadır. Vətən müharibələrində Ruhin yaşında, döyüş görməmiş neçə-neçə cavanlar özlərini savaşın içində görəndə ani boşluğa düşmələr, nigarançılıq, səslərdən çəkinmə, qorxu kimi psixoloji vəziyyətlərə düşə bilərlər. Hətta ictimaiyyətə yayımlanan videolarda gənclərin səsləndirdiyi şüarlar ruh yüksəkliyinin işarəsini verirsə, biz izləyicilər tamam əks düşünürük: o, hələ savaşa hazır deyil, arzuları var, hələ nə yaşı var ki, nə görüb ki və s. Amma amalın, məqsədin gücü onlarda döyüş istəyinin artdığını göstərir. Sanki qəhrəman olmaq üçün özləri ilə də yarışırlar. Şəhid olsalar belə, ali məqama yetişməyi arzulayırlar. Peyğəmbərimizin (s.ə.s) Vətən haqqında olan hədisi məşhurdur: (Hubb-əl-vətəni min əl-imən) - Vətən sevgisi imandandır. Vətəni sevmək imandandır, onu müdafiə etmək isə Allah əmridir. Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur (Əli İmran surəsi, 169).

Biz qələbə ruhunu bu yolda canlarından keçməyə hazır olan igidlərlə yanaşı, yerli xalqda da görürük. Müharibə sədasını eşidən cəbhəyə axışırdı. "Bə nəyə gəlmişik o boyda yolu? Biz də Lələtəpəyə qalxmaq, oranı görmək, həm də döyüş yerlərinə baxmaq istəyirik [1, 79]. "İnsanların üzündə görünməmiş bir sevinc, şadyanalıq vardı. Hamı bir-birini təbrik edir, şəhidlər ən uca sözlərlə, ehtiramla yad olunurdu. Millətin qəddi düzəlmişdi. İnsanlarda inanılmaz ruh yüksəkliyi vardı" [1, 111].

TƏDQİQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün müşahidə, təsvir, müqayisə, induksiya və sinxron növlərindən istifadə edilmişdir.

NƏTİCƏ

Əsərin təhlili zamanı aydın olur ki, "İrəvana gedən yollar" romanı ədəbiyyatda xüsusi rola malikdir. Belə ki, I Vətən müharibəsi nümunələrindən fərqli olaraq qalib fonunda təsvir olunmuşdur. Janr baxımından xüsusən də mövzusu Aprel döyüşlərindən - ilk zəfərimizin təməli olan əlamətdar hadisəyə əsərlər az yazılmışkən, roman qalib dövlətin qalib döyüşçüsünü, qələbəni tərənnüm edir. Ədəbiyyat müharibədənsə, insanın o an ki vəziyyətini əks etdirir. biz oxucular da bu əsərdə müəyyən qədər müşahidə edə bilirik.

ƏDƏBİYYAT SİYAHISI

1. Səyyad Aran. İrəvana gedən yollar. Bakı, "Elm və təhsil", 2021, 124 səh.
2. http://www.anl.az/down/meqale/525/2021/sentyabr/757746.htm
3. http://www.anl.az/down/meqale/edebiyyat/2020/dekabr/745460(meqale).pdf
4. https://ordu.az/az/news/129811/sehid-atasi--komandiri-ruhine-yaxinasanda-ele-bilib-olmeyib,-cunki-o-gulumseyirdi-fotolar

AZƏRBAYCAN TƏNQİDİ REALİST DRAMATURGIYASININ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ (M.S.ORDUBADİNİN ƏDƏBİ YARADICILIĞI ƏSASINDA)

ŞƏFA ƏLİYEVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Ədəbiyyat nəzəriyyəsi
shafa.aliyeva89@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Ədəbi-nəzəri fikirdə realizmin əsas mərhələlərindən biri kimi qəbul olunan tənqidi realizm XX əsrin başlanğıcında başqa ədəbi cərəyanlarla, xüsusən romantizmlə bərabər parlaq dövrünü yaşayırdı. Bu dövrün ədəbi irsini araşdırdığımız zaman dramaturgiya sahəsindəki nailiyyətlər, hətta klassik sənət nümunələri adlanmağa layiq, teatr-səhnə sənətinin inkişafına təkan verən əsərlərin məhz bu ədəbi cərəyana aid olması bunu bir daha sübuta yetirir. Bunu sosial-tarixi problemlərlə bərabər dünyada baş verən ədəbi-mədəni yüksəliş, elmi-texniki, iqtisadi-siyasi inkişaf, ictimai-fəlsəfi düşüncələrin tərəqqisi ilə də əlaqələndirmək mümkündür. Dövrün özünün həm dramatizmi, həm də realizmi güclü idi.

Azərbaycan tənqidi realist dramaturgiyası ayrı-ayrı sənətkarların yaradıcılığı, ədəbi cərəyanlar, poetika məsələlərinin öyrənilməsi istiqamətində araşdırılarkən Məmməd Cəfər Cəfərov, Yaşar Qarayev, İsa Həbibbəyli, Mehdi Məmmədov, Məsud Əlioğlu, Hüseyn İsrafilov, Xalid Əlimirzəyev, Rəhim Əliyev, Tahirə Məmməd, Cavanşir Yusifli və b. bu mövzu üzərində də dayanmış, əhəmiyyətli elmi müddəalarla çıxış etmişlər. Lakin M.S.Ordubadinin yaradıcılığı tənqidi realist dramaturgiya kontekstində ayrıca tədqiqat predmetinə çevrilməmişdir. Bu və digər özünəməxsusluqların araşdırılıb sistemləşdirilməsi problemi məqalənin əsas aktuallığını şərtləndirir.

Məqalənin əsas məqsədi M.S.Ordubadinin Azərbaycan tənqidi realist dramaturgiyasında mövqeyini araşdırmaq və tənqidi realizmə son dövrə xas yeni və fərqli yanaşmalar aspektində nəzər salmaqdır.

Məqalə tarixi müqayisəli, struktur-semantik tədqiqat metodları əsasında yazılmışdır. Məqalə hazırlanarkən müasir ədəbiyyatşünaslığımızda, eləcə də Qərb fəlsəfəsində tənqidi realizmlə bağlı nəzəri fikirlərə, onlar haqqındakı tədqiqat işlərinə də müraciət edilmişdir.

Elmi yenilik. Bu məqalədə qoyulan problem ədəbi cərəyanın spesifikliyindən və təmsilçilərinin sənətkarlıq xüsusiyyətlərindən irəli gələn özünəməxsusluqlar nəzərə alınaraq öyrənilmişdir.

Praktik əhəmiyyəti.Əldə edilmiş nəticə və yeniliklərdən ədəbiyyatımızın ümumnəzəri tədqiqi üçün metodiki təcrübə, nəzəri qaynaq, təhlil nümunəsi kimi istifadə etmək olar

AÇAR SÖZLƏR: TƏNQİDİ REALİZM, DRAMATURGİYA, ORDUBADİ

GIRIŞ

Realizmin mərhələ və tip xüsusiyyətlərini təhlil edərkən onu xarakterizə edən konflikt və xarakterlər, poetika və problematika məsələləri, meydana gəldiyi ictimai şəraiti nəzərə almaq vacib şərtlərdən sayılır. Realizmin xüsusi mərhələsi olan tənqidi realizm ədəbi cərəyan kimi mövcud olduğu dövrdə, xalqın milli inkişafı, fərdininsani hüquqları, cəmiyyətin təbəqələşməsi, dövlətin demokratikləşməsi fikrini ehtiva edən ədəbi cərəyan idi. Azərbaycan ədəbiyyatında bu cərəyanın yaranmasında heç şübhəsiz ki, qonşu dövlətlərin də mədəni və iqtisadi təsirini danmaq olmaz. Kapitalist münasibətlərin inkişafı, tabeçilik və gerilikdən milli azadlıq və inkişafa keçid uğrunda mübarizə, xalq təfəkküründəki irəliləyiş kimi amillər də realizmin yeni mərhələsinin özünü təsdiqinə təsir edən başlıca səbəblərdən idi.

İctimai-iqtisadi əlaqələr nəticəsində qazanılıb əldə edilmiş yeni dəyərlər hər bir ədəbi cərəyanda insana baxışı dəyişdirir, bu münasibətlər isə insana yeni dəyər və məzmun qazandıraraq onu fərqli prizmalardan müşahidə etməyə imkan yaradır. Bu cür əlaqələr sistemində insan "*... iqtisadi, ictimai, sosial, mənəvi, əxlaqi və s. məzmun kəsb edir*" [5,s.164].

Son dövrlərdə Azərbaycan ədəbiyyatşünaslığında və müasir ədəbi-nəzəri fikrində ədəbi cərəyanlara, onlara məxsus müvafiq əsərlərə və onların xarakterik xüsusiyyətlərinə maraq artmışdır.

Realizm, onun yarandığı tarixi şərait, üslub və metod münasibətləri, təzahür mexanizmi dəfələrlə tədqiqata cəlb edilsə də, müasir ədəbiyyatşünaslıqda bu problem yenə öz aktuallığını qoruyub saxlayır. Əlbəttə, bu mövzuya tez-tez toxunulması realizm haqqında məlumatların kifayət qədər olmaması ilə əlaqədar deyil. Hər dövr yaradıcılıq hadisəsinin yeni dəyərləndirilməsini tələb edir. Bundan başqa yeni təhlil metodlarının və prinsiplərinin yaranması da keçmiş hadisənin daha dərindən araşMüasir ədəbi-nəzəri fikrin inkişafı nəticəsində artıq Azərbaycan ədəbiyyatşünaslığı ötən əsrin təcrübəsi ilə kifayətlənmir, yeni axtarışlara üz tutur. "Ontolojik realizm" anlayışını elmə gətirən Roy Baskarın və akademik İsa Həbibbəylinin dövrləşdirmə konsepsiyası haqqındakı fikirləri sayəsində XXI əsrdə tənqidi realizmə, onun sərhədləri və yaratdığı üstünlüklərə tədqiqat işində bir daha yenidən nəzər salınmışdır.

Müasir dövrdə Qərbdə tənqidi realizmə olan maraq bu sahədəki tədqiqat işlərinin sayını artırmaqla yanaşı, geniş miqyasda yayılmasına səbəb olmuşdur. İstər Qərb, istərsə də Şərq ədəbiyyatında Roy Baskarın tənqidi realizmə yeni məzmun qazandıran fəlsəfi fikirləri təhlil edilir.

Maarifçi realizm və romantizm kimi ədəbi cərəyanların da mövcud olduğu dövrdə, tənqidi realizmədəbi cərəyanı və onun nümayəndələri üslubları ilə fərqlənməyi bacardılar. Bu ədəbi cərəyana məxsus nümunələri araşdırarkən bir çox elmi əsərlərə və tədqiqat işlərinə müraciət etdik. "*XX əsrin əvvəllərində tənqidi realizm cəmiyyətdəki nöqsanlarla qarşılaşaraq mübarizə səhnəsinə atıldı. Bu cərəyan zamanın əksliklərindən, dövrün mübarizəsinin əks-sədasından yarandı*"[2, s.443]. Ziddiyyətli fikirlərlə rastlaşsaq da, əminliklə deyə bilərik ki, tənqidi realizm maarifçi realizm və romantizmə cavab olaraq meydana çıxmamışdır. Dövrün, zamanın tələbinə uyğun olaraq köhnə estetikadan qismən uzaqlaşıb yeni daha mükəmməl, tamamlayıcı cərəyan yaratmaq cəhdi kimi yaranmışdır. Realizmin növbəti mərhələsi olan tənqidi realizmin meydana gəlməsi ilə maarifçi realizm ədəbiyyatdan tamamilə uzaqlaşdırılmır. Heç bir yeni cərəyanın, estetikanın yaranması ondan əvvəlkinin silinməsi və ya zəifləməsi demək deyil. Bununla yanaşı, eyni zaman kəsiyində Azərbaycan ədəbiyyatında birdən çox ədəbi cərəyanın mövcudluğunu nəzərə aldıqda, bu cərəyanların bir-birinə təsirsiz ötüşmədiyini də görürük. Yaşar Qarayevin bu təsiri belə izah edir: "*maarifçi realizm hələ uzun müddət tənqidi realizmlə yanaşı yaşamaqda davam edir, ikinci tərəfdən tənqidi realizmin özü də maarifçi məfkurə və motivlərdən tamam "təmizlənmir"* [2, s. 216].

Tənqidi realizm öz təbiəti, xarakterik xüsusiyyətləri,cəmiyyətə,eləcə dəətrafda baş verən hadisələrə münasibəti ilə ədəbi olmaqla yanaşı, həm də fəlsəfi cərəyan olduğunu bir daha sübuta yetirdi. Tənqidi realizmi fəlsəfi fikir cərəyanı adlandıran filosofların qənaətincə, "*... realizm- kainatın, dünyanın mövcudluğunun üç səviyyədə konstruktiv şəkildə əlaqələndirilməsi məqsədini daşıyır. O səviyyələr belədir: üzvi, sosial və mənəvi. Onları bir-birilə əlaqələndirən yeganə vasitə isə insandır*" [4, s.46].

Bu ədəbi cərəyanın görkəmli ədibləri milli ədəbiyyata bir-birindən dəyərli əsərlər, obrazlar qalereyası təqdim etmişdir. Azərbaycan ədəbiyyatında tənqidi realizmi əvvəlki ədəbi cərəyanlardan fərqləndirən digər üstün cəhət faciə və komediyanı sintezləşdirərək özündə birləşdirəntragikomediya janrınınməhz bu ədəbiyyatda meydana çıxmasıdır. Bu janrın ən parlaq nümunələri kimi C.Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı"əsərlərini göstərə bilərik. M.S.Ordubadinin "Dinçilər" əsəri məzmun və struktur baxımından "Ölülər"ə çox yaxındır və heç çəkinmədən onun təsiri ilə yazıldığını söyləmək olar. M.S.Ordubadinin ədəbi irsini, dramaturgiyasını araşdıran akademik İsa Həbibbəyli "Bağı-şah, yaxud Tehran faciəsi"(1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi"(1914), "Maral", "Sumqayıt", "Sevgilər", "Böyük quruluşda", "Deleqatlar", "İmtahan" və s. dramlarının adlarını çəksə də, "Dinçilər"

dramından bəhs etmir. Çox güman ki, İsa müəllim də bu əsərin bir çox baxımdan "Ölülər"i təkrarladığını gördüyü üçün onun üzərində ayrıca dayanmır.

XIX əsrdə ədəbiyyatımızda fərqli sənətkarlar tərəfindən ayrı-ayrılıqda komediya və faciə janrında dram əsərləri yazılmışdır. Bu dövrdə ailə-məişət zəminində komediyalar və nadanlığın faciəsi çox sayda əsərlərdə fərqli şəkildə təsvir edilmişdir. C.Məmmədquluzadənin yuxarıdaadlarını qeyd etdiyimiz əsərlərində xalqın həyatı, üzləşdiyi çətinliklər və onlarla mübarizədə obrazların düşdüyü bəzən tragik, bəzən də komik vəziyyətlər bir ad altında birləşərək tragikomik əsərlərin meydana gəlməsini şərtləndirir. Ədəbiyyatşünaslıqda bu fikir tez-tez təkrarlansa da, "Ölülər" tragikomediyası ölülər aləminin komediyası, kefli İskəndərin isə faciəsi idi. "Anamın kitabı" əsərində də vəziyyət çox da fərqlənmir. "Dirilər"in, "ziyalılar"ın təqdimatında verilən nitqlər o dövrdəki cəmiyyətin, Zəhrabəyim ana kimi bir çoxlarının evindəki ürəkparçalayan vəziyyətin ümumi mənzərəsini təsvir edirdi. "Dəli yığıncağı" tragikomediyasında isə mənzərə bir qədər fərqlidir. Yaşadıqları cəmiyyətdə Molla Abbasın dəli, əxlaqi dəyərlərini itirmiş, hər şeyi din pərdəsi arxasında gizlədən Fazil Məhəmməd kimilərin isə ağıllı hesab edilməsi faciənindaha da dərin olmasından xəbər verir. "*Ər" pyesi mövcud quruluşla uyğunlaşa bilməyən milli ziyalılığın komediyasıdır"*[1, s.4]. Cəlil Məmmədquluzadənin əsərləri ideya-estetik cəhətdən faciə,baş qəhrəmanın ölümü ilə nəticələnmədiyinə, satirik gülüşün üstünlüyünə görə komediya janrı ilə səsləşir. Hər bir vəziyyətdə bu tragikomediyalar xalqın düşdüyü komik vəziyyətin doğurduğu faciəni dahiyanə surətdə açıb göstərən əsərlərdir.

XX əsrdə elm sahəsində yaşanan inkişaf nəticəsində təbiət və elm haqqındakı ilkin biliklərimizi yenidən nəzərdən keçirməyə, dəyişikliklərə uyğunlaşmağa ehtiyac yaranmışdır. Bu dəyişikiklər determinizmin yerinə indeterminizmin, dəqiqliyin yerini qeyri müəyyinliyin aldığı yeni bir dünya təsəvvürü ortaya çıxarmışdır. Bu dünya haqqındakı təsəvvürlər nəticəsində realizm içində özünü tənqid elementlərini daşıyan tənqidi realizm nəzəriyyəsi və tənqidi realist mətnlər meydana çıxmışdır.

Tənqidi realizmin digər görkəmli nümayəndəsi M.S.Ordubadinin dramaturgiyasında da üslub qarışıqlığı özünü göstərir. Azərbaycan ədəbiyyatında irihəcmli əsərlərin müəllifi kimi tanınan sənətkar fərqli metodlarda yazılmış dram əsərlərinin müəllifidir.

Bədii yaradıcılığa şeirlə başlayan sənətkar "Hərdəmxəyal" imzası ilə "Molla Nəsrəddin" jurnalında çıxış edirdi. Yaradıcılığının ilk illərində romantik baxışlar üstünlük təşkil edən ədib daha sonra tənqidi realizmə və sosialist realizminə meyl göstərərək bu metoda aid dram əsərləri yazmışdır."Sevgilər" adlı dram əsəri üzərində Ordubadi hələ inqilabdan əvvəl, 1909-cu ildə işləmiş, əsərin əsas mətni o zaman yazılmışdır. Lakin ilk variantda əsər pərdələrə bölünməmiş, dramatik poema şəklində verilmişdir. Sonralar müəllif yenidən əsəri işləmiş, onu səhnə əsəri şəklinə salaraq çap etdirmişdir. Əsərin adı ilkin variantda "Yusif və Züleyxa" olmuşdur, çap edərkən isə "Sevgilər" adlandırılmışdır. "Maral" dramının əlyazması üzərində yazılma tarixi qeyd edilməmişdir. Lakin Ordubadinin Böyük Vətən müharibəsi illərində həmin əsər üzərində işlədiyi və onu 1945-ci ildə qurtarmış olduğu haqqında mətbuatda xəbərlərə rast gəlinir. "Dinçilər"əsərinin inqilabdan əvvəl yazıldığı güman edilir. İlk dəfə 1964-cü ildə çap edilmişdir. Əsli Azərbaycan Dövlət Dram Teatrının Bədii Fondunda, surəti Respublika Əlyazmaları Fondunda saxlanılır. Əsər 1922-ci ilin oktyabr ayında ilk dəfə səhnəyə qoyulub və tamaşaçılar tərəfindən bəyənilmişdir. Oktyabrın 22-də "Kommunist" qəzetində tamaşanı müsbət qiymətləndirən məqalə dərc edilmişdir. Müəllifin sırf tənqidi realizmə aid dram əsəri yalnız "Dinçilər"dir. Ondan sonra yazılanlar isə sosialist realizminin tələblərinə uyğundur. Yuxarıda qeyd etdiyimiz kimi, M.S.Ordubadinin "Dinçilər" dramı Cəlil Məmmədquluzadə ənənələrini açıq şəkildə davam etdirən əsər nümunəsidir.

"Dinçilər" və "Ölülər"in ideya və məzmunu əslində eynidir. Cəhalət içindəki xalqı aldadan fırıldaqlar, aldanmaq üçün özləri şərait yaradan din fanatikləri, yarımçıq ziyalılar tənqid hədəfidir.Yalançı vədlərlə qadınları aldadıb onların şərəf və namuslarını oyuncağa çevirən dindar ruhanilər kəskin tənqid atəşinə tutulur. "Dinçilər"əsərinin yazılma tarixi dəqiq məlum olmasa da, dramaturqun bu əsəri yazarkən "Ölülər" əsəri ilə tanış olduğu açıq-aşkar şəkildə duyulur. Əsərdə cərəyan edən hadisələrdə də bu təsir görülür. Lakin müəllif, burada oxşar süjeti bir qədər dəyişir – ""*Ölülər"də ölünün diri xəbəri alınmışdısa, paradoksal olaraq,"Dinçilər" əsərində dirinin ölü xəbəri camaata çatdırılır"* [2, s. 265]."Dinçilər" pyesinin müsbət qəhrəmanı Akif də İskəndər kimi Avropada təhsil alıb, onların hər ikisinin də dedikləri cəmiyyət tərəfindən qəbul edilmir. Akif kefli planda deyil, hər zaman ayıq, öz sözünün arxasında, sevgisini müdafiə edən biri kimi təqdim edilir. Lakin ayıq olmasına baxmayaraq, onun sözləri İskəndərinki kimi təsirli, xalqı silkələyib qəflət yuxusundan oyadacaq gücə malik deyildi. İskəndərin tək bir monoloqu onun bütün əsər boyu söylədiklərinin məcmusu idi. Müəllifin əsərin baş qəhrəmanını həm qətiyyətsiz, həm də ofsunlayıcı, pafoslu nitqi olmayan biri kimi təqdim etməsi də, əsərin zəifliyini göstərir. Eyni zamanda, "Ölülər" final

səhnəsi ilə tragikomediyadırsa, "Dinçilər" faciədir. Nazlı Şeyx Nəsrullahın pis əməllərinin qurbanına çevrilməmiş, bütün fırıldaqların üstü açılmışdır. Doqquz yaşlı Nazlı Münəvvərdən ("Dinçilər") daha cəsarətli idi. O, taleyi ilə, valideynlərinin dedikləri ilə tez razılaşmır. Hamıdan, hətta indiyə qədər hərəkətlərindən, danışığından utanıram dediyi İskəndərdən də kömək gözləyir. Münəvvər isə taleyi ilə barışmasa da, kimsədən kömək istəmir. Əsər on bir yaşlı Münəvvərin ərə getməmək üçün özünü çaya atıb həyatına son verməsi ilə yekunlaşır. Əsər personajların nitqinin qurulması, replika və remarka sistemi, ümumiyyətlə, dramatik keyfiyyətinə görə "Ölülər" qədər uğurlu sayıla bilməz. Nəsrdə, xüsusən tarixi roman janrında Azərbaycan ədəbiyyatının ən gözəl bədii nümunələrini yaradan ədib tənqidi realist metodda yazılmış bu əsərində eyni ustalığı nümayiş etdirə bilməmişdir. Yəqin elə buna görədir ki, son dövrlərə qədər tənqidi realist dramaturgiyaya məxsus əsərlər tədqiq edilərkən bu əsərin adı heç bir mənbədə qeyd edilmir. Yalnız professor Tahirə Məmmədin 2016-cı ildə çap edilmiş "XX əsr Azərbaycan tənqidi realist dramaturgiyası"[2] adlı məqaləsində əsər və aid olduğu metod haqqında qənaətə rast gəlirik.

TƏDQIQAT METODU

Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsinin araşdırılmasında sistemli elmi yanaşma məqalənin nəzəri metodoloji əsası kimi götürülmüşdür. Məqalə tarixi müqayisəli, struktur-semantik tədqiqat metodları əsasında yazılmışdır. Bugünə qədər görkəmli alimlərin və ədəbiyyatşünasların tənqidi realizm və Məmməd Səid Ordubadi dramaturgiyasi ilə bağlı araşdırmalarındakı elmi prinsiplər tədqiqatın hazırlanmasında istiqamətverici mənbə kimi əsas götürülmüşdür.

NƏTİCƏ.Tənqidi realizm ədəbiyyatda, eləcə də fəlsəfədə XIX-XX əsrlərdə daha aktual olsa da bugünki gündə belə bir tendensiya olaraq mövcudluğunu davam etdirir. Məhz buna görədir ki, istər Azərbaycan, istərsə də dünya ədəbiyyatında tənqidi realizm müxtəlif aspektlərdən araşdırılmaqdadır Bu məqalədə Məmməd Səid Ordubadinin dramaturgiyası ətraflı şəkildə tədqiq edilmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Həbibbəyli, İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. –Bakı: Nurlan, 2004. 160 s.
2. Məmməd, T. XX əsr Azərbaycan tənqidi realist dramaturgiyası. –Bakı: Qafqaz Nəşriyyat, 2016, s.264-267
3. Qarayev, Y. Azərbaycan realizminin mərhələləri. –Bakı: Elm, 1980, 260 s.
4. Qasımov, R.Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsi və banisi. AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan, 2013. C.9, , № 1, s.164-171
5. Vəzirova, F. Məmməd Səid Ordubadinin dramaturgiyası. –Bakı: Elmi əsərlər, 1971, №1

ÇINGIZ ƏLIOĞLU POEZIYASINDA QARABAĞ

SƏBIRƏ MÜZƏFFƏRLI
Amea Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Humanitar Elnlər Bölməsi
Sebirememmedova50@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qarabağ mövzusu geniş bir mövzu olaraq müasir ədəbiyyatımızdan qırmızı xətt kimi keçib, Qarabağ problemi, onun tarixi yozumu istər nəsrdə, istərsə də poeziyada hər zaman hərtərəfli inikas olunmuşdur. Zamanla şairlərin, yazıçıların Qarabağ mövzusunda yazdığı şeirlərin bədii dərkində və poetik sferasında yeni keyfiyyətlərin əksi özünü göstərməyə başlamışdır. Qarabağ müharibəsində yaranan poetik nümunələr öz bədii düşüncə tərzi baxımından bu gün də öz qiymətini qoruyub saxlamağı bacarmışdır.

Təqdim olunmuş tədqiqat işində şair Çingiz Əlioğlunun yaradıcılığının erkən dövrlərində Qarabağ müharibəsinə həsr etdiyi şeirlər ideya, forma və məzmun cəhətdən interpretasiya olunub, onun istifadə etdiyi stilistik fiqurlar, sənətkarlıq komponentləri vurğulanıb.

AÇAR SÖZLƏR: ÇINGIZ ƏLIOĞLU, POEZIYA, MÜHARIBƏ

GİRİŞ

1990-cı illərdən başlayan Qarabağ müharibəsi, vətənin müdafiəsi uğrunda qanlı savaşların əks-sədası, didərginlik, qaçqınlıq, şəhidlik, "torpaq itkisi" motivlərinin ədəbiyyatımızda prioritet olaraq aktuallanmasına səbəb olmuş, erməni nasistlərinin doğma torpaqlarımızda törətdikləri cinayətlər,

soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi şəkildə qovulması, Dağlıq Qarabağda etnik təmizlənmə yürüşü ürək ağrısı ilə təsvir olunmuşdur.

Baş vermiş hadisələrlə bağlı kəskin etirazlar, reaksiyalar yazıçı və şairlərin müxtəlif janrlarda qələmə aldıqları əsərlərdə əksini tapmışdır. "Mövzunun ilkin olaraq aktuallanması hadisələrə birbaşa reaksiya şəklində publisistikada və şeirdə oldu"(1, 115). Müharibə mövzusunun ümumi palitrası Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Cabir Novruz, Nəbi Xəzri, Qabil, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Hüseyn Kürdoğlu, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Firuzə Məmmədli, Məmməd İsmayıl, Vaqif Bayatlı, eləcə də Çingiz Əlioğlunun poeziyasında qabarıq gözə çarpmışdır.

Çingiz Əlioğlu məhəbbət, qəhrəmanlıq, insan, zaman mövzuları ilə yanaşı müharibə mövzusuna da poeziyasında yer vermiş, Qarabağ həqiqətlərini yaradıcılığına sızdıra bilmişdir. Şairin "Qarabağım-Qara bağım", "Bilmək olmur", "Gecədə çağıran qadın", "Şuşa silsiləsi" və s. şeirlərini döyüşən illərin poeziyasının sənədləri kimi qiymətləndirmək olar.

O dağlara sarı
gedən o uşaqların
toylarına çox vardı…
toy yaşına çatmadılar.
O dağlara sarı
Gedən o uşaqların
Ana gözü oxşayan
Boylarına çox vardı hələ,
Öz boylarına çatmadılar.
Nə deyib getdilər,
Niyə getdilər?..
And içmişdilər
Halal südə, halal çörəyə.
And içmişdilər
Ayaqlar altındakı ana torpağa,
Quma, kəsəyə,
Çınqıla, daşa. (2, 25)

Nümunə gətirdiyimiz şeir parçası "dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün qeyrət səlnaməsi, sabahımızın əbədi örnək təmsilçisi" (3, 50) olan şəhidlərə ithaf olunmuşdur. "90-cı illər poeziyamızda Qarabağ müharibəsində şəhidlərimiz bütün şairlərimizin yaradıcılığında böyük məhəbbətlə yad edilmiş və onların xatirəsi bədii sözün gücü ilə əbədiləşdirilmişdir". (3, 56)

Getdilər, getdilər
Dağlara sarı.
Getdilər yanar kökslərində
Odlu sinədə qərənfil bitirməyə,
gül bitirməyə.(2, 25)

Arzuları, həyatları yarımçıq qalan mərd igidlərin Milli müstəqillik və Qarabağ torpağı uğrunda şücaət göstərməsi şeirin hər misrasında qəlb ağrısı ilə təsvir edilmişdir. Şeirdə 20 yanvar hadisələrinin ayrılmaz atributu sayılan, şəhid qanını rəmzləşdirən qərənfil gülünün vurğulanması isə kədər ovqatını gücləndirmiş, şeirin kontekstinə matəm ab-havası vermişdir.

Şairin poeziyasında əksini tapan digər bir motiv didərginlik, yurdsuzluq motividir ki, bu da "Gecədə çağıran qadın" şeirində qəmli lövhələrlə əks olunmuşdur.

Uzağa gedənlər güdmür yaxını,
Soyuqdan damarda qanı donmuşdur.
…Son anda gördü o, öz həlakını,
Qoca qurd şonquyub yola qonmuşdur.
Gah yağış, gah da ki, qar ələnirdi.
Tükənib-sönürdü qışqırtıları!
Kol-kosa ilişib tiftiklənirdi.
Əbədi kiriyən hıçqırıqları.
…Görəsən nə idi o qəfil savaş,
Kim idi oyatmaq istəyən bizi?

Hələ ki, gecədir, açılmır hava,
Hələ dan üzünə düşür qan izi…(4, 83)

Şeirdə gecə yarısı yurdundan, yuvasından didərgin düşmüş insanların hisləri, psixoloji sarsıntıları, qışqırtıları, bağırtıları poetik boyalarla ifadə edilərək oxucuda dərin kədər hissi yaratmışdır. Bu şeirdə bir tərəfdən məzlum xalqın üsyanı, fiziki və mənəvi ağrıları, digər tərəfdən də erməni quzğunlarının qəddarlığı, mülki əhaliyə qarşı amansızca rəftarı açıq şəkildə ifadə olunmuşdur. "Gecədə çağıran qadın" şeirində kədər və nifrət hissini qarşılaşdıran şair şeirdə gerçək detallardan istifadə edərək didərginlik həyatının real mənzərələrini yaratmışdır. ***"Qoca Qurd şonquyub yola qonmuşdur"*** deyən şair erməni xislətini ifşa etmək üçün "qoca qurd" perifrazından istifadə etmişdir.

Min addım ətrafda bədbəxt qadını
Bir nəfər eşidən yox idi, fələk!
Boğazdan cırılıb çıxan nidanı,
Dodaqdan sivirib qapırdı külək…(4, 83)

Bu hayqırış tək o qadının deyil, bütövlükdə Azərbaycan xalqının hayqırışı kimi səslənir.

Çingiz Əlioğlunun "Şuşa silsiləsi" həm forma, həm də struktur baxımından diqqət çəkir. 1972-1981-ci illər ərzində müəyyən fasilələrlə qələmə alınmış bu şeirlər silsiləsi "Cıdır düzündə düşüncələr", "Şuşanın şeiri", "Biz öz nəğməmizi oxuyub getdik", "Daşaltı dərəsi", "Ulu su", "Balaca orman", "İsa bulağında" adlı yarımbaşlıqlara bölünür.

Silsilənin ilk şeiri - "Cıdır düzündə düşüncələr"də lirik qəhrəmanı düşündürən məqamlar qələmə alınıb.

Aşağı tərəfdə, yaşıl ovlaqdan
Baş alıb üfüqə gedən çöllərdə.
Ulu babalarım qalxıb torpaqdan,
Üzü mənə tərəf gəlirlər birdən…
Yeriyib gəlirlər…addımı ağır,
Rəngləri solğundur, özləri yorğun.
Zəhmli gözlərdən bir sərtlik yağır.
Quruyub…baxıram, mən fağır-fağır. (5, 47)

Lirik qəhrəman Şuşada şəhid olmuş yaxınları ilə xəyalən qarşılaşır. Onların solğun üzləri, "zəhmli gözləri", "mürgülü duyğuları" qəhrəmana nəyisə ehtiva etməyə çalışır. Sanki onların "sözsüz qınaqlar"ında bir gözlənti, bir məyusluq gizlənmişdir. Lirik "mən" özünü sorğulayır. Kölgələrin səssizliyi onun içini titrədir. Sual dolu baxışlarda bir cavab, bir məna axtarır.

…Hələ fikirlərdən ayrılmamışam,
O sözsüz qınaqlar nə idi, görən?
Mən hansı ümidi doğrultmamışam,
Hansı fürsətləri vermişəm əldən? (5, 48)

"Şuşanın şeiri" isə "Qarabağın gözü" sayılan Şuşanın gözəlliyinə həsr olunmuşdur. Şair Şuşanın zərifliyini vəsf etmək üçün çox incə detallardan istifadə etmişdir.

Şuşa, Şuşa…
Şüşə şəhər.
Göylər onu
Bəbəyində
Saxlayırlar.
Cıdar çaylar
Ayağından
Kar dərəyə
Bağlayırlar…
Şuşa şirin
Şuşa şəffaf.
Şuşa kövrək
Nəğmə kimi
Ürəyimdə yazılıbdır. (5, 50)

"Şuşa silsiləsi"nin məğzində vətən həsrəti, yurd nisgili olduqca güclü hiss olunur.

Qanayır qəlbimin qədim yarası,
Nə uzaq düşmüşəm səndən ulu su… (5, 53)

"Şuşa silsiləsi"nə daxil olan hər bir şeirin alt qatında dramatik məqamlar, xalqın dözülməz ağrıları, yurd sevgisi, vətənə məhəbbət, şəhidlik zirvəsinin təcəssümü yer almışdır. İstər "Balaca Orman", "Daşaltı dərəsi", istərsə də "İsa bulağı", "Ulu su" poetik parçalarında peyzaj güclü olmasına baxmayaraq təsvir edilən hər bir çay, dərə, su, cığır hansısa bir fikrin "daşıyıcısı" anlamını verir. "Əşya və hadisələrin təkcə fikirləşmək mənasında deyil, həm də ən kiçicik tərpənişini hiss edə bilmək, sezmək səviyyəsində insaniləşdirilməsi Çingizin şeirlərində özünü göstərən qabarıq xüsusiyyətlərdir"(6, 13).

TƏDQIQAT METODU

Çingiz Əlioğlunun Qarabağ mövzusunda yazdığı poetik örnəkləri interpretasiya edərkən təsviri metoddan istifadə edilmişdir.

NƏTİCƏ

Çingiz Əlioğlu poeziyasında müharibə haqqında düşüncələrini geniş aspektdə ifadə edə bilmişdir. O xalqa əzab verən erməni cinayətkarlarını daim qınaq obyektinə çevirmiş, onlara nifrət bəsləmiş, xalqın mənəvi-psixoloji sarsıntılarını, ağrılarını sənətkarlıq komponentləri ilə əks etdirməyə çalışmışdır.

ƏDƏBİYYAT SİYAHISI

1. T. Əlişanoğlu. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə: 1990-cı illər). Qanun nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2013:1-216
2. Ç. Əlioğlu. Tanrını tanı. Yazıçı nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 1991: 1-336
3. M. Nəcəfova. Qarabağ mövzusunun poeziyada işlənmə istiqamətləri. MBM nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2009: 1-144
4. Ç. Əlioğlu. Sevib unutduqlarım. Azərnəşr (**Kitab**). Bakı/Azərbaycan. 1996: 1-100
5. Ç. Əlioğlu. Görüşdən ayrılığa. Yazıçı (**Kitab**). Bakı/Azərbaycan. 1968: 1-176
6. Aydın. Müstəqil poetik orbit// Ç. Əlioğlu. Görüşdən ayrılığa. Yazıçı (**Məqalə**). Bakı/Azərbaycan. 1988: 5-14

XALÇAÇILIQ SƏNƏTİ ŞİFAHİ VƏ YAZILI ƏDƏBİYYATDA

Tural Adişirinov
AMEA-nın Şəki Regional Elmi Mərkəzi
"Folklorşünaslıq və el sənətləri" şöbəsi
tural.adisirinov@mail.ru
Şəki, Azərbaycan

XÜLASƏ

Məqalədə Azərbaycan xalqının sənət xarüqələrindən olan xalçaçılıq sənəti şifahi və yazılı ədəbiyyatda araşdırılır. Tədqiqatçı maraqlı arqumentlərlə bu sənətin qədimliyini şifahi və yazılı qaynaqlar üzrə elmi təhlilə cəlb edir. Azərbaycan nağıllarında, dastanlarında, bayatı və atalar sözlərində bu sənətin tarixi izlərinin olmasını elmi dəlillərlə sübut edən araşdırıcı maraqlı elmi nəticələr irəli sürür. Həmçinin Azərbaycan yazılı örnəklərində də xalçaçılıq sənətinin araşdırılması məqalənin elmi sanbalını artıran xüsusiyyət kimi əhəmiyyət kəsb edir.

AÇAR SÖZLƏR: *xalça, xalçaçılıq sənəti, şifahi ədəbiyyat, yazılı ədəbiyyat, xalı, atalar sözləri, nağıllar, ipək parçalar*

GİRİŞ.

Xalçaçılıq sənəti Azərbaycanın ən qədim və yaşadılan məşhur el sənətləri növlərindən biridir. Bu sənət növü Azərbaycanda çox qədim tarixə malikdir. Ölkə ərazisində aparılan arxeoloji qazıntılar və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu 5 min il bundan əvvəl meydana gəlib. Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Musa Kalankalatlı "Alban tarixi" əsərində Azərbaycanın şimal hissəsində ipək parçalar və

müxtəlif rəngli parlaq xalçaların hazırlanmasını yazır. Klassik şair Bədr Şirvaninin "Divan"ında Şirvanşahlar Sarayının divar və döşəmələrinin əsrarəngiz xalılarla bəzədilməsi qeyd olunur.
Xalçaçılıq böyük mədəniyyətə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Bu cəhətdən böyük mədəni irsə malik Azərbaycan xalqının yaratmış olduğu xalçalar naxış, kompozisiya, texniki xüsusiyyətlərinə görə dünyada çox məşhurdur. Xalça gözəl əl işi olmaqla yanaşı, həm də məişətdə istifadə oluna biləcək qiymətli əşyadır. Xalçaçılıq sənətində xalqımızın məişəti, düşüncəsi, adət-ənənəsi, mənəvi dünyası öz əksini tapır. Bu yaşadılan el sənəti bizim milli-mənəvi dəyərlərimizdən biridir.
Azərbaycanda dövlət tərəfindən də xalçaçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilir. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, Azərbaycan Prezidentinin 28 fevral 2018-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Sadalananlar Azərbaycan dövlətinin xalçaçılıq sənətinə olan diqqət və qayğısının nəticəsidir, xalçaçılığın həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirməsinin önəmli nümunəsidir. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması bu sahədə görülən işlərin davamıdır. Ölkəmizdə "Azərxalçanın" 10 filialı fəaliyyət göstərir ki, cənab Prezidentin göstərişinə əsasən gələcəkdə daha 20 filialın açılması nəzərdə tutulur. Azərbaycan mədəniyyətinin yorulmaz təbliğatçısı və böyük hamisi kimi məşhurlaşan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdə xalçalarımızın milli və dünyəvi dəyəri daha da artmaqdadır.
Xatırladaq ki, Azərbaycan xalçaçılıq sənəti YUNESKO-nun Ümundünya Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilib. Bu, Azərbaycan mədəniyyətinin böyük uğurudur. Ölkəmizdə milli xalça sənətinin hərtərəfli araşdırılması və xalqımızın bədii incilərinin yüksək səviyyədə təqdimatında Azərbaycan Milli Xalça Muzeyinin danılmaz rolu vardır. Azərbaycan xalçasının milli bədii irsin ən önəmli atributlarından biri kimi qorunub saxlanılmasında, ictimaiyyətə təqdim edilməsində Muzey çoxşaxəli fəaliyyət göstərir. Maraqlı bir faktı da qeyd etmək yerinə düşər: məşhur "ArtNews" nəşrinin sorğusunda yüzilliyin ən yaxşı muzey binaları sırasında Azərbaycan Milli Xalça Muzeyi də siyahıda yer almışdır. Muzeyin hazırkı binası 2014-cü ildə avstriyalı memar Frans Yantsın layihəsi əsasında inşa edilib. Xalq rəssamı Lətif Kərimovun təşəbbüsü ilə 1967-ci ildə yaradılan Azərbaycan Milli Xalça Muzeyi dünyada ilk xalça muzeyi kimi də tarixə düşüb.
Xalçaçılıq sənəti izlərini bədii ədəbiyyatda, xalq yaradıcılığında da yaşadır.

Xalçaçılıq sənəti şifahi ədəbiyyatda: Xalçalar haqqında məlumata "Kitabi-Dədə-Qorqud" dastanında, nağıllarımızda, atalar sözlərində, xalq deyimlərində rast gəlirik. Xalça haqqında söylənmiş bir neçə atalar sözlərinə nəzər salaq: "Xalına bax, xalı toxu", "Xalça salan özü oturar", "Xalçalı gəl, xalçalı get".
Ana abidəmiz olan "Dədə Qorqud" dastanının üç boyunda xalçaçılıq sənətinin izlərinə rast gəlirik. Belə ki, dastanın "Dirsə xan oğlu Buğac boyunda"kı nümunəyə nəzər yetirək: "Bir gün Qam Qan oğlı xan Bayındır yerindən turmışdı. Şami günliği yer yüzünə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşamışdı. *Bin yerdə ipək xalicəsi döşənmişdi"*. [6, s.24]. Təsvirdən gördüyümüz kimi, "bin" yerdə döşənmiş ipək xalçə dedikdə yaz fəslinə hazırlığa işarə edir və dastandakı xalı kultu toy-büsatı, xeyiri, məhəbbəti nişan etmiş olur. Dastanın daha bir boyu olan "Qazan xanın evinin yağmalanması boyu"nda da xalça elementlərinə rast gəlirik.
Boydan gətirdiyimiz nümunəyə baxaq: "Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının, aslanı, qaracuqın qaplanı, qonur atın iyəsi, xan Uruzın ağası, Bayandır xanın göygüci, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmuşdı. *Toqsan yerdə ala qalı-ipək döşəmişdi"*. [6, s. 37]. Yenə də mədhlərlə başlanan boy ipək xalıların döşənməsi ilə sanki xalçanı Oğuz mədəniyyətinin bir parçası kimi nəzərimizə çatdırır. Xatırladaq ki, bu boyda ov ritualı daha diqqətçəkicidir. Məhz "*Toqsan yerdə ala qalı-ipək döşəmişdi"* cümləsində biz var-dövlətin, gücün təmsili ilə yanaşı, həm də payız mövsümündə ala "qalı" (xalı) sözü ilə ov situasiyasını görürük.
"Baybörənin oğlu Bamsı Beyrək boyu"ndakı xalça təsvirləri nəzərimizi cəlb etməyə bilmir. Boydakı nümunəyə baxaq: "Qam Qan oğlı xan Bayındır yerindən turmışdı. Qara yerin üstünə ağ ban evin dikdirmişdi. Ala sayvan gög yüzinə asanmışdı. Bin pərdə ipək xalicəsi döşənmişdi". [6, s. 52]. Boydan nümunə çəkdiyimiz hər üç ifadə demək olar eynidir. Ancaq bu boydakı təsvirdə daha incə məqam var. "Pərdə ipək xalçə" elementi boyda yerə döşənən xalçalarla bərabər, divar xalçalarına da işarə edir. Divar xalçalarının elementlərində birliyi ifadə edən elementlər mövcuddur ki, boyda İç Oğuzla Dış Oğuzun Bayandır xanın huzurunda bir araya gəlməsi detalı düşündürücüdür. Ümumiyyətlə dastandakı xalçaçılıq izləri, xalça elementləri bu qədim el sənətinin əbədiyaşarlılığının göstəricisidir.

Xalq ifadələrində də "Şal-Şəddə", "Gərdəklik qırmızı kilim", "Şəddə-kilim", xovsuz "Şəddə" kimi xalça növlərinin adları ilə tanış oluruq. "Dama-dama Şəddə" Novruz bayramı ərəfəsində İlaxır çərşənbədə istifadə olunur. Qız-gəlinlər qırmızı "Dama-dama Şəddənin" üstündə arzularını söyləyər, açıq havaya sərib Ay və ulduz şüaları altında diləklərinin Tanrı dərgahına tez çatacağına inanırdılar.

Xalçaçılıq sənətinə aşıq yaradıcılığımızda, dastanlarımızda da rast gəlirik. "Koroğlu" dastanından verilmiş nümunəyə diqqət edək: "Koroğlunun gözü uzağı çox yaxşı görürdü, anası onu üç yaşınadək xalça üstündə böyütmüşdü. Ayağı torpaq görməmişdi..."[7, s.67]. Bu sətirlərdə Koroğluya mənəvi güc verənlərdən biri kimi xalça da simvolik olaraq nəzərə çatdırılır.

Şifahi xalq ədəbiyyatının geniş yayılmış şəkillərindən olan tapmacalarda da xalçaçılıq sənətinə aid müxtəlif izlər tapmaq olar.Xalça haqqında onlarca tapmaca yaranmışdır:

"Hapı-hapı,
Zəncir sapı.
Dörd budağı,
Bir yarpağı"
[4, s. 84].

Bayatılar, sayaçı sözlərində də xalçalara aid nümunələr vardır.

"Hanam haçaq kəsilib
Üzü saçaq kəsilib,
Üstə çinar toxunub
Əyri budaq kəsilib"
[1, s.148]

Nağıllarımızda məşhur "uçan xalça" ifadəsi bizlərə çoxdan tanışdır. Bu xalçaların xüsusən sehirli nağıllarda işlənməsi çox məşhurdur. Bu tip nağıllarda cadugər qarılar bir yerdən başqa yerə getmək üçün "uçan xalçadan" istifadə edərdilər. Nağıllarımızda Şah Abbasın məşhur xalça toxuyan olması da nəzərə çatdırılır.

Xalça sənəti xalq inamlarında, sınamalarda da özünü yaşadır. Xalçaya aid xalq inam və sınamalarından bir neçəsinə nəzər yetirək:

"Yuxuda xalça görmək – səfərə çıxmaq xəbəridir. Xalça üstündə uçmaq həm də murada yətmək nişanəsi sayılır. Xalça üzərində gəzmək xoşbəxtlik və çiçəklənməyə işarədir. Yuxuda xalça almısınızsa, bu, böyük gəlirə işarədir. Əgər xalça satmısınızsa, sizi xoş və əlverişli səyahət gözləyir." [9, s.154].

Azərbaycanın şimal-qərb bölgəsindən toplanmış folklor örnəklərində də xalçaçılıq sənətinin izləri qorunub saxlanmışdır. Bölgədən əldə olunmuş "Şahzadə oğlan və Qurbağa" nağılında, "Dilin bəlası" rəvayətində xalçaçılıq sənəti təbliğ olunur.

Xalçaçılıq sənəti yazılı ədəbiyyatda: Yazılı ədəbiyyatda dahi şair Nizami Gəncəvinin, Xaqani Şirvaninin əsərlərində daha çox xovlu və xovsuz xalçalar tərənnüm olunur. N.Gəncəvinin "Leyli və Məcnun", "Xosrov və Şirin" poemalarında dolğun xalça süjetləri yaradılıb. "Leyli və Məcnun" poemasında "Leyli ilə Məcnunun görüşməsi" hissəsində xalçaçılığa aid elementlər, dolğun təsəvvürlər vardır:

Get, şəkəri gətir, qızılgülə qat!
Sərvin qucağında yatır çəməni,
Lalənin sapına düz yasəməni!
O gözəl ahunu tapıb tora sal,
O müşk nəfəsini indi ələ al,
Onun tikanından ipək tutaq biz,
Tozundan qayrılsın qoy ənbərimiz.
[9, s. 234]

Qeyd etməyi vacib bilirik ki, Nizaminin "Leyli və Məcnun" , "Xosrov və Şirin" poemalarının motivləri əsasında çəkilmiş süjetli xalçalar da məşhurdur. Məsələn, "Sirlər xəzinəsi", "İsgəndərnamə" poemalarının motivləri əsasında "Bəhram Gur ovda", "Bəhram Gur və çoban", "Bəhram Gur və Fitnə ovda", "İsgəndərin cadugərlərlə döyüşü" adlı xalçalar toxunub.

Böyük şair Xaqani Şirvani əsərlərinin birində qiymətli ipək parçadan tikilmiş paltarı ucuz, miskin xalça ilə müqayisə edərək yazır: "Hökmdarların geydiyi sədrə və xara paltar əvəzinə bir palaz geyib daşlar üzərində əyləşərəm". [2, s.43]. Şairin "Quşların söhbəti" qəsidəsində işlətdiyi xalça təsvirinə baxaq:

"Yığıb qızıl oxları kəhərinin tərkinə,
Günəş səhər üfüqdən vüqarla qalxdı yenə.
Göyün gözündə bulud - çalma döndü zəncirə,
Ud əvəzi bitkidən xalça döşəndi yerə".

[5, s. 414]
Şair burada yerə döşənən xovlu xalçadan söhbət açır, xovlu xalça dedikdə yerə döşənən və ya göydən asılan xalçalar nəzərdə tutulur.
Böyük yazıçı Mir Cəlalın "Bir gəncin manifesti" əsəri xalqımızın xalçaçılıq sənətinə olan sevgisinə ən gözəl nümunədir. Sona xanımın dilindən deyilən "İtə ataram, yada satmaram" ifadəsi xalçaya olan sevginin ifadəsidir.
Azərbaycan xalçası poeziyamızda da xatırlanır, qədim və həmişəyaşar bir sənət növü kimi oxucuya təqdim olunur. Çağdaş poeziyada Fikrət Sadığın, Məmməd Arazın, Zəlimxan Yaqubun, Musa Yaqubun şeirlərində təbiət xalçaya bənzədilir.
Fikrət Sadığın bir şeirinə nəzər salaq:
Xalça naxış-naxışdı.
Bu bulud, bu yağışdı.
Yeri güllü bahardı,
Köbəsi qarlı qışdı.
Xalçada tağ görmüşəm.
Tağda çıraq görmüşəm,
Aydımı ya qaşdımı,
Yoxsa oraq görmüşəm?
[3, s. 234]
Fikrət Sadıq bu şeirində təbiəti Azərbaycan xalçasına bənzədir.
Xalq şairi Zəlimxan Yaqubun "Həzrəti Süleymanın xalçası kimi" şeirində xalçaçılıq sənəti şair qələmində ecazkar təsvir edilir, şair sanki sözlə xalı toxuyur:
Xanım qız, xanım qız, toxucum sən ol,
Mənə xalı toxu, əlvan bir xalı.
Gəlindən ismətli, qızdan həyalı,
Ətri, təravəti çiçəkdən olsun.

Bütün keçidləri, döndərmələri,
Bütün ilmələri ürəkdən olsun.
Əlvan bir dünyaya döndər rəngini,
Ərişi, ağacı ipəkdən olsun.

Sənin toxuduğun yaşıl xalıda,
Görünsün torpağın bütün rəngləri.
Nurlu gözümüzə versin işığı,
Çiçək topaları, gül çələngləri.

Sənin toxuduğun yaşıl xalıda,
Üfüqdən-üfüqə süzmək istərəm.
Həzrət Süleymanın xalçası kimi,
O xalça üstündə gəzmək istərəm.
[11, s. 118].
Şeirdəki bədii ovqat mükəmməldir. Şair xalçaçılıq sənətinin gözəlliyini oxucuya bədii boyalarla çatdırır.
Xalq şairi Musa Yaqubun "Un işığı" poemasında müharibənin, aclığın dəhşətlərini yaşayan Güllü xala bir xalçanı bir nimçəlik una dəyişməyə gəlir.Poemada həm də şair nağılvari epizod yaradaraq xalça üzərində keçmişə uçur, keçmiş günlərini xatırlayır, atasının müharibədə həlak olmasını ürək ağrısıyla qeyd edir.
Bir xalçanın üstündəyik
Səlimlə mən.
Xalça bizi
Uçururdu hərdən-hərdən.
Amma atam qarşıdaydı,
Bir ağ qoçun belindəydi.
Deyəsən bu ağ cığır da
Elə onun əlindəydi.

Anamla da Güllü xala
Bizdən bir az aşağıda,
Yaşıl tərə işığında gedirdilər.
Düşünürəm indi-indi...
Xatirələr qırıq-qırıq,
O cığırlar kəsik-kəsik.
İndi atam
Torpaq altda rahat yatır,
Həmin o un işığında
Yol gedirəm mən hələlik
[8, s. 64]

Müasir Azərbaycan poeziyasında olduğu kimi nəsrimizdə də xalçaya aid dolğun ədəbi nümunələr yaradılmışdır. Rafiq Tağının "Xalça şərqisi", Arif Ərşadın "Yanan xalça", Tural Turanın "Xalça oğrusu" hekayələrində xalçaya aid süjet və motivlər əks olunur. Xatırladaq ki, Azərbaycan Milli Xalça Muzeyi 2020-ci ildə "Xalça hekayələri" layihəsi həyata keçirmiş, layihənin sonunda xalçaya aid yazılan hekayələr kitab kimi çap olunmuşdur.

TƏDQİQAT METODU

Tədqiqat işinin aparılmasında analiz, təhlil, müqayisə metodlarından istifadə olunmuşdur.

NƏTİCƏ. Xalçaçılıq sənətinin izlərinin "Dədə-Qorqud" dastanının boylarında araşdırılması xüsusi maraq kəsb edir. Ümumilikdə, məqalədə xalçaçılıq sənətinin izləri həm şifahi, həm də yazılı ədəbiyyat nümunələrində araşdırılır. Həmçinin Şimal-qərb bölgəsinin foklorunda və müasir Azərbaycan ədəbiyyatı nümunələrində də xalçaçılıq sənəti tədqiqat obyektinə cəlb edilir.

ƏDƏBİYYAT SIYAHISI

1.Azərbaycan bayatıları. Bakı: "Elm", 1984. 252 s.
2.Azərbaycan xalçası. Biblioqrafiya. Bakı,2012, 469 s.
3.Fikrət Sadıq. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1989, 540 s.
4.Hüseynov N. Tapmacalar .Bakı: "Elm", 1971, 169 s.
5.Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: "Lider". 2005, 672 s.
6. "Kitabi-Dədə Qorqud". Bakı: Öndər, 2004, 376 s.
7."Koroğlu" dastanı. Bakı: "Lider", 2005, 552 s.
8.Musa Yaqub.Yaxşı ki, sən varsan (şeirlər və poemalar) Bakı: Yazıçı, 1979,132 s.
9. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı: "Lider" nəşriyyatı. 2004. 288 s.
10.Yuxu yozumları, Ensiklopediya. Bakı, Gənclik – 1992. Səh.210.
11.Zəlimxan Yaqub.Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2006, 248 s.

KÖROĞLU'NUN TARİHİ VE DESTANSI VARLIĞI

OĞUZHAN OSMAN, KOÇAK
Kafkas Üniversitesi
Fen-Edebiyat Fakültesi/Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü
Azerbaycan Türkçesi ve Edebiyatı/2.Sınıf
Oguzhanosmankocak1@gmail.com
KARS, TÜRKİYE

Değerli Hocam İlkin GULUSOY'a teşekkürlerimle...

ÖZET

Köroğlu Türk Dünyasının tarihi ve destansı kahramanı ve ozanıdır. Azerbaycan, Türkiye ve diğer Türk Dünyası devlet ve milletlerinin örnek bir şahsiyet olarak niteledikleri Köroğlu'nun tarihi ve destansı varlığı tartışmalı bir konu olmuştur. Köroğlu, Evliya Çelebi'nin işaretiyle başlayan tarihi bir kahraman ve halk

ozanı olarak tanınmıştır. Takip eden süreçlerde, 17.yy'da Celalî isyanların öncüsü olarak anılmaya başlanmış ve mücadele edilip, er meydanından silinmesi gereken bir karakteri tasvir edilmiştir. Adaletsizliğe çözümü insan ayırt etmeksizin eşkıyalıkla, sadece zalimin ve zorbaların elinden fakirin hakkını alıp, yurtsuzlara yurt veren bir kahramanlıkla veya celallenip, bir devletin halkını isyana teşvik edip öncü kabul edilen bir isyancı olarak getirmiş birkaç farklı kimlikle anılmaktadır, Köroğlu. Azerbaycan ve Türkiye varyantına baktığımızda bir milletin başındaki sıkıntıyı giderip, yurt veren ve yiğitliğin ve mertliğin sembolü olarak kabul edilmektedir. Bu araştırmada araştırmacı bunları tek bir çalışmada aktarmaya çalışmıştır.

Anahtar Sözcükler*: *Köroğlu, Koroğlu, Evliya Çelebi, Celalî İsyanlar, Destan, Tarih, Kiziroğlu, Bolu Beyi, Tokat Paşası, Çamlıbel

GİRİŞ

Köroğlu'nun tarihi anlamda varlığının kanatlanması ve tartışma ortamının kabul meclislerine evrilmesi ve tarihi anlamda varlığının tam manasıyla kavranması maksadıyla Evliya Çelebi'nin, Boratav'ın ve Məmmədhüseyn Təhmasib ve İsrafil Abbaslı'nın kayıtları belge olarak ele alınmış ve Köroğlu'nun manevi miras bırakan bir Koçyiğit oluşuyla varlığını anlamlandırdığı ve tasdiklediği kabul edilmiştir.

EVLİYA ÇELEBI'NIN SEYAHATNAMESI BAHSEDILEN KÖROĞLU

Köroğlu, Anadolu'nun farklı şehirlerinde atı ve sazı ile yaşayan ve delilerin emiri gibi kabul edilen bir halk kahramanıdır. Bu tanım, Azerbaycan varyantında tam manasıyla kabul edilebilirken, Köroğlu'nu tarihi kişiliğiyle kabul edilmesini sağlayan kaynaklardan Evliya Çelebi Seyahatnamesine bakıldığında kabul görmemiştir. Evliya Çelebi,''İstanbul'dan Van diyarına yollandığımızı bildirir'' bölümünde menzillerden geçerken, eşkıyalar tarafından önü kesilip haraç vermesi istenmesi ve ağır kötü muamele sonrasında "Hey gaziler! Altında atı kalmış yorgun argın ve durgun ulak adama sarılmak yüklü avrada el vurmak gibidir. Ne var, iman ehlinde yad olmaz. Bu sizin ettiğinizi bu dağlarda Köroğlu etmemiştir. Eğer Tanrı eri iseniz sizden emin olalım. Hemen yol alıp gidelim". demiştir. Eviya Çelebi'nin bu aktarımı, Köroğlu'nun gerçekte var olduğunun işareti kabul edilmiştir. Evliya Çelebi'nin aktarımlarından birisi de ''Günahsız mazlumun acayip ve garip hikâyesi'' bölümündendir. Bu aktarım,''Koroğlu, Kuloğlu, Demiroğlu, Köroğlu, Fartıloğlu, Kayıkçı Mustafa, Kayıkçılar Mustafası, Gedik Süleyman, Dişlen Süleyman, Gedâ Musli, Türâbî, Gedâî, Kâtibî ve diğerleri bunun devrettiği çöğürü ve bunun söylediği âşıkâne temiz şiirleri birisi söylemeye kâdir değildir, zira sözünde tesir var idi ki üstâddan feyz alıp Davudî nefesli tasavvufâne güfteli, güzel söz söyleyen şairdi. Cenâb-ı Kibriyâ padişah öfkesinden kurtarıp esenlikle ve zengin olarak vatanıma vardı vesselam.'' Şeklinde yapılmıştır. Evliya Çelebi'nin bu iki ifadesine ayrı ayrı bakıldığında Köroğlu'na ait iki kimlik görülmektedir. İlk kimliğin sahibi Köroğlu, dağlarda hüküm süren ve eşkıyalık edip, haraç alan bir kişiliğe sahiptir. İkinci kimliğin sahibi Köroğlu ise, saz çalıp, söz söyleyen, dini değerlere sahip ve güzel ahlaklı bir kişiliğe işaret etmektedir. Evliya Çelebi, bu iki kimliğe yer verirken, kaynaklarda çokça karıştırılan Koroğlu, Kuloğlu ve Köroğlu'nu aynı cümlede anmış ve farklı isimler olarak kayda geçmiştir. Günümüzde ve geçmişte yeterli işaret ve vesika bulunmadığından iki kimliğin tek bir kişiyi işaret ettiği veya iki farklı kişiye ait olduğu bu sebeple de karıştırıldığı gibi iki farklı kayıt söz konusu olmuştur.

DESTAN YURDUNDA YAŞAYAN HALK KAHRAMANI: KÖROĞLU

Köroğlu'nun Türk Devletlerinde yaşayan varyantlarında ortak ismi Köroğlu olarak kayda geçer. Azerbaycan ve Türkiye'de, ''Ruşen Ali ve Rövşen Alı'' olarak anılmaktadır. Destan yurdunda aktarılan kahramanın Azerbaycan ve Türkiye sahasında yolculuğu hemen hemen aynıdır. Her iki ülkede anlatılan destan birbirinin paralelinde giderken değişen en bariz yerler, destandaki şehir ve düşman isimleri olarak ifade edilebilir. Türkiye'deki destanda esas düşman Bolu Beyi olarak ifade edilen, zalim beyler iken; Azerbaycan'da Tokat Paşası ve onu takip eden ve bölgede yaşayan diğer hükümdarlıklara dalkavukluk yapan, kendi halkını ezip zevk ve sefa sürmeyi hayal eden zalim paşalardır. Azerbaycan ve Türkiye'de aktarılan destanda kahramanın doğumuna yer verilmezken Türkmen ve diğer bir çok Türk milletlerinin anlatımında doğumu ve ölümüne yer verilir. Hatta diğer Türk devletlerinde Köroğlu'na ''ölümle gelen yani mezardan doğan'' anlamında ''Kûroğlu'' bile denilmiştir. Köroğlu'nun destan yurdunda olağanüstü güçleri ve yardımcıları ve rehberi ön planda tutulmuştur. Azerbaycan sahasında Köroğlu'nun ismi Rövşen Alı'dır. Seyis ve at yetiştiricisi olan rehberi ve babası Alı Kişi'nin gözlerine Tokat Paşası'nın emriyle mil çekilmesiyle yolculuğu başlar, kişiliği ve destan yurdundaki yardımcıları ilk iki boyda belirlenir. Ondan sonraki boylarda yenilmez yiğit bir kahraman olarak, delilere yurt veren bir öncü olarak yolculuğuna devam eder ve Azerbaycan ve Türkiye dışında kalan Türk milletlerinin aktardığından farklı olarak silahın

icat edilmesiyle ölümle değil, kırklara karışma veya daha doğru ifade ile belirsiz bir şekilde ortadan kaybolma söz konudur. Türkiye'de aktarılan metinlerde Bolu Bey'i ve Kiziroğlu Mustafa Bey ile akıllarda yer edinen Köroğlu, Azerbaycan'daki metinlerde tüm boylarıyla anlamlı bir şekilde yer edinmiş ve Kars'ta yaşayan Azerbaycan kökenli Türkler tarafından Kiziroğlu Mustafa Bey ile hafızalara kazınmış bir halk kahramanı ve ozanı olarak kodlanmıştır.

CELALÎ İSYANLARIN ÖNCÜSÜ: KÖROĞLU

Evliya çelebi'nin seyehatnamesi'nde işaret ettiği ilk kimliğe tam manasıyla bürünmüş olan köroğlu, halkın yanında olan ve zalimlerden alıp, garibanlarla paylaşan bir halk kahramanı olarak kabul görmüştür. Devletin veyahut başta yer alan hükümdarın zorluk çıkardığı yerde halkın yanında yer alan köroğlu, osmanlı devleti'nin uzun süren bir isyan ile tanışmasına sebep olan öncü olarak kaydedilmiştir. Azerbaycanlı araştırmacı ve yazar Pertev Naili boratav, köroğlu'nu tarihî bir karakter olarak görüp yönetime karşı isyan eden bir haydut, bir celali isyancısı olarak kabul eder (boratav, 1931: 99). Yaşadığı dönem ve olaylar ele alındığında köroğlu'nun isyancı kimliği kabul edilmekte ve osmanlı devleti'nin yönetimine zarar veren hareketin öncüsü olarak onaylanmaktadır.

SAZ ŞAİRİ: KÖROĞLU

Köroğlu'na dair temelde iki farklı kimlik sunduk ama onun kahramanlıkları tabii olduğu halk tarafından övgüyle anlatılırken, zalim paşaların ve hükümdarların beyanı ile o bir isyancı ve eşkıya olarak görülmektedir. Halk anlatılarıyla günümüze kadar yaşayan köroğlu'nun şiirleri ve söz-sözleri ile varlığını devam ettiği aşikardır. Lakin bu noktada farklı görüşler ve işaretler gündeme gelmektedir. Evliya çelebi'nin iki cümlesinden birinde de gördüğümüz gibi köroğlu, diğer eşkıyalardan daha merhametli bir eşkıya olarak tasvir edilmiş ve halk kahramanı olabilecek bir benliğe sahip olarak alt metinde 'merhametliydi.' şeklinde ifade edilmiştir. Bu noktadan baktığımızda az evvelde beyan ettiğimiz gibi köroğlu tek başına bir eşkıya iken çıktığı yolda merhameti sebebiyle halk kahramanına dönüşmüş ve delileri yanına alarak çamlıbel'e yerleşip devletli bir kahraman olmuştur. Evliya çelebi'nin seyahatname eserinde kuruduğu ikinci cümle de 'koroğlu, kuloğlu, demiroğlu, köroğlu…' şeklinde saydığı bu gençlerin çok iyi saz çalıp-söz söyledikleri kayda geçirilmiştir. Bu noktada bu beyanat ele alındığında, köroğlu, kuloğlu ve koroğlu isimlerinde saz çalıp söz söyleyenlere işaret vardır. Bu noktada üç farklı soru akla gelmektedir. Bu saz-söz sahipleri birbirinden ayrı mı? Yoksa birbirini tamamlayan kişilikler mi? Ya da bunlardan ayrı olarak diğer ikisi yani kuloğlu ve koroğlu, sazı ve sözüyle yiğitliği ve mertliği ile elinde mısrî kılıcı altında kırat'ı ile mitolojik unsurlarla bezenmiş halk kahramanı köroğlu'nun seyrinde söz söyleyen saz ustaları mıdır? Bu sorulara net bir cevap vermek önem arz etmektedir. Şimdi bizim kabulümüzdeki köroğlu'nun yani tokat paşası'yla ve zalimlerle karşı karşıya gelen alı kişi'nin oğlu köroğlu'nun saz ustası olduğunu kabul ederek, kabulün dayanaklarını aktaralım. Azerbaycan sahasında Məmmədhüseyn Təhmasib ve İsrafil Abbaslı'nın yayıma hazırladığı ''Azərbaycan Dastanları'' adlı eserin dördüncü cildinde ele alınan köroğlu ya da azerbaycan türkçesindeki ifade edilişi ile koroglu'ndan nakledelim. Koroğlu, anlatısı babası alı kişi'nin varlığından ve yaptığı işten haber veriş ve en önemlisi de kırat'ın ve dürat'ın oluşumuyla başlar ki, biz buna destan yurdunun oluşum süreci olarak kabul ederiz. Alı kişi'nin Tokat Paşası Hasan Paşa tarafından cezalandırılması ile destan yurduna güçlü kuvvetli ama dünya ehli bir genç olarak giren koroğlu, babasının ve mitolojik unsurların yardımıyla farklı bir kimliğe bürünür. Bu kimliğe bürünmesinde türkler arasında yaygın olan bade içme motifine benzer bir hadise yaşanmış ve koroğlu'nun sözü tesirli bir hal almış. Saz çalıp söz söylemiş ve ona yardımcı olan kahramanlarla ebediyete intikal etmiştir. Onun ilk saz çalıp söz söylediği yer babasının işaret ettiği dəli hasan'ın mıntıkasıdır. Dəli Hasan ile karşılaştıklarında 'məndən salam olsun acəm oğluna…' diyerek söze başlaması onun aşıklığını, saz çalıp söz söyleyen, at üstünde mısrî kılıcı kuşanmış bir yiğit oluşunu kabul etmemizde kıymetli bir etkendir. Alı kişi boyu dışında kalan tüm boylarda koroğlu'nun yiğitliğine, delileri ile yurt kurup, aşık ve saz şairi oluşuna deliller bulmak mümkündür. Bu noktada son defa köroğlu hakkında beyanat veren evliya çelebi'nin cümlesine dönmek gerekir. Türkiye'deki araştırmacıların ve diğer araştırmacıların karıştırdığı veya böyle düşündüğü köroğlu azerbaycan'daki aktarılan varyantlardan yola çıkarak kabul ettiğimizde esas koroğlu'ndan başkası değildir. Evliya çelebi'nin iki cümlesini de bir olarak ele almalıyız. Ki doğrudan bir ifade ile köroğlu'nun destan yurdunun başında dünyalık ve devletlik yaşayışının ona tek bir kimlik kazandırdığını ifade edebilelim. Destansı kişiliği ile tarihi şahsiyeti bir kabul edip, hayatının gayesini rehberi olan alı kişi sayesinde anlayıp, yaşamını anlamlandırıp; yiğitliğin, mertliğin ve halkın koruyucusu ve öncüsü olmayı kendine şiar edinip, zalimin düşmanı mazlumun ise dostu olmayı anlatması ile o hem saz-söz şairi hem gerçek bir kahramandır diyebilelim. Köroğlu'nun saz şairi oluşuna en büyük delil Bolu beyi ile kiziroğlu mustafa bey'e söylediği sözler dışında kalan ve bir boylar boyunca nazım şekilde aktarılan şiirsel ve sazla beyan ettiği bölümlerdir.

Bu bölümlerden az evvel bahsettiğimiz kiziroğlu ve Bolu Beyi dışında zirve noktada olan bölüm aşık cünun ile karşılıklı saz çalıp söz söylediği bölümdür, oradan bir örnek vermek gerekirse;
Sənə deyim, aşıq cünun,
Çağır gəlsin xan eyvazı!
Tar eləyim düşman günün.
Çağır gəlsin xan eyvazı!
Köroğlu'nun sazsız söylediği sözlerinde tesir ettiğini ve delilerinin onu anlayıp harekete geçtiğini biliyoruz. Bunun yanında yeri gelince eline aldığı sazı çalıp söz söylediğinde bu sözlerin hafızalara kazındığını ve şiirsel etkinin yanında türkü gibi yer ettiğini ve geleceği yani bugünü ve bizden sonra gelecek nesillere türkü gibi miras kaldığını beyan etmek gerekir. Ki bu miras toplumumuzun işaret ettiği değerler toplusu olarak kabul edilmelidir ve edilmiştir de. Köroğlu sadece destan kahramanı olarak kabul edilse bile gerçekle kavuşmuş ve milletini gerçeklikle buluşturup, bir destan kahramanı olarak kabul edenlerin zihninde bile tarihi bir kahraman ve öncü olarak yer etmiştir.

SONUÇ

Evliya Çelebi'nin işareti ile tarihi bir kişiliğe sahip olduğunu kabul ettiğimiz ve akıllara gelen sorularla Köroğlu'nun varlığına delil aradığımız süreçlerde zihnimizin ve benliğimizin kabul ettiği üzere Köroğlu varlığını hem tarih sahasında hemde edebiyat sahasında açıkça kanıtlar haldedir. O kanıtlamasa bile bizlerin önünde açtığı ve bu günün gençlerinin ifade ettiği sözde delikanlılık kitabının esasını akademisyenlerin ve öğrencilerin önüne sermiş ve varlığının sebebini anlayıp, hayatı anlamlandırmış olan kimliği ile bugünün insanına yiğitliği, mertliği, doğruluğu ve hakkına sahip çıkmayı miras bırakarak gerçek bir kimliğe sahip olduğunu kanıtlamıştır. Onun yurdu sözün doğrusu ile destan yurdudur, destan yurdu diğer milletlerde sahtelik barındırsa da bizde hakikatin anlatıldığı ve insan ile hakikatin buluştuğu yerdir. Sadece bu sebeple bile Köroğlu tarihi bir kişilik olarak kabul edilmelidir. Ki günümüzde kimliğini yitirmiş insanların ve sahte kahramanların var olduğu bu dünyada Köroğlu gerçekten var olmuş ve devamcılarının yani bizlerin önünde rehber olup, varlığını anlamlandırmış ve geleceğe hakikati miras bırakmıştır.

KAYNAKLAR

Təhmasib, Məmmədhüseyn, Abbaslı, İsrafil (2005). Azərbaycan Dastanları. Bakı: Lider Nəşriyat

1. Kahraman, Seyit Ali (2010) Günümüz Türkçesiyle Evliyâ Çelebi Seyahatnamesi: Akkirman - Belgrad - Gelibolu - Manastır - Özü - Saraybosna - Slovenya - Tokat - Üsküp Evliyâ Çelebi 5. Kitap -1 . Cilt . İstanbul: Yapı Kredi Yayınları

DÜNYA ƏDƏBİYYATI

TÜRKİYƏ NƏSRİNDƏ HEKAYƏ VƏ ÖYKÜ TERMİNİNİN İŞLƏNMƏ PRİNSİPLƏRİ

SİMA ŞƏFİZADƏ
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Türk xalqları ədəbiyyatı şöbəsi
sima_adass@mail.ru
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

İnsanın özünü ifadə etmək istəyi ta qədimdən bu günə kimi davam etməkdədir. Təhkiyədən hekayəyə keçid şifahi xalq ədəbiyyatından yazılı ədəbiyyata keçidi reallaşdırır. Əvvəl bu proses (şifahi xalq ədəbiyyatı) ilk ədəbi yazı nümunələrində müşahidə edilmiş, sonra isə (yazılı ədəbiyyatda) hekayə və digər nəsr nümunələrində öz əksini tapmışdır.

Türkiyə ədəbiyyatında isə 1940-1950-ci illərdən başlayaraq hekayə termini ilə yanaşı öykü termini də istifadə edilməyə başlandı. Bir sıra tədqiqatçılar Qərb ədəbiyyatı ünsürlərinin Türkiyə ədəbiyyatına daxil olması ilə bu prosesin daha da aktuallaşdığını qeyd edirlər. Müasir dövrdə isə hər iki terminin işlənməsini görmək mümkündür.

AÇAR SÖZLƏR: termin, hekayə, öykü, Türkiyə

GİRİŞ

Həm hekayə, həm də öyküdə təhkiyə vacib ünsür kimi xarakterzə edilir. Türkiyəli tədqiqatçı Sadik Tural təhkiyənin vacibliyi haqqında yazır: "Tahkiye, hafizanın imkanlarını, hayal ve düşünce eleğinden geçirerek, kendine veya başkalarına ait yaşantıların merak ile temellendirilip kelimeler aracılığıyla, estetik/teknik bir sıraya konulmasıdır" **[7; s.34].** Təhkiyənin əsas predmeti insandırsa, hekayəninki isə insanın yaşantılarıdır. Türkiyə ədəbiyyatı islam mədəniyyəti ilə qarşılıqlı əlaqəyə girdikdən sonra "hikayə" termini "eski hikaye" şəklində öz ifadəsini bədii mətnlərdə tapmağa başladı.

Müasir dövrdə isə hekayə və öykü terminlərindən hansının ədəbiyyatda işlənməsi məsələsi daha aktual mövzu olaraq qoyulur və müzakirə edilməkdədir. Məs. Türkiyəli tədqiqatçı Hüseyn Su "Öykümüzün Hika`yesi" adlı məqaləsində məhz bu sual axtarışındadır."Türk öykücülüğü 1870`lerde mi başladı, yoksa bu başlanğıc, Dede Korkut hikayelerine dek uzanıyormu? Öykümüzün kaynakları, 1850`lerden sonrakı ilk çeviriler ve batılı örnekler mi, yoksa eski edebiyatımızdakı manzum ve mensur hikayeler, halk hikayeleri, Dede Korkut hikayeleri, masallar, dini menkibe ve hikayayeler mi? Peki, bugün yazılan "tahkiye`ye dayalı metinlere öykü mü diyeceğiz, yoksa hikaye mi?" **[6; s. 6].**

TƏDQİQAT METODU

Hekayə və öykü terminlərinin işlənmə prinsipi onları həm də ayrı-ayrılıqda xarakterzə etməyə məqsədləndirir. Beləki Karataşa görə hekayə romanın kiçik bir hissəsidir. "Roman çok katlı bir apartmansa, hikaye tek katlı müstakil bir ev gibidir" **[3; s. 202**]. Karataşın bu yanaşması müasir Türkiyə nəsri üçün daha aktual mövzudur. Amma Hüseyin Su isə "hikaye" terminini "eski hikaye" termini ilə qarşılaşdırmaqla bu terminin tarixi köklərini daha da dərinləşdirir və "Tahkiye geleneğimizin ve duyarlığımızın ipeksi dokunuşunun, çağıltılı insani akıntısının her geçen gün biraz daha belirginleşen izlerini geriye doğru sürdüğümüzde, ilk insan kadar eski olduğunu ve "insanın macerası" ile başladığını görebiliriz. Anlatarak, naklederek, kurğulayarak, öykünerek çoğalıp gelir bugüne dek. Butün anlamları ve katkılarıyla "Bizi "Biz "Yapan Hikayeler`in toplamı, bugünkü öykümüzün de hikayesidir" **[6; s.14]** qeyd edir. *"Hikaye= Eski Hikaye=Dede Korkut hikayeleri*" formulunə uyğun olaraq "Bilinen kaynaklara göre Türk öykü tarihi Dede Korkut öyküleri ile başlar" **[6; s. 14]** ifadəsi də bu mənada öz təsdiqini tapa bilir. Ona görə də hekayə termini ilə "eski hikaye" termini paralel olaraq da işlənməkdədir.

1940-ci illərdən sonra isə öykü termininin işlənməsi aktuallıq qazanır. Bu terminin ədəbiyyata gətirilməsi isə Nurullah Ataçın adı ilə bağlıdır. Bulut Sümeyye da "Cemal Şakar`ın Öykülerinde yapı ve Tema" adlı tədqiqat işində Nurullah Ataçın adını çəkməklə "Nurullah Ataç tarafından hikaye yerine Arapçadaki "taklit

etmek" anlamının karşılığı olan öykünmekten türetilen "öykü" kelimesi öne sürülmüştür" **[1; s. 5]** deməklə bu məlumati dəqiqləşdirmiş olur.

Qərb ədəbiyyatının təsiri ilə zamanla hekayə termininin öykü termini ilə əvəzlənməsi prosesi daha da sürətlənir. Qərb ədəbiyyatının təsirləri isə Tənzimat dövründə daha dolğun şəkildə özünü göstərir. "Batılı öykü tekniğinin ve tahkiye özelliklerinin, bizim tahkiye sürecimizde elle tutulur, gözle görülür biçimde ortaya çıkmaya başlaması, Sami Paşazade Sezai`nin başlı başına "öykü" olarak anılabilecek eserleri, Nabizade Nazım`ın daha da gelişen teknik ve genişleyen öykü coğrafiyası ve Halit Ziya`nın tahlil ve teknik kuruluştakı başarısının yanında verimliliği ile de gelişen, farklılaşan bir düzlem oluşturduğu görülür" **[6; s. 15].** Bu prosesin nəticəsi olaraq *"Öykü= Hikaye= Eski Hikaye"* formuləsi yaranmış olur.

Lakin müasir dövrdə Türkiyə ədəbiyyatında bu iki termindən hansının işlənməsi daha lazımlı və aktualdır məsələsi bu gün də gündəmdədir. Məsələn, Kayahan Özgül "hikaye yerine öykünün kullanılmasını "gericilik"" **[4; s. 31]** olaraq qeyd edir. Ömər Ləkəsiz isə hekayə termini ilə yanaşı öykü terminin də paralel olaraq işlənməsini heç bir problem, konseptual çaşqınlıq yaratmadığını müsbət hal sayaraq qeyd edir "Hikayeyi telmihli, tecahül-i arifli, tevriyeli, istiareli kalıplarla rahatça kullanırken öyküyü daha çok edebiyatla ilişkilendirerek kullanmışız. Buna göre, yaşayan iki sözcüğün farklı içerikler yüklenerek kullanılması, bir zorunluluk olarak belirmiş" **[5; s. 12].**

Alim Kahraman "Hikaye" mi, "Öykü" mü? adlı məqaləsində hər iki terminin işlənmə mexanizmini, prinsipləri haqqında ətraflı məlumat göstərməklə hər ikisinin bu gün Türkiyə ədəbiyyatında aktuallığını qeyd edir və gəldiyi nəticəni oxucularla bölüşür: "Mesela bir deneme yapalım: "Geç bunları, hikaye bu senin anlattıkların, hikaye!" cümlesindeki "Hikaye" kelimesi için "öykü"yü kullanın, oraya oturmadığını göreceksiniz **[2; s. 14],** "Benim tutumum, yazılarımda her iki kavramı da kullanma şeklinde sürüyor. Bazen kendimce ayrımlar koyuyorum bu iki kavram arasına: Mesela ilk öykü kitabıma Kayıp Hikayeci adını verdim, nedense. "Kayip Öykücü" desem olmuyordu. Belki "Yitik Öykücü" diyebilirdim ama o zaman da kitapta kurmak istediğim atmosfer yitip gidiyordu" **[2; s. 16].**

Nəinki ədəbi sferada, həmçinin müxtəlif jurnallarda da hər iki terminin işlənməsinə rast gəlinir. Belə ki "Hece Öykü", "Notos Öykü" adlı jurnallarda öykü termini işlənirsə, "Türk Edebiyatı", "Dergah" jurnallarında hekayə terminindən istifadə olunur.

NƏTİCƏ

Mübahisəli məqamlar, fərqli yanaşmalara baxmayaraq belə bir nəticəyə gəlmək olur ki, müasir Türkiyə ədəbiyyatı üçün hər iki terminin işlənməsi qanunauyğunluqdur. Bəzi hallarda hekayə dedikdə klassik hekayə nəzərdə tutulur, öykü dedikdə isə modern hekayə anlamına gəlir. Bu yanaşma hər ikisinin mahiyyətini dəyişməsə də, müəyyən məqamlarda zamana və məkana görə işlənmə prinsiplərində fərqlilik yarada bilir demək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI

1. Bulut Sümeyye. Camal Şakar`ın öykülerinde yapı ve tema : / Fatih Sultan Mehmet Vakif Üniversitesi Lisansüstü Eğitim Enstitüsü türk dili ve Edebiyatı Proqramı yüksek lisans tezi. /- İstanbul, 2019. - 397 s.
2. Kahraman Alim. Modern Türk Hikayesi.2015. İstanbul. Büyüyenay Yayınları.
3. Karataş Turan. Ansiklopedik Edebiyat Terimleri Sözlüğü, Ankara, Akçağ Yayınları, 2. Baskı, 2004.
4. Kayahan Özgül. "Hikayenin Romanı", Hece Türk Öykücülüğü Özel Sayısı, s.46-47, Ekim-Kasım 2000
5. Lekesiz Ömer. "Türk Öykücülüğünün Yüz Yıllık Hikayesi", Dergah Edebiyat Kültür ve Sanat Dergisi, s. 106Ş Aralık 1998
6. Su Hüseyin. "Öykümüzün Hikayesi". "Hece Türk Öykücülüğü Özel Sayısı, s.46-47, Ekim-Kasım 2000
7. Tural Sadık. Zamanın Elinden Tutmak. Ankara, Ecdad Yayınları, Baskı 2. 1991.

AZERBAIJANI WOMAN CHARACTER IN THE WORKS OF SHAFIGA AFANDIZADE

AYSEL MAMEDOVA
Baku Engineering University
Pedagogy/ The English Language
mamedovaay@gmail.com
BAKU, AZERBAIJAN

ABSTRACT
The aim of this thesis is to describe Azerbaijani women`s hard life, lack of their freedom and rights during the beginnings of twentieth century, especially ADR period. These problems were widely and deeply investigated in social, political and family contexts by famous Azerbaijani literary figure Shafiga Afandizade. She was known as a voice of women`s freedom and defender of women`s rights.

KEY WORDS: WOMEN`S RIGHTS, HARD LIVING CONDITIONS OF AZERBAIJANI WOMEN.

INTRODUCTION

Azerbaijani women`s destiny, their hard life and the way of a solution for their slavery were the main topics for the discussions as one of the biggest social-political problems in the press. Our intellectuals, specially, writers were really worried about our women`s absolute hard financial and moral conditions and their deprival of all human rights. That`s why a lot of national press of that period, including "Molla Nasraddin", "Woman of the East" and the others tried to find a solution for that problem. Despite of the hardships, their main purpose was to enlighten the people, give education to women and protect them from ignorance.

As the time went by, some women became educated, intellected and started to show up in the cultural, social and political life of the country. They could be seen in the fields of medicine, education as well as in our press. One of the first intellectual woman writers, publicists, journalists and philanthropists was Shafiga Afandizade. She fought for people`s education, their freedom and human rights and supported the patriotic intellectuals of that time for rescuing the country from that hard period. Besides teaching and being philanthropist, Shafiga khanum tried to enlighten and develop her nation with her pen so she started to write and depict that situation in her works from the early ages. Her father was one of the famous pedagogs so Shafiga learned the Arabic, Persian and Russian languages and began teaching from the age of 14.

One of the biggest intellectuals and philanthropists Haji Zeynalabdin Taghiyev supported the idea of giving women education and freedom so he always helped Shafiga khanum in her activities. Haji always said that if a man got education, he just became an educated and literate person. However, if a woman got education she became not only a clever woman but also an educated and literate mother. Because if a woman was educated, her children also became smart and literate and it made the educated youth grow up. Shafiga khanum always advocated that ideology and made her activities in that manner.

During the period of ADR (Azerbaijan Democtaric Republic) the Sharia laws were still valid and it was great problem and obstacle for Azerbaijani woman in the way of independence. In her memoir "Discrimination against woman" Shafiga khanum clearly described the hard living conditions of Azerbaijani women and harsh bullying against them. She wrote that one day while the girls were in the break time at the school, a group of cruel men keeping chains in their hands came by the street screaming and swearing towards the school. They did not want their women and girls to get education so they protested. The Sharia people did not like to see the girls looking through the windows because their heads and faces were seen by the other men so they started to throw stones towards the windows. Those kind of things happened frequently so the girls and women couldn`t go anywhere for months and lived in confinement. In another episode of that work Shafiga khanum described that there was a theatre in the town and one day it was the turn of schoolgirls to visit it. They could not go to the theatre like men; they could only go there once in a month. They could not enter the theatre where the men entered, they entered from the behind door and walked through the wooden strairs. They could only sit in the lodge covered with the curtain. Only when the lights were turned off, they could open the curtain a little and watch the stage, when the lights were turned on they immedtiately had to close the curtain and sit down. Who dared to go out from the lodge? No one could see a Turkish girl or woman in the hall or lodges of the theatre. Turkish woman was created only for the kitchen and her duties were only to cook, wash and look after the children. How come she could see the world or being heard of...?

In her another memoir "Victim of Ignorance" Shafiga khanum comprehensively depicted the social and maintenance problems in the face of typical Azerbaijani family. During that period there was a tradition that some families made a decision of getting their children married even when they were in their mothers` wombs and they were born they became engaged. There was a family who had two brothers and one day they both had children; one of the was girl, one of them was boy. As soon as they were born, the family got them engaged and every holiday they gave each other presents, sweets, clothes as a tradition and looked forward them to growing up. The elder brother was a salesman in the shop and his son also started to work with him. However, younger brother was a little prone to civilization and sent his daughter to the school. Giving his daughter an education made the other family be angry and they had arguments several times. Neither her uncle nor her fiancé was delighted with the situation and insisted that the girls had to quit the education and leave the school. But nothing had changed. One day, boy`s family sent an ultimatum to the girl`s family that she would never go to school, otherwise, something bad would happen. But later that day the girl with her schoolbag in her hand was seen going to school. Knowing that, the boy got very angry and with the help of other boys he stabbed the girl and killed her while she was returning her home from school.

RESEARCH METHOD

This work is written on the basis of different sources and comparison of different articles and materials. While writing this thesis, psychological and historical methods are widely used. The writer`s way of thinking, struggle for women`s rights and her conscious mind are investigated with the help of psychological method. Historical background of that period, the influence of Sharia laws and the rise of Azerbaijani Democratic Republic are researched by using historical method.

CONCLUSION

In conclusion, the place and role of Azerbaijani woman in the society and their hard living conditions were one of the main topics of Shafiga Afandizade`s creativity. While getting to know her and her literary activities, it turns out that as a publicist she created her works with great enthusiasm and passion during ADR period. Moral issues, women`s freedom and patriotism dominate in her articles, stories and literary works. In her article "Effect of the Organization on Women" she expressed her happiness of one-year anniversary of ADR and wished muslim-turkish women to be organized as well. According to Shafiga khanum, if one nation`s women got equal rights with the men and the women did not use those rights, that nation could not develop. As a defender of women`s rights, Shafiga khanum criticized the passiveness of women in that issue and summoned them to learn the histories of development of increased countries` women. She always wanted to see Azerbaijani women as educated, intellectual and sophisticated so Shafiga khanum stated to women: "Mothers! Give your daughters an education!"

REFERENCES

1. Efendizade S Azf-306911.pdf
2. https://kaspi.az/az/azerbaycan-cumhuriyyeti-parlamentinin-ilk-qadin-emekdasi-fotolar/
3. https://aze.media/azerbaijani-woman-a-hundred-years-ago/
4. http://arxiv.gov.az/az-opennews/299.html

SOCIAL PERCEPTION OF IDENTITY AND FAMILY AFFAIRS IN UZEYIR HAJIBEYOV'S "IF NOT THAT ONE, THEN THIS ONE"

SHAHANE MUSAYEVA
Baku Engineering University
Pedagogy/The English Language
sahanemusayeva@mail.ru
BAKU, AZERBAIJAN

ABSTRACT

"If not that one, then this one" is a musical comedy written by Azerbaijani composer Uzeyir Hajibeyov in 1910. It is the second work written by the composer in the operetta genre after "Husband and wife". "If not that one, then this one" is one of the most courageous and principal works of Azerbaijan theatre art before Bolshevik revolution. According to its revelative aspect and power, this operetta has

always been mentioned in the same level with the greatest dramatists' satiric comedies. Uzeyir Hajibeyov revealed social antagonism of Azerbaijan reality in the end of the 19th and the beginning of the 20th centuries with his comedy. He mocked at the ridiculous family traditions of that time by creating personages from the typical figures. Based on introducing the young and open-minded generation like Gulnaz and Sarvar, the composer defended women's rights and stood against forced marriage and despotism. On the contrary, representing the main hero of the comedy Mashadi Ibad who tried to gain respect with his money and other characters that met his requests and expectations because of his wealth gave chance to the author to reveal the society's true colors.

KEY WORDS: FAMILY AFFAIRS, CRITICISM OF DOMINEERING TRADITIONS, WOMEN'S RIGHTS, FORCED MARRIAGE, GREED.

INTRODUCTION

Uzeyir Hajibeyov was eager for the creation of drama and satiric comedies that made the people curious. To his mind, only the works which met the society's demand and represented the crucial aspects of the period could survive on the stage. Especially musical comedies take an important place in Uzeyir Hajibeyov's creativity, they are "Husband and wife", "If not that one, then this one", "Arshin mal alan".

"If not that one, then this one" is his most revelatory musical comedy that supports the idea of women's liberty and free love. The young generation that struggle for spiritual freedom and never agree with the reign of the money, social traditions has stood against narrow-minded people in this work. The composer has given the great description of Azerbaijani society in the beginning of the 20th century. He added a lyrical aspect developing comedy theatre field. He said: "*In my musical comedies which are completely belong to me with their scripts and libretto, I have made bourgeois society representatives derisive who try to keep Azerbaijani women behind the locked doors and deprive their rights*."

The composer emphasized the equality between men and women, girls' rights to make their own decisions independently in this work. He criticized old traditions and the issue of giving young girls to the wealthy old men because of their money. The protagonists of the work- student Sarvar and young Gulnaz got married at the end in spite of all traditions and rules so they won a victory over the old man and his wealth. Introducing these characters, the composer called all young people to struggle for love. The positive heroes Sarvar and Gulnaz are the first lyric characters in Uzeyir Hajibeyov's comedies. In an opposite side, there were Rustam bey from the feudal age, the characters of that time- rich merchant Mashadi Ibad, tough guy Asgar, hammal, bath attendant Mashadi Gazanfar, representative of new "intelligence" nationalist Hasangulu bey, journalist Rza bey and server Senem. The composer used parody methods in the musical features of bad characters as it is one of the demands of satiric comedy genre. He could not create such a bright musical portrait like Mashadi Ibad in any numbers of his previous comedy. Other evil characters found their satiric identity traits in a literary text, not in music.

The characters of the musical comedy "If not that one, then this one" represent the contradictions of Azerbaijan at that time like a mirror. As this work has given the antagonism of life in a sincere way and the psychological aspects of people proficiently, it keeps its moral significance even now and causes a great interest for people all over the world. It is not a coincidence that every word of this work has been turned into a proverb widely used by people. Several expressions in the comedy are used as aphorisms. At the same time, the music of the work could influence the hearts of the people. Especially, the creation of some meaningful sayings related to the main character Mashadi Ibad among people proves this fact. For example: "Why are you losing control of yourself like Mashadi Ibad?", "Don't act like Mashadi Ibad" and so on.

Mashadi Ibad thought that being rich meant being strong and money was the main thing to determine people's identity so even the important rules of the society were powerless in front of it. He kept saying these words: "There is a saying that if not that one, then this one. Of course, no harm, let's not be young but there should be money. Money is such a power that can turn old into young." In his song "Even if I am old enough", ugly and old Mashadi Ibad kept claiming him to be more powerful than young men self-assuredly. Uzeyir Hajibeyov has used the melody of the folk music "Uzundere". The influential melody of this song is sung by Mashadi Ibad and this is like a caricature. It's so clear that Mashadi Ibad's behaviour and song can cause hatred in the soul of the young girl. This is also one of the most remarkable satiric methods the composer used.

RESEARCH METHOD

I have used several approaches while analysing this musical comedy. First of all, a historical approach is used to give the general description of the time the events took place. Then I have used a cultural approach

to demonstrate the cultural background of that period, the traditions, beliefs and rules. Psychological approach is utilized for revealing the true characteristics of the heroes, and feminist approach helped me to show the forcible way of behaving girls.

CONCLUSION

In conclusion, Uzeyir Hajibeyov has utilized a mock and satire for disclosing and criticising old points of view, moral principles, ignorance, bringing people to their senses and encouraging them to struggle. He has chosen such an original way to tell the main ideas of his time. The characters he created are the indicators of his desire to make the world a better place.

REFERENCES

1. http://konservatoriya.az/?p=1267
2. http://ders.musigi-dunya.az/meshadi_lecture.html
3. Üzeyir Hacibeyli "Seçilmiş Əsərləri", (tərtib edəni- Abdulla Abasov), Bakı, "Şərq-Qərb", 2005.

ZİYA GÖYALPIN YARADICILIĞINDA TƏHSİL, TƏRBİYƏ VƏ DİL MƏSƏLƏLƏRİ

ÜLKƏR BAXŞIYEVA
ADPU-nun Filologiya fakültəsinin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi ,f.ü.f.d.
ulker.baxsiyeva@mail.ru
AZƏRBAYCAN

XÜLASƏ

Böyük şair ,ictimai xadim , görkəmli filosof , pedaqoq ,turançılıq konsepsiyasının əsasını qoymuş türkçü alim Ziya Göyalp türk ədəbiyyatının görkəmli simalarından olmuşdur. Təqdim olunmuş məqalədə Ziya Göyalpın təhsil ,tərbiyə və dil ilə bağlı fikirləri araşdırılmışdır . Məqalədə Ziya Göyalpın təhsil ,tərbiyə ,dil problemləri ilə bağlı mülahizələri ,türk milli dəyərləri və ədəbiyyatşünaslığın nəzəri-estetik prinsipləri daxilində təhlilə cəlb edilmişdir. Bu problem tarixilik və müasirlik müstəvisində dəyərləndirilmiş ,milli-mənəvi aspektdən qiymətləndirilmişdir.

AÇAR SÖZLƏR: Ziya Göyalp, təhsil , tərbiyə , dil , cəmiyyət .

Giriş

Ziya Göyalp Türk ədəbiyyatı tarixində bütün mənəviyyatı , ruhu ilə Türk millətinə bağlı olan ,türkçülük ideyalarını inkişaf etdirən bir sima kimi iz qoymuşdur. Bildiyimiz kimi, Z.Göyalp yaradıcılığı yaşadığı dövrün ictimai- siyasi hadisələri ilə birbaşa əlaqəli şəkildə inkişaf edirdi. Belə ki , XX əsrin əvvəllərində Türkiyədə ictimai-siyasi vəziyyət son dərəcə qarışıq idi. Bütün dünyanı öz gücü, qüdrəti ilə lərzəyə salan Osmanlı imperiyası XIX əsrdən etibarən zəifləməyə başlamışdır. Həmin dövrdə xalq arasında hakim olan Osmanlıçılıq ideologiyası artıq Türkçülük ideologiyası ilə əvəzlənməyə başlanmışdır. Osmanlı torpaqlarında yaşayan qeyri- müsəlmanların xəyanəti türk xalqına artıq anlatmışdı ki, dövlətin yeganə nicat yolu qanı bir,canı bir olan türk millətindədir. Bunun üçün də insanları bir-birinə bağlayan dil ,din , əxlaq, mədəniyyət kimi ortaq dəyərlərin vacibliyi əsas götürülürdü . Ziya Göyalp Türkçülük ideyalarının təbliğində öndə gedən simalardan biri olmuşdur. Ziya Göyalpın atası Tofiq Əfəndi dövrünün tanınmış , açıqfikirli ziyalılarından olmuşdur. Milli türk mədəniyyətini qoruyaraq ,qərb mədəniyyətinin müsbət keyfiyyətlərini qəbul etməyin tərəfdarı olan Tofiq Əfəndini oğlunun düzgün istiqamətdə təhsil alması hər zaman düşündürmüşdür. Bu səbəbdən də Tofiq Əfəndi Ziya Göyalpa həm ərəb,fars dilləri , həm klassik ədəbiyyat , həm qərb ədəbiyyatı ,həm İslam dini , həm fransız dili , həm yunan fəlsəfəsi , həm digər dünyəvi elmlər kimi kompleks təhsil sistemini mənimsətməyi məqsədəuyğun hesab etmişdir . O, oğlunu hərtərəfli şəxsiyyət olaraq yetişdirmək istəmişdir. Bütün bunlarla yanaşı Ziya Göyalpın əsl türk milli-mənəvi dəyərlərinə bağlı türkçü kimi yetişməsini arzu etmişdir. Çox təəssüf ki, Ziya Göyalp 1890-cı ildə

14 yaşında ikən özünün mənəvi dayağı hesab etdiyi atasını itirmişdir. Tofiq Əfəndiyə oğlu ilə bağlı arzularını görmək qismət olmamışdır.Lakin Ziya Göyalp atasının arzularını gerçəkləşdirərək, onun doğru istiqamət kimi müəyyənləşdirdiyi yolu davam etdirmişdir . Ziya Göyalp türk ədəbiyyatı tarixində böyük şair ,ictimai xadim , görkəmli filosof , pedaqoq ,turançılıq konsepsiyasının əsasını qoymuş böyük türkçü alim kimi öz möhrünü vurmuşdur. Ziya Göyalp sənəti müxtəlif istiqamətli və zəngin bir yaradıcılıqdır . Belə ki , onun müxtəlif şeirlərinin toplandığı "Kızıl elma" , " Yeni hayat" , "Altun işık" adlı şeirlər kitabları, "Türkçülüyün əsasları" , "Türkləşmək ,İslamlaşmaq ,müasirləşmək", "Türk türesi" , "Malta məktubları" və s. əsərləri, müxtəlif mətbu orqanlarda dərc etdirdiyi elmi,ictimai ,ədəbi məqalələri Z.Göyalpın böyük yaradıcılıq irsinə sahib olduğunu göstərir.Ziya Göyalp məşhur "Türk milletindenim ! İslam ümmetindenim ! Avrupa medeniyetindenim !" devizinin müəllifidir. Ziya Göyalp müasirləşmək deyəndə görünüşcə avropalılara oxşamağın , yaşayış tərzi baxımından bənzəməyin , Avropa milli-mənəvi dəyərlərini qəbul etməyin tərəfdarı olmamışdır. Avropa mədəniyyətinin müsbət keyfiyyətlərini qəbul etməyi nəzərdə tutmuşdur. Bunu daha çox Avropa elmini , tərəqqisini mənimsəməklə dəstəkləmişdir.Ziya Göyalpa görə, Türk xalqı öz milli- mənəvi dəyərlərini, milli mədəniyyətini qorumalıdır, lakin Avropa elminin müsbət keyfiyyətlərini qəbul edərək müasirləşməyi də zəruri hesab etmişdir. Ziya Göyalpın atası Tofiq Əfəndinin bu fikirləri "gençlerimiz bir taraftan Fransızcayı ,bir taraftan da Arapça ve Farsçayı iyi öğrenmeli , bu sayede hem Batı ilimlerine ,hem de Doğu bilginlerine bütünüyle vakıf olmalı ,sonra da bunları kıyaslama ve uzlaştırma yoluyla milletimizin muhtaç olduğu büyük hakikatleri meydana çıkarmalıdır."(7,339) Ziya Göyalp düşüncəsinin mayasını,bünövrəsini təşkil etmişdir. Bu istiqamətdə püxtələşən Ziya Göyalp "Türk millətindənəm ,İslam ümmətindənəm və Avropa mədəniyyətindənəm" fikrinə belə aydınlıq gətirmişdir: "Türkçülerin gayesi müasir (çağdaş Avrupai) bir İslam Türklüğüdür . Türkçülüğün millet mefkuresi Türkçülükse ,ümmet mefkuresi de İslamçılıktır. Türklerin hepsi İslam olduğu için Türkçüler hiçbir zaman İslam ümmetçiliğine aykırı bir his beslemeyeceklerdir. Türkleşmek ,İslamlaşmak mefkureleri arasında bir çatışma olamadığı gibi ,bunlarla muasırlaşmak ihtiyacı arasında da bir uyuşmazlık olamaz .Bugün , bizim için muasırlaşmak demek ,Avrupalılar gibi zırhlar , otomobiller , teyyareler yapıp kullanabilmek demektir.Muasırlaşmak ,şekilce ve yaşayış tarzı ile Avrupalılara benzemek demek değildir. Asrılık ihtiyacı ,bize Avrupadan yalnız ilmi ameli fenlerin alınmasını emrediyor.Avrupada dinden ve milliyetten doğan , binaenaleyh bizde de bu kaynaklarda aranması lazım gelen birtakım manevi ihtiyaçlarımız vardır ki , bunların Batıdan alınması gerekmez . Şu halde yeni mefkurenin üç amacı vardır : Türklük ,İslamlık ,Muasırlık Türkçülüğün gayesi bir Türk harsı yaratmaktır. Bu mefkure ,İslamlık ve Batı medeniyeti ile tamamlanır.Şu halde her Türkün inançları şu tarzda ifade olunmalıdır : "Türk milletindenim! İslam ümmetindenim ! Avrupa medeniyetindenim !"(7.344) Ziya Göyalpdan nümunə gətirdiyimiz bu fikirlərdə Ziya Göyalpın mənəvi dünyasının , fəlsəfi düşüncəsinin təzahürü aydın verilmişdir. Məqalədə Ziya Göyalpın hansı mühitdə formalaşmasına, hansı mühitdə tərbiyə və təhsil almasına aydınlıq gətirilmişdir. Bu detalları sadalamağımız təsadüfi deyildir. Bildiyimiz kimi , Ziya Göyalp həm də gözəl pedaqoq olmuşdur.Onun uşaqların düzgün təhsil , tərbiyə alması ilə bağlı dəyərli əsərləri, şeirləri, elmi,ictimai , bədii məqalələri vardır. Ziya Göyalpın belə gözəl nümunələr yazıb-yaratmasında heç şübhəsiz ki, özünün düzgün tərbiyə və təhsil almasının , xalqın milli-mənəvi dəyərlərinə bağlı olmasının böyük rolu olmuşdur. Ziya Göyalpın vətənpərvər alim kimi yetişməsində atası Tofiq Əfəndinin xidmətləri danılmazdır. Bir millətin gələcəyinin düzgün formalaşmasında uşaqların düzgün tərbiyələnməsinin ,düzgün təhsil almasının , əsl milli vətənpərvər ruhda yetişməsinin böyük rolu vardır. Təməli möhkəm qurulmuş binanın ömrü uzun olduğu kimi , bünövrəsi də düzgün istiqamətdə formalaşdırılan xalq , millət tarixən öz sözünü deməyə qadir olmuşdur. Ziya Göyalp fəlsəfi düşüncəsinə görə milli fərdlərin formalaşması millətin formalaşması deməkdir . Bütün bu proseslər bir-biri ilə zəncirvari şəkildə bağlıdır. Milli fərdin formalaşmasında ilk bünövrə rolunu oynayan ailədir. Uşağın milli şəxsiyyət olaraq formalaşmasında ailədəki mühitin çox böyük rolu vardır. Ailə də kiçik bir dövlətdir. Z.Göyalp dünyadakı türk uşaqlarını öz övladlarından ayırmamış , uşaqlara böyük sevgisi olmuşdur. Onun uşaqlar üçün yazdığı şeirlər , nağıllar və s. uşaqların milli ruhunun inkişaf etməsinə , bədii düşüncələrinin inkişafına böyük təsir etmişdir. Ziya Göyalpın qızı Hürriyət xanım xatirələrində qeyd etmişdir ki, atasından bu əsərləri ona və bacıları üçün yazdığını soruşduqda atası belə cavab verib :

"-Bu masalları yalnız senin ve kardeşlerin için yazmıyorum. Türk çocukları için yazıyorum.Ben yalnız senin ve kardeşlerinin babası değilim .Bu dünyadakı bütün türk çocuklarının babasıyım. Sizleri ne kadar düşünür ve seversem onları da o kadar düşünür ve severim."

Z.Göyalp uşaqların formalaşmasında milli təhsilə və uşaqların sosiallaşmasına daha çox önəm vermişdir.Uşağın tərbiyəsində ananın daha çox rol oynadığını vurğulamışdır. Türk qadınının təhsilli olması

məqamları Z.Göyalp yaradıcılığında həmişə önəmli yer tutmuşdur. Onun fikrincə "Bir anne çocuklarını söyletmeli ve onlara ihtiyaçlarına göre terbiye edici sözler söylemelidir. Çocuklar , aile tarikatının müridleridir. Anneleri onların şeyhi gibidir.Şeyh nasıl müridlerinin ruhlarıyla meşgul olur ve daima bu ruhları tedavi ederse , anne de çocukları hakkında onun gibi yapmalıdır." və yaxud "Çocuk için en iyi mektep, ana kucağıdır, en iyi bahçe baba ocağıdır. Aile içinde alınan terbiye , her terbiyenin fevkindedir."

Ziya Göyalp uşaqların bədii zövqünün formalaşmasında milli-mənəvi dəyərlərin yaradılmasında , milli kimliyimizin onlara aşılanmasında ədəbiyyatın böyük rol oynadığını qeyd etmişdir. Bildiyimiz kimi ədəbiyyat ruhun qidasıdır. Ədəbiyyat mənəvi ruhumuzu formalaşdıran ən gözəl söz sənətidir. Ədəbiyyat vasitəsilə uşaqlarda vətənə sevgi , böyüyə hörmət, valideynə sevgi, elmə,təhsilə həvəs, humanizm ,xeyirxahlıq, ədalətlilik və s. müsbət keyfiyyətləri aşılamaq mümkündür. Ziya Göyalpın sözləri ilə desək : "Edebiyata ve şiire kıymet vermeli , çünkü bu iki hüner de gayet eğlenceli ve zevklidir. Aynı zamanda zekaya nur , muhayyileye kanat , kalbe de heyecan verir. Derslerin en vecdlesi edebiyat ve şiire dair olanlardır. Resimle musiki de şiirle edebiyatın arkadaşıdır. Bunların hepsi ruha güzellik , ahlaka temizlik verir. İnsan en tatlı vecdleri bu hünerden alır. Çocuklara Allah sevgisi , mefkure sevgisi iyi verilmiyor .Çocuklar bu duyğuları da , edebiyyatın ilahilerinden , destanlarından almak mecburiyyetindedir. (Tansel 1989. s.73)

Əgər uşaq valideyninə dəyər verirsə , demək o, vətəninə də , millətinə də dəyər verəcəkdir.Anaya və vətənə olan sevgi bərabər tutulmalıdır. Vətən də ana qədər müqəddəs və əzizdir.Uşaqlara ən kiçik yaşlarından bu iki məfhuma olan hörmət və sevginin hər şeydən uca , ali olmasını aşılamaq lazımdır. Z.Göyalp uşaqlara ana sevgisini aşılayan "Anne sevgisi" şeirini yazmışdır.Həcmcə kiçik olan "Anne sevgisi" şeirinin misralarında böyük və dərin mənalar yatır. Həyatda əvəzolunmaz varlıq olan ananın zəhmətini, ananın borcunu heç nə ilə qaytara bilmərik.Məhəmməd peyğəmbərin "Cənnət anaların ayağı altındadır" kəlamını da hələ neçə əsr bundan əvvəl analara verilmiş yüksək dəyər kimi qiymətləndirmək olar.

Anneye karşı gelmeyelim
Nergis çiçeği gibi
Ne güzel kokarlar ,
Ellerinde çiçek çok güzel durur.

Z.Göyalp yaradıcılığındakı bütün bu detallar nəticə olaraq xalqın düşüncəsində türkçülüyün , milliliyin formalaşmasına xidmət etmişdir. Xalqda milli ruhun yaradılması , türkçülük ideyalarının formalaşması birdən –birə göydəndüşmə baş vermir.Hər bir şeyin kökü , bünövrəsi , rüşeymi olduğu kimi millətin, türkçülüyün ilkin başlanğıcını da bayaq izahını verdiyimiz ,uşaq tərbiyəsi, təhsili, milli fərdlərin formalaşması təşkil edir.Bu prosesi ağacın kökünə bənzətsək , qol-budaq atmış şaxələri isə cəmiyyətdə milli ruhda formalaşan , türkçülük ideyalogiyası ilə alışıb yanan gənclərlə müqayisə edə bilərik.

Tədqiqatın metodu: Məqalədə tarixi-müqayisəli metodun tələbləri əsas götürülmüşdür. Türk ədəbiyyatşünaslığının elmi məziyyətləri, ümumi ədəbi-tarixi və estetik qanunauyğunluqları bu prinsipin əsasını təşkil edir.

Ziya Göyalp Türk dilinə ,onun varlığına böyük dəyər verirdi.O, "Türkçülüyün əsasları" kitabında da Türk dilinin milli dəyərlər əsasında inkişaf etməsinə toxunmuşdur.İ.Qaspiralının "dildə ,fikirdə, işdə birlik" ideyası Z.Göyalpın ideyaları ilə səsləşir. Z.Göyalp da İ.Qaspiralı kimi ortaq türk dilinin yaranmasını istəmişdir. Hər ikisi İstanbul ləhcəsini ortaq türk dili kimi qəbul etməyin tərəfdarı olmuşlar.Ziya Göyalpa görə necə danışırıqsa ,elə də yazmalıyıq.Yəni yazı dili ilə danışıq dili birləşdirilməlidir . Z.Göyalp dilin sadələyinin , oxunaqlılığının, aydınlığının, türk dilinin saflaşmasının tərəfdarı olmuşdur.

Güzel dil türkce bize,
Başka dil gecə bize,
İstanbul konuşması
En saf ,en ince bize.
Lisanda sayılır öz
Herkesin bildiği söz
Manası anlaşılan
Lüğate atmadan göz.
Uydurma söz yapmayız,
Yapma yola sapmayız.
Türkçeleşmiş ,türkçedir,
Eski köke tapmayız.

Z.Göyalp Türk dilinin əcnəbi sözlərlə yüklənməsinin əleyhdarı olmuşdur. Türk dilini bəyənməyənləri qətiyyətlə tənqid etmişdir. Z.Göyalpa görə türk dili ilə xalqın milli mənəvi dəyərləri formalaşmış ,ana laylaları ilə xalqın milli ruhu ,milli zövqü yaranmışdır .

Turanın bir ili var,
Ve yalnız bir dili var.
Başka dil var diyenin
Başka bir emeli var.

Nəticə

Z.Göyalp düzgün təhsilə , tərbiyəyə hər zaman dəyər vermişdir. Təhsil xalqı işıqlı , parlaq gələcəyə aparan yoldur. Təhsili olmayan xalq cəmiyyətdə sözünü deməyə qadir ola bilməz. Ziya Göyalpın fikirlərindən belə qənaətə gəlmək olar ki , xalqın milli-mənəvi dəyərlərini itirmədən , müasir təhsil sisteminə sahib olması onun düzgün inkişafı deməkdir. Ziya Göyalp tərbiyə və dil məsələlərinə də çox həssas yanaşmışdır. Dil hər bir xalqın dünya arenasında özünü tanıdan vizit kartıdır. Dilin saflığını, əcnəbi təsirlərdən qorunmasını hər zaman gözləmək lazımdır.Hələ XIX əsrdə bu fikirləri ictimailəşdirən Ziya Göyalpın dəyərli fəlsəfi-düşüncələri bu günümüzlə də səsləşir.Ziya Göyalpın istər Türkçülüklə , istər dil ilə, istər tərbiyə ilə , istərsə də təhsil ilə bağlı fikirlərinə hər zaman böyük ehtiyac olmuşdur.Bu məsələlər bugün də öz aktuallığı ilə seçilir.

Ədəbiyyat siyahısı:

1.N.S.Banarlı . Resimli Türk edebiyatı tarihi 2cilddə, (II cild). İstanbul.1998.
2. Z.Gökalp .Türkleşmek , islamlaşmak, müasirləşmək. Ankara. Emel matbaacilik sanayi.1976.
3. Z.Göyalp .Türkçülüyün əsasları . Bakı .1991.
4. Z.Gökalp.Türk töresi.Istanbul.2013.
5. Z.Gökalp.Altın işık.İstanbul.2005.
6.İ.H.Baltacıoğlu .Ziya Gökalp .İstanbul .1966.
7.A.Kabaklı .Türk edebiyatı .İstanbul.Acar matbaacılık A.Ş. 1997.
8.E.Quliyev . Türk xalqları ədəbiyyatı. Bakı , Elm və təhsil.2017.
9. Türkiyə ədəbiyyatı antologiyası (poeziya) .Bakı ,Azərbaycan tərcümə mərkəzi.2018.

TURK LİRİK POEZİYASINDA NAZİM HİKMETİN YERİ

ARZU, DADAŞOVA
AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Türk filologiyası şöbəsi
d.arzu@bk.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

XX əsr türk lirik şeirinin məşhur simalarından olan Nazim Hikmətin anadan olmasının 120-ci ili tamam olur. Nazim Hikmət Türk lirik poeziyasında xüsusi yeri olan şairlərdəndir. O, türk ədəbiyyatında inqilabi poeziyanın banisi hesab olunur.

Nazim Hikmət türk ədəbiyyatı tarixində ilk olaraq dünyada tanınan tək şairdir. Beləki onun əsərləri Amerika, Yaponiya, Hindistan və Afrika kimi ölkələrdə məşhurlaşmışdır. Şairin şeirləri ilə yanaşı pyesləri dünyanın bir çox ölkələrinin teatr səhnələrində tamaşaya qoyulmuş, dram əsərləri ekranlaşdırılmış, ssenariləri əsasında bədii filmlər çəkilmişdir. Bundan başqa o, türk poeziyasına sərbəst şeiri gətirmiş, hecalarda ənənəvi qafiyə anlayışını dəyişdirmiş, xalq dilini şeirə daxil edərək zənginləşdirmişdir. Nazim Hikmət Mayakovskinin təsiri ilə "pilləkan", deyə adlandırdığı pilləli şeir formasından istifadə etməyə başlamışdır.

Araşdırmamızda doğumunun 120-ci ilində Nazim Hikmətin həyat və yaradıcılığına nəzər salınmış, şeirlərinin mövzu istiqaməti araşdırılmış, daha sonra Nazim Hikmətin Azərbaycanda tədqiqat tarixinə nəzər salınmışdır. Sonda isə işə qısa nəticə ilə yekun vurulmuşdur.

AÇAR SÖZLƏR: Nazim Hikmət, ədəbiyyat, lirik, şeir.

GIRIŞ

"Gözəl üzlü şair" və ya "Mavi gözlü Dev" ləqəbi verilən Nazim Hikmət Türkiyə poeziyasında sərbəst şeirin ilk nümayəndəsi və çağdaş Türk şeirinin məşhur və önəmli şəxsiyyətlərindəndir. O, Türk inqilabi poeziyasının əsasını qoymuşdur. Beynəlxalq miqyasda tanınmış və adı XX əsrin I yarısından dünyanın ən böyük şairləri sırasında çəkilmişdir. Ziyalı və zadəgan bir ailədə doğulub böyüməsi uşaq yaşlarından onun düşüncələrinə təsirli olmuşdur.

Həyatının çoxunu həbsdə və qürbətdə keçirən şair daim vətən həsrəti ilə alışıb yanmışdır. 1921-ci ildə Anadoluya və daha sonra Moskvaya getməsi ilə şairin bütün həyatı, yaradıcılığı, fikirləri dəyişdi. Təhsil almaq üçün getdiyi Moskvadan döndükdən sonra siyasi fikirlərinə görə təqib olunmuş, müxtəlif dövrlərdə həsb edilmişdir. Moskvada baş verən ictimai-siyasi hadisələrin birbaşa şahidi olan Nazim Hikmətin poeziyasının əsas mövzusu elə bu səbəbdən inqilab idi. O, inqilab ruhlu şeirlərini özünün də dediyi kimi «yazılmasına ehtiyac duyulduğu bir zamanda yazmışdı». Kütlələrdə inqilabi əhvali-ruhiyyə doğurmaq, onlarla qaynayıb-qarışmaq üçün yeni poetik məziyyətlər lazım idi. Nazim Hikmət bu illərdə həmin məziyyətləri şeirə gətirməyə çalışırdı. N.Hikmət dünya miqyasında şöhrət qazanmış bir sənətkar kimi beynəlxalq mövzularda xeyli şeir yazmışdır.

TƏDQIQAT METODU

XX əsr türk lirik şeirinin məşhur simalarından olan Nazim Hikmətin türk lirik şeirindəki yeri məqaləsində müqayisəli metoddan istifadə olunmuşdur. Burada şairin nəşr olunmuş şeir kitabları, şair haqqında yazılan kitab və məqalələrdən istifadə olunmuşdur.

Nazim Hikmət haqqında

N.H.Ran dünya mədəniyyəti tarixinə şair, nasir, publisist, dramaturq və ictimai-siyasi xadim kimi daxil olur. Onun ideya və məzmunca çox zəngin olan şeirləri və poemaları dünya xalqları poeziyasının xəzinəsində özünə möhkəm yer tutmuşdur.

Nazim Hikmət 1902-ci ildə Selanikdə Hikmət bəy və Cəlilə xanımın ailəsində doğulmuşdur. Anası Cəlilə xanım təhsil almış ilk qadın rəssamlardan biri olmuşdur. İlk təhsilini İstanbulda Göztəpə Daş məktəbdə almış, daha sonra bir müddət Galatasaray liseyində oxuduqdan sonra Nişantaşı Sultanisinə keçmişdir.

1917-ci ildə bu məktəbdən çıxaraq Heybəliada Dənizçilik məktəbinə qəbul olmuşdur. Burada beş il oxuduqdan sonra sətəlcəm olduğuna görə və xəstəliyinin artması səbəbi ilə Dənizçilik məktəbinin komandanlığı tərəfindən əsgərlikdən uzaqlaşdırılmışdır.

Şairin gənclik illəri Osmanlı imperiyasının dağılması və Milli mücadilə dövrünə təsadüf etmişdir. Yaradıcılığı boyu heç bir ictimai-siyasi proseslərə biganə qalmayan şair 1921-ci ildə dostu Vala Nureddin ilə birlikdə Milli Mücadiləyə qatılmaq məqsədi ilə Anadoluya yollanır. Burada gördükləri onun həyatının və yaradıcılığının tamamilə dəyişməsinə səbəb olur. N.Hikmət Anadoluya getdikdən sonra görür ki, xalq öz çəlimsiz, nuhun dövrünə aid silahı, aclığı və biti ilə yunan ordularına qarşı vuruşur. Bunu görən şair gördüklərini yeni bir formada ifadə etmək üçün arayışa çıxır. Qafiyə ilə işə başlayan şair türk ədəbiyyatında sərbəst janrda yazdığı şeirləri ilə yeni bir ənənənin əsasını qoyur. Beləliklə onun Anadoluya gəlişi ilə şeiri də köklü surətdə dəyişməyə başladı.

N.Hikmət Anadoludan Tiflisə ordan da təhsil almaq üçün Moskvaya yollanır. Moskvada oxuyarkən fütürist şair Vladimr Mayakovski ilə tanış olmuşdur. Tələbə ikən Nüzhət xanımla evlənsə də, Nüzhət xanım daha sonra xəstəliyindən dolayı Nazimdən ayrılır.

N.Hikmət 1922-ci ildən Türkiyə Kommunist Partiyasının üzvü olmuşdur. 1924-cu ildə Türkiyəyə geri dönür. Siyasi fikirlərinə və fəaliyyətlələrinə görə qiyabi olaraq 15 illik həbsə məhkum olunmuşdur. 1927-ci ildə gizli yolla Moskvaya qaçır. 1926-cıı ildə yazdığı "Neft dünyasına səyahət" əsərini Bakı neftçilərinə həsr edir. Bir il sonra isə şair Bakıya gəlir. Bakını, Xəzəri görəndə şair sanki özünü öz doğma vətəni Türkiyədə hiss edir. Müəllifin "Günəşi içənlərin türküsü" adlanan ilk kitabı da məhz Azərbaycanda, Bakıda nəşr edilmişdir.

Nazim Hikmət 1938-ci ildə saxta bir ittihamla yenidən həbs olunub və 28 illik həbs cəzası almış, onun 12 ilini Bursa həbsxanasında keçirmişdir. 1950-ci ildə əfv edilərək azadlığa buraxılan Nazim daha sonra Moskvaya köçür. Şairin əsərləri 1938-ci ildən Türkiyədə yasaqlanmış və 25 iyul 1951-ci il tarixində Türkiyə vətəndaşlığından çıxarılmışdır. Ölümündən iki il sonra 1965-ci ildən əsərləri Türkiyədə yayımlanmağa başlamışdır. 5 yanvar 2009-cu ildə Türkiyə dövlətinin qərarı ilə Türkiyə vətəndaşlığı bərpa edilmişdir. Anarın "Ədəbiyyat qəzeti"ndə çap olunmuş " Zəfərin mübarək, Nazim" məqaləsi də bu səbəblə yazılmışdır.

Nazim Hikmət yaradıcılığına baxış

Türk ədəbiyyatında hekayə və roman janrında da əsərlər yazan Nazim Hikmət daha çox şeirləri ilə məşhurlaşmış və sevilmişdir.

Nazim Hikmətin yaradıcılığını tədqiq edənlərin əksəriyyəti onu inqilab şairi adlandırırlar. Bu da təsadüfi deyildi, çünki qeyd etdiyim kimi şair heç bir siyasi prosesə biganə qalmamış, ona öz münasibətini bildirməkdən çəkinməmişdir.

XX əsrin əvvəllərində Türkiyə həyatında baş verən hadisələr onun yaradıcılığında birbaşa öz bədii ifadəsini tapmışdır. Ailəsində aldığı tərbiyə də onun hərtərəfli inkişafına səbəb olmuşdur. Anasından fransız inqilabçıları haqqında söhbətlər dinləmiş, Lamartinin şeirlərini əzbərləmişdir.uşaq yaşından babası Məmməd Nazim Paşadan dinlədiyi divan şeirlərinə bir o qədər də həvəs göstərməmişdir. Ümumiyyətlə, Nazim Hikmətin ilk şeirlərində "Sərvəti-Fünun"çuların, əsasən də Tofiq Fikrət şeirlərinin təsiri hiss olunur. Lakin bu təsir çox uzun çəkməmişdir. Yaradıcılığa məhəbbət şeirləri ilə başlayan N.Hikmətin ilk şeirlərinin əsas mövzusunu eşq, ayrılıq, həsrət, təbiət təsvirləri təşkil edir. Lakin şairin Anadoluya və Rusiyaya etdiyi səfərlərdən sonra poeziyasının mövzu istiqaməti tamamilə dəyişdi. Əgər şair yaradıcılığa başladığı ilk illərdə yazdığı "Mövlana", "Dərgahın quyusu", "Əzizə" və s. şeirlərində dini mövzulara daha çox önəm verirdisə, sonrakı dövrdə artıq ictimai mövzuları poeziyasının əsas mövzusuna çevirir, vətəninin, xalqının bu günü, gələcəyi onu daha çox maraqlandırırdı.

Nazim Hikmətin əsərləri Amerika, Yaponiya, Hindistan və Afrika kimi ölkələrdə məşhurlaşmışdır. Şairin şeirləri ilə yanaşı pyesləri dünyanın bir çox ölkələrinin teatr səhnələrində tamaşaya qoyulmuş, dram əsərləri ekranlaşdırılmış, ssenariləri əsasında bədii filmlər çəkilmişdir. Nazim Hikmət kitablarından birində özü belə ifadə edirdi: "Şeirlərimin kökü yurdumun torpaqlarındadır. Amma budaqları ilə bütün torpaqlara, Şərqdə, Qərbdə, Güneydə, Quzeydə ucsuz-bucaqsız yayılan bütün torpaqlara, o torpaqlar üstündə qurulmuş mədəniyyətlərə, böyük dünyamıza uzanmaq istədim. İnsan oğlu, harda, nə zaman və hansı dildə olursa-olsun, ürəyimə və düşüncəmə uyğun bir şeir söyləmişsə, onun söylənişindəki ustalığı incələməyə, ondan bir şey öyrənməyə çalışdım. Yalnız öz ədəbiyyatımıza aid olanlara deyil, Şərq və Qərb ədəbiyyatının bütün sənətkarlarını özüm üçün ustad bildim" (Təhməzoğlu, 2008, s. 6).

Nazim Hikmət öz ölkəsinə, onun insanlarına, dünyaya tamamilə başqa gözlə baxmağa başladı. O, inandırmağa çalışırdı ki, bu ölkənin insanları öz çılpaq əlləri ilə vətənlərini qorumağa qadirdirlər. O, təkcə Antanta qoşunları tərəfindən zəbt edilmiş İstanbulun mühasirədən azad olması üçün deyil, Anadoludakı insanların gələcək taleyi üçün də narahat idi. Nazim Hikmət öz gözləri ilə Anadoluda xalqın doğma vətənin azadlığı üçün necə qan tökdüyünü görmüşdü. Bütün bunlar sözsüz ki, şairin qəlbində güclü etiraz hissləri oyadırdı

Nazim Hikmət başa düşürdü ki, bu yeni ideyaları köhnə ənənəvi formalarla ifadə etmək olmaz. Buna görə də o, yeni şeir formaları axtarır, şeirin ifadə dairəsini genişləndirirdi. Nazim Hikmət bir çox müasirləri kimi heca vəznində yazsa da əslində onlardan tamamilə fərqlənirdi. Heca vəznində yazdığı şeirlərində Namiq Kamal, Tofiq Fikrət, Mehmet Emin kimi o da ictimai görüşlərini, siyasi düşüncələrini ön plana çəkirdi. Bir müddət əvvəl yazdığı şeirlərindəki («Əzizə», «Bir gecə», «Yalnız» və s.) ənənəvi poetik obrazlara artıq rast gəlinmirdi. (Abbasova, s.11) O, şeirdə yeni forma yaratmaq istəyirdi. Təhsil almaq üçün Rusiyaya gələn şairə bu mühit şeirdə yeni forma axtarışları etmək üçün böyük imkanlar yaratdı. Burada Nazim Hikmət'in şeir yaradıcılığında əsaslı dönüş oldu. Sərbəst, ahəngdar şeiri, təzə heca qaydalarını, ölçüsüz bənzətmələri Türk poeziyasına ilk dəfə məhz Nazim Hikmət gətirdi. Sətirlərin düzülüşü, sözlərin sırası və hecaların bölünməsi baxımından onun əsərləri tamamilə yeni idi. Pilləkənvari sətirlər, sərbəst qafiyələnən misralar ilk baxışda Nazim Hikmət'in Türk şeirinə gətirdiyi yeniliyin forma ilə bağlı olduğunu göstərirdi, lakin əsl yenilik məzmun və ideyada idi. Sovet poeziyasını mənimsəmiş Nazim Hikmət,ən çox da Mayakovskinin təsiri ilə heca vəznindən sərbəst vəznə keçid etmişdi. O, Mayakovskiyə olan sevgisini heyranlığını belə ifadə etmişdir:

"1921-ci ildə mən Batumidə divara yapışdırılmış rus qəzetində Mayakovskinin şeirini görmüşdüm. Çox diqqətimi çəkdi, rus dilini bilmədiyim üçün şeiri oxuya bilmədim, amma bu şeir formasını bəyənmişdim. Şeir,pilləli şəkildə yazılmışdır. Daha Sonra bu formanı istifadə etməyə başladım. Məni Mayakovski poeziyasının davamçısı hesab edirlər.bununla qürur duyuram. Ən çox sevdiyim şairlər; Puşkin, Lermontov, Yesenin, Mayakovskidir. Mayakovski və Yesenin dünya ədəbiyyatının fenomenləridir" deyə şair qeyd etmişdir. (Seda, 2019, s.238)

N. Hikmət poeziyasında Vətən sevgisi xüsusi yer tutur. Şairin harada olmasından asılı olmayaraq onun poeziyasında oxucu böyük bir yanğını – Vətənə qovuşmaq, həsrətə son qoymaq istəyini görür.

Nazim Hikmət Türkiyə həsrətini "Ceviz ağacı" şeirində də qabarıq şəkildə ifadə etmişdir.

Başım köpük köpük bulut, içim dışım deniz,
Ben bir ceviz ağacıyım Gülhane Parkı'nda,
Budak budak, şerham şerham ihtiyar bir ceviz.
Ne sen bunun farkındasın, ne polis farkında.
Ben bir ceviz ağacıyım Gülhane Parkı'nda.
Yapraklarım suda balık gibi kıvıl kıvıl.
Yapraklarım ipek mendil gibi tiril tiril,
koparıver, gözlerinin, gülüm, yaşını sil.
Yapraklarım ellerimdir, tam yüz bin elim var.
Yüz bin elle dokunurum sana, İstanbul'a.
Yapraklarım gözlerimdir, şaşarak bakarım.
Yüz bin gözle seyrederim seni, İstanbul'u.
Yüz bin yürek gibi çarpar, çarpar yapraklarım.
Ben bir ceviz ağacıyım Gülhane Parkı'nda.
Ne sen bunun farkındasın, ne polis farkında.

Bu şeir haqqında müxtəlif rəvayətlər mövcuddur. Bəziləri şeirin məhəbbət mövzusunda və N.Hikmətin polisdən qaçarkən yazıldığı iddia etsələr də bu fikir doğru deyil. Iddiaya görə N.hikmət həbsdən qaçdıqdan sonra qaçaq olduğu vaxtda sevgilisi Pirayə xanımla görüşmək üçün dostu ilə ona xəbər yollayır və Gülhanə parkında qoz ağacının altında ona görüş təyin edir. Lakin dostu bunu polisə xəbər verdiyi üçün N.Hikmət gizlənmək üçün qoz ağacının başına çıxmalı olur. Pirayə xanım da onu ağacın altında gözləyir gəlmədiyini görüb qayıdır. Müəllifində bu hadisədən sonra Ceviz ağacı şeirini qələmə aldığı söylənilir. Əslində isə şeir 1957-ci ildə Bolqarıstanın Balçık şəhərində yazılmışdır. O zaman N.Hikmət Pirayə xanımla deyil, Münevver Andaçla evli olub və şeiri ona məktubla göndərib. Şeirin məhəbbət mövzusunda deyil, daha çox vətən həsrəti ilə yazıldığı görülür.

Araşdırma zamanı məlum olur ki, 2005-ci ilə qədər Gülhane parkında qoz ağcı olmamışdır. Bunu Nazim yaxşı bilirdi. Əslində isə bu ceviz ağacı elə Nazimin özüdür, o məcburən mühacirət etsə də, heç kim bunun fərqində olmasa da o yenə də Türkiyədədir. Şairin "Sən" ifadəsi ilə müraciət etdiyi isə sevgilisi yox türk vətəndaşlarıdır. Bu parkda ilk qoz ağacı 2005-ci ildə Cem Karacanın xatirəsinə əkilmişdir.

Özünü İstanbulda Gülxanə parkındakı "qoz ağacı" kimi təqdim edən şair bunu təsadüfi etməmiş, o, özünü qoz ağacına bənzətməklə dözümlülüyünü, mətanətini, möhkəmliyini nümayiş etdirməyə çalışmışdır. Hər gün bu parkda gəzişənlər, hətta polis belə ceviz ağacının varlığını duymur. Şair bu ağaca göstərilən münasibətlə vətənində ona göstərilən etinasız münasibət arasında bir bənzərlik görür. Bu da onu çox incidir. Bu şeirdə şair İstanbul həsrətini, vətənə qovuşmaq istəyini açıq şəkildə bəyan edir. Onu yaralayan bu yaranın sağalacağına inanan şair Türkiyəyə qovuşacağı günü həsrətlə gözləyir. Qoz ağacının torpağa bağlı olan dərin kökləri kimi nazim də öz doğma vətəninə bağlı idi və onun qolları hər tərəfdən İstanbula uzanıb onu qucaqlayır.

NƏTICƏ

N.Hikmət həm də Azərbaycanın M.Ə.Sabir, M.F.Axundzadə, C.Məmmədquluzadə, R.Rza, S.Rüstəm, Ə.Cəmil və b. sənətkarlarının yaradıcılığından ürək dolusu söhbət açır. Bütün bunlar onun Azərbaycan ədəbiyyatına sonsuz marağının nəticəsi idi. 1920-ci illərin sonlarına yaxın Azərbaycanda Ə.Nazim, M.Rəfili, S.Vurğun, C.Əfəndizadə, S.Rüstəm kimi yazıçılar N.Hikmət şeirlərinə maraq göstərmiş, sərbəst vəzndə yazılmış şeirlərində Nazim Hikmət yaradıcılığının təsiri hiss edilmişdir . Azərbaycan tədqiqatçılarından Əkbər Babayev, Tofiq Məlikli, Azər Abdulla, Nəcəf Quliyev, Qadir İsmayıl, Tofiq Abdin, Arif Abdullazadə, Ələkbər Salahzadə, Rəşid Quliyev, Abuzər İsmayılzadə, və başqaları Nazim haqqında qiymətli kitablar, elmi məqalələr qələmə almışlar. Eləcə də yuxarıda adını qeyd etdiyim Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi F.ü.f.d. dos Rəşid Quliyevin də "Nazim Hikmət yaradıcılığında Şərq" adlı monoqrafiyası şair haqqında yazılan kitablardan biridir.

Ədibin şərq folkloru motivləri əsasında işlədiyi nağılları, romanları habelə zəngin publisistikası ədibin zəngin yaradıcığının bir hissəsidir. Şərq mövzuları ədəbi bədii qaynaqları özünəməxsusluğu ilə seçilən motivlər N.Hikmət yaradıcılığında bədii həllini, poetik əksini tapan zənginlik amilləridir. Araşdırmada bu keyfiyyətlər ayri-ayrı mərhələlərdə və bu mərhələlərin tərkib hissəsi olan bölmələrdə izlənmişddir. Yaradıcılığı boyu azadlıq və humanizm ideyalarının tərənnüm etməyə çalışması onun əsərlərinin mövzu zənginliyini təmin edirdi. Şərq xalqlarının həyatı, şərq folklor qaynaqları N.Nikmətin əsərlərində və estetik görüşlərində öz əksini tapmışdır. Bunlar şairin həm lirik həm epik, həm də drammatik əsərlərində qabarıq şəkildə biruzə vermişdir. Rəşid Təhməzoğlu monoqrafiyada şairin lirik şeirlərində şərq, şairin lirik

şeirlərində Azərbaycan, şairin lirik şeirlərində Türkiyə mövzusunda araşdırma aparmış, daha sonra N.Hikmətin epik poeziyasında, bədii nəsrində və drammaturgiyasında şərq mövzusuna toxunmuşdur.

ƏDƏBIYYAT SIYAHISI
1. Aydın, Mehmet, "Nazım Hikmet Şiirinin Gücü", Bilig, Güz, Ankara, 2010, Sayı 55
2. Altun, Seda, "Nazım Hikmet'te Umut Kavramı", Akademik Tarih ve Düşünce dergisi, Kış, 2019,
3. Aytən Abbasova "Nazim Hikmət Türk Lirik Şeirinin Ustadı kimi" Türk Dünyası Dil ve Edebiyat Dergisi 33. Sayı,
4. Təhməzoğlu, Rəşid (2008). Nazim Hikmətin yaradıcılığında şərq. Bakı: "Əli" mətbəə evi

CENGİZ AYTMATOV'UN "CEMİLE" ESERİNDEKİ KADIN KARAKTERİN İNCELENMESİ

Habibe AY
ayhabibeduru@gmail.com
Yüksek Lisans Öğrencisi
T.C Kafkas Üniversitesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü
Azerbaycan Türkçesi ve Edebiyatı Ana Bilim Dalı

Gülhanım Tofik kızı İSMİHANOVA
Bakü Slavyan Üniversitesi, Doçent

ÖZET
Kırgız Edebiyatının mihenk taşı sayılan Cengiz Aytmatov "Cemile "adlı eserinde diğer yapıtlarında da işlemiş olduğu gibi savaş konusunu ele almaktadır lakin bu eserde savaşla birlikte savaşın kadınlar üzerindeki özellikle genç, evli kadınlar üzerindeki hem duygusal hem de toplumsal baskısını aşikâr olmayacak bir biçimde sihirli kalemini değdirmiştir. Bu çalışmada, kocası askerde olan genç bir kadının yaşadığı toplumdaki gelenekleri, töreleri ile kendi duygu dünyası arasında yaptığı tercihleri ve bu tercihlerinin gelenekleriyle örtüşüp örtüşmediği konusu incelenmiştir. Çalışmanın sonuç kısmında ise incelenen karakter üzerinden de yola çıkılarak yaptığı tercih ve hareketlerin hem ahlaki değerler hem de toplumsal değerler açısından etikliği hakkında genel bir çıkarımda bulunulmuştur.
Anahtar kelimeler: Cengiz Aytmatov, kadın, örf-adet-gelenekler, toplum, ahlak.

GİRİŞ

1.1CENGİZ AYTMATOV'UN "CEMİLE" ESERİNDEKİ KADIN KARAKTERİN İNCELENMESİ

Cengiz Aytmatov'un savaşın kanlı kokusunun her satırında hissedildiği ve saf bir aşk hikâyesinin anlatıldığı "Cemile "eserinde, savaş sebebiyle erkeklerin askere çağrılması özellikle genç, evli kadınları daha farklı bir boyutta etkilemiştir. Henüz yeni sayılan genç, evli kadınların eşlerinin askerde oluşu kadınları duygusal olarak bir boşluğa sürüklemiş ve onların ahlak ve etik dışı yanlış kararlar vermelerine sebep olmuştur.

Cemile, hikâyeye de adını veren tematik güç durumundaki genç kadının belirli bir dönemdeki hayat çizgisi ve yasak aşkı etrafında şekillenir. Hikâye, Cemile adlı evli genç bir kadının törelere karşı çıkarak yaşadığı bir yasak aşk sonucunda memleketini terk etmesi üzerine bina edilmiştir (Kolcu, 2002: 15)

1956-58 yılları arasında Moskova'da Gorki Edebiyat Enstitüsüne devam eden yazarın Cemile adlı hikâyesi 1958 yılında й и (Yeni Dünya) dergisinde yayımlanır. Bu eseri büyük ilgi görür.

Bu hikâye'nin kadın kahramanı olan Cemile karakteri; cesur, haklarını savunan, neşeli, dürüst, açık sözlü, saygılı, bazen kaba davranışları olan ve yeri geldiğinde argo kullanan genç bir kadındır.

Bu yapıt Kırgız halkı 'nın örf-adet-evlilik ve aşk çatışmasının üzerine kurulmuş bir olay örgüsüne sahiptir.

Kırgızlarda gelin, yeni geldiği toplumdaki insanlara karşı saygılı olmak durumundadır. Bu saygının en önemli göstergelerinden biri de insanlara ismiyle hitap etme-mesidir. Cemile de bu saygıyı korur ve kocasının ailesindeki insanlara, en küçüğü de dâhil kimseye ismi ile hitap etmez. Bunu, Seyit'in şu sözlerinden anlamaktayız: "Çok iyi dost olmuştuk ama birbirimizi adımızla çağıracak kadar değil. Ama avılda (köyde) âdet böyledir. Gelinler kocalarının küçük kardeşlerini kiçine-bala ya da kaynım diye çağırırlar."

Cemile, bitmek bilmeyen enerjisi ile üzerine düşen sorumlulukların hepsini yerine getirmektedir fakat karakteristik olarak çevresindeki kadınlardan farklı bir yapıdadır. Ailesinin tek çocuğudur. .Çocukluğundan beri babasıyla birlikte yılkı peşinde koşar. O yüzden sert tabiatlı, erkek mizaçlı, hatta bazen kabadır. Yeri geldiğinde argo sözcükler kullanmaktan çekinmez. Bazen komşuları onu kayınvalidesine şikâyette ederler:

- Ne biçim gelininiz var sizin? Eşikten ayağını atar atmaz demediğini bırakmıyor insana! Ne arlanmak var, ne saygı!

- Annem: "Evet, bizim gelin öyledir." der. Doğruyu insanların yüzüne karşı söylemeyi sever:

Böylesi dedikodu yapmaktan, dolaylı ve iğneli sözler söylemekten iyidir. Sizinkiler erdemli görünüp saman altından su yürütürler. Kokmuş yumurtalar da hep böylelerinden çıkar. Dıştan bakınca bembeyaz, ama içi burnunuzun direğini kırar!

Yukarıda da belirtildiği gibi "biri haksızlık edecek olursa, onunla dalaşmaya kalksa, kaplan kesilir." şeklindeki izlenim aslında Cemile'nin kendi aleyhine olan bir durumda susmak yerine savunma yapması onun ne kadar cesur ve haksızlığa boyun eğmeyen biri olduğunu gösterir.

Kocasının askerde olması sebebiyle aile büyükleride Cemileye karşı olabildiğince anlayışlı ve sevgi dolu bir yaklaşım sergilemektedirler. Bir gün Kayınvalidesi cemileye;

-Allah'a şükür, diyordu, iyi bir eve, hayırlı bir yuvaya düştün. Burada mutlu olacaksın. Bir kadını mutlu eden şey çocuk doğurmak ve bir evde bulunması gereken şeylere sahip olmaktır. Allah'a şükür biz ihtiyarların kazandığı her şey size kalacak. Bunları mezara götürecek değiliz. Yalnız şunu bilmelisin ki, mutluluk ancak namus ve haysiyetini koruduğun sürece vardır. Bu sözümü sakın unutma! (Aytmatov, 2013: s.17)diyerek aslında kendi örf ve adetlerini kısa ama öz cümlelerle gelinine anlatmaktadır.

Cemilenin hayatının dönüm noktası küçük yaşta yetim kalan Danyar'ın askerde bacağından yaralanıp köye gelmesiyle başlar. Danyar'ın köye gelişi köy halkında büyük bir yankı uyandırır ve onu çok iyi karşılarlar çünkü herkes askerde olan akrabalarını görüp görmediğini ona sormak istemektedir. Daha sonralarda Danyar da köyün yeni bir üyesi olur ve burada yaşamaya başlar.

Savaş sebebiyle askerlere buğday gönderilmesi gerekmektedir. Köyde bunu yapacak güçte pek az kişiyle birlikte Cemile ve Danyar vardır. Baybiçe, Cemile'yi Seyit eşliğin-de çalışmaya gönderir. Danyar ile Cemile de bu iş vesilesi ile karşılaşır.

Danyar Cemileyle zıt bir karakterdir. Gerekmedikçe konuşmayan, içine kapanık, yüz ifadesi genellikle hep aynı olan garip bir adamdır. Cemile ise her seferinde ona sataşarak onun sakatlığı ile dalga geçer, onu küçümseyerek eğlenmeye çalışır fakat kendinde eksik olan parçanın Danyar 'da oluşandan henüz kendisi de haberdar değildir. Çünkü cemile kocası Sadık ile duygusal bir bağ kurarak evlenmez. Babası gibi at bakıcısı olan sadık bir gün cemile ile Kırgız halklarının ata sporlarından olan at yarışı yaparlar. Cemilenin kendisini yenmesini sindiremeyen Sadık, cemileyi kaçırır ve bu şekilde evlenirler. Evliliklerinden üç ay sonra Sadığın askere çağrılması aralarında henüz yeni kurulmaya başlanan bağı askıya aldırır. Sadık'ın ailesine gönderdiği her mektupta Cemileden çok kısa bahsederek konuyu alelacele kapatması ev halkı tarafından normal karşılanır çünkü örf ve adetlerine bağlı olan her erkek bunu yapmaktadır. Önemli olan mektubun gelmesi ve askerdeki kişinin sağlığı ile ilgili aileyi haberdar etmesidir. Bu noktada da Kırgız halklarının geleneklerine karşı olan bağlılıkları ve bu gelenekler karşısındaki tutumları anlatılmaktadır.

"Satırlara hızlı hızlı göz gezdirerek okurdu mektubu. Ama sonuna yaklaştıkça omuzları iyice çöker, yanaklarının ateşi yavaş yavaş sönerdi. İnatçı kaşlarını çatar ve son satırları okumadan, mektubu, ödünç alınan bir şeyi iade ediyormuş gibi soğuk bir ilgisizlikle anneme verirdi." Aytmatov,2013:24).

Cemile her ne kadar geleneklerine bağlı bir kadın olsa da bu durum onda duygusal bir boşluk yaratır ve Danyar ile yaşayacak olduğu yasak aşkına gizlice zemin hazırlar.

Bir gün istasyon dönüşü Danyar'ın bir türkü mırıldanmasıyla Cemile başını onun omzuna koyar ve huzurla yol almaya başlarlar. Bir süre sonra Cemile bu mutlu ruh halinde çıkarak Danyar' ın yanından uzaklaşır. Cemilenin bu ani ruh değişimini kiçine bala (Cemilenin küçük kayını) şu sözlerle ifade eder:

"cemileye birden bire ne oldu? Ne olduğunu tahmin etmek zor değildi: onun nikâhlı bir kocası vardı, Saratov'da bir hastanedeydi, yaşıyordu. Böyleyken içinde bulunduğu durum zor geliyordu."(Aytmatov,2013:s.62)

Bütün Türk halklarında olduğu gibi Kırgız Halklarında da kadın ve kadının namusu önem arz eden hassas bir konudur. Ahlaklı bir kadın şartlar ne olursa olsun evine ve kocasına sadık kalmak zorundadır. Bunu yapmayan her kadını toplum dışlar ve bu durumu kınar. Çünkü kadın hem bir eş hem de bir ana'dır. Bu yüzden saygıya layıktır. Cemile karakteride burada gelenekler ve duyguları arasında kaldığı için kendi iç dünyasında aslında büyük bir kavga içindedir. Bir yanda Örf ve adetleri varken diğer yanda da beklemediği bir anda onu tamamlayan, içinde ki aşk ateşini gün yüzüne çıkaran, onun iç dünyasında sadece kendisinin bildiği o küçük, sevgi dolu cemileyi gören Danyar.. Bu durum cemile için her ne kadar karar vermesi güç bir konu olsa da neredeyse bütün Türk toplumlarında evli bir kadının yasak bir aşk yaşamasını kesin bir şekilde reddetmektedir.

"Uzakta, dağların üzerinde gök gürledi. Bir şimşek Cemile'nin görüntüsünü aydınlattı. Cemile etrafa bakındı ve kendini Danyar'ın üzerine bırakıverdi. Omuzları Danyar'ın elleri arasında titriyor, sarsılıyordu. Saman üzerinde onun yanına uzandı. Bozkırdan koşup gelen sıcak bir rüzgâr samanları savurdu, sonra, harman kenarında sallanıp duran çadıra çarptı ve yolun üzerinde topaç gibi döndü..." (Aytmatov,2013:70).

Artık Cemile'nin iç dünyasında yatan karanlık, durgun, büyük yeraltı suları uyanmıştır. Cemile, kendisine zıt kutupta bir yaratılışa sahipmiş gibi görünen Danyar'ın ruhunda kendi ruhunun aynasını bulmuştur. Sonunda aşkın kendini öne çıkaran diriltici, değiştirici, dönüştürücü ve o yakıcı enerjisi iki ruhu sarar, aynı potada eritir. Çünkü "kendisinden kaçılması mümkün olmayan (yazgısal) olay mantıksal olarak açıklanabilen değil, belli bir noktadan sonra tüm nedenselliklere karşı direnen, başka bir boyuttan gönderilmiş, gizli bir amaca sahipmiş gibi görünendir." Cemile ile Danyar'ın önlerin-de açılan yol kendileri olmak ve yazgılarını yaşamaktır (Gariper, 2007: 67).

Cemile ateşli ateşli ama fısıltıyla konuşmaya devam ediyordu:

- Seni ona değişir miyim hiç! Sen öyle mi sandın?

Cemile delidolu, hoyrat bir kadın olmasına rağmen aşkı arayan bir karakterdir. Askerde olan eşinin, Cemile'ye mektubunda en sonda kısa bir selam yazması Cemile için artık dayanılmaz olur. İlk başlarda askerdeki kocasına sadık kalan Cemile, daha sonraları ona karşı düşüncelerini değiştirir.

- Hayır, hayır, asla! O (Sadık) beni hiç sevmedi.(Aytmatov,2013:71).

Aşk, insanı evrenin ritmine katar, kendine doğru götürür, onu kendinde kılar. Böylece insan, özgürlük ve kölelik, birey ve toplum, biyolojik başlangıç ve manevi öz gibi temel kavramları yeniden tanımlama gereği duyar (Korkmaz: 2004, 130).

Kitabın sonuna yaklaşıldığında ise Cemile kocası Sadık'ı değil, sevgilisi Danyar'ı seçerek bir sonbahar akşamı sevgilisiyle birlikte kaçar. Böylece kendilerini çevreleyen geleneğin, aile bağının, toplum baskısının ve evlilik kurumunun çemberini kırıp aşklarıyla var olabilecekleri alana çıkmış olurlar. Bu aşk hikâyesi Cemile ve Danyar aşkını destekleyenler için beklenen bir sonla noktalanmış olsa bile örf ve adetlerine bağlı olan Kırgız halkı için sürpriz bir son ile noktalanmıştır.

SONUÇ

Kırgız halkının örfünü-âdetini, yaşayış tarzını, ruhunu, kültürünü yansıtmayı önemseyen Cengiz Aytmatov, eserlerine hayatından süzdüğü gözlemleri ve tanıklık ettiği tarihi dönemleri de işler. Her eserinde okuyucusuna farklı bakış açıları sunan ve eserlerinde ele aldığı konuları çeşitlilik bakımından zenginleştiren yazar, Cemile adlı hikâyesinde anlattığı savaşın yanında birde savaşın narin bir yaratılışa sahip olan kadınları duygusal olarak nasıl etkilediği konusuna da gölgeli ama net çizgilerle değinmektedir. Eserde anlatılan Cemile karakterinin yaşadığı toplumdaki diğer kadınlardan farklı olması, duruşuyla, tavrıyla, konuşmaları ile şahsına münhasır bir havasının olması ilk başta dikkatleri üzerine çekmeye yetmiştir. Yine de eşinin ailesine karşı her zaman saygılı olan bu genç kadın eşinin askere çağrılması ardından duygusal bir boşluk içine düşmüştür. Eşinin geleneklerine bağlılığından dolayı göndermiş olduğu mektuplarda onu sadece selamlayarak geçiştirmesi onda bir sevgisizlik hissi oluşturmuştur. Henüz kendisin bile farkında olmadığı bu boşluk Danyar denilen yaralı bir askerle tanıştıktan sonra kendini hissettirmeye başlamıştır. İlerleyen zamanlarda bu genç kadın içinde bastırmış olduğu duygularını Danyar'a karşı cesurca göstermekten çekinmemiş, henüz evliyken bu yaralı askerle beklenmedik bir şekilde aşk macerasına başlamıştır. Burada yaşadığı toplumun gelenekleri ile hisleri arasında kalan genç kadın sevgilisini seçerek bir sonbahar akşamı onu sevgilisiyle beraber bilinmeze doğru yola çıkarmıştır. Toplumunun getirdiği gelenek ve töreleri çiğneyen bu genç kadının yaptığı toplumca elbette hoş karşılanmamıştır. Geleneklerini hiçe sayan bu genç kadının evliyken yaşadığı bu yasak aşk kaçamağı her ne kadar okurken bizleri heyecanlandırmış olsa da ne yazık ki Türk toplumunun ahlak yasalarına ve asil Türk kadının toplumdaki "anne" ve "eş" rolünü bizlere yeniden sorgulatmıştır.

KAYNAKÇA
Cengiz Aytmatov, (2013) "Cemile", çev. Refik Özden, Ötüken yay.
GARİPER, Cafer (2007). Cengiz Aytmatov'un Cemile Adlı Hikâyesinde İnsanın Kendi-si Olması Problemi ve Aşk, İlmi Araştırmalar, Sayı 23.
KOLCU, Ali İhsan (2002). Bozkırdaki Bilge Cengiz Aytmatov, Akçağ Yayınları, Ankara.
KORKMAZ, Ramazan (2004) Aytmatov Anlatılarında Ötekileşme Sorunu ve Dönüş İzlekleri, Türksoy Yay. Ankara.
Jean Baudrillard (Çev. Oğuz Adanır, Leyla Yıldırım)(2005), Anahtar Sözcükler, Paragraf Yayınevi. Ankara.

ABDULLA QƏDİRİ HƏYATINA DAİR FAKTLAR

ŞƏBNƏM BABAYEVA
babayeva_shebnem@mail.ru
Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu
"Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri"
şöbəsinin dissertantı
Bakı, Azərbaycan

XÜLASƏ
XX əsr özbək ədəbiyyatında, mədəniyyətində yaranan bir sira yeniliklər bu dövrdə yazıb-yaradan maarifpərvər yazıçıların həyat və yaradıcılığında öz əksini tapırdı. Belə ki, XX əsr türk xalqları ədəbiyyatında maarifçilik cərəyanı və hərəkatının inkişaf edərək müxtəlif dövrlərdən keçib yüksək zirvəyə qalxdığı bir dövrdür. Əsrin əvvəllərində milli hərəkat halını almış maarifçilik ədəbiyyat, mədəniyyət və incəsənətin inkişafında xüsusi yer tutmuşdur. XIX əsrin sonu və XX əsrin əvvəllərində Türküstanda qarışıq tarixi mühit mövcud idi. Belə qarışıq dönəmdə cədidçilər sırasında yer alan, xalqını savadlı və azad görmək istəyən ədəbi şəxsiyyətlərdən biri də özbək ədəbiyyatının böyük simalarından, özbək nəsrini yeni mərhələyə qaldıran, özünəməxsus üslubu ilə seçilən Abdulla Qədiri olmuşdur. A.Qədiri cədid ədəbiyyatının yaranmasında və inkişafında, ölkədə mövcud olan vəziyyətin – cəhalətin, nadanlığın və bu kimi halların baş verməsinə əsas səbəb olan savadsızlığın aradan qaldırılmasında müstəsna xidmətləri olan, millətin firəvan gələcəyi uğrunda öz şəxsi həyatını unudub, Vətən və millət yolunda canını qurban verən elm fədailərindən biri idi. Məqalədə əsas məqsəd A.Qədiri həyatının araşdırılmamış və gizli qalan məqamlarına nəzər salmaqdır. Burada qısa ömründə özbək ədəbiyyatı tarixinə qələminin, sözünün gücü ilə böyük ədəbi və publisistik yaradıcılıq bəxş edən bu ədibin keçdiyi keşməkeşli, əzablı və tikanlı yollar araşdırılmış, mövcud dövrün ictimai-siyasi hadisələrinə qarşı yorulmadan mübarizə aparan, elm fədaisi kimi çıxış edən Abdulla Qədirinin ümumi həyat yolu işıqlandırılmışdır.

AÇAR SÖZLƏR: XX ƏSR ÖZBƏK ƏDƏBIYYATI, Abdulla Qədiri, ədəbi sima

GİRİŞ

Hər bir ədəbi şəxsiyyət özünəməxsus bir aləmdir. Onlar bir-birini təkrarlamır, biri digərindən fərqlənir. Zaman-zaman ədəbi şəxsiyyətləri paralel şəkildə müqayisəli tədqiqata cəlb edir, həyat, yaradıcılıq, üslub, metod, təsvir, tərənnüm və s. baxımından onlar arasında bənzərlik axtarırıq. Lakin, eyni dövrdə, eyni ictimai-siyasi həyatı yaşamış, eyni janr və metodlara müraciət etmiş iki şəxsiyyət arasında mütləq bir fərq və bənzərsizliyin mövcudluğunun şahidi oluruq. Hətta eyni xalqın fərqli ədəbi nümayəndələri bir-birinə bənzəmir, öz həyatına, dövrünə, üslubuna, hadisələrə yanaşma şəkli və həyatı əks etdirmə metoduna, ən əsası ədəbi ruhuna, amalına görə fərqlənir. Yazıçıların və şairlərin, ümumiyyətlə sənətkarın tərcümeyi-halını əsərlərindən ayrı və ya əksini təsəvvür etmək çətindir. Dünya ədəbiyyatında bioqrafik metod vasitəsi ilə bu məsələ öz təsdiqini tapır. Yazıçının həyatında baş verən dəyişikliklər, emosional təcrübələr, dünyagörüşündəki sarsıntılar əsərlərinin əsasını təşkil edir. "Əsərlər diqqətlə öyrənilərsə, yazıçının vəziyyəti və psixikası haqqında çox şey danışmaq olar"(6, 27).

Yazıçının oğlu Həbibulla Qədiri tərəfindən yazılan "Atam haqqında" kitabı (3) onun tərcümeyi-halının araşdırılmasında əhəmiyyətli mənbədir. "Atam haqqında" kitabı özündə A.Qədirinin əsərlərindəki məlumatları, müasirlərinin yazıçı haqqında düşüncələrini, oğlu Həbibullanın atası haqqında xatirələrini əks etdirir. Dərin təhlil və elmi mülahizələrə enmədən atasının tərcümeyi-halını əks etdirən H.Qədirinin bu kitabı yazıçı həyatını tam təsvir etmir. Burada tam arxiv sənədlərinin, yazıçının başqaları ilə şəxsi yazışmaları yer almamışdır. H.Qədiri daha sonra bu xatirə kitabına yeni fakt və sənədlər, eləcə də şahidi olduğu, yaşadığı və bildiyi maraqlı hadisələr haqqında məlumatlar əlavə edərək, "Qədirinin son günləri" (4) adı ilə "Gənclik" jurnalının müxtəlif nömrələrində çap etdirmişdir. H.Qədiri bu kitabları yazmaqla atası qarşısında uşaqlıq borcunu yerinə yetirmiş, bir övlad kimi Abdulla Qədiri şəxsiyyətini yaşatmışdır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Türküstanda qarışıq tarixi mühit mövcud idi. Belə qarışıq dönəmdə cədidçilər sırasında yer alan, xalqını savadlı və azad görmək istəyən ədəbi şəxsiyyətlərdən biri də Özbək ədəbiyyatının böyük simalarından, özbək nəsrini yeni mərhələyə qaldıran, özünəməxsus üslubu ilə seçilən Abdulla Qədiri olmuşdur. Özbək milli romanının banisi, satirik, publisist, dilçi və tərcüməçi kimi məşhurlaşan Abdulla Qədiri (Culqunbay) 1894-cü ilin aprel ayının 10-da Daşkənd şəhərinin Beşağac rayonunun dördüncü Eşongüzar məhəlləsində tacir ailəsində anadan olmuşdur. A.Qədirinin doğum ili bir çox arxiv sənədlərində 1895, 1896, hətta 1897-ci il kimi də göstərilir. Lakin daha dəqiq tarix kimi Nikolayın taxta oturduğu il, yəni 1894-cü il A.Qədirinin doğum ili kimi qəbul olunur. A.Qədirinin tacir və ya bağban ailəsində doğulması ilə də bağlı müxtəlif fikirlər mövcuddur. Bu məsələyə aydınlıq gətirərkən məlum olur ki, Qədirinin atası Qədir Məhəmməd (1821-1924) əvvəlcə tacir, daha sonra isə bağbanlıq sənətini icra etmişdir. A.Qədiri kiçik yaşlarında həyatın çətin və keşməkeşli üzü ilə rastlaşmışdır. Uşaq olarkən tacir olan atası Qədir Məhəmməd müflisləşmiş, 1870-ci ildən ömrünün sonuna qədər bağbanlıqla məşğul olaraq ailəsini dolandırmışdır. Anası Josiyyət Bibi isə evdar qadın idi.

A.Qədiri 1914-cü ildə Rəhbərbanu Rəsulməhəmməd qızı ilə ailə qurmuş, onun ağır və problemlərlə dolu həyatı yoldaşı, Nəfizə, Ədibə, Ənisə, Həbibulla, Məsud adlı üç qızı və iki oğlu ilə keçmişdir.

Abdulla Qədiri hələ kiçik yaşlarından iti zəkası ilə yaşıdlarından fərqlənmiş, oxumağa, öyrənməyə can atmışdır. Ailənin maddi ehtiyacı, çətin həyat şəraiti onun bu əzmini sındırmamış, o, 1904-1906-cı illərdə köhnə müsəlman məktəbində, daha sonra 1906-1912-ci illərdə rus təqlidində başlanğıc məktəbində, 1916-1917-ci illərdə isə Əbülqasım şeyx mədrəsəsində, 1924-1925-cı illərdə Moskvada Valeri Bryusov adına SSRİ Dövlət Jurnalistlər İnstitutunda təhsil almışdır. Müxtəlif illərdə müxtəlif elm ocaqlarında aldığı təhsil A.Qədirinin gələcəyinə, yaradıcılıq fəaliyyətinə müsbət təsir göstərmişdir. Belə ki, rus məktəbində təhsil almaq yazıçıya Rusiya və dünya ədəbiyyatı, mədəniyyəti ilə tanış olmaq üçün birbaşa yol açmış, Əbülqasım şeyx mədrəsəsindəki qısa təhsili isə onun islamşünaslığı, ərəb və fars dillərini mükəmməl öyrənməsinə şərait yaratmışdır.

Ədib 1912-ci ildə böyük tacir Rəsulməhəmmədin yanında kargüzar kimi xidmət etməyə başlayır. Rəsulməhəmməd diqqətli, dünyagörüşlü, dindar və zəngin bir insan idi. O, eyni zamanda dövrünün ziyalıları ilə sıx əlaqədə idi. Məhz bu səbəbdən A.Qədirinin gənclik illəri zəngin və ziyalı insanlar arasında keçmişdir. Bu vəziyyət onun ciddi mütəfəkkirlərlə tanış olmasına, "Sədayi Türküstan", "Ayna", "Səmərqənd", "Turan" kimi qəzet və jurnallar ilə əlaqələrinin möhkəmlənməsinə, bir növ ədəbi mühitə gəlməsinə səbəb olmuşdur.

Yazıçı özünün tərcümeyi-halında (3, 10-17) 9 yaşında köhnə tipli məktəbə getdiyini, ailəsinin həddindən artıq yoxsulluq içində yaşadığı üçün 12 yaşında varlı biri tərəfindən işə götürüldüyündən, daha sonra rus məktəbində aldığı təhsildən, 1912-ci ildə işlədiyi katiblik peşəsindən, 1913-cü ildə Özbəkistanın "Sədai Türküstan", "Səmərqənd", "Ayna" kimi qəzetləri yarandıqdan sonra burada çap etdirdiyi yazılarından, 1918-ci ildən etibarən bir sıra – "RosTA", "İştirakiyun" ("Kommunist") və "Qızıl Bayraq" kimi qəzetlərin müxbiri kimi fəaliyyətindən və nəhayət, yaradıcılığından, ədəbi aləmə gəlişindən bəhs edir. "Abdulla Qədirinin "mənim başıma gələnlər mənim yazıçılıq fəaliyyətimdə böyük rol oynadı" sözləri həyat və yaradıcılıq fəaliyyətinin əlaqəli olduğunun əsas dəlilidir (3,113). Əlbəttə ki, yazıçının özünün tərcümeyi-halında qeyd olunan bu faktlar onun haqqında ədəbi fikirlərin yaranmasına, araşdırılıb təhlil olunmasına şərait yaradır, faktların doğruluğunu təsdiqləyir.

Abdulla Qədirinin ədəbi aləmə gəlişi haqqında Sənubar Tolaqanova yazır: "Abdulla Qədirinin ədəbi dünyaya gəlişi dövrünün böyük taciri və vətəndaşı olan Rəsulməhəmmədboyun yanında katiblik etdiyi 1912-ci ilə təsadüf edir. Qədiri işləyərkən qəzet və jurnal oxumaq imkanı əldə etdi. Bu da onu tamamilə yeni bir dünyaya bağladı. Bu evdəki tacirlər ilə yerli iş adamları arasındakı sıx söhbətlər Qədiri üçün birbaşa məlumat axını rolunu oynadı" (8). Qədirinin qəzetlə ilk tanışlığı da məhz bu zaman baş verir. Bazarda tatar dilində olan qəzetləri tapıb oxuyan və dünyada qəzetin mövcud olduğuna inanan A.Qədiri

üçün yeni yollar açılır. Lakin, bu dövrdə müəllif hələ yolunu dəqiq müəyyən etməmiş, ədəbiyyatı bir həvəs sənəti hesab etməsinə baxmayaraq, dövrün tələblərini də nəzərə almışdır. Müəllifin ilk məqaləsi 1 aprel 1914-cü ildə "Sədai Türküstan" qəzetində "Daşkənd xəbərləri" rubrikasında "Yeni məscid və məktəb" adı ilə dərc edilmişdir. Bundan başqa, ədibin 1923-ci ilə qədər 50-dən artıq məqalə və kiçik əsərləri müxtəlif mətbuat səhifələrində çap olunmuşdur. A.Qədiri yaradıcılığının əsasını onun nəsr əsərləri – romanları təşkil etsə də, 1923-cü ildə "Müştüm" jurnalını yaratması və bir neçə il jurnalın redaktoru olaraq çalışması onun ədəbi fəaliyyətinin parlaq səhifələri hesab olunur. Yalnız ədəbi fəaliyyətlə kifayətlənməyən yazıçı, eyni zamanda jurnalistika ilə məşğul olmuş, çoxlu publisistik məqalələr yazmışdır. Təkcə 1919-1925-ci illər aralığında ədibin 300-dən çox məqaləsi fərqli mətbuat səhifələrində dərc edilmişdir.

1930-1950-ci illər tarixə və ədəbiyyatda repressiya illəri kimi həkk olunmuşdur. Abdulla Qədiri də bu dövrün ədəbi nümayəndəsi kimi repressiya illərinin qurbanı olmuş, 44 illik həyatı dövründə iki dəfə həbs olunmuşdur. Yazıçı ilk dəfə 1926-cı ildə "Müştüm" jurnalının 27-ci sayında "Ovsar" imzası ilə çap etdiyi "Toplanmış ifadələr" məqaləsinə görə, daha sonra 1937-ci ilin 31 dekabr tarixində Özbəkistan SSRİ Cinayət Kodeksinin iddihamlarına əsasən "Milli iddihad" təşkilatının üzvü, millətçi, xalq düşməni kimi həbs edilmişdir. 1938-ci il 4 oktyabr özbək ədəbiyyatı, mədəniyyəti tarixində böyük itkilərlə yaddaşlara yazıldı. XX əsr özbək ədəbiyyatının görkəmli simaları – Abdulla Qədiri, həmkarları Əbdülhəmid Çolpan və Əbdürrauf Fitrətlə birlikdə məhz bu tarixdə edam edildi.

Həbibullanın "Qədirinin son günləri" adlı xatirə kitabında A.Qədiri haqqında daha əvvəl deyilməyən tənqidi xatirələr, arxiv mənbələri əsasında yazıçının son günlərinə aid sənədlərdən çıxarışlar, Stalinizm siyasəti ilə müəllifin evində, ailəsində baş verən fəlakətlərin təsviri əks olunmuşdur. Bu kitab yazıçının həbsi və onun səbəblərini, başına gələn müsibətləri faktlarla təsdiq edir, onun tərcümeyi-halının – daha çox ömrünün son çağlarının, dövrünün, baş verən fəlakətlərin öyrənilməsində əhəmiyyətli rol oynayır. Abdulla Qədirinin şəxsiyyətini, insan obrazını, cəsarətini və şücaətini əks etdirən bu kitabda Stalinizmin haqsız siyasətinin dəhşətli məqamları, günahsız insanların səbəbsiz yerə həbs olunması, dövrün bir sıra ziyalılarının qara buludlar ardında qalması ürək qanı, səmimi bir həqiqətlə qələmə alınmışdır. B.Kərimov bu haqda yazır: "Qədirinin son günləri" kədərli bir hekayədir. Burada birbaşa yazıçının özü haqqında, həbsdə və bəraət verilməsinin təfərrüatları ilə bağlı çox vacib məqamlar var ki, bu da əlbəttə ki, yazıçının şəxsiyyətini, əsərlərini daha dərindən dərk etməyə, yazıçının həyat və yaradıcılığını araşdırmağa kömək edir. Yazıçının həyat və yaradıcılığına ciddi nəzər salsaq, özünə və millətinə olan bağlılığı göz qabağındadır. Çox kiçik, əhəmiyyətsiz görünən tərcümeyi-hal məlumatları bəzən eyni prosesdə böyük və çox əhəmiyyətli ola bilər" (2, 217). Özbəkistanda o dövrə məxsus olan arxiv sənədləri A.Qədirinin faciəli ölümü ilə bağlı bir sıra şübhəli məqamları, tarixi hadisələri özündə əks etdirir və qoruyub saxlayır. Bununla yanaşı, özbək ədəbiyyatı tədqiqatçı-alimləri də dövrün "repressiya faciələri"nin səbəblərini, "repressiya qurbanları"nın faciəli sonunu araşdırıb elm, ədəbiyyat aləminə çatdırmağa, bununla da bütünlükdə bu qaranlıq dönəmə işıq salmağa çalışmışlar. A.Qədiri həyatına həsr olunmuş müxtəlif tədqiqatların aparılmasına baxmayaraq, əvəzsiz və düzgün mənbə kimi bütün tədqiqatçılar yazıçının oğulları – Həbibulla Qədiri və Məsud Abdullayevin elm aləminə təqdim olunan töhfələrinə müraciət etmişlər. Onların qeyd etdikləri bir sıra xatirələr qədirişünaslığın əvəzolunmaz sənədlərinə çevrilmişdir. Müstəqillik illərində Özbəkistanda etnoqrafiyanın əhatə dairəsinin genişlənməsi tədqiqatçılara yazıçı haqqında bütün həqiqətləri araşdırmaq və qələmə almaq üçün geniş bir yol açdı. Ömərəli Normatov, Sabir Mirvaliyev, Bahadır Kərimov kimi tədqiqatçı alimlər A.Qədirinin faciəli taleyi və ölümü ilə bağlı məqalələr yazmışlar. Ö.Normatov özünün "Qədirinin son duası (ədib həyatının oxunulmamış səhifələri)" məqaləsində Qədirinin ölümü ilə bağlı düşüncələrini faktlar əsasında bildirir: "Məsud aka Qədirinin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konfransdakı çıxışında ictimaiyyətə A.Qədirinin ölümü ilə bağlı detalları qısaca izah etdi. Ertəsi gün görüş zamanı Məsud əkəyə məsələnin təfərrüatlarını yazıb mətbuatda dərc etməyi məsləhət gördüm. Razılaşdı. Amma nəticəsini görmədim. Bəlkə də bu faciə haqqında yazmağa cəsarət etmədi. Bu arada Məsud əkə da dünyasını dəyişdi..." (7).

Məsud əkənin konfransdakı çıxışı haqqında hadisələrin əsas şahidi olan Mirəlim Mirkamilovun xatirələri də qədirişünaslıq üçün olduqca dəyərlidir: "Beşik ustası və bağban M.Mirkamilov Qədirinin böyük bir pərəstişkarı idi. 1938-ci ilin payızının əvvəllərində o, bağda tək qaldı. Gecə yarısından etibarən ara-sıra güllə səsi və ölümə məhkum edilənlərin ah-naləsi bağbanı narahat edirdi. Son gecə isə ən dəhşətlisidir. Tədricən, on beş-iyirmi addım aralıdakı bağ divarına yaxınlaşdıqda, sonunda gözlənilməz bir hadisə baş verdi. Qısa fasilədən sonra bağbanın qulağına divarın arxasından tanış bir səs gəldi: "Sən tatarsan, ya müsəlman?" Bağban birdən oyanıraq deyir: "Bu ki bizim Qədirimizdir!". Sonra eyni tanış, lakin bu dəfə cəsarətli səs eşidilir: "Atana rəhmət, komandir oğlan! Mən hazıram! İşinizi yerinə yetirin!" Birdən güllə

səsi qulaqları kar edir və o, son güllə ona dəymiş kimi divara yıxılır. Bundan sonra M.Mirkamilov hadisə yerinə getdi şəhidlərdən biri çılpaq ayaqları ilə xəndəyin kənarında görüldü. Aydındır ki, bu, son şəhidin – A.Qədirinin ayağıdır. Usta bağban kütləvi məzar olan yerə çuxur qazdı. Daha sonra pərəstiş etdiyi böyük yazıçı A.Qədiri də daxil olmaqla şəhidlərin cənazə mərasimini yerinə yetirdi. Daha sonra arxiv sənədləri Ə.Çolpan və Ə.Fitrət də daxil olmaqla cəmi on səkkiz ziyalının 4 oktyabr gecəsi öldürüldüyünü ortaya çıxardı. Yəqin ki, hamısı A.Qədirinin cənazəsinin düşdüyü yerdə dəfn edilib, o faciəli gecənin son qurbanı, ehtimal ki, A.Qədiri olmuşdur...” (7).

Yuxarıda adını çəkdiyimiz, tədqiqata cəlb etdiyimiz kitablar A.Qədiri həyatının, irsinin öyrənilməsi və xalqa çatdırılmasında mühüm əhəmiyyyət kəsb edən əsas mənbələrdir. Sabir Mirvaliyev özünün “Abdulla Qədirinin kəşfi” (2004) kitabının “Repressiya faciələri” hissəsində bu problemin həlli üçün böyük səylər göstərmişdir. Lakin, yazıçının harada və necə edam edildiyi, harada dəfn edildiyi barədə ədəbiyyatşünaslıqda hələ də əsaslı tədqiqatlar mövcud deyil.

Belə çətin bir dövrdə, uzun illər ərzində – 1937-ci ildən 1956-cı ilə qədər XX əsrin nəsr ustadı, özbək tarixi romanının banisi Abdulla Qədirinin özü və əsərləri haqqında danışmaq mümkün olmadı. Mövcud vəziyyətin tələblərinə əsasən yazıçının özü ilə birlikdə əsərləri də repressiyaya uğradı. Yalnız 1956-cı ildən etibarən A.Qədirinin şərəfli adını və əsərlərini bərpa etmək, yaradıcılıq irsini xalqa qaytarmaq, faciəli taleyi ilə bağlı həqiqətləri açmaq ətrafında cəhdlər edildi. 1990-cı ildə Respublika Prezidentinin fərmanı ilə A.Qədiri adına Respublika Dövlət Mükafatı təsis edildi. Özbəkistan müstəqillik qazandıqdan sonra – 1991-ci il 31 avqust tarixindən repressiya qurbanlarının həyatı və yaradıcılığı, şəxsiyyəti geniş şəkildə tədqiqata cəlb olunmuşdur. 1994-cü ildə A.Qədiri “İstiqlal” ordeni ilə təltif edildi. Bu gün Özbəkistanda bir sıra küçələrə, parklara, məktəblərə, kitabxanalara, məhəllələrə və universitetlərə – “Abdulla Qədiri adına Cizzax Dövlət Pedaqoji İnstitutu”na, Daşkənd Dövlət Mədəniyyət Universitetinə və s. onun adı verilmişdir. Onun adını daşıyan Daşkənd Dövlət Mədəniyyət Universitetində ən savadlı tələbələr Abdulla Qədiri adına təqaüd alırlar. Günümüzdə Özbəkistan Respublikasının Daşkənd şəhərində yerləşən “Ziyalılar” qəbristanlığında ədibin rəmzi qəbri yerləşir. Ədibin ruhu öz ölkəsində, eləcə də ziyalı insanların qəlbində daima böyük sevgi və ehtiramla yad edilir.

NƏTİCƏ

Aparılan tədqiqatlar nəticəsində, Abdulla Qədirinin türk xalqları ədəbiyyatında, özbək ədəbiyyatı tarixində tutduğu mövqeni, əsas həyat amalını, yaradıcı və ədəbi şəxsiyət kimi millətinin həyatında tutduğu rolunu müəyyənləşdirdik. Abdulla Qədiri həyatından qeyd edilən faktlar yalnız ədibin həyatının deyil, eyni zamanda XX əsrin əvvəllərində mövcud ictimai-siyasi vəziyyətin ümumi təsvirini verir. A.Qədiri şəxsiyyətinin, həyatının araşdırılmamış və gizli qalan bir çox məqamlarına diqqət yetirmək məqalənin əsas yeniliyidir. Nəticədə məlum olur ki, Abdulla Qədirinin tərcümeyi-halını, yaşadığı dövrü, keşməkeşli həyat və yaradıcılıq yolunu öyrənmək üçün onun müxtəlif janrlarda qələmə aldığı əlyazma əsərlərinə, toplu halda bütün əsərlərinə, övladları tərəfindən yazılmış sənədli filmlərə və xatirə kitablarına, müasirlərinin yazıçı ilə bağlı xatirələrinə, XX əsr özbək tədqiqatçılarının araşdırmalarına və ən nəhayət, arxiv sənədlərinə müraciət etmək önəmlidir.

TƏDQIQAT METODU

Tədqiqat işində bioqrafik metoddan istifadə edilmişdir. Yazıçının yaradıcılığını onun şəxsi həyat təcrübəsinin ifadəsi kimi öyrənmək vacib amildir. Bu yaradıcılığı dərindən öyrənmək və dərk etmək üçün müəllifin daxili və mənəvi dünyasını, həyati faktlarını araşdırmaq lazımdır. Məqalədə bioqrafik metoda əsaslanaraq Abdulla Qədirinin həyatına dair əsas faktlar araşdırılmışdır.

ƏDƏBIYYAT SIYAHISI

1. *Boltabayev Hamidullah.* Adabiyot ensiklopediyasi (Atamalar, istiloxlar, simolar, asarlar va naşrlar). MUMTOZ SO`Z **(Kitab).** Toshkent/Ozbekiston. 2015
2. Karim Bahodir. “Abdulla Qodiriy: tanqid, tahlil va talqin” **(Kitab).** Toshkent/Ozbekiston. 2006.: 1-260
3. Qodiriy H. Otam haqida. Qofur Qulom nomidagi Adabiyot va sanat nashriyoti **(Kitab).** Toshkent/Ozbekiston. 1983:1-224
4. Qodiriy H. Qodiriyning so‘nggi kunlari. Yoshlik **(Jurnal).** Toshkent/Ozbekiston. 1989.: № 4,5,6,7
5. Расулов А. Илми ғарибани қўмсаб. Маънавият **(Kitab).** Toshkent/Ozbekiston. 1998
6. Normatov Umarali. Qodiriyning so‘nggi iltijosi *(Adib hayotining o‘qilmagan sahifalari).* **“Sharq yulduzi” (Jurnal)**. Toshkent/Ozbekiston. **2013.: №1**
7. **“Sharq yulduzi” (Jurnal)**.: **2014 №4** // https://n.ziyouz.com/portal-haqida/xarita/matbuot/hozirgi-davr-matbuoti/sanobar-tolaganova-abdulla-qodiriy-qomusi-muammo-va-yechimlar-2014 /

MEHMET EMİN YURDAKULUN UŞAQ ŞEİRLƏRİNİN MÖVZU VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİ

Aytən ABBASOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
"Türk araşdırmaları" bölməsinin böyük elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
ayten.abbasova@list.ru

XÜLASƏ

Millətin gələcəyi olan uşaqların tam yetkin bir şəxsiyyət kimi formalaşmasında, milli kimliyini dərk etməsində, bədii-estetik zövqünün formalaşmasında oxuduğu bədii əsərlərin rolu əvəzolunmazdır. "Türk şairi", "Milli şair" kimi adlarla türk ədəbiyyat tarixində silinməz izi olan, türkçülük və millətçilik duyğularını tərənnüm edən dəyərli əsərlərin müəllifi, ictimai-siyasi xadim Mehmet Emin Yurdakul (1869-1944) yaradıcılığının müxtəlif dövrlərində yazdığı uşaq şeirlərində verdiyi öyüd-nəsihətlərlə millətinin övladlarını türk adət-ənənələrinə və milli köklərinə bağlı əsl türk övladı kimi yetişməyə çağırır. Şeirlərində gənc nəslə faydalı nəsihətlər verən şair valideynlərin övladları yolunda saysız-hesabsız fədakarlıqlar etdiyinə diqqət çəkir, övladlardan isə onlara qarşı vicdanlı, mərhəmətli və anlayışlı olmağı xahiş edir. Şairin bir qrup şeirlərində mövcud sosial problemlərin azyaşlıların gələcək həyatına vurduğu zərbələrdən də ciddi narahatçılıq keçirdiyini görürük. Uşaqların məcburi əməyə cəlb edilməsi, onların təhsildən uzaqlaşdırılması şairi çox narahat edir. Bütün uşaqların əsas vəzifəsinin təhsil almaq olduğunu israrla qeyd edən Yurdakul yalnız təhsillə, maariflənməklə cəhalətə qalib gəlinəcəyinə inanır, bir neçə şeirində uşaqların təhsil almaq hüququnun məhdudlaşdırılmasına ciddi etiraz edir. Təqdim olunan məqalədə Mehmet Emin Yurdakulun uşaq şeirləri mövzu və ideya baxımından təhlilə cəlb edilmişdir.

Açar sözlər: Mehmet Emin Yurdakul, uşaq şeirləri, təhsil, tərbiyə, milli kökə bağlılıq.

THEME AND CONTENT FEATURES OF MEHMET EMIN YURDAKUL'S CHILDREN'S POEMS

REZUME

The role of the works of art read in the formation of children who are the future of the nation as a full-fledged personality, in the understanding of their national identity, in the formation of their artistic and aesthetic taste is irreplaceable. One of the leading figures of the national literary movement, the author of valuable works glorifying the feelings of Turkism and nationalism, socio-political figure Mehmet Emin Yurdakul (1869-1944) wrote children's poems in different periods of his life. In his poems, the poet gives useful advice to the younger generation, noting that parents make countless sacrifices for their children, and asks children to be honest, compassionate and understanding towards them. The poet, who has a special sensitivity to the issues of upbringing, inspires children to be sensitive not only to people, but to all living beings. Mother urges not to pluck a flower from the bosom of the earth, and not to separate a bird from its nest. The poet is very concerned about the involvement of children in forced labor and their exclusion from education. Emphasizing that the main task of all children is to get an education, Yurdakul believes that ignorance can be overcome only through education and enlightenment, and in some of his poems he strongly protests against the restriction of children's right to education. In this article, we will analyze children's poems written by M.E.Yurdakul.

Keywords: Mehmet Emin Yurdakul, children's poems, upbringing, national roots, social problems, education

Milli ədəbiyyat cərəyanının aparıcı simalarından biri, türkçülük və milliyyətçilik duyğularını tərənnüm edən dəyərli əsərlərin müəllifi, Mustafa Kamal Atatürk tərəfindən "millətimizin mübarək atası" adlandırılmış Mehmet Emin Yurdakul (1869-1944) bütün varlığı ilə millətinə və vətəninə bağlı bir insan idi. "Türk şairi", "Milli şair" kimi adlarla türk ədəbiyyat tarixində silinməz izi olan şairin "Türkcə şeirlər" adlı kitabı mövcud ədəbi prosesə tamam yeni bir istiqamət vermiş, bər-bəzəkli ifadələrdən uzaq sadə bir dillə türklük sevdasını geniş xalq kütləsinin anlayacağı səmimi formada ifadə etməyə nail olmuşdur. "Türk" ifadəsinin bəyənilmədiyi, hətta həqarət sayıldığı bir dövrdə Yurdakul "mən bir türkəm" ifadəsi ilə milli mənsubiyyətini ön plana çıxarmış, yazdığı dəyərli əsərləri bu ideala xidmətin nəticəsi kimi ərsəyə gəlmişdir. Millətinin təəssübünü çəkən Mehmet Emin Yurdakul uşaq və gəncləri də unutmamış, onlara bir

neçə şeir həsr etmiş, bu şeirlərdə cəmiyyətdəki sosial problemlərin uşaqların və gənclərin tərbiyəsinə təsiri məsələlərini ön planda saxlamışdır. Bildiyimiz kimi, millətin gələcəyi olan uşaqların tam yetkin bir şəxsiyyət kimi formalaşmasında, milli kimliyini dərk etməsində, bədii-estetik zövqünün formalaşmasında oxuduğu bədii əsərlərin rolu əvəzolunmazdır. Mehmet Emin Yurdakul da yaradıcılığının müxtəlif dövrlərində yazdığı uşaq şeirlərində böyüklərin dilindən verdiyi öyüd-nəsihətlərlə millətinin övladlarını türk adət-ənənələrinə və milli köklərinə bağlı əsl türk övladı kimi yetişməyə çağırır. Şairin bir sıra şeirlərində cəmiyyətdəki sosial problemlərin uşaqların gələcək həyatına mənfi təsirlərinə görə keçirdiyi narahatlıqları görmək olur. Bütün uşaqların əsas vəzifəsinin təhsil almaq olduğunu israrla qeyd edən Yurdakul yalnız təhsillə, maariflənməklə cəhalətə qalib gəlinəcəyinə inanır, bir neçə şeirində də uşaqların təhsil almaq hüququnun məhdudlaşdırılmasına ciddi etiraz edir.

Şairin "Kiçik vətəndaşlarıma" sərlövhəsi ilə yazdığı şeirlərdən biri "Ata ocağı"dır. Şeirdə övladlarına, nəvələrinə öyüd-nəsihət verən müdrik baba yaşadığı evin onun üçün nə qədər doğma və əhəmiyyətli olmasından bəhs edir. Dünyaya gözünü açdığı bu evdə təlim-tərbiyə görmüş, oğul-uşaq sahibi olmuşdur. Ən önəmlisi isə odur ki, türk adət-ənənələrinə və milli köklərinə bağlı türk övladı kimi yetişdirildiyi üçün sonsuz qürur hissi duyur:

Torunlarım, bu evde bana kundak bağlanmış,
Salıncağım, o tatlı ninnilerle sallanmış;
Burda bana kadinnem ecdadımı öğretti,
Beni halis türk etti.

Bizde olan ırz, edep bu ocakta saçıldı,
Bir mukaddes mekteptir; bu sevimli eviniz;
Siz burayı bir rahle önü gibi seviniz. (7, 311)

Baba övladlarına da mənsub olduğu millətə, doğulduğu torpağa, böyüdükləri evə, ocağa bağlı olmağı nəsihət edir. Şairin fikrincə, böyüdüyü evin dəyərini bilən hər bir türk övladı vətəninin də dəyərini biləcəkdir.

Şeirlərində gənc nəslə nəsihətlər verən şair "Anam" şeirində uşaqlara analarının onların yolunda hansı fədakarlıqlar etdiyini, özünü övladlarının yolunda qurban etdiyinə diqqət çəkir, övladların borcunun isə analarını incitməmələri olduğunu vurğulayır. "Atam" şeirində isə uşağın dilindən söylənən sözlərlə övladlarını rifah içində böyütmək istəyən ataların çəkdiyi çətinliklər təsvir olunur. Hər gün atasından şirniyyat, oyuncaq istəyən azyaşlı uşaq küçədə çətin şəraitdə çalışan fəhlələri görəndə çox təəccüblənir, onların necə zəhmətlə pul qazandığının şahidi olduqdan sonra atasından heç nə istəməyəcəyinə söz verir:

Babacığım, her akşam dizlerine yatardım;
Seni tamam bir saat lakırdıya tutardım,
Senden yemiş, uruba, oyuncaklar isterdim;
Can sıkıcı bir sesle haykırarak, "Al!" derdim.
Zavallı sen elimden her gün aciz kalırdın;
Bana bir şey alırdın..

Lakin bu gün, çalışan işçilere rastladım,
Herbirinin bir baba olduğunu anladım,
Öğrendim ki her baba kanlı terler döküyor;
Bin zahmetle dişini, tırnağını söküyor.

Bundan sonra ben senden öyle şeyler istemem;
"Bana şunu al!" demem… (7, 315)

"Sabah" şeirində isə şair xoruz səsi ilə oyandırılan uşaqlara səslənir. Təbiət oyanır, quzular otlamağa gedir, insanlar işə başlayır. Uşaqlar isə məktəbə hazırlaşırlar. Bu, onların ən başlıca vəzifəsidir. "Yavrucuğum, sən də dərsə hazırlaş" deyə müraciət edən şair gələcək nəsillərin elm, maarif yolu ilə tərəqqi edəcəyinə inanır:

Bu saatte bak her yerde gayret var;
Kimi insan sapanını sürükler,
Kimi insan ocağını körükler;
Herkes işe kendisini hazırlar:
Yavrucuğum, sen de derse hazırlan!... (7, 312)

"Süfrə başında" şeirində yenə də atanın dili ilə övladlara verilən nəsihətləri eşidirik. Ata bir masa ətrafında yaxınları ilə birlikdə yemək yediyi günləri xatırlayır, xoşbəxt günlərdə yediyi quru çörəyin bal kimi şirin olduğunu, ən gözəl günlərinin burada keçdiyini söyləyir. Millətçiliyi və türkçülüyü əsərlərinin əsas leytmotivinə çevirən şair türk övladlarının milli köklərinə bağlı olmalarını olduqca vacib sayır, bunu uşaq şeirlərinin bir çoxunda dilə gətirir. Şairin fikrincə, belə ailələrdə böyüyən övladlar millətin sağlam gələcəyinin təminatçısıdır:

Bu sinide büyük dedem yemek yemiş
Ve babama, "En zenginlik muhabbettir,
"Bir sofrada muhabbetle yenen yemek;
"Hatta kuru bir esmerce yavan ekmek
"En lezzetli ballı börek tadı verir,
"Bunu sen de bir vazife eyle!" demiş.
Ben burada her lokmamı tatlı yerim;
Allah'ımın verdiğine şükr eylerim. (7, 313)

Şair bir sıra şeirlərində cəmiyyətdəki sosial problemlərə diqqət çəkir, bu problemlərin gənc nəslin düzgün formalaşmasına verdiyi zərərli təsirlərdən narahatlığını dilə gətirir. "Məktəbli" şeirində mükəmməl təhsil almağı qarşısına məqsəd qoyan uşağın dili ilə bütün türk balalarına səslənir, yalnız maariflənməklə cəhalətə qalib gəlməyin mümkünlüyünə inamını diqqətə çatdırır:

"Ey çocuk, kuvvetin ne?"
"Marifet!
"Kalemim, bana silah olacak,
"Kitabım, bir kal'alık edecek,
"Günlerim futûhatla dolacak,
"Her yere benim ünüm gidecek!"
"Ey asker, düşmanın kim?"
"Cehalet!..." (7, 317)

Azyaşlı uşaqların zorla işlədilməsi, onların təhsildən uzaqlaşdırılması məsələsi şairi çox narahat edir. "Axirətlik" şeirində azyaşlı bir kəndli qızının işləmək üçün Boludan İstanbula gəlməsi, tarladan məhsul ala bilməyən atasının öküz almaq üçün qızını bir neçə il müddətində bir ailənin yanına verməsi göstərilir. Simasından kədər, həsrət, çarəsizlik tökülən bu kiçik qıza olan ögey münasibət şairi dərindən sarsıtmışdır:

"Ne acıklı bir haldir bu?..Baba evlad satıyor;
Bir masumun gözlerine her gün yaşlar doluyor;
Bir el onun bal ömrüne her gün ağu katıyor;
Bir çift öküz uğurunda bir kız kurban oluyor.

Bâri sizler dokunmayın, şu yuvasız kuşçuğa;
Dokunmayın memleketin şu bereli gülüne;
Dokunmayın annesizdir; dokunmayın, çocuğa;
Dokunmayın şimdi ağlar; dokunmayın gönlüne!... (7, 53)

"Sürücü" şeirində çox az miqdarda gəlir qarşılığında səhərdən axşama qədər ayaqyalın at arabası sürən, gecə yatmağa bir qarış yeri olmadığından heyvan damında gübrələrin içində gecələyən gəncin halı ürəkləri sızıldadır:

Sefilciğin yırtık-pırtık bir uruba sırtında,
Görünüyor gibi idi vücudünün her yeri.
O çatlamış, mosmor olmuş dudakları altında
Birbirine uruyordu beyaz, güzel dişleri.

"Oğlum, her bir seferinde sen kaç para alırsın?"
"Bir metelik."
"Evin nerde? Kimin kimsen var mıdır?...
"Ne evim var, ne kimsem var.."
"Gece nerde kalırsın?"
"Ahırdaki gübrelikte… Sıcak olur, ısıtır." (7, 56-57)

Şair bu övladların təhsildən uzaq, ailə mühitinin istiliyindən məhrum olmalarını kədərlənərək dilə gətirir. Millətin gələcəyi olan uşaqların, gənclərin çətin şəraitdə həyat mübarizəsi aparmasını, onların qarşılaşdıqları çətinlikləri görən şair çox sarsılmışdır:

Ey kimsesiz, sefil çocuk! Ben seksen yıl yaşasam
Bu acıklı sözlerini hiçbir vakit unutmam;
Kim bilir ki bu akşam da böyle bir kış gününde,
Sana karşı duvar olan hangi ahır önünde
Aç ve çıplak bir dilenci gibi titrer dursun?
Ellerini, "Açın!" diye hangi taşa ursun?..

Ah, bu acı hallerini düşündükçe senin ben
Soğuk bir şey duyar gibi oluyorum içimden;
Ateşleri beyaz küllü mangalımın başında
Vücuduma kar yağıyor gibi bir şey olmada;
İşte ben de senin gibi titremeğe başladım.
Donuyorum, çekiliyor her yerimden hayatım!... (7, 56-57)

"Kibritçi kız" şeirində də eyni narahatçılıq hiss olunur. Atası vəfat edən azyaşlı qız uşağı anası xəstə olduğundan küçədə kibrit satır. Simaca olduqca gözəl olan qız baxımsızlıqdan pərişan haldadır, küçədən keçən insanların qarşısına qaçaraq xoş sözlər söyləməklə əlindəki qutuları satmağa çalışır. Bir dilim çörək verəni olmayan bu məsum qızcığazı qanadsız quşa bənzədən şair onun taleyinə çox acıyır, ancaq əlindən heç bir şey gəlmir:

Masumcuğu alçak görmek.. Bu neden?
Bu çocuk da anasından doğarken
Mini mini bir kanadsız kuş gibi
Yaradılmak kanununa baş eğmiş;
Öyle ise suçsuz yere inciniş
Zavallının niçin olsun nasîbi?…

Çalışıyor.. Çalışmasın ne yapsın?
Çalışmaktan başka yol yok ki sapsın.
Kendisiçün çabalayan kimi var?
Kimi var ki bir ekmeği, "Al, ye!..." der;
Bir şey veren ondan da bir şey ister…
Ah yoksulluk, ah babasız çocuklar!... (7, 57-58)

"Çiçəyim", "Burax bu quşcuğazı" şeirlərində şair uşaqlarda təbiətə, quşlara, çiçəklərə, heyvanlara qarşı sevgi hissi aşılamağa çalışır. Çiçəkləri vaxtsız torpaqdan qoparmamağa, quşları yaralamamağa, yuvalarından ayırmamağa çağırır:

Sakın sizler, ayırmayın; bir çiçeği bir toprak
Yetiştiği aziz bir yer üzerinden ayırmak
İşte böyle azab veren zâlim bir iş oluyor!... (7, 63)

… Bırak konsun, şu koskoca ormanlığın içinden
Bîçâreye bir dikenli kara çalı çok mudur?
O da tıpkı sizin gibi bir kânunla yaşarken
Yeryüzünde onun da bir küçük hakkı yok mudur? (7, 63)

…Bırak, birgün senin de pencerende cıvıldar;
Üzerine doğacak bir şafağı selamlar;
Sana penbe baharın müjdesini getirir!... (7, 63)

Şair inanır ki, bütün canlılara humanist yanaşan övladlar gələcəkdə də sağlam cəmiyyətin fərdləri olacaqlar. Bir yarpağı, bir quşu, bir qarışqanı belə incitməyə ürək etməyən balalar insanlara qarşı da humanist olacaqlar.

"Əlil" şeirində isə hər iki gözü görməyən, soyuq daş üstündə oturub dilənçilik etməyə məcbur olan bir uşağın acınacaqlı halı təsvir olunur. Yoldan keçən ata-oğul bu mənzərədən olduqca təsirlənir. Şair təminatı normal olan ailələrdə böyüyən uşaqlarla bir parça çörəkdən ötrü kiməsə əl açmağa məcbur qalan uşaqları

müqayisə edir. Şairin keçirdiyi təəssüf hissi, ürək ağrısı bu misralarda aydın hiss olunur. Eyni vaxtda şair babanın sözləri ilə bütün uşaqlara sahib olduqları nemətlərin dəyərini bilməyi, sağlamlıqlarını qorumağı tövsiyə edir:

"Ya bu alil?.. O bunlara hasret çeker
"Bu hasretle gözlerinden yaşlar döker,
Ömür ona bir sabahsız uzun gece;
Biçareye ne bir oyun, ne eğlence,
Dünya ona bir karanlık zindan demek;
Zavallıcık mahbus ömrü geçirecek.

"Yavrum yavrum, gözlerinin kadrini bil;
"Bir insana görmek lutfu az şey değil;
"Şu hayata işte böyle alil doğmak,
"Bak ne acı bir felaket sayılacak!" (7, 310)

"Dulusçu" şeirində atanın övladına nəsihəti timsalında uşaqları zəhməti sevməyə çağırır. Ata övladına torpağın səxavətli olduğunu, ona alın təri tökənlərə olduqca comərt davrandığını, heç kimi qarşılıqsız buraxmadığını söyləyir. Əgər bir insan ehtiyac içərisindədirsə, deməli çətinlik çəkmək, əzaba qatlaşmaq, işləmək istəmir. Çalışmaqdan qorxmayan hər bir insan mütləq əməyinin bəhrəsini görəcəkdir:

Bilir misin, hamuru bunun nedir? Şu toprak!...
Toprak diyip hor bakma; o bir aziz sinedir,
Çocukları üstüne titreyen bir ninedir.
Ondan bir şey isteyen hiç bir vakit boş kalmaz,
Yoksulluğun karanlık zindanında bunalmaz.
Şu kadar ki o, terli alınlan alkışlar.
Nasır bağlı ellere zenginlikler bağışlar.
Her gördüğün şen yuva, mesut insan onundur;
Bu dünyada çalışmak herkes için kanundur. (7, 121)

Mehmet Emin Yurdakul uşaqlara heç bir işə xor baxmamağı tövsiyə edir. Əgər alın tərinlə, halal zəhmətinlə çalışırsansa, mütləq qarşılığını görəcəksən. Dulusçunun timsalında zəhmətkeş insanların obrazını yaradan Mehmet Emin Yurdakul millətinin övladlarına heç kimə yuxarıdan aşağı baxmamağı, işindən asılı olmayaraq hər kəsə hörmətlə yanaşmağı tövsiyə edir:

Benim kirli önlüğüm bana büyük şan verir.
Bir zanaat adamı olduğumu gösterir.
Yüzde işler, çamurlar... Bunlar leke değildir;
Irz ve namus karası alnı yere eğiltir;
Yiyeceğim ekmeği terim ile kazanmak
Benim için mukaddes bir vazife olacak!...»
…Bak evlâdım, zanaat, ne mübarek bir iştir;
Şu çiğnenen toprağa nasıl şeref vermiştir.
Bir ustanın elinde her şey değer buluyor;
Hakir çamur yığını halis altın oluyor!... (7, 121-122)

XX əsrin I yarısında yerli və xarici təsirlər nəticəsində parçalanmış türk gəncliyi Mehmet Emin Yurdakulun dəyərli əsərlərinin təsiri ilə türkçülük şüurunun daha dərindən fərqinə varmış, milli dəyərlərinə sahib çıxmağa nail olmuşdur. Bu baxımdan şairin uşaq şeirləri də gənc nəslin tərbiyəsinə təsirsiz ötüşməmiş, bu gün də oxucular tərəfindən sevə-sevə oxunmaqdadır.

ƏDƏBİYYAT

1. Banarlı Nihat Sami. Resimli türk edebiyatı tarihi II. Devlet kitapları. İstanbul, Milli Eğitim Basımevi, 1979, 1366 s.
2. Gönensay Hıfzı Tevfik. Tanzimatdan Zamanımıza Kadar Türk Edebiyatı Tarihi. İstanbul, Remzi kitabevi, 1949, 245 s.
3. Gürel Zeki. Türk Dünyası Çocuk Edebiyatı. Ankara, Pegem Akademi yayıncılık, 2016, 288 s.
4. Tevetoğlu Fethi. Mehmet Emin Yurdakul. Türk büyükleri dizisi. Ankara, Kültür ve Turizm Bakanlığı, 1988, 198 s.
5. Tevetoğlu Fethi. Milli şair Mehmet Emin Yurdakulun üç mektubu. "Türk kültürü" dergisi, kasım 1986, №283, s.700-703
6. Yazıcı Yüksel. Mehmet Emin Yurdakul. İstanbul, Töker yayınları, 1987, 144 s.
7. Yurdakul Mehmet Emin. Eserleri – 1. Şiirleri (Hazırlayan: Fevziye Abdullah Tansel). Ankara, Türk Tarih Kurumu basımevi, 1969, 436 s.
8. Yurdakul Mehmet Emin. Türk sazı. İstanbul, Atlas kitabevi, 1979, 191 s.

SAMUEL BEKKETİN "QODONUN İNTİZARINDA" PYESİNDƏ ABSURDLUĞUN BƏDİİ İFADƏSİ

İLKANƏ İBRAHIMBƏYLI
Xəzər Universiteti
Humanitar, Təhsil və Sosial elmlər/Filologiya
ilkinliilkane@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Məqalədə absurd bir konsepsiya təqdim olunur. Dünya ədəbiyyatından seçilmiş bəzi nümunələrin təhlili real həyatda başa düşülən və ya səhv başa düşülən hadisələri, hadisələrin səbəblərini üzə çıxarır. Seçilmiş ədəbi nümunələrin mövzuları absurddur. Bədii təsvir və ifadə vasitələri, poetik ruh və təfəkkür sayəsində bu mövzu geniş məna kəsb edir. Qodonu gözləyərkən insan empatiyasının dərinləşməsi hissi yaranır. Bekketin məqsədi belə bir absurdluğu şüuraltı reallıq kimi çatdırmaqdır. Bekket qəhrəmanlarının absurd düşüncələri, şübhə və qorxu mənbəyi olan Qodonu ümidə çevirərək absurdluğu anlamağa çalışır. Budda bədii gücdə artım təmin edir. Əsər həm də oxucuya suallar ünvanlayır, onu düşündürür. Təhlil bu suallara aydınlıq gətirir. Məqalədə absurdluq və Qodonun yoxluğunun səbəbi, əslində ona qarşı artan şübhələr izah edilir
AÇAR SÖZLƏR: Samuel Bekket, Qodonun intizarında, absurdluq, ədəbiyyat, şübhə

ABSTRACT
The article presents an absurd concept. An analysis of some selected examples from world literature reveals events that are understood or misunderstood in real life, and the causes of events. The themes of the selected literary examples are absurd. Thanks to the means of artistic description and expression, poetic spirit and thinking, this topic has a wide meaning. While waiting for Godo, a feeling of deepening human empathy arises. Beckett's goal is to convey such absurdity as a subconscious reality. The absurd thoughts of Beckett's heroes try to understand the absurdity, turning Godon, a source of doubt and fear, into hope. The Buddha provides an increase in artistic power. The work also addresses questions to the reader and makes him think. The analysis clarifies these questions. The article explains the absurdity and the reason for Godo's absence, in fact, the growing suspicions against him.
KEY WORDS: Samuel Beckett, En attendant Godot, absurdity, literature, skepticism

GIRIŞ

Ədəbiyyat qəribəliklərlə doludur. Səbəbi budur ki, həyatın insana gözlənilməz sürprizlərini, ədəbiyyat nümunələrində oxuyaraq təcrübəsini qazana bilərsən. Əbu Türxanın dediyi kimi: "Bəzən böyük həyat üçün yaranmış insanların ömrü kiçik və yeknəsəq səhnələrdə keçir. Bu halda onlar öz mənəvi ehtiyaclarını ancaq ədəbi qəhrəmanların həyatında tapa bilirlər". [1,1] "Ədəbi əsərlər və ya ədəbi ruh verilmiş hər şey insanda müsbət və ya mənfi bir nəticə verir. İnsana sən kim olmaq istərdin? Olduğun kimi olmaq sənə nələr gətirəcək?" və s. kimi beyni qurcalayan sualların cavabını ədəbiyyatda tapmaq mümkündür. Doğrudur ki, ədəbiyyat həyatdan qaynaqlanar. Fəqət ədəbiyyat daha dərin əks etdirər özündə hər şeyi.

Ədəbiyyat dövrün aktual mövzusu abusrdluğu da ortaya qoyur. Absurdluq isə gündəlik həyatda vərdiş edilən və düzgün təfəkkür tərzinin əsasını təşkil edən məntiqin qaydalarının əksinə çıxan, onlara əhəmiyyət verməyən məvhum. Absurd və absurdluq təfəkkürdə və reallıqda mövcuddur. İnsan bəzən real həyatda müşahidə etdiyi hər hansı bir hadisəni, yaxud bir şeyi məntiqi cəhətdən izah etməkdə çətinlik çəkir və bu ona absurd – qeyri məntiqi kimi görünür. Bunu daha dəqiq ədəbi nümunə təhlili ilə aydın görə bilərik.

TƏDQIQAT METODU

Məqalə tarixi müqayisəli metod əsasında yazılmışdır.

"Qodonun İntizarında" pyesində absurdluğun bədii ifadəsi

"Qodonun intizarında" pyesi absurd dramaturgiyanın ən gözəl nümunələrindən biridir və insan pyesi oxuduğu anda abusrdluq anlayışı ona maraqlı gəlir. Yeni bir anlayış və yeni bir təcrubə ilə rastlaşır insan. Bu absurdluqda, insan bəzən real həyatda müşahidə etdiyi hər hansı bir şeyi məntiqi cəhətdən izah etməkdə çətinlik çəkdiyi an, bu ona qeyri- məntiqi, yəni absurd kimi görünən anda baş verir. Elə bu pyesdə də Bekketdə axtarışında olduğumuz şübhə və tərəddüdlərin olduqca maraqlı formasını təsvir edir.

Bizim absurd qəhrəmanımız özü kimi absurd düşüncələrdə olur. Yəni dünyanın mənasızlığını, absurdluğunu qəbul edir. Bu düşüncələr əgər bir abusrd şəxs və ya qəhrəmanda varsa, bu zaman onda deməli şübhə və tərəddüddə ya yoxdur, ya da sıfıra doğru irəliləyir. Lakin belə bir şey var. Onda biz belə düşünə bilərik ki, absurd qəhrəman öz məntiqi ilə irəliləyir. İnsan da bu həyatın bir qəhrəmanıdır. İnsan da bu cür situasiyalarda öz məntiqi ilə irəliləsə də, onun daxilində olan vicdani və digər hissləri onu rahat buraxmayacaq. Bu vəziyyət daha çox qəhrəmanın və ya insanın çox önəmli qərar verdiyi və ya çox tərəddüdlü ola biləcəyi anda ortalığa çıxır.

Absurdluğu başqa bir əsərdə, Ejen İoneskonun " Kərgədan" əsərində də görürük. Ejen də Bekket kimi absurd qəhrəman yaradır. Ejenin "Kərgədan" əsəri zamanının totalitar ideologiyasını yaxşı təsvir edərək, əslində bir çox yanaşma tərzini özündə əks etdirir. Belə ki, kərgədanlaşma öz miqyasını artırdığını əsər boyu müşahidə edirik. Həm də əsərdə bu hadisəyə olan müxtəlif yanaşmaları da müşahidə edirik. Kimlərsə vəziyyətlə razılaşır və kərgədanların sürüsünə qoşulur. Lakin kimlərsə tənqid edir, qəbul etmir, buna baxmayaraq yenə də bəziləri kərgədanlaşır. Müəyyən bir təbəqə də var ki, istəsələr belə kərgədanlaşa bilmir. [3,1] Bekket isə Qodo adlı bir ümid yeri yaradır. Obrazlar, hətta oxucu belə Qodonu gözləyir. Gəlsə də, gəlməsə də hər kəsi ayaqda saxlayacaq bir qüvvəyə çevirilir. Çünki ümid insanı həyatda yaşadır. Paulo Coelho da ümidlə bağlı demişdir ki, "Məni yaşadan bir şeyi itirə bilmərəm: Ümid." [2,1]

Bekketin qəhrəmanlarının dilinin bəzən mürəkkəbləşdiyini görə bilirik. Bunun səbəbi isə absurd dramaturgiyanın qəhrəmanlarının tərəddüd keçirdiyinə işarədir. Çünki təkcə absurd dramaturgiyada deyil, insan tərəddüddə olarsa bu zaman psixololji vəziyyəti onu ələ keçirər. Bu bizə insanın nə qədər tərəddüdlüdürsə dioloqu da o qədər ziddiyətli və mürəkkəbdir fikrini irəli sürməyə əsas verir. Estraqon və Vladimirin nitqində də bu aydın seçilir. Vladimirin Estraqonun dediklərini əsər boyu inkar edir və razılaşmır. Bu zidiyyətli fikirin tək səbəbi, onların öz dediklərindən bir əminlik duymamaları, hər zaman şübhə ilə yanaşmalarıdır. Ən çox Estraqonda şübhə hissi daha çox hiss olunur. Onların bir-biriləri ilə şübhəli dioloqlarından nümunədə də bunu aydın sezmək olur:

Vladimir: Sən çox qəddarsan.
Estraqon: Biz dünən də burada olmuşuq.
Vladimir: Yox, bura da sən səhv edirsən.
Estraqon: Bəs, onda dünən biz nə edirdik?
Vladimir: Dünən biz nə edirdik?
Estraqon: Hə
Vladimir: Sözün düzü.... Sən həmişə hər şeyə şübhə ilə baxırsan. [4, 22]

Estraqonlar və Vladimirlər isə Qodo kimilərin yolunu gözləməyə başlayar. Daha dəqiq desək, Qodo kimiləri özlərinə bir ümid yeri kimi görərlər. O ümid ki, olmayacağını bilə-bilə bu ümidə möhkəm sarılmaq və ondan asılı hala belə gəlməklə nəticələnir. Ülvi Babasoy isə belə qeyd edir ki, "Qodonu gözləmək nə vaxtsa harmoniyanı tapmaq arzusu kimi də şərh edilə bilər. Bekket təkcə Tanrını və gələcəyi gözləməyin intizarını soraqlamır. Gələcəyi gözləməyin absurd lənətini sərhədsizləşdirir. Sərhədsizləşdirir? Çünki yaşamaq, var olmaq gözləməklə heçliyə, yox olmağa bir addım daha da yaxınlaşdırır."[5,1]

Lakin bu o demək deyil ki, onlardakı tərəddüd hissi şübhə qədər yüksək olmayacaq. Estraqon və Vladimirin tərəddüd hissi onların şübhə hissi ilə müqayisədə çox aşağıdır. Əgər onlar tərəddüd etsəydilər, hadisələr başqa cür olardı və Qodonun hər gün yolunu gözləməzdilər. Buna görə də qəhrəmanlar Qodonun gələcəyinə inanır və ümid bəsləyirlər. Estraqon və Vladimir də tərəddüd hissi onların şübhələri ilə müqayisədə, demək olar ki, yoxdur.

Lakin belə bir şey var ki, şübhə hissi o qədər güclüdür ki, bu hiss təkcə qəhrəmanlar deyil, həm də biz oxucularda da yaranır. Oxucularda Qodonun kim olması ilə bağlı şübhələr yaranır və "Qodon kimdir ?" sualı oxucunun beynini məşğul edir.

Bekketin əsərinin sonu açıq finalla bitir və oxucu pyesdə onda yaranan tərəddüd və şübhələrin nə ilə sonlandığını anlaya bilmir. Əsərlərin belə natamam finalında hər zaman oxucuda bu cür reaksiya yaratma səbəbi absurduluğun güclü bədii ifadəsidir.

NƏTICƏ

Belə bir nəticəyə gəlirik ki, arqument gətirdiyimiz hər bir mövzu absurdluğun bədii ifadəsini təsdiq edir. Bu da ədəbiyyatın gücü və sərhədsizliyi ilə bağlıdır. Doğru bir şəkildə qeyd etmək olar ki, dəbiyyat bəzən ruhu, bəzən qəlbi, bəzən də rahat şəkildə psixologiyanı ələ keçirdə bilir. Təbii ki, həyat olmasa, ədəbiyyat da olmaz. Lakin həyatın monotonluğunu ədəbiyyat pozar. Ədəbiyyat sərhədsizdir. Ədəbiyyat hər şeyi görmək, istədiklərini öncədən sənə xəritə kimi təqdim etmək deməkdir. Səni çıxılmaza salaraq sınamaqdan

çox, düşünməyə və gözlə görməyə vadar etməkdir. Necə ki, absurd bir hadisəni real kimi qəbul etdirir. Necə ki, bizdə Qodonu Vladimir və Estraqon kimi gözləyirik. Gəlmədiyi halda isə suallar beynimizi qurcalamış olur. Absurdluq bir növ insanı şübhələrlə baş-başa qoyur.

ƏDƏBIYYAT SIYAHISI

1. "Ədəbiyyat haqqında aforizmlər", https://www.testbook.az/proverb/aphorismtype/41/edebiyyat-haqqinda-aforizmler
2. "Ümid haqqında ifadələr: bütün ən gözəl aforizmlər!", https://musa.news/az/%C3%BCmid-haqq%C4%B1nda-ifad%C9%99l%C9%99r-b%C3%BCt%C3%BCn-%C9%99n-g%C3%B6z%C9%99l-aforizml%C9%99r/
3. İbrahim Niftiyev, "Ejen İonesko - Kərgədan", https://niftiyevibrahim.blogspot.com/2016/07/ejen-ionesko-krgdan.html
4. Samuel Bekett. "Qodonun intizarında". "Cağaloğlu" nəşiriyyat. İstanbul/ Türkiyyə . 1990: 1-166
5. Ülvi Babasoy, "Qeyri-müəyyən qəddarlıq...", https://edebiyyatqazeti.az/news/muzakire/4009-qeyri-mueyyen-qeddarliq

POSTMODERNİZM ƏDƏBİYYATINDA PASTİŞ

SƏBİNƏ AĞABABAYEVA
Bakı Slavyan Universiteti
Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi
Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasının doktorantı
Filologiya elmləri
sagababayeva87@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Postmodernizm çağdaş dövrün ən aktual problemlərindən biridir. Postmodernizmi müasir dünya incəsənətinin demək olar ki, bütün sahələrində - ədəbiyyat, teatr, musiqi, kino, memarlıq, dəb və s. izləmək mümkündür.

XX əsrin ikinci yarısından etibarən meydana gələn postmodernizm ətrafında mübahisələr hələ də səngimək bilmir. Klassik ənənə və dəyərlərə laqeyd münasibəti ilə seçilən postmodernizm daha çox tənqidi yanaşmaya məruz qalır. Bir çox tədqiqatçılara görə postmodernizm modernizmin fikir və nəzəriyyələrini yenidən gözdən keçirir, bəzən isə tamamilə rədd edir. Postmodernizmin açıq şəkildə nəyi ifadə etməsi ilə bağlı alimlər arasında fikir birliyi yoxdur.

Postmodern üslubda yazılmış əsərlər mürəkkəbliyi, qeyri-müəyyənliyi, yaxud da mənasızlığı ilə xarakterizə olunur. Bu üslubda yazılmış əsərləri anlamaq oxucudan yüksək peşəkarlıq və geniş dünya dünyagörüşü tələb edir. Postmodern mətnlər ənənəvi süjet və kompozisiyadan məhrumdur. Postmodernizmə xas terminlər bu mətnləri anlamaqda açar rolunu oynayır. Bu baxımdan ədəbiyyatşünaslıqda postmodernizm terminlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Beləlikə, sadalanan amillər mövzunun aktuallığını şərtləndirir.

AÇAR SÖZLƏR: MODERNIZM, POSTMODERNIZM, PASTIŞ

GIRIŞ

Mövzunun aktuallığı. ABŞ XX əsrin ikinci yarısından etibarən dünyada yayılmağa başlayan postmodernizmin vətəni hesab olunur. Amerikalı tənqidçi Lesli Fidler ilk postmodernistlərdən biri, onun 1969-cu ildə nəşr olunan "Sərhədləri qarışdırın – Xəndəkləri örtün" (Cross the Border – Close the Gap) məqaləsi postmodernizmin ilk rüşeymlərinin müşahidə olunduğu əsər kimi qiymətləndirilir. "Postmodernist tənqidin öncül nümayəndələri fransız J. F. Liotar, amerikalılar İ. Hassan və F. Ceymisson, hollandlar D.V.Fokkema və T.D'an, inglislər C. Batler, D. Loc və başqaları" [1,255] hesab olunurlar.

Qərb, eləcə də Azərbaycan ədəbiyyatşünaslığında postmodernizmlə bağlı müxtəlif fikirlər səsləndirilmişdir. Bu fikirlər içərisində postmodernizmin modernizmi inkar etməsi daha çox vurğulanır. Postmodernizm özünü "modern" olmadığı həqiqətinə görə müəyyən edir. Modernizmin inkarı və ya tamamilə rədd edilməsi postmodernizmin əsas, təməl xüsusiyyətidir. Modernizm çağını keçmiş yeni bir əsrin başlandığına işarə edən postmodernizm modernizmə müqavimət göstərməklə bir növ onun mənasına "kölgə salır". Bu baxımdan Rafiq Yusifoğlunun qeydləri maraq doğurur: "Bir vaxtlar modernizm klassik,

akademik dəyərləri inkar edib yeni bədii formalar yaratdığı kimi, postmodernizm (almanca «moderndən sonra gələn») də modernizmi inkar edərək ədəbiyyatda xaos, elementlər müxtəlifliyi yaradır" [2]. Postmodernizm bir növ modernizmin kütlə tərəfindən birmənalı qəbul edilməli olan ümumbəşəri dəyər olması fikrini alt-üst edir.

Ümumiyyətlə, postmodernizm yeni yaradıcılıq axtarışları kimi daima humanitar fikrin bütün sahələrinin, eləcə də ədəbiyyat və ədəbiyyatşünaslığın diqqət mərkəzindədir.

Postmodernizm üslubunda yazılmış əsərlərin xarakterik xüsusiyyətləri. Mətn anlayışı postmodernizmin əsas, ana anlayışıdır. Əvvəlki mətnləri və onların hissələrini özündə birləşdirən hər hansı mətn postmodernizmdə istisnasız olaraq yalnız bir mətn kimi qavranılır, başa düşülür. Nəticədə, ümumi mədəniyyətin ayrılmaz bir hissəsi olan, eyni zamanda ümumi universal mətnin yalnız bir hissəsinə çevrilən mətn özünəməxsusluğunu, tamlığını itirir.

Postmodernizm davamlı simvolik mübadilə, qarşılıqlı əlaqələr və dəyişikliklər təcrübəsi kimi dəyərləndirilir. Müəllif mətnlə və mətnlər də sanki onunla oynayır. Bu oyuna oxucu, eləcə də bütün dünya cəlb olunur. Mətnin gözümüzün qarşısında, kortəbii, şüursuz və adi qaydalara zidd olaraq doğulmasının səbəbi məhz oyundur. Bir sözlə, müəllif, mətn və oxucu oxuma prosesində yazı oyunu üçün vahid, sonsuz bir sahəyə çevrilir.

Postmodern ədəbiyyata reallıqdan daha çox uydurma, illuziya xasdır. Bu üslubda qələmə alınmış əsərlərdə reallıq hiperreallıqla əvəz olunur. Postmodernizm ədəbiyyatında qarmaqarışıqlıq, qeyri-müəyyənlik hakimdir. Mətnlər adət etdiyimiz süjet və kompozisiyadan , ənənəvi sonluqdan məhrumdur. Bu əsərlərdə reallıq və hiperreallıq (gerçəklə əlaqəsi olmayan) bir-biri ilə elə çulğalaşır ki, onları ayırd etmək çətin olur. Real dünyanın insanları ilə xəyal dünyasının obrazları bir yerdə verilir, onlardan hansının real, hansının xəyal məhsulu olduğu oxucunu düşündürür, onu seçim qarşısında qoyur. Bu məqamda Azərbaycan postmodern nəsrində xüsusi mövqeyi ilə seçilən "Sehrbazlar dərəsi" romanını nümunə göstərmək olar. Xalq yazıçısı Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında real və xəyal dünyası paralel təsvir olunur. Romandakı dünya qeyri-adidir, çünki orada fövqəl gücə sahib sehrbazlar yaşayır, insanlar və ruhlar bir-biri ilə ünsiyyət qura bilirlər. Yazıçı bunları elə məharətlə təsvir edir ki, oxucuda onların reallığına şübhə yaranmır. Eyni zamanda postmodern əsərlər zaman və məkan probleminin qoyuluşu də baxımından da fərqlənir. Bir əsər daxilində bir-biri ilə əlaqəsi olmayan bir zaman kəsiyi birləşə bilər. Eləcə də burada məkan fərqliliyi də diqqəti cəlb edir. "Sehrbazlar dərəsi" romanının əsas məkanı olan qeyri-adi Sehrbazlar dərəsi kimi. Belə ki, hər tərəfi yaşıllıqla örtülmüş dərədə yalnız yaz fəsli hakim idi. Dərənin sakinləri kindən, nifrətdən, pisliklərdən uzaq fövqəl güclü sehrbazlar idi.

Postmodernizm terminləri. Postmodern üslubda yazılmış əsərlərin başlıca xüsusiyyətlərini qısa şəkildə nəzərdən keçirdik. Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, postmodernizmdə ənənəvi ədəbiyyat və ədəbiyyatşünaslıqdakı mövzu, ideya, hekayə, təhkiyə anlamlarına tamamilə fərqli prizmadan yanaşılır. Postmodern ədəbiyyatda bu anlayışlar yeni məna qazandığından bədii əsərlər yeni baxış bucağından dəyərləndirilir.

Qorxmaz Quliyev yazır: "Postmodernist ədəbiyyatşünaslığın nümayəndələri "dünya xaos kimi", "postmodernist hissiyyat", "dünya mətn kimi", "şüur mətn kimi", "intermətnlilik", "nüfuz sahiblərinin böhranı", "epistemoloji tərəddüd", "müəllif maskası", "ikili kod", "təhkiyənin parodiya modusu", "pastiş", "ziddiyyətlilik", "qırıqlıq", "təhkiyənin fraqmentarlığı (nonseleksiya prinsipi)", "ünsiyyətin iflası", "metatəhkiyə" kimi anlayışlardan çıxış edirdilər və etməkdə davam edirlər" [1,255-256]. Sadalanan anlayışlar postmodernizm üslubunda yazılmış əsərlərin ənənəvi ədəbiyyatşünaslıq elmi aparatı ilə tədqiqinin qəliz olduğunu göstərir. Postmodern əsərlərin təhlilində bu terminlər xüsusi rol oynayır. Məhz bu səbəbdən postmodernizmə xas bu terminlərin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Pastiş – postmodern poetikanın önəmli kateqoriyalarından biri kimi. Çoxsaylı postmodernizm terminləri içərisində pastiş mühüm yerlərdən birini tutur. "Frans.PASTICHE (italyanca PASTICCIO – başqa operaların hissələrindən ibarət opera, qarışıq, popurri, stilizasiya)" [3,189]. Amerikalı nəzəriyyəçi F.Ceymison pastişi postmodern sənətin əsas, ən vacib üsulu kimi təsvir etmişdir. Professor Rəhilə Quliyeva pastiş barədə yazır: "Pastiş parodiyanın qısaldılmış formasından alınan postmodernizm terminidir" [4,91].

Çoxsaylı ədəbi üslub və janrları eyni anda istifadə edən yazıçılar əvvəlki ədəbi nümunələri təqlid edirlər. Bir neçə mətnin, eləcə də müxtəlif üslubların bilərəkdən təqlidi yolu ilə yaranan əsərlər postmodern ədəbiyyatda pastiş nümunəsidir. Bu baxımdan postmodern ədəbiyyat plüralizmi, qarşıqlığı və xaotikliyi ilə seçilir. Pastiş üsulu ilə ərsəyə gələn əsərlərdə şeir, nağıl, fantastika, eləcə də musiqi vəhdət təşkil edir. Pastiş əsərləri daha yaxşı başa düşmək üçün oxucu əsərin ilkin, orijinal variantı barədə də məlumatlı olmalıdır.

Tədqiqatçılar postmodernizm ədəbiyyatında pastiş texnikası ilə yaradılan əsərlərdə əsas məqsədin əsasən təqlid olunan yazıçı, yaxud əsərin kobud şəkildə ifadə etsək məsxərəyə qoyulması olduğu fikrini irəli sürürlər. Pastiş əsərlərdəki məsxərə oxucunu güldürmək məqsədi daşımır. Digər əsərlərin təqlidi əslində tənqid xarakteri daşıyır. Sadəcə olaraq bu tənqid istehza ilə həyata keçirilir.

Parodiya pastişdə mühüm yer tutur. "Bu parodiya hər cür üslub normalarından azaddır, əsərdə vahid məna mərkəzinin və individual subyektin itməsi ilə bağlıdır" [4,92]. Əslində parodiya və pastiş bir-birlərinə yaxın anlayışlardır. Pastiş, eləcə də parodiya əvvəlki ədəbi nümunələri təqlid edir. Hər iki anlayışda keçmiş ədəbi nümunələrin təqlidinin önəmli olması onları heç də eyniləşdirməyə əsas vermir. Belə ki, həm pastiş, həm də parodiya təqlidetmə tərzinə, üsuluna görə fərqlənirlər. Yəni hər ikisi təqliddən fərqli məqsədlər üçün istifadə edir. Parodiyaya gülüş, pastişə isə ciddilik xasdır. Pastişlə müqayisədə parodiya daha geniş yayılmış anlayışdır. Ona görə də hər növ təqlidi parodiya hesab etmək düzgün deyildir. Professor Rəhilə Quliyeva yazır: "...Bu eyni zamanda həm fantaziya, həm də parodiya və ya avtoparodiyadır" [4,91]. Daha sonra R.Quliyeva avtoparodiya anlamına Amerika tənqidçisi R.Poyriyerə əsasən aydınlıq gətirir: "parodiya köhnəlmiş ədəbi üslubları məsxərəyə qoyur, avtoparodiya isə bunu da artıq və mənasız sayır" [4,91].

Dünya ədəbiyyatında Umberto Eko, Xorxe Luis Borxes, Xulio Kortasar, İtalo Kalvino, Jorj Perek, Con Faulzun yaradıcılığında pastiş nümunələri kifayət qədərdir.

TƏDQIQAT METODU

"Postmodernizm ədəbiyyatında pastiş" mövzusunda tezisdə qarşıya qoyulmuş problemin həllində idrak metodunun ən geniş yayılmış və universal metodlarından biri olan müqayisə, eyni zamanda analiz və sintez metodlarından istifadə olunmuşdur. Mövzu ilə bağlı dünya, eləcə də Azərbaycan ədəbiyyatşünaslığındakı mənbələr araşdırılmış, toplanan məlumatlar mətndə istinad şəklində öz əksini tapmışdır.

NƏTICƏ

Beləliklə, postmodernizm müasir dövrün aktual problemlərindən biri kimi ətraflı araşdırma və tədqiqata ehtiyac duyur. Dünya, eləcə də Azərbaycan ədəbiyyatşünaslığında bu problem daim diqqət mərkəzində saxlanılır. Yeni yaradıcılıq axtarışları kimi humanitar fikrin bütün sahələrində müşahidə edilən postmodernizmin əsas əlamətləri, xarakterik xüsusiyyətləri şərh olunur.

Ədəbiyyatda postmodernizm üslubunda yazılmış əsərlər meydana çıxandan sonra bu cərəyanın əsas xüsusiyyətlərini, nəzəri aspektlərini müəyyən etmək üçün həmin əsərlərin təhlili əsas tədqiqat obyektinə çevrilir. Postmodernizm üslubunda yazılmış əsərlərin ənənəvi əsərlərdən tamamilə fərqləndiyi aydın olur. Belə ki, bu əsərlərdə klassik süjet və kompozisiyanı izləmək olmur, mövzu, ideya, hekayə, təhkiyə anlamları tamamilə fərqli məna qazanır. Ənənəvi təhlili postmodern əsərlərə tətbiq etmək olmur. Çünki postmodernizm özünəməxsus terminlər yaradır. Bu üslubda yazılmış əsərləri anlamaq üçün həmin terminlərin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Tezisdə postmodernizmin mühüm terminlərindən olan pastiş tədqiqat predmeti kimi götürülmüşdür. Postmodernizmin bütün terminlərinin araşdırılması daha geniş tədqiqatın mövzusudur. Bu baxımdan yalnız bir termin – pastiş üzərində araşdırılma aparılmışdır. Pastişin əsas xüsusiyyətləri, parodiya ilə pastiş arasındakı oxşar və fərqli cəhətlər şərh olunmuşdur. Təhlillərimizə əsasən pastişi qısaca belə şərh etmək olar - pastiş yazıçının əvvəlki ədəbi üslub və janrları, əsər və yazıçıları təqlid edərək yeni əsər ərsəyə gətirməsidir. Əsas məqsədi gülüş olmasa da pastiş təqlid olunan yazıçı və əsəri məsxərəyə qoyur.

Tədqiqatın nəticəsinin bu mövzu ilə bağlı araşdırma aparan tədqiqatçılara faydalı olacağı qənaətindəyik.

ƏDƏBIYYAT SIYAHISI

1. Qorxmaz Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. "Bəxtiyar-4" KM-in Mətbəəsi **(Kitab).** Bakı / Azərbaycan. 2012:1-344
2. Rafiq Y. Postmodernizm və onun nəzəri-estetik prinsipləri, https://manera.az/edebiyyat/2741-postmodernizm-ve-onun-nezeri-estetik-prinsipleri maneraaz.html **(online məqalə)**
3. Илья И. Постмодернизм: Словарь терминов. Интрада **(Kitab).** Москва. 2001: 1- 438
4. Рагиля К. Литература в контексте времени. Мутарджим **(Kitab).** Баку / Азербайджан. 2017: 1-420

THE APPROACH OF PLOT AND CHARACTER IN A WORK OF ART

Rasulova Sarvinoz Sadatovna
sarvina_ok@mail.ru
Tashkent State University of Uzbek Language and Literature
Teacher

Аннотация

Ушбу мақола асардаги сюжет ва характерлар ҳақида. Мақолада герменевтик, анализ, синтез методларидан фойдаланилган. Тоҳир Малик қиссаларидаги характерлар, уларнинг ўзига хос хусусиятлари таҳлил қилинган. Сюжетнинг муҳим элементлари тадқиқ этилган. Мақола сўнгида умумий хулосалар берилган.

Аннотация

Эта статья о сюжете и персонажах пьесы. В статье используются герменевтический, аналитический и синтетический методы. Анализируются персонажи рассказов Таира Малика и их особенности. Исследуются важные элементы сюжета. Общие выводы приведены в конце статьи.

Annotation

This article is about the plot and characters in the play. The article uses hermeneutic, analytical, synthesis methods. The characters in Tahir Malik's stories and their peculiarities are analyzed. Important elements of the plot are explored. General conclusions are given at the end of the article.

Калит сўзлар

Асар, герменевтика, анализ, синтез, метод, тур, жанр, характер, сюжет, воқеа, детектив асар, сирлилик, тугун, қамоқхона, зиддият, сўз санъати.

Ключевые слова

Произведение, герменевтика, анализ, синтез, метод, тип, жанр, персонаж, сюжет, событие, детектив, тайна, узел, тюрьма, конфликт, искусство слова.

Key words

Work, hermeneutic, analytical, synthesis, method, type, genre, character, plot, event, detective work, mystery, knot, prison, conflict, word art.

Umarkhan Amiri attributed the following to his poem:

Хат чиқординг, лаъли хандонинг керакмасму санго?
Хизра вердинг оби ҳайвонинг , керакмасму санго? [9,49]

In verse 1, Fuzuli says that Masrur's grief towards Yorga made him fall in love with her, and if necessary, he asked me if I needed a heart full of love and soul. We know that in mystical literature, "heart, soul" is likened to the house of Allah, the Ka'bah, a glass full of love. Of course, Fuzuli was a Sufi poet. The poetry of the poet cannot be studied in isolation from mysticism. In a number of his poems he praises Allah, the Lord of the heavens and the earth, prays to him, pours stones on the ascetics, glorifies the Sufis and dervishes, strives for the status of poverty and fanaticism, praises the divine lover, speaks of the drunkenness of the wine of unity, condemns surrender to the world, and so on. For example, Sufis live in the hope of seeing the beauty of Allah on the Day of Judgment. If Allah shows His beauty, Hell is better for them than Paradise, but if Allah does not show Himself, then Paradise is worse than Hell. It is impossible to reach Allah, the divine lover, without giving up one's life.

In the above ghazal of the Amir, the soft feathers on the lips of the Yor were more artistically polished by Fuzuli's source through beautiful allusions.

In classical literature, it has become a tradition to liken the lover's living lips to life, the soft hairs around his lips, that is, the grass that covers the surface of life, his black hair to the hidden darkness of life.

The symbolism of the letter refers to the feathers on the lips of the figurative lover. the absence of a degree of thickening accumulation, such as the labial lip) or the eye (black eye), also seems to have been derived from Hizr, rather than from a prophet, in its symbolism.

Azerbaijan bubuli teacher Fuzuli in the next verse:

Оташин оҳим-ла айларсан манга таклифи боғ,
Боғбон, гулбарги хандонинг керакмазми санго?-

while the king and poet Amir

Тоза қилдинг нохуни ғам бирла кўксим доғини,
Ёд қилмассан, гулистонинг керакмасму санго? –

he adds to the poet's suggestions.

In the next verse, Fuzuli, by the grace of love, says, "O pari ..." In the kingdom of Irfan, the world is beautiful and glorious, and the face is a symbol of the divine source. The world is infinite and darker than the source of divinity. The length and blackness of the hair is a sign of the vastness and darkness of the world.

Amir's artistry is evident in this verse:

Бир итингман, даргаҳингдин қувмағил ағёр учун,
Эй, накулар шоҳи, дарбонинг керакмасму санго?

In this verse, the poet sees himself as an example of a dog and calls Yorni "king of beauties" and asks me not to chase him away from my rivals, because you need a doorman. The roots of the image of the dog in classical literature go back to folklore and religious sources. It is said that during the reign of Daqyunus, several young men who had escaped from his oppression and hid in a cave were accompanied by their dog. This narration later paved the way for the widespread use of the dog in fiction. [10,223] In particular, this image is a symbol of fidelity and loyalty, rival, lust, guardianship in the works of poets. Amir used the image of a dog as a symbol of fidelity and devotion.

In the next verse, Hazrat Fuzuli mentions the bow's eyebrows and fire-breathing paws and emphasizes the beautiful qualities of the mistress.

Эй камонабрў, рақиба верма ғамзангдан насиб,
Ўқ отарсан тоша, пайконинг керакмазму санга?

Amir,

Келди ҳар он кўнглума ул ой хаёли ёшурун,
Пок тут, эй дийда, меҳмонинг керакмасму санга?-

The poet appeals to the eye, keeping in mind that the dream of the friend has been hidden in his heart, and the eye further develops the quality of love in the form of whether you need a guest. In the science of gnosis, the eye is the source of the unseen, the source of mystery. In the eyes of the Sufis, the level of insight of the lover, that is, the sharpness of the eye of the soul. At the same time, it is interpreted as a force that tests, tests, the lover.

In the ghazal, following the path of Amir Fuzuli, it is seen that the inner experiences of the lyrical hero are a detailed artistic description of his mental state. The content and form of the radiant ghazal "Etma Chox" are very close to Fuzuli's ghazal. Fuzuli melodies can be felt in the ghazals of the Amir, in the taboos of muhammas and in the musaddas.

Fuzuli:

Шифойи васл қадрин ҳажр ила бемор ўландин сўр,
Зулоли завқ-шавқин ташнаи дийдор ўландин сўр,[11,27] -

It is known that many poets associated the famous ghazal, which begins with the matla. The Amir also boldly attached to it an extremely deep, complementary and reinforcing takhmis that complemented the idea and content of the ghazal.

Amir expands the image in the first stanza of Fuzuli, that is, it is obligatory to ask for the healing of the visal (or visol shukuhi) from a person who has reached the age of sickness after hajj, and the longing from the person who is thirsty for diydar:

Бало даштида ғам тоғин менингдек зор ўландин сўр,
Муҳаббат рамзини Мажнун киби афгор ўландин сўр,
Мазоқи лаъли нобин ишқ аро хуммор ўландин сўр,
Шифойи васл қадрин ҳажр ила бемор ўландин сўр,
Зулоли завқ-шавқин ташнайи дийдор ўландин сўр[11,409].

The ideas put forward in Fuzuli's ghazal are further expanded in the third stanza of the Amir Muhammad, as a result of which all five verses in the Muhammed are interconnected in terms of content, as if any verse is removed from this Muhammed. After all, the longing for a friend, the madness in Layli's work, the desire to be humorous in the sweetness of the lover's lips, fills the state of love, which is tired of hijrah in the hope of visal.

Fuzuli begs his lover to let him know about his love affair. And the beautiful analogy here is that drunks are known only when the bedouin is awake. The Emir expanded this idea and dreamed of searching for your beautiful face in the bushes. promotes the idea of not knowing or not knowing:

Таманно қилди хатти оразингни бу чаманлардин,
Бу гул шавқида булбул ошён қилди тиканлардин,
Ғурури ҳусн ила қилма тағофул беватанлардин,
Хабарсиз ўлма фаттон кўзларинг жаврин чеканлардин,
Хабарсиз мастлар бедодини ҳушёр ўландин сўр .

This verse, which consists of 7 verses, complements the thoughts of Amir Fuzuli in the muhammad. Just as a number of aspects of Fuzuli's skill are reflected in these completed and interpreted verses, so is the original artistry in Amir's work. It can be said that although Fuzuli's ghazal seems to be dedicated to the hymn of worldly love, it is a commentary on the state of the true lover, the Sufi, and his love for his creator, his obligations to slavery, who are inwardly devastated. The verses introduced by the Amir reveal this lyrical protagonist's state of mind, his rites of perfection, more broadly and completely.

“Amir was not only impressed by Navoi and Fuzuli, but also learned from them the secrets of mastery in the formation of the byte, the use of words, the use of art. In particular, he masters the art of starting a ghazal with a beautiful matla - Amir matlas are distinguished by their richness in the arts, in particular, allegories.

It can be seen that Amir also followed Fuzuli in a number of poems. He writes a number of tatabs on Fuzuli's ghazals, connects takmis, “bengzatdim”, “ayduqcha”, “cho‘x”,”topan”, “bo‘lan”, “chekan”, “o‘lan”, “qilan”, “vor”, “ko‘ran”, “kezigidur”, “sinduran”, “sonur” ”, “yo‘x”, “do‘ndirmish”, “verub”, “edan”, “vermish”, “verdi”, “o‘sonmaydur”, “verancha”, “dun”, “dushdi”, “o‘sondim”, “sonuram”, "o'qush" introduces such fuzuli words into the text of his ghazals. ”[13,72]

Fuzuli Kokand is the poet who had the greatest influence on the creators of the literary environment. Representatives of this environment, such as Amir, Nodira, Uvaysi, Ghazi, Ado, Khan, skillfully continued the traditions of Fuzuli, enriching it with metaphors. They developed oriental literature with their beautiful form, colorful content, and artistically perfect works.

REFERENCES:
1. Зоҳидов В. Ўзбек адабиёти тарихидан. – Тошкент: Ўзадабийнашр, 1961. - Б. 194-195.
2. Воҳидов Э. Шоиру шеъру шуур (Адабий ўйлар). – Тошкент: Ёш гвардия, 1987. - Б. 102.
3. Фузулий. Девон. – Тошкент: Бадиий адабиёт, 1959.
4. Очилов Э. Фузулий. Ишқ изҳори. – Тошкент: Ҳилол, 2014. – Б.5
5. Файзуллоев Б. Ўзбек шеъриятида татаббуъ тарихи ва маҳорат масалалари (XVIII- XIX асрлар ва XX аср бошлари ғазалчилиги асосида): Филол. фан. номз....дисс. авт. -Тошкент, 2002. - Б.17.
6. Садриддин Айний. Намунаи адабиёти тожик. - Москва, 1926. - С.197.
7. Файзуллоев Б. Ўзбек шеъриятида татаббуъ тарихи ва маҳорат масалалари (XVIII- XIX асрлар ва XX аср бошлари ғазалчилиги асосида): Филол. фан. номз....дисс. авт. –Тошкент, 2002. -Б.9.
8. Очилов Э. Ахтариб келдим сени. – Тошкент, 2013. - Б.9.
9. Амирий. Девон. Ўзбекча шеърлар (Нашрга тайёрловчилар А.Мадаминов, Э.Очилов, З.Қобилова, О.Давлатов). – Тошкент: Тамаддун, 2017. – Б.49.
10. Алишер Навоий. Қомусий луғат. 1-жилд. – Тошкент, 2016. – Б.223
11. Фузулий. Девон. Тошкент: Бадиий адабиёт, 1959. – Б.27.
12. Амирий. Девон. Ўзбекча шеърлар (Нашрга тайёрловчилар А.Мадаминов, Э.Очилов, З.Қобилова, О.Давлатов). – Тошкент: Тамаддун, 2017. – Б.409.
13. Қобилова З.Б. Бадиий ижодда таъсир ва издошлик масалалари (Амирий ижоди мисолида). ф.ф.д.дисс. – Қўқон, 2020. - Б.72.

НАЦИОНАЛЬНЫЙ ХАРАКТЕР В СОВРЕМЕННОЙ УЗБЕКСКОЙ ПРОЗЕ

Шукурова Барчин Самадовна
Базовый докторант Института узбекского языка, литературы и фолькора АН РУз
barchinshukurova86@gmail.com ТАШКЕНТ, УЗБЕКИСТАН

Аннотация: В статье исследуется вопрос художественной интерпретации понятий национальный характер, национальные ценности, национальные традиции на примере анализа рассказа Кучкара Норкобила "Старик обиделся", отражающего жизнь новой эпохи. Исследователь констатирует, что эстетическим и этическим идеалом писателя является идеальный герой, который с ложное время течения процессов глобализации и интеграции, сохранил свою веру, национальные ценности и традиции.
Annotation: The article explores the issue of artistic interpretation of the concepts of national character, national values, national traditions on the example of the story by Kuchkar Norkobil “The old man was offended, reflecting the life of a new era. The researcher states that the aesthetic and ethical ideal of the writer is the ideal hero, who, during the false time of the processes of globalization and integrations, has retained his faith, national values and traditions.
Ключевые слова: литература, национальный характер, национальные ценности, обычаи и традиции, национальное убеждение, эстетический и этический идеал.
Keywords: literature, national character, national values, customs and traditions, national conviction, aesthetic and ethical ideal.

“Любое произведение – будь то крупное или небольшое по объёму превращается в событие на литературной арене совершенными характерами, врезающими в память неповторимыми эпизодами; становятся вечными” [1:29]. Как утверждал литературовед Б.Каримов, произведения с “совершенными характерами” живут вечно. Они имеют особое место в литературе, и после каждого прочтения обретают новых и новых читателей. Они озаряют сердца людей, и побуждают читателей брать хороший пример. В силу того, что в человеческой природе заложена особенность

воздавать, нам всегда хочется видеть себя в литературных идеалах, обсуждать себя, глядя на эти идеалы. Сам этот процесс приближает нас к художественному произведению. Народ, признающий незыблемость своих традиций, обречён на вечность. В последнее время мы всё чаще говорим о национальных ценностях, национальной одежде, национальных блюдах, национальных партиях, национальном телевидении и т.д., что обусловлено большой потребностью в них.

В рассказе Кучкара Норкобила "Старик обиделся" автор затрагивает весьма интересную и трогательную тему о роли национальных традиций в жизни общества, что не оставляет читателя равнодушным. Гулом бова направляется в центр города с внуком Эломоном, прибывшего из города на неделю, для того, чтобы сделать ему обрезание. Чтобы найти транспорт для поездки в город, дед обошёл всех знакомых и, наконец, ему удаётся уговорить Кулмата. Во время разговора "...он бросил перед ним пачку новеньких десятирублёвок и отрезал: "Всё, давай собирайся...", а уходя процедил старухе: Позвони старшему сыну: пусть придёт и зарежет барана... Пусть после обеда позовёт соседей, стариков мечети. Дело есть!" – всё это свидетельствует о принципиальном характере старика, что его слово является законом, свидетельствуют о том, что его уважают в селе и никто не вправе изменить слово, данное обычным деревенским узбеком. Беседа Кулмата найнова и Гулома бова во время поездки раскрывает такие эстетические идеалы узбека, как совестливость, верность, честность, они есть в крови узбеков. А Кулмат, хоть и долговязый, но боится покуситься на чужое. Кулмат найнов – не тот, кто продаст свою совесть за деньги. У узбеков есть одна поговорка: "Деньги – это пыль на руках" – они приходят и уходят. Изображая этих людей, автор рисует образы гордых узбекских сынов. Об авторитете Гулом бова свидетельствую слова Кулмата найнова: "От дыхания Гулом раиса спел зелёный урюк". Благодаря речи председателя мы выясняем, что он заботился о народе, служил ему, делал всё для его процветания, любил безвозмездно свою родину, свой народ. Автор, следуя своему стилю, ещё раз ярко изображает национальный характер сурхандарьинца.

Кстати, вот что рассказывает автор-повествователь по поводу обрезания: "Э-ей-ей, неужто вы не понимаете выражение "сделать руку халяльным"? Это значит, сделать мусульманином, или, ещё проще, сделать обрезание. Не позволительно, чтобы мальчик, который сегодня-завтра должен пойти в школу, ходил так... Ладно, не будем это обсуждать сейчас: бова правильно делает. Это неправильно, чтобы взрослый мальчик был ни рыбой, ни мясом" [2:278]. В творчестве Кучкара Норкобила часто встречаются такие национальные характеры, которые беспокоятся о том поколении, которое уехало из деревни в город и отдалилось от своих корней. Именно эти образы стариков и старух, носителей узбекского национального характера, которые считают своим человеческим долгом сохранение национальных традиций и обычаев, автор считает своим эстетическим идеалом.

В частности, в анализируемом нами рассказе "Старик обиделся" Кучкар Наркабил также демонстрирует своеобразный этический и эстетический идеал. Проницательный читатель конечно уловил глубокий философский смысл заключения автора-рассказчика: "Это неправильно, чтобы взрослый мальчик был ни рыбой, ни мясом". Издревле в узбекских семьях мальчику делали обрезание, объявляли об этом народу, играли свадьбу, приглашали на свадебный плов. Взрослые не здоровались с мальчиками школьного возраста, если тем не было сделано обрезание (не здоровались рукопожатием – Ш.Б.), не сидели с ними за одним столом. В образе Гулом бова писатель изображает такой национальный характер в такой национальной среде. Этим он хочет продемонстрировать, какими были многовековые традиции, которые молодёжь сегодня начинает забывать: "По улицам кишлака промчались глашатаи. "Всем на свадьбу к Гулом ака-а-а!!!"

Во дворе собрались от млада до велика со всего кишлака. В казанах готовится еда. В самоварах кипит вода. В центр большой комнаты в доме постелили три слоя курпачи. Положили на него Олимджона. Дали ему лепёшку надкусить. Когда мастер Рузи палочками защемил половой орган сына и взял в руки скальпель, отец не выдержал и выбежал во двор, из комнаты его догнал пронзительный крик сына. "Надкуси лепёшку. Кусай его. Откуси его! Тогда, боль утихнет...", горланил Хусан бова. Толпа людей, собравшихся над сыном, соседи, односельчане в один голос вторили: "Хуйдуйду, хуйдуйду!!! Теперь рука у него стала халяльной!!!"

Войдя в комнату, отец увидел, как люди бросают сыну рубли, а сын лежит в постели и приговаривает: "Я не плачу... Я сильный мальчик..." "Тогда и люди были немного другие! Любой обряд-свадьба проходит сплочённо, с народом" [3:282-283]. Рисуя эту картину через призму воспоминаний старика, автор делает экспозицию в ещё недалёкое прошлое. Этим автор фокусирует

внимание на предающихся забвению национальных традициях, людях, которые отдаляются от своих корней. Абдугафур Расулов пишет следующее: “Характер – это совокупность человеческих отношений. Человеческие отношения направляются, проникают в глубь, основу, каким-то бессознательным путём выбора. Большинство отношений продолжаются и вне характера. Отношений, свойственных характеру, мало, но они более величавы” [4:189]. Кучкар Норкобил, рисуя своеобразный национальный характер, старается продемонстрировать всё то, что есть в природе, характере узбека. В этом и кроется и секрет специфики стиля писателя. Писатель не может отстраниться от общества, к которому сам относится. Он не ленится крсочно изображать национальный колорит Сурхона. В облике Гулом бова автор находит яркие и цельные образы с индивидуальными, неповторимыми, национальными характерами. Если, с одной стороны, Кучкар Норкобил в своём образе-находке, то есть образе Гулом бова демонстрирует картину проведения узбеками обряда обрезания, приверженность к национальным традициям, то, с другой, показывает исполнение героем мусульманского долга. Несмотря на то, что обрезание не зафиксировано в священной книге Коран, оно упоминается в хадисах, поэтому его ещё называют “делать суннат”. Гулом бова не скрывает своего беспокойства по поводу будущего нации. Социальные сети свидетельствуют о том, что “другими” были не только свадьбы далёкого прошлого, но и недавних 90-х лет. Блогеры размещают видеозаписи с тех свадеб. Цель – продемонстрировать как было всё на самом деле. В современный век глобализации, несмотря на всю важность каждой вещи, будто всё стало незначительным и неважным.

Кульминационная точка рассказа начинается с сюжета о посещении Гулом бова больницы, где “маленькому” сделали обрезание. Гулом раис не может переварить, что такие вещи делаются без оглашения. Возможно, очень хорошо, что его сын Олимжон продолжая традиции, сделал сыну обрезание, но он негодует от того, что без оглашения остаётся факт присоединения внука к народу. Когда Кулмат спрашивает: “А свадьба?” отвечает: “Оповестим народ о том, что Эломон стал мужчиной” и выражает своё недовольство поступком сына. Здесь же прослеживается истинная цель автора. Какие бы невзгоды не обрушились на голову узбекского народа, он всегда старался достойно передать будущему поколению свою религию, ценности, всё, что заложено в его природе, и если надо было, отдавал за это душу. Он ставит вопрос ребром: “В независимой свободной стране “– Всё начали делать втихомолку. И даже это... Ну что это такое, что же это такое?!” [5:285]. Он будто хочет продемонстрировать, что этот народ может всячески гордиться своей натурой, всем тем, что у него заложено в природе. Обратите внимание на имя, выбранное писателем для раскрытия национального характера: “Молодой слуга, раб при дворе правителей”. Будучи рабом, он не теряет само идентичности, не отдаляется от своих корней, достойно передаёт это молодому поколению, с гордостью носит на плечах. Это делает его героем. Кучкар Норкобил создал такой национальный характер, писатель верит, что такой характер свойственен лишь узбеку.

В заключении можно отметить, что в творчестве современного прозаика Кучкора Норкобила этико-эстетический идеал воплощён в национальном характере созданных ими героев, в образе простых дедушек и бабушек Сурхандарьи, не потерявших само идентичность. В своей прозе писатель рисует идеальных героев, сохранивших веру, национальные ценности и традиции в современный век глобализации и интеграции, представляет их эстетическим и этическим идеалом.

Использованная литература:

1. Каримов Б. Бадиий талқин жозибаси / Руҳият алифбоси. – Тошкент: Ғафур Ғулом номидаги нашриёт-матбаа ижодий уйи. – Б. 29.
2. Норқобил Қ. Чол хафа бўлди / Самодил. Тошкент : – “Янги аср авлоди”, 2018. – бетлар, 278; 282-283; 285.
3. Расулов А. Танқид талқин баҳолаш. Тошкент: – Ўзбекистон Республикаси Фанлар академияси “Фан” нашриёти, 2006. – Б. 189.

ÇİNGİZ AYTMATOVUN "ƏBƏDİ GƏLİN" ROMANINDA İNSAN VƏ TƏBİƏTIN PARALELLİYİ

MEHMAN HƏSƏNLİ
Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu
Türk xalqları ədəbiyyatı şöbəsi
mehman.hesen@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
2006-cı ildə Çingiz Aytmatovun son romanı olan "Əbədi gəlin" və ya "Dağlar çökəndə" əsəri "Дружба народов" jurnalında çapdan çıxır. Hər sətri ilə insanı düşündürən və nəticə çıxarmağa vadar edən roman böyük yazıçının yaradıclığının irihəcmli məntiqi yekunu, mükəmməl manifestidir. Vəhşi təbiətin sərt və amansız qanunları, kapitalist cəmiyyətinin şərtləri qar bəbiri Caabars və jurnalist Arsen Samançinin tale oxşarlığı əsasında təsvir olunmuşdur. "Əbədi gəlin" və ya "Dağlar çökəndə" onun yaradıcı ömründə apardığı axtarışların nəticəsi, axtardığı bir çox sualların cavabı xarakterindədir. Məqalədə Cingiz Aytmatovun "Əbədi gəlin" romanında insan və təbiətin mifoloji kontekstdə vəhdətinin təsviri təhlil olunur. Çingiz Aytmatov yaradıcılığında mif mətnlərinin, xalqın keçmişindən süzülüb gələn hekayə və rəvayətlərə istinadın başlıca yer tutması yazıçının digər əsərlərində yer alan insan və təbiət paralellikləri numunə gətirilməklə izah edilir. "Əbədi gəlin" romanında təsvir olunan vəhşi təbiətin sərt və amansız qanunları ilə kapitalist cəmiyyətinin şərtləri arasında müqayisə tədqiq olunur. "Əbədi gəlin" romanı bu baxımdan yazıçının yaradıclığının irihəcmli məntiqi yekunu, mükəmməl manifesti kimi dəyərləndirilir.
AÇAR SÖZLƏR: Əbədi gəlin**,** insan və təbiət, Caabars, Arsen Samançin

GIRIŞ

İnsan yaradılışdan, ilkin mifik düşüncəsindən bu günə qədər təbiət və onun sirləri ilə maraqlanmış, təbiəti öyrənməyə, hiss etməyə və onunla dil tapmağa çalışmışdır. Bu münasibət bədii yaradıcılıq üçün hər zaman mənbə rolunu oynamışdır. XX əsrin 50-ci illərində ədəbiyyata gələn, yazdığı əsərlərlə dünya ədəbiyyatında yeni bir epoxanın əsasını qoymağa bacarmış böyük qırğız yazıçısı Çingiz Aytmatov əsərlərində insan və təbiətin mifoloji kontekstdə vəhdətini təsvir etməyə nail olmuşdur. Yazıçının "Ana tarla" povestində torpaq canlıdır, insanla danışır, onun dərdini, kədərini paylaşır. Müqəddəs sayılan torpaq və Tolqonayın dialoqunda müharibənin dəhşəti, bir ananın faciəsi göstərilir. "Torpaq, sən bizim hamımızı öz sinəndə saxlayırsan; əgər sən bizə xoşbəxtlik bəxş etməyəcəksənsə, onda niyə torpaq olursan, biz isə niyə dünyaya gəlirik? Biz sənin övladlarınıq, torpaq, bizə xoşbəxtlik ver, bizi bəxtəvər elə!" (1, 12).

Əsərdə torpaq canlıdır, təbiət insanla dərdləşir, ona qulaq asır, dinləyir. "Əlvida, Gülsarı" povestində Çingiz Aytmatov atı əsərin baş obrazlarından biri səviyyəsinə qaldıraraq Gülsarını sadiqliyinə, dürüstlüyünə görə dövrün bir çox insanlarından üstün təsvir etmişdir. O, "Ağ gəmi" povestində insanla maralın, "Qiyamət" romanında insanla qurdun tale bənzərlikləri əsasında mifik təfəkkürdə yer almış inanclar əsasında təbiətlə cəmiyyətin münasibətindən bəhs etmişdir. "Əbədi gəlin" romanı bu baxımdan yazıçının yaradıclığının irihəcmli məntiqi yekunu, mükəmməl manifesti hesab oluna bilər. Əsərdə vəhşi təbiətin sərt və amansız qanunları ilə kapitalist cəmiyyətinin şərtləri arasında müqayisə aparılır.

TƏDQIQAT METODU

"Əbədi gəlin" romanı Caabarsın dağdakı hakimiyyətinin başa çatması ilə başlayır. Qar bəbirləri Tuyuq Car dağlarının qeyri-şərtsiz hökmdarları hesab olunurlar. Dəniz səviyyəsindən 3000-5000 metr hündürlükdə yaşayan bu nadir heyvan növünə dünyanın az-az ölkələrində təsadüf edilməkdədir. Bu növün yaşadığı coğrafi məkanlarından biri də Tuyuq Car dağlarıdır. Qırğız və qazax folklorunda qurd, ana maralla birgə qar bəbiri ilə bağlı mifoloji mətnlər mövcudluğu da məhz bu coğrafi məskunlaşma ilə bağlıdır.

Qar bəbiri Caabars artıq qocalıb, təbiətin qanununa uyğun olaraq artıq yeni cavan bəbirlər dağlarda ağalıq etməkdədirlər. Cütləşmək üçün başladığı bütün mübarizələri məğlub olmuş, sürüdən ayrılmaq məcburiyyətində qalmışdır. Bir vaxtlar rəqib tanımayan Caabars üçün artıq vaxt ötüb, başını götürüb dağın zirvələrinə doğru gedir. Amma çox da irəliyə getməyə gücü çatmır. Beləliklə taleyin hökmü olan ölümünü bir mağarada gözləyir. Dağın zirvəsindəki Caabarsla şəhərin ortasında yaşayan əsərin digər qəhrəmanı, müxbir Arsen Samançin də eyni taleyi yaşamaqdadır. Bir zamanlar hər kəs tərəfindən rəğbətlə qarşılanan müxbir artıq öz şöhrətini itirmişdir.

Caabars qocaldığı üçün vəhşi təbiətin qanunlarına uyğun olaraq sürüdən, cütləşmədən uzaqlaşdırılır. Ov ovlaya bilmədiyi üçün səssiz sonuna, ölümünə doğru sakit mağaraya gedir. Mağarada onun taleyi kapital cəmiyyətinin sərt qanunlarından qaçan, ona üsyan edən Arsenlə birləşir və onlar eyni taleyi – ölümü birlikdə qarşılamalı olurlar. "Hər zaman və hər kəs üçün dəyişməz olan bir həqiqət var: Heç kim öncədən taleyini, başına gələcəkləri bilmir; sadəcə həyat onu göstərir. Tale başqa necə ola bilərdi ki? O hər zaman belə olub. Dünyanın yaranmasından, cənnətdən qovulan –bu bir tale deyilmi?- Adəm və Həvvadan günümüzə qədər hər dəqiqə, hər saat, hər gün, hər əsr, hamımız üçün taleyin sirri, əbədi bir tapmaca olaraq qalmaqdadır" (3, 262).

Əsərdə yazıçı get-gedə qloballaşan, kiçilən dünyada böyük sərmayələrin cəmiyyət üzərindəki hakimiyyətini, pulun gücü qarşısında əzilən insanın taleyini və onun məğlubiyyətlə sonuclanan mübarizəsini təsvir etmişdir.

Çingiz Aytmatovun əsərdə gəldiyi qənaət budur ki, güc anlayışı vəhşi təbiətlə şüurlu insanların yaşadığı cəmiyyətdə eynidir. Hər iki aləmdə gücsüz, zəif olan məhv olmağa məhkumdur. Güclü gücsüzün haqqını tanımır. Təbiətdə olduğu kimi insan cəmiyyətində də güclü zəifə qalib gəlir, onu əzir. *"Tale əsərin hər iki qəhrəmanına qarşı oyun qurmuşdur*. Təbii ki, onlar bir-birilərinin varlığından xəbərsizdi. Əksi mümkün ola bilərdi? Çünki biri əhali sıxlığından, basırıq küçələrdən və kabab qoxan restoranların tüstüsündə boğulan milyonluq müasir şəhərdə, digəri isə sıx ardıc ağaclarının yetişdiyi, ilin altı ayının qarlarla örtülü olan yüksək dağların ayaq dəyməyən sərt qayalıqlarında yaşayırdı" (3, 363).

Çünki zaman əvvəlkindən çox dəyişmiş, müasir dövrün tələbləri, kapitalizmin meydana çıxardığı fiqurların pulunun qarşısında heç bir qüvvənin dayana bilməyəcəyi aydındır. Keçmişə, sənətə, xalqın tarixinə bağlı olan Arsen üçün mövcud şərtlərdə yaşamaq get-gedə imkansızlaşır. Əvvəllər opera solisti olan Aydana Samarova "Əbədi gəlin" operasında baş rolu deyil, Ertaş Kurçal kimilərin restoranlarında bəsit musiqilər oxumağı seçir. Mövcud kapitalizmə boyun əyməyənlərin taleyi bəllidir. Arsen hər addımı ilə özünü taleyin bu kədərli sonuna, Caabarsın mağarasına aparmaqdadır.

Ertaş Kurçal əvvvəllər zəif bir aktyor olsa da, kapitalizmin şərtləri onu varlı bir təşkilatçıya çevirmişdir. Arsenin əvvəl dost olduqları Ertaş Kurçala nifrətinin bir səbəbi sevdiyi qadın Aydananı onun əlindən alması ilə bağlıdırsa, digər ən əsas səbəb onun operada "Əbədi gəlin"i ifa edəcək və arzularını gerçəkləşdirəcək ifaçını sabun köpüyü kimi mahnı oxuyan solistə çevirməsidir.

Çingiz Aytmatov yaradıcılığına xas olan mif mətnlərinə, xalqın keçmişindən süzülüb gələn hekayə və rəvayətlərə istinad başlıca yer tutur. Əbədi gəlin əfsanəsini Arsen Aydanaya birlikdə səfər etdikləri vaxt danışır. Əfsanəyə görə, "Yüksək dağların bağrında saxladığı bir kənddə çox yaraşıqlı, atdığını vuran bir ovçu yaşayırmış. Bu gənc dağın ətəklərində yaşayan bir qıza aşıq olur. Ailələrinin xeyir-duası ilə bu iki gənc nişanlanırlar. Yaxşı ovçu olan gənc qızın ailəsinə və nişanlısına dəyərli kürklər gətirirmiş. Onların xoşbəxtliyinə ətrafdakılar qibtə edərlərmiş. Nişan günündə adətə görə, atla dördnala çapan gəlini nişanlısı ona çatıb atdan düşmədən öpməliymiş. Ovçu oğlan bu adəti tam şəkildə yerinə yetirmiş və çay buna şahidlik etmişdir. Pis niyyətli insanlar qızı qaçırmışlar. Kənddə dedi-qodu yayılmış ki, guya qız başqasına qoşulub qaçıb. Bunları eşitdikdən sonra gənc həyatdan küsərək dağlara çəkilmiş. Ancaq qız onu qaçıranların əlindən özünü hər şeyə şahidlik edən çaya ataraq xilas olmuşdur. Nişanlısının kəndinə gələrək onun getdiyini eşitmiş və ona səslənərək çağırmış, səs gəlmədiyini görəndə, quşa çevrilib sevgilisini axtarmağa başlamışdır" (3, 318-319).

İnsanın quşa çevrilməsi motivi Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanındakı "Nayman ana" əfsanəsində də vardır. Nayman Ana oğlu Jolaman düşmənlər tərəfindən qaçırılaraq manqurta çevrilir. O isə sahibinin əmri ilə anasını öldürür. Nayman Ananın başından düşən yaylıq quşa çevrilir və oğluna "Yadına sal kimlərdənsən! Kimin oğlusan? Adın nədir? Adın? Sənin atan Donenbaydır! Donenbay, Donenbay, Donenbay, Donenbay!..." (2, 119).

Çingiz Aytmatovun əsərlərində tez-tez müraciət etdiyi müqəddəs simvollardan biri sudur. İki gəncin sevgisinə su şahidlik edir, yenə də gənc qız suya atılaraq xilas olur. "Ağ gəmi" povestində adsız uşaq babasının ona danışdığı Ana maral əfsanəsinə inanır. Orozqul tərəfindən babasının Ana maralı öldürülməsinə məcbur edildiyini görəndə balaca uşağın bütün xəyalları və ümidləri puç olur. Beləliklə, özünün uydurduğu Ağ gəmiyə çatmaq üçün gölə atır. "Qiyamət" romanında Həzrəti İsa və Avdi yuxularında suyu və analarını görürlər. Bostonun dostu Ərnazar öləndən sonra özünün İssık-göl sularına qovuşmasını istəyir. Boston Ağbərə, Gənceş və Bazarbayı öldürdükdən sonra intihar etmək üçün gölə doğru gedir. "Su simvolu qurtarıcı, həyat verən ünsür olaraq əsərdə çıxış etməkdədir. Yazar qədimdən şüuraltında saxlanılan suyu tam yerində və yenidən doğuş obrazı olaraq istifadə edib. Həyatın geri döndərilməsi mümkün olmayan, təkrarsız axışı suların sirri ilə görüşür. Suların çəkilməsi sə gələcək fəalkətlərdən xəbər verir" (4, 186).

Arsenin əmisi Bektur Ağa Sovet dövləti dağıldıqdan sonra "Mergen" adlı şirkət quraraq ov işləri məşğul olur. Arsen də dayısına xaricdən gələn qonaqlarla bağlı sənəd, tərcüməçilik işində köməklik göstərir. Tuyuq Carda ov ən çox pul gətirən iş hesab olunur. Bir gün dayısı iki ərəb şeyxinin qar bəbiri ovu üçün gələcəyini bildirir və Arsen təklifi qəbul edərək Tuyuq Cara gedir. "Taleyin sirr olması özü bir taledir" (3, 262) fikri öz təsdiqini tapır. Arsen öz ayağı ilə həyatının real şərtlər daxilində sonuna doğru addımlayır. Sonda Arsen üsyan edir. Onları torpağına gələn, heyvanlarını öldürən ərəbləri ölkəsindən qovur. "Qulaq asın! Siz, xarici ovçular! Əmrimə qulaq asın! Meqafon Arsenin səsini dağlarda dalğalı yayırdı. Əllərinizi qar bəbirlərindən çəkin! Rədd olun burdan! Heyvanlarımızı məhv etməyə icazə verməyəcəm! Rədd olun Dubaylarınıza, Küveytlərinizə gedin, müqəddəs dağlarımızdan uzaq durun! Bir də buralara addımınızı atmayın! Dərhal gedin, yoxsa hamınızın sonu olacaq!" (3, 460).

Beləliklə, başlanan silah səslərinin nəticəsində qar bəbiri Caabars və Arsen mağarada yan-yana can verirlər. Tuyuq Carın müqəddəs hesab olunan qar bəbiri öldürməyə çalışanlara qarşı çıxması Arsenin öz həyatı hesabına başa gəlir. Doğrudan da, tale başqa cür necə ola bilərdi.

Əsərin sonunda Arsenin Tuyuq Carda tanış olduğu və sevdiyi Eles Caabarova onun "Öldürmək, öldürməmək" adlı hekayə mətnini oxuyur. Hekayə "Qana bulanmamış tək günəş qalacaq və at süvarisiz qaçacaq" (3, 474) cümləsi ilə başlayır və Arsenin şəxsində Aytmatovun İkinci Dünya müharibəsi ilə bağlı münasibətini ifadə edir.

Çingiz Aytmatov qloballaşan dünyada, kapitalist münasibətlərinin mədəniyyəti, dəyərləri məhv etməsini qəbul edə bilmir. Arsen Samançinin dirənişi və sonunda ölümlə bitən taleyinin təsvirində yazıçı məhz bu məqama diqqət yetirmək istəyir. Eyni zamanda Aytmatov təbiətin mükəmməlliyinə inanır. Bəşəriyyətin milyon illər boyu təkamülü nəticəsində yaşadığımız ekosistem formalaşıb. Çingiz Aytmatov təkamül zəncirinin zirvəsində dayanan insanın və onun şüurunun ekosistemə qarşı durmasını, onu məhv etməsinə qarşı çıxır. Yazıçı varlı ərəblərin dağlarda bəbir ovuna gəlməsini kapitalizmin vəhşi təzahürü kimi təsvir edir.

Kapitalist münasibətləri intellektualıq baxımından o qədər də inkişaf etməyən cəmiyyətlərdə əks təsirə malik olur. Mövcud dəyərləri dağıtmaqla mənasız boşluq yaradır. Çingiz Aytmatovun təsvir etdiyi modeldə yeni münasibətlər sistemi mədəniyyətin, sənətin inkişafından daha çox ona qarşı yönəlir, dağıdıcı fəaliyyət göstərir. Ertaş Kurçal əsərdə həmin metamorfozaya uğramış gücün əksidir. Zəif aktyor varlı təşkilatçıya çevrilir. Ertaşın formalaşdığı sel özü ilə istedadlı opera solisti Aydana Samarovanı, Arsenin arzuladığı "Ədəbi gəlin" operasını və nəhayət, Arsenin özünü də öz ağuşuna alaraq aparır. Arsen də bu baxımdan bir "Don Kixotdur". Onun mübarizəsi taleyini müəyyənləşdirir.

NƏTICƏ

Uşaqlıq illərində nənəsindən "Manas"ı öyrənən, qırğız çöllərini gəzən, gəncliyində zootexnik təhsili alan Çingiz Aytmatov üçün təbiət başlıca mövzulardan biridir. "Ağ yağış", "Ana tarla", "Əlvida, Gülsarı", "Dəniz kənarıyla qaçan alabaş", "Gün var əsrə bərabər", "Qiyamət" və digər povest və hekayələrində təsvir olunan cəmiyyət və təbiət münasibətləri özünün ən zirvə nöqtəsinə məhz "Əbədi gəlin" romanında çatır. İnsan taleyi ilə qar bəbiri taleyini eyniləşdirir. Yaradıcılığına möhtəşəm fəlsəfi yekun vurur.

ƏDƏBIYYAT SIYAHISI

1. Aytmatov Ç. Ana tarla. Seçilmiş əsərləri. İki cilddə, II cild. Öndər nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2004
2. Aytmatov Ç. Gün var əsrə bərabər. Seçilmiş əsərləri. İki cilddə, I cild. Öndər nəşriyyatı **(Kitab).** Bakı/Azərbaycan. 2004
3. Айтматов Ч. Когда падают горы (Вечная невеста). Полное собрание сочинений в десяти томах. 5 том. Улу тоолар **(Kitab).** Бишкек/Кыргызстан. 2018
4. Korkmaz R. Aytmatov Anlatılarında Ötekileşme Sorunu ve Dönüş İzlekleri. Grafiker Yayınları **(Kitab).** Ankara/Türkiyə. 2008

İHSAN OQTAY ANARIN "DUMANLI QİTƏLƏR ATLASI" ROMANINDA İNTERTEKSTUALLIQ VƏ SƏNƏTLƏRARASI ƏLAQƏ

ÜLVİ BABASOY
Xəzər Universiteti
Bakı Mühəndislik Universiteti
ulvibabasoy64@gmail.com
BAKI, AZƏRBAYCAN

Xülasə

Məqalədə postmodern türk ədəbiyyatının istedadlı nümayəndəsi İhsan Oqtay Anarın "Dumanlı qitələr atlası" romanında intertekstual, metatekstual və intermedial xüsusiyyətlər tədqiq edilir. Yazıçı səyahət etməyi ibadət hesab edir. İnsanın real həyatda, şüurda və bədii mətnin yaratdığı alternativ məkan və zamanda səyahətini postmodern estetika kontekstində formalaşdırır. Romanda Rene Dekartın "Düşünürəm, o halda varam" ifadəsi postmodern pastiş və parodiyaya məruz qalır. Anar "düşünürəm, ancaq təkcə mən mövcud deyiləm. Düşündüyüm üçün əslində siz varsınız" anlayışına bədii şərh və yozum verir. Tarixi, dini mətnlər və bədii əsərlər ilə postmodern əlaqə yaradır. Dekartın fikirləri və Dostoyevskinin "İdiot" romanı ilə intertekstual əlaqə "Dumanlı qitələr atlası" romanında oyun estetikasının sərhədlərini genişləndirir. Oyun estetikası romanın əyləncəli bədii strukturu və təhkiyəsini tənzimləyir. Orxan Pamukun "Bəyaz qala" əsəri ilə "Dumanlı qitələr atalsı" romanının oxşar xüsusiyyətlər də diqqət cəb edir. Məqalədə ilk dəfə İhsan Oqtay Anarın "Dumanlı qitələr atlası" romanı ilə sənətlərarası əlaqə yaradan İlban Ərtəmin karikatur romanı "Dumanlı qitələr atlası" arasındakı bədii-estetik postmodern əlaqə tədqiqata cəlb edilir. Nəticədə, bütün sadalanan xüsusiyyətlər haqqında elmi qənaət və yeniliklər əldə edilir.

Açar sözlər: İhsan Oktay Anar, İlban Ərtəm, Dumanlı qitələr atlası postmodernizm, intertekstuallıq, sənətlərarası əlaqə

INTERTEXTUALİTY AND İNTERARTS DİALOGUE İN THE NOVEL THE ATLAS OF MİSTY CONTİNENTS BY IHSAN OKTAY ANAR

Abstract

The article examines the intertextual, metaextextual and intermedia features in the novel *The Atlas of Misty Continents* by Ihsan Oktay Anar, the talented representative of postmodern Turkish literature. The author believes that travel is worship. In the context of postmodern aesthetics, the travel of the human being's real life, consciousness and alternative space and time in artistic is formed. In the novel, Rene Descartes' quote "I think, then I exist" is subjected to postmodern pastiche and parody. İhsan Oktay Anar gives another artistic statement and interpretation such as "I think, but I am not the only one who exists. You exist as I think. Historical, religious texts and works of art create a relation with the postmodern. Descartes' ideas and intertextuality connections with Dostoevsky's novel "The Idiot" expand the boundaries of aesthetics in the novel "The Atlas of Misty Continents". The game aesthetics regulates the entertaining artistic structure and character of the novel. The similar features of Orhan Pamuk's "The White Castle" and the novel "The Atlas of Misty Continents" are also obvious. For the first time, the article involves the artistic and aesthetic postmodern relationship between the novel of Ihsan Oktay Anar "The Atlas of Misty Continents" and Ilban Ertem's caricature novel "The Atlas of Misty Continents". As a result, scientific conclusions and innovations are made about all the listed functions.

Key words: Ihsan Oktay Anar, Ilban Ertem, The Atlas of Misty Continents, postmodernism, intertextuality, interarts dialogue

Giriş.

Postmodern ədəbiyyatda intertekstuallıq və sənətlərarası əlaqə xüsusi əhəmiyyətə malikdir. İntertekstuallıq və sənətlərarası əlaqənin dil və struktur baxımından ifadəsi isə daha mühümdür. Türk ədəbiyyatında İhsan Oqtay Anar Osmanlı şivəsi ilə müasir türk dilinin məxrəcindən postmodern dil yaratmışdır. *"Anarın əsərlərini klassik metodlarla təhlil etmək onu və əsərlərini kifayət qədər dərk etməmək deməkdir. Anarın ədəbi dünyasını daha dəqiq bir şəkildə əsaslandırmaq üçün postmodernizm üzərində dayanmaq zəruridir"* [8, s. 4]. İhsan Oqtay postmodernist türk nəsrində ən mürəkkəb və oyunbaz yazıçıdır. Bu nəsri dərk və təhlil üçün postmodern estetika mənimsənilməlidir. Anar ilk əsəri "Dumanlı qitələr atlası" [5 romanını 1995-ci ildə qələmə alır. Daha sonra "Kitab-ül Hiyel" [4], "Əfrasiyabın hekayələri" [2], "Amat" [1],

"Susqunlar" [6], "Yeddinci gün" [7] və "Qatı qəhrəman" [3] romanları ilə postmodern türk nəsrinin sosial funksiyası mürəkkəbləşir. "Kitab-ül Hiyel" romanı nağıl estetikası ilə başlayır. *"Xəbər verənlər və nəql edənlər gah heyrətli minnətlə, gah da ibrətli nifrətlə bunları rəvayət və hekayət edərdilər"* [4, 9]. İhsan Oqtayın demək olar ki, bütün əsərləri nağılvari, sehrli cümlələrlə başlayır. Bu tip giriş cümlələri Salman Rüşdinin romanlarına da xasdır. "Kitab-ül Hiyel"də Yafəs Çələbi, Calud əl-Filisti və Üzeyir bəyin ixtira etdiyi qurğulardan və insan həyatının da bir kəşf, ixtira olmasından söhbət açılır. Bilik və kəşflər zamanı ehtiras və intellekt idarə edilməyəndə dəhşətli hadisələrin baş verəcəyi göstərilir. Çünki yaradıcı adamların hiss və duyğuları həm müsbət, həm də mənfi yöndən sürətli inkişafa meyillidir. "Kitab-ül Hiyel" romanında qoyulan problem budur: İnsan sonsuz bir hərəkət və kəşfə can atmalıdır. Bu ideya postmodernizm fəlsəfəsi ilə səsləşir. Çoxsəsli və çoxqatlı ideya və məzmun kəsb edir. Oxucu maraqlı bir süjet xəttini izləyir. Romanın sosial funksiyası və oyun estetikası oxucunu öz arxasınca aparır.

"Əfrasiyabın hekayələri"ndə ölümün obrazı yaradılır. *"Günəş batdıqdan sonra Ölüm Cezar babanın qapısını döydü və onu bir tifil qarşıladı"* [2, s. 13]. Cezar baba ömrünün ahıl çağındadır və ölüm onu aparmağa gəlir. Ancaq İhsan Oqtay Anar və empirik təhkiyəçinin gözlənilməyən planı hər şeyi dəyişir. Ölüm və Cezar baba səkkiz hekayə danışırlar. Ölümə qalib gəlməyin yeganə yolunun maraqlı və ədəbi-estetik dəyəri, enejisi olan hekayə nəql etmək olduğu mənalandırılır. Ölüm hansı insana yaxınlaşırsa, ona bir şans verir. Əgər kim daha maraqlı və fərqli hekayə danışsa, onu öldürməyəcəyini deyir. Cezar baba danışdığı hekayələrlə ölümü heyrətləndirir. Roman "Min bir gecə nağılları"nın dekonstruksiyasıdır. Ədəbiyyatın, hekayə danışmağın nə qədər nadir bir keyfiyyət olması ifadə edilir. Virtual bir dünya yaradan ədəbiyyatın sonu olmayan, ölümsüz bir sənət olduğu aşılanır. "Əfrasiyabın hekayələri" pastiş, parodiya, kinayə, intertekstual və metatekstual keyfiyyətlər sərgiləyir.

Tədqiqat metodu.

Məqalə tarixi-müqayisəli və postmodernist ədəbiyyatın təhlil metodları ilə yazılmışdır. Bildiyimiz kimi, hər bir ədəbi növ və cərəyana aid bədii mətn onun öz təhlil aparatı ilə təhlil və tədqiq edilməlidir. Postmodern ədəbiyyatda isə bu cür yanaşma olduqca zəruridir.

İntertekstuallıq metatekstuallıq kontekstində

"Dumanlı qitələr atlası" Anar nəsrinin şah əsəridir. Çoxsəsli və çoxqatlı süjet xətti, pastiş, parodiya və ironiyanın təbiiliyi, intertekstuallıq və metatekstuallığın yeni bir struktur və formada təqdimi Anarı yeni bir postmodernist kimi tanıdır. Xüsusilə, həmin dövrdə bir-birinin ardınca postmodern nəsr əsərlərinin yazılması və ədəbiyyatşünasların Türkiyədə təşəkkül tapmaqda olan bu yeni cərəyanı tədqiqata cəlb etmələri Anarın əsərinə qarşı diqqət və marağı artırır. Anar "Amat", "Susqunlar" və "Yeddinci gün" romanlarında Osmanlı dövründəki həyat tərzinə yenidən səyahət edir. "Amat"da hadisələr dənizdə baş verir. Oxucu Amat adlı gəmi ilə səyahətə çıxır. "Susqunlar" romanında Osmanlı dövründə musiqi sənətinə aid incə detallar öz əksini tapır. Musiqi haqqında olan romanın dili də musiqili, şeiriyyətli bir üslubdadır. Anar qələminin dil-üslub keyfiyyətləri ən yetkin şəkildə formalaşır. "Yeddinci gün" romanında hadisələr Osmanlının sonuncu padşahlarından olan İkinci Əbdülhəmidin dövründə baş verir. Romanın qəhrəmanı İhsan Səid gələcəkdən ona eşq məktubları göndərən Şahzadə Döjiranı görmək üçün Zeppelin gəmisi ixtira edib 1930-cu illərə səyahət edir. Roman eşqin hər növ zaman və məkan əngəlini aşa biləcəyini əks etdirir. "Qatı qəhrəman" romanı İhsan Oqtay Anarın Osmanlı dövründən bəhs etməyən yeganə əsəridir. "Qatı qəhrəman" romanı İdris Amil Əfəndi adlı bir oğrunun qəhrəmanlıq hekayəsidir. İdris Amil Əfəndi ədalət və ədalətsizlik arasında qalan ekzistensial vəziyyətin göstəricisidir.

Anar nəsrində postmodern estetikanı anlamaq üçün "Dumanlı qitələr atlası" romanını təhlilə cəlb etmək vacibdir. Çünki postmodernizmin bütün komponentləri və həmçinin sosial funksiyası bu romanda bədii ifadəsini tapmışdır. "Dumanlı qitələr atlası" dil baxımından da postmodern xüsusiyyətlər daşıyır. İhsan Oqtay Osmanlı şivəsi ilə müasir türk dilinin qarışığından yeni və obrazlı bir dil yaradır. XVII əsr İstanbul həyatını əks etdirən romanda səfər, yol motivi əsasdır. Ancaq yol metaforu təkcə məkanın və zamanın dəyişməsi ilə əks olunmur. Fikir və xəyalda dəyişiklik, zəkanın çevikliyi və insanın mənəvi dünyasında bir hərəkət və ardıcıllıq romanda semantik mərkəz təşkil edir. "Dumanlı qitələr atlası" XVII əsrdə Osmanlı imperiyasında baş verən hadisələrin təsviri və alternativ tarix yaratması baxımından Orxan Pamukun "Bəyaz qala" əsəri ilə səsləşir. Ancaq ideya və üslub, hətta postmodern estetika cəhətdən kəskin şəkildə fərqlənir. Orxan Pamuk alternativ tarixi müasir türk dilində təqdim edir. Anar isə bir çox məqamlarda o dövrün kolorit və həyat tərzinə sadiq qalır. Tarixi bir roman ab-havası yaradır. Ancaq hadisələr cərəyan etdikcə müəllifin niyyətinin alternativ bir tarix yaratmaq olduğu aydınlaşır. Romanın ilk cümləsi oxucuda maraq oyada bilir. *"Üləma, cühəla və əhli dubara, əhli namus, əhli işrət və ərbabı - livata rəvayət və elan, hekayət və bəyan ediblər ki, Kuni - kainattan 7079 il, İsa Məsihdən 1681 ve Hicrətdən dəxi*

1092 il sonra adına Kostantiniyə deyilən məşhur bir şəhər var idi" [5, s. 13]. Konstantiniyə, yəni indiki İstanbulun qeyri-adi bir üslubda təqdimatı ilə rastlaşırırq. İlk baxışda zənn edilə bilər ki, romanda o dövrün mənzərəsi öz əksini tapacaq. Ancaq yazıçı paytaxt İstanbulu, sarayda baş verən hadisələri və dövrün ictimai-siyasi, sosial-mədəni vəziyyətini deyil, Uzun İhsan Əfəndi adlı bir şəxsin zehnində və düşüncəsində olan bir dünyanı, İstanbulu təsvir edir. Çünki romanda postmodern bir yozum mövcuddur. Hadisələrə zahiri planda baxılmır. İnsan zəkası, təxəyyülü və bunların məhsulu olan ədəbiyyatın necə bir təsir mexanizmi olması postmodern şərh və yozumların predmetinə çevrilir. Uzun İhsan Əfəndi xəyalında canlandırdığı hadisələri yaşayır. Ədəbiyyat da xəyalda və düşüncədə mövcud olan hadisə və təsvirlərdən ibarətdir. Sözə çevriləndə məxsusi bir reallıq və gerçəklik qazanır. Əsərin qəhrəmanı Uzun İhsan Əfəndi dünya xəritəsi düzəldir və xəyalən özünü səyahətdə hiss edir. O, düşünməkdən və xəyal etməkdən yuxuya gedə bilmir. Buna görə də yuxu dərmanından istifadə edir. Bitkilərdən hazırlanmış dərman ona bir az da olsa, yuxuya getməkdə kömək edir. *"Romanda qarşımıza çıxan bir qarşıdurma da yuxu və yuxusuzluqdur. Belə ki, yuxu və yuxusuzluq bizi yenə reallıqla xəyallar arasındakı gediş-gəlişin mərkəzinə çəkir. Yuxu həqiqətlərə çatmaqda bir vasitədir"* [9, s. 1819]. Yuxu və ata-oğul münasibətləri arasında dərin əlaqə var. Yuxu motivi Uzun İhsan Əfəndinin həyatında Bünyaminin macəralarına keçid almaq üçün priyomdur. Çünki romanın qəhrəmanı İhsan Əfəndinin oğlu Bünyamindir. Bünyaminin dünya atlasında səyahətə çıxması üçün İhsan Əfəndi hazırlıq görür. Deməli, Uzun İhsan Əfəndi yazıçının özüdür. Beynində və xəyal aləmində qəhrəmanı daha təsirli və effektli canlandırmaq üçün İhsan Oqtay Anar romanın içinə daxil olur. Bünyamin xarakterinin atası olaraq maraq doğurur. Bəs baxaq görək, bu maraqlı struktur, oyun estetikası, əyləncəli yanaşma metodu ciddi sənətə, ədəbiyyata çevrilə biləcəkmi? Uzun İhsan Əfəndi Dekartın məşhur nəzəriyyəsini təhrif edir. *"Düşünürəm, demək ki, varam"*, – deyən Dekartın ifadəsi postmodern pastiş və parodiyaya məruz qalır. Uzun İhsan Əfəndi oğlu Bünyaminlə söhbətində deyir*: "Siz, hamınız, içində yaşadığınız dünya, Konstantiniyə – hər şey sadəcə və sadəcə mənim düşüncələrimdə varsınız. Rendekar* (Rene Dekart nəzərdə tutulur - Ü.B) *yanılır: Düşünürəm, ancaq təkcə mən mövcud deyiləm. Düşündüyüm üçün, əslində, siz varsınız. Siz və içində yaşadığınız dünya"* [5, s. 127]. Yazıçını təmsil edən İhsan Əfəndi yazıçının düşüncəsindən doğan romanın yazılma prosesini nəql edir. İhsan Oqtay Anar romanın qəhrəmanlarından birinə çevrilib "Dumanlı qitələr atlası" romanında baş verən hadisələri yaradıb. XVII əsr Osmanlı imperiyasında Konstantiniyə şəhərində baş verən hadisə və qəhrəmanlar Uzun İhsan Əfəndinin – müəllifin xəyal və düşüncəsində mövcuddur. Postmodern romanlarda olduqca əhəmiyyətli olan oxucu və mətn arasında ünsiyyət baş tutur. Müəllif kənara çəkilir. Uzun İhsan Əfəndi obrazını canlandırmaqla özünün yaratmış olduğu xarakterin cildinə girir. Əsərin gerçəkliyinə toxunmur. Ancaq qəhrəmanın nitqi ilə oxucuya xatırladır ki, bu sadəcə bir hekayədir. Postmodern əsərlərə aid bir keyfiyyətdir. Əsər və oxucu arasında sonsuz sayda ehtimallar estetikası yaratmaq və fərqli versiyalar irəli sürmək çoxsəsli və açıq mətnlərə rəvac verir. Anar, ilk növbədə, dərin bədii strukturu müəllif, oxucu və qəhrəman arasında əlaqə üzərindən qurur. Kitabda yuxuları vasitəsilə dünya xəritəsi cızmaq istəyən qəhrəman – Uzun İhsan Əfəndinin İhsan Oqtay Anarın özü olduğu tez-tez eyham edilir. Bu struktura görə, Uzun İhsan Əfəndinin oğlu Bünyamin adlı roman personajı da müəllifin özünü təmsil edən qəhrəman kimi istifadə etdiyi poetik şəxsiyyətdir. *"Romandakı müəllifin şəxsi nümayəndəsi Uzun İhsan romandan çıxanda "sağ əl" mənasını ifadə edən Bünyaminin oyun içərisindəki mövqeyi daha açıq bir şəkildə aydınlaşır. Süjetdə Bünyamini öldürüb sonra dirildən müəllif öz nümayəndəsi olan Uzun İhsan Əfəndinin qulaqlarını kəsdirib, burnunu qopardır və gözlərini oyur. Bu şəkildə müəllifi (özünü) mətnin içində obrazsızlaşdırır və gizlədir. Mətnin içindəki yazıçı artıq bir qəhrəman deyil, cəsədsiz bir kahin kimi Bünyamini istiqamətləndirən bir qüvvədir"* [10, s. 41]. Əsərin süjet xətti, sosial funksiyası və oyun estetikası bəhs edilən bu detalda aydın olur. Dünya xəritəsi çəkməklə məşğul olan atasının yuxu dərmanı Bünyamin üçün maraqlıdır. Bir gün dərmandan normadan artıq qəbul edən Bünyamin dərin bir yuxuya gedir. Günlərlə ayılmır. Oğlunun öldüyünü zənn edən İhsan Əfəndi psixoloji sarsıntılar keçirir. Nəhayətdə, hər kəsin məsləhəti ilə oğlunu dəfn edir. Yuxudan ayılan Bünyamin qəbirdən çıxıb yaşadıqları məhəlləyə gəlir. Hər kəs ani bir şok yaşayır. İhsan Əfəndi oğluna yenidən qovuşur. Elə bu vaxt Osmanlı qoşununun kəşfiyyat komandanlığı Bünyamini işə dəvət edir. Kəşfiyyatın tunel və zirzəmilərini qazmaqla məşğul olan tağımın komandiri Bünyaminin başına gələn yuxu əhvalatını eşitdiyi üçün onu bu işə layiq görür. Onlar xristianların əlində olan bir əsiri xilas etmək üçün tunel qazmağa başlayırlar. Ancaq qazıntı işləri elə aparılmalıdır ki, əsirin olduğu qalanın əsgərləri səs eşitməsinlər. Partlayış nəticəsində əsgərlər hücuma keçir. Əsir vəziyyətin ağır olduğunu görüb qara bir sikkəni Bünyaminə verir ki, komandanlığa çatdırsın. İkinci böyük partlayış Bünyaminin olduğu yerdə baş verir. Hər kəs zənn edir ki, o ölüb. Sifəti parçalanır, tanınmaz hala düşür. Qara sikkəni gizlədən Bünyamin o gündən etibarən nə orduya, nə də ki evlərinə qayıdır. Yeniçərilər Bünyamingilin evinə hücum

edirlər. Uzun İhsan Əfəndidən oğlunu soruşurlar. İstənilən cavabı ala bilmədikləri üçün İhsan Əfəndinin gözlərini çıxarır, burnunu qoparıb, qulaqlarını kəsirlər. Bu səhnədən sonra İhsan Əfəndinin oğulluğu Əlibaz əsərin süjetində aktiv şəkildə rol almağa başlayır. Əlibaz Uzun İhsan Əfəndinin bacısının yoldaşı Ərəb İhsan tərəfindən xristianların torpaqlarına yürüş zamanı gətirdiyi uşaqdır. Qənimətlər paylananda Ərəb İhsanın bəxtinə Əlibaz düşür. O da uşağı qaynı Uzun İhsan Əfəndiyə verir. Əlibaz Uzun İhsan Əfəndiyə işgəncə verilən gündən atalığının intiqamını alacağına and içir. Küçə uşaqlarından ibarət bir quldur dəstəsi yaradır. Hər fürsətdə yeniçərilərə məxsus məkanları dağıdır, silah-sursat anbarlarını partladır. Adını da dəyişir. Artıq hər kəs onu Əfrasiyab kimi tanıyır. Bünyamin isə sifəti parçalanandan sonra ölkəyə qayıtsa da, heç kim onu tanımır. Atasının dilənçilərin düşərgəsində yaşadığını öyrənir. Bünyamin də dilənçilərin dəstəsinə qoşulur. Uzun İhsan Əfəndi dilənçilərin düşərgəsinə dövlət məmurları tərəfindən salınır. Ümid edirlər ki, oğlu Bünyamin gec-tez ona yaxınlaşacaq və qara əsginası əldə edəcəklər. Bəs bu qara əsginasda olan sirr nədir? Bu əsginas boşluğa və zamana hökm edəcək bir gücə malikdir. Əlbəttə ki, İhsan Oqtay Anar əsginasla boşluq və zamanı simvollaşdırır. Həyatın və ədəbiyyatın nə qədər vacib və mənalı olmasına işarə edir. Çünki zaman əldən çıxır və həyat mənalı və faydalı keçmirsə, boşluğa düşür. Ədəbiyyat həmin boşluq və zamanı öz alternativ dünyasında bərpa edir. Müəllif özünün yaratmış olduğu dünyada zamana və boşluğa hakimdir. İhsan Oqtay dünyanı mətn kimi görür və təsvir edir. İntermətnlik yaranır. Çünki *"intermətnlik görmə bucağından dünya nəhəng mətn qismində göz qarşısında durur. Bu mətndə artıq hər şey deyilmişdir"* [11, s. 185]. Dünyanın modeli olan romanda ölüm həyatın davam edən bir arxetipidir. Təbiətin də tərkib hissəsidir. Yazıçı ölüm və zamanla mübarizə aparmağın yolunu yazmaqda görür. Uzun İhsan Əfəndi yazmağın ilkin mərhələsi olan xəyal etməyi həyatının məqsədinə çevirmiş bir insandır. Qara əsginası axtaran dövlətin təhlükəsizlik təşkilatının rəhbəri Əbrəhə isə ölümsüz olmaq istəyir. Bundan xəbərdar olan dilənçilərin rəhbəri Hınzıryedi isə Əbrəhənin yerinə keçmək, hər kəsi və hər şeyi idarə etmək ehtirası ilə yaşayır. Əbrəhə Hınzıryedini dilənçilərə rəhbər təyin etməklə qara əsginası axtarmağa başlayır.

Əsərdə ölümsüzlük, zaman və boşluğu idarə etmək mövzuları mistik bir aura yaradır. İhsan Oqtay Anarın romanlarında davam edən ekzistensial bir sorğu-sual var və müəllif bu halı insan şüurunun mif və arxetiplərindən istifadə edərək daha da aydınlaşdırır. Xüsusilə, təbiətlə bağlı müqəddəs miflərə bu romanlarda çox rast gəlirik. Mifik zamanla aktual zaman arasındakı məsafəni qısaldan yazıçı romanlarını çox vaxt mifoloji subyektlərlə zənginləşdirir. Romanda qədim əsatirlər, müqəddəs kitablar və bədii əsərlərlə mətnlərarası əlaqə də mövcuddur. Rus qızı Aqlaya obrazının xeyirxahlığı, qayğı və mərhəməti diqqət cəlb edir. Dostoyevskinin "İdiot" romanının xarakteri Aqlaya dekonstruksiyaya məruz qalır. Knyaz Mışkinin saf və xeyirxah əməlləri Aqlayada əks olunur: *"Aqlaya,– dedi, – mayo imya Aqlaya". Aqlayanın əlini əlində hiss edər-etməz Bünyamin özünü saxlaya bilmədi və hıçqıra-hıçqıra ağlamağa başladı. Əyildi və başını qızın dizlərinə qoyaraq saatlarca göz yaşı axıtdı. Hıçqırıq səngiyəndə Aqlaya onu yatağa uzatdı və üstünü örtdü. Bünyamin çox keçməmiş yuxuya getdi"* [5, s. 172]. Sifəti eybəcər hala düşəndən sonra hər kəs tərəfindən xor görülən Bünyamin yalnız Aqlayadan qayğı və yaxşılıq görür. Bünyamin Əbrəhəni ölümdən xilas etdikdən sonra dilənçilər arasında aparıcı adama çevrilir. Hətta Hınzıryedidən də hörmətli adam olur. Nəhayətdə, Hınzıryedi Əbrəhə və adamlarını mühasirəyə alır. Əbrəhə ölüm anında Hınzıryedidən xahiş edir ki, bir neçə dəqiqəlik Bünyaminlə söhbət etməyinə icazə versinlər. O, Bünyaminin Uzun İhsan Əfəndinin oğlu olduğunu bildiyini deyir. Bünyaminə vəsiyyət edir ki, öldükdən sonra əsginası onun ağzına qoyub çənəsini bağlasın. Çünki qara əsginasın sirləri Hınzıryedinin əlinə keçsə, dünyaya bədbəxtlik hakim kəsilər. Bünyamin Əbrəhənin vəsiyyətinə əməl edir. *"Çoxsəsli bir təhkiyə metodu tətbiq edilir. Anarın demək olar ki, bütün romanlarında ənənəvi təhkiyələrdən (dastan, nağıl, xalq hekayəsi) istifadə etdiyini görürük"* [12, s. 245].

İhsan Oqtay Anarın "Dumanlı qitələr atlası" romanı sənətlərarası əlaqə yaradır. Roman əsasında Türkiyənin görkəmli karikaturisti İlban Ertem "Dumanlı qitələr atlası" adlı karikatur roman çəkir. Kitabın arxa üzündə yazılır: *"İhsan Oqtay Anarın ilk romanı "Dumanlı qitələr atlası" bu dəfə İlban Ertemin nağılvari karikaturaları ilə karikatur roman olaraq qarşımızdadır. Beş illik çətin, zəhmətkeş bir əmək, ehtirasla dolu bir sadiqlik və civə kimi bir səhifədən digərinə axıb gedən sənətkarlıq diqqət cəlb edir"* [13]. Karikatur roman "Dumanlı qitələr atlası"nın daha maraqlı və postmodernist şəkildə yenidən təqdim edilməsidir. İlban Ertem romanın süjet xəttinə sadiq qalsa da, müstəqil bir sənət əsəri yaradıb. Romanın əvvəlindən sonuna kimi bütün səhnələrin karikaturası çəkilib.

Nəticə.

Nəticə etibarilə deyə bilərik ki, İhsan Oqtay Anarın "Dumanlı qitələr atlası" yeni və postmodern mətnlərarası və sənətlərarası əlaqə yaradır. Xüsusən, İlban Ertemin "Dumanlı qitələr atlası" karikatur romanında rəsm və dialoqlar aparıcı yer tutur. Müəllif təhkiyəsinə nadir məqamlarda yer verilir, rəngli

formatda karikaturalar, daha konkret və yığcam dialoqlar romanın sosial funksiyası, oyun estetikası və əyləncəliliyini artırır. Oxucunu sehrli və vizual bir süjet xəttinin içinə salır. İlban Ertem müasir karikatura sənətinin yenilikləri ilə ənənəvi rəsm üslubunun sintezindən postmodern sənət əsəri yaradır. Karikaturaların hər birində güclü, effektiv vizuallıq yaradılır. Fotoqrafik və kinematoqrafik rəng effektləri, kadrların ahəngdar düzümü və dialoqlarla uzlaşan səhnələr sehrli bir atmosfer yaradır. Romanın dilindəki arxaikləşən leksik tərkib və mürəkkəb sintaktik struktura karikaturalarda rast gəlinmir. Çünki karikatur roman daha geniş bir oxucu kütləsinə xitab edir. Karikatur romanın bədii-estetik məziyyətlərini və sənətlərarası əlaqənin postmodern estetikasını əyani şəkildə göstərmək üçün konkret səhnələrə müraciət etmək zəruridir. Karikatur romanda dialoqlar aparıcıdır. Dramaturji keyfiyyətlərlə vizual effektlər birləşir. Uzun İhsan Əfəndinin oğlu Bünyaminin atasının yuxu dərmanını içdiyi səhnəyə nəzər salaq: *"Atam atam olmaq üçün xeyli gəncdir. Onsuzda anamı da görməmişəm. Bəs mən kiməm, nəçiyəm? Off, boğuluram. Atamın bu yaşıl dərmanından iki damcı içib yatam gərək. İki damcıdan nə olar, bircə qurtum, yox, çəkim başıma, ancaq təsir edər mənə. Yuxum gəlir, deyəsən, dərmanı çox içdim"* [13, s. 62]. Bünyaminin yuxusuzluğu və yuxuya getməsi səhnə-səhnə çəkilir. İlban Ertem ənənəvi karikatura sənətinin xüsusiyyətləri və modern kinematoqrafiya keyfiyyətlərininin birləşməsindən yeni vizual effektlərlə zəngin bir sənət əsəri yaradır. Sosial funksiyanın postmodern konsepsiyası rəssamlıqla ədəbiyyatın kollajından yaranır. Dramaturgiyanın göstərmə, əyanilik, monoloq və dialoqların çevik temperamenti "Dumanlı qitələr atlası" karikatur romanında əyaniləşir.

Ədəbiyyat siyahısı

1. Anar, İ. O. Amat / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2015, – 239 s.
2. Anar, İ. O. Efrasiyab'ın Hikayeleri / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2013, – 242 s.
3. Anar, İ. O. Galiz Kahraman / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2014, – 192 s.
4. Anar, İ. O. Kitab-ül Hiyel / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2011, – 144 s.
5. Anar, İ. O. Puslu Kıtalar Atlası / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2015, – 238 s.
6. Anar, İ. O. Suskunlar / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2015, – 268 s.
7. Anar, İ. O. Yedinci Gün / İ. O. Anar. – İstanbul: İletişim Yayınları, – 2016, –240 s.
8. Koçakoğlu, A. İhsan Oktay Anar, Hayatı-Eserleri, Sanatı / Yüksek Lisan Tezi /– Konya, 2008. – 286 s.
9. Yeşilyurt, Şamil. Kurgusal gerçeğin gücü: yeni tarihselcilik ve Puslu Kıtalar Atlası // 38. ICANAS Uluslararası Asya ve Kuzey Afrika Çalışmaları Kongresi. Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Yayınları, Ankara, Türkiye, – 2008, – s.1813-1826.
10. Hüküm, M. İhsa Oktay Anar'ın "Puslu Kıtalar Atlası" Romanının Metinlerarası İlişkiler Açısından Değerlendirilmesi //– İstanbul: Akademik Matbuat Kasım. – 2017. C:1 S:1. – s. 38-51.
11. Quliyev, Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları / Q. Quliyev. – Bakı: 2012, – 344 s.
12. Aydoğdu, Y. Postmodern bir roman çözümlemesi: İhsan Oktay Anar'ın "Suskunlar'ı // – Bingöl: Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2015/ Cilt: 5 / Sayı: 9 / Bahar, – s. 235-257.
13. Ertem, İ. Puslu Kıtalar Atlası / İ. Ertem. – İstanbul: İletişim Yayınları, – 2015, – 314 s.

ÇİNGİZ AYMATOV VƏ MÖVLUD SÜLEYMANLI HEKAYƏLƏRİNDƏ ARXETİP MİLLİ YADDAŞI İFADƏ EDƏN ELEMENT KİMİ

NƏZRIN ƏLIYEVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Ədəbiyyatşünaslıq (Türk xalqları ədəbiyyatı)
nezrina890@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İctimai-siyasi tarixi şərait konstekstində baş verən müəyyən hadisələr əksər hallarda ədəbiyyatda da müəyyən dəyişikliklərə, canlanmalara və ya durğunluğa səbəb ola bilir. 1970-ci illərdə türk xalqları ədəbiyyatı tarixində müəyyən mənada ədəbiyyatda folklor ədəbi nümunələrinə müraciət, mifoloji dünyagörüşün və mifik mətnlərin bədii ədəbiyyata, ədəbi əsərlərə transformasiyası məsələsi aktual hadisə idi. Bu, xüsusilə, Qırğız ədəbiyyatında görkəmli yazıçı Çingiz Aytmatovun yaradıcılığında və Azərbaycan

nəsrində isə nasir Mövlud Süleymanlının əsərlərində müşahidə olunur. Həm Çingiz Aytmatovun, həm də Mövlud Süleymanlının nəsrində, daha dəqiq desək, hekayə yaradıcılığında milli özünəqayıdışın ifadəsi arxetipik simvollarla, mifik motivlərlə izah olunur. Müəlliflər qələmin gücü ilə sözün sehrinin vəhdətində maraqlı süjet xətti, aktual mövzular və rəmzi motivlərlə ölməz əsərlərini yaratmağa müvəffəq olmuşlar.

AÇAR SÖZLƏR: Arxetip, folklor, hekayə

GIRIŞ

Müasir psixologiyada "arxetip" kimi istifadə olunan termin XX əsrin əvvəllərində məşhur İsveçrə psixoloq və filosofu K.Q.Yunq tərəfindən elmə daxil edilmişdir. Mənşə etibarilə yunan dilindən götürülmüş bu söz "ilk nümunə", "ilk obraz", "ilkin tip" mənalarını ifadə edir. K.Q.Yunqun arxetip termini əvvəllər sadəcə psixoloji hadisəni ifadə edirdisə, daha sonralar bu, ədəbiyyatşünaslar tərəfindən də qəbul edildi və əsərlərdə istifadə edilməyə başlandı. K.Q.Yunq bildirir ki, arxetiplər özündə həm forma, həm də məzmun baxımından mifoloji motivləri ehtiva edir və arxaik xarakter daşıyır. Bu mifoloji motivlərə müxtəlif ədəbi-bədii mətnlərdə rast gəlmək olar.

Ədəbi arxetip dedikdə, bütün dünyada təmsil olunan ədəbi-bədii nümunələrdəki oxşarlıqlar, təkrarlanan motiv və ya simvollar nəzərdə tutulur. K.Q.Yunq bu haqda belə yazırdı: "....zira arketipler psike'nin dışlanmayacak bir parçasıdır ve mitolojinin dağarcığındaki sayısız motiften bildiğimiz, Kant'ın da sözünü ettiği "karanlık tasavvurlar alemindeki hazine"dir. Bir arketip kesinlikle can sıkıcı bir önyargı değildir. Ancak yanlış yerde olduğunda öyledir. Arketip, insan ruhunun en yüce değerleri arasındadır. Arketipi değersiz olarak görüp bir kenara atmak, büyük bir kayıp anlamına gelir. Yapılması gereken, bu yansıtmaları çözerek, içeriklerini istemeden kaybeden bireye geri vermektir." (4, s. 25) K.Q.Yunq ayrı-ayrı mədəniyyətlərə xas olan simvollar arasındakı həsdiz yaxınlığı belə aydınaşdırırdı ki, səbəb onların bütün bəşəriyyət üçün ümumi olan arxetiplərə köklənməsindədir.

1970-ci illər Azərbaycan və Qırğız nəsri tematik xüsusiyyətlər və ideya-məzmun cəhətdən bir-birilə səsləşir. Qeyd edilən illərdə Azərbaycan ədəbiyyatında nəsr yaradıcılığında insanın psixoloji aləminin rəngarəngliyini vurğulayan, xalq yaradıcılığından, folklor və mifologiyadan, mifik motivlərdən ustalıqla istifadə edən Mövlud Süleymanlı əsərləri ilə Qırğız ədəbiyyatının fenomen yazıçısı, milli və bəşəri ideyaları əsərlərində təcəssüm etdirən Çingiz Aytmatovun əsərləri müəyyən mənada paralellik təşkil edir.

Toxunduğu mövzular, yaratdığı obrazlarla cəmiyyətin və bəşəriyyətin problemlərini ön plana çəkən, ümumtürk xalqları miqyasında, eləcə də, dünya ədəbiyyatında böyük Qırğız yazıçısı kimi tanınan Çingiz Aytmatov zəngin mənəvi və ədəbi irs yaratmışdır. Sözün yaşanan zamanın əvvəlindən gəlib, daha da uzaqlara çatacaq qədər qüdrətli olduğuna inanaraq əsərlərini yazmışdır. Görkəmli yazıçı Çingiz Aytmatovun əsərlərini oxuduqca onun insana, sənətə, təbiətə, tarixə, mədəniyyətə necə baxdığını, eyni zamanda, köklərinə necə bağlı olduğunu görmək mümkündür. Bədii yaradıcılığa hekayə ilə başlayan Çingiz Aytmatov yaradıcılığının bütün mərhələlərində aktual mövzulara toxunmuş, xüsusilə, ikinci dünya müharibəsi hekayələrinin əsas mövzu qaynağına çevrilmişdir. Ölkəmizdə Çingiz Aytmatovun həyatı və yaradıcılığını dərindən araşdıran, onun Azərbaycanla əlaqələrini, Azərbaycan-Qırğız nəsrinin paralel müqayisəsini tədqiqata cəlb edən Mehman Həsənli monoqrafiyasında yazıçının hekayə yaradıcılığı ilə bağlı belə qeyd edir: "Bu panoramada əsas yer tutmasa da, Çingiz Aytmatovun yaradıcı şəxsiyyətini tam olaraq, bütün incəlikləri ilə məhz hekayələrində görmək mümkündür. Onun əsərlərinin istər üslub, texnika baxımından təkmilləşməsini, istərsə də ideya-mövzu dəyişilmələri paradiqmalarını bütün cəhətləri ilə ən yaxşı hekayələrində öz əksini tapmışdır."(2, s. 52) Yazıçının hekayələri, həmçinin, arxetipik simvollar və motivlərlə olduqca zəngindir. Əsərlərini yazarkən öz həyatından, yaşam təcrübələrindən, folklordan xüsusilə faydalanmışdır. Bununla bağlıdır ki, əsərlərində mifoloji motivlər, arxetipik simvollar çoxluq təşkil edir. Elə buna görə də Çingiz Aytmatov əsərləri ilə geniş kütləyə xitab edə bilmişdir. "Oğulla görüş", "Balaca əsgər", "Köçəri quşların göz yaşları" və s. hekayələri bu qəbildəndir.

Qeyd etdiyimiz hekayələrində müəllif müharibə zamanı yaşanılan psixoloji sarsıntıları, mənəvi iztirabları göz önünə gətirmişdir. "Oğulla görüş" əsərindəki Qoca Çordon iyirmi il əvvəl müharibədə itirdiyi oğlunun hələ də sağ olduğuna inanmaq istəyir və buna görə də təsəllini şüursuz düşüncələrində, uydurmalarda tapır. Sanki yuxuda imiş kimi onu oğlunun hələ də yaşadığına inandıran hissin təsirində qalaraq hərəkət edir. Keçmiş xatirələrinin canlanması, daxilindəki hissin oğlunun sağ olduğunu söyləməsi, qəhrəmanın bu hisslə başa çıxmağa çalışması, amma bacara bilməməsi, əslində, şüursuzluğun obraz üzərindəki təsirini göstərir. Çarəsiz ata oğlu Sultanın sağ olduğu, hələ də onu əvvəllər işlədiyi, dərs dediyi kənddə tapacağı ümidiylə yola çıxır. Hətta yolda rastlaşdığı kəndlisinə də bu vəziyyəti həqiqətmiş kimi danışır. Çünki yaratdığı həqiqətdən kənar dünyasında onun oğlu hələ də yaşayır, atasını işlədiyi məktəbdə gözləyir. Qəhrəmanın

dünyası C.G.Yunqun kölgə arxetipinə uyğun gəlir. O öz şüursuz hərəkətlərini, oğlunun sağ olmadığını qəbul etmək istəmir. Oxşar hadisəni "Balaca əsgər" əsərində də görə bilərik. Hekayədə atasını müharibədə itirmiş, onun yalnız adını bilən balaca Avalbekin öz xəyal dünyasında gerçəklik yaratmasından bəhs olunur. Müharibə filmində göstərilən topçunu anası balaca Avalbekə "Bax, bu sənin atandır" (1, s. 89) deyərək təqdim edir. Uşaq bundan sonra filmi daha həyəcanla, ciddi şəkildə izləməyə başlayır. Həqiqi müharibənin içindəymiş kimi sanki atasının ölümünü filmdəki topçunun yerə yıxılması ilə dərk etməyə başlayır. Filmin sonunda digər insanların yanına gedib filmdəki adamın atası olduğunu deməsi də özünə qurduğu xəyal dünyasıyla əlaqəlidir. Müəllifin digər hekayəsi "Köçəri quşların göz yaşları" onun tarixi mövzuda yazmış olduğu ilk və yeganə əsəridir. Əsərin əsas ideya-bədii məzmununu "Manas" dastanı təşkil edir. Hadisələr İssık-gölün ətrafında, yaz fəslində baş verir. "Hekayənin qəhrəmanları mif dünyasında yaşayırlar, onlar üçün Tanrıya çatmaq üçün vasitə təbiətin özüdür." (2, s. 73) Əsərin əsas obrazlarından olan Eleman əsərin əvvəlində evin sonbeşiyi olaraq təsvir edilsə də, müəllifin təhkiyəsində onun gələcəkdə manasçı olacağı barədə fikirlər yer alır. Elemanın anası İssık-gölün sahilində Tanrıya dua edir və bu zaman Tanrıdan oğlunun Manasçı olmasını da istəyir. Bu dua çox ürəkdən və səssiz edilmişdir. "Anası sakitcə dua etsə də, Elemana elə gəlirdi ki, onun səsi bütün gölə yayılır, qarşı dağları bürüyüb daşları ovsunlayır, orada əks-səda verir." (1, s. 75) Ananın Elemanın manasçı olmasını istəməsinin də səbəbləri vardı. O, millətinin mənəviyyatını Manas dastanını danışaraq bəsləyəcəkdi. Atalarından yadigar qalan bu dastanı, onun savaşçı ruhunu milətinə aşılayacaqdı. Bu hekayədə Kertolqo-zayipin – Elemanın anasının Ana Tanrını təmsil etməsi, Tanrıya oğlu üçün dua etməsi və bu duanın qəbul olduğu əks olunur. Yəni, simvolik mənada Elemanın daha bacarıqlı, yeni simada yenidən doğuluşu göstərilir. Eyni zamanda ananın arxetipikləşdirilməsi görülür, yəni ana təkcə bioloji deyil, eyni zamanda Ana Tanrı kimi simvolik mənaya bürünür. Həmçinin bu dua gölün sahilində, yəni suyun yanında baş verir. Mifoloji mətnlərdən də bizə məlumdur ki, su daim insanlar üçün mifik mənalı motiv, həyatın, varlığın qaynağı olmuşdur. Ananın duasının gerçəkləşməsində də İssık-gölün rolu bu baxımdan səciyyəvidir.

Ədəbi yaradıcılığına lirik şeirlərlə başlasa da, Azərbaycan ədəbiyyatının nəsr tarixində ölməz əsərlər yaradan, özünəməxsus yaradıcılıq üslubu ilə seçilən Mövlud Süleymanlı folklora, eləcə də, xalq yaradıcılığına dərindən bələd olan ədəbiyyatşünas nasir kimi tanınır. Dərin müşahidə və analiz qabiliyyətinə malik olmaqla müxtəlif mövzularda yazdığı hekayələr, povest və romanlarıyla bədii nəsrimizi ideya-bədii baxımdan zənginləşdirmişdir. Mövlud Süleymanlı yaradıcılığında mifoloji süjetlər, mifik obrazlar və arxetiplərə müraciət üstünlük təşkil edir. Bu baxımdan onun "Armud ağacının nağılı", "Füşkürək", "Dünyanın işığı", "Sapand", "Qaraca kişinin yaylaqları", "Sığırçı Gülünün ala iti", "Quru kəllə" və s. hekayələri diqqəti cəlb edir.

"Armud ağacının nağılı" hekayəsində hadisələr bir yaz günündə Mahmud kişinin həyətindəki armud ağacının quruması təsviriylə başlayır. Əsərlərində folklor nümunələrindən bəhrələnən yazıçı arxaik-mifik düşüncəni birbaşa ədəbi-bədii mətnə transformasiya etmişdir. Hekayədə Mahmud kişi və Telli qarının inancına görə əsgərdə olan nəvəsi üçün əkdikləri armud ağacının quruması faciəylə nəticələnməli idi. Bu təkcə onlar üçün deyil, bütün kənd camaatı üçün belə qəbul olunmuşdu. Müəllif obrazların timsalında armud ağacına mifoloji məna yükləyərək onu bir növ arxetipikləşdirmişdir. Arxetip "kollektiv şüursuzluğ"un nəticəsi kimi meydana çıxdığından kütləvi şəkildə insanların buna inanması, ağacın qurumasını insanın ölümünə bərabər tutması folklor mətnlərində də rast gəlinən motivlərdən biridir.

1975-ci ildə yazdığı digər folklor motivli hekayəsi "Füşkürək"də əsas obrazlar özünə həqiqi dünyadan kənar nağıllar dünyası yaradan İmran və bu dünyanın varlığına inandırdığı oğlu Elbəydir. Həm ata, həm də oğlu nağıllar aləmində yaşayırlar. İmran gündəlik hadisələri də, oğluna maraqlı olan sualları da nağıllar quraraq danışır. Hekayədə balaca Elbəyin də öz dünyası var və bu dünya onun reallıqları ilə deyil, atasının yaratdığı nağıllar ilə qurulmuşdur. Uşaq o qədər nağıl eşitmişdi ki, hər şeyi - eşitdiklərini, gördüklərini də nağıl kimi qavrayırdı, valideynərinin, nənəsinin sözlərinə də məhəl qoymurdu. İmran hər zaman Elbəyi füşkürək çalaraq çağırırdı və bu zaman İmranın anası belə bir inanc dilə gətirirdi: "Elə ona görə bərəkətimiz yoxdu. Neçə kərə demişəm evdə füşkürək çalma." (3, s. 383) Hekayənin sonunda Elbəy yenə öz nağıl dünyasında təsvir olunur, bu dəfə də "Məlikməmməd"in quyusuna enməyə cəhd edir.

Yazı üslubunun rahatlığı, dilinin anlaşıqlı və bədii mətnin süjet xəttinin axıcı, əlvan olması ilə seçilən modern nəsrimizin tanınmış siması Mövlud Süleymanlı hekayələrinə nəzər saldıqda onun xalqın tarixinə, adət-ənənələrinə bağlılığı, etnopsixoloji elementlərdən ustalıqla istifadəsi aydın görünür. "Dünyanın işığı" əsərində beşyaşlı uşağın pəncərədən şığıyan günəş şüalarıyla oynaması, atası Kamilin isə hətta gecə hekayə yazarkən günəşin ağlığını görməsi, onunla xoşbəxt olması təsvir olunur. Dövri qədimdən xalq yaradıcılığında işığın mifopoetik xüsusiyyət daşıyaraq əsərlərdə müxtəlif mənada əksi göstərilmişdir.

Daşıdığı mifoloji anlamlarından biri də onun "xilaskarlıq" motividir. Qeyd etdiyimiz hekayədə də uşağın atası gecə vaxtı hekayə yazmasını qaranlıqda gördüyü işıqla bağlayır. Bu, onun daxili dünyasındakı işıq idi, həqiqi gözlə görülməyən Günəş işığı. Kamil bir növ işığı simvollaşdırır, ona arxetipik məna yükləyir. Bənzər motiv avtobusda rastlaşdığı hadisədə də görülür. Oğlanın şapkasını gözlərinə çəkməsilə heç nəyi görə bilməyən ata o qaranlıqda belə oğlunun işıqlı dünyasını təsvirində canlandırır, sanki bununla qaranlıqdan xilas olacağını hiss edirdi. "Hər yan qaranlıq idi, göz-gözü görmürdü, bu qaranlığın içində Kamil işıq zolaqları gördü, oğlunun işıq zolağından çıxan, rəngini dəyişən əllərini gördü, sonra da qəhqəhələr eşitdi, avtobusda balacadan tutmuş böyüyə qədər hamı gülürdü." (3, s. 392)

Yazıçının kənd və şəhər həyatının müxtəlifliyi, şəhərli və kəndlilərin arasındakı fərqlərlə bağlı yazmış olduğu "Sapand" hekayəsi də maraqlı simvolik-rəmzi mənası ilə diqqəti cəlb edir. Daim xalq yaradıcılığından bəhrələnən müəlifin bu hekayəsi atalar sözü ilə başlayır: "Ay daş atan bəxtəvər, daşın da bir vaxtı var." (3, s. 394) Əsərdə kənddəki həyatla şəhər həyatı müqayisə olunur. Göstərilir ki, artıq kənddə şəhərləşmə baş verir, insanların geyimi, davranışı, hətta danışığı, uşaq tərbiyələndirməsi də şəhərə uyğunlaşdırılır. Kənd öz təbiiliyini itirib, yolları daşlı-kəsəkli deyil asfaltlı, təmizdir, daha qışda insanların evlərinin bacasından tüstü çıxmır, kəndə də qaz çəkilib və s. bu kimi qarşılaşdırmalar var. Hekayənin əsas obrazlarından olan yaşlı Mahmud kişi isə öz el-obasına, adətlərinə bağlıdır. Əsərin, demək olar ki, əvvəlindən sonuna qədər Mahmud kişinin həyətindəki daş onu narahat edir. Dəfələrlə oğlu Əlişdən və başqalarından kömək alsa da, heç bir vəchlə daşdan xilas ola bilmir. Hətta bəzən düşünür ki, öləndə də o dünyada soruşacaqlar ki daşı niyə həyətdə qoyub gəldin? Əslində "daş" burada rəmzi-simvolik xarakter daşıyır. Qədim türk xalqlarında belə bir inanc mövcud olmuşdur ki, daş rəhmsizlik, mərhəmətsizlik deməkdir. Eyni zamanda daşın insan ruhunu daşıması ilə bağlı mifik düşüncələr də mövcuddur. Buna görə bəzən atalar sözlərində, şifahi xalq ədəbi nümunələrində, mifik mətnlərdə və s. daşla bağlı "insanın daşdan yaranması", "mənim daşım ağırdır" və s. bu kimi ifadələr işədilir. Burada da Mahmud kişinin daş barədə narahatlığı sanki daşın ağırlığının onun ruhuna çökməsi ilə əlaqələndirilir. Daşı simvollaşdırır, həyətdəki daşların təmizlənməsilə, elə bil üzərindəki yükdən, narahatlıqdan da xilas olacağı fikrilə yaşayır. Digər tərəfdən sapandla avtomatı müqayisə edir. Nəvəsi Babək və dostları avtomatla oynayarkən onları avtomatın paralelində sapandla tanış edir. Bayaqdan babasının sözlərinə məhəl qoymayan Babək və digər uşaqları bir anda maraq bürüyür. Dərhal Babək soruşur ki, "Bu da yalandandı, baba?" (3, s. 397) və aldığı "Yox, bu doğrudan atır" (3, s. 397) cavabı onu və bütün uşaqları avtomatdan ayırır. Babək israrla sapandla daş atmaq istəsə də, babası uyğun yer olmadığını deyir və sonda Babəkin istəyi qarşısında yalnız evlərinin arxa tərəfində sapand atmaq üçün uyğun yer tapılır.

TƏDQIQAT METODU

Apardığımız tədqiqat işində Türk xalqları ədəbiyyatı tarixində Qırğız və Azərbaycan nəsrində öz yaradıcılıqları ilə geniş kütləyə xitab edən görkəmli yazıçıların – Mövlud Süleymanlı və Çingiz Aytmatovun əsərləri müqayisəli formada təhlil edilmişdir. Tədqiqatın məqsədi 1970-ci illərdə paralel formada hər iki xalqın ədəbiyyatındakı oxşarlığı müəyyən etmək olmuşdur. Bu baxımdan ədəbi nümunələrdəki oxşarlıqlar, müraciət edilən mövzu və arxetiplər aydınlaşdırılmışdır.

NƏTİCƏ

Xalq yaradıcılığı və folklor motivləri daim yazıçılarımız üçün mövzu qaynağı olmuşdur. 1970-ci illərdə isə bunun ən əyani sübutu kimi Azərbaycan ədəbiyyatında Mövlud Süleymanının nəsr yaradıcılığında hekayələri, povestlərini və parael olaraq Qırğız ədəbiyyatında da Çingiz Aytmatovun yaradıcılığını qarşılıqlaşdıra bilərik. 1970-ci illər hər iki xalqın həyatında milli özünəqayıdış, adət-ənənələrə, soykökə, el-obaya bağlılıq, etnopsixoloji elemenlətlərin bədii ədəbiyyatda əks olunması diqqəti cəlb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Aytmatov Ç. Seçmə hekayələr. Altun kitab nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2014:1-208
2. Həsənli M. Çingiz Aytmatov fenomeni və Azərbaycan. Elm və təhsilnəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2020:1-406
3. Süleymanlı M. Seçilmiş əsərləri. Şərq-qərb nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2006:1-480

Carl Gustav Jung. Dört arketip. Metis yayınları (**Kitap**). İstanbul/Türkiye. Kasım 2021:1-163

İNGİLİS DİLİ

İNGİLİS İDİOMLARININ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

FƏRHAD İBRAHİMOV
Azərbaycan Dillər Universiteti
Magistrant, dilşünaslıq (ingilis dili)
ferhadibrahim26@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir ingilis dilində idiomlar aktual mövzulardan biridir. İdiomatik vahidlər ingilis dilinin lüğət tərkibinin zənginləşməsində əvəzsiz rol oynayır. İdiom dedikdə adətən tərkibində mövcud olan elementlərin mənalarından mənanı tam müəyyən etmək mümkün olmayan ifadələr nəzərdə tutulur. Elmi məqalədə ingilis dilində idiomların struktur-semantik xüsusiyyətləri təhlil edilmiş, onların təsnifatı verilmiş, çoxsaylı nümunələr təqdim edilmişdir.

AÇAR SÖZLƏR: ingilis dili, idiom, struktur, xüsusiyyət

GİRİŞ

Effektiv ünsiyyət qurmaq istəyiriksə bizə şifahi və şifahi olmayan bir çox element lazımdır. Danışarkən biz qrammatikanı və sözləri bilməliyik. Sözlər olmazsa ünsiyyət qurmaq mümkün olmaz. Bəzən biz ünsiyyət prosesində idiomlardan istifadə etmək məcburiyyətində qalırıq. İdiomlar dilin lüğət fondunun mühüm hissəsini təşkil edir. Tarixi 1565-1575-ci illərə qədər gedib çıxan idiom sözü öz və ya özünəməxsus mənasına gələn yunan mənşəli bir termindir. İdiom ümumiyyətlə hərfi mənada şərh edilə bilən, lakin müəyyən konteksdə istifadə olunarkən hərfi olmayan bir məna kəsb edən məcazi ifadələrdir [4, s.54].

Break a leg (Uğurlar), tie the knot (evlənmək), a piece of cake (çox asan) kimi idiomatik ifadələr ingilis dilli spikerlər arasında çox işlənir. Müasir dünya dillərinin hər birində idiomatik vahidlərə rast gəlmək mümkündür. İdiomları öyrənmək dilin qavranılmasının mühüm aspektidir. İngilis dili zəngin idiomatik ifadələrə malik bir dildir. Belə ifadələr hədəf dildə danışanların mentalitetini əks etdirir. İdiomlar danışıq-məişət leksikasında mühüm rol oynayır və danışıq zamanı fikrin daha mənalı, təsirli, bəzən isə ironik-ekspressiv istifadəyə xidmət edir. İdiomları əmələ gətirən sözlər əsasən öz əvvəlki mənalarını itirir və birləşmə daxilində yeni məna kəsb edirlər. Məsələn, hit the sack-(go to bed in order to sleep)-gedib yatmaq. Before I hit the sack, I always check whether all the doors are locked in my house.

İdiomatik vahidlər danışıqda nitqə, yazıda isə mətnə xüsusi gözəllik və rəngarənglik qatır, dili daha da zənginləşdirir. İdiomlar hərfi sözü və ya ifadəni əvəz etmək üçün tez-tez istifadə olunur. Onlara demək olar ki, ədəbi dilin bütün üslublarında rast gəlmək mümkündür.

İdiom mövzusu tarix boyu həmişə tədqiqatçıların diqqətini cəlb etmişdir. Dilçilikdə və ədəbiyyat nəzəriyyəsində bu mövzu haqqında indiyə qədər çox şeylər yazılıb və hələ də yazılır. İngilis dilşünasları, leksikoqrafları və qrammatikləri tərəfindən idiomlara müxtəlif təriflər verilib. Idiom tərkibini təşkil edən elementlərin adi mənalarından mənanı müəyyən etmək mümkün olmayan bir ifadədir [8].

İdiom anlayışına tərif verərkən David Kristal qeyd edir ki, bu termin semantik və sintaktik məhdudiyyətlər səbəbindən vahid bir tam olaraq fəaliyyət göstərən söz ardıcıllığını ifadə etmək üçün qrammatika və leksikologiyada istifadə olunan termindir [1, s. 515].

Zerfas Aleksandr isə idiom haqda belə yazır: İdiom dilin istifadəsi nəticəsində təsdiqlənmiş sözlərin qrammatik ardıcıllığı və ya xüsusi bir frazeologiyadır. İstər ardıcıllıq, istərsə də xüsusi frazeologiya dilə xasdır və onun qrammatik və ya məntiqi mənasından fərqli məna daşıyır [6, s. 4].

İdiomların istər quruluşuna, istərsə də mənasına görə rəngarəngliyi onların üslubi istifadə imkanlarının zənginliyini təmin edən başlıca xüsusiyyətdir. İdiomun əsas şərtləri məna bütövlüyü, leksik sabitlik, sintaktik sabitlik və semantik sabitlikdir. İdiomların məna bütövlüyü komponentlərin leksik mənasının zəifləməsi səbəbindən meydana çıxır. Leksik sabitlik üzvlərin daimiliyi ilə, sintaktik sabitlik idiomun üzvlərinin sırasına əsaslanaraq dəyişilməz qalması ilə, struktur sabitliyi onların tərkibcə dəyişməməsi ilə əlaqəlidir, əgər o dəyişlikliyə uğradılsa söz idiom ifadə etmə xüsusiyyətindən uzaqlaşır.

İdiomlar dil vasitəsi kimi funksional dildə geniş istifadə olunur. Idiomlar adətən insanların həyat tərzi, dünya görüşü, dini aspektləri, yaşayış tərzi və başqa amillər əsasında ortaya çıxır. Mənşəyinə görə idiomatik ifadələr iki yerə ayrılır: xalis (əsl) idiomlar və alınma idiomlar.

Xalis idiom ifadəni təşkil edən sözlərin mənalarını toplamaqla mənası tam başa düşülməyən idiomdur. Məsələn, break the ice idiomu hərfi mənada buzu qırmaq kimi anlaşılsa da onun mənasının buzla əlaqəsi yoxdur. Xalis idiomları təşkil edən sözlər həmin dilin sözlərindən təşkil olunur. Bu növ idiomlar dildə heç də təsadüf nəticəsində meydana çıxmır. Onlar zaman keçdikcə formalaşmağa başlayıblar.

Alınma mənşəli idiomların tərkib hissələrindən bir, ya da bütöv hissəsi başqa dillərdən alına bilər. Adətən xalqların bir-biri ilə yaxın əməkdaşlığı ünsiyyəti nəticəsində söz, frazeoloji vahid və ya idiomatik vahid başqa dilə keçib tədricən beynəlxalq səviyyədə işlədilərək dilin lüğət fonduna daxil olur. Məsələn, "feel like a million dollars"-"özünü xoşbəxt hiss etmə", "run amok"- "özündə olmamaq, hirsindən ağlını itirmək,cin atına minmək, hirsindən nə etdiyini bilməmək" və s.

İdiom o zaman yaranır ki, onun mənası artıq səlis dil istifadəçiləri tərəfindən təhlil tələb etmir: siz dil icmasının səlahiyyətli üzvü olduğunuz üçün onu instinktiv olaraq bütöv bir ifadə kimi başa düşürsünüz.

Idiomatik ifadələr dilin və hətta tarixin reallıqlarını əks etdirir. Məsələn, "bury the hatchet" idiomunun yaranma tarixi belədir: "bury the hatchet " idiomu qədimdə müharibə edən tayfalar sülh elan edərkən yerli Amerika qəbilələri tərəfindən həyata keçirilən mərasimdən gəlir. İki qəbilə fikir ayrılıqlarını həll etmək və sülh içərisində yaşamaq qərarına gəldikdə hər bir qəbilə başçısı razılıqlarını bildirmək üçün yerə bir döyüş baltası basdırardı [7].

Fernando qeyd edir ki, semantik xüsusiyyətinə görə idiomlar üç yarımsiniflərə ayrılır: əsl idiomlar, yarım idiomlar və hərfi idiomlar [2, s. 35-36]

1) Pure idioms (Əsl idiomlar). Belə idiomlar idiomu təşkil edən sözlərin mənalarını toplamaqla mənası tam başa düşülməyən idiomlardır. Məsələn, red herring. "Red" ayrılıqda "qırmızı", "herring" sözü "siyənək balığı" mənasına gəlsə də bu iki söz birlikdə idiom diqqəti başqa yerə yönəltmək üçün istifadə olunan şey mənasındadır. Xalis idiomlar hər hansı leksik, morfoloji yaxud semantik dəyişikliyə məruz qalmayan ifadələrdir. Belə idiomların tərkibindəki sözlər həmin dilin sözlərindən təşkil olunur.

2) Semi idioms (Yarı idiomlar). Əsl idiomlardan fərqli olaraq yarı idiomlarda ifadəni təşkil edən elementlərdən ən az biri hərfi mənada, digəri isə həqiqi mənada işlənir. Məsələn, to cost an arm and a leg-od qiymətinə.

3) Literal idioms (Hərfi idiomlar). Bu idiomların mənası ilə idiomu təşkil edən sözlər adətən üst-üstə düşür və digər idiomlarla müqayisədə nisbətən az mürəkkəb quruluşa sahibdir. Hərfi idiomları digər idiomlardan fərqləndirən cəhət budur ki, onları başa düşmək və yadda saxlamaq daha asandır. Məsələn, stone-hearted-daşqəlbli, kill two birds with one stone-bir daşla iki quş vurmaq və s.

Edvard Finneqan qeyd edir ki, biz dil quruluşu dedikdə mahiyyətcə dilin sintaksisi, semantikası və fonologiyasından danışırıq. İdiomlara gəldikdə eyni prinsiplər tətbiq olunur. İdiomların strukturları mahiyyətcə onların sintaktik davranışıdır. Bu davranışı yalnız onların forması və ya məcazi mənası əsasında proqnozlaşdırmaq olmaz, lakin bu, forma və məna arasındakı müəyyən əlaqəyə görə olmalıdır [5, s.29].

İdiomların istifadəsi həmsöhbətlərin sosial mövqeyində və sosial iyerarxiyanın möhkəmlənməsində rol oynayır. Onların özlərinəməxsus fonoloji, sintaktik və konseptual quruluşu var. Bu vahidlər konstruktiv, mənası sintaktik cəhətdən təyin olunmayan mürəkkəb leksik elementlər kimi dərk edilir.

Dilçi Maykl Makkarti və Felisiti Odell strukturuna görə idiomları yeddi kateqoriyaya ayırır [3, s.6]

1) Verb + object/complement: (and or adverbial) fel+tamamlıq (və ya zərflik). Məsələn kill two birds with one stone-bir daşla iki quş vurmaq, give somebody a cold shoulder-bir kəsə soyuq davranmaq

2) Prepositional phrase-sözönülü fraza : in the blink of an eye-bir göz qırpımında, on the tip of my tongue-dilimin ucunda

3) Compound-mürəkkəb söz: a bone of contention-anlaşılmazlığın səbəbi

4) Simile-bənzətmə idiomları : (as + sifət + as yaxud like + isim quruluşlu idiomlar): as innocent as a lamb-uşaq kimi saf, as brave as a lion-aslan kimi cəsur, sing like a nightingale-bülbül kimi ötmək, smoke like a chimney-siqaret sümürmək

5) Binomial-ikisözlü idiom (söz+ and/or + söz strukturlu idiomlar) bright and early-səhər tezdən, sooner or later-əvvəl-axır, skin and bone-bir dəri, bir sümük, it's now or never-ya indi, ya heç vaxt

6) Trinomial-üçsözlü idiomlar: (söz + söz + and + söz): beg, borrow and steal- hər yolu sınamaq blood, sweat and tears-çox böyük zəhmət, morning, noon and night-bütün günü

7) Whole clause or sentence-bütöv şərt, yaxud cümlə: "to cut a long story short"-sözü uzatmadan demək

İdiomatik ifadələr adətən ayrı-ayrı sözlərin və ya idiomatik ifadə komponentlərinin mənasından başa düşülməyən semantik vahid və ya söz birləşməsidir. Bir reallığı da qeyd etmək lazımdır ki, bəzi idiomatik vahidlər insanlara məntiqsiz, qrammatik cəhətdən yanlış kimi görünə bilər. Belə ki, idiomların əksəriyyəti qrammatik quruluşuna görə sabitdir. "To sit on the fence" idiomu "to sit on a fence" yaxud "to sit on the fences" formasında işlənə bilməz. İdiomlar qrammatik quruluşun dəyişməsinin nəticəsidir və buna görə də bəzi idiomlar quruluşca qrammatik cəhətdən yanlış hesab edilsə də, idiomatik cəhətdən qəbul edilirlər. Qırılmaq (to be broken) hərfi anlamda nəyinsə qırılması (something is broken) deməkdir. Məsələn, My lamp is broken that's why l can not read my book. "To be broke" qrammatik aspektdən yanlış olsa da, idiomatik mənada "to have no money"-"pulu olmamaq" mənasında işlənir. Məsələn, I can't buy her a present, I am broke. Bu nümunələrə əsaslanaraq deyə bilərik ki, idiomatik vahidlərin özlərinəməxsus sabit qrammatik quruluşu var.

İdiomlarda zaman və əvəzlik dəyişikləri müşahidə oluna bilər. Məsələn, "get on somebody's nerves" (əsəblərinə toxunmaq) idiomuna baxaq. The voice of the barking dog got on my nerves. Göründüyü kimi "get" feli keçmiş zamanda işlənmişdir.

İdiomatik vahidlər özlərinə məxsus quruluşa malik olan söz birləşmələri hesab olunur. Onları təşkil edən sözlər bizə adətən qəribə, qeyri-adi və qrammatik cəhətdən yanlış görünsələr də biz onlar üzərində dəyişikliklər edə bilmirik. Bu vahidlər dilin lüğət fonduna daxil olduqları formada öyrənilməlidir. İdiomları təşkil edən sözlər həm həqiqi, həm də məcazi mənada ola bilər.

TƏDQİQAT METODU

Tədqiqat işi müqayisəli və kəmiyyət metodlarından istifadə edilərək aparılmışdır.

NƏTİCƏ

Bütün bu deyilənlərə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, bir neçə idiomun tərkibindəki sözlərin hərfi mənalarının köməyilə onların semantik təhlilini aparmaq olar. İdiomatik ifadələr semantik baxımdan əsl, yarım və hərfi idiomlar kimi klassifikasiya edilə bilər. İdiomların hamısı özünəməxsus quruluşa malikdir. İdiomatik vahidlərin mənşəyinə diqqət yetirdikdə insanların həyat tərzi, dünya görüşü, dini aspektləri, yaşayış tərzi və başqa amillər əsasında xeyli sayda idiomların ortaya çıxdığını müşahidə edə bilərik.

ƏDƏBİYYAT SİYAHISI

1) Crystal, D. (2019). The Cambridge Encyclopedia of the English Language. Cambridge: Cambridge University Press, third edition p.582
2) Fernando, C. 1996. Idioms and idiomacity. London: Penguin books. p. 265
3) Mc Carthy, M. & O' Dell, F. 2003. English Idioms In Use. Cambridge: Cambridge University Press. p. 190
4) Rohani, G. &Ketabi, S. (2012). The effect of Context on the Iranian EFL Learner's Idiom Retention. International Journal of Linguistics, 4 (4), p. 52-66.
5) Umar, A. (2019). The structure of idioms in Nigerian English: The effects indigenous Nigerian languages have had on English idioms in Nigeria. English Today, 35(3), p.29-34. doi:10.1017/S0266078418000238
6) Zerfas, A. (2014). Death Idioms in the English and German language: A Contrastive Analysis. Berlin: Grin Verlag. p. 14
7) https://grammarist.com/idiom/bury-the-hatchet/
8) https://www.dictionary.com/browse/idiom

NEGATIVE EFFECTS OF HOMESCHOOLING

HUSEYNLI CHINARA
Baku Engineering University
Foreign Languages Department
chuseynli@beu.edu.az
BAKU, AZERBAIJAN

ABSTRACT

Homeschooling is the education of school children at home or different places rather than school. It is also referred to as home education or elective home education (EHE). The families who choose homeschooling use different and individual education methods which may not happen to be taught at school. Mainly parents conduct home education or sometimes tutors or online teachers are authorized for this. Homeschooling has been widespread especially by virtue of technological development. More and more parents are opting homeschooling to traditional education. By touching on the reasons why parents consider enrolling home education, several causes can be brought about such as different ideology, discontent with school education and etc. Furthermore, technology contributed to this decision of parents to the greatest extent. However, homeschooling has some pros and cons. This article will explore the drawbacks of home education.

KEY WORDS: homeschool-1, parent-2, children -3, socialization-4, drawback-5

INTRODUCTION

The number of parents who prefer homeschooling is observed to be high in recent years because it seems an ideal option for them. Some motives may have effects on their choices. It can be different ideology or children or parents are not happy with what schools provide them. At first, it may be deemed as to be the best solution for the parents, but it is not the right decion in some situations. As the demand for homeschooling is increasing in scope, it brings some negative sides on different matters. In most cases, it may not be effective for children due to some reasons including the lack of professional educators and being unable to improve social life and another fact is parents have to spend more time and money on homeschooling. The drawbacks of homeschooling may include socialization, cost, motivation, lack of facilities, and so on.

Socialization

Home schooled children do not have the same opportunities in terms of interacting with other children comparing with those who choose traditional education. Building relationships with other children may shape the communication skills which are really demanded for being part of this society. It is also necessary for children's health, especially for their brain development. However, homeschooled children may be deprived of their natural right to have friends and spend some time with them. As a result, they may have social problems. Thus, homeschooling does not allow them to sit at the desk with some other student and share school experience. They don't go on school trips with a lot of students. They do not know how to sort out problems with their peers. The lack of socialization can cause different problems later in their life. Homeschooled students mostly interact with their parents or tutors who leads the learning process. Therefore, this sort of intearction inhibits the development of social skills which they will need in traditional society.

Time

If parents are responsible with their children's education, it must be hard for them, especially for working parents because it requires a lot of time which means that they have to make time for it setting aside all other responsibilities. It is their job to organize and prepare lessons. Homeschooling has become their commitment and for making sure that their children get a quality education, parents dedicate their time and effort.

Cost

When there are public schools, where education is free of charge, it can cost a lot of money for the parents if they choose homeschooling. They need teaching programs suitable for homeschooling, and they will need other resources important for learning such as books, computer software, materials, and so on. The cost of tutors should be considered which is an additional burden.

Lack of resources

It is quite easy to understand that home is not a school, and it may lack of some facilities which students need for some lessons like physics or chemistry because these subjects require experiments. For parents, it can be difficult to obtain all the necessities such as materials, chemicals, and apparatus. Even sometimes facilities needed for sports can be essential for child's development which are swimming pools, gyms and etc. These drawbacks can cause problems for students who love the above-mentioned subjects.

Tolerance

Another reason that makes homeschooling difficult is the fact that sometimes parents can lose their temper while tyring to teach their children. Some parents are not patient enough to explain the lessons and to make sure that their children fully understand the lessons. They can get angry, and even it may result with them raising their tone of voice at their children, and it can lead to their children's negative respond.

Motivation

Lack of motivation may have a negative impact on child's learning process thanks to homeschooling. In home where there is no other student to compete with, children will just study without trying to be better or best because they will not feel the need to be challenged to excel in their lessons. At school, they are more successful since they are involved in competitions among students. However, at home there is no such motivation for children as they study separately at home.

Curriculum

Traditional school programs follow the curriculum structure which also helps a student to deal with time management. At home parents themselves decide what their children will study, but at school there is a certain curriculum that all teachers must follow which enables all students to learn in the same way.

Concentration problems

When children are taught at home, it makes them feel more relaxed than going to school because parents teach them and sometimes parents are not strict and disciplined enough. There is no certain schedule that they have to follow. When parents are busy with something more important, they can postpone the lessons. Owing to the less monitoring, children might relax, and even they can lose motivation to learn, and they can also change their study program for example when they are bored and tired, they can decide to do something different and more fun. As a result, they can not focus and concentrate on the lessons and lag behind their peers.

SUMMARY

Although homeschooling can be chosen by a lot of parents, it can be so stressful that not every parent can manage under pressure. In the end, parents should know beforehand about the advantages and disadvantages of homeschooling when deciding which education type they want for their children. They have to make comparisons between positives and negatives of homeschooling. They must always keep in their mind that it is their child's future because it can potentially hurt their children's education life.

REFERENCES

1. Joseph Murphy Frank W. Mayborn Chair, The Social and Educational Outcomes of Homeschooling, Vanderbilt University, Nashville, Tennessee, USA, Pages 244-272: 17 April 2014
2. Brian D. Ray: A systematic review of the empirical research on selected aspects of homeschooling as a school choice, National Home Education Research Institute, Salem, OR, USA, Pages 604-621, 27 Nov 2017
3. Lisa B. Thorell, Parental experiences of homeschooling during the COVID-19 pandemic: differences between seven European countries and between children with and without mental health conditions, European Child & Adolescent Psychiatry (2021)
4. Ray, B. D. (2001). The Modern Homeschooling Movement. Journal of Catholic Education
5. https://www.conqueryourexam.com/negative-effects-of-homeschoolin

DURĞU IŞARƏLƏRI SISTEMI VƏ BEYNƏLXALQ IŞARƏLƏR SISTEMI

GÜLNAR ƏSGƏROVA
Bakı Mühəndislik Universiteti
Pedaqoji Fakültə/İngilis dili kafedrası
guasgarova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Araşdırmada durğu işarələri sistemi və beynəlxalq işarələr sistemi arasında əlaqələr nəzər salınacaq. Məlumdur ki, işarə anlayışı çox genişdir. Dil vahidləri də semiotik xarakterlidir. Dünya dillərində tətbiq olunan bəzi durğu işarələri ilə beynəlxalq işarələr arasında bağlantı var. Beynəlxalq işarələr termini o işarələri ifadə edir ki, həmin işarələr dilindən, yazı sistemindən asılı olmayaraq bütün dünya xalqları üçün eynidir, anlaşılandır, ümumidir.

AÇAR SÖZLƏR: durğu işarələri sistemi **-1,** beynəlxalq işarələr sistemi **-2,** işarə**-3**

SUMMARY

The study will look at the relationship between the punctuation system and the international sign system. It is known that the concept of the sign is very broad. Language units are also semiotic. There is a connection between some punctuation marks used in world languages and international symbols. The term international signs refer to those signs that are the same, understandable and common to all peoples of the world, regardless of their language or writing system.

KEYWORDS: punctuation system **-1**, international sign system **-2,** sign**-3**

GIRIŞ

Punktuasiyada istifadə olunan bəzi durğu işarələrinin digər sahələrdə də istifadə olunması onların funksional imkanlarının genişliyini, semiotik anlamlarının dərin olmasını göstərir. Müasir dünya dilçiliyində punktuasiyanı öyrənən tədqiqatlar üç istiqamətdə aparılır: intonasiya cəhətdən punktuasiya, sintaktik cəhətdən punktuasiya və məntiqi-semantik cəhətdən punktuasiya. Müasir nəzəri dilçilikdə punktuasiyaya funksional-kommunikativ və semiotik-praqmatik cəhətdən də yanaşılır. Funksional baxımdan punktuasiya probleminə yanaşdıqda mətnin qurulmasında onun yazılı nitqdəki rolunun təsbit edilməsi nəzəri cəhətdən mühüm əhəmiyyət kəsb edir.

TƏDQİQAT METODU

Tədqiqat işinin hazırlanması zamanı nəzəri tədqiqat metodlarından istifadə olunmuş, müxtəlif kitablar, elmi işlər, məqalələr araşdırılaraq müqayisəli təhlillər aparılmış, alınmış nəticələr ümumiləşdirilərək fərqlər və oxşar cəhətlər müəyyənləşdirilmişdir.

Beynəlxalq işarələr sisteminə yol hərəkəti nişanları, tibbi işarələr, valyuta işarələri, internet texnologiyalarında, elmi ədəbiyyatlarda istifadə olunan işarələrə qədər fərqli simvollar daxildir. Məsələn, ingiliscə *at* [ət] işarəsi hesab edilən - @ işarəsi internet texnologiyalarının sürətli inkişafı ilə bağlı olaraq yaranmışdır. Hal-hazırda bu işarə imeyil ünvanlarını göstərmək üçün istifadə olunmaqdadır. Hər bir şəxs öz elektron poçt ünvanını göstərəndə bu işarədən istifadə edir.

Fəxrəddin Veysəlli işarə sistemlərini dörd tipə ayırır:

"a] Təcrid edilmiş işarələr;
b] Sadə və mürəkkəb işarələr;
c] Mürəkkəb işarələr;
d] Bir və ya çoxkanallı sistemlər" [4, s. 190].

Riyaziyyatla bağlı işlədilən bərabərlik [=], vurma [·], bölmə [:], faiz [%] işarələri dünya xalqları tərəfindən istisnasız başa düşülür. Kompüter texnologiyalarının sürətli inkişafı kompüter klavişlərində bir çox beynəlxalq işarələrin verilməsini zəruri edir. Buna görə də kompüter klavişlərində aşağıdakı işarələrdən istifadə olunur: *$, #, &,^, @,*, <, >* və s.

Dünya nəşriyyat sistemində də beynəlxalq işarələnmə sistemindən istifadə olunur. Məsələn, müxtəlif ölkələrdə nəşr olunan kitabların ilk səhifələrində *c* [copy write] - copi rayt işarəsi müəlliflik hüququnu göstərir. Həmin işarə bütün dünyada nəşriyyat - poliqrafiya işlərində tanınan simvoldur. Bu tipli beynəlxalq işarələr müxtəlif sahələrdə tətbiq olunur.

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində *və* bağlayıcısının əvəzinə çox zaman onu əvəz edən ampersand adlanan [&] işarədən istifadə olunur. Bu işarə latın mənşəlidir, qədim latın yazısında işlən-

mişdir. İngilis dilində bu işarə *disambiguation* və ya *ampersand* adlanır. Latın mənşəli bu işarə loqoqrafik və ideoqrafik mahiyyətlidir. Mənşəcə iki hərfin birləşməsindən yaranmışdır. Qrafika elmində iki hərfin birləşməsi *liqatur* adlanır. Bəzi ehtimallara görə, bu işarə latın əlifbasındakı *E* və *T* hərflərinin birləşməsindən yaranmışdır, çünki latın dilində *et* "və" mənasındadır. Vaxtilə latın yazısında *et* bağlayıcısını ixtisar etmək üçün bu ixtisar forması tətbiq olunmuşdur. Orta əsrlərdə Avropada nəşr olunan bir çox əsərlərdə bu işarədən geniş şəkildə istifadə olunmuşdur. Məsələn, XVIII əsrdə, 1785-ci ildə Londonda nəşr olunan "An essay on punctuation" ["Punktuasiya haqqında esse"] kitabında bu işarənin işlənməsi müşahidə olunur [1, s.147]. Hal-hazırda ingilis yazısında bir çox firma adlarında, abreviaturlarda bu simvoldan istifadə olunur. Yəni latın simvolu ingilis yazısına keçmişdir. Bu simvol artıq beynəlxalq simvola çevrilmişdir.

Durğu işarələrinin həm də semiotik funksiyaları var. Bəzi yazı tiplərində qoşa nöqtə işarəsi xəbərdarlıq anlamı daşıyır. Nida işarəsi bir çox yazı tiplərində xəbərdarlıq anlamını ifadə edir. Məsələn, yol hərəkəti qaydalarında nida işarəsinin funksiyası bu cürdür. Bir sözlə, durğu işarələri polifunksional vəzifə daşıyır. Onlar eyni zamanda üslubi-semantik mahiyyətə malikdir. Yəni durğu işarələrinin, xüsusilə, bədii üslubda məna çalarlarını, mətnaltı mənanı vermək baxımından da funksional imkanları genişdir.

Danışarkən təbii olaraq fasilə veririk, dediklərimizə vurğu əlavə edirik və fikirlərimizi elə formalaşdırırıq ki, dinləyən şəxs çox çətinlik çəkmədən dediklərimizi anlaya bilsin. Yazarkən, bu, bəlkə də daha az intuitivdir və yazılı dilimizə forma verməmizin əsas yolu durğu işarələrindən istifadə etməkdir. Cümlələrə nəzər salaq:

Let's eat, Clare

Vamos comer, Clare.

Let's eat Clare

Vamos comer a Clare. [3].

Durğu işarələrinin fərqli simvollar kimi istifadə olunması hallarına müxtəlif sahələrdə rast gəlinir. Məsələn, beynəlxalq yol hərəkəti işarələri içərisində nida [!] işarəsinə də rast gəlmək mümkündür. Həmin işarə xəbərdaredici işarələr sistemində tətbiq olunur. Həmin işarə yol hərəkəti qaydalarında "diqqətli olmağı, təhlükə, xəbərdarlıq" anlamlarını ifadə edir. Belə ki, beynəlxalq yol hərəkəti, kommunikasiya standartalarında sarı rəngdə üçbucaq işarəsinin içərisində verilən nida işarəsi "təhlükəli yol" anlamını ifadə edir. Yol hərəkəti qaydalarında kvadrat içərisində verilən nida işarəsi isə "digər təhlükələr" mənasındadır. Eyni zamanda, nida işarəsi üçbucaq içində göy rəngdə verilərək ictimai və rəsmi yerlərdə "sakitliyə riayət edin" anlamını da ifadə edir. İnternetdə qara rəngdə üçbucaq işarəsinin içində verilən nida işarəsi isə "redaktə zamanı qeydlər və yaxud yüklənəcək faylın təhlükəli ola biləcəyi ilə bağlı xəbərdarlıq" mənasını ifadə edir.

Nöqtə işarəsi [.] riyaziyyatda vurma əməliyyatını, qoşa nöqtə [:] isə riyaziyyatda bölmə əməlini bildirir. Məlumdur ki, mötərizə işarəsi də riyazi əməliyyatlarda geniş istifadə olunur və əksər dillərdə bu başa düşülür.

Durğu işarələri və mətbəə simvolları da qarışdırılmamalı diqqətlə istifadə olunmalıdır.

Durğu işarələri qrammatikanın bir hissəsi hesab olunur və çox vaxt onlardan düzgün istifadə etmək üçün yaxşı müəyyən edilmiş qaydalara malikdir. Məsələn, qrammatik qaydalara əsasən, nöqtədən sonra gələn hərf böyük hərflə yazılmalı və əlaqələndirici bağlayıcıdan əvvəl vergül qoyulmalıdır.

Digər tərəfdən, mətbəə simvollarının necə və hətta nə vaxt istifadə edilməli olduğuna dair hamı tərəfindən qəbul edilmiş qaydalar olmaya bilər. Ümumiyyətlə, qrammatik resursların çoxu yalnız çox xüsusi şəraitdə tipoqrafik simvolların istifadəsinə icazə verəcək və əks halda yazıçıya onlardan istifadə etməməyi tövsiyə edəcək. [3].

NƏTICƏ

Göründüyü kimi, nida işarəsi yalnız dilçilikdə deyil, digər sahələrdə də tətbiq olunan beynəlxalq işarələr sisteminə daxildir. Ümumiyyətlə, bəzi istisnaları, bəzi fərqlilikləri nəzərə almasaq, durğu işarələrinin əksəriyyəti bütün dillər üçün oxşar və eynidir. Deməli, durğu işarələri ilə beynəlxalq işarələr arasında müəyyən bağlılıq mövcuddur.

ƏDƏBIYYAT SIYAHISI

1. An essay on punctuation. – London: Printed for J.Walter Charring cross, – 1785. –177 p.**(kitab)**
2. https://www.britishcouncil.pt/en/blog/punctuation-marks-english **(online məqalə)**
3. https://www.thesaurus.com/e/grammar/what-are-the-major-punctuation-marks/**(online məqalə)**
4. Veysəlli, F.Y. Semiotika / F.Veysəlli. – Bakı: Mütərcim, – 2010. – 336s. **(kitab)**

EMFATİK OLMAYAN TONUN EMFATİK KONNOTASİYALARI

CƏLİLOVA GÜNEL
Azərbaycan Dillər Universiteti
İngilis dilinin fonetikası
calilova.gunel.y@sabah.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Linqvistik ədəbiyyatda intonasiyanın əsas komponenti olan nüvə tonlarını müxtəlif qruplarda sistemləşdirirlər, bu təsnifatlardan biri və ən geniş yayılanı emfatik və emfatik olmayan nüvə tonları bölgüsüdür. Həmin təsnifata əsasən, alçaqdan qalxan ton emfatik hesab edilmir, o neytral nitqdə danışanın sözünün bitmədiyini, cavab gözləntisi olduğunu, sadalama ifadə edir. Lakin müşahidə və təhlil nəticəsində müəyyən etmək olur ki, situasiyadan asılı olaraq, alçaqdan qalxan ton emfatik çalarlar qazana bilir.

2. AÇAR SÖZLƏR: emfatik nüvə tonları, qalxan ton, səs diapazonu, şkala, taktönü hecalar

3. GIRIŞ

Alçaqdan qalxan ton əsasən dinləyicini söhbətə dəvət edir, bəzən onu fikrini dəyişməyə vadar edir, bəzən məzəmmət edir, bəzən sakitləşdirir, bəzən isə həvəsləndirir. Bu nüvə tonu həm də ehtiyatlı, tədbirli, ikimənalı, inamsız, şübhəli, narazı, incik, acıqlı, karıxmış, skeptik, ibrətverici, inandırıcı, qayğıkeş, nəzakətli, özünə əmin, qayğısız, bəzi hallarda isə özünə inamsız və şübhəli tondur. Bu mənaları nüvə tonu ayrılıqda deyil, müşayiət olunduğu taktönü hecalar, şkala, paralinqvistik vasitələrlə birgə ifadə edir. Bizim təhlillərimin Amerika və Britaniya filmləri ("Mind your Language", "Pymalion", "Mr. President" və s.) üzərində qurulmuşdur və bu araşdırma onu göstərir ki, haqqından danışılan nüvə tonu çox fərqli konnotasiyalar qazana bilir. Qalxan tonun diapazonu genişləndikdə yaxud daraldıqda o, emosional xarakter daşıyır və ittiham, qəzəb, inciklik, məzəmmət, bəzən isə xahiş ifadə edir.

ˈHaven't you ˈgot anything a little ˈmore ˌformal?

Xüsusi qonaqları qarşılamaq üçün "Mind your Language" filmində Cənab Braunun kostyumu kifayət qədər rəsmi olmadığına görə direktor məzəmmətedici tonla ona müraciət edir.

Alçaqdan qalxan ton ümumi suallar üçün xarakterik olsa da, diapazon fərqliliyi empatiya, təsdiqləmə, ciddilik, sərtlik, istehza kimi emfatik çalarlar da yarada bilir. Məsələn, alçaq səviyyəli şkala ilə işlənmiş alçaqdan qalxan ton aşağıdakı cümlələrdə istehza ifadə edir.

→Are you a man of good ˌcharacter ||

→Is five pounds ˌunreasonable ||

→Don't you know your own ˌdaughter //

Nəqli cümlələr qalxan ton ilə tələffüz olunduqda fərqli mənalar yarada bilir. Nəqli cümlələr yüksək səviyyəli taktönü hecalar yaxud yüksək səviyyəli şkala və alçaqdan qalxan tonla tələffüz edildikdə canlı, etirazedici xarakter alır. "Pygmalion" filmindən professor Henrinin anasının nitqindən olan aşağıdakı iki söyləm onun oğlunun evlənməməsinə etirazını ifadə edir.

¯You never fall in love with anyone under forty-ˌfive ||

¯You know what to do if you really ˌloved me, Henry ||

Alçaq səviyyəli şkala və alçaqdan qalxan tonla deyilən nəqli cümlələr dinləyicini fikrini dəyişməyə çağırır.

I →don't need lessons any ˌmore ||

I →mean no ˌharm ||

Alçaqdan qalxan tonun alçaq səviyyəli şkala ilə kombinasiyası məzəmmət ifadə edirsə, yüksək səviyyəli şkala ilə inandırıcı, sakitləşdirici səslənir.

I ¯play ˌstraight for you ||

I ¯washed my hands and face before I ˌcome ||

Göründüyü kimi, əksər dilçilərin qeyri-emfatik, neytral hesab etdikləri nüvə tonu işləndiyi situasiyadan və danışanın niyyətindən asılı olaraq emfatik münasibət ifadə edə bilir.

4. TƏDQIQAT METODU

Tədqiqat işində istifadə olunan metodlar müşahidə, təhlil və eksperiment metodudur. Media diskurs nümunələri üzərində aparılan müşahidə və təhlillər nəticəsində alçaqdan qalxan nüvə tonunun kontekstdən asılı olaraq ifadə etdiyi konnotasiyalar ümumiləşdirilmiş və laborator eksperiment vasitəsilə mülahizələr öz təsdiqini tapmışdır.

5. NƏTICƏ

Tədqiqat nəticəsində belə bir qənaətə gəlinmişdir ki, məna ifadəsində qeyri-verbal ünsiyyət vasitələrinin, xüsusilə də, nüvə tonlarının rolu danılmazdır. Onların söyləmin digər intonasiya komponentləri ilə əlaqəsi nəticəsində ifadə etdiyi münasibət çox fərqli və rəngarəngdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Chen, A. J. Universal and language-specific pe rception of paralinguistic intonational meaning. Ph.D. dissertation, Radboud University Nijmegen. Utrecht: LOT. 2005. – p. 261
2. Chun, D.M. Discourse Intonation in L2: From theory and research to practice. – Santa Barbara: University of California, - 2002. – p. 285
3. Chungmin Lee. Contrastive (Predicate) Topic, Intonation and Scalar Meanings. – Topic and Focus: Crosslinguistic Perspectives on Meaning and Intonation, Springer, - 2006. – pp. 151-175.
4. Daniel P. and Loehr, M.S. Gesture and Intonation. – A Dissertation submitted to the Faculty of the Graduate School of Arts and Sciences of Georgetown University in partial fulfillment of the requirements for the degree of Doctor of Philosophy in Linguistics. – Washington, DC, 2004. – p. 205.
5. Germani Miriam, P. Discourse Intonation and Systematic Functional Phonology. Applied Linguistics J., Vol.13, No.2, - 2011. – pp. 100-113.

DİL TƏMASI FONUNDA DİLLƏRİN HİBRİDLƏŞMƏSİ

AYSEL SOLTANOVA
Bakı Mühəndislik Universiteti
İngilis dili
e-mail: asoltanova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işinin məqsədi dil təması fonunda dildə baş verən fonetik, leksik, qrammatik dəyişikliklərin araşdırılmasından ibarətdir. Dil təması və dil keçidi zəminində nitq vahidlərinin bir dildən digər dilə ötürülməsi selt-ingilis, skandinav - ingilis, ingilis – norman, maori-ingilis dillərinin təması fonunda araşdırılmış və dillərdə baş verən leksik, fonetik dəyişikiliklərin linqvistik hibridizmə yol açması qənaətinə gəlinmişdir. Məruzədə eyni zamanda mənbə dil və hədəf dil daşıyıcıları arasında ünsiyyət mübadiləsi fonunda meydana gələn fərqli cəhətlər araşdırılmışdır.

AÇAR SÖZLƏR: **Dil təması, dil keçidi, hibridizm, bilinqualizm, mənbə dil, hədəf dil.**

GİRİŞ

Dil təması dilçilikdə dillərin bir birinə təsir edərək tarixin müəyyən periodlarında bir dilin müəyyən xüsusiyyətlərinin digər dildəki xüsusiyyətlərlə əvəz olunması ilə nəticələnən dil prosesidir. Dil təması nəticəsində bir mərhələdə baş verən dəyişikliklər növbəti mərhələlərdə dildə digər dəyişikliklərin baş verməsinə səbəb olur ki, Sarah G Thomason bu prosesi "snowball effect" yəni "qar topası effekti" adlandırmışdır [1.s 62].

Müxtəlif növ dil təması müxtəlif növ alınmaların dilə nüfuzuna yol açır. Dil təması və dil keçidi terminləri dilçilikdə qarşılıqdı şəkildə araşdırılsa da bu iki termin bir - birindən tamamilə fərqlənir. Belə ki, bilinquallar çoxdilli mühitdə adətən monolinqual insanlarla ünsiyyət qurur və dilə məqsədyönlü şəkildə digər dil ünsürləri daxil edilmir. Bu sadəcə olaraq cümlədaxili və cümlələrarası dil boşluqlarının doldurulması, fikrin emosionallığını gücləndirmək məqsədli ünsiyyət tərzinin məhsuludur. Dil təması prosesində isə bir dilin leksik, qrammatik, fonetik ünsürləri digər dilə nüfuz edir və bəzən bu prosesin tarixi keçmişini araşdırmaq belə dilçi alimlər üçün çətinlik yaradır. Araşdırmalarda qeyd etdiyimiz kimi proto dillər hər bir dilin baza dili hesab olunur, lakin ailə dillərində tarix boyu baş verən dəyişikliklərin izlərini

tam dəqiqliklə izləmək və bu dillərin qrammatik və fonetik tarixində baş verən hibridləşmə hadisəsini müəyyən etmək uzun, dərin, müqayisəli təhlil və analiz tələb edir. Dil keçidi zamanı ikidilli cəmiyyətlərdə birinci dilin müəyyən əlaməti ikninci dilə ötürülərkən ilk öncə bu sözlərin tələffüzündə özünü göstərir. Buna Selt-İngilis dil əlaqələrini nümunə gətirmək olar. İngilis dili bildiyimiz kimi İngiltərədə yaranmamış və V əsrdə İngiltərəyə bu dil gələn zaman müxtəlif Selt qəbilələri ilə təmasda olmuş, Seltlərin əksəriyyəti qalib German xalqlarının dilini mənimsəmiş və nəticədə günümüzdə belə İngiltərənin müxtəlif bölgələrində rast gəlinən fərqli tələffüz xüsusiyyətləri meydana gəlmişdir. Digər misal kimi Avstraliya aborigenlərinin standart Avstraliya dilinə təsirini də nümunə gətirmək olar. Bəs yerli əhalinin yenicərilərin dilini mənimsəməsi zamanı dildə hansı xüsusiyyətlər baş verir? Bu zaman ingilis - norman dil təmasında olduğu kimi ingilis dilinin öz prestijini itirərək fransız dilinin təsirinə düşməsini nümunə gətirmək olar. Nəticə etibarı ilə dilə yeni alınmalar axın edir və eyni zamanda dildə leksik dəyişikliklər müşahidə olunur . Daha sonralar Skandinaviyanın təcavüzü nəticəsində ingilis dilinə çoxsaylı sözlər daxil olmağa başladı, lakin fransız dilindən fərqli olaraq skandinav və ingilis dillərinin nüfuzunun bərabərliyi ingilis dilinə ötürülən alınmaların da sayını kəskin şəkildə artırdı. Misal üçün *lie, die, get, give, fellow* ingilis dilinin aktiv söz bazasına aid olan leksik vahidlər ingilis dilinə skandinav dilindən keçmişdir. [3.s 86]

Mənbə dil daşıyıcısı hədəf dilə müəyyən ifadələr ötürür və əgər bu ötürülən ifadələr hədəf dil daşıyıcıları tərəfindən də istifadə olunmağa başlayarsa bu artıq dil təmasına çevrilir ki, nəticədə dilə alınma sözlər ötürülür. Hədəf dil daşıyıcısı bir dildə danışdığı üçün bu proses dil keçidi hadisəsi zamanı deyil , məhz hər iki tərəfin bilinqual və multilinqual olduğu dil təması zamanı baş verir. Misal üçün Tanzaniyada yaşayan əhali ünsiyyət vasitəsi olan Ma dilinin səssiz frikativ *l* samitini bilinqual mühitdə Bantu dilinə ötürmüşlər [1.s 134].

Dil keçidi zamanı diqqətimiz cəlb edən növbəti məqam bu prosesin hibridləşməyə təkan verməsi faktıdır. Yeni Zelandiya sakilərinin Maori nitqində çoxsaylı Maori və İngilis hibridlərinə rast gəlinir. Dil keçidi nəticəsində kökü ingilis dilindən alınan *inject* sözü Maora dilindən götürülmüş *ngia* şəkilçisi ilə birləşmiş, nəticədə *injectngia* məchul növdə olan *yeridilmək* sözü formalaşmışdır. Beləliklə dil keçidi nəticəsində sözdaxili hibridləşmə prosesi baş vermişdir.[1.s135] Bu prosesin digər adını müəllif Thomason "leksik innovasiya" adlandırmışdır. Belə ki, dil keçidi nəticəsində dilə daxil olan sözün ekvivalenti hədəf dildə mövcud deyilsə söz ümumişləkləşərək dilə nüfuz edir. Əgər sözün ekvivalenti dildə mövcuddursa o zaman dil daşıyıcılarının seçimi ilə dildə işlənməyə başlayır. Dil keçidi həmçinin təmas dillərin qrammatik strukturuna da təsir edir. Misal üçün Maori dilində bağlayıcı daha mürəkkəb formaya malik olduğundan ingilis dilindən "and" bağlayıcısını dilə ötürmüşlər. Digər nümunəyə nəzər salaq. Amerikan ingiliscəsini Afro Amerikan xalq dili haqda heç bir məlumatı olmayan mənbə dil daşıyıcılarının bu dilin qrammatik strukturu və leksik vahidlərini öz dillərinə ötürmələri nəticəsində dili Afro - Amerikan xalq dilninə məxsus ifadələrlə zənginləşdirmişlər. Belə ki, dil əsasən bəzi kiçik şəhərlərdə, alt mədəniyyətə məxsus ərazilərdə, islahetmə və penitensiar müəssisələrdə danışıq dili olaraq istifadə olunsa da ağ dərili məhbuslar üçün bu dildə danışmaq onlar üçün həyati təhlükə daşıyırdı. Misal üçün, *hittin'*- çox yaxşı, *dude buggin'*-dəli kimi davranmaq, *strapped*-silahlanmaq, *well off*- maddi baxımdan imkanı olmaq mənasını verən bu ara sözləri, polis sözünün vurğusunun birinci hecaya düşməsi kimi leksik infuziya ağ dərili məhbusların da nitqində üstünlük təşkil etməyə başldı. Belə ki, Birinci dil daşıyıcıları ikinci dil daşıyıcılarının dilini mənimsəmir, ünsiyyət prosesində onları sadəcə olaraq dinləyir və eşidirlər. Zamanla birinci dil daşıyıcıları ikinci dil daşıyıcıları ilə ünsiyytə qoşulur, hədəf dillə passiv tanışlıq mənbə dilə yeniliklər gətirir və onun xüsusiyyətləri dəyişir. Nəticədə hədəf dilin bəzi xüsusiyyətlərini qəbul etməyən yerli dil daşıyıcıları üçüncü dil daşıyıcılarına çevrilirlər.

TƏDQİQAT METODU

Dəyişən dilin öncəki tarixi xüsusiyyətlərini araşdırmaq üçün bir neçə metodlardan istifadə edilir. Onlardan biri və ən mühümü müqayisəli metoddur ki, bu metod vasitəsilə əsas dilin xüsusiyyətləri ilə ondan törəyən dillərin xüsusiyyətləri arasında müqayisələr aparılmış və dildə baş verən dəyişikliklərin əsas səbəbi kimi dillərin təması göstərilmişdir. Hətta dil bölgüsü prosesindən əvvəl belə bu təmas əsas dilin müəyyən xüsusiyyətlərinin dəyişməsinə təkan verib.

NƏTİCƏ

Tədqiqatın gəldiyi qənaətə görə zamanla dil boşluqlarının doldurulması və ehtiyac zəminində biliqual-monolinqual ünsiyyətinin təsiri nəticəsində dilə axan yeni nitq vahidləri təmas dillərin fonetik, leksik və qrammatik tərkibinin dəyişməsinə əhəmiyyətli dərəcədə təsir edərək hibrid nümunələrin formalaşmasına zəmin yaradır.

ƏDƏBİYYAT SİYAHISI
1. Sarah Grey Thomason: "Language contact" (Kitab) EDINBURGH UNIVERSITY PRESS. 2001.
2. Sarah G. Thomason: SOCIAL AND LINGUISTIC FACTORS AS PREDICTORS OF CONTACT-INDUCED CHANGE, University of Michigan. (Jurnal məqaləsi) Journal of language contact — THEMA 2 (2008) www. jlc-journal.org
3. Kate Burridge: BLOOMING ENGLISH (Kitab) "Observations on the roots, cultivation, and hybrids of the English language". Cambridge University Press. 2002-2004

İNGİLİS DİLİNDƏ ŞƏKİLÇİLƏR SİSTEMİNİN XARAKTERİSTİKASI

PƏRVİNƏ KƏRİMOVA
Bakı Mühəndislik Universiteti
Pedaqoji/ Xarici Dillər Kafedrası
pveliyeva@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Tezis şəkilçilərin tədqiqinə həsr edilmişdir. Burada müasir ingilis dilinin leksik sistemində şəkilçilər vasitəsilə nominal qəliblər yaradan şəkilçilər təhlil edilir və etimoloji cəhətdən araşdırılır. Təqdim olunan məlumatlardan söz yaradıcılığının praktiki öyrənilməsində və tədrisində yardım kimi istifadə oluna bilər.
1. AÇAR SÖZLƏR: terminal şəkilçilər-1, şəkilçi sxemləri-2, şəkilçi modelləri-3, sözdüzəltmə-4

GİRİŞ

İnsan fəaliyyətinin bütün sahələrində yeniliklər yeni söz və ifadələrlə zənginləşir. Bütün digər dillərdə olduğu kimi ingilis dilində də dilin lüğət ehtiyatı artır. Bu cəhət, ilk növbədə, elmin, texnikanın, incəsənətin inkişafı ilə bağlıdır. Dilin lüğət tərkibinin zənginləşməsində əsas yer söz yaradıcılığına aiddir. Məhz buna görə də dildə mövcud olan vasitələr yeni sözlərin əmələ gəlməsində fəal iştirak edir və bu prosesi həyata keçirir.

TƏDQİQAT METODU

İngilis dilində şəkilçilər ya bilavasitə kökə (read-reader), ya da əsasa və şəkilçilər sırasına qoşula bilər (faith+faithful-faithfulness).

İngilis dilinin suffikslər sistemində omonim şəkilçilər də vardır. Məsələn, *-al (educational), -al (arrival), -an (republican), -an (politician), -ant (desendant), -ant (servant), -ary (greenery), -ary (legendary), -ate (initimidate), -ate (candidate), -en (darken), -en (wooden), -en (kitten).*

İngilis dilindəki suffikslər sisteminin bir əsas xüsusiyyəti də ondan ibarətdir ki, şəkilçilər əsasa qoşularkən daha azad və sərbəstdirlər. Hətta müəyyən model çərçivəsində belə sərbəstlik çoxdur. Məhz buna görə çox geniş, ümumiləşdirilmiş mənası olan leksik vahidlər ingilis dilində geniş yayılıb. Beləliklə, ingilis dilinin şəkilçiləri əsasa qoşulmaq xüsusiyyətinə görə digər dillərdən fərqlənir.

Başqa xarakterik xüsusiyyətlərdən biri də odur ki, ingilis dilinin şəkilçilər sistemində obyektiv-kvalifikativ əlamətli şəkilçilər, həmçinin böyütmə mənalı şəkilçilər yoxdur. Kiçiltmə, əzizləmə mənalı şəkilçilər isə çox azdır. Əvəzində «little» sifətindən çox istifadə olunur: "She had the most delightful little voice, the gayest little laugh." və s. Bəzən isə «baby» ismindən istifadə olunur*: baby fly, baby camel.*

Terminal şəkilçilər

Yuxarıda deyildiyi kimi şəkilçilər arasında olan fərqlərdən biri onların terminal yaxud qeyri-terminal olmasıdır.

Şəkilçilərin əksəriyyəti qeyri-terminaldır, yəni özündən sonra digər şəkilçilərin artırılmasına mane olmur *(reader-readership).* Bəzi şəkiçilər isə sözdə yalnız vəziyyətdə olur və digər şəkilçiləri özünə qoşmur.

Məsələn, «brotherhood» sözünə hər hansı digər şəkilçinin qoşulması mümkün deyil. Terminal şəkilçilər aşağıdakılardır:

- al (arrival) gəlib çatma
-ana (Americana) Amerika mədəniyyetinə və incəsənətinə aid nəşrlər
-enne (tragedienne) tragediya aktrisası
-ese (Japanese) yapon
-ess (lioness) dişi şir
-ful (handful) əlidolu
-hood (childhood) uşaqlıq
-ing (scholling) təhsil
-kin (lambkin) quzu
-let (droplet) damcı
-linq (duckling) ördək balası
-ness (happiness) xoşbəxtlik
-ship (hardship) çətinlik
-um (pendulum) kəfkir
-us (polypus, polip) selikli qişada əmələ gələn şiş

Onu da qeyd etmək lazımdır ki, terminal şəkilçilər müəyyən semantik qruplara bölünürlər. Məsələn: -al, -hood, -ness, -ship sufiksləri mücərrəd isimləri yaradır: *arrival, brotherhood, seriousness, friendship.*
-kin, -let, -ling şəkilçiləri isə kiçiltmə mənasını verir: *lambkin, droplet, duckling* [1,70].
Qadın cinsli adam və heyvanları bildirən - enne, -ess şəkilçiləri də terminaldır. Bu şəkilçilərlə bitən sözlər növbəti sözdüzəltmə prosesində iştirak etmirlər. Kişi cinsini bildirmək üçün paralel isimlərdən istifadə olunur: *citizen - citizenry- citizenship.*

Şəkilçilərə aid digər xüsusiyyət odur ki, bəzi leksik vahidlər şəkilçi kimi də işlənə bilir. Məsələn: *load, wide, strong, fold, some, like, under* kimi sözlər digər sözlərə qoşulmaqla şəkilçi rolunda çıxış edirlər: *busload*-avtobus dolu, *nationwide*- ümumxalq, *fivefold*-beş qat.
Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, ingilis dilindən fərqli olaraq azərbaycan dilində ismi şəkilçilər daha geniş şəkildə işlənir [2 ; 2].

Şəkilçi sxemləri və modelləri

İngilis dilinin şəkilçilər sistemini təsvir etmək üçün şəkilçi sxemləri və modellərini xüsusi qeyd etmək lazımdır. Bu sxemlər sözdüzəltmə prosesində hansı nitq hissələrinin məhsuldar iştirakını müəyyən etməyə, həmçinin nəyin törədən və nəyin törəmə olduğunu ayırd etməyə imkan yaradır [3, 75].
İngilis dilində sözdüzəltmənin prinsipləri ilə məşğul olan dilçi alimlər adı çəkilən sxemləri bir qayda olaraq dəyişən və dəyişməyən olmaqla iki qrupa bölürlər [1, 90]. Dəyişən sxemlərdə törədən nitq hissəsi törəmə nitq hissəsindən fərqlənir. Daha dəqiq bir nitq hissəsi müəyyən şəkilçi artırmaqla digər nitq hissəsinə çevrilir. Dəyişməyən sxem və modellərdə isə sözdüzəltmə prosesində eyni nitq hissəsi iştirak edir [4; 36].**NƏTİCƏ**

Müasir ingilis dilinin leksik sistemində şəkilçilər vasitəsilə sözdüzəltmənin böyük əhəmiyyəti vardır. İngilis dilində şəkilçili modellər özlərinin xarakterik cəhətləri ilə fərqlənirlər. Bu şəkilçilərin kökə və ya şəkilçilər sırasına birləşə bilməsi, terminal və yaxud qeyri-terminal olması, dəyişən və ya dəyişməyən sxemlərə sahib olması ilə fərqlənərək sözdüzəltmədə böyuk əhəmiyyət kəsb edirlər.

ƏDƏBİYYAT SİYAHISI

1. Иванова И. П. Структура английского имени существенного.М., 1975.
2. Cəfərov S. Azərbaycan dilinin leksikası. Bakı,1958.
3. Mathews. Morphology. Cambridge, 1974.
4. Flower H. Modern English Usage. Oxford, 1970.

İSTEHZANIN LİNQVİSTİK İFADƏ VASİTƏLƏRİ

BAĞIRLI SAMIRƏ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya Fakültəsi
ms.samira.9292@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dilçilikdə istehzanın rolu haqqında müxtəlif fikirlər var. Bu məqalədə bu mövzuda tədqiqat aparan alimlərin müxtəlif fikirləri nəzərdən keçiriləcək. Müasir dilçilikdə istehza haqqında çoxlu fikirlər olduğunu görürük. İstehzanın növlərinin müasir təsnifatına nəzər salaq. İstehza mətn, konseptual, assosiativ ola bilər. İstehza ifadə edən dil vasitələrinin əsas təsnifat xüsusiyyəti onların dil quruluşunun müxtəlif səviyyələrinə aid olmasıdır. Bu zaman düzgün təşkil olunmuş kontekst ünsiyyət tapşırığı ilə yanaşı mətnin ironik semantik strukturunu da müəyyən edir. Mətni yaradan istehza dilin müxtəlif səviyyələrində müxtəlif dil vasitələri ilə ifadə olunur. Bu təsnifatı bir çox alimlər araşdırmışdır: O.P.Ermakova, S.İ.Poxodnya, Yu.V. Kamenskaya. Bəzi elm adamları istehzanın özünəməxsus xüsusiyyətlərinin olduğuna inanır, bəziləri isə bunun əksini bildirir. Araşdırmalarımıza əsasən belə qənaətə gəlmək olar ki, istehza müasir dilçilikdə xüsusi yer tutur.

AÇAR SÖZLƏR: ISTEHZA, DILÇILIK, DIL, ISTEHZANIN NÖVLƏRI.

GIRIŞ

İstehzada əsl məna gizlənir və ya aşkar mənaya ziddir. İstehza sözlərin mənfi ifadəsidir. İstehzada müsbət fikirlər mənfi məna daşıyır. İstehzanın əsas təsiri qiymətləndirmə komponentini dəyişdirməkdir: müsbət qiymətləndirmə qəsdən mənfi dəyərə çevrilir. Məsələn, hər hansı bir şəxsi bilərəkdən yüksək səslə tərifləmək ironik sayılır [1, s. 128]

O.P.Ermakova "İstehza və onun dil həyatında rolu" əsərində istehzanı birbaşa qiymətləndirmir, əksinə, onu müxtəlif texnika və üslub vasitələri ilə müqayisə edir. İstehza və metafora arasında müqayisəni vurğulayır. Çünki tədqiqatçının fikrincə, onların hər ikisinin bir çox oxşar xüsusiyyətləri var. O.P.Ermakova deyir ki, istehza sözün hərfi mənasının tərsinə çevrilməsində özünü göstərir. Belə bir semantik ziddiyyət şifahi istehza ilə metaforanı müqayisə etmək hüququ verir. Amma metafora qiymətləndirməsində üzə çıxır, söz hərfi mənada işlənir və məcazi məna başqa mənalar daşıyır.

O.P.Ermakova istehzanı başqa maska, üz tələb edən aldatma adlandırır: axmaq, alçaq, narahat, müdrik. Qeyd etmək lazımdır ki, O.P.Ermakova deyir ki, istehza dialoq tələb etmir. Birbaşa dialoq olmadan nitqlə təqdim edilə bilər. Beləliklə, məsələn, əsərin müəllifi öz xarakterlərinə, düşüncələrinə, hərəkətlərinə ironik qiymət verə bilər. Sadə zarafatla istehza arasındakı əsas fərq budur. Zarafat həmişə dialoq, birbaşa söhbət tələb edir. [5, s. 15].

E.V. Martyanova deyir ki, istehzadan istifadə həm daxili, həm də xarici dil amillərindən qaynaqlanır. Komik effekt ilk növbədə ünvana yönəlib. Beləliklə, birbaşa mənfi qiymətləndirmə qəbuledilməzdir və buna görə də ironik bəyanatla əvəz olunur. Alim əvvəlcə istehzanın kommunikativ tərəfini nəzərdən keçirir. Birbaşa ünsiyyət kontekstində ünvançı xarici linqvistik amillərdən asılıdır. Bununla belə, mətn ünsiyyəti daxili, şəxsi motivlərdən asılılığı nəzərdə tutur.

E.V.Martyanovun fikrinə əsasən deyə bilərik ki, istehzanın əsas məqsədlərindən biri ünsiyyət məqsədinə çatmaqdır. O, nitq aktının əsas komponentinə çevrilir, ideyanı istehza ilə ünvana çatdırır. İstehza odur ki, o, canlı, özünəməxsus təsirlə ünvanlananın fikrinə təsir edə bilir, onun dünyagörüşünü dəyişdirə biləcək canlı, orijinal nitq forması tapmağa çalışır. Alim vurğulayır ki, istehza baş verənlərə dolayı qiymət vermək vasitəsi adlandırıla bilər. Amma bu qiymətləndirmə həmişə mənfi olacaq. [2, s. 28]

O.N.Telyatnikova qeyd edir ki, istehza və sarkazm yumor və satiranın təsviri və ifadəli vasitəsi kimi çıxış edə bilər. [6, s. 11]. Bir çox tədqiqatçılar istehzanı xüsusi kateqoriya adlandırmış və istehzanı komik bir forma kimi qiymətləndirmişlər. V.M. Pivoyev istehzanın tədqiqinə fəlsəfi nöqteyi-nəzərdən yanaşır. Onu epik, əxlaqi kateqoriya kimi müəyyənləşdirir. Tədqiqatçının fikrincə, istehza, şübhəsiz ki, komiksin bir növüdür və ümumiyyətlə, mədəni bir hadisədir. Alim istehzanı qədim zamanlardan müasir dövrə qədər tarixi kontekstdə nəzərdən keçirir. Tarixin hər bir dövründə istehza xüsusi məna kəsb etmiş, insanların şüurunda xüsusi rol oynamışdır. Pivoyev yazır: "Biz ironik münasibəti ilk olaraq ironik subyektin şüurunda baş verən proses hesab edirik. Daha sonra müəyyən spesifik ifadə formalarında obyektivləşdirilir və istehza

obyektin və ya üçüncü şəxsin dərk edilməsi prosesində başa çatır"[5, s. 20]. Yəni tədqiqatçının fikrincə, istehza yalnız formalaşmasının müəyyən mərhələsində müqayisə oluna bilər. İstehza estetik kateqoriya kimi daha geniş funksiya və xüsusiyyətlərə malikdir. İstehza "mürəkkəb dil və psixi fenomen" hesab olunur. İstehza əsərdə qeyd olunan istənilən problemə və mövzuya müəllifin tənqidi münasibətini ifadə edir. Ona görə də o, təkcə dilin təsviri elementi deyil, həm də yazıçının dünyagörüşünün elementlərindən biridir. [4, s. 4]

İstehza yaratma vasitələri çoxşaxəlidir və linqvistik quruluş səviyyələrinə aid olmasına görə istehza ifadə vasitələrinin təsnifatı mövcuddur. Birinci səviyyə dilin fonetik səviyyəsidir ki, bu da fonetik vasitələrə xas olan istehza yaradır. Bu səviyyə şifahi ifadə üçün xarakterikdir, o zaman danışanın intonasiyası müəyyən bir stilistik qəbulun mövcudluğunu hiss etməyə kömək edir. Bu zaman prosodik vasitələr əsas rol oynayır və istehza yaradan müstəqil vasitə kimi seçilir [3, s. 99]. Məsələn, istehza ifadə etmək üçün o, intonasiyanı dəyişir, ifadənin ən vacib hissəsindən əvvəl pauza edir.

Leksik səviyyədə istehza yaratmaq üçün leksik və semantik vasitələri ayırmaq lazımdır (sözlər üzərində oyun yaratmaq üçün omonimiya və polisemiyadan istifadə, təsvir edilənə realın leksik qarşıdurması, antitezis, xüsusi adların istifadəsi) və ironik söz yaradıcılığı.

Sintaktik səviyyə istehza yaratmaq məntiqi-sintaktik vasitələrdən (təkrarlar, ritorik suallar, dolayı nitq, müəllifin ümumiləşdirilməsi, gradasiya, sintaktik söz oyunu, uydurma nidalar, bağlamalar, sadalamalar, giriş konstruksiyaları) və intonasiya-qrafik vasitələrdən (ellipslərdən istifadə, sitat) ibarətdir. Müasir dilçilikdə ironiyanın şərti haqqında çoxlu fikirlər olduğunu görürük. İroniya hərfi mənada vəziyyət və ya üslub adlanır. İroniya mətn, konseptual və assosiativ ola bilər. Mətni yaradan ironiya dilin müxtəlif səviyyələrində müxtəlif dil vasitələri ilə ifadə olunur. Bir çox alimlər bu təsnifata əməl edirlər: O.P.Ermakova, S.I.Poxodnya, Yu.V. Kamenskaya. O.P.Ermakova ironiya ilə mətn arasındakı fərqdən danışarkən qeyd edir ki, ironiya mətn müxtəlifliyində yazılmaq və təsnif etmək çətindir, şifahi olan isə bilavasitə leksik semantika ilə bağlıdır. Bununla belə, hər iki növ eyni xüsusiyyətlərə malikdir. Onlar açıq, xoş, yumoristik və ya gizli, qəzəbli və yumoristik ola bilər.

İroniyanın formalaşması ifadənin kommunikativ istiqamətinə də aiddir. İroniya ifadə edən dil vasitələrinin əsas təsnifat xüsusiyyəti onların dil quruluşunun müxtəlif səviyyələrinə aid olmasıdır. Bu zaman düzgün təşkil olunmuş kontekst ünsiyyət vəzifəsi ilə birlikdə mətnin ironik semantik strukturunu müəyyən edir. Tədqiqatçı M.E.Lazareva dil strukturunun səviyyələrini nəzərə alaraq istehza ifadə edən dil vasitələrinin təsnifatını aşağıdakı cədvəldə ümumiləşdirir [3, s. 116].

Alimin fikrincə, istehza həmişə ilkin mənasını dərk etmək məqsədi daşıyır. Bu axtarış mətn və şifahi tiplərin əsas hədəfidir [5, s. 2] S.İ. Poxodnya istehza mövzusunu mətn səviyyəsində tədqiq edən ilk tədqiqatçıdır. O, istehzanın şərti və assosiativ formalarını ilk dəfə fərqləndirmişdir. Şərti tip ən çox xətti mətndə təmsil olunur. Leksik və sintaktik dil vasitələrinin (sözlər, ifadələr və sintaktik strukturlar) köməyi ilə ironiya yaradılmasını nəzərdə tutur. Bu tip mətndə dərhal görünür, oxucu onu dərhal görür. Assosiativ tiplər bütün bədii mətn boyu davam edə biləcək uzun inkişaf və izahat tələb edir. Məhz bu xarakter tipi obrazlar yarada bilir, müəllifin düşüncələrini, baş verənlərə münasibətini əks etdirir. Tədqiqatçılar vurğulayırlar ki, bu tip fonetikadan tutmuş mətnə qədər bütün dil səviyyələrində yaradıla bilər.

İ.B. Şatunovski istehza növlərinin ətraflı təsnifatını təsnif etdi. Tədqiqatçı istehzanı linqvistik semiotik vasitə adlandırır və onun dildə kifayət qədər vasitələrin olmamasından qaynaqlandığını hesab edir. İ.B. Şatunovski istehzanın doqquz əsas növünü müəyyən etmişdir. Onun təsnifatının əsasını ironiya və ironik ifadəyə səbəb olan stimulun özünün həqiqət və yalan olması prinsipi təşkil edir.

1. TƏDQIQAT METODU

Bu yazıda tarixi və təsviri üsullardan istifadə etdik. Burada dilin tarixi fonundan danışdıq. Bundan əlavə, istehzanın linqvistik ifadə vasitələrini təsvir etmək üçün təsviri üsuldan istifadə etdik.

5. **NƏTICƏ**

Araşdırmamız əsasında belə qənaətə gəlmək olar ki, müasir dilçilikdə istehza xüsusi yer tutur. Tədqiqatçılar istehzanın qəti tərifini verə bilmirlər. Dilçilikdə istehzanın yeri ilə bağlı mübahisələrdə tədqiqatçılar hələ də ortaq fikrə gələ bilmirlər. Məncə, istehza özünün ifadə vasitələrinə malik olan və onu ifadə edə bilən kateqoriyadır.

Həmçinin dilçilikdə istehza üzərində istehza anlayışı - trop və ironiya - mənası arasında fərq vardır [6, s. 271]. Qeyd etmək lazımdır ki, ironiyanın deşifrə edilməsinin özəlliyi ondan ibarətdir ki, alıcı istehzanı onun ifadə forması və linqvistik formadan irəli gələn məna ilə deyil, onda yaranan, bu məna ilə müşayiət olunan hissdən başa düşür. Bu fenomenin tərifinə bu cür yanaşma ən maraqlı görünür, çünki istehzanın təsiri olan hisslər, obrazlar əsasında yaranan istehzanın ifadə formasını müəyyən etmək həmişə mümkün olmur.

ƏDƏBIYYAT SIYAHISI
1.Attardo, Salvatore. "Irony as relevant inappropriateness." *Journal of pragmatics* 32.6 (2000): 793-826.
2. Арнольд И.В. Стилистика. Современный английский язык. – М., 2002. 383 с.
3. Messa, Luciana, Elizeu Batista Borloti, and Ana Cristina Carmelino. "Linguistics and Behaviour Analysis in the Functional Conceptualization of Verbal Irony." *European Journal of Child development, Education and Psychopathology* 2.3 (2014): 97-121.
4. Печенихина Е. А. Языковые выражения иронии в произведениях Ж.М. Эсы Кейроша, М., 2010.
5. Пивоев В. М. Ирония как феномен культуры, Петразоводск, 2000
6.Varankina E.A. LANGUAGE MEANS AND METHODS OF EXPRESSION OF IRONY (THEORETICAL ASPECT) // International student scientific bulletin. - 2015. - No. 5-3.

İNGİLİSDİLLİ AZƏRBAYCAN ŞAİRİ REZA BƏRAHƏNİ YARADICILIĞI VƏ ANA DİLİ MƏFHUMU

NARGİLƏ BEHCƏT
Bakı Mühəndislik Universiteti
Pedaqoji Fakültə/İngilis dili kafedrası
nargilabehjat@gmail.com
BAKI, AZƏRBAYCAN

“The night is like a day on the other side of the bars On this side of the day is like the night”(1)
(Dəmir barmaqlıqların o tayında gecə gündüz kimi, bu tayında isə gündüz belə gecədir.)

Azadlığın necə əlahiddə nemət olmasının qaranlıq gecə və aydınlıq gündüz ilə müqayisə olunduğu bu misralar ingilisdilli Azərbaycan şairi Reza Bərahəni qələmindən süzülmüşdür.
Reza Bərahəni 1935-ci ildə Təbrizdə farsca bilməyən kasıb bir azərbaycanlı ailəsində dünyaya göz açmışdı. O həyatı boyu fars istismarına məruz qalan azərbaycanlıların milli mənəvi haqları uğrunda mübarizə aparıb. Onun bu qəlibdən mübariz ruhlu olması hələ erkən yaşlarında qohumlarının maddi dəstəyi ilə fars məktəbində oxuduğu illərdə özünü biruzə vermişdi. Şair bir müsahibəsində xüsusilə belə vurğulayır: “Məktəbdə oxuduğum ilk illərdə sinifdə, hətta uşaqlarla olan dava-dalaşlarımızda belə Azərbaycan dilində danışırdıq. Həmin illərdə məktəb qəzeti hazırlayırdım. Mövzuları Azərbaycan dilində hazırladığım üçün məktəbin müdir müavini bu işi başqa farsca bilən şagirdə tapşırdı və tənbeh etdi ki, qəzeti fars dilində yazaq. Bir gün bu hadisəni evdə anama danışdım və anam mənə “oğul, Azərbaycan dilində yaz” söylədi. Mən növbəti gün Azərbaycan dilində mövzular tapıb, qəzet hazırlayıb, məktəbin sərlövhəsində -farsca olan qəzetin yanına asdım. Müdir müavini isə onu qopardı”. Başqa bir müsahibəsində isə qeyd edir: “Altı yaşım olanda türkcə yazmışdım. Müəllim məni kağızı yalamağa və udmağa məcbur etdi. Eyni zamanda ana dilimi də uddum”.(2)
Reza Bərahəninin keşməkeşli həyatı azərbaycanlıların İran toplumunda milli-mədəni, mənəvi-psixoloji təzyiqlərə, ayrı-seçkiliyə məruz qalmasının bariz nümunəsidir. Şair Bərahəni Təbriz Universiteti ingilis dili və ədəbiyyatı ixtisasından məzun olub. Türkiyədə ədəbiyyat üzrə doktorluq dərəcəsi əldə etdikdən sonra Tehrana qayıdaraq orada professor köməkçisi kimi işləyib. İngilis ədəbiyyatı ixtisası üzrə uğurlu mütəxəssis olmasına baxmayaraq Tehranda işlədiyi müddətdə milli mənsubiyyəti səbəbindən bilavasitə yaradılan süni maneələr onun akademik mühitdə irəliləməsinə əngəl yaratmışdı. Əfsuslar olsun ki, məlum səbəblərlə əlaqəli savadlı mütəxəssis olmasına baxmayaraq karyerasında yüksəlməsinə icazə verilməyib.
İran dövlətində universitetdə professor köməkçisi vəzifəsindən daha yüksək “post” tuta bilməyən şairin mühacirətindən sonra Kanadada “PEN” ədəbi məclisinə rəhbərlik etməsi, Amerikanın və Kanadanın müxtəlif universitetlərində mühazirələr verməsi Bərahəni karyerasına iransayağı qeyri-şəffaf və subyektiv münasibəti məsxərəyə çevirmişdi.

Bərahəni müsahibələrində, şeirlərində və çıxışlarında apaçıq hiss olunur ki, o İranda yaşadığı müddətdə ana dilində yazıb-oxumağın, ana dilini hürr şəkildə istifadə etməyin xiffətini çəkib. O məktəbdə tədris dilinin ailəsindən öyrəndiyi danışıq dilindən fərqlənməsini və bu fərqə olan məcburiyyətini faciə adlandırırdı. Bərahəni müsahibələrinin birində qeyd edir: "Mən düşünürəm ki, İranda farsca alınan təhsil ümumən ana ilə uşağın əlaqəsini qırır. Çünki anadan öyrənilən dildə ana ilə uşaqlar arasında duyğu, məhəbbət, yaxınlıq olur və insan elə ki, başqa dildə bilik qazanmağa başlayır, həmin dili və yaxınlığı unudub, necə deyərlər, başqa dilin çərçivəsinə girir".(2)

Beş dildə sərbəst danışıb, yazıb yaradan ədib tədris dilinin ailədə danışıq dilindən zorakı şəkildə fərqli olmasının insanın ailə istiqanlılığından uzaqlaşması, ruhi və psixoloji mühitdən ayrılması ilə nəticələndiyini iddia edirdi. Bu mənəvi boşluğu "özünə yabançı olmaq", "özündən uzaqlaşmaq" adlandırır, həmin boşluğu isə ən yaxşı halda yazmaqla, ədəbiyyatla doldurmağın mümkünlüyünü vurğulayırdı. Bunun nəticəsidir ki, həm Bərahəni, həm də onun Qulamhüseyn Saidi kimi qələmdaşları pyeslərində, xüsusilə azərbaycanlı obrazlarına yer veriblər.

Millətinə olan sevgisi və bağlılığı təkcə akademik maneələrlə deyil, həmçinin zindan həyatı bahasına başa gəlib. Əsassız şəkildə dəfələrlə İranın tiran hökuməti tərəfindən həbs olunan şair məhbus illərində belə nə ədəbi mühitindən, nə də milli mənsubiyyətindən uzaqlaşıb. Həbsdə olduğu müddətdə yazdığı şeirlər barəsində sonradan mühacirət dövründə dostlarının təkidi ilə dərc etdirdiyi kitabın ön söz hissəsində belə qeyd edir: "Bu şeirlər kitabımın nəşr olunmasında dostlarım Paul Engle və Hualing Neil Englin əvəzsiz mənəvi dəstəyi mühüm rol oynayır. Düşünürəm ki, Englin dostluğu mənim məhbus həyatımda keçirdiyim ağrılı illərin kompensasiyasıdır. Onlar, həmçinin ailəmin və mənim Amerikaya köçməyinə dəstək olmuşdular. İki şeirimdən başqa qalan şeirlərimi Amerikaya səyahət zamanı yazmışam. Həmin o iki şeir - "The Dove" ("Göyərçin"), "The light of Home" ("Ev işığı") şeirlərini həbsdə olarkən dırnaqlarımla divara cızaraq yazmışam. Şeirin misralarını divarlara cızıb, həmin misraları əzbərləyib, nəzarətçilərə tutulmamaq üçün silirdim. Misraları dustaq yoldaşlarım da əzbərləyib, digər yoldaşlara ötürürdü." (1)

Reza Bərahəni bütün çıxışlarında, müsahibələrində dil mövzusundan yan keçməyib. O hesab edirdi ki, ana dilində yazmaq, baş verənləri ədəbiyyata şərh etmək və xüsusilə öz dilində yazmaq elə inqilab deməkdir. Ədibin nəzdində inqilab təkcə silah götürüb meydanda vuruşmaq, mübarizə aparmaq deyildir. Şairə görə, dünya ədəbiyyatında mövcud yazı üslublarından, ədəbi kontekstlərdən istifadə edərək ana dilində milli ədəbiyyatda ərsəyə gətirdiyin bir yazı elə inqilabın özüdür. Bərahəni digər dillərdə yazıb-yaratmağa qətiyyən qarşı çıxmayıb. Əksinə öz yazılarını ingilis, fransız dillərinə tərcümə etdirmiş və hətta həmin dillərdə bilavasitə ədəbi yaradıcılıqla məşğul olmuşdu. Bir çıxışında aydın şəkildə qeyd edir: "Mən neçədilli olmağı müsbət mənada önə çəkirəm. İnsan sivil dünya ilə ayaqlaşa, dünyada nə baş verdiyini görə, hər yerdən öyrənə və özünü gücləndirə bilər. Bu zaman onun hər hansı dildə yazması mümkündür, amma yaxşı olar ki, ana dilində yazsın. Bizi bundan məhrum ediblər, amma biz qoymamalıyıq ki, bizdən sonra gələnlərə bunu etsinlər".(2)

Şairin zehnini hər zaman məşğul edən dil problemi İranda azərbaycanlıların ana dilində tədrisdən və yazıb-yaratmaqdan məhrum buraxılmaqları olub. O bunu insan haqqına təcavüz hesab edirdi. Bununla bağlı 1976-cı ildə Amerika Konqresində məruzə etmiş və məruzəsi "Nyu-York of books" jurnalında çap edilmişdi.

Bərahəniyə görə, ata-anasında eşitdiyi dil ilə təhsil dili fərqli olan insanların yaradıcılığının ana dili ilə təhsil dili eyni olan insanların yaradıcılığından fərqlənirdi. Həmin insanlara milli kimliyi səbəbindən üstünlük verilmir, hətta onların istedadı sıxışdırılıb məcazi mənada əridilirdi. Bu ögeylik bilavasitə ədəbiyyata təsir edirdi. Axı bir millətin taleyini onun nümayəndəsi qədər başqa bir millət necə səriştəli, emosional təcəssüm edə bilər? Və ya Bərahəni təbiri ilə desək: " Mən gedib Markesə deyə bilərəm ki, gəl mənim evimin romanını yaz?! Mən gərək bunu özüm yazam. Bəs özüm necə yaza bilərəm? Mənim dilimi kəsiblər. Məb gedib dilimi kəsənlərin dilini kəsə bilmərəm ki! Mən yalnız deyə bilərəm ki, bizdən sonra gələnlərin dilini kəsməyə sizin haqqınız yoxdur".(2)

Reza Bərahəni 2009-cu ildə Dünya azərbaycanlıları Konqresinin həmsədri xalq şairi Sabir Rüstəmxanlının dəvəti əsasında Azərbaycana gəlmiş, xalq yazıçılarımız və şairlərimizlə görüşərək səmimi duyğularını bölüşmüşdü. Həmin görüş ərəfəsində mühacir şairimizi Azərbaycan ədəbi cəmiyyətinə və ictimaiyyətinə təfərrüatlı təqdim etmək məqsədilə Sabir Rüstəmxanlının naşirliyi əsasında "Rza Bərahəni şeirlər, müsahibələr, araşdırmalar" adlı kitab nəşr olunmuşdu. Kitabda şairin Azərbaycan dilində və fars dilindən Azərbaycan dilinə tərcümə edilən şeirləri, xüsusi müsahibələri, təqdiqatları dərc edilmişdi. Onun müsahibələrinin və tədqiqatlarını tərcümə edilərək kitab halına salınması "Bakı-Təbriz" dərgisinin baş yazarı Məsiağa Məhəmmədiyə məxsusdur.

İlk şeirini on yaşında olarkən Azərbaycan dilində (bu dövr İranda Azərbaycan Demokratik Firqəsinin rəhbərliyi zamanı tədris dilinin Azərbaycan dili olmasına təsadüf edir) yazan, sonradan isə məcburən fars dilində təhsil alıb, akademik və ədəbi fəaliyyətlə məşğul olan Reza Bərahəninin mühacirətindən sonra ingilis dilində yazdığı və nəşr etdirdiyi kitablar ingilisdilli Azərbaycan ədəbiyyatını formalaşdırmışdır. Bir gün Təbriz məktəblərində ilk sıralarda əyləşib hürr şəkildə Azərbaycan dilində təhsil alan şagirdləri görmək ümidi ilə mübariz yaşayan şair 2022-ci ildə 87 yaşında Kanadada əbədiyyətə qovuşub. Müəllifi olduğu "God's Shadow: Prison Poems" (şeirlər) və "The Crowned Cannibals: Writings on Repression in Iran" (hekayələr) kitabları isə ingilisdilli Azərbaycan ədəbiyyatına şairin bir mirasıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Barahani.R.- God's Shadow: Prison Poems, Indian University press,- 1976
2. Rüstəmxanlı.S.,- Rza Bərahəni şeirlər, müsahibələr, araşdırmalar, Qanun nəşriyyatı, Bakı- 2009
3. https://caspianpost.com/en/post/perspectives/reza-baraheni-writer-poet-literary-critic-and-public-intellectual-a-life-long-champion-of-social-justice-and-freedom-of-speech
4. https://journals.sagepub.com/doi/abs/10.1080/03064227608532493

İNGILIS VƏ AZƏRBAYCAN ŞIFAHI XALQ ƏDƏBIYYATıNDA TƏKTƏRKIBLI CÜMLƏLƏR

HƏMIDOVA XƏYALƏ
ADPU Xarici Dillər Mərkəzi Azərbaycan Dili
xhamidova@bk.ru
Bakı, Azərbaycan

XÜLASƏ

İngilis və Azərbaycan Şifahi xalq ədəbiyyatında təktərkibli cümlələr

Məqalə Azərbaycan və İngilis Şifahi xalq ədəbiyyatında təktərkibli cümlələrin tədqiqinə həsr olunmuşdur. Məqalədə şifahi xalq ədəbiyyatından götürülmüş təktərkibli cümlələr həm semantik, həm qrammatik baxımdan təhlil olunub araşdırılmışdır. Həm Azərbaycan, həm də ingilis dilində ən geniş yayılan şifahi xalq ədəbiyyatı nümunəsi atalar sözləridir. Müəllif hər iki dildə atalar sözlərini təhlil edərək orada işlədilən təktərkibli cümlələrin umumi şəxsli cümlələr olması barədə qənaətə gəlmişdir. İngilis şifahi xalq ədəbiyyatında laylalar xüsusilə seçilir. Bəzi mənbələrə görə, ilk dəfə XVIII əsrdə İngiltərədə, bəzilərinə görə Amerikada muəllifi məlum olmadan dildən-dilə keçərək yarandığı deyilir.

İngilis şifahi xalq ədəbiyyatında laylalar xüsusilə seçilir. Bəzi mənbələrə görə, ilk dəfə XVIII əsrdə İngiltərədə, bəzilərinə görə Amerikada muəllifi məlum olmadan dildən-dilə keçərək yarandığı deyilir

1. AÇAR SÖZLƏR: şifahi xalq ədəbiyyatı, laylalar, atalar sözləri, tapmacalar

Azərbaycan şifahi xalq ədəbiyyatı müəllifləri məlum olmayan, kollektiv yaradıcılıq məhsulu olan ədəbiyyatdır. Azərbaycan şifahi xalq ədəbiyyatı qədimdən, tarixdən xəbər verməklə yanaşı, həm də Azərbaycan xalqının ruhundan süzülən mədəniyyətdir. Folkloru qısaca tərif etmək lazım gələrsə, hər millətin tam özü olduğunu qətiyyətlə söyləyə bilərik. Çünki folklorsuz bir millət təsəvvür etmək mümkün deyil. Əsrlər boyunca bir millətin həyatı ilə bərabər inkişaf edən və ağızdan-ağıza nəql vasitəsilə bizə qədər gəlib çatan bu ədəbiyyat növü daima onu yaradan millətin səviyyəsi, dərəcəsi və mənəvi həyatına bağlı qalmışdır. Var olduğu bütün zamanlarda – keçmişdə, bu gün və gələcəkdə xalqın yaratdığı mədəniyyətin hər bir qolu folklorun tədqiqat obyektidir. *Xalq tərəfindən yaradılan hər nə varsa, "folklor" termini içərisində təhlilə cəlb edilə bilər* [3, s.14]. Şifahi xalq ədəbiyyatının ilk nümunələri ibtidai insanların məişət, təbiət hadisələri, ovçuluq, əmək və digər bu kimi məsələləri haqqında təsəvvürləri və bununla əlaqədar keçirdikləri hisslərin tərənnümüdür.

İngilis sifahi xalq ədəbiyyati iki periodu əhatə edir: erkən orta əsrlər ədəbiyyatı və Anql-saks ədəbiyyatı (450-1066). 1066-ci ildə İngiltərə başında Villiam adlı sərkərdə olmaqla normanlar tərəfindən işğal olunduqdan sonra orta əsr şifahi xalq ədəbiyyatı mərhələsi bitir və bununla da yeni anql-saks ədəbiyyatı dövrü başlanır. Şifahi ingilis şifahi xalq ədəbiyyatı minstrel (küçə ədəbiyyatı) poeziyası ilə dildən dilə yayılaraq laylalar, atalar sözü, nağıllar, məsəllər, xalq mahnıları, anektodlar və s. xalq yaradıcılıq numunələrində öz əksini tapmışdir. Bu şifahi xalq nümunələri bədahətən təsadüfi şəkildə yaranmışdı. Minstrel poeziya janrı XI-XII əsrlərdə ilk dəfə türk şifahi xalq ədəbiyyatında öz əksini tapmışdır. Belə rəvayət olunur ki, bir ministrel poet öz yuxusunda xüsusi hazırlanmış şərabdan içərək oz poeziya qüvvəsini bu şərabdan almış ve sevgilisinin xəyalını görmüşdür. Şifahi xalq ədəbiyyatından bəhs etməyimizin əsas məqsədi təktərkibli cümlələrin bu ədəbiyyat növlərində işlənməsini təhlil etməkdir. Bunlar qədim dövrlərdə yaranaraq indiki müasir dövrümüzə qədər dildən-dilə ötürülərək ara-sıra formasını dəyişmiş və daha da zənginləşmişdir. Folklor nümunələri xalq zəkasının qüdrətini, bədii təfəkküründün gücünü parlaq əks etdirən məzmun baxımından maraqlı, ideya baxımından dolğun, əsrlərin sınağından uğurla çıxmış əsərlərdir. Bu hisslərin ilk nümunələri əmək nəğmələridir. Folklorun digər formalarına isə laylalar, oxşamalar, mahnılar, bayatılar, əfsanələr, rəvayətlər, atalar sözləri və məsəllər, tapmacalar, xalq oyunları, xalq tamaşaları, xalq şəbihləri daxildir. Şifahi xalq ədəbiyyatımızda xalqımızın insan taleyi ilə bağlı düşüncələri, humanizmi, vətənpərvərliyi, sevgisi, kini müxtəlif dövrlərdə üzləşdiyi mühüm ictimai-siyasi hadisələrə münasibəti öz əksini tapmışdır.

İngilis şifahi xalq ədəbiyyatında işlənən təktərkibli cümlələrin nümunələrinə orta əsr ingilis ədəbiyyatının incisi sayılan "Beovulf"qəhrəmanlıq dastanında rast gəlmək olar:

Giver of rings on the breast of the vessel,
The blamed by the mainmast.
Lone on the main, the merest of infants,
High o'er his head, let the holm-currents bear him.

Şifahi xalq ədəbiyyatından bəhs etməyimizin əsas məqsədi təktərkibli cümlələrin bu ədəbiyyat növlərində işlənməsini təhlil etməkdir.

Həm Azərbaycan, həm də ingilis dilində ən geniş yayılan şifahi xalq ədəbiyyatı nümunəsi atalar sözləridir. Xalqın düşüncə tərzi, adət-ənənəsi atalar sözlərində öz əksini tapır. Atalar sozləri bizim eradan 3500 il əvvəl Qədim Misirdə əxlaqi dəyərlər zəminində meydana gəlmişdir. Təxminən 100 il sonra Ptahhotep adlı çox böyük nüfuza malik olan vəzir ilk dəfə atalar sözlərini söz azadlığının rəmzi kimi istifadə etmişdir. Biz atalar sozlərini İncildə, Vilyam Şekspirin əsərlərində görə bilərik.

Şekspir 1599-cu ildə yazdığı "Yuli Sezar "əsərində yetərli qədər təktərkibli konstruksiyali məsəllərdən, aforizmlərdən istifadə etmişdir:

Better 3 hours too soon than a minute too late. Neither a borrower nor a lender be. Much ado about nothing.

Tədqiqat işimizin tələbi olaraq biz atalar sözlərinə daha çox qrammatik baxımdan yanaşacağıq.

İlk baxışdan ağlabatan hesab edilir ki, *bütün atalar sözləri bütöv qrammatik cümlələrin formalarını qəbul edir* [2, s.145]. Cümlənin qrammatik anlamı eyni çətinliklərlə qarşılaşır, belə ki, atalar sözlərinin danışıq təbiətinə laqeyd yanaşılırdı. Atalar sözləri cümlə ilə eyni dərəcədə qəbul edilmirdi. Qrammatik cümlə məfhumunun bəzi nöqsanları var idi.

Atalar sözlərinin böyük hissəsi təkrarlanan struktura malikdir. Demək olar ki, heç bir normal qrammatika bütöv qrammatik cümlə kimi yaranmır. Məsələn: *Like father, like son. Better late than never. No rose without a thorn* və s.

Bütöv qrammatik cümlələr kimi bu cərgədə təsvir olunan atalar sözlərindən istifadə edənlər saysız-hesabsız və qəbuledilməz quruluşlar yaradır.

İkincisi, elə atalar sözləri mövcuddur ki, onlar nə qrammatikanın qaydalarına, nə də xüsusi atalar sözləri formalarına uyğun gəlmir. Arxaik və dialekt atalar sözlərinə nəzər salaq. *All that shakes fall not. Who will sell the cow must say the word. All love lies a bleeding. Hungry flies bite sore.*

Lakin müasir ingilis dilində demək olar ki, belə atalar sözləri artıq yaranmır və vaxtilə mövcud olanlar dildə istifadə olunmur.

Bundan əlavə, cümlə özü bir neçə xüsusi qrammatik çərçivə daxilində müəyyən edilə bilər. *Friz* [3, s.9-26] cümlənin ənənəvi qrammatik təyinatının qeyri-adekvatlığını göstərirdi. Cümlənin son anlayışları səciyyəvi dəyişiklik olmadan *The more, the merrier; Like father, like son; Forewarned, forearmed* kimi strukturların müəyyən edilməsində çətinlik yaradır.

Sərbəst fikrə malik olan atalar sözlərinin təsiri onları proverbial (atalar sözlü) frazalardan ayırır. Çünki proverbial frazalar cümlənin bir hissəsini təşkil edir. Məsələn: *Kit and caboodle; To kick over the traces; Mad as a hatter; Up the creek* və s. kimi ifadələr normal şəraitdə heç bir sərbəst fikir ifadə edə bilmir. Lakin onların müstəqil xüsusiyyətləri atalar sözlərini qəfil kontekstdə konkret fikir ifadə edən indeksial ifadələr tərkibində ehtiva edən klişelərdən fərqlənir.

Yığcamlılıq atalar sözlərinin məzmunu üçün əsas şərtdir. Məsələn: Don`t hurry! (Tələsmə!) kimi ifadə olunduqda cümlə məzmunlu səslənmir. Lakin *Haste makes waste* (Tələsən təndirə düşər) yığcamlılığına və məzmunluluğuna görə atalar sözlərinə uyğun gəlir.

Atalar sözləri çox vaxt quruluşuna görə elliptik, təktərkibli metaforik olur. Buna görə də onların transformasiyası zamanı diqqətli olmaq lazımdır. Məsələn: "Live and learn!" potensial bütöv əmr cümləsi kimi təhlil oluna və iki cür transformasiya oluna bilər.

- *Live and then you will learn.*
- *If you live, you must learn.*

Təhsilalanların bilik və bacarıqları haqqında məlumatların toplanması, yəni qiymətləndirmə ibtidai təhsil pilləsində diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (irəliləmə və geriləmələrin izlənməsi) və summativ (kiçik və böyük) olmaqla üç formada həyata keçirilir. Qiymətləndirmənin biri digərinə xidmət edən və bir-birini tamamlayan hər üç növü öz mahiyyətinə uyğun olaraq şagirdlərin bilik və bacarıqlarını standartlara əsasən ölçür. İbtidai siniflərdə şagirdlərin qiymətləndirilməsinin müsbət və mənfi hallarına gəldikdə, mənfi hallar daha çox üstünlük təşkil edir: şagirdlərdə yüksək qiymət almaq üçün rəqabət (bu sağlam rəqabət deyil) hissi yaranır, şagirdlər yalnız yüksək qiymət almaq üçün oxuyurlar, zəif qiymət aldıqda küsür, ağlayır və s. kimi hallar baş verir. Təəssüflər olsun ki, bu gün də ölkəmizdə valideynlərin əksəriyyəti şagirdin öyrənib-öyrənməməsinə, mənimsəyib-mənimsəməməsinə fikir vermir, qiymət onun üçün daha vacibdir. Düşünün ki, bir müəllimi valideyn 11 il müddətində ona hər gün yazılan yalançı 5-ə görə sevə və alqışlaya, yaxud əksinə, yazılmış aşağı qiymətə görə ona düşmən kəsilə bilər. Sözsüz ki, bunun əsasında inamsızlıq dayanır. Amma hamı onu yaxşı bilir və deyir ki, qiymət yox, bilik, bacarıq əsasdır, son vaxtlar isə bu, bacarıqla əvəz olunmaqdadır. Əgər dediyimiz "bilik əsasdır" prinsipinə əməl etsək, işlərimiz mükəmməl olar. Şagird biliyinin ölçülməsi üçün yazılan qiymətlə bağlı bütün müəllimlər əziyyət çəkir. Zənn edirik ki, ölkəmizdə əksər müəllim qiymət yazmadan dərs keçməyi daha üstün tutar. Çünki qiymətləndirmə prosesi bu gün məktəblərimizdə ən çox problem yaradan məsələlərdəndir. Digər

ölkələrlə müqayisə etdikdə Azərbaycanın təhsil sistemi ilə xarici ölkələrin təhsil sistemi arasında çox fərqlər var. Bilirik ki, Finlandiya dünyada təhsilinə görə ilk sıralarda durur. Azərbaycanla Finlandiya təhsilində ibtidai sinif şagirdlərinin qiymətləndirilməsini müqayisə etsək, çoxlu fərqli məqamlarla rastlaşarıq. Son dövrlər bütün dünya təhsil ictimaiyyəti tərəfindən diqqətlə izlənilən, bir çox beynəlxalq qiymətləndirmələrdə ön sırada olan Finlandiyada şagirdə ilk 6 ildə heç bir qiymət, qeyd şəkilli qiymətləndirmə yazılmır.

Son dövrlər bütün dünya təhsil ictimaiyyəti tərəfindən diqqətlə izlənilən, bir çox beynəlxalq qiymətləndirmələrdə ön sırada olan Finlandiyada şagirdə ilk 6 ildə heç bir qiymət, qeyd şəkilli qiymətləndirmə yazılmır. Yəni 8-ci sinfin sonuna qədər qiymət yazılma məcburiyyəti yoxdur və dövlət tərəfindən heç bir məcburi imtahan keçirilmir. Sadəcə, 16 yaşlarında vahid imtahana girirlər.

Finlandiyada məktəbə başlama yaşı yeddidir. Bu prinsip əslində, uşaqlara öz uşaqlıq illərini yaşamaq imkanı verir. Eyni zamanda, fin təhsil sisteminə görə ilk təhsil ailədən gəlir.

Finlandiyada uşaqlar ibtidai siniflərdə oyunlar oynayır və zövq alaraq öyrənirlər. Lakin Azərbaycanda ibtidai sinif şagirdləri daha çox elmi biliklərlə yüklənir, tez yorulurlar, dərslərin ağırlığından hobbiləri, digər əlavə məşğuliyyətlərinə vaxt ayıra bilmirlər.

Tədqiqat metodu

Mövcud qiymətləndirmə sistemi məktəblərimizə tətbiq olunan gündən məktəbin və müəllimin nüfuzuna ciddi zərbə dəydi,məktəblərdə "summativ pulu","printer pulu ",rəng pulu",kağız pulu" , "fayl pulu","papka pulu" və s. kimi müxtəlif "vergilər",yığımlar meydana gəldi ki, məktəblərimizə inam ,etibar itdi.Müəllimlərimizin ictimai nüfuzuna ciddi xələl gəldi,müəllimə olan hörmət ,ehtiram aradan qalxdı...Bununla belə şagird naliyyətlərinin doğru qiymətləndirilməsi də mümkün deyil.BSQ-lər zamanı 6-7 yaşlı uşaqların stresləri , kütləvi köçürmə halları, məktəblər üzrə kütləvi pul toplanması ...sadalamaqla bitmir...

Digər ölkələrdə qiymətləndirmə sisteminə baxaq:

Finlandiyada:10 (Əla) – bu qiyməti şagirdlərin cəmi 5% -i ala bilir, 9 (çox yaxşı), 8 (yaxşı), 7 (kafi), 6 (qismən kafi), 5 (keçid minumumu), 4 (qeyri kafi) qiymətlərlə qiymətləndirilir.

Dünyanın bir çox (hətta iqtisadiyyatı və təhsil sistemi inkişaf etmiş) ölkələrində ümumtəhsil məktəblərində şagirdlərin qiymətləndirməsi rəqəmlərlə deyil , hərflərlə aparılır.

Hərflərlər qiymətləndirilərkən " A”,” B”,” C”,” D” hərfləri yüksəkdən aşağıya doğru ardıcıllıqla gəlir. "E” və "F” qeyri-kafi kimi dəyərləndirilir.

Məsələn, qonşu İran İslam Respublikasının məktəblərində "A+, A, B, C, D, E/F”, Yaponiyada "AA/T, A, B, C, E/F”,Pakistanda "A1, A, B, C, D, E, F”,qiymətləndirmə şkalaları tətbiq olunur.

Danimarka – “imtahanın sonu əhəmiyyətsizdir, yalnız öyrən!”

Danimarka təhsil sistemində təxminən 40 ildir ki, 13 yaşından aşağı şagirdlər qiymətləndirilmir. Əvvəldən riyaziyyat və ingilis dilindən başqa, uşaqlara özünəinam aşılayan davranış nümunələri və cəmiyyətdə düzgün qərar qəbul edilməsi vərdişləri öyrədilir. Bu dəyərlər Danimarka icması üçün çox vacibdir və bu davranışları qiymətləndirmək çətindir.

Bu üsulla şagirdlər məzmuna daha çox diqqət göstərə bilirlər. Beləliklə, onlar gördüklərini daha yaxşı qavrayırlar. Danimarkanın Folkeskole sistemi imtahan mərkəzli deyil. Bu səbəbdən məktəblilər dərslərin nəticələrindən asılı olmayaraq, birbaşa yuxarı sinfə keçirlər.

Bu üsul yaxşı görünür. Ancaq bu sistemin də mənfi cəhətləri var. Çünki şagird çalışsa da, çalışmasa da, sinifdən-sinfə keçir. Beləliklə, bu, tənbəlliyə yol açа bilər.

Gördüyümüz kimi, bir çox ölkələr şagirdləri imtahanlarla yükləməkdən yan keçib, öyrənməyin sadəcə insanın özü üçün faydalı olduğunu dərk etdirirlər. Lakin dünyanın bir çox ölkəsində hələ də uşaqlar imtahan yarışına sürüklənir, aldığı qiymətlərlə birinin digərindən ağıllı və bacarıqlı olması psixologiyası ilə yaşayırlar ki, bu da insanlar arasında yersiz rəqabətə meyil yaradır. Təhsil mütəxəssisləri müəyyənləşdiriblər ki, hər insan bacarıqlıdır və ya hər bir insanın müəyyən bacarığı var. Onun üçün də “məndə olan səndə yoxdursa, sən zəif, səndə olan məndə yoxdursa, mən zəifəm” prinsipindən uzaq durub, “hər kəsdə özünəməxsus nəsə var və o kəs onunla öyünməli, inkişaf etdirməlidir” prinsipinin üzərində durmalıyıq.

“Qiymət olmazsa olmaz” deyən insanlarımız bir anlıq özünə sual versin: ilk dəfə yeriməyi bacaranda, ilk kitabı oxuyub bitirəndə, yeni smart telefonu əlimizə alıb bilmədiklərimizi öyrəndikcə kim bizə hansı qiyməti vermişdi? Əlbəttə ki, qiymət yox idi, amma ətrafımızdakılar bu sadaladıqlarımı öyrənəndə bizə sevgi vermişdilər, özümüz isə özümüzlə fəxr etmişdik.

Biz də məhz şagirdimizin öyrəndiyini görəndə ona sevgi verib özü ilə fəxr etmək hissini yaşatmaqla, daha çox formal xarakter daşıyan qiymətdən qaça bilərik!

NƏTICƏ

Baxılan problemlərdən və aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, Digər ölkələrə nisbətən bizim təhsil müəssisələrində qiymətləndirmə sistemi qənaətbəxş hesab edilmir. Ənənəvi təlimdən fərqli olaraq fəal təlim metodunda qiymətlə yanaşı "əla, yaxşı, kafi" kimi sözlərdən istifadə olunur. Digər ölkələrə nəzər yetirdiyimiz zaman ibtidai siniflərdə qiymət yazma məcburiyyəti yoxdur. Həmin sistem ilə bizdə şagirdlərin gündəliyinə sadəcə "əla yaxşı kafi" yazaraq da kifayətlənə bilərik. İbtidai sinif şagirdlərini qiymət üçün yox, bilik və bacarıq qazanmaq üçün öyrənmələrini təmin etmək, qiymətləndirmə sistemində müəyyən dəyişikliklər etmək lazımdır: 1-ci sinifin ilk yarımilində qiymətləndirmə olmaması şərtilə, digər bütün tədris müddətində rəqəmdən daha çox hərflərlə qiymətləndirmək daha məqsədəuyğun olacaqdır

ƏDƏBIYYAT SIYAHISI

1) Gülər Hüseynova "Kurikulum və Pedaqogika", Bakı, 2019
2) https://www.muallim.edu.az/ *(16.12.2021)*
3) İlkin Həsənov, Aynur Rüstəmova, Nigar Babayeva "Kurikulum, metodika, pedaqogika", Bakı, 2020
4) https://aztehsil.com/news/4667-agird-nailiyytlrinin-qiymtlndirilmsi-nec-aparlmaldr-cdvl.html *(16.12.2021)*
5) https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.legco.gov.hk/yr18-19/english/panels/ed/duty_v/ed20190908-1819fsc17-education-system-in-finland-e.pdf&ved=2ahUKEwijnpGe_un0AhV0QfEDHSl1An4QFnoECAQQAQ&usg=AOvVaw3CPLZqc5LpbSPYG_fYZDsu *(17.12.2021)*

İBTİDAİ SİNİFLƏRDƏ ORFOQRAFİYA NORMALARININ MƏNİMSƏDİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

Aytac Rəcəbli
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları, İbtidai sinif müəllimliyi
aytac4080@mail.ru
Bakı şəhəri

XÜLASƏ

Şagirdlərdə ibtidai sinifdən etibarən orfoqrafik normaların təməli qoyulur. Bilirik ki, Azərbaycan dilində yazı olaraq fikrimizi izah etməyimiz üçün sözləri düzgün yazmağı da bilməliyik. Uşaqlara da birinci sinifdən (əli qələm tutduğu vaxtdan) yeni sözləri yazmağa hazırlıq mərhələsi başlanılır. Artıq uşaqlar hərflərlə tanış olduqca yeni-yeni sözlər qurub yazmağa başlayırlar. Sözləri yazmağı öyrəndikcə də, onunla paralel olaraq yavaş-yavaş orfoqrafik qaydalar keçilir. Qaydaları şagirdlərə doğru mənimsətmək vəzifəsi də müəllimin üzərinə düşür. Müəllim bu qaydaları və normaları uşaqlara öyrətmək üçün müxtəlif üsul və vasitələrdən istifadə edə bilər. Müəllim üsul seçərkən şagirdlərin yaş səviyyəsini də nəzərə almalıdır. İbtidai siniflərdə orfoqrafiya normalarının mənimsədilməsi üzrə işin təşkili öz aktuallığını hər zaman saxlamışdır. İşin məqsədi orfoqrafik normaları şagirdlərə necə mənimsətmək olar sualına cavab tapmaqdır. Bu tədqiqat işində də məhz bunlardan bəhs edilmişdir. Tədqiqat işinin giriş hissəsində orfoqrafiya təliminin tədrisi haqqında məlumat öz əksini tapmışdır. Bunun daxilində orfoqrafiya təliminə verilən tələblərdən, orfoqrafiyanın bölmələri, məktəbdə orfoqrafik bacarıqların növləri, orfoqrafiya vərdişlərinin formalaşması üçün zəruri şərtlər əks etdirilmişdir. Bu tədqiqat işinin üstünlüyü ondadır ki, gələcəkdə bu sahədə şagirdlərə dərs keçən müəllimlər verilən məlumatlardan bəhrələnsinlər. Məlumdur ki, orfoqrafiya lüğəti ildən ilə yenilənir və dəyişikliklər əlavə olunur. Belədir ki, ilk növbədə müəllimlərin bu dəyişikliklərdən xəbərdar olması lazımdır. Müəllim nə qədər məlumatlı olsa, şagirdə də biliyin çatdırılması bir o qədər asanlaşar.

Lakin yalnız müəllimin biliyinin möhkəm olması kifayət etmir, bu məlumatları uşaqlara hansı üsullarla çatdıracağını da bilməlidir.

AÇAR SÖZLƏR: Orfoqrafiya, ibtidai sinif, çətin sözlər, norma

GIRIŞ

Orfoqrafiya yazılı ədəbi dildə hər kəs tərəfindən qəbul edilmiş sözlərin və onların qrammatik formalarının (morfemlərin) sabit və vahid yazılış qaydalarının sintemidir.

Müəllim əgər orfoqrafiya təlimini keçirsə, bu təlim mütləq orfoepiya normalarının öyrədilməsi ilə paralel şəkildə getməlidir. Məlumdur ki, Orfoqrafiya şagirdlərdə yazılı nitqi, orfoepiya isə şifahi nitqi formalaşdırır. Əgər bunlar arasında əlaqə gözlənilməzsə, bu zaman şagirdin yazısında ciddi şəkildə nöqsanlar yarana bilər.

Orfoqrafiya təlimi keçirilərkən bu tələblərə əməl olunmalıdır:

Şüurluluq

Yəni şagirdlər hər hansısa sözü yazmazdan əvvəl onun mənasını dərk etməlidirlər. Biz də elə düşünürük ki, bəzən orfoqrafik normaların pozulmasının əsas səbəbi də məhz şagirdlərin yeni sözün mənasını başa düşmədən onu birbaşa yazıya tətbiq etməsidir.

Tədricilik və ardıcıllıq

Orfoqrafiya qaydaları şagirdlərə tədricən öyrədilməlidir. Yəni müəllim olaraq biz elə etməliyik ki, şagirdlər orfoqrafiya ilə bağlı çalışmanı yerinə yetirərkən birdən-birə çox orfoqramla qarşılaşmasınlar.

Yazılı çalışmaların şifahi çalışmalara əsaslanması

Uşaqlar daha körpə yaşlarından valideynlərindən danışmağı öyrənir. Artıq uşaq məktəb yaşına çatanda onun dil bazasında müəyyən qədər söz olur. Lakin diqqət edilməlidir ki, o, öyrəndiyi sözləri tələffüz edərkən nöqsanlara yol verməsin. Yoxsa bu nöqsanlı xüsusiyyətlər onun yazılı nitqinə də pis təsir göstərəcək.

Çalışmaların rəngarəng olması

Biz orfoqrafiya təlimini şagirdə öyrətmək istəyiriksə, onlara çoxlu və cürbəcür çalışmalar işlətdirməliyik. Buna misal olaraq, l sinifdə şagirdlərə daha çox üzdənköçürmə tapşırıqları verilir. Daha sonra tələffüzü yazılışından fərqli olan sözləri, "Belə yazılır, belə deyilir" başlığı altında təqdim edən çalışmalar verilə bilər.

Müəllim bundan əlavə həm yazılı, həm şifahi; həm ciddi, həm oyun xarakterli; həm cədvəl,sxem, şəkil kimi əyani vəsait, şagirdləri müstəqil fəaliyyətə, yaradıcılığa, düşünməyə sövq edən çalışmalar verə bilər.

Ayrı-ayrı hər bir orfoqrafik qaydanın yaxşı mənimsənilməsi üçün o haqda müəyyən miqdarda çalışma və tapşırıqlar yerinə yetirilməlidir.

Məktəbdə orfoqrafiyanın öyrənilməsi və orfoqrafiya vərdişlərinin formalaşması orfoqrafiya üzərində aparılan işlərə əsaslanır. Məktəblilər müxtəlif orfoqrafiya növlərinin mahiyyətini başa düşməli və mənimsəməli, onların müəyyənedici əlamətlərini tapmağı öyrənməli və buna uyğun olaraq bu və ya digər orfoqrafiya qaydasını tətbiq etməlidirlər. İbtidai siniflərdə uşaqlara onun bütün elementlərində, onların qarşılıqlı əlaqəsində yazmağı öyrətmək lazımdır. Orfoqrafiya texnikası isə əlifba işindən, qrafikanın öyrədilməsindən, məktəblilərdə qrafika vərdişlərinin formalaşdırılmasından kənarlaşdırılmamalıdır.

Orfoqrafiya qaydaları aşağıdakı beş yazı sahəsində orfoqrafiya seçimini müəyyənləşdirir, buna görə orfoqrafiyanın dörd bölməsi fərqlənir:

sözlərdə səsləri hərflərlə ifadə edərkən: sözlərin köklərində, prefikslərdə və digər morfemlərdə vurğusuz saitlərin orfoqrafiya qaydaları; zəif mövqelərdə, sözlərin və digər morfemlərin köklərində səsli və səssiz samitlər; morfemlərin qovşağında qoşa samitlər və s

2) sözlərin davamlı və ya ayrıca yazılışını, habelə yarımfasiləsiz (defislə) yazılışını seçərkən;

3) cümlənin əvvəlində və xüsusi adlarda böyük və kiçik hərflərdən istifadə etdikdə;

4) sözləri, onların hissələrini bir sətirdən digərinə keçirərkən.

Məktəbdə orfoqrafik bacarıqların aşağıdakı növləri formalaşır:

bir sözdə orfoqramı tapmaq;

öyrənilmiş orfoqrafiya növləri ilə sözlərin, o cümlədən yoxlanılması mümkün olmayan yazılışları olan sözlərin orfoqrafiyası;

orfoqrafiyanın əsaslandırılması;

orfoqrafik səhvləri tapmaq və düzəltmək.

Orfoqrafiya vərdişlərinin formalaşması üçün zəruri şərtlər aşağıdakılardır:

orfoqrafiyanın tədrisinin yüksək elmi səviyyəsi;

orfoqrafiya vərdişlərinin formalaşması ilə nitqin inkişafı arasında əlaqəni;

orfoqrafiya qaydalarını bilmək;
qaydaların tətbiqi sxemi (orfoqrafiya sxemləri) haqqında biliklər və qaydaların tətbiqini asanlaşdırmaq üçün orfoqrafiya təhlili aparmaq bacarığı;
orfoqrafiya qaydasını tətbiq etmək bacarığını məşq edən məşqlər.

Biz əgər orfoqrafiyanı şagirdlərə yaxşı mənimsətmək istəyiriksə, müxtəlif üsul və vasitələrdən yerində və düzgün istifadə etməliyik. Məsələn, müəllim şagirdlərə ayrıca bir az qalın dəftərdə yazılışı çətin olan sözləri yazdırır. Amma bunu birdən-birə yazdırmır. Deyək ki, müəllim şagirdlərə imla yazdırır və imlanın içərisində şagirdlərə tanış olmayan və ya çətin yazılışlı bir neçə söz verilib. Müəllim burada anında həmin sözü lövhəyə yazıb, onun mənasını izah edib, bir neçə şagirdə həmin sözü təkrarladır, onu orfoqrafiya dəftərlərinə yazdırır, daha sonra şagirdlər həmin sözü imla dəftərlərinə yazırlar. Bu üsul, mənim fikrimcə, daha səmərəlidir.

Müəllim şagirdlərin dəftərlərinə yazdıqları sözləri onların beyninə həkk etmək üçün bir yarış təyin edə bilər. Onda müəllim şagirdlərə yarışdan bir və ya bir neçə gün əvvəl xəbərdarlıq edir. Deyir ki, məsələn, "yazdığımız sözlərin düzgün yazılış qaydalarını öyrənin. 3 gün sonra aranızda yarış keçirəcəm". Yarışda müəllim ordan-burdan – sırasız bir şəkildə sözləri deyiliş qaydasında oxuyur. Şagirdlər də bir vərəqdə müəllim dedikcə, sözlərin düzgün yazılış formalarını yazırlar. Daha sonra vərəqlər müəllimə təhvil verilir. Müəllim onları yoxlayır. Ən az səhvi olan və ya heç səhvi olmayan şagird yarışın qalibi olur.

Bir digər üsul isə müəllimin özünün hazırladığı bir mətn nümunəsi olur. Bu mətndə yazılışı çətin olan sözlər, səsartımı və səsdüşümü olan sözlər, yerinə görə böyük və kiçik hərflə başlayan sözlür və sairə yer alır.

Başqa bir üsul deyə bilərik: Hər hansı şagird dərs danışır, dərsi danışandan sonra müəllim digər şagirdlərə müraciət edərək deyir ki, yoldaşlarna dəftərdə yazdıqları yazılışı çətin olan sözlərdən suallar versinlər və şagird də həmin sözləri lövhəyə yazsın. Əgər şagird sözün yazılışında səhvə yol verirsə, bu zaman sual verən şagird gəlib həmin sözün düzgün yazılışını lövhəyə yazmalıdır. Bu üsuldan istifadə edəndə görürük ki, həm sual verilən şagird, həm sual verən, həm də yerdə qalan digər uşaqlar da həmin sözləri refleksiya edirlər.

Başqa üsula baxaq: müəllim sinfə kartiçkalar gətirir. Həmin kartiçkalarda əlifbanın 32 hərfi göstərilir. Və müəllim şagirdləri sıra ilə yanına çağırıb yazılışı çətin olan sözləri hərflərin vasitəsi ilə qurmasını istəyir.

Daha sonra müəllim bir qutunun içinə şagirdlərə yazılışı çətin olan və onların fəal lüğətdə işlətmədikləri sözlər yazılmış kiçik vərəqciklər atır. Amma bu sözlərin mənası müəllim tərəfindən əvvəlki dərslərdə izah olunmuşdur. Şagirdlər bir-bir yaxışlaşıb qutudan bir vərəq çıxarır və içində yazılan sözü şagirdlərə izah etməyə çalışır. Sözü düzgün tapan uşaq digərinin yerinə keçir və o izah etməyə başlayır. Beləliklə şagirdlər həm də həmin sözlərin mənalarını təkrarlamış olurlar.

Başqa bu üsuldan da istifadə edə bilərik: Müəllim lövhəyə sözlər yazır. Sözlərin içərisində hərf boşluqlar buraxır. Bu boşluqlarda elə-belə məqsəd daşımır. Uşaqların yerinə qoyacağı hərflər sözün yazılışında səhv-dəyişik yazıla bilən fərflər olacaq. Yəni belə bir nümunə gətirək: Gü...bəz – burada nöqtələrin yerinə ya n, ya da m yazılmalıdır. Ona görə şagir ilk növbədə sözün mənasını dərk etməli və şüurlu bir şəkildə tapşırığı cavablandırmalıdır.

TƏDQIQAT METODU

Tədqiqat işinin araşdırlmasında təsviri və tutuşdurma metodlarından, eyni zamanda müşahidə və eksperimentdən də istifadə olunmuşdur.

NƏTICƏ

Orfoqrafiya elə bir bölmədir ki, bu qaydaları bilməsək, gələcək həyatda da problem yarana bilər. Biz əgər Azərbaycanda yaşayırıqsa, onun öz dölət dilimizi yaxşı bilməli, lüğətində olan sözlərin düzgün orfoqrafik yazılışını yaza bilməliyik.

Az öncə sayılan üsullardan istifadə etməklə şagirdlərdə öyrənmə, refleksiya və vərdiş bacarıqlarını inkişaf etdirmiş oluruq. Gördüyümüz kimi, verilən tapşırıq növləri və üsulları müxtəlif və rəngarəngdir. Bu tipdə olan tapşırıqlar uşaqları yormur, əksinə dərsə qarşı olan marağını bir az da artırır. Bu tədqiqat işinin əsas meyli və yanaşması mövzunun tədrisi ilə bağlı üsulların necə istifadə edilməsi haqqındadır. Dilçi alimlər, filoloqlar orfoqrafiya üzərində daim işləyirlər. Gələcəklə bağlı belə bir fərziyyələr də söylənilir ki, bu da dilimizə başqa dillərdən yeni sözlər əlavə olunacaq. Səbəb isə ölkəmizin başqa xarici dövlətlərlə sıx əlaqədə olması ola bilər. Alınma sözlərin leksikaya daxil olması orfoqrafiyaya da öz təsirini göstərə bilir.

ƏDƏBIYYAT SIYAHISI

1. Y.Ş.Kərimov. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, 1997.
2. A.Abdullayev. İbtidai məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1962.

3. İbtidai siniflərdə "Müəllim üçün metodik vəsait"I, II, III, IV siniflər üçün.
4. https://m-eng.ru/az/drainage/obuchenie-orfografii-v-nachalnoi-shkole-metodika-obucheniya-orfografii-v.html
5. https://easy9.ru/az/bilajjn/lvov-metodika-izucheniya-pravopisaniya-v-nachalnoi-shkole-ramzaeva-t-g/

NITQ BACARIQLARININ FORMALAŞMASINDA PSİXOLOJİ AMİLİN ROLU

Günay Allahverdiyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Sabah qrupları, İbtidai sinif müəllimliyi
gunayallahverdiyeva13@gmail.com
Bakı şəhəri

XÜLASƏ

Tezisdə insanların həyat boyu istifadə etdiyi nitqinin formalaşmasına təsir edən amillərdən bəhs edilir. Xüsusən də psixoloji amilin insanın nitq bacarıqlarının formalaşmasına bəxş etdiyi rollar haqqında məlumatlar izah edilir. Bəs nitq bacarıqları dedikdə nə nəzərdə tutulur? Gəlin müşahiddə edərək sualı cavablandıraq. İfadə edilən fikirlər həm yazılı,həm də şifahi formada öz əksini tapa bilər. Nəzərə alsaq ki,insanı formalaşdıran onun mühitidir və daimi ətrafı ilə ünsiyyət qurur,onda demək olar ki,mühit insanın dilidir. Göz açılan anda ailə mühiti,məhəlli mühit,məktəb mühiti,universitet və iş mühiti insanı püxtələşdirir. Ailədə təməl söz ehtiyyatı formalaşmağa başlayır. Bu mühitdə əsasən şifahi nitq bacarıqları inkişaf edir. Lüğət ehtiyyatı artdıqca yazılı nitqin formalaşmasına zəmin yaradır. Bağça və məktəbəqədər mühitdə isə daha çox yazılı nitq inkişaf edir. Ailə mühitində səslənən fikirlər,sözlər başqa sözlə desək "valideyn dilində,əzizlənərək" səslənməsə şifahi nitqin toxumları düzgün səslənər.Nəzərə alsaq ki, təkcə valideyn dilindən deyil ,yaşadığı ərazidən asılı olaraq da eşidilmiş sözlər "düzgün" qəbul edilir. Bunun təcəssümü isə məktəb mühitində uşaqların yazısında öz əksini tapır. Böyüdüyü mühitdə uşaqlarla daimi ünsiyyət,onların suallarının cavablandırılması,fikirlərinin lağa qoyulmaması və dinlənilməsi şifahi nitq bacarıqlarını formalaşdıran hallardır. Yazılarda əksini tapan fikirlərin, ifadələrin formalaşması üçün isə məktəb mühitində orfoqrafik yazı vərdişlərinin yaradılması üstünlük təşkil etməlidir. Tədqiqat işinin araşdırlmasında təsviri, müşahidə və tutuşdurma metodlarından istifadə olunmuşdur.

AÇAR SÖZLƏR: yaş dövrü, nitq, psixika, ünsiyyət

GIRIŞ

Uşaqların inkişafında , o cümlədən şəxsiyyət kimi formalaşmasında mühüm rollardan biridə ünsiyyətdir. Bir müddət uşaqlar tənha qaldıqda, ünsiyyətdə olmadıqda, insanlardan təcrid olunduqda onların psixikasında dəyişiklik, sarsıntı baş verir. Sanki uşaq yenidən doğulmuş vəziyyətinə qayıdır, nitqində müəyyən qırıntılar, geriləmələr baş verir. Nitqin inkişafı birbaşa ünsiyyətlə əlaqəli olduğu üçün bu proses özünü daha aydın göstərir. Nəinki uşaqlar, hətta böyük insanlarda eyni proses baş verir.

F.Sössür dil ilə nitqin qarşılıqlı vəhdətdə olduğunu,onlardan birinin digəri üçün şərt olduğunu, tarixən nitq faktlarının həmişə dili qabaqladığını bildirirdi. O, çox haqlı olaraq dilin kollektivin malı, ictimai hadisə olduğunu, cəmiyyətdən kənarda olmadığını, onun strukturunda məcburi işarələrin olduğunu qeyd edirdi. O bildirirdi ki, nitq insanların bir-biri ilə ünsiyyət prosesində fərdi şəkildə meydana çıxan ayrıca aktdır (1, səh.437-438).

Psixika əməli ünsiyyətdə formalaşmağa başlayır. Ünsiyyət anında o, özünün və başqalarının hərəkətlərini, rəftarlarını təhlil etməyi öyrənir. Eyni zamanda sosial psixloji təcrübəyə yiyələnir, mənəvi cəhətdən zənginləşir, onda psixi sağlamlıq, xoş əhval yaranır.

Uşaq ata-ana ilə ilk olaraq ünsiyyətdə olub nitqi formalaşır. Onun bir şəxsiyyət kimi inkişafının özülü bəzən həmin söhbətlərdə qoyulur. Valideynlərin himayəsində böyümüş, onlarla daim ünsiyyətdə olmuş uşaq yaşa dolduqca nitqində olan səlislik aydın hiss olunur. Valideyn himayəsindən məhrum olmuş, psixi məhdudiyyəti olan, hər hansı fiziki məhdudiyyəti olan uşaqların nitqində bir çox problemlər müşahidə olunur. Bu həmin insanda baş vermiş özgüvənin olmaması, insanlardan təcrid olunma, gərəkli sevgini görməməsi ilə birbaşa əlaqəlidir.

Tədqiqatlara görə, tərbiyə işi düzgün təşkil edildikdə onların nitqinin inkişafı əsasən 4 mərhələni əhatə edir.

1.Nitqin inkişafının hazırlıq mərhələsidir.

Bu uşağın anadan olduğu gündən 1 yaşa qədər olan dövrü əhatə edir.

2.Şifahi nitqin inkişafı mərhələsidir. 1 yaşdan 3 yaşa qədər olan dövrü əhatə edir.

3.Şifahi nitqin zənginləşməsi mərhələsidir. 3 yaşdan 7 yaşa qədər olan dövrü əhatə edir.

4.Nitqin təkmilləşməsi və yazılı nitqin inkişafı mərhələsidir.7 yaşdan sonrakı dövrü əhatə edir.(2)

Ilkin mərhələdə uşaqların söz bazası olmur və hətta ətrafı şüurlu şəkildə mənimsəmir .Bir yaş böhranı onunla səciyyələnir ki,körpə bu dövrdə dik yeriməyə başlayaraq ətraf aləmlə fəal əlaqə yaradır.Onun valideynlərlə intim-emosional ünsiyyət fəaliyyəti əşyavi-manipulyativ fəaliyyətlə əvəzlənir (1, səh.434).

Növbəti mərhələdə isə uşaqlar gördüklərini "adlandırmağa" , onlarla təmasda olmağa cəhd göstərirlər. Adətən bu dövrdə yanlış formada adlandırmalara daha çox rast gəlinir. İstər valideyn ərk olaraq və ya qorxutmaq məqsədli sözləri deyir. Bu zaman isə uşağın nitqinə düzgün olmayan sözlər daxil olmağa başlayır. Bunu psixologiya əlaqələndirsək deyə bilərik ki,şüursuz daxil olan sözlər,təzyiqlər gələcəkdə uşaqların sözləri düzgün yazmasında,səsləndirməsində çətinlik törədir. Həmçinin uşaqların söz ehtiyatlarının az olmasına yönləndirir.

Altıyaşlıların nitqi üzərində aparılan müşahidələr göstərir ki,onlar məktəbə gələnədək ətrafdakılarla ünsiyyət bağlamaq ehtiyacına müvafiq müəyyən söz ehtiyatına malik olur, başqalarının nitqini başa düşür, dilimizin qrammatik quruluşuna,əsasən yiyələnir və öz fikrini ifadə etməyi bacarırlar. (4)

Artıq məktəb dövrünə qədəm qoyan uşaq yeni mühit ,yeni insanlar və yeni sözlərlə tanış olur. Sanki hər kəs isə özündə bir normanı gətirir. Müxtəlif bölgələrdən olan insanlarla ünsiyyət normal olaraq hər bir şəxsə təsir edir. Qrammatik,orfoqrafik normaları bilməyən fərd eşitdiyi normaları düzgün qəbul edir. Dil və nitq öz növbəsində təfəkkürlə qırılmaz şəkildə bağlıdır. Məktəb mühitində uşaqların təfəkkürü inkişaf etdirilir,şübhəsiz ki,bu onların nitiqinə təsir edir. Eşidilən sözləri müəyyən normaya əsasən öyrədilməli,həmçinin şüurlu şəkildə mənimsədilməlidir.

Keti Hirş-Pasekin araşdırmasına görə uşaqların nitqini inkişaf etdirməyin 9 yolunu .Amma bunun əsasında şüurlu düşünmək dayanır.

1.Danışmaq. Günün hər anında uşaqlarınızla danışın,suallar verin,əhatəli danışın.

2.Oxumaq. Yaşının nə qədər olmasından asılı olmayaraq uşaqlarınıza nağıl oxuyun. Ən çox da məktəbəqədər uşaqlarda kitaba maraq yaradın ,eyni zamanda söz bazasını artırır .

3.Musiqi ilə əylənin. Mahnılarda öz növbəsində sözlərin rəngarəng dilidir.

4.Hekayələr danışın. Müxtəlif xarakterlərlə tanış olan uşaqlar öz xəyal dünyasını yaradır, genişləndirir. Onların maraq dairəsinə uyğun hekayələrin, nağılların seçilməsinə daha çox önəm vermək lazımdır.Xüsusən də, müsbət sonluqlu hekayələrin seçilməsinə diqqət yetirilməlidir.

5.Uşağın liderliyini izləyin. Tanış olduğu mətnlərdə hansı xarakterlərlə daha çox maraqlandığına fikir verin. Seçdiyi obrazlara yaxın olan obrazlarla tanış olun. Həmin obrzalara uyğun olan rollar yaradıb , kiçik səhnələr yaradın.

6.Heç vaxt uşağınızın artikulyasiyasını və danışıq tərzini tənqid etməyin. Danışığında olan səhvlikləri düzəltməyə çalışın. Etdiyi çabalara görə onları bol bol tərifləyin , özünü mükafatdandırmağı öyrədin.

7.Televizor və kompüterdən az istifadə edin. Amerikan pediatristləri tövsiyə edir ki, 2 yaşından kiçik uşaqlar ümumiyyətlə televizora baxmasın, 2 və daha böyük uşaqlar isə gündə iki saatdan çox keyfiyyətli proqrama baxmasın. Bəzi təhsil proqramları uşaqlar üçün faydalı ola bilsə də, televiziya şouları uşaqlarla qarşılıqlı əlaqədə olmur və ya onlara cavab vermir, bu da uşaqların dil öyrənmək üçün lazım olan iki katalizatordur. Kompüter oyunları interaktivdir, lakin onlar uşağın ideyalarına cavab vermir.

8.Qulaq infeksiyası olarsa vaxtında müalicə edin. Uşaqlar qulaq infeksiyalarına daha çox meyillidirlər ki, bu da onları eşitmə itkisi və nəticədə dil gecikmələri riski altına qoya bilər.

9.Müxtəlif ərazilərə səfər edin. Zooparka, akvariuma və ya uşaq muzeyinə səyahət uşağınız üçün tamamilə yeni bir dünya açacaq. Əlavə olaraq, o, bütün maraqlı canlıların adlarını və yaşadığı əyləncəli fəaliyyətləri öyrənmək istəyəcək. (5)

Məktəb dövrünə nəzər saldıqda kiçikyaşlıların əsas problemlərindən biridə nitqlərinin zəif olmasıdır. Bununla da onlar ünsiyyət qurmaqda müxtəlif çətinliklərlə qarşılaşırlar. Ünsiyyət prosesində yaranan çətinliklər kommunikativ maneələr əmələ gətirir. Bu maneələr sosial və ya psixoloji xarakter daşıyır. Ünsiyyət çətinliklərinin aradan qaldırılması yolları: Psixoloji çətinliklər üçün haşiyə və məqsəd qaydalarına əməl olunması irəli sürülmüşdür. Ünsiyyətin əvvəli və sonu dəqiq müəyyən edilməsi haşiyə qaydasının, çatdırılan fikirlərin pərakəndə şəkildə deyil , çox dəqiq şəkildə sıralanması isə məqsəd qaydasının əsas mahiyyətidir.

Digər yollardan biridə sosial-psixoloji treninq ideyasıdır ki, əsası Alman psixoloqu Kurt Levin tərəfindən irəli sürülmüşdür. Treninq prosesində başlıca vasitə kimi qrup diskussiyalarından və rollu oyunlardan istifadə olunur. (6)

Məktəb dövründə aparılan qrup işləri , fərdi işlər , cütlərlə işlər hamısının nəzəriyyəsində sosial-psixoloji treninq kursu əsas rol oynayır.Bu treninqin köməyi ilə ünsiyyət prosesində həyati çətinliklərlə rastlaşmış adamlarda kommunikativ vərdişlər formalaşdırılır və onların ümumi kommunukativ hazırlığı təkmilləşdirilir.

NƏTICƏ

Müşahidələrə əsaslanaraq demək olar ki, nitq bacarıqlarının formalaşması üçün məktəb mühiti daha əsaslı rol oynayır. Ailədən başlanan addımlar növbəti pillə olaraq məktəb mühitində formalaşır. Nə üçün məhz məktəb mühiti dedikdə isə,rahatlıqla demək olar ki,həm şifahi ,həm də yazılı nitqin genişlənməsi və tam ifadə olunacaq tərzdə olması məhz bu mühitdədir. Ailə və bağçada şifahi nitq, yazı vərdişlərinin formalaşması və inkişafında isə məktəb mühiti yazılı nitqin əsasıdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Y.Ş.Kərimov –Ana dilinin tədrisi metodikası(dərslik).Bakı 2011 – səh 437-438
2. Limunət Əmrahlı,Nurangiz Rzayeva - Uşaq psixologiyası dərs vəsaiti – Bakı 2015
3. M.C.İsmayılova – Ünsiyyət psixologiyası dərs vəsaiti Bakı 2011 səh 170
4. http://www.anl.az/down/meqale/az_muellimi/2014/aprel/367344.htm
5. https://www.eudi.az/meqale/etrafli/264
6. https://www.parents.com/baby/development/talking/9-ways-to-help-your-childs-language-development/

NİTQ BACARIQLARININ İNKİŞAFINDA İSTİFADƏ OLUNAN İNTELLEKTUAL OYUNLAR

Babayeva Zəhra Rasim qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları, İbtidai sinif müəllimliyi
zehrababazade536@gmail.com
Bakı şəhəri

Əhmədova Pərvin Şahin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
SABAH qrupları, İbtidai sinif müəllimliyi
PERVINAHMEDOVA11@GMAIL.COM
BAKI ŞƏHƏRI

XÜLASƏ

İbtidai siniflərdə uşaqların intellet inkişafı çox önəmlidir. Şagirdlərin intellekt qabiliyyətlərinin inkişafına nə qədər erkən başlanılsa o qədər yaxşıdır.İntellektin inkişaf etdirilməsi, beynin fəallığı, çevikliyi yeganə çıxış yoludur. Bunu təkcə ana dili dərslərinin tədrisi prosesi deyil, bütövlükdə məktəb sistemi nəzərə almalıdır. Ya biz hər gün uşaqların intellektinə təsir göstərən bədii əsərlər vasitəsilə onları inkişaf etdirməli, ya da bütün dərslərimizi onların düşüncəsinə uyğun gələn oyunlar şəklində qurmalıyıq.

Müasir dövrün reallıqları yüksək bilik və bacarıqlara malik, dövrün tələblərinə cavab verə biləcək insan kapitalının formalaşdırılmasını tələb edir. Xüsusilə bilik və informasiya mübarizəsinin getdiyi bir dövrdə əsas qüvvə olaraq gənclərin intellektual qabiliyyətlərinin inkişaf etdirilməsi xüsusi önəm kəsb edir. Bu mənada, ölkənin gələcək inkişafı insan kapitalından, bu isə mükəmməl təhsil sistemindən asılıdır. Sevindirici haldır ki, bu gün respublikamızda həmin sahə xüsusilə diqqət mərkəzindədir. Tədqiqat işinin araşdırlmasında təsviri, müşahidə və tutuşdurma metodlarından istifadə olunmuşdur.

AÇAR SÖZLƏR: Finlandiya təhsil sistemi , intellektual oyunlar , İQ yoxlanması

GIRIŞ

Müasir təlim şagirdin maraq və tələbatlarına, bilik səviyyəsinə, imkan və qabiliyyətinə uyğun təşkil olunmalı, dərsdə problemli situasiya yaratmaqla idrak prosesi, təfəkkür fəallaşdırılmalıdır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şagird-şagird münasibətləri təhsilalanın özünə inamını artırır, onu fəallaşdırır.

Bu gün hər bir uşağın dərsə marağını müxtəlif yollarla formalaşdırmaq və artırmaq vacib məsələlərdən biri hesab olunur. Kiçik yaş dövründə şagirdlərin dərs öyrənməyə müsbət münasibəti ardıcıl, davamlı olmur. Əgər uşaqda öyrənməyə həvəs yaranmışsa təbii ki, onu öyrətmək asan olacaq. İbtidai sinif şagirdləri ilə işləyənlərin hər biri yaxşı bilir ki, şagirdin bu və ya digər fənni böyük maraq və istəklə öyrənməsinə nail olmaq asan iş deyil. Kiçikyaşlı uşaqlar çox hərəkətli, diqqəti yayınıqdırlar. Buna görə də şagirdlərin intizamı ilə bağlı çoxlu problemlər yaranır.

Bəs, nə etməli? Belə şagirdlərə necə yanaşmalı? Hansı metod və vasitələrdən istifadə etməklə tədrisi əyləncəli etməli?

Bunun yeganə cavabı var: Mümkün qədər çox oyun-dərslərdən istifadə etmək!

Məktəbəqədər yaş dövründə oyun uşaqların aparıcı fəaliyyətidir. Uşağın məktəbə gəlişi ilə onun sosial mövqeyi köklü şəkildə dəyişilir. Onun əsas fəaliyyəti artıq oyun yox, dərsöyrənmə olur. Buna görə də ibtidai sinif şagirdlərində dərsöyrənmə fəaliyyətinin əsasları formalaşdırılır.

Bu proses kiçikyaşlıların yaş xüsusiyyətlərinə diqqətin, yaddaş və mühakiməyürütmə qabiliyyətinin dayanıqsızlığına görə bir qədər mürəkkəbləşir. Oyun və oyun dəqiqələrindən istifadə etmək bu çətinliklərin aradan qaldırılmasına çox kömək edir.

Oyun texnologiyalarından dərs zamanı istifadə şagirdlərin hamısının fəallaşmasına şərait yaradır. Zəif, utancaq, azdanışan uşaqlar belə oyun zamanı bacarıqlarını nümayiş etdirir, onların öz fikrini söyləmə, əməkdaşlıq etmə, özünün və yoldaşlarının fəaliyyətini təhlil etmə, şifahi nitq, oxuyub-anlama, dinləmə, fikrini düzgün ifadə etmə bacarıqları inkişaf edir. Beləliklə, oyun texnologiyaları tədris materialını əlçatan, maraqlı, obrazlı şəkildə öyrətməyə, biliklərin daha yaxşı mənimsənilməsinə kömək edir, şüurlu öyrənməyə maraq yaradır.

İntellektual oyunlar şagirdlərdə nitqin inkişafı və nitq qüsurlarının aradan qaldırılması prosesinde əsaslı rol oynayır.Ağlı necə məşq etdirmək olar? Bu sual müasir təhsilin qarşısında dayanan əsas vəzifələrdən biridir. Dünya təcrübəsi göstərir ki, cəmiyyət üçün müstəqil inkişaf edən, yaradıcı şəxsiyyət yetişdirmək lazımdır. Bunun üçün aşağıdakıları bilmək faydalı olar:

1. Yaradıcı və müstəqil düşünmə qabiliyyətini aşkara çıxarmaq;
2. Fəallığı və marağı üzə çıxarmaq;
3. Müstəqil olaraq şagirdlərin biliklərə yiyələnmək bacarığını müəyyən etmək;
4. Təşəbbüskarlığı alqışlamaq. Belə bir şəxsiyyətin tərbiyəsi üçün yeni dövrdə təlimin vəzifələri şagirdlərə bilik və bacarıqların aşılanmasını təmin etməkdir. Şagirdlərin məlumatı müstəqil olaraq toplamaları, tənqidi təhlil etmələri, tənqidi qiymətləndirmələri, nəticə çıxarmaları vacibdir.

Ramiz Mehdiyev bu barədə yazır: "İnsanın bir fərd olaraq mənəvi intellektual inkişafı ilə ictimai tərəqqi arasında ciddi, qarşılıqlı əlaqə məqamları vardır. Bəşəriyyət daim intellektin qələbəsinə çalışmış, bunun üçün bütün imkan və vasitələrdən istifadə etmişdir.Çünki cəmiyyəti işıqlı yola yalnız intellekt çıxara bilər.

Şifahi xalq ədəbiyyatında da buna çoxlu misallar var. Məsələn, Məlikməmməd nağılında deyilir: "Ağ qoç işıqlı dünyaya, qara qoç qaranlıq dünyaya aparır." Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər. dünyanın işıqlı adamları həmişə belə düşünmüşlər. Əlbəttə, bəzən; Qalib gələcəkmi, cahanda kamal?!(Səməd Vurğun) kimi tərəddüdlü fikirlərə düşənlər də var. Bütün elmlərin bünövrəsinin təhsillə bağlılığını duyan və cəmiyyətin xilas yolunun insan zəkasında olduğunu başa düşənlər çoxdur.

Qədim yunan filosofu Esxil yazırdı: "Çox bilən yox, lazım olanı bilən müdrikdir. (s 213) Müasir təlim texnologiyalarının əsas prinsipini əks etdirən bu sözlər çox qiymətlidir. Görkəmli filosof H. Spenser yazır: Əgər biliklər qaydaya salınmayıbsa nə qədər çox bilsən, təfəkkür o qədər zəif olacaq" İntellekt nə üçündür? Uşaqların intellekt qabiliyyətlərinin inkişaf etdirilməsinin nəticəsi nə ola bilər? Bu iki sualın bir konkret

cavabı var: Əgər insan nəticədə başqaları tərəfindən idarə olunan mexaniki bir varlığa çevrilmək istəmirsə özünün intellektinin qayğısına qalmalıdır.
İnsanın qəribə xarakteri var: O, pulunun azlığından, yaddaşının korlanmasından gileylənə bilər. Amma, kütlüyü intellekt cəhətdən zəif olduğunu etiraf etməz. Ağlının azlığından gileylənən adam təsəvvür etmək çətindir. Nəzərə almaq lazımdır ki, insanı idarə edən onun başıdır. Elə bu sözün özündən də məlum olub ki, baş bütün bədən üzvlərinin zirvəsində dayanır və deməli həlledici gücə malikdir.
İnsan yaşadığı cəmiyyətdə müəyyən problemlərlə üzləşir. Qarşılaşdığı problemləri o adamlar həll edir ki, onun ağlıyəni intellekti qaydasındadır. Əksinə olanda isə insan qarşılaşdığı problemlərin həllində çətinlik çəkir. Çox zaman cəmiyyəti geri çəkən intellekti zəif olan insanlardır. Həmin insanlar təsadüfən vəzifəyə gəldikdə isə fəlakət daha böyük olur. Deməli, intellekt insanın cəmiyyətdəki mvqeyini, bir növ onun taleyini həll edir.
Yapon alimləri hesablamışlar ki, ağlını passivləşdirən insanların beynində 30 yaşdan sonra hər gün 100000 neyron ölürFin məktəblərində idman və musiqiyə əhəmiyyətli yer verilir. Hətta şagirdlərin çoxu həftə sonlarını məktəblə çalışan könüllülərdən ibarət idman klubları və ya yerli rəhbərliyin təşkil etdiyi idman xidmətlərindən faydalanırlar. Amma idmanda qarşılaşmaq üçün komandalar yoxdur. Rəqabət, üstünlük əldə etmək fin cəmiyyətində xoş qarşılanmır. Finlandiyada özəl məktəb yoxdur və təhsil xərclərinin hamısı dövlət tərəfindən qarşılanır. Məktəblər bir-birlərilə rəqabətdə olmur, əksinə həmrəylik nümayiş etdirirlər və müvəffəqiyyət göstəriciləri demək olar eynidir. Finlilərə görə "təhsil hər kəsə bərabər fürsətlər yaratmaqdır". Bərabərlik anlayışına fövqəladə dəyər verilir. Zəka və bacarıqları nə olur-olsun, bütün uşaqlar eyni siniflərdə oxuyurlar.
Müasir dövrdə milli maraqlara və dəyərlərə əsaslanan gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə iştirakçı, eyni zamanda bunlardan yararlanan sosial qrup kimi qəbul edir. Hazırda gənclər ictimai həyatın bütün sahələrində təşəbbüskar kimi çıxış edir, -irimiqyaslı layihələrin icrasına qoşulur, buradakı fəallıqları onların vətənpərvərlik ruhunun və vətəndaşlıq mövqeyinin möhkəmlənməsinə stimul verir. Belə şərait isə gənclərə inteqrasiya, mübadilə, ən əsası yaşadığı bölgə üçün lazımlı fərd kimi yetişmək imkanları yaradır.
Təhsil ocaqlarında, eləcə də məktəbdənkənar təhsil müəssisələrində gənclərin elmə, təhsilə marağını artıran müxtəlif bilik yarışlarının keçirilməsi əsas hədəflərdən biridir. Bunlardan ən çox istifadə olunan metod IQ (Intelligence quotient – intellekt koeffisenti) testləridir. Bu testlərə verbal-linqvistik, məntiqi-riyazi, vizual-fəza qabiliyyətlərinə aid tapşırıqlar daxil edilir. Müxtəlif ölkələrin universitetləri tərəfindən intellektin fərqli sahələrinə aid, emosional intellektə aid testlər yaradılmışdır.
Emosional intellektə aid testlərə müxtəlif affektləri təsvir edən və situasional suallar daxil edilir. Bu suallara cavablar "heç razı deyiləm.....tamamilə razıyam" şkalası üzrə verilir. Bu suallardan bəziləri aşağıdakılardan ibarətdir:
Mən narahat olanda bunun səbəbini müəyyənləşdirməkdə çətinlik çəkmirəm.
Emosional insanlar məndə narahatlıq yaradır.
Mən işi həmişə yaxşı görməyə çalışıram, hətta bunu heç kim görməsə belə.
Adamlar yaxşı iş görəndə mən buna görə onlara kompliment deyirəm.
Müasir intellekt nəzəriyyələrinin müəllifləri və bu sahədə çalışan tədqiqatçılar intellektin ölçülməsinin ənənəvi yollarını, xüsusilə də IQ testlərini gələcək individual uğurların əsas göstəricisi hesab edilməsinin əleyhinədirlər. Onların fikrincə bu testlər əsil intellekti ölçmürlər. 1980-ci illərdə aparılan tədqiqatlar göstərir ki, Braziliyalı küçə uşaqları özlərinin xırda biznesləri üçün tələb edilən riyazi əməliyyatları yaxşı bildikləri halda, məktəbdə oxşar tapşırıqları yerinə yetirə bilmirlər.Didaktik oyunlar uşaqlarda nitqin inkişafı, nitq qüsurlarının aradan qaldırılması prosesində əsas¬lı rol oynayır. Müasir təlim şagirdin maraq və tələbatlarına, bilik səviyyəsinə, imkan və qabiliyyətinə uyğun təşkil olunmalı, dərsdə müxtəlif xarakterli oyunlar aparmaqla idrak prosesini, təfəkkürü fəallaşdırılmalıdır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şagird-şagird münasibətləri təhsilalanın özünə inamını artırır, onu fəallaşdırır.
Müxtəlif təlim sistemlərində öyrədici oyunlaırın xüsusi yeri var. Bu, oyunların uşağın təbiətinə çox uyğun olması ilə əlaqələndirilir. Uşaq üçün oyun yalnız maraqlı bir əyləncə deyil, həm də həmyaşıdları ilə münasibətlər sxemini inkişaf etdirir. İntellektual oyunlar təhsilin məzmunu, şagirdlərin fəaliyyəti, oyunun hərəkətləri və qaydaları, təşkili və müəllimin rolu ilə dəyişir. İntellektual oyunları fərdi, qruplarla, cütlərlə və kollektiv aparmaq olar. İntellektual oyunları yeni bilik verən, təkraredici, bacarıq və vərdişlər formalaşdıran oyunlar kimi qruplara ayırmaq olar.
Fərziyyə oyunları "Nə olardı?" və ya "Nə edərdim ...",

"Kim olmaq istəyərdim və niyə?", "Kimlə dost olmaq istərdim, niyə?" və s kimi suallar üzərindən qurulur. Fərziyyə oyunları zamanı hansısa bir nagılın sonluğunu dəyişməyi də tapşırmaq mümkündür. Məsələn, "Uşaqlar, Cırtdan işıq gələn tərəfə yox, it hürən tərəfə getsə idi onun və dostlarının başına nə gələ bilərdi?" Bu oyun zamanı şagirdlər fərziyyələrini əsaslandırılmış və ümumiləşdirilmiş şəklidə sübut edirlər. Bu zaman onlarda fikirlərini sübuta yetirmək, əlaqələndirmək, səbəb-nəticə əlaqələri qurmaq kimi bacarıqlar inkişaf edir. Bu vaxt həm də şagirdlər arasında rəqabət də inkişaf edir. "Kim daha maraqlı fərziyyələr deyəcək" ..

SağlamTəhsil İntellektual oyunlar uşaqlarda nitqin inkişafı, nitq qüsurlarının aradan qaldırılması prosesində əsas¬lı rol oynayır. Müasir təlim şagirdin maraq və tələbatlarına, bilik səviyyəsinə, imkan və qabiliyyətinə uyğun təşkil olunmalı, dərsdə müxtəlif xarakterli oyunlar aparmaqla idrak prosesini, təfəkkürü fəallaşdırılmalıdır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şagird-şagird münasibətləri təhsilalanın özünə inamını artırır, onu fəallaşdırır.

Müxtəlif təlim sistemlərində öyrədici oyunlaırın xüsusi yeri var. Bu, oyunların uşağın təbiətinə çox uyğun olması ilə əlaqələndirilir. Uşaq üçün oyun yalnız maraqlı bir əyləncə deyil, həm də həmyaşıdları ilə münasibətlər sxemini inkişaf etdirir. İntellektual oyunlar təhsilin məzmunu, şagirdlərin fəaliyyəti, oyunun hərəkətləri və qaydaları, təşkili və müəllimin rolu ilə dəyişir. İntellektual oyunları fərdi, qruplarla, cütlərlə və kollektiv aparmaq olar. İntellektual oyunları yeni bilik verən, təkraredici, bacarıq və vərdişlər formalaşdıran oyunlar kimi qruplara ayırmaq olar.

NƏTICƏ

Aparılan araşdırmalara əsasən deyə bilərik ki ,uşaqların nitqinin inkişafında , irəliləməsində intellektual oyunların təqdirəlayiq rolu var . Keçirilən bu oyunlar zamanı uşaqlar bir biri ilə ünsiyyət qurur, müəyyən sual ətrafında düşünür və öz fikirlərini bildirirlər hemçinin onların beynləri intellektual cəhətdən inkişaf edir .Verilən suallar uşaqları düşünməyə vadar edir .Müəllimlərin onlara verdikləri Niyə belə fikirləşirsən? Sən olsan nə edərdin? tipli suallara daha dolğun və düzgün cavab verməyə çalışırlar. Finlandiya təhsilinin uğurlu olması səbəblərindən biri də şagirdlərlə vaxt aşırı intellektual oyunların oynanılmasıdır .Belə oyunlar ibtidai sinif şagirdləri üçün çox önəmlidir. Çünki bu oyunlar keçirildiyi zaman şagirdlər diqqətini toplayır və müəllimin verə biləcəyi tapşırıqları və ya sualları fikirləşir.

ƏDƏBIYYAT SIYAHISI

1. Şəlalə Nəbiyeva: Ana Dili Tədrisi Metodikasının Aktual Problemləri, Bakı-2010
2. https://aztehsil.com/news/4937-agirdlrin-diqqtini-drs-ynldn-vasit-oyun-drslr.html
3. İhttps://az.wikipedia.org/wiki/%C4%B0ntellekt_(psixologiya)
4. https://www.facebook.com/mttm.edu.az/posts/didaktik-oyunlar-u%C5%9Faqlarda-nitqin-inki%C5%9Faf%C4%B1-nitq-q%C3%BCsurlar%C4%B1n%C4%B1n-aradan-qald%C4%B1r%C4%B1lmas%C4%B1/2507329922865747/
5. https://www.facebook.com/mttm.edu.az/photos/didaktik-oyunlar-u%C5%9Faqlarda-nitqin-inki%C5%9Faf%C4%B1-nitq-q%C3%BCsurlar%C4%B1n%C4%B1n-aradan-qald%C4%B1r%C4%B1lmas%C4%B1/2507329436199129/

İBTİDAİ SİNİFLƏRDƏ ORFOEPİK VƏ ORFOQRAFİK QAYDALARIN MƏNİMSƏDİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

NAİLƏ BAYRAMOVA
ADPU, Sabah qrupları
İbtidai sinif müəllimliyi
bayramovanaile578@gmail.com
BAKI, AZƏRBAYCAN

ŞƏBNƏM BAĞIROVA
ADPU, Sabah qrupları
Fakultə/Bölmə adı
bağırovasbnm792@gmail.com
BAKI, AZƏRBAYCAN

FIDAN UMAROVA
ADPU, Sabah qrupları
Fakultə/Bölmə adı
fidanumarova2001@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə ibtidai siniflərdə ana dilinin tədrisi metodikasının ən mühüm sahələri olan orfoqrafiya və orfoepiya qaydalarının mənimsədilməsi və öyrədilməsi üzrə işin təşkilindən bəhs olunur . Tədris zamanı hansı üsul və vasitələrdən istifadə olunduğu barədə məlumat verilmişdir. Tezisdə ibtidai sinif şagirdləri yazılı və şifahi qaydalarını öyrədilməsi üçün orfoqrafiya və orfoepiya qaydalarının mənimsədilməsi üzrə işin təşkilindən bəhs edilir.

Son illərdə orfoqrafiya lüğətlərində olan dəyişikliklərin olması ibtidai sinif şagirdlərinə sözlərin düzgün yazılışının öyrədilməsində bəzi çətinliklərə səbəb olur . Regionlarda və bəzi bölgələrdə yerli şivələrdən və dialekt sözlərdən istifadə olunması müə llimlər üçün orfoepiya yəni düzgün tələffüzün öyrədilməsinə zəruriyyət yaradır. Tədqiqat işinin araşdırlmasında təsviri, müşahidə və tutuşdurma metodlarından istifadə olunmuşdur.

AÇAR SÖZLƏR: ORFOQRAFIYA, ORFOEPIYA, VASITƏ, ÜSUL

GIRIŞ

Orfoqrafiya – yazılı ədəbi dildə hər kəs tərəfindən başa düşülən sözlərin vahid və neytral yazılış qaydaları haqqında bəhs edilən bölmədir . İbtidai siniflərdə savad təlimindən sonrakı dövrdə orfoqrafiya qaydalarına yiyələnən şagirdlərin yazı qaydalarını mənimsəməsi onların qəliz vəziyyətdən çıxmalarına yardımçı olur. Orfoepiya isə düzgün tələffüz qaydalarına yardımçı olan dilçılıyin bölməsidir .Tədrisin təşkili zamanı müəllimlər orfoqrafiya və orfoepiya qaydalarının paralel öyrətməlidirlər və bu üzrə şagirdlərə əvvəlcə nəzəri daha sonra isə praktik calışmalar verməlidirlər.

Azərbaycan dili dərslərində əsas məqsədlərdən biri şagirdlərə düzgün yazı vərdişləri aşılamaqdır. Nəticə etibarilə müəllimlərin qarşısında dayanan əsas məqsədlərdən biri də ilk növbədə, şagirdlərin orfoqrafik savadını yüksəltmək tələb olunur. Azərbaycan dili dərslərində müəllim şagirdlərin orfoqrafik bilik, bacarıq və vərdişlərini aşılamaq üçün bir çox üsul və vasitələrdən, iş növlərindən istifadə etməlidirlər . Bu üsul və vasitələrdən, iş növlərindən danışmazdan əvvəl, onları məqsədinə görə qruplaşdırmaq, hansının təlimin hansı məqamında istifadə edilməsinin daha səmərəli olacağını müəyyənləşdirmək vacibdir.

Azərbaycan dilində məzmun standartlarına əsasən orfoqrafiya və orfoepiya qaydalarına əsasən oxu və yazı məzmun standartlarına əsasən 1 ci sinfin sonunda şagird kiçik həcmli mətni düzgün oxumaqla məzmununu nəql edir , hərfləri sözləri və kiçik həcmli mətnləri hüsnxətt qaydalarına əsasən yazır , hecalara ayırır , böyük və kiçik hərfi fərqləndirir. İlin sonunda müəllim bu bilik və bacarıqları şagirdlərdə yaratmalıdır . Bu təlim nəticələrinə əsasən oxu və yazı və dil qaydaları məzmun standartlarına əsasən alt standartları (2.1.1 kiçik həcmli mətnləri düzgün tələffüz etməklə oxuyur ; 4.1.1. Səs və hərfləri fərqləndirir ; 4.1.3. Böyük və kiçik hərfləri fərqləndirir)

İlk olaraq 1 ci sinif Azərbaycan dili dərsliyində şəkillər üzrə iş verilmişdir. Buna misal olaraq aşağıdakı şəkillərə nəzər yetirək (səhifə.8)



(şəkil. a)

(şəkil.b)

(şəkil .c)



(şəkil.d)

Birinci şəkildə (şəkil.a) şəkil üzrə mətn hazırlamaq üzrə iş verilib həmçinin diqqət etsək ailə üzvlərinin adlarının baş hərfləri böyük digərləri kiçik və xüsusi adlar da " Ramin " sözünün xüsusi ad olduğunu bilərək , ilk hərfin böyük olduğu vürilib və bunula şagirdlərdə insan adlarının ilk hərfinin böyük yazıldığının şahidi olurlar . Həmçinin ikinci şəkildə (şəkil.b) " Ramin " sözündə istifadə olunan hərfləri ayird edərək mənimsəyirlər. Üçüncü şəkildə isə üfüqi və şaquli xanalardakı hərflər, şəkildə verilmiş ailə tablosundakıhansı sözlərdən istifadə olunmuşdursa onaları şagirdlərə cədvəl şəklində təqdim olunaraq verilmişdir . İstifadə olunan hər bir sözdəki sait və samitlərin kiçik və böyük hərflərin yazılışı barədə şagirdlərdə təsəvvür yaradılır . Daha sonra isə sonuncu şəkildə verildiyi kimi verilmiş sözləri hecalara ayıraraq düzgün oxunulması təşkil edilir .

Bunu da qeyd etmək lazımdır ki müəllim birinci sinifdə , nəinki birinci sinifdə bütövlükdə ibtidai təhsil kursunun sonuna qədər əyanilik prinsipindən yeri gədikcə istifadə etməlidir . Bu prinsipdən əsasən 1 və 2 ci siniflərdə daha çox istifadə olunması daha doğrudur . Çünki şəkillər ilə işin təşkili şagirdlərdə məlumatları bu yaş dövrlərində əsasən görmə duyğu üzvünün vasitəsi həyata keçirildiyi məlumdur . Hətta aparılmış tətqiqatlara əsasən demək olar ki insanlar vizual olaraq bütün məlumatları 99 % gözləri ilə alırlar .

Birinci sinif dərsliyində verilmiş hər bir yeni hərfin şagirdlərə düzgün yazılış qaydaları hər bir səhifədə cədvəl şəkilində verilmişdir .

(şəkil.1) (şəkil.2) (şəkil.3) (şəkil.4)

Yuxarıda verilmiş cədvəllərdə kecirilən yeni hərflərin həm hüsnxətt qaydaları həmdə düzgün yazılış qaydaları verilmişdir.

2-ci sinif dərsliyinin 27-ci səhifəsinin 1-ci çalışmanın e bəndində şagirdlərə səhv yazılmış müxtəlifcinsli qoşasitli sözləri düzgün yazmaq tapşırılır. (sayit, ayilə, təbiyət, şayir, radiyo, dayirə, Səyidə, müdafiyə, Nayilə, xayin, stadiyon). Bu sözləri düzgün yazmaq üçün orfoqrafik cədvəldən istifadə etmək olar. Cədvəlin birinci hissəsinə düzgün yazılmış sait,ailə, radio sözlərini yazar, ikinci hissəsinə isə uyğun olaraq yazılışı səhv verilmiş sayit, ayilə,radiyo sözlərini yazmaqla mənimsətmək olar.

İbtidai sinif şagirdləri bəzən şəkilçiləri düzgün yaza bilmirlər.Bu isə onların şəkilçinin məna rolunu bilməməsi ilə əlaqələndirilir. Kitabın 64-cü səhifəsində göstərilir ki , -ıncı hissəciyi sözlərə ahəng qanununa uyğun olaraq qoşulur və qoşulduğu say rəqəmlə ifadə olunduğu zaman qısaldılır : 40-cı, 5-ci , 3-cü. Şagirdlərin belə şəkilçiləri səhv yazmaması üçün söz və şəkilçilərin mənasını düzgün izah etmək, həmin şəkilçinin qoşulduğu sözün son hecasındakı saitin qalın və ya incəliyinə diqqət yetirmək , sözləri cümlədə işlətmək lazımdır. Bəzən şəkilçi və ya hissəcik sözə qoşularkən şagirdlər tələffüzdə müəyyən səhvlərə yol

verirlər. Məsələn – ıncı hissəciyi "bir" sözünə qoşularkən bəzi şagirdlər yanlış olaraq "birinci" sözünü "birimci" kimi tələffüz edirlər. Ona görə də müəllimin düzgü tələffüzü şagirdlərə hər zaman örnək olmalıdır. Müəllim belə sözləri özü düzgün tələffüz etdikdən sonra həmin sözlərin çoxluq təşkil etdiyi şeir parçasını lent yazısında şagirdlərə bir neçə dəfə dinlətdirir . Beləliklə şagirdlər eşitmə yolu ilə bu sözlərin diktor tərəfindən nə cür tələffüz edildiyini müəyyənləşdirirlər.

AÇAR SÖZLƏR: TEXNIKA, SÜRƏT, VIZUAL, AKTİV

GIRIŞ

Sürətli oxu texnikası günümüzdə son dərəcə aktual olan mövzulardan biridir.Çünki, bütün peşə sahələrində sürətli oxumaq,oxuduğunu tez və düzgün başa düşmək müasir dövrün tələblərindən biridir. O, fəal yaradıcı idrak prosesidir.Bu proses zamanı şagird faktları, hökmləri təhlil edir, ayrı-ayrı məfhumların sintezini aparır, nəticədə də yeni biliyin təməli qoyulur.Oxu prosesini inkişaf etdirməyin əsas səbəbi müəyyən müddət ərzində alınan məlumat bazasını ən yüksək səviyyəyə çatdırmaqdır.Bu proses eyni zamanda nitq inkişafına da təsir edir.Sürətli oxu anlayışı hər zaman aktual olan və bir-birinə zidd fikirlər deyilən bir tədqiqat sahəsidir. Şagirdlərin oxu sürəti ilə müvəffəqiyyəti arasında birbaşa əlaqə mövcuddur. Xarkov pedoqoji institutunda bu sahədə xüsusi tədqiqatlar aparılıb. Bu barədə araşdırmalar xüsusilə Sovet dövründə kəskin şəkildə artmağa başlayıb. Məşhur Sovet psixoloqu L.S. Vıqotski hələ 1931-ci ildə yazırdı: *"Adətən, hesab edirlər ki, ləng oxu zamanı anlama daha yüksək olur, əslində isə sürətli oxu zamanı anlama daha yaxşı olur, çünki müxtəlif proseslər müxtəlif sürətlə baş verir və anlama sürəti oxunun daha sürətli tempinə cavab verir".*

Orta danışıq sürəti təxminən 200 sözdür. Biz ucadan oxuyanda özümüzü bu həddi məhdudlaşdırırıq və bu sürəti keçə bilmərik. Ancaq oxuduqlarımızı başa düşmək üçün sözləri dil və qulaq kanallarından keçirərək beyinə göndərməyə ehtiyac yoxdur.Məlumdur ki,şagirdlərə oxumağı öyrətmək heç də rahatlıqla başa gəlmir.Şagirdlər oxu texnikasına savad təlimi zamanı yiyələnirlər.Bəzən uşaqlar mexaniki olaraq yazılmış sözləri təkrar edir,bu proses onlara çətin və mənasız gəlir.Lakin şagird oxu zamanı tələb olunan normaya cavab verdikdə,yəni sürəti zamanla artırdıqda,o həm oxuduğunu başa düşəcək,həm də məzmununu yadda saxlayacaq.Sürətli oxumaq sadəcə məzmunu daha tez qavramağa kömək etmir,həm də şagirdin baxış bucağından tam istifadə etməyinə şərait yaradır.Yəni sürətli oxu anatomiya ilə də əlaqədardır.

Fiziki xüsusiyyətlərinə nəzər salsaq, oxuma sürətini artıraraq, insan baş ağrılarını unuda və hər hansı bir işə diqqətini cəmləyə,diqqət tələb edən işləri tez bir zamanda həll edə bilər.Sürətli oxunun digər faydalarına gəldikdə isə şagird qısa vaxt ərzində daha çox mətn oxuya və qavraya,daha zəngin məlumat bazasına sahib ola və kitab oxumaq bacarığını inkişaf etdirə,effektiv yaddaş texnikaları ilə həyatın istənilən sahəsində daha qalıcı öyrənmə bacarığı qazana bilər.Sürətli oxunun əhəmiyyətlərindən biri də oxu prosesini şagird üçün bilik axtarışında olan maraqlı oyuna çevirməsidir. Bu proses zamanı şagird hər gün inkişaf üçün səy göstərir,tənqidi düşüncə ilə həyatı qavrayır.Apardığımız araşdırmalar zamanı,xüsusilə ibtidai sinif şagirdlərinin sürətli oxu prosesi zamana rəqabətə meyilli olduqları,bunun sayəsində də özlərinə inamın arttığı faktını gördük.Həmçinin qeyd edək ki,sürətli oxumaq insanın lüğət tərkibindən aslıdır.Çünkü insanlar,xüsusilə də uşaqlar tanış olmayan sözləri oxumaqda çətinlik çəkirlər.Buna görə də,dilimizə yerləşmiş əcnəbi sözlərin qarşılığı mütləq öyrədilməlidir.

Bizə məlumdur ki,sürətli oxumaq təkcə sürətli oxumaq deyil,həm də daha çox söz oxuyaraq,məna və yaddaş dialoqunu sürətləndirərək daha yaxşı başa düşmək deməkdir. Savad təliminin ilk mərhələlərindən şagirdə sürətli oxumağın metod və üsulları düzgün öyrədilməlidir.Sürətli oxu texnikasının mənimsədilməsində vərdiş olduqca əhəmiyyətlidir. Bilirik ki,proqramda hər sinfə uyğun şagirdlərin 1 dəqiqədə oxuyacağı sözlərin sayı müəyyənləşdirilmişdir. Bu baxımdan şagirdlərin danışıq nitqi nəzərə alınmaqla sürətli oxu üç yerə bölünür: 1. Sürətli oxu 2. Orta oxu 3. Aramla oxu. Məsələn; 2-ci sinifdə 50-60 söz sürəli oxu,40-50 söz orta oxu,30-40 söz isə aram-aram oxudur. (4,281) Oxu texnikalarına yiyələnmək üçün şagird ilk növbədə oxu sürətini ölçməlidir.Bu zaman o hansı səviyyədə olduğunu və sürətini nə dərəcə artırmalı olduğunu biləcəkdir.O,sürətini müxtəlif saytlarda da yoxlaya bilər.Oxuyarkən yaxşı başa düşməyib əvvələ qayıtmaq ən çox vaxt itkisinə səbəb olan vərdişlərdən biridir.Nə qədər qayıtmaq imkanı mövcuddursa oxumaq konsentrasiyası bir o qədər azalacaq.Bunun üçün ən yaxşı üsul,şagirdin özünə geri qayıtmağı qadağan etməsidir, bu zaman geri qayıtmaq şansı olmadığı üçün konsentrasiya daha da artacaqdır,həmçinin beyni mətni avtomatik olaraq tamamlayacaqdır.

Vizual qavrayış qabiliyyətini artıraraq da oxunu daha sürətli etmək olar.Bizim oxu orqanımız ağız deyil,gözdür.Ona görə də, düzgün orqandan istifadə etmək lazımdır.Həmçinin diqqətlərini cəmləmək üçün şagirdlər oxumağa başlamamışdan əvvəl mətnə və ya kitaba aid suallar qoyulmalıdır.Mətni nə üçün oxuyacaqlarını müəyyənləşdirməli,ön oxuma edərək,diqqətlərini suallara cavab verməyə yönəltməlidirlər. Göz məşqinin olmaması; gözün xətlər üzərində nizamlı olaraq hərəkət edə bilməməsi də oxunun sürətini yavaşladan səbəblərdən biridir.Oxumaqdan doymayan göz sətirlərdə dolanır,bir müddət sonra isə dayanır.Bu səbəbdən də şagird cərgədəki fikirləri bir-birinə bağlayaraq bütünləşdirmək və mənalandırmaqda çətinlik çəkir. Bunun üçün sürət və cəldlik verən bəzi köməkçi vasitələrlə gözü məşq etmək lazımdır. Məsələn, nəqliyyat vasitəsində olarkən reklamları oxuyaraq, əgər varsa, videodakı 2-3 dəfə sürətləndirilmiş alt yazılara baxaraq kiçik göz məşqləri etmək olar. Başlanğıcda sıx sıxılma səbəbiylə başları ağrısa da, ancaq bir müddət sonra buna öyrəşəcəklər.

Mütaliə müəlliflə aktiv söhbət şəklində davam edən zehni prosesdir. Bu mənada oxuya bilmək üçün gözdən kənar zehni bacarıqlar tələb olunur.Şagird mətni zehnində tutaraq səsləndirmə texnikasına da yiyələnməlidir. Oxumamışdan əvvəl kitabın müəllifini araşdırmaq, annotasiyanı və mündəricatı gözdən keçirməkdə faydalı yollardan biridir.Bu texnikada mətnə başlamazdan əvvəl bütün səhifələr gözdən keçirilir,başlıqlar,əsas başlıqlar,paraqrafın əvvəli və sonları oxunur. Bu isə, oxu zamanı nələrin gözlədiyinə dair təsəvvürün formalaşmasına imkan yaradır, həm də bilavasitə prosesin özünü tezləşdirir.Həmçinin bu texnika seçmə oxu priyomuna da bənzəyir.Şagirdə mətnin içindən araşdırmalı olduqları tapşırıqlar verilə bilər.Məsələn,müəllifin üslubunu və ya əsas fikri harda yazmış olduğunu tapa bilərlər. Oxuma zamanı gözlərimiz göz atlamaları ilə soldan sağa, sağdan sola, yuxarıdan aşağıya (bəzən aşağıdan yuxarıya) xətlər boyu hərəkət edir. Buna görə də sürətli və bacarıqlı oxucu olmaq üçün göz qırpmalarını sürətləndirmək, pauza müddətini qısaltmaq, pauza zamanı çoxlu sözləri görə bilmək (4-5 söz), yəni görmə diapazonumuzu genişləndirmək lazımdır.Bu üç xüsusiyyəti idarə etmək beynin işidir.

Çevik oxucu necə oxuyacağına qərar verərkən mətnin növünü nəzərə alaraq zaman-zaman texnikanı dəyişə bilər. Mətn aydın şəkildə yazıldığında və izlənilməsi asan izahata malik olduqda tez oxumaq olar. Çevik oxucu oxuma üsuluna qərar verərkən vaxtını nəzərə alır. Görmə sahəsinin genişlənməsi,yəni,görüş bucağını iki və ya üç sözə, səhifəyə genişləndirmək məqsədi daşıyan xüsusi təlimlərdən (məsələn, Schulte cədvəli) istifadə də oxu üçün vacıb amillərdəndir.Şagirdlər bilməlidirlər ki, bəyənmədikləri kitabları oxumağa məcbur deyillər: ilk təəssürat, çox güman ki, aldatmır. Əgər kitab həqiqətən faydalı və əhəmiyyətlidirsə, bir daha onunla qarşılaşmaq mümkün olacaq.

Ümumiyyətlə sürətli oxu üçün ən böyük amil kitab oxumaqdır.Kitab oxuduqca təbii olaraq görmə sahəmiz də genişlənəcək,söz ehtiyatımız artacaq,deyimlər və atalar sözlərini tamamlayacayıq. Şişirdilmiş və qeyri-adi struktura malik olan məlumatın yaddaşda qalma şansı daha yüksəkdir.Buna görə də şagird dramlaşdırma üsulundan da istifadə edə bilər. Hisslərinizi məlumatlara əlavə etdikdən sonra yaranan görüntünü filmə çevirə bilərsiniz. Oxu və ya öyrənmə prosesinin əvvəlində və sonunda əldə edilən məlumat, orta cərgələrdə əldə edilən məlumatdan daha asan və təsirli olur və yadda qalır.Məlumata hisslərinizi əlavə etməkdə effektiv üsullardan biridir.Siz məlumatı görə, ona toxuna, səslənə bilərsiniz. Unutmayın: səsə, toxunma qabiliyyətinə, qoxuya, görmə qabiliyyətinə, dada çevrilə bilən məlumatların yadda qalması ehtimalı daha yüksəkdir.

TƏDQIQAT METODU

Tədqiqat işinin araşdırlmasında təsviri və tutuşdurma metodlarından, eyni zamanda müşahidə və eksperimentdən də istifadə olunmuşdur.

NƏTICƏ

Buradan belə nəticə çıxarmaq olar ki, məlumat bolluğunun səbəb olduğu müasir informasiya böhranı şəraitində oxu elə təşkil olunmalıdır ki, artıqları seçib ayırarkən yalnız əsaslı dərəcədə yeni olanları, biliklərin əsaslarını seçə bilək, təfəkkür vasitəsindən istifadə edərək yaddaşımıza yeni biliyin əsasını qoya bilək. Yaxşı bir oxucu olmaq üçün siz effektiv oxumağa imkan verəcək müxtəlif üsullardan istifadə etməlisiniz.Bir sözlə,çox oxumaq oxumadan oxumağa imkan verir.Bizi digər varlıqlardan fərqləndirən xüsusiyyət də budur; tamamlama,azaltma,gələcəklə bağlı qərar vermək,təşəbbüs,proqnoz vermək qabiliyyəti və s. Ümumi olaraq qeyd edə bilərik ki,həyatın istənilən mərhələsində,istər gənc,istər uşaq,istərsə də yaşlılar sürətli oxu texnikaları ilə həyatlarını daha cazibədar hala gətirə bilərlər.

ƏDƏBIYYAT SIYAHISI

1. Roxanne F. Hudson, Paige C. Pullen, Holly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. “Reading and Writing Quarterly” journal, 2008.(6-12)
2. Nabat Cəfərova.İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.I hissə.(Dərslik).Bakı:ADPU nəşriyyat,2016.(s.280-282)
3. Süleyman Hüseynov, Elvira Qaracayeva.Azərbaycan dili və nitq mədəniyyəti.(Dərslik).Bakı:Elm və Təhsil nəşriyyatı,2016.(s.135-137)
4. Artar Y.U. Etkili ve hızlı okuma teknikleri. Milli Prodüktivite Merkezi, 2011.(40-42)
5. https://www.researchgate.net/publication/269807445_METINLERI_EKRANDAN_OKUMANIN_ANLAM_KURMA_UZERINE_ETKISI **(Məqalə)**.(321-322)

İBTİDAİ SİNİFLƏRDƏ YAZILIŞI ÇƏTİN SÖZLƏR ÜZRƏ İŞİN TƏŞKİLİ

QASIMOVA TÜKƏZBAN
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
tukezban.qasmova.01@mail.ru
BAKI, AZƏRBAYCAN

QASIMOVA NURDANƏ
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
gvannnna@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə ibtidai siniflərdə yazılışı çətin sözlər üzrə işin təşkil barəsində bəhs olunmuşdur. İbtidai sinifdən başlayaraq şagirdlər yeni sözlərlə tanış olur onun yazılma və deyilmə qaydalarını öyrənir. Yazılışı çətin sözlərin tədrisi prosesində görülən hər cür qrammatik, leksik və orfroqrafik iş dilin mənimsənilməsini asanlaşdırır, təlimin şüurlu və möhkəm olmasına şərait yaradır. İbtidai məktəbdə orfoqrafiya təlimi, xüsusən yazılışı çətin sözlərin şüurlu öyrədilməsində çalışmaların əhəmiyyəti böyükdür. Həmin çalışmalar müxtəlif tipli, rəngarəng, maraqlı və düşündürücü olaraq, kiçik yaşlı məktəbliləri yormur. Şagirdlərə yaş səviyyələrinə uyğun çalışmalar etdirərək, çoxlu imlalar yazdıraraq müəyyən üsul və vasitələrdən istifadə edərək yazılışı çətin sözləri rahatlıqla öyrətmək olar. Tədqiqat işində təsviri və müqayisəli metodlara müraciət olunmuşdur.

AÇAR SÖZLƏR: İBTİDAI TƏHSİL, ORFOQRAFIYA, KALLİQRAFİYA

GIRIŞ

İbtidai siniflərdə Azərbaycan dili tədrisinin qarşısında duran ən mühüm vəzifələrdən biri də şagirdlərə orfoqrafik cəhətdən savadlı,kalliqrafik cəhətdən düzgün,gözəl,aydın,rəvan yazı vərdişi aşılamaqdır.Elə birinci sinifdən başlayaraq şagirdlərə yazı zamanı düzgün əyləşmək, dəftəri maili qoymaq,qələmi düzgün tutmaq qaydasını öyrətməklazımdır.Bu kimi azyaşlı uşaqlarda fizioloji inkişaf da mütləq nəzərə alınmalıdır.Həmçinin,şagirdlərədəftərdə sətir xəttinin tanıdılması lazımdır. Onu nəzərə almaq lazımdır ki,ilk yazı vərdişlərinə məktəbdə yiyələnən uşaqların xətti yazı yazmağı evdə öyrənmiş uşaqlara nisbətən daha gözəl olur. Məhz bu səbəbdən,valideyinlərə bildirilməlidir ki,evdə öyrədilən yazını sonradan düzəltmək olduqca çətin prosesdir.

“Yazılışı çətin sözlər” anlayışı nədir? Hansı sözlərin yazılışını çətin hesab etmək olar? Əslində yazılışı çətin sözlər şagirdin biliyindən,maraq və meylindən,ümumi inkişaf səviyyəsindən asılı olaraq dəyişir.Azərbaycan dili dərslərində - istər oxu,istəryazı dərslərində,hər dərs lüğət üzrə iş aparmaq,yazıdərslərində yeri gəldikcə lüğət üzrə imla yazdırmaq,şagirdlərin tez-tez səhv buraxdıqları sözlər üzərində fərdi iş aparmaq lazımdır. Lüğət üzrə imla yazdırarkən,sözləri orfoepik qaydalara uyğun səsləndirilməlidir.Sonra şagirdlərə vaxt verilməlidirki,orfoqrafiya lüğətindən istifadə edərək öz səhvlərini düzəltsinlər.

Yazılışı çətin sözlərin öyrədilməsi sistemini daha aydın anlamaq üçün metodik vəsaitə baxmaq məqsədəuyğun olacaqdır. Metodik ədəbiyyatda yazılışı çətin sözlərin proqramdakı ardıcıllıqla qruplaşdırılaraq sistemlə öyrədilməsi məsləhət görülür. Ümumiyyətlə, belə sözlərin şüurlu mənimsənilməsi və möhkəm yadda qalması üçün müxtəlif fikri assosiasiyalardan istifadə olunmalı, şagirdlər həm düşündürücü, həm də əqli fəallığı artıran rəngarəng çalışmalar üzərində işlədilməlidir. Hər dərsdən iki-üç yazılışı çətin yeni söz öyrədilməli və bunlar əlaqəli şəkildə təqdim edilməlidir.Hər bir yazılışı çətin söz orfoqramın çətinlik dərəcəsindən asılı olaraq il ərzində təxminən 10-15 çalışmada öz əksini tapmalıdır. Yəni,eyni söz vaxtaşırı çalışma mətninə daxil olunmalı, onlarla iş müəyyən sistemlə təşkil edilməlidir.Bunu belə şərh edə bilərik:

1. Hər bir yeni söz şagirdlərin görmə qavrayışına təqdim edilməli, onların diqqəti yazılışı çətin orfoqramma yönəldilməlidir;
2. Şagird sözün səs-hərf tərkibini qavramalıdır;
3. Şagird sözün leksik mənasını başa düşməlidir;
4. Şagird sözdə buraxılış orfoqrammı yerinə qoyub müəllimin diktəsinə əsasən yazmağı bacarmalıdır;
5. Şagird sözü cümlədə işlədə bilməlidir;
6. Bir məşğələdə 4-dən artıq yazılışı çətin söz verilməməlidir;
7. Yazılışı çətin söz sonrakı çalışmalarda təkrarlanmalıdır.

Yazılışı çətin sözlərin tədrisi prosesində görülən hər cür qrammatik, leksik və orfroqrafik iş isə dilin mənimsənilməsini asanlaşdırır, təlimin şüurlu və möhkəm olmasına şərait yaradır.

Məktəblərimizdə orfoqrafiya təlimi ilə əlaqədar olaraq sınaqlardan çıxmış bir üsul və vasitələrdən,iş növlərindən,istifadə edilir.Bu üsul və vasitələrdən,iş növlərindən danışarkən ,birinci növbədə,bunları məqsədə görə qruplaşdırmaq,məqamında istifadə imkanlarını müəyyənləşdirmək vacib şərtlərdəndir.Orfoqrafiya təlimi üzrə aparılan bütün işləri azı iki mərhələyə bölmək lazım gəlir.Birinci,ilkin mərhələyə orfoqrafik qaydaların nəzəri və praktik yolla öyrədilməsi,ikinci mərhələyə isə avtomatlaşdırma üzrə aparılan işləri aid etmək olar.Öyrədilmiş qaydalar təmrinlər vasitəsilər vasitəsilə avtomatlaşdırılmazsa, qaydalarla aparılan işin faydası olmaz.Orfoqrafik cəhətdən düzgün yazı vərdişlərinə yiyələndirməkdə avtomatlaşdırılma üzrə aparılan işlərin düzgünlüyünün daha böyük əhəmiyyəti vardır.Lakin insan vərdişlərinin əsasında,başqa canlılardan fərqli olaraq,şüurlu başlanğıc dayanır.Birinci növbədə, dilimizdəki mövcud orfoqrafik qaydaları şagirdlərə düzgün,şüurlu aydınlaşdırmaq, başa salmaq, sonra həmin qaydaların yadda qalması üçün müxtəlif üsul və vasitələrdən istifadə etmək lazım gələr.Bu ilkin mərhələ üçün üsul və vasitələrin düzgün seçilməsinin böyük əhəmiyyəti vardır.Üsul və vasitələri seçərkən aşağıdakı cəhətləri xüsusi nəzərə almaq tələb olunur:

Öyrədilən orfoqramın xarakterinin nəzərə alınması.Bildiyimiz kimi,öyrədiləcək orfoqramlar müxtəlif xarakterli ola bilər.Bu,birinci növbədə,orfoqramın tələffüzünə münasibəti ilə müəyyənləşir.Bəzi orfoqramların tələffüzü ilə yazılışı arasında fərq olmur,bəzisində cüzi,bəzisində böyük fərq müşahidə edilir.Bəzi orfoqramların nitq hissələrinin xüsusiyyətləri ilə bağlı müstəsnalıq təşkil edir.Məsələn,xüsusi isimlərin böyük hərflə yazılması isimlə bağlı məsələdir.Çoxaltma dərəcəsinin şiddətləndirməsinin əmələ gəlməsi yolu sırf sifətə məxsus olan xüsusiyyətdir. Dilimizdə elə sözlər var ki, onların yazılışında çətinlik vardır. Buraya qəhrəman, bəxtəvər, qabiliyyət,bünövrə ,bənövşə, peşman, bərabər, mətifət kimi sözləri aid etmək olar.

Bütün qaydaların öyrədilməsində morfemi analız və sintez etməyə imkan verən orfoqrafik təhlillərə geniş ehtiyac vardır.Belə təhlillərdən həm xüsusi həm də ümumi xarakterli orfoqramların öyrənilməsi üçün istifadə etmək mümkündür.Birinci halda,orfoqrafik təhlil orfoepik təhlillə paralel şəkildə aparılır.İkinci halda isə orfoepik təhlillə əlaqə nisbətən zəif olur.Hər hansı orfoqrafik qaydanın və ya orfoepik qaydaların öyrədilməsində iki mühüm mərhələ vardır.Bunlardan birincisi qaydanın öyrədilməsi və yaddaşda möhkəmləndirilməsindən, ikinci avtomatlaşdırma üçün təmrinlərdən ibarətdir.Birinci mərhələnin özü də iki mərhələyə ayrıla bilər.

Birinci mərhələnin ilk fazasında qaydalar şagirdə şüurlu surətdə mənimsədilir,başa salınır.Bu fazada qaydaların sistem halında öyrənilməsi faydalıdır.Bu zaman əyani vasitələrdən istifadə faydalı ola bilər.İkinci faza birinci fazadan ayrılmasa da, başqa vəzifə daşıyır.Bu fazada şagirdlərin yadda saxlamaları üçün zəruri iş növlərindən istifadə edilir.Məsələn,ilk dərsdə saitlərin orfoqrafiyası ilə əlaqədar beş qayda əyani vasitə əsasında izah edilir və şagirdlərə bu qaydalara əsasən sözlərin yazılış formaları şərh olunur.Bu qaydalar hansı əyani vasitə üzrə şərh edilirdisə, həmin əyani vasitə o gündən etibarən Azərbaycan dili kabinəsindən asılır və orada qalır.Bundan sonra şagirdlər həmin qaydaları yadda saxlamağa ,hətta əzbərləməyə, sonra bu qaydaları yazıya tətbiq etməyə başlayırlar.Bu dərsdə və dərsdən sonra bir neçə dərsdə həmin sözlərlə zəngin olan rabitəli və rabitəsiz mətnlər üzərində müxtəlif çalışmalarla iş aparılır.

Bununla da birinci mərhələnin hər iki fazasındakı iş başa çatdıqdan sonra,ikinci mərhələ üzrə işə öyrədici və yoxlayıcı yazıların aparılması işinə başlanılır.Həmin yazı işləri yoxlanılır,qiymətləndirilir və buraxılan səhvlər üzərində təkrar-təkrar işlər gedir.

Bunu da qeyd etməkdə fayda var ki,ibtidai məktəbdə orfoqrafiya təlimi, xüsusən yazılışı çətin sözlərin şüurlu öyrədilməsində çalışmaların və imla, ifadə, inşaların əhəmiyyəti böyükdür. Həmin çalışmalar müxtəlif tipli, rəngarəng, maraqlı və düşündürücü olmalı, kiçik yaşlı məktəbliləri yormamalıdır. Bu məqsədlə metodik ədəbiyyatda müxtəlif çalışmalar məsləhət görülür:

1. buraxılmış hərfi yerinə qoymaqla sözü tamamlayıb yazmaq;
2. diktəyə əsasən yazılmış sözün mənasını izah etmək;
3.pəncərəli cədvəl üzrə imla (məsələn: “nümunə”sözü iri hərflərlə qalın kağıza yazılır. Ü hərfinin yanları iki tərəfdən kəsili barxayaq atlanır, sözü hamı yazandan sonra “pəncərə örtülür”, şagirdlər yazdıqlarını yoxlayır, “nümunə” şəklində yazanlar düzəliş aparırlar;
4. 3-4 söz üzrə izahlı lüğət –orfoqrafik imla;
5. Tapmağa xarakterli lüğət imlası, məsələn, müəllim deyir: “-qatarın paravoza qoşulan hissəsi”, uşaqlar yazırlar : “-vaqon”, “-yemiş və qarpızın bitdiyi yer” (bostan);
“-On rəqəmindən əvvəlki rəqəm” (doqquz);
“ -yazı taxtasında yazdığımız əşya” (təbaşir)
“ - göylə yerin birləşdiyi kimi görünən yer” (üfün) vəs.
6. əşya şəkilləri (paraxod, pomidor, mağaza, kombayn və s.)
7. keçilmiş qrammatik mövzuya həsr olunmuş 10-15 sözdən ibarət lüğət-orfoqrafik imla;
8. qrammatik – orfoqrafik təhlil;
9. sözün kontekstdə işlədilməsi və s.

Sözsüz ki,bu çalışmalar həm də şagirdləri düşündürür,təfəkkürü inkişaf etdirir. Məsələn: yazılışı çətin sözlərin öyrədilməsində nöqtələrin yerinə buraxılmış hərflərin əlavə edilib köçürülməsi işin əsasını təşkil edir.

Məlumdur ki,orfoqrafiya yazılı nitqi orfoepiya isə şifahi nitqi əhatə edir. Elə yazılışı çətin sözlər var ki,onlarınyazılışı ilə tələffüzü fərqli olduğundan onların müqayisəli öyrədilməsi yaxşı nəticə verir.

Orfoepiya(deyilişi): Orfoqrafiya(yazılışı):
Zəmbil Zənbil
Sümbül Sünbül
Gümbəz Günbəz
Təmbəl Tənbəl
İsdi İsti
Çərşəmbə Çərşənbə
Panbıq Pambıq

Dərsliklərdə bu növ çalışmaların olduqca az olmasına baxmayaraq,yazı dərslərində düzgün yazı ilə səhv yazı, formaca oxşar, mahiyyətcə fərqli sözlərin müqayisəsi üzrə yaradıcı tapşırıqlar yazılışı çətin sözlərin möhkəm, şüurlu mənimsətməyə kömək edir, şagirdləri ədəbi dil normalarına alışdırır, diqqətlərini sözün düzgün yazılışına cəlb edir. Yazılışı çətin sözlər üzərində işi təkcə Azərbaycan dili dərslərində deyil,oxu,riyaziyyat və s. fənlərlə əlaqəli aparılmalıdır. Müəyyən termin və sözlərə rast gəldikcə təkcə mənasını yox,həm də tələffüz və yazılışını şagirdlərə mənimsətmək lazımdır.

NƏTICƏ

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki,yazılışı çətin olan sözləri şagirdlərə öyrətmək üçün əyləncəli, rəngarəng , düşündürücü və öyrədici çalışmalar hazırlamalı və ya metodik vəsaitdən istifdə edilməli və imala, ifadə, inşa yazdırılmalıdır. Yazılışı çətin sözlərin öyrədilməsi təkcə Azərbaycan dili dərsilə deyil,oxu,riyaziyyat və s. fənlərlə də əlaqəli aparılması yaxşı nəticə verir. Dərsliklər, metodik vəsait,

iş vərəqləri, yazı taxtası, proyektor və.s dərsin təşkili üçün əsas vasitələrdir. Xüsusi orfoqrafik çalışmalarda sözləri, cümlələri, mətni savadlı yazmağı bacaran şagird ifadə və inşada da səhvə yol vermir. Bu da şagirdlərin qrammatik-orfoqrafik qaydaları, yazılışı çətin sözləri, sözlərin səs-hərf tərkibini yaxşı mənimsədiyini göstərir. Həmçinin belə qənaətə gəlirik ki, bütün bu proseslərdə müəllim yəni fasiltator mühüm rol oynayır.

ƏDƏBIYYAT SIYAHISI

1. Y.Ş.Kərimov. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, 1997.
2. A.Abdullayev. İbtidai məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1962.
3. İbtidai siniflərdə " Müəllim üçün metodik vəsait"I, II, III, IV siniflər üçün
4. https://sherg.az/x%C9%99b%C9%99r/125053
5. https://sozluk.obastan.com/x%C3%BClas%C9%99

COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ

Quliyeva İlahə
Bakı Qızlar Universiteti
Sosial-pedaqoi fakültə
ilahe101@gmail.com
Bakı, Azərbaycan

Müasir təhsil sisteminin ən mühüm vəzifəsi şagirdlərə öyrənmək, özünü inkişaf etdirmək və özünü təkmilləşdirmək bacarığını təmin edən universal təhsil fəaliyyətinin formalaşdırılmasıdır. Bütün bunlara interaktiv təlim metodlarından istifadə etməklə, şagirdlər tərəfindən sosial təcrübənin şüurlu və fəal şəkildə mənimsənilməsi ilə nail olunur. Məqalənin də aktuallığı onun məhz belə bir vacib mövzuya həsr olunması ilə bağlıdır. Elmi yenilik məqalədə coğrafiya fənninin tədrisində interaktiv təlim və tədris metodlarından istifadə yollarının araşdırılmasından ibarətdir.

1. AÇAR SÖZLƏR: FƏAL TƏLIM, İKT, VENN DIAQRAMI

Müstəqillik əldə etdikdən sonra respublikamızda qanunvericiliyə əsaslanan və təhsilin bütün pillələrini əhatə edən geniş islahatlar həyata keçirilir. O cümlədən də orta ümumtəhsil məktəbləri üçün təhsilin yeni strukturunun hazırlanması, tədris planı və proqramların yeni məzmun kəsb etməsi, interaktiv təlim metodlarının və şagirdlərin fəaliyyətlərinin qiymətləndirmə kriteriyalarının işlənib-hazırlanaraq həyata keçirilməsibu gün Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatların əsas bazasını təşkil edir.Təhsilin yeni məzmun kəsb etməsi müasir coğrafiya dərsinin də təşkilinin yeni məzmuna malik olmasını müəllimlərin qarşısında bir vəzifə kimi qoyur. Müasir dövrdə yeni məzmuna malik coğrafiya dərslərinin təşkil olunması dərs zamanı istifadə olunan fəal təlim metodlarından asılıdır. Bu metodların dərsin mərhələlərinə uyğun olaraq seçilib, istifadə olunması ilk növbədə müəllimdən yüksək metodiki bacarıq və işinə yaradıcı münasibətlə yanaşmağı tələb edir.

Ümumiyyətlə təlim fəaliyyətində məqsədə müvəffəqiyyətlə çatmaq üçün düzgün üsul seçməyin əhəmiyyəti böyükdür. Müasir dövrdə cəmiyyət təlim-tərbiyə qarşısında daha fəal, bilikləri operativ şəkildə tətbiq etməyi bacaran, dünya bilik sisteminə müstəqil inteqrasiya edə bilən, yaradıcı şəxsiyyətlər yetişdirmək tələbini qoymuşdur. Bu tələb əsasında təlimin məzmunu dəyişdirilmiş, "fəal təlim" anlayışı meydana çıxmışdır. Fəal təlim şagirdlərin idraki inkişafını fəallaşdıran, onları müstəqil düşünməyə sövq edən yeni təlim üsulları tələb edir. Fəal təlim üsullarının seçilməsində fənnin məzmunu, həmçinin təlim məqsədi nəzərə alınır. Fəal təlim metodları şagirdlərin təfəkküründü inkişaf etdirir, şagird kəşf olunanları özü üçün yenidən kəşf edir. Müasir dərsdə istifadə olunan fəal təlim metodları həmçinin şagirdlərdə yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yanaşma bacarığını formalaşdırır. Fəal təlim metodunun tədris

prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.
Coğrafiya fənninin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini təmin edən ən səmərəli üsullardan biri **Venn diaqramı** üsuludur. Fənn üzrə tədris olunan mövzuları, orada əhatə olunan hadisələri, proses və təzahürləri müqayisə etmək, oxşar və fərqli cəhətləri, səbəb-nəticə əlaqələrini müəyyən etmək kimi bacarıqların formalaşdırılmasında bu üsulun tətbiqinin əhəmiyyəti böyükdür. Bu üsuldan Regional coğrafiya bölməsində daha geniş istifadə etmək olar. Məsələn, Şimali Amerika və Avrasiya materiklərinin oxşar və fərqli cəhətlərini Venn diaqramına əsasən müəyənləşdirib yazın.

Şimali Amerika Avrasiya



İnformasiya cəmiyyətinin formalaşmasında əsas rolu İKT-nin müxtəlif sahələrdə tətbiqi müasir dövrdə daha da sürətlənir. Şagirdlərin İKT-dən istifadə bacarıqlarını dərinləşdirmək məqsədi ilə **Təqdimat** metodundan istifadə etmək əlverişli olar. Şəkillərdən, xəritələrdən, müxtəlif anemasiyalardan istifadə etməklə şagirdlər dərsin məqsəd və məzmununa uyğun təqdimatlar hazırlayırlar.
Oyun uşaqlar arasında əsas fəaliyyət növü sayılır.oyunda ən zəif oxuyan şagirdlər də həvəslə iştirak edir və uğurlu nəticələr göstərirlər.Coğrafiya dərslərində müxtəlif tipli didaktik oyunlardan istifadə etmək olar.Bunlara aşağıdakıları misal göstərmək olar:
1) "Kim daha çox" oyunu. Şagirdlərə Sakit okeana aid olan dənizləri xəritədə tapmaq tapşırılır vəs
2) "Səhvi tap" oyunu. Şagirdlər yeni mövzu ilə tanış olduqdan sonra , onlara yeni mövzu ilə əlaqəli, çoxlu səhvlər olan mətn verilir, ən çox səhv tapan qalib olur.
3) "Aid olmayanı tap" oyunu. Məsələn, verilən yarımadalardan Avrasiya materikinə aid olmayanı tapmaq tələb olunur.

Fəal təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək düzgün deyildir. Dərsdə qarşıya qoyulmuş məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla fəal metodlara müraciət edilməlidir. Müəllim yaradıcı və təşkilatçı olmalıdır ki, öz dərslərində fəal təlim metodlarından düzgün istifadə edə bilsin.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan Respublikasinda Ümumi təhsilin konsepsiyasi (milli kurikulum) // kurikulum, 2008, № 1.
2. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar. //azərbaycanməktəbi, 2013, № 6.
3.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Baki: mütərcim, 2007.
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Baki: mütərcim, 2006
5. **Veysova Z.** Fəal və interaktiv təlim: müəllimlər üçün vəsait. Baki, 2007.

MƏKTƏBLİLƏRİN MİLLİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSİNDƏ İNGİLİS DİLİ TƏDRİSİNİN VƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

Şahnaz Abdullayeva
Bakı Dövlət Universiteti

Pedaqogika/ Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)
Shahnaz.aliyeva.aghasamad@bsu.edu.az
Seliyeva023@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dövrdə məktəbdə şagirdin yiyələnməli olduğu kompetensiyalara xarici dillərdə ünsiyyət kompetensiyası, kompüterdən istifadə kompetensiyası, sosial və vətəndaşlıq kompetensiyası və mədəni məlumatlılıq və özünü ifadə etmək kompetensiyası daxildir ki, bu da milli və ümumbəşəri dəyərlərin aşılanması ilə birbaşa əlaqəlidir. Dünyada bu kompetensiyalar əsasında XXI əsrin bacarıqları müəyyənləşdirilmişdir. Bu bacarıqların formalaşdırılması şagirdlərdə gələcək həyatlarını, karyeralarını qurmağa, həyatda özlərinə yer tutmağa şərait yaradır. "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" (2020) sənədində də bu məsələlər öz yerini almışdır. Bəs milli və ümumbəşəri dəyərlər hansılardır? Onların aşılanmasında İKT-dən istifadə dedikdə nə başa düşülür? İngilis dili dərslərində bu üç vacib məsələni necə reallaşdırmaq olar?

AÇAR SÖZLƏR: İnformasiya və Kommunikasiya Texnologiyaları, milli və ümumbəşəri dəyərlər, ingilis dili, OPOL

КЛЮЧЕВЫЕ СЛОВА: информационно-коммуникационные технологии, национальные и общечеловеческие ценности, английский язык, ОПОЛЬ

KEYWORDS: Information and Communication Technologies, national and universal values, English, OPOL

GİRİŞ

Mövzunun adından göründüyü kimi, mövzunun obyekti ingilis dili fənninin tədrisi zamanı məktəblilərin milli və ümumbəşəri dəyərlərə məhəbbət ruhunda tərbiyyəsi və bu zaman informasiya və kommunikasiya texnologiyalarından (bundan sonra İKT) səmərəli istifadədir. İngilis dili dünyanın qlobal dilləri siyahısında qabaqcıl yer tutduğundan ingilis dilinin tədrisi günümüzdə aktual məsələdir. Digər aktual məsələ isə məktəbdə şagirdlərə İKT-dən istifadə bacarığı aşılamaqdır. Bildiyiniz kimi, müasir dövrdə məktəbdə şagirdin yiyələnməli olduğu kompetensiyalara xarici dillərdə ünsiyyət kompetensiyası, kompüterdən istifadə kompetensiyası, sosial və vətəndaşlıq kompetensiyası və mədəni məlumatlılıq və özünü ifadə etmək kompetensiyası daxildir ki, bu da milli və ümumbəşəri dəyərlərin aşılanması ilə birbaşa əlaqəlidir. Dünyada bu kompetensiyalar əsasında XXI əsrin bacarıqları müəyyənləşdirilmişdir. Bu bacarıqların formalaşdırılması şagirdlərdə gələcək həyatlarını, karyeralarını qurmağa, həyatda özlərinə yer tutmağa şərait yaradır. "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" (2020) sənədində də bu məsələlər öz yerini almışdır. Bəs milli və ümumbəşəri dəyərlər hansılardır? Onların aşılanmasında İKT-dən istifadə dedikdə nə başa düşülür? İngilis dili dərslərində bu üç vacib məsələni necə reallaşdırmaq olar?

1. TƏDQİQAT METODU

Tədqiqat mövzusu ilə bağlı nəzəri təhlil, tarixi müqayisəli təhlil və müşahidə metodlarından istifadə edilmişdir.

Hər bir millətin min illərin sınağından keçmiş inanc, mədəniyyət və dəyərləri vardır. Hər bir millət digər millətlərdən öz milli dəyərləri ilə fərqlənir. Deməli, milli dəyərlər həm də millətləri bir birindən fərqləndirən özünəməxsus əlamətdir. Ümumilikdə isə dəyərlər maddi və mənəvi olmaqla iki yerə bölünür. Maddi dəyər iqtisadi yönümlüdür, hər hansı bir əşyanın və ya materiyanın ekvivalenti kimi göstərilə bilər. Milli maddi dəyərlərə misal olaraq çəkilmiş yollar, salınmış şəhərlər, tikilmiş binalar, memarlıq abidələri, kənd təsərrüfatı obyektləri və s. Göstərmək olar. Mənəvi milli dəyərlər isə minilliklərin sınağından keçmiş, milləti millət edən, həmin millətin özünəməxsus izləri, çalarlarıdır. Məsələn, incəsənətin müxtəlif

sahələrinin, - folklorun, təsviri incəsənətin, poeziyanın, heykəltəraşlığın, nəsrin və s. Yaratdığı əsərləri mənəvi milli dəyərlərə gözəl nümunələrdir. Mənəvi milli dəyərlər millətin mənəviyyatının formalaşmasına çalışarkən, maddi milli dəyərlər minilliklər boyu həmin millətin həyat səviyyəsinin yüksəldilməsi məqsədinə xidmət edib.

Ümumbəşəri dəyərlər qlobal əhəmiyyətli şüurla təzahür olunur. Ümumbəşəri dəyərlər insan cəmiyyətində həmişə mövcud olmuşdur. Ümumbəşəri dəyərlər öz ictimai xarakterinə görə sərhədləri aşan mənəvi təsir vasitəsidir. Ümumbəşəri dəyərlər insanın ictimai şüuruna və iradəsinə birbaşa və intensiv təsir, mənəvi - psixoloji vasitədir.

İnsan nə milli mənəvi dəyərlərinini unutmalı, nə də ümumbəşəri dəyərlərdən imtina etməlidir. Çünki milli mənəvi dəyərlər bizim özünəməxsus adət-ənənələrimizi əks etdirir, bizi biz edən dəyərlərdir. ümumbəşəri dəyərlər isə bizim dünya ilə birgə əməkdaşlığımızı möhkəmləndirir, bizi dünyada baş verənlərdən xəbərdar edir. İngilis dili fənninin tədrisində bu mövzuya daha çox diqqət ayrılmalıdır. Belə ki, ingilis dili tədrisi zamanı biz ümumbəşəri dəyərləri öyrənmək üçün ilkin addım atırıq: yeni bir millətin dilini öyrənərkən həmin millətin mədəniyyət və dəyərlərini də öyrənirik. Biz xarici dil dərslərində şagirdlərə həm başqa mədəniyyətlərə hörmətlə yanaşmağı aşılamalı, həm də milli dəyərlərimizi unutmamalı, balansı qorumağı bacarmalıyıq. İngilis dili qlobal dillər siyahısında olduğundan onu öyrənərkən biz nəinki ingilis xalqının mədəniyyəti, həm də başqa ölkələrin mədəniyyəti haqda məlumat əldə etmək şansı əldə edir, dünyanı narahat edən qlobal məsələlərdən və gündəmdə olan məsələlərdən xəbərdar ola bilirik. İngilis dili bizim üçün bir növ dünyaya, ümumbəşəri dəyərlərə açar rolu oynayır. İngilis dilini öyrənmək ona görə də çox vacib prosedurdur və onun tədrisi üçün irəli sürülən metodların ən məşhurlarından biri də OPOL metodudur. Bu metodun adı " One person, one language" abreviaturundan (abreviatur sözü ingilis dilindən götürülüb, mənası qısaltma deməkdir. Sözün baş hərflərini və ya hissələrini saxlamaqla düzəldilmiş mürəkkəb qısaltmalar, söz və ya söz qrupunun qısaldılmış formasıdır) götürülmüşdür. Digər fərziyyəyə əsasən isə həmin ifadə qədim türk mənşəli atalar sözüdür. İfadənin tam versiyası " Bir dil bir insan, iki dil iki insan" kimi bilinir. Hər iki şüar eyni məna daşıyır. Bu bir daha sübut edir ki, öyrənilən hər yeni dil yeni bir mədəniyyətin, incəsənət və ədəbiyyatın, folklorun, yeni düşüncə tərzinin, yeni elm sahəsinin qapılarını üzümüzə açır, tarixi gərçəklikləri başqa bir perspektivdən işıqlandırır.

Əzəli Dağlıq Qarabağ problemimiz illər sonra Cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev və cəsur ordumuz sayəsində öz həllini tapsa da, yağı düşmən yenə də pusqudadır və özünəməxsus namərdliklə soyuq müharibəyə davam edir. Hal-hazırda klaviatura arxasında əyləşib informasiya cəbhəsinə qoşulan təhsilli vətəndaşlarımız əslində dövrün tələblərinə uyğun olaraq bir növ döyüş bölgəsində mübarizə aparan əli silahlı əsgərlərimizin silahdaşlarıdır. Deməli, xarici dil bilgisi həm də bizə tariximizin qanlı həqiqətlərini dünyaya düzgün şəkildə çatdıra bilməyimiz üçün çox vacibdir. Zənnimcə, vicdanlı vətəndaş yiyələndiyi sənətdən asılı olmayaraq sənətini mükəmməlləşdirərək daim öz üzərində çalışan, yeniliklərdən xəbərdar və yeniliklərə açıq olan, millətinə xidmət edən şəxsdir. Deməli, tələbələrimizin, müəllimlərimizin, tarixçilərimizin, bir sözlə təhsil sahəsində ilərləyən vətəndaşların çiyninə daha ağır yük düşür. Ümumilikdə isə bu yük əslində hər kəsin çiynindədir. Çünki bugünün gənci sabahın valideynidir və hər bir vətənpərvər valideynin borcu vətənin gələcəyi üçün savadlı, təhsilli, dünyagörüşlü, dövrün tələbləri ilə ayaqlaşan, ən azı bir xarici dili bilən vicdanlı vətəndaş yetişdirməkdir.

Müasir dövrdə Azərbaycanda xarici dil öyrənməyin daha gündəmdə olan, vacib və aktual mövzu olmağının səbəbi, zənnimcə, indi daha aydın oldu. Beynəlxalq dillər arasında isə ön sırada gedən dillərdən biri də ingilis dilidir və artıq əsrlərdir ki, "qlobal dillər" siyahısında öz birinciliyini başqa dillərlə paylaşmaq niyyətində deyil. Bu səbəbdən bu dil Azərbaycanda da təhsil ocaqlarında şagirdlərə öyrədilən dillər siyahısında qabaqcıl yerdədir. Təsadüfi deyil ki, dil dərslərinə nəinki məktəbdən başlanılır, hətta uşaq bağçalarında və məktəbəqədər hazırlıq kurslarında da ingilis dili tədrisinə zaman ayrılır. Çünki yeni dil öyrənilməsinə daha erkən yaşlardan başlanılması daha məqsədəuyğun hesab olunur: uşaq beyni ana dili ilə eyni anda başqa bir dili də imitasiya (təqlid, bənzətmə) metodu ilə mənimsəməyə hazır olur. Beləcə, dövrün tələbləri ilə ayaqlaşmaq üçün dil öyrənilməsinə mümkün qədər tez başlamağa tələsirik, hətta bəzən xarici dili—ingilis dilini ana dili ilə paralel tutub eyni vaxtda öyrətməyə cəhd edir, həmin dili ana dili səviyyəsində mənimsəməyə çalışırıq. Bu zaman ortaya belə bir məsələ çıxır: hər bir yeni dil yeni bir fərd kimidirsə, yeni öyrənilən xarici dil özü ilə bərabər öz mədəniyyətini və ruhunu da aşılayır. Bəs məktəbli bu mədəniyyəti öz mədəniyyəti kimi mi qəbul edir? Tariximizi və mədəniyyətimizi tanıtmaq məqsədilə çıxdığımız bu yolda öz mədəniyyətimizi və milli dəyərlərimizi unutmaq təhlükəsi ilə mi üzləşirik?

Digər tərəfdən isə ingilis dili ümumbəşəri dəyərlərə yiyələnmək yolunda körpü rolu oynayır. Lakin bizim əsl məqsədimiz milli və ümümbəşəri dəyərlər arasındakı tarazlığı qorumaq, qızıl ortanı tapmaqdır.Beləcə,

dünya dəyərlərinə yiyələnmək və dünya mədəniyyətindən xəbərdar olmaqla yanaşı, öz milli məqsədimizi də unutmamalıyıq. Bu mövzunu daha dərindən araşdırmaq və dəyərlər arasında tarazlığı qorumaq məsələsini həll etmək üçün, zənnimcə, məktəbdə ingilis dili dərslərində istifadə olunan dərslik və dərs vəsaitləri böyük rol oynayır.

Başqa dili və onun mədəniyyətini öyrənərkən müasir dövrdə bizə istifadə edə biləcəyimiz elə texnoloji imkanlar yaradılıb ki, artıq tədris prosesi dərs vəsaiti və dərsliklərlə limitlənmir. Beləcə biz nəinki yeni mədəniyyəti yalnız qiyabi olaraq kitabdan öyrənə, həm də şagirdlərə başqa ölkələrdə yaşayan digər millətlərdən olan yaşıdları ilə ingilis dilində ünsiyyətə şərait yarada, öz mədəniyyətləri barədə informasiya mübadiləsi etməyi aşılaya bilərik.

Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. Hamı razılaşar ki, İKT savadı olmayan şəxsin bu gün dövlət və ya özəl sektorlarda perspektivli iş tapması yalnız təsadüf nəticəsində mümkündür. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə elə orta məktəbdən başlayır. İbtidai siniflərdən başlayaraq təhsilin İKT əsasında qurulması, şagirdlərə ənənəvi dərslərlə yanaşı ilkin informatik biliklərin öyrədilməsi, məktəblilərin kompyuterlə, internetlə işləməyə psixoloji hazırlanması uşaqların savadlı və istedadlı kadr kimi yetişməsində çox mühüm rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, ümumilikdə təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ölkəmizdə bu prosesə start verdi. Bundan sonra 10 iyun 2008-ci il tarixində ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub.

Artıq təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar əsas hədəflər müəyyənləşdirilmiş, nəzərdə tutulan tədbirlərin xeyli hissəsi həyata keçirilmişdir. Əlamətdar hadisələrdən biri odur ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2010-cu ili ölkəmizdə "Təhsildə İKT ili" elan edib və bu kampaniya çərçivəsində konfranslar, seminarlar, müxtəlif stimullaşdırıcı və həvəsləndirici aksiyalar, müsabiqələr həyata keçirilir. Təqdirəlayiq haldır ki, bu işlərdə müxtəlif fondlar, şirkətlər, firmalar da yaxından iştirak edirlər. Məktəblərin İKT avadanlığı, o cümlədən kompyuter, noutbuk, interaktiv lövhələr ilə təchizatı isə hazırda uğurla davam etdirilir. "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" (2020) sənədində də bu məsələlər öz yerini almışdır.

2. NƏTİCƏ

İKT-dən istifadə yalnız informatika dərsləri ilə məhdudlaşmır. Yuxarıda qeyd olunduğu kimi, informasiya texnologiyalarından ingilis dili dərslərində də xaricilərlə birbaşa ünsiyyət qurmaq üçün də istifadə etmək olar. Dərsliklər bizi biliklə təmin etsə də, dərs prosesi zamanı vizual vasitə şagirdlərin həm biliyi daha yaxşı qavramasında yaxından iştirak edir, həm də xarici dilin istifadəsini vərdişə çevirir. Dili həmin dildə danışan xarici ilə ünsiyyət qurmaqla mənimsəmək isə dil qaydalarının inkişafı üçün əvəzedilməz vasitədir. Artıq elə bir dövrə qədəm qoymuşuq ki, dili yalnız kitab vasitəsilə öyrənmək tarixə çevrilib. Sözsüz ki, hər hansı bir xarici dili öyrənmək həmin dildə həftədə iki dəfə dərsdə 45 dəqiqə həmin dilə vaxt ayırmaqla, ingilis dili dərsində ingilis dilində danışmaqla kifayətlənmir. Bu fəaliyyətə biz məktəbdən kənarda da davam etməliyik. İngilis dilində ünsiyyətdə İKT-dən istifadə dedikdə youtube kanallarını, instagramda dil bilgili "native blogger"ləri izləmək, facebookda xaricilərlə ingilis dilində yazışmaq, netflixdə ingilis dilində filmlər izləmək və s. daxildir. Dərs zamanı İKT istifadəsi isə müxtəlif akademik saytlarda müəllim nəzarəti altında xarici yoldaş tapıb, onunla hər hansı bir ortaq mövzuda ünsiyyət qurmaq, Skype, Zoom və digər kommunikasiya proqramları vasitəsilə hər dəfə fərqli ölkədən bir sinif müəllimi ilə ünsiyyətə keçib, siniflərin bir biri ilə ingilis dilində ünsiyyət qurmasında müəllim yaxından inkişaf edə bilər. Beləcə, bu metod həm şagirdlərə ingilis dilində ünsiyyət qurmaq bacarığını inkişaf etdirməyə kömək edər, həm də hər ölkənin mədəniyyəti və dəyərləri barədə məlumat əldə etməyə imkan yaradar. Bu, eyni zamanda ingilis dili vasitəsilə bizim də öz milli mənəvi dəyərlərimizi dünyaya çatdırmağa gözəl fürsət verir. Əslində İkinci Qarabağ Müharibəsi fiziki olaraq bitsə də, soyuq informasiya savaşı hələ də davam edir və İKT istifadə imkanlarımız və ingilis dili bilgimiz bizə bu soyuq savaşa qoşulmağa imkan yaradır, bizə özümüzü dünyaya tanıtmağa, tarixi gerçəklikləri işıqlandırmağa və eyni zamanda ümumbəşəri dəyərləri

mənimsəməyə gözəl imkan yaradır. Yetər ki, biz qızıl ortanı qoruya bilək: qloballaşdıqca özünəməxsus dəyərlərimizi itirməyək, əksinə, bu fürsətdən düzgün şəkildə yararlanaq.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif nəşriyyatı, 2015,104 s.
2. Qurbanov P. Dəyərlər. Bakı, Xalq qəzeti.-2009.-15 mart.-S.8.
3. **Ömərov V.** F.ü.f.d.dos. Ümumbəşəri dəyərlər
4. Qasımova L. P.ü.e.d. Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi fənləri üzrə) BDU, Bakı, 2005, 302 s.\
5. Qəhrəmanova S. Xarici dil dərslərində şagirdlərin vətənpərvərlik tərbiyəsi (ingilis, alman, fransız dilləri materialları əsasında), N.Tusi ad. Azər. Döv. Ped. Un-ti, Bakı, 1994, 140 s.

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ MİLLİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏ

ŞAHNAZ ABDULLAYEVA
Bakı Dövlət Universiteti

Pedaqogika/ Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)
Shahnaz.aliyeva.aghasamad@bsu.edu.az
Seliyeva023@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Mövzunun adından göründüyü kimi, mövzunun obyekti məktəblilərin milli və ümumbəşəri dəyərlərə məhəbbət ruhunda tərbiyyəsidir. İngilis dili dünyanın qlobal dilləri siyahısında qabaqcıl yer tutduğundan ingilis dilinin tədrisi də günümüzdə aktual məsələdir. Bəs milli və ümumbəşəri dəyərlər hansılardır?

AÇAR SÖZLƏR: tədqiqat, dərslik, şagird, tədqiqatın təşkili, dəyər, milli, ümumbəşəri
КЛЮЧЕВЫЕ СЛОВА: исследование, учебник, ученик, организация исследования, стоимость, национальный, Международный
KEY WORDS: research, textbook, student, organization of research, value/worth, national, international

GİRİŞ

Müasir dövrdə dil bilgisi insanlara müxtəlif elm sahələrinə açar rolu oynayır. İngilis dili öyrənmək üçün irəli sürülən metodların ən məşhurlarından biri də OPOL metodudur. Bu metodun adı " One person, one language" abreviaturundan (abreviatur sözü ingilis dilindən götürülüb, mənası qısaltma deməkdir. Sözün baş hərflərini və ya hissələrini saxlamaqla düzəldilmiş mürəkkəb qısaltmalar, söz və ya söz qrupunun qısaldılmış formasıdır) götürülmüşdür. Digər fərziyyəyə əsasən isə həmin ifadə qədim türk mənşəli atalar sözüdür. İfadənin tam versiyası " Bir dil bir insan, iki dil iki insan" kimi bilinir. Hər iki şüar eyni məna daşıyır. Öyrənilən hər yeni dil yeni bir mədəniyyətin, incəsənət və ədəbiyyatın, folklorun, yeni düşüncə tərzinin, yeni elm sahəsinin qapılarını üzümüzə açır, tarixi gərçəklikləri başqa bir perspektivdən işıqlandırır. Əzəli Dağlıq Qarabağ problemimiz illər sonra Cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev və cəsur ordumuz sayəsində öz həllini tapsa da, yağı düşmən yenə də pusqudadır və özünəməxsus namərdliklə soyuq müharibəyə davam edir. Hal-hazırda klaviatura arxasında əyləşib informasiya cəbhəsinə qoşulan təhsilli vətəndaşlarımız əslində dövrün tələblərinə uyğun olaraq bir növ döyüş bölgəsində mübarizə aparan əli silahlı əsgərlərimizin silahdaşlarıdır. Deməli, xarici dil bilgisi həm də bizə tariximizin qanlı həqiqətlərini dünyaya düzgün şəkildə çatdıra bilməyimiz üçün çox vacibdir. Zənnimcə, vicdanlı vətəndaş yiyələndiyi sənətdən asılı olmayaraq sənətini mükəmməlləşdirərək daim öz üzərində çalışan, yeniliklərdən xəbərdar və yeniliklərə açıq olan, millətinə xidmət edən şəxsdir. Deməli, tələbələrimizin, müəllimlərimizin, tarixçilərimizin, bir sözlə təhsil sahəsində ilərləyən vətəndaşların çiyninə daha ağır yük düşür. Ümumilikdə

isə bu yük əslində hər kəsin çiynindədir. Çünki bugünün gənci sabahın valideynidir və hər bir vətənpərvər valideynin borcu vətənin gələcəyi üçün savadlı, təhsilli, dünyagörüşlü, dövrün tələbləri ilə ayaqlaşan, ən azı bir xarici dili bilən vicdanlı vətəndaş yetişdirməkdir.

1. TƏDQİQAT METODU

Tədqiqat mövzusu ilə bağlı nəzəri təhlil, tarixi müqayisəli təhlil və müşahidə metodlarından istifadə edilmişdir.

Müasir dövrdə Azərbaycanda xarici dil öyrənməyin daha gündəmdə olan, vacib və aktual mövzu olmağının səbəbi, zənnimcə, indi daha aydın oldu. Beynəlxalq dillər arasında isə ön sırada gedən dillərdən biri də ingilis dilidir və artıq əsrlərdir ki, "qlobal dillər" siyahısında öz birinciliyini başqa dillərlə paylaşmaq niyyətində deyil. Bu səbəbdən bu dil Azərbaycanda da təhsil ocaqlarında şagirdlərə öyrədilən dillər siyahısında qabaqcıl yerdədir. Təsadüfi deyil ki, dil dərslərinə nəinki məktəbdən başlanılır, hətta uşaq bağçalarında və məktəbəqədər hazırlıq kurslarında da ingilis dili tədrisinə zaman ayrılır. Çünki yeni dil öyrənilməsinə daha erkən yaşlardan başlanılması daha məqsədəuyğun hesab olunur: uşaq beyni ana dili ilə eyni anda başqa bir dili də imitasiya (təqlid, bənzətmə) metodu ilə mənimsəməyə hazır olur. Beləcə, dövrün tələbləri ilə ayaqlaşmaq üçün dil öyrənilməsinə mümkün qədər tez başlamağa tələsirik, hətta bəzən xarici dili—ingilis dilini ana dili ilə paralel tutub eyni vaxtda öyrətməyə cəhd edir, həmin dili ana dili səviyyəsində mənimsəməyə çalışırıq. Bu zaman ortaya belə bir məsələ çıxır: hər bir yeni dil yeni bir fərd kimidirsə, yeni öyrənilən xarici dil özü ilə bərabər öz mədəniyyətini və ruhunu da aşılayır. Bəs məktəbli bu mədəniyyəti öz mədəniyyəti kimi mi qəbul edir? Tariximizi və mədəniyyətimizi tanıtmaq məqsədilə çıxdığımız bu yolda öz mədəniyyətimizi və milli dəyərlərimizi unutmaq təhlükəsi ilə mi üzləşirik?

Digər tərəfdən isə ingilis dili ümumbəşəri dəyərlərə yiyələnmək yolunda körpü rolu oynayır. Lakin bizim əsl məqsədimiz milli və ümümbəşəri dəyərlər arasındakı tarazlığı qorumaq, qızıl ortanı tapmaqdır.Beləcə, dünya dəyərlərinə yiyələnmək və dünya mədəniyyətindən xəbərdar olmaqla yanaşı, öz milli məqsədimizi də unutmamalıyıq. Bu mövzunu daha dərindən araşdırmaq və dəyərlər arasında tarazlığı qorumaq məsələsini həll etmək üçün, zənnimcə, məktəbdə ingilis dili dərslərində istifadə olunan dərslik və dərs vəsaitləri böyük rol oynayır.

Dissertasiyanın adından göründüyü kimi, tədqiqat mövzusunun obyekti V-lX sinif şagirdlərinin milli və ümumbəşəri dəyərlərə məhəbbət ruhunda tərbiyyəsidir. Bəs milli və ümumbəşəri dəyərlər dedikdə nə başa düşülür?

Hər bir millətin min illərin sınağından keçmiş inanc, mədəniyyət və dəyərləri vardır. Hər bir millət digər millətlərdən öz milli dəyərləri ilə fərqlənir. Deməli, milli dəyərlər həm də millətləri bir birindən fərqləndirən özünəməxsus əlamətdir. Ümumilikdə isə dəyərlər maddi və mənəvi olmaqla iki yerə bölünür. Maddi dəyər iqtisadi yönümlüdür, hər hansı bir əşyanın və ya materiyanın ekvivalenti kimi göstərilə bilər. Milli maddi dəyərlərə misal olaraq çəkilmiş yollar, salınmış şəhərlər, tikilmiş binalar, memarlıq abidələri, kənd təsərrüfatı obyektləri və s. göstərmək olar. Mənəvi milli dəyərlər isə minilliklərin sınağından keçmiş, milləti millət edən, həmin millətin özünəməxsus izləri, çalarlarıdır. Məsələn, incəsənətin müxtəlif sahələrinin, - folklorun, təsviri incəsənətin, poeziyanın, heykəltəraşlığın, nəsrin və s. yaratdığı əsərlər mənəvi milli dəyərlərə gözəl nümunələrdir.Mənəvi milli dəyərlər millətin mənəviyyatının formalaşmasına çalışarkən, maddi milli dəyərlər minilliklər boyu həmin millətin həyat səviyyəsinin yüksəldilməsi məqsədinə xidmət edib.

NƏTİCƏ

Ümumbəşəri dəyərlər qlobal əhəmiyyətli şüurla təzahür olunur. Onlar insan cəmiyyətində həmişə mövcud olmuşdur. Ümumbəşəri dəyərlər öz ictimai xarakterinə görə sərhədləri aşan mənəvi təsir vasitəsidir. Ümumbəşəri dəyərlər insanın ictimai şüuruna və iradəsinə birbaşa və intensiv təsir, mənəvi - psixoloji vasitədir.

Beləcə insan nə milli mənəvi dəyərlərinini unutmalı, nə də ümumbəşəri dəyərlərdən imtina etməlidir. İngilis dili fənninin tədrisində hər iki dəyərə hörmətlə yanaşmağı aşılamaq, balansı qorumaq günümüzün aktual mövzusudur.

ƏDƏBİYYAT SİYAHISI

1.Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif nəşriyyatı, 2015,104 s.
2.Qurbanov P. Dəyərlər. Bakı, Xalq qəzeti.-2009.-15 mart.-S.8.
3.Qasımova L. P.ü.e.d. Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi fənləri üzrə) BDU, Bakı, 2005, 302 s.
4.Ömərov V. F.ü.f.d.dos. Ümumbəşəri dəyərlər

NİTQ BACARIQLARININ FORMALAŞDIRILMASINDA DİDAKTİK OYUNLARIN YERİ

BƏHRƏMLI GÜNEL TEYMUR QIZI
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
Gunelbehremli24@gmail.com
BAKI, AZƏRBAYCAN

MURADOVA MEHPARƏ NİZAMİ QIZI
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
muradovamehpare@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə nitq bacarıqlarının inkişaf etdirilməsində didaktik oyunların yerindən bəhs olunmuşdur. Nitqin inkişaf etməyində didaktik oyunların əhəmiyyəti çox böyükdür. Burada hansı didaktik oyunların nitqin ikişafı üçün müsbət tərəfləri var qeyd olunub. Didaktik oyunlar uşaqlarda nitqin inkişafı, nitq qüsurlarının aradan qaldırılması prosesində əsaslı rol oynayır. Müxtəlif təlim sistemlərində öyrədici oyunların xüsusi yeri var. Didaktik oyunlar təhsilin məzmunu, şagirdlərin fəaliyyəti, oyunun hərəkətləri və qaydaları, təşkili və müəllimin rolu ilə dəyişir. Didaktik oyunlar fərdi, qruplarla, cütlərlə və kollektiv aparıla bilər. Didaktik oyunları yeni bilik verən, təkraredici, bacarıq və vərdişlər formalaşdıran oyunlar kimi qruplara ayırmaq olar. Tədqiqat işinin hazırlanmasında müşahidə, təsviri və müqayisəli metodlardan istifadə edilmişdir.

AÇAR SÖZLƏR: DIDAKTIK OYUNLAR, NITQ BACARIQLARI, İNKİŞAF

GIRIŞ

Məktəbəqədər hazırlıqdan başlayaraq uşaqlarda nitqi inkişaf etdirməyə başlamalıyıq. Hələ 1 yaşdan başlayaraq uşaqlarda nitqi anlamanın (fonetik eşitmə) və rabitəli nitqin inkişafı gedir. Nitqin inkişafı uşağın hərəki fəallığı ilə paralel baş verir.5-9 yaş aralığında olan uşaqlar daha çox oyunlarla öyrənməyə həvəsli olurlar. Ona görədə biz dərsləri öyrədərkən oyunlardan istifadə etməyi unutmamalıyıq. Bu oyunları dərslərdə didaktik oyunlarla birlikdə etmək daha məqsədəuyğundur. Məlumdur ki, əyləncəli oyun şəklində verilmiş bilik uşaqlar tərəfindən daha asan, möhkəm və tez qavranılır. Xüsusilə də məktəbəqədər və ibtidai siniflər üçün səciyyəvi olan öyrədici rollu oyunlar da uşaqlar böyüklərin fəaliyyətini öz üzərinə götürür, özlərini böyük kimi aparırlar. Bu yaş dövrü üçün aparıcı fəaliyyət olan oyun prosesində uşaq müəyyən işlər görür, rola aid mübahisə edir və yaş artdıqca oyunlar onların həyatında mühüm yer tutmağa başlayır. Müasir təlim şagirdin bilik səviyyəsinə, maraq və tələbatlarına, imkan və qabiliyyətinə uyğun təşkil olunmalı, dərsdə müxtəlif xarakterli oyunlar aparmaqla təfəkkürü, idrak prosesini fəallaşdırılmalıdır.

Məşhur pedaqoq A.S.Makarenko uşaq oyunlarının rolunu belə xarakterizə etmişdir: *"Oyun uşaqlar üçün böyüklərin iş fəaliyyəti qədər dəyərlidir. Uşaq oyunda özünü necə aparırsa, gələcəkdə işləyəcəyi yerdə də bir çox hallarda özünü elə aparacaq. Beləliklə, gələcəyin lideri oyun oynayaraq təhsil alır..."*.

Hələ Platon yazırdı ki, qədim Misirdə insanlar xüsusi öyrədici və tərbiyəvi oyunlar düzəldirdilər. Platon özünün "Dövlət"ində etimoloji cəhətdən bu iki sözü bir-birinə yaxınlaşdırmışdı: oyun və tərbiyə. O, göstərmişdi ki, müxtəlif sənət növlərinə və hərbi işə yiyələnməyin yolu məhz oyundan keçir. Suxomlinski yazırdı: "Uşaq üçün oyun – ciddi məsələdir. Onsuz uşağın inkişafı qeyri-mümkündür. Uşaqların mənəviyyatı yalnız və yalnız oyunlar, nağıllar, musiqi, fantaziya, yaradıcılıq vasitəsilə zənginləşə bilər."

Oyun prosesində uşaq oyunu məqsədini ,vasitələrini, sujetini və oyun davranışlarını mənimsəmiş olur. Oyun fəaliyyətində uşaqlarda müəyyən ünsiyyət formaları da meydana çıxa bilər. Uşaq üçün oyun yalnız maraqlı bir əyləncə deyil, həm də həmyaşıdları ilə münasibətlərini inkişaf etdirir. Şagird öz yoldaşları ilə ünsiyyətə girmək üçün hərəkətlərini uzlaşdırmaq bacarığına, ünsiyyətlilik və təşəbbüskarlıq kimi keyfiyyətlərə malik olmalıdır. Didaktik oyunlar təlimin forması kimi uşaqların məşğələlərə diqqətini inkişaf etdirir, marağını artırır, materialın mənimsənilməsini yaxşılaşdırır. Biz öyrəndik ki, Didaktik oyunlar təhsilin məzmunu, şagirdlərin fəaliyyəti, oyunun qaydaları, təşkili müəllimin rolu ilə dəyişir. Didaktik oyunları təkraredici, yeni bilik verən, bacarıq və vərdişlər formalaşdıran oyunlar kimi qruplara ayırmaq olar.

İstifadə olunan materialın xarakterinə görə tədris-didaktik məşğələləri 4 qrupa ayırmaq mümkündür:

1) Oyuncaqlarla (əşya) məşğələlər
2) çap olunmuş stolüstü oyunlar
3) şifahi (sözlü) didaktik oyunlar
4) komputer oyunları

Bu gün uşaqlarda aktiv nitqin inkişafı problemi bir sıra səbəblərə görə aktualdır. Təhsil şəraitində uşağın nitqini formalaşdıran aparıcı vasitə tədrisdir. Ana dilinin tədrisi, uşaqların idrak qabiliyyətlərini inkişaf etdirmək, ətraf mühit və buna uyğun söz ehtiyatı haqqında elementar biliklər sistemini mənimsəmək və nitq bacarıqlarını formalaşdırmaq üçün məqsədyönlü bir prosesdir.

Oyunların didaktik məqsədləri müəllim tərəfindən müəyyənləşdirilməlidir. Oyunun özü isə uşaqlar tərəfindən reallaşdırılır. Oyunların keçirilməsi zamanı şagirdlərdə kollektivçilik, fəallıq, müəyyən qaydaqanunlara əməl etmək kimi mühüm keyfiyyətləri formalaşdırır.

Rollu oyunlar şagirdlərin nitq inkişafına müsbət təsir edir.Rol oyunu nitqin tənzimləmə və planlaşdırma funksiyalarının formalaşmasına və inkişafına da kömək edir. Ünsiyyət və aparıcı oyun fəaliyyəti üçün yeni ehtiyaclar istər-istəməz dilin, söz ehtiyatının və qrammatik quruluşun intensiv şəkildə mənimsənilməsinə səbəb olur, nəticədə nitq daha uyğunlaşır.

Oyuncaqlarla məşğələ dedikdə, burada oyuncaqlar və həqiqi əşyalar istifadə olunur. Uşaqlar oyuncaqlar və əşyalarla oynayarkən müqayisə etməyi, onlar haqqında fikir yürütməyi, cisimlər arasında oxşar və fərqli cəhətləri qurmağı öyrənirlər. Uşaqların köməyi ilə bu oyunlarda cisimlərin xüsusiyyətləri və əlamətləri: rəng, ölçü, forma, keyfiyyət ilə tanış olurlar və məqsəd budur. Oyunlar problemlərin həllində ardıcıllıq quraraq müqayisə, təsnifat problemlərini həll edir. Mövzu mühiti haqqında yeni biliklər əldə edən uşaqların oyunlarındakı tapşırıqlar daha da mürəkkəbləşir: uşaqlar mövzunu istənilən keyfiyyətə görə təyin edir və aktivliyi inkişaf etdirmək üçün çox vacib olan bu xüsusiyyətə uyğun olaraq obyektləri birləşdirirlər.

Çap olunan oyunlar (taxtalar) uşaqlar üçün maraqlı bir fəaliyyətdir. Müxtəlif növlərdir: cüt şəkillər, dominolar, loto və s. Burada istifadə olunan oyunların həll olunan inkişaf tapşırıqları da fərqlidir.

Söz oyunları, oyuncuların sözləri və hərəkətlərinə görə əsaslanır. Bu cür oyunlarda uşaqlar daha çox obyektlər haqqında mövcud fikirlərə güvənərək öyrənirlər və onlar haqqında biliklərini dərinləşdirirlər. Çünki bu oyunlarda uşaqlar əvvəllər əldə edilmiş bilikləri yeni əlaqələrdə, yeni şəraitdə istifadə etmələri tələb olunur.

Uşaqlar müstəqil şəkildə müxtəlif zehni tapşırıqları həll edirlər; obyektləri xarakterik xüsusiyyətlərini görə vurğulayaraq təsvir edirlər; təsvirə görə təxmin edirlər; oxşarlıq və fərqlilik əlamətlərini tapırlar; obyektləri müxtəlif xüsusiyyətlərinə, xüsusiyyətlərinə görə qruplaşdırırlar. Bu didaktik oyunlar bütün yaş qruplarında aparılır, lakin daha çox yaşlı məktəbəqədər uşaqların və ibtidia sinif uşaqlarının tərbiyə və təhsilində xüsusilə vacibdir. Bu, şagirdlərdə müəllimə diqqətlə qulaq asmaq, verilən suala tez bir zamanda cavab tapmaq, düşüncələrinizi dəqiq və aydın şəkildə formalaşdırmaq və bilikləri tapşırığa uyğun tətbiq etmək qabiliyyətini və vərdişlərini inkişaf etdirir. Bütün bunlar uşağın nitqini inkişaf etdirir və tutarlı nitqin aktivləşməsinə kömək edir.

Müasir didaktik oyunlar sisteminin köməyi ilə uşaqların uyğun nitqin inkişafı üçün nitq bacarıqlarını təfərrüatlı və ya səthi mənimsədiklərini və lazım olduqda tətbiq edə bildiklərini yoxlamaq üçün mümkün olan praktik bir fəaliyyətdir. Uşaqlar səriştəli təşkil olunmuş nitqi nə qədər mükəmməl qazanırlarsa, praktikada müxtəlif şəraitdə o qədər geniş tətbiq oluna bilər. Nitq praktikasının həyata keçirilə biləcəyi əsas şərtlərdən biri də müasir nitq didaktik oyunlarından istəfadə etməkdir.

Şifahi oyunlar. Bu tip oyunlar şagirdlərin nitqinin inkişafı üçün didaktik oyunlar, uşaqların diqqətini inkişaf etdirərək, xatırlamağı, nitqi və öz düşüncələrini ifadə etmək qabiliyyətini inkişaf etdirməyi öyrədir.

Şagirdlərə 1-4-cü siniflərdə informatika dərslərinin demək olar ki, bütün mövzuları üzrə dərslik və metodik vəsaitlərdə müxtəlif inkişafetdirici komputer didaktik oyunlar verilmişdir. Bu oyunlar həm kompüterdən istifadə etməklə, həm də adi qaydada aparıla bilər. Bu oyunların düzgün keçirilməsi müəllimin səriştəsindən və pedaqoji ustalığından asılıdır. Komputer aid didaktik oyunlara aid misal olara biz "Vunderkind" aldı oyunu deyə bilərik. Bu oyununda 26 inkişafetdirici oyun var və bu oyunlar şagirdlərdə fəza təsəvvürünü, danışıq dilini, məntiqi təfəkkürünü və yaddaşını formalaşdırır və inkişaf etdirir. Şagirdlər üçün "Superintellekt" adlı inkişafetdirici disklər komplektində çoxlu məntiqi oyunlar var. "Ağıllı qarışqa", "Macəra", "Marsdan gələnlər","Şəbəkə cazibəsi", "Cəngəlliyi aşmaq", "At yarışı", "Yaddaşını yoxla", "Dəcəl dovşan" və s. kimi oyunları inkişafetdirici oyunlara aid etmək olar.

Şəkillərə əsaslanan didaktik oyunlar vizual yadda saxlamağı inkişaf etdirir, diqqətlilik artırır, materialı vizual olaraq mənimsəməyə imkan verir. Şagirdlərdə şəkillərə əsaslana tapşırıqlar əsasən məktəbəqədər və ibtidai sinifin 1 və 2ci siniflərində verilir.

Gəlin ibtidai siniflərdə nitq inkişafına səbəb olan didaktik oyunlara baxaq.

Oyunun adı: Mən kiməm

Resurs: yoxdur.

Qayda: Özünü təqdim etmək və yoldaşlarının təqdimatını yadda saxlamaq.

Məqsəd: nitqin inkişafı, dinləyib-anlama bacarıqlarını və diqqəti inkişaf etdirmək.
Oyunun təsviri: Uşaqlar dairə yaradırlar. Birinci uşaq özünü ifadə edən bir əlamət və adını deyir. (Məsələn: Mən ağıllı Aytacam). Növbəti uşaq əvvəlkinin dediyini təkrarlayır,sonra isə özü haqqında danışır (O, ağıllı Aytacdır, Mən cəsur Muradam). Bütün uşaqlar eyni qayda ilə oyunu davam etdirirlər. Heç kimi unutmayan və özünü təqdim edərkən əvvəlki əlamətləri təkrarlamayan uşaq qalibdir.
Başqa bir oyuna nəzər yetirək.
Oyunun adı: Rəssam
Resurs: yoxdur.
Qayda: yadda saxlamaq, düzgün təsvir etmək
Məqsəd: nitqin inkişafı etdirmək, yaddaşı möhkəmləndirmək
Oyunun təsviri: Uşaqlardan biri rəssam rolunda our. Müəllim
"start" komandasi verir. Rəssam təsvir edəcəyi uşağı seçir, diqqatla ona baxir va sonra üzünü çevirir. Rəssam seçdiyi uşağın görünüşünü
(saçını, geyimini, ayaqqabısını və s.) sözlə təsvir edir. Sonra isa uşaqlar yerlərini dəyişirlər. Yəni rəssam təsvir ediləcək uşaq, digəri isə rəssam olur. Kim daha dəqiq və əhatəli təsvir etsə, o, qalib sayılır.
Bu kimi oyunlardan uşaqların nitq inkişafının artmasına səbəb olur.

NƏTICƏ

Nitqin inkişafı üçün müasir didaktik oyunlar sistemi köməyi ilə uşaqların nitq bacarıqlarını təfərrüatlı və ya səthi mənimsədiklərini və lazım olduqda tətbiq edə bildiklərini yoxlamaq mümkün olan praktik bir fəaliyyətdir. Xüsusən, məktəbəqədər və ibtudai sinif şagirdlərində didaktik oyunkardan və müxtəlif vasitələrdən istifadə mühüm rol oynayır. Uşaqlar səriştəli təşkil olunmuş nitqi nə qədər mükəmməl qazanırlarsa, praktikada müxtəlif şəraitdə o qədər geniş tətbiq oluna bilər. Müasir nitq didaktik oyun nitq praktikasının həyata keçirilə biləcəyi şərtlərdir.

ƏDƏBIYYAT SIYAHISI

1. https://kayzen.az/blog/KamileKazimova/24525/m%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r-ya%C5%9Fda-oyun-f%C9%99aliyy%C9%99ti.html
2. https://remontantenn.ru/az/wall/k-sredstvam-razvitiya-rechi-otnosyatsya-metody-priemy-i-tehnologii/ 1
3. https://www.facebook.com/mttm.edu.az/photos/didaktik-oyunlar-u%C5%9Faqlarda-nitqin-inki%C5%9Faf%C4%B1-nitq-q%C3%BCsurlar%C4%B1n%C4%B1n-aradan-qald%C4%B1r%C4%B1lmas%C4%B1/2507329436199129/
4. http://www.tipii.edu.az/noduploads/document/6026_son-oyun.pdf
5. http://www.celilabad-adpu.az/dosyalar/movzu_6..pdf

NİTQ BACARIQLARININ FORMALAŞMASINDA BƏDİİ ƏDƏBİYYATIN ROLU

AYTAC SƏMƏDOVA
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
samadova_aytac@mail.ru
BAKI, AZƏRBAYCAN

SƏMANUR DƏMIR
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
semanur_dr@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tezisdə nitq bacarıqlarının formalaşmasında bədii ədəbiyyatın rolundan bəhs olunmuşdur. Hər bir insan cəmiyyətdə özünə yer tapa bilməsi üçün nitq bacarıqlarına yiyələnməlidir. Və bu bacarıqlar şagirdlərə hələ kiçik yaş dövründən başlayaraq, sadədən mürəkkəbə prinsipi əsasında aşılanmağa başlayır. Məktəb yaşlı şagirdlərə nitq bacarıqlarını aşılamaq üçün müxtəlif vasitələrdən, resurslardan istifadə etmək mümkündür. Lakin bu iş prosesi zamanı bədii ədəbiyyatlardan istifadə etmək daha məqsədə uyğundur. Çünki, şagidlər bədii ədəbiyyatlar hesabına nitq bacarıqlarının əhəmiyyətini şüurlu şəkildə dərk etmiş olurlar. Həmçinin, işin bu cür təşkil olunması şagirdləri kitab oxusuna olan bağlılığı da artırır. Bədii ədəbiyyat bizim mənəviyyatımızı ilmə-ilmə toxuyur, kərpic-kərpic inşa edir. Tədqiqat işinin hazırlanmasında yeri gəldikcə müşahidə, təsviri və tutuşdurma metodlarına müraciət edilmişdir.

AÇAR SÖZLƏR: NITQ INKIŞAFI, NITQ BACARIQLARI, BƏDII ƏDƏBIYYAT, OXU TƏLIMI, ŞIFAHI NITQ

GIRIŞ

İnsanın mədəni yetkinliyinin, cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşmasının meyarlarından biri onun nitq bacarıqlarına yiyələnməsidir. Müasir dövrdə məktəbin qarşısında duran ümumpedoqoji problem şagirdlərin nitqini inkişaf etdirməkdir.

Nitq inkişafı üzrə işin vəzifəsi dil və təfəkkürün vəhdəti haqqında təlimdən irəli gəlir. Uşaqların təfəkkürünü inkişaf etdirməklə biz, şübhəsiz, onların nitqinə təsir göstərir, nitqini inkişaf etdirməklə təfəkkürünün inkişafına təkan veririk.

Dil cəmiyyətin üzvləri arasında ünsiyyət və fikir mübadiləsi silahı, insanlara təsir vəsitəsidir. İctimai hadisə olan dil öz funksiyasını yalnız nitqdə yerinə yetirir. Nitqin əsasında isə dili bilmək durur. Məlumdur ki, uşaq məktəbə gələnə qədər müəyyən nitq vərdişlərinə yiyələnmiş olur. Lakin onun nitqinin inkişafı üzərində məktəbdə məqsədəuyğun iş aparılmalıdır. İbtidai siniflərdə şagirdlərə sözdən istifadə etməyi öyrətmək, onlara həyatda zəruri olan nitq vərdişlərini aşılamaq lazımdır.

Hal-hazırda, əvvəlki illərdə olduğu kimi, ibtidai siniflər üçün kurikulum və dərsliklərdə şəgirdlərin şifahi və yazılı nitqinin inkişafına ciddi diqqət yetirilir. Ana dili üzrə hər bir dərsdə nitq inkişafı üzrə iş mühüm yer tutur, mahiyyət etibarilə, hər bir məşğələ nitq inkişafı dərsidir. İbtidai sinif müəllimi elə etməlidir ki, şagirdlər qrammatik nəzəriyyəni, orfoqrafik vərdişləri mənimsəməklə yanaşı, nitq praktikası prosesində sözləri düzgün tələffüz etmək, onları düzgün seçmək və cümlədə işlətmək, cümlə qurmaq, oxuduqları, eşitdikləri və gördükləri haqqında danışmaq, özünün və başqalarının fikrini ifadə etmək bacarığına yiyələnsinlər.

Altıyaşlıların nitqi üzərində aparılan müşahidələr göstərir ki, onlar məktəbə gələnədək dilimizin qrammatik quruluşuna yiyələnir və ətrafdakılarla ünsiyyət bağlamaq tələbinə müvafiq müəyyən söz ehtiyatına malik olur, başqalarının nitqini başa düşür, öz fikrini ifadə etməyi bacarırlar. Bununla belə, müşahidələr göstərir ki, I sinfə gələn uşaqların nitqi bəzən yeni anlayışları, fikirləri, hissləri ifadə etməyə imkan vermir. Bu, hər şeydən əvvəl, uşağın lüğət ehtiyatının kasıblığı ilə izah olunmalıdır. Buna görə də məktəbdə uşağın nitqi üzərində planlı iş aparılır. Təsadüfi deyildir ki, ibtidai siniflər üçün ana dili proqramında nitq inkişafı ana dili tədrisinin başlıca prinsipi olduğu qeyd edilir. Deməli, ibtidai siniflərdə ana dili üzrə məşğələlərin əsas məqsədi şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirməkdir. Lakin məktəb təcrübəsində müəllimlərin əksəriyyəti nitq inkişafı dedikdə, əsasən, şagirdlərin yazılı nitqi üzərində iş aparmağı nəzərdə tuturlar. Bəzi müəllimlər belə hesab edirlər ki, əsas məsələ yazılı nitq üzərində iş aparmaqdır: əgər şagird ifadə və inşanı müstəqil yaza bilirsə, onun şifahi nitqi öz-özünə inkişaf edəcəkdir. Əlbəttə, bunu məqbul hesab etmək olmaz. Yalnız nitqin hər iki növünə yiyələnmiş şəxsin yüksək nitq inkişafından danışmaq olar.

Şagirdlərin şifahi nitqi üzərində aparılan müşahidələr göstərir ki, onların nitqi çox nöqsanlı olur. Belə ki:

Ayrı-ayrı söz və səslər yanlış tələffüz olunur;

Nitqin əsas tələbləri gözlənilmir;

Qrammatik qaydalar, məntiq və üslub tələblərinə riayət olunmur;

Nitqdə tüfeyli sözlər işlədilir;

Yerli şivə xüsusiyyətlərinə yol verilir və s.

İbtidai siniflərdə şagirdlərin nitqinin inkişafı üzrə iş hansı istiqamətdə getməlidir?

Nitq mədəniyyətinin yüksək səviyyəsi yalnız onun dilin bütün cəhətləri (fonetika, leksika, morfologiya, orfoepiya, söz yaradıcılığı, orfoqrafiya, sintaksis, üslubiyyat) ilə təbii surətdə birləşdirilməsi şəraitində təmin edilə bilər.

Nitqdə təbiilik, düzgünlük, məntiqilik, təmizlik, müyəssərlik, məqsədyönlülük, zənginlik, aydınlıq, sadəlik, səlislik, yığcamlıq, ifadəlilik, çılğınlıq, obrazlılıq, emosionallıq, gözəllik, incəlik, ardıcıllıq, nəzakətlilik kimi normalar gözlənilməlidir.

Azərbaycan dilinin şirinliyi, gözəlliyi ünsiyyət prosesində meydana çıxır. Şagirdlərdə nitq bacarıqlarının formalaşmasında ana dilinin bir fənn kimi əhəmiyyəti böyükdür. Onu da qeyd qeyd etmək lazımdır ki, ana dilinin məqsədi olan nitq bacarıqlarının formalaşdırılması digər fənlər üçün də əsasdır, çünki bütün dərslərdə şagird danışır, fikrini ifadə edir, münasibət bildirir. Odur ki, bünövrə düzgün qoyulursa, uşaqlar səlis, aydın nitqə, mədəni davranışa malik olarlar.

Tədqiqatın aparılması üçün ədəbiyyat siyahısında qeyd olunan çoxsaylı elmi ədəbiyyatdan istifadə olunub, bədii ədəbiyyat nümunəsini oxunulması sayəsində kiçik yaşlı məktəblilərin nitqində bədii ədəbiyyatın rolu barədə məlumat əldə edilmişdir.

Hər birimiz həyatımızın bəzi anlarında mənalı suallara cavab axtarırıq. Ailəmiz və ya dostlarımız həmişə bizə kömək edə bilməyə bilər, lakin bütün bu cür situasiyalar üçün hər zaman doğru bir kitab vardır. Əgər kiçik yaşlı şagirdlər hər hansı bir problemlə və ya ədalətsizliklə üzləşsələr, onlara bu mövzu ilə bağlı yaxşı

bir kitab tövsiyyə edə bilərik. Bu zaman həmin kitabı oxuyan şagird üzləşdiyi problemin bir neçə səbəbini və bu problemi aradan qaldırmaq üçün hansı üsullardan istifadə edə biləcəyini özü dərk edib, nəticə çıxardır. Buna görə də qeyd edə bilərik ki, bədii ədəbiyyatlar kiçik yaşlı şagirdlərin hər tərəfli inkişafı üçün əhəmiyyətli rol oynayır. Kitab oxumaq həm fiziki, həm də ruhi sağlamlığımıza fayda verir. Mayo Klinikasının həkimləri də kitab oxusunun həyatımızdakı əhəmiyyətini dərk etmiş və bunun üçün də müntəzəm yuxu rejiminin bir hissəsi kimi kitab oxumağı təklif etmişlər. 2013-cü ildə TestYourVocab bloqu belə bir statistik məlumat dərc etdi: Müntəzəm olaraq bədii ədəbiyyat oxumaq söz ehtiyatını 30 faiz və ya daha çox artırır. Bədii ədəbiyyatın insanların nitqində qazandırdığı xüsusiyyətlərdən biri də elə budur. Bunlarla yanaşı, TestYourVocab bloqu qeyd edib ki, əgər insanlar daha çox qəzet və jurnal oxumağa üstünlük verirsə, həmin insanların lüğət ehtiyatı daha yavaş inkişaf edir. Lakin bədii ədəbiyyatların oxusuna üstünlük verənlərin dünyagörüşü, lüğət ehtiyatı daha sürətlə inkişaf edir.

Araşdırmalar göstərmişdir ki, ayda ən az iki bədii kitab oxuyan şagirdin lüğət tərkibi, xəyal gücü, məntiqi və tənqidi düşüncəsi, ünsiyyət qurma və problem həll etmə qabiliyyəti inanılmaz bir şəkildə inkişaf etmiş olur. Və bu inkişaf onların digər sahələrdəki fəaliyyətlərinə də öz müsbət təsirini göstərir. Ayda ən az iki kitab oxuyan şagirdlərin yazı və oxu bacarıqları inkişaf etdiyi üçün, bu cür şagirdlər daha tez ünsiyyət qura bilirlər. Yəni, belə bir nəticəyə gələ bilərik ki, bədii oxu şagirdlərin ünsiyyət qabiliyyətini də inkişaf etdirir. Klivlend klinikasının həkimləri valideynlərə uşaqlarla körpəlikdən başlayaraq ibtidai məktəbə qədər bədii kitabları birlikdə oxumağı təklif edirlər. Çünki, bunun nəticəsində uşaqlarda bədii kitab oxumağa qarşı həvəs yaranır.

Bütün bunları ümumiləşdirsək deyə bilərik ki, bədii ədəbiyyat oxucuların nitq bacarıqlarının inkişafı üçün mühüm rol oynayır. Bədii ədəbiyyat oxusu ilə məşğul olmuş hər bir şagird nitqin aydınlığına, düzgünlüyünə, yığcamlığına, ifadəliliyinə, zənginliyinə, rabitəliliyinə, təmizliyinə və bununla yanaşı, sərbəst, düzgün, sürətli, ifadəli oxumaq, dialoqa girmək, öz fikirlərini sərbəst şəkildə ifadə etmək bacarıqlarına yiyələnir. Şagirdlər oxu prosesi zamanı müxtəlif materiallardan istifadə etməklə Azərbaycan xalqının tarixi, əxlaqi-mənəvi dəyərləri, adət-ənənələri haqqında ilkin məlumatlara yiyələnirlər və daha sonra əldə etmiş olduqları məlumatları sadə formada təqdimetmə bacarığına yiyələnirlər.

Nitqin aydınlığı dedikdə, dinləyici və oxucunun nitqi asanlıqla anlaması, başa düşməsi başa düşülür. Aristotel nitqin aydınlığını ünsiyyət üçün başlıca şərt sayır və göstərirdi ki, nitq aydın deyilsə, demək, o öz məqsədinə çata bilməmişdir. Nitqin aydınlığı üçün əsas amil danışanın (eləcə də oxuyanın və yazanın) nitq obyekti haqqında mükəmməl məlumata malik olmasıdır. Şagird haqqında danışacağı materiala dərindən və yaxşı bələd olsa, həmin materialı ifadə etmək üçün müvafiq dil vasitələri də tapa bilər. Firudin bəy Köçərli nitqin aydınlığını təfəkkürün düzgün işləməsi, fikrin düzgünlüyü ilə əlaqələndirir. "Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. Doğru və salamat fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur" – deyirdi. Şagirdlərdə bu bacarığı bədii ədəbiyyat oxusu ilə inkişaf etdirə bilərik. Əgər şagirdlər birinci sinifdə oxuyurlarsa, onlarda bu bacarığı inkişaf etdirmək üçün nisbətən daha az həcmli kitablardan istifadə etməliyik.

Çalışmalıyıq ki, şagirdin hər oxuduğu cümlə onun üçün və onu dinləyənlər üçün aydın olsun. Buna görə unutmamalıyıq ki, nitqin aydınlığını yaradan amillərdən biri diksiyadır. Diksiya latınca *dictio* sözündən alınmışdır, mənası sözlərin düzgün, səslərin öz məxrəcinə uyğun şəkildə tələffüz olunması deməkdir. Düzgün diksiya şifahi nitqin başa düşülməsini, qavranılmasını təmin edir. Aydın diksiyaya yiyələnmək üçün şagird müntəzəm şəkildə öz üzərində işləməlidir. Hətta şagirdlərdə bu bacarığı inkişaf etdirmək üçün eyni bir mətni 2-3 dəfə oxuda bilərik. Yəni, şagirdlər nitqin aydınlığına yiyələnənə qədər eyni bir mətndən istifadə edib, səhvləri izah etmək məqsədə uyğundur.

Nitqin yığcamlığı dedikdə müxtəsərlik, fikrin qısa və aydın, lakonik şəkildə ifadə olunması nəzərdə tutulur. Böyük sənətkarlar yığcamlığın istedadla bağlı olduğunu bildirirlər. Kamil adamlar həmişə deyəcəklərini ölçüb-biçmiş, geniş mətləbləri yığcam şəkildə ifadə etməyə, başqalarının vaxtını almamağa, onları yormamağa çalışmışlar. Bildiyimiz kimi, nitq həm də dəqiq olmalıdır. Bu, nitqdə yığcamlığı yaradır.

Dəqiqlik üçün danışanın, yazanın nitqin predmetinə yaxşı bələd olması, fikrə uyğun münasib sözlər, ifadələr işlədə bilməsi, çoxmənalı sözlər, omonim, sinonim, antonimlərdən yerində istifadə etməsi əsas şərtdir. Şagirdlərdə bu bacarığı inkişaf etdirmək üçün müəyyən bir kitab oxumağı və bu kitabdakı sinonim, antonim, çoxmənalı sözləri tapmağı tapşıra bilərik. Və ya bədii kitabın müəyyən səhifələrindəki sözləri onların antonimləri ilə, sinonimləri ilə əvəz etməyi tapşıra bilərik.

Mədəni nitqə verilən əsas tələblərdən biri də onun təmizliyidir. Bu o deməkdir ki, ədəbi dilin normalarına uyğun gəlməyən dil vahidləri (sözlər, ifadələr, frazeologizmlər, cümlələr və s.) nitqdə işlədilməməlidir.

Nitqin təmizliyi digər mədəni keyfiyyətlər kimi, danışanın təhsili, mədəniyyəti və tərbiyəsi ilə bilavasitə əlaqədardır.

Dilin təmizliyini qoruyub saxlamaq üçün aşağıdakılara əməl olunmalıdır:

Nitqdə məhəlli dialektlərə, yerli şivələrə məxsus danışıq tərzinə yol verilməməlidir;
Əcnəbi sözlər lüzumsuz işlədilməməlidir;
Tüfeyli sözlərlə bağlı qüsurlar aradan qaldırılmalıdır;
Jarqon sözlər və ifadələr işlədilməməlidir;
Mədəni danışıqda vulqarizmlərə yol verilməməlidir.

Nitqin zənginliyi üçün başlıca meyar danışanın (yazanın) geniş söz ehtiyatına malik olmasıdır. Bədii ədəbiyyat oxusu zamanı şagirdlər bir çox sözlərlə qarşılaşırlar. Və bu sözlərin əksəriyyəti onlara tanış olmur. Bu zaman həmin sözün mənası tapılmalı və dəftərlərə yazılmalıdır. Bildiyimiz kimi, həmin sözlər şagirdin passiv lüğət fonduna daxil olur. Biz çalışmalıyıq ki, həmin sözlər onların aktif lüğət fonduna daxil edilsin. Bunun üçün də həmin sözlərlə bağlı müxtəlif tapşırıqlar və ya oyunlar həyata keçirə bilərik. Müəyyən rabitəli mətndə nə qədər çox müxtəlif və təkrarlanmayan söz, ifadə və cümlə işlədilərsə, həmin nitq o qədər də zəngin olar, maraqla dinlənilər, yaxşı təsir bağışlayar, asan dərk olunar. Söz ehtiyatı zəngin olan, işlətdiyi hər söz və ifadənin mənasını yaxşı anlayan adam həmişə öz fikirlərini çətinlik çəkmədən sərbəst şəkildə ifadə edə bilir.

Nitqin məziyyətlərindən biri onun orijinallığıdır. Bu, nitqdə özünəməxsusluqdur, bir şəxsin başqalarından fərqli danışması və yazmasıdır. Nitqin orijinallığı bir neçə cəhətdən özünü göstərir ki, bunlardan birincisi fərdi tələffüz tərzidir. Nitqin tələffüz baxımından fərqlənməsi, nəzərə çarpması aşağıdakı amillərlə daha çox bağlı olur:

1. Səslərin, sözlərin aydın diksiya ilə tələffüzü;
2. Söz və qrammatik formaların orfoepik qaydalar əsasında tələffüzü;
3. Bir qədər ucadan, aramla danışmaq və oxumaq;
4. Bir qədər astadan danışmaq, nitq fasilələrində daha münasib sözlər fikirləşib tapmaq və nitqini davam etdirmək;
5. Danışıq və xüsusən oxu prosesində intonasiya çalarlarından daha bacarıqla, məzmuna uyğun şəkildə istifadə edə bilmək;
6. Danışanın səciyyəvi söz, ifadə, sitat, sintaktik konstruksiyalar, frazeoloji ifadələr, aforizmlər, atalar sözü, zərb-məsəllər və s. işlətməsi, nitqin xüsusi tərzdə qurulması.

Danışanın fikrini sərbəst, aydın, ardıcıl, yığcam və təsirli ifadə edə bilməsi üçün nitq həm də rabitəli olmalıdır. Bədii ədəbiyyatlardan istifadə etməklə, şagirdlərə nitqin rabitəliliyini və onun dilimizdəki əhəmiyyətini şüurlu şəkildə izah edə bilərik.

NƏTICƏ

Deməli, şagirdlərin nitq bacarıqlarını bədii ədəbiyyat vasitəsi ilə inkişaf etdirmək üçün əvvəlcə onlarda bədii ədəbiyyata qarşı sevgi oyatmaq lazımdır. Bunun üçün müxtəlif üsullardan və ya oyunlardan istifadə etmək mümkündür. Daha sonra şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olaraq, 5-10 kitab seçilməlidir. Və elə bir şərait yaradılmalıdır ki, şagirdlər oxuyacaqları kitabları öz maraqlarına uyğun seçə bilsinlər. Çünki, müəllim özü kimin hansı kitabı oxuyacağına qərar versə, təşkil olunmuş proses təhsilalanlar üçün cansıxıcı olar.

Uşaqlar oxuyacaqları bədii kitabları özləri seçdikdən sonra onlarda aşılanmalı olacaq nitq bacarıqları üzərində işlər görülməyə başlanılır. Onlara dilimizdəki nitq bacarıqlarının əhəmiyyətini izah etmək üçün müxtəlif nümunələr gətirilə bilər. Bildiyimiz kimi, bütün nitq bacarıqları bir-biri ilə əlaqəli olduğu üçün çalışmaq lazımdır ki, şagirdlərdə bu bacarıqlar elə bir kitab üzərində izah edilsin. Rollu oyunlardan, hissə-hissə oxudan, dialoji nitqdən istifadə edərək bədii ədəbiyyat oxusunu şagirdlər üçün daha maraqlı təşkil etmək olar. Həftənin müəyyən iki günü kitab oxusu günü kimi təşkil edilə bilər. Və həmin günlərdə şagirdlər kitab oxumaqla müxtəlif nitq bacarıqlarına yiyələnirlər.

ƏDƏBIYYAT SIYAHISI

1. Nadir Abdullayev "Nitq mədəniyyətinin əsasları", Bakı, 2013: 34-59 s.
2. Ağarəhim. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə)), Bakı, 2015
3. Rebecca Joy Stanborough "Benefits of reading books: How it can positively affect your life", https://www.healthline.com/health/benefits-of-reading-books, October 15, 2019, 23:59
4. Orkun Kutlu "Okul başarısında okuma alışkanlığının önemi", https://www.cokbilgi.com/yazi/okul-basarisinda-okuma-aliskanliginin-onemi/ , 16 aralık 2019, 18:45
5. TutorOnline "5 преимуществ чтения художественной литературы", https://blog.tutoronline.ru/preimuschestva-chteniya-hudozhestvennoy-literaturyi , 27.02.2018, 20:10

NEGATIVE EFFECTS OF HOMESCHOOLING

HUSEYNLI CHINARA
Baku Engineering University
Foreign Languages Department
chuseynli@beu.edu.az
BAKU, AZERBAIJAN

ABSTRACT

Homeschooling is the education of school children at home or different places rather than school. It is also referred to as home education or elective home education (EHE). The families who choose homeschooling use different and individual education methods which may not happen to be taught at school. Mainly parents conduct home education or sometimes tutors or online teachers are authorized for this. Homeschooling has been widespread especially by virtue of technological development. More and more parents are opting homeschooling to traditional education. By touching on the reasons why parents consider enrolling home education, several causes can be brought about such as different ideology, discontent with school education and etc. Furthermore, technology contributed to this decision of parents to the greatest extent. However, homeschooling has some pros and cons. This article will explore the drawbacks of home education.

KEY WORDS: homeschool-1, parent-2, children -3, socialization-4, drawback-5

INTRODUCTION

The number of parents who prefer homeschooling is observed to be high in recent years because it seems an ideal option for them. Some motives may have effects on their choices. It can be different ideology or children or parents are not happy with what schools provide them. At first, it may be deemed as to be the best solution for the parents, but it is not the right decion in some situations. As the demand for homeschooling is increasing in scope, it brings some negative sides on different matters. In most cases, it may not be effective for children due to some reasons including the lack of professional educators and being unable to improve social life and another fact is parents have to spend more time and money on homeschooling. The drawbacks of homeschooling may include socialization, cost, motivation, lack of facilities, and so on.

Socialization

Home schooled children do not have the same opportunities in terms of interacting with other children comparing with those who choose traditional education. Building relationships with other children may shape the communication skills which are really demanded for being part of this society. It is also necessary for children's health, especially for their brain development. However, homeschooled children may be deprived of their natural right to have friends and spend some time with them. As a result, they may have social problems. Thus, homeschooling does not allow them to sit at the desk with some other student and share school experience. They don't go on school trips with a lot of students. They do not know how to sort out problems with their peers. The lack of socialization can cause different problems later in their life. Homeschooled students mostly interact with their parents or tutors who leads the learning process. Therefore, this sort of intearction inhibits the development of social skills which they will need in traditional society.

Time

If parents are responsible with their children's education, it must be hard for them, especially for working parents because it requires a lot of time which means that they have to make time for it setting aside all other responsibilities. It is their job to organize and prepare lessons. Homeschooling has become their commitment and for making sure that their children get a quality education, parents dedicate their time and effort.

Cost

When there are public schools, where education is free of charge, it can cost a lot of money for the parents if they choose homeschooling. They need teaching programs suitable for homeschooling, and they will need other resources important for learning such as books, computer software, materials, and so on. The cost of tutors should be considered which is an additional burden.

Lack of resources

It is quite easy to understand that home is not a school, and it may lack of some facilities which students need for some lessons like physics or chemistry because these subjects require experiments. For parents, it can be difficult to obtain all the necessities such as materials, chemicals, and apparatus. Even sometimes facilities needed for sports can be essential for child's development which are swimming pools, gyms and etc. These drawbacks can cause problems for students who love the above-mentioned subjects.

Tolerance

Another reason that makes homeschooling difficult is the fact that sometimes parents can lose their temper while tyring to teach their children. Some parents are not patient enough to explain the lessons and to make sure that their children fully understand the lessons. They can get angry, and even it may result with them raising their tone of voice at their children, and it can lead to their children's negative respond.

Motivation

Lack of motivation may have a negative impact on child's learning process thanks to homeschooling. In home where there is no other student to compete with, children will just study without trying to be better or best because they will not feel the need to be challenged to excel in their lessons. At school, they are more successful since they are involved in competitions among students. However, at home there is no such motivation for children as they study separately at home.

Curriculum

Traditional school programs follow the curriculum structure which also helps a student to deal with time management. At home parents themselves decide what their children will study, but at school there is a certain curriculum that all teachers must follow which enables all students to learn in the same way.

Concentration problems

When children are taught at home, it makes them feel more relaxed than going to school because parents teach them and sometimes parents are not strict and disciplined enough. There is no certain schedule that they have to follow. When parents are busy with something more important, they can postpone the lessons. Owing to the less monitoring, children might relax, and even they can lose motivation to learn, and they can also change their study program for example when they are bored and tired, they can decide to do something different and more fun. As a result, they can not focus and concentrate on the lessons and lag behind their peers.

2. SUMMARY

Although homeschooling can be chosen by a lot of parents, it can be so stressful that not every parent can manage under pressure. In the end, parents should know beforehand about the advantages and disadvantages of homeschooling when deciding which education type they want for their children. They have to make comparisons between positives and negatives of homeschooling. They must always keep in their mind that it is their child's future because it can potentially hurt their children's education life.

3. REFERENCES

1.Joseph Murphy Frank W. Mayborn Chair, The Social and Educational Outcomes of Homeschooling, Vanderbilt University, Nashville, Tennessee, USA, Pages 244-272: 17 April 2014

2.Brian D. Ray: A systematic review of the empirical research on selected aspects of homeschooling as a school choice, National Home Education Research Institute, Salem, OR, USA, Pages 604-621, 27 Nov 2017

3.Lisa B. Thorell, Parental experiences of homeschooling during the COVID-19 pandemic: differences between seven European countries and between children with and without mental health conditions, European Child & Adolescent Psychiatry (2021)

4.Ray, B. D. (2001). The Modern Homeschooling Movement. Journal of Catholic Education

5.https://www.conqueryourexam.com/negative-effects-of-homeschoolin

PERSON-CENTERED APPROACH IN TEACHING A FOREIGN LANGUAGE

GUNEL BAYRAMOVA MEHDIYEVA
Baku Engineering University
Pedagogy/Foreign Languages Department
gbayramova@beu.edu.az
BAKU, AZERBAIJAN

ABSTRACT
The relevance of this work is due to the conditions associated with the change in the system of higher education, as well as the growing needs of society in highly qualified specialists in engineering specialties. The use of a student-centered approach in foreign language lessons is one of the main problems in modern education. Much attention should be paid to the creation at the university of such an educational environment in which further socialization of the individual takes place and the professionally oriented skills of each student develop. Each student is an individual with their own needs and desires. The teacher needs to consider all aspects of a student-centered approach when developing and implementing a foreign language course. This thesis discusses a student-centered approach in teaching foreign languages, which arose as an antithesis to the teaching process, in the center of which is the personality of the teacher.
KEY WORDS: personality-oriented approach-1, student-2, assessment-3

INTRODUCTION

Appeared within the framework of the humanistic approach at the end of the 20th century, personality-oriented learning was originally aimed at creating a psychologically comfortable atmosphere that promotes the development of creative, intellectual abilities of students and strengthens their self-confidence.

The appeal to a student-centered approach is due to the desire to resolve the contradictions between the declared goals of teaching a foreign language at school and real practical results. Thus, the development of communicative skills is put forward as the goal of training, which allows for verbal communication in real situations, and the conditions and means of implementation are not adequate to the goal. An analysis of practice shows that students lack motivation based on the natural need to communicate in a foreign language. In addition, the lack of the ability to use foreign language in real life does not allow achieving significant results in teaching a foreign language.

In the field of education in general and teaching foreign languages in particular, student-centered learning is a priority. Teaching can be either teacher-centered, student-centered, or a combination of both. For centuries, the teacher has been the main link and leader of the entire learning process, teacher-centered learning has been preferred.

The report consists of chapters of abstract, keywords, introduction, methodology, conclusion, and references.

RESEARCH METHOD

Descriptive method and comparative method have been used for research in this paper.

In traditional method, the specifics of teaching a foreign language is not taken into account. The teacher is given a firm directive that makes it clear what the teacher is responsible for. These decisions, however, are an initiative from above for the teacher. For example, teachers are given a prescribed course with a certain number of hours and are required to complete it within a given and predetermined period of time, usually a semester. If the course is not completed within the allotted amount of time, instructors must explain the reasons for not completing the curriculum. Thus, on the one hand, the teacher is asked to use student-centered methods, and on the other hand, they are forced not to do so by limiting their freedom of choice and instructing them to cover certain topics of the curriculum and to do so in a certain time.

Under these conditions, in order for the future specialist to become competitive, it is necessary to change authoritarianism, to humanity, and the traditional learning process, where the teacher plays the main role, to learning, where the student is at the center. However, it should be clarified that this transition is possible only if all specialists at all levels of the educational system take part in it.

- Educationists and educational policy makers should review the nature of the current system and curricula at all levels, whether in schools or higher education institutions, and make the necessary changes to ensure student-centered learning.

- Teachers should be competent enough to use a learner-centered approach.
- One of the main tasks of the teacher should be to encourage and motivate students to work hard and actively participate in classes.
- Teachers should start using teaching methods, in the framework of a learner-centered approach.
- Students, in turn, must be prepared to change their role in the learning process.
- Teachers should try to adapt the teaching materials to the requirements of a student-centered approach and begin to implement student-centered assessment methods that, when used correctly, provide an objective picture of student performance.
- The teacher should use various means (mass media, social networks, IT) to maintain students' sustainable motivation when learning a foreign language.

Today, many English teachers consider a student-centered approach as a backbone in teaching English, which is formed in the process of teaching subjects of both a special and general education cycle, as well as in the process of educational and extracurricular educational work. A special role in this work is assigned to a foreign language due to the specific features of this academic subject. Thus, a personal approach to teaching English is, on the one hand, the ultimate goal of the work of an educational institution of the system of higher professional education, and on the other hand, an indicator of the quality of the work of an educational institution.

In order for the process of learning a foreign language to become as effective as possible, it is necessary to answer several questions. The main one is the following: How should the basic science and the academic discipline "English" be related? This ratio should be analyzed on the basis of a whole range of indicators: What is the content of this subject? Is the subject "English" adequate to the language spoken by its native speakers? Who is the object of study? Is the learning process purposeful and specially organized, or does language acquisition occur naturally? Where do they teach? In a system of specially organized classes or in a natural language environment? How long is the learning process? Is it permanent or discrete? What material is taught?

When planning a student-centered lesson, the teacher should adhere to the following recommendations:
- create a positive emotional attitude to work;
- rely on knowledge that allows the student to choose the type and form of the material (verbal, graphic, conditionally symbolic);
- discuss with students at the end of the lesson not only what “we learned” (what we mastered), but also what we liked / disliked and why; what I would like to do again, and what to do to a friend;
- when doing homework, not only name the topic and volume of homework, but also explain in detail how to rationally organize your study work when doing homework.

However, when creating conditions for the educational process, it is necessary to consider the unequal opportunities and abilities of students, their various plans for the future, respectively, and various professional aspirations. Different levels of education are allowed: general education and somewhat advanced - specialized, focused on the chosen profession and continuing education at the university. Thus, a student-centered approach creates the prerequisites for greater learning efficiency.

A student-centered approach to teaching foreign languages influences the choice of learning technologies. Less space is occupied in the educational process by such educational speech actions, in which there would be no at least a conditional communicative orientation, for example, reading the same text by all students and retelling it to each other. Group work on different texts is increasingly used, allowing each student to perform feasible functions. For example, when studying reading (with full understanding), one student reads the text in an undertone, another highlights unfamiliar words, the third looks for their meaning in the dictionary, the fourth translates the sentence that causes difficulties in understanding, etc. Such work prepares students for real communication - the exchange of information with other groups who have read other texts, for value judgments about what they heard and read from others. The correct organization of such activities contributes to the development of speech initiative, improves educational and communication skills. A large practical focus in the study of a foreign language has a project methodology that ensures the output of speech activity into other types of activity, relies on a personality-oriented paradigm of education, reinforces its variability, taking into account the capabilities and needs of students, the possibility of choosing educational services.

Lack of motivation to study is observed among a large number of students. This should be taken seriously by all stakeholders: administrators, educators, educational policy makers, teachers, parents, and the whole society. Everyone should take action to find out the causes of this problem. Research needs to be done to

identify the pitfalls of the entire education system in relation to a learner-centered approach. A personality-oriented approach in teaching a foreign language allows you to provide and support the processes of self-knowledge, self-development, and self-realization of the learner's personality and the formation of their unique personality.

For a more effective implementation of a student-centered approach to teaching, it is recommended to adhere to the following didactic recommendations:

- organize educational material in such a way that the student has the opportunity to choose when completing assignments;
- provide stimulation of the student to self-valuable educational activity
- provide opportunities for self-education, self-development in the course of mastering knowledge;
- constantly harmonize the student's experience with the scientific content of the knowledge being assigned;
- the material presented in the textbook should be aimed at expanding the already accumulated knowledge, structuring, integrating, generalizing the subject content, as well as transforming the personal experience of each student;
- when introducing knowledge about the methods of performing educational actions, highlight general logical and specific methods of educational work, taking into account their functions in personal development;
- ensure control and evaluation of not only the results, but also, mainly, the learning process, i.e., those transformations that the student carries out, assimilating the educational material.

Student-centered learning means that both students and teachers must have sufficient resources ready and available from which both sides of the learning process can choose, give assignments, organize events, and so on. This is not always possible. In addition, well-equipped and modern libraries are not yet available everywhere.

Thus, today the situation in education is such that the administrative system must follow an already defined program, where the teacher is given little freedom of choice. When an enthusiastic teacher attempts to implement student-centered methods, they encounter difficulties such as having to follow a prescribed program and finish it at a given time, or teaching certain topics not of their choice.

Learning with a student-centered approach requires a small number of students in groups so that the teacher can use various types of group work. This does not apply to most situations where the average number of students in a class can be as high as twenty to twenty-five students.

CONCLUSION

A lesson can be considered effective only when the relationship between the work of the teacher and the student is at the highest level. Student-centered learning can help the teacher achieve their goals. Thus, the main provisions of student-centered learning - the importance of the student's subjective experience, the individual style of their educational activity, the interactive construction of the educational process, the need to maintain an individual map of its development - should be embodied in a foreign language lesson.

REFERENCES

1.Dubskikh A. I., Kisel O. V., Bosik G. A. Development of foreign language professionally communicative competence of students through a differentiated approach // Modern problems of science and education. 2019. No. 4. P. 85

2.Kisel O.V., Dubskikh A.I., Butova A.V., Zerkina N.N. Problems associated with teaching vocabulary to students of non-linguistic specialties of MSTU. G.I. Nosova // Modern science-intensive technologies. 2019. No. 7. P. 185–189.

3.Milrud R.P. Methods of teaching English. Textbook for universities. 2nd edition. Drofa, 2007. P. 257.

4.https://www.tesol.org/docs/default-source/books/14077_sam.pdf **(online source)**

FİRUDİN BƏY KÖÇƏRLİNİN MƏQALƏLƏRİNDƏ UŞAQLARIN AİLƏDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN TƏHLİLİNƏ DAİR

Səbinə Namiq qızı Cəfərova
Bakı Slavyan Universiteti
Pedaqogika və psixologiya kafedrasının doktorantı, müəllimi
sabina_16_86@mail.ru
Azərbaycan, Bakı şəhəri,

Xülasə

Məqalə 19-cu əsrin sonu - 20-ci əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli maarifçi, pedaqoq, publisist F.Köçərlinin yaradıcılığında ailə tərbiyəsi problemlərinə həsr edilmişdir. Görkəmli pedaqoq ailədə uşaqların düzgün tərbiyəsini vacib hesab edərək qeyd edirdi ki, ailədə valideynlər ilk növbədə övladlarını əxlaqi-mənəvi keyfiyyətlərlə tərbiyə etməlidirlər. Düzgün təşkil olunmuş təhsil uşaqların qəlbinə yaxşı toxumlar səpəcək, onların xarakterinin düzgün formalaşmasına zəmin yaradacaq. Mütərəqqi pedaqoq F.Köçərli də Azərbaycan ailələrinə özünəməxsus pedaqoji tələblərlə yanaşaraq, valideynlərə uşaqların tərbiyə olunması istiqamətində tövsiyyələr vermiş və bu yanaşma bu gündə öz aktuallığını qorumaqdadır.Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, F.Köçərlinin ailə tərbiyəsi məsələlərinə həsr olunmuş məqalə və pedaqoji yanaşmaları ailə tərbiyəsinin tarixi və inkişafı ilk dəfə bu aspektdən araşdırılmışdır

Açar sözlər: ailə, tərbiyə, uşaq.

Giriş

XIX yuzilliyin sonu XX yüzilliyin əvvəllərində maarifçilik fəaliyyəti ilə sayılıb-seçilən görkəmli nümayəndələrdən biri Firudin bəy Köçərli olmuşdur (1863-1920). Məqalə və əsərlərində XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda uşaqların təlim-tərbiyəsinə biganə yanaşmayan Köçərli, ailəyə dəyərlərinə böyük önəm verir və uşaqların tərbiyə məsələlərinə həsasslıqla yanaşırdı.

Qeyd etmək lazımdır ki, Azərbaycanda ailə tərbiyəsi haqqında Azərbaycan Respublikasının Qanunvericilik aktları, milli pedaqoji mədəniyyətimizin özünəməxsus xüsusiyyətləri, tarixi-pedaqoji irsin öyrənilməsi dövrün də ən vacib məsələlərindən hesab edilir. Mütərəqqi pedaqoq F.Köçərli də Azərbaycan ailələrinə özünəməxsus pedaqoji tələblərlə yanaşaraq, valideynlərə uşaqların tərbiyə olunması istiqamətində tövsiyyələr vermiş və bu yanaşma bu gündə öz aktuallığını qorumaqdadır.Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, F.Köçərlinin ailə tərbiyəsi məsələlərinə həsr olunmuş məqalə və pedaqoji yanaşmaları ailə tərbiyəsinin tarixi və inkişafı ilk dəfə bu aspektdən araşdırılmışdır

F. Köçərli hesab edirdi ki, ailədə valideynlər ilk növbədə əxlaqlı olmalıdırlar. Valideynlərdə əxlaqi və mənəvi keyfiyyətlər yüksək olduğu təqdirdə onların tərbiyə etdiyi uşaqlar da dürüst, vətənə, cəmmiyyətə yararlı şəxsiyyət kimi yetişmiş ola bilərlər. Bundan sonra valideynləri cəmiyyət qarşısında öz valideynlik borclarını yerinə yetirmiş hesab etmək olar. Ailələrdə əsası düzgün qoyulmuş tərbiyə uşaqların qəlbində xoş toxumlar əkir, onların xasiyyətlərinin doğru formalaşmasına zəmin yaradır. O, uşağın tərbiyəsinin formalaşmasına bilavasitə ailənin digər üzvlərindən öncə anaların rolunun daha güclü olduğunu vurğulayırdı. Ana özünün mədəniyyəti, davranışı ilə seçilməli, övladlarının gələcəyi üçün məsuliyyət daşımalıdır.

Pedaqoq uşaq tərbiyəsinə təsir göstərən amillər içərisində ən vacibinin ailə amili olduğunu söyləyirdi. Uşaqların düzgün formalaşması, gözəl ab-havada böyüməsi məhz yaxşı təşkil olunan ailə mühitindən asıldıdır. Köçərli vurğulayırdı ki, yaxşı ailə mühitində formalaşan, tərbiyə alan uşağın mənəvi dünyasında əxlaqi keyfiyyətlər dərin iz buraxacaq. Uşağın tərbiyə aldığı ailədə sədaqət, hörmət, ləyaqət varsa valideynlərindən gördüyü bu xüsusiyyətlər onun mənəvi dünyasına, ayna kimi təmiz, saf qəlbinə günəş işığı əks etdirəcəkdir. Bu ailələrdə böyüyən uşaqlar yaxınları, dostları ilə hər zaman xoş davranacaq, böyüklərə, ağsaqqallara hörmətlə yanaşacaq, onlara məhəbbət bəsləyəcəkdir. Bu cür mənəvi keyfiyyətlərin əksi olan ailələrdə böyüyən uşaqlar isə tənbəl, xudpərəst, yalançılıq kimi mənfi xislətləri özlərində ehtiva edəcək və nəinki ətrafındakı insanların, hətta ictimaiyyətin belə qınağına səbəb olaraq cəmiyyətə faydasız insan olacaqdır.

Mütərəqqi ziyalı hesab edirdi ki, ailə başçıları ailədaxili münasibətlərin tənzimlənməsinə nəzarət etməli, ailədə qadına hörmətlə yanaşmalı, qayğısına qalmalı və kobud münasibət bəsləməməlidirlər. Qadına qarşı

sərt münasibət, onun hüquqlarının tapdanması, izzəti-nəfsinin yerə vurulması uşaqların tərbiyəsinə mənfi sirayət edəcək, gələcəkdə bu kimi halların təkrar olunmasına yol açacaqdır. Təbii ki, qadın-ana məvhumunu yüksək qiymətləndirən Köçərli uşaqların qayğısına ilk növbədə anaların qalmasını, sevməsini məsləhət görürdü. Əgər ailədə ata-ana arasına münaqişələr baş verirsə, ananın hüququ ata tərəfindən tapdanırsa, o evdə tərbiyə alan uşağın gələcək xasiyyəti də atasının nümunəsində formalaşacaq, özündən kiçiklərə qarşı daim mənfi münasibət bəsləyəcək, onları əzməyə çalışacaq, hətta heyvanlara qarşı belə kobud rəftar edəcəkdir.

F.Köçərli Azərbaycan ailələrində uşaqların təhsil almasına böyük önəm verirdi. Görkəmli pedaqoq ailənin təməl daşını təhsilli qadınlar olduğunu söyləyir, ilk növbədə gələcək nəsillərin sağlam və düzgün psixologiyada yetişmələri üçün qızların təhsil almasını vacib hesab edirdi. Köçərliyə görə qızların təhsil alması onların köləlikdən xilas olması, habelə ailənin ümumi həyat tərzinin yaxşılaşması deməkdir. Köçərli yazırdı ki, "*müsəlman qızlarının məktəbi bitirməsi ilə öz vəzifəsini yaxşı başa düşən təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən bütün müsəlman həyat tərzi, istər ailədə, istərsə də kənarda yaxşılığa doğru yenidən qurulacaqdır*" [1. 370 s.]. F.Köçərli ailədə qadınların təhsil alması məsələsinə ciddi yanaşaraq söyləyirdi ki, ailə quran gənc qızların təhsil alması mütləqdir. Çünki övlad dünyaya gətirən cahil ana öz övladının tərbiyəsinə naqis yanaşıb, onun zəkasını inkişaf etdirməyə mənəvi cəhətdən gücü yetməyəcəkdir. Belə olduğu təqdirdə ana-övlad münasibətləri arasında anlaşılmaz münasibətlər formalaşacaq, analar isə təhsil almış övladlarından daim şikayətçi olacaqlar.

"Tərəqqi" qəzetinin 29 iyul 1909-cü il 169-№li buraxlışının 2-ci səhifəsində Firudin bəy Köçərlinin "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" adlı məqalədə ailədə uşaqların tərbiyəsi geniş təhlil edilmişdir. Köçərli qeyd edirdi ki, müsəlman şərqində avamlığın, geriliyin ən başlıca səbəbi qadınların elmdən, təhsildən uzaq düşməsi, onlara qul mövqeyinin bəslənməsi və naqis münasibətin göstərilməsidir. Qızlar ərə getdikdən sonra onlara kəniz münasibəti bəslənir, ömrünü gününü ailəsinə həsr edərək elmdən, təhsildən uzaq düşür, ardınca öz ərə verilib bütün həyatlarını onların yoluna itaətlə sərf edirlər. Müəllif qeyd edir ki, "*Müsəlman arvadı ömründə beş-on il xoşbəxtlik və ağ gün görürsə, o da qızlıq əyyamındadır*" [3, s.2]. Qadınların kölə vəziyyəti özlərindən çox həyat yoldaşlarına və cəmiyyətə ziyan vurur. Müəllifə görə elmsiz qadın ilk növbədə düşdüyü hər hansı bir məclisdə, insanlar içində savadsız söhbətləri, uyğunsuz hərəktələri ilə həyat yoldaşını utandırır, bu da onlara mənfi təsir göstərir. Təbii ki, mərifətdən, təhsildən-tərbiyədən kənar qalmaqla bu qadınlar dünyaya gətirdikləri övlada da doğru tərbiyə verə bilməyəcək, bu uşaqlar gələcəkdə cəmiyyətdə də düzgün mövqe tutmayacaqlar.

"Tərəqqi" qəzetinin 4 avqust 1909-cü il 173 №li buraxlışının 3-cü səhifəsində Firudin bəy Köçərlinin "Hərəkətsiz nifsimiz" adlı məqaləsi dərc edilmişdir. Məqalə qızların vaxtından əvvəl ərə getmələri, onların təhsildən, elmdən yayınması, ailədə təlim-tərbiyəsi məsələlərinə həsr edilmişdir. O vurğulayırdı ki, qız övladlarının vaxtından əvvəl ailə qurması böyük bir ədalətsizlikdir. Çünki bu məsum qızcığazlar hələ həyatın anlamını dərk etmirlər, analıq hissinin tam dərk etmədən dünyaya uşaq gətirib, onları tərbiyəsi ilə məşğul olmalıdırlar. Fəqət bu qızcığazların özlərinə təlim-tərbiyə lazımdır. Müəllif qeyd edirdi ki, valideynlər yalnız öz övladlarına təlim-tərbiyə verib, həddi buluğa çatdıqdan sonra, bir-birinə həqiqi məhəbbət hissi ilə bağlanmış iki gənci evləndirməlidirlər. Həqiqi sevgi və məhəbbət hissi altında qurulmuş izdivacdan doğulan uşaqlar xoşbəxt olacaqlar. Bu ailənin töhfələri savadlı valideynlərin rəhbərliyi altında böyüyüb, ağıla, kamala yiyələnəcək, öz rəftarı, əqli və tərbiyəsi ilə hər kəsdən üstün olacaqlar: "*Ağıl və kamalı dürüst və canı salamat valideyn çalışacaqdır ki, övladları hər bir cəhətdən onların özündən əfzəl və ikmal olsun*" [4, s.3]

F.Köçərli uşaqların əqli biliklərinin artırılmasının, onları elmə, məktəbə həvəslərinin artırılmasının tərəfdarı idi. Köçərli bir pedaqoq olaraq çox gözəl anlayırdı ki, təlim və tərbiyə birgə vəhdət təşkil etməlidir və gələcəkdə savad, bilik sahibi olmaq üçün kiçik yaşlardan tərbiyə qaydalarına əməl etmək lazımdır. Köçərli məhz bu səbəbdən valideynlərə düzgün yol göstərməyə çalışır, avamlıqdan, cəhalətdən uzaq durmağı, həqiqətləri dərk etməyə səsləyir, övladlarını məktəblərdə elmi biliklərə yiyələnməyin müsbət tərəflərindən bəhs edirdi "*Öz vəzifəsini düşünən yaxşı bir müəllim şagirdlərinə öz nəsayeh və xasiyyəti ilə nüfuz edərək, onun şəxsi misalı, rəftarı və tövsiyələri ilə şagirdlər sədaqətə, zəhmət sevməyə və ədalətə, rəhmdilliyə və sair gözəl xasiyyətlərə adət ediyor. Təəllüm vaxtı üzrə aparılan təlim çocuqların idrakını genişləndirməklə bərabər, onları əhatə hallara və həyati-alijənabanəli və gözəl məqsədləri oyandırır*" [2, s. 209].

Köçərli ailədə uşaqların zəhmətə, əməyə alışdırmağı vacib cəhətlərini qeyd edirdi, o hesab edirdi ki, varlı ailələrin yetişən uşaqlar özlərindən razı, lovğa, tənbəl uşaq kimi böyüyür və onlar kasıb xalq üçün ən başlıca təhlükədir. Bu xasiyyətli uşaqlar böyüdükdən sonra xalqın malını, mülkünü ac qurd kimi gəmirəcək, talan edəcəklər. Məhz bu səbəbədən də bu cür ailələrdə böyüyən uşaqlara haqqı nahaqdan

ayırmağı, doğrunu yalandan seçməyi öyrətmək lazımdır ki, hər zaman təmiz əxlaqa sahib olsunlar. O qeyd edirdi ki, zəhmətə alışan insan hər zaman yaşadığı yerdə xoş güzəran keçirəcək, ömür boyu xoşbəxt olacaqdır.

Bütün sadalananlardan əlavə Köçərli uşaqların ailədə tərbiyəsi məsələlərindən bəhs edərkən insana sağlamlıq və yaşamaq üçün qidanın lazım olduğu kimi, ruhun da qidaya ehtiyacın olduğunu düşünürdü. Ruhun qidası ilk növbədə ağlın tərbiyəsidir deyən Köçərli, ağılsız, biliksiz insanın heyvandan heç bir fərqi yoxdur söyləyir, insanların avamlığının, geriliyinin başlıca səbəbini isə ancaq bədənə qulluq etmələrində deyil, ruh və ağıllarına da qulluq etmələrində görürdü.

Müasirlərinin fikirləri ilə razılaşan, dövrünün adət və ənənələrini uşaqların tərbiyəsinə mənfi təsirini hər dəfə vurğulayan mütərəqqi pedaqoq F.Köçərli tərbiyə vasitələrinin onların hərtərfli inkişafına mühüm təsir göstərdiyini vurğulamışdır. Görkəmli pedaqoq uşaqların ailədə hansı üsullarla tərbiyə edilməsi məsələlərinə aydınlıq gətirərək söyləyirdi ki, uşaq tərbiyə etməkdə ən başlıca vasitə tərbiyədə məqsədin olmasıdır. İlk növbədə valideynlər övladlarını tərbiyə edərkən qarşılarına məqsəd qoymalı, özlərinin şəxsi nümunəsi, düzgün rəftarı və öyüd-nəsihətləri ilə onların qəlbinə nüfüz etməli, tərbiyələndirməlidirlər. Əlbəttə ki, tərbiyənin erkən yaşlardan qoyulmasının vacibliyini vurğulayan Köçərli, ilk növbədə valideyn nüfuzunun, hətta atanın şəxsi nüfuzunu ailənin digər üzvlərindən daha yüksəkdə durduğunu və bu işdə başlıca yükün onun çiyinlərinə düşdüyünü söyləyirdi. F.Köçərli qeyd edirdi ki, valideynlər ilk növbədə özləri şəxsi keyfiyyətlərini yüksək tutmalı, mənəvi dyərlərə yiyələnməli, gərçək hadisələri, cəmiyyətin tələblərini dərk etməli, uşaqları əxlaqi normalara müvafiq olaraq tərbiyələndirməli, mədəni vərdişlərə sövq etməlidirlər. Bu zaman verilən tərbiyənin müsbət nəticəsi olacaqdır. Uşaqları zəhmətə, əməyə, ədalətə və digər keyfiyyətlərə yiyələndirmək, onlarda gözəl xarakterin bünövrəsini qoymaq deməkdir.

Sadalanan üsullardan əlavə Köçərli uşaq tərbiyəsində təlimatın düzgün verilməsində və bu üsulun vacibliyindən söhbət açırdı. Mütərəqqi pedaqoq qeyd edirdi ki, uşaqlara tapşırıq verərkən o işin icrasına nə cür yanaşacaqlarına, qarşılarına qoyulan tələb və təlimatın öhdəsindən necə gələcəklərinə diqqət etmək lazımdır. Əgər uşaq ona tapşırılan işi, tapşırığı icra edən zaman heç bir səhvə yol vermirsə, gördüyü işin məsuliyyətini anlayır və üzərinə düşən vəzifənin tam olaraq anlamını dərk edəcəkdir.

Köçərliyə görə ailədə yaxşı tərbiyə edilən uşaq mənsub olduğu həm ailənin, həm cəmiyyətin simasıdır. Uşaq mənəvi-əxlaqi cəhətdən nə qədər hərtərəfli tərbiyə olunarsa, nüfüzu da bir o qədər yüksək olar, cəmiyyətə faydalı, əməlisaleh insan kimi yetişər. Ailədə uşaq inkişafının hərtərəfli təşkilində tərbiyənin böyük nüfüza malik olduğunu vurğulayan Köçərli tərbiyə nüfuzunun onların ruhunda, qəlbində dərin bir oz buraxdığını, bununla yanaşı onun şəxsiyyət kimi formalaşmasında da mühüm təsir göstərdiyini vuğulayırdı. *"Ailə arasında uşaq öz böyük həsaili-mənəviyyəsinin əsas dünyasını alıyor. Burada onun qəlbinə yüklənmiş xasiyyətlərin, yaxud qəbahətin toxumları saçılır. Ailədə hökmfərma olan mənəvi məfkurələr (ideal) yavaş-yavaş onun qəlbində yayılıyor"* [2, s. 208]. Bütün sadalanan bu məsələləri Köçərli özünün "Tərbiyənin amilləri" adlı məqaləsində qeyd etmişdir.

Tədqiqatın metodu

Tədqiqat işini ərsəyə gəlməsində dəyərli pedaqoqun şəxsi arxiv materiallarınından götürülmüş məlumatlar və məqalələri tarixi-müqayisəli təhlil metodundan istifadə edilərək analiz edilmişdir.

Nəticə

Nəticə olaraq qeyd etmək lazımdır ki, F.Köçərli ailədə uşaqların tərbiyə edilməsinin üsullarından bəhs edərkən çox mühüm pedaqoji məsələlərə toxunmuşdur. Belə ki, dəyərli pedaqoq uşaqları nümunələr üzərində tərbiyə edilməsini mühüm məsələ hesab edirdi. Köçərli nəsihət üsulunu tam effektiv hesab etmir, uşaqların xasiyyətinin tövsiyələr, nəsihətlər üzərindən deyil, nümunələr, böyüklərin əməlləri əsasında formalaşdığını söyləyirdi. Ailədə yaxşı və pis nümunələri dərk edən və bunları ayırd edən uşaq gördüyü mənəvi keyfiyyətləri öz beyninə həkk edir, bu keyfiyyətlər əsasında formalaşırlar. Bu baxımdan da F.Köçərlinin ailə tərbiyəsinin inkişafında verdiyi elmi-pedaqoji yanaşmalar bu gün də öz aktuallığını qorumaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, - 2006. -580 s.
2. Firidun bəy Köçərlinin şəxsi arxivi, Bakı: Nurlan, 2006, 280+28 s.
3. Köçərli, F. Həqiqi gözəllik və hərəkətsiz nisfimiz.Bakı:Tərəqqi.-1909, 29 iyul, №169, - s.1-4
4. Köçərli, F. Hərəkətsiz nisfimiz.Bakı:Tərəqqi. – 1909, 4 avqust, №173, - s.1-4

"SYNCWINE" METODUNUN TƏDRİS PROSESİNDƏ TƏTBİQİ

ZƏRİNƏ NAĞIZADƏ
Bakı Dövlət Universiteti
Sosial elmlər və psixologiya /Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
zarinanagizade@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

XXI əsrin bacarıqları sırasında innovativlik və yaradıcılıq qabiliyyəti çox mühüm yer tutur. Dünya təhsil sisteminə inteqrasiya və dövrün tələblərinə uyğun kadr hazırılığı artıq namizədlərin sadəcə bilik səviyyəsinin deyil, bununla yanaşı yaradıcılıq, tədqiqatçılıq kimi bacarıqlarının da yüksək səviyyədə formalaşmasını və inkişafını tələb edir. Bu məqsədlə tədris prosesində şagirdlərlə iş zamanı müxtəlif yeni təlim üsulları, pedoqoji texnologiyalar tətbiq edilir, müasir elmi- texniki vasitələrdən istifadə olunur. "Syncwine" təlim metodu da həmin texnologiyalardan biri olub, şagirdlərin yaradıcı və tənqidi təfəkküründü formalaşdırmağa, mövcud biliklərini təhlil edərək bir neçə sözdə birləşdirmək bacarıqlarını inkişaf etdirməyə, söz ehtiyatını aktivləşdirilməsi və artırılmasına, eləcə də şagird biliyinin qısa müddət ərzində qiymətləndirilməsinə xidmət edir.

AÇAR SÖZLƏR: syncine, yaradıcılıq, kimya, inkişaf, fəaliyyət

GİRİŞ

Tədqiqat işinin məqsədi: Sinifdə sinxronizasiya tərtib edilməsinin əsas hədəfi öyrənilən materiala marağın artırılması, şagirdlərdə yaradıcı təfəkkür və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, ünsiyyət, təhlil və fikirlərini yığcam ifadə etmək bacarığını təkmilləşdirmək, lüğət ehtiyatını genişləndirməkdən ibarətdir.

Tədqiqatın aktuallığı: Qloballaşan dünyada yüksək yaradıcı təxəyyülə və analitik düşünmə qabiliyyətinə malik kadrların yetişdirilməsi təhsil sahəsinə də öz töhfəsini verəcəkdir, bu baxımdan məktəb yaş dövründən başlayaraq şagirdlərin yaradıcılıq qabiliyyətinin formalaşması və inkişafına yönəlmiş təlim metodunun tətbiqini məsələsini aktual hesab etmək olar.

Tədqiqatın elmi yeniliyi:

1. Müasir dövrün və təhsilin tələblərinə cavab verən kadrların yetişdirilməsini təklif edir;
2. Ümumtəhsil məktəblərində kurikulum sistemi ilə tətbiq olunarkən şagirdlərin yaradıcı təfəkküründü formalaşdırır;
3. Kimya dərslərində tətbiqi tədris prosesini və şagirdlərin təhlil bacarıqlarının digər vasitələrə nisbətən daha az müddətdə dəyərləndirilməsini asanlaşdırır,

Tədqiqatın praktiki əhəmiyyəti: Haqqında bəhs olunan təlim metodundan ümumtəhsil məktəblərində müəllim və şagirdlər tərəfindən pedoqoji prosesdə istifadə oluna bilər.

TƏDQİQAT METODU

Müasir təhsil sisteminin qarşısında dayanan aktual məsələlərdən biri şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsidir. "Syncwine" tədris prosesində şagirdlərin yaradıcı fəaliyyətini təşkil etmək üçün kifayət qədər effektiv və maraqlı metod olub, heç bir xüsusi istedad və bilik tələb etmir, istənilən yaş qrupuna daxil olan uşaqların analitik və aktiv düşünmə bacarıqlarını inkişaf etdirir, şagirdlərin lüğət ehtiyatını artırır.

Dərsdə sinxronizasiya tərtib etmək üçün nəzərdə tutulmuş mövzu haqqında müəyyən bilik və anlayışa sahib olmaq lazımdır. Bu xüsusiyyətinə görə də onu məktəb kurikulumunun hər hansı bir fənnində şagirdin biliyinin yoxlanmasının təsirli forması hesab etmək olar. Üstəlik, bir sinxronizasiya yazmaq səviyyə yoxlayıcı testdən daha az vaxt (10- 15 dəqiqə) aparır, sinxronizasiyanın nəticəsi isə daha yaradıcı və orjinal olur.

Sinxronizasiyanın qurulması sxemi aşağıdakı kimidir:

1. birinci sətir - syncwine mövzusudur, çox vaxt bir söz, isim (bəzən iki sözlü ifadələr, ixtisarlar və s.) ilə verilə bilər;
2. ikinci sətir - iki sifət (mövzunu xarakterizə edən);
3. üçüncü sətir - üç fel (mövzu kimi təyin edilmiş obyekt və ya anlayışın hərəkətləri);
4. dördüncü sətir - dörd sözdən ibarət cümlə (müəllifin obyektə şəxsi münasibətini təsvir edən);
5. beşinci sətir - bir söz (bütövlükdə sinxronizasiyanı yekunlaşdıran, nəticə, xülasə)

Bu sərt sxemdən kənarlaşmalar mümkündür.Adətən, sinxronizasiya tərtib etmək tapşırığı verən müəllim formaya nə qədər ciddi riayət etməli olduğuna özü qərar verir.
Pedoqoji fəaliyyətlə məşğul olduğum 38 saylı tam orta məktəbin 8- 9cu siniflərində "Su" mövzusunda tərtib etdiyim sinxronizasiya nümunələri: (8-ci sinif): 1.Su – 2.maye, rəngsiz – 3. qaynayır, donur, soyuyur – 4. su aktiv metallarla reaksiyaya girir – 5. maddə. (9-cu sinif): 1. Su – 2. bərk, mürəkkəb – 3. oksidləşir, isinir, dissosiasiya olunur – 4. "Susuz həyat mümkün deyil!" – 5. elektrolit;

NƏTİCƏ

"Syncwine" təlim metodundan istifadəyə əsaslanan kimya dərsləri şagirdlər tərəfindən maraqla qarşılanır, anlayışlar daha dərindən mənimsənilir. Həmçinin bu metod şagirdlərə ədəbiyyatla müstəqil işləmək, sistemli təhlil etmək və nəticə çıxarmaq bacarıqları aşılayan, onların yaradıcı potensialını üzə çıxaran texnikadır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu), VII-XI siniflər, Bakı, 2013
2. Əzizov Ə.T. Kimyanın tədrisi metodikası, Bakı, 2005
3. Kendivan O.D-S. Practice-oriented tasks in teaching chemistry // Chemistry at school. - 2009. - No. 8. - pages. 43–48.

ƏTRAF ALƏMLƏ TANIŞLIQ MƏŞĞƏLƏLƏRİNDƏ OYUNCAQ, MATERİAL VƏ AVADANLIQLARIN UŞAQLARIN YAŞ XÜSUSİYYƏTLƏRİNƏ UYĞUN SEÇİLMƏSİ

KÖNÜL ŞXƏLİYEVA
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
MƏKTƏBƏQƏDƏR TƏHSİL/PEDAQOGİKA
konul.eliyeva.17@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

TƏDQİQAT İŞİNİN QISA İCMALI. Oyuncağın bir çox kateqoriyaları var - pedaqoji, estetik, mənəvi, sənaye, iqtisadi, mədəni, sosial, psixoloji və s. Bu kateqoriyalara uşaqların ehtiyaclarını ödəyə biləcək kifayət qədər geniş bir sıra məhsul daxildir. Oyun prosesi uşaqların inkişafının ayrılmaz hissəsidir. Onun vasitəsilə həyat öyrənilir, kəşflər edilir, təcrübə qazanılır. Səbəbsiz deyil, hətta, müəyyən bir uşağın yaşayış şəraitini yoxlayan səlahiyyətli orqanların nümayəndələri də həmişə oyuncaqların olmasına diqqət yetirirlər, çünki şəxsiyyətin tamhüquqlu formalaşması buna bağlıdır. Uşaq bağçası uşaqların əsas oyun ərazisidir, buna görə burada oyunlar üçün əşyalar məcburi olmalıdır və hər yaş qrupu üçün fərqli bir dəst seçilməlidir. Uşaq bağçasında oyuncaqların əsas məqsədi ətraf aləmin xüsusiyyətlərinin assimilyasiyasına kömək etməkdir: obyektlərin forma, ölçü, rəng, digər fiziki xüsusiyyətləri; uşağın məntiqi təfəkküründün, konsentrasiyasının, incə motor bacarıqlarının inkişafı və tərbiyəsidir. Böyüklər uşaqlara hansı oyuncaqlar aldıqları, uşaqlara nə verdikləri, uşaqların bağçaya hansı oyuncaqlar gətirdikləri barədə çox vaxt bəlkə də düşünmürlər.
Uşaq üçün oyuncaq onun həyatının ayrılmaz hissəsidir və buna görə də ciddi diqqət tələb edir!
İŞİN AKTUALLIĞI. Çoxsaylı tədqiqatlar göstərir ki, oyuncaq həmişə psixikanın inkişafı üçün təsirli vasitə olub və xalq pedaqogikasında uşaqların böyüklərin həyatına yiyələnməsi və sosial tərbiyə üçün geniş istifadə olunub.
Oyuncaqlar bu və ya digər xarakter xüsusiyyətlərinin tərbiyəsinə imkan yaradır, uşaqları müxtəlif peşələrə cəlb edir və s.
Oyuncaq uşağa ətraf aləmlə tanış olmağa kömək edir, onun vasitəsilə o alınmış təəssüratları möhkəmləndirir və emal edir, aktivliyə və ünsiyyətə olan ehtiyaclarını təmin edir.

Oyunun məzmunu oyuncaqlardan aslıdır, onlar yaradıcı təsəvvürün inkişafı üçün dəstək kimi xidmət edirlər. Oyuncaqlarda tanış obyektləri öyrəndikdən sonra, uşaq öz təsəvvürlərini birləşdirməyə, təkrar emal etməyə və yeni təəssüratları fəal surətdə mənimsəmək imkanı əldə edir.

Uşaqlara ən güclü tərbiyə təsiri, bütün dünyadakı insanları və obyektləri təsvir edən oyuncaqlardır: heyvanlar, quşlar, balıqlar, bitkilər, nəqliyyat vasitələri, avadanlıqlar, ev əşyaları. Onlarla məktəbəqədər uşaqlarda müəyyən təsəvvürlər assosiasiya olunur, yaddaşda parlaq təəssüratlar canlanır, mövcud həyat təcrübəsini yaradıcı şəkildə təkrar etmək imkanı yaranır. Oyuncaqlar yalnız uşaqları müxtəlif məzmunlu oyunlara həvəsləndirmir, onlar uşağa rol oynamağa, sevimli obraz yaratmağa, uydurmanı həyata keçirməyə kömək edirlər. Oyuncaq oyun obrazının yaradılmasına böyük təsir göstərir.

MƏQSƏDİ. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrində Ətraf aləmlə tanış məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsinin təhlilini aparmaqdır.

ELMİ YENİLİYİ. Ətraf aləmlə tanış məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsinə dair materialları toplamaq, sistemləşdirmək, qruplaşdırmaq və ümumiləşmiş şəkildə icmallaşdırmaqdır.

PRAKTİKİ ƏHƏMİYYƏTİ. Oyuncağın növləri (obrazlı oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanışlıqda onlardan istifadə yolları, didaktik oyuncaqlardan uşaqların ətraf aləmlə tanışlığında istifadə imkanları ortaya qoyulmuşdur.

NƏTİCƏ.Ətraf aləmlə tanışlıq məşğələlərində oyuncaqların, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsi müəyyənləşdirilmişdir. Oyuncağın növləri (obrazlı oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanışlıqda onlardan istifadə yolları göstərilmişdir. Didaktik oyuncaqlardan uşaqların ətraf aləmlə tanışlığında istifadə imkanları müəyyən olunmuşdur.

AÇAR SÖZLƏR: OYUNCAQ-1, MƏŞĞƏLƏ-2, UŞAQ-3

GIRIŞ

TƏDQİQAT İŞİNİN MƏQSƏDİ. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrində Ətraf aləmlə tanış məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsinin təhlilini aparmaqdır.

TƏDQİQAT İŞİNİN VƏZİFƏLƏRİ. Mövzu ilə bağlı mənbələri öyrənmək, plan tərtib etmək, toplanmış materialları qruplaşdırmaq, sistemləşdirmək və ardıcıl olaraq planauyğun şəkildə yazmaqdır.

TƏDQİQAT İŞİNİN AKTUALLIĞI. Çoxsaylı tədqiqatlar göstərir ki, oyuncaq həmişə psixikanın inkişafı üçün təsirli vasitə olub və xalq pedaqogikasında uşaqların böyüklərin həyatına yiyələnməsi və sosial tərbiyə üçün geniş istifadə olunub.

Oyuncaqlar bu və ya digər xarakter xüsusiyyətlərinin tərbiyəsinə imkan yaradır, uşaqları müxtəlif peşələrə cəlb edir və s.

Oyuncaq uşağa ətraf aləmlə tanış olmağa kömək edir, onun vasitəsilə o alınmış təəssüratları möhkəmləndirir və emal edir, aktivliyə və ünsiyyətə olan ehtiyaclarını təmin edir.

Oyunun məzmunu oyuncaqlardan aslıdır, onlar yaradıcı təsəvvürün inkişafı üçün dəstək kimi xidmət edirlər. Oyuncaqlarda tanış obyektləri öyrəndikdən sonra, uşaq öz təsəvvürlərini birləşdirməyə, təkrar emal etməyə və yeni təəssüratları fəal surətdə mənimsəmək imkanı əldə edir.

Uşaqlara ən güclü tərbiyə təsiri, bütün dünyadakı insanları və obyektləri təsvir edən oyuncaqlardır: heyvanlar, quşlar, balıqlar, bitkilər, nəqliyyat vasitələri, avadanlıqlar, ev əşyaları. Onlarla məktəbəqədər uşaqlarda müəyyən təsəvvürlər assosiasiya olunur, yaddaşda parlaq təəssüratlar canlanır, mövcud həyat təcrübəsini yaradıcı şəkildə təkrar etmək imkanı yaranır. Oyuncaqlar yalnız uşaqları müxtəlif məzmunlu oyunlara həvəsləndirmir, onlar uşağa rol oynamağa, sevimli obraz yaratmağa, uydurmanı həyata keçirməyə kömək edirlər. Oyuncaq oyun obrazının yaradılmasına böyük təsir göstərir.

ELMİ YENİLİYİ. Ətraf aləmlə tanış məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsinə dair materialları toplamaq, sistemləşdirmək, qruplaşdırmaq və ümumiləşmiş şəkildə icmallaşdırmaqdır.

PRAKTİK ƏHƏMİYYƏTİ. Oyuncağın növləri (obrazlı oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanışlıqda onlardan istifadə yolları, didaktik oyuncaqlardan uşaqların ətraf aləmlə tanışlığında istifadə imkanları ortaya qoyulmuşdur.

Metod və metodologiyası. Ətraf aləmlə tanış məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsinə dair materialları toplamaq, sistemləşdirmək, qruplaşdırmaq və ümumiləşmiş şəkildə icmallaşdırmaqdır.

Elmi ədəbiyyatda qoyuluşu. Oyuncağın növləri (obrazlı oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanışlıqda onlardan istifadə yolları, didaktik oyuncaqlardan uşaqların ətraf aləmlə tanışlığında istifadə imkanları ortaya qoyulmuşdur.

I FƏSİL. "Ətraf aləmlə tanışlıq məşğələlərində oyuncaq, material və avadanlıqların uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməsi".

1.1.Oyuncağın növləri (obrazlı oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanışlıqda onlardan istifadə yolları.

Oyuncağın bir çox kateqoriyaları var - pedaqoji, estetik, mənəvi, sənaye, iqtisadi, mədəni, sosial, psixoloji və s. Bu kateqoriyalara uşaqların ehtiyaclarını ödəyə biləcək kifayət qədər geniş bir sıra məhsul daxildir. Oyun prosesi uşaqların inkişafının ayrılmaz hissəsidir. Onun vasitəsilə həyat öyrənilir, kəşflər edilir, təcrübə qazanılır. Səbəbsiz deyil, hətta, müəyyən bir uşağın yaşayış şəraitini yoxlayan səlahiyyətli orqanların nümayəndələri də həmişə oyuncaqların olmasına diqqət yetirirlər, çünki şəxsiyyətin tamhüquqlu formalaşması buna bağlıdır. Uşaq bağçası uşaqların əsas oyun ərazisidir, buna görə burada oyunlar üçün əşyalar məcburi olmalıdır və hər yaş qrupu üçün fərqli bir dəst seçilməlidir. Uşaq bağçasında oyuncaqların əsas məqsədi ətraf aləmin xüsusiyyətlərinin assimilyasiyasına kömək etməkdir: obyektlərin forma, ölçü, rəng, digər fiziki xüsusiyyətləri; uşağın məntiqi təfəkküründün, konsentrasiyasının, incə motor bacarıqlarının inkişafı və tərbiyəsidir. Böyüklər uşaqlara hansı oyuncaqlar aldıqları, uşaqlara nə verdikləri, uşaqların bağçaya hansı oyuncaqlar gətirdikləri barədə çox vaxt bəlkə də düşünmürlər.

Uşaq üçün oyuncaq onun həyatının ayrılmaz hissəsidir və buna görə də ciddi diqqət tələb edir!

Oyuncaq nədir?

"**Oyuncaq**" **sözü** çoxları üçün bəzək, əyləncənin sinonimi kimi çıxış edir. Bu xüsusi bir əşya olsa da, nəhəng gücə, öyrətmə qabiliyyətinə malikdir. Hər şey oyuncaq ola bilər. Oyuncaq olmaq xüsusiyyəti əşyanın xarici əlamətlərinə sərt şəkildə bağlı deyil. Onun "oyuncaqlar" sinfinə düşməsi ona oynayan insanın münasibəti ilə şərtlənir. Məhz insan əşyanı onunla oyun zamanı əsl oyuncağa çevirir.

Hər bir əşya əsil oyuncağın rolunu ala bilər, əgər o:

- **Cəlbedicidirsə** - əşya ilə ünsiyyət qurmağı, ona baxmağı, manipulyasiya etməyi təmin edir;
- **Mənimsəmə üçün əlverişlidirsə** - oyunçunun bu obyekti yaşayış sahəsinə yerləşdirmək qabiliyyəti ilə müəyyən edilir.

Çoxsaylı tədqiqatlar göstərir ki, oyuncaq həmişə psixikanın inkişafı üçün təsirli vasitə olub və xalq pedaqogikasında uşaqların böyüklərin həyatına yiyələnməsi və sosial tərbiyə üçün geniş istifadə olunub.

Oyuncaqlar bu və ya digər xarakter xüsusiyyətlərinin tərbiyəsinə imkan yaradır, uşaqları müxtəlif peşələrə cəlb edir və s.

Oyuncaq uşağa ətraf aləmlə tanış olmağa kömək edir, onun vasitəsilə o alınmış təəssüratları möhkəmləndirir və emal edir, aktivliyə və ünsiyyətə olan ehtiyaclarını təmin edir.

Oyunun məzmunu oyuncaqlardan aslıdır, onlar yaradıcı təsəvvürün inkişafı üçün dəstək kimi xidmət edirlər. Oyuncaqlarda tanış obyektləri öyrəndikdən sonra, uşaq öz təsəvvürlərini birləşdirməyə, təkrar emal etməyə və yeni təəssüratları fəal surətdə mənimsəmək imkanı əldə edir.

Uşaqlara ən güclü tərbiyə təsiri, bütün dünyadakı insanları və obyektləri təsvir edən oyuncaqlardır: heyvanlar, quşlar, balıqlar, bitkilər, nəqliyyat vasitələri, avadanlıqlar, ev əşyaları. Onlarla məktəbəqədər uşaqlarda müəyyən təsəvvürlər assosiasiya olunur, yaddaşda parlaq təəssüratlar canlanır, mövcud həyat təcrübəsini yaradıcı şəkildə təkrar etmək imkanı yaranır. Oyuncaqlar yalnız uşaqları müxtəlif məzmunlu oyunlara həvəsləndirmir, onlar uşağa rol oynamağa, sevimli obraz yaratmağa, uydurmanı həyata keçirməyə kömək edirlər. Oyuncaq oyun obrazının yaradılmasına böyük təsir göstərir.

Oyuncaq, oyun üçün nəzərdə tutulmuş obyektdir (əşyadır). Real və xəyali əşyaları, obrazları quraraq, oyuncaq əqli, əxlaqı, estetik və fiziki tərbiyə məqsədlərinə xidmət edir. Oyuncaq uşağa ətraf dünyanı öyrənməyə kömək edir, onu məqsədyönlü, mənalı fəaliyyətə alışdırır, təfəkkürün, yaddaşın, nitqin, emosiyaların inkişafına imkan yaradır. Oyuncaq uşaqların təlim-tərbiyə işində, xüsusilə də texniki və bədii yaradıcılığın inkişafı üçün geniş istifadə olunur. Oyuncağın tipləri, xarakteri, məzmunu və tərtibatı uşaqların yaşına uyğun olaraq onların inkişafı və maraqları nəzərə alınmaqla xüsusi tərbiyəvi vəzifələr ilə müəyyən edilir.

Oyuncaq uşaqların əməyə marağını artırmağa və maraq hissinin formalaşmasına kömək edir.

Böyüklərin əsas vəzifəsi uşağa oyuncaqlarla hərəkət etməyi öyrətməkdir.

Məktəbəqədər yaşda uşağın inkişafı üçün oyunların və oyuncaqların əhəmiyyəti müəllimlər tərəfindən lazımi qədər dəyərləndirilmir.

Valideynlərin əksəriyyəti uşağın şəxsiyyətinin formalaşması üçün düzgün seçilmiş oyuncaqların nə qədər vacib olduğunu anlamırlar. Uşaq necə və hansı oyunları oynamalıdır? Bu barədə valideynlər, əsasən, istehsalçı firmaların maraqlarını əks etdirən, heç də həmişə uşağın maraqlarına uyğun gəlməyən reklamdan məlumat alırlar.

Oyuncağın rolu

Oyuncağın rolu çoxfunksiyalıdır:

1. Uşağın psixi inkişaf vasitəsidir;

2. İctimai münasibətlərin müasir sistemində həyata hazırlamaq vasitəsidir;

3. Əyləncə üçün xidmət edən obyektdir.

Oyuncaq yalnız oyunun müşayiəti deyil, həm də təlim, əyləncə və hətta müalicə vasitəsidir (oyuncağın psixoterapevtik funksiyası), çünki o, uşağa öz qorxularına sahib olmağa kömək edir.

Uşaq üçün oyuncaq nə olmalıdır? Hər şeydən əvvəl oyuncaq, sevinc və oyun üçün motivasiya mənbəyidir. O, inkişaf üçün şərait və müstəqil yaradıcılığa imkan yaratmalıdır. Faydalı oyuncaq özündə təhsil vəzifəsini daşıyır. Oyuncaq uşağın ruhunda xeyir və şərin ilkin anlayışına təməl qoyur.

Pedaqoji baxımdan daha dəyərli oyuncaqlar aşağıdakı keyfiyyətlərə malik olanlardır:

- Polifunksionallıq – oyuncaqlar uşağın niyyətinə, müxtəlif funksiyalarda oyunun sahəsinə uyğun olaraq çevik şəkildə istifadə edilə bilər. Beləliklə, oyuncaq yaradıcılığın, təxəyyülün, simvolik düşüncə funksiyasının inkişafına kömək edir;
- Birgə fəaliyyətlərdə tətbiq etmək imkanı – oyuncaq bir qrup uşaq tərəfindən eyni zamanda istifadə üçün yararlı olmalı (oynayan tərəfdaş kimi böyüklərin iştirakı ilə) və birgə hərəkətlərə təşəbbüs etməlidir (kollektiv binalar, birgə oyunlar və digərləri);
- Oyuncaqların didaktik xüsusiyyətləri – bu cür oyuncaqlar özündə uşaqda layihələndirmə bacarığı, rənglə və forma ilə tanış olma və s. öyrədilməsi üsullarını daşıyır. Məsələn, bəzi elektron oyunlar və oyuncaqlar proqramlaşdırılmış nəzarət mexanizmlərini özündə saxlaya bilər, uşaqları lazım olan istiqamətə yönləndirmə və bilikləri əldə etmə xüsusiyyətlərinə malik olurlar;
- Oyuncağın bədii sənətkarlıq məhsullarına aid olması –bu oyuncaqlar uşağın bədii-estetik inkişafı vasitəsidir, onu incəsənət aləminə cəlb edir və onu bədii xalq yaradıcılığı ilə tanış edir.

Bu cür oyuncaqlar müvafiq təsvirlərin - yaş həddinə, üsullarına və onların tətbiqi sahələrinə aid təlimatların və metodiki tövsiyələrin mövcudluğu şəraitində uşağa müsbət təsir göstərir və həm ailə şəraitində, həm də məktəbəqədər təhsil müəssisəsinin həyatında, pedaqoji prosesdə uğurla istifadə oluna bilər.

Oyuncaq uşaq inkişafının üsuludur, onun atributu və şərtidir. Oyuncaq sevinc mənbəyi, canlı oyun üçün motivasiya, inkişaf etməkdə olan həyatın bütün instinktlərinin təzahürü üçün obyekt olmalıdır. Oyuncaqları seçərkən bu meyara istinad etmək lazımdır.

Müxtəlif yaş qrupları üçün oyuncaqların seçilməsi.

Uşaq bağçasında hansı oyuncaqların olduğunu təhlil etsək, onları müxtəlif meyarlara görə qruplara bölə bilərik.

Yaşına görə: körpələr qrupu üçün; orta qrup üçün; böyük qrup üçün; məktəbəhazırlıq qrupu üçün.

Tematik məqsədlə: kuklalar və aksesuarlar, evlər; nəqliyyat kublar, inşaat materialları, digər tikinti materialları; mozaika, bulmacalar, əlavələr; yumşaq oyuncaqlar, heyvan fiqurları; qablar və yeməklər; telefonlar, elektron və musiqi oyuncaqlar; nömrələr, hərflər; stolüstü oyunlar və s.

Materialına görə: plastik; taxta; parça metallardan.

Həm də fakturasına görə kobud, hamar və rənglərə görə təsnif edilə bilər. Buna görə də, müxtəlif yaşlı uşaqlar və xüsusilə də kiçik yaşlı uşaqlar üçün oyuncaqların düzgün seçilməsi vacibdir.

Körpələr qrupunda təhsilin əsas vəzifələri aşağıdakılardır:

- Uşaq sağlamlığının qorunması və möhkəmləndirilməsi;
- Hərəkətlərin inkişafı;
- Əşyalarla hərəkətlərin inkişafı;
- Nitqin inkişafı.

Bu vəzifələrə müvafiq olaraq, oyuncaqlar seçilir:

- İti küncləri, ağır çəkisi olmayan, uşaqlar üçün təhlükəsiz oyuncaqlar;
- Diyirlətmək, atmaq üçün böyük toplar;
- Müxtəlif rəngli yük maşınları, arabalar: uşaqlar onları yerdən yerə köçürür, üzərinə kubik, gəlincik və digər daha kiçik oyuncaqları yığaraq sürürlər;

- Matryoshka, piramidalar: sensor inkişaf üçün oyuncaqlar uşağa müxtəlif cisimlər, onların xarakterik xüsusiyyətləri, rəngləri, forma və ölçüsü haqqında aydın təsəvvürlərin formalaşmasını xidmət edir;
- Süjet-obrazlı oyuncaqlar, gəlinciklər, heyvanlar, məişət əşyaları: məzmuna görə onlar uşaqlara ətraf aləmi əks etdirir;
- Əyləncəli oyuncaqlar: bu oyuncaqların olması mütləqdir. Körpə uşaqlar onları oynada bilməsə də, oyuncaqların tərbiyəçi tərəfdən istifədə edilməsinə baxır və sevinirlər;
- Tikinti materialları oyuncaqları: taxta və ya plastik kubiklər, kərpiclər, taxtalar, leqo;
- Musiqi oyuncaqları: tütək, dodaq akkordeonu, nağara və s.

Orta qrupda təhsilin vəzifələri mürəkkəbləşir. Məktəbəqədər yaşlı uşaqlar oyunda rolları daha aydın şəkildə fərqləndirirlər. Beləliklə, oyuncaqların seçilməsi çətinləşir:

- Süjet-obrazlı oyuncaqların seçimi daha geniş olur (kuklalar-qızlar və kuklalar-oğlanlar, müxtəlif millətlərin kuklaları, onlara əlavə əşyalar: dənizçinin papağı, həkim xələti və s.);
- Tikinti materiallarının seçimi daha geniş olur, çünki uşaqlar artıq daha mürəkkəb konstruksiyalar yaradırlar (müxtəlif dəstlərdə olmalıdır);
- Musiqili, səsli oyuncaqların seçimi mürəkkəbdir (uşaq pianosu, nağara);
- Komplekt (dəst) oyuncaqlar lazımdır, çünki uşaqlar artıq kollektiv oynaya bilirlər (məsələn,"ev heyvanları" üçün dam qurmaq).

Böyük qrup uşaqları həyatla daha geniş təmasda olurlar, onlar artıq mürəkkəb süjetlərin inkişafına imkan verən oyuncaqlardan istifadə edə bilirlər. Buna görə də, bu yaş qruplarında hər cür oyuncaq müxtəlif çeşiddə təqdim edilməlidir. Texniki, idman-motor, teatr oyuncaqları böyük əhəmiyyət kəsb edir.

Buna görə də əminliklə demək olar ki, oyuncaqların düzgün seçimi uşağın yaş imkanlarına uyğun tam inkişafına kömək edir.

Yaş xüsusiyyətlərinə görə uşaq oyuncağının seçilməsi əsas şərtlərdən biridir. Həyatının bu və ya digər dövründə uşaq ətraf aləmi müxtəlif yollarla tanıyır. Yeni biliklərin əldə edilməsi prosesinin darıxdırıcı və monoton olmaması üçün valideynlər və qohumlar uşağa oyuncaqlar alır.

Bununla birlikdə oyuncaq, uşağı maraqlandıracaq və uşağı öyrənməyə həvəsləndirəcək şəkildə seçilməlidir.

Düzgün oyuncağın seçilməsinin bir çox yolu vardır. Çox vaxt uşaqlar hansı oyuna ehtiyac duyduqlarını özləri bilirlər. Doğrudur, həmişə bu qərar şüurlu şəkildə verilmir və uşaqlar oyuncaq seçimində valideynlərin köməyindən istifadə edirlər. Əlbəttə ki, hər bir uşaq özünəməxsus şəxsdir və o, hər hansı bir çərçivəyə uyğunlaşmaq məcburiyyətində deyil. Erkən yaşlarda inkişaf çox sürətlə gedir, bu da oyun materialı, o cümlədən vəzifələri, metodları və təhsil vasitələrinin dəyişiklliyinə səbəb olur.

Körpə həyatının birinci-ikinci aylarından daxil olan oyuncaqlar görmənin, eşitmənin inkişafına kömək etməlidir. Həmin oyuncaqlar parlaq, iri, yüngül top, kürə, böyük şəkildə ola bilər (çarpayının üstündə körpənin gözündən 50 sm. məsafədə asılmalıdır).

2-2,5 aydan böyük süjetli oyuncaqlar (kukla, ayı) əlavə edilir, onları çarpayı və manejin yanına qoyurlur. Eyni zamanda, səsli oyuncaqlar (zınqırov və s.) lazımdır. Oyuncağın səslənməsi körpənin gözündə ona əlavə cazibədarlıq verir. Bundan başqa, uşağın sinəsinin üstündə əllə tutula bilən xırda oyuncaqlar asırlar.

5-6 ayından başlayaraq, əşyalarla hərəkət etmək üçün uşağa müxtəlif oyuncaqlar verilir: plastik, rezin, taxta oyuncaqlar, səsli oyuncaqlar, müxtəlif ölçülü toplar. Oyuncaqların ölçüsü kiçik və orta ola bilər, yığcam, bir və ya iki əlində tutmaq üçün əlverişli olmalıdır.

0-1 yaşlı uşaqlar - bir çox fikirlərə zidd olaraq, bu yaş uşaqlar üçün oyuncaqların əhəmiyyəti həddindən artıq böyükdür. Onlar müxtəlif rəngli, formalı və səsli olmalıdır. Uşaq yatağının üzərindən asılmış oyuncaqlar çox vacibdir. Bu oyuncaqlar görmə, barmaq motoru bacarıqlarını inkişaf etdirir, körpə rəngləri ayırmağı, səbəb-nəticə əlaqələrini öyrənir. Yuxudan əvvəl körpəyə oxumaq üçün müvafiq kitablar, körpə yatanda isə qucağında saxlaya biləcəyi yumşaq oyuncaqların (ayı, dovşan, gəlincik və s.) olması zəruridir. Su prosedurlar zamanı oynamaq üçün rezin ördək balası oyuncağı və ya rəngli böyük topdan istifadə etmək olar. Nəzərə almaq lazımdır ki, çox kiçik hissələrdən ibarət oyuncaqlar bu yaş uşaqlar üçün təhlükəlidir.

Həyatın **ikinci ilində** uşağa bütün növ oyuncaqlar təklif olunur. Bu zaman obrazlı oyuncaqlardan daha çox istifadə olunur. Müxtəlif materiallardan hazırlanmış kuklalar və su oyunları üçün kuklalar da bura daxildir. Kuklaların geyimi sadə olmalıdır (çıxarıla bilən və ya çıxarılmayan). Kukla mebeli böyük ölçülü, möhkəm olmalıdır.

Oyun məişətinin vacib əşyaları:

- Mətbəx üçün dəst (iri, uşağın əlinin ölçüsünə görə qab-qacaq: boşqablar, fincanlar, qaşıqlar, qazanlar);
- Oyuncaq yataq dəstləri (yorğan üzləri, döşəklər, ədyal və s.);
- Səsli və səslənməyən müxtəlif materiallardan hazırlanmış heyvan fiqurları (dovşan, tülkü, inək, keçi, at və s.);
- Su oyunları üçün balıq, su quşları (kiçik və orta ölçülü);
- Süjetli-nəqliyyat oyuncaqları: kuklalar, çarxlar, arabalar, avtomobillər.

1-3 yaşlı uşaqlar - bu yaş aralığına daxil olan uşaqlar çox hərəkətli olur və buna görə hərəkətli oyuncaqları xoşlayırlar. Bu yaş uşaqlar üçün mükəmməl oyuncaq seçimi kiçik arabalar, gəlinciklər üçün arabalar, simli və ya təkərli oyuncaqlardır. Barmaq motoru bacarıqlarının inkişafı üçün rəngli qələmlər, albom və təbaşir məqsədəmüvafiqdir. 1-3 yaş uşağın valideynləri təqlid etdiyi yaşdır, buna görə də uşağa oyuncaq telefon və s. vermək olar.

3-5 yaşlı uşaqlar - əqli qabiliyyətləri inkişaf edir, buna görə də çox pazllar, böyük maşınlar, bir çox geyim dəsti olan kuklalar alınmalıdır.

Oyuncaqların saxlanılması.

Məktəbəqədər müəssisələrdə oyuncaqlar müvafiq şəkildə yerləşdirilməlidir ki, bu da müəyyən oyun avadanlıqlarının istifadəsini tələb edir: şkaflar, çarxlar, top saxlamaq üçün torlar.

Tələblərin ödənilməsi üçün açıq rəflərin istifadəsi məqsədəuyğundur. Rəflər elə yerləşdirilməlidir ki, uşaqlar asanlıqla, kiminsə köməyi olmadan oyuncaqları götürüb qoya bilsinlər. Hər bir oyuncağın öz daimi yeri olmalıdır. Böyük tikinti materialları üçün aşağı rəflərdən istifadə etmək daha məqsədəuyğundur, süjet-obrazlı oyuncaqlar və stolüstü çap oyunları üçün yuxarı rəflər daha uyğundur. Oyuncaqların yerləşməsini gözdən keçirərək bəzi oyuncaqların digərləri ilə örtülməməsini təmin etmək lazımdır.

Oyuncaqları hazırlamaq və onları təmizləmək üçün sərf olunan vaxt da əhəmiyyətli rol oynayır. Didaktik və süjet-obrazlı oyuncaqları qutulara, xırda səbətlərə qoymaq daha əlverişlidir, çünki bu halda uşaqlar asanlıqla oyuncaqları masalara və ya oyun yerlərinə apara və oyun bitəndən sonra yığa bilirlər. Bununla yanaşı, bu üsul uşaqlarda oyuncaqlara qayğıkeş münasibət, hərəkətlərin mütəşəkkilliyi, qayda qanun hissi aşılayır.

Musiqi oyuncaqları onların səslənməsinin keyfiyyətini qorumaq üçün şüşəli dolablara yerləşdirmək daha yaxşıdır. Didaktik oyuncaqlar xüsusi şkafda saxlanılır.

Oyuncaqların yerləşməsi yalnız məqsədəuyğun deyil, həm də cəlbedici olmalıdır. Süjet-obrazlı oyuncaq-kuklalar, heyvanlar, ev heyvanları sanki özlərinə çağırırlar və sanki uşaqları gözləyirlər.

Oyuncaqların saxlanma qaydası müəyyən dərəcədə daimi olmalıdır, yəni dəyişikliyə yol verməlidir. Uşaqlar, xüsusilə də böyük məktəbəqədər yaşlı uşaqlar, zaman-zaman oyuncaqları necə yerləşdirməyin, onların yerləşdirilməsinin estetik olması, qrupun ümumi tərtibatını pozmaması üçün onlardan rahat istifadə etməyin müzakirəsinə cəlb olunurlar. Oyundan sonra səliqə-səhman yaradılmalıdır. Məktəbəqədər yaşlı uşaqlara oyuncaqları qaydasında qoymağı öyrətmək, erkən yaşlarından ağıllı qənaətcilliyi, mütəşəkkilliyi, səliqəliliyi və ətrafındakıların əməyinə hörməti tərbiyə etmək deməkdir.

Oyuncaqların seçilməsi qaydaları:

- ✓ Oyuncaq sizi və körpənizi sevindirməli, müsbət emosiyalara səbəb olmalıdır;
- ✓ Oyuncaq uşağı yormamalı və həddən artıq yükləməməlidir;
- ✓ Oyuncaq uşağın inkişafının fərdi xüsusiyyətlərinə və oyunda onun tələbatına cavab verməlidir;
- ✓ Oyuncaq maraq doğurmalı, oyun dinamikasına malik, onunla fəal hərəkətə həvəsləndirməlidir;
- ✓ Oyuncaq uşağın dünyagörüşünü genişləndirməli və uşağı idrak-tədqiqat fəaliyyətinə sövq etməlidir.

Oyuncaq uşağın zehni inkişafında vacib amildir. Oyuncaqlar estetik zövqü təmin etməli və inkişaf etdirməlidirlər. Buna görə də, uşağın kollektiv səylərə həvəsini artırmalı və təşviq etməlidirlər.

Şübhəsiz ki, bütün oyuncaqlar gigiyena tələblərinə cavab verməlidir.

Oyuncaqların keyfiyyətinin qiymətləndirilməsi.

Oyuncağı alarkən, biz onun uşağa nə öyrədəcəyi barədə fikirləşirik? Onda hansı hisslər yaranacaq? Qorxmurmu? Uşaq böyüdükcə oyuncaq haqqında onun hansı xatirələri qalacaq?

Unutmamalıyıq ki, oyuncaq uşağa nəyisə öyrətməlidir, onda yalnız sevinc və mehribançılıq hissləri oyatmalıdır.

Çox vaxt valideynlər uşağın oyuncaqlarla oynamadığını, ancaq atanın evdə bir şey düzəltməsindən sonra qalan ev əşyalarına və ya taxta küplərə üstünlük verdiklərini deyirlər. Uşaqların bir çox başqa oyuncaqları olsa da, tez-tez anasının tikdiyi bezli oyuncaqlar ilə oynayırlar. Niyə? Çünki ağacdan hazırlanan oyuncaq

"sərt" və "isti", parça və yundan hazırlanan ev, kukla isə "isti" və "yumşaq" olur. Uşağın barmaqları cansız plastiklərə və ya soyuq metala toxunmur, isti və təbii materiala toxunur.
Alimlərin fikrincə, oyun və oyuncaq hər hansı bir mədəniyyətin ən vacib tərkib hissəsidir. Mədəniyyət necədir, oyuncaqlar da belədir. Oyuncağın köməyi ilə uşağa insan münasibətlərinin mahiyyəti ötürülür. Oyuncaq, uşaq psixikasına və körpənin şəxsiyyətinin inkişafına ciddi təsir edir. Həqiqətən, o, canlı və gerçəkdir. Bir oyuncaq ilə oynayan uşaq ən çox özünü oyuncaqla eyniləşdirir. Uşaqlar vaxtının çox hissəsini oyuna sərf edirlər.
Oyuncaq cəmiyyətdə qəbul edilmiş normalara və mənəvi-əxlaqi dəyərlərə kömək edərsə, maksimum fayda gətirir.
Oyuncaq zərərlidir, əgər o:
✓ Uşağı aqressiyaya və qəddarlığa təhrik edirsə;
✓ Qorxu və ya narahatlıq doğurursa;
✓ Uşağın tam inkişafına ziyan vuran psixoloji asılılığa səbəb olursa;
✓ Ətraf gerçəkliyin qavranılmasını təhrif edirsə.
Oyuncaq faydalıdır, əgər o:
✓ Təhlükəsizdirsə;
✓ Cəlbedicidirsə;
✓ Estetikdirsə;
✓ Uşağın yaş imkanlarına uyğundursa;
✓ Çoxfunksiyalıdırsa (uşağın bacarıqlarının inkişafı üçün imkan verir: fiziki, mənəvi, əxlaqi və s.);
✓ Ekoloji təmiz materiallardan hazırlanıbsa;
Qablaşdırılmışdırsa. Oyuncağın tərtibatına müəyyən tələblər qoyulur:
✓ Oyuncaq uşaqda emosional münasibət yaratmaq, bədii zövqü tərbiyə etmək üçün cəlbedici, rəngarəng tərtibatda olmalıdır;
✓ Bədii ifadə dizaynın, formanın, rəngin ahəngdar birləşməsi ilə təmin olunmalıdır;
✓ Oyuncağın hazırlandığı material düzgün seçilməlidir (yumşaq, tüklü materialların müsbət emosiyalara səbəb olduğunu, uşaqları oyuna təşviq etdiyini təsbit etdilər; kobud və soyuq səthli oyuncaqlar, bir qayda olaraq, sevilmir);
✓ Oyuncaqlar uşağın həyatı və sağlamlığı üçün təhlükəsiz olmalıdır və bir sıra gigiyenik tələblərə cavab verməlidir.
Tərbiyəçi oyuncaqların vəziyyətinə tez-tez nəzarət etməli, onların vaxtında təmirinə, qüsuru olan oyuncaqların isə kənarlaşıdırılmasına diqqət yetirməlidir.
Məktəbəqədər müəssisədə oyuncaqlar müvafiq şəkildə yerləşdirilməlidir ki, bu da müəyyən avadanlıqlardan istifadə olunmasını tələb edir: rəflərdən, qutulardan, topların saxlanması üçün torlardan.
Müasir tələblərə tam cavab verən oyuncağın yaradılması müxtəlif profilli mütəxəssisləri: müəllimləri, psixoloqları, həkimləri, rəssamları, heykəltəraşları, dizaynerləri, texnoloqları, mühəndisləri bir araya gətirməklə mümkündür.
Sosioloqlar fikrincə, bir çox ölkələrdə eyni qeyri-sağlam tendensiya yaranmaqdadır: uşaqlara bahalı oyuncaqlar almaqla böyüklər öz yüksək sosial statusunu, öz rifahını vurğulamağa çalışır. Psixoloqlar sosioloqların bu narahatlığını bölüşərək hadisələrin bu cür inkişafının böyüməkdə olan nəslin mənəvi dəyərlərinin azalmasına səbəb ola biləcəyindən ehtiyat edirlər.
Alimlər belə qənaətə gəliblər ki, uşaqda çox sayda oyuncaq olsa da, o, onlardan yalnız 2-3-nü seçir, onlarla oynayır və həmin oyuncaqlar digər oyuncaqları da əvəz edir. Bu səbəbdən, uşağın az sayda oyuncağının olması daha yaxşıdır, çünki bu halda uşaq onlara diqqət və məhəbbətlə yanaşacaq.

TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod və materiallar göstərilir. Aparılmış elmi təcrübələr nəticəsində əldə edilən cədvəllər, blok-sxemlər, qrafiklər göstərilir. Bu fəsildə tədqiqat işinin səmərəliliyi açıqlanmır, ancaq aparılmış təcrübə və nəticəsi açıqlanır.

NƏTICƏ

Ətraf aləmlə tanişliq məşğələlərində oyuncaqlarin, material və avadanliqlarin uşaqlarin yaş xüsusiyyətlərinə uyğun seçilməsi müəyyənləşdirilmişdir. Oyuncağin növləri (obrazli oyuncaqlar, didaktik oyuncaqlar) və ətraf aləmlə tanişliqda onlardan istifadə yollari göstərilmişdir. Didaktik oyuncaqlardan uşaqlarin ətraf aləmlə tanişliğinda istifadə imkanlari müəyyən olunmuşdur.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. Bakı şəhəri, 12 aprel 2007-ci il.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş). Bakı: 2012.
3. Əliyeva Ş.Q. Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı, ADPU, 2010
4. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
5. Mursaqulova R., Əliyeva Ş. Məktəbəqədər yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. Bakı, 2008

İBTİDAİ TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ SİSTEMİ VƏ ONA YENİ YANAŞMALAR

Nigar Nəsir qızı Niftəliyeva
ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının doktorantı
ORCID: 0000-0003-2810-9502
nasir2010@mail.ru
Bakı. Azərbaycan

Xülasə:
İstənilən prosesin idarə edilməsi onun effektivliyinə və tətbiqinə nəzarətin həyata keçirilməsini ehtiva edir. İbtidai təhsil sistemində də nəzarət birbaşa təhsil sisteminin bütövlüyü ilə bağlıdır. Ancaq onun tərkib hissəsi olaraq, özünəməxsus təyinatlara mənsubdur.
Məqalədə bu təyinatlar aşağıdakı kimi təsnif edilir: 1) təhsilin keyfiyyətinin qiymətləndirilməsi; 2) təhsil nəticəsi; 3) təhsil müəssisəsi fəaliyyətinin ictimaiyyətə açıqlığı; 4) təhsilin anlaşıqlığı; 5) təhsilin effektivliyi;
Gələcək ibtidai sinif müəllimlərinin bu təyinatlara yaxından bələd olması onların işini asanlaşdırır və təlim prosesinin daha səmərəli etmiş olur.
Açar sözlər: ibtidai sinif müəllimi, pedaqoji monitorinq, diaqnostika, təlim nəticəsi, xarici qiymətləndirmə, daxili qiymətləndirmə
Ключевые слова: учитель начальных классов, педагогический мониторинг, диагностика, результаты обучения, внешнее оценивание, внутреннее оценивание
Keywords: primary school teacher, pedagogical monitoring, diagnostics, learning results, external assessment, internal assessment

Giriş. Təhsil sisteminin bünövrəsində orta təhsil müəssisələrində icra olunan təlim prosesi dayanır. Təlim prosesin təməli isə ibtidai təlim prosesindən başlanır. İbtidai təhsil prosesinin əsas iştirakçıları ibtidai sinif müəllimi və ibtidai sinif şagirdləridir. Ona görə də ibtidai sinif müəllimləri digər pedaqoji funksiyalarla yanaşı ibtidai təlim prosesinin qiymətləndirilməsini də dərindən mənimsəmələri vacibdir.
İstənilən prosesin idarə edilməsi onun effektivliyinə və tətbiqinə nəzarətin həyata keçirilməsini ehtiva edir. İbtidai təhsil sistemində də nəzarət birbaşa təhsil sisteminin bütövlüyü ilə bağlıdır. Ancaq onun tərkib hissəsi olaraq, özünəməxsus təyinatlara mənsubdur.
Tədqiqat metodu.Müasir pedaqogika buna çox ölçülü struktur və müxtəlif formalar kimi baxır. Burada ibtidai təhsilin keyfiyyətinə müxtəlif qiymətləndirmə sistemləri tələb edən çətin anlayış kimi yanaşılır. Məktəb təhsilinin keyfiyyətinin qiymətləndirilməsi kompleks həyata keçirilir. Təhsil keyfiyyəti strukturuna əldə olunan nəticələrin kəmiyyət və keyfiyyət səviyyəsi, təlim-tərbiyə prosesinin şəraitinin və həyata keçirilməsinin təşkili səviyyəsi daxildir.
Təhsilin keyfiyyətinin qiymətləndirilməsi – öyrənənlərin təhsil nailiyyətlərinin uyğunluq dərəcəsinin təyinidir. Bu, təhsil proqramının keyfiyyətini izləyən bir prosesdir. Eyni zamanda təhsil prosesinin xüsusiyyətlərini və onun təhsil müəssisələrində təminat mənbələrini də özündə ehtiva edir. Təhsil keyfiyyətinin

qiymətləndirilməsi dövlət təhsil qanununa əsaslanır. Həmçinin, təhsil standartları və digər tələblərlə, normativlərlə təhsilin keyfiyyətlərinin uyğunluğunu nəticələr əsasında müəyyənləşdirir.

Təhsil nəticəsi – təhsil müəssisəsinin pedaqoji fəaliyyətini müəyyən edir. Bu, həmin müəssisənin keyfiyyət sahəsində strateji planlaşdırma mərhələsindəki siyasəti ilə təyin olunur. Təhsil nəticəsi təhsil qanununun məqsədlərinin həyata keçirilmə dərəcəsini əks etdirən məhsuldur.

Qiymətləndirmə prosesinin icrası üçün ibtidai təhsil sisteminin əsas xüsusiyyətlərini bilmək vacibdir. İbtidai təhsil sisteminin əsas xüsusiyyətləri onun açıqlığı, anlaşıqlığı və effektivliyidir.

Təhsil müəssisəsi fəaliyyətinin ictimaiyyətə açıqlığı aşağıdakı göstəricilərlə qiymətləndirilir:

- Təhsil müəssisələrinin valideynlər və məzunlar ilə professional qarşılıqlı əlaqəsinin effektivliyi;
- Təhsil müəssisələrinin munisipial və regional səviyyədə reytinqi;
- Publik məruzələrin keyfiyyəti və onların geniş ictimaiyyət üçün anlaşıqlı olması [3, s.201]

Təhsilin anlaşıqlığı aşağıdakı göstəricilərlə qiymətləndirilir:

- Öyrənənlərin məktəbə qəbulu;
- Öyrənənlərin seçilməsi (sayı, kəmiyyəti, psixologiyası, dinamikası, qanuniliyi);
- Təhsil xidmətlərinin genişləndirilməsi, şagirdlərin dərsdənkənar (asudə) vaxtlarının təşkili [3, s.201]

Təhsilin effektivliyi aşağıdakı göstəricilərlə qiymətləndirilir:

- Şagirdlərin hazırlığının keyfiyyəti (stabillik, inamlılıq və əldə olunan təhsil nəticələrinin səviyyəsi);
- Pedaqoji korpusun peşəkarlığı;
- Təhsil müəssisələrinin konkurentə davamlılığı [3, s.201]

Daha bir keyfiyyətli təhsil göstəricisi məktəbin innovativ inkişafıdır. Pedaqoji kollektiv, həmçinin, ibtidai sinif müəllimləri təhsil sahəsində mövcud olan bütün yeniliklərdən, innovativ təcrübələrdən xəbərdar olmalı və bunu öz pedaqoji fəaliyyətində tətbiq etməlidirlər. Eyni zamanda, hər bir müəllim özü də həmişə yeniliklər axtarışında olmalıdır. Bu göstərici təhsilin yeni keyfiyyətinin nailiyyətlərinin uyğunluğunda pedaqoji korpusun təcrübi – eksperimental işlərə və lokal, modul dəyişikliklərin yaradılmasına cəlb edilməsi parametrləri ilə qiymətləndirilir.

Qiymətləndirmənin ənənəvi sistemi eyni məzmunlu və kriteriyalı əsaslarla necə daxili eləcə də xarici qiymətləndirməni özündə birləşdirir:

- Xarici qiymətləndirmə məktəblə münasibətdə xarici xidmətlərin (idarəçilik xidmətləri, eksperimentlər, ictimai təşkilatlar) standartlarının tələblərini reallaşdırır və yerinə yetirir;
- Daxili qiymətləndirmə - bu məktəbin özünün, müəllimin, şagirdin, psixoloqun, müdiriyyətin qiymətləndirilməsidir.

İbtidai təhsilin qiymətləndirilməsinin əsas aləti rolunda pedaqoji monitorinq çıxış edir. Pedaqoji monitorinq qiymətləndirmə prosesinin vacib elemetidir və onun daha dolğun, dəqiq və planlı icarsına zəmin yaradır. Bu baxımdan pedaqoji monitorinqin dərindən araşdırılması vacibdir. Məhz buna görə də məqalədə pedaqoji monitorinq prosesinə xüsusi diqqət yetirmişəm.

Mələk Zamanovanın [7, s.77] fikrincə, "təlim prosesinə nəzarət müstəqil mərhələ kimi təhsilləndirici, inkişafetdirici və tərbiyəvi funksiyaları yerinə yetirir. Təhsildə keyfiyyətin idarə edilməsi müəyyən informasiya sistemini tələb edir. Bunu isə yalnız monitorinq əsasında yaratmaq olar.

M.İ.Mayorova [3, s.201] görə isə pedaqoji monitorinq – məzmununun fasiləsiz yenilənməsini, müasir korreksiyanı, inkişafının proqnozlaşdırılmasını təmin edir. O, bu cür pedaqoji sistemin funksiyalaşdırılmasında informasiyalarının yığılması, emalı və qorunması sistemidir.

Monitorinq prosesinin icrası üçün öncə onun tərkib hissələrini bilmək lazımdır. Pedaqoji monitorinqin tərkib hissələrinə monitorinq obyekti və subyekti aiddir.

Monitorinqin obyekti – sinif, müəllim, şagirdlər və həmçinin, təhsil prosesinin ayrı-ayrı istiqamət və komponentləri ola bilər.

Monitorinqin subyekti – təhsil prosesinin bütün iştirakçıları : şagirdlər, müəllimlər, valideynlər, məktəb müdiriyyəti, ictimaiyyət ola bilər.

Düşünürəm ki, ibtidai təlim prosesinin uğurlu təminatı üçün pedaqoji monitorinqin tərkib hissələri, yəni onun obyekti və subyekti arasında qarşılıqlı əlaqə yaratmaq lazımdır. Eyni zamanda da monitorinq prosesi zamanı icra olunan tapşırıqları da araşdırmaq lazımdır

Pedaqoji monitorinqin tapşırıqları aşağıdakılardan ibarətdir:

- Təhsil müəssisələrində keyfiyyətin yüksəldilməsi üçün risk faktorlarını müəyyənləşdirmək və vaxtında lazımi dəyişiklikləri etmək. Monitorinq bu proseslər üçün ibtidai təhsilin diaqnostikası və nəzarətin funksiyalaşdırılmasının vahid sistemidir.

❖ Şagirdlərin təhsil nailiyyətlərinin qiymətləndirilməsi və nəzarətinin yüksəlməsi üçün bir vasitədir .
❖ Təhsil prosesinin nəticəliliyinin tədris proqramının effektivliyinin, onların standartların norma və tələblərinə uyğunluğunun, təhsil müəssisələrində innovasiyaların reallaşdırılmasının obyektiv təyinidir.
❖ İbtidai monitorinq təhsil sisteminin inkişafının proqnozlaşdırılmasında bir vasitədir. Eyni zamanda o, ümumiləşdirilmiş idarəçilik məsələlərinin qəbul edilməsinə kömək edir;
❖ Təhsil prosesinin metodik təminatının reallaşmasının tamlığını və effektivliyinin qiymətləndirilməsi

Eyni zamanda prosesin şəffaf təminatı pedaqoji monitorinqin tapşırıqlarını icra etməzdən əvvəl məktəbdaxili monitorinqin istiqamətlərini bilmək lazımdır.

Məktəbdaxili monitorinq isə özündə bir neçə məzmunlu istiqaməti birləşdirən sistemdir:

❖ Didaktik monitorinq – təhsil prosesinin məzmun, forma və metodlarının fasiləsiz, elmi əsaslandırılmış izlənməsidir;
❖ Tərbiyəvi monitorinq – tərbiyəvi prosesin vəziyyətinin fasiləsiz elmi əsaslandırılmış izlənməsidir;



❖ Sosial – pedaqoji monitorinq – şagirdlərin sosial sağlamlığının vəziyyətinin, sosial profilaktikanın effektiv tədbirlərinin fasiləsiz elmi əsaslandırılmış izlənməsidir;
❖ Psixoloji – pedaqoji monitorinq – şagirdlərin psixoloji sağlamlığının vəziyyətinin, onların individual bacarıqlarının inkişafının fasiləsiz elmi əsaslandırılmış izlənməsidir.

Şəkil 1.1. Məktəb təhsil müəssisəsinin fəaliyyətinin forma və metodlarının ekspert-analiz sxemi (M.M.Bezrukiyə görə) [3, s.201]

❖ Tibbi monitorinq – şagirdlərin sağlamlığının dinamikasının fasiləsiz, elmi əsaslandırılmış izlənməsidir.

İbtidai təlim prosesinin icrası zamanı monitorinqin uğurlu təşkil olunması üçün yalnız sadalanan biliklər kifayət etmir. Bunun üçün onun növlərini dərindən bilmək və dəqiq tətbiq etmək lazımdır.
Monitorinq aşağıdakı növlərə ayrılır:

- ❖ *Daimi (fasiləsiz) monitorinq* diaqnostika materiallarının yığımı və emalı texnologiyasının təyini. Tapşırığı qoyulandan sonra fasiləsiz həyata keçirilir;
- ❖ *Periodik monitorinq* müvafiq verilənlərə tələbat yaranan hallarda həyata keçirilir
- ❖ *Təqvim monitorinqi* hesabat təqvim müddəti çatdıqda bərpa olunur;
- ❖ *Mərhələ monitorinqi* təqvim məsələlərinin həlli üçün həyata keçirilir.

Tədqiqatın nəticəsi.Tədqiqat zamanı müəyyənləşdirdim ki, monitorinqin strukturu zamanı təhsil keyfiyyəti üç aparıcı kriteriyalara ayrılır: şərti kriteriyalar; proses kriteriyaları; nəticə kriteriyaları. Onlar təhsilin keyfiyyətinin qiymətləndirilməsi sistemində birləşirlər. Bunları bilmək ibtidai təlim prosesinin şəffaf idarə edilməsinə zəmin yaradır. İbtidai təlim prosesinin təşkilatçılarının bunu daha dərindən bilməsi və tədqiq etməsi gərəkdir. Bu isə özlüyündə məqalənin aktuallığını, elmi yeniliyini və praktik əhəmiyyətini ortaya qoymuş olur.
Cədvəl 1.2. İbtidai təhsilin qiymətləndirmə kriteriyaları

Təhsilin şəraitinin qiymətləndirmə kriteriyaları	**Təhsil prosesinin qiymətləndirmə kriteriyaları**	**Təhsilin nəticəsinin qiymətləndirmə kriteriyaları**
❖ Kadrlar	❖ Təhsil prosesinin layihələndirilməsinin və məqsədyönlüyünün keyfiyyətinin göstəriciləri	❖ İbtidai təhsil sisteminin çıxışında təhsil keyfiyyətinin göstəriciləri (standartların tələblərinin reallaşdırılması)
❖ Maddi-texniki baza	❖ Təhsil prosesinin bütün aralıq mərəhələlərdə (etaplarda) onun reallaşmasının müvəqqəti və məzmunlu uyğunluğu	❖ İbtidai təhsil sisteminin daxilində təhsil keyfiyyətinin göstəriciləri (şagirdlərin aralıq nəticələri)
❖ Tədris-metodiki təminat, Təhsil prosesinin təhlükəsizliyi	❖ Keyfiyyətə xələl gətirən halların olmaması və onun həyata keçirilməsi	❖ Subyektiv xarakterli təhsilin keyfiyyət göstəriciləri (pedaqoji monitorinqin dəlillərinin valideyn rəylərinin uçotu
❖ Təhsil fəaliyyətinin təşkili, təhsilin alınmış, məzmunu	❖ Təhsilin məzmunun vaxtlı-vaxtında yenilənməsi məhsuldar təhsil texnologiyaları və metodlarının istifadəsi və s.	
❖ Təhsil prosesinin iştirakçılarının psixoloji-pedaqoji və tibbi-sosial müşayiəti	❖ Təhsil prosesinin mexanizmlərinin keyfiyyəti	
İbtidai təhsilin keyfiyyəti		

Məqalənin aktuallığı. İbtidai təhsilin qiymətləndirilməsinin vacib kateqoriyalarından birini pedaqoji diaqnostika təşkil edir. Bu məsələ hələ tam olaraq araşdırılmadığından onun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.
Məqalənin elmi yeniliyi. Məqalədə ibtidai təhsilin qiymətləndirilməsi sisteminin zəruriliyini dərindən araşdırılmasını və onun elmi əhəmiyyətini aşkara çıxarmış olur.
Məqalənin praktik əhəmiyyəti. İbtidai təhsil sisteminin qiymətləndirilməsini bütövlükdə təhsil sistemi kimi müxtəlif mövqelərdə həyata keçirilməsini müəyyənləşdirmiş olur.
Ədəbiyyat:

1.О. Ю. Дедова. Диагностическая культура учителя начальныхкласс ов и ее развитие // Человек и образование 2017. № 3 (52), с.122-126
2..Деменева Н. Н. Психодидактика начального образования как инновационное направление профессиональной подготовки учителей начальных классов //Нижегородское образование. – 2014. – № 2. – с. 59-64.

3. Котова Светлана Аркадьевна. Педагогика начального образования. Учебник для вузов. Стандарт третьего поколения. 2019 с. 201-336.
4.Paşayev Ə, Rüstəmov F.Pedaqogika.Bakı, Elm və təhsil,2012, 464 s.
5.Bakalavriat səviyyəsinin (Əsas baza) ali tibb təhsilinin) səviyyəsinin 050107 – İbtidai sinif müəllimliyi ixtisası üzrə Təhsil proqramı. Azərbaycan Respublikasının Təhsil Nazirlyi tərəfindən fevral 2020-ci ildə təsdiq edilmişdir. Bakı:2020, 28 s.
6.Əlizadə Ə.Ə.,Sultanova İ.H.Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu.Bakı:ADPU, 2008, 172 s.
7. Zamanova Mələk. Təhsildə qiymətləndirmə, monitorinq və dəyərləndirmə (mühazirə mətnləri). Bakı-2019, ADPU, 111 s.

Система оценки начального образования и новые подходы к ней Н.Н. Нифталиева
Управление любым процессом предполагает контроль за его эффективностью и реализацией. Контроль над системой начального образования также напрямую связан с целостностью системы образования. Но как неотъемлемая ее часть, она принадлежит определенной цели.
В статье эти назначения классифицируются следующим образом: 1) оценка качества образования; 2) образовательный результат; 3) открытость учебного заведения для общественности; 4) понятность образования; 5) эффективность образования;
Знакомство будущих учителей начальных классов с этими назначениями облегчит их работу и сделает учебный процесс более эффективным.
Primary education assessment system and new approaches to it N.N. Niftalieva
Management of any process involves monitoring its effectiveness and implementation. Control over the primary education system is also directly related to the integrity of the education system. But as an integral part of it, it belongs to a specific purpose.
The article classifies these appointments as follows: 1) assessment of the quality of education; 2) educational outcome; 3) openness of the educational institution to the public; 4) comprehensibility of education; 5) effectiveness of education;

NİTQ BACARIQLARININ FORMALAŞMASINDA SOSIAL AMİLİN ROLU

QƏNIYEVA ŞƏFİQƏ
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
shefiqe.0210@mail/ru
BAKI, AZƏRBAYCAN

ŞİRİNOVA AYNUR
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
aynurshirinova56@gmail.com
BAKI, AZƏRBAYCAN

ŞIXIYEVA SEVİNC
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
sevincshixiyeva5@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ
Tezisdə nitq bacarıqlarının inkişafında social amylin rolundan bəhs olunmuşdur. Nitq ən ali psixi prosesdir. Həyat üçün vacib olan bu prosesin inkişafı qanunauyğunluqları haqqında müxtəlif eksprimentlər aparılır. Dünya psixo-pedaqoqlarının bu mövzuda yanaşmaları müxtəlif olsa da tədqiqədəyər və aktual məsələ olduğu ilə bağlı həmfikirdirlər. Bu məqalə nitqin inkişafının təməlinin ana bətnindən qoyulduğu yönündəki tədqiqatlara əsaslanır. Tədqiqatlar göstərir ki, uşağın 0-11 aylıq dövrünü əhatə edən "nitqə hazırlıq mərhələsi" narazılığını ağlayaraq bildirməklə başlayır və "ver", "al", "tut"komandalarını yerinə yetirməklə yekunlaşır. Daha sonra onlar tək hecalı sözlər, kiçik cümlələr qurmaqla sözlü ünsiyyətə keçid edir. Bu zaman onlara kiçik dünyaları- ailələri təsir göstərir. Emosional ünsiyyət quran uşaqların ilk 3 ili onların idrakı və psixomotor inkişafı üçün çox önəmlidir. Bağça nitqin inkişafını sürətləndirən amildir, bu dövrdə uşaqların söz bazası sürətlə çoxalır və məktəbə qəbul olan uşağın artıq ana dilində rahat danışa biləcək qədər lüğət ehtiyyatı olur.

Sosial mühiti geniş olan, dostları olan, müəyyən tədbirlərdə iştitak edən uşağın bazası digərlərindən müsbət mənada fərqlənir. Lakin, bu da nitqin tam formalaşması demək deyil. Məktəb dövrü bu prosesi müəyyən mənada tamamlamağa yardımçı olur. Məktəbdə bunun təmin olunması olduqca önəmlidir və təkcə düzgün danışıq qabiliyyəti deyil, həm də insanın həyatda düzgün mövqe tutması üçün olduqca önəmlidir. Tezisdə ana bətnində, 0-3 yaş aralığında, məktəbəqədər və bağça təhsili mərhələsində və son olaraq məktəbli uşaqların nitq bacarıqlarının formalaşmasında sosial amillərin rolundan bəhs olunur. Bu amillər hər insanın ümumi inkişafına ən az fiziki amillər qədər təsir edir və sağlam mühit istənilən bacarığın inkişafına təkan verir.

Açar sözlər: imperativ, diaqnoz, damaq yırtığı,nitq inkişafı, nitq aparatı

GIRIŞ

Nitq komunikativ dilin şifahi hissəsində imperativ bacarıqdır və onu uğurla icra etmək hər insan, hər toplum üçün olduqca əhəmiyyətlidir. Hərtərəfli nitqə sahib olmaq elə bir bacarıqdır ki, heç kim toplumdan ayrışaraq əldə edə bilməz. İnsan nitqinə fiziki pozuntu, beyin motor sinir pozuntusu, eşitmə pozuntusu və eşitmə infeksiyaları kimi problemlər daxildir. Bu problemlərdən bəziləri anadan gəlmədir və bir çoxunu vaxtında diaqnoz qoyaraq aradan qaldırmaq lazımdır. Çünki, damaq yarığı olan körpənin nitqi formalaşa bilməz, yaxşı eşidə bilməyən uşaq yaxşı təqlid edə bilməz və nəticədə yaxşı danışa bilməz. Lakin əksər məsələlər mühitlə əlaqəlidir və sonradan qazanılır və ya itirilir.

Bildiyimiz kimi sosial və mədəni amillər öyrənmə mühitində mühitində böyük rol oynayır. Uzun müddətdir sosial amillərin uşaqlara hansı yaş aralığında daha çox təsir etdiyi müzakirə olunur və bu barədə mübahisəli fikirlər var. Bəzi tədqiqatçılar sosial amillərin körpəyə hətta ana bətnindən təsir etdiyini iddia edir ki, tibbdəki son araşdırmalar nəticəsində bunun yalnış olduğunu deyə bilmərik.

Nitq aparatı və eşitmə mərkəzi baş beyində yerləşir və körpə ana bətnində olarkən bu şöbələr artıq formalaşmış olur. Hamiləliyin 18-ci həftəsində körpənin qulaqları beyninə eşitdiyi səslər haqqında siqnallar göndərməyə başlayır. 23-cü həftədə onlar analarının boğuq səslərini eşidə bilirlər və 24-cü həftədə bu səsə cavab verir. Körpə ilk olaraq ananın ürək döyüntüləri, qan dövranı kimi səsləri, daha sonra ananın öz səsini, ən son isə ananın eşitdiyi səsləri eşidə bilir və özü də müəyyən səslər çıxarır. Bu səslər onun nitqinin inkişafının ilk addımlarıdır. Ona görə də ana bətnindəki körpənin nə eşitdiyi çox önəmlidir. Musiqi səsi ilə rahatlayan körpə ananın ətrafındakı xoşagəlməz və çox qəzəbli səsləri də eşitdiyi üçün onda ananınkı xarici istənilən insanın nitqinə psixoloji sədd çəkilir. Bu isə körpədə doğuşdan sonra ümumi nitq inkişafı gecikməsinə səbəb olur.

Ümumi inkişaf gecikməsinə doğuşdan sonrakı amillərin də təsiri böyükdür. Məhz buna görə də amerikan pediatrlar özəlliklə ilk 24 ay körpəni ekranlardan, münaqişənin, həddən artıq yüksək səsin olduğu yerlərdən uzaq tutmağı tövsiyə edir. Bəzən valideynlər uşaqların yanındakı ifadələrinə yalnız o müəyyən yaşa çatdıqdan, eşitdiyinə aydın reaksiya verdikdən sonra diqqət edirlər. Lakin uşaq üçün ən intensiv inkişaf dövrü onun həyatının ilk üç ilidir ki, bu da beynin inkişafda və kamilləşməkdə olduğu bir dövrdür. Bu dövrdə qazandığı bacarıqlar uşaqda ünsiyyətin yaranmasına kömək edir. Ona görə də həmin dövrdə uşaq hər zaman sağlam mühitdə olmalıdır. Uşağın 0-11 aylıq dövrünün əhatə edən mərhələ "Nitqə hazırlıq mərhələsi" adlanır. 0-3 aylıq körpə narahatçılığı olanda, bir yeri ağrıyanda ağlamaqla biruzə verir. Onunla danışanda gülüşlə cavab verir, müxtəlif səslər çıxarır.

Hər zaman deyilir ki, uşağı elə çağa vaxtdından dindirmək lazımdır. O cavab verə bilmir, lakin müəyyən reaksiya verir və bu onun nitqinin inkişafı üçün olduqca əhəmiyyətlidir. 4 aylıq körpə gəldiyi yerə baxaraq, onunla söhbət edən zaman qığıldayır. 5-6 aylığında səs gələn tərəfə çevrilir,bəzən uzun-uzadı sait səsləri çıxarır. Beləliklə, nitq və anlama prosesi qarşılıqlı inkişaf etməyə başlayır. 7-9 aylığında artıq çoxsaylı təkrar hecalar deyir, səslərə diqqətlə qulaq asır və ona öyrədilmiş hərəkətləri icra edir və 10-11 aylığında valideynlərin göstərişi ilə oyuncaqlarla oynayır və ona öyrədilən hərəkətləri yerinə yetirir. "Ver", "al", "tut" kimi göstərişləri yerinə yetirir, yavaş-yavaş təkrar hecalardan sadə sözlərə keçir. Bu dövrdə uşaqda anlama prosesi daha yüksək inkişaf mərhələsində olduğu üçün onlarla doğru ünsiyyət qurmaq lazımdır. Uşaq 1 yaşına çatanda isə ünsiyyət qurma, təqlid etmə, ümumiləşdirmə bacarıqları sürətlə inkişaf edir. Sağlam uşaq beyni bu zaman çox açıq olur, ətrafdan gələn səslərin qaynağını axtarır, nitq aparatı belə demək olarsa özünə yeni sözlər axtarır. 1 yaşlı sağlam uşaq təqribi olaraq 10-12 söz istifadə edir.

1 yaş 6 aylığında isə 30-40 sözlük bazası yaranmış olur. 2-3 yaş uşaqlarda lüğət tərkibinin kəskin artması dövrüdür. Uşaq əşyaları tanıyır, onlar haqqında qısaca 2-3 sözdən ibarət sözlər işlədir. Səsləri daha aydın tələffüz etməyə başlayır. Sadə dialoqlara keçir. Öz cinsini tanıyır və söyləyir. Həyatının ilk 3 ili uşağın psixomotor və idraki inkişafı üçün çox önəmlidir. Uşaqlar ilk olaraq emosianal ünsiyyət qururlar. Onlar üçün doğulduqları ev kiçik dünyalarıdır. Bu kiçik dünyalarında ilk eşitdikləri, onlara təbliğ olunan sözlər,

ailə üzvlərinin nitqləri uşaqların psixolinqvistikasına əsaslı təsir edir. Buna görə də valideynlər uşaqlar üçün elə körpəliklərindən düzgün yaşam və oyun mühiti yaratmaq lazımdır. Uşağı ona zərərli şeylər aşılayacaq, yanlış sözlər öyrədən insanlardan uzaq tutmaq lazımdır. Bəzən azyaşlılar elə sözlər işlədir ki, valideynlər onların bunu hardan öyrəndiyini bilmədiklərini deyirlər. Çünki, valideynlər bəzən uşaqların yamsılamağa meyilli olduğunu, özlərindən yaşlılar danışarkən onların nitqinə, hətta hərəkətlərinə fikir verdiklərini, bununla da çox əvvəl deyilən sözü emosianal hafizələrində saxladıqlarını unudurlar.

Bağça uşaqların nitqinin inkişafında yeni mərhələ açır. Uşaq bağçası proqramının əsasını nitqin inşişafı, səs mədəniyyətinin tərbiyəsi, lüğət ehtiyatının zənginləşdirilməsi, genişləndirilməsi, və fəallaşdırılması nəzərdə tutulur. Uşaq bağçasında uşaqlar ilk növbədə şifahi nitqə yiyələnirlər.Onlarda tədricən nitqi başa düşmək və fəal nitq inkişaf edir. Bağçaya gedən uşağın sosial mühiti dəyişir. Burda doğru bağça və tərbiyəçi seçimi çox önəmlidir. Bu dövrdə uşaq yeni dostlar, yeni çevrə, ən önəmlisi yeni ünsiyət yoldaşları qazanır. Uşağı sadəcə ailə və bir neçə qohumun əhatəsində böyütmək olmaz. Onlar da öz yaşlarına uyğun sosiallaşmalı, müəyyən fəaliyyətə cəlb olunmalıdırlar. Sosiallaşma nitqin inkişafına olduqca müsbət təsir göstərir. Məktəbəqədər dövrdə nitq inkişafı üzrə iş bir neçə istiqamətdə aparılır .Uşaq
yaşlılar və yaşıdları ilə ünsiyyətdə nitqini təkmilləşdirir, nitq onun üçün psixi
proseslərin yenidən qurulmasının əsası, təfəkkürün inkişaf etdirilməsinin ən önəmli faktoru rolunu oynayır.

Uşaq məktəbə qədəm qoyduqda onun həyatında, həm nitqində, həm də ümumi inkişafında yeni səhifə açılır. Əslində məktəbdə ən çox inkişaf etdirilən bacarıq danışmadır, lakin nəinki ibtidai sinifdə, hətta orta məktəb yaş dövründə belə bəzi şagirdlər fikirlərini düzgün ifadə edə, toplum önündə səlis və təsirli çıxış edə bilmirlər. Bu da müəyyən nitq qüsirları xarici mühitin mənfi təsiri ilə inkişaf edə bilməyən və ya geri qalan bacarıqdır. Şagirdlər açıq fikirli və sağlam düşüncəli müəllim və çevrə ilə əhatə olunduqda bu problem zamanla aradan qalxır.

TƏDQIQAT METODU

Tədqiqat işinin araşdırlmasında təsviri və tutuşdurma metodlarından, eyni zamanda müşahidə və eksperimentdən də istifadə olunmuşdur.

NƏTICƏ

Müəyyən yaş dövründən sonra hər şəxsiyyət öz fikirlərinə və onları ifadə etdiyi şəklə özü nəzarət edir. Lakin, bu yaş dövrü artıq insan nitqinin inkişafının son mərhələsinə uyğun gəlir. Bundan öncəkilər isə fiziki amillərlə yanaşı sosial amillərlə də bağlıdır və insanın doğulub böyüdüyü, təhsil aldığı mühit ümumi nitq inkişafında önəmli rol oynayır.

ƏDƏBIYYAT SIYAHISI

1. https://www.bbc.co.uk/tiny-happy-people/brilliant-brains-bump-connections/z826qfr
2. Brown, G. Microteaching a programme of teaching skills. London: Metheun.
3. American Educational Resarch Association Annual Meeting (New York, February 1967). ERİC Document.
4. Bayramov Ə, Ə. Əlizadə Sosial psixologiyanın aktual məsələləri. Nəzəriyyə. Metodika . Axtarışlar. Bakı 1998.
5. M.İsmixanov,S.Vəliyeva Sosial Pedaqogika. Bakı 2014

ÜMUMTƏHSİL MƏKTƏBİNİN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ

İsmayılova Nərgiz Nəvazi
Azərbaycan Dövət Pedaqoji Universiteti
doktorant
inr2112@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

İnformasiya məkanının qloballaşması müasir cəmiyyətin sosial, elmi və mədəni mühitinin dinamik inkişafı üçün imkanlar yaratmaqla yanaşı, şəxsiyyətin inkişafı və formalaşması üçün yeni problemlər yaradır. Məqalədə informasiya təhlükəsiziyi, onun məqsədi və mahiyyəti şərh olunmuşdur. Hazırda informasiyalaşdırmanın geniş vüsət aldığı bir dövrdə və informasiya axınının olduğu bir dövrdə bu məsələyə xüsusi diqqət yetirilməlidir. Həmçinin, məqalədə ümumtəhsil müəssisəsinin informasiya təhlükəsizliyini təmin etmək üçün idarəetmə vəzifələri nəzərdən keçirilir. Ümumtəhsil məktəbinin informasiya təhlükəsizliyinin əsas istiqamətləri qeyd olunmuş və ümumtəhsil məktəbinin idarə olunmasında diqqət yetirilməsi lazım olan cəhətlər müəyyən edilmişdir. Məqalədə, eləcə də məktəblərdə informasiya təhlükəsizliyinin səviyyəsini yüksəltmək üçün vahid informasiya təhlükəsizliyi siyasətini formalaşdırmağın əhəmiyyəti qeyd olunmuşdur.

AÇAR SÖZLƏR: informasiya cəmiyyəti, informasiya mühiti, informasiya təhlükəsizliyi

GİRİŞ

Ötən əsrin 70-ci illərindən başlayaraq cəmiyyətin informasiyalaşdırılması prosesi qlobal xarakter almışdır. İnformasiyalaşdırmanın təsiri altında insanların həyat və peşə fəaliyyətinin bütün sahələrində - iqtisadiyyat, elm və təhsildə, mədəniyyət, səhiyyə kimi sferalarda əsaslı dəyişikliklər baş verməkdədir. Bu dəyişikli klər genişmiqyaslı olmaqla bərabər, cəmiyyət həyatına təsiri o qədər əhəmiyyətlidir ki, avtomatlaşdırılmış infosfer üçün prinsipcə yeni informasiya mühitinin formalaşdırılmasından danışmaq olar. İnformasiya cəmiyyətinin elmi-nəzəri problemlərinə və İKT-dən istifadədə informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi məsələlərinə diqqət yetirmək hazırkı dövrün ən vacib tələblərindəndir.

TƏDQİQAT METODU

İnformasiya texnologiyaları baxımından hazırda təhsil müəssisələrinin qarşısında duran ən mühüm məsələlərdən biri də təhsil müəssisəsinin informasiya təhlükəsizliyi məsələsidir. Bu işin məqsədi informasiyanın mühafizəsi ilə bağlı məktəb rəhbərliyinin qarşısında duran idarəetmə vəzifələrini müəyyən etməkdir.

İnformasiya cəmiyyətinin problemləri ilə məşğul olan qurum, Ümumdünya İnformasiya Texnologiyaları və Xidmətləri Alyansının (The World Information Technology and Services Alliance, WITSA) əsas missiyası İKT sahəsində beynəlxalq rəqabəti gücləndirmək, intellektual mülkiyyət hüquqlarını qorumaq, informasiya təhlükəsizliyini təmin etmək məqsədi ilə ölkələrin səylərini birləşdirmək, ölkələr arasında İKT üzrə təhsil və ixtisas səviyyəsində fərqləri aradan qaldırmaq, İnternetin və elektron kommersiyanın davamlı inkişafını təmin etməkdən ibarətdir.[1]

Təşkilatın informasiya təhlükəsizliyi, təşkilatın informasiya mühitinin təhlükəsizliyinin vəziyyəti, onun formalaşmasını, istifadəsini və inkişafını təmin edir. İnformasiya təhlükəsizliyi anlayışı nədir? İnformasiya təhlükəsizliyi dedikdə, məlumatın və onu dəstəkləyən infrastrukturun hər hansı təsadüfi və ya zərərli təsirlərdən qorunması başa düşülür ki, bunun nəticəsində məlumatın özünə, onun sahiblərinə və ya dəstəkləyici infrastruktura dəyə biləcək ziyan başa düşülür.

Müasir təhsil mühitində informasiya təhlükəsizliyi əsasən aşağıdakı iki qrupa aid olan məlumatların mühafizəsini təmin edir:

- şagirdlərə, müəllim heyətinə, təşkilat heyətinə aid şəxsi məlumatlar və rəqəmsal arxiv sənədləri;
- təlim proqramları, məlumat bazaları, kitabxanalar, təhsil prosesini dəstəkləmək üçün istifadə olunan digər strukturlaşdırılmış məlumatlar;

İnformasiya təhlükəsizliyi kompüter təhlükəsizliyi ilə yanaşı, istifadəçilərin təhlükəsizliyini də əhatə edir və təhsil müəssisələrində sonuncu komponent xüsusi əhəmiyyət kəsb edir. Təhsil müəssisəsinin informasiya təhlükəsizliyi iki əsas məqsədin həyata keçirilməsinə yönəlmiş müxtəlif xarakterli tədbirlər məcmusudur. Birinci məqsəd şəxsi məlumatları və informasiya məkanını icazəsiz müdaxilələrdən, məlumatların oğurlanmasından və üçüncü şəxslər tərəfindən sistem konfiqurasiyasında dəyişikliklərdən qorumaqdır.

İnformasiya təhlükəsizliyinin ikinci məqsədi şagirdləri qanunla qadağan olunmuş hər cür təbliğat tipli məlumatlardan qorumaq aid edilə bilər.

İnformasiya təhlükəsizliyi üzrə aparılan elmi-tədqiqatın əsas istiqamətlərini təşkil edən kiberhücumların aşkarlanması; informasiya sistemlərinin təhlükəsizliyi, təhlükəsizlik risklərinin idarə edilməsi, informasiya təhlükəsizliyinin qiymətləndirilməsi və s. kimi problemlər BV ilə bağlı oxşar problemin həllində tədqiqatçıları düşündürən əsas məsələlərdəndir [2]

Hazırda informasiya texnologiyaları baxımından təhsil müəssisələrinin qarşısında duran ən mühüm məsələlərdən biri də təhsil müəssisəsinin informasiyalaşdırılmasının mühafizəsi ilə bağlı məktəb rəhbərliyinin idarəetmə vəzifələrini müəyyən etməkdir. Bu nöqteyi nəzərdən ümumtəhsil məktəbinin informasiya təhlükəsizliyi özündə üç istiqaməti birləşdirir.

1. Kompütərlərin, lokal şəbəkələrin, servərlərin və informasiya sistemlərinin təhlükəsizliyi.
2. Şəxsi məlumatların neqativ kontentdən qorunması.
3. Şagirdləri neqativ kontentdən qorumaq.

Yuxarıda göstərilən istiqamətlərin hər birini idarəetmə vəzifəsi baxımından nəzərdən keçirək.

Texniki iş, yəni, informasiya təhlükəsizliyi proqramı və avadanlıqlarla işi nəzərdə tutur. Bu istiqamət daha çox informasiya təhlükəsizliyi ilə məşğul olan mütəxəssislərin fəaliyyətinə aid edilir. Bu, məlumatlara icazəsiz girişdən, hüquqların diferensiallaşdırılması, viruslardan və kompüter hücumlarından qorunmaq da aid edilir.

Təşkilati iş, bu isə təşkilati tədbirlərin siyahısının və tənzimləyici (normativ) sənədlərin hazırlanmasını nəzərdə tutur.

Üçüncü isə, təlim komponentidir ki, təhsil müəssisəsinin təhlükəsiz informasiya mühitində işləmək üçün lazım olan bilik və bacarıqların həm işçi heyətinə, həm də tələbələrə öyrədilməsini əhatə edir.

Təhsil müəssisəsinin qarşısında olan digər məsələ (vəzifə) informasiyanın mühafizəsi üzrə təşkilatı tədbirlərin görülməsidir. Lokal şəbəkə, internet və informasiya sistemi ilə işləmək üçün belə qaydalara ehtiyac duyulur. Həmçinin, məktəb rəhbəri tərəfindən müəssisənin informasiya təhlükəsizliyinə cavabdeh olan şəxsin təyin edilməsi də vacibdir. Həmçinin, informasiya təhlükəsizliyi məsələləri üzrə mütəxəssislərin ixtisasının artırılması məsələlərinə diqqət yetirmək lazımdır. Bu məsələyə cavabdeh olan mühəndislərin xüsusi təhsilinin olmasına əhəmiyyət verilməlidir.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə uşaqların yaşına uyğun informasiya əldə etməsi barədə münasibətləri tənzimləyən qanun mövcuddur. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun 30 oktyabr 2018-ci il tarixində qəbul olunmuşdur. Həmin Qanunun 10-cu maddəsinin III bəndində qeyd olunub: "İnternet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlıq mətni əks olunmalıdır"[3]. Bununla təhsil müəssisəsinin şagirdlərə təqdim olunan məzmuna nəzarət etməsi zərurəti yaranır. Fikrimizcə, bu problemin həlli, bir-birini tamamlayan 3 istiqamət üzrə aparılmalıdır.

1) Normativ sənədlərin hazırlanması.
2) Şagirdlər tərəfindən istifadə ediləcək kompüterlərdə kontent filtrasiya sisteminin quraşdırılması
3) Şagirdlərə internetdə təhlükəsiz rejimdə işləməyi öyrətmək.

NƏTICƏ

Aparılan tədqiqatın nəticəsi olaraq qeyd etmək olar ki, yuxarıda göstərilən istiqamətlər üzrə kifayət qədər işlər aparılmır. Bunu isə neçə məqamla əlaqələndirmək olar – informasiya mühafizəsi üzrə işlərə kifayət qədər maliyyə vəsaitinin ayrılmaması; təhsil orqanları və informasiya texnologiyaları ilə məşğul olan qurumların təhsil müəssisələri üçün vahid informasiya təhlükəsizliyi siyasətinin olmaması; informasiyanın nə vaxt, necə qorumalı olduğu barədə məlumtlara malik olmamaq. Belə nəticəyə gəlmək olar ki, məktbədə informasiya təhlükəsizliyinin idarə edilməsi problemini həll etmək üçün təhsil müəssisəsinin informasiya təhlükəsizliyi məsələsinə vahid yanaşma formalaşdırmaq lazımdır. Qeyd olunmalıdır ki, yalnız yuxarıda göstərilən bütün istiqamətlər üzrə formalaşdırılan kompleks iş, informasiyanın mühafizəsi probleminin həllinə və təhlükəsiz informasiya-təhsil mühitinin yaradılmasına gətirib çıxara bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliquliyev R.M., Mahmudov R.Ş., İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri, İnformasiya cəmiyyəti problemləri, 2016, №2, 3–18, https://jpis.az/uploads/article/az/multıdıscıplınary_scıentıfic_theoretıcal_problems_of__formatıon_of_ınformatıon_socıety.pdf (online məqalə)
2. Əliquliyev R.M., Hacırəhimova M.Ş., Əliyeva A.S. Big data-nın aktual elmi-nəzəri problemləri, İnformasiya cəmiyyəti problemləri, 2016, №2, 37-49, https://journals.indexcopernicus.com/api/file/viewByFileId/167741.pdf (online məqalə)
3. http://www.e-qanun.az/framework/40764
4. https://www.smart-oft.ru/blog/informatsionnaja_bezopasnost_v_obrazovateljnoj_organizatsii/

KİMYANIN TƏDRİSİNDƏ TƏTBİQ OLUNAN ƏYANİ VASİTƏLƏR

QƏNİRƏ BALAKİŞİYEVA
Bakı Mühəndislik Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
ganiradashdiyeva@gmail.com
BAKI, AZƏRBAYCAN

BAHAR NADİROVA
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
bahar.nadirova99@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Təqdim olunan işdə bir axtarış və daim yaradıcılıqla məşğul olan bir müəllim kimi müəllimlərə tövsiyəm odur ki, öz dərslərində motivasiyadan tutmuş refleksiya mərhələsinə qədər dərslərin bütün mərhələlərində qeyd etdiyim tədris metodları və əyani vasitələri tətbiq etsələr nəticələrindən razı qalarlar. Araşdırmalar göstərir ki, təlim zamanı əsas məqsəd məlumatın şagird tərəfindən yalnız yadda saxlanmasına nail olmaq deyildir. Şagirdləri fəallaşdıran fəal təlim metod və üsullarından, İKT texnologiyalarından, müxtəlif tipli eksperimental məsələ və təcrübələrdən istifadə etməklə istənilən nəticəni əldə etmək mümkündür

Açar sözlər: əyani vəsait, təlim metodları, tədqiqat şəraiti, dərs planı.

GIRIŞ

Orta məktəblərdə tədrisin keyfiyyətini yüksəltməyin yollarından biridə müəllimin təşkilati fəaliyyətidir. Digər fənlərlə yanaşı kimyanın tədrisi zamanı müəllimin təşkilati fəaliyyətinin yüksək olması tədrisin keyfiyyətinə çox böyük təsir göstərir. Qabaqcıl təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi, ən səmərəli olanların seçilməsi, tələb olunan bilik və bacarıqları şagirdlərin əldə etməsinə mane olan halların aşkar edilməsi, təhsil prosesinin müasir, real modelinin hazırlanması, müəllimlərin fəaliyyətini bu modelin tələblərinə uyğun istiqamətdə həyata keçirmək, tədris-təlim işinin ən səmərəli həllinin prinsiplərini müəyyənləşdirmək günün tələbidir[ ].

Tədris prosesində ən vacib amillərdən biri də təlim materiallarının planlaşdırılmasıdır. Planlaşdırmanın gündəlik və perspektiv kimi iki növü müəyyənləşdirilmişdir. Perspektiv planlaşdırma fənni tədris edən müəllim tərəfindən hazırlanır. Bunun üçün müəllimdə bir neçə bacarığın olması vacib hesab edilir : məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq; tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək; inteqrasiya imkanlarını müəyyən etmək; əlavə resurslar seçmək; mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq və nailiyyətlərin qiymətləndirilmə mexanizmini müəyyən etmək lazımdır. Kimyanın tədrisi zamanı induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi əqli mühakimə üsullarından istifadə olunur ki, bu da şagirdlərin məntiqi təfəkküründün inkişafını sürətləndirməklə yanaşı, diqqətin, hafizənin və nitqin inkişafına kömək edir[ ]. Başqa sözlə, kimyanın tədrisi metodikası bütün tədris mərhələlərində kimyanın təlimi qanunauyğunluqlarını öyrənir. Müasir kimya dərsləri tədqiqat şəraitində keçirilməlidir. Ona görə şagirdləri qrup və ya cütlər şəklində tədqiqata yönəltməklə, onlara əməkdaşlıq etmək üçün şərait yaradılmalıdır. Tədqiqat işini təşkil etmək üçün iş vərəqləri tərtib edilməlidir. İş vərəqlərində kiçik qruplara və ya cütlərə verilən problem və onun həllinin nəticələri əks olunmalıdır. Eyni zamanda hazırlanan iş vərəqləri dərsin məqsədinə xidmət etməlidir.

Tədqiqat işinin aktuallığı. Fəaliyyət zamanı müxtəlif əqli mühakimə üsullarından istifadə olunur ki, bu da şagirdlərin məntiqi təfəkküründün inkişafını sürətləndirməklə yanaşı, diqqətin, hafizənin və nitqin inkişafına kömək edir. Müasir kimya dərsləri tədqiqat şəraitində keçirilməlidir.

Tədqiqatın elmi yeniliyi. Metodların müxtəlif tip əyani vəsaitlərdən istifadə edilməsi, didaktik işlənilməsi və məktəb kimya kursuna da tətbiq olunan əyani vasitələr kimyanın tədrisi metodikasının inkişafına xidmət edir.

NƏTICƏ

Təlimdə başlıca məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Bu gün təhsil sistemi təlimdə kəsilməzliyi, distant və mobilliyi, texnoloji və layihəliliyi, interaktiv və dialoqluğu tələb edir. Bütün bu deyilənləri isə İKT texnologiyalarından, digər texniki və əyani vasitələrdən, didaktik materiallardan istifadə etməklə reallaşdırmaq mümkündür. Təlim prosesi şagirdlərin fəallığının artırılmasına imkan verən müxtəlif interaktiv forma və metodların tətbiqi ilə həyata keçirildikdə öyrənilən materiallar şagird tərəfindən şüurlu surətdə mənimsənilir, kimyəvi proseslərin gedişi qanunauyğunluqları haqqında tam təsəvvür yaranır. Şagirdlərin təlim maraqlarını təmin etmək üçün kimyanın tədrisi prosesinə yaradıcı yanaşmaq, onun

səciyyəvi cəhətlərini nəzərə almaq, şagirdlərin idrakını inkişaf etdirən metodlardan istifadə etmək lazımdır. Çünki əgər şagirddə təlimə qarşı maraq yaranmazsa onda təlim prosesində onun fəallığını artırmaq mümkün olmayacaqdır.

ƏDƏBIYYAT SIYAHISI

1.Mehrabov A. O., Abbasov Ə., Zeynalov Z., Həsənov H. Pedoqoji texnologiyalar. (**Kitab**).Bakı/Azərbaycan.2006:1- 372
2.Z. Veysova. Fəal/interaktiv təlim. (**Metodiki vəsait**) .Bakı/Azərbaycan. 2007:1-150
3.Т.С.Назарова и другие. Химический эксперимент в школе.(**Kitab**).М,1987:1-240
4.Чернобельская Г.М. Методика обучения химии в средней школе.(**Kitab).**М., 2000:165 с.
5.A.Ə.Paşayeva, Q.B.Balakişiyeva, Y.İ.Cəfərov. Kimya dərslərində şagirdlərin yaradıcı təfəkkürü. (**Jurnal məqaləsi**). Elmi Əsərlər jurnalı, cild 87, №5, Bakı/Azərbaycan .2020: 121-124.

KİMYA DƏRSLƏRİNDƏ FƏNLƏRARASI ƏLAQƏLƏRDƏN İSTİFADƏNİN DİDAKTİK ƏHƏMİYYƏTİ

ARZU PAŞAYEVA
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
Pasayeva-1969@mail.ru
BAKI, AZƏRBAYCAN

CƏMİLƏ MİRZƏYEVA
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
cemilemirzeyevabaku@gmail.com
BAKI, AZƏRBAYCAN

YASİN CƏFƏROV
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
yasin.cafarov@hotmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Kimyanın tədrisində fənlərarası əlaqələrdən istifadənin didaktik əhəmiyyəti izah olunmuşdur. Müəllim fənlərarası əlaqələrdən istifadə etməklə dərsin mənimsədilməsində şagirdlərə maneçilik törədən bir sıra problemlərin aradan qaldıra bilməsi təhlil olunur. Kimya dərslərində müəllim fənlərarası əlaqədən istifadə etməklə dərsin keyfiyyətinin səmərəliliyini artıra bilməsi izah olunur.

Açar sözlər: Kimya, inteqrativ kurikulum, səmərəlilik, keyfiyyət, fənlərarası əlaqə

GIRIŞ

Bizim öyrənmək istədiyimiz təbiət və cəmiyyət hadisələri əlaqəli tərzdə nəzərdən keçirildikdə həmin hadisələrin mahiyyətini başa düşmək, məntiqli mühakimə yürütmək, əsaslı nəticələrə nail olmaq və görəcəyimiz işin səmərəliliyini artırmaq xeyli asanlaşır. Gənc nəslin hərtərəfli inkişafı üçün kimya fənninin tədrisində fənlərarası əlaqələrdən istifadə mühüm əhəmiyyətə malikdir. Müəllim fənlərarası əlaqələrdən istifadə etməklə dərsin mənimsədilməsində şagirdlərə maneçilik törədən bir sıra problemləri aradan qaldıra bilər. O şagirdlərin fikri fəallığının daha da artmasına, düşüncələrinin daha da dərinləşməsinə kömək edir.

Kimya dərslərində fənlərarası əlaqə şagirdlərdə geniş dünyagörüşünün formalaşmasına, məzmunun daha dərindən sistemli mənimsənilməsinə xidmət edir. "Fənlərarası əlaqənin tədris prosesində tətbiq edilməsində ən əsas maneələrdən biri belə bir səhv yanaşmadır ki, şagirdlər bu zaman real nəticələri görünməyən eksperimentə təhrik edilirlər". Lakin fənlərarası əlaqənin bir əsrdən çox zamanı əhatə edən bir tarixi vardır. İnteqrativ kurrikulum anlayışı yeni bir konsepsiya deyildir. Buna görə də inteqrativlik yeni fənn kurikulumlarının əsas prinsiplərindən biridir. İnteqrativ kurikulum təcrübəli müəllimlər üçün dəyərli sərvətdir.. İnteqrativ kurikuluma aid izahat Hamfreyz tərəfindən aşağıdakı kimi verilmişdir. "İnteqrativ öyrənmə şagirdlərin ətraf mühitin müəyyən aspektlərini müxtəlif fənlərə aid olan biliklər vasitəsi ilə araşdırılmasıdır". O, humanitar, təbii fənlər, sosial fənlər, musiqi, incəsənət fənləri arasında əlaqələrin olmasını göstərirdi. O, bildirirdi ki, vərdiş və biliklər bir sıra fənlərin materialları əsasında daha səmərəli inkişaf edir və təcrübəyə tətbiq edilir. Müəllim fənlərarası əlaqədən bir fənnə aid biliklərin digər fənnin problemlərini daha yaxşı başa düşməyə kömək etdikdə, bir fənnin tədrisi prosesində təşəkkül tapmış bacarıq və vərdişlərdən digər fənn üzrə biliklərin qazanılması, sistemləşdirilməsi və tətbiq edilməsi üçün

istifadə etdikdə, yaxud öyrənilən hadisələrin dərk edilməsi əsasında dünyagörüşü xarakterli ümumiləşdirmələrə gətirilib çıxarıldıqda və s hallarda tətbiq edə bilər. Yakobs fənlərarası kurikulumu "əsas mövzunu, problemi, təcrübəni araşdırmaq üçün müxtəlif fənlər üzrə metodologiyaların və dillərin şüurlu şəkildə tətbiq edildiyi kurikulum yanaşmaları və biliklər kimi izah edir". Fənlərarası kurikulumda əsas diqqət fənlər arasındakı əlaqələrə yönəlir. Ayrıca fənnə aid olan məzmun və əməliyyatlar məhdudlaşdırılır. Məsələn, qərar qəbuletmə və ya problem həlli fəndən asılı olmayaraq eyni prinsiplərə istinad edir. Müəllim xüsusi bir mövzu və ya problem üzərində diqqəti cəmləşdirmək üçün fənlərarası əlaqədən istifadə edir. Fənlər arasında ümumilik diqqət mərkəzində dayanır. Nəticədə isə bir neçə fənn üzrə əldə edilən biliklər arasında əlaqə yaratmaqla müəllim şagirdlərin mövzunu daha dərin və əsaslı dərk etməsinə imkan yaratmış olur.

Tədqiqatın metodu. Kimyanın tədrisinin səmərəliliyini, fənnlərarası materiallar ilə əlaqəli sistematik bir yanaşma əsasında əsaslandırmaqdan ibarətdir.

Tədqiqat işinin aktuallığı. Müasir təhsil sistemi qloballaşan dünyanın tələblərinə cavab verən rəqabətədavamlı, xüsusi istedada malik şəxslərin yetişdirilməsini tələb edir. Bu tələblərə təlimdə inteqrativliyin təmin olunması ilə nail ola bilərik. Təlim prosesində fənlərarası əlaqə vacib əhəmiyyət kəsb etdiyindən mühüm tələb kimi aktuallığa malikdir. Müasir dövr gənc nəslin qarşısında bir sıra tələblər irəli sürür.

Tədqiqat işinin yeniliyi: Kimya fənninin tədrisində fənlərarası əlaqənin imkanları araşdırılmış, ümumiləşdirilmiş və analitik təhlillə dəyərləndirilmiş, ümumtəhsil məktəblərinin kimya kurslarının tədrisində fənlərarası əlaqələrdən istifadənin şərhinin verilməsi təlim işinə öz müsbət təsirini göstərəcəkdir.

NƏTICƏ

İnteqraivliyin təsiri nəticəsində kimya dərslərində təlim prosesi cəzbedici və rəngarəng olur. Belə ki, Qabiliyyətlər dedikdə, insanın bu fəaliyyətinin tələblərinə cavab verən və onun müvəffəqiyyətlə yerinə yetirilməsinin şərti olan fərdi psixoloji keyfiyyətləridir.Kimya dərslərində fənlərarası əlaqədən istifadə nəticəsində fənlər arasında qarşılıqlı əlaqə yaranır və bu əlaqə nəticəsində fənlərin bir-biri ilə zəncirvari asılılığı dərinləşir. Fənlərarası əlaqə təkcə müxtəlif fənlərin bir-biri ilə əlaqələndirilməsindən ibarət deyildir. Fənlərarası əlaqədən istifadə nəticəsində sinifdə yaradıcı mühit formalaşır. Kursdaxili, kurslararası və fənlərarası əlaqələr dərsin təlim tərbiyə və inkişafetdirci vəzifələrinin yerinə yetirilməsi məqsədilə verilir. İnsanın fəaliyyəti çox zaman hər hansı bir müəyyən qabiliyyətin təzahür etməsi ilə deyil, bir-biri ilə bağlı olan bir sıra qabiliyyətlərin üzə çıxması ilə əlaqəlidir

ƏDƏBIYYAT SIYAHISI

1. Kərimov F.Y., Əhmədova M. C., Varella G., Reyli Ə. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr (**Kitab**). Bakı: Adiloğlu, 2005: 4-12
2. Əhmədov H.M., Həsənov A. V., Bayramov H.B. İdarəetmənin pedaqogika və psixologiyası. Bakı, (**Kitab**). 2004:124-128
3. Федорова В.Н. Межпредметные связи естественно-математических дисциплин, Москва, Просвещение, (**Kitab**). 1980:206
4. A.Z.Məmmədova, G.D.Cəlilova. Müasir təhsildə inteqrasiya prossesi və ondan kimyanın tədrisində istifadə. Pedaqoji Universitet xəbərləri. Bakı (**Jurnal məqaləsi**), 2014: 456- 459.
5. Hansen, K.-H., & Olson, J. (1996). How teachers construe curriculum integration: The science, technology, society (STS) movement as Bildung. Journal of Curriculum (**Jurnal məqaləsi**), Studies, 28, 669-682.

MİLLİ – MƏNƏVİ DƏYƏRLƏR QLOBALLAŞMA KONTEKSTİNDƏ

MUSAYEVA AYGÜN CAVANŞIR QIZI
ADPU-nun Şəki filialı
Pedaqogika
aygun.musayeva-88@mail.ru
ŞƏKİ, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə qeyd olunan məlumatlar ümümtəhsil müəssisəsi müəllimləri, psixoloqları üçün metodiki əhəmiyyətə malikdir.

Qloballaşma və onun siyasi, iqtisadi, ictimai-mədəni sahələrdəki təzahür formaları bəşər tarixinin şahid olduğu ən böyük dəyişiklikdir. Qloballaşma nəticəsində dünya "kiçik kənd"ə çevrilmişdir. Bu nəhəng hadisə həyatın bütün sahələrində köklü dəyişikliklərlə müşayiət olunur. Son vaxtlar qloballaşmaya belə bir münasibət forması geniş yayılıb ki, bu hadisə daha çox siyasi-iqtisadi sahələrdə təzahür etsə də, onun əsas hədəfi bəşər cəmiyyətinin mövcud ictimai-mədəni vəziyyətində, o cümlədən dəyərlər sistemi, davranış və yaşayış tərzində köklü dəyişiklik aparmaqdır. Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir.

Önəmli məqamlardan biri də milli-mənəvi dəyərlərimizin qloballaşma prosesi ilə qarşı-qarşıya qoyulmaması, onların bu prosesin içində əriməsinin qarşısını almaqdır. Qloballaşma heç də milli-mənəvi dəyərlərimizdən imtina etmək deyil, əksinə, həmin dəyərlərin daha geniş arealda təbliği üçün böyük fürsətdir. Bu baxımdan Azərbaycanda milli-mənəvi dəyərlərə qayıdışın qloballaşma ilə "toqquşmaması" sevindirici haldır. Sözün əsl mənasında Azərbaycanın Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir.

AÇAR SÖZLƏR: QLOBALLAŞMA, MILLI-MƏNƏVI DƏYƏRLƏR, TƏRBIYƏ

GIRIŞ

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Bu səbəbdən də hər şeydən əvvəl və hər sahədə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı azad və süveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçısı bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

TƏDQIQAT METODU

Mövzu araşdırılarkən elmi ədəbiyyatların təhlilindən, analiz-sintez metodundan, nəzəri ümumiləşdirmədən istifadə olunmuşdur.

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyələri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Keçmişimiz və tariximiz bizlərə ibrət dərsi olduğu üçün həm də sabahımızın müəllimidir. Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli

özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək əsas vəzifələrdəndir.

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, "Gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Respublikanın gələcək taleyi onun gənclərindən asılı olduğu üçün təhsildə aparılan islahatlar milli ənənələrimizə, milli dəyərlərimizə söykənərək soykökünə bağlı şəxsiyyətin formalaşdırılmasına xidmət etməlidir. Müasir tərbiyədə məktəbli-müəllim-valideyn münasibətlərinin yeni prizmada tənzimlənməsi, tərbiyə işində ideal məqsədin məzmununun müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşməsi humanitar fənlərin məzmununda ifadə olunmuş milli-mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir [1,s.60-62]. Milli soykökə qayıdış, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir.

Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Əsas dəyərlər məhz ailədə doğulur və formalaşmağa başlayır. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsindən əsas rollardan birini də ailə oynayır. Ona görə də, ailələrdə bu məsələlərə ciddi fikir verilməlidir.

Təlim-tərbiyə işinin təşkilində dini maarifləndirilmənin də rolunu xüsusi qeyd etmək lazımdır. Bütün əxlaqi kateqoriyaların şərhi yolu ilə gənclərə sağlam həyat tərzi, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rolu vardır. Eyni zamanda vətəndaşlarda dövlətçilik təfəkküründün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından dövlət atributlarına– Azərbaycanın bayrağına, himninə, gerbinə ehtiram və hörmətin vacibliyi təbliğ edilməlidir.

Ümummilli lider bunu belə təsvir etmişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi ucun onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdrlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ogey munasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir"[4,s.4].

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və cıxışlarında həmişə qurur la soylənilirdi. Heydər Əliyev gostərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adətənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xususilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda çıxışlar milli-mənəvi dəyərləri qorumaq çağırışına cevrildiyi bir vaxtda mərhum prezident, umummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, goruləcək işlərin perspektivini muəyyənləşdirmişdi: "Fursətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz oz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi butun iistiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan kecmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik [3,s.7]. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun boyuk sərvətidir. Hec vaxt iki xalq bir-birinə bənzəməz. Hec vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın ozunə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dunyanın mutərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik.

Müstəqil Azərbaycan dovlətinin mədəniyyət siyasətinin həyata keçirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması, onun məhvinə gətirib çıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan keçə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə bilək. Azərbaycan dünyada multikulturalizm dəyərlərinin nümunəsi kimi etnik, dini, sosial

mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər, həmrəy və qarşılıqlı dostluq şəraitində yaşadığı unikal ölkələrdəndir. Bu bəşəri dəyər olmamışdan əvvəl bizim milli dəyərimiz olub lap qədimdən bu ənənə yaşadılıb bu günlərə kimi davam etdirilir. Bu gün qloballaşmaya umumi mənada dünyalaşma və ya qlobal inteqrasiya kimi tərif verilir: "Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır" [2,s.55-57]. Başqa bir ifadə ilə qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Bu zəmində dünya ölkələrinin sərbəst şəkildə dünya bazarına inteqrasiya olunması və bunun üçün lazım olan şərtlərin daha da əlverişli edilməsidir. Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi birmənalı qarşılanmır. Çünki qloballaşma prosesləri milli mədəniyyətin imkanlarını məhdudlaşdıraraq bilavasitə mədəni siyasətə təsir göstərir. Bəşəriyyət özünün salamat qalması, planetimizin qorunub saxlanılması məqsədilə iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həll edilməsinin zəruriliyini artıq dərindən dərk edir. Təbii ki, bu gün qloballaşmanın bir çox ölkələr üçün yaratmış olduğu problemlər bizi çox narahat edir. Müasir dünya tərəfindən dərk edilən və etirazlarla qarşılanan neqativ təzahürləri siyasi və iqtisadi mənafelərin güdüldüyü, qloballaşmanın üzdə olmayan məqsədləri də vardır ki, son nəticədə mədəni tərəqqiyə dağıdıcı zərbə vurur. Qloballaşma mədəniyyət sahəsində də qeyd edilən mənafelərə xidmət etdiyi təqdirdə bəşəriyyət böyük fəlakətlərlə qarşılaşa bilər. Siyasi sahədə qloballaşma milli dovlətçilik, milli-mənəvi dəyərlər problemi ilə qarşılayır. Milli öozünüdərk, milli ləyaqət siyasi qloballaşmanın əsas problemidir.

Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli mədəniyyət və dövlətçilikdir. Dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Bu istiqamətdə atılan hər bir addım qədim zamanlardan bizə gəlib çatan müqaəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Prezident İlham Əliyev Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının 1-ci ilinin yekunlarına həsr olunan konfransdakı çıxışında bu məsələləri aydın şərh etmişdi: "Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma " sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq –aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bax, Azərbaycan belə inkişaf etməlidir".

Müasirlik milli kökü, adət-ənəni itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşa tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər.

Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir, amma Azərbaycan kimi milli kökünə bağlı olan ölkələrdə bu baş vermir. Bir ölkənin, müstəqil bir dövlətin ən böyük problemləri o zaman yaranır ki, o ölkədə mənəviyyat məsələsi arxa plana keçirilir. İqtisadi, siyasi məsələlər mənəviyyatdan önə keçirsə o ölkədə, o xalqda rifah halı yaxşılaşmaz, insanlar birlik olmaz. Milli-mənəvi dəyərlərini qlobal dünya mühitində qoruyub saxlamış xalq müstəqillik yolu ilə getmək və müstəqilliyini qoruyub saxlamaq əzmindədir.

NƏTICƏ

Deyilənlərdən bu nəticə hasil olur ki, qloballaşmnın dəyərlər sisteminə mənfi və dağıdıcı təsiri inkaredilməzdir. Bu məqsədlə media və kommunikasiya vasitələrinin gücündən istifadə olunur. Texnoloji inqilab və internetin meydana gəlməsi ilə təsvir mədəniyyətinin yaranmasından sonra mənəvi dəyərlərin

faktiki aşınması prosesi başlanmışdır. Müasir televiziya və "ağıllı telefonlar" yanıldır, zehin üçün heç "qida" təqdim etmir, mənəvi dəyərlərin verdiyini vermir, amma buna baxmayaraq, cazibədardır, çünki özündə bir çox həzzi ehtiva edir: aydın təsvir, müxtəlif səslər və musiqi, düşünülmüş səhnələr [5,s.4].
Son olaraq qeyd edə bilərik ki, dil, din, əxlaq, mental dəyərlər, dövlətçilik sistemi, xalqın özünəməxsus cəmiyyətdaxili münasibət sistemi, ailə institutu, ağsaqqalıq institutu və s. bizim milli –mənəvi sərvətimizdir. Bütün normal dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. Bu gün o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub və olacaq.

ƏDƏBIYYAT SIYAHISI

İstinad edilmiş ədəbiyyat siyahısı qeyd edilir. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:
1.A.Həsənov, Ə.Ağayev – Pedaqogika, Bakı 2007
2.Əmirəli, R. Milli-mənəvi dəyərlərimizin qorunması əsas konseptual problem kimi [Mətn] //Mədəni maarif.- 2010.- №3.- S.55-57.
3.Ġlyasov, Z. Milli dəyərlərimizi nurlu xəzinə olan kitablarda axtarmalıyıq [Mətn] /Z.İlyasov //İqtisadiyyat.- 2009.- 30 oktyabr-5 noyabr.- S.7.
4.Jalə. Azərbaycan gəncliyi və milli mənəvi dəyərlərimiz [Mətn] /Jalə //Yeni Azərbaycan.- 2008.- 8 yanvar.- S.4.
5.Qasımov, A. Azərbaycan teleefiri dövlətin maraqlarına və xalqın mənafeyinə cavab verməlidir. Akademik Ramiz Mehdiyevin "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" məqaləsi telekanallarda milli-mənəvi dəyərlərin qorunması üçün istiqamətverici konsepsiyadır [Mətn] /A.Qasımov //Azərbaycan.- 2009.-7 oktyabr.- S.4.

QEYRİ- ÜZVİ KİMYANIN TƏDRİSİNDƏ FUNDAMENTAL ANLAYIŞLARA MÜASİR YANAŞMALAR

FATİMƏ İMANZADƏ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Kimya /Kimyanın tədrisi metodikası
fatime.iman0228@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qeyri- Üzvi kimyanın tədrisində fundamental anlayışlarından biridə kimyanın əsas qanunlarına müasir yanaşmanın öyrənilməsi, öyrənənlərin dünyagörüşlərinin və müstəqil şəxsiyyət kimi formalaşmasında qanunların tədrisinin rolunun əhəmiyyəti, inteqrasiya əlaqəsinin vacibliyi təhlil olunur

Açar sözlər: Qeyri-üzvi kimya, Avaqadro qanunu,inteqrasiya,müasir yanaşma, qanunlar

GIRIŞ

Qeyri- Üzvi kimyanın tədrisində fundamental anlayışlarından biridə kimyanın əsas qanunlarıdır. Öyrənənlərin dünyagörüşlərinin və müstəqil şəxsiyyət kimi formalaşmasında qanunların tədrisinin rolu böyükdür. Ölkəmizdə kurikulum islahatının həyata keçirilməsi nəticəsində təhsildə müəyyən irəliləyişlərəldə edilmişdir..Hər bir elm sahəsinin özünə məxsus anlayış və qanunları mövcuddur. Eyni ilə kimya elmi , xüsusilə də ümumi təhsil orta məktəb kimya sahəsində qanunlar vardır. Qanunlar irəli sürülən fərziyyələrin sübuta yetirilməsi nəticəsində yaranır.Məktəb kimya kursunda kimyanın əsas qanununun tədrisinin nə kimi rolu və əhəmiyyəti vardır?
Qanunların tədrisi zamanı şagirdlər onun mahiyyətini dərk edir, ondan istifadə etmək qabiliyyətinə malik olur. "Maddə tərkibinin sabitliyi" qanunu əsasında şagirdlər molekulyar quruluşlu maddələrin tərkibinin dəyişməz oldugunu dərk edir və onların kimyəvi formulun yazıb yadda asanlıqla saxlaya bilirlər.Qanunların tədrisində anlayışlardan istifadə edilməsi öyrənənlərdə kimyanəın dili daha da inkişaf etmiş olur.Kimya madələrin tərkibini ,quruluşunu, xassələrini və onların bir-birilə qarşılıqlı təssirini

öyrənir. Kimyanın dili dedikdə isə kimyəvi işarə, kimyəvi formul, kimyəvi reaksiya tənlikləri başa düşülür. Kimyanın dilini yaxşı dərk edib öyrənən şagird üçün kimyanın sirlərinə yiyələnmək xeyli asand olur.Qanunların tədrisi nəticəsində şagird əldə etiyi biliyi eksperimental məsələ həllində istifadə etməklə bacarıq və vərdişlərə yiyələnməklə yanaşı , biliyini də möhkəmləndirmiş olur.Qanunları kəşf etmiş alimlərin həyat və fəaliyyəti haqqında verilmiş məlumat öyrənənlərin dünygörüşlərini formalaşdırır və bəzən onlarda bu elm sahəsinə maraq yaradır.Şagirdlər digər mövzuların tədrisində müəyyən problemlərin həllində bu qanunlardan istifadə etməklə praktiki bacarığa malik olurlar. Məsələn , "Maddə kutləsinin saxlanması" qanunu əsasında kimyəvi reaksiya tənliklərini əmsallaşdırır, hesablamalar aparır.

Avoqadro qanunundan istifadə etməklə qazlara və onların qarışıqlarına aid məsələlər həll edirlər. Bütün bu proseslər şagirdlərdə müəyyən problemi həll etmək bacarığının təşəkkülü və inkişafı təmin edilir, onlar müstəqil şəxsiyyət kimi formalaşır.Dünyanın təhsil meridianı üzrə özünün roluna və əhəmiyyətinə əsasən daha çox maraq yaradan Kimyanın əsas qanunları mövzusunun özü hər zaman öz zamanında müasir olubdur. Məktəblə məşğul olmuş insanlar dərsi yaşadıqları dövr tələblərinə söykənməklə dəyərləndirib, onun qiymətini veriblər. Nəticədə, mövzunun müasirlik atributları onun önəmli əlamətlərindən biri olaraq hər zaman əhəmiyyəti daşımışdır. Şagirdlərin özlərinin fəal dərketmə aktivlikləri olmadan təlimdə yüksək nəticələrə nail olmaq qeyri-mümkündür. Problemli təlim metodunun özü pedaqoj prosesin elə təşkilidi ki, müəllim sistemli şəkildə uşaqları onlar üçün təzə olan problemin həllinə qoşmaqdadır. Problemli təlim inkişafetdirici təlimdir. Müəllim qaz qanunlarını tədris edərkən, problem suallar qoymaqla şagirdlərin təfəkkür fəaliyyətini aktivləşdirən şərait yaradır.

Tədqiqat işinin aktuallığı.Qanunların tədrisi və onlardan mühüm problemlərin həllində istifadə etməklə, şagirdlərdə nəzəri biliyi praktikaya tətbiq etmə bacarığı formalaşdırır. Ona görə də məktəbdə kimyanın əsas qanunlarının tədrisi mövzusunda inteqrasiyaya daha geniş verməк lazımdır.

Tədqiqatın əsas məqsədi: Kimyanın əsas qanunlarının tədrisi metodikasını vermək, eksperiment dərs təşkil etməklə şagirdlərdə mühakimə etmək, qanunlar və onlardan çıxan nəticələrdən məsələ həllinə tətbiq etmək, təcrübələr əsasında təhlil etmək kimi bacarıqların inkişaf etdirilməsinə nail olmaq.

Tədqiqatın elmi yeniliyi: İşin elmi yeniliyi kimyanın əsas qanunlarindan məsələ həllində istifadə etməklə tədrisi metodikası hazırlanmışdır ki, bundan metodik sistemin təkmilləşdirilməsində istifadə etmək olar.

TƏDQIQAT METODU

Metodikaya, kimyaya aid ədəbiyyatlar, internet materiallarının, jurnalların araşdırılması,müşahidə, müsahibə, problemli təlim, analiz- sintez ümumiləşdirmə pedoqoji eksperiment.

NƏTICƏ

Müəllimin tətbiq etmiş olduğu inteqrasiya elmin məntiqi üzrə uyğun olmalı, şagirdlərin təfəkkürünün inkişafı üçün kömək etməlidir.Kimyanın əsas qanunları mövzularının öyrədilməsində inteqrasiya əlaqəsi vacibdir. İki və daha çox fənnin iştirakilə həll edilən məsələlərdə də inteqrasiya əlaqəsi xüsusi yer tutur. Problemli təlim şagirdlərin aktivliyinin və tədqiqatçılığının olmasını tələb edən metoddur. Bu metodla aparılan dərslərdə şagirdlər yeni materialın izahını hazır almırlar, onun üzərində müstəqil işləyirlər.

ƏDƏBIYYAT SIYAHISI

1. R.Abdurazaqov,N.Məsimov,S.Cəlilova. Məktəbdə yeni informasiya texnologiyalarından istifadənin yeri və rolu. "Azərbaycan məktəbi" jurnalı, (**Jurnal məqaləsi**), 2018, № 2,s.87
2. Dwyer A. O and Childs P . Organic Chemistry in Action! Developing an Intervention Program for Introductory Organic Chemistry To Improve Learners' Understanding, Interest, and Attitudes. Journal of Chemical Education (**Jurnal məqaləsi**), 2014, 91 (7) , 987-993.
3. Mehrabov A.O. Təlim prosesində konstruktiv öyrənmə modeli, idraki və sosial münasibətlərin formalaşma xüsusiyyətləri.// Azərbaycan məktəbi. 2005, №3, s.24-29
4. M.M. Abbasov, A.H. Əliyev, M.S. Fərəcov, V.S. Əliyev. Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu) (VII-XI siniflərüçün), (**Jurnal məqaləsi**), Kimya məktəbdə, 2-3 (46-47) 2014
5. N.Abışov, " Müasir informasiya kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi". (**Jurnal məqaləsi**), Bakı, "Elm", 2011,s.48

COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ

Quliyeva İlahə
Bakı Qızlar Universiteti
Sosial-pedaqoi fakültə
ilahe101@gmail.com
Bakı, Azərbaycan

Müasir təhsil sisteminin ən mühüm vəzifəsi şagirdlərə öyrənmək, özünü inkişaf etdirmək və özünü təkmilləşdirmək bacarığını təmin edən universal təhsil fəaliyyətinin formalaşdırılmasıdır. Bütün bunlara interaktiv təlim metodlarından istifadə etməklə, şagirdlər tərəfindən sosial təcrübənin şüurlu və fəal şəkildə mənimsənilməsi ilə nail olunur. Məqalənin də aktuallığı onun məhz belə bir vacib mövzuya həsr olunması ilə bağlıdır. Elmi yenilik məqalədə coğrafiya fənninin tədrisində interaktiv təlim və tədris metodlarından istifadə yollarının araşdırılmasından ibarətdir.

AÇAR SÖZLƏR: FƏAL TƏLIM, İKT, VENN DIAQRAMI

Giriş. Müstəqillik əldə etdikdən sonra respublikamızda qanunvericiliyə əsaslanan və təhsilin bütün pillələrini əhatə edən geniş islahatlar həyata keçirilir. O cümlədən də orta ümumtəhsil məktəbləri üçün təhsilin yeni strukturunun hazırlanması, tədris planı və proqramların yeni məzmun kəsb etməsi, interaktiv təlim metodlarının və şagirdlərin fəaliyyətlərinin qiymətləndirmə kriteriyalarının işlənib-hazırlanaraq həyata keçirilməsibu gün Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatların əsas bazasını təşkil edir.Təhsilin yeni məzmun kəsb etməsi müasir coğrafiya dərsinin də təşkilinin yeni məzmuna malik olmasını müəllimlərin qarşısında bir vəzifə kimi qoyur. Müasir dövrdə yeni məzmuna malik coğrafiya dərslərinin təşkil olunması dərs zamanı istifadə olunan fəal təlim metodlarından asılıdır. Bu metodların dərsin mərhələlərinə uyğun olaraq seçilib, istifadə olunması ilk növbədə müəllimdən yüksək metodiki bacarıq və işinə yaradıcı münasibətlə yanaşmağı tələb edir.

Tədqiqat.Ümumiyyətlə təlim fəaliyyətində məqsədə müvəffəqiyyətlə çatmaq üçün düzgün üsul seçməyin əhəmiyyəti böyükdür. Müasir dövrdə cəmiyyət təlim-tərbiyə qarşısında daha fəal, bilikləri operativ şəkildə tətbiq etməyi bacaran, dünya bilik sisteminə müstəqil inteqrasiya edə bilən, yaradıcı şəxsiyyətlər yetişdirmək tələbini qoymuşdur. Bu tələb əsasında təlimin məzmunu dəyişdirilmiş, "fəal təlim" anlayışı meydana çıxmışdır. Fəal təlim şagirdlərin idraki inkişafını fəallaşdıran, onları müstəqil düşünməyə sövq edən yeni təlim üsulları tələb edir. Fəal təlim üsullarının seçilməsində fənnin məzmunu, həmçinin təlim məqsədi nəzərə alınır. Fəal təlim metodları şagirdlərin təfəkküründü inkişaf etdirir, şagird kəşf olunanları özü üçün yenidən kəşf edir. Müasir dərsdə istifadə olunan fəal təlim metodları həmçinin şagirdlərdə yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yanaşma bacarığını formalaşdırır. Fəal təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Coğrafiya fənninin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini təmin edən ən səmərəli üsullardan biri **Venn diaqramı** üsuludur. Fənn üzrə tədris olunan mövzuları, orada əhatə olunan hadisələri, proses və təzahürləri müqayisə etmək, oxşar və fərqli cəhətləri, səbəb-nəticə əlaqələrini müəyyən etmək kimi bacarıqların formalaşdırılmasında bu üsulun tətbiqinin əhəmiyyəti böyükdür. Bu üsuldan Regional coğrafiya bölməsində daha geniş istifadə etmək olar. Məsələn, Şimali Amerika və Avrasiya materiklərinin oxşar və fərqli cəhətlərini Venn diaqramına əsasən müəyənləşdirib yazın.

Şimali Amerika Avrasiya



İnformasiya cəmiyyətinin formalaşmasında əsas rolu İKT-nin müxtəlif sahələrdə tətbiqi müasir dövrdə daha da sürətlənir. Şagirdlərin İKT-dən istifadə bacarıqlarını dərinləşdirmək məqsədi ilə **Təqdimat** metodundan istifadə etmək əlverişli olar. Şəkillərdən, xəritələrdən, müxtəlif anemasiyalardan istifadə etməklə şagirdlər dərsin məqsəd və məzmununa uyğun təqdimatlar hazırlayırlar.

Oyun uşaqlar arasında əsas fəaliyyət növü sayılır.oyunda ən zəif oxuyan şagirdlər də həvəslə iştirak edir və uğurlu nəticələr göstərirlər.Coğrafiya dərslərində müxtəlif tipli didaktik oyunlardan istifadə etmək olar.Bunlara aşağıdakıları misal göstərmək olar:

1) "Kim daha çox" oyunu. Şagirdlərə Sakit okeana aid olan dənizləri xəritədə tapmaq tapşırılır vəs

2) "Səhvi tap" oyunu. Şagirdlər yeni mövzu ilə tanış olduqdan sonra , onlara yeni mövzu ilə əlaqəli, çoxlu səhvlər olan mətn verilir, ən çox səhv tapan qalib olur.

3) "Aid olmayanı tap" oyunu. Məsələn, verilən yarımadalardan Avrasiya materikinə aid olmayanı tapmaq tələb olunur.

Nəticə. Fəal təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək düzgün deyildir. Dərsdə qarşıya qoyulmuş məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla fəal metodlara müraciət edilməlidir. Müəllim yaradıcı və təşkilatçı olmalıdır ki, öz dərslərində fəal təlim metodlarından düzgün istifadə edə bilsin.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan Respublikasinda Ümumi təhsilin konsepsiyasi (milli kurikulum) // kurikulum, 2008, №
2. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar. //azərbaycanməktəbi, 2013, №
3.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Baki: mütərcim, 2007.
4. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Baki: mütərcim, 2006
5. **Veysova Z.** Fəal və interaktiv təlim: müəllimlər üçün vəsait. Baki, 2007.

İBTIDAİ SİNİFLƏRDƏ RİYAZİYYATIN TƏDRİSİ ZAMANI YARANAN ÇƏTİNLİKLƏR

NƏCABƏT HƏSƏNOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Dissertant
najabat1989@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqatda ibtidai sinif müəllimlərinin riyaziyyatın tədrisi zamanı rastlaşdığı çətinliklər və onların həll yolları göstərilmişdir. İbtidai sinif müəllimlərinin riyazi hazırlığının elmi-metodiki və nəzəri hazırlığını təmin edən praktik məsləhətlər verilmişdir. Tədqiqatın məqsədi ibtidai sinif müəllimlərinə riyaziyyatın tədrisi zamanı effektivliyi və səmərəliyi təmin edən metodiki sistemin uyğun variantlarından birini hazırlamaqdan ibarətdir. Tədqiqatin praktik əhəmiyyəti ibtidai sinif müəllimlərinin riyazi hazırlığının təmin olunması, ibtidai siniflərdə riyaziyyat dərsinin müasir səviyyədə keçilməsi, şagirdlərin yüksək nəticələr eldə etməsindən ibarətdir. Tədqiqat Bülbül adına orta ixtisas musiqi məktəbinin 3 sinifində aparılmışdır. Tədqiqat yüksək nəticələr vermişdir, bu üsulla digər fənnlərdən tədqiqatların keçirilməsi nəzərdə tutulur.

AÇAR SÖZLƏR: IBTIDAI SINIF, RIYAZIYYATIN TƏDRISI

GIRIŞ

Riyaziyyat elmlərin şahı, həm də xidmətçisidir, bu sözlər amerikalı riyaziyyatçı Erik Bellə aid olsa da biz əsasən bu ifadənin birinci yarısını istifadə edirik. Bəli, zamandan və məkandan asılı olmayaraq müxtəlif sahələrdə mütəxəssislərin yetişməsində, inkişafında, bacarıqların təkmilləşdirilməsində riyaziyyat elminin

müstəsna rolu var. Yüksək bacarıqlara sahib kadrlar yetişdirmək üçün riyaziyyatı dərindən mənimsəmək mütləqdir. Riayziyyatçı yetişdirmək üçünsə bu elmə olan ilk maraq qığılcımını anlamaq və şagirdləri düzgün istiqamətləndirmək lazımdır. İnsanlar fiziki, fizioloji, əqli inkişaf mərhələlərini fərqli keçirlər, buna görə də riyaziyyata olan maraq bəzən 6-cı, bəzən 8-ci, bəzən 10-cu, bəzən isə lap erkən yaşda 3-4-cü siniflərdə yarana bilər. Kiçik məktəbli yaşlarında yaranan marağa ibtidai sinif müəllimləri şahid olurlar. Bu gün bizə elmə, riyaziyyata yaranan ilk qığılcımı, ilk sevgini görən və belə şagirdlərlə işləmək istəyən müəllimlərin çox olması maraqlıdır.

Ümumiyyətlə, ibtidai sinif müəllimləri və gələcək ibtidai sinif müəllimlərinin riyazi bilikləri olmalıdır, eyni zamanda riyaziyyatın didaktikasını, təlimin məzmunu, srtategiyası və metodikasını yüksək səviyyədə bilməlidir. Məlumdur ki, ibtidai sinif müəllimlərinin hal-hazırda işlə təmin olunması müsabiqə üsulu ilə aparılır. Əlbəttə, işlə təmin olunmaq üçünsə hər bir hazırlanan ibtidai sinif müəlliminin ilk növbədə riyaziyyat hazırlığı yüksək səviyyədə olmalıdır.

M.İ.İlyasov peşəkarlıq və səriştəlilyi müəllimin peşə fəaliyyətinin əsas atributları hesab edir və onun formalaşmasının əsası müəllim hazırlığı prosesində qoyulduğunu söyləyir. Buna görə də müəllimin pedaqoji peşəkarlığının və səriştəliliyinin formalaşmasına pedaqoji təhsil illərindən, yəni peşə biliklərinin aşılanması prosesindən başlanılmalıdır.(2)

Peşəkarlıq – müəllimin lazımi biliyə, bacarığa, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir. (3)

Səriştəlilik – müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir. (3)

Hal-hazırda Azərbaycanda gələcək ibtidai sinif müəllimlərinin riiyazi hazırlığı iki istiqamətdə aparılır: riyaziyyat fənnindən və riyazıyyatın tədrisi mettodikası üzrə. A. Puankare riyaziyyatın tədrisi metodikasına necə tərif vermək olar? sualını belə cavablandırır: "Bir filosof və ya alim üçün müəyyən edilə bilən bütün obyektlərə görə tərif vermək olar. Belə tərif məntiq qaydalarını qane edəcək. Amma öyrədən üçün hər şey başqa cürdür. Burada yaxşı bir tərif sadəcə başa düşülən bir tərif olacaq. Onu tətbiq etmək üçün isə hər bir öyrənciyə uyğün yanaşma olmalıdır. Çünki bir kəs üçün anlaşılan olan, digəri üçün uyğun olmaya bilər". (4)

Əlbəttə, riyaziyyatın tədrisi zamanı yaranan çətinliklər müxtəlif ola bilər. Bu çətinliklərinin bəzi yaranma səbəblərini belə sadalaya bilərik:

- Müəllimin riyazi biliklərinin aşağı olması;
- Müəllimin şagirdlərin psixoloji inkişaf dinamikasını izləməməsi;
- Keçirilən materail tam mənimsənilmədən yeni mövzunun tədrisinə yönəlmək;
- Bütün sinifə eyni tapşırıqların verilməsi, şagirdlərin hazırlığının və diqqətinin inkişafına fikir vermədən dərs keçmək.

Bu çətinlikləri necə aradan qaldırmaq olar? Fikrimizcə aşağıdakı yollar müəllimlərin riyaziyyatın tədrisi zamanı üzləşdiyi çətinliklərin aradan qaldırmasına kömək edə bilər:

- Müəllimlər hər zaman fənn hazırlığına diqqətlə yanaşmalıdır, ixtisasartırma kurskarında iştirak etməlidirlər;
- Şagirdlərin psixoloji portretini yaratmaq, onların hansı üsulla öyrənmə bacarıqlarının olmasını təyin etmək (audial, vizual, kinestetik və s.), sinifdəki şagirdləri bu xüsusiyyətlərlə qruplara bölmək və hər qrup üçün üsullar seçmək;
- Şagirlərin müxtəli tapşırıqlar vasitəsilə mövzunu tam mənimsətmək;
- Şagirdlərin diqqətini, təfəkkürünü və riyazi bacarıqlarını inkişaf etdirən mütləlif çalışmalar tərtib etmək. Diqqətin və təfəkkürün inkişafı təkcə riyaziyyat yox, digər fənnlərin tədrisi zamanı müəllimlərin köməyinə çatacaq.
- Diferensial təlim metodları ilə tanış olmaq, bəzən sinifdə şagirdlərin bir qismi yeni materialı çox tez və yaxşı mənimsəyərkən, darıxır, dərsi pozur, bu da digər qrup şagirdlərlə işi çətinləşdirir. Yaxşı mənimsəyən şagirdlər üçün hər zaman daha çətin, daha maraqlı , zəif oxuyan şagirdlər üçünsə daha asan, daha aydın çalışmaların olması mütləqdir.

Düşünürəm, ibtidai sinif müəllimləri bu məsləhətləri diqqətdə saxlasa şagirdlərin şəxsiyyət tipini təyin edib, öyrənmə üsullarını qeyd etsə dərləri məqsədəmüvafiq və effektiv keçə bilər.

TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metodlar şagirdlərin psixoloji portretinin təsvir edilməsi, diserensial təlimə əsaslanaraq dərslərin tədris olunması. Bu üsulla Bakı şəhərində 3 sinif olmaqla Bülbül adına orta ixtisas musiqi məktəbi aparılmışdır.

NƏTICƏ

Tədqiqat aparılmış siniflərdə şagirdlərin riyaziyyat fənnindən çətinlik çəkdiyi problemlər aradan qaldırılmış, dərslər daha effektiv və məqsədəmüvafiq aparılmlşdır.

ƏDƏBIYYAT SIYAHISI

1. İlyasov M.İ, Müəllim hazırlığı prosesində tələbələrdə peşəkarlıq və səriştəliliyin tərbiyə edilməsi yollar, Pedaqoji Universitetin xəbərləri, 2019: C.67, №1, s. 204-218
2. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri, Bakı, 2018: 2-18
3. А. Пуанкаре О науке, Под ред. Л.С. Понтрягина. М., 1990:3- 457-458
4. Э. Т. Белл Творцы математики Предшественники современной математики, 1979:4-136

1920-1940-CI İLLƏRDƏ AZƏRBAYCANDA PEDAQOJİ KADR HAZIRLIĞI

DÜRDANƏ ƏLİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
Pedaqogika
durdane.eliyeva.00@mail./ru
CƏLİLABAD, AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işində Azərbaycan Xalq Cümhuriyyətindən sonra 1920-1940-cı illərdə pedaqoji kadr hazırlığı məsələləri araşdırılmışdır. Məqalədə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra orta ixtisas məktəblərinin yenidən qurulması haqqında məlumatlar öz əksini tapmışdır. Eləcə də Respublikanın 12 qəzasında – Nuxa, Göyçay, Quba, Şuşa, Gəncə, Ağdaş, Lənkəran, Qazax, Qaryagin, Salyan, Şamaxıda 6 aylıq pedaqoji kursların, Qubada, Lənkəranda, Zaqatalada müəllim seminariyaları, Gəncədə Türk pedaqoji məktəbin fəaliyyəti ilə bağlı araşdırma aparılmışdır. 1920-1927-ci illər üzrə dərs keçmə hüququ qazanan müəllimlər haqqında statistik məlumat öz əksini tapmışdır. 1930-cu illərdə ali məktəblərin yeni formaları – 2 illik müəllim institutları Gəncə, Şuşa, Naxçıvan, Xankəndi və Nuxada yaradılması, 1936-cı ildə yaradılan Qiyabi Pedaqoji institutunun pedaqoji kadr hazırlığında oynadığı rol öz əksini tapmışdır. Tədqiqat işinin əhatə etdiyi illərdə Azərbaycan müəllimlərinin qurultayları və pedaqoji kadr hazırlığının inkişafında oynadıqları rol araşdırılmışdır.

AÇAR SÖZLƏR: pedaqoji kadr hazırlığı, pedaqoji texnikum, pedaqoji seminariyalar

GIRIŞ

Tədqiqat işinin əsas məqsədi 1920-1940-cı illərdə Azərbaycanda pedaqoji kadr hazırlığı məsələlərini təhlil etməkdir. Müəllim gələcəyin qurucusu və memarıdır. Biz pedaqoji kadr hazırlığı yönündə keçmişimizi öyrənməliyik ki, gələcəyimiz üçün daha mükəmməl mütəxəssislər yetişdirə bilək.

Məqalə xülasə, açar sözləri, giriş, tədqiqat metodu, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olduğundan bu hökumətin bir çox tədbirləri o cümlədən müəllim hazırlığı sahəsində nəzərdə tutulmuş planlar tamamlanmamış qaldı.

Azərbaycanda 1920-ci ildə sovet hakimiyyəti qurulduqdan sonra Rusiyada olduğu kimi xalq maarif sistemi də yeni prinsiplər əsasında təşkil edilməyə başlandı. Bununla da Azərbaycan xalq maarifi, məktəb təhsili və pedaqoji fikrinin yeni dövrü, sovet sosialist respublikası dövrü başlandı. Bu zaman Sovet Rusiyasının təhsil modeli – vahid dünyəvi məktəbi, ümumi icbari təhsil, qızlarla oğlanların birgə təhsili, təhsildə hüquq bərabərliyi və digər prinsiplər əsas götürüldü.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra orta ixtisas məktəblərinin yenidən qurulmasına başlanıldı. Bu ilk növbədə müəllim kadrları hazırlığı ilə reallaşdırılırdı. Bu illərdə A.O.Makovelski, A.A.Ammosov, B.B.Komarovski, P.P.Fridolin kimi rus alimləri Azərbaycan Dövlət Universitetində, M.F.Əfəndiyev, F.H.Məlikov, S.Hüseynov, A.Talıbzadə, F.Rzabəyli, H.Mahmudbəy və başqa təhsilli

mütəxəssislər Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, P.Qasımov, A.Əmirov, Ü.Hacıbəyov, C.Cəbrayılbəyli, Ş.Əfəndiyev, F.Köçərli, Z.Şaxtaxtinskaya, Ə.Zəküzadə, M.Hüseynov, H.Əfəndiyev kimi pedaqoqlar müəllimlər seminariyalarında böyük səy və fədakarlıqla çalışırdılar.

Müəllim kadrlarının hazırlanması istiqamətində də bir çox dəyişikliklər özünü göstərirdi. Belə ki, müəllim kadrlarının hazırlanması üçün pedaqoji institut, müəllimlər seminariyası, birillik kurslar açılırdı. İlk addım olaraq iki və üç aylıq pedaqoji kurslar açıldı. Daha sonra isə bu pedaqoji kursların müddədi altı aya çatdırıldı. 1921-ci il 30 iyul tarixində Respublikanın 12 qəzasında – Nuxa, Göyçay, Quba, Şuşa, Gəncə, Ağdaş, Lənkəran, Qazax, Qaryagin, Salyan, Şamaxıda istehsalatdan ayrılmadan 6 aylıq pedaqoji kurslar açıldı. 1921-ci ildə Qazax Müəllimlər Seminariyasında və digər qəzalarda açılmış seminariyalarda da buraxılış olmadığından bu yay pedaqoji kursları müəllim hazırlığına xeyli kömək etdi. 1921-ci ildə Azərbaycanda fəaliyyət göstərən 6 aylıq pedaqoji kursların sayı 41-ə çatmışdı. Bu kursların arxasıyca müəllim seminariyaları təşkil edildi. Sovetlər birliyi dövründə 1920-ci ildə Nuxa şəhərində ilk müəllimlər seminariyası açıldı. Elə həmin ildə Rəşid bəy Əfəndiyevin təşəbbüsü ilə Nuxa müəllimlər seminariyasının tərkibində ayrıca qadın şöbəsi yaradıldı və bu şöbə 1921-ci ildə müstəqil seminariyaya çevrildi.

Xalq Maarif Komissarlığı kollegiyasının 9 oktyabr 1921-ci ildə qəbul etdiyi Müəllimlər seminariyası haqqında əsasnamə bu tədris ocaqlarının sonrakı inkişafında mühüm rol oynadı. Seminariyaların yeni tədris planları təsdiq edildi və qəbul qaydaları müəyyən edildi. Qubada, Lənkəranda, Zaqatalada müəllim seminariyaları, Gəncədə Türk pedaqoji məktəbi təşkil edildi.1925-ci ildən seminariyalar pedaqoji texnikumlara çevrildi. Artıq 1930-1935-ci illərdə Azərbaycanda 20 pedaqoji texnikum fəaliyyət göstərirdi. Burada 5854 tələbə (o cümlədən 1248 qız) təhsil alırdı.

1920-1925-ci illərdə müəllim kadrları hazırlığında müəyyən irəliləyişlər oldu. Bir sıra şəhərlərdə müəllimlər seminariyası açıldı. 1924-cü ildə çağırılmış Azərbaycan Kommunist Partiyasının 6-cı qurultayı müəllimlərin yüksək səviyyədə təkmilləşməsini diqqət mərkəzində saxlamağı qeyd etmişdir. Bu qurultaydan sonra Maarif Nazirliyi 3 aylıq müəllimlər kursunu genişləndirmək qərarına gəlmişdir. Maarif Komissarlığı tərəfindən göstərilən bu diqqət nəticəsində 1920-1923-cü il 31 yanvar tarixinə qədər 2365 müəllim bu kurslar vasitəsilə təkmilləşmədən keçmişdir. (Azərbaycan Mərkəzi Statistika xəbərləri idarəsi 1924-cü il. №1, B 1/8 . səh 62.) Statistikaya görə:

-1920-1921-ci illərdə - 1565 müəllim;

-1923-cü ildə - 800 nəfər;

-1924-cü ildə - 1213 nəfər;

-1925-ci ildə - 1270 nəfər;

-1926-cı ildə - 1290 nəfər;

-1927-ci ildə - 600 nəfər müəllim bu kursları keçib ibtidai məktəblərdə dərs demək hüququ almışdır. (Azərbaycan Mərkəzi Statistika xəbərləri idarəsi 1924-cü il. №1, B 1/8 . səh 62.) Sonralar məlum oldu ki, çox yüksək keyfiyyətlə başlamış "yay kursları" özünün əvvəlki keyfiyyətini vermir.

1925-1926-ci tədris ilində Azərbaycanda 16 pedaqoji texnikum fəaliyyət göstərirdi. Bunların nəticəsi idi ki, həmin dönəmdə müəllimlərin sayı 5 min nəfəri ötüb keçmişdir. AXC dövründə başlamış əlifba islahatı yenidən canlandı və yeni türk əlifbası komitəsi yaradıldı. Beləliklə, tədricən ərəb əlifbası ilə yanaşı latın əlifbası da istifadəyə başlandı. 1926-cı ildə Bakıda çağırılmış Birinci Beynəlxalq Türkoloji Qurultayı latın əlifbasına keçidi qərara aldı. Lakin bu o qədər də uzun çəkmədi. 1939-cu ildə ruslaşdırma siyasətinin nəticəsi olaraq latın əlifbası rus qrafikası ilə əvəz edildi.

Bu illərdə bir-birinin ardınca yeni ali məktəblər yarandı. 1921-ci ildə Bakı politexnik institutu və Azərbaycan kişi pedaqoji institutu – indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti yaradıldı, Azərbaycan məktəbəqədər tərbiyə institutu təşkil edildi. Bu institut sonralar Ali Qadın Pedaqoji İnstitutuna çevrildi. Həmçinin, 1921-ci ildə Dövlət Konservatoriyası və Ali İncəsənət məktəbi təsis edildi. Ali məktəblərdə əvvəllər tədris rus dili ilə yanaşı Azərbaycan dilində də aparılırdı. Ali məktəblərin şəbəkəsi getdikcə artmağa başladı. Gəncədə Kənd Təsərrüfatı İnstitutu, Bakıda Neft İnstitutu təsis edildi. Bakı Dövlət Universitetinin bazası əsasında 4 müstəqil ali məktəb – tibb institutu, pedaqoji institut, Sovet quruculuğu və kooperativ institutu yaradıldı. Belə ki, 1930-cu illərdə Azərbaycanda 19 ali məktəb fəaliyyət göstərirdi. 1930-ci illərdə Azərbaycanlı gənclərin böyük bir dəstəsi Rusiya və Avropa dövlətlərinin ali məktəblərində təhsil alırdılar. Bu vaxtlar ali məktəblərin yeni formaları – 2 illik müəllim institutları *Gəncə, Şuşa, Naxçıvan, Xankəndi və Nuxada yaradıldı,* ali məktəblərin qiyabi və axşam şöbələri açıldı. 1936-cı ildə yaradılan Qiyabi Pedaqoji institutu natamam orta məktəblərin müəllimlərə olan ehtiyacını ödəmək işində mühüm rol oynamışdır.

Azərbaycan müəllimlərinin IV qurultayı 1925-ci ildə çağırıldı. Qurultayın çağırılma məqsədi "əməkçi balalarından həqiqi insan yetişdirmək siyasətinin mərkəzində duran işçi-kəndli qardaşlıq ittifaqının dərinləşməsi və möhkəmləndirilməsi məsələsinə daha artıq diqqət yetirmək" və s. kimi məqsədlərə çatmaq üçün mübarizə meydanına atılan sarsılmaz bir qüvvə hesab etməsi idi.

Müəllimlər qurultaylarında uşaq və gənclərin təhsilinin vəziyyəti, onu yaxşlaşdırmaq yolları, məktəbin qarşısında duran vəzifələr müzakirə edilirdi. Qurultaylarda Azərbaycan məktəbinin inkişafına mane olan məsələlər daim diqqətdə saxlanılmışdır.

XX əsrin 30-40-ci illərindən fəaliyyətə başlayan Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun pedaqoji elmlər üzrə aspiranturası yaradılır. Oranın ilk aspirantları Ə.Seyidov, M.Mehdizadə, S.Xəlilov, Z.Axundova, Q.Məmmədov və D.Mustafayeva olmuşlar. İlk təhsillərini Azərbaycanda aldıqdan sonra daha yüksək ixtisaslı alimlərdən kömək almaq üçün Moskvaya ezam olunurlar. 1935-ci ildə isə pedaqogika və psixologiya üzrə aspiranturaya 13 nəfər gənc müəllim qəbul edilir. Bu zaman M.Muradxanov, Əmir Tağıyev, Ə.Həsənov Leninqrada göndərilir. Həmin gənc müəllimlər dərs deməklə kifayətlənmir, elmi-tədqiqat əsərləri üzərində çalışaraq valideynlər arasında pedaqoji birlikləri təbliğ edirdilər.

Müəllimlərin 1931-ci ildə V qurultayı və 1946-cı ildə isə VI qurultayı baş tutmuşdur. VI qurultayda 7 yaşından başlayaraq gənc nəslin 7 illik təhsil həcmində ümumi məcburi təhsilin yerinə yetirilməsi, eləcə də müəllimlərin ixtisası və pedaqoji elminin öyrənilməsi kimi məsələlər qurultay iştirakçılarının diqqət mərkəzində olmuşdur. Qurultayın sənədlərində qeyd edilirdi: "Müəllimsiz nə məktəb, nə də pedaqoji sistem ola bilər. Hər bir məktəbdə təlim və tərbiyənin keyfiyyəti müəllimdən asılıdır. Müəllimin hazırlıqlı, elmi-nəzəri biliyi, pedaqoji təxrübəsi, müəllimlik sənətinə məhəbbəti təlim-tərbiyənin keyfiyyətini müəyyən edir".

TƏDQIQAT METODU

Elmi-tədqiqat işi deduktiv və nəzəri təhlil metodları əsasında aparılmış və bunun əsasında mənbələrdən məlumat toplanmışdır.

NƏTICƏ

Apardığımız tədqiqat işinin əsasında belə nəticəyə gəlirik ki, pedaqoji kadr hazırlığı istiqamətində Azərbaycanda başlayan oyanma 1920-1940-cı illərdə də davam etdi. Azərbaycanda maarifçilik ideyalarının inkişafını, yerli pedaqoji kadrların hazırlanması və ziyalılar ordusunun formalaşmasını gücləndirmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1.Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Elm və təhsil nəşriyyatı (Kitab). Bakı/Azərbaycan. 2014: 432 s.

2.Əmrəhov M., Salahov M., Əsədov N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941). Mütərcim nəşriyyatı. Bakı/Azərbaycan. 2008

3.Hüseynzadə R. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. (Kitab). Bakı/Azərbaycan. 2020:

4.Seyidov F. Ə. Azərbaycan pedaqoji fikir tarixindən səhifələr. Çaşıoğlu nəşriyyatı(Kitab). Bakı/Azərbaycan. 2002, 324 s.

5.Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Ünsiyyət nəşriyyatı(Kitab). Bakı/Azərbaycan. 2000, 516 s.

WAYS TO DEVELOP COMMUNICATIVE READING SKILLS IN A FOREIGN LANGUAGE

ELVIRA LABIBOVA
Department of Foreign languages
Baku Engineering University, Baku, Azerbaijan
elebibova@beu.edu.az

ABSTRACT
Of all the types of speech activity in a foreign language, reading is important. It is a key factor and plays a big part in successful language learning. This article investigates the ways to develop communicative reading skills in a foreign language learning. Furthermore, this article also determines how reading can be made articulate and smooth.
Key words: reading, communication, reading comprehension, vocabulary knowledge, independent thinking

INTRODUCTION

Reading is one of the most effective ways of foreign language learning as we mentioned. In order to introduce learners to reading in a foreign language, it is cruical to stimulate the motivation of reading and to ensure the success of its flow with the help of appropriate tasks for exercises. In a foreign language we need to identify the role of reading and its place in the learning process in the formation and development of reading skills. Reading is an important way to gain information in a foreign language learning and refer to the specific abilities that enable a person to interact with the message.

Although reading is a required skill in foreign language teaching, there are still problems and difficulties in its proper organization and teaching process. It should be noted that, the correct development of reading activities and skills lays the foundation for independent thinking as the key to effective communication. The formation of reading activities in a communicative environment increases the ability of students to express their opinions orally and in writing, gives them the ability to read consciously.

We can also say that, by reading technique we mean not only the ability to read quickly and correctly, but also the ability to extract information from the text. Based on this, teaching the technique of reading in a foreign language should be carried out on well-known lexical material already learned in oral speech.

What's more, for effective reading in a foreign language, it is important to formulate such skills as: reading by keywords, work with a dictionary, work with transcription.

Let's also add that, effectively set reading tasks in foreign language lessons gradually lead to the following learning outcomes. Here you can see some examples: students will be able to understand a text built on familiar speech material; students sufficiantly mastr studying, introductory reading, as well as elements of viewing reading; students should be able to retell the text without any difficulties, as well as independently solve the tasks set by the teacher for the text.

METHODOLOGY

This article aims to reveal how communicative reading can be improved in language learning. It is a known fact that lack of vocabulary makes students stumbling and hesitant in reading. In this case, teachers may engage their students in worthwhile activities, such as providing appropriate and interesting reading texts in order to enable to communicate what they have read. Similarly, reading outside the classroom is the most significant influence on oral communication ability. Students who read a lot are more likely to speak well. Students through reading develop in both fluency and accuracy of expression in their speaking.

Reading will help learners to recognize new words that they need for conversations. Through reading, language learners will have vocabulary knowledge, which will facilitate their speaking performance and their usage of structure in the target language will develop. These components, which are required through reading, are all crucial for developing speaking skills.

In addition, Williams suggests the importance of reading in a foreign language. We can use the following statements according to his opinions:

"Learners can have further practice in the language that they have learnt; learners can practice language in order to reuse it in other skills such as speaking and writing; learners can learn how to get benefit from the texts to extract the information they need; learners can find enjoyment or interest through reading." (1, p. 13)

"Alderson J.C. states that 'reading is built from two components: word recognition and comprehension." (2, p. 12). "Krashen and Terrell point out that 'reading enables the learners to comprehend better which is an important factor that can develop language competence they need for conversations." (3, p. 88). In this way, language learners can acquire vocabulary that can also make it easier for them to speak and use the structure of the target language. From this point of view most people recognize the important relationship between knowing words and reading well. "Eskey, cementing this notion states that 'the relationship between reading and vocabulary is well documented and reciprocal." (4, p. 567)

Dubin and Olshtain assert : "Through extensive reading, learners learn much vocabulary." (5, p. 97). They emphasize the benefits of extensive reading as students develop an ability to gain pleasure and also satisfaction from reading on their own in the language they are learning.

Another key point to remember is that reading has also an effect on other language skills such as writing and speaking. It goes without saying that, accuracy and fluency of learners will get better through reading. Reading not only introduces learners to a greater extent of language and contexts, but also helps learners in building up grammar skills. Good knowledge of grammar is viewed as an essential aspect for achievement in a foreign language learning.

Since reading is one of the most important types of communicative and cognitive activity of students, it is very important to form the motivation for reading. It is a means of culture, a means of information and educational activities and comprehensive development.

CONCLUSION

This study aimed at the ways to develop communicative reading skills in a foreign language learning. Reading will help you to develop your ability to express ideas, whilst also enlarging the size of vocabulary. All things considered, we can say that, reading helps learners build up better grammar skills. As learners develop stronger reading skills, they develop more sophisticated speaking skills.

REFERENCES

1. Williams, E. 1984, (11), p.13. Reading in the Language Classroom. London: Macmillan Publishers Ltd.
2. https://resilienteducator.com/classroom-resources/5-ways-to-help-students-improve-reading-skills/
3. Alderson, J. C. (2000) *Assessing Reading*. Cambridge: Cambridge University
4. https://www.lucidity.org.uk/5-ways-reading-will-boost-your-communication-skills/
5. Eskey, D. (2005). Reading in a SecondLanguage. In E. Hinkel (Ed), Handbook of research on Second language teaching and learning (pp. 563-580). Mahvah, NJ: LawrenceErlbaum.
6. https://www.waterford.org/resources/tips-to-help-students-build-better-reading-skills/
7. https://study.com/academy/lesson/teaching-methods-to-promote-reading-skills-in-adults.html
8. https://greatspeech.com/7-tips-for-improved-reading-comprehension-for-adults/
9. https://blog.prepscholar.com/how-to-improve-reading-comprehension

ŞƏXSİYYƏTİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

FIDAN BAYRAMOVA
Azərbaycan Dövlət Pedaqoji Universitet
Məktəbəqədər təhsil/ Məktəbəqədər təhsilin pedaqoqikası
fidanbayramova1990@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Şəxsiyyətin inkişafında mühitin, irsiyyətin və tərbiyənin çox böyük rolu vardır. Şəxsiyyət – onu əhatə edən mühitdə fərdin sosialaşması, ətrafla ünsiyyəti və qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Şəxsiyyət təkcə cəmiyyət, sosial mühit tərəfindən formalaşmır, həm də təhsilindən, peşəsindən, sosial statusundan və fəaliyyətindən asılı olaraq onlara təsir göstərir. Bizim yaşadığımız dövrə nəzər salsaq irsiyyətin rolunun daha ön planda olduğunu görərik.İrsiyyət, mühit, tərbiyə və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlı olub, bir-birini şərtləndirir. İnsan şəxsiyyəti bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji və sosial amillərin özünə məxsus rolu vardır. İnsan mühitin və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir, mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir.

AÇAR SÖZLƏR: İrsiyyət, Mühit, Tərbiyə

GIRIŞ

İnsan şəxsiyyəti bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji və sosial amillərin özünə məxsus rolu vardır.

İrsiyyətin rolu. İnsan bioloji varlıq kimi doğulur, buna görə də irsiyyət qanunu ona öz təsirini göstərir. İrsiyyətin maddi daşıyıcıları genlərdir. İrsən fiziki əlamətlər (qamət, sifət quruluşu, gözün və saçın rəngi və s.), habelə fizioloji əlamətlər (sinir sisteminin tipi, sinir hüceyrələrinin miqdarı və s.) nəsildən-nəslə keçir.

Bəzi empirik faktlar əsasında qabiliyyətlərin irsən keçməsi haqda müəyyən rəylər irəli sürülür. Məsələn, dünya şöhrətli bəstəkarlardan Baxın 16, Ü.Hacıbəyovun 4 nəslinin öyrənilməsi əsasında bu nəsillərdə çoxlu musiqiçi olduğu müəyyən edilmişdir. Lakin bu fikri təkzib edən digər faktlar da vardır. Belə ki, A.S.Puşkinin 256 nəvə, nəticə və kötükcəsi içərisində heç bir şair və yazıçı olmamışdır.

İnsan nə hazır qabiliyyətlə, nə də "ağ lövhə" kimi doğulur. O, müəyyən təbii imkanlarla dünyaya gəlir. Təbii imkanlara sinir sisteminin və beyin quruluşunun xüsusiyyətləri, analizatorlar sistemi (görmə, eşitmə, danışıq aparatı və s.) daxildir. İnsan genləri və onların mutasiyaları ilə kombinasiyaları həddən artıq çox olduğu üçün (insanın hər bir hüceyrəsindəki xromosomlarda təxminən 20 min gen olur) tam eyni irsi imkana malik olan iki adam tapmaq çətindir.

İnsanın təbii imkanları dəyişməz deyildir. Onlar həyat şəraitinin, tərbiyə və mühitin təsiri ilə dəyişə bilər.

Mühitin rolu. İnsan müəyyən mühitdə doğulur və böyüyür. Buna görə də istər-istəməz həmin mühitin təsirinə məruz qalır. "Mühit" anlayışı məzmunca geniş olub, insana təsir göstərən xarici amillər sistemini - insanın həyat və fəaliyyəti üçün zəruri olan təbii və ictimai şəraiti əhatə edir.Mühit insana müsbət və ya mənfi təsir göstərə bilər. İnsanlar üçün yaradılan əlverişli mənzil-məişət şəraiti, mədəni-maarif, təhsil və sağlamlıq ocaqları, əmək və istirahət şəraiti, insan münasibətləri şəxsiyyətin inkişafına güclü təsir göstərən sosial mühit amillərinə daxildir. Şəxsiyyətin formalaşmasına sosial mühit daha çox təsir göstərir. Sosial mühit iki cürdür: mikro və makromühit. Mikromühit insanı bilavasitə əhatə edən mühitdir (ailə, məktəb, məhəllə, yoldaşlıq mühiti). Makromühit isə cəmiyyət həyatıdır, geniş sosial mühitdir. İnsanın inkişafına hər iki mühit güclü təsir göstərir. Kiçik yaşlarda mikromühitin təsiri böyükdür. Körpəlikdən heyvan sürüsünə düşən uşaqların həmin heyvanın xüsusiyyətlərini götürməsi faktları məlumdur. Mikromühit geniş sosial mühitin tərkib hissəsidir. Cəmiyyətdə gedən proseslər ailədə, məktəbdə, əmək kollektivlərində də özünü göstərir. Cəmiyyətin demokratik xarakteri, hüququn aliliyi, ədalət prinsipləri şəxsiyyətin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Valideynlərdən biri məşhur fizik Pifaqordan soruşmuşdu: "Övladımı ağıllı, tərbiyəli böyütmək üçün mən nə etməliyəm?" Böyük alim demişdi: "Əgər övladınız ədalətli cəmiyyətdə yaşayarsa, heç nədən narahat olmayın. Əks halda verdiyiniz tərbiyənin də müsbət nəticəsi olmayacaq". Cəmiyyət həyatı, onun tələbatları, maddi və mənəvi sərvətləri tərbiyə işində həlledici şərtdir. Şəxsiyyətin tələbatlarını, mənəvi sərvətlərini də cəmiyyət müəyyən edir.

Tərbiyənin rolu. Şəxsiyyətin inkişafında tərbiyə böyük təsir gücünə malikdir. Mühit insana kortəbii, bəzən də mənfi təsir göstərdiyi halda, tərbiyə məqsədyönlü və planlı təsirdir. İnsanın mühitə münasibəti tərbiyə ilə

bağlıdır, onunla tənzim olunur. Tərbiyə mühitin müsbət cəhətlərinə istinad edir, onun mənfi təsirlərini neytrallaşdıra bilir. O, insanda mühitin zərərli təsirlərinə qarşı müqavimət gücü formalaşdırmağa qadirdir. Bunun nəticəsidir ki, heç də hamı mühitin mənfi təsirinə eyni dərəcədə məruz qalmır. Tərbiyə insanın təbii imkanlarının üzə çıxarılması və inkişafına kömək göstərir. O, uşaqların həyat və fəaliyyətini təşkil etməklə onların maraq və qabiliyyətlərinin inkişafına əlverişli şərait yaradır. Son dövrlərdə respublikamızda idmanın və bədii yaradıcılığın müxtəlif sahələrində gənc istedadların (o cümlədən qızlar arasında) yetişməsi yaradılmış əlverişli şəraitin və tərbiyənin nəticəsində mümkün olmuşdur. Çünki istedad qayğı və şərait tələb edir. Tərbiyə şəxsiyyəti "layihələşdirir", onun ahəngdar inkişafını istiqamətləndirir. Müxtəlif fəaliyyət növlərində iştirak etməklə uşaq müxtəlif tərbiyə keyfiyyətləri, düzgün davranış adətləri qazanır, ictimai varlıq kimi, şəxsiyyət kimi formalaşır. Cəmiyyətin, müəllim və valideynlərin tələbləri tədricən insanın daxili tələblərinə və mövqeyinə çevrilərək, onun rəftar, davranış və fəaliyyətini tənzim edir. Beləliklə, təhsil özünütəhsillə, tərbiyə isə özünütərbiyə ilə qovuşur.

Şəxsiyyətin formalaşmasında insanın şəxsi fəallığının rolu. İnsan mühitin və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir, mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, çox şeydən məhrum olar, öz məqsədinə çata bilməz. İnsanın şəxsi fəallığı müxtəlif formalarda təzahür edir: zehni, əmək, fiziki, bədii, ictimai-siyasi fəallıq. Uşaq və gənclərin şəxsi fəallığının əsas vasitəsi onları müxtəlif fəaliyyət növlərinə cəlb etməkdir. Təlim fəaliyyəti insanın bilik və bacarıqlara yiyələnməsinə, ideya-mənəvi tərbiyəsinə və psixi inkişafına kömək göstərir. Əmək fəaliyyəti gənc nəslin əmək və peşə hazırlığında, əxlaqi və fiziki tərbiyəsində, xarakter və iradənin formalaşmasında böyük rol oynayır. İctimai fəaliyyət prosesində yeniyetmə və gənclər sosial təcrübə qazanır, ünsiyyət mədəniyyətinə, kollektivçilik keyfiyyətlərinə yiyələnirlər. Nəzərdən keçirilən amillər - irsiyyət, mühit, tərbiyə və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlı olub, bir-birini şərtləndirir. Şəxsiyyət – onu əhatə edən mühitdə fərdin sosialaşması, ətrafla ünsiyyəti və qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Şəxsiyyətin formalaşması üçün motivasiya mühim şərtdir. Düzgün seçilmiş motivlər şəxsiyyəti məqsədəuyğun fəaliyyətə təhrik edir. Ən əsası bu motivlər onun maraqlarını əks etdirməlidir. Maraqlar onun daxili tələbatlarının təzahürləridir. Şəxsiyyətə düzgün təsir etmək üçün maraqların lazımı qaydada ödənməsi zəruridir. Maraqların təmin edilməsi şəxsiyyətin bilik və bacarığındakı çatışmamazlıqların aradan qaldırılmasına və onun bir bütöv kimi formalaşmasına kömək edir.Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümu¬miyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.İnsanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s. görə deyil şəxsiyyətlərinin xarakte¬ristikasına görə də bir-birlərindən fərqlənirlər. İnsanları göz¬lərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiy¬yətlərinə görə xarakterizə etməyə nisbətən onları bir şəxsiyyət kimi xarakterizə etmək olduqca çətindir. Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır.Şəxsiyyət olmaq üçün müəyyən dövrlərdən keçmək, və təcrübə toplamaq lazımdır. İnsan bir fərd olaraq dünyaya gəlir, şəxsiyyət olması üçünsə fərdin nələrisə görməsi və yaşaması lazımdır. Müasir dövrümüzdə şəxsiyyət necə olur sualı ilə qarşı-qarşıya qalırıq. Və bu haqqda müxtəlif seminarlar, məqalələr çap olunur. Belə bir sual yaranır ki, həqiqətən şəxsiyyət deyən zaman nə nəzərdə tutulur? Bu anlayış yalnız fərdi şəxsə münasibətdə və üstəlik, onun inkişafının yalnız müəyyən mərhələsindən başlayaraq istifadə olunur. Yeni doğulmuş və ya kiçik bir uşağın şəxsiyyəti haqqında danışmaq olmaz. Sözün konkret mənasında insan öz dünyagörüşünə, öz mövqelərinə və həyata açıq münasibətinə malik olan insandır. Şəxs olmaq təkcə cəmiyyətdə müəyyən yer tutmaq deyil, həm də varlığın məcmusunda müəyyən yer tutmaq, müəyyən tam və orijinal kainat yaratmaqdır. İnsan şəxsiyyəti üçün onun həqiqiliyi, bütövlüyü məsələsi bəzən insanın özünü qorumaq məsələsindən daha dəyərlidir. Şəxsiyyət təkcə cəmiyyət, sosial mühit tərəfindən formalaşmır, həm də təhsilindən, peşəsindən, sosial statusundan və fəaliyyətindən asılı olaraq onlara təsir göstərir. Bu prosesdə müəyyənedici rol şəxsiyyətin fəaliyyəti üçün müvafiq şərait yaradan cəmiyyətə məxsusdurBiz şəxsiyyət anlayışı ilə yanaşı, şəxsiyyət, fərd, fərdilik kimi terminlərdən də istifadə edirik. Bütün bu anlayışların spesifik xüsusiyyətləri var, lakin hamısı bir-birinə bağlıdır. Ən ümumi, inteqrativ anlayış insan anlayışıdır - həyatın inkişafının ən yüksək mərhələsini, ictimai və əmək proseslərinin məhsulunu, təbii və sosialın qırılmaz vəhdətini təcəssüm etdirən varlıqdır.şəxsiyyət çox səviyyəli bir təşkilata malikdir. Şəxsiyyətin psixoloji təşkilatının ən yüksək və aparıcı səviyyəsi – onun ehtiyac-motivasiya sahəsi – fərdin oriyentasiyası, onun cəmiyyətə, fərdlərə, özünə və əmək vəzifələrinə münasibətidir. Bir insan üçün təkcə mövqeyi deyil, həm də münasibətlərini reallaşdırmaq bacarığı vacibdir. Bu, insanın fəaliyyət imkanlarının inkişaf səviyyəsindən, onun qabiliyyətlərindən, bilik və bacarıqlarından, emosional-iradi və intellektual keyfiyyətlərindən asılıdır.Şəxsiyyətin keyfiyyətləri onun praktik əlaqələrinin

dairəsi, cəmiyyət həyatının müxtəlif sahələrində iştirakı ilə müəyyən edilir. Yaradıcı insan bilavasitə sosial mühitdən kənara çıxır, özünü daha geniş sosial bazada formalaşdırır. Cəmiyyətin perspektivi şəxsiyyətdə özünü göstərə bilər. O, gələcək cəmiyyəti indiki vəziyyətindən qabaq təcəssüm etdirə bilər. Şəxsiyyətin təcrid olunması onun qapalı qrupun dar çərçivəsindən müstəqilliyi deməkdir, şəxsiyyətin inkişafının göstəricisidir. Şəxsiyyətin həyat yolu konkret tarixi sosial məkanda olur. Maddi şəraitin istehsalının, istehlak sferasının, ictimai münasibətlərin özəlliyi insanın həyat tərzini, davranışının sabit orijinallığını və son nəticədə şəxsiyyət tipini müəyyən edir. Hər insan əlbətdə bir insandır. Ancaq hər kəsin güclü bir şəxsiyyət olduğunu söyləmək olmaz. Burada söhbət fiziki gücdən deyil, insanın xarici şərtlərə müqavimət göstərməsinə və nə olursa olsun öz inancına sadiq qalmasına imkan verən ruh xüsusiyyətlərindən gedir. Əlbətdə ki, güclü şəxsiyyətlər də baxışlarını yenidən nəzərdən keçirirlər. Baxışlarını diametral zidd olanlara dəyişdirdikləri olur, lakin bu həmişə dəyərlərin və həyat inanclarındakı dəyişikliklərin təsiri altında baş verir, kənardan gələn təzyiqlər üzündən deyil. Hər hansı bir güclü şəxsiyyət həyat yolunu aydın şəkildə görmək və yolundan azmadan onu izləmək qabiliyyətinə malikdir.Çox vaxtı şəxsiyyət insanin xarakteri ilə əlaqələndirilir. Xarakter həyatda qazanılmış davranış formasıdır. Heç kim anadan tənbəl və ya işgüzar, kobud və ya mehriban, qəddar və ya ürəyiyumşaq, səliqəli və ya pinti, təvazökar və ya xudbin doğulmur. Bu kimi keyfiyyətləri həyat prosesində, tipik şəraitin, təlim və tərbiyənin təsiri altında əldə edir. Həmin əlamətlər həmin insanın xarakterini təşkil edən tipik əlamətlər kimi formalaşır və tipik şəraitdə dərhal özünü göstərməyə başlayır.Həyat faktlarından göründüyü kimi, insan xarakteri çoxcəhətli xüsusiyyətlərə malikdir. İnsan xarakterində müxtəlif özünəməxsus əlamətləri müşahidə etmək mümkündür. Bu əlamətlər bir-birindən ayrı deyil, birləşərək xarakterin vahid strukturunu yaradır.Psixoloqların apardıqları araşdırmalara görə, insanın münasibətləri xarakter əlamətlərinin fərdi özünəməxsusluğunu iki cəhətdən müəyyənləşdirir:Birinci, insanın düşdüyü hər bir tipik şəraitdə emosional həyəcanlarının fərdi özünəməxsusluğu insanın münasibətlərindən asılıdır. Həyati faktlar xarakterin hər bir xüsusiyyətinin bu cür tipik şəraitdə özünü büruzə verdiyini ggöstərir. İkincisi, hər bir tipik şəraitdə insanın özünü göstərən davranış formasının özünəməxsus fərdi xüsusiyyətləri də onun münasibətindən asılıdır.İnsanın xarakteri adətən sosial amillərin təsiri altında formalaşır. Xarakterin formalaşması problemini nəzərdən keçirərkən onun eyni zamanda həm sabit, həm də dəyişkən olması prinsipini tətbiq etmək lazımdır. Bundan başqa, şəxsiyyətin ən vacib xüsusiyyətlərindən biri olan xarakter – ictimai tarixi bir kateqoriyadır, ona görə də insanın xarakterinin formalaşmasından danışarkən həmişə sosial şərtlərin təsirini nəzərdə tutmaq lazımdır. İnsanın xarakterinin formalaşmasına sosial mühitin təsiri hər şeydən əvvəl müxtəlif ictimai formasiyalarda tipik xarakterlərin müqayisəsi ilə sübut edilir.Xarakterin formalaşmasına eyni zamanda bioloji şərtlər də təsir edir. Ancaq, xarakterin formalaşmasına irsi təsirin əhəmiyyətli roluna isnad edərkən çox ehtiyatlı olmaq lazımdır. A.N.Leontyevin sözlərilə desək, bioloji irsilik əhəmiyyətsiz sayılmır, ancaq mənimsəmə prosesi ilə müqayisədə o asılı vəziyyətdə olur. İnsanlar bir-birilərinə xarakterlərinin düzgün formalaşmasında kömək etməlidirlər. Yəni ki, öz xarakterini sevməyən, insanlar tərəfindən kənarlaşdırılan şəxslərə kömək edib, mənfi keyfiyyətləri yox etmək olar. Xarakter deyişməz olduğunu deyirlər. Hətta belə bir ifadə var ki, ilan qabığını dəyişər, xasiyyətini yox. Tebiki, insanın illərdi olduğu birisindən başqa birinə çevirmək mümkün deyil. Ancaq , həyat yolunda müəyyən istiqamətlər vermək olar. Sözsüz ki, bu çətin bir proses olacaqdır. Bu cür dəyişmələri psixoloqların vasitəsilə etmək mümkündür. Müasir ailələr çalışmalıdır ki, dünyaya gətirdikləri uşaqlar da, gözəl əxlaqı keyfiyyətlərə malik xarakter yetişdirsinlər.

TƏDQIQAT METODU

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki,şəxsiyyətin inkişafına təsir göstərən irsiyyət,tərbiyə və mühitin insan həyatında rolu danılmazdır.

NƏTICƏ

Nəticə olaraq bildirmək istərdim ki, şəxsiyyətin hərtərəfli inkişafı üçün bütün sadaladığımız amilləri önəmsəmək, yeri gəldikdə onlardan istifadə etməyi bacarmalıyıq.

ƏDƏBIYYAT SIYAHISI

İstinad edilmiş ədəbiyyat siyahısı qeyd edilir. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:

1.Şəhla Əliyeva “Məktəbəqədər təhsilin aktual problemləri”. BAKI-“ELM” 2010 Səh:18.
2.Raya Mursaqulova,Nazimə Rüstəmova “Məktəbəqədər Pedaqogika” .Bakı-2012 II FƏSİL səh:15-25.
3.Şəhla Əliyeva “Məktəbəqədər Pedaqogika” . Bakı-2013. I FƏSİL 2.4. səh:36.
4.Ş.Əliyeva ,M.İlyasov,R.Əliyev,Ə.Baxşəliyev,F.Rüstəmov,N.Hüseynova “Humanist Pedaqogikanın aktual məsələləri” Bakı-2018 səh:62.
5.Zenfira Vəliyeva “Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi” Bakı-2012 IV Fəsil səh:116.

KİMYA KURSUNDA METALLAR MÖVZUSUNUN ƏTRAF MÜHİTLƏ ƏLAQƏLİ TƏDRİSİ

ARZU PAŞAYEVA
Bakı Dövlət Universiteti
KimyaKimyanın tədrisi metodikasıı
Pasayeva-1969@mail.ru
BAKI, AZƏRBAYCAN

ELNARƏ ZAMANLI
Bakı Dövlət Universiteti
Kimya/Kimyanın tədrisi metodikası
Elnare.zamanli@mail.ru
BAKI,AZƏRBAYCAN

NASİM ABIŞOV
Bakı Dövlət Universiteti
Kimya/Pedaqoqika
nasimabishov@gmail.com
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Orta məktəb kimya kursunda IX sinifdə metallar bölməsinin tədrisinin ətraf mühitlə əlaqələndirilməsi imkanlarının öyrənilməsi məsələlərinə həsr olunmuşdur.

AÇAR SÖZLƏR: Metal,ətraf mühit,ekoloji bilik, ətraf mühit

GİRİŞ

Kimya kursunda Metallar mövzusunun tədrisində şagirdlərdə ekoloji bilik və bacarıqların formalaşdırılması aktuallıq kəsb edir.Müəllim metalların alınması üsulları haqqında geniş məlumat verildikdən sonra onların filizlərdən emalı prosesi şagirdlərin diqqətinə çatdırılmalıdır. Filiz - metal almaq üçün yararlı xammaldır. Müəllim tədris prosesində təbii sərvətlərin çıxarılması və emalı prosesində insan fəaliyyətinin ikili təbiəti (mənfi və müsbət) haqqında məlumatları şagirdlərə izah etməlidir. İnsanın təbii sərvətlərdən faydalanmaq istiqamətində istifadəsi, onun çıxarılması, emalı və tətbiqi ilə bağlı fəaliyyəti müsbət və bu proseslər zamanı ətraf mühitə edilən zərərli təsirlər isə mənfi fəaliyyət hesab olunur. Burada şagirdlərə izah edilir ki, insanlar elə etməlidirlər ki , təbiətlə münasibətdə ona mənfi təsir etməsinlər. Bu məqsədə nail olmaq üçün insanlar öz fəaliyyətinin ətraf mühitə nə kimi mənfi təsiri olacağını qabaqcadan proqnozlaşdırmağı bacarmalıdırlar.Şagirdlər belə nəticəyə gəlirlər ki , Respublikamızın kimya sənayesinin inkişaf etdirilməsi üçün zəngin təbii sərvətlər vardır. Müəllim şagirdlərin diqqətinə çatdırılmalıdır ki, elm və texnikanın artan tələbatının ödənilməsi, faydalı qazıntılardan istifadəsini artırmışdır. Təbii sərvətlər olmadan yaşayış mümkün deyildir. Faydalı qazıntıların çıxarılması, daşınması və emalı zamanı ətraf mühit müxtəlif cür mənfi təsirlərə məruz qalır. Faydalı qazıntılar çıxarılarkən torpaq örtüyü eroziyaya uğrayır, onun üzərində bitən floranın məhv olmasına səbəb olur. Təbii sərvətlərdən səmərli istifadə o zaman təmin edilir ki, onun faydalı təsirlərindən maksimum istifadə edilməklə yanaşı mənfi təsirləri minimum endirilsin. Bu məsələlərin həlli üçün isə kimya sənayesindəki texnoloji proseslərin təkmilləşdirilməsi ilə yanaşı antropogen təsirin də azalması baş verməlidir. Daha sonra isə şagirdlərə təbii sərvətlərin optimal şəkildə istifadə edilməsi meyarları izah olunmalıdır. Metalların emalı prosesində ayrılan kükürd - dioksidin atmosferə buraxılması prosesi zamanı ətraf mühitdə yaranan mənfi təsirlər və onun insan orqanizmində bir sıra xəstəliklər törətməsi haqqında müəllim məlumat verməlidir. Şagirdlərə atmosfer çirkləndiriciləri arasında kükürd - dioksidin ön sırada yer aldığını qeyd etməli, onun atmosfer havasına yanacağın sobalarından, istilik elektrik stansiyalarından, qazanxanalardan yandırılma prosesi zamanı, metallurgiya və başqa istehsalatlardan, həmçinin dizel mühərriklərindən daxil olduğunu söyləməlidir. Dərs prosesində əldə olunan nəticələri aşkar etmək məqsədilə şagirdlərlə sorğu keçirilməsi aşağıdakı suallar əsasında reallaşa bilər. 1) Flora və fauna dedikdə nə başa düşürsünüz? 2) Biosferi təşkil edən canlı və cansız aləmin bir-biri ilə qarşılıqlı təsiri haqqında hansı bilikləri əldə etdiniz? 3) Flora və faunaya antropogen təsir dedikdə nə nəzərdə tutulur? Şagirdlərin hər biri öz fikrini səsləndirir. Metalların alınması və emalı zamanı baş verən proseslərin flora və faunaya təsiri şagirdlər tərəfindən cavablandırılır. Son illərdə təbiətə antropogen təsirin daha çox atması və qlobal problemlərin yaranmasının əsas səbəbinə çevrilməsi qeyd olunur. Dərs prosesi ilə yanaşı bu cür ekoloji məsələlər sinifdənxaric işlər vasitəsilə genişləndirilməli, dərinləşdirilməli və tamamlanmalıdır. Sinifdənxaric işlər şagirdlər üçün məcburi yox , könüllülük prinsipi əsasında onların marağı üzrə müstəqilliyin təmin edilməsi şəraitində qurulmalı və effektivliyi həyatla əlaqələndirilməsi faktının onların əqli inkişafına uyğun olmasına diqqət yetirmək lazımdır. Bu hal onlarda kimya fənninə marağın artmasına və ekoloji səviyyənin yüksəlməsinə xidmət edir.

Tədqiqatın metodu.

Kimyanın tədrisi tədqiqat metodlarından- elmi və pedaqoji ədəbiyyat materiallarının araşdırılması, müşahidə, kimya və ekologiyanın tədris metodları barədə məlumatlardan, pedoqoji təcrübədən istifadə olunmuşdur.

Tədqiqat işinin məqsədi orta məktəb kimya kursunda metallara aid mövzuların ətraf mühitlə əlaqəli tədrisi prosesində şagirdlərdə ekoloji düşüncənin, ekoloji tərbiyənin, ekoloji anlayışların və biliklərin formalaşmasından, həmçinin onlarda mövcud ekoloji vəziyyəti təhlil etmək və qiymətləndirmək bacarığının yaradılması və inkişaf etdirilməsindən ibarətdir.

Təsqiqatın nəzəri və praktiki əhəmiyyəti.

Tədqiqat işindən və onun nəticələrini əks etdirən əsərlərdən, təqdim olunan dərs və ümumiləşdirici dərs nümumələrindən orta məktəbdə kimyanın tədrisi ilə məşğul olan müəllimlər, bakalavrlar, magistrantlar öz işlərində istifadə edə bilərlər.

Tədqiqat işinin yeniliyi. Orta məktəbdə metallar bölməsinə aid bəzi dərslərin tədrisinin ekologiya əlaqələndirilməsi zamanı ekoloji təhsil və tərbiyənin məzmunu müəyyənləşdirilmiş, ekoloji biliklərin öyrədilməsi yolları göştərilmişdir.

NƏTICƏ

Kimya dərslərində ekoloji məzmunlu tapşırıqlarından istifadə şagirdlərin ekoloji düşüncəsini, mövcud ekoloji vəziyyəti təhlil etmək və qiymətləndirmək bacarığını formalaşdırmağa və inkişaf etdirməyə, kimya biliklərindən istifadə edərək ekoloji problemləri müstəqil həll etməyə imkan verir.Müəllim metallar bölməsinin tədrisi zamanı ümumiləşdirici dərslərlərdən, seminar- seminar dərslərdən, eyni zamanda sinifdənxaric işlərdən istifadə etməklə şagirdlərin ekoloji maariflənməsinə nail ola bilər.

ƏDƏBIYYAT SIYAHISI

1.Nəsirova Q.N. Kimya dərslərində ekoloji biliklərin inkişaf etdirilməsi. Pedaqoji Universitet xəbərləri, **(Jurnal məqaləsi),** №2, 2011:121

2.Abbasov M.M. Məktəb kimya kursunun tədrisi prosesində ekoloji biliklərin formalaşdırılması və inkişaf etdirilməsi problemləri. **(Jurnal məqaləsi),** Kimya məktəbdə. 2004: 36-43.

3.A.Ə.Paşayeva, B.K.Nadirova, G.A.Ədilova.,Kimyanın tədrisində motivasiyanın yeri və rolu., Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş doktorant, magistr və gənc tədqiqatçıların «Kimyanın Aktual Problemləri» XIV Beynəlxalq Elmi Konfrans, **(Konfrans məqaləsi, tezis)** 25-26 may, Bakı2021:,250-251

4.Tağıyev T. Orta ümumtəhsil məktəblərində Kimyanın digər təbiət fənnləri ilə əlaqəli tədrisi prosesində ekoloji biliklərin məzmunu və öyrədilməsi yolları(Jurnal məqaləsi),. Bakı -"Elm"- 2005:314

5.Mustafa Ş. Ə., Lətifov İ.U. Kimya 9. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Kimya fənni üzrə dərsliyin metodik vəsaiti. (**Kitab**). Bakı, "Nəşr", 2020:204 s.

USE OF INFORMATION COMMUNICATION TECHNOLOGY IN MODERN TEACHING METHODS

Gunel Isgandarova
Baku Engineering University
Pedagogy/ Foreign languages department
gueyyubova@beu.edu.az
Baku, Azerbaijan

SUMMARY

The rapid development of technology and its integration into the education system has made it necessary for various writers and scholars who have conducted research in this field to make a comparative analysis of their views, research and suggestions on the use of computers in effective language teaching. The integration of technology into the educational process, the mutual development of modern technology and the education system must always be in the center of attention.

In the era of modern technology, the creation of an information society and a competitive high-tech national economy has become a key direction of public policy in a number of countries. In these countries, the field of information and communication technologies (ICT) is the most important factor in development. This area actively influences the political, economic and social activities of states and ensures the globalization of the economy and public relations. How to build an education system in the information society, what technologies to use and how to use them to modernize education is one of the most critical issues today.

KEYWORDS: technology, education, teaching process

INTRODUCTION

The creation of information society and a competitive high-tech national economy has become a key direction of public policy in a number of countries. In these countries, the field of information and communication technologies (ICT) is the most important factor in development. This area actively influences the political, economic and social activities of states and ensures the globalization of the economy and public relations. How to build an education system in the information society, what technologies to use and how to use them to modernize education is one of the most pressing issues today.

At present, computer technology is widely used in all spheres of public life, as well as in education. It is very important to find the right use of ICT in education and ways to improve these skills. Now ICT is not the only way to ensure the educational process. ICT opens up new opportunities to ensure the student's independent perception.

RESEARCH METHOD

Nowadays, computer technology is widely used in all spheres of public life, as well as in education. It is very important to find the right use of ICT in education and ways to improve these skills. Now ICT is not the only way to ensure the educational process, but also it opens up new possibilities for ensuring the student's independent perception.

According to statistics for April 2021, the world's population has reached 7.9 billion, and 4.7 billion people are active users of mobile phones, computers and other technology. This figure is expected to exceed 5 billion until the end of 2022. This is the largest example of the role of technology in human life. In modern times, it is very difficult to imagine our lives apart from technological tools. Technology plays a very important role in people's lives and we can show the benefits of technology as follows:

1. We can get any information from one end of the world to the other and connect with any person with the help of Internet.
2. People make their lives easier, can do what they want to do comfortably and in a short time. For example, using household appliances such as washing machines and dishwashers, we can do things in a very short time that used to take hours a century ago.
3. Technology is also very useful in medicine and has a positive effect on people's lives. In the past, people learned about their illnesses too late because they did not have the necessary equipment, and thanks to advanced technology, people are able to learn about their health problems on a regular basis.
4. The role of technology in education is also great. In schools and universities, students are better able to understand the lesson visually with the help of bishops, projectors, televisions, smart boards and so on. Despite the suspension of traditional classes in connection with the Covid-19 pandemic from March 2020, it was technology that helped organize the education process remotely, thus preventing the education system from facing a major crisis.
5. Another benefit of technology is that people's thoughts and feelings can be easily transmitted to a larger audience.
6. Technology is also very useful in the field of transport. In the past, it took weeks or months to cover a certain distance. Now, it has become much easier with cars being used to get closer and vehicles such as trains, planes, and ships being used for long trips.

As in other areas of our lives, the integration of technology into the education system, which is one of the most important areas of our lives, continues to grow day by day. The development of ICT eliminates the use of tedious, traditional teaching methods in the teaching process and ensures that the learning process takes place outside the classroom.

It is very important to find ways to use ICT in education properly and to improve these skills. It should be noted that the best way to master the knowledge of information and communication technologies (ICT) is

through high school. Mastering these technologies during the school years ensures their active participation in building an information society.

Although the application of information technology in the education system of most countries of the world has led to many innovations, we still face difficult problems in the usage of technology in schools. It should be noted that the improvement of the education system in our country on the basis of ICT has always been in the focus of the President of the Republic of Azerbaijan Ilham Aliyev. "Program of providing secondary schools in the Republic of Azerbaijan with information and communication technologies" (2005-2007), "State Program on using technology effectively in education system in the Republic of Azerbaijan during 2008-2012" are the main stages in the integration of modern technology into our national education system. 2010 was declared the "Year of ICT in Education" by Ministry of Education and many conferences, seminars, various stimulating and encouraging actions, competitions were held within the framework of this campaign. This is the result of the great care of our government for the development of education.

UNESCO puts forward three approaches to integrate technology into the education system. The first approach, called “Application of ICT to education”, requires teachers to increase the effectiveness of students. The second approach, called "knowledge acquisition", requires teachers to provide students with in-depth study of the subjects of learning, the application of this knowledge in solving problems encountered in the real world. The third approach, according to "Information Production", is that teachers should help students to produce new knowledge for the harmonious development and prosperity of society.

To ensure the integration of technology into the educational process, the mutual development of modern technology and the education system must always be in the center of attention. One of the most important areas of the education system is the process of learning a foreign language. The use of computer technology in language classes is called Computer-Assisted Language Learning, and it has been used for the first time in1960s. The use and development of ICT in the language learning process is linked to the PLATO project at the University of Illinois. The first stage began immediately after the invention of computers. At this stage, educators of the time tried to ensure the integration of ICT into the educational process, to develop the skills of reading, writing, listening and speaking in a foreign language by abandoning traditional methods. During this period, covering the years 1960-70, it was assumed that the use of computers would cover the entire teaching process and that new information would be learned through direct practice and application.

Although quite innovative for that period, it was impossible to implement these ideas. The invention of microcomputers led to the beginning of the second phase of the use of ICT. The authors of this period Underwood, Higgins, Taylor M.B., Perez L. M. and others tried to combine a number of traditional teaching methods with ICT. One of the main proponents of this new trend, John Underwood, was guided by several principles in the application of new teaching methods: ‘It is important to know how to use those tools, not what tools in the teaching process’, ‘the use of the first language should be limited and an appropriate learning environment should be created for the use of the second language’, ‘accessing to new information should not be limited to the use of books’. According to the ideas of Taylor M.B. and Perez L.M., students must find the right answers in the classroom, do research, engaging in various discussions, exchanges and debates, learn through the application of new information, under the supervision of the teacher. The third and final stage of using ICT in the educational process is the use of the Internet. At this stage, the teacher simply acts as a guide, guiding the students, and the learning process is carried out by the student himself, using his creativity and imagination. Computers and the Internet are tools for people to develop themselves by using them properly.

The first ICT tool used was gramophones used by language teachers in the 1960s to listen to live speech samples of native speakers. With the development of technology, the use of these tools has also increased. As science develops, more and more effective ways and innovative methods of using ICT in the educational process continue to be offered. The younger generation no longer has to spend hours in libraries learning new information, and no longer has to read a long book in detail in order to get short information. Getting millions of pieces of information in one second with one touch is a very simple and convenient process.

The path to the information society can be considered as the path to the future of mankind. According to scientists, at the stage of full formation of the information society, the main subject of human labor will be information, and the tools of labor will be ICT. Therefore, the application and use of ICT at all levels of education in our country, as well as the teaching of ICT itself is a key requirement of modern times.

CONCLUSION

How to build an education system in the information society, what technologies to use and how to use them to modernize education is one of the most important issues today. The application and use of ICT at all levels of education, as well as the formation of students' ability to independently collect, analyze and transmit information is a requirement of modern times. We hope that our teachers will make a great contribution to the development of education through the effective use of ICT in the teaching process.

LITERATURE

1. Beynəlxalq Elmi Nəzəri Jurnal. Dil və Ədəbiyyat. Bakı , 2014, p. 296
2. Veysova Z. Fəal/ interaktiv təlim. Bakı 2007, p. 77
3. "Azərbaycan Məktəbi" 2013/1, pp. 51-65
4. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2008-ci ildə görülmüş işlərə dair hesabatı, p.89, http://www.edu.gov.az/upload/file/2008.../TN-NINHESABATI-2008.
5. Warschauer, M.& Kern, R., Network-based Language Teaching: Concepts and Practice,2000, pp. 56-60

ŞAGIRD MÜSTƏQİLLİYİ MÜASİR TƏLİMİN BAŞLICA TƏLƏBİ KİMİ

Fidan Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistratura/Ədəbiyyat
Fidaneliyeav99@gmail.com
BAKI, AZƏRBAYCAN

Xülasə

Şagird müstəqilliyi müasir təlimin başlıca tələblərindən biridir. Bu mövzu olduqca aktualdır. Məqalənin praktik əhəmiyyəti orta məktəblərdə şagirdlərin hansı üsul və texnikalardan istifadə edərək müstəqilliyinin təmin olunmasıdır. Məlumdur ki, yeni təlim kurikulumları məktəblərdə şagirdlərin müstəqilliyini artıran əsas amillərdən biridir. Yeni proqramlar yalnız sistemin dəyişdirilməsini deyil, həm də, şagirdlərin idrak prosesinin inkişafını qarşıya məqsəd qoyur. Ədəbiyyat fənni də şagirdlərin fəal öyrənməsini, müstəqil bacarıqlarını formalaşdırmaq üçün önəmli vasitələrdən biridir. Bildiyimiz kimi, fəal(interaktiv) təlim şagirdlərin düşünmə qabiliyyətlərini müstəqil qərarlar çıxarmağa yönəldir. Elə məqalənin əsas üstünlüyü də bu önəmli detalları şərh etməkdən ibarətdir.

Açar sözlər: Şagird müstəqilliyi, müsair təlim, idrak prosesi, müstəqil bacarıqlar

Giriş

Müasir məktəbdə ədəbiyyat tədrisinə yeni yanaşmanın mahiyyəti bədii əsərin şagird - oxucuya mənəvi, estetik, və emosional təsirinin gücləndirilməsi, həyati bacarıqların aşılanması, şagirdlərdə müstəqilliyin, özünüdərkin tərbiyə olunması, oxucu qavramasının, mütaliəyə, ədəbiyyatın öyrənilməsinə marağın inkişafı, təlimə yaradıcı münasibətin formalaşdırılmasını nəzərdə tutur. (1, s.63)

Öyrənmənin hərəkətverici qüvvəsini şagirdlərin idraki fəallığı təşkil edir. Şagirdlərdə öyrənməyə tələbatın formalaşdırılması müəllimin pedaqoji ustalığından, öyrədənin öyrənənlərə hörmət və tələbkarlığa əsaslanan münasibətindən, təlimin metod və üsullarının düzgün seçimindən, şagirdlərdə öz qüvvələrinə inamın aşılanmasından və s. asılıdır.

Təlim metodu aşağıdakı spesifik xüsusiyyətlərə malikdir:

Təlimin subyekt xarakter daşıması;
Şagirdlərin fəal öyrənmə mövqeyi, təfəkkürün müstəqilliyi və sərbəstliyi;
İştirakçıların bütün dərs zamanı fəallığı;
Dərsin əvvəlində problemli situasiyanın yaradılması və dərs prosesinin problemin həllinə yönəldilməsi;
Düşündürücü və istiqamətləndirici suallar vasitəsi ilə şagirdlərin yeni biliklərin müstəqil kəşf edilməsinə yönəldilməsi;

Təlimin tədqiqat üsulu vasitəsi ilə keçirilməsi;
Dərsin dialoq şəklində aparılması, əks əlaqənin yaradılması;
Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;
Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi. (3)
Proqramda ədəbiyyat kursunda öyrənilən bədii əsərlər üç qrupa ayrılır:
1. Ədəbiyyat dərslərində öyrənilən, mətni üzrə təhlil aparılan əsərlər. Bu əsərlər proqramda ayrıca mövzu kimi göstərilir, tədrisinə saat ayrılır.
2. Sinifdənxaric oxu üçün tövsiyə olunan əsərlər. Bu əlavə oxu materialları müvafiq proqram mövzuları ilə əlaqədar olub, şagirdlərin sənətkarın yaradıcılığı, mövzu, problem üzrə bilik və bacarıqlarını dərinləşdirmək məqsədini izləyir. Təlim materiallarının öyrənilməsi zamanı həmin əsərlər üzrə də iş təşkil edilir.
3. Müstəqil sinifdənxaric oxu üçün əsərlər. Bu əsərlərin sinifdənxaric oxu dərslərində müzakirəsi, şagirdlərin müstəqil mütaliəsinin istiqamətləndirilməsi üçün proqramda dərs saatları ayrılmışdır. Müstəqil oxu üçün əsərlər şagirdlərin yazıçıların yaradıcılığı barədə təsəvvürünün zənginləşməsinə kömək edir. Müəllim həmin əsərlərin mütaliə edilməsi, qavranılmasına müntəzəm diqqət yetirməlidir. Bu məqsədlə proqram materiallarının müstəqil oxunmuş əsərlərlə əlaqələndirilməsi, müqayisəsi, şagirdlərin mütaliə etdikləri əsərlər barədə qeydlər aparmasına nəzarət, müzakirələr, disputlar faydalıdır. (4)
Bədii əsərlərin növünə uyğun yeni təlim metodlarının rəngarəngliyindən istifadə edərək təlim prosesində şagirdlərin müstəqilliyini təmin etmək lazımdır. Dərsin formasından asılı olmayaraq (fərdi, qrupla, kollektiv) şagirdlərin təxəyyül və bacarıqlarının inkişafı üçün düzgün istiqamət seçilməlidir. Bu zaman müəllimin sualları çox önəm daşıyır.
Təcrübəli müəllimlər təlim prosesində daha çox aşağıdakı tipli suallardan istifadə edirlər:
hadisənin səbəbini söyləməyi tələb edən suallar;
öyrənilən mətndə mühüm və başlıca məsələni ayırmağa kömək edən suallar;
cisim və hadisələri müqayisə etməyi tələb edən suallar;
müşahidə edilən faktları ümumiləşdirməyi tələb edən suallar;
söylənilmiş mülahizəni əsaslandırmağı, sübut etməyi tələb edən suallar və s. (3)
Deməli, təlim prosesində şagirdləri idraki, məntiqi, tənqidi təfəkkürü inkişafa gətirən suallar verməklə tədqiqata cəlb edə bilərik. Müəllim dərsin gedişi zamanı əməkdaşlıq şəraitini yaratmalı, yeni və maraqlı təlim texnologiyalarından istifadə edərək şagirdləri fəallaşdırmalıdır. Bütün bu sadalananlar şəxsiyyətyönümlü təlim prinsipi, inkişafetdirici təlim prinsipi, dialoji təlim prinsipi əsasında həyata keçirilir. Elə fəal(interaktiv) təlimin də başlıca məqsədi şagirdləri fəallaşdırmaq, bilik, bacarıq, vərdişlərin qazanılmasında müstəqil mənimsəməni təmin etməkdir.
B.Əhmədovun dərsə verdiyi tələblər sırasında müasir dövrdə böyük əhəmiyyət kəsb edən şagirdlərin idrak fəallığı və müstəqilliyinin qüvvətləndirilməsi, intensivləşdirmə, problem-situasiyanın yaradılmasını qeyd etməsi təqdirəlayiqdir:
- *Elmilik, ideyalılıq;*
- *Dərsdə bütün şagirdlərin işə cəlb olunmasının zəruriliyi, onların idrak fəallığı və müstəqilliyinin qüvvətləndirilməsi;*
- *Metod və priyomların dərsin məqsədinə, şagirdlərin real səviyyəsinə uyğun seçilməsi;*
- *Dərsdə problem-situasiyasının yaradılması;*
- *Dərsdə əks-əlaqənin yaradılması;*
- *Dərsin intensivləşdirilməsi;*
- *Dərsdə şagirdlərin hazırlıq səviyyəsinin nəzərə alınması;*
- *Texniki vasitələrin tətbiqi və proqramlaşdırmadan istifadə və s.* (1, s.55)

Tədqiqatlar sübut edir ki, təlim prosesi hər bir şagirdin qabiliyyəti nəzərə alınmaqla təşkil olunarsa, sinifdəki uşaqların 95 faizi təlim materialını tam mənimsəməyə qadirdir. Deməli, şagirdlərin maraq və meyli, idraki qabiliyyətləri nəzərə alınmaqla keçilən ədəbiyyat dərsinin müasirliyindən danışmaq daha doğru olar. Hazırda metodikada müəllimin bilik və bacarıqların dərsdə tələb etməklə deyil, şagirdlərdə maraq oyatmaqla, motivasiya yaratmaqla, fərdi xüsusiyyətləri nəzərə almaqla mənimsənilməsinə nail olmasına xüsusi önəm verilir. Müasir ədəbiyyat dərslərində bir-birini təkrarlayan nağıletmələr, əzbərləmələr, bərpaedici səciyyəli, lüzumsuz faktlarla yüklənmiş söhbətlər deyil, bədii mətni qavramaq, dərk etmək mühiti yaradılmalıdır. (1, s.60)

Fəal-interaktiv təlimdə şagird tədqiqatçı, müəllim isə bələdçidir. Hal-hazırda müəllim ancaq yolgöstərən rolundadır. Şagirdlər müstəqil araşdırmalar aparmalı, düzgün qərarlar qəbul etməyi öyrənməlidirlər. Müəllimin vəzifəsi - öyrənməyi öyrətməkdir.

Təlim prosesinin mövcud sxemi fəallıq keyfiyyətinə malikdir və hər bir şagirdin ona lazım olan bilikləri müstəqil əldə etməsinə və bütün həyatı boyu öyrənməyə qadir olan bacarıqlı, müstəqil tədqiqatçı kimi yetişməsinə kömək etmək üçün nəzərdə tutulub. Lakin bu cür təlim sxemini həyata keçirmək üçün müəllim biliklərin qazanılması yolunda öz bələdçi roluna yiyələnməklə kifayətlənməməli, həm də öz konkret funksiyalarını bilməli və bunları həyata keçirməyi bacarmalıdır. Bunun üçün o, ilk növbədə fasilitasiya prosesinin mahiyyətini aydın başa düşüb dərk etməlidir. Fasilitasiya bir proses kimi yönəldici, köməkçi sualların effektli tətbiqinin köməyi ilə diskussiyaların təşkili və şagirdlərin fəallaşdırılması prosesindən ibarətdir. Fasilitasiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, yeni bilgi müəllim tərəfindən deyil, şagirdlər tərəfindən aşkara çıxarılır. Fasilitatorun mövqeyi, onun əsas funksiyası düşüncəni inkişaf etdirmək və onu lazımı məcraya yönəltməkdən ibarətdir. Fasilitasiya yanaşmasının əsas məqsədi şagirdlərin öyrənmək və yaratmaq tələbatlarını tam ödəmək, onların öz potensialını həyata keçirə bilməsi üçün şərait yaratmaqdır.(5)

Təlim prosesində şagirdlərin fikri fəallığını artırmağa meydan vermək üçün ziddiyyətli vəziyyət yaratmaq üsulları da çox əhəmiyyətlidir. Bu halda ki, şagirdlər ziddiyyətdən çıxış yolu axtarmağa daha fəal surətdə qoşulur, bunu həll etmək üçün dərindən düşünməli olurlar. Onlar faktları ölçür-biçir, qarşılaşdırır, hansı faktın nə ilə əlaqədar olduğunu müəyyən etməyə, hər bir həyati faktı müəyyən nöqteyi-nəzərdən qiymətləndirməyə cəhd göstərir, nəhayət, hər hansı bir fikrə gəlirlər. Mühüm cəhət odur ki, dərs zamanı ziddiyyətli vəziyyət yaradıldıqda şagirdlərdə müxtəlif rəylər əmələ gəlir. Hər kəs çalışır ki, öz fikrinin düzgünlüyünü əsaslandırsın, onu sübut etsin. Belə vəziyyətdə rəylər toqquşur, hər kəs öz fikrini əsaslandırmaq üçün müxtəlif dəlillər gətirməyə can atır və buna nail olduqda öz fikri fəaliyyətindən çox razı qalır. Sözün əsl mənasında inkişafetdirici, düşündürücü təlim də elə budur. (3)

Ədəbiyyat həyatı ümumiləşdirilmiş şəkildə, obrazlar vasitəsilə əks etdirən söz sənəti kimi şagirdlərin müstəqil həyata hazırlanmasında, həyati əhəmiyyət kəsb edən bacarıqlara yiyələnməsində mühüm rol oynayır. Bədii ədəbiyyatın "insanşünaslıq", "həyat dərsliyi" adlandırılması bu fənnin hər bir şagird – oxucu üçün özünü, həyatı, insanı dərk etmək vasitəsi kimi əhəmiyyətini ifadə edir. (2, s.69)

TƏDQİQAT METODU: Məqalədə müşahidə, analiz, tutuşdurma metodlarından istifadə olunmuşdur.

NƏTİCƏ: Məqalədə şagird müstəqilliyinin müasir təlimlə əlaqəli tətbiqi araşdırılmışdır. Nəticə olaraq deyə bilərik ki, fəal(interaktiv) təlimdə şagirdlərin psixi inkişaf xüsusiyyətlərini nəzərə alaraq, dərsin nəzəri və praktik əhəmiyyətini müəyyənləşdirmək lazımdır. Bu zaman müəllim bələdçi, şagird müstəqil tədqiqatçı mövqeyində çıxış etməlidir. Müasir ədəbiyyat dərsləri yeni təlimin məqsədinə uyğun şagird fəallığını, müstəqilliyini ön planda tutmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Bilal Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı,"Müəllim", 2016. 455 səh
2. Fəxrəddin Yusifov. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı ,2017, 304 səh
3. https://www.muallim.edu.az/news.php?id=5263
4. http://bilaledebiyyattedrisi.blogspot.com/2019/10/dbiyyat-fnninin-mzmunu-v-strukturu.html
5. **https://biaz.ucoz.net/publ/metodiki_bolm/i_nformatika/muasir_dovrd_h_yatin_t_l_bl_ri_v_t_limin_m_qs_dl_ri/14-1-0-214**

LİRİK NÖVDƏ ƏSƏRLƏRİN TƏHLİLİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARININ İSTİFADƏSİNİN ƏHƏMİYYƏTİ (X-XI SİNİFLƏR)

KƏMALƏ İSGƏNDƏROVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistratura/Ədəbiyyat
nkazanli@mail.ru
BAKI, AZƏRBAYCAN

Xülasə

Yeni təlim texnolgiyaları ənənəvi təlim üsullarından əsaslı olaraq fərqlənir. Həmin metodların yaradıcı tətbiqi isə müəllimdən pedaqoji ustalıq istəyir. Məqalədə fəal interaktiv təlimdə yeni təlim texnologiyalarının tətbiqinin səmərəli yolları araşdırılmışdır. Lirik növ əsərlərdə obrazların hiss-həyəcanlarının, fikir və arzularının öyrənilməsi zamanı hansı yeni təlim metodlarından istifadə edilməsinin əhəmiyyəti vurğulanmış, təhlil edilmişdir. Pedaqoji ədəbiyyatlar göstərir ki, yuxarı siniflərdə təlimin uğurlu alınması üçün düzgün təlim texnologiyaları seçilməli, təcrübi və nəzəri biliklər kompleks təşkil etməlidir. Yazı işində lirik növ parçalarda istifadə olunan metodların adları çəkilmiş, məktəb təcrübəsində idrak fəallığının artırılmasına kömək olacaq üsullar şərh edilmişdir.

Açar sözlər: **Təlim texnologiyaları, lirik növ, interaktivlik, təlim metodları**

GİRİŞ

Bədii yaradıcılığın çatdırılma üsullarından biri də lirik əsərlərdir. Lirik yaradıcılıq əsasən psixoloji səciyyə daşıyır. Lirikada bədii dərketmənin təzahür formaları ekspressiv, emosional olur.

Lirik əsərlərin tədrisinə məktəb proqramında geniş yer verilir. Bu növdə yazılan əsərlərin şagirdlər tərəfindən qavranılması olduqca müvəffəqiyyətli olur. Bunun əsas səbəbi lirik növdə yazılan əsərlərin hiss və duyğulara, insan psixologiyasına daha çox təsir etməsidir. Lirik janrı digər növlərdən fərqləndirən ən əsas cəhətlərdən biri də bu janrda müəyyən qanunauyğunluqların – ahəngdarlıq, vəzn, qafiyə sistemi kimi məsələlərin olmasıdır (1, s.107).

Müxtəlif pedaqoji ədəbiyyatlarda ötən əsrin 90-cı illərinin sonundan başlayaraq *yeni təlim texnologiyaları, fəal(interaktiv) təlim, pedaqoji texnologiyalar* anlayışlarına rast gəlirik.

İnteraktiv sözü ingiliscə inter – qarşılıqlı, birgə, akt isə fəaliyyət göstərmək deməkdir. Bu iki söz ya insan, ya da kompüterlə söhbət, dialoq rejimində qarşılıqlı fəaliyyətdə olmaq bacarığını bildirir. Deməli, interaktiv təlim hər şeydən əvvəl, dialoqlu təlimdir. Onun gedişində müəllim və şagirdin qarşılıqlı, birgə fəaliyyəti ilə tədris prosesi həyata keçirilir. Müəllim bilikləri ötürən rolundan imtina edir və yeni bir vəzifəni – bələdçi (fasilitator) vəzifəsini yerinə yetirir.

Texnologiya isə hərfi mənada materialları işləmə üsul və vasitələrindən bəhs edən elm deməkdir. Pedaqoji texnologiyadan danışılanda da bu sahədə müəyyən vəzifələri həll etmək üçün səfərbər olunan üsul və vasitələr toplusunu əhatə edən elm sahəsini nəzərdə tutmaq lazımdır (4, s.102).

Təhsil sisteminin əsaslı formada dəyişimi şagird şəxsiyyətinin formalaşmasına əvəzsiz təsir edir. Artıq ədəbiyyat dərslərində müəllimin bələdçilik edərək, şagirdin isə özünü qavramasının şahidi oluruq. Təlim texnologiyalarının çevikliyi, fəallığın artması, həmçinin məqsədin əvvəlcədən planlaşdırılıb nəticəyönümlü tətbiqi təlimin inkişafetdiricilik xüsusiyyəti ilə əlaqədardır.

Fəal (interaktiv) təlim üsulları birbaşa şagirdlərin təfəkküründün inkişaf etdirilməsinə yönəldilmişdir. Bu üsullardan dərsin müxtəlif mərhələlərində istifadə olunur. İnteraktiv təlimdə istifadə olunan iş üsullarının (metodik ədəbiyyatda buna metod deyilir və hər metodun tərkibində onun xüsusiyyətlərini daşıyan, onun tərkibinə daxil olanlar isə texnikalar adlandırılır) bəzisi motivasiya, bəzisi tədqiqatın aparılması, bəziləri də yaradıcı tətbiqetmə mərhələsində istifadə olunur. Fəal (interaktiv) təlim texnologiyasına daxil olan xeyli metod və texnikalar – iş üsulları vardır. Dərsin müxtəlif mərhələlərində tətbiq olunan və tədqiqat işinin - qrup işlərinin təşkilinin səmərəli olmasında istifadə olunan bu iş üsullarından hələlik bizə bəlli olanı 40-a qədərdir (4, s.131).

Həmin texnologiyaların bəziləri aşağıdakılardır:

1. Klaster(Şaxaləndirmə) 11. Anlayışın çıxarılması
2. Venn diaqramı 12. Söz assosiasiyası

3. “Beyin Həmləsi”(“Əqli hücum”) 13. Problemin həlli
4. Karusel 14. Qərarlar ağacı
5. “İnsert”(interaktiv qeydetmə sistemi) 15. Layihənin hazırlanması
6. “BİBÖ” 16. Müzakirələr(Disskusiya)
7. Ziqzaq 17. Sankveyn(5-lik)
8. Debat 18. Proqnozlaşdırılmış oxu
9. Rollu oyunlar 19. Kublaşdırma
10. Auksion 20. T-sxemlər və s.

Müasir dövrün ədəbiyyat müəllimi bu və digər texnologiyalardan mütləq xəbərdar olmalı, həmin üsulların tətbiq qaydalarını dərindən bilməli, lirik əsərlərin tədrisində geniş istifadə etməldir. Fəal dərsin quruluşundan bəhs edərkən tədqiqat prosesində “şagird-müəllim”, “şagird-şagird” münasibətləri ön plana çəkilir. Çünki ənənəvi dərsdən fərqli olaraq, məlumatlar birbaşa müəllim tərəfindən deyil, şagirdin öz vasitəsi ilə əldə edilir.

Fəal (interaktiv) təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyacların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər “hazır” şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yeni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır (5, s.39).

X-XI sinif dərsliklərinə nəzər salsaq, Nizami Gəncəvi, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Aşıq Ələsgər, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Əhməd Cavad, Məhəmmədhüseyn Şəhriyar, Səməd Vurğun, Bəxtiyar Vahabzadə və digər söz sənətkarlarının həyat və yaradıcılıqlarının tədrisə cəlb olunduğunu görürük. Mənzum hekayələr, fəlsəfi-lirik şeirlər, kəskin tənqidi satiralar və bu kimi lirik əsərlərin təhlilində yeni təlim texnologiyalarından geniş şəkildə istifadə olunmalıdır. Çünki lirikada bu imkanların genişliyi daha çoxdur.

Lirik əsərlərdə hadisələrin geniş detalları ilə təsvirinə rast gəlmirik. İnsanların bir-birinə münasibətləri, hərəkətləri lirikada geniş təfsilatı ilə göstərilmir. Lirikada insanın daxili aləmi, onun hissləri və düşüncələri bədii surətdə mənimsənilir. Bir qayda olaraq lirikada insanın hiss və həyəcanlarının ifadəsi tərənnüm yolu ilə verilir. Qeyd olunduğu kimi, insanın xarici aləmlə münasibətlərindən aldığı təəssüratlar, şəxsiyyətin iztirab və ehtirasları lirikada öz əksini tapır. Əgər eposda əsas olaraq hadisələr, dramda xarakterlər əsas götürülürsə, lirikada hisslərin dinamikası, emosionallıq əsas tutulur. Belə ki, şair konkret bir obyekti, ilin hər hansı bir fəslini, gününü tərənnüm edəndə də yenə öz subyektiv-poetik hisslərini verir (2, s.9).

Pedaqoqların ilk təşəbbüsü heca vəznli şeirlərlə yanaşı, əruz vəznində yazılmış qəzəl, qəsidə, qitə, rübai və s şeir şəkillərinin mahiyyətini açmaq, ölçü, bölgü, qafiyə, rədif, beyt, bənd, misra və başqa anlayışları şagirdlərə mənimsətməkdir. Şagirdlər ədəbiyyat nəzəriyyəsi ilə lirik şeirləri vəhdət halında daha yaxşı qavrayıb mənimsəyə bilərlər. Müəllimin pedaqoji ustalığı isə 45 dəqiqəlik dərs müddətində hansı texnologiyalardan, priyomlardan istifadə etməsindən asılıdır. Müəllim üçün metodik vəsaitlərdə hər bir dərsin quruluşu, köməkçi vasitələr, dərsin mərhələləri və s. verilsə də, müəllim bununla yekunlaşmamalı, daim axtarışda olaraq şagirdləri və özünü təkmilləşdirməlidir.

İnteraktiv təlimin rəngarəng keçməsi üçün ilk öncə dərsin hansı mərhələlərdən təşkil olunduğuna nəzər salaq:

1. Motivasiya - 3 dəq.
2. Tədqiqatın aparılması - 9 dəq.
3. Məlumat mübadiləsi - 10 dəq.
4. Məlumatın müzakirəsi və təşkili - 7 dəq.
5. Nəticələrin çıxarılması - 5 dəq.
6. Yaradıcı tətbiqetmə - 8 dəq.
7. Qiymətləndirmə(və ya refleksiya) - 3 dəq.

Cəmi: 45 dəq.

Dərsin ilk mərhələlərində müxtəlif təlim metodları və formalarından istifadə edərək gedişatı maraqlı edə bilərik. Motivasiya mərhələsində mövzunun tapılması üçün müxtəlif vasitələrdən istifadə etmək olar. Buraya metodik ədəbiyyatda müxtəlif vasitələri daxil edir və adını da simvollu materialların şərh edilməsi qoyurlar. Simvollu materiallar mövzuya bir işarə, yönəltmə kimi qəbul edilməlidir. Bu simvollu materiallar sanki “oğrunun yadına daş salır”. Belə ki şagirdlərə tədris olunacaq mövzu ilə bağlı müxtəlif simvollu

materiallar - şəkil, sxem, simvol, musiqi (melodiya), bədii əsərdən bir fraqment, əşya, rəvayət, tapmaca, hikmətli söz, atalar sözləri, şeir parçası, kinofilmdən kiçik bir fraqment, musiqi klipindən bir parça, portret, rəssamlıq işi, qrafik və s. təqdim olunur [4, s.104].

Tədqiqatın aparılması mərhələsində də yaradıcı texnologiyalardan istifadə oluna bilər. Ən sadə yol müxtəlif sualların qoyuluşudur (əlbəttə ki, fərziyyələr və düşüncələr dəqiqləşdirildikdən sonra). Məsələn, siz şairin yerində olsa idiniz, obrazı necə canlandırardınız?, şairin bədii irsinin bizim üçün əhəmiyyəti nədir? və s. Digər mərhələlərdə də şagirdlərin yaradıcı, tənqidi, məntiqi təfəkkürlərinin inkişafı üçün ən optimal vasitələr seçilməlidir.

Lirik növün janr müxtəlifliyi də diqqətəlayiq bir məsələdir. Belə ki, lirik növdə janr çoxluğunun olması hər yaşdan olan şagirdlərin diqqətini cəlb edə bilir. Təbii ki, orta məktəblərin aşağı siniflərində oxuyan şagirdlər lirik növün ilkin nümunələri ilə, nisbətən yuxarı siniflərdə isə lirik növün qəzəl, qəsidə, qitə, qoşma, gəraylı, müxəmməs və s. növləri ilə tanış olurlar. Lirik növü digər növlərdən fərqləndirən bir xüsusiyyət də az sözlə böyük mənalar ifadə edilməsindədir. Əgər epik növdə yazıçı nəqletmə yolu ilə, dramatik növdə hadisələri insan beynində canlandırma yolu ilə qələmə alırsa, lirik növdə əsərini axıcılıqla, lirizm yolu ilə qələmə alır. Heç şübhəsiz ki, lirik əsərlərin daha oxunaqlı olmasında qafiyə sistemi, bədii təsvir və ifadə vasitələrinin rolu da böyükdür. Bunu da unutmaq olmaz ki, şagirdlər lirik şeirin səciyyəvi xüsusiyyəti və onun digər növlərdən fərqi ilə ibtidai sinifdən tanışdırlar. Yuxarı siniflərdə lirik əsərlərin tədrisində onların ilkin bilikləri, təsəvvürləri böyüyür və genişlənir (1, s.107).

Ədəbiyyat fənninin tədrisində təlimin müxtəlif iş formalarından istifadə də məqsədəuyğundur. Belə ki, təlim texnologiyalarının düzgün tətbiqi ilə yanaşı, müəllim dərsin fərdi, cütlərlə, kiçik və ya böyük qruplarla və ya kollektivlə keçirilməsinin səmərəli olmasını əvvəlcədən aydınlaşdırmalıdır.

Fəal təlimin əhəmiyyətindən danışarkən şagirdlərin idrak fəallığının artmasını, müstəqil qərarlar qəbul etmələrini əsas xüsusiyyət kimi vurğulamaq lazımdır. Yeni texnologiyalar şagirdlərin təfəkkürlərini fəaliyyətə gətirir, analizetmə qabiliyyətlərini daha da inkişaf etdirir. Təcrübəli müəllimlər şagirdlərin oxuduğu və ya əzbərlədiyi lirik parçaları şüurlu surətdə mənimsədir, şagirdlərə müxtəlif suallar verməklə düzgün nəticə çıxarmasına yardımçı olur.

Ədəbiyyat fənninin tədrisi zamanı təqdimat mühüm əhəmiyyət kəsb edir. Məktəblilər tədqiq etdikləri məsələ barədə əldə olunan nəticələri sinif qarşısında müxtəlif formalarda və çıxış, məruzə, yazı işi (inşa, esse), cədvəl, sxem, səhnələşdirmə, rollu oyun, layihə şəklində təqdim edirlər. Təqdimat zamanı şagird problemin mahiyyəti ilə bağlı fikirlərini aydın, ardıcıl şəkildə çatdırmalıdır. Mövzu, problem dəqiq şərh edilməli, informasiya-kommunikasiya vasitələri, illüstrasiyalar, fotoşəkillərdən istifadə olunmalıdır (3, s.104).

Yeni kurs işə başlayan andan fəal (interaktiv) təlim texnologiyası ilə dərslərin keçirilməsi rəsmi bir tələb kimi qarşıya qoyulmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyi bu texnologiyanın tətbiqini sürətləndirmək üçün ümumi təhsil məktəb müəllimlərinin əksəriyyətini təlimlərə cəlb etmiş, onlara müvafiq bilik və bacarıqlar aşılamışdır. Artıq ümumi müsbət nəticələr də əldə olunmuş, pedaqoji ictimaiyyət, böyük müəllimlər ordusu rəsmi sənədlərin tələb etdiyi bu texnologiyanı uğurla tətbiq etməkdədirlər. (4, s.90)

Müasir təlim texnologiyalarından məqsədəmüvafiq istifadə şagird şəxsiyyətinin formalaşmasına ciddi təsir bağışlayır. Şagirdlərin intellektual bacarıqları, bəşəri və mədəni ideyaların dərk olunması, bilik, bacarıq, vərdişlərin formalaşması ön plana keçirilir. Təlimin metodları müəllimin və şagirdin birgə fəaliyyət prosesidir.

Araşdırmalar göstərir ki, yeni təlim texnologiyaları aşağıdakı prinsiplərə əsaslandıqda şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə imkan verir:

- ✓ təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə;
- ✓ şagirdlərin sosial inkişafına səbəb olacaq kooperativ təlimə;
- ✓ biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına;
- ✓ bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə;
- ✓ müəllimin təşkilatçı, koordinator, bəzi hallarda arbitr rolunda çıxış etməsinə.

Bununla yanaşı, ədəbiyyat fənninin tədrisində özünü doğrultmuş, uzun illərin sınağından uğurla çıxmış ənənəvi metodlardan da yeri gəldikcə istifadə oluna bilər; məsələn: müasir ədəbiyyat dərslərini ənənəvi yaradıcı oxu metodunun tərkib hissəsi olan, kurikulumda alt standart kimi qeyd edilən ifadəli oxusuz

təsəvvür etmək qeyri-mümkündür. Yaxud izahlı oxudan istifadə həmişə faydalı olacaqdır. Şagirdlərin müstəqil izah etməkdə çətinlik çəkdikləri mətləblərin, mətnaltı mənaların izahlı oxu ilə aydınlaşdırılmasına ədəbiyyat fənninin tədrisi zamanı tez-tez ehtiyac yaranır (3, s.104).

Müasir təlimin ənənəvi təlim texnologiyalarından əsas fərqləndirici xüsusiyyətlərindən biri də müəllimin təlimatıdır. Çünki şagirdlər yeni təlim texnologiyalarından necə istifadə edilməsini bilmir. Məhz bu səbəbdən müəllim bələdçilik etməli, şagirdlərə həmin texnologiyanın istifadə qaydalarını aydın və səlis izah etməlidir.

TƏDQİQAT METODU: Məqalədə müşahidə, analiz, metodlarından istifadə olunmuşdur.

NƏTİCƏ: Beləliklə, ədəbiyyat təlimində lirik növ əsərlərin təhlilində yeni təlim texnologiyalarının tətbiqi olduqca əhəmiyyətlidir. Pedaqoqlar təlim texnologiyaları ilə işləməyi inkişaf etdirməli, yeni üsullardan təhsilə cəlb etməlidirlər. Bütün bu işlər şagird şəxsiyyətinin davamlı inkişafına müsbət təsir göstərəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti. “Müasir təlim texnologiyalarının tətbiq olunmasının təhsilin keyfiyyətinə təsiri” mövzusunda gənc tədqiqatçıların Respublika elmi- praktik konfransı. Lənkəran-24 dekabr, 2019
2. Baba Babazadə. Ədəbiyyatda lirik növ (dərs vəsaiti). Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2008, 178 səh.
3. Elnur Əliyev. Tədrisdə müasir təlim texnologiyalarının tətbiqi. “Azərbaycan məktəbi”.2017/5
4. Fəxrəddin Yusifov. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı 2017, 304 səh
5. Zülfiyyə Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007
6. https://azkurs.org/didaktikann-muasir-problemleri-yeni-telim-texnologiyalarnn-met.html?page=2

BƏDİİ ƏSƏRLƏRİN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN FƏAL İŞTİRAKINI TƏMİN ETMƏK ÜÇÜN MÜƏLLİMİN GÖRƏCƏYİ İŞLƏRİN MƏZMUNU

AYTAC MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistratura/Ədəbiyyat
aytacm803@gmail.com
KÜRDƏMIR, AZƏRBAYCAN

XÜLASƏ

Bədii əsərlərin tədrisi orta məktəbdə hər bir sinifdə tətbiq olunur. Mövzu elə bu səbəbdən olduqca aktualdır. Məqalədə bədii əsərlərin tədrisi zamanı şagirdlərin fəal iştirakını təmin etmək üçün müəllimlərin görcəyi işlər araşdırılmışdır. Məqalənin praktik əhəmiyyəti müasir dövrdə şagirdlərin fəallığını artıran yeni texnologiyaların tətbiqi və müəllim-şagird münasibətini analiz edir. Yazı işinin əsas üstünlüyü ədəbiyyat dərslərində interaktiv mühit yaratmağın üsul və yollarını təhlil etməkdir.

AÇAR SÖZLƏR: Bədii əsər, şagird fəallığı, interaktivlik, müəllim, məzmun

GİRİŞ

Son vaxtlar orta məktəblərdə avtoritar metodikanın yerini əməkdaşlıq metodikası tutmaqdadır. Müasir dərsdə müəllimin rolu dəyişir, o, şagirdlərə biliyi hazır şəkildə şərh edən, mənimsədən mütəxəssis kimi deyil, məktəbliyə öyrənməyi öyrədən bələdçi kimi çıxış edir. Şagird artıq təlim prosesinin obyekti deyil, bərabərhüquqlu iştirakçısına, bilikləri müstəqil əldə etməyi bacaran tədqiqatçıya çevrilməkdədir. Bu dərs vəsaiti tələbələri müasir məktəbdə məhz belə yaradıcı işə, təlim prosesində qarşıya çıxan çətinlikləri aradan qaldırmağa istiqamətləndirir. (1,s.5)

Müasir mərhələdə şagirdlərdə elmə, biliyə marağı artırmaq, yaradıcı fəaliyyət bacarığı tərbiyə etmək, humanist dünyagörüşü, milli özünüdərk, vətəndaşlıq mövqeyi formalaşdırmaq, milli dəyərlərə hörmət və məhəbbət hissi aşılamaq məktəbin, müəllimin qarşısında duran əsas vəzifələrdəndir. Elm və texnikanın bugünkü sürətli inkişafı, həyatın müxtəlif sahələrində hər gün özünü göstərən və təsdiqini tapan texnoloji yeniliklər təlimin məzmununda və metodlarında ciddi dəyişikliklərin həyata keçirilməsini zəruri edir. Bu istiqamətdəki vəzifələrdən biri də tədris prosesində yeni texnologiyalardan, fəal, interaktiv təlim metodlarından istifadədir. (3)

Ədəbiyyat fənni insanın, cəmiyyətin hiss və düşüncələrini, arzu və istəklərini obrazlı şəkildə əks etdirən söz sənətidir. Həm yazılı, həm də şifahi ədəbiyyat lirik, epik və dramatik növlərə bölünür. Orta məktəblərdə bədii əsərləri tədris edərkən, ilk öncə bu nüansa diqqət yetirmək lazımdır. Lirik əsərləri digər növlərdən fərqləndirən xüsusiyyətlərdən biri daha çox nəzmlə yazılması və nitqin, ifadənin ekspressiv çatdırılmasıdır. Epik növ əsasən nəsr şəklində olur. Bu növdə həyat hadisələri ətraflı təsvir edilir. Süjet xətti geniş və çoxşaxəlidir. Dram əsərləri əsasən səhnədə tamaşaya qoyulmaq üçün yazıldığından, o, digər ədəbi növlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Burada müəllif öz fikir və düşüncələrini obrazların monoloq və dialoqları vasitəsi ilə çatdırır. Fəal(interaktiv) təlim zamanı tədris olunacaq mövzunun məqsədindən asılı olaraq yeni pedaqoji texnologiyalardan istifadə olunur. Həmçinin, müəllimlər dərsin gedişi zamanı müxtəlif iş formalarını tətbiq edirlər. Onu da qeyd edək ki, müsair dərslərdə çox zaman bir neçə iş formasından istifadə olunur. Bu hallar şagirdlərin diqqətini dərsə daha çox cəlb edir, dərsin daha da maraqlı keçməsinə şərait yaradır.

Müasir təlim üsulları şagirdlərin bilik, bacarıq, vərdişlərinin formalaşmasına, həmçinin birbaşa tənqidi, yaradıcı təfəkkürlərinin inkişafına təkan verir. Ədəbiyyat müəllimlərinin dərsdə tez-tez istifadə etdiyi fəal(interaktiv) təlim metodlarına nəzər salaq:

Venn diaqramı - Fəal(interaktiv) təlimin bu üsulundan həm kiçik qruplarla, həm də böyük qruplarla iş zamanı istifadə etmək olar. Venn diaqramından istifadə etmək üçün əvvəlcə lövhədə bir- birilə kəsişən iki dairə çəkilir və ən azı iki əşya və ya obyekt götürülür. Müqayisə olunan əşyaların fərdi xüsusiyyətləri müvafiq olaraq dairələrin sağ və sol tərəflərində, oxşar xüsusiyyətləri isə dairələrin kəsişdiyi yerdə qeyd olunur. Bu üsuldan istifadə edən müəllimin əsas vəzifəsi şagirdləri əvvəlcədən hansı obyektlərin müqayisə olunacağı, həmçinin onların oxşar və fərqli xüsusiyyətlərinin necə qeyd olunacağı barədə təlimatlandırmasıdır.

Beyin həmləsi - bu təlim üsulu eyni zamanda əqli hücum da adlandırılır. Bu üsulun əsasını şagirdlərdən qoyulmuş tədqiqat sualının həlli ilə bağlı daha çox ideyanın alınması təşkil edir və şagirdlərin yeni mövzuya marağını artırır. Bu üsul vasitəsilə şagirdlər həm də nəyi güclü və nəyi zəif bildiklərini özləri üçün aydınlaşdırmış olur. Əvvəlcə tədqiqat sualı lövhədə qeyd olunur və ya şifahi olaraq çatdırılır. Hər bir şagird sualla bağlı öz fikrini bildirir və söylənilən fikirlər yazıya alınır. Burada ən vacib məsələ şagirdlərin fikirlərinin olduğu kimi, yəni müdaxilə olunmadan, şərh və tənqidi münasibət bildirilmədən yazıya alınmasıdır. Daha sonra isə söylənilən fikirlər müzakirə olunur, qiymətləndirilir və ən aparıcı, uyğun olanları seçilir.

Karusel - bu təlim üsulundan istifadə edərkən müəllim sinfi bir neçə qrupa ayırır. Çox zaman bütün qruplara eyni tapşırıq verilir və müəllim əvvəlcədən tapşırığın icra vaxtını şagirdlərə çatdırır. Hər bir qrup öz iş vərəqində qeyd olunan sualları oxuyub cavablandırır. Sonra həmin iş vərəqləri saat əqrəbi istiqamətində sıra ilə digər qruplara ötürülür, yəni karusel kimi onlar bütün qruplardan keçir. Karusel üsulundan istifadə məlumatların kollektiv şəkildə müzakirə olunmasına və bu müzakirədə şagirdlərin fəal iştirakına şərait yaradır. Müəllimlər karusel üsuluna daha çox hansısa mövzunun və ya bölmənin təkrarı zamanı müraciət edirlər.

Rollu oyunlar - bu təlim üsulunda hər bir şagird götürmək istədiyi rolu diqqətlə seçməlidir. Ona görə ki, həmin rolun mövqeyindən öz düşüncələrini əsaslandırılmış şəkildə ifadə etməyi bacarmalıdır. Məsələn, dərsdə şagirdlər müəyyən bir mətni oxuyub onu fərqli mövqelərdən (psixoloq, tənqidçi və s.) dəyərləndirə bilərlər. Rollu oyunlardan daha çox yaradıcı tətbiqetmə mərhələsində istifadə edilir, çünki bu təlim üsulu şagirdlərə imkan verir ki, onlar müəyyən problemi fərqli mövqelərdən dəyərləndirib hadisələrin iştirakçısı kimi çıxış edə bilsinlər.

Müsahibə əsasında oçerk - bu təlim üsulunda şagirdlər müəyyən hadisə ilə bağlı müşahidə aparırlar. Daha sonra müəyyən suallar tərtib edib müsahibə həyata keçirirlər. Sualların cavablarını qeydə aldıqdan sonra isə müsahibənin nəticələrini digər yoldaşları ilə bölüşürlər. Müsahibə əsasında oçerk üsulundan yaradıcı

tətbiqetmə mərhələsində istifadə daha səmərəli nəticə verir. Ədəbiyyat dərslərində bu üsul, həmçinin şagirdlərin rabitəli nitq bacarıqlarını inkişaf etdirərək müstəqil fikir bildirmələrinə yardımçı olur.

Yuxarıda bir neçə geniş istifadə olunan təlim metodlarının haqqında məlumat verilmişdir. Müəllimlər şagirdlərin fəal iştirakını təmin etmək üçün bu üsulları ədəbi əsərlərin təhlilində geniş istifadə edə bilərlər.

Müəllim üçün metodik vəsaitdə bilavasitə ədəbiyyat tədrisi üçün səciyyəvi olan interaktiv metodlar geniş şərh edilmiş, konkret dərs nümunələrində həmin metodların tətbiqi imkanları göstərilmişdir. Bu da, şübhəsiz, kurikulum üzrə dərslərin təşkilində hələ zəruri təcrübəyə yiyələnməmiş, çətinliklərlə üzləşən ədəbiyyat müəllimləri üçün çox əhəmiyyətlidir. Müəllim bu vəsaitdə ikihissəli gündəlik, proqnozlaşdırılmış oxu, fasilələrlə oxu, müqayisə cədvəli, diskussiya və s. interaktiv metodlardan dərs prosesində məqsədyönlü istifadə ilə bağlı dəyərli metodik tövsiyələr, dərs nümunələri ilə tanış olacaqdır.(3)

Ədəbiyyat dərslərində təlimin texniki vasitələrindən istifadə imkanları böyükdür. Ədəbiyyat dərslərində informasiya-kommunikasiya texnologiyalarından istifadə müasir dərsə verilən tələb kimi irəli sürülür. Təlimin texniki vasitələri üç yerə bölünür: 1. Akustik (məktəb radio qovşağı, maqnitofon); 2. Vizual (epidiaskop, kodoskop, proyektor); 3. Audio-vizual (televizor, video-maqnitofon, kompüter və s.). Hazırda ədəbiyyat müəllimləri televizor, video, kompüter, proyektor, elektron lövhə kimi informasiya-kommunikasiya vasitələrindən istifadəyə daha geniş yer verir, özlərinin və şagirdlərin internetdən topladığı materialları, sənətkar haqqında filmlər, verilişlər, bədii əsərin ekran, səhnə variantlarından fraqmentləri, şəkilləri, video çəkilişləri dərsdə uğurla nümayiş etdirirlər. (1,s.339)

Fəal təlim metodlarının tətbiqini zəruri edən ən mühüm amillərdən biri də odur ki, həmin metodlar gənclərdə daim dəyişmədə olan dinamik şəraitə uyğunlaşmaq bacarığı, sosial bacarıqlar formalaşdırır, təfəkkürün çevikliyini təmin edir, qrup, kollektiv şəklində fəaliyyət göstərməyi, əməkdaşlıq etməyi onlara öyrədir.

Fəal/interaktiv dərsin səmərəliliyi müəllimin planlaşdırma və bələdçilik (fasilitasiya) bacarıqlarından asılıdır. Müəllim dərsin bütün mərhələlərində görüləcək işləri dəqiq planlaşdırmalı, ciddi hazırlıq işləri görməlidir. Dərsə hazırlıq zamanı qarşıya qoyulan təlim məqsədlərinin (öyrədici, inkişafetdirici, tərbiyəetdirici məqsədlər) düzgün müəyyənləşdirilməsi, hansı idraki bacarıqlar üzrə iş aparılacağı (tətbiq etmək, tərkib hissələrinə ayırmaq, əlaqələndirmək, müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq və s.) aydınlaşdırılmalıdır. Təlimin məqsədləri müəyyənləşdirilərkən dərsin mövzu üzrə dərslər sistemində yeri, təlim materialının xarakteri, şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınır. (1,s. 132)

Artıq inamla demək olar ki, innovasiyaların-yeniliklərin geniş tətbiqi baxımından fəal(interaktiv) təlim geniş imkanlara malikdir. Onun mütəzəm tətbiqi şagirdlərdə aşağıdakı bacarıqların formalaşmasına səbəb olur:

- Biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, bu bilikləri yaradıcılıqla işləmək;
- Onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək;
- Öz yoldaşları ilə problemlərin həllində əməkdaşlıq etmək;
- Öz qabiliyyətini gerçəkləşdirmək üçün yollar axtarmaq. (2, s.57)

Təlim prosesində öyrətmədə əsas rolu müəllim icra etsə də, eyni zamanda şagirdin şagird yoldaşı da iştirak edir. Öyrətmə prosesində bu üç tərəfin iştirakı bir-biri ilə sıx qarşılıqlı əlaqədədir. Müəllimin bir sözü "Ümumi fikrə gəlın", "Qrupun ümumi fikrini hazırlayın" ...-onlar arasında şagird-şagird münasibətlərinin aktivləşməsinə səbəb olur. Şagirdləri bu əməkdaşlığa sövq etdirmək üçün müəllimdən əvvəlcədən yüksək hazırlıq, dərsin planının tərtibində motivasiya mərhələsindən tutmuş, yaradıcı tətbiqetmə mərhələsinədək, tədqiqat sualının qoyuluşundan tutmuş verilən tapşırıqlaradək maraqlılıq və yaradıcılıq tələb edir.(4)

Ədəbiyyat təliminə verilən müasir tələblərdən biri də məhz müəllimin dərsi fəal(interaktiv) metodların tətbiqi ilə keçməsidir. Müasir müəllimlər şagirdləri tədqiqatçı ruhda yetişdirməli, onlarda təfəkkürü inkişaf etdirməli və müstəqil işləmələri üçün geniş imkanlar yaratmalıdırlar. Digər fənlər kimi ədəbiyyatın tədrisi də şagirdlərin ədəbi inkişafına, mənəvi-estetik tərbiyəsinə xidmət etməlidir. Unutmamalıyıq ki, şagirdlər gələcəyin təməlidir.

TƏDQİQAT METODU: Məqalədə müşahidə, analiz metodlarından istifadə olunmuşdur.

NƏTİCƏ: Müasir ədəbiyyat dərsləri müəllimlərin bələdçi, şagirdlərin isə tədqiqatçı olduğu fəal(interaktiv) təlimdir. Nəticə olaraq deyə bilərik ki, hal-hazırda ədəbiyyat müəllimləri bilik və bacarıqları dərsdə tələb etməklə deyil, şagirdlərdə maraq oyadaraq, özlərinin mənimsəməsinə şərait yaratmalıdır. Bu mənada müəllimlər dərslərə yaradıcı yanaşmalı, kurikulum üzrə dərslərin səmərəli təşkilinə yeni innovasiyaları tətbiq etməlidirlər.

ƏDƏBİYYAT SİYAHISI
1. Bilal Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı,"Müəllim", 2016. 455 səh **(kitab)**
2. Yusif Aslanov. Ədəbiyyat tədrisi: Ənənə və müasirlik. Bakı,2011,162səh.(**kitab**)
3. **https://www.muallim.edu.az/www.old/arxiv/2012/45/32.htm (online məqalə)**
4**. https://baku.edu.gov.az/az/page/9/2770 (online məqalə)**

UŞAQ ƏDƏBİYYATI UŞAĞIN İNKİŞAF VƏ TƏRBİYƏSİNDƏ ƏSAS AMİL KİMİ

fil.ü.f.d.GÜLNAR QƏMBƏROVA
AMEA/NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU
Uşaq ədəbiyyatı şöbəsi/böyük elmi işçi
Email: ms.gulnar_babayeva@mail.ru
BAKI/AZƏRBAYCAN

XÜLASƏ
Məqalədə mövcud fikirlərə yaradıcı münasibət öz əksini tapmışdır və problemə yeni nəzərlə yanaşılmışdır. Təqdim olunan mövzunun müasir baxış bucağından müqayisəli şəkildə araşdırılması mövzunun aktuallığını şərtləndirir. Məqalədə irəli sürülən fikirlərdən tədqiqatçılar istiqamətverici nəzəri bir mənbə kimi bəhrələnə bilərlər.

AÇAR SÖZLƏR: uşaq ədəbiyyatı, uşağın tərbiyəsi, folklor

GIRIŞ

Uşağın inkişafında, tərbiyəsində, dünyagörüşünün genişlənməsində və s. ədəbiyyatın, mütaliənin rolu çox böyükdür. Yaxşı uşaq ədəbiyyatı uşağa məhəbbət, mərhəmət, dostluq və digər gözəl insani keyfiyyətləri aşılamağa qadirdir. Uşağa kiçik yaşlarından oxumağı öyrətmək lazımdır. Yazıçıların, şairlərin yazdıqları, uşaq xəyallarında təcəssüm etdirdikləri ən gözəl, saf hisslər uşaq ədəbiyyatında da öz əksini tapa bilir.

Nitq insan ünsiyyətinin ən vacib formalarından biridir. Bu nitq ədəbi olanda insana xüsusi təsir göstərir. Hətta uşaqlara təsir etmək iqtidarında olan ədəbi dil də öz nümunələri ilə onları nağıl aləminə aparmağa qadirdir. Görkəmli rus yazıçısı M.Qorki uşaq ədəbiyyatı haqqında deyirdi: "Uşaq ədəbiyyatı qüdrətli dövlətdir, onun öz suveren qanunları və qaydaları vardır" [1, s.3].

Uşaq ədəbiyyatı aşağıdakı yaş qruplarına bölünür:

1. Məktəbəqədər uşaqlar (3-7 yaş);
2. Kiçik məktəblilər (7-11 yaş);
3. Orta məktəb şagirdləri (11-15 yaş)
4. Yuxarı sinif şagirdləri və ya gənclər (15-17 yaş).

Uşaqlar üçün yazan hər bir yazıçı bu bölgü üzərində düşünməlidir. Eyni zamanda uşaq ədəbiyyatı yazarkən təkcə yaş bölgüsü deyil, digər xüsusiyyətləri də nəzərə almaq lazımdır. Bunlara misal olaraq aşağıdakıları qeyd edə bilərik:

- mövzuda əsas yer uşaqlara verilməlidir;
- mövzu kiçik həcmli və çoxlu şəkillərdən ibarət olmalıdır. (xüsusilə kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulan kitablarda);
- sadə dildə, yəni uşaqlar üçün başa düşülən dildə yazılmalıdır;
- təsvirə daha az yer verilməlidir;
- çoxlu macəralı hissələr olmalıdır;
- xoşbəxt sonluqla - yaxşılıq şər üzərində qələbə ilə bitməlidir;
- təhsil məqsədinin olması əsas şərtlərdən biridir.

Yaş səviyyəsini və qeyd olunan xüsusiyyətləri nəzərə alaraq, uşaqlar üçün yazılmış kitab onların marağını stimullaşdırır, estetik zövqlərini formalaşdırır, onlara sevinc bəxş edir, nikbinlik ruhunu gücləndirir. Uşaqlar üçün yazmaq və yaratmaq çətin olduğu qədər də əyləncəlidir. V. Q. Belinski deyirdi ki, yaxşı kitab "uşaqlar üçün bayramıdır". Uşaqların fikirlərini qeyd etmək, hiss etmək və onlar üçün yazmaq hər kəsə nəsib olmur. Hər kəs bu işin öhdəsindən gələ bilmir. Uşaq ədəbiyyatı uşaqların bilik və marağının artırılması vasitəsidir. Qorki yazırdı: "Uşaqların təbiəti müxtəlifliyə və qeyri-adiliyə can atır. Onlar üçün yazılmış kitabın dili sadə və aydın olmalıdır ki, mövcud çətin və hikmətli suallar onlara izah olunsun [1, s. 4].

Araşdırma zamanı müəyyən etdik ki, dünya uşaq ədəbiyyatı, eləcə də Azərbaycan uşaq ədəbiyyatı nümunələri hər bir xalqın folklorundan, onun şifahi xalq ədəbiyyatından qaynaqlanır. Ona görə də uşaqların folkloru sevməsi təsadüfi deyil. Nağılları, mahnıları dinləməklə insanda həyat, insan münasibətləri haqqında müəyyən təsəvvürlər formalaşır. Əksər uşaq yazıçıları öz nümunələrində folklor motivlərindən, mövzularından istifadə edərək uşaqlarımız üçün əvəzsiz əsərlər yaradıblar. Nümunə olaraq Azərbaycan, rus, ingilis və başqa xalqların nümunələri göstərilə bilər. Məşhur rus müəllimi K.Uşinski uşaqlar üçün yazdığı "Doğma söz" kitabında nağıl, atalar sözləri, tapmaca və digər folklor nümunələrindən istifadə etmişdir.

Lev Tolstoy qeyd edirdi ki, folklordakı süjet xəttini uşağa çatdırmaqla yanaşı, xalqın dilinin, onun xüsusiyyətlərinin, təravətinin - bir sözlə milli mənsubiyyətinin qorunub saxlanmasına diqqət yetirmək lazımdır [3, s.11-12]. Şifahi xalq ədəbiyyatı nümunələrindən olan tapmacalar, yanılmaclar, nağıllar, laylalar, bayatılar və s. uşaqlar üçün əyləncə vasitəsi deyil, onlar həm də uşaqların nitqinin, təfəkküründün, formalaşmasına təsir göstərir. Azərbaycan uşaq ədəbiyyatının inkişafında, onun gözəl nümunələrlə zənginləşməsində tanınmış yazıçılarımızı və onların yaradıcılığını qeyd etmək lazımdır. M.A.Sabir, A.A. Bakıxanov, S.A.Şirvani, A.Səhhət, C.Məmmədquluzadə, S.S.Axundov, S.Vurğun, M.Dilbazi və başqa yazıçılar öz ədəbi əsərlərində uşaqların qəlbini oxşamaqla yanaşı, Vətənə, anaya, sabaha sevgilərini də özünə ümid və inam, incə zövq, gözəl fikir və hisslər, yüksək mənəvi keyfiyyətlər yaratmağa borcludurlar.

Demək olar ki, dünyanın bütün xalqlarının şifahi xalq yaradıcılığında, xüsusilə də nağıllarda heyvanların həyatına həsr olunmuş süjetlərə geniş yer verilmişdir. Son zamanların ədəbiyyatında heyvanlar təkcə təmsil və nağılların obrazları olaraq qalmır, roman, povest və hekayələrin baş qəhrəmanları kimi çıxış edirlər. Təbii ki, Azərbaycan nağıllarında da heyvan obrazları öz əksini tapmışdır. Heyvanların öz dillərinin olması, onların adamlar kimi danışması hələ lap qədim nağıllarda da göstərilmişdir. Bütün bu qeyd etdiklərimizlə yanaşı, hər bir xalqın ədəbiyyatını zənginləşdirən yollardan biri də tərcümə ədəbiyyatıdır. Təbii ki, hər bir xalqa məxsus uşaq ədəbiyyatı nümunələrinin yayılmasında, təbliğ olunmasında və eyni zamanda dünyada tanınmasında tərcümənin yeri əvəzsizdir.

Tərcümə olunan ədəbiyyat nümunələri hər bir xalqın ədəbiyyatının əvəzedilməz xəzinəsidir. Dünya uşaq ədəbiyyatı incilərinin azərbaycan dilinə tərcümə olunması çox sevindirici haldır. Tərcümə olmasaydı, uşaqlar digər ölkələrin ədəbi nümunələri ilə tanış olmaq imkanından istifadə etməmiş olardılar və biz uşaq ədəbiyyatımızın əvəzolunmaz nümunələrini dünyaya tanıtmaq imkanından məhrum olardıq. Tərcümə olunaraq oxucuların ixtiyarına verilən bu əsərlər insanın dünyagörüşünü formalaşdırmaqla, onu digər xalqların mədəniyyəti, adət-ənənəsi, həyat tərzi və s. ilə tanış olmaq imkanı yaradır.

Demək olar ki, dünya uşaq ədədbiyyatının bir çox nümunələri azərbaycan dilinə tərcümə olunub. İstənilən bədii əsərin, ədəbi nümunənin tərcüməsi zamanı milli özünəməxsusluğun saxlanılması ilə yanaşı, ona milli koloritin verilməsi zəruridir. Hər hansı bir dil vahidinin mənası və ya mahiyyəti onun emosional çaları ilə sıx bağlıdır. Sözü, söz birləşməsini və ya cümləni tərcümə edərək onların mənası ilə bağlı olan hisslər və emosiya problemini düzgün çatdırmaq çox vacibdir. Belə hallarda orijinal sözlərin yalnız mənasını yox, onların üslubi xüsusiyyətlərini də bilmək lazımdır. Bədii əsərləri tərcümə edərkən tərcüməçinin ilk növbədə vəzifəsi bəzi halda çox çətin olan orijinaldakı üslubi vasitələri imitasiya etmək və ya köçürmək yox, onu doğma dilə uyğun şəkildə tərcümə etməkdir.

Ədəbi nümunənin nə dərəcədə yaxşı, keyfiyyətli tərcümə olunduğunu bilmək üçün onu orijinal variantla müqayisə etdikdən sonra bilmək olur. Uşaq ədəbiyyatını da tərcümə edərkən tərcümədə istifadə olunan üsul və metodlardan yararlanmaq vacibdir. Uşaq ədəbiyyatının tərcüməsində də bəzi mürəkkəb cümlələrin sadələşdirilməsi, əsərdəki müəyyən hissələrin ixtisara salınması kimi hallara rast gəlmək mümkündür. Bəzi hallarda bu məqsədəuyğun olur, bəzi hallarda isə əsəri sadəcə olaraq ixtisara salmaq üçün edilir. Tərcümə ədəbiyyatının yeri xüsusidir. Belə tərcümələr olmasa biz digər xalqların ədibləri və onların yazdıqları ilə tanış ola bilməzdik. Şarl Peronun "Qırmızı papaq", "Çəkməli pişik", Qrim qardaşlarının nağılları,

Andersonun "Düyməcik", "Qar kraliçası" nağılları və digərlərinin dünyaca məşhur əsərləri bizim də oxucular tərəfindən sevilərək oxunur.

Tərcümə olunan ədəbi nümunələrdə də folklorun izini görmək olur. K.Anderson qeyd etmişdir ki, nağıllar da folklor nümunələri kimi rəngarəng olmalıdır ki, uşaqların və böyüklərin düşüncələrinin, maraqlarının müxtəlif olmasına baxmayaraq onları eyni maraqla qarşılasınlar [4, s.52[. Bu səbəbdən də, uşaq ədəbiyyatının əksər nümunələri folklordan bəhrələnib və bu günükü günümüzdə də geniş oxucu kütləsi tərəfindən oxunur və sevilir. Ancaq təəssüf ki, çox zaman uşaq ədəbiyyatına barmaqarası yanaşıblar, onu uşaq-muşaq ədəbiyyatı hesab edənlər də tapılıb. Dünya, insan, təbiət və cəmiyyət kimi məfhumları uşaq lap körpə yaşlarından qavrayaraq hafizəsinə həkk etməyə başlayır. Bu məfhumları düzgün qavrayaraq böyümək üçün istiqamət lazımdır. Bunları uşağa çatdıran ən yaxşı vasitə də elə uşaq ədəbiyyatının özüdür. Bəziləri hesab edir ki, uşaq ədəbiyyatı uşaqda arzularla yaşamaq həvəsini artırır və onu xəyalpərəst edir. Bu zaman isə heç bir sağlam fikirdən söhbət gedə bilməz. Uşaq ədəbiyyatının çoxəsirlik tarixinə baxmayaraq bu ədəbiyyat haqqında müxtəlif fikirlər söylənilib. Söylənilən fikirlər bununla bitmir. Burada Səməd Vurğunun qeyd etdiyi bir fikri vurğulamaq zəruridir: "Biz uşaqla danışdığımız zaman – insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman – insan üçün yazdığımızı unutmamalıyıq [2. s.4]. Sadəcə, uşaqlar üçün yazarkən onların anlaya bildiyi dildə yazmalı, onların maraq dairəsində olan mövzulara toxunmaq lazımdır.

TƏDQIQAT METODU

Tədqiqat zamanı müqayisəli-tarixi metoda üstünlük verilmişdir. Tədqiqat işini yazarkən uşaq ədədbiyyatı haqqında yazılan materiallardan, Azərbaycan və dünya elmi-nəzəri fikrindən istifadə edilmişdir.

NƏTICƏ

Müasir dövrümüzdə uşaqların maraqları da geniş və rəngarəngdir. Buna görə də uşaq ədəbiyyatına yeni nəfəs və yeni obrazlar bəxş etməyə davam etmək lazımdır. Hal-hazırda ədəbi nümunələrdən ilhamlanaraq və istifadə edərək obrazlara yeni nəfəs verilir. Bu obrazlar öz inikasını cizgi filmlərində, oyunlarda, bədii filmlərdə müasir varianta öz təzahürünü tapır. Qeyd olunanlardan başqa kitabı da uşağa sevdirməyin müəyyən yollarını tətbiq etmək zəruridir. Bu yollardan ən uyğunu və ən sadəsi kitablarda şəkillərin olmasıdır. Kitabaların illyustrasıyasının rəngarəng olması uşağın diqqətini cəlb edən başlıca xüsusiyyətdir.

ƏDƏBIYYAT SIYAHISI

1.Yusifoğlu Rafiq. Uşaq ədəbiyyatı. Şirvannəşr **(Kitab**) Bakı/ Azərbaycan. 2006:1-172
2.Namazov Qara .Uşaq ədəbiyyatı. Elm nəşriyyatı (Kitab) Bakı/ Azərbaycan. 2007:1-340
3.Mirzəzadə Qürbət. Tənqidçi dünyası. Azərbaycan Dövlət Nəşriyyatı (**Kitab**). Bakı/ Azərbaycan. 2000:1-160

FƏNDAXİLİ VƏ FƏNLƏRARASI ƏLAQƏLƏRİN BƏDİİ ƏSƏRLƏRİN TƏDRİSİNDƏ ROLU

AYAN ƏLƏKBƏRLI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistrant/ Azərbaycan ədəbiyyatı
ayan.alekberli1@gmail.com
BAKI,AZƏRBAYCAN

BAKHCHA MUSAEVA
Azərbaycan Dillər Universiteti
Magistrant/Azərbaycan ədəbiyyatı
aylinisayeva2020@gmail.com
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Fəndaxili və fənlərarası əlaqə şagirdlərin informasiya və onun tətbiqi yollarına yiyələnməsi zamanı əvəzsiz vasitədir. Bu yolla şagirdlərin beyninin lazımsız, qeyri-əsas faktlarla, gərəksiz informasiya ilə yuklənməsinin qarşısı alınır. Təlim prosesində effektivliyi artırmaq məqsədilə məqsədyönlü şəkildə reallaşdırılan fəndaxili və fənlərarası əlaqə şagirdlərin ədəbi biliklərinin zənginləşməsini, dünyagörüşünün

formalaşmasını və sistemli əlaqəni təmin edir. Orta məktəb şagirdləri bu əlaqələr sayəsində əlavə vaxt sərf etmədən, məsələnin asan və ya çətin olmağından asılı olmayaraq, onu rahatlıqla mənimsəyir. Tədqiqatın əsas məqsədi də bu xüsusiyətləri ümumiləşdirməkdən ibarətdir. Məqalənin aktuallığı müasir təlimdə seçilən mövzunun aktiv tətbiq olunmasıdır. Tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın həyata keçirilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan dərk olunmasına, dərslərin daha maraqlı və məzmunlu təşkilinə, uşaqlarda tədqiqatçılıq və elmlilik meyillərinin inkişafı üçün çox vacib və əhəmiyyətli şərtlərdən biridir.

AÇAR SÖZLƏR: Fəndaxili, fənlərarası əlaqə, bədii əsər, inteqrasiya, ədəbiyyat

GIRIŞ

İlkin araşdırmalardan belə məlum olur ki, inteqrasiya termini bir anlayış kimi XX əsrin sonlarında daha fəal istifadə olunmağa başlanmışdır. Ölkəmizdə kurikulum konseptual sənədinin qəbulu ilə müasir yanaşmanın dərsə tətbiqinə başlanıldı və sistemi inteqrasiyasız təsəvvür etmək qeyri-mümkündür.

Fənlərarası inteqrasiya bir neçə fənnə aid olan ortaq bilik və bacarıqların sintezi olmaqla yanaşı, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına və bu əlaqələrin effektivliyinə kömək edir. Bundan başqa, bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə təlim prosesinin keyfiyyətinin və davamlılığının artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx, möhkəm və əhatəli olmasına, onun bütöv bir prosesə çevrilməsinə kömək edir. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli və intensiv qaydada istifadə etmək imkanı qazanırlar. Bundan başqa, fənlərarası və fəndaxili inteqrasiya şagirdləri interaktiv öyrənməyə yönləndirir, onların təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır (1, s. 84).

Bilik, bacarıq və vərdişlərin sistemli, ardıcıl və dərindən mənimsənilməsi, hadisələrin qarşılıqlı münasibətinin dərk olunması və bu zəmində şagirdlərin elmi dünyagörüşünün formalaşdırılması təhsil islahatının hazırkı mərhələsində təlim prosesinin qarşısında duran ən vacib məsələlərdəndir.

Müasir dövrdə informasiya-komunukasiya məkanında sürətlə artan informasiyaların qavranılması, şagirdlərin təlim yükünün yüngülləşdirilməsi ümumitəhsil məktəblərində humanitar fənlər üzrə bilik və bacarıqların əlaqələndirilməsini, sintezini və birləşdirilməsini tələb edir.

Fəal/interaktiv dərslərdə ilk növbədə şagirdin dünyaya baxış bucağı dəyişir, şagird bilikləri artıq öz tədqiqatçılıq bacarığı ilə mənimsəyir. Mənəvi dəyərlərə etik normalara yiyələnir. İnteqrasiyanın uğurla reallaşdırılması nəticəsində mövzuların yığcamlığı təmin edilir, vaxta qənaət olunur, təkrara yol verilmir, şagirdlərin həddindən artıq yüklənməsi və ev tapşırığının ağırlığı yüngülləşir. Şagirdlər az vaxtda çox, həm də bir-birilə qarşılıqlı əlaqələndirilmiş biliklər öyrənirlər. Bütün bu sayılan səbəblərlə əlaqədar tədris prosesində inteqrasiyaya geniş yer verilməlidir. Bunun təmin olunması üçün müəllim bütün fənlərin təlim materialı ilə yaxından tanış olmalı və əlaqə zamanı bunlardan istifadə yollarını və onun metodikasını bilməlidir.

Müasir təhsil sistemində "fəndaxili və fənlərarası əlaqə" termini ilə yanaşı, fənn kurikulumunun tətbiqi ilə əlaqədar "fəndaxili və fənlərarası inteqrasiya" termini də işlənir. Bu məsələyə toxunan Bilal Həsənli "fəndaxili və fənlərarası əlaqə"yə nisbətən, "fəndaxili və fənlərarası inteqrasiya" terminin daha geniş anlayış olduğu qənaətinə gəlmişdir." (2, s. 317).

Bilal müəllimin bu fikrinin doğruluğuna inanmaqla yanaşı, bizə görə bu qənaətə anlayışlar haqqında işlədilən ümumi təhriflərdə də rast gəlmək mümkündür. Belə ki, ədəbiyyat həyatı obrazlı şəkildə əks etdirən söz sənətidir, incəsənətin bir növüdür. Həyatı özünəməxsus şəkildə əks etdirən digər elm sahələri ilə daim qarşılıqlı əlaqədədir. İnteqrasiya zamanı isə həyatı özünəməxsus şəkildə əks etdirən fənlərlə yanaşı, bunların orta məktəbdə tədrisinə xidmət edən metodika ilə də əlaqədədir. Məsələnin iç üzü ilə kifayətlənmir, daha dərin məqamlara toxunur və fənlərarası boşluqları rahatlıqla doldurur. "İnteqrasiya latın sözü olub bərpa olunma, doldurulma, hissələrin bütöv bir tam halında birləşməsi, özü də sadə, mexaniki birləşməsi deyil, bir-birinə daxil olmaqla, bir-birinə təsir etməklə birləşməsi deməkdir."

Burdan bu qənaətə gəlmək olar ki, "İnteqrasiya" termini "əlaqə" anlayışına nisbətən geniş və əhatəlidir.

Təhsil konsepsiyasında inteqrativlik dedikdə təhsilin məzmunun tərkib hissələrinin bir-birilə və ya həyatla sistemli şəkildə əlaqələndirilməsi nəzərdə tutulur. İnteqrativ təlim müasir dünyagörüşlü, yaradıcı, problemlər qarşısında məntiqi və müstəqil qərarlar qəbul etmək üçün zəruri bilik səviyyəsinə və bacarıqlara malik şəxsiyyət formalaşması aktını ön plana çıxdığı müasir təhsildə çox əhəmiyyətli və aktual yerə malikdir. Bu məsələnin həlli təkcə ədəbiyyatın elmi, nəzəri əsaslarının inkişafı üçün deyil, həm də müəllimlərin dərsdə faydalı işi üçün inkarolunmaz əhəmiyyətə malikdir (2, s. 234).

Ədəbiyyat fənni öz mahiyyəti, özündə ehtiva etdiyi mövzular etibarilə inteqrativ səciyyə daşıyır. Belə ki, ədəbiyyatın həyatı obrazlı şəkildə əks etdirməsi onun inteqrativliyinə şübhə doğurmur və bu xüsusiyyət təlim prosesində öz əksini tapmalıdır. Ədəbiyyat şagirdin bir fərd kimi yetişməsində onun şəxsiyyətinin formalaşmasında danılmaz faktordur. Ədəbiyyat həyat gerçəkliyi və ətraf aləm haqqında zəngin informasiya mənbəyidir. Yuxarıda da qeyd edildiyi kimi təlim prosesində inteqrasiya hissələrin məntiqi surətdə bütöv bir tam halında birləşməsini ifadə edir. Ədəbiyyat bölməsində fəndaxili inteqrasiya fənn üzrə mövzuların, bilik və bacarıqların, nəticələrin sinif, və siniflər arasında əlaqələndirilməsini nəzərdə tutur. Fənlərarası inteqrasiya isə ədəbiyyat fənni üçün zəruri ideya, bilik, bacarıq, vərdiş və nəticələrin digər bu xüsusiyyətləri özündə ehtiva edən fənlərlə əlaqələndirilməsini nəzərdə tutur. İnteqrativlik şagirdlərdə yeniliyə maraq oyadır. Onları axtarış və yaradıcılıq bacarıqlarını inkişaf etdirməyə yönləndirir. Şagirdlərin fəndaxili və ya müxtəlif fənlər arasında hər hansı mövzuya dair geniş, mükəmməl bilik və bacarıqlar əldə etməsi üçün əlverişli şərait yaradır. Şagird təkcə ədəbiyyatla deyil, onunla bağlı olan digər fənlərlə də tanış olmalı, onlar haqqında lazımi biliklərə yiyələnməlidir. Məsələnin bu yerində məşhur ədib, astronom, riyaziyyatçı Nəsrəddin Tusinin fikrini xatırlamaq lap yerinə düşərdi. "Şagird hansı fənni öyrənmək, o sahədə ixtisas sahibi olmaq istəyirsə, o fənlə əlaqəsi olan bütün elmlər və sənətlərlə tanış olmağa həvəs göstərməlidir, məsələn, yazı-pozu sahəsində mütəxəssis olmaq istəyən başqa əlaqədər elmlərdən, ədəbii fənlərdən baş çıxarmalıdır (2, s. 204).

"Ədəbiyyat kurikulumunda inteqrativlik fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrativlik təhsil pillələri üzrə məzmun xətləri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır."

Fəndaxili inteqrasiya hər hansı bir fənnin ifadə etmək istədiyi bilik, bacarıq və anlayışların əlaqələndirilməsi, fənn daxilindəki məlumatların sistem üzrə qruplaşdırılmasıdır. Fəndaxili inteqrasiya üfüqi və şaquli ola bilər.

Ədəbiyyat dərslərində fəndaxili inteqrasiya zamanı şagirdlərin eyni sinifdə və müxtəlif siniflərdə əldə etdiyi bilik və bacarıqlar şagirdlərə bir sıra imkanlar yaradır. Bu imkanlara müxtəlif xüsusiyyətlərinə görə bir-birilə eyniyyət təşkil edən əsərlərin öyrənilməsi, sənətkarın həyat və yaradıcılığına baxış zamanı digər siniflərdə mənimsənilmiş biliyə müraciət, şifahi və yazılı nitqin inkişafı və.s. demək olar. Bu imkanları prof. Bilal Həsənli sistemləşdirmiş, aşağıdakı şəkildə qruplaşdırmışdır.

1. "Mövzu, problem, janr baxımından bir-birilə səsləşən əsərlərin əlaqəli öyrənilməsi;
2. Ayrı-ayrı siniflərdə sənətkarın həyat və yaradıcılığı üzrə mənimsənilmiş biliklərin əlaqələndirilməsi;
3. Ədəbiyyat nəzəriyyəsi üzrə bilik və bacarıqların əlaqələndirilməsi;
4. Şifahi və yazılı nitq bacarıqlarının əlaqələndirilməsi;
5. Bədii əsərlərin oxusu, təhlili, qiymətləndirilməsi üzrə bacarıqların əlaqələndirilməsi;"

Bildiyimiz kimi ədəbiyyat fənni inteqrativ səciyyə daşıyır, bu səbəbdən də bütün mövzular üzrə fəndaxili inteqrasiya mümkündür və aparılmalıdır. Əsərin məzmunu üzrə işin və təhlilinin qarışılıqlı əlaqə şəklində aparılması üçün dərsliklərdə verilən təlim materialları problem-mövzu şəklində qruplaşdırılır. Ədəbiyyat dərslərində şifahi və yazılı nitq üzrə inteqrasiyanın aparılması vacib məsələlərdəndir. Həmçinin şifahi və yazılı ədəbiyyat nümunələrinin mövzu, problem, obrazlar aləminin müqayisəli aşılanması və janrlar üzrə əlaqələr də diqqətdən kənarda qalmamalıdır.

Ədəbiyyat təhsil proqramının 1.6 bölməsi "Fəndaxili və fənlərarası inteqrasiya"ya həsr olunmuşdur. Burada həmin məzmun bütün siniflər üzrə təqdim olunmuşdur. Bildirək ki, hazırda ədəbiyyatdan müəllim üçün metodik vəsaitlərdə "İllik planlaşdırma"da bu inteqrasiya imkanları müəyyən qədər əhatə olunmuşdur. (3, s.78)

Ədəbiyyat demək olar ki, bütün fənləri (Azərbaycan dili, tarix, coğrafiya, riyaziyyat, həyat bilgisi, təsviri incəsənət, informatika və s.), həmçinin incəsənətin digər sahələrini inteqrasiya edə bilir. Ədəbiyyatın bu geniş imkanları dərsliklər hazırlanarkən də nəzərə alınır. Şagirdlərin estetik zövqünü inkişaf etdirən, dünyagörüşünü formalaşdıran mövzular salınır ki, tədris zamanı müəllimlərin belə muvzulara inteqrativ yanaşması, əlaqəli təhlil aparması zəruridir. Şagirdlər öyrənəcəyi mövzunun, bildiyi mövzunun əsasında dərk etməyə çalışarsa, bu daha effektiv və faydalı olar. Yeni bilik, köhnə bilik əsasında mənimsənir. İnteqrativ dərsin faydalarından biri də varisliliyə əsaslanmasıdır.

Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Belə olan halda şagirdlər təlim prosesinin passiv iştirakçısı olmur. İnteqrativlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu o zaman mümkün olur ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi

mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunur. Digər bir tərəfdən inteqrativ kurikulum şagirdlərin dərsliklərdə verilən materiallara yaradıcı yanaşmasına kömək edir.
TƏDQİQAT METODU: Məqalədə faktların toplanması və seçilməsi metodundan istifadə edilmişdir.
NƏTICƏ: Ümumi təhsil pilləsində kurikulumun hazırlanması zamanı istinad edilən əsas prinsiplərdən biri də inteqrativlikdir. Ədəbiyyatın tarix, coğrafiya, dil, din, rəsm, musiqi, heykəltəraşlıq, xarici dil, informatika, həyat bilgisi və s. fənlərlə qarşılıqlı əlaqəsi vardır və təlim prosesində şagird şüurunda həyat haqqında dolğun mənzərə yaradılmalıdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Azərbaycan dilinin tədrisi metodikasının təkmilləşdirilməsi problemləri.Elmi əsərlər. Bakı, APU, 1982. **(kitab)**
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası.Bakı, Müəllim, 2014.**(kitab)**
3. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı 2017, 304 səh. **(kitab**)

X SİNİFDƏ “SALUR QAZANIN EVININ YAĞMALANDIĞI BOY”UN TƏHLİLİ ÜZRƏ DƏRSIN TƏŞKİLİ XÜSUSIYYƏTLƏRİ

Nərmin Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Magistratura/Ədəbiyyat
Narminquliyeva9906@gmail.com
SUMQAYIT, AZƏRBAYCAN

Xülasə

Azərbaycan dastanlarının böyük bir hissəsini qəhrəmanlıq dastanları təşkil edir. Orta məktəb dərsliklərində dastanlarımız tədris olunur. Bu baxımdan mövzu olduqca aktualdır. Məqalədə “Salur Qazanın evinin yağmalandığı boy”un təhlili və dərsin təşkili xüsusiyyətləri araşdırılmışdır. Məqalənin praktik əhəmiyyəti qəhrəmanlıq dastanlarında əsərin süjet xətti ilə yanaşı, təhlilə cəlb olunmasında müxtəlif yolların sadalanmasıdır. Qəhrəmanlıq dastanları milli ruhun yüksəkliyinə, şagirdlərin vətənpərvər ruhda yetişməsinə xidmət edir. Məqalənin əsas üstünlüyü X sinif şagirdlərində bədii təfəkkürün inkişaf etdirilməsi üçün dastan ənənələrini qoruyub saxlamaq, tarixi və milli ruhu yaşatmaqdır.

Açar sözlər: Qəhrəmanlıq, dastan, Salur Qazan, təhlil, dərsin təşkili

Giriş

Qəhrəmanlıq dastanlarında xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Belə dastanların qəhrəmanları xalq içərisindən çıxmış mərd və igid insanlar olur. Ən məşhur qəhrəmanlıq dastanları Kitabi-Dədə Qorqud, Koroğlu, Qaçaq Nəbi və Qaçaq Kərəmdir. Qəhrəmanlıq dastanları əsasən, xalq qəhrəmanları haqqında olan rəvayət və nağıllar əsasında yaranır.

Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidələrindən biri də “Kitabi Dədə Qorqud” dastanıdır. Dastanın əsas süjeti on iki boyda əks olunmuşdur ki, onlardan biri də “Salur Qazanın evinin yağmalandığı” boydur. X sinif dərsliyində mövzu üzərində iş 4 saatdır. 1 və 2-ci saat məzmun üzrə iş, 3-cü saat təhlil üzrə, 4-cü saat isə tətbiq, müzakirə, yaradıcı işdir. Metodik vəsaitdə dastanın təhlili üzrə işin standart və təlim nəticələri aşağıdakı kimidir:

Standartlar	Təlim nəticələri
1.1.3 Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmunu müxtəlif formalarda (geniş, yığcam, ardıcıl) şərh edir.	• Boyu hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam, yaradıcı nağıl edir.

1.2.2 Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.	• Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə boydakı qəhrəmanları təhlil edir.
1.2.3 Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir.	• Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir.
1.2.4 Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır.	• Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır.

Fəal təlimin rəngarəng keçməsi üçün ilk öncə dərsin hansı mərhələlərdən təşkil olunduğuna nəzər salaq:
1. Motivasiya - 3 dəq.
2. Tədqiqatın aparılması - 9 dəq.
3. Məlumat mübadiləsi - 10 dəq.
4. Məlumatın müzakirəsi və təşkili - 7 dəq.
5. Nəticələrin çıxarılması - 5 dəq.
6. Yaradıcı tətbiqetmə - 8 dəq.
7. Qiymətləndirmə(və ya refleksiya) - 3 dəq.

Cəmi: 45 dəq.

Dərsin gedişi motivasiya, problemin qoyuluşu ilə başlayır. Motivasiyanı müxtəlif üsullardan istifadə etməklə icra edə bilərik. Şagirdlərə Dədə Qorqud haqqında video çarx izlətmək və ya müxtəlif şəkillərdən istiafdə edərək sinfə suallar ünvanlaya bilərik. Ən sadə üsulla isə sinfə *"Kitabi - Dəqə Qorqud" dastanı bizə nə öyədir?", "Oğuzların düşmənə qalib gəlməsinin səbəbini nədə görürsünüz?", "Oğuz igidləri və xanımları haqqında nə düşünürsünüz?" və s.* tipli interaktiv suallar vermək olar. Motivasiya mərhələsinin əsas vəzifəsi idraki fəallığın yaradılmasıdır. Bu mərhələ dərsin başlanmasına şagirdləri səfərbər edir, onlarda fikri fəallığı yaradır, yeni öyrəniləcək mövzuya – problemin qoyulmasına, hazırlıq işlərini həyata keçirməyə intensiv maraq oyadır və problemin tədqiq olunması üçün tədqiqat sualını meydana gətirir. (1, s.103)

Dərsin tədqiqat sualı: *Boyda ifadə olunmuş hansı ideyalar bu gün üçün önəmli sayıla bilər?* Fərziyyələri dinləyib, qeydlər aparırıq. Sinfi 4 qrupa bölüb məlumat mübadiləsinə keçirik. Boyu hissələrə ayırıb, seçilən hissənin məzmununa uyğun obrazları təhlil etməyi və nəticə çıxarmağı planlaşdırırıq. Bu mərhələdə müəllim hər bir qrupun hissəsinə uyğun ideya-məzmun xüsusiyyətinin müəyyənləşdirilməsinə, obrazların daxili aləminə uyğun interaktiv suallar verir.

Məlumatın müzakirəsi və təşkili(yəni sistemə salınması, ümumiləşdirilməsi) mərhələsində əldə olunmuş məlumatlar üzərində müşahidə aparılır, üst-üstə düşən və düşməyən məqamlara şagirdlərin diqqəti cəlb olunur, ümumiləşdirmələr aparılır. (1, s.120)

" Salur qazanın evinin yağmalandığı" boyun baş obrazlarından biri də Qazan xandır. Müəllim bu surət haqqında şagirdlərə məlumat verməli, boyun əsas qəhrəmanı kimi tanıtmalıdır. Oğuz igidlərinin başında bəylərbəyi Qazan xan dayanır. Bayandur xandan sonra oğuz bəyləri Qazan xanı özlərinə başçı, hökmdar, həm də arxa, pənah sayırlar. Qazan xanın mərdliyi, qəhrəmanlığı, dövlət başçısı, sərkərdə olaraq tədbirliliyi Oğuz elinə əmin-amanlıq, səadət gətirir. Qazan xan anasına böyük ehtiramla yanaşan bir oğul, xanımını ürəkdən sevən ər, oğlunun bir igid olaraq yetişməsinə çalışan, onun qəhrəmanlığı ilə fəxr edən atadır. Düşmənə əyilməyən, ən çətin anlarda belə özünü, xalqını, dinini sındırmayan Qazan xan Oğuz igidlərinin ən müsbət xüsusiyyətlərinin daşıyıcısı kimi tərənnüm olunur. Elə ilk cümlələrdən bu surət haqqında yaranan təsəvvür sonrakı səhifələrdə daha da dərinləşir. Aydınlaşır ki, o, yurdunu, el-obasını dərin məhəbbətlə sevir, mərddir, tədbirli başçı, mahir sərkərdədir. Əsir aparılmış doğmalarının, yurddaşlarının arxasınca gedən Qazan xan qoca anasının döyüş zamanı "at ayağı altında qalmasından" ehtiyat edərək düşməndən yalnız onu geri istəyir. Bu, oğuzların mənəvi-əxlaqi keyfiyyətləri barədə aydın təsəvvür yaradır; Qazan xanı yağmalanmış var-dövləti yox, zəif, qoca anası düşündürür və narahat edir. (2, s.35)

Nəticə mərhələsində isə müəllim istiqamətləndirici suallardan istifadə edə bilər. Dərsin tədqiqat sualından çıxan fərziyyələr nəticə hissəsində tutuşdurulur. Boydan çıxan ümumi ideyanın əsas qayəsi aydınlaşdırılır.

Bu mərhələnin yekununda artıq yeni biliyin əldə edilməsi özünü göstərir. Bu mərhələdə müəllim tərəfindən aşağıdakı səhvlər buraxıla bilər:

- ❖ Yekun qənaətlə dərsin ilk mərhələsində əksini tapan tədqiqat sualı və ilkin fərziyyələr düzgün əlaqələndirilə bilməz,
- ❖ Müəllim əlaqələndirici sualı düzgün qoya bilməz,
- ❖ Bu mərhələdəki işləri - tutuşdurmanı və digər işləri müəllimin özü icra edər. (1, s.119)

Təcrübə göstərir ki, şagirdlərin boyda təsvir edilən ictimai-tarixi şərait və tarixi hadisələr barədə informasiyaları olmadığına görə onlar əsərin məzmununun öyrənilməsinə, ideyasının qavranılmasına həvəssiz yanaşırlar.Ona görə də bəzi tarixi hadisələrin boydakı əks-sədaları barədə mütləq dolğun informasiya verilməlidir. Məsələn, Qazan xanın ova gedərkən 300 igidlə oğlu Uruzu evinin keşiyində qoymasının vacibliyini başa salmaq üçün şagirdlərə məlum olmayan ictimai-tarixi şərait barədə izahat verilməsi tələb olunur. İzahat verilərək bildirilməlidir ki, Oğuz "sası dinli Gürcüstan ağzında"dır. Bizans, erməni və gürcü feodalları məqsədli şəkildə türkləri bir-birinin üzərinə saldırmağa çalışırdılar. Ona görə də Qazan xan ova gedərkən oğlunu öz evinin, el-obasının keşiyində qoyur. Sonrakı hadisələr də onun haqlı olduğunu sübut edir.

Dərsin ən sonuncu mərhələsi isə formativ qiymətləndirmənin meyarlarına uyğun aparılır. Qiymətləndirmənin meyarları nağıletmə, təhliletmə,aydınlaşdırma, nəticəçıxarma və s. üzrə qurula bilər.

TƏDQİQAT METODU: Məqalədə müşahidə, analiz metodlarından istifadə olunmuşdur.

NƏTİCƏ: Aparılan tədqiqat nəticəsində "Salur Qazanın evinin yağmalandığı boy"un təhlili üzrə işin səmərəli təşkili göstərilmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Fəxrəddin Yusifov. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, "Bakı" ,2017, 304 səh(**kitab)**
2. Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva . Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. "Bakı",2018, 209 səh**(kitab)**
3. Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva . Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. "Bakı",2017, 209 səh(**kitab)**
4. https://az.wikipedia.org/wiki/Dastan
5. https://az.wikipedia.org/wiki/Salur_Qazan_xan_
6. http://tehsiljurnali.az/mektebmuellim/901-salur-qazanin-evnn-yamalanmasi-boyunun-mzmunu-zrnd-.html

STUDENT-CENTERED CLASSROOM MANAGEMENT IN TEACHING PROCESS

Pərvanə Kərimova
Bakı Mühəndislik Universiteti
Pedaqoji fakultə / Xarici dillər kafedrası
pkarimova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

SUMMARY

The requests of the world have altered, and these changes require the modernization of the tendencies in every field, especially in education. The demand of the globalized world üas the reason for the shifting of educational approaches from the conventional, also traditional methods to more contemporary and challenging ones. The multi-ethnicity of the population makes its educational system to be more worldly-wise and modified to the population's needs and present-day challenges. Self-actualization is one of the best ways for students' engagement and motivation in the educational process and for their preparation as lifelong self-directed learners. Adopting the student-centered approach in teaching increases the process of

students' engagement in the classroom activities and their self-actualization. In order to find out the state of student-centeredness and self-actualization in high schools, the quantitative approach was applied.

KEY WORDS: student-centered, teaching, classroom management.

NTRODUCTION

It sounds good as it rolls of the tongue, student-centered classroom. We have all heard the phrase before, yet most educators would agree that advancing a student-centered classroom is becoming more of a fundamental and norm these days than a magnificence or innovative new approach to teaching. The traditional classroom where students sit quietly and listen attentively in their seats, while the teacher pours wisdom and knowledge into their sponge-like brains is over. This is mainly true for middle school and high school classes where "teaching" can be constant. So what exactly is a student-centered classroom? In short, a student-centered classroom is one where the focus of instruction is shifted from the teacher to the student, with the end aim of evolving students who are independent, by placing the authority of learning in the hands of the students. Many supporters of student-centered learning would argue that it's one of the most effective ways to help students develop the skills required for independent problem-solving and lifelong learning. In the more traditional teacher-centered learning environment, the teacher is the center of the learning experience and takes the active role of teaching, while the students presume a more open-minded role. In contrast, in the student-centered learning environment, the interests of the students' take center stage and the teacher gives students choice, finding ways to provide learning experiences that focus on what students value. In the student-centered classroom, students take a more active role in the education experience. It doesn't matter if you're a university teacher, kindergarten teacher, or high school instructor, developing a student-centered learning environment will help your students become independent learners who will eventually take charge of their own education-students who are curious, eager to learn, and willing to do whatever it takes to be successful. Unfortunately, developing a student-centered learning environment isn't always easy, especially if your experience frames learning in a more traditional way. Implementing a student-centered learning environment sounds great in theory, but putting it into practice is different. Below we will explore some strategies, principles and offer some demonstrated points that can make the student-centered learning environment a reality, and success, in your classroom.

There are many advantages and disadvantages of student-centered learning. One advantage of student-centered learning is that it can help students experience learning from a new, modern perspective, where the focus of learning is centered around the student's needs and interests. In contrast, some students simply do not relate well to student-centered learning despite the teachers' best efforts.

Student-Centered learning is a term that can be used to describe a variety of teaching methods, this method generally puts the student at the center of the learning process. However, traditional learning methods tend to focus on what works best for the majority of students. While this method works for some, those with distinctive learning abilities or difficulties may fall behind.

On the other hand, students without learning difficulties may just simply learn differently than the rest of the class. For example, if a teacher presents an assignment in a classroom verbally versus physically showing the student how to complete the assignment, this may present a bit of a challenge for the student and sometimes the teacher because not all students learn this way. That's why knowing the advantages and disadvantages of student-centered learning can help someone make the most of either side.

A student-centered classroom looks a little different from a traditional classroom. With the teachers' advice, students are allowed to decide the direction of each lesson. They are also encouraged to progress through the lesson as needed. Students are given the chance to ask questions, take part in group activities, and lead discussions if it supports the learning process.

Although this is what a typical in-school classroom looks like under student-centered learning, sometimes student-centered learning classes don't use a classroom at all. Some students learn best through traveling, while others learn best via online courses that used technology. It all depends on the student and their specific needs.

In a traditional classroom, the teacher speaks, and the students listen. In a student-centered classroom, the students speak, the teacher listens, interposes, and facilitates conversation when needed, and then thanks to the students for their participation. By involving students straight in the education process, and by enabling them to interact with one another, students begin to feel a sense of community. More importantly, they are shown that what they feel, what they value, and what they think are what matter most. In the student-centered classroom, the teacher acts not only as an educator but as both educator and activator.

RESEARCH METHOD

As a result of my research from different scientific sources, books, and sites, I have recorded theoretical knowledge in my article.

SUMMARY

In more traditional approaches, the teacher stands in the front of the room lecturing while the students sit passively watching and hopefully listening. Students work independently, while cooperative learning is often discouraged. Thankfully, student centered instruction breaks through many of these boundaries, as this method of instruction focuses on the process of learning. Student centered teaching shifts the focus from the teacher to the student. It inspires active participation on the part of the students and requires that they monitor their own thinking. Students are also expected to not only be aware of their learning but to also presume responsibility. Student motıvatıon generally increases with student centered learning, as does student attainment and overall satisfaction with the school experience.

LITERATURE

1. Barbara Larrivee. Authentic Classroom Management Creating a Learning Community and Building Reflective Practice. Pearson A and B Boston - 2005 (**Book**).
2. Lisa M. Howard, Mickey Garrison, Randy Sprick. Champs: A Proactive and Positive Approach to Classroom Management. Pacific Northwest Publishing USA – 1998 (**Book**).
3. Carolyn M. Evertson, Edmund T. Emmer, Murray E. Worsham. Classroom Management. Allyn and Bacon, Inc. USA – 2000 (**Book**).
4. Lee Canter. Classroom Management for Academic Success. Solution tree Press U. S. A – 2006. (**Book**).
5. Louise S. Jones, Vernon F. Jones. Comprehensive Classroom Management. Allyn and Bacon, Inc. Boston – 1990 (**Book**).

NİTQ BACARIQLARININ FORMALAŞMASINDA DİL QAYDALARININ MÖVQEYİ

ABBASOVA MƏDİNƏ
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
abmadina97@gmail.com
BAKI, AZƏRBAYCAN

QƏMBƏROVA SEVİNC
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
sevinc312000@mail.ru
BAKI, AZƏRBAYCAN

PƏNAHOVA GÜNEL
ADPU, Sabah fakültəsi
İbtidai sinif müəllimliyi
penahli.gunel@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dövrdə məktəbin qarşısında duran ümumpedoqoji problem şagirdlərin nitqini inkişaf etdirməkdir. Bu vəzifə dil və təfəkkürün vəhdəti haqqında təlimdən irəli gəlir.Dil cəmiyyətin üzvləri arasında ünsiyyət və fikir mübadiləsi silahı, insanlara təsir vəsitəsidir. İctimai hadisə olan dil öz funksiyasını yalnız nitqdə yerinə yetirir. Nitqin əsasında isə dili bilmək durur. Məlumdur ki, uşaq məktəbə gələnə qədər müəyyən nitq vərdişlərinə yiyələnmiş olur. Lakin onun nitqinin inkişafı üzərində məktəbdə məqsədəuyğun iş aparılmalıdır. İbtidai birinci siniflərdə şəgirdlərə sözdən istifadə etməyi öyrətmək, onlara həyətdə zəruri olan nitq vərdişləri vermək lazımdır.Hal-hazırda, əvvəlki illərdə olduğu kimi, ibtidai siniflər üçün proqram və dərsliklərdə şagirdlərin nitq bacarıqlarının inkişafına ciddi diqqət yetirilir.

Ana dili üzrə hər bir dərsdə nitq inkişafı üzrə iş mühüm yer tutur, hər bir məşğələ nitq inkişafı dərsidir. İbtidai sinif müəllimi elə etməlidir ki, şagirdlər qrammatik nəzəriyyəni, orfoqrafik vərdişləri mənimsəməklə yanaşı, nitq praktikası prosesində sözləri düzgün tələffüz etmək, onları düzgün seçmək və cümlədə işlətmək, cümlə qurmaq, oxuduqları, eşitdikləri və gördükləri haqqında danışmaq, özünün və başqalarının fikrini ifadə etmək bacarığına yiyələnsinlər.Vahid nitq prosesinin bir-birilə əlaqədar olan iki növü olan şifahi və yazılı nitq, nitq inkişafının əkiz övladlarıdır. Məktəbdə şifahi və yazılı nitqin məqsədəuyğun inkişafı təmin olunmalıdır. Lakin məktəb təcrübəsində müəllimlərin əksəriyyəti nitq inkişafı dedikdə, əsasən, şagirdlərin yazılı nitqi üzərində iş aparmağı nəzərdə tuturlar. Bəzi müəllimlər belə hesab edirlər ki,

əsas məsələ yazılı nitq üzərində iş aparmaqdır: əgər şagird ifadə və inşanı müstəqil yaza bilirsə, onun şifahi nitqi öz-özünə inkişaf edəcəkdir. Əlbəttə, bunu məqbul hesab etmək olmaz. Yalnız nitqin hər iki növünə yiyələnmiş şəxsin yüksək nitq inkişafından danışmaq olar.

Açar sözlər: Nitq bacarıqları, dil qaydaları, ibtidai sinif

GIRIŞ

Müəyyən dil qaydalarının konkret mətndəki nitq materialı ilə bağlı öyrədilməsi daha əlverişli üsuldur. Bu yanaşma kurikulumun da tələblərinə (dil qaydalarını dilçiliyin mücərrəd ehkamları şəklində deyil, nitq bacarıqlarının bir komponenti kimi tədris etmək) cavab verir.

Dil qaydaları üzrə nəzəri material, ilk növbədə, ədəbi dilin normalarının və zəruri dilçilik terminlərinin mənimsənilməsinə yönəlmişdir. Şagirdlərə bu terminləri öyrətmədən müəllimin onlarla səmərəli ünsiyyət qurması qeyri-mümkündür. Nəzəri material elmi mətn qismində oxu materialı kimi tədris edilsə, daha effektli nəticələr əldə oluna bilər və fəndaxili inteqrasiya üçün zəmin yaranar.

Belə bir suala cavab tapaq. "Uşaq ana dilini öyrənməyə nə vaxtdan başlayır?" Belə düşünürəm ki, bu sualı kimdən soruşsaq, hamı eyni cavabı verər. Uşaq ana dilini öyrənməyə körpəlikdən, ana laylasını eşitdiyi andan öyrənməyə başlayır. Dilimizin gözəlliyi, təmizliyini o anda hiss etməyə başlayır. Buradan belə nəticəyə gəlmək olar ki, uşaqlar dilimizin qrammatik qanunları elmi cəhətdən öyrənməmişdən əvvəl nənələrimiz vasitəsilə folklor nümunələri (laylalar, əzizləmələr, bayatılar və s.) əsasında öyrənmişlər.

2008-ci ildən başlayaraq ölkəmizin bütün birinci siniflərində "Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün ana dili kurrikulumu (I-IVsiniflər) həyata keçirilməyə başlanmışdır. I siniflər üçün "Ana dili dərsliyi, "Müəllim üçün vəsait", "İş dəftəri" nəşr olunmuş, məktəbli çantası, oxu ləvazimatları ilə birlikdə bütün məktəblərə pulsuz paylanmışdır. 2008-ci ildə nəşr olunan I siniflər üçün ana dili dərsliyinin, müəllimlər üçün vəsaitin meydana gəlməsi dərslik yaratmaq sahəsində keçdiyimiz yolun yeni mərhələsidir. XIX əsrdən başlayaraq uzun bir yol keçən "ana dili" və "oxu" dərslikləri yaratmaq sahəsində qazandığımız nailiyyətlərin yekunudur. Kitablar həm də ona görə qiymətlidir ki, onlar müasir dünyanın tələb etdiyi metodika əsasında yazılmış, uşaqların müstəqil düşüncəsinə, intellekt qabiliyyətlərinin inkişaf etdirilməsinə hesablanmışdır.

Kitabın birinci hissəsi şəkillər üzərində işləmə üçün müəllimə maraqlı material verir. Şagirdlərin nitqini inkişaf etdirmək üçün verilən şəkillərin altında müxtəlif işarələr qoyulur. Həmin şərti işarələrlə tanış olan şagird onlara uyğun gələn sualları verə bilir. Beləliklə şagird şəkillərə və onların altındakı işarələrə baxaraq suallar verə bilir. Şəkillər suallara cavab veriləcək bir kompozisiyaya malik olduğu üçün şagirdlər şəkilləri asanca oxuya bilirlər. Həmin işarələr vasitəsilə söz birləşmələri, hətta bütöv cümlələr yaranır ki, bu da şagird intellektinə ünvanlanan maraqlı bir üsuldur. Şəkil ilə təlim dövründə sözlərin hecalara bölünməsi də şərti işarələrlə göstərilir.

İbtidai siniflərdə keçirilən dil qaydalarına misal olaraq səslər və hərflər, heca, əlifba, deyilişi və yazılışı fərqlənən sözlər, cümlə, cümlə üzvləri, çoxmənalı sözlər, sadə əməli yazılr (məktub, elan, açıqca, ərizə, dəvətnamə) və s. misal göstərmək olar. Bu mövzuların hər biri dərslikdə müxtəlif üsullarla verlir. Bu cəhətdən aşağıdakı qrammatik çalışmalara baxmaq olar:

1. Şəkillərdəki əşya adlarının onların yanında verilən kvadratlarda yazılması vı tələffüzü, sözlərdəki səslərin sıra ilə deyilməsi, qarşı-qarşıya verilmiş şəkillərin müəyyənləşdirilməsi;
2. Qoşa və qarşı-qarşıya yazılmış sözlərdən istifadə yolu ilə qrammatik qaydanın möhkəmləndirilməsi, qoşa verilmiş sözlərin səslərə görə fərqləndirilməsi, bu sözlərdə oxşar və fərqli cəhətlərin göstərilməsi;
3. Dama, sxem, sütun və dairədən istifadə yolu ilə keçirilən qrammatik mövzu müasir təlim metodlarına uyğun şəkildə verilir.

Bu tipli çalışmaları səciyyəvi əlamətlərinə görə aşağıdakı şəkildə qruplaşdırmaq olar::

a) Boş damaların yerinə sağ tərəfdəki çərçivədə verilmiş hecalardan birini əlavə etməklə sözlərin düzəldilməsi, sxemlər üzrə sözlər düzəldib sözlər demək və düzəldilən sözlərin müqayisə olunması;

b) Sütundakı sözlərdə vurğunun hansı hecanın üzərinə düşdüyünün müəyyənləşdirilməsi, birinci sütundakı sözlərin axırında q səsinin tələffüzü, həmin sözlərin sonundakı q samitinin tələffüzü, həmin sözlərin sonundakı q samitinin ikinci sütunda nə üçün g ilə yazılmasının şagird tərəfindən müəyyənləşdirilməsi və s.

I sinifin ən maraqlı məşğələləri əlifba təlimi dövrüdür. Bu dövrdə onlar səslə hərfi ayırır, oxu teknikası vərdişlərinə yiyələnir, söz, heca anlayışlarını, səslərin növləri, onların arasındakı fərq öyrənilir. Bu dövrdə həmçinin şagirdlərin dinləmə və mənimsəmə bacarıqları inkişaf etdirilir.

Milli Kurikulum sənədində qeyd edilir ki, Azərbaycan Dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir.

Şagirdlərin şifahi nitqi üzərində aparılan müşahidələr göstərir ki, onların nitqi çox nöqsanlı olur. Belə ki:

1)Ayrı-ayrı söz və səslər yanlış tələffüz olunur;
2)Nitqin əsas tələbləri gözlənilmir;
3)Qrammatik qaydalar, məntiq və üslub tələblərinə riayət olunmur;
4)Nitqdə tüfeyli sözlər işlədilir;
5) şivə xüsusiyyətlərinə yol verilir və s.
Şifahi nitqə verilən tələbləri belə ümumiləşdirmək olar:
1) Məzmunlu və inamlı;
2) Ardıcıl və məntiqi;
3) Qısa, düzgün, emosional və ifadəli danışmaq.
İbtidai siniflərdə nitq inkişafı üzrə aparılan işlərin nəticəsi şagirdlərin öz fikirlərini rabitəli şəkildə necə ifadə etmələri ilə müəyyənləşdirilir. Rabitəli nitq dedikdə, şagirdin öz bilik və yaş səviyyəsinə görə xarici aləmi düzgün dərk etməsi və dərk etdiyini qrammatik, üslubi cəhətdən düzgün ifadə etməsi nəzərdə tutulur.Şagirdlər gördükləri və eşitdikləri, eləcə də həyat təcrübələri haqqında danışarkən yaxud yazarkən, sözləri yerli-yerində dəqiq işlətməyi və cümlələri qrammatik cəhətdən düzgün qurmağı bacarmalıdırlar. Bu nöqteyi-nəzərdən lüğət və cümlə üzərində aparılacaq iş rabitəli nitqin inkişaf etdirilməsi üçün həm hazırlıq mərhələsi, həm də onun mühüm şərtlərindən biridir. Şagird fikrini ardıcıl, məntiqi ifadə edərkən, bu və digər sözü yerində işlətməzsə yaxud cümlələri düzgün qurmazsa, onun nitqi rəbitəli ola bilməz.Rabitəli nitq üzərində işə şagirdin məktəbə gəldiyi ilk gündən başlanmalıdır. Əlifba təlimi dövründə ayrı-ayrı söz, cümlə və mətnlərin məzmunu ilə əlaqədar olaraq onlar şəkillər əsasında cümlələr qurur, danışır, mətnin məzmununa əlavələr edirlər. Suallara cavab üzrə iş şagirdləri müstəqil yazılara, rəbitəli nitqin əsas növləri olan ifadə və inşa yazmağa hazırlayır.İfadə və inşalar şagirdlərin müstəqilliyini və fəallığını artıran mürəkkəb çalışma və iş formalarıdır. Onlar bir sıra ümumi cəhətlərə malikdir: cümlələri, fikirləri ümumi məzmun və ümumi ideya ətrafında birləşdirib rabitəli mətn qurmağı tələb etməklə, təfəkkürün və nitqin inkişafında mühüm rol oynayır.Orta məktəbdə şagirdləri ifadə, inşa (esse) yazmaq vərdişlərinə yiyələndirmək Azərbaycan dili və ədəbiyyat tədrisinin ən mühüm vəzifələrindən hesab olunur. Çünki ifadənin inkişafında müəllim və şagirdlərin uzun və gərgin əməyi tələb olunur. Müvəqqəti uğursuzluqlar heç kəsi qorxutmamalıdır. Nitq inkişafı üzrə sistematik iş mütləq öz bəhrəsini verəcək. Nitq bacarıqları və vərdişləri, necə deyərlər, həndəsi silsilə ilə inkişaf edir: kiçik nailiyyət böyük nailiyyətlə əvəzlənir, nitq mükəmməlləşir və zənginləşir.Hansı nitqi yaxşı nitq hesab etmək olar? Müəllim və şagird bunun üçün nəyə cəhd göstərməlidir? Yalnız yaxşı bildiyini danışmaq və yazmaq lazımdır, bu həm də başqaları üçün maraqlı, faydalı olar. Bəzən məktəbdə şagirdlərə hazır olmadıqları, bilmədikləri bir şeyi danışmağı təklif edirlər. Təəccüblü deyil ki, onların nitqi kasıb, yeknəsəq (dağınıq) olur. Həmin uşaqlar müşahidələri əsasında topladıqları lazımi materialı pis danışırlar.Belə bir fikir də mövcuddur: dilin zənginliklərinə hərtərəfli yiyələnən, ondan səmərəli istifadə edən insan, cəmiyyət və təbiətin mürəkkəb əlaqələrini müvəffəqiyyətlə anlayır. Şagird üçün yaxşı nitq uğurlu təhsilin və inkişafın göstəricisidir. Hamıya məlumdur ki, nitqi pis inkişaf etmiş uşaqlar təlimdə geri qalır, tapşırıqların öhdəsindən vaxtında gələ bilmirlər.

NƏTICƏ

Beləliklə, I-IV siniflərdə şagirdlərin nitqinin ifadəliliyi ilə bağlı Azərbaycan dili dərslərinin verdiyi optimal imkanlar inkişafetdirici olmalıdır. Təhlil-tərkib üslubunda aparılan müşahidələr, müqayisələr və s. Nümunəvi nitq parçalarının dinlənilməsi, şagird nitqinin ifadəliliyinə müntəzəm diqqət yetirilməsi ilə tamamlanmalıdır. Şagird nitqinin ifadəliliyinə nail olmaq üçün geniş oxu metodikası, ədəbi tələffüz metodikası, ifadə və inşa metodikası var. Məqsəd bu sistemdə qurulan iş növlərindən daha səmərəli istifadə etməkdən və beləliklə, ibtidai sinif şagirdlərini ana dili proqramının tələbləri səviyyəsində ifadəli nitq vərdişlərinə yiyələndirməkdən ibarətdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Ş.Nəbiyeva Ana dili tədrisi metodikasının aktual problemləri, Bakı 2010
2. Ş.Paşayeva Ana dili tədrisində nəzəri və praktik məsələlər, Bakı 2007
3. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) Ana dili kurikulumu. Bakı, 2007.
4. İbtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri və "Müəllim üçün metodik vəsait". Bakı, 2016.
5. Kərimov Y.Ş. İbtidai siniflərdə yazılı inşalar. Bakı, 1998.
6. Qurbanov V.T. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2018.
7. Aydın Paşayev. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri (Metodik vəsait) Bakı, Hədəf Nəşrləri, 2012. – 180 səh

SOSİAL PEDAQOGİKA SOSİAL İŞDƏ PERSPEKTİV KİMİ

Nərmin Əlizadə
Bakı Mühəndislik Universiteti
Pedaqoji fakültə/Xarici dillər kafedrası
nalizade@beu.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Sosial pedaqogika fərdi nəzəriyyənin həm nəzəriyyədə, həm də praktikada cəmiyyətə inteqrasiyası məsələlərini cəmləşdirir. Sosial xaric olmaları yüngülləşdirmək məqsədi daşıyır. İnsanları rifahı və həyatın idarə edilməsi üçün vacib olan sistemlərə, qurumlara və icmalara bağlayan insan inkişafı proseslərindən bəhs edir. Sosial pedaqogikanın əsas ideyası cəmiyyətin üzvü kimi insanların sosial fəaliyyətini, cəmiyyətə daxil olmasını, iştirakını, sosial kimliyini və sosial səriştəsini təbliğ etməkdir. Onun xüsusi texniki şərtləri insan həyatının müxtəlif mərhələlərində inteqrasiya və həyatın idarə edilməsindəki problemlərin həllinə aiddir. Bu istiqaməti fərdin cəmiyyətə inteqrasiyası prosesləri ilə əlaqəli sosial problemlər və sosial ehtiyacları həll etmək üçün pedaqoji bir yanaşma kimi ikinkişaf etdirmək baxımından müəyyən etmək olar.

AÇAR SÖZLƏR: cəmiyyət, pedaqogika, müqayisəli sosial iş, sosial pedaqogika, sosial iş təhsili, sosial iş nəzəriyyəsi

GİRİŞ

Sosial pedaqogika Anqlo-Sakson dünyasında praktiki olaraq naməlum anlayışdır, lakin Avropa materikində əhəmiyyətə malikdir. 20-ci əsrin əvvəllərində sosial pedaqogika bir fəaliyyət sahəsi kimi bir çox vətəndaş hərəkatları, xüsusilə də Alman gənclik hərəkatı (Jugendbewegung) tərəfindən güclü şəkildə dəstəkləndi. Eyni zamanda erkən feminist hərəkat tərəfindən yaradılan ictimai iş ənənəsi akademik dünyada əsas inkişaf etmişdir. Məsələn, Salomon özü elmlər doktoru dərəcəsi alsa da, universitet səviyyəsində sosial iş təlim proqramlarının hazırlanması ideyasına qarşı çıxdı. Universitet təhsili çox nəzəri olduğunu və ictimai işlərdə ehtiyac duyulan fərdi inkişaf üçün fürsət olmadığını iddia etdi. Beləliklə, sosial pedaqogika və sosial iş arasında ciddi fərqlərin olub olmadığını soruşa bilərik. Bu suala ənənəvi cavab fərqliliklərin olduğunu göstərdi. Ancaq Alman dilli bölgələrdə bir çox nəzəriyyəçi iddia edir ki, müasir sosial işdə bu iki ənənə tərzi birlikdə böyüdü və ya bir-birinə birləşdirildi. Bunun bir əlaməti olaraq, Almaniyada tətbiq olunan SA / SP (Sozialarbeit / Sozialpädagogik) qısaltması istifadə olunur. Sosial pedaqogika humanist dəyərlərə əsaslanır. O, ilk növbədə rifah, öyrənmə və böyümə ilə maraqlanır və fərdi potensialı tanımağa və təşviq etməyə çalışır. Bu, təxminən 'fikir' və ya 'münasibət' kimi tərcümə olunan alman ifadəsi olan 'Haltung' anlayışı ilə dəstəklənir. Sosial işin artan təzyiqlər və sərtlik şəraitində özünəməxsus töhfəsini göstərmək üçün mübarizə apardığı bir vaxtda fərdlər, ailələr və onların icmaları ilə birlikdə işləməyin mənasını və məqsədini gücləndirmək heç vaxt bu qədər vacib olmamışdır. Sosial işçilər tez-tez münasibətlərin əhəmiyyətini təsvir edir və fərdlərin öz həyatlarında dəyişiklik etmək üçün onlara dəstək olurlar. Bununla belə, onlar həmçinin işlərinin diqqəti və xarakteri ilə bağlı peşəkar mühakimə yürütməkdə agentlik olmamasına istinad edirlər. Bu, gücün hər bir müdaxilənin formatını və ardıcıllığını təyin edən peşəkarın əlində möhkəm qaldığı təcrübə formasına gətirib çıxarır. Bu, problemlərin həlli və peşəkarın "ən yaxşı bildiyi" çatışmazlıq modelindən işləmək anlayışlarını gücləndirir. Sosial pedaqogika isə sosial problemlərin təhsillə həllinə təşviq edir. Bu mənada təhsil fərdə necə dəyişməyi öyrədən peşəkarlara aid deyil, əksinə, onların rifahını yüksəltmək yollarını tapmaqda onlara dəstək olmağa yönəlib.İctimai iş anlayışı həm ənənələri əhatə edərək daha ümumi bir formaya çevrilmişdir. Beləliklə, ədəbiyyatda ictimai iş və sosial pedaqogikanın əlaqəsi haqqında üç əsas nəzəriyyə mövcuddur:

1. sosial pedaqogika və sosial iş bir-birindən tamamilə fərqlənir
2. sosial pedaqogika və sosial iş eynidir
3. sosial pedaqogika və sosial iş bir-birini tamamlayır

Xüsusilə üçüncü kateqoriyada bəzi alt kateqoriyaları həm tarixi amillərə, həm də dəyərlər, məqsədlər, metodlar, hədəf qrupları və s. oxşarlıqlara və fərqlərə istinad edərək müəyyən etmək olar. Sosial pedaqogika ilə sosial iş arasındakı əlaqənin nəzəri məsələsi hər iki anlayışın fəal istifadə olunduğu bütün ölkələrdə praqmatik şəkildə həll edilir. İki anlayış arasındakı əlaqəni həll etmək üçün müxtəlif növ həllər hazırlanmışdır. İki anlayış arasındakı əlaqəni izah etməkdə əsl problem, sosial pedaqogika və sosial iş oxşar nəzəri səviyyədə yerləşən paralel anlayışlar kimi görülməməsi halında ortaya çıxır, lakin bu halda bunlar bir-birini əvəz edən və ya tamamlayan kimi görülə bilməz.

Almaniyada sosial pedaqogikanın inkişafından bəri, ictimai pedaqogika anlayışları ilə sosial iş anlayışları arasında tarixən qurulmuş nəzəri fərq mövcuddur; birincisi təhsil elmlərinə, ikincisi ictimai elmlərə, xüsusən sosial siyasətə köklənir (Mühlum, 1981). Ancaq bir çox müasir mübahisələrdə iddia olunur ki, zaman keçdikcə bu iki ənənə bir-birinə çevrilib. Nəticə budur ki, artıq sosial pedaqogika ilə sosial iş arasında ciddi bir fərq yoxdur.

Pedaqoji strategiya və proqramlar təhsil yanaşmasına əsaslanır. Siyasi fəaliyyət cəmiyyətin xarici elementlərinə, yeni quruluşlara, qurumlara və qanunvericiliyə təsir etməklə bir məqsədə doğru səy göstərsə də, pedaqoji fəaliyyət cəmiyyətdəki insanlara əxlaqı və mədəniyyəti əsas götürərək cəmiyyətin dəyişməsinə can atır.Sosial pedaqoji təcrübə sosial pedaqoji nəzəriyyəyə əsaslanır. Əlbəttə ki, nəzəriyyə və təcrübə düşünmək və etmək bir-biri ilə qarşılıqlı əlaqə yaratmaq və sosial pedaqoji nəzəriyyənin formalaşmasında tədqiqat tələb olunur. Sosial işin vəzifələrini və cəmiyyətdəki mövqeyini, rolunu və fəaliyyətini başa düşmək üçün müəyyən bir yol tələb edir. Ənənəvi olaraq, bu perspektiv, insan artımının məqsəd və vasitələri ilə əlaqəli olan sosial yardımın aspektlərinə diqqəti yönəldir. Bu o deməkdir ki, sosial pedaqoji ənənədə sosial problemlərin mənşəyi, forması və təsirləri insanın yetkinləşməsi və təhsili baxımından nəzərə alınır. Bundan əlavə, tədris metodları sosial problemlərin qarşısını almaq və düzəltmək və sosial sıxıntılarla üzləşmək üçün istifadə olunur.

Sosial pedaqogika insanın işinə peşəkar yanaşmanı təsvir edərkən xoşbəxtlik, dostluq, aidiyyət və sevgi kimi sözlərin istifadə oluna biləcəyi mühüm bir dil təqdim etmişdir. Sosial pedaqogika nəzəriyyəsinin əsasları sosioloji analizdə əsaslandırmaqla əldə edilən həyatın sosial və təhsil sahələrini bir araya gətirməkdir. Cəmiyyətin struktur amillərinə təsir göstərərək idxal-anlayışa daha çox diqqət yetirməyin yolu göstərilmişdir. Sosial yardımın oxşar radikallaşması da 1970-ci illərdə Anglo-Amerikan sosial işində 'radikal sosial iş' bayrağı altında meydana gəldi. Sosial pedaqogikanı sosial işin perspektivi kimi görmək o demək deyil ki, bu işə sosial iş metodu kimi baxmaq lazımdır. Sosial pedaqogika bir metod deyil, hətta bir sıra metodlar da deyil. Bir intizam olaraq dünyaya özünəməxsus oretik yönümlüdür. Müəyyən metodlardan istifadə edildiyi üçün, bəzi metodlar sosial pedaqoji düşüncənin nəticəsi olaraq seçildiyi və istifadə edildiyi üçün bir hərəkət sosial pedaqoji deyildir. Sosial işlərdə sosial pedaqoji perspektiv, insanların əvvəlcədən sosial pedaqoji istiqamətləri ilə tanış olduqları və sualların verilməsinin düzgün cavab metodunu araşdırmalara əsaslanır.

4. TƏDQİQAT METODU

Müxtəlif elmi mənbələrdən, kitablardan, saytlardan apardığım araşdırmalar nəticəsində nəzəri bilikləri məqaləmdə qeyd etmişəm və müqayisəli şəkildə təhlil apararaq göstərmişəm.

5. NƏTİCƏ

Sosial pedaqogikanın sosial iş nöqteyi-nəzərindən məğzinin nə olduğu məqalənin nəticələrindən biridir. Bu konsepsiya, nizam-intizam və nəzəri perspektiv kimi müzakirə edilmişdir. Sosial pedaqogikanın cəmiyyətə edəcəyi fərqli bir töhfə var. Onun konseptualizasiyasından bir neçə kontekstdə istifadə edilə bilər. Sosial və pedaqoji nöqtələrin bir-birinə qarışdığı, müxtəlif sosial yardım növləri əsasında təşkil oluna biləcəyi düşüncə tərzi öngörülə bilər. Sosial və pedaqoji nöqteyi-nəzərləri birləşdirən fikirlər nəzəri baxış bucaqları yarada bilər və xüsusi bir təhsil sahəsinin yaranmasına səbəb ola bilər. Bu, bəzi ölkələrdə baş verir. Bununla birlikdə, sosial pedaqogika düşüncə tərzi və xüsusi peşə olmadıqca öyrənmə yolu kimi inkişaf edə bilər. Bu baxımdan sosial pedaqogika bir fənn kimi sadəcə müəyyən peşənin əsası kimi başa düşülməz, eyni zamanda digər ictimai elmlərlə paralel peşəkar insanlar üçün də bir sahə kimi qəbul edilə bilər.

6. ƏDƏBIYYAT SIYAHISI

1.Böhnisch, L. (1997) Sozialpädagogik der Lebensalter. Eine Einführung. Weinheim, Munich: Juventa.
2. Bandura, A. (1997). Self-efficacy. New York: W.H. Freeman and Company.
3.Freiburg im Breisgau, Basle, Vienna: Herder, Gütersloher Verlagshaus Gerd Mohn.
4. Schütze, F. (2002). Supervision als ethischer Diskurs. In M. Kraul, W. Marotzki, & C. Schweppe (Eds.), Biographie und Profession (pp. 135–164). Bad Heilbrunn: Verlag Julius Klinkhardt.
5. https://socialworkwithadults.blog.gov.uk/2018/12/19/social-pedagogy-social-what/ (online məqalə)
6.Eriksson, L. and Markström, A.-M. (2000) Den svårfångade socialpedagogiken.

PSİXOLOGİYA

YENİYETMƏLƏRDƏ BÖHRANIN TƏDQİQİ

Mətanət Əliyeva
Bakı Dövlət Universitetinin doktorantı
(alievametanet89@gmail.com)

Açar sözlər: yeniyetmə, böhran, keçid dövrü, böhrana müdaxilə, böhranın tədqiqi
Ключевые слова: подростковый возраст, кризис, переходный период, исследование кризиса.
Keywords: adolescence, crisis, transition, crisis research

Yeniyetməlik dövrü fərdin inkişaf pillələri içərisində önəmli bir dönüş nöqtəsidir. Şəxsiyyət inkişafının tamamlanması gözlənilən bu dövr bəzi fərdlər üçün olduqca fırtınalı keçir, bəzən də müəyyən bir həyat hadisəsinə bağlı olaraq böhrana səbəb ola bilər. Yeniyetməlik, şəxsin nə uşaq, nə də yetkin olduğu, hələ ictimai vəzifələrinə sahib olmadığı, amma rolları kəşf edəbiləcəyi, sınaya biləcəyi, cəhd edəbiləcəyi, bir aralıq mərhələ olaraq qəbul edilir. Bununla birlikdə zehni inkişafdan başlayaraq, cinsi yetkinləşmə və cinsi identifikasiyadan keçərək, sosial şəxsiyətə çevrilənə qədər, yeniyetmələrin üzləşdikləri inkişaf dəyişikliyi nəzərə alındığı zaman, aralıq mərhələ anlayışı "xaotik dövr" anlayışı ilə rahatlıqla əvəz edilə bilər.

Yeniyetməlik dövrünü "fırtına və stresslər dövrü" kimi qiymətləndirən Xoll, bu dövrdə müşahidə olunan ziddiyətlərin gözlənti deyil, qanun olduğunu vurğulamışdır. Xolla görə, bütün insanlar içində inkişaf etdikləri sosial-mədəni kontekstən asılı olmayaraq eyni mərhələlərdən keçirlər. Bu mərhələlərdən biri olan yeniyetməlik gələcək həyatın gedişatını dəyişdirə biləcək çox vacib bir dövrdür (1, səh. 256)

Xollun biogenetik yanaşmasından təsirlənən Gessell, 1950-ci illərin əvvəllərində normativ inkişaf nəzəriyyəsini, yəni həyatın bir ilindən digərinə keçiddə ümumi olaraq rast gəlinən inkişaf hadisələrinin müşahidəsinə əsaslanan normal bir təkamül modeli təklif etmişdir. Gessell, hər bir fərdin böyümə quruluşu baxımından unikal olduğunu, lakin xronoloji yaşlarla əlaqəli müəyyən inkişaf normaları olduğu fikrini irəli sürmüşdür. Gessellə görə, yeniyetmə üçün mütəqillik axtarmaq, yeni fiziki, cinsi, idrak və sosial bacarıqlarından yaralanmasını təmin edən rolları sınamaq tamamilə normaldır (2, səh.180).

Blos və A.Freyd bu nəzəriyyəyə paralel olaraq yeniyetməliyin emosional bir fırtına olduğunu və bu fırtınanın olmamasının onların ana və atadan ayrılmasının qarşısını ala biləcəyini irəli surmuşlər. Bunun müqabilində bəzi müəlliflər (Offer və Bandura) bu dövrün emosional dalğalanmaların olduğu bir dövr olmadığını və yeniyetmələrin böyük bir qismi üçün bu vəziyyətin etibarlı olmadığı fikrini irəli sürmüşlər. Berzonsky bu fikirləri də əhatə edən şəkildə bəzi yeniyetmələrin bu dövrü gərgin bir stress dövrü olaraq keçirdiyini,, bəzilərinin isə bu stressi çox az yaşadığını vurğulamışdır. Xüsusi olaraq bu iki qrup arasında qalan yeniyetmələrin də olduğunu qeyd etmişdir. Berzonsky klassik və empirik bu iki fikir arasındakı fərqliliyin iş həcmini əhatə edən fərqli yeniyetmə qrupları ilə əlaqəli olduğunu düşünür. Berzonskya görə klassik nəzəriyyəni müdafiə edən şəxslə adətən çoxlu problemləri və pozuntuları olan yeniyetmələr ilə qarşılaşdıqları üçün yeniyetməlikdə yaşanan stressi şişirdilmiş olaraq dəyərləndirmiş ola bilərlər. Digər tərəfdən dəlil əsaslı nəzəriyyənin tərəfdarları da stress önəmsizləşdirmiş ola bilərlər.

Offer etdiyi eksperiment iki orta məktəbdən 326 oğlan şagirdə self-image anketini tətbiq etmişdir. Bu şagirdlər arasından ortalama (normal) özünü tanımasını göstərən və hər hansı bir diqqətə çarpan pozuntu müşahidə olunmayan 106 oğlan şagird seçilmişdir. Son olaraq bu 106 şagirdin 3% -də məktəbdə ciddi davranış problemi olduğu müşahidə edilmiş və bu şagirdlərdə ekspremendən kənarlaşdırılmışlar.Bu qrup, Berzonskyin irəli sürdüyü fərziyyədəki alt qrupu yəni orta və yüngül səviyyədə stress yaşayan yeniyetmələri təmsil etməkdədir.

Offer 10 ölkədə keçirtdiyi eksperimentdə, yeniyetmələrdə ortaq xüsusiyyətlər olaraq ümumi olaraq həyatlarından məmnun olduğu, sosial olaraq insanlarla ünsiyyətdə olmağı üstünlük təşkil etməsi, başqalarının özləri haqqında düşüncələrini əhəmiyyət verdikləri, məktəbə və çalışmağa önəm verdikləri, cinsi yöndən özlərindən məmnun olduqları, ailələri üçün müsbət duyğular yaşadıqları, çətinlikləri dəf etmə mövzusunda özlərinə güvəndikləri bildirir. Bu yaş dövrünü "fırtına və stress" olaraq bir başqa deyimlə böhran olaraq yaşayan yeniyetmələr nisbətən daha az bir hissəni təşkil edir. Yeniyetmə bu çətin dövrü müəyyən müddətlərdə qayğılı şəkildə yaşasa da ümumilikdə gələcək yaşamı üçün təhlükə yaratmayacaq şəkildə keçirir.

Bir çox müəlliflər (Erikson, Offer, Galantin) böhran və qarşıdurmaların yeniyetmə inkişafın normal bir müddəti olduğu fikrini irəli sürür və bunu normativ böhran olaraq adlandırır. Bu normativ böhranlar bilindiyi kimi cinsi yetişmə, buna müşayiət edən fiziki dəyişmələr, müstəqillik və ana-atadan ayrılma müddəti ibtidai təhsildən sonra təhsil müddətində yenidən quruluş gözləməsi kimi ümumiləşdirmək olar. Yeniyetmənin içində yaşadığı dünya ilə hazır olmadığını fərq etməsinin gətirdiyi müdaxilə də bir normativ böhran ola bilər. Bir başqa deyimlə fərd, inkişaf pillələri üzərində irəliləyərkən yeni dövr özündən əvvəl olan nizamı ya da tarazlığı təhdid edə bilər. Bu vəziyyətdə yeniyetmə inkişaf problemlərinin həlli ilə mübarizə aparmağa çalışarkən stress, təşviş, həyəcan pozuntusu və tarazlığında pozulmanın olduğu bir həyata girə bilər(3, səh.89).

Blossun fikrinə əsasən, zidiyyətlərin səbəb olduğu gərginlik və mübahisələr, böyümənin enerji mənbəyi olaraq görülür. Bu mübahisənin məmnuniyyətlə həll olunmaması halında inkişafın ləngiyə biləcəyi hətta bir psixopatologiyaya səbəb ola biləcəyi göstərilmişdir. İnkişaf dəyişiminin ən gərgin, ətraflı və qarma-qarışıq şəkildə yaşandığı yeniyetməlik dövründə stressli həyat hadisələrinə bağlı inkişaf edən böhran vəziyyətlərinin də eyni riski yaratdığını söyləmək şişirdilmiş olmayacaq. Stressli həyat hadisələri ilə əlaqəli olan böhranlar kəskin və müddəti məhdud olan fərdin davam edən tarazlıq (homeostazis) halının pozulmasına səbəb olur. Əslində böhran hadisənin ya da vəziyyətin özü deyil, fərdin hadisəyə ya da vəziyyətə göstərdiyi reaksiya olaraq izah olunur.

Davisin fikrinə görə, yeniyetməlik rollarda meydana gələn dəyişmələr və mübahisələr səbəbi ilə stress yaradan dövrdür. Bu dövrdə rast gəlinən böhranlar sosial xüsusiyyətlər ilə əlaqəli olaraq fərqlilik göstərir. Məsələn, uğura ehtiyac duyma sosial sinifin gözləntilərinə görə bir şəxsdən digərinə çox dəyişə bilər(4).

Dövrümüzdə yeniyetmələrdə psixoloji böhranı araşdırmaq məqsədi ilə 2022ci il sentyabr ayında orta məktəbdə təhsil alan 13-14 yaşlı yeniyetmələr üzərində apardıq.

Tədqiqat metodunun əsas xüsusiyyətləri- Tədqiqada "Böhran İdentikliyi testi" və "Lüşer" testindən istifadə olunmuşdur. Böhran İdentikliyi testi 136 sualdan ibarətdir. Testin sualları tədqiq olunanların yaşları nəzərə alınaraq uyğunlaşdırılmışdır. 136 sual özündə 9 şkalanı ehtiva edir:

1) "Uşaq-valideyn, ailə münasibətləri" (UVM)
2) "Məna dəyərləri aspekti" (MDA)
3) "Emosional aspekt" (EA)
4) "Davranış aspekti" (DA)
5) "Şəxsiyyətlərarası və peşəyə münasibətlər " (ŞPM)
6) "Cinsi aspekt" (CA)
7) "Stress faktorları" (SF)
8) "Sosial arzuolunanlıq" (SA)
9) "Şəxsiyyət böhranının ümumi göstəricisi" (ÜBG)

Bütün şkalalar üç komponentə bölünür və şəxsiyyət böhranının konstruksiyasını təşkil edir. Hər bir şkalada alınan nəticələr aşağıdakı dəyərlər diapazonuna görə şərh olunur:

- 39 bal və aşağı- aşağı dəyərlər
- 40-59 bal- orta dəyərlər
- 60 bal və daha yüksək- yüksək dəyərlər

Əldə edilmiş nəticələrin əhəmiyyət səviyyələrini göstərməklə qısa təsviri nə nəzər salaq.

1) "Uşaq-valideyn, ailə münasibətləri" (UVM)- 72 nəfər aşağı dəyərlər, 21 nəfər orta dəyərlər, 7 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
2) "Məna dəyərləri aspekti" (MDA)- 70 nəfər aşağı dəyərlər, 25 nəfər orta dəyərlər, 5 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
3) "Emosional aspekt" (EA)- 44 nəfər aşağı dəyərlər, 35 nəfər orta dəyərlər, 21 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
4) "Davranış aspekti" (DA)- 29 nəfər aşağı dəyərlər, 35 nəfər orta dəyərlər, 36 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
5) "Şəxsiyyətlərarası və peşəyə münasibətlər " (ŞPM)- 38 nəfər aşağı dəyərlər, 49 nəfər orta dəyərlər, 13 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
6) "Cinsi aspekt" (CA)- 50 nəfər aşağı dəyərlər, 47 nəfər orta dəyərlər, 3 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
7) "Stress faktorları" (SF)- 45 nəfər aşağı dəyərlər, 42 nəfər orta dəyərlər, 13 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.

8) "Sosial arzuolunanlıq" (SA)- 66 nəfər aşağı dəyərlər, 33 nəfər orta dəyərlər, 1 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
9) "Şəxsiyyət böhranının ümumi göstəricisi" (ÜBG)- 81 nəfər aşağı dəyərlər, 18 nəfər orta dəyərlər, 1 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.

Yanaşı olaraq şagirdler üzərində apardığımız Lüşer metodikasının nəticələrinə görə 45 nəfərdə böhran əlamətləri var. Bu da onu göstərir ki ortalam 100 şagirdin 45 % də böhran halları müxtəlif aspektdə özünü göstərmişdir.

Yeniyetməlik dönəmində ali mıktəbə hazıırlıq, yeniyetmənin gələcəyini müəyyən etməsi və gələcək ilə bağlı qayğılar bu dövrdə böhranların artmasına səbəb olur. Böyük yeniyetməlik dövründə gənclər, imtahanda uğursuz olma qayğısından ailənin və sosial mühitin gözləntilərini yerinə yetirməmə, özü üçun edilən xərc və investisiyalara layiq olmadığı və hətta imtahandan keçə bilməzsə həyatda olmasının bir mənası olmayacağı fikrinə də gələ bilər. Yeniyetməlik dövründə böhrana səbəb olan və dövrə xas olan xüsusiyyətlər bir başqa vəziyyət kimi qarşı cinslə münasibətlərdə yaşanan problemlər, tərk edilmə, rədd edilmə və ayrılıq olaraq qiymətləndirilə bilər. Bununla yanaşı olaraq ailələrin yeniyetmələrin sosial həyatlarını məhdudlaşdıran, maneə olan, müdaxilə edən münasibətləri şəxsiyyət inkişafına yönəlməsi lazım olan diqqəti ailə ilə mübahisəyə yönəltməkdə və bir çox problemlərə səbəb olmaqdadır. Həmçinin, hər fərd üçün böhran potensialını özündə ehtiva edən bəzi həyat hadisələri yeniyetməlik dövründə daha çox çətin olur(5). Məsələn, sevilən birinin ölümü hər yaşda fərd üçün çətin bir vəziyyətdir. Ancaq yeniyetməlik dövrundəki bir fərd üçün daha çox çətin bir vəziyyətdir. Ailə üzvlərindən birinin xüsusilə ana ya da atanın ölümü itkinin verdiyi əzabın yanında bir çox həyati çətinlikləri də birlikdə gətirdiyindən onsuzda fırtınalar dövrü olaraq məlum olan yeniyetməlik dövrünün daha çox ağrılı keçməsinə, bəzən də ilişib qalmasına səbəb olur. Göründüyü kimi həyat boyu olacaq böhran vəziyyətləri arasında özünə məxsus yer alan bəzi həyat hadisələri xüsusilə yeniyetməlik dövründə daha çox çətin ola bilər. Bu dövrdə ailənin yeniyetməyə qarşı münasibətində çətinliklərin olması isə böhran vəziyyəti ilə öhdəsindən gəlməyə əngəl olan hətta başqa bir böhran vəziyyətinin də əmələ gəlməsinə səbəb olacaqdır.

Yeniyetməlik dövründə edilən böhrana müdaxilə gələcək dövrlərdən fərqli olarq sadəcə mövcud olan böhran vəziyyətini həllə çatmaqla əldə etmək olmaz. Eyni zamanda sağlıqlı bir şəxsiyyətin meydana gəlməsi və güclü bir şəxsin meydana gəlməsinə kömək edər(6). Beləliklə, yeniyetmə həyat boyu ola biləcək problemlərin öhdəsindən gəlmə mövzusunda daha bilikli hala gəlir. Bundan başqa yeniyetmənin böhranı ilə aşkar olunan ailə içi sağlam olmayan münasibətlərin dayandırılması yolu ilə sadəcə yeniyetmə deyil, ailə üçün ruhi sağlamlığını yaxşılaşdıran bir təsir yaradır.

ƏDƏBİYYAT SİYAHISI

1. Qədirov. Ə.Yaş psixologiyası. Bakı, Maarif, 2003
2. А. А. Реан. Психология подростка. Москва, 2014
3. Выготский Л.С., Психология развития человека. М.: Изд-во Смысл; Эксмо, 2005.
4. http://www.psychologos.ru/articles/view/psihologicheskiy-krizis
5. https://mayavakfi.org/13-18-yas-arasi-ergenlerde-kriz-donemi-tepkileri-ve-yapilmasi-gerekenler/
6. https://www.turkiyeklinikleri.com/article/tr-ergenlerde-travma-ve-krize-mudahale-82646.html

Yeniyetmələrdə böhranın tədqiqi

Xülasə

Məqalədə böhran yaş dövrünün ümumi xarakteristikasından söhbət açılır. Eyni zamanda yeniyetməlik böhranı haqqında ayrı-ayrı xarici mütəxəssislərin fikirləri öz əksini tapır. Məqalə çəriçəvəsində 100 nfər yeniyetmə üzərində aparılmış tədqiqat haqqında da qısa məlumat verilmişdir. Məlum olmuşdur ki bu yaş dövründə böhran yeniyetmələrin böyük qismində özünü müxtəlif aspektən göstərir. Mövzu psixologiya sahəsində hər zaman aktualdır və yeni araşdırmalar tələb edir.

Crisis research in adolescents

Summary

The article discusses the general characteristics of the crisis age. At the same time, the views of some foreign experts on the crisis of adolescence are reflected. The article also provides brief information about a study of 100 adolescents. It has been found that at this age, the crisis manifests itself in various aspects in the majority of adolescents. The topic is always relevant in the field of psychology and requires new research.

Исследования кризиса у подростков

Резюме

В статье рассматриваются общие характеристики кризисного возраста. В то же время отражены взгляды некоторых зарубежных специалистов на кризис подросткового возраста. В статье также приводится краткая информация об исследовании 100 подростков. Установлено, что в этом возрасте кризис проявляется в различных аспектах у большинства подростков. Тема всегда актуальна в области психологии и требует новых исследований.

TAKSONOMİYA ANLAYIŞININ MAHİYYƏTİ

İLHAMƏ SULTANOVA
ADPU-nun Şamaxı filialı
Sosial və pedaqoji elmlərn kafedrası
İlhama.sultanova@ mail.ru
ŞAMAXI, AZƏRBAYCAN

XÜLASƏ

Bu elmi məqalədə psixopedqogikada təlim məqsədlərini sistemli şəkildə xarakterizə etmək üçün istifadə edilən «taksonomiya» anlayışının mahiyyəti açıqlanır. Göstərilir ki, bir cox elm sahələrində biologiya, mədəniyyət, riyaziyyat, EHM və s. sisteməşdirmə, təsnifləşdirmə aparmaq üçün taksonomiya terminindən istifadə edilir. Psixopedaqogikada da təlim məqsədlərinin taksonomiyası tədqiqat obyekti kimi müxtəlif alimlər tərəfindən araşdırılmış, koqnitiv proseslərin, intellektin strukturunu əks etdirən konseptual modellər yaradılmışdır.

AÇAR SÖZLƏR: TAKSONOMIYA, PSİXOPEDAQOGİKA, TAXOS,TAKSON, TƏLİM MƏQSƏDİ

GIRIŞ

Taksonomiya anlamı zoologiya və botanikada formalaşıb. Bu elmlərdə o sistematika kimi mənalandırılmış və müxtəlif aspektlərdə təhlil olunmuşdu.

Hələ qədim zamanlarda məktəb məkanında acıqlanan ilk psixopedaqoji həqiqətlərdən biri elə təlim məqsədləri fenomeni olub. Bu fenomenin fəlsəfi şərhinə hələ antik dövr filosoflarının, ilk nöbbədə, Demokritin traktatlarında təsadüf olunur. Eramızdan əvvəl alim qonşusuna məktubunda Demokrit bu sözləri yazır: "Əziz dostum, bir yığın mürəkkəb faktları və ya əşyaları anlamaq istəyirsənsə, sıralamaq lazımdırsa əvvəlcə onları az sayda bənzərlik yığınlarına ayırırsınız. Şəkil daha aydın olacaq və bu şeylərin mahiyyətini başa düşəcəksən." Beləliklə Demokrit "mürəkkəb fakt və cisimlərdən baş çıxarmaq, anlamaq üçün onları oxşarlığı baxımından miqdarca böyük olmayan hissələrə bölməyi" məsləhət görürdü. Bu yolla da, Demokritin fikrincə, mənzərə aydınlaşacaq və həmin şeylərin mahiyyəti dərk olunacaq.Dünyanın ilk müəllimləri görünür bu fəlsəfi yozumları mənimsəmiş və dərsin təlim məqsədlərinə ayrıca diqqət yetirmişlər. Bu fenomen həmişə dövrün təhsil fəlsəfəsinin, psixologiya və pedaqogikanın paradiqmalarını əks etdirib. Lakin əsrlərin qovşağında, xüsusilə ənənəvi təlim konsepsiyası axarında onun psixopedaqoji portreti bir ölçülü mənalarla məhdudlaşdırılıb.

Taksonomik kateqoriyaların iyerarxiyasını ilk dəfə İsveç Kral Elmlər Akademiyasının üzvü, onun yaradıcılarından biri, Paris Elmlər Akademiyasının və bir sıra digər elmi cəmiyyətlərin və akademiyaların üzvü olmuş Karl Liniey yaratmışdır. İlk dəfə termin kimi 1813-cü ildə Ogüsten Dekandol tərəfindən bitkilərin klasifikasıyasını vermək üçün işlədilmişdir. Sonralar bu termin biologiya ilə yanaşı, pedaqoqika, linqvistika, coğrafiya, geologiya və s. elm sahələrində də mürəkkəb sistemlərin mahiyyətini, klasifikasıyasını göstərmək üçün geniş istifadə edilməyə başlandı. Riyazi olaraq taksonomiya ağacvari struktura malik, sistemləşdirilmiş obyektlər toplusudur. Bu strukturun lap üst səviyyəsində birləşdirici vahid takson-bünövrə taksonu yerləşir. Alt səviyyələrdəki taksonlar isə özündən üstə nisbətən daha çox konkretləşmiş taksonomik vahiddir.

Taksonomiya sözünün mənası bir cöx lüqətlərdə, ensklopediyalarda aşağıdakı kimi açıqlanmışdır. 1999- cu il 4 tomluq rus dili lüğətində yazılır. "Taksonomiya-mürəkkəb təşkil edilmiş reallığın, adətən iyerarxik quruluşa malik olan sahələrinin (məsələn, üzvi aləm, coğrafiya obyektləri, geologiya və s.) təsnifatı və sistemləşdirilməsi nəzəriyyəsidir (2)

Oksvord lüqətində taksonomiya sözü belə aşıqlanır.

" Taksonomiya:

- Təbii qarşılıqlı münasibətləri, xüsusi ilə də təkamül əlaqələrini göstərmək üçün nəzərdə tutulmuş bir nizamlı sistemdə orqanizmlərin təsnifatı və adıdır.
- Elm və ya təcrübə təsnifatı." və ya "Onları qruplarla sistemləşdirən əşyaların təsnifatının saysız-hesabsız elmi prosesi." (7)

Kembric lüqətində taksonomiya sözünün mənası məhsulları, xüsusilə də bitki və heyvanları adlandırma və təşkil etmək üçün sistem, oxşar keyfiyyətləri bölüşən qruplar kimi şərh edilir.3

Digər bir ingilis dilli mənbədə taksonomiya sözünün mənaları aşağıdakı kimi şərh edilir.

- Taksonomiya, isim. Təsnifat üçün istifadə edilən elm və ya texnika.
- Taksonomiya, isim. Təsnifat; hiyerarşik sistemdə xüsusilə təsnifat.
- Taksonomiya, isim., orqanizmlərin adı haqqında elm və təsvir, təsnifat
- Taksonomiya, isim. Quruluşun və ya mənşəyin bənzərliyinə əsaslanan qruplara orqanizmlərin təsnifatı və s.
- Taksonomiya, isim. (biologiya) elmi təsnifatın ümumi prinsiplərinin öyrənilməsi.
- Taksonomiya, isim. Bitki və heyvanların təxmin edilən təbii əlaqələrinə uyğun olaraq təsnifləşdirilməsi təcrübəsi.(8)

Taksonomiya - (yunan.)- adətən iyerarxik struktura malik kompleks təşkil olunmuş obyektlərin təsnifatı və sistemləşdirilməsi nəzəriyyəsi (9).

Mədəniyyət Araşdırmaları Ensiklopediyasında yazılır: "Mədəni taksonomiya mədəniyyət tipologiyasının əsası kimi konkret mədəniyyətnin spesifikliyini səciyyələndirən təkrarlanan mədəni xüsusiyyətlərin təsnifat sistemidir."

1966-cı ildə Maykl Flanin tərəfindən təklif edilmiş və 1972-ci ildə genişləndirilmiş "Flayn Taksonomiyasında" yazılır: komanda və məlumatların axınlarında paralelliyin olması ilə əlamətlərinə görə kompüter arxitekturalarının ümumi təsnifatıdır.(4)

Taksonomiya /yun. taxis- dərəcə, sıra və qanun /– taksonlar, onların qruplaşdırılması və tabeliliyi haqqında elm və ya yaxud təsnifatın prinsipləri haqqında təlim. Taksonomiya və ya Taksonomik kateqoriyalar — sadədən mürəkkəbə doğru zəncirvari, ierarxiya üzrə inkişafı əks etdirən anlayışlar sistemi.(5)

Yuxarıda göstərilən mənbələrdən göründüyü kimi bir cox elm sahələrində biologiya, mədəniyyət, riyaziyyat, EHM və s. sisteməşdirmə, təsnifləşdirmə aparmaq üçün taksonomiya terminindən istifadə edilir

Psixopedaqogikada müxtəlif zamanlarda alimlər bu məsələyə diqqət yetirmiş, ona öz münasibətlərini bildirmiş və təhsil taksonomiyaları haqqında mülahizələr söyləmişlər.Təlim məqsədlərinin sistemləşdirilməsi ideyası 1948 ci ildə Amerika psixoloqlar asosiasiyasının konqresində kollec imtahan götürənlərinin qeyri rəsmi iştirakı zamanı formalaşmışdır. İmtahan götürənlər arasında rabitəni asanlaşdırmanın nəzəri əsasalarına maraq göstərildi. Qrup hesab edirdidi ki,bu test materiallarının mübadiləsini asanlaşdırmaq üçün və test haqqında fikir mübadiləsi etmək üçün çox şey edə bilərdi. Bundan başqa O, uzun sürən müzakirədən sonra qərara alınıb ki, belə bir nəzəri əsas ən yaxşı təlim məqsədlərinin təsnifat sistemi vasitəsi ilə əldə etmək olar. Belə ki, təlim məqsədlərinin təsnifatı təhsil proqramlarının , testlərin hazırlanmasının əsasını təşkil edir. Məhz bu görüşdə təlim məqsədərinin taksonomiyasını yaradılması ideyası irəli sürüldü.

Psixopedaqogikada təlim məqsədlərinin taksonomiyası tədqiqat obyekti kimi müxtəlif alimlər tərəfindən araşdırılmış, koqnitiv proseslərin, intellektin strukturunu əks etdirən konseptual modellər yaradılmışdır. R.V.Tayler (1930), B.Blum (1956), G.Gilford (1967), Vilson (1967), Bruner (1979) və başqaları tərəfindən idrak (koqnitiv), emosional (affektiv), psixomotor (qeyri-iradi), fəaliyyətlər üzrə taksonomiyalar işlənilmişdir.Taksonomiyaların müəyyən olunmasında , ona aid təsnifatın aparılmasında yanaşmalar, demək olar ki, eyni olmuşdur. Bu sahədə ilk addımı R.V.Tayler atmışdı. Lakin onun axtarışları uğurlu olmamışdır. Bu sahədə ilk müvəffəqiyyətli addımı B.Blum atmışdır. B.Blumun taksonomiyası isə dünya psixologiyasında geniş yayılmış, müxtəlif ölkələrin təhsil sistemində qəbul edilmişdir Dünya pedaqoji psixologiyası təcrübəsində taksonomiya konsepsiyası Amerika psixoloqu B. Blumun adı ilə bağlıdır. Onun müxtəlif modifikasiyaları vardır. Onun konsepsiyasında öyrənmə taksonları mahiyyətcə fon hadisəsi kimi özünü göstərir. Taksonomiyanın ağırlıq mərkəzi isə bilavasitə inkşaf taksonları ilə şərtlənir. Halbuki müasir təhsil nəzəriyyəsi "öyrənmə + inkişaf + mədəniyyət" taksonlarına xüsusi diqqət yetirməyi tələb edir. Lakin dünya təcrübəsində üç komponentli ("öyrənmə+inkişaf+mədəniyyət") taksonomiya yaradılmayıb. Bu sahədə ilk uğurlu addım Azərbaycan psixologiyasında atılıb.

Bu illərin axarında nəinki idrak, həm də emosional və psixomator sahələrdə taksonomiyalar yaradıldı. Müxtəlif taksonomiyalardan yalnız üçü-idraki, emosional və psixomotor taksonomiyalar mütəxəssislər tərəfindən təhsil üçün əhəmiyyətli hesab edilmişdir. Müasir istifadə olunan taksonomiyaları qiymətləndirərkən, onların hər birinin konkret məqsəd üçün nəzərdə tutulduğunu, lakin hər yerdə tətbiq olunacaq aparıcı və ya yeganə düzgün sistemin mövcudluğunu qeyd etmək vacibdir. Bəzi taksonomiyalar tədrisin yeni standartlarının hazırlanmasına yaxşı xidmət edir, digərləri isə mövcud standartları qiymətləndirmək üçün tələbələrə tədris proqramlarının məktəblilərin qabiliyyəti ilə oxşarlığını müəyyənləşdirməyə kömək edir. Pedaqogika və psxologiyada taksonomiyaya aşağıdakı təriflər verilmişdir: Təlim məqsədlərinin şəbəkəli (iyerarxik) və ya «sistemli» təsnifatına taksonomiya deyilir. Şəbəkələr

düzülüşünə malik olan mürəkkəb fəaliyyət sahələrinin sistemli nəzəriyyəsinə taksonomiya deyilir.Təlim məqsədlərinin taksonomiyası tədris prosesini elmi-metodik səviyyədə planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir.

TƏDQIQAT METODU

Elmi-tədqiqat işi deduktiv və nəzəri təhlil metodları əsasında aparılmış və bunun əsasında yerli və xarici mənbələrdən məlumat toplanmışdır.

NƏTICƏ

Aparılmış araşdırmalar göstərir ki, bir cox elm sahələrində biologiya, mədəniyyət, riyaziyyat, ehm və s. sisteməşdirmə, təsnifləşdirmə aparmaq üçün taksonomiya terminindən istifadə edilir. Psixopedaqogikada da təlim məqsədlərinin taksonomiyasi tədqiqat obyekti kimi müxtəlif alimlər tərəfindən araşdirilmiş, koqnitiv proseslərin, intellektin strukturunu əks etdirən konseptual modellər yaradilmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Sultanova İ. Əbdül Əlizadənin üç tərkibli taksonomiya konsepsiyası, Şamaxı: 2022
2. Словарь русского языка: В 4-х т. / РАН, Ин-т лингвистич. исследований; Под ред. А. П. Евгеньевой. — 4-е изд., стер. — М.: Рус. яз.; Полиграфресурсы, 1999; (электронная версия): Фундаментальная электронная библиотека.
3. Флинн М. Дж.: Некоторые компьютерные организации и их эффективность. IEEE Transactions on Computers, 21(9): 948—960. — 1972.
4. Taksonomiya // Geomorfoloji terminlərin izahlı lüğəti. Bakı: "Elm". 2012. səh. 140.
5. https://defitioni.blogspot.com/2020/09/definition-taxonomy-oxford-dictionary.html
6. https://dictionary.cambridge.org/dictionary/english/taxonomy
7. https://wordassociations.net/en/words-associated-with/Taxonomy

PSİXOLOQLARIN TERAPEVTİK ÜNSİYYƏT BACARIQLARI NECƏ FORMALAŞDIRILMALI?

Mələk Kərimova Feruz qızı
Xəzər Universiteti
Psixologiya departamentinin koordinatoru
Xəzər Psixoloji Xidmət mərkəzinin rəhbəri
Mkerimova@khazar.org
https://orcid.org/0000-0001-9156-962X
Bakı, Azərbaycan

XÜLASƏ

Son illərdə ölkəmizdə psixologiya sahəsinin daha çox praktiki cəhətdən inkişafı ilə əlaqədar psixoloqlara olan tələbat artmışdır. Ancaq artan tələbat qarşısında bəzən əmək bazarında lazımı peşakar bacarıqları formalaşmayan məzunların olduğu da görülür. Bu tədqiqatın da məqsədi məzun olan psixologiya ixtisası tələbələrinin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi məqsədi ilə təşkil edilən "Psixoloji Konsultasiya" dərsinin mahiyyətini təhlil etmək və tələbələrin dərslə bağlı öyrəndikləri bacarıqları haqqında kəmiyyət tədqiqatının keçirilməsidir. Tədqiqat Xəzər universitetinin bakalavr dördüncü kurs tələbələri (n=20) arasında 2021-2022-ci tədris ilində "Psixoloji Konsultasiya" dərsi zamanı aparılmışdır. Dərs "Mikro bacarıqlar təliminə" (İvey, 2007) əsaslanılaraq təşkil edilmişdir. Semestr boyu tələbələr müşahidə edilmiş və semetr sonunda tələbələrin nəzəri və praktiki bacarıqlarını necə dəyərləndirmələri ilə bağlı sorğu keçirilmişdir. Sorğuda iştirak edən sonuncu kurs tələbələri praktiki bacarıqları tətbiq edə bildiklərini və psixoloji seansların keçirilməsinin elmi əsaslarını öyrəndiklərini və bununla bağlı anlayış qazandıqlarını, eyni zamanda özləri ilə əlaqədar fərqindəlik qazandıqlarını, güclü və

zəif cəhətlərini gördüklərini qeyd etdilər. Nəzəri və prakitiki bacarıqların formalaşdırılması məqsədi aparılan Psixoloji Konsultasiya dərsinin praktikada tətbiqinin psixoloqların gələcəkdə iş bazarında yetərli şəkildə fəaliyyət göstərmələrinə dəstək olacağı və klinik təcrübələrinin formalaşmasına təkan verəcəyi qeyd edilə bilər. Tədqiqatda açıqlanan dərsin metodu akademik fəaliyyətə yeni başlayan və hazırda da davam edən psixoloq-müəllimlər tərəfindən istifadə edilərək müxtəlif qruplarda yoxlanıla bilər.

AÇAR SÖZLƏR: terapevtik ünsiyyət, psixoloqun peşə bacarıqları, empatik reaksiya.

GIRIŞ

İnsan sosial varlıq olaraq ünsiyyətsiz yaşaya bilməz. İnsanla işləyən sahələrdən biri olan psixologiya elmində də nəzəriyyələrin formalaşması da məhz praktik sahədə aparılan tədqiqatların dəstəyi ilə mümkün olub. Bu cəhətdən də psixologiya, təhsildə sosial psixoloji xidmət vs. universitetin müxtəlif sahələrindən məzun olan tələbələrin praktikada bilik və bacarıqlarını necə tətbiq edəcəklərini bilmələri əhəmiyyətlidir. Psixoloq və pasiyent arasında qurulan ünsiyyət forması gündəlik məişət dialoqundan fərqlənən, qaydaları olan və elmi yanaşma tələb edən bir ünsiyyət növüdür. ***Bir başqa deyişlə "Terapevtik ünsiyyət daha çox psixoloq pasiyent arasında yaranan, xüsusi qaydaları olan və xüsusi bacarıq tələb edən bir ünsiyyət növüdür".*** Terapevtik ünsiyyət sistemli yanaşmanı ehtiva edən, müştəri mərkəzli və müştərinin fizioloji, psixoloji, emosional, ətraf mühitlə bağlı yanaşmaları əhatə edən, onlarla əlaqə qurmaq üçün lazım olan sözlü və sözsüz ünsiyyət qurulmasını ifadə edir. (Rosenberg ve Gallo-Silver, 2011).

Üniversitetlərin psixologiya, təhsildə sosial psixoloji xidmətlər ixtisası məzunlarının, pasiyentlərlə işləyən tibb bacılarının terapevtik ünsiyyət bacarıqlarının formalaşdırılması gözlənilir. Tələbələrə bu bacarıqların necə öyrədilməsi də əsas məsələlərdən biri kimi qarşımıza çıxır. Belə ki, insan müxtəlifliyi nəzərə alınaraq hər bir tələbənin terapevtik ünsiyyət bacarıqlarının necə formalaşdırılması və müşahidə edilməsi çətinlik yaradır. Öyrədilən bacarıqların tələbənin zehni proseslərindən necə süzülərək bacarığa dönüşdürüləcəyini anlamaq üçün məhz onların fikrinə müraciət edərək anlama yolunu seçməmizə səbəb olur.

Psixoloqların pasiyentlərlə görüşməsi bir insanla sadəcə məlumat toplama məqsədi ilə keçirilən vaxt kimi qiymətləndirilə bilməz. Görüşmələr mahiyyətcə müxtəlif məqsədlər daşıya bilər. Görüşmədə qarşıdakı insanın vəziyyətini yaxşılaşdırmaqdan daha ziyadə, vəziyyətin nə və ya necə olduğu məsələlərinə açıqlıq gətirilir. Görüşmələr əvvəlcədən müəyyən edilmiş sual və ya plan çərçivəsində də keçirilə bilər, tam tərsi planlandırılmamış sualların verilə biləcəyi bir proses də ola bilər. Görüşməni vəziyyətin ya da şəxsin dəyərləndirilməsi kimi ələ almaq olar. Bu proses kor koranə aparılan bir proses kimi qiymətləndirilməməlidir. Bu prosesin necə aparılacağının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, nəzəri biliklərlə yanaşı tələbələrdə praktik bacarıqların formalaşdırılması isə, yeni təlim metodları ilə dərslərin keçirilməsini tələb edir. Tədqiqatçı uzun müddət ərzində "Psixoloji Konsultasiya" dərsini tədris edərkən məhz əsas bacarıqların formalaşması üçün nəzəri və praktiki hissəni dərsdə əhatə etmiş və dəyərləndirmişdir. Dünya praktikasına baxdığımız zaman bu dərsin "Şəxsiyyətlərarası münasibət" və ya " Terapevtik ünsiyyət bacarıqları" adı altında tədris edildiyi görülür.

Terapevtik ünsiyyət bacarıqlarının necə qazandırılması sualı ilə bağlı olaraq onu qeyd etmək olar ki, 1960-cı illərə qədər dərslər daha çox didaktik üsulla keçirilsə də, 1960-cı ildən sonra isə K.Rogersin gətirdiyi yeniliklər və teknologiyanın inkişafına bağlı olaraq yeni təlim metodları ilə dərslərin daha da zənginləşdirilərək keçirildiyi görülür.

Dünya təcrübəsinə baxdığımız zaman, daha çox üç istiqamətdə bu bacarıqların qazandırılması ilə bağlı təlim proqramlarının olduğu görülür. Bunlar aşağıda sıralanmışdır.

- Kaganın "Şəxsiyyətlərarası Prosesi xatırlama" proqramı; (KASH, Interpersonal Process Recall) (Kagan, 1984)
- Carkhuff "İnsan kapitalını inkişaf etdirmə" (İKG, Human Resource Development-Human Resource Training/Integrated Didactic-Experiential Training) proqramı; (Carkhuff, 2000)
-Iveyin "Mikro bacarıqlar təlimi proqramı" (MBEP, Microcounseling/Microtraining)
(Ivey & Ivey, 2007)

İveyin "Mikro bacarıqlar təlimi" proqramının fəlsəfəsində pasiyentlə görüşən şəxsin davranış repertuarının qarışıq olduğu fikri və öyrədiləcək terapevtik mikro bacarıqların hissələrə bölünərək ən yaxşı şəkildə öyrədilə biləcəyi fikri, hər dəfə isə yalnız bir terapevtik bacarığın nəzəri və praktiki öyrədilməsi fikri vardır. Bu proqramda didaktik, video və səs qeydləri, rollu oyunlar, problemlərin müzakirəsi kimi müxtəlif metodlarla dərslərin zənginləşdirilməsinə yer verilir. Allen və yoldaşlarının müəllim təlimi sahəsindəki tədqiqatları "Mikro bacarıqlar təlimi"nin əsasını təşkil edir. Bu təlim müəllim yaradıcılığına açıq olub, hər

hansı bir nəzəriyəyə dayanmır. (Ivey, 1971). Qeyd etmək lazımdır ki, təlimin mahiyyəti 450 dən çox empirik tədqiqatla dəstəklənmiş və ən çox üzərində dayanılan təlim metodlarından biri olmuşdur.

Ölkəmizdə bu sahədə boşluqların olduğu görülür. Belə ki, psixoloji konsultasiyanın necə aparılacağını nəzəri olaraq öyrənən tələbələrin praktikada tətbiq edərək öyrənməsi, hansı bacarıqlara sahib olduğunu nümayiş etdirməsi çox vaxt diqqətdən kənar qalır. Bu isə tələbələrdə dərslərə olan marağın azalmasına, öyrəndiklərini praktikada tətbiq etmədikləri üçün unutmalarına səbəb olur. Bu tədqiqat məhz bu sahədə bu boşluqları doldurmaq məqsədi ilə aparılmışdır. Aparılan kəmiyyət tədqiqatı, müşahidə metodu ilə də dəstəklənərək 4 aylıq müddətdə həyata keçirilmişdir. Tədqiqatda hər bir mövzunun işlənilməsindən sonra o mövzu ilə bağlı rollu oyunlar, müzakirələr aparılaraq bacarıqların formalaşdırılımasına çalışılmışdır. Daha sonra tələbələrdən dərslə bağlı hansı bacarıqları qazandıqları sorğu vasitəsilə yoxlanılmışdır.

Ölkəmizdə bu sahədə aparılan tədqiqatların olmadığı və gələcəkdə keçiriləcək dərslərə işıq tutacağı və bir fikir yaradacağı gözlənilir.

TƏDQIQAT METODU

Tədqiqat kəmiyyət tədqiqatıdır. Kəmiyyət tədqiqatlarında müşahidə, görüşlər və sorğular təhlil edilərək, təbii şəraitdə insanların hadisələrə yüklədikləri mənalar təhlil edilir. (Altunışık ve Diğerleri, 2010: 302). Son zamanlarda xüsusilə psixologiya sahəsində bu tip tədqiqatların artması müşahidə edilməkdədir. Belə tədqiqatlarda adətən statistik analizlərə yer verilmədən, birbaşa yazılı olaraq şəxslərin fikirlərinə müraciət edilir. Kəmiyyət tədqiqatlarında adətən çevrə, ətraf və şəxsin qavrayışı ilə əlaqədar məlumatlar əldə edilir. 2021-2022-ci tədris ilinin payız semestri ərzində psixoloq ixtisası tələbələrinə tədris edilən "Psixoloji konsultasiya" dərsi çərçivəsində onlar terapevtik ünsiyyətin qaydalarına və bacarıqlarına yiyələnmiş və daha sonra öyrəndikləri bacarıqları nümayiş etdirmək məqsədi ilə könüllü əsaslarla razılaşan pasiyentlər taparaq onlarla beş seans görüşmə aparmışdırlar. Bu müddət ərzində anonimlik qorunmaq şərti ilə onların seanslarda yaşadıqları çətinliklər, terapevtik bacarıqları nə dərəcədə mənimsədikləri müşahidə edilmiş və dərslərdə müzakirə edilmişdir. Semestr sonunda isə tələbələrə "Dərsin sizin həyatınızda və peşəkar bacarıqlarınızın formalaşmasında qazandırdığı fərqindəliklər nələrdir?" sualı yazılı şəkildə soruşulmuş və sorğu nəticələri əsas mövzular şəklində qruplandırılmışdır.

NƏTICƏ

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələri aşağıdaki başlıqlar altında qruplaşdırmaq olar. Tələbələr peşakar, şəxsi və şəxsiyyətlərarası münasibətlərlə bağlı bacarıqlar əldə etmişlər. Terapevtik ünsiyyətin öyrənilməsi və dərsin praktik nümunə üzərində tətbiq edilməsi onların nəzəriyyə və praktikanı birləşdirmələrinə, sistemli yanaşmalarına, özləri ilə bağlı fərqindəliklərinin artmasına, dinləmə bacarıqlarının formalaşmasına, qınamadan qarşı tərəfə yanaşmağı öyrənmələrinə şərait yaratmışdır.

Tədqiqat nəticəsində əldə edilən əsas mövzuları və alt mövzuları belə qruplaşdırmaq olar.

Peşakar bacarıqların formalaşması (göz təması,bədən dili, səs tonu,sual vermə, danışığa təşviq etmə, emosiya və məzmunun əks etdirilməsi, qısa məzmunun verilməsi, seanslarda məqsəd və müdaxilənin müəyyənləşdirilməsi)	Praktika və nəzəriyyənin birləşməsi Təcrübədə öyrənmə: Şəxsi təcrübə və qrup müzakirələrində öyrənmə Sistemli yanaşma
Daxili fərqindəlik	Öz şəxsi çətinliklərinin seansa təsirini anlamaq, eyni zamanda pasiyent nümunəsində öz daxili problemini daha yaxşı başa düşmək Öz zəif və güclü tərəflərini görmək
Dinləmə bacarığının formalaşması	Aktiv dinləmənin öyrənilməsi

Korkut (1996), litsey tələbələrinin ünsiyyət bacarıqlarını formalaşdırmaq məqsədi ilə 12 seanslıq ünsiyyət bacarıqları təlim proqramı tətbiq etmişdir. Proqramda özünü tanıma, sözsüz mesajlar, ünsiyyət maneələri, duyğuları tanıma, dinləmə və uyğun reaksiya vermə bacarıqları haqqında məlumat praktik təcrübəyə əsaslanan proqramla öyrədilmişdir. Nəticədə bu proqramın litsey tələbələrinin ünsiyyət bacarıqlarının formalaşmasına müsbət təsiri olduğunu müəyyən etmişdir. (Akt: Çam, 1997).

Balcı (1996) terapevtik bacarıqlar təlimini univeristitet tələbələri üzərində yoxlamışdır. O, təlim alan və almayan iki qrupu qarşılaşdırmışdır. 31 nəfərlik sinifi iki qrup olmaqla ayırmışdır. Qrupların biri 15, digəri isə 16 nəfər idi. Bu qrupa tədqiqatçı tərəfindən təlim keçirilmişdir. Digər 31 nəfərlik qrupa isə heç bir təlim verilməmişdir. Terapevtik bacarıqlar təlimi verilən qrupla həftədə 90 dəqiqə 1 dəfə olmaqla davam edən 12

həftəlik proqram tətbiq edilmişdir. Eksperiment qrupuna tətbiq edilən təlim proqramında qrup daxilində çalışmalar təşkil edilmiş, sonra bunlar qrup daxilində müzakirə edilmişdir. Ön test və son test verilən tədqiqat iştirakçılarına "Ünsiyyət bacarıqları testi" tətbiq edilmişdir. Tədqiqat nəticələri bu təlimin universitet tələbələrinin ünsiyyət bacarıqlarını artırmada təsirli olduğunu göstərmişdir.

İkiz (2006), Psixoloji konsultasiya zamanı əsas terapevtik bacarıqlar təliminin tələbələrin empati qura bilmə bacarığı, empatik meyl və tükənmişlik səviyyələrinə olan təsirini müəyyən etmək məqsədi ilə ön test və son test olmaqla eksperiment təşkil etmişdir. Eksperimentdə 48 nəfərdən ibarət tələbələri iki qrupa ayıraraq onlara "Əsas konsultasiya bacarıqları" təlimi vermişdir. Kurs həftədə bir dəfə altı saat olmaqla altı dəfə keçirilmişdir. Digər qrupa isə heç bir təlim keçirilməmişdir. Tədqiqatçı dərsdə mövzulara uyğun olaraq proyekter ilə məlumatları əks etdirmiş, eyni zamanda dərsdə rol oynama, modeldən öyrənmə, müzakirə, beyin fırtınası, yaşayaraq öyrənmə kimi praktik bacarıqların formalaşdırılmasına çalışmışdır. Beləliklə tədqiqat nəticəsində tələbələrin empatik bacarıqları tətbiq etmələrinin,empatik meyl və emosional tükənmə səviyyələrində statistiki olaraq əsaslı artış olduğu müəyyən edilmişdir. Bu məqsədlə isə o, Dökmen (1988; akt. İkiz, 2006) tərəfindən hazırlanan Empatik Bacarıq şkalası və Empatik Meyl şkalasını, Maslach (1981; akt. İkiz, 2006) tərəfindən hazırlanan Maslach Tükenmişlik testini istifadə edərək yoxlamışdır.

Hill, Stahl ve Roffman (2007), psixoloq konsultantlara hər dəfə bir mikro-psixoloji terapevtik bacarığının öyrədilməsinin onların hər bir bacarığın nə işə yaradığını anlamalarına, zəif və güclü tərəflərini kəşf etmələrinə, bacarıqları düzgün şəkildə istifadə edə bilmələri üçün qabiliyyətlərini inkişaf etdirdiklərini və eyni zamanda seansa mane olan problemli bacarıqları (pasiyentin sözünü kəsmə, çox danışma, uyğun olmayan şəkildə özünü açıqlama vs) azaltmalarına kömək etdiyini qeyd edirlər.

Barış Yaka (2011) ildə apardığı tədiqatda isə Mikro Bacarıqlar Təlimi ilə üçüncü kursda təhsil alan psixoloq konsultanlara təlim verərək, bu təlimin tələbələrə necə kömək etdiyini tədqiq etmişdir. Bu məqsədlə 41 nəfər tələbə iki qrupa ayrılaraq bir qrupa klasik şəkildə bacarıqlar təlimi verilmiş, digər 20 nəfərə isə əsas terapevtik bacarıqlar (diqqəti fokuslama, emosiyaları əks etdirmə,məzmunu əks etdirmə, qısa məzmunun verilməsi) öyrədilmişdir. Hər iki təlim altı həftə davam etmişdir. Ön test zamanı təsadüfi yolla seçilmiş bir pasiyentlə 10 dəqiqəlik bir seans təşkil edilmişdir. Son test zamanı da eyni pasiyentlə 10 dəqiqəlik bir nümunə seans təşkil edilmişdir. Videoya qeyd olunan görüşmələr daha sonra doktorantura təhsilini tamamlamış üç qadın hakim tərəfindən qiymətləndirilmişdir. Tədqiqat nəticəsində, hər iki metodla keçirilən dərslər arasında fstatistik fərq olmadığı, ancaq hər iki metodika ilə keçirilən dərsin tələbələrin əsas terapevtik bacarıqları qazanmalarına təsir etdiyini ortaya qoymuşdur. Ancaq Mikro təlimlər bacarığı metodunun psixoloq konsultantların peşə bacarıqlarını daha da inkişaf etdirməsi ilə da nəticələr əldə edilmişdir.

2021-2022 ci tədris ilində Xəzər universiteti 4 cü kurs tələbələrinə keçirilən "Psixoloji Konsultasiya" dərsinin sorğu nəticələrinə əsasən qeyd edilə bilər ki, bu nəticələr Türkiyədə və xaricdə bu sahədə aparılan tədqiqatlarla paralellik göstərir.

Universitetdə dərs deyən gələcək tədqiqatçılar və təhsil verənlər dərs prosesini müasir texnologiyanın və təlim metodlarından faydalarından istifadə edərək daha da zənginləşdirərək, tələbələrin necə inkişaf etdiklərini izləyə bilərlər. Beləliklə bu sahədə elmi tədqiqatların sayı artaraq yeni yanaşmaların yoxlanılması üçün münbit şərait yarana bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Altunışık, R., Coşkun, R., Bayraktaroğlu, S., & Yıldırım, E. Sosyal Bilimlerde Araştırma Yöntemleri SPSS Uygulamalı Sakarya Yayıncılık. (6. Baskı). Türkiyə/Sakarya.2010.
2. Balcı, S. Danışma Becerileri Eğitiminin Üniversite Öğrencilerinin İletişim Beceri Düzeyine Etkisi Ondokuz Mayıs Üniversitesi Sosyal Bilimler Enstitüsü Eğitim Bilimleri Anabilim Dalı, Doktora Tezi, Samsun, 1996.
3. Barış Yaka, Ege Üniversitesi Eğitim Fakültesi Eğitim Bilimleri Bölümü Rehberlik ve Psikolojik Danışmanlık Anabilim Dalı, İzmir. 2011 (85 səh)
4. Carkhuff, R. R. The art of helping in the 21st century (8th ed.). Amherst, MA: Human Resource Development Press.2000.
5. Corey, G. Psikolojik Danışma ve Psikoterapi Kuram ve Uygulamaları. Mentis Yayıncılık, Ankara, 2005.
6. Çam, S. İletişim Becerileri Eğitimi Programının Öğretmen Adaylarının Ego Durumlarına ve Problem Çözme Becerisi Algılarına Etkisi, Ankara Üniversitesi, Sosyal Bilimler Enstitüsü Eğitimde Psikolojik Hizmetler Anabilim Dalı Doktora Tezi, Ankara, 1997

7. Daniels, T. & Ivey, A. E. Microcounseling: Making skills training work in a multicultural world. Springfield, IL: Charles C Thomas. 2007.
8. Dökmen Ü., Sanatta ve Günlük Yaşamda İletişim Çatışmaları ve Empati, Remzi Kitapevi, İstanbul. 2008.
9. Ivey, A. E. & Ivey, M. B. Intentional interviewing and counseling: Facilitating client development in a multicultural society (6th ed.). Belmont, CA: Thomson. Brooks/Cole. 2007.
10. Ivey, A. E., Packard, N. G. & Ivey, M. B. Basic attending skills (4th ed.). 2006.
11. İkiz F. E., Danışma Becerileri Eğitiminin Danışmanların Empatik Eğilim, Empatik Beceri Ve Tükenmişlik Düzeyleri Üzerindeki Etkisi, Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü Eğitim Bilimleri Anabilim Dalı Psikolojik Danışma Ve Rehberlik Programı Doktora Tezi, İzmir, 2006.
12. Kərimova Mələk. Terapevtik ünsiyyətin əsasları. Elm və təhsil nəşriyyatı. Bakı/Azərbaycan. 2021.
13. Rosenberg S, Gallo-Silver L.Therapeutic communication skills and student nurses in the clinical setting.Teaching and Learning in Nursing, 6(1), 2011, 2-8. https://doi.org/10.1016/j.teln.2010.05.003
14. Uslu M. Psikolojik Danışmanların Danışma Becerilerinin Geliştirilmesi, Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Eğitim Bilimleri Ana Bilim Dalı, Eğitimde Psikolojik Hizmetler Bilim Dalı Doktora Tezi, Konya, 2005

MEDİASİYA PROSESİNDƏ ÜNSİYYƏTİN PSİXOLOJİ ASPEKTLƏRİ

Mələk Kərimova Feruz qızı
Xəzər Universiteti
Psixologiya departamentinin koordinatoru
Xəzər Psixoloji Xidmət mərkəzinin rəhbəri
Mkerimova@khazar.org
https://orcid.org/0000-0001-9156-962X
Bakı, Azərbaycan

XÜLASƏ

Məqalədə ölkəmizdə 2021-ci ilin yanvar ayının birindən etibarən tətbiqi başladılan mediasiya prosesi və mediatorların peşə bacarıqlarının inkişaf etdirilməsi ilə əlaqədar danışıqların aparılması zamanı zəruri olan ünsiyyət bacarıqlarına yer verilmişdir.

Demokratik cəmiyyət quruculuğunda əhəmiyyətli yeri olan mediasiya prosesinin əsas məqsədi məhkəmələrin iş yükünün azaldılması və mübahisələrin alternativ həlli yolu kimi mediasiya prosesinin tətbiqidir. Mediasiyanın müxtəlif ölkələrdə tətbiqi mexanizmaları ilə yanaşı, məqalədə mediasiya prosesində ünsiyyətlə bağlı yaranan çətinliklər və mediatorun effektiv ünsiyyət qura bilmə bacarıqlarını formalaşdırması üçün nələrə diqqət edilməsi ilə əlaqəli məsələlər təhlil edilmişdir. Bu sahədə fəaliyyət göstərəcək mediatorların ünsiyyət bacarıqlarının mediasiya prosesində əhəmiyyəti, dinləmə və ona təsir edən amillər, empatiya, suallar və növləri, sual vermə bacarığı, tərəflər arası ünsiyyətə təsir edən mediatorun şəxsi xüsusiyyətləri ilə bağlı məqamların mahiyyəti də şərh edilmişdir. Mediator kimi fəaliyyət göstərmək və ölkəmizdə bu sahəyə töhvə vermək istəyən şəxslərin öz şəxsi keyfiyyətlərini səmimi şəkildə dəyərləndirmələri və effektiv ünsiyyət bacarıqlarına sahib ola bilmələri üçün bunları təcrübədən keçirərək formalaşdırmağının zəruruliyi də ifadə edilmişdir.

AÇAR SÖZLƏR: ünsiyyət, mediatorları peşə bacarıqları, ünsiyyət, mediator

GIRIŞ

Mediasiya və onun ortaya çıxma zərurəti

2021-ci il yanvarın 1-dən ölkəmizdə mediasiya haqqında qanun qüvvəyə minmişdir. Artıq uzun müddətdir ki, bu sahədə yerli mediatorlar fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin

rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində mediasiyanın ölkəmizdə tətbiqi ilə əlaqədar təqdirə layıq addımlar atılıb. Bunlardan biri də "Mediasiya haqqında qanunun" qəbul edilməsidir ki, bu qanun əsasında ölkəmizdə məhkəmələrin iş yükünün azaldılması ilə yanaşı, xalqın məhkəməyə müraciət etməzdən əvvəl mübahisələrin alternativ həll yolu olan mediasiyaya müraciətləri təmin ediləcəkdir.

Azərbaycan Respublikasının mediasiya haqqında qanununda mediasiya prosesi ilə bağlı belə açıqlama verilir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.[1]

Ölkəmizdə kommersiya, ailə və mülki məsələlərdə ilkin məcburi mediasiyanın təşkil edilməsi qanunla nəzərdə tutulmaqdadır. [2]

2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında fərmana uyğun olaraq Mediasiya Şurası yaradılmış, Ədliyyə Akademiyası tərəfindən mediator olmaq istəyən şəxslərin ilkin təlimi keçirilmiş və 49 nəfər imtahan verərək uğur qazanmışdır.

Mediasiya prosesinin tətbiqinin zəruruliyini anlaya bilmək üçün tarixi ekskurs etmədə fayda vardır. Belə ki, bəşəriyyət tarixinə baxıldığı zaman insanlararası münasibət çətinliklərinin, dövlətlərarası münaqişələrin heç olmadığı mərhələlərə rast gəlmək bir qədər çətindir. Dünya mövcud olduğundan bəri istər insanlar arasında, istərsə də dövlətlərdə haqq, ədalət, insanlıq və s. kimi dəyərlərin də əhəmiyyətli olduğu görülür. Müəyyən anlayışların mahiyyəti müxtəlif xalqlara görə fərqli izah edilsə də, dünyada mövcud olan və psixi sağlam olan heç bir insan bir başqasının həyatına qəsd etmək, zərər vermək istəyində olmaz. Bu mənada da cəmiyyət inkişaf etdikcə mövcud olan sistemlərin mahiyyəti sorğulanmaqda və yeni dəyərlərə uyğun sahələrin mövcudluğu araşdırılmaqdadır. Bu cəhətdən də son illərdə məhkəmə sistemi də yeni yanaşmalara məruz qalmışdır ki, bunlardan bir də mediasiyadır. Əslində insanlar arasında yaranan mübahisə və münaqişələr bir çox elm sahələrinin diqqətini çəkməkdədir. Bu sahələrdən konfliktologiya, psixologiya, sosiologiya, hüquq psixologiyası və s.kimi sahələr qeyd edilə bilər.

Məhkəmə mübahisələrinin alternativ həlli yollarından biri də mediasiyadır. Latın dilindəki "mediare" sözündən yarandığı qeyd edilən mediasiya sözü " tam olaraq iki hissəyə ayırma" və ya "ortada olma" mənasını ifadə edir.[3]

Mediasiya mübahisələrin danışıqlar yolu ilə mediatorun və tərəflərin iştirakı ilə təşkil edilən və münaqişənin alternativ həllinə çalışan bir prosesdir və bir çox ölkələrin hüquq sistemində əsaslı rol oynayır. Məhkəməyə müraciət zamanı qanuna əsasən insanlararası münaqişəyə baxıldığı halda, mediasiya prosesində münaqişə və mübahisə zamanı iştirakçı tərəflər üçün nə əhəmiyyətlidir? sualı daha aktual səslənir. Mediasiya ilə əlaqədar xarici ölkələrin təcrübələrinə baxıldığı zaman müasir mediasiya prosesinin Amerikada ortaya çıxdığı, daha sonra Avropa Birliyi ölkələrinə yayıldığı görülür. Amerikada bu sahəyə olan marağın 1960-cı illərdən başladığı, 1976-cı ildə keçirilən Roscoe Pound Konferansı ilə müasir mediasiya prosesinin əsasının qoyulduğu qeyd edilməkdədir.[14] Avropada isə 1998-ci il Vyana Fəaliyyət Planı və 1999-cu ildə Tampure Avropa Zirvəsində üzv ölkələrə mübahisələrin alternativ həlli yolu ilə əlaqədar məsləhətlər verilmişdir.[4] 2002-ci ildə isə Yaşıl Kitab hazırlanmışdır ki, bu kitabda da mediasiyaya aid əsas prinsiplər üzərində dayanılmışdır. [8, s.25]

2004-cü ildən Yaponiyada ailə və əmlak münasibətlərindən yaranan mübahisələr məcburi mediasiyaya tabe tutulur və 2007-ci ildən isə mediasiyanın yayılması və bu sahəyə marağın artırılması çalışmaları müşahidə edilir.

2012-ci ildə isə Türkiyədə 6325 saylı "*Hukuk Uyuşmazlıkları Arabuluculuk Kanunu (HUAK)"qüvvəyə* minərək bu sahə inkişaf etməyə başlamışdır. Dünya ölkələrinin hüquq sistemində mediasiya prosesinin bu qədər aktual olması və eyni zamanda rəğbət görməsinin səbəbləri isə aydın idi. Belə ki, münaqişələrin və mübahisələrin kəskinləşməsi çox zaman tərəfləri şiddətə ya da məhkəməyə sövq edir. Bu isə çox zaman tərəflərdən birinin bu prosesdən məmnun qalmaması ilə nəticələnir. Son illərdə

[1] http://www.e-qanun.az/framework/41828

[2] http://www.e-qanun.az/framework/41828 . Maddə 3. 3.2. *Kommersiya mübahisələri*, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

[3] https://www.frag-caesar.de/lateinwoerterbuch/mediare-uebersetzung-1.html

[4] https://www.tbmm.gov.tr/komisyon/abuyum/belge/faaliyet/donem24/1_486.pdf

məhkəmələrin iş yükünün artması, cəmiyyətdə münaqişələrin həlli zəminində məhz mediasiya kimi alternativ yolların düşünülməsinə gətirib çıxarmışdır.

Mübahisələrin alternativ həlli yolları ilə bağlı tarixi keçmişimizə baxıldığı zaman mediasiya prosesi ilə Azərbaycan mədəniyyətində "ağsaqqal" və ya "ağbirçək" anlayışları arasında bir növ bənzətmə aparıla bilər. Bu mövqedə olan şəxs adətən tərəfləri dinləyərək onları "barışdırmağa" çalışır, ya da öz sosial mövqeyindən çıxış edərək qərarverici insana çevrilirdi. Təbii ki, bu bənzətmə mediasiya prosesini tam əks etdirməsə də, müxtəlif xalqların mübahisə yaşayan tərəflər arasında barışıq cəhdlərinin göstəricisi kimi görülə bilər. Yalnız klassik və məişət zəminində tətbiq edilən bu barışıq müasir mediasiya prosesindən əsaslı fərqlənir. Belə ki, mediasiya prosesini aparan şəxs, yəni mediator heç bir şəkildə şəxsi qərarlarına əsasən danışıqlara istiqamət vermir, o mübahisə yaşayan tərəflərə qərəzsiz yanaşaraq müstəqil davranır və etik prinsiplərə dayanaraq tərəflərlə danışıqlar aparır.

Artıq bir çox dünya ölkələrində mediasiyanın tətbiqi, yayılmasının labüd hal aldığı görülür. Mediasiya prosesində mediatorun şəxsiyyəti, ünsiyyət qura bilmə bacarıqları, effektiv sosial bacarıqlarının formalaşdırılması əhəmiyyətli mövzu kimi qarşımıza çıxır. Bu cəhətdən də mediasiya prosesinin əsas mahiyyətinin danışıqların aparılması olduğunu qeyd edərək bu prosesdə ünsiyyətin mahiyyətini açmaq və eyni zamanda mediasiya prosesində mediatorun hansı ünsiyyət bacarıqlarına sahib olması öz aktuallığını qoruyur. [8]

Bu məqsədlə ünsiyyət, ünsiyyət bacarıqlarının mediasiyada rolu, mediatorun şəxsi keyfiyyətləri və psixoloji vəziyyəti kimi məsələlər bu məqalədə öz əksini tapır.

Mediatorun peşəkar bacarıqlarından ən əsası ünsiyyət qurma bacarığı olaraq qiymətləndirilə bilər. Yaxşı münasibətlərin qurulması, tərəflərin mediatora güvən duyması məhz mediatorun ünsiyyət bacarıqları ilə sıx əlaqədardır. Bu cəhətdən də Youngın terapevtik ünsiyyət zamanı qeyd elədiyi məqamlar diqqəti çəkir.

Young tərəfindən terapevtik ünsiyyət bacarıqları 5 kateqoriyada və 19 alt başlıqdan ibarət olaraq qruplaşdırılıb. [4] Bu ünsiyyət bacarıqları arasında sözsüz ifadə bacarıqları (uyğun göz təması, vücudun pozisiyası, səs tonu, jestlər və üz ifadəsi, fiziki məsafə, fiziki təmas və s.), söhbəti təşviq etmə bacarığı, sual vermə bacarığı, tərəflərin fikirləri ilə əks əlaqə qura bilmə bacarığı əhəmiyyətli görünür. Bu bacarıqlar mediasiya prosesində də mediator və tərəflər arasında yaxşı münasibətlərin qurulmasına gətirib çıxarır.

Münasibət yaxşı qurulduğu zaman isə tərəflər,

1.Hörmətlə yanaşıldığını, başa düşüldüyünü hiss edir.

2. Onu diqqətlə dinləyən və anlayan insanın varlığından məmnun olur.

3. Mediasiya prosesində daha aktiv iştirak edərək mediatorla əməkdaşlığa daha çox meyillənir.

4. Özlərini daha güvəndə və rahat hiss edərlər.

Ünsiyyət bacarığı kimi dinləmə və ona təsir edən amillər

Ünsiyyət prosesində ən əsas məqamlardan bir də dinləmə bacarığıdır. Dinləmə və eşitmə anlayışları bir birindən fərqli olaraq qiymətləndirilə bilər. Eşitmək, dinləmək və dinlədiyini anlamaq bacarığı mediasiya prosesində çox əhəmiyyətlidir.

Dinləmə bacarığı sayəsində mediatorlar sadəcə tərəflərin problemlərini anlamaz, eyni zamanda problemin altında ötürülən alt mesaj və duyğuları daha yaxşı qavraya bilərlər. Təbii ki, bu prosesdə mediatorun diqqətli və aktiv dinləyici olması üçün diqqətini dağıtmaması önəmlidir.

Dinləmə bacarığı passiv və aktiv olaraq iki hissəyə ayrılır. Passiv dinləmə sadəcə qarşındakı insana qulaq asmaq, arada dinlədiyini göstərmək kimi şərh edilir (başını sallama, aha...kimi ifadələri işlətməklə dəstəklənir). [1, s.27-30]

Aktiv dinləmədə isə mesajın alındığı ilə əlaqədar tərəf sözlü və yaxud sözsüz reaksiyalarını bildirir. Bu dinləmə eyni zamanda tərəfə anlaşıldığı, dəyərli olduğu hissini verməklə yanaşı, qulaq asan şəxsdə empatiyanın formalaşmasına şərait yaradır.

McKay və yoldaşları dinləmə bacarığına təsir edən maneələri aşağıdaki başlıqlar altında toplayaraq belə izahat verir. [5]

1. Müqayisə edilmək-insanlar arasında sözlü və ya sözsüz şəkildə müqayisələrin aparıldığının hiss etdirilməsi dinləmə və anlamağa təsir edən faktordur.

2. Başqasının fikrini oxuduğunu zənnetmə- dinləyərkən qarşı tərəfin ağlından keçənləri təxmin etməyə çalışmaq da yanıldıcı və dinləməyə mane olan vəziyyətdir.

3. Təkrarlama-dinləyən şəxsin daima nə deyəcəklərinə fokuslanması və tez-tez bunu təkrarlanması da dinləmə prosesinə mənfi təsir edir.

[5] Mckay, M., DAVİS, M., FANNİNG, P., (2010) İletişim Becerileri, HYB Yayıncılık, Ankara.

4. Danışığın sanki ələkdən keçirilərək bir hissəsinə fokuslanma-dinləyən şəxsin yalnız özünün istədiyi mövzunu dinləyib, digərlərinə diqqət etməməsi vəziyyətidir.
5. Qınama-bir insan haqqında səhv fikir və təəssüratlar da qarşı tərəfin dediklərinə qulaq asmamağa, anlamamağa səbəb ola bilir.
6. Fikrə (xəyala) getmə-dinləyən şəxsin fikrə getməsi, öz emosional vəziyyətinə fokuslanması ya da düşüncələri ilə məşğul olması qarşı tərəfin nə dediyinə fikrini cəmləməməsinə gətirib çıxarır.
7. Oxşarlıq görmə qarşı tərəfin sözünü kəsərək özünün oxşar vəziyyəti ilə əlaqədar danışmağa başlamaq da diqqətin əsas mövzudan yayınmasına gətirib çıxara bilər.
8. Məsləhət vermə-dinləyənin öz həyat təcrübəsini paylaşaraq qarşı tərəfə qulaq asmadan məsləhətlər, öyüd verməsidir ki, bu da qarşı tərəfə mən səndən "daha ağıllıyam" mesajını verə bilər.
9. Söz güləşdirmək-insanları sözlü şəkildə mübahisə etməsidir. Bu vəziyyətdə adətən qarşı tərəfi kiçiltmə və düşməncəsinə duyğular hakim olur.
10. Haqlı çıxmağa çalışmaq- səhv olmamaq üçün reallığı deməmək, günahlandırmaq, qışqırmaq, özünü müdafiəyəyə keçmək də dinləməyə mənfi təsir edən amillərdən hesab edilir.
11. Rahatlatma, şəxsin nə dediyinə fokuslanmaq əvəzinə onu sakitləşdirməyə çalışan davranışlar və sözlü ifadələrdir. Belə olduğu zaman mövzudan uzaqlaşılmaqda və real vəziyyət başa düşülməməkdədir.

Beləliklə, yuxarıda qeyd edilən dinləməyə mane olan amillərin mediatorlar tərəfindən fərq edilməsi və üzərində aktiv şəkildə işləmələri zəruridir.

Ünsiyyət bacarığı kimi tərəflə empatiya qurma

Empatiya hadisələr və vəziyyət qarşısında insanın özünü başqasının yerinə qoyaraq onu anlaması olaraq dəyərləndirilir [9, səh.8].

Empatiya fərqli şəkillərdə izah edilsə də, empatiya qura bilən insanın hədəf olaraq qarşıdakı insanla eyni şeyi yaşaması, anlaması və onun yaşadıqlarını hiss etməsi olaraq qiymətləndirilir. Empatiya qurmaq istədiyimiz şəxsin roluna girərək, onun yerinə keçib hadisələrə onun gözləri ilə baxmalıyıq. Qarşımızdakı şəxsin roluna girərək empatiya qurduğumuz zaman onun rolunda qısa müddət qalmalı və daha sonra bu roldan çıxaraq öz yerimizə keçə bilməliyik. Əks təqdirdə empatiya qurmuş olmuruq [3, səh. 157-158].

Effektiv ünsiyyət bacarığının formalaşdırılmasında sualların növləri və sual vermə

Mediasiya sessiyası zamanı verilən suallar böyük əhəmiyyət kəsb edir və bu suallar eyni zamanda prosesin axışını müəyyən edə bilir. Sualların hədsiz və yersiz istifadə edilməsi ünsiyyət prosesini pozur. Belə ki, suallar öz məzmununa görə açıq, qapalı və aydınlaşdırıcı tipli suallar olaraq ayrılmaqdadır.

Effektiv ünsiyyət qurmağa təsir edən şəxsi xüsusiyyətlə bağlı amillər

Fikrin ifadə edilməsində yaşanan çətinlik – şəxsin söz dağarcığının az olması və ya şəxsin öz nitqi ilə əlaqədar mənfi rəyinin olmasıdır. Xüsusən kiçik yaşlardan etibarən oxuma vərdişlərinə sahib insanları fikirlərini daha dolğun ifadə etdikləri də müşahidə edilir.

Aron və digərlərinə (2005) görə ***utancaqlıq*** – sosial ünsiyyət qurmaqdan narahat olmaq və ünsiyyəti çərçivələməyə yol açan mənfi psixoloji vəziyyətdir. Bu mənada da mediatorun bu keyfiyyətə sahib olması mediasiyaya mənfi təsir edən faktor kimi ələ alına bilər.

Özünə inanmama və ya özgüvən əksikliyi –Belə ki, kiçik yaşlardan etibarən şəxsin daim tənqid edilməsi, "mükəmməliyyətçi" valideynlər tərəfindən böyüdülməsi və bunun nəticəsində özgüvənsiz olması kimi faktorlar dəyərləndirilə bilər. Özünə inanan insanlar münasibət qurmada rahat davranmaqda ikən, özgüvəni aşağı olan insanlar münasibət qurmaqda çətinlik, güvənsizlik yaşamaqdadır. Belə ki, mediatorun da bu cəhətdən öz daxili aləmini araşdırması və bu sahədə çətinlikləri varsa dəstək alması, bir başqa sözlə öz üzərində aktiv işləməsi mediasiya prosesində özünü rahat hiss etməsinə, rahat ünsiyyət qurmasına təkan verə bilər.

Sosial fobiyaya sahib olma – ünsiyyət çətinliklərinin yaranmasına səbəb olan faktorlar arasında sıralana bilər. Belə ki, sosial fobiyası olan insanlar adətən digər insanlarla ünsiyyətə girməmək üçün qaçınır və yaxud ünsiyyət qurduqları zaman hədsiz həyəcan, təşviş duyğusuna qapılırlar.

Beləliklə, mediator olmaq istəyən və ölkəmizdə bu sahəyə töhvə vermək istəyən şəxslərin öz şəxsi keyfiyyətlərini səmimi şəkildə dəyərləndirmələri və effektiv ünsiyyət bacarıqlarına sahib ola bilmələri üçün bunları təcrübədən keçirərək formalaşdırmağa və çalışmalıdırlar.

TƏDQIQAT METODU

TƏDQIQATDA MEDIASIYA SAHƏSI ÜZRƏ ELMI ƏDƏBIYYATLAR TƏHLIL EDILƏRƏK, SISTEMLI ANALIZ VƏ SINTEZ APARILMIŞDIR.

NƏTICƏ

Mediasiya prosesi ilə əlaqədar məqalə və tədqiqatlar bu sahədə işləyəcək mediatorların şəxsi və peşə bacarıqlarının formalaşmasına töhvə verəcəkdir. Mediator kimi fəaliyyət göstərmək istəyən şəxslər də bu tədqiqatdan faydalanaraq öz peşə və şəxsi bacarıqlarını artıra bilər, mediasiya prosesinə mənfi təsir edəcək xüsusları aradan qaldırmaq üçün səy göstərə bilərlər. Son illərdə müxtəlif elm sahələrinin inteqrasiyasını nəzərə alaraq, hüquq, psixologiya və s.kimi sahələrdəki nəzəri və praktiki məlumatların da mediasiya prosesində zəruriliyi və istifadəsinin əhəmiyyəti də məqalədə öz əksini tapmaqdadır. Mediasiya prosesinin danışıqlar prosesi olduğu nəzərə alındığında, ünsiyyət bacarıqları, liderlik, şəxsi keyfiyyətlər və s. kimi amilləri anlamanın zəruriliyinin vurğulanması da məqalədə öz əksini tapır. Beləliklə, məqalənin ölkəmizdə yeni inkişaf edəcək mediasiya prosesinə və mediatorların fəaliyyətinə ışıq tutacağı gözlənilir

Ədəbiyyat:

Acar, N. (1998). *Terapötik İletişim.* Ankara: 4. Baskı US-A Yayıncılık.

Aron, E. A. (2005). Adult Shyness: The Interaction of Temperamental Sensitivity and an Adverse Childhood Environment. *Personality and Social Psychology Bulletin, 21*, 181-192.

Dökmen, Ü. (2008). *İletişim Çatışmaları ve Empati.* İstanbul: Remzi Kitabevi.

E, Y. M. (2019). *Yardım sanatını öğrenme.Temel yardım becerileri ve teknikleri.* Ankara: Pegem Akademik Yayıncılıq.

Kısmet Kekeç, E. (2014). *Arabuluculuk Yoluyla Uyuşmazlık Çözümünde Temel Aşamalar ve Takikler.* Adalet Yayımları: Adalet Yayınları,2 ci basım.

Leonardo D'Urso, K. A.-Q. (2019). *Mediatorlar üçün mediasiya təlimi üçün tədris vəsaiti.* Baku: International Consulting Expertise EEIG,Expertise Advisors və ADR Center.

Mckay, M. D. (2010). *İletişim becerileri.* Ankara: HYB Yayıncılık.

Özge, Y. (2019). *Bireysel İş hukukunda arabuluculuk.* İstanbul: Bahçeşehir universitesi,Sosyal Bilimler Enstitüsü,Yüksek lisans Tezi.

Öztürk, S. (2010). *Terapotik iletişim becerilerinin kamu çalışanlarının iletişim çatışmalarına girme eğilimlerine etkisi.* Erzurum: Atatürk universitesi,Sosyal Bilimler Enstitüsü,Yüksek lisans tezi.

Rehber, E. (2007). *İlköğretim ikinci kademe öğrencilerinin empatik eğilim düzeylerine göre çatışma çözme davranışlarının incelenmesi. .* Adana.: YayınlanmamışYüksekLisansTezi.Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Sunay, İ. (2009). Aile arabuluculuğu. *Toplum ve sosyal hizmet*, 22-31.

Tekin, A. S. (2008). *Türk Emniyyet Teşkilatında müzakere ve arabuluculuk.* Ankara: Polis Akademisi Güvenlik Birimleri Enstitüsü.

Veysəlli, F. (2010). *Studia Philologica.* IV Mütercim.

Yıldırım, F. (2019). *Arabuluculuk ve Ombudsmanlık.* İstanbul: İstanbul Okan Universitesi, Sosial Bilimler Enstitüsü.

KİÇİK MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNİ MƏNİMSƏMƏSİNDƏ CİNSİ XÜSUSİYYƏTLƏRİN ROLU

AYGÜN RÜSTƏMOVA
Naxçıvan Dövlət Universiteti
Pedaqogika və psixologiya
aygun-rustemova@inbox.ru
NAXÇIVAN, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə kiçik məktəblilərin təlim fəaliyyətini mənimsəməsində cinsi xüsusiyyətlərin rolundan danışılır.Kiçik məktəbyaşı uşaq həyatında ən mühüm dövrlərdən biri hesab edilir. 6-10 yaşı əhatə edən bu dövr orqanizmin fizioloji xüsusiyyətlərində davam edən intensiv maddələr mübadiləsi, böyümə və bədən çəkisinin artması prosesi, skelet və əzələlərin formalaşması ilə özünü göstərir. Başqa sözlə kiçik məktəblinin bədəninin və daxili orqanlarının sürətli böyüməsi müşahidə edilir. Beynin keyfiyyət funksiyaları da inkişaf edir və idrak sahəsinin analitik və sistematik intellektual imkanlarının inkişafı kiçik məktəbliyə ətraf aləmdəki hadisələri qavramaqda, mənimsəmə qabiliyyətini formalaşdırmaqla,ona daha çətin intellektual vəzifələrin həllində kömək edir. Yavaş –yavaş kiçik məktəbli öz cinsinə xas olan xüsusiyyətləri əldə edir. Belə ki, oğlan və qızlar yalnız xarici görünüşləri ilə deyil, eyni zamanda həm bioloji, həm sosial, həm də psixoloji baxımından bir-birindən fərqlənirlər. Heç şübhəsiz bu fəqlər onların oyunlarında, məktəb təliminə adaptasiyasında, tapşırıqları mənimsəməsində və yerinə yetirməsində və.s özünü göstərir.

AÇAR SÖZLƏR: KIÇIK MƏKTƏBLI, cinsi fərqlər, TƏLIM FƏALIYYƏTI

GİRİŞ

1. Erkən uşaqliq dövründə temperamentin strukturunda cinsi fərqlər kəskin şəkildə müşahidə edilmir. Lakin yaş keçdikcə oğlan və qızlar arasındakı fərqlər daha aydın görünür. Nəzərə almaq lazımdır ki. insanda mövcud olan bütün psixi funksiyalar, nitq mexanizmləri, təfəkkür, hafizə, diqqət, qavrayış məhz uşaqlıqda formalaşır. Yəni uşaqlıq dövründə bütün psixi funksiyaların təməli qoyulur və artıq həyatın ilk aylarından oğlan və qızların inkişafında cinsi fərqlər formalaşır. Belə ki,cinslər arasında fərqlər güclənir və artıq körpəlikdə müşahidə etmək olar ki, oğlanlar onlara təklif olunan obyektləri tez və daha fəal araşdırmağa üstünlük verərkən, qızlar isə obyektləri o qədər də aktiv deyil, daha uzun müddət araşdırır və oynayırlar. Eyni zamanda qızlar daha çox oyuncaqla –gəlinciklə, muncuqlarla oynayarkən, oğlanların oyunları isə daha çox bir-birinin arxasınca qaçmaq, əşyalar atmaq və ətrafdakı bütün boşluqlardan istifadə edərək hədəf almaq şəklində özünü göstərir. Digər tərəfdən oğlanlar daha aktiv və aqressiv olurlar. Oğlanların əzələləri və motor bacarıqları qızlara görə daha tez inkişaf edir, bundan başqa onlar yüksək səslərə həssas olurlar, müxtəlif sensor siqnalları isə daha pis qavrayırlar. Qız və oğlanlar arasındakı fərqlər kiçik məktəb yaşı dövründədə özünü göstərir. Qeyd edək ki, kiçik məktəb yaşı uşaqlıq dövrlərindən biridir. Bu yaş mərhələsinə 6-7 yaşdan 10-11 yaşa qədər olan dövr daxildir. Kiçik məktəb yaşı dövründə bu yaşa uyğun olan çoxcəhətli psixoloji xüsusiyyətlər formalaşır, sonraki dövrə keçmək üçün müvafiq imkanlar yaranır. Kiçik məktəbyaşı dövründəki əsas fərqlər boy və çəkidə özünü göstərir. Belə ki, kiçik oğlanların boyu 124-136 sm, çəkisi isə 23-30 kq, qızların boyu 122-136 sm, çəkisi isə 24-30 kq arasında dəyişir.

Məlumdur ki, qızlar oğlanları akademik nailiyyətlərdə qabaqlayırlar. Onlar məktəbə oğlanlarla müqayisədə daha tez uyğunlaşırlar. Kiçik məktəbyaşı dövründə qızlarda vizual yaddaş daha çox inkişaf edir, onlar, bir qayda olaraq, hər iki qulaqla bərabər eşidirlər və hər iki gözlə bərabər görürlər, oğlanlarda isə əksər hallarda sol gözün sağa nisbətən üstünlük təşkil etməsi (bir qayda olaraq) müşahidə edilir. Qızlar yazı işlərində nisbətən az səhvə yol verir, bundan başqa xüsusilə oxu dərslərində daha yaxşı olduqlarından onların söz ehtiyyatı oğlanlara görə çox olur. Bundan başqa təcrübə göstərir ki,riyaziyyatdan başqa bütün fənlərdə qızların diqqəti oğlanlardan daha yaxşıdır.Amma riyaziyyatda oğlanlar nəinki soyuqqanlılıq və diqqət baxımından qızlardan geri qalmırlar, hətta əksər hallarda onları üstələyirlər**.** Çünki oğlanlarda və qızlarda beyin fərqli sürətdə inkişaf edir. Qızlarda oğlanlara nisbətən daha tez sol yarımkürənin nitq və rasional – məntiqi təfəkkür üçün birbaşa məsul olan sahələri formalaşır. Oğlanlarda sol yarımkürə o qədər tez inkişaf etmir. Bu isə o deməkdir ki, müxtəlif cinsdən olan uşaqların sinir sisteminin funksional fərqlərində, emosional reaksiya yollarında, idrak, sosial və digər sahələrdə təzahür edən xüsusiyyətlər təlim fəaliyyətinə müəyyən münasibətin formalaşmasına təsir göstərir. Yəni kiçik məktəblilərin təlim fəaliyyətini

mənimsəməsində demək olar ki, cinsi fərqlər özünü göstərir. Müəllim tərəfindən bu fərqlərin başa düşülməsi və bu biliklərə əsaslanaraq tədris prosesinin optimallaşdırılması təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə artıra bilər.

2. Kiçik məktəblilərin təlim fəaliyyətini mənimsəməsində cinsi fərqlərin nəzərə alınması tədqiqatçılar tərəfindən son dövrlərdə müraciət olunan mövzulardan biridir. Bu tədqiqatçılardan Григорьева Евгения Витальевна «Гендерное воспитание младших школьников в процессе изучения предмета «Окружающий мир»; Бахматова Любовь Александровна «Гендерный подход в обучении иностранному языку младших школьников»; H.H. Куинджи «Гендерный подход к обучению и воспитанию детей в школе: физиологические, гигиенические и социальные аспекты»; Еремеева В. Д. «Мальчики и девочки. учить по–разному, любить по–разному»; və başqalarını göstərmək olar. Limunət Əmrahlı və Nurəngiz Rzayeva "Uşaq psixologiyası" kitabında qeyd edirlər ki. "Uşağın maskulinizasiya və feminizasiyasına təsir göstərən amillərdən biri də ona qoyulan adla bağlıdır. Bəzən onlara qeyri-münasib adlar qoyulur, bəzən də ləqəblə çağırırlar.Nəticədə uşaqda özünəinam hissi zəifləyir. Nəinki öz adına, öz cinsinə layiq olmadığı qənaətinə gələrək digər cinsə mənsub olan keyfiyyətləri mənimsəməyə meyl göstərir." В. Д Еремеева görə "Oğlan və qızların psixikasındakı fərqlərin arxasında, ilk növbədə, beynin təşkilinin xüsusiyyətləri dayanır. Bu baxımdan uşaqların fundamental tipoloji fərqlərini ən azı iki ox boyunca aydın şəkildə müşahidə etmək olar: Onları oğlan və qız kimi görmək, onları "sağ yarımkürə" və ya "sol yarımkürə" düşüncə tərzinin üstünlük təşkil etdiyi uşaq kimi görmək.".

3. **Tədqiqat işinin əsas məqsədi** kiçikyaşlı məktəblilərin təlim fəaliyyətini mənimsəməsində cinsi inkişafın rolunun müəyyən olunmasından ibarətdir.

4. Tədqiqat işində kiçikyaşlı məktəblilərin cinsi xüsusiyyətləri, təlim fəaliyyətini mənimsəməsində rolu qısa şəkildə şərh edilmiş, psixoloq və pedaqoqların fikrindən istifadə olunmuş, tədqiqatın məqsədi göstərilmiş, istifadə olunan tədqiqat metodları qeyd edilmiş və sonda yekun nəticə açıqlanmışdır.

TƏDQIQAT METODU

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətini mənimsəməsində cinsi inkişafın rolu adlı tədqiqat işində Ə.Əizadə., Q.Əzimov., E.Quliyev. "Məktəblinin psixologiyası" [1,32];, Limunət Əmrahli Və Nurəngiz Rzayeva "Uşaq Psixologiyasi" [2,232-233];, Еремеева В. Д. «Мальчики и девочки. Учить по–разному, любить по–разному» [3,15];, Григорьева Евгения Витальевна «Гендерное воспитание младших школьников в процессе изучения предмета «окружающий мир»;, Бахматова Любовь Александровна «гендерный подход в обучении иностранному языку младших школьников»;, H.H. Куинджи «Гендерный подход к обучению и воспитанию детей в школе: Физиологические, гигиенические и социальные аспекты», dissertasiya, kitab və məqalələrdən, eyni zamanda Naxçıvan şəhərində yerləşən Heydər Əliyev və 11 №-li tam orta məktəblərdə aparılan müşahidə və eksperiment nəticələrindən istifadə edilmişdir.

NƏTİCƏ

Tədqiqat işi araşdırılarkən məlum olur ki, kiçik məktəblilərin cinsi inkişafı onların həm təlim fəaliyyətini mənimsəməsində, həm də məktəbə adaptasiyasında mühüm rol oynayır. Tədqiqat işində kiçik məktəblilərin cinsi inkişafı və onun təlim fəaliyyətindəki rolu araşdırılmışdır. Apardığımız tədqiqata əsasən deyə bilərik ki, diaqnostik məlumatların təhlili göstərir ki, 92% hallarda təlim fəaliyyətinə ən yaxşı adaptasiya və tədris tapşırığını mənimsəmə qızlarda müşahidə olunur. Oğlanlarda isə bu göstərici yalnız 67%-dir. Tədqiqat işi üzərində işləyərkən belə bir nəticəyə gəldik ki, uşağın təhsilində və tərbiyəsində onun cinsi inkişafı təhsil prosesində ən vacib və məcburi hissələrdən biridir, buna məhəl qoymamaq və ya qaçmaq olmaz. Təlim fəaliyyətində oğlan və qızlar arasında ən çox nəzərə çarpan fərqlərin olduğu sahələr də müəyyən edilmişdir:

- koqnitiv fəaliyyət;
-diqqət və təşkilatçılıq;
-emosiya və davranışın tənzimlənməsi;
- motivasiya fəaliyyəti;

Beləliklə tədqiqat işində müasir tədqiqatçıların tədqiqatlarına əsaslanaraq, təlim prosesində uşaqların cinsi xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyi göstərilmişdir. Yəni kiçik məktəblilərin təlim fəaliyyətinə adaptasiyası, tədris tapşırığını mənimsəməsində yaş xüsusiyyətləri kimi cinsi xüsusiyyətlər də mütləq nəzərə alınmalıdır.

ƏDƏBIYYAT SIYAHISI
1. Ə.Əizadə., Q.Əzimov., E.Quliyev. Məktəblinin psixologiyası. Bakı. 32-106
2. L. Əmrahlı və Nurəngiz Rzayeva "Uşaq Psixologiyasi". Bakı. 2015.
3. В.Д.Еремеева «Мальчики и девочки. учить по–разному, любить по–разному» Москва. 2008.164-15
4. Е.В ГРИГОРЬЕВА. «ГЕндерное воспитание младших школьников в процессе изучения предмета «окружающий мир». Челябинск. 2020. 18-61.
5. Л.АБахматова.«Гендерный подход в обучении иностранному языку младших школьников»; Пермь. 2016. 13- 53

TƏLİM FƏALİYYƏTİNDƏ KOMPÜTER TEXNOLOGİYALARININ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRƏ PSİXOLOJİ TƏSİRİ TƏDQİQAT OBYEKTİ KİMİ

ŞƏLALƏ SEYIDOVA
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
Pedaqoji
seyidova.s.h.h.4@mail.ru
AZƏRBAYCAN, ŞAMAXI

XÜLASƏ
Təlim fəaliyyətində kompüter texnologiyalarının kiçikyaşlı məktəblilərə psixoloji təsiri problemi çoxşaxəlidir. Bu problem özündə yaş və inkişaf psixologiyasından başlayaraq, psixologiya, pedaqogika, informatika və texnologiya elmlərinin bir sıra məsələlərini birləşdirir. Ona görə də məhz bu elmlərin qovşağında meydana gələn nəticələr bizə problemin mahiyyətini müəyyən etməyə imkan verəcəkdir. Problemin mahiyyətini üzə çıxarmaq üçün əvvəlcə məsələyə təhsilin psixoloji, pedaqoji-psixoloji, pedaqoji, sosial pedaqoji problemləri nöqteyi-nəzərindən yanaşmalı, sonra təlim fəaliyyəti, bu prosesin subyekti olan kiçikyaşlı məktəblilərin psixoloji xüsusiyyətləri, onların inkişafında istifadə edilən metodika və kompüter texnologiyaları, həmin prosesə müəllimlərin rəhbərliyi problemlərini nəzərdən keçirilməlidir. Psixoloji, pedaqoji və metodik ədəbiyyatlarda məsələyə elmi yanaşmaları öyrənərkən aşkar edilmiş faktlar bizə tədqiqatın hansı istiqamətdə aparılması yollarını göstərəcəkdir.
AÇAR SÖZLƏR: təlim fəaliyyəti, araşdırma, istiqamət, komponentlər

GIRIŞ

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində istifadə edilən kompüter texnologiyalarının onlara təsirini müəyyən etmək üçün psixologiya elminin bir sıra müddəalarını nəzərdən keçirməliyik. Burada bizi maraqlandıran əsas məsələ fəaliyyətin psixologiyasıdır. B.F.Lomov P.Y.Qalperin, İ.V.Dubrovina, E.E.Danilova, A.M.Prixojan, L.A.Venger, V.S.Muxina, R.S.Nemov və R.İ.Əliyevin elmi işlərində bu mövzu aydınlaşdırılır. R.S.Nemov problemi konkret olaraq təhsilin psixologyası, L.Ş.Əmrahlı yeniləşən təhsilin psixoloji problemləri baxımından təhlil edirlər. B.B.Aysmontasın ümumiləşdirmələri bilavasitə təhsil prosesinin, təlim metodları və onların metodoloji əsaslarının sxemləşdirilməsinə həsr olunub.

B.B.Aysmontas təlim prosesinin əsas komponentlərinin təsnifatını aparmışdır. Təlim prosesinin məzmunu əhatə edən bu komponentlər özündə təhsilin nəzəri əsasları ilə yanaşı praktik tərəflərini də ifadə edir. Hər bir pedaqoq rəhbərlik etdiyi təlim prosesində tətbiq edilən kompüter texnologiyalarının yerini bu təsnifat əsasında müəyyənləşdirə bilər. Təsnifatda kompüter texnologiyalarının yeri aydın görünür [, s. 50].



Şəkil 1.Təlim prosesi komponentlərinin xarakteristikası

Şəkildə ibtidai təhsildə tətbiq ediən kompüter texnologiyalarının kiçikyaşlı məktəblilərə təsirində iştirak edən komponentlər aydın görünür. Burada yalnız psixoloji amillər çıxış etmir. Onlar, həmçinin didaktik, qneseoloji, kibernetik, sosioloji və təşkilati komponentlərlə qarşılıqlı əlaqədədir. Ona görə də biz məsələyə əhatəli yanaşmalı, problemin həllində obyektiv nəticələr əldə etmək üçün təhlilərimizi də bu istiqamətlər üzrə aparmalıyıq. Əsas istiqamətimiz isə, əlbəttə ki, psixoloji və pedaqoji amilləri əhatə etməkdən ibarət olacaqdır. K.Əsədpur bildirir ki, təhsil sahəsi üç istiqamətdə - klassik təhsil (c-learning), elektronik təhsil (e-learning), yeni əyani təhsil (o-learning) şəklində formalaşmışdır. Bu təhsil formalarının hər birində tərəflər (müəllim və şagird) arasındakı əlaqə forması müxtəlifdir. Bu istiqamətlərin hər birində tədrisin və təhsilin hər birinin daha dərin öyrənilməsinə və yoxlanılmağa ehtiyacı vardır.

Müasir təhsildə yeni təlim texnologiyaları vasitəsi ilə şəxsiyyətin və fəaliyyətin inkişafı məsələlərinə, ilk növbədə dünyada məşhur olan psixoloji cərəyanlarda geniş yer verilmişdir. Bu cərəyanlarda, konsepsiya və yanaşmalarda şəxsiyyətin özünüinkişafı, özünüfəallaşdırması, özünüdərki və özünüreallaşdırması önə çəkilərək bu sahədə təhsil prosesinin rolu xüsusi olaraq vurğulanır. Belə yanaşmalar içərisindən biz bir sıra tədqiqatçıların fikirlərini təhlil etdik (C.Kelli, E.Erikson, E.Fromm, K.Levin, A.Maslou, A.Bandura, C.Rotter, V.Frankil və b.). Belə yanaşmalar içərəsində Azərbaycan tədqiqatçılarını əsərləri, dissertasiya işləri də xüsusi önəm daşıyır. B.H.Əliyev və R.V. Cabbarov bununla bağlı olaraq təhsildə şəxsiyyət problemini aydınlaşdırırlar. R.V. Cabbarov ayrılıqda özünügerçəkləşdirmə problemini önə çəkir. O cümlədən S.M. Məcidovanın "Psixoloji tiplər", R.Q.Qədirovanın azərbaycanlı uşaq və yeniyetmələrdə milli identikliyin inkişafının müasir problemləri, K.R. Əliyevanın şəxsiyyətin yaradıcı potensialının üzə

çıxarılması istiqamətindəki dissertasiya işləri bu qəbildəndir. Təlim fəaliyyətində insanın subyektiv inkişafı, özünüfəallaşdırması məsələləri isə K.A.Abdulxanova və O.A.Konopkinin tədqiqatlarının əsas mövzusudur. Ə.Ə.Əlizadə və İ.H.Sultanova müasir təhsildə şagirdləri düşündürən, onlara yaradıcı təfəkkürü, müstəqil və əməkdaşlıq şəraitində təşkil edilən təlim fəaliyyətini "Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu" əsərində təhlil edirlər.

Bir çox tanınmış tədqiqatçıların tədqiqatları təlim prosesinin nizamlanması ilə bağlıdır. D.B.Skinnerin - operant möhkəmləndirmə nəzəriyyəsi, N.F.Talızinanın biliklərin mənimsənilməsi prosesinin idarə olunması, O.K.Tixomirovun təfəkkürün psixologiyası istiqamətindəki araşdırmaları bu qəbildəndir.

Təhlillərdə İKT ilə bağlı qanunlar, sərəncamlar və d. normativ sənədlər də diqqət mərkəzinə gətirilmişdir. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər), Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurrikulumları və digər bu kimi mənbələrdə təhsilin İKT vasitələri ilə müasirləşdirilməsi məsələləri əsaslandırılır.

Təhsildə müasir texnologiyaların tətbiqi XX əsrin sonlarından daha da sürətlənmişdir. MDB mkanında bu yeniliklər sürətlə yayılmaqdadır. Həmin dövrlərdə təhsil prosesinə innovasiyaların gətirilməsinə diqqət də artmışdı. Ə.Ə. Ağayev bunları nəzərə alaraq "Təim prosesi: ənənə və müasirlik" əsərində diqqəti yeni təlim texnologiyalarına cəlb edirdi. S.R.Bədiyevin "Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə" adlı dissertasiya işində bu problem geniş araşdırılır. Ə.H.Sərdarova isə öz tədqiqatında qeyd edir ki, hazırda təhsil sistemində kompüterlərdən müxtəlif sahələrdə istifadə olunur:

- riyazi, elmi-texniki məsələni həll etmək;
- texnoloji və təşkilati prosesləri idarə etmək;
- insanların informasiyaya olan tələbatını ödəmək;
- mürəkkəb situasiyalarda qərar qəbul emək üçün köməkçi vasitədən istfadə;
- dünya və yerli informasiya şəbəkəsinə müraciət etmək;
- müəyyən fənlərin keyfiyyətini artırmaq;
- dilləri vizual şəkildə öyrənmək və s.

Aydın məsələdir ki, kompüter texnologiyalarının kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə təsiri bir çox amillər, o cümlədən bilavasitə onların təlim fəaliyyətinin yaş xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunmalıdır. Bu zərurəti nəzərə alaraq psixi inkişafla bağlı geniş tədqiqatlar aparmış, dünya psixologiyasında öz imzası və yolu olan Rusiya məktəbinin nümayəndələrinin araşdırmalarını nəzərdən keçirdik, bir qismini daha ətraflı təhlil etdik. S.L.Rubinşteyn öz tədqiqatlarında kiçikyaşlı məktəblilərdə formalaşdırılmalı olan elmi anlayışların mənimsənilməsi yollarının, bu sahədə qarşıya çıxa biləcək psixoloji problemləri göstərmişdir.. L.S.Vıqotski kiçik məktəbli yaşının imkan və xüsusiyyətlərini həmkarları ilə birlikdə apardığı eksperimental tədqiqatların nəticələrinə, o cümlədən, XIX əsr və XX əsrin əvvəllərində fəaliyyət gös-tərmiş məşhur araşdırmaçıların elmi nəticələrinə görə ümumiləşdirmişdir.

Kiçikyaşlı məktəblilərin tədqiqatçılarından biri olan A.A.Rean qeyd edir ki, onların dərketmə maraqları məktəb partası və şəkilşəkmə, yapma, musiqi və idman kimi sosial dəyərləndirilən maraqlarla məhdudlaşmır. "Uşaq məktəb yaşına çatan kimi ətraf mühiti tədqiq etmək özünü masştabına görə getdikcə genişlənir. Bu sahədəki maraqlar mərhələli qaydada inkişaf edir". O, K.Levinin tədqiqatlarından misal göstərək bunları bildirir ki, ətraf aləmin obyektləri insanı hansısa hərəkətə sövq etdirir. Ətraf ailəmin cisim və hadisələri neytral qalmır, onların təhrikedici inkişafın yaş mərhələlərindən asılı olaraq dəyişir. Bu mərhələdə uşağın ontogenetik inkişafı böyük hərəkət azadlığı əldə edərək özünə yeni yoldaşlıq qazanaraq fiziki məkanı - landşaftı mənimsəyir. Bu baxımdan kiçikyaşlı məktəbliləri qorxulu, qadağan olunmuş yerlər: zibilxana, maşın tullantıları ola ərazilər, zirzəmilər, məzarlılqlar və d. daha çoz maraqlandırır. A.A.Rean bütün bunların kiçikyaşlı məktəblilərə "ekzistensial vahimə" yaşamaq, məlum olmayanlara toxunmaq, üz-üzə gəlmək, imkanı verir. Bundan başqa, qeyd edilənlər özlüyündə qoçaqlığını sınaqdan keçirməyə, məşq etməyə imkan yaradır. "Bu gedişlər onlara özünün tədqiqatçılıq instinktini təmin etməyə, şəxsi özünütəsdiqetməyə, eləcə də hər bir şagrdin qrup ierarxiyasındakı yerini müəyyənləşdirməyə şərait yaradır.

Aparılan tədqiqatlar da göstərir ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyytində kompüter texnologiyalarından istifadə dərin fəal xarakterdə olmasını göstərir. Bu cəhəti nəzərə alaraq tədqiqatda fəal dərs haqqındakı psixoloji-pedaqoji fikirləri və fəal dərsə verilən tələbləri də öyrəndik. Respublikanın təhsil sistemində ötən əsrin 70-ci illərindən başlayaraq aktallaşan fəal dərs, inkişafetdirici təlim anlayışlarının müəliflərini əsərlərini təhlil etdik. Bu sırada M.Q. Soroknanın - M.Montessori sistemi: nəzəriyyə və təcrübə,

V.V.Davıdovun - inkişafetdirici təlim, L.V.Zankovun - əyanilik və şagirdlərin təlimdə fəallaşdırılması, N.A.Mislavskinin - şəxsiyyətinin yaradıcı fəallığının nizamlanması, N.A.Mençinskayanın-şagirdlərdə istehsalat-texniki məsələlərin həllinin psixologiyası, Z.A. Veysovanın - fəal/interaktiv təlim kimi tədqiqat işləri mühüm ideyalarla zəngindir.

M.Q.Sorokina hazırda ibtidai təhsil üçün hazırlanan kompüter proqramlarının əsasında duran M.Monessori sisteminin mahiyyətini belə aydınlaşdırır: "Montessoru qeyd edir ki, uşaq sanki ətrafdakı şeylər aləmi vasitəsi ilə öz ağlının rüşeymini yara¬dır. Biz onu qidalanan təfəkkür adlandırmışıq".

Digər tərəfdən, M.Montessori uşaq təfəkkürünü təmiz və ya çirkli, şəffaf və ya bulanıq, ya da rəngli suyu özünə çəkən süngərə bənzədir. O ətraf aləmin obrazlarını yaxşı və ya pis, lazımlı və lazımsız olmasının fərqinə varmadan sanki sorur. Ona görə də yaşlılar uşaqlar üçün elə bir mühit yaratmalıdırlar ki, uşaqlar həmin mühitdən vacib olanları, zəngin, dolğun, həyat üçün əhəmiyyətli, əqli inkişafa kömək edən obrazları və hadisələri götürsünlər. Onları öz davranışında reallaşdırsınlar.

L.Ş.Əmrahlı şagirdlərin şəxsiyyətinə İKT - nin təsirini əsaslandıraraq bunları qeyd edir: "Təhsildə və sosial şüurda baş verən keyfiyyət dəyişmələri informasiya texnologiyaları, internet resursları, distant təhsil və s. inkişafı üçün yaradılmış İKT, elektron kitabxana, elektron lövhə və d. bu kimi vizual vasitələrin inkişafını da zəruri etmişdir" .

Kompüter texnologiyalarının təlim prosesinə təbiqi, əslində pedaqogikanın predmetinə aid olan məsələdir, lakin bu prosesin kiçikyaşlı məktəblilərin psixikasına təsiri¬ni müəyyənləşdirilməsi ilə, əlbəttə ki, pedaqoji psixologiya məşğul olur. Həmin təsirin necə olması və müsbət istiqamətə yönəldilməsi üçün əvvəlcə həmin texnologiyaların mahiyətini, funksiyalarını, tipologiyasını və d. məsələləri aydınlaşdırmağa ehtiyac vardır. Bütün bu sualların cavablarını biz toplulardakı "pedaqoji texnologiyalar", "müasir təhsil texnologiyaları" və s. anlayışlar əsasında müəyyən etdik. Bundan başqa, O. Eepişeva ["pedaqoji texnologiya nədir?"), M.V.Plaskina (müasir pedaqogikada "təlim texnologiyası" anlayışı), N.E.Şurkova (pedaqoji texnologiyalar), N.İ.Zaprudski (müasir məktəb texnologiyaları), V.V.Fesenko, Q.B. Pronçev (ümumtəhsil məktəblərində müasir informasiya texnologiyaları), V.V. Quzeyev (təlim texnologiyalarının nəzəriyyə və təcrübəsi), V.P.Bespalko (yardımçı pedaqoji texnologiyalar), E.S.Polat, M.Y.Buxarina, A.E.petrov (təhsil sistemində yeni pedaqoji və informasiya texnologiyaları), Q.K.Selevko (alternativ pedaqoji texnologiyalar)və b. tədqiqatlar əsa¬sında təhlil olunmuşdur.

Qeyd edilənlərdən başqa, təhsildə İKT-nin tətbiqini azərbaycanlı tədqiqatçıların yanaşmaları əsasında da nəzərdən keçirdik. Bu istiqamətdə Ə.H. Sərdarova "Təhsildə İKT - nin tətbiqi", N.Ə.Abdullayeva "Təhsil sistemində keyfiyyətin artırılmasında İKT-nin tətbiqinin genişləndirilməsi yolları, S.S.Camıyeva "Yeni təlim metod və texnologiyaların və İKT- dən istifadə təlim-tərbiyə keyfiyyətini axtaran vasitə kimi", V.Haqverdiyev "Orta məktəblərdə İKT-nin rolu", X.Hə¬sənova və G.Qasımova "Kompüter təliminin vəzifələri və üstünlükləri", R.R. Rəhmanov "Kompüterdən istifadənin psixofizioloji problemləri" baxımından münasibət bildirirlər. Məsələn, N.Ə.Abdullayeva məsələyə belə yanaşır: "Bu gün informasiya cəmiyyətinin və dünya ölkələri ilə rəqabətə girə biləcək yüksək tex-nologiyalı milli iqtisadiyyatın yaradılması bir çox ölkələrin dövlət siyasətinin əsas istiqamətinə çevrilmisdir. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi inkisafın aparıcı amili kimi çıxıs edir. Bu sahə dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək ictimai münasibətlərin formalasmasını təmin edir. İnformasiya cəmiyyətində təhsil sisteminin necə qurulması, təhsilin inkisafı üçün hansı texnologiyalardan və necə istifadə edilməsi hazırda əsas məsələlərdən biridir".

Nəzərdən keçirdiyimiz bu ədəbiyyatlarla yanaşı, kompüter texnologiyalarının təlim fəaliyyətinə tətbiqini həyat keçirən, bu prosesə rəhbəlik edən müəllimlərin problemin həllindəki rolunu da diqqətdən kənarda qoya bilməzdik. Ona görə də ədəbiyyatlar təhlil olunarkən müasir təhsil prosesində kompüter texnologiyalarının tətbiqi prosesinin tənzimlənməsində müəllimin roluna ayrılıqda yanaşdıq. Bu sahədə apa¬rımış bir sıra elmi təhlilləri ümumiləşdirdik. Əvvəlcə ənənəvi təhsilldə məsələ ilə bağlı olan fikirləri nəzərdən keçirdik. Həmin istiqamətdə N.Q.Morozovanın - müəllimlərə dərketmə maraqları haqqında verdiyi elmi məlumatları, Y.L. Kolominski və E.A.Pankonun - müəlimlərə altıyaşlı uşaqların psixologiyası haqqındakı fikirlərini, S.H.Əlizadənin "Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri" haqqındakı dissertasiya işinin nəticələriniöyrəndik.

S.Razizadə ibtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir edən amilləri sadalayaraq bildirir ki, bu amillər işərisində ən mühümü - müəllimdir: "Müasir dövrdə ibtidai təhsilin hərtərəfli inkişafı yeniləşmiş şəraitdə təlimin həyata keçirilsə, moderinləşmə zəmanənin tələbinə cavab versə də, müasir tələblər baxımından onun daim yeniləşməsinə, təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə ehtiyac

duyulur. Bu məqsədlə təlimin yüksəldilməsinə hərtərəfli müsbət təsir edən əsas amillərdən biri sinif müəlliminin yüksək intellektə malik olmasıdır".

Kiçik məktəb yaşında olan uşaqlara təlim fənlərini əsasən bir pedaqoq tədris edir. Həmin pedaqoq uşaqların fərdi xüsusiyyətlərinə, potensial im¬¬kan¬larına yaxşı bələd ola bilir. N.S.Leytes qeyd edir ki, bu sə¬bəb¬dən pedaqoqun iş us¬talığı, müasir vasitələri, üsulları, texnologiyaları bilməsi, uşaqlara bələdləşməsi kiçik-yaşlı məktəblilərin psixi inkişafında özünəməxsus iz qoyur [93, s. 23].

Hazırda belə yollardan biri təlim materiallarının şagirdlərə əyaniliklə, o cümlədən kompüter texnologiyaları vasitəsi ilə müvafiq pedaqoji tələblərə əməl edərək çatdırılmasıdır. Bu sahədəki çətinliklərin həlli yollarını O.L.Nikolskaya özünün informasiya texnologiyalarının mənimsənilməsində müəllimin psixoloji-didaktik çətinlikləri, Q.L.Selevko fəallaşdırma, intensivləşdirmə və səmərəli idarəetməyə əsaslanan pedaqoji texnologiyalar haqqında elmi işlərində göstərirlər.

Tədqiqatlar göstərir ki, təlim və təhsil texnologiyasından istifadə şagirdlərdə stimulu artırmaqla yanaşı, onların psixoloji durumlarını da qaydaya salır. Dərsdənkənar məşğuliyyətlərə və yaradıcılığa etimadın artmasına həyacanın azalmasına və s. səbəb olur. Texnologiya müəllimin rolunu bələdçyə məxsus xüsusiyyətlərlə əvəz etməklə onu təlim prosesinin rəhbərinə çevirir.

Öyrəndiyimiz bu mənbələr bizə kişikyaşlı məktəblilərin təlim fəaliyyətində istifadə edilən kompüter texnologiyalarının üstünlüklərini, onun uşaqlara pozitiv və neqativ təsirini müəyyən etməyə kifayət qədər imkan verir. Bu mənbələr əsasında tədqiqatın metodologiyasını qurmaq, metodikasını işləyib hazırlamaq, fərziyələri sınaqdan keçirmək yollarını müəyyən etmək mümkündür.

TƏDQIQAT METODU

Tədqiqat zamanı nəzəri tədqiqat metodlarından (təhlil, tərkib, induksiya və deduksiya) istifadə olunaraq bir çox tədqiqatçıların yanaşmalarını araşdırdıq. Əldə olunmuş nəticələrin təcrübədə də özünü göstərməsi tədqiqatın əhəmiyyətliliyini də göstərmiş olur.

NƏTICƏ

Dərs prosesində kompüterlə işləməklə əlaqədar olaraq şagirdlərdə kifayət qədər əqli, emosional, görmə və statik gərginliklər yaranır. Bundan əlavə, kompüterlər quraşdırılmış siniflərdə spesifik amillər meydana çıxır: havanın həraərti, rütubəti, səs-küyü, elektrik, radiasiya və s. Bu və digər (sosial, psixoloji, pedaqoji) səbəblərdən yaranan təsirlər kompüterlərdən istifadə zamanı kiçikyaşlı məktəblilərdə əqli və emosional gərginliklər əmələ gətirir. Onlar bir sıra tapşırıqların yerinə yetirilməsində, məsələlərin yeni yolalrla həllində çətinliklər yaşayırlar. Burada biz kiçikyaşlı məktəblilərdə yaranan emosional vəziyyətə bütövlkdə "situasiya-müəllim - şagird kompüter" əlaqəsi kimi də baxa bilərik. Əgər bu əlaqələrdə hansısa səbəbdən nələrsə pozularsa, şagirdlərindən tələb olunan vaxt ərzində diqqəti dərhal bir məsələyə yönəldərək onu həll etmək, ya da onun mərkəzləşdiyi bir tapşırıqdan digərinə keçmək tələb olunarsa, bu diqqətin dağılmasına, əqli fəaliyyətin zəifləməsinə, iş qabiliyyətinin aşağı düşməsinə gətirib çıxara bilər.

ƏDƏBIYYAT SIYAHISI

1. Айсмонтас, Б.Б. Теория обучения: Схемы и тесты/ Б.Б.Айсмонтас. - М.: Владос-пресс, - 2002. **(Kitab)** 176 с.
2. Əsədpur, K. Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi //- Bakı: Tarix və onun problemləri, (**Jurnal məqaləsi**), 2009. - № 4, 409-411
3. Əliyev, B.H. Pedaqoji psixologiya/ B.H. Əliyev, R.K. Əliyeva, R.V.Cabbarov**. (Kitab)** - Bakı: Təhsil, - 2011. 250-256 s.
4. Əlizadə, Ə.Ə. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu/ Ə.Ə. Əlizadə, İ.H.Sultanova. - Bakı: 2008. 165 - 172
5. Sərdarova Ə.H. Təhsildə İKT- nin tətbiqi/ **(Kitab)** Bakı: İTK, - 2018, 9- 11

TƏRCÜMƏ

ATALAR SÖZLƏRİNİN TƏRCÜMƏSİ PROSESİNDƏ LİNQVO-PSİXOLOJİ REKONSTRUKSİYALAR

SEVİNC İSMAYILOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Sosiolinqvistika və psixolinqvistika şöbəsi
sevinc_ismayilova94@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə paremioloji vahidlər - atalar sözləri və zərbi-məsəllərin tədqiqi, onların semantik xüsusiyyətləri, bədii ədəbiyyatda kontekst daxilində işlənməsi müzakirə edilmiş, ingilis ədəbiyyatında atalar sözlərinin istifadəsinə, xüsusilə də atalar sözlərini təşkil edən komponentlərin kontekstdən asılı olaraq mənalarının necə başa düşülməsinə və dilimizdəki ekvivalenti məsələsinə xüsusi diqqət yetirilmişdir. Atalar sözlərinin mənalarının əsaslandırılmasında kontekst və hadisənin baş verdiyi mühitin rolu qeyd edilmişdir.

AÇAR SÖZLƏR: ***atalar sözü, məna, komponent, kontekst, mühit, xüsusiyyət***

GIRIŞ

Hər bir dilin zənginliyi onun tərkibindəki sözlər, sözlərin yaranma formaları, mənaları, söz birləşmələri və onların tipləri, nəhayət, frazeoloji birləşmələr əsasında müəyyən olunur. Frazeoloji birləşmələr tərkibcə dəyişməz, bütövlükdə məcazi məna ifadə edən sabit söz birləşmələridir, onlar sözlə cümlə arasında müəyyən mənada körpü rolunu oynayır. Frazeoloji birləşmələr nitqə xüsusi ifadəlilik, canlılıq gətirir, məsələn, *to pay the debt of nature (təbiətin borcunu ödəmək*) "torpağa qarışmaq yəni, ölmək"; *to leave somebody out in the cold (kimisə soyuqda qoymaq*) "kimisə diqqətdən kənarda qoymaq", *have (got) eyes in one's head (başında gözləri olmaq*) "hər şeyə fikir vermək", "diqqətcil olmaq", dilimizdə isə "boynunun arxasında da gözü olmaq" ifadəsi işlənilir. Bu kimi frazeoloji birləşmələrdən danışıq üslubunda, bədii üslubda, publisistik üslubda və s. üslublarda da istifadə olunur.

Z. Əlizadənin qeyd etdiyi kimi, frazeoloji sistemdə xüsusi lay təşkil edən atalar sözləri və zərbi-məsəllər bitmiş fikir bildirən cümlə şəkilli ifadələrdir. Xalqların mədəniyyət tarixində xalq müdrikliyi xəzinəsi onun kollektiv yaradıcılığının bir qolu hesab edilən, öz dərin və kəskin fikir ifadə etmək gücü ilə səciyyələnən atalar sözü və zərbi-məsəllər folklorda xüsusi tədqiqat obyekti kimi araşdırılır. Atalar sözü və zərbi-məsəllər müəyyən ictimai mühitin bu və ya başqa dövrün məhsulu kimi qiymətləndirilir. Dil daşıyıcılarının həyat şəraitinin dəyişməsi ilə əlaqədar olaraq onlar da dəyişir, mükəmməlləşir, nəhayət, qəliblərə düşür, yaddaşlarda möhkəm kök salır [1, s.128].

Müasir dövrdə ingilis-amerikan ədəbiyyatında xüsusi olaraq atalar sözlərinə həsr olunmuş əsərlər çox azdır. Belə ki, atalar sözlərinə dair fikirlərə yalnız idiomatik lüğətlərin və ya atalar sözləri məcmuələrinin giriş hissələrində rast gəlmək mümkündür. Atalar sözlərinə, onların tədqiqinə yanaşma da müxtəlif tədqiqatçılarda fərqlidir. A.S.Hornbi yazır: "Atalar sözləri fikir və hisslərini öz sözləri ilə ifadə edə bilməyib, atalar sözlərindən istifadə etməyə məcbur qalan ağılsız adamlar tərəfindən işlədilən şablon, çeynənmiş frazalar, ifadələrdir" [2, s.134]. Belə qəbuledilməz fikirlərlə yanaşı, aşağıdakı məqbul hesab etdiyimiz dəyərli fikirlərə də rast gəlirik.

Atalar sözlərinin tədqiqi nəzəri cəhətdən maraqlı olduğu kimi, həm də praktik baxımdan əhəmiyyət daşıyır. Leksika, qrammatika, fonetika, dil tarixi sahələrində bir sıra xarakterik dil hadisələrini, məhz atalar sözlərinin materialı əsasında şərh etmək olar. M.F.Zamenqof atalar sözləri və zərbi-məsəlləri yüksək qiymətləndirərək bildirir ki, onlarla tanış olmadan dilin xüsusiyyətlərini bilmək mümkün deyildir, "xörək üçün duz nədirsə, dil üçün də atalar sözləri məhz odur." [3, s.22].

Dilin tarixi inkişafı nəticəsində yaranaraq mənaca da bölünməz olan atalar sözləri aid olduğu dilin mürəkkəb frazeoloji sistemi ilə bütövləşmiş, xalqın adət-ənənələri ilə iç-içə yoğrulmuşdur. Ona görə də atalar sözlərində, məsəllərdə bir sözü yerindən oynatmaq, ya sözlərin sırasını dəyişdirmək, o ifadənin sintaksisini pozub təsir gücünü azalda bilir, çünki həmin tərkiblər milli dil və düşüncənin bir-birinə qarşılıqlı təsiri nəticəsində artıq qəlibləşmiş bir şəkil almışdır [4, s.5].

Atalar sözü və zərbi-məsəllərin bir qisminin mənasını asanlıqla onun komponentlərindən başa düşmək mümkündür. Mənası komponentlərindən başa düşülən atalar sözləri və zərbi-məsəllər ikili səciyyə daşıyır, yəni bu modellər ya həqiqi, müstəqim mənada, ya da mətnin tələbinə görə konteksdən asılı olaraq məcazi məna daşıyıcılarına çevrilir. Atalar sözü və zərbi-məsəllərin bu təsnifi ən çox məna əlvanlığı yaradan məcazlara – metafora, metonimiya, sinekdoxa, litota və sairəyə əsaslanır. Mənası komponentlərindən başa düşülən atalar sözü və zərbi-məsəllərin bədii əsərlərdən nümunələr əsasında konteks daxilində işlənməsinə nəzər salaq.

1. Bir nümunəyə baxaq: *"Various books you observe," said Mr. Pecksniff, waving his hand towards the wall, "connected with our pursuit. I have scribbled myself, but have not yet published. This - opening another door is my chamber". I read here when the family suppose I have retired to rest. Sometimes I injure my health rather more than I can quite justify to myself, by doing so; but* ***art is long and time is short****."* (Mr. Pekksniff əli ilə divara tərəf işarə edərək dedi: "Gördüyünüz müxtəlif kitablar bizim araşdırmamızla əlaqəli idi. Mən özüm üçün cızma-qara etmişəm, amma hələ dərc etdirməmişəm. Bu qapısı açıq olan mənim otağımdır. Ailəm istirahət etmək üçün bir yerə getdiyimi düşündüyü bəzi zamanlar mən burada oxuyuram. Bəzən bu davranışımla sağlamlığıma onun tab gətirə biləcəyindən daha çox zərər vururam - əslində sənət uzun, zaman isə qısadır) [3, s.85].

Nümunəyə Çarlz Dikkensin "Martin Chuzzlewit" əsərindən götürülmüş bu parçada rast gəlirik. Orada cənab Pekksniff qoca və zəngin Martin Şuzleuiti evi ilə tanış edərkən öz həyatı haqqında şərh verir. O zaman deyilmiş sözlər və abzasın sonunda obrazın dilindən verilmiş *"Art is long and time is short"* atalar sözünün semantik izahı onun komponentlərindən aydın şəkildə başa düşülür. Biz belə hesab edirik ki, həmin atalar sözünün Azərbaycan dilində qarşılığını bu kontekstdə "Sənət sonsuz, ömür isə qısadır" deyimi ilə vermək daha məqbuldur. Əgər deyimin işləndiyi konteksti nəzərə almasaq, bu atalar sözünün ekvivalenti kimi "Hər şeyi öyrənmək üçün bir ömür belə azdır" deyimini verə bilərik.

2. Növbəti nümunə:

Money is honey *- my little sonny!*
And ***a rich man's joke is always funny!*** [4, s.29].
(Pul baldır – mənim kiçik oğlum!
Varlı adamın zarafatı həmişə gülməlidir!)

İngilis şairi Tomas Eduard Braunun "The Doctor" əsərindən götürülmüş bu nümunədə ata öz oğlu ilə danışarkən pul ilə bağlı satirik tərzdə ifadə olunan *"Money is honey"* və *"A rich man's joke is always funny"* atalar sözlərini dilə gətirir. Hər dövr üçün öz aktuallığını qoruyub saxlayan bu atalar sözlərinin mənası onun tərkib hissələrindən asanlıqla başa düşülür və sözlərin hər biri öz müstəqim mənasını qoruyub saxlayır. Azərbaycan dilində semantik ekvivalent olaraq birinci misrada obrazın dilindən ifadə olunan atalar sözünü "Pul şirin şeydir", ikinci misrada ifadə olunan atalar sözünü isə "Varlılın eşşəyyinə də ağıllı deyərlər" kimi tərcümə edə bilərik.

3. Növbəti nümunə: *"We are now without father: we shall soon be without home and brother," she murmured. At that moment a little accident supervened, which seemed decreed by fate purposely to prove the truth of the adage, that* ***"misfortunes never come singly"****. St. John passed the window reading a letter. He entered. "Our uncle John is dead," said he.* ("Biz indi atasızıq. Tezliklə evsiz və qardaşsız qalacağıq" deyərək o mızıldandı. O anda sanki taleyin "bəla heç vaxt tək gəlmir" həqiqətini təsdiqləyirmiş kimi başqa bir bədbəxt hadisə də baş verdi. Müqəddəs Con məktubu oxuya-oxuya pəncərənin önündən keçdi və içəri daxil oldu və dedi: "Con əmimiz də öldü") [5, s.334].

Əsərin baş qəhrəmanı tərəfindən söylənilən bu fikirlərdə obrazların həyatında bir-birinin ardınca baş verən talesizliklər *"Misfortunes never come singly"* atalar sözü vasitəsilə ifadə olunub. Həmin atalar sözünün mənası onun elementlərindən tam şəkildə anlaşılır. Azərbaycan dilində işlənən "Dərd gələndə batmanla gələr", "Bəla heç vaxt tək gəlməz", "Xəta xəta üstündən gələr" kimi atalar sözləri əsərdə əks olunmuş atalar sözünə tam şəkildə ekvivalentdir. Onu da qeyd edək ki, eyni mənanı ifadə edən Azərbaycan dilində işlənən bu atalar sözünü "Qətl günü" romanında Yusif Səmədoğlu da "Dərd də azar kimidir, gələndə batmanla gələr" şəklində işlətmişdir.

4. Növbəti nümunə: *It was like a re-enactment of the similar scene which had taken place at Melchester years before. When the books were signed the vicar congratulated the husband and wife on having performed a noble, and righteous, and mutually forgiving act.* ***"All's well that ends well"****, he said smiling.* (Melçesterdə sanki illər öncə yaşanmış bənzər səhnə yenidən canlanırdı. Şəhadətnamə imzalanan zaman ər və arvadı alicənablıq nümayiş edirdiyinə, dürüst davrandığına və bir-birilərini qarşılıqlı olaraq bağışladığına görə vəkil onları təbrik etdi və gülümsəyərək dedi: "Yaxşı odur ki, yaxşı bitir") [6, s.280].

Əsərin bu hissəsində Syu və Riçardın nikah mərasimi təsvir olunmuşdur. Nikah şəhadətnaməsi imzalandıqdan sonra vəkil onları təbrik edir və yazıçı vəkilin keçirdiyi hissləri onun dilindən *"All's well that ends well"* atalar sözü ilə bildirir. Bu deyimi Azərbaycan dilinə hərfi şəkildə "Yaxşı odur ki, yaxşı bitir" və ya "Yaxşı başlanğıcın nəticəsi də yaxşı olar" kimi tərcümə edə bilərik. Dilimizdə eyni mənanı ifadə edən başqa bir işlək deyim də vardır: "Ayın aydınlığı axşamdan bəllidir".

5. Növbəti nümunə: *"You need a home and a livelihood; I need a wife to keep me in order. I'm sick of these disgusting women I've spent my life with, if you'll forgive my mentioning them, and I'm rather anxious to settle down. A bit late in the day, perhaps, but* ***better late than never****".* (Sənin evə və dolanışığa, mənim isə qayğıma qalacaq bir həyat yoldaşına ehtiyacım var. Mən həyatımı keçirdiyim bu iyrənc qadınlardan bezmişəm. Əgər sən onlara görə məni bağışlasan və sənինlə məmnuniyyətlə ailə qurmağa hazıram. Bu gün bu bəlkə də bir az gecdir, amma heç olmamaqdansa, gec olmağı yaxşıdır) [7, s.280].

Verilmiş nümunədə Cənab Uarbürton dediyi sözlərlə əsərin baş qəhrəmanı olan Dorosini evlənməyə razı salmağa çalışır. O artıq dəyişdiyini, yaxşı insan olduğunu və hələ də heç nə üçün gec olmadığını bildirir və həmin fikrini *"Better late than never"* atalar sözü ilə ifadə edir. Bu deyim Azərbaycan dilində "Heç olmamaqdansa, gec olmağı yaxşıdır", "Gec olsun, güc olmasın" kimi semantik ekvivalentlərlə verilə bilər.

Nəzərdən keçirilən nümunələrdə ilk baxışdan belə təəssürat yaranır ki, atalar sözlərinin tərkibindəki komponentlər sərbəst leksik vahidlərdən təşkil olunmuşdur. Ancaq diqqətlə nəzər yetirdikdə, hətta, bu sərbəstlikdə belə daxili bir bağlılıq olduğu hiss edilir. Onların tərkibindəki leksik vahidlər öz nominativ mənasını saxlamışdır, məcazlaşma yox dərəcəsindədir. Obrazlı olmayan atalar sözlərində bütün komponentlər özünün adi lüğəvi mənasında çıxış edir və əşya ilə birbaşa əlaqəsini itirmir. Belə vahidlərdə obrazlığın olmaması başqa ekspressiv vasitələrin işlədilməsi ilə kompensasiya olunur.

TƏDQIQAT METODU

Tədqiqat ingilis dili bədii ədəbiyyat nümunələri əsasında tədqiq olunmuşdur. Tədqiqatda təsviri, müqayisəli və linqvo-psixoloji metoddan istifadə edilmişdir.

NƏTICƏ

Qeyd olunan bütün nümunələrdə kontekst daxilində işlənmiş atalar sözlərinin mənaları onların elementlərindən aydın şəkildə başa düşülür və onları dilimizə tərcümə edən zaman hər hansı bir çətinliklə qarşılaşmırıq. Ümumiyyətlə, atalar sözlərinin bədii ədəbiyyat nümünələrində obrazların nitqində işlənməsi əsərdə məntiqi rabitəni gücləndirir, bədii qanunauyğunluqların dərk olunması üçün şərait yaradır. Obrazlı təfəkkürün mahiyyətinə nüfüz etdikcə maddi aləmin gerçəkliyə münasibətini daha dərindən öyrənmək mümkün olur.

ƏDƏBIYYAT SIYAHISI

1. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı: Yazıçı, 1985, 245 s.
2. Hornby A.S. The Advanced Learner's Dictionary of Current English. London, 1974, 304 p.
3. Заменгоф М.Ф. Сравнительная русско-польско-французко-немецкая фразеология. Варшава, 1905, 251 с.
4. Bəydili C. Atalar sözü. Bakı: Öndər nəşriyyat, 2004, 264 s.
5. Dickens Ch. The Complete Works of Charles Dickens. New-York: Cossimo Classics, 2009, 436 s.
6. Brown T.E. The Doctor. Douglas: University of Illinous, 1985., 108 s.
7. Brontë Ch. Jane Eyre. New-York: Dover Publications, 2013, 505 s.
8. Hardy Th. Jude of Obscure. New-York: EasyRead Large, 2014, 356 s.
9. Orwell G. A Clergyman's Daughter. London: Secker&Warburg, 1986, 318 s.

BƏDİİ TƏRCÜMƏ MƏSƏLƏLƏRİNƏ DAİR

MINAYƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya fakültəsi / Xarici Dillər Mərkəzi
minayacafarova_kh.shipping@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bütün zamanlarda olduğu kimi, hazırki dövrdə də tədqiqatçılarımız elmin bütün sahələrində olduğu kimi dilçilik, ədəbiyyatşünaslıq sahəsində də xarici ölkə sənətkarlarının yaradıcılığını öyrənib, müasir dövrdə də öyrənməkdədirlər. Bu tədqiqatlarda müxtəlif dilli xüsusilə ingilis dilində olan əsərləri dilimizə tərcümə edərək onları təhlil etmək, xalqımıza təqdim etmək hər bir filoloq üçün şərəfdir. Dünya ədəbiyyatının korifeylərindən olan Corc Qordon Bayronun (1788-1824) yaradıcılığının tədqiqi problemləri zənginliyində mühüm istiqamətlərdən birini əsərlərinin Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətlərinin araşdırılması təşkil edir. Ayrı-ayrı əsərlərinin ortaya qoyduğu mənzərə bütün parametrləri ilə bayronizmə gedən yolun müəyyənlək formulasını müəyyənləşdirir. Ona görə də ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən olan ədibin düşüncəsinin dil fakturasının linqvistik imkanlılıq anlamında bir problem olaraq araşdırılması mühüm aktuallıq qazanır. Burada poetik sistemin bir bütöv olaraq ortaya qoyan dil və düşüncə modelləri, mətnin struktur informasiyasını daşıyan işarələrin axarı və yaradıcı üslubu faktlaşır.

AÇAR SÖZLƏR: ÜSLUB, BƏDII TƏRCÜMƏ, XARICI DIL, ORIJINAL, POEZIYA

GIRIŞ

Bədii tərcümə hər şeydən əvvəl bədii yaradıcılıq olduğu üçün obrazlı təfəkkürdür. Deməli, tərcüməçi də bədii əsəri obrazlar vasitəsi ilə ifadə olunan ideyalar kimi verməlidir. Bədii tərcümənin çətinliyi də elə ondadır ki, tərcüməçi bir əsəri bir dildən o biri dilə çevirəndə onun məzmunu ilə formasını vəhdətdə verməli, ədibin obrazlı təfəkkürünü yenidən canlandırmalı olur. Tərcüməçi həmişə orijinalı yaratmış müəllifin təmsil etdiyi xalqı tanıtmaq üçün əsərdə təsvir etdiyi mühitin milli xüsusiyyətlərinin tərcümə edilən dildə olduğu kimi verilməsini diqqətdə saxlamalıdır. Bu istiqamətdə ən vacib məsələlərdən biri orijinalın obrazlar sisteminin, bədii təsvir və bədii ifadə vasitələrinin tərcümədə düzgün verilməsidir. Bədii tərcümə materiallarından aydın olur ki, orijinal əsərin bədii-estetik dəyərinin, ruhunun qorunması üçün həm leksik, həm fonetik, həm də sintaktik bədii ifadə və bədii təsvir vasitələrinin resipient dildə düzgün təqdim edilməsi mühüm rol oynayır. Bu baxımdan klassik ingilis poeziyasının Azərbaycan dilinə tərcümə edilmiş bədii ədəbiyyat nümunələrində bədii ifadə və bədii təsvir vasitələrinin tədqiqi bugünkü Azərbaycan tərcümə sənətinin inkişaf yolu üçün aktual əhəmiyyət kəsb edir.

Klassik ingilis poeziyasının görkəmli nümayəndəsi olan Corc Qordon Bayronun ədəbi irsinin Azərbaycan dilinə olunan tərcümələrində, eləcə də onların variantlarındakı linqvistik xüsusiyyətləri, bədii ifadə, bədii təsvir vasitələrini, dil və üslub imkanlarını, bədiilik baxımından fərdi üslubları aşkara çıxarmaqdır.

Bədii tərcümə ədəbi əlaqələrin qurulması, inkişafında, zənginləşməsində vacib rolu olan proseslərdən biridir. Əgər ədəbi əlaqələr xalqlar, dövlətlər arasında qurulan körpüdürsə, onda bədii tərcümə bu körpünün ən möhkəm sütunudur. "Yaradıcılıq əlaqələrinin qarşısında həmişə bir məsələ durur: - digər mədəni dəyərlərlə mübadilə etmək. Bu prosesdə birinci yeri – bədii tərcümə tutur." Tərcümə, xüsusilə də bədii tərcümə dünyanın bir-birindən uzaq iqlim guşələrində yaşayan, müxtəlif dillərdə danışan, fərqli psixoloji təbiətə malik xalqlar arasında qarşılıqlı əlaqə və mötəbər dostluq körpüsüdür. Hələ qədim zamanlardan bilikli, ziyalı şəxslər başqa dillərdən elmi, ədəbi əsərlərin tərcüməsinə fikir vermişlər. Ədəbiyyatın heç bir sahəsi tərcümə nəzəriyyəsi qədər zidd fikir və mülahizələr doğurmamışdır. Heç bir elm tərcümə qədər başqa elmlərlə əlaqədar olmamışdır. Tərcümə zamanı məna ilə forma, əsasən məzmunu ilə üslubu bir vəhdət əmələ gətirir ki, onun transformasiyası prosesində həll edilməsi lazım olan məsələlər və çətinliklər yaranmış olur. Tərcüməçidən isə bu üslub və dəsti-xətti, ifadə tərzini vermək üçün böyük zəhmət və bacarıq tələb olunur.

Hər hansı tədqiqat işində tərcüməçinin xüsusi əhəmiyyəti və rolu bəzən belə təsnif olunur:1.Tərcüməçilikdə işin məqsədi –tədqiqat işində orijinalla tərcümə arasında leksik uyğunluğun və adekvatlığın göstərilməsi, tərcümənin orijinalın bədii gözəlliyini ideya məzmununu saxlayıb saxlamamasını müəyyən etməkdən ibarətdir. Tərcümə praktikasına kömək məqsədilə tədqiqat işi zamanı hər hansı bir əsər götürülür və

müəyyən tərcümə prosesində onun həll yolları araşdırılır.2.Tərcüməçilikdə işin tədqiqat obyekti – Hər hansı bir əsərin orijinalı, onların hər hansı bir müəllif tərəfindən tərcümə edilmiş variantıdır. 3.Tərcüməçilikdə tədqiqat işinin nəzəri əhəmiyyəti – Tərcümənin ayrı-ayrı məsələlərini araşdırmaqla, müəyyən tərcümə prinsiplərinin formalaşmasından ibarətdir. 4.Tərcüməçilikdə tədqiqat işinin praktik əhəmiyyəti – ondan ibarətdir ki, o, gələcəkdə praktik tərcümə işində vəsait və məlumat mənbəyi kimi istifadə oluna bilər.

Hər bir əsərdə onun məzmununa əsasən hadisələrin cərəyan etdiyi mühit, həmin mühitlə əlaqədar yaşayış tərzi xalqı, onun adət-ənənələri və tarixindən söhbət gedir.Tərcümə zamanı bütün bunları nəzərə alaraqmilli koloriti saxlamaq, oxucuya səlis çatdırmaq, tərcüməçinin səy və bacarığından ibarətdir. Bədii əsərlər hər şeydən əvvəl aid olduğu və ölkənin həyatını, fəlsəfi anlayışlarını əks etdirdiyi üçün başqa xalqları da maraqlandırır.

İngilis və ingilisdilli ədəbiyyatdan Azərbaycan dilinə edilən tərcümələrin tarixi-xronoloji ardıcıllığını nəzərdən keçirdikcə tədqiqat prosesində həm də dünya tərcümə tarixinə ümumi şəkildə ekskurs etməyə, dünya tərcüməşünaslığında gedən prosesləri izləmək üçün şərait yaradır. Zəngin bədii-estetik ənənələrə malik olan ingilis ədəbiyyatından Azərbaycan dilinə edilən tərcümələrdəki linqvistik adekvatlığı müəyyənləşdirmək, nəsr əsərlərinin və poeziya nümunələrinin Azərbaycan dilində oxucuda necə təsəvvür yaratmasının müqayisəli şəkildə təhlil olunması da diqqət mərkəzinə düşür.

C.Q.Bayron və digər müəlliflərin əsərlərinin ingilisdilli ədəbiyyatdan Azərbaycan dilinə edilən tərcümələrin linqvistik adekvatlıq xüsusiyyətlərini araşdırmaq müasir dövrdə aktual mövzulardan biridir. Belə tərcümələrdə orijinal mətnlə tərcümə mətnləri müqayisəli tipoloji şəkildə təhlil olunur, uğurlu məqamlar müəyyənləşdirilir, tərcümə variantları təklif olunur, mütərcim xətaları və qüsurları üzə çıxarılır. Digər əcnəbi dillərdən olduğu kimi ingilis dilindən Azərbaycan dilinə tərcümə zamanı mütərcimlər tərəfindən bütün leksik, morfoloji, söz yaradıcılığı, sintaktik, üslubi xüsusiyyətlərin nəzərə alınması diqqət mərkəzində olur. İngiliscədən Azərbaycan dilinə tərcümə zamanı orijinalın bəzi leksik və qrammatik elementləri Azərbaycan dilində adekvatlığın təmin edilməsi məqsədi ilə müxtəlif variantlarla verilə bilər. Bədii əsərlərdə sözün, söz birləşməsinin, cümlənin mənası bəzən onların hərfi mənasında gizləndiyindən, müəllifin obraz vasitələrinin quruluşu, təhkiyə manerası, onun xüsusi intonasiyasını təşkil etdiyi də təhlildən kənarda qalmır. Bədii söz sənətində hər bir element məna kəsb etdiyindən bu elementlər mədəniyyət kodu ilə əlaqələnir ki, burada müəllifin dünyagörüşü, həyat təcrübəsi, gerçəkliyə, bədii aləmə münasibəti əks olunur. İngilisdilli ədəbiyyatdan Azərbaycan dilinə tərcümələrdə tərcümə sahəsində ən geniş yayılmış əvəzləmələr orijinal mətnə uyğun olaraq təhlil edilir. Orijinal dilində olan söz, söz formasının tərcümə dilində digər söz forma ilə əvəzlənməsi – nitq hissələrinin, cümlə üzvlərinin, bəzi hallarda sözlərin tərcümə dilində başqa sintaktik funksiya daşıdığını aşkarlayıb, ortaya çıxarır. Dillərin qrammatik strukturunda olan fərqləri orijinal və tərcümə mətninə əsaslanaraq araşdırır.

Bu gün ictimai, mədəni, elmi həyatımızın elə bir sahəsi yoxdur ki, orada tərcüməsiz keçinmək mümkün olsun. Son vaxtlarda xalqlar arasında iqtisadi və mədəni əlaqələrin son dərəcə geniş vüsət aldığı şəraitdə, müxtəlif xalqların bir-biri ilə ünsiyyətinə daha çox ehtiyac olduğu dövrdə tərcümə işi ən mühüm vasitələrdən sayılır. Son illər bədii tərcümənin nəzəri və praktiki problemləri tədqiqatçıların diqqətini daha çox cəlb edir. Azərbaycan Respublikasının öz müstəqilliyinə qovuşması ilə latın əlifbasına keçdikdən sonra dünya klassik ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunmasına dair müxtəlif baxışların işlənib hazırlanması daha da aktuallaşır. Günümüzün reallıqları dünya ədəbiyyatı klassiklərinin yeni nəşrlərinin hazırlanmasını, Azərbaycan dilinə yeni orijinal tərcümələrin ərsəyə gətirilməsini tələb edir.

TƏDQIQAT METODU

Araşdırma müasir tərcüməşünaslığın əldə etdiyi zəngin təcrübə və mövcud elmi-nəzəri prinsiplər əsasında yazılmışdır. Tarixi-müqayisəli, nəzəri-tipoloji, struktur-semiotik metodun ortaya qoyduğu konsepsiyalardan da yararlanılmışdır.

NƏTICƏ

Nəticə olaraq qeyd edə bilərik ki,C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin dil və üsub xüsusiyyətlərinin araşdırılması geniş kontekstdə elmi-nəzəri nəticələrin əldə olunması üçün əsas olmuşdur.Ədibin yaradıcılığının Azərbaycan dilinə tərcüməsi problemi tərcümə və tərcüməşünaslıq baxımından prosesin ümumi axarı haqqında təsəvvürlərin konseptual mənzərəsi ilə bağlı dolğun təsəvvür formalaşdırır. Dil və üslub xüsusiyyətləri kontekstində aparılan təhlillər Azərbaycanda fundamental təsəvvürə bağlanan tərcümə ənənəsini diqqət önünə gətirir. Aparılan tərcümə işlərinin dil müstəvisində sistemli və tipoloji təhlili tərcümənin orijinalı hansı səviyyədə əks etdirmə imkanlarını əhatə edə bilməsi

haqqında dolğun təsəvvür formalaşdırır.C.Q.Bayron ruhunun, düşüncəsinin ifadə formulası dildir və onun istedadının sərgilədiyi mənzərə ecazkarlıq nümunəsi olaraq dillə reallaşmışdır. Ayrı-ayrı ədiblər timsalında və müxtəlif zaman kəsiklərində olan tərcümələrin linqvistik xüsusiyyətlərinin tədqiqi şeir dilinin məziyyətləri baxımından ciddi təsəvvür formalaşdırır. Orijinalın üslubu və tərcümə üslubu, onların sərgilədiyi mənzərə, oxşarlıq və fərqlilik səciyyəsi sistemli yanaşmalarda mükəmməl bir təsəvvürlə təhlillərə zərurət yaradır.Azərbaycan dilçiliyində tərcümə ilə bağlı aparılmalı olan tədqiqat işlərində gələcək perspektiv istiqamətlərin müəyyənləşdirilməsi haqqında dolğun təsəvvür formalaşdırır.

ƏDƏBİYYAT SİYAHISI

1. Bayron C.Q. Şərq poemaları / C.Q.Bayron. (Kitab) Bakı: Uşaqgəncnəşr, - 1959. - 196 s.
2. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Ə.Xəlilov. (Kitab) Bakı: Nurlan, 2008. - 441 s.
3. Xudiyev N.M. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz / N.M.Xudiyev. (Kitab) Bakı: Bilik cəmiyyəti, 1991. - 112 s.
4. Wise Th. J. A bibliography of the writings in verse and Prose of G.G.N.Byron, vol I-II, London, 1993. - 246 p.
5. http: // www. poetryloverspage.com (online məqalə)

AZƏRBAYCAN, TÜRK VƏ İNGİLİS DİLLƏRİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR

ELNURƏ HÜSEYNOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Sosiolinqvistika və psixolinqvistika
elnure.huseynova@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Azərbaycan, türk və ingilis dilində yer alan tabesiz mürəkkəb cümlələri təhlil etdikdə görmək olar ki, Azərbaycan və türk dilləri eyni dil ailəsindən gəldiklərinə görə onlar arasında istər bağlayıcıların bənzərliyi, istər cümlə konstruksiyaların oxşarlığı nəzər çarpır. Bununla belə türk dilində tabesiz mürəkkəb cümlələri bir-birinə bağlayan bağlayıcıların sayı Azərbaycan dilindəkindən çoxdur. Bunun qarşılığında ingilis dilində compound sentences bir-birinə yanlız yeddi conjuctionun yardımı ilə bağlanır. Həmçinin türk və ingilis dillərinin qrammatiklarında vahid bölgü prinsipləri sabit olaraq qərarlaşmışsa, Azərbaycan dilçiləri arasında vahid qəbul edilmiş bölgü ilə yanaşı, müəyyən fərqli bölgülər də yer almaqdadır.

AÇAR SÖZLƏR: Azərbaycan dili və türk dili, ingilis dili, tabesiz mürəkkəb cümlələr

GİRİŞ

Azərbaycan dilində tabesiz mürəkkəb cümlələrin məna əlaqələri baxımından növləri dilçilər arasında fərqli bölgülər aparılsa da, əsas qəbul edilmiş altı növü vardır:

1) Zaman əlaqəli tabesiz mürəkkəb cümlələr;
2) Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr;
3) Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr
4) Aydılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr;
5) Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr;
6) Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr.

B.Xəlilovun təsnifatında birləşdirmə-sadalama əlaqəli tabesiz mürəkkəb cümlələr və qoşulma əlaqəli tabesiz mürəkkəb cümlələr yer alır. “Müasir Azərbaycan dili. Sintaksis” kitabında isə sadalama əlaqəli tabesiz mürəkkəb cümlələr və bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr yer alır [1, s. 10]. Müəlliflərin verdikləri təsnifata nəzər yetirdikdə zaman və ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələri sadalama və

qoşulma olaraq xarakterizə etdiklərini görmək olar. Göründüyü kimi Azərbaycan dilçiləri arasında sintaksisdə tabesiz mrəkkəb cümlələrin adlandırılmasında bir sıra fərqli cəhətlər müşahidə olunsa da, əksərən ümumi təsnifat eynilik təşkil edir.

2.2.1 Zaman əlaqəli tabesiz mürəkkəb cümlələr

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdə eyni zaman daxilində baş verən hadislərin sıralanması xarakterikdir. Bu cür cümlələrdə iş, hal-hərəkət eyni zaman daxilində baş verir:

Yavaş-yavaş qaranlıq düşür, insanlar evlərinə tələsir, ətrfa sükuta qər olurdu.

Yaz gəlibən baxçalarda gül solar,
Yar eşqiylə dolanıram məzarı.

Bir yanda radio işləyir, digər tərəfdə insanlar oturub qulaq asırdılar.

Göründüyü kimi bu cür cümlələrdə hərəkət eyni zaman daxilində baş verir. Bu səbəbdən bu cür cümlələr zaman əlaqəli tabesiz mürəkkəb cümlələr adlanır. Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdə hər iki cümlə üçün ortaq olan cümlə üzvləri tamamlıq, zərflik işlənə bilər:

Yaz gələndə təbiət canlanır, ətraf yaşıllaşır, əhval-ruhiyyə xoş olur. – Zərflik ortaq üzv kimi çıxış edir.

Zərərçəkmişi hakim dinlədi, prokuror isə dinləməkdən imtina etdi. – Tamamlıq ortaq üzv kimi çıxış edir.

Yuxarıda verilən misallardan da göründüyü kimi zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdə tamamlıq və zərflik hər iki cümlədə ortaq olaraq işlənə bilir. Digər tərəfdən zaman əlaqəli tabesiz mürəkkəb cümlələri təşkil edən sadə cümlələrin yerini dəyişdikdə məna təhrifə uğramır. Həmçinin bu cür cümlələr həm intonasiya, həm də bağlayıcıların iştirakı ilə əmələ gələ bilir:

Günlər keçir, həyat daha da yaxşılaşırdı. – İntonasiyanın köməyi ilə əmələ gələn zaman əlaqəli tabesiz mürəkkəb cümlə;

Nə mən ona inandım, nə də hakim ona inandı. – İnkar bağlayıcısının iştirakı ilə əmələ gələn zaman əlaqəli tabesiz mürəkkəb cümlə;

Həm yağış yağır, həm də göy guruldayırdı. – İştirak bağlayıcısının köməyi ilə əmələ gələn zaman əlaqəli tabesiz mürəkkəb cümlə;

Azan verilir və qurbanlıqlar kəsilirdi. – Birləşdirmə bağlayıcısımın işritak ilə əmələgələn zaman əlaqəli tabesiz mürəkkəb cümlə.

Zaman əlaqəli tabesiz mürəkkəb cümlə türk dilinin qrammatikasında zaman ilişkili bağımsız bileşik tümce olaraq yer alır. Azərbaycan dilində olduğu kimi türk dilində də zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdə hadisələr eyni zaman daxilində baş verir və bu cür cümlələri təşkil edən sadə cümlələri yerini dəyişdikdə məna və məhfum itmir:

Dışarıda rüzgar esiyor, ağaçlar sallanıyor, köyllüerin sesleri duyuluyordu.

Müzik çalıyor, insanlar dans ediyor, meraklı kalabalık onları izliyordu.

Bu cür cümlələrin əmələ gəlməsində intonasiya və vergül iştirak etsə də, onları birleştirme bağlacı – ve, ile bağlayıcıları ilə də əvəz etmək olar [3, s. 150].

İngilis dilinə nəzər yetirdikdə zaman məhfumlu mürəkkəb cümlələrin əsasən intonasiya və ya and sintaktik vahidinin iştirakı ilə cümlələri bir-birinə bağladığını görmək olar [4, p. 210]:

The weather changes quickly and everyone goes to homes.

All the dancers may be on the floor,
Dear my eyes see only you.

Yuxarıdakı nümunələrə diqqət yetirdikdə onlarda hərəkətin eyni zaman daxilində baş verdiyini görə bilərik. Bu da zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin müəyyən fərqli cəhətləri olduğu halda Azərbaycan, türk və ingilis dillərində məna baxımından eynilik təşkil etdiyini söyləməyə əsas verir.

2.2.2 Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələri təşkil edən sadə cümlələrdə hərəkət müəyyən ardıcıllıqla baş verir. Bu tip cümlələr ilk baxışda zaman əlaqəli tabesiz mürəkkəb cümlələrə bənzəsələr də, zaman əlaqəli tabesiz mürəkkəb cümlələr eyni zaman daxilində, ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr isə bir zamanda deyil, ardıcıllıqla baş verən hadisələri xarakterizə edir. Bu tip cümlələr bağlayıcılı və bağlayıcısız olmaqla iki cür qruplaşdırıla bilər. Bağlayıcısız ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr intonasiyanın köməyi ilə əmələ gəlir [2, s. 231]:

Qapı açıldı, hakim içəri daxil oldu, iddiaçı kürsüyə çağırıldı.

Bağlayıcının iştirakı ilə əmələ gələn ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr inkar, birləşdirmə və iştirak bağlayıcılarının köməyi ilə düzəlir:

Nə mən onu axtardım, nə də sonralar o qarşıma çıxdı.

Qurban bayramı çatdı və qurbanlıqlar kəsilib paylandı.

Həm konfransa qatıldım, həm də iştirakçılar maraqlı məruzılərlə çıxış etdilər.

Sıra ilişkili bağımsız bileşik tümceler türk ədəbi dilində müəyyən sıralama intonasiyası ilə əmələ gəlib, ard-arda baş verən hadisələri bildirir. Türk dilində ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr Azərbaycan dilində olduğu kimi ya intonasiya, ya da bağlayıcının köməyi ilə düzəlir [3, s. 253]:

Ne şair yaş döker,
Ne aşık ağlar.
Tarihe karıştı,
Eski sevdalar.

Vapur yavaş yavaş iskeleye yaklaştı ve yolcular inmeğe başladılar.

İngilis dilinə nəzər yetirdikdə ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin əsasən sintaktik vahidlərin köməyi ilə əmələ gəldiyini görə bilərik:

When my time comes,
Forget the wrong that I have.

My mother washed the vegetables then she cut them into little pieces.

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin mahiyyət etibarı ilə hər üç dildə bənzər şəkildə intonasiya və ya bağlayıcıların iştirakı ilə əmələ gəldiyini görmək mümkündür [4, p. 410].

2.2.3 Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin birinci tərkib hissəsindəki səbəbi ikinci tərkib hissəsi son nəticəsi bildirilir. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr intonasiya və tabesizlik bağlayıcıları ilə bir-birinə bağlanır. Birləşdirmə, iştirak, inkar bağlayıcıları tabesiz səbəb-nəticə əlaqəli mürəkkəb cümlənin tərəflərini bir-birinə bağlayır. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümləyə bənzəyir. Hər iki mürəkkəb cümlədə ardıcıllıqla baş verən hadisələr sadalanır. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə zərurilik, kortəbiilik olur.

İntonasiya əmələ gələn səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr:

Güclü yağış yağdı, əkinlərə ziyan dəydi.

Onu görcək həyəcanlandı, sözləri qəlbində qaldı.

Səbəb-nəticə əlaqəli bağlayıcılı tabesiz mürəkkəb cümlələr:

Endirimlər başlandı və dükanlarda məhsullar bitdi.

Nə yağış yağdı, nə də əkinlər məhv oldu.

Həm külək əsir, həm də ağacların yarpaqları tökülürdü.

Səbəb-nəticə əlaqəli cümlələrdə kortəbiilik, birbaşa səbəb məzmunu var. Birinci cümlədəki səbəb üzündən ikinci cümlədəki hadisə baş verir:

Qar yağdı, ətraf ağ örpəyə büründü.

Ardıcıllıq əlaqəli cümlələrdə isə iş ardıcıl surətdə baş verir:

İşıqlar söndü, film başlandı.

Neden sonuç ilişkili bağımsız bileşik tümcelerde tərkib hissələri əlaqələndirən formal vasitələr birimci komponentdə mübtəda funksiyasında olan isim, ikinci komponentdə təkrara yer verməmək üçün üçüncü şəxsə aid mənsubiyyət şəkilçisi işlənir. Bu komponentlərdən birincisi səbəb, digəri ondan əmələ gələn nəticəni bildirir. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə sadə cümlələrin yerini dəyişmək məqbul hesab edilmir, çünki bu cümlələrin yerini dəyişmək mənaya xələl gətirə bilər. Bu tip cümlələr əsasən türk dilində intonasiya ilə bir-birilərinə bağlanırlar:

Silah sesini duydular, düşmanlar geri çekildi.

Anadoluya hicret başlıyor, yavaş yavaş mahalleler boşalıyordu.

İngilis dilində səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr adlı bir başlıq qrammatikada yer almasa da bir sıra cümlələri bənzər məhfum bildirdiklərindən bu başlıqda müqayisə edə bilərik:

I learned English perfectly because I studied very hard.

I needed some money, so I went to the bank.

İngilis dilində tabesiz mürəkkəb cümlələrin qrammatik bölgüsü olmamaqla birlikdə bəzi conjuctionların mənaları, cümlə içində daşıdıqları xüsusiyyətləri onların işləndikləri cümlələri müvafiq Azərbaycan və türk dillərində yer alan cümlələr ilə müqayisə aparmağa imkan verir. Belə ki, ingilis dilində tabesiz mürəkkəb cümlənin tərəfləri bir-birilərinə yeddi conjuntionun iştirakı ilə bağlanır və bu bağlayıcılardan əvvəl Azərbaycan və türk dillərinin qrammatikalarından fərqli olaraq vergül qoymaq tələb olunur. Bu bağlayıcılar ingilis dilində az olduqlarından onların baş hərflərinin bir araya gəlməsindən əmələ gələn fanboys qısaltması bu conjuctionları yadda saxlamağa xidmət edir. Nəzərə almaq lazımdır ki, Azərbaycan və türk dillərində bağlayıcılar çox saylı olduqlarından bu cür qısaltmalar ingilis dilinə xas

olmaqla bərabər Azərnaycan və türk dilləri üçün xarakterik deyil. Fanboys qısaltması bu bağlayıcılardan təşkil olunub:
For – səbəb bildirir, "çünki" mənasında işlənir.
And – növbəti fikri əlavə etmək üçün istifadə olunur, "və" deməkdir.
Nor – inkar bildirir, "nə də" mənasını verir.
But – qarşılaşdırma bildirir, "amma, lakin" mənasını verir.
Or – seçim bildirir, "və ya, yaxud, yoxsa (əks halda)" mənalarında işlənir.
Yet – qarşılaşdırma bildirir, "amma, lakin" mənasını verir.
So – nəticə bildirir, "ona görə də, beləliklə" mənasında işlənir.

2.2.4 Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrdən biri, əsasən də ikinci cümlə birincini aydınlaşdırır. Bu tip cümlələri təşkil edən sadə cümlələr arasında vergül, qoşa nöqtə və ya nöqtəli vergül qoyulur. Bu cür cümlələrin tərkib hissələri əsasən intonasiya ilə bir-birilərinə bağlanır. Bununla yanaşı, yəni aydınlaşdırma bağlayıcısı da tərkib hissələri bir-birinə bağlayan komponent qismində çıxış edə bilər:
O, məni görəndə donub qaldı: gəlməyəcəyimi düşündüyü halda onun qarşısına keçib, əyləşmişdim.
Onun göz bəbəkləri bir saniyədə böyümüşdü, yəni illərlə axtardığı, sevdiyi qız qarşısında dayanmışdı.
Gözəl bir yaz günü idi: ağaclar çiçək açmış, baharın isti nəfəsi hiss olunurdu.

Açıklama ilişkili bağımsız bileşik tümceler Azərbaycan dilində olduğu kimi intonasiya və qoşa nöqtə ilə bir-birinə bağlanır. Tanınmış türk dilçisi H. Dizdaroğlu aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr haqqında "Tümcebilgisi" kitabında bu ifadələrə yer verir: "Açıklama sıralı tümcelerin bir kısmında ikinci tümce birinci ile açıklama niteliği taşır. Önceki tümcede yer alan bir düşünce sonrakı tümce, veya tümcelerde yorumlanır, açıklanır. Bir giriş tümcesi ile onun açıklaması durumunda olan yargılı anlatıma açıklama sıralı tümce denir" .

Açıklama ilişkili bağımsız bileşik tümcelerdə cümlələr sintez-analiz və analiz-sintez metodu ilə formalaşır. Belə ki, əsasən birinci cümlədə fikir toplanır, cəm edilir, ikinci cümlədə isə onun mahiyyəti araşdırılır:
Olup bitenler gözümde değişime uğradı: Dünyaya medeniyet, insan hakları lanse eden toplumların zamanında bu hakları insanlardan sömürdükleri anlaşıldı.
İnsan önce kendine çeki düzen verecek: Allah(C.C.)`tan korkacak, onun emirlerine uyub yasaklarından sakınacak, Rasullerinin getirdiklerine iman edecektir.

İngilis dilində aydınlaşdırma tipli mürəkkəb cümlələr əsasən intonasiya və qoşa nöqtənin köməyi ilə əmələ gəlir. Bu cür cümlələr ədəbi nitqdə olduğu kimi, gündəli məişət üslubunda da geniş şəkildə yer alır:
His cough and fever were getting worse: doctors thought he would not survive tomorrow.
The news came that I had been waiting for years: there was no obstacle between us to meet with him.

2.2.5 Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr

Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə baş verən hadisələr qarşılaşdırılır. Bu cümlələri təşkil edən sadə sintaktik komponentlər intonasiya və ya qarşılaşdırma bağlayıcıları (amma, ancaq, lakin) ilə bir-birilərinə bağlanır:
Onu ilk gördüyüm yerə getdim, orada yox idi.
O məni görmək istəyirdi, amma qarşılaşmaq üçün səbəb yox idi.
Aprel ayı gəlmişdi, ancaq o, bu ilin aprelində onu canlı görmək nəsib olmadı.

Qarşılaşdıma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri antonim sözlərin, mənaca ziddiyyət təşkil etməklə müqayisə edilmə və ya fərqləndirmə nəticəsində əmələ gəlir.
O, orta yaşlı, yaraşıqlı, dünya görmüş birisi idi, mənsə cavan, təcrübəsiz və inadçı idim. – Antonim komponentlərin iştirakı ilə əmələ gələn qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
Rəqibin qolu güclü idi, biz isə zəif idik. – Ziddiyyətlə verilən qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
Biz Naxçıvanın mərkəzindənik, onlar isə Naxçıvanın kəndindəndirlər. – Müqayisə edilmə, fərqləndirmə ilə verilən qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə

Karşılaştırma ilişkili bağımsız bileşik tümce bəzən dilçilik ədəbiyyatında ziddiyyət-qarşılaşdırma cümləsi olaraq da ifadə olunur. Belə ki, bu cümlələri təşkil edən komponentlər öz aralarında ziddiyyət və ya qarşılaşdırma mnasibətində olurlar. Azərbaycan dilində olduğu kimi türk dilndə də qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr intonasiya və qarşılaşdırma bağlayıcılarının (Azərbaycan dilində işlənən formaları ilə bənzərlik təşkil edən ama,ancak, lakin, fakat, yalnız) iştirakı ilə əmələ gəlir:

O bana öfkeliydi, fakat beni sevdiğinden kalbimi kıracak söz söylemedi.
Ben çalışıyorum, karım tüketiyor.
Yeni ülkeye göçtü, fakat sevdiklerini yanına aldı.

İngilis dilinə nəzər yetirdikdə but, yet sintaktik vahidlərinin qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələri əmələ gətirdiklərini görə bilərik. Azərbaycan və türk dillərində olduğu kimi ingilis dilində də bu tip cümlələrdə həm qarşılaşdırma, həm də müqayisə faktoru çıxış edir. İngilis dilində bu cür cümlələr Azərbaycan və türk dilllərindəki analoqlarından fərqli olaraq intonasiya ilə deyil bağlayıcıların tərkib əmələ gətirən sadə cümlələri bir-birinə bağlaması ilə əmələ gəlir:

He was very well on operation, yet he didn`t get away.
They wanted to visit their friends, but they didn't have enough money to buy a flight ticket.

2.2.6 Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr

Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə hadisələr ya növbələşir, ya da biri digərinin mümkünlüyünü ehtiva edir. Bu tip cümlələrin digər tabesiz mürəkkəb cümlələrdən başlıca fərqi yanlız bağlayıcıların köməyi ilə əmələ gəlməsidir. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə müvafiq olaraq bölüşdürmə bağlayıcıların (ya_ya da, gah_gah da, istər_istərsə də) iştirakı ilə əmələ gəlir:

Ya sən məni anlamadın, ya da mən fikrimi ifadə edə bilmıdim.
Gah külək əsir, gah yağış yağırdı.
İstər məktubu sən apar, istərsən də adam tutub mən yollayım.

Üleştirme ilişkili bağımsız bileşik tümceni əmələ gətirən cümlələrdə iş və hərəkət ya bir-birini əvəz edir, ya da təklif olunan seçimlərdən yanlız birini seçmək mümkündür. Azərbaycan dili ilə bənzərlik təşkil edən məqamlardan biri də bu tip cümlələrin yanlız bölüşdürmə bağlayıcıların (ya, ya da, yahut ta, ve yahut, veya) iştirakı ilə əmələ gəlməsidir. Bu bağlayıcılar cümlədən xaric edilərsə bütün məna təhrif edilmiş olar. Üleştirme ilişkili bağımsız bileşik tümcelərdə təklif olunan iş və ya hərəkətin yanlız biri məqbulluq ifadə edir:

Ya devlet başa, ya kuzgun leşe, ya büyük bir başarı elde edilir, ya da yok olma tehlikesiyle karşılaşılır.
İsterseniz bu daireyi gayet fahiş bir fiyata alabilir, ve yahut diğer semtlere bakabilirsiniz.
Ya ben de seninile gelir, ya da seni kendimden uzağa bırakmam.

İngilis dilində isə bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr either_or, neither_nor komponentlərinin iştirakı ilə əmələ gəlir. Bu komponetlərin birincisi təsdiq məhiyyətində müqayisəni, ikincisi isə inkarlıq mahiyyətində seçimi xarakterizə edir:

Either you tell me everything you know, or I'll take you to court.
Neither he was punched hard on the nose nor nostril was bleeding.

TƏDQİQAT METODU

Azərbaycan və Türkiyə türkcəsi Oğuz qrupu türk dillərini əhatə etsə də, ingilis dili roman-german dil qrupuna daxildir. Bu dillərdə tabesiz mürəkkəb cümlələrin işlənmə xarakteristikası müvafiq dillərin qrammatikaları əsasında və bədii ədəbiyyatlarından nümunələr əsasında tədqiq olunmuşdur. Tədqiqat müqayisəli metod əsasında həyata keçirilmişdir.

NƏTİCƏ

Azərbaycan, türk və ingilis dillərində bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlənin başlıca oxşar cəhəti hər üç dildə bu cümlələrin intonasiyanın iştirakı olmadan yanlız sintaktik vahidlərin köməyi ilə əmələ gəlməsidir. Bu bağlayıcılar Azərbaycan və türk dillərində eyni dil ailəsindən gəlmələri səbəbi ilə bənzərlik təşkil etsə də, ingilis dilində fərqli konstruksiyadan istifadə olunur. Bununla yanaşı hər üç dildə bu tip cümlələr seçim imkanı verən formaya malikdirlər.

ƏDƏBİYYAT SİYAHISI

1. İstinad edilmiş ədəbiyyat siyahısı qeyd edilir. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır: Rüstəmov R. Türk dilinin sintaksisi. Elm və təhsil nəşriyyatı. (**Kitab**). Bakı/Azərbaycan. 2012:1-202

2. Xəlilov B. Müasir Azərbaycan dili. Adiloğlu Nəşriyyatı. (**Kitab**). Bakı/Azərbaycan. 2017:1-428

3. Akalın H, Ş. Türkçe Sözlük. TDK Yayınları. (**Kitab**)**.** Ankara/Türkiye. 2005:1-679

4. Goodall G. The Cambridge Handbook of Experimental Syntax. (**Kitab**). London/Great Britain. 2021:1-530

BRİTANİYA MEDİA DİSKURSUNUN DİLİ

ƏLİZADƏ TƏRGÜL
Bakı Mühəndislik Universiteti
İngilis dili kafedrası
thasimova@beu.edu.az
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

Tədqiqat işində Britaniya qəzetləri və televiziya kanallarının özünəməxsus linqvistik cəhətləri araşdırılır. Media ümumilikdə manipulyasiya, provokasiya, təsiretmə və nəzarət kimi funksiyaları yerinə yetirir. Bu funksiyaları yerinə yetirərkən həm də kütlənin fikrini formalaşdırmağı nəzərdə tutur. Qəzet mətnləri dil sisteminin quruluşuna təsir edir. Burada uzun cümlələr yox, əksinə qısaltmalar, abreviaturalar çoxluq təşkil edir. Linqvistik xüsusiyyətlərin içərisinə abstrakt və ümumiləşdirmə metodlarından istifadəni misal göstərmək olar.

Məlumdur ki, qəzetlər, radio, televiziya və internet mənbələri xəbər reportajlarını müxtəlif formada çatdırırlar. Bəzi xəbərlər informasiya xarakterli olur, bəziləri isə hekayə yönümlü olurlar. Digər vacib faktor xəbərlərin təqdim olunması ilə bağlıdır. Xəbərlər elə təqdim olunur ki, oxucunun diqqətini cəlb etsin. Hətta mümkündür ki, media xəbərləri elə çatdırsın ki, oxucunu manipulyasiya edə bilsin, başqa sözlə ona təsir edə bilsin. Bu strategiyalar xəbər mətnlərinin quruluşunda və xəbər diskursunun yaradılmasında vacib faktordur.

Tədqiqatın məqsədi media diskursu anlayışını izah etmək, Britaniya qəzet diskursunun leksik və qramatik xüsusiyyətlərini, kommunikativ-informativ cəhətlərini araşdırmaqdır.

Tədqiqatın obyekti ümumilikdə qəzet diskursu anlayışı və ən əsası Britaniya qəzet diskursu haqqında araşdırmadır.

Açar sözlər: provokasiya, manipulyasiya, nəzarət etmə

GİRİŞ

Xəbərlərin çap, elektronik, və ya onlayn formatda təqdim olunması linqvistik və ektra-linqvistik faktorlardan asılıdır. Xəbər mənbələri oxucunun diqətini cəlb etmək və marağını yönəltmək üçün onları oxucu yönümlü tərzdə təqdim etməyə çalışırlar. Bu baxımdan mətnin quruluşu və media diskursu arasında əlaqə çox vacibdir. Van Dijk media mətnləri və media diskursunun yaradılmasında təməl rol oynayan "sxem " and "struktur" anlayışlarının adını çəkir. [1, 11].

Qəzet diskursu sosial fəaliyyətin xüsusi bir formasıdır. Müəyyən fikirlərin, emosional vəziyyətin formalaşdırılması, insanların davranışına təsir etmək üçün fikirlərin, biliklərin, bədii dəyərlərin və digər məlumatların genişləndirmək funksiyasını yerinə yetirir. Çap olunmuş qəzet materialları sosial problemləri müzakirə edir, sosial fikirləri ifadə etmək üçün vacib siyasi və ideoloji funksiya daşıyır. [2]

Qəzet diskursunun insanların fikirlərinə nəzarət etmək baxımından vacib təhlükə daşıyır. 3) Məzmundan əlavə daha çox qəzet materialının necə təqdim olunması böyük əhəmiyyət daşıyır. Qəzet mətnləri dil sisteminin quruluşuna təsir edir. Buna görə də dil geniş insan kütləsinə təsir edə bilir. Çünki düzgün süçilmiş söz, ifadə, və ya cümlə müəyyən fikir yaradır. Qəzet materialının məqsədini ifadə edən fikri formalaşdırır. (4, s. 6-7). Məsələn, məşhur Britaniya onlayn qəzeti "Guardian" dan təqdim olunmuş məqalənin başlığına nəzər salaq:

"***Bankers*** *Think They Have to Behave Badly. Let's Remind Them They're* ***Human***". (G, Nov 21, 2014). [5]

Ola bilsin ki, məqalə bank işçilərinin mənfi cəhətlətini göstərmir, ancaq onların işini müəyyən qədər tənqid edir. Ancaq birinci cümlədən oxucunun beynində müəyyən fikir formalaşır. Abstrak və ümumiləşdirmə metodlarından istifadə edilir.

Qəzet diskursu əsas ünsiyyət funksiyalarını yerinə yetirir. Bunlara məlumatverici, funksional, koqnitiv, təsiredici, nizamlayıcı, emosional, təsir funksiyasını daşıyır. Qəzet diskursunun leksikası neytraldır, çox terminlər yoxdur və xüsusi funsiya daşımır. [6, s 235-236]. Qəzet diskursu ictimai fikirləri "qeyd edən vasitə" rolunu oynayır. Qəzet diskursu düşüncələrin xüsusi kreativ formada ifadə olunması deməkdir. Burada çoxlu terminlər yoxdur və xüsusi cəhət ifadə olunmur. Qəzet diskursunun digər cəhətlərinə kənara çıxmalar, cəmiyyətdə məşhurluq və aktuallıq, fikirlərin geniş şəkildə ifadəsi, nizamlılıq və kütləvilik (xəbərlərin davamlı olaraq yenilənməsi, müxtəlif mövzularda yeni məqalələrin meydana çıxması, cəmiyyətdə məşhurluq), fikirlərin ifadə zamanı sözlərin az istifadə olunması (publisistik üslubda mətn bədii mətndən fərqlənir) daxildir. Publisistik üslubda yazılar daha az emosional və təsviredicidirlər. Bu tip

yazılarda faktlar ifadə olunurlar. Bədiilik və ya ifadələrin bədiiliyi yoxdur. Qəzet diskursunda müəllifin məqsədi dinləyiciyə təsir etməkdir. Bu funksiya stilistik və linqvistik metodlar vasitəsilə yerinə yetirilir.

Böyük Britaniyanın böyük tarixə malik jurnalistikası var. Britaniya qəzet diskusunun bəzi səciyyəvi cəhətləri vardır ki, bu onu digər ölkələrdəki qəzet diskursundan fərqləndirir. Qəzetlərin ünsiyyət funksiyasını nəzərə alaraq linqvistik mesaj ötürmək xüsusiyyətini bilməliyik.

İlk öncə başlıqları təhlil edək. Tədqiq olunan Britaniya onlayn nəşrlərin başlıqları qısa olur və oxucuların diqqətini cəlb edir. Başlıqların leksik xüsusiyyətlərini içərisində xüsusi ad və qısaltmaları qeyd etmək mümkündür. Məsələn,

George Osborne *says* ***NWA*** *concert was his favourite show*. (I, 4 Oktyabr 2015), [7]

Xüsusi adların və məşhur qısaltmaların istifadəsi oxucuya əlaqə xəttinin qurulmasında kömək edir, çünki müəyyən adlar oxucunun yaddaşını və məlumatları əlaqələndirməsinə kömək edir. Hər halda müəyyən sərhədlərin və standartların olması müəllif üçün vacibdir. Oxucuların fikirlərini qiymətləndirən leksikon qəzet materiallarında çox dəqiq şəkildə ifadə olunur. Danışıq dilində işlədilən *"I think", "I believe", "You can subscribe to my opinion or not, but..."* kimi ifadələr işlədilir.Müsbət və mənfi mənalı sözlər də istifadə oluna bilər. Bu müəllifin məqaləyə yanaşma tərzindən asılıdır. Məsələn,

Here is what ***I think*** *you should know before starting university* (G, Sep.2, 2015), [5]

Fikrə münasibət bildirməklər müəllif oxucuya yaxınlaşmağa çalışır, onunla oxucu arasındakı məsafəni və sərhədləri dağıdır. Oxucuya birbaşa təsir edə bilir. Bu məqalədə oxucuya öz sağlamlığını və sinir sistemini qorumaq üçün necə bir həyat tərzi olmalıdır deyə tövsiyə verir. Məqalə zəif şəkildə terminlərlə əhatə olunub, çətin cümlələr və ya terminlər verilməyib. Ona görə də oxucuya mətni oxumaq asan olur.

Başlıqlar məcazlara zəngindir,xüsusən hiperbolalar çoxdur. Oxucunun diqqətini cəlb etmək, hadisənin böyüklüyünü, təmtəraqlılığını, gücünü vurğulamaq üçün məcazlar çox tez-tez istifadə olunurlar. Başlıqlar adaətən provokativ funksiya daşıyır. Məqalə bu və ya digər hadisəni tənqidi və ya kəskin formada ifadə edə bilər. Məsələn,

How my son got nineteen years for a knifing he didn't commit. (1 Oct 3, 2015)[7]

Turn up (aşkar olunmaq), take off (başlamaq), sign up (cəlb etmək) kimi ifadələr başlıqlarda çox istifadə olunurlar. Məsələn,

Father of Oregon shooter ***calls for*** *overhaul of US guns laws (1 Oct, 2015),* [7]

Britaniya qəzet diskursunun bir cəhəti də elm, idman, musiqi, hərbi və digər terminləri çevirərək istifadə etməkdir. Bu funksiya oxucunun düşünmə və əlaqələndirmə qabiliyətini artırır. Məsələn,

*Roisin Murphy review-****bombardment*** *by beats, bass and lights. (G, May 14, 2015),*[5].

Burada "bombardment" sözü hərbi termindir, güllələmək, bombalamq mənalarını ifadə edir. Bu söz başlıqlarda verilmiş hadisənin böyüklüyünü, dinamikasını vurğulamaq üçün işlədilir. Səs və işıq effekləri oxucunun real dinamik həmləsi və enerjisi ilə müqayisə edilir. Burada müəllif hadisənin böyüklüyünə işarət edərək musiqiçinin, müğənninin qüdrətini vurğulayır.

Britaniya media mətnləri haqqında danışarkən ifadə vasitələrini qeyd etmək vacibdir. Müəllif oxucuya təsir etmək üçün söz oyunlarından, frazeoloji vasitələrdən, danışıq dilində istifadə olunan elementlərdən istifadə edir. Məsələn,

Ashroft's revelations are ***pig in a poke.*** *(G, Sep 27, 2015).*[5]

Britaniya qəzet mətnlərinin qrammatik özəlliklərinə daxildir. İfadələri demək tərzindən(əmr vermək, sorğu-sual etmək, nəql etmək) asılı olaraq cümlələr fərqləndirilə bilərlər. Oxucu üzərində təsiretmə funksiyası yerinə yetirilir. Bu ən çox oxucunu inandırmaq və onun düşüncələrini formalaşdırarkən istifadə olunur. Məsələn,

One in four women has experienced domestic violence at partner's hands. (G,OCT 21, 2015,[5].

Kill your friends: where did it all go wrong for Britpop? (I, Oct 25, 2015), [7]

Let's cover them in my British citizen flag that I've been living in for 23 years.(İ, Oct 24. 2015), [7]

Birinci cümlədə məlumatı ötürmək, nəql etmək funksiyasını yerinə yetirir. İkinci cümlə sorğu-sual etmək və məlumatları araşdırmaq cəhətdən vacibdir. Üçüncü cümlə isə təsrietmə funksiyasını yerinə yetirir.

Cümlələr quruluşuna görə də fərqlənirlər. Sadə(tək üzvlü cümlələr :adlıq və ya verbal cümlələr); iki üzvlü cümlələr (müxtəsər və ya geniş cümlələr), mürəkkəb (tabesiz cümlələr bağlayıcılı və ya bağlıyıcısız) cümlələr fikrin ifadə olunması baxımından vacibdir. Məsələn,

But success depends on finding a suitable location, backers, and planning permission (G, OCT 25, 2015),[5]

Sintaktik ifadə vasitələri(adlıq cümlələr, təkrarlar, sadalamalar, inversiyalar) da qəzet mətnlərində istifadə olunur. Başlıqlar əsas nitq hisələri vasitəsilə təqdim olunurlar. Bunlara misal olaraq isimlər, sifətlər, miqdar

və sıra sayları, müxtəlif tərz və zaman formalarında olan fellər, əvəzliklər, zərflər, modal felləri göstərmək olar. Məsələn,

"New Film: Truth" (E, Oct 16, 2015). [8]

"Twenty-five years on"(E, Nov 8, 2014). [8]

Fikrə münasibət bildirmək funksiyası hiss və həyəcan bildirən sifətlərin istifadəsi, gündəlik insan fəaliyyətlərini təsvir edən hərəkət bildirən sözlərin və sinonimlərinin istifadəsi deməkdir. Məsələn,

*The **cutest** animal ever: melt at the Power of Sloth-in pictures (G. Apr 9, 2014)*

*Biker **saves** Skidmarks the kitten in the middle of Oklahama crossroad (G. Oct 21, 2015).*

TƏDQİQAT METODU

Məruzədə müqayisə və təhlil metodlarından istifadə etməklə mühüm nəticələr göstərilmiş və elmi qənaətlər ortaya qoyulmuşdur.

NƏTİCƏ

Qəzet diskursu müasir dünyada vacib rola malikdir. Bu növ diskurs təkcə intelektual yox, həm də oxucunun emosional hisslərini də canlandırır. Oxucunu düşünməyə vadar edir, onun reaksiyalarını dəyişir və nəticəyə gəlməsinə sövq edir. Britaniya media diskursunu leksik-semantik, qramatik nöqteyi-nəzərdən araşdırdıqda deyə bilərik ki, onun əsas xüsusiyəti yığcamlıq, ifadəlilik, məqalənin keyfiyyəti, terminlərin dəyişdirilərək istifadə olunmasıdır. Qrammatik birləşmələrə görə Britaniyalı jurnalistlərin məqalələri asan və oxunaqlıdır. Britaniya qəzet diskursu mövzusu fərqlidir. Tələbədən tutmuş siyasətçiyə və maliyyə analitikinə qədər hər kəsin marağını cəlb edə bilir.

ƏDƏBIYYAT SIYAHISI

1. Dijk Van A. Teun (1988) News as Discourse, New York/London: Routledge, p.208
2. Т.М. Грушевская, Т.Б.Самарская., Политический газетный дискурс сквозь призму якзыковых средств , http://journal.kfrgteu.ru/files/1/2011_2_16.pdf
3. The types of discourse, http://mydocx.ru/3-16573.html.
4. O.O. Zhulavs'ka. Actualisation of the concept of terrorism in the British newspaper discourse: [Abstract of the Thesis for the Candidate of Philology degree], Harkiv, 2011. – 20 p. https://doi.org/10.18007/gisap:ps.v0i9.1256
5. G. = The Guardian. Access mode: http://www.theguardian.com/international
6. V.V. Pavlenko, Lexical-stylistic peculiarities of British newspapers, Scientific notes. – 2013, No. 37, p. 235–236
7. I. = The Independent. Access mode: http://www.independent.co.uk/
8. E. = The Economist. Access mode: http://www.economist.com/

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ ÜRƏK-DAMAR SİSTEMİNƏ MƏXSUS BƏZİ TİBBİ TERMİNLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

KÜBRA VƏLİYEVA
AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu
kubra.valiyeva@yahoo.com
NAXÇIVAN, AZƏRBAYCAN

XÜLASƏ

Tibb elmi anatomik cəhətdən bir çox sistem və aparatlara bölünür. Bunlardan biri də ürək-damar sistemidir. Ürək-damar sistemində (dövretmə sistemi) əsas orqan olan ürək və damarlardan bəhs olunur. Bunlar arteriyal, venoz və kapillyar damarlardır.

Azərbaycan və ərəb dillərinin leksik və semantik sistemi, xüsusən də bu sistemlərin terminologiyası çox zəngindir. Beynəlxalq ticarətin və sosial əlaqələrin inkişafı dillərarası əlaqələrin inkişafına da kömək edir. Dillərin bu cür qarşılıqlı əlaqəsi nəticəsində bir dilin başqa dildən söz alması zərurəti meydana çıxır. Orta əsrlər dövründə Azərbaycan dilinə daxil olan alınmaların əksəriyyəti ərəb dilindən alınmışdır. Alınmaların içərisində tibbi terminləri də göstərmək olar. Tibb dünyasında yeniliklər və beynəlxalq səhiyyənin inkişafı, həmçinin dünyada baş verən pandemiyalar və xəstəliklər tibbi tərcüməyə ehtiyacı artırır. Tibbi tərcüməyə ehtiyac nə qədər çox olsada bu sahədə tərcümə işi bir o qədər də asan deyildir.

Məruzədə ürək-damar sistemi haqqında məlumat verilmiş, Azərbaycan və ərəb dillərində bu sistemə daxil olan bir neçə tibbi terminin məna xüsusiyyətləri müqayisəli şəkildə araşdırılmışdır.
Tibb terminlərini mükəmməl şəkildə bilmək, hər iki dildə onların ekvivalentini tapmaq tərcümə zamanı uğurlu elmi nəticələrə gəlmək üçün imkan yaradır. Azərbaycan və ərəb dillərində ürək-damar sistemi tibbi terminlərinin leksik-semantik xüsusiyyətlərini araşdırmaqla kardiologiya və angiologiya sahəsində mükəmməl tərcümə işinə nail olmaq olar.
Açar sözlər: *ürək, damar, nəbz, tibbi terminologiya, Azərbaycan dili, ərəb dili.*

2.GİRİŞ

Tibbin elminin, təbabətin tarixi insan cəmiyyətinin yarandığı gündən götürülür. İbtidai icma dövründə insanlar çeşitli xəstəliklərin qarşısını almaq üçün müxtəlif bitkilərdən dərmanlar hazırlayaraq müalicə məqsədilə istifadə etmişlər. O zamandan müasir dövrə kimi gəlib çatan bu biliklərin ilkin mənbəyi buradan əxz olunmuşdur.
Qədim tarixə malik olan Azərbaycan, ərəb və eləcə də islam alimləri dünya təbabət tarixində dərin izlər qoymuşlar. Azərbaycanın qədim dövr təbabəti haqqında atəşpərəstlərinin dini kitabi olan "Avesta" məlumat verir. Azərbaycanda təbabət elmi – türkəçarələr adı altında meydana gəlmiş və bu gün də el arasında işlədilməkdədir. Azərbaycan tibbinin inkişafında təbabət alimləri ilə yanaşı Məhəmməd Füzuli, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Əbul Ula Gəncəvi, Fələki Şirvani, Qətran Təbrizi və başqa mütəfəkkir və ədiblərin əsərlərində də tibbi dünyagörüşü mühüm yer tutmuşdur. Bu şairlərin tibbi görüşləri Azərbaycan təbabətinin inkişafına kömək etmişdir. Onların istifadə etdiyi tibbi terminlər bu gündə diqqəti cəlb edir.
Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi (XI-XII əsrlər) olan "Kitabi-Dədə Qorqud" dastanında dağ çiçəyi və ana südü ilə bağlı müalicə səhnəsi də mövcuddur. Buradan bir daha aydın olur ki, Azərbaycan oğuz türkləri neçə min il qabaqcadan tibbi biliklərə bələd olmuşlar. Lakin
Azərbaycan təbabətinin və dərmanşünaslığının inkişafı daha çox orta əsrlər dövrünə təsadüf edir. Bu dövr ərəb mədəniyyəti və elminin təsiri ilə baş vermişdir.
Ərəb təbibləri ərəb dilinə təbabətə dair yunan və latın dillərindən çoxlu kitablar tərcümə etmişlər. VII əsrdə dərmanşünaslıq elmi ərəblərdə güclü inkişaf etdirilən təbabət sahəsi olmuşdur. Çoxlu bitki və heyvan mənşəli dərman adları isə ilk dəfə ərəblər tərəfindən dünya tibb elminə daxil edilmişdir. İlk aptekin və farmakopeyanın yaradıcısı ərəblər olmuşdur. Xəlifə Əl-Mənsur tərəfindən 754-cü ildə Bağdad şəhərində ilk aptek təsis edilmişdir. Aptek sənəti sonradan ərəblərdən Avropa ölkələrinə keçərək yayılmışdır. Ərəb farmakopeyası (Qərabadin) bir çox dillərə tərcümə olunaraq Avropada, eləcə də Azərbaycanda da geniş istifadə edilmişdir. Ərəblərin kəşf etdiyi 2600-a yaxın dərman maddəsinin 1400-ü bitki mənşəli olmuşdur.
X-XIV əsrlərdə İslam dünyası dünya mədəniyyətinin əsasını təşkil edirdi. Bu dövrdə islam təbabəti yaranır və geniş şəkildə intişar tapır. Məhəmməd peğəmbərin tibbə verdiyi dəyər onun "Tibbi Nəbəvi" (Peyğəmbərə məxsus təbabət) adı ilə məşhur dəyərli məsləhətlərini əhatə edən hədislər toplusudur. İmam Cəfər Sadiqin "Tibbi Sadiqi" (Sadiqin tibbi) adlı kitabı təbabət və sağlamlığa aid olmaqla İslam təbəbətinə söykənir. İslam təbabəti də eyni zamanda yunan alimi Hippokrat və qədim roma alimi Qalenin nəzəriyyələrinə əsaslanırdı. Bundan əlavə Şərq ölkələrininin də elmindən istifadə edilirdi.
Şərqin təbabət xadimləri, tibb elminin görkəmli nümayəndələri (Haris bin Kələdə, Əbu Bəkr Zəkəriyya Ər-Razi, İbn Nəfis, əz-Zəhravi, İbn Baytar, İbn Sina, İsmayıl Cürcani), onların davamçıları olan azərbaycanlı həkim və alimlər (Əbu Mənsur Müvəffəq əl-Hərəvi, Ömər Osman oğlu, Əbülhəsən Bəhmənyar Mərzban oğlu, Məhəmməd Bərgüşadi, Məhəmməd Yusif Şirvani, Mahmud İbn İlyas) və başqaları qədim yunan elmi və mədəniyyətinə yaxından bələd olmuş, tibb elminə dair qiymətli kitablar yazmışlar. Deyilənlərdən də aydın olur ki, müassir tibb elminin ilkin mənbələri Şərq ölkələrinin payına düşür.
Terminlər elmi məfhumların dildəki ifadə formaları olaraq elm və texnikanın inkişafı nəticəsində ortaya çıxır. İstər Azərbaycan, istərsə də ərəb dilinin terminoloji sistemi terminlərlə zəngindir. Buna misal olaraq terminologiyanın bir qolu olan tibbi terminləri göstərmək olar. Tibbi terminologiyanın yaranma tarixi birbaşa tibb elminin yaranması tarixi ilə bərabərlik təşkil edir.
Tibbi terminologiya tibbi terminləri ehtiva edən terminologiyanın bir qoludur. Tibbi terminologiya geniş və mürəkkəb bir sahədir.
Bilindiyi kimi, tibbi terminlər latın, yunan və ərəb mənşəlidir. Azərbaycan dilinin ümumişlək leksikasında ərəb-fars sözləri ilə yanaşı, qədim türk mənşəli milli tibbi terminlər də öz işləkliyini qoruyub saxlamaqdadır. Latın və yunan mənşəli terminlərə ekvivalent olan tibbi sözlər hər iki dildə zəngindir. Bu sistemdə milli tibbi terminlər də mühüm elmi əhəmiyyətə malikdir.

Məlum olduğu kimi tibb elmi sistem və aparatlardan ibarətdir. Və bu sahənin hərəsinin özünəməxsus tibbi termiləri mövcuddur. Bunlardan biri də ürək-damar sistemi ilə əlaqədar tibbi terminlərdir. Ərəb dili ilə müqayisədə Azərbaycan dilinin lüğət tərkibində alınma sözlər çoxdur. Bunlardan tibbi terminologiya sahəsində latın və ərəb dilindən alınan tibbi terminləri misal göstərmək olar. Azərbaycan və ərəb dillərində ürək-damar sistemi terminlərinin həm anatomik, həm də linqivistik cəhətdən etimologiyasını, semantikasını müəyyən edib araşdırmaq elmi cəhətdən əhəmiyyətli və maraqlıdır.

Ürək-damar sistemi ürək, qan və limfa damarlarından ibarətdir. Ürək-damar sisteminin əsas funksiyası orqanizmdəki maddələr mübadiləsinin gedişini vacib materiallarla təmin etmək üçün maye daşıyıcısı vəzifəsini icra etməkdən ibarətdir. Bu sistem qan və limfanı, qida maddələrini, hormon, ferment və b. bioloji fəal maddələri, qazları, metabolizm məhsullarını daşımaqla eyni zamanda artıq maddələri də eyni yoldan uzaqlaşdıraraq orqanizmin bütün üzv və sistemləri arasında əlaqə yaradır.

Ürək-damar sistemi qan-damar və limfa sistemlərinə bölünür. Hər iki sistemin əsas mərkəzi orqanı ürək, periferik üzvləri isə çeşitli damarlardır. Qan-damar sistemi ürək və damarlardan təşkil olunmuşdur. Qan-damar sistemi açıq qan-damar sistemi və qapalı qan-damar sistemindən ibarət olaraq iki tipdə olur.

Qanın orqanizmdə hərəkəti qan dövranı adlanır. Qan-damar sistemi kiçik və böyük qan dövranı şəklində bədəndə fəaliyyət göstərir. Kiçik qan dövranı ürəklə ağ ciyər arasında fəaliyyət göstərir. Kiçik qan dövranı zamanı karbon qazından ibarət olan qan ağciyərlərə çatdırılır və oksigenlə zənginləşdikdən sonra ağciyər venaları ilə ürəyin sol qulaqcığına qayıdır. Sonra qan aortaya, böyük qan dövranına keçir.

Kiçik qan dövranının şərhi XIII əsrin sonlarında yaşamış məşhur ərəb alimi, həkimi İbn Nəfisin (1210-1288) adı ilə bağlıdır. Alim kiçik qan dövranını bu cür tərif etdikdən sonra ruhun formalaşdığını qeyd etmişdir.

Böyük qan dövranının funksiyası isə oksigen və qida maddələri ilə zəngin olan qanı orqanizmin bütün toxumalarına çatdırmaq və venoz qanı toplayaraq yenidən ürəyə qayıtmaqdır. Orqanizm və toxumalar qanla təmin olunduqdan sonra qan kapillyarlardan venalara keçir və karbon qazı ilə zənginləşmiş venoz qan ürəyin sağ qulaqcığına, daha sonra isə sağ mədəciyə girmiş olur. Hər iki dövran mədəcikdə başlayıb, qulaqcıqda bitir.

Tibbi terminologiyanın bir hissəsini ürək-damar sistemi ilə bağlı terminlər təşkil etməkdədir. Ürək-damar sistemi tibbi terminlərinə aşağıdakı terminləri misal göstərmək olar:

Azərbaycan dilində: *ürək-damar sistemi, ürək, ürək kisəsi (perikard), ürək əzələsi, qulaqcıq, mədəcik, aorta, damar, arteriya, kapillyar, qan, eritrosit, sistola, diastola, qan dövranı, kiçik qan dövranı, böyük qan dövranı, nəbz, qan təzyiqi, hipertoniya, hipotoniya, taxikardiya, elektrokardioqrafiya, ürək çatışmazlığı, infarkt, anemiya, şok (sarsıntı), varikoz və s.*

Ərəb dilində: *جهز القلب و الأوعية الدموية، قُلّبٌ، التامور، عضل القلب، أذين، بُطَيْن، أبْهَر، عِرْقٌ (وِعَاء)، شِرْيَان، وَرِيد، وِعَاء شَعْرِيّ، دَم، كريات الدم الحمراء، انْقِبَاضٌ، انبساط، الدورة الدموية، الدورة الدموية الصغرى، الدورة الدموية الكبرى، نبض، ضغط الدم، ارْتِفَاع ضغط الدم، انخفاض ضغط الدم، تَسَرَّعُ القَلْبِ، تَخْطِيطُ كَهْرَبِيَّةِ القَلْبِ، فَشَلُ القَلبِ، اِحْتِشَاءٌ، فقر الدم، صَدْمَةٌ، خُثَّارٌ، دَوَالِيّ وَرِيدِيَّة و غيرهم.*

Azərbaycan və ərəb dillərində ürək-damar sistemi tibbi terminlərinin leksik-semantik xüsusiyyətlərini araşdırıb tədqiq etməklə bu sahədə müəyyən elmi yeniliyə nail olmaq olar. Müqayisəli formada ürək-damar sistemi tibbi terminlərinin bir neçəsinə nəzər yetirək:

Ürək *(lat. cardia).* Ürək, ürək-damar sisteminin mərkəzi orqanı olmaqla yanaşı, həm də qanı hərəkətə gətirən əsas orqandır. O vücuddakı venoz qanı öz içinə çəkib, arterial qanı isə bütün bədənə vuruban yastılaşmış konusabənzər əzələvi orqandır. Ürək dörd kameraya bölünür. Yuxarı hisəsində sağ və sol qulaqcıq, aşağda isə sağ və sol mədəcik yerləşir. Sağ və sol hissələr bir-birindən çəpər vasitəsilə ayrılırlar. Ürək quruluşuna görə daxili-endokard, əzələ qişası – miokard, xarici (seroz) qişa– epikard olmaqla 3 qişadan ibarətdir. Ürək əzələsinin müəyyən ardıcıllıqla ritmik sürətdə yığılıb-boşalması ürəyin işini təşkil edir. Ürək əzələsi heç bir oqana bağımlılığı olmadan öz-özünə işləyən bir əzələdir. Ürək əzələsinin yığılma hərəkəti-sistola, sormaq üçün genişlənmə aktı isə diastola adlanır. Ürək əzələsinin bir dəfə yığılıb-boşalması ürək vurğusu adlanır. Bu isə bir tiskl təşkil edir. Bir dəqiqə ərzində ürək tsikli 70-80 dəfə təkrarlanır. Ürək tsikli yaşla əlaqədar dəyişilir. Ürəyin işi azan və simpatik sinirlər vasitəsilə tənzim olunur.

Türkoloq İ.Z.Əyyuboğlu ürək sözünün *yür* (yürümək, tərpənmək) kökündən yarandığını göstərərək qeyd edir ki, *"yür* kökünün *yör* formasında tələffüzü, *yürümək//yörümək* feillərini yaratması dialekt dəyişikliklərinin nəticəsidir. Türk dillərində söz *yür-e-g/yüreg/yürek* formalarında işlənmişdir. Türk dilində ö/ü və ü/ö səs dəyişməsi tez-tez müşahidə edilən bir prossesidir" [7, s. 399].

Sadə quruluşlu isimin izahlı lüğətdə aşağıdakı mənaları vardır [3, s. 428-429]:

1. İnsanda qan dövranının, döş boşluğunun sol tərəfində yerləşən əzələli kisə şəklində mərkəzi orqan; qəlb. *Ürəyin döyünməsi. Ürək xəstəliyi.* // Döşün qol tərəfində həmin orqanın üstündəki yer. *Ürəyini tutmaq. – Bibixanım əlini ürəyinin üstünə qoydu.* (B.Bayramov).
2. Həmin orqan insanın hiss, həyəcan. əhvali-ruhiyyə, təəssurat simvolu məcazi söz kimi. *Adamın ürəyi sevinir. Ürəyini həyəcanlandırmaq. Ürəyim sakit deyil.* - [Sultan bəy:] *Yaxşı, yaxşı, naz eləmə, bilirəm ki, ürəyində sevinirsən.* (Ü.Hacıbəyov). // Həmin orqan məhəbbət, sevgi, eşq, vurğunluq, qəlbən bağlılıq kimi mənalarda işlənərkən isə əsasən "qəlb" sözü işlədilir.
3. Ürəyindən – istədiyi kimi, arzuladığı kimi; ürəklə - qorxmadan, çəkinmədən, həvəslə və s. zərfi mənalarda da işlədilir.

Azərbycan dilinin leksikasında ürək morfemi ilə bağlı nitqə ifadəlilik gətirən sabit söz birləşmələri də işlənməkdədir. Bunlara misal olaraq – *ürək bağlamaq* – qəlbini bağlamaq, qəlbən bağlanmaq; *ürək eləmək* – bir işi görməyə cürət etmək, cəsarətlənmək, ürəklənmək; *ürək sındırmaq* – ürəyinə toxunmaq, qəlbinə toxunmaq, incitmək; *ürəyi açılmaq* – qəmdən, kədərdən qurtarıb sevinməyə başlamaq, kefi açılmaq; *ürəyi bulanmaq* – mədəsi qarımaq, nifrət hiss etmək; *ürəyi getmək* – huşunu itirmək, acmaq; *ürəyi götürməmək* – təbiəti qəbul etməmək, çəkməmək; *ürəyi şişmək* – darıxmaq, təngə gəlmək; *ürəyində yer eləmək* - unuda bilməmək, xatirindən çıxara bilməmək, həmişə yadında olmaq; *ürəyi yumşalmaq*–acığı soyumaq, qəzəbi keçmək; *ürəyinə yatmaq* – xoşuna gəlmək, bəyənmək; *ürəyi sıxılmaq* – kədərdən, qəmdən, yorğunluqdan, yaxud acınacaqlı bir şeyi görməkdən üzülmək, üzüntü duymaq, ürəyi ağrımaq, qəlbi sıxılmaq və s.

Sözün ərəb dilində ekvivalenti قَلْبٌ tibbi terminidir. Sadə quruluşlu isimin ərəb mənbələrində [12, s. 643; 10, s.1848; 5, s. 779; 9, s. 3713] aşağıdakı kimi təhlil olunur:

القَلْبُ [مفرد]: أَقْلُبٌ وَ قُلُوبٌ. ١ مصدر قَلَبَ. ٢ مركز، وسط: "قلْب المدينة". ٣ (شر)عضو عضليّ في الجانب الأيسر من الصدر يندفع منه الدمُ ألى أطراف الجسم و هو أهمّ اعضاء الحركة الدّمويّة. ٤ – الفؤاد. ٥- العقل. ٦ "رَجُلٌ قَلْبٌ": خَالص النَّسَب.

Sözün təki القَلْبُ, cəmi isə أَقْلُبٌ və قُلُوبٌ olaraq iki formadan ibarətdir. 1. Sözün qaynağı olan قَلَبَ feili (bir şeyi) çevirmək, döndürmək, əmələ gətirmək mənasındadır. 2. "Mərkəz" anlamında. "قلْب المدينة" – şəhərin qəlbi (mərkəzi). 3. (Anat.) Sinənin solunda yerləşən və bütün bədənə qan pompalayan əzələvi üzv və qanı hərəkətə gətirən ən mühüm orqandır. 4. *Könül* mənasında. 5. *Ağıl* mənasında. 6. *Əsillik, soyluluq* mənasında. "رَجُلٌ قَلْبٌ" – əsilli-köklü şəxs.

وَ قَوْلُهُ تَعالى: "نَزَلَ بِهِ الرُّوحُ الأمِينُ عَلَى قَلْبِكَ" (القرآن الكريم، سورة الشعراء - الآية 193- 194). وَ

Allah Təala buyurdu ki: "Onu (Qurani-Kərimi) sənin qəlbinin üzərinə Ruhuləmin (Cəbarayıl (ə)) endirdi" (Şüara surəsi, ayə 193-194).

قَالَ الأَزْهَرِيُّ: وَرَأَيْتُ بَعْضَ العَرَبِ يُسَمِّى لَحْمَةَ القَلْبِ كُلَّهَا، شَحْمَهَا وَ حِجَابَهَا: قَلْبًا وَ فُؤَادًا، قَالَ: وَلَمْ أَرَهُمْ يَفْرِقُونَ بَيْنَهُما؛ قال: ولا أُنْكِرُ أَنْ يَكُونَ القَلْبُ هِيَ العَلَقَةُ السَّوْداءُ فى جَوْفِهِ.

Əl-Əzhəri: "Bir qism ərəbin ürəyin ətini, piyini, örtüyünü, hər şeyini "qəlb və könül" adlandırdıqlarını gördüm. Və onların qəlb və könül arasında bir fərq qoymadıqlarını gördüm. Qəlbin boşluğunda isə qara laxtanın olmasını inkar etmirəm".

Damar *(lat. vas).* Damarlar bədəndə qanı daşıyan müxtəlif genişlik və qalınlığa malik borulardır. Damarlar ürək-damar sisteminin periferik orqanı olmaqla əsas funksiyası qanı bədənin müxtəlif hissələrinə çatdırmaqdır. Qan damarları arteriya, vena və kapillyar olmaqla üç yerə bölünürlər. Ürəkdən çıxan bütün damarlar – arteriya, ürəyə gələn damarlar – vena, arteriyaların sonu, venaların başlanğıcında yerləşən və bütün orqanizmin toxumaları içərisində olan tükşəkilli damarlar isə kapillyar adlanır. Kapillyar damarlar arterial və venoz damarları arasında əlaqə yaradır. Ən böyük damar isə qanın öz gücü əsasında bədənin bütün hissələrinə pompalanan aorta (şah damar) arteriya damarıdır.

"Tamar/damar sözü türkçədə *tam- // dam* – tammak "damlamaq" feilindən yaranmışdır. Qədim türkcədən başlayaraq *tamar // tamır // tamur* variantlarında işlənmişdir" [7, s. 72; 4, s.105].

Sadə isim aşağıdakı mənaları özündə əxz edir [1, s. 526-527]:

1.Canlıların bədənində: içərisində qan və ya limfanın dövr etdiyi boruşəkilli orqan. *Qan damarları. Damarları şişmək. Alnının damarları görünür. Damar sistemi* – canlının bədənində olan bütün damarlar. Damar sistemi maye və toxuma (qan və ya limfa) cərəyan edən boru sisteminə deyilir. (K.Balakişiyev).

2.Çeşmənin mənşəyi, başlanğıcı. *Dağ ətəyində bir çeşmə vardır, özü arannda da olsa, damarı dağdan gəlir.* (S.Rəhimov) və s.

Damar ilə əlaqədar frazeoloji birləşmələrə misal olaraq, *damarı tutmaq* – xasiyyətini, zəif yerini, ürəyini öyrənib bilmək; *damarına düşmək* – xoşuna gəlmək, ürəyinə yatmaq; *damarını tapmaq* – xasiyyətini, zəif yerini, ürəyini öyrənib bilmək; *damarları qurumaq* – qorxudan, dəhşətdən donub qalmaq, bərk qorxmaq; *şah damar* – qanı ürəyə axıdan damar, bir şeyin əsası, mərkəzi, canı və s. göstərmək olar.

Sözün ərəb dilində ekvivalenti وِعَاءٌvə عِرْق tibbi terminidir. Sadə quruluşlu isim ərəb mənbələrində [12, s. 547/867; 10, s. 1488/2469; 5, s. 622/1070; 6, s. 500/908; 9, s. 2904; 8, s. 1766] aşağıdakı kimi təhlil edilir:
عِرْق [مفرد]: ج أعراق و عُرُوق و عراق: ١–أصل كلّ شيئ "فلان طيّب العِرْق: ينزع إلى أصل كريم".

Sözün təki عِرْق, cəmi isə أعراق و عُرُوق و عراق olaraq üç formadan ibarətdir. 1. Sözün kökü العِرْقُ – "hər şeyin əsli, kökü" anlamını verir. "Yaxşı əsilli filankəs: əsalətlili soya söykənmək".

٢.Arteriya və vena, bədəndəki qan axını, "əlinin damarları çəkildi". Nə qədər ki, damar vurur: sağdır.
ورِيد أو شريان، مجرى الدَّم في الجسد "نفرت عُرُوق يده". ما دام فيه عِرْق ينبضُ: ما دام حيًّا.

٣ جنس، سلالة من الناس يُصنَّفُون بناء على التَّاريخ أو الجنسيَّة أو التَّوزيع الجغرافيّ المشترك "العِرْق القوازيّ/ الأبيض-له انتماء عِرْقيّ".
3.Milliyyət mənasında. Yaranma tarixinə, milliyyətinə və ortaq bir coğrafi bölgüsünə görə təsnif edilən insanların sülaləsi. Məsələn, "Qafqaz irqi" /ağ irq – etnik mənsubiyyətinə malikdir".

وِعَاءٌ – damar, عِرْق sözü ilə sinonimlik təşkil edir:
[مفرد]: ج أَوْعِيَة و جج أَواعٍ، الجذر: وعي.١ وعاء: ظرف أو إناء «يُوعَي» فيه الشيء، أي يجمع ويحفظ. ٢ إناء ذو سَعة مُعينة يُستعمل لكيل السّوائل والمواد الجافّة.

Sözün təki وِعَاءٌ, cəmi أَوْعِيَة və أَواعٍ, kökü isə وعي şəklindədir. 1. وعاء: "یوعی" – bir şeyin "şüurlu" olduğu, yəni toplandığı və mühafizə olunduğu bir zərf və ya qab.
٢ وِعَاء: الوعاء الدَّمَويّ: (شر) قناة أنبوبيَّة مرنة كالشّريان أو الوَريد أو الأنبوب الشّعريّ والذي يدور الدّم من خلاله.

2. Damar mənasında. Qan damarı: (Anat.) Arteriyal, venoz və kapillyar qanın dövr etdiyi çevik bir boru kanalı.

Angiologiya: Limfa və qan damarlarını öyrənən elm sahəsi.–علم الأوعية: علم يدرس الأوعية الدّمويّة و اللمفاويّة الأوعِيَةُ الدَّمَوِيَّة: العروق الدموية – Qan damarları;

Nəbz *(lat. sphygmos)***.** "Nəbz – ürək vurğularının, xüsusilə sol mədəcik sistolasının müvafiq arteriya damarları üzərində əks olunmasıdır. Ürəyin sol mədəciyinin yığılması zamanı aortaya qovulan qan məhəlli arteriyalara dağılaraq onların divarında ritmik dalğa yaradır ki, bu nəbz adlanır" [11, s. 226]. Nəbz, adətən, biləyin ön səthinin bayır kənarında, baş barmaq hündürlüyü boyunca mil arteriyası üzərində tutulur. Əlin barmaqlarının ucunun ovuc səthini göstərilən yerə zəif toxundurmaqla nəbz vurğusu hiss edilir.

Nəbzin normalda 1 dəqiqəlik sayı 60-80 vurğudur. İnsanın yaşı, cinsi, sağlamlığı və psixoloji vəziyyətindən asılı olaraq nəbz vurğularının sayında fərq hiss oluna bilər. Taxikardiya nəbz vurğusunun normadan artıqlığına, bradikardiya isə normadan azlığına deyilir.

Qan təzyiqi isə ürəyin pompaladığı qanın çevrədəki damar divarına daxildən göstərdiyi təzyiq kimi anlaşılır. Bu ürək əzələsinin yığılma və açılma (sistola-diastola) qüvvəsidir. Vurduğu qanın həcmindən (damarın qanla dolma dərəcəsindən) və damar divarının tonusundan asılıdır. İki cür təzyiq ayrıd edilir: arterial və venoz. Arterial və venoz (sistolik və diastolik) arasındakı fərq (maksimal və minimal təzyiq arasındakı fərq) nəbz təzyiqi adlanır. Yüksək təzyiq (sistolik) – hipertoniya, aşağı təzyiq (diastolik) – hipotoniya adlanır.

Nəbz ərəb mənşəli tibbi termindir. Sadə isimin izahlı lüğətdə iki mənası fərqləndirilir [2, s. 471]:

1.Ürəyin fəaliyyəti nəticəsində arteriya (qan damarları) divarlarının ritmik vurması (adətən biləyin yuxarı hissəsində duyulur). *Bir naxoşun üstə həkim gətirəndə həkim əvvəl yapışır naxoşun nəbzindən.* (C.Məmmədquluzadə). // Biləkdə həmin titrəyişin hiss edildiyi yer. *Nəbzini yoxlamaq.* 2. məc. Bir şeyin (hadisənin, həyatın və s.) ritmi, tempi. *Deyirlər ki, gələcək ancaq zamanın nəbzini düz tutanların, bu günü yaxşı anlayanlarındır.* (M.İbrahimov).

Sadə quruluşlu isim ərəb mənbələrində aşağıdakı kimi təhlil olunur [10, s. 2158-2159; 5, s. 923; 6, s. 786; 9, s. 4325; 8, s. 1574]:
نَبْض [مفرد]: ج أنباض، مصدر نَبْضٌ: تَحَرَّكَ و ضَرب.

Sözün təki نَبْض və cəmi isə أنباض-dur. Məsədər forması نَبْضٌ – hərəkət etmək, vurmaq mənasındadır.

Heyvan və insanda–حركة القلبِ و العروقِ في الحيوان. و تكون سريعة او بطيئة متساوية او حالة الجسد من صحَّة او مرض. ürəyin hərəkəti. Nəbzin sakit və sürətli olması bədənin sağlamlıq və xəstəliyi vəziyyətinə bərabərdir.
ضرباتُ الشّرايين من انقباضات القلب، يُستدلُّ بها على حالة الجسم من صحّةٍ.

Bədənin sağlıq vəziyyəti ürəyin genişlənmə aktından (diastola) əmələ gələn arteriyal döyüntülərə dayanır. و أحْصَى دفعاته – onun döyüntüləri hesablanır.

nəbz vurğusu,– "sürətli / yavaş nəbz","جَسُّ النَبْضِ–"نَبْضة سريعةٌ/ بطيئة. – تواترُ نَبَضات القلْب – ürək döyüntülərinin təkrarlanması.

Nəbzin bir döyüntüsü "nəbdətun" –النَبْضَة: الدفعة الواحدة من النَبْض; فؤادٌ نَبَضٌ وَ نَبِضٌ: شَهمٌ ذَكِيّ. –zəki ürəkli (mərt) adlanır.

[Mənbid]: Vücudda ürək döyüntüsünün vəziyyətini bilmək üçün həkimin toxunduğu yer; –المَنْبِض ج مَنَابِض (طب): المحلّ الذي يجسُّهُ الطبيب من الجسم ليعرف حالة نَبْض القلب.

المِنْبَضُ[مفرد]: ج مَنابِضُ: اسم آلة من نَبض.–[Minbəd]: Nəbzi ölçmək üçün cihaz;
يقال: نبض القلبُ –deyilir: ürəyin nəbzi (vurğusu), و نبض العِرْق –damarın nəbzi (vurğusu), يقال: نَبضَ البرق: لَمَعَ لمعًا خَفِيًّا – şimşəyin nəbzi (vurğusu): xəfif bir parıltı ilə parlamaq və s.

3.TƏDQİQAT METODU

Məruzədə müqayisə və təhlil metodlarından istifadə etməklə mühüm nəticələr göstərilmiş və elmi qənaətlər ortaya qoyulmuşdur.

4.NƏTİCƏ

Azərbaycan və ərəb dili fərqli dil qruplarına məxsusdurlar. Azərbaycan dili aqqlütinativ, ərəb dili isə flektiv dildir. Hər iki dil leksik, qrammatik və terminoloji xüsusiyyətlərinə görə bir-birindən çox fərqlənirlər. Bu fərqlilik tərcümə prosesində də özünü göstərir.

Tibbi tərcümədə dil xüsusiyyətlərindən əlavə xüsusi tibbi bilik də tələb edir. Bu sahədə tərcümə işində qeyri-dəqiqlik insan həyatına birbaşa təsir göstərir. Ürək-damar sistemi tibb elminin ən mühüm hissəsini əhatə etməkdədir. Azərbaycan və ərəb dillərində bu sistemə məxsus terminləri müqayisəli şəkildə araşdırıb tədqiq etməklə hər iki dil arasında tibbi tərcümə işində uğurlu tərcüməyə nail olmaq olar.

5.ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, I cild. Bakı: "Şərq-Qərb", 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, III cild. Bakı: "Şərq-Qərb", 2006, 672 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, IV cild. Bakı: "Şərq-Qərb", 2006, 712 s.
4. Ərən H. Türk dilinin etimoloji lüğəti. Ankara: "Bizim büro basım evi", 1999, 512 s.
5. Əl-Mucəm-ul-Vasit. Qahirə: "Məktəbətul-şuruqil-duvaliyyəti", 2004, 1093 s.
6. Əl-Muncid fil-luğati va ədəb va ulum. Beyrut: "Mətbəatul-Kəsulikiyyətu", 2009, 1016 s.
7. Əyyuboğlu İ.Z. Türk dilinin etimoloji lüğəti. İstanbul: "Sosyal yayınlar", 1988, 406 s.
8. Əl-Firuzabadi Y. Əl-Qamusul Muhit. Qahirə: "Dərul hədis", 2008, 1800 s.
9. İbn Mənzur. Lisanul-Arab. Beyrut: "Dər sadir", 1981, 4980 s.
10. Ömər Ə. M. Mucəmul-lugatil-arabiyyətil-Məasirati. Qahirə: "Aləmul-kutub", 2008, 3368 s.
11. Məmmədov A.Q. Tibbi biliklərin əsasları (dərslik). Bakı: "Təknur", 2012, 608 s.
12. Məsud C. Raid- mucəmun luğaviyyun asriyyun. Beyrut: "Dərul-ilm lilmeleyyin", 1992, 912 s.